# MƏQALƏLƏR

- **Həmid, Səxavət.** Mübarizə və qəhrəmanlıq sərhəd tanımır: 20 Yanvar faciəsinin qurbanları xaricdə də ehtiramla yad edildi / S. Həmid // Xalq qəzeti. - 2024.- 23 yanvar. - № 13. - S. 8.
- **Həbibbəyli, İsa.** Müstəqillik yolunun dönməzlik dərsi / İ. Həbibbəyli // 525-ci qəzet. - 2024.- 20 yanvar. - № 11. - S. 8-9.
- **Nəcəfxanlı, Əli.** Şəhidlər uyuyan bu dağ Vətəndir!: günün reportajı / Ə. Nəcəfxanlı // Xalq qəzeti. - 2024.- 20 yanvar. - № 12. - S. 7.
- **Amaşov, Əflatun.** 20 Yanvar – faciənin müstəqil dövlətçilik yaşantısı / Ə. Amaşov // Xalq qəzeti. - 2024.- 20 yanvar. - № 12. - S. 1,4.
- **Dostəli, Ə.** Fotoları tarix olan sənətkar: 20 Yanvar şahidi Reza Deqati faciə barədə xəbəri eşidən kimi Bakıya gəlib / Ə. Dostəli // Xalq qəzeti. - 2024.- 20 yanvar. - № 12. - S. 11.
- **And yerimiz:** [Milli Məclisin deputatı Sabir Rüstəmxanlının 1990-cı ilin fevralında qələmə aldığl “And yerimiz” yazısından] // Xalq qəzeti. - 2024.- 20 yanvar. - № 12. - S. 11.
- **O günlər dənizçilər də səfərbər idi:** Qanlı Yanvar qırğını zamanı Xəzər Dəniz Neft Donanmasının 100-dən artıq gəmisi xalqımızın haqq səsini dünyaya yayırdı // Xalq qəzeti. - 2024.- 20 yanvar. - № 12. - S. 9.
- **Əhmədov, Elçin.** Xalqımızın şərəf salnaməsi // Azərbaycan.-2024.- 20 yanvar.- № 12.- S. 9.
- **Cəfərli, Rəşad.** Milli qürur və qəhrəmanlıq tariximiz: 20 Yanvar faciəsi Ümummilli Lider Heydər Əliyevin sayəsində əsl siyasi-hüquqi qiymətini aldı // Azərbaycan.-2024.- 20 yanvar.- № 12.- S. 1,7.
- **Xaspoladova, Ülkər.** Vətəni candan əziz sayan qəhrəman: [20 Yanvar gecəsinin əbədi izlərini bədənində daşıyanlardan biri də Valeh Hüseynovdur] / Ü. Xaspoladova // Azərbaycan. - 2024.- 20 yanvar. - № 12. - S. 10.
- **Musayeva, Yasəmən.** 20 Yanvardan böyük Zəfərə / Y. Musayeva // Azərbaycan. - 2024.- 20 yanvar. - № 12. - S. 10.
- **İmanquliyev, Bahadur.** 20 Yanvar - 8 noyabr zəfərimizin bünövrəsi / B. İmanquliyev // Azərbaycan. - 2024.- 20 yanvar. - № 12. - S. 9.
- **Fərəcova, Zöhrə.** Boş qalmış partalar...: qatillər günahsız uşaqları da güllələməkdən çəkinmədilər / Z. Fərəcova // Azərbaycan. - 2024.- 20 yanvar. - № 12. - S. 8.
- **Salmanlı, Rəhman.** Qanlı Şənbə gecəsində şəhid olanların ruhu indi şaddır / R. Salmanlı // Azərbaycan. - 2024.- 20 yanvar. - № 12. - S. 8.
- **Hüseynli, Qabil.** Taleyimizin Qanlı Yanvarı / Q. Hüseynli // Respublika. - 2024.- 20 yanvar. - № 12. - S. 4-5.
- **Kamal, Mustafa.** Heydər Əliyevin prinsipial mövqeyi : 20 Yanvar faciəsinə ilk kəskin etiraz / M. Kamal // Respublika. - 2024.- 20 yanvar. - № 12. - S. 6.
- **Müşfiq, Şahanə.** 20 Yanvar faciəsinin ədəbiyyatımızdakı əksi / Ş. Müşfiq // Yeni Azərbaycan. - 2024.- 20 yanvar. - № 11. - S. 8.
- **Ağazadə, Söylü.** Xalq 20 Yanvar faciəsini necə xatırlayır? / S. Ağazadə // Səs. - 2024.- 20 yanvar. - № 11. - S. 6.
- **Ələddinqızı, Nəzakət.** Xalqımızın şərəf və qəhrəmanlıq salnaməsi : Qanlı 20 Yanvar faciəsindən 34 il ötür / N. Ələddinqızı // Səs. - 2024.- 20 yanvar. - № 11. - S. 8-9.
- **Zaman, Elçin.** 20 Yanvar yalnız hüzn günü deyil : bu, həm də mübariz bir xalqın varlığını təsdiq edən şanlı qəhrəmanlıq tarixidir / E. Zaman // İki sahil. - 2024.- 20 yanvar. - № 11. - S. 4.
- **Əliyev, Azad.** Milli azadlıq mübarizəsinin simvolu: Şəhidlərimizin bizlərə miras qoyduğu müstəqil Azərbaycan indi daha güclüdür, möhtəşəmdir, bütövdür. 20 Yanvar şəhidləri son üç ildə Bakının ən hündür zirvəsindən xalqımızın qazandığı bu qələbələri qürurla izləyirlər, ruhları şaddır / A. Əliyev // Kaspi. - 2024.- 20 yanvar. - № 2. - S. 3.

- **Əmrullayeva, Mehriban.** Şəhidlər Xiyabınının yerini təklif edən professor Nəriman Əliyev / M. Əmrullayeva // Bakı Xəbər. - 2024.- 20-22 yanvar. - № 11. - S. 11.
- **Mahir, Qiymət.** 20 Yanvar qanla yazılmış şanlı tarixdir / Q. Mahir // Olaylar. - 2024.- 19-25 yanvar. - № 2. - S. 9.
- **Cəfərli, Rəşad.** Böyük Zəfərlə 20 Yanvar şəhidlərinin də qisası alındı // Azərbaycan.-2024.- 19 yanvar.- № 11.- S. 13.
- **Dostəli, Ə.** Şəhidlərin ölməz xatirəsi sənətdə əbədiləşib / Ə. Dostəli // Xalq qəzeti. - 2024.- 19 yanvar. - № 11. - S. 9.
- **Əliyeva, İradə.** Unudulmayan tarix : Ulu Öndər 1969-cu ildən başlayaraq Azərbaycanda inkişaf və tərəqqi dövrünün əsasını qoydu / İ. Əliyeva // Azərbaycan. - 2020.- 15 iyul. - № 136. - S. 1,4.
- **Fərəcova, Zöhrə.** Şəhidlər xiyabanı qırmızı qərənfillərə bürünür / Z. Fərəcova // Azərbaycan. - 2024.- 19 yanvar. - № 11. - S. 14.
- **Əliyeva, Züleyxa.** O gecə doğulan oğullar 30 il sonra Azərbaycan tarixinə Zəfər yazdılar / Z. Əliyeva // Azərbaycan. - 2024.- 19 yanvar. - № 11. - S. 13.
- **Eldarqızı, Nəzrin.** Müstəqilliyimizin müqəddəs rəmzi: [1993-cü il yanvarın 19-da Azərbaycan parlamenti "Dövlət gerbi haqqında" Konstitusiya Qanununu qəbul edib] / N. Eldarqızı // Respublika. - 2024.- 19 yanvar. - № 11. - S. 1,8.
- **Qocayev, İsmayıl.** 20 Yanvar, 20 yanı var : xalqın dirənişi həm də Azərbaycanın müstəqilliyə aparan yolunda yeni mərhələnin başlanğıc nöqtəsi oldu / İ. Qocayev // Şərq. - 2023.- 19 yanvar. - № 10. - S. 3.
- **Rza, Zahid.** Şəhidlərin qanı ilə yazılan qəhrəmanlıq tarixi: [20 Yanvar-Ümumxalq hüzn günüdür] / Z. Rza // İki sahil. - 2024.- 19 yanvar. - № 10. - S. 6.
- **Əliyev, Bəxtiyar.** 20 Yanvar - milli qürur günümüz / B. Əliyev // Hərbi and. - 2024.- 19 yanvar. - № 2. - S. 11.
- **Ələddinqızı, Nəzakət.** 20 Yanvar – istiqlal mücadiləmiz / N. Ələddinqızı // Səs. - 2024.- 18 yanvar. - № 9. - S. 5-6.
- **Orucova, Nigar.** Tariximizin qanlı və şanlı səhifəsi: 20 Yanvar həqiqətlərinin dünyaya çatdırılmasında Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətləri olub // İki sahil.-2024.- 18 yanvar.- № 9.- S. 4.
- **Cavid.** Gənc nəslin vətənpərvərlik tərbiyəsində 20 Yanvar faciəsi / Cavid // Xalq Cəbhəsi. - 2024.- 18 yanvar. - № 2. - S. 9.
- **Əliyev, İlham.** 20 Yanvar faciəsi xalqın istiqlaliyyət mübarizəsidir / İ. Əliyev // Səs. - 2024.- 17 yanvar. - № 8. - S. 12.
- **Əliqızı, Şəmsiyyə.** 20 Yanvar: Azadlıq mübarizəsinin zirvəsi // İki sahil.-2024.- 17 yanvar.- № 8.- S. 5.
- **Ələddinqızı, Nəzakət.** İstiqlal yolunun zirvəsi: [20 Yanvar faciəsindən bizi 34 illik bir zaman ayırır] / N. Ələddinqızı // Səs. - 2024.- 16 yanvar. - № 7. - S. 4.
- **İsmayılqızı, Xuraman.** Əbədi yaşam haqqı qazananlar: 20 Yanvar şəhidlərinin mübarizlik ənənəsini davam etdirən Vətən müharibəsinin qəhrəmanları adlarını Azərbaycanın qəhrəmanlıq tarixinə qanları ilə yazdılar // İki sahil .- 2024 .- 16 yanvar.- № 7.- S. 5.
- **Azadi, Sevinc.** 20 Yanvar - Azadlığa gedən yolda dönüş nöqtəsi // İki sahil.-2024.- 13 yanvar.- № 6.- S. 6.
- 20 Yanvar şahidi Reza Deqati: “... xatırladığım yalnız qırmızı və qara idi” // AZƏRTAC.- 2024.- 12 yanvar.
- **Eldarqızı, Nəzrin.** Ulu Öndərin əvəzsiz xidməti: 1994-cü il martın 29-da Milli Məclis tərəfindən 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verildi // Respublika. - 2023.- 29 mart. - № 63. - S. 4.
- **Qəniyev, Elşən.** Əbədi yaşayanlar: [Qanlı 20 Yanvardan 33 il ötür] // Azərbaycan.- 2023.- 22 yanvar.- № 14.- S. 1,4.

- **Bədəlov, Əliqismət.** Qanlı yanvarın qanlı meydanı... // Xalq qəzeti.- 2023.- 22 yanvar.- № 14.- S. 10
- **Nadir, Züleyxa.** O gecə doğulanların dünən gecə 33 yaşı oldu // Olaylar.-2023.-20-26 yanvar.-№3.-S.19.
- **Amaşov, Əflatun.** 20 Yanvar – Vətəni dövlət edən qəhrəmanlıq örnəyi // Xalq qəzeti. - 2023.- 20 yanvar. - № 13. - S. 1,5.
- **Abbasov, Elçin.** Azadlıq yolunu açan şəhidlər // A. Turan // Xalq qəzeti. - 2023.- 20 yanvar. - № 13. - S. 9.
- **Kəngərli, Qulu.** Mən niyə şahid oldum?: Bakı, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecənin əks-sədası // Xalq qəzeti. - 2023.- 20 yanvar. - № 13. - S. 10.
- **Musayeva, Yasəmən.** Qisas qiyamətə qalmadı // Azərbaycan. - 2023.- 20 yanvar. - № 13. - S. 1,7.
- **Qəniyev, Elşən.** Qırmızı ordunun törətdiyi Qara Yanvar // Azərbaycan. - 2023.- 20 yanvar. - № 13. - S. 10.
- **Qardaşxanova, Nəzrin.** Müdhiş gecənin ağxalatlı fədakarları // Azərbaycan. - 2023.- 20 yanvar. - № 13. - S. 12.
- **Salmanlı, Rəhman.** Xalqımızın qəhrəmanlıq tarixi // Azərbaycan. - 2023.- 20 yanvar. - № 13. - S. 9.
- **Xaspoladova, Ülkər**. Ölümə meydan oxuyan qəhrəman // Azərbaycan. - 2023.- 20 yanvar. - № 13. - S. 12.
- **Əliyev, Adil.** Qəhrəmanlıq salnaməmiz: Prezident İlham Əliyevin "Əziz Şuşa, sən azadsan!" müjdəsini Şəhidlər xiyabanından verməsi 20 Yanvar şəhidlərinə olan ehtiramın ifadəsidir // Azərbaycan. - 2023.- 20 yanvar. - № 13. - S. 7.
- **Məhərrəmov, Vahid.** 20 Yanvar faciəsində senzor kölgəsi // Azərbaycan. - 2023.- 20 yanvar. - № 13. - S. 10.
- **Hüseynli, Qabil.** Taleyimizin Qanlı Yanvarı // Respublika. - 2023.- 20 yanvar. - № 13. - S. 6.
- **Quliyev, İbrahim.** Qanla yazılmış şərəfli tarix // Respublika. - 2023.- 20 yanvar. - № 13. - S. 7.
- **Əliyeva, Tamara.** İngilis dilinin tədrisində “20 Yanvar” mövzusu // Azərbaycan müəllimi. - 2023. - 20 yanvar. - № 3. - S. 10.
- **Məmmədova, Mətanət**. İlham və Fərizə: bir sevgi hekayəsi // Səs.-2023.-20 yanvar.-№11.-S.13.
- **Etibar, Seyidağa.** Şanlı tarixin 33-cü ili: 20 Yanvara aparan yol azərbaycanlıların Ermənistandan deportasiyasından başlayıb // Yeni Müsavat. - 2023.- 20 yanvar. - № 11. - S. 7.
- **Abdullayev, Mübariz.** İmperiya mərkəzində hazırlanan müdhiş ssenari: Qanla yazılan müstəqillik tariximiz // Yeni Azərbaycan.-2023.-20 yanvar.-№11.-S.3.
- **İlyasov, Vəli.** 20 Yanvar qırğınının lənətlənmiş müəllifi // İki sahil.-2023.-20 yanvar.-№11.-S.7.
- **Qurbanov, Sadiq.** Heydər Əliyev qətiyyətinin təntənəsi: [20 Yanvar 1990-cı idən 33 il ötür] // Azərbaycan. - 2023.- 19 yanvar. - № 12. - S. 5.
- **Cəfərli, Rəşad.** 20 Yanvar faciəsinə gedən yol: [davamı] // Azərbaycan. - 2023.- 19 yanvar. - № 12. - S. 7.
- **Abbasov, Elçin.** Bakı qırğını – beynəlxalq cinayət // Xalq qəzeti. - 2023.- 19 noyabr. - № 12. - S. 7.
- **Bəybalayev, Bəybala.** Şanlı və şərəfli tarix // Respublika. - 2023.- 19 yanvar. - № 12. - S. 8.
- **Kamal, Mustafa.** Milli iradəmizin zəfəri // Respublika. - 2023.- 19 yanvar. - № 12. - S. 8.
- **Səbzəliyeva, Sevinc.** Ağla qərənfil, ağla // İki sahil.-2023.-19 yanvar.-№10.-S.8.
- **Zülfüqaroğlu, Əli**. "20 Yanvar müstəqilliyə gedən yolun başlanğıcıdır". Musa Qasımlı: “Heç bir güc milli iradədən üstün deyil // Xalq Cəbhəsi. - 2023. - 19 yanvar. - № 2. - S. 6-7.
- **Qocayev, İsmayıl.** 20 Yanvar, 20 yanı var: Xalqın direnişi həm də Azərbaycanın müstəqilliyə aparan yolunda yeni mərhələnin başlanğıc nöqtəsi oldu // Şərq. - 2023. - 19 yanvar. - № 10. - S. 3.

- **Rzayeva, Məlahət.** 20 yanvar Azərbaycan xalqının mətinliyinin sübutudur: Bu tarix gənclərə ümumxalq iradəsinin və mübarizliyinin təntənəsi kimi aşılanmalıdır // Şərq. - 2023. - 17 yanvar. - № 8. - S. 6.
- **Ağaşahqızı, Yaqut.** Ümumxalq Hüznümüzün 33-cü ili…: İmperiya güllələrinin səsi ilə başlayan gün azadlıq məfkurəmizi oyatdı // İki sahil.-2023.-18 yanvar.-№9.-S.5.
- **Məmmədova, Mətanət.** 20 yanvar 1990-cı il: bir qərinənin o başı və bu başı // Səs.-2023.-18 yanvar.-№9.-S.8-9.
- **Heydər, Fuad.** 20 Yanvar - milli iradəmizin zəfər çaldığı gün // Səs.-2023.-19 yanvar.-№10.-S.12.
- **Cəfərli, Rəşad.** 20 Yanvar faciəsinə gedən yol // Azərbaycan. - 2023.- 18 yanvar. - № 11. - S. 1,6.
- **Sadıqova, Sayalı.** 20 Yanvar həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında Ümummilli liderin rolu // 525-ci qəzet. - 2023. - 18 yanvar. - № 9. - S. 6.
- **Abbasov, Elçin** . Bir qərinəlik acımız: 20 Yanvar faciəsindən 33 il keçir // Xalq qəzeti. - 2023.- 18 yanvar. - № 11. - S. 8.
- **Etibar, Seyidağa.** Bir qərinə əvvəlki tarix- 20 Yanvarın açılmayan sirri qaldımı? // Yeni Müsavat – 2023. – 18 yanvar. - № 9. – S. 4.
- **Heydər Əliyevin 1990-cı il 20 Yanvar faciəsi ilə əlaqədar Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirilmiş yığıncaqda çıxışı** // Azərbaycan.- 2023.- 18 yanvar.- № 11.- S. 5.
- **Xalq deputatı Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 20 noyabr 1990-cı il tarixli sessiyasında çıxışı** // Azərbaycan. - 2023.- 18 yanvar. - № 11. - S. 5.
- **Məmmədova, Mətanət.** 20 Yanvar 1990-cı il: bir qərinənin o başı və bu başı // Səs.-2023.- 18 yanvar.- № 9.- S. 8-9.
- **Əfəndiyev, Məzahir.** 20 Yanvar 1990-ci ildə Heydər Əliyev xalqımızı birliyə səslədi // Вышка. - 2023.- 13 yanvar. - № 2. - S. 7.
- **Azadi, Sevinc.** 20 Yanvar faciəsinə ilk siyasi-hüquqi qiyməti ümummilli lider Heydər Əliyev verib // İki sahil.-2023.-11 yanvar.-№4.-S.10.
- **İslamoğlu, Sərtib.** 20 Yanvar tariximizin qanla yazılan səhifəsidir: O ağır gündə... // Vedibasar. - 2023. - 5-31 yanvar. - № 1/2. - S. 6.
- **Əliyev, M.Y.** 20 Yanvarın qəhrəman həkimi // Vedibasar. - 2023. - 5-31 yanvar. - № 1/2. - S. 7.
- **Qanlı 20 Yanvar şahidlərin gözü ilə** // Vedibasar. - 2023. - 5-31 yanvar. - № 1/2. - S. 7.
- **Azadlıq mübarizəsinin 20 Yanvar həqiqətləri** // Xalq qəzeti. - 2022.- 22 yanvar. - № 14. - S. 8.
- **Əliyeva, Jalə.** Milli mücadilə və azadlıq istəyimizin oyanış günü // Xalq qəzeti. - 2022.- 22 yanvar. - № 14. - S. 10.
- **Salmanlı, Rəhman.** Müqəddəs məkan: Şəhidlər xiyabanını ziyarət edənlər həm də Zəfərdən doğan qürur hissi keçirirdilər / M. Nərimanoğlu // Azərbaycan.- . - 2022.- 22 yanvar. - № 14. - S. 1,4.
- **Qurbanov, Habil.** Azadlığın və müstəqilliyin şərəfli yolu // Azərbaycan. - 2022.- 21 yanvar. - № 13. - S. 5.
- **Məmmədli, Müşfiq.** Qəhrəmanlıq və iftixar tariximiz // Azərbaycan. - 2022.- 21 yanvar. - № 13. - S. 4.
- **Nurullayeva, Könül.** Xalqımızın qürur salnaməsi // Azərbaycan. - 2022.- 21 yanvar. - № 13. - S. 4.
- **Əhmədov, Elçin.** 20 Yanvar: Müstəqilliyə yol açan şərəf və qəhrəmanlıq tariximiz // Xalq qəzeti. - 2022.- 20 yanvar. - № 13. - S. 4.
- **Nəcəfxanlı, Əli.** Milli mücadilə tariximizin parlaq səhifəsi // Xalq qəzeti. - 2022.- 20 yanvar. - № 13. - S. 1,8.

- **Məlikli, Günel.** Qanlı Yanvar faciəsi ağır bəşəri cinayətdir // Xalq qəzeti. - 2022.- 20 yanvar. - № 13. - S. 6
- **Feyziyev, Cavanşir.** Azadlıq və müstəqillik savaşına yol açan ümummilli faciə // Xalq qəzeti. - 2022.- 20 yanvar. - № 13. - S. 3.
- **Nəsirov, Elman.** Qanlı və şanlı tariximiz // Xalq qəzeti. - 2022.- 20 yanvar. - № 13. - S. 5.
- **İsabalayeva, İlhamə.** Tariximizin hüzn və qürur səhifəsi // Azərbaycan.- 2022.- 20 yanvar.- № 13 .- S. 3.
- **Musayeva, Yasəmən.** Qisas qiyamətə qalmadı: 44 günlük Vətən savaşında qazandığımız parlaq Zəfər şəhidlərimizin də ruhunuşadetdi // Azərbaycan.- 2022.- 20 yanvar.- № 13 .- S. 4.
- **Ağalarlı, Mübariz.** 20 Yanvar - çağdaş tariximizdə dönüş nöqtəsi // 525-ci qəzet. - 2022. - 20 yanvar. - № 11. - S. 11.
- **Paşayeva, Aynurə.** 20 Yanvar faciəsi bədii ədəbiyyatda - Aynurə Paşayeva yazır: 1990-2000-ci illərin ədəbi mətnləri əsasında yığcam qeydlər // 525-ci qəzet. - 2022. - 20 yanvar. - № 11. - S. 12.
- **Səma, Gülnar.** Müasir Azərbaycan poeziyasında 20 Yanvar mövzusu // 525-ci qəzet. - 2022. - 20 yanvar. - № 11. - S. 12.
- **Xasayeva, Səbinə.** 20 Yanvar: ilhaq üzərində qələbə günü // 525-ci qəzet. - 2022. - 20 yanvar. - № 11. - S. 7.
- **Hacıyev, İnam.** Azadlıq hərəkatının zirvəsi - 20 Yanvar // Səs.-2022.-20 yanvar.-№11.-S.8-9.
- **Akimova, Elnarə.** 20 Yanvar – müstəqilliyə aparan yolun qan və gün yaddaşı // Xalq Cəbhəsi. - 2022. - 20 yanvar. - № 3. - S. 5.
- **Mahmudov, Malik.** Qara Yanvar-müstəqilliyimizin simvolu // Paralel.-2022.-20 yanvar.-№5-6.-S.9.
- **Akimova, Elnarə.** 20 Yanvar - müstəqilliyə aparan yolun qan və gün yaddaşı // İki sahil.-2022.-20 yanvar.-№11.-S.5.
- **Şıxəliyev, Emin.** Qanlı Yanvar faciəsinin Naxçıvanda yazılan ilk səhifələri // İki sahil.-2022.-20 yanvar.-№11.-S.7.
- **Qənizadə, Çingiz.** Heç vaxt unudulmayacaq gün // Xalq qəzeti.- 2022.- 19 yanvar.- № 12.- S. 7.
- **Xasayeva, Səbinə.** Xalqımızın şərəf salnaməsi // Xalq qəzeti.- 2022.- 19 yanvar.- № 12.- S. 7.
- **Salmanlı, Rəhman.** Qanlı şənbə gecəsi hec vaxt unudulmur // Azərbaycan.- 2022.- 19 yanvar.- № 12.- S. 7.
- **Sadıqov, Əli.** Müqəddəs and yerimiz // Respublika. - 2022.- 19 yanvar. - № 12. - S. 9.
- **Ələsgərova, Esmira.** Qəhrəmanlıq salnaməsi // Respublika. - 2022.- 19 yanvar. - № 12. - S. 9.
- **Rza, Zahid.** 20 Yanvar: Tariximizin mərdlik, rəşadət və şəhidlik zirvəsi // İki sahil.-2022.-19 yanvar.-№10.-S.7.
- **Qurbanov, Sadiq.** 20 Yanvar Azərbaycan xalqının istiqlal savaşının məhək daşıdır // İki sahil.-2022.-19 yanvar.-№10.-S.3.
- **Ələddinqızı,** Nəzakət. Azərbaycanın istiqlal yolunun ilk zirvəsi // Səs.-2022.-19 yanvar.-№10.-S.7.
- **Nurlan.** 19 yanvar 1990: Naxçıvan MSSR SSRİ-nin tərkibindən çıxdı // Yeni Azərbaycan.-2022.-19 yanvar.-№10.-S.3.
- **Turan, Cavid.** 20 Yanvarın sirləri - AXC-nin məsuliyyəti, Qorbaçova qarşı məhkəmə... // Yeni Müsavat. - 2022.- 19 yanvar. - № 10. - S. 10.
- **Quliyev, Novruz.** 20 Yanvar qırğınına verilmiş ilk siyasi qiymət // İki sahil.-2022.-18 yanvar.-№9.-S.6.
- **Quliyev, Dilqəm.** 20 Yanvar şanlı tariximizə şəhidlərin qanı ilə yazılmışdır // Olimpiya dünyası.-2022.-18-24 yanvar.-№2.-S.3.
- **İbrahimov, Hüseyn.** 20 Yanvardan istiqlalımıza uzanan yol // Xalq qəzeti. - 2022.- 18 yanvar. - № 11. - S. 1,6.

- **Əhmədova, Səbinə.** Unudulmaz tarix // Respublika. - 2022.- 18 yanvar. - № 11. - S. 5.
- **Talıbov, Röyal.** İstiqlaliyyətə aparan yol // Respublika. - 2022.- 18 yanvar. - № 11. - S. 5.
- **Muxtar, Vilayət.** 20 Yanvar: İstiqlal və hürriyyət uğrunda mübarizə // Cümhuriyət. – 2022. – 18-20 yanvar. - № 4. – S. 4.
- **Qocayev, İsmayıl.** 20 Yanvar qırğınında ermənilər də iştirak ediblər // Şərq.-2022.-18 yanvar.-№9.-S.2.
- **Azadi, Sevinc.** 20 Yanvar faciəsi xalqımızın qəhrəmanlıq salnaməsidir // İki sahil.-2022.-13 yanvar.-№8.-S.13.
- **Mustafa, Nazim.** Azadlıq mübarizəmizin qanlı və şanlı səhifəsi // Xalq qəzeti. - 2021.- 20 yanvar. - № 13. - S. 7.
- **Nəsirov, Elman.** 20 Yanvar hadisələri xalqın iradəsinin və azadlıq arzusunun sarsılmazlığını sübut etdi // Xalq qəzeti.- 2021.- 20 yanvar.- № 13.- S. 4.
- **Cəfərli, Rəşad.** Tariximizin qürur və şərəf səhifəsi // Azərbaycan.- 2021.- 20 yanvar.- № 13.- S. 1,4.
- **Musayeva,** Yasəmən. Qanlı şənbədən azadlığa uzanan yol // Azərbaycan.- 2021.- 20 yanvar.- № 13.- S. 1,4.
- **Cəbrayılov, Ataş.** Xalqımızın tarixində azadlıq mübarizəsinin unudulmaz səhifəsi // Respublika.- 2021.- 20 yanvar.- № 13.- S. 4-5.
- **Rəşid, Leyla.** 20 Yanvar faciəsinin tarixi dərsləri // Xalq qəzeti.- 2021.- 20 yanvar.- № 13.- S. 8.
- **Muradov, Zakir.** Gəncə üçün hazırlanan "20 Yanvar ssenarisi" necə pozuldu?: 1990-cı ilin yanvarın 19-da Gəncəyə hərəkət edən Sovet hərbi eşelonlarını saxlamağa müvəffəq olmuş "OBXSS" rəisinin filmə bənzəyən hekayəti // 525-ci qəzet. - 2021. - 20 yanvar. - № 11. - S. 11.
- **Müşfiq, Şahanə.** Vasif Babayev: "20 Yanvar hadisələri hələ də yuxularımda canlanır" // 525-ci qəzet. - 2021.- 20 yanvar. - № 11. - S. 10-11.
- **Qəribli, Məhəmmədəli.** 20 Yanvar hadisələrində ümumxalq müqaviməti - Azərbaycanda multikulturalizmin təntənəsi və təcəssümü... // Bakı Xəbər. - 2021. - 22 yanvar. - № 12. - S. 10.
- **Abbaslı, Tahir.** “Qış qanadlı” il – 1990...: “Quş qanadlı” kimi təşbeh edilən sovet illərimizin sonuncusundan əvvəlki... // Mədəniyyət. - 2021. - 20 yanvar. - № 4. - S. 6.
- **Hüseynli, Qabil.** Taleyimizin Qanlı Yanvarı // Respublika. - 2021.- 19 yanvar. - № 12. - S. 7.
- **Quliyev, İbrahim.** Qəhrəmanlıq, rəşadət rəmzi // Azərbaycan.-2020.-23 yanvar.-№13.-S.7.
- **Ülvi, Almaz.** Milli azadlıq mücahidi Ülvi Bünyadzadə // Respublika.-2020.-23 yanvar.-№13.-S.7.
- **Fərəcova, Zöhrə.** And yeri: Şəhidlər xiyabanı: 30 ildir bu müqəddəs ziyarətgah ilboyu insan axını ilə dolub-boşalır / M. Nərimanoğlu // Azərbaycan.-2020.-22 yanvar.-№12.-S.4.
- **Mirzəbəyli, İttifaq.** 20 Yanvara siyasi-hüquqi qiymət Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra verildi // Xalq qəzeti.-2020.-22 yanvar.-№12.-S.5.
- **Nəsirov, Elman.** 20 Yanvar hadisələrinə 30 illik zaman kəsiyindən obyektiv baxış // Xalq qəzeti.-2020.-19 yanvar.-№11.-S.4.
- **Cəfərov, Nizami.** 20 Yanvar – İstiqlal mübarizəsinin əbədi məşəlinin alovlandığı gün // Xalq qəzeti.-2020.-19 yanvar.-№11.-S.1-2.
- **Lələdağ, Əvəz Mahmud.** 20 Yanvar istiqlal mübarizəsinin yeni mərhələyə keçməsinə təkan verdi // Xalq qəzeti.-2020.-19 yanvar.-№11.-S.6.
- **Hüseynli, Qabil.** Qanlı Yanvar // Respublika.-2020.-19 yanvar.-№11.-S.6.
- **Həsənov, Əli.** Tariximizin qanlı və şanlı səhifəsi // Xalq qəzeti.-2020.-19 yanvar.-№11.-S.3.
- **Tahirov, Rasif.** Xəzərdə gəmilərin 20 Yanvar etiraz aksiyası: Azərbaycan dənizçilərinin harayı o zaman 50-dən çox ölkənin gəmilərində eşidilmiş və geniş həmrəylik dalğası yaratmışdı // Xalq qəzeti.-2020.-19 yanvar.-№11.-S.6.
- **Musayeva, Yasəmən.** Qanlı şənbənin Aslanı // Azərbaycan.-2020.-19 yanvar.-№11.-S.6.

- **Mustafa, Nazim.** Tariximizin faciə və qəhrəmanlıq səhifəsi // Xalq qəzeti.-2020.-18 yanvar.-№10.-S.8.
- **Sarıyeva, İradə.** 20 Yanvar cinayətinə görə Qorbaçovun Haaqa Məhkəməsinə verilməsi aktuallaşır... // Bakı Xəbər. - 2020. - 18 yanvar. - № 9. - S. 5.
- **Umudlu, Hikmət.** 20 Yanvar faciəsi – Tariximizin qəhrəmanlıq səhifəsi // Ədalət. - 2020. - 18 yanvar. - № 9. - S. 5.
- **Xəlilova, Aynur.** 20 Yanvar - yaddaşda əbədiləşən tarix // Ədəbiyyat qəzeti. - 2020.- 18 yanvar. - № 2. - S. 15.
- **Əfəndiyeva, Məftunə.** 20 Yanvar- Azərbaycanın istiqlal yolunun ilk zirvəsi günüdür // Xalq Cəbhəsi. - 2020. - 18-21 yanvar. - № 5. - S. 5.
- **Tağıyeva, Günay.** 20 Yanvar: Tariximizin qanlı və şanlı səhifəsi // Hərbi and. - 2020. - 17 yanvar. - № 2. - S. 13.
- **Hüseynova, Lalə.** 20 Yanvar qəhrəmanlıq və qürur günümüzdür // Hərbi and. - 2020. - 17 yanvar. - № 2. - S. 12.
- **Abbaslı, Tahir.** QANLI və... bu xalqa Azad-Aydın gündüzlər qazandıran ŞANLI Gecə!... // Mədəniyyət. - 2020. - 17 yanvar. - № 4. - S. 6.
- **Rəcəbli, Qəhrəman.** 20 Yanvar Azərbaycan xalqı üçün şərəf və qəhrəmanlıq tarixidir // Palitra. – 2020. – 17 yanvar. - № 5. – S. 7.
- **Qanlı Yanvarda təcili yardım işçiləri böyük şücaət göstərmişlər** // Respublika. - 2020.- 17 yanvar. - № 9. - S. 5.
- **Quliyev, Bəhman.** Tariximizin şərəf və qəhrəmanlıq səhifəsi: Qanlı Yanvar // Azad Azərbaycan. – 2020. – 16 yanvar. - № 04. – S. 3.
- **Əhmədova, Fərizə.** Son vida // Azərbaycan. - 2019.- 20 yanvar. - № 15. - S. 4.
- **Babayev, Ağaddin.** Qanla yazılan tarix // Azərbaycan. - 2019.- 20 yanvar. - № 15. - S. 4.
- **Cəfərli, Rəşad.** Müstəqillik uğrunda qəhrəmanlıq salnaməsi: Yalnız Heydər Əliyevin ölkəyə rəhbərlik etməyə başlamasından sonra 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verildi // Azərbaycan. - 2019.- 20 yanvar. - № 15. - S. 1-2.
- **Aydınoğlu, Tahir.** Heydər Əliyev və 20 Yanvar həqiqətləri // Xalq qəzeti. - 2019.- 20 yanvar. - № 15. - S. 3.
- **Səmədzadə, Ziyad.** Bakı qırğını xalqımızın Azadlıq mübarizəsinə start verdi // Xalq qəzeti. - 2019.- 20 yanvar. - № 15. - S. 4.
- **Urud, Musa.** 20 Yanvar faciəsi xalqımızın qəhrəmanlıq salnaməsində xüsusi yer tutur // Xalq qəzeti. - 2019.- 20 yanvar. - № 15. - S. 1,4.
- **Feyziyev, Cavanşir.** 20 Yanvar – qanlı imperiyanın sonunun başlanğıcı // Xalq qəzeti. - 2019.- 20 yanvar. - № 15. - S. 5.
- **Abdullayev, Mübariz.** 20 Yanvar Azərbaycan xalqının azadlıq uğrunda mübarizə tarixinin qürur doğuran şanlı səhifəsidir // Yeni Azərbaycan. - 2019.- 19 yanvar. - № 12. - S. 2.
- **Yusifli, Vaqif.** 20 Yanvar: 29 il: Ədalət. - 2019.- 19 yanvar. - № 12. - S. 15.
- **Bədəlov, Əliqismət.** 20 Yanvar – çökməkdə olan imperiyanın kobud siyasi səhvi // Xalq qəzeti. - 2019.- 19 yanvar. - № 14. - S. 5.
- **Əhmədova, Fərizə.** Qürur yerimiz: Şəhidlər xiyabanı ziyarətçiləri qəbul etməyə hazırdır // Azərbaycan. - 2019.- 19 yanvar. - № 14. - S. 4.
- **Salmanlı, Rəhman.** 28 il əvvəl - 19 yanvar gecəsinin müsibətləri // Azərbaycan.- 2018.- 19 yanvar.- №13.-S.4.
- **Fərəcova, Zöhrə.** Mübarizlik simvolu // Azərbaycan. - 2019.- 18 yanvar. - № 13. - S. 6.
- **20 Yanvar İnsanlıq əleyhinə cinayət //** Xalq qəzeti. - 2019.- 18 yanvar. - № 13. - S. 4.
- **Mirzəbəyli, İttifaq.** “Bu güllələr Larisanı öldürüb, eyvandan ataq, getsin...” // Xalq qəzeti. - 2019.- 18 yanvar. - № 13. - S. 4.

- **Səfərli, A.** 20 Yanvarın “açılmayan gülləsi” - Primakov Allahşükür Paşazadəyə hakimiyyəti ələ almağı niyə təklif etmişdi? // 525-ci qəzet. - 2019.- 18 yanvar. - № 11. - S. 4.
- **Həsənov, Sənan.** 1990-cı il 20 Yanvar - insanlıq tarixinə və milli yaddaşa yeni yanaşmanı zəruri edir // Səs. - 2019.- 18 yanvar. - № 11. - S. 8-9.
- **Yıxılmadıq, ayaqda durduq...: 20 Yanvara 28 ildən sonra baxış** // Ekspress.-2018.-20-22 yanvar.-№ 12.-S.8-9.
- **Kiraz, Ragıp.** 20 Yanvar faciəsi və Heydər Əliyevin prinsipial mövqeyi // Azərbaycan müəllimi. - 2019.- 18 yanvar. - № 2. - S. 13.
- **Paşayeva, Aynurə.** 20 Yanvar faciəsi və mətbuat: Ehsanımız yalnız söz olsa da, millətimizi ovundurmağa çalışırdıq // Kaspi.-2018.-20-22 yanvar.-№12.-S.7.
- **İbrahimzadə, Fizuli.** O gecə tökülən qanlar: 20 Yanvar - tariximizin sağalmaz yarası kimi // Kaspi.-2018.-20-22 yanvar.-№12.-S.5.
- **Bünyatov, Şövqi.** 20 Yanvar - tarixin sınaq məqamı // Respublika.-2018.-20 yanvar.-№14.-S.2.
- **Kəngərli, Rauf.** 1990-cı ilin yanvar hadisələri: ermənilərin Naxçıvanı işğal etmək planı necə pozuldu? // Səs.-2018.-20 yanvar.-№12.-S.8-9.
- **Əlәddinqızı, Nəzakət.** Azərbaycan xalqının istiqlal və mücadilə yolu: 1990-cı ilin 20 Yanvar faciəsindən 28 il ötür // Səs.-2018.-20 yanvar.-№ 12.-S.4.
- **İsmayıl.** Qanlı gecənin sualları...: “Proseslərdə əli olan adamların böyük qismi bu gün də aramızdadır, sərbəst gəzirlər”: Onların arasında siyasətçilər də var, millət vəkilləri də. Hamı onları yaxşı tanıyır // Şərq.-2018.-20 yanvar.-№12.-S.8.
- **İsmayıl.** 20 Yanvarın 20 yanı var: Birinci günahkar Rusiyadır, amma faciədə başqa qüvvələrin də əli olub: 1990-cı ilin 20 Yanvarında 131 günahsız insan öldürüldü, 744 adam yaralandı // Şərq. - 2018.- 19 yanvar. - № 11. - S. 4.
- **Azərbaycan xalqının istiqlalına yol açan şanlı tarix - 20 Yanvar //** Səs. - 2018.- 19 yanvar. - № 11. - S. 8-9.
- **Vəliyev, Həmid.** 20 Yanvardan sonra genişlənən milli azadlıq mübarizəsi xalqımızı müstəqilliyə qovuşdurdu // Xalq qəzeti.-2018.-19 yanvar.-№13.-S.3.
- **Cəfərov, Əhməd.** O gecəni unuda bilmirəm // Xalq qəzeti.-2018.-19 yanvar.-№13.-S.3.
- **Nərimanoğlu, Məhəmməd.** Rənglərin işığında “Qara Yanvar” mövzusu: Bu şərəfli tariximiz yalnız ədəbi dildə deyil, daşda, ağacda, kətanda da dolğun təsvir edilir // Azərbaycan.-2018.-19 yanvar.-№13.-S.5.
- **Qasımov, Ramiz.** Tariximizin 20 Yanvar səhifəsi // İki sahil.-2018.-19 yanvar.-№11.-S.10.
- **Mədətoğlu, Əbülfət.** Qan yaddaşımız // Ədalət.-2018.-19 yanvar.-№ 11.-S.7.; 20 yanvar.-№ 12.-S.4.
- **20 Yanvar: müasir tariximizin şəhid qanı ilə yazılmış hünər səhifəsi //** İki sahil.-2018.-20 yanvar.-№ 12.-S.2.
- **Zaman, Elçin.** SSRİ-nin süqutu 20 Yanvar faciəsi ilə başladı // İki sahil.-2018.-20 yanvar.-№ 12.-S.13.
- **Məhərrəmova, Təranə.** 20 Yanvar faciəsi ədəbiyyatımızda // Kaspi.-2018.-20 Yanvar.-№ 12.-S.10.
- **Əhmədov, Elçin.** 20 Yanvar - müstəqilliyə gedən yolda xalqımızın şərəf və qəhrəmanlıq salnaməsi: 1990-ci ildə Bakıda baş verən hadisələri Qarabağdaki erməni təcavüzündən ayrıca təhlil etmək mümkün deyil // 525-ci qəzet.-2018.-20 yanvar.-№12.-S.8-9.
- **Nərimanoğlu, Məhəmməd.** Azadlıq uğrunda mücadilə tarixi // Azərbaycan.-2018.-20 yanvar.-№14.-S.5.
- **Cavadov, Seyran.** Can verən imperiyanın qurbanları // Azərbaycan.-2018.-20 yanvar.-№14.-S.3.
- **Nərimanoğlu, Məhəmməd.** Qanlı şənbənin məktəbli şəhidləri // Azərbaycan.-2018.-20 yanvar.-№14.-S.1,4.

- **Feyziyev, Cavanşir.** 20 Yanvar – xalqımızın azadlıq arzusunun, müstəqillik uğrunda mübarizəsinin yenilməzlik günü // Xalq qəzeti.-2018.-20 yanvar.-№14.-S.1,3.
- **Aydınoğlu, Tahir.** Mixail Qorbaçovun gecikmiş və yarımçıq etirafı onun qanlı cinayətlərini yuya bilməz // Xalq qəzeti.-2018.-20 yanvar.-№14.-S.2.
- **Hüseynova, Zərifə.** Şəhidlər xiyabanında düşüncələr // Xalq qəzeti.-2018.-20 yanvar.-№14.-S.5.
- **Əhmədov, Elçin.** Xalqımızın şərəf və qəhrəmanlıq salnaməsi // Xalq qəzeti.-2018.-20 yanvar.-№14.-S.4.
- **20 Yanvar Azərbaycan Şəhidləri Günü kimi təsis edilə bilər //** Paralel.-2018.-17 yanvar.-№9.-S.14.
- **Eyyubova, Günel.** Tariximizin şərəfli səhifəsi: 20 Yanvar faciəsinin 27-ci ildönümünün keçirilməsi ilə bağlı tədbir planı təsdiq edilib // İki sahil.-2017.-11 yanvar.-№ 4.-S.11.
- **Əhmədov, Elçin.** Şərəf və qəhrəmanlıq salnaməsi // Xalq qəzeti.-2016.- 20 yanvar.-№ 13.-S.5.
- **Hacaliyev, Elnur.** Milli azadlıq hərəkatının zirvəsi // Azərbaycan.-2016.- 20 yanvar.-№ 13.-S.4.
- **Sarıyeva, İradə.** 20 Yanvar - azərbaycançılıq tariximizin qəhrəmanlıq səhifəsi...// Bakı Xəbər.-2016.-19 yanvar.-№ 10.-S.15.
- **Əhmədov,Tağı.** Qəhrəmanlıq salnaməsinin parlaq səhifəsi // Respublika.-2016.-19 yanvar.-№ 12.-S.5.
- **20 Yanvar xalqımızın şərəf, ləyaqət və eyni zamanda faciə tarixidir:** [Milli Məclisin deputatı, tarix elmləri doktoru Fəzail İbrahimli ilə müsahibə] // Yeni Azərbaycan.- 2016.- 19 yanvar.- № 010.-S.6.
- **Cəfərli, Rəşad.** İstiqlal mücadiləsinin qürur rəmzi // Azərbaycan.-2016.-17 yanvar.-№11.-S.6.
- **İsmayılqızı, Xuraman.** Qanla yazılmış qəhrəmanlıq tarixi: 20 Yanvar hadisələrinə ilk siyasi-hüquqi qiymət ulu öndər Heydər Əliyev tərəfindən verildi // İki sahil.-2016.-16 yanvar.-№ 8.-S.4.
- **Bədəlov, Əliqismət.** 20 Yanvar Azərbaycanın istiqlal mübarizəsində önəmli mərhələdir // Xalq qəzeti.- 2016.-16 yanvar.- № 10.- S. 9 .
- **Xəlilov,Rüstəm.** 20 Yanvar hadisələri Azərbaycan tarixinə qəhrəmanlıq səhifəsi kimi həkk olunub // Xalq qəzeti. - 2016.-15 yanvar.- № 9.- S. 9.
- **Qaraca, Bəxtiyar.** Xalqın azadlıq uğrunda mübarizə əzmini qıra bilmədilər // Azərbaycan.-2016.-15 yanvar.-№ 9.- S. 6.
- **Rzayev, Vidadi.** Azərbaycançılıq: 20 Yanvar sınağı // Olaylar.-2016.-14 yanvar.-№ 248.-S.11.
- **Qədirov, Vüqar.** 20 Yanvar 1990-cı il – xalqımızın tarixinin qanlı və şanlı səhifəsi // Xalq qəzeti.-2016.-14 yanvar.-№ 8.-S.6.
- **Salmanlı, Rəhman.** Faciə barədə əsl həqiqətlər dünyaya çatdırılıb // Azərbaycan.-2016.-14 yanvar.-№ 8.- S.5.
- **Bədəlov, Əliqismət.** 20 YANVAR – Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi // Xalq qəzeti.-2016.-13 yanvar.-№ 7.-S.4.
- **Mirzəbəyli, İttifaq.** 20 Yanvar hadisələri Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsini boğmaq məqsədini daşıyırdı // Xalq qəzeti.-2016.-12 yanvar.-№ 6.-S.9.
- **Turan, Anar.** Qanlı Yanvar – xalqımızın milli əzmkarlıq salnaməsi // Xalq qəzeti.-2016.-10 yanvar.-№ 5.-S.4.
- **Bədəlov, Əliqismət.** Azərbaycanın istiqlal tarixinə qanla yazılmış 20 Yanvar faciəsindən 26 il keçir // Xalq qəzeti.-2015.-9 yanvar.-№ 4.-S.4.
- **Səmədov, Vasif., Rəşid, Leyla.** 20 Yanvar: Tariximizin qanlı və şanlı səhifəsi" // Xalq qəzeti.-2015.-1 fevral.-№ 24.-S.4.
- **Məmmədova, Havva .** 20 Yanvar - Qürur mənbəyimiz // Xalq qəzeti.-2015.-24 yanvar.-№ 17.-S.6.
- **Əbdülsəlimzadə,** Qüdrət. Şəhidlərimizin dəfninin təşkili xalqın müdrikliyinin və dəyanətinin təsdiqi oldu // Xalq qəzeti.-2015.-22 yanvar.-№ 15.-S.7.

- **Azərbaycan xalqının azadlıq mübarizəsinin şanlı qəhrəmanlıq səhifəsi** // Yeni Azərbaycan.-2015.-21 yanvar.-№ 11.-S.3**.**
- **Nəsirov, Elman.** 20 YANVAR FACİƏSİ –Sovet imperiyasının sonunun başlanğıcı // Xalq qəzeti.-2015.-20 yanvar.-№ 14.-S.2**.**
- **Vəlizadə, Rövşən.** Qanlı Yanvar faciəsi və "Asala" erməni terror təşkilatı (Qanlı cinayətlərin görünməyən tərəfləri) // Xalq qəzeti.-2015.-20 yanvar.-№ 14.-S.8.
- **Mirələmov, Hüseynbala.** Qürur günü // Azərbaycan.-2015.-20 yanvar.-№ 14.-S.3.
- **Hacalıyev, Elnur.** Qəhrəmanlıq salnaməsi // Azərbaycan.-2015.-18 yanvar.-№ 13.-S.4.
- **Sadıqlı, Flora.** Tarix öz yaddaşında yaxşını da, yamanı da möhkəm saxlayır // Azərbaycan.-2015.-16 yanvar.-№ 11.-S.10.
- **Abbasov, İlham.** Qanlı yanvar gecəsi // İki sahil.-2015.-15 yanvar.-№ 8.-S.10.
- **Əmircanov, Paşa.** 20 YANVAR - müdhiş cinayət // Xalq qəzeti.-2015.-15 yanvar.-№ 10.-S.5.
- **Cəfərli, Rəşad.** 20 Yanvar faciəsinə ilk etirazı Heydər Əliyev bildirdi // Azərbaycan.-2015.-14 yanvar.-№ 10. S.2.
- **Əliyeva, İradə.** Qəhrəmanlıq tariximizin 20 Yanvar səhifəsi // Azərbaycan.-2015.-14 yanvar.-№ 9.-S.10.
- **Sultan, Laçın.** Bakıda "13 yanvar erməni talanları" necə təşkil edilmişdi // Həftə içi.-2015.-13 yanvar.-№5.-S.3
- **Mirzəbəyli, İttifaq.** 20 Yanvar faciəsi nə qədər dəhşətli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq əzmini qıra bilmədi // Xalq qəzeti.-2015.-13 yanvar.-№ 8.-S.5.
- **Əli.** "Rusiyanın 20 Yanvara görə məhkəməyə verilməsi reallıqdan uzaqdır" // Xalq Cəbhəsi.-2015.-8 yanvar.-N 3.-S.7.
- **Qasımlı, Musa.** Dönüş günü - 20 YANVAR // Azərbaycan.-2014.-18-19 yanvar.-№ 10.- S.10.-№11.- S. 5.
- **Cəfərli, Rəşad.** 20 Yanvar faciəsinə gedən yol // Azərbaycan.-2014.-18-19 yanvar.-№ 10.-S. 11, № 11.-S. 6-7.
- **Feyziyev. Cavanşir.** Əsarətin son gecəsi // Səs.-2014.-18 yanvar.-№ 9.-S.15.
- **Qəhrəmanov, Eldar**. Müstəqilliyimizə gedən yol 20 yanvardan keçir // Səs.-2014.-17 yanvar.-№ 7. S.89.
- **Milli Qürur mənbəyi** //Azərbaycan.-2014.-17 yanvar.-№ 9.-S.5.
- **Milli ruhun yüksəlişi** //Azərbaycan.-2014.-17 yanvar.-№ 9.-S.3.
- **Vəfa, Zeynal.** Xalqımızın qəhrəmanlıq salnaməsi // Azərbaycan.-2014.-16 yanvar.-№ 8.-S.5.
- **20 Yanvar – öz azadlığı uğrunda canından keçməyə hazır olan xalqın sınaq gecəsi** // Xalq qəzeti.-2014.-15 yanvar.-№ 7.-S.4**.**
- **Qanlı şənbə gecəsi rənglərin dilində //** Azərbaycan.-2014.-15 yanvar.-№ 07.-S.4.
- **Milli Qürur mənbəyi** // Azərbaycan.-2014.-15 yanvar.-№ 7.-S.4**.**
- **Xudaşirin, Səmayə.** 20 Yanvar hadisələri tariximizin həm faciə, həm də qəhrəmanlıq səhifəsidir // Xalq qəzeti.-2014.-14 yanvar.-№ 06.-S.4**.**
- **Quliyev, Samir.** 20 Yanvar faciəsi insanlığa qarşı bir cinayətdir // Palitra.-2014.-14 yanvar.-№ 5.-S.12**.**
- **Qəhrəmanlıq tariximizin "20 Yanvar"səhifəsi //** Xalq qəzeti.-2014.-12 yanvar.-№ 5. S.4.
- **20 Yanvar faciəsinin dövlət anım tədbirləri ictimai maraq tələblərinə tam cavab verir //** Bakı Xəbər.-2013.-5 mart.-№ 41.-S.15.
- **Feyziyev, Cavanşir.** 20 Yanvar: oyanışın ilk səhəri // Xalq qəzeti.-2013.-20 yanvar.-№ 13.-S.3.
- **Quliyev, Arif Cəmil oğlu.** Cinayət var, cəza isə yoxdur // Xalq qəzeti.-2013.-20 yanvar.-№ 13.-S.5.
- **Bəşəriyyətə, insanlığa qarşı törədilən cinayət** // Azərbaycan.-2013.-19 yanvar.-№ 12.-S.6.
- **Turan, Anar.** Qanlı Yanvar – xalqımızın qan yaddaşı // Xalq qəzeti.-2013.-18 yanvar.-№ 11.-S.4.

- **Vəliyev, Həmid.** MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR // Yeni Azərbaycan.-2013.-17 yanvar.-№8.-S.5.
- Əliyeva Fatma. Şəhidlərimizin qanı yerdə qalmayacaq // Xalq qəzeti.-2012.-17 yanvar.-№10.-S.6.
- Mirzəbəyli, İttifaq. **20 Yanvar faciəsi barədə ən dəqiq və rəsmi sənədlərlə hamının tanış olması mümkündür** // Xalq qəzeti.-2013.-16 yanvar.-№ 9.-S.8
- Məmmədova, Havva. **20 Yanvar Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinin qəhrəmanlıq səhifəsidir** // Xalq qəzeti.-2013.-15 yanvar.-№ 8.-S.6.
- **Azərbaycan tarixinin bir zamanı da belə yazıldı: 20 YANVAR FACİƏSİ** // Səs.-2013.-12 yanvar.-№5.-S.6.
- **Bədəlov, Əliqismət.** 20 Yanvar faciəsi Azərbaycan xalqına qarşı törədilmiş dəhşətli soyqırımıdır // Xalq qəzeti.-2013.-11 yanvar.-№ 5.-S.5.
- **Cümşüdlü, Firudin.** Qanlı Yanvar faciəsi imperiyanın süqutunu sürətləndirdi // Səs.-2012.-24 yanvar.-№12.-S.10.
- **20 Yanvar faciəsinin zirvəsi** // Azərbaycan.-2012.-21 yanvar.-№ 15.-S.3.
- **Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuş 20 yanvar faciəsi əsla unudulmayacaqdır** // Səs.-2012.-19 yanvar.-№10.-S.6.
- **20 Yanvar: Xalqımızın azadlıq mübarizəsinin qəhrəmanlıq səhifəsi** // İki sahil.-2012.-19 yanvar.-№10.-S.6.
- **Talıbov, Rza.** Müasir tariximizin unudulmaz səhifəsi // Respublika.-2012.-19 yanvar.-№ 13.-S.4.
- **Əbdülsəlimzdə, Hacı Qüdrət.** İctimai dəfn komissiyası və onun fəaliyyəti // Respublika.-2012.-19 yanvar.-№ 13.-S.5.
- **Əhmədov, Elçin.** Müstəqilliyə gedən yolda xalqımızın şərəf və qəhrəmanlıq salnaməsi // Xalq qəzeti.-2012.-18 yanvar.-№ 12.-S.4.
- **Şanlı tariximizin qanlı səhifəsi** // Respublika.-2012.-18 yanvar.-№ 12.-S.5.
- **20 Yanvar faciəsi şahid nəzəri ilə** // Azad Azərbaycan.-2012.-17 yanvar.-№7.-S.4.
- **İnsanlığa qarşı qanlı cinayət** // Azərbaycan.-2012.-17 yanvar.-№ 11.-S.6.
- **Cəbiyev, Qafar.** 20 Yanvar faciəsi: səbəblər, nəticələr // Xalq qəzeti.-2012.-17 yanvar.-№ 11.-S.5.
- **20 Yanvar xalqımızın qəhrəmanlıq tarixidir** // Yeni Azərbaycan.-2012.-14 yanvar.-№ 7.-S.3.
- **Cümşüdlü, Firudin.** Qanlı Yanvar faciəsi imperiyanın süqutunu sürətləndirdi // Xalq qəzeti.-2012.-15 yanvar.-№ 10.-S.3.
- **Qanlı 20 Yanvar faciəsi //** Azərbaycan.-2012.- 13 yanvar.-N 8.-S.3.; 14 yanvar.-N 9.-S.2.; 15 yanvar.-№ 10.-S.3**.**
- **"20 Yanvar, Dağlıq Qarabağla bağlı sanballı foto-saytımız yoxdur"** // Həftə içi.-2011.-10 mart.-№ 39.-S.7.
- **20 Yanvar - tariximizin şərəf və qəhrəmanlıq səhifəsi** // Xalq qəzeti.-2011.-27 yanvar.-№ 19.-S.4.
- **"20 YANVAR" günü münasibəti ilə Meksikanın "Excelsior" və "El universal" qəzetlərində səfir İlqar Muxtarovun məqalələri dərc olunub** // Səs.-2011.-22 yanvar.-№ 12.-S.7.
- **Məmmədov,** Kərəm. Mən tarana gedirəm! // Xural.-2011.-9-15 yanvar.-№ 1.-S.7,16-22 yanvar.-N.2.-S.7.
- **Xalqımızın azadlıq mübarizəsinin qanlı səhifəsi** // Xalq qəzeti.-2011.-20 yanvar.-№ 14.-S.1,4.
- **Oruclu, Oqtay.** "Əbədiyyət simfoniyası" // Zaman.-2011.-20-21 yanvar.-№ 8.-S.8.
- **20 Yanvar - Azərbaycan xalqının qəhrəmanlıq salnaməsi** // Yeni Azərbaycan.-2011.-20 yanvar.-№ 11.-S.6.
- **20 Yanvar 1990-cı il dövrümüzün ən böyük milli-azadlıq hərəkatlarından birinin tarixidir** // İki sahil.-2011.-20 yanvar.-S.5.
- **Moskvada 20 yanvarla bağlı materialları kimlər yayıb?** // Azadlıq.-2011.-20-22 yanvar.-№ 15.-S12.

- **Əhmədov, Teymur.** Azadlıq hərəkatının mühüm mərhələsi // Respublika.-2011.-20 yanvar.-№ 14.-S.3.
- **Hüseynli, İxtiyar.** Azərbaycan xalqının mənəvi ucalıq və dəyanət günü // Azərbaycan.-2011.-20 yanvar.-№ 14.-S.3.
- **Sadıqov Bəxtiyar.** Müdhiş gecənin ibrət dərsləri // Azərbaycan.-2011.-20 yanvar.-№ 14.-S.1-2.
- **20 Yanvar gecəsinin qəhrəmanları** // Xalq Cəbhəsi.-2011.-19 yanvar.-№ 10.-S.11.
- **Xəlilov, Rüstəm.** Azərbaycan xalqının mübarizə əzmi imperiyanı qorxuya salmışdı // Xalq qəzeti.-2011.-18 yanvar.-№ 12.-S.5.
- **"20 Yanvar xalqımızın qəhrəmanlıq səhifəsi idi"** // Xalq Cəbhəsi.-2011.-18 yanvar.-№ 9.-S.5.
- **Abbasov, İlham.** Qanlı Yanvar faciəsi // Respublika.-2011.-18 yanvar.-№ 12.-S.5.
- **Xəlilzadə, Flora.** Qocalan dərdin ucalığı // Azərbaycan.-2011.-18 yanvar.-№ 12.-S.7.
- **Rzalı, Rəsmiyyə.** Xalqın iradəsini qıra bilmədilər // Azərbaycan.-2011.-16 yanvar.-№ 11.-S.4.
- **Məmmədov, Vaqif.** 20 Yanvar faciəsi və Heydər Əliyev qətiyyəti // İki sahil.-2011.-15 yanvar.-№ 8.-S.12.
- **Nərimanoğlu, Məhəmməd.** Xalqımızın qürur günü // Azərbaycan.-2011.-15 yanvar.-№ 10.-S.6.
- **ABŞ və Avropa 20 yanvar qırğınını dəstəkləyib** // Bizim Yol.-2011.-14 yanvar.-№ 7.-S.7.
- **20 Yanvardan 21 il keçir...** // Xalq Cəbhəsi.-2011.-14 yanvar.-№ 7.-S.8.
- **Əliyev, Telman.** 20 Yanvar - tariximizin qəhrəmanlıq səhifəsi // Xalq qəzeti.-2011.-14 yanvar.-№ 9.-S.5.
- **Elmanoğlu, S.** Müstəqilliyə aparan şərəfli yol // Azərbaycan.-2011.-14 yanvar.-№ 9.-S.5.
- **Bayramov, Rasim.** 20 Yanvara gedən yol // Azərbaycan.-2011.-13 yanvar.-№ 8.-S.4.
- **Cümşüdlü, Firudin.** Qanlı Yanvar faciəsi imperiyanın süqutunu sürətləndirdi // Xalq qəzeti.-2010.- 22 yanvar.- № 16.- S.4.
- **20 Yanvar bütün incəlikləri ilə dünyaya çatdırılmalıdır** // Kaspi.- 2010.- 20-21 yanvar.- № 11.- S.1, 4.
- **Etibar Məmmədov: "20 Yanvarın olmaması mümkün deyildi"** // Ekspress.- 2010.- 20-21 yanvar.- № 11.- S.12.
- **20 Yanvar qəhrəmanlıq günü kimi yaddaşlara yazılmalıdır** // Kaspi.- 2010.- 20-21 yanvar.- № 11.- S.11.
- **Milli azadlıq fədailərinin poetik dünyası** // Xalq qəzeti.- 2010.- 20 yanvar.- № 14.- S.5.
- **Budaqova, Sevinc.** Tariximizin qəhrəmanlıq salnaməsi // Xalq qəzeti.- 2010.- 20 yanvar.- № 14.- S.4.
- **Əbdülsəlimzadə, Qüdrət.** Şəhidlərimizin ruhuna təskinlik gətirək // Xalq qəzeti.- 2010.- 20 yanvar.- № 14.- S.3.
- **Xəlilzadə, Flora.** Müqəddəs məhəbbətin nakam barı // Azərbaycan.- 2010.- 20 yanvar.- № 14.- S.6.
- **Müstəqillik tariximizin şərəfli tarixi** // Azərbaycan.- 2010.- 20 yanvar.- № 14.- S.4.
- **Əliyev, Qafar.** Faciələrimizin ibrət dərsləri // Azərbaycan.- 2010.- 20 yanvar.- № 14.- S.2,5.
- **20 Yanvar — xalqımıza qarşı qanlı cinayət** // Xalq qəzeti.- 2010.- 20 yanvar.- № 14.- S.3.
- **20 yanvar: bəşəri cinayətin pərdəarxası məqamları** // Səs.- 2010.- 20 yanvar.- № 11.- S.13.
- **Günahkarlar Haaqa tribunalına verilməlidir** // Mərkəz.- 2010.- 20 yanvar.- № 11.- S.12.
- **20 Yanvar - xalqın milli mücadilə və müstəqillik simvolu** // Palitra.- 2010.- 19 yanvar.- N.6.- S.5.
- **Bu ağrı həmişə qəlbimizi sızladacaqdır** // Azərbaycan.- 2010.- 19 yanvar.- № 13.- S.8.
- **Prezident Kitabxanası tərəfindən hazırlanmış "Təcavüz. Bakı. 20 Yanvar 1990" elektron nəşrinin təqdimatı olmuşdur** // Azərbaycan.- 2010.- 19 yanvar.- № 13.- S.7.
- **Cəfərzdə, İmran.** 20 Yanvar faciəsinə gedən yol // Azad Azərbaycan.- 2010.- 17 yanvar.- №7.- S.5.
- **Mustafa, Nazim.** 20 Yanvar – Qan yaddaşımız //Xalq qəzeti.- 2010.- 17 yanvar.- ; 12.- S.4-5.

- **Vəliyev, Həmid.** Şəhidlərimiz - iftixar mənbəyimiz // Azərbaycan.- 2010.- 17 yanvar.- № 12.- S.4.
- **20 Yanvar faciəsindən 20 il ötür** // Xalq cəbhəsi. - 2010. – 16-18 yanvar. - № 9. - S. 12.
- **Vəfa, Zeynal.** Vətən övladları şəhidlikləri ilə tarixdə silinməz izlər qoydular // Azərbaycan.- 2010.- 16 yanvar.- N 11.- S.4.
- **Budaqova, Sevinc.** 20 Yanvar - hüzn və şərəf günü // Ayna.- 2010.- 16 yanvar.- N.2.- S.18.
- **20 Yanvar faciəsi xalqımızın azadlıq mübarizəsinin zirvəsidir** // İki sahil.- 2010.- 15 yanvar.- № 8.- S.5.
- **Bədəlov, Əliqismət.** 20 Yanvar faciəsi Azərbaycanın tarixinə həm kədərli hadisə, həm də fədakarlıq və qəhrəmanlıq səhifəsi kimi daxil olmuşdur // Xalq qəzeti.- 2010.- 15 yanvar.- № 10.- S.4.
- **Sağalmaz söz yarası** // Azərbaycan.- 2010.- 15 yanvar. -№ 10. -S.6.
- **Qanlı 20 Yanvar faciəsindən 20 il ötür** // Qarabağ.- 2010.- 15-28 yanvar.- №1.- S.6.
- **Şəhidlik zirvəsi, qəhrəmanlıq tarixi - Qan yaddaşımızda yaşayan tarix** // Vətən səsi.- 2010.- 15 yanvar.- №2.- S.3.
- **20 Yanvar zəfər günü kimi qeyd edilməlidir** // Olaylar.- 2010.- 14 yanvar.- №3.- S.9.
- **20 Yanvar xalqın azadlıq mübarizəsinin qəhrəmanlıq səhifəsidir** // Səs.- 2010.- 14 yanvar.- №7.- S.3.
- **Niyazov, Xalid.** 20 Yanvar - xalqın sınaq günü // Azərbaycan.- 2009.- 14 yanvar.- № 9.- S.6.
- **Xalqımızın istiqlal mübarizəsinin ən şərəfli səhifələri** // Səs.- 2010.- 13 yanvar.- № 6.- S.6
- **Abbasov, İlham.** Xalqımıza qarşı soyqırımı siyasəti // Qanunçuluq.- 2009.- №3.- S.38-41.
- **Cəbrayılova, Aygün.** Tarixə şəhid qanı ilə yazılmış 20 Yanvar faciəsi // Dövlət və din.- 2009.- №1(9).- S.41-45.
- **19 yanvarda televiziyanın enerji bloku niyə partladılmışdı?** // Xalq qəzeti.- 2009.- 24 yanvar.- № 17.- S.4.
- **Əliyev, Qafar. Faciələrimiz rəhbərsizlikdən törəndi //** Azad Azərbaycan.- 2009.- 20, 23 yanvar.- №9, 10.- S. 4,5.
- **Azərbaycan xalqının qəhrəmanlıq salnaməsi //** Azərbaycan.- 2009.- 22 yanvar.- № 15.- S.4.
- **Azərbaycan tarixində qəhrəmanlıq səhifəsi //** Olaylar.- 2009.- 20-21 yanvar.- № 11.- S.4.
- **Bu qisas qiyamətə qalmaz… 20 Yanvar xalqımızın qəhrəmanlıq salnaməsi idi** // Səs.- 2009.- 20 yanvar.- № 11.- S.5.
- **20 Yanvar - Şəhadət məktəbidir** // Xalq Cəbhəsi. - 2009. - 20-21 yanvar. - № 11. - S. 7.
- **Xəlilzadə, Flora. Şərafət günü //** Azərbaycan.- 2009.- 20 yanvar.- № 14.- S.5.
- **Qəhrəmanlıq salnaməsi** // Azərbaycan.- 2009.- 20 yanvar.- № 14.- S.2.
- **21 yanvar 1990-cı il, Moskva. Heydər Əliyev: “Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır”** // Azərbaycan.- 2009.- 20 yanvar.- № 14.- S.2.
- **Milli qürur günü** // Azərbaycan.- 2009.- 20 yanvar.- № 14.- S.1.
- **Bədəlov, Əliqismət.** 20 Yanvar həm hüzn, həm də milli qürur günümüzdür // Xalq qəzeti.- 2009.- 20 yanvar.- № 14.- S.1.
- **Mirzə Xəzərin sensasion açıqlamaları** // Yeni Müsavat. - 2009. - 19 yanvar. - №14. - S. 5.
- **“Məqamı gələndə millətin meydanda olacağına inanıram”** // Yeni Müsavat. - 2009. - 19 yanvar. - № 14. - S. 7.
- **Qarayev, Siyavuş. 20 Yanvar - Azadlığa gedən yolun zirvəsi** // Respublika.- 2009.- 18 yanvar.- №13.- S.3
- **Qara Yanvar** // Azad Azərbaycan.- 2009.- 18 yanvar.- № 8.- S.3.
- **Xalqı diz çökdürmək olmaz!** // Azad Azərbaycan.- 2009.- 18 yanvar.- № 8.- S.3.
- **Nəcəfov, Etibar.** Azərbaycan milli azadlıq hərəkatının xüsusiyyətləri // Azərbaycan.- 2007.- № 5.-S. 29-38.
- **20 YANVAR FACİƏSİ DÜNYA MƏTBUATINDA** // Azərbaycan.- 2007.-20 yanvar.-№ 12. - S. 1.

- **Məmmədov, Nuru.** Tariximizin Qanlı Yanvar faciəsi // Respublika.-2007.-20 yanvar.-№12.-S. 1, 4.
- **Əliyev, Qafar.** Faciələrimiz rəhbərsizlikdən törəyib // Azad Azərbaycan. - 2007. – 17,19,23 yanvar.- № 6,7,8. - S. 4-5.
- **Vaxtı ilə hakimiyyətdə olan qüvvələrin 20 Yanvar faciəsinə tam siyasi-hüquqi qiymət verməməsi xalqa qarşı xəyanət idi** // Azərbaycan. - 2007. – 20 yanvar. - № 12. - S. 2.
- **Tariximizin qanla yazılmış səhifəsi** // Xalq qəzeti. - 2007. – 20 yanvar. - № 12. - S. 4.
- **Qanlı Yanvarın 17-ci ili** // Ədalət. - 2007. – 20 yanvar. - № 9. - S. 4.
- **"20 Yanvar faciəsinin izlərini itirməyə çalışırdılar"** // Xalq cəbhəsi. - 2007. – 20-22 yanvar. - № 9. - S. 11.
- **İmanov, Vahid. 20 Yanvar hadisələri xalqın azadlıq və müstəqillik əzmini daha da gücləndirdi** // Xalq qəzeti. - 2007. – 20 yanvar. - № 12. - S. 1.
- **Əyilməzlik və məğrurluq simvolu** // İki sahil. - 2007. – 20 yanvar. - № 10. - S. 5.
- **20 Yanvar – bir xalqın faciəsi** // Səs. - 2007. – 20 yanvar. - № 9. - S. 15.
- **Bu qan yerdə qalan deyil** // Səs. - 2007. – 20 yanvar. - № 9. - S. 12.
- **İstiqlalının qəhrəmanlıq salnaməsi** // Ədalət. - 2006. – 20 yanvar. - № 10. - S. 6.
- **20 Yanvar faciəsi insanlığa qarsı cinayətdir** // Xalq cəbhəsi.-2006.-20-23 yanvar.-№ 10.- S. 6.
- **Bəşəri cinayət** // Səs. - 2006. – 20 yanvar. - № 10. - S. 8-9.
- **Qanlı Yanvar** // Dirçəliş-XXI əsr.- 2005-2006.- № 94-95.- S. 52-59.
- **Hacıyev, Hacı.** Xalqımız öz qəhrəman övladlarının fədakarlığını yüksək qiymətləndirir // Respublika. - 2005. – 23 yanvar. - № 16. - S. 5.
- **Bu qisas qiyamətə qalmaz!** // Səs. - 2005. – 20 yanvar. - № 13. - S. 2.
- **Baxşəliyev, Ehtiram.** Azərbaycan xalqı xəyanətkarları və təcavüzkarları ittiham edir // Xalq qəzeti. - 2005. – 20 yanvar. - № 15. - S. 6.
- **Əbədi məşəl** // Respublika. - 2005. – 20 yanvar. - № 15. - S. 3.
- **Hacı Qüdrət.** Xalqın qəhrəmanlıq günü // Ədalət. -2005.–20 yanvar.-№ 13.- S. 3.
- **Qəhrəmanlıq salnaməsinin parlaq səhifəsi** // Kaspi. - 2005. – 20-24 yanvar. - № 13. - S. 1-2.
- **Əbdülsəlimzadə, İlqar Qılıcov. 20 Yanvar – tarixin qanlı faciəsi** // Azərbaycan. - 2005. – 20 yanvar. - № 15. - S. 3.
- **Azərbaycan xalqı verdiyi qurbanları heç zaman unutmur, onların xatirəsini daim əziz tutur** // Xalq qəzeti. - 2005. – 20 yanvar. - № 15. - S. 3.
- **20 Yanvara gedən yol** // Azad Azərbaycan. - 2005. – 19 yanvar. - № 10. - S. 5.
- **Tağıyev, Əlikram.** Qanlı Yanvar faciəsinin görünən və görünməyən tərəfləri // Dirçəliş-XXI əsr.-2004-2005.- № 82-83.- S. 115-121.
- **İsmayılov, Füzuli.** 20 Yanvar faciəsi bəşəriyyətə qarşı yönəldilmiş cinayətdir // Dirçəliş-XXI əsr.-2004.- № 71.- S. 33-38
- **Əliyev, Qafar.** Faciələrimiz rəhbərsizlikdən törəndi // Azad Azərbaycan. - 2004. – 20,23,25 yanvar. - № 10, 11, 12. - S. 3.
- **Cəfərzadə, İmran.** 20 Yanvar faciəsinin ibrət dərsləri //Respublika.-2004.- 20 yanvar.- № 15.- S. 10.
- **20 Yanvar xalqımızın azadlıq ruhunu coşdurdu** // Xalq qəzeti.-2004.-20 yanvar.-№15.- S. 7.
- **20 Yanvara gedən yol** // Respublika. - 2004. – 20 yanvar. - № 15. - S. 9.
- **Azərbaycanda bundan sonra qırğın törətmək və ondan sui-istifadə etmək cəhdləri baş tutmayacaqdır** // Azərbaycan. - 2004. – 20 yanvar. - № 15. - S. 6.
- **Azərbaycanı sovet imperiyasından ayıran gecə** // Ədalət. - 2004. – 20 yanvar. - № 11. - S. 4.
- **20 Yanvar faciəsindən 14 il keçir** // Səs. - 2004. – 20 yanvar. - 3 15. - S. 7.
- **Qanlı Yanvar, 1990** // Azərbaycan. - 2003. – 22, 23 yanvar. - № 16, 17. - S. 4-5.
- **20 Yanvar faciəsinin günahkarları: "BÖHRAN QRUPU"** // İki sahil. - 2003. – 19 yanvar. – № 15. - S. 4.

- **20 YANVAR: Tariximizin qanla yazılan şərəf səhifəsi** // İki sahil. - 2003. – 19 yanvar. - № 15. - S. 3.
- **Əsrin faciəsi və onun dərsləri** // "Xalq qəzeti". - 2003. - 19 yanvar. - №15. - S.2.
- **Sadıqov, Bəxtiyar.** Xalq həqiqi rəhbəri ilə qüdrətlidir // Azərbaycan. - 2003. - 19 yanvar. - №15. - S.2-3.
- **20 Yanvar faciəsi ilə bağlı Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutunun məlumatı** // Dirçəliş-XXI əsr.- 2002.- № 47.- S. 61-62.
- **Mustafa, Nazim.** Həm faciə, həm də qəhrəmanlıq salnaməsi // Xalq qəzeti. - 2002. - 20 yanvar. - №16. - S.1-2.
- **Vəfa, Zeynal.** 20 Yanvar faciəsindən 12 il keçdi // Azərbaycan.- 2002.- 20 yanvar. - №16. - S. 3.
- **Milli faciənin ibrət dərsləri** // Respublika.- 2002. - 19 yanvar.- №15. - S.3.
- **Partlayış** // Azərbaycan. - 2001. – 24 yanvar. - № 18. - S. 3-4.
- **20 YANVAR HADİSƏLƏRİNƏ XARİCDƏN BAXIŞ** // Azərbaycan.-2001.-23 yanvar.- № 17.- S. 4..
- **Qanlı Yanvar – 1990** // Azərbaycan. - 2001. – 23, 24 yanvar. - 3 17, 18. - S. 4, 3.
- **Qanlı Yanvar – 1990** // Azərbaycan. - 2001. – 20 yanvar. - № 16. - S. 5.
- **"Moskva mənə də qarmaq atdı"** // Xalq qəzeti.- 2000. – 19 yanvar. - № 13. - S. 2.
- **20 Yanvar Azərbaycan xalqına qarşı törədilən ən ağır cinayətlərdən biridir** // Xalq qəzeti. - 2000. – 7 yanvar. - № 4. - S. 1-2.
- **Mustafa, Nazim.** "Bakıya qoşunların yeridilməsinə mən əmr vermişəm" // Dövran.- 1997.– 9-11 sentyabr. - № 16. - S. 7.
- **Zaman - ədalətli hakim** // Respublika. - 1997.– 18 yanvar. - № 5. - S. 3.
- **Xalq şairi Bəxtiyar Vahabzadə: "Sessiya çağırmaq şəxsi təşəbbüsüm idi"** // Respublika. - 1997. – 18 yanvar. - № 5. - S. 2.
- **Şeyxülislam Hacı Allahşükür Paşazadə: "Mənə hakimiyyəti götürmək təklif olunurdu"** // Respublika. - 1997. – 11 yanvar. - № 3. - S. 3.
- **20 YANVARIN ƏKS-SƏDASI** // Xalq qəzeti. - 1996. – 20 yanvar. - № 14. - S. 2.
- **Tarixin qan yaddaşı** // Azərbaycan. - 1996. – 19 yanvar. - № 13. - S. 1, 3.
- **Bayraqlar sırasında bayrağımız dalğalanırsa** // Azərbaycan.-1996.-18 yanvar.-№ 12.- S. 1-2.
- **MÜDAXİLƏ** // Həyat. - 1992. – 14,15,18 fevral. - № 32,33,34. - S. 1-4.
- **Qırx günün düşüncələri** // Azərbaycan. - 1990. – 2 mart. - № 4. - S. 1, 4.
- **İNSANLIQ HARAYI** // Kommunist. - 1990. – 27 fevral. - № 42 - S. 1-2.
- **Rüstəmxanlı, Sabir. And yerimiz** // Azərbaycan.- 1990.- 24 fevral.- S.1.
- **İtkin düşmüşlər?...** // Kommunist. - 1990. – 3 fevral. - № 22 - S. 1.
- **Şeyxülislam: "Allahın mərhəmətinə bel bağlayıram"** // Azərbaycan gəncləri. - 1990. – 30 yanvar. - № 9 - S. 3.
- **Bakı şəhidlərlə vidalaşır //** Azərbaycan gəncləri. - 1990. – 30 yanvar. - № 9 - S. 2, 4.

## Azadlıq mübarizəsinin 20 Yanvar həqiqətləri

***20 Yanvar Ümumxalq Hüzn Günündə xalqımız respublikamızın ərazi bütövlüyü və müstəqilliyi uğrunda mübarizə qurbanlarını – torpağı qanları ilə vətənləşdirən şəhidlərimizin ölməz xatirəsini dərin hüzn və sonsuz ehtiramla yad etdi. Şəhidlər xiyabanını ziyarət edərək, azadlıq qurbanlarının xatirəsinə ehtiramını bildirən Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadə bildirdi:***

– Çağdaş tariximizə qanlı faciə və şanlı mübarizə səhifəsi kimi yazılmış 20 Yanvar qətliamının 32-ci ildönümünü bu gün dünyanın hər yerində soyadaşlarımız qədirbilənlik duyğuları ilə yanaşı, həm də 1 il 3 ay əvvəl Vətən müharibəsində şəhidlərimizin qanı bahasına qazandığımız tarixi qələbədən doğan öyünc hissləri ilə qeyd edirlər. Şəhidlərimizin mübarizə hədəfi olan müstəqilliyimizə 30 il əvvəl qovuşmuşuq. Ərazi bütövlüyümüzün isə 30 il sonra bərpa edilməsi ilə şəhidlərimizin bu böyük arzusu da gerçəkləşdi. Artıq şəhidlərimizin apardıqları mübarizə tam qələbə ilə başa çatıb, düşmənlərdən onların intiqamı alınıb. Artıq ikinci ildir ki, Vətən qurbanlarının narahat ruhları dinclik tapıb.

20 Yanvar faciəsi Ermənistanın millətçi-separatçı dairələrinin 1988-ci ilin əvvəllərindən Azərbaycana qarşı başladıqları təcavüzkarlıq siyasətinin dərinləşməsi gedişində onlara havadarlıq edən keçmiş SSRİ rəhbərliyinin bu qəsdə qarşı ümummilli cəbhə yaratmış xalqımızı cəzalandırması aksiyası kimi baş versə də, nəticədə, ərazi bütövlüyümüz uğrunda mübarizəni azadlıq hərəkatı müstəvisinə çıxardı. 20 Yanvara gedən 2 illik yolun özü də çətin, mürəkkəb sınaqlarla müşayiət olunmuşdu.

Faciədən əvvəlki aylarda və günlərdə respublikada vəziyyət getdikcə pisləşir, eyni zamanda, xalq açıq-aşkar görürdü ki, Azərbaycanla əlaqəsi çoxdan kəsilmiş, Kremldən Azərbaycana xüsusi diqtə ilə göndərilmiş Ə.Vəzirov hər dəfə erməni millətçilərinə, mərkəzə güzəştə gedirdi. Ona görə Azərbaycan xalqı belə rəhbərdən xilas olmaq, öz sözünü demək üçün ayağa qalxdı. Sovet sistemində isə kommunist ideologiyasına uyğun gəlməyən fikirlər, baxışlar dəstəklənmir, əksinə, çox ciddi təzyiqlərə məruz qalırdı.

O sistemin qurbanları içərisində Azərbaycan xalqının qeyrətli, ziyalı övladları çox olub. Ötən əsrin 50-ci illərinin ortalarında sovet cəmiyyətində hakim partiya söz, fikir azadlığına münasibətini nisbətən yumşaltsa da, bütövlükdə, sistemin dayaqlarını sarsıtmağa yönəldilmiş hər bir tədbirə qarşı amansız mövqe tuturdu. Buna baxmayaraq, SSRİ iqtisadiyyatında mərhələlərlə baş verən uğursuzluqlar, hökumətin tez-tez təkrar olunan və sarsıntılarla müşayiət edilən tədbirləri bu sistem barədə ümidsiz fikirlərin geniş yayılmasına gətirib çıxarır, insanları azadlıq uğrunda mübarizəyə qalxmağa sövq edirdi. XX əsrin 80-ci illərinin axırlarında və 90-cı illərin əvvəllərində isə Azərbaycanda gündən-günə ağırlaşan siyasi, iqtisadi və sosial durum bu proseslərin inkişafı üçün əlverişli şərait yaradırdı, cəmiyyətdə ziyalı sözünə ehtiyac artırdı.

1988-ci ilin əvvəllərində başlayan və mərkəzi hakimiyyət tərəfindən qarşısı alınmayan, əksinə, erməni seperatçıların şirnikləndirilməsi ilə alovlanan Qarabağ münaqişəsi xalqı çox çətin bir imtahanla üzləşdirmişdi. Başda sovet diktatoru M.Qorbaçov olmaqla ittifaq dövləti rəhbərliyinin Azərbaycana ögey münasibəti nəticəsində yaranmış kütləvi inamsızlıq şəraitində təsadüfi adamların ürəyindən xalqa liderlik etmək istəyi keçirdi. Əlbəttə, bu, çox qorxulu bir meyil idi. Xalqa liderlik etmək qabiliyyətinə malik olmayanlar isə ziyalıları yaxına buraxmırdılar. Əlbəttə, ziyalıların da təşəbbüskarlığı yüksək deyildi.

***Müsahibəsinin bu yerində XX əsrin əvvəllərində Azərbaycanda böyük ziyalı ordusu olmasa da, az sayda yurdsevər, təhsili insanın xalq üçün çox əhəmiyyətli, tarixi iş görürdüyünü xatırladan akademik dedi:***

–Təkcə Üzeyir bəy Hacıbəyli Azərbaycan xalqının milli mədəniyyətinin inkişafında nə qədər böyük rol oynamışdır. Əli bəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşov, Məmməd Əmin Rəsulzadə, Fətəli Xan Xoyski, Əhməd bəy Ağayev, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov kimi nəhəng insanlar öz xalqının nicatı naminə ən çətin mübarizədən qorxmayan əsl vətəndaşlar idilər. Qarabağ hadisələri başlananda da ziyalılar xalq hərəkatına qoşulmuşdular və bir sıra taleyüklü məsələlərin müzakirəsində öz sözlərini deyirdilər. Xalqla rəhbərlik arasında dərin uçurumun olduğu şəraitdə onların bəziləri öz mövqelərini müəyyən etməkdə çətinlik çəkirdilər. Müxalifətin radikal mövqedən çıxış edən bəzi nümayəndələri isə onları dəstəkləməyən belə ziyalıları gözdən salır, qaragüruhun qınaq və basqılarına hədəf edirdilər.

Mərkəzin Azərbaycana sərt münasibəti isə dəyişmirdi, bu da respublikada onsuz da ağır olan ictimai-siyasi şəraiti daha da gərginləşdirirdi. Vəziyyətin daha da kəskinləşməsinə yol verməmək üçün xalq arasında nüfuz sahibi olan ziyalılar, Xalq Cəbhəsinin və digər təşkilatların nümayəndələri yaranmış vəziyyətdən çıxış yollarını müəyyən etmək üçün intensiv görüşlər keçirir, danışıqlar aparırdılar. Amma ziyalılar çox böyük narahatlıq keçirirdilər. Azadlıq, müstəqillik sözləri o qədər tez-tez işlənirdi ki, onların öz əhəmiyyətini itirməsi təhlükəsi yaranırdı. Rəhbərlik ilə xalq arasındakı boşluğu doldurmaq istiqamətində konkret addımlar atılmırdı.

Xalq tələb edirdi ki, respublika rəhbərliyi Qarabağ probleminin həllində daha prinsipial mövqe tutsun, onun qayğıları, arzuları ilə yaşasın. Tarixdən məlumdur ki, azadlıq siyasi mədəniyyətin yüksək olduğu şəraitdə daha az itki ilə əldə edilə bilər. Sovet rəhbərliyi çalışırdı ki, müxalifətdən olan radikal qüvvələr hər hansı bir təxribata əl atsınlar ki, onlara qarşı cəza tədbirləri görməyə bəhanə olsun, Qarabağ problemi kölgədə qalsın. Belə bir şəraitdə Ermənistanın silahlı birləşmələri Azərbaycan kəndlərinə basqın edir, dinc əhalini öldürürdü, mərkəz isə səsini çıxarmır, biganəlik göstərirdi.

Moskvada sovet rəhbərliyi gözləyirdi ki, Azərbaycan xalqı qəzəblənsin, hansısa bir hərəkətə əl atsın və bundan istifadə edərək öz gücünü işə salsın. Respublika rəhbərliyi və müxalifətdə olan qüvvələr isə bunu açıq-aşkar görə-görə düşmənə qarşı vahid cəbhədə birləşə bilmədi. Bunlar tarixi faktlardır, o dövrün reallıqlarıdır. O vaxt çoxları başa düşmürdü ki, Moskva Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsinə, sözün əsl mənasında, ziyalıların rəhbərlik etməsini istəmir. Elə ona görə də respublika rəhbərinin əli ilə xalq içərisində böyük nüfuzu olan ziyalıların siyasi meydandan uzaqlaşdırılması üçün bütün vasitələrdən istifadə edirdi.

***1989-cu ilin son aylarında, 1990-cı illərin əvvəllərində respublikamızın hər yerində olduğu kimi, Bakının və onun ətraf kəndlərinin əhalisi də mərkəzin və erməni millətçilərinin xalqımıza qarşı xəyanətkar siyasətinə etiraz əlaməti olaraq küçələrə çıxdığını yada salan deputat Ziyad Səmədzadə daha sonra bildirdi:***

–Adamlar soyuğa, şaxtaya, yuxusuzluğa baxmayaraq, küçələrdə qurduqları maneələrdə (barrikadalarda) növbə çəkərək, sovet qoşunlarının Bakı şəhərinə daxil olmasına yol verməmək üçün bütün vasitələrdən istifadə etməyə hazır idilər. Nə qədər bəsit olsa da, əhali müdhiş haqsızlığa və ədalətsizliyə qarşı mübarizə üçün özünün bacardığı bu yolu seçmişdi. Qəzəblənmiş xalq əsarətdə olduğunu bir daha anlayır, azadlığa çıxmaq, Vətən torpağını müdafiə etmək üçün hər cür əzaba dözməyə hazır idi.

Əlbəttə, ayrı-ayrı radikal qüvvələr əhalinin sadəlövhlüyündən istifadə edib, onu ordunun, tankların, zirehli maşınların qabağına çıxarmaqda xüsusi məqsəd güdürdülər. Hətta müxtəlif yerlərdə əhaliyə silah paylanacağı da vəd edilmişdi. Hadisələrin gedişindən hiss edilirdi ki, dinc əhaliyə qarşı SSRİ dövlətinin rəhbərliyi səviyyəsində qabaqcadan təxribatlar hazırlanmışdır. Vəziyyətin getdikcə belə gərginləşdiyi günlərdə Sov. İKP MK-nın yüksək vəzifəli nümayəndələrinin əhali ilə görüşlərində, habelə kütləvi informasiya vasitələri ilə verilən məlumatlarda bildirilirdi ki, Bakıya qoşunlar daxil olmayacaq.

Əslində isə vəziyyət başqa cür idi. Bakıda fövqəladə vəziyyətin elan olunacağı və qadağa saatının qoyulacağı vaxt xalqdan gizlədilir, şəhərə qəfil hücum hazırlanırdı. Qoşunların Bakıya yeridilməsinə bir neçə gün qalmış hərbi komandanlıq Bakı şəhərindən hərbi qulluqçuların ailələrini SSRİ-nin müxtəlif regionlarına köçürməyə başlamışdı. Bu faktı onunla izah edilirdi ki, guya, həmin tədbir Bakıda ekstremist qüvvələrin basqınlarının qarşısını almaq üçün həyata keçirilir. Bu, ağ yalan idi. Reallıq sübut edirdi ki, o dövrdə Bakıda, eləcə də digər rayonlarda rusdilli əhalinin təhlükəsizliyi üçün heç bir qorxu yox idi.

1990-cı il yanvar ayının 19-da saat 19:27-də Azərbaycan Televiziyasının enerji bloku partladılmaqla canlı teleradio yayımı sıradan çıxarıldı. Bir neçə saat sonra Bakının hər yerindən güclü atəş səsləri gəlməyə başladı. Hamı həyəcan içərisindəydi. Sovet qoşunları hər tərəfdən şəhərə soxulurdu. Küçələrdə qan su yerinə axırdı. 40 min nəfərlik ordu əliyalın əhaliyə divan tuturdu. Gözyaşardıcı qaz tətbiq edilir, dinc əhaliyə atəş açılırdı. Əsgərlər hərbi maşınlardakı projektorlardan istifadə edərək qaranlıq yerlərdə atəşdən gizlənənləri, hətta təcili yardım maşınlarını gülləyə tuturdular.

Mərkəz əmin idi ki, Bakıda xalq susdurulsa, bütün respublikada sakitlik təmin ediləcək, beləliklə də SSRİ-nin Qafqazda qlobal mənafeləri tam müdafiə ediləcəkdir. Ancaq bu, yanlış fikir idi. Buna görə də bədnam sovet rəhbəri Mixail Qorbaçov Bakıda qanlı qırğın törətməkdən çəkinmədi. Əvvəla, Azərbaycan Respublikasının Konstitusiyası tapdalandı. Eyni zamanda, Helsinki Yekun Aktını və Vyana müqaviləsini imzalamış SSRİ dövlətinin zora arxalanan rəhbərıiyi dinc əhaliyə qarşı görünməmiş bir cinayət törətdi.

Lakin 1990-cı il yanvarın 20-də xalqımıza qarşı törədilən faciə Azərbaycan xalqını, Bakı əhalisini daha sıx birləşdirdi. O günlər minlərlə gənc Bakının komendantı Dubinyakın, digər sovet zabitlərinin təhdidlərinə, təhqirlərinə, şaxtaya, yorğunluğa baxmayaraq, iki gün ərzində hava qaralana kimi Dağüstü parkda məzarlar qazdılar, müstəsna bir cəsarət və fədakarlıq göstərdilər. Həmin dövrdə Buzovna, Mərdəkan, Bilgəh, Maştağa, Şüvəlan, Şağan, Qala, Pirşağı, Nardaran, Kürdəxanı, Binə, Binəqədi və başqa qəsəbə və kəndlərin əhalisi Bakını qırmızı qərənfillərə qərq etmişdi. Milyonlarca qərənfil şəhidlərimizin müqəddəs ruhu qarşısında torpağa baş əymişdi.

Dünyada, yəqin, az xalq tapılar ki, ağır zəhmət hesabına becərdiyi hər hansı məhsuldan, əldə edəcəyi böyük miqdarda gəlirdən könüllü imtina etsin, xalqımızın azadlığı uğrunda şəhid olmuş övladlarının məzarı üzərinə bu qədər gül səpsin. O günlərdə mən al qərənfillər içərisində alışıb-yanan Bakıya baxdıqca Bakı kəndlərinin öz sadəliyi ilə seçilən, son tikəsini belə öz xalqı, dostları ilə bölməyə hazır olan əliqabarlı, alnıaçıq

əhalisinə qarşı dərin minnətdarlıq hissi keçirirdim. Bu ənənə bu gün də davam edir və yəqin ki, əsrlər boyu davam edəcəkdir. Belə xalqa, belə camaata eşq olsun.

***Daha bir önəmli tarixi amilə– Bakının son 2 əsrdə Azərbaycanda baş verən hadisələrdə, xüsusən xalqımızın azadlıq hərəkatında, yadellilərə qarşı aparılan mübarizədə aparıcı rol oynadığına diqqət yetirən müsahibimiz söylədi:***

–Hələ XIX əsrin əvvəllərində çar Rusiyası Azərbaycana öz işğalçı qoşunlarını göndərərkən, ilk növbədə, Bakını tutmağı planlaşdırmışdı. Bakının strateji mövqeyi, burada neft yataqlarının mövcudluğu onu Rusiyanın işğalçılıq siyasətinin mühüm hədəfinə çevirmişdi, – Gəncə, Şəki və Qarabağ işğal edildikdən sonra Bakı xanlığı üzərinə yürüş məhz belə bir məqsədlə həyata keçirilmişdi. Lakin rus generalı Bakını işğal edə bilmədi. O, İçərişəhərin qoşa qala qapılarının açarını təhvil aldığı yerdə Bakı xanı Hüseynqulu xanın əmisi uşaqları rus generalını öldürüb başını kəsdilər. Qoca tarix dönə-dönə sübut edir ki, Azərbaycanı qəsb etmək niyyətinə düşənlər nə qədər çox olsa da, arzusu gözündə qalanlar ondan da çox olub.

1990-cı il yanvarın 22-də Azərbaycan Ali Sovetinin sessiyası çağırılmışdı. Hamımız böyük həyəcan içində idik və sessiyanın açılmasını səbirsizliklə gözləyirdik. Ali Sovetin Rəyasət Heyətinin sədri Elmira Qafarova sessiyanı açıq elan etdikdən sonra deputatlar 1990-cı il yanvarın 19–21-də Bakıda faciəli surətdə həlak olanların xatirəsini 1 dəqiqəlik sükutla yad etdilər. Gündəliyə aşağıdakı məsələlər daxil edildi: 1. Sessiyanın işinin səlahiyyətliliyi barədə; 2. SSRİ Daxili İşlər Nazirliyinin daxili qoşunları, Müdafiə Nazirliyinin və Dövlət Təhlükəsizliyi Komitəsinin hərbi hissələri tərəfindən dinc əhaliyə qarşı 1990-cı il yanvarın 10-dan başlanmış qanunsuz hərəkətlər barədə; 3. Bakıya qoşunların daxil olması ilə əlaqədar faciəli hadisələrin səbəblərini tədqiq etmək üçün deputat komissiyasının yaradılması barədə; 4. SSRİ xalqlarına, dünyanın bütün xalqlarına, parlamentlərinə müraciət barədə; 5. SSRİ Ali Soveti Rəyasət Heyətinin Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərmanının qüvvəsinin dayandırılması və şəhərdən qoşunların dərhal çıxarılması barədə.

Çox təəssüf ki, fövqəladə sessiyanın qəbul etdiyi qərarlar reallaşmadı, Mərkəzi Komitənin nə yanvar, nə mart, nə də iyun plenumlarında bunlara əhəmiyyət verilmədi. Yalnız ümummilli lider Heydər Əliyev 1993-cü ilin yayında Azərbaycanın yenicə qazanılmış dövlət müstəqilliyi itirilmək təhlükəsi ilə üzləşəndə xalqın tələbi ilə hakimiyyətə qayıdandan az sonra 20 Yanvar faciəsinə həqiqi siyasi və hüquqi qiymət verildi. Ulu öndərin səyləri ilə 20 Yanvar faciəsinin xalqımızın mübarizə tarixindəki yeri və rolu düzgün əksini tapdı.

Təkcə öz vətəndaşına edilmiş qəsd deyil, həm də bəşəriyyətə qarşı törədilmiş amansız cinayət olan 20 Yanvar qırğını qanlı sovet imperiyasının 70 illik mövcudluğunu bundan sonra qoruyub saxlaya bilmədi. Bakı qətliamı bu superdövlətin suqutunu tezləşdirdi və 2 il sonra onun tarixin arxivinə köçməsi ilə nəticələndi.

***Akademik Ziyad Səmədzadə 20 Yanvarın tarixi həqiqətləri ilə bağlı açıqlamasını bir sözlərlə tamamladı:***

–1990-cı ilin 20 Yanvar tarixi Azərbaycan üçün həm də böyük imtahan idi. Bakı qırğınını xalqımızın Azadlıq mübarizəsinə start verdi və 2 il keçməmiş öz müstəqilliyini qazanmaqla şəhidlərin bu böyük arzusu gerçəkləşmiş oldu. Azərbaycan xalqı bununla bir daha sübut etdi ki, öz azadlığı uğrunda mübarizə aparmağı bacarır və heç bir məhrumiyyət onu bu yoldan döndərə bilməz.

Xalqımızın 2020-ci ilin payızında Vətən müharibəsində Qarabağın azad edilməsi uğrunda apardığı ölüm-dirim döyüşlərdə 20 Yanvar faciəsinin birbaşa baiskarı olmuş təcavüzkar Ermənistanı ağır məğlubiyyətə uğraytması, 33 il ərzində torpaqlarımızda bir çox faciələr törətmiş erməni silahlı quldur dəstələrinin darmadağın etməsi ilə işğal altında olan ərazilərimiz azad edildi, bununla şəhidlərimizin intiqamı da alındı.

***Hazırladı: Tahir AYDINOĞLU***

**Xalq qəzeti.** - 2022.- 22 yanvar. - № 14. - S. 8.

## Milli mücadilə və azadlıq istəyimizin oyanış günü

**Jalə ƏLİYEVA,**
Milli Məclisin Ailə, qadın, uşaq məsələləri komitəsi sədrinin müavini, professor

**Bizi o faciəli günlərdən 32 il ayırır. Azərbaycan xalqının böyük oğlu, ulu öndər Heydər Əliyevin dediyi kimi, həmin hadisənin tariximizdə tutduğu yeri zaman keçdikcə daha aydın dərk edirik. 20 Yanvar çox haqlı olaraq, Azərbaycan tarixinin qanlı və şanlı səhifəsi adlandırı-lır. Bu hadisələr canlı şahidlərin yaddaşında silinməz iz buraxıb. Aradan illər keçməsinə baxma-yaraq, hər şey göz önündən, sanki, kino lenti kimi gəlib keçir: təlatümlü Bakı, gecənin qaranlığında "işıq saçan" güllələr, tankların və zirehli maşınların uğultusu, küçələrə səpələnmiş cəsədlər, yaralılarla dolu xəstəxana palataları...**

20 Yanvar faciəsinə bir günün, yaxud bir ayın ərzində baş verən hadisə kimi baxmaq olmaz. O, öz başlanğıcını 1980-ci illərin son-larında Azərbaycanın ozamankı Dağlıq Qarabağ bölgəsində cərəyan edən hadisələrdən götürmüşdü. Rəsmi Moskva tərəfindən erməni separatizminə rəvac və dəstək verilməsi, respublika rəhbərliyinin səriştəsizliyi, mütiliyi və mil-li mənafeyə zidd mövqeyi xalqı hiddətləndirmiş, güclü etiraz dal-ğası doğurmuşdu. Böyüklü-kiçikli hamı küçə və meydanlara axışırdı. Mitinqçilərin sıraları günbəgün genişlənir, paytaxtın baş meyda-nında xalqın azadlıq və müstəqillik istəyini əks etdirən şüar və plakatlar görünməyə başlayırdı. Beləliklə, əldən gedən torpaq uğrunda mübarizə tədricən ümumxalq hərəkatına çevrilirdi.

Elə bu zaman imperiya rəhbərliyi fasiləsiz mitinqləri dağıtmaq, xalq hərəkatını yatırtmaq üçün hərəkətə keçdi. Paytaxt küçələrində tank-lar və sovet əsgərləri görünməyə başladı. Lakin xalq yenə meydan-dan çəkilmədi. Vəziyyəti belə görən mərkəzi rəhbərlik 1988-ci il dekabrın 4-dən 5-nə keçən gecə mitinqləri zor gücünə dağıtmaq əmri verdi. Bakının mərkəzi meydanına hərbi qüvvələr yeridildi, insanlar zindanlara atıldı.

Həmin vaxtlar Ermənistanda bir nəfər də azərbaycanlı qalmadığı halda, Bakıda ermənilər yaşamaqda davam edir və bu da milli zəmində təxribatlara şərait yaradırdı. Digər tərəfdən, ölkədə hakimiyyət böhranı özünün pik həddinə çatmaqda idi. Azərbaycanı cəzalandırmağı qarşı-sına məqsəd qoyanlar buna zəmin hazırlayır, Bakı 20 Yanvara addım-addım yaxınlaşırdı...

1990-cı ilin 20 yanvarı, gecə saat 24.00. Sovet ordusunun təpədən-dırnağadək silahlanmış birləşmələri beş istiqamətdən patyaxtımıza daxil oldular. Küçələrdə şütüyən tanklar və zirehli maşınlar "barrikadaları" dağıdıb keçir, əsgərlər dinc əhaliyə atəş açır, heç kəsə aman vermirdilər. Hətta təcili tibbi yardım maşınları, evlər gülləyə tutulurdu. Həmin gecə ən böyük qırğın indiki "20 Yanvar" dairəsi ərazisində törədildi.

Yanvarın 20-də səhər hava işıqlaşar-işıqlaşmaz küçələrə axışan Bakı sakinləri "20 Yanvar" dairəsində və ona yaxın yerlərdə dəhşətli mənzərələrlə qarşılaşdılar. Tankla-rın əzib keçdiyi avtobuslar, yük və minik avtomobilləri, qar üzərindəki qan izləri ağır faciədən xəbər verirdi. Şəhərin mərkəzi küçə və meydan-ları tanklarla, avtomatlı hərbçilərlə dövrəyə alınmışdı...

20 Yanvar faciəsi miqyasına, xarakterinə və mahiyyətinə görə keç-miş SSRİ rəhbərliyinin İkinci Dünya müharibəsindən sonra ölkə daxilində törətdiyi misli görünməmiş bir cinayət idi. Bu hadisələrdən bir müddət sonra – 1990-cı ilin noyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında çıxış edən ulu öndər faciə barədə danışarkən deyirdi: "Mən belə hesab edirəm ki, 19-20 yanvarda baş vermiş bu faciə həm Sovet İttifa-qının siyasi rəhbərliyinin, şəxsən Qor-baçovun böyük günahının nəticəsidir, onun diktatorluq meyillərindən əmələ gəlmiş bir haldır və eyni zamanda, Azərbaycan rəhbərlərinin xalqa xəyanəti və cinayətinin nəticəsidir. Mən belə fikirdəyəm ki, Böyük Vətən müharibəsi qurtarandan sonra Sovetlər İttifaqında, ölkənin daxilində - heç bir yerdə, heç bir regionda bu qədər, bu miqyasda qanlı qırğın olmamışdır... Bunun nə qədər böyük miqyasda olmağını onunla da ölçmək olar ki, bu hərbi aksiyanın həyata keçirilməsi üçün SSRİ müdafiə naziri Yazov, daxili işlər naziri Bakatin vax-tından əvvəl gəlib Bakıda oturub, bu əməliyyatlara rəhbərlik ediblər".

Hər bir xalqın tarixində həm faciəli məqamlar, həm də qəhrəmanlıq səhifələri olur. Lakin çox nadir hallarda bu iki məqam üst-üstə düşür. 20 Yanvar Azərbaycan tarixinin məhz belə səhifəsidir. Xalq həmin gün ağır imtahana çəkildi və bu sınaqdan şərəflə çıxdı. Faciə in-sanları birləşdirdi, xalqı bütövləşdirdi. Xalq öz şəhidlərini son mənzilə çiyinlər üstündə apardı, görünməmiş izdihamla yola saldl. Ona tuşlanmış top-tüfəngə məhəl qoymadı, bir addımlığındakı təhlükədən qorxub çəkinmədi.

20 Yanvar Azərbaycan tarixində təkcə faciə deyil, Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, mil-li məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Bu, uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqın

azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir. Bu tarix həm də kimin kim olduğunu sübut edən növbəti imtahan idi.

Xalq o günlərdə böyük bir həqiqəti – meydanda həqiqi liderin olmadığını da bütün mahiyyəti ilə dərk etdi. O müdhiş günlərdə Heydər Əliyevin – qüdrətli liderin respublika-da yoxluğu günün ən böyük həqiqəti kimi dərk olundu. Amma Bakıda olmamasına baxmayaraq, xalqının səsinə hər kəsdən əvvəl səs verən də elə Heydər Əliyev oldu. Ümum-milli liderimiz Moskvada xüsusi nəzarət altında ola-ola, özünün və ailə üzvlərinin həyatını açıq təhlükə qarşısında qoyaraq, hadisələrdən dərhal sonra, 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəldi. Ulu öndər təcavüzə qəti etirazını bildirdi, faciəni törədənləri, şəxsən Mixail Qorba-çovu kəskin ittiham etdi, qoşunların Bakıdan çıxarılmasını tələb etdi. Xalqımızın ümummilli liderinin 1990-cı il 21 yanvar tarixli bəyanatı həm də faciəyə verilən ilk siyasi qiymət idi – özü də imperiyanın mərkəzində –Moskvada...

Ulu öndər Heydər Əliyev ölkədə siyasi hakimiyyətə qayıtdıqdan sonra bu məsələ yenidən gündəmə gəldi, 20 Yanvar hadisələrini lazımınca qiymətləndirmək yolunda ciddi ad-dımlar atıldı... “20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında” Azərbaycan Respubli-kası Prezidenti Heydər Əliyevin 5 yanvar 1994-cü il tarixli fərmanı ilə Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olundu. Milli Məclisdə müzakirələrin yekunu olaraq 1994-cü il martın 29-da “1990-cı il yanva-rın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında” qərar qəbul edildi. Qərarda, 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildi.

Ötən müddət ərzində ulu öndər Heydər Əliyevin daxili və xarici siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev 20 Yan-var faciəsində qətlə yetirilənlərin, müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinin dövlət səviyyəsində həllini mühüm vəzifələrdən biri kimi qarşıya qoyub.

Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin fədakarlığını, Vətən qarşısındakı xidmətlərini yüksək qiymətləndirərək deyir: “Azadlıq, müstəqillik uğrunda, Vətən uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olub. Bu da heç vaxt yaddan çıxarılmamalıdır”.

Bəli, Prezident İlham Əliyevin çox doğru olaraq söylədiyi kimi, müstəqil, qüdrətli Azərbaycan Respublikası xalqımızın böyük sərvətidir və o, 90-cı illərin Azərbaycanı deyil. Bugünkü müasir, qalib Azərbaycan, torpaqları-na sahib çıxmağı bacaran bir xalqın böyük Vətəni, cənubi Qafqazın və dünyanın parlayan ulduzudur. Bu gün Azərbaycanın üçrəngli bayrağı böyük Vətənimizin hər yerində dalğa-lanır. Biz azad, müstəqil qalib, bütöv, qarabağlı olmağın qürurunu və sevincini yaşadan xilaskar Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevə, güclü ordumuza, qəhrəman xalqımıza sonsuz minnətdarıq. Bu günlərə gəlməyimiz uğrunda, torpaq uğrunda canından keçən bütün şəhidlərimizin ruhu qarşısında baş əyirik. Tanrı ordumuzu, xalqımı-zı, Prezidentimizi qorusun! Allah şəhidlərimizə rəhmət etsin!

Xalq qəzeti. - 2022.- 22 yanvar. - № 14. - S. 10.

**Müqəddəs məkan**

***Şəhidlər xiyabanını ziyarət edənlər həm də Zəfərdən doğan qürur hissi keçirirdilər***

**Rəhman SALMANLI,**
**Məhəmməd NƏRİMANOĞLU**

Şəhidlər xiyabanı! 32 ildən artıqdır ki, ziyarət edilən bu müqəddəs məkanın adı dillər əzbəridir. Azərbaycan Respublikasının üçrəngli bayrağı bu zirvədə əzəmətlə dalğalanır.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə ucaldılan "Şəhidlər" Abidə Kompleksi xiyabanın rəsmi simvoludur. Qızılla süslənmiş bu abidə kompleksi xiyabanın ümumi kompozisiyasının kulminasiyası sayılır.

Köhnə Dağüstü parkın yerində ucalan memorial abidə yenə də uşaqlı-böyüklü hər kəsin baş əydiyi məbədə çevrilib. Səhidlər xiyabanının al-qırmızı qərənfillərə bürünməsi də məhz qəhrəmanlıq tariximizin şərəfinədir.

Xalqımızın and yerinə çevrilmiş bu müqəddəs məkanda 158 nəfər dəfn edilib. Xiyabanda həm də 256 Qarabağ, 38 nəfər isə Daxili Qoşunların şəhidi uyuyur. 1992-ci il yanvarın 25-26-da baş verən məlum "Daşaltı əməliyyatı"nda şəhid olan 70 döyüşçümüzün də şərəfinə xiyabanda abidə qoyulub.

Şəhidlər xiyabanındakı abidələrdən biri də 1918-ci ildə Bakını işğaldan azad edərkən şəhid olan türk əsgərlərinə ucaldılan anıtdır. Azərbaycan və Türkiyə bayraqları əziz şəhidlərimizin ruhu naminə daim burada qoşa dalğalanır.

Xiyabanda Azərbaycanın cəsur oğlu, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun da büstü ucalır...

**Milli mücadilə, sevgi, sədaqət rəmzi**

20 Yanvar 1990-cı ildən dövlət xadimləri, xarici qonaqlar, ailələr, ictimai təşkilat təmsilçiləri, eləcə də ali və orta ixtisas məktəblərinin şagird və tələbələri, əmək kollektivləri xiyabanı ziyarət edirlər. Bu, ilk növbədə, Vətənin azadlığı uğrunda şəhid olanların heç zaman unudulmayacağını təsdiqləyir.

Şəhidlər xiyabanındakı ilk qarşılaşdığımız məzar İlham və Fərizəyə aiddir. Bu iki Azərbaycan gənci həm milli mücadilə, həm də sevgi, sədaqət rəmzidir! 20 Yanvar gecəsi İlham sovet ordusu pərdəsi altında Bakını işğal etməyə tələsən, əsasən də ermənilərdən ibarət sovet silahlı dəstələrinin od saçan gülləsinə tuş gəlib şəhid olduqdan sonra Fərizə bu ayrılığa dözə bilməyib və "İlhamsız yaşamaqdansa, ölmək yaxşıdır", - deyərək intihar edib! XX əsrin Leyli və Məcnunu, Fərhad və Şirini, Tahir və Zöhrəsi kimi sevilən və daim yad edilən İlhamla Fərizə haqqında dastan isə artıq dillər əzbəridir.

Hüzn günü Şəhidlər xiyabanına gələn ziyarətçilərin arasında kimlər yoxdur ki?! Bağçadan uşaqlar, ali və orta məktəblərdən isə professor-müəllim heyəti və gənclər üz tutub xiyabana. Hər il Bakı 20 Yanvarı bax beləcə qarşılayır: yer-göy də xiyabana sanki öz qar-boranı, tufanı ilə baş əyir. Amma belə soyuq-şaxtalı hava ziyartçilərin qəlbindəki Vətən sevgisinin yaratdığı odu söndürə bilmir. Ona görə ki, hər kəs xiyabanı ziyarət etməyi özünə borc bilir.

Ənənə bu il də davam etdirilir. Ziyarətçilərin arasında kollektivlə gələnlər diqqəti daha çox cəlb edir. Azərbaycan Texniki Universitetinin nəzdində fəaliyyət göstərən Bakı Dövlət Rabitə və Nəqliyyat Kollecinin əməkdaşlarından Şahmurad Məmmədov, Aygün Musayeva, Oqtay Salayev, Vidadi Əliyev, Məlahət Məlikova və başqaları ziyarətçilərin arasındadırlar. Kollecin müəllimləri deyirlər ki, 20 Yanvar xalqımızın tarixində ən şərəfli səhifələrdən biridir: "...Əliyalın xalqımız məhz o gün topların, tankların qabağına çıxmaqla öz mərdliyini, cəsarətini, imperiyaya qarşı mübarizliyini bir daha sübut etdi. 20 Yanvar xalqımızın müstəqillik savaşında mühüm əhəmiyyətə malik bir gündür. Kollektivimiz 20 Yanvar dairəsindəki abidə kompleksini ziyarət edib, üzərinə əklil qoyub. Builki ziyarətimiz tamamilə fərqlidir. Baxın, insanların simasında bir qürur duyulur. Çünki 30 ilə yaxın müddət idi ki, xalqımız Qarabağın həsrəti və onun azad edilməsi diləyi ilə bu müqəddəs məkanı ziyarət edirdi. Ötən ildən ziyarətçilərimizin simasında bir qalibiyyət hissi - qürur duyulur. Demək, şəhidlərimizin ruhu da şaddır..."

**Qanlı şənbə günü yaralılara can verənlərimiz**

"...Azadlıq aşiqləri o zaman sübut etdi ki, bizi müstəqillik yolundan heç bir imperiya, hər hansı qüvvə döndərə bilməz. Bugünkü müstəqilliyimizə görə biz, ilk növbədə, 20 Yanvar şəhidlərinə borcluyuq. Əlbəttə, dövlətimiz burada üzərinə düşən hər şeyi edir: xiyabanın abadlığı, şəhidlərimizin adlarının əbədiləşdirilməsi, ailələrinə qayğı, onların sosial müdafiəsinin gücləndirilməsi kimi mühüm tədbirlər görülüb..."

Bu fikirləri söyləyən Respublika Dəri-Zöhrəvi Mərkəzinin əməkdaşları Müşfiq Zeynalov, Sevil Yusifova, Nuridə Almasova, Şəhla və Sevda Əliyevalar, Nəzakət Cəfərova, Sədaqət Quliyeva, Müseyib Əliyev onu da əlavə etdilər ki, hər il bir qayda olaraq xalqımızın and yerini - azadlıq uğrunda canlarından keçən şəhidlərimizin müqəddəs məzarlarını ziyarət edirlər. Axı, qanlı şənbə gecəsində amansız, odsaçan güllələrə sinəsini gərən, gecə sabaha kimi isə şam işığında yaralılara yardım edənlər həkim dostlarımız idilər. Təcili yardım maşınları güllə-baran ediləndə şəhidlik zirvəsinə ucalan həkimlərimiz də oldu...

Uzun müddət hüquq sahəsində dövlətçiliyə sədaqətlə xidmət göstərmiş, hazırda təqaüddə olan Bakı şəhər sakini İlham Məmmədov da ailəsi ilə birlikdə xiyabanı ziyarət etməyə tələsir: "Müqəddəs and yerinə çevrilən Şəhidlər xiyabanına 32 ildir yaşından, dini mənsubiyyətindən, sosial mənşəyindən asılı olmayaraq, nəinki Azərbaycan vətəndaşları gəlir, ümumiyyətlə, paytaxtın əcnəbi qonaqları, yaxın-uzaq ellərdə yaşayan soydaşlarımız da Vətənin azadlığı və müstəqilliyi uğrunda canlarından keçənləri burada doğmaları kimi yad edir, ruhlarına dualar oxuyurlar. Biz də illərdir ki, ailəliklə bu müqəddəs məkanı ziyarət edirik, axı onlar Vətənimizin azadlığı uğrunda canlarından keçiblər. Bizim də borcumuz onları yeni nəsillərə tanıtmaq və sevdirməkdir".

Ziyarətə gələn Quba Rayon Yeni İctimai Nəzarət Təşkilatının üzvü Könül Hacıyeva isə fikirlərini belə ifadə etdi: "20 Yanvar Azərbaycanı müstəqilliyə aparan yolun başlanğıcı olub. Ölkədə milli azadlıq hərəkatını boğmaq məqsədilə sovet rəhbərliyi tərəfindən Bakıya yeridilən canlı qüvvə və ağır hərbi texnika dinc əhalini amansızcasına atəşə tutub. Yüzlərlə insan şəhid olub və yaralanıb. Sovet ordusunun tərkibində paytaxta soxulan erməni quldur dəstələrinin törətdiyi həmin vəhşiliklər insanlıqdan çox-çox uzaq idi. 20 Yanvarın davamı olaraq sonralar respublikamızın hər tərəfinə Ermənistan tərəfindən havadarlarının dəstəyi və yardımları ilə genişmiqyaslı hərbi təcavüz edilmədimi?! Bir sözlə, qanlı 20 Yanvar xalqımıza dostu və düşmənini yaxından tanıtdı..."

Gəncədən gələn müəllim Saday Bağırovun da fikirləri Vətənə, xalqa sədaqətli xidmət, xəyanətkar düşmənə nifrətlə yoğrulmuşdu: "Böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar imperiyanın cinayətkar rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, öz azadlığına, müstəqilliyinə can atan xalqımızın mübarizliyini, əyilməzliyini, məğrurluğunu nümayiş etdirdi. Məhz bunun nəticəsində uzun illərdən bəri arzusunda olduğumuz müstəqilliyə qovuşduq və ölkəmiz suverenliyini bərpa etdi. 44 günlük Vətən müharibəsində də düşmən üstümüzə tankla-topla, hətta raketlə gəldi. Gəncə, Tərtər, Bərdə raket atəşinə məruz qaldı, ölən və yaralananlar olsa da, düşmənə baş əymədik. Qələbəmizlə düşməni məğlub etdik. Xalqımızın, ordumuzun, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birliyinin yaratdığı "dəmir yumruq"la Zəfərlə nətisələndi! Bu, əslində, 20 Yanvarda göstərdiyimiz həmrəylik idi".

**Gözüyaşlı qərənfildən nəğməli xarıbülbülədək...**

Ziyarətə gələnlər arasında xiyabanın yaşıdları da az deyildi: 32 yaş gəncliyin odlu-alovlu, hisslərin və duyğuların baş alıb getdiyi dövrdür. Bu yaşda olanlarda vətənpərvərlik daha çox hiss olunur. Xiyabanı ziyarət edən tələbə-gənclər bu il daha çox idi. BDU-nun tələbələrindən Cəmilə Nəcəfzadəni, Banuçiçək Əliyevanı, Ramin, Bəhram Bəylərov qardaşlarını, ibtidai sinif müəllimi Aynurə Nəcəfovanı, Qarabağ qazisi Elçin Əliyevlə qardaşı, Dənizçilik Akademiyasının məzunu Emin Əliyevi, ataları - Birinci Qarabağ müharibəsinin iştirakçısı Müzəffər Əliyevi və digərlərini bu müqəddəs məkana gətirən bir gecədə torpaq üzərinə qanları ilə "Azadlıq" yazan şəhidlərin məzarlarını ziyarət etmək və amallarına sadiq qalacaqlarını təsdiqləməkdir.

Yeni Azərbaycan Partiyası Gənclər Birliyi fəallarından, Aşıq Şəmşir Mədəniyyət Ocağı İctimai Birliyinin əməkdaşı Samir Mustafayev bildirdi ki, Azərbaycan gəncliyi qəhrəman şəhidlərimizlə fəxr edir: "Ümummilli Lider Heydər Əliyevin vaxtilə söylədiyi dəyərli fikirlər bir daha yada düşür: "20 Yanvar faciəsində həlak olanlar xalq qəhrəmanlarıdır, onlar millətimizin qəhrəmanlarıdır. Onların həlak olması bizim üçün, xalqımız üçün böyük itkidir. Ancaq eyni zamanda onların şəhid olması xalqımızın qəhrəmanlıq rəmzidir. O gecə tökülən qanlar Azərbaycanın müstəqilliyini nümayiş etdirən milli bayrağımızın üstündəki qandır".

...Şəhidlər xiyabanı qərənfil libasına bürünərək, növbəti 32-ci anım günündə ziyarətçilərini qürurla qarşılayır. Axı illərin arzuları gerçəkləşib! Şəhidlərimizin qanı yerdə qalmayıb: Qarabağımız azaddır!

**Azərbaycan.**- . - 2022.- 22 yanvar. - № 14. - S. 1,4.

## Azadlıq hərəkatının zirvəsi - 20 Yanvar

**İnam Hacıyev**

Ötən əsrin sonlarında Azərbaycan xalqının müstəqillik, suverenlik arzusu, niyyəti və bu istiqamətdə siyasi oyanışı o dövrdə Sovet hökumətini, daha doğrusu, 70 il hökm sürən imperiyanı ciddi narahat edirdi və xalqımızın bu arzusunu boğmaq üçün ən qəddar əmələ, cinayət əməlinə, soyqırıma, qırğına əl atıldı, Bakıya qoşun göndərildi və 1990-cı il 20 yanvar tarixində paytaxtda qan su yerinə axıdıldı. Əliyalın vətəndaşlarımız Sovet tanklarının, döyüş texnikalarının və silahlı hərbçilərin qarşısını kəsdi, öz iradəsini göstərdi, xalqımızın igid, vətənpərvər övladları müstəqillik, suverenlik əzmini qırmağın mümkünsüz olduğunu canı, qanı bahasına təsdiq etdi. Bu baxımdan, Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş qanlı 20 Yanvar faciəsi, eyni zamanda xalqımızın əzmkarlığını, vətənpərvərlik hissinin qüdrətini göstərən və yaşadan zəfər salnaməsidir.

Azərbaycan paytaxtına qoşun yeritsələr də, silahsız insanların üzərinə tanklarla, hərbi texnika ilə yerisələr də vətəndaşlarımızı qorxuda, xalqımızın mübarizlik ruhunu qıra bilmədilər və gördülər ki, bu xalq vətən uğrunda canından keçməyə hazırdır. Dərk etdilər ki, bu xalq qəhrəman xalqdır, mübarizdir və haqlarını tapdalamağa kimsələrə imkan verməz, eləcə də öz müqəddəratını həll etmək, vətənini, onun müstəqilliyini qorumaq əzmindədir. Bununla bütün dünya belə əmin oldu ki, Azərbaycan xalqı zülmə, əsarətə, haqsızlığa, təhdidlərə, zorakılıqlara, hərhansı bir gücə də boyun əyən xalq deyil. Sovet imperiyasının 70 il ərzində yaratdığı xof belə vətəndaşlarımızı öz mübarizliyindən çəkindirmədi, paytaxta daxil olan tanklarının, döyüş texnikalarının qarşısından qaçan olmadı, əksinə, onların qarşısına canlı sədd çəkildi və xalqımızın vətənpərvərlik, mübarizlik ruhunun hansı həddə olduğunu bütün dünya müşahidə etdi. Xalqımızın yazdığı zəfər salnaməsini hər kəs izlədi. Bütün dünya müşahidə etdi ki, Azərbaycan xalqı mübarizə əzmi qırılmaz, qəhrəman xalqdır.

Bütün bunları müşahidə edən Qərb və onun "demokrayiyası" Bakıda qırğınlar törədilməsinə qərar verən, yəni qırğınlara rəhbərlik edən Mixail Qarbaçova beynəlxalq Sülh Nobel Mükafatı verdi. Açıq-aşkar şəkildə Qərbin özü də, oyuncaq kimi oynatdığı "demokrayiya" da Bakıda törədilən qırğınlara, bir növ əl çaldı, demokratiyanı boğmaq üçün qatillərin qırğınlarını, zorakılıqlarını alqışladı. Hələ də demokratiya oyunbazlığından əl çəkməyən, bu ifadəni alət olaraq əlində oynadan Qərbin "demokrayiyası" elə o zamandan bəlli idi. Bəlli idi ki, Qərb bu sözdən, əslində isə ali dəyər hesab ediləcək demokratiya ifadəsindən sui istifadə edir və bu dəyərlərə zərrə qədər qiymət vermir, əks halda Bakı qırğınlarına qərar verən, rəhbərlik edən Qorbaçovu ən azından demokratiya düşməni elan edərdi. Əgər biz bunun əksini müşahidə etdiksə, hələ də buna bənzər yanaşmalarını müşahidə ediriksə, bu, Qərbin, onun "demokratiyası"nın nə olduğu "aydın" olur. Çox maraqlıdır ki, Sovet imperiyasının baş cəlladı olan, əli silahsız insanların, öz hüquqlarını demokratik yolla müdafiə edən vətəndaşların qırğınına rəvac verən Qorbaçova Sülh Nobel Mükafatı verən Qərb, niyə indi Ukraynaya qarşı hələ bircə addım belə atmayan Rusiya prezidenti Putini demokratiya düşməni, ali dəyərlərin pozucusu elan edib, bütün dünyanı onunla mübarizəyə səsləyir, Rusiyaya qarşı sanksiyalar tətbiq edir? Bu həmin Qərbdir ki, öz dırnaqarası "demokrayiyası" ilə hələ də Ermənistanı dəstəkləyir, halbuki, 30 ilə yaxın müddətdə həmin o Ermənistanın beynəlxalq hüququn pozmadığı prinsipi qalmayıb. Amma Xocalı Faciəsi kimi bəşər tarixində görünməmiş soyqırımını törədən ermənilərin özlərinin qondarma soyqırımlarını müzakirəyə çıxaran ABŞ kimi digər ölkələrin də "demokrayiyası" öz başlarına dəysin, bu bizə heç lazım da deyil, bizim özümüzdə demokratiya da var, azadlıq da, digər ali dəyərlər də. Məhz bu dəyərlər ətrafında Azərbaycan xalqı hər zaman birləşib, həmrəy olub və düşmən üzərində qələbəmizi şərtləndirən amillərdən biri də elə budur. Azərbaycan vətəndaşlarında 20 yanvarda təzahür edən milli ruh, mübarizlik ruhu, suverenliyinin, hüquqlarının müdafiəsi əzmi yaşayır və yenə də qəhrəman övladlarının qanı, canı bahasına torpaqlarımızın cəmi 44 günlük savaşla işğaldan azad olunması bunu bir daha təsdiqlədi.

Bildiyimiz kimi, 1945-1946-cı illərdə Nürnberq şəhərində olan və tarixdə Nürnberq prosesi, Nürnberq məhkəməsi kimi qeyd olunan beynəlxalq tribunalın qərarı ilə Almaniyanın ali dövlət və hərbi xadimləri, mülki əhalinin qırılmasına, qəddar davranışa, ictimai və şəxsi əmlakın talanmasına görə dünya və insanlıq əleyhinə qəsd hazırlamaqda və həyata keçirməkdə ittiham olunublar. Təsadüfi də deyil ki, indiyədək dünyanın hər yerində dövlət orqanları və ictimai hərəkatlar bütün rütbə və mənsəblərdən olan nasist cinayətkarları aşkara çıxarır və ədalət məhkəməsinə verirlər, amma təəssüflər olsun ki, Nürnberq prosesində pislənmiş bütün əlamətlərin olmasına baxmayaraq, SSRİ və Azərbaycanın ozamankı rəhbərlərinin, habelə 1990-cı ilin yanvarında Azərbaycana soxulan sovet hərbi kontingentinin hərəkətləri beynəlxalq məhkəmədə ittihamla

qarşılanmadı, Qarbaçov kimi bir qatil, əli çoxsaylı insan qanına bulaşan cani cəzalandırılmasdı. Bu, əlbəttə ki, yenə də Azərbaycana qarşı olan ikili standart yanaşmanın təzahürü idi və beynəlxalq məhkəmələrin imicinə də ciddi zərbədir.

Əlbəttə ki, özünü beynəlxalq məhkəmələr, ədalət məhkəmələri kimi dünyaya sırımağa çalışanlar gördülər ki, Qanlı Yanvar hadisələrinə ilk hüquqi qiyməti Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi verdi və 20 Yanvar faciəsinə ilk siyasi qiymət verən 21 noyabr 1990-cı il tarixli qərar qəbul edildi. Ardınca yenə də Ulu Öndərin təşəbbüsü və göstərişləri ilə 1994-cü ilin mart ayının 29-da Milli Məclis "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" Qərar qəbul edildi. Xatırladığımız kimi, Bakıya rus ordusunun yeridilməsi ilə bağlı SSRİ rəhbərliyinin qərarını kəskin tənqid edərək, rəsmi açıqlama tələb edən Ümummilli Lider Heydər Əliyev bu faciənin ardınca da ilk olaraq dərhal Rusiya paytaxtında, Moskvada öz etirazını rəsmi şəkildə bildirmişdi, hansıki bunu xalqımız unutmadı, unudan da deyil. Onu da unudan deyil ki, bu vəhşiliyin törədilməsinə rəvac verən məhz həmin dövrdə dövlət idarəçiliyini ələ alan insanlar, başıpozuq hakimiyyət, bir növ, hakimiyyətsizlik idi. Xalqın mübarizəsini, tökülən qanları siyasi niyyətlər üçün alətə çevirənlər, 20 Yanvar hadisələrinə siyasi qiymət verilməsi tələbi ilə meydana çıxanlar isə hakimiyyəti ələ keçirdikdən sonra bu faciəni tamamilə unutdular, öz imkanlarından istifadə etmədilər və Ulu Öndər Heydər Əliyev yenidən hakimiyyətə qayıdana bu cəsarəti kimsə özündə tapmadı.

Tarix təsdiq etdi ki, 20 Yanvar hadisələri bu xalqın əzmini qıra bilmədi, əksinə, Azərbaycan xalqını müstəqillik uğrunda daha mətin vuruşmağa sövq etdi və müstəqillik idayaları ümümmilli amala çevrildi. Məhz bu baxımdan cəsarətlə deyə bilərik ki, Qanlı Yanvar hadisələri Azərbaycan milli kimliyinin formalaşmasına həlledici təsir göstərdi və dövlət müstəqilliyinin bərpa edilməsində dönüş nöqtəsi oldu. Qanlı Yanvar hadisələri dünya azərbaycanlıların təşkilatlanmasına gətirib çıxardı və etiraf edək ki, milli faciəmizin tanıdılması naminə dünya azərbaycanlıları ilk dəfə olaraq yaşadıqları müxtəlif ölkələrdə təşkilatlanmağa başladılar. Bu, həm də Azərbaycançılıq ideyasının daha da vüsət almasına ciddi bir təkan verdi və bəhrəsini də görməkdəyik. Bu gün dünya azərbaycanlılarının həmrəyliyi, birliyi özünü hər istiqamətdə göstərir. Həmrəyliyimiz bizi qələbədən-qələbəyə aparır və nəticə etibarı ilə ölkəmizin çiçəklənməsinə əsaslı zəmin yaradır. Reallıq odur ki, 20 Yanvar faciəsini yaşayan Azərbaycan artıq qalib ölkədir və bununla qürur duymağa hər bir Azərbaycan vətəndaşının haqqı var.

Heç şübhəsiz ki, Qanlı Yanvar hadisəsi Azərbaycan xalqı üçün təkcə böyük faciə sayıla bilməz və bu tarix milli kimliyini, ləyaqətini, müstəqilliyini, suverenliyini qorumaq üçün hər cür qurban verməyə hazır olan xalqın tarixində şərəfli bir səhifədir. Azərbaycanı müstəqilliyə aparan yolda yeni mərhələnin başlanğıc nöqtəsi olan 20 Yanvar faciəsi eyni zamanda bu baxımdan da yaddaşlardan silinən deyil və vətən övladlarının, vətənpərvər insanların qanı ilə yazılan tarixin bu səhifəsi heç zaman unudulmayacaq. Çünki, 20 Yanvar faciəsi, ümumxalq faciəsi olmaqla bərabər, müstəqillik, istiqlal və hürriyyət uğrunda xalqımızın apardığı milli azadlıq hərəkatının zirvəsi olaraq tariximzə yazılıb.

**Səs.-**2022.-20 yanvar.-№11.-S.8-9.

## 20 Yanvar – müstəqilliyə aparan yolun qan və gün yaddaşı

**Elnarə Akimova,**
Filologiya elmləri doktoru

20 Yanvar faciəsindən 32 il keçir. Bu 32 ildə çox şey, bəlkə də hər şey dəyişib. Dəyişməyən isə bircə şey olub: həmin qanlı hadisəyə münasibət və onun bizim tarixi taleyimizdə daşıdığı missiya. İndi, bu günlərdən həmin çağlara baxanda çox şey bizə vahiməli görünür. Əslində, bu təəssüratı doğuran zamanın özünün obrazıdır. Bir-birini əvəzləyən kataklik proseslər - 20 Yanvar faciəsi, ondan bir il sonra jurnalist Salatın Əsgərovanın qətli, 20 noyabrda müəmmalı helikopter qəzası, daha bir il sonra törədilən Xocalı soyqırımı, bir-birini əvəzləyən torpaq itkiləri və s. və i.

Bu faciələrin içində 20 Yanvar ona görə həm də milli özünüdərkin faktı kimi yad edilir ki, bu tarixin özündə yaddaşı oyatmağa yönəlik olan missiya dayanır. İndi, üstündən 32 illik bir zaman fasiləsi ötəndən sonra o günlərə qayıdış edən düşüncəmizin qanadında 20 Yanvar gününü daha çox necə simvolizə etmək lazım gələndə düşünürük: bu bir faciə idi, yoxsa özgürlüyümüzün, sarsılmazlığımızın dünyaya sərgiləndiyi gün? Çünki hər bir xalqın tarixi taleyində elə günlər var ki, tökülən günlərə, yaşatdığı acılara rəğmən onun hürriyyət əzmini, mənəvi potensialını ehtiva etdiyindən müqəddəs mehrab kimi yalnız səcdəsinə tapınılır.

**Ölmədik, ölmədik, ey uca Allah,**
**Bu qanlı-qadalı günü də gördük,**
**Biz də sözümüzü ucadan dedik,**
**Biz də bu zamandan bir gün götürdük**
(Arif Abdullazadə)

Bu, bizim üçün Tanrının ayırdığı bir gecəlik sınaq məqamı idi. Yanvarın 19-dan 20-nə keçən gecə - həmin gün vətən oğulları sanki öz xoşuna "gəl təcrübə eylə mən zəifi" nidası ilə "qəmin hərifi" olmağa gəlmişdilər.

Bu fikirlər YAP İdarə Heyətinin üzvü, filologiya elmləri doktoru, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Uşaq ədəbiyyatı" şöbəsinin müdiri Elnarə Akimovanın 20 Yanvar faciəsinin növbəti ildönümü ilə əlaqədar AZƏRTAC-a təqdim etdiyi "20 Yanvar – müstəqilliyə aparan yolun qan və gün yaddaşı" sərlövhəli yazısında yer alıb. Həmin yazını oxucularla bölüşürük.

Bu 32 ildə hadisəyə hər cür - siyasi, hüquqi, mənəvi və s. baxış bucaqlarından münasibət sərgilənib. Bəs məlum faciə bizim düşüncəmizə qatdığı hansı çalarlarla xarakterizə olunur? Cavab birmənalıdır: ilk növbədə, şəhid obrazı və bu adın ehtiva etdiyi ağrı və qürur simvolikası: şəhid oğullar, şəhid anası, şəhidlər məzarlığı, şəhid şəhər, şəhid şair və s. və i. Bu yerdə bir məqama toxunmaq yerinə düşər. Sanki sovet dövründə təbliğ olunan bayağı vətənpərvərlik ideyalarının vurduğu əxlaqi-mənəvi zərbənin şüuraltı kompensasiyasının ifadəsi olaraq vətənpərvərlik mövzularından, ümumən ictimai-siyasi tematikadan imtina edən lokal düşüncə 1990-cı illərdən başlayaraq yenidən bu ali mövzuya qayıtmağı vacib bildi. Vətən və vətənpərvərlik anlayışları önə keçdi, vətəndaş cəmiyyətinin göstəricisi hesab olunmağa başladı.

20 Yanvar hadisələrinin tarixi rolunu şərh edən Yaşar Qarayev yazırdı: "Zaman ən kəskin qütblərə onda parçalanır, ən təzadlı eralar bir-birini o vaxt əvəz edir ki, üst-üstə qalanan günlər və qanlar onları bir-birindən eyni vaxtda ayırır. 20 Yanvarda gün və qan bizi keçmişdən və səhvlərdən eyni vaxtda ayırdı".

Həqiqətən də, bu faciə yaşatdığı acı qədər, həm də bir xalqın tanıtım günü idi. Sınmayan qürurunun, sarsılmayan vüqarının ən yayğın atəş, odlu silah qarşısında belə qaya kimi duruşu idi. Ona görə 20 Yanvara biz təkcə qara gün kimi boylanmamalıyıq, həmin gün Azadlığa, Müstəqilliyə doğru gedən yolun təməlini qoydu. Ən başlıcası isə xalqın özünü dərk etməsinə, öz düşmənini tanımasına stimul oldu.

Maraqlıdır ki, hətta hadisəyə kənar gözlə baxışın sərgiləndiyi məqamlarda belə bu amilin roluna xüsusi önəm verilir. Məsələn, Amerika yazıçı-jurnalisti Tomas De Vallın 2008-ci ildə yazdığı "Qarabağ: Ermənistan və Azərbaycan sülh və savaş yollarında" kitabında müəllif həmin hadisələrə bu cür münasibət izhar edir: "SSRİ tarixində ilk dəfə idi ki, sovet silahlı qüvvələri sovet şəhərinə - Bakıya hərbi müdaxilə etdilər. Bu, həm Azərbaycan, həm də Sovet İttifaqı üçün böyük faciə oldu. Ordu hissələri cəmi bir neçə saat ərzində şəhəri tam nəzarətə aldı və Moskvanın hakimiyyəti bərpa edildi. Lakin Moskva məhz elə 1990-cı il yanvarın 20-də

Azərbaycanı itirdi”. Bəli, mahiyyətə vardıqda bizim dövlət, xalq kimi müstəqilliyimizin tarixi onun rəsmi olaraq təsdiqləndiyi 1991-ci ilin 18 oktyabrından daha öncə 1990-cı ilin 20 yanvarında qoyulub.

Ümummilli lider Heydər Əliyev hadisənin baş verdiyi ilk günlərdə mənsub olduğu və ömrünün böyük bir hissəsini vicdanla xidmət etdiyi Kommunist partiyasına ilk kəskin etirazını bildirdi. O zaman Moskvada təcrid şəraitində yaşayan, xalqından uzaq salınmış Heydər Əliyev dərin kədər içində, fəqət böyük cəsarətlə, onu gözləyə biləcək təhlükələrə etina etməyərək 21 yanvar tarixində Moskvada Azərbaycan nümayəndəliyinə gəldi və hadisəni törədənləri ittiham edən nitq söylədi. Bu çıxış Azərbaycan xalqının haqq səsini bütün dünyaya bəyan etməklə bərabər ağır gündə insanların təsəllisinə çevrildi. Heydər Əliyev 19 iyul 1991-ci il tarixli, Moskvaya, İttifaq Nazirlər Soveti partiya təşkilatına göndərdiyi ərizədə isə ölkəni uçuruma yuvarlatmış ali hakimiyyəti konkret müddəalarla – 1990-cı ilin 20 Yanvar hadisələrinə görə, erməni millətçiliyinə havadarlığına görə, saxta demokratiya oyunları və şəxsiyyətinə qarşı təqiblərə görə geniş ittihamlarla suçlayaraq, Kommunist partiyası sıralarından çıxdığını bəyan etdi.

Fikrət Qocanın 20 Yanvar şəhidlərindən, İlham və Fərizənin nakam sevgisindən söz açan “Qarlı, qanlı qərənfillər” povestində Heydər Əliyevin həmin illərdə sərgilədiyi cəsarətli mövqe ilə bağlı məlum tarixi epizod yer alır: “Azəri türkləri, türkdillilər Azərbaycan nümayəndiliyinə gəlmişdilər. Heydər Əliyev xəstə olmasına baxmayaraq, həyatını təhlükə qarşısında qoyub oğlunun, qızının müşayiəti ilə nümayəndəliyə gəlib. Orada jurnalistlər qarşısında çıxış edib. Kommunist Partiyası rəhbərliyini ittiham edib. Heydər Əliyev yaxşı bilirdi kommunist partiyası nələr edə bilər, nəyə qadirdi. Ona görə də o öz çıxışının onun özü üçün nə qədər təhlükəli olduğunu yaxşı bilirdi. Bu çıxış partlayışlar görmüş Bakıda möhtəşəm partlayış təsiri bağışlamışdı. Gündüz bir qrup Azərbaycan ziyalıları akademiyanın binasında yığışıb, vəziyyəti müzakirə etmiş, dünya birliklərinə müraciət qəbul etmişdilər. Bu müraciət dünya dillərinə tərcümə edilib ölkələrə yayılmışdı. Elə gecə ikən qəzetlər çıxmışdı, bu qəzetlərdə törədilmiş cinayəti ifşa edən fotolar çap edilmişdi, çəkilişlər aparılıb, kasetlər xaricə ötürülmüşdü. Bunlar Sovet dövləti daxilində ağlasığmaz işlər idi. Məcbur olub günün yarısından sonra hərbin maşınının təkərləri geri fırlanırdı. Küçələrdə hərbi texnika, əsgər seyrəlirdi. Hiss olunurdu ki, qoşun geri çəkilir, çıxdığı yerə”...

Sonralar ümummilli lider Heydər Əliyev öz çıxışlarında ürək ağrısı və yanğı ilə 20 Yanvar faciəsinə münasibətini belə izhar etmişdir: “Mən bu faciəyə həmişə ürəkdən yanaraq həm də vətəndaşlıq borcumu yerinə yetirməyə çalışmışam və bu gün də həmin mövqedəyəm, sabah da həmin mövqedə olacağam. Birinci növbədə, ədalət naminə, eyni zamanda, Azərbaycan xalqının namusunu, şərəfini, milli mənliyini qorumaq naminə”.

Bu mövqe Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də hakimiyyətdə olduğu bütün dövrlər ərzində qorunmuş, 20 Yanvar şəhidlərinin xatirəsinin əziz tutulması üçün yüksək diqqət və həssaslıq öz davamını tapmışdır.

20 Yanvar faciəsindən uzaqlaşdıqca onun ağrılarına mənəvi cəhətdən daha həssas, daha yaxın olmağa başlayırıq. Baş verənlərə analitik münasibətin dramatizmi artdıqca müharibənin bəlalarını daha real şəkildə qavrayırıq. Bir incə məqamı da qeyd etmək yerinə düşər. 20 Yanvar hadisələrindən sonra qeyd etdiyimiz kimi ard-arda sıralanan faciələrimizin miqyası o qədər böyük və çeşidli oldu ki, 20 Yanvar mövzusu daha qlobal, vüsətli səciyyə alaraq müharibə mövzusu ilə əvəzləndi, ümumən Qarabağ probleminin içində əriməyə başladı. Amma bütün hallarda milli qürur və şərəf tarixi kimi Zəfərə aparan yolun müqəddəratına çevrilmək statusu qazandı.

20 Yanvar hadisəsi vətən üçün ölməyin, can nisar etməyin nümunəsini göstərdi. Bu qanlı gündə şəhid olan gənc Ülvi Bünyadzadənin bir şeiri var. Bu şeirdə yalnız 20 Yanvar günü sinəsini güllələrə sipər edən mərd oğullarımızın deyil, həm Birinci Qarabağ savaşında həlak olan, həm də 44 günlük İkinci Qarabağ müharibəsində böyük Zəfərimizlə tarix yazan qəhrəman əsgərlərimizin hər zaman diri qalan ruhları görünür. Bizi sabahlı gələcəyə və əbədi zəfərə inandırır.

**Qarabağdı mənim dinim-imanım,**
**O torpağın**
**nişanəsi,**
**iziyəm.**
**Məni belə**
**aciz görmə qəbirdə,**
**Qəbirdə də**
**Qarabağın özüyəm!**

**Xalq Cəbhəsi.** - 2022. - 20 yanvar. - № 3. - S. 5.

## Azadlıq və müstəqillik savaşına yol açan ümummilli faciə

**Cavanşir Feyziyev,**
Milli Məclisin deputatı, fəlsəfə doktoru

**1990-cı ilin 20 Yanvarı Azərbaycan xalqının həyatında dönüş mərhələsi, dönüş nöqtəsi olmuşdur. Biz 20 Yanvar hadisələrinə indiyə qədər bir faciə kimi qiymət veririk. Həmin gün tariximizə qara gün kimi daxil olmuşdur. Şübhəsiz ki, bunda həqiqət var. Getdikcə bu hadisələrin daha geniş mənasını dərk edirik. 20 Yanvar hadisəsinin tariximizdəki yeri, qiyməti ayrı-ayrı insanların taleyi ilə məhdudlaşa bilməz. Bu ayrı-ayrı insanların deyil, bütöv bir xalqın taleyidir.**

**Heydər Əliyev**
**Ümummilli lider**

**1990-cı ilin 20 yanvarında Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda çox sayda şəhid verdi. Lakin onun iradəsi sınmadı və milli ruhu sarsılmadı. Həmin qırğın zamanı ümummilli mənafelərin müdafiəsi naminə canlarından keçmiş və şəhidlik zirvəsinə ucalmış Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifə yazdılar.**

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Azərbaycan xalqının 70 il saxta "qardaşlıq ittifaqı" adı altında gizlənmiş sovet imperiyasının əsl simasını, zorakı və qanlı mahiyyətini dünyaya tanıtdığı 1990-cı ilin 20 Yanvar qırğınından 32 il keçir. 1988-ci ildə xəyanətkar "ittifaq ortağı" Ermənistanın Azərbaycana əsassız ərazi iddiasından və hərbi təcavüzündən qaynaqlanan bu qanlı faciə Azərbaycan xalqını ərazi bütövlüyü uğrunda mübarizədən azadlıq və istiqlal savaşına yönləndirdi. Həmin gün Azərbaycan xalqı birdəfəlik anladı ki, ata-babaların ən qiymətli əmanəti olan torpaqlarını qorumaq üçün yalnız dövlət müstəqilliyini qazanmalı, öz taleyinə sahib çıxmalıdır.

İşğalçı Ermənistana havadarlıq zəminində birləşmiş dünya imperializmi bu müqədəs mübarizəmizin qarşısını kəsə bilməsə də, xalqımızı bir çox məşəqqətlərə məruz qoydu, ərazilərimizin 20 faizini ermənilərin əli ilə qopardı, 30 il siyasi girovluqda saxlatdı. Azadlıq və müstəqillik yolunda mübarizədə kifayət qədər güc və imkan toplamış Azərbaycan dövləti müdrik və qətiyyətli lideri İlham Əliyevin rəhbərliyi ilə qarşısıalınmaz haqq işimizi bütün dün-yaya tanıdandan sonra 2020-ci ilin payızın-da apardığı 44 günlük Vətən müharibəsi ilə müstəqil ölkənin ərazi bütövlüyünü bərpa etdi, xalqımızın ayağına vurulmuş "Qara-bağ qandalı"nı qırıb tarixin zibilliyinə atdı.

Artıq ikinci ildir ki, Azərbaycan onu azadlıq və müstəqillik uğrunda tarixi mübarizəyə qaldırmış Qanlı yanvar qətliamının ildönümünü qalib ölkə kimi qeyd edir. Bu tarixi zəfərlə xalqımız 20 Yanvar şəhidlərinin başladığı mübarizəni qəti qələbə ilə başa çatdırdı. Təcavüzkar ölkəyə vurulan sarsıdıcı zərbə, işğalçı quldurlarlara yaşadılan ağrı ilə 20 Yanvar şəhidləri də daxil olmaqla, Vətən yolunda qurban gedənlərin intiqamı alındı, onların narahat ruhları nicat tapdı.

20 Yanvar fasiəsi isə tariximizə hüzn qarışıq öyünc günü olmaqla yanaşı, həm də silinməz-pozulmaz həqiqət dərsinin ibrətli səhifələri kimi kimi yazılıb. Hər bir xalqın milli birliyinin, siyasi özünüdərkinin səviyyəsi məhz onun ən çətin anlarda, ta-rixi sınaq günlərində baş verən hadisələrə və çağırışlara ümumxalq reaksiyasında özünü göstərir. 32 il əvvəl Azərbaycanın üzləşdiyi belə bir seçim məqamında xalqı-mızın mübarizlik əzminin kükrəyişi, əsarətə boyun əyməyən iradəsi tariximizə şanlı bir səhifə kimi yazıldı – milli azadlıq və tor-paqlarımızın bütövlüyü uğrunda ümumxalq hərəkatının 20 Yanvar səhifəsi.

20 Yanvar yaxın keçmişimizdə ya-şadığımız ən faciəvi günlərdən olsa da, xalqımızın yaddaşına həm də qəhrəmanlıq tarixi kimi həkk olundu. Faciənin törədilməsindən keçən bir qərinəlik dövrdə bu hadisəni doğuran səbəblərin, onun hüquqi, ictimai-siyasi, psixoloji nəticələrinin araşdırılması, öyrənilməsi və öyrədilməsi artıq ənənəyə çevrilmiş bir sualla müşayiət olunur: 20 Yanvara gedən yol nədən və haradan başlandı?

Zamanın bu qısa və aydın sualı-nın cavabında hadisələrin şahidləri, bir qayda olaraq, 1990-cı ilin 20 yanvarı ərəfəsindəki günlərin və ayların ictimai-siyasi hadisələrini bir- bir xatırlayır və onların arasında faciəyə

yol açan səbəbləri və səhvləri araşdırıb tapmağa çalışırlar. Mübahisələr bəzən bir-birimizi qınamağa, hətta günahlandırmağa qədər uzanır. Bir ifratçılıqdan digərinə qədər haçalanan mülahizələr yalnız bir fikirdə ortaqlaşır: belə sonluğu heç kim gözləmirdi.

Bəli, doğrudan da, o zaman şox az adam inana bilərdi ki, dövlət öz vətəndaşına, dinc adamlara belə di-van tuta bilər.Yəqin, ona görə ki, biz Xeyirlə Şərin mübarizəsinin nağıllarda olduğu kimi, həmişə Xeyrin qələbəsi ilə bitməsinə inanmaq dərəcəsində sadəlövh tərbiyələndirilmişdik. Amma bəzən haqq davasında, qısa müddətə olsa da, Şər də qalib gəlir.

20 Yanvar, əslində, Şərin Xeyirə zahirən "qalib gəldiyi" bir an idi. Bu, Şərin gəldiyi biraylıq-onaylıq, birillik- onillik yol deyildi. Bu, uzaqdan gələn bir yol idi. Bu yol dünənin əsarət boyunduruqları olan 1813-cü ilin "Gülüstan", 1828-ci ilin "Türkmənçay" müqavilələrindən başlan-mışdı. Nəhayət, bu yol, bizə ən yaxın döngəsi isə 1920-ci ilin 28 aprelindən yön almışdı, davamı 30-cu illərin qaranlıq dolanbaclarından, 40-cı illərin ağrı-acıların-dan, 50– 60-cı illərin ayrı-seçkiliklərindən, məhrumiyyətlərindən keçib çatmışdı 20 Yanvara.

Bütün bunlar çox uzun və üzüntülü bir hekayədir – azadlıqsevər bir məmləkətin, insanpərvər bir millətin, məğrur bir xalqın əsarət hekayətidir. 20 Yanvar isə bu hekayətin son fəslidir.Bu fəsildə də qarşımıza Şər çıxmışdı. Növbəti dəfə düşmənlərimizin hiyləsi ilə bizi təhdid edən namərd qonşularımız Vətən torpaq-larımıza göz dikmişdilər. Ölkəmizin ərazi bütövlüyünə qarşı məkrli təcavüz, riyakar qəsdlər, SSRİ rəhbərliyinin xalqımıza qarşı açıq-aşkar düşmənçilik siyasəti artıq imperiya boyunduruğunda yaşamağın daha ağır fəlakətlərə yol aça biləcəyini anlatmaqdaydı.

Dağlıq Qarabağ münaqişəsinin başlanğıcında Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi və SSRİ Nazirlər Sovetinin dolayısı ilə Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılmasına yönəlmiş "Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafı-nın sürətləndirilməsi haqqında" qərarı və 1989-cu ilin yanvarında SSRİ Ali Soveti Rəyasət Heyətinin "Dağlıq Qarabağda Xüsusi İdarəetmə Forması yaratmaq haqqında" fərmanı imperiya rəhbərliyinin Ermənistanın respublikamızın ərazi bütövlüyünə açıq təcavüzünü gizli şəkildə dəstəkləndiyini göstərirdi.

Bununla yanaşı, Ermənistan ərazisində yaşayan azərbaycanlıların öz tarixi torpaq-larından qovulmasını SSRİ rəhbərliyinin "görməzliyə" vurması soydaşlarımıza qarşı həyata keçirilən etnik təmizləmə siyasətinin məhz ittifaqın "yardımı" ilə baş tutmasına heç bir şübhə yeri qoymurdu. Azərbaycan SSR rəhbərliyinin isə baş verən proseslərə, sanki, heç bir şey olma-mış kimi, seyrçi münasibət göstərməsi, özünü "bilməzliyə" və "eşitməzliyə" vurması, ümummilli maraqların müdafiəsi yolunda heç bir əməli addım atmaması xalqın əsəblərini tarıma çəkmiş, səbr kasa-sını doldurmuşdu. Mübarizə meydanında tək qaldığını görən Azərbaycan xalqının səfərbər olmaqdan başqa çarəsi yox idi.

Bütün ümidlər haqsızlığa qarşı öz etiraz səsini ucaltmağı bacaran, öz tarixi yurdunu düşmənlərdən qanı bahasına qo-rumağa həmişə hazır olan Azərbaycan xal-qına idi. Azərbaycanlılara qarşı məqsədli şəkildə həyata keçirilən bu fitnəkar siyasət öz hüquqları və ərazi bütövlüyü uğrunda meydanlara atılmış həmvətənlərimizin ürəklərində azadlıq yanğısını daha da alov-landırmışdı. Artıq xalq sovet imperiyasının növbəti repressiya siyasətini tarixinə və milli mənliyinə vurulmuş ləkə kimi görürdü. Azadlıq eşqi ilə yanan Vətən övladları bu ləkəni, öz qanları bahasına olsa da, yuma-ğa hazır idilər.

O zaman xalqı etiraz səsini ucaltmağa vadar edən çox sayda obyektiv səbəblər mövcud idi. Mərkəzi hakimiyyətin milli mənafeyimizə zidd siyasət yürütməsi, bunun qarşısının alınması üçün respublika rəhbərliyinin heç bir tədbir görməməsi xalq-la hakimiyyət arasında yaranmış uçurumu daha da dərinləşdirmiş, kütləvi etiraz dal-ğasının baş qaldırmasına rəvac vermişdi. Belə bir məqamda insanların haqlı etirazla-rını dinləmək, mövcud problemlərin siyasi yolla həll edilinə yönəlmiş addımlar atmaq əvəzinə, imperiyanın öz ənənəsinə sadiq qalaraq zora əl atdı. Bununla da qırmızı imperiya antihumanist təbiətini ən iyrənc yollarla belə həyata keçirdiyini aydınlığı ilə sübut etmiş oldu.

Meydanlara öz haqq səsini ucaltmaq, milli heysiyyatını və milli mənliyini qorumaq əzmi ilə çıxan qorxubilməz vətən övladları bütün fədakarlıqlara hazır idilər. Amma hələ də heç kim baş verəcək vəhşilikləri gözləmirdi. Çünki sovet rəhbərliyinin 70 il bir dam altında vətəndaşlarına qardaşlıq nəğməsi oxutmuşdu. "Qardaşın qarda-şa qarşı" bu qədər qəddarlıq nümayiş etdirəcəyi ağlasığmaz görünürdü. Ölməz şairimiz Bəxtiyar Vahabzadənin dediyi kimi: "Axı, heç kəsin ağlına gələ bilməzdi ki, qəlbi Vətən hissi ilə çırpınan, əli silahsız, özü günahsız olan bu atalar, analar, bala-lar, özünü dost kimi, qardaş kimi qələmə verən bir ordunun əlində qətlə yetirilsin".

Soyuq 20 Yanvar gecəsi bəşər tarixinin ən faciəvi hadisələrindən biri baş verdi – Bakı kimi dünyada tanınan böyük bir şəhərin dinc sakinləri güllələbaran edildi. Dağlıq Qarabağda qayda-qanun yaradıl-masını, Ermənistanın silahlı təcavüzünün qarşısının alınmasını tələb edən dinc etirazçıların haqq səsini boğmaq və xalq

hərəkatını, nəyin bahasına olursa-ol-sun, yatırmaq məqsədi ilə Azərbaycana yeridilən sovet qoşunları (onların arasın-da silahlandırılmış xeyli sayda erməni zabiti var idi) Bakıda və respublikanın müxtəlif rayonlarında 131 nəfər mülki şəxsi küçələrdə, evlərində, avtomobillərində, iş yerlərində qətlə yetirdi. Cəza əməliyyatları zamanı 744 insan yaralandı, 841 nəfər qanunsuz həbs olundu.

O müdhiş gecənin aydınlığa dönməsi Bakının ürəkağrıdan dəhşətli mənzərəsinə işıq saldı. Xalq düşmən tankının tırtılla-rı altında parçalanmış, sinələri düşmən güllələrindən dəlik-deşik olmuş övladlarını qan gölündə tapdı. Bu, Azadlığa gedən yol-da ilk şəhidlərin verildiyi 20 Yanvar səhəri idi. O günlərdə nə qədər sarsılsa da, hüzn-lü və üzgün olsa da, xalq öz qəhrəman öv-ladlarını son mənzilə yola salmağa özündə güc tapdı. Haqq, azadlıq yolunda şəhidlik zirvəsinə ucalmaq nə qədər şərəfli idisə, düşmən silahının nişangahında Vətənin şəhidlərini qorxu-hürkü bilmədən, sonsuz bir etişamla son mənzilə yola salmaq da bir o qədər namus və şərəf məsələsi idi.

Xalq o günlərdə sarsılmadı, əyilmədi, qorxmadı. Qanlı faciənin qurbanları isə azadlığı uğrunda can verdiyi Vətən torpa-ğına yüz minlərin çiyinlərində daşındılar və müqəddəs torpaqda möhtəşəm bir ehtiramla əbədiyyətə qovuşdular. Bakı-nın dağüstü hissəsindəki bu müqəddəs ərazi hələ əsrin əvvəllərində – 1918-ci ilin martında düşmənlərin soyqırıma məruz qoyduğu minlərlə soydaşımızı öz qoynuna almışdı. Hələ o zaman erməni gülləsindən şəhid olan baba- nənələrimizi, ata-ana-larımızı, qardaş-bacılarımızı, südəmər körpələrimizi qoynuna almış məzarlıq bu dəfə də erməni təcavüzünə və onu dəstəkləyən siyasətə qarşı mübarizəyə qalxmış qəhrəmanlarımızı öz bağrına bas-dı. O qəhrəmanlar ki, hünərləri və ölməz xatirələri əbədi istiqlaliyyət yolumuza hər zaman şəfəq saçır.

Baş verənlər isə Azərbaycan xalqının milli mübarizə əzmini və iradəsini sındıra bilmədi. Əksinə, 20 Yanvar hadisəsi öz qanunauyğun məntiqi və zəncirvari təsiri ilə bütün imperiya ərazisində milli azadlıq hərəkatlarının daha da alovlanmasına və Sovet İttifaqının süqutunun daha da sürətlənməsinə rəvac verdi. Bu hadisə sovet imperiyası üçün “sonun başlanğıcı” oldu. Bu faciənin baş verməsinə qədər ölkədə mövcud problemlərin, baş qaldır-mış etirazların siyasi yolla həll olunaca-ğına ümidlər hələ də qalmaqda idi. Lakin bir insanın yaşaya biləcəyi qədər ömür yaşamış qırmızı imperiya özü ilə həmyaşıd olan nəslin böyüklü-kiçikli hamısına atəş açmaqla bu ümidləri tamamilə alt-üst etdi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tarix yaradan bir şəxsiyyət olmaqla yanaşı, həm də tarixi hadisələrə ən doğru-düzgün qiymət verən mütəfəkkir dövlət xadimi, misilsiz bir şəxsiyyətdir.

Əvvəla, dahi siyasətçinin 20 Yanvar hadisələri ilə bağlı siyasi fəaliyyəti və bu faciəyə verdiyi qiymət özü mükəmməl bir tarixi nümunədir. Xalqımızın böyük oğlu Heydər Əliyev, hər şeydən əvvəl, bu faciəni Azərbaycana qarşı törədilmiş bəşəri cinayət adlandırmışdır.

İkincisi, 20 Yanvar xalqımı-zın həyatında dərin və sonsuz hüzn törətməsinə baxmayaraq, ulu öndər onu tarixi qəhrəmanlıq nümunəsi kimi dəyərləndirmiş, yeni nəsillər üçün örnək səviyyəsinə yüksəltmişdir.

Üçüncüsü, müstəqilliyimizin ba-nisi faciə qurbanlarının xatirəsinin əbədiləşdirilməsi, onun zərədidələrinə dövlət qayğısı göstərilməsi üçün bütün zəruri tədbirləri həyata keçirmişdir. 20 Yan-var hadisəsi ilə bağlı ulu öndərin mövqeyi, açıqlamaları, atdığı addımlar 3 onillik öncə baş vermiş mürəkkəb və qanlı hadisələrin mahiyyətini anlamaqda, onun ibrət dərslərini öyrənməkdə xalqımızın qiymətli mənəvi qaynağıdır.

Törədilmiş vəhşiliyin qanlı görüntüləri, xəyanətkar izləri milyonlarla insanı yüksək bir cərəyan kimi silkələyib eyni məcraya yönəltdi. Yumruq halına gəlmiş xalqımız heç bir hərbi gücün ram edə bilməyəcəyi qüdrətli bir sipərə döndü. Şəhərə yeridil-miş zəhmli bir güc – gecə yatmış şəhərin başında fırtına qoparmış müasir hərbi texnikanın və mərkəzi obyektlərə sıx-sıx yerləşdirilmiş qoşun bölüklərinin özü səhərin açılması ilə güclü bir qasırğanın qoynuna düşüb acizləşdi.

Gecənin qana bələdiyi şəhərin ya-ralarına gur işıq salan o qırğın səhəri vətəndaşı olduğu dövlətdən xəyanət və qəddarlıq görmüş xalqımız gur axınlarla Mərkəzi Komitə deyilən respublikanın baş qərargahına tərəf axışıb, gecəni burada keçirmiş, qorxub-çəkinmədən yerində dayanaraq zirehli texnikanın əhatəsində qalmış dinc, əliyalın soydaşlarımıza qoşul-mağa can atırdı. Qəzəblənmiş insan seli çox keçmədi ki, zirehli texnikadan “hörül-müş” dəmir hasarı uçuraraq, sanki, alov püskürən böyük bir vulkana döndü. Qəzəb püskürən çıxışlarda qanlı ədalətsizlik hiddətlə lənətlənir, sovet rəhbəri Mixail Qorbaçov cəllad adlandırılırdı. İmperi-yanın dördüncü böyük, cənubun isə ən böyük şəhərini gecənin qaranlığında güllələbaran edərək işğal etmiş sovet rejimi öz qanlı əməlinin girovuna çevrilərək bu mənzərələri acizliklə seyr etməyə məhkum olmuşdu.

O anlarda və saatlarda Bakıda baş verənləri nəfəs dərmədən izləyən Krem-lin gücü bir ona çatırdı ki, hər yeri silahlı nəzarətdə saxlasın, bir də Azərbaycanda yaratdığı informasiya zülmətində baş verənləri dünya ictimaiyyətindən gizlətsin, az-çox sızan məlumatları isə “zəruri addım, vəziyyətin nizama salınması” kimi qələmə versin.

O aylarda və illərdə, elə həmin gecə də Azərbaycan xalqı ona görə ayağa qalxmışdı ki, Qorbaçovun özünə anlatsın: “Torpaqdan pay olmaz!”, “Həddini aş-mış erməniləri yerində oturdun!” O gecə ermənilərə güzəştə getməməyin heyfini azərbaycanlılardan almaq istəyən bədnam “baş katib” bununla öz karyerasına da sağalmaz zərbə vurmuşdu.

Həmin məqamda Moskvada – sovet diktatoru M.Qorbaçovun qulağının dibində qəfil baş verən hadisə isə onu kəskin diksindirməklə yanaşı, Bakı qırğınının gizlinlərini bütün dünyaya bəyan etdi. Ermənipərəst sovet rəhbərinin Qarabağı asanlıqla ermənilərə hədiyyə etmək üçün SSRİ-nin ali rəhbərliyindən uzaqlaşdır-dığı və ciddi nəzarət altında saxlatdığı dünya şöhrətli siyasət və dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri səviyyəsinə yüksəlmiş dahi şəxsiyyət Heydər Əliyev bütün maneələri aşaraq faciənin səhərisi gün Moskvada bir parça Azərbaycan sayılan resbublikamızın Daimi nümayəndəliyinə gəldi, dərin hüzn içərisində xalqımıza başsağlığı verdi. Ulu öndər Vətəninin harayına yetişərək beynəlxalq mətbuat konfransı keçirdi, Bakı həqiqətlərini bütün dünyaya yayılması üçün geniş bir qapı açdı.

M.Qorbaçovun Azərbaycana münasibətdə gizlin hazırladığı məkrli “cəza” aksiyası bax beləcə fiaskoya uğ-radı. Şübhəsiz, Kremlin o zamankı ağası Azərbaycan xalqını yaxşı tanımadığını anlamalı olmuş, uğursuzluğa düçar olduğu-nun ağrısını çəkmişdi. İllər sonra isə “əsas günahı” Qarabağ hadisələrində görən Qorbaçov, görəsən, 1988-ci ildə “Qarabağ cinini” şüşədən çıxaranda nə düşünmüş-dü? Bəlkə, elə bilmişdi ki, dünyanın ən gözəl bir məkanını min illər boyu öz qanı-canı ilə qoruyub Vətən eləmiş Azərbaycan xalqı onun xatirinə Qarabağı siniyə qoyub özgə torpaqlarına təşnə olan ermənilərə peşkəş edəcək?!

Bu qanlı hadisələrdən yaxasını kənara çəkməyə can atan M.Qorbaçov riyakar-casına sovet qoşunlarının Bakıya hərbi müdaxiləsinə onu “fövqəladə şəraitin” məcbur etdiyini bildirmişdi: “1990-cı ilin yanvarında fövqəladə şərait bizi fövqəladə vəziyyətin elan edilməsinə məcbur etdi. Bu addım daha çox qan axıdılmasının qarşısı-nı almaq üçün atıldı”.

Moskvada Azərbaycan Nümayəndəliyində keçirdiyi mətbuat konfransında isə xalqımızın qeyrətli oğlu Heydər Əliyev vəziyyəti vaxtın-da nizama salmağın mümkünlüyünü necə aydın göstərmişdi: “Artıq iki ildir ki, Azərbaycan və Ermənistan arasında millətlərarası münaqişə gedir. Həmin münaqişəni Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr törətmişdir. Azərbaycan və Ermənistan, eləcə də, ölkənin ali siyasi partiya rəhbərlərinə bu məsələni tənzimləmək, daxili müharibəyə, millətlərarası münaqişəyə son qoymaq və milli mənsubiyyətindən asılı olmayaraq hər bir adamın ümumi federativ ittifaq olan SSRİ-də azad yaşamasına şərait yarat-maq üçün ikiillik müddət kifayət idi. Hesab edirəm ki, ötən iki ildə bu istiqamətdə lazımi səviyyədə iş aparılmamışdır. Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı”.

Sonralar xatirələrində “20 Yanvar mənə dərs oldu” – deyən Qorbaçov 20 Yanvar qırğınının məsuliyyətini dolayısı yolla olsa da, etiraf etmişdir: “Bu faciəli hadisədən dərs götürdüm. Hakimiyyət ekstremal situasiyada güc tətbiqindən imtina edə bilməz. Ancaq bu aksiya mütləq olaraq əsaslandırılmalı və çox sərt tədbirlərlə bağ-lı addım məhdudlaşdırılmalıdır. Problemin həlli yalnız siyasi yolla tapılmalıdır”. Bunu dərk etmək üçün illər lazım idimi?

Belə sərt tədbirlərə ehtiyac olmadı-ğını, qarşıdurmanı aradan qaldırmağı və vəziyyətin nizama salınmasını dinc üsullarla da həyata keçirməyin müm-künlüyünü Qorbaçovun özünə siyasi rəqib seçdiyi Heydər Əliyev Azərbaycan Nümayəndəliyindəki bəyanatında qətiyyətlə söyləmişdi: “Hesab edirəm ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan ol-muşdur. Təəssüf ki, Azərbaycan rəhbərliyi, həmçinin ölkənin ali siyasi rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir. Sərhədlərə edilən təcavüzü vaxtında aradan qaldırmaq mümkün idi. Axı üç ay əvvəl sərhəd zolağı ilə bağlı camaat öz tələblərini irəli sürmüşdü. Fəqət, heç kəs onlarla görüşmək, izahat işi aparmaq və lazımi ölçü götürmək istəməmişdir. Təkrar edirəm: camaatı sakitləşdirmək üçün də imkanlar tükənməmişdi.”

Həmin bəyanatla ulu öndərin Kremlin beşaddımlağında söylədikləri Qorbaçovun gecikmiş etirafındakı arqumentlərin yalan olduğunu illər öncə sübuta yetirmişdir: “Bütün vəziyyətlərdə hesab edirəm ki, məsələni siyasi cəhətdən tənzimləmək, xalqla mükaliməyə girmək üçün əlverişli imkanlar olmuşdur. Lakin onlardan səmərəli istifadə edilməmişdir. Nəhayət, 19-dan 20-nə keçən gecə sovet ordusu-nun, SSRİ DİN-in böyük kontingenti Bakı şəhərinə yeridilmişdir. Nəticəsi isə göz qabağındadır. Bunun törətdiyi faciələr hamımıza məlumdur. Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Bəli, kobud siyasi səhv buraxıl-mışdır. Bütün bunlar qabaqcadan nəzərə alınmalı və vaxtında vacib, zəruri tədbirlər qəbul edilməli idi. Ordu yeridilmiş, günah-sız adamlar həlak olmuşlar”.

Azərbaycan xalqının həqiqi lideri həmin bəyanatında söylədiyi bu fikirlə Qorbaçovun gələcək qənaətini, azı, 20 il qabaqlamışdı: "Zənnimcə, ölkənin ali siyasi rəhbərliyinə vəziyyət barədə vaxtında kifayət qədər düzgün, dəqiq, obyektiv informasiyalar çatdırılmamışdır. Rəhbərlik çaşqınlığa salındığından belə qərar qəbul etmişdir". Ulu öndər öz yekun qənaətini isə belə ifadə etmişdi: "Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır".

SSRİ-nin hələ hökm sürdüyü bir vaxtda belə bir addım, sözün əsl mənasında, böyük hünər və cəsarət tələb edirdi. Ulu öndər Heydər Əliyev və oğlu İlham Əliyev bununla, hər şeydən əvvəl, Vətən, xalq qarşısında vətəndaşlıq borclarını və milli mövqelərini nümayiş etdirdilər. Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1990-cı il 21 yanvar tarixli bəyanatı həm də faciəyə verilən ilk siyasi qiymət idi – özü də imperi-yanın mərkəzində, Moskvada.

Cinayətin törədildiyi vaxtdan keçən ilk illər ərzində 20 Yanvar hadisələrinə lazımi siyasi-hüquqi qiymətin verilməməsi də vacib məsələlərdən biri idi. Möv-cudluğunun mahiyyətində zorakılıq və hegemonluq daşıyan imperiyanın onun rəhbərliyinin göstərişi əsasında baş ver-miş bəşəri cinayətə hüquqi qiymət verə biləcək qədər səmimiyyətinin və iradəsinin olmaması əvvəlcədən məlum idi. Ona görə də 1990-cı ilin dekabrında SSRİ baş hərbi prokurorluğunun hərbi qulluq-çuların 20 Yanvarda Bakıda baş vermiş hadisələrlə bağlı əməllərində cinayət tərkibi görməyərək işə xitam verməsi heç kimi təəccübləndirməmişdi.

Azərbaycan Kommunist Partiyası-nın Mərkəzi Komitəsinin faciəli olayların araşdırılması ilə bağlı yaradılmış istintaq komissiyasının fəaliyyətini heç bir nəticə və heç bir əsas olmadan dayandırması isə təəccüb doğurmaya bilməzdi. Bu o za-mankı ölkə rəhbərliyinin baş vermiş qanlı faciəyə siyasi- hüquqi qiymət verə bilmək iqtidarında olmadığını nümayiş etdirirdi. Təəssüf ki, sovet rejiminin süqutundan sonrakı ilk ildə – 1992-ci ilin 19 yanvarında qəbul edilmiş "1990-cı il yanvarın 19 – 20- də Bakı şəhərinə qoşunların yeridilməsi ilə əlaqədar faciəli hadisələrin təfsilatının və səbəblərinin təhqiqi üzrə Azərbaycan Res-publikası Ali Soveti komissiyasının işinin yekunlarına dair" Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurasının qərarında da ölkənin ali qanunverici orqanının qeyd olunan komissiyanın fəaliyyətinin qənaətbəxş olması ilə kifayətlənməsi, qanlı hadisənin sifarişçiləri və icraçıları-nın göstərilməməsi Azərbaycan xalqına qarşı törədilmiş ən ağır cinayətlərdən biri olan 20 Yanvar faciəsinə ciddiyyətinə və əhəmiyyətinə görə qiymət verilmədiyini bir daha təsdiqlədi.

Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından 32 il keçməsinə baxmayaraq, xalqımız o müdhiş gecənin faciəsinin ağrısını qəlbində yaşadır, bu vəhşiliyi törədənlərə, xəyanət və fəlakətin səbəbkarlarına öz dərin nifrətini bildirir. Azərbaycan xalqı öz qəhrəman övladları-nın fədakarlığını yüksək qiymətləndirərək hər il 20 Yanvarda onların xatirəsini dərin ehtiramla yad edir. Hər il dövlət səviyyəsində geniş tədbirlər planı ha-zırlanaraq həyata keçirilir, qanlı qırğının ildönümü respublikanın bütün şəhər və rayonlarında qeyd olunur.

20 Yanvar hadisələri Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə misilsiz bir faciə olmaqla yanaşı, həm də qəhrəmanlıq səhifəsi kimi yazılıb. Həmin gün öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini uca tutan Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə yüksəldilər. Vətənin azadlığı, suverenliyi uğrunda özlərini qurban verən şəhidlərin xatirəsi həmişə qəlbimizdə yaşayacaqdır.

**Xalq qəzeti**. - 2022.- 20 yanvar. - № 13. - S. 3.

# Qanlı və şanlı tariximiz

**Elman Nəsirov,**
Milli Məclisin deputatı, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi Araşdırmalar İnstitutunun direktoru,
siyasi elmlər doktoru, professor

Azərbaycan xalqının minilliklərlə ölçülən zəngin və şərəfli tarixində həm qəhrəmanlıq, həm də faciə səhifələri bir-birini əvəz etmiş, nəsildən-nəslə qan yaddaşı və genlərlə ötürülmüşdür. Tariximizin 20 Yanvar səhifəsinin unikallığı isə ondadır ki, o eyni vaxtda həm faciə, həm də qəhrəmanlıq nümunəsidir. Sözügedən reallıqdan çıxış edərək, qədirbilən oxuculara təqdim etdiyimiz bu yazıda məqsədimiz hər iki anlamı özündə birləşdirən 20 Yanvar hadisələrinə 32 illik zaman kəsiyindən nəzər yetirib, bir sira narahatedici suallara cavab axtarmaqdır. Onları aşağıdakı ardıcılıqla təqdim etmək olar.

Birincisi. 20 Yanvar faciəsini şərtləndirən amillər hansılardır və onun qarşısını almaq mümkün idimi?

20 Yanvar faciəsinə aparan yol, əsasən, 2 amillə şərtlənmişdir:

Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və SSRİ rəhbərliyinin ermənipərəst möv-qeyi 1988-ci ilin fevral ayından başlayaraq, 200 mindən artıq soydaşımız Ermənistandan zor və işgəncə altında qovulmuşdu. Təkcə 1989-cu ilin avqust-dekabr aylarında Ermənistan tərəfindən Azərbaycan sərhədlərinin 91 dəfə pozulması və atəşə tutulması nəticəsində 32 nəfər azərbaycanlı öldürülmüş, 166 nəfər yaralanmışdı.

Kreml bu vəziyyətdən nəticə çıxarıb, Ermənistanın qeyri-qa-nuni və antibəşəri hərəkətlərinə hüquqi qiymət verib, günah-karları cəzalandırmaq əvəzinə, cinayətkarın şirnikləndirilməsi siyasətinə üstünlük verdi. Həmin qərəzli, məsuliyyətsiz və cinayətkar siyasətin bir neçə məqamına nəzər yetirək:

– 1988-ci ilin mart ayında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi və SSRİ Nazirlər Sovetinin "Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişa-fının sürətləndirilməsi haqqında" qəbul etdiyi qərar, əslində, Dağlıq Qarabağın Azərbaycandan ayrı-laraq Ermənistana birləşdirilməsi üçün münbit şəraiti təmin etməyə hesablanmış addım idi. Bu qərara əsasən, ilk növbədə Dağlıq Qarabağa müstəsna hüquq və səlahiyyətlər verilir, böyük maliyyə vəsaitləri ayrılır, vilayətlə bağlı mühüm məsələlərin həlli İttifaq nazirlikləri və strukturlarının səlahiyyətinə aid edilirdi.

-1989-cu il yanvarın 12-də SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarına əsasən, Dağlıq Qara-bağ Muxtar Vilayətinin ərazisində xüsusi idarəetmə forması–Xüsusi İdarə Komitəsi yaradıldı. Sədri ermənipərəst məmur Arkadi Volski təyin edildi. Bu addım faktiki olaraq Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılmasını təmin etmiş oldu.

Rəsmi Moskvanın yuxarı-da qeyd olunan addımlarından ruhlanan və şirnikən Ermənistan SSR Ali Soveti 1989-ci il de-kabrın 1-də Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haq-qında qərar qəbul etdi. Bu siyasət və onun nəticələri Azərbaycanda ermənipərəst SSRİ rəhbərliyi əleyhinə etimadsızlıq mühiti və ümumxalq etirazı dalğasının for-malaşdırılmasını təmin etdi.

### *Azərbaycan rəhbərliyinin qətiyyətsizliyi və antimilli siyasəti. Azərbaycan Xalq Cəbhəsinin təxribatçı addımları*

Hadisələrin təhlili göstərir ki, Azərbayacan rəhbərliyi və müxalifəti həmin tarixi şəraitdə ümummilli maraqları şəxsi ma-raqların fövqünə qoymaq bacarığı nümayiş etdirə bilsəydi, antimilli və təxribatçı addımlar atmasaydı, rəsmi Moskvanın Azərbaycan xalqına qarşı qanlı ssenariləri həyata keçirmək imkanı mini-muma enə bilərdi. Zənnimizcə, məhz Azərbaycan SSR Ali Soveti Rəyasət Heyyətinin 15 yan-var 1990-cı il tarixli qərarında "Müdafiə Nazirliyi, hüquq-mühafizə və SSRİ-nin digər icra orqanlarından xahiş edirik ki, ölkə konstitusiyasının 81-ci maddəsinə uyğun olaraq, Azərbaycan SSR-ə müvafiq zəruri yardımı həyata keçirsin",– şəklində ifadə olun-muş mövqe Mixail Qorbaçov başda olmaqla SSRİ rəhbərliyini həm arxayınlaşdırmış, həm də Azərbaycan əleyhinə addımla-rının radikallıq səviyyəsini daha da gücləndirmişdir. Xatırladaq ki, 1977-ci il 7 oktyabr tarixində qəbul edilmiş SSRİ Konstitusiyasının 81-ci maddəsinə görə, müttəfiq respublikaların suveren hüquqları SSRİ tərəfindən qorunmalı idi.

Bundan savayı, 1989-cu ilin sonlarında ölkəmizin bəzi rayonla-rında Xalq Cəbhəsinin hakimiyyəti zorla ələ keçirməsi, Naxçıva-nın İranla sərhədindəki tikanlı məftillərin sökülüb atılması, Xalq Hərəkatının radikal qanadının Milli Müdafiə Şurası təşkil edərək nəzarəti öz əlinə alması, 1990-cı il yanvarın 13-15-də Dövlət

Təhlükəsizliyi Komitəsinin Sumqa-yıt ssenarisi əsasında “erməni ta-lanları” törətməsi Moskvanın əlinə Azərbaycan xalqını cəzalandırmaq fürsəti vermişdi.

İkincisi. Bakıya yeridilən qo-şun hissələrinin hədsiz qəddarlığı nə ilə bağlı idi?

Əvvəla, qeyd edək ki, 1989-cu ilin sonlarınadək Bakı şəhərində 110 minlik silahlı qüvvə və hüquq-mühafizə orqanlarının şəxsi heyyəti var idi. Xüsusilə, Bakı qarnizonunun və Bakı Ümumqoşun Məktəbi zabitləri və əsgərlərinin Azərbaycan xalqına münasibəti heç bir halda düşmən münasibəti deyildi, əksinə, daha çox loyallığı ilə fərqlənirdi. Onlar yerli əhalinin qonaqpərvərliyi və alicənablığını gündəlik həyatda görür və qiymətləndirirdilər. Başqa sözlə, “Görünən dağa nə bələdçi”. Təsadüfi deyildir ki, 20 Yanvar hadisəsi öncəsi Bakı Ümumqoşun Məktəbinin zabit kollektivi adın-dan SSRİ Ali Soveti Sədrinin və ölkənin müdafiə nazirinin adına ünvanlamış məktubda xüsusi olaraq qeyd olunurdu ki, Bakı-da vəziyyət Azərbaycan Xalq Cəbhəsinin nəzərəti altındadır və mövcud problemlərin həlli üçün siyasi tənzimləmə imkanları tükənməmişdir. Biz tam əminliklə deyirik: Bakıda ikinci Rumıni-yanın baş verməsinə imkan verilməməlidir.” Mərkəzə belə mövqe lazım deyildi. Ona görə də, rəsmi Moskva Bakıda qanlı ak-siyasını həyata keçirmək üçün bu qüvvələrə tam etibar etmirdi.

İstintaq müəyyən etmişdir ki, 1990-cı il yanvarın ortaların-da SSRİ müdafiə və Daxili İşlər nazirliklərinin, habelə başqa xüsu-si təyinatlı hərbi birləşmələrin 66 min nəfərdən çox əsgər zabiti Bakı şəhərinə gətirilərək, Qala və “Nasosnu” aerodromlarında, respublika stadionunda, Salyan kazarmasında yerləşdirilmişdi. Azərbaycana göndərilən ordu hissələrinin tərkibinə Stavropol-dan, Rostovdan, Krasnodardan səfərbər edilmiş erməni zabit və əsgərləri, hərbi məktəblərdə təhsil alan erməni kursantları da cəlb edilmişdi. Respublikaya gətirilmiş hərbi qüvvələrin, əməliyyatlara rəhbərlik etmək üçün Bakıya gələn 300-dən artıq yüksək rütbəli zabit və generalların ərzaq təminatı, nəqliyyatla, yanacaqla təmin edilməsi respublika büdcəsindən ödənilirdi.

Həmin hərbi qüvvələr üzərində xüsusi psixoloji sınaqların keçirildi-yi haqqında təkzibedilməz faktlar vardır. Onlara belə bir dezinforma-siya təlqin olunurdu:

– Yerli əhali-azərbaycanlılar rusları qırmağa hazırlaşırlar və siz müqəddəs bir vəzifəni–rusları və bütünlükdə şəhərin xristian əhalisini labüd fəlakətdən xilas etməlisiniz;

– “Salyan kazarması” ətrafında və evlərin damlarında snayperlər yerləşdirilmişdir və hədəflərində yalnız siz olacaqsınız. Ona görə də özünümüdafiə instinktindən çı-xış edərək patronlarınıza heyfiniz gəlməsin;

– Azərbaycan Xalq Cəbhəsinin hərbi dəstələri şəhərin strateji nöqtələrində yerləşdirilmişdir və onların amansız müqavimət göstərəcəklərini nəzərə alıb, qətiyyət və adekvat qəddarlıq nümayş etdirin;

– müqavimət göstərən tərəfin milisin, sovet ordusunun və ya da-xili qoşunların geyimində də olması mümkündür və bu reallığı nəzərə alıb, onları davamlı ataş hədəfinə çevirməyi bacarmalısınız.

Bir sözlə, SSRİ rəhbərliyinin “xeyir-duası” ilə 66 minlik qoşun hissələri, xüsusilə erməni mənşəli əsgər və zabitlər, eyni zamanda, həbsxanadan məlum məqsəd naminə azadlığa bura-xılmış məhbuslar Bakıda hər cür vəhşiliklər törətməyə psixoloji baxımdan tam hazırlanmış və nəticədə 147 insanın qətlinə, 744 nəfərin ağır xəsarət alması-na, 841 nəfərin qanunsuz həbs edilməsinə, 200 mənzil, ev, şəxsi və dövlət əmlakının dağıdılma-sına rəvac verən bəşəri cinayət törədilmişdir.

Üçüncüsü, SSRİ rəhbərliyinin törətdiyi 20 Yanvar faciəsində dünyanın digər fövqəldövləti olan ABŞ-ın üzərinə düşən məsuliyyət.

ABŞ-da 1994-2001-ci illərdə Dövlət katibinin müavini işləmiş Stroub Telbottun həmmüəllifi olduğu “Ən yüksək səviyyədə” adlı kitabda qeyd olunur ki, 1989-cu il dekabrın 24-də ABŞ-ın Dövlət katibi Ceyms Beyker ölkəsinin Ru-siyadakı fövqəladə və səlahiyyətli səfiri Cek Motlak vasitəsilə SSRİ-nin Xarici işlər naziri Eduard Şevardnadzeyə məlumat çatdırır ki, əgər sovet qoşunları Rumıni-yaya ölkədaxili sabitliyin bərpası naminə müdaxilə edərsə, ABŞ bu insidenti etirazla qarşılamayacaq-dır. Eduard Şevardnadze cava-bında bildirir ki, ABŞ SSRİ-ni hərbi avantüraya cəlb etmək istəyir və bununla da özünün Panamaya olan müdaxiləsinə haqq qazandır-mağa çalışır. SSRİ-nin Xarici işlər naziri qeyd edir ki, ölkəsi prinsip etibarilə yeni xarici siyasət kursu-nu həyata keçirir. Bu kursa görə, SSRİ daha sosialist ölkələrinin daxili işlərinə qarışmayacaqdır. Bu mövqedən göründüyü kimi, söhbət yalnız sosialist ölkələrindən gedir-di, sovet respublikalarından yox.

Deməli, Mixail Qorbaçov başda olmaqla, SSRİ rəhbərliyi ABŞ-ın Rumıniya ilə bağlı məlum mövqeyindən bir sıra nəticələr çıxardı. İlk nəticə isə ondan ibarət oldu ki, sovet qoşunlarını Azərbaycan xalqının müstəqillik mücadiləsinə qarşı Bakıya yeridəcəyi təqdirdə ABŞ-ın etirazı olmayacaqdır. Rəsmi Moskva, həm də onun fərqində idi ki, ABŞ-ın güclü erməni lobbisi və di-asporu da rəsmi Vaşinqtonun Bakı qırğınına qarşı laqeyid mövqeyi-nin formalaşmasında öz rolunu oynayacaqdır. Taktiki baxımdan belə qiymətləndirmədə Moskva yanılmamışdı. ABŞ 20 Yanvar faciəsini olduqca soyuqqanlı qarşıladı. “Sem dayı” Rumıniya hadisələri

fonunda davranışı ilə SSRİ-nin Bakı avantürasına do-layısı ilə “yaşıl işıq” yandırdığının fərqində idi. Həm də fərqində idi ki, belə avantüralar əzəli rəqibi və düşməni olan SSRİ-nin məhvinin tarixi “X” anını son dərəcə yaxın-laşdırmağa xidmət göstərir. ABŞ yanılmamışdı, 20 Yanvar faciəsi SSRİ-nin sonunun başlanğıcını şərtləndirən proseslərin kataliza-toru oldu.

Dördüncüsü, bu bəşəri cinayət olkədaxili və beynəlxalq siyasi-hüquqi qiymətin verilməsi

20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüqu-qi qiymət verilməsi məsələsi ümummilli lider Heydər Əliyevin sayəsində həllini tap-mışdır. Faciənin ertəsi gün – yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək xalq-la birgə olduğunu bildirdi, 20 Yanvar faciəsinə siyasi qiymət verdi, onun hüquqa, demokrati-yaya, humanizmə zidd olduğunu, mərkəzin və o zamankı respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv olduğunu göstərdi. O, baş vermiş faciə ilə əlaqədar xalqımıza baş-sağlığı verdi və mətbuat konfransı keçirib, başda Qorbaçov olmaqla Bakıdakı terror aktına rəvac verən hakimiyyət nümayəndələrini və hərbçiləri cinayətkar, onların dinc əhaliyə tutduqları divanı isə bütöv bir xalqa qarşı edilən tarixi cinayət adlandırdı. Bu tarixi çıxışın mətni Kremlin kəskin informasiya blokadası siyasətinə baxmayaraq, bütün dünyada, o cümlədən Azərbaycanda yayıldı və geniş siyasi rezonans doğurdu. Azərbaycan xalqının qəlbində ümid çırağı yandı.

Yeri gəlmişkən, burada bir həqiqəti də xüsusi olaraq qeyd edək ki, Azərbaycan xalqının ən ağır dərdi olmuş və artıq tarixə çevrilmiş Dağlıq Qarabağ problemi ilə bağlı ulu öndər Heydər Əliyevin 1969-1982-ci illərdə həyata keçir-diyi siyasətin nəticəsində həmin dövrdə erməni millətçiləri bir dəfə də olsun ölkəmizə qarşı ərazi iddi-alarını açıq şəkildə dilə gətirməyə cəsarət etmədilər və buna imkan verilmədi.

Prezident İlham Əliyevin Sumqayıtın 70 illiyinə həsr olunmuş tədbirdə qeyd etdiyi kimi, “1987-ci ildə Heydər Əliyev vəzifədən gedəndən sonra iki həftə keçməmiş erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana vermək haqqında beynəlxalq mətbuatda və sovet mətbuatında məsələ qal-dırmışlar. Artıq Dağlıq Qarabağda separatçı meyillərə elə bil ki, yaşıl işıq yandırıldı. Heydər Əliyev vəzifədən gedəndən 3 ay sonra Sumqayıt hadisələri baş vermiş-dir. Sumqayıt hadisələri də məkrli planın tərkib hissəsi idi. Plan ondan ibarət idi ki, Heydər Əliyev hakimiyyətdən getsin. Çünki onun Siyasi Büronun üzvü kimi fəaliyyəti erməni millətçilərə imkan vermirdi ki, məsələ qaldırsınlar”.

1990-cı ilin iyulunda Mosk-vadan Vətənə qayıdan Heydər Əliyevin təşəbbüsü ilə həmin il noyabrın 21-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 20 Yanvar faciəsinə ilk dəfə siyasi-hüquqi qiymət verən sənəd qəbul edildi. Naxçıvan Ali Məclisində qəbul edilmiş və 20 Yanvar faciəsinə ilk siyasi-hüquqi qiymət verən, eyni zamanda, Azərbaycan xalqının ümumi rəyini özündə təcəssüm etdirən bu qərar Heydər Əliyev qətiyyətinin təzahürü kimi tarixə düşdü. Sənəddə respublika səviyyəsində 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməsi ölkə rəhbərliyindən tələb edilirdi. Ölkəmiz müstəqillik qazandıqdan sonra da 1993-cü ilə qədər iqtidar-da olanların heç biri faciə ilə bağlı əsl həqiqəti aşkar etməyə özündə cəsarət tapmadı.

Yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra – 1994-cü ilin martında 20 Yanvar hadisələrinin hü-quqi müstəvidə əsil mahiyyəti açıqlandı.1994-cü il yanvarın 12-də keçirdiyi müşavirədə ulu öndər Heydər Əliyev bu barədə deyirdi: “Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişdir. Görünür ki, ötən yaxın illərdəki Sovetlər Birliyi, respublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsil mahiyyətini xalqa bəyan etməmişlər”.

Ulu öndər Heydər Əliyevin “20 Yanvar faciəsinin 4-cü ildönümü-nün keçirilməsi haqqında” 1994-cü il 5 yanvar tarixli fərmanında Azərbaycan Respublikasının Milli Məclisinə Qanlı Yanvar hadisələri ilə bağlı xüsusi sessiyanın keçirilməsi məsələsinə baxmaq tövsiyə edildi. Milli Məclisin 1994-cü il martın 29-da qəbul etdiyi qərarda 20 Yanvar faciəsinin günahkarları konkret qeyd olundu və bu qanlı aksiya Azərbaycanda milli azadlıq hərəkatını boğmaq, xalqın inamını, iradəsini qırmaq üçün totalitar kommunist rejimi tərəfindən törədilmiş hərbi təcavüz və cinayət kimi qiymətləndirildi.

Ümummilli lider tərəfindən 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslər və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsinə xüsusi diqqət və qayğı göstərilmişdir. Hələ ötən əsrin 90-cı illərində ulu öndərin müvafiq fərmanına əsasən, “20 Yanvar şəhidi” fəxri adı təsis edilərək, 20 Yanvar şəhidlərinin ailələrinin və 1990-cı ilin yan-var hadisələri zamanı əlil olmuş insanların dövlət qayğısı ilə əhatə olunması üçün mühüm işlərə başlanılmışdır.

“1990-cı ilin 20 Yanvarında Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda çox sayda şəhid verdi. Lakin onun iradəsi sınmadı və milli ruhu sarsılmadı. Həmin qırğın zamanı ümummilli mənafelərin müdafiəsi naminə canlarından keçmiş və şəhidlik zirvəsinə ucalmış Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımı-zın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifə yazdılar”,– deyən Prezident İlham Əliyev tərəfindən 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial

müdafiəsinin gücləndirilməsi, eyni zamanda, bu faciə ilə bağlı əlilliyi olan şəxlərin sosial müdafiə sisteminin forma-laşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Prezident İlham Əliyevin 2020-ci il dekabrın 31-də "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 yanvar tarixli 350 nömrəli fərmanında dəyişiklik edilməsi barədə" imzaladığı fərmana əsasən, 1990-cı ilin yanvar faciəsi zamanı şəhid olmuş hər bir şəxsin ailəsinə təsis edilmiş aylıq "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respub-likası Prezidentinin təqaüdü"nün məbləği 300 manatdan 500 manata qaldırılmışdır. Bu fərman 2021-ci il yanvarın 1-dən qüvvəyə minmişdir.

Bundan savayı, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə, cəbhədə olmaqla və ya döyüş əməliyyatları aparı-lan ölkələrdə beynəlmiləl borcu yerinə yetirməklə bağlı, həmçinin hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirərkən, habelə 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar sağlam-lıqlarını itirərək əlilliyi müəyyən edilmiş şəxslərin mərdlik və şücaətlərini qeyd edərək, onların sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını ar-tırmaq məqsədi ilə "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 9 sentyabr tarixli 823 nömrəli fərmanında edilmiş dəyişiklikliyə əsasən təqaüdün aylıq məbləği aşağıdakı kimi müəyyən edilmiş-dir:

I qrup əlillərə - 400 manat;

II qrup əlillərə - 350 manat;

III qrup əlillərə - 300 manat

Artımların 2021-ci il yanvarın 1-dən etibarən tətbiqinə başlanıl-mışdır.

Digər tərəfdən, əmək pensiyası təyin edilmiş şəhid ailəsi üzvü-nün hər birinə yaşa görə əmək pensiyasının baza hissəsinin 85 faizi məbləğində əlavə hesabla-nır. 20 Yanvar şəhidlərinin əmək pensiyası almaq hüququ olmayan ailə üzvlərinə kommunal, nəqliyyat və digər xidmətlərə görə, 20 Yanvar əlillərinin 16 yaşınadək (ümumtəhsil müəssisələrində əyani təhsil alanlar 18 yaşınadək) uşaqlarının hər birinə aylıq sosial müavinətlər də verilir.

Prezident İlham Əliyevin 18 mart 2014-cü il tarixli sərəncamı ilə digər müvafiq kateqoriyalardan olanlar kimi, 20 Yanvar əlilləri və şəhidlərinin də ölkənin ali və orta ixtisas təhsil müəssisələrində ödənişli təhsil alan uşaqları təhsil haqqından azad olunumuşlar.

Bu gün Bakının ən yüksək nöqtələrindən birində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş bir ünvan var. Bu, 20 Yanvar faciəsi qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər xiyabanıdır.

Hər il ölkəmizdə və xaricdə 20 Yanvar faciəsinin ildönümləri ilə bağlı silsilə anım tədbirləri keçirilir.

Sonda təəssüf hissi ilə qeyd edək ki, bu bəşəri cinayətə hələ də beynəlxalq aləmdə lazımi siya-si-hüquqi qiymət verilməmişdir.

Onu da qeyd edək ki, keç-miş SSRİ Baş Prokurorluğunun ədliyyə polkovniki V.Medvedevin rəhbərliyi ilə təşkil etdiyi istin-taq qrupu cinayət hadisələrinin araşdırılmasını çox səthi aparmış, istintaq hərbçilərin hərəkətlərində cinayət tərkibi olmaması nəticəsinə gəlmişdi. 20 iyul 1990-cı il tarixdə cinayət işinə xitam verilməsi barədə qərar qəbul olunmuş, cinayət işinin materialları Moskvaya aparılmışdı. Təəssüf ki, həmin vaxt Azərbaycan Respub-likası Prokurorluğu törədilmiş cinayət hadisələri ilə bağlı heç bir cinayət işi başlamamışdır.

Zaman keçdikcə bir sıra həqiqətlər meydana çıxır, 20 Yan-var faciəsinin qaranlıq məqamları aydın olur. 100 cildlik istintaq materiallarının 68 cildi Bakıdan Moskvaya, keçmiş SSRİ Prokuror-luğuna aparılmışdır və indiyədək qaytarılmayıb. Bir sıra sənədlərin, o cümlədən keçmiş SSRİ-nin yüksək instansiyalarında, xüsusən də hazırda Rusiya Federasiyası Prokurorluğunda saxlanılan 68 cildlik cinayət işinin materialla-rının əldə edilməsi 20 Yanvar faciəsinin miqyasını və baiskar-larının məsuliyyət dərəcəsini tam dəqiqliklə üzə çıxara bilər.

Beynəlxalq birlik isə hələ də bu ədalətsizliyə dözür. Buna bax-mayaraq, inanırıq ki, Azərbaycan xalqının qanına əli batmış bu cinayətkarlar gec-tez öz layiqli cəzalarını alacaqlar. Əminliyimizin ciddi əsasları vardır. Son 32 ildə ikinci dəfədir ki, 20 Yanvar faciəsinin növbəti ildönümünü yeni tarixi reallıqda xilaskar Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında müzəffər Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində tarixi Zəfərə imza atdığı bir zamanda qeyd edirik. O tarixi qələbə ki, bütün şəhidlərimizin ruhunu şad etmişdir. O, qələbə ki, Cəbrayılımızı, Füzuli-mizi, Zəngilanımızı, Qubadlımızı, Ağdamımızı, Kəlbəcərimizi, Laçı-nımızı, Hadrutumuzu, Suqovuşa-nımızı, Şuşamızı və bütövlükdə işğal altındakı bütün ərazilərimizi öz əbədi sahibinə – Azərbaycan xalqına qaytarmışdır.

**Xalq qəzeti. -** 2022.- 20 yanvar. - № 13. - S. 5.

## Qara Yanvar-müstəqilliyimizin simvolu

**Malik Mahmudov,**
Beyləqan rayon Qeydiyyat İdarəsinin rəisi

**Qatil gülləsinə qurban gedirkən,**
**Gözünü sabaha dikdi Şəhidlər.**
**Üçrəngli bayrağı öz qanlarıyla,**
**Vətən göylərinə çəkdi Şəhidlər.**
**(B. Vahabzadə)**

Dünya dövlətləri və xalqlarının hər birinin tarixində elə hadisələr olur ki, üstündən yüz illər keçsə də unudulmur, həm millətin qəlbində, həm də onun yazılı mənbələrində əbədi yer tutur. 32 il əvvəl yaşamış olduğumuz Qanlı Yanvar məhz belə hadisələrdən biridir. İllər ötür, nəsillər dəyişir, amma xalqımıza qarşı SSRİ adlı qırmızı imperiyanın törətdiyi bu vəhşilik Xocalı hadisəsi kimi heç vaxt yaddan çıxmır, xatırlanır. Ermənistanın ölkəmizə qarşı torpaq iddiası və imperiya rəhbərlərinin ikiüzlü siyasəti, dolayısıyla erməni separatizmini dəstəkləməsi və o dövür respulikaya rəhbərlik edənlərin bivec siyasəti xalqımızın səbr kasasını daşdırdı və millət bu durumdan çıxmağın yolunu müstəqillik uğurunda mübarizədə gördü. Artan xəttlə gedən ümumxalq mübarizəsindən qorxuya düşən imperiya cəlladları isə xalqımızın azadlıq mübarizəsin boğmaq üçün Bakıya muzdulardan ibarət, əksəriyyəti Stavropol və Krasnodardan olan erməni mənşəli hərbi cəza dəstəsi göndərdi. İnformasiya blokadasında olan Azərbaycanda yaşanan faciəni dünyaya duyuracaq elə bir imkanı olmadığı bir vaxtda o zaman Moskvada təcrid vəziyyətində yaşayan dahi liderimiz Heydər Əliyev siyasi səhnəyə çıxdı. Beləki həyatına real təhlükə olmasına rəğmən Ulu Öndər Moskvadakı səfirliyimizə gələrək bu vandal aktını ittiham edən bəyanatla çıxış etdi, səsimizi dünyaya duyurdu. Mərhum liderimiz Azərbaycanda hakimiyyətə gəldikdən sonra isə parlamentdə 20 Yanvara hüquqi və siyasi qiymət verən qərarlar qəbul olundu. Görkəmli siyasi xadim Heydər Əliyev hadisəyə mənəvi qiymət verərək demişdir: “1990-cı ilin 20 yanvarı Azərbaycan xalqının tarixinin ən faciəli, qara səhifəsi, həm də qəhrəmanlıq, rəşadət səhifəsidir. Biz o günlərdən nə qədər çox uzaqlaşsaq da, həmin günlərin Azərbaycan xalqının tarixində necə mühüm yer tutduğunu bir o qədər dərk edəcəyik və bəlkə də gələcək nəsillər buna daha doğru, daha düzgün qiymət verəcəklər. Ancaq bir şey həqiqətdir ki, 1990-cı ilin 20 yanvarı Azərbaycan xalqının həyatında dönüş mərhələsi, dönüş nöqtəsi olmuşdur”.

Aradan illər keçməsinə baxmayaraq, hər şey göz önündən sanki kino lenti kimi gəlib keçir: təlatümlü Bakı, gecənin qaranlığında işıq saçan güllələr, tankların və zirehli maşınların uğultusu, küçələrə səpələnmiş cəsədlər, yaralılarla dolu xəstəxana palataları...

### O gecə...

1990-cı ilin 20 yanvarı, saat 00:00. Sovet ordusunun təpədən-dırnağadək silahlanmış birləşmələri beş istiqamətdən Bakıya soxuldular. Küçələrdə şütüyən tanklar və zirehli maşınlar “barrikadaları” dağıdıb keçir, əsgərlər dinc əhaliyə atəş açır, heç kəsə aman vermirdilər. Hətta köməyə gələn təcili tibb yardım maşınları, evlər gülləyə tutulurdu.

Həmin gecə ən böyük qırğın indiki “20 Yanvar” dairəsi ərazisində törədildi. Ümumiyyətlə, cəza əməliyyatının ilk saatlarında yüzlərlə dinc sakin öldürüldü və yaralandı.

Səhər küçələrə axışan Bakı sakinləri “20 Yanvar” dairəsində və ona yaxın yerlərdə dəhşətli mənzərəylə qarşılaşdılar. Tankların əzib keçdiyi avtobuslar, yük və minik avtomobilləri, yollardakı qan gölməçələri gecənin ağır faciəsindən xəbər verirdi. Şəhərin mərkəzi küçə və meydanları tanklarla, avtomatlı saqqalı hərbçilərlə dövrəyə alınmışdı... O müdhiş günləri xatırlayarkən faciənin qanlı statistikası bir daha yada düşür:

Öldürülənlər – 147 nəfər;
Yaralananlar – 744 nəfər;
Qanunsuz həbs olunanlar – 841 nəfər.
Yaralananlar arasında 25 qadın və 20 uşaq vardı. Onlardan bəziləri ömürlük şikəst oldu.

20 Yanvar faciəsi miqyasına, xarakterinə və mahiyyətinə görə keçmiş SSRİ rəhbərliyinin ikinci Dünya müharibəsindən sonra ölkə daxilində törətdiyi misli görünməmiş bir cinayət idi. Bu hadisələrdən bir müddət

sonra – 1990-cı ilin noyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında çıxış edən Ulu Öndər faciə barədə danışarkən deyirdi: “Mən belə hesab edirəm ki, 19-20 yanvarda baş vermiş bu faciə həm Sovet İttifaqının siyasi rəhbərliyinin, şəxsən Qorbaçovun böyük günahının nəticəsidir, onun diktatorluq meyillərindən əmələ gəlmiş bir haldır və eyni zamanda, Azərbaycan rəhbərlərinin xalqa xəyanəti və cinayətinin nəticəsidir. Mən belə fikirdəyəm ki, Böyük Vətən müharibəsi qurtarandan sonra Sovetlər İttifaqında, ölkənin daxilində - heç bir yerdə, heç bir regionda bu qədər, bu miqyasda qanlı qırğın olmamışdır... Bunun nə qədər böyük miqyasda olmağını onunla da ölçmək olar ki, bu hərbi aksiyanın həyata keçirilməsi üçün SSRİ müdafiə naziri Yazov, SSRİ daxili işlər naziri Bakatin hadisə ərəfəsində gəlib Bakıda oturub, bu əməliyyatlara rəhbərlik ediblər”.

Sonradan 20 Yanvar hadisələrini araşdıran “Şit” təşkilatının müstəqil ekspertləri tərəfindən hazırlanmış hesabatında deyilirdi: *“Adamları xüsusi qəddarlıqla və yaxın məsafədən güllələmişlər. Məsələn, Y.Meyeroviçə 21, D.Xanməmmədova 10-dan çox, R.Rüstəmova 23 güllə vurulmuşdur, xəstəxanalar, “təcili yardım” maşınları atəşə tutulmuş, həkimlər öldürülmüşlər, adamlar süngü-bıçaqla qətlə yetirilmişlər. Onların arasında hər iki gözü tutulmuş B.Yefimtsev də var. Atəş zamanı “Kalaşnikov” avtomatının ağırlıq mərkəzi dəyişən 5,45 çaplı güllələrindən istifadə edilmişdir. Həlak olanlar arasında yetkinlik yaşına çatmayanlar, qadınlar, qocalar, şikəstlər də var idi”.*

Bəzi məlumatlara görə, Azərbaycan paytaxtına yeridilmiş qoşun kontingenti müxtəlif təyinatlı, sayca 65 minlik canlı qüvvə olub.

Yuxarıda da qeyd etdiyimiz kimi böyükü-kiçikli hər bir xalqın tarixində həm faciəli məqamlar, həm də qəhrəmanlıq səhifələri olur. Lakin çox nadir hallarda bu iki məqam üst-üstə düşür. 20 Yanvar Azərbaycan tarixinin məhz belə səhifəsidir. Xalq həmin gün ağır imtahana çəkildi və bu sınaqdan şərəflə çıxdı. Faciə insanları birləşdirdi, xalqı bütövləşdirdi. Xalq öz şəhidlərini son mənzilə çiyinlər üstündə apardı, görünməmiş izdihamla yola saldı. Ona tuşlanmış top-tüfəngə məhəl qoymadı, bir addımlığındakı təhlükədən qorxub çəkinmədi. Şəhidlərin dəfni nə qədər ağır səhnə olsa da, bir o qədər də qürurverici mənzərə idi.

Milyonların əmələ gətirdiyi insan seli o vaxta qədər istirahət yeri olan Dağüstü parkda yeni salınmış məzarlığa yaxınlaşır. Xalq öz şəhidlərini son mənzilə gələcəyə böyük inam və ümidlə yola salır. Bir də diqqəti qərənfillər cəlb edir-şəhid qanı kimi qırmızı qərənfillər. O gün və sonradan da hər il yanvarın 20-də şəhid məzarları qərənfil yağışına qərq olur. Bu da xalqın tapıntısıdır və rəmzi mənası var: qərənfil qan rəngindədir.

Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin fədakarlığını, Vətən qarşısındakı xidmətlərini yüksək qiymətləndirərək deyir: “Azadlıq, müstəqillik uğrunda, Vətən uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxmamalıdır”.

Yurduna, millətinə bağlı ümummilli lider Heydər Əliyev zamanında 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində bir sıra mühüm addımlar atmış, qərarlar qəbul etmişdi. Bu siyasət Prezident İlham Əliyev tərəfindən də davam etdirilməkdədir. Dövlətimizin başçısının Sərəncamına əsasən, 2007-ci ildə Şəhidlər xiyabanı vahid kompleks kimi yenidən qurulub.

Şəhidlər xiyabanı Azərbaycan xalqının 32 il əvvəl yaşadığı böyük faciədən xəbər verir. Özündə ümummilli kədərlə yanaşı, rəşadət və fədakarlıq nişanələrini də yaşadır. Bu ünvan xalqın öz qəhrəman oğul və qızlarına böyük hörmət və ehtiramının ifadəsidir, Vətən tarixinin qanla yazılmış önəmli səhifəsi, əyani dərs vəsaitidir.

Hər il yanvarın 20-də Şəhidlər xiyabanında böyük izdiham yaşanır. Şəhid məzarları önündən yüz minlərlə insan keçir, şəhidlərə vəfa borcunu ödəmək üçün bu müqəddəs məkana üz tutur.

Şəhidlərin uğrunda can verdikləri Azərbaycan, qanlı hadisələrin cərəyan etdiyi Bakı ötən illər ərzində büsbütün dəyişib. Xalqımız öz azadlıq arzusuna qovuşub, Azərbaycanın üçrəngli bayrağı bu gün dünya ölkələrinin bayraqları sırasında dalğalanır. Baxıb qürur duyur, müstəqil dövlətin vətəndaşı olmağımızla fəxr edirik.

Onda - 1990-cı ilin yanvarında bu bayraq da, müstəqillik də bir xəyal, bir arzu idi. Şəhidlərimizin axan qanı, xalqın verdiyi qurbanlar hədər getmədi, xəyal və arzular həqiqət oldu.

Şəhid qanının ən dəqiq qiymətini də ulu öndər Heydər Əliyev verib: “O qanın hər damcısında bizim xalqımızın qüdrəti var, xalqımızın qəhrəmanlığı var, xalqımızın milli azadlıq, müstəqillik arzuları vardır. O gecə tökülən qanlar müqəddəs qanlardır. Onlar bizim xalqımızın əsrlər boyu milli azadlıq, müstəqillik uğrunda tökdüyü qanlara qovuşmuş qanlardır, o gecə tökülən qanlar Azərbaycanın müstəqilliyini nümayiş etdirən milli bayrağımızın üstündəki qandır”.

Artıq ikinci ildir ki, biz 20 Yanvarı fərqli hiss və duyğularla yad edirik. Beləki erməni işğalı sürdüyü müddətdə şəhidlərin görüşünə ikiqat acılarla gedirdiksə artıq Müzəffər Ali Baş Komandan, prezident İlham Əliyevin uzaqgörən siyasəti və şanlı Azərbaycan Ordusunun şücaəti sayəsində Qarabağ düşməndən azad edilib, 20 Yanvar və Vətən Müharibəsi şəhidlərinin uğurunda can fəda etdikləri qüdrətli, torpağına və sərhəddinə sahiblik edən Azərbaycan yaranıb.

20 Yanvar şəhidlərinin anım günü respulikanın hər yerində olduğu kimi hər il Beyləqan rayonunda da yad edilir. Rayon rəsmiləri və ictimaiyyət nümayəndələri rayonda şəhidlərin xatirəsinə ucaldılmış abidəni ziyarət edir, kompleksin önünə gül-çiçək dəstələri qoyur.

20 Yanvarda və torpaqlarımızın azadlığı uğurunda şəhid olan qardaş-bacılarımıza Allahdan rəhmət, qazilərimizə şəfa diləyirəm!

Yazımı adını unutduğum şairin 20 Yanvara həsr etdiyi bir bəndlik şeirlə yekunlaşdırıram:

Şəhidəm, sönmərəm bil,
Torpağa dönmərəm, bil,
Ürəklərdə yaşaram,
Canlıyam, ölmərəm bil.

**Paralel.-**2022.-20 yanvar.-№5-6.-S.9.

# 20 Yanvar - çağdaş tariximizdə dönüş nöqtəsi

**Mübariz Ağalarlı,**
Tarix İnstitutunun aparıcı elmi işçisi,
tarix üzrə fəlsəfə doktoru, dosent

XX əsr Azərbaycan xalqı üçün böyük siyasi-ideoloji ilklər yaşanması - milli dövlət yaranması və qəhrəmanlıq salnamələrinin yazılması ilə bərabər, siyasi təbəllüatlarla xarakterizə olunan bir dövrdür. Bu dövrdə istər Cənubi, istərsə də Şimali Azərbaycanda baş verən siyasi mübarizə və ideoloji hərəkatlar fonunda Azərbaycan xalqının əsas hədəfi müstəqillik və suverenlik olmuşdur.Türk-müsəlman dünyasında ilk milli dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti, Güney Azərbaycanda yaranan "Azadistan dövləti" və 1945-ci ildə Pişəvərinin rəhbərliyi ilə yaradılan Cənubi Azərbaycan Milli hökuməti bu hədəflərin məntiqi nəticəsi idi.

Təəssüflər olsun ki, tarixən xalqımızın azadlıq və müstəqillik istəkləri irticaçı və işğalçı qüvvələr tərəfindən aqressiv qarşılanmış, bu təşəbbüslərə qarşı işğalçılıq fəaliyyəti və qeyri-insani davranışlar sərgilənib. Bunun nəticəsi idi ki, XX əsr boyu öz müstəqilliyi, suverenliyi, siyasi və mədəni hüquqları uğrunda mübarizə aparan Azərbaycan xalqı çoxsaylı məhrumiyyətlərə, soyqırımlara, deportasiya hərəkətlərinə məruz qalıb.

Azərbaycan xalqı, XX əsrin əvvəllərində olduğu kimi, ötən yüzilin sonlarında da qəhrəmanlıq, milli oyanış, Rusiya imperiyasına qarşı milli azadlıq hərəkatı kimi addımları ilə tarixin yaddaşına qızıl hərflərlə həkk olunub. Təəssüflər olsun ki, iki yüz ilə yaxın bir dövrdə "xalqlar həbsxanası" funksiyasını məharətlə yerinə yetirən Çar və Sovet imperiyası əsrin sonlarında da öz ənənəvi irticaçı mahiyyətini büruzə verərək Azərbaycan xalqının azadlıq və müstəqillik ideallarını beşikdə boğmaq, xalqımızın dövlət yaratma istəklərinin qarşısına "Berlin səddi" çəkmək niyyətini göstərmişdi. Bu dövrdə imperiyanın çürümüş kökləri üzərində yenidən fidan kimi boy atan Azərbaycanın müstəqilliyə gedən yolu üzərində hərbi-siyasi maneələr yaradan sovet imperiyası mürtəce davranışları ilə öz qanlı mahiyyətini açıq şəkildə göstərməkdə idi. Məhz Sovet imperiyası tərəfindən törədilən 20 Yanvar qətliamı da Azərbaycan xalqının milli-azadlıq məfkurəsinə, dövlətçiliyinin bərpasına qarşı yönəlmiş sui-qəsd, gerçək düşmənçilik aktı idi. Necə ki, bu irticaçı davranışı Azərbaycan xalqı 1918-ci ilin mart soyqırımlarında da görmüş və faciəvi şəkildə yaşamışdı.Zaman və forma fərqli olsa da məkan və mahiyyət eyni idi. 1918-ci il mart soyqırımını bolşevik qiyafəsi geymiş rus və ermənilər, 1990-cı il 20 Yanvar qətliamını isə sovet qiyafəsi geymiş rus və ermənilər törətmişdi. Hədəf isə ənənəvi olaraq Azərbaycan və Azərbaycan xalqı idi.

Qanlı Yanvar faciəsi zamanı Sovet ordusu tərəfindən Bakıda və Azərbaycanın rayonlarında 147 nəfər qətlə yetirilərək şəhid olmuş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdu. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçilərinin olması bu qətliamın böyük bir qəddarlıqla törədilməsindən xəbər verirdi.

20 Yanvar qırğını həm də Azərbaycan xalqının 70 illik sovet işğalına qarşı direniş göstərən milli azadlıq hərəkatının qəhrəmanlıq zirvəsi idi. Sovet hərb maşını Qanlı yanvar hadisələrində Azərbaycanın vətənpərvər oğul və qızlarını tankların tırtılları altında əzməklə xalqımızı daha uzun illər imperiya əsarətində yaşamağa məcbur etmək istəsələr də, niyyətləri baş tutmadı və bunun tam əksi baş verdi. Sovet imperiyası bu cinayəti ilə təkcə Azərbaycanın istiqlal şəhidlərini deyil, həmçinin sovet ideologiyasını və "Xalqlar həbsxanası"nın Azərbaycanda çürüməkdə olan təsisatlarını da tanklar altında əzərək məhv etdi.

20 Yanvar Azərbaycanın milli dövlətçiliyinin bərpasına gedən yolda dönüş nöqtəsi idi. Bu nöqtədən etibarən müstəqil dövlətçiliyimizin bərpası istiqamətində konkret şəkildə siyasi və hüquqi addımlar atılmağa başlandı.

Azərbaycanın müstəqilliyini həzm edə bilməyən Sovet Rusiyası özünün ənənəvi işğalçı və irticaçı metodundan istifadə edərək etnik münaqişə amilindən yararlanmaq istədi. Hələ Sovet imperiyası dövründə etnik münaqişə ocağı kimi formalaşdırılan "Dağlıq Qarabağ Muxtar Vilayəti"ndə erməni separatizminin hər an münaqişəyə çevrilməsi üçün bütün istiqamətlərdə hərbi-siyasi zəmini hazırlanmışdı. 1985-ci ildə M.S.Qorbaçovun Sovet imperiyasında birinci şəxs elan olunması bu prosesi daha da sürətləndirdi. Bu dövrdə Şəmkirdə yerləşən 366-cı motoatıcı alayın Xankəndinə dislokasiya edilməsi, qısa bir müddətdə müxtəlif bölgələrdə xidmət edən bir çox erməni zabitlərinin bu alaya ezam edilməsi baş verəcək etnik münaqişənin qığılcımları idi. Məhz sonrakı mərhələlərdə bu alayın Azərbaycanın Qarabağ bölgəsinin işğalında oynadığı mürtəce rolu və Xocalı soyqırımında birbaşa iştirakı deyilənlərin təsdiqidir.

20 Yanvar qətliamının əsas səbəbkarlarından biri olan, SSRİ rəhbəri Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri olmuş erməni millətçisi Abel Aqanbekyanın 1987-ci ilin sonlarında Parisdə Fransanın "Humanite" (L'Humanit) qəzetinə müsahibəsində "Qarabağın Ermənistana verilməli olduğu fikrini" bəyan etməsi xain düşmənin və havadarlarının Azərbaycan xalqına qarşı açdığı ilk yaylım atəşi idi.

Bölgədə etnik münaqişəni alovlandırmaq və Dağlıq Qarabağ Muxtar Vilayətini Azərbaycanın tabeliyindən çıxarmaq yolunda SSRİ Ali Soveti Rəyasət heyətinin 1989-cu il yanvarın 12-də verdiyi fərmanla ermənipərəst A.İ.Volskinin başçılığı ilə qeyri-qanuni, birbaşa Moskvaya tabe olan müvəqqəti Xüsusi İdarə Komitəsinin (XİK) təşkil edilməsi, bununla da Azərbaycan SSRİ-nin bütün dövlət və ictimai orqanlarının DQMV-dəki səlahiyyətlərinin dayandırılması Moskva tərəfindən Azərbaycana qarşı həyata keçirilən mürtəce siyasətin tərkib hissəsi idi. Bu irticaçı siyasət nəticəsində 90-cı illərdə ermənilərlə etnik münaqişə zəminində minlərlə azərbaycanlı qətlə yetirildi və torpaqlarımızın bir hissəsi erməni işğalçıları və onların havadarları tərəfindən ələ keçirildi.

Bu dövrdə müstəqilliyi və sərhədləri təhlük ilə üz-üzə qalan Azərbaycan xalqı öz müstəqilliyini qoruyub saxlaya bilsə də, erməni mənfurları və onların havadarları ilə 4 illik qeyri-bərabər döyüşdə 25 min nəfərə qədər şəhid verdi. Lakin torpaqlarının bir hissəsini müvəqqəti də olsa itirdi.

Otuz ilə yaxın müstəqillik dönəmində, xüsusilə də 90-cı illərdə hələ kövrək olan müstəqilliyimizə qarşı dəfələrlə qəsdlər edilsə də, xalqımız fədakarlıq göstərərək öz suverenliyini və müstəqilliyini qoruya bildi. Zaman keçdikcə hərbi-siyasi gücümüz və beynəlxalq müstəvidə mövqelərimizin möhkəmlənməsi 90-cı illərdən yarımçıq qalan işimizi başa çatdırmağa münbit imkan yaratdı. 44 günlük II Qarabağ savaşında müzəffər Ali Baş Komandanının rəhbərliyi ilə qəhrəman Azərbaycan ordusu erməni işğalçılarına və onların havadarlarına ölümcül zərbə vuraraq torpaqlarımızı düşmən işğalından azad etdi. Bununla da vətən torpaqlarımızı erməni ünsürlərindən azad edərək yarımçıq işimizi tamamladıq, 20 Yanvar qurbanlarımızın, eləcə də bütün şəhidlərimizin qisasını aldıq.

20 Yanvar Azərbaycan xalqının qəhrəmanlıq və şərəf tarixi, bu hadisələr zamanı şəhid olanlar Azərbaycanın istiqlal şəhidləri, yaralananlar istiqlal qaziləridir. Bütövlükdə isə Azərbaycan xalqının müstəqillik uğrunda apardığı mübarizəsi minilliklər boyu zəngin dövlətçilik tarixinə sahib olan bir xalqın öz müstəqilliyi uğrunda apardığı qəhrəmanlıqla dolu bir mübarizə məqamıdır. Bu qəhrəmanlıq məqamı yüzillər boyu ehtiramla anılacaq.

**525-ci qəzet.** - 2022. - 20 yanvar. - № 11. - S. 11.

**20 Yanvar faciəsi bədii ədəbiyyatda - Aynurə Paşayeva yazır**

***1990-2000-ci illərin ədəbi mətnləri əsasında yığcam qeydlər***

**Aynurə Paşayeva,**
Filologiya üzrə fəlsəfə doktoru

1990-cı illərin əvvəllərində Sovet dövrünün dəyərləri ədəbiyyatımızda iflasa uğrayır, yeniləri isə o qədər asanlıqla təşəkkül tapmırdı. 1990-cı illərin də poeziya böhran yaşamış şeirdə yalnız bir ovqat - milli insan ağrısı, yurd sevgisi, 20 Yanvar faciəsi, torpaq itkisi, şəhidlik acısı natural boyalarla təsvir olunmuşdu. 20 Yanvar faciəli mövzular ədəbiyyata şəhidlik mövzusu, şəhid obrazını gətirdi. 20 Yanvardan sonra ədəbiyyatın adi ritmi pozuldu, xalqlar, millətlə bərabər ədəbiyyatın özü də bir növ tarixi sınaq qarşısında qaldı.

20 Yanvar hadisələri mövzusunda ən yüksək poetik ruhlu əsərlərin müəllifi B.Vahabzadənin "Şəhidlər" poeması faciənin fəlsəfi-poetik dərkində bədii-estetik rolunu bu günədək qoruyub-saxlayır. "Şəhidlər" poemasında Azərbaycan xalqının, əsrlər boyu zülm və istismar altında yaşamasına baxmayaraq, işğaldan qurtulmaq uğrunda apardığı mübarizənin ibrətamiz səhnələri ilə qarşılaşırıq.

Həmin dövrə aid əsərlərdən Qaçay Köçərlinin "Şəhidlər xiyabanı", Zəlimxan Yaqubun "Səslərin görüşü", Tahir Talıblının "Susmuş hünərə elegiya", Vahid Əzizin "Qırğın", Sənan Çırağın "Haqq ədalət Kərəm kimi yalnız indi...", Xəzangülün "Tanrı dərgahında", Məmməd Alimin "Sahibini axtaran qol", Məmməd Alimin "20 Yanvar küçəsi", Piruz Dilənçinin "Şəhidlər xiyabanı", Oqtay Ələkbərovun "Şəhriyar nəfəsi", Xəlil Rza Ulutürkün "Sənin göz yaşların", Ələkbər Şahidin"Şəhidlər", Vidadi Babanlının "Başsağlığı", Hafiz Əlinin "Bakıda komendat saatı", Məhəmməd Aslanbəylinin "Bu il", Fikrət Qocanın "Ağlar", Əlirza Hikmətin "Şəhidlər xiyabanı" əsərləri də xüsusilə diqqət çəkir.

1990-2000-ci illər mətbuatında uşaq şəhidlərə həsr olunan şeirlər də yer almışdı. Musa Ələkbərlinin "Oxu, Zeynəbim, oxu" şeiri şəhid olmuş balaca Zeynəbin kədərli aqibətini ifadə edir. Məmməd Namazın "Körpə şəhidlərə layla" şeiri də bu qəbildəndir.

20 Yanvar mövzulu poeziyada faciəni törədənlər də əsas mövzular sırasına daxildir. Roza Qarabağlının əsərində Sovet rəhbəri Qorbaçov "namərd" adlandırılır.

Balaş Azəroğlunun "Günahkar", Məmməd Alimin "Doxsanıncı iyirmi Yanvar", Hafiz Əlinin "Vətən şəhidləri", Rəfail İncəyurdun "Yanvar ağıları", Kamran Mehdinin "Şəhidlərə ölüm yoxdu" şeirində 20 Yanvar mövzusu təsirli dillə qələmə alınıb.

20 Yanvarın ayrılmaz atributlarından biri qərənfildir. Qərənfil klassik poeziyada qəmgin ovqat aşılayan güldür. 20 Yanvar 1990-cı ilə qədər Bakı kəndlərində satış məqsədi ilə yetişdirilən qərənfillərin həmin faciədən sonra taleyi dəyişdi, matəm gülü simvoluna çevrildi. Tofiq Mütəllibovun "Qərənfil məşəlləri" şeirində qərənfilin Şəhidlər xiyabanında daşlaşmış obrazı belə ifadə edilir:

**Bu adi çiçəklər, bu qərənfillər,**
**Məzarlar üstündə müqəddəsləşib.**

20 Yanvar mövzulu ədəbiyyatda ən çox diqqəti çəkən milliözünüdərk məsələsidir. Bəxtiyar Vahabzadənin "Təzədən yaratsın yaradan bizi" adlı şeirində şairi ən çox düşündürən məsələ xalqın illər boyu məruz qaldığı haqsızlıqların miqyası, eyni hüquqları daşıyan, amma millətlər içərisində ona qarşı qərəzli, ədalətsiz, ayrıseçkili münasibətdir:

**Anlaya bilmirik, astar nə, üz nə,**
**İndi baxammırıq düzün gözünə.**

B.Vahabzadənin sovet siyasi rejiminin ən sərt dönəmində qələmə aldığı "Səbr elədik" əsəri milli istiqlal problemi ilə bağlı qənaətləri əks etdirir.

Sabir Əhmədovun "Yanvar hekayələri" silsiləsindən olan "Dənizdən gələn səda" hekayəsində məzarı dəniz olan oğulun anasına ünvanlanan məktubu 20 Yanvar hadisələrində itkin düşənlərin hamısının dilindən yazılmış kimi səslənir.

Şamil Cahanın "Qan izləri" hekayəsinə dərin hüzn və güclü psixoloji sarsıntı əhvalı hakimdir.

Dostu Məmmədqızının "Qan cığırı" hekayəsi "20 Yanvar" qəzetinin baş redaktoru Səlim Həqqiyə ittihaf olunub. Kiçik hekayənin süjet xəttinin mərkəzində Şəhidlər xiyabanı dayanır.

1990-2000-ci illər mətbuatında dövrün mürəkkəb şəraitindən irəli gələrək təcrübə üçün gərəkli olan fasilə bədii ədəbiyyata qiymət verən və onu izləyən ədəbi tənqiddə də durğunluq yaratmışdı. O dövrdə 20 Yanvar faciəvi mövzulu dram əsərlərinə rastlanmamışdı. Soyqırım tariximizin ayrılmaz hissəsi olan 20 Yanvar faciəsi mövzusunda bədii nümunələrin yazılması müasir dövrdə də aktuallıq kəsb edir və xalqımızın başına gətirilənlərin araşdırılması baxımından böyük əhəmiyyət daşıyır.

**525-ci qəzet. -** 2022. - 20 yanvar. - № 11. - S. 12.

## Müasir Azərbaycan poeziyasında 20 Yanvar mövzusu

**Gülnar Səma**

Azərbaycanın azadlıq uğrunda mübarizə tarixinin qanlı səhifələrindən olan 20 Yanvar faciəsindən 30 il sonra ölkəmiz erməni işğalında olan torpaqlarını azad etdi. Bu zəfərlə həm də 20 Yanvar şəhidlərinin qisası alındı. Məhəmməd Nərimanoğlu və Bilal Ənsərin bu mövzuda tərtib etdiyi kitabda həmin faciənin nəticələri belə qeyd olunur: "Qanlı şənbə gecəsində 131 nəfər qətlə yetirilmiş, 744 nəfər yaralanmış, 321 nəfər itkin düşmüş, 841 nəfər həbs edilmişdir". Bu tarixi faciə Azərbaycanın müstəqillik dövründə yaranan bədii əsərlərinin də mövzusu oldu. Poeziyanın, xüsusən də poema janrının 20 Yanvar qırğınına həssas münasibəti bu günə qədər davam edir. Qabilin "Mərsiyə"si, Məmməd İsmayılın "Bu qan yerdə qalan deyil" şeirindən başqa, poema janrında diqqət çəkən əsərlər yazıldı. Bəxtiyar Vahabzadənin "Şəhidlər", Hüseyn Arifin "Ülvi", Adil Cəmilin "Qan borcu", Məmməd Aslanın "Ağla, qərənfil, ağla", Yusif Nəğməkarın "Şər şənbə", Əhməd Qəşəmoğlunun "Cavanşir", Əbülfət İslamın "Şəhid sevgililər" və digər poemalar sübut edir ki, janr həmin mövzuya necə həssaslıqla yanaşıb.

Məmməd Aslanın "Ağla, qərənfil, ağla" əsəri müəllifin müxtəlif kitablarında işıq üzü görsə də, ilk dəfə ayrıca kitab halında 2014-cü ildə nəşr edilmişdi. Əsər haqqında ayrıca məqaləmdə vurğulamışam ki, bu əsəri həcminə və problematik yükünə görə poema kimi təqdim edə bilərik.İlk baxışdan lirik bəndlər toplusu kimi görünən əsər özünəməxsus daxili süjetə malik poemadır, əsərdə ciddi süjet xəttinin izlənilməsi epik hadisələri sərgiləyən lirik poemanın əlamətləridir.

Yusif Nəğməkarın on altı yarımbaşlıqlı "Şər şənbə" poeması haqqında da ayrıca məqaləm vardır. Poemanın bədii sanbalı haqqında akademik İsa Həbibbəyli yazır: "Yusif Nəğməkarın "Şər şənbə" poeması müstəqillik dövrü Azərbaycan ədəbiyyatında Xalq şairi Bəxtiyar Vahabzadənin "Şəhidlər" poemasından sonra "qara yanvar-şəhidlik" mövzusunda bu janrda yazılmış ən yaxşı bədii əsərdir". Qeyd edək ki, bu əsərdə Yusif Nəğməkar Bəxtiyar Vahabzadənin "Şəhidlər" poemasından sitatlar da verib.

Ayrıca söhbət açmaq istədiyim poemalar Əhməd Qəşəmoğlunun "Cavanşir" və Əbülfət İslamın "Şəhid sevgililər" poemalarıdır. Əhməd Qəşəmoğlunun "Cavanşir" poemasının qəhrəmanı Cavanşirdir. Poemada Cavanşirin özü kimi cəsur sevgilisi Humayla birgə düşmənlərə qarşı mübarizəsindən bəhs edilir.

Poemanın "20 Yanvar" adlı hissəsində həmin faciənin bütün gerçəklikləri təfsilatı ilə verilir. Yanvarın 19-da axşamçağı bir qrup gəncin Biləcəri yolunun üstündə ocaq qalayıb Bakıda baş verən hadisələri müzakirə etməsinin təsviri ilə əhvalatlar davam etdirilir. Sonra televiziyada partlayış, Bakı kəndlərindən sovet tanklarının hücuma keçməsi bütün detalları ilə göstərilir. Sovet ordusunun vəhşiliyi nə qədər realistcəsinə təsvir olunursa, Azərbaycan xalqının mətinliklə mübarizəsi bir o qədər dəqiqliklə təqdim edilir. "Şanlı" ordu hesab etdikləri sovet ordusunun öz vətəndaşlarını qanlarına qəltan edəcəyinə inana bilməyən insanlar yaralı halda digər yaralılara kömək etmək istəyəndə tankların onların üstünə sürülməsi vəhşiliyin nümayişi kimi əksini tapır.

Bu dəhşətin ictimaiyyətə başqa cür çatdırılmağı poemada real cizgilərlə əks olunub. Kremldəki qoşunbaşının Bakını azad etdiklərini bəyan etməsi əsərdə ifadəsini belə tapır: "...zırıldadı Moskva televizorları:- Bakıda bir dəstə narkoman, avara insanlar rusları, erməniləri qırmaq istərkən qarşısını aldı rəşadətli sovet əsgəri..." Bütün bunlar yaxın tarixin şahidi olduğumuz həqiqətləridir. Həmin həqiqətlər barəsində nə qədər çox təbliğat aparılsa da, cəzasını almayan cinayətkarların qalmağı, azğınlaşmış cəlladlara qarşı ikrah hissinin aşılanmağı və mübarizlik ruhunun yaşadılması əsərin əsas leytmotivini təşkil edir.

Bununla belə, son dərəcə publisistik dildə yazılmış əsərdə müəllif sanki baş verən hadisələri nəsr şəklində nəql edir. Qafiyələrə az hallarda rast gəlinir, konkret hadisə canlandırılsa da, əsər ümumilikdə epik səciyyədən uzaqdır. Poemada daha çox faciənin ağırlığı və nəticələri barədə düşüncələr lirik planda təqdim olunur.

Əbülfət İslamın "Şəhid sevgililər" poeması isə 20 Yanvar şəhidləri İlham və Fərizənin nakam həyatlarına həsr edilib.Poemada İlhamın dünyaya gəlməsi, uşaqlıq illəri, Fərizə ilə tanışlığı, toylarının olmağı, müstəqillik uğrunda mücadiləsi, şəhid olmağı və Fərizənin buna dözməməyi həm real cizgilərlə, həm də bədii təfəkkürün gücü ilə ifadəsini tapıb.

Poemada eyni zamanda İlhamın atası Əjdər kişinin, anası Ofelya xanımın, nənəsi Qızqayıt nənənin, qardaşı Elxanın, bacıları Tofiqənin, Rəsmiyənin, Gülbənizin də obrazları canlandırılır. Həmçinin Fərizənin və onun atası Çoban kişinin, anası Bağda xanımın da dolğun obrazları əksini tapır.

Ermənilərin Topxana meşəsində zavod tikmək, Qarabağı ələ keçirmək istəyi baş qaldıranda buna etiraz olaraq Azadlıq meydanında yüz minlərlə insanın gecələməsi poemada tarixin bədii inikası fonunda yazılıb. "On doqquz yanvar günü, Gecə saat on birdi. Top səsləri Bakının, Dincliyini itirdi" - sətirlərində həmin məşum gecənin həqiqi faktları sadalanır. Müəllif xalq qırılan zaman İlhamı evin içində saxlamaq mümkün olmadığını "O elə sevirdi ana vətəni, İlham şəhid oldu Vətəndən ötrü" - kimi misralarda vurğulanır.

Fərizənin isə İlham gedəndən dinməməyi, quruyub heykələ, lala dönməyi sadəcə bir gənc ailənin faciəsi kimi deyil, ümummilli bir burulğanın təzahürü olaraq ifadə olunub. Bu mövzuda yazılmış digər poemalar kimi, "Şəhid sevgililər" əsərində də xalqımızın apardığı ümummilli mübarizənin bədii əksi verilib. Təhlil etdiyimiz poemalardan da göründüyü kimi şəhidlərə həsr edilmiş əsərlərdə əsas mətləb milli mübarizənin qələbəsini nümayiş etdirmək olub.

**525-ci qəzet**. - 2022. - 20 yanvar. - № 11. - S. 12.

# 20 Yanvar: ilhaq üzərində qələbə günü

**Səbinə Xasayeva,**
Milli Məclisin deputatı

Azadlıq istəyi ruhdan gəlir.

Azadlıq ruhun dünyaya salamıdı. Bu salamın qətiyyəti tarixin dünənləri ilə mücadilənin sonluğudu...

Xalqımızın azadlıq, müstəqillik mübarizəsinin tarixi azadlıq, müstəqillik niyyəti ilə yaşıddır. Heysiyyəti siyasətin ayaqları altında qalan dünya riyakarlığa boyun əydi. 1813-cü ildə Gülüstan, 1828-ci ildə Türkmənçay müqavilələri Azərbaycanın dövlətçiliyini parçaladı. Mənə elə gəlir ki, "o tay", "bu tay" istilahları həmin vaxtlardan yaranıb. Həmin vaxtlardan siyasət qələmi Azərbaycanın xəritəsinin rənglərini dəyişdi. Xalq şairi Bəxtiyar Vahabzadənin "Gülüstan" poemasında deyildiyi kimi, Azərbaycanı ikiyə böldülər... Ancaq xalqın müstəqillik istəyinin üstündən siyasət yelləri əsdirməyi bacarmadılar. 1918-ci ildə Şərqdə ilk demokratik cümhuriyyət yarandı - Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi və dünya üçrəngli bayrağın işığında dərk etdi ki, yaşarı ruha, bəşəri ruha məğlubiyyət yoxdu...

Zülm, istibdad həmişə bəşəriliyə, dünyəviliyə düşmən kəsilib. Gec-tez xeyirin qalib gələcəyini bilsə də, gec-tez "siyasət kəndirinin kəsiləcəyinə" şübhəsi olmasa da tarixin sabahlarını tarixin bu günlərinə qurban verməyə meyillənib. Və "əli daş altında qalanda" ayılıb...

Rus imperiyası kimi...

Azərbaycanda milli-azadlıq hərəkatı genişlənmişdi. Bu hərəkatı dünya üzünə Ermənistanın Azərbaycanda torpaq iddiası çıxartdı. Bu hərəkat imperiyanın qadağalarına məhəl qoymadı, Sibir xofundan, Lefortovo sıxıntılarından çəkinmədi. Milli-azadlıq hərəkatı ermənliyi dəstəkləyən Mərkəzə yönəldildi. Xalq iki cəbhənin əsgəriydi, xalq torpaqlarımıza göz dikənlərlə mübarizə aparırdı (döyüşürdü - silahla), torpaqlarımıza göz dikənlərə havadarlıq edən imperiya ilə də mübarizə aparırdı (ruhun dönməzliyiylə). İmperiya Azərbaycanda milli-azadlıq hərəkatından nəinki çəkinirdi, qorxurdu da. Qorxurdu ki, bu hərəkat SSRİ deyilən xalqlar həbsxanasının divarlarını çökdürər. Ona görə imperiyalıq xislətinə görə, bu hərəkatı məhv etməyə görə, Azərbaycanın tarixin sabahlarına aparan yolunu yarıda qırmağa görə, göylərdən endirdiyi bayrağın bir daha yüksəlməsinə imkan vermək istəmədiyinə görə...

Moskva Bakıya qoşun yeritdi. Bu, imperiyalara xas olan cəzalandırma niyyəti idi. Xalq imperiyanın bu niyyətini qətiyyəti ilə qarşıladı - çəkinmədən, qəzəb dalğası ilə. Silahsız insanlara qarşı döyüş texnikaları ilə, müxtəlif növ atıcı silahlarla, gözyaşardıcı silahlarla gələnlər təkcə əmri yerinə yetirmədilər, həm də azadlıq, müstəqillik mücahidlərinin təmsil etdiyi xalqa sevgisi olmayanların niyyətini həyata keçirdilər. 19 yanvar gecəsi Azərbaycan televiziyasının enerji blokunu partlatdılar ki, xalq gözlənilən təhlükədən xəbər tuta bilməsin, qırğın çox olsun. Bu, imperiyanın xislətinin yerinə yetirilməsində vəsilə oldu. O gecə atılan güllələr yüzlərlə dinc sakini yaraladı. O gecə yaralıları xəstəxanalara aparan "Təcili yardım" maşınları da güllələnirdi, evinin eyvanına çıxanlar da, evinə tələsənlər də. O gecə xalqın ruhu imperiyanın qəddarlığı ilə döyüşürdü - ruhun dönməzliyi ilə, mübarizənin dönməzliyi ilə, tarixin axarını dəyişmək niyyətinin dönməzliyi ilə.

İmperiyanın göndərdiyi ordu hissələrinin dünyəvilik, bəşərilik xisləti əmr verilən andan dondurulmuşdu.

Larisa Məmmədovanı kim unudar, kim? Ona güllə atanın özü də unuda bilməyəcək, qatilin valideynləri də; qəddarlıq onları son nəfəsinə kimi təqib edəcək. Məktəbli Larisanın o vaxtki yaşıdları indi anadı, bəlkə də nənədi. Ancaq Larisa əbədiyyən 12 yaşda qalacaq.

20 Yanvar faciəsində 131 nəfər həlak oldu, 144 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs edildi. Azərbaycan poeziyasının tribun şairi Xəlil Rza Ulutürk də həbs edildi. Onun "Azadlığı istəmirəm qram-qram.." şeiri bütün mücahidlərin mübarizə şüarı idi:

**Azadlığı istəmirəm qram-qram,**
**Qolumdakı zəncirləri**
**gərək qıram, gərək qıram...**

1990-cı il yanvarın 21-də böyük tarixi şəxsiyyət Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyi qarşısında çıxış edərək imperiyanın törətdiyi qırğınlara siyasi qiymət verdi, faciənin günahkarlarının cəzalandırılmasını tələb etdi. Bu böyük cəsarət də - tarixin axarına qarşı çıxmaq da imperiyanı qorxutdu, ən böyük azərbaycanlının bu çıxışının mahiyyətinin səmtini dəyişməyə cəhd göstərdi, ancaq bunu

bacarmadı, dünya ictimaiyyəti böyük tarixi şəxsiyyətin tarixi çıxışını imperiya xislətinə, bu xislətin timsalında imperiyanın özünə ölüm hökmü bildi...

Rus imperiyası Bakıda faciə törətmişdi. Unutmuşdu ki, Tofiq Fikrət demişkən, "Zülmün topu var, gülləsi var, qəlpəsi varsa, haqqın da bükülməz qolu, dönməz üzü vardır." Xalqın mübarizə əzmi tarixin üstünə yeriş etdi. İmperiyanın ilhaq zənciri Azərbaycanda qırıldı. 1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi - müstəqillik haqqında Konstitusiya Aktı qəbul olundu.

20 Yanvar faciəsi tarixin müstəvisində həmişə zülm mexanizmi olmaq etibarilə imperiyanın qəddarlığı kimi lənətlənəcək, Azərbaycan xalqının milli ruhunun dönməzliyi kimi qürurla xatırlanacaq.

Ümummilli lider Heydər Əliyev demişdi: "Mən bu faciəyə həmişə ürəkdən yanaraq həm də vətəndaşlıq borcumu yerinə yetirməyə çalışmışam və bu gün də həmin mövqedəyəm, sabah da həmin mövqedə olacağam. Birinci növbədə, ədalət naminə, eyni zamanda, Azərbaycan xalqının namusunu, şərəfini, milli mənliyini qorumaq naminə". Bu kəlamlar tarixi faciəyə tarixi şəxsiyyətin münasibəti kim dinlənildi və dərk edildi. Ulu öndər bu faciənin mahiyyətini imperiyanın milli-xəlqi ruhun müstəqillik mübarizəsi qarşısında acizliyi kimi xarakterizə edirdi və bu, imperiyanın timsalında imperiyaların xarakterinə verilən ən dürüst, siyasi baxımdan ən mükəmməl qiymət idi. İstər Mockvada Azərbaycanın daimi nümayəndəliyi qarşısında çıxışında, istərsə də sonralar dedikləri bu faciənin ideoloji təşkilatçısı olmuş Mixail Qorbaşovun etirafına səbəb olmuşdu...

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsinə ilk siyasi qiymət verən 21 noyabr 1990-cı il tarixli qərar qəbul etdi. Ümummilli liderimizin təşəbbüsü və göstərişləri ilə 1994-cü ilin mart ayının 29-da parlament "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" Qərar qəbul etdi. Beləliklə də, 20 Yanvar faciəsi məhz Ulu öndər Heydər Əliyevin prinsipial və ardıcıl mübarizəsindən sonra öz siyasi-hüquqi qiymətini aldı. Dünya dövlətləri gördü ki, xalq bu faciəni həm də qürur tarixi bilir. Xalqın şəhidlikdən keçən mübarizəsi dövlət müstəqilliyinin bərpasının siyasi qarantı oldu. Dünya onu da gördü ki, bu xalq yaranışından azadlıq, müstəqillik cəfakeşi olub. Xalq müstəqilliyi naminə şəhid olanları son mənzilə ehtiramla uğurladı, indi Azadlıq Meydanı adlanan meydandan Dağüstü parka kimi çiyinlərdə aparıldı, şəhərin ucalığında dəfn edildi. İndi ora Şəhidlər xiyabanı adlanır. Təkcə 20 Yanvar günü deyil, ilboyu Şəhidlər xiyabanına ziyarətə gələnlər azalmır. 20 Yanvar faciəsini görən yaşlılar da gəlir, o faciə ilə yaşıd olanlar da, o faciədə şəhid olanların övladları da, nəvələri də.

Şəhidlər xiyabanındaydım.

Nə gələnlər gedənlərə baxırdı, yerişini hiss edirdi, nə gedənlər gələnlərə baxırdı, ayaq səslərini eşidirdi. Obrazlı şəkildə desək, hamı şəhidlərin daşlaşmış baxışlarına ürəyinin gözü ilə baxırdı. Mənəvi borcunun bir zərrəsini ödəyənlər də, ödəməyə gələnlər də 32 il əvvəlin bir qış gecəsini son nəfəsiylə isidən şəhidlərimizə and içib keçirdilər: Sizin apardığınız mübarizə Azərbaycanın dövlət müstəqilliyinin bərpası ilə nəticələndi. Biz bu müstəqilliyi varlığımızla qoruycağıq! Sizin mübarizə yolunuz əbədiyyətə çatacaq. 20 Yanvardan başlanan yol hər birimizin ürəyindən keçir... Şəhidlər xiyabanında ruhən şəhidlərə xitabən deyirik: Azərbaycanın dövlət müstəqilliyi bərpa olundu. Sizdən sonra Ermənistan elan etmədən Azərbaycana qarşı müharibəyə başladı. İşğalçı dövlət havadarlarının hərbi yardımı ilə torpaqlarımızın 20 faizini işğal etdi. 2020-ci il noyabrın 8-də müzəffər ordumuz sentyabrın 27-də başlayan Vətən müharibəsini Zəfərlə başa çatdırdı. Azərbaycan Ordusu bu Zəfəri sizin ruhunuza gözaydınlığı bildi....

Müstəqilliyimizin, azadlığımızın şəhidləri - 20 Yanvar faciəsində şəhid olanların hər biri hər birimizin əzizidi.

Birinci Qarabağ müharibəsində döyüşənlər 20 Yanvar şəhidlərinin ruhunu da sıralarında bilirdi. 20 yanvar şəhidlərinin oğulları, qardaşları döyüşürdü. Vətən müharibəsində 20 Yanvar şəhidlərinin oğulları da döyüşürdü. Neçəsi şəhid oldu. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin sərkərdəliyi ilə Vətən müharibəsi Zəfərlə başa çatdı. Müharibə itkisiz olmur. Vətən müharibəsində şəhid olanlar 20 Yanvar faciəsində şıhid olanların amalının davamçıları idi. Onlar da işğalı sonlandırmaq, torpaqlarımızı işğaldan azad etmək üçün mərdliklə döyüşürdü. Vətən müharibəsində şəhid olanların da ruhu əbədiyyən xalqın ruhunda yaşadılacaq. Ölkə başçısı Vətən müharibəsində şəhid olanları ehtiramla xatırlayaraq dedi:

"...Biz bu qələbəyə görə onlara borcluyuq. Onlar torpaqlarımızı işğalçılardan qarış-qarış azad edib, onlar bizim bayrağımızı işğal edilmiş və işğaldan azad edilmiş torpaqlarda qaldırıb, bayrağımızı orada dalğalandırıb. Bu, bizim hamımızın qələbəsidir, bütün Azərbaycan xalqının. Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır". Bu ehtiram 20 Yanvar şəhidlərinə də ünvanlanır...

Bu mübarizə də, 20 Yanvar hadisələri də sonrakı dövrlərdə müxtəlif mübarizələrin ruhunu müəyyənləşdirdi. 20 Yanvar faciəsi minillik dövlətçilik tarixinə malik olan Azərbaycanın dövlətçiliynə

sədaqətin bir mərhələsi kimi yaşadılır, yaşadılacaq da. "Mən azərbaycanlıyam!" deyənlərin də, Azərbaycana sevgisi olanların da milli-xəlqi ruhunun ehtiramı ilə əhatələnir, əhatələnəcək də!..

20 Yanvarı həm də xalqımızın mübarizələr tarixinin ilhaq üzərində qəti qələbəsi tarixi kimi yaşadacağıq...

**525-ci qəzet**. - 2022. - 20 yanvar. - № 11. - S. 7.

## Azadlığın və müstəqilliyin şərəfli yolu

**Habil Qurbanov,**
AMEA Azad Həmkarlar İttifaqının sədri, hüquq üzrə elmler doktoru, professor

Azərbaycan dövləti və xalqı həmişə azadlığı və müstəqilliyi uğrunda mübarizə aparmışdır. Lakin XX əsrin əvvəllərində ermənilər onları dəstəkləyən regional və beynəlxalq güclərin dəstəyi ilə Azərbaycan xalqına qarşı irqi, dini ayrı-seçkilik siyasəti yürüdülmüş, torpaqlarımız işğal edilmiş, soydaşlarımız tarixi Azərbaycan torpaqlarından köçürülmüş, türk-müsəlman xalqlarına qarşı etnik təmizləmə aparılmış və soyqırımı həyata keçirilmişdir.

Ötən əsrin sonlarında başlayan milli ədavətin ilk qurbanları Ermənistanda yaşayan azərbaycanlılar oldu. 1988-ci ilin yanvarında Qafan və Mehridən ilk qaçqınlar Azərbaycana pənah gətirdilər. 1988-ci il fevralın 19-da İrəvanda “Ermənistan türklərdən təmizlənməli!”, “Ermənistanda yalnız ermənilər yaşamalıdır” kimi mənfur şüarlarla mitinqlər keçirilirdi. Elə həmin gün Bakıda da bu təxribatlara etiraz olaraq kütləvi mitinq təşkil olundu. 1988-1989-cu illərdə Ermənistan ərazisində azərbaycanlılara qarşı son etnik təmizləmə həyata keçirildi. Beləliklə, Ermənistandakı 185 Azərbaycan kəndindən 230 min azərbaycanlı zorla qovuldu.

Deportasiya zamanı 255 nəfər öldürüldü, 1200 adam yaralandı, 31 min ev, 165 kolxoz və sovxozun əmlakı talan edildi. Bu olaylara Moskva göz yumur, M.Qorbaçov məkrli bəyanatlar verir, Azərbaycanın ozamankı rəhbərləri isə səriştəsiz mövqe nümayiş etdirirdilər.

1989-cu ilin sonu, 1990-cı ilin yanvarında Azərbaycanda ictimai-siyasi vəziyyət xeyli kəskinləşdi, qarşıdurma dərinləşdi, mövcud iqtidarın hadisələrə nəzarəti son dərəcədə zəiflədi.

1990-cı ilin yanvarın ortalarında SSRİ Müdafiə və Daxili İşlər Nazirliklərinin və digər xüsusi təyinatlı hərbi birləşmələrin 66 min nəfərdən çox əsgər və zabiti Bakı şəhərinə gətirilərək, şəhərin Qala və Nasosnu (indiki Z.Tağıyev qəsəbəsi) aerodromlarında, Respublika stadionunda, Salyan kazarmasında yerləşdirilmişdi. Azərbaycana göndərilən SSRİ ordu hissələrinin tərkibinə Stavropol, Rostov və Krasnodardan səfərbər edilmiş erməni zabit və əsgərləri, hərbi məktəblərdə təhsil alan erməni kursantları da cəlb edilmişdi. 15 yanvar 1990-cı ildə M.Qorbaçov DQMV-də və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzalamış, həmin fərmanın 7-ci bəndində Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinə Bakı və Gəncə şəhərində və digər yaşayış məntəqələrində qadağan saatı tətbiq edilməsi də daxil olmaqla, hər cür lazımi tədbirlər görmək təklif edilmişdi.

1990-cı il yanvarın 18-də paytaxt Bakıda və Azərbaycanın digər on bir rayonunda keçirilən izdihamlı mitinqlərdə ümumi tətilin başlandığı elan olundu. Bu tətillərdə tələb edilirdi ki, Ermənistan öz ərazi iddialarına son qoysun və Bakı ətrafında cəmləşən qoşunlar Dağlıq Qarabağa, Ermənistanla sərhədyanı rayonlara göndərilsin. Hakimiyyət orqanlarına xəbərdarlıq edilirdi ki, qadağan saatının qoyulması ağır nəticələr verə bilər.

SSRİ Ali Sovetinin Rəyasət Heyəti yuxarıda qeyd olunan fərmanın ziddinə olaraq 1990-cı il yanvarın 19-da Azərbaycan SSR Ali Sovetinin hüquqi qüvvəsi olmayan 15 yanvar tarixli saxta qərarına əsasən, yanvarın 19-dan 20-nə keçən gecədən etibarən “Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında” fərmanı imzalamaqla keçmiş SSRİ-nin rəhbəri M.Qorbaçov İttifaq Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozmuşdu.

Yanvarın 19-da SSRİ DTK-nın “Alfa” qrupu və respublika DTK-nın rəhbərliyi tərəfindən təşkil edilən əməliyyat nəticəsində televiziyanın enerji bloku partladılmışdı ki, Bakıda fövqəladə vəziyyət elan edilməsi və qoşunun şəhərə girməsi barədə əhaliyə rəsmi məlumat çatdırılmasın. Həmin gecə Bakıda 26 yerdə piketlər, barrikadalar qurulmuş, şəhərdəki 60 qoşun hissəsindən 34-nün, o cümlədən, Salyan kazarmasının giriş-çıxış yolu kəsilmişdi. Yanvar hadisələri zamanı Bakıya yeridilən hərbi qruplaşmanın tərkibinə 76, 104, 106-cı qvardiya hava-desant diviziyalarının üç polku, 295-ci motoatıcı diviziya, xüsusi təyinatlı 22-ci briqada, Qara dəniz donanması dəniz piyadalarının 882-ci batalyonu, DTK-nın 7-ci idarəsinin xüsusi təyinatlı “Alfa” qrupu və digər hərbi hissələr daxil idi.

Fövqəladə vəziyyətin yanvarın 19-dan 20-nə keçən gecə tətbiq edilməsinə baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat 21-dən etibarən ilk olaraq Türkan-Qala tərəfdən şəhərə yeridildi. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də Respublika radiosu ilə çatdırıldı. Halbuki SSRİ rəhbəri Mixail Qorbaçovun 15 müttəfiq respublikadan biri olan

Azərbaycana ezam etdiyi yüksəkvəzifəli emissarlar həyasızcasına bəyan edirdilər ki, Bakıda fövqəladə vəziyyət elan olunmayacaq.

Qanlı Yanvar faciəsində sovet qoşunlarının respublikamıza qanunsuz yeridilməsi nəticəsində Bakıda və Azərbaycanın rayonlarında 147 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuş, onlardan 112 nəfəri SSRİ-nin müxtəlif şəhərlərinə aparılaraq həbsxanalarda saxlanılmışdı. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları dağıdılmış, alovlandırıcı güllələrin törətdiyi yanğınlar nəticəsində külli miqdarda dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdi. Dövlət, ictimai və şəxsi əmlaka həmin dövrün qiymətləri ilə 5.637.286 rubl miqdarında maddi ziyan vurulmuşdu.

20 Yanvar faciəsindən sonrakı günlərdə dəfn mərasimi və daha sonra 23 yanvarda Azadlıq meydanında böyük mitinq olmuşdu. Mitinqdə Salyan kazarmasında sovet ordusuna qarşı vuruşanların sayı barədə məlumat verilmişdi: 274 azərbaycanlı, 64 gürcü, 52 çeçen, 27 ləzgi, 30 özbək, 5 rus.

Qara Yanvar faciəsinin indiyədək özündə saxladığı sirlər çoxdur. 100 cildlik istintaq materialının 69 cildi Bakıdan Moskvaya, keçmiş SSRİ Prokurorluğuna aparılıb və bir daha geri qaytarılmayıb.

20 Yanvar faciəsinə ilk etirazı Heydər Əliyev bildirmişdi. Belə ağır, çətin günlərdə dünyanın susduğu bir zamanda bu sükutu da ilk pozan Ulu Öndər Heydər Əliyevin haqq, ədalət tələb edən möhtəşəm və cəsarətli səsi olmuşdu. Heydər Əliyev hadisənin səhəri günü Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gəlmişdi. Qeyd edək ki, həmin ərəfədə cənab İlham Əliyev də onunla birlikdə mətbuat konfransında iştirak etmişdi. Ulu Öndər bu mətbuat konfransında həm Azərbaycan xalqına başsağlığı vermiş, həm də bütün dünyaya bu faciə haqqında bəyanat vermişdi.

“The Guardian” qəzeti 22 yanvar 1990-cı ildə yazırdı: “Yanvarın 20-də və 21-də təşkil edilən yürüşlər, 22-də keçirilən kütləvi dəfn mərasimi hər cür mitinqləri qadağan edən fövqəladə vəziyyətə qarşı açıqdan-açığa meydan oxumaqdır. Şəhidlər xiyabanında keçirilən dəfn mərasimi “Moskva” mehmanxanasının yuxarı mərtəbələrində yerləşdirilmiş xüsusi nəzarətçilər və snayperlər tərəfindən diqqətlə izlənilirdi. Bütün sərt maneələrə və təhlükəli nəzarətə baxmayaraq, qeyrətli insanlar şəhidlərin xatirəsinə layiq dəfn mərasiminin keçirilməsinə nail oldular”.

Bu dəhşətli hərbi əməliyyatı 70 illik imperiya əsarətindən qurtulmaq üçün ayağa qalxmış Azərbaycan xalqının coşqun mübarizə əzminin imperiyanın qəlbində yaratdığı qorxu xofunun nəticəsi kimi də izah etmək olar. Ordunun şəhərə hücumu zamanı günahsız insanların vəhşicəsinə güllələnməsi, tankların adamları öz tırtılları altında əzib keçməsi, qışın soyuq, şaxtalı gecəsində tonqallar ətrafında qızınan dinc azərbaycanlıların üzərinə hücuma keçərək cəsədlərini tanınmaz hala salması bütün dünya ictimaiyyəti tərəfindən daim nifrət və qəzəblə qarşılanıb pislənməlidir.

**Azərbaycan**. - 2022.- 21 yanvar. - № 13. - S. 5.

## Qəhrəmanlıq və iftixar tariximiz

**Müşfiq Məmmədli,**
Milli Məclisin deputatı

Tariximizə qanlı Yanvar faciəsi kimi daxil olmuş 20 Yanvar hadisələrindən otuz iki il ötür. Xalqımızın haqq-ədalətin bərqərar edilməsi uğrunda səsini ucaldaraq imperiya buxovlarından birdəfəlik qurtulmağa can atmasından təşvişə düşən SSRİ rəhbərliyi həmin gün Azərbaycanda müdhiş cinayətə əl atdı.

Bakıda və respublikamızın regionlarında həyata keçirilmiş hərbi təcavüz nəticəsində dinc əhaliyə divan tutuldu, xalqımıza qarşı qətliam həyata keçirildi.

Bu hadisə milli haqqı uğrunda ayağa qalxan xalqımızı öz yolundan döndərmədi, əksinə, onu yumruq kimi birləşdirdi, daha sıx həmrəy etdi. Bu mənada tariximizə həm də milli qürur günü kimi həkk olunan 20 Yanvar hadisələri azadlığı uğrunda mübarizə aparan Azərbaycan xalqının məğrurluğunu, vətənpərvərliyini dünyaya, o cümlədən ovaxtkı SSRİ rəhbərliyinə aydın şəkildə çatdıra bildı. Həmin gün baş verənlər Azərbaycan adlı bir dövlətin varlığını bir daha dünyaya bəyan etməklə yanaşı, həm də sovet imperiyasının çöküşündə əsas amillərdən biri oldu.

Xalqımıza və insanlığa qarşı törədilən cinayət nəinki keçmiş Sovet İttifaqında, o cümlədən bir çox ölkələrdə geniş əks-səda doğursa da, o zaman yerli hakimiyyət orqanları baş verənlərin üzərindən sükutla keçdilər. Çünki xalqımıza qarşı törədilənlərə laqeyd münasibətlərini ortaya qoyaraq sovet rəhbərliyinin qəzəbinə tuş gəlmək istəmirdilər. O ağır və faciəli günlərdə Azərbaycan xalqına qarşı soyqırımı aktının həyata keçirildiyini ilk olaraq cəsarətlə bütün dünyaya bəyan edən Heydər Əliyev oldu. Heydər Əliyev vətəndaş qeyrəti və həqiqi vətənpərvərlikdən doğan cəsarətli bəyanatı ilə dünya azərbaycanlılarını ayağa qaldırdı, xalqın siyasi iradəsini ifadə etdi. Baş verən hadisələri hüquqa, demokratiyaya, hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edən Heydər Əliyev yüzlərlə insanın qətlə yetirilməsini Azərbaycan xalqına qarşı cinayət adlandıraraq hadisəyə siyasi qiymət verilməsini tələb etdi.

Qanlı Yanvar hadisələri milli kimliyin formalaşmasına həlledici təsir göstərdi, dövlət müstəqilliyinin bərpa edilməsində dönüş nöqtəsi oldu. 1990-cı ilin yanvarından sonra milli azadlıq hərəkatı tam siyasi reallığa çevrildi, dönməz xarakter aldı, xalqımız öz gələcəyini yalnız Azərbaycanın müstəqilliyini bərpa etməsində gördü. Bu hadisədən sonra Azərbaycanda sovet imperiyası özünün bütün mənəvi və sosial dayaqlarını itirdi və tezliklə xalqımız dövlət müstəqilliyini bərpa etdi.

Sovet hakimiyyəti dövründə məlum səbəblərdən 20 Yanvar faciəsinə əsl qiymətini vermək mümkün deyildi. Lakin Ulu Öndər Heydər Əliyev hələ sovet hakimiyyəti dövründə böyük cəsarətlə Naxçıvan Ali Məclisində 20 Yanvar faciəsinə siyasi qiymətin verilməsinə nail oldu. Ulu Öndərin hələ totalitar rejimin dövründə başlatdığı bu işi müstəqilliyimizin ilk illərində hakimiyyətdə olanlar dövlət səviyyəsində davam etdirmədilər. Hələ sovet dövründə 20 Yanvar hadisələrinə siyasi qiymət verilməsi tələbi ilə dəfələrlə çıxış edən AXC hakimiyyətə gəldikdən sonra bu mövzunu unutdu, iqtidarda olduğu dövrdə faciəyə siyasi qiymət vermək üçün cəhd belə göstərmədi. 1993-cü ilin yayına qədər Azərbaycana rəhbərlik edən şəxslərin heç biri bu faciə ilə bağlı əsl həqiqəti aşkar etməyə özündə cəsarət tapmadı.

1993-cü ildə xalqın tələbi ilə hakimiyyət sükanının arxasına keçən Ulu Öndər 20 Yanvar faciəsinin günahkarlarının araşdırılmasına xüsusi diqqət ayırdı. Heydər Əliyevin "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" fərmanında Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verməsi tövsiyə olundu. Milli Məclisin 1994-cü il martın 29-da qəbul etdiyi qərarda 20 Yanvar faciəsinin günahkarları konkret qeyd olundu və bu qanlı aksiya Azərbaycanda milli azadlıq hərəkatını boğmaq, xalqın inamını, iradəsini qırmaq üçün totalitar kommunist rejimi tərəfindən törədilmiş hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. Bununla da 20 Yanvar hadisəsi dövlət səviyyəsində siyasi-hüquqi qiymətini aldı, bu cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı.

zərbaycan xalqı 20 Yanvar şəhidlərinin xatirəsini hər zaman yüksək ehtiramla anır. Ulu Öndər Heydər Əliyev tərəfindən 1998-ci ildə "20 Yanvar şəhidi" fəxri adı təsis edilib. Ulu Öndər Heydər Əliyevin yolunu uğurla davam etdirən Prezident İlham Əliyevin təşəbbüsləri sayəsində 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslər və şəhid ailələri üçün effektiv sosial müdafiə sistemi formalaşıb. Həmçinin Şəhidlər xiyabanında yüksək səviyyədə təmir və yenidənqurma işləri aparılıb, paytaxtın "20 Yanvar" dairəsində şəhidlərin xatirəsinə memorial abidə kompleksi ucaldılıb.

Azərbaycan xalqı öz qəhrəman övladlarının fədakarlığını yüksək qiymətləndirərək hər il yanvarın 20-də onların xatirəsini dərin ehtiramla yad edir. Hər il dövlət səviyyəsində geniş tədbirlər planı hazırlanaraq həyata keçirilir, qanlı qırğının ildönümü respublikanın bütün şəhər və rayonlarında qeyd olunur. Vətənin azadlığı, suverenliyi uğrunda özlərini qurban verən şəhidlərin xatirəsi həmişə qəlbimizdə yaşayacaq.

**Azərbaycan.** - 2022.- 21 yanvar. - № 13. - S. 4.

## Xalqımızın qürur salnaməsi

**Könül Nurullayeva,**
Milli Məclisin deputatı

Ötən il müstəqilliyimizin bərpasının 30-cu ilini geridə qoyduq. Tarixi dövr baxımından elə də böyük olmayan bu zaman kəsiyində respublikamız sürətli inkişaf yolu keçib, dünyada öz yerini möhkəmləndirib.

Ancaq dönüb arxaya baxanda müstəqilliymizin bərpasına gedən yolun heç də hamar olmadığını görürük. Digər ölkələrdən fərqli olaraq respublikamızı bu müstəqilliyə, azadlığa aparan yolda qanlar tökülüb, şəhidlər verilib.

1990-cı ilin 20 Yanvar hadisələri xalqımızın istiqlaliyyət yolunun ilk şəhidlik məqamı sayılır. Sovet rəhbərliyi milli maraqlarımızı təmin edə bilməyən Azərbaycanın rəhbərlərinin istefası tələbinə və ermənilərin Dağlıq Qarabağla bağlı iddialarına etirazına görə xalqımızı cəzalandırmaq üçün Qanlı Yanvar qırğınını törətdi. Lakin bu hadisə xalqımızın qəddini sındıra bilmədi.

32 il əvvəl Bakıya və respublikamızın bir sıra rayonlarına sovet ordu hissələrinin qanunsuz yeridilməsi, qətliam törədilməsi, dinc əhalinin öldürülməsi totalitar sovet rejiminin mövcud olduğu dövr ərzində törətdiyi ən qanlı aktlardan biri, insanlığa qarşı yönəldilmiş cinayət idi. Həmin vaxt faciənin baş verməsində məsuliyyət daşıyan Azərbaycanın rəhbərliyində təmsil olunanlar qırğından sonra da susmağa üstünlük verdilər. Yalnız Heydər Əliyev heç bir təhlükədən çəkinməyərək sovet hakimiyyətinin bu əməlinə ilk olaraq etiraz səsini ucaltdı. 1990-cı il yanvarın 21-də sovet rejiminin qadağalarına rəğmən, həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələn Ulu Öndər Heydər Əliyev qanlı faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında ittiham etdi. Heydər Əiyev cəsarətli və tarixi bəyanat verərək əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu bildirdi, faciənin baş verməsində SSRİ və respublika rəhbərlərinin məsuliyyət daşıdığını dünyaya çatdırdı.

20 Yanvar hadisələri xalqımızın müstəqillik arzusunu daha da gücləndirdi, istiqlal mücadiləsini yeni mərhələyə yüksəltdi. Eyni zamanda bu faciə sovet dövlətində mərkəzdənqaçma proseslərini sürətləndirdi və tezliklə SSRİ adlı dövlət milli-siyasi proseslərin məntiqi nəticəsi kimi süquta uğradı.

1990-cı ilin yanvarından sonra Azərbaycanın rəhbərliyi 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilməsindən uzaq oldu. İlk dəfə olaraq Moskvadan Vətənə qayıdan Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabr ayının 21-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin qərarı ilə 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verildi.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra hakimiyyətdə olan siyasi qruplar 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi və hüquqi qiymətin verilməsinə cəhd göstərmədilər. Baxmayaraq ki, Naxçıvanda bununla bağlı ilk addım atılmışdı, müvafiq qərar qəbul edilmişdi. Bu məsələdə də məhz Heydər Əliyev milli təəssübkeşlik nümunəsi ortaya qoydu. Xalqın istək və tələbi ilə hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ilin mart ayında Milli Məclis tərəfindən “1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında” adlı xüsusi qərar qəbul edildi. Beləliklə, Ulu Öndər Heydər Əliyevin təkidi və təşəbbüsü sayəsində xalqımıza qarşı törədilən qanlı və qəddar aksiyaya dövlət səviyyəsində hüquqi-siyasi qiymət verildi.

Respublikamızda 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsinə daim böyük diqqət yetirilib, Şəhidlər xiyabanında “Əbədi məşəl” abidə kompleksi ucaldılıb. Ulu Öndər 31 mart 1998-ci il tarixdə “20 Yanvar şəhidi” fəxri adının təsis edilməsi haqqında fərman imzalayıb. Heydər Əliyevin 2000-ci il yanvarın 17-də imzaladığı fərmanla isə 1990-cı ilin faciəli yanvar günlərində şəhid olmuş oğul və qızlarımıza “20 Yanvar şəhidi” fəxri adı verilib.

Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin uca tutulmasına, onların sosial məsələlərinin yoluna qoyulmasına xüsusi diqqət göstərir. Dövlət başçısının fərmanları ilə 20 Yanvar şəhidi ailələrinə dövlət qayğısını artırmaq məqsədilə təqaüd verilir. 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü verilir.

1990-cı il yanvarın 20-də canlarından keçən vətən övladları xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar. Tariximizə həm hüzn, həm də milli qürur günü kimi düşən bu hadisə Azərbaycan xalqının azad və müstəqil yaşamağa layiq olduğunu bütün dünyaya bəyan etdi.

**Azərbaycan. -** 2022.- 21 yanvar. - № 13. - S. 4.

## 20 Yanvar - müstəqilliyə aparan yolun qan və gün yaddaşı

**Elnarə Akimova,**
YAP İdarə Heyətinin üzvü, filologiya elmləri doktoru

20 Yanvar faciəsindən 32 il keçir. Bu 32 ildə çox şey, bəlkə də hər şey dəyişib. Dəyişməyən isə bircə şey olub: həmin qanlı hadisəyə münasibət və onun bizim tarixi taleyimizdə daşıdığı missiya. İndi, bu günlərdən həmin çağlara baxanda çox şey bizə vahiməli görünür. Əslində, bu təəssüratı doğuran zamanın özünün obrazıdır. Bir-birini əvəzləyən kataklik proseslər - 20 Yanvar faciəsi, ondan bir il sonra jurnalist Salatın Əsgərovanın qətli, 20 noyabrda müəmmalı vertalyot qəzası, daha bir il sonra törədilən Xocalı soyqırımı, bir-birini əvəzləyən torpaq itkiləri və s., və i.

Bu faciələrin içində 20 Yanvar ona görə həm də milli özünüdərkin faktı kimi yad edilir ki, bu tarixin özündə yaddaşı oyatmağa yönəlik olan missiya dayanır. İndi, üstündən 32 illik bir zaman fasiləsi ötəndən sonra o günlərə qayıdış edən düşüncəmizin qanadında 20 yanvar gününü daha çox necə simvolizə etmək lazım gələndə düşünürük: bu bir faciə idi, yoxsa özgürlüyümüzün, sarsılmazlığımızın dünyaya sərgiləndiyi gün? Çünki hər bir xalqın tarixi taleyində elə günlər var ki, tökülən qanlara, yaşatdığı acılara rəğmən onun hürriyyət əzmini, mənəvi potensialını ehtiva etdiyindən müqəddəs mehrab kimi yalnız səcdəsinə tapınılır.

**Ölmədik, ölmədik, ey uca Allah,**
**Bu qanlı-qadalı günü də gördük,**
**Biz də sözümüzü ucadan dedik,**
**Biz də bu zamandan bir gün götürdük**

**(Arif Abdullazadə)**

Bu 32 ildə hadisəyə hər cür - siyasi, hüquqi, mənəvi və s. baxış bucaqlarından münasibət sərgilənib. Bəs məlum faciə bizim düşüncəmizə qatdığı hansı çalarlarla xarakterizə olunur? Cavab birmənalıdır: ilk növbədə şəhid obrazı və bu adın ehtiva etdiyi ağrı və qürur simvolikası: şəhid oğullar, şəhid anası, şəhidlər məzarlığı, şəhid şəhər, şəhid şair və s., və i. Bu yerdə bir məqama toxunmaq yerinə düşər. Sanki Sovet dövründə təbliğ olunan bayağı vətənpərvərlik ideyalarının vurduğu əxlaqi-mənəvi zərbənin şüuraltı kompensasiyasının ifadəsi olaraq vətənpərvərlik mövzularından, ümumən ictimai-siyasi tematikadan imtina edən lokal düşüncə 1990-cı illərdən başlayaraq yenidən bu ali mövzuya qayıtmağı vacib bildi. Vətən və vətənpərvərlik anlayışları önə keçdi, vətəndaş cəmiyyətinin göstəricisi hesab olunmağa başladı.

20 Yanvar hadisələrinin tarixi rolunu şərh edən Yaşar Qarayev yazırdı: “Zaman ən kəskin qütblərə onda parçalanır, ən təzadlı eralar bir-birini o vaxt əvəz edir ki, üst-üstə qalanan günlər və qanlar onları bir-birindən eyni vaxtda ayırır. 20 Yanvarda gün və qan bizi keçmişdən və səhvlərdən eyni vaxtda ayırdı”.

Həqiqətən də bu faciə yaşatdığı acı qədər, həm də bir xalqın tanıtım günü idi. Sınmayan qürurunun, sarsılmayan vüqarının ən yayğın atəş, odlu silah qarşısında belə qaya kimi duruşu idi. Ona görə 20 Yanvara biz təkcə qara gün kimi boylanmamalıyıq, həmin gün Azadlığa, Müstəqilliyə doğru gedən yolun təməlini qoydu. Ən başlıcası isə, xalqın özünü dərk etməsinə, öz düşmənini tanımasına stimul oldu.

Maraqlıdır ki, hətta hadisəyə kənar gözlə baxışın sərgiləndiyi məqamlarda belə bu amilin roluna xüsusi önəm verilir. Məsələn, Amerika yazıçı-jurnalisti Tomas De Vallın 2008-ci ildə yazdığı “Qarabağ: Ermənistan və Azərbaycan sülh və savaş yollarında” kitabında müəllif həmin hadisələrə bu cür münasibət izhar edir: “SSRİ tarixində ilk dəfə idi ki, Sovet silahlı qüvvələri Sovet şəhərinə - Bakıya hərbi müdaxilə etdilər. Bu, həm Azərbaycan, həm də Sovet İttifaqı üçün böyük faciə oldu. Ordu hissələri cəmi bir neçə saat ərzində şəhəri tam nəzarətə aldı və Moskvanın hakimiyyəti bərpa edildi. Lakin Moskva məhz elə 1990-cı il yanvarın 20-də Azərbaycanı itirdi”. Bəli, mahiyyətə vardıqda bizim dövlət, xalq kimi müstəqilliyimizin tarixi onun rəsmi olaraq təsdiqləndiyi 1991-ci ilin 18 oktyabrından daha öncə 1990-cı ilin 20 yanvarında qoyulub.

O zaman Moskvada təcrid şəraitində yaşayan, xalqından uzaq salınmış ulu öndər Heydər Əliyev dərin kədər içində, fəqət böyük cəsarətlə, onu gözləyə biləcək təhlükələrə etina etməyərək 21 yanvar tarixində Moskvadakı Azərbaycan Daimi Nümayəndəliyinə gəldi və hadisəni törədənləri ittiham edən nitq söylədi. Bu çıxış Azərbaycan xalqının haqq səsini bütün dünyaya bəyan etməklə bərabər ağır gündə insanların təsəllisinə çevrildi. Heydər Əliyev 19 iyul 1991-ci il tarixli, Moskvaya, ittifaq Nazirlər Soveti partiya təşkilatına

göndərdiyi ərizədə isə ölkəni uçuruma yuvarlatmış ali hakimiyyəti konkret müddəalarla - 1990-cı ilin 20 Yanvar hadisələrinə görə, erməni millətçiliyinə havadarlığına görə, saxta demokratiya oyunları və şəxsiyyətinə qarşı təqiblərə görə geniş ittihamlarla suçlayaraq, Kommunist Partiyası sıralarından çıxdığını bəyan etdi.

Fikrət Qocanın 20 Yanvar şəhidlərindən, İlham və Fərizənin nakam sevgisindən söz açan "Qarlı, qanlı qərənfillər" povestində Heydər Əliyevin həmin illərdə sərgilədiyi cəsarətli mövqe ilə bağlı məlum tarixi epizod yer alır: "Azəri türkləri, türkdillilər Azərbaycan Nümayəndiliyinə gəlmisdilər. Heydər Əliyev xəstə olmasına baxmayaraq, həyatını təhlükə qarşısında qoyub oğlunun, qızının müşayiəti ilə nümayəndəliyə gəlib. Oradajurnalistlər qarşısında çıxış edib. Kommunist Partiyası rəhbərliyini ittiham edib. Heydər Əliyev yaxşı bilirdi Kommunist Partiyası nələr edə bilər, nəyə qadirdi. Ona görə də çıxışının onun özü üçün nə qədər təhlükəli olduğunu yaxşı bilirdi. Bu çıxış partlayışlar görmüş Bakıda möhtəşəm partlayış təsiri bağışlamışdı. Gündüz bir qrup Azərbaycan ziyalıları Akademiyanın binasında yığışıb, vəziyyəti müzakirə etmiş, dünya birliklərinə müraciət qəbul etmişdilər. Bu müraciət dünya dillərinə tərcümə edilib ölkələrə yayılmışdı. Elə gecə ikən qəzetlər çıxmışdı, bu qəzetlərdə törədilmiş cinayəti ifşa edən fotolar çap edilmişdi, çəkilişlər aparılıb, kasetlər xaricə ötürülmüşdü. Bunlar Sovet dövləti daxilində ağlasığmaz islər idi. Məcburi olaraq günün yarısından sonra hərbi maşınlarının təkərləri geri fırlanırdı. Küçələrdə hərbi texnika, əsgər seyrəlirdi. Hiss olunurdu ki, qoşun geri çəkilir, çıxdığı yerə"...

Sonralar ümummilli lider Heydər Əliyev öz çıxışlarında ürək ağrısı və yanğı ilə 20 Yanvar faciəsinə münasibətini belə izhar etmişdir: "Mən bu faciəyə həmişə ürəkdən yanaraq həm də vətəndaşlıq borcumu yerinə yetirməyə çalışmışam və bu gün də həmin mövqedəyəm, sabah da həmin mövqedə olacağam. Birinci növbədə, ədalət naminə, eyni zamanda Azərbaycan xalqının namusunu, şərəfini, milli mənliyini qorumaq naminə".

Bu mövqe Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də hakimiyyətdə olduğu son 18 il ərzində qorunmuş, 20 Yanvar şəhidlərinin xatirəsinin əziz tutulması üçün yüksək diqqət və həssaslıq öz davamını tapmışdır.

20 Yanvar faciəsindən uzaqlaşdıqca onun ağrılarına mənəvi cəhətdən daha həssas, daha yaxın olmağa başlayırıq. Baş verənlərə analitik münasibətin dramatizmi artdıqca müharibənin bəlalarını daha real şəkildə qavrayırıq. Bir incə məqamı da qeyd etmək yerinə düşər. 20 Yanvar hadisələrindən sonra qeyd etdiyimiz kimi, ard-arda sıralanan faciələrimizin miqyası o qədər böyük və çeşidli oldu ki, 20 Yanvar mövzusu daha qlobal, vüsətli səciyyə alaraq müharibə mövzusu ilə əvəzləndi, ümumən Qarabağ probleminin içində əriməyə başladı. Amma bütün hallarda milli qürur və şərəf tarixi kimi Zəfərə aparan yolun müqəddəratına çevrilmək statusu qazandı.

20 Yanvar hadisəsi Vətən üçün ölməyin, can nisar etməyin nümunəsini göstərdi. Bu qanlı gündə şəhid olan gənc Ülvi Bünyadzadənin bir şeiri var. Bu şeirdə yalnız 20 Yanvar günü sinəsini güllələrə sipər edən mərd oğullarımızın deyil, həm Birinci Qarabağ savaşında həlak olan, həm də 44 günlük İkinci Qarabağ müharibəsində böyük Zəfərimizlə tarix yazan qəhrəman əsgərlərimizin hər zaman diri qalan ruhları görünür. Bizi sabahlı gələcəyə və əbədi zəfərə inandırır.

**Qarabağdı mənim dinim-imanım,**
**O torpağın**
**nişanəsi,**
**iziyəm.**
**Məni belə**
**aciz görmə qəbirdə,**
**Qəbirdə də**
**Qarabağın özüyəm!**

**İki sahil.-**2022.-20 yanvar.-№11.-S.5.

## Qanlı Yanvar faciəsinin Naxçıvanda yazılan ilk səhifələri

**Emin Şıxəliyev,**
AMEA Naxçıvan Bölməsi Tarix elmləri doktoru, dosent

Tarixi reallıqlar dəfələrlə sübut edib ki, nəhəng imperiyaların süqutu və xalqların milli azadlıq, istiqlaliyyət kimi müqəddəs ideallara qovuşması qərinələrlə davam edən mübarizənin zirvə mərhələsində baş verir. Bu baxımdan yola saldığımız ötən əsrin 80-90-cı illərində keçmiş Sovetlər İttifaqında iqtisadi-siyasi sistemin kifayət qədər böhranlı vəziyyətə düşməsi, ideoloji əsasda barışmazlığın güclənməsi, müttəfiq respublikalarda müstəqillik və milli dövlətçilik ideyalarının güclənməsinə rəvac verdi. Həmin dövrlərdə Azərbaycanda milli-azadlıq hərəkatının geniş vüsət almasına təcavüzkar Ermənistanın ərazi iddiaları ilə yanaşı, nəhəng imperiyanın süqutu və Soyuq müharibənin başa çatması kimi qlobal geosiyasi proseslərin təsirini də xüsusilə qeyd etmək lazımdır. Bu proseslər fonunda Azərbaycan xalqının istiqlala bağlılığı, müstəqil dövlətçilik hissləri digər müttəfiq respublikalara nisbətən daha impulsiv və bariz şəkildə özünü göstərdi. Amma müstəqilliyə qovuşmaq Azərbaycan üçün asan olmadı. Digər Sovet respublikalarından fərqli olaraq Azərbaycan xalqının azadlıq istəyi olduqca ağrılı, qanlı və həm də şərəfli hadisələr fonunda gerçəkləşdi. Onu da qeyd edək ki, Azərbaycan xalqı istiqlaliyyət ideyasını uzun illər boyu özündə yaşatmışdı. 71 illik totalitar rejim xalqımızın milli özünüdərkinə müəyyən qədər təsir etsə də, bu dirçəlişin qarşısını tam anlamıyla ala bilməmişdi.

XX əsrdə sovet ordusu iki dəfə – 1920-ci ilin aprelində və 1990-cı ilin yanvar ayında Azərbaycana silah gücüylə daxil oldu. 1920-ci il istilası ilə əlaqədar olaraq Azərbaycan tarixşünaslığında belə bir vahid şüar hökm sürürdü ki, Azərbaycanda hakimiyyət uğrunda aparılan mücadiləyə XI Qızıl Ordunun müdaxiləsi yalnız dünya proletariatı prinsiplərindən qaynaqlanırdı. Yəni Rusiyada siyasi hakimiyyəti ələ keçirmiş olan proletariat bununla da kifayətlənə bilməzdi. O, uc regionlarda yaşayan sinfi qardaşlarına da bu yolda bütün vasitələrlə, hətta lazım gəlsə silahlı qüvvət ilə də yardım etməyi özünə borc bilirdi. Belə bölgələrdən biri də Azərbaycan idi. Halbuki Rusiyada sovet hakimiyyətinin varlığı şübhə altında idi. Rusiyanın siyasi, iqtisadi və hərbi imkanlarının məhdud olduğu bir dövrdə nizamsız ordu ilə beynəlmiləlçilik naminə "Azərbaycanın inqilabi mübarizəsinə kömək etmək üçün" Bakıya gəlməsi ya uşaq saflığı, ya da siyasi Don Kixotçuluq olardı. Hadisələrin analitik təhlili, sovet Rusiyasının öz böhranlı dövründə belə bir tədbirə əl atması bir çox səbəblərlə birlikdə Bakıya, daha doğrusu Bakı neftinə olan marağı ilə də bağlı idi. Çünki Bakı nefti olmadan Rusiya heç bir şey edə bilməzdi. Eyni zamanda Azərbaycanın geosiyasi və geostrateji mövqeyi, maraqların kəsişdiyi düyün bölgə rolunu oynaması Rusiyanı Azərbaycana sahib olmağa vadar edirdi. Bu baxımdan Rusiya 1920-ci ildə XI Qızıl Ordunu Azərbaycan xalqınınköməyinə göndərərkən nə iqtisadi cəhətdən, nə də siyasi cəhətdən səhvlik etməmişdi.

Rus ordusunun Bakıya ikinci qanlı hücumu 19-20 yanvar 1990-cı ildə gerçəkləşdi. İnsanlar ağır tankların altında əzildi, dinc əhaliyə qanlı divan tutuldu, binalara atəş açıldı. Azərbaycan xalqının tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 20 Yanvar faciəsinin törədilməsində əsas məqsəd azadlıq, suverenlik uğrunda mübarizə aparan Azərbaycan xalqının iradəsini qırmaq, insanların müstəqillik arzularını əzmək idi. Məsələ ilə bağlı qeyd etmək lazımdır ki, Rusiya öz ordusunu nəyin bahasına olursa-olsun Azərbaycana yeritməyi qarşısına məqsəd qoymuşdu, buna da nail oldu. Heç kəsə sirr deyil ki, Bakı nefti İkinci Dünya müharibəsində sovet dövlətinin taleyində müstəsna rol oynamışdı. Lakin bunun qarşılığı küçələrdə axıdılan günahsız insanların qanı ilə ödəndi.

20 Yanvar faciəsi əbədi olaraq yaddaşlara həkk olundu. Ona görə yox ki, azadlıq, istiqlaliyyət uğrunda mübarizə aparan dinc əhaliyə qanlı divan tutuldu, müstəqillik arzusunda olan, əsarətdən xilas olmaq istəyən millət güllə-baran edildi. Ona görə ki, öz qəhramanlıq simvolunu nümayiş etdirərək azadlıq uğrunda canlarından keçdilər, sovet imperiyasının təpədən-dırnağadək ən müasir silahlarla silahlanmış hərbçiləri qarşısından qaçmadılar. Bu, xalqın haqq səsi idi.

Ümummilli liderim Heydər Əliyevin dediyi kimi: "20 Yanvarda Azərbaycanın azadlıqsevər, vətənpərvər insanları xalqımıza qarşı göstərilən ədalətsizliyə görə, Azərbaycan torpaqlarına erməni silahlı qüvvələrinin təcavüzünün qarşısı alınmadığına görə və milli azadlığa nail olmaq üçün ayağa qalxdılar, etirazlarını bildirdilər. Onları boğmaq üçün, əzmək üçün Sovet İttifaqının qoşunları, sovet ordusunun hissələri ölkəmizə basqın etdi. Ancaq qəhrəman övladlarımız özünü qurban verərək Azərbaycan xalqının milli azadlığı üçün, Azərbaycanın müstəqilliyi üçün yol açdılar."

20 Yanvar faciəsinə ilk dəfə öz etirazını bildirən ümummilli liderimiz Heydər Əliyev 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək və kəskin bəyanatla çıxış edərək Bakıda baş

vermiş faciəni törədənlərin məsuliyyətə cəlb olunmasını tələb etdi. Ulu Öndərin bu cəsarətli addımı, qətiyyətli mövqeyi Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizə əzmini daha da artırdı.

Qanlı Yanvar faciəsi Azərbaycan xalqının azadlıq istəyinin qarşısını almaq cəhdi ilə yanaşı, həm də ermənilərin işğalçılıq siyasətinin həyata keçirilməsinə xidmət edən terror aktı idi. Ermənilərin faciədən bir neçə gün əvvəl Naxçıvana intensiv hücumları bunu bir daha təsdiq edir. Məlum olduğu kimi, 1990-cı il yanvarın 18-də Kərki kəndi SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyi ilə ermənilər tərəfindən işğal olundu. Kərki və Sədərəyin müdafiəsi uğrunda gedən döyüşlərdə Məhərrəm Seyidov, Etibar Əhmədov, Məhəmməd Məmmədov, Abbasəli Nəzərəliyev, İdris Məmmədov kimi igidlər ağır döyüşlərdə qəhrəmancasına həlak oldular. Bütün bunlara baxmayaraq, ermənilər gözləmədikləri müqavimətə rast gəldilər və Sədərəyin müdafiə xəttini keçə bilmədilər. Naxçıvanlılar bir yumruq kimi birləşərək qədim diyarın müdafiəsində iştirak etdilər. Muxtar respublikanın ərazi bütövlüyü və vətəndaşlarının həyatı təhlükə altında qaldığından, beynəlxalq Qars müqaviləsinin şərtləri kobud sürətdə pozulduğundan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Soveti 1990-cı il yanvarın 19-da “Naxçıvan MSSR-də yaranmış ictimai-siyasi vəziyyət haqqında” tarixi qərar qəbul etdi. Bu qərar bilavasitə Naxçıvan MSSR-in Sovet imperiyasının tərkibindən çıxmasını özündə ehtiva edirdi.

Heç təsadüfi deyildir ki, Ulu öndər Heydər Əliyev 1998-ci il yanvarın 14-də Azərbaycan Respublikası Konstitusiya Komissiyasının iclasında çıxışı zamanı Naxçıvan Muxtar Respublikasının Konstitusiya statusuna münasibət bildirərkən demişdi: “1990-cı il yanvarın 19-da Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Naxçıvanın Sovetlər İttifaqının tərkibindən çıxması haqqında qərarı, mən hesab edirəm ki, tarixi bir əhəmiyyət kəsb edibdir. Doğrudur, Azərbaycanın Ali Soveti yanvarın 29-da bu qərarı ləğv edibdir. Amma bu, tarixdə qalan bir hadisədir. Naxçıvan Muxtar Respublikasının insanları və Ali Sovetdə təmsil olunan adamlar öz iradələrini ifadə ediblər. Nəyə görə? - Azərbaycana qarşı edilən ədalətsizliyə görə. Naxçıvana Ermənistan tərəfindən hücumlar edilmişdi. O vaxt Kərki kəndi əldən getmişdi, başqa kəndlərə hücumlar edilmişdi. Hələ Ermənistanda, həm də Naxçıvanda olan sovet qoşunları da naxçıvanlıları müdafiə etməmişdilər – baxmayaraq ki, orada həddindən çox sovet qoşunları var idi. Ona görə də naxçıvanlıların başqa əlacı olmamışdı, qərar qəbul etmişdilər”.

Naxçıvan MSSR Ali Sovetinin qəbul etdiyi qərar o gecə və sonrakı günlərdə dünyanın nəzərlərini rəsmi Moskvanın xalqımıza qarşı törətdiyi hərbi-siyasi cinayətlərə, ermənilərin Naxçıvana təcavüzünə yönəltdi. Ən əsası isə “dağılmaz” deyilən qüdrətli Sovet İttifaqının çöküşü də məhz yanvarın 19-da Naxçıvandan elan edilmiş oldu.

Ümumiyyətlə, hadisələrin gedişatı onu göstərdi ki, Bakı faciəsi ilə Naxçıvana ermənilərin hücumu biri-biri ilə sıx bağlı hadisədir. Naxçıvana edilən intensiv hücumlarla qanlı Yanvar faciəsinin ilk səhifələri yazıldı. 1990-cı il yanvar ayının 19-da gecə Bakıda fövqəladə vəziyyətin elan olunacağından və mərkəzə edilən müraciətə cavab verilməyəcəyindən arxayın olan erməni quldur dəstələri Naxçıvana mütəşəkkil surətdə hücum edib, onun Azərbaycanla əlaqəsini kəsmək, onu təkləyib məhv etmək üçün hər fitnəyə əl atdılar. Rabitə xətləri, televiziya verilişləri kəsildi, dəmir yolları minalandı, bəzi yerlər də partladıldı, günahsız sərnişinlərə qəsdlər edildi.

Həmin günlərdə silah-sursat az olsa da, naxçıvanlılar bir addım belə geri çəkilmək barədə düşünmürdülər. Əgər naxçıvanlılar həmin gün özlərini müdafiə edə bilməsəydilər, Şərur rayonunun Kərki kəndi kimi Naxçıvan da ermənilər tərəfindən işğal ediləcəkidi.

1990-cı ilin yanvar döyüşlərində Sədərəyin düşmənə ciddi müqavimət göstərməsinin əsas səbəbi əhalidə vətənpərvərlik hisslərinin, Vətənə bağlılığın yüksək olması idi. Bu hisslər könüllülərə güc, qüvvət verirdi. Ümummilli lider Heydər Əliyev Naxçıvana gələndən sonra əhali artıq tam əmin idi ki, düşmən qalib gələ bilməyəcək. Çünki həmin vaxtdan sonra Naxçıvanda ordu quruculuğuna başlanıldı. Bu, naxçıvanlılara cəsarət verdi, səngərlərdə daha inamla dayandılar, düşmənə həddini bildirdilər. Bir sözlə, Sədərək məğlubedilməzlik simvoluna çevrildi.

“Şəhidi olan xalq qəhrəman xalqdır. Biz şəhidlərimizin qəm-qüssəsini çəkirik, ancaq onların şəhidliyə getməsi ilə fəxr edirik. Çünki onlar Vətən, ana torpaq, millət, Azərbaycan yolunda həlak olublar", - deyən Ulu Öndərimizin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisində 20 Yanvar faciəsinə ilk dəfə siyasi qiymət verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 21 noyabr tarixli sessiyasında “1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında” Qərar, 1992-ci il yanvarın 13-də isə “1990-cı ilin yanvar ayında Bakı faciəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin bəyanatı” qəbul olunub. Ümummilli lider Heydər Əliyev ölkəmizdə siyasi hakimiyyətə qayıtdıqdan sonra isə faciəyə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verilib.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, o cümlədən onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsini daim diqqət mərkəzində saxlayır, bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir. Hər il 20 Yanvar faciəsinin ildönümü ölkəmizdə geniş qeyd olunur.

**İki sahil.-**2022.-20 yanvar.-№11.-S.7.

## 20 Yanvar: Müstəqilliyə yol açan şərəf və qəhrəmanlıq tariximiz

**Elçin ƏHMƏDOV,**
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru,
siyasi elmlər doktoru

**Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi.**

***Heydər ƏLİYEV***
***Ümummilli lider***

**A**zərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı ilin 20 Yanvar hadisələrindən artıq 32 il keçir. Keçmiş sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi qalacaqdır.

Milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə silahlı təcavüz nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. 1990-cı ildə Bakıda 20 Yanvar və Azərbaycan tarixində ondan əvvəl baş vermiş faciəli hadisələr XX əsr boyu xalqımıza qarşı yeridilən düşünülmüş siyasətin növbəti təzahürü idi. Sovet rəhbərliyinin himayədarlığı ilə başlayan Dağlıq Qarabağ hadisələri, Azərbaycan xalqına qarşı soyqırımı və azərbaycanlıların Ermənistan ərazisindəki əzəli torpaqlarından qovulması bu siyasətin mərhələləridir.

Sovet Ordusunun böyük heyətinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi görünməmiş qəddarlıq və vəhşiliklə müşayiət olundu. SSRİ 1956-cı ildə Macarıstana, 1968-ci ildə Çexoslovakiyaya və 1979-cu ildə Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni hətta o zamankı Sovet İttifaqının müttəfiq respublikalarından biri olan Azərbaycanda da təkrarlamaqdan çəkinmədi. SSRİ-də və dünya sosializm sistemində iqtisadi, siyasi və sosial sahədə uzun müddət formalaşan böhran 1980-ci illərin sonlarında daha kəskin xarakter aldı. Soyuq müharibənin başa çatmasından sonra postsovet məkanında milli zəmində münaqişələrin başlanması, eləcə də sovet ordusunun 1986-cı ildə Alma-Ataya, 1989-cu ildə Tbilisiyə, 1990-cı ildə Bakıya 1991-ci ildə isə Vilnüsə hərbi müdaxiləsi də SSRİ-nin süqutunu bəlkə bir neçə on il tezləşdirdi. SSRİ-nin süqutu ərəfəsində Azərbaycandakı Dağlıq Qarabağ, Gürcüstandakı Abxaziya və Cənubi Osetiya, Moldovadakı Dnestryanı, Qırğızıstanın Oş vilayətindəki faciəli hadisələr və Özbəkistanın Fərqanə vadisində Axıska türklərinə qarşı etnik təmizləmə və qırğın dalğası çoxmillətli dövlət olan SSRİ-də sabitliyi pozdu və real münaqişə ocaqlarına çevrildi. Bu münaqişələr beynəlxalq hüququn prinsiplərinin kobud şəkildə pozulmasına, dövlətlərin ərazi bütövlüyü və suverenliyinin ciddi təhlükəyə məruz qalmasına gətirib çıxartdı.

XX əsrin sonunda Ermənistanın Azərbaycana təcavüzü və 20 Yanvar faciəsinə aparan yol

Heç şübhəsiz ki, 1990-cı il yanvarın 20-də Bakıda baş verən hadisələri Qarabağdakı erməni təcavüzündən ayrıca təhlil etmək düzgün olmazdı. Hər dəfə Qarabağa dair ərazi iddiaları kənardan, məhz, Ermənistanın təbliği, təhriki və təzyiqi ilə ortaya atılırdı. Heç şübhəsiz, ermənilərin bu ərazi iddiaları birdən-birə deyil, xaricdə olan himayədarları tərəfindən hələ xeyli əvvəl diqqətlə və hərtərəfli plan əsasında hazırlanmışdı.

1985-ci ilin martında Mixail Qorbaçovun Sov. İKP MK-nın Baş katibi seçilməsindən sonra Sovet İttifaqında yenidənqurma adı altında bir sıra dəyişikliklər baş verdi. Ermənilər XX əsrin 80-ci illərinin ikinci yarısında yaranmış vəziyyətdən istifadə edərək özlərinin yaxın və uzaq xaricdəki himayədarlarının köməyi ilə “böyük Ermənistan” ideyasını həyata keçirmək üçün yenidən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə dair ərazi iddiaları irəli sürdülər.

Ümumiyyətlə, XX əsrin 80-ci illərinin ortalarından etibarən keçmiş SSRİ məkanında və ilk növbədə, Ermənistan SSR ərazisində antiAzərbaycan, antitürk təbliğatı daha da güclənməyə başladı. Bu proses M.Qorbaçovun SSRİ rəhbəri seçilməsindən sonra daha geniş miqyas aldı. 1985-ci ilin əvvəlində Ermənistan KP MK-nın birinci katibi K.Dəmirçiyan Sov. İKP MK Siyasi Bürosuna qondarma “erməni soyqırımı”nın 70 illiyi ilə bağlı 24 aprel tarixinin hər il SSRİ-də anım günü kimi qeyd olunması təklifi ilə müraciət etmiş, Siyasi Büronun iclasını aparan M.S.Qorbaçov buna razılıq versə də, Heydər Əliyevin, N.Tixonovun və A.Qromıkonun sərt və prinsipial mövqeyi ilə qarşılaşmışdır. Lakin ermənilər öz çirkin niyyətlərindən əl çəkmirdilər.

1987-ci il oktyabrın 21-də Sov. İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev Sov. İKP plenumunda vəzifəsindən istefa verdikdən bir neçə gün sonra Sov.İKP MK-nın Baş katibi Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri A.Aqanbekyan Parisdə "İnterkontinental" otelində müsahibəsində DQMV-nin Ermənistana birləşdirilməsinin iqtisadi cəhətdən daha sərfəli olmasını və bu məsələ üzərində xüsusi komissiyanın işlədiyini bəyan edərək, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ideyasını irəli sürdü. Onun verdiyi müsahibə noyabrın 18- də "L'Humanite" qəzetində çap olundu. Bu müsahibə ermənilərin Dağlıq Qarabağa dair ərazi iddialarının başlanması üçün bir siqnal rolunu oynadı.

Bununla yanaşı, ermənilərin Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi uğrunda iki komitəsi – Yerevanda "Qarabağ" komitəsi və onun Dağlıq Qarabağda uzun müddət gizli fəaliyyət göstərən yerli təşkilatı olan "Krunk" açıq fəal mübarizəyə başlamış, separatçılıq hərəkatı genişlənmişdi.

Qeyd etmək lazımdır ki, hələ sovet dövründə erməni ideoloqları və onların himayədarları Azərbaycanın tarixi, sosial-iqtisadi inkişafı haqqında faktları açıq-aşkar saxtalaşdıraraq, bütün İttifaq miqyasında yaymışdılar. Eyni zamanda, 1988-ci il fevralın 18-də M.Qorbaçovun SSRİ-də milli münasibətlər məsələsinə yenidən baxılmasının vacibliyini bildirməsi vəziyyəti daha da gərginləşdirdi. Bu çıxışdan istifadə edən ermənilər fevralın 20-də DQMV Xalq Deputatları Sovetinin XX çağırış növbədənkənar sessiyasında "DQMV-nin Azərbaycan SSR tərkibindən Ermənistan SSR tərkibinə verilməsi haqqında Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetləri qarşısında vəsatət qaldırmaq barəsində" qərar qəbul etdilər. DQMV Xalq Deputatları Sovetinin tərkibində 140 deputatdan 110-u erməni, qalanı isə azərbaycanlı idi. Azərbaycanlılar isə bu iclasa buraxılmamışdılar.

Lakin onu qeyd etmək vacibdir ki, erməni siyasətçilərinin iddia etdiyi saxta tezis ortaya atılana qədər DQMV-yə rəhbərlik edənlərdən heç biri DQMV iqtisadiyyatının Ermənistandan asılılığından, vilayətin geriliyindən danışmamış, əksinə, vilayətin sosial-iqtisadi inkişafının Azərbaycanın başqa bölgələrinə, hətta, Ermənistanın özünə nisbətən sürətlə irəli getdiyini daim qeyd edirdilər. Baş verən sonrakı hadisələr DQMV-nin sosial-iqtisadi geriliyi barədə erməni siyasətçiləri və onların mərkəzdəki himayədarlarının irəli sürdükləri saxta tezisin yalnız bəhanə, əsas məqsədin isə Ermənistanın Azərbaycana qarşı ərazi iddiası olduğunu göstərdi.

Bu dövrdə Ermənistandan qovulan azərbaycanlıların bir qismi Sumqayıta üz tutmuş, burada məskunlaşmışdı. O zamanadək Ermənistanın 20 rayonundan təkcə Sumqayıta 18 min 330 nəfər qaçqın və ya 3030 ailə gəlmişdi. Sıralarında 4 rus ailəsinin olduğu qaçqınların çoxu küçələrdə evsiz-eşiksiz qalmışdı. Yaranmış gərgin şəraitdə, ermənilər tərəfindən qabaqcadan hazırlanmış plan əsasında və onların bilavasitə iştirakı ilə fevralın 28-29-da Sumqayıtda baş verən kütləvi iğtişaşlar nəticəsində 26 erməni, 6 azərbaycanlı qətlə yetirildi. Bədən xəsarəti alan 198 nəfərin 87 nəfəri xəstəxanaya yerləşdirildi. 60 mənzil qarət edildi, 14 avtomaşın yandırıldı, 8 avtomaşın zədələndi, 16 ticarət obyektinin şüşələri qırıldı. Azərbaycan SSR Daxili İşlər Nazirliyinin 17 avtomaşını əzildi.

Sumqayıt hadisələri ilə əlaqədar istintaq zamanı 1988-ci il fevralın 28-29-da Sumqayıtda baş verən hadisələrin kökündə "Krunk" və "Qarabağ" təşkilatlarının erməni millətçi hərəkatı üçün vəsait topladığı, ümumi büdcəyə pul ödəməyənləri isə cəzalandırmaq qərarına gəldikləri, elə məhz buna görə də Sumqayıtda evlərinə hücum edilən ermənilərin məhz "Krunk" təşkilatına pul ödəməyən ermənilər olduqları haqda fikirlər təsdiqini tapırdı. Faktlar sübut edir ki, törədilmiş talanlar təsadüfi olmamışdır.

Qeyd etmək lazımdır ki, talanlar başlamazdan əvvəl şəhərdə yaşayan imkanlı ermənilərin əksəriyyəti Sumqayıtı tərk etmiş, şəhərdə qalan imkansız ermənilərin bəziləri zərər görmüşdülər. Erməni millətçilərinin tarixində ermənilərin bu üsuldan istifadə etdikləri haqqında kifayət qədər tutarlı faktlar mövcuddur. Yəni Sumqayıtda baş verəcək hadisələrdə əvvəlcədən planlı şəkildə hazırlanmış və yerli ermənilər xəbərdar edilmişdi. Bununla yanaşı, baş vermiş talan və qətllərdə erməni millətindən olanlar xüsusi tapşırıqla "fəallıq" göstərmiş, öz millətindən olanlara amansızlıq etmişlər. Sonradan istintaqla müəyyən edilmişdir ki, iğtişaşların təşkilatçılarından biri milliyyətcə erməni Eduard Qriqoryan olmuşdur. Belə ki, istintaq materiallarının araşdırılması zamanı bir sıra mühüm məqamlar ortaya çıxdı. Sənədlər təsdiq edir ki, Eduard Qriqoryan və onun rəhbərlik etdiyi qrup iğtişaşlar zamanı daha çox qəddarlıq edərək 6 ermənini qətlə yetirmişdir.

1988-ci il sentyabrın 18-də DQMV-də xüsusi vəziyyət elan edildi və qadağan saatı qoyuldu. Lakin xüsusi vəziyyətin tətbiq olunması da DQMV-də və Ermənistanda zorakılığın qarşısını ala bilmədi. Mərkəzi orqanların hadisələrə birtərəfli yanaşması nəticəsində Dağlıq Qarabağ və Ermənistanda yaşayan azərbaycanlılar hərbi təcavüzə məruz qalmaqla yanaşı, kütləvi şəkildə öz doğma yurdlarından çıxarıldılar. Nəticədə, sovet rəhbərliyinin çox ciddi və bağışlanılmaz səhvləri və ermənipərəst siyasəti 1988-ci ilin sonu – 1989- cu ilin əvvəllərində vəziyyətin getdikcə kəskinləşməsinə gətirib çıxardı, DQMV və Azərbaycanın Ermənistanla həmsərhəd bölgələrində erməni təcavüzü daha geniş miqyas aldı. Bu illərdə törədilən terror aktları nəticəsində

yüzlərlə azərbaycanlının həyatına son qoyuldu. Minlərlə azərbaycanlı SSRİ-nin hakim dairələri tərəfindən himayə edilən ermənilərin işğalçılıq siyasətinin qurbanı oldu. Eyni zamanda, 1988-ci ilin sonunda ermənilər Ermənistanda genişmiqyaslı etnik təmizləmə – azərbaycanlılardan təmizləmək aksiyasını həyata keçirdilər. Belə ki, 1988-ci il noyabrın 22-dən dekabrın 7-dək olan müddət ərzində azərbaycanlılar yaşayan 22 rayonda 170 sırf və 94 qarışıq (ermənilərlə) yaşayış məskənləri boşaldılmış, nəticədə 250 mindən artıq azərbaycanlı əhali Azərbaycana qovulmuşdur. Həmin vaxt 216 azərbaycanlı, o cümlədən 57 qadın, körpə və 18 uşaq qətlə yetirilmişdir.

1989-cu ilin yanvarın 12-də SSRİ Ali Soveti Rəyasət Heyəti Dağlıq Qarabağın Azərbaycan SSR tərkibində Muxtar Vilayət statusunu saxlamaqla, DQMV-də xüsusi idarə formasının tətbiq edilməsi haqqında fərman qəbul etdi. Həmin fərmanla DQMV-də bilavasitə SSRİ-nin ali dövlət hakimiyyəti və idarə orqanlarına tabe olan Xüsusi İdarə Komitəsi yaradıldı. Xüsusi İdarə Komitəsi "millətlərarası münasibətlərin daha da kəskinləşməsinin qarşısını almaq və bu regionda vəziyyəti sabitləşdirmək" adı altında yaradılsa da, fərmanda göstərilənlərin əksinə olaraq, bu komitənin fəaliyyətdə olduğu müddətdə DQMV-də vəziyyət daha da kəskinləşmişdi.

Bununla yanaşı, Ermənistan SSR Ali Soveti 1989-cu il dekabrın 1-də Azərbaycanın suverenliyini kobud surətdə pozaraq, DQMV-nin Ermənistana birləşdirilməsi haqqında Konstitusiyaya zidd qərar qəbul etdi. Birbaşa SSRİ rəhbərliyinin açıq himayədarlığı sayəsində DQMV iqtisadiyyatının və digər sahələrinin faktiki olaraq Azərbaycandan ayrılması və Ermənistana istiqamətləndirilməsi baş verdi. Bütün rayon partiya komitələri Ermənistan KP-nin tərkibinə daxil oldu. Azərbaycanın bütün dövlət atributları (bayrağı, gerbi, himni və s.) dəyişdirildi və DQMV ərazisində Ermənistanın bayrağı və gerbi asıldı. Bununla da, Ermənistan beynəlxalq hüququn əsas norma və prinsiplərini pozaraq Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialarını rəsmən elan etdi.

**Beynəlxalq hüquq prinsiplərinin kobud şəkildə pozulması**

Bütün bunlara baxmayaraq, 1990-cı il yanvarın 19-da Mixail Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. Lakin əhalinin bundan məlumatsız qalması üçün SSRİ DTK-nın "Alfa" qrupu tərəfindən yanvarın 19-da saat 19.27-də Azərbaycan Televiziyasının enerji bloku partladıldı və respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə soxularaq dinc əhaliyə amansız divan tutdu.

Bakıya hərbi müdaxilə zamanı 1948-ci ilin İnsan Hüquqları haqqında Bəyannamə, 1966-cı ilin Vətəndaş və Siyasi İnsan Hüquqları haqqında Beynəlxalq Pakt, 1966-cı ilin Mədəni, Sosial və İqtisadi Hüquqlar haqqında, Beynəlxalq Pakt və 1975-ci ilin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Helsinki Yekun Aktı, ATƏM-in 1989-cu il Vyana görüşünün son qərarı, hərbi əməliyyatların aparılmasını tənzimləyən – qüvvədə olan müqavilələr, əsasən də 1980-ci ilin döyüş zamanı yüngül fırlanan və yayılan güllələrin istifadə edilməməsi haqqında bəyannaməsi (1967-ci ildə quru döyüşünün qayda və qanunları barədə IV Haaqa müqaviləsi) də daxil olmaqla qüvvədə olan İnsan Hüquqlarına əsaslanan bütün beynəlxalq müqavilələr kobudcasına pozulmuşdur. Bu qanlı hadisələr həmçinin, beynəlxalq humanitar hüququn kobud şəkildə pozulmasıdır ki, bu da 1949-cu il Cenevrə konvensiyalarına və onlara 1977-ci il əlavə protokollarında nəzərdə tutulan digər prinsiplərə də ziddir. Eyni zamanda, Sovet qoşunlarının Bakıya hərbi müdaxiləsi Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü əleyhinə yönəlmiş hərbi təcavüzdür. Qeyd edək ki, 1974- cü il dekabrın 14-də BMT Baş Assambleyasının XXIX sessiyasının 3314 saylı qətnaməsində ilk dəfə olaraq təcavüz anlayışının mahiyyəti və məzmunu açıqlandı, ona beynəlxalq hüquqi qiymət verildi və 8 maddədən ibarət olan qətnamədə təcavüzün nədən ibarət olması müəyyənləşdirildi. Bu baxımdan, bir dövlət tərəfindən digər dövlətin suverenliyinə, ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı silahlı qüvvə tətbiq edilməsi BMT Nizamnaməsinə ziddir və hərbi təcavüz hesab olunur.

Sovet qoşunlarının Bakıya hərbi müdaxiləsi və buna dünyanın reaksiyası

Yanvarın 20-də artıq bütün dünya Bakıda törədilmiş dəhşətli qırğından xəbər tutdu. Artıq sovet qoşunlarının Bakıya hərbi müdaxiləsi dünyanın bir sıra ölkələrində etirazla qarşılandı. Belə ki, Bakıda törədilən cinayətlər qonşu və qardaş Türkiyədə sərt reaksiyalara səbəb olmuş, ölkənin hər yerində mitinq və nümayişlər keçirilmişdir. Ankara, İstanbul, Qars, İzmir, Kayseri və başqa şəhərlərdə keçirilən mitinq və nümayişlərdə sovet rəhbərliyinin törətdiyi bu cinayəti müdafiə edən Amerika Birləşmiş Ştatlarının mövqeyi pislənmişdir. Eyni zamanda, Türkiyənin rəsmi şəxsləri, Türkiyə hökuməti Bakıda törədilmiş hadisəni tənqid etməklə yanaşı, Azərbaycana yardım göstərilməsi təklifi ilə də çıxış etmişdir. Bununla yanaşı, Türkiyə və İranın kütləvi informasiya vasitələri sovet qoşunlarının Bakıda törətdiyi qanlı hadisəni kəskin tənqid etmiş və bunu qırğın adlandırmışdır.

Qərb ölkələrinin mövqeyinə gəldikdə isə, onlar Sovet İttifaqının Azərbaycana hərbi müdaxiləsinə müxtəlif reaksiyalar vermişlər. Bu reaksiyalar ümumilikdə müsbət olsa da, obyektiv reallığı əks etdirmirdi. Məsələn, ABŞ hökuməti bu hərbi müdaxiləni anlayışla qarşıladığını bildirmişdir. Avropa İttifaqının rəsmi nümayəndəsi Qeor isə demişdir ki, qan axıdılmadan yenidənqurma tətbiq edilə bilməz. Avropanın müxtəlif yerlərindən gələn fikirlər isə Qərbin mövqeyini izah etmək baxımından maraqlıdır. Məsələn, "Ştern" məcmuəsi və "Tribuna lyudu" qəzeti bu hadisələri qeyri-obyektiv işıqlandıraraq, qüvvədən istifadə olunmasının zəruri olduğu bildirmişdir.

Nəticədə, Bakıda baş verən hadisələr dünya ictimaiyyətinə yanlış izah edilirdi. Bundan əlavə "Los-Anceles Tayms", "Vaşinqton Post", "Krisçen Sayens Monitor", "Nyu-York Tayms", "Baltimor San" mətbu orqanlarında, eləcə də, bir sıra xarici radiostansiyaların məlumatlarında Bakıda baş verən hadisələrə, xüsusilə, sovet ordusunun hərbi müdaxiləsinə haqq qazandırılmasa da, çox vaxt bu qanlı cinayətə laqeyd münasibət özünü göstərirdi. Sovet rəhbərləri ordunun Bakıya göndərilməsi qərarını müxtəlif cür izah edirdilər.

1990-cı ildə Bakıda baş verən qırğına şəxsən qol çəkmiş M.Qorbaçov həmin il Beynəlxalq Nobel Sülh mükafatına layiq görüldü. 1995-ci il aprelin 27-də Türkiyədə səfərdə olan keçmiş SSRİ prezidenti Mixail Qorbaçov İstanbulun Çırağan sarayında onun şərəfinə verilən ziyafətdə çıxış edərkən öz siyasi bioqrafiyasının bəzi məqamlarına toxunmuş və 1990-cı il 20 Yanvar hadisələrindən danışarkən günahını acizanə şəkildə etiraf edərək bildirmişdi: "Bakıda fövqəladə vəziyyət elan etmək və oraya qoşun göndərmək mənim siyasi həyatımın ən böyük səhvi idi".

**Qətliama siyasi qiymət verilməsi**

Sovet qoşunlarının 1990-cı il yanvarın 20-də Bakıya hərbi müdaxiləsi zamanı yalnız ümummilli lider Heydər Əliyev bütün çətinliklərə baxmayaraq Yanvarın 21-də siyasi iradə nümayiş etdirmiş ölkəmizin Moskvadakı Daimi Nümayəndəliyinə gəlmiş və SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə ittiham etmiş, sovet rəhbərliyinin Azərbaycan xalqına qarşı həyata keçirdiyi kütləvi qırğın əməliyyatını qətiyyətlə pisləmişdi.

1993-cü ilin ikinci yarısında ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Bundan sonra, 1990-cı ilin 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 1994-cü il tarixli fərmanında deyilirdi: "Xalqımızın tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı ilin yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermişdir. Tarixin yaddaşına qanla yazılmış həmin gündən bizi 4 illik zaman məsafəsi ayırır. Təəssüf ki, 4 il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilməmişdir". Fərmanda Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymətin verilməsi, bu məqsədlə parlamentin xüsusi sessiyasının keçirilməsi məsələsinə baxılması tövsiyə edilirdi. Milli Məclisdə müzakirələrin yekunu olaraq 1994- cü il martın 29-da qəbul edilən qərarda, nəhayət ki, 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi.

1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan vətən oğul və qızları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar. Bu gün müstəqil Azərbaycan dövlətinin tarixinə qanlı 20 Yanvar faciəsi xalqımızın şərəf və qəhrəmanlıq səhifəsi kimi yazılmışdır.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 2020- ci il sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq 30 ilə yaxın müddətdə işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirmişdir. Bununla da "Qarabağ Azərbaycandır və nida işarəsi" devizi dilə gətirildikdən bir il sonra, 44 gün ərzində reallığa çevrildi, xalqımıza böyük sevinc yaşatdı və mühüm hərbi Qələbə oldu. Bu tarixi hadisə ilə, eyni zamanda, Azərbaycanın azadlığı, müstəqilliyi, eləcə də ərazi bütövlüyü uğrunda 32 il əvvəl – 1990-cı ilin 20 Yanvar faciəsi zamanı şəhid olmuş Vətən övladlarımızın da ruhu şad oldu.

**Xalq qəzeti. -** 2022.- 20 yanvar. - № 13. - S. 4.

# Milli mücadilə tariximizin parlaq səhifəsi

**Əli NƏCƏFXANLI**

**1990-cı ilin 20 yanvarında Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda çox sayda şəhid verdi. Lakin onun iradəsi sınmadı və milli ruhu sarsılmadı. Həmin qırğın zamanı ümummilli mənafelərin müdafiəsi naminə canlarından keçmiş və şəhidlik zirvəsinə ucalmış Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifə yazdılar**

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

***Xalqımızın tarixinə həm faciə, həm də qəhrəmanlıq səhifəsi kimi yazılmış 20 Yanvar gecəsindən 32 il ötür. O zaman Bakıya vəhşi təcavüzü ilə əsl simasını göstərən imperiya ordusu XI qırmızı ordunun varisi olduğunu bir daha sübut elədi. Həmin soyuq gecədə xüsusi təyinatlı cəza dəstələri təpədən-dırnağadək silahlanmış halda Bakıya daxil olaraq, günahsız və əliyalın əhalini qanına boyadı. Ölümsaçan güllələrin nəticəsində soydaşlarımız şəhid oldu.***

Azadlığına boylanan Bakıya qoşun yeridilməyəcəyi barədə bol-bol vədlər verilməsinə baxmayaraq, qəfildən cəza dəstələri tankla, topla Azərbaycan paytaxtının içərilərinə soxuldular, güllələr zülmətin bağrını yardı. Qoca-cavan, qadın-uşaq gülləbarana tutuldu. Riyakar qorbaçovların, qudurğan yazovların cinayətkar hərəkətləri yerli başbilənlər tərəfindən heç nə ilə haqq qazandırılmayan bir şəkildə, xaincəsinə dəstəkləndi. Bu, sözün əsl mənasında, Vətənə xəyanət idi. Beləliklə, sovet imperiyasının nökərləri xalqların milli oyanış istəyini susdurmaq üçün Almatıda (16 dekabr 1986), Tbilisidə (9 aprel 1989) sınaqdan keçirdiyi "təcrübəni" Bakıda da tətbiq etdilər. Cinayətin növbəti ünvanı Vilnüs oldu (11-13 yanvar 1991).

Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı, SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. O gün keçmiş SSRİ dövləti erməni separatçılığından hiddətlənən dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını cinayətkarcasına pozmuşdu. Sovet qoşunlarının qanunsuz yeridilməsi nəticəsində Bakıda və rayonlarda 146 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdur. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdir.

O zaman vəzifəsindən istefa vermiş və Moskvada yaşayan ümummilli lider Heydər Əliyev həmin hadisələrə kənar müşahidəçi kimi baxa bilmədi. Ailə üzvləri ilə bərabər oradakı Azərbaycanın Daimi Nümayəndəliyinə gəldi və 20 Yanvarın dinc əhaliyə qarşı törədilmiş qanlı cinayət olduğunu bəyan etdi: "Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı... Nəhayət, 19-dan 20-nə keçən gecə sovet ordusunun, SSRİ DİN-in böyük kontingenti Bakı şəhərinə yeridilmişdir. Nəticəsi isə göz qabağındadır. Bunun törətdiyi faciələr hamımıza məlumdur. Zənnimcə, ölkənin ali siyasi rəhbərliyinə vəziyyət barədə vaxtında kifayət qədər düzgün, dəqiq, obyektiv informasiyalar çatdırılmamışdır. Rəhbərlik çaşqınlığa salındığından belə qərar qəbul etmişdir. Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır".

"Qanlı şənbə" gecəsi Vətəni azad, müstəqil görmək arzusu ilə küçələrə çıxan, sinələrini tanklara sipər edən oğulları heç nə qorxutmadı. Lakin milli heysiyyətimizə məhəl qoymayanlar xalqın əleyhinə antidemokratik mövqe tutaraq kölə psixologiyası nümayiş etdirdilər və bütün məsələlərdə ovaxtkı mərkəzi hakimiyyətin sadiq qulları olduqlarını göstərdilər. Sovet qoşunlarını Bakıya dəvət edəndən sonra özləri aradan çıxan vəzirovlar, komendant saatının xalqın iradəsinə zidd qanunlarına söykənərək, camaatın əzmini qıran mütəllibovlar və qulbeçələri imperiyanın cinayət ortaqları oldular. Onlar "ölüm yatağına düşmüş" Kommunist Partiyasına süni nəfəs vermək, milli intibah havasına durulan mənəviyyatımızı əzmək istəyirdilər. Amma millət atılan toplara diksinib oyanmışdı, ağı-qaradan seçə bilirdi. Ölümləri ilə ölməzlik qazanmış şəhidlərin ruhu qarşısında baş əyən xalq artıq qorxunu yenmişdi, azadlığına sarsılmaz inam bəsləyirdi. Beləcə, milli oyanış tariximizin bu şərəfli səhifəsi taleyimizə işıq tutdu. Çox keçmədən Azərbaycandan əsən azadlıq rüzgarı Sovetlər ölkəsinin üzərindən qara buludları dağıtdı.

Təəssüf ki, köz tutmayan 20 Yanvar yaralarımız bir müddət, süni qarışıqlıqdan istifadə edilərək, Azərbaycan rəhbərliyinə təyin olunanların da, xalq hərəkatı dalğasında hakimiyyət apogeyinə yüksələn sonrakı iqtidarın da ambisiyalı şəxsi mənafe maraqlarının toranlığı arxasında qaldı. Başımızı qatmağa, faciəni unutdurmağa çalışsalar da, zəmanənin bic qəhrəmanlarının sabun köpüyünə bənzəyən mifləri nazilib-üzülməyən haqqın önündə tab gətirə bilmədi.

Nəhayət, biz azadlığımızı, müstəqilliyimizi qazana bildik. Vətənə qayıdan ümummilli liderin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Soveti 1990-cı il noyabrın 21-də bu hadisəyə ilk dəfə rəsmi siyasi-hüquqi qiymət verdi. Xalqın dönməz iradəsi ilə ölkə rəhbərliyinə qayıdan böyük tarixi şəxsiyyət Heydər Əliyev rəsmi Bakıda dövlət səviyyəsində 20 Yanvar faciəsinə həqiqi siyasi qiymət verilməsinə nail oldu. Kimin kim olduğu açıqca bəyan edildi. Azərbaycan Respublikası Prezidentinin "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" 1994-cü il 5 yanvar tarixli fərmanında Milli Məclisə Qanlı Yanvar hadisələri ilə bağlı xüsusi sessiyanın keçirilməsi məsələsinə baxmaq tövsiyə olundu. Milli Məclisin 1994-cü il martın 29-da qəbul etdiyi qərarda 20 Yanvar faciəsinin günahkarları konkret qeyd olundu və bu qanlı aksiya totalitar kommunist rejiminin törətdiyi hərbi təcavüz kimi qiymətləndirildi. 20 Yanvar – Ümumxalq Hüzn Günü elan edildi.

Hər il Prezident İlham Əliyevin göstərişi ilə "Qara Yanvar" faciəsinin ildönümünün qeyd olunması xalqın həyatında baş verən hadisələrin illər ötəndən sonra belə unudulmadığını göstərir. Xalqımız 20 Yanvar şəhidlərini qədirbilənliklə yad edir. Artıq 32 ildir ki, hər qarışına müqəddəslik çilənmiş Şəhidlər xiyabanı ulu ziyarətgahımıza çevrilib. Şəhid ruhları kimi alışıb-yanan Əbədi məşəl də, mərmər məzar daşları da, kədərlə boynunu əymiş tər qərənfillər də şəhid bacı-qardaşlarımıza tükənməz ehtiramın rəmzidir.

Taleyimizə azadlıq toxumu səpmiş şəhidlərin qəhrəmanlıq amalı milli mücadilə tariximizin parlaq səhifələrini doğurub. Dövlət müstəqilliyimiz bərpa edilib və möhkəmlənib. Müstəqil Azərbaycan möhtərəm Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin məqsədyönlü siyasəti və qətiyyəti sayəsində yeni əsrdə daha sürətlə inkişaf edir. Ermənilərin Qarabağda və Şərqi Zəngəzurda işğala məruz qoyduğu torpaqlarımız 44 günlük Zəfər yürüşü ilə azad olunub və ərazi bütövlüyümüz təmin edilib. Bütün bu uğurlar göstərir ki, qəlbimizdə sönməz məşəl yandırmış 20 Yanvar hadisələri milli şüurumuzun pərvərişində əvəzsiz rol oynayıb və oynayacaqdır.

...Düz 32 ildir ki, Bakının ən uca nöqtəsində qərar tutan Şəhidlər xiyabanına – milli şərəf və ləyaqətimizin zirvəsinə hər gün yağış yağır. Bu, qanqırmızı qərənfil yağışıdır. Adamlar axın-axın bu xiyabana gəlirlər. Burada ömrünü Vətənə bağışlayan azadlıq mücahidlərinin ölməz xatirəsi yaşayır. Başdaşlarından boylanan şəkillər sanki adamla danışır. Kimini tankların qabağına əliyalın çıxanda vurublar, kimini meydanda, küçədə, eyvandan baxanda haqlayıb düşmən gülləsi. Məsum baxışlı qızcığazın, təbəssümü üzündə donmuş oğlanın, yenicə ailə həyatı qurmuş bəylə gəlinin, qoca kişinin günahı nə idi, görəsən? Bilirik: qanlı cinayət ona görə törədilib ki, millət daha imperiya boyunduruğunda qalmaq istəmirdi. Dayaqları sarsılan SSRİ-nin tərkibindən çıxmaq hüququndan istifadə etmək əzmini bildirmişdi. Haqq və hürriyyət deyə mübarizə bayrağını qaldıran xalqı nə imperiya ordusu, nə də o onun manqurt buyruq qulları bu yoldan döndərə bilməzdilər. Saysız-hesabsız əllaməlikləri ilə özünü gülünc vəziyyətə salan və buna görə də "bambılı" ləqəbini qazananlar, pleyboy imici ilə fəxr edən "güzgü-daraq aşıqləri", Vətən oğullarını DTK zindanları ilə hədələyən mənəviyyatsız qaniçənlər axına qarşı axıradək gedə bilmədilər, kürünüb atıldılar.

Vətənin azadlığı uğrunda canlarından keçən şəhidlərin xatirəsi daim əziz tutulduğu kimi, onların ailə üzvləri, doğmaları da hər zaman dövlət qayğısı ilə əhatə olunublar. Eləcə də 20 Yanvar hadisələrində sağlamlığını itirən şəxslərin sosial müdafiəsi, pensiya təminatı həmişə dövlətimizin başçısının diqqətindədir. 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər həyata keçirilir. Şəhid ailələrinin pensiya təminatı, mənzil şəraitinin yaxşılaşdırılması ilə bağlı mükəmməl qanunvericilik bazası yaradılıb. Əlillərin reabilitasiyası üçün respublikada yeni sağlamlıq mərkəzləri inşa olunub. Hər il təzə mənzil alanların arasında 20 Yanvar əlilləri və şəhidlərinin ailələri də var. "Qara Yanvar"da şəhid olan şəxslərin ailələrinə yüksək Prezident təqaüdü verilir.

Daha şahidlər şəhidlərin ziyarətində acı göz yaşları axıtmırlar. Hər kəs çağdaş qəhrəmanlıq dastanını vərəq-vərəq oxuyur, saflaşır, durulaşır, təbii bir iftixar hissi keçirir. Çünki Vətən öz şəhidlərinə cani-dildən oğul deyib, torpaq onları köynəyindən keçirib. O mənhus gecədə qəhrəman Vətən oğullarımızın qəlbləri əbədi sussa da, işıqlı idealları yaşadı. Şəhidlərimizin ruhu bizdən çox-çox irəlidə, çox-çox ucadadır. Lakin nə qədər ki faciənin günahkarları layiqli cəzalarını almayıblar, 20 yanvar şəhidlərimizi ruhları narahatdır.

Onilliklər, yüzilliklər ötsə də, ümummilli taleyimizin dönüş mərhələsi sayılan 20 Yanvar gecəsinin ağrıları səngiməyəcək, şəhidlik şərbəti içmiş soydaşlarımızın ruhlarına ehtiramımız daha da artacaq.

**Xalq qəzeti.** - 2022.- 20 yanvar. - № 13. - S. 1,8.

**Qanlı Yanvar faciəsi ağır bəşəri cinayətdir**

**Günel MƏLİKLİ,**
AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri,
siyasi elmlər üzrə fəlsəfə doktoru

***Azərbaycan xalqının müstəqil inkişaf yolunu seçməsi müqabilində SSRİ rəhbərliyi imperiyanın gücünü göstərmək, onun imkanlarını nümayiş etdirmək qərarına gəldi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordu hissələri xüsusi qəddarlıqla, misli görünməmiş vəhşiliklərlə Bakıya yeridildi. Yanvar ayında erməni terrorçuları tərəfindən Əsgəran–Ağdam yolunda körpü, Şuşa şəhərini su ilə təmin edən boru kəməri, Ağdam şəhərində avtovağzal binası partladılmışdı. 19 yanvar tarixində Naxçıvan MSSR Ali Soveti Muxtar Respublikanın SSRİ-nin tərkibindən çıxması haqqında qərar qəbul edir, lakin Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Naxçıvanda Şada, Yuxarı Yaycı, Havuş, Günnüt və Batabat hücuma məruz qalır, Sədərək rayonunda 10 nəfər azərbaycanlı xüsusi qəddarlıqla öldürülür. Naxcıvan MSSR-in Kərki kəndi Ermənistan SSR-də yerləşən 7-ci sovet ordusunun hərbçiləri tərəfindən işğal edilərək ermənilərə təhvil verildi.***

Bakı və Gəncə şəhərlərində, digər yaşayış məntəqələrində ictimai siyasi vəziyyət daha da ağırlaşır, hakimiyyətsizlik hökm sürən respublikaya Ermənistan tərəfdən silahlı hücum güclənir. 1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti yanvarın 20-də saat 00-dan “Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında” fərman versə də, fövqəladə vəziyyət rejiminin qüvvəyə mindiyi vaxt xalqa bildirilmədi. Axşam saatlarında ölkənin yeganə televiziyasının enerji bloku partladıldığından hücum barədə ictimaiyyətə məlumat çatdırılmadı. Təcavüzkarlıq aksiyası nəticəsində Azərbaycan Respublikasının suveren hüquqları tapdalanmış, xüsusi qəddarlıqla, misli görünməmiş vəhşiliklərlə Bakı zəbt edilmiş, dinc əhaliyə divan tutulmuşdu. Məqsəd Azərbaycan xalqının demokratiya uğrunda mübarizəsini boğmaq idi. Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilmiş, gözyaşardıcı qaz tətbiq olunaraq, hərbi texnika piketçilərin qurduğu manеələri əzib keçir, yaralıları süngüləyir, dinc sakinlərlə dolu avtobuslar güllələbaran edilir, əhali ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutulur. Şəhərə beş istiqamətdən ordu yeridilmişdi. Tanklar Salyan kazarması tərəfdən hücuma keçir, sonra köhnə avtovağzal, "20 Yanvar" meydanı, keçmiş "Kimyaçılar Evi"-nin yanı ilə metronun Elmlər Akademiyası stansiyasının qarşısına irəliləyir. Qoşunlar Biləcəri yolunda qurulan barrikadanı uçuraraq Bakıya daxil olur. İnsanların çoxu metroya tərəf qaçır ki, keçidə girsin, lakin sovet qoşun hissələri buna imkan vermir, insanlar güllələbaran edilir. Bu qanlı terror nəticəsində Bakıda və respublikanın rayonlarında 131 nəfər qətlə yetirildi, 744 nəfər yaralandı, 841 nəfər həbs olundu. Bu, sözün həqiqi mənasında, “ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədi ilə həyata keçirilmiş ” qanlı cinayət idi.

Yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdi. Azərbaycanlıların yaşadıqları 154 yaşayış məntəqəsi aramsız basqınlara məruz qalmışdı.

Kəşfiyyat polkovniki Q.B.Smirnov baş verən qanlı Bakı hadisələrini araşdırarkən göstərir ki, ermənilər hücumdan əvvəl Azərbaycanla bağlı çox güclü və hərtərəfli təhlil olunmuş, dəqiq strateji kəşfiyyat məlumatlarına malik olublar. Polkovnik haqlı olaraq belə bir sualı ortaya qoyur: “Kim idi bütün bunların arxasında dayanan? Təəssüflər olsun ki, Azərbaycan tərəfi bütün bu məsələlərin kökünə getməkdə, dünyaya, bəşəriyyətə hər şeyi olduğu kimi tanıtmaqda o vaxt nədənsə zəiflik göstərdi. Mən həmişə baş verən terror hadisələrini araşdırmışam. Əgər təcrübəli kəşfiyyat generalı, ölkənin ictimai-siyasi durumuna ciddi bələd olan Heydər Əliyev öz möhtəşəm və dünyanı sarsıdan çıxışında cəmi yarım saat geciksəydi... onun və onun ətrafında olanların həyatını xilas etmək mümkün olmayacaqdı..”.

Kəşfiyyat generalı V.A.Kirpiçenko isə Heydər Əliyevə etdiyi telefon zəngində vicdan əzabı çəkdiyini etiraf edir. V.A.Kirpiçenko 1990-cı il yanvarın 22-də Azərbaycan xalqına ünvanladığı məktubda bildirirdi: “...Baş verənlərə görə, bir rus zabiti kimi həmişə əzab çəkəcəyəm. Çünki mən bu xalqı, onun ədəbiyyatını, tarixini, adət-ənənəsini çox sevirəm. Azərbaycan xalqı tarixdə yeri olan bir xalqdır...” Ümummilli lider Heydər Əliyev haqlı olaraq qeyd edirdi ki, 20 Yanvar faciəsi totalitar kommunist rejimin Azərbaycan xalqına qarşı hərbi təcavüzü və cinayəti idi.

Ümummilli lider Heydər Əliyev xalqının fəlakətə düçar olduğu, təqib və təzyiqlərə məruz qaldığı bir dövrdə ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı daimi numayəndəliyinə gəlib brifinq keçirir və Qanlı Yanvar cinayətinin günahkarlarını, SSRİ rəhbərliyini ittiham edir.

Heydər Əliyevin brifinqdə çıxışı və Kreml rəhbərliyini ittiham etməsi bütün dünyada sensasiya doğurdu. Onun ittiham nitqi qan içində boğulan Qorbaçov "yenidənqurması" üçün rekviyem oldu. Həmin gün bütün xarici radiosəslər Əliyevdən sitatlar gətirirdi, daimi nümayəndəliyin qarşısına yığılmış xarici müxbirlər isə müsahibə almaq üçün Əliyevi mühasirəyə almışdılar.

Bu hadisəni Adilə xanım Abbasova belə nəql edir: "... 1990-cı ilin 20 yanvarında Bakıda baş verən faciədən xəbər tutan kimi biz dərhal Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinin qarşısına getməyi qərara aldıq. Yanvarın 21-də yəqin ki, Moskvada yaşayan bütün azərbaycanlılar daimi nümayəndəliyin qarşısına gəlmişdilər. Çoxlu adam var idi. Elə həmin vaxt mən Mixail Qorbaçov tərəfindən sanksiyalaşdırılan insanlığa zidd aksiyaya qarşı hiddət və etirazını bildirmək üçün daimi nümayəndəliyə gələn Heydər Əliyevi ikinci dəfə gördüm. O, bizim qarşımızda çıxış etdi. Onun yaxınlığında durmuşdum. Kəskin danışırdı, bildirdi ki, mərkəz Azərbaycana hərbi təcavüz etmişdir. O, heç kimdən və heç nədən çəkinməyərək danışırdı." Xalq onu çox yaxşı, mehriban qarşıladı. Sonra o, binaya keçdi, biz isə onun cəsarətindən ürəklənib əvvəlcə SİTA-nın binası qarşısına, oradan isə mərkəzi televiziyaya gedib bəyanatı ötürmək və efirdən səslənməsini tələb etmək qərarına gəldik. Hava çox soyuq idi, haradasa 18-20 dərəcə şaxta vardı. Bax, o vaxt mən başa düşdüm ki, dərd insanları necə birləşdirir. Şaxtaya, yolların buz bağlamasına fikir verməyərək, insanlar əl-ələ tutub gedirdilər-bir-birini tanıyan və tanımayanlar da, qocalar və cavanlar da – hamı hakimiyyətə öz ağrı və hiddətini bildirmək üçün gedirdi.

Heydər Əliyev hadisələri ürəkağrısı ilə izlədiyini qeyd etdi: "Artıq iki ildir ki, Azərbaycan və Ermənistan arasında millətlərarası münaqişə gedir. Qarabağ və onun ətrafında baş verən hadisələr cinayətdir. Azərbaycan və Ermənistan, eləcə də, ölkənin ali siyasi partiya rəhbərlərinə bu məsələni tənzimləmək, daxili müharibəyə, millətlərarası münaqişəyə son qoymaq və milli mənsubiyyətindən asılı olmayaraq hər bir adamın ümumi federativ ittifaq olan SSRİ-də azad yaşamasına şərait yaratmaq üçün iki illik müddət kifayət idi. Hesab edirəm ki, ötən iki ildə bu istiqamətdə lazımi səviyyədə iş aparılmamışdır. Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı. ...Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır!".

Heydər Əliyevin Azərbaycan KP MK-ya, Respublikanın Ali Sovetinə və Nazirlər Sovetinə teleqramında deyilirdi: "Azərbaycan xalqına! Bakı şəhərinə sovet ordusu hissələrinin yeridilməsi ilə əlaqədar xalqımızın başına gəlmiş faciədən — dinc əhalinin qırılmasından böyük ürək ağrısı ilə xəbər tutdum. Bu matəm günündə həlak olanların ailələrinə və yaxınlarına, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm. Mən bu düşünülmüş aksiyanı pisləyir, onu antihumanist, antidemokratik, qanunazidd hesab edirəm. Bu ağır gündə sizi ağıllı-kamallı olmağa, həmrəyliyə və birliyə çağırıram. Mənim teleqramımın respublika mətbuatında dərc olunmasını, radio, televiziya ilə verilməsini, matəm mitinqində oxunmasını xahiş edirəm."

Los Ancelesin "Times" qəzeti yazırdı: "Yanvarın 20-də və 21-də təşkil edilən yürüşlər, 22-də keçirilən kütləvi dəfn mərasimi hər cür mitinqləri qadağan edən fövqəladə vəziyyətə qarşı açıqdan-açığa meydan oxumaqdır. Şəhidlər xiyabanında keçirilən dəfn mərasimi "Moskva" mehmanxanasının yuxarı mərtəbələrində yerləşdirilmiş xüsusi nəzarətçilər və snayperlər tərəfindən diqqətlə izlənilirdi. Bütün sərt maneələrə və təhlükəli nəzarətə baxmayaraq, qeyrətli insanlar şəhidlərin xatirəsinə layiq dəfn mərasiminin keçirilməsinə nail oldular".

Sovet ordusunun amansızlığına və qəddarlığına, Bakıda fövqəladə vəziyyət tətbiq edilməsinə baxmayaraq, Azərbaycan xalqı yanvarın 22-də paytaxtın "Azadlıq" meydanında 20 Yanvar şəhidlərinin dəfni ilə əlaqədar matəm yürüşü keçirmişdi. 1990-cı il yanvarın 22-də xalqın tələbi və bir qrup deputatın təşəbbüsü ilə Azərbaycan Ali Sovetinin 20 Yanvar hadisələri ilə bağlı sessiyası çağırılsa da, respublikanın əksər siyasi və dövlət rəhbərlərinin ora girməməsi öz millətinə qarşı törədilən cinayətdə iştirakın sübutu idi.

Müvafiq orqanlar o zaman zəruri istintaq tədbirlərini həyata keçirmədilər, həmin hadisələrlə bağlı bir sıra məxfi sənədlər, o cümlədən əhəmiyyətli arxiv sənədləri bütövlüklə və ya qismən məhv edildi. Eyni zamanda, 20 Yanvar hadisələri şüurlu surətdə müəyyən təhriflərlə, yanlış yozumlarla respublika əhalisinə çatdırılırdı. 1995-ci ildə Heydər Əliyev 20 Yanvar mərasimində demişdir: "Bu təcavüz Azərbaycan xalqına qarşı edilmişdi. Həlak olanlar Azərbaycanın milli azadlığı uğrunda qurban getmişdilər. Ancaq respublikanın rəhbərləri həmin dəfn mərasimində olmadılar. Bəziləri indi deyirlər ki, gəldilər, keçdilər, amma onlar matəm mərasiminin başında durmalı idilər, əvvəldən axıradək orada olmalı idilər. Əgər onlar xalqın rəhbərləri idilərsə, xalqa başçılıq

edirdilərsə, gərək gəlib orada duraydılar. Bu da təsadüfi deyil, çünki yəqin mənəvi haqları yox imiş, onlarla xalq arasında böyük bir uçurum var idi".

Bir məsələni də nəzərdən qaçırmaq olmaz. Azərbaycan Xalq Cəbhəsini təmsil edənlər hakimiyyətdə olduqları zaman 20 Yanvar faciəsinə siyasi qiymət verməmişdilər. Respublika rəhbərliyinin hətta şəhidlərin dəfn mərasimində də iştirak etməməsi, zənnimizcə təkcə öz vətəndaşlarına laqeyd-biganə münasibət məsələsi deyildi, həm də mənəviyyat məsələsi idi. Ən ciddi şəkildə narahatlıq doğuran məqamlardan biri ondan ibarətdir ki, baş vermiş faciə siyasi-hüquqi müstəvidə nəinki yetərincə araşdırılmadı, hətta onun mahiyyəti hər vasitə ilə gizlədildi. Heydər Əliyev çıxışında qeyd edirdi: "Azərbaycanı qoyub qaçmış Vəzirov öz xalqı qarşısında məsuliyyət daşımalıdır. Ölkənin ali siyasi rəhbərliyinə yanlış məlumat verənlər də məsuliyyət daşımalıdır. ...Yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqında bir təlatüm, coşqunluq, həyəcan əmələ gətirdi, elə bil vulkan püskürdü. İnsanların qəlbində güclü hissiyyat oyandı. Məhz bunlara görə yanvarın 22-də Azərbaycan Respublikasının o vaxtkı rəhbərlərinin iradəsinə zidd olaraq ölkəmizin qeyrətli adamları, deputatları, ziyalıları Azərbaycan Ali Sovetinin fövqəladə sessiyasını topladılar. Ağır şəraitdə, böyük təzyiqlər, qorxu altında, böyük təhlükə qarşısında bu məsələ müzakirə olundu. Mən hesab edirəm ki, həmin gecə, elə bir ağır şəraitdə layiqli qərar qəbul edildi. Bu gün xüsusi qeyd etmək lazımdır ki, həmin sessiyanın da aparıcı qüvvəsi bizim ziyalılar, Vətənə, torpağa bağlı adamlarımız idi. ...Ağır, çox ziddiyyətli bir şəraitdə – sovet ordusunun Azərbaycandakı hökmranlığı şəraitində, Sovet İttifaqı Kommunist Partiyasının Azərbaycana təzyiq göstərdiyi bir vaxtda gecə belə qərar qəbul olundu. Bu, doğrudan da yüksək qiymətə layiqdir. Ancaq bundan sonra nə oldu? ... Günahkarlar kənarda qaldılar, öz şəxsi məqsədləri, mənafeləri üçün, xalqın tarixi faciəsini ört-basdır etməyə çalışdılar.

Heydər Əliyev Azərbaycana qayıdanda ölkə çox ağır bir durumda idi. Sonralar o günləri ümummilli lider belə xatırlayır: "Eşidəndə ki, mənim doğma Vətənim, mənim doğma torpağım dağılır, uzun müddət bu Vətənin, ölkənin inkişafına xidmət etmiş bir adam kimi mən bilirəm ki, biz burada nələr etmişik və bu dağılır, şübhəsiz ki, özümü qurban verməli oldum və gəldim, məsuliyyəti öz üzərimə götürdüm".

Seçkilərin elə ilk turunda Heydər Əliyev, həm Azərbaycan SSR-in, həm də Naxçıvan Muxtar Respublikasının xalq deputatı mandatını qazanır. Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin mart sessiyasında öz tarixi çıxışları ilə respublikanın tam müstəqil yaşamaq imkanlarını açıqlamışdı. Azərbaycanın tarixində ilk dəfə olaraq məhz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Soveti bu qanlı hadisələrə qiymət verir.

Ulu öndər Heydər Əliyev "1990-cı ilin yanvar ayında törədilən Bakı hadisələrinə qiymət verilməsi haqqında" qərar layihəsini hazırlayaraq 1990-cı il noyabrın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə təqdim etdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən qəbul edilən qərarda 20 Yanvar hadisələrinə siyasi qiymət verilir, kütləvi qırğın təşkilatçılarının məsuliyyətə cəlb olunması tələb edilirdi. Həmin qərarda 20 Yanvarın hər il Naxçıvan Muxtar Respublikasında matəm günü kimi qeyd olunması məsələsi də öz əksini tapmışdı.

Noyabrın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında ümummilli lider Heydər Əliyev yanvar faciəsini Azərbaycan xalqının suveren hüquqlarına qəsd kimi qiymətləndirir: "Mən belə hesab edirəm ki, 19-20 yanvarda baş vermiş bu faciə həm Sovet İttifaqının siyasi rəhbərliyinin, şəxsən Qorbaçovun böyük günahının nəticəsidir, onun diktatorluq meyillərindən əmələ gəlmiş bir haldır və eyni zamanda, Azərbaycan rəhbərlərinin xalqa xəyanəti və cinayətinin nəticəsidir. Mən belə fikirdəyəm ki, Böyük Vətən müharibəsi qurtarandan sonra Sovet İttifaqında, ölkənin daxilində — heç bir yerdə, heç bir regionda bu qədər, bu miqyasda qanlı qırğın olmamışdır. Bunu da edib Sovet ordusu. Və bunun nə qədər böyük miqyasda olmağını onunla da ölçmək olar ki, bu hərbi aksiyanın həyata keçirilməsi üçün SSRİ müdafiə naziri Yazov, SSRİ daxili işlər naziri Bakatin vaxtından qabaq gəlib Bakıda oturub, bu əməliyyatlara rəhbərlik ediblər. Müharibə vaxtı hərbi nazir az-az cəbhəyə gedirdi, ancaq görün bu hərbi əməliyyata bunlar nə qədər böyük fikir veriblər, bunun miqyası nə qədər böyük olub ki, marşal Yazov gəlib Bakıda oturub və bu əməliyyata rəhbərlik edib. Demək, bu, Azərbaycan xalqına qarşı göstərilən hərbi təcavüzdür, təhqirdir, Azərbaycan xalqının qarşısında cinayətdir". 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyasının qərarı ilə Azərbaycan SSR Azərbaycan Respublikası adlandı və AXC-nin üçrəngli bayrağı dövlət bayrağı kimi təsdiq edilir.

2002-ci il 5 yanvar tarixində 20 Yanvar faciəsinin on ikinci ildönümünün keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamından: "XX əsr tarixində totalitarizmin həyata keçirdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsi Azərbaycan xalqına qarşı, ümumiyyətlə, humanizmə və insanlığa qarşı yönəldilmiş dəhşətli cinayət idi. SSRİ-nin başqa regionlarında, o cümlədən Tbilisidə və Baltikyanı ölkələrdə sovet hərb sisteminin törətdiyi qanlı hadisələr müxtəlif səviyyələrdə, o cümlədən SSRİ xalq

deputatları qurultayı səviyyəsində müzakirə edilsə də, 20 Yanvar faciəsi zamanı baş vermiş hadisələr şüurlu surətdə təhrif olunur və unutdurulurdu".

Ümummilli lider Heydər Əliyev tərəfindən Milli Məclisdə 20 Yanvar faciəsinə qiymət verilməsi, şəhidlərin xatirəsini əbədiləşdirmək məqsədilə abidə yaradılması qərarı qəbul olunmuş, "Əbədi məşəl" abidə kompleksinin yaradılması 1994-cü ildə irəli sürülüb. Həmin ilin martın 29-da ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 20 Yanvar faciəsinə ali qanunvericilik orqanı – Milli Məclis səviyyəsində ilk dəfə hüquqi-siyasi qiymət verilmişdir.

Ulu öndər Heydər Əliyev 1995-ci ildə Rüstəm Mustafayev adına, Azərbaycan Dövlət İncəsənət Muzeyində "Qanlı Yanvar" rəssamlıq sərgisinin açılışında çıxışında haqlı olaraq qeyd edirdi: "Xalqımız əsrlər boyu belə mərhələlərdən keçərək bu günə gəlib çatmışdır. Əgər XX əsri götürsək, 1918-ci ildə, 1920-ci ildə Azərbaycan xalqının başına gələn bəlalar, faciələr məlumdur. 1937-1938-ci illərin faciələri də məlumdur. Ancaq 1990-cı ilin yanvarında, əsrimizin sonuna yaxın baş vermiş hadisələr əvvəlkilərin heç biri ilə müqayisə oluna bilməz. Çünki bu dövr Azərbaycan xalqının artıq milli oyanış, öz mənliyini sübut etmək, milli azadlıq hisslərini aşkara çıxarmaq, büruzə vermək mərhələsi idi".

1995-ci aprelin 27-də İstanbulda Mixail Qorbaçov Qara Yanvarla bağlı bunu demişdir: "Bakıda fövqəladə vəziyyət elan etmək və oraya qoşun göndərmək mənim siyasi həyatımın ən böyük səhvi idi".

Prezident İlham Əliyev 1990-cı ilin yanvarında şəhid olmuş oğul və qızlarımızın xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi üçün mühüm işlər görmüşdür. Dövlətimizin başçısının 19 yanvar 2006-cı il tarixli "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Fərmanına əsasən, şəhid ailələrinə dövlət qayğısını artırmaq məqsədilə təqaüd verilir.

Prezident İlham Əliyev vurğulayıb ki, bu qanlı faciə, Sovet İttifaqı zamanında dinc əhaliyə qarşı törədilən ən amansız qanlı cinayət idi: "O vaxtadək Sovet ordusu dinc əhaliyə qarşı heç vaxt bu qədər qəddarlıqla, vəhşiliklə cəlb edilməmişdi. Yüzlərlə insan həlak oldu, itkin düşdü, yaralandı. Bu cinayəti törədənlər Sovet İttifaqının o vaxtkı rəhbərliyi və Azərbaycanın o vaxtkı yerli rəhbərliyi idi. Ancaq dərd orasındadır ki, faciə günündən keçən 3-4 il ərzində Azərbaycanda heç kim, heç bir vəzifəli şəxs, heç bir dövlət qurumu bu faciəyə siyasi qiymət verməmişdi. Lakin Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıdandan sonra onun təşəbbüsü ilə Milli Məclis siyasi qərar qəbul etdi, cinayətkarları öz adları ilə adlandırdı və ədaləti bərpa etdi".

Şübhəsiz, 20 Yanvar tarixdə bir faciə, dəhşətli bir terror aktı kimi qaldı. Amma bununla bərabər, Prezident İlham Əliyevin də vurğuladığı kimi, 20 Yanvar günü həm də Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsidir.

Cənab prezident İlham Əliyev tərəfindən sərəncama əsasən, 2010-cu ildə Bakının Yasamal rayonununda "20 Yanvar abidə-kompleksi"-nin açılışı olmuşdur. Kompleksin üzərində faciə zamanı həlak olmuş 147 nəfərin adı və soyadı qızılı hərflərlə həkk olunub.

**Xalq qəzeti. -** 2022.- 20 yanvar. - № 13. - S. 6

## Tariximizin hüzn və qürur səhifəsi

**İlhamə İSABALAYEVA**

Əslində, 20 Yanvar faciəsi olmaya da bilərdi. Bu faciəni Azərbaycan xalqının suveren hüquqlarına qəsd kimi qiymətləndirən Ümummilli Lider Heydər Əliyevin də söylədiyi kimi, Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik bu həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı.

Ancaq həmin dövrdə hakimiyyətdə olan ali siyasi rəhbərliyin Azərbaycandakı vəziyyəti öz axarına salması üçün cəhdlər göstərməməsinin, əllərində olan yetərli imkanlardan istifadə edə bilməməsinin nəticəsi olaraq, xalqımızın ən ağrılı faciələrindən biri olan 20 Yanvar qətliamı baş verdi.

Tariximizin qanlı yaddaşında yer alan 20 Yanvar faciəsi SSRİ rəhbərlərinin əvvəlcədən hazırladığı müfəssəl plan əsasında Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq üçün törədilsə də, nə bu qətliam, nə də millətin başına ondan sonra gətirilən müsibətlər onun iradəsini qıra bilmədi. Müstəqillik yolunda dönmədən mübarizə aparan Azərbaycan xalqı sonda öz məqsədinə nail olaraq, azadlığına qovuşa bildi. Totalitar rejim tərəfindən törədilmiş 20 Yanvar faciəsinə səbəb olan amillərin, gerçəkliklərin öyrənilməsi bu qanlı faciə ilə bağlı həm ölkə, həm də dünya ictimaiyyətinə daha düzgün məlumatların verilməsində olduqca mühüm rol oynadı.

### 20 Yanvar hadisəsinə hüquqi-siyasi qiyməti ilk dəfə Heydər Əliyev verib

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin deputatı, akademik İsa Həbibbəyli qeyd edir ki, yalnız Naxçıvan Muxtar Respublikasının radio və televiziyası özünün məhdud imkanları çərçivəsində Bakı şəhərində baş vermiş 20 Yanvar hadisəsi ilə əlaqədar Türkiyə və İranın sərhəd rayonlarına xəbərlər çatdıra bilmişdi. Bu isə sovet rəhbərliyinin Bakıda törətdiyi cinayət hadisəsini dünyaya olduğu kimi çatdırılması üçün yetərli hesab oluna bilməzdi.

Bütün bunlara görə görkəmli dövlət xadimi Heydər Əliyevin 21 yanvar 1990-cı il tarixdə Azərbaycanın Moskva şəhərindəki daimi nümayəndəliyinə gələrək, qanlı 20 Yanvar hadisəsi ilə əlaqədar xüsusi bəyanatla çıxış etməsi bu faciə haqqında obyektiv reallığın dünya ictimaiyyətinə çatdırılması istiqamətində atılmış ən ciddi addım idi. Heydər Əliyevin Moskvadan yayılan bəyanatı Azərbaycanın zor gücünə salındığı informasiya blokadasının yarılması, dağıdılması baxımından həmin dövr üçün misilsiz əhəmiyyətə malik hadisədir. Moskva bəyanatı Azərbaycanda xalq hərəkatının, ümumiyyətlə, azadlıq və demokratiya uğrunda aparılan mübarizədən konkret olaraq və açıq şəkildə Azərbaycanda dövlət müstəqilliyi yolunda mübarizə müstəvisinə keçidin əsasını qoydu. Heydər Əliyev Moskva bəyanatı ilə həmişə olduğu kimi, ən çətin məqamlarda da doğma Azərbaycan xalqı ilə bir yerdə olduğunu, xalqımızın azadlıq mücadiləsinə haqq qazandırdığını və dəstək verdiyini açıq şəkildə nümayiş etdirib. SSRİ rəhbərliyinin, şəxsən Mixail Qorbaçovun birbaşa tapşırığı ilə Bakıda həyata keçirilmiş 20 Yanvar hadisəsi ilk dəfə olaraq Heydər Əliyev kimi böyük dövlət xadimi səviyyəsində hüquqi-siyasi qiymətini alıb.

İsa Həbibbəyli vurğulayır ki, Bakı faciəsinin hüquqa, demokratiyaya və humanizm prinsiplərinə zidd olduğunu bəyan etməklə Heydər Əliyev Mixail Qorbaçovun və onun komandasının digər müttəfiq respublikalarda törətdiyi qanlı terror hadisələrinə də hüquqi-siyasi baxımdan qiymət verib.

Akademikin sözlərinə görə, əslində, Heydər Əliyev tərəfindən səsləndirilmiş bu bəyanat SSRİ-nin çökməsinin ilk anonsu idi. Moskva bəyanatında Azərbaycan Sovet Respublikasının rəhbərliyinin 20 Yanvar hadisələrində tutduğu yanlış mövqeyinin də mahiyyəti açıqlanmış və haqlı olaraq bu qanlı faciənin baş verməsi məhz respublika rəhbərliyinin səriştəsizliyinin nəticəsi hesab edilmişdi. Heydər Əliyev respublikada ictimai-siyasi şəraitin gərgin olduğu bir dövrdə, 20 Yanvar hadisələrinin törədildiyi ərəfədə Azərbaycan Respublikasına səbatsız, səriştəsiz bir şəxsin rəhbərliyə gətirilməsini SSRİ rəhbərlərinin ciddi səhvi kimi dəyərləndirmişdi.

Heydər Əliyev 20 Yanvar 1990-cı ildə Bakı şəhərindəki qırğının baş verməsini ölkə və respublika rəhbərlərinin mövcud imkanlardan istifadə etmədikləri, onların məkrli siyasəti və səriştəsiz idarəçilik qabiliyyətləri, xalq faktorunu və dövlətçilik maraqlarını nəzərə almamaları ilə əlaqələndirmişdir. Bu mənada Moskva bəyanatındakı ittihamlar obyektiv siyasi-tarixi reallıqların ifadəsidir. 20 Yanvar ərəfəsindəki çətin və mürəkkəb şəraitdə isə nəinki "düzgün və operativ" məlumatlar vermək, hətta bütün imkanlardan istifadə edib, faciənin qarşısını almaq lazım idi. Təəssüf ki, bu bacarıqların heç biri o zamankı rəhbərlikdə yox idi. Moskva

bəyanatında haqlı olaraq 20 Yanvar faciəsini törədənlərin cəzalandırılması tələbləri də qəti şəkildə irəli sürülmüşdü. Heydər Əliyev Moskva bəyanatında Bakı şəhərində hadisələri hərbi yolla "tənzimləmək" üçün qərar qəbul edən şəxslərin, həmin məsuliyyətsiz qərarları və tapşırıqları həyata keçirənlərin, həm ölkə, həm də respublika miqyasında olanların hamısının ittiham edilməsini cəsarətlə, çəkinmədən diqqətə çatdırmışdı.

İsa Həbibbəyli əlavə edir ki, Moskva bəyanatı ilə Sovet İttifaqının və respublika rəhbərliyinin təşkilatçılığı ilə Azərbaycanda 20 Yanvar 1990-cı il tarixdə törədilmiş qırğın və baş vermiş faciə haqqında obyektiv məlumat beynəlxalq ictimaiyyətə və müttəfiq respublikalara çatdırıldı. Bununla sovet rəhbərliyinin, Ermənistan tərəfinin, bəzi xarici informasiya mərkəzlərinin Azərbaycan gerçəkliyi haqqında yaydıqları açıq dezinformasiya xarakterli yalan məlumatların qarşısı alındı. 20 Yanvar faciəsinin əsas səbəbkarlarının, təşkilatçılarının və icraçılarının kimlər olduğu göstərildi. Sovet dövlətinin əsas rəhbərlərindən biri olmuş görkəmli dövlət xadimi tərəfindən Bakı faciəsinin hərbi-siyasi mahiyyətinin açılması və ifşa edilməsi ilə SSRİ-nin dağılmağa məhkum olmasının qaçılmazlığı sübut edildi, bu proses sürətləndi. Heydər Əliyevin Moskva bəyanatı Azərbaycandan başqa, digər müttəfiq respublikalarda da azadlıq və müstəqillik uğrunda aparılan mübarizələrə ruh və təkan verdi. Azərbaycanda və digər müttəfiq respublikalarda Kreml vahiməsi və xofunun aradan qaldırılmasında görkəmli dövlət xadimi Heydər Əliyevin Moskva bəyanatı ilə atdığı cəsarətli addımların mühüm rolu oldu.

**Belə faciələrin təkrarlanmasının qarşısı alına bilər**

Milli Məclisin deputatı Aydın Mirzəzadə də hesab edir ki, 20 Yanvar faciəsinin qarşısını almaq mümkün idi: "Çox az adam bilir ki, yanvarın 19-da SSRİ rəhbəri Mixail Qorbaçov Heydər Əliyevə zəng edərək ondan Bakıya gedib mitinqlərin dağıdılması çağırışını etməsini tələb etmişdi. Heydər Əliyev buna cavabında məsələnin kökündə başqa məsələlərin dayandığını və onun həllini tələb etmişdi. SSRİ rəhbərliyi isə bu problemlərin həllində maraqlı deyildi və sonda bu faciə baş verdi".

Ulu Öndər Heydər Əliyevin hadisədən bir gün sonra 20 Yanvar faciəsinə ilk hüquqi-siyasi qiymətini verdiyini xatırlayan A.Mirzəzadə əlavə edib ki, Heydər Əliyev Naxçıvan Ali Məclisinin sədri olduqdan sonra Naxçıvan Ali Məclisi 20 Yanvar faciəsinə ilk rəsmi hüquqi qiymət verən Azərbaycan dövlət orqanı oldu. 1994-cü ildə Heydər Əliyev Azərbaycan Prezidenti olduğu dövrdə Azərbaycan parlamenti səviyyəsində ona hüquqi qiymət verildi.

Deputatın qənaətinə görə, artıq dünyanın bir çox ölkəsi Azərbaycana qarşı törədilən bu faciədən məlumatlıdır. Azərbaycan dünyanın bu faciə haqqında məlumatlandırılması üçün xeyli işlər görüb. Xaricdəki səfirliklərimiz və nümayəndəliklərimiz, diaspor dairələrimiz olduqları ölkələri bu faciə barədə məlumatlandırıblar. Azərbaycanın elm adamları 20 Yanvarla bağlı yeni faktlar aşkarlayaraq elmi ictimaiyyətin bu məsələlər barəsində yeni-yeni məlumatlar əldə etməsinə çalışırlar: "20 Yanvar XX əsrin ən qan donduran faciələrindən biri hesab edilir. Heç də təsadüfi deyil ki, onu II Dünya müharibəsində baş vermiş Holokostla bir səviyyədə qəbul edirlər. Bu hadisə heç bir zaman tarixdən silinə bilməz. Gələcək nəsillər 20 Yanvar faciəsinin başvermə səbəblərini unutmamaqla belə faciələrin bir daha təkrarlanmasının qarşısını ala bilərlər".

**Qanlı yanvar günlərində azərbaycanlılar millət, Heydər Əliyev isə milli lider olduğunu təsdiqlədi**

Milli Məclisin deputatı Sahib Alıyev deyir ki, Azərbaycan xalqının tarixində ən ibrət götürüləsi hadisələrdən biri məhz 20 Yanvarda baş verib. 20 Yanvar faciəsi tərkibində olduğumuz imperiyanın xislətini, xalqımıza necə yanaşmasını üzə çıxartdı: "Bakıya qoşun yeridənlər öz vətəndaşları sayılan dinc adamlara qarşı ən amansız faciə törətdilər. Amma qarşılığında tarixdə çox az xalqın göstərə biləcəyi bir dirəniş və qəhrəmanlıqla üzləşdilər. 20 Yanvar faciəsi göstərdi ki, bu xalqın təpəri, qeyrəti, ləyaqəti var və ən dar gündə bütün riskləri gözardı edərək onun yanında duran, onu müdafiə edən, yol göstərən lideri var. Təbii ki, lider deyərkən mən o zaman Azərbaycana rəhbərlik edənləri və Xalq Cəbhəsinin başında duranları nəzərdə tutmuram. Onların bir qismi 20 Yanvar günündə Bakıya qoşun yeridənlərə xidmət göstərmələrini, digərləri isə iradəsizlikləri, qətiyyətsizlikləri, avantüristlikləri və qorxaqlıqlarıyla kimliklərini tam ortaya qoydular".

Ulu Öndər Heydər Əliyev isə Dövlət Təhlükəsizlik Komitəsindən gələn xəbərdarlıq və təhdidlərə, onu gözləyən təhlükələrə baxmayaraq, yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək xalqımıza qarşı törədilən vəhşiliyə görə SSRİ rəhbərliyini ən kəskin sözlərlə tənqid etdi, ardınca isə uzun zaman ən parlaq təmsilçilərindən biri sayıldığı Kommunist Partiyasının sıralarını tərk etdi: "Elə həmin il noyabrın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında çıxışında da o, 20 Yanvar faciəsini Azərbaycan

xalqının suveren hüquqlarına qəsd kimi qiymətləndirdi. 1994-cü il martın 29-da Milli Məclis o qanlı olaya ilk hüquqi-siyasi qiymətini də məhz Heydər Əliyevin təşəbbüsü ilə verdi. Hələ 1990-cı ilin 21 yanvarında Heydər Əliyev Moskvada verdiyi bəyanatla göstərdi ki, milli lider kimdir və necə olur. Məhz o zaman - 1990-cı ilin qanlı yanvar günlərində azərbaycanlılar millət, Heydər Əliyev isə milli lider olduğunu təsdiqlədi. Aydın oldu ki, milli liderlik parlamentlərdə qanunla təsdiqlənən, vəzifəyə bağlı status deyil, bu, böyük bir missiyadır. Bu missiyanın miqyası həm şəxsi keyfiyyət, həm də millətə bağlılıqla ölçülür. Özü də bu bağlılq qarşılıqlı olmalıdır. Yanvar olaylarında da, ondan sonrakı günlərdə də, yəni Heydər Əliyevin hakimiyyətdə olmadığı zamanlarda belə xalqın nəzərinin onun üzərinə dikəlməsi, nicatı onda görməsi bu bağlılığın məhz qarşılıqlılığından xəbər verirdi. Bəlli olurdu ki, Heydər Əliyev xalqa nə qədər bağlıdırsa, xalq da ona bir o qədər bağlıdır".

S.Alıyev əlavə etdi ki, əslində Heydər Əliyevin vəzifədən uzaqlaşdırılması, ardınca 20 Yanvar qırğınının baş verməsi həm də bir məqsədə - Azərbaycan torpaqlarının növbəti hissəsinin yenidən haylara bağışlanmasına xidmət edirdi: "Bunun üçün azərbaycanlılara qarşı hər cür vəhşilik və rəzilliklərə əl atdılar. Bunu həm də təkcə SSRİ rəhbərliyində təmsil olunanlar deyil, onlardan sonrakılar da, Qərbdə bir çox böyük dövlətlər də etdilər. Amma onların bu cəhdləri alınmadı, 44 günlük Vətən müharibəsi onların bütün cəhd və istəklərinin üstündən xətt çəkdi. 20 Yanvar hadisələrində olduğu kimi bir yumruq olmağı bacaran, amma bu dəfə "dəmir yumruğ"a çevrilən Azərbaycan xalqı, şanlı ordumuz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında işğal edilmiş torpaqlarımızı geri qaytardı. Bu, həm də 20 Yanvar şəhidlərinin intiqamının alınması demək idi. Əminəm ki, cənab İlham Əliyev xalqımıza qarşı törədilən vəhşiliyə etirazını bildirmək üçün 1990-cı il yanvarın 21-də atası ilə birgə Azərbaycanın Moskvadakı daimi təmsilçiliyinə gəldiyi gündən bu haqda - şəhidlərimizin intiqamını almaq haqda düşünürdü. Və aldı da! Cənab Prezidentin ürəyində gəzdirdiyi, ancaq hələ tam açıq şəkildə dilə gətirmədiyi bir istəyinin də olduğunu biz artıq bilirik. Söhbət babasının məzarı üzərindəki düşüncədən gedir. Qoy uca Tanrı bizə həmin istəyin reallaşdırıldığı, 20 Yanvar hadisələrində həlak olanlar da daxil olmaqla, bütün şəhidlərimizin ruhlarının növbəti dəfə sevinəcəyi o günü də nəsib etsin!"

20 Yanvar Azərbaycan xalqına qarşı törədilən ən böyük qətliamlardan biri olsa da, xalq olaraq həmin tarixi yalnız acı kədər hissi ilə qeyd etmirik. Çünki 20 Yanvarda baş verənlər həm də Azərbaycan xalqının aciz xalq olmadığını, öz hüquqlarını mətinliklə qoruya bildiyini, azadlığına qovuşmaq üçün canını belə fəda etməyi bacardığını göstərdi. Öz azadlığı uğrunda yorulmadan mübarizə aparan Azərbaycan xalqı 20 Yanvarda ən böyük qəhrəmanlıq nümunələrindən birini yaratdı.

**Azərbaycan**.- 2022.- 20 yanvar.- № 13 .- S. 3.

**Qisas qiyamətə qalmadı**

***44 günlük Vətən savaşında qazandığımız parlaq Zəfər şəhidlərimizin də ruhunuşadetdi***

**Yasəmən MUSAYEVA**

Zaman 1990-cı ilin 20 yanvarı...

Məkan Azərbaycan idi...

Qara dona bürünmüşdü Bakı... Parçalanmış bağrından qırmızıya bükülmüş şəhid tabutları süzülürdü... Beli sınmış qərənfillər axan göz yaşları ilə yollara qanlı cığır salırdı Bakının ən uca zirvəsinə sarı...

Milyonların azadlıq karvanı al-dona bürünmüş haqq mücahidlərini başlarının üzərinə qaldırıb müqəddəs and yerimizə, Azərbaycanın müstəqillik simvoluna çevriləcək Şəhidlər xiyabanına doğru irəliləmişdi...

Haqsızlığa dirənc göstərərək, sinələrini zülmün topuna, gülləsinə sipər edənləri, Vətən uğrunda şəhadət şərbəti içənləri haqqın dərgahına uğurlamışdılar...

Və Azərbaycan xalqı elə həmin gün, o uca məqamda torpağı, azadlığı, xalqı, onun gələcəyi naminə haqq səsini ucaltmağı bacaran oğullarına, qızlarına müqəddəs bir söz də vermişdi. And içmişdi ki, uğrunda can qoyduqları bu Vətənin müstəqilliyini əbədi edəcək, doğma ərazilərinə göz dikən mənfur düşmənə layiqli cavab verərək ərazi bütövlüyünü əbədiyyətədək qoruyacaq...

***

Zaman 2020-ci ilin 8 noyabrı...

Məkan Azərbaycan idi...

Al-qırmızı bayram libasına bürünmüşdü yurdumuz... Azərbaycan xalqı 44 günlük Vətən müharibəsindəki tarixi Zəfərin, Qarabağımızın baş tacı Şuşanın azadlığının qürurunu paylaşmaq üçün küçələrə, meydanlara axışmış, sevinc göz yaşları selə dönmüşdü. Əllərində üçrəngli Azərbaycan bayrağını dalğalandıran xalqımız üz tutmuşdular vətənimizin dörd bir yanında uyuyan şəhidlərimizin müqəddəs məzarlarına... Bu torpaq, bu vətən uğrunda canlarından keçən bütün şəhidlərimizin ruhunu şad etməyə, qisaslarının alınıb, qanlarının yerdə qalmadığının müjdəsini verməyə...

**Ali Baş Komandan Şuşanın azadlığının müjdəsini Şəhidlər xiyabanından verdi**

O gün, 8 noyabr 2020-ci il, həm də 30 il əvvəl, Şəhidlər xiyabanında öhdəmizə götürdüyümüz Vətən borcunun da yerinə yetdiyi müqəddəs anlarla tarixə həkk olundu. Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Qarabağın baş tacı Şuşanın işğalçılardan azad edilməsi xəbərini də məhz Şəhidlər xiyabanından Azərbaycan xalqına çatdırdı: “2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox. Mən dəfələrlə demişəm, bütün bəyanatlara rəğmən ki, bu münaqişənin - Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hərbi həll yolları da vardır və bu gün biz bunu döyüş meydanında sübut edirik”.

Bəli, bu gün biz vətən uğrunda canından keçən şəhidlərimizin qisasının alınmasının qürurunu yaşayırıq. 44 günlük Vətən müharibəmizdə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuzun torpaqlarımıza göz dikən düşmənin başını “dəmir yumruğ”u ilə əzməsi, həm də 1990-cı ilin 20 Yanvarında, öz canı, qanı ilə Vətənə bağlılığın dastanını tarixə yazanların, azadlıq zirvəsi fəth edənlərin qanlarını yerdə qoymadı...

**Düşmənləri Azərbaycan xalqının azadlıq eşqini, haqq səsini boğmaq istəyirdi...**

Zaman-zaman olduğu kimi, 1987-ci ilin sonlarında da yenidən ortaya atılmış qondarma “Dağlıq Qarabağ” problemi Azərbaycanın ərazi bütövlüyünün pozulmasına, torpaqlarımızın işğalına, Ermənistanda və Qarabağın dağlıq hissəsində yaşayan yüz minlərlə azərbaycanlının öz doğma yurdlarından qovulmasına yönəlmişdi. Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin ermənilərə havadarlığından hiddətlənən xalqımız azadlıq hərəkatına başlayaraq, Bakının küçələrinə və meydanlarına çıxıb etirazını bildirirdi. Amma 1990-cı il yanvarın 20-nə keçən gecə sovet ordusu millətimizin azadlıq eşqini, haqq səsini boğmaq üçün geniş xalq kütlələrinə qarşı hərbi əməliyyatlara başladı.

Sovet ordusunun böyük hərbi heyətinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi. 1990-cı ilin yanvarında Bakı və respublikanın digər yaşayış məntəqələrində sovet ordusunun təcavüzü nəticəsində 147 nəfər insan amansızcasına öldürüldü, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu.

1990-cı ilin 20 yanvarında gecə baş verən sovet zülmünə qarşı "Bu qan yerdə qalmaz" səsləndirən qəzəbli insan izdihamı "Azadlıq" meydanına axışdı. Onlar müstəqillik uğrunda şəhid olan vətən övladlarının cənazələrinin Bakının ən hündür nöqtəsində torpağa tapşırılmasını istəyirdilər...

Sovet ordusunun amansızlığına və qəddarlığına, Bakıda fövqəladə vəziyyət tətbiq edilməsinə baxmayaraq, Azərbaycan xalqı yanvarın 22-də paytaxtın "Azadlıq" meydanında 20 Yanvar şəhidlərinin dəfni ilə əlaqədar matəm yürüşü keçirdi. Şəhidlər xiyabanındakı dəfn mərasimində 2 milyona yaxın insan iştirak edirdi.

**Qan yaddaşımız**

Tariximizə həm faciə, həm də qəhrəmanlıq salnaməsi kimi həkk olunan 1990-cı ilin qanlı 20 Yanvarından bir qərinəlik zaman keçsə də, xalqımızın ürəyində ağrısı da, acısı da, yaşatdığı qürur, fəxarət hissi də elə ilk gündəki kimi yenidir, təzədir.

Azərbaycanın müstəqilliyi, demokratik dövlət qurmaq amalı ilə ayağa qalxmış mərd xalqımızın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq, milli azadlıq eşqini boğmaq məqsədilə törədilmiş bu faciə qan yaddaşımızdır. Bu tariximizin elə bir salnaməsidir ki, hər səhifəsini vərəqlədikcə azadlıq uğrunda aparılan haqq savaşı ilə, Vətən uğrunda gözünü qırpmadan qurban olmağa hazır qəhrəmanlarla, zülmə boyun əyməyən oğulların rəşadəti ilə fəxr edirik, düşmənlərin qanlı-qadalı əməllərinə şahidlik edib qəzəb atəşi ilə alovlanırıq...

Zülmə, istibdada qarşı barışmaz olduğumuzu bir daha dünyaya bəyan edirik ki, bu millət Vətənini, azadlığını, müstəqilliyini canından, qanından artıq sevir...

**Azərbaycan.-** 2022.- 20 yanvar.- № 13 .- S. 4.

## Heç vaxt unudulmayacaq gün

**Çingiz QƏNİZADƏ,**
Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru

***Azərbaycan xalqı bu günü heç vaxt yaddan çıxarmayacaq və gələcəkdə də hər il bu gün qeyd olunmalıdır. Azadlıq, müstəqillik uğrunda, Vətən uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxarılmamalıdır.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

***Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuş 1990-cı il 20 Yanvar faciəsi müstəqilliyimizin bərpasının başlanğıcı, istiqlaliyyət yolunun zirvəsidir. Həmin gün təpədən-dırnağadək silahlanmış imperiya ordusunun dinc əhaliyə tutduğu divan hev vaxt unudulmayacaq. Pulemyotların, avtomatların səsi, ağır zirehli maşınların uğultusu, tankların vahiməli səsi bu gün də qulaqlarımızda cingildəyir. Həmin gün Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub. O gün xalqımızın milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Doğma Vətəninin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları 32 il əvvəl həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar.***

Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının o vaxtkı rəhbərlərinə və onların Azərbaycandakı əlaltılarına nifrətini bildirir. Hər il yanvarın 20-də minlərlə insan axın-axın Şəhidlər xiyabanına gedir, müstəqillik, suverenlik yolunda canından keçən mərd oğul və qızlarımızın əziz xatirəsini yad edir, onların ruhuna dualar oxuyurlar.

Keçmiş SSRİ rəhbərliyinin ölkəmizə qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən Ermənistanın təcavüzkarlığının siyasətinin açıq-aşkar dəstəklənməsinə və respublikanın o zamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinin üzərinə sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciəyə gətirib çıxardı. Dinc əhaliyə amansızcasına divan tutan sovet imperiyasının bütün qəddarlığına baxmayaraq, xalqın haqq səsini boğa bilmədilər. Buna baxmayaraq, Azərbaycanın o vaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin yenə də xalqla bir olmağa cəsarəti çatmadı və onlar sovet rəhbərliyinin qarşısında müti qul kimi tapşırıqları yerinə yetirməyə davam etdilər.

1990-cı il yanvarın 19-da M.Qorbaçov SSRİ Konstitusiyasının 71-ci maddəsini kobud şəkildə pozaraq. Bakıda fövqəladə vəziyyət elan olunması haqqında fərman imzaladı. Lakin buna baxmayaraq, Bakıda dinc əhaliyə divan tutulması üçün hazırlanmış plan məxfi şəkildə həyata keçirilirdi. İlk növbədə, Azərbaycan Televiziyasının enerji bloku partladıldı. Bu əməliyyatı SSRİ DTK-nın “ALFA” qrupu yanvarın 19-da həyata keçirdi.

Həmin gün azadlıq, istiqlaliyyət uğrunda küçələrə, meydanlara çıxan əliyalın insanlara qarşı törədilmiş ağlasığmaz terror aktı dəhşətli bir cinayət hadisəsi kimi tarixə düşüb. O gün dinc əhaliyə – müstəqillik istəyi ilə həmrəylik nümayiş etdirən insanlara qarşı həyata keçirilən cəza tədbirləri Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və bu sahədə qəbul olunmuş digər konvensiyaların müddəalarının kobud şəkildə pozulması demək idi. Artıq çökməkdə olan sovet rejimi son günlərində bütün tarixi ərzində törətdiyi cinayətlər sırasına misli görünməmiş bir vəhşilik aktı da əlavə etdi.

Bu haqsızlığa etiraz edən xalqın səsini boğmaq üçün qanlı terrora əl atan sovet rejimi Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni əsgər və zabitləri, sovet hərbi hissələrində xidmətdə olan erməniləri respublikamızın üzərinə göndərdi. Sovet ordusu Azərbaycanın o vaxtkı rəhbərliyinin istəyi, SSRİ Ali Sovetinin 1990-cı il 19 yanvar tarixli qərarı, eləcə də, Mixail Qorbaçovun razılığı ilə şəhərə girmişdi. Azərbaycanı sovet imperiyasının buxovlarında saxlamaq, sovet rejiminin hegemonluğunu hələ uzun müddət davam etdirmək və

milli-azadlıq hərəkatını boğmaq məqsədilə Bakıya böyük bir ordu yeridilmişdi. Sonradan məlum oldu ki, xalqın haqq səsini batırmaq üçün Bakıya 35 minlik ordu göndərilibmiş.

Azərbaycan xalqına divan tutulması üçün SSRİ Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizlik Komitəsinin hazırlayıb həyata keçirdiyi əməliyyatda xüsusi təyinatlı "ALFA" və SSRİ DTK-nın "A" təxribat qrupları əsas vəzifələrin icraçıları olublar. M.Qorbaçov başda olmaqla sovet imperiyasının digər rəhbərləri də milli ayrı-seçkilik bəhanəsindən istifadə edərək öz çirkin niyyətlərini həyata keçirdilər. Guya Bakıya yeridilən qoşun hakimiyyəti zorakı yollarla ələ keçirməyə çalışan 2 "millətçi ekstremist"i zərərsizləşdirəcək və hərbi qulluqçuların ailələrini qoruyacaqmış. Bu, qabaqcadan hazırlanmış uydurma plan idi. Elə həmin vaxt Bakıda daxili qoşunların 11,5 min əsgəri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri var idi. Yəni, sovet dövləti tabeliyində olan həmin qüvvələrdən istifadə edə bilərdi.

Həmin vaxt ölkəyə rəhbərlik edənlər bu dəhşətli hadisəni müxtəlif yalan və riyakarlıqlarla xalqdan gizlətməyə çalışırdı. Lakin hadisə baş verən günün ertəsi o vaxtlar Moskvada ciddi nəzarət altında olan Heydər Əliyev haqq səsini qaldırdı və bu faciə barəsində bütün dünyaya məlumat verdi. Bəli, qətliamı həyata keçirmiş sovet rejiminə qarşı ən kəskin bəyanatı o vaxt Moskvada yaşayan, təqib və təzyiqlərə məruz qalan ümummilli lider Heydər Əliyev verdi. Ulu öndər yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək mətbuat konfransı keçirdi, dünyanın bütün kütləvi informasiya vasitələrinin nümayəndələri qarşısında SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı törətdiyi qırğını kəskin pislədi, bunu insanlığa, humanizmə sığışmayan hərəkət kimi qiymətləndirdi. Heydər Əliyev bu dəhşətli faciəyə siyasi qiymət verilməsini tələb etdi. Təəssüf ki, Azərbaycanın o vaxtkı rəhbərliyi yenə də kölə psixologiyasından əl çəkmədi. Bu qətliamın bilavasitə təşkilatçısı və iştirakçısı olmuş SSRİ rəhbərliyinin mövqeyini dəstəkləmiş cinayətkarların məsuliyyətə cəlb olunması üçün heç bir tədbir görmədi. Əksinə, bu cinayəti ört-basdır etmək üçün bütün vasitələrə əl atdı.

Ümummilli liderin siyasi hakimiyyətə qayıdışından sonra bu dəhşətli cinayətə obyektiv qiymət verildi. Ulu öndərin təklifi ilə 1994-cü ildə 20 Yanvar hadisələrini yetərincə qiymətləndirmək istiqamətində addımlar atıldı. Məhz müdrik şəxsiyyətin təşəbbüsü və göstərişləri ilə 1994-cü il martın 29-da Milli Məclisdə "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul dildi. Beləliklə də, 20 Yanvar faciəsi məhz ulu öndər Heydər Əliyevin prinsipial və ardıcıl mübarizəsindən sonra öz siyasi-hüquqi qiymətini aldı. Faciə nəticəsində həlak olanlara onun fərmanı ilə 20 Yanvar şəhidi adı verildi, onların ailələrinə birdəfəlik yardım göstərildi. Ulu öndər Heydər Əliyevin fərmanı ilə 20 "Yanvar şəhidi" fəxri adı təsis edildi. Prezident İlham Əliyevin uğurlu sosial siyasəti nəticəsində 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslər və şəhid ailələri üçün etibarlı sosial müdafiə sistemi formalaşdı.

20 Yanvar hadisələri, eyni zamanda, beynəlxalq cinayət kimi də qiymətləndirilməlidir. XX əsrdə totalitarizmin törətdiyi ən qanlı terror aktları sırasında 20 Yanvar cinayəti də var. Bu, bəşəriyyət və insanlıq əleyhinə törədilmiş dəhşətli əməl idi. Dinc əhaliyə qarşı həyata keçirilən cəza tədbirləri zamanı 1949-cu ilin Cenevrə Konvensiyasının, Beynəlxalq Hərbi Tribunalın Əsasnaməsinin, Beynəlxalq İnsan haqları Bəyannaməsinin, insan haqlarına dair digər beynəlxalq aktların çoxsaylı müddəaları pozulmuşdu.

Azərbaycan xalqı və dövləti 20 Yanvar şəhidlərinin xatirəsini daim uca tutur. Prezident İlham Əliyev şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsinə xüsusi diqqət göstərir, hər il yanvarın 20-də Şəhidlər xiyabanını ziyarət edərək "Əbədi məşəl" abidə kompleksinin önünə əklil qoyur. Prezidenti İlham Əliyevin dediyi kimi, "Azərbaycan bu mübariz oğul və qızlarının şücaətini daim yüksək qiymətləndirir, onların ruhuna ehtiram göstərir, xatirəsini hər zaman uca tutur".

20 Yanvar qətliamını qanlı faciə adlandıran dövlətimizin başçısı deyib ki, bu fakt Sovet İttifaqı zamanında dinc əhaliyə qarşı törədilən ən amansız qanlı cinayət idi. O vaxtadək sovet ordusu dinc əhaliyə qarşı heç vaxt bu qədər qəddarlıqla, vəhşiliklə cəlb edilməmişdi. Yüzlərlə insan həlak oldu, itkin düşdü, yaralandı. Bu cinayəti törədənlər Sovet İttifaqının və Azərbaycanın o vaxtkı rəhbərliyi idi. Ancaq dərd orasındadır ki, faciə günündən keçən 3-4 il ərzində Azərbaycanda heç kim, heç bir vəzifəli şəxs, heç bir dövlət qurumu bu faciəyə siyasi qiymət verməmişdi. Lakin Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıdandan sonra onun təşəbbüsü ilə Milli Məclis siyasi qərar qəbul etdi, cinayətkarları öz adları ilə adlandırdı və ədaləti bərpa etdi.

Möhtərəm Prezidentimizin dediyi kimi, 20 Yanvar günü bizim böyük faciəmizdir, ancaq eyni zamanda, Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsidir. Həmin gün Azərbaycan xalqı öz iradəsini göstərdi. O gündən keçən müddət ərzində Azərbaycan, demək olar ki, tamamilə yeni mərhələyə qədəm qoydu: "Sovet İttifaqının dağılmasından sonra biz çox ağır və çətin vəziyyətdə idik, həm iqtisadi cəhətdən, eyni zamanda, Ermənistanın Azərbaycana etdiyi təcavüz nəticəsində torpaqlarımız işğal altına düşmüşdü. Buna baxmayaraq, biz bütün çətin

sınaqlardan çıxa bildik. Bu gün ölkəmiz dünyada ən sürətlə inkişaf edən ölkədir. Azərbaycan sübut etdi ki, xalqının iradəsinə əsaslanaraq müstəqil, azad ölkə kimi uğurla inkişaf edir".

1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan Vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar. Bu gün müstəqil Azərbaycan dövlətinin tarixinə qanlı 20 Yanvar faciəsi xalqımızın şərəf və qəhrəmanlıq səhifəsi kimi yazılmışdır. Bu qəhrəmanlıq səhifəsi yetişən gənc nəslin hərbi vətənpərvərlik ruhunda böyüməsində mühüm rol oynadı...

Vətən müharibəsində Ermənistan üzərində qazandığımız tarixi qələbə bütün şəhidlərimizin qisasını aldı. Şəhidlərin qanı yerdə qalmadı. Zəfərimiz ərazi bütövlüyümüzü bərpa etdi. Azərbaycan xalqı 30 ildən bəri gözlədiyi böyük qələbənin sevincini yaşadı.

Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun 30 illik işğala son qoyaraq, torpaqlarımızı azad etməsi dövlətçilik tariximizin şanlı səhifəsidir. Azərbaycanın haqq-ədalət uğrunda mübarizəsi qələbə ilə nəticələndi və xalqımızı daha da bütövləşdirdi, mübariz etdi, milli həmrəyliyimizi gücləndirdi. Şanlı qələbə dövlətimizin və xalqımızın iftixar edəcəyi tarix səhifəsinə çevrildi. Bu gün biz qalib xalqın nümayəndələri olmağımızla, torpaqlarımızı hünər meydanında azad etməyimizlə fəxr edir, qürur duyuruq. Şəhidlərimiz və Şəhidlər xiyabanı azadlığımızın, müstəqilliyimizin, milli iradəmizin simvolu kimi bundan sonrakı nəsillər üçün də qürur ünvanı olacaq.

**Xalq qəzeti.- 2022.- 19 yanvar.- № 12.- S. 7.**

## Xalqımızın şərəf salnaməsi

**Səbinə XASAYEVA,**
Milli Məclisin deputatı

***Xalqımızın azadlıq, müstəqillik mübarizəsinin tarixi onun azadlıq, müstəqillik niyyəti ilə yaşıddır. 1813-cü ildə Gülüstan, 1828-ci ildə Türkmənçay müqavilələri Azərbaycanın dövlətçiliyini parçaladı. Həmin vaxtlardan siyasət qələmi Azərbaycanın xəritəsinin konturlarını dəyişdi. Xalq şairi Bəxtiyar Vahabzadənin "Gülüstan" poemasında deyildiyi kimi, Azərbaycanı ikiyə böldülər... Ancaq xalqın müstəqillik istəyinin üstündən siyasət yelləri əsdirməyi bacarmadılar. 1918-ci ildə Şərqdə ilk Demokratik Cümhuriyyət yarandı – Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi və dünya üçrəngli bayrağın işığında dərk etdi ki, yaşarı ruha, bəşəri ruha məğlubiyyət yoxdur...***

Zülm, istibdad həmişə bəşəriliyə, dünyəviliyə düşmən kəsilib. Gec-tez Xeyirin Şərə qalib gələcəyini bilsə də, gec-tez "siyasət kəndirinin kəsiləcəyinə" şübhəsi olmasa da tarixin sabahını bu gününə qurban verməyə meyillənib. Və "əli daş altında qalanda" ayılıb...

Ötən əsrin sonlarında Azərbaycanda milli-azadlıq hərakatı genişlənmişdi. Bu hərakatı dünya üzünə Ermənistanın Azərbaycanda torpaq iddiası çıxartdı. Azadlıq hərakatı imperiyanın qadağalarına məhəl qoymadı, Sibir xofundan, Lefortovo sıxıntılarından çəkinmədi. Milli-azadlıq hərakatı erməniliyi dəstəkləyən Kremlə yönəldildi. Xalq iki cəbhənin əsgəriydi, torpaqlarımıza göz dikənlərlə mübarizə aparırdı (döyüşürdü – silahla). Torpaqlarımıza göz dikənlərə havadarlıq edən imperiya ilə də mübarizədən çəkinmirdi. İmperiya Azərbaycanda milli-azadlıq hərəkatından nəinki çəkinir, hətta qorxurdu da. Qorxurdu ki, bu hərəkat SSRİ deyilən xalqlar həbsxanasını çökdürər. Ona görə imperiyalıq xislətinə uyğun olaraq, bu hərəkatı "beşikdəcə boğmaq" məqsədilə Moskva Bakıya qoşun yeritdi. Bu, imperiyalara xas olan cəza siyasəti idi. Xalq imperiyanın bu niyyətini qətiyyəti ilə qarşıladı – çəkinmədən, qəzəb dalğası ilə. Silahsız insanlara qarşı döyüş texnikaları ilə, müxtəlif növ atıcı silahlarla, gözyaşardıcı bomba ilə gələnlər təkcə əmri yerinə yetirmədilər, həm də azadlıq, müstəqillik mücahidlərinin təmsil etdiyi xalqa sevgisi olmayanların niyyətini həyata keçirdilər. 19 yanvar gecəsi Azərbaycan Dövlət Televiziyasının enerji blokunu partlatdılar ki, xalq gözlənilən təhlükədən xəbər tuta bilməsin, qırğın çox olsun. Bu, imperiyanın xislətinin yerinə yetirilməsində vəsilə oldu. O gecə atılan güllələr yüzlərlə dinc sakini məhv etdi, yaraladı. O gecə yaralıları xəstəxanalara aparan "Təcili yardım" maşınları da güllələnirdi, evinin eyvanına çıxanlar da, evinə tələsənlər də. O gecə xalqın ruhu imperiyanın qəddarlığı ilə döyüşürdü...

İmperiyanın göndərdiyi ordu hissələrinin dünyəvilik, bəşərilik xisləti əmr verilən andan dondurulmuşdu.

Larisa Məmmədovanı kim unudar? Ona güllə atanın özü də unuda bilməyəcək, qatilin valideynləri də; qəddarlıq onları son nəfəsinə kimi təqib edəcək. Məktəbli Larisanın o vaxtki yaşıdları indi anadı, bəlkə də nənədi. Ancaq Larisa əbədiyyən 12 yaşda qalacaq.

20 Yanvar faciəsində Bakıda və respublikamızın rayonlarında 146 nəfər qətlə yetirildi, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs edildi. 200 ev və mənzil dağıdıldı, 80 avtomaşın məhv edildi.

1990-cı il yanvarın 21-də böyük tarixi şəxsiyyət Heydər Əliyev Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyi qarşısında çıxış edərək imperiyanın törətdiyi qırğınlara siyasi qiymət verdi, faciənin günahkarlarının cəzalandırılmasını tələb etdi. Bu, böyük cəsarət də – tarixin axarına qarşı çıxmaq da imperiyanı qorxutdu, ən böyük azərbaycanlının bu çıxışının mahiyyətinin səmtini dəyişməyə cəhd göstərdi, ancaq bunu bacarmadı, dünya ictimaiyyəti böyük tarixi şəxsiyyətin çıxışını imperiya xislətinə, bu xislətin timsalında imperiyanın özünə ölüm hökmü bildi...

Rus imperiyası Bakıda faciə törətmişdi. Unutmuşdu ki, Tofiq Fikrət demişkən, "Zülmün topu var, gülləsi var, qəlpəsi varsa, haqqın da bükülməz qolu, dönməz üzü vardır." Xalqın mübarizə əzmi tarixin üstünə yürüş etdi. İmperiyanın ilhaq zənciri Azərbaycanda qırıldı. 1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi – müstəqillik haqqında Konstitusiya Aktı qəbul olundu.

20 Yanvar faciəsi tarixin müstəvisində həmişə zülm mexanizmi olmaq etibarilə imperiyanın qəddarlığı kimi lənətlənəcək, Azərbaycan xalqının milli ruhunun dönməzliyi kimi qürurla xatırlanacaq.

Ümummilli lider Heydər Əliyev demişdi: "Mən bu faciəyə həmişə ürəkdən yanaraq həm də vətəndaşlıq borcumu yerinə yetirməyə çalışmışam və bu gün də həmin mövqedəyəm, sabah da həmin mövqedə olacağam. Birinci növbədə, ədalət naminə, eyni zamanda, Azərbaycan xalqının namusunu, şərəfini, milli mənliyini

qorumaq naminə". Bu kəlamlar tarixi faciəyə tarixi şəxsiyyətin münasibəti kim dinlənildi və dərk edildi. Ulu öndər bu faciənin mahiyyətini imperiyanın milli, xəlqi ruhun müstəqillik mübarizəsi qarşısında acizliyi kimi xarakterizə edirdi və bu, imperiyanın timsalında imperiyaların xarakterinə verilən ən dürüst, siyasi baxımdan ən mükəmməl qiymət idi. İstər Mockvada Azərbaycanın Daimi Nümayəndəliyi qarşısında çıxışında, istərsə də sonralar dedikləri bu faciənin ideoloji təşkilatçısı olmuş Mixail Qorbaçovun etirafına səbəb olmuşdu...

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsinə ilk siyasi qiymət verən 21 noyabr 1990-cı il tarixli qərar qəbul etdi. Ümummilli liderimizin təşəbbüsü və göstərişləri ilə 1994-cü ilin mart ayının 29-da parlament "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul etdi. Beləliklə də, 20 Yanvar faciəsi məhz ulu öndər Heydər Əliyevin prinsipial və ardıcıl mübarizəsindən sonra öz siyasi-hüquqi qiymətini aldı. Dünya dövlətləri gördü ki, xalq bu faciəni həm də qürur tarixi bilir. Xalqın şəhidlikdən keçən mübarizəsi dövlət müstəqilliyinin bərpasının siyasi qarantı oldu. Dünya onu da gördü ki, bu xalq yaranışından azadlıq, müstəqillik cəfakeşi olub. Xalq müstəqilliyi naminə şəhid olanları son mənzilə ehtiramla uğurladı, indi Azadlıq Meydanı adlanan meydandan Dağüstü parka kimi çiyinlərdə aparıldı, şəhərin ucalığında dəfn edildi. İndi ora Şəhidlər xiyabanı adlanır. Təkcə 20 Yanvar günü deyil, ilboyu Şəhidlər xiyababanına ziyarətə gələnlər azalmır. 20 Yanvar faciəsini görən yaşlılar da gəlir, o faciə ilə yaşıd olanlar da, o faciədə şəhid olanların övladları da, nəvələri də.

Növbəti dəfə Şəhidlər xiyabanındayam.

Nə gələnlər gedənlərə baxırdı, yerişini hiss edirdi, nə gedənlər gələnləri görür, ayaq səslərini eşidirdi. Obrazlı desək, hamı şəhidlərin daşlaşmış baxışlarına qəlbinin gözü ilə baxırdı. Mənəvi borcunun bir zərrəsini ödəyənlər də, ödəməyə gələnlər də 32 il əvvəlin bir qış gecəsini son nəfəsi ilə isidən şəhidlərimizə and içib keçirdilər: Sizin apardığınız mübarizə Azərbaycanın dövlət müstəqilliyinin bərpası ilə nəticələndi. Biz bu müstəqilliyi varlığımızla qoruycağıq! Sizin mübarizə yolunuz əbədiyyətə çatacaq. 20 Yanvardan başlanan yol hər birimizin ürəyindən keçir...

Şəhidlər xiyabanında ruhən şəhidlərə hesabat veririk: Azərbaycanın dövlət müstəqilliyi bərpa olundu. Sizdən sonra Ermənistan elan etmədən Azərbaycana qarşı müharibəyə başladı. İşğalçı dövlət havadarlarının hərbi yardımı ilə torpaqlarımızın 20 faizini işğal etdi. 2020-ci il noyabrın 8-də isə müzəffər ordumuz sentyabrın 27-də başlanan Vətən müharibəsini zəfərlə başa çatdırdı. Azərbaycan Ordusu bu zəfəri sizin ruhunuza gözaydınlığı bildi....

Qarabağ müharibəsində döyüşənlər 20 Yanvar şəhidlərinin ruhunu da sıralarında bilirdi. 20 Yanvar şəhidlərinin oğulları, qardaşları döyüşürdü bu savaşda. Neçəsi şəhid oldu. Allah hər bir şəhidimizə rəhmət eləsin!

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi ilə Vətən müharibəsi zəfərlə başa çatdı. Müharibə itkisiz olmur. Vətən müharibəsində şəhid olanlar 20 Yanvar faciəsində şıhid olanların amalının davamçıları idi. Onlar da torpaqlarımızı işğaldan azad etmək üçün mərdliklə döyüşürdü. Vətən müharibəsində şəhid olanların da ruhu əbədiyyən xalqın ruhunda yaşadılacaq. Ölkə başçısı Vətən müharibəsində şəhid olanları ehtiramla xatırlayaraq dedi: "Biz bu qələbəyə görə onlara borcluyuq. Onlar torpaqlarımızı işğalçılardan qarış-qarış azad edib, onlar bizim bayrağımızı işğal edilmiş və işğaldan azad edilmiş torpaqlarda qaldırıb, bayrağımızı orada dalğalandırıb. Bu, bizim hamımızın qələbəsidir, bütün Azərbaycan xalqının. Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətən-pərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır". Bu ehtiram 20 Yanvar şəhidlərinə də ünvanlanır...

Bu mübarizə də, 20 Yanvar hadisələri də sonrakı dövrlərdə müxtəlif mübarizələrin ruhunu müəyyənləşdirdi. 20 Yanvar Azərbaycanın minillik dövlətçilik tarixinə həm də şərəf salnaməsi kimi daxil oldu.

**Xalq qəzeti.- 2022.- 19 yanvar.- № 12.- S. 7.**

**Qanlı şənbə gecəsi hec vaxt unudulmur**

**Rəhman SALMANLI**

Xalqımızın milli müstəqillik və azadlıq uğrunda mübarizə salnaməsində tarixiləşən günlərdən biri də 1990-cı ilin 20 Yanvarıdır. Azərbaycanın ərazi bütövlüyünün pozulmasına qarşı etiraz edənləri, azadlıq, müstəqillik və suverenlik ideyalarını dəstəkləyən xalqı cəzalandırmaq məqsədi ilə həmin gün imperiya mərkəzi Bakı şəhərinə əksəriyyəti ermənilərdən ibarət qoşun yeritdi.

Təcavüz nəticəsində 147 nəfər mülki şəxs qətlə yetirildi, 700-dən çox insan yaralandı, 321 nəfər itkin düşdü, yüzlərlə insan həbs edildi, ya da ömürlük şikəst oldu. Günahsız vətəndaşlara qarşı sovet qoşunlarının bu hücumu 1986-cı ildə Qazaxıstanda, 1989-cu ildə Gürcüstanda dinc əhali arasında törədilmiş qırğının davamı idi.

1980-ci illərin sonlarında ölkəmizdə ictimai-siyasi vəziyyətin kəskinləşməsi, ittifaq rəhbərliyinin uğursuz “yenidənqurma” siyasəti, iqtisadi islahatların düzgün aparılmaması, milli siyasət sahəsində buraxılan kobud səhvlər Azərbaycanda milli azadlıq hərəkatının geniş vüsət almasına səbəb oldu. Bu kəskinləşmənin əsas səbəblərindən biri də Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etməsi, uydurma “Dağlıq Qarabağ problemi”nin ortaya atılması idi. SSRİ rəhbərliyindəki havadarlarına arxalanan ermənilərin Azərbaycanın ərazilərinə iddiaları və dinc əhaliyə qarşı törətdikləri cinayətlər xalqımızı hiddətləndirmişdi. Bununla əlaqədar başlayan milli azadlıq hərəkatı öz möhtəşəmliyi və prinsipiallığı ilə SSRİ rəhbərliyində ciddi narahatlıq yaratmışdı. Ölkəmizdə milli azadlıq mücadiləsi Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağda baş qaldıran erməni separatizmi, həm də qədim türk torpaqları sayılan indiki Ermənistandan 300 mindən çox soydaşımızın zorla öz ata-baba yurdlarından qovulmasına səbəb olmuşdu. Həmin dövrdə nümayiş və mitinqlərdə əhali keçmiş sovet rəhbərliyindən və onun respublikamızdakı təmsilçilərindən ermənilərin qanunsuz hərəkətlərinə son qoyulmasını, münaqişənin ideoloqlarının və icraçılarının cəzalandırılmasını tələb edirdi. Ancaq ittifaq rəhbərliyi ermənipərəst mövqedə dayanaraq, müxtəlif vasitələrlə onların müdafiəsinə qalxırdı. Azərbaycanlılar zorla öz doğma yurdlarından qovulur, evləri vəhşicəsinə dağıdılır və ya zorla əllərindən alınır, özləri isə ən ağır təhqirlərə, işgəncə və qətllərə məruz qalırdılar. Həmin dövrdə respublikamızda ictimai-siyasi vəziyyəti ağırlaşdıran amillərdən biri də ölkə rəhbərliyində təmsil olunan şəxslərin səriştəsizliyi idi.

Respublikada yaranmış özbaşınalıq və hərc-mərclikdən məharətlə istifadə edən SSRİ-nin xüsusi xidmət orqanlarının əməkdaşları 1990-cı il yanvarın əvvəllərində yerlərdəki emissarlarının köməyi ilə Bakıda müxtəlif iğtişaşlar törətdilər. Azərbaycanı informasiya blokadasına almışdılar. Dəhşətli faciədən bir az öncə Azərbaycan Televiziyasının enerji bloku partladıldı. Radio və televiziyanın fəaliyyəti dayandırıldı, qəzetlər nəşr edilmədi. Dünya ictimaiyyəti Azərbaycanda baş vermiş bu qanlı hadisədən xəbərsiz idi. Belə ağır və müsibətli bir vaxtda xalqımızın vətənpərvər oğlu, Ulu Öndər Heydər Əliyev Moskvada xüsusi nəzarət altında saxlanılmasına, təzyiq və təqiblərə məruz qalmasına baxmayaraq, yanvarın 21-də oğlu cənab İlham Əliyevlə birgə Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək, sovet ordusunun Bakıda törətdiyi bu qanlı cinayəti kəskin pisləyən bəyanat verdi. Zəngin dövləti idarəetmə təcrübəsinə malik olan Ulu Öndər bununla da Azərbaycan xalqına qarşı törədilmiş haqsızlığı dünya səviyyəsində rəsmiləşdirdi, faciənin bütün günahkarlarının cəzalandırılmasını tələb etdi. Həmin gün Ümummilli Lider Azərbaycan KP MK-ya, respublikanın Ali Soveti və Nazirlər Sovetinə teleqram göndərdi. Bununla Ulu Öndər bütün dünya qarşısında 1990-cı il 20 Yanvar faciəsinə verilən ilk siyasi qiymətin təməlini qoydu. Ulu Öndər Heydər Əliyev və cənab İlham Əliyev bununla da Vətən, xalq qarşısında vətəndaşlıq və milli mövqe nümayiş etdirdilər...

Dövləti idarəetmə təcrübəsinə malik olan Heydər Əliyevin xalqın tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra 20 Yanvar hadisələrinin lazımınca dəyərləndirilməsi istiqamətində ciddi addımlar atıldı. Hələ 1990-cı il noyabrın 21-də böyük siyasi xadim Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsi ilə bağlı tarixi qərar qəbul etmişdi. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyə gəlişindən sonra isə bu faciəyə hüquqi qiymət verildi.

Ulu Öndər 1993-cü ilin iyununda Azərbaycanda hakimiyyətə qayıdışının ilk günlərində Şəhidlər xiyabanını ziyarət etdi. Elə yerindəcə tapşırıq verdi ki, qısa müddətdə bütün şəhid məzarlarının üstü layiqincə götürülsün və burada memorial kompleks ucaldılsın. Bunun üçün dövlət səviyyəsində lazımi vəsait ayrıldı və bu iş qısa zamanda başa çatdırıldı. Ulu Öndərin sərəncamı ilə 20 Yanvar Ümumxalq Hüzn Günü elan olundu.

Ulu Öndərin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva da Vətənimizin azadlığı, ərazi bütövlüyü uğrunda şəhid olanların, müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinin dövlət səviyyəsində həllini əsas vəzifələrdən biri kimi qarşıya qoyub. Bu, Azərbaycan torpaqlarının 30 illik erməni işğalına son qoyan İkinci Qarabağ savaşından

sonra daha çox müşahidə edilməkdədir. Ölkəmizdə bu istiqamətdə böyük tədbirlər həyata keçirilir, şəhid ailələrinin, əlillərin sosial təminatı daha da möhkəmləndirilir. Ölkədə əlil və şəhid ailələrinin mənzil təminatını yaxşılaşdırmaq üçün dövlət hesabına tikilən fərdi və yaşayış evlərinin sayı ildən-ilə artır.

Xeyirxahlıq missiyası ilə dünyanın diqqət mərkəzində olan Heydər Əliyev Fondu 20 Yanvar şəhidlərinin ailələrinə və əlillərin problemlərinə daim böyük qayğı ilə yanaşıb. Fondun dəstəyi ilə 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, faciə qurbanları ailələrinin problemlərinin həlli, sağlamlığının bərpası istiqamətində mühüm işlər görülüb. Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının sədri Leyla xanım Əliyevanın da bu istiqamətdə həyata keçirdiyi tədbirlər yüksək dəyərlərə malikdir. Məhz onun təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən Qarabağ münaqişəsi, xalqımızın qanlı tarixi 20 Yanvarla bağlı kitablar, bukletlər, albomlar nəşr olunub, filmlər çəkilib.

COVID-19 pandemiyasının qayda və tələbləri çərçivəsində bir neçə gündür ki, respublikamızın şəhər və rayonlarında, o cümlədən idarə və təşkilatlarda 20 Yanvar hadisələri ilə bağlı görüşlər, konfrans və toplantılar keçirilir, mühazirələr söylənilir, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşalar göstərilir, bədii və sənədli filmlər nümayiş etdirilir, bu tədbirlər kütləvi informasiya vasitələrində geniş işıqlandırılır. Respublikanın bütün tədris müəssisələrində faciəyə həsr edilmiş xüsusi dərslər keçirilir, xalqımızın qəhrəmanlıq tarixinə çevrilmiş 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardımlar verilir, Azərbaycandakı əsas dini konfessiya və qurumlar tərəfindən faciə qurbanlarının xatirəsinə dini mərasimlər təşkil edilir.

Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri, diaspor qurumları və icmaları vasitəsilə müvafiq tədbirlər keçirilir, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar faciəsi barədə materiallar genişliyi ilə gündəmə gətirilir.

O qanlı şənbə gecəsində azadlıq və müstəqillik uğrunda mübarizəyə qalxan dinc əhaliyə tutulan amansız divanı xalq heç vaxt unutmur. Hər il dinindən və irqindən asılı olmayaraq on minlərlə Azərbaycan vətəndaşı, ölkəmizdə səfərdə olan xarici ölkə başçıları, turistlər və qonaqlar Bakının ən uca yerində - hamımız üçün müqəddəs sayılan, xalqımızın qəhrəmanlıq tarixini özündə yaşadan Şəhidlər xiyabanına gəlir, müstəqillik uğrunda sinələrini sipər etmiş xalqımızın mərd oğul və qızlarını böyük ehtiramla yad edir, məzarları önünə tər gül dəstələri düzürlər.

**Azərbaycan.- 2022.- 19 yanvar.- № 12.- S. 7.**

## Müqəddəs and yerimiz

**Əli Sadıqov**

Azərbaycanın azadlığı uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 1990-cı ilin 20 Yanvar hadisəsindən 32 il ötür. Azərbaycan xalqının azadlıq uğrunda mübarizliyini təcəssüm etdirən 20 Yanvar faciəsi hər il Ümumxalq Hüzn Günü kimi geniş qeyd edilir.

ovet İttifaqı rəhbərliyinin ölkədə yaşayan millətlərə qarşı yürütdüyü ədalətsiz siyasət, iqtisadiyyatda uzun müddət ərzində davam edən durğunluğun tədricən böhranla əvəz olunması, əhalinin sosial vəziyyətinin yaxşılaşması üçün hökumət tərəfindən əməli tədbirlərin görülməməsi və digər neqativ hallar vətəndaşların haqlı narazılığına səbəb olmaqla yanaşı, Azərbaycan xalqının illər boyunca öz qəlbində yaşatdığı müstəqillik arzusunun gercəkləşməsinə zəmin yaratdı. Bununla yanaşı, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etməsi və Dağlıq Qarabağda erməni separatçıların baş qaldırması onsuz da mürəkkəb olan ictimai-siyasi vəziyyətin bir qədər də gərginləşməsinə gətirib çıxardı.

Beləliklə, bir tərəfdən milli-azadlıq hərəkatının oyanması, digər tərəfdən isə ölkə daxilində ictimai-siyasi vəziyyətin kəskinləşməsi Sovet İttifaqının rəhbərliyinə Azərbaycana qarşı qeyri-qanuni addımların atılması üçün şərait yaratdı. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıya daxil olmuş sovet qoşun hissələri dinc əhalini iriçaplı silahlardan atəşə tutdu. Həmin gecə Bakının müxtəlif yerlərində sovet əsgərləri tərəfindən 121 insan qətlə yetirilmiş, 700-dən artıq vətəndaş yaralanmış və xəsarət almışdır. Sonrakı günlər də daxil olmaqla ümumilikdə 147 nəfər həlak olmuş, qeydə alınan 700-dən çox yaralının 25-i qadın, 20-si uşaq olmuşdur. Xalqın başına gətirilən bu cinayət sovet imperiyasının iç üzünü ortaya çıxartdı.

zərbaycanda günahsız insanların güllələbaran edilməsi əməliyyatı SSRİ Müdafiə Nazirliyi, DİN xüsusi təyinatlıları və SSRİ DTK-nın təxribat qrupları tərəfindən təşkil olunmuşdu. Bu, Azərbaycan xalqını qorxutmaq, onun milli oyanışını, ərazi bütövlüyü, suverenlik uğrunda mübarizliyini məhv edib sındırmaq məqsədi daşıyan mənfur planın tərkib hissəsi idi. Mixail Qorbaçov başda olmaqla sovet imperiyasının rəhbərliyi Bakıda "erməni kartından" məharətlə istifadə etdi. Guya Bakıya qoşun onları, hərbi qulluqçuların ailələrini qorumaq, "millətçi ekstremistlər" tərəfindən hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə bu açıq riyakarlıq, imperiyanın növbəti qəddarlığını ört-basdır etmək üçün qabaqcadan hazırlanmış iftira və böhtanlar idi.

Qanlı Yanvar hadisəsinə ilk həqiqi siyasi qiymət verən ümummilli lider Heydər Əliyev oldu. O, faciədən sonrakı gün özünün və ailəsinin həyatını təhlükə altında qoyub Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək kommunist rejiminin Azərbaycanda həyata keçirdiyi qanlı aksiyanı qətiyyətlə pislədi, xalqımıza qarşı törədilən bu cinayətə, günahsız insanların öldürülməsinə qəti etirazını bildirdi, faciəni törədənləri, şəxsən M.Qorbaçovu ittiham edərək təqsirkarların cəzalandırılmasını və qoşunların Bakıdan çıxarılmasını tələb etdi. Azərbaycan xalqının kədərini bölüşərək xalqımıza başsağlığı verdi.

XX əsrdə totalitarizmin törətdiyi ən qanlı terror aktları sırasında 20 Yanvar cinayəti də var. Bu, bəşəriyyət və insanlıq əleyhinə törədilmiş dəhşətli əməl idi. Dinc əhaliyə qarşı həyata keçirilən cəza tədbirləri zamanı 1949-cu ilin Cenevrə Konvensiyasının, Beynəlxalq Hərbi Tribunalın Əsasnaməsinin, Beynəlxalq İnsan haqları Bəyannaməsinin, insan haqlarına dair digər beynəlxalq aktların çoxsaylı müddəaları pozulmuşdu. Bu məqamlar 20 Yanvar hadisələri ilə bağlı aparılmış ən səthi təhqiqatlarda da təsdiqlənir.

Ulu öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra 20 Yanvar hadisələrini lazımınca qiymətləndirmək yolunda ciddi addımlar atıldı... "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 5 yanvar 1994-cü il tarixli Fərmanı ilə Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olundu. Milli Məclisdə müzakirələrin yekunu olaraq 1994-cü il martın 29-da "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul edildi. Qərarda, 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildi.

Ulu Öndər şəhidlərin ailələrini də dövlət qayğısı ilə əhatə etdi. Eləcə də 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı hər zaman dövlət başçısının diqqətində olub. 1993-cü ildən etibarən 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər görülüb və bu gün də görülməkdədir. Azərbaycan Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə 20 Yanvar təcavüzü zamanı yüksək vətəndaşlıq nümunəsi göstərərək həlak olmuş Azərbaycan Respublikası vətəndaşlarına "20 Yanvar şəhidi" fəxri adı verilib. "1990-cı il 20 Yanvar hadisələri

zamanı əlil olmuş şəxslərə dövlət qayğısının artırılması haqqında" 2003-cü il 15 yanvar tarixli Sərəncama əsasən, əlil olmuş şəxslərə verilən aylıq müavinət davamlı olaraq həyata keçirilir.

Ulu öndər Heydər Əliyevin daxili və xarici siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev 20 Yanvar faciəsində qətlə yetirilənlərin, müharibə veteranlarının, şəhid ailələrinin, əlil-lərin problemlərinin dövlət səviyyəsində həllini mühüm vəzifələrdən biri kimi qarşıya qoyub. Ölkəmizdə bu istiqamətdə böyük tədbirlər həyata keçirilib, şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilib. 2006-cı il yanvarın 19-da ölkə başçısının fərmanı ilə 20 Yanvar şəhidlərinin ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilib. Dövlət başçısının fərmanı ilə 140 nəfər 20 Yanvar şəhidi fəxri adı almış şəxslərin 180 nəfər ailə üzvünə ayda 300 manat məbləğində Prezident təqaüdü verilir.

20 Yanvar şəhidlərinin xatirəsini əbədiləşdirmək məqsədilə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Şəhidlər Xiyabanında Azərbaycanın azadlığı uğrunda mübarizədə şəhid olanlara həsr olunmuş "Əbədi məşəl" abidə-kompleksi ucaldılmışdır.

Prezident İlham Əliyev də 20 Yanvar şəhidi ailələrinin və yaralılarının qayğılarını daim diqqət mərkəzində saxlayır. Dövlət başçısının fərmanlarına əsasən 20 Yanvar hadisələrində əlil olmuş şəxslərin və şəhid ailələri üçün təqaüdlərin artırılması onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması bu diqqət və qayğının daha bir bariz nümunəsi kimi xalq tərəfindən yüksək qiymətləndirilir.

1990-cı ilin Qanlı Yanvar hadisələri yalnız Azərbaycan xalqına qarşı deyil, ümumbəşəri dəyərlərə, humanizmə qarşı törədilən cinayətdir. Bu hadisələr Azərbaycan tarixinin qanlı səhifəsinə çevrilsə də, eyni zamanda, xalqımızın qəhrəmanlıq ənənələrinə sadiqliyini, Vətənin müstəqilliyi və azadlığı uğrunda canından belə keçməyə hazır olduğunu bir daha sübut etdi.

Vətənpərvərliyin ən ali zirvəsi - şəhidlikdir. Vətənin qorunması, müdafiəsi uğrunda canından, qanından keçərək şəhidlik zirvəsinə ucalmaq ən böyük şərəf və qürurdur. Bu ucalığa yüksələnlərin ömür yolu nə qədər qısa olsa da, şərəfli və nümunəvi yoldur. 1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Əksinə xalq daha da mətinləşdi və düşmənin gözünə dik baxdı. Həmin müdhiş gecədə həlak olan Vətənin oğul və qızları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar.

Bu il xalqımız 20 Yanvar hadisələrinin 32-ci ildönümünü qeyd edir, igid övladlarının fədakarlığını məhəbbətlə xatırlayır, onların əziz xatirəsini böyük ehtiramla yad edir. Bakının ən möhtəşəm məkanında Vətən uğrunda canlarını qurban vermiş mərd, igid oğul və qızlarımızın uyuduğu Şəhidlər xiyabanı xalqımız üçün müqəddəs and yerinə çevrilib. Şəhidlərimiz və Şəhidlər xiyabanı azadlığımızın, müstəqilliyimizin, milli iradəmizin simvolu kimi indiki və gələcək nəsillər üçün qürur mənbəyi olacaqdır.

**Respublika.** - 2022.- 19 yanvar. - № 12. - S. 9.

## Qəhrəmanlıq salnaməsi

**Esmira Ələsgərova,**
Göygöl rayonu, Quşqara kənd orta məktəbinin müəllimi

Azərbaycan tarixinin şərəfli və qürur duyulacaq səhifələrindən biri də 1990-cı ilin 20 Yanvar günüdür. Həmin gün dinc sakinlər qətlə yetirildi, yüzlərlə insan müxtəlif dərəcəli xəsarət aldı. O gecə xalq çaşqınlıq içində idi...

20 Yanvarda Sovet İttifaqının ordu hissələri cəmi bir neçə saat ərzində Bakını tam nəzarətə aldı. Əslində, sovet rəhbərliyi anlayırdı ki, xalq Azərbaycana qarşı törətdiyi xain əməllərə sərt reaksiya verəcək və bu etirazlar daha da böyüyəcək. Bu səbəbdən "ədalətli qərar" bəri başdan xalqı qan gölündə boğub qorxutmaq oldu. Məlumatlara əsasən, fövqəladə vəziyyətin tətbiqi nəticəsində Sovet ordusunun hərbi qulluqçuları 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfər ölümcül yaralanmışdır. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda - yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdir. Ümumiyyətlə isə qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və Azərbaycanın rayonlarında 146 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdu. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomobil, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdi. Həlak olanlar arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və polis nəfərləri var idi.

Məhz belə bir ağır məqamda Heydər Əliyev ayağa qalxdı. Qırğın gününün sabahı Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlməklə o, "Azərbaycan tək deyil! Mən varam!" -dedi. Nümayəndəlikdəki çıxışında Ümummilli Lider sovet imperiyasını, onun ermənipərəst rəhbərlərini rüsvay etdi.

Xalqımız 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlq ənənələrinə sadiq olduğunu, ən ağır sınaqlara sinə gərmək əzmini bütün dünyaya nümayiş etdirdi. 1990-cı ilin Qanlı Yanvarında Azərbaycanın şəhidlik zirvəsinə ucalmış Vətən övladları özlərinin fədakarlığı ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar.

Ulu öndər, dahi şəxsiyyət Heydər Əliyev 1998-ci ildə Şəhidlər Xiyabanında etdiyi çıxış zamanı 20 Yanvar faciəsinə belə qiymət vermişdi: "Bu təcavüz nəticəsində həlak olanlar xalq qəhrəmanlarıdır. Onların həlak olması bizim üçün, xalqımız üçün, sizlər üçün, ailə üzvləri üçün böyük itkidir, faciədir. Ancaq eyni zamanda, onların şəhid olması xalqımızın qəhrəmanlıq rəmzidir. Onların şəhid olduğu zaman tökülən qanı bütün xalqın qanıdır. O qanın hər damcısında bizim xalqımızın qüdrəti var, xalqımızın qəhrəmanlığı var, xalqımızın milli azadlıq arzuları vardır..."

20 Yanvar şəhid qanları ilə yoğrulsa da, xalqı azadlığa aparan mübarizə yolu oldu. Qanlı Yanvar öz siyasi-hüquqi qiymətini isə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra - 1994-cü il yanvarın 5-də verdiyi xüsusi Fərmanla aldı.

lu Öndərin layiqli siyasi varisi Azərbaycan Prezidenti cənab İlham Əliyev azadlıq mücahidlərinə ehtiram və böyük hörmət göstərərək şəhid ailələrinə diqqət və qayğı ilə yanaşır. Dövlət başçısı 1990-cı ilin 20 Yanvarında sovet ordusunun xalqımıza qarşı təcavüzünün mahiyyəti, Vətən övladlarının qəhrəmanlığı barədə demişdir: "20 Yanvarda sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirdi. Azərbaycanda haqq, ədalətin müdafiəsi yolunda canlarından keçmiş Vətən övladları Qanlı Yanvarda xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar".

20 Yanvar - Ümumxalq Hüzn Günü böyük ehtiramla həm Azərbaycanda, həm də dünya ölkələrində yad edilir.

**Respublika.** - 2022.- 19 yanvar. - № 12. - S. 9.

**20 Yanvar: Tariximizin mərdlik, rəşadət və şəhidlik zirvəsi**

**Zahid Rza**

**Qan yaddaşımıza əbədi həkk olunmuş 1990-cı ilin 20 Yanvar hadisələri tariximizin faciə və qəhrəmanlığı özündə ehtiva edən unikal səhifəsi, Azərbaycanın sonrakı taleyinə əhəmiyyətli təsiri olan dönüş anıdır. 20 Yanvar Azərbaycan xalqının mərdlik, qəhrəmanlıq və şəhidlik zirvəsidir. Həmin gün 70 il sovet imperiyasının əsarətində yaşayan xalqımızın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir.**

Keçmiş SSRİ rəhbərliyi 1988-90-cı illərdə Azərbaycanda milli-azadlıq hərəkatına zərbə vurmaq, xalqımızın iradəsini, milli azadlıq və istiqlaliyyət uğrunda mübarizə əzmini qırmaq üçün müxtəlif məkrli planlar hazırlayır, ən çirkin vasitələrə əl atırdı. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə birbaşa Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridildi. Dinc əhali ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutularaq kütləvi qətlə yetirildi. Sovet ordusunun xüsusi təyinatlı dəstələrinin və daxili qoşunların iri kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklə müşayiət edildi.

20 Yanvar hadisələri Azərbaycana qarşı törədilmiş hərbi və siyasi cinayətdir. Azərbaycan xalqını dəhşət və müsibətə düçar etmiş 20 Yanvar faciəsi bütün dünyada əks-səda doğurmuş, mütərəqqi qüvvələrin qəzəb və hiddətinə səbəb olmuşdur. Bu faciədən sonra Azərbaycanın siyasi rəhbərliyi nəinki istefaya getməmiş, hətta belə bir məqamda susmağı daha üstün tutmuşdur. Xalqının şəhidlər verdiyi faciəli günlərdə, o bu faciəyə rəsmi bəyanatla münasibətini bildirməmiş, xalqın qəzəbindən qorxaraq şəhidlərin dəfn mərasimində iştirak etməmiş, yas içində olan xalqına başsağlığı belə verməmişdir.

20 Yanvar hadisələrinə siyasi qiymət ilk dəfə ulu öndər Heydər Əliyev tərəfindən verildi. 1990-cı il yanvarın 21-də Sovet rejiminin qadağalarına rəğmən, həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələn ulu öndər Heydər Əliyev qanlı faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında ittiham etdi, ifşaedici və cəsarətli bir bəyanat verdi. 20 Yanvar hadisələrinə ilk hüquqi qiymətin verilməsi ümummilli lider Heydər Əliyevin siyasi iradəsinin nəticəsidir. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsinə ilk siyasi qiymət verən 21 noyabr 1990-cı il tarixli qərar qəbul etdi. Məhz Ümummilli Liderimizin təşəbbüsü və göstərişləri ilə 1994-cü ilin mart ayının 29-da parlament "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" Qərar qəbul etdi. Beləliklə də, 20 Yanvar faciəsi məhz ulu öndər Heydər Əliyevin prinsipial və ardıcıl mübarizəsindən sonra öz siyasi-hüquqi qiymətini aldı. Ulu öndər Heydər Əliyevin Fərmanı ilə "20 Yanvar Şəhidi" fəxri adı təsis edildi.

Prezident İlham Əliyev 20 Yanvar hadisələri zamanı şəhid olmuş ailələrin sosial vəziyyətini daim diqqətdə saxlayır. Prezidentimizin uğurlu sosial siyasəti nəticəsində 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslər və şəhid ailələri üçün etibarlı sosial müdafiə sistemi formalaşdı. Prezident İlham Əliyevin 2006-cı il 19 yanvar tarixli "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Fərmanına əsasən, şəhid ailələrinə dövlət qayğısını artırmaq məqsədilə aylıq təqaüd verilir. Təqaüdün məbləği 2021-ci il yanvarın 1-dən 300 manatdan 500 manata çatdırıldı. Məhz Azərbaycan Prezidentinin təşəbbüsü ilə Şəhidlər Xiyabanında təmir və yenidənqurma işləri aparılıb. Bundan başqa, Bakının Yasamal rayonundakı "20 Yanvar" dairəsində, Həsən bəy Zərdabi və Müzəffər Həsənov küçələrinin kəsişməsində Qanlı Yanvar şəhidlərinin xatirəsinə memorial abidə kompleksi inşa olunub.

Bəli, Azərbaycan tarixinə milli qürur və qəhrəmanlıq günü kimi yazılan 1990-cı ilin 20 Yanvarında xalqımız azad, suveren və müstəqil yaşamağa layiq olduğunu bütün dünyaya nümayiş etdirdi. Bir neçə gündən sonra 20 Yanvar faciəsinin ildönümünü məğrur Azərbaycanın, qalib ölkənin vətəndaşları kimi yad edəcəyik. Böyük qürur hissi və dərin ehtiramla şəhidlərimizi ziyarət edəcəyik. Çünki Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun 2020-ci ilin sentyabrın 27-dən torpaqlarımızın işğaldan azad edilməsi uğrunda başlatdığı Vətən müharibəsi Zəfərlə başa çatıb, şəhidlərimizin qisası alınıb.

Allah Azərbaycanın azadlığı və suverenliyi uğrunda canından keçən, öz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifələr yazan bütün şəhidlərimizə rəhmət eləsin.

**İki sahil.-**2022.-19 yanvar.-№10.-S.7.

## Azərbaycanın istiqlal yolunun ilk zirvəsi

**Nəzakət Ələddinqızı**

Tariximizdə yer alan 20 Yanvar faciəsindən 32 il keçsə də, baş verənlər unudulmur və qan yaddaşımıza əbədi köçüb. Həm kədər, həm də qürur doğuran səhifəmizə çevrilən və Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olan 1990-cı il 20 Yanvar hadisəsi XX əsrdə xalqımıza qarşı yeridilən düşünülmüş siyasətin növbəti təzahürü idi. Bu tarix Azərbaycan tarixinə silinməyən səhifələr yazdı, xalqın milli azadlığı, müstəqilliyi üçün yollar açdı. 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə nahaq qanlar tökülsə də, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. 70 il imperiya dövründə yaşayan Azərbaycan xalqına qarşı keçmiş sovet dövlətinin hərb maşınının həyata keçirdiyi hərbi təcavüz insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi qiymətini almış oldu. Bu, uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli tarixdir.

Milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə silahlı təcavüz nəticəsində günahsız insanların qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. Həmin dövrün tarixinə nəzər salsaq görərik ki, 1990-cı ilin yanvar ayında M.Qorbaçov başda olmaqla sovet imperiyasının rəhbərliyi Bakıda vəziyyətin gərginləşməsini və hakimiyyətin təhlükədə olduğunu bəhanə edərək qoşunun yeridilməsi üçün müxtəlif əsassız məlumatlar yayırdı. Guya Bakıya qoşun hərbi qulluqçuların ailələrini qorumaq, hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə bu, tamamilə saxta bir tezis idi. 1990-cı il yanvarın 19-da M.Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. Lakin əhalinin bundan məlumatsız qalması üçün SSRİ DTK-nın "Alfa" qrupu tərəfindən yanvarın 19-da saat 19.27-də Azərbaycan televiziyasının enerji bloku partladıldı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və dinc əhaliyə amansız divan tutuldu.

### İNSAN HÜQUQLARINA ƏSASLANAN BEYNƏLXALQ MÜQAVİLƏLƏRİN KOBUDCASINA POZULDUĞU GÜN

Plan üzrə hər şey əvvəlcədən hazırlanmışdır. Ssenari üzrə baş tutan əməliyyatlar Bakını qan dənizinə çevirmişdir. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt isə öldürülənlərin sayı 100 nəfərə çatmışdı. Belə ki, artıq yanvarın 20-də 131 insan öldürülmüşdü ki, onlardan 117-si azərbaycanlı, 6-sı rus, 3-ü yəhudi, 3-ü tatar idi. 744 adam ağır xəsarət almış, 4 şəxs itkin düşmüş, 400 nəfər isə həbs edilmişdi. Sovet qoşunları fövqəladə vəziyyət elan olunmayan rayonlara - yanvarın 25-də Neftçalaya, bir gün sonra isə Lənkərana yeridilmiş, nəticədə hər iki rayonda dinc insanlar qətlə yetirilmişlər. Beləliklə, sovet qoşunlarının Bakıya və Azərbaycanın digər rayonlarına hərbi müdaxiləsi nəticəsində öldürülən insanların sayı rəsmi olaraq 147-yə çatmışdı. Adamları xüsusi qəddarlıqla və yaxın məsafədən güllələmişlər. Xəstəxanalar, təcili yardım maşınları atəşə tutulmuş, həkimlər öldürülmüşdür. Baş verən hadisələr 1948-ci ilin Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, 1966-cı ilin Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Aktı, 1966-cı ilin İqtisadi, Sosial və Mədəni Hüquqlar Haqqında Aktı və 1975-ci ilin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Helsinki Yekun Aktı, ATƏM-in 1989-cu il Vyana görüşünün son qərarı, hərbi əməliyyatların aparılmasını tənzimləyən qüvvədə olan müqavilələr, əsasən də 1980-ci ilin döyüş zamanı yüngül fırlanan və yayılan güllələrin istifadə edilməməsi Bəyannaməsi də buraya daxil olmaqla qüvvədə olan bütün insan hüquqlarına əsaslanan beynəlxalq müqavilələr kobudcasına pozulmuşdur.

Yanvarın 20-də artıq bütün dünya Bakıda törədilmiş dəhşətli qırğından xəbər tutdu. Artıq sovet qoşunlarının Bakıya hərbi müdaxiləsi dünyanın bir sıra ölkələrində etirazla qarşılanmışdır. M.Qorbaçovun atdığı bu addımı kəskin tənqid etmişlər.

### MİLLİ MƏFKURƏMİZİN AZADLIQ İSTƏYİNİN OYANIŞ GÜNÜ

Müstəqil Azərbaycan dövlətinin tarixinə qanlı 20 Yanvar faciəsi xalqımızın şərəf və qəhrəmanlıq səhifəsi kimi yazıldı. Azərbaycan tarixində qanla yazılmış bir səhifə olsa da, bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Xalq o günlərdə böyük bir həqiqəti - həqiqi liderin meydanda olmamasını da bütün mahiyyəti ilə dərk etdi. O müdhiş gündə Ulu Öndər Heydər Əliyev xalqının səsinə hər kəsdən əvvəl səs verdi. Ümummilli Lider Moskvada xüsusi nəzarət altında ola-ola, özünün və ailə üzvlərinin həyatını açıq təhlükə qarşısında qoyaraq, hadisələrdən dərhal sonra, 1990-cı il yanvarın 21-də ailəsi ilə birlikdə ölkəmizin Moskvadakı Daimi Nümayəndəliyinə gələrək, təcavüzə kəskin etirazını bildirdi, faciəni törədənləri, şəxsən M.S.Qorbaçovu kəskin ittiham etdi, qoşunların Bakıdan çıxarılmasını tələb etdi. Ulu Öndər Heydər Əliyev bununla, hər şeydən əvvəl, Vətən, xalq qarşısında vətəndaşlıq və milli mövqeyini nümayiş etdirdi.

Ümummilli Lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Bundan sonra, 1990-cı ilin qanlı Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 5 yanvar tarixli Fərmanında deyilir: "Xalqımızın tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı ilin yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermişdir. Tarixin yaddaşına qanla yazılmış həmin gündən bizi 4 illik zaman məsafəsi ayırırdı. Təəssüf ki, 4 il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilməmişdir". Fərmanda Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymətin verilməsi, bu məqsədlə parlamentin xüsusi sessiyasının keçirilməsi məsələsinə baxılması tövsiyə edilirdi. Milli Məclisdə müzakirələrin yekunu olaraq 1994-cü il martın 29-da qəbul edilən qərarda, nəhayət ki, 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi.

## "BU TƏCAVÜZ XALQIMIZI MƏNƏVİ CƏHƏTDƏN ÇOX SARSITSA DA, İTKİLƏRƏ MƏRUZ QOYSA DA, ONUN MƏNLİYİNİ TAPDALAYA BİLMƏDİ…"

Xalqın azadlığını, şərəf və ləyaqətini uca tutan Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucaldı. Azərbaycan xalqının sınağa çəkildiyi, qəhrəman oğulların əbədi yaşamaq naminə ölümə qənşər gedərək şəhid olduqları o müdhiş gecə - 20 Yanvar xalqımızın qan yaddaşına çevrildi. Şəhidlərimiz 20 Yanvarı xalqımızın müstəqillik, istiqlal və hürriyyət uğrunda apardığı milli azadlıq hərəkatının zirvəsi kimi Azərbaycan tarixinə həkk etdilər. Ümummilli Lider Heydər Əliyevin dediyi kimi, "Bu təcavüz xalqımızı mənəvi cəhətdən çox sarsıtsa da, itkilərə məruz qoysa da, onun mənliyini tapdalaya bilmədi, qürurunu sındıra bilmədi, qəhrəmanlıq salnaməsinə yeni bir səhifə kimi yazıldı". Tariximizin bu səhifəsi imperiya güllələrinin səsindən açıldı və şəhidlərimizin qanı ilə əbədi olaraq yazıldı. Bakımızın sinəsində "Şəhidlər xiyabanı" yarandı.

Artıq həmin hadisədən 32 il ötür. Xalqımız 20 Yanvar hadisələrinin 32-ci ildönümünü qeyd edir, igid övladlarının fədakarlığını məhəbbətlə xatırlayır və onların əziz xatirəsini böyük ehtiramla yad edir. Ölkəmizin hər yerində, eləcə də xarici dövlətlərdə tədbirlər keçirilir. 20 Yanvar gününün Azərbaycanın suverenliyi, istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda mübarizə rəmzi kimi qeyd olunur. Azərbaycan xalqı azadlıq eşqi ilə, əliyalın rus ordusunun qarşısına çıxanda çox qurbanlar verdik. Amma vüqarla deyək ki, 20 Yanvarda yeni Azərbaycan doğuldu.

1990-cı ilin 20 Yanvar hadisələri zamanı Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda çox sayda şəhid verdi. Prezident İlham Əliyevin dediyi kimi, "Azərbaycan bu mübariz oğul və qızlarının şücaətini daim yüksək qiymətləndirir, onların ruhuna ehtiram göstərir, xatirəsini hər zaman uca tutur". Prezident İlham Əliyevin uğurlu sosial siyasəti nəticəsində 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslər və şəhid ailələri üçün etibarlı sosial müdafiə sistemi formalaşıb. Ölkəmizdə şəhidlərin xatirəsinin uca tutulmasına, şəhid ailələrinin sosial məsələlərinin yoluna qoyulmasına xüsusi diqqət yetirilir.

Bəli, Azərbaycan xalqı öz müstəqilliyini bərpa etdi. Bu gün müstəqillik tariximizin ən şərəfli, qürurlu zamanı yaşayırıq. Şəhidlərimizin ruhu şaddır. Azərbaycan 30 ilə yaxın işğal altında olan torpaqlarını öz gücü ilə döyüş meydanında azad etdi. Bu gün müstəqil Azərbaycanın hər bir yerində üç rəngli bayrağımız dalğalanır.

**Səs.-**2022.-19 yanvar.-№10.-S.7.

**19 yanvar 1990: Naxçıvan MSSR SSRİ-nin tərkibindən çıxdı**

**Nurlan**

XX əsrin 80-ci illərinin sonunda SSRİ rəhbərliyi azadlıq və istiqlaliyyət məfkurəsi uğrunda mübarizə aparan Azərbaycan xalqını hədəf seçmişdi və müxtəlif ssenarilər tətbiq etməyə çalışırdı. Xüsusilə də, erməni təcavüzünə zəmin və şərait yaradılması, bu istiqamətdə hadisə və proseslərin məqsədli şəkildə idarə olunması xalqımızın ciddi təhdidlərlə üzləşməsinə səbəb olmuşdu. 1990-cı ildə Bakıda 20 Yanvar faciəsini törətməyə hazırlaşan Sovet imperiyası repressiv siyasətini digər bölgələrdə, o cümlədən Naxçıvanda da davam etdirmək niyyətində idi. Çünki SSRİ rəhbərliyinin dəstəyi əsasında separatizm hərəkatını genişləndirən erməni silahlı birləşmələri Naxçıvanın da ayrı-ayrı yaşayış məntəqələrinə ardıcıl hücumlara keçmişdi. Yanvarın 18-də İttifaqın Daxili Qoşunlarının iştirakı ilə Naxçıvanın Kərki anklavının işğal olunması bu siyasətin tərkib hissəsi idi. Məqsəd bəlli idi - Naxçıvan əhalisini bölgədən tamamilə çıxarmaq və işğal üçün real zəmin formalaşdırmaq. Sədərək istiqamətində sistemli hücumların təşkili bunu təsdiq edirdi. Açıq hücumların baş verdiyi və toqquşmaların müşahidə edildiyi belə bir mürəkkəb vəziyyətdə - 19 yanvar 1990-cı ildə Naxçıvan MSSR Ali Sovetinin fövqəladə sessiyası çağırıldı və tarixi qərar qəbul edildi.

Bu, SSRİ-nin tərkibindən ayrılmaq haqqında idi. Bununla da Naxçıvan MSSR Sovet Sosialist Respublikaları İttifaqından ilk çıxan respublika oldu. Bəs qərar hansı sənədə istinadla və hansı səbəblər göstərilərək verilmişdi? Naxçıvan MSSR-in SSRİ-nin tərkibindən ayrılması haqqında qərar muxtariyyətin Konstitusiyasının 81-ci maddəsi əsasında verilmişdi. Səbəblər isə belə göstərilmişdi: SSRİ-nin Azərbaycanın və Naxçıvanın suverenliyinin və ərazi bütövlüyünü müdafiə etmək öhdəliklərinə əməl etməməsi və 1921-ci il çoxtərəfli Qars müqaviləsinin şərtlərini pozması. Bu qərar təkcə SSRİ miqyasında deyil, beynəlxalq səviyyədə ciddi rezonansa səbəb oldu. Həmin dövrdə bu barədə dünya mətbuatında yayılan materiallar SSRİ-nin imperiya siyasətini ifşa etməklə yanaşı, beynəlxalq ictimaiyyətin erməni separatizmi haqqında məlumatlarla daha geniş tanış olmasına imkan verdi.

1990-cı ilin sonunda isə Naxçıvanda dövlətçilik tariximizdə müstəsna yerə və əhəmiyyətə malik olan çox önəmli qərarlar qəbul edildi. Söhbət Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçirilən iclasında qəbul olunmuş qərarlardan gedir. “Naxçıvan Muxtar Sovet Sosialist Respublikası”nın adından “Sovet” və “Sosialist” sözlərinin çıxarılaraq “Naxçıvan Muxtar Respublikası”, muxtar respublikanın Ali Sovetinin “Ali Məclis” adlandırılması, ilk dəfə üçrəngli bayrağımızın Azərbaycanın Dövlət Bayrağı kimi təsdiq edilməsi milli dövlətçilik ənənələrinin bərpası baxımından xüsusi önəm daşıyırdı və tarixi addımlar idi. Zaman (müstəqillik dövrü) bu tarixi addımların önəmini daha dəqiq, daha dolğun əks etdirdi...

**Yeni Azərbaycan.-**2022.-19 yanvar.-№10.-S.3.

## 20 Yanvarın sirləri - AXC-nin məsuliyyəti, Qorbaçova qarşı məhkəmə...

**Cavid Turan**

**Yanvarın 20-də Azərbaycan xalqı o zamankı SSRİ rəhbərliyinin ölkəmizə qarşı hərbi cinayətinin növbəti ildönümünü qeyd edəcək. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə birbaşa Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilib, dinc əhali ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutularaq kütləvi qətlə yetirilib.**

Sovet ordusunun xüsusi təyinatlı dəstələrinin və daxili qoşunların iri kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıqla müşayiət edilib. Qanlı Yanvar hadisələri Azərbaycan milli kimliyinin formalaşmasına həlledici təsir göstərib, dövlət müstəqilliyinin bərpa edilməsində dönüş nöqtəsi olub. 20 Yanvar hadisələri nəticəsində Azərbaycanda sovet imperiyası özünün bütün mənəvi və sosial dayaqlarını itirdi. 20 Yanvar faciəsinin yaratdığı ictimai-siyasi reallıq süqutu yaxınlaşan SSRİ-də və soyuq müharibənin bitməsi ərəfəsində beynəlxalq arenada formalaşan geosiyasi situasiya fonunda əvvəlcə Azərbaycan SSR-də, sonra müstəqil Azərbaycanda zəncirvarı tarixi proseslərə təkan verdi. Amma faciədən 32 il sonra da hələ də bəzi suallara dəqiq cavab verilməyib. Məsələn, faciənin baş verməsində o zamankı xalq hərəkatının flaqmanı olan AXC-nin məsuliyyəti hələ də tam qiymətini almayıb. O cümlədən AXC-nin - qısa da olsa - hakimiyyəti dönəmində 20 Yanvar hadisələrinə siyasi qiymət verilməməsi bu mövzuda sualları artırdı. Belə ki, 20 Yanvar hadisələrinə siyasi qiymət verilməsi tələbi ilə dəfələrlə çıxış edən Azərbaycan Xalq Cəbhəsi hakimiyyətə gəldikdən sonra bu mövzunu unutdu. Onlar hakimiyyətdə olduğu dövrdə faciəyə siyasi qiymət vermək üçün öz imkanlarından istifadə etmədi. 20 Yanvar hadisələrinə hüquqi-siyasi qiymət yalnız Heydər Əliyev hakimiyyətə gəldikdən sonra verildi. AXC-nin məsuliyyəti və hakimiyyətə gəldikdən sonra niyə bu məsələyə hüquqi qiymət vermədiklərinin səbəbləri haqda AXC üzvləri nə düşünür? Qeyd edək ki, bir neçə gün əvvəl Litvada 1991-ci il yanvarın 13-də baş vermiş faciəvi hadisələrin qurbanları yad edilib. Həmin hadisələr zamanı Vilnüsdə 14 nəfər həlak olub. Litva tərəfi dinc əhalinin ölümündə sovet hərbçilərini və SSRİ-nin siyasi rəhbərliyini günahlandırıb. 2016-cı ildə yanvar hadisələri ilə bağlı iş məhkəməyə verilib. Məhkəmənin bir neçə dəfə şahid qismində SSRİ-nin eks-prezidenti Qorbaçovu prosesə çağırmaq cəhdi uğursuz olub. 1991-ci ilin yanvar hadisələri zamanı Vilnüsdə həlak olanların qohumları o vaxt SSRİ prezidenti Mixail Qorbaçova qarşı məhkəmə iddiası qaldırıb. Məhkəməyə müraciət edənlər Qorbaçovu yaxınlarının ölümünə görə məsuliyyət daşımasını istəyirlər. Azərbaycanda da Qorbaçova qarşı eyni iddia ilə məhkəmə təqibi başlaya bilərmi?

**Oqtay Qasımov**: “Türkiyə dəfələrlə ABŞ-a xəbərdalıq etdi, sonda özü hərəkətə keçdi” -

**Oqtay Qasımov**: “Təəssüf ki, bu məsələdə Litva təcrübəsi var və orada da nəticə olmadı”

**AXC sədri, mərhum prezident Əbülfəz Elçibəyin köməkçisi Oqtay Qasımov “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, 20 Yanvar hadisələri Qarbaçovun başçılığı ilə SSRİ rəhbərliyinin birbaşa təşkilatçılığı ilə həyata keçirilib və buna görə məsuliyyət daşıyırlar**: “Onların məqsədi qətliam törədərək Azərbaycanda başlanan milli azadlıq və müstəqillik uğrunda mübarizəni əngəlləyib, 1990-cı ilin yazında keçirilməsi planlaşdırılan Ali Sovetə seçkilər zamanı hərəkatın avanqard təşkilatı olan AXC-nin parlamentdə çoxluğu ələ keçirməsinin və qələbəsinin qarşısını almaq idi. SSRİ rəhbərliyi yaxşı bilirdi ki, parlament seçkilərində AXC-nin qələbəsi ilə Baltik ölkələrindən sonra Azərbaycan da müstəqilliyə doğru növbəti ciddi addım atacaq. Amma SSRİ rəhbərliyi ciddi şəkildə yanıldı. Azərbaycan xalqını qorxutmaq mümkün olmadı, əksinə, onun müstəqillik uğrunda mübarizəsi daha əzmkar xarakter aldı və qısa müddət sonra dövlət müstəqilliyimiz bərpa olundu”. O.Qasımov birmənalı şəkildə bildirdi ki, bu hadisələrdə məsuliyyət SSRİ rəhbərliyinin, Azərbaycan hakimiyyətinin üzərindədir: “AXC-nin məsuliyyətinə gəldikdə isə burada bütövlükdə təşkilatdan daha çox, onun bəzi üzvlərinin məsuliyyətindən danışmaq doğru olar. AXC hələ o zaman verdiyi bəyanatlarında, təşkilatın ali orqanı olan Məclisin qərarlarında 20 Yanvar hadisələrinə qiymət verib və özünün mənəvi məsuliyyətini qeyd edib. 1990-cı ilin 21 yanvarında keçirilən Azərbaycan Ali Sovetinin fövqəladə sessiyasında 20 Yanvar hadisələrinə siyasi qiymət verilib, SSRİ rəhbərliyinin cinayəti və bu cinayətdə iştirak edən rəhbər şəxslərin adları qeyd edilib. Bu sənəddə demək olar ki, əksər məsələlər əks olunduğundan və zamanına görə dolğun sənəd sayıldığından AXC hakimiyyəti dönəmində də qüvvədə qalıb”.

**Qorbaçovun məsuliyyəti və onun məhkəməyə verilməsi məsələsinə gəlincə, O.Qasımov bunları söylədi**: “Təəssüf ki, bu məsələdə Litva təcrübəsi var və orada da nəticə olmadı. Bunun səbəblərindən biri 20

yanvar cinayətini törədən Qarbaçovun hələ zamanlar dünya liderlərinin haqq qazandırmasıdır. Qorbaçova qarşı məhkəmə başlatmaq olar. Amma nəticəsi təxminən Litvadakı kimi olacaq. Əlbəttə, Azərbaycan məhkəmələri onunla bağlı qərar verə bilər".

**Fuad Ağayev**: "Qorbaçovun şahid qismindəmi, təqsirləndirilən şəxs qismindəmi çağırılması mümkündür, amma..."

**Hüquqşünas Fuad Ağayev isə hesab edir ki, dəmiri isti-isti döyərlər**: "20 Yanvar faciəsindən artıq 32 il ötür və bu müddət ərzində əlbəttə ki, Azərbaycan hüquq-mühafizə, prokurorluq orqanlarının müvafiq ittiham aktı hazırlayıb, məhkəməyə çıxarmaq borcu idi. Lakin bunlar edilməyib. Edilibsə də ancaq istintaq səviyyəsində edilib və bununla bağlı məhkəməyə heç bir ittiham aktı təqdim olunmayıb. Litvada gec də olsa, bunu ediblər. Əlbəttə, üstündən bu qədər müddət keçdikdən sonra Qorbaçovun şahid qismindəmi, təqsirləndirilən şəxs qismindəmi çağırılması mümkündür. Amma onun gəlməsi görünməmiş bir hadisə olardı. Sadəcə, həmin hadisələrdən dərhal sonra olmasa belə, Azərbaycan müstəqilliyini əldə etdikdən sonra Bakıda və Azərbaycanın bəzi rayonlarında baş vermiş, mərkəz tərəfindən, ilk növbədə Moskva, Kreml hakimiyyəti tərəfindən törədilmiş ağır beynəlxalq cinayətin araşdırılması ilə bağlı Azərbaycan tərəfindən Beynəlxalq Tribunalın yaradılması üçün təşəbbüslər olmalı idi". F.Ağayev qeyd etdi ki, bəlkə də belə təşəbbüslər olub: "Amma mən o barədə eşitməmişəm. Hələ 32 il bundan qabaq mən bununla bağlı fikirlərimi bölüşmüşdüm, ondan sonra da bölüşmüşəm. Belə bir tribunalın yaradılması üçün cəhdlər göstərilməli idi. Həmin cəhdlər nə dərəcədə nəticə verər, ya verməzdi, bu, ayrı söhbətdir. Mən indi də o fikirdəyəm. Yəni iş iki tərəfdən görülməli idi və görülməlidir. Birincisi, Azərbaycan istintaq orqanları, ikincisi, beynəlxalq səviyyədə, yəni bizim xarici siyasət idarəmiz, XİN tərəfindən bu sahədə əməkdaşlıq üçün müvafiq danışıqlar aparmalıdır. Bakıdakı Yanvra hadisələri ilə əlaqədar Gürcüstanın, yaxud digər ölkələrin müvafiq qurumları ilə Beynəlxalq Tribunalın yaradılması ilə bağlı danışıqlar aparmaq olar. BMT xətti ilə belə bir tribunalın yaradılması qeyri-mümkündür. Aydın məsələdir ki, Rusiya BMT Təhlükəsizlik Şurasındakı veto hüququndan istifadə edəcək".

**Yeni Müsavat**. - 2022.- 19 yanvar. - № 10. - S. 10.

**20 Yanvar Azərbaycan xalqının istiqlal savaşının məhək daşıdır**

**Sadiq Qurbanov,**
Azərbaycan Respublikası Milli Məclisinin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri

Xalqın azadlıq istəyi milli düşüncənin ən fenomenal davranış modelidir. Bu davranış modeli xalqın var olmasını şərtləndirən ən başlıca amildir. 20 Yanvar hadisələri Azərbaycan xalqının azadlığa gedən yolda ən böyük sınağı, ən parlaq nümunəsi hesab edilməlidir. Müstəqillik tariximizin ayrı-ayrı səhifələrini vərəqləyərkən Şeyx Məhəmməd Xiyabaninin “Azadlıq verilmir, alınır” fikirində nə qədər haqlı olduğunun şahidi oluruq.

20 Yanvar hadisələri zamanı Azərbaycan xalqının yüzlərlə günahsız vətəndaşı şəhid edildi, yaralandı, vətəndaşlarımızın xüsusi mülkiyyətdə olan əmlakları dağıdıldı, məhv edildi. Əsas məqsəd Azərbaycan xalqının iradəsini qırmaq, onun azadlıq istəyini boğmaq idi. Lakin Sovet imperiyasının amansız davranışı xalqımızın azadlıq istəyini daha da alovlandırdı. Xalqımızın milli azadlıq hərəkatı daha da geniş vüsət aldı. 20 Yanvar hadisələri xalqımızın yaddaşında, eyni zamanda, həm ümumxalq faciəsi, həm də müstəqillik, istiqlal və hürriyyət uğrunda xalqımızın apardığı milli azadlıq hərəkatının zirvəsi kimi Azərbaycan tarixinə həkk olundu. 20 Yanvar hadisələrinin başvermə səbəblərini araşdırsaq görərik ki, bu faciənin baş verməsində Azərbaycan xalqının milli düşüncəsindən uzaq o dövrki rəhbərliyinin müdafiə olunması və eyni zamanda, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə qarşı çıxan Azərbaycan xalqının Kreml tərəfindən cəzalandırılması əsas rol oynamışdır. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə birbaşa Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsinin və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilərək , dinc əhalini ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutaraq kütləvi qətllər həyata keçirildi. Sovet ordusunun xüsusi təyinatlı dəstələrinin və daxili qoşunların iri kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıqla müşayiət edilib. Tətbiq edilmiş fövqəladə vəziyyət haqqında əhali xəbərdar edilməmişdi.

1990-cı il yanvarın ortalarında SSRİ müdafiə və daxili işlər nazirliklərinin, habelə başqa xüsusi təyinatlı hərbi birləşmələrin 66 min nəfərdən çox əsgər və zabiti Bakı şəhərinə gətirilərək, Qala və “Nasoslu” aerodromlarında, Respublika stadionunda, Salyan qışlasında (kazarmasında) yerləşdirilmişdi. Azərbaycana göndərilən ordu hissələrinin tərkibinə Stavropoldan, Rostovdan, Krasnodardan səfərbər edilmiş erməni zabit və əsgərləri, hərbi məktəblərdə təhsil alan erməni kursantları da cəlb edilmişdilər. Fövqəladə vəziyyət elan olunanadək və ondan sonra beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsipləri kobud surətdə ayaqlar altına atılmış, fövqəladə vəziyyətin tətbiqi və müddətləri barədə əhaliyə rəsmi xəbərdarlıq edilməyərək qanunsuz olaraq xalqı təzyiq altında saxlamağa çalışmışlar. Fövqəladə vəziyyətin yanvarın 20-də saat 00-da tətbiq edilməsinə baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat 21-dən etibarən birinci olaraq Türkan-Qala tərəfdən şəhərə yeridildi. “Bakı əməliyyatı”na rəhbərliyi birbaşa SSRİ müdafiə naziri Dmitri Yazov, SSRİ daxili işlər naziri Vadim Bakatin, SSRİ DTK sədrinin müavini Filip Babkov həyata keçirmişlər. Adıçəkilən şəxslər Azərbaycan xalqının tarixində günahsız, əliyalın xalqa qarşı rəhimsiz davranan qatillər kimi qalıblar. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçuların qətlə yetirilməsi və yaralnması (82 nəfər amansızcasına qətlə yetirilmiş, 20 nəfər ölümcül yaralanmışdır) bu hadisələrin qabaqcadan düşünülmüş şəkildə həyata keçirilməsinin sübutudur. Qanlı Yanvar hadisələri təkcə paytaxt Bakıda deyil, o cümlədən fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda Naxçıvanda, Neftçalada və Lənkaranda da həyata keçirildi. Ümumilikdə respublikada 147 nəfər öldürülmüş (8 nəfər Lənkəranda öldürülmüşdür), 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuş, 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdir. Dövlət, ictimai və şəxsi əmlaka həmin dövrün qiymətləri ilə 5.637.286 rubl miqdarında maddi ziyan vurulmuşdur. Şübhəsiz ki, bu cinayət beynəlxalq hüquqi məsuliyyətdən yayınmış hərbi cinayət idi. SSRİ rəhbərliyi tərəfindən həyata keçirilən bu bəşəri cinayətin həmin dövrlərdə obyektiv siyasi-hüquqi qiymət alması qeyri-mümkün idi. Təsadüfi deyil ki, SSRİ Baş Prokurorluğunun ədliyyə polkovniki V.Medvedyevin istintaq qrupu hərbçilərin hərəkətlərində cinayət tərkibinin olmaması nəticəsinə gəlmiş və 20 iyul 1990-cı il tarixində cinayət işinin xitam olunması barədə qərarı vermis, 100 cildlik istintaq materiallarının 68 cildi Bakıdan Moskvaya, keçmiş SSRİ Prokurorluğuna aparılaraq geri qaytarılmamışdır. Ümumilli lider Heydər Əliyev hakimiyyətə qayıdana kimi bu qanlı faciəyə siyasi-hüquqi qiymət verilməmişdir. Lakin elə həmin dövrdə də 20 Yanvar hadisələrinə ilk rəsmi etiraz ulu öndər Heydər Əliyev tərəfindən səsləndirilmişdir. 21 yanvar 1990-cı il tarixində Sovet rejiminin qadağalarına baxmayaraq, həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələn Heydər Əliyev qanlı faciənin təşkilatçılarını dünya

ictimaiyyəti qarşısında ittiham etdi. Cəsarətli bəyanat verərək əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd, Moskvanın və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi. Heydər Əliyev Bakıya ordunun yeridilməsi ilə bağlı SSRİ rəhbərliyinin qərarını kəskin tənqid edərək, rəsmi açıqlamanı tələb etdi: "Azərbaycana kənardan böyük ordu kontingenti yeridilmişdir. Respublikada neçə ordu birləşməsinin olduğu mənə yaxşı bəllidir. Azərbaycanda kifayət qədər - 4-cü ordu, Xəzər Hərbi Dəniz Donanması, desant qoşunlarının diviziyası, Hava Hücumundan Müdafiə Qoşunları, DİN-in daxili qoşun birləşmələri vardır. Oraya əlavə qoşun yeritmək nəyə lazım idi? Əgər belə zərurət var idisə, orada yerləşən hərbi hissələrdən də istifadə etmək olardı. Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə Azərbaycanı qoyub qaçmış Vəzirov, öz xalqı qarşısında məsuliyyət daşımalıdır"

Həmin faciəvi günləri yaxşı xatırladığını deyən Prezident İlham Əliyev bildirir: "Hamımız yaxşı xatırlayırıq ki, pensiyada olan Heydər Əliyev faciə baş verəndən dərhal sonra Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəlmişdi, öz etiraz səsini ucaltmışdı. O vaxt Sovet İttifaqının çökməsinə hələ iki il vaxt qalırdı. Biz o vaxt Sovet İttifaqının rəhbərliyinə qarşı açıq ittihamları, demək olar ki, çox nadir hallarda görürdük. Bu, böyük cəsarət tələb edirdi. Heydər Əliyev həmişə olduğu kimi, o ağır günlərdə də xalqla bərabər, birlikdə idi".

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsinə ilk siyasi qiymət verən 21 noyabr 1990-cı il tarixli qərar qəbul etmişdir. Bundan sonra isə Heydər Əliyevin təşəbbüsü ilə 29 mart 1994-cü il tarixində Azərbaycan Respublikası Milli Məclisi "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" Qərar qəbul etdi. Heydər Əliyev: "Mən bu faciəyə həmişə ürəkdən yanaraq həm də vətəndaşlıq borcumu yerinə yetirməyə çalışmışam və bu gün də həmin mövqedəyəm, sabah da həmin mövqedə olacağam. Birinci növbədə, ədalət naminə, eyni zamanda, Azərbaycan xalqının namusunu, şərəfini, milli mənliyini qorumaq naminə."

20 Yanvar hadisələrinin qurbanları daimi dövlətin diqqət və qayğısı ilə qarşılanmışdır. Heydər Əliyevin Fərmanı ilə 1998-ci ildə "20 Yanvar Şəhidi" fəxri adı təsis edilib. Prezident İlham Əliyevin təşəbbüsləri sayəsində 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslər və şəhid ailələri üçün effektiv sosial müdafiə sistemi formalaşıb. Həmçinin 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsidə dövlət tərəfindən uğurla həyata keçirilmişdir. 1990-cı ilin yanvarında şəhid olmuş oğul və qızlarımızın xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi üçün Prezident İlham Əliyev tərəfindən mühüm addımlar atılmışdır. Dövlət başçısının 19 yanvar 2006-cı il tarixli "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Fərmanına əsasən, şəhid ailələrinə dövlət qayğısını artırmaq məqsədilə təqaüd verilir. Onların uyuduğu Şəhidlər xiyabanında təmir və yenidənqurma işləri ilə yanaşı, Bakının Yasamal rayonundakı "20 Yanvar" dairəsində, Həsən bəy Zərdabi və Müzəffər Həsənov küçələrinin kəsişməsində Qanlı Yanvar şəhidlərinin xatirəsinə memorial abidə kompleksi ucaldılmışdır.

Azərbaycan xalqı azadlıq , müstəqillik uğrunda şəhid olmuş oğul və qızlarını unutmur. Hər il yanvarın 20 saat 12:00-da Azərbaycanın bütün ərazisində 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunur, gəmilərdən, avtomobillərdən və qatarlardan səs siqnalları verilir, hüzn əlaməti olaraq dövlət bayraqları endirilir.

20 Yanvar hadisələri zamanı şəhid olmuş Azərbaycan övladlarının indi ruhu şaddır. 44 günlük müqəddəs Vətən müharibəsi nəticəsində Müzəffər Ali Baş Komandanın sərkərdərliyi ilə Azərbaycan torpaqları işğaldan azad edilərək şəhidlərimizin uğrunda canını fəda etdiyi məqsədə çatdıq.

**İki sahil.-**2022.-19 yanvar.-№10.-S.3.

## 20 Yanvar şanlı tariximizə şəhidlərin qanı ilə yazılmışdır

**Dilqəm Quliyev,**
pedaqogika üzrə elmlər doktoru, professor

**1990-cı ilin yanvar hadisələri nə qədər faciəli olsa da, xalqımızın iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. 20 Yanvar faciəsi Azərbaycan xalqının öz azadlığı və suverenliyi uğrunda apardığı mübarizənin şərəfli tarixidir. Odur ki, xalqımız 32 il əvvəl baş verən hadisələri təkcə ağrı-acı ilə deyil, həm də qürur və şərəf günü kimi xatırlayır.**

1980-ci illərin sonlarında Azərbaycanda ictimai-siyasi vəziyyət kəskinləşmişdi. Keçmiş Sovet İttifaqında gedən proseslər, ölkə rəhbərliyinin uğursuz “yenidənqurma” siyasəti, iqtisadi islahatların düzgün aparılmaması, milli siyasət sahəsində buraxılan kobud səhvlər bütün respublikalarda olduğu kimi, Azərbaycanda da milli-azadlıq hərəkatının geniş vüsət almasına səbəb oldu. Regionda ictimai-siyasi vəziyyətin kəskinləşməsinin əsas səbəblərindən biri də Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etməsi, uydurma “Dağlıq Qarabağ problemi”nin ortaya atılması idi. SSRİ rəhbərliyindəki havadarlarına arxalanan ermənilərin Azərbaycanın ərazilərinə iddiaları və dinc əhaliyə qarşı törətdikləri cinayətlər xalqımızın hiddətinə səbəb oldu. 1988-ci ilin noyabr-dekabr aylarında keçirilən ümumxalq mitinqləri, 1989-cu il dekabrın 31-də Naxçıvanda Azərbaycan-İran sərhədinin sökülməsi xalqımızın ədalətsizliyə qarşı apardığı mübarizənin tərkib hissəsi idi. Sovet rəhbərliyi Azərbaycanda xalq hərəkatının yatırılmasına əlverişli zəmin yaratmaq üçün Bakıda, Lənkəranda, Cəlilabadda, Neftçalada və digər bölgələrdə təxribatlar törətdi. Kütləvi iğtişaşların qarşısını almaq bəhanəsi ilə SSRİ rəhbərliyi 1990-cı ilin yanvar ayında Bakıya qoşun hissələri yeritməyə başladı.

Yanvarın 18-də televiziya ilə çıxış edən SSRİ və Azərbaycan rəhbərliyinin nümayəndələri respublika əhalisini əmin edirdilər ki, Bakıda fövqəladə vəziyyət tətbiq edilməyəcək və belə tədbir nəzərdə tutulmayıb. Ancaq xalqımız aldadılırdı. Çünki bu vaxt əlavə sovet hərbi birləşmələrinin Bakıya yeridilməsi başa çatmaqda idi.

Yanvarın 19-da axşam Azərbaycan televiziyasının enerji bloku partladıldı. Bu, ona görə edildi ki, Azərbaycan xalqı Bakıda nə baş verdiyini bilməsin. Sonradan 20 Yanvar faciəsini araşdıran dövlət komissiyası tərəfindən sübut edilmişdir ki, həmin partlayış Dövlət Təhlükəsizlik Komitəsi tərəfindən planlaşdırılaraq həyata keçirilib.

Yanvarın 19-dan 20-nə keçən gecə heç bir xəbərdarlıq edilmədən şəhərə daxil olan sovet əsgərləri küçələrə çıxıb öz etirazlarını bildirən dinc əhalini pulemyot və avtomatlardan atəşə tutdu. Həmin gecə Bakının müxtəlif rayonlarında sovet əsgərləri tərəfindən 121 insan qətlə yetirildi, 700-dən artıq vətəndaş yaralandı və xəsarət aldı. Sonrakı günlər də daxil olmaqla, bu hücum nəticəində 132 nəfər həlak olmuşdur ki, onlardan da 123-ü kişi, 5-i qadın, 4-ü uşaq idi. Həlak olanların arasında 4 polis işçisi, 1 həkim, 1 aspirant, 3 elmlər doktoru olub. Qeydə alınan 700-dən çox yaralının 25-i qadın, 20-si uşaq idi. Bu insanların heç birinin günahı yox idi. Onlar doğma vətənimizin azadlığına və müstəqilliyinə qənim kəsilən sovet rəhbərliyinə etiraz etmək üçün küçələrə çıxmışdılar. Bu insanların heç biri silahlı deyildi. Xalqımız əliyalın halda öz etirazını bildirirdi.

Bakı şəhərində 20 yanvar tarixindən etibarən fövqəladə vəziyyət tətbiq olunması haqqında 19 yanvar tarixli fərmanı isə ancaq yanvarın 20-də səhər saat 6-dan zirehli maşınlardan xalqa elan edilirdi. Yəni dinc insanlar vəhşicəsinə qətlə yetirildikdən sonra fövqəladə vəziyyət barədə məlumatlar yayılırdı. Bununla belə, fövqəladə vəziyyətin elan olunduğu gün - yanvarın 20-də daha 5 nəfər dinc sakin imperiya ordusu tərəfindən güllələndi. O zaman Moskvada yaşayan ümummilli lider Heydər Əliyev heç bir təhlükəyə baxmayaraq, heç nədən çəkinməyərək yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəldi. O, baş vermiş faciə ilə əlaqədar xalqımıza başsağlığı verdi. Burada mətbuat konfransı keçirən Heydər Əliyev, başda Qorbaçov olmaqla, Bakıdakı terror aktına rəvac verən hakimiyyət nümayəndələrini və hərbçiləri cinayətkar, onların dinc əhaliyə tutduqları divanı isə bütöv bir xalqa qarşı edilən tarixi cinayət adlandırdı. Xalqımızın böyük oğlu bu vəhşiliyə etiraz əlaməti olaraq Kommunist Partiyası sıralarından çıxdığını bəyan etdi.

Dahi şəxsiyyət xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra bu məsələ yenidən gündəmə gəldi və 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi.

Ümummilli lider 20 Yanvar hadisələri zamanı həlak olanların xatirəsinin əbədiləşdirilməsi istiqamətində də bir sıra mühüm tədbirlər həyata keçirdi. Təkcə onu demək kifayətdir ki, Heydər Əliyev 1993-cü ilin

iyununda hakimiyyətə qayıtdıqdan sonra ilk olaraq Şəhidlər Xiyabanını ziyarət etdi. Elə yerindəcə tapşırıq verdi ki, qısa müddətdə bütün şəhid məzarlarının üstü götürülsün və burada memorial kompleks ucaldılsın. Bunun üçün dövlət səviyyəsində lazımi vəsait ayrıldı və bu iş qısa zamanda başa çatdırıldı. Məhz ulu öndərin Sərəncamı ilə 20 Yanvar Ümumxalq hüzn günü elan olundu.

Bakıda Vətən şəhidlərinə böyük ehtiramla xatirə kompleksi ucaldıldı. Şəhidlər Xiyabanı xalqımızın müqəddəs and yerinə, ziyarətgahına çevrildi.

Azərbaycan Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə 20 Yanvar təcavüzü zamanı yüksək vətəndaşlıq nümunəsi göstərərək həlak olmuş Azərbaycan Respublikası vətəndaşlarına "20 Yanvar şəhidi" fəxri adı verilib. 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə verilən aylıq müavinətin artırılması bir daha sübut edir ki, vətənimizin müstəqilliyi uğrunda canından keçənlər heç vaxt unudulmur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinin dövlət səviyyəsində həllini mühüm vəzifələrdən biri kimi qarşıya qoyub. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir. Ölkənin iqtisadi səviyyəsinin yüksəlməsi özünü bu qəbildən olan insanların həyat və məişətində daha aydın göstərir.

Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin fədakarlığını, Vətən qarşısındakı xidmətlərini yüksək qiymətləndirərək deyib: "Azadlıq, müstəqillik uğrunda, Vətən uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxarılmamalıdır".

Dövlət başçısının Şəhidlər Xiyabanı kompleksinin yenidən qurulması ilə bağlı Sərəncamı vətən şəhidlərinin xatirəsinə ehtiramın daha bir nümunəsidir. Prezident İlham Əliyevin Sərəncamına əsasən, Şəhidlər Xiyabanı vahid kompleks kimi yüksək səviyyədə yenidən qurulub, abadlaşdırılıb.

2006-cı il yanvarın 19-da "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Fərman 20 Yanvar şəhidlərinin ailələrinin maddi vəziyyətinin yaxşılaşdırılmasına zəmin yaratdı. Ölkə başçısının Fərmanı ilə "20 Yanvar şəhidi" fəxri adı almış 140 nəfər şəxsin 180 nəfər ailə üzvünə Prezident təqaüdü verilir. 2006-cı il yanvarın 1-dən qüvvəyə minən əmək pensiyaları haqqında qanuna əsasən 20 Yanvar şəhidlərinin əmək pensiyasını alan hər bir ailə üzvünə aldığı pensiyadan başqa, əlavə ödəniş verilir.

Son illərdə ölkədə əlil və şəhid ailələrinin mənzil təminatını yaxşılaşdırmaq üçün dövlət hesabına fərdi və yaşayış evləri inşa olunur. Bu mənzillər 20 Yanvar şəhidlərinin ailələrinə, əlillərə də verilir. Əlillərin sağlamlığının bərpası da dövlətimizin diqqət mərkəzindədir. Vətənimizin müstəqilliyi uğrunda mübarizədə əlil olan insanların sağlamlıqlarının bərpası üçün respublikada yeni sağlamlıq mərkəzləri inşa olunub.

20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində daha bir addım metronun "20 Yanvar" stansiyasının yaxınlığında xatirə kompleksinin yaradılması oldu.

Prezident İlham Əliyevin tapşırığı ilə 2009-cu ilin oktyabrında inşasına başlanılan memorial abidə kompleksinin açılış mərasimi 2010-cu il yanvarın 20-də həyata keçirildi.

Bütün sahələrdə həyata keçirdiyi layihələri, xeyirxahlıq missiyası ilə nəinki ölkəmizdə, dünyada diqqət mərkəzində olan Heydər Əliyev Fondu da müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinə böyük qayğı ilə yanaşır. Heydər Əliyev Fondu 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, faciə qurbanlarının ailələrinin problemlərinin həlli, sağlamlıqlarının bərpası istiqamətində mühüm işlər görür.

Heydər Əliyev Fondunun xalqımızın tarixinə, tarixi hadisələrinə həssas münasibəti də xüsusi qeyd olunmalıdır. Belə ki, Fondun təşəbbüsü ilə elan edilən "Xocalıya ədalət" kampaniyası çərçivəsində həyata keçirilən tədbirlər hər yerdə böyük əks-səda doğurub. Bundan başqa, Qarabağ münaqişəsi, xalqımızın tarixi yaddaşı ilə bağlı kitablar, bukletlər, albomlar nəşr olunub, filmlər çəkilib. Bu layihələr xalqımıza qarşı törədilən ağlasığmaz cinayətlərin dünya ictimaiyyətinə çatdırılması, bu cinayətlərə hüquqi-siyasi qiymətin verilməsinə nail olunması istiqamətində böyük əhəmiyyət kəsb edir.

Xalqı yaşadan və qələbəyə ruhlandıran onun inamıdır. Hazırda məhz belə bir inamı Azərbaycan Prezidenti İlham Əliyev xalqımızda və gənclərimizdə yarada bilmişdir.

Xalqımızın tarixində faciəli günlər yetərincədir. Əsrlər boyu yadelli düşmənlərin göz dikdiyi Vətənimiz işğallara və təcavüzlərə məruz qalıb. Lakin qəhrəman Azərbaycan xalqı buna baxmayaraq qürur və mətinliyini əldən verməyib.

İllər keçəcək, nəsillər dəyişəcək, amma tarix unudulmayacaq. Heç bir azərbaycanlı başımıza gətirilən faciələri unutmayacaq.

Artıq bu gün şanlı tarixmizdə yeni bir səhifə, yeni bir tarix yazılıb.

28 ildən sonra Azərbaycan öz tarixi torpaqlarını geri aldı. 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan ordusu dünyaya sübut etdi ki, bu torpaqların əsl sahibi elə bu torpaqlarda da yaşamalıdır.

Cənab prezident mötəbər kürsülərdə çıxış edərək, Qarabağın Azərbaycan torpağı olduğunu dünya dövlətlərinin və cəmiyyətlərinin diqqətinə çatdırdı. Düşmən təkcə hərb meydanında deyil, siyasi arenada da məğlubiyyətə uğradı.

Bu Cənab Prezidentin XXI əsr dünya siyasətində möhtəşəm bir qələbəsidir. Ölkə başçısının yürütdüyü uzaqgörən siyasət, xalqımızın rifahının yüksəldilməsinə göstərdiyi diqqət və qayğı sayəsində biz böyük zəfər qazandıq. Hər birimiz Azərbaycana bütövlük, xalqımıza xoşbəxtlik bəxş etdiyinizə görə Ali Baş Komandan İlham Əliyevə minnətdarıq.

Artıq Qarabağ azaddır. İllərdən bəri əsarətdə qalan torpaqlarımız, Qarabağın tacı olan Şuşa bizimdir. Qarabağ Azərbaycandır!

Biz inanırıq ki, tezliklə həmin torpaqlar ən inkişaf etmiş bölgəyə çevriləcək. Xalqımız Cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya inanır, bu işdə daim onları dəstəkləyir.

**Olimpiya dünyası.-**2022.-18-24 yanvar.-№2.-S.3.

## 20 Yanvar qırğınına verilmiş ilk siyasi qiymət

**Novruz Quliyev,**
AMEA-nın müxbir üzvü, professor

Heydər Əliyev Azərbaycan SSR-in rəhbəri, sonra Moskvada yüksək vəzifələrdə olanda elə bir şəxsiyyət idi ki, respublikamıza olan hücumların qarşısını ala bilirdi. Ona görə Azərbaycanı istəməyən qüvvələr daim çalışırdılar ki, Heydər Əliyev vəzifədən getsin və sonra respublikamıza qarşı öz çirkin niyyətlərini həyata keçirsinlər. Bu qüvvələr başda Mixail Qorbaçov olmaqla 1987-ci ilin oktyabrında Heydər Əliyevin istefasına nail oldular.

İstefadan çox qısa müddət sonra Qorbaçovun müşaviri olan erməni Abel Aqanbekyan Fransanın "Humanite" qəzetinə müsahibəsində bildirdi ki, Dağlıq Qarabağ Azərbaycandan ayrılmalıdır və Ermənistana verilməlidir. Eyni zamanda, əlavə etdi ki, mənim bu məsələ ilə əlaqədar Qorbaçovla söhbətim olub. Elə özü də bilmədən büruzə verdi ki, bu işin arxasında Mixail Qorbaçov durur. Ondan sonra məlum hadisələr başladı.

XX əsrin 80-ci illərinin sonlarında ərazi bütövlüyümüzə, suverenliyimizə yaranan təhlükə xalqımızı coşdurdu, milli azadlıq hərəkatı inkişaf etməyə başladı. Mütəmadi etiraz mitinqləri keçirilirdi. Lakin tarixi ədalətsizliyi bərpa edib istiqlalına qovuşmaq istəyən xalqı Sovet imperiyası müstəqil görmək istəmirdi. Bu məqsədlə imperiyanın xüsusi xidmət orqanlarının hazırladığı 20 Yanvar qırğını həyata keçirildi. Həmin gün öz konstitusion hüquqları, ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış xalqımız Sovet ordusunun zirehli texnikaları, tərkibində xarici görünüşləri şübhə doğuran adamların və hətta ermənilərin də olduğu xüsusi təyinatlı hərbi dəstələri ilə üzləşdi. Bu dəstələr heç nəyə baxmadan dinc vətəndaşlarımızı güllləbaran etdilər, qətlə yetirdilər, tankların tırtılları altında əzdilər. Bu hadisə SSRİ rəhbərliyinin əsl mahiyyətini göstərdi.

O vaxt istefada olan Heydər Əliyev səhhətinin pis olmasına baxmayaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək Azərbaycan xalqına başsağlığı verdi və bu hadisələrdə əsas günahkarları kimi ovaxtkı SSRİ və respublika rəhbərliyini, birinci növbədə Qorbaçovu göstərdi. Bu, 20 Yanvar qırğınına verilmiş ilk siyasi qiymət idi.

Bu hadisədən sonra məlumdur ki, Ulu Öndərimizə qarşı çox böyük hücumlar başladı. Mən o vaxt Elmlər Akademiyasında çalışırdım. Kollektivimiz adından Heydər Əliyevə qarşı aparılan çirkin kampaniyaya öz kəskin etirazımızı bildirirdik. Əvvəllər bu müraciətləri Bakıdan göndərirdik, lakin başa düşdük ki, onlar öz ünvanına çatdırılmır. Odur ki, məcbur olub Moskvadan göndərməyə başladıq. SSRİ-nin tanınmış ictimai, siyasi xadimlərinə, müvafiq dövlət qurumlarına göndərdiyimiz teleqramlarda ovaxtkı respublika və SSRİ rəhbərliyini ittiham edirdik. Heydər Əliyevin dövlət və xalq naminə gördüyü işləri göstərərək ona qarşı aparılan çirkin kampaniyanın dayandırılmasını tələb edirdik. Mən o dövrdə Heydər Əliyevin əleyhinə yazı dərc edən qəzetlərin redaksiyasına gedərək hazırladığımız cavabları təqdim edərək danışırdım, amma dərc etmirdilər. Biz Moskvada olanda xarici agentliklərin və qəzetlərin nümayəndəlikləri ilə də əlaqə yaratmağa çalışırdıq.

Qeyd etmək lazımdır ki, xalqımızın azadlıq mübarizəsinə, 20 Yanvar faciəsinə tam siyasi-hüquqi qiymət verilməsi, şəhidlərin xatirəsinin əbədiləşdirilməsi də ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi tədbirlərlə mümkün olmuşdur. Ulu Öndərin ölkəyə rəhbərliyi dövründə şəhidlərin xatirəsinin əbədiləşdirilməsi istiqamətində atdığı addımlar, o cümlədən 1998-ci il 31 mart tarixli Fərmanı ilə "20 Yanvar şəhidi" adının təsis edilməsi, 1998-ci il 5 avqust tarixli Sərəncamına əsasən Şəhidlər xiyabanında "Əbədi məşəl" kompleksinin yaradılması mühüm tarixi əhəmiyyət daşıyır.

Cənab İlham Əliyev 2003-cü ildə Prezident seçildikdən sonra andiçmə mərasimində bəyan etdi ki, mən Heydər Əliyev siyasətini davam etdirəcəyəm. Cənab Prezident Heydər Əliyev siyasətini davam etdirərək ölkəni daha da inkişaf etdirdi, güclü ordu yaratdı. Çox fəal xarici siyasət apardı. Qardaş Türkiyə ilə çox yaxın əlaqələr qurdu. Bu işlərlə 17 il məşğul oldu. Hiss edəndə ki, əlverişli geosiyasi vəziyyət yaranıb, dünya ölkələri artıq başa düşüblər ki, bizim işimiz haqq işidir və güclü ordumuz var, Ermənistanın təmas xəttində yaratdığı təxribata cavab olaraq orduya əks-hücum əmri verdi.

Möhtərəm Prezident, cənab Ali Baş Komandan bütün imkanlardan istifadə edərək 44 gün ərzində torpaqlarımızı işğaldan azad etdi. Şuşanın işğaldan azad edilməsi xalqımızın qəhrəmanlıq tarixinin ən parlaq səhifəsi olmaqla erməni faşizminin belini qırdı. Bu tarixi Qələbə Ulu Öndərimizin və bütün şəhidlərimizin ruhunu şad etdi.

Şəhid ailələrinə diqqət və qayğının daha da artırılması, ölkəmizə gələn dövlət və hökumət başçılarnın, məşhur qonaqların Şəhidlər xiyabanını ziyarət etmələri Vətən uğrunda qurban gedənlərə dövlət səviyyəsində rəsmi ehtiramın təzahürüdür.

**İki sahil.-**2022.-18 yanvar.-№9.-S.6.

# 20 Yanvardan istiqlalımıza uzanan yol

**Hüseyn İbrahimov,**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi,
fəlsəfə doktoru

Ölkəmizin ictimai-siyasi həyatına 20 Yanvar faciəsi kimi daxil olmuş bu günün xalqımızın milli yaddaş fəlsəfəsi və özünüdərk prosesində xüsusi yeri var. Bu hadisə tariximizdə hüzn və qürur günü olmaqla iki mühüm əbədiyaşar paradiqmanı özündə ehtiva edir. Ən yeni tariximizdə bir sıra hadisələr vardır ki, bunlar xalqımızın milli mənlik şüurunda dərin izlər qoymuşdur. 20 Yanvar məhz belə tarixi hadisələrdəndir. Ordumuzun Vətən müharibəsində qələbəsinin ideoloji təməlində həm də 20 Yanvar faciəsindən başlanan suverenlik, milli birlik, azərbaycançılıq, dövlətçilik amalları dayanır. 20 Yanvar şəhidləri suverenliyi milli təfəkkürümüzün əbədi paradiqmasına çevirə bildilər.

20 Yanvar hadisəsi yalnız tarixi faciə deyildir. Müqayisələr göstərir ki, insanların suverenlik, azadlıq, vətənpərvərlik uğrunda bir araya gələrək verdikləri qurbanlar, ya-şadıqları faciələr gələcək nəsillər üçün qürur, iradə, ideoloji prioritet prinsiplərini də müəyyənləşdirmiş olur. 20 Yanvar hadisəsi də ölkəmizin yeni tarixində məhz belə tarixi hadisələrdəndir. Bu gün həmin hadisəni anan hər bir Azərbaycan vətəndaşının qəlbində belə amallar yaşayır: Azərbaycan-azərbaycançılıq, vətən-vətəndaşlıq, dövlət-dövlətçilik, milli iftixar- milli qürur. Deməli, bu kimi prioritet amalları özündə yaşadan faciə qurbanları həmişə iftixar yerimiz, həmin hadisə isə anım günümüz, hüzn günümüz olmaqla bərabər məqsədlərimizin, dövlətçiliyimizin, azərbaycançılığımızın gələcək uğur-ları, gələcək möhkəmliyinin ideoloji təməl prinsiplərindəndir.

20 Yanvar hadisəsi, eyni zaman-da, həm ümumxalq faciəsi, həm də müstəqillik, istiqlal uğrunda xalqımı-zın apardığı milli azadlıq hərəkatının zirvəsi kimi Azərbaycan tarixinə həkk olunmuşdur. Ümummilli lider Heydər Əliyevin söylədiyi kimi, “bu təcavüz xalqımızı mənəvi cəhətdən çox sarsıt-sa da, itkilərə məruz qoysa da, onun mənliyini tapdalaya bilmədi, qüru-runu sındıra bilmədi, qəhrəmanlıq salnaməsinə yeni bir səhifə kimi yazıldı”. Doğrudan da, 20 Yanvar hadisəsi ərəfəsi və bu hadisədən sonrakı dövr göstərdi ki, 70 il sovet sistemində yaşamasına baxmaya-raq, azərbaycanlıların vətəndaşlıq düşüncəsini çərçivəyə salmaq müm-kün olmamış, xalqımız tarixi yaddaş və milli özünüdərk keyfiyyətlərini qoruyub saxlamışdır.

Müasir azərbaycanlı multikultu-ral düşüncənin, tolerant təfəkkürün daşıyıcısıdır. Bu fəlsəfənin mahiy-yətində dayanan tolerantlıq bu gün Azərbaycanın siyasi kursunun prioritet paradiqmalarındandır. Bu prinsipin məğzində dayanan mul-tikulturallıq bu gün Azərbaycanın dövlət siyasətinin ana xəttində mühüm məsələlərdəndir. 20 Yanvar hadisəsində ölkəmizdə yaşayan hər bir xalqın nümayəndəsi şəhidlik zirvəsinə yüksəlmiş, hər bir etno-sun azərbaycançılıq, vətənpərvərlik amalı möhkəmlənmişdir. 20 Yanvar hadisəsi yalnız Ümumxalq Hüzn Günü deyildir. Bu gün həm də Azərbaycan vətəndaşının səsinin dünyaya haray çəkdiyi bir gündür. Bu faciəyə ilk olaraq öz münasibətini bildirən ümummilli lider Heydər Əliyev olmuşdur. Belə ki, ulu öndər 21 yanvar 1990-cı il tarixdə faciə ilə əlaqədar Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyində keçirilən yığıncaqda çıxış edərək, bu hadisəni törədən şəxsləri kəskin şəkildə tənqid etmiş, onu hüquqa, demokratiyaya yad, humanizmə zidd hesab etdiyini bildirmişdir.

Həmin andan başlayaraq, gedən proseslər bütün dünya qar-şısında Azərbaycan vətəndaşı üçün müstəqillik ideallarının nə qədər mühüm bir dəyər olduğu-nu göstərməkdədir. 20 Yanvar şəhidlərinin anım günü milli qürur mənbəyimizdir. Belə ki, 20 Yanvar hadisəsi zamanı şəhid olan insan-larımızın, xalqımızın qəhrəman nümayəndələrinin anım anının illər keçdikcə daha da kütləviləşməsi, daha böyük izdihamla müşayiət olunması onu göstərir ki, xalqımız ölkəmizin ərazi bütövlüyü müstəqillik yolunda, dövlətçilik ənənələrinin möhkəmliyi uğrunda birgədir, mütəşəkkildir. Dövlətimizin tolerant ideoloji kursunun təməlində həm də xalqımızın 20 Yanvar hadisəsi kimi çətin anlarda göstərdiyi milli birlik və azərbaycançılıq ideyası dayanır.

Dünya artıq özünün yeni qlobal epoxasını yaşayır. Təəssüf ki, bir sıra münaqişə ocaqlarının davam etməsi dünyanın bəzi dairələri üçün maraq-lıdır. Yalnız müstəqillik, azadlıq, milli birlik, dövlətçilik maraqları ətrafında sıx birləşən xalqların dünyanın ideolo-ji, bioloji təhdidlərindən qorunması mümkündür. Milli birlik bu gün həm də dünyanı bürümüş pandemiya təhdidlərindən qorunmaq yolunda prioritet istiqamət olmalıdır. Yalnız tarixi keçmişi zəngin olan xalqların faciəli məqamlarla üzləşməsi zamanı göstərdiyi qətiyyət və iradə hesabına dünyanın inkişafının yeni səhifələri açılır.

Bu gün Azərbaycan Prezidentinin hərbi-diplomatik uğurları nəticəsində Ermənistanın ərazilərimizdə forma-laşdırdığı hərbi xuntanın darmadağın edilməsi, həm də regionun inkişafı üçün yeni sosial-mədəni, iqtisadi

perspektivlərin təməlini qoydu. Mü-asir Azərbaycan iqtisadi baxımdan dünyanın inkişafınıda yeni səhifə açan ölkələrdəndir. Yalnız iqtisadi baxımdan deyil, mədəni, humanitar aspektdən də bu, belədir. Sosial-mədəni kontekstdə mədəniyyətlərin dialoq axtarışlarının müzakirə yerinə çevrilmiş ölkəmiz, həm də tolerantlıq fəlsəfəsini özünün və müttəfiqlərinin ideoloji prioritetinə çevirərək, 20 Yan-var şəhidlərinin amallarını yaşadır və möhkəmləndirir.

Azərbaycan 44 günlük savaşda qalib gəlməklə bölgənin əsl potensia-lının həyata keçirilməsinə mane olan səbəbi aradan qaldırdı. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin beynəlxalq münasibətlərin tənzimlənməsində apardığı praqmatik siyasi kurs re-gional sabitliyin yeni ideoloji xəttini müəyyən etdi. Ölkəmizin suverenliyi-nin daha da möhkəmlənməsi ide-yasına səbəb olan 44 günlük Vətən müharibəsi 20 Yanvardan başlanan şərəfli yolun ülvi zirvəsi oldu.

**Xalq qəzeti.** - 2022.- 18 yanvar. - № 11. - S. 1,6.

## Unudulmaz tarix

**Səbinə Əhmədova,**
Gəncə Şəhər Kəpəz Rayon Qeydiyyat Şöbəsinin rəisi

**20 Yanvar hadisələrini bir faciə kimi təsvir etmək azdır.**
**20 Yanvar Azərbaycan xalqının milli-azadlıq uğrunda, öz mənliyini müdafiə etmək yolunda göstərdiyi qəhrəmanlıq nümunəsidir.**

***Heydər Əliyev,***
***Ümummilli lider.***

XX yüzillik Azərbaycan xalqının tarixinə ən qanlı hadisələrlə, faciələrlə, misli görünməmiş soyqırımlarla yanaşı, müstəqillik və azadlıq uğrunda mübarizə, hünər və qəhrəmanlıq, milli oyanış və özünüdərk əsri kimi də daxil olub. Bu, bir həqiqətdir ki, 20 Yanvar Azərbaycanı gözləyən bəlaların ilkin mərhələsi idi. O zaman xalqın haqq səsini, harayını dünyaya yaya bilmədik. Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 1990-cı ilin 20 yanvarında ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçə və meydanlarına çıxaraq buna öz etirazını bildirən geniş xalq kütlələrinə qarşı sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misli görünməmiş faciəyə gətirib çıxardı. Həmin günlərdə öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar.

XX əsrin 80-ci illəri Sovet imperiyasının ən mürəkkəb və tənəzzül illəri idi. Artıq sosializm bir ideologiya və sosial-iqtisadi münasibətlər sistemi kimi öz süqutunu yaşayırdı. Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçov və onun komandasının uğursuz siyasəti imperiyanın çöküşünü daha da sürətləndirdi, ictimai və sosial ədalətsizliyi artırdı, millətlərarası münasibətlərin son dərəcə korlanaraq, milli münaqişələrə çevrilməsinə səbəb oldu. Yaranmış siyasi boşluq və dövlət idarəçiliyinin zəifləməsindən məharətlə istifadə edən və M.Qorbaçovun yaxın ətrafında təmsil olunmağı bacaran erməni millətçiləri Azərbaycana qarşı düşmən və separatçı niyyətlərini həyata keçirərək, Dağlıq Qarabağ Muxtar Vilayətini Azərbaycandan ayıraraq Ermənistana birləşdirmək tələbi ilə çıxış etməyə başladılar. Xankəndidə və İrəvanda başlayan antiazərbaycan əhval-ruhiyyəli mitinqlər tezliklə Ermənistanı bürüdü.

Təəssüf ki, nə SSRİ hökuməti, nə Azərbaycanın o vaxtkı kommunist rəhbərliyi belə ciddi, dövlətin əsasını sarsıdan, ictimai sabitliyi pozan, milli düşmənçiliyi alovlandıran təxribatçı hərəkətlərə adekvat reaksiya verdi, nə də vaxtında lazımi tədbirlər gördü. Bu ədalətsizliyə etiraz edən, torpağının bölünməsinə, ərazi bütövlüyünün pozulmasına qarşı çıxan Azərbaycan xalqı meydanlara toplaşaraq respublika və ölkə rəhbərliyindən qanun-qaydanın, haqq-ədalətin bərpa olunmasını tələb etdi. Ancaq nə meydanda, nə də hökumət binasında öz xalqının haqlı tələblərini qarşılaya biləcək, xalqı axıra qədər öz arxasınca apararaq qanunun və ədalətin təntənəsini təmin edəcək yetkin lider olmadı. Meydanda xalqa rəhbərlik etmək iddiasında olan, o dövrün etiraz dalğası üzərində yaranan Azərbaycan Xalq Cəbhəsi liderləri ilə ölkənin kommunist rəhbərliyi arasında fikir və əqidə birliyinin olmaması, əksinə, ideoloji ziddiyyətin mövcudluğu, böyük tarixi, milli mücadilənin hakimiyyət uğrunda savaş müstəvisinə keçirilməsi bəzi təxribatçı qüvvələrin əl-qol açmasına rəvac verdi. SSRİ DTK-nın və bəzi gizli ermənipərəst missioner təşkilatların dəstəklədiyi və maliyyələşdirdiyi təxribatçı qruplar meydana çıxdı.

Azərbaycan xalqı ölkənin kommunist rəhbərliyinə antimilli mövqeyinə görə nifrət edir və ona inanmırdı. Buna görə də 1989-cu ilin sonlarında xalq Azadlıq meydanında davamlı etiraz aksiyasına başladı. Xalqın etiraz mitinqləri artıq milli-azadlıq mübarizəsi müstəvisinə keçməkdə idi. Bundan ehtiyat edən, eləcə də digər xalqların və millətlərin gözünü qorxutmaq, milli-azadlıq arzularını boğmaq məqsədilə Mixail Qorbaçov və komandası bütün qanunları və hüquqları pozaraq, öz mülki vətəndaşlarının üzərinə silahlı qoşun yeritdi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet İttifaqının qoşun hissələri fövqəladə vəziyyət elan edilmədən Bakı şəhərinə və Azərbaycanın bir neçə rayonuna yeridilərək misli görünməmiş qanlı qətliam törətdi. Yalnız o zaman xalqımızın böyük oğlu Heydər Əliyev həyatını risk altında qoyaraq, oğlu İlham Əliyevlə Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək Bakıda baş verən qanlı qırğının günahkarlarını, Mixail Qorbaçovu

və SSRİ hökumətini qətiyyətlə ittiham etdi: "Bakıda Sovet qoşunları tərəfindən Azərbaycan xalqına qarşı törədilən qanlı hadisə hüquqa, əxlaqa, mənəviyyata ziddir, xalqa qarşı tarixi cinayətdir".

1990-cı il 20 Yanvar Bakı qətliamına ən doğru qiyməti tarix özü verdi. Şəhidlərin qanı yerdə qalmadı, şər imperiyası dağıldı, Azərbaycan öz müstəqilliyinə qovuşdu, milli birlik və azadlıq arzusu qalib gəldi.

20 Yanvar faciəsinin dərslərindən danışarkən ümummilli lider Heydər Əliyev çox haqlı olaraq qeyd edirdi: "Azərbaycan xalqı 20 yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi".

Bəli, Azərbaycan xalqı bütün dövrlərdə olduğu kimi, öz varlığını bir daha dünyaya tanıtdı, imzasını şəhid və qurbanlarının qanı ilə tarixə yazdı. Azadlıq şəhidlərinin dəfnində milyondan artıq insanın iştirakı ilə millət bir daha qəti etirazını nümayiş etdirdi, bütün dünyaya sarsılmadığını, sınmazlığını elan etdi. 20 Yanvar öz siyasi-hüquqi qiymətini 1993-cü ildə ümummilli lider Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışından sonra alıb. Ulu Öndər 1994-cü il yanvar ayının 5-də bu barədə xüsusi fərman verib. Fərman iki hissədən ibarətdir. Birinci hissədə hadisənin ildönümü ilə bağlı lazımi tədbirlərin hazırlanaraq həyata keçirilməsi, ikincisi isə siyasi-hüquqi qiymətin verilməsinə aiddir. Fərmanın icrası nəticəsində xalqımızın bu qəhrəmanlıq səhifəsi tək matəm günü kimi yox, həm də ədəbi-bədii əsərlərdə, mədəni-kütləvi tədbirlərdə özünün bədii-estetik əksini tapır. Bundan başqa, sənəd Azərbaycan xalqının azadlıq uğrunda mübarizəsini bütün dolğunluğu ilə bugünkü və gələcək nəsillərə çatdırır. Ulu Öndərin layiqli davamçısı olan ölkə Prezidenti cənab İlham Əliyev də bu kursu davam etdirərək azadlıq mücahidlərinə, şəhid olanların ailələrinə xüsusi qayğıyla yanaşır. Dövlət başçısı 20 yanvarda sovet ordusunun bu işğalının mahiyyəti, xalqımızın qəhrəmanlığı barədə deyib: "20 yanvarda sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirdi. Azərbaycanda haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş Vətən övladları Qanlı Yanvarda xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar".

Bəli, 20 Yanvar həm də qəhrəmanlıq dərsi, ölümü öldürməklə əbədiyaşarlıq nümunəsidir. Praqmatik dövlət başçısı cənab İlham Əliyevin təbirincə desək: "20 Yanvar faciəsi Azərbaycan xalqının yaddaşından heç vaxt silinməyəcəkdir. Şəhidlərimizin əziz ruhu daim yaşayacaq, onların əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır".

**Respublika. -** 2022.- 18 yanvar. - № 11. - S. 5.

# İstiqlaliyyətə aparan yol

**Röyal Talıbov,**
Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin əməkdaşı

Torpaqlarımızın bütövlüyü və dövlətçiliyimizin bərpası uğrunda ümumxalq hərəkatının qanlı və şanlı səhifəsi olan 20 Yanvar faciəsi xalqımızın azadlıq mübarizəsi tarixində müstəsna və şərəfli yer tutur. Bu faciə qırmızı imperiyanın 1920-ci ilin 28 aprelində kütləvi qırğınlar və zorakılıq yolu ilə müstəqil Azərbaycan Cümhuriyyətini süquta yetirməsinin, xeyli ərazimizin qonşu respublikalara peşkəş edilməsinin, soydaşlarımıza qarşı sonrakı -repressiyaların və davamlı deportasiya siyasətinin növbəti qanlı aksiyası idi.

20 Yanvar hadisəsi yalnız tarixi faciə deyildir. Müqayisələr göstərir ki, insanların müstəqillik, azadlıq, vətənpərvərlik uğrunda bir araya gələrək verdikləri qurbanlar, bu zaman yaşadıqları faciələr gələcək nəsillər üçün qürur, iradə, ideoloji prioritet prinsiplərini də müəyyənləşdirir. 20 Yanvar hadisəsi də ölkəmizin yeni tarixində məhz belə hadisələrdəndir. Bu gün həmin hadisəni anan hər bir Azərbaycan vətəndaşının qəlbində bu amallar yaşayır: Azərbaycan-azərbaycançılıq, Vətən-vətəndaşlıq, dövlət-dövlətçilik, milli iftixar- milli qürur... Deməli, bu kimi prioritet amalları özündə yaşadan faciə qurbanları həmişə iftixar yerimiz, həmin hadisə isə anım günümüz, hüzn günümüz olmaqla bərabər məqsədlərimizin, dövlətçiliyimizin, azərbaycançılığımızın gələcək uğurlarının və möhkəmliyinin ideoloji təməl prinsiplərindəndir.

Həm ümumxalq faciəsi, həm də müstəqillik, istiqlal uğrunda xalqımı-zın apardığı milli azadlıq hərəkatının zirvəsi kimi 20 Yanvar hadisəsi Azərbaycan tarixinə həkk olunmuşdur. Ümummilli lider Heydər Əliyevin söylədiyi kimi, “bu təcavüz xalqımızı mənəvi cəhətdən çox sarsıtsa da, itkilərə məruz qoysa da, onun mənliyini tapdalaya bilmədi, qürurunu sındıra bilmədi, qəhrəmanlıq salnaməsinə yeni bir səhifə kimi yazıldı”. Doğrudan da, 20 Yanvar hadisəsi ərəfəsi və bu hadisədən sonrakı dövr göstərdi ki, 70 il sovet sistemində yaşamasına baxmayaraq, azərbaycanlıların vətəndaşlıq anlamı təfəkkürünü çərçivəyə salmaq mümkün olmamış, xalqımız tarixi yaddaş və milli özünüdərk keyfiyyətlərini qoruyub saxlamışdır.

20 Yanvar faciəsi “beynəlmiləlçilik və xalqlar dostluğu” pərdəsi altında hökm sürən SSRİ adlı bir imperiyanın mahiyyətini açmış, bu dövlətə az-çox inanan insanların inamını sarsıtmışdı. Xalqın iradəsini qırmaq məqsədilə törədilmiş bu qanlı terror Azərbaycan xalqının milli-azadlıq və müstəqillik uğrunda apardığı hərəkata güclü təkan vermiş və respublikada siyasi mübarizə yeni bir mərhələyə daxil olmuşdu.

O zaman haqqın-ədalətin müdafiəsi yolunda canlarını qurban vermiş Vətən övladları isə şəhidlik zirvəsinə ucalmaqla, xalqımızın qəhrəmanlıq tarixinə yeni, parlaq səhifələr yazdılar və bununla da 20 Yanvar gününü şərəf və ləyaqət tarixinə çevirdilər. Azərbaycanın istiqlalı uğrunda canlarını qurban verən şəhidlərimizin əbədi heykəli hər bir azərbaycanlının ürəyində ucalır. Xalqımızın ziyarət yerinə çevrilmiş Şəhidlər Xiyabanında yanan əbədi məşəl şəhidlərin ruhuna xalqımız tərəfindən olan ehtiram və dövlətimiz tərəfindən verilən qiymətdir.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusu bölmələrinin erməni quldur dəstələri ilə birgə Azərbaycan xalqına qarşı gerçəkləşdirdiyi hərbi müdaxilə - kütləvi terror aktı nəticəsində Bakıda 134 mülki vətəndaş öldürülmüş, 600-dən çox adam yaralanmışdı. 1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilməmişdi.

Bu qanlı hadisəyə ilk olaraq öz münasibətini bildirən şəxs ümummilli lider Heydər Əliyev olmuşdu. O zaman Moskvada təqib və məhrumiyyət şəraitində yaşayan xalqımızın böyük oğlu Heydər Əliyev böyük çətinliklə 21 yanvarda ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəlmiş, burada keçirilən mətbuat konfransında çıxış edərək Bakıda törədilən misilsiz qanlı aksiyanı törədən şəxsləri kəskin şəkildə tənqid etmişdi. Heydər Əliyev müstəsna bir cəsarətlə bu hadisəni hüquqa, demokratiyaya yad, humanizmə və ölkədə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab etdiyini bildirmişdi.

Həmin il Vətənə qayıdıb o vaxtkı nankor rəhbərlərin törətdiyi maneələr səbəbindən doğulduğu Naxçıvana üz tutan, burada qədirbilən həmyerlilərinin respublika parlamentinə deputat seçdiyi ulu öndər Heydər Əliyev 7 mart 1991-ci il tarixdə Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında çıxış edərkən 20 Yanvar hadisəsini növbəti dəfə çox sərt şəkildə tənqid etmişdi: “1990-cı il yanvarın 20-də İttifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edimişdir. Heç bir əsas olmadan, xəbər vermədən, dövlət qanunlarını kobudcasına pozaraq, Bakı şəhərinə müasir silahlı sovet ordusunun qoşun hissələri yeridilmiş, onlar vəhşilik, qəddarlıq etmiş, nəticədə nahaq qan tökülmüş, yüzlərlə adam həlak olmuş, xəsarət almış, itkin düşmüşdür”.

Öz çıxışında Heydər Əliyev qatillərin aşkarlanması məsələsini qaldırmış, 20 Yanvar faciəsinə Ali Sovetin sessiyasının qiymət verməli olduğunu vurğulamışdı. Qanlı Yanvar faciəsi ilə bağlı Heydər Əliyevin verdiyi kəskin bəyanatlar Azərbaycan tarixində yeni siyasi dövrün başlandığını əks etdirmişdi.

Ümummilli lider Heydər Əliyevin həmin bəyanatı faciəyə ilk mötəbər siyasi qiymət kimi müstəsna tarixi əhəmiyyətə malikdir. Çünki sovet rejimi özünün törətdiyi qanlı hadisələri gizlətməyə çalışırdı. Ona görə də, Azərbaycanı informasiya blokadasında saxlayır və ölkədən kənara bu qırğın haqda məlumat çıxmasına imkan vermirdi. Belə bir şəraitdə xalqımızın ümummilli liderinin bəyanatı müstəsna əhəmiyyət kəsb etmişdi. Heydər Əliyev uzun illər Azərbaycana rəhbərlik etmiş və Moskvada çalışanda da Azərbaycanda gedən prosesləri yaxından izləmişdi. 20 Yanvar hadisələri ərəfəsində ulu öndər Heydər Əliyev Moskvada təcrid vəziyyətində yaşayırdı.

Heydər Əliyev böyük lider kimi Azərbaycana qayıdıb yenə də xalqa xidmət göstərmək istəyirdi. Amma nə Moskva, nə də Azərbaycanın rəhbərliyi buna imkan vermirdi. Əlbəttə ki, o dövrdə başlayan azadlıq mübarizəsinin önündə Heydər Əliyev kimi böyük lider və siyasətçi getsəydi, proseslər tamamilə xalqımızın xeyrinə olacaqdı, Dağlıq Qarabağ məsələsində ermənilər öz məqsədlərinə nail ola bilməyəcəkdilər. Yəni, Heydər Əliyevin rəhbərliyi ilə azadlıq mübarizəsinin qarşısını heç bir qüvvə ala bilməzdi və bu mübarizədə haqqında danışdığımız faciə də olmayacaqdı. Ona görə də, rəhbərlik çalışırdı ki, Heydər Əliyev mümkün qədər bu hərəkata rəhbərliyindən kənarda qalsın.

Bütövlükdə, 20 Yanvar faciəsi ilə bağlı ulu öndərimizin Moskvada verdiyi bəyanat Azərbaycanın müstəqillik tarixinin ən böyük aktlarından biridir. 1990-cı illərin əvvəlində baş verən hadisələr də göstərdi ki, Heydər Əliyev böyük siyasi liderdir və məhz bu millətin lideridir. Xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyev tez bir zamanda doğma Vətəni təlatümdən, parçalanmaqdan xilas etdi.

Hüquqi-siyasi qiymət ümumiləşmiş formada bundan ibarət idi ki, sovet rəhbərliyi Azərbaycan xalqına qarşı qanlı qırğın törədib. Əlbəttə, hadisənin günahkarlarının da adları açıqlanıb. Moskvanın təcavüzünün qarşısı alınmalıydı, o zamankı respublika rəhbərliyi bu qırğına imkan verməməliydi. Bu hadisəyə görə o dövrdə xalqın azadlıq hərəkatına rəhbərlik edənlər də məsuliyyət daşıyırdı.

1990-cı ilin yanvarından sonra hakimiyyətdə olan qüvvələrin bu məsələdə ilk vəzifəsi faciəni təhlil etmək, günahkarları üzə çıxarmaq və dövlət səviyyəsində siyasi-hüquqi qiymət vermək olsa da, respublika əhalisinin təkidli tələblərinə baxmayaraq, bununla bağlı 1993-cü ilə qədər faktiki olaraq heç bir tədbir görülməmişdi. 1990-cı il yanvar ayının 22-də çağırılan Azərbaycan Ali Sovetinin fövqəladə sessiyası öz işini yarımçıq qoymuş və sonrakı sessiyalarda bu məsələnin müzakirəsini davam etdirməmişdi. Ali Sovetin yanvar hadisələrini tədqiq etməli olan komissiyasının işi başa çatdırılmamış qalmışdı.

1993-cü ilin yayında xalqın tələbi ilə hakimiyyətə qayıdıb siyasi qarşıdurmanı və ümumi böhranı sovuşdurmuş ümummilli lider Heydər Əliyev 1994-cü il yanvarın 12-də ölkə Prezidenti kimi keçirdiyi müşavirədə 20 Yanvar faciəsinə hüquqi qiymət verilməsi məsələsini yenidən gündəmə gətirərərək demişdi: “Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişdir. Görünür ki, ötən yaxın illərdəki Sovetlər Birliyi, respublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsl mahiyyətini xalqa bəyan etməmişlər”.

Beləliklə, yalnız Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra 1990-cı ilin qanlı Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi.

Ulu öndər Heydər Əliyev şəhidləri və şəhid ailələrini də heç vaxt diqqətdən kənar qoymamışdı. 20 Yanvar faciəsinin ildönümlərində şəxsən Şəhidlər Xiyabanını ziyarət edən respublika rəhbəri şəhid ailələrinə müraciətlə bütün Azərbaycan xalqı adından onlara başsağlığı vermiş, problemləri ilə yaxından maraqlanmışdı. Prezident Heydər Əliyev bu faciəni böyük bir tarixi hadisə kimi qiymətləndirmiş və qəhrəman övladlarımızın özünü qurban verərək Azərbaycan xalqının milli azadlığı üçün, Azərbaycanın müstəqilliyi üçün yol açdıqlarını ifadə etmişdir.Ulu öndər bu məkanın Azərbaycan xalqı üçün ən müqəddəs yer və ən qiymətli abidə olduğunu bildirmişdir.

Bəli, 20 Yanvar hadisələrinin üstündən çox da böyük zaman keçmədən Azərbaycan xalqı ikinci istiqlalına, müstəqilliyinə qovuşdu. Şəhidlərimizin, 20 Yanvar mücahidlərinin, istiqlalsevərlərin ruhu şad oldu. Qanları yerdə qalmadı, qisas qiyamətə qədər gözləmədi.

Yaxın tariximizdə iki xilaskarın –Heydər Əlirza oğlu Əliyevin və İlham Heydər oğlu Əliyevin yaratdıqları möhkəm özüldən güc alan xalq 30 illik səbir və təmkindən sonra yenidən ayağa qalxdı. Müzəffər Ali Baş Komandanın rəhbərliyi və Azərbaycan əsgərinin qəhrəmanlığı ilə növbəti azadlığına, bütövlüyünə, Qarabağına doğru şərəfli bir yola çıxdı. 44 günə Qarabağ münaqişəsinə, fitnəkarlığına son qoydu, Zəfər çaldı.

Biz indi, sözün əsl mənasında müstəqil dövlətik, Qarabağına, qovuşmuş məğrur Azərbaycan xalqıyıq. Artıq 20 Yanvar və 44 günlük Vətən müharibəsi bizim göz yaşlarımız, kədər tariximiz deyil, milli fəxarət və şərəf tariximiz, qürur və bütövlük günlərimizdir.

**Respublika. -** 2022.- 18 yanvar. - № 11. - S. 5.

## 20 Yanvar: İstiqlal və hürriyyət uğrunda mübarizə

**Vilayət Muxtar**

Bu ıl 20 Yanvar faciəsinin 32- ci ildönümüdür. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə, saat 23:30-da Bakı şəhərinə keçmiş Sovet İttifaqının qoşun hissələri yeridilib. Fövqəladə vəziyyət elan edilmədən yeridilən qoşun dinc əhaliyə divan tutub, yüzlərlə insan qətlə yetirilib. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirib, 20 nəfəri ölümcül yaralayıb. Fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər qətlə yetirilib. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda - yanvarın 25- də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər öldürülüb. 20 Yanvar faciə ilə yanaşı, həm də müstəqilliyə aparan yolun başlanğıcı hesab olunur. Bubaxımdan 20 Yanvar faciəsi həm də ləyaqətini qorumaq üçün hər cür qurban verməyə hazır olan xalqın tarixində şərəfli bir səhifədir. 20 Yanvar həm ümumxalq faciəsi, həm də müstəqillik, istiqlal və hürriyyət uğrunda xalqımızın apardığı milli azadlıq hərəkatının zirvəsi kimi Azərbaycan tarixinə həkk olunub.

**Deputat Bəhruz Məhərrəmov** Cebhe.info-ya açıqlamasında deyib ki, bu hadisələr Azərbaycan xalqının müstəqilliyə gedən yolda qətiyyət və qəhrəmanlığının nümunəsidir və bu baxımdan xalqımızın başına gətirilmiş ən dəhşətli faciələrdən biri olmaqla bərabər, həm də milli qürur tariximiz hesab edilməlidir: “Tam təchiz olunmuş SSRİ qoşunlarının qarşısına əliyalın çıxaraq əzm və rəşadət göstərən Azərbaycan xalqı müstəqilliyinin bərpasına haqqı çatdığını və layiq olduğunu tək qorxaq yerli rəhbərliyə deyil, həm də Sovetlər Birliyinin idarəçiliyinə əməli olaraq sübut etdi.

20 yanvarda baş verən hadisə, Azərbaycanın bütün Sovet Respubliklarından daha tez müstəqillik əldə etməsi, Azərbaycan xalqının Sovet imperializminə son qoyan toplum olaraq tarixə düşməsi üçün çox ciddi imkan idi və təəssüf ki, bu imkanı o zaman ümummilli lider Heydər Əliyevdən başqa kimsə başadüşmədi. Cənab İlham Əliyevin ötən il oktyabnn 17-də Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə dediyi kimi, o vaxt Azərbaycan rəhbərliyi müstəqilliyi elan edərkən çox əsassız vaxt itkisinə yol verib, çünki müstəqillik daha əvvəl, daha tez elan oluna bilərdi. Lakin qeyd etdiyim kimi, Bakıdakı qorxaq rəhbərlikdən fərqli olaraq Moskvada xüsusi xidmət orqanları tərəfindən izlənməsinə, nəzarət altında olmasına baxmayaraq, Heydər Əliyev öz yeganə oğlu İlham Əliyevlə bərabər həyatını təhlükəyə ataraq Sovetlər Birliyinin paytaxtındaca Bakıda törədilən qırğınları, bununla da SSRl-nin əsl mahiyyətini ifşa etdi. Bu isə Azərbaycanın ətrafında formalaşdırılmış informasiya çənbərinin dağıdılması, dünyanın diqqətinin Azərbaycana yönəldilməsi baxımından həlledici rol oynadı”. Deputat qeyd edib ki, başqa bir prizmadan, beynəlxalq hüquqi aspektdən baxılsa, 20 Yanvar hadisələri həm də insan hüquq və azadlıqlarının, o cümlədən, bu istiqamətdə dövlətin üzərinə düşən ciddi öhdəliklərin köklü pozuntusu deməkdir: “EləSSRl-nin özünün fəal təşkilatçılarından və mühakimə edənlərdən biri olduğu Nürnberq prosesinin yekun qənaətləri və yaradılmış presedentlərin fonunda təhlil edilsə, 1990-cı il 19-20 yanvar tarixlərində Bakıda törədilən hadisələr tam mənada beynəlxalq cinayətlər kimi tövsif edilə bilər. Bundan başqa, fövqəladə halın elan edilməsi və həyata keçirilən hərbi-inzibati tədbirlər arasında uyğunsuzluq baxımından o zaman Sovet rəhbərliyi ratifikasiya etdikləri 1966-cı il "Mülki və siyasi hüquqlar haqqında Pakt”ın müddəalarını da kobud surətdə pozmuşdular. Ümummilli lider Heydər Əliyev Azərbaycana qayıtdıqdan cəmi 4 ay sonra, 1990-cı ilin 21 noyabr tarixində rəhbərlik etdiyi Naxçıvan Muxtar Respublikası Ali Məclisində bu hadisələrə verilən siyasi qiyməti çıxmaq şərti ilə, təəssüf ki, Azərbaycan müstəqilliyyini əldə etdiyi ilk 2 il ərzində dövlət səviyyəsində bu fakta siyasi-hüquqi qiymət verilmədi. Heydər Əliyev Prezident seçildikdən cəmi 5 ay sonra, 1994-cü il mart ayının 29-da Milli Məclisin 3 il öncə hazırlanmalı və qəbul etməli olduğu qərar, məhz dahi liderin qətiyyəti ilə nəhayət ki, hazırlanaraq qüvvəyə mindi. Qurbanların xatirələrinin əbədiləşdirilməsi, onlara və yaxınlarına dövlət qayğısı da ilk dəfə, məhz ümummilli liderin təşəbbüsü ilə reallaşıb, 1998-ci ildə "20 Yanvar şəhidi" adı təsis edilib. Dahi liderin başlatdığı ənənəyə uyğun olaraq Prezident İlham Qliyev bir sıra sosial və siyasi əhəmiyyətə malik, effektiv sosial müdafiəni nəzərdə tutan tədbirlər həyata keçirib, o cümlədən 20 Yanvar şəhidlərinin ailələri üçün Prezident təqaüdü təsis edilib".

**Cümhuriyyət.** – 2022. – 18-20 yanvar. - № 4. – S. 4.

## 20 Yanvar qırğınında ermənilər də iştirak ediblər

**Fərəc Quliyev:** "Onların adları da məlum idi"

**İsmayıl Qocayev**

**Ermənilər 1990-cı il qanlı 20 Yanvar hadisəsinin ildönümü ərəfəsində propaqanda maşınını yenidən işə salıblar. Ermənistan Xarici İşlər Nazirliyi uydurma iddialarla Azərbaycanı ittiham edib. İrəvan 20 yanvar hadisəsində minlərlə ermənin "qətl edildiyi", "təzyiqlərə məruz qaldıqları" və Bakıdan "sürgün edildikləri" kimi absurd iddialar irəli sürüb.**

Guya, rəsmi Bakı 20 Yanvar faciəsini məqsədyönlü şəkildə qabardaraq, erməni "qırğınlarını" ört-basdır etməyə çalışıb. Azərbaycan Xarici İşlər Nazirliyi düşmən tərəfin çirkin ittihamlarını cavabsız qoymayıb. XİN-in mətbuat xidmətinin rəhbəri Leyla Abdullayevə bildirib ki, Bakıda 1990-cı ilin yanvarında erməni əhaliyə qarşı "qırğın törədilməsi" iddiası tamamilə əsassız və uydurmadır. XİN-dən vurğulanıb ki, bu, Ermənistan tərəfinin Azərbaycanın dinc əhalisinə qarşı tarixən həyata keçirdiyi soyqırımı, etnik təmizləmə siyasətini, Xocalı şəhərində bir gecədə 613 mülki şəxsi vəhşicəsinə qətlə yetirdiyini gizlətmək məqsədini güdən propaqandadır: "Təəssüflə qeyd etməliyik ki, ermənilərin qurban" şəklində təqdim edildiyi hekayələr onilliklər ərzində erməni millətçiliyinin ideoloji əsasını təşkil edib. Elə bu da Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına təkan verib. Ermənistanla Azərbaycan arasında yüz minlərlə insanın böyük iztirablarına səbəb olan dağıdıcı münaqişəyə gətirib çıxarıb. Hazırda münaqişədən sonrakı dövlətlərarası münasibətlərin normallaşması məsələlərinin müzakirə mövzusu olduğu bir vaxtda Ermənistan XİN-in yenidən bu kimi əsassız və destruktiv bəyanatlarla çıxış etməsi qarşı tərəfin münasibətlərin normallaşmasına çalışmadığını göstərir. Bu isə təəssüf doğurduğu qədər həm də təhlükəlidir". L. Abdullayeva bəyan edib ki, istintaq materialları, eləcə də bir sıra beynəlxalq müstəqil qurumların təkzibedilməz müşahidələri sübut edir ki, 20 yanvar hadisəsi sovet xüsusi xidmət orqanları tərəfindən hazırlanmış, Azərbaycan xalqının müstəqillik mübarizəsinə qarşı yönəlmiş açıq təxribatçı əməllər idi.

**Ermənistan tərəfinin yalanları ilə bağlı "Şərq"ə danışan Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, keçmiş millət vəkili Fərəc Quliyev bildirib ki, İrəvanın davranışlarına təəccüb etməməliyik.** Partiya rəhbəri bəyan edib ki, Ermənistan hələ düşmənimizdir və statusu dəyişməyib: "Dövlət başçısı İlham Əliyev müsahibəsində Ermənistanı qonşu ölkə adlandırmadı. Çünki Ermənistan rəhbərliyi və ictimaiyyəti öz yanaşmalarında və davranışlarında redaktələr etməyiblər. Ermənistan Azərbaycan və Türkiyəyə qarşı ittihamlardan əl çəkərsə, normal əməkdaşlıq istiqamətində zəruri addımlar atarsa, o halda İrəvanı qonşu adlandırmaq mümkündür. Hələlik, Ermənistan tərəfi Azərbaycanın ərazi bütövlüyünü, sərhədlərimizi tanımayıb. Ərazilərimizdəki ermənilərin Azərbaycan vətəndaşları olduqlarını qəbul etməyiblər. Türkiyəyə qarşı iddialardan, saxta "soyqırım"dan əl çəkməyiblər. Ermənistanın gerbində Ağrı dağı əks olunmaqda, konstitusiyasında Türkiyə dövlətinə ərazi iddiaları qalmaqdadır. Ermənistanın hər sahədə hücumlarını davam etdirə biləcəyi ehtimalını daim gündəmdə saxlamalıyıq. Addımlarımız da ona uyğun olmalı, ermənilərə qarşı "kötək və kökə" siyasətini tətbiq etməliyik. Ermənistan daxili auditoriyanı sakitləşdirmək, əhaliyə "İrəvanın geri çəkilmədiyini" göstərmək üçün əsassız ittihamlara baş vurur. Azərbaycanın beynəlxalq nüfuzunu zədələməyə çalışır. Çünki başqa müstəvilərdə ardıcıl məğlub oldular. Brüssel görüşündən istədikləri nəticə çıxmadı, KTMT-ni prosesə cəlb edə bilmədilər. Bu amillər İrəvanda və erməni cəmiyyətində ciddi narahatlıq doğurur".

**F. Quliyev vurğulayıb ki, 1990-cı ilin yanvarında Azərbaycana daxil olan 66 minə qədər sovet ordusunun tərkibində Stavropol və Krasnodardan gətirilən erməni zabitləri və kursantlar var idi:** "Onların adları da məlum idi. O vaxt 100 cildlik cinayət işi hazırlanmışdı. Təəssüflər olsun ki, işin 60 clddən çoxunu Moskvaya apardılar, ancaq geri qaytarmadılar. Ermənilərin Bakıda törətdikləri bütün cinayətlərin dəlil-sübutları mövcud idi. Ondan əvvəl də Sumqayıtdakı hadisələrin ermənilər tərəfindən təşkil edildiyini özləri etiraf etmişdilər. 20 Yanvar qırğınlarını həyata keçirmək üçün ermənilərin xüsusi canfəşanlığı olmuşdu.

Ruslara qarşı müəyyən addımların atılması, talançılıqla məşğul olunması və s. hamısı real faktlar idi. Məhz həmin ərəfədə Ermənistandakı azərbaycanlılar öz yurdlarından qovulmağa başlanmışdı. 1948-ci ildən sonra ilk dəfə idi ki, azərbaycanlılar kütləvi şəkildə öz torpaqlarından zorla çıxarılırdı. Ozamankı proseslərdə ermənilər hər cür vəhşiliyə əl atmışdı. Azərbaycanlı uşaqlan diri-diri borulara yığıb ağzını qaynaq etmişdilər. Dövrün hadisələrində qətliama və soyqırıma məruz qalan, torpaqlarından qovulan ermənilər yox, azərbaycanlılar olub. Bunu təsdiqləyən çoxsaylı foto-video kadrlar və yüzlərlə sənəd var".

**Müsahibimizin fikrincə, Ermənistana qarşı davranışımız adekvat olmalıdır:** "Büdcədə hərbi xərclərin artırılması çox doğru qərardır. Sərhədlərimizdə ordumuzu daim gücləndirməli, cəmiyyətdə vətənpərvərlik hissini yüksək səviyyədə saxlamalıyıq. Nəzərə almalıyıq ki, ermənilər ya birbaşa özləri, ya da ağalarının sifarişi əsasında hər fürsətdən yararlanmaq istəyəcəklər. Azərbaycan mühüm geopolitik məkanda yerləşir və regionda böyük dövlətlərin maraqları daim toqquşur. Əksər hallarda isə maşa kimi ermənilərdən istifadə edirlər".

**Şərq.-**2022.-18 yanvar.-№9.-S.2.

## 20 Yanvar faciəsi xalqımızın qəhrəmanlıq salnaməsidir

**Milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə silahlı təcavüz nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi**

**Sevinc Azadi**

Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrindən artıq 32 il keçir. Həmin tarixdə Bakıda baş verən hadisələri Qarabağdakı erməni təcavüzündən ayrıca təhlil etmək düzgün olmazdı. Hər dəfə Qarabağa dair ərazi iddiaları kənardan, məhz Ermənistanın təbliği, təhriki və təzyiqi ilə ortaya atılırdı. Ermənilərin bu ərazi iddiaları birdən-birə deyil, Yerevanda, Moskvada və Qərbdə olan himayədarları tərəfindən hələ xeyli əvvəl diqqətlə və hərtərəfli plan əsasında hazırlanmışdı.

1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti Azərbaycanın suverenliyini kobud surətdə pozaraq, Dağlıq Qarabağ Muxtar Respublikasının (DQMV) Ermənistan SSR-ə birləşdirilməsi haqqında Konstitusiyaya zidd qərar qəbul etdi. 42 gün ərzində DQMV-nin müəssisələri Ermənistanın müvafiq nazirlik və idarələrinin tabeliyinə verildi. Birbaşa mərkəzin fəaliyyətsizliyi, bəzən isə açıq himayədarlığı sayəsində DQMV iqtisadiyyatının və digər sahələrinin faktiki olaraq Azərbaycandan ayrılması və Ermənistana istiqamətləndirilməsi baş verdi. Bütün rayon partiya komitələri Ermənistan KP-nin tərkibinə daxil oldu. Azərbaycanın bütün dövlət atributları (bayrağı, gerbi, himni və s.) dəyişdirildi və DQMV ərazisində Ermənistanın bayrağı və gerbi asıldı. Bununla da Ermənistan beynəlxalq hüququn əsas norma və prinsiplərini pozaraq Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialarını rəsmən elan etdi. Nəticədə, sovet rəhbərliyinin çox ciddi və bağışlanılmaz səhvləri və ermənipərəst siyasəti 1988-ci ilin sonu-1989-cu ilin əvvəllərində vəziyyətin getdikcə kəskinləşməsinə gətirib çıxardı, DQMV və Azərbaycanın Ermənistanla həmsərhəd bölgələrində erməni təcavüzü daha geniş miqyas aldı. Bu illərdə törədilən terror aktları nəticəsində yüzlərlə azərbaycanlının həyatına son qoyuldu. Minlərlə azərbaycanlı SSRİ-nin hakim dairələri tərəfindən himayə edilən ermənilərin işğalçılıq siyasətinin qurbanı oldu.

1990-cı ilin yanvar ayında M.Qorbaçov başda olmaqla sovet imperiyasının rəhbərliyi Bakıda vəziyyətin öz məcrasından çıxdığını və hakimiyyətin təhlükədə olduğunu bəhanə edərək Azərbaycan paytaxtına qoşunun yeridilməsi üçün müxtəlif dezinformasiyalar yayırdı. Guya Bakıya qoşun hərbi qulluqçuların ailələrini qorumaq, hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə bu, tamamilə saxta bir tezis idi. Çünki sovet rəhbərliyinin "dəlilləri" hətta həqiqətə yaxın olsaydı belə, Bakıya xüsusi təlim keçmiş qoşun göndərməyə ehtiyac yox idi. Ona görə ki, həmin vaxt daxili qoşunların 11 min 500 əsgəri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri, eləcə də 4-cü ordunun komandanlığı da Bakıda yerləşirdi. Bütün bunlara baxmayaraq, 1990-cı il yanvarın 19-da M.Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. Lakin əhalinin bundan məlumatsız qalması üçün SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin "Alfa" qrupu tərəfindən yanvarın 19-da saat 19.27-də Azərbaycan televiziyasının enerji bloku partladıldı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və dinc əhaliyə amansız divan tutuldu.

M.Qorbaçovun fərmanı qüvvəyə minənədək – yanvarın 20-də saat 00:00-dək artıq 9 nəfər öldürülmüşdü. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100 nəfərə çatmışdı. Belə ki, artıq yanvarın 20-də 131 insan öldürülmüş, 744 adam ağır xəsarət almış, 4 şəxs itkin düşmüş, 400 nəfər isə həbs edilmişdi. Sovet qoşunları fövqəladə vəziyyət elan olunmayan rayonlara - yanvarın 25-də Neftçalaya, bir gün sonra isə Lənkərana yeridilmiş, nəticədə hər iki rayonda dinc insanlar qətlə yetirilmişlər. Beləliklə, sovet qoşunlarının Bakıya və Azərbaycanın digər rayonlarına hərbi müdaxiləsi nəticəsində öldürülən insanların sayı rəsmi olaraq 147-yə çatmışdı.

O zaman yalnız ümummilli lider Heydər Əliyev bütün çətinliklərə baxmayaraq 1990-cı il yanvarın 21-də siyasi iradə nümayiş etdirərək Moskvadakı Azərbaycan Nümayəndəliyinə gəlmiş və SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə ittiham edərək bəyanatla çıxış etmişdir. 1993-cü ilin iyununda ümummilli lider Heydər

Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Bundan sonra 1990-cı ilin qanlı Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi.

Qeyd edək ki, Qanlı 20 Yanvar Sovet İttifaqının Azərbaycandakı idarəçiliyinin sonu oldu. 1990-cı ildə Bakıda baş verən qırğına şəxsən qol çəkmiş M.Qorbaçov həmin il Beynəlxalq Nobel Sülh mükafatına layiq görüldü. 1995-ci ildə öz siyasi bioqrafiyasının bəzi məqamlarına toxunan və 1990-cı il 20 Yanvar hadisələrindən danışan M.Qorbaçov öz günahını acizanə şəkildə etiraf edərək bildirmişdi: "Bakıda fövqəladə vəziyyət elan etmək və oraya qoşun göndərmək mənim siyasi həyatımın ən böyük səhvi idi".

**İki sahil.-**2022.-13 yanvar.-№8.-S.13.

## 20 Yanvar hadisələri xalqın iradəsinin və azadlıq arzusunun sarsılmazlığını sübut etdi

**Elman NƏSİROV,**
Milli Məclisin deputatı, siyasi elmlər doktoru, professor

**Azərbaycan xalqının minilliklər boyu yaranan ölçülən zəngin və şərəfli tarixində həm qəhrəmanlıq, həm də faciə səhifələri bir-birini əvəz etmiş, nəsildən-nəsilə qan yaddaşı və genlərlə ötürülmüşdür. Tariximizin 20 Yanvar səhifəsinin unikallığı isə ondadır ki, o, eyni vaxtda, həm faciə, həm də qəhrəmanlıq nümunəsidir. Sözügedən reallıqdan çıxış edərək, qədirbilən oxuculara təqdim etdiyimiz bu yazıda məqsədimiz hər iki anlamı özündə birləşdirən 20 Yanvar hadisələrinə 31 illik zaman kəsiyindən nəzər yetirib, bir sira suallara cavab axtarmaqdır.**

**Birincisi, 20 Yanvar faciəsini şərtləndirən amillər hansılardır və onun qarşısını almaq nə dərəcədə mümkün idi?**

20 Yanvar faciəsinə aparan yol, əsasən, 2 amillə şərtlənmişdir:

**a) Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və SSRİ rəhbərliyinin ermənipərəst siyasəti.**

1988-ci ilin fevral ayından başlayaraq, 200 mindən artıq soydaşımız Ermənistandan zor və işgəncə altında qovulmuş, təkcə 1989-cu ilin avqust-dekabr aylarında Ermənistan tərəfindən Azərbaycan sərhədlərinin 91 dəfə pozulması və atəşə tutulması nəticəsində 32 nəfər azərbaycanlı öldürülmüş, 166 nəfər yaralanmışdı.

Kreml bu vəziyyətdən nəticə çıxarıb, Ermənistanın qeyri-qanuni və antibəşəri hərəkətlərinə huquqi qiymət verib. Günahkarları cəzalandırmaq əvəzinə, onların şirnikləndirilməsi siyasətinə üstünlük verib. Həmin qərəzli, məsuliyyətsiz və cinayətkar siyasətin bir neçə məqamına nəzər yetirək:

1988-ci ilin mart ayında Sov. İKP MK və SSRİ Nazirlər Soveti "Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi haqqında" qəbul etdiyi qərar, əslində, Dağlıq Qarabağın Azərbaycandan ayrılaraq Ermənistana birləşdirilməsi üçün münbit şəraiti təmin etməyə hesablanmış addım idi. Bu qərara əsasən, ilk növbədə, Dağlıq Qarabağa müstəsna hüquq və səlahiyyətlər verilir, böyük maliyyə vəsaitləri ayrılır, vilayətlə bağlı mühüm məsələlərin həlli ittifaq nazirlikləri və strukturlarının səlahiyyətinə aid edilirdi.

1989-cu il yanvarın 12-də SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarına əsasən, Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində xüsusi idarəetmə forması –Xüsusi İdarə Komitəsi yaradıldı. Sədri ermənipərəst məmur Arkadi Volski təyin edildi. Bu addım faktiki olaraq, Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılmasını təmin etmiş oldu.

Rəsmi Moskvanın yuxarıda qeyd olunan addımlarından ruhlanan və şirniklənən Ermənistan SSR Ali Soveti 1989-ci il dekabrın 1-də Dağlıq Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi haqqında qərar verdi.

Bu siyasət və onun nəticələri Azərbaycanda ermənipərəst SSRİ rəhbərliyi əleyhinə etimadsızlıq mühiti və ümumxalq etirazı dalğasının formalaşmasını təmin etdi.

**b) Azərbaycan rəhbərliyinin qətiyyətsiz və antimilli siyasəti, Azərbaycan Xalq Cəbhəsinin timsalında müxalifətin təxribatçı addımları.**

Hadisələrin təhlili göstərir ki, Azərbaycan rəhbərliyi və müxalifəti həmin tarixi şəraitdə ümummilli maraqları şəxsi maraqların fövqünə qoymaq bacarığı nümayiş etdirə bilsəydi, antimilli və təxribatçı addımlar atmasaydı, rəsmi Moskvanın Azərbaycan xalqına qarşı qanlı ssenariləri həyata keçirmək imkanı minimuma enə bilərdi. Zənnimizcə, məhz Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 15 yanvar 1990-cı il tarixli qərarında "Müdafiə nazirliyi, hüquq-mühafizə və SSRİ-nin digər icra orqanlarından xahiş edirik ki, ölkə konstitusiyasının 81-ci maddəsinə uyğun olaraq , Azərbaycan SSR-ə müvafiq zəruri yardımı həyata keçirsin",– şəklində ifadə olunmuş mövqe Mixail Qorbaçov başda olmaqla SSRİ rəhbərliyini həm arxayınlaşdırmış, həm də Azərbaycan əleyhinə addımlarının radikallıq səviyyəsini daha da gücləndirmişdir. Xatırladaq ki, 1977-ci il 7 oktyabr tarixində qəbul edilmiş SSRİ konstitusiyasının 81-ci maddəsinə görə, müttəfiq respublikaların suveren hüquqları SSRİ tərəfindən qorunmalıdır.

Bundan savayı, 1989-cu ilin sonlarında ölkəmizin bəzi rayonlarında Xalq Cəbhəsinin hakimiyyəti zorla ələ kecirməsi, Naxcıvanın İranla sərhədindəki tikanlı məftillərin sökulub atılması, xalq hərəkatının radikal qanadının Milli Mudafiə Şurası təşkil edərək nəzarəti öz əlinə alması, 1990-cı il yanvarın 13-15-də Dovlət Təhlukəsizliyi Komitəsinin Sumqayıt ssenarisi əsasında "erməni talanları" torətməsi Moskvanın əlinə Azərbaycan xalqını cəzalandırmaq fursəti vermişdi.

**İkincisi, Bakıya yeridilən qoşun hissələrinin hədsiz qəddarlığı nə ilə bağlı idi?**

Əvvəla, qeyd edək ki, 1989-cu ilin sonlarınadək Bakı şəhərində 110 minlik silahlı qüvvə və hüquq-mühafizə orqanlarının şəxsi heyyəti var idi. Xüsusilə, Bakı Qarnizonunun və Bakı Ümumqoşun Məktəbi zabitləri və əsgərlərinin Azərbayacan xalqına münasibəti heç bir halda düşmən münasibəti deyildi, əksinə, daha çox loyallığı ilə fərqlənirdi. Onlar yerli əhalinin qonaqpərvərlyi və alicənablığını gündəlik həyatda görür və qiymətləndirirdilər. Başqa sözlə, "Görünən dağa nə bələdçi". Təsadüfi deyildir ki, 20 Yanvar hadisəsi öncəsi Bakı Ümumqoşun Məktəbinin zabit kollektivi adından SSRİ Ali Soveti Sədrinin və ölkənin müdafiə nazirinin adına ünvanlamış məktubda xüsusi olaraq qeyd olunurdu ki, Bakıda vəziyyət Azərbaycan Xalq Cəbhəsinin nəzarəti altındadır və mövcud problemlərin həlli üçün siyasi tənzimləmə imkanları tükənməmişdir. Biz tam əminliklə deyirik: Bakıda ikinci Rumıniyanın baş verməsinə imkan verilməməlidir." Mərkəzə belə mövqe lazım deyildi. Ona görə də, rəsmi Moskva Bakıda qanlı aksiyasını həyata keçirmək üçün bu qüvvələrə tam etibar etmirdi.

İstintaq muəyyən etmişdir ki, 1990-cı il yanvarın ortalarında SSRİ mudafiə və daxili işlər nazirliklərinin, habelə başqa xususi təyinatlı hərbi birləşmələrin 66 min nəfərdən cox əsgər və zabiti Bakı şəhərinə gətirilərək, Qala və Nasoslu aerodromlarında, Respublika stadionunda, Salyan kazarmasında yerləşdirilmişdi. Azərbaycana göndərilən ordu hissələrinin tərkibinə Stavropoldan, Rostovdan, Krasnodardan səfərbər edilmiş erməni zabit və əsgərləri, hərbi məktəblərdə təhsil alan erməni kursantları da cəlb edilmişdi. Respublikaya gətirilmiş hərbi quvvələrin, əməliyyatlara rəhbərlik etmək ucun Bakıya gələn 300-dən artıq yuksək rutbəli zabit və generalların ərzaq təminatı, nəqliyyatla, yanacaqla təmin edilməsi respublika budcəsindən odənilirdi.

Həmin hərbi qüvvələr üzərində xüsusi psixoloji sınaqların keçirildiyi haqqında təkzibedilməz faktlar vardır. Onlara belə bir dezinformasiya təlqin olunurdu:

**- Yerli əhali-azərbaycanlılar rusları qırmağa hazırlaşırlar və siz müqəddəs bir vəzifəni-rusları və bütünlükdə şəhərin xristian əhalisini labüd fəlakətdən xilas etməlisiz.**

**- Salyan kazarması ətrafında və evlərin damlarında snayperlər yerləşdirilmişdir və hədəflərində yalnız siz olacaqsınız. Ona görə də özünümüdafiə instinktindən çıxış edərək patronlarınıza heyfiniz gəlməsin.**

**- Azərbaycan Xalq Cəbhəsinin hərbi dəstələri şəhərin strateji nöqtələrində yerləşdirilmişdir və onların amansız müqavimət göstərəcəklərini nəzərə alıb, qətiyyət və adekvat qəddarlıq nümayş etdirin.**

**- Müqavimət göstərən tərəfin milisin, sovet ordusunun və ya daxili qoşunların geyimində də olması mümkündür və bu reallığı nəzərə alıb, onları davamlı atəş hədəfinə çevirməyi bacarmalısiniz.**

Bir sözlə, SSRİ rəhbərliyinin "xeyir-duası" ilə 66 minlik qoşun hissələri, xüsusilə, erməni mənşəli əsgər və zabitlər, eyni zamanda, həbsxanadan məlum məqsəd naminə azadlığa buraxılmış məhbuslar Bakıda hər cür vəhşiliklər törətməyə psixoloji baxımdan tam hazırlanmış və nəticədə 147 insanın qətlinə, 744 nəfərin ağır xəsarət almasına, 841 nəfərın qanunsuz olaraq həbs edilməsinə, 200 mənzil, ev, şəxsi və dövlət əmlakının dağıdılmasına rəvac verən bəşəri cinayət törədilmişdir.

**Üçüncüsü, SSRİ rəhbərliyinin törətdiyi 20 Yanvar faciəsində dünyanın digər fövqəldövləti olan ABŞ-ın üzərinə hansı məsuliyyət düşür?**

ABŞ-da 1994-2001-ci illərdə dövlət katibinin müavini işləmiş Stroub Telbottun həmmüəllifi olduğu "Ən yüksək səviyyədə" adlı kitabda qeyd olunur ki, 1989-cu il dekabrın 24-də ABŞ-ın Dövlət katibi Ceyms Beyker ölkəsinin Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri Cek Motlak vasitəsilə SSRİ-nin xarici işlər naziri Eduard Şevardnadzeyə məlumat çatdırır ki, əgər sovet qoşunları Rumıniyaya ölkədaxili sabitliyin bərpası naminə müdaxilə edərsə, ABŞ bu insidenti etirazla qarşılamayacaqdır. Eduard Şevardnadze cavabında bildirir ki, ABŞ SSRİ-ni hərbi avantüraya cəlb etmək istəyir və bununla da özünün Panamaya olan müdaxiləsinə haqq qazandırmağa çalışır. SSRİ-nin Xarici işlər naziri qeyd edir ki, ölkəsi prinsip etibarilə yeni xarici siyasət kursunu həyata keçirir. Bu kursa görə, SSRİ daha sosialist ölkələrinin daxili işlərinə qarışmayacaqdır. Bu mövqedən göründüyü kimi, söhbət yalnız sosialist ölkələrindən gedirdi, sovet respublikalarından yox.

Deməli, Mixail Qorbaçov başda olmaqla, SSRİ rəhbərliyi ABŞ-ın Rumıniya ilə bağlı məlum mövqeyindən bir sıra nəticələr çıxardı. İlk nəticə isə ondan ibarət oldu ki, sovet qoşunlarını Aərbaycan xalqının müstəqillik mücadiləsinə qarşı Bakıya yeridəcəyi təqdirdə ABŞ-ın etirazı olmayacaqdır. Rəsmi Moskva həm də onun fərqində idi ki, ABŞ-ın güclü erməni lobbisi və diasporu da rəsmi Vaşınqtonun Bakı qırğınına qarşı laqeyid mövqeyinin formalaşmasında öz rolunu oynayacaqdır. Taktiki baxımdan belə qiymətləndirmədə Moskva yanılmamışdı. ABŞ 20 Yanvar faciəsini olduqca soyuqqanlı qarşıladı. "Sem dayı" Rumıniya hadisələri fonunda davranışı ilə SSRİ-nin Bakı avantürasına dolayısı ilə "yaşıl işıq" yandırdığının fərqində idi. Həm də fərqində idi ki, belə avantüralar əzəli rəqibi və düşməni olan SSRİ-nin məhvinin tarixi "X" anını son dərəcə

yaxınlaşdırmağa xidmət göstərir. ABŞ yanılmamışdı. 20 Yanvar faciəsi SSRİ-nin sonunun başlanğıcını şərtləndirən proseslərin katalizatoru oldu.

**Dördüncüsü, 20 Yanvar bəşəri cinayətinə olkədaxili və beynəlxalq siyasi-hüquqi qiymətin verilməsini və onun perspektivlərinin dəyərləndirilməsi.**

20 Yanvar faciəsinə dovlət səviyyəsində tam siyasi-huquqi qiymət verilməsi məsələsi umummilli lider Heydər Əliyevin sayəsində həllini tapmışdır. Heydər Əliyev yanvarın 21- də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək xalqla birgə olduğunu bildirdi, 20 Yanvar faciəsinə siyasi qiymət verilməsini tələb etdi,, onun hüquqa, demokratiyaya, humanizmə zidd , mərkəzin və o zamankı respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv olduğunu bildirdi. O, baş vermiş faciə ilə əlaqədar xalqımıza başsağlığı verdi və mətbuat konfransı keçirib, başda Mixail Qorbaçov olmaqla, Bakıdakı terror aktına rəvac verən hakimiyyət nümayəndələrini və hərbçiləri cinayətkar, onların dinc əhaliyə tutduqları divanı isə bütöv bir xalqa qarşı edilən tarixi cinayət adlandırdı. Bu tarixi çıxışın mətni Kremlin kəskin informasiya blokadası siyasətinə baxmayaraq, bütün dünyada, o cümlədən Azərbaycanda yayıldı və geniş siyasi rezonans doğurdu. Bundan sonra Azərbaycan xalqının qəlbində ümid çırağı yandı.

1990-cı ilin iyulunda Moskvadan Vətənə qayıdan Heydər Əliyevin təşəbbüsü ilə həmin il noyabr ayının 21-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 20 Yanvar faciəsinə ilk dəfə siyasi-hüquqi qiymət verildi. Naxçıvan Muxtar respublikası Ali Məclisində qəbul edilmiş və 20 Yanvar faciəsinə ilk siyasi-hüquqi qiymət verən, eyni zamanda, Azərbaycan xalqının ümumi rəyini özündə təcəssüm etdirən bu qərar Heydər Əliyev qətiyyətinin təzahürü kimi tarixə düşdü. Sənəddə respublika səviyyəsində 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməsi ölkə rəhbərliyindən tələb edilirdi. Azərbaycan müstəqillik qazandıqdan sonra da 1993-cü ilə qədər iqtidarda olanların heç biri faciə ilə bağlı əsil həqiqəti aşkar etməyə özündə cəsarət tapmadı.

Yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra – 1994-cü ilin 20 Yanvar hadisələrinin hüquqi müstəvidə əsil mahiyyəti açıqlandı.1994-cü il yanvarın 12-də keçirdiyi müşavirədə ulu öndər Heydər Əliyev bu barədə deyirdi: “Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişdir. Görünür ki, ötən yaxın illərdəki Sovetlər Birliyi, respublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsil mahiyyətini xalqa bəyan etməmişlər”.

Ulu öndər Heydər Əliyevin “20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında” 1994 cü il 5 yanvar tarixli Fərmanında Azərbaycan Respublikasının Milli Məclisinə Qanlı Yanvar hadisələri ilə bağlı xüsusi sessiyanın keçirilməsi məsələsinə baxmaq tövsiyə edildi. Milli Məclisin 1994-cü il martın 29-da qəbul etdiyi qərarda 20 Yanvar faciəsinin günahkarları konkret qeyd olundu və bu qanlı aksiya Azərbaycanda milli azadlıq hərəkatını boğmaq, xalqın inamını, iradəsini qırmaq üçün totalitar kommunist rejimi tərəfindən törədilmiş hərbi təcavüz və cinayət kimi qiymətləndirildi.

Ümummilli lider tərəfindən 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslər və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsinə xüsusi diqqət və qayğı göstərilmişdir. Hələ ötən əsrin 90-cı illərində ulu öndərin müvafiq fərmanına əsasən, “20 Yanvar şəhidi” fəxri adı təsis edilərək, 20 Yanvar şəhidlərinin ailələrinin və əlil olmuş insanların dövlət qayğısı ilə əhatə olunması üçün mühüm işlərə başlanılmışdır.

“1990-cı ilin 20 yanvarında Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda çox sayda şəhid verdi. Lakin onun iradəsi sınmadı və milli ruhu sarsılmadı. Həmin qırğın zamanı ümummilli mənafelərin müdafiəsi naminə canlarından keçmiş və şəhidlik zirvəsinə ucalmış Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifə yazdılar”, – deyən Prezident İlham Əliyev tərəfindən 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi, eyni zamanda, bu faciə ilə bağlı əlilliyi olan şəslərin sosial müdafiə sisteminin formalaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Prezident İlham Əliyevin dekabrın 31-də “20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 yanvar tarixli 350 nömrəli fərmanında dəyişiklik edilməsi barədə” imzaladığı fərmana əsasən, 1990-cı ilin yanvar faciəsi zamanı şəhid olmuş hər bir şəxsin ailəsinə təsis edilmiş aylıq “20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün məbləği 300 manatdan 500 manata qaldırılmışdır. Həmin vaxtadək bu təqaüdün məbləği 300 manat olmuşdur. Bu fərman 2021-ci il yanvarın 1-dən qüvvəyə minmişdir.

Bundan savayı, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə, cəbhədə olmaqla və ya döyüş əməliyyatları aparılan ölkələrdə beynəlmiləl borcu yerinə yetirməklə bağlı, həmçinin hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirərkən, habelə 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar sağlamlığını itirərək əlilliyi müəyyən edilmiş şəxslərin mərdlik və şücaətlərini qeyd edərək, sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədi ilə “Müharibə əlillərinə

Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 9 sentyabr tarixli 823 nömrəli fərmanında edilmiş dəyişiklikliyə əsasən. təqaüdün aylıq məbləği aşağıdakı kimi müəyyən edilmişdir:

**I qrup əlillərə - 400 manat;**
**II qrup əlillərə - 350 manat;**
**III qrup əlillərə - 300 manat**

Artımların 2021-ci il yanvarın 1-dən etibarən tətbiqinə başlanılmışdır.

Digər tərəfdən, əmək pensiyası təyin edilmiş şəhid ailəsi üzvünün hər birinə yaşa görə əmək pensiyasının baza hissəsinin 85 faizi məbləğində əlavə hesablanır. 20 Yanvar şəhidlərinin əmək pensiyası almaq hüququ olmayan ailə üzvlərinə kommunal, nəqliyyat və digər xidmətlərə görə, 20 Yanvar əlillərinin 16 yaşınadək (ümumtəhsil müəssisələrində əyani təhsil alanlar 18 yaşınadək) uşaqlarının hər birinə aylıq sosial müavinətlər də verilir.

Prezident İlham Əliyevin18 mart 2014-cü il tarixli sərəncamı ilə digər kateqoriyalardan olanlar kimi, 20 Yanvar əlilləri və şəhidlərinin də ölkənin ali və orta ixtisas təhsil müəssisələrində ödənişli təhsil alan uşaqları təhsil haqqından azad olunumuşlar.

...Bu gün Bakının ən yüksək nöqtələrindən birində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş bir ünvan var: bu, 20 Yanvar faciəsi qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər xiyabanıdır.

Hər il ölkəmizdə və xaricdə 20 Yanvar faciəsinin ildönümləri ilə bağlı silsilə anım tədbirləri keçirilir.

Sonda təəssüf hissi ilə qeyd edək ki, bu bəşəri cinayətə hələ də beynəlxalq aləmdə lazımı siyasi-hüquqi qiymət verilməmişdir. 20 Yanvar faciəsinin günahkarları: SSRİ-nin birinci və sonuncu prezidenti M.Qorbaçov, Bakıda qətliam törədən ordunun fəaliyyətinə birbaşa rəhbərliyi həyata keçirən Primakov, müdafiə naziri Yazov, Sov. İKP MK-nın katibi Girienko, Sov. İKP MK-nın millətlərarası münasibətlər şöbəsinin müdir müavini Vyaçeslav Mixaylov, Daxili işlər naziri Bakatin, habelə Ə.Vəzirov başda olmaqla Azərbaycan rəhbərliyi hələ də beynəlxalq məhkəmə qarşısına çıxarılmamışlar. Bu məqamda qeyd edək ki, sabiq SSRİ prezidenti M.Qorbaçov 1995-ci ilin aprel ayında Türkiyədə səfərdə olarkən 1990-cı il Yanvar qırğınından bəhs edərkən, "Bakıda fövqəladə vəziyyət elan etmək və oraya qoşun göndərmək mənim siyasi həyatımda ən böyük səhvim idi",-- deyərək öz günahını etiraf etmişdir. Bu etiraf heç bir halda onu məsuliyyətdən azad etmir.

Onu da qeyd edək ki, SSRİ Baş Prokurorluğunun ədliyyə polkovniki V.Medvedevin rəhbərliyi ilə təşkil etdiyi istintaq qrupu cinayət hadisələrinin araşdırılmasını cox səthi aparmış, istintaq hərbcilərin hərəkətlərində cinayət tərkibi olmaması nəticəsinə gəlmişdi. 20 iyul 1990-cı il tarixdə cinayət işinin xitam olunması barədə qərar qəbul olunmuş, cinayət işinin materialları Moskvaya aparılmışdı. Təəssuf ki, həmin vaxt Azərbaycan Respublikası Prokurorluğu torədilmiş cinayət hadisələri ilə bağlı hec bir cinayət işi başlamamışdı.

Zaman kecdikcə bir sıra həqiqətlər meydana cıxır, 20 Yanvar faciəsinin qaranlıq məqamları aydın olur. 100 cildlik istintaq materiallarının 68 cildi Bakıdan Moskvaya, kecmiş SSRİ Prokurorluğuna aparılmışdır və indiyədək qaytarılmayıb. Bir sıra sənədlərin, o cumlədən kecmiş SSRİ-nin yuksək instansiyalarında, xususən də hazırda Rusiya Federasiyası Prokurorluğunda saxlanılan 68 cildlik cinayət işinin materiallarının əldə edilməsi 20 Yanvar faciəsinin miqyasını və baiskarlarının məsuliyyət dərəcəsini tam dəqiqliklə uzə cıxara bilər.

Buna baxmayaraq, inanırıq ki, əli Azərbaycan xalqının qanına batmış bu cinayətkarlar gec-tez layiqli cəzalarını alacaqlar. Əminliyimizin ciddi əsasları vardır. Son 31-ildə ilk dəfədir ki, 20 Yanvar faciəsinin növbəti ildönümünü yeni tarixi reallıqda -- xilaskar Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında müzəffər Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində tarixi zəfərə imza atdığı bir zamanda qeyd edirik. O tarixi Qələbə ki, bütün şəhidlərimizin ruhunu şad etmişdir. O, Qələbə ki, Cəbrayılımızı, Füzulimizi, Zəngilanımızı, Qubadlımızı, Ağdamımızı, Kəlbəcərimizi, Laçınımızı, Hadrutumuzu, Suqovuşanımızı, Şuşamızı və bütövlükdə işğal altındakı bütün ərazilərimizi öz əbədi sahibinə --Azərbaycan xalqına qaytarmışdır.

Yaşasın xilaskar Ali Baş Komandanımız! Yaşasın müzəffər Ordumuz! Yaşasın qalib xalqımız! Allah şəhidlərimizə rəhmət eləsin!

**Xalq qəzeti**.- 2021.- 20 yanvar.- № 13.- S. 4.

**Tariximizin qürur və şərəf səhifəsi**

**Rəşad CƏFƏRLİ**

**31 il əvvəl - 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə baş verənlər tək faciə yox, həm də xalqımızın tarixinin şərəfli səhifələrindən biri, ictimai-siyasi təfəkkürümüzdə yaranmış təbəddülatlar günü, milli azadlıq hərəkatımızın yüksəliş zirvəsi idi. Biz 20 Yanvar hadisələri ilə özümüzü millət olaraq tanıdıq, dərk etdik. Həmin gün Bakı qırmızı rəngə boyandı, açılan 20 yanvar səhəri şəhid oğul və qızlarımızın qanından rəng aldı, xalqımızın azadlıq harayı sovet tanklarının tırtılları altında boğuldu.**

Keçmiş SSRİ rəhbərliyinin Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq məqsədi daşıyan bu cinayətkar hərəkəti nəticəsində 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda görünməmiş vəhşiliklərə yol verildi, günahsız insanlar, o cümlədən uşaqlar, qocalar, qadınlar qətlə yetirildi, yüzlərlə adam müxtəlif dərəcəli bədən xəsarəti aldı. Öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi Qorbaçov başda olmaqla cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, öz azadlığına, müstəqilliyinə can atan xalqımızın həm də mübarizliyini, məğrurluğunu nümayiş etdirdi.

Bu hadisə nəinki Azərbaycanı, bütün dünyanı lərzəyə gətirsə də, o zaman yerli hakimiyyət orqanları baş verənlərin üzərindən sükutla keçməyə üstünlük verdi, xalqın milli faciəsinə laqeyd münasibətlərini ortaya qoyaraq Kremlin qəzəbinə tuş gəlmək istəmirdilər. O ağır və faciəli günlərdə Azərbaycan xalqına qarşı soyqırımı aktının həyata keçirildiyini ilk olaraq cəsarətlə bütün dünyaya bəyan edən Ümummilli Lider Heydər Əliyev oldu. Heydər Əliyev vətəndaş qeyrəti və həqiqi vətənpərvərlikdən doğan cəsarətli bəyanatı ilə dünya azərbaycanlılarını ayağa qaldırdı, xalqın siyasi iradəsini ifadə etdi. Baş verən hadisələri hüquqa, demokratiya prinsiplərinə zidd hesab edən Heydər Əliyev yüzlərlə insanın qətlə yetirilməsini Azərbaycan xalqına qarşı cinayət adlandıraraq hadisəyə siyasi qiymət verilməsini tələb etdi.

1990-cı ilin yanvarından sonra hakimiyyətdə olan qüvvələrin bu məsələdə ilk vəzifəsi faciəni təhlil etmək, günahkarları üzə çıxarmaq və dövlət səviyyəsində siyasi-hüquqi qiymət vermək olsa da, faktiki olaraq heç bir tədbir görülmədi. 1990-cı il yanvar ayının 22-də çağırılan Azərbaycan Ali Sovetinin fövqəladə sessiyası öz işini yarımçıq qoydu və sonrakı sessiyalarda bu məsələnin müzakirəsini davam etdirmədi. Ali Sovetin yanvar hadisələrini tədqiq etmək üçün yaratdığı komissiyanın da işi başa çatdırılmamış qaldı.

1990-cı ilin iyulunda Moskvadan Vətənə qayıdan Heydər Əliyevin təşəbbüsü ilə həmin il noyabrın 21-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin qərarı ilə 20 Yanvar faciəsinə ilk dəfə siyasi-hüquqi qiymət verildi. Azərbaycan xalqının ümumi rəyini özündə təcəssüm etdirən bu qərar Heydər Əliyev qətiyyətinin təzahürü kimi tarixə düşdü. Heydər Əliyev hələ sovet imperiyasının mövcud olduğu bir dövrdə heç nədən çəkinmədən millətinin hüquqlarını müdafiə etməkdən qorxmadığını sübut etdi. Sənəddə 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməsi respublika rəhbərliyindən tələb edildi.

Ölkəmiz müstəqillik qazandıqdan sonra da 1993-cü ilə qədər iqtidarda olanların heç biri bu faciə ilə bağlı əsil həqiqəti aşkar etməyə özündə cəsarət tapmadı. Onların Yanvar hadisələrinə siyasi -hüquqi qiymət verilməsi ilə bağlı kifayət qədər vaxtları və imkanları olsa da, heç biri bunu etmədi. Baxmayaraq ki, hadisəyə siyasi-hüquqi qiymətin verilməsi istiqamətində çox iş görmək olardı. Əksinə, müxtəlif səthi qərarlar qəbul edə-edə və ya etdirə-etdirə 20 Yanvar faciəsinin müsibətlərini xalqımıza unutdurmağa çalışdılar.

Yalnız Ümummilli Lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra 1994-cü ilin 20 Yanvar hadisələrinin hüquqi müstəvidə əsil mahiyyəti onun təşəbbüsü və bilavasitə iştirakı ilə açıqlandı. 1994-cü il yanvarın 12-də keçirdiyi müşavirədə Prezident Heydər Əliyev bu barədə deyirdi: "...Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişdir. Görünür ki, ötən yaxın illərdəki sovetlər birliyi, respublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsil mahiyyətini xalqa bəyan etməmişlər".

Ulu Öndərin 20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi ilə bağlı 1994-cü il yanvarın 5-də imzaladığı fərmanda Milli Məclisə hadisəyə tam siyasi-hüquqi qiymət verməsi tövsiyə olundu. Bu qiymət xalqımızın müstəqillik yolunda çarpışmasının dolğun mənzərəsini əks etdirməli idi.1994-cü ilin mart ayının 29-da respublika parlamenti "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul etdi. Beləliklə də 20 Yanvar faciəsi məhz Heydər Əliyevin prinsipial və ardıcıl mübarizəsindən sonra öz hüquqi-siyasi qiymətini aldı.

Heydər Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsinə, onların ailələrinə dövlət qayğısının gucləndirilməsinə hər zaman böyük diqqətlə yanaşırdı. Ulu Öndər hər il yanvarın 20-də Şəhidlər xiyabanına gələrək ziyarət edir, şəhid ailələri ilə görüşür, onların qayğıları ilə maraqlanırdı. Bu gün Şəhidlər xiyabanında ucalan "Əbədi məşəl" abidə kompleksi də məhz Heydər Əliyevin təşəbbüsü ilə şəhidlərin xatirəsinə ehtiram əlaməti olaraq inşa olunub.

Ulu Öndər 31 mart 1998-ci il tarixdə "20 Yanvar Şəhidi" fəxri adının təsis edilməsi haqqında fərman imzaladı. 29 dekabr 1998-ci ildə "20 Yanvar şəhidi" fəxri adı haqqında Əsasnamə təsdiq edildi. Heydər Əliyevin 2000-ci il yanvarın 17-də imzaladığı fərmanla isə 1990-cı ilin faciəli yanvar günlərində şəhid olmuş oğul və qızlarımıza "20 Yanvar şəhidi" fəxri adı verildi.

Heydər Əliyev yolunu uğurla davam etdirən Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin uca tutulmasına, şəhid ailələrinin sosial məsələlərinin yoluna qoyulmasına xüsusi diqqət göstərir, hər il yanvarın 20-də Şəhidlər xiyabanını ziyarət edərək "Əbədi məşəl" abidə kompleksinin önünə əklil qoyur. Dövlət başçısının "20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında" sərəncamında deyilir: "1990-cı ilin 20 Yanvarında Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda çox sayda şəhid verdi. Lakin onun iradəsi sınmadı və milli ruhu sarsılmadı. Həmin qırğın zamanı ümummilli mənafelərin müdafiəsi naminə canlarından keçmiş və şəhidlik zirvəsinə ucalmış Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifə yazdılar".

Prezident İlham Əliyev 1990-cı ilin yanvarında şəhid olmuş oğul və qızlarımızın xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi üçün mühüm qərarlar verib. Dövlət başçısının 19 yanvar 2006-cı il tarixli "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" fərmanı ilə şəhid ailələrinə dövlət qayğısını artırmaq məqsədilə təqaüd verilir. Prezident İlham Əliyevin "1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 19 yanvar 2011-ci il tarixli fərmanı ilə isə bu hadisədə əlil olmuş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü verilir.

Bakının ən yüksək nöqtələrindən birində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş bir ünvan var. Bu, 20 Yanvar faciəsi qurbanlarının və Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər xiyabanıdır. Prezident İlham Əliyevin təşəbbüsü ilə Şəhidlər xiyabanında əsaslı təmir və yenidənqurma işləri aparılıb.

31 il əvvəl, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu göstərdi. Haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş vətən övladları o qanlı gündə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar. Tariximizə həm də milli qürur günü kimi düşən 1990-cı ilin 20 Yanvarında Azərbaycan xalqı azad, suveren və müstəqil yaşamağa layiq olduğunu bütün dünyaya çatdırdı.

**Azərbaycan**.- 2021.- 20 yanvar.- № 13.- S. 1,4.

## Qanlı şənbədən azadlığa uzanan yol

**Yasəmən MUSAYEVA**

1990-cı il, yanvarın 19-dan 20-nə keçən şənbə gecəsiydi...

Bakının gözlərindən al qan axırdı... O dəhşətli şənbə simsiyah gecənin zülmətiylə pərdələnmək istəsə də, topa-topa buludların arasından ay şahidlik edirdi yerdəki haqsızlığa, zülmə, günahsız, əliyalın insanlara tutulan divana... Bir də zülmə dirənc göstərən ərlərə, ərənlərə... Cismlərini fəda edərək ruhları ilə azadlıq dastanı yazanlara, əbədiyyətə qovuşanlara... Zərrələrə çevrilərək qətrə-qətrə xatirələrə, yaddaşlara, qəlblərə hopanlara...

O gün Azərbaycan xalqı yeni qəhrəmanlarına qucaq açırdı...

O gün Vətənə bağlılığın dastanı yazılırdı tarixə, azadlıq zirvəsi fəth edilirdi gözlərimiz önündə...

Tariximizə həm faciə, həm də qəhrəmanlıq salnaməsi kimi həkk olunan 1990-cı ilin Qanlı 20 Yanvarından bir qərinəlik zaman keçsə də, xalqımızın ürəyində ağrısı da, acısı da, yaşatdığı qürur, fəxarət hissi də elə ilk gündəki kimi yenidir.

Azərbaycanın müstəqilliyi, demokratik dövlət yaratmaq amalı ilə ayağa qalxmış mərd xalqının inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq, azadlıq eşqini boğmaq məqsədi ilə törədilmiş bu faciə qan yaddaşımızdır. Bu tariximizin elə bir salnaməsidir ki, hər səhifəsini vərəqlədikcə azadlıq uğrunda aparılan haqq savaşı ilə, Vətən uğrunda gözünü qırpmadan qurban olmağa hazır qəhrəmanlarla, zülmə boyun əyməyən oğulların rəşadəti ilə fəxr edirik, düşmənlərin qanlı-qadalı əməllərinə şahidlik edib bir daha qəzəb atəşi ilə alovlanırıq...

### Əliyalın insanlara qarşı qətliam törədildi

1987-ci ilin sonlarında ortaya atılmış qondarma Dağlıq Qarabağ problemi Azərbaycanın ərazi bütövlüyünün pozulmasına, torpaqlarımızın işğalına, Ermənistanda və Dağlıq Qarabağda yaşayan yüz minlərlə azərbaycanlının öz doğma yurdlarından qovulmasına yönəlmişdi. Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin ermənilərə havadarlığından hiddətlənən xalqımız azadlıq hərəkatına başlayaraq Bakının küçələrinə və meydanlarına çıxıb etirazını bildirirdi. Amma 1990-cı ilin yanvarın 20-nə keçən gecə sovet ordusu millətimizin azadlıq eşqini, haqq səsini boğmaq üçün geniş xalq kütlələrinə qarşı hərbi əməliyyatlara başladı.

Sovet ordusunun böyük heyətinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi. Həmin gün SSRİ müdafiə naziri D.Yazovun birbaşa nəzarəti altında qoşun hissələri müxtəlif istiqamətlərdən barrikadaları dağıdıb əliyalın əhaliyə ağır texnikadan və müxtəlif tipli silahlardan atəş açaraq şəhərə daxil oldular. Qeyd edək ki, Bakıda yanvarın 20-si saat 00:00-da fövqəladə vəziyyət tətbiq edilməsi üzrə imzalanmış fərman səhər saat 5:30-da radio ilə elan olunmuşdur. Həmin vaxtadək 100-dən çox dinc sakin artıq qətlə yetirilmişdi. 1990-cı ilin yanvarında Bakı və respublikanın digər yaşayış məntəqələrində sovet ordusunun təcavüzü nəticəsində 130-dan çox insan amansızcasına öldürüldü, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu, 4 nəfər itkin düşdü.

### Bu qan yerdə qalmaz...

1990-cı ilin yanvarında baş verən sovet zülmünə qarşı “Bu qan yerdə qalmaz” səsləndirən qəzəbli insan izdihamı Azadlıq meydanına axışdı. Onlar müstəqillik uğrunda şəhid olan vətən övladlarının cənazələrinin Bakının ən hündür nöqtəsində torpağa tapşırılmasını istəyirdilər...

Sovet ordusunun amansızlığına və qəddarlığına, Bakıda fövqəladə vəziyyət tətbiq edilməsinə baxmayaraq, Azərbaycan xalqı yanvarın 22-də paytaxtın Azadlıq meydanında şəhidlərin dəfni ilə əlaqədar matəm yürüşü keçirdi. Şəhidlər xiyabanındakı dəfn mərasimində 2 milyona yaxın insan iştirak edirdi.

Azadlıq mücahidlərinin sıra-sıra düzülmüş əbədiyyət məkanlarının ilk səfində isə qoşa qəbir qazıldı, azadlıq və sevgi yolunda birgə addımlayan Fərizə və İlhamın məzarı...

### Faciəyə ilk siyasi qiyməti Heydər Əliyev verdi

O zaman faciəyə ilk olaraq öz münasibətini bildirən Ümummilli Lider Heydər Əliyev oldu. Ulu Öndər qətliamdan bir gün sonra, yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək Bakıda kütləvi qırğın törətmiş SSRİ hakimiyyətini və Azərbaycanın yarıtmaz rəhbərliyini kəskin ittiham edən bəyanat verdi.

Azərbaycan rəhbərliyinə qayıdışdan sonra Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ildə Milli Məclis faciəvi 20 Yanvar hadisələrinə siyasi qiymət verdi.

Yanvar faciəsində qətlə yetirilənlərin, şəhid ailələrinin, əlillərin problemlərinin dövlət səviyyəsində həlli istiqamətində böyük tədbirlər həyata keçirilib. 2006-cı il yanvarın 19-da ölkə başçısının fərmanı ilə 20 Yanvar şəhidlərinin ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilib. 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində metronun "20 Yanvar" stansiyasının üzərindəki dairədə xatirə kompleksi yaradılıb.

1998-ci ildə Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə Şəhidlər xiyabanında "Əbədi məşəl" abidə kompleksi ucaldılıb. Kompleksin üzərində 20 Yanvar faciəsi zamanı həlak olmuş və yaralanmış insanların ad və soyadları, eləcə də Ümummilli Lider Heydər Əliyevin "1990-cı il yanvarın 20-si Azərbaycanın tarixinə ən faciəli günlərdən biri, eyni zamanda xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olmuşdur" - sözləri həkk olunub.

**Şəhidlər xiyabanından verilən müjdə**

Zaman 1990-cı ilin yanvarı...

Məkan Azərbaycan idi...

Qara dona bürünmüşdü Bakı... Parçalanmış bağrından al-qırmızıya bükülmüş şəhid tabutları süzülürdü... Beli sınmış qərənfillər axan göz yaşları ilə yollara qanlı cığır salırdı Bakının ən uca zirvəsinə sarı...

Milyonların azadlıq karvanı al dona bürünmüş haqq mücahidlərini başlarının üzərinə qaldırıb müqəddəs and yerimizə, Azərbaycanın müstəqillik simvoluna çevriləcək Şəhidlər xiyabanına doğru irəliləmişdi...

Haqsızlığa dirənc göstərərək, sinələrini zülmün topuna, gülləsinə sipər edənləri, Vətən uğrunda şəhadət şərbəti içənləri haqqın dərgahına uğurlamışdılar...

Azərbaycan xalqı elə həmin gün, o uca məqamda torpağı, azadlığı, xalqı, onun gələcəyi naminə haqq səsini ucaltmağı bacaran oğullarına, qızlarına müqəddəs bir söz də vermişdi. And içmişdi ki, uğrunda can qoyduqları bu Vətənin müstəqilliyini təmin edəcək, doğma ərazilərinə göz dikən mənfur düşmənə layiqli cavab verərək ərazi bütövlüyünü əbədiyyətədək qoruyacaq...

Və şanlı Azərbaycan əsgərinin 2020-ci ilin 27 sentyabrında başlayan 44 günlük Zəfər yürüşü düz 31 il əvvəl öhdəmizə götürdüyümüz Vətən borcunun da yerinə yetdiyi, şəhidlərimizin ruhunun şad olduğu müqəddəs anlarla tarixə həkk olundu.

Heç təsadüfi deyildi ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev Qarabağın tacı Şuşanın işğalçılardan azad edilməsi xəbərini də məhz Şəhidlər xiyabanından Azərbaycan xalqına müjdələdi: "2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox. Mən dəfələrlə demişəm, bütün bəyanatlara rəğmən ki, bu münaqişənin - Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hərbi həll yolları da vardır və bu gün biz bunu döyüş meydanında sübut edirik".

Bəli, Azərbaycan xalqı zülmə, istibdada qarşı barışmaz olduğunu 20 Yanvar gecəsində sübut etdiyi kimi, illər sonra düşməni dəmir yumruğu ilə yerinə otuzduraraq bir daha bütün dünyaya bəyan etdi.

44 günlük müharibədəki Qələbə ilə xalqımız Vətəni canından, qanından artıq sevdiyini nümayiş etdirdi. Şəhidlərin ruhu da rahatdır, çünki ugrunda canlarından keçdikləri milli haqqlarımız artıq bərqərar olub...

**Azərbaycan**.- 2021.- 20 yanvar.- № 13.- S. 1,4.

**Xalqımızın tarixində azadlıq mübarizəsinin unudulmaz səhifəsi**

**Ataş CƏBRAYILOV**

**31 ili tamam olan 20 Yanvar qırğını suverenlik və ərazi bütövlüyü uğrunda SSRİ imperiya qüvvələrinə qarşı Azərbaycan xalqının silahsız mübarizəsinin zirvəsi idi. Bu kütləvi müqavimət əslində xalqın yumruq kimi birləşməsinə, vəhdətinin daha da möhkəmlənməsinə və imperiya zəncirlərinin qırılmasına səbəb oldu. Azərbaycan Prezidenti İlham Əliyev bu günün tarixi əhəmiyyəti və mahiyyəti barədə demişdir: "20 Yanvarda sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq oluğunu bütün dünyaya nümayiş etdirdi. Azərbaycanda haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş vətən oğulları Qanlı Yanvarda xalqmızın qəhrəmanlıq səhifəsinə parlaq səhifə yazdılar".**

**Müstəqillik mücadiləsində yenilməzlik nümunəsi**

20 Yanvar tarixi hadisəsinin faciə kimi deyil, XX əsrdə dünya xalqlarının azadlıq uğrunda mücadiləsi tarixinə ən parlaq mübarizə səhifələrindən biri kimi düşmüşdür. Diqqət etsək görərik ki, elə millətlər, xalqlar, etnik qruplar olub ki, mövcudatda yerini, xidmətlərini doğru-düzgün qiymətləndirə, yəni özlərini tanıya bilmədikləri, mənəvi dəyərləri və milli şüurlarıyla tarixlərinə sahib çıxmadıqları üçün digər xalqların içərisində ya əriyiblər, ya da təcavüzkarların hücumuna, işğalına görə tarixin səhnəsindən silinіblər. Xalq öz milli mənliyini qoruyan, dərk edən, yaşadan fərdlərin toplusudur. Bu toplumu yönəldən milli şüur, milli mənliyin məhək daşı olan milli mənəviyyat irsi ötürülən qan yaddaşı onu əsrdən-əsrə, minillikdən-minilliyə keçirir, yaşadır. Azərbaycan xalqı SSRİ imperiyası daxilinə zor gücünə qatılsa da, tarixini, keçmişini, qan yaddaşını qoruyub gələcək nəsilə ötürə bilmişdir. Manna, Midiya, Alban, Arran, Atropatena dövlətlərinin tarixi, Ağqoyunlu Uzun Həsənin, Şah İsmayıl Xətainin, XX əsrdə ulu öndər Heydər Əliyevin siyasi iradəsi ilə Azərbaycan dilinin dövlət dili səviyyəsində istifadəsi, xanlıqların müstəqillik uğrunda mücadilələri, imperiyalara qarşı çarpışma səhnələrinin, milli-mədəni dəyərlərinin, ədəbiyyat nümunələrinin, xalqa çatdırılması, əxz edilməsi və s. Odlar Yurdunu ayıq-sayıq saxlayaraq öz mənliyini meydana qoymaq bacarığı verdi. Milli şüurun oyanışı imperiya qüvvələrinə qarşı mübarizədə ona güc və inam verirdi.

1990-cı il yanvarın 19-u, qışın şaxtalı, sazaqlı bir günüdür. SSRİ rəhbərliyinin Dağlıq Qarabağda baş qaldırmış separatçılıq hərəkatına birmənalı dəstəyinə, hətta erməni yaraqlılarının silahlandırılmasına, azərbaycanlıların isə əksinə tam silahsızlaşdırılmasına, paytaxtımızda və respublikanın müvafiq bölgələrində daxili qoşun hissələrinin yerləşdirilməsinə baxmayaraq, təcavüzkarların zorakılıqlarının, təxribatının, genosid siyasətinin, etnik təmizləmə aparmalarının qarşısının alınmasına qarışmamalarına göz yummalarına, baş verən sonu görünməyən vandalizm aktlarının həm İttifaq miqyasında, həm də dünya miqyasında açıqlanmasının informasiya blokadası ilə qarşısının alınmasına, qədimdən qədim ərazilərimizin açıq-aydın Mərkəzin müdaxiləsi ilə işğalına etiraz edən xalqın Azərbaycan KP MK-nın qarşısında mitinqi davam edir. Tələb eynilə qalır: imperiya Mərkəzindən asılı olan respublika rəhbərliyi istefa verməli, sovet qoşunları Bakıya girməməlidir, Qarabağda separatçılığın, qanunsuz silahlı dəstələrin azğınlığının qarşısı alınmalıdır. Mitinqin rəhbərləri ilə Mərkəzin danışıqları gedir. AXC-nin nümayəndəsi Nəcəf Nəcəfov Moskvanın rəhbərliyə Ayaz Mütəllibovu və ya V. Polyaniçkonu namizəd verdiyini deyir. Həsən Həsənovu isə daha çox milliyyətçi xarakterinə görə qəbul etmədiklərini bildirir. Nemət Pənahlı özümüzün namizədimiz var deyir. Danışıqlar dalana dirənir. Saat 19 radələrində televiziyanın enerji blokunun partladılması xəbəri gəlir. Bu artıq informasiya blokadasının yaradılması demək idi. Etibar Məmmədov ikinci katib Polyaniçkonun sovet qoşunlarının saat 24 radələrində şəhərə girəcəyini ona bildirdiyini deyir. Mitinq eliyənlərə çatdırır ki, o, belə deyib ki, adamlar barrikadanı ləğv etsinlər. Yoxsa, "Oni otkroöt şkvalğnıy oqonğ" (yəni hər gördüklərini güllələbaran edəcəklər). Lakin xalq dağılmır. Kimisi 1989-cu ildə aprelin 9-da Gürcüstanın paytaxtı Tbilisidə sovet qoşunlarının qanlı aksiyasının beynəlxalq miqyasda ciddi qınağa məruz qalmasından sonra Azərbaycanda belə addım atmayacaqlarına inamı, kimisinə də şəhidsiz torpağı geri almaq olmaz əqidəsi barrikadalarda blokadanı davam etdirməyə güc verir. Ancaq onu da demək lazımdır ki, Mərkəz xalqımızın inadını qırmaq, imperiyanın gücünü göstərmək üçün çox ciddi hazırlıq aparmışdı. 1989-cu ilin dekabr ayının sonunda Naxçıvanda İranla sərhəddə tikanlı məftildən çəpərlər sovet sərhədçilərinin bilavasitə fəal iştirakı ilə sökülmüşdü. Dərhal da Mərkəzin informasiyası, daha doğrusu dezinformasiyası ilə dünyaya sərhədi "ekstremistlərin" dağıtdığı barədə məlumatı yayıldı. 1990-cı ilin

yanvar ayının 13-14-də Bakıda, məlum olduğu kimi, KQB-nin təşkili və erməni təxribatçılarının icrası ilə erməni qırğını təşkil olundu. Paytaxtımızda 12 min daxili qoşun hissələrinin kontingenti olmasına baxmayaraq, bu aksiyaya mane olunmadı, seyrçi mövqe tutmuşdular. Paralel surətdə dekabr ayının sonundan da ermənilərin daha kütləvi şəkildə məskunlaşdıqları Krasnodar, Pyatiqorsk, Armavir və digər bölgələrdən ehtiyatda olan xeyli erməni hərbi səfərbərliyə çağırılırdılar. Beləliklə, dünyanın nəzərini həqiqətdən yayındırmaq üçün qondarma "dövlət sərhədlərinin dağıdılması", "ekstremizm", və "milli zəmində vandalizm və qırğın" aksiyası informasiyaları artıq hazır idi. Səfərbərlik haqda informasiyaları isə biz Almaniyanın "Nemetskaya volna", ABŞ-ın "Svoboda", "Azadlıq", "Qolos Franüii" və s. dünyanın kütləvi informasiya vasitələrindən öyrənirdik. Azərbaycanı gözləyən təhlükələr çox ciddi idi.

Gecə saat 12-dən keçirdi. Şaxta qılınc kimi kəsir. Soyuğa tab gətirmək üçün etirazçılar ocaq qalayıblar. Minlərlə insan blokadada iştirak edir. Bu zaman ən müəmmalısı da o idi ki, az qala iyirmiyə qədər AXC-nin aparıcı radikal rəhbərlərindən sayılan Nemət Pənahlı bu barrikadaların hər tərəfində görünür, dirənişi davam etdirməyə çağırırdı. AXC-nin digər təkamül yolumu, liberal yolumu deyək,- Əbülfəz Elçibəyin tərəfdarlarının etirazçılara xəbərdarlığı iştirakçıların sayını qətiyyən azaltmırdı. Növbəlilik də onlara əlavə ruh verir, xalqın birliyini əyani ifadə edirdi.

Qəflətən iriçaplı pulemyot və avtomat atəşləri sükutu pozdu. Yandırıcı güllələr öz qızmarlığı ilə göyün soyuq, bakirə sinəsini öz qanlı caynaqlarıyla yandırır və yırtır, əksəriyyəti də dirənişçiləri hədəfə alıb canını əlindən alır, "Vətən-vətən" deyən köksünə sancılırdı. Bu arada reproduktorla "ay azərbaycanlılar, ay qeyrəti, namusu olanlar küçəyə çıxın, Bakı qan içindədir. Oraya gedin, Tbilisi prospektinə gedin!"-, deyə haray da çəkilirdi. Görəsən, o kim idi və bu harayda məqsəd nə idi, yardıma çağırışmı, yoxsa qanlı olayı daha da dərinlətmək üçünmü? Zaman onu aşkarlayacaqmı? Lakin bunu bilirəm ki, bircə anda kimini bu səs, kimini isə eşidilən atəş, kimini vətəndaşlıq, qeyrət hissi, kimini isə blokadada iştirak edən əzizlərinin, yaxınlarının taleyi ayağa qaldırdı. Hələ də nələrin baş verdiyini kəsdirə bilməyən xalq küçəyə axışdı. İçərisində uşaq da, qoca da, cavan da, qız da, oğlan da vardı. Ən güclü atəş Tbilisi prospektində idi. Sanki güclü, istedadlı bir rejissor yüksək səviyyədə təşkil edilmiş müharibə səhnəsi çəkirdi. Tanklar, özüyeriyən toplar yolu kəsmiş yük və minik maşınlarını, müxtəlif maneələri konserv qutusu kimi bircə anda əzir, qabağına çıxan adamların hamısını gülləbaran edir, üstündən keçib gedirdi. Etirazçılar su və benzin daşıyan maşınların banlarına doldurduqları benzinin suya "döndüyünü" görəndə lap özlərini itirdilər. Tbilisi prospektindəki konsert-idman sarayının yanındakı "Salyan kazarması"ndan - Hərbi hissədən anqarlardan divarları uçuraraq tanklar və hərbçilər də barrikadalara və müxtəlif təyinatlara tərəf şığıdılar. Hər tərəfdə ağlasığmaz vəhşət yaşanırdı, rəmzi barrikadalar imperiya Mərkəzinin ağır hərbi texnikasının icra etdiyi siyasi ambisiyasının ağır tırtılları altında bir anda yox olurdu. Moskvanın, daha doğrusu M.S.Qorbaçovun SSRİ rəhbərliyinə gəldiyində tətbiq etdiyi siyasi yeniliyi aşkarlıq və yenidənqurmanın (guya demokratiya) həqiqi siması bu imiş: Ərazilərimizin Ermənistan tərəfindən işğalına rəvac vermək və bu aksiyanın daha sürətlə reallaşması üçün həm də zor tətbiq etmək. Haraya gələnlər bu dəhşətli mənzərəni görən kimi bir anlıq özlərini itirdilər, sanki yuxudaydılar. Yıxılanın qalxmadığını görən etirazçılar inilti və fəryad səslərindən, insanlardan axan, fışqıran qandan, evlərə, küçələrə, hər qaraltıya atılan güllə selindən başa düşdülər ki, bu, hər görünəni qarşısına dağ seli kimi alıb aparan dəhşətli dərəcədə qanlı və real, acı bir həqiqət, vulkan kraterindən axan qızmar lava kimi ölüm axınıdır. Ömürləri boyu ən humanist adlandırdıqları, fəxr etdikləri sovet ordusunun tanklarından, üstündəki qəribə geyimli, uzun saçlı, saqqallı əsgərlərin əllərindəki avtomatlardan, zirehli maşınlardan, ağır texnikadan atılan güllələr havaya-yerə yox, birbaşa onların ədalətsizliyin cəhənnəm odu kimi təsirindən yanan, haraylarına cavab almadıqca da parça-parça olan ürəklərinə tuşlanmışdır. Yaralıları, yerə yıxılanları qaldırmağa, kənara çəkməyə cəhd edənlər də ölümə məhkum edilmişdilər. Etirazçılar və köməyə gəlmiş hər bir adam vətən torpağı naminə ölüm püskürən bu ordunun alov saçan ağzına atılmağa hazır olsa da indi ən düzgün yolun lüzumsuz qurban getməyin qarşısının alınmasının olduğunu dərk edirdi. Hər kəs bir-birilərinə kömək edərək oradan uzaqlaşmağa çalışırdı İllərlə özünü beynəlmiləlçi, haqq-ədalət simvolu elan edən Moskvanın-Mərkəzin Qarabağda separatizmi, İrəvanın genosidlə azərbaycanlılardan təmizlənməsinə soydaşlarımızın-vətən övladlarımızın hüquqa uyğun və ədalətlə baxış tələbinə yeni, daha ağır, artıq açıq-aşkar işğalla cavabı xalqımızın milli şüurunun oyanışında son yekun mərhələsi olan azadlıq adlı məramı yazdı. Bu, təcavüz Moskvanın ədaləti yox, hansısa daha qorxulu siyasi addımlar üçün erməni terrorunu, təxribatını və işğalını dəstəkləməsinin təsdiqi idi.

Səhər 6 radələrində küçələrdə zirehli maşınlarda qoyulmuş reproduktorlardan xəbər verildi ki, SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Bakıda fövqəladə vəziyyət elan olunub. Günortadan keçmiş Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin sədri Elmira Qafarova bəyanat verərək bildirdi ki, Bakıda fövqəladə vəziyyət respublika rəhbərliyinin razılığı olmadan Konstitusiyanın pozulması ilə elan edilib.

Bunun məsuliyyəti onu tətbiq edənlərin üzərinə düşür. Şəhərin hər yerində isə pulemyot və atəş səsləri eşidilirdi. Lakin insanlar qorxu hissini itirmişdilər. Hamı küçəyə axışırdı. Tbilisi prospekti qan içində idi, onbirinci qızıl ordunun (indiki 20 Yanvar metrostansiyasının yerində) heykəlinin yanında təqribən 10-12 kvadratmetrlik qanlı gölməçə vardı. Yaşayış və bir çox inzibati binaların çoxu da gülləbaran edilmişdi. Hər bir addımdakı zorakılığın izləri, qanlı ləkələr, tək ayaqqabı, paltarlar, gödəkçələr, dağıdılmış tonqallar, tırtılların, hətta magistralın, uzaq evlərin arasındakı izləri və s. ordunun qəddar və barbarlığından, insanların necə amansızlıqla izlənməsindən xəbər verirdi. Bir neçə saat keçməmiş bütün bu izlərin üzəri Azərbaycanın azadlıq uğrunda dinc inqilabi mübarizəsinin rəmzinə çevrilən qırmızı qərənfillərlə örtüldü. Bu o demək idi ki, xalq öz mücadiləsini davam etdirəcək, şəhid və qurbanlarını zaman-zaman yaşadacaq və ədalətsizliklə heç bir zaman barışmayacaq. İnsanlar Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin qabağına axışırdılar. Lakin təxribatçılar da öz fəaliyyətlərini davam etdirirdilər. Atəş səsləri ara vermirdi. İmperiya Mərkəzi Bakıda silahlı üsyan, döyüş mənzərəsi yaratmaq və dünyaya yaymaq üçün dəridən-qabıqdan çıxırdı.

Azadlıq (o zaman Lenin) prospektindən M.Ə.Rəsulzadə (o zaman Varovski) qəsəbəsinə dönən yerdə üstünə "milisiya" yazılmış zirehli maşın, arxasınca da Qaz-66, içində də 20-dən çox əsgər gəldi. 14 mərtəbəli binanın birinci mərtəbəsində yerləşən AXC Binəqədi rayon şöbəsinə getdim. Toplaşanlardan bir nəfər odlu-alovlu çıxış edərək Binəqədi yoluyla gələn zirehli komandir maşınına hücum eləməyi və ələ keçirərək döyüşməyi təklif edirdi. Söz alıb etiraz etdim. Qüvvələri qorumağı, dinc mübarizəyə başlamağı təklif etdim. Bir zirehli maşını və ya bir neçə avtomatı əldə etməklə yüzminlik, ağır texnikalı işğal qoşununa qalib gəlməyin mümkün olmadığını, həm də bu hərəkətin Moskvaya haqq qazandıracağını dedim. Dinlədilər, razılaşdılar. Qərargahdan çıxanda zirehli transpartyorun qülləsinin mənə tərəf tuşlandığını gördüm. Ürəyimə sakit, güclü bir təmkinlik hissi hakim oldu. Bir neçə dəqiqəlik bu qarşıdurma mənə çox uzun göründü. Qərargahdan çıxanlar tərəfindən heç bir qeyri-adi hərəkətə baş vurulmadığını görən hərbçilər getdilər.

Yanvarın 22-də şəhidlərin dəfn mərasimində iştirak etmək üçün Azadlıq meydanına getdik. Öyrəndik ki, küçədə, evinin qabağında, mətbəxdə, pəncərədən baxanda, eyvanında, işə gedən, işdən gələn, harda gəldi onlarla müxtəlif milliyyətə mənsub adamlar öldürülüb. Qeyd etmək lazımdır ki, bu qəddarlıq və haqsızlıq aylarla davam etmişdir. Həmin gün ümumittifaq radiosunun "Mayak" proqramı ilə səfərbər edilib, Bakıya göndərilmiş əsgərlərə SSRİ müdafiə naziri Yazovun təşəkkür etməsi bütün dünyaya yayıldı. Bu vaxt Bakıda matəm idi. Xalq öz şəhid və qurbanlarını sovet hökuməti tərəfindən dağıdılmış S.M.Kirov adına park adlandırılmış 1918-ci ildə ermənilərin soyqırımına məruz qalmışlarının dəfn olduğu məzarlığında-Çəmbərəkənddə ana torpağın ağuşuna tapşırırdı. Yurd yeri ona can verən övladlarını bağrına basırdı! Gələcək nəslə bir örnək, bir məktəb, bir qan yaddaşı, varlığımızın təməl daşı kimi!

Azərbaycan xalqı bütün dövrlərdə olduğu kimi, öz varlığını bir daha dünyaya tanıtdı, imzasını şəhid və qurbanlarının qanı ilə tarixə yazdı. 20 Yanvarda tarix təkrar olundu, qanla yüksələn bayraq estafeti qəbul edənlərə - müstəqillik uğrunda mücadiləni davam etdirən digər döyüşçülərə verildi.

Azadlıq şəhidlərinin dəfnində milyondan artıq insanın iştirakı ilə millət bir daha qəti etirazını nümayiş etdirdi, bütün dünyaya sarsılmadığını, sınmazlığını elan etdi. Dənizdə isə Xəzər Dəniz Donanmasının heyətinin etirazı günlərlə davam etdi. Gəmilərdən efirə verilən veriliş və çağırışlar dünyanı olaylardan xəbərdar edirdi. Bir neçə gündən sonra hərbi eskadra bu mülki gəmilərə silahlı basqın etdi

**Yeni dünya düzənindən
yararlanmaq istəyən ermənilər**

Artıq məlumdur ki, ermənilər dünyanı idarə etmək, nüfuz dairələrinə bölmək istəyən böyük qüvvələrin oyunlarında daim iştirak edərək onların nəzərində zərrə görünən paylarını almaq istəyirlər, ona görə də törətdikləri qeyri-insani əməllərinə, soyqırımlarına söz deyən olmayıb. Sovet dönəmində onlar dəfələrlə Naxçıvana, Dağlıq Qarabağa rəsmən ərazi iddiası irəli sürmüşdülər. Lakin müxtəlif dövlətçilik qurumu olan çoxmillətli imperiyada onlara bu əraziləri vermək çox təhlükəli olduğu, Azərbaycan xalqı da qəti etiraz etdiyi üçün Moskva bu tələbi rədd etmişdi. Mərkəzin son dəstəkləməsinin səbəbi təbii ki, müasir yaranmış beynəlxalq və daxili şərait idi. 1970-ci illərin axırında SSRİ-də iqtisadi və mənəvi tənəzzül başladı. Xarici radiostansiyalarda səbəb kimi Əfqanıstan müharibəsi, mərhələli əvəzinə birbaşa tikintisi aparılan Baykal-Amur Magistralının maddi zərərini və dövlətin bütün təbəqələrini bürümüş rüşvətxorluq və korrupsiyanı göstərirdilər. Sovet rəhbərləri ümidverici bir dönüş yarada bilmirdilər. SSRİ iqtisadiyyatı böhran keçirirdi. Hərbi pakt olan Varşava müqaviləsinin 98 faizini də imperiya ödəyirdi, cəmi iki faizini Almaniya Demokratik Respublikası (indi AFR-lə birləşib) və Çexoslovakiya (hazırda müstəqil Çexiya və Slovakiya dövlətləri) ödəyirdi. Bu ağır

maliyyə yükü də SSRİ-ni böhrana aparırdı. NATO-da isə vəziyyət tamam başqa idi, üzv ölkələr haqq ödəyirdilər.

O zaman mövcud dünya KİV-ində dünyada yeni düzənin başlayacağı, klassik, teokratik və liberal-demokrat fəlsəfi görüşlərin öz effektini itirdiyi, beynəlxalq böhranın başlayacağı, alternativ fəlsəfi görüşlərə ehtiyac olduğu barədə informasiyalar yer alırdı. Hətta XX əsrin 70-ci illərində SSRİ Ali Sovetinin orqanı "İzvestiya" qəzetində iki məqalədə SSRİ-nin dağılacağı və yerində yeni dövlətlərin yaranacağı, onların birləşərək yeni bir ittifaq yaradacaqları, onların da NATO-ya alternativ bir hərbi pakt qura biləcəkləri barədə material da dərc olunmuşdu. M.S.Qorbaçov imperiyanın sükanı arxasına keçəndə isə özüylə Qərbdən improvizasiya etdiyi "Aşkarlıq" və "Yenidənqurma"nı gətirdi. Qərb dünyasında yüzilliklər boyu arına-arına gəlmiş, təkmilləşmiş demokratiyanın, bazar iqtisadiyyatının birdən-birə milli şüurları bir ideoloji çərçivəyə pərçimlədiyi SSRİ-də tətbiqi siyasi avantüradan başqa bir şey deyildi. Birdən-birə insanlara müxtəlif yönlü ideoloji azadlıq verilməsi yüzlərlə ideyanın, ideologiyanın yaranmasına, milli azadlıq hərəkatlarının baş qaldırmasına, müxtəlif mənfi məqsədli cərəyanların da meydana çıxmasına səbəb olmalıydı və oldu da. M.S.Qorbaçovun 1986-cı ildəki Alma-ata, 1989-cu ildə Tbilisidə, Pribaltikada daha sonra Bakıda baş verən cəzalandırma aksiyasının həqiqi siyasi hədəfləri açılmayıb. Lakin XX əsrin əvvəllərində Sovet Rusiyası Azərbaycan Demokratik Respublikasına hərbi təcavüz edərkən "proletar dahisi" V.İ. Leninin Nəriman Nərimanovun siyasi iradəsi ilə reallaşmamış bir ideyasını yada salmaq çox vacibdir. O demişdi ki, bizə Bakı və Xəzəryanı rayonlar lazımdır. Moskva ərazilərimizin qalan hissəsini Şərqi istila etmək istəyən Rusiyaya mifik "böyük Ermənistanı" bizim torpaqlarımız hesabına reallaşdıracaq, imperiyaya əməliyyat kimi verəcək ermənilərə bağışlamaq niyyətində idi. Bu yaranacaq "böyük Ermənistan" Şərqə qarşı əməliyyat meydanı-körpü olmalı idi. Bu ideyanın mərhələ-mərhələ həyata keçirilməsinin bir dəlili də ADR-dən bizə miras qalmış 114 min kvadratkilometr ərazimizin zaman-zaman hissələrinin Ermənistana verilməsi ilə 86 minə qədər azalması və 1988-ci il hadisələri ilə Moskvanın açıq və hərtərəfli dəstəyi ilə 20 faiz torpaqlarımızın Ermənistan tərəfindən işğalıdır. Kommunist ideologiyasının düşmənlərinə də bu lazım idi. SSRİ-nin dağılmasında əsas rol oynayacaq "aşkarlıq" və "yenidənqurma" ideyalarının mühüm yeri var idi bu işğalda. Bu ermənilərə də sərf edirdi. Onlar bu ideyaların pərdələri arxasında torpaq qazanmaq üçün bütün təxribatçı qüvvələrini səfərbərliyə almışdılar. Qarabağ münaqişəsi Qərbin müəyyən qüvvələrinə də SSRİ-ni dağıtmaq üçün lazım idi. Bəs milli münaqişələrə ikili standartlarla yanaşmaq Moskvaya nə verirdi? Qorbaçov SSRİ-ni iqtisadi tənəzzüldən çıxartmaq üçün dövlət sektoruna paralel sosializm iqtisadiyyatında özəl sektor yaratmaq istəyirdi. İttifaq iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası və müttəfiq respublikalarda siyasi baxımdan mərkəzə bağlı xırda muxtariyyatlar yaratmaqla milli idarəetmələri də bütünlüklə öz əlinə almaq məqsədini güdürdü. Lakin birdən-birə müttəfiq respublikalarda bir sıra xarici əlaqələrə icazə verilməsi, özəl sektorun bərqərar olunması, milli mənliyin və dərkin oyanışına səbəb ola bilərdi. Beləliklə, bu səbəbdən federativ bağların möhkəmləndirilməsi üçün müttəfiq respublikalarda muxtar qurumlarda statusu artırmaq, yenilərini yaratmaq həmin milli azlıqlara dövlətçilik qurumları verilməsi və onların ləğvinin də mərkəzin ixtiyarında olması nəzərdə tutulurdu. Ona görə də Moskva Qarabağda separatizmə və Ermənistana güclü dəstək verirdi. SSRİ-nin yeni konstitusiya layihəsində bu maddə artıq var idi. Lakin bu siyasi məqsəd baş tutmadı, SSRİ dağıldı. Azərbaycanın Qırmızı imperiyanın buxovlarından azad olmasında xalqın azadlıq mücadiləsi və onun kulminasiya nöqtəsi -20 Yanvarın çox böyük, demək olar ki, həlledici rolu oldu.

**20 Yanvara siyasi qiymət
ulu öndərin təşəbbüsü və
rəhbərliyi ilə verildi**

20 Yanvar öz tam qiymətini 1993-cü ildə ümummilli lider Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışından sonra alıb. O, 1994-cü ilin yanvar ayının 5-də bu barədə xüsusi fərman verib. Fərman iki hissədən ibarətdir. Birinci hissədə hadisənin ildönümü ilə bağlı lazımi tədbirlərin hazırlanaraq həyata keçirilməsi, ikincisi isə siyasi-hüquqi qiymətinin verilməsinə aiddir. Fərmanın icrası nəticəsində xalqımızın bu qəhrəmanlıq səhifəsi tək matəm günü kimi yox, XX əsrin tarixi qəhrəmanlıq mücadiləsi kimi həm ədəbi-bədii əsərlərdə, mədəni-kütləvi və s. tədbirlərdə özünün bədii estetik əksini tapır, həm də Azərbaycan xalqının azadlıq uğrunda mübarizəsini bütün dolğunluğu ilə bugünkü və gələcək nəsillərə çatdırır.

Ulu öndərin layiqli davamçısı olan Prezident cənab İlham Əliyev də bu kursu davam etdirərək azadlıq mücahidlərinə, şəhid olanların ailələrinə xüsusi qayğıyla yanaşır. Bu qəhrəmanlıq salnaməsinin yaşaması, nəsildən-nəslə keçməsi, millətimizin milli mənliyinin təsdiqi olduğunu göstərmək üçün bütün lazımi tədbirlər

görülür və görülməkdədir. Artıq bu gün milli və müasir üslubda yaradılan Şəhidlər xiyabanları nəinki paytaxt Bakıda, hətta respublikanın bütün rayon mərkəzlərində and yerinə dönüb.

Əsrlər ötəcək, lakin təpədən dırnağa qədər silahlı, ağır texnikayla Bakıya təcavüz etmiş imperiya qüvvələrinə qarşı Azərbaycan xalqının dəyanəti, barışmazlığı, ölümün gözünə dik baxmağı, şəhid qanıyla müstəqilliyinə nail olması nəsildən-nəslə keçəcək və hər vətən oğluna bir örnək olacaqdır. Aqillərimiz demişkən, “Torpaq, əgər uğrunda ölən varsa, VƏTƏNDİR!”

Xalqımızın işğalla, ədalətsizliklə barışmaz və yenilməz ruhu 2020-ci ildə sentyabr ayının 27-dən noyabrın 10-dək davam edən və hər gün zəfərlə müşayiət olunan 44 günlük Vətən müharibəsində bütün dünyaya nümayiş olundu. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz XXI əsrin ilk döyüş nümunəsi ilə işğal olunmuş ərazilərimizi mənfur düşməndən azad etdi və bu möhtəşəm tarixi qələbənin zəminində 20 Yanvar şəhidlərinin və xalqın kütləvi dirənişinin sarsılmaz təməli də vardır.

**Respublika**.- 2021.- 20 yanvar.- № 13.- S. 4-5.

## Azadlıq mübarizəmizin qanlı və şanlı səhifəsi

**Nazim Mustafa,**
Prezident Kitabxanasının şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru

**20 Yanvar hadisələrini bir faciə kimi təsvir etmək azdır. 20 Yanvar Azərbaycan xalqının milli azadlıq uğrunda, öz mənliyini müdafiə etmək yolunda göstərdiyi qəhrəmanlıq nümunəsidir.**

**Heydər Əliyev**
**Ümummilli lider**

Hər bir xalqın tarixindəki həm faciəli məqamlar, həm də qəhrəmanlıq səhifələri heç vaxt unudulmur, daim hamılıqla xatırlanır. Çox nadir hallarda bu iki məqam üst-üstə düşür. Azərbaycan xalqı 1990-cı ilin Qanlı Yanvarını, ümummilli lider Heydər Əliyevin vurğuladığı kimi, həm faciə, həm də qəhrəmanlıq səhifəsi kimi yaşamış və qan yaddaşına həkk etmişdir. O müdhiş gecə Azərbaycan xalqı sınağa çəkilmişdi. Həm xalqın öz içində yetişdirdiyi qəhrəmanlar üzə çıxmışdı, həm də ona başçılıq edənlərin kimliyi bəlli olmuşdu. 1990-cı il 20 Yanvar hadisələrindən 31 il keçməsinə baxmayaraq, xalqımız indiyədək bu faciənin ağrı-acısı ilə yaşayır, azadlığa gedən yolun başlanğıcına çevrilmiş bu yolda göstərilən ümummilli qeyrət, iradə və hünərlə öyünür.

20 Yanvara gedən faciəli yol bu yaxınlarda xalqımızın qələbəsi ilə başa çatmış Qarabağ münaqişəsindən başlanmışdı. Getdikcə şiddətlənib qanlı faciələrə və müharibəyə, nəticədə isə Ermənistanın Azərbaycana hərbi təzavüz edərək, ərazilərimizin 20 faizini işğal etməsinə gətirib çıxaran bu münaqişə isə erməni millətçi-separatizminin zaman-zaman xalqımıza qarşı körüklənmiş açıq-gizli fitnələrinin sovet imperiyasının çöküşü ərəfəsində yenidən baş qaldırması demək idi.

O zaman – 1987-ci ilin oktyabr ayın-da Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin vəzifədən uzaq-laşdırılmasından sonra qondarma Dağlıq Qarabağ problemi Moskvanın razılığı ilə yenidən ortaya atılmışdı. 1988-ci ilin fevralında isə Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilməsi haqqında Vilayət Xalq Deputatları So-vetinin qərar qəbul etməsi nəticə etibarı ilə Azərbaycanın ərazi bütövlüyünün pozulmasına və torpaqlarının bir qismi-nin işğalına yönəlmişdi.

Dağlıq Qarabağda baş qaldırmış erməni separatizminə o vaxtkı Kreml rəhbərliyi tərəfindən “yaşıl işıq” yandı-rılması, 1989-cu ildə SSRİ Ali Sovetinin qərarı ilə ermənipərəst Arkadi Volskinin rəhbərliyi altında DQMV-də yaradılmış Xüsusi İdarə Komitəsinin Azərbaycana qarşı qərəzli mövqeyi sayəsində muxtar vilayətin idarə-müəssisələrinin tədricən Azərbaycanın tabeçiliyindən çıxarılma-sı, azərbaycanlıların Ermənistandakı tarixi-etnik torpaqlarından tamamilə deportasiya edilməsi, Moskvanın erməni separatçılarını cəzalandırmaq əvəzinə, Azərbaycan xalqının əl-qolunu bağla-ması millətin səbir kasasını daşırmışdı. Həmin il dekabrın 1-də Ermənistan SSR Ali Sovetinin “Ermənistan SSR və Dağlıq Qarabağı birləşdirmək haqqın-da” qərar qəbul etməsi, Xankəndində Ermənistan bayrağının dalğalandırması, muxtar vilayətin idarə və müəssisələrinin bütünlüklə Azərbaycanın tabeçiliyindən çıxarılması xalqımızın etiraz dalğasını daha da alovlandırmışdı.

Xalq Cəbhəsi 1989-cu ilin son-larında, 1990-cı ilin ilk günlərində Azərbaycanın ərazi bütövlüyü uğrunda etiraz aksiyaları kimi başlayıb, getdikcə azadlıq mübarizəsinə çevrilən ümum-xalq hərəkatının önünə keçmişdi. Bu qeyri-formal qurumun çağırışları və təşkilatçılığı ilə bəzi rayonlarda hakimiyyətin ələ keçirilməsi, İranla qonşu rayonlarda sərhəd dirəklərinin və məftillərinin sökülüb atılması, hərəkatın radikal qanadının “Milli Müdafiə Şurası” adlı qurum təşkil edərək nəzarəti öz əlinə alması isə 1990-cı il yanvarın 13–15-də Dövlət Təhlükəsizliyi Komitəsinin “Sumqayıt ssenarisi” əsasında “ermənilərə hücum”u gerçəkləşdirməsinə gətirib çıxarmış, bunun ardınca Moskvanın əlinə Azərbaycan xalqını cəzalandırmaq bəhanəsi vermişdi.

Nəhayət, respublikanın milli ma-raqlara zidd addımlar atan o zamankı rəhbərlərinin istefası tələbinin irəli sürülməsinə və xalqın qətiyyətlə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə qarşı çıxmasına cavab olaraq, Azərbaycanı cəzalandırmaq üçün Kreml Qanlı Yanvar qırğınını törətmişdi.

1989-cu ilin yayından etibarən Moskvanın Bakıya əlavə qoşun hissələri göndərməsi üçün Azərbaycan KP MK-nın birinci katibi Əbdürrəhman Vəzirovun, Nazirlər Sovetinin sədri Ayaz Mütəllibovun, Azərbaycan KP MK-nın ikinci katibi Viktor Polyaniç-konun, Azərbaycan SSR daxili işlər nazi-rinin birinci müavini Viktor Barannikovun imzası ilə SSRİ hökumətinin rəhbərlərinə şifrəli telefonoqramlar göndərilmişdi. İstintaqla müəyyən edilmişdir ki, 1990-cı il yanvarın ortalarında SSRİ müdafiə və daxili işlər nazirliklərinin, habelə başqa

xüsusi təyinatlı hərbi birləşmələrin 66 min nəfərdən çox əsgər və zabiti Bakı şəhərinə gətirilərək, Qala və Nasoslu aerodromlarında, respublika stadionun-da, Salyan qışlasında yerləşdirilmişdi.

Azərbaycana göndərilən ordu hissələrinin tərkibinə Stavropoldan, Rostovdan, Krasnodardan səfərbər edilmiş erməni zabit və əsgərləri, hərbi məktəblərdə təhsil alan erməni kursant-ları da cəlb edilmişdi. Respublikaya gətirilmiş hərbi qüvvələrin, əməliyyatlara rəhbərlik etmək üçün Bakıya gələn 300-dən artıq yüksək rütbəli zabit və generalın ərzaq təminatı, nəqliyyatla, yanacaqla təmin edilməsi respublika büdcəsindən ödənilmişdi.

15 yanvar 1990-cı ildə Mərkəzi Komitənin birinci katibi Ə.Vəzirov Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin üzvlərinin xəbəri olmadan Azərbaycana əlavə qoşun hissələri göndərilməsi haqqında saxta qərarı Moskvaya göndərmiş, elə həmin gün SSRİ Ali Sovetinin sədri Mixail Qorba-çov DQMV-də və bəzi başqa rayon-larda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzalamış, həmin fərmanın 7-ci bəndində Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinə Bakı və Gəncə şəhərində və digər yaşayış məntəqələrində qadağan saatı tətbiq edilməsi də daxil olmaqla hər cür lazımi tədbirlər görmək təklif edilmişdi.

Yanvarın 16-da Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, SSRİ Ali So-veti İttifaq Sovetinin sədri Y.M.Primakov, Sov.İKP MK katibi A.N.Girenko, SSRİ Nazirlər Soveti sədrinin müavini V.X.Doqujiyev Bakıya gəlmişlər. Həmin gündən etibarən faktiki olaraq Ə.Vəzirov vəzifəsindən kənarlaşdırılmışdı. Respub-likanı Moskvadan gələn emissarlar idarə etmişdilər. Yanvarın 18-də Ə.Vəzirov gizlicə Moskvaya qaçmışdı.

Yanvarın 17-də Azərbaycan KP MK-nın binası qarşısında izdi-hamlı mitinq başlanmış və ümumi tətil elan olunmuşdu. Tələb edilmişdi ki, Ermənistanın Azərbaycana ərazi iddialarına son qoyulsun, imperiyanın Bakı ətrafına yığdığı qoşunlar Dağ-lıq Qarabağa və Ermənistan tərəfdən hücuma məruz qalan sərhəd bölgələrinə göndərilsin.

SSRİ Ali Sovetinin Rəyasət Heyəti yuxarıda qeyd olunan fərmanın ziddinə olaraq 1990-cı il yanvarın 19-da Azərbaycan SSR Ali Sovetinin hüquqi qüvvəsi olmayan 15 yanvar tarixli saxta qərarına əsasə, yanvarın 20-də saat 00-dan etibarən "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haq-qında" fərman qəbul etmişdi. Müəyyən edilmişdir ki, bu fərmanı imzalamaq-la, SSRİ-nin rəhbəri M.Qorbaçov beynəlxalq hüquq normalarını, İttifaq Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozmuşdu.

Yanvarın 19-da SSRİ Dövlət Təhlükəsizlik Komitəsi "Alfa" qrupunun və respublika DTK-sı rəhbərliyinin təşkil ediyi əməliyyat nəticəsində Azərbaycan televiziyasının enerji bloku partladıl-mışdı ki, Bakıda fövqəladə vəziyyət elan edilməsi və qoşunun şəhərə girməsi barədə əhaliyə rəsmi məlumat çatdırılmasın. Halbuki, həmin vaxt 26 yerdə piketlər, barrikadalar qurulmuş, şəhərdəki 60 qoşun hissəsindən 34-nün, o cümlədən Salyan qışlasının giriş-çıxış yolları kəsilmişdi. Xalq Cəbhəsinin liberal qanadının təmsilçiləri əhaliyə dağılmağı, radikal qanadının fəalları isə müqavimət göstərməyi məsləhət görmüşdü.

Fövqəladə vəziyyətin yanvarın 20-də saat 00-da tətbiq edilməsinə baxmaya-raq, qoşun hissələri yanvarın 19-da saat 21-dən etibarən, birinci olaraq, Türkan--Qala tərəfdən şəhərə yeridilmişdi. "Bakı əməliyyatı"na rəhbərliyi birbaşa SSRİ müdafiə naziri Dimitri Yazov, SSRİ daxili işlər naziri Vadim Bakatin, SSRİ DTK sədrinin müavini Filip Babkov həyata keçirmişdilər.

Bakı qarnizonunun qoşunları, gətirilən bölmələr, hərbi gəmilərdən çıxarılan desant qrupları şəhər üzərinə hücuma keçmişdi. Ağır hərbi texnika çox asanlıqla barrikadaları dağıtmışdı. Şəhərin küçələri güllələnmiş və yara-lanmış günahsız adamların– qocala-rın, qadınların, uşaqların qanına qərq olmuşdu. Hərbçilər təsadüfən küçəyə çıxanları, yaşayış evlərini, təcili yardım maşınlarını atəşə tutmuş, yaralıları öldürmüş, meyitləri yandırmış, təhqir etmiş, eybəcər hala salmışdılar. Adam-ları ağır hərbi texnikanın tırtılları altına salmış, əzabla öldürmüşdülər.

Bakıya yeridilən qoşun kontingen-ti qapalı düşərgələrdə saxlanılmışdı. Onlarla əhali ilə ünsiyyətdə olmağa imkan verilməmişdi ki, xalqın əliyalın olmasından xəbərdar olsunlar. Bakıya yeridilən əsgər və zabitlərə demişdilər ki, "islam fundamentalistləri", "pantürkistlər" Azərbaycanda sovet hakimiyyətini ələ keçiriblər, ona görə də onları məhv etmək və Sovet hakimiyyətini yenidən bərqərar etmək lazımdır. Məhz azərbaycanlılara qarşı nifrət hissi ilə köklənən, spirtli içkilər vasitəsilə qızış-dırılaraq şəhərə hücum edən əsgər və zabitlər qadınlara, qocalara, uşaq-lara, hətta təcili yardım maşınlarının sürücülərinə və həkimlərə fərq qoyma-dan atəş açmış, onları vəhşicəsinə qətlə yetirmişdilər. Tanklar və zirehli maşınlar içərisində insanlarlar olan minik maşın-larını əzib keçmişdilər. Xəstəxanaların işıqlarını kəsmişdilər ki, yaralılara tibbi yardım göstərmək mümkün olmasın.

Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışdılar. "Mülki və siyasi hüquqlar haqqında" 1966-cı il Beynəlxalq Aktın

birinci bəndinə əsasən, fərman imzalandığı andan fövqəladə vəziyyətin tətbiqi və müddətləri barədə Bakı şəhərinin əhalisinə rəsmi xəbərdarlıq edilməli idi. Lakin buna qəsdən əməl olunmamışdı. Kütləvi insan qırğını törədildikdən sonra– yəni 20 yanvar 1990-cı il səhər saat 5.30-da radio vasitəsilə Bakı şəhər komendantı V.Dubinyak fövqəladə vəziyyət tətbiq edildiyi barədə rəsmi məlumatı efirə vermişdi. Halbuki, yanvarın 20-də saat 00-dan başlanmış hərbi əməliyyatlarda tanklardan və müxtəlif təyinatlı zirehli döyüş maşınlarından istifadə edilmiş, Xəzər Hərbi Donanmasına məxsus gəmilərdən şəhərə desant çıxarılmışdı. Azərbaycan xalqına qarşı törədilmiş bu təcavüz aktı mərhələ-mərhələ həyata keçirilmiş, şəhərdə qarətlərlə nəticələnən təxribatlar törədilmişdi.

Fövqəladə vəziyyət elan edildikdən sonra da – yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində daha 57 nəfər öldürülmüşdü. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda– yanvarın 25-də Neftçalada 2 nəfər və yanvarın 26-da Lənkəranda 6 nəfər qətlə yetirilmişdi.

Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və respublikanın rayonlarında 150 nəfər öldürülmüş, 744 nəfər yaralanmışdı. 841 nəfər qanunsuz həbs olunmuş, onlardan 112 nəfəri SSRİ-nin müxtəlif şəhərlərinə aparılaraq həbsxanalarda saxlanılmışdı. Hərbi qulluqçular 200 evi və mənzili da-ğıtmış, 80 avtomaşını, o cümlədən, təcili yardım maşınlarını əzmişdi. Yandırıcı güllələrin törətdiyi yanğınlar nəticəsində külli miqdarda dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdi. Dövlət, ictimai və şəxsi əmlaka həmin dövrün qiymətləri ilə 5 milyon 637 min 286 rubl miqdarında maddi ziyan vurulmuşdu.

Faciənin miqyası o dövrdə Rusi-yada fəaliyyət göstərən “Şit” ictimai təşkilatının ekspertlərinin hesabatında daha dəqiqliklə ifadə edilmişdi:

– adamları xüsusi qəddarlıqla və yaxın məsafədən güllələmişlər. Məsələn, R.Rüstəmova 23, Y.Meyeroviçə 21, D.Xanməmmədova 10-dan çox güllə vurulmuşdur;

– xəstəxanalar, “təcili yardım” ma-şınları atəşə tutulmuş, həkimlər öldürül-müşdür;

– içərisində sərnişinlər, o cümlədən, uşaqlar olan 39 nömrəli "İkarus" markalı marşrut avtobusu gülləyə tutulmuşdur;

– adamlar süngü-bıçaqla qətlə yetirilmişlər. Onların arasında hər iki gözü tutulmuş B.Yefimtsev də var;

– “Kalaşnikov” avtomatı ilə ağır-lıq mərkəzi dəyişən 5,45 mm çaplı güllələrindən istifadə edilmişdir.

Xalqa qarşı sovet ordusunun qanlı cinayətləri isə hələ bitmək bilməmişdi. Qanlı qırğına etirazını bildirmək üçün Bakı buxtasına gəlmiş “Xəzərneftdonanması”nın gəmiləri hərbi gəmilər tərəfindən mühasirəyə alına-raq güllələbaran edilmiş, onlarla dənizçi həbs olunmuşdu. “Sabit Orucov” gəmisi “SOS!” siqnalı ilə bütün dünyaya faciə barədə məlumat vermişdi. Şəhərə dənizdən hücumun qarşısını almaq üçün Azərbaycan dənizçiləri həyatlarını riskə qoyaraq bütün gəmiləri Bakı buxtasına yığmışdılar. Yanvarın 21-də saat 20.30 dəqiqədə iki hərbi gəminin və iki katerin müşayiəti ilə naməlum yük aparılması haqqında məlumat alan dənizçilər silahlı quldurlarla əliyalın qeyri-bərabər mübarizəyə girişmişdilər. Sovet hərbi gəmilərindən açılan atəş nəticəsində “Neftqaz-18”, “Neftqaz-64”, “Aktau”, “Şirvan-2”, “Çeleken-1”, “At-let-21” , “Vodoley-4” gəmiləri ciddi surətdə zədələnmişdi. Qanlı Yanvardan sonra başlanmış kütləvi repressiyalara qəhrəman dənizçilər də məruz qalmış-dılar.

Qabaqcadan düşünülüb hazırlanmış bu təcavüzkarlıq aksiyası Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq, xalqı təhqir edərək ona mənəvi zərbə vur-maq məqsədi daşımışdı. Faktiki olaraq 1920-ci ilin aprelində bolşevik qoşun-larının Bakını işğal etməsindən 70 il sonra sovet qoşunu Bakını yenidən işğal etmişdi. Azərbaycana qoşun yeridilməsi sovet imperiyasının süqutunu sürətləndirmişdi. Ona görə də SSRİ-nin parçalanmasını istəyən xarici dövlətlərin əksəriyyəti M.Qorbaçovun bu addımını dəstəkləmişdilər. Bəzi xarici mətbuat orqanlarında 20 Yanvar qırğınları “Sovet hökumətinin üsyançı bölgədə qayda-qanun yaradılması üçün atdığı zəruri addım” kimi qiymətləndirilmişdi.

Lakin bütün bunlar nəinki Azərbaycan xalqının gözünü qorxutdu, əksinə onun sovet imperiyasına qarşı nifrətini qat-qat artırdı. Xalq avtomat süngülərinin, tank lülələrinin ona tuşlanmasından qorxma-yıb öz şəhidlərini küçə və meydanlardan topladı. Topun-tüfəngin hər küçədə, hər tində qoyulmasına, fövqəladə vəziyyət rejiminə baxmayaraq, yanvarın 22-də xalq öz şəhidlərini “Azadlıq” meydanın-dan son mənzilə – Şəhidlər xiyabanına misilsiz bir izdihamla yola saldı. Dünya-nın heç bir ölkəsində şəhidlərimizin dəfn mərasimindəki kimi ümumxalq hüznünə təsadüf edilməyib. Azərbaycan xalqı 40 gün matəm saxladı. Xalq aclığa döz-dü, lakin etiraz əlaməti olaraq 40 gün işləməyib tətil etdi.

20 Yanvar qırğınlarından sonra xalq vahimə və dirəniş içində idi. O, qanına bələnmiş, alçaldılmış, təhqir olunmuşdu. Yanvarın 21-də xalqımızın böyük oğlu, Moskvada ümumittifaq fərdi təqaüdündə olan Heydər Əliyev ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək burada təşkil olunmuş izdihamlı yığıncaqda çıxış etdi. Ümummilli lider bu ağır günlərdə xalq-la həmrəy olduğunu bildirdi.

Ulu öndər Heydər Əliyev bəyanat verərək əliyalın xalqın qırılmasını hüquqa, demokratiya-ya, humanizmə zidd, Moskvanın və res-publika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi.

Bütün dünya yanvarın 20-də Bakıda törədilmiş dəhşətli qırğından xəbər tutdu. Lakin SSRİ rəhbərliyi sovet qoşunları-nın Bakıya hərbi müdaxiləsinə bəraət qazandırmağa çalışır, guya, islam fundamentalistlərinin Azərbaycanda hakimiyyəti ələ keçirməyə çalışdıq-ları haqda xarici kütləvi informasiya vasitələrinə yalan informasiyalar göndərirdi. Bütün bunlara baxmaya-raq, bu qanlı təcavüz dünyanın bir sıra ölkələrində etirazla qarşılandı, qardaş Türkiyənin bir sıra şəhərlərində etiraz aksiyaları və mitinqlər keçirildi.

Xalqın tələbi və bir qrup deputatın təşəbbüsü ilə 1990-cı il yanvarın 22-də çağırılan Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyasında respublikanın əksər siyasi və dövlət rəhbərləri işti-rak etmədilər. Sessiyaya respublika rəhbərlərinin gəlməmələri onların xalqın taleyinə biganə qaldıqlarını, yaxud törədilmiş cinayətdə bu və ya digər dərəcədə iştirak etdiklərini və qorxduq-larını göstərirdi. Fövqəladə sessiya Bakı şəhərində törədilmiş faciəli hadisələrin təhqiqi üçün deputat-istintaq komissiyası yaradılması barədə qərar qəbul etdi.

Lakin komissiya hadisəyə hüquqi-siyasi qiymət vermək əvəzinə, ölənlər və yaralananlar, dövlətə və ictimai təşkilatlara, vətəndaşlara vurulan ziyan haqqında informasiya xarakterli məlumatlar toplamaqla işini bitirmiş-di. Bu komissiya öz rəyini faciənin törədilməsində iki il sonra – 1992-ci ildə SSRİ dövləti süqut etdikdən sonra Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurasına təqdim etmişdi. Milli Şura isə 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət vermək əvəzinə, deputat-istintaq komissiyasının rəyini qənaətbəxş hesab edib, onu təsdiq etməklə kifayətlənmişdi.

1990-cı il yanvarın 24-dən 25-nə keçən gecə Azərbaycan KP MK-nın təşkilati məsələyə həsr olunmuş plenu-mu keçirilmişdi. Plenumda gündəliyə respublikada siyasi vəziyyətlə əlaqədar məsələ salınmış, Bakı şəhərində fövqəladə vəziyyətin tətbiqinin səbəblərini təhqiq etmək üçün komis-siya yaradılmışdı. Lakin respublika kommunistlərinin ali orqanı faciəyə siyasi qiymət verməmiş, ümumiyyətlə, heç bir bəyanatla çıxış etməmişdi.

SSRİ Baş Prokurorluğunun ədliyyə polkovniki V.Medvedyevin rəhbərliyi ilə təşkil etdiyi istintaq qrupu cinayət hadisələrinin araşdırılmasını çox səthi aparmış, istintaq hərbçilərin hərəkətlərində “cinayət tərkibi olmama-sı” nəticəsinə gəlmişdi. 20 iyul 1990-cı il tarixdə cinayət işinin xitam olunması barədə qərar qəbul olunmuş, materiallar Moskvaya aparılmışdı. Təəssüf ki, həmin vaxt Azərbaycan Respublikası Prokurorluğu törədilmiş cinayət hadisələri ilə bağlı heç bir cinayət işi başlamamışdı.

Zaman keçdikcə bir sıra həqiqətlər meydana çıxır, 20 Yanvar faciəsinin qa-ranlıq məqamları aydın olur. 100 cildlik istintaq materiallarının 68 cildi Bakıdan Moskvaya, keçmiş SSRİ Prokurorluğuna aparılmış və indiyədək qaytarılmamışdır. Bir sıra sənədlərin, o cümlədən, keç-miş SSRİ-nin yüksək instansiyalarında, xüsusən də hazırda Rusiya Federa-siyası Prokurorluğunda saxlanılan 68 cildlik cinayət işinin materiallarının əldə edilməsi 20 Yanvar faciəsinin miqyasını və baiskarlarının məsuliyyət dərəcəsini tam dəqiqliklə üzə çıxara bilər.

Qanlı Yanvar qırğını həm də rus şovinistlərinin ermənilərlə ilə birgə apar-dıqları antiazərbaycan siyasətinin, tərkib hissəsi idi. Lakin imperiya cəlladları qanlı əməlləri ilə Azərbaycan xalqının iradəsini qıra bilmədilər. Qanlı Yanvar milli azadlıq hərəkatının daha da yüksəlməsinə və nəticədə Azərbaycanın yenidən müstəqilliyə qovuşmasına gətirib çıxardı.

20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verilməsi məsələsi ümummilli lider Heydər Əliyevin sayəsində həllini tapmışdır. Azərbaycan Respublikası Prezidentinin “20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında” 1994-cü il 5 yanvar tarixli Fərmanında Azərbaycan Respublikasının Milli Məclisinə Qanlı Yanvar hadisələri ilə bağlı xüsusi sessiyanın keçirilməsi məsələsinə baxmaq tövsiyə edildi. 1994-cü ilin fevral ayında Milli Məclisin xüsusi sessiyası keçirildi. Sessiya 1990-cı il yanvarın 20-də sovet silahlı qüvvələrinin Bakı şəhərinə və respubli-kanın bir neçə rayonuna yeridilməsini, nəticədə, haqq və ədalətin müdafiəsi naminə küçələrə çıxmış silahsız adam-ların qəddarcasına qətlə yetirilməsini Azərbaycan xalqına qarşı totalitar kom-munist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirdi.

Qəbul edilmiş qərarda Xalq hərəkatını boğmaq üçün 20 Yanvar faciəsini təşkil etmiş sovet İttifaqı Kommunist Partiyası, sovet dövləti və hökuməti rəhbərliyinin, o cümlədən, şəxsən Mixail Qorbaçovun Azərbaycan xalqına qarşı ağır cinayət törətdiyi bildi-rildi. Eyni zamanda, xalqa qarşı törədilən hərbi təcavüzə görə məsuliyyətin o dövrdəki respublika rəhbərliyinin (Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov, Viktor Polyaniçko, Vaqif Hüseynov) üzərinə düşdüyü və onların Azərbaycan xalqına xəyanət etdikləri qeyd olundu.

Azərbaycan Respublikasının Prezi-denti “20 Yanvar şəhidi” fəxri adının təsis edilməsi haqqında 31 mart 1998-ci il tarixdə fərman imzalamışdır. 29 dekabr 1998-ci ildə “20 Yanvar şəhidi” fəxri adi haqqında Əsasnamə

təsdiq edilmişdir. 1990-cı il yanvarın 20-də keçmiş SSRİ silahlı qüvvələrinin Bakıya və respubli-kanın bir neçə rayonuna hərbi təcavüzü zamanı həlak olmuş 150 nəfərə “20 Yanvar şəhidi” fəxri adı verilmişdir.

Azərbaycan Prezidentinin 18 mart 2014-cü il tarixli sərəncamı ilə 20 Yanvar əlilləri və şəhidlərinin respublikanın ali və orta ixtisas təhsil müəssisələrində ödənişli təhsil alan övladları təhsil haqqından azad olunmuşlar. 20 Yan-var hadisələrində şəhid olanların, itkin düşənlərin ailələrinə və əlil olan şəxslərə Prezident təqaüdü verilir, onların ailələri dövlət büdcəsi hesabına mənzillə təmin edilir, əlillər isə avtomobillə təmin edilir. Hər il 20 Yanvar hadisələrində şəhid olanların, itkin düşənlərin ailələrinə və əlil olan şəxslərə birdəfəlik dövlət yardı-mı edilir.

1990-cı ilin Qanlı Yanvar hadisəsi Azərbaycan xalqı üçün təkcə böyük faciə deyildir. O, ləyaqətini qorumaq üçün hər cür qurban verməyə hazır olan xalqın tarixində şərəfli bir səhifədir. 20 Yanvar faciəsi, eyni zamanda həm ümumxalq faciəsi, həm də müstəqillik, istiqlal və hürriyyət uğrunda xalqımızın apardığı milli azadlıq hərəkatının zirvəsi kimi Azərbaycan tarixinə həkk olunmuşdur.

Ümummilli lider Heydər Əliyevin söylədiyi kimi, bu təcavüz xalqımızı mənəvi cəhətdən çox sarsıtsa da, itkilərə məruz qoysa da, onun mənliyini tapda-laya bilmədi, qürurunu sındıra bilmədi, qəhrəmanlıq salnaməsinə yeni bir səhifə kimi yazıldı. Tariximizin 20 Yanvar səhifəsi qanlı imperiyanın süngüsü ilə açılsa da, şəhidlərimizin qanı ilə yazıl-mışdır – hünərlə və əbədi!

20 Yanvar faciəsi Azərbaycanı müstəqilliyə aparan yolda yeni mərhələnin başlanğıc nöqtəsi oldu. Bir il 9 aydan sonra xalqımız yenidən dövlət müstəqilliyinə qovuşdu. Bu qanlı faciədən ötən müddət ərzində hər il yan-varın 20-də Şəhidlər xiyabanını ziyarətə gələn yüz minlərlə həmvətənimiz azad-lığımız uğrunda şəhid olmuş soydaşla-rımızın məzarı qarşısında baş əyərək, onların xatirəsini əziz tuturlar.

Hər il yanvarın 20-də Ümumxalq Hüzn Günündə Bakı vaxtı ilə saat 12:00-da Azərbaycanın bütün ərazisində 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunur, gəmilərdən, avtomobillərdən və qatarlardan səs siq-nalları verilir, hüzn əlaməti olaraq dövlət bayraqları endirilir.

Azərbaycan dövlətinin 2020-ci ilin payızında Prezident, Ali Baş Koman-dan İlham Əliyevin rəhbərliyi altında Ermənistan tərəfindən işğal edilmiş ərazilərinin azad edilməsi uğrunda apardığı Vətən müharibəsi – Azərbaycan Ordusunun Qarabağda 44 günlük zəfər yürüşü xalqımızın parlaq qələbəsi ilə nəticələndi. Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda canlarını fəda edən şəhidlərimizin qanı ilə qazanılmış bu zəfər ilə 20 Yanvar şəhidlərinin də ruhları şaddır.

**Xalq qəzeti.** - 2021.- 20 yanvar. - № 13. - S. 7.

**20 Yanvar faciəsinin tarixi dərsləri**

**Leyla RƏŞİD**

**XX yüzillik Azərbaycan xalqının taleyinə, tarixinə ən qanlı hadisələrlə, faciələrlə, misli görünməmiş soyqırımlarla yanaşı, müstəqillik və azadlıq uğrunda mübarizə, hünər və qəhrəmanlıq, milli oyanış və özünüdərk əsri kimi də daxil olub. 1918-ci ildə Azərbaycanın, ümumən, müsəlman Şərqinin tarixində ilk demokratik, parlamentli respublika - Azərbaycan Xalq Cümhuriyyəti yaradılmış və iyirmi üç ay fəaliyyət göstərmişdir.**

Yetmiş dörd ildən sonra sükut buzu əridi. Azərbaycan Xalq Cümhuriyyətinin uzun illər xalqdan gizli saxlanılmış tarixi, fəaliyyəti, rolu haqqında söz açıldı. Azərbaycan milli azadlıq hərəkatı xalqımızın milli şüurunun inkişafında böyük rol oynadı. Lakin tarixi ədalətsizliyi aradan qaldırıb istiqlalına qovuşmaq istəyən xalqı sovet imperiyası müstəqil görmək istəmirdi. XX yüzilliyin sonlarında müstəqilliyimizin bərpasına aparan yol 1990-cı ilin 20 Yanvarından keçdi. Həmin gün öz konstitusion hüquqları, ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış xalqımız sovet ordusunun zirehli tankları, xüsusi təyinatlı hərbi dəstələri ilə üzləşdi.

Sovet ordusunun Azərbaycana təcavüzü, mülki əhalinin kütləvi surətdə vəhşicəsinə güllələbaran edilməsi SSRİ rəhbərliyinin beynəlmiləlçilik adı ilə pərdələdiy siyasətin əsl mahiyyəti idi. Xalqımız Ermənistanda yaşayan soydaşlarımızın öz ata-baba yurdlarından zorakılıqla qovulmasının və Dağlıq Qarabağın Ermənistanın tərkibinə qatılmasının qarşısının alınmasını tələb edirdi. Moskva bu haqlı tələbə misli görünməmiş qəddarlıqla cavab verdi. “Şit” təşkilatının müstəqil ekspertləri tərəfindən hazırlanmış hesabat, ölənlər, yaralananlar və qanunsuz həbs olunanlarla bağlı statistika 20 Yanvar faciəsinin miqyasını, sovet ordusunun, xüsusi təyinatlı dəstələrin və daxili qoşunların iri kontingentinin Azərbaycan paytaxtını xüsusi qəddarlıqla zəbt etməsini göstərir.

Qan yaddaşımıza böyük faciə və qəhrəmanlıq kimi həkk olunan 20 Yanvar müstəqillik əzmimizi, milli kimliyimizi dünyaya tanıdan gün kimi tarixin şanlı səhifəsinə çevrildi. Bu tarix Azərbaycanın istiqlalı yolunda milli məfkurəmizdən güc alan qarşısıalınmaz azadlıq istəyinin dünyaya bəyan edilməsinin başlanğıcı oldu. 20 Yanvar qırğını həm də sovet rejiminin ermənilərlə birgə apardığı anti-Azərbaycan siyasətinin tərkib hissəsi kimi qiymətləndirilməlidir. Qabaqcadan düşünülüb hazırlanmış bu təcavüzkarlıq Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mubarizəsini boğmaq, ona mənəvi zərbə vurmaq məqsədi daşıyıb. Lakin sovet imperiyası insanlıq adına sığmayan əməlləri ilə Azərbaycan xalqının iradəsini qıra bilmədi. Şəhidlərin son mənzilə yola salınması Azərbaycanda ümummilli həmrəyliyin ifadəsi oldu. Bu izdiham, hüzn birliyi sonrakı illərin anım günlərində də davam edərək, xalqımızın milli həmrəyliyinin formalaşmasında və möhkəmlənməsində mühüm rol oynadı.

Zaman keçdikcə Qanlı Yanvar hadisələrinə müxtəlif aspektlərdən yanaşılır: xalqımız 20 Yanvarı təkcə hüzn günü kimi deyil, eyni zamanda, milli qürur və qəhrəmanlıq günü kimi anır. Faciənin təhlili, hadisənin səbəblərinin araşdırılması onun tarixi, siyasi, hüquqi amillərini aşkara çıxarır. Hadisənin əsas səbəbləri tarixi amillərlə bağlıdır və daha dərin kökləri var. 20 Yanvar faciəsi XX əsr Azərbaycan tarixində baş vermiş qanlı hadisələrin, soyqırımı aktlarının məntiqi davamı, çar Rusiyasının “parçala-hökm sür” siyasətinin növbəti təzahürü idi. Azərbaycan xalqına qarşı soyqırımlar, torpaqlarımızın 114 min kvadratkilometrdən 86,4 min kvadratkilometrədək azalması, SSRİ dövründə soydaşlarımızın indi Ermənistan adlandırılan ərazidəki əzəli, ata-baba yurdlarından son nəfərinədək qovulması, sovet rəhbərliyinin havadarlığı ilə başlayan Dağlıq Qarabağ hadisələri, torpaqlarımızın iyirmi faizinin işğalı bu məkrli siyasətin mərhələləridir.

1980-ci illərin sonlarında cərəyan edən hadisələrin xarakteri, obyektiv və subyektiv səbəblərinin təhlili göstərir ki, xalqımızın o vaxt SSRİ-də gedən proseslərə real təsir etmək imkanı olan lideri Heydər Əliyevin siyasi səhnədən uzaqlaşdırılmasından sonra M. Qorbaçovun müşaviri A. Aqanbekyanın Parisdə “Humanite” qəzetinə müsahibəsində “Dağlıq Qarabağın Ermənistanın tərkibinə verilməsi zəruriliyindən və bu məsələyə M.Qorbaçovun razılıq verməsindən” danışması etnik münaqişənin yaxınlaşdığına bir siqnal olmuşdu. 20 Yanvara gedən yol ermənilərin Dağlıq Qarabağa əsassız ərazi iddiaları ilə başlanmışdır. 1987- ci ildə Qarabağda yaradılmış “Krunk” radikal – separatçı erməni təşkilatının Xankəndidə keçirdiyi ilk anti-Azərbaycan mitinqləri də baş verəcək faciələrin ilk qığılcımları idi.

1988-ci ildə Dağlıq Qarabağda baş qaldırmış erməni separatizminə Kreml rəhbərliyinin rəvac verməsi, 1989-cu ildə SSRİ Ali Sovetinin qərarı ilə DQMVdə yaradılmış Xüsusi İdarəçilik Komitəsinin Azərbaycana qarşı qərəzli mövqeyi sayəsində muxtar vilayətin idarə və müəssisələrinin tədricən Azərbaycanın tabeçiliyindən

çıxarılması, vilayət ərazisində soydaşlarımıza divan tutulması, çeşidli təxribatların törədilməsi kimi hadisələrin xronologiyasından aydın olur ki, 20 Yanvar faciəsi Bakıda dinc əhalinin ağır hərbi texnikanın köməyi ilə vəhşicəsinə qətliamı ssenarisinin qanlı sonluğudur.

Mixail Qorbaçov özünün ən yaxın ətrafı ilə birlikdə, bir tərəfdən, ermənilərin ərazi iddialarının təmin olunması üçün, digər tərəfdən, bu qanlı faciə ilə digər müttəfiq respublikalara da dərs vermək niyyətində idi. Təəssüf ki, 1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-ə birləşdirilməsi haqqında antikonstitusion akt qəbul etdikdə Moskva buna qarşı heç bir tədbir görmədi.

Mərkəzi Komitənin sovet imperiyasını, kommunist sistemini nəyin bahasına olursaolsun qoruyub saxlamaq, milli respublikalarda hakimiyyəti və oyuncaq rejimləri möhkəmlətmək Azərbaycan xalqı barəsində qərəzli siyasət, yenidənqurma adı altında sərhədləri dəyişdirmək və xüsusən Azərbaycanın ərazi bütövlüyünü pozmaq cəhdləri keçmiş mərkəzin mənəvi, siyasi, maliyyə və hərbi-iqtisadi yardımına əsaslanan erməni separatizminin fəaliyyəti üçün əlverişli şərait yaradırdı.

Faciənin hüquqi təhlili onun cinayət xarakterini aşkar edir. 1990-cı il yanvarın 20-də Azərbaycan paytaxtına və respublikanın bir sıra rayonlarına sovet ordusu hissələrinin qanunsuz yeridilməsi, dinc əhalinin qırılması totalitar rejimin törətdiyi ən qanlı aktlardan biri, bütün bəşəriyyətə qarşı yönəldilmiş cinayət idi. Bu cinayətin tədqiqi və nəticələri göstərir ki, SSRİ rəhbərlərinin və sovet hərbi kontingentinin hərəkətlərində Nürnberq prosesində pislənmiş bütün əlamətlər vardır.

Nürnberq prosesi tarixdə təcavüzü ən ağır cinayət elan etmiş ilk beynəlxalq məhkəmədir. 1945-1946-cı illərdə tarixə Nürnberq prosesi kimi daxil olmuş beynəlxalq tribunalın qərarı ilə Almaniyanın ali dövlət və hərbi xadimləri mülki əhalinin qırılması, onunla qəddar davranış, ictimai və şəxsi əmlakın talanması kimi məsələləri hazırlamaqda və həyata keçirməkdə ittiham olunublar. Təəssüflər olsun ki, bugünədək 20 Yanvar qırğınının cinayətkarları cəzalandırılmayıblar. 1986-cı il Alma-Ata, 1989-cu ildə Tbilisi, 1991-ci ildə Vilnüs hadisələrinə nəzər yetirdikdə görürük ki, həmin qətliamlar Azərbaycandakı qədər qanlı və geniş miqyaslı olmayıb. Keçmiş SSRİ prezidenti Mixail Qorbaçov Tbilisi və Vilnüs hadisələri ilə əlaqədar peşman olduğunu bildirib, gürcü və litva xalqlarından üzr istədiyi halda, Azərbaycanda baş vermiş hadisələrlə əlaqədar eyni addımı atmadı. Məhz buna görə də 20 Yanvar faciəsinin cinayət işi tarixin arxivinə çevrilməməli, hadisənin təşkilatçıları, icraçıları, bütün müqəssirləri öz cinayətlərinə görə ədalət məhkəməsi qarşısında cavab verməlidirlər! Bakıda törədilmiş kütləvi qırğının əsas baiskarı Mixail Qorbaçovu Nobel Sülh mükafatına layiq görmüş dünyanın, Qarabağ həqiqətlərinə ikili standartla yanaşan beynəlxalq aləmin cinayətkarların hələ də cəzasız qalmasını unutmasına imkan verməməliyik.

20 Yanvar hadisələrini təhlil edərkən, həmin dövrdə Qərb dövlətlərinin Azərbaycandakı ictimai-siyasi hadisələrlə bağlı tutduqları mövqeyi də xüsusi araşdırma tələb edir. Sovet mətbuatı erməni kilsəsinin və "Daşnaksutyun" Partiyasının ideoloqlarının təhriki ilə ictimai şüura açıq-aşkar ideoloji təsir göstərir, ermənilərin separatçılığını sovet hakimiyyəti illərində guya Azərbaycan hökuməti tərəfindən törədilən sıxışdırmalara etiraz kimi qələmə verir, Qərbdə fəal anti-Azərbaycan təbliğatı aparırdılar.

Rəsmi məlumat kimi, SİTAnın yaydığı xəbərə görə, qoşunlar Bakıya, guya iki məqsədlə yeridilmişdir. Birincisi, erməniləri, rusdilli əhalini və hərbi qulluqçuların ailələrini "talanlardan qorumaq məqsədilə". İkincisi, "millətçi ekstremistlər tərəfindən hakimiyyətin zorakılıqla qəsb edilməsinin qarşısını almaq məqsədilə". Həmin məqsədlərin həqiqiliyi faktlarla və yanvarın ortalarına yaxın Bakıda yaranmış siyasi vəziyyətin təhlili ilə təkzib edilir, reallıqla heç bir əlaqəsi yoxdur. 1990-cı ilin yanvarında Azərbaycan paytaxtında ictimai- siyasi vəziyyətin kəskinləşməsinin başlıca səbəbi SSRİ ali hakimiyyət orqanlarının Dağlıq Qarabağda separatçılara müqavimət göstərməməsi idi. Mərkəzi Komitə Azərbaycan xalqının suveren hüquqlarının təmin olunması sahəsində öz konstitusiya öhdəliklərini yerinə yetirməkdə qətiyyət nümayiş etdirmirdi. 1990-cı ildə Azərbaycanın haqlı səsini, 20 Yanvar faciəsi haqqında həqiqətləri fakt və sübutlarla "İzvestiya" qəzetində dərc edən Kaspian İzvestiya İnformasiya Agentliyinin prezidenti, Azərbaycan Respublikasının Əməkdar jurnalisti, transmilli mətbuatın azərbaycanlı nümayəndəsi Vasif Səmədovun jurnalist fəaliyyətini xüsusi vurğulamaq istərdim. Onun vətəndaş qeyrəti, jurnalist peşəkarlığı ilə qələmə aldığı, maksimum fakt və sübutlara, sənədlərə, həmin gecənin şahidlərinin ifadələrinə əsaslanan "Müdaxilə" adlı silsilə məqalələri qlobal informasiya resurslarının, internet şəbəkəsinin olmadığı bir dövrdə ictimai rəyin düzgün formalaşmasında mühüm vasitə, 20 Yanvar faciəsinin təbliğində güclü silah olub.

Qərb M. Qorbaçovun bütün dağıdıcı əməllərini hər vəchlə dəstəkləyirdi. Qərbdə yaxşı bilirdilər ki, bu cür millətlərarası münaqişələr SSRİ-ni daxildən zəiflədir, dağıdır. Digər tərəfdən, bu gün Avropanın əsas strateji

tərəfdaşı, Qafqazın lider dövləti olan, Azərbaycan müstəqilliyinin bərpasından öncəki illərdə Qərb dövlətlərinin coğrafi-siyasi maraqları dairəsinə daxil deyildi.

Azərbaycan üçün həmin o faciəli günlərdə ABŞ-ın coğrafi-siyasi doktrinası başqa cür idi. Dövlət Departamentinin nümayəndəsi Marqaret Tatuayler ABŞ hökuməti adından bəyanat vermişdi ki, ABŞ Azərbaycanı dəstəkləmir və Bakıdakı Yanvar hadisələrini şərh etməyi lazım bilmir. Dövlət Departamenti M. Qorbaçovu açıqca dəstəkləyərək hesab edirdi ki, onun səyləri azərbaycanlılarla ermənilər arasında silahlı toqquşmanın dayandırılmasına yönəldilmişdir. Böyük Britaniya və İtaliya xarici işlər nazirlikləri bəyanat verərək Azərbaycanda yaranmış vəziyyəti "SSRİ-nin daxili işi" kimi qiymətləndirmişdilər.

Məhz buna görə də, 20 Yanvar mövzusu barədə həqiqətlərin təbliği Azərbaycanın xarici siyasətində mühüm prioritetlərdən olmalıdır. Bu dövrün tarixi həqiqətləri – 20 Yanvarın nə vaxt və haradan başlanıldığını göstərən hadisələrin xronoloji ardıcıllığı, tarixi faktlara əsaslanan şərhlər, dərin təhlillər və Azərbaycan xalqının müsibətini, qırğının miqyasını əks etdirən, güllə ilə vurulmuş, tankın tırtılları altında tapdanaraq əzilmiş insan cəsədləri, şikəst edilmiş, ağır yaralanmış insanlar, qanlı cəza əməliyyatının ağır nəticələrini, müəyyən epizodlarını əks etdirən materiallar, fotosənədlər dünya ictimaiyyətinə olduğu kimi çatdırılmalı, ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə edilən kütləvi terror, totalitar sovet rejiminin cinayətkar mahiyyəti bütün dünyaya nümayiş etdirilməlidir. 20 Yanvar faciəsi Qarabağ həqiqətləri kimi fakt və sübutlarla aidiyyəti qurumlara təqdim edilməlidir. Beynəlxalq təşkilatlar səviyyəsində 20 Yanvar hadisəsinə hüquqi-siyasi qiymətin verilməsi istiqamətində bundan sonra da fədakarlıqla çalışmalıyıq.

Faciə barədə xəbərlərin dünyaya yayılmasının qarşısını almaq, Azərbaycan ətrafında informasiya blokadası yaratmaq planı cəza ssenarisinin tərkib hissəsi olub. Bir maraqlı məqama xüsusi diqqət yetirmək istərdim: M.Qorbaçovun göstərişi, D.Yazovun komandanlığı altında həyata keçirilən Qanlı Yanvar faciəsi baş verdikdən bir gün sonra bu informasiya blokadasını geniş cəbhədə yaran ümummilli lider Heydər Əliyev həmin vaxt Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək, Bakı qırğınına ilk olaraq etirazını bildirmiş və siyasi-hüquqi qiymət vermişdir. Bu həmin dövrdə hadisəni sükutla qarşılayan SSRİ-də, demokratik dəyəri siyasi maraqlara qurban verən Qərbin kütləvi insan qırğınına etinasız, laqeyd münasibətinin olduğu bir vaxtda 20 Yanvar faciəsinə ilk real hüquqi-siyasi münasibət idi.

Azərbaycan xalqının azadlıq mübarizəsinə, 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verilməsi, şəhidlərin xatirəsinin əbədiləşdirilməsi də məhz ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi tədbirlərlə mümkün olub. Ulu öndərin ölkəyə rəhbərliyi dövründə şəhidlərin xatirəsinin əbədiləşdirilməsi istiqamətində atdığı addımlar, o cümlədən 1998-ci il 31 mart tarixli fərmanla "20 Yanvar şəhidi" fəxri adının təsis edilməsi, 1998-ci il 5 avqust tarixli sərəncama əsasən Şəhidlər xiyabanında "Əbədi məşəl" kompleksinin yaradılması gələcək nəsillərin yaddaşında yer alan mühüm tarixi sənədlərdir. Şəhidlərin əbədiyyətə qovuşduğu məkana ümummilli liderin verdiyi qiymət bu müqəddəs ziyarətgahın tarixi, siyasi, tərbiyəvi, həmçinin milli-mənəvi dəyərini ortaya qoyur: "Xalqımızın tarixində çox əzəmətli, qiymətli abidələr var. Ancaq Şəhidlər xiyabanı, XX əsrin sonunda Azərbaycan xalqının milli azadlığı uğrunda özünü qurban vermiş şəhidlərinin məzarları Azərbaycan Respublikasının torpağının ən müqəddəs yeridir və ən qiymətli abidəsidir".

Sonrakı illərdə şəhid ailələrinə göstərilən diqqət və qayğı, bu ənənənin ölkə Prezidenti İlham Əliyev tərəfindən davam etdirilməsi, paytaxtın rəsmi qonaqlarının, dövlət və hökumət başçılarının, məşhur insanların əlamətdar günlərdə və ölkəmizə səfər proqramlarında mütləq şəkildə Şəhidlər xiyabanını ziyarət etməsi faktı şəhidlərin xatirəsinə rəsmi ehtiramın dövlət səviyyəsində təcəssümüdür. 20 Yanvar milli azadlıq hərəkatının daha da yüksəlməsinə və nəticədə, Azərbaycanın yenidən müstəqilliyə qovuşmasına yol açdı. Uzun illər ərzində milli azadlığını bərpa etmək arzusu ilə yaşayan xalqımız nəyə qadir olduğunu sübut etdi. Milli azadlıq hərəkatı siyasi reallığa çevrildi. Azərbaycan xalqı yüz illiyin sonunda böyük qurbanlar verdi, tarixin taleyüklü günlərində milli ruhunun sarsılmazlığını və mətinliyini nümayiş etdirdi. Tarix bir daha göstərdi ki, dövlətçilik ənənələrini yaşadan xalqımızı müstəqillik yolundan döndərmək, qorxutmaq, susdurmaq mümkün deyil. Mübarizə tariximizin təbliği yeni nəsildə milli vətənpərvərlik, dövlətçilik hisslərinin tərbiyə olunmasına, milli kimlik məfkurəsinin yüksəlişinə güclü təkan verəcək. Çünki tarix bizdən keçmişin ibrət dərslərini bilməyi, faciəmizin səbəb-nəticə əlaqəsini dərindən dərk etməyi, xalqımızın azadlıq uğrunda mübarizəsinin mərhələlərini yadda saxlamağı, dostumuzu – düşmənimizi tanımağı və unutmamağı tələb edir.

**Vətənin suverenliyi uğrunda canlarından keçən şəhidlərin ruhuna ehtiramla.**

**Xalq qəzeti**.- 2021.- 20 yanvar.- № 13.- S. 8.

**Gəncə üçün hazırlanan "20 Yanvar ssenarisi" necə pozuldu?**

**1990-cı ilin yanvarın 19-da Gəncəyə hərəkət edən Sovet hərbi eşelonlarını saxlamağa müvəffəq olmuş "OBXSS" rəisinin filmə bənzəyən hekayəti**

**Zakir Muradov**

***1990-cı ilin qanlı yanvarının başlıca müəllifi olan Qorbaçovun paytaxtımızla yanaşı, Azərbaycanın digər yerlərində də kütləvi qırğınlar törətmək planları olub. Bu məkrli təxribatlar bir sıra bölgələrimizdə təhlükəli təzahürlər yaratsa da, xalqını ürəkdən sevən adamların həlledici anda öz həyatlarını risk altında qoyaraq, qətiyyət nümayiş etdirməsi qətliamların qarşısını ala bilib.***

***Hakimiyyəti ələ keçirən kimi böyük bir ölkənin çökdürülməsi üçün dəridən-qabıqdan çıxan və məqsədinə çatmaq üçün separatizmdən, xüsusən də ermənilərin qəsbkarlıq xislətindən yararlanan xain Qorbaçov öz Vətən torpağını bütün varlığı ilə sevən azərbaycanlıları cəzalandırmaq arzusunu gizlətmirdi. Təsadüfi deyil ki, 1990-cı il yanvarın ortalarında televiziya ilə çıxışlarında o, Azərbaycanda fövqəladə vəziyyət elan edəcəyini bildirir və Bakı və Gəncədə özünün təbirincə desək, "ekstremistlərin cilovlanması üçün" qoşundan istifadə ediləcəyi ilə hədələyirdi. Həqiqətən də Şimali Qafqaz istiqamətindən hava və dəmir yolu ilə Bakıya ordu hissələri yeridilməklə xalqa tutulan 20 Yanvar divanı ilə paralel olaraq, respublikamızın qərbinə doğru daha 2 hərbi eşelon irəliləməkdə idi. Gəncəyə iri hərbi qüvvə yeritməklə bu şəhərdə də Bakı faciəsinin təkrarlanmasını istəyirdilər.***

Bu haqda bizimlə öz fikirlərini bölüşən 75 yaşlı Yusif Məmmədov həmin hadisələrin nəinki canlı şahidi, hətta deyərdik ki, Gəncəyə Sovet cəza qoşunlarının buraxılmasının qarşısını alan əsl qəhrəmandır. O vaxt Azərbaycan SSR Daxili İşlər Nazirliyi nəzdində, rusca yazılışla OBXSS kimi tanınan Talançılıqla Mübarizə İdarəsinin Gəncə Dəmir Yolu üzrə Şöbəsinin rəisi vəzifəsində işləyən bu adam hərbi texnika və canlı qüvvə ilə dolu iki qatarın Gəncəyə tərəf istiqamət aldığı xəbərini dəqiqləşdirir və o zaman yuxarı mövqelərdəki əksərən qətiyyətsiz rəhbər kadrların hədə-qorxularına belə baxmayaraq, Ucara və Kürdəmirə gedərək, yoxlama adı ilə hərbi yük və əsgər daşıyan dəmiryol eşelonlarının yarı yolda saxlanılmasına müvəffəq olur. Hazırda Gəncə şəhəri Əmək və Böyük Vətən Müharibəsi Veteranları Şurasına rəhbərlik edən bu ağsaqqal indi də həmin hadisələrdən həyəcanla danışır. O qeyd edir ki, Ucar və Kürdəmir stansiyalarında bütün yüklü qatarların texniki yoxlamalar üçün uzunmüddətli dayanmalarının bir qayda olmasından istifadə edərək qəti hərəkətə keçib: "Əvvəlcə Ucara getdim. Bir azdan 2674 nömrəli qatar bura yaxınlaşıb texniki baxışa dayandı. Eşelon hərbi sursat, tank, BTR, həmçinin, canlı qüvvə daşıyırdı. Hərbçilərin geyimlərindən bildim ki, bunlar daxili qoşunlardır. Fikirləşdik ki, bunu necə saxlayaq".

Həmsöhbətimiz qeyd edir ki, qatarın yük sənədlərini yoxlayaraq, onun son məntəqəsinin "St.Kirovabad" kimi göstərilməsi buna imkan yaradıb. OBXS podpolkovniki Yusif Məmmədov qanuna görə hərbi yüklərin şəhərin içinə deyil, yalnız Zazalı stansiyasınadək gedə bilməsi təlimatını əsas gətirərək onu saxladıb. Sonra isə o, yerli əhalinin köməyindən istifadə edib. Belə ki, vəziyyəti anlayan ucarlılar qatarın qarşısında relslərə oturaraq yolu kəsiblər.

"Maşinist də qeyrətli çıxdı, lokomotivdən endi və qəti şəkildə dedi ki, sürməyəcək. Mən də yaranmış fürsəti qaçırmayaraq, stansiya növbətçisinə, həmçinin, Böyükkəsikdən Bakıyacan bütün dəmiryolunun tabeliyi altında olan Gəncə Stansiyasının rəisinə məlumat verdim və lokomotivin açılmasını istədim. Təsdiq cavabı gəlməsə də, lokomotivi açdırdım. Həmçinin, stansiyanın iş jurnalına bu hərəkətlərlə bağlı məsuliyyəti öz üzərimə götürdüyüm barədə qeydlər yazdım", - deyə Y.Məmmədov nəql edir.

Ucarda çox qalmadan cəld Kürdəmirə yola düşən podpolkovnik Məmmədov burada ikinci eşelona da eyni taktika tətbiq edir və 2614 nömrəli qatarla bağlı hadisələr də oxşar ssenari ilə cərəyan edir.

Beləliklə, lokomotivi açılmış hərbi vaqonlar Gəncədən xeyli aralıda ləngidilir. Yanvarın 21-də isə lokomotivlər əks istiqamətə qoşulur və qatarlar geri qayıdır. Əlbəttə, bu məsələdə yanvarın 20-də Bakıda törədilən qırğının Azərbaycan xalqında yaratdığı qəzəblə birgə, patriotizm hisslərinin görünməmiş həddə çatması amilinin də böyük rolu olub - artıq Sovet hərbçiləri yeni toqquşmalara girməkdən çəkiniblər. Amma hadisələrin bu məcraya düşməsi üçün qatarların ləngidilməsi əməliyyatını demək olar ki, təkbaşına Yusif Məmmədov fikirləşib və həyata keçirə bilib.

Bu cəsarətinə görə onu cəzalandırmaq da istəyiblər. Amma təcrübəli orqan işçisi olan Y.Məmmədov bu məsələdə də taktika nümayiş etdiriib, hadisələrdən dərhal sonra özü bir qədər aşağı vəzifələrə keçərək sərt tədbirlərdən yayına bilib.

Həmsöhbətimiz həmçinin, o vaxt Gəncənin rəhbəri olmuş Süleyman Fərhad oğlu Məmmədovun şəhərə qoşun yeridilməsinin yolverilməzliyi haqda qəti mövqeyinin də çox vacib amil olduğunu xatırlatmağı da unutmadı.

"Mərhum Süleyman Fərhadoviçin istər Gəncə və ətraf ərazilərdə dislokasiya olunmuş Sovet qoşun hissələrinin, eləcə də kənardan gətirilərək Gəncə aeroportunda toplanmış və qatarlarla onlara yetişəcək texnika və əlavə canlı qüvvəni gözləyən hərbi dəstənin rəhbərləri ilə daimi iş aparması və yenilməz mövqeyi bu qədim şəhərin üzərini alan qara buludların dağıdılması ilə nəticələndi", deyə o vurğuladı.

Gəncə üçün də məkrli 20 Yanvar planlarının qarşısının alınmasında əsl fədakarlıq göstərmiş insanlar sırasında olan Yusif müəllim onu da vurğuladı ki, həmin illərdə əksərən cəsarətsiz yuxarı strukturların itəatkarlıqla dolu təlimatlarına qarşı özündə qüvvə taparaq müqavimət göstərən və öz qəlbinin hökmü ilə hərəkət edən kardrlar daha çox olsaydı, xalqımızın məşəqqətləri daha az olardı.

**525-ci qəzet**. - 2021. - 20 yanvar. - № 11. - S. 11.

## Vasif Babayev: "20 Yanvar hadisələri hələ də yuxularımda canlanır"

**Şahanə Müşfiq**

**1990-cı il 20 Yanvar faciəsinin şahidlərindən və zərərçəkmişlərindən biri olan görkəmli televiziya və kino rejissoru, Xalq artisti Vasif Babayevlə həmin gün və ondan sonra yaşananları bir daha xatırladıq.**

***- Vasif müəllim, 20 Yanvar günü sizinçün nə ifadə edir?***

- Şəhidlər Xiyabanı və vaxtilə çalışdığım Azərbaycan Dövlət Televiziyası mənə və mənim timsalımda 30 il öncə baş verənlərin əsl şahidi olmuş insanlara çox həqiqətləri deyir. Çox təəssüf edirəm, illər bizi Qara Yanvar hadisələrindən uzaqlaşdırdıqca, mətbuat səhifələrində, internet saytlarında təhrif olunmuş faktlar və yalançı qəhrəmanların "xatirələri"nə rast gəlirik. Mən həmin illərdə Azərbaycan Dövlət Televiziyasında baş rejissor vəzifəsində çalışırdım, hadisələrin sıravi şahidi yox, birbaşa iştirakçısı idim. Ölkədə baş verən mürəkkəb siyasi-ictimai proseslər dövlətin əsas və yeganə televiziya kanalından daha aydın görünürdü.

***- Hər şey bir gündə olmadı, əlbəttə. Öncəki günlərdə nələr baş verirdi?***

- 1990-cı il yanvarın 16-18-də Azadlıq meydanında, Azərbaycan KP MK-nın, Respublika Ali Sovetinin binaları qarşısında izdihamlı mitinqlər keçirilirdi. 19 yanvar 1990-cı ildə saat 18:30-da Bakıda müşavirələrin birində Moskvanın, Kremlin məsul işçiləri Qorbaçovun Azərbaycana göndərilmiş SSRİ Ali Soveti Millətlər Şurasının sədri Y.Primakov, KP MK-nin katibi A.Qirenko və millətlərarası münasibətlər şöbəsinin müdiri V.Mixaylovun arasında olan dialoqun stenoqramı çox şeydən xəbər verirdi. A.Qirenko: "Əmr var, Sovet ordusu Bakıya daxil olacaq. Azərbaycan rayonlarında və başqa şəhərlərində bunu əhali bilməməlidir". Y.Primakov: "Respublikanın bütün əhalisi demək olar ki, informasiyanı yalnız televiziyadan alır". V.Mixaylov: "Rabitəni mütləq ləğv etmək lazımdır!" Bu, həmin Mixaylov idi ki, yanvarın 17-də Azərbaycan KP Mərkəzi Komitəsinin şöbə müdiri A.Daşdəmirovla AzTV-də çıxış edərək, tamaşaçılara söz verirdi ki, ordu Bakıya heç vaxt daxil olmayacaq.

***- Ordu şəhərə girməzdən saatlar öncə Televiziyanın enerji bloku da partladılır. Həmin vaxt siz də işdə olmusunuz. Necə xatırlayırsınız o anları?***

- Yanvarın 19-da Dövlət Teleradio verilişləri komitəsinin baş girişinin qarşısında mitinq iştirakçıları "Rəsmi dövlət orqanları dezinformasiyalarına son qoysunlar, hadisələr haqqında xalqa düzgün informasiyalar çatdırsınlar" tələbi edirdilər. Mitinqdən sonra buraxılış şöbəsinin böyük redaktoru Eldar Bayramov mənə dedi ki, yarım saata axşam efiri başlamalıdır, mən nə edim? Eldar haqlı idi, doğrudan da idarədə heç kim yox idi, qapılar bağlı idi. Tez zamanda axşam efiri üçün şərti proqram tərtib edib, efiri açdıq. Həmin gün növbəyə çıxan diktor Sevda Ağazadə idi, onunla bərabər Televiziyada Roza Tağıyeva və baş diktor Sabir Ələsgərov da vardı.

Jurnalistlər Telman Qafarovu və Alı Mustafayevi işə çağırdım, birgə "Xəbərlər" proqramını efirə hazırlayırdıq. Jurnalist Rafiq Ağayev "Reuters" informasiya agentliyi ilə telefonla danışırdı. Bu vaxt dəhşətli partlayış baş verdi. Biz pilləkənlərlə həyətə düşdük, artıq tüstü ikinci mərtəbəyə qalxırdı. Enerji blokunun qarşısına çatanda, onun alışıb yandığını gördük. Dərhal yanğınsöndürmə xidməti və təcili yardımla əlaqə saxladıq. Təxminən 5-6 dəqiqəyə gəldilər. Təsəvvür edirsiz, həmin vaxtlarda nə yanğınsöndürənlər, nə də təcili yardım heç vaxt bu qısa müddətdə yetişmirdilər. Bu, artıq ondan xəbər verirdi ki, hər iki qurum hadisə ilə bağlı əvvəlcədən məlumatlandırılıblar. Biz onlar gələnə qədər su ilə yanğını söndürməyə çalışırdıq və məlum oldu ki, enerji blokunda olan iki mühəndis - Viktor Romanov və İbrahim Hüseynov yoxa çıxıblar. Hadisə yerinə Mərkəzi Komitənin, Dövlət Təhlükəsizlik Komitəsinin və Teleradio Komitəsinin məsul şəxsləri gəlmişdilər. Onlar mənimlə ayaqüstü 10 dəqiqəlik söhbətdən sonra getdilər. Televiziya işçilərindən birinin "xatirələr"ində yazıldığının əksinə olaraq, söyləmək istəyirəm ki, məsul şəxslərin heç biri həmin axşam Komitənin hər hansı bir otağına daxil olmamışdı. Çünki işıqlar sönmüşdü, hər tərəf zülmətə qərq olmuşdu. Bütün söhbətlər həyətdə və foyedə, mənim iştirakımla baş vermişdi.

Onu da qeyd edim ki, son aylar bizim Teleradio Verilişləri Komitəsini hərbçilər və silahlı tanklar qoruyurdu. Hərbçilər, adətən, kollegiya zalında dislokasiya olunurdular. Biz 5-6 nəfər əməkdaşlar ora getdik və gördük ki, təxminən 15-20 nəfər qeyri-adi, xüsusi geyimdə olan hərbçilər oranı tərk etməyə hazırlaşırlar. Onlar hər gün gördüyümüz əsgərlərə oxşamırdılar, sanki kosmosdan gəlmişdilər. Sinələrində balaca qısa avtomatlar, dəbilqələrinin üzərində isə iki kiçik antenlər, əllərində telefon-ratsiya vardı. Özləri də hündürboylu idilər. Bizlə kəlmə kəsmək belə istəmədilər, bizi söyməyə, hədə-qorxu gəlməyə başladılar. Onlar "Alfa"dan idilər. Sabahısı gün isə yoxa çıxan həmin iki mühəndisimiz söylədilər ki, mənim "Alfa" ilə mübahisəmi eşidiblər. Çünki onlar

həmin yerdə hərbçilər tərəfindən qapı arxasında həbsdə saxlanılmışdılar. Deyim ki, "Alfa" qrupunu görən və yola salan yalnız mən və adlarını unutduğum bəzi əməkdaşlar olub.

***- Qətliam vaxtında harda idiniz və səhəri gün nələr yaşandı?***

- 19-dan 20-nə keçən gecə Sovet işğalçı ordusu Bakı şəhərini güllələbarana tutdu. Gecə saat 1-ə işləmiş idarədən çıxdıb evə gəldim. Səhəri diri gözlü açdım, sübh tezdən işə hazırlaşarkən, evimə naməlum şəxs zəng edib dedi ki, iki işçiniz - Romanov və Hüseynov milis idarəsindədirlər, onları buraxmırlar. Sonra: "yubansanız, partlayışı sizin boynunuza yıxacaqlar" - dedi.

Evdən işə gedərkən həyatımın ən ağır, ən çətin, ən dözülməz anlarını yaşadım. Böyükdən balacaya hər kəs ağlayır, qadınlar saçlarını yolurdular. Əzilmiş maşınlar, avtobuslar, köşklər, ağaclar... Küçələr milyonlarla qərənfil dənizinə qərq olmuşdu. Teleşirkətə çatanda artıq Dövlət Təhlükəsizliyi Komitəsinin əməkdaşları, müstəntiq Rüfət Mansurov və teleradio üzrə kuratoru Məmmədəli Əliyev orada idilər.

Dövlət Teleradio Komitəsinin sədr müavini Fuad Tariverdiyev və mən bəzi vətənpərvər televiziya operatorlarına tapşırıq verərək onları Bakı küçələrinə, xəstəxanalarına, morqlara, idarələrə, faciə baş verən yerlərə çəkilişə göndərdik. O günlər AzTV-nin bəzi operatorlarının, o cümlədən, Ələkbər Muradov, Seyidağa Mövsümov, Rəsul Babayev, İzzət Əzizov, Fikrət Qafarov, Adil Bunyadov və Zahid Bağırovun işlərini xüsusi ilə qeyd etmək istəyirəm. Onların çəkdiyi kadrlar bu gün də bütün dünya ekranlarında göstərilir, Sovet Kommunist rejiminin siyasətini və qəddarlığını bir daha ifşa etdirirlər.

Həmin 20 Yanvar gününün səhəri komitənin həyətində mən, Fuad Tariverdiyev və gecə ikən işğalçı ordu ilə Bakıya girmiş Sovet Ordusunun baş senzoru, general-leytenant Ovçinnikov söhbət edirdik. Nə biz onu, nə də o bizi tanıyırdı. Bu vaxt həyəcan içində gözləri dolmuş Xalq şairi Baxtiyar Vahabzadə bizə yaxınlaşır, radio vasitəsi ilə efirə çıxmaq və bəyanat vermək istəyirdi. Bəxtiyar müəllim nifrətlə Ovçinnikova baxıb "Okuppantı" deyib, onun üstünə tüpürdü. Təsəvvür edin Ovçinnikov nə vəziyyətə düşdü? Onun ətrafında duran bir neçə silahlı əsgər dərhal avtomatlarını hazır vəziyyətə gətirdilər. Mən tez hərəkətə gəldim və aralarına girdim: "Bu, bizim hörmətli xalq şairimizdir, millətimizin sevimlisidir, deputatdır". Nələr baş verə bilərdi? Fuad Tarverdiyevlə birlikdə birtəhər vəziyyəti sabitləşdirdik. Faciənin qarşısını aldıq. Bu hadisə ilə bağlı Bəxtiyar müəllim televiziya müsahibələrinin birində mənim adımı yaddan çıxararaq demişdi ki, məni bir rejissor ölümdən xilas etdi, adını bilmirəm.

***- Həmin iki əməkdaşınızın aqibəti necə oldu?***

- Televiziya jurnalisti Cavanşir Cahangirov, operator Ələkbər Muradov, mən və DTK-nın əməkdaşı Məmmədəli Əliyev, DTK-nın maşınında milis idarəsindən Romanovu və Hüseynovu televiziyaya gətirdik. Mənim göstərişimlə Cavanşir dərhal partlayışa məruz qalmış enerji blokunun fonunda onlardan müsahibə aldı. İbrahimlə Viktor təsadüfən sağ qalmışdılar. Sonralar istintaq müəyyən etdi ki, onları partlayışdan sonra məhv etməliydilər. Həmin müsahibə bir neçə əməkdaşımız və mənim üçün əhəmiyyətli məsələ oldu. Mühəndislərin müsahibələrindən və istintaqa verdikləri ifadələrdən bütün qaranlıq suallara cavab tapıldı. Bəziləri hələ də, yanvarın 18-dən 27-ə qədər Azərbaycan Dövlət Televiziyasında baş verən proseslərdə fəal iştirak etdiklərini iddia edirlər. Biz birmənalı şəkildə bu insanların uydurmalarını rədd edirik. Məlumat üçün bildirim ki, həmin "qəhrəmanlar" ümumiyyətlə Televiziyada yox idilər.

***- Həmin vaxt siz özünüz də həbs olunmusunuz, deyəsən.***

- Faciədən bir neçə gün keçsə də, hiss edirdim ki, məni də təhlükə gözləyir. Belə bir həbsi demək olar ki, çoxları görürdü və gözləyirdi. Bir gün Şəhidlər Xiyabanından təzəcə Komitəyə qayıtmışdım. Axşamüstü olardı, mənə dedilər ki, küçədə səni bir nəfər gözləyir. Çıxanda gördüm Xalq yazıçısı İsmayıl Şıxlı dayanıb, dedi: "Vasif, sən televiziyaya bir müddət gəlmə, onsuz da o, işləmir, evə də getmə, get başqa yerdə qal. Biz səni təhlükədən qorumalıyıq! Mən Mərkəzi Komitədən bura ayaqla gəlmişəm! Sənə demək üçün! Orada sənin adın hallanırdı!" Mən məhəl qoymadım...

Amma yanvarın 26-dan 27-ə keçən gecə saat 1-2 radələrində mənzilin qapısı bərk döyüldü və zəngi çalındı. İki nəfər mülki geyimdə, üç əsgər "Alfa" geyimində evə daxil oldular. Biri sənədlərimizi yoxlayırdı, digərləri isə evdə nəsə axtarırdı. Onlardan biri: "Sən bizimlə yarım saatlıq Bakı şəhəri hərbi komendantının yanına gedəcəksən!" - dedi. Digəri isə kitab rəfində Heydər Əliyevlə mənim birgə fotoşəklimi görüb o birisinə isteza ilə dedi: "Petroviç, sən bir bura bax - dahi insan". Sonra əsəbi halda soruşdu: "Bu, sizin nəyinizdi?" BDU-nun Şərqşünaslıq fakültəsinin üçüncü kursunda oxuyan qızım Hüsniyyə cavab verdi: "Niyə bizim, o, bütün Sovet xalqının tanıdığı və sevdiyi bir şəxsiyyətdir". Bu dialoqdan sonra silahlı əsgərlərdən biri mənim qulağıma pıçıldadı: "Teplo odevaytes!" Mən buna əməl etdim. Çünki başa düşdüm ki, ya məni uzağa, ya da uzunmüddətə aparırlar. Aşağı düşəndə əsgərlərdən biri silahı kürəyimə dirəyib dedi: "Bir addım sağa-sola dönsən atacağam". Artıq həbs edildiyimi anladım. Məni altı hərbçi və iki müstəntiq müşayiət edirdi. Onların hamısı gəlmə idi.

O günlər operatorlarımızın çəkilişləri sayəsində erməni daşnaklarının separatizmi və Sovet Kommunist ordusunun Azərbaycan xalqına qarşı törətdiyi qəddar hücumlar genosid adlandırılır. Qanlı Yanvar kimi faciəli günlər, verilən qurbanlar, bizim millətin azadlığa və müstəqilliyə gedən bir yolu kimi qiymətləndirilir.

Həmin çəkiliş kasetlərinin bir hissəsi operator Seyidağa Mövsümovda idi. Məni aparanda, həyat yoldaşım, Teleradio komitəsinin əməkdaşı Afət xanım ona zəng edib, "Vasifi apardılar, ola bilsin, sənin arxanca da gəlsinlər. Kasetlərlə birgə evi tərk edin" - demişdi. Seyidağa da ailəsi ilə mənzili tərk etmişdi.

Qara şəhərdəki, təcridxanada mənə guya günahkar olduğum barədə sənəd təqdim etdilər. Televiziyanın işinə maneçilikdə, mitinqlərə çağırışda çəkilmiş videokasetlərin gizlədilməsində günahlandırırdılar. Əlbəttə, belə bir ittihama imza ata bilməzdim. Bir azdan olduğum kameraya iş yoldaşlarım - rejissor Azər Zamanlı və radio jurnalisti Rafiq Ağayevi gətirdilər.

Yanvarın 19-dan işləməyən Azərbaycan televiziyası, yanvarın 27-də, məhz biz həbs ediləndən sonra öz proqramlarını efirə verməyə başladı. Sanki ölkə rəhbərliyi və televiziyanı o günlər idarə edənlər bizim həbsimizi gözləyirdilər. Ertəsi gün əllərimi boğazdan keçən polad məftillə bağlayaraq, Nasosnı qəsəbəsində yerləşən hərbi hava limanına, oradan isə silahlı hərbçilər və alman cinsindən olan köpəklərin müşayiətilə, hərbi təyyarələr vasitəsilə Krasnodar şəhərinə apardılar. Dəmiryolu vağzalına gətirdilər. Bizi dəyənəklərlə döyürdülər, köpəklər üstümüzə hürürdü. Bütün bunlar filmlərdə gördüyümüz nasist konslagerlərini xatırladırdı. Bizi "Stolıpin" deyilən vaqon-zindana doldurdular. Ac-susuz üç gün, üç gecə Ulyanovsk şəhərinə yollandıq. Hərbi nəzarətçilər dustaqlara işgəncələr verirdilər, döyüb dişlərimizi sındırırdılar. Pulları, saatları əlimizdən aldılar. Nəhayət, Ulyanovska çatdıq. Bizi yerli həbsxanada bir aydan çox saxladılar. Çəkdiyim zillətləri ömrüm boyu unutmaram. O vaxtdan 30 il keçməsinə baxmayaraq, hələ də 20 Yanvarın ağır ovqatı, o günlərin hadisələri yuxularımda canlanır.

***- Bəs necə azad edildiniz?***

- Ulyanovska çatandan sonra çoxdan orada yaşayan, əslən Göyçaydan olan Sovet milis kapitanı Varis Məhərrəm oğlu Məcidov bizim bura gətirilməyimizdən xəbər tutub, yerli yüksək rütbəli general və zabitlərlə həbsxanaya gəldi. Elə ilk gündən Ulyanovskda məskunlaşan bu yeddi Məcidov qardaşlarının mərdliyi, qeyrəti bizi, 46 nəfər bütün Azərbaycan dustaqlarını heyran etdi. Həmin görüşdən sonra onlar Bakıya, ailələrimizə xəbər göndərmişdi ki, nigaran qalmayın, əzizləriniz sağ-salamatdırlar. Həbsxanada saxlandığımız bir aydan çox vaxt ərzində Məcidov qardaşları bizim bütün təminatımızı üzərlərinə götürdülər. O çətin və əzablı günlərimizdə bizə arxa, dayaq oldular. "Cəza" müddətimiz başa çatdıqda eyni vəziyyətdə Azərbaycana yola salınacağımızdan xəbər tutan Varis qardaşlarıyla birlikdə Bakıdan xüsusi nəqliyyat təyyarəsi sifariş verib, öz vəsaitləri hesabına bizi vətənə çatdırdılar.

**525-ci qəzet**. - 2021.- 20 yanvar. - № 11. - S. 10-11.

## 20 Yanvar hadisələrində ümumxalq müqaviməti - Azərbaycanda multikulturalizmin təntənəsi və təcəssümü...

**Məhəmmədəli Qəribli**

**Azərbaycan 20 Yanvar hadisələrinin daha bir ildönümünü arxada qoydu. Ənənəvi olaraq şəhidlərin kütləvi anım mərasimi keçirildi. Budəfəki izdihamlarda əhalimiz əvvəlki illərdə olduğundan daha qürurlu görünürdü. Bu da təsadüfi deyil.**

Çünki bir neçə ay əvvəl biz ərazi bütövlüyümüzü tam təmin etdik.

İşğalçı düşməni ərazimizdən qovmaqla yeni bir tarix yazdıq. Azərbaycanın verdiyi şəhidlərin etnik tərkibindən də görünür ki, onların sırasında qeyri-azərbaycanlılar da kifayət qədərdi. Bu, 20 Yanvar hadisələrində, Birinci və İkinci Qarabağ savaşlarında da eyni olub. Tarixi günə təsadüf etdiyi üçün, istərdik, 20 Yanvar hadisələrinin tarixi və onun törənmə səbəblərinə bir qədər ekskurs edək.

**Onların sırasında 117 azərbaycanlı, 6 rus, 3 yəhudi, 3 tatar olub...**

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə, saat 23:30-da Bakı şəhərinə keçmiş Sovet İttifaqının qoşun hissələri tərəfindən fövqəladə vəziyyət elan edilmədən hücum edilmiş və dinc əhaliyə divan tutulmuşdu. Nəticədə yüzlərlə insan qətlə yetirildi, yaralandı və itkin düşdü. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışdı. Fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürüldü. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda - yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirildi.

Sovet qoşunlarının qanunsuz yeridilməsi nəticəsində Bakıda və Azərbaycan rayonlarında 146 nəfər öldürüldü, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edildi. Həlak olanlar arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və polislər vardı. Qara Yanvar faciəsi nəticəsində SSRİ Konstitusiyası və Azərbaycan SSR Konstitusiyası kobudcasına pozulmuş, Azərbaycan Respublikasının suveren hüquqları tapdanmışdı. Qabaqcadan hazırlanan bu təcavüzkarlıq aksiyası Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq, xalqı təhqir edərək ona mənəvi zərbə vurmaq məqsədi daşıyırdı. Eyni zamanda, həmin gecədə evlərə girib uşaqları girov götürür, bəzilərini isə öldürürdülər. Rəsmi məlumatlara görə, Bakıya və başqa yaşayış məntəqələrinə sovet ordusunun hücumu vaxtı öldürülənlərin etnik tərkibi müxtəlif olub. Onların sırasında 117 azərbaycanlı, 6 rus, 3 yəhudi, 3 tatar olub. Yaralananların sırasında da Azərbaycanda yaşayan etnik qrupların nümayəndələri kifayət qədərdi.

**Müxtəlif millətlərdən olan qadınların, kişilərin, uşaqların məzarları...**

Dağüstü Parkın Bakı buxtasına açılan yüksəkliyinə qalxsanız, ilk gördüyünüz şey uzun məzarlar cərgəsi olacaq - müxtəlif millətlərdən olan qadınların, kişilərin, uşaqların məzarları. Hamısının şəkli açıq rəngli mərmərə döyülüb. Bir də ölüm tarixləri eynidir - 20.01.1990. Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrindən artıq 31 il keçir. Keçmiş sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz müasir tariximizdə insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi qalacaq. Milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə silahlı təcavüz nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. Sovet ordusunun böyük heyətinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi. SSRİ 1956-cı ildə Çexoslovakiyaya, 1968-ci ildə Macarıstana və 1979-cu ildə Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni hətta o zamankı Sovet İttifaqının müttəfiq respublikalarından biri olan Azərbaycanda da təkrarlamaqdan çəkinmədi.

**Ermənistanın Azərbaycana təcavüzü və 20 Yanvar faciəsinə aparan yol...**

Heç şübhəsiz, 1990-cı il yanvarın 20-də Bakıda baş verən hadisələri Qarabağdakı erməni təcavüzündən ayrıca təhlil etmək düzgün olmazdı. Hər dəfə Qarabağa dair ərazi iddiaları kənardan, məhz Ermənistanın təbliği, təhriki və təzyiqi ilə ortaya atılırdı. O da şübhəsizdir ki, ermənilərin bu ərazi iddiaları birdən-birə deyil, İrəvanda, Moskvada və Qərbdə olan himayədarları tərəfindən hələ xeyli əvvəl diqqətlə və hərtərəfli plan əsasında hazırlanmışdı. Sovet dövründə mərkəzi hakimiyyət orqanlarının himayədarlığı ilə Azərbaycan əleyhinə məqsədyönlü şəkildə təbliğat kampaniyası aparılmış və nəticədə, mənfi ictimai fikir formalaşdırılmışdı. Erməni

ideoloqları və onların ilhamvericiləri Azərbaycanın tarixi, sosial-iqtisadi inkişafı haqqında faktları açıq-aşkar saxtalaşdıraraq bütün ittifaq miqyasında yaydılar. Ümummilli lider Heydər Əliyev Sov.İKP Plenumunda vəzifəsindən istefa verdikdən bir neçə gün sonra ermənilər özlərinin yaxın və uzaq xaricdəki himayədarlarının köməyilə bədnam "Böyük Ermənistan" ideyasını həyata keçirmək üçün aşkarlıq və demokratiyadan istifadə edərək yenidən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə dair ərazi iddiaları irəli sürdülər. Ermənilərin Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi uğrunda iki komitəsi – İrəvanda "Qarabağ" komitəsi və onun Dağlıq Qarabağda uzun müddət gizli fəaliyyət göstərən yerli təşkilatı olan "Krunk" açıq fəal mübarizəyə başlamış, separatçılıq hərəkatı genişlənirdi. 1988-ci il hadisələri başlayanda ilk vaxtlar vəziyyəti son dərəcə gərginləşdirməyə, ictimai rəyi öz tərəflərinə çəkməyə çalışan erməni siyasətçiləri və onların mərkəzi ittifaqdakı himayədarları tərəfindən vilayətin iqtisadi geriliyi pərdəsi altında Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün uzun müddətdən bəri hazırlanmış plan üzrə Xankəndidə və İrəvanda davamlı tətillər keçirilərək müəssisələr dayandırılır və kütləvi mitinqlər təşkil edilirdi.

**Digər etnik qrupların nümayəndələrinin də həlak olduğunu görə bilərik…**

1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti Azərbaycanın suverenliyini kobud surətdə pozaraq, DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsi haqqında Konstitusiyaya zidd qərar qəbul etdi. 42 gün ərzində DQMV-nin müəssisələri Ermənistanın müvafiq nazirlik və idarələrinin tabeliyinə verildi. Birbaşa mərkəzin fəaliyyətsizliyi, bəzən isə açıq himayədarlığı sayəsində DQMV iqtisadiyyatının və digər sahələrinin faktiki olaraq Azərbaycandan ayrılması və Ermənistana istiqamətləndirilməsi baş verdi. Bütün rayon partiya komitələri Ermənistan KP-nin tərkibinə daxil oldu. Azərbaycanın bölgədəki bütün dövlət atributları (bayrağı, gerbi, himni və s.) dəyişdirildi və DQMV ərazisində Ermənistanın bayrağı və gerbi asıldı. Bununla da Ermənistan beynəlxalq hüququn əsas norma və prinsiplərini pozaraq Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialarını rəsmən elan etdi. Nəticədə, sovet rəhbərliyinin çox ciddi və bağışlanmaz səhvləri və ermənipərəst siyasəti 1988-ci ilin sonu, 1989-cu ilin əvvəllərində vəziyyətin getdikcə kəskinləşməsinə gətirib çıxardı, DQMV və Azərbaycanın Ermənistanla həmsərhəd bölgələrində erməni təcavüzü daha geniş miqyas aldı. Bu illərdə törədilən terror aktları nəticəsində yüzlərlə azərbaycanlının həyatına son qoyuldu. Minlərlə azərbaycanlı SSRİ-nin hakim dairələri tərəfindən himayə edilən ermənilərin işğalçılıq siyasətinin qurbanı oldu. Bütün bu hadisələr zamanı, azərbaycanlılarla yanaşı, ölkəmizi öz vətəni sayan digər etnik qrupların nümayəndələrinin də həyatını itirdiyini görə bilərik.

**Xalqımızın igid övladları erməni işğalçılarını qovub vətənimizdən çıxardılar…**

Bu dövrdə Dağlıq Qarabağ bölgəsində yaşayan ermənilərə Azərbaycandan ayrılaraq Ermənistanla birləşməyin zəruriliyinə nail olmaq ideyasını süni surətdə qəbul etdirən təcavüzkar dövlət buna nail olmaq üçün Dağlıq Qarabağdan azərbaycanlıları soyqırımına və təcavüzə məruz qoymaqla didərgin salmış, eləcə də Ermənistandan azərbaycanlıların tarixən yaşadığı torpaqlardan zorakılıqla deportasiya edilməsi baş tutmuşdu.

Beləliklə, Ermənistan rəhbərliyi və erməni millətçiləri mərkəzin bəzi dairələrinin köməyilə vilayətdə həqiqi mənada Dağlıq Qarabağın iqtisadi, ictimai-siyasi və mədəni cəhətdən mənimsənilməsi prosesi aparırdılar. Belə bir şəraitdə sovet rəhbərliyi nəinki münaqişənin qarşısını almaq üçün qəti tədbirlər görmədi, hətta əksinə, Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan xüsusi təlim keçmiş erməni əsgər və zabitləri, eləcə də sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantlar da daxil edildi. Ardınca ermənilər Dağlıq Qarabağın ətrafında olan 7 rayonu da işğal etdilər. Nəhayət, uzun sürən işğala son qoyuldu. 44 günlük müharibə nəticəsində xalqımızın igid övladları erməni işğalçılarını qovub vətənimizdən çıxardılar.

**20 Yanvar, Birinci Qarabağ müharibəsində olduğu kimi, 44 günlük döyüşlərdə də...**

Döyüş və diplomatiya meydanında məğlub olan düşmən elə zənn edir ki, Azərbaycanda yaşayan etnik xalqları provokasiyaya çəkə biləcək. Halbuki, istər talışlar, istər ləzgilər, avarlar, tatlar olsun, Ordumuzda milli mənsubiyyətinə fərq qoyulmadan Azərbaycan vətəndaşı olaraq işğalçı güclərə qarşı mərdi-mərdanə mübarizə apardılar. Ümumiyyətlə, ölkəmizdə hər zaman tolerant mühit olub, heç zaman etnik münaqişələr olmayıb. Sadəcə, ermənilər əlacsız qalaraq azsaylı xalqlarla bağlı uğursuz fəndlərə əl atırdılar. Onlar talışlara və digər etnik xalqlara müraciət edərək, guya düşmən olmadıqlarını bildirir, onları ermənilərə qarşı döyüşməməyə çağırırdılar. Azərbaycanda yaşayan etniklər isə 20 Yanvar, Birinci Qarabağ müharibəsində olduğu kimi, 44 günlük döyüşlərdə də Vətən üçün canlarından keçib. Böyük Vətən müharibəsi bizə çox sevincli, qürur duyulası, fəxr ediləsi müsbət anları yaşatdı. Əlbəttə, hamımız birinci növbədə işğal olunmuş torpaqlarımızın qaytarılmasına sevindik. Ancaq bu müharibə bizim çox müsbət tərəflərimizi də göstərdi. Əminəm ki, bu halların hamısı ayrı-ayrılıqda öyrəniləcək, təbliğ ediləcək. Müharibə başlayan ilk günlərdən düşmənlər, birinci növbədə erməni tərəfi Azərbaycanda yaşayan millətlər arasında nifaq salmaq istədilər. Əslində onlar Azərbaycanın

zəifləməsi üçün hər dəfə bu amildən istifadə ediblər, lakin bu təbliğat həmişə əks effektini göstərib və ermənilər bu murdar cəhdlərinə Azərbaycanda yaşayan bütün millətlərin təpkisini gördülər. Bu müharibədə türklər, talışlar, ləzgilər, yəhudilər, kürdlər, avarlar, ingiloylar, ruslar öz Vətənlərinin müdafiəsinə qalxdılar. Bütün bunlar bir daha sübut edir ki, Azərbaycanın tarixində olan ağır günlərdə ölkəmizdə yaşayan bütün millətlər vahid mövqedən çıxış edərək, canlarını belə Vətən uğrunda fəda etməkdən çəkinməyiblər.

**Bakı Xəbər.** - 2021. - 22 yanvar. - № 12. - S. 10.

**“Qış qanadlı” il – 1990...**

**“Quş qanadlı” kimi təşbeh edilən sovet illərimizin sonuncusundan əvvəlki...**

**Tahir Abbaslı**

*Və onun bizə milli gündüzlər qazandıran qanlı və şanlı 20 Yanvar Gecəsi!...*
*Müdhiş gülləbaran, total tırtıl səsləri “estrada”sında milli Azadlığa fədalıq sədalarının daha zildən hayqırdığı Gecə...*

Otuz bir ildir nə söygü, nə öygü ilə qurtarmayan Gecə...
Mür-müsibətinə ata kimi atılanları babalıqdan, ana kimi addımlayanları nənəlikdən, subay-soluq yürüyənləri bəylik-gəlinlikdən məhrum edən Gecə...
Otuz bir yaşlı bu milli müsibət və fəxarət ƏSƏRİndə dünənimizə ağrı-acı, bugünümüzə-sabahımıza çağrı-çalğı sədaları, gah acı, gah fəxri nidalar!...
El dilində bir deyim var: “Qurban olum o bəd hadisəyə ki, üstündən bir an, para saat keçə...”.
Müəllifi Millət olan bu HADİSƏ-ƏSƏRə xəyal gəzdirdikcə gözlər qarşısında nələr sərgilənmir?!
Hə, illər keçdikcə bu total həyat Hadisəsi də yavaş-yavaş küçə-meydanlıqdan yığışıb, asta-asta muzeylikləşmədə...
Bu sərgidəki irreal “eksponat”lardan biri də: “Bu dünya bir pəncərədir - hər gələn baxar, gedər”...

**Amma SİZ –**

o Gecəyə pəncərədən baxmadınız; şimşək kimi çaxıb, ildırımtək axıb getdiniz!
Siz küçələrdə al-qırmızı qanınızı axıtdınız, biz, ev-eşiyimizdə göz yaşlarımızı...
Bəs... biz – göz yaşı sahibləri sizin – can qanı yiyələrinin qədrini qədərincə bildikmi, arzu-umu hədəflərinizə layiqincə vardıqmı?
Bunları olduğu kimi sözə çevirmək – yeraltı filizləri min cür yerüstü ləvazimatlara çevirmək qədər uzun və çətin bir görəv...
Ancaq, ey müqəddəs milli yubilyar heyətimiz, ruhi-nəzərinizə acizanə ərz edim ki, budəfəki yubiley töreninizə bundan öncəkilər kimi əliboş-diliboş yox, o vaxt özünüzlə apardığınız arzu-umunuzun ən ucası, baş tacı olan Qarabağ amanatının bərqərar təntənəsi ilə gəlirik!
Bu şərəfi bizə SİZin həmkarlarınız və qazilər bəxş ediblər!...
Bu nidalı sevinc-fərəhlər öz yerində, buna qədər yaşadığımız yaralara varmamaq çətin…

**Bu naməni –**

tək elə mütaliə ilə kifayətlənmə, gənc həmvətənlim; sözlərin gözlərinə baxmağa, fikirlərin “zikr”lərinə dalmağa da cəhd elə. Nədən ki, bu namə arxasındakı olayları 31 yaşdan o yanakı həmkarlarınız görüblər. Bu rəqəmə təəccüblənməməli. Nədən ki, 31 il qabaq baş vermiş o müsibətin şahidliyində o vaxt hələ “ana bətni” vətənində olanlar da istisna edilməməlidir: o Gecənin dəhşət payından onlar da dadmışlar...
Bu an o GECƏnin dəhşət-vəhşəti müqabilli bir sükut...
Deyirəm, qələm də hərdən, ağır külfət güzəranı üçün “saçının birini ağ, birini qara” hörməyə, əllərinin birini halala, birini harama batırmağa məhkum valideynlər vəziyyətinə düşür. Yəni, indi, ilk-ötəri baxışda ölüm-itim alovu saçan, dərin nəzərdə isə milli istiqlal şölələri yayan o Gecəyə dair sözü hardan, nədən başlayasan?...
Beləliklə, –

**Salam, –**

o vaxtlar yalnız müsibət, məşəqqət adlandırdığımız Gecə! Zülmətindən zülm tökülən, ciknəsindən qulaq tutulan vəhşi Gecə! Yuxusuz, sükutsuz, sevgisiz, toysuz, musiqisiz, yaradıcılıqsız, mədəniyyətsiz Gecə! Qan yaddaşını, qanlı yaddaşını, bütün bəşəri dəyərlərə yadlaşmış yaddaşını oyat, beş-on sözüm var, Sənə...

Yadındamı, "sülhsevər (!) sovet ordumuz"un saldatları Biləcəridən "Şamaxinka"ya qalxarkən "sapoq"larını necə taqqıldadırdılar asfalt üstündə?! Qarşılarına əliyalın çıxan azadlıqsevər gənclərə xəbərdarlıq etmədən atəş açmalarını da xatırlayırsan, yəqin? Qaçıb ağaclar arxasında daldalanmaq istəyən bir yeniyetmənin qarasına bütöv bir avtomat darağı boşaldıb, dəlmə-deşik etmələri necə, qarmaqarışıq yaddaşından silinməyib ki?...

"XI Qızıl Ordu"... ("Qızıl"a bax, a! Özləri "krasnaya" deyirdilər, bizsə "qızıl"!) meydanında "təcili yardım" maşınından düşüb, yerdə çapalayan nəhəng gövdəli bir cavana yaxınlaşan şəfqət bacısının böyür-başına güllə yağışı yağdıraraq, o zərifi necə yağır-bağır etdiklərini necə, unutmamısan?

Dəmir yol vağzalında gecələməyə məhkum gülsatan oğlanın asfalt üstündə qərənfillərlə "Elnən gələn vay" məsəlini, güllələndiyinə görə tamamlayıb "toy-bayramdır" yaza bilməməsi oxşar olaylar burulğanında it-bata düşməyib ki?! O müsibətli Gecəyə hamilə olan gündüz ərzində satılmayan o qərənfillərlə yazılmış o yarımçıq el məsəli bütöv bir sənədli əsər, dramatik bir dram, total bir tragediya, xalqı ruhdan düşməməyə çağıran epos-epopeya deyildimi, ey təşkilatçı kuluarlarında hələ də lirik-poetik-sentimental frazalarla ifadə olunan "Ночъ"?!

Əvvəlki bir çox "həmkarlarını" da xatırla, ey müdhiş və mübarək Gecə! Səndən düz 70 il əvvəl "parlaq" süngülərlə Bakıya soxulan "qırmızı ordu"nu, cəllad qələmi ilə yazılmış "37"li, "ÇK"lı, "NKVD"li sibirləri yad et. Cavidləri, Müşfiqləri aparan gecələri, gündüzləri, axşamları, səhərləri, vaxt-bivaxtları yada sal!...

O "kolleqa" illərin qırmızı şüarlarından kor, super-sinxron güllə-baranlarından kar Gecə, qulağını bəri elə, o qırmızışüar dövrə beş-üç kəlməlik ayarım, o bütöv Vətənlik faciəmizə bir vətəndaşlıq –

**Öygüm də var:**

...Gün aydın, güllə çil-çırağına tutulmuş Azadlıq Gecəsi! Sənin o zil qaranlığında, buz qoynunda elədən-belə, belədən-elə çovuyan o işıldaquş, o bayquş güllələr olmasaydı, bu xalq ayağa daha cəsarətlə qalxmaz, əsarətdən daha tez qurtulmazdı.

Salam, öncəsi yaralı, nəticəsi istiqlallı Gecə! İllər uzunu sinəni istehsalat orden-medalları ilə bəzəyən sovetlər mərkəzi o gecə o əlvan metalları al-qırmızı qurşunlara çevirib, səhərə qədər bu xalqın üstünə çilədi. Amma sonda itirən o – məsafəcə uzaq, "qardaş"lıqca "yaxın" Mərkəz, qazanan – "ucqar" Azərbaycan oldu!

Sən ən böyük bir milli dövran idin, ey tarix üçün "bir an" hesab edilən 20 Yanvar Gecəsi! Pəpə yeyəndən, məmə deyənə qədər hamı əzəmətli "Müstəqillik Simfoniyası"nın ifaçılarına çevrildi Səndə. Sürücülər maşınlarını zirehli qan-qadalar üstünə sürdü. Təbiblər xalqın həbibinə çevrildi. Şəfqət bacıları "Aslanın erkəyi-dişisi olmaz" zərb-məsəlinin mülki-hərbi abidəsini yaratdılar. Hətta oğrular, cibgirlər belə, sənin qırxın (bəlkə də "il"in) çıxanadək əllərini dinc qoyub, "maya"larından yedilər…

Sən ən maarifçi-maarifpərvər bir era oldun, Universitet Gecə! Uzun illərin semestr imtahanlarına tutuquşu cavablar vermək zorunda qalan bu tələbə xalqı əsl dövlət imtahanına çəkdin. Ovaxtadək "əzbərçil-tərifçil" kimi ömür sürmüş bu tələbə-xalq 1991-in 18 oktyabrında əla-ali qiymət alaraq, bütün universitetlərin fövqündə dayanan Müstəqil Milli Şərəf Universitetini bitirib, "öz əli, öz başı" dövranına qədəm qoydu!

Sən ən dini, ən mömin, şəhid-şühəda, qazi-mücahid meydanı idin, Tanrısal Gecə! Məlum və "məşhur" allahsızlıq dövranının təbliğatına uyanlar belə, sənin o zülüm-zülmət qaranlığında əllərini göylərə qaldırıb dua etdilər, millətə nicat dilədilər. Süfrələri həftələr-aylarla ət xörəyi görməyənlər xeyir işlərçün saxladıqları toy toğlularını belə kəsib, sənin mübarək şəhidlərinin ruhuna ehsanlar verdilər...

Sən həm də bizim ən siyasi-elitar anımız idin, ictimai anlaq Gecəsi! Bütöv bir millətin açıq havada toplanmış Milli Məclisi idin. Hər kəs özlüyündə bir millət vəkili idi. Hər kəs öz qafasında, düşüncəsində qərarlar qəbul edib, öz qəlbində icrasına başlayırdı.

Və bu Milli Şərəf xiyabanındakı şəkillərə baxa-baxa bir –

**Yazılı xitab:**

...Siz – o qara gözlü, atəş dilli, ox kirpikli, "pənbeyi-daği cünun" əndamlı yar-Gecənin görüşünə hansı buta eşqi, milli elçi görəvilə getmişdiniz ki, meyitlikdə, cənazəlikdə də o cür aşiq və qalib görünürdünüz?!...

Hamınız kürəyinizi ana torpağımıza söykəyib, qollarınızı ata sərhədlərimizə açıb, üzünüzü Tanrı dərgahına tutmuşdunuz...

Qollarının biri budanmışınız o birini, ikisi də kəsilmişiniz isə çiyinlərini mümküncə ucalığa – bir daha enməyəsi bayrağımızın asılacağı yüksəkliyə qovzamışdı. Tank-top altda qalıb xıncımlanmış ayaqların

ətrafındakı çalın-çarpaz qan xətləri, göl-gölməçəliklər isə, daha heç vaxt fiziki yol-yorum edə bilməyəsi bu həmkarlarınızın tezliklə bərqərar olunası "Müstəqil Azərbaycan Respublikası" şərəf-vizası ilə bütün dünyanı gəzib-dolaşacaqları haqda ərznamələrinə bənzəyirdi...

"Hamınız kürəyinizi ana torpağımıza söykəmişdiniz" yanğı-qanğım yadıma siz haqda yazdığım ilk ("Qızılgül əsdi..." 1990, 25 yanvar) yazımın "uvertüra"sını saldı: "Sən necə qənirsiz Gözəl, necə sevgili Canan, yaraşıqlı Yar, ümummilli Namus mücəssəməsisən ki, heç kəs Səni digərinə qısqanmır, Vətən?! Əksinə, hər Məcnunun istəyir ki, başqaları Səni özündən də çox sevsin!...".

- Ay bu məzar daşındakı foto-şəklində bığ yeri yenicə tərləyən oğlan, o axşam – o darmacalda deyiklini son olaraq süzə bilmişdinmi?

- Bu gidi dünyanın siyasi badalağına ilişmiş dəliqanlı, gözlərini gözaltı etdiyin qızdan xəbərsizmi yumdun?

- Təzə-tərcə nişanlanmış cavan, üzüyün tabaqda qaldımı?

- Ay təzəbəy, tər gəlini gərdəkdəmi qoyub gəlmişdin?

**Və ay cəmi-heyət!...**

(Nə deyəsən, nə danışasan?!)

Qətliamınızın təşkilatçısı İmperiya-Şeytana lənət!...

Haqqınızda yazılanları toplasaq, tək elə o Gecə sizə atılan güllələrdən yox, bu dünyada çox şeylərdən çox olar! Sabiq "yetmiş il"də ata-babalarımızın o gülləleri göndərən dövlətə baratladığı "ağ qızıl"dan, "kaçat"ladığı "qara qızıl"dan isə qat-qat, dəfə-dəfə az...

Bu məqamda həmin yazıların kəmiyyətini o zamanlarımızın "böyük qardaş"ı, kəmfürsət qonşu ölkə (və onun içimizə əkdiyi "muxtar vilayət" statuslu kilkə) şərəfinə yazılmış mahnıların ("Ey əziz rus qardaşım, ey mehriban rus bacım", "Qardaş olub Hayastan – Azərbaycan!", "Nune, Nune, Nu-ne-eee..." və s.) "keyfiyyəti"lə müqayisə etmək xəyalatına da düşdüm...

O yazılardan bir neçəsi də bəndənizə məxsus ki ("Sınıq, "əlil" - lakin müstəqil qərənfil!", "Bu məzarlar - həyat yazarlar", "Yazıya pozu..." və s.), hər kərə onları xatırladıqca, belə bir qənaətə gəlirəm ki, bunların hamısı birlikdə sizin o bircə Gecədə öz qan-"mürəkkəb"inizlə küçələrə cızdığınız Epopeyanın bir əyri-üyrü xəttinə də dəyməz!...

Hə, siz milli İstiqlal süfrəmizdə löyün-löyün fəda şərbətləri içdiniz, biz – uzun illər sizi öygü "yarış"larına, ildönüm-anım "festival"larına qurşandıq. Siz Azadlıq uğrunda candan keçibən "beş arşın kəfən" aparıb, bizə üçrəngli bayraq bəxş etdiniz, biz – şərəfinizə həsr etdiyimiz yazılardakı "ağ-qara" münasibət və məram-mətləb nüanslarını "yüz ölçüb-bir biçmə"də qaldıq...

"Ruhun gözü Nuhunkundan görərdir" – deyiblər. Yəqin ki, Sizin şəhid-şəhadət Gecənizin ertəsi günü bu millətin özünə necə əl qatdığını gördünüz. Tarixdə misli görünməmiş bu qətliama tayı-bərabəri yaşanmamış bir qarşılam! Dünya çaş-baş qalmışdı bu törənə! Bunu "elnən gələn vay" adlandıranlar da vardı, "Azad sabah nam-nişanlı milli toy" notları ilə xallandıranlar da. Oğul-uşağı olmayan sonsuzlar da munis bir fürsət tapıb, "Can-can, ay oğul!", "Oğul vay!" deyə ağlayırdılar (şərhi acı da olsa); heç vaxt onlara qismət olmayası bu "növ" göz yaşları leysanlayırdılar, ey – milli Azadlığımızın vahid Qarın-Qarındaş balaları!...

Doğum tarixçələriniz müxtəlif olsa da, qurbanlıq Tarixiniz eyni: "20 Yanvar 1990"! Ad-soyadlarınız çeşid-çeşid, şərəf-şanlarınız, milli titullarınız eyni: "Şəhid"! Beşik-nənni ünvanlarınız, ev-eşikləriniz ayrı, məzar-məkanlarınız eyni: "Şəhidlər XİYABANI"!...

...Belə. Əvvəli qaranlıq, sonu işıqlı Gecəmiz! Sözüm burda bitdi. Adətən, məktuba cavab gözlənər, amma narahat olma, ey bu millətin Qurtuluş Gecəsi! Bu cavab – Milli İstiqlal mayalı, "Biz müstəqil ölkə vətəndaşıyıq!" qürurlu, "Qarabağ qələbəli Azərbaycan!" nidasından ibarət...

**Hə, daha bir SÖZ:**

Davamçılarınızın Azadlığa qovuşdurduğunuz Şimal Vətənimizin ərazi kəm-kəsiri bütövlüyünü bərqərar etdiklərini bilirsiz. Ancaq ruh gözünüz həm də bu mətləbə görə aydın olsun ki, sizin heyətdən fərqli olaraq, budəfəki həmkarlarınız içərisində yüksək hərbi çinli (və anadilli!) zabitlərimiz də var!

Yox, elə sizlər də bu xalqın qəlbində uca çinlilərsiniz: xəlqi paqonlu, milli epoletli Azadlıq leytenantları, İstiqlal albayları, Müstəqillik generallarısız, ey hər zaman sağ, hər kəsdən uca, son çağımızın qos-qoca 20 Yanvar şəhidləri!...

**Mədəniyyət.** - 2021. - 20 yanvar. - № 4. - S. 6.

## Taleyimizin Qanlı Yanvarı

**Qabil Hüseynli,**
fəlsəfə elmləri doktoru, professor

Azərbaycan xalqının tarixində ən kədərli və eyni zamanda şanlı səhifə olan 20 yanvar qırğınının 31-ci ili tamam olur. Azərbaycanın dövlətçilik tarixində 20 Yanvar qanlı bazar günü xalqımızın milli azadlıq, milli müstəqillik uğrunda apardığı çoxillik mübarizəsinin heç zaman unudulmayacaq tarixi səhifələrindəndir. Sovet cəza dəstələrinin qanlı cinayətinə baxmayaraq bu müstəqillik hərəkatı xalqın yetkin siyasi şüuru və azadlığa olan möhkəm inamı sayəsində özünün şərəfli adını dünya azadlıq mübarizəsinin tarixinə yazdı. Xalqımız BMT tərəfindən ilin xalqı elan edildi. Ağır yanqı ilə onu da qeyd etməliyik ki, bu qanlı hadisə azərbaycanlılara qarşı törədilmiş son 100 ilin ən ağır beynəlxalq cinayətlərindən biridir.

20 yanvar hadisələrinə ilk növbədə Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar niyyətlərinə təkan verən keçmiş SSRİ rəhbərliyinin havadarlığı və bilavasitə təşəbbüsü ilə Bakıya sovet ordusu hərbi hissələrinin yeridilməsi ilə nəticələnən silahlı təcavüz aktı kimi yanaşmaq lazımdır. Buna qədər isə 1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR ilə "birləşdirilməsi" haqqında anti-konstitusion akt qəbul etdikdə Moskva buna göz yumdu. Qorbaçovun köməkçisi Aqanbekyanın, "Daşnaksütyun" partiyası ideoloqlarının təhriki ilə ictimai şüura açıq-aşkar ideoloji uydurmalar yeridilir, ermənilərin separatçılığını sovet hakimiyyəti illərində guya Azərbaycan hökuməti tərəfindən törədilən "sıxışdırmalara", "təhqirlərə" və "ayrı-seçkiliyə" qarşı məcburi etiraz hərəkəti kimi qələmə verilirdi. XX əsrin axırlarında sovet rəhbərliyi bir tərəfdən, ermənilərin ərazi iddialarının təmin olunması, digər tərəfdən azərbaycanlıları daha da sıxışdırmaq məqsədi ilə onların yaşadıqları ərazilərin kiçildilməsi siyasətinin davam etdirilməsi üçün cinayətkar məqsədli ardıcıl addımlar atdılar. Bu hadisələr azərbaycanlılara qarşı iki əsr ərzində davam edən soyqırımı, deportasiya, Azərbaycan ərazisinin zorla qoparılıb Ermənistana verilməsi siyasətinin məntiqi davamı idi. Həmin illər xalqımız ayaqda idi. Həm Dağlıq Qarabağda erməni separatizminin meydan sulamasının qarşısının alınmasını, həm də azərbaycanlıların qədim Oğuz yurdu Ermənistandan kütləvi surətdə divan tutularaq zorakılıqla qovulmasını dayandırmağı Moskvadan tələb edirdi. Bu Azərbaycan xalqının haqlı konstitusion tələbi idi və sovet rəhbərləri 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə bu haqlı tələbə misli görünməmiş qəddarlıq və cinayətkarlıqla cavab verdi.

Baş verənlər 20 yanvar ərəfəsində Azərbaycanda ciddi hakimiyyət böhranı yaranması ilə birgə müşayiət olunurdu. Azərbaycan Kommunist Partiyasının birinci katibi Əbdürrəhman Vəzirovun anlaşılmaz və səriştəsiz idarəçilik siyasəti respublikada siyasi vəziyyəti dalana dirəmişdi. Bakıda siyasi gərginlik getdikcə pik nöqtəsinə çatırdı. Yanvarın 10-dan sonra SSRİ rəhbərliyinin nümayəndələri və güc qurumlarının nazir müavinləri Bakıya gəlməyə başladılar. SSRİ Ali Soveti İttifaq sovetinin sədri Y.Primakov və Sov.İKP MK katibi A.Girenko, müdafiə naziri, marşal Yazov Mixail Qorbaçov tərəfindən Bakıya ezam edilmişdilər. Xalq şairi Bəxtiyar Vahabzadə 1997-ci ildə "Respublika" qəzetinə verdiyi müsahibədə o zamankı vəziyyəti belə təsvir edirdi: "Bir qrup ziyalı - rəhmətlik İsmayıl Şıxlı, mən, Nurəddin Rzayev, Şeyxülislam Allahşükür Paşazadə və Həsən Həsənov yanvarın 17-də Əbdürrəhman Vəzirovun yanına getdik. Kabinetə girəndə Primakovla Girenkonu da orada gördük. Mən dərhal Primakovun üstünə hücum çəkdim ki, bizdən nə istəyirsiz, niyə əl çəkmirsiz? Sizə nə pisliyimiz keçib?

Bunu görən Vəzirov qalxıb məni qucaqlayıb sakitləşdirməyə çalışdı. Bu zaman Allahşükür Paşazadə məndən də kəskin şəkildə Primakova hücum çəkdi və sərt şəklidə "xalqıma qarşı təhlükə olan yerdə mən heç kəsi tanımıram. Düzünü de görüm, ordu şəhərə girəcək? Qırğın olacaq, ya yox?" dedi. Onlar bizi sakitləşdirməyə çalışdılar ki, qırğın olmayacaq. Amma Vəzirov bilirdi ki, şəhərə hücum olacaq. Bunu biz də hiss etdiyimiz üçün kabinetdən çıxanda Həsən Həsənov dedi ki, qırğın olacaq. Şeyx də o fikirdə olduğunu bildirdi".

Tanınmış jurnalist Nadejda İsmayılova həmin günlərdə siyasi rəhbərliyin çarəsizliyini öz yazılarında qeyd edib. N.İsmayılova yazır ki, 14 yanvarda Ə.Vəzirov Mərkəzi Komitənin iclasını çağırdı. Axşama yaxın ikinci iclas Moskvadan gəlmiş Primakovun iştirakı ilə keçirildi. Primakov kəskin suallardan qaçaraq çıxış edənlərin sözünü kobud formada kəsirdi. Ali Sovetin sədri Elmira Qafarova bildirirdi ki, vəziyyət çox kritikdir. Spiker deyirdi ki, Xalq Dağlıq Qarabağ probleminin həllini tələb edir. Bu problem həll edilsə, qarşılıqlı anlaşma əldə olunacaq. Primakov isə cavabında "Dağlıq Qarabağdan danışmayın! Deyin görək Bakıdakı ekstremistlərlə nə edək?" soruşurdu. İclasda Büro üzvləri Primakova deyiblər ki, meydana çıxan xalqın yalnız bir tələbi var:

Qarabağda vəziyyəti normallaşdırmaq. Primakov isə qəzəbli halda etiraz edib: "Onlar hakimiyyəti devirməyə çalışırlar. Nə üçün buna göz yumursunuz?".

Buradan aydın görünür ki, Moskvadan göndərilənlər yerli hakimiyyətlə situasiyanı müzakirə etməyə, çıxış yolu tapmağa yox, öz qanlı niyyətlərini həyata keçirmək üçün gəliblər.

17 yanvar 1990-cı ildə SSRİ Ali Soveti İttifaq sovetinin sədri Y.Primakov və Sov.İKP MK katibi A.Girenko partiya rəhbərləri, AXC nümayəndələri və ziyalılarla görüşürlər. Onlar görüşdə qoşunların şəhərə girməyəcəyi barədə vədlər verirdilər. Mərkəz paralel şəkildə başqa vasitələrə də al atırdı. Sovet rəhbərliyi dünya birliyini çaşdırmaq üçün Azərbaycanda islamçı fundamentalistlərin hakimiyyəti ələ keçirməsi haqda məlumat yayırdı.

Yanvarın 18-də Moskvadan gələn nümayəndələr başda olmaqla rəhbərlik Mərkəzi Komitənin qarşısında keçirilən mitinqə gəlib və Primakov mitinqçilər qarşısında çıxış edərək deyib ki, Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməyəcək və şəhər ətrafında toplanmış ordu Bakıya yeridilməyəcək. Eyni sözü həmin gün Sov.İKP MK milli münasibətlər şöbəsi müdirinin müavini V.Mixaylov respublika televiziyası ilə çıxışında təkrar edib. Bu zaman artıq Zaqafqaziya, Moskva, Leninqrad və digər hərbi dairələrdən gətirilmiş 50 minlik ordu hissələri şəhəri işğal etmək üçün hərbi hazırlıq işlərini başa çatdırmışdı. Bütün qoşun növlərindən ibarət olan hərbi hissələr, DTK-nın 7-ci idarəsinin "Alfa" qrupu müxtəlif istiqamətlərdən Bakıya doğru hərəkət üçün start vəziyyətdə idi.

Yanvar ayından etibarən mərkəzi sovet mətbuatında azərbaycanlıların islam fundamentalizminə yuvarlandıqları barədə materiallar dərc olunmağa başladı. Bu məsələdə "Pravda" və "İzvestiya" qəzetləri daha fəal və qərəzli idilər. Onlar həyasızcasına iddia edirdilər ki, islam fundamentalistləri əksər binaların üstündə snayper və pulemyot silahları yerləşdiriblər. Moskva başqa variantlara da əl atırdı.

Bu baxımdan Primakovun QMİ sədri Allahşükür Paşazadəyə respublikada hakimiyyəti ələ alması təklifi də bu təxribatların tərkib hissəsi idi:

"Şeyx həzrətləri, təklif edirəm ki, siz hakimiyyəti əlinizə alıb ölkəyə rəhbərlik edəsiniz!" Bu açıq-aşkar Azərbaycandakı hadisələrə dini görkəm vermək istəyən Moskvanın fitnəsi idi.

Moskvadakı KİV-lər isə durmadan təkrarlayırdılar: "Sovet ordusu Bakıya Azərbaycanda islam fundamentalizminin qarşısını almaq üçün daxil olub". Moskva bu ittihamla ərazi bütövlüyünün pozulmasına qarşı mübarizəyə qalxmış Azərbaycan xalqını geopolitik oyunun qurbanına çevirmək məqsədi güdürdü. Cəmi 123 mollası olan 7 milyonluq ölkənin "islam təməlçiliyi ilə ittiham etmək gözü dönmüş Moskvanın reallıq hissinin bütünlüklə itirməsi demək idi. O zaman kifayət qədər sekulyarlaşmış və ateizmə meyilli Azərbaycanın dini cameəsi çox məhdud idi. 1985-ci ildə Azərbaycanda qeydiyyatdan keçmiş cəmi 18 məscid və 53 dini icma fəaliyyət göstərirdi. 1982-ci ildə aparılmış rəsmi qeydiyyata əsasən, ölkədə cəmi 123 molla vardı. Onlardan yalnız 16 nəfərinin dini təhsili var idi. Buxaradakı "Mir Ərəb" mədrəsəsinin və Daşkənd İslam Universitetinin məzunları olan bu ruhanilərin hamısı Qafqaz Müsəlmanlar İdarəsində və Bakı şəhərinin məscidlərində işləyirdilər. Bu səbəbdən Moskvanın islam amilindən istifadəyə cəhdi fitnə-fəsaddan başqa bir şey deyildi.

Onu da vurğulamaq yerinə düşərdi ki, Azərbaycanda "islam təhlükəsi" barədə iddialar elə xalq hərəkatının başlandığı vaxtdan etibarən səsləndirilirdi. Bu tipli ittihamlar hətta Sov. İKP-də Mərkəzi Komitənin dəhlizlərində müzakirə olunurdu. Məsələn, Mixail Qorbaçovun köməkçisi olmuş Çernyayev özünün memuarlarında yazırdı ki, "Bakıda küçələrə yaşıl bayraqlarla və Xomeynin portretləri ilə çıxırlar". Moskva beləcə ağ yalanla Azərbaycandakı etirazlara dini rəng verməklə Qarabağ ermənilərinin "əlinə oynayır", eyni zamanda respublikamızı SSRİ-də başlanmış demokratik hərəkatdan təcrid etməyə çalışırdı.

Tanınmış siyasi araşdırmaçı Tomas de Vaal özünün "Qarabağ" kitabında qeyd edir ki, Azərbaycan Kommunist Partiyasının ikinci katibi, Əfqanıstandan Bakıya bu posta gətirilən Viktor Polyaniçko siyasi manipulyasiyaya meyilli idi və islam faktorundan istifadədən çəkinmirdi. Bir dəfə Polyaniçko AXC fəallarından ikisini öz yanına görüşə dəvət edərək, qəribə təkliflə onları təəccübləndirmişdi. Polyaniçko israr edirdi ki, AXC-nin proqramına radikal islam təməlçiliyinin prinsipləri də salınsın. "Nyu-York Tayms" qəzetinin müxbiri Bill Keller bir mənbəyə isnad edərək yazmışdır: "Polyaniçkonun kabinetində Quran var idi. O kitabı vərəqlədi və dedi: "Quran yaxşı kitabdır". Daha sonra bildirdi: "Bakı üçün avropasayağı hərəkətlər yaxşıdır. Amma kəndlərdə müsəlman inancı çox güclüdür. Siz gərək islam faktorun nəzərə alasınız". Kommunist məmurundan belə təklif şübhəli və provokasion idi.

Məsələdən hali olanlar yaxşı bilirlər ki, dini amildən öz təxribatçı məqsədləri üçün istifadə etmək həmişə sovet sisteminin arsenalındakı ideoloji təxribat vasitələrindən olub və bu gün də bir sıra ölkələrin praktikasında qalmaqda davam edir. Ciddi sovet ideoloji tezisləri ilə böyümüş Azərbaycan vətəndaşları üçün din daha çox

nənə-babalarının bağlı olduğu bir məsələ idi. Bəs sovet rəhbərliyi qondarma “islam təhlükəsi” yarlığından nə üçün istifadə etməyə can atırdı? Zaqafqaziya Müsəlmanları İdarəsinin yaydığı bəyanatda deyilir:

“Zaqafqaziya müsəlman ruhaniləri siyasi mübarizədə və millətlərarası münaqişələrdə dini ideyalardan istifadə olunmasını yolverilməz hesab edirlər. Regionda vəziyyətin hətta ən gərgin anlarında biz zəkaya, dincliyə, mehriban qonşuluğa çağırmışıq. Məhz buna görə də sabitliyi guya “islam amilinin” pozduğunu iddia etmək xüsusilə hiddət doğurur. Açıq-aşkar görünür ki, bunu iddia edənlər tamamilə məlum bir niyyət güdürlər - müsəlmanları xristianlara qarşı qoymaq, millətlərarası münaqişəni daha da şiddətləndirmək və milli-dini zəmində kəskin münaqişələr yaratmaq”.

Əslində isə bu bölgədə hadisələrin gərginləşməsi ermənilərin məkrli niyyətlərindən qaynaqlanırdı. 1988-ci ildə erməni separatçılarının “Miatsum” adı altında başladığı Qarabağ hərəkatı Azərbaycanda çox böyük etiraz doğurdu. Xalq xain qonşuların tarixi torpaqlarımıza həyasız iddialarına hiddətlə etirazını bildirdi. Bugünkü Azadlıq meydanından vüsət almış milyonluq etiraz mitinqləri bir ildən sonra Azərbaycanın müstəqillik uğrunda mübarizəsinin əsas bazasına çevrilməkdə idi.

Ölkəmizdə milli ideologiyanın sürətlə özünə dayaq tapdığını müşahidə edən Qorbaçov və SSRİ rəhbərliyi bu hərəkatın genişlənərək bütün ittifaq dövlətinin qəbirqazıyanına çevriləcəyindən qorxmağa başladılar. Dindarından tutmuş sekulyarına qədər vahid milli ideya ətrafında birləşmiş xalq öz mütəşəkkil birliyini ortaya qoymaqla Azərbaycanı digər ittifaq respublikaları üçün də azadlıq mayakına çevirirdi.

Moskvanın Qarabağ probleminin həllində tutduğu birtərəfli və ədalətsiz mövqeyi xalqın səbrini tükəndirirdi. Belə vəziyyət isə getdikcə ciddi böhranın əsasını qoymağa başladı. Bakıda DTK tərəfindən təşkil olunmuş erməni talanları, SSRİ-İran sərhədinin sökülməsi, Naxçıvan və Qarabağda erməni silahlılarının dinc azərbaycanlılara hücumları, 220 mindən çox soydaşımızın ata-baba torpaqları olan Ermənistandan barbarcasına qovulması və bu zaman 150-dən çox insanın həlak olması siyasi böhranı kəskinləşdirən detenator rolunu oynayırdı.

SSRİ rəhbərliyinin bütün cidd-cəhdlərinə baxmayaraq 1990-cı ilin yanvarında Bakıda baş vermiş amansız qətliamı dünyadan gizlətmək mümkün olmadı, bu hərbi təcavüzü ört-basdır etmək üçün SSRİ rəhbərliyinin bəyan etdiyi qəribə ittihamlar sabun köpüyü kimi dağıldı. Sovet qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və Azərbaycan rayonlarında 146 nəfər öldürülüb, 744 nəfər yaralanıb, 841 nəfər qanunsuz həbs olunub. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilib. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milislər olub. Qara Yanvar faciəsi nəticəsində SSRİ Konstitusiyası və Azərbaycan SSR Konstitusiyası kobudcasına pozulub, Azərbaycan Respublikasının suveren hüquqları tapdalanıb. Qabaqcadan hazırlanan bu təcavüzkarlıq aksiyası Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq, xalqı təhqir edərək ona mənəvi zərbə vurmaq məqsədi daşıyıb. Azərbaycan xalqı bu faciəni heç zaman unutmayacaq.

Təəssüf ki, həmin dövrdə bu acınacaqlı faktlara dünya ictimaiyyətinin də mövqeyi birmənalı olmamışdır. Bəzi Qərb ölkələri bu cinayətkar hərəkətləri SSRİ-nin daxili işi hesab edərək, baş vermiş insan hüquq pozuntularına öz siyasi maraq və mənafeləri prizmasından yanaşmaqla, laqeyd və seyrçi mövqedə dayanmışlar. Məsələn, Böyük Britaniya və İtaliyanın XİN-i bəyanat verərək, Azərbaycanda yaranmış vəziyyəti “SSRİ-nin daxili işi” kimi qiymətləndirirdi. ABŞ isə Dövlət Departamentinin nümayəndəsi Marqaret Tatuaylerin şəxsində bəyanat vermişdi ki, ABŞ Azərbaycanı dəstəkləmir və Bakıdakı yanvar hadisələrini şərh etməyi lazım bilmir. Dövlət Departamenti M.Qorbaçovu açıqca dəstəkləyərək hesab edirdi ki, onun səyləri azərbaycanlılarla ermənilər arasında silahlı toqquşmanın dayandırılmasına yönəldilmişdir.

Həmin dövrün geosiyasi mənzərəsi fonunda bu sualın cavabı maraqlıdır: 1989-cu ildə ABŞ Panamaya müdaxilə etdi. Ardınca SSRİ tərkibində olan Şərqi Avropa ölkələrində Moskvaya qarşı etirazlar başladı. Vaşinqtondan SSRİ xarici işlər naziri Eduard Şevardnadzeyə müraciət daxil oldu ki, Moskva baş verən etirazlara müdaxilə edərsə, ABŞ bu məsələdə neytral qalacaq. Kreml Vaşinqtonun bu müraciətini özünün Panama müdaxiləsinə haqq qazandırmaq üçün etdiyini anlayırdı. Ona görə də etirazlara qarşı silah işlədilmədi. Lakin bu, Kremlin Bakı müdaxiləsinə zəmin yaratdı. 1989-cu ildən cəmi bir il sonra Bakıda Qanlı Yanvar hadisələri törədildi və Vaşinqton susdu. Bu fakt 20 Yanvar faciəsinə görə, ABŞ-ın da məsuliyyət daşıdığı fikrinə haqq qazandırır. 1990-cı il, 20 Yanvar qırğınından bir gün öncə. Yanvarın 19-da Moskvada ABŞ Senatının xarici məsələlər üzrə alt komissiyasının sədri Kleyborn Pell ilə SSRİ xarici işlər naziri Şevardnadze arasında görüş keçirilir. Pell bildirir ki, Sovet rəhbərliyi “Azərbaycana Qarabağ üzərində” nəzarəti həyata keçirməkdə davam etməyə icazə verməməlidir.

Lakin hər şey bundan ibarət deyilmiş və ortaya çıxan bir sıra sənədlər azərbaycanlıların vəhşicəsinə qətlə yetirilməsində, buna paralel olaraq, Dağlıq Qarabağ münaqişəsi və ermənilərin Azərbaycana qarşı təcavüzkar siyasətində Ağ Evin indi demokratiya adı altında hər kəsin gözünə soxduğu barmağının olduğunu göstərir...

Senatın Qorbaçova ünvanladığı məktubda deyilir: "Sizdən xahiş edirik ki, erməni azlığının qətlə yetirilməsinin, eləcə də regionda digər zorakılıqların qarşısını almaq üçün tədbir görəsiniz. Ümid edirik ki, sovet rəhbərliyi vətəndaş sülhü ilə yanaşı, vətənlərinə dönmək istəyən ermənilərin təhlükəsizliyini təmin edəcək. Ona da ümid edirik ki, Qarabağın və Ermənistanın iqtisadi mühasirəsini yaracaqsınız. Orada zəlzələ zonasında çoxlu sayda amerikalı və digər xaricilər işləyir. Azərbaycanda dəhşətli zorakılığın baş verməsi Dağlıq Qarabağın 160 minlik (əslində 65 minlik) erməni əhalisinin Ermənistanla birləşməsinin vacibliyini bir daha təsdiq edir. Azərbaycan hakimiyyəti 70 il ərzində Dağlıq Qarabağ əhalisinin 60 faizini təşkil edən ermənilərin iqtisadi və mədəni hüquqlarını pozub. Sizdən təkidlə xahiş edirik ki, Qarabağ xalqına özünün gələcək siyasi və mədəni mənsubiyyətini müəyyən etmək hüququnu vermək yolu ilə Sovet dövləti çərçivəsində baş verən faciənin qarşısını alasınız".

Bu müraciət ABŞ-ın 20 Yanvar faciəsi və Azərbaycan torpaqlarının ermənilər tərəfindən işğal edilməsində hansı dərəcədə rol oynadığını göstərir.

Əlbəttə, belə mövqelər həmin dövrün geosiyasi şərait və amilləri ilə sıx bağlı idi. Çünki, Qərb dövlətləri anlayırdı ki, bu cür millətlərarası münaqişələr SSRİ-ni daxildən zəiflədərək parçaladığı üçün, 20 yanvar hadisələri kimi analoji faktlar onların "soyuq müharibə" planlarına və strateji məqsədlərinə tamamilə uyğun idi.

1990-cı il yanvarın 19-20-də Bakı şəhərində baş vermiş hadisələrin ilkin təhqiqi haqqında Azərbaycan SSR Ali Soveti İstintaq Komissiyasının 11 fevral 1990-cı il tarixli Bəyanatında isə qeyd olunurdu ki, İttifaq hakimiyyət orqanları ölkənin qanunlarını və beynəlxalq hüquq normalarını saya salmadan, Azərbaycan SSR-in suveren hüquqlarına məhəl qoymadan, SSRİ-nin yaradılması haqqında müqavilənin şərtlərini, SSRİ Konstitusiyasını və Azərbaycan SSR Konstitusiyasını kobudcasına pozaraq, respublikanın ali dövlət hakimiyyəti orqanlarının razılığı və fövqəladə vəziyyəti tənzimləyən qanunvericilik aktı olmadan Azərbaycan Sovet Sosialist Respublikasına qeyri-qanuni surətdə qoşunlar yeritmiş və onun paytaxtı Bakı şəhərində fövqəladə vəziyyət elan etmişlər.

Elə bu səbəbdən də Bakı şəhərində fövqəladə vəziyyətin ləğv edilməsi haqqında Azərbaycan SSR Ali Sovetinin 22 yanvar 1990-cı il tarixli qərarının 1-ci maddəsində qeyd olunur: "Bakıda fövqəladə vəziyyət haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin 19 yanvar 1990-cı il tarixli fərmanı Azərbaycan SSR-in suverenliyinə qarşı təcavüz, bu fərmanın Bakı və onun ətrafında kütləvi qırğına səbəb olmuş icrasına sərəncam vermiş SSRİ ali hakimiyyət orqanlarının və ali vəzifəli şəxslərin hərəkətləri isə Azərbaycan xalqına qarşı cinayət kimi qiymətləndirilsin".

Bakı qırğını Mixail Qorbaçovun siyasi bioqrafiyasına qara hərflərlə yazıldı. Uzun illər bu barədə verilən suallardan qaçan sabiq prezident yalnız SSRİ-nin süqutundan sonra Bakıya ordu yeridilməsinin səhv olduğunu etiraf etməyə özündə cəsarət tapa bilmişdi. O, yazdığı "Həyat və islahatlar" kitabındakı memuarlarında sovet ordusunun 20 yanvarda Bakıya qanlı müdaxiləsi barədə mövqeyini qeyd edərkən yazır: "Bu faciəli hadisədən dərs götürdüm. Hakimiyyət ekstremal situasiyada güc tətbiqindən imtina edə bilməz. Ancaq bu aksiya mütləq olaraq əsaslandırılmalı və çox sərt tədbirlərlə bağlı addım məhdudlaşdırılmalıdır. Problemin həlli yalnız siyasi yolla tapılmalıdır".

Onun ruhi sarsıntısını isə arvadı Raisa Qorbaçova yazdığı "Mən ümid edirəm ki..." kitabında göstərib: "Mən gecə zənglərin birini xatırlayıram: 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə evə gələn zəngi... Bakıda hadisələrin baş verdiyi o gecəni... Yadımdadır, 20 yanvar günü səhər tezdən mən Mixail Qorbaçovu tanımadım: Ağappaq ağarmış, boz sifət, ruhi sarsıntı və ürək böhranı...".

SSRİ rəhbəri Mixail Qorbaçovun Qərbdə populyar olması onun bu qanlı əməlinin dünya liderləri tərəfindən pislənməsinin qarşısını ala bildi.

Böyük Britaniya XİN-i bəyanat verərək, Azərbaycanda yaranmış vəziyyəti "SSRİ-nin daxili işi" kimi qiymətləndirirdi. İtaliyanın xarici işlər naziri D.Mikels də bəyan etmişdi ki, Bakıda baş vermiş hadisələr SSRİ-nin daxili işidir. Onun dediyinə görə, SSRİ hökuməti öz milli mənafelərini qorumalı və Azərbaycan Xalq Cəbhəsinin radikal əhval-ruhiyyəli millətçilərinin qarşısını almalı idi. Həmin günlər "Amerikanın səsi" radiosu məlumat yaymışdı ki, Bakıya qoşun yeridilməsi üçün Azərbaycanda islam fundamentalizminin baş qaldırması ilə qorxudulan ABŞ prezidenti Corc Buş iki gün ardıcıl olaraq Qorbaçovu müdafiə edib. Amma sonradan onlar da səhv etdiklərinin fərqinə vardılar.

Bu ağır günlərdə baş verənlərə öz qəti etirazını bildirən, Azərbaycanın Moskvadakı nümayəndəliyində hadisə ilə bağlı mətbuat konfransı keçirən görkəmli dövlət xadimi Heydər Əliyev oldu. Siyasi hakimiyyətin

bütün maneələrinə baxmayaraq paytaxt Moskvada mətbuat konfransı keçirən Sovet İttifaqı Kommunist Partiyasının Siyasi Bürosunun sabiq üzvü, SSRİ Nazirlər Soveti sədrinin sabiq birinci müavini Heydər Əliyev bu qanlı qırğına görə Mixail Qorbaçovu ittiham etdi.

Sovet rəhbərliyinin islam təhlükəsi barədə şişirdilmiş yalanı yerimədi. Bütün dünya az sonra Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsinin yeni səhifəsinin şahidi oldu. “Qanlı Yanvar” hadisəsindən iki ay sonra Azərbaycanın SSRİ-dən ayrılması, dövlət müstəqilliyi uğrunda mübarizəsi başlandı. Bir il sonra - 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında “Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında” Konstitusiya Aktı yekdilliklə qəbul edildi. Bu həm də SSRİ-nin dağılması, “Müstəqilliklər paradının” başlanğıcı oldu.

**Respublika.** - 2021.- 19 yanvar. - № 12. - S. 7.

**Tariximizin şərəf və qəhrəmanlıq səhifəsi: Qanlı Yanvar**

**Bəhman Quliyev,**
Şirvan Qeydiyyat Şöbəsinin rəisi, I dərəcəli Ədliyyə Qulluqçusu

**Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrindən artıq 30 il keçir. Keçmiş Sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi qalacaqdır. Milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə silahlı təcavüz nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi.**

1990-cı il yanvarın 20-də Bakıda baş verən hadisələri Qarabağdakı erməni təcavüzündən ayrıca təhlil etmək düzgün olmazdı. Hər dəfə Qarabağa dair ərazi iddiaları kənardan, məhz, Ermənistanın təbliği, təhriki və təzyiqi ilə ortaya atılırdı. Heç şübhəsiz, ermənilərin bu ərazi iddiaları birdən-birə deyil, Yerevanda, Moskvada və Qərbdə olan himayədarları tərəfindən hələ xeyli əvvəl diqqətlə və hərtərəfli plan əsasında hazırlanmışdı. Sovet dövründə mərkəzi hakimiyyət orqanlarının himayədarlığı ilə Azərbaycan əleyhinə məqsədyönlü şəkildə təbliğat kampaniyası aparılmış və nəticədə, mənfi ictimai fikir formalaşdırılmışdı. Erməni ideoloqları və onların ilhamvericiləri Azərbaycanın tarixi, sosial-iqtisadi inkişafı haqqında faktları açıq-aşkar saxtalaşdıraraq bütün ittifaq miqyasında yaymışdılar.

Ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkarlıq siyasəti və keçmiş SSRİ rəhbərliyinin onlara himayədarlığına öz qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı Sovet ordusunun xüsusi təlim keçmiş hissələrindən istifadə olunması 1990-cı ilin 20 yanvarında qanlı faciəyə gətirib çıxardı. 1990-cı il yanvarın 15-də SSRİ Ali Sovetinin Rəyasət Heyətinin sədri M. Qorbaçov "DQMV və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında" fərman imzaladı. Azərbaycan SSR Ali Sovetini təklif edildi ki, Bakı və Gəncə şəhərlərin də və başqa yaşayış məntəqələrində qadağan saatlarının tətbiq edilməsi də daxil olmaqla, lazımi tədbirlər görülsün.

Bununla yanaşı, Ermənistanın əra2 iddiası obyekti olan Dağlıq Qarabağ bölgəsinə nəinki aidiyyəti olmayan və onu hüdudlarından kənarda yerləşən bir sıra ərazilərimiz Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Bu genişmiqyaslı hərbi təcavüz münaqişəni mahiyyətcə yeni - işğalçılıq səviyyəsinə keçirdi. Hazırda təkcə Yuxarı Qarabağın deyil, eləcə də digər ərazilərimizin işğal altında olması Ermənistanın Azərbaycana qarşı dövlət səviyyəsində ərazi iddiasında olduğunu təsdiq edir.

1990-cı ilin yanvar ayında M. Qorbaçov başda olmaqla Sovet imperiyasının rəhbərliyi Bakıda vəziyyətin öz məcrasından çıxdığını və hakimiyyətin təhlükədə olduğunu bəhanə edərək qoşunun yeridilməsi üçün müxtəlif dezinformasiyalar yayırdı. Guya Bakıya qoşun hərbi qulluqçuların ailələrini qorumaq, hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə bu, tamamilə saxta bir tezis idi. Çünki Sovet rəhbərliyinin "dəlilləri" hətta həqiqətə yaxın olsaydı belə, Bakıya xüsusi təlim keçmiş qoşun göndərməyə ehtiyac yox idi. Ona görə ki, həmin vaxt burada daxili qoşunların 11 min 500 əsgəri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri Bakıda yerləşirdi.

**Bütün bunlara baxmayaraq, 1990-cı il yanvarın 19-da M. Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. Lakin əhalinin bundan məlumatsız qalması üçün SSRİ DTK-nın "Alfa" qrupu tərəfindən yanvarın 19-da saat 19.27-də Azərbaycan televiziyasının enerji bloku partladıldı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və dinc əhaliyə amansız divan tutuldu.**

M. Qorbaçovun fərmanı qüvvəyə minənədək - yanvarın 20-də saat 00:00-dək artıq 9 nəfər öldürülmüşdü. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100 nəfərə çatmışdı. Belə ki, artıq yanvarın 20-də 131 insan öldürülmüş: onlardan 117-si azərbaycanlı, 6-sı rus, 3-ü yəhudi, 3-ü tatar; 744 adam ağır xəsarət almış; 4 şəxs itkin düşmüş; 400 nəfər isə həbs edilmişdi. Sovet qoşunları fövqəladə vəziyyət elan olunmayan rayonlara - yanvarın 25-də Neftçalaya, bir gün sonra isə Lənkərana yeridilmiş, nəticədə hər iki rayonda dinc insanlar qətlə yetirilmişlər. Beləliklə, sovet qoşunlarının Bakıya və Azərbaycanın digər rayonlarına hərbi

müdaxiləsi nəticəsində öldürülən insanların sayı rəsmi olaraq 147-yə çatmışdı. Bütün bu faciələrə baxmayaraq Azərbaycan xalqı öz müstəqilliyinə qovuşdu.

O zaman yalnız ümummilli lider Heydər Əliyev bütün çətinliklərə baxmayaraq 1990-cı il yanvarın 21-də siyasi iradə nümayiş etdirərək Moskvadakı Azərbaycan nümayəndəliyinə gəlmiş və SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə ittiham edərək bəyanatla çıxış etmişdir. 1993-cü ilin ikinci yarısında ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Bundan sonra, 1990-cı ilin qanlı Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 5 yanvar tarixli Fərmanında deyilir: "Xalqımızın tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı ilin yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermişdir. Tarixin yaddaşına qanla yazılmış həmin gündən bizi 4 illik zaman məsafəsi ayırır. Təəssüf ki, 4 il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilməmişdir". Fərmanda Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymətin verilməsi, bu məqsədlə parlamentin xüsusi sessiyasının keçirilməsi məsələsinə baxılması tövsiyə edilirdi. Milli Məclisdə müzakirələrin yekunu olaraq 1994-cü il martın 29-da qəbul edilən qərarda, nəhayət ki, 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi.

**1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar. Bu gün müstəqil Azərbaycan dövlətinin tarixinə qanlı 20 Yanvar faciəsi xalqımızın şərəf və qəhrəmanlıq səhifəsi kimi yazılmışdır.**

**Azad Azərbaycan.** – 2020. – 16 yanvar. - № 04. – S. 3.

## 20 Yanvar: Tariximizin qanlı və şanlı səhifəsi

**Günay Tağıyeva**

**Ümummilli lider Heydər ƏLİYEV: Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi.**

XX yüzillik Azərbaycan xalqının tarixinə ən qanlı hadisələrlə, faciələrlə, misli görünməmiş soyqırımlarla yanaşı, müstəqillik və azadlıq uğrunda mübarizə, hünər və qəhrəmanlıq, milli oyanış və özünüdərk əsri kimi də daxil oldu. Qan yaddaşımıza böyük faciə və qəhrəmanlıq kimi həkk olunan 20 Yanvar müstəqillik əzmimizi, milli kimliyimizi dünyaya tanıdan gün oldu. Bu tarix Azərbaycanın istiqlalı yolunda milli məfkurəmizdən güc alan qarşısıalınmaz azadlıq istəyinin dünyaya bəyan edilməsinin başlanğıcıdır.

1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir. 20 Yanvar qırğını Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mubarizəsini boğmaq, ona mənəvi zərbə vurmaq məqsədi daşıyırdı. Lakin sovet imperiyası insanlıq adına sığmayan əməlləri ilə Azərbaycan xalqının iradəsini qıra bilmədi.

Qanlı Yanvar milli azadlıq hərəkatının daha da yüksəlməsinə və nəticədə Azərbaycanın yenidən müstəqilliyə qovuşmasına yol açdı. Uzun illər ərzində milli azadlığını bərpa etmək arzusu ilə yaşayan xalqımız nəyə qadir olduğunu sübut etdi. Tarix bir daha göstərdi ki, dövlətçilik ənənələrini yaşadan xalqımızı müstəqilliyi uğrunda mübarizədə qorxutmaq, susdurmaq, dayandırmaq mümkünsüzdür.

Bu gün 30 ili arxada qoyan Qanlı Yanvar hadisələrinin səbəbləri, bu hadisələrin günahkarları, onlara yardım edənlər, verilən yanlış qərarlar və onların törətdikləri ağır fəsadlar, üzləşilən bütün haqsızlıqlara və ədalətsizliklərə baxmayaraq, xalqımızın göstərdiyi böyük qəhrəmanlıq hər bir azərbaycanlını qürurlandırır.

Xalqların tarixində həm faciəli məqamlar, həm də qəhrəmanlıq səhifələri olur. Lakin çox nadir hallarda bu iki məqam üst-üstə düşür. Azərbaycan xalqı 1990-cı ilin Qanlı Yanvarını həm faciə, həm də qəhrəmanlıq səhifəsi kimi yaşadı. O müdhiş gecə Azərbaycan xalqı sınağa çəkildi. Həm xalqın öz içində yetişdirdiyi qəhrəmanlar üzə çıxdı, həm də bu faciəni törədənlərə başçılıq edənlərin kimliyi bəlli oldu.

1990-cı il yanvarın 20-də Azərbaycanın ərazi bütövlüyünü pozmaq cəhdlərinə, keçmiş SSRİ rəhbərliyinin Azərbaycanla bağlı apardığı qərəzli siyasətə, yerli rəhbərliyin xalqımızın mənafeyinə zidd mövqedə durmasına qarşı etiraz əlaməti olaraq küçələrə çıxmış dinc əhaliyə divan tutmaq məqsədilə Bakıya və respublikanın digər rayonlarına sovet hərbçiləri yeridildi. Dinc əhalinin kütləvi etiraz aksiyaları ağır hərbi texnikanın köməyi ilə vəhşicəsinə dağıdıldı. Bu olanlar süquta uğramaqda olan sovet siyasi sisteminin qorunması cəhdi kimi deyil, həm də azərbaycanlıların tarixi torpaqlarından sıxışdırılıb çıxarılması siyasətinin yeni şəraitdə davamı idi.

20 Yanvar hadisəsi xalqımızın yaddaşına qanlı faciə kimi daxil olsa da, bütövlükdə milli tariximizin ən şanlı və qəhrəmanlıq səhifələrindən birini təşkil edir. Məhz 20 Yanvardan başlayaraq Azərbaycan xalqı SSRİ-nin tərkibində ədaləti bərpa etməyin qeyri-mümkünlüyü və milli haqlarımıza obyektiv yanaşma nümayiş olunacağına öz inamını birdəfəlik itirdi.

Hakimiyyətin mənbəyi sayılan və öz hüquqları uğrunda düşüncəsi, fikri, sözü, həmrəyliyi ilə mübarizəyə qalxmış bir xalq 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə öz zəhmli ordusunun tankları, işıq saçan zəhərli güllələri, xüsusi təyinatlı hərbi dəstələri, pozuculuq-təxribat işlərini təşkil edən çevik qrupları ilə üzləşdi...

Bakıda fövqəladə vəziyyət tətbiq edilməsinə baxmayaraq, yanvarın 22-də Azərbaycan xalqı şəhidləri ilə vidalaşdı. Paytaxt matəm libası geyindi. Respublikada 3 gün matəm elan olundu. Azərbaycanın bütün rayonlarında və Bakıda izdihamlı matəm mitinqləri keçirildi. Matəm mərasimində bir milyondan çox insan iştirak edirdi. Bu, Azərbaycan xalqının azadlıq səsi, haqq, ədalət, demokratiya və müstəqillik uğrunda mübarizə əzmi idi.

20 Yanvar faciəsi törədilən zaman Azərbaycan xalqı ağır iflic vəziyyətinə və informasiya blokadasına salındı, radio, televiziya susduruldu, onun enerji bloku silahlı hərbçilər tərəfindən partladıldı, mətbuatın nəşrinə qadağa qoyuldu. Xalq ağır və dəhşətli faciədən xəbərsiz idi. Xalq bilmirdi ki, 1990-cı il yanvarın 19-da

Azərbaycan SSR Ali Sovetinin hüquqi qüvvəsi olmayan 15 yanvar tarixli saxta qərarına əsasən, yanvarın 19-dan 20-nə keçən gecədən etibarən Bakı şəhərində fövqəladə vəziyyət elan edilmişdi.

Yanvarın 18-də televiziya ilə çıxış edən SSRİ və Azərbaycan rəhbərliyinin nümayəndələri respublika əhalisini əmin etdilər ki, Bakıda fövqəladə vəziyyət tətbiq edilməyəcək və belə tədbir nəzərdə tutulmayıb. Ancaq bu vaxt DTK-nın diviziyasının və desant hissələrinin Bakıya atılması başa çatmaqda idi.

Fövqəladə vəziyyətin yanvarın 19-dan 20-nə keçən gecə tətbiq edilməsinə baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat 21-dən etibarən birinci olaraq Türkan-Qala tərəfdən şəhərə yeridildi. "Bakı əməliyyatı"na rəhbərliyi birbaşa SSRİ müdafiə naziri Dmitri Yazov, SSRİ daxili işlər naziri Vadim Bakatin, SSRİ DTK sədrinin müavini Filip Babkov həyata keçirdilər.

Bakı qarnizonunun qoşunları, gətirilən hərbi hissələr, hərbi gəmilərdən çıxarılan desant qrupları şəhər üzərinə hücuma keçdi. Ağır hərbi texnika çox asanlıqla barrikadaları dağıtdı. Şəhərin küçələri güllələnmiş və yaralanmış günahsız adamların - qocaların, qadınların, uşaqların qanına qərq oldu. Hərbçilər təsadüfən küçəyə çıxanları, yaşayış evlərini, təcili yardım maşınlarını atəşə tutur, yaralıları öldürür, meyitləri yandırır, təhqir edir, eybəcər hala salırdılar. Adamları ağır hərbi texnikanın tırtılları altına salır, əzabla öldürürdülər...

Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirdi, 20 nəfəri ölümcül yaraladılar. Fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürüldü. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda - yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirildi.

Sovet qoşunlarının qanunsuz yeridilməsi nəticəsində Bakıda və Azərbaycan rayonla-rında 146 nəfər öldürüldü, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu; hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edildi. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milislər (polislər) də vardı.

O ağır günlərdə ümummilli lider Heydər Əliyev bütün çətinliklərə baxmayaraq, 1990-cı il yanvarın 21-də siyasi iradə nümayiş etdirərək Moskvadakı Azərbaycan nümayəndəliyinə gəldi və SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə ittiham edərək bəyanatla çıxış etdi...

1993-cü ilin ikinci yarısında ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Bundan sonra 1990-cı ilin Qanlı Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. Ulu Öndər sonradan o günləri xatırlayarkən deyirdi: "Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi".

Xalqımız bu mübariz oğul və qızlarının şücaətini daim yüksək qiymətləndirir, onların ruhuna ehtiram göstərir, xatirəsini hər zaman uca tutur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 20 Yanvar faciəsinin 30 illiyinin qeyd olunması haqqında imzaladığı Sərəncam bunun əyani sübutudur.

Xalqımızın milli mənliyinə, milli azadlıq ruhuna qarşı təcavüz olan yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan Vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar.

**Hərbi and**. - 2020. - 17 yanvar. - № 2. - S. 13.

## 20 Yanvar qəhrəmanlıq və qürur günümüzdür

**Lalə Hüseynova**

**Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyevin sərəncamı ilə "20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə bağlı tədbirlər planı" təsdiq edilib. Tədbirlər planı Azərbaycan Respublikası Prezidentinin 20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında 2019-cu il 13 dekabr tarixli Sərəncamına əsasən hazırlanıb. Plana əsasən, respublikanın şəhər və rayonlarında, idarə və təşkilatlarında 20 Yanvar faciəsinin Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizənin rəmzi kimi qeyd olunması ilə bağlı tədbirlər, 20 Yanvar hadisələrinin mahiyyətini əks etdirən konfrans, toplantı və mühazirələr təşkil ediləcək, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşalar, bədii və sənədli filmlər nümayiş olunacaq. 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə bağlı tədbirlər kütləvi informasiya vasitələrində geniş işıqlandırılacaq. Dünya ictimaiyyətinin diqqətini bu faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəlikləri və icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar hadisələri barədə müxtəlif dillərdə materialların hazırlanması, nəşri və yayılmasının təmin olunması barədə müvafiq qurumlara tapşırıqlar verilib. Tədbirlər planına əsasən, respublikanın bütün təhsil müəssisələrində faciəyə həsr edilmiş xüsusi dərs keçiriləcək, 20 Yanvar şəhidlərinin ailələrinə humanitar yardımlar göstəriləcək, Şəhidlər xiyabanı ərazisində lazımi işlər aparılacaq, faciə qurbanlarının xatirəsinə həsr olunan dini mərasimlər təşkil ediləcək.**

Bundan başqa, paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər xiyabanına ziyarətinin təşkili, saat 12:00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə əlaqədar hüzn əlaməti olaraq Azərbaycanın dövlət bayraqlarının endirilməsi və digər tədbirlər planlaşdırılır.

Xalqımızın qan yaddaşına yazılan 20 Yanvar faciəsi zaman etibarilə bizdən uzaqlaşsa da, sanki dünən baş verib. Bakıda Qanlı Yanvar faciəsindən 30 il keçməsinə baxmayaraq, onun ağrı-acıları bu gün də qəlbimizi göynədir, qırmızı qərənfillərə bürünmüş şəhid cənazələrini çiyinlərində aparan insan seli, izdiham hər zaman gözümüzün önündən kino lenti kimi keçib gedir. O gecə Bakı qan içində boğuldu. Azərbaycan 70 il əvvəl olduğu kimi, yenə faciəyə düçar edildi. Xalqımızın haqq səsini boğmaq istəyən o zamankı Kreml rəhbərləri Bakıda Qanlı Yanvar qırğınını törətdi...

Bu faciəni unutmamalıyıq! Unutsaq, azadlığımızın, müstəqilliyimizin qədrini bilmərik.

20 Yanvar şəhidləri müstəqilliyimizin ilk qaranquşları idi. Ona görə də 20 Yanvarı təkcə faciə, hüzn günü adlandırmaq olmaz. Bu hadisə xalqımızın müstəqillik, azadlıq, demokratiya, ərazi bütövlüyü uğrunda apardığı mübarizənin təntənəsidir. Eyni zamanda, bütün dünyanı heyrətdə qoyan mərdlik, igidlik, haqsevərlik uğrunda mübarizənin təntənəsidir.

Məlumdur ki, ötən ilin sonlarında - 13 dekabr tarixində Azərbaycan Prezidenti İlham Əliyev "20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında" sərəncam imzaladı. Sərəncamda bildirilir: "Ermənistan SSR-in respublikamıza ərazi iddialarına, radikal erməni millətçiləri tərəfindən qızışdırılan separatizmə və soydaşlarımızın əleyhinə törədilən kütləvi zorakılıqlara SSRİ rəhbərliyinin bilavasitə və ya dolayısı ilə dəstək verməsi, habelə Azərbaycanın o zamankı rəhbərlərinin cinayətkar qətiyyətsizliyi və milli maraqlara zidd addımları xalqımızı respublikanın ərazi bütövlüyünün qorunması naminə ayağa qalxmağa sövq etdi. Beləliklə, respublikada geniş sosial spektrli xalq hərəkatı yarandı və proseslərin gedişi onun tədricən milli azadlıq hərəkatına çevrilməsinə zəmin yaratdı."

XX əsrin sonlarında Azərbaycan xalqının yaşadığı 20 Yanvar faciəsi keçmiş Sovet İttifaqının siyasi iflası dövründə Moskva rəhbərliyinin sadəcə bir cinayət əməli olmayıb. Bu əməl rus, erməni şovinizminin xalqımıza qarşı növbəti etnik vəhşiliyi idi. Həmin dövrdə yenidənqurma siyasəti, yəni, demokratikləşmə prosesi təkcə Azərbaycanda deyil, digər ittifaq respublikalarında da gedirdi. Sovet rəhbərliyi ölkədə baş verən demokratik hərəkatlara qarşı güc tətbiq etmişdi. Lakin bu digər respublikada heç də Azərbaycanda olduğu kimi böyük faciəyə səbəb olmadı. Faciənin böyüklüyü bir tərəfdən o zamankı Azərbaycanın siyasi rəhbərliyinin səriştəsizliyi və fitnəkarlığı ilə izah olunsa da, digər tərəfdən rus, erməni şovinizminin birləşməsi kimi də izah olunmalıdır. Bu şovinizm 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıya bir gecəlik çıxarılan xüsusi təyinatlı, xüsusi amansızlıqları ilə seçilən hərbi birləşmələrin milli tərkibinin erməni mənşəli olmasında və

onların istifadə etdikləri silah-sursatın öldürücü xüsusiyyətlərinə görə beynəlxalq hüquq normaları ilə istifadəsi qadağan edilmiş hərbi təchizat olmasında özünü göstərirdi.

...1990-cı il yanvarın 19-dan 20-ə keçən gecə - o qanlı şənbə gecəsi imperiya silahlarından güllə yağmuru yağdı əliyalın, silahsız millətimizin üzərinə. Güllələrdən deşik-deşik oldu nəhəng binaların divar sinələri. 70 illik imperiya zülmətindən sıyrılıb öz müstəqilliyinə doğru addımlayan xalqımızın azadlıq arzusuna atılırdı bu güllələr.

Heç kəsə aman vermədən, heç kəsə rəhm etmədən, ağzı süd qoxulu günahsız körpələrimizdən müdrik ağsaqqallarımıza, ağbirçəklərimizə, cavanlarımızadək qarşılarına çıxan bütün dinc əhali güllənbaran edildi. Həmin faciəli gecədə vəhşi imperiya gülləri son nöqtə qoydu neçə-neçə yurddaşımızın hələ doğulmamış sabahlarına.

Qeyd etdiyimiz kimi, əksəriyyəti ermənilərdən ibarət olan Sovet ordusunun törətdiyi qətl və cinayətlər yanvarın 20-dən sonra da davam etdi. Keçmiş İttifaqın rəhbəri, bu qırğınların törədicisi M.Qorbaçovun ən yaxın məsləhətçilərindən biri olan akademik A.Aqanbekyanın hələ 1987-ci ilin noyabrın ortalarında Fransanın erməni institutu assosiasiyasının üzvləri ilə görüşərkən guya Qarabağın qədim erməni torpağı olduğunu iddia etməsi qanlı faciələrə başlamaq üçün bir siqnal idi. Qorbaçova yaxın olan Brutens, Şahnazarov, Sitaryan, Xaçaturov və digər qatı şovinist erməni emissarlarının Qarabağı Azərbaycandan qoparmaq üçün sonadək mübarizə aparacaqları xarici dövlətlərə və oradakı kəşfiyyat orqanlarına yaxşı məlum idi. Qorbaçov özü də artıq ermənilərin dirijor çubuğu ilə durub-oturmaqla ölkəni "idarə edirdi." Xatırladaq ki, o vaxt daşnak Zori Balayanın xalqımıza qarşı böhtan və iftiralarla dolu "Ocaq" kitabı Qorbaçovun stolüstü kitabına çevrilmişdi. Məhz ermənipərəst Qorbaçovun xeyir-duasından sonra vəhşi daşnaklar Azərbaycana doğru yürüşə başladılar.

Əliqanlı imperiyanın Azərbaycanda törətdiyi faciələr bununla tükəndimi? Əsla! 20 Yanvardan sonra baş verən faciələr sırasına dünyanın ən dəhşətli hadisələrindən biri Xocalı soyqırımı, Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Qarabağın bəzi ərazilərində baş verən qanlı səhifələr də əlavə olundu. Vəhşi imperiyanın təpədən-dırnağadək silahlandırdığı erməni faşizmi ilə qeyri-bərabər döyüşlərdə 30 minə yaxın qəhrəman, mərd oğullarımızı itirdik. Ərazilərimizin 20 faizi işğal olundu, 1 milyondan artıq yurddaşımız öz doğma ata-baba torpağından didərgin düşdü. Lakin vahid əqidə bayrağı altında birləşib öz müstəqilliyinə qovuşan xalqımız sarsılmadı, işıqlı gələcəyə olan böyük inamını itirmədi.

İnamla demək olar ki, 70 il ərzində qırmızı imperiyanı 20 Yanvar hadisələri qədər sarsıdıb diz çökdürən ikinci bir hadisə olmayıb. 20 Yanvar neçə-neçə günahsız millətin azadlıq arzularını boğub, onları öz müti köləsinə döndərən qanlı imperiyanın maska arxasındakı simasını və çirkin niyyətlərini həm onun sərhədləri daxilindəki bütün xalqlara, həm də beynəlxalq aləmə tam çılpaqlığı ilə açıb göstərdi. Qətiyyətlə deyə bilərik ki, 20 Yanvar hadisələri ittifaq daxilindəki digər xalqların da milli azadlıq hərəkatının sürətlənməsində müstəsna rol oynadı. İlk baxışda zülmün və ədalətsizliyin haqq və ədalət üzərində təntənəsi kimi görünən 20 Yanvar, əslində, yadelli orduların, tankların, topların, ən müasir hərbi silahların belə xalqın sarsılmaz qranit birliyi və polad iradəsi qarşısında nə qədər gücsüz olduğunu, zahiri qələbənin, əslində, biabırçı məğlubiyyətdən başqa bir şey olmadığını bariz şəkildə nümayiş etdirdi.

O faciəli günlərdən bizi 30 illik zaman kəsiyi ayırır. 30 ildir ki, Dağüstü parkdakı Şəhidlər xiyabanı və Azərbaycanın azadlığı uğrunda mübarizədə şəhid olanların xatirəsinə ucaldılmış "Əbədi məşəl" xatirə kompleksi xalqımızın ən möhtəşəm ziyarətgahına, ən müqəddəs and yerinə çevrilib. Çünki orada əbədiyyət yuxusuna gedənlər Vətən yolunda, xalq yolunda, bugünkü azadlığımız və əbədiyaşar müstəqilliyimiz yolunda şəhid olublar. Vətən və xalq yolunda həlak olanların isə ömrü Vətənin və xalqın ömrü qədərdir. Bu gün Şəhidlər xiyabanı təkcə Dağüstü parkda yox, doğma torpaqlarımızın erməni faşizminin işğalından xilası naminə mübarizəyə hər an hazır olan Azərbaycan Ordusunun hər bir zabit və əsgərinin iç dünyasındadır.

**Hərbi and**. - 2020. - 17 yanvar. - № 2. - S. 12.

**QANLI və...**

**bu xalqa Azad-Aydın gündüzlər qazandıran ŞANLI Gecə!...**

**Tahir Abbaslı**

Səs-sədaca da "ikili" idi o Gecə: total tırtıl səsləri və Milli Azadlıq sədaları...

Bu dünyada (bu mövzuca – bəşərdə) tək elə göz yaşlarının yox, söz qoşlarının da tükənməsi var, əfəndilər! Yəni, milli faciələr ildönümləri haqda illərlə yazmağın özü də fərdi bir kədər...

Bu an bu qəbil yazılarımdan bir neçəsinin ("Qızılgül əsdi", "Sınıq, "əlil" – lakin müstəqil qərənfil!", "Bu məzarlar – həyat yazarlar", "O gecəyə açıq məktub", "Yazıya pozu..." və s.) ağı-ağrı halətindəyəm və düşünürəm: bunların hamısı birlikdə o şəhidlərin o bircə Gecədə yazdığı Azadlıq Epopeyasının yarı-yarımcan sətrinə də dəyməz!...

Bəli, ovaxtlaradək illəri "quş qanadlı" kimi təşbehləyə-müştəbehləyə gəlib çıxdıq haman bu "qış qanadlı"ya. O qanadda hamı uçdu; hətta həmin günlərdə hələ "ana bətni" vətənində olanlar da...

O gurultu-guppultulu Gecəni bu sər-səliqəli, ütü-qutulu qəzet yazısında təqdim etmək çox çətin, çox ağrılı, dərrakəcə ağır oxucum!...

Belə.

Otuz yaşı da tamamlanır o ZİRVƏlik sakinlərinin. Yalnız qədirbilənlər qəlbində yaşadıqları "gənclik"dən "ahıl"lığa qədəm qoyur onlar. O Gecəyə Ata kimi atılarkən babalıqdan, Ana kimi addımlarkən nənəlikdən, subay-salıq yürüyürkən bəylik-gəlinlikdən olacağını yaxşı bilən o həmyaş, o həmkar, o həmxiyaban yubilyarlar...

Elə ilk yarımbaşlığım da –

**Onlara –**

o Gecə "...hər gələn baxar, gedər" kimi "fəlsəfi"ləşdirdiyimiz bu "dünya-pəncərə"dən laqeyd baxmayanlara. Şimşək kimi çaxıb, ildırımtək küçələrə axanlara. O "qara" gözlü, atəş sözlü, "pəmbeyi-daği cünun" əndamlı Yar-Gecənin görüşünə Vətən-buta həvəsilə gedənlərimizədir baş sözüm:

– Ay bığ yeri yenicə tərləyən oğlan, o axşam deyiklinlə son olaraq görüşdünmü?...

– Təzə-tərcə nişanlanmış cavan, üzüyün tabaqda qaldımı?...

– Yenicə evlənmiş şəhid, təzəcə gətirdiyin gəlini gərdəkdə qoyub gəlmişdinmi?...

– O gidi sovet dünyasının badalaqlarına ilişib kamına gecikmiş gözəltılı! Qəlbini yarına açmamışmı getdin?!...

Bu an ikinci ildönümünüzdə bir qarının söylədiyi ən uzun dastanı da xatırladım: "Hərəsi beş arşın ağ aparıb, bu xalqa üçrəngli bayraq qoyub getdilər!"...

Hə, sizi övlad-uşağı olmayan sonsuzlar da "oğul vay!" deyə ağlayırdı o Gecə, ay ucalar!...

...O Səhər hamınız kürəyinizi ana torpağımıza söykəyib, qollarınızı ata sərhədlərimizə açıb, üzünüzü Tanrı dərgahına tutmuşdunuz!

Qolları budanmış birinizin çiyinləri mümküncə ucalığa – tezliklə, bir daha enməyəsi bayrağımızın asılacağı yüksəkliyə qovzanmışdı!

Tırtıl altda qalıb qırılmış qıçlar gördüm – qırımlarından "Müstəqil Azərbaycan!" şərəf-vizasıyla bu dünyanı gəzib-dolanmaqlıq yağırdı!...

Siz ey – otuz il öncə ümumxalq qurbanı olanlar! Vətən Azadlığı üçün "fəda" imzası atanlar. Milli qürur duyğularımıza, hiss-həyəcanlarımıza fəxarət nidası qoyanlar! Küçələrimizdə ürəklərindən al qanlar, bütün məmləkət içrə "yad" gözlərdən göl yaşlar axıdanlar! O gün o Qara Gecənin ayrı-ayrı anlarında Şəhid olub, iyirmi bir ay sonra bütün şahidlərimizi Milli İstiqlal baratı ilə öyündürənlər! Öncəki "70 ilçi" ("9 Yanvar – qanlı bazar Günü" vay-şivənçi) yazarları belə "20 Yanvar"çı edənlər!...

O Gecəyədək dünya düzənliyində hərəsi bir, ZİRVƏLİKdəsə – əbədən yaşdaşlar!...

Adlarınız çeşid-çeşid, şərəf-şanlarınızsa vahid: Şəhid!...

Beşik ünvanlarınız müxtəlif, məzar məkanınızsa eyni: Şəhidlər Xiyabanı!...

"Ruhun gözü Nuhunkundan görərdir" deyiblər; yəqin şahidlərdən də yaxşı görürsüz – ovaxtdan bu xalq neynir – daha çox sizin şərəfləndirdiyiniz o Gecənin hər ildönümündə…

**O Gecəyə:**

– Bəsirət Gözün aydın, ovaxtlar sadəlövhlərin yalnız "müsibət", "məşəqqət" adlandırdığı Gecə! Ciknəsindən qulaq tutulan vəhşi Gecə! Büsbütün yuxusuz, sükutsuz, sevgisiz, toysuz, musiqisiz, yaradıcılıqsız, mədəniyyətsiz Gecə!...

Yadındamı, "qəhrəman sovet ordumuz"un əsgərləri... yox (bu adı daşıyanlar nahaq qan tökməz!), saldatları Biləcəridən şəhərə qalxarkən çəkmələrini... yox (bu da incə-mincə səslənir), sapoqlarını necə taqqıldadırdılar?! O vaxtacan "Şamaxinka" dediyimiz "Şamaxı yolu"na çataçatda qarşılarına əliyalın çıxan gənclərə xəbərdarlıq etmədən necə atəş açırdılar? Qaçıb ağaclar arxasında daldalanmaq istəyən bir yeniyetmə oğlanın qarasına bütöv bir avtomat darağı boşaldıb, dəlmə-deşik etmələrini də xatırlayırsanmı, ey bu gün otuz, sabahlarsa əbədi yaşlı qanavar Yanvar?!...

Əvvəlki bir çox "həmkarlarını" da xatırla, müdhiş və mübarək Gecəmiz! Öz sahiblərinin "qırmızı" ("krasnaya") adlandırdığı, bizimsə "qızıl" ("Qızıl Meydan", "XI Qızıl Ordu") ifadələrilə təltiflədiyimiz kimsə-nəsnə-nəmənələrin törətdikləri hoqqaları deyirəm...

Səndən düz 70 il öncə "parlaq" süngülərlə Bakıya soxulan XI qırmızı ordunun zireh-qatarını xatırla. Cəllad qələmindən çıxmış "37", "ÇK", "NKVD" sibir-sürgünlərini an. Cavidləri, Müşfiqləri aparan gecə-gündüzləri, axşam-sabahları, vaxt-bivaxtları yada sal, ey mənhus Tiranlıq Gecəsi!...

Həmin o "XI Qızıl Ordu" meydanında "Təcili yardım"dan düşüb, yerdə çapalayan nəhəng gövdəli bir cavana yaxınlaşan şəfqət bacısını – o zəif qızcığaz-zərif vətənpərvəri böyür-başına yağdırdıqları güllə yağışıyla yağır-bağır etdiklərini də yada sal...

Dəmir yol vağzalında gecələməli olmuş bir gülsatan oğlanın asfalt üstündə qərənfil ləçəklərilə yazdığı "Elnən gələn vay..." sözlərini, güllələndiyinə görə, tamamlaya bilməməsini də göz önünə gətir və de: "toy-bayramdır"!...

Sən ən böyük bir milli dövrandın, ey tarix hesab-kitabıyca "bir an"lıq 20 Yanvar Gecəsi! Pəpə yeyəndən "məmə" deyənə – hər kəs, hamı əzəmətli "Müstəqillik Simfoniyası"nın ifaçısına çevrildi Səndə!...

**Vətənə:**

Bir balaca söz çilləsilə...

Sabahın, axşamın, bu millətin tale odasında daim şölələnəsi ağ şamın və ...hələlik otuz ildir o müqəddəs ünvanın şərəf-şanını ziyarətçün küll-axışın mübarək, Məmləkətim!

Sübh-tezdənədək gülləbaran çil-çırağına tutulmuş bir Gecəsində, iki yüz illik təşnə-hamiləliyinə həmlə edilmiş Vətənim!

Sən necə qənirsiz Gözəl, necə sevgili Canan, nə tür yaraşıqlı Yarsan ki, aşiqlərindən heç biri səni bir-birinə qısqanmır?! Hamı istəyir ki, səni hamı sevsin, ay ümumelli, ümumxəlqi, ümummilli Sevgilim!...

Sən o zil qaranlıqda elədən-belə, belədən-elə çovuyan o işıldaquş, o bayquş güllələrə könül verməsəydin, o son əsarətdən bu ərəsətliklə qurtula bilməzdin, Ölkəm!...

Fərqindəydin yəqin; "kütlə" nominasiyasından sayılan sürücülər belə maşınlarını zirehli qan-qadalar üstünə sürürdü. Təbiblər xalqın həbibinə çevrilmişdi. Şəfqət-şərafət bacıların "Aslanın erkəyi, dişisi olmaz" zərb-məsəlinin mülki-tibbi-hərbi abidəsini yaradırdılar. Hətta oğrular, cibgirlər də Sənin bu ümummilli hüznünün "qırx"ı (bəziləri "il"i) çıxanadək əllərini dinc qoyub, mayalarından yedilər...

Sən ən maarifçi bir Gecə yaratdın, özgürlük Universiteti təsis etdin, Ulusum! Uzun illərin imper-semestr imtahanlarına tutuquşu cavablar vermək zorundan sıyrılıb, əsl-nəsil dövlət imtahanına vardın. 1991-in 18 oktyabrında bütün universitetlərin fövqündə dayanan Müstəqil Milli Şərəf Universitetini əla-ali qiymətlə bitirib, "öz əli, öz başı" dövranına qədəm qoydun!

Sən ən dini, ən mömin, şəhid-şühəda, qazi-mücahid meydanı idin o dəmlər! Məlum və "məşhur" allahsızlıq dövranının təbliğatına uyanlar belə, o zülm-zülmət qaranlıqda əllərini göyə qovzayıb millətinə dua etdi, ümmətinə nicat dilədi. Süfrələri aylarla ət görməyənlər xeyir işlərçün saxladığı toy toğlularını belə kəsib, mübarək şəhidlərin ruhuna ehsanlar verdilər...

Sənin o Gecən həm də bizim ən siyasi-elitar anımız idi. Bu millətin açıq hava-meydanda toplanmış Milli Məclisi idi. Hər kəs özlüyündə, öz qafasında dövrün Ali Sovetindən büsbütün qeyrətli mövqe tutub, namuslu qərarlar qəbul edib, fövrən icrasına başlayan bir millət vəkili idi...

Bu an Sənin mübarək hüznünün ilk ildönümünə hazırladığım "Qızıl gül əsdi..." tele-süjetimi də xatırlayıram; xiffət səsli, ülfət sədalı Rübabə xanımın bəlli "Qaragilə"sindəki melodik misralar üstə ("Təbrizin küçələri dolanbadolan" əvəzinə, "Bakının küçələri bulanbabulan!") publisistik gəzişmələrimi...

Salam-salyutlar, o Gecəsinin öncəsi yaralı, nəticə-soncası istiqlallı Vətən! İllər uzunu sinəsi Mərkəzin istehsalat orden-medalları, həmin Gecə isə al-qırmızı qurşunlarıyla "bəzənən" Məmləkət!

Amma itirən bəzəyən – məsafəcə uzaq, "böyük qardaş"lıqca "yaxın" Mərkəz oldu, qazanansa, yarı zor, yarı xoş bəzənən Sən – cənab Azərbaycan!...

Nəhayət, –

**Şahidlərə:**

– Onlar bu xalqın istiqlal süfrəsində fəda şərbətini içəli, Azadlıq uğrunda canlarından keçəli, bizlər hansı mənəvi-tənəvi borclar içində, sayın soydaşlar? Başdaşıları ən müqəddəs Vətən daşları sayılan o rəhmətliklərin neçə-neçə tarixi bölgələrimizin siyahısına qoşulmaq təhlükəsi yaşayan Qarabağ amanatının fərqinə kifayət qədər varırıqmı?...

Bu an, bu (milli dərd-sərlərimizin mətbu çözüm uzmanı Mirzə Cəlil ibarəsiycə desək) heynidə də, başlanğıcda iki-üç gəz vurğulamalı olduğum "ikili"lik məsələsi aktivləşir. Söhbət bu qədər yüksək dəyər-əyarda olan ümummilli olay zərərdidələri barədə ikili ictimai rəydən – bir çox sabiq (və az-maz müasir) müdirçə-rəisçə-məmurçaların şəhid simsarlarına, problemli qazilərə "səni, onu mən göndərmişdim?!" sual-nidalarından gedir...

Nəysə...

Son yüz ildə hələ də "ən" təyin-tamamlıqlı baş Qəzan qutlu, Vətən!...

**Mədəniyyət.** - 2020. - 17 yanvar. - № 4. - S. 6.

**20 Yanvar Azərbaycan xalqı üçün şərəf və qəhrəmanlıq tarixidir**

**Qəhrəman Rəcəbli,**
Abşeron rayon Qeydiyyat şöbəsinin rəisi vəzifəsini müvəqqəti icra edən

Qara Yanvar hadisələrindən 30 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi.

Düz 30 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının ovaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir. 20 Yanvar və tariximizdə ondan əvvəl baş vermiş faciəli hadisələr XX əsrdə xalqımız əleyhinə yeridilən siyasətin növbəti təzahürü idi. Həmin faciəli günlərdə öz. ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Bununla belə, Azərbaycan xalqı hər zaman olduğu kimi, öz qürurunu itirmədi, onun iradəsi qırılmadı. 20 Yanvar yalnız faciə kimi deyil, şərəf və qəhrəmanlıq günü kimi xatırlanır. Sovet imperiyası 1990-cı il yanvarın 20-nə keçən gecə Bakıda görünməmiş vəhşiliklər törətsə də, günahsız insanlar qətlə yetirilsə də xalqımızın azadlıq arzusunu boğa bilmədi. İyirmi Yanvar hadisələri milli iftixar hissinin və milli müstəqillik ideyalarının formalaşmasına tarixi şərait baxımından güclü zəmin yaradıb. Qanlı Yanvar faciəsindən sonra ölkənin müstəqilliyinin dönməzliyi birmənalı şəkildə dərk olunub. O dəhşətli gecədə baş verən qanlı hadisələrdən zaman etibarilə uzaqlaşsaq da, xalqımız şəhidlərimizi heç vaxt unutmur, onları həmişə yad edir. Keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən təcavüzkar Ermənistanı açıq-aşkar dəstəklənməsinə və respublikanın ozamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinə qarşı sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciəyə gətirib çıxardı, böyük itkilərlə, günahsız insanların ölümü ilə nəticələndi. Buna baxmayaraq, Azərbaycanın ovaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin yenə də xalqla bir olmağa cəsarəti çalmadı və onlar sovet rəhbərliyinin ətəyindən yapışmaqda davam etdilər. Onlardan fərqli olaraq, həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev həyatını təhlükədə qoyaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gələrək, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da Ulu Öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi. Ümummilli Lider xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıtdıqdan sonra bu məsələni yenidən gündəmə gətirib. Qəhrəmanlıq tariximizin bu şanlı səhifəsi barədə ümummilli lider Heydər Əliyev çox dəqiq qiymət verərək deyib: "20 Yanvar faciəsində həlak olanlar xalq qəhrəmanlarıdır. Onların həlak olması bizim üçün, xalqımız üçün böyük itkidir. Ancaq, eyni zamanda, onların şəhid olması xalqımızın qəhrəmanlıq rəmzidir. O gecə tökülən qan Azərbaycanın müstəqilliyini nümayiş etdirən milli bayrağımızın üzərindəki qandır". Əslində, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcək. Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı idi. Keçmiş SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını cinayətkarcasına pozmuşdu. 1990-cı ilin 20 Yanvarında sovet ordusunun Bakıda həyata keçirdiyi qətliam Azərbaycan xalqının milli bütövlüyünü təsdiqləyən ən böyük hadisələrdən biri kimi tariximizin qan yaddaşına əbədi həkk olunub. Ermənistanın Azərbaycana qarşı ərazi iddialari irəli sürməsindən, keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından, yerli hakimiyyətin xəyanətkarlığından hiddətlənən və bu ədalətsizliyə etirazını bildirmək üçün Bakının küçələrinə, meydanlarına çıxan dinc əhaliyə qanlı divan tutuldu. Keçmiş SSRİ rəhbərlərinin göstərişi ilə Azərbaycana yeridilən ordu hissələri paytaxtda, şəhərətrafı qəsəbələrdə və rayonlarda 147 mülki şəxsi amansızcasına qətlə yetirdilər. Hadisələr zamanı 744 günahsız insan yaralandı. İnsanlıq simasını itirmiş hərbi

canilər hətta təcili tibbi yardım maşınlarını atəşə tutur, heç kəsə aman vermirdilər. 1990-cı ilin iyulunda Moskvadan Vətənə qayıdan ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə həmin il noyabrın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə 20 Yanvar faciəsinə ilk dəfə hüquqi-siyasi qiymət verilib. Azərbaycan xalqının ümumi rəyini özündə təcəssüm etdirən bu qərar Ulu Öndərin qətiyyətinin təzahürü kimi tarixə düşdü. Ulu Öndərin 20 Yanvar faciəsinin dördüncü ildönümünün keçirilməsi ilə bağlı 1994-cü il yanvarın 5-də imzaladığı fərmanda həm də Milli Məclisə hadisəyə tam hüquqi-siyasi qiymət verməsi tövsiyə olunurdu. 1994-cü il martın 29-da respublika parlamenti "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul etdi. Beləliklə, 20 Yanvar faciəsi məhz ümummilli lider Heydər Əliyevin prinsipial və ardıcıl mübarizəsindən sonra öz hüquqi-siyasi qiymətini aldı. 20 Yanvar Ümumxalq Hüzn Günü elan edildi. Bu gün Şəhidlər xiyabanında ucalan "Əbədi məşəl" abidə-kompleksi də məhz Heydər Əliyevin təşəbbüsü ilə şəhidlərin xatirəsinə ehtiram əlaməti olaraq inşa edilib. Ulu öndər Heydər Əliyevin 2000-ci il yanvarın 17-də imzaladığı fərmanla 1990-cı ilin faciəli yanvar günlərində şəhid olmuş oğul və qızlarımıza "20 Yanvar şəhidi" fəxri adı verilib. Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir. Azərbaycanın azadlığı uğrunda canından keçən şəhidlərin xatirəsi daim əziz tutulduğu kimi, onların ailə üzvləri, əzizləri də hər zaman dövlət qayğısı ilə əhatə olunub. Eləcə də 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı hər zaman Prezident İlham Əliyevin diqqətindədir. 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər həyata keçirilib. Şəhid ailələrinin pensiya təminatı, mənzil şəraitinin yaxşılaşdırılması, yaşayış səviyyəsinin yüksəldilməsi ilə bağlı mükəmməl qanunvericilik bazası yaradılıb. Dövlətimizin başçısı bu istiqamətdə sərəncam və fərmanlar verib. Bundan başqa, əlillərin reabilitasiyası üçün respublikada yeni sağlamlıq mərkəzləri inşa olunub. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir.

**Palitra.** – 2020. – 17 yanvar. - № 5. – S. 7.

**Qanlı Yanvarda təcili yardım işçiləri böyük şücaət göstərmişlər**

20 Yanvar faciəsindən bizi 30 illik bir zaman ayırır. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinin və respublikanın bir neçə rayonuna keçmiş sovet qoşunlarının hissələri fövqəladə vəziyyət elan edilmədən yeridilmiş, dinc əhaliyə divan tutulmuş, yüzlərlə insan qətlə yetirilmiş, yaralanmış, itkin düşmüşdür. Silahlı qüvvələrin şəhərə soxulub ağır texnika və məhvedici silahlarla dinc əhaliyə qəddarcasına divan tutması şüurlu surətdə planlaşdırılmış və xüsusi qəddarlıqla həyata keçirilmişdir. Beləliklə, əsgərlərin xüsusi qəddarlığı və misli görünməmiş vəhşiliyi nəticəsində Bakıda və bölgələrdə 136 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuş, hərbçilər tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət və şəxsi əmlak məhv edilmişdir. Yandırılan maşınlar, öldürülən və yaralanan insanlar arasında həmçinin sanitar maşınları və təcili yardım işçiləri də olmuşdur. Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının kollektivi yanvarın 20-də və ondan sonrakı günlərdə öz vəzifə borcunu şərəflə və layiqincə yerinə yetirmişdir. Həmin hadisələrin canlı şahidləri olan hazırda - BŞTTTYS-nin baş həkimi işləyən Rauf Nağıyev, 4 saylı bölmənin müdiri Yusif Musayev, 3 saylı bölmənin böyük həkimi Laçın Əliyeva öz xatirələrini qəzetimizin oxucuları ilə bölüşüblər.

Rauf Nağıyev Bakı şəhəri TTTYS-nin baş həkimi:

—Mən deyərdim ki, Qanlı 20 Yanvara gedən yol 1988-ci ildən başlayır. Çünki 1988-ci ilin fevral ayında Sumqayıtda baş verən hadisələr - təxribatlar, terror hadisələri heç də təsadüfi deyildi. Həmin hadisələr indiki orta nəslin nümayəndələrinin gözləri qarşısında baş verib. Həm də bu hadisələr keçmiş sovet hakimiyyəti illərində olub. Çaş-baş qalmış insanların baxışlarından sual oxunurdu ki, bu iğtişaşlar nədən törədilir və onların qarşısı niyə alınmır. O vaxt sanki dəniz kimi dalğalanan indiki Azadlıq meydanı təlatüm içərisində olanda mərkəz (Moskva) xalqımıza, respublikamıza edilən haqsızlığa göz yumur, erməni vandallarının müdafiəçisi və havadarı rolunda çıxış edir, onların çirkin əməllərinin reallaşmasına şərait yaradırdı. Belə bir vaxtda xalqımızın haqlı etirazlarında milli azadlıq ideyalarının cücərtiləri və işartıları özünü göstərirdi.

Yanvarın əvvəllərində Bakının üstünü sanki qara bulud alımışdı. Şəhərdə hərbçilərin sayı çoxalmışdı, Salyan kazarması adı ilə məşhur olan (Hərbi Təlim-Tədris Mərkəzi) hərbi hissəyə xüsusi təyinatlılar yerləşdirilmişdi. Müəyyən komanda verilməsini gözləyirdilər ki, şəhərə çıxsınlar. Eyni zamanda Bakıya müxtəlif istiqamətlərdən — əsasən giriş hissələrindən - “Qurd qapısı”ndan, indiki “20 Yanvar” (Şamaxinka) dairəsindən, Bayıl, Mərdəkan şosesi tərəfindən və Binəqədi səmtindən hücum gözlənilirdi. Ordunun qarşısını almaq üçün həmin çıxış nöqtələrinə əliyalın insanlar toplaşmışdılar ki, onların da əksəriyyəti yeniyetmə və gənclər idi. Gənclərin qurduğu “barrikadalar” (maneələr) isə yandırılmış tonqallardan ibarət idi.

Həmin dövrdə Bakı şəhərində cəmi 15 təcili yardım stansiyası fəaliyyət göstərirdi. Bu gün 22 köməkçi stansiya və 18 filial paytaxt sakinlərinin və qonaqların xidmətindədir. Paytaxtla yanaşı, Bakıətrafı qəsəbələrdə, o cümlədən Qala kəndi yaxınlığında, Zabratdakı hərbi aeroporta yaxın ərazidə, Qaradağ rayonunda, Biləcəri qəsəbəsində və sair yerlərdə köməkçi təcili yardım stansiyaları vardı. Stansiyaya baş həkim Sabir Adnayev rəhbərlik edirdi. Stansiyalarla əlaqə ancaq “ratsiya” vasitəsilə saxlanılırdı. 12-nin yarısında məlumatlar daxil olmuşdu ki, müxtəlif istiqamətlərdən şəhərə ordu daxil olur. Belə bir fakt da qeydə alınmışdı və məlumatda bildirilirdi ki, Mərdəkan yolunda bir təcili yardım maşını atəşə tutulub. Qala kəndi yaxınlığındakı yarımstansiyanın əməkdaşı həkim-kardioloq Aleksandr Marxevka çağırışa gedən zaman güllələnib. A.Marxevka 3 ay müddətinə stansiyaya ezam olunmuşdu. Deməli, o sanitar maşından düşüb yerdəki yaralıya kömək etmək istəyərkən əsgərlər tərəfindən vurulmuş, qolundan güllə yarası almışdı. Bu sağalmaz yara onun həyatına son qoymuşdur. Sonrakı hadisələr göstərdi ki, artıq müxtəlif istiqamətlərdən şəhərə ordu girib. Az sonra “Salyan kazarması” adlanan ərazidən, Şamaxinka tərəfdən havaya işıqsaçan güllələr atılmağa başladı. Şəhərdə tankların, zirehli maşınların səsi gəlirdi. Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına məlumatlar daxil olurdu ki, tanklar qabağına çıxan hər şeyi dağıdır, əsgərlər hər kəsə, hər şeyə güllə atırlar, çoxlu yaralılar var.

Qanlı şənbə gecəsi və ondan sonrakı bir neçə gün ərzində daha çox şəhid verə bilərdik. Lakin təcili yardım briqadalarının fədakar həkimləri, tibb işçiləri, sürücülər, eləcə də əhalinin yaralılara göstərdiyi doğma münasibət itkiləri xeyli azaltmışdır. Təcili yardım briqadalarının əməkdaşları heç nədən çəkinmədən güllə yağışı altında insanlara ilk tibb yardımlarını göstərmiş, yaralıları təhlükəli ərazilərdən uzaqlaşdırmışlar.

Azərbaycan dövləti müstəqilliyini elan etdiyi ilk illərdə başları hakimiyyət uğrunda mübarizəyə qarışmış o vaxtkı iqtidar 20 Yanvar qırğınına siyasi-hüquqi qiymət verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində məqsədyönlü iş aparmadı. Yalnız ümummilli lider Heydər Əliyev ikinci dəfə hakimiyyətə

qayıtdıqdan sonra 1994-cü ildə Qanlı Yanvar hadisələrinə tam hüquqi-siyasi qiymət verilmiş, günahkarların adları açıq şəkildə bəyan edilmişdir.

Xalqımızın mərdliyi, torpağını, Vətənini qəlbən sevməsi, onun uğrunda canından keçməyə hazır olduğu tarix boyu sübut edilib. 1990-cı il yanvarın 20-də xalq öz rəşadətini, qəhrəmanlığını, qorxmazlığını bir daha nümayiş etdirdi. Həmin gün özlərini qurban verən oğul və qızlarımız Azərbaycanın şanlı tarixinə öz adlarını qızıl hərflərlə həkk ediblər. Qədirbilən xalqımız bu insanları heç zaman unutmayacaq və onların əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır.

Yusif Musayev - Bakı şəhəri TTTYS 4 saylı bölmənin müdiri (1990-cı ildə Xətai rayonu ərazisində yerləşən 2 saylı köməkçi stansiyada səyyar həkim işləmişdir).

İndiki Prezident Administrasiyasının binası (o vaxt Mərkəzi Komitənin) qarşısında mitinqlər gedirdi, tələb Azərbaycan KP MK-nın birinci katibi Əbdürrəhman Vəzirovun istefası idi. Belə hiss olunurdu ki, Bakıda ümumi vəziyyət stabildir. Ancaq günortadan sonra xəbərlər yayılırdı ki, şəhərə ordu yeridiləcək, bu da o qədər inandırıcı görsənmirdi. Axşam saat 18 radələrində mən MK-nın qarşısındakı mitinq iştirakçılarının sağlamlığını qorumaq üçün ora göndərilmişdim. Burada başqa bir həkimi dəyişdim. O vaxt şəhər partiya komitəsinin binasında bizə otaq ayırmışdılar, sanitar maşınlar da binanın qabağında dayanırdı. Mitinqi biz də oradan izləyirdik. Saat 10-a qədər mən növbədə olmalıydım, başqa həkim məni əvəz etməliydi. Qaranlıq düşdüyündən üzlərini görməsək də çıxış edənlərin səslərini eşidirdik. Yenə də xəbərlər gəldi ki, şəhərə müxtəlif istiqamətlərdən - Şıxov, aeroport, Sumqayıt tərəfdən ordu daxil olacaq. Mitinqçilər arasında bu xəbərlərlə bağlı təşviş yaranmışdı. Bu təşviş get-gedə artırdı. Arada elan edirdilər ki, ordunun qabağını kəsmək üçün barrikadalar qurmaq lazımdır və cavanları həmin yerlərə göndərirdilər. Saat 21:30-da mən Etibar Məmmədovun çıxışını eşitdim. O dedi ki, Moskvadan gələn Primakov və Girenko ilə görüşdük, onlar ordunun şəhərə məcburən daxil olacağını söylədilər, ona görə də xahiş edirik dağılışasınız, qırğın olmasın. Az sonra onlar getdilər. Nemət Pənahovun səsi eşidildi. O çıxışında deyirdi ki, ey azadlıq aşiqləri, heç yana dağılmırsınız, silahımız var, gücümüz var, müqavimət göstərəcəyik. O da çıxışını qurtarıb getdi. Mitinqdə olan rəhmətlik Vaqif Səmədoğlunun VEF radiosu vardı. Azadlıq radiostansiyasının xəbərlərində bildirilirdi ki, Bakıda vəziyyət ağırdı, gərgindi, qoşun yeridilə bilər. Bizim yerli kanalların xəbərlərində isə ölkədə gedən inkişafdan danışılırdı.

Mitinqdə hardasa 3-5 min arasında insan olardı. Mən maşının içərisində oturmuşdum. Bir neçə qadın bizə yaxınlaşıb bildirdi ki, filan yerdə yaralı var, onu götürmək lazımdır, kütlə arasında isə bəziləri qışqırırdı ki, dağılışmayın, nədən qorxursunuz.

Axşam saat 8-də xəbər gəldi ki, Azərbaycan televiziyasının binasında partlayış baş verib, nəyə görə, onu biz bilmədik. Saat 12-yə 10 dəqiqə qalmış mən Mərkəzi Komitənin binasının üzərinə qırmızı rəngdə güllələrin töküldüyünü gördüm. Yəni Salyan kazarmasından atılan yanar güllələr idi. Ancaq biz elə bilirdik ki, bunlar qırmızı rəngdə fişənglərdi. Getdikcə kütlə arasında təşviş daha da artdı. İş vaxtım bitəndə mən radio ilə mərkəzlə əlaqə saxladım ki, məni nə vaxt dəyişəcəklərini soruşum. Dedilər ki, oturun yerinizdə, dəyişmək söhbəti yoxdur, elə bu anda xəbər gəldi ki, leytenant Şmidt adına zavod ətrafında əsgərlərlə kütlə arasında toqquşma baş verib, qırğın gedir. Mitinqdə olan insanlar dedilər ki, siz təcili yardımsınız, sizə güllə atmazlar, gedin bizə bir xəbər gətirin. Çünki müxtəlif şayiələr gəzirdi ki, Şıxov, Sumqayıt, Qala tərəfdən ordu gəlir. Biz onların xahişi ilə indiki Yaşıl bazar tərəfə getdik. Qabağa getdikcə gördük ki, camaat dağılışıb, yaralıların əksəriyyəti indiki T.Bəhramov adına stadionun ətrafındakı ağaclıqda qalıb. Biz qaranlıqda heç kəsi tapmadıq, ancaq əsgər də görmədik. Geri qayıdıb MK-nın qarşısındakı postumuzda dayandıq. Bir az keçmiş iki qadın və bir kişi bizə yaxınlaşıb müraciət etdilər ki, bəs Olimp mağazası tərəfdə yaralı var, onu götürmək lazımdır. Bunları da maşına götürüb getdik İnşaatçılar prospektindəki “Olimp” mağazasına tərəf. Orada maşını bir həyətdə saxlatdılar. Onu da deyim ki, həmin vaxt Salyan kazarması tərəfdən bu həyətlərə güllələr yağış kimi yağırdı. Düzdü, xoşbəxtlikdən bizim maşına dəymirdi, ancaq sağımızdan-solumuzdan keçirdi. Həmin 3 nəfər bir bloka girib, bir az sonra qayıdıb bizə dedilər ki, yaralanan 17 yaşında cavan oğlan olub, güllə dəyib, qaçıb girib bloka, orada da dünyasını dəyişib, aparıblar xəstəxanaya.

Biz oradan düşdük Azad qadın heykəli tərəfə, indiki Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yanına. Beşmərtəbə adlanan yerdən keçib qayıtdıq MK-nın qabağında növbəmizi çəkməyə. Mitinq iştirakçıları cavan uşaqları avtobuslara mindirib deyirdilər ki, gedin Bayıl postuna, Şamaxinkaya, oradakı postları möhkəmləndirin. Uşaqlar da çox həvəslə gedirdilər.

Bu arada dənizdən də ordu çıxdığı xəbəri yayıldı. Bu vaxt bizim baş həkim Sabir müəllim mobil radio ilə maşına zəng etdi ki, gəlin Mərkəzi stansiyaya. Azneft meydanına düşüb prospektə çıxdıq, gəlib Rəşid Behbudov küçəsinə dönəndə (o vaxt bu küçə leytenant Şmidt adlanırdı) indi “Səs” qəzetinin yerləşdiyi binanın tinində bir qadın demək olar ki, yataq paltarında özünü atdı maşının qabağına. Qışqıraraq dedi ki, qabağa getməyin sizi

vuracaqlar. Diqqətlə baxıb gördüm ki, 10 metr irəlidə tünd bənövşəyi rəngli 2106 markalı “Jiquli”ni dərmə-deşik ediblər. Maşının şüşələri sındırılıb, təkərləri yatıb. Sol tərəfdə isə o vaxtkı 26-lar, indiki Sahil Bağında dəmir kaskalı əsgərlərin cərgə ilə düzüldüyünü və əllərindəki pulemyotları Rəşid Behbudov küçəsinə tərəf tuşladıqlarını gördüm. Belə qənaətə gəldim ki, həmin minik maşınını onlar gülləbaran ediblər.

Bizə məlumatlar verilmişdi ki, əsgərlər təcili yardım maşınlarını da atəşə tuturlar. Ona görə də geri qayıdıb Dəniz Vağzalı tərəfdən, oradan da indiki Kapitalbankın binasının qabağından mərkəzi stansiyaya tərəf yön aldıq. Ancaq dəmiryol vağzalı ətrafındakı barrikadaların dağıdıldığını, minik avtomobillərini, avtobusları, digər texnikaları tankların necə əzdiyini görüb dəhşətə gəldim.

Nəhayət, mərkəzə çatdıq. Burada da güllə səsləri ara vermirdi. Binaya daxil olduq. Növbədə 3 briqada vardı və 3 çağırış gəlmişdi. Bizi metronun Gənclik stansiyası tərəfə istiqamətləndirdilər. Gecə yarıdan keçmişdi. Məlumat aldıq ki, artıq sovet ordusu bir neçə istiqamətdən Bakıya girib. İndiki “Caspian Shopping” mağazası ərazisində 10 təcili yardım maşını dayanmışdı. Əsgərlər avtomatı bizə tərəf tuşlayıb maşından düşməyə imkan vermədilər. Təxminən 2 saat maşınları yerindən tərpənməyə qoymadılar. Səhər saat 5 radələri olardı, yaralıları götürmək üçün Nərimanov Rayon Partiya Komitəsinin yerləşdiyi əraziyə gəldik. Burada mən 39 saylı marşrutda işləyən, şüşələri sındırılmış, güllələrin dəlmə-deşik etdiyi “İkarus” markalı avtobusu gördüm. Sonralar bildim ki, avtobusun sürücüsü və bir sərnişin qız sovet əsgərləri tərəfindən öldürülüblər.

İndiki Xətai rayonu ərazisində yerləşən 2 saylı köməkçi stansiyaya - iş yerinə gəldim. Burada skamyada güllə ilə öldürülmüş bir kişi uzatmışdılar. Dedilər ki, 39 saylı marşrutda işləyən avtobusun sürücüsüdür. Sənədlərinə baxdım, hərbi bileti, qırmızı rəngli sürücülük vəsiqəsi deşik-deşik olmuşdu. İçəridə həkim yoldaşlarım təşviş və həyəcan içərisindəydilər. Onlar məlumat almışdılar ki, Qala stansiyasına 3 aylıq təhkim olunmuş həkim yoldaşımız Aleksandr Marxevka sanitar maşından düşüb yaralıya kömək edərkən vurulub, Elçin həkim də şəhid olub. Bunları eşidəndə belə qənaətə gəldik ki, əsgərlərin atdığı boş güllələrdən söhbət gedə bilməz. Yəqin ki, öldürülənlərin sayı-hesabı yoxdur.

Saat 8-də iş vaxtım bitdiyi üçün növbəni təhvil verib evə yollandım. Üçüncü mikrorayonda yaşayırdım. Metronun 20 Yanvar (o vaxt “XI Qızıl Ordu” adlanırdı) stansiyasından çıxanda bir daha ətrafdakı dağıntıların, qan izlərinin şahidi oldum. Mənə əyan oldu ki, hər an ölümlə qarşılaşacağımı ağlıma belə gətirmədən, dəhşətli bir gecəni yaşamışam.

Laçın Əliyeva - Bakı Şəhəri TTTYS 3 saylı bölmənin böyük həkimi (1990-cı ildə həmin stansiyada səyyar həkim işləmişdir).

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecəni heç vaxt unutmaq olmaz. Çünki çox ağır bir gün olmaqla xalqımızın qan yaddaşına bir faciə kimi yazıldı. Həmin vaxtdan 30 il ötsə də, o gecə baş verənləri dəqiqliklə xatırlayıram. Şənbədən bazar gününə keçən gecə Bayılda yerləşən və bu gün də işlədiyim bölmədə iş başındaydım. Bu elə bir vaxt idi ki, Bakı və onun sakinləri çox narahat günlərini yaşayırdı. Axşamdan xeyli keçmişdi, təxminən saat 12-yə qalmışdı. Bölməyə növbəti çağırışla bağlı sifariş daxil oldu. Sifarişdə bildirilirdi ki, indiki Prezident Administrasiyasının (o vaxt Mərkəzi Komitənin binası idi) qabağında çoxlu sayda kütlə yığışıb, orada atışma gedir və yaralılar var. Çağırış qəbul olunduqdan sonra çox çətinliklə də olsa güllə yağışı altında deyilən ünvana getdik. Burada həddindən artıq insan vardı. Ətrafda arabir güllə səsi eşidilirdi. Kütlə sanitar maşının yaralıya yaxınlaşmasına imkan vermirdi (O vaxt sanitar maşınlar “RAF” markalı mikroavtobuslar idi). Kimsə bizə dedi ki, yaralı “Bakı Soveti” metrostansiyasının (indiki “İçərişəhər”) qabağındadır. Çox çətinliklə ora gəlib yaralını götürdük. Bizə mərkəzdən “ratsiya” ilə dedilər ki, yaralını o vaxtkı Musa Nağıyev adına Təcili Yardım Xəstəxanasına aparaq. Mərkəzi univermağın qabağından keçəndə maşınımızı saxlayıb daha bir yaralı insanın olduğunu dedilər və həmin yaralını da götürdük. Yolboyu atışma səsləri ara vermirdi. Çox çətin bir vəziyyətdə yaralıları xəstəxanaya çatdırdıq. Burada gördüklərimdən dəhşətə gəldim. Yaralıların sayı-hesabı yox idi. Yenidən çağırış üçün sifariş aldıq. Bu dəfə Salyan kazarması adlanan ərazidən keçib gedirdik. Burada da küçələr insanlarla dolu idi, atışma səsləri eşidilirdi. Ümumiyyətlə, həmin gecə mən 3 yaralını xəstəxanaya gətirə bildim. Bunlardan ikisini özüm yerdən götürmüşəm, birini isə kütlə maşına mindirib. Yanvarın 20-də səhər tezdən işçilər bizi dəyişməyə gələ bilmədikləri üçün yenə də növbədə qalası olduq. Çünki gediş-gəliş üçün yollar bağlı idi. Artıq məlum oldu ki, Bakıya sovet qoşunları yeridilib, komendant saatı tətbiq olunub, əsgərlər gecə əliyalın insanlara atəş açıblar, yaşlı, cavan, uşaq, qadın - qabaqlarına çıxan hər kəsi öldürüblər, yaralayıblar.

Həmin gecə bir həmkarımızın, kardioloq A.Marxevkanın (milliyyətcə yəhudi) öldürüldüyü xəbərini eşitdik. Onu aeroport yolunda iş başında vurmuşdular. Yanvarın 20-dən sonra 2-3 gün biz təcili yardım işçiləri yenə də çox çətinliklərlə üzləşdik. Sovet əsgərləri maşınımızı saxlayırdılar. Bizi düşürürdülər, üstümüzü yoxlayıb silah axtarırdılar.

Daha bir həmkarımız, iş yoldaşımız Tamella Lalayeva da Qanlı Yanvar faciəsindən 2 gün sonra gecə "RAF" markalı sanitar maşınında əsgərlər tərəfindən atılan atəşlə çiynindən güllə yarası almışdı. Maşın arxadan atəşə tutulmuşdu, komendant saatı tətbiq olunduğundan, hətta təcili yardım maşınlarını saxlayıb yoxlayırdılar.

O müdhiş gecədə atılan yanar güllələrin rəngi də indiki kimi yadımdadır. Güllələr qaranlıqda müxtəlif rənglərə çalırdı. Küçələri maşınla keçəndə eşitdiyim ağlaşma, qışqırıq səsləri bu gün də qulağımdan getmir.

**Hazırladı:**
**Ramiz Yusifli**

**Respublika.** - 2020.- 17 yanvar. - № 9. - S. 5.

**20 Yanvar cinayətinə görə Qorbaçovun Haaqa Məhkəməsinə verilməsi aktuallaşır...**

**Firdovsiyyə Əhmədova:** "Azərbaycan xalqının Mixail Qorbaçovun 30 il əvvəl Bakıda törətdiyi qanlı cinayətlərə görə Haaqa Məhkəməsinə verilməsi tələbi haqlıdır"

**İradə Sarıyeva**

**XX əsrin ən qanlı cinayətlərindən biri 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə, başda SSRİ-nin ilk və son prezidenti Mixail Qorbaçov olmaqla, keçmiş SSRİ rəhbərliyinin əmrilə Bakıda dinc Azərbaycan xalqına qarşı törədildi. Qorbaçovun, Yazovun, Primakovun, eləcə də Qorbaçovun Azərbaycandakı əlaltılarının əli yüzlərlə azərbaycanlının qanına batıb.**

20 Yanvar faciəsinin törədilməsinin üstündən 30 il keçməsinə baxmayaraq, hələ də canilər cinayət məsuliyyətinə cəlb edilməyiblər. 20 Yanvar qırğınını törədən şəxslərin bəziləri dünyasını dəyişib, bəziləri isə hələ də sağdır, amma onların heç biri törətdiyi cinayətə görə cavab verməyiblər.

Son zamanlar ən çox müzakirə edilən məsələlərdən biri 20 Yanvar facisəsini törədən, onlarla insanın qətlinə fərman verən keçmiş SSRİ-nin prezidenti olmuş Mixail Qorbaçovun Haaqa Məhkəməsinə verilməsi ilə bağlıdır. 20 Yanvar hadisəsinin törədilməsindən 30 il keçdikdən sonra Qorbaçovun Haaqa Məhkəməsinə verilməsi məsələsi aktuallaşıb. Qorbaçovun Haaqa Məhkəməsinə verilməsi gecikmiş olsa belə, gərəklidir.

Qeyd edək ki, rəsmi məlumatlara görə, Bakıya və başqa yaşayış məntəqələrinə sovet ordusunun hücumu vaxtı 131 nəfər, o cümlədən, 117 azərbaycanlı, 6 rus, 3 yəhudi, 3 tatar öldürülmüş, 744 nəfər yaralanmış, 400 nəfər həbs edilmiş, 4 nəfər itkin düşmüşdür.160 evə, ictimai və şəxsi nəqliyyat vasitələrinə, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi.

"O, törətdiyi bu cinayətə görə Azərbaycan dövlətinin maraqlarına uyğun şəkildə cəzalandırılmalıdır"

Tanınmış tarixçi-alim, dosent, tarix üzrə fəlsəfə doktoru Firdovsiyyə Əhmədova "Bakı-Xəbər"ə bildirdi ki, Qorbaçovun və 20 Yanvar faciəsini törədərək Azərbaycan xalqına qarşı cinayət törətmiş şəxslərin beynəlxalq məhkəmələrə verilməsi, Haaqa Tribunalında ədalət məhkəməsinə çəkilməsi, törətdiyi cinayətlərə görə cavab verməsi olduqca vacibdir. Azərbaycan dövlətinin, vətəndaşının Qorbaçovu Haaqa Məhkəməsinə vermək və onun ağır şəkildə cəzalandırılmasına nail olmaq üçün kifayət qədər əsası var. "İstənilən cinayəti törədənlər cəzalandırılmalıdır. Cinayət cəzasız qalanda həmin cinayəti törədənlər başqa bir cinayətlər də törədirlər, cinayəti təkrarlamaqla insanların haqqını tapdamış olurlar. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə dinc azərbaycanlılar vətəndaşı olduqları dövlətin törətdiyi qətliama, zorakılıqlara məruz qaldılar. O dövrdə 20 Yanvar faciəsini törədənlərin cinayət məsuliyyətinə cəlb edilməsi üçün cinayət işi açılsa da, təəssüf ki, əli onlarla azərbaycanlının qanına batan keçmiş SSRİ rəhbərlərinin heç biri cəza almadı, onlar məsuliyyətdən yaxa qurtardılar. Cəzasız qalan cinayətkarların bəziləri dünyasını dəyişib, bəziləri isə sağdır. Bakıya qoşun yeridib dinc əhaliyə divan tutan siyasi və hərbi şəxslər cəzasız qaldılar. Bu məsələyə siyasi qiymət verilsə də, cinayətkarlar törətdikləri əməllərə görə cavab vermədilər. Deyim ki, hətta o vaxt ABŞ-da yaşayan bir Azərbaycan vətəndaşı 20 Yanvar faciəsinin törədilməsində əli olan keçmiş SSRİ rəhbərliyini öz adından məhkəməyə vermişdi. Həmin vətəndaş Qorbaçovun Bakıda törətdiyi qırğınlara görə beynəlxalq məhkəmələr tərəfindən ağır cəzaya məhkum edilməsini tələb etmişdi. Amma onun müraciətinə cavab verilmədi".

F.Əhmədova hesab edir ki, Qorbaçovun Haaqa Məhkəməsinə verilməsi və onun layiq olduğu cəzaya çatması üçün beynəlxalq səviyyədə təbliğat aparılmalıdır. Tarixçinin fikrincə, 20 Yanvar hadisəsi ilə bağlı məsələ artıq beynəlxalq ictimaiyyətə çıxarılmalı və bununla da hadisəni törədənlərin cəza almasına nail olunmalıdır. F.Əhmədova qeyd etdi ki. 30 il əvvəl Bakıda törədilən bu faciənin üstündən illər keçdikcə, bəzi beynəlxalq dairələr, xaricdəki təşkilatlar 20 Yanvar hadisəsini təhrif edirlər. "Çox təəssüf ki, bəzi beynəlxalq dairələr və ayrı-ayrı şəxslər keçmiş SSRİ rəhbərlərinin əli ilə, əmrilə Bakıda Azərbaycan vətəndaşlarına qarşı törədilən qətliamı, cinayəti tamam başqa istiqamətə yönəldirlər. Onlar qeyd edirlər ki, guya azərbaycanlılar bu faciəni ermənilərə və ruslara qarşı törədiblər. Yəni onlar 1990-cı ildə azərbaycanlıların kütləvi qırğınına tamam başqa mövqedən yanaşırlar, bunu Azərbaycan dövlətinin başqa xalqlara qarşı siyasəti kimi təqdim etməyə cəhd edirlər. Azərbaycan xalqının tarixində açılan bu qara səhifəni yazanların cinayət məsuliyyətinə cəlb edilməsi tələb olunmalıdır. Azərbaycan xalqının Mixail Qorbaçovun 30 il əvvəl Bakıda törətdiyi qanlı cinayətlərə görə Haaqa Məhkəməsinə verilməsi tələbi haqlıdır. O, törətdiyi bu cinayətə görə Azərbaycan dövlətinin maraqlarına uyğun şəkildə cəzalandırılmalıdır. Bakıda törədilən kütləvi qırğının, qətliamın üstündən 30 il, lap 40 il keçsə belə, onu törədənlər Haaqa Məhkəməsində cavab verməlidirlər" - deyə müsahibimiz qeyd etdi.

**Bakı Xəbər**. - 2020. - 18 yanvar. - № 9. - S. 5.

## 20 Yanvar faciəsi – Tariximizin qəhrəmanlıq səhifəsi

**Hikmət Umudlu,**
Şəki rayonu üzrə İcra və Probasiya Şöbəsinin icra məmuru,
II dərəcəli ədliyyə qulluqçusu

**XX əsr tarixinə insanlığa və bəşəriyyətə qarşı ən amansız və dəhşətli cinayətlərdən biri kimi düşmüş 1990-cı ilin 20 Yanvar hadisələrinin 30-cu ildönümü ərəfəsindəyik.**

İllər ötür, nəsillər dəyişir, xalqın həyatında baş verən hadisələr tarixə çevrilir. Bəziləri unudulub gedir, bəziləri qan yaddaşına həmişəlik yazılır. Qəhrəmanlıq sözü dilimizdə səslənən kimi, ilk olaraq 1990-cı ilin soyuq bir qış gecəsində - yanvar ayının 19-dan 20-nə keçən gecə azadlıq və müstəqilliyimiz uğrunda şirin canlarından keçmiş, şəhid olmuş oğul və qızlarımız göz önünə gəlir. O qəhrəmanlar bütün nəsillər tərəfindən həmişə hörmətlə anılır, ehtiramla xatırlanır. 20 Yanvar şəhidlərinin adları xalqımızın qəhrəmanlıq tarixinə böyük hərflərlə yazılıb. Onlar öz qəhrəmanlıq və igidlikləri ilə dünyanı heyran qoydular. 70 il ərzində müstəqilliyimizi əlimizdən almış, xalqımızı əsarətdə saxlamış və təpədən-dırnağadək silahlanmış, üstümüzə hücum çəkmiş böyük bir imperiyaya meydan oxudular.

### 20 Yanvar hadisələri ərəfəsində

Sovet İttifaqı Kommunist Partiyasının rəhbərliyinin xalqın mənafeyinə zidd olan siyasəti, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı Mərkəzin, şəxsən Mixail Qorbaçovun apardığı qeyri-obyektiv və qərəzli xətt geniş xalq kütlələrinin qəzəbinə səbəb olmuşdur.

**O zaman xalqı etiraz səsini ucaltmağa vadar edən çox sayda obyektiv səbəblər mövcud idi. Mərkəzi hökumət tərəfindən milli mənafeyimizə zidd siyasətin yürüdülməsi kütləvi etiraz dalğasının baş qaldırmasına rəvac vermişdi. Belə bir məqamda insanların haqlı etirazlarını dinləmək, mövcud problemlərin siyasi yolla həll edilməsinə yönəlmiş addımlar atmaq əvəzinə, imperiyanın öz ənənəsinə sadiq qalaraq zora əl atması onun antihumanist təbiətini və ən iyrənc yollarla belə həyata keçirməyə hər an hazır olduğu imperialist siyasətini tam aydınlığı ilə ifşa etmiş oldu.**

1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti Rəyasət heyəti tərəfindən İttifaq Konstitusiyası və Azərbaycan SSR Konstitusiyasının maddələri kobud şəkildə pozularaq Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman qəbul edildi.

**İnformasiya blokadası yaratmaq məqsədi ilə yanvarın 19-da saat 19.22-də Azərbaycan Televiziyasının enerji bloku partladılıb sıradan çıxarıldı. Yanvarın 19-da saat 21-də SSRİ müdafiə naziri Dimitri Yazovun şəxsi rəhbərliyi altında Bakıda Tayfun əməliyyatı başladı.**

Bütün qoşun növlərindən istifadə olunması ilə hər tərəfdən şəhər üzərinə ordu yeridildi, əhaliyə divan tutuldu. Yanvarın 19-dan 20-nə keçən gecə və sonrakı bir neçə gündə Bakıda və Azərbaycanın digər bölgələrində 147 nəfər qəddarcasına öldürüldü, 744 nəfər yaralandı, 800-dən çox insan qanunsuz həbs olundu. Öldürülənlər və yaralananlar arasında qadınlar və qocalar, hətta uşaqlar da vardı. Onlardan bəziləri ömürlük şikəst oldu. Fövqəladə vəziyyət haqqında fərman isə yalnız yanvarın 20-də səhər saat 7-də elan olundu. Milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə silahlı təcavüz nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. Qabaqcadan düşünülüb hazırlanmış bu təcavüzkarlıq aksiyası Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq, ona mənəvi zərbə vurmaq məqsədi daşımışdır.

### Hüquqi əsası olmadan

Bakıda fövqəladə vəziyyət elan edilməsi, silahlı qüvvələrin şəhərə soxulub ağır texnika və məhvedici silahlar vasitəsilə dinc əhaliyə qəddarcasına divan tutması Azərbaycan xalqına qarşı cinayət olmuşdur. Bu cəza tədbiri şüurlu surətdə planlaşdırılmış və vəhşicəsinə həyata keçirilmişdir.

Həmin günün mənzərəsi faciəvi olduğu qədər də möhtəşəmdir. Azadlığımızın bərpası yolunda ilk şəhidlərin verildiyi Qanlı Yanvar gecəsi cəsarətin, fədakarlığın, milli məfkurənin dönməz oyanışının əyani təcəssümü idi.

**Baş verən hadisələr**

xalqımızın azadlıq arzusunun, müstəqillik idealının 70 il davam edən sovet hərb maşınının repressiyasına rəğmən sönmədiyini, əksinə, yeni güc qazandığını bir daha nümayiş etdirdi. Xalqın belə birlik nümayiş etdirməsi həm də dünyaya Azərbaycan adlı bir ölkənin, bir millətin tanıdılması baxımından çox vacib bir hadisə idi ki, bununla da Azərbaycanın gələcəkdə dünya birliyinə müstəqil bir ölkə kimi daxil olmasının təməli qoyulurdu.

**20 Yanvar faciəsinə ilk olaraq öz münasibətini bildirən şəxs ümummilli lider Heydər Əliyev olmuşdur. O, Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək Bakıda baş verən qanlı qırğının günahkarlarını, Mixail Qorbaçovu və SSRİ hökumətini qətiyyətlə ittiham etdi: “Bakıda Sovet qoşunları tərəfindən Azərbaycan xalqına qarşı törədilən qanlı hadisə hüquqa, əxlaqa, mənəviyyata ziddir, xalqa qarşı tarixi cinayətdir”.**

Yalnız ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra 1990-cı ilin qanlı Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" Azərbaycan Prezidentinin 5 yanvar 1994-cü il tarixli fərmanında deyilirdi: "Xalqımızın tarixinə qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı ilin yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermişdir. Tarixin yaddaşına qanla yazılmış həmin gündən bizi 4 illik zaman məsafəsi ayırır. Təəssüf ki, 4 il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilməmişdir.

1994-cü il mart ayının 29-da ölkə parlamenti “1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında” qərar qəbul etdi. Beləliklə də 20 Yanvar faciəsi məhz Heydər Əliyevin prinsipial və ardıcıl mübarizəsindən sonra öz hüquqi-siyasi qiymətini aldı.

Qanlı Yanvar günü Azərbaycan xalqı üçün faciə olmaqla yanaşı, eyni zamanda öz ləyaqətini qorumaq üçün mübarizəyə və bu yolda qurban verməyə hazır olan millətin tarixində şərəfli bir səhifədir. Hadisələrdən sonra xalqın mütərəqqi, qabaqcıl qüvvələri bir daha yəqinlik əldə etdilər ki, suverenliyin yeganə yolu Azərbaycan Respublikasının müstəqilliyinin bərpa olunmasındadır. 1990-cı il 20 Yanvar Bakı qətliamına ən doğru qiyməti tarix özü verdi. Şəhidlərin qanı yerdə qalmadı, şər imperiyası dağıldı, Azərbaycan öz müstəqilliyinə qovuşdu, milli birlik və azadlıq arzusu qalıb gəldi. 20 Yanvar şəhidlərinin o gecə öz cəsədləri ilə torpağın köksündə əkdikləri azadlıq toxumunun bu 30 ildə yetirdiyi ən lətif meyvə müstəqil Azərbaycan dövlətidir.

**Milli tariximizin**

qanlı və şanlı səhifələrindən olan 20 Yanvar hadisələrinin yaddaşlardan silinməməsi üçün həm dövlətimiz və dövlət başçımız, həm də xalqın önündə gedən ziyalıları kifayət qədər iş görüblər və bu tədbirlər dövri olaraq davam etdirilir. “20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında” Azərbaycan Prezidentinin 13.12.2019-cu il tarixli Sərəncamına əsasən Azərbaycan Prezidentinin Administrasiyası tərəfindən 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə bağlı tədbirlər planı hazırlanmışdır. Tədbirlər planına əsasən ölkəmizin ərazi bütövlüyü, xalqımızın azadlığı və dövlətimizin müstəqilliyi yolunda canlarını fəda etmiş həmvətənlərimizin əziz xatirəsinin yad edilməsi üçün hər il olduğu kimi bu il də Azərbaycan ərazisində və ölkəmizin hüdudlarından kənarda anma mərasimləri keçiriləcəkdir.

**Nə qədər Azərbaycan var, azərbaycanlılar var 20 Yanvar faciəsi və eyni zamanda, bu qəhrəmanlıq salnaməsi unudulmayacaqdır.**

**Ədalət**. - 2020. - 18 yanvar. - № 9. - S. 5.

## 20 Yanvar - yaddaşda əbədiləşən tarix

**Aynur Xəlilova**

XX yüzillik dünyada və onun tərkib hissəsi olan Azərbaycanda, demək olar ki, bütün sferalarda mürəkkəb prosesləri içəriləyən çətin və ziddiyyətli bir dövr kimi artıq tarixin səhifələrinə köçdü. Lakin baş verən konkret ictimai-siyasi... hadisələrin ya özünü, ya da təsirini miras olaraq XXI yüzilliyə də ötürə bildi. Bunlar daha çox ötən əsrin, təxminən, son 10-15 ilində baş verən hadisələr idi. Həmin dönəmdə dünyanın diqqət mərkəzində olan ölkələr içərisində dağılmaqda olan keçmiş Sovetlər İttifaqı, müstəqilliyə can atan və SSRİ-nin dağılmasından sonra müstəqilliyini əldə edən respublikalar, o cümlədən Azərbaycan da ön sıralarda dayanırdı. Zaman və məkan kontekstindən yanaşdıqda sözügedən dönəmdə dünyanın ən qaynar nöqtələrindən olan Azərbaycanda təlatümlü, faciəli 20 Yanvar 1990-cı il milli yaddaşımızda qanla yazılmış tarix kimi əbədiləşdi. Yanvarın 19-dan 20-nə keçən gecə keçmiş Sovet ordusunun Bakıda əliyalın dinc əhaliyə qarşı törətdiyi amansız qətllər Moskvada Mərkəzi Komitədə bu işə fitva verənlərin və onların Bakıdakı kölə əlaltılarının iç üzünü göstərməklə, SSRİ-nin sonunun labüdlüyünü də aydın şəkildə ortaya qoydu.

Həmin ağır günlərdə xalqımız bir tərəfdən bu qanlı faciəni törədənlərə etiraz, qəzəb hissi ilə alovlandı, bir tərəfdən də faciə qurbanlarını böyük kədər içərisində ləyaqətlə son mənzilə yola saldı. O zaman Moskvada olan ümummilli lider Heydər Əliyev yanvarın 21-də, öz taleyinin təhlükə altında olmasına rəğmən, Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək xalqımıza qarşı törədilmiş bu qanlı faciə və onun cinayətkarlarının cəzalandırılması ilə bağlı bəyanatla çıxış etdi. Elə Azərbaycanda 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət də məhz Müstəqil Azərbaycan Respublikasının qurucusu Heydər Əliyevin hakimiyyəti dövründə - 1994-cü ildə verildi.

**20 Yanvar faciəsi xalqımızı susdurub onun milli azadlıq mücadiləsini əlindən ala bilmədi. Bərabərliyimizi, iradəmizi, azadlıq uğrunda mücadilə əzmimizi qırmağa hesablanmış bu qanlı hadisə, əksinə, milləti daha da sıx birləşdirdi, oyanmış milli şüur və yaddaşımızı daha da aydınlatdı, yolumuzu müəyyənləşdirib istiqamətləndirdi, ruhumuzu Azərbaycançılıq, dövlətçilik, azadlıq idealları ilə, milli-mənəvi dəyərlərimizə, tariximizə, vətənimizə, bir sözlə, bizim olana sahiblənmək hissləri ilə çulğaladı.**

Azərbaycan ziyalıları, xüsusilə, elmi-ədəbi cameənin nümayəndələri bu dönəmdə milli-azadlıq hərəkatının fəalları kimi proseslərin içərisində idilər. Azərbaycan ədəbiyyatı tarixində ayrıca mərhələ təşkil edən "milli özünüdərk və istiqlal ədəbiyyatı" ötən əsrin səksəninci illərində və sözügedən mərhələnin çevrələdiyi 1990-91-ci illərdə ölkədə baş verən bəlli ictimai-siyasi proseslərdən dolayı daha aydın, kəskin və geniş şəkil almışdı. Hərəkətverici qüvvəyə çevrilən ədəbi cameədə gedən proseslər cəmiyyətdə və milli şüurda gedən proseslərlə eyni müstəvidə birləşir, biri o birini şərtləndirirdi. Akademik İsa Həbibbəylinin sözləri ilə desək, "Bu illərin ədəbiyyatı, xüsusən poeziya... Azadlıq meydanlarının ritminə köklənmişdi".

Həmin dönəmdə ideoloji və təsiredici faktor olan ədəbiyyat baş verən hadisələrə öz münasibətini ortaya qoymaqla, bir növ, xalqın səsinə çevrilmişdi. Bu səsdə haray da var idi, hayqırtı da, nisgil, ağrı-acı, ümidsizlik də var idi, mübarizəyə çağırış, intiqam, əyilməzlik, qəzəb və etiraz da, fəryad, göz yaşı da var idi, məğrurluq, qürur və fəxarət hissi də. Ədəbiyyatın, eyni zamanda, ideoloji faktor olması amilini yaxşı bilən yazarlar həm öz şəxsi hisslərinin ifadəsi kimi, həm də sözügedən amildən dolayı Azərbaycançılıq, dövlətçilik uğrunda milli birliyə, mübarizəyə ruhlandıran, milli şüurun oyanmasına hesablanan bədii nümunələr yaradırdılar. İctimai-siyasi proseslər o qədər qaynar, mürəkkəb, ağır və qeyri-stabil, hadisələrin bir-birini əvəzetmə tezliyi o qədər çevik idi ki, ədəbi sferada nəsrin "ağırləngərli" irihəcmli janrlarına meyli nisbətən azaltmışdı. Burada yazarların proseslərin aktiv iştirakçısı olmaları, zaman məhdudluğu, sürətlə əvəzlənən ictimai-siyasi hadisələr, hələ sonucu görünməyən prosesləri bədii mətnə çevirmə çətinliyi ədəbiyyatın bu istiqamətini bir xeyli arxada qoyurdu. Dönəmin xarakterinə uyğun olaraq yaşananların doğurduğu hisslərin bədii təzahürü və ifadə tezliyi baxımından yaddaşlara həkk olunan, emosional-ekspressiv və psixoloji təsir gücünə malik yığcam və çevik biçimli şeir digər janrlarla müqayisədə daha çox aktivlik nümayiş etdirirdi. Poeziyada "Dözdü hər zillətə, dözdü hər şeyə, // "Dünyada mənim də haqqım var", - deyə. // Kütləni xalq edən müqaviləyə, // Qanıyla qolunu çəkdi şəhidlər", - söyləyən Bəxtiyar Vahabzadə, "Nə yatmısan, qoca vulkan, səninləyəm! // Ayağa dur, Azərbaycan, səninləyəm!", - çağırışı edən Məmməd Araz, azadlıq təşnəsi və qaniçən qəsbkara qəzəb hissi ilə "Azadlığı istəmirəm, zərrə-zərrə, qram-qram! // Qolumdakı zəncirləri qıram gərək, qıram, qıram!", - söyləyən Xəlil Rza Ulutürk, "Eli yağmalanan, bölünən, bölən, // Çayları quruyan, gölləri ölən, // Haqq-hesab çəkməyə gələn mənəm, mən. // Salam, Dar ağacı! // Əleyküm-salam!" - deyən Rüstəm Behrudi və başqa bu kimi yazarların

uyğun əsərləri milli özünüdərk və istiqlal ədəbiyyatının nümunələri kimi zamanın tələbindən yaranan və funksional mahiyyət etibarilə millətə məhz sözügedən kontekstdə mesajlar ötürən əsərlər idi. Qanlı Yanvar hadisələrinin baş verdiyi ağrılı günlərdən yaranmağa başlayan və sonralar da davam etdirilən 20 Yanvar mövzusu isə Azərbaycanda istiqlal ədəbiyyatının əsas tərkib hissələrindən biri kimi ortaya çıxdı.

20 Yanvar faciəsindən sonra Azərbaycanı Xocalı və Daşaltı faciələri gözləyəcəkdi, neçə-neçə yurd yerlərimiz işğal olunacaq, yüzlərlə, minlərlə itkilərimiz olacaqdı və bütün bunlar ürəyi vətən, millət sevgisi ilə döyünən hər bir azərbaycanlının qəlbində qövr eləyən, beynini didib-parçalayan, vicdanında, yaddaşında susmayan əbədi bir ağrıya çevriləcəkdi...

20 Yanvar bütövlükdə millətimizin taleyindən keçən bir hadisədir. Məhz bu səbəbdən təqvimdə bu gün "Ümummilli matəm günü" kimi qeyd olunur.

Artıq 2020-ci ildir və 20 Yanvar faciəsindən 30 il keçir. Lakin bu 30 ildə nə şəhidlər unudulub, nə də şahidlər unudub. Sanki hər şey dünən baş veribmiş kimi yaddaşımızdadır. Unutmayaq! 20 Yanvar, Daşaltı, Xocalı faciələrini, millətimizin qanına susamış mənfur ermənilərin törətdikləri bəşər tarixində misli görünməmiş cinayətləri, vəhşilikləri, erməni vandalizmini, düşmən əsirliyində inləyən yurd yerlərimizi, haray çəkən Qarabağımızı unutmayaq! Unutmayaq ki, yaddaşımız korşalıb tarix bir daha təkrarlanmasın! Unutmayaq ki, düşmən aramıza nifaq sala bilməsin, milli birliyimiz, azadlığımız, müstəqilliyimiz günü-gündən möhkəmlənib əbədi olsun. Və nəhayət, bütün itirilmiş torpaqlarımız azad olunsun, çox da uzaq olmayan o mübarək günlərin birində bütöv və müstəqil Azərbaycanın Ay-ulduzlu üçrəngli bayrağı Şuşa qalasının zirvəsində fəxarətlə dalğalansın!

**Ədəbiyyat qəzeti**. - 2020.- 18 yanvar. - № 2. - S. 15.

## 20 Yanvar- Azərbaycanın istiqlal yolunun ilk zirvəsi günüdür

**Məftunə Əfəndiyeva,**
Bərdə rayon "ASAN xidmət" mərkəzində Ədliyyə Nazirliyinin qeydiyyat şöbəsinin rəisi

**20 Yanvar Azərbaycan tarixində təkcə faciə deyil, Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Bu, uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir. Bu tarix həm də kimin kim olduğunu sübut edən növbəti imtahan idi.**

1990-cı il yanvarın 19-dan 20-ə keçən gecə Bakıda sovet ordusu tərəfindən dinc əhaliyə qarşı dəhşətli, kütləvi qırğın hadisəsi törədildi. Bu qanlı hadisənin törədilməsində əsas məqsədlərdən biri öz haqlı tələblərini irəli sürən, bu tələblərə demokratik yollarla nail olmaq istəyən, istiqlaliyyət, azadlıq, suverenlik istəyində olan Azərbaycan xalqının iradəsini qırmaq, insanların müstəqillik arzularını tankların tırtılları altında əzmək idi. Sovet imperiyası günahsız insanların qanını axıtsa da, xalqımıza qarşı misli görünməmiş qəddarlıq etsə də, istəyinə nail ola bilmədi, milli qürurumuzu qıra bilmədi.

Xalqın başına gətirilən bu cinayət sovet imperiyasının iç üzünü bariz bir şəkildə ortaya çıxartdı. Əslində imperiyanın Bakıda bu qanlı hadisəni törətməklə ittifaqa üzv olan digər respublikalara göz dağı vermək planı, imperyanı zor gücünə mühafizə etmək təşəbbüsü də boşa çıxmış oldu.

1990-cı il yanvarın 19-dan 20-ə keçən gecə Azərbaycanda günahsız insanların gülləbaran edilməsi əməliyyatı SSRİ Müdafiə Nazirliyi, DİN xüsusi təyinatlıları və SSRİ DTK-nın təxribat qrupları tərəfindən təşkil olunmuşdu. Bu, Azərbaycan xalqını qorxutmaq, onun milli oyanışını, ərazi bütövlüyü, suverenlik uğrunda mübarizliyini məhv edib sındırmaq məqsədi daşıyan mənfur planın tərkib hissəsi idi. Mixail Qorbaçov başda olmaqla sovet imperiyasının rəhbərliyi Bakıda "erməni kartından" məharətlə istifadə etdi. Guya Bakıya qoşun onları, hərbi qulluqçuların ailələrini qorumaq, "millətçi ekstremistlər" tərəfindən hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə bu açıq riyakarlıq, imperiyanın növbəti qəddarlığını örtbasdır etmək üçün qabaqcadan hazırlanmış iftiralar və böhtanlar idi. Çünki sovet rəhbərliyinin "dəlilləri" hətta həqiqətə yaxın olsaydı belə, Bakıya təpədən-dırnağadək silahlandırılmış qoşun göndərməyə ehtiyac yox idi. Ona görə ki, həmin vaxt burada daxili qoşunların 11 min 500 əsgəri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri var idi. 4-cü ordunun komandanlığı da Bakıda yerləşirdi.

M.Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzalamışdı. SSRİ DTK-nın "Alfa" qrupu yanvarın 19-da saat 19.27-də Azərbaycan televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və əhaliyə divan tutmağa başladı. M.Qorbaçovun fərmanı qüvvəyə minənədək - yanvarın 20-də saat 00-dək artıq 9 nəfər öldürülmüşdü. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100 nəfərdən çox idi. Halbuki, M.Qorbaçovun Azərbaycana ezam etdiyi yüksək vəzifəli emissarlar həyasızcasına bəyan edirdilər ki, Bakıda fövqəladə vəziyyət elan olunmayacaqdır.

…Xalq o günlərdə böyük bir həqiqəti - meydanda həqiqi liderin olmamasını da bütün mahiyyəti ilə dərk etdi. O müdhiş günlərdə Heydər Əliyevin - qüdrətli liderin respublikada yoxluğu günün ən böyük həqiqəti kimi dərk olundu. Amma Bakıda olmamasına baxmayaraq, xalqının səsinə hər kəsdən əvvəl səs verən də elə Heydər Əliyev oldu. Ümummilli liderimiz Moskvada xüsusi nəzarət altında ola-ola, özünün və ailə üzvlərinin həyatını açıq təhlükə qarşısında qoyaraq, hadisələrdən dərhal sonra, 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəldi. Ulu öndər təcavüzə kəskin etirazını bildirdi, faciəni törədənləri, şəxsən M.Qorbaçovu kəskin ittiham etdi, qoşunların Bakıdan çıxarılmasını tələb etdi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1990-cı il 21 yanvar tarixli bəyanatı həm də faciəyə verilən ilk siyasi qiymət idi - özü də imperiyanın mərkəzində, Moskvada...

XX əsrdə totalitarizmin törətdiyi ən qanlı terror aktları sırasında 20 Yanvar cinayəti də var. Bu, bəşəriyyət və insanlıq əleyhinə törədilmiş dəhşətli əməl idi. Dinc əhaliyə qarşı həyata keçirilən cəza tədbirləri zamanı 1949-cu ilin Cenevrə Konvensiyasının, Beynəlxalq Hərbi Tribunalın Əsasnaməsinin, Beynəlxalq İnsan haqları Bəyannaməsinin, insan haqlarına dair digər beynəlxalq aktların çoxsaylı müddəaları pozulmuşdu. Bu məqamlar 20 Yanvar hadisələri ilə bağlı aparılmış ən səthi təhqiqatlarda da təsdiqlənir.

Ulu öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra bu məsələ yenidən gündəmə gəldi, 20 Yanvar hadisələrini lazımınca qiymətləndirmək yolunda ciddi addımlar atıldı... “20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 5 yanvar 1994-cü il tarixli fərmanı ilə Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olundu. Milli Məclisdə müzakirələrin yekunu olaraq 1994-cü il martın 29-da “1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında” qərar qəbul edildi. Qərarda, 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildi.

Ulu öndər şəhidlərin ailələrini də dövlət qayğısı ilə əhatə etdi. Eləcə də 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı hər zaman dövlət başçısının diqqətində olub. 1993-cü ildən üzü bəri 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər görülüb və bu gün də görülməkdədir. Azərbaycan Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə 20 Yanvar təcavüzü zamanı yüksək vətəndaşlıq nümunəsi göstərərək həlak olmuş Azərbaycan Respublikası vətəndaşlarına “20 Yanvar şəhidi” fəxri adı verilib, “1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə dövlət qayğısının artırılması haqqında” 2003-cü il 15 yanvar tarixli sərəncama əsasən, əlil olmuş şəxslərə verilən aylıq müavinət artırılıb və bu iş indi də davamlı olaraq həyata keçirilir.

Ulu öndər Heydər Əliyevin daxili və xarici siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev 20 Yanvar faciəsində qətlə yetirilənlərin, müharibə veteranlarının, şəhid ailələrinin, əlil-lərin problemlərinin dövlət səviyyəsində həllini mühüm vəzifələrdən biri kimi qarşıya qoyub. Ölkəmizdə bu istiqamətdə böyük tədbirlər həyata keçirilir. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir. Ölkənin iqtisadi durumunun yüksəlməsi özünü bu qəbildən olan insanların həyat və məişətində daha qabarıq göstərir. 2006-cı il yanvarın 19-da ölkə başçısının fərmanı ilə 20 Yanvar şəhidlərinin ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilib. Dövlət başçısının fərmanı ilə 140 nəfər 20 Yanvar şəhidi fəxri adı almış şəxslərin 180 nəfər ailə üzvünə ayda 300 manat məbləğində Prezident təqaüdü verilir. 2006-cı il yanvarın 1-dən qüvvəyə minən əmək pensiyaları haqqında qanuna əsasən 20 Yanvar şəhidlərinin əmək pensiyasını alan hər bir ailə üzvünə aldığı pensiyadan başqa əlavə ödəniş verilir.

Bu il xalqımız 20 Yanvar hadisələrinin 30-cu ildönümünü qeyd edir, igid övladlarının fədakarlığını məhəbbətlə xatırlayır, onların əziz xatirəsini böyük ehtiramla yad edir. Bakının ən möhtəşəm məkanında Vətən uğrunda canlarını qurban vermiş mərd, igid oğul və qızlarımızın uyuduğu Şəhidlər xiyabanı xalqımız üçün müqəddəs bir and yerinə, milli iradəmizin şanlı-şərəfli bir salnaməsinə çevrilib. Şəhidlərimiz və Şəhidlər xiyabanı azadlığımızın, müstəqilliyimizin, milli iradəmizin simvolu kimi bundan sonrakı nəsillərə də bir qürur mənbəyi olacaqdır.

**Xalq Cəbhəsi**. - 2020. - 18-21 yanvar. - № 5. - S. 5.

**Qanlı Yanvar**

**Qabil Hüseynli,**
Azərbaycan Texniki Universitetinin professoru, fəlsəfə elmləri doktoru.

Azərbaycanın dövlətçilik tarixində qanlı 20 Yanvar xalqımızın öz milli müstəqilliyi uğrunda apardığı çoxillik mübarizəsinin heç zaman unudulmayacaq şanlı səhifələrindəndir. Sovet cəza dəstələrinin qanlı cinayətinə baxmayaraq, bu müstəqillik hərəkatı xalqın yetkin siyasi şüuru və azadlığa olan möhkəm inamı sayəsində özünün şərəfli adını dünya azadlıq mübarizəsinin mətninə yazdı. Xalqımız BMT tərəfindən "İlin xalqı" elan edildi. Ağır yanğı ilə onu da qeyd etməliyik ki, bu qanlı hadisə azərbaycanlılara qarşı törədilmiş son 100 ilin ən ağır beynəlxalq cinayətlərindən biridir.

20 yanvar hadisələrinə ilk növbədə Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar niyyətlərinə təkan verən keçmiş SSRİ rəhbərliyinin havadarlığı və bilavasitə təşəbbüsü ilə Bakıya sovet ordusu hərbi hissələrinin yeridilməsi ilə nəticələnən silahlı təcavüz aktı kimi yanaşmaq lazımdır. Buna qədər isə 1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR ilə "birləşdirilməsi" haqqında anti-konstitusion akt qəbul etdikdə Moskva buna göz yumdu. Qorbaçovun köməkçisi Aqanbekyanın, "Daşnaksütyun" partiyası ideoloqlarının təhriki ilə ictimai şüura açıq-aşkar ideoloji uydurmalar yeridilir, ermənilərin separatçılığını sovet hakimiyyəti illərində guya Azərbaycan hökuməti tərəfindən törədilən "sıxışdırmalara", "təhqirlərə" və "ayrı-seçkiliyə" qarşı məcburi etiraz hərəkəti kimi qələmə verilirdi. XX əsrin axırlarında sovet rəhbərliyi bir tərəfdən, ermənilərin ərazi iddialarının təmin olunması, digər tərəfdən azərbaycanlıları daha da sıxışdırmaq məqsədi ilə onların yaşadıqları ərazilərin kiçildilməsi siyasətinin davam etdirilməsi üçün ardıcıl addımlar atdılar. Bu hadisələr azərbaycanlılara qarşı iki əsr ərzində davam edən soyqırımı, deportasiya, Azərbaycan ərazisinin zorla qoparılıb Ermənistana verilməsi siyasətinin məntiqi davamı idi. Həmin illər xalqımız ayaqda idi və həm Dağlıq Qarabağda erməni separatizminin meydan sulamasının qarşısının alınmasını, həm də azərbaycanlıların qədim Oğuz yurdu Ermənistandan kütləvi surətdə divan tutularaq zorakılıqla qovulmasını dayandırmağı Moskvadan tələb edirdi. Bu Azərbaycan xalqının haqlı konstitusion tələbi idi və sovet rəhbərləri 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə bu haqlı tələbə misli görünməmiş qəddarlıq və cinayətkarlıqla cavab verdi.

Baş verənlər 20 yanvar ərəfəsində Azərbaycanda ciddi hakimiyyət böhranı yaranması ilə müşayiət olunurdu. Azərbaycan Kommunist Partiyasının birinci katibi Əbdürrəhman Vəzirovun anlaşılmaz və səriştəsiz idarəçilik siyasəti respublikada siyasi vəziyyəti dalana dirəmişdi. Bakıda siyasi gərginlik getdikcə pik nöqtəsinə çatırdı. Yanvarın 10-dan sonra SSRİ rəhbərliyinin nümayəndələri və güc qurumlarının nazir müavinləri Bakıya gəlməyə başladılar. SSRİ Ali Soveti İttifaq Sovetinin sədri Y.Primakov və Sov.İKP MK katibi A.Girenko, müdafiə naziri, marşal Yazov Mixail Qorbaçov tərəfindən Bakıya ezam edilmişdilər. Xalq şairi Bəxtiyar Vahabzadə 1997-ci ildə "Respublika" qəzetinə verdiyi müsahibədə o zamankı vəziyyəti belə təsvir edirdi: "Bir qrup ziyalı - rəhmətlik İsmayıl Şıxlı, mən, Nurəddin Rzayev, Şeyxülislam Allahşükür Paşazadə və Həsən Həsənov yanvarın 17-də Əbdürrəhman Vəzirovun yanına getdik. Kabinetə girəndə Primakovla Girenkonu da orada gördük. Mən dərhal Primakovun üstünə hücum çəkdim ki, bizdən nə istəyirsiz, niyə əl çəkmirsiz? Sizə nə pisliyimiz keçib?"

Bunu görən Vəzirov qalxıb məni qucaqlayıb sakitləşdirməyə çalışdı. Bu zaman Allahşükür Paşazadə məndən də kəskin şəkildə Primakova hücum çəkdi və sərt şəkildə "xalqıma qarşı təhlükə olan yerdə mən heç kəsi tanımıram. Düzünü de görüm, ordu şəhərə girəcək? Qırğın olacaq, ya yox?" - dedi. Onlar bizi sakitləşdirməyə çalışdılar ki, qırğın olmayacaq. Amma Vəzirov bilirdi ki, şəhərə hücum olacaq. Bunu biz də hiss etdiyimiz üçün kabinetdən çıxanda Həsən Həsənov dedi ki, qırğın olacaq. Şeyx də o fikirdə olduğunu bildirdi.

Tanınmış jurnalist Nadejda İsmayılova həmin günlərdə siyasi rəhbərliyin çarəsizliyini öz yazılarında qeyd edib. N.İsmayılova yazır ki, 14 yanvarda Ə.Vəzirov Mərkəzi Komitənin iclasını çağırdı. Axşama yaxın ikinci iclas Moskvadan gəlmiş Primakovun iştirakı ilə keçirildi. Primakov kəskin suallardan qaçaraq çıxış edənlərin sözünü kobud formada kəsirdi. Ali Sovetin sədri Elmira Qafarova bildirirdi ki, vəziyyət çox kritikdir. Spiker deyirdi ki, xalq Dağlıq Qarabağ probleminin həllini tələb edir. Bu problem həll edilsə, qarşılıqlı anlaşma əldə olunacaq. Primakov isə cavabında: "Dağlıq Qarabağdan danışmayın! Deyin görək Bakıdakı ekstremistlərlə nə edək?", - soruşurdu. İclasda büro üzvləri Primakova deyiblər ki, meydana çıxan xalqın yalnız bir tələbi var: "Qarabağda vəziyyəti normallaşdırmaq". Primakov isə qəzəbli halda etiraz edib: "Onlar hakimiyyəti deviriblər.

Nə üçün buna göz yumursunuz?”. Buradan aydın görünür ki, Moskvadan göndərilənlər yerli hakimyyətlə situasiyanı müzakirə etməyə, çıxış yolu tapmağa yox, öz qanlı niyyətlərini həyata keçirmək üçün gəliblər.

17 yanvar 1990-cı ildə SSRİ Ali Soveti İttifaq Sovetinin sədri Y.Primakov və Sov.İKP MK katibi A.Girenko partiya rəhbərləri, AXC nümayəndələri və ziyalılarla görüşürlər. Onlar görüşdə qoşunların şəhərə girməyəcəyi barədə vədlər verirdilər. Mərkəz paralel şəkildə başqa vasitələrə də əl atırdı. Sovet rəhbərliyi dünya birliyini çaşdırmaq üçün Azərbaycanda islamçı fundamentalistlərin hakimiyyəti ələ keçirməsi haqda məlumat yayırdı.

Yanvarın 18-də Moskvadan gələn nümayəndələr başda olmaqla rəhbərlik Mərkəzi Komitənin qarşısında keçirilən mitinqə gəlir və Primakov mitinqçilər qarşısında çıxış edərək deyir ki, Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməyəcək və şəhər ətrafında toplanmış ordu Bakıya yeridilməyəcək. Eyni sözü həmin gün Sov.İKP MK milli münasibətlər şöbəsi müdirinin müavini V.Mixaylov respublika televiziyası ilə çıxışında təkrar edib. Bu zaman artıq Zaqafqaziya, Moskva, Leninqrad və digər hərbi dairələrdən gətirilmiş 50 minlik ordu hissələri şəhəri işğal etmək üçün hərbi hazırlıq işlərini başa çatdırmışdı. Bütün qoşun növlərindən ibarət olan hərbi hissələr, DTK-nın 7-ci idarəsinin “Alfa” qrupu müxtəlif istiqamətlərdən Bakıya doğru hərəkət üçün start vəziyyətində idi.

Yanvar ayından etibarən mərkəzi mətbuatda azərbaycanlıların islam fundamentalizminə yuvarlandıqları barədə materiallar dərc olunmağa başladı. Bu məsələdə “Pravda” və İzvestiya” qəzetləri daha fəal və qərəzli idilər. Onlar həyasızcasına iddia edirdilər ki, islam fundamentalistləri əksər binaların üstündə snayper və pulemyot silahları yerləşdiriblər. Moskva başqa variantlara da əl atırdı. Bu baxımdan Primakovun QMİ sədri Allahşükür Paşazadəyə respublikada hakimiyyəti ələ alması təklifi də bu təxribatların tərkib hissəsi idi: “Şeyx həzrətləri, təklif edirəm ki, siz hakimiyyəti əlinizə alıb ölkəyə rəhbərlik edəsiniz!” “Primakov mənə belə bir təklif etdi ki, biz Qorbaçovla danışmışıq, məsləhət eləmişik, ancaq bir şərtlə biz bura girməyə bilərik. Əgər sən respublikaya rəhbərliyi öz üstünə götürsən, onda biz söz veririk ki, hər cəhətdən həm sizə dövlətinizi saxlamaq üçün köməklik edərik, həm də qoşunlar bura girməyəcək”, - deyə Şeyxülislam illər sonra verdiyi müsahibəsində qeyd etmişdi. Allahşükür Paşazadə Primakovun bu təkilfinə sərt şəkildə rədd cavabı verib: “Mən sizin məqsədinizi anladım, ona görə qəti deməliyəm ki, təklif etdiyiniz vəzifəni tuta bilməyəcəyəm. Mənim 2 rükət namazım sizin təklif etdiyiniz hakimiyyətdən qat-qat üstündür! Mən Buxaradakı Mir-Ərəb mədrəsəsinə daxil olmuşam, Moskvadakı Ali Komsomol məktəbinə yox!”. Moskvadakı KİV-lər isə durmadan təkrarlayırdılar: “Sovet ordusu Bakıya Azərbyacanda islam fundamentalizminin qarşısını almaq üçün daxil olub”. Moskva bu ittihamla ərazi bütövlüyünün pozulmasına qarşı mübarizəyə qalxmış Azərbaycan xalqını geopolitik oyunun qurbanına çevirmək məqsədi güdürdü. Cəmi 123 mollası olan 7 milyonluq ölkəni “islam təməlçiliyi ilə ittiham etmək gözü dönmüş Moskvanın reallıq hissini bütünlüklə itirməsi” demək idi. O zaman kifayət qədər sekulyarlaşmış və ateizmə meyilli Azərbaycanın dini cameəsi çox məhdud idi. 1985-ci ildə Azərbaycanda qeydiyyatdan keçmiş cəmi 18 məscid və 53 dini icma fəaliyyət göstərirdi. 1982-ci ildə aparılmış rəsmi qeydiyyata əsasən, ölkədə cəmi 123 molla vardı. Onlardan yalnız 16 nəfərinin dini təhsili var idi. Buxaradakı “Mir Ərəb” mədrəsəsinin və Daşkənd İslam Universitetinin məzunları olan bu ruhanilərin hamısı Qafqaz Müsəlmanları İdarəsində və Bakı şəhərinin məscidlərində işləyirdilər. Bu səbəbdən Moskvanın islam amilindən istifadəyə cəhdi fitnə-fəsaddan başqa bir şey deyildi. Onu da vurğulamaq yerinə düşərdi ki, Azərbaycanda “islam təhlükəsi” barədə iddialar elə xalq hərəkatının başlandığı vaxtdan etibarən səsləndirilirdi. Bu tipli ittihamlar hətta Sov. İKP Mərkəzi Komitəsinin dəhlizlərində müzakirə olunurdu. Məsələn, Mixail Qorbaçovun köməkçisi olmuş Çernyayev özünün memuarlarında yazırdı ki, “Bakıda küçələrə yaşıl bayraqlarla və Xomeyninin portretləri ilə çıxırlar”. Moskva beləcə Azərbaycandakı etirazlara dini rəng verməklə Qarabağ ermənilərinin “əlinə oynayır”, eyni zamanda respublikamızı SSRİ-də başlanmış demokratik hərəkatdan təcrid etməyə çalışırdı.

Tanınmış siyasi araşdırmaçı Tomas de Vaal özünün “Qarabağ” kitabında qeyd edir ki, Azərbaycan Kommunist Partiyasının ikinci katibi, Əfqanıstandan Bakıya bu posta gətirilən Viktor Polyaniçko siyasi manipuliyasiyaya meyilli idi və islam faktorundan istifadədən çəkinmirdi. Bir dəfə Polyaniçko AXC fəallarından ikisini öz yanına görüşə dəvət edərək, qəribə təkliflə onları təəccübləndirmişdi. Polyaniçko israr edirdi ki, AXC-nin proqramına radikal islam təməlçiliyinin prinsipləri də salınsın. “Nyu York Tayms” qəzetinin müxbiri Bill Keller bir mənbəyə isnad edərək yazmışdır: “Polyaniçkonun kabinetində Quran var idi. O, kitabı vərəqlədi və dedi: “Quran yaxşı kitabdır”. Daha sonra bildirdi: “Bakı üçün avropasayağı hərəkətlər yaxşıdır. Amma kəndlərdə müsəlman inancı çox güclüdür. Siz gərək islam faktorunu nəzərə alasınız”. Kommunist məmurundan belə təklif şübhəli və provokasion idi.

Məsələdən hali olanlar yaxşı bilirlər ki, dini amildən öz təxribatçı məqsədləri üçün istifadə etmək həmişə sovet sisteminin arsenalındakı ideoloji təxribat vasitələrindən olub və bu gün də bir sıra ölkələrin praktikasında qalmaqdadır. Ciddi sovet ideoloji tezisləri ilə böyümüş Azərbaycan vətəndaşları üçün din daha çox nənə-babalarının bağlı olduğu bir məsələ idi. Bəs sovet rəhbərliyi qondarma "islam təhlükəsi" yarlığından nə üçün istifadə etməyə can atırdı?

Allahşükür Paşazadə 30 yanvar 1990-cı ildə "Azərinform"a açıqlamasında Sovet dövləti tərəfindən Azərbaycan xalqına qarşı irəli sürülən, qoşunların yeridilməsi üçün guya səbəb olan üzdəniraq "islam amili"ni "fitnəkar ittiham" adlandırmışdı:

"Zaqafqaziya müsəlman ruhaniləri siyasi mübarizədə və millətlərarası münaqişələrdə dini ideyalardan istifadə olunmasını yolverilməz hesab edirlər. Regionda vəziyyətin hətta ən gərgin anlarında biz zəkaya, dincliyə, mehriban qonşuluğa çağırmışıq. Məhz buna görə də sabitliyi guya "islam amilinin" pozduğunu iddia etmək xüsusilə hiddət doğurur. Açıq-aşkar görünür ki, bunu iddia edənlər tamamilə məlum bir niyyət güdürlər - müsəlmanları xristianlara qarşı qoymaq millətlərarası münaqişəni daha da şiddətləndirmək və milli-dini zəmində kəskin münaqişələr yaratmaq".

Əslində isə bu bölgədə hadisələrin gərginləşməsi ermənilərin məkrli niyyətlərindən qaynaqlanırdı. 1988-ci ildə erməni separatçılarının "Miatsum" adı altında başladığı Qarabağ hərəkatı Azərbaycanda çox böyük etiraz doğurdu. Xalq xain qonşuların tarixi torpaqlarımıza həyasız iddialarına hiddətlə etirazını bildirdi. Lenin meydanından (indiki Azadlıq) vüsət almış milyonluq etiraz mitinqləri bir ildən sonra Azərbaycanın müstəqillik uğrunda mübarizəsinin əsas bazasına çevrilməkdə idi.

Ölkəmizdə milli ideologiyanın sürətlə özünə dayaq tapdığını müşahidə edən Qorbaçov və SSRİ rəhbərliyi bu hərəkatın genişlənərək bütün İttifaq dövlətinin qəbirqazıyanına çevriləcəyindən qorxmağa başladılar. Dindarından tutmuş sekulyarına qədər vahid milli ideya ətrafında birləşmiş xalq öz mütəşəkkil birliyini ortaya qoymaqla Azərbaycanı digər İttifaq respublikaları üçün də azadlıq mayakına çevirirdi.

Moskvanın Qarabağ probleminin həllində tutduğu birtərəfli və ədalətsiz mövqe xalqın səbrini tükəndirirdi. Belə vəziyyət isə getdikcə ciddi böhranın əsasını qoymağa başladı. Bakıda DTK tərəfindən təşkil olunmuş erməni talanları, SSRİ-İran sərhədinin sökülməsi, Naxçıvan və Qarabağda erməni silahlılarının dinc azərbaycanlılara hücumları, 220 mindən çox soydaşımızın ata-baba torpaqları olan Ermənistandan barbarcasına qovulması və bu zaman 150-dən çox insanın həlak olması siyasi böhranı kəskinləşdirən detenator rolunu oynayırdı...

Bir neçə gündən sonra Azərbaycan xalqının tarixində ən kədərli və eyni zamanda şanlı səhifə olan 20 Yanvar qırğınının 30 ili tamam olacaq. SSRİ rəhbərliyinin bütün cidd-cəhdlərinə baxmayaraq, 1990-cı ilin yanvarında Bakıda baş vermiş amansız qətliamı dünyadan gizlətmək mümkün olmadı, bu hərbi təcavüzü ört-basdır etmək üçün SSRİ rəhbərliyinin bəyan etdiyi qəribə ittihamlar sabun köpüyü kimi dağıldı. Sovet qoşunlarının qanunsuz yeridilməsi nəticəsində Bakıda və Azərbaycan rayonlarında 146 nəfər öldürülüb, 744 nəfər yaralanıb, 841 nəfər həbs olunub. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilib. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milislər olub. Qara Yanvar faciəsi nəticəsində SSRİ Konstitusiyası və Azərbaycan SSR Konstitusiyası kobudcasına pozulub, Azərbaycan Respublikasının suveren hüquqları tapdalanıb. Qabaqcadan hazırlanan bu təcavüzkarlıq aksiyası Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq, xalqı təhqir edərək ona mənəvi zərbə vurmaq məqsədi daşıyıb. Azərbaycan xalqı bu faciəni heç zaman unutmayacaqdır.

Təəssüf ki, həmin dövrdə bu acınacaqlı faktlara dünya ictimaiyyətinin də mövqeyi birmənalı olmamışdır. Bəzi Qərb ölkələri bu cinayətkar hərəkətləri SSRİ-nin daxili işi hesab edərək, baş vermiş insan hüquq pozuntularına öz siyasi maraq və mənafeləri prizmasından yanaşmaqla, laqeyd və seyrçi mövqedə dayanmışlar. Məsələn, Böyük Britaniya və İtaliyanın XİN-i bəyanat verərək, Azərbaycanda yaranmış vəziyyəti "SSRİ-nin daxili işi" kimi qiymətləndirirdi. ABŞ isə Dövlət Departamentinin nümayəndəsi Marqaret Tatuaylerin şəxsində bəyanat vermişdi ki, ABŞ Azərbaycanı dəstəkləmir və Bakıdakı yanvar hadisələrini şərh etməyi lazım bilmir. Dövlət Departamenti M.Qorbaçovu açıqca dəstəkləyərək hesab edirdi ki, onun səyləri azərbaycanlılarla ermənilər arasında silahlı toqquşmanın dayandırılmasına yönəldilmişdir. Əlbəttə, belə mövqelər həmin dövrün geosiyasi şərait və amilləri ilə sıx bağlı idi. Çünki Qərb dövlətləri anlayırdı ki, bu cür millətlərarası münaqişələr SSRİ-ni daxildən zəiflədərək parçaladığı üçün, 20 Yanvar hadisələri kimi analoji faktlar onların "soyuq müharibə" planlarına və strateji məqsədlərinə tamamilə uyğun idi.

1990-cı il yanvarın 19-20-də Bakı şəhərində baş vermiş hadisələrin ilkin təhqiqi haqqında Azərbaycan SSR Ali Soveti İstintaq Komissiyasının 11 fevral 1990-cı il tarixli Bəyanatında isə qeyd olunurdu ki, İttifaq

hakimiyyət orqanları ölkənin qanunlarını və beynəlxalq hüquq normalarını saya almadan, Azərbaycan SSR-in suveren hüquqlarına məhəl qoymadan, SSRİ-nin yaradılması haqqında müqavilənin şərtlərini, SSRİ Konstitusiyasını və Azərbaycan SSR Konstitusiyasını kobudcasına pozaraq, respublikanın ali dövlət hakimiyyəti orqanlarının razılığı və fövqəladə vəziyyəti tənzimləyən qanunvericilik aktı olmadan Azərbaycan Sovet Sosialist Respublikasına qeyri-qanuni surətdə qoşunlar yeritmiş və onun paytaxtı Bakı şəhərində fövqəladə vəziyyət elan etmişlər.

Elə bu səbəbdən də Bakı şəhərində fövqəladə vəziyyətin ləğv edilməsi haqqında Azərbaycan SSR Ali Sovetinin 22 yanvar 1990-cı il tarixli qərarının 1-ci maddəsində qeyd olunur: "Bakıda fövqəladə vəziyyət haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin 19 yanvar 1990-cı il tarixli fərmanı Azərbaycan SSR-in suverenliyinə qarşı təcavüz, bu fərmanın Bakı və onun ətrafında kütləvi qırğına səbəb olmuş icrasına sərəncam vermiş SSRİ ali hakimiyyət orqanlarının və ali vəzifəli şəxslərin hərəkətləri isə Azərbaycan xalqına qarşı cinayət kimi qiymətləndirilsin".

Bakı qırğını Mixail Qorbaçovun siyasi bioqrafiyasına qara hərflərlə yazıldı. Uzun illər bu barədə verilən suallardan qaçan sabiq prezident yalnız SSRİ-nin süqutundan sonra Bakıya ordu yeridilməsinin səhv olduğunu etiraf etməyə özündə cəsarət tapa bilmişdi. O, yazdığı "Həyat və islahatlar" kitabındakı memuarında sovet ordusunun 20 yanvarda Bakıya qanlı müdaxiləsi barədə mövqeyini qeyd edərkən yazır: "Bu faciəli hadisədən dərs götürdüm. Hakimiyyət ekstremal situasiyada güc tətbiqindən imtina edə bilməz. Ancaq bu aksiya mütləq olaraq əsaslandırılmalı və çox sərt tədbirlərlə bağlı addım məhdudlaşdırılmalıdır. Problemin həlli yalnız siyasi yolla tapılmalıdır".

Onun ruhi sarsıntısını isə arvadı Raisa Qorbaçova yazdığı "Mən ümid edirəm ki..." kitabında göstərib: "Mən gecə zənglərin birini xatırlayıram: 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə evə gələn zəngi... Bakıda hadisələrin baş verdiyi o gecəni... Yadımdadır, 20 yanvar günü səhər tezdən mən Mixail Qorbaçovu tanımadım: Ağappaq ağarmış, boz sifət, ruhi sarsıntı və ürək böhranı...".

SSRİ rəhbəri Mixail Qorbaçovun Qərbdə populyar olması onun bu qanlı əməlinin dünya liderləri tərəfindən pislənməsinin qarşısını ala bildi.

Bakıdakı qanlı qırğınla bağlı Dövlət Departamentinin nümayəndəsi Marqaret Tatuayler ABŞ hökuməti adından bəyanat verdi ki, ABŞ Azərbaycanı dəstəkləmir və Bakıdakı yanvar hadisələrini şərh etməyi lazım bilmir.

Böyük Britaniya XİN-i bəyanat verərək, Azərbaycanda yaranmış vəziyyəti "SSRİ-nin daxili işi" kimi qiymətləndirirdi.

İtaliyanın xarici işlər naziri D.Mikels də bəyan etmişdi ki, Bakıda baş vermiş hadisələr SSRİ-nin daxili işidir. Onun dediyinə görə, SSRİ hökuməti öz milli mənafelərini qorumalı və Azərbaycan Xalq Cəbhəsinin radikal əhval-ruhiyyəli millətçilərinin qarşısını almalı idi.

Həmin günlər "Amerikanın səsi" radiosu məlumat yaymışdı ki, Bakıya qoşun yeridilməsi üçün Azərbaycanda islam fundamentalizminin baş qaldırması ilə qorxudulan ABŞ prezidenti Corc Buş iki gün ardıcıl olaraq Qorbaçovu müdafiə edib. Amma sonradan onlar da səhv etdiklərinin fərqinə vardılar.

Həmin ağır günlərdə Şeyxülislamın səsinə ilk səs verən, ona dayaq duran Azərbaycanın Moskvadakı nümayəndiliyində hadisə ilə bağlı mətbuat konfransı keçirən görkəmli dövlət xadimi Heydər Əliyev oldu.

Siyasi hakimiyyətin bütün manеələrinə baxmayaraq, paytaxt Moskvada mətbuat konfransı keçirən Sovet İttifaqı Kommunist Partiyasının Siyasi Bürosunun sabiq üzvü, SSRİ Nazirlər Soveti sədrinin sabiq birinci müavini Heydər Əliyev bu qanlı qırğına görə Mixail Qorbaçovu ittiham etdi.

Sovet rəhbərliyinin islam təhlükəsi barədə şişirdilmiş yalanı yerimədi. Bütün dünya az sonra Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsinin yeni səhifəsinin şahidi oldu. "Qanlı Yanvar" hadisəsindən iki ay sonra Azərbaycanın SSRİ-dən ayrılması, dövlət müstəqilliyi uğrunda mübarizəsi başlandı. Bir il sonra - 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktı yekdilliklə qəbul edildi. Bu həm də SSRİ-nin dağılması, "Müstəqilliklər paradı"nın başlanğıcı oldu.

**Respublika.-**2020.-19 yanvar.-№11.-S.6.

## 20 Yanvar hadisələrinə 30 illik zaman kəsiyindən obyektiv baxış

**Elman Nəsirov,**
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının
Siyasi Araşdırmalar İnstitutunun direktoru, siyasi elmlər doktoru, professor

**20 Yanvar faciəsi Azərbaycan xalqının yaddaşından heç vaxt silinməyəcəkdir. Şəhidlərimizin əziz ruhu daim yaşayacaq, onların əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır. Mən o dəhşətli gündə yaxınlarını itirmiş bütün insanlara bir daha başsağlığı verirəm. Şəhidlərimizin ruhu əbədi yaşayacaq və yaşamalıdır.**

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Azərbaycan xalqının minilliklərlə ölçülən zəngin və şərəfli tarixində həm qəhrəmanlıq, həm də faciə səhifələri bir-birini əvəz etmiş, nəsildən-nəslə qan yaddaşı və genlərlə ötürülmüşdür. Tariximizin 20 Yanvar səhifəsinin unikallığı isə ondadır ki, o eyni vaxtda həm faciə, həm də qəhrəmanlıq nümunəsidir. Sözügedən reallıqdan çıxış edərək, bu yazıda məqsədimiz hər iki anlamı özündə birləşdirən 20 Yanvar hadisələrinə 30 illik zaman kəsiyindən nəzər yetirib, bir sıra narahatedici suallara cavab axtarmaqdır. Onları aşağıdakı ardıcıllıqla təqdim edib, təhlilimizə başlayaq.**

***Birincisi, 20 Yanvar faciəsini şərtləndirən amillər hansılardır və onun qarşısını almaq nə dərəcədə mümkün idi?***

20 Yanvar faciəsinə aparan yol, əsasən, 2 amillə şərtlənmişdir:

**a) Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və SSRİ rəhbərliyinin ermənipərəst siyasəti**

1988-ci ilin fevral ayından başlayaraq, 200 mindən artıq soydaşımız Ermənistandan zor və işgəncə altında qovulmuş, təkcə 1989-cu ilin avqust-dekabr aylarında Ermənistan tərəfindən Azərbaycan sərhədlərinin 91 dəfə pozulması və atəşə tutulması nəticəsində 32 nəfər azərbaycanlı öldürülmüş, 166 nəfər yaralanmışdı.

Kreml bu vəziyyətdən nəticə çıxarıb, Ermənistanın qeyri-qanuni və antibəşəri hərəkətlərinə hüquqi qiymət verib, günahkarları cəzalandırmaq əvəzinə, cinayətkarın şirnikləndirilməsi siyasətinə üstünlük verdi. Həmin qərəzli, məsuliyyətsiz və cinayətkar siyasətin bir neçə məqamına nəzər yetirək:

–1988-ci ilin mart ayında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi və SSRİ Nazirlər Sovetinin “Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi haqqında” qəbul etdiyi qərar, əslində, Dağlıq Qarabağın Azərbaycandan ayrılaraq Ermənistana birləşdirilməsi üçün münbit şəraiti təmin etməyə hesablanmış addım idi. Bu qərara əsasən, ilk növbədə Dağlıq Qarabağa müstəsna hüquq və səlahiyyətlər verilirdi, böyük maliyyə vəsaitləri ayrılırdı, vilayətlə bağlı mühüm məsələlərin həlli İttifaq nazirlikləri və strukturlarının səlahiyyətinə aid edilirdi və s.

–1989-cu il yanvarın 12-də SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarına əsasən, Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində xüsusi idarəetmə forması –Xüsusi İdarə Komitəsi yaradıldı. Sədri ermənipərəst məmur Arkadi Volski təyin edildi. Bu addım faktiki olaraq Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılmasını təmin etmiş oldu.

– Rəsmi Moskvanın yuxarıda qeyd olunan addımlarından ruhlanan və şirniklənən Ermənistan SSR Ali Soveti 1989-cu il dekabrın 1-də Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında qərar verdi.

Bu siyasət və onun nəticələri Azərbaycanda ermənipərəst SSRİ rəhbərliyi əleyhinə etimadsızlıq mühiti və ümumxalq etirazı dalğasının formalaşmasını təmin etdi.

**b) Azərbaycan rəhbərliyinin qətiyyətsiz və antimilli siyasəti, Azərbaycan Xalq Cəbhəsinin timsalında müxalifətin təxribatçı addımları**

Hadisələrin təhlili göstərir ki, Azərbaycan rəhbərliyi və müxalifəti həmin tarixi şəraitdə ümummilli maraqları şəxsi maraqların fövqünə qoymaq bacarığı nümayiş etdirə bilsəydi, antimilli və təxribatçı addımlar atmasaydı, Moskvanın Azərbaycan xalqına qarşı qanlı ssenariləri həyata keçirmək imkanı minimuma enə bilərdi. Zənnimizcə, məhz Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 15 yanvar 1990-cı il tarixli qərarında “Müdafiə Nazirliyi, hüquq-mühafizə və SSRİ-nin digər icra orqanlarından xahiş edirik ki, ölkə konstitusiyasının 81-ci maddəsinə uyğun olaraq, Azərbaycan SSR-ə müvafiq zəruri yardımı həyata keçirsin” şəklində ifadə

olunmuş mövqe Mixail Qorbaçov başda olmaqla SSRİ rəhbərliyini həm arxayınlaşdırmış, həm də Azərbaycan əleyhinə addımlarının radikallıq səviyyəsini daha da gücləndirmişdir. Xatırladaq ki, 1977-ci il 7 oktyabr tarixində qəbul edilmiş SSRİ Konstitusiyasının 81-ci maddəsinə görə, müttəfiq respublikaların suveren hüquqları SSRİ tərəfindən qorunmalı idi.

Bundan savayı, 1989-cu ilin sonlarında bəzi rayonlarda Xalq Cəbhəsinin hakimiyyəti ələ keçirməsi, Naxçıvanın İranla sərhədindəki tikanlı məftillərin sökülüb atılması, xalq hərəkatının radikal qanadının Milli Müdafiə Şurası təşkil edərək nəzarəti öz əlinə alması, 1990-cı il yanvarın 13-15-də SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin Sumqayıt ssenarisi əsasında "erməni talanları" törətməsi Moskvanın əlinə Azərbaycan xalqını cəzalandırmaq fürsəti vermişdi.

***İkincisi, Bakıya yeridilən qoşun hissələrinin hədsiz qəddarlığı nə ilə bağlı idi?***

Əvvəla, qeyd edək ki, 1989-cu ilin sonlarınadək Bakı şəhərində 110 minlik silahlı qüvvə və hüquq-mühafizə orqanlarının şəxsi heyəti var idi. Xüsusilə, Bakı qarnizonunun və Bakı Ümumqoşun Məktəbi zabitləri və əsgərlərinin Azərbaycan xalqına münasibəti heç bir halda düşmən münasibəti deyildi, əksinə daha çox loyallığı ilə fərqlənirdi. Onlar yerli əhalinin qonaqpərvərlyi və alicənablığını gündəlik həyatda görür və qiymətləndirə bilirdilər. Başqa sözlə, "Görünən dağa nə bələdçi". Təsadüfi deyildir ki, 20 Yanvar hadisəsi öncəsi Bakı Ümumqoşun Məktəbinin zabit kollektivi adından SSRİ Ali Sovetinin sədrinin və ölkənin müdafiə nazirinin adına ünvanlamış məktubda xüsusi olaraq qeyd olunurdu ki, Bakıda vəziyyət Azərbaycan Xalq Cəbhəsinin nəzarəti altındadır və mövcud problemlərin həlli üçün siyasi tənzimləmə imkanları tükənməmişdir. Biz tam əminliklə deyirik: Bakıda ikinci Rumıniyanın baş verməsinə imkan verilməməlidir." Mərkəzə belə mövqe lazım deyildi. Ona görə də, Moskva Bakıda qanlı aksiyanı həyata keçirmək üçün bu qüvvələrə tam etibar etmirdi.

İstintaq müəyyən etmişdir ki, 1990-cı il yanvarın ortalarında SSRİ Müdafiə və Daxili İşlər nazirliklərinin, habelə başqa xüsusi təyinatlı hərbi birləşmələrin 66 min nəfərdən çox əsgər və zabiti Bakı şəhərinə gətirilərək, Qala və Nasosnu aerodromlarında, Respublika stadionunda, Salyan kazarmasında yerləşdirilmişdi. Azərbaycana göndərilən ordu hissələrinin tərkibinə Stavropoldan, Rostovdan, Krasnodardan səfərbər edilmiş erməni zabit və əsgərləri, hərbi məktəblərdə təhsil alan erməni kursantları da cəlb edilmişdi. Respublikaya gətirilmiş hərbi qüvvələrin, əməliyyatlara rəhbərlik etmək üçün Bakıya gələn 300-dən artıq yüksək rütbəli zabit və generalların ərzaq təminatı, nəqliyyatla, yanacaqla təmin edilməsi respublika büdcəsindən ödənilirdi.

Həmin hərbi qüvvələr üzərində xüsusi psixoloji sınaqların keçirildiyi haqqında təkzibedilməz faktlar vardır. Onlara belə bir dezinformasiya təlqin olunurdu:

–Yerli əhali – azərbaycanlılar rusları qırmağa hazırlaşırlar və siz müqəddəs bir vəzifəni-rusları və bütünlükdə şəhərin xristian əhalisini labüd fəlakətdən xilas etməlisiniz.

–Salyan kazarması ətrafında və evlərin damlarında snayperlər yerləşdirilmişdir və hədəflərində yalnız siz olacaqsınız. Ona görə də özünümüdafiə instinktindən çıxış edərək patronlarınıza heyfiniz gəlməsin.

–Azərbaycan Xalq Cəbhəsinin hərbi dəstələri şəhərin strateji nöqtələrində yerləşdirilmişdir və onların amansız müqavimət göstərəcəklərini nəzərə alıb, qətiyyət və adekvat qəddarlıq nümayiş etdirin.

–Müqavimət göstərən tərəfin milisin, sovet ordusunun və ya daxili qoşunların geyimində də olması mümkündür və bu reallığı nəzərə alıb, onları davamlı atəş hədəfinə çevirməyi bacarmalısınız.

Bir sözlə, SSRİ rəhbərliyinin "xeyir-duası" ilə 66 minlik qoşun hissələrini, xüsusilə erməni mənşəli əsgər və zabitləri, eyni zamanda həbsxanadan məlum məqsəd naminə azadlığa buraxılmış məhbusları Bakıda hər cür vəhşiliklər törətməyə psixoloji baxımdan tam hazırlamışdılar.

***Üçüncüsü, SSRİ rəhbərliyinin törətdiyi 20 Yanvar faciəsində dünyanın digər fövqəl dövləti olan ABŞ-ın üzərinə hansı məsuliyyət düşür?***

ABŞ-da 1994-2001-ci illərdə Dövlət katibinin müavini işləmiş Stroub Telbotun həmmüəllifi olduğu "Ən yüksək səviyyədə" adlı kitabda qeyd olunur ki, 1989-cu il dekabrın 24-də ABŞ-ın Dövlət katibi Ceyms Beyker ölkəsinin Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri Cek Motlak vasitəsilə SSRİ-nin xarici işlər naziri Eduard Şevardnadzeyə məlumat çatdırır ki, əgər sovet qoşunları Rumıniyaya ölkədaxili sabitliyin bərpası naminə müdaxilə edərsə, ABŞ bu insidenti etirazla qarşılamayacaqdır. Eduard Şevardnadze cavabında bildirir ki, ABŞ SSRİ-ni hərbi avantüraya cəlb etmək istəyir və bununla da özünün Panamaya olan müdaxiləsinə haqq qazandırmağa çalışır. SSRİ-nin Xarici İşlər naziri qeyd edir ki, ölkəsi prinsip etibarilə yeni xarici siyasət kursunu həyata keçirir. Bu kursa görə, SSRİ daha sosialist ölkələrinin daxili işlərinə qarışmayacaqdır. Bu mövqedən göründüyü kimi, söhbət yalnız sosialist ölkələrindən gedirdi, sovet respublikalarından yox. Deməli, Mixail Qorbaçov başda olmaqla, SSRİ rəhbərliyi ABŞ-ın Rumıniya ilə bağlı məlum mövqeyindən bir sıra nəticələr çıxardı. İlk nəticə isə ondan ibarət oldu ki, sovet qoşunlarını Azərbaycan xalqının müstəqillik

mücadiləsinə qarşı Bakıya yeridəcəyi təqdirdə ABŞ-ın etirazı olmayacaqdır. Rəsmi Moskva həm də onun fərqində idi ki, ABŞ-ın güclü erməni lobbisi və diasporu da Vaşinqtonun Bakı qırğınına qarşı laqeyd mövqeyinin formalaşmasında öz rolunu oynayacaqdır. Taktiki baxımdan belə qiymətləndirmədə Moskva yanılmamışdı. ABŞ 20 Yanvar faciəsini olduqca soyuqqanlı qarşıladı. "Sem dayı" Rumıniya hadisələri fonunda davranışı ilə SSRİ-nin Bakı avantürasına dolayısı ilə "yaşıl işıq" yandırdığının fərqində idi. Həm də fərqində idi ki, belə avantüralar əzəli rəqibi və düşməni olan SSRİ-nin məhvinin tarixi "X" anını son dərəcə yaxınlaşdırmağa xidmət göstərir. ABŞ yanılmamışdı. 20 Yanvar faciəsi SSRİ-nin sonunun başlanğıcını şərtləndirən proseslərin katalizatoru oldu.

***Dördüncüsü, 20 Yanvar bəşəri cinayətinə ölkədaxili və beynəlxalq siyasi-hüquqi qiymətin verilməsi.***

20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verilməsi məsələsi ümummilli lider Heydər Əliyevin sayəsində həllini tapmışdır. Yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək, xalqla birgə olduğunu bildirdi, 20 Yanvar faciəsinə siyasi qiymət verdi, onun hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu, Mərkəzin və o zamankı respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv olduğunu göstərdi. O, baş vermiş faciə ilə əlaqədar xalqımıza başsağlığı verdi və mətbuat konfransı keçirib, başda Qorbaçov olmaqla Bakıdakı terror aktına rəvac verən hakimiyyət nümayəndələrini və hərbçiləri cinayətkar, onların dinc əhaliyə tutduqları divanı isə bütöv bir xalqa qarşı edilən tarixi cinayət adlandırdı. Bu tarixi çıxışın mətni dünyaya geniş yayıldı. Xalqın qəlbində ümid çırağı yandı.

1990-cı ilin iyulunda Moskvadan Vətənə qayıdan Heydər Əliyevin təşəbbüsü ilə həmin il noyabr ayının 21-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 20 Yanvar faciəsinə ilk dəfə siyasi-hüquqi qiymət verən sənəd qəbul edildi. Naxçıvan Ali Məclisində qəbul edilmiş və 20 Yanvar faciəsinə ilk siyasi-hüquqi qiymət verən, eyni zamanda Azərbaycan xalqının ümumi rəyini özündə təcəssüm etdirən bu qərar Heydər Əliyev qətiyyətinin təzahürü kimi tarixə düşdü. Sənəddə respublika səviyyəsində 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməsi respublika rəhbərliyindən tələb edilirdi. Ölkəmiz müstəqillik qazandıqdan sonra da 1993-cü ilə qədər iqtidarda olanların heç biri faciə ilə bağlı əsl həqiqəti aşkar etməyə özündə cəsarət tapmadı.

Yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra – 1994-cü ilin mart ayında 20 Yanvar hadisələrinin hüquqi müstəvidə əsl mahiyyəti açıqlandı. 1994-cü il yanvarın 12-də keçirdiyi müşavirədə ümummilli lider Heydər Əliyev bu barədə deyirdi: "Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişdir. Görünür ki, ötən yaxın illərdəki Sovetlər Birliyi, respublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsl mahiyyətini xalqa bəyan etməmişlər".

Ulu öndərin 20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi ilə bağlı 1994-cü il yanvarın 5-də imzaladığı fərmanda həm də Milli Məclisə hadisəyə tam siyasi-hüquqi qiymət verməsi tövsiyə olunurdu. Bu qiymət xalqımızın müstəqillik yolunda çarpışmasının dolğun mənzərəsini əks etdirməli idi.1994-cü il mart ayının 29-da respublika parlamenti "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul etdi. Beləliklə, 20 Yanvar faciəsi məhz ümummilli lider Heydər Əliyevin prinsipial və ardıcıl mübarizəsindən sonra öz hüquqi-siyasi qiymətini aldı.

Prezident İlham Əliyev 1990-cı ilin yanvarında şəhid olmuş oğul və qızlarımızın xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi üçün mühüm sənədlər imzalamışdır. Dövlət başçısının 19 yanvar 2006-cı il tarixli "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" fərmanı da bu məqsədə xidmət edir.

Bu gün Bakının ən yüksək nöqtələrindən birində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş bir ünvan vardır. Bu, 20 Yanvar faciəsi qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər xiyabanıdır. Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Şəhidlər xiyabanında əsaslı təmir və yenidənqurma işləri aparılmış, 20 Yanvar şəhidlərinin xatirəsinə kompleks ucaldılmışdır.

Hər il ölkəmizdə və xaricdə 20 Yanvar faciəsinin ildönümləri ilə bağlı silsilə anım tədbirləri keçirilir. Bu il də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyevin 18 dekabr 2019-cu il tarixli, 161 nömrəli sərəncamı ilə "20 Yanvar faciəsinin otuzuncu ildönümünün keçirilməsi ilə bağlı Tədbirlər Planı" təsdiq edilmişdir.

Sənədə əsasən respublikanın şəhər və rayonlarında, idarə və təşkilatlarda 20 Yanvar gününün Azərbaycanın suverenliyi, istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda mübarizənin rəmzi kimi qeyd olunması ilə bağlı tədbirlərin keçirilməsi, 20 Yanvar hadisələrinin mahiyyətini əks etdirən konfrans, toplantı və mühazirələrin təşkili, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşaların, bədii və sənədli filmlərin

nümayişi nəzərdə tutulur. 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə bağlı tədbirlərin kütləvi informasiya vasitələrində geniş işıqlandırılması planlaşdırılır.

Həmçinin dünya ictimaiyyətinin diqqətini bu faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəlikləri və icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar hadisələri barədə müxtəlif dillərdə materialların hazırlanması, nəşri və yayılmasının təmin olunması barədə tapşırıqlar verilib.

Tədbirlər planına əsasən, respublikanın bütün təhsil müəssisələrində faciəyə həsr edilmiş xüsusi dərs keçiriləcək, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardımlar göstəriləcək, Şəhidlər xiyabanı ərazisində lazımi işlər aparılacaq, faciə qurbanlarının xatirəsinə həsr olunan dini mərasimlər təşkil ediləcək.

Bundan başqa, sərəncamda paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər xiyabanına ziyarətinin təşkili, saat 12:00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə əlaqədar hüzn əlaməti olaraq Azərbaycanın dövlət bayraqlarının endirilməsi və digər tədbirlər planlaşdırılır.

Sonda təəssüf hissi ilə qeyd edək ki, bu bəşəri cinayətə hələ də beynəlxalq aləmdə lazımi siyasi-hüquqi qiymət verilməmişdir. 20 Yanvar faciəsinin günahkarları: SSRİ-nin birinci və sonuncu prezidenti M.Qorbaçov, Bakıda qətliam törədən ordunun fəaliyyətinə birbaşa rəhbərliyi həyata keçirən Yevgeni Primakov, müdafiə naziri Dmitri Yazov, Sov. İKP MK-nın katibi Andrey Girienko, Sov.İKP MK-nın millətlərarası münasibətlər şöbəsi müdirinin müavini Vyaçeslav Mixaylov, daxili işlər naziri Vadim Bakatin, habelə Ə.Vəzirov başda olmaqla Azərbaycan rəhbərliyi hələ də beynəlxalq məhkəmə qarşısında mühakimə olunaraq, layiqli cəzalarını almamışlar. Bu məqamda qeyd edək ki, sabiq SSRİ prezidenti M.Qorbaçov 1995-ci ilin aprel ayında Türkiyədə səfərdə olarkən 1990-cı il yanvar qırğınından bəhs edib, “Bakıda fövqəladə vəziyyət elan etmək və oraya qoşun göndərmək mənim siyasi həyatımda ən böyük səhvim idi” deyərək öz günahını etiraf etmişdir. Bu etiraf heç bir halda onu məsuliyyətdən azad etmir.

Onu da qeyd edək ki, SSRİ Baş Prokurorluğunun ədliyyə polkovniki V.Medvedevin rəhbərliyi ilə təşkil etdiyi istintaq qrupu cinayət hadisələrinin araşdırılmasını çox səthi aparmış, istintaq hərbçilərin hərəkətlərində cinayət tərkibi olmaması nəticəsinə gəlmişdir. 20 iyul 1990-cı il tarixdə cinayət işinin xitam olunması barədə qərar qəbul olunmuş, cinayət işinin materialları Moskvaya aparılmışdır. Təəssüf ki, həmin vaxt Azərbaycan Respublikası Prokurorluğu hadisə ilə bağlı heç bir cinayət işi başlamamışdır.

Zaman keçdikcə bir sıra həqiqətlər meydana çıxır, 20 Yanvar faciəsinin qaranlıq məqamları aydın olur. 100 cildlik istintaq materiallarının 68 cildi Bakıdan Moskvaya, keçmiş SSRİ Prokurorluğuna aparılmışdır və indiyədək qaytarılmayıbdır. Bir sıra sənədlərin, o cümlədən kecmiş SSRİ-nin yüksək instansiyalarında, xüsusən də hazırda Rusiya Federasiyası Prokurorluğunda saxlanılan 68 cildlik cinayət işinin materiallarının əldə edilməsi 20 Yanvar faciəsinin miqyasını və günahkarlarının məsuliyyət dərəcəsini tam dəqiqliklə üzə çıxara bilər.

**Xalq qəzeti.-**2020.-19 yanvar.-№11.-S.4.

## 20 Yanvar – İstiqlal mübarizəsinin əbədi məşəlinin alovlandığı gün

**Nizami Cəfərov,**
Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri, akademik

**1990-cı il yanvarın 20-də İttifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edimişdir. Heç bir əsas olmadan, xəbər vermədən, dövlət qanunlarını kobudcasına pozaraq, Bakı şəhərinə müasir silahlı sovet ordusunun qoşun hissələri yeridilmiş, onlar vəhşilik, qəddarlıq etmiş, nəticədə nahaq qan tökülmüş, yüzlərlə adam həlak olmuş, xəsarət almış, itkin düşmüşdür.**

**Heydər Əliyev**
**Ümummilli lider**

**20 Yanvarda sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirdi. Azərbaycanda haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş Vətən övladları Qanlı Yanvarda xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar.**

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Torpaqlarımızın bütövlüyü və dövlətçiliyimizin bərpası uğrunda ümumxalq hərəkatının qanlı və şanlı səhifəsi olan 20 Yanvar faciəsi xalqımızın azadlıq mübarizəsi tarixində müstəsna və şərəfli yer tutur. Bu faciə qırmızı imperiyanın 1920-ci ilin 28 aprelində kütləvi qırğınlar və zorakılıq yolu ilə müstəqil Azərbaycan Cümhuriyyətini süquta yetirməsinin, xeyli ərazimizin qonşu respublikalara peşkəş edilməsinin, soydaşlarımıza qarşı sonrakı -repressiyaların və davamlı deportasiya siyasətinin növbəti qanlı aksiyası idi.

Ötən əsrin 80-ci illərinin sonunda M.Qorbaçovun sovet sistemini demontaj etmək üçün apardığı uğursuz yenidənqurma siyasəti cəmiyyəti laxladıb mərkəzdənqaçma meyllərini gücləndirmişdi. O vaxt sovet imperiyasında xalqların müxtəlif formalarda bu sistemə qarşı etirazları baş qaldırmışdı. İmperiyanın rəhbərliyi isə müxtəlfi vasitələrlə insanları qorxutmağa, susdurmağa çalışırdı. Bu məqsədlə sovet rəhbərliyi sistemin təbiətinə uyğun olaraq qırğınlar törətməkdən də çəkinmirdi.

20 Yanvar hadisələri ərəfəsində də Sovet İttifaqı Kommunist Partiyasının rəhbərliyinin Azərbaycan xalqının mənafeyinə zidd olan siyasəti, Azərbaycanın müttəfiq respublika kimi suverenliyi və ərazi bütövlüyünə qarşı Moskvanın, şəxsən Mixail Qorbaçovun apardığı məkrli xətt geniş xalq kütlələrinin qəzəbinə səbəb olmuşdu. Respublikada belə bir fikir mövcud idi ki, Azərbaycanın rəhbərliyi Dağlıq Qarabağ məsələsində Moskva ilə sövdələşərək öz xalqına qarşı gizli xəyanətkar planlar həyata keçirir. Azərbaycan rəhbərləri öz yarıtmaz və ələbaxım fəaliyyəti ilə xalqla hakimiyyət arasında keçilməz uçurum yaratmışdı.

Məhz həmin dövrdə Bakıda və respublikamızın digər şəhər və rayonlarında keçirilmiş izdihamlı mitinqlərdə Azərbaycan rəhbərliyinin istefası tələb olunmuşdu. Cəmiyyətdə yaranmış qarşıdurmanın siyasi yollarla tənzimlənməsi üçün Azərbaycan SSR-in rəhbərliyi mövcud imkanlardan istifadə etməmişdi. Bir çox taleyüklü məsələnin həllində Azərbaycan rəhbərliyi aciz olmuş, nəticədə, respublikada kəskin hakimiyyət böhranı yaranmışdı.

20 Yanvara qədər partiya, dövlət orqanları tərəfindən həyata keçirilən tədbirlərin, eləcə də Bakıda gedən ziddiyyətli proseslərin təhlili göstərir ki, yanvar faciəsi qabaqcadan planlaşdırılmış hərbi əməliyyatın nəticəsi olmuşdu. 1989-cu ilin axırından yanvar hadisələrinə kimi respublika rəhbərlərinin imzaları ilə Moskvaya ünvanlanan gizli müraciətlər buna əsaslı sübutdur. Şifroqramlarda Bakıya əlavə daxili qoşun və Sovet ordusu qüvvələrinin göndərilməsi tələb olunmuşdu. Bu səbəbdən, Bakıda hərbi qüvvələrin yerləşdirilməsi və təminatı ilə əlaqədar müxtəlif hazırlıq işləri aparılmış, hadisələrə bir neçə gün qalmış Bakı şəhərinin xəstəxanaları tələsik boşaldılmış, külli miqdarda yaralıların yerləşdirilməsi üçün hazırlıq görülmüşdü. Sovet ordusu hərbi qulluqçularının ailə üzvləri təcili surətdə Bakı şəhərindən köçürülmüşdü. Beləliklə, hərbi təcavüz və qoşunların yeridilməsi üçün hər cür şərait yaradılmışdı.

Qoşunların Bakıya yeridilməsi kommunist rejimini saxlamaq, milli azadlıq hərəkatını boğmaq məqsədinə xidmət etmişdi. 20 Yanvar faciəsi "beynəlmiləlçilik və xalqlar dostluğu" pərdəsi altında hökm sürən SSRİ adlı bir imperiyanın mahiyyətini açmış, bu dövlətə az-çox inanan insanların inamını sarsıtmışdı. Xalqın iradəsini

qırmaq məqsədilə törədilmiş bu qanlı terror Azərbaycan xalqının milli-azadlıq və müstəqillik uğrunda apardığı hərəkata güclü təkan vermiş və respublikada siyasi mübarizə yeni bir mərhələyə daxil olmuşdu.

O zaman haqqın-ədalətin müdafiəsi yolunda canlarını qurban vermiş Vətən övladları isə şəhidlik zirvəsinə ucalmaqla, xalqımızın qəhrəmanlıq tarixinə yeni, parlaq səhifələr yazdılar və bununla da 20 yanvar gününü şərəf və ləyaqət tarixinə çevirdilər. Azərbaycanın istiqlalı uğrunda canlarını qurban verən şəhidlərimizin əbədi heykəli hər bir azərbaycanlının ürəyində ucalır. Xalqımızın ziyarət yerinə çevrilmiş Şəhidlər xiyabanında yanan əbədi məşəl şəhidlərin ruhuna xalqımız tərəfindən olan ehtiram və dövlətimiz tərəfindən verilən qiymətdir.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet ordusu bölmələrinin erməni quldur dəstələri ilə birgə Azərbaycan xalqına qarşı gerçəkləşdirdiyi hərbi müdaxilə--kütləvi terror aktı nəticəsində Bakıda 134 mülki vətəndaş öldürülmüş, 600-dən çox adam yaralanmışdı. 1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilməmişdi.

Bu qanlı hadisəyə ilk olaraq öz münasibətini bildirən şəxs ümummilli lider Heydər Əliyev olmuşdu. O zaman Moskvada təqib və məhrumiyyət şəraitində yaşayan xalqımızın böyük oğlu Heydər Əliyev böyük çətinliklə 21 yanvarda ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəlmiş, burada keçirilən mətbuat konfransında çıxış edərək Bakıda törədilən misilsiz qanlı aksiyanı törədən şəxsləri kəskin şəkildə tənqid etmişdi. Heydər Əliyev müstəsna bir cəsarətlə bu hadisəni hüquqa, demokratiyaya yad, humanizmə və ölkədə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab etdiyini bildirmişdi.

Həmin il Vətənə qayıdıb o vaxtkı nankor rəhbərlərin törətdiyi maneələr səbəbindən doğulduğu Naxçıvana üz tutan, burada qədirbilən həmyerlilərinin respublika parlamentinə deputat seçdiyi ulu öndər Heydər Əliyev 7 mart 1991-ci il tarixdə Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında çıxış edərkən 20 Yanvar hadisəsini növbəti dəfə çox sərt şəkildə tənqid etmişdi: “1990-cı il yanvarın 20-də İttifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edimişdir. Heç bir əsas olmadan, xəbər vermədən, dövlət qanunlarını kobudcasına pozaraq, Bakı şəhərinə müasir silahlı sovet ordusunun qoşun hissələri yeridilmiş, onlar vəhşilik, qəddarlıq etmiş, nəticədə nahaq qan tökülmüş, yüzlərlə adam həlak olmuş, xəsarət almış, itkin düşmüşdür.”

Öz çıxışında Heydər Əliyev qatillərin aşkarlanması məsələsini qaldırmış, 20 Yanvar faciəsinə Ali Sovetin sessiyasının qiymət verməli olduğunu vurğulamışdı. Qanlı Yanvar faciəsi ilə bağlı Heydər Əliyevin verdiyi kəskin bəyanatlar Azərbaycan tarixində yeni siyasi dövrün başlandığını əks etdirmişdi.

Ümummilli lider Heydər Əliyevin həmin bəyanatı faciəyə ilk mötəbər siyasi qiymət kimi müstəsna tarixi əhəmiyyətə malikdir. Çünki sovet rejimi özünün törətdiyi qanlı hadisələri gizlətməyə çalışırdı. Ona görə də, Azərbaycanı informasiya blokadasında saxlayırdı və ölkədən kənara bu qırğın haqda məlumat çıxmasına imkan vermirdi. Belə bir şəraitdə xalqımızın ümummilli liderinin bəyanatı müstəsna əhəmiyyət kəsb etmişdi. Heydər Əliyev uzun illər Azərbaycana rəhbərlik etmişdi və Moskvada çalışanda da Azərbaycanda gedən prosesləri izləmişdi. 20 Yanvar hadisələri ərəfəsində ulu öndər Heydər Əliyev Moskvada təcrid vəziyyətində yaşayırdı.

Heydər Əliyev böyük lider kimi Azərbaycana qayıdıb yenə də xalqa xidmət göstərmək istəyirdi. Amma nə Moskva, nə də Azərbaycanın rəhbərliyi buna imkan vermirdi. Əlbəttə ki, o dövrdə başlayan azadlıq mübarizəsinin önündə Heydər Əliyev kimi böyük lider və siyasətçi getsəydi, proseslər tamamilə xalqımızın xeyrinə olacaqdı, Dağlıq Qarabağ məsələsində ermənilər öz məqsədlərinə nail ola bilməyəcəkdilər. Yəni, Heydər Əliyevin rəhbərliyi ilə azadlıq mübarizəsinin qarşısını heç bir qüvvə ala bilməzdi və bu mübarizədə haqqında danışdığımız faciə də olmayacaqdı. Ona görə də, rəhbərlik çalışırdı ki, Heydər Əliyev mümkün qədər bu hərəkatın rəhbərliyindən kənarda qalsın.

Bütövlükdə, 20 Yanvar faciəsi ilə bağlı ulu öndərimizin Moskvada verdiyi bəyanat Azərbaycanın müstəqillik tarixinin ən böyük aktlarından biridir. 1990-cı illərin əvvəlində baş verən hadisələr də göstərdi ki, Heydər Əliyev böyük siyasi liderdir və məhz bu millətin lideridir. Xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyev tez bir zamanda doğma Vətəni təlatümdən, parçalanmaqdan xilas etdi.

Hüquqi-siyasi qiymət ümumiləşmiş formada bundan ibarət idi ki, sovet rəhbərliyi Azərbaycan xalqına qarşı qanlı qırğın törədib. Əlbəttə, hadisənin günahkarlarının da adları açıqlanıb. Moskvanın təcavüzünün qarşısı alınmalıydı, o zamankı respublika rəhbərliyi bu qırğına imkan verməməliydi. Bu hadisəyə görə o dövrdə xalqın azadlıq hərəkatına rəhbərlik edənlər də məsuliyyət daşıyırdı.

Ulu öndərin növbəti sərt addımı isə SSRİ Nazirlər Sovetinin partiya təşkilatına ünvanladığı 19 iyul 1991-ci il tarixli ərizədir. O, kommunist partiyası sıralarından çıxmasına dair bu ərizəsində kommunist rejiminin ölkəni uçuruma apardığını, SSRİ-nin dağılmasının labüdlüyünü açıq bəyan etmişdi. Heydər Əliyev bu müraciətdə 20 Yanvar hadisəsi ilə bağlı mülahizəsində bildirmişdi: “Bu antihumanist, konstitusiyaya və hüquqa zidd hərəkəti ittiham edərkən Sov. İKP və Azərbaycan KP MK-nın bu cinayətin üstünü açacağına və

günahkarları üzə çıxaracağına ümid edirdim. Artıq yarım il keçib. Nəinki bu dəhşətli cinayətlərin hamıya çoxdan məlum olan günahkarları üzə çıxarılmayıb, əksinə, bunları ört- basdır etmək üçün əllərindən gələni edirlər. Ümid edirlər ki, bu faciə unudulacaq. Ancaq tarix dəfələrlə sübut etmişdir ki, doğma xalqa qarşı yönəldilmiş qanlı cinayətləri on illər keçsə də, unutmaq və bağışlamaq mümkün deyil". Beləliklə, 1991-ci ilin iyulunda Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmiş, xalqın azadlıq mübarizəsinin önünə keçmişdi.

20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verilməməsi sonrakı dövrdə də Heydər Əliyevi çox düşündürən məsələlərdən biri olmuşdu. 1990-cı ilin yanvarından sonra hakimiyyətdə olan qüvvələrin bu məsələdə ilk vəzifəsi faciəni təhlil etmək, günahkarları üzə çıxarmaq və dövlət səviyyəsində siyasi-hüquqi qiymət vermək olsa da, respublika əhalisinin təkidli tələblərinə baxmayaraq, bununla bağlı 1993-cü ilə qədər faktiki olaraq heç bir tədbir görülməmişdi. 1990-cı il yanvar ayının 22-də çağırılan Azərbaycan Ali Sovetinin fövqəladə sessiyası öz işini yarımçıq qoymuş və sonrakı sessiyalarda bu məsələnin müzakirəsini davam etdirməmişdi. Ali Sovetin yanvar hadisələrini tədqiq etməli olan komissiyasının işi başa çatdırılmamış qalmışdı.

1993-cü ilin yayında xalqın tələbi ilə hakimiyyətə qayıdıb siyasi qarşıdurmanı və ümumi böhranı sovuşdurmuş ümummilli lider Heydər Əliyev 1994-cü il yanvarın 12-də ölkə Prezidenti kimi keçirdiyi müşavirədə 20 Yanvar faciəsinə hüquqi qiymət verilməsi məsələsini yenidən gündəmə gətirərərək deymişdi: "Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişdir. Görünür ki, ötən yaxın illərdəki Sovetlər Birliyi, respublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsl mahiyyətini xalqa bəyan etməmişlər".

Beləliklə, yalnız Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra 1990-cı ilin qanlı Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 1994-cü il tarixli fərmanında deyilirdi: "Xalqımızın tarixinə qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı ilin yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermişdir. Tarixin yaddaşına qanla yazılmış həmin gündən bizi 4 illik zaman məsafəsi ayırır. Təəssüf ki, 4 il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilməmişdir".

Bu fərmanda Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymətin verilməsi, bu məqsədlə parlamentin xüsusi sessiyasının keçirilməsi məsələsinə baxılması tövsiyə edilirdi. Milli Məclisdə müzakirələrin yekunu olaraq 1994-cü il martın 29-da qəbul edilən qərarda, nəhayət ki, 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. Qərarda 1990-cı ilin 20 Yanvar hadisələri Azərbaycanda vüsət almış milli-azadlıq hərəkatını boğmaq, suveren bir dövlət amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, belə bir yola qədəm qoyan xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirildi.

Sənəddə Sovet İttifaqı Kommunist Partiyasının, sovet dövləti və hökumətinin, şəxsən Mixail Qorbaçovun Azərbaycana qarşı ağır cinayət törətdikləri, Əbdürrəhman Vəzirovun, Ayaz Mütəllibovun, Viktor Polyaniçkonun, Vaqif Hüseynovun xalqımıza xəyanət etdikləri siyasi-hüquqi müstəvidə öz əksini tapdı. Azərbaycan SSR Ali Soveti Rəyasət Neyətinin sədri Elmira Qafarovanın, Azərbaycan Kommunist Partiyası Bakı Şəhər Komitəsinin birinci katibi Müslüm Məmmədovun bu qanlı faciənin törədilməsində məsuliyyət daşıdıqları və digər məsələlər də sənəddə qeyd olundu. Bu sənəddə hadisənin yaranma səbəbləri, məqsədi, onun iştirakçıları, bu qırğına rəhbərlik edənlər və s. bütün təfsilati ilə əksini tapdı Həmin qərar 20 Yanvar faciəsi ilə bağlı tariximizdə daim mühüm yer tutur. Gələcək nəsillərin, elm adamlarının, eləcə də, bu hadisə ilə maraqlanan əcnəbilərin istinad edəcəyi bir sənəd olaraq həmişə özünün önəmini qoruyacaq.

Ümummilli lider Heydər Əliyev 20 Yanvar hadisəsinin əhəmiyyətini nəzərə alaraq, demək olar ki, keçirdiyi hər görüşdə bu hadisənin tarixi dərslərindən bəhs etmişdir. 31 yanvar 1997-ci il tarixdə Prezident Elmlər Akademiyasının rəhbərliyi, həqiqi və müxbir üzvləri, institut direktorları və aparıcı alimləri ilə görüşdə bildirmişdir: "Xalqımız bundan tarixi nəticə çıxarmalıdır. Biz gərək heç vaxt əyilməyək, heç vaxt sınmayaq. Bilirsiniz, millətin mənafeyi hər bir insanın həyatından üstün olmalıdır". Böyük rəhbər Azərbaycan Respublikasının Prezidenti Milli Təhlükəsizlik Nazirliyi əməkdaşlarının bir qrupu ilə 28 mart 1998-ci il tarixli görüşdə də bu dövrün dərin təhlil edilməsinin zərurətini nəzərə çatdırmışdır.

Göründüyü kimi, xalqımızın böyük oğlu Heydər Əliyev həmişə 20 Yanvar faciəsinin mahiyyət etibarı ilə bəşəriyyətə, humanizmə, insanlığa qarşı yönəldilmiş ən qanlı terror aktlarından biri kimi qiymətləndirmişdir. Prezident bu dəhşətli cinayətin təşkilatçılarının və icraçılarının indiyədək cəzasız qalmasından təəssüfləndiyini ifadə etmişdir.

Ulu öndər Heydər Əliyev şəhidləri və şəhid ailələrini də heç vaxt diqqətdən kənar qoymamışdı. 20 Yanvar faciəsinin bütün ildönümlərində şəxsən Şəhidlər xiyabanını ziyarət edən respublika rəhbəri şəhid ailələrinə müraciətlə bütün Azərbaycan xalqı adından onlara baş sağlığı vermiş, problemləri ilə yaxından maraqlanmışdı. Prezident Heydər Əliyev bu faciəni böyük bir tarixi hadisə kimi qiymətləndirmiş və qəhrəman övladlarımızın özünü qurban verərək Azərbaycan xalqının milli azadlığı üçün, Azərbaycanın müstəqilliyi üçün yol açdıqlarını ifadə etmişdir.Ulu öndər bu məkanın Azərbaycan xalqı üçün ən müqəddəs yer və ən qiymətli abidə olduğunu bildirmişdir.

Əlbəttə ki, bütün şəhidlərimizin xatirəsi daim anılmalı, onların alilələri diqqət mərkəzində olmalıdır. Çünki şəhidlər milli iftixarımızdır. Qeyd edim ki, 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra 20 Yanvar şəhidlərinin adları əbədiləşdirildi, onların ailələri qayğı ilə əhatə olundu. Bu gün Prezident İlham Əliyev tərəfindən bu kurs davam etdirilir və 20 Yanvar şəhidlərinin ailələrinin sosial müdafiəsi daim diqqət mərkəzində saxlanılır.

Dövlət başçısı İlham Əliyev davamlı olaraq şəhid ailələrinə və 20 Yanvar faciəsi zamanı əlil olmuş şəxslərə verilən xüsusi təqaüdləri artırır. Bu qərarlar bütün cəmiyyətimiz tərəfindən yüksək qarşılanır. Çünki şəhidlərin xatirəsinin daim uca tutulması cəmiyyətimizdə vətənpərvərlik ruhunun daim yüksəlməsi üçün mühüm rol oynayır. Ona görə də, cəmiyyətimizdə şəhidlərimizə və onların ailələrinə hər zaman yüksək ehtiram göstərilir.

1990-cı ilin 20 Yanvar hadisəsi Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə yeni qəhrəmanlıq səhifəsi kimi daxil oldu. Bu faciənin doğurduğu milli oyanışla xalqımız nicat yolunun azadlıq olduğunu anladı. Bu mübarizənin ikinci ilində isə Azərbaycan dövlət müstəqilliyini bərpa edərək istiqlalına qovuşdu.

**Xalq qəzeti.-**2020.-19 yanvar.-№11.-S.1-2.

## 20 Yanvar istiqlal mübarizəsinin yeni mərhələyə keçməsinə təkan verdi

**Əvəz Mahmud Lələdağ,**
Sumqayıt Dövlət Universitetinin müəllimi

**1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş sovet ordusunun hərbi hissələri və ağır zirehli texnikası heç bir xəbərdarlıq edilmədən Bakı və Sumqayıt şəhərlərinə, habelə ölkəmizin digər yaşayış məntəqələrinə yeridildi, öz hüquqlarının və torpaqlarının müdafiəsinə qalxan çoxmillətli xalqımıza divan tutuldu. Qanlı faciədən 30 il ötsə də, o gecə baş verən dəhşətlər indiyədək insanların yaddaşından silinməyib. O gecənin acı xatirəsi, kədərli təəssüratları indiyədək ürəkləri göynədir, qəddarlıqlar, vəhşiliklər göz önündən çəkilmir.**

Heç zaman unudulmayacaq həmin qətliamla, insanlığa qarşı törədilən qatı cinayətlə bağlı əvvəlcə bir məqamı xatırlatmaq istərdim. Belə ki, 1990-cı il yanvarın 19-da günortadan sonra Sumqayıtın ictimaiyyət nümayəndələrini, idarə və müəssisə rəhbərlərini şəhər partiya komitəsinin akt zalına toplamışdılar. Amma heç kim bura nə üçün dəvət edildiyini bilmirdi. Düzdür, şəhərdə böhranlı vəziyyət hökm sürürdü, 1988-ci ilin fevralında baş verən məlum hadisənin, necə deyərlər, havası hələ təmizlənməmişdi və bir neçə saatdan sonra dəhşətli faciənin yaşanacağını da bir kimsə belə təsəvvürünə gətirmirdi. Birdən mikrafonda kiminsə səsi eşidildi:

– Bir azdan mühüm xəbər veriləcək...

Bu sözlər axşama kimi 25-30 dəqiqədən bir təkrarlansa da, hələ ki, “mühüm xəbər” barədə məlumat yox idi... Qaranlıq düşəndə qapılar bağlandı, adamlar çölə buraxılmadı. Şəhərdə nələrin baş verdiyi də bilinmirdi. Amma təxmin edirdik ki, Bakıya gediş-gəliş məhdudlaşıb... Zalda əyləşənlərdə narahatlıq getdikcə artırdı. Gecə saat ikidə qəfildən qapılar açıldı. Hamı zalı tərk edib rahat nəfəs dərdi. Silahlı, dubinkalı rus əsgərləri sıra ilə pilləkənləri qalxıb 4-cü mərtəbədə bənd aldılar. Heç kimin tanımadığı bi nəfər qapının önündəki stolun üstünə bir top qara parça gətirib qoydu. Ancaq bundan sonra “mühüm xəbər”in nədən ibarət olduğu barədə aydın təsəvvür yarandı...

Bu məqamda Qanlı Yanvar faciəsinə gətirib çıxaran yola da qısa nəzər salmaq istərdim. Belə ki, 1985-ci ildə keçmiş SSRİ rəhbərliyinə gələn M.Qorbaçovun Dağlıq Qarabağ Muxtar Vilayətini müxtəlif vasitələrlə Azərbaycan SSR-nin nəzarətindən çıxarmaq və Ermənistan SSR-nin tərkibinə qatmaq, ulu öndərimiz Heydər Əliyevə qarşı böhtan kampaniyasına başlamaqla onu xalqın gözündən salmaq siyasəti və bu siyasəti Azərbaycan Kommunust Partiyasının birinci katibi Ə.Vəzirovun xüsusi canfəşanlıqla həyata keçirməsi Azərbaycanda 1988-ci ildə milli-azadlıq hərəkatının başlanmasına güclü təkan verdi. Bu siyasət, qeyd etdiyim kimi, 1990-cı il 20 yanvar faciəsinə gətirib çıxartdı. 1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti yanvarın 20-də saat 00-dan “Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında” fərman verdi. Xalqı qəfildən yaxalamaq, ona divan tutmaq, qırğın törətmək üçün qoşunlardan istifadə ediləcəyi, ən başlıcası isə fövqəladə vəziyyətin elan olunacağı vaxt gizli saxlanıldı. Xalqın məlumatı olmasın deyə yanvarın 19-da saat 19.27-də Azərbaycan Televiziyasının enerji bloku partladılaraq sıradan çıxarıldı. Fövqəladə vəziyyətin yanvarın 20-də, saat 00-dan başlanmasına göstəriş verildiyinə baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat 21-dən ilk olaraq Türkan-Qala tərəfdən şəhərə yeridildi...

Mən törədilən vəhşiliklərin acı nəticələrini Sumqayıtdan Bakıya gəldiyim gün, yəni yanvarın 20-də gözlərimlə gördüm. Müşahidələrimdən hədsiz dərəcədə sarsılmışdım. Özümə yer tapa bilmirdim. Sovet ordusunun silahlı vəhşiləri, cəlladları xalqımızın igidlərini, günahsız insanlarını qanlarına qəltan etmişdilər. Adamları tankların tırtılları altında əzərək tanınmaz hala salmışdılar. Binaların divarları deşik-deşik olmuşdu. Hərbçilər təsadüfən yola çıxanları, yaşayış evlərini, təcili yardım maşınlarını, şəhər nəqliyyatını atəşə tutmuş, yaralıları öldürmüş, meyitləri yandırmış, təhqir etmiş, eybəcər hala salmışdılar.

Bir sözlə, şəhərin küçələri öldürülmüş, yaralanmış gənclərin, qocaların, qadınların, uşaqların qanına qərq olmuşdu... Şəhidlərin dəfnində iştirak etdim. Gördüyüm dəhşətli sitəmləri nəzmə çəkdim:

...Qanın yerdə qalmaz, igid qardaşım,
Qəbrin nurla dolsun, ağbirçək ana!
Mənim şəhid bacım, şəhid qardaşım,
Siz vüqar oldunuz Azərbaycana!..

1990-cı ilin yanvarın 19-dan 20-nə keçən o dəhşətli gecədən sonra da xalqımıza tutulan divan davam etdi. Bakıya soxulan sovet qoşunlarının bir hissəsi Sumqayıtda heç nədən çəkinmədən insanlara yumruqla, təpiklə, dubinka ilə işgəncə verirdilər. Azər Babayev adlı gənc elə döyülmüşdü ki, 15 yaşında ömürlük əlil oldu. H.Z.Tağıyev qəsəbəsinin sakini Şakir Ağakişiyev çilingər işlədiyi Sumqayıt qaz istismar idarəsindən evə qayıdarkən yolda sovet əsgərləri tərəfindən güllələndi. Həmin qəsəbədə yaşayan, Bakı sərnişindaşıma idarəsində sürücü işləyən Elçin Baxşəliyev də faciənin qurbanı oldu.

1990-cı ilin 20 yanvar qırğınından sonra sovet ordusunun qaniçən dəstələri tərəfindən Bakı-Sumqayıt yolunda daha bir dəhşətli cinayət törədildi– zirehli tank Azərbaycanın 5 nəfər kimyaçı aliminin əyləşdiyi "Jiquli" markalı maşının üzərindən keçdi. Bu vəhşilik günahsız elm adamlarının üçünün-- Svetlana Məmmədova, İsmayıl Mursaquluyev və İbrahim ibrahimovun faciəli ölümü, iki nəfərin isə ağır yaralanması ilə nəticələndi.

Əsgərlər o günlərdə Sumqayıtda, ətraf qəsəbələrdə qətlamlar törətməklə bərabər, özbaşınalıq edir, mağazaları, evləri yağmalayırdılar.

M.Qorbaçovun göstərişi ilə Bakıya gələn qoşun hissələri insanlara silah qaldırmaqla, cinayət törətməklə arzularına, qarşılarına qoyduqları məqsədə nail ola, Azərbaycan xalqının iradəsini, milli azadlıq əzmini qıra bilmədi. SSRİ rəhbərinin bu cinayət əməli bəşəriyyətə, insanlığa qarşı həyata keçirilən ən dəhşətli, ən amansız, bütün hüquqi-demokratik prinsiplərə zidd olan vəhşilik tarix səhifəsinə yazıldı.

Yeri gəlmişkən, burada bir məqamı da xatırlatmaq istərdim. O vaxt xalq başsız qalmışdı, vahimə içində idi. Məhz belə bir ağır şəraitdə ulu öndər Heydər Əliyev Moskvanın Azərbaycan xalqına qarşı həyata keçirdiyi imperiya siyasətinə öz etiraz səsini qaldırdı. Ümummilli lider yanvarın 21-də öz ailə üzvləri ilə birlikdə Azərbaycan SSR-in Moskvadakı Daimi Nümayəndəliyinə gələrək burada təşkil olunan, 6 minədək adamın qatıldığı izdihamlı yığıncaqda çıxış etdi, bu ağır günlərdə yaralı, heç yerdən kömək almayan doğma xalqı ilə birgə olduğunu bildirdi.

Ümummilli lider çıxışında və verdiyi müsahibələrdə 20 Yanvar faciəsinə siyasi qiymət verdi, əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd, mərkəzin və respublika rəhbərlərinin günahı üzündən yol verilən kobud siyasi səhv kimi ifşa etdi: "Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki hala çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün zəmin yaranmazdı".

Dahi şəxsiyyət daha sonra bildirdi ki, Ə.Vəzirov "bu yüksək vəzifədə olduğu müddətdə... Azərbaycanda vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə, səhv addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurum yaratmışdır".

Ümummilli liderimiz qorxmadan, özü və ailəsi üçün yaranan real təhlükə ilə hesablaşmadan imperiya rəhbərlərini "qatillər" adlandırdı, Azərbaycan xalqına verdiyi başsağlığında onu bu ağır gündə həmrəyliyə və birliyə çağırdı.

Ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra 20 Yanvar hadisələrini siyasi-hüquqi baxımdan qiymətləndirmək istiqamətində ciddi addımlar atdı. "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" dahi öndərin 5 yanvar 1994-cü il tarixli fərmanı ilə Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olundu. Milli Məclisdə müzakirələrin yekunu olaraq, 1994-cü il martın 29-da "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul edildi. Həmin qərarda 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi...

**Xalq qəzeti.-**2020.-19 yanvar.-№11.-S.6.

**Tariximizin faciə və qəhrəmanlıq səhifəsi**

**Nazim Mustafa,**
Prezident Kitabxanasının şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru

**20 Yanvar hadisələrini bir faciə kimi təsvir etmək azdır. 20 Yanvar Azərbaycan xalqının milli azadlıq uğrunda, öz mənliyini müdafiə etmək yolunda göstərdiyi qəhrəmanlıq nümunəsidir**.

**Heydər Əliyev**
**Ümummilli lider**

**20 Yanvar günü bizim böyük faciəmizdir, ancaq eyni zamanda, Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsidir. Azərbaycan xalqı öz iradəsini göstərdi. O gündən keçən müddət ərzində Azərbaycan, demək olar ki, tamamilə yeni mərhələyə qədəm qoydu.**

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Hər bir xalqın tarixində həm faciəli məqamlar, həm də qəhrəmanlıq səhifələri olur. Çox nadir hallarda bu iki məqam üst-üstə düşür. Azərbaycan xalqı 1990-cı ilin Qanlı Yanvarını həm faciə, həm də qəhrəmanlıq səhifəsi kimi yaşadı. O müdhiş gecə Azərbaycan xalqı sınağa çəkildi. Xalq həm Vətən uğrunda həlak olan qəhrəmanlarını tanıdı, həm bu Vətənə başçılıq edənlərin kimliyinə bələd oldu. Lakin 1990-cı il 20 Yanvar hadisələrindən otuz il keçməsinə baxmayaraq, xalqımız indiyədək bu faciənin ağrı-acısı ilə yaşayır**.

1987-ci ilin oktyabr ayında Sovet İttifaqı Kommunist Partiyası Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini Heydər Əliyevin vəzifədən uzaqlaşdırılmasından sonra qondarma Dağlıq Qarabağ problemi Moskvanın razılığı ilə yenidən ortaya atıldı. 1988-ci ilin fevralında Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistana verilməsi haqqında DQMV Xalq Deputatları Sovetinin qərar qəbul etməsi nəticə etibarı ilə Azərbaycanın ərazi bütövlüyünün pozulmasına və torpaqlarının bir qisminin işğalına yönəlmişdi.

Dağlıq Qarabağda baş qaldırmış erməni separatizminə Kreml rəhbərliyi tərəfindən "yaşıl işıq" yandırılması, 1989-cu ildə SSRİ Ali Sovetinin qərarı ilə ermənipərəst Arkadi Volskinin rəhbərliyi altında DQMV-də yaradılmış Xüsusi İdarə Komitəsinin Azərbaycana qarşı qərəzli mövqeyi sayəsində muxtar vilayətin idarə-müəssisələrinin tədricən Azərbaycanın tabeliyindən çıxarılması, azərbaycanlıların Ermənistandakı tarixi-etnik torpaqlarından tamamilə deportasiya edilməsi, Moskvanın erməni separatçılarını cəzalandırmaq əvəzinə, Azərbaycan xalqının əl-qolunu bağlaması millətin səbir kasasını daşırmışdı. 1989-cu ilin sonlarında bəzi rayonlarda Xalq Cəbhəsinin hakimiyyəti ələ keçirməsi, İranla sərhədyanı rayonlarda sərhəd məftillərin sökülüb atılması, Xalq Hərəkatının radikal qanadının Milli Müdafiə Şurası təşkil edərək nəzarəti öz əlinə alması, 1990-cı il yanvarın 13–15-də Dövlət Təhlükəsizliyi Komitəsinin "Sumqayıt ssenarisi" əsasında "erməni talanları"na göz yumması Moskvanın əlinə Azərbaycan xalqını cəzalandırmaq bəhanəsi vermişdi. Nəhayət, milli maraqlara zidd addımlar atan Azərbaycanın o zamankı rəhbərlərinin istefası tələbinin irəli sürülməsi və xalqın qətiyyətlə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə qarşı çıxması Azərbaycanı cəzalandırmaq üçün Kreml Qanlı Yanvar qırğınını törətdi.

1989-cu ilin yayından etibarən Moskvanın Bakıya əlavə qoşun hissələri göndərməsi üçün Azərbaycan KP MK-nın birinci katibi Əbdürrəhman Vəzirovun, Nazirlər Sovetiniv sədri Ayaz Mütəllibovun, Azərbaycan KP MK-nın ikinci katibi Viktor Polyaniçkonun, Azərbaycan SSR Daxili İşlər nazirinin birinci müavini Viktor Barannikovun imzası ilə SSRİ hökumətinin rəhbərlərinə şifrəli telefonoqramlar göndərilmişdi. İstintaq müəyyən etmişdir ki, 1990-cı il yanvarın ortalarında SSRİ Müdafiə və Daxili İşlər Nazirliklərinin, habelə başqa xüsusi təyinatlı hərbi birləşmələrin 66 min nəfərdən çox əsgər və zabiti Bakı şəhərinə gətirilərək, Qala və Nasoslu aerodromlarında, Respublika stadionunda, Salyan kazarmasında yerləşdirilmişdi. Azərbaycana göndərilən ordu hissələrinin tərkibinə Stavropoldan, Rostovdan, Krasnodardan səfərbər edilmiş erməni zabit və əsgərləri, hərbi məktəblərdə təhsil alan erməni kursantları da cəlb edilmişdi. Respublikaya gətirilmiş hərbi qüvvələrin,

əməliyyatlara rəhbərlik etmək üçün Bakıya gələn 300-dən artıq yüksək rütbəli zabit və generalların ərzaq təminatı, nəqliyyatla, yanacaqla təmin edilməsi respublika büdcəsindən ödənilirdi.

15 yanvar 1990-cı ildə SSRİ Ali Sovetinin sədri Mixail Qorbaçov DQMV-də və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzalamış, həmin fərmanın 7-ci bəndində Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinə Bakı və Gəncə şəhərində və digər yaşayış məntəqələrində qadağan saatı tətbiq edilməsi də daxil olmaqla, hər cür lazımi tədbirlər görmək təklif edilmişdi. Lakin buna baxmayaraq, SSRİ Ali Sovetinin Rəyasət Heyəti yuxarıda qeyd olunan fərmanın ziddinə olaraq 1990-cı il yanvarın 19-da Azərbaycan SSR Ali Sovetinin hüquqi qüvvəsi olmayan 15 yanvar tarixli saxta qərarına əsasən, yanvarın 20-də saat 00-dan etibarən "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman qəbul etmişdir. Müəyyən edilmişdir ki, bu fərmanı imzalamaqla, SSRİ-nin rəhbəri M.Qorbaçov beynəlxalq hüquq normalarını, İttifaq Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozmuşdur.

Yanvarın 19-da SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin "Alfa" qrupu və respublika DTK-sının rəhbərliyi tərəfindən təşkil edilən əməliyyat nəticəsində respublika televiziyasının enerji bloku partladılmışdı ki, Bakıda fövqəladə vəziyyət elan edilməsi və qoşunun şəhərə girməsi barədə əhaliyə rəsmi məlumat çatdırılmasın. Halbuki, həmin vaxt 26 yerdə piketlər, barrikadalar qurulmuş, şəhərdəki 60 qoşun hissəsindən 34-nün, o cümlədən Salyan kazarmasının giriş-çıxış yolları bağlanmışdı. Xalq Cəbhəsinin liberal qanadının təmsilçiləri əhaliyə dağılmağı, radikal qanadının təmsilçiləri isə müqavimət göstərməyi məsləhət görürdü.

Fövqəladə vəziyyətin yanvarın 20-də saat 00.-da tətbiq edilməsinə baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat 21-dən etibarən birinci olaraq Türkan–Qala tərəfdən şəhərə yeridildi. "Bakı əməliyyatı"na rəhbərliyi birbaşa SSRİ Müdafiə naziri Dimitri Yazov, SSRİ Daxili İşlər naziri Vadim Bakatin, SSRİ DTK sədrinin müavini Filip Babkov həyata keçiridilər.

Bakı qarnizonunun qoşunları, gətirilən hərbi hissələr, hərbi gəmilərdən çıxarılan desant qrupları şəhər üzərinə hücuma keçdilər. Ağır hərbi texnika çox asanlıqla barrikadaları dağıtdı. Şəhərin küçələri güllələnmiş və yaralanmış günahsız adamların – qocaların, qadınların, uşaqların qanına qərq olmuşdu. Hərbçilər təsadüfən küçəyə çıxanları, yaşayış evlərini, təcili yardım maşınlarını atəşə tutur, yaralıları öldürür, meyitləri yandırır, təhqir edir, eybəcər hala salırdılar. Adamları ağır hərbi texnikanın tırtılları altına salır, əzabla öldürürdülər.

Bakıya yeridilən qoşun kontingenti qapalı düşərgələrdə saxlanılırdı. Onlara əhali ilə ünsiyyətdə olmağa imkan verilmirdi ki, xalqın əliyalın olmasından xəbərdar olsunlar. Bakıya yeridilən əsgər və zabitlərə demişdilər ki, "islam fundamentalistləri", "pantürkistlər" Azərbaycanda hakimiyyəti ələ keçiriblər, ona görə də onları məhv etmək və Sovet hakimiyyətini yenidən qurmaq lazımdır. Məhz azərbaycanlılara qarşı nifrət hissi ilə köklənən, spirtli içkilər vasitəsilə qızışdırılaraq şəhərə hücum edən əsgər və zabitlər qadınlara, qocalara, uşaqlara, hətta təcili yardım maşınlarının sürücülərinə və həkimlərə fərq qoymadan atəş açır, onları vəhşicəsinə qətlə yetirirdilər. Tanklar və BTR-lər içi insanlarla dolu minik maşınlarını əzib üstündən keçirdilər. Xəstəxanaların işıqlarını kəsmişdilər ki, yaralılara tibbi yardım göstərmək mümkün olmasın.

Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışdılar. Müəyyən olunmuşdur ki, "Mülki və siyasi hüquqlar haqqında" 1966-cı il Beynəlxalq Aktın birinci bəndinə əsasən, fərman imzalandığı andan fövqəladə vəziyyətin tətbiqi və müddətləri barədə Bakı şəhərinin əhalisinə rəsmi xəbərdarlıq edilməli idi. Lakin buna qəsdən əməl olunmamışdı. Kütləvi insan qırğını törədildikdən sonra – yəni 20 yanvar -1990-cı il səhər saat 5.30-da radio vasitəsilə Bakı şəhər komendantı V.Dubinyak fövqəladə vəziyyət tətbiq edildiyi barədə rəsmi məlumatı efirə vermişdir. Halbuki, yanvarın 20-də saat 00.-dan başlanmış hərbi əməliyyatlarda tanklardan və müxtəlif təyinatlı zirehli döyüş maşınlarından istifadə edilmiş, Xəzər Hərbi Donanmasına məxsus gəmilərdən şəhərə desant çıxarılmışdı. Azərbaycan xalqına qarşı törədilmiş bu təcavüz aktı mərhələ-mərhələ həyata keçirilmiş, şəhərdə qarətlərlə nəticələnən təxribatlar törədilmişdir.

Fövqəladə vəziyyət elan edildikdən sonra da, yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində daha 57 nəfər öldürülmüşdür. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda – yanvarın 25-də Neftçalada 2 nəfər və yanvarın 26-da Lənkəranda 6 nəfər qətlə yetirilmişdir.

Yanvarın 19-dan 20-nə keçən gecə Mərkəzi Komitənin birinci katibi Əbürrəhman Vəzirov Bakını xəlvəti tərk edərək Moskvaya qaçdı.

Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və respublikanın rayonlarında 150 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuş, onlardan 112 nəfəri SSRİ-nin müxtəlif şəhərlərinə aparılaraq həbsxanalarda saxlanılmışdı. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları dağıdılmış, yandırıcı güllələrin törətdiyi yanğınlar nəticəsində külli miqdarda dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdir.

Dövlət, ictimai və şəxsi əmlaka həmin dövrün qiymətləri ilə 5.637.286 rubl miqdarında maddi ziyan vurulmuşdu.

Faciənin miqyası o dövrdə Rusiyada fəaliyyət göstərən “Şit" ictimai təşkilatının ekspertlərinin hesabatında daha dəqiqliklə ifadə edilmişdi:

– Adamları xüsusi qəddarlıqla və yaxın məsafədən güllələmişlər. Məsələn, R.Rüstəmova 23, Y.Meyeroviçə 21, D.Xanməmmədova 10-dan çox güllə vurulmuşdur;

– xəstəxanalar, "təcili yardım" maşınları atəşə tutulmuş, həkimlər öldürülmüşdür;

– içərisində sərnişinlər, o cümlədən uşaqlar olan 39 nömrəli "İkarus" markalı marşrut avtobusu gülləyə tutulmuşdur;

– adamlar süngü-bıçaqla qətlə yetirilmişdir. Onların arasında hər iki gözü tutulmuş B.Yefimtsev də var;

– "Kalaşnikov" avtomatının ağırlıq mərkəzini dəyişən 5,45 mm çaplı güllələrindən istifadə edilmişdir.

Xalqa qarşı sovet ordusunun qanlı cinayətləri isə hələ bitmək bilmirdi. Qanlı qırğına etirazını bildirmək üçün Bakı buxtasına gəlmiş “Xəzərneftdonanması”nın gəmiləri hərbi gəmilər tərəfindən mühasirəyə alınaraq güllələbaran edilmiş, onlarca dənizçi həbs olunmuşdu.

“Sabit Orucov” gəmisi “SOS!” siqnalı ilə bütün dünyaya faciə barədə məlumat vermişdi. Şəhərə dənizdən hücumun qarşısını almaq üçün Azərbaycan dənizçiləri həyatlarını riskə qoyaraq bütün gəmiləri Bakı buxtasına yığmışdılar. Yanvarın 21-də saat 20.30 dəqiqədə iki hərbi gəminin və iki katerin müşayiəti ilə naməlum yük aparılması haqqında məlumat alan dənizçilər silahlı quldurlarla əliyalın qeyri-bərabər mübarizəyə girişmişdilər. Sovet hərbi gəmilərindən açılan atəş nəticəsində “Neftqaz-18”, “Neftqaz-64”, “Aktau”, “Şirvan-2”, “Çeleken-1”, “Atlet-21” , “Vodoley-4” gəmiləri ciddi zədələnmişdi. Qanlı Yanvardan sonra başlanmış kütləvi repressiyalara qəhrəman dənizçilər də məruz qalmışlar.

Qabaqcadan düşünülüb hazırlanmış bu təcavüzkarlıq aksiyası Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq, xalqı təhqir edərək ona mənəvi zərbə vurmaq məqsədi daşıyırdı.

O qanlı gecədə rayon partiya komitələrinin, icraiyyə komitələrinin binalarına soxulan hərbçilər komandanlığa məlumat verirdilər ki, dövlət çevrilişinin qarşısını almış və Sovet hakimiyyətini yenidən bərqərar etmişlər. Əslində isə sovet qoşunları 70 -ildən sonra Bakını ikinci dəfə işğal etmişdi.

Bütün bunlar nəinki Azərbaycan xalqının gözünü qorxutdu, əksinə, onun Sovet imperiyasına qarşı nifrətini qat-qat artırdı. Xalq avtomat süngülərinin, tank lülələrinin ona tuşlanmasından qorxmayıb öz şəhidlərini küçə və meydanlardan topladı. Topun-tüfəngin hər küçədə, hər tində qoyulmasına, komendant saatı və fövqəladə vəziyyət rejiminin tətbiq edilməsinə baxmayaraq, yanvarın 22-də xalq öz şəhidlərini “Azadlıq” meydanından son mənzilə – Şəhidlər xiyabanına yola saldı. Şəhidlər xiyabanındakı dəfn mərasimində 2 milyona yaxın insan iştirak etdi. Dünyanın heç bir ölkəsində şəhidlərimizin dəfn mərasimindəki kimi izdihama təsadüf edilməyib. Azərbaycan xalqı 40 gün matəm saxladı. Xalq aclığa dözdü, lakin etiraz əlaməti olaraq 40 gün tətil etdi.

20 Yanvar qırğınlarından sonra xalq nifrət və vahimə içində idi. O, qanına bələnmiş, alçaldılmış, təhqir olunmuşdu. Yanvarın 21-də xalqımızın böyük oğlu, fərdi təqaüddə olan Heydər Əliyev ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək orada təşkil olunmuş izdihamlı yığıncaqda çıxış etdi. Bu ağır günlərdə xalqla həmrəy olduğunu bildirdi. Heydər Əliyev bəyanat verərək əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd, Moskvanın və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi.

Bütün dünya yanvarın -20-də Bakıda törədilmiş dəhşətli qırğından xəbər tutdu. Lakin SSRİ rəhbərliyi Sovet qoşunlarının Bakıya hərbi müdaxiləsinə bəraət qazandırmağa çalışır, guya İslam fundamentalistlərinin Azərbaycanda hakimiyyəti ələ keçirməyə çalışdıqları haqda xarici kütləvi informasiya vasitələrinə yalan informasiyalar göndərirdi. Bütün bunlara baxmayaraq, bu qanlı təcavüz dünyanın bir sıra ölkələrində etirazla -qarşılandı, qardaş Türkiyənin bir sıra şəhərlərində etiraz aksiyaları və mitinqlər keçirildi.

Xalqın tələbi və bir qrup deputatın təşəbbüsü ilə 1990-cı il yanvarın 22-də çağırılan Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyasında respublikanın əksər siyasi və dövlət rəhbərləri iştirak etmədilər. Sessiyaya respublika rəhbərlərinin gəlməmələri onların xalqın taleyinə biganə qaldıqlarını, yaxud törədilmiş cinayətdə bu və ya digər dərəcədə iştirak etdiklərini göstərirdi. Fövqəladə sessiya Bakı şəhərində törədilmiş faciəli hadisələrin təhqiqi üçün deputat-istintaq komissiyası yaradılması barədə qərar qəbul etdi. Lakin bu komissiya hadisəyə hüquqi-siyasi qiymət vermək əvəzinə, ölənlər və yaralananlar, dövlətə və ictimai təşkilatlara, vətəndaşlara vurulan ziyan haqqında informasiya xarakterli məlumatlar toplamaqla işini bitirdi. Bu komissiya öz rəyini faciənin törədilməsindən iki il sonra – 1992-ci ildə SSRİ dövləti süqut etdikdən sonra Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurasına təqdim etmişdi. Milli Şura isə 20 Yanvar faciəsinə hüquqi-siyasi

qiymət vermək əvəzinə, deputat-istintaq komissiyasının rəyini qənaətbəxş hesab edib, onu təsdiq etməklə kifayətləndi.

1990-cı il yanvarın 24-dən 25-nə keçən gecə Azərbaycan KP MK-nın təşkilati məsələyə həsr olunmuş plenumu keçirildi. Plenumda gündəliyə respublikada siyasi vəziyyətlə əlaqədar məsələ salınmış, Bakı şəhərində fövqəladə vəziyyətin tətbiqinin səbəblərini təhqiq etmək üçün komissiya yaradılmışdı. Lakin respublika kommunistlərinin ali orqanı faciəyə siyasi qiymət verməmiş, ümumiyyətlə, heç bir bəyanatla çıxış etməmişdi.

SSRİ Baş Prokurorluğunun ədliyyə polkovniki V.Medvedyevin rəhbərliyi ilə təşkil etdiyi istintaq qrupu cinayət hadisələrinin araşdırılmasını çox səthi aparmış, istintaq hərbçilərin hərəkətlərində “cinayət tərkibi olmaması” nəticəsinə gəlmişdi. 20 iyul -1990-cı il tarixdə cinayət işinin xitam olunması barədə qərar qəbul olunmuş, cinayət işinin materialları Moskvaya aparılmışdı. Təəssüf ki, həmin vaxt Azərbaycan Respublikası Prokurorluğu törədilmiş cinayət hadisələri ilə bağlı heç bir cinayət işi başlamamışdı.

Zaman keçdikcə, bir sıra həqiqətlər meydana çıxır, 20 Yanvar faciəsinin qaranlıq məqamları aydın olur. 100 cildlik istintaq materiallarının 68 cildi Bakıdan Moskvaya, keçmiş SSRİ Prokurorluğuna aparılıb və indiyədək qaytarılmayıb. Bir sıra sənədlərin, o cümlədən keçmiş SSRİ-nin yüksək instansiyalarında, xüsusən də hazırda Rusiya Federasiyası Prokurorluğunda saxlanılan 68 cildlik cinayət işinin materiallarının əldə edilməsi 20 Yanvar faciəsinin miqyasını və baiskarlarının məsuliyyət dərəcəsini tam dəqiqliklə üzə çıxara bilər.

Qanlı Yanvar qırğını həm də rus şovinistlərinin ermənilərlə ilə birgə apardıqları antiAzərbaycan siyasətinin, tərkib hissəsi idi. Lakin imperiya cəlladları qanlı əməlləri ilə Azərbaycan xalqının iradəsini qıra bilmədilər. Qanlı Yanvar milli azadlıq hərəkatının daha da yüksəlməsinə və nəticədə Azərbaycanın yenidən müstəqilliyə qovuşmasına gətirib çıxardı.

1990-cı il noyabrın 20-də Naxçıvan Muxtar -Respublikası Ali Məclisinin sessiyasında ümummilli lider Heydər Əliyev Qanlı Yanvar faciəsini Azərbaycan xalqının suveren hüquqlarına qəsd kimi qiymətləndirərək demişdir: “Mən belə hesab edirəm ki, 19–20 yanvarda baş vermiş bu faciə həm Sovet İttifaqının siyasi rəhbərliyinin, şəxsən Qorbaçovun böyük günahının nəticəsidir, onun diktatorluq meyillərindən əmələ gəlmiş bir haldır və eyni zamanda, Azərbaycan rəhbərlərinin xalqa xəyanəti və cinayətinin nəticəsidir. Mən belə fikirdəyəm ki, Böyük Vətən müharibəsi qurtarandan sonra Sovet İttifaqında, ölkənin daxilində – heç bir yerdə, heç bir regionda bu qədər, bu miqyasda qanlı qırğın olmamışdır. Bunu da edib Sovet ordusu. Və bunun nə qədər böyük miqyasda olmağını onunla da ölçmək olar ki, bu hərbi aksiyanın həyata keçirilməsi üçün SSRİ müdafiə naziri Yazov, SSRİ daxili işlər naziri Bakatin vaxtından qabaq gəlib Bakıda oturub, bu əməliyyatlara rəhbərlik ediblər. Müharibə vaxtı hərbi nazir az-az cəbhəyə gedirdi, ancaq görün bu hərbi əməliyyata bunlar nə qədər böyük fikir veriblər, bunun miqyası nə qədər böyük olub ki, marşal Yazov gəlib Bakıda oturub və bu əməliyyata rəhbərlik edib. Deməк, bu, Azərbaycan xalqına qarşı göstərilən hərbi təcavüzdür, təhqirdir, Azərbaycan xalqının qarşısında cinayətdir”.

20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi--hüquqi qiymət verilməsi məsələsi ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıtmasından sonra həllini tapmışdır.

Azərbaycan Respublikası Prezidentinin “20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında” 1994-cü il 5 yanvar tarixli fərmanında Azərbaycan Respublikasının Milli Məclisinə Qanlı Yanvar hadisələri ilə bağlı xüsusi sessiyanın keçirilməsi məsələsinə baxmaq tövsiyə edildi. 1994-cü ilin fevral ayında Milli Məclisin xüsusi sessiyası keçirildi. Sessiya 1990-cı il yanvarın 20-də Sovet Silahlı Qüvvələrinin Bakı şəhərinə və respublikanın bir neçə rayonuna yeridilməsini, nəticədə, haqq və ədalətin müdafiəsi naminə küçələrə çıxmış silahsız adamların qəddarcasına qətlə yetirilməsini Azərbaycan xalqına qarşı totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirdi. Xalq hərəkatını boğmaq üçün 20 Yanvar faciəsini təşkil etmiş Sovet İttifaqı Kommunist Partiyası, Sovet dövləti və hökuməti rəhbərliyinin, o cümlədən şəxsən Mixail Qorbaçovun Azərbaycan xalqına qarşı ağır cinayət törətdiyi qeyd olundu. Eyni zamanda, xalqa qarşı törədilən hərbi təcavüzə görə məsuliyyətin o dövrdəki respublika rəhbərliyinin (Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov, Viktor Polyaniçko, Vaqif Hüseynov...) üzərinə düşdüyü və onların Azərbaycan xalqına xəyanət etdikləri qeyd olundu.

Heydər Əliyev 18 yanvar 1995-ci ildə R. Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində "Qanlı Yanvar" rəssamlıq sərgisinin açılışında çıxışında demişdi: “20 Yanvar faciəsində insanlar qırıldı. Aydındır, bu, sovet ordusunun, Kommunist Partiyası rəhbərliyinin Azərbaycan xalqına qarşı etdiyi hərbi, siyasi təcavüzdür. Bu təcavüzün nəticəsində xalqımız qurbanlar vermişdir. Amma xalq həmişə azadlıq uğrunda mübarizə apararkən qurbanlar verməlidir. Keçmişdə də belə olmuşdur, bu gün də belədir, gələcəkdə də belə olacaqdır. Hər bir şəhid bizdən ötrü böyük itkidir. Onların xatirəsi bizim üçün əzizdir, qəlbimizdə daim yaşayacaqdır.”

“20 Yanvar şəhidi” fəxri adının təsis edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti 31 mart 1998-ci il tarixdə fərman imzalamışdır. 29 dekabr 1998-ci ildə “20 Yanvar şəhidi” fəxri adi haqqında Əsasnamə təsdiq edilmişdir. 1990-cı il yanvarın 20-də keçmiş SSRİ silahlı qüvvələrinin Bakıya və respublikanın bir neçə rayonuna hərbi təcavüzü zamanı həlak olmuş 150 nəfərə indiyədək “20 Yanvar şəhidi” fəxri adı verilmişdir.

Azərbaycan -Prezidentinin 18 mart 2014-cü il tarixli sərəncamı ilə 20 Yanvar əlilləri və şəhidlərinin respublikanın ali və orta ixtisas təhsili müəssisələrində ödənişli təhsil alan övladları təhsil haqqından azad olunublar.

20 Yanvar hadisələrində şəhid olanların, itkin düşənlərin ailələrinə və əlil şəxslərə -Prezident təqaüdü verilir, onların ailələri dövlət büdcəsi hesabına mənzillə, əlillər isə avtomobillə təmin edilir.

Azərbaycan xalqı 20 Yanvar şəhidlərinin şücaətini daim yüksək qiymətləndirir, onların ruhuna ehtiram göstərir, xatirəsini hər zaman uca tutur.

1990-cı ilin Qanlı Yanvar hadisəsi Azərbaycan xalqı üçün təkcə böyük faciə deyildir. O, ləyaqətini qorumaq üçün hər cür qurban verməyə hazır olan xalqın tarixində şərəfli bir səhifədir.

20 Yanvar faciəsi, eyni zamanda, həm ümumxalq faciəsi, həm də müstəqillik, istiqlal və hürriyyət uğrunda xalqımızın apardığı milli-azadlıq hərəkatının zirvəsi kimi Azərbaycan tarixinə həkk olunub. Ümummilli lider Heydər Əliyevin söylədiyi kimi, bu təcavüz xalqımızı mənəvi cəhətdən çox sarsıtsa da, itkilərə məruz qoysa da, onun mənliyini tapdalaya bilmədi, qürurunu sındıra bilmədi və qəhrəmanlıq salnaməsinə yeni bir səhifə kimi yazıldı. 20 Yanvar faciəsi Azərbaycanın müstəqilliyə aparan yolunda yeni mərhələnin başlanğıc nöqtəsi oldu. Bir ildən sonra Azərbaycan yenidən dövlət müstəqilliyini bərpa etdi.

Prezident İlham Əliyev Bakının “20 Yanvar” dairəsində şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksinin açılışında demişdir: “20 Yanvar faciəsi Azərbaycan xalqının yaddaşından heç vaxt silinməyəcəkdir. Şəhidlərimizin əziz ruhu daim yaşayacaq, onların əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.”

Hər il faciənin ildönümü izdihamlı ziyarətlərlə müşayiət edilir, xalq şəhidlərin məzarlarına faciənin simvoluna çevrilmiş al qərənfillər düzür, onları qürurla anır, bu faciəni törədənləri lənətləyir. Hər il yanvarın -20-də Bakı vaxtı ilə saat 12:00-da Azərbaycanın bütün ərazisində 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunur, gəmilərdən, avtomobillərdən və qatarlardan səs siqnalları verilir, hüzn əlaməti olaraq dövlət bayraqları endirilir.

Otuz ildir ki, Şəhidlər xiyabanı Azərbaycan xalqının müqəddəs ziyarətgahına çevrilib. Xarici dövlətlərdən gələn yüksək vəzifəli şəxslər Şəhidlər xiyabanındakı Əbədi məşəl önünə əklil qoyur, Vətənimiz uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsinə ehtiramlarını nümayiş etdirirlər.

Təqvimin 20 Yanvar 1990-cı il səhifəsi imperiya güllələrinin səsindən açılsa da, tariximizə şəhidlərin qanı ilə yazıldı. Həm də şanlı səhifə kimi və əbədi olaraq.

**Xalq qəzeti.-**2020.-18 yanvar.-№10.-S.8.

## Tariximizin qanlı və şanlı səhifəsi

**Əli Həsənov,**
tarix elmləri doktoru, professor

**Azərbaycan xalqının milli yaddaşına "Qara Yanvar", "Qanlı Yanvar" və ya sadəcə "20 Yanvar" faciəsi kimi həkk olunan o müdhiş yanvar gecəsindən bizi tam 30 il ayırır. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə, saat 23.30 radələrində keçmiş Sovet İttifaqının müxtəlif təyinatlı qoşun hissələri fövqəladə vəziyyət elan etmədən qəflətən Bakı şəhərinə yeridilərək, küçə və meydanlarda toplaşan dinc əhaliyə amansızcasına divan tutmağa başladı. Nəticədə yüzlərlə dinc və əliyalın insan qətlə yetirildi, yaralandı və itkin düşdü. Fövqəladə vəziyyətin tətbiqi haqqında məlumat əhaliyə elan olunanadək hərbiçilər gecə ərzində Bakıda 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışlar. Fövqəladə vəziyyət elan edildikdən sonra isə - yanvarın 20-də və sonrakı günlər şəhərdə daha 21 nəfər öldürülmüşdür. Fövqəladə vəziyyət tətbiq olunmayan rayonlarda da – yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda 8 nəfər dinc sakin qətlə yetirilmişdir.**

Həmin hadisələrdən bizi cəmi 30 illik qısa bir tarix ayırır. Bu qısa tarix çərçivəsində ölkəmiz müstəqillik qazanmış, xalqımız özünün müstəqil dövlətini qurmuş və böyük inkişaf yolu keçərək dünya ölkələri sırasında özünəməxsus şərəfli yer tutmuşdur. Bu müddətdə amansız qətliam nəticəsində dünyasını dəyişən oğul və qızlarımızın xatirəsi daim xalqımız və dövlətimiz tərəfindən əziz tutulmuş, hər il insanlar kütləvi şəkildə Şəhidlər Xiyabanına axın edərək azadlıq və müstəqillik yolunda canını fəda etmiş qəhrəman şəhidlərimizi ehtiramla yad etmişdir. Azərbaycan xalqının 20 Yanvar şəhidlərinə göstərdiyi belə diqqət və ehtiram, şübhəsiz, onun mübariz və qəhrəman ruhunun, milli heysiyyətinin təzahürüdür, ancaq onu da etiraf etmək lazımdır ki, bu məsələdə dövlətimizin apardığı ədalətli və düzgün siyasətin rolu da danılmazdır. Azərbaycan dövləti 1993-cü ildən başlayaraq 20 Yanvar hadisəsinə, onun tarixi və ictimai-siyasi mahiyyətinə daim xüsusi önəm vermiş, Yanvar şəhidlərinin xatirəsini uca tutmaqla onların xüsusi statusunu diqqətdə saxlamış, şəhidlərin ailələrinə və yaxınlarına həmişə qayğı göstərmişdir.

Otuz il tarix az müddət deyil. 1990-cı ildə və ondan sonra dünyaya göz açmış insanlar bu gün artıq ölkəmizin ictimai-siyasi, mədəni həyatında fəal iştirak edir, bilavasitə şahidlik etmədikləri Qanlı Yanvar hadisələri haqqında dərsliklərdən, kitablardan məlumat alır, bu barədə xronikalara və filmlərə baxmaqla milli yaddaşlarını formalaşdırırlar. Ancaq eyni zamanda, otuz ili çox böyük bir zaman kəsimi hesab etmək də olmaz, çünki o hadisələri öz gözləri ilə görən, onlara canlı şahid olan, həmin vaxt cərəyan edən ictimai-siyasi proseslərdə fəallıq göstərən bir çox insanlar hələ də həyatdadırlar və hər şeyi yaxşı xatırlayırlar. Ancaq bunun fərqi yoxdur: həqiqəti gözlə də görmək olar, hadisələrin şahidlərindən eşitmək də, kitablardan oxumaq da. Həqiqətə qarşı kor və kar davranmaq olmaz.

20 Yanvar hadisələrinin sonrakı təhlili göstərdi ki, 1988-ci ildən Azərbaycan cəmiyyətində SSRİ rəhbərliyinin, xüsusən də Mixail Qorbaçovun Dağlıq Qarabağda başlanan erməni separatizmini dəstəkləməsinə və yürütdüyü ermənipərəst siyasətə qarşı ciddi narazılıq yetişməkdə idi. Bu narazılıq fonunda, elə meydanlarda mitinqlərin gedişi zamanı Azərbaycan Xalq Cəbhəsi (AXC) adlı hərəkat yaranmış, sonrakı illərdə tədricən formalaşdırılaraq vahid bir quruma çevrilmişdi. AXC sonrakı mərhələdə getdikcə genişlənən xalq hərəkatına rəhbərliyi öz əlinə almış və onu idarə etməyə çalışmışdır. Xalq hərəkatı ilk dövrdə daha çox narazı əhalinin mərkəzi və yerli hakimiyyət strukturlarının qərarlarına qarşı pərakəndə etiraz çıxışları formasında ifadə olunurdu. Hərəkat iştirakçıları SSRİ rəhbərliyindən Dağlıq Qarabağla bağlı ədalətli və obyektiv mövqe tutmasını, Azərbaycanın suveren hüquqlarının qorunmasını tələb edirdilər. AXC həmin dövrdə kütlələr arasında müəyyən populyarlıq qazansa da, əhalinin bir çox təbəqələri, xüsusilə də ziyalılar, texnokratlar və təsərrüfat fəalları ona sona qədər etibar etmirdilər. Ona görə ki, bu qurumun əsasən radikal dünyagörüşlü insanlardan təşkil olunmuş rəhbərliyi də ölkə ziyalılarını, xalqın intellektual kəsimini öz sıralarına o qədər də həvəslə buraxmırdı. Nəticədə, AXC o dövrdə getdikcə güclənən xalq hərəkatını səmərəli şəkildə idarə edərək, onun gələcək fəaliyyət istiqamətləri ilə bağlı aydın strategiya və çevik taktika ortaya qoya bilmədi. Elə bu səbəbdən də Sovet İttifaqı rəhbərliyi Azərbaycanda artmaqda olan narazılığın qarşısını almaq, xüsusən mərkəzdənqaçma meyillərini söndürmək və kütləvi cəza vasitəsilə xalqı qorxutmaq üçün 1990-cı il yanvarın 20-də Bakıda bəhs olunan qanlı faciəni törətdi, özü də bu zaman AXC-dən, onun bəzi rəhbərlərinin radikal addımlarından, çağırışlarından bir vasitə kimi istifadə etdi. Lakin 20 Yanvarın effekti heç də SSRİ rəhbərliyinin gözlədiyi kimi

olmadı, əksinə həmin günlərdə sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciədən sonra Azərbaycan xalqının həm SSRİ, həm də respublika rəhbərliyinə qarşı narazılığı və nifrəti daha da gücləndi. O vaxta qədər ölkə və respublika rəhbərliyindən əsasən haqqın və ədalətin, qanunvericiliyin qorunmasını tələb edən narazı kütlə yavaş-yavaş genişlənən yeni mübarizə dalğasının – milli azadlıq hərəkatının hərəkətverici qüvvəsinə çevrildi.

20 Yanvarda qanla boğulmuş və qismən əzilmiş xalq hərəkatının yenidən dirçəlişi və milli azadlıq mübarizəsi mərhələsinə keçməsi o zaman M. Qorbaçov və ermənipərəst ətrafının səyi ilə SSRİ rəhbərliyindən istefaya göndərilən və xüsusi təzyiq altında Moskvada yaşayan Heydər Əliyevin bu prosesə fəal qoşulmasından sonra xüsusi vüsət aldı. Onun 1990-cı il yanvarın 21-də Moskvada Azərbaycanın Daimi Nümayəndəliyinə gələrək, bu hadisədə əli olanların əleyhinə kəskin bəyanat səsləndirməsi, kütləvi qırğınının səbəbkarı kimi SSRİ və Azərbaycanın yerli rəhbərlərini qətiyyətlə ittiham etməsi xalq hərəkatına yeni nəfəs və istiqamət verdi. Bu aksiyanın ardınca, Heydər Əliyevin heç bir hədə-qorxu və təxribatlardan qorxmayaraq, 1990-cı il iyulun 20-də Vətənə qayıtması Azərbaycanda müstəqillik uğrunda xalq hərəkatının, başqa sözlə, sistemli milli azadlıq hərəkatının başlanmasına ciddi təkan verdi.

Əlbəttə, o zaman Azərbaycana rəhbərlik edənlər – Azərbaycan KP MK-nın birinci katibi Ə. Vəzirov, ikinci katib V.Polyaniçko və digərləri, dövrün siyasi müxalifəti sayılan və proseslərdə birbaşa iştirak edən AXC İdarə Heyəti 20 Yanvar faciəsində bu və ya digər formada siyasi və mənəvi məsuliyyət daşıyırdılar, ancaq bu qanlı əməliyyat birbaşa Kreml, Qorbaçov və onun xaricdən qısqırdılan erməni əlaltıları tərəfindən planlaşdırılmış, imperiya mərkəzinin göndərdiyi emissarlar tərəfindən zəmin hazırlanmış və SSRİ müdafiə və daxili işlər nazirləri Dmitri Yazov və Vadim Bakatinin komandanlıqları altında həyata keçirilmişdi. İstər ittifaq, istər respublika rəhbərliyinin, istərsə də AXC İdarə Heyətinin 20 Yanvar faciəsindəki əsas məsuliyyəti və günahı isə bu qətliamın qarşısını almamaları, buna ciddi səy göstərməmələri, siyasi müdriklik nümayiş etdirə bilməmələri, hadisədən əvvəl və hadisə zamanı xalqı meydanlarda başsız qoyub qaçmaları, həlledici məqamda xalqın içində olmamaları, silahsız və günahsız insanları dişinə qədər silahlanmış və xalqa divan tutmaq təlimatı almış ordu hissələri ilə üz-üzə qoymalarında idi.

Ə.Vəzirovun qətliamdan bir neçə saat əvvəl xüsusi təyyarə ilə Moskvaya qaçmasını, Xalq Cəbhəsi rəhbərlərindən isə o gecə kimsənin küçədə, xalqın yanında olmamasını xalqımız haqlı olaraq o zaman dərhal qınadı. Xalqı azadlıq, müstəqillik, böyük ideallar, milli-mənəvi dəyərlər uğrunda mübarizəyə səsləyən “liderlər” həlledici məqamda onun yanında olmadılar, yalnız səhər açıldıqdan və ara sakitləşdikdən sonra ortaya çıxaraq, imperiyanı “lənətləməyə” başladılar. Əslində isə onlar sovet ordusunun öz vətəndaşlarına qarşı bu cür vəhşilik, qəddarlıq edəcəyini görməli və proqnozlaşdırmalı idilər. Çünki 20 Yanvara qədər 1989-cu ilin aprelində SSRİ DİN və Sovet ordusu Tbilisidə 21 nəfərin ölümü, 290 nəfərin də yaralanması ilə nəticələnən qanlı əməliyyat keçirmişdi. Siyasətlə məşğul olan insanlar bu hadisədən mütləq ibrət dərsi götürməli, xalqı kütləvi qırğından qorumalı, ən azından onun yanında olmalıydılar.

O ki qaldı həmin dövrdə Azərbaycanın kommunist rəhbərlərinin günahına, 20 Yanvar qırğını SSRİ Ali Sovetində müzakirə olunarkən Azərbaycandan heç bir vəzifəli şəxs, deputat orada iştirak etmədi. Müzakirəyə şairlər, yazıçılar, dövlət işində, vəzifədə olmayan deputatlar gəldilər. Vəzifəli şəxslərdən, dövlət adamlarından biri də gəlib səsini xalqın səsinə qatmadı. Azərbaycan xalqı onlardan Sovet ordusunun, SSRİ rəhbərliyinin, Kommunist Partiyasının sərt tənqid atəşinə tutulmasını gözləyirdi. Amma əksinə oldu. Azərbaycan rəhbərliyi və Xalq Cəbhəsi həmin günlər və sonrakı dövrdə bu hadisəni yaddan çıxarıb hakimiyyət uğrunda mübarizəyə girişdilər. 20 Yanvardan sonra şəhidlərin meyitləri üzərindən addımlayaraq hakimiyyətə gələn və bu faciəni unutdurmağa çalışan Ayaz Mütəllibov komandası da, ondan sonra iqtidara gələn AXC təmsilçiləri bu hadisəyə hüquqi-siyasi qiymət verməyə həvəs göstərmədilər. Çünki bunda maraqlı deyildilər. Birincilər bu cinayətdə bilavasitə iştirak etdikləri, ikincilər isə bu faciəyə görə mənəvi-siyasi məsuliyyət daşıdıqları üçün bunu etmədilər. Daxildə yaşananlar, beynəlxalq aləmdə də təkrar olundu. Həmin dövrdə 20 Yanvar barədə həqiqətlərin vaxtında, isti-isti dünya ictimaiyyətinə çatdırılmasında sönüklük və astagəllik nümayiş etdirildi.

Bütün bunlara baxmayaraq, 1990-cı ilin 20 yanvarından sonra Azərbaycanda xalq hərəkatının mahiyyəti kəskin şəkildə dəyişməyə başladı. Azərbaycan ziyalılarının kommunist ideologiyasından kütləvi şəkildə üz döndərməsi, partiya biletlərinin atılması və s. proseslər müstəqillik ideyasını tədricən aktuallaşdırırdı. Bu tendensiyanın güclənməsində təkrar qeyd edirəm ki, ulu öndər Heydər Əliyevin 20 Yanvardan sonra Moskvadakı məlum çıxışı, azərbaycanlıların qanını tökmüş imperiya yetkililərini ciddi ifşa etməsi müstəsna rol oynadı. Həmin çıxış o vaxtadək gözləmə mövqeyində olan Azərbaycan ziyalılarını da hərəkətə gətirdi və müstəqillik çağırışları Azərbaycanda getdikcə daha geniş kütlə arasında səslənməyə başladı. Beləliklə, 20 yanvardan sonra xalq hərəkatı milli-azadlıq, istiqlal hərəkatına çevrildi.

20 Yanvar hadisələrinə düzgün və obyektiv hüquqi-siyasi qiymət verilməsi də məhz ulu öndər Heydər Əliyevin xidmətidir. Hələ hadisənin ertəsi günü həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələn ümummilli lider Heydər Əliyev qanlı faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında qəzəblə qınadı, ifşaedici və cəsarətli bəyanat verdi. Bunun ardınca 1990-cı ildə o öz doğma vətəninə – Azərbaycana qayıtdı. Ayaz Mütəllibov hökuməti ona Bakıda yaşamaq imkanı vermədiyi üçün 1990-cı il iyulun 22-də, yəni Moskvadan qayıtdıqdan iki gün sonra paytaxtı tərk edərək doğulduğu Naxçıvana üz tutmağa məcbur oldu. Az sonra – 1990-cı ilin sentyabr ayında qədirbilən Naxçıvan əhalisinin kütləvi dəstəyi ilə Heydər Əliyev həm Azərbaycan SSR Ali Sovetinə, həm də Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Ali Sovetinə deputat seçildi. Naxçıvan MSSR Ali Sovetinin 1990-cı il noyabrın 17-də keçirilən birinci sessiyasına deputatlar sədrliyi Heydər Əliyevə həvalə etdilər. İclasda onun təşəbbüsü ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "sovet" və "sosialist" sözləri çıxarıldı. Naxçıvan MSSR Ali Sovetinin adı dəyişdirilərək Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırıldı. Ali Məclisin birinci sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, ay-ulduzlu bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul olundu və Azərbaycanın ali hakimiyyət orqanı qarşısında məsələ qaldırıldı ki, Azərbaycan Respublikasının dövlət rəmzləri haqqında analoji qərarlar qəbul etsin. Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilən bu tarixi qərarlar və müstəqillik istiqamətində həyata keçirilən sonrakı proseslər, o cümlədən 1991-ci il sentyabrın 3-də onun Naxçıvan Ali Məclisinin sədri seçilməsi belə deməyə əsas verir ki, həmin dövrdə Heydər Əliyevin Naxçıvana gəlişi ilə milli azadlıq hərəkatının mərkəzi Bakıdan Naxçıvana keçdi və bu hərəkatın lideri məhz Heydər Əliyev oldu. Heydər Əliyevin deputat kimi ardıcıl nümayiş etdirdiyi əsl mübariz vətəndaşlıq mövqeyi, Azərbaycanın müstəqilliyi uğrunda ölkə parlamentinin tribunasından etdiyi qətiyyətli çıxışlar, ümummilli problemlərin həllinə xidmət edən səmərəli təklifləri onu tezliklə milli azadlıq hərəkatının gerçək liderinə çevirdi.

Daha sonra ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsinə ilk siyasi qiyməti verdi. Naxçıvan MR Ali Məclisi 21 noyabr 1990-cı il tarixli qərarı qəbul etdi. Ümummilli lider Heydər Əliyev Azərbaycan SSR Ali Sovetinin 7 mart 1991-ci il tarixli sessiyasındakı çıxışı zamanı bəyan etdi ki, İttifaq dövləti 1990-cı il yanvarın 20-də Azərbaycan xalqına qarşı hərbi təcavüz etmişdir. Milli azadlıq hərəkatının mərkəzinin Bakıdan Naxçıvana keçməsi və hərəkatın başında Heydər Əliyev kimi təcrübəli liderin, görkəmli siyasət və dövlət adamının dayanması Azərbaycan cəmiyyətində qısa zaman kəsiyində milli qurtuluş ideyası ətrafında böyük təmərküzləşməyə səbəb oldu. Əhalinin bütün təbəqələri, xüsusilə də mütərəqqi dünyagörüşlü ziyalılar, hətta ciddi təqibə məruz qalmış AXC fəalları Heydər Əliyevin ətrafında cəm oldular. Bu reallıq xalq hərəkatına ciddi mütəşəkkillik və ardıcıllıq gətirdi, Azərbaycan xalqı milli müstəqilliyin əleyhinə məqsədyönlü fəaliyyət göstərən kommunist rejiminə qarşı vahid cəbhədən çıxış etməyə başladı. Heydər Əliyev Azərbaycan Ali Sovetindəki "demblok" nümayəndələrini də öz ətrafında, milli azadlıq hərəkatı ideyası çətiri altında birləşdirərək, yerli kommunist hökumətinin iradəsini qırdı, oktyabrın 18-də müstəqillik haqqında Konstitusiya Aktının qəbul edilməsinə və müstəqillik məsələsinə dair yeni referendumun təyin edilməsinə nail oldu.

1991-ci il 18 oktyabra gedən yol gərgin ictimai-siyasi proseslər və o zamankı hakimiyyətin yaratdığı süni maneələrlə müşayiət olunurdu. O dövrdə Azərbaycana rəhbərlik edən kommunist partiyası hökumətinin üzvləri və Ali Sovetin kommunist korpusu Azərbaycanın müstəqil dövlət statusunu təsəvvür belə etmir, milli-demokratik qüvvələrin müstəqillik uğrunda gündən-günə güclənən mübarizəsinə öz hakimiyyətlərinin sonu kimi baxır və ciddi müqavimət göstərirdilər. Azərbaycanın kommunist rəhbərliyi xalqın yüksələn müstəqillik əzmini hər vəchlə qırmağa çalışır, respublikanın həyatında bu istiqamətdə müşahidə olunan bütün ictimai fəaliyyət və hərəkətlərə mane olur, xüsusən parlament tribunasından milli müstəqillik uğrunda həqiqi mübarizə aparan Heydər Əliyevin, digər müstəqil düşüncəli deputatların Ali Sovetdəki çıxışlarını pozur, hətta Heydər Əliyevə qarşı qeyri-etik hücumlar təşkil edərək, ölkədə onun siyasi fəaliyyətinə qadağa qoymağa cəhd göstərirdilər. Elə bunun nəticəsi kimi, Azərbaycan Kommunist Partiyasının o vaxtkı rəhbərliyi 1991-ci il martın 17-də respublikada SSRİ-nin saxlanması ilə bağlı saxta referendum təşkil edərək, guya əhalinin 75 faizinin müstəqilliyin əleyhinə səs verdiyini elan etmişdi. O zaman yalnız Heydər Əliyev başda olmaqla Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bu saxta və antimilli referendumun Naxçıvan Muxtar Respublikasında keçirilməsindən imtina etmiş və qarşısını almışdı. Heydər Əliyev SSRİ-nin saxlanması ilə bağlı yeni ittifaq müqaviləsinə də hamıdan qabaq – 1991-ci il martın 7-də Azərbaycan Ali Sovetinin sessiyasındakı çıxışında ciddi etiraz etmiş və Mütəllibov hakimiyyətinin Azərbaycanı yeni ittifaqın tərkibinə daxil etməsinin, bunun üçün respublikada xüsusi referendum keçirilməsinin qəti əleyhinə olduğunu birmənalı şəkildə bəyan etmişdi.

1992-ci ilin mayında AXC-Müsavat dairələri xarici qüvvələrin təhriki və silahlı yolla o zaman üçün tam nüfuzdan düşmüş Mütəllibov hökumətini devirərək siyasi hakimiyyəti ələ keçirdilər. Əslində bu həm milli azadlıq hərəkatına, həm respublikada yenicə yaranmaqda olan demokratik prosesə, həm də şəxsən Heydər Əliyev kimi təcrübəli bir liderin demokratiya və milli azadlıq mübarizəsi yolunda göstərdiyi xidmətlərinə qarşı ədalətsiz bir gediş idi. 1992-ci il mayın 18-də Ali Sovetə sədr seçkisində AXC rəhbərliyi deputatların böyük hissəsinin və ölkə ictimaiyyətinin tələbinə baxmayaraq, Heydər Əliyevin namizədliyinin irəli sürülməsinə, hətta parlamentdən onunla əlaqə yaradılmasına mane oldular. Onlar öz namizədlərinin sədr "seçilməsinin" hansısa doqquz xarici dövlətlə razılaşdırılması barədə cəfəng antidemokratik fikirlər səsləndirməkdən belə çəkinmədilər. Hakimiyyətə tam yiyələndikdən sonra Heydər Əliyevi özlərinə ciddi rəqib sayan bu adamlar bütün vacib işlərini bir kənara qoyub, onunla qeyri-qanuni və antikonstitusion mübarizəyə girişdilər, dəfələrlə Naxçıvanda dövlət çevrilişinə, Ali Məclis sədrinin fiziki varlığına son qoymağa cəhd göstərdilər. Bu cür qeyri-demokratik və antimilli vasitələrlə fəaliyyət göstərən AXC-Müsavat cütlüyünün birillik hakimiyyəti dövründə Azərbaycanın müstəqilliyinə, dövlətçiliyinə böyük zərbə vuruldu, ölkə vətəndaş müharibəsi astanasına gətirildi.

AXC-Müsavat dairələrinin yarıtmaz hakimiyyətinin nəticəsi olaraq gündən-günə kəskinləşən vətəndaş qarşıdurmasını aydın görərək, yaxınlaşan milli fəlakəti hiss edən bir qrup vətənpərvər Azərbaycan ziyalısı 1992-ci il oktyabrın 16-da Heydər Əliyevə müraciət etdi. Müraciətdə ziyalılar Azərbaycanı düçar olduğu fəlakətli böhrandan çıxarmaq məqsədilə ölkədə bütün vətəndaşları, sağlam düşüncəli qüvvələri öz ətrafında birləşdirə bilən yeni bir siyasi partiyanın yaradılması və ona rəhbərlik etmək məsələsinə münasibət bildirməsini Heydər Əliyevdən xahiş edirdilər. Respublikada gündən-günə kəskinləşən və getdikcə daha da fəlakətli vəziyyət alan daxili ictimai-siyasi və milli vətəndaş qarşıdurması fonunda Azərbaycanı canı qədər sevən Heydər Əliyev, əlbəttə ki, çoxsaylı ölkə ziyalılarının, geniş xalq kütlələrinin tələblərini bir lider kimi cavabsız qoya bilməzdi. Belə də oldu, cəmi bir həftə sonra – oktyabrın 24-də o, "Səs" qəzeti vasitəsilə ölkə ziyalılarına cavab verdi. Bu əslində adi bir cavab deyildi, Azərbaycanın mövcud fəlakətli vəziyyətinin hərtərəfli təhlili və ondan çıxış yollarını göstərən dəqiq milli fəaliyyət proqramı idi. Sonrakı prosesləri, hörmətli oxucular yaxşı bilir. Bakıda qurultay keçirməsinə imkan verilmədiyi üçün ziyalılar və partiya qurucuları soyuq və şaxtalı Naxçıvana axışdılar və noyabrın 21-də Yeni Azərbaycan Partiyası (YAP) adlanan siyasi təşkilat yaratdılar. Cəmi 7 ay sonra, 1993-cü ilin iyununda YAP-ın sədri, Azərbaycan xalqının görkəmli lideri Heydər Əliyev xalqın tələbi ilə siyasi hakimiyyətə qayıtdı. Onun qayıdışı ilə ölkənin bütün sağlam qüvvələri, ictimai-siyasi və mənəvi potensialı hakimiyyətin ətrafında səfərbər olaraq Azərbaycanı sonrakı labüd iflasdan xilas etdilər.

Ümummilli lider Heydər Əliyev xalqın arzusu və tələbi ilə Azərbaycana ikinci dəfə rəhbərlik etməyə qayıtdıqdan cəmi bir neçə ay sonra, 1994-cü il yanvar ayının 5-də 20 Yanvar faciəsinin dördüncü ildönümünün keçirilməsi ilə bağlı fərman imzaladı. Fərmanda Milli Məclisə faciəyə tam siyasi-hüquqi qiymət vermək tövsiyə olunurdu. Bunun ardınca isə 1994-cü il yanvarın 12-də dövlət komissiyasının geniş iclasında çıxış edən ulu öndər Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının 1992-ci il 19 yanvar tarixli qərarını xatırladaraq, bu qərarda 20 Yanvar hadisələrinin əsl səbəblərinin açıqlanmadığını, həqiqi günahkarların aşkar edilmədiyini, iki il ərzində həmin qərarın özünü doğrultmadığını diqqətə çatdırdı. 1994-cü il yanvar ayının 5-də ulu öndər Heydər Əliyevin müvafiq fərmanı ilə Milli Məclisin müzakirəsinə təqdim olunan 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verilməsi haqqında sənəd həmin ilin mart ayında Prezidentin özü tərəfindən təsdiqlənərək, Azərbaycan xalqının öz haqqını tələb edə bildiyini, ona qarşı cinayət törətmiş caniləri mühakimə etməyi bacardığını bir daha sübut etmiş oldu. 1994-cü il mart ayının 29-da ümummilli lider Heydər Əliyevin gərgin əməyinin nəticəsi olaraq "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" adlı xüsusi qərar qəbul edildi. Bununla da Azərbaycan xalqının məruz qaldığı dəhşətli faciəyə – 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilmiş oldu.

Bu il xalqımız Prezident İlham Əliyevin rəhbərliyi altında 20 Yanvar faciəsinin 30-cu ildönümünü geniş şəkildə qeyd etməyə, sovet ordusunun azərbaycanlılara qarşı törətdiyi bu qırğınla bağlı respublikada və ölkədən kənarda geniş tədbirlər, müxtəlif aksiyalar keçirməyə başlayıb. Respublikanın şəhər və rayonlarında, o cümlədən idarə və təşkilatlarda 20 Yanvar hadisələri ilə bağlı konfrans, toplantı və mühazirələr təşkil olunur, mədəniyyət ocaqlarında faciəyə həsr edilmiş tamaşalar göstərilir, bədii və sənədli filmlər nümayiş olunur, bu tədbirlərin kütləvi informasiya vasitələrində geniş işıqlandırılması, dünya ictimaiyyətinin diqqətini faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri və icmaları vasitəsilə müvafiq tədbirlər keçirilir, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar faciəsi barədə materiallar dərc edilir.

Müdrik bir məsəl var: “Tarixini bilməyənlər onu yenidən yaşamağa məhkumdurlar.” Azərbaycan tarixinin qanlı və şanlı səhifəsi olan 20 Yanvar faciəsi ilə bağlı həqiqətlərin ölkə və dünya ictimaiyyətinə çatdırılması tarixi reallıqları dərk etmək və onlardan doğru nəticə çıxarmaq baxımından böyük önəm kəsb edir.

**Xalq qəzeti.-**2020.-19 yanvar.-№11.-S.3.

## Xəzərdə gəmilərin 20 Yanvar etiraz aksiyası

### Azərbaycan dənizçilərinin harayı o zaman 50-dən çox ölkənin gəmilərində eşidilmiş və geniş həmrəylik dalğası yaratmışdı

**Rasif Tahirov,**
"Dəniz" qəzetinin baş redaktoru

**Xalqımızın öz azadlığı, suverenliyi uğrunda apardığı mübarizənin şərəfli tarixi olan 20 Yanvardan 30 il keçir. Amma bu gün də o qanlı gecənin dəhşətlərini və sonrakı günlərin bitib-tükənməyən həyəcanlarını xatırlayanda hər bir azərbaycanlının qəlbi dağlanır. Şəhidlərin ilkin olaraq köləlik zəncirini qırıb atmasını düşünmək isə xalqımıza sonsuz qürur duyğuları yaşadır.**

O gecə insanlıq simasını itirənlərin xalqımıza qarşı törətdiyi ağlasığmaz qəddarlığın, cinayətin şahidi olduq. Hadisələr zamanı sovet ordusu bölmələrinin qadağan olunmuş silah və sursatdan istifadə etməsi də, dinc sakinlərin ağır hərbi texnikanın tırtılları altına salınması da, yaşlılara, qadınlara, uşaqlara belə rəhm edilməməsi də, təcili tibbi yardım maşınlarına və həkimlərə atəş açılması da bir daha sübut etdi ki, 20 Yanvar faciəsi sovet imperiyası rəhbərliyinin xalqımızın gözünü qorxutmaq, demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq üçün qabaqcadan hazırladığı və çox amansızlıqla həyata keçirdiyi təcavüzkarlıq aksiyası idi.

Xalqımızın istiqlaliyyət arzusunu boğmağa çalışanlar məkrli niyyətlərini gerçəkləşdirmək üçün şaxtanın iliyə işlədiyi soyuq bir qış gecəsini də yəqin təsadüfən seçməmişdilər. Bununla belə, milli birlik və vətənpərvərliyin simvoluna çevrilmiş qanlı 20 Yanvar gecəsində həsrətində olduğumuz Azadlıq günəşinin hərarətini daha yaxından hiss etdik. 20 Yanvar müstəqilliyə gedən yolumuzu xeyli qısaltdı. O gün inandıq ki, əlimizi uzatsaq, Azadlıq günəşinə çatar. Günahsız, əliyalın mülki şəxsin həyatına son qoyan, dinc sakinləri ömürlük şikəstə çevirən bu misilsiz cinayət sovet imperiyasının süqutunu sürətləndirdi.

20 Yanvar tarixi Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin dənizçilərinin də ünvanına qəhrəmanlıq, hünər günü kimi yazılıb. O vaxt Xəzər Dəniz Neft Donanmasının mahir gəmi sürücüləri Murad Əliyev, Mövlud Əliyev, Kərəm Məmmədov, Müzəffər Əliyev, Gülağa Məcidov, Kişi Mütəllimov, Firudin Hüseynov, Səhman Rüstəmov, İbrahim Salayev, Ağalar İbrahimov, Rövşən Dəmirov, Elxan Hüseynov, Fizuli Bünyatov və başqa dənizçilərin cəsarətli addımları sovet hərbi gəmilərinin Bakı buxtasına yan almasının və imperiya əsgərlərinin törətdiyi qətliamı davam etdirməsinin qarşısını almaqda mühüm rol oynamışdı.

Hadisələrin fəal iştirakçısı, hazırda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Dəniz üzgüçülüyünün təhlükəsizliyi departamenti rəisinin müavini Rövşən Dəmirov o günləri xatırlayaraq dedi: "Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları irəli sürməsindən, keçmiş SSRİ rəhbərliyinin xain qonşularımıza havadarlığından hiddətlənən və bu ədalətsizliyə etirazını bildirmək üçün Bakının küçələrinə, meydanlarına çıxan dinc əhalimizə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə qanlı divan tutulmasını, hərbi gəmilərin mülki şəxslərin cəsədlərini dənizdə batırmaq istədiklərini eşidəndə dünya gözümüzdə qaraldı. Faciənin səhəri günü ümummilli liderimiz Heydər Əliyevin heç nədən qorxmayaraq Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəlməsi, ermənipərəst rejimin respublikamızda həyata keçirdiyi qanlı aksiyanı qətiyyətlə pisləyən bəyanatla çıxış etməsi isə bizi qeyrətə səslədi".

Bəli, ölümün gözünə dik baxan dənizçilərimiz o günlərdə sovet hərbçilərinin təcavüzünə qətiyyətlə sinə gərdilər. Yanvarın 20-də hərbi gəmilərin hərəkətinə yol verməmək üçün Xəzər Dəniz Neft Donanmasının müxtəlif təyinatlı 100-dən çox gəmisi Bakı buxtasına gedən yolu kəsdi. Fəaliyyətlərini nizamlamaq üçün "Sabit Orucov" gəmisini qərargaha çevirən dənizçilər 7 gəmi sürücüsündən ibarət Kapitanlar Şurası yaratdılar. Şura bir neçə maddədən ibarət tələbnamə də hazırladı. Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçova ünvanlanan tələbnamədə deyilirdi:

"1990-cı il 20 yanvar gecəsi Azərbaycan Sovet Sosialist Respublikası Ali Sovetinin razılığı olmadan, Sovet ordusunun rəhbərliyi Azərbaycana zorla ordu yeridib. Bu zaman minlərlə dinc insanın qanı tökülüb. Nahaq qan tökülməsinin qarşısını almaq üçün gəmi heyətləri tələb edirlər:

1. Ordu Bakıdan 1990-cı il yanvarın 21-də saat 00.00-dək çıxarılsın.
2. Bu gün etiraz əlaməti kimi Bakı buxtasındakı gəmilərdən biri yandırılacaq.
3. Sahildən, yaxud dənizdən güc tətbiq edilərsə, estakadaya bərkidilmiş gəmilər, tankerlər, həmçinin sahildəki neft bazaları dərhal yandırılacaq.

4. Hərbi gəmilər hərəkətə gətirilərsə, bizə həyatımız bahasına başa gəlsə belə, onların hərəkətinin qarşısını alacağıq".

Bundan başqa, mövcud informasiya blokadasını yarmaq, dünyaya Bakıda törədilən qanlı hadisə ilə bağlı məlumatları çatdırmaq üçün dənizçilər yekdilliklə hər saatdan bir dəniz həyəcan siqnalı olan "SOS" yaymağa başladılar. "SOS"un əks-sədası özünü çox gözlətmədi. Bir saatdan sonra dənizçilərimizin ünvanına Qara dənizdən, Baltik dənizindən... ilk radioqramlar daxil oldu. Bütövlükdə, 50-dən çox ölkənin dənizçiləri Bakı buxtasından yayılan dəniz siqnalını qəbul edib misilsiz qırğından xəbər tutdular və bu ədalətsizliyə qarşı qiyam qaldıran Azərbaycan dənizçiləri ilə həmrəy olduqlarını bildirdilər.

Bakı buxtasına gedən yolu kəsməklə hərbi gəmilərin hərəkətinə yol verməyən dənizçilərimizə təzyiq və hədələr durmadan artdı. SSRİ müdafiə nazirinin müavini, Hərbi Dəniz Donanmasının komandanı, admiral V. Sidirovun və digər yüksək çinli rəhbərlərin buxtanın dərhal boşaldılması tələbinə dənizçilərimiz tələbləri yerinə yetirilənədək birmənalı olaraq "yox!" deyəcəklərini bildirdilər.

Dənizçilərimizin inadkarlığını görən sovet hərbi gəmiləri yanvarın 20-də hərəkətə keçdi və mülki gəmilərimizi müxtəlif silahlardan atəşə tutdular. "Neftqaz-3", "Neftqaz-10", "Neftqaz-16", "Neftqaz-18", "Neftqaz-64", "Актау", "Vodoley -4", "ÜİLKGİ-nin 40 illiyi"... gəmiləri xəsarət aldı. Təkcə "Vodoley-4" gəmisində hərbçilərin qaniçənliyini təsdiqləyən minə yaxın güllə, raket izləri aşkar edildi.

Gəmiləri məhv olmaqdan xilas etmək naminə onlar öz körpülərinə yan almağa məcbur oldular. Sahilə çıxandan sonra isə qondarma ekstremist damğası ilə həbs edilən 50-yə yaxın dənizçimiz imperiyanın müxtəlif, o cümlədən Orenburq və Ulyanovsk şəhərlərindəki həbsxanalarında işgəncələrə məruz qaldı.

Çətin, şərəfli peşə sahibi dənizçilər təbiət etibarı ilə cəsur, fədakar adamlardırlar. Otuz il əvvəl - 20 Yanvar faciəsi günlərində göstərdikləri şücaət də onların təbiətindən, bir də dor ağacında müstəqil Azərbaycanın üçrəngli bayrağı dalğalanan gəmilərdə yaxın-uzaq səfərlərə çıxmaq arzularından qaynaqlanmışdı. Tələbləri yerinə yetirilməsə də, qəhrəman dənizçilərimiz xalqımızın yenilməz iradəsini bir az da yüksəklərə qaldırdılar, Bakı qırğınının əks-sədasını dünyaya çatdırdılar.

**Xalq qəzeti.-**2020.-19 yanvar.-№11.-S.6.

## 20 Yanvara siyasi-hüquqi qiymət Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra verildi

**İttifaq Mirzəbəyli**

**Xalqımızın tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermişdir. Tarixin yaddaşına qanla yazılmış həmin gündən bizi 4 illik zaman məsafəsi ayırır. Təəssüf ki, 4 il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi -siyasi-hüquqi qiymət verilməmişdir.**

**Heydər Əliyev**
**Ümummilli lider**
**5 yanvar 1994-cü il**

Kremlin ayrı-seçkilik siyasətinə etiraz edən azərbaycanlıların haqq səsini boğmaq üçün törədilmiş 20 Yanvar faciəsi ilə bağlı söz açarkən xüsusilə qabardılmalı məqamlar çoxdur. Bu barədə həmişə yazılıb. Ancaq bir məsələ var ki, onu bəzən unuduruq. Bu, rəhbərlik amilidir.

Birinci amil. Mixail Qorbaçov SSRİ kimi nəhəng dövlətə rəhbərlik etmək iqtidarında deyildi və onun səhvlərinin miqyası, eləcə də həmin yanlış addımların fəsadları göz qabağındadır. Məhz onun kobud səhvi üzündən yaranmış Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, səpdiyi nifaq toxumları artıq 30 ildən çoxdur ki, region ölkələrinin inkişafına ciddi mane olur. Onun Dağlıq Qarabağ siyasəti kobud səhv idi, 20 Yanvar faciəsinə rəvac verməsi isə açıq cinayət əməli.

İkinci amil. Dağlıq Qarabağ münaqişəsinin körükləndiyi və yanvar ayında Azərbaycan xalqının haqq səsinə qarşı hərbi müdaxilənin hazırlandığı günlərdə ölkəmizə xalqa və dövlətə bağlı olan bir nəfər rəhbərlik etsəydi, həmin planların qarşısını almaq mümkün idi. Təəssüf ki, Kamran Bağırov, Əbdürrəhman Vəzirov və Ayaz Mütəllibov nəinki xalqımıza qarşı hazırlanan məkrli planların qarşısını almağa qadir deyildilər, əksinə, onların Kremlin göstərişi ilə hərəkət etməsi anti-Azərbaycan proseslərin sürətlənməsinə təkan vermişdi.

Üçüncü amil. 20 Yanvar faciəsindən sonra ölkəmizə rəhbərlik etmiş Yaqub Məmmədov, Ayaz Mütəllibov və nəhayət, Əbülfəz Elçibəyin dövründə həmin qanlı faciəyə siyasi-hüquqi qiymət verilməsi istiqamətində heç bir addım atılmadı. Çünki onların heç birində liderlik keyfiyyəti, siyasətçi qətiyyəti və idarəçilik təcrübəsi yox idi. İnsan cəsarəti, qətiyyəti nə zamansa, kimdənsə mənimsəyə bilmir, o, doğuluşdan ya cəsarətli olur, ya da elə bu adamlar kimi. Onlar istəsələr belə həmin addımları atmağa cəsarətləri çatmazdı. Həmin cəsarət isə ancaq Heydər Əliyevdə var idi.

Dördüncü amil. Ötən əsrin 80-90-cı illərində həm SSRİ miqyasında, həm də, Azərbaycanda milyonlarla insanın qətiyyətli və cəsarətli lider kimi tanıdığı bircə şəxs var idi -- Heydər Əliyev. O, həm 20 Yanvar faciəsinin ertəsi günü Kremlin “qulağının dibində” öz etiraz səsini ucaldaraq bu faciəni törədənləri ifşa etmiş, həm də, Azərbaycanda ali siyasi rəhbərliyə qayıdandan üç-dörd ay keçməmiş həmin faciəyə siyasi-hüquqi qiymət verilməsinə nail olmuşdu.

Bir neçə ay sonra məhz ümummilli liderin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsinə ilk siyasi qiyməti verdi. Naxçıvan MR Ali Məclisi 21 noyabr 1990-cı il tarixli qərar qəbul etdi. Azərbaycan SSR Ali Sovetinin 7 mart 1991-ci il tarixli sessiyasındakı çıxışı zamanı ümummilli lider Heydər Əliyev bəyan etdi ki, 1990-cı il yanvarın 20-də İttifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edilmişdir.

Daha bir neçə ildən sonra -- 1994-cü il yanvar ayının 5-də isə ümummilli lider 20 Yanvar faciəsinin dördüncü ildönümünün keçirilməsi ilə bağlı fərman imzaladı. Fərmanda Milli Məclisə tövsiyə olunurdu ki, faciəyə tam siyasi-hüquqi qiymət verilsin. Bunun ardınca isə 1994-cü il yanvarın 12-də dövlət komissiyasının geniş iclasında ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının 1992-ci il 19 yanvar tarixli qərarını xatırladaraq bu qərarda 20 Yanvar hadisələrinin əsl səbəblərinin açıqlanmadığını, həqiqi günahkarların aşkar edilmədiyini, iki il ərzində həmin qərarın özünü doğrultmadığını diqqətə çatdırdı.

1994-cü il yanvar ayının 5-də Heydər Əliyevin müvafiq fərmanı ilə Milli Məclisin müzakirəsinə təqdim edilən və nəhayət, həmin ilin mart ayında ulu öndər tərəfindən təsdiqlənən 20 Yanvar faciəsinə siyasi qiymət verən bu sənəd bir daha Azərbaycan xalqının öz haqqını tələb edə bilməsini, ona qarşı cinayət törətmiş caniləri mühakimə etməyi bacarmasını sübut etdi.

Ümummilli lider Heydər Əliyevin bu istiqamətdə gərgin əməyinin nəticəsi kimi, 1994-cü il mart ayının 29-da "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" adlı xüsusi qərar qəbul edildi. Bununla da Azərbaycan xalqının məruz qaldığı dəhşətli faciəyə – 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilmiş oldu.

Doqquz bənddən ibarət olan həmin qərarın ilk üç bəndi belədir:

1. Azərbaycanda vüsət tapmış milli azadlıq hərəkatını boğmaq, demokratik və suveren bir dövlət yaratmaq amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və belə bir yola qədəm qoyan hər hansı xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə 1990-cı il yanvarın 20-də Sovet Silahlı Qüvvələrinin Bakı şəhərinə və respublikanın bir neçə rayonuna yeridilməsi, nəticədə haqq və ədalətin müdafiəsi naminə küçələrə çıxmış silahsız adamların qəddarcasına qətlə yetirilməsi Azərbaycan xalqına qarşı totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirilsin.

2. İşğalçılıq siyasəti ilə Azərbaycanın suverenliyinə qəsd etmiş, xalq hərəkatını boğmaq üçün bədnam kommunist ideologiyası libasında köhnə imperiya iddialarını həyata keçirmək məqsədilə 20 Yanvar faciəsini təşkil etmiş Sovet İttifaqı Kommunist Partiyası, Sovet dövləti və hökuməti rəhbərliyinin, şəxsən Mixail Qorbaçovun Azərbaycan xalqına qarşı ağır cinayət törətdiyi qeyd olunsun.

3. Xalqa qarşı törədilən hərbi təcavüzə görə məsuliyyət, eyni zamanda, Azərbaycan Kommunist Partiyası rəhbərliyinin üzərinə düşür. Xalqın azadlıq hərəkatını boğmaq məqsədilə Sovet qoşunlarının Azərbaycana çağırılmasına və xalqa qarşı yönəldilməsinə razılıq verən, vətəndaşların əmin-amanlığını təmin etməyən, hakim mövqelərini qorumaq naminə öz xalqının qanının axıdılmasına yol verən Əbdürrəhman Vəzirovun təcavüzün birbaşa təşkilatçısı və iştirakçısı olduğu, Ayaz Mütəllibovun, Viktor Polyaniçkonun, Vaqif Hüseynovun bu cinayətdə bilavasitə iştirak etdikləri, bununla da, Azərbaycan xalqına xəyanət etdikləri qeyd olunsun.

**Xalq qəzeti.-**2020.-22 yanvar.-№12.-S.5.

**And yeri: Şəhidlər xiyabanı**

**30 ildir bu müqəddəs ziyarətgah ilboyu insan axını ilə dolub-boşalır**

**Zöhrə Fərəcova,**
**Məhəmməd Nərimanoğlu**

Bu müqəddəs məkanın adı dillər əzbəridir. 30 ildir ki, Azərbaycan Respublikasının üçrəngli bayrağı əzəmətlə bu zirvədə dalğalanır, əbədi məşəl isə yanır.

Köhnə Dağüstü parkın yerində öz əzəməti ilə ucalan memorial abidə yenə də (əslində, hər gün bu müqəddəs and yeri, məbəd ziyarətçilərini qarşılayır) uşaqlı-böyüklü hər kəsin baş əydiyi məbədə çevrilib. Şəhidlər xiyabanının al-qırmızı qərənfillərə bürünməsi də məhz qəhrəmanlıq tarixinin şərəfinədir.

Qərənfil libaslı bu müqəddəs məkanda 158 nəfər dəfn edilib ki, onlardan dördü naməlumdur. Xiyabanda eyni zamanda 256 Qarabağ, 38 nəfər isə Daxili Qoşunların şəhidi uyuyur. Bunlardan başqa, 1992-ci il yanvarın 25-26-da baş verən məlum "Daşaltı əməliyyatı"nda şəhid olan 70 döyüşçümüzün də şərəfinə burada abidə qoyulub.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü, diqqət və qayğısı ilə ucaldılan Şəhidlər Abidə Kompleksi xiyabanın rəsmi simvoludur! Üzəri qızılla süslənmiş bu abidə kompleksi xiyabanın ümumi kompozisiyasının kulminasiyası sayılır! Müstəqillik illərində gözəlləşən, yeniləşən, məşhurlaşan, iyirmi birinci yüzilliyin ən inkişaf etmiş paytaxtı kimi tanınan, son illər bir çox beynəlxalq tədbirlərin keçirildiyi, multikulturalizm məkanı, tolerantlıq nümunəsi olan Bakı buradan bir az da geniş panoramda görünür.

Şəhidlər Xiyabanında diqqətçəkən abidələrdən biri də 1918-ci ildə Bakını işğaldan azad etmək üçün gəlib burada şəhid olan türk əsgərlərinə ucaldılan anıtdır. Azərbaycan və Türkiyə bayraqları əziz şəhidlərimizin ruhu naminə daim burada qoşa dalğalanır.

Xiyabanda Azərbaycanın igid, cəsur oğlu, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun da büstü ucalır.

Şəhidlər xiyabanındakı ilk qarşılaşdığımız məzar İlham və Fərizəyə aiddir. Bu iki Azərbaycan gənci həm milli mücadilə, həm də sevgi, sədaqət rəmzidir! 20 Yanvar gecəsi İlham sovet ordusunun Bakını işğal etməyə gələn silahlı quldur dəstələrinin odsaçan gülləsinə tuş gəlib şəhid olduqdan sonra Fərizə bu ayrılığa dözə bilməyib və "İlhamsız yaşamaqdansa ölmək yaxşıdır" deyərək intihar edir! XX əsrin Leyli və Məcnunu, Fərhad və Şirini, Tahir və Zöhrəsi kimi sevilən və daim yad edilən İlhamla Fərizə haqqında dastan isə artıq dillər əzbəridir. Məhz buna görə İlhamla Fərizənin toy tarixi - 30 iyun Azərbaycanda "Sevgililər Günü" kimi qeyd edilir!

Bu il də Şəhidlər xiyabanına gələnlərin arasında ağsaqqal da var, ağbirçək də, uşaq da, böyük də, sağlam da, əlil də...

Öncədən deyək ki, ziyarətə adəti üzrə yanvar ayının 15-16-dan başlayaraq ayrı-ayrı kollektivlər bağça, məktəb və gənclər təşkilatlarının nümayəndələri gəlirlər. Ənənə bu il də davam etdirildi.

BDU-nun dosenti Ələmdar Cabbarlının fikirləri bir qədər fərqli - istək və arzu xarakterlidir: "20 Yanvar xalqımızın tarixində ən şərəfli səhifələrdən biridir. Əliyalın xalqımız məhz o gün tankların qabağına çıxmaqla öz mərdliyini, cəsarətini, imperiyaya qarşı mübarizliyini bir daha sübut etdi. 20 Yanvar xalqımızın müstəqillik savaşında mühüm əhəmiyyətə malik bir gündür..."

"İstedadlı Əlillər" İctimai Birliyinin sədri, birinci qrup əlil Cavad Qasımov da ziyarətçilərin arasında idi. Əlil arabasında bu müqəddəs məkanı ziyarət etməyi özünün vətəndaşlıq borcu sayır: "Azadlıq aşiqləri o zaman sübut etdilər ki, bizi müstəqillik yolundan heç bir imperiya, hər hansı qüvvə döndərə bilməz. Bugünkü müstəqilliyimizə görə biz ilk növbədə 20 Yanvar şəhidlərinə borcluyuq. Dövlətimiz tərəfindən xiyabanın abadlığı, şəhidlərimizin adlarının əbədiləşdirilməsi, ailələrinə qayğı, onların sosial müdafiəsinin gücləndirilməsi kimi mühüm tədbirlər görülüb. Bu insanlar heç vaxt unudulmayacaqlar. Ədəbiyyatımızda şəhidlərimizin obrazları yenə də yaradılmalı, bədii əsərlərdə onlar nümunə, örnək kimi gənclərimizə təqdim edilməlidir".

Bakı şəhərinin Binəqədi, Səbail, Yasamal, Nizami, Nərimanov rayonlarındakı tam orta məktəblərin müəllim və şagird kollektivləri, eləcə də valideynlər xiyabanı ziyarət etməyi özlərinə borc biliblər. Xiyaban yaşıdlılar da az deyil bu il: 30 yaş gəncliyin odlu-alovlu, hisslərin və duyğuların baş alıb getdiyi dövrdür. Nə yaxşı ki bu yaşda olanlarda vətənpərvərlik hissi yüksəkdir. Xiyabanı ziyarət edən tələbə-gənclər bu il daha çox idi. BDU-nun tələbələrindən Güldanə Mirzəzadə, Cəmilə Nəcəfzadə, Sənan Sadıqzadə, Rəşad Mirzəzadə,

Ramin, Bəhram Bəylərov qardaşları, ibtidai sinif müəllimi Aynurə Nəcəfova və digərlərini bu müqəddəs məkana gətirən bir gecədə torpaq üzərinə qanları ilə "Azadlıq" yazan şəhidlərin məzarlarını ziyarət etmək və amallarına sadiq qalacaqlarını təsdiqləməkdir.

Yeni Azərbaycan Partiyası Gənclər Birliyi fəallarından biri Həbib Misirov dedi ki, Azərbaycan gəncliyi qəhrəman şəhidlərimizlə fəxr edir: "Bütün bunlar barədə düşünərkən Ümummilli Lider Heydər Əliyevin vaxtilə söylədiyi dəyərli fikirlər bir daha yada düşür: "20 Yanvar faciəsində həlak olanlar xalq qəhrəmanlarıdır, onlar millətimizin qəhrəmanlarıdır. Onların həlak olması bizim üçün, xalqımız üçün böyük itkidir. Ancaq eyni zamanda onların şəhid olması xalqımızın qəhrəmanlıq rəmzidir. O gecə tökülən qanlar Azərbaycanın müstəqilliyini nümayiş etdirən milli bayrağımızın üstündəki qandır".

Xocalı Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Aqil Məmmədov fikirlərini belə ifadə etdi: "Şəhidlər xiyabanını ziyarət etmək mənəvi borcdur. 20 Yanvar Azərbaycanı müstəqilliyə aparan yolun başlanğıcı oldu. Ölkədə milli azadlıq hərəkatını boğmaq məqsədilə sovet rəhbərliyi tərəfindən Bakıya yeridilən silahlı qüvvə və ağır hərbi texnika dinc əhalini amansızcasına atəşə tutdu. Yüzlərlə insan şəhid oldu və yaralandı. Sovet ordusu adı altında paytaxta soxulan erməni quldur dəstələrinin törətdiyi həmin vəhşiliklər insanlıqdan çox-çox uzaq idi. Xocalı qətliamı da məhz düşmənlərimizin bəd niyyətləri ilə həyata keçirilmədimi? 20 Yanvarın davamı olaraq sonralar respublikamızın ərazilərinə havadarlarının dəstəyi və yardımları ilə Ermənistan tərəfindən genişmiqyaslı hərbi təcavüz edilmədimi?! Qanlı 20 Yanvar xalqımıza düşməni yaxından tanıtdı..."

Builki ziyarətçilərin arasında altı yaşlı bir nəfər də diqqətimizi çəkdi. Məhəmməd Fərəcli anası Mehriban müəllimə ilə gəlmişdi. Şəhidlər xiyabanı haqqında bilgiləri bizi heyran qoydu. Balaca Məhəmməd şəhidlərimizə həsr edilən xeyli şeir bilirdi. Əlində tutduğu bir cüt qərənfili hansı məzarın üstünə qoyacağını soruşduqda fikirləşmədən "İlqarla Larisanın" dedi. Anası Mehriban xanım isə bildirdi ki, 20 Yanvar öz dəhşətləri ilə yaddaşlara yazılıb: "Çürüməkdə olan, müvazinətini itirmiş sovet imperiyasının cəlladları o müdhiş gecədə daşnaklarla birləşərək Bakını qan çanağına döndərmişdi. Keçmiş SSRİ-nin ilk və həm də sonuncu prezidenti M. Qorbaçov nəinki milli azadlıq mübarizlərinin qətlinə, əslində, insanlığa və azadlığa qarşı fərman vermişdi. Lakin o dəhşətli gecədən qan içində çıxan xalqımızın mərd, qorxmaz, mübariz övladları öz şəhidlikləri ilə imperiya xislətli, erməni qiyafəli ölümə qələbə çaldılar".

Azərbaycan Dənizçilik Akademiyasının baş müəllimi, əmək veteranı Hüseyn Məmmədov fikrini öncə xalqımıza xas, poetik ifadə etdikdən sonra bildirdi ki, öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək, o gecə şəhidlik zirvəsinə ucaldılar: "Böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, öz azadlığına, müstəqilliyinə can atan xalqımızın həm də mübarizliyini, əyilməzliyini, məğrurluğunu nümayiş etdirdi. Məhz bunun nəticəsində uzun illərdən bəri arzusunda olduğumuz müstəqilliyə qovuşduq".

Müqəddəs and yerinə çevrilən Şəhidlər xiyabanına 30 ildir ki, yaşından, dini mənsubiyyətindən, sosial mənşəyindən asılı olmayaraq, nəinki Azərbaycan vətəndaşları gəlir, ümumiyyətlə, paytaxtın əcnəbi qonaqları, yaxın-uzaq ellərdə yaşayan soydaşlarımız da Vətənin azadlığı və müstəqilliyi uğrunda canından keçənləri burada doğmaları kimi yad edir, ruhlarına dualar oxuyurlar. Yeni ailə quran gənclərimizin də and yerinə çevrilib bu müqəddəs məkan.

Şəhidlər xiyabanı qərənfil libasına bürünərək, növbəti 30-cu anım günündə də ziyarətçilərini beləcə - həm qüssə-kədərli, həm də qürurla qarşıladı. Şəhidlərə yüksək ehtiramlarını göstərməyə gələnlər isə gecəyə kimi bu müqəddəs ünvanda oldular.

**Azərbaycan.**-2020.-22 yanvar.-№12.-S.4.

## Qanlı şənbənin Aslanı

**Yasəmən Musayeva**

**Möhtac deyildim yada,**
**Əlimdən tutan vardı.**
**Bu qocaman dünyada,**
**bir cavan atam vardı.**
**Bir canda üç can idik,**
**Bir idik, atamla biz,**
**Üç bacı, üç şam idik,**
**o idi pərvanəmiz.**
**Elə ki, işdən döndü,**
**evdə bayram olardı.**
**Çırağı qəfil söndü,**
**bir cavan atam vardı...**

## Qüssə qarışıq ümid...

*Üç körpə qızcığaz baş-başa verib həyət qapısından yola tərəf boylanırdı, balaca əlləri qoyunlarında dolaşıq düşmüşdü... Soyuq iliklərinə işləsə də, şaxta barmaqlarını sızlatsa da, sazaq ayaqlarını kəssə də hiss etmirdilər. Bir zülmət gecədə son dəfə yola saldıqları atalarını, işıqlı bir sabahın geri gətirəcəyini məlul-məhzun, qüssə qarışıq ümidlə gözləyirdilər...*

Amma əfsus...

Elə həmin an, həmin dəqiqədə isə başqa bir məkanda üç körpə qızının surəti gözləri önündən çəkilməyən gənc bir ata ölümlə çarpışırdı...

Çox nigaran idi balalarından, onları tək qoyub getmək, ömür yollarına qara pərdə çəkmək istəmirdi... İstəyirdi qızlarını böyütsün, boya-başa çatdırsın, uğurlarına şahidlik etsin, sevinclərini bölüşsün, ata xeyir-duası ilə gəlin köçürsün...

Amma heyhat...

Halbuki son günlərə qədər hər şey tamam başqa idi, xoşbəxt, sevincli idilər...

Haradansa qulağına şən, hay-küylü uşaq sədaları, yenə haradansa həyat yoldaşının, özünün səsi gəlirdi... Budur, evliliklərinin ildönümünü qeyd edirlər... Həyat yoldaşına yaxınlaşaraq, "bu gün bizim ailə həyatı qurmağımızın 16 ili tamam olur, amma elə bil dünən idi...” deyir...

Yenə də qarışıq səslər gəlir və həyatının son günü gözləri önündən dəhşətli film kadrları kimi sürətlə ötməyə başlayır...

Yanvarın 19-dur, işdən çıxıb birbaşa Naxçıvan mehmanxanasına tərəf yollanır. Bura insanların daha çox yığışmasından narahatlıq hissi keçirir və zaman irəlilədikcə hadisələrin gedişatının heç də xeyir vəd etmədiyini anlayır.

Evə qayıdanda həyəcanla söyləyir ki, bu gün nəsə baş verəcək. Artıq qadınlar da körpə uşaqları ilə küçələrə çıxıblar ki, tanklar, silahlılar gələcək, onların qarşısını kəssinlər...

Birdən haradansa partlayış səsi gəlir və elə bu səslə də özünü küçəyə atır...

Səs-küydən qulaq tutulur, tanklar insanların üzərinə yeriyir, ölüm saçan silahlar körpələrə, uşaqlara, qocalara, qadınlara tuşlanırdı. Bu dəhşətli mənzərəni görəndə bir an belə tərəddüd etmədən digər gənclərlə bərabər qadınların, uşaqların qarşısına keçərək canı ilə onlara sipər çəkir...

Və sonra...

*20 Yanvar şəhidi Aslan Ağaverdiyev zalım imperiyanın qanlı atəş əmrinin ilk qurbanlarından birinə çevrilir...*

## Son gediş və 30 illik həsrət...

**Həyat yoldaşı Zərifə Ağaverdiyeva:** - Yanvarın 19-da Aslan evə gələndə çox yorğun idi, yeməyini yedi, televizoru yandırdı. Elə həmin vaxt televizor birdən-birə söndü. Ayağa qalxıb qayıtdı ki, nəsə olub, mən

gedirəm. Nə qədər etiraz etsəm də, razılaşmadı, dedi ki, çox nigaranam, getməliyəm. Durub evdən çıxdı və bu, son gedişi oldu...

**Qızı Məsmə Aslanqızı:** - Ümumiyyətlə, 1988-ci il hadisələrindən, ermənilərin İrəvan mahalından azərbaycanlıları çıxarmağa başladığı andan atam etirazını bildirir və mütəmadi olaraq Azadlıq meydanında keçirilən nümayişlərdə iştirak edirdi. Hər dəfə atam evə gələndə nümayişlər zamanı qızınmaq üçün yandırılan ocaqdan paltosuna hopmuş hisin iyi burnumdan getmirdi. Ermənilərin azərbaycanlılara qarşı etdikləri haqsızlıqları atam heç cür qəbul edə bilmirdi. Ağlımıza gətirə bilməzdik ki, yaxşı münasibət qurduğumuz qonşularımız bizə qarşı bu cür namərd addım atmış olar. 1990-cı il yanvarın 20-nə yaxın isə ara daha çox qızışır, nümayişlər çoxalır, daha tez-tez keçirilirdi. Həmin gün də, yəni yanvarın 19-da da insanlar küçələrə tökülmüşdü. Evimizə yaxın keçmiş Naxçıvan mehmanxanasının qarşısına, oradakı körpünün üzərinə, ətrafına xeyli adam yığışmışdı. Atam da tez-tez ora gedib qayıdırdı. Evə gələndə dedi ki, vəziyyət çox gərgindir... Bir az sonra televizor söndü və bununla da atam küçəyə atıldı və həmin gedişdən sonra düz 30 ildir ki, biz atamızın üzünə, səsinə, hənirinə həsrətik...

**Ölüm təbəssümü...**

*Aslan Ağaverdiyev o qanlı gecənin səhəri "Semaşko"da (Musa Nağıyev adına xəstəxana) gözlərini açanda şahid olduğu dəhşətli anları həyat yoldaşı Zərifə xanıma belə anladır: "Bacardığımız qədər oraya yığışan qadınlarla uşaqların bir çoxunu evlərinə göndərdik. Göndərə bilmədiklərimizin qarşısında isə sipər çəkib dayandıq. Orada olan silahlılar ehtiyatda olan zabitlər idi. Tankın üstündə əyləşən zabitlərdən birinə rus dilində dedim ki, "ey, rebyata ne strelyayte!". Bu zaman o, mənə baxıb güldü və silahını qaldırdı. Əvvəlcə heç nə hiss etmədim. Bir də gördüm qarnım yanır. Sonra isə tanımadığım bir adam məni maşına qoyub harasa apardı...*

*19-u gecə saat 12-ni keçəndə atəş əmri veriləndən sonra Aslan Ağaverdiyev də ön cərgədə dayandığı üçün açılan ilk atəşdən yaralanmışdı. Güllə qarın nahiyyəsinə dəymiş, nazik və yoğun bağırsaqlarını, mədəsini və böyrəyini zədələmişdi. Həkimlər məlumat vermişdilər ki, yaralı xəstəxanaya gətirilənə qədər 3 litr qan itirib. İşıqlar kəsildiyindən xəstəxanada çox ağır şəraitdə şam işığında əməliyyat olunmuşdu.*

**"Bir qadın qışqırırdı ki, qardaşımı öldürdülər..."**

**Zərifə Ağaverdiyeva:** - Yanvarın 20-si evə zəng gəldi. Dedilər ki, Aslan ayağından yüngül yaralanıb, təcili "Semaşko" xəstəxanasına gəlin. Tez-tələsik evdən çıxdım. Ora çatanda gördüm ki, hər kəs onun başına toplaşıb, huşu özündə idi...

Məsmə Aslanqızı: - Yanvarın 19-u gecəsi səhərə kimi həyət qapısının ağzında atamı gözləyirdik. Babam bir neçə dəfə küçəyə çıxıb gəldi. O, qanıqara idi, amma təskinlik vermək məqsədilə deyirdi ki, narahat olunacaq heç nə yoxdur. Sonradan bildik ki, meyitləri görürmüş. Bir qədər keçdi, qonşunun oğlu gəldi və dedi ki, mən yerə düşmüş insan gözü gördüm. Biz dəhşətə gəldik. Bir neçə müddətdən sonra isə gördük ki, bir qadın körpü tərəfə qaçaraq qışqırır ki, qardaşımı öldürdülər... Səhər saat 7 radələrində isə evimizə zəng gəldi... Anamın ağlaması indiyə kimi gözlərimin qarşısındadır. O, Allaha dua edirdi ki, kaş, atam əlil, şikəst olsun, amma nəfəsi üstündə, başımızın üzərində olsun...

Zərifə Ağaverdiyeva: - Xəstəxananın dəhlizində o qədər yaralı, bir-birinin üstünə yığılmış meyitlər var idi ki... Birinin üzü tanınmaz vəziyyətdəydi, digərinin bədəninin yarısı yox idi... Bizim təsəllimiz yalnız o idi ki, heç olmasa Aslanı tanıya bilmişdik, o, tankın altında qalmamışdı...

Bütün qohum-əqrəba hamısı xəstəxanaya Aslana qan verməyə gəlmişdi. Amma ona vurulan qanlar bədənində dövran etmədiyinə görə sağalması mümkün olmadı. Səhərə yaxın artıq o sayıqlayırdı, deyirdi ki, Zərifə, çıxın gedin, görün nə qədər əsgər var, hamısı bura gəlir...

Bir müddət sonra Aslanın xalası oğlu gəldi və mənə dedi ki, sən get evə. Onda başa düşdüm ki, artıq Aslan keçinib. Yalvardım ki, icazə verin, onunla son dəfə görüşüm, sonra gedim...

**"Anam pıçıldadı ki, "daha atanız yoxdur..."**

**Məsmə Aslanqızı:** - Biz Yanvarın 21-i səhər-səhər yuxudan ana nənəmin ağı deməyinə ayıldıq. Balaca bacımla bir-birimizə baxdıq, heç nə başa düşmədik, bilmədik ki, nə baş verib. Sonra ata nənəm içəri girdi. Onun ağlamağını, qışqırmağını görəndə anladım ki, atama nəsə olub. Amma yenə də inanmırdıq, ümidlə gözləyirdik

ki, o, indi gələcək. Həyət qapısı açıldı, xəstəxanaya gedənlər qayıdırdı, amma atam aralarında yox idi. Hamı ağlayırdı. Anam yavaş-yavaş gəlib divanda əyləşdi. Rəngi sapsarı idi, balaca bacımla məni qucağına alıb hıçqıraraq pıçıldadı ki, "daha bizim atamız yoxdur..."

Bacımla məni evimizdən uzaqlaşdırıb qonşuya apardılar. Sonra 40 gün gah o xalam, gah bu xalam gildə qaldıq. Yalnız yanvarın 23-ündə evimizdə olduq və hamımız dəfn mərasiminə getdik. İlk dəfə idi ki, o cür izdiham görürdüm. Elə bil bütün Azərbaycan bir amal uğrunda birləşib, tək bir ruha dönmüşdü. Artıq 20 yanvarda şəhid olanlar mənim atam, onun oğlu, qızı, qardaşı, əmisi, dayısı deyildi... Bütün Azərbaycanın övladları idi. Hər kəs onları son mənzilə, Şəhidlər Xiyabanına yola salmağı özünün müqəddəs vəzifəsi sayırdı. Elə insanlar vardı ki, qışın soyuğunda ayaqyalın irəliləyirdi və ayaqqabısını itirdiyinin fərqində belə deyildi. İzdihamın içərisində irəliləyə bilmirdik. Tanımadığımız insanlar bizi qucaqlarında, başları üzərinə qaldırıb aparırdılar, bilirdilər ki, şəhid övladlarıyıq...

**Şəhid qadınının qara örpəyi altından boylanan ağ birçəklər...**

*Zərifə xanım həyat yoldaşını itirəndə cəmi 36 yaşı vardı. Tale siyah pərdəsini ömrünün bahar çağında endirmişdi üzərinə. Qara örpəyinin altından görsənən bir gündə ağarmış saçları isə sanki həyatın qara günlərinə bir kinayə idi. Axı, bu dünyada hər zaman ağ qaraya çevrilir, qaradan ağ doğulur. O da Aslandan sonra yuvalarının zülmətə çevrilməsinə, ocaqlarının sönməsinə icazə vermədi... Ömrünü Aslanın əmanəti olan üç qız balasına həsr etdi. Onları böyütdü, təhsil verdi, gəlin köçürdü... Əhd etdiyi kimi, ilk oğul nəvəsinə də Aslan adı verdi...*

**"Ulu Öndər asta-asta gözünün yaşını silirdi..."**

**Məsmə Aslanqızı:** - İllər keçsə də atamın ağrı-acısı ilk gündəki kimi ürəyimizi yandırır. Yeganə təsəllimiz şəhidlərin unudulmaması, daim yad edilmələri, onlara qarşı hörmət və ehtiramdır. Hər zaman fərqində olmuşuq ki, sadə vətəndaşdan tutmuş, ali kürsüyə rəhbərlik edən Prezidentimizə qədər xalqımızın hər bir nümayəndəsi bizim dərdimizə şərikdir... Bir xatirə isə heç zaman yadımdan çıxmır. 2000-ci ildə, 20 Yanvar şəhidlərinin 10 illiyinə həsr edilmiş möhtəşəm tədbirdə Ulu Öndər Heydər Əliyev də iştirak edirdi. Orada mən də şəhid övladı kimi çıxış etdim. Sonradan televizorda həmin kadrlara baxanda gördüm ki, çıxışım zamanı Ulu Öndər asta-asta gözünün yaşını silir. Tədbirdən sonra Heydər Əliyev gəlib hamı ilə bir-bir görüşdü. Mənə yaxınlaşanda isə dedi ki, "heç bir çıxış mənə bu qədər təsir etməmişdi..."

Şəhid övladı olmaq qürurludur, amma atasız böyümək çox çətindir. Hər kəs kimi biz də uğurlarımızı atamızla bölüşmək, onunla birgə sevinmək istəyirik... Amma qismətimizə atamızın məzarında onun ruhu ilə söhbətləşmək düşüb. Düz 30 ildir ki, mən də atamla Şəhidlər Xiyabanında görüşür, danışıram. Hər dəfə isə ona bu sualı verirəm: "Ata, mənimlə fəxr edirsənmi? Ümid edirəm ki, o dünyaya gəlib sənə qovuşanda mənə qollarını açacaq, üz çevirməyəcəksən". Bilirsiniz, şəhid övladı olmaq həm də böyük məsuliyyətdir. Çalışırsan ki, hər zaman ona layiq olasan, daim adını ucaldasan...

**Son söz...**

*O, cəmi 38 il yaşamışdı. Amma bu qısa zamana, milyonların qürurlanacağı bir ömür sığdırmışdı. Vətən sevgili, vətən sevdalı olmuşdu. Torpağı, azadlığı, xalqı naminə, onun gələcəyi uğrunda haqq səsini ucaltmağı bacarmışdı. Bilirdi ki, zülmün topu var, gülləsi var, qəlpəsi varsa, haqqın da bükülməz qolu, dönməz üzü vardır...*

*Sadəcə, bu həyatda bir nigarançılığı, bir həsrəti vardı... Arxasında üç gözüyaşlı körpə qız qoyub gedirdi...*

*Elə xəstəxana palatasında, bu həyatdakı axırıncı anında da canındakı son qüvvəsini toplayaraq - "Mənim üç qızım var, Afaq, Məsmə, Şəbnəm..." deyə, pıçıldaya-pıçıldaya gözlərini əbədi yummuşdu 20 Yanvar şəhidimiz Aslan Ağaverdiyev...*

***Çıxarış:***

*Aslan Ağaverdiyev avqustun 24-ü 1952-ci ildə Bakıda anadan olub. Bakının Zevin küçəsində (Əziz Əliyev) anbardar işləyib. 19 yanvar 1990-cı ildə keçmiş Naxçıvan mehmanxanasının qarşısına gəlib, orada sovet əsgərləri ilə üzbəüz dayanan əli körpəli və uşaq arabalı qadınları geri çəkmiş, onların qarşısında*

*cavanlarla birlikdə sədd çəkib dayanıb. Saat 00:01 radələrində atəş əmri verilərkən qadınların və uşaqların qarşısında sədd çəkmiş cavanları (Aslan Ağaverdiyev daxil olmaqla) güllələbaran ediblər. Aslan Ağaverdiyev bu hadisədə yaralanıb, güllə onun nazik və yoğun bağırsaqlarını, mədəsini və böyrəyini zədələyib. Xəstəxanaya gətirilib və ona vurulan qanlar bədənində dövran etmədiyinə görə yanvarın 21-də şəhidlik zirvəsinə ucalıb. Şəhidlər Xiyabanında dəfn edilib, "20 Yanvar şəhidi" fəxri adına layiq görülüb.*

*Dövlət tərəfindən ailəsi ikiotaqlı mənzillə təmin edilib. Oxuduğu Bakı şəhəri Yasamal rayonunda yerləşən 31 saylı tam orta məktəb Aslan Ağaverdiyevin adını daşıyır. Üç qızını təkbaşına böyüdən həyat yoldaşı Zərifə Ağaverdiyeva da təhsil işçisidir. Övladlarından biri isə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının aktrisası, əməkdar artist, Prezident mükafatçısı Məsmə Aslanqızıdır...*

**Azərbaycan.-**2020.-19 yanvar.-№11.-S.6.

**Milli azadlıq mücahidi Ülvi Bünyadzadə**

**Almaz Ülvi,**
AMEA N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Azərbaycan-Türkmənistan-Özbəkistan" şöbəsinin müdiri

Qəhrəmanlıq və rəşadət tariximizin milli oyanış günü kimi yaddaşımıza yazılan 1990-cı il 20 Yanvar hadisələrinin 30 ili tamam oldu. O gün günahsız insanların qanına qəltan olunmasının şahidləri bu gün də o hadisələri böyük ürəkağrısı, eyni zamanda qürur hissilə xatırlayırlar.

30 il əvvəl imperiya ordusu dinc əhaliyə odlu silahlardan atəş açdı. Bakının küçələrində yeriyən tanklardan güllələr dolu kimi yağır, binaların, ağacların arxasında gizlənən adamları belə vəhşicəsinə öldürürdülər. O gün Bakının küçələrində insan qanından gölməçələr əmələ gəlmişdi. Əliyalın xalq bu qanlı faciədə torpağa şəhidlər verdi, anaların ah-naləsi göylərə bülənd oldu, lakin qara niyyətli düşmənin qarşısında əyilmədi, sınmadı, özünün azadlığı uğrunda, məsləki yolunda bütövlük, mübarizlik nümayiş etdirdi. Vətən dərdi, el dərdi hamını bir yerə yığdı... O gecənin şəhid oğullarından biri də 20 yaşlı Ülvi Bünyadzadə oldu. Bu yazıda indi 50 yaşını qürur hissi ilə qeyd etdiyimiz Vətən sevdalısı Ülvidən söz açacam. Onun azadlığa təşnə olan qəlbinin istəklərindən, qısa ömründə əbədiyyətə aparan mübarizə yolundan, yaradıcılıq eşqindən yığcam şəkildə bəhs edəcəyəm.

Haqqında ilk söz olaraq Ülvi Bünyadzadənin doğma Vətəninə məhəbbətinin ifadəsi olan "And"ını təqdim edirəm: "Mən, Bünyadzadə Ülvi Yusif oğlu, həyatımda ilk və son dəfə öz vicdanım qarşısında and içirəm; bir elin, bir millətin adını təmsil etdiyimi heç zaman unutmayacağam; Azərbaycan torpağının qürurdan, qeyrətdən yoğrulmuş adını müqəddəs tutacaq, bu ada ləkə vurmaq istəyən bütün ünsürlərə qarşı duracağam; öz azərbaycanlı varlığıma, vicdanıma, məsləkimə, əsil-nəcabətimə, damarlarımda axan azərbaycanlı qanına layiq oğul olacaq, qorxaqlığı, alçaqlığı, yaltaqlığı özümə yaxın buraxmayacaq, nəyin bahasına olursa-olsun öz azərbaycanlı "mən"imi təsdiq edəcəyəm. Əgər vədimə xilaf çıxsam, qoy anamın südü, elimin çörəyi mənə haram olsun, Vətən üzü görməyim. İmza: B.Ülvi. 10 sentyabr 1989".

Ülvi bu "And"ını yazana qədər 20 illik ömrünün sanki çox dərin qatlarını - minillik yolunu yaşayaraq keçib gəlmişdi.

Tələbə idi. SSRİ-nin 50 illiyi adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun ingilis dili fakültəsinin 2-ci kurs tələbəsiydi. Zənnimcə, bu adı qazanana qədər onun həyat yolundan bəzi məqamları da xatırlatmaq yerinə düşər.

Ülvi Bünyadzadə ibtidai təhsilini doğulduğu Göyçə mahalının Kəsəmən kəndində, orta məktəbi isə 1978-ci ildə atasının işi ilə əlaqədar yaşamaq üçün köçdükləri Daşkəsən şəhərində almışdır. O, hansı məktəbdə oxumağından asılı olmayaraq, birinci sinifdən 10-cu sinfə qədər əlaçı olmuşdur.

Ailədə Ülviyə heç vaxt uşaq kimi baxmamışıq. Ülvi bunu özünün qeyri-adi söhbətləri, dərin düşüncəsi, istedadı, davranış tərzi, hərəkətləri, hər şeyə müdrik baxışı ilə bizə aşılamışdı. Yadımdadı, mən X sinifdə olanda Ülvi I sinifdə oxuyurdu. Onda mən Ülvinin bibisi olduğuma görə ürəyimdə bir fəxarət hissi yaşayırdım. Çünki, o, indicə qeyd etdiyim özünəməxsusluğu ilə hamının diqqətini cəlb etmişdi. "Son zəng" günü sinfimizdəki 39 şagirdin hamısı Ülviyə böyük hörmətlə hədiyyə - kitab bağışladılar. Həmin anda hədiyyələrini qucağına sığışdıra bilməyən balaca, çəlimsiz Ülvi özünü itirməyərək belə bir söz də dedi: "Mənim borcum da o olsun ki, bu kitabların hamısını gərək oxuyam".

Daşkəsəndə orta məktəbdə oxuduğu illərdə də o, yaşıdlarından fərqlənirdi. Dərs əlaçısı olmaqla yanaşı, Ülvi həm də məktəbin bütün ictimai işlərində fəal iştirak edirdi. 9-cu sinifdə oxuyanda Ülvi çox sevdiyi Səməd Vurğunun "Vaqif" əsərinin rejissoru olaraq tamaşasını hazırlamışdı. O, bütün rolları şagirdlər arasında uyğun şəkildə bölmüş, özü isə Qacarın obrazını yaratmağı düşünmüşdü. Bu gün sinif yoldaşları hələ də xatırlayırlar ki, biz o zaman çox narahat olduq - hətta ağladıq ki, niyə Ülvi Vaqifi yox, Qacarı oynayır. O isə gülərək bizə dedi ki, siz Qacarı daha yaxından tanımaq istəyirsinizsə, tarixi yaxşı oxuyun, o zaman nə bu sualı mənə verməyəcəksiniz, nə də ağlamayacaqsınız.

"Daşkəsəndəki məktəb illərində Ülvi "Qoşqar" ədəbi birliyinin üzvü olaraq onun bütün toplanışında iştirak edirdi. Atası yaşda kişilərlə şeir mübahisələri, ədəbiyyat söhbətləri edirdi. Onları tənqid etməkdən çəkinmirdi, şeirlərinə düzəlişlər edirdi. Ülvinin mətbuatda dərc etdirdiyi ilk şeiri ədəbi birliyimizin təqdim etdiyi "Ceyran"dır:

Səyyaddan sayalanan,

Ahlı-nalalı ceyran.
Gəldi səyyaha sarı
Qaldı yaralı ceyran.

"Daşkəsən" qəzetində mütəmadi olaraq ədəbi qeydləri, şərqşünaslıq tarixinə dair məqalələri dərc olunurdu".

Bu qeydləri "Qoşqar" ədəbi birliyinin sədri, şair Namazalı Paşayevin "Daşkəsən" qəzetində dərc etdirdiyi "Ülvi" adlı məqaləsindən iqtibas etmişəm.

Namazalı müəllim bu məqaləni Ülvinin ali məktəbə daxil olması münasibətilə qələmə almışdı. Onda 1987-ci ilin iyul ayı idi. Onu da xatırladım ki, Ülvi Daşkəsəndə musiqi təhsili almışdı, qarmon sinfini bitirmişdi. Sonralar bir yazıda Ülvinin musiqi qabiliyyəti haqqında oxuyuram: "Kimsə dedi ki, Ülvi pianoda bir xalq mahnısı çalsın. O, utancaq halda qalxıb piano arxasına keçdi. Ülvi həmin andan yaddaşımda yaşamağa başladı.18 yaşı vardı. Qonur gözləri, qartal qanadları kimi gərilmiş qara qaşları ağ çöhrəsinə kölgə salanda qəribə, ciddi görkəm alardı. Məclis boyu ağzını açıb bir kəlmə kəsməyən bu gəncin sinəsi altında necə sirli xəzinə varmış, Allah. Bizim aşıq musiqisi, el havacatları pianoda necə səslənərmiş, İlahi. Bayaqdan susub duran Ülvi balanın ürəyi nə imiş, Tanrı. Barmaqları nə oyunlar oynayırdı. "Göyçə gölü"ndən başladı, "Divani"dən adladı, "İrəvan çuxuru"nda ayaq saxladı. "Sarı telləri" bir-bir saydı, "Ayaq Sarıtel", "Orta Sarıtel", "Baş Sarıtel", "Yanıq Kərəmi", "Naxçıvani"... Aşıq havaları pianoda dəyişdikcə, ovqatımız da dəyişdi, yaman kövrəltdi məni. Çalırdı, yorulmaq bilmirdi, qəlbinin həyəcanı tükənmirdi".

Ülvi ali məktəbə daxil olanda dünya ədəbiyyatının şedevr nümunələrini rus və ingilis dillərində - orijinaldan mütaliə etmişdi. Atasının zəngin kitabxanasını dəfələrlə oxuyub başa çıxmışdı. Rayon kitabxanasındakı kitabların hamısını, demək olar ki, mütaliə etmişdi. Ülvi ali məktəbə daxil olana qədər belə bir mərhələlərdən keçmişdi, belə bir ömür yaşamışdı.

Tələbəlik illərinin ilk günlərində Ülvi hamının diqqətini cəlb etdi. O, yoldaşlarının, professor-müəllim heyətinin sevimlisinə çevrildi. Hazırcavablığı, zəngin dünyagörüşü, elmi, biliyi, nitq qabiliyyəti və hər kəsə hörmətlə yanaşması, bir sözlə, fitrətən fazilliyi Ülvinin savadlı və yüksək mədəniyyətli yetkin şəxs olduğunu göstərirdi.

İnstitutun "Bilik" qəzetində Ülvinin şeirləri, hekayələri, publisistik və ədəbi qeydləri mütəmadi olaraq dərc olunurdu. Burada da o, fəal ictimaiyyətçi oldu.

Əsgəri xidmətə yollandı - ozamankı Müdafiə nazirliyinin əmri ilə təhsil müddətində uzaq Sibirin Kansk şəhərində bir il əsgərlik həyatı yaşadı. Burada respublikamızda baş verən hadisələrlə hər gün göndərdiyim qəzetlər vasitəsilə tanış olurdu. Topxana meşəsinin mənfur ermənilər tərəfindən qırılmasına etiraz olaraq keçirilən mitinqlərdən xəbər biləndə yazdı ki, mitinqlərlə çox da irəli getmək mümkün deyil. İdeoloji mübarizə daha öndə olmalıdır, çünki bunsuz heç nə əldə etmək mümkün deyil. Qarabağ torpağı uğrunda başlayan mübarizənin əsas səbəblərini hərbi hissədə yaratdığı "Xətai" dərnəyi üzvləri ilə birgə yerli əhaliyə çatdırırdı.

Yazdığı məktublarında mütaliə etdiyi əsərləri yenidən oxuduğunu bildirirdi, boş vaxtlarında əsgər dostlarının xahişilə musiqi alətlərində etdiyi ifasından yazırdı.

Əsgərlikdən dönəndə ilk işinə müxtəlif ali məktəblərə gedərək fəal gənclərlə tanışlıqdan başladı. "Şimali Azərbaycan Azad Tələbələr İttifaqı"nı yaratmağa müvəffəq oldu. Həmin İttifaqın da Proqram və Nizamnaməsini bir gecənin içində yazdı və onu növbəti tədbirdə qəbul etdilər.

Ülvi Azadlıq mücahidi idi. İdeoloji mübarizəsi kontekstində "Partiya bizə lazımdırmı?" adlı məqaləsində yazdı: "70-80-ci illərin I yarısını çox vaxt "durğunluq dövrü" deyə səciyyələndirirlər. Lakin mənə elə gəlir ki, xalqın ideologiyasında ən böyük çevriliş məhz bu illərdə baş vermişdir. Xalq öz haqqını başa düşməyə, istismar olunduğunu, aldandığını anlamağa başlamışdı. Məhz bu mənəvi çevriliş hazırkı xalq mübarizəsinin ideoloji stimulunu təşkil edir. Dünya tarixində ilk dəfə proletariat 1871-ci ildə Parisdə hakimiyyət başına gəlmiş, 72 gündən sonra devrilmiş, ikinci dəfə isə 1917 - 1920-ci illərdə bizim ölkədə qalib gəlmiş, Leninin ölümündən sonra o da devrilmişdir. Bu 70 ildə xalqımızın yaşadığı cəmiyyətə ad verməyə mən çətinlik çəkirəm. Hər halda o nə kapitalizm idi, nə də sosializm".

"Dayaq nöqtəsi" adlı məqaləsində yazırdı: "Bu gün institutumuzda fəal, ağıllı, hər şeyə milli qeyrət və milli varlıq mövqeyindən yanaşan tələbə və müəllimlərlə yanaşı, öz simasını itirmiş, ətraf aləmlə heç bir ideoloji əlaqədə olmaq istəməyən, öz intim duyğuları, şəxsi mənafeçilik hissləri ilə yaşayan, bir sözlə, manqurtlaşmış simalar da az deyil. İdarə heyəti dilənçi kökündə yaşayan, mənəviyyatları istismar olunan xalqın ali təhsil ocaqlarının birinə belə tələbələrin "düşməsinə" çox təəssüflənsə də, bunu təbii hal kimi qəbul edir... . Bir daha institutun kollektivini daxilən müstəqilləşməyə, azadiləşməyə, vahid qüvvədə - Azərbaycan xalq hərəkatında birləşməyə çağırırıq. Bunlarsız qələbə barədə düşünmək, yuxudan başqa bir şey deyil".

Belə yazmasının da səbəbi vardı. Çünki hələ də sovetlər birliyinin sözünün kəsərli, keçərli olduğuna inanan rəhbərlər vardı.

Yanvar ayının 10-da bir məqalə yazmışdı. "Azərbaycan" qəzetində çap etdir, deyə ona tövsiyə etdim. Getdi və çox böyük sevinclə geri döndü. Baş redaktor Sabir Rüstəmxanlı mənimlə söhbət etdi, sonra şöbə müdiri Rüstəm Behrudini yanına çağırıb məni onunla tanış etdi və məqaləmə baxmağı, çapa hazırlamağı tapşırdı. O günü yerə-göyə sığmırdı: "Fikirlərimi söyləyərkən inandırıcı olduğuna əminlik yarada bildim". Həmin məqalə "Qırmızı terror" adlanırdı: "Bugünkü ümumxalq hərəkatımızın məqsədi bu "bataqlığı" yox eləməkdən, ən son nəticədə azad, bütöv Azərbaycan Xalq Cümhuriyyəti qurmaqdan ibarətdir. Artıq yuxarıda qeyd elədiyim "bic" və "gəlmə" ideologiyaya qarşı əsrin əvvəlində olduğu kimi, bir ovuc ziyalı deyil, qərinələrdən keçib gəlmiş, çox yüksək bir səviyyəyə çatmış milli ideologiya ilə silahlanan 40 milyonluq azəri xalqı dayanıb. Bu qüvvənin qarşısında çox çəkməz bütün "gəlmə"lər, "bic"lər məhv olar! Eşq söyləyək o qüvvəyə!" 10.01.1990.

Amma həmin məqalə Ülvi şəhid olandan sonra qəzetdə dərc olundu...

Ülvi əsgərlikdə göstərdiyi nümunəvi davranışına, xidməti fədakarlığına görə Sovet İttifaqı Kommunist Partiyası sıralarına qəbul edilmişdir. Əsgəri xidmətdən Bakıya gəlib həmin partiyanın törətdiyi oyunların şahidi olunca, Lenin (indiki Azadlıq) meydanında partbiletini ovcunun içində nümayişkaranə surətdə yandırmışdı. Ovcunun içi yanmışdı, amma əlini çəkməmişdi. Soruşanda ki niyə belə etdin? Cavabı belə oldu "lazım gələrsə, cismimizi yandırmağa hazır olmalıyıq".

Lazım olan anda Ülvi cismini qurban verməkdən çəkinmədi. O, Eşqini, İlhamını,Torpaq,Vətən, Millət uğrunda mübarizəsini tarixləşdirən şah əsərini Şəhid adı ilə yazdı, Vətən "And"ını, özünə olan "And"ını yazdı.

13 yaşında yazdığı -

Həyat üçün doğulmuşuq,
Vətən üçün ölməliyik—

misralarının nəsr şəklini yazdı.

Birinci kursda oxuyurdu. Şeir və hekayələri, ədəbi düşüncələri İnstitut qəzetinin hər nömrəsində dərc olunurdu. Bir dəfə dedi ki, "İnstitut tələbə həmkarlar təşkilatının sədri məndən xahiş etdi ki, onun şeirləri haqqında qəzetə yazı verim, "özüm ölüm, içində dişə dəyəsi bir misra belə tapa bilmədim, məcbur edincə yazdım, amma gerçək tənqidi məqalə yazdım, sizin düşündüyünüz tənqiddən yox. Məqalə dərc olunandan sonra mənə təşəkkür etdi ki, məni bu şeir - şairlik bəlasından qurtardın".

Ülvi indiki 4-cü mikrorayonda yerləşən "Pioner" kinoteatrının yaxınlığında şəhid olmuşdu. Bakı küçələrinə tankların soxulmasından 20 dəqiqə sonra - 00:20 dəqiqədə... Şəhidliyindən 2-3 gün sonra onun "And"ı, sevgi dolu şeirləri əl-əl gəzdi. Ona göz yetirən qızların gətirib mənə verdiyi vərəqlərdəki şeirlər artıq dillərdə əzbər olmuşdu.

Özündən sonra zəngin ədəbi irsi qaldı - şeirləri, poeması, hekayə, povest, pyesləri, tərcümələri, məktubları, ədəbi qeyd və düşüncələri... 20 yaşlı şəhidin ədəbi irsi arxiv yazılarına - sandıq ədəbiyyatına çevrildi.

20 Yanvar hadisələrindən sonra şeirlərini Nəriman Həsənzadə "Ədəbiyyat və incəsənət" qəzetində, poemasını Abbas Abdulla "Ulduz" da povestini Yusif Səmədoğlu "Azərbaycan" jurnalında, dünya ədəbiyyatından tərcümələrini Aydın Məmmədov "Xəzər"də, ictimai-siyasi məqalələrini Sabir Rüstəmxanlı "Azərbaycan" qəzetində dərc etdilər. Haqqında Tofiq Mütəllibov və onlarca digər tanınmış şair və yazıçılar, tənqidçilər yazdılar, Hüseyn Arifin "Ülvi" poeması "Azərbaycan gəncləri" qəzetində dərc olundu.

Nə yazsam, nə söyləsəm də, Ülvi sözüm - dastanım bitən deyil...

**Respublika.-**2020.-23 yanvar.-№13.-S.7.

## Qəhrəmanlıq, rəşadət rəmzi

**İbrahim Quliyev,**
Milli Aviasiya Akademiyasının Hüquqşünaslıq kafedrasının müdiri,
hüquq elmləri doktoru, professor

1990-cı ilin Qanlı Yanvarı Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizənin rəmzinə çevrilmişdir. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev bu barədə demişdir: "20 Yanvar hadisələrini bir faciə kimi təsvir etmək azdır. 20 Yanvar Azərbaycan xalqının milli azadlıq uğrunda, öz mənliyini müdafiə etmək yolunda göstərdiyi qəhrəmanlıq nümunəsidir... Şübhəsiz ki, kədərimiz, qəm-qüssəmiz böyükdür. Ancaq kədərlənməklə yanaşı, xalqımız göstərdi ki, Azərbaycanın qəhrəman oğulları o böyüklükdə Sovet İttifaqının ordusu qarşısında dayanmağa qadirdirlər".

Xalqımız öz azadlığı, müstəqilliyi uğrunda apardığı mübarizədə igidlik, mətinlik, əyiməzlik nümayiş etdirirdi. Sözün əsl mənasında ötən əsrin səksəninci illərinin sonlarında Azərbaycanda geniş vüsət almış milli azadlıq hərəkatı keçmiş SSRİ rəhbərlərini ciddi narahat etməyə başlamışdı. Kreml nəyin bahasına olursa-olsun xalqımızın azadlıq, demokratiya arzularını beşikdəcə boğmaq, vətənpərvər insanları, azadlıq mücahidlərini susdurmaq üçün fürsət gözləyirdi.

Azərbaycana qarşı düşmən mövqe tutan qüvvələr 1987-ci ildə Ümummilli Lider Heydər Əliyevin Sov. İKP MK Siyasi Bürosu üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən uzaqlaşdırılmasından sonra daha da fəallaşdılar. Bədnam qonşularımız ölkəmizə qarşı torpaq iddiası irəli sürərək, vəziyyəti getdikcə gərginləşdirdilər.

Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ittifaq mərkəzinin birtərəfli mövqe tutması, Azərbaycanın haqq səsinə açıq şəkildə soyuqluq, biganəlik nümayiş etdirməsi xalqın ittifaq rəhbərlərinə inamını sarsıtmışdı.

1990-cı ilin əvvəlində hadisələr ən kəskin həddə çatdı. Kreml vəziyyətə nəzarət edə bilmədiyi üçün xalqımıza divan tutmaq yolunu seçdi.1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən 11 min nəfərlik sovet ordusunun xüsusi təyinatlı dəstələri, daxili qoşunların iri kontingenti Bakı şəhərinə daxil oldu. Ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni zabitləri, hətta kursantlar da daxil edilmişdi. Xüsusi amansızlıq, qəddarlıq, misli görünməmiş vəhşiliklərlə müşayiət olunan qanlı faciə nəticəsində Bakı şəhərində 131 mülki şəxs öldürüldü, 700 nəfərdən çox adam yaralandı.

SSRİ rəhbərliyinin göstərişi ilə hərbi birləşmələr paytaxtla yanaşı Sumqayıt, Lənkəran, Neftçala şəhərlərində də qanlı hadisələr törətdilər, əliyalın, günahsız insanları, azadlıq mücahidlərini qanına qəltan etdilər.

Törədilmiş faciə insan hüquqlarına dair beynəlxalq sənədlərin, ilk növbədə, "İnsan hüquqlarının ümumi Bəyannaməsi"nə, "Vətəndaş və siyasi hüquqlar haqqında" və "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" beynəlxalq paktların, keçmiş SSRİ və Azərbaycan SSR Konstitusiyasının tələblərinin kobudcasına pozulması demək idi.

Keçmiş SSRİ Konstitusiyasının 119-cu maddəsinin 14-cü bəndinə əsasən, SSRİ Ali Sovetinin Rəyasət Heyəti SSRİ-nin müdafiəsi və onun vətəndaşlarının təhlükəsizliyinin təmin olunması məqsədilə bütün ölkədə və ya onun ayrı-ayrı ərazilərində fövqəladə və ya hərbi vəziyyəti yalnız o halda elan edə bilərdi ki, bu məsələyə müttəfiq respublikanın Ali Sovetinin Rəyasət Heyəti tərəfindən baxılsın. Lakin Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin bu məsələyə baxılmasına belə imkan verilməmişdir.

Bakıdakı qanlı faciədən dərhal sonra, yanvarın 21-də xalqımızın böyük oğlu, Ümummilli Lider Heydər Əliyev həyatını təhlükə qarşısında qoyaraq ailə üzvləri ilə birlikdə Azərbycanın Moskvadakı daimi nümayəndəliyinə gəldi. O vaxt Moskvada təhsil alırdım. Azərbaycan KP MK Bürosunun və SSRİ Daxili İşlər Nazirliyinin kollegiya qərarları ilə SSRİ DİN-in İdarəetmə Akademiyasının birinci fakültəsində - müttəfiq respublikalar üçün rəhbər kadrlar hazırlayan fakültədə oxuyurdum.

Dağlıq Qarabağ ətrafında baş verən hadisələri diqqətlə izləyir, çox narahat olurdum. Moskvada yaşayan görkəmli azərbaycanlı alimlərlə, tanınmış ziyalılarla görüşür, fikirlərimizi bölüşürdük.

Ümummilli Liderin Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gəlişinin şahidi və orada baş verən hadisələrin iştirakçısıyam. Ulu Öndər daimi nümayəndəliyə gələndə ətrafına yığışan həmyerlilərimizə və Azərbaycan xalqına faciə ilə əlaqədar başsağlığı verdi. Sonra ölkə və xarici jurnalistlərin, tədbir iştirakçılarının toplaşdığı zala daxil oldu.

Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinin rəhbəri Zöhrab İbrahimov 20 Yanvar faciəsi barədə məlumat verdi. Ümummilli Lider Heydər Əliyev çıxışa başlayandan bir neçə dəqiqə sonra əvvəlcədən xüsusi xidmət orqanları tərəfindən hazırlanmış, Moskvada təhsil alan azərbaycanlı tələbə qız gözlənilmədən zala daxil oldu və dərhal yersiz suallarla Ümummilli Liderin çıxışına mane olmağa, tədbiri pozmağa cəhd göstərdi. Mən milis formasında olduğum üçün zala buraxılmışdım. Çoxlarında, xüsusilə orda iştirak edən və eyni zamanda daimi nümayəndəliyin əməkdaşlarında belə təsəvvür yaranmışdı ki, mən Moskva Şəhər Daxili İşlər Baş İdarəsinin rəhbərliyi tərəfindən ictimai asayişi qorumaq məqsədilə tədbirə göndərilmiş yüksək rütbəli zabitəm. Mən və bir neçə ziyalı dərhal həmin tələbə qıza bildirdik ki, bura belə yersiz sualların, söhbətlərin yeri deyil və zalı tərk etsin. Həmin tələbə qız mənim milis formasında asayişi qoruduğumu zənn edərək zaldan çıxdı.

Sonra Ümummilli Lider Heydər Əliyev öz çıxışını davam etməyə başladı. Bu zaman ikinci tələbə qız zala daxil olaraq yersiz, mənasız, tədbiri pozmağa yönəlmiş suallar verdi. Eyni qaydada onun da zaldan getməsini təmin etdik.

Maraqlısı budur ki, tədbirin əvvəlində heç bir maneə yaranmadı. Moskvanın xüsusi xidmət orqanları tərəfindən hazırlanmış bu iki tələbə gəncin məqsədi isə xalqımızın ağır günündə onun dərdinə şərik olmağa, başsağlığı verməyə, haqq səsimizi dünyaya çatdırmağa gəlmiş Ümummilli Lider Heydər Əliyevin verdiyi bəyanata mane olmaq idi.

Xalqımızın yeganə ümidi və pənahı olan Heydər Əliyev nümayəndəlikdə çox sərt bəyanatla çıxış etdi. Bakı şəhərində sovet rəhbərliyinin törətdiyi qanlı hadisələri pislədi, bunu bütöv bir xalqa qarşı zorakılıq, qəddarlıq, indiyədək görünməmiş cinayət adlandırdı. Xarici ölkə jurnalistlərinin gözü qarşısında sovet rəhbərlərini ittiham edərək təcavüzə kəskin etirazını bildirdi: "Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində, böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı nümayəndəsindən xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm. Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabancı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm”.

Ulu Öndərin bu qətiyyətli çıxışı Azərbaycanın informasiya blokadasına alındığı gərgin dövrdə totalitar rejimə, onun rəhbərlərinə sarsıdıcı zərbə oldu. Qorbaçovun və digər rəhbərlərin ünvanına söylədiyi ittihamlar təkcə Bakıda deyil, təcavüzə məruz qalmış Alma-Ata, Tbilisi, Vilnüs və digər şəhərlərdə, xarici dövlətlərdə böyük rəğbətlə qarşılandı.

Azərbaycanın ağır günlərində Ümummilli Lider Vətəndə, xalqının yanında olmağı məqsədəuyğun bildi. 1990-cı il iyulun 20-də təyyarə ilə Moskvadan Bakıya gəldi, iyulun 22-də hakimiyyətin təhdidləri və təzyiqləri nəticəsində Naxçıvana getməyə məcbur oldu.

Müdrik rəhbərin "Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır” tələbi onun 20 Yanvar faciəsi barədə sonralar etdiyi bütün çıxışların, bəyanatların, imzaladığı sənədlərin leytmotivinə çevrildi. Ulu Öndər Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verən sənədin qəbul edilməsinə nail oldu. İlk dəfə olaraq faciə siyasi-hüquqi qiymətini aldı, cinayətin iştirakçılarının və təşkilatçılarının adları açıqlandı. Əlbəttə, bu, o dövrdə rəhbərdən böyük siyasi iradə, cəsarət və qətiyyət tələb edirdi.

Ümummilli Lider 1993-cü ilin iyun ayında xalqın təkidi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. 1994-cü il mart ayının 29-da Milli Məclis geniş müzakirələrdən sonra "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında” qərar qəbul etdi.

Sənəddə milli azadlıq hərəkatını boğmaq, xalqın iradəsini, inamını qırmaq üçün 20 Yanvar faciəsini təşkil etmiş Sov. İKP MK, sovet dövləti və hökumətinin rəhbərlərinin, o cümlədən, şəxsən Mixail Qorbaçovun Azərbaycan xalqına qarşı ağır cinayət törətdiyi qeyd olundu. Eyni zamanda hərbi təcavüzə görə respublika rəhbərlərinin məsuliyyət daşıdıqları, onların Azərbaycan xalqına qarşı xəyanət etdikləri sənəddə öz əksini tapdı.

Qanları ilə torpağa "Azadlıq” sözünü yazan şəhidlərimiz imperiyanın vandalizm, işğalçı, terrorçu, antihumanist siyasətinə qarşı əliyalın çıxmaqla xalqımızın mübarizə əzmini, igidliyini, qəhrəmanlığını bir daha təsdiqlədilər. Ümummilli Liderin dediyi kimi, "Bu təcavüz nəticəsində həlak olanlar xalq qəhrəmanlarıdırlar, onlar millətimizin qəhrəmanlarıdırlar”.

Azərbaycan Prezidenti cənab İlham Əliyev 13 dekabr 2019-cu il tarixdə "20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında” sərəncam imzalamışdır. 20 Yanvar hadisələrinə çox böyük diqqətlə, həssaslıqla yanaşan ölkə rəhbəri bu qanlı faciənin sovet rejiminin qəddarlığını, saxtalığını və iflasa uğradığını, xalqın azadlıq

uğrunda mübarizlik əzminin möhkəmlənməsinə güclü təkan verdiyini önə çəkir, həmin qırğın zamanı ümummilli mənafelərin müdafiəsi naminə canlarından keçmiş, şəhidlik zirvəsinə ucalmış vətən övladlarının şücaətini yüksək qiymətləndirir.

1990-cı ilin yanvarında Azərbaycan xalqı öz iradəsini bütün dünyaya göstərdi. 20 Yanvar bizim böyük faciəmizdir, ancaq eyni zamanda, Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsidir. O gündən keçən müddət ərzində Azərbaycan, demək olar ki, yeni mərhələyə qədəm qoydu. Bu gün Azərbaycan dünyada ən sürətlə inkişaf edən ölkədir. Azərbaycan öz xalqının iradəsinə əsaslanaraq müstəqil, azad ölkə kimi yaşayır, inkişaf edir.

Qanlı Yanvar həm də müstəqillik tariximizin ən şərəfli bir səhifəsidir. Azadlıq, istiqlal uğrunda xalqımızın apardığı mübarizənin zirvəsi kimi çağdaş tariximizə əbədi həkk olunub. O müdhiş şənbə gecəsindən 30 il keçsə də xalqımız bu faciəni heç vaxt unutmur, ağrılarını yaşadır və onu törədənlərə dərin nifrətini bildirir.

**Azərbaycan.-**2020.-23 yanvar.-№13.-S.7.

## Mübarizlik simvolu

**Zöhrə Fərəcova**

Hər heykəl bir tarixdir. Ancaq elə heykəltəraşlıq nümunələri var ki, tarixin yalnız bir üzünü, bir səhifəsini əks etdirmir. Həmin əsərlərə baxdıqca çox ağrı-acı, dərd, faciə xatırlanır. Bakı şəhərində 1990-cı il 20 Yanvar faciəsi qurbanlarının xatirəsinə ucaldılmış "20 Yanvar abidə kompleksi" də Azərbaycan xalqının başına gətirilən neçə-neçə dəhşətli hadisəni yada salır.

Çünki o gecə Azərbaycan xalqı bir günün, bir gecənin faciəsini yaşamadı. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə iki əsrdir bölünən, parçalanan, müstəmləkə zənciri ilə buxovlanan bir xalqın azadlıq harayını susdurmağa gəlmişdilər. Sovet hakimiyyəti yetmiş il sonra yenə qanlı əlini Azərbaycana uzatmışdı. O gecə sovet ordusunun hissələri azadlıq arzusunu boğmaq üçün Azərbaycan xalqına divan tuturdu.

### Azadlıq uğrunda qurban gedənlər...

Vətənin müstəqilliyini canından əziz bilənlər o gecə tərəddüd etmədən ölümlə üz-üzə dayandılar. İmperiya ordusunun qəddarlığından, dinc, silahsız insanları atəşə tutmalarından çəkinmədilər. Azərbaycan xalqı azadlıq uğrunda, haqq yolunda mübarizə əzminin yenilməzliyi ilə o gecə tarixə yeni bir salnamə yazdı. 1990-cı ilin o soyuq yanvar günlərində şəhidlərinə yas tutan xalq onların yandırdıqları müstəqillik işığını sönməyə qoymadı. Azərbaycanda baş verən hadisələr Sovet Sosialist Respublikaları İttifaqının sonunu yaxınlaşdırdı. Çox böyük çətinliklərlə üzləşsə də, Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi 20 Yanvar faciəsinin qurbanlarının xatirəsinə ən böyük ehtiram oldu. Tarixə Qanlı Yanvar adı ilə yazılan 20 Yanvar faciəsinə şairlər, yazıçılar, bəstəkarlar, rəssamlar əsərlər həsr etdilər. O günlərin qurbanları heykəltəraşlıq nümunələrimizdə də əbədiləşdi.

Bakının şimal qapısında - 1990-cı ildə Bakıya hücum edən sovet qoşununun şəhərə daxil olduğu istiqamətdə ucaldılan "20 Yanvar abidə kompleksi" 1990-cı il 20 Yanvar faciəsi qurbanlarının xatirəsinə həsr edilmiş ən dəyərli əsərlərdən biri oldu.

### 20 Yanvar şəhidlərinin əziz xatirəsinə...

Kompleksin tikintisinə 2009-cu ilin oktyabrında başlanıldı. Bu möhtəşəm abidə-kompleksinin memarı Ədalət Məmmədov, heykəltəraşları Azad Əliyev və Cavanşir Dadaşov layiqli bir əsər, dolğun kompozisiya yaratmaq üçün müxtəlif mənbələrdən məlumatlar əldə etdilər. Xalqın mübarizlik ruhunun, dönməzliyinin simvolu olan elementlərdən məharətlə istifadə olundu. Yaradıcılıq təxəyyülü ilə reallığın vəhdətindən uğurlu bir əsər meydana çıxdı.

"20 Yanvar dairəsi" adlanan yerdə bir vaxtlar XI sovet ordusunun şərəfinə qoyulmuş abidə var idi. 1990-cı ildə sovet ordusu Bakıda kütləvi qırğınlar törətdikdən sonra həmin abidə kompleksi götürüldü. Ərazinin yaxınlığında, Bakının Yasamal rayonunda, Həsən bəy Zərdabi və Müzəffər Həsənov küçələrinin kəsişməsində "20 Yanvar abidə kompleksi" ucaldıldı.

Memorial kompleksin ümumi sahəsi 1500 kvadratmetrdir. Kompleksin divarı Afrika və Ukraynadan gətirilmiş qranit plitə ilə üzləndi. Abidənin ətrafındakı meydana qranit plitə döşəndi. Abidənin arxa hissəsindəki park abadlaşdırıldı, kompleksin qarşısında müasir işıqlandırma sistemi quraşdırıldı. Xatirə kompleksinin mərkəzində hündürlüyü postamentlə birlikdə 8 metr olan əzəmətli abidə qoyuldu.

Abidənin üzərində 20 Yanvar faciəsi zamanı həlak olmuş 147 nəfərin adı və soyadı, eləcə də ümummilli lider Heydər Əliyevin qanlı Yanvar hadisələri ilə bağlı dediyi "1990-cı il yanvarın 20-si Azərbaycanın tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olmuşdur" sözləri qızılı hərflərlə həkk olundu. Postament üzərində "20 Yanvar şəhidlərinin əziz xatirəsinə" sözləri yazıldı.

Azərbaycanın paytaxtında "20 Yanvar abidə-kompleksi"nin açılışı 20 yanvar 2010-cu ildə oldu. Açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev iştirak etdi.

### Qürur yerimiz...

1990-cı ilin yanvarında Azərbaycan xalqı öz azadlığını və dövlət müstəqilliyini bərpa etmək üçün meydanlara çıxmışdı. O gecənin şəhidləri yeni bir nəslin azadlıq dastanını yazdılar. İmperiya qüvvələri törətdikləri cinayətləri pərdələməyə, ört-basdır etməyə cəhd göstərsələr də, buna nail ola bilmədilər. Azərbaycan xalqı qan bahasına qazandığı azadlığını qürurla, əzmlə qoruyaraq nəsildən-nəslə ötürür.

İllər ötür... Şəhidlərimizə ümumxalq sevgisi yaşayır. Azərbaycanın azadlığı, suverenliyi yolunda canlarından keçən vətən övladlarının xatirəsi sonsuz ehtiramla yad edilir. "20 Yanvar abidə kompleksi" də vətənsevərlərin ziyarət yerinə çevrilib. Bu abidə yalnız 20 Yanvar faciəsinin ağrılarını, o günlərin dərdini, fəryadını anlatmır, həm də insan xarakterindəki mətinlik, vətən sevgisinin ölməzliyi qranit lövhədə bacarıqla əks etdirilib. "20 Yanvar abidə kompleksi"ndə bir xalqı göz yaşlarına boğan hüzn, kədər də, köksünü qabardan əzəmət, qürur da var.

**Azərbaycan. -** 2019.- 18 yanvar. - № 13. - S. 6.

**20 Yanvar İnsanlıq əleyhinə cinayət**

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet silahlı qüvvələri tərəfindən xalqımıza qarşı misli görünməmiş qəddarlıq törədildi. Azadlıq, istiqlaliyyət uğrunda, haqq və ədalətin müdafiəsi naminə küçələrə çıxmış silahsız adamlar güllələbaran edilərək qətlə yetirildilər.Azərbaycan xalqına qarşı totalitar kommunist rejiminin törətdiyi faciə hərbi təcavüz və insanlıq əleyhinə cinayət kimi qiymətləndirildi. Bu qanlı qırğından dərhal sonra ölkəmizdə və xaricdə Bakıda törədilmiş vəhşiliyə qarşı kəskin etiraz dalğası başlandı.

Ən kəskin etirazlar Türkiyədə oldu. İzmirli ev xanımı Yetər Akçayöz qara paltarda, əlində qara bayraq və sinəsində "Bu gün Azərbaycana, sabah Türkiyəyə" yazılmış plakat ilə təkbaşına şəhərin Bostanlı səmtindən Cümhuriyyət meydanına, Karşıyakayadək yürüş etdi. Küçədə gedərkən onun təkbaşına hərəkətləri izmirli vətəndaşlar tərəfindən böyük rəğbət və səmimiyyətlə qarşılandı.

İzmir Azərbaycan Qadınları Mədəniyyət Mərkəzi Dərnəyinin üzvü Yetər Akçayöz həmin hadisələri xatırlayaraq dedi:

– Mən Azərbaycan türküyəm. 40 ildir ki, İzmirdə yaşayırıq. 1990-cı ilin 20 yanvarında Türkiyənin bölgələrində vətəndaşlar Azərbaycana dəstək üçün hazır oldular, etiraz yürüşləri, mitinqlər, tədbirlər keçirdilər. Burada isə mən belə qərara gəldim ki, hər kəsin Azərbaycana dəstək olması üçün özüm küçəyə çıxıb təkbaşına etirazımı bildirim. Çünki artıq dayana bilməyib bu yürüşü etdim. Birdən geriyə dönəndə gördüm ki, arxamda bir kütlə yaranıb.

20 Yanvarda SSRİ imperiyasının azərbaycanlılara qarşı törətdiyi qırğın, dinc əhaliyə tutulan misli görünməmış divan, insanlığa qarşı cinayət idi. Lakin Qərb ölkələrinin bu qırğına münasibət bildirməyərək susmasını və səssiz qalmasını başa düşmək olmurdu. O zaman səsimi ucaldaraq Azərbaycan hadisələrinin Sovetlər Birliyinin bir daxili məsələsi olmadığını bildirdim: "İnsanlıq əleyhinə cinayətlər nə vaxtdan bir ölkənin daxili işi sayılır?" – deyərək Türkiyənin bu hadisələr qarşısında daha təsirli bir siyasət tətbiq etməsini istədim.

Mən əlimdə tutduğum qara bayraqla və yaxamdan asdığım plakatla şəhərin küçələrindən keçərkən söylədim: "Azərbaycanda yaşayanlar bizim qardaşlarımızdır. Onlara verilən zülm və işgəncə bizə verilmiş sayılır. Bu hadisələr qarşısında səssiz qalarıqsa, sıra digər türklərə də gələcək. İnsanlıq əleyhinə cinayətlər qarşısında sükut da cinayət hesab edilir."

O zamanlar burada təhsil alan azərbaycanlı tələbələrə də hər cür kömək göstərdik, yardım etdik. Yəni bankda hesab açdıq, həmyerlilərimizdən maddi-mənəvi yardım topladıq, tələbələrə baş çəkərək evimizə dəvət etdik, onlara dəstək olduq. Dərnəklərdən topladığımız puldan o gənclərə hər ay 500 lirə pul verirdik. İndi də dərnəyin xətti ilə tələbələrə kömək edirik.

Dərnəyimizin üzvləri Türkiyə dövləti ilə yanaşı, Azərbaycanımızı da ürəkdən sevərək onun bütün problemlərini özümüzünkü hesab edir, ölkəmizi ləyaqətlə təmsil etməyə səy göstəririk. Qoy Azərbaycandakı qadınlar bilsinlər ki, onların burada dəstəkçiləri vardır. Biz hər zaman onları düşünürük.

Yetər xanımın həyat yoldaşı, musiqiçi, yazıçı Turan Akçayöz söhbətə qoşuldu:

– Türkiyədə 4 milyondan artıq, İzmirdə isə 400 mindən çox Azərbaycan türkü yaşayır. Mən Qarsda anadan olmuşam, 78 yaşım var. Gəncliyimizdən başlayaraq uzun illərdir ki, Yetər xanımla bərabər hər il 20 Yanvar, Xocalı soyqırımı, Aprel döyüşləri, Çanaqqala,15 iyul və digər tarixi günlər ilə bağlı tədbirlərdə çıxışlar edib fəallıq göstəririk. Vətənin azadlığı uğrunda canlarını fəda edən şəhidlərimizi yad edir, baş vermiş hadisələri, ermənilərin bizə qarşı törətdikləri soyqırımı faktlarını gənc nəslə, dünya ictimaiyyətinə çatdırırıq. Azərbaycanın müstəqillik, milli azadlıq hərəkatı tarixində şanlı yer tutmuş, Vətənimizin, millətimizin qəhrəmanlıq səhifələrini öz qanları ilə yazmış şəhidlərimizin xatirəsini daim əziz tutur, qəlbimizdə yaşadırıq. Müqəddəs dəyərlər uğrunda canlarını fəda edən bütün şəhidlərimizi rəhmətlə yad edirik, "Məkanları cənnət, ruhları şad olsun!" – deyirik.

Azərbaycanın həmişə inkişafını və yüksəlişini istəmişik. Azərbaycanlı qardaşlarımıza mənfəətdən çox, ölkənin gələcəyini düşünmələrini arzulamışıq. Soydaşlarımıza əlimizdən gələn köməyi etmişik. Azərbaycan türklərinin bir-birinə daha yaxın, mehriban olmasını istəmişik. Ölkəmizin, millətimizin son illərdə qazandığı siyasi, iqtisadi uğurları daim təbliğ edirik.

**Söhbəti yazdı: Afət Sadıqoğlu,**

**Xalq qəzeti**. - 2019.- 18 yanvar. - № 13. - S. 4.

**“Bu güllələr Larisanı öldürüb, eyvandan ataq, getsin...”**

**“Yeldən sürətli” xəbər**

**İttifaq Mirzəbəyli**

20 Yanvar hadisələri barədə söz düşəndə həmişə “bəd xəbər yel qanadlı olur” ifadəsini xatırlayıram. Çünki həmin axşam mən məzuniyyətdə -- Qəbələnin Yemişanlı kəndində, qaynatamgildə idim. Qəfildən televiziyanın bütün kanalları heç nə göstərmədi. Qonşudan soruşduq və məlum oldu ki, hamıda belədir. Ona görə də Şıxalı baba ilə birlikdə “Artizan başına” (artezianın yanına) getdik. Kolxoz idarəsi və sovetlik xeyli uzaqda olduğuna görə camaat həmişə ora yığışırdı.

**Kişi hıçqırtısı**

Biz ora çatanda Vəli kişi, sanki, lap uzaqdakı adamların da eşitməsi üçün danışırmış kimi, uca səslə “Bakının güllələndiyi”, “maşın-maşın cavanların öldürüldüyü” xəbərini verirdi. Onsuz da boyu balaca olan, yanvarın soyuğuna və xəbərin acılığına görə bir az da büzüşüb uşaq boyda qalmış başqa bir adam əlavə etdi: “Bizim uşaq “Azadlğ”a qulaq asıb. Orda deyiblər ki, “təcili yardım” maşınlarını da güllələyiblər.

Sonra çaşqınlıq və ümidsizlik ağır bir qaya kimi camaatın üstünə düşdü və heç kəs danışa bilmədi. Bu sakitlikdə bir kişi hıçqırtısı eşitdim. (Sonralar öyrənmişdim ki, həmin kişinin oğlu da Bakıda mitinq və tətillər başlanandan etibarən daim öndə olub və Allaha şükür ki, sağ-salamatdır). O gecə bəd xəbərin qanadları yeldən sürətli olmuşdu.

**Dağ kəndindən “Bakıya dəstək”**

Ertəsi gün Mirzəbəyliyə gələndə eşitdim ki, kənd camaatı “Bakıya dəstək” aksiyasına toplaşıb. Elə bil ki, bir az toxtaqlıq tapdım. İnandım ki, camaatın ümidi hələ üzülməyib. Tədbirdə atamdan sonra mən də danışdım və balaca bir dağ kəndinin Bakını dəstəkləməsini alqışladım. Sən demə, həmin beş-altı kəlməyə də ehtiyac var imiş... Yemişanlıdakı kişi hıçqırıb ağlasa da, mən Mirzəbəylidəki camaatın qətiyyətini görəndə, sadəcə, kövrəlmişdim. Həmin gün axşam artıq Bakıda idim.

**“Müstəntiqsiniz?”**

...Şəhidlərin çoxu bədnam XI ordunun adını daşıyan meydanda qətlə yetirilmişdi. Artıq yanvarın 22-si olsa da, meydanda dəhşətli, vahiməli bir görkəm var idi. Metronun su institutu tərəfə çıxışından bir az aralı, yerdə bir tay qanlı kişi ayaqqabısı var idi. Ayaqqabını götürüb zeytun ağacının dibinə qoydum. İki-üç gün ağlamış adama oxşayan, gözüyaşlı bir kişi həmin ayaqqabıya yaxınlaşıb “Allah rəhmət eləsin!”, – deyə fatihə verdi. Ayaqqabı sahibinin öldüyünü, yaxud, yaralandığını bilməsəm də, mən də rəhmət dilədim.

Meydandakı boş gilizlərin sayı, bəlkə də, çınqılların sayı qədər olardı. Hamı boş patronları lənətləyərək, tapdalayaraq keçirdi. Diqqətimi bir məqam çəkdi. Boş gilizlər həddən artıq fərqli idi. Yəni zalımın məzluma düşmənçiliyi o qədər amansız olmuşdu ki, xalqın gözünün odunu almaq üçün müxtəlif silahlardan istifadə edilmişdi. Ona görə, silahların adını bilməsəm də, ən kiçiyindən başlayaraq, ən böyüyünə qədər 12 boş giliz götürdüm. Bu zaman yanında iki əsgər olan sovet zabiti mənə yaxınlaşdı və soruşdu ki, müstəntiqsiniz? Zabitin qəzəbli baxışlarından və yanıma əsgərlərlə gəlməsindən çaşsam da, “bədahətən yalan demək” imkanım köməyə gəldi. Dedim: “Yox, şairəm”. Şərəfsizcəsinə gülümsünərək rədd oldu.

**Düşmən gilizləri yeddinci mərtəbədə**

Həmin gilizləri bir bankaya yığdım və uzun müddət Müşfiqabaddakı evimizin eyvanında saxladım. Dövlət radiosunda çalışdığım illərdə bir neçə dəfə 20 Yanvar faciəsinin ildönümü münasibətilə hazırladığım verilişlərdə həmin gilizlər haqqında söz açdım və təkcə bir meydanda bizə qarşı 12 növ silahdan istifadə edildiyini dəfələrlə söylədim. Sonra mərhum həmkarımız Sərdar Mehdiyevin ( “Xocalının səsi” qəzetinin

redaktoru) və "Zaman" qəzetinin müxbiri Əziz Mustafanın xahişilə həmin gilizləri işə gətirdim ki, fotosunu çəkib qəzetdə versinlər... Verdilər də...

**Bu güllələr Larisanı öldürüb...**

20 Yanvar şəhidlərindən birinin – Larisa Məmmədovanın atası Fərman Məmmədov əslən Göyçədən olsa da, onun bəzi qohumları 1953-cü ildə Oğuz rayonuna köçürülmüşdür. Atamın əmisioğlu Nurməmməd kişi də Fərmanın bacısı Xanımzərlə evlənmişdi. Ona görə də Larisaya Mirzəbəylidə də ehsan verilmiş, yası mərasimi təşkil edilmişdi. Bu barədə bizim evdə çox danışılmış, Larisanın adı dəfələrlə çəkilmişdi.

Böyük oğlum Sadiq məktəbə gedəndən sonra sinif rəhbəri, mərhum Baləddin Baxşıyevin söhbətlərinin aludəçisi olmuşdu. Bir gün məktəbdən qayıdandan sonra dedi ki, ata, eyvandakı güllələri tullayaq, onlar - Larisanı öldürüb, bizi də öldürərlər. Dedim, onlar daha güllə deyil, boş gilizlərdir, bizə heç nə edə bilməz. İnanmadı: "Yox, Baləddin müəllim deyir ki, o güllələrlə Larisanı öldürüblər. Tullayaq, getsin". Tulladıq, getdi.

**Bizə heç nə edə bilmədilər**

...90-cı illərin ortalarında birinci sinif şagirdi Sadiqə dediyim o gilizlər "bizə heç nə edə bilməz" ifadəsini sonralar bir neçə yazıda "Bizə heç nə edə bilmədilər" formasında sərlövhəyə çıxarmışdım. Və qeyd etmişdim ki, beynəlxalq aləmdəki erməni lobbisinin əsiri olmuş Kreml mənsubları azadlıq eşqi ilə alışıb-yanan azərbaycanlıları qanına qəltan etsələr də, bizim azadlıq istəyimizi məhv edə bilmədilər.

Çünki bizim həmin istəyimizlə yanaşı, böyük bir yolda öndərimiz olacaq dahi liderimiz də var idi. Heydər Əliyevin hadisənin ertəsi günü Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək, Mixail Qorbaçovu ittiham edən bəyanatla çıxış etməsi xalqın qətiyyətini artırmış, Moskvanın planlarını pozmuşdu. Biz respublikamızın müstəqilliyinə nail olduq və haqlı olaraq, bugünkü Azərbaycan dövlətinin qüdrəti ilə fəxr edirik.

**Xalq qəzeti**. - 2019.- 18 yanvar. - № 13. - S. 4.

**20 Yanvarın "açılmayan gülləsi" - Primakov Allahşükür Paşazadəyə hakimiyyəti ələ almağı niyə təklif etmişdi?**

**A.Səfərli**

"Şeyx həzrətləri, təklif edirəm ki, siz hakimiyyəti əlinizə alıb ölkəyə rəhbərlik edəsiniz!"

Bu, Yaxın Şərq ölkələri haqqında çəkilmiş hansısa filmdən sitat deyil.

Dünyada qorxunc, nəhəng atesit dövləti sayılan Sovet İttifaqının rəhbər şəxsi tərəfindən Azərbaycan SSRİ-nin din xadiminə etdiyi gerçək təklifdir.

Bu hadisənin kədərli bir tarixi var.

Hazırda dünyada "radikal islam təməlçiləri", "müsəlman terrorçuları" ifadəsi böyük güclərin geopoitik maraqlarını yürüdən siyasətin əsas hədəfi kimi istifadə olunur.

Azərbaycan isə belə idbar siyasətlə hələ 30 il əvvəl üz-üzə qalmışdı.

Yetmiş il ərzində dini əlindən alınmış, ateist prinsiplərin ən sərt tərbiyəsi ilə böyümüş sovet azərbaycanlılarına qarşı bu ittiham kimlər tərəfindən və niyə irəli sürülmüşdü?

...Bir neçə gündən sonra Azərbaycan xalqının tarixində ən kədərli və eyni zamanda şanlı səhifə olan 20 yanvar qırğınının 29 ili tamam olacaq.

SSRİ rəhbərliyinin bütün ciddi-cəhdlərinə baxmayaraq 1990-cı ilin yanvarında Bakıda baş vermiş amanasız qətliamı dünyadan gizlətmək mümkün olmadı. 150 nəfərin ölümünə, 1000-ə yaxın dinc vətəndaşın yaralanmasına səbəb olmuş bu hərbi təcavüzü ört-basdır etmək üçün SSRİ rəhbərliyinin bəyan etdiyi qəribə ittiham sadə azərbaycanlıları mat qoymuşdu:

"Sovet ordusu Bakıya Azərbyacanda islam fundamentalizminin qarşısını almaq üçün daxil olub".

Moskva bu ittihamla ərazi bütövlüyünün pozulmasına qarşı mübarizəyə qalxmış Azərbaycan xalqını geopolitik oyunun qurbanına çevirmək məqsədi güdürdü.

Cəmi 123 mollası olan 7 milyonluq ölkənin "islam təməlçiləri"

SSRİ-də islam dininə yanaşma spesifik idi. Tamamilə marginal vəziyyətə salınmış dindarlar cəmiyyətin "ikinci dərəcəli adamları" statusunda idi. Azərbaycan da bu baxımdan seçilmirdi.

Ölkənin dini cameəsi çox məhdud idi. 1985-ci ildə Azərbaycanda qeydiyyatdan keçmiş cəmi 18 məscid və 53 dini icma fəaliyyət göstərirdi. 1982-ci ildə aparılmış rəsmi qeydiyyata əsasən, ölkədə cəmi 123 molla vardı. Onlardan yalnız 16 nəfərinin dini təhsili vari idi. Buxaradakı "Mir Ərəb" mədrəsəsinin və Daşkənd İslam Universitetinin məzunları olan bu ruhanilərin hamısı Qafqaz Müsəlmanlar İdarəsində və Bakı şəhərinin məscidlərində işləyirdilər.

Azərbaycan SSR-də dövlət aparatında rəhbər vəzifədə işləmiş hüquq elmləri doktoru Arif Quliyev yazır:

"İş zamanı əmin oldum ki, dini faktordan öz təxribatçı məqsədləri üçün istifadə etmək həmişə sovet sisteminin arsenalındakı vasitə olub. Mərkəzin siyasəti islam dininə etiqad edən əhalinin diskriminasiyasına istiqamətlənmişdi".

Ciddi sovet ideoloji tezisləri ilə böyümüş Azərbaycan vətəndaşları üçün din daha çox nənə-babalarının bağlı olduğu bir məsələ idi.

Bəs sovet rəhbərliyi qondarma "islam təhlükəsi" yarlığından nə üçün istifadə etməyə can atırdı?

1988-ci ildə erməni separatçılarının başladığı Qarabağ hərəkatı Azərbaycanda çox böyük etiraz doğurdu. Xalq xain qonşuların tarixi torpaqlarımıza həyasız iddialarına hiddətlə etirazını bildirdi. Lenin meydanından vüsət almış milyonluq etiraz mitinqləri bir ildən sonra Azərbaycanın müstəqillik uğrunda mübarizəsinin əsas bazasına çevrildi.

Ölkəmizdə milli ideologyanın sürətlə özünə dayaq tapdağını müşahidə edən Qorbaçov və SSRİ rəhbərliyi bu hərəkatın genişlənərək bütün ittifaq dövlətinin qəbirqazanına çevriləcəyindən qorxmağa başladılar. Dindarından tutmuş sekulyarına qədər vahid ideya ətrafında birləşmiş xalq öz mütəşəkkil birliyini ortaya qoymaqla Azərbaycanı digər ittifaq respublikaları üçün də azadlıq mayakına çevirirdi.

Moskvanın Qarabağ probleminin həllində tutduğu birtəfəli və ədalətsiz mövqe xalqın səbrini tükəndirirdi. Belə situasiya isə getdikcə ciddi böhranın əsasını qoymağa başladı. Bakıda DTK tərəfindən təşkil olunmuş erməni talanları, SSRİ-İran sərhəddinin sökülməsi, Naxçıvan və Qarabağda erməni silahlılarının dinc azərbaycanlılara hucumları, 200 min soydaşımızın ata-baba torpaqları olan İrəvandan qovulması siyasi böhranı kəskinləşdirən detenator rolunu oynayırdı.

Küçələrə çıxan yüz minlərlə insan bu vəziyyətə etiraz edir, Sovet rəhbərliyini ədaləti qərar qəbul etməyə çağırırdı.

Sovet rəhbərliyi bu andan etibarən dalğanın qarşısını almaq üçün hərəkətə keçdi. Kreml bunun üçün 1990-cı ilin yanvarında Bakıda yaranmış vəziyyətdən yararlanmaq qərarına gəldi. Moskva üçün əsas məsələ Azərbaycanda hakimiyyət böhranı yaradaraq prosesləri qanlı məcraya aparıb çıxarmaq, milli ideyanı dağıtmaq və digər respublikalara dərs vermək idi.

Bunun üçün nə qədər qəribə olsa da, islam faktorundan da istifadəyə cəhd etdilər.

Azərbaycanda "islam təhlükəsi" barədə iddialar elə xalq hərəkatının başlandığı vaxtdan etibarən səsləndirilirdi. Bu tipli ittihamlar hətta Mərkəzi Komitənin dəhlizlərində müzakirə olunurdu. Məsələn, Mixail Qorbaçovun köməkçisi olmuş Çernyayev özünün memuarlarında yazırdı ki, "Bakıda küçələrə yaşıl bayraqlarla və Xomeynin portretləri ilə çıxırlar".

Moskva beləcə Azərbaycandakı etirazlara dini rəng verməklə Qarabağ ermənilərinin "əlinə oynayır", eyni zamanda respublikamızı SSRİ-də başlanmış demokratik hərəkatdan təcrid etməyə çalışırdı.

Tanınmış siyasi araşdırmaçı Tomas de Vaal özünün "Qarabağ" kitabında qeyd edir ki, Azərbaycan Kommunist Partiyasının ikinci katibi, Əfqanıstandan Bakıya bu posta gətirilən Viktor Polyaniçko siyasi manipuliyasiyaya meyilli idi və islam faktorundan istifadədən çəkinmirdi. Bir dəfə Polyaniçko AXC İdarə Heyətinin iki üzvünü –Tofiq Qasımov və Zərdüşt Əlizadəni öz yanında görüşə dəvət edərək, qəribə təkliflə onları təəccübləndirmişdi. Polyaniçko israr edirdi ki, AXC-nin proqramına radikal islam təməlçiliyinin prinsipləri də salınsın. "Nyu York Tayms" qəzetinin müxbiri Bill Keller Tofiq Qasımovun bununla bağlı dediklərini yazmışdı: "Polyaniçkonun kabinetində Quran var idi. O kitabı vərəqlədi və dedi: "Quran yaxşı kitabdır". Daha sonra bildirdi: "Bakı üçün avropasayağı hərəkətlər yaxşıdır. Amma kəndlərdə müsəlman inancı çox güclüdür. Siz gərək islam faktorun nəzərə alasınız".

Kommunist məmurundan belə təklif qəribə və şübhəli idi.

"Şeyxülislam Primakovun üstünə hucum çəkdi..."

Baş verənlər 20 yanvar ərəfəsində Azərbaycanda ciddi hakimiyyət böhranı yaranmışdı. Azərbaycan Kommunist Partiyasının birinci katibi Əbdürrəhman Vəzirovun anlaşılmaz idarəçilik siyasəti respublikada siyasi vəziyyəti dalana dirəmişdi. Bakıda siyasi gərginlik getdikcə pik nöqtəsinə çatırdı. Yanvarın 10-dan sonra SSRİ rəhbərliyinin nümayəndələri və güc qurumlarının nazir müavinləri Bakıya gəlməyə başladılar. SSRİ Ali Soveti İttifaq sovetinin sədri Y.Primakov və Sov.İKP MK katibi A.Girenko, müdafiə naziri, marşal Yazov Mixail Qorbaçov tərəfindən Bakıya ezam edilmişdi.

Tanınmış jurnalist Nadejda İsmayılova həmin günlərdə siyasi rəhbərliyin çarəsizliyini öz yazılarında qeyd edib. N.İsmayılova yazır ki, 14 yanvarda Ə.Vəzirov Mərkəzi Komitənin iclasını çağırdı. Axşama yaxın ikinci iclas Moskvadan gəlmiş Primakovun iştirakı ilə keçirildi. Primakov kəskin suallardan qaçaraq çıxış edənlərin sözünü kobud formada kəsirdi. Ali Sovetin sədri Elmira Qafarova bildirirdi ki, vəziyyət çox kritikdir. Spiker deyirdi ki, Xalq Dağlıq Qarabağ probleminin həllini tələb edir. Bu problem həll edilsə, qarşılqıı anlaşma əldə olunacaq. Primakov isə cavabında "Dağlıq Qarabağdan danışmayın! Deyin görək Bakıdakı ekstremistlərlə nə edək?" soruşurdu. İclasda Büro üzvləri Primakova deyiblər ki, meydana çıxan xalqın yalnız bir tələbi var: Qarabağda vəziyyətin normallaşdırmaq. Primakov isə qəzəbli halda etiraz edib: "Onlar hakimiyyəti deviriblər. Nə üçün buna göz yumursunuz?".

Buradan aydın görünür ki, Moskvadan göndərilənlər yerli hakimyyətlə situasiyanı müzakirə etməyə, çıxış yolu tapmağa yox, öz qanlı niyyətlərini həyata keçirmək üçün gəliblər.

17 yanvar 1990 –cı ildə SSRİ Ali Soveti İttifaq sovetinin sədri Y.Primakov və Sov.İKP MK katibi A.Girenko partiya rəhbərləri, AXC nümayəndələri və ziyalılarla görüşürlər. Onlar görüşdə qoşunların şəhərə girməyəcəyi barədə vədlər verirdilər.

Mərkəz paralel şəkildə başqa vasitələrə də al atırdı. Sovet rəhbərliyi dünya birliyini çaşdırmaq üçün Azərbaycanda islamçı fundamentalistlərin hakimiyyəti ələ keçirməsi haqda məlumat yayırdı.

Yanvar ayından etibarən mərkəzi sovet mətbuatında azərbaycanlıların islam fundamentalizminə yuvarlandıqları barədə materiallar dərc olunmağa başladı.

Bu baxımdan Primakovun QMİ sədri Allahşükür Paşazadəyə respublikada hakmiyyəti ələ alması təklifi də bu təxribatların tərkib hissəsi idi:

"Primakov mənə belə bir təklif etdi ki, biz Qorbaçovla danışmışıq, məsləhət eləmişik, ançaq bir şərtlə biz bura girməyə bilərik. Əgər sən respublikaya rəhbərliyi öz üstünə götürsən, onda biz söz verirk ki, hər cəhətdən həm sizə dövlətinizi saxlamaq üçün köməklik edərik, həm də qoşunlar bura girməyəcək", – deyə Şeyxülislam illər sonra verdiyi müsahibəsində qeyd etmişdi.

Allahşükür Paşazadə Primakovun bu təkilfini sərt şəkildə rədd cavabı verib: "Mən sizin məqsədinizi anladım, ona görə qəti deməliyəm ki, təklif etdiyiniz vəzifəni tuta bilməyəcəyəm. Mənim 2 rükət namazım sizin təklif etdiyiniz hakimiyyətdən qat–qat üstündür! Mən Buxaradakı Mir-Ərəb mədrəsəsinə daxil olmuşam, Moskvadakı Ali Komsomol məktəbinə yox!".

Xalq şairi Bəxtiyar Vahabzadə 1997-ci ildə "Respublika" qəzetinə verdiyi müsahibədə həmin görüş barədə ətraflı danışıb:

"Bir qrup ziyalı - rəhmətlik İsmayıl Şıxlı, mən, Nurəddin Rzayev, Şeyxülislam Allahşükür Paşazadə və Həsən Həsənov yanvarın 17-də Əbdürrəhman Vəzirovun yanına getdik. Kabinetə girəndə Primakovla Girenkonu da orada gördük. Mən dərhal Primakovun üstünə hücum çəkdim ki, bizdən nə istəyirsiz, niyə əl çəkmirsiz? Sizə nə pisliyimiz keçib?

Bunu görən Vəzirov qalxıb məni qucaqlayıb sakitləşdirməyə çalışdı. Bu zaman Allahşükür Paşazadə məndən də kəskin şəkildə Primakova hücum çəkdi və sərt şəklidə "xalqıma qarşı təhlükə olan yerdə mən heç kəsi tanımıram. Düzünü de görüm, ordu şəhərə girəcək? Qırğın olacaq, ya yox?" dedi. Onlar bizi sakitləşdirməyə çalışdılar ki, qırğın olmayacaq. Amma Vəzirov bilirdi ki, şəhərə hücum olacaq. Bunu biz də hiss etdiyimiz üçün kabinetdən çıxanda Həsən Həsənov dedi ki, qırğın olacaq. Şeyx də o fikirdə olduğunu bildirdi".

Yanvarın 18-də Moskvadan gələn nümayəndələr başda olmaqla rəhbərlik Mərkəzi Komitənin qarşısında keçirilən mitinqə gəlib və Primakov mitinqçilər qarşısında çıxış edərək deyib ki, Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməyəcək və şəhər ətrafında toplanmış ordu Bakıya yeridilməyəcək. Eyni sözü həmin gün Sov.İKP MK milli münasibətlər şöbəsi müdirinin müavini V.Mixaylov respublika televiziyası ilə çıxışında təkrar edib.

Bu zaman artıq Zaqafqaziya, Moskva, Leninqrad və digər hərbi dairələrdən gətirilmiş 50 minlik ordu hissələri şəhəri işğal etmək üçün hərbi hazırlıq işlərini başa çatdırmışdı. Bütün qoşun növlərindən ibarət olan hərbi hissələr, DTK-nın 7-ci idarəsinin "Alfa" qrupu müxtəlif istiqamətlərdən Bakıya doğru hərəkət üçün start vəziyyətdə idi.

AXC İdarə Heyətinin üzvü Etibar Məmmədovun sözlərinə görə, 18 yanvar 1990-cı ildəki görüş zamanı onlara bildirilib: "Ordu ona görə lazımdır ki, biz Azərbaycanın SSRİ-dən ayrılmasının qarşısını alaq".

Kommunist Partiyasının Mərkəzi Komitəsinin partiya komissiyasının sədri Rauf Axundov həmin gecəni belə xatırlayırdı:

"19 yanvar 1990-cı il saat 23.30-da "Amerikanın səsi"dən eşitdim ki, bu gün Bakıya ordu yeridiləcək. Mən qaçaraq Mərkəzi Komitəyə gəldim. Artıq göyə siqnal fişəngləri atılırdı. Girişdə Mərkəzi Komitənin katibləri Həsən Həsənov və Telman Orucovla, şöbə müdirinin müavini Abdinovla və 1-ci katibin köməkçisi Sahib Quliyevlə üz-üzə gəldim. Onlar əvvəlcə mənə inanmadılar. Sonra hamımız işığı hələ də yanan Nazirlər Sovetinin sədri Mütəllibovun kabinetinə qalxdıq. Saat 23.45 idi. Mütəllbov da bizim dediklərimizə inanmadı. Bizim israrımızdan sonra o Primakova və Yazova zəng vurdu. Baş verənlərdən izahat istədi. Primakov televiziyada partlayış baş verdiyini bildridi. Bu zaman atışma başlandı. Biz başa düşdük ki, səylərimiz boşa çıxıb. Avtomobillə Lenin prospekitnə gəldik. Ağır texnikadan və avtomatlardan dayanmadan atəş səsləri gəlirdi".

Gecə 00.00-da sovet ordusunun seçmə hissələri ağır texnikadan və avtomat silahlardan istifadə edərək Bakı şəhərinə daxil oldu. Yüzlərlə dinc sakinin qətli ilə müşayiət olunan bu qanlı qırğın SSRİ tarixində misli görünməmiş divantutma əməliyyatına çevrildi.

"Mən qoşunların Bakıdan təxirə salınmadan çıxarılmasını tələb edirəm"

Qanlı qırğından sonra yaranmış hakimiyyətsizlik nəticəsində Təzəpir Məscidi, Qafqaz Müsəlmanları İdarəsi xalqın müraciət edə biləcəyi yeganə yerə çevrildi. Həmin günlər heç bir rəsmi idarə, heç bir qurum işləmirdi. 20 yanvar günü səhər Təzəpir məscidinə ilk şəhid cəsədi gətirilir. Sovet hərbi komandanlığının kütləvi dəfn mərasiminə yol verməmək, şəhidləri hərəsinin ayrı-ayrı qəbristanlıqda dəfn etmək cəhdi iflasa uğrayır. QMİ sədri Allahşükür Paşazadənin rəhbərliyi ilə 20 yanvar şəhidlərinin möhtəşəm dəfn mərasimi keçirilir.

Araşdırmaçıların fikirincə, yanvar hadisələri zamanı şəhidlərin dəfnin təşkili ilə QMİ sanki siyasi hakimiyyətlə kütlələr arasında əlaqəni yaradan əsas həlqəyə çevrilmişdi. Şeyxülislamın qanlı qırğınla bağlı Mixail Qorbaçovu ittiham edən bəyanatı onu ildırım sürəti ilə SSRİ-nin tanınmış ictimai xadiminə çevirdi. QMİ sədrinin SSRİ rəhbərini belə kəskin ittiham etməsi bütün dünyada böyük rezonans verdi. Bu, SSRİ tarixində din xadiminin sovet rəhbərini ittiham edən ilk belə bəyanat idi.

Allahşükür Paşazadə 30 yanvar 1990-cı ildə “Azərinform”a açıqlamasında Sovet dövləti tərəfindən Azərbaycan xalqına qarşı irəli sürülən, qoşunların yeridilməsi üçün guya səbəb olan üzdəniraq “islam amili”ni “fitnəkar ittiham” adlandırmışdı:

“Zaqafqaziya müsəlman ruhaniləri siyasi mübarizədə və millətlərarası münaqişələrdə dini ideyalardan istifadə olunmasını yolverilməz hesab edirlər. Regionda vəziyyətin hətta ən gərgin anlarında biz zəkaya, dincliyə, mehriban qonşuluğa çağırmışıq. Məhz buna görə də sabitliyi guya “islam amilinin” pozduğunu iddia etmək xüsusilə hiddət doğurur. Açıq-aşkar görünür ki, bunu iddia edənlər tamamilə məlum bir niyyət güfürlər - müsəlmanları xristianlara qarşı qoymaq. Belə bir vəziyyət millətlərarası münaqişəni daha da şiddətləndirər. Bütün Azərbaycan xalqının iradəsini ifadə edərək mən qoşunların Bakıdan təxirə salınmadan çıxarılmasını tələb edirəm. Heç bir xalqla, o cümlədən Azərbaycan xalqı ilə silahla danışmaq olmaz”.

QMİ sədri SSRİ müdafiə naziri marşal Yazov və SSRİ daxili işlər naziri Bakatinlə görüşü zamanı bu qırğına görə onları sərt şəkildə tənqid edir və onlardan Azərbaycan xalqı qarşısında üzr istəməyi tələb edirdi. Allahşükür Paşazadə müsahibəsində bununla bağlı deyib:

“O vaxt çoxlu materialları, mənim çıxışlarımı yoxa çıxartdılar. SSRİ-nin daxili işlər naziri Vadim Bakatinin mənə üzrxahlıq məktubu vardı, onu da apardılar. Mən onu çox pis şəkildə təhqir etmişdim. Yazovdan “sən mənim xalqımı, millətimi pis günə qoymusan, üzr istəməlisən" deyə tələb elədim. O, həmin an üzr istəməsə də, sonradan məktub vasitəsilə üzr istədi. Həmin o məktub, Heydər Əliyevin mənə ünvanladığı başsağlığı məktubu və bir çox başqa sənədlər oğurlandı. Xalqdan çox şey gizlədildi. Çünki çox faktların üstü açılmadı, çox sübutlar məhv edildi”.

Qorbaçova görə susan Qərb və qana bələnmiş Bakı

SSRİ rəhbəri Mixail Qorbaçovun Qərbdə populyar olması onun bu qanlı əməlinin dünya liderləri tərəfindən pislənməsinin qarşısını ala bildi.

Bakıdakı qanlı qırğınla bağlı Dövlət Departamentinin nümayəndəsi Marqaret Tatuayler ABŞ hökuməti adından bəyanat verdi ki, ABŞ Azərbaycanı dəstəkləmir və Bakıdakı yanvar hadisələrini şərh etməyi lazım bilmir.

Böyük Britaniya XİN-i bəyanat verərək, Azərbaycanda yaranmış vəziyyəti “SSRİ-nin daxili işi” kimi qiymətləndirirdi.

İtaliyanın xarici işlər naziri D. Mikels də bəyan etmişdi ki, Bakıda baş vermiş hadisələr SSRİ-nin daxili işidir. Onun dediyinə görə, SSRİ hökuməti öz milli mənafelərini qorumalı və Azərbaycan Xalq Cəbhəsinin radikal əhval-ruhiyyəli millətçilərinin qarşısını almalı idi.

Həmin günlər “Amerikanın səsi” radiosu məlumat yaymışdı ki, Bakıya qoşun yeridilməsi üçün Azərbaycanda islam fundamentalizminin baş qaldırması ilə qorxudulan ABŞ prezidenti Corc Buş iki gün ardıcıl olaraq Qorbaçovu müdafiə edib.

Həmin ağır günlərdə Şeyxülislamın səsinə ilk səs verən, ona dayaq duran Azərbaycanın Moskvadakı nümayəndiliyində hadisə ilə bağlı mətbuat konfransı keçirən görkəmli dövlət xadimi Heydər Əliyev oldu. Siyasi hakimiyyətin bütün maneələrinə baxmayaraq paytaxt Moskvada mətbuat konfransı keçirən Sovet İttifaqı Kommunist Partiyasının Siyasi Bürosunun sabiq üzvü, SSRİ Nazirlər Soveti sədrinin sabiq birinci müavini Heydər Əliyev bu qanlı qırğına görə Mixail Qorbaçovu ittiham etdi.

Sovet rəhbərliyinin islam təhlükəsi barədə şişirdilmiş yalanı yerimədi. Bütün dünya az sonra Azərbaycan xalqının azadlıq uğrunda mübarizəsinin yeni səhifəsinin şahidi oldu. “Qanlı Yanvar” hadisəsindən iki ay sonra Azərbaycanın SSRİ-dən ayrılması, dövlət müstəqilliyi uğrunda mübarizəsi başlandı. Bir il sonra - 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiasında “Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında” Konstitusiya Aktı yekdilliklə qəbul edildi.

**525-ci qəzet.** - 2019.- 18 yanvar. - № 11. - S. 4.

**1990-cı il 20 Yanvar - insanlıq tarixinə və milli yaddaşa yeni yanaşmanı zəruri edir**

**Sənan Həsənov**,
AMEA Fəlsəfə İnstitutunun "Heydər Əliyevin siyais irsi və azərbaycancılıq fəlsəfəsi" şöbəsinin aparıcı elmi işcisi, siyasi elmlər üzrə fəlsəfə doktoru

Müasir dünyada bəşəri dəyərlərin əxz edilməsi, bilavasitə milli yaddaşların və millətlərin tarixindən çıxarılan nəticələrin öyrənilməsini gündəmə gətirir. Əslində, insanlıq tarixi bəşər tarixinin elə özəyidir. Ona görə də, millətlərin, xalqların həyatında baş vermiş hadisələrə ayrı-seçkilik qoymadan ədalətli qiymətin verilməsi dünyanın gələcək taleyinə çox ciddi təsir edən amildir. Əlbəttə, fərqli yanaşmalar tarixən olub, indi də var, yenə də olacaq. Problem ondadır ki, bu gün dünyada baş verən elə hadisələrə birtərəfli yanaşmalar var ki, bu hadisələr bütün insanlıq tarixi üçün cinayətdir və onun dünyanı qlobal təhlükələrlə üz-üzə qoyduğu çox açıq-aydın görünür. Özü də qabaqcıl dünya ölkələrinin qismində belə laqeydlik, hansısa yanlış siyasətin qurbanına çevrilmiş yanaşmalar və s. bizi narahat edib düşündürməkdədir. Şübhə yox ki, hər bir xalqın özünəməxsus milli keyfiyyətləri onların özləri üçün bir örnək ola bilər. Bəs bu keyfiyyətlərdən bəşəriyyət nə əxz edir? Onların tərəqqiyə, yoxsa tənəzzülə daha çox təsiri vardır? Bu suallara cavabı, hesab edirəm ki, hər bir xalq öz tarixi yaddaşından qaynaqlanan düşüncələrində axtarmalıdır. Tarixə nəzər salarkən, görünür ki, bəzi xalqlar öz dövləti və dövlətçiliyi çərçivəsində bu axtarışı hansısa səviyyədə edib. Lakin bəşəriyyətdə sabitlik və inkişaf naminə tarixi yaddaşlara obyektiv yanaşmanın ifadəsi, təəssüf ki, çox azdır. Əgər hansısa bir dövlət hegemonluq edərək, öz siyasi məqsədlərini həyata keçirmək üçün bütün bəşəri dəyərləri tapdalayıb, milyonların qanına əlini batırırsa, daha sonra isə ona müxtəlif çalarlar verərək, özünə haqq qazandırmağa çalışırsa, onda dünyada mütərəqqi ideyalar ətrafında insanları birləşdirən dəyərlərin və hüquq mexanizmlərinin fəaliyyəti, təbii ki, şübhə altına düşür. Bu səpkili sualları və mühakimələri çox etmək mümkündür. Lakin deməliyəm ki, humanizmdən, haqq-ədalətdən danışarkən, azərbaycanlı milli yaddaşından və onun komponentlərindən sivil dünya qurulması yolunda çox şey əxz edilə bilər. Bunu açıq deməyə haqqımız var. Çünki tarixən siyasi maraqların kəsişdiyi və həmişə düşmənlərin açıq və gizli hərbi-siyasi planlarında ağır və məşəqqətli mübarizə meydanına çevrilmiş Azərbaycan hec vaxt sınmamış, mənəvi-hümanist dəyərlərini itirməmiş, bəşəriyyətin taleyinə xələl gətirən, insanlığa zərbə vuran əməllərin qarşısına müdrik fikirləri və ədalətli addımları ilə çıxmışdır. Tarixin belə mürəkkəb prosesləri bizim xalqımıza cox faciələr yaşatmış, milyonlarla günahsız soydaşımız zaman-zaman haqsızlığın qurbanına çevrilmişdir. Ən yeni tariximizin daha bir qanlı səhifəsi 1990-cı ilin 20 yanvar tarixində Sovet imperiyasının günahsız insanlarımızı görünməmiş təcavüzə məruz qoyması, insanlığa, bəşəriyyətə qarşı qanlı cinayət törətməsi ilə yazılmışdır. Bu insanların meydana neçə, kimin təhriki ilə gəlməsi ayrı məsələdir. Buna görə də imperiya, əgər günahı vardısa, 3-5 təşkilatçını cəzalandıra bilərdi. Lakin əsas tələb bu idi ki, əsrlərlə haqqı tapdanan, təcavüzə, torpaq itkisinə məruz qalan Azərbaycan xalqı öz tarixi əraziləri hüdudlarında müstəqilliyini bərpa etmək istəyirdi. Bu, həmin vaxt idi ki, digər xalqlar da imperiyanın əsarətindən azad olmaq ücün mübarizəyə qalxmışdılar. XX əsrin 90-cı illərində Dağlıq Qarabağda milli zəmində ziddiyyətlərin dərinləşməsi və onun ağır nəticələri, tarixi torpaqlarımızdan növbəti dəfə yüz minlərlə soydaşımızın köçürülməsi imperiyanın apardığı şövinizm siyasətini pik həddə çatdırmışdı. Belə bir zamanda xalqın haqlı tələbi, heç kimin haqqına girmədən öz müqəddəratını özünün təyin etmə istəyi ortaya qoyulmuşdu. Bunu istəməyən imperiya günahsız insanlarımızı səhv siyasi ideologiyanın qurbanı edərək, genosid siyasətini həyata kecirməkdən çəkinməmişdir. Halbuki Sovet imperiyası öz səhvləri üzündən daxili və xarici amillərin təsirindən çökmüşdür. Bu süqutun labüdlüyü və qarşısıalınmazlığı mərkəzi hakimiyyətə də çox yaxşı məlum idi. Bəs onda çürümüş Sovet rejimi nədən narahat idi və bu qırğınları törətməkdə məqsəd nə idi? Yaxud ona ehtiyac var idimi? Bu qanlı cinayətləri törətməkdə məqsəd, şübhəsiz ki, imperiyanı qoruyub-saxlamaq cəhdi deyildi. Çürümüş və çirkabla pərdələnmiş imperiyanın xalqlara olan münasibətinin iç üzü idi ki, bu obrazı göstərməklə özünü sübut etdi. Lakin bu qırğının imperiya tərəfindən törədilməsi, bütün dünyaya göstərdi ki, Azərbaycan xalqının müstəqillik əzmini qırmaq mümkün deyil. Bu tarixi cinayətə genosid deməyə əsalarımız coxdur. Onların ən dəhşətlisindən biri budur ki, azğınlaşmış silahlı imperiya qüvvələrinə rəhbərlik edənlər insanlarımızı vəhşıcəsinə öldürdükləri bir tərəfə, onların cəsədlərinin kütləvi şəkildə dənizə tökülməsi haqqında əmr vermişlər. Bu da həmin hadisənin izinin itirilməsini qarşıya qoymuş əsas məqsəd idi. Bu zaman xalqımızın möhkəm iradəsini sındıra bilməyən imperiya qüvvələri insanlarımız tərəfindən dəniz kənarında cəkilmiş sipərlə qarşılaşmışdılar. Bu sipəri yara bilmədilər.

Bura da əliyalın xalqın iradəsi öz sözünü dedi və silahlı imperiyaya qalib gəldi. Məkrli qüvvələr bu hadisələrin tərkib hissəsi olaraq Dağlıq Qarabağ münaqişəsinin qızışdırılmasını, ölkəni daxildən parcalamaq üçün tarixi planın həyata kecirilməsini əsas məqsəd kimi qarşıya qoymuşdur. Bunun üçün milli zəmində qırğınlar törətmək, dünyada məzlum erməni obrazı yaratmaqla Sumqayıt, Bakı, Əsgəran və s. yerlərdə erməni və Azərbaycan xalqını bir-birinə qarşı qoymaqla bərabər, daxili sabitliyin pozulması dövlət çevrilişlərinə edilən cəhdlər ön plana cıxmışdır. Tarix sübut etdi ki, bu işə maraqlı qüvvələr yenə də zəif ermənicilk sindromundan məharətlə istifadə etdilər. Çünki Qafqazda bu sindrom tarixən Azərbaycan xalqına qarşı əldə vasitə kimi istifadə olunmuşdur. Çox təəssüf ki, hakimiyyətdə olan o zamankı rəhbərlər, belə siyasi gedişləri düzgün dərk etmədilər ki, düşmən qüvvələr Azərbaycanı parçalayaraq, bir dövlət kimi məhv etməyi qarşısına məqsəd olaraq qoyub. Az bir vaxtda həmin plan açıqca özünü göstərməyə başladı. İmperiyanın və bir sıra xarici kəşfiyyatın təsiri ilə ölkəmiz addım-addım tarix səhnəsindən silinmək təhlükəsi ilə üz-üzə qaldı. Deyərdim ki, bu yaxın tariximizin acı və bizə açıqca göstərdiyi həqiqətlərdir. Bu zaman Ulu Tanrı Dahi Öndər Heydər Əliyev dühasını xalqımızın köməyinə gətirdi. Tamamilə öz məcrasından çıxmış, hümanizmi tapdamış, insani və bəşəri dəyərləri məhv etmiş avantürist bir siyasətin caynağından Azərbaycanın qurtulmasının ağır yükü, məhz bu dahi şəxsiyyətin üzərinə düşdü. Bu gün, bir çox region dövlətləri bilməlidirlər ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanla yanaşı, bu çirkin siyasətin girdabında boğularaq, onun təsiri altına düşmüş böyük bir regionun taleyinin xilaskarlıq missiyasını həyata keçirdi. Öz siyasi iradəsi ilə dünyaya bir həmrəylik, regiona sabitlik, inkişaf və tərəqqi çağırışları etməklə bunu yenilməz siyasi iradəsi, özünün dünyadakı şəxsi nüfuzu sayəsində praktiki baxımdan tətbiq etdi. Bəşəriyyətin və insanlığın tarixində xüsusi bir mərhələyə yol açdı. Əslində, biz obyektiv tarixi yaddaşı belə hadisələrə məntiqi düşüncələrlə, obyektiv müqayisəli təhlillərlə yaratmalıyıq.

Dünya tarixindəki belə hadisələrə əsaslanaraq, deməliyik ki, indi tarixi yaddaşlara qayıdış və ondan nəticələrin cıxarılmasına çox böyük zərurət vardır. Fransız tarixçisi Pier Nora yazır ki, "tarix yaddaşlarda transformasiyaya uğrayır. Eynu zamanda, insanlar indi tarixi yaddaşdan, ona görə danışmalıdırlar ki, o, getdikcə azalıb". Deməli, millətin öz yaddaşını necə dəyərləndirməsindən, baş verənləri öz yaddaşında necə yerləşdirə bilməsindən, habelə, onun müsbət tərəflərini necə təqdim edə bilməsindən, hətta dünyanın gələcəyi çox asılıdır. Əslində, belə münasibət, deyərdim ki, xalqların bəşəriyyət qarşısında hesabatı, insanlığa olan obyektiv münasibətidir. 1990-cı il 20 Yanvar faciəsi ilə əlaqədar Ulu Öndər Heydər Əliyev hələ Moskvada olarkən, imperiyanın mərkəzində verdiyi bəyanatla bəşəriyyətə və insanlığa qarşı yönəlmiş bu cinayətin əsl mahiyyətini çox böyük cəsarətlə onların öz gözlərinin içərisinə deməklə, bu əsasda bir tarixi yaddaş yaratmış oldu. Həmin bəyanat imperiyaya sübut etdi ki, Azərbaycan xalqı kimsəsiz və müti xalq deyil və dünya tarixinə, eləcə də, Sovet imperiyasının hökm sürdüyü vaxtda bütün sahələrə əvəzsiz töhfələr vermiş böyük bir xalqa qarşı edilən genosid siyasətinin səbəbləri bir zaman soruşulacaqdır. Odur ki, bizim üçün 20 Yanvar faciəsinin əsl mahiyyətini dərk etmək, yaddaşlarımızda onun yerini düzgün müəyyənləşdirmək, hər zaman xüsusi əhəmiyyətə malik bir məsələdir. Ona görə də, millətin tarixi yaddaşında belə hadisələrin düzgün yerləşdirilməsi üçün, müntəzəm olaraq, alimlərin əməyinə və rəsmi qərarların verilməsinə böyük ehtiyac vardır. Əgər haqsızlığa qarşı millətimiz silahlı qüvvələrlə əliyalın mübarizə aparmış, ölüm-dirim mübarizəsinə girmişlərsə, bu, tarixi yaddaşımızın yeni qəhrəmanlıq səhifəsi deyilmi?! Bəli, bu mübarizə insanlığa edilən cinayətə qarşı çıxmaq və öz-özlüyündə dünyanı haqqa-ədalətə iti gözlə baxmağa bir cağırış idi. Təkcə öz azadlığı uğrunda mübarizə deyil, bütövlükdə, insanlığın azadlığı naminə edilən ideoloji mübarizə idi.

Həmin tarixi şəraitdə Qafqazdakı siyasi proseslərin Ulu Öndər Heydər Əliyev kimi müdrik siyasi xadimin nəzarəti altında keçməsi regionda öz siyasi məqsədlərini həyata keçirməkdə maraqlı olan bir sıra ölkələri narahat etməyə başladı. Onun, qısa zamanda, həyata keçirdiyi sülh siyasəti, humanizm, ədalətlilik prinsipinə əsaslanan dövlətçilik konsepsiyası həmin dövlətlərin məkrli planlarının qarşısına sədd çəkdi. Əks-tərəflər isə Qafqazda yaradılacaq sülhə və sabitliyə maneə olmaq üçün yeni siyasi gedişlər etməyə başladılar.

Bu gedişlərdən biri də bir sıra dövlətlərin Dağlıq Qarabağın Azərbaycanın əzəli torpağı olmadığını qabartmağa calışması idi. Daha sonra mübahisəli ərazi tendensiyası hökm sürməyə başladı, bir qədər sonra ümumdövlət prinsiplərinin olması zərurətini ortaya qoymaq cəhdləri edildi. Belə cətin tarixi şəraitdə dünyadakı erməni lobbisinin və onların himayədarlarının Azərbaycana qarşı siyasi -ideoloji hücumlarına Ulu Öndər Heydər Əliyev böyük zəkası ilə cavab verdi. Dahi siyasi xadim, ilk olaraq, bir tərəfdən, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyəti və tarixi kökləri ilə dünyanı yaxından tanış etdi. Həmin vaxta qədər Azərbaycan haqqında formalaşmış bütün neqativ fikirləri puça çıxardı. Digər tərəfdən isə, xalqın mütəşəkkiliyini təmin edən vahid həmrəylik və güclü dövlətin qurulması yolunda xalq-lider bağlılığını formalaşdırdı. Bu atılan ilk addımlar Azərbaycanın dövlətçilik tarixində zəngin tarixi yaddaşının özünə qaytarması və onun əsasında yenidən bəşəriyyətdə hümanist, demokratik dövlətin qurulmasının möhkəm bünövrəsini qoymuş oldu. Dövlətçilikdə

tarixi yaddaşın kök salması üçün keçmişimizi, ənənənələrimizi və milli dəyərlərimizi özündə əks etdirən azərbaycancılıq ideologiyasının zamanında dərk olunmasını ölkəyə rəhbərliyinin ilk vaxtlarında mühüm ideoloji vəzifə kimi qarşıya qoydu. Hələ 1990-cı il noyabrın 21-də böyük siyasi xadim Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsi ilə bağlı tarixi qərar qəbul etmişdi. Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıdışından sonra, ilk olaraq, Şəhidlər Xiyabanını ziyarət edərək, tapşırıq verdi ki, qısa müddətdə bütün şəhid məzarlarının üstü götürülsün və burada memorial kompleks ucaldılsın. Bunun üçün dövlət səviyyəsində lazımi vəsait ayrıldı və bu iş qısa zamanda başa çatdırıldı. Məhz Ulu Öndərin Sərəncamı ilə 20 Yanvar ümumxalq hüzn günü elan olundu... Az sonra 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olundu..."20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 1994-cü il tarixli Fərmanında deyilirdi: "Xalqımızın tarixinə qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermişdir. Tarixin yaddaşına qanla yazılmış həmin gündən bizi 4 illik zaman məsafəsi ayırır. Təəssüf ki, 4 il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilməmişdir".

Fərmanda Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymətin verilməsi, bu məqsədlə parlamentin xüsusi sessiyasının keçirilməsi məsələsinə baxılması tövsiyə edilirdi. Milli Məclisdə müzakirələrin yekunu olaraq, 1994-cü il martın 29-da qəbul edilən qərarda, nəhayət ki, 1990-cı ilin qanlı hadisəsi-20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. Milli Məclisdə müzakirələrin yekunu olaraq 1994-cü il martın 29-da "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul edildi.

Bundan sonra Azərbaycan Prezidentinin 17 yanvar 2000-ci il tarixli Fərmanı ilə 20 Yanvar təcavüzü zamanı yüksək vətəndaşlıq nümunəsi göstərərək, həlak olmuş Azərbaycan Respublikası vətəndaşlarına "20 Yanvar şəhidi" Fəxri adı verildi, "1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə dövlət qayğısının artırılması haqqında" 2003-cü il 15 yanvar tarixli Sərəncamla əlil olmuş şəxslərə imtiyazlar müəyyənləşmiş, bu istiqamətdə davamlı olaraq qərarlar qəbul edilmişdir. 2006-cı il yanvarın 19-da ölkə başçısının Fərmanı ilə 20 Yanvar şəhidlərinin ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edildi, həmin ailələrin maddi təminatının yaxşılaşdırılması üçün ardıcıl islahatlar həyata kecirirlmiş və keçirilməkdədir. Prezident İlham Əliyevin tapşırığı ilə 2009-cu ilin oktyabrında Bakının Yasamal rayonundakı "20 Yanvar" dairəsində Memorial Abidə Kompleksinin inşasına başlanıldı. 2010-cu il yanvarın 20-də isə kompleksin açılışı oldu. Bununla yanaşı, Azərbaycanın I Vitse-Prezidenti Mehriban xanım Əliyeva tərəfindən müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinə də böyük qayğı ilə yanaşılaraq, 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, faciə qurbanlarının ailələrinin problemlərinin həlli, sağlamlığının bərpası istiqamətində, müntəzəm olaraq, mühüm işlər görülməkdədir. Bütün bu işlərin görülməsi, deməyə əsas verir ki, tarixi yaddaşımızın düzgün dərk edilməsi və ondan doğu nəticənin cıxarılması vətəndaş olaraq bizim hər birimizi daim düşündürməlidir.

Burada təəssüflə onu qeyd etməliyik ki, obyektiv həqiqətlərin dünyaya catdırılmasına baxmayaraq, işğaldan əziyyət cəkən Azərbaycan Respublikası 30 ilə yaxındır ki, beynəlxalq normaların və prinsiplərin fəaliyyətsizliyi ucbatından, hələ də dünyada haqq-ədalət uğrunda mübarizədə böyük maneələrlə qarşılaşmaqdadır. Bu gün dünyadakı özbaşnalıqların əsas səbəbi də, məhz bu prinsiplərin işləməməsidir. Ulu Öndər Heydər Əliyev və Onun siyasi varisi Prezident İlham Əliyev haqlı olaraq dünyanın mötəbər tribunalarından bu fəaliyyətsizliyin bəşəriyyət ücün acı nəticələrini dəfələrlə bəyan etmişlər. Beynəlxalq hüquq normalarının işləməməsi analoji olaraq, yüksək insani keyfiyyətləri özündə birləşdirən mənəvi-humanist ideyalara müraciətin olmasını zəruri etmişdir. Prezident İlham Əliyev dünyada bu sahədə prinsipal mövqeyə malik bir siyasi lider kimi sülhə və sabitliyə dair irəli sürülmüş Azərbaycan modelinin örnək olmasını göstərmişdir. Millətlərin hüquqlarına hörmət etmək kimi ideyada toleriantlığın və mültikultural dəyərlərin rolunu önə cəkmişdir. Lakin bu da faktdır ki, toleriantlıqdan danışarkən, bütün dünya bilməlidir ki, bu məcburi dözümlülük deyil, buna mənəvi hazırlıq olmalıdır. Hesab edirəm ki, mənəvi cəhətdən sağlam, işğalcılıq niyyəti olmayan, hümanizmi dərindən dərk edən xalqlar bu prinsipə daha yaxındırlar. Bu, elə bir tarixi təkamül prosesidir ki, o, mənfi sterotiplərin düşüncələrdə və təfəkkürlərdə qarşısının alınmasını formalaşdırmalı, onun praktiki baxımdan tətbiq edilməsinə mənəvi dayanıqlıq yaratmalıdır. Çünki dünyadakı haqsızlığın və ədalətsizliyin zamanında qarşısının alınmaması, insanların taleyinə biganəlik, beynəlxalq hüquq mexanizmlərinin işləməməsi toleriantlıgın və multikultural dəyərlərin düzgün dərk edilməsini zəruri etmişdir. Tarixi təcrübə göstərir ki, indiyədək silah və hərb gücünə baş qaldırmış münaqişələrin acı nəticələrinin hələ də yaşanılması növbəti qarşısıalınmaz faciələrə yol acmaqdadır. Buna görə də, beynəlxalq qanunların və hüquq

mexanizmlərinin işləmədiyi məqamda mənəvi dəyərlər öz sözünü deməlidir ki, dünya insan taleyinə biganə qalmasın, bəşəriyyət ucuruma getməsin. Beləliklə də, Prezident İlham Əliyevin müasir dünyaya etdiyi cağırışlar xalqımızın milli iradəsinin ifadəsi olaraq həm bu amillərin düzgün dərk edilməsini, həm də bəşəriyyətdə sağlam, sabit gələcəyin bərqərar olması üçün tarixi yaddaşlarda işğalcılığa və ədalətsizliyə son qoyulmasını tələb edən yanaşmanı zəruri edir.

**Səs.** - 2019.- 18 yanvar. - № 11. - S. 8-9.

# 20 Yanvar Azərbaycan xalqının azadlıq uğrunda mübarizə tarixinin qürur doğuran şanlı səhifəsidir

***Prezident İlham Əliyev: 20 Yanvarda sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirdi***

**Mübariz Abdullayev**

Xalqların, ölkələrin tarixində zaman-zaman elə hadisələr baş verir ki, heç vaxt yaddan çıxmır, insanların qan yaddaşına çevrilir, cəmiyyətin sosial mənşəyindən asılı olmayaraq bütün təbəqələrini birləşdirir. Azərbaycan xalqı üçün belə hadisələrdən biri 1990-cı ildə baş verən 20 Yanvar faciəsidir. İndi bəhs olunan faciənin baş verdiyi tarixdən düz 29 il ötür. Lakin illər ötsə də, həmin tarix bizə qətiyyən üzaq görünmür, əksinə, xalqımız şəhidlərin xatirəsini həmişə böyük minnətdarlıq hissi ilə yad edir, eyni zamanda, faciənin baiskarlarını nifrətlə xatırlayır.

Həmin şaxtalı gecədə dəhşətli anlar yaşandı Bakının şimal girişində, digər küçə və meydanlarında - insanlara iriçaplı silahlardan aramsız atəş açıldı, tırtıllı hərbi texnika onların üstünə yeridildi, uşaqlar, qadınlar, yaşlılar aman verilmədən qətlə yetirildilər. Tarix dövlətin - keçmiş ittifaqın rəhbərlərinin öz vətəndaşlarına, dinc, əliyalın sakinlərinə qarşı belə amansız davranışına, qəddarlığına şahidlik etməmişdi. Həmin gün keçmiş SSRİ rəhbərliyi dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını cinayətkarcasına pozmuşdu.

1990-cı il yanvarın 20-də Azərbaycan xalqı azadlıq və Vətən sevgisini nümayiş etdirdi

Azərbaycan xalqı azadlıqsevər və öz Vətəninə çox möhkəm tellərlə bağlı olan bir xalqdır. Tarixin müxtəlif dönəmlərində xalqımız yadellilərə, yeraltı və yerüstü sərvətlərlə zəngin olam məmləkətimizə göz dikən imperiya qüvvələrinə qarşı şərəflə mübarizə apararaq özünün qüdrətli dövlətlərini qurmağa nail olmuşdur.

1990-cı il yanvarın 20-də Azərbaycan xalqı öz tarixinin daha bir qəhrəmanlıq səhifəsini yazdı. Bakıda baş verən faciə Azərbaycanın oğul və qızlarının öz vətənlərini necə böyük məhəbbətlə sevdiklərini, azadlığı öz həyatlarından belə yüksəkdə tutduqlarını bütün dünyaya nümayiş etdirdi. Faciənin baş verdiyi ərəfədə keçmiş ittifaq rəhbərliyinin Azərbaycana qarşı ədalətsizliyi və ayrı-seçkiliyi yüksək həddə çatmışdı. Keçmiş ittifaq büdcəsinə bütün müttəfiq respublikalardan daha çox gəlir verən respublikamıza adekvat münasibət bəslənilmirdi. Əksinə, Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağda ermənilərin törətdikləri separatçılıq hərəkətləri ittifaq rəhbərliyi tərəfindən açıq və yaxud gizli şəkildə dəstəklənirdi. Ayrı-ayrı müttəfiq respublikalarda baş qaldıran separatçılıq hərəkətlərini, necə deyərlər, beşikdəcə boğan ittifaq rəhbərliyi başda Sovet İttifaqı Kommunist Partiyasının birinci katibi - SSRİ-nin rəhbəri M.Qorbaçov olmaqla ermənilərin Dağlıq Qarabağda törətdikləri əməlləri görməzdən gəlirdilər və beləliklə də, Azərbaycanın suveren hüquqlarına hörmətsizlik nümayiş etdirirdilər. Dağlıq Qarabağda separatçıların cilovlanmaması ittifaq rəhbərliyinin respublikamızın suveren hüquqlarına sayğısızlığının açıq-aşkar ifadəsi idi.

Azərbaycan xalqı, təbii ki, belə vəziyyətlə barışa bilməzdi. Xalqımız torpaqlarımızın ayrılmaz hissəsi olan, zəngin mədəniyyətimizin çox mühüm bir hissəsinin yarandığı Dağlıq Qarabağda Azərbaycanın suveren hüquqlarının bərpasını, separatçıların cəzalandırılmasını istəyirdi və keçmiş ittifaq rəhbərliyinin apardığı yanlış siyasətə etiraz əlaməti olaraq küçələrə çıxmışdı. O dövrdə respublikamızın ərazi bütövlüyünün pozulmasına qarşı çıxan insanlar Bakı küçələrində öz etirazlarını dinc şəkildə bildirirdilər, onların əlində silah-sursat yox idi. Lakin ittifaq rəhbərliyi doğma vətənlərinə sədaqətlərini ifadə edən dinc insanların üstünə birləşmiş silahlı qüvvələrin sayı-hesabı bilinməyən zirehli texnikası ilə gəldi. 1990-cı ilin 20 yanvar gecəsində SSRİ Müdafiə və Daxili İşlər nazirliklərinin, Dövlət Təhlükəsizlik Komitəsinin birgə həyata keçirdiyi əməliyyat nəticəsində təkcə paytaxtda 134 mülki şəxs amansızcasına öldürüldü, 600-dən çox adam yaralandı. Əslində isə qırğınların miqyası bölgələri də əhatə edirdi. Bütövlükdə, 20 Yanvar hadisələri zamanı respublika üzrə 147 nəfər qətlə yetirildi, 744 nəfər yaralandı, 841 nəfər isə həbs olundu. İnsanların gözünü qorxutmaq, onların azadlıq uğrunda mücadiləsini qan gölündə boğmaq istəyən imperiyanın silahlı qüvvələri Bakıda törədilən qırğınları yalnız 20 yanvar gecəsi ilə məhdudlaşdırmadılar, sonrakı günlərdə də paytaxtımızın küçələrində, respublikanın bölgələrində oxşar ssenarilər davam etdirilirdi. İmperiya qüvvələrinin azğınlığı o həddə çatmışdı ki, onlar hətta mənzillərə də çəkinmədən atəş açır, həkimlərin öz peşə borclarını yerinə yetirmələrinə mane olurdular.

Faktlar imperiya qüvvələrinin yanvarın 20-də törətdikləri qırğınların geniş miqyasını və xüsusi qəddarlıqla həyata keçirildiyini təsdiqləyir. Bununla belə, böyük itkilər, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, azadlığına, müstəqilliyinə can atan xalqımızın həm də mübarizliyini, əyilməzliyini və məğrurluğunu nümayiş etdirdi. Baş verənlər Azərbaycanın mərd oğul və qızlarının iradəsini, azadlılq sevgisini, Vətənə olan bağlılığını qətiyyən qıra bilmədi. Törədilən faciə insanları daha da birləşdirdi və Azərbaycanın bütün bölgələrini azadlıq uğrunda mübarizə dalğası bürüdü. 20 Yanvarın tariximizdə önəmli yer tutduğunu bildirən Prezident İlham Əliyev vurğulayıb: “20 Yanvar günü bizim böyük faciəmizdir, ancaq eyni zamanda, Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsidir. Azərbaycan xalqı öz iradəsini göstərdi... 20 Yanvarda sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirdi. Azərbaycanda haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş vətən övladları Qanlı Yanvarda xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar”.

Azərbaycanın ovaxtkı rəhbərliyinin qətiyyətsizliyi və AXC-“Müsavat” cütlüyünün sayğısızlığı xalqa xəyanət nümunəsi idi

Qeyd olunduğu kimi, 1990-cı il yanvarın 20-də Bakıda xüsusi qəddarlıqla törədilən vəhşiliklər keçmiş ittifaq rəhbərliyinin əvvəlcədən hazırladığı ssenari əsasında həyata keçirilmişdi. Ancaq hadisələrin təhlili də göstərir ki, Azərbaycanın ovaxtkı rəhbərliyi xalqın yanında olsa idi və milli maraqlardan çıxış etsə idi, faciənin qarşısını almaq və yaxud onun miqyasını azaltmaq mümkün olardı. Respublikanın ovaxtkı rəhbərliyinin “mövqeyi” hətta faciə baş verdikdən sonra da dəyişməz qaldı. O dövrdə oturduqları kürsüdən bərk-bərk yapışan rəhbərlər hər vəchlə baş verənləri ört-basdır etməyə, faciənin mahiyyətini gizlətməyə çalışırdılar. Onlar açıq-aşkar təslimçilik siyasəti həyata keçirməyə çalışırdılar. Bunu təsdiqləyən çoxsaylı faktlar sadalamaq mümkündür. 1990-cı il 22 yanvar tarixində xalqın tələbi və bir qrup deputatın təşəbbüsü ilə Azərbaycan SSR Ali Sovetinin sessiyası çağırıldı. İclasa respublikanın ovaxtkı rəhbərləri də dəvət olunmuşdular. Lakin respublikanın rəhbərliyində təmsil olunanların böyük əksəriyyəti müxtəlif bəhanələrlə Ali Sovetin iclasına qatılmadılar. Bu, bir tərəfdən, respublikanın ovaxtkı rəhbərliyində təmsil olunanların qətiyyətsizliyini ortaya qoyurdusa, digər tərəfdən də, onların mərkəzdən gələn ssenaridə rol aldığını təsdiqləyirdi. Bu da acı həqiqətdir ki, respublikanın rəhbərliyində təmsil olunanların böyük əksəriyyəti 20 Yanvar şəhidlərinin dəfn mərasiminə belə təşrif gətirməmişdilər. Başqa faktlar da acı həqiqəti ortaya qoyur. O dövrdə 20 Yanvar faciəsi ilə bağlı olan və geniş xalq kütlələri tərəfindən yığılıb Dövlət İstintaq Komissiyasına təhvil verilmiş konkret dəlil və sübutlar qəsdən respublikadan çıxarılmışdı. Eyni zamanda, Azərbaycanın prokurorluq və hüquq-mühafizə orqanları müvafiq istintaq tədbirləri həyata keçirməmiş, hətta əksinə, 20 Yanvar faciəsi ilə bağlı bir sıra məxfi sənədlər, o cümlədən mühüm arxiv sənədləri bütövlükdə və ya qismən məhv edilmişdi. Qeyd edək ki, 1990-cı il yanvar ayının 22-də çağırılan Azərbaycan Ali Sovetinin fövqəladə sessiyası da öz işini yarımçıq qoydu və sonrakı sessiyalarda bu məsələnin müzakirəsi davam etdirilmədi. Ali Sovetin yanvar hadisələrini tədqiq etməli olan komissiyasının da işi başa çatdırılmamış qaldı. Bu kimi faktları təəssüf hissi ilə xatırladan Prezident İlham Əliyev “O günlər mənim yaxşı xatirimdədir. Azərbaycan xalqına qarşı böyük cinayət törədilmişdi, günahsız insanlar qətlə yetirilmişdi. Sovet ordusu Bakıya müdaxilə edərək kütləvi qırğın törətmişdi. Yüzlərlə insan həlak olmuş, yaralanmış, itkin düşmüşdü. Bu, böyük cinayət idi. Ancaq əfsuslar olsun ki, Azərbaycanın ovaxtkı rəhbərliyi bu barədə öz etiraz səsini qaldırmamışdı”, - deyə vurğulayıb.

Özlərini “milli qüvvələr” adlandıran, əslində isə canfəşanlıqları şəxsi və korporativ maraqlardan uzağa getməyən AXC-”Müsavat” cütlüyünün sərgilədiyi mövqe də çox doğru olaraq xalqa xəyanət nümunəsi kimi dəyərləndirilir. Məlumdur ki, AXC-“Müsavat” cütlüyündə təmsil olunanlar məhz xalqın azadlıq arzularından sui-istifadə etməklə 1992-ci ildə respublikada hakimiyyəti zorla ələ keçirdilər. Lakin elə ilk vaxtlardanca bəlli oldu ki, bu cütlüyün ölkəni idarə etməyə səriştəsi və potensialı yoxdur. AXC-“Müsavat” iqtidarının diletantlığı, səriştəsizliyi Azərbaycanı “ölüm, ya qalım” dilemması ilə üz-üzə qoymuşdu. Ölkə, sözün əsl mənasında, xaos, anarxiya girdabına yuvarlanmışdı.

AXC-“Müsavat” iqtidarının təmsilçilərinin diletantlığı, ölkənin taleyüklü məsələlərinə səriştəsiz yanaşma ortaya qoymaları, qısa müddətdə talançılığa başlamaları başqa bir söhbətin mövzusudur. Tezliklə bəlli oldu ki, AXC-“Müsavat” iqtidarı bütün ümummilli məsələlərdə də xalqla məsafə saxlamaq və dönüklük yolu tutub. Hakimiyyəti qamarlayanadək xalqı milli ideyalarla küçələrə, meydanlara səsləyən qüvvələr indi tamam başqa ampluada görünürdülər. Bir vaxtlar 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verilməsi üçün, necə deyərlər, yaxa cıran “milli qüvvələr” hakimiyyət kreslosunda əyləşəndən sonra digər vədləri kimi, bu məsələni də yaddan çıxartdılar.

Beləliklə, AXC-“Müsavat” iqtidarı dövründə də 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verilmədi. AXC-“Müsavat” iqtidarında təmsil olunanların başı nüfuz savaşına və şəxsi işlərə o qədər qarışmışdı ki, indi onları 20 Yanvar faciəsi və digər milli məsələlər maraqlandırmırdı. Əslində isə həm respublikanın ovaxtkı rəhbərliyi, həm də 1992-ci ildə hakimiyyəti qamarlayan AXC-“Müsavat” iqtidarı öz xalqının başına gələn faciəyə biganə qalmamalı, keçmiş ittifaq rəhbərliyinin əməllərinə siyasi və hüquqi qiymət verməli idilər. Onlar isə fərqli yol tutdular. Mahiyyət etibarı ilə bu iki qüvvəni bir-birindən ayırmaq da mümkün deyil. Yəni, Azərbaycanın ovaxtkı rəhbərliyinin qətiyyətsizliyi və AXC-“Müsavat” cütlüyünün sayğısızlığı xalqa xəyanətin bariz nümunəsi idi.

Ulu öndər Heydər Əliyev xalqının səsinə səs verərək faciə barədə həqiqətləri bütün dünyaya çatdırdı

Bu məqamda qeyd edək ki, Azərbaycan xalqının dahi oğlu, Ümummilli lider Heydər Əliyevin həyatı cəsarət nümunələri - ən kritik məqamlarda belə gözləmə mövqeyi tutmadan xalq, Vətən üçün zəruri olan addımı atması, taleyüklü qərarlar qəbul etməsi kimi faktlarla zəngindir. Ulu öndərin 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda törədilən faciədən dərhal sonra atdığı addımlar da bu qəbildəndir. Hadisələrin birbaşa günahkarı olan keçmiş ittifaqın rəhbərliyi Bakıda törədilən qırğın barədə xəbərlərin imperiyanın özündə və sərhədlərindən kənara yayılmasını qətiyyən istəmirdi və bu məqsədlə repressiv tədbirlərə əl atılırdı. Belə vəziyyətdə - imperiyanın qılıncının hələ iti kəsdiyi bir vaxtda Ulu öndər Heydər Əliyev yanvarın 21-də heç nədən çəkinməyərək, Özünün və ailə üzvlərinin həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəldi, Bakıda törədilən qırğını qətiyyətlə pislədi. Ulu öndər bu cəsarətli addımı ilə bir tərəfdən imperiya qüvvələrinə meydan oxudu, digər tərəfdən isə Azərbaycan ətrafında informasiya blokadasını yardı, xalqına böyük təsəlli vermiş oldu. Belə cəsarətli addımı Öz xalqına, Vətəninə qəlbən bağlı olan bir lider ata bilərdi ki, bu nümunəni də Ulu öndər göstərdi. Ulu öndərin Azərbaycan xalqı, Vətənimiz qarşısında tarixi xidmətini xatırladan Prezident İlham Əliyev deyib: “1990-cı ilin faciəvi günlərində Heydər Əliyev əsl lider kimi yenə də Öz xalqının yanında yer tutdu, xalqa yol göstərdi”.

Xalqımızın qan yaddaşına hopmuş 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət də məhz Ümummilli lider Heydər Əliyev tərəfindən verilib. Ulu öndərin təşəbbüsü ilə Naxçıvan MR Ali Məclisi 21 noyabr 1990-cı il tarixli qərar qəbul edib. Bəhs olunan qərarda 1990-cı ilin yanvar ayında Bakı şəhərində törədilmiş qanlı hadisələr Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirilib. Ulu öndər xalqına bağlılığını və qətiyyətini həmçinin Azərbaycan SSR Ali Sovetinin 7 mart 1991-ci il tarixli sessiyasındakı çıxışı zamanı ortaya qoydu. Həmin çıxışında Ulu öndər qətiyyətlə bildirirdi ki, faciənin günahkarları üzə çıxardılaraq cəzalandırılmalıdırlar.

Xatırladaq ki, Ulu öndər Heydər Əliyev belə kəskin məzmunlu çıxışı edərkən hələ keçmiş ittifaq süqut etməmişdi. Lakin sovet hakimiyyətinin mövcudluğu Ulu öndərin xalqına dayaq durmasının qarşısını ala, Onu geri çəkindirə bilməzdi. Belə bir faktı da vurğulamaq yerinə düşər ki, Ulu öndər bəhs olunan çıxışı ilə kifayətlənmədi və 1991-ci il iyunun 19-da SSRİ Nazirlər Kabinetinə hadisə ilə bağlı məktub göndərdi.

Ulu öndər Heydər Əliyev 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə ikinci dəfə Azərbaycanın rəhbərliyinə gəldikdən sonra 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verilməsi üçün ölkə rəhbəri kimi mühüm addımlar atdı. Ümummilli lider 1994-cü il yanvar ayının 5-də 20 Yanvar faciəsinin dördüncü ildönümünün keçirilməsi ilə bağlı Fərman imzaladı. Fərmanda Milli Məclisə tövsiyə olunurdu ki, faciəyə tam siyasi-hüquqi qiymət verilsin. Bunun ardınca isə 1994-cü il yanvarın 12-də Dövlət Komissiyasının geniş iclasındakı çıxışında Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikası parlamentinin 1992-ci il 19 yanvar tarixli qərarını xatırladaraq bu qərarda 20 Yanvar hadisələrinin əsl səbəblərinin açıqlanmadığını, həqiqi günahkarların aşkar edilmədiyini, iki il ərzində həmin qərarın özünü doğrultmadığını diqqətə çatdırdı. Beləliklə, Ümummilli lider Heydər Əliyevin bu istiqamətdə gərgin əməyinin nəticəsi kimi, 1994-cü il mart ayının 29-da “1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında” adlı xüsusi qərar qəbul edildi. Bununla da Azərbaycan xalqının məruz qaldığı dəhşətli faciəyə - 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilmiş oldu ki, bu da müstəqilliyə gedən yolda baş verənlərin, tarixi həqiqətlərin gələcək nəsillərə çatdırılması baxımından çox önəmlidir.

Xalqımız 20 Yanvar faciəsinin qurbanlarının əziz xatirəsini öz qəlbində daim yaşadacaq

Hər bir xalq özünün xoşbəxt gələcəyini qurmaq, müstəqilliyini əbədi etmək üçün daim qan yaddaşını təzələməli, tarixini yaxşı bilməli və keçmişdə baş verənlərdən ibrət dərsi götürməlidir. Bu mənada müstəqil Azərbaycanda Vətənin azadlığı və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəmanların xatirəsinin əziz tutulması təqdirəlayiqdir. Bu gün müstəqil Azərbaycanda 20 Yanvar xalqımızın azadlıq uğrunda mübarizə tarixinin qürur doğuran şanlı səhifəsi kimi qeyd edilir. Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq respublikamızda şəhidlərin, o cümlədən 20 Yanvar şəhidlərinin xatirələrinin əbədiləşdirilməsi, onların

ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində davamlı tədbirlər həyata keçirilir. Eyni zamanda, 20 Yanvar faciəsi zamanı əlil olmuş şəxslər də hər zaman dövlətin, şəxsən Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Şəhidlərimizin qəhrəmanlığı şair və yazıçılarımızın qələmə aldıqları əsərlərdə yüksək səviyyədə tərənnüm edilib. Bu gün paytaxt Bakıda, həmçinin respublikanın bölgələrində yerləşən şəhər və qəsəbələrdə çoxlu sayda küçə, prospekt, məktəb əziz şəhidlərimizin adını daşıyır. Hər il respublikanın bütün bölgələrindən milyonlarla insan Bakıdakı Şəhidlər xiyabanına gələrək Vətənin azadlığı və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş oğul və qızlarımızın xatirəsini yad etməyi özlərinə mənəvi borc sayırlar. Bu isə o deməkdir ki, şəhidlərimizin əziz xatirəsi, onların amalları yaşayır və bundan sonra da yaşayacaq.

Yeri gəlmişkən, 20 Yanvar faciəsinin 29-cu ildönümü ilə də bağlı respublikanın hər yerində genişmiqyaslı tədbirlər həyata keçirilir. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamı ilə “20 Yanvar faciəsinin iyirmi doqquzuncu ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı” təsdiq edilib. Sənədə əsasən respublikanın şəhər və rayonlarında, idarə və təşkilatlarda 20 Yanvar hadisələrinin mahiyyətini əks etdirən konfranslar, toplantılar və mühazirələr təşkil edilir, 20 Yanvar gününün Azərbaycanın suverenliyi, istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda mübarizə rəmzi kimi qeyd olunması ilə bağlı tədbirlər keçirilir, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşalar, bədii və sənədli filmlər nümayiş olunur. Respublikanın bütün tədris müəssisələrində faciəyə həsr edilmiş xüsusi dərslərin keçirilməsi, dini mərasimlərin təşkil olunması, şəhid ailələrinə humanitar yardımların göstərilməsi də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin müvafiq sərəncamı ilə təsdiqlənən tədbirlər planına daxildir.

Bundan başqa, sərəncamda paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər xiyabanına ziyarətinin təşkili, saat 12.00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində 20 Yanvar faciəsinin iyirmi doqquzuncu ildönümü ilə əlaqədar hüzn əlaməti olaraq dövlət bayraqlarının endirilməsi və digər tədbirlər planlaşdırılır.

**Yeni Azərbaycan.** - 2019.- 19 yanvar. - № 12. - S. 2.

## 20 Yanvar faciəsi və Heydər Əliyevin prinsipial mövqeyi

**Ragıp Kiraz,**
Kastamonu Universiteti Fən-ədəbiyyat fakültəsi Tarix bölümünün 4-cü kurs tələbəsi

Bu məqalənin məqsədi 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycanın paytaxtı Bakıda baş verən qətliam haqqında məlumat verib, Heydər Əliyevin bu qətliam haqqındakı fikirlərini oxuculara təqdim etməkdir. Tariximizdə çox kədərli bir hadisə olaraq yer alan 20 Yanvar qırğınında Sovet ordusu qadın, uşaq, qocaya fərq qoymadan müstəqillik istəyən azərbaycanlıları mərhəmətsizcəsinə qətl etmişdir. Azərbaycan xalqına qarşı tətbiq edilən bu vəhşilik əks-təsir yaratmış və müstəqil Azərbaycan Respublikasının qurulmasında dönüş nöqtələrindən biri olmuşdur. Bu faciədən sonra Azərbaycan xalqı səsini daha da yüksəklərə çatdırmaq üçün səy göstərmiş, 18 oktyabr 1991-ci ildə müvəffəqiyyət qazanaraq, müstəqilliyini bütün dünyaya elan etmişdir.

Heydər Əliyev 1990-cı il yanvarın 20-də baş verən bu hadisənin Azərbaycan xalqına qarşı törədilmiş bir cinayət olduğunu dilə gətirərkən, Azərbaycandakı idarəçilərin bu hadisə haqqında lazımi tədbirləri görmədiyini diqqətə çatdırmış, qətliamı törədən və bu qırğında günahkar olan insanların ciddi şəkildə cəzalandırılmasının vacibliyini bildirmişdir.

### 20 yanvar qırğınının mahiyyəti

1980-ci illərdə SSRİ üçün həm iqtisadi, həm də siyasi çətinliklər başlamışdı. Mixail Qorbaçovun başçılığı ilə aparılan bir sıra islahat tədbirləri bu çətinliklərə çarə olmamış, yarımçıq qalmışdı. Bu şərait isə zəngin təbii sərvətləri olan Azərbaycanın talan edilməsinə yol açmışdı. Azərbaycan xalqına göz görə-görə ermənilər tərəfindən edilən haqsızlıqlara həm ümumittifaq, həm də Azərbaycan Kommunist Partiyasının səssiz qalması azərbaycanlıları hərəkətə keçirmişdir. Xalq uzun müddətdir davam edən təzyiqdən yorulmuş, meydanlarda "Azadlıq!" şüarlarını səsləndirməyə başlamışdı. Ermənilərin tarixi Azərbaycan torpaqlarında, Qarabağda və sərhəd bölgələrində Azərbaycan xalqına qarşı tətbiq etdiyi qəddarlıqlar nəticəsində məcburi köçlər olmuşdur. Belə bir şəraitdə Moskvanın da ermənilər lehinə mövqeyi vəziyyəti daha da gərginləşdirmişdi.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 1990-cı il yanvarın 15-də DQMV və bəzi bölgələrdə fövqəladə vəziyyətin elan edilməsi haqqında qərarının 7-ci maddəsində Azərbaycan SSR Ali Sovetinə bu vəziyyəti tətbiq etməyin çərçivəsini Bakı və Gəncə bölgələrinə qədər genişləndirməyi təklif etməsi Azərbaycan xalqı tərəfindən ədalətsiz bir qərar kimi qiymətləndirilmiş və narazılıqla qarşılanmışdır (Nazım Cafersoy. "Azerbaycan'da 20 Ocak 1990 Yanvar Katliamı" Türkiye Uluslararası İlişkiler ve Stratejik Analiz Merkezi. 2012

Azərbaycan xalqı sovet hökuməti tərəfindən özünə göstərilən tamamilə haqsız münasibətə qarşı Bakı şəhərinin ətrafında barrikadalar quraraq etiraz edəcəyini bildirmişdi. Yenə 18 yanvar 1990-cı il tarixində Bakı və digər bölgələrdə böyük yürüşlər təşkil edilmiş, artıq respublika miqyasında ümumi bir tətil elan olunmuşdu. Belə şəraitdə sovet rejimi 1990-cı ilin 19 yanvar günü Bakıda fövqəladə vəziyyət elan etdi. Bu barədə əmrin gecə yarısı həyata keçirilməsi gözlənərkən, hələ saat 20:00 olmadan Azərbaycan Televiziyası SSRİ xüsusi təyinatlıları tərəfindən partladıldı. Məqsəd xalqa xəbər vermədən onlara silahlı hücum etmək, küçədəki insanları qətlə yetirmək idi. Sovet ordusunun yanvarın 19-dan 20-nə keçən gecə odlu silahlardan istifadə edərək Bakıya girişi nəticəsində 137 nəfər şəhid olmuş, təxminən, 700 adam yaralanmış, bir çox mülki insan isə həbs edilmişdir. Əksəriyyəti xalq hərəkatının iştirakçıları olan vətəndaşlar isə bu işğala qarşı əlindən gəldiyi qədər müqavimət göstərməyə çalışmışdır.

Tibbi ekspertiza nümayəndələri cəsədlərə baxış keçirərkən, əsgərlərin dinc əhaliyə qarşı xüsusi təyinatlı güllələrdən istifadə etdiyini müəyyənləşdirmişdir. Müvafiq dairələrdə aparılan araşdırmalara görə, əsgərlərin istifadə etdiyi MJV-13 tipli mərmilərin ağırlıq mərkəzi dəyişdirilmişdir. Bu isə güllənin maneəyə rast gəldiyi zaman gediş istiqamətini dəyişməsinə səbəb olur. Bu tip güllələrin insan bədəni ilə təması əsnasında mərmi üzərindəki qabığın parçalanması və nüvədən ayrılması nəticəsində zərər gücü xeyli artırdı (Yasin Aslan, Azerbaycan Tam Bağımsızlık Yolunda, s.49).

Rus ordusu Bakının ardınca Naxçıvana, Lənkərana və bəzi digər bölgələrə də girdi. Qorbaçov Azərbaycan ərazilərinə əsgər göndərərkən Gəncə ətrafında və Xanlar rayonunda hücuma keçən ermənilərə qarşı heç bir silahlı hərbi müdaxilə etməmişdir. Qorbaçovun bu siyasəti digər müsəlman dövlətlərə tətbiq olunan siyasətin də əsasını təşkil edirdi. Xristian Qərb dünyasının diqqətini çəkmək istəməyən Moskva ermənilərə

müdaxilə etməmiş, lakin məsələyə ikili standartlardan yanaşaraq, eyni mövqeyi Azərbaycana qarşı göstərməmişdir ("Bakü'de Halk Rus Askerleri İle Çarpışıyor", Türkiye Gazetesi, 20.01.1990; "Kızıl Ordu Bakü'de Kan Döküyor", Tercüman Gazetesi, 20.01.1990).

Azərbaycan SSR Ali Soveti qırğını araşdırmaq üçün komissiya təşkil etmiş, komissiyanın qərarı ilə azərbaycanlılara qarşı çox böyük bir cinayət işləndiyini, SSRİ prezidenti Qorbaçovun, Yazovun, Kryuçkovun məsul olduqları da bu hesabatda qeyd edilmişdir. Bu qətliamın məqsədinin başlıca olaraq, Azərbaycan milli azadlıq hərəkatına zərbə vurmaq olduğu aşkar görünür. Qarabağ müharibəsi ilə birlikdə yurdlarından köçürülən azərbaycanlıların sovet hakimiyyətinə qarşı narazılığı gündən-günə artmışdır. Eyni zamanda təbii sərvətlər baxımından zəngin olan Azərbaycanın müstəqillik qazanması sovet hökuməti üçün son dərəcə arzuolunmaz bir hadisə idi. Bu səbəbdən sovet rejimi Azərbaycanda yüksələn müstəqillik hərəkatını nə yolla olursa-olsun yatırmaq, sovetlərə bağlı digər respublikaların heç vaxt müstəqillik hərəkatına can atmamaları üçün onlara da bir ibrət dərsi vermək qərarına gəlmişdi. Bu fikir əsasında Qanlı Yanvar qırğını baş verdi. Ancaq bu vəziyyət əks-təsir göstərdi və bundan sonrakı prosesdə digər respublikalar da "növbə bizə də gələcək" qorxusu ilə hərəkətə keçdi. 1991-ci ildə onların hamısı müstəqilliklərini elan etdilər. Beləliklə, qanlı Bakı hadisələrini planlaşdıran və həyata keçirənlərlə yanaşı, totalitar kommunist sistemi və onu təmsil edən Sovet İttifaqı Kommunist Partiyasının oliqarxiya liderliyi, DTK, Daxili İşlər Nazirliyi və həmçinin partiya, dövlət təbliğat maşını əsas cinayətkarlar sayılmalıdır (Yasin Aslan, Azerbaycan Tam Bağımsızlık Yolunda, s.52).

Hadisələrin inkişafı Azərbaycanda xalq hərəkatının daha da genişlənməsini və güclənməsini təmin etdiyi kimi, ölkədə müstəqillik istəyini daha güclü bir şəkildə gündəmə gətirdi. Bu proses Azərbaycanı müstəqilliyə aparacaq olan xalq hərəkatının da təşkilatlanmasını və güclənməsini təmin etdi. Nəhayət, hadisələrin böyüməsi səbəbindən Azərbaycan Kommunist Partiyasının birinci katibi Ə.Vəzirov ölkəni tərk etmək məcburiyyətində qaldı.

## Heydər Əliyevin faciəyə qarşı mövqeyi

1923-cü ildə Naxçıvanda dünyaya gələn Heydər Əliyev 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etmiş, daha sonra isə beş il SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olmuşdur. Dağlıq Qarabağ münaqişəsinin başlaması ilə davam edən proseslərdə Heydər Əliyev SSRİ-nin siyasətini tənqid edən mövqedən çıxış etmişdir. 1991-ci ilin iyun ayında Sovet İttifaqı Kommunist Partiyasının üzvlüyündən istefa vermiş, 1991-1993-cü illər arasında Naxçıvan Muxtar Respublikası Ali Sovetinə sədrlik etmiş, həmçinin 1992-ci ildə Naxçıvanda keçirilən partiya qurultayında Yeni Azərbaycan Partiyasının sədri seçilmişdir. 1993-2003-cü illərdə isə Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti olmuşdur.

Bəhs etdiyimiz gərgin və təlatümlü bir dövrdə Heydər Əliyev Azərbaycan tarixində çox mühüm rol oynayan, Azərbaycan xalqının qəlbində böyük ağrı hissi oyadan, eyni zamanda Azərbaycan xalqının imperiya siyasətinə qarşı haqq davasında çox əhəmiyyətli yeri olan Qara Yanvar qırğını ilə bağlı Moskvada çıxış etmişdir.

Belə ki, 21 yanvar 1990-cı ildə Heydər Əliyev Moskvada Azərbaycanın Daimi nümayəndəliyinə gələrək, bu vəhşiliyi qətiyyətlə pisləməklə yanaşı, onun törədilməsi səbəblərini də açıqladı, təşkilatçılarının, günahkarlarının adını bütün dünyaya bəyan etdi. Görkəmli dövlət xadiminin bəyanatında deyilirdi:

**"Əziz həmvətənlərim, xanımlar və cənablar!**

Bildiyiniz kimi, uzun illər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində işləmiş, Sov. İKP MK Siyasi Bürosunun üzvü olmuşam. Geniş infarkt keçirmişəm. Xəstəliyimlə əlaqədar iki ildən artıqdır ki, pensiyadayam. Azərbaycanı tərk etdiyim 1982-ci ilin dekabrından keçən müddətdə bu gün ilk dəfədir ki, Azərbaycan SSR-in Moskvadakı Daimi nümayəndəliyinin astanasına qədəm qoyuram. Mən baş vermiş hadisələr haqqında dünən xəbər tutmuşam və təbiidir ki, bu hadisəyə laqeyd qala bilməzdim. Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan Daimi nümayəndəliyində böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı daimi nümayəndəsi Söhrab İbrahimovdan xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm.

Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm. Azərbaycanda yaranmış

mürəkkəb vəziyyətin bir sıra səbəbləri vardır. Vaxtımızın məhdudluğundan bu məsələlərin üzərində ətraflı dayanmaq istəmirəm.

Artıq iki ildir ki, Azərbaycan və Ermənistan arasında millətlərarası münaqişə gedir. Həmin münaqişəni Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr törətmişdir. Azərbaycan və Ermənistan, eləcə də ölkənin ali siyasi partiya rəhbərlərinə bu məsələni tənzimləmək, daxili müharibəyə, millətlərarası münaqişəyə son qoymaq və milli mənsubiyyətindən asılı olmayaraq hər bir adamın ümumi federativ ittifaq olan SSRİ-də azad yaşamasına şərait yaratmaq üçün iki illik müddət kifayət idi.

Hesab edirəm ki, ötən iki ildə bu istiqamətdə lazımi səviyyədə iş aparılmamışdır. Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı.

Bunlar üçün, ilk növbədə, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin artıq sabiq birinci katibi Vəzirov müqəssirdir. Bu yüksək vəzifədə olduğu müddətdə o, Azərbaycandakı vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə, özünün səhv addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurum yaratmışdır. Xalq isə hiddətlənmişdir. Elə buna görə də Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında aylarla davam edən mitinqlərdə dəfələrlə Azərbaycanın partiya rəhbərlərinin istefası tələbi irəli sürülmüşdür. Söhbət, əslində, Vəzirovun istefasından gedirdi. Bəs bu məsələ indiyə kimi niyə həll olunmamışdır? Yalnız dünən Bakı şəhərinə ordu yeridildikdən, qırğın və dağıntılar baş verdikdən sonra Vəzirov Azərbaycandan, əslində, qaçmışdır. Bu, böyük səhvdir. Ən böyük səhv isə, sözsüz ki, qeyri-ciddi, bu yüksək vəzifəyə əsla yaramayan adamın bir vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə birinci katib təyin edilməsi idi. Ancaq iş təkcə bununla bitmir.

İndi yanvarın 19-dan 20-nə keçən gecə baş vermiş və bu gün də davam edən faciənin üstündə dayanmaq istəyirəm. Hesab edirəm ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur. Təəssüf ki, Azərbaycan rəhbərliyi, həmçinin ölkənin ali siyasi rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir. Sərhədlərə edilən təcavüzü vaxtında aradan qaldırmaq mümkün idi. Axı üç ay əvvəl sərhəd zolağı ilə bağlı camaat öz tələblərini irəli sürmüşdü. Fəqət heç kəs onlarla görüşmək, izahat işi aparmaq və lazımi ölçü götürmək istəməmişdir.

Təkrar edirəm: camaatı sakitləşdirmək üçün də imkanlar tükənməmişdi. İki-üç ay əvvəl Azərbaycan partiya rəhbərliyinin möhkəmləndirilməsi məsələsi həll edilsə idi, vəziyyət gərginləşməz, ordu yeridilməsinə zərurət yaranmazdı. Bütün vəziyyətlərdə, hesab edirəm ki, məsələni siyasi cəhətdən tənzimləmək, xalqla mükaliməyə girmək üçün əlverişli imkanlar olmuşdur. Lakin onlardan səmərəli istifadə edilməmişdir. Nəhayət, 19-dan 20-nə keçən gecə sovet ordusunun, SSRİ DİN-in böyük kontingenti Bakı şəhərinə yeridilmişdir. Nəticəsi isə göz qabağındadır. Bunun törətdiyi faciələr hamımıza məlumdur.

Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Bəli, kobud siyasi səhv buraxılmışdır. Onlar, sadəcə olaraq, respublikadakı əsl vəziyyəti qiymətləndirə bilməmiş, Azərbaycan xalqının psixologiyasını anlamamış, əhalinin müxtəlif təbəqələri ilə əlaqələri zəiflətmişlər. Onlar, görünür, bu işlərin belə ağır faciəyə çevriləcəyini əvvəlcədən düşünməmişlər.

Bütün bunlar qabaqcadan nəzərə alınmalı və vaxtında vacib, zəruri tədbirlər qəbul edilməli idi. Ordu yeridilmiş, günahsız adamlar həlak olmuşlar. Yeri gəlmişkən deyim ki, ölənlər arasında hərbi qulluqçuların olması haqqında da məlumatlar daxil olur. Sual olunur: ölkənin ali dövlət, partiya rəhbərliyinin səhv qərarı ucundan, olmayan qiyamı yatırtmaq adı ilə Azərbaycana göndərilmiş rus gənclərinin günahı nədir?

Azərbaycana kənardan böyük ordu kontingenti yeridilmişdir. Respublikada neçə ordu birləşməsinin olduğu mənə yaxşı bəllidir. Azərbaycanda kifayət qədər - 4-cü ordu, Xəzər Hərbi Dəniz Donanması, desant qoşunlarının diviziyası, Hava Hücumundan Müdafiə Qoşunları, DİN-in daxili qoşun birləşmələri vardır. Oraya əlavə qoşun yeritmək nəyə lazım idi? Əgər belə zərurət var idisə, orada yerləşən hərbi hissələrdən də istifadə etmək olardı. Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə bərk ayaqda Azərbaycanı qoyub qaçmış Vəzirov öz xalqı qarşısında məsuliyyət daşımalıdır. Ölkənin ali siyasi rəhbərliyinə yanlış məlumat verənlər də məsuliyyət daşımalıdır.

Zənnimcə, ölkənin ali siyasi rəhbərliyinə vəziyyət barədə vaxtında kifayət qədər düzgün, dəqiq, obyektiv informasiyalar çatdırılmamışdır. Rəhbərlik çaşqınlığa salındığından belə qərar qəbul etmişdir. Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır.

1. 21 yanvar 1990-cı il, Moskva" (Heydər Əliyev: "Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır" (Moskva, 21 yanvar 1990-cı il), "Azərbaycan" qəzeti, 20.01.2010, s.2).

**Nəticə**

Heç şübhə yoxdur ki, 20 yanvar 1990-cı il hadisələri Azərbaycan Respublikasının müstəqilliyə gedən yolunda ən böyük sınaqlarından biri olmuş və Azərbaycan xalqı bu sınaqdan üzüağ, alnıaçıq çıxmağı bacarmışdır. Hadisənin ertəsi günü Heydər Əliyevin imperiya mərkəzi olan Moskvada mətbuat konfransı keçirməsi, sovet rejimini ifşa etməsi və həqiqəti dünya ictimaiyyətinə çatdırması da bu yolda böyük bir cəsarət nümunəsi olmuşdur.

16 dekabr 1999-cu il tarixdə Azərbaycan Prezidenti Heydər Əliyev 20 Yanvar faciəsinin 10-cu ildönümü haqqında fərman imzalayaraq bu günün xatirəsinə dövlət səviyyəsində lazımi hazırlıq və mərasimlərin keçirilməsi barədə göstəriş vermişdir. 20 Yanvar qətliamı hər il Ümumxalq Hüzn Günü kimi qeyd edilir və dövlət səviyyəsində tədbirlər keçirilir. Şəhidlərin dəfn edildiyi Şəhidlər Xiyabanı dövlətin yüksək səviyyəli rəsmi şəxsləri və xalq tərəfindən ziyarət edilir.

Bu gün Rusiya Federasiyası özünü qətliamın səbəbkarı olan SSRİ-nin varisi kimi görür. Uzun müddət 20 Yanvar faciəsinə lazımi diqqəti göstərməyən Rusiya Federasiyası dövlət rəsmilərinin bu qətliama dair mövqelərində V.V.Putin dövründə müsbət dəyişikliklər görünür. Rusiya Federasiyasının prezidenti Vladimir Putin 2001-ci ildə Azərbaycanda səfərdə olarkən Şəhidlər Xiyabanını ziyarət edərək əklil qoymuş, şəhidlərin xatirəsini sükutla yad etmişdir.

**Azərbaycan müəllimi.** - 2019.- 18 yanvar. - № 2. - S. 13.

## 20 Yanvar: 29 il

**Vaqif Yusifli,**
filologiya elmləri doktoru

Xalqımızın tarixində elə səhifələr var ki, onlar qanla yazılmışlar. Zaman baxımından yaxın ya uzaq olsun, yaddaşımızda o səhifələr həmişə kədərlə oxunur.

1990-cı ilin 20 Yanvar günü də yaddaşımızda dərin iz buraxan belə səhifələrdən biridir. İyirmi doqquz il keçir o qanlı faciədən. Hər il 20 Yanvar günü Bakıda, Azərbaycanın digər şəhərlərində insanlar axın-axın Şəhidlər Xiyabanı adlanan, günahsız insanların dəfn olunduqları məzarlıqlara baş çəkirlər.

Bu gün qara geymişəm, qara günümdür mənim,
Dünyanı silkələyən ahım, ünümdür mənim.
Şəhidlər Xiyabanı qibləm, yönümdür mənim,
Öz dərdimi çəkməsəm, özgələr dərdə qalmaz.

Xalq şairi Zəlimxan Yaqubun "Qalmaz" şeirindəndir bu misralar. İyirmi beş il ərzində Azərbaycan şairləri 20 Yanvarla bağlı yüzlərlə şeirlər, poemalar yazmışlar.

Xalq kədərinin ifadəsi olan bu poeziya nümunələri 20 Yanvar tarixinin bədii salnaməsidir.

Elə Zəlimxan Yaqub o matəm günlərində xalqın içindən gələn dərdi neçə şeirə çevirdi. Onun "Şəhid qanı" şeiri Azərbaycan poeziyasında şəhidliyə həsr olunan şeirlər içərisində xüsusilə seçilir:

Həyatımda ilk dəfə bu qədər qan görürdüm,
Qızıl qana bələnmiş sökülən dan görürdüm.
Qan içində çalxanan Azərbaycan görürdüm,
Yerdən, göydən, dənizdən axırdı şəhid qanı.

Əzizinəm, can ağlar,
Könül ağlar, can ağlar,
Bu gün yaman günümdür,
Mərd yanar, meydan ağlar.

Həyatımda ilk dəfə bu qədər gül görürdüm,
Hər gülün arxasında sınan könül görürdüm.
Bütün Azərbaycanı məlul-müşkül görürdüm,
Dünyanı yandırfrdı, yaxırdı şəhid qanı.

Əzizim nələr gördüm
Dərd dağı dələr gördüm.
Min şəhidin yasında
Bir xalqı mələr gördüm.

Filologiya elmləri namizədi Aslan Salmansoy bu poetik nümunələrin müəyyən bir qismini "Qan borcu" adı altında bir almanaxda toplayıb.

Heç şübhə yoxdur ki, ədəbiyyatımızda 20 Yanvar fajiəsinin inikası ilə bağlı tədqiqat aparan müəlliflər bu kitabdan bir mənbə kimi istifadə edəcəklər.

Kitab Əlibəy Hüseynzadənin "Hali-Vətən", Almaz İldırımın "Əsir Azərbacanım", Şəhriyarın "Azərbaycan" şeirləriylə açılır. Əlbəttə, dillər əzbəri olan bu şeirlər 20 Yanvar fajcəsindən çox-çox əvvəllər qələmə alınsa da, XX əsr Azərbaycanımızın tarixi faciələrini, xalqımızın azadlıq müjadiləsini, istiqlal savaşını özündə əks etdirən ən dəyərli poetik nümunələrdir.

Yarəb, nədir bir bu qədər ürəkləri qan etməyin,
Qolu bağlı qalajaqdır nə vaxtacan Azərbaycan?!

Övladların nə vaxtadək tərki-vətən olacaqdır?
Əl-ələ ver, üsyan elə, oyan, oyan, Azərbaycan.
Bəsdir fəraq odlarından kül ələndi başımıza,
Dur ayağa! Ya azad ol, ya tamam yan, Azərbaycan!
***(M.Şəhriyar)***

Vətən övladları məhz bu duyğu ilə küçələrə, meydanlara axışdılar, xeyli janlı qüvvə, sursat və zirehli texnika ilə silahlanmış rus ordusu ilə üzbəüz qaldılar.

Vaxtilə şəninə mahnılar qoşulan Qızıl Ordu Bakını qan dənizinə döndərdi, Neftçalada, Lənkəranda, Cəlilabadda eyni faciələr törətdi. Xalq şairi Qabilin "Mərsiyə" şeiri də həmin günlərdə yarandı:

Öz Qızıl Ordumuzun Yurdumuza qəsdinə bax,
Üstümə tank yeridən fitnəkarın şəstinə bax,
Gözü qanımla xumar düşmənimin məstinə bax,
Qara bayraqlarımın cərgəsinə, dəstinə bax,
Gecəni atəş ilə qırmızı qan eylədilər,
Xalqımı-millətimi gülləbaran eylədilər.

Öldü gənc, öldü uşaq, öldü gəlin-qızlarımız,
Ölmədi! Şanlı şəhid oldu neçə yüzlərimiz,
Bu saat Kərbübəla düzləridir düzlərimiz;
Necə qan ağlamasın üzlərimiz, gözlərimiz ?!
Gecəni atəş ilə qırmızı dan eylədilər,
Xalqımı-millətimi gülləbəran eylədilər!

Həmin gün mənim də yadımdadır. Boğazımda tıxanan qəhərlə, içimi doğrayan kin və qəzəbdə axına qoşulub Şəhidlər Xiyabanına doğru yol alırdım. Fikirləşirdim ki, əsrlər boyu "Avropanın jandarmı" rolunu oynayan Rus imperiyası öz rüsvayçı "Parçala və hökm sür!" siyasətində ən müdhiş rolunu oynadı. Axı, biz nə istəyirik?-istəyirik ki, Azərbaycan müstəqil olsun, bizim də üçrəngli bayrağımız BMT civarında dalğalansın, maddi sərvətlərimizin yiyəsi özümüz olaq, yeni bir Azərbaycan yaradaq..Buna görə bütöv bir xalqı işğala məruz qoymaq, onun azadlıq yanğısını söndürmək olardımı? Həmin gün bütün Bakı qırmızı qərənfillərə qərq olmuşdu. Çox keçməz, Azərbaycan poeziyasında və xalqın yaddaşında QƏRƏNFİL obrazı 20 YANVAR obrazı ilə qoşalaşacaqdı. Kim bilir, o zərif çiçəklər bəlkə də bizdən çox şəhid məzarları üzərində göz yaşları axıdacaqdıg

Qərənfil-şəhid qanı,
Ağla, qərənfil, ağla!
Ağla, inlət meydanı,
Ağla, qərənfil, ağla!

Cavanlara qıydılar,
Tanklar altda qoydular-
Qanın içib doydular,
Ağla, qərənfil, ağla!

Bu günahsız qanlara,
Bu didilmiş canlara,
Bu cansız cavanlara,
Ağla, qərənfil, ağla!

Bu səngiməz ağrıya,
Bu qan sızan sarğıya,
Bu Allahsız qurğuya,
Ağla, qərənfil, ağla!

1990-cı il Azərbaycan poeziyasının ən hüznlü ili idi. Çünki xaincəsinə vurulan zərbələr hamını sarsıtmışdı, yara hələ isti idi. Hələ göylərimizdən, analarımızın, bacılarımızın qara yaylıqlarından, şəhərimizin üzərindən matəm buludları çəkilməmişdi. Bu matəm buludları, bu göz yaşları şeirimizdə də kədərli bir ovqat yaratmışdı. "Bakının yuxusu dağılmışdı küçələrə, Od ələnirdi işıq gələn pəncərələrə Göydən ölüm yağırdı yerə. O aylı gecədə Ah-vaylı gecədə için-için ağlayırdı Bakı" (Nüsrət Kəsəmənli), "Dağlar da, daşlar da ağlayır dil-dil, Bu dərdi çəkməklə qurtaran deyil" (Ofelya Babayeva), "Əl-ələ tutdular şəhid oğullar, Güllələr töküldü yolları üstə. Dayanıb tankların önündə onlar, Ölümü aldılar qolları üstə" (Aslan Kəmərli), "Göylər qara bağlayır, Bu torpağın ahına. Şeirimiz yas saxlayır, Şəhidlərin ruhuna" (Nisə Bəyim), "Yarımçıq yazılmış şeirlər öldü, Səhəri Şəhidlər xiyabanında ağlaya-ağlaya basdırdı millət Özünün ən gözəl şeirlərini" (Aydın Uluxanlı), "Bələyinə qan bələndi Bakının, Əynimizə qan köynəyi biçmişik Aman allah, bu nə dərddir, düşmüşük?!" (Qaçay Köçərli), "Dönüb milyon-milyon al qərənfilə, Vətən torpağında bitdi şəhidlər" (Nəsir Əhmədli) və s.

Aslan Salmansoyun tərtib etdiyi "Qan borcu" kitabında 20 Yanvar faciəsiylə bağlı səkkiz poema təqdim edilir. Əlbəttə, bu, kiçik rəqəmdir, çünki bu mövzuda poemaların sayı çoxdur. Ancaq onu da nəzərə alaq ki,kitab seçmə nümunələr əsasında tərtib edilib.

Böyük şairimiz Bəxtiyar Vahabzadənin "Şəhidlər" poeması 20 Yanvar mövzusunda yazılan əsərlərin ən kamili və bədii -sənətkarlıq baxımından ən mükəmməlidir. Birincisi; bu poema təkcə həcminə görə deyil, həm də mövzunu tam əhatə etdiyinə görə seçilir. Müəllif "Gülüstan" poemasındakı vətənpərvərlik ideyasını daha parlaq şəkildə davam etdirir, bu faciənin yaranması səbəblərini təhlil edir, faciənin günahkarlarını ittiham edir. İkincisi; poema lirik səpgidə başlasa da, tezliklə epik xətt də ona qoşulur.Ayrı-ayrı şəhidlər haqqında da (İlham-Fərizə, Larisa, Sürəyya Lətif qızı, Baba müəllim, Aleksandr Marxevka və s.) poetik oçerklər poemanın epik vüsətini artırır.

Qatil gülləsinə qurban gedirkən,
Gözünü sabaha dikdi şəhidlər.
Üçrəngli bayrağı öz qanlarıyla
Vətən göylərinə çəkdi şəhidlər.

Zalım öyünməsin zülümləriylə,
Minbir böhtanıyla, minbir şəriylə.
Həqiqət uğrunda ölümləriylə,
Ölümü kamına çəkdi şəhidlər.

İnsan insan olur öz hünəriylə,
Millət millət olur xeyri, şəriylə.
Torpağın bağrına cəsədləriylə,
Azadlıq tumunu əkdi şəhidlər.

"Şəhidlər" poemasının bir məziyyəti də bundadır ki, şair şəhidliyi həm də qəhrəmanlıq kimi vəsf edir. Qəhrəmanlıq təkcə hünər göstərmək, düşməni məhv eləmək deyil, həm də əliyalın olsa belə təcavüzə müqavimət göstərmək, hiddət və etirazını bildirməkdir. 20 Yanvar faciəsindən göyərən toxumlar sonralar boy atdı, müstəqillik bayrağımızın ucalmasına yol açdı. Xalq şairi Sabir Rüstəmxanlı bu fikri belə ifadə edirdi:

Bu torpağa çoxdan bəri
Şəhid qanı tökülməyib.
Ətri qaçıb gül-çiçəyin
Rəngi avazıyıb bayraqların,
Qayıtdı, qayıtdı
Bayrağımın əsl rəngi
İlhamın qanadı
Günəşin odu,
Torpağım azadlıq doğacaq sabaha
Qorxum qalmadı!

Burada türk şairi Nihal Atsızın bir şeiri yada düşür:

Qəhrəmanlıq nə yalnız
Bir yüksəliş deməkdir,
Nə də yıldızlar kibi.
Parlayıb sönməməkdir.
Sızlarsa da könüllər
Şəhidlərin yasından,
Qoşar adım getməli
Onların arxasından.
Qəhrəmanlıq içərək
Acı ölüm tasından
İrəliyə atılmaq
Və sonra dönməməkdir!

Şəhidlərə həsr olunan poetik nümunələr içərisində Adil Cəmilin "Qan borcu" və Ramiz Məmmədzadənin "O gecə" poemaları da diqqəti xüsusilə cəlb edir.Hər iki poema canlı təəssüratlar və müşahidələr əsasında yazılsa da, öz səpgisinə görə lirik səciyyəlidir. Müəlliflər faciə haqqında öz düşüncələrini ümumiləşdirmişlər.

Azalıb dünya işığı-
Yer qaradır, göy qaradır.
Bayraq-qara, insan-qara,
Allah, bu yerlər haradır?...

Bu dünyanın harasında,
Belə matəm, yas olubdur?
Qəfil düşən qaranlıqda
Bakı tanınmaz olubdur.

Qırmızı tabutlar üzür,
Qapqara "ümman" istündə.
Qərənfillər qan ağlayır,
Günahsız insan üstündə.
(Adil Cəmil)

Belə oğullarla torpaq Vətəndir!
Əllərdən düşməyən bayraq Vətəndir!
İgidlər uyuyan bu dağ-Vətəndir.
Diz çökək, sükutla keçək yanından
Güc alaq Şəhidlər Xiyabanından..
***(Ramiz Məmmədzadə)***

İyirmi doqquz il nə tez gəlib keçdi. Elə bil dünən idi Bakının üzərini qara buludlar alan gün. Zəhmli tankların sürətlə şığıyaraq küçələri, meydanları, insanları şumladığı gün. Dünən idi elə bil Bakının qırmızı qərənfillərə qərq olduğu gun, Şəhidlər Xiyabanına gedən insan axını.

Biz bunları unutmamışıqg Çünki:

Sınar dağların beli, bu qədər ah götürməz,
Adi insan olan kəs belə günah götürməz,
Yerdə bəndə götürsə, göydə Allah götürməz,
Qəm yemə dəli könlüm, nahaq qan yerdə qalmaz.
***(Z.Yaqub)***

**Ədalət.** - 2019.- 19 yanvar. - № 12. - S. 15.

## 20 Yanvar – qanlı imperiyanın sonunun başlanğıcı

**Cavanşir Feyziyev**,
Milli Məclisin deputatı, fəlsəfə doktoru

***Bu təcavüz təşkil olunmuşdu və bunu təkcə Qorbaçov, yaxud Moskvada Sovet hökumətinin, Kommunist Partiyasının digər rəhbərləri təşkil etməmişdi. Bunu birinci növbədə Azərbaycan Respublikasının o vaxtkı Kommunist Partiyasının rəhbərləri öz xalqını boğmaq, əzmək, tapdalamaq üçün, xalqın azadlıq hərəkatını yatırtmaq üçün, xalqın mənliyini təhqir etmək üçün təşkil etmişdilər.***

**Heydər Əliyev**
**Ümummilli lider**

***Bu qanlı facia Sovet İttifaqı zamanında dinc əhaliyə qarşı törədilən ən amansız qanlı cinayət idi. O vaxtadək sovet ordusu dinc əhaliyə qarşı heç vaxt bu qədər qəddarlıqla, vəhşiliklə cəlb edilməmişdi. Yüzlərlə insan həlak oldu, itkin düşdü, yaralandı.***

**İlham Əliyev - Azərbaycan Respublikasının Prezidenti**

**Hər bir xalqın milli birliyə, sarsılmaz iradəyə və əhatəli özünüdərkə hansı dərəcədə nail olması məhz onun üzləşdiyi ən çətin anlarda mövcud proseslərə və çağırışlara ümumxalq reaksiyasında özünü göstərir. 29 il əvvəlin fəlakətli yanvar günlərində üzləşdiyimiz belə bir ağır sınaq məqamında xalqımızın mübarizlik əzminin təzahürü, təzyiqlərə boyun əyməyən əzmkar iradə nümayiş etdirməsi tariximizə yeni bir mübarizə səhifəsi yazdı – Qanlı yanvar səhifəsi.**

20 Yanvar yaxın keçmişimizdə yaşamış olduğumuz ən faciəvi günlərdən biri olsa da, xalqımızın yaddaşına həm də qəhrəmanlıq tarixi kimi həkk olundu. Faciənin törədilməsindən keçən 3 onilliyə yaxın müddətdə bu hadisəni doğuran səbəblərin, onun hüquqi, ictimai-siyasi, psixoloji nəticələrinin araşdırılması, öyrənilməsi və öyrədilməsi artıq ənənəyə çevrilmiş bir sualla müşaiyət olunur: 20 Yanvara gedən yol nədən və haradan başlandı? Cavabında isə hadisələrin şahidləri 20 Yanvar ərəfəsindəki son ayın, uzağı bir neçə ayın hadisələrini bir-bir xatırlayır və onların arasında faciəyə yol açan səbəbləri və səhvləri araşdırıb tapmağa çalışırlar. Mübahisələr bəzən bir-birimizi qınamağa qədər, hətta günahlandırmağa qədər uzanır. Bir ifratçılıqdan digər ifratçılığa qədər müxtəlifləşən mülahizələr yalnız bir fikirdə yekdil olur: belə sonluğu heç kim gözləmirdi.

Bəli, doğrudan da, o zaman çox az adam inana bilərdi ki, dövlət öz vətəndaşına, dinc vətəndaşına belə divan tuta bilər. Yəqin ona görə ki, biz Xeyirlə Şərin mübarizəsinin nağıllarda olduğu kimi,həmişə Xeyrin qələbəsi ilə bitməsinə inanmaq dərəcəsində sadəlövhük. Amma bəzən Şər də qalib gəlir, qısa müddətə olsa da. 20 Yanvar məhz Şərin Xeyirə qalib gəldiyi bir an idi – qısa bir an. Bu Şərin gəldiyi yol isə bir aylıq, iki aylıq yol deyildi. Bu, çox uzaqdan gələn bir yoldu. Bu yol 1813-cü ilin “Gülüstan”ından gəlir, bu yol 1828-ci ilin “Türkmənçay”ından keçir. Nəhayət, bu yolun bizə ən yaxın döngəsi 1920-ci ilin 28 aprelindən başlamışdı. Ötən əsrin 30-cu illərinin qaranlıq dolanbaclarından, 40-cı illərin ağrı-acılarından, 50--60-cı illərin ağır məhrumiyyətlərindən keçib gəlmişdik 20 Yanvara.

Bütün bunlar çox uzun və çox üzüntülü bir hekayədir--azadlıqsevər bir məmləkətin, insanpərvər bir millətin, məğrur bir xalqın əsarət hekayəsidir. 20 Yanvar isə bu hekayənin son fəslidir. Bu fəsildə də qarşımıza Şər çıxmışdı. Növbəti dəfə düşmənlərimizin hiyləsi ilə bizi təhdid edən namərd qonşularımız vətən torpaqlarımıza göz dikmişdilər. Ölkəmizin ərazi bütövlüyünə qarşı aparılan məkrli fəaliyyətlər, riyakar qəsdlər, SSRİ rəhbərliyi tərəfindən açıq-aşkar xalqımıza qarşı yürüdülən düşmənçilik siyasəti xalqımıza artıq imperiya boyunduruğunda yaşamağın daha ağır fəlakətlərə yol aça biləcəyini anlatmaqdaydı.

Xüsusən, 1988-ci ilin martında Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi və SSRİ Nazirlər Sovetinin dolayısı ilə Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılmasına yönəlmiş “Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi haqqında” qərarının qəbul edilməsi və 1989-cu ilin yanvarında SSRİ Ali Soveti Rəyasət Heyətinin “Dağlıq Qarabağda Xüsusi İdarəetmə Forması yaratmaq haqqında” fərman verməsi ölkəmizin ərazi bütövlüyünün pozulmasına qarşı ermənilər tərəfindən planlı şəkildə icra olunan tədbirlərin birbaşa imperiya rəhbərliyi tərəfindən dəstəkləndiyini göstərirdi.

Bütün bunlarla, eyni zamanda, Ermənistan ərazisində yaşayan azərbaycanlıların öz tarixi torpaqlarından qovularaq çıxarılması və buna SSRİ rəhbərliyi tərəfindən göstərilən "görməzlik" soydaşlarımıza qarşı həyata keçirilən etnik təmizləmə siyasətinin məhz İttifaqın "yardımı və strategiyası" ilə baş tutmasına heç bir şübhə yeri qoymurdu. Azərbaycan SSR rəhbərliyinin isə baş verən proseslərə sanki ciddi heç bir şey olmamış kimi, seyrçi münasibət göstərməsi, özünü "bilməzliyə" və "eşitməzliyə" vurması, ümummilli maraqların müdafiəsi yolunda heç bir əməli addımın atılmaması xalqın əsəblərini tarıma çəkmiş, onun səbr kasasını doldurmuşdu.

Mübarizə meydanında tək qaldığını görən Azərbaycan xalqının səfərbər olmaqdan başqa çarəsi yox idi. Bütün ümidlər haqsızlığa qarşı həmişə öz etiraz səsini ucaltmağı bacaran, öz tarixi yurdunu düşmənlərdən qanı bahasına qorumağa hər zaman hazır olan və monolit gücünü öz milli varlığında hiss edən Azərbaycan xalqına idi. Azərbaycanlılara qarşı məqsədli şəkildə həyata keçirilən bu fitnəkar siyasət öz hüquqları və ərazi bütövlüyü uğrunda meydanlara atılmış həmvətənlərimizin ürəklərində azadlıq yanğısını daha da alovlandırmışdı. Artıq xalq mövcud olduğu bütün müddətdə sovet imperiyasının yürütdüyü repressiv siyasəti öz tarixinə və milli mənliyinə vurulmuş bir ləkə kimi görürdü. Azadlıq eşqi ilə yanan Vətən övladları bu ləkəni öz qanları bahasına da olsa, yumağa hazır idilər.

O zaman xalqı etiraz səsini ucaltmağa vadar edən çox sayda obyektiv səbəblər mövcud idi. Mərkəzi hökumət tərəfindən milli mənafeyimizə zidd siyasətin yürüdülməsi, bu siyasətin qarşısının alınması üçün ölkə rəhbərliyi tərəfindən heç bir tədbir görülməməsi xalqla hakimiyyət arasında yaranmış uçurumu daha da dərinləşdirməklə kütləvi etiraz dalğasının baş qaldırmasına rəvac vermişdi. Belə bir məqamda insanların haqlı etirazlarını dinləmək, mövcud problemlərin siyasi yolla həll edilməsinə yönəlmiş addımlar atmaq əvəzinə, imperiyanın öz ənənəsinə sadiq qalaraq zora əl atması – onun antihumanist təbiətini və ən iyrənc yollarla belə həyata keçirməyə hər an hazır olduğu imperialist siyasətini tam aydınlığı ilə ifşa etmiş oldu.

Meydanlara öz haqq səsini ucaltmaq, milli heysiyyatını və milli mənliyini qorumaq əzmi ilə çıxan fədakar vətən övladları bütün gözlənilməzliklərə hazır idilər. Amma hələ də heç kim bu gözlənilməzlikləri gözləmirdi. Çünki sovet rəhbərliyinin 70 il bir dam altında yaşadığı öz vətəndaşlarına qarşı bu qədər qəddarlıq nümayiş etdirəcəyi ağlasığmaz görünürdü. Ölməz şairimiz Bəxtiyar Vahabzadənin dediyi kimi: "Axı, heç kəsin ağlına gələ bilməzdi ki, qəlbi Vətən hissi ilə çırpınan, əli silahsız, özü günahsız olan bu atalar, analar, balalar özünü dost kimi, qardaş kimi qələmə verən bir ordunun əlində qətlə yetirilsin". Lakin inanmaq istədiyimiz xoş sonluqlu ehtimal özünü doğrultmadı.

Soyuq 20 Yanvar səhəri açılmağa macal tapmamış bəşər tarixinin insanlığa sığmayan ən faciəvi hadisələrindən biri – Bakı küçələrində dinc nümayişçilərin güllələbaranı baş verdi: nəyin bahasına olursa-olsun milli mücadiləni boğmaq və yatırtmaq məqsədi ilə Azərbaycana yeridilən rus qoşunları Bakıda və respublikanın müxtəlif rayonlarında 147 nəfər mülki şəxsi küçələrdə, evlərində, avtomobillərində, iş yerlərində qətlə yetirdi, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu.

O müdhiş gecənin aydınlığa dönməsi Bakının ürəkağrıdan dəhşətli mənzərəsinə işıq saldı. Xalq düşmən tankının tırtılları altında parçalanmış, sinələri düşmən güllələrindən deşik-deşik olmuş övladlarını qan gölündə tapdı. Bu, Azadlığın bərpasına gedən yolda ilk şəhidlərin verildiyi 20 Yanvar səhəri idi.

Nə qədər hüznlü və acı olsa da, xalq öz qəhrəman övladlarını son mənzilə yola salmağa özündə güc tapdı. Haqq, azadlıq yolunda şəhidlik zirvəsinə ucalmaq nə qədər şərəfli idisə, düşmən silahının nişangahında Vətənin şəhidlərini layiqincə son mənzilə yola salmaq da bir o qədər namus və şərəf məsələsi idi. Xalq sarsılmadı, əyilmədi, qorxmadı. Qanlı faciənin qurbanları azadlığı uğrunda can verdiyi Vətən torpağına yüzminlərin çiyinlərində daşındılar və müqəddəs torpaqda əbədiyyətə qovuşdular. Bu müqəddəs torpaq hələ əsrin əvvəllərində – 1918-1920-ci illərdə Vətənin azadlığı və ərazi bütövlüyü uğrunda canını qurban vermiş soydaşlarımızı öz qoynuna almışdı.

Hələ o zaman xalqın istiqlalı uğrunda şəhid olmuş azadlıq carçılarının dəfn edildiyi Şəhidlər xiyabanı bu dəfə də eyni amal uğrunda mübarizəyə qalxmış qəhrəman oğullarını öz bağrına basırdı. O qəhrəman oğulları ki, ucaldıqları məbəddən əbədi və dönməz olan istiqlaliyyət yolumuza hər zaman şəfəq saçır. O günə qədər yəqin heç kimin ağlına gəlməzdi ki, Azərbaycanda bu qədər qərənfil var! Sanki, o qərənfillər "öz ayaqları ilə" şəhidlərin qəbri üstünə sərilməyə gəlmişdilər. Şəhidlərin məzarları üzərinə sərilmiş milyonlarla qərənfil 20 yanvar gecəsində onların Vətən torpağına axıdılan al qanını xatırladırdı.

Həmin günün mənzərəsi faciəvi olduğu qədər də möhtəşəmdir. Azadlığımızın bərpası yolunda ilk şəhidlərin verildiyi Qanlı Yanvar gecəsi cəsarətin, fədakarlığın, milli məfkurənin dönməz oyanışının əyani təcəssümü idi.Baş verən hadisələr xalqımızın azadlıq arzusunun, müstəqillik idealının 70 il davam edən sovet hərb maşınının repressiyasına rəğmən sönmədiyini, əksinə, yeni güc qazandığını bir daha nümayiş etdirdi.

Bununla Azərbaycan xalqı zülmə, ədalətsizliyə və zorakılığa boyun əyməyəcəyini, milli iradəsinin sarsılmazlığını təkcə imperiya rəhbərliyinə deyil, bütün dünyaya göstərdi və özünün milli azadlığı uğrunda mübarizəsinin dönməz olduğuna şübhə yeri qoymadı. Qəhrəmanlıqla dolu keçmişi, dövlətçilik ənənəsi olan, böyük bir coğrafiyada dövlətlər yaratmış, zaman-zaman yadellilərə qarşı səfərbər olub birgə mübarizə aparmış, dünya mədəniyyət xəzinəsinə öz dəst-xətti ilə dəyərli töhfələr vermiş bir millət uzun müddət əsarət altında yaşaya bilərdimi?

Öz keçmişindən, sanki, qan damarları ilə axıb gələn vətən sevgisi, milli özünüdərk, zülmə, ədalətsizliyə boyun əyməmək kimi hisslərə malik olan bir xalq öz çiyinlərində bu əsarətin ağırlığını, ağrı-acısını çoxmu çəkəcəkdi? İyirminci əsrin əvvəllərində öz tarixi dövlətçilik ənənələrinə dayanaraq Şərqdə ilk demokratik dövlət quran bir xalq qısa zaman kəsiyindən sonra yenidən imperiya caynağına düşməsini uzun müddət necə qəbul edə bilərdi?! 20 yanvar faciəsi, sözün əsl mənasında, xalqımızın milli özünüdərkində yeni bir mərhələnin başlanğıcı oldu. Xalq öz qərarını verdi: “Yolumuz Azadlıqdır!”

Siyasi və iqtisadi böhranlar məngənəsində boğulan və boğulduqca daha da azğınlaşan, 70 il özünə bayraq etdiyi kommunizm ideyalarının iflası artıq heç kimdə şübhə doğurmayan və dayaqları çökməyə başlayan Sovet imperiyası bu hadisəni törətməklə nəyə nail olmaq istəyirdi? Tarixin səhnəsindən birdəfəlik silinmək ərəfəsində imperiyanın ucqar bir ölkəsində əvvəlcədən qurulmuş plan əsasında dinc nümayişçilərin güllələbaran edilməsinə qərar verənlər nəyə ümid edirdilər? Az sonra – imperiya çökəndən sonra aydın olacaqdı ki, bu qərarı verənlərin və bu faciəni törədənlərin özlərinin də bu suallara cavabları yox imiş.

Baş verənlər isə Azərbaycan xalqının milli mübarizə əzmini və iradəsini sındıra bilmədi. Əksinə, 20 Yanvar hadisəsi öz qanunauyğun məntiqi və zəncirvari təsiri ilə bütün imperiya ərazisində milli azadlıq hərəkatlarının yenidən daha böyük vüsətlə alovlanmasına və Sovet İttifaqının süqutunun daha da sürətlənməsinə rəvac verdi. Bu hadisə sovet imperiyası üçün “sonun başlanğıcı” oldu. Bu faciənin baş verməsinə qədər ölkədə mövcud problemlərin, baş qaldırmış etirazların siyasi yolla həll olunacağına ümidlər hələ də qalmaqda idi. Lakin bir nəslin yaşaya biləcəyi qədər ömür yaşamış imperiya özü ilə həmyaşıd olan vətəndaş nəslinin böyüklü-kiçikli hamısına atəş açmaqla bu ümidləri tamamilə al-üst etdi.

O zamana qədər hələ də Azərbaycanın müstəqilliyinə müəyyən qədər skeptik yanaşanlar da bu hadisənin baş verməsi ilə artıq imperiya boyunduruğunda yaşamağın qeyri-mümkünlüyünü dərk etdilər və milli azadlıq hərəkatının aktiv iştirakçılarına çevrildilər. Bu faciəvi olay onilliklər ərzində insanlara sırınan “humanist” əsaslı kommunizm ideologiyasının puçluğunu sübut etdi və məhz bu hadisədən sonra kommunist partiyasından kütləvi istefalar, cəmiyyətin bütün təbəqələri tərəfindən müxtəlif formalarda ifadə olunan etirazlar ittifaqın hər yerini bürüdü və onun dayaqlarını sarsıtdı. Həmin ərəfədə SSRİ-nin bir çox respublikalarında ittifaq əleyhinə etirazlar baş qaldırmışdı. Gürcüstan və Baltikyanı ölkələrdə də hərbi qoşun hissələri tərəfindən dinc nümayişçilərə qarşı silah tətbiq olunmuşdu. Lakin Azərbaycanda baş qaldıran etirazlara qarşı törədilmiş 20 Yanvar hadisəsi öz qəddarlığı, misli görünməmiş vəhşiliyi və dağıdıcı miqyası ilə əvvəlki olaylardan çox fərqlənirdi.

Xüsusi qəddarlıqla müşayiət olunan kütləvi qətliam aktının həyata keçirildiyi müddətdə SSRİ müdafiə naziri Dmitri Yazovun, daxili işlər naziri Vadim Bakatinin və digər yüksək rütbəli hərbçilərin Bakıda olması bu qanlı cinayət əməlinin əvvəlcədən planlaşdırılmış olduğunu göstərirdi. İmperiyanın hərbi qoşun hissələrinin fövqəladə vəziyyət elan edilmədən Bakıya yeridilməsi həm ölkə qanunvericiliyinin, həm də beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması demək idi. “Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında” SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı yalnız qanlı cinayət hadisəsi törədildikdən sonra elan edilmişdi.

Görünür, imperiya rəhbərliyinin xalqımıza qarşı qəzəb hissi o qədər güclü və hərbi təcavüz həyata keçirmək niyyəti o qədər qəti idi ki, törətdiyi qeyri-insanlıq aktına əvvəlcədən “hüquqi don” geyindirməyə belə ehtiyac duymamışdı. Baş verəcək hadisələrin və faciənin miqyası barədə məlumatların geniş xalq kütləsinə çatdırılmasının qarşısını almaq məqsədi ilə Azərbaycan Televiziyasının enerji blokunun partladılması da qanlı cinayət əməlinin əvvəlcədən müəyyən edilmiş plan əsasında həyata keçirildiyini bir daha göstərir. Bununla respublika televiziyası və radiosunun verilişləri tamamilə kəsilmiş və bütün ölkə ərazisində informasiyasızlıq mühiti yaradılmışdı.

Ancaq həmişə millətləri qaranlıqda və məlumatsızlıqda idarə etməyə alışmış düşmənlərimiz bilmirdilər ki, bu zaman insanların səsini bir-birinə çatdıran, o səsləri Xalqın Səsinə çevirən yenilməz bir qüvvə vardı bu millətin canında. Bu, onların Azadlıq sevgisi idi! Bu sevgini boğmağa isə heç bir vəhşi yumruğun gücü çatmayacaqdı! İmperiyanın zor gücünə söykənmiş siyasəti ilə Azərbaycan xalqının məğrurluğu və qırılmaz iradəsi qarşılaşarkən, hansı tərəfin məğlubiyyətə düçar olacağı əvvəlcədən aydın idi. Sadəcə, Mixail Qorbaçov və onun ətrafındakı cinayətkarlar bunu anlaya bilməzdilər.

Yarandığı gündən etibarən, xalqımıza qarşı qərəzli siyasət yürüdən sovet imperiyası belə bir qəddarlıq aktı ilə özünün düşmənçilik "ənənəsindən" əl çəkmədiyini bir daha göstərdi. Qorbaçov başda olmaqla, İttifaqın bütün vəzifəli şəxslərinin ciddi heç nə olmamış kimi davranmaları, törətdikləri qanlı cinayəti ört-basdır etmək cəhdləri Azərbaycan xalqına qarşı olan qərəzin və nifrətin açıq təzahürü idi. Azərbaycan SSR rəhbərliyinin qanlı olay barədə bəyanat belə verməməsi, belə bir çətin anda xalqın dərdinə şərik çıxmaması xüsusilə təəssüf doğuran məqam idi.

20 Yanvar faciəsinin 10-cu ildönümü haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanında göstərildiyi kimi: "Xalqın tələbi və bir qrup deputatın təşəbbüsü ilə Azərbaycan SSR Ali Sovetinin 1990-cı il yanvarın 22-də Yanvar faciəsi ilə bağlı çağırılmış sessiyasına respublikanın bir sıra siyasi və dövlət rəhbərlərinin gəlməməsi isə onların xalqın taleyinə biganə qaldıqlarını, törədilmiş cinayətdə bu və ya digər dərəcədə iştirak etdiklərini bir daha təsdiq etmişdir. Respublika rəhbərliyi hətta şəhidlərin dəfn mərasiminə gəlməyi belə lazım bilməmişdi". Bu fakt bir daha hakimiyyətlə xalq arasında o zaman dərin uçurumun yarandığını və hakimiyyətdə təmsil olunan şəxslərin xalqın iradəsini ifadə etmək iqtidarında olmadığını göstərirdi.

Qanlı yanvar faciəsindən sonra bu hadisəyə verilən reaksiyalar və ya ümumiyyətlə hadisəyə münasibət bildirilməməsi kimin kim olduğunu və kimin hansı məqsədə xidmət etdiyini tam aydınlığı ilə göstərdi. Xalqın taleyüklü bir anında ümummilli lider Heydər Əliyevin ən faciəvi günlərindən birini yaşayan Azərbaycanın xalqının acısına şərik çıxması – onun öz xalqına olan sonsuz məhəbbətinin ifadəsi idi. Sovet qoşunlarının Bakıda törətdiyi qanlı hadisə ilə bağlı elə ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək öz xalqına başsağlığı diləyən Heydər Əliyev, xüsusi qəddarlıqla törədilmiş cinayətin təşkilatçılarını və icraçılarını cəsarətlə ittiham etdi və onların cəzalandırılmasını tələb etdi.

Bu qanlı faciənin önlənə bilməsi üçün bütün imkanların mövcud olduğu bir şəraitdə belə bir qeyri-insani hadisənin törədilməsini kökündən yanlış addım kimi qiymətləndirən Heydər Əliyev bu cür yollarla Azərbaycan xalqının iradəsini qırmağın mümkün olmadığını və olmayacağını açıq şəkildə bəyan etdi. Bütün təhlükələrə baxmayaraq, xalqımıza qarşı törədilmiş qanlı faciənin əsl səbəbkarlarının elə həmin gün imperiyanın mərkəzindən bütün dünyaya bəyan edilməsi –xalqımızın üzləşdiyi ən çətin məqamlarda Heydər Əliyevin ümummilli mövqedən çıxış etmək cəsarətini, onun təkcə xalqın qələbələrinin deyil, həm də dərdinin önündə dayandığını bir daha sübut etdi.

Cinayətin törədildiyi vaxtdan keçən bir neçə illər ərzində 20 Yanvar hadisələrinə lazımi siyasi-hüquqi qiymətin verilməməsi də vacib məsələlərdən biri idi. Mövcudluğunun mahiyyətində zorakılıq və hegemonluq daşıyan imperiyanın onun rəhbərliyi tərəfindən verilən göstəriş əsasında baş vermiş bəşəri cinayətə hüquqi qiymət verə biləcək qədər səmimiyyətə və iradəyə malik olmadığı əvvəlcədən məlum idi. Ona görə də 1990-cı ilin dekabrında SSRİ Baş Hərbi Prokurorluğunun hərbi qulluqçuların 20 yanvarda Bakıda baş vermiş hadisələrlə bağlı əməllərində cinayət tərkibi görməyərək işə xitam verməsi heç kimi təəccübləndirməmişdi. Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi tərəfindən faciəli olayların araşdırılması ilə bağlı yaradılmış İstintaq komissiyasının fəaliyyətinin heç bir nəticə və heç bir əsas olmadan dayandırılması isə təəccüb doğurmaya bilməzdi.

Bu, o zamankı ölkə rəhbərliyinin baş vermiş qanlı faciəyə siyasi-hüquqi qiymət verə bilmək iqtidarında olmadığını nümayiş etdirirdi. Təəssüf ki, daha sonra 1992-ci ilin 19 yanvarında qəbul edilmiş "1990-cı il yanvarın 19-20-də Bakı şəhərinə qoşunların yeridilməsi ilə əlaqədar faciəli hadisələrin təfsilatının və səbəblərinin təhqiqi üzrə Azərbaycan Respublikası Ali Soveti komissiyasının işinin yekunlarına dair" Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurasının qərarında da ölkənin ali qanunverici orqanının qeyd olunan komissiyanın fəaliyyətinin qənaətbəxş olması ilə kifayətlənməsi, qanlı hadisənin sifarişçiləri və icraçılarının göstərilməməsi Azərbaycan xalqına qarşı törədilmiş ən ağır cinayətlərdən biri olan 20 Yanvar faciəsinə ciddiyyətinə və əhəmiyyətinə görə qiymət verilmədiyini bir daha təsdiqlədi.

20 Yanvar hadisələrinin təkcə xalqımıza qarşı deyil, bütün insanlığa qarşı cinayət olduğunu sübut etmək, faciə qurbanlarının hüquqlarının müdafiəsini təmin etmək, axıdılmış günahsız qanların səbəbkarlarının cəzalandırılması üçün siyasi, hüquqi zəmin formalaşdırmaq olduqca önəmli məsələ idi. Məhz buna görə Prezident Heydər Əliyevin "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" 5 yanvar 1994-cü il tarixli fərmanında Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası tərəfindən 1992-ci ildə qəbul olunmuş müvafiq qərarda Yanvar hadisələrinin əsl səbəblərinin açıqlanmadığı və həqiqi günahkarların aşkar edilmədiyi nəzərə çatdırıldı və Azərbaycan Respublikasının Milli Məclisinə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməsi və bu məqsədlə Milli Məclisin xüsusi sessiyasının keçirilməsi tövsiyə edildi.

Beləliklə, 1994-cü ilin martında Azərbaycan Respublikasının Milli Məclisi 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilməsi haqqında xüsusi qərar qəbul etdi. Bu qərarın qəbul edilməsinin əhəmiyyəti ondan ibarət idi ki, haqq və ədalətin müdafiəsi naminə küçələrə çıxmış silahsız adamların qəddarcasına qətlə yetirilməsi hərbi təcavüz və hərbi cinayət kimi qiymətləndirildi, qanlı faciənin sifarişçiləri və icraçıları açıq şəkildə bəyan edildi və bu cinayətin istintaqını həyata keçirən hüquq-mühafizə orqanlarının fəaliyyətinin qənaətbəxş olmadığı bildirildi. Bununla da, nəhayət ki, qanlı faciəyə dövlət səviyyəsində münasibət bildirilməsi təmin edildi.

Faciədən 30 ilə yaxın bir dövr keçir. Əbədi, dönməz və sarsılmaz müstəqilliyimizin işığında yaşayan xalq hər il yanvarın 20-də Şəhidlər xiyabanına üz tutur, azadlığımızın qandallarını sındırmış şəhidlərimizi ehtiramla yad edirlər. Şəhidlər xiyabanını ziyarətə gələn yüz minlərlə həmvətənimiz azadlığımız uğrunda şəhid olmuş soydaşlarımızın məzarı qarşısında baş əyərək onların xatirəsini əziz tuturlar.

Prezident İlham Əliyevin Şəhidlər xiyabanını ziyarət edərkən vurğuladığı kimi: “Azərbaycan xalqı bu günü heç vaxt yaddan çıxarmayacaq. Azadlıq, müstəqillik uğrunda, vətən uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxarılmamalıdır.”

Bəli, torpaqlarımızın bütövlüyü və müstəqilliyimiz uğrunda mübarizədə qurban getmiş şəhidlər unudulmaz. Onlar xalqın azadlığı yolunda canlarından da keçməyə hazır olduqlarını göstərdilər və bu yolla getdilər. Ölümə gedən yollar onları ölməzliyə – Əbədiyyətə, xalqımızı isə Azadlığa qovuşdurdu. Bu bir tarixdir. Qanlı, amma Şərəfli bir tarix.

**Xalq qəzeti**. - 2019.- 20 yanvar. - № 15. - S. 5.

## 20 Yanvar – çökməkdə olan imperiyanın kobud siyasi səhvi

**Əliqismət Bədəlov**

**Yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun, SSRİ DİN-in böyük kontingenti Bakı şəhərinə yeridilmişdir. Nəticəsi isə göz qabağındadır. Bunun törətdiyi faciələr hamımıza məlumdur. Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Bəli, kobud siyasi səhv buraxılmışdır. Onlar, sadəcə olaraq, respublikadakı əsl vəziyyəti qiymətləndirə bilməmiş, Azərbaycan xalqının psixologiyasını anlamamış, əhalinin müxtəlif təbəqələri ilə əlaqələri zəiflətmişlər. Onlar, görünür, bu işlərin belə ağır faciəyə çevriləcəyini əvvəlcədən düşünməmişlər.**

**Ulu öndər Heydər Əliyevin 1990-cı il 20 Yanvar faciəsi ilə əlaqədar Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyində keçirilmiş mətbuat konfransındakı çıxışından**

**O vaxt Moskvada xüsusi nəzarət altında yaşayan ulu öndər özünün və ailə üzvlərinin həyatını ciddi təhlükə qarşısında qoyaraq, yanvarın 21-də silahdaşı, o çətin günlərdə atasını bir an belə tək qoymayan İlham Əliyevlə birlikdə Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəldi və bu qətliama kəskin etirazını bildirdi, dinc əhaliyə qarşı törədilmiş bu amansız faciəni törədənləri, şəxsən Mixail Qorbaçovu ittiham etdi.**

Heydər Əliyev qoşunların dərhal Bakıdan çıxarılmasını tələb etdi. Ulu öndərin 1990-cı il 21 yanvar tarixli bəyanatı həm də faciəyə verilən ilk siyasi qiymət idi. Özü də Moskvada, Kremlin bir addımlığında, imperiyanın mərkəzində. SSRİ-nin o vaxtkı rəhbəri anadangəlmə qan ləkəli Mixail Qorbaçov əlini günahsız insanların qanına batırmaqdan sanki həzz alırmış kimi, SSRİ-nin digər bölgələrində də, o cümlədən Tbilisidə və Baltikyanı respublikalarda belə bir qətliamın törədilməsinə rəvac vermişdi. O, tutduğu kürsünü, vəzifəni itirmək xofu yaşadığından hansı respublikada etiraz aksiyası baş qaldırırdısa, dərhal həmin yerə təpədən-dırnağadək silahlanmış qoşun yeridir, insanları amansızcasına qətlə yetirmək tapşırığı verirdi. Azərbaycanda törədilən faciələrə qədər digər ölkələrdə baş vermiş belə hadisələr qan tökülməsindən əvvəl Sovet rəhbərliyi, xalq deputatları səviyyəsində müzakirə edilsə də, respublikamızda törədilmiş 20 Yanvar faciəsi şüurlu şəkildə müzakirəsiz, xəbərdarlıqsız həyata keçirilmişdi.

Ulu öndər də Moskvada keçirdiyi mətbuat konfransında ilk növbədə bu məqamları diqqətə çatdırmışdı: “Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm”.

Azərbaycanda yaranmış mürəkkəb vəziyyət və bu faciəyə gətirib çıxaran səbəblər barəsində mətbuat konfransında iştirak edən nümayəndələrə məlumat verən ümummilli lider bunu Azərbaycan və Ermənistan arasında millətlərarası münaqişə ilə əlaqələndirmişdi: “Həmin münaqişəni Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr törətmişdir. Azərbaycan və Ermənistana, eləcə də, ölkənin ali siyasi partiya rəhbərlərinə bu məsələni tənzimləmək, daxili müharibəyə, millətlərarası münaqişəyə son qoymaq və milli mənsubiyyətindən asılı olmayaraq, hər bir adamın ümumi federativ ittifaq olan SSRİ-də azad yaşamasına şərait yaratmaq üçün iki illik müddət kifayət idi.

Hesab edirəm ki, ötən iki ildə bu istiqamətdə lazımi səviyyədə iş aparılmamışdır. Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı”.

20 Yanvar faciəsi ərəfəsində respublikaya rəhbərlik edən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin sabiq birinci katibi Əbdürrəhman Vəzirovun mövqesizliyi, yaramaz iş üslubu, yanlış siyasi manevrləri xalqın tarıma çəkilmiş əsəblərini daha da gərginləşdirirdi. Özlərini “azadlıq mücahidləri” kimi tanıdan Xalq Cəbhəsinin aparıcı üzvlərinin, həmçinin Azərbaycan DTK sədri Vaqif Hüseynovun və hakimiyyətdə təmsil olunan digərlərinin öz vəzifələrini qoruyub saxlamaq üçün bu faciənin kütləvi qan-qada ilə müşayiət olunmasında rolu az olmayıb. Ə.Vəzirovun Kremlin hər bir tapşırığını müticəsinə yerinə yetirməsi, antimilli mövqeyi, digər tərəfdən Mixail Qorbaçovun Azərbaycan ərazilərini öz atasının mülki kimi ermənilərə verməsi Bakını və Azərbaycanın digər şəhər və rayonlarını etiraz dalğasına bürümüşdü. Bütün bunlar xalqla ölkə rəhbərliyi arasında dərin uçurum yaratmışdı. Bunun acınacaqlı sonluğu yanvarın 19-dan 20-nə keçən gecə

özünü büruzə verdi. Ulu öndər keçirdiyi mətbuat konfransında vəziyyətin sabitləşdirilməsinə imkan olduğunu bildirmişdi: "Hesab edirəm ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur. Təəssüf ki, Azərbaycan rəhbərliyi, həmçinin ölkənin ali siyasi rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir. Sərhədlərə edilən təcavüzü vaxtında aradan qaldırmaq mümkün idi. Axı üç ay əvvəl sərhəd zolağı ilə bağlı camaat öz tələblərini irəli sürmüşdü. Fəqət heç kəs onlarla görüşmək, izahat işi aparmaq və lazımi ölçü götürmək istəməmişdir".

Heydər Əliyev bu gərgin vəziyyətdən çıxış yolunun olduğunu bildirmişdi: "Camaatı sakitləşdirmək üçün də imkanlar tükənməmişdi. İki-üç ay əvvəl Azərbaycan partiya rəhbərliyinin möhkəmləndirilməsi məsələsi həll edilsə idi, vəziyyət gərginləşməz, ordu yeridilməsinə zərurət yaranmazdı. Bütün vəziyyətlərdə hesab edirəm ki, məsələni siyasi cəhətdən tənzimləmək, xalqla mükaliməyə girmək üçün əlverişli imkanlar olmuşdur. Lakin onlardan səmərəli istifadə edilməmişdir".

Heydər Əliyev belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət, kobud siyasi səhv adlandırmışdı. Bu faciənin təşkilatçılarını respublikadakı əsl vəziyyəti qiymətləndirə bilməməkdə, Azərbaycan xalqının psixologiyasını anlamamaqda, əhalinin müxtəlif təbəqələri ilə əlaqələri zəiflətməkdə ittiham etmişdir.

Azərbaycana kənardan böyük ordu kontingenti yeridilməsini kəskin tənqid edən ulu öndər buna ehtiyac olmadığını da diqqətə çatdırmışdır: "Respublikada neçə ordu birləşməsinin olduğu mənə yaxşı bəllidir. Azərbaycanda kifayət qədər – 4-cü ordu, Xəzər Hərbi Dəniz Donanması, desant qoşunlarının diviziyası, Hava Hücumundan Müdafiə Qoşunları, DİN-in daxili qoşun birləşmələri vardır. Oraya əlavə qoşun yeritmək nəyə lazım idi? Əgər belə zərurət var idisə, orada yerləşən hərbi hissələrdən də istifadə etmək olardı. Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə bərk ayaqda Azərbaycanı qoyub qaçmış Vəzirov, öz xalqı qarşısında məsuliyyət daşımalıdır. Ölkənin ali siyasi rəhbərliyinə yanlış məlumat verənlər də məsuliyyət - daşımalıdır".

Ulu öndər qırğın törədənlərin hamısının layiqincə cəzalandırılmasını tələb etmişdir. Kremlin bir addımlığında ölkənin siyasi rəhbərliyini atdığı səhv addımına görə, kəskin tənqid etmək böyük cəsarət və risk tələb edirdi. Ulu öndər özünün və ailə üzvlərinin həyatını təhlükə qarşısında qoyaraq, bu qətiyyəti nümayiş etdirdi və öz xalqına, millətinə, Vətəninə sadiqliyini, sonsuz məhəbbətini bir daha göstərdi.

Beynəlxalq birlik 1956-cı ilin Budapeşt, 1968-ci ilin Praqa, o cümlədən 1989-cu ilin Tbilisi, 1991-ci ilin Riqa və Vilnüs hadisələrinə müvafiq hüquqi qiymət verdiyi halda, 1990-cı ilin yanvarında Bakıda törədilmiş qanlı faciəyə fərqli prizmadan baxdı. 1990-cı ilin dekabrında isə Qorbaçova hətta Nobel Sülh mükafatı da verildi. Bu da törətdiyi qanlı əməllərin "mükafatı" idi.

Azərbaycanın o vaxtkı rəhbərliyinin cəsarətsiz və qorxaq siyasəti, kölə psixologiyası üzündən 20 Yanvar nəinki beynəlxalq, hətta İttifaq müstəvisində də layiq olduğu hüquqi-siyasi qiyməti almamışdı. Bu qanlı faciədən sonra ölkə rəhbərliyinin atdığı addımlar cəsarətsizlik və siyasi təslimçilik nümayişi idi. Onların kölə psixologiyasının nəticəsi olaraq 20 Yanvar hadisələri yanlış yozuma və unutqanlığa məhkum edilmişdi.

1990-cı ilin yanvarından sonra hakimiyyətdə olan qüvvələrin bu məsələdə ilk vəzifəsi faciəni təhlil etmək, günahkarları üzə çıxarmaq və dövlət səviyyəsində siyasi-hüquqi qiymət vermək olsa da, respublika əhalisinin təkidli tələblərinə baxmayaraq, bununla bağlı 1993-cü ilə qədər faktiki olaraq heç bir tədbir görülməmişdi. 1990-cı il yanvar ayının 22-də çağırılan Azərbaycan Ali Sovetinin fövqəladə sessiyası öz işini yarımçıq qoymuş və sonrakı sessiyalarda bu məsələnin müzakirəsini davam etdirməmişdi. Ali Sovetin yanvar hadisələrini tədqiq etməli olan komissiyasının işi başa çatdırılmamış qalmışdı.

1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra 1990-cı ilin qanlı Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi.

"20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 1994-cü il tarixli fərmanında deyilirdi: "Xalqımızın tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı ilin yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermişdir. Tarixin yaddaşına qanla yazılmış həmin gündən bizi 4 illik zaman məsafəsi ayırır. Təəssüf ki, 4 il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilməmişdir".

Fərmanda Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymətin verilməsi, bu məqsədlə parlamentin xüsusi sessiyasının keçirilməsi məsələsinə baxılması tövsiyə edilirdi. Milli Məclisdə müzakirələrin yekunu olaraq 1994-cü il martın 29-da qəbul edilən qərarda, nəhayət ki, 1990-cı ilin 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. Qərarda 1990-cı ilin 20 Yanvar hadisələri Azərbaycanda vüsət almış milli-azadlıq hərəkatını boğmaq, suveren bir dövlət amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, belə bir yola qədəm qoyan xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirildi.

XX əsrdə totalitarizmin törətdiyi ən qanlı terror aktları sırasında 20 Yanvar cinayəti də var. Bu, bəşəriyyət və insanlıq əleyhinə törədilmiş dəhşətli əməl idi. Dinc əhaliyə qarşı həyata keçirilən cəza tədbirləri zamanı 1949-cu ilin Cenevrə Konvensiyasının, Beynəlxalq Hərbi Tribunalın Əsasnaməsinin, Beynəlxalq İnsan haqları Bəyannaməsinin, insan hüquqlarına dair digər beynəlxalq aktların çoxsaylı müddəaları pozulmuşdu.

Hər il 20 Yanvar faciəsinin ildönümü izdihamlı ziyarətlərlə müşayiət edilir, xalq istiqlal fədailərinin məzarlarına faciənin simvoluna çevrilmiş al qərənfillər düzür, onları qürurla anır, bu qətliamı törədənləri lənətləyir.

**Xalq qəzeti. -** 2019.- 19 yanvar. - № 14. - S. 5.

## 20 Yanvar faciəsi xalqımızın qəhrəmanlıq salnaməsində xüsusi yer tutur

**Musa Urud,**
Milli Məclisin deputatı, şair-publisist

***20 Yanvar faciəsi Azərbaycan xalqının yaddaşından heç vaxt silinməyəcəkdir. Şəhidlərimizin əziz ruhu daim yaşayacaq, onların əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

**XX əsrin 80-ci illəri Sovet imperiyasının ən mürəkkəb və tənəzzül illəridir. Artıq sosializm bir ideologiya və sosial-iqtisadi münasibətlər sistemi kimi öz süqutunu yaşayırdı. Sov. İKP MK-nın baş katibi, eyni zamanda SSRİ prezidenti Mixail Qorbaçov və onun komandasının uğursuz siyasəti imperiyanın çöküşünü daha da sürətləndirdi, ictimai və sosial ədalətsizliyi artırdı, millətlərarası münasibətlərin son dərəcə korlanaraq, milli münaqişələrə çevrilməsinə gətirib çıxartdı.**

Yaranmış siyasi boşluq və dövlət idarəçiliyinin zəifləməsindən məharətlə istifadə edən və M.Qorbaçovun yaxın ətrafında təmsil olunmağı bacaran erməni millətçiləri Azərbaycana qarşı düşmən və separatçı niyyətlərini həyata keçirərək, Dağlıq Qarabağ Muxtar Vilayətini Azərbaycandan ayıraraq Ermənistana birləşdirmək tələbi ilə çıxış etməyə başladılar. Xankənddə və İrəvanda başlayan antiazərbaycan əhval-ruhiyyəli mitinqlər tezliklə Ermənistanı bürüdü.

Təəssüf ki, nə SSRİ hökuməti, nə Azərbaycanın o vaxtkı kommunist rəhbərliyi belə ciddi, dövlətin əsasını sarsıdan, ictimai sabitliyi pozan, milli düşmənçiliyi alovlandıran təxribatçı hərəkətlərə adekvat reaksiya verdi, nə də vaxtında lazımi tədbirlər gördü. Bu ədalətsizliyə etiraz edən, torpağının bölünməsinə, ərazi bütövlüyünün pozulmasına qarşı çıxan Azərbaycan xalqı meydanlara toplaşaraq respublika və ölkə rəhbərliyindən qanun-qaydanın, haqq-ədalətin bərpa olunmasını tələb etdi.

Ancaq nə meydanda, nə də hökumət binasında öz xalqının haqlı tələblərini qarşılaya biləcək, xalqı axıra qədər öz arxasınca apararaq qanunun və ədalətin təntənəsini təmin edəcək yetkin lider olmadı. Meydanda xalqa rəhbərlik etmək iddiasında olan, o dövrün etiraz dalğası üzərində yaranan Azərbaycan Xalq Cəbhəsi liderləri ilə ölkənin kommunist rəhbərliyi arasında fikir və əqidə birliyinin olmaması, əksinə, ideoloji ziddiyyətin mövcudluğu, böyük tarixi, milli mücadilənin hakimiyyət uğrunda savaş müstəvisinə keçirilməsi bəzi təxribatçı qüvvələrin əl-qol açmasına rəvac verdi. SSRİ DTK-nın və bəzi gizli ermənipərəst missioner təşkilatların dəstəklədiyi və maliyyələşdiriyi təxribatçı qruplar meydana çıxdı.

Azərbaycan xalqı ölkənin kommunist rəhbərliyinə antimilli mövqeyinə görə nifrət edir və ona inanmırdı. Buna görə də 1989-cu ilin sonlarında xalq Azadlıq meydanında davamlı etiraz aksiyasına başladı və Əbdürrəhman Vəzirovun istefasını tələb etdi. Xalqın etiraz mitinqləri artıq milli azadlıq mübarizəsi müstəvisinə keçməkdə idi. Bundan ehtiyat edən, eləcə də digər xalqların və millətlərin gözünü qorxutmaq, milli-azadlıq arzularını boğmaq məqsədi ilə Mixail Qorbaçov və komandası bütün qanunları və hüquqları pozaraq, öz mülki vətəndaşlarının üzərinə silahlı qoşun yeritdi.

O zaman M.Qorbaçovun yaxın silahdaşı Yevgeni Primakov, SSRİ müdafiə naziri Dmitri Yazov, daxili işlər naziri Vadim Bakatin və digər yüksək rütbəli hərbçilərin daxil olduğu böyük bir qrup Bakıya gəlmişdilər. Əhali qarşısında çıxış edən Yevgeni Primakov SSRİ rəhbərliyi adından bəyan etmişdi ki, Bakı şəhərində fövqəladə vəziyyət elan olunmayacaq və ordu şəhərə daxil olmayacaq.

Lakin bu vədlərə baxmayaraq, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet İttifaqının qoşun hissələri fövqəladə vəziyyət elan edilmədən Bakı şəhərinə və Azərbaycanın bir neçə rayonuna yeridilərək misli görünməmiş qanlı qətliam törətdi. Bu qanlı qətliamın tərkib hissəsi olaraq əhalinin informasiya təminatını kəsmək məqsədi ilə yanvarın 19-da Azərbaycan Televiziyasının enerji bloku partladıldı. Fövqəladə vəziyyət elan olunması barədə qərar isə yalnız qətliam gecəsinin səhəri əhaliyə çatdırıldı.

1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında ümummilli lider Heydər Əliyevin tövsiyəsi ilə Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi 29 mart 1994-cü il tarixli qərarda qeyd olunduğu kimi: “20 Yanvara qədər partiya, dövlət orqanları tərəfindən həyata keçirilən tədbirlərin, eləcə də Bakıda gedən ziddiyyətli proseslərin təhlili göstərir ki, yanvar faciəsi qabaqcadan planlaşdırılmış hərbi

əməliyyatın nəticəsi olmuşdur. 1989-cu ilin axırından yanvar hadisələrinə kimi respublika rəhbərləri Əbdürrəhman Vəzirov və Ayaz Mütəllibovun imzaları ilə Moskvaya ünvanlanan şifroqramlar buna əsaslı sübutdur".

20 Yanvar Bakı faciəsi həm də tarixin məhək daşı, sınaq günü kimi əhəmiyyətlidir. Məhz bu hadisədən sonra xalq həqiqi liderin də, yalançı rəhbərlərin də kimliyini bir daha açıq-aşkar şəkildə gördü və özü üçün yəqinləşdirdi. Bu dəhşətli gecədə xalq sarsıldı, matəmə batdı, dövlətə, Kommunist Partiyasına, hərəkat liderlərinə az-çox olan inamını birdəfəlik itirdi. Belə bir faciəli gündə Azərbaycanın o vaxtki kommunist rəhbərləri də, Xalq Cəbhəsinin liderləri də xalqın yanında olmaq, ona təsəlli vermək, iradəsini və mübarizə əzmini yüksəltmək əvəzinə qaçıb gizləndilər.

Lakin o zaman xalqımızın böyük oğlu Heydər Əliyev həyatını risk altında qoyaraq, oğlu İlham Əliyevlə Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək Bakıda baş verən qanlı qırğının günahkarlarını, Mixail Qorbaçovu və SSRİ hökumətini qətiyyətlə ittiham etdi: "Bakıda Sovet qoşunları tərəfindən Azərbaycan xalqına qarşı törədilən qanlı hadisə hüquqa, əxlaqa, mənəviyyata ziddir, xalqa qarşı tarixi cinayətdir".

1990-cı il 20 Yanvar Bakı qətliamına ən doğru qiyməti tarix özü verdi. Şəhidlərin qanı yerdə qalmadı, şər imperiyası dağıldı, Azərbaycan öz müstəqilliyinə qovuşdu, milli birlik və azadlıq arzusu qalıb gəldi.

20 Yanvar faciəsinin dərslərindən danışarkən ümummilli lider Heydər Əliyev çox haqlı olaraq qeyd edirdi: "Azərbaycan xalqı 20 yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi."

20 Yanvar həm də qəhrəmanlıq dərsi, ölümü öldürməklə əbədiyaşarlıq nümunəsidir. Bu qəhrəmanlara şeirlər, mahnılar həsr olunması, onların hünərlərinin dram əsərlərində, rəsmlərdə, povest və romanlarda əbədiləşməsi, şəhidliyi ölməzliyə qovuşduran bədii sənət nümunələrinin yaradılması 1990-cı ilin 20 Yanvar gününü təqvimin adi bir günündən qəhrəmanlıq salnaməsinə çevirən mənəvi dəyərlərdir.

**Xalq qəzeti**. - 2019.- 20 yanvar. - № 15. - S. 1,4.

**Bakı qırğını xalqımızın Azadlıq mübarizəsinə start verdi**

**Ziyad Səmədzadə,**
Milli Məclisin komitə sədri, akademik

***1988-ci ildə Qarabağ hadisələri başlananda ziyalılar xalq hərəkatına qoşulmuşdular və bir sıra taleyüklü məsələlərin müzakirəsində öz sözlərini deyirdilər. Lakin xalqla rəhbərlik arasında dərin uçurumun olduğu şəraitdə onların bəziləri öz mövqelərini müəyyən edə bilmədilər.***

Müxalifətin radikal mövqedən çıxış edən bəzi nümayəndələri ziyalıların əksəriyyətini, demək olar, qorxutmuşdu, amma başı bəlalar çəkmiş Azərbaycan xalqı daha ayılmışdı. Mərkəzin Azərbaycana sərt münasibəti isə dəyişmirdi, bu da respublikada onsuz da ağır olan ictimai-siyasi şəraiti daha da gərginləşdirirdi. Vəziyyətin daha da kəskinləşməsinə yol verməmək üçün xalq arasında nüfuz sahibi olan ziyalılar, qeydiyyatdan keçmiş Xalq Cəbhəsinin və digər təşkilatların nümayəndələri yaranmış vəziyyətdən çıxış yollarını müəyyən etmək üçün intensiv görüşlər keçirir, danışıqlar aparırdılar.

Amma ziyalılar çox böyük narahatlıq keçirirdilər. Azadlıq, müstəqillik sözləri o qədər tez-tez işlənirdi ki, onların öz əhəmiyyətini itirməsi təhlükəsi yaranırdı. Rəhbərlik ilə xalq arasındakı boşluğu doldurmaq istiqamətində konkret addımlar atılmırdı. Xalq tələb edirdi ki, respublika rəhbərliyi Qarabağ probleminin həllində daha prinsipial mövqe tutsun, xalqdan ayrı düşməmək üçün onun qayğıları, arzuları ilə yaşasın.

Tarixdən məlumdur ki, azadlıq siyasi mədəniyyətin yüksək olduğu şəraitdə daha az itki ilə əldə edilə bilər. Mərkəz çalışırdı ki, müxalifətdən olan radikal qüvvələr hər hansı bir təxribata əl atsınlar ki, onlara qarşı cəza tədbirləri görməyə bəhanə olsun, Qarabağ problemi kölgədə qalsın. Ermənistanın silahlı birləşmələri Azərbaycan kəndlərinə basqın edir, dinc əhalini öldürür, amma mərkəz səsini çıxarmır, biganəlik göstərirdi. Moskvada sovet rəhbərliyi gözləyirdi ki, Azərbaycan xalqı qəzəblənsin, hansısa bir hərəkətə əl atsın və bundan istifadə edən mərkəz öz gücünü işə salsın. Rəhbərlik və müxalifətdə olan qüvvələr bunu açıq-aşkar görə-görə düşmənə qarşı vahid cəbhədə birləşə bilmədilər.

Bunlar tarixi faktlardır, o dövrün reallıqlarıdır. O vaxt çoxları başa düşmürdü ki, mərkəz Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsinə, sözün əsl mənasında, ziyalıların rəhbərlik etməsini istəmir, elə ona görə də respublika rəhbərinin əli ilə xalq içərisində böyük nüfuzu olan ziyalıların siyasi meydandan uzaqlaşdırılması üçün bütün vasitələrdən istifadə edirdi.

1989-cu ilin son aylarında, 1990-cı illərin əvvəllərində respublikamızın hər yerində olduğu kimi, Bakının və onun ətraf kəndlərinin əhalisi də mərkəzin və erməni millətçilərinin xalqımıza qarşı xəyanətkar siyasətinə etiraz əlaməti olaraq küçələrə çıxmış, soyuğa, şaxtaya, yuxusuzluğa baxmayaraq, küçələrdə qurduqları maneələrdə (barrikadalarda) növbə çəkərək, sovet qoşunlarının Bakı şəhərinə daxil olmasına yol verməmək üçün bütün vasitələrdən istifadə etməyə hazır idi. Nə qədər bəsit olsa da, əhali müdhiş haqsızlığa və ədalətsizliyə qarşı mübarizə üçün özünün bacardığı bu yolu seçmişdi.

Qəzəblənmiş xalq azadlığa çıxmaq, Vətən torpağını müdafiə etmək üçün hər cür əzaba dözməyə hazır idi. Əlbəttə, ayrı-ayrı radikal qüvvələr əhalinin sadə lövhlüyündən istifadə edib, onu ordunun, tankların, zirehli maşınların qabağına çıxarmaqda xüsusi məqsəd güdürdülər. Hətta müxtəlif yerlərdə əhaliyə silah paylanacağı da vəd edilmişdi. Hadisələrin gedişindən hiss edilirdi ki, dinc əhaliyə qarşı SSRİ dövlətinin rəhbərliyi səviyyəsində qabaqcadan təxribatlar hazırlanmışdır.

Amma vəziyyətin getdikcə gərginləşdiyi günlərdə Sov. İKP MK-nın yüksək vəzifəli nümayəndələrinin əhali ilə görüşlərində, habelə kütləvi informasiya vasitələri ilə verilən məlumatlarda bildirilirdi ki, Bakıya qoşunlar daxil olmayacaq. Əslində isə vəziyyət başqa cür idi. Bakıda fövqəladə vəziyyətin elan olunacağı və qadağa saatının qoyulacağı vaxt xalqdan gizlədilir, şəhərə qəfil hücum hazırlanırdı.

Qoşunların Bakıya yeridilməsinə bir neçə gün qalmış hərbi komandanlıq Bakı şəhərindən hərbi qulluqçuların ailələrini SSRİ-nin müxtəlif regionlarına köçürməyə başlamışdı. Komandanlıq bu faktı onunla izah edirdi ki, guya, həmin tədbir Bakıda ekstremist qüvvələrin basqınlarının qarşısını almaq üçün həyata keçirilir. Bu, ağ yalan idi. Reallıq sübut edirdi ki, o dövrdə Bakıda, eləcə də digər rayonlarda rusdilli əhalinin təhlükəsizliyi üçün heç bir qorxu yox idi.

1990-cı il yanvar ayının 19-da saat 19:27-də Azərbaycan televiziyası sıradan çıxarıldı. Bir neçə saat sonra Bakının hər yerindən güclü atəş səsləri gəlməyə başladı. Hamı həyəcan içərisindəydi. Sovet qoşunları hər tərəfdən şəhərə soxulurdu. Küçələrdə qan su yerinə axırdı. 40 min nəfərlik ordu əliyalın əhaliyə divan tuturdu.

Azərbaycan Respublikasının Konstitusiyası tapdalanmışdı. Helsinki Yekun Aktını və Vyana müqaviləsini imzalamış SSRİ dövləti dinc əhaliyə qarşı görünməmiş bir cinayət işlədi.

Gözyaşardıcı qaz tətbiq edilir, dinc əhali atəşə tutulurdu. Əsgərlər hərbi maşınlardakı projektorlardan istifadə edərək qaranlıq yerlərdə atəşdən gizlənənləri, hətta təcili yardım maşınlarını gülləyə tuturdular. Mərkəz əmin idi ki, Bakıda xalq susdurulsa, bütün respublikada sakitlik təmin ediləcək, beləliklə də SSRİ-nin Qafqazda qlobal mənafeləri tam müdafiə ediləcəkdir. Ancaq bu, yanlış fikir idi. Buna görə də M.Qorbaçov Bakıda qanlı qırğın törətməkdən çəkinmədi.

Lakin 1990-cı il yanvarın 20-də xalqımıza qarşı törədilən faciə Azərbaycan xalqını, Bakı əhalisini daha sıx birləşdirdi. O günlər minlərlə gənc Bakının komendantı Dubinyakın, digər sovet zabitlərinin təhdidlərinə, təhqirlərinə, şaxtaya, yorğunluğa baxmayaraq, iki gün ərzində hava qaralana kimi Dağüstü parkda məzarlar qazmış, öz vətəndaşlıq borcunu yerinə yetirmişdilər.

Həmin dövrdə Buzovna, Mərdəkan, Bilgəh, Maştağa, Şüvəlan, Şağan, Qala, Pirşağı, Nardaran, Kürdəxanı, Binə, Binəqədi və başqa qəsəbə və kəndlərin əhalisi Bakını qırmızı qərənfillərə qərq etmişdi. Milyonlarca qərənfil şəhidlərimizin müqəddəs ruhu qarşısında torpağa baş əymişdi. Dünyada, yəqin, az xalq tapılar ki, ağır zəhmət hesabına becərdiyi hər hansı məhsuldan, əldə edəcəyi böyük miqdarda gəlirdən könüllü imtina etsin, xalqımızın azadlığı uğrunda şəhid olmuş övladlarının məzarı üzərinə bu qədər gül səpsin.

Həmin günlərdə mən al qərənfillər içərisində alışıb-yanan Bakıya baxdıqca öz elimə, xalqıma, Bakı kəndlərinin öz sadəliyi ilə seçilən, son tikəsini belə dostla bölməyə hazır olan əli qabarlı, alnı açıq əhalisinə dərin minnətdarlıq hissi keçirirdim. Bu ənənə bu gün də davam edir və yəqin ki, əsrlər boyu davam edəcəkdir. Belə xalqa, belə camaata eşq olsun.

1990-cı ilin 20 yanvar tarixi Azərbaycan üçün həm də böyük imtahan idi. Respublikamızın bütün əhalisi kimi Bakı camaatı da bu imtahandan mərdliklə çıxdı. Bakı qırğınını xalqımızın Azdlıq mübarizəsinə start verdi və 2 il keçməmiş öz müstəqilliyini qazanmaqla şəhidlərin intiqmını da almış oldu. Azərbaycan xalqı bununla bir daha sübut etdi ki, öz azadlığı uğrunda mübarizə aparmağı bacarır və heç bir məhrumiyyət onu bu yoldan döndərə bilməz.

**Xalq qəzeti.** - 2019.- 20 yanvar. - № 15. - S. 4.

## Heydər Əliyev və 20 Yanvar həqiqətləri

**Tahir Aydınoğlu**

***Mən bu faciəyə həmişə ürəkdən yanaraq həm də vətəndaşlıq borcumu yerinə yetirməyə çalışmışam və bu gün də həmin mövqedəyəm, sabah da həmin mövqedə olacağam. Birinci növbədə, ədalət naminə, eyni zamanda, Azərbaycan xalqının namusunu, şərəfini, milli mənliyini qorumaq naminə.***

**Heydər ƏLİYEV**
**Ümummilli lider**

***Hamımız yaxşı xatırlayırıq ki, pensiyada olan Heydər Əliyev faciə baş verəndən dərhal sonra Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəlmişdi, öz etiraz səsini ucaltmışdı. O vaxt Sovet İttifaqının çökməsinə hələ iki il vaxt qalırdı. Biz o vaxt Sovet İttifaqının rəhbərliyinə qarşı açıq ittihamları, demək olar ki, çox nadir hallarda görürdük. Bu, böyük cəsarət tələb edirdi. Heydər Əliyev həmişə olduğu kimi, o ağır günlərdə də xalqla bərabər, birlikdə idi.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

**Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin liderlik fəaliyyəti xalqımızın çağdaş tarixinin yarım əsrlik bir dövrünün başlıca yönünü və məzmununu təşkil edir. Ulu öndər tarix yaradan bir şəxsiyyət olmaqla yanaşı, həm də tarixi hadisələrə ən doğru-düzgün qiymət verən mütəfəkkir dövlət xadimi, misilsiz bir şəxsiyyətdir. Bu baxımdan dahi siyasətçinin 20 Yanvar hadisələri ilə bağlı siyasi fəaliyyəti və bu faciəyə verdiyi qiymət özü mükəmməl bir tarixi nümunədir.**

Xalqımızın böyük oğlu Heydər Əliyev, hər şeydən əvvəl, bu faciəni Azərbaycana qarşı törədilmiş bəşəri cinayət adlandırmışdır. İkincisi, 20 Yanvar xalqımızın həyatında dərin və sonsuz hüzn törətməsinə baxmayaraq, ulu öndər onu tarixi qəhrəmanlıq nümunəsi kimi dəyərləndirmiş, yeni nəsillər üçün örnək səviyyəsinə yüksəltmişdir. Üçüncüsü, müstəqilliyimizin banisi faciə qurbanlarının xatirəsinin əbədiləşdirilməsi, onun zərədidələrinə dövlət qayğısı göstərilməsi üçün bütün zəruri tədbirləri həyata keçirmişdir. 20 yanvar hadisəsi ilə bağlı ulu öndərin mövqeyi, açıqlamaları, atdığı addımlar 3 onillik öncə baş vermiş mürəkkəb və qanlı hadisələrin mahiyyətini anlamaqda, onun ibrət dərslərini öyrənməkdə xalqımızın qiymətli mənəvi qaynağıdır.

Biz yaxın tarixin müdhiş faciəsinə Heydər Əliyevin nəzərləri ilə baxanda nələri görür və yəqin edirik? 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə o vaxtkı sovet rəhbərliyinin ali vəzifə borcuna və adi insanlıq xislətinə zidd olaraq, bütün qoşun növlərini səfərbər etməklə, güc nazirlərinin bilavasitə iştirakı ilə ittifaq dövlətinin müttəfiq bir subyekti olan Azərbaycan SSR-in paytaxtına irimiqyaslı hücum təşkil etməsi, nəticədə çox sayda dinc insanın qətlə yetirilməsi və yaralanması uşaqdan-böyüyə, qadından-qocaya hamını ayağa qaldırdı, nifrət və qəzəb adlı nəhəng bir tonqalı alovlandırdı.

Törədilmiş vəhşiliyin qanlı görüntüləri, xəyanətkar izləri milyonlarla insanı yüksək bir cərəyan kimi silkələyib eyni məcraya yönəltdi. Yumruq halına gəlmiş xalqımız heç bir hərbi gücün ram edə bilməyəcəyi qüdrətli bir sipərə döndü. Şəhərə yeridilmiş zəhmli bir güc-gecə yatmış şəhərin başında fırtına qoparmış müasir hərbi texnikanın və mərkəzi obyektlərə sıx-sıx yerləşdirilmiş qoşun bölüklərinin özü səhərin açılması ilə güclü bir qasırğanın qoynuna düşüb acizləşdi.

Gecənin qana bələdiyi şəhərin yaralarına gur işıq salan o qırğın səhəri vətəndaşı olduğu dövlətdən xəyanət və qəddarlıq görmüş xalqımız gur axınlarla Mərkəzi Komitə deyilən respublikanın baş qərargahına tərəf axışıb, gecəni burada keçirmiş, qorxub-çəkinmədən yerində dayanaraq zirehli texnikanın əhatəsində qalmış dinc, əliyalın soydaşlarımıza qoşulmağa can atırdı. Qəzəblənmiş insan seli çox keçmədi ki, zirehli texnikadan "hörülmüş" dəmir hasarı uçuraraq, sanki, alov püskürən böyük bir vulkana döndü. Qəzəb püskürən çıxışlarda qanlı ədalətsizlik hiddətlə lənətlənir, sovet rəhbəri Mixail Qorbaçov cəllad adlandırılırdı. İmperiyanın dördüncü böyük, cənubun isə ən böyük şəhərini gecənin qaranlığında gülləbaran edərək işğal etmiş sovet rejimi öz qanlı əməlinin girovuna çevrilərək bu mənzərələri acizliklə seyr etməyə məhkum olmuşdu.

O anlarda və saatlarda Bakıda baş verənləri nəfəs dərmədən izləyən Kremlin gücü bir ona çatırdı ki, hər yeri silahlı nəzarətdə saxlasın, bir də Azərbaycanda yaratdığı informasiya zülmətində baş verənləri dünya ictimaiyyətindən gizlətsin, az-çox sızan məlumatları isə "zəruri addım, vəziyyətin nizama salınması" kimi qələmə versin.

O aylarda və illərdə, elə həmin gecə də Azərbaycan xalqı ona görə ayağa qalxmışdı ki, Qorbaçovun özünə anlatsın: "Torpaqdan pay olmaz!", "Həddini aşmış ermənilər yerində oturdun!" O gecə ermənilərə güzəştə getməməyin heyfini azərbaycanlılardan almaq istəyən bədnam "baş katib" bununla öz karyerasına da sağalmaz zərbə vurmuşdu.

Həmin məqamda Moskvada – sovet diktatoru M.Qorbaçovun qulağının dibində qəfil baş verən hadisə isə onu kəskin diksindirməklə yanaşı, Bakı qırğınının gizlinlərini bütün dünyaya bəyan etdi. Ermənipərəst sovet rəhbərinin Qarabağı asanlıqla ermənilərə hədiyyə etmək üçün SSRİ-nin ali rəhbərliyindən uzaqlaşdırdığı və ciddi nəzarət altında saxlatdığı dünya şöhrətli siyasət və dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri səviyyəsinə yüksəlmiş dahi şəxsiyyət Heydər Əliyev bütün maneələri aşaraq faciənin səhərisi gün Moskvada bir parça Azərbaycan sayılan resbublikamızın Daimi Nümayəndəliyinə gəldi, dərin hüzn içərisində xalqımıza başsağlığı verdi. Ulu öndər Vətəninin harayına yetişərək beynəlxalq mətbuat konfransı keçirdi, Bakı həqiqətlərini bütün dünyaya yayılması üçün geniş bir qapı açdı.

M.Qorbaçovun Azərbaycana münasibətdə gizlin hazırladığı məkrli "cəza" aksiyası bax beləcə fiaskoya uğradı. Şübhəsiz, Kremlin o zamankı ağası Azərbaycan xalqını yaxşı tanımadığını anlamalı olmuş, uğursuzluğa düçar olduğunun ağrısını çəkmişdi. İllər sonra isə "əsas günahı" Qarabağ hadisələrində görən Qorbaçov, görəsən, 1988-ci ildə "Qarabağ cinini" şüşədən çıxaranda nə düşünmüşdü? Bəlkə, elə bilmişdi ki, dünyanın ən gözəl bir məkanını min illər boyu öz qanı-canı ilə qoruyub Vətən eləmiş Azərbaycan xalqı onun xatirinə Qarabağı siniyə qoyub özgə torpaqlarına təşnə olan ermənilərə peşkəş edəcək?!

Bu qanlı hadisələrdən yaxasını kənara çəkməyə can atan M.Qorbaçov riyakarcasına sovet qoşunlarının Bakıya hərbi müdaxiləsinə onu "fövqəladə şəraitin" məcbur etdiyini bildirmişdi: "1990-cı ilin yanvarında fövqəladə şərait bizi fövqəladə vəziyyətin elan edilməsinə məcbur etdi. Bu addım daha çox qan axıdılmasının qarşısını almaq üçün atıldı".

Moskvada Azərbaycan Nümayəndəliyində keçirdiyi mətbuat konfransında isə xalqımızın qeyrətli oğlu Heydər Əliyev vəziyyəti vaxtında nizama salmağın mümkünlüyünü necə aydın göstərmişdi: "Artıq iki ildir ki, Azərbaycan və Ermənistan arasında millətlərarası münaqişə gedir. Həmin münaqişəni Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr törətmişdir. Azərbaycan və Ermənistan, eləcə də, ölkənin ali siyasi partiya rəhbərlərinə bu məsələni tənzimləmək, daxili müharibəyə, millətlərarası münaqişəyə son qoymaq və milli mənsubiyyətindən asılı olmayaraq hər bir adamın ümumi federativ ittifaq olan SSRİ-də azad yaşamasına şərait yaratmaq üçün iki illik müddət kifayət idi. Hesab edirəm ki, ötən iki ildə bu istiqamətdə lazımi səviyyədə iş aparılmamışdır.

Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı".

Sonralar xatirələrində "20 Yanvar mənə dərs oldu" – deyən Qorbaçov 20 Yanvar qırğınının məsuliyyətini dolayısı yolla olsa da, etiraf etmişdir: "Bu faciəli hadisədən dərs götürdüm. Hakimiyyət ekstremal situasiyada güc tətbiqindən imtina edə bilməz. Ancaq bu aksiya mütləq olaraq əsaslandırılmalı və çox sərt tədbirlərlə bağlı addım məhdudlaşdırılmalıdır. Problemin həlli yalnız siyasi yolla tapılmalıdır".

Bunu dərk etmək üçün illər lazım idimi? Belə sərt tədbirlərə ehtiyac olmadığını, qarşıdurmanı aradan qaldırmağı və vəziyyətin nizama salınmasını dinc üsullarla da həyata keçirməyin mümkünlüyünü Qorbaçovun özünə siyasi rəqib seçdiyi Heydər Əliyev Azərbaycan Nümayəndəliyindəki bəyanatında qətiyyətlə söyləmişdi: "Hesab edirəm ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur. Təəssüf ki, Azərbaycan rəhbərliyi, həmçinin ölkənin ali siyasi rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir. Sərhədlərə edilən təcavüzü vaxtında aradan qaldırmaq mümkün idi. Axı üç ay əvvəl sərhəd zolağı ilə bağlı camaat öz tələblərini irəli sürmüşdü. Fəqət heç kəs onlarla görüşmək, izahat işi aparmaq və lazımi ölçü götürmək istəməmişdir. Təkrar edirəm: camaatı sakitləşdirmək üçün də imkanlar tükənməmişdi."

Həmin bəyanatla ulu öndərin Kremlin beşaddımlağında söylədikləri Qorbaçovun gecikmiş etirafındakı arqumentlərin yalan olduğunu illər öncə sübuta yetirmişdir: "Bütün vəziyyətlərdə hesab edirəm ki, məsələni siyasi cəhətdən tənzimləmək, xalqla mükaliməyə girmək üçün əlverişli imkanlar olmuşdur. Lakin onlardan

səmərəli istifadə edilməmişdir. Nəhayət, 19-dan 20-nə keçən gecə sovet ordusunun, SSRİ DİN-in böyük kontingenti Bakı şəhərinə yeridilmişdir. Nəticəsi isə göz qabağındadır. Bunun törətdiyi faciələr hamımıza məlumdur. Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Bəli, kobud siyasi səhv buraxılmışdır. Bütün bunlar qabaqcadan nəzərə alınmalı və vaxtında vacib, zəruri tədbirlər qəbul edilməli idi. Ordu yeridilmiş, günahsız adamlar həlak olmuşlar".

Azərbaycan xalqının həqiqi lideri həmin bəyanatında söylədiyi bu fikirlə Qorbaçovun gələcək qənaətini, azı, 20 il qabaqlamışdı: "Zənnimcə, ölkənin ali siyasi rəhbərliyinə vəziyyət barədə vaxtında kifayət qədər düzgün, dəqiq, obyektiv informasiyalar çatdırılmamışdır. Rəhbərlik çaşqınlığa salındığından belə qərar qəbul etmişdir". Ulu öndər öz yekun qənaətini isə belə ifadə etmişdi: "Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır".

Böyük siyasət və dövlət xadimi Heydər Əliyev az sonra Vətənə dönəndə Mixail Qorbaçovun 20 Yanvarla bağlı cinayətinə belə qiymət vermişdi: "Azərbaycan Respublikasının ali hakimiyyət orqanından tələb etməliyik ki, qısa müddətdə, yaxud heç olmasa növbəti sessiyada bu məsələ müzakirə olunsun. Yanvar hadisələrinə siyasi qiymət verilsin və bu hadisənin günahkarları - kim olursa-olsun, Qorbaçovdan tutmuş aşağı respublika rəhbərlərinə kimi, keçmiş, ya indiki - fərqi yoxdur, bu, xalqa qarşı cinayətdir, - cəzalandırılsın. Bir nəfəri öldürənə qanunlara görə ən yüksək cəza verirlər. Ancaq burada gör nə qədər adam həlak olubdur - bir nəfər günahkar meydana çıxmayıbdır. Bu qədər qanunsuzluğa, demokratiyanın bu qədər pozulmasına dözmək olmaz. Ona görə bu məsələyə biz özümüz siyasi qiymət verməliyik, respublikanın Ali hakimiyyət orqanından tələb etməliyik ki, buna baxsın və günahkarlar cəzalandırılsın".

1990-cı ilin iyulunda Moskvadan Vətənə qayıdan Heydər Əliyevin təşəbbüsü ilə həmin il noyabr ayının 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə 20 Yanvar faciəsinə ilk dəfə siyasi-hüquqi qiymət verildi. Azərbaycan xalqının ümumi rəyini özündə təcəssüm etdirən bu qərar Heydər Əliyev qətiyyətinin təzahürü kimi tarixə düşdü. Heydər Əliyev hələ sovet imperiyasının mövcud olduğu bir dövrdə heç nədən çəkinmədən öz millətinin hüquqlarının müdafiəsinə qalxdığını sübut etdi. Sənəddə respublika səviyyəsində 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verilməsi Azərbaycan rəhbərliyindən tələb edilirdi.

Ölkəmiz müstəqillik qazandıqdan sonra da 1993-cü ilə qədər iqtidarda olanların heç biri faciə ilə bağlı əsl həqiqəti aşkar etməyə özündə cəsarət tapmadı. 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilməsi ilə bağlı kifayət qədər vaxtları və imkanları olsa da, istər Ayaz Mütəllibov iqtidarı, istərsə də AXC--Müsavat qaragüruhu bunu etmədi. Baxmayaraq ki, hadisəyə siyasi-hüquqi qiymətin verilməsi istiqamətində çox iş gömək olardı. Əksinə, onlar müxtəlif səthi qərarlar qəbul edə-edə və ya etdirə-etdirə həmin günün müsibətlərini xalqımıza unutdurmağa çalışdılar.

Yalnız ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra 1994-cü ilin 20 Yanvar hadisələrinin hüquqi müstəvidə əsl mahiyyəti açıqlandı. 1994-cü il yanvarın 12-də keçirdiyi müşavirədə ulu öndər Heydər Əliyev bu barədə deyirdi: "Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişdir. Görünür ki, ötən yaxın illərdəki Sovetlər birliyi, respublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsl mahiyyətini xalqa bəyan etməmişlər".

Ulu öndərin 20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi ilə bağlı 1994-cü il yanvarın 5-də imzaladığı fərmanda həm də Milli Məclisə hadisəyə tam siyasi-hüquqi qiymət verməsi tövsiyə olunurdu. Bu qiymət xalqımızın müstəqillik yolunda çarpışmasının dolğun mənzərəsini əks etdirməli idi. 1994-cü il mart ayının 29-da ölkə parlamenti "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul etdi. Beləliklə də 20 Yanvar faciəsi məhz Heydər Əliyevin prinsipial və ardıcıl mübarizəsindən sonra öz hüquqi-siyasi qiymətini aldı.

Ümummilli lider Heydər Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsinə, onların ailələrinə dövlət qayğısının gücləndirilməsinə hər zaman böyük diqqətlə yanaşırdı. Ulu öndər hər il yanvarın 20-də Şəhidlər xiyabanına gələrək ziyarət edir, şəhid ailələri ilə görüşür, onların qayğıları ilə maraqlanırdı. Bu gün Şəhidlər xiyabınında ucalan "Əbədi məşəl" abidə kompleksi də məhz Heydər Əliyevin təşəbbüsü ilə şəhidlərin xatirəsinə ehtiram əlaməti olaraq inşa olunub. Heydər Əliyevin 2000-ci il yanvarın 17-də imzaladığı fərmanla isə 1990-cı ilin faciəli yanvar günlərində şəhid olmuş oğul və qızlarımıza "20 Yanvar şəhidi" fəxri adı verilib.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev şəhidlərin adının uca tutulmasına, onların ailələrinin sosial məsələlərinin yoluna qoyulmasına xüsusi diqqət göstərir, hər il yanvarın 20-də Şəhidlər xiyabanını ziyarət edərək "Əbədi məşəl" abidə kompleksinin önünə əklil qoyur.

Prezident İlham Əliyev 1990-cı ilin yanvarında şəhid olmuş oğul və qızlarımızın xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi üçün mühüm qərarlar vermişdir. Dövlət başçısının 19 yanvar 2006-cı il tarixli "20 Yanvar şəhidinin ailəsi üçün

Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" fərmanı ilə şəhid ailələrinə təqaüd verilir. Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Şəhidlər xiyabanında əsaslı təmir və yenidənqurma işləri aparılıb.

Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından 29 il keçməsinə baxmayaraq, xalqımız o müdhiş gecənin faciəsinin ağrısı ilə yaşayır, bu vəhşiliyi törədənlərə, xəyanət və fəlakətin səbəbkarlarına öz dərin nifrətini bildirir. Azərbaycan xalqı öz qəhrəman övladlarının fədakarlığını yüksək qiymətləndirərək hər il 20 Yanvarda onların xatirəsini dərin ehtiramla yad edir. Hər il dövlət səviyyəsində geniş tədbirlər planı hazırlanaraq həyata keçirilir, qanlı qırğının ildönümü respublikanın bütün şəhər və rayonlarında qeyd olunur.

Xalq o günlərdə böyük bir həqiqəti-- həqiqi liderin meydanda olmamasını da bütün mahiyyəti ilə dərk etdi. O müdhiş günlərdə Heydər Əliyevin-- qüdrətli liderin yoxluğu günün ən böyük həqiqəti kimi dərk olundu. 20 Yanvar günündə xalqının səsinə hər kəsdən əvvəl səs verən də Heydər Əliyev oldu. Ümummilli lider 1990-cı il yanvarın 21-də oğlu, silahdaşı, o çətin günlərdə atasını bir an belə tək qoymayan İlham Əliyevlə birlikdə ölkəmizin Moskvadakı Daimi Nümayəndəliyinə gəldi, təcavüzə kəskin etirazını bildirdi, faciəni törədənləri, şəxsən M.S.Qorbaçovu kəskin ittiham etdi, qoşunların Bakıdan çıxarılmasını tələb etdi.

SSRİ-nin hələ hökm sürdüyü bir vaxtda belə bir addım, sözün əsl mənasında, böyük hünər və cəsarət tələb edirdi. Ulu öndər Heydər Əliyev və oğlu İlham Əliyev bununla, hər şeydən əvvəl, Vətən, xalq qarşısında vətəndaşlıq borclarını və milli mövqelərini nümayiş etdirdilər. Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1990-cı il 21 yanvar tarixli bəyanatı həm də faciəyə verilən ilk siyasi qiymət idi – özü də imperiyanın mərkəzində, Moskvada.

20 Yanvar hadisələri Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə həm də qəhrəmanlıq səhifəsi kimi yazılıb. Həmin gün öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini uca tutan Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə yüksəldilər. Vətənin azadlığı, suverenliyi uğrunda özlərini qurban verən şəhidlərin xatirəsi həmişə qəlbimizdə yaşayacaqdır.

Nəhayət, ümummilli lider Heydər Əliyevin dediyi kimi, 20 Yanvar Azərbaycan tarixində qanla yazılmış bir səhifədir, ancaq o, təkcə faciə deyil. Bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin, azadlıq istəyinin oyanış günü idi. Bu, uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir.

**Xalq qəzeti**. - 2019.- 20 yanvar. - № 15. - S. 3.

## Müstəqillik uğrunda qəhrəmanlıq salnaməsi

## Yalnız Heydər Əliyevin ölkəyə rəhbərlik etməyə başlamasından sonra 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verildi

**Rəşad Cəfərli**

29 il əvvəl yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun Azərbaycanda törətdiyi qanlı hadisələr xalqımızın milli bütövlüyünü təsdiqləyən ən böyük hadisələrdən biri kimi tarixin yaddaşına həkk edilib. 20 Yanvar faciəsi bizi yumruq kimi birləşdirdi və bütün dünya azərbaycanlılarının gücünü, birliyini ifadə etdi. Bu hadisə nəinki Azərbaycanı, bütün dünyanı lərzəyə gətirsə də, o zaman yerli hakimiyyət orqanları baş verənlərin üzərindən sükutla keçməyə çalışır, xalqın milli faciəsinə laqeyd münasibətlərini ortaya qoyaraq Kremlin qəzəbinə tuş gəlmək istəmirdilər.

### Vətəndaş qeyrəti və həqiqi vətənpərvərlikdən doğan cəsarətli bəyanat

O ağır və faciəli günlərdə xalqın səsini eşitmək istəyən yox idi. Sovet hakimiyyət orqanları bu qanlı hadisəyə heç bir reaksiya vermədilər. Azərbaycan xalqına qarşı soyqırımı aktının həyata keçirildiyini ilk olaraq cəsarətlə bütün dünyaya bəyan edən isə ulu öndər Heydər Əliyev oldu. Heydər Əliyev vətəndaş qeyrəti və həqiqi vətənpərvərlikdən doğan cəsarətli bəyanatı ilə dünya azərbaycanlılarını ayağa qaldırdı, xalqın siyasi iradəsini ifadə etdi. Baş verən hadisələri hüquqa, demokratiyaya, hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edən Heydər Əliyev yüzlərlə insanın qətlə yetirilməsini Azərbaycan xalqına qarşı cinayət adlandıraraq hadisəyə siyasi qiymət verilməsini tələb etdi.

1990-cı ilin yanvarından sonra hakimiyyətdə olan qüvvələrin bu məsələdə ilk vəzifəsi faciəni təhlil etmək, günahkarları üzə çıxarmaq və dövlət səviyyəsində siyasi-hüquqi qiymət vermək olsa da, faktiki olaraq heç bir tədbir görülmədi. 1990-cı il yanvar ayının 22-də çağırılan Azərbaycan Ali Sovetinin fövqəladə sessiyası öz işini yarımçıq qoydu və sonrakı sessiyalarda bu məsələnin müzakirəsini davam etdirmədi. Ali Sovetin yanvar hadisələrini tədqiq etməli olan komissiyasının da işi başa çatdırılmamış qaldı.

1990-cı ilin iyulunda Moskvadan Vətənə qayıdan Heydər Əliyevin təşəbbüsü ilə həmin il noyabr ayının 21-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin qərarı ilə 20 Yanvar faciəsinə ilk dəfə siyasi-hüquqi qiymət verildi. Azərbaycan xalqının ümumi rəyini özündə təcəssüm etdirən bu qərar Heydər Əliyev qətiyyətinin təzahürü kimi tarixə düşdü. Heydər Əliyev hələ sovet imperiyasının mövcud olduğu bir dövrdə heç nədən çəkinmədən öz millətinin hüquqlarını müdafiə etməkdən qorxmadığını sübut etdi. Sənəddə 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməsi respublika rəhbərliyindən tələb edilirdi.

Ölkəmiz müstəqillik qazandıqdan sonra da 1993-cü ilə qədər iqtidarda olanların heç biri faciə ilə bağlı əsl həqiqəti aşkar etməyə özündə cəsarət tapmadı. 20 Yanvar hadisələrinə siyasi -hüquqi qiymət verilməsi ilə bağlı kifayət qədər vaxtları və imkanları olsa da, heç kim bunu etmədi. Baxmayaraq ki, hadisəyə siyasi-hüquqi qiymətin verilməsi istiqamətində çox iş görmək olardı. Əksinə, müxtəlif səthi qərarlar qəbul edə-edə və ya etdirə-etdirə bu günün müsibətlərini xalqımıza unutdurmağa çalışdılar.

Yalnız ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra 1994-cü ilin 20 Yanvar hadisələrinin hüquqi müstəvidə əsl mahiyyəti onun təşəbbüsü və bilavasitə iştirakı ilə açıqlandı. 1994-cü il yanvarın 12-də keçirdiyi müşavirədə ulu öndər Heydər Əliyev bu barədə deyirdi: "...Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişdir. Görünür ki, ötən yaxın illərdəki sovetlər birliyi, respublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsl mahiyyətini xalqa bəyan etməmişlər”.

### Ulu öndərin 20 Yanvar faciəsinin

4-cü ildönümünün keçirilməsi ilə bağlı 1994-cü il yanvarın 5-də imzaladığı fərmanda həm də Milli Məclisə hadisəyə tam siyasi-hüquqi qiymət verməsi tövsiyə olunurdu. Bu qiymət xalqımızın müstəqillik yolunda çarpışmasının dolğun mənzərəsini əks etdirməli idi.1994-cü ilin mart ayının 29-da respublika parlamenti "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında” qərar qəbul etdi. Beləliklə də 20 Yanvar faciəsi məhz Heydər Əliyevin prinsipial və ardıcıl mübarizəsindən sonra öz hüquqi-siyasi qiymətini aldı.

**Şəhidlərin xatirəsinə böyük ehtiram**

Heydər Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsinə, onların ailələrinə dövlət qayğısının gucləndirilməsinə hər zaman böyük diqqətlə yanaşırdı. Ulu öndər hər il yanvarın 20-də Şəhidlər xiyabanına gələrək ziyarət edir, şəhid ailələri ilə görüşür, onların qayğıları ilə maraqlanırdı. Bu gün Şəhidlər xiyabanında ucalan "Əbədi məşəl” abidə kompleksi də məhz Heydər Əliyevin təşəbbüsü ilə şəhidlərin xatirəsinə ehtiram əlaməti olaraq inşa olunub. Ulu öndər 31 mart 1998-ci il tarixdə "20 Yanvar Şəhidi” fəxri adının təsis edilməsi haqqında fərman imzalayıb. 29 dekabr 1998-ci ildə "20 Yanvar Şəhidi” fəxri adı haqqında Əsasnamə təsdiq edilib. Heydər Əliyevin 2000-ci il yanvarın 17-də imzaladığı fərmanla isə 1990-cı ilin faciəli yanvar günlərində şəhid olmuş oğul və qızlarımıza "20 Yanvar Şəhidi” fəxri adı verilib.

Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev şəhidlərin xatirəsinin uca tutulmasına, onların ailələrinin sosial məsələlərinin yoluna qoyulmasına xüsusi diqqət göstərir, hər il yanvarın 20-də Şəhidlər xiyabanını ziyarət edərək "Əbədi məşəl” abidə kompleksinin önünə əklil qoyur. Dövlət başçısı bildirib ki, Azərbaycan övladları 1990-cı il yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar: "20 Yanvarda sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirdi. Azərbaycanda haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş Vətən övladları Qanlı Yanvarda xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar. Sovet hakimiyyətinin süqutundan və Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsindən sonra bir müddət başları hakimiyyət uğrunda mübarizəyə qarışmış Azərbaycan rəhbərləri xalqımıza qarşı törədilmiş bu ağır cinayətin səbəblərinin araşdırılması, ona siyasi-hüquqi qiymət verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində məqsədyönlü iş aparmadılar. Onlar bu məsələdə heç maraqlı da deyildilər, çünki həmin cinayətin törədilməsinin məsuliyyəti bu və ya digər dərəcədə onların da üzərinə düşürdü. Yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinin mahiyyəti məhz onun təşəbbüsü və bilavasitə iştirakı ilə açıqlandı, onlara siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı”.

Prezident İlham Əliyev 1990-cı ilin yanvarında şəhid olmuş oğul və qızlarımızın xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi üçün mühüm qərarlar vermişdir. Dövlət başçısının 19 yanvar 2006-cı il tarixli "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” fərmanı ilə şəhid ailələrinə dövlət qayğısını artırmaq məqsədilə təqaüd verilir. Prezident İlham Əliyevin "1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” 19 yanvar 2011-ci il tarixli fərmanı ilə isə 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü verilir.

Bu gün Bakının ən yüksək nöqtələrindən birində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş bir ünvan var. Bu, 20 Yanvar faciəsi qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər xiyabanıdır. Məhz Azərbaycan Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə Şəhidlər xiyabanında əsaslı təmir və yenidənqurma işləri aparılıb.

29 il əvvəl, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu göstərdi. Haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş vətən övladları o qanlı gündə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar. Tariximizə həm də milli qürur günü kimi düşən 1990-cı ilin 20 Yanvarında Azərbaycan xalqı azad, suveren və müstəqil yaşamağa layiq olduğunu bütün dünyaya çatdırdı.

**Azərbaycan**. - 2019.- 20 yanvar. - № 15. - S. 1-2.

## Qanla yazılan tarix

**Ağaddin Babayev**

Vətənimizin tarixində elə mühüm hadisə yoxdur ki, Lənkəran torpağında doğulub boya-başa çatan mərd, cəsur oğulların orada iştirakı olmasın. Bu torpağın vətənpərvər oğulları 1990-cı ilin 20 Yanvar hadisələrində də əsl hünər nümunəsi göstərmişlər.

Onlar Bakıya soxulmuş qırmızı imperiyanın qoşunu qarşısından qaçmamış, sinələrini yurda sipər etmişlər. Həmin günlərin hadisələri hər birimizin yaddaşında həm kədərli, həm də fəxr ediləsi notlar kimi bu gün də səslənir və heç vaxt unudulmayacaqdır.

1990-cı ilin yanvar günlərində arxalandığımız, xilaskar sandığımız sovet ordusu paytaxtımızı gülləbaran etmiş, günahsız uşaqları, qocaları, cavanları vəhşicəsinə qətlə yetirmişdi. Ağır tanklar şəhərin müxtəlif yerlərində yaralanmış insanları, mülki maşınları tırtılları altına salaraq əzmişdi. Silahlı ordunun əsgərləri evlərin eyvanından bu vəhşiliyi seyr edən şəhər sakinlərinə atəş açmaqdan belə çəkinməmişdilər.

20 Yanvar hadisəsi zamanı Lənkərandan 5 nəfər gənc - Mircamal Əbülfətov, Telman Bağırov, Asif Əsədullayev, Əflatun Kazımov və Azad Mirzəyev də qəhrəmancasına həlak oldu.

Lakin qırmızı ordunun dəstələri Bakıda etdikləri vəhşilikdən usanmadılar. Onlar yanvar ayının 25-də Neftçalada bir nəfəri qətlə yetirdikdən sonra Lənkərana gəldilər. Azadlıq hərəkatı üzvlərinin bir hissəsinin rayon ərazisindəki Haftoni meşəsində daldalandıqları barədə məlumatları olan silahlılar tanklar, vertolyotlar vasitəsilə oraya hücum çəkdilər. Onlar Lənkəran rayonunun sakinləri Vaqif Məmmədov, Salman Baxşıyev, Şahin Məmmədov, Rahim Məmmədov və Rövşən Bədəlovu güllələdilər. Sonrakı mərhələdə imperiya qoşunlarının silahlıları 16 nəfər lənkəranlı gənci Rusiyanın Ulyanovsk şəhərinə, 30 nəfəri isə Bakı yaxınlığındakı Şüvəlan qəsəbəsinə apararaq 30 gün həbsxanada saxladılar. Bir nəfər həmyerlimizi - Tariyel Abdullayevi isə vertolyotda məftillə boğaraq vəhşicəsinə qətlə yetirdilər. Digər azadlıq mücahidləri də çoxlu təzyiq və işgəncələrə məruz qalmışdılar.

Bəli, bunlar ən yeni tariximizin qanlı və eyni zamanda şanlı səhifəsidir. Azadlıq yolunda qanından və canından keçən şəhidlərin xatirəsi xalqımızın yaddaşında daim yaşayır. Onların adlarının əbədiləşdirilməsi, ailələrinin sosial həyat səviyyəsinin yaxşılaşdırılması üçün həyata keçirilən tədbirlər buna əyani misaldır. Bu günlər ölkəmizin hər yerində olduğu kimi, Lənkəranda da 20 Yanvar şəhidlərinin adını daşıyan küçələr, parklar, xiyabanlar, məktəblər, müalicə ocaqları, uşaq bağçaları var. Şəhərin mərkəzində 20 Yanvar şəhidlərinin xatirə kompleksi yaradılmışdır.

Xalqımız bu hadisəni qəlbində yaşadır, onun mahiyyətini yeni nəslə çatdırmağa çalışır. Bu məqsədlə Lənkəranda da silsilə anım tədbirləri keçirilməkdədir. Lənkəran Şəhər İcra Hakimiyyətinin tədbirlər planına müvafiq olaraq rayonun ümumtəhsil müəssisələrində, Lənkəran Dövlət Universitetində, humanitar və tibb kolleclərində faciəyə həsr edilmiş xüsusi dərs keçirilir, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardımlar edilir.

Bu gün isə şəhərdəki Şəhidlər xiyabanında ümumxalq ziyarəti təşkil edilib, şəhidlərin məzarları üzərinə gül dəstələri düzülərək xatirələri ehtiramla yad olunur.

**Azərbaycan**. - 2019.- 20 yanvar. - № 15. - S. 4.

## Qürur yerimiz

### Şəhidlər xiyabanı ziyarətçiləri qəbul etməyə hazırdır

**Fərizə Əhmədova**

Sabah qanlı 20 Yanvar faciəsinin 29-cu ildönümüdür. Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman oğul və qızlarımızın uyuduğu Şəhidlər xiyabanı ziyarətçilərini qəbul etməyə hazırdır.

Faciədən 29 il keçməsinə baxmayaraq, şəhidlərimizin əziz xatirəsinə ehtiramını bildirmək üçün hər il insan axını xiyabana üz tutur. Bu il də vətən övladları şəhidlərimizi yad edəcəklər. Məhz həmin gün böyük bir izdihama qoynunu açan bu müqəddəs məkan al-qırmızı rəngə boyanacaq......

Artıq yanvarın ikinci on günlüyündən etibarən bu münasibətlə xiyabanda müxtəlif hazırlıq işlərinə başlanılıb. Biz də Şəhidlər xiyabanına yollanaraq oradakı abadlıq işləri ilə tanış olduq.

### Ağ-qırmızı qərənfil kompozisiyası

Tədbirlər planına uyğun olaraq şəhidlərimizin əziz xatirəsinin dərin hüznlə yad edilməsi, 20 Yanvar faciəsinin iyirmi doqquzuncu ildönümünün layiqincə keçirilməsi məqsədi ilə lazımi işlər artıq görülüb.

Şəhidlər xiyabanında xüsusi hazırlanmış layihə əsasında bədii-estetik cəhətdən 20 Yanvar tematikasına uyğun dizayn-tərtibat işləri aparılıb, ərazidə cari təmir, abadlıq və təmizlik işləri görülüb, ağaclar və yaşıllıqlar qaydaya salınıb. Bakı Şəhər İcra Hakimiyyətinin ərazidə olan nümayəndəsi bildirdi ki, xiyabandakı bütün elektrik avadanlıqları, eləcə də naqillər yenidən yoxlanılıb və lazımi tədbirlər görülüb.

Hər il olduğu kimi, bu il də xiyabanın girişində xüsusi zövqlə qərənfillərdən hazırlanmış xalça göz oxşayır. Divarlara və səkilərə bərkidilən təbii qərənfillər də xüsusi düzülüşü ilə seçilir.

### Güclü külək və soyuğa rəğmən, hər kəs iş başında idi

Havanın yağışlı və küləkli olmasına baxmayaraq, əraziyə cəlb olunan mənzil-kommunal təsərrüfatı birliyinin işçiləri və ayrı-ayrı ustalar böyük həvəslə öz işlərini görürdülər. Xiyabanın ərazisində təmizlik və abadlıq işləri ilə məşğul olan Nadir Rəhimov bildirdi ki, gördüyü işdən çox zövq alır və əməyinin qarşılığında heç bir maddiyyat güdmür. Onun fikrincə, şəhidlərə ehtiram nümunəsi göstərməkdən gözəl bir şey yoxdur və nə qədər çalışsalar da, qəhrəmanlarımızın borcundan çıxa bilməzlər. Çünki onların sayəsində bu gün müstəqil Azərbaycanda sakit həyat yaşa bilirlər.

Qeyd edək ki, yanvarın 14-dən Bakı şəhər ictimaiyyəti nümayəndələrinin, idarə, təşkilat və müəssisələrin kollektivlərinin, dövlət məktəbəqədər təhsil müəssisələrində tərbiyə alan uşaqların, orta və ali təhsil müəssisələrinin şagird və tələbələrinin Şəhidlər xiyabanına ziyarəti başlayıb.

### Dövlət bayraqları endiriləcək

Matəm günü Bakı Şəhər Baş Polis İdarəsi tərəfindən yanvarın 20-də ziyarətə gələnlərin hərəkət marşrutunun müəyyənləşdirilməsi, ictimai asayişin qorunması, nəqliyyat vasitələrinin hərəkətinin tənzimlənməsi, Bakı Şəhər Baş Səhiyyə İdarəsi tərəfindən xiyabanda təcili tibbi yardım xidmətinin təşkili həyata keçiriləcək.

Mərasim günü ərzində xiyabanda matəm musiqisi səslənəcək, digər təşkilati işlər görüləcəkdir. Yanvarın 20-də saat 12:00-da şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək, faciənin ildönümü ilə bağlı hüzn əlaməti olaraq dövlət bayraqları endiriləcək.

### Xalqımızın müqəddəs ziyarətgahı

Bu müqəddəs məkanda 158 nəfər 20 Yanvar şəhidi uyuyur. Onlardan dörd nəfəri naməlum şəxslərdir. Burada həmçinin 256 nəfər Qarabağ müharibəsi və 38 nəfər daxili qoşunların şəhidi dəfn olunub. Xiyabanda 1992-ci il yanvarın 25-26-da baş verən Daşaltı əməliyyatındakı 70 şəhidin adına isə abidə ucaldılıb.

Xalqımızın müqəddəs ziyarətgahı olan Şəhidlər xiyabanında əbədiyyət yuxusuna getmiş Vətən övladları İlahi zirvəni fəth ediblər. Bu səbəbdən də Şəhidlər xiyabanı xalqımızın müqəddəs yerlərindən sayılır.

20 Yanvar günü təkcə hüzn deyil, həm də qürur yerimiz olan Şəhidlər xiyabanı öz rəngarəng görünüşü ilə yenə də diqqət çəkir.

**Azərbaycan.** - 2019.- 19 yanvar. - № 14. - S. 4.

## Son vida

**Fərizə Əhmədova**

"Səs-küyü eşidib evdən elə əynimdəki nazik geyimdə çıxmışdım. Gedib gördüm ki, yaralıdır, güllə ilə vurublar. Onu xəstəxanaya birtəhər çatdırdıq. Əməliyyat masasına uzatdılar. Mən də dayanmışdım başının üstündə, əllərimi möhkəm sıxmışdı... Yavaş səslə dedi ki, pencəyimi götür, geyin, soyuq olar sənə. Son sözü bu oldu: Soyuq olar sənə..."

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə həyatı dəyişən müsahibimiz Şövkət Xanməmmədova gözündən aramsız yaşlar axa-axa o dəhşətli günlə bağlı acı xatirələrini danışır. Həyatda bəzi anların insanın gələcəyini müəyyən etdiyini deyən Şövkət xanım bu ağrının ömrü boyu onunla birgə yaşadığını, qaldıqca da hər il təzə imiş kimi incitdiyini deyir...

Həyat yoluna ani nəzər salan gözü yaşlı, səsi titrək, hər dəfə "O" deyəndə boğazında qəhər düyünlənən bu qadın o günü 68 illik həyat təqviminin ən ağır vərəqi kimi qiymətləndirir. Ondan sonra həyatında çox itkilər yaşayıb, amma onun itkisi...

Və həyatının da ikinci mərhələsi məhz o tarixdən başlayır.

XX əsr tarixinə bəşəriyyətə qarşı ən amansız və dəhşətli cinayətlərdən biri kimi düşmüş 1990-cı ilin 20 Yanvar hadisələrinin 29-cu ildönümü ərəfəsindəyik. Xalqımızı qəlbən sarsıtmış bu faciə ilə bağlı o günün şahidi, şəhid Cəbrayıl Xanməmmədovun həyat yoldaşı Şövkət xanım danışır...

### Səssiz sevgi

- Yeni Suraxanıda qonşuluqda qalırdıq. Həmişə qızlarla həyətdə otururduq. O gəlib küçəmizdən keçərdi. Qızlar da həmişə deyirdi ki, bu oğlan hansımızısa sevir. Plan qurduq. Hər gün birimiz gizləndik. Növbə mənə çatdı. Mən gizlənən gün küçədən dörd-beş dəfə keçdi. Narahat qalmışdı ki, bu qız hara yoxa çıxdı? Onda 22 yaşım var idi, evlənmək barədə heç düşünmürdüm də. Qızlar da mənə deyirdi ki, ağlın yoxdur. Bu cür oğlana şans vermirsən.

Texniki Universitetdə (o vaxtkı Politexnik İnstitutu) oxuyurdum. Həmişə gəlib institutun qarşısında dururdu. Mənə sevdiyini də demirdi. Avtobusa kimi uzaqdan ötürüb sonra gedirdi. Məzun olduqdan sonra emalatxanada işə düzəlmişdim. Bir gün işdən evə gedəndə arxamca düşdü və bir kəlmə dedi ki, elçilərimi göndərirəm. Əgər verməsələr, qaçıracam səni. O vaxt da bakılılar arasında qaçırmaq söhbəti yox idi. Belə şey olsaydı qan düşərdi. Mənim də qardaşlarım, əmim oğlanlarım dəliqanlı yaşında idilər. Gəldim evə, böyük bacıma dedim ki, bəs, belə bir məsələ var, anama deyərsən razı olar. Qayıtdı ki, "Şövkət, sən onu sevirsən?" Dedim, fərq etməz, mən qohum-əqrəbamızı düşünürəm. Verməsəniz, qaçıracaq məni. Nə isə, elçi gəldilər, nişanlandıq. Bir il nişanlı qaldıq, söhbətləşdik, bir-birimizi tanıdıq. 12 yaş məndən böyük idi.

24 yaşımda ailə qurduq. Arzusu idi ki, Səadət sarayında nikahımız olsun. Ora gedəndə çox qəribə bir hadisə ilə qarşılaşdıq. Hansı küçəyə dönürdük, qarşımıza tabut çıxırdı. Ürəyimə qara xal düşdü. Dedim, gəl, qayıdaq. Etiraz etdi ki, elə şeyə inanma. Heç nə olmaz. O ölənlər də ömrünü bizə bağışlayıb.

Evləndik və onda elə xüsusiyyətlər gördüm ki, həqiqətən sevdim, öyrəşdim. Əsl adı Cəbrayıl idi. El arasında isə hamı ona Ramiz deyirdi. Elə mən də. Qaynım danışırdı ki, o, Ramiz adını qoymaq istəyib, amma qayınatam Cəbrayıl adını qoyub. Sonra da qaynım elə öz dediyində durub və hər yerdə onu Ramiz kimi çağırıblar. Evləndikdən sonra Hövsandan ev aldıq...

Evimiz olan küçəyə indi yoldaşımın adını veriblər.

### Və o gün...

- O gün Suraxanıya, qayınanama baş çəkməyə gəlmişdik. Gecə saat 11 radələri olardı. Bayırda səs-küy idi. Adamlar da Yeni Suraxanı, aeroport yolunda toplaşmışdı. O gün xalq yumruq kimi idi. Xalqımızın birliyinin şahidi olduq. Xalq canından keçməyə hazır idi. Yalın əllə tankların qabağında sipər olmuşdular. Axı, heç kimin ağlına gəlməzdi ki, sovet ordusu belə qan tökər...

Yoldaşım dedi ki, camaatı qıracaqlar, gedim başa salım, dağılışsınlar. Uşaqlar da yatmışdı. Otağın işığını yandırdı, onlara baxdı. Qapıdan çıxanda bir də geri döndü, işığı yandırıb hamısının üzündən öpdü. Qayıtdım ki, bəsdi də, Ramiz, elə bil harasa gedirsən. Dedi ki, onu bilmək olmaz. Pencəyini geyinib qapıdan çıxdı.

Yuxulamışdım. Gecə idi, oyandım ki, bəs, evin qabağında səs-küydü. Eyvana çıxdım. Gördüm, küçədən tanklar keçir. Yanlarında da əlisilahlılar. Başladılar atmağa. Aşağı əyilməsəydim, güllə mənə dəyəcəkdi. Boynumu arxadan sıyırıb keçdi. Dərimi yandırmışdı. Nə qədər müddət o yara məni incitdi. Əynimə bir şey geyinmədən elə üstümdəki paltarla dəli kimi özümü tulladım bayıra.

Gələndən-gedəndən soruşdum ki, bəs, Ramiz hanı? Heç kim cavab vermirdi. Əmim oğlu gəldi. Maşının açarını istədi. Soruşdum ki, hara gedirsən? Alnımdan öpdü ki, sən gəlmə. Amma razı olmadım və onunla bir getdim. Gedib gördüm Ramizi ürəyinin aşağısından vurublar...

Yarasından çoxlu qan gedirdi. Maşına mindirib, Sabunçu xəstəxanasına apardıq.

## Yaralı rus zabitini xilas etdik

- Başını qoymuşdum dizlərimə, möhkəm qucaqlamışdım. Hələ huşu özündə idi. Xəstəxanaya gedən yolda yaralı bir rus zabiti çıxdı qarşımıza. Meyitlərin arasında atıb getmişdilər, amma yaşayırdı. Rəhmimiz gəldi, onu da maşına mindirdik. Elə çatmağa az qalmışdı ki, uzaqdan bir tank çıxdı qarşımıza. Üstümüzə sürməyə başladı. Yoldaşım yavaş səslə dedi ki, siz düşün qaçın. Dedim, Ramiz, düşsək də onsuz öldürəcəklər. Ya belə ölmək, ya elə. Ölsək də, birlikdə öləcəyik.

Başını qucaqlayıb ağlayırdım. Maşındakı zabit papağını çıxarıb verdi əmim oğluma ki, bunu göstər, rus dilində denən atmayın. Əmimoğlu papağı götürüb tankın qabağına keçdi. "Vurmayın, sizinkidir", deyə qışqırdı. Onlar da maşına işığı salıb hərbçini görəndə, dedilər ki, qaçın, gedin, arxa yollarla gedin, yoxsa, sizi öldürərlər. Mədənlərin arası ilə min bir zülmlə gəldik çıxdıq xəstəxanaya...

## Ümidsizlik, son söz...

- Xəstəxanada nələr gördüm, İlahi!..

Bir nəfəri uzatmışdılar yerə. Tank ortasından keçmişdi. Ayaqları, bir də ürəyindən yuxarı hissəsi qalmışdı, amma gözlərini hələ də qırpırdı.

Başqa bir cavan oğlan da yarasını əliylə tutub uzanmışdı yerə. Arada əlini qaldırıb yarasına baxır, yenə bağlayırdı. Yoldaşımı tez gəlib apardılar. Xeyirxah əməllərinə görə onu hamı tanıyırdı. Ancaq xəstəxananın işıq sistemini partlatdılar. Məqsədləri bu idi ki, yaralılara kömək edilməsin, hamısı ölsün. Mən də yoldaşımla birgə əməliyyat otağına girdim.

Əlindən tutmuşdum. Həkimlər şam işığında əməliyyat etməyə çalışırdılar. Yoldaşım o halıyla çönüb mənə baxdı. Gözlərindəki ümidsizlik və son vidanın təsvirini gördüm... Dedi ki, bəs, sənə soyuq olar, götür pencəyimi geyin. Elə son eşitdiyim bu söz oldu.

Güllə ürəyinin aşağısından girmişdi, arxadan böyük bir deşik açmışdı. Həkimlər mənə dedilər ki, get, o biri binadan qan gətir.

Çıxdım bayıra, gördüm tanklar artıq xəstəxananın həyətinə daxil olub. Kolluqda gizləndim. Qorxudan tir-tir əsirdim. Birdən pəncərədən səs eşitdim: "Xanım, əlinizi verin mənə". Əlimi uzatdım və güclə qaldırıb pəncərədən içəri saldılar. Gəldim yoldaşımın yanına. Həkim gəlib alnımdan öpdü və yoldaşımın artıq keçindiyini dedi.

Gecə saat 4 idi. Hönkürə-hönkürə ağlayırdım...

Sevdiyimi, ailəmi, hər şeyimi, dayağımı itirdim...

## Öldürün bizi, əclaf faşistlər

- Onu məndən alan gülləni də özümə verdilər. O gülləni Tarix muzeyinə vermişəm, indi orda saxlayırlar. Bacara bilmədik... Vaxtında xəstəxanaya çatdıra bilsəydik, şikəst qalacaqdı, amma yaşayacaqdı. Bilmirdim nə edəcəm. Hər şeyin sonu imiş kimi donmuşdum.

Qaynım gəldi. Başını divara vururdu. Bizi yola saldılar ki, ara sakitləşsin, meyiti sabah gəlib götürərsiniz. Maşına minib xəstəxanadan çıxdıq.

Sabunçudan Ramanaya kəsmə yolla çatanda əsgərlər tutdu bizi. Maşından düşürüb divara dirədilər. Silahın çəkildiyini eşitdim. Düşündüm ki, bizi güllələyəcəklər. Üzümü çevirdim, pencəyimin qabağını açdım, başladım qışqırmağa ki, öldürün, əclaf faşistlər... Tüpürdüm əsgərin üzünə. Özbək, ya qırğız millətindən idi. Əsgər donub qalmışdı. Bizi buraxdılar. Mədənlərin içi ilə gəldik çıxdıq evə...

**Məndən atalarını istədilər...**

Səhər saat 6 idi evə çatanda. İçəri girəndə uşaqların hamısı yuxudan oyanıb bizi gözləyirdi. Qohum-qonşu da bizə yığışmışdı. Qapıdan içəri girəndə uşaqlar qabağıma qaçdı ki, ata indi axsaq gəzəcək, hə, ana? Güllə ayağından dəyib, hə? Heç nə olmayacaq ona, hə? Başladım ağlamağa. Balaca oğlum qayıtdı ki, ana, ata yoxdu daha? Heç nə demədim, bağrıma basıb hönkürdüm.

Yoldaşımı Yeni Sabunçu qəbiristanlığında dəfn etdik. Yarası çox qanayırdı deyə, üç dəfə kəfənəni dəyişməli olduq. Axırda yarasına xəmir qoyub basdırdıq. Sonra gəlib dedilər ki, meyiti çıxarıb verin, Şəhidlər xiyabanında basdıraq. Razı olmadım. Ancaq şəkilini vermişəm, orda vurublar.

20 Yanvar faciəsinin 20 illiyi zamanı yaxın dostu mənə onunla bağlı çox şeyləri danışdı. Mən onun həmin gün qəhrəmanlıq etdiyini bilmirdim. Çox adamı xilas edib, evinə aparıb. İndi ona görə Sabunçuda çox insan onu qəhrəman kimi tanıyır. Dostunun danışdıqlarından sonra mən bildim ki, onu tanımamışam. Necə gözəl insan olub. Nə qədər xeyirli əməllər görüb. Ancaq heç birindən məlumatım olmayıb.

**Onun ruhundan, xalqın ona verdiyi qiymətdən güc aldım**

- 50 yaşı həmin ilin dekabrın 23-də tamam olmuşdu. Ailə başçısı, ata olaraq çox yaxşı idi. Bizə hər şərait yaratmışdı. Çox qısqanc idi. Dörd övladımız var. Yoldaşım rəhmətə gedəndə böyüyün 13, balacanın isə 6 yaşı var idi. Böyük oğlumuzun hüquqşünas, qızların həkim, balaca oğlanın isə rəssam olmasını istəyirdi. Ən böyük arzusu isə oğul toyu görmək idi. Çox xəyallar qururdu. Deyirdim ki, Ramiz, hələ uşaqlar balacadır, indidən nə xəyal edirsən? Deyirdi ki, nolsun. Arzusu ürəyində də getdi... O öləndən sonra çox şeyimi itirdim. Ancaq onun ruhundan, xalqın ona verdiyi qiymətdən güc aldım.

Həmin yaşadığım stresdən dolayı astma və ürəkağrısı tapdım. Aylarla xəstəxanada yatdım. Anam uşaqlarıma baxırdı. 1990-cı ilin oktyabr ayında anam mənim dərdimə dözməyib öldü. 1993-cü ildə isə qayınanam dünyasını dəyişdi. Tam tək qaldım.

**Heydər Əliyev qulağıma pıçıldadı ki...**

- 20 Yanvar faciəsinin 10 illiyi ilə bağlı ulu öndər Heydər Əliyevin iştirakı ilə Respublika sarayında tədbir keçirilmişdi. Çıxışçı olaraq Suraxanı rayonundan mənim adımı qeyd etdilər.

Çıxışımda Şəhidlər xiyabanındakı məşələ toxundum. İndi yadımda qalanları bölüşə bilərəm. Demişdim ki, onun atəşi bizim şəhidlərin gözlərinin parıltısında əks olunub. Sönməz məşəl gecə-gündüz onları soyuqdan qoruyur.

Üçüncü çıxış etmişdim. Məndən sonra 15 nəfər də danışdı, sonra ulu öndər çıxış etdi və film nümayiş olundu. Heydər Əliyev çıxışında mənim dediklərimə toxundu. Sevincdən, həyəcandan gözümdən yaş axırdı. Çox qürurlanmışdım. Tədbir qurtaranda Heydər Əliyev məni soruşdu. Məni gətirdilər ki, budur o xanım.

Çox həyəcanlı idim. Mənə xoş sözlər dedi. Mənimlə söhbət edən zaman ordan-burdan ulu öndərə məktublar təqdim edirdilər. Qayıtdı mənə dedi ki, "bəs, sən nə istəyirsən de mənə..." Baxdım ona, dedim, çox sağ olun, təşəkkür edirəm, minnətdaram. Süzdü məni, qollarını açdı və mənə sarı gəldi. Donub qalmışdım. Məni qucaqladı, alnımdan öpdü və qulağıma pıçıldadı ki, "sənə halal olsun". O söz mənim üçün ən böyük mükafat, mülk, medal, hər şey idi...

**Şəhidlərimizin ruhu azaddır**

- İndi 11 nəvəm var. Onlar babaları ilə şəkillərdə, mənim xatirələrimdə tanış olublar. Balaca nəvəm onun adını daşıyır. Ona da Ramiz deyirik. Babasına bənzəyir. Hər il dekabrın 23-ü yoldaşımın ad gününü qeyd edirik. Süfrə açırıq, onun üçün də qab dəsti qoyub, stulunu boş saxlayırıq. Yerinə fotosunu qoyuruq. O gün ağlamıram. Elə bilirəm ki, o da bizimlədi. Həmişə şəkilləri ilə söhbətləşirəm. Deyirəm ki, Ramiz, bu gün nəvələrin

gəlmişdi. Bu gün sən sevdiyin yeməyi hazırladım. Ramiz, belə iş tutmuşam, səncə, düz etmişəm ya yox? Bu ağrı heç vaxt azalmayacaq.

Şəhid ailəsi olaraq həmişə dövlət qayğısını hiss edirik. Bu gün şadam ki, əmin-amanlığın, sakitliyin hökm sürdüyü bir respublikada yaşayırıq. Buna görə Prezident İlham Əliyevə dərin minnətdarlığımızı bildiririk. İndi 20 Yanvar şəhidlərinin ruhu şaddır, çünki müstəqilliyimiz var. O gün olsun ki, Qarabağ şəhidlərinin də ruhu azad olsun. Hər evdə bir şəhidimizin adını daşıyan var. Qoy düşmən sevinməsin...

O gün Şövkət xanım kimi başsız qalan çox qadınlarımız var. Onunla eyni ağrını artıq 29 ildir ürəyinin başında özüylə birgə yaşadan analarımız, bacılarımız gözü yaşlı qalıb. Tək arzuları isə o gün yenə olmasın, ölkəmizdə bərqərar olunan bu sabitlik pozulmasın. Müharibə bitsin, işğal altında olan torpaqlarımız geri qayıtsın və bütün məcburi köçkünlər öz doğma yurdlarına qayıtsın.

**Azərbaycan.** - 2019.- 20 yanvar. - № 15. - S. 4.

## 28 il əvvəl - 19 yanvar gecəsinin müsibətləri

**Rəhman Salmanlı**

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusu tərəfindən xalqımıza qarşı analoqu olmayan qəddarlıq törədildi. O qanlı şənbə gecəsindən 28 il ötsə də, faciə və vətənimizin suverenliyi uğrunda şəhid olanların fədakarlığı, insanların ağrılı-acılı günləri unudulmur.

Həmsöhbətim Ramazan Həmzəyev indi Bakıda, Binəqədi rayonunda yaşasa da, cəbhə bölgəsindən - Ağdamın Quzanlı kəndindəndir. Rayonun Mərzili, Beyləqanın Xaçın, Ağcabədinin Avşar kəndləri istiqamətlərində gedən döyüşlərin iştirakçısı olub. Müharibə, top-tüfəng, ölüm-itki görmüş bir adam olsa da, o qanlı Yanvar gecəsində gördüklərini dəhşətli hadisə kimi xatırlayır:

- Yanvarın 19-u günü gecənin bir aləmi metronun 20 Yanvar stansiyası istiqamətindən gələn top-tüfəng, vay-şivən səslərinə ayıldıq. Qonşular, xüsusilə həyat yoldaşı və ya övladı gecə növbəsində işdə olan ailələr təşvişə düşdülər. Bu narahatçılığa görə məcbur olub piyada bir neçə qonşu ilə birlikdə metronun o vaxt XI Qızıl Ordu adlanan (indi 20 Yanvar) istiqamətinə getdik.

Nə görsək yaxşıdır?! Bakının şimal qapısı istiqamətindən gələn sovet ordusunun ağır texnikasının nə əvvəli bilinirdi, nə sonu. Saysız-hesabsız texnikanın şəhərə girişinin qarşısını almaq üçün dinc əhali yük maşınları ilə yolu bağlamışdı, sürücülər, eləcə də onlara dəstək olan xeyli insan yol boyu oturmuşdular. Necə deyərlər, ordunun şəhərə girişinin ilk həmləsinin qarşısı alınmışdı. Yaxınlarımızı axtara-axtara biz də etirazçılara qoşulduq. Heç bir saat keçmədi, magistralda dayanan bütün texnika bir anda hərəkətə gəldi. Üstündə əli avtomatlı saqqallı əsgərlər əyləşmiş tanklar atəş aça-aça yük maşınlarını əzərək, aşıraraq yol boyu oturan əliyalın əhalinin üstünə yeridi. Yolun ortasında çabalaya-çabalaya can verənlərin, qolu, qıçı qırılanların naləsi qulaq batırırdı. Sağ qalanlara qaçmağa belə, imkan vermirdilər. Qorxudan, həyəcandan yol qırağında, bina tinində yerə yıxılanlara hər addımda rast gəlmək mümkün idi. Qaçıb sağ qalanlar bir azdan ordan-burdan çıxıb magistralın ortasındakı meyitləri görəndə, yarımcan yaralılara yardım etmək istəyəndə ürəyi gedən də oldu. Dəhşətlisi o idi ki, bu zaman uzunsaçlı və saqqallı sovet əsgərləri dinc əhaliyə qarşı atəşi dayandırmırdılar. İstər qoca kişi olsun, istər yaşlı qadın və ya uşaq - hamıya atəş açırdılar. Hətta yolqırağı yaşayış binalarında işığı yanan mənzilləri də atəşə tuturdular.

O dəhşətli mənzərəni heç vaxt unuda bilmirəm. Təsəllim odur ki, öz əllərimlə qəbirlərini qazdığım o şəhidlərin məzarlarını həmişə bayramlarda və 20 Yanvar günü ziyarət edirəm.

Yasamal rayonunun sakini Yeganə Rəhimova təəssüratını həyəcansız danışa bilmir, gördüklərini xatırladıqca qəhər boğur, gözlərində yaş gilələnirdi:

- Uşaqlar körpə idi, həyat yoldaşım işdə idi. Gecənin bir aləmi atəş səslərinə, göyün üzünə qırmızı xətlər çəkən pulemyotların güllə yağışına yuxudan ayıldıq. Doqquzmərtəbəli, 10 bloklu binamızda 180 ailə yaşayırdı, səsə balkona çıxanda gördüm ki, bütün qonşuların mənzillərində işıq yanır. Hamı narahat idi. Sovet tankları indiki İctimai Televiziyanın yerləşdiyi binanın qabağından keçərək Yeni Yasamal enişinə doğru irəliləyirdi. Mənim kimi balkona çıxan hərbçi qonşum binaya doğru atılan gülləlləri görəndə qışqırdı ki, uşaqları balkona buraxmayın, keçin evə, işıqları söndürüb yerə, divar küncünə uzanın! Cərgə ilə bizim yaşadığımız və digər qonşu binaları atəşə tuta-tuta Yasamala enən tanklar irəlidə yaşayış olmadığını görüb gəldikləri kimi, işıq gələn mənzillərə, yolda onlardan bir az aralıdan ötən minik avtomobillərinə atəş aça-aça geri qayıtdı. Qonşular vahimə içində idilər. Analar təsadüfən evə gəlməyən uşağının adını ucadan səsləndirərək ağlayır, qışqırır, başına-gözünə döyüb fəryad qoparırdılar. Bir xeyli müddət camaat evdən çölə çıxmadı. Çünki binamıza atəş açırdılar. Atılan mərmilərdən birinin yaşadığımız Dadaş Bünyadzadə küçəsi, 232-ci binanın 10-cu blokunun divarından açdığı deşik indi də durur.

Səhərə yaxın bir də gördüm ki, mənzilimizin qapısı döyülür. Əvvəl qorxduq, qapını açmadıq, səsimizi çıxarmadıq. "Ay Yeganə xanım, mənəm, Lətifədir!" - deyəndə qonşunu səsindən tanıdım. Oğlu evə gəlmədiyindən bərk həyəcanlı idi.

Qapını azyaşlı uşaqlarımın üstünə bağlayaraq qonşumuz Zöhrəni də özümüzlə götürüb Aqili axtarmağa getdik. İlk gəldiyimiz ünvan Respublika Xəstəxanası oldu. Burada adam əlindən iynə atsan yerə düşməzdi, xərəkdə və kiminsə köməyi ilə gətirilən yaralıların iniltisindən adamın əti ürpəşirdi. Övladından xəbər bilmək istəyənlər ilk əvvəl buradakı meyitxanaya baxırdılar. Biz də ora getdik. Lətifəni içəri buraxmadıq ki, birdən oğlu orada olar, halı pisləşər. İçəridə 18-20 yaş arası sıra ilə düzülmüş cavan uşaqların üstlərinə ağ mələfə çəkmişdilər, mələfəni qaldırıb bir-bir onların üzünə baxdıq. Aqil burada yox idi.

Meyitxanadan çıxanda bir nəfər yaşlı kişi hamilə xanımla birlikdə gecə işdən evə gəlib çıxmayan oğlunu axtarırdı. Məndən oradakı ölülərin təxmini yaşlarını, geyimlərini soruşdu, nə görmüşdümsə, dedim. Kişinin rəngi ağardı, hamilə gəlin içəri girmək istəyəndə, kişi onu qoymadı: “Sən bircə dəqiqə dayan”- deyib onu qapının ağzında saxladı, özü meyitxanaya girdi. Dəqiqə çəkmədi ki, çölə çıxdı, dodaqları əsirdi, sağ əlini ağzına qoyub mənə “danışma”, “dinmə” işarəsi ilə üzünü yanındakı hamilə xanıma tutdu: “Gedək, burada yoxdur, sən get evə, mən başqa xəstəxanalara baş çəkib xəbər bilərəm” - deyib xanımı oradan uzaqlaşdırmağa çalışdı. Az sonra tibb bacılarından öyrəndim ki, ölən cavan uşaqlardan biri kişinin oğlu, hamilə gəlinin isə qardaşı imiş.

Xəstəxanaya girəndə gördük ki, pilləkən, koridor qan içindədir. Palatalarda çarpayıda yer olmadığından yaralılardan döşəməyə də uzadılanı var idi. Koridorda xərəyə sığmayan (ucaboy olduğundan ayaqları xərəkdən çölə çıxırdı) cavan oğlanın üstünə salınmış döşəkağını qaldırıb gördüm ki, bir tərəfini güllə möhkəm yaralayıb, əynində nə paltarı varsa, qanın içindədir. Adını soruşdum, zorla bircə onu dedi ki, Kəlbəcərdənəm, məni axşamkı əsgərlər bu günə qoyublar. Yanında kimsə olmadığından mən də, qonşular da tibb bacılarını məcbur edib onu təcili əməliyyat otağına apardıq.

Qonşum Lətifənin 17 yaşlı oğlu günortadan sonra tapıldı. Həmin günü axşama yaxın evdə xörək bişirib rəfiqələrim Südabə xanımla, Gülzar xanımla, Zöhrə xanımla Respublika Xəstəxanasına gətirdik. Xəstəxananın koridorlarında və palatada yaralılara paylayırdıq. Ona görə yox ki, onlara orada yemək vermirdilər, yox, sadəcə olaraq xəstəxana işçiləri yaralılardan, gətirilən xəstələrə iynədən, dərmandan, sarğıdan, bir sözlə, ilk tibbi yardımdan vaxt edib əlavə qulluq göstərə bilmirdilər. Biz qonşuların hazırladığı yeməklər bir yana, Azon zavodunun yeməkxanasının aşpazı Nurbala hər gün qazan-qazan yeməklər hazırlayıb bizə verirdi ki, yaralılara çatdıraq. Bu, bir neçə gün davam etdi. Onu da deyim ki, xəstəxanaya zənbil-zənbil yemək, hətta dərman alıb gətirən insanlar var idi.

20 Yanvar hadisələri göstərdi ki, Azərbaycan müstəqillik və azadlıq yolunda canından keçməyə qadir qəhrəmanlar yurdudur.

**Azərbaycan**.- 2018.- 19 yanvar.- №13.-S.4.

**20 Yanvar Azərbaycan Şəhidləri Günü kimi təsis edilə bilər**

***"20 Yanvar" İctimai Birliyinin sədri Soltan Əzimzadə: "O günün böyük siyasi-mənəvi mənası var"***
***Rəhim Hüseynzadə: "Bizim də igidlərin məzarları Bakıda, şəhər və bölgələrin şəhidlər xiyabanlarında ziyarət edilir"***

**Dünən "20.Yanvar" və "İranlı Mühacirlər Cəmiyyəti" ictimai birliklərinin üzvləri yanvar faciəsinə aid birgə tədbir keçiriblər. Beynəlxalq Mətbuat Mərkəzində düzənlənən "dəyirmi masa"da hər iki qurumun təmsilçiləri, 20 Yanvar şəhidlərinin ailə üzvləri, qanlı olaylar zamanı yaralanan, sağlamlığım itirən insanlar, alimlər və təhqiqatçılar iştirak ediblər.**

Öncə Azərbaycan Respublikasının Dövlət himni səslənib və müstəqillik yolunda şəhid olanların xatirələri bir dəqiqəlik sükutla yad edilib.

“20 Yanvar” ictimai Birliyinin sədri Soltan Əzimzadənin məruzəsində minlərlə insanı paytaxtın baş meydanına, küçə və xiyabanlarına cəmləşdirən hadisələrin xarakteristikası verilib.

“Azadlıq uğrunda mübariz” fəxri adını daşıyan təşkilat rəhbəri Azərbaycanı XX əsrdə ikinci dövlət müstəqilliyinə qovuşduran yolda möhtəşəmliyi ilə fərqlənən bu tarixi hadisənin hərtərəfli şərhini verib. O, konkret faktlar gətirərkən sözlərini Ümummmili Liderimiz Heydər Əliyevdən sitatla əsaslandırıb: “Yenə deyirəm, o günün mənası həyatını qurban vermiş, yaxud yaralanmış adamların sayı ilə ölçülməməlidir. O günün böyük siyasi-mənəvi mənası var”.

S. Əzimzadənin məruzəsində həmçinin müqəddəs amal yolunda şəhid və əlil olan iranlı mühacirlər və onların ailə üzvlərinin barəsində misallar çəkilib, bu amilin əhəmiyyəti qeyd olunub.

İranlı Mühacirlər Cəmiyyətinin sədri, əməkdar jurnalist Rəhim Hüseynzadə onun fikirlərini davam etdirərək deyib ki, bu, təşkilatımızın mövcud olduğu 70 ildə Azərbaycan cəmiyyətinə inteqrasiyasının daha da dərinləşməsi yolunda başqa qurumlarla reallaşdırdığı ilk birgə tədbir olduğundan xüsusi əhəmiyyət yaşayır. O, ölkədə mühacirlərə göstərilən hərtərəfli bəşəri qayğılar barədə məlumat verib və bu insanların belə diqqəti hər zaman cavabsız qoymadığını bildirib: “Bizim də igidlərin məzarları Bakıda, şəhər və bölgələrin şəhidlər xiyabanlarında ziyarət edilir. Məhz bu baxımdan ilk birgə tədbirə “20 Yanvar” İctimai Birliyi ilə başlamağımız tamamilə məntiqidir”.

“20 Yanvar” Fondunun rəhbəri, şəhid övladı Maral Zamanova (Qocaman) Azərbaycan Respublikasının mövcudluğundan qürur duyduğunu dilə gətirib. Bu mənada şanlı tarixin incəliklərinə qədər nəsillərə çatdırılmasının vacibliyindən danışıb. O, həmin sahəyə təhsildə, maarifçilik işində xüsusilə yaradıcı şəkildə, məsuliyyətlə yanaşmağın əhəmiyyətindən bəhs edib.

Az.TV-nin əməkdaşı, İMO idarə Heyətinin üzvü Həsən Cəbrayılov (Ahəngi) çıxışında 1990-cı il yanvarın 19-da ölkəmizin informasiya blokadasına alınması üçün təcavüzkar ordunun həyata keçirdiyi təxribatların mənzərəsini yaradıb. Qoruyucu şəbəkənin partladılması, jurnalistlərin həbsi, dinc əhaliyə tutulan divanlar barədə gördüklərini xatırlayıb. 20 Yanvar əlili Tofiq Allahverdiyev o vaxtlar 20 Yanvardan rəsmi dairələrdə, mətbuatda heç də olduğu kimi danışılmadığını, ölkənin sahibsiz qaldığını, yalnız Ulu Öndər Heydər Əliyevin Azərbaycana qayıdışından sonra kəsərli tədbirlərin həyata keçirildiyini bildirib. “Cənublu qardaşlarımızın da bizimlə çiyin-çiyinə dayanmalarından qürur duymuşuq”.

Tədbirdə ötən əsrdə baş verən və hərəsi bir-iki il iran daxilində milli hökumətlərin qurulması ilə nəticələnən Səttarxan, Şeyx Məhəmməd Xiyabani, həmçinin Seyid Cəfər Pişəvərinin rəhbərlik etdiyi “21 Azər” hərəkatlarında da xeyli insanın şəhid olduğu xatırlanıb. Həmin hadisələrin 20 Yanvar aspekti ilə təhlili zamanı bu insanların da birgə anılacağı Azərbaycan Şəhidləri Gününün təsisinin böyük mənəvi əhəmiyyət daşıyacağına diqqət çəkilib.

Bildirilib ki, “21 Azər”-in ildönümündə, 1946-cı il dekabrın 12-də 20 mindən çox mübariz güllələnib, yaxud dara çəkilib. Lakin dekabrın 12- si 72 ildir inqilabın qələbəsi günü kimi qeyd edilir. 20 Yanvar isə respublikamızın əbədi müstəqilliyinin təməlidir. Buna görə də Azərbaycan Şəhidləri Günü kimi təsis olunmağa daha çox məntiqi haqq edir.

Tədbirdə hər iki təşkilata həmin istiqamətdə müvafiq dövlət qurumlarına birgə müraciət etmələri tövsiyə olunub.

**Paralel.**-2018.-17 yanvar.-№9.-S.14.

**20 Yanvarın 20 yanı var**

**Birinci günahkar Rusiyadır, amma faciədə başqa qüvvələrin də əli olub**

**1990-cı ilin 20 Yanvarında 131 günahsız insan öldürüldü, 744 adam yaralandı**

**İsmayıl**

Xalqımızın tarixində qanla yazılmış səhifələr var. Zaman baxımından yaxın, ya uzaq olmasından asılı olmayaraq, yaddaşımızda o səhifələr həmişə kədərlə oxunur. 1990-cı ilin 20 Yanvar günü də yaddaşımızda dərin iz buraxan qanlı olaylardan biri, bəlkə də birincisidir. O dəhşətli gecədən bizi 28 illik bir zaman ayırır. Vaxt etibarı ilə bizdən uzaqlaşmasına baxmayaraq, 20 Yanvar günü hər il Bakıda və Azərbaycanın bütün şəhərlərində mümkün qədər geniş şəkildə qeyd olunur.

İnsanlar axın-axın Şəhidlər Xiyabanına yürüyür, günahsız insanların dəfn olunduqları şəhid məzarlarını ziyarət edir, öz mənəvi borclarını yerinə yetirməyə çalışırlar. Gənclərin, yeniyetmələrin, xüsusən balaca uşaqların hər il Şəhidlər Xiyabanına aparılması müstəqilliyimizi hansı hadisələrin və kimlərin hesabına qazandığımızı əyani şəkildə onlara göstərir. 28 yox, lap yüz il keçsə də, şəhidlərə olan minnət borcumuzu xatırladır, müstəqilliyimizə daha sıx yapışmağımızı, azadlığımızı göz bəbəyimiz kimi qorumağımızı bizə öyrədir.

**Sovet ordusu Bakıya gecə yeridildi**

Şübhəsiz ki, keçmiş sovet dövlətinin hərb maşınının Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biridir. Milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhalinin qətlə yetirilməsi totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. Məhz həmin gecə sovet ordusunun Bakıya yeridilməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi. Əlbəttə ki, 1990-cu il yanvarın 20-də Bakıda baş verən hadisələri Qarabağdakı erməni təcavüzündən ayrıca təhlil etmək düzgün olmazdı. Çünki Azərbaycan həmin dövrdə qonşu Ermənistanın təcavüzünə də məruz qalmışdı. Belə bir şəraitdə sovet rəhbərliyi nəinki münaqişənin qarşısını almaq üçün qəti tədbirlər gördü, əksinə, Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan xüsusi təlim keçmiş erməni əsgər və zabitləri, eləcə də sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantlar da daxil edildi.

1990-cı ilin yanvar ayında SSRİ rəhbəri Mixail Qorbaçov başda olmaqla sovet imperiyasının rəhbərliyi Bakıda vəziyyətin öz məcrasından çıxdığını və hakimiyyətin təhlükədə olduğunu bəhanə edərək qoşunun yeridilməsi üçün müxtəlif dezinformasiyalar yayırdı. Guya, Bakıya qoşun hərbi qulluqçuların ailələrini qorumaq, hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə bu, tamamilə saxta bir tezis idi. Çünki sovet rəhbərliyinin "dəlilləri" hətta həqiqətə yaxın olsaydı belə, Bakıya xüsusi təlim keçmiş qoşun göndərməyə ehtiyac yox idi. Bütün bunlara baxmayaraq, gecə sovet qoşunları şəhərə daxil oldu və dinc əhaliyə amansız divan tutdu. 131 günahsız insan öldürüldü, 744 adam yaralandı. Həyatını itirənlərdən 117-si azərbaycanlı, 6-sı rus, 3-ü yəhudi, 3-ü isə tatar idi. Neftçala və Lənkəranda da ölənlərin sayı 25-26 nəfərə çatdı. Daha sonra bütün dünya Bakıda törədilmiş dəhşətli qırğından xəbər tutdu.

**Dünya Bakıya silahlı təcavüzü pislədi**

Sovet qoşunlarının Bakıya hərbi müdaxiləsi dünyanın bir sıra ölkələrində etirazla qarşılandı. Qardaş Türkiyənin hər yerində mitinq və nümayişlər keçirildi. Sovet rəhbərliyinin törətdiyi cinayəti müdafiə edən Amerika Birləşmiş Ştatları tənqid olundu. İranın milli təhlükəsizlik şurası yığıncaq keçirərək bu barədə bəyanat qəbul etdi. İran parlamentinin 160-dan çox üzvü Qorbaçovun Azərbaycana silahlı təcavüzünü pislədi. Ozamanki prezident Rəfsəncani və İranın dini lideri Xameneyi Qorbaçovun atdığı bu addımı kəskin tənqid etdi. Qərb ölkələrinin mövqeyinə gəldikdə isə, Sovet İttifaqının Azərbaycana hərbi müdaxiləsinə müxtəlif reaksiyalar verildi. Bu reaksiyalar ümumilikdə müsbət olsa da, obyektiv reallığı əks etdirmədi. Nüfuzlu "Los-Anceles Tayms", "Vaşinqton Post", "Krisçen Sayens Monitor", "Nyu-York Tayms", "Baltimor San" kimi mətbu orqanlarda qanlı cinayətə laqeyd münasibət sərgiləndi. Ən acınacaqlısı isə o idi ki, 1990-cı ildə Bakıda baş

verən qırğına şəxsən qol çəkmiş Qorbaçov həmin il Beynəlxalq Nobel Sülh mükafatına layiq görüldü. Sadəcə, amerikalı konqresmen Din Heller bu qanlı hadisədən 20 il sonra olayları dəhşətli qətliam adlandırdı. Bəyan etdi ki, dünyada hər kəsin "Qanlı Yanvar" faciəsini xatırlaması və həmin gün canlarından keçənlərin xatirəsini yad etməsi vacibdir".

**Sovet quruluşu dağıldı**

SSRİ öz varlığına mənəvi cəhətdən Bakıda son qoydu. Bakı hadisələrindən sonra sovetlərin böhranı daha da dərinləşməyə başladı və quruluş dağıldı. Dağılma sürəti elə yüksək oldu ki, onu dağıtmaq istəyən xarici qüvvələr belə sürətə hazır deyildilər. ABŞ-ın yaxın planında SSRİ-nin dağılması yox idi. Onların əsas strateji məqsədi sovetləri zəiflətmək idi. Tarixçilərin həmin hadisəni lazımi dərəcədə qiymətləndirməsi üçün vacib sənədlər açılmayıb. Ölkə daxilində yeganə hadisə idi ki, əməliyyata birbaşa müdafiə naziri özü rəhbərlik edirdi və Yazov özü Bakıya gəlmişdi. SSRİ daxilində hələ belə bir hadisə olmamışdı ki, müdafiə naziri birbaşa özü hərbi əməliyyat keçirilən əraziyə gəlsin. Normalda hamı bu hadisədən sonra öz evinə girməli idi və şəhidlərin meyitləri ortalıqda qalmalıydı. Amma səhəri gün nə oldu?

Dəstə-dəstə insanlar partiya-sovet orqanlarının qarşısına axışdılar, sovetlərin başlıca mənəvi siyasi simvolu olan partiya biletlərini cırıb atdılar. Qorbaçov haqqında şəhərin müxtəlif yerlərində "cəllad", "rədd olsun sovet hökuməti" nidaları səsləndi. Bu, böyük bir tarixi hadisə idi.

O zaman yalnız ümummilli liderimiz Heydər Əliyev bütün çətinliklərə baxmayaraq, siyasi iradə nümayiş etdirərək Moskvadakı Azərbaycan nümayəndəliyinə gəldi və SSRİ rəhbərliyinin törətdiyi cinayəti qətiyyətlə pislədi. Azərbaycan rəhbərliyinə qayıdışdan sonra Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ilin yanvar ayında Milli Məclisdə Azərbaycan xalqına qarşı təcavüzkar olan faciəvi 20 Yanvar hadisələrinə siyasi qiymət verildi. Təəssüf ki, müstəqilliyimizi əldə etdikdən sonra 3 il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilmədi.

**Vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar**

1990-cı ilin yanvar qırğını nə qədər faciəli və qanlı olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Ona görə də həmin gecə eyni zamanda şanlı və şərəfli gün kimi də yaddaşımıza hopdu. Müdhiş gecədə həlak olan vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar. Xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar.

Zamanla 20 Yanvar hadisəsi daha dərindən araşdırılmağa başlandı. Qanlı gecəyə poemalar, romanlar, hekayələr, şeirlər həsr edildi. Filmlər çəkildi. Hadisənin canlı şahidləri dəhşətli gecəni öz müşahidələrinə uyğun qələmə aldılar. Böyük şairimiz Bəxtiyar Vahabzadənin "Şəhidlər" poeması 20 Yanvar mövzusunda yazılan əsərlərin ən kamili və bədii-sənətkarlıq baxımından ən mükəmməli sayıldı. Müəllif poemada faciənin yaranma səbəblərini təhlil edir, günahkarları bəyan edirdi. Poemanın bir məziyyəti də bundadır ki, şair şəhidliyi həm də qəhrəmanlıq kimi vəsf edir. Qəhrəmanlıq təkcə hünər göstərmək, düşməni məhv etmək deyil, həm də əliyalın olsa belə təcavüzə müqavimət göstərmək, hiddət və etirazını bildirməkdir..

O şənbə gecəsi, o qətl günü,
Mümkünə döndərdik çox namümkünü,
Xalqın qəlbindəki qorxu mülkünü,
O gecə dağıdıb sökdü Şəhidlər.

**"20 Yanvar bizə müstəqillik yolu açdı"**

Qanlı gecə ilə bağlı şeirlər və məqalələr yazan dəyərli ziyalılarımızdan biri də Bakı Dövlət Universitetinin professoru, tanınmış jurnalist Nəsir Əhmədli idi. 20 Yanvar gecəsi ilə bağlı "Şərq"ə xatirələrini və düşüncələrini paylaşan Nəsir müəllim dedi ki, 20 Yanvar keçid dövrünün ən mühüm hadisəsi olmuşdu. Professorun sözlərinə görə, sovet dövründən müstəqillik rejiminə keçmək üçün bir mərhələ yaşanmalı idi. O mərhələ də qanlı 20 Yanvar gecəsi oldu: "Məsələ ondadır ki, biz başqalarından fərqli olaraq bu mərhələni çox ağır keçirtdik. Digər respublikalarda proses bu qədər dəhşətli olmadı.

Sadəcə, Gürcüstanda və Qazaxıstanda belə hadisələr yaşandı. Amma ən faciəlisi Azərbaycanda, Bakı şəhərində baş verdi. Tərkibində ermənilərin də olduğu sovet qoşunları ölkəmizə hücum etdi və bir neçə günün

içində yüzlərlə adamı şəhid etdilər, yaraladılar, xeyli adam itkin düşdü. Hər zaman demişəm ki, 20 Yanvar hadisəsinin iki tərəfi var. Bir tərəfi qanlı faciədir, çünki həmin gecə insanlar, gənclər, qadınlar, uşaqlar öldürülüb. Hətta başqa millətlərin nümayəndələri də həyatlarını itiriblər. 20 Yanvarın digər tərəfi isə həmin günün bizim tariximizə şanlı və parlaq səhifə olaraq yazılmasıdır. Əgər xalqımız o cür mübarizə göstərməsəydi, təbii ki, müstəqilliyimizi əldə edə bilməzdik. 20 Yanvar bizə müstəqillik yolu açdı".

N. Əhmədli xatırladıb ki, o qanlı gecə ilə bağlı "20 Yanvarın 20 yanı var" adlı məqalə yazıb: "Həmin məqalədə vurğulamışdım ki, biz qanlı gecədə sadəcə Moskvanı günahkar hesab edirik, digər əlləri görmürük. Amma bu hadisənin törədilməsində başqa tərəflərin də əli və suçu olub. Hadisəni sadəcə bir yönlü araşdırmaq doğru deyil. Əlbəttə ki, birinci günahkar Rusiyadır, amma burada müxtəlif adamların da əli var. Təkcə Mixail Qorbaçov deyildi ki. Orada erməni lobbisinin və beynəlxalq qüvvələrin dolayısı yolla iştirakı olub.

Təəssüflər olsun ki, özümüzdən olan bəzi qüvvələrin, şəxslərin də qanlı faciənin baş verməsində, təşkilində barmağı var idi. Bu baxımdan həmin hadisənin konkret günahkarlarını axtarmaq, ortaya çıxarmaq olduqca çətindir. Olayların hamısı bir-biri ilə bağlı olduğuna görə, birinin üstünü açanda, zərbə o birinə dəyir. Yəni çox incə məsələdir. İndiyə kimi nə qədər komissiyalar yaradıldı, amma vurğuladığım nöqtələrdə araşdırmalar dirəndi. Yəqin ki, uzun müddət ərzində qanlı gecəni və olayların günahkarını dəqiq araşdırmaq mümkün olmayacaq. Çünki bu işdə günahı olanların bəziləri hələ də həyatdadır".

**Şərq**. - 2018.- 19 yanvar. - № 11. - S. 4.

**Azərbaycan xalqının istiqlalına yol açan şanlı tarix - 20 Yanvar**

**Beynəlxalq terrorizm ümumbəşəri sülhü təhdid edən əsas problemlərdən biridir. Beynəlxalq miqyasda terrorizmin 1960-cı illərdə başladığı bilinməkdədir. Ancaq terrorizmin, yaxud terror aktlarının tarixinin eramızdan əvvəl 44-cü ildə Sezarın öldürüldüyü vaxta qədər gedib çıxdığını demək mümkündür. Müxtəlif formalarda izah edilən terrorizm qorxu və panika yaratmaq məqsədilə bir və ya birdən çox insan tərəfindən həyata keçirilən zor və şiddət aksiyasıdır.**

Azərbaycan xalqı da zaman-zaman qanlı terror hadisələrinə məruz qalıb. Belə hadisələrdən biri olan 20 Yanvar faciəsi Azərbaycan xalqına qarşı törədilmiş terror aktı və soyqırımıdır. 20 Yanvar faciəsi XX əsrdə insanlığa qarşı törədilmiş ən dəhşətli cinayətlərdən biridir. Bu hadisə Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olub. Keçmiş sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi vəhşi terror aktı insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi bəşər tarixində qara səhifə olaraq qalacaq. Milli azadlığı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi.

AZƏRTAC Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru Murtəza Həsənovun 20 Yanvar faciəsi ilə bağlı qeydlərini təqdim edir.

Azərbaycana qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkarlıq siyasəti və keçmiş SSRİ rəhbərliyinin onlara himayədarlıq etməsinə qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı sovet ordusunun xüsusi təlim keçmiş hissələrindən istifadə olunması 1990-cı ilin 20 yanvarında qanlı faciəyə gətirib çıxardı. Sovet ordusunun böyük kontingentinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi. Kommunist diktaturası Çexoslovakiyaya, Macarıstana, Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni hətta o zamankı Sovet İttifaqının müttəfiq respublikalarından biri olan Azərbaycanda da təkrarlamaqdan çəkinmədi. Həmin vaxt Azərbaycan qonşu Ermənistanın da təcavüzünə məruz qalmışdı. Belə bir şəraitdə sovet rəhbərliyi nəinki münaqişənin qarşısını almaq üçün qəti tədbirlər görmədi, əksinə, Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni əsgər və zabitləri, sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantlar da daxil edilmişdi.

Bakıya yeridilmiş qoşun kontingentinə, - bəzi məlumatlara görə, onun sayı 60 min nəfərə çatırdı, - "döyüş tapşırığını" yerinə yetirmək üçün möhkəm psixoloji hazırlıq keçmişdilər ("Şit" təşkilatının müstəqil hərbi ekspertlərinin hesabatından): sizi Bakıya rusları müdafiə etmək üçün gətiriblər, yerli əhali onları vəhşicəsinə məhv edir; ekstremistlər Salyan kazarmalarının (Bakıda əsas hərbi qarnizonun yerləşdiyi ərazi) ətrafındakı evlərin damlarında snayperlər yerləşdiriblər, təkcə bu ərazidə 110 atəş nöqtəsi var; binalar, mənzillər Azərbaycan Xalq Cəbhəsinin yaraqlıları ilə doludur, onlar sizi güclü avtomat-pulemyot atəşinə tutacaqlar.

Mixail Qorbaçov başda olmaqla sovet imperiyasının rəhbərliyi Bakıda "rus və erməni kartı"ndan məharətlə istifadə etdi. Guya Bakıya qoşun onları, hərbi qulluqçuların ailələrini qorumaq, "millətçi ekstremistlər" tərəfindən hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə bu, açıq riyakarlıq, ağ yalan idi. Çünki sovet rəhbərliyinin "dəlilləri" hətta həqiqətə yaxın olsaydı belə, Bakıya təpədən-dırnağadək silahlandırılmış qoşun göndərməyə ehtiyac yox idi. Ona görə ki, həmin vaxt burada daxili qoşunların 11,5 min əsgəri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri var idi. Dördüncü ordunun komandanlığı da Bakıda yerləşirdi.

Bütün bunlara baxmayaraq, 1990-cı il yanvarın 19-da Mixail Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. Lakin SSRİ DTK-nın "Alfa" qrupu yanvarın 19-da saat 19.27-də Azərbaycan televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və əhaliyə divan tutmağa başladı. Qorbaçovun fərmanı qüvvəyə minənədək – yanvarın 20-də saat 00-dək artıq 9 nəfər öldürülmüşdü. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100 nəfərə çatmışdı. Halbuki Qorbaçovun Azərbaycana ezam etdiyi yüksək vəzifəli emissarlar həyasızcasına bəyan edirdilər ki, Bakıda fövqəladə vəziyyət elan olunmayacaq. Əli yüzlərlə insanın qanına batmış, sonralar Nobel sülh mükafatı (?!) almış Mixail Qorbaçov başda olmaqla sovet imperiyası rəhbərliyinin rəzil siması bu idi...

Tanklar və BTR-lər Bakı küçələrində qarşılarına çıxan hər şeyi əzir, hərbçilər hər yanı amansız atəşə tuturdular. İnsanlar nəinki küçələrdə, hətta avtobusda gedərkən, öz mənzillərində oturduqları yerdə güllələrə tuş gəlirdilər. Yaralıları aparmağa gələn təcili yardım maşınlarını və tibb işçilərini də atəşə tuturdular. Bir neçə gün ərzində 147 nəfər öldürüldü, 700-dək insan yaralandı, 800-dən çox adam qanunsuz həbs edildi.

"Şit" təşkilatı ekspertlərinin hesabatında deyilir: "İnsanları xüsusi qəddarlıqla və yaxın məsafədən güllələmişlər. Məsələn, Y. Meyeroviçə 21, D. Xanməmmədova 10-dan çox, R. Rüstəmova 23 güllə vurulmuşdur. Xəstəxanalar, təcili yardım maşınları atəşə tutulmuş, həkimlər öldürülmüşdür. İnsanlar süngü-bıçaqla qətlə yetirilmişdir. Onların arasında hər iki gözü tutulmuş B. Yefimtsev də var. "Kalaşnikov" avtomatının ağırlıq mərkəzi dəyişən 5,45 çaplı güllələrindən istifadə edilmişdir. Həlak olanlar arasında yetkinlik yaşına çatmayanlar, qadınlar, qocalar, şikəstlər də var idi. Qorbaçovun və ətrafındakıların "millətçi ekstremistlər" adlandırdıqları bunlar idimi?"

Yanvarın 20-də artıq bütün dünya Bakıda törədilmiş dəhşətli qırğından xəbər tutdu. Amma görün, o vaxt sovet imperiyasının ideoloji ruporu olan "Pravda" qəzeti 22 yanvar tarixli nömrəsində nə yazırdı: "Fövqəladə vəziyyət elan edilməsi üçün görülmüş tədbirlər nəticəsində guya qadınlar və uşaqların tələf olması barədə bəyanatlar aşkar fitnəkar xarakter daşıyır. Bir daha təkrar etmək lazımdır ki, bu, qərəzli yalandır. Ondan məqsəd əhalini sovet ordusuna və hüquq mühafizə orqanlarına qarşı qaldırmaqdır"...

20 Yanvar və Azərbaycan tarixində ondan əvvəlki faciəli hadisələr XX əsr boyu xalqımıza qarşı yeridilən düşünülmüş siyasətin növbəti təzahürü idi. Azərbaycan xalqına qarşı soyqırımı, sovet hakimiyyəti illərində Azərbaycan ərazilərinin tədricən ilhaq olunması, nəticədə ölkənin ərazisinin 125 min kvadratkilometrdən 87 min kvadratkilometrədək azalması, sovet rəhbərliyinin havadarlığı ilə başlayan Dağlıq Qarabağ hadisələri, azərbaycanlıların Ermənistan ərazisindəki əzəli torpaqlarından qovulması bu siyasətin mərhələləridir.

1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan Vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar...

Ümummilli liderimiz Heydər Əliyev bütün çətinliklərə baxmayaraq, siyasi iradə nümayiş etdirərək Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedib və SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə ittiham edərək bəyanatla çıxış edib.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra 1990-cı il 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi və cinayətkarların müəyyən edilməsi istiqamətində məqsədyönlü işlər aparıldı. Faciənin günahkarlarının adları açıq şəkildə bəyan edildi. 20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 5 yanvar tarixli Fərmanında deyilir: "Xalqımızın tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermışdir".

Bakının ən yüksək nöqtələrindən birində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş bir yer var. Bu, 20 Yanvar qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər xiyabanıdır. Hər il yanvarın 20-də minlərlə insan Vətənin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş oğul və qızlarımızın əziz xatirəsini ehtiramla yad etmək üçün Şəhidlər xiyabanını ziyarət edir. Nəsillər dəyişəcək, lakin Vətən oğullarının xatirəsi ürəklərdə əbədi yaşayacaq. Qanlı Yanvar faciəsinin günahkarları, təşkilatçıları və icraçıları layiqli cəzalarına çatmalıdırlar. Cinayət cəzasız qala bilməz. Qanlı Yanvar faciəsi XX əsrdə baş vermiş soyqırımı və etnik təmizləmə hadisələri arasında ən dəhşətlilərinə aiddir. Bu hadisələrdə hər hansı şəkildə iştirak etmiş şəxslər həlalik öz vicdanları qarşısında cavabdehdirlər, ancaq vaxt gələcək və onlar tarixin məhkəməsi qarşısında cavab verməli olacaqlar. Tarix heç nəyi unutmur.

AZƏRTAC

**Səs.** - 2018.- 19 yanvar. - № 11. - S. 8-9.

## 20 Yanvardan sonra genişlənən milli azadlıq mübarizəsi xalqımızı müstəqilliyə qovuşdurdu

**Həmid Vəliyev,**
BDU-nun beynəlxalq jurnalistika kafedrasının müdiri, professor, Gürcüstanın Əməkdar jurnalisti

***1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə gündoğandan günbatana uzanan nəhəng sovet imperiyasına canlı sipər çəkən sovet qoşunlarının Bakıda törətdiyi vəhşiliklər barədə xəbər ildırım sürəti ilə qonşu Gürcüstana da çatdı, buradakı tarixi torpaqlarında yaşayan yarım milyonluq azərbaycanlılara da yetişdi. O zaman mən Tbilisidə Azərbaycan dilində çıxan "Sovet Gürcüstanı" qəzetində redaktor müavini vəzifəsində çalışırdım.***

Yadımdadır, soydaşlarımız bu xəbərdən nə qədər sarsıldılarsa, gürcülər sovet ordusunun növbəti qətliamına o qədər də təəccüblənmədilər. Onlar qarşısına çıxan hər şeyi məhv etmək niyyəti ilə yaradılmış sovet ordusunun Vilnüsdə, Almatıda olduğu kimi, 1989-cu il aprelin 9- da Tbilisidə də necə vəhşiliklər törətdiyini öz gözləri ilə görüb, bundan da artığını edə biləcəyini yəqin etmişdilər. Həqiqət bu idi ki, uca tribunalardan illər boyu "xalq ordusu", "xalqlar dostluğunun keşikçisi" adı ilə tanıdılmış bu zəhmli qüvvə haqq səsini qaldıran xalqlara açıq-aydın qənim kəsilmişdi. Sən demə, bu, xalq ordusu deyil, imperiyanın keşikçisi imiş.

Mərkəzi hakimiyyətin ədalətsizliyini qəbul etmək istəməyən, milli haqlarını qorumaq uğrunda mübarizə aparan insanların qanına-qəltan edilmələri gürcülərin imperiyaya qarşı nifrətini kəskin surətdə artırmışdı. Ordu ilə toqquşmada 13 nəfər günahsız Gürcüstan vətəndaşı şəhid olmuşdu, çoxlu dinc insan müxtəlif dərəcəli bədən xəsarəti almışdı. Sovet təbliğat vasitələri – teleradio və mətbuat onları narkoman kimi qələmə verməyə cəhd göstərir, Kremlin vəhşiliyini hər vasitə ilə ört-basdır etməyə çalışırdı. Lakin bu deyilənlər Gürcüstan əhalisinin azadlıq, müstəqillik uğrunda mübarizə əzmini qıra bilmir, əksinə, xalqı sovet hakimiyyətinə qarşı daha kəskin mübarizə aparmağa yönləndirirdi.

Moskvadan yayımlanan mərkəzi teleradio Tbilisi hadisələri vaxtı olduğu kimi, Bakı faciəsi zamanı Azərbaycan xalqının başına gətirilən fəlakətlər barəsində də heç nə demir, efiri sovet xalqlarının "sarsılmaz dostluğu"ndan, sənaye və kənd təsərrüfatı, elm və texnika sahəsində qazanılmış nailiyyətlər haqqında xəbərlərlə doldururdu. Hər iki faciə zamanı yeganə informasiya mənbəyi xarici radiostansiyalar idi. Onların verdikləri məlumatların isə obyektivliyinə şübhə yaranırdı. Çünki sovet hökumətinin xaricə sürgün etdiyi Paruyr Ayrikyan, xalqımıza qənim kəsilmiş nankor Zori Balayan, cızmaqara şeirləri ilə erməni şovinizmini körükləyən Silva Kaputikyan kimiləri gen-bol onların ixtiyarına verilmiş mərkəzi KİV-də və xarici yayımlarda əzəli torpağımız Qarabağ ətrafında o qədər yalan yaymışdılar ki, Azərbaycan bu informasiya blokadasından çıxa bilmirdi.

Belə bir vəziyyət isə Qorbaçovun və ətrafının ürəyindən xəbər verirdi. Sov.İKP MK-nın baş katibinin müşaviri A.Aqanbekyanın Fransa Kommunist Partiyasının orqanı "Humanite" qəzetinə 1987-ci ilin noyabrında Qarabağla əlaqədar verdiyi müsahibə isə bir tərəfdən erməni millətçilərinə qol-qanad verir, digər tərəfdən isə sovet hökumətinin xarici siyasətinin bədnamlığını aşkara çıxarırdı. Bədnam daşnak akademik həyasızcasına demişdi ki, Qarabağın Ermənistana verilməsi haqqında məsələ qaldırmışdır və həmin məsələ tezliklə ermənilərin xeyrinə həll ediləcəkdir. Belə bir vəziyyətdə sovet qoşunları etiraz səsini qaldıran Azərbaycan xalqının səsini boğmağa göndərilmişdi.

Qırğın başlanmazdan bir neçə saat Azərbaycan Televiziyasının enerji bloku partladılmışdı. Radioda verilişlər getmirdi. Hərdən bir hansısa hərbçi Bakı hərbi komendantının məlumatını höccələyə-höccələyə oxuyurdu. Qəzetlər çıxmırdı.

Faciənin səhərisi günü "Sovet Gürcüstanı" qəzeti redaksiyasındakı iş otağımda fikirli-fikirli oturmuşdum. Birdən telefonum zəng çaldı. Dəstəyi götürdüm. Titrək səsli qadın həyəcanla özünü təqdim etdi. Moskvadan danışdığını bildirdi:

--Bakıda xalqımızı günahsız yerə qırırlar. Dinc adamların qanı su yerinə axır. Qocalara, qadınlara, uşaqlara belə aman vermirlər. Qorbaçov torpaqlarımızı qorumağa qalxan xalqımızı qan dənizində boğmaq istəyir. Amma arzusu gözündə qalacaq. Tarix boyu çox ağır sınaqlara məruz qalmış Azərbaycan xalqı məhv olmamış, şərəflə yaşamışdır. Növbəti sınaq nə qədər ağır olsa da, Azərbaycan sınmayacaq, dostunu düşmənindən seçməyi bacarıb daha güclü olacaqdır.

Sizdən xahişimiz var: bu gün günortadan sonra sizə Bakı faciəsini əks etdirən fotoşəkillər və mətn gətirəcəklər. Onları çap edin və həmin nömrədən 10 nüsxə təyyarə ilə "Domodedovo" aeroportuna göndərin. Gələn şəxs zərfi əlində tutsun, biz qarşılayıb götürərik. Qəzetləri xarici ölkələrin səfirlik və müxbirlərinə çatdıracağıq. Bakı ilə telefon əlaqəsi yoxdur. Ona görə də ümid yerimiz yalnız sizsiniz. Sağ olun...

Qadının səsində qəm və kədərlə yanaşı, qəzəb və hiddət, nifrət və kin, qeyrət və cəsarət vardı. Həmin səs bizi qisas və intiqam almağa çağırırdı. Bu, xahiş deyildi. Mənim üçün, damarlarında azərbaycanlı qanı axanların hamısı üçün əmr idi, kişi qeyrətli qadının çağırışı idi. Əmr isə müzakirə edilmir, icra olunur. Təəssüf ki, aradan artıq 28 il keçdiyinə görə həmin xanımın adı yadımda qalmamışdır.

Həmin xanımın dediyi kimi, saat 14.00 radələrində orta yaşlı iki kişi Tbilisidəki "Komunist" nəşriyyatının üçüncü mərtəbəsində yerləşən redaksiyamıza gəldi. Son dərəcə həyəcanlı olan bu admların gətirdikləri fotoşəkillərə baxmaq mümkün deyildi. Sovet əsgərlərinin "qəhrəmanlığı"nı seyr etmək üçün insan daş qəlbli olmalı idi. Şəkillər azərbaycanlılara qarşı ermənilərin törətdikləri vəhşilikləri xatırladırdı...

O dövrdə "Sovet Gürcüstanı" A-2, yəni böyük formatda həftədə üç dəfə çıxırdı. O gecə çapa gedən nömrənin içəri səhifələrini bütünlüklə Bakı qırğınını əks etdirən fotoşəkillər– insanı dəhşətə gətirən, faciəni törədənlərdən intiqam almağa çağıran mənzərələr tutdu. Sovet qoşunlarının 1989-cu ilin aprel ayında Tbilisi şəhərində dinc əhalini qanına-qəltan etməsindən yanıqlı olan gürcü senzorlar həmin şəkillərin çapına icazə verdilər. Biz bundan istifadə edərək, həmin fotoşəkillərin Gürcüstan mətbuatında-- Mərkəzi Komitənin orqanları olan gürcü dilində çıxan "Komunist" və rusdilli "Zarya Vostoka" qəzetlərində, gənclər üçün "Axalqazrda komunisti" və "Molodyoj Qruzii"də verilməsini təmin etdik. Ertəsi gün səhər tezdən bu qəzetləri Moskvaya göndərdik. Təxminən, üç saat sonra telefonum zəng çaldı. Həmin xanım idi. Aeroportdan danışırdı:

--Təşəkkür edirəm. Çətin və çox gərəkli iş görübsünüz…

--Bu, bizim də qeyrət işimizdir. Biz 20 Yanvar faciəsi ilə bağlı material dərc etdiyimiz bütün nömrələri sizə çatdırmağa çalışacağıq.

Elə bu vaxt xəbər gəldi ki, Gürcüstanın azərbaycanlılar yaşayan rayonlarında etiraz mitinqləri keçirilir. Qardabanidə təşkil olunmuş mitinqdə minlərlə adam iştirak etmişdir. Transparantlar və şüarlarda Moskvanın əməlləri kəskin ittiham olunur. Şüarlardan bəzilərinə diqqət yetirək: "Qorbaçov canidir!", "Azərbaycandan əlinizi çəkin!" Marneuli şəhərində də Kremlin vəhşiliklərinə etiraz bildirən mitinq təşkil edilmişdi.

Deyirlər, hər yara sağalar, buna vaxt lazımdır. Amma xalqın həyatında elə yaralar olur ki, heç vaxt sağalmır və unudulmur. Həmin xalqın bütün sonrakı nəsilləri bu yaralara baxaraq, baş verənləri daim yada salır, zərbə vuranlara nifrət hissini getdikcə gücləndirir. İnsanlar diqqəti şəhidlik zirvəsinə yüksələnlərin arzularının daha geniş şəkildə həyata keçirilməsinə yönəldirlər. 20 Yanvar şəhidlərimiz də ötən 28 il ərzində qürur mənbəyimizə, Şəhidlər xiyabanı gənclərimizin vətənpərvərlik tərbiyəsi məktəbinə çevrilmişdir.

Biz hər il Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanına gəlməklə Vətənimizin müstəqilliyi uğrunda qurban gedənlərin müqəddəs ruhları qarşısında baş əyir, onlarla fəxr etdiyimizi bildiririk. Eyni zamanda, onlara misilsiz iftixar hissi ilə hesabat veririk. Ulularımız demişlər: "Qisas qiyamətə qalmaz". Bəli, qisas tezliklə alındı. Uğrunda şəhidlərimizin qurban getdikləri arzu həqiqətə çevrildi. Tezliklə qanlı sovet imperiyası çökdü. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının müstəqilliyi bərpa olundu.

Biz müstəqillik tariximizi yenidən 1918-ci il mayın 28-dən hesablamağa başladıq. Çətinliklərimiz çox oldu, bu gün də var. Dağlıq Qarabağ problemi hələ də Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmamışdır. Hadisələrin gedişi göstərir ki, beynəlxalq güc mərkəzləri bu problemə ikili standartlarla yanaşsa da, Azərbaycan rəhbərliyinin qətiyyəti, xalqımızın əzmkarlığı və dostlarımızın səyi ilə münaqişə mütləq həll ediləcəkdir. Artıq dünyanın haqsevər dairələri Dağlıq Qarabağın Azərbaycan torpağı olduğunu etiraf edir və problemin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdardır.

Biz bu il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümünü təntənə ilə qeyd edəcəyik. Bu barədə möhtərəm Prezidentimiz, ümummilli lider Heydər Əliyev siyasətinin mahir davamçısı cənab İlham Əliyevin sərəncamı cəmiyyəti bu təntənələrə yönləndirib. Müsəlman Şərqində ilk demokratik dövlətin məhz Azərbaycanda elan olunması, həyatın bütün sahələrində çox böyük uğurlar qazanmağımızla müstəqilliyimizi möhkəmləndirməyimiz xalqımızın beynəlxalq miqyasda nüfuzunu daim artırır.

Azərbaycan hazırda dünya birliyində layiqli yer tutur. İqtisadiyyatın inkişafı sahəsində qazandığımız nailiyyətlər bizi dünya miqyasında qüdrətli dövlət kimi tanıdır. Ötən ilin yekunlarına əsasən, ölkəmiz ümumi inkişaf göstəricilərinə görə, lider mövqeyini qoruyub saxlamışdır. Belə bir faktı qeyd etmək lazımdır ki Azərbaycan Cənubi Qafqaz iqtisadiyyatının 80 faizinə sahiblik edir. Bu isə ölkənin iqtisadi inkişaf prioritetlərinin elmi əsaslara söykəndiyini və respublikanın mövcud potensialı ilə uzlaşdığını göstərir.

Ölkəmizin beynəlxalq nüfuzunun durmadan artdığını sübut edən çoxlu fakt vardır. Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi beynəlxalq nüfuzumuzun göstəricisi kimi dəyərləndirildi. Dünya xalqlarına əfsanə təsiri bağışlayan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin Azərbaycan neftini Avropa ölkələrinə daşıması, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilişi, bu yaxınlarda Bakı-Tbilisi-Qars dəmir yolunun işə salınması ölkəmizin iqtisadiyyat sahəsində çox böyük uğurları kimi qəbul edilir. Avroviziya musiqi yarışmasının, Birinci Avropa və İslam Oyunlarının Bakıda keçirilməsi hər bir azərbaycanlının qəlbini iftixar hissi ilə doldurur.

Dünyanın müxtəlif ölkələrinə səpələnmiş azərbaycanlılar öz tarixi vətənləri ilə fəxr edirlər. İndi azərbaycanlılar dedikdə 50 milyonluq bir xalq gözlərimiz önünə gəlir. “Fəxr edirəm ki, azərbaycanlıyam” – deyən ümummilli lider Heydər Əliyevin yolunun ardıcıl davamçısı İlham Əliyevin Dünya Azərbaycanlılarının II Qurultayında böyük iftixar hissi ilə dediyi “Biz 50 milyonuq bir xalqıq” sözləri qulaqlarımızda daim iftixarla səslənir. 20 Yanvar faciəsinin növbəti ildönümü günlərində bu 50 milyonluq qüvvə, dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, şəhidlərimizin ruhu önündə baş əyir, onların arzularının çin olması üçün əllərindən gələni edir.

**Xalq qəzeti.-**2018.-19 yanvar.-№13.-S.3.

## O gecəni unuda bilmirəm

**Əhməd Cəfərov,**
FHN Xəzər Hövzə Qəza-Xilasetmə Xidmətinin tibb hissəsinin həkimi, 20 Yanvar əlili

**Dörd bir tərəfdən şəhərə hücum edən tankların, zirehli maşınların aləmi bürüyən gurultusu, avtomat güllələrinin şaqqıltısına qarışaraq qorxunc, vahiməli bir uğultu yaratmışdı. Kim idi tankların, zirehli maşınların üstündə şəhərə doğru şütüyən bu cəlladlar?! Onlar qırırdılar, qarşılarına çıxanları güllə yağışına tuturdular. Əliyalın insanlar özlərini atılan güllələrə sipər etmişdilər, qorxu bilmədən tankların qarşısına çıxırdılar. İstəmirdilər ki, bu cəlladlar şəhərə girib hər şeyi talan etsinlər. Quduz imperiyanın azğınlaşmış hərbi hissələri heç nəyə məhəl qoymadan irəliləyirdi. O gecə Bakıda dəhşətli bir fəlakət yaşandı.**

Güllə yağışına tuş olan yaralıların harayına ən tez yetişən Bakı şəhər təcili tibbi yardım stansiyalarının fədakar həkimləri oldular. Onlar həyatlarını təhlükəyə ataraq yaralıları xəstəxanalara daşıyır, hətta bir çoxuna qan verərək xilas etdilər. Mən də onların arasında idim. O vaxt Oktyabr rayonu ( indiki Yasamal rayonu) 4 saylı köməkçi təcili tibbi yardım stansiyasında həkim işləyirdim.

Əgər təcili tibbi yardım stansiyalarının əməkdaşları bu şücaəti göstərməsəydilər, ölənlərin sayı qat-qat artıq olardı. Şəhərin müxtəlif istiqamətlərindən, arxa küçələrdən, dar dalanlardan yaralıları götürüb ilk tibbi yardım göstərəndən sonra xəstəxanalara çatdırırdıq. Elektrik cərəyanı kəsildiyinə görə xəstəxanalarda şam, lampa işığında ağır cərahiyyə əməliyyatları aparılırdı.

O gecə həkimlərimiz fiziki və mənəvi təzyiqlərə məruz qalmış, böyük sarsıntı keçirmişdilər. Sovet əsgərləri bir həkimi liftə qoyaraq doqquzuncu mərtəbəyə qaldırmış, psixi hala gələnə qədər əsəbləri ilə oynamışdılar. Həmin həkim uzun müddət özünə gələ bilməmişdi. Əli avtomatlı əsgərlər təcili yardım maşınlarının qarşısını kəsərək həkimləri yerə düşürüb üzü üstə uzadıb axtarışlar aparırdılar. Mərdəkanla Türkan yolunun kəsişməsində yaralının köməyinə gedən Aleksandr Marxevka adlı bir həkimimizi təcili yardım maşınının içərisində güllələmişdilər. Hazırda Şəhidlər xiyabanında uyuyur. Həkimlərimiz arasında mənim kimi 20 Yanvar əlilləri də var.

O gecə Bakı şəhər təcili və təxirəsalınmaz tibbi yardım stansiyasının baş həkimi bütün məntəqələrə məlumat vermişdi ki, ayıq-sayıq olsunlar, hər an hadisə baş verə bilər. Bizim stansiya "Salyanski kazarma" deyilən ərazidə yerləşirdi. Və bu ərazidə xüsusi təyinatlılar toplaşmışdılar. Müəyyən komanda gözləyirdilər ki, şəhərə çıxsınlar. Bunun qarşısını almaq üçün kazarmanın giriş-çıxış yollarında əhali tərəfindən müəyyən maneələr qurulmuş, tonqallar yandırılmışdı. Artıq yanvarın 19-da saat 20.00 radələrində məlumat gəldi ki, AzTV-nin binasında yanğın baş verib. Həkim briqadası hadisə yerinə getdi və məlum oldu ki, enerji bloku partladılıb, işçilər də oradan uzaqlaşdırılıb. Məqsədləri o idi ki, Bakını informasiya blokadasına alıb ətraf mühitdən təcrid etsinlər

Sonrakı günlərdə öyrəndik ki, 20 Yanvar hadisələrində ölənlər və yaralananlar, baş verən ziyanlar haqqında bütün sənədlər Moskvaya aparılıb və bir daha geri qaytarılmayıb.

Gecə saat 12 radələrində Bakıya müxtəlif istiqamətlərdən qoşun birləşmələri, tanklar yeridilməyə başlandı. Əhali əvvəlcə elə zənn etdi ki, bu tanklar ancaq insanları qorxutmaq üçündür. Əliyalın insanlara avtomat silahlardan və tanklardan güllə açaraq qətlə yetirdiklərini gördükdə də inana bilmədilər ki, sovet əsgərləri öz xalqına qanlı divan tutacaq. Həmin gecə sovet ordusu qismən öz niyyətinə nail oldu və insanları qanına-qəltan etdi. Aman vermədilər ki, yaralılara tam şəkildə yardım göstərilsin. Hətta küçədə qalmış meyitləri daşımağa qoymadılar və təcili yardım maşınına güllə atırdılar.

Saat 12 radələrində bir çağırış qəbul etdik."Salyanski kazarma" ətrafında bir nəfərin halı pisləşmişdi. Oraya mən getməli oldum. Elə ünvana çatar-çatmaz, güllə səsi gəldi və həmin güllə məni yaraladı. Həkimlər yaramı sarıdılar. Məni evə buraxsalar da getmədim, o gecəni səhərə kimi işlədim.

Həkim Hacıyev Elgün gecə saat 3 radələrində Ə.Haqverdiyev küçəsində yolun ortasında qalan meyiti təcili yardım maşınına qoyaraq meyitxanaya aparmaq istəsə də, bütün yollar tanklarla bağlanmışdı. O, hətta meyiti II Alatavadan keçən arxa yolla Respublika Klinik Xəstəxanasının "morq"una aparmaq istəsə də, onu məcburi geri qaytarmışdılar və meyit səhərə qədər stansiyanın foyesində qalmışdı.

O gecə daha çox təlatüm içərisində olan Yasamal rayonu idi, çünki "Salyanski kazarma" və OİK stadionu (Tank və artilleriya hissələrinin çoxu və qərərgah burada yerləşmişdi) bu rayonda idi. Bundan başqa, Bakının

inzibati idarəetmə, hüquq-mühafizə orqanları da burada yerləşirdi. Ona görə də hər hansı bir hadisənin baş verməməsi üçün qoşun hissələri bu ərazidə daha çox cəmləşmişdi.

Yanvarın 20-də matəmə bürünmüş insanlar öz yaxınlarından xəbər tutmaq üçün xəstəxanalara və "morq"lara baş çəkirdilər. Həmin günlərdə təcili yardım əməkdaşları çox ağır sınaqlardan keçdilər. İnsanlar hər gün təcili yardıma gələrək hadisələr barədə məlumat toplayırdılar. Fövqəladə vəziyyət elan olunduğuna görə həkim briqadaları çox vaxt stansiyada gecələyirdilər və günlərlə işdə qalırdılar. "Salyanski kazarma"dan və OİK stadionundan atılan güllə yağışı altında insanların köməyinə getməyə hazır idik. Mənim heç vaxt yadımdan çıxmaz ki, İnşaatçılar küçəsindəki "Olimp" mağazasının üstündə yerləşən binadan ürək tutması səbəbilə çağırış daxil oldu. Bu ünvana kardioloji briqada göndərmək məsləhət bilindi. Çağırışa mən getdim və Qədirli adına xəstəxananın yanında (Ə.Haqverdiyev küçəsi) bizi əsgərlər saxladılar. Çağırışa getdiyimizi və ünvanı onlara dedik. Onlar telefonla əlaqə saxladılar. Bu vaxt həmin binanın 3-cü mərtəbəsinin eyvanından bizə əl edib bildirdilər ki, xəstə buradadır, vəziyyəti olduqca ağırdır, tez gəlməyimizi xahiş etdilər. Buna baxmayaraq, əsgərlər bizi buraxmadılar və telefon zəngi olandan sonra bizə icazə verildi. Təəssüf ki, biz evə çatanda xəstə artıq can verirdi və biz onu xilas edə bilmədik. Həmin gecə maşınımızın biri yaralı apararkən güllə atəşinə tuş gəlmişdi. Səhər həmin maşına baxış keçirilərkən 18 güllə yeri aşkarlandı.

Görkəmli siyasətçi, ümummilli lider Heydər Əliyevin Moskvada xüsusi nəzarət altında olmasına baxmayaraq, hadisələrdən dərhal sonra 1990-cı ilin yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəlməsi, xalqla birlikdə olduğunu bildirməsi xalqımızda böyük ümidlər yaratdı. İlk olaraq məhz ulu öndər 20 Yanvar faciəsinə siyasi qiymət verdi. Əliyalın xalqın qırılmasının hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu bəyan etdi.

Bu yazını Xalq şairi Bəxtiyar Vahabzadənin 20 Yanvar faciəsinin hüznlü günlərində təsəlli kimi dillərdə gəzən şeirindən bir parça ilə yekunlaşdırmaq istərdim:

***İnsan insan olur öz hünərilə,***
***Millət millət olur xeyir-şərilə.***
***Torpağın köksünə cəsədləriylə,***
***Azadlıq toxumu əkdi şəhidlər.***

**Xalq qəzeti.-**2018.-19 yanvar.-№13.-S.3.

**Rənglərin işığında "Qara Yanvar" mövzusu**

**Bu şərəfli tariximiz yalnız ədəbi dildə deyil, daşda, ağacda, kətanda da dolğun təsvir edilir**

**Məhəmməd Nərimanoğlu**

Qanla yazılmış şərəfli tariximizdən - xalqımızın qürur mənbəyinə çevrilən 20 Yanvardan 28 il ötür. 20 Yanvar Azərbaycan tarixinin qəhrəmanlıq səhifələrindən biridir. Xalqımızın iradəsini və yenilməzliyini bütün dünyaya nümayiş etdirən tariximizin bu səhifəsi ədəbiyyat, mədəniyyət və incəsənətdə də dərin izlər qoyub. Bunu 20 Yanvara həsr edilən sənət əsərlərindən görmək mümkündür.

Hər bir tarixi hadisə onun ictimai mahiyyətindən asılı olaraq xalqın yaddaşına o zaman yazılır ki, o, sənət əsərlərinin mövzusuna çevrilə bilsin. Bütün dövrlərdə istər münaqişələri, istər müharibələri, istərsə də digər fəlakətləri xalq necə yaşayıbsa, onun yetirdiyi yaradıcı övladları həmin hadisəni bədii ifadə vasitələri ilə əks etdiriblər.

20 Yanvara zaman məsafəsindən baxanda o günlərin müdhişliyi, vahiməliyi ilə yanaşı, qəlbləri riqqətə gətirən gəncliyin yenilməzliyinin, xalqımızın azadlıq səsinin heç bir imperiya cəlladları tərəfindən susdurulmadığını görürük. Təbii ki, hər bir xalq öz azadlığı və müstəqilliyi uğrunda apardığı mübarizə meydanlarında mətinlik, əyilməzlik dərsi keçir. Qanları ilə torpağa "Azadlıq" yazan şəhidlərimiz imperiyanın vandalizm, işğalçı, terrorçu, bir sözlə, antihumanist siyasəti qarşısına əliyalın çıxmaqla xalqımızın mübarizliyini, əzmkarlığını nümayiş etdirdilər

Bədii əsərlərdə şəhidlərin ölməzliyini və müqəddəsliyini təsdiq edən obrazlar yaradıldı. Təkcə poeziyada, nəsr və ya səhnə əsərlərində deyil, incəsənətin ayrı-ayrı növlərində 20 Yanvar aparıcı mövzuya çevrildi. Rəssamlıqla heykəltəraşlıq sahəsində də bu şərəfli tariximiz canlı, qanlı və obrazlı təsvir edildi.

Təsviri sənətin görkəmli nümayəndəsi, rənglərin dilini və sirrini bilən, öz yaradıcılığı ilə klassik və müasir Azərbaycan ədəbiyyatına möhkəm tellərlə bağlı olan fırça ustası, xalq rəssamı Mikayıl Abdullayev hələ 1992-ci ildə yaratdığı "Nakamların dəfni" əsəri ilə bir daha 20 Yanvar faciəsinin unudulmayacağını göstərdi. Hər il bir qayda olaraq, istər beynəlxalq səviyyədə, istərsə də respublika miqyasında bu mövzuya həsr edilmiş əsərlərin sərgisi keçirilir. İstiqlal muzeyində 20 Yanvara həsr edilmiş sərgilərin birində Rəssamlar İttifaqının sədri, xalq rəssamı Fərhad Xəlilov bildirdi ki, yaxşı günləri yaşayanda gərək faciələri də unutmayasan. Onların gələcək nəsillərə çatdırılması üçün sənət əsərlərindən istifadə edilməlidir: "Tarixin belə qanlı səhifələrinin yaddan çıxmaması üçün ən yaxşı vasitələrdən biri də belə sənət əsərləridir. Onlar nə qədər çox olarsa, həmin tarixi dünya xalqlarının diqqətinə çatdırmaq bir o qədər mümkünləşər və asanlaşar".

Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ziyadxan Əliyev isə deyir ki, zəngin ənənələrə malik Azərbaycan təsviri və tətbiqi sənətində xalqımızın çoxəsrlik tarixi ilə bağlı hadisələrə "bədii güzgü" tutulmaqla, zaman-zaman yaşananların gələcək nəsillərə ötürülməsi istiqamətində çox önəmli işlər görülüb: "Bu ənənə öz əksini ilk dəfə Azərbaycan rəssamlığında XX əsrin əvvəllərində - görkəmli fırça ustası Bəhruz Kəngərlinin yaradıcılığında tapıb. Rəssamın çəkdiyi "Qaçqınlar" qrafik silsiləsi erməni təcavüzünün izlərini özündə yaşadan ifşaedici bədii-tarixi sənət nümunələrinə çevrilib. Dünya şöhrətli rəssamın öz müasirlərini - qaçqın soydaşlarını əks etdirən silsilə portretlərinin bu gün də təkzibolunmaz ittiham qaynağına çevrildiyi danılmazdır".

Azərbaycan təsviri sənət ustalarının müasir nəsli də 1990-cı ilin 20 yanvarında yaşanan faciəyə biganə qalmadılar və ötən illər ərzində bu mövzuda yaddaqalan əsərlər yaratmağa nail oldular. Həmsöhbətimizin fikrincə, Bakıda və respublikanın bölgələrində ucaldılan abidələri, muzey və qalereyaların ekspozisiyalarını bəzəyən rəngkarlıq, qrafika və heykəltəraşlıq əsərlərini 20 Yanvar faciəsinin dəhşətlərini özündə yaşadan, gələcək nəsillərin öz tarixinə bələdçiliyinə kömək edəcək çox qiymətli qaynaq hesab etmək olar.

Xalq rəssamı Kamil Nəcəfzadənin "20 Yanvar" rəngkarlıq tablosunu bu mövzuda çəkilmiş ən tutumlu əsər saymaq olar. Əməkdar incəsənət xadimi Əyyub Hüseynovun "Bakıda 20 Yanvar faciəsi" tablosu isə xalqımızın tuş gəldiyi bəlaların təsviri sənətdə əksi baxımından böyük əhəmiyyət kəsb edir. Bu çoxfiqurlu kompozisiya Azərbaycan təsviri sənətində həmin mövzuda yaradılmış ən yaxşı əsərlərdəndir. Rəssam şəhərin gecə mənzərəsi fonunda baş vermiş faciənin dəhşətlərini rənglərin təzadı ilə cəlbedici və təsirli tutumda ifadə etməyi bacarıb.

Tanınmış fırça ustası Sara Manafovanın çəkdiyi "Qara güllər" əsərində isə faciəyə rəmzi-düşündürücü münasibətin ifadəsini görmək mümkündür: "Əməkdar incəsənət xadimi Eyyub Məmmədov isə şahidi olduğu

qanlı olaylara bədii münasibətini "Qanlı şənbə günü", "Komendant saatı" və "Hədəf" tablolarından ibarət "Yanvar hadisələri" adlı triptixində ifadə edib. Bu üç əsərdə xalqımızın qan yaddaşına əbədi həkk olunmuş hadisələrin mənəvi-psixoloji tutumunu ifadə edən ittiham hissi qabarıq duyulmaqdadır. Rəngkar Eyzam Şıxəliyevin "Faciə" əsərində də qanlı Yanvar gecəsinin ağrıları yaddaqalan bədii həllini tapır: dinc əhaliyə yönəldilmiş yağı süngüləri altında qalaqlanan çoxsaylı şəhid cəsədləri o zülmət gecənin dəhşətlərini bütün reallığı ilə əks etdirir".

Sadalamaqla qurtarmayan belə sənət əsəri yaradanlardan biri də istedadlı rəngkar İlham Ənvəroğludur ki, "Xeyir və Şər" əsərində o qanlı gecəyə bədii-fəlsəfi tutum verilib. Tünzalə Məmmədzadənin ipək üzərində çəkdiyi "Fəryad" əsərində bir neçə butanın ifadəli forması ilə faciənin yaşantıları şərti-rəmzi həllini tapıb. Kompozisiyanın ağ-qara koloriti də mövzunun açımını əyaniləşdirməkdə əsas vasitədir. Yaxud gənc rəssam İsmayıl Əvəzovun yığcam detallı "Bakı faciəsi" adlı qrafik lövhəsinə baxsaq görərik ki, qaranlıq gecədə insanları haraylayan qanlı əllərin tamaşaçıda yaratdığı bədii-psixoloji təsir çox güclüdür. Əməkdar rəssam Arif Qazıyevin "Fəryad" və "Şəhid anası", Məmməd Rəşidovun "Daşın göz yaşları" və s. heykəltəraşlıq nümunələrində də faciə yaddaqalan şəkildə ifadə edilib.

Plakat ustası Kirman Abdinin yaradıcılığında 20 Yanvar mövzusu xüsusi yer tutur. Bir neçə il bundan əvvəl o, əsərlərini metronun "20 Yanvar" stansiyasının içərisində sərgi şəklində ictimaiyyətə təqdim edib. Həmin ekspozisiyanın yaddaqalan təsiri bu gün də xatırlanmaqdadır.

Tətbiqi sənət ustalarından biri olan Fəxrəddin Əliyevin iri ölçülü "20 Yanvar" xalçası, Adil Şıxəliyevin "Qara Yanvar" qobeleni, Rauf Əbdülhüseynoğlunun "Faciə gecəsi" mənalılığı ilə diqqət çəkir.

Heykəltəraşlıq sahəsində ilk nümunə faciənin baş verdiyi il Gəncədə yaradıldı. Tanınmış tişə ustası Səid Rüstəmin müəllifliyi ilə hazırlanan üçhissəli heykəltəraşlıq-memarlıq kompleksində süjetli relyef və yazıların sintezi ilə baş vermiş qanlı hadisənin ittihamedici obrazı öz həllini tapıb.

Faciədə həlak olanların xatirəsinə ucaldılan ümumiləşdirilmiş abidə isə paytaxtın "20 Yanvar" meydanındadır. Bu əsərdə şənbə gecəsi törədilən qanlı cinayətə qarşı dinc əhalinin etirazı yaddaqalan plastik tutumda ifadə olunub. Çoxfiqurlu tunc kompozisiyanın müəllifləri Azad Əliyev və Cavanşir Dadaşovdur.

20 Yanvar faciəsi təkcə Azərbaycan xalqının deyil, bəşər tarixinin ən qanlı səhifələrindən biri, insanlığa qarşı təcavüzdür. 19 yanvar - şənbə gecəsi qanla başlasa da, azadlığın şəfəq kimi saçıldığı günə çevrildi. İmperiya cəlladlarının vəhşi simaları xalqımızın məğrurluğu altında yoxa çıxdı. Oğul və qızlarımız tankların, ağır hərbi texnikanın, cəlladların təpikləri altında xıncım-xıncım olsalar da, qəhrəmanlıq obrazı yaratdılar. Bu hadisə Azərbaycan xalqının iradəsini, yenilməzliyini bütün dünyaya nümayiş etdirdi.

Tariximizin bu qanlı və şanlı səhifəsi incəsənət əsərlərində öz əksini tapdıqca o, yaddaşlarda daha dərin izlər buraxdı: tarixləşdi, heykəlləşdi. Qürur, fəxr yerimiz olan Şəhidlər xiyabanı vətənə, torpağa, anaya, könül sevdasına məhəbbətin ünvanına çevrildi. Bu, belə də davam edəcək.

**Azərbaycan.-**2018.-19 yanvar.-№13.-S.5.

**Tariximizin 20 Yanvar səhifəsi**

**Ramiz Qasımov,**
filologiya üzrə fəlsəfə doktoru, dosent

20 Yanvar hadisələri xalqımızın qan yaddaşını təşkil edir. Hüzn dolu, ürəkləri göynədən bir faciə olsa da, bu tarixi qəhrəmanlıq dolu gündə xalqımız istiqlaliyyət yolunda əzm və iradə nümayiş etdirdi. Kütləvi olaraq xalq hərəkatında iştirak edən hər bir azərbaycanlının qəlbində yalnız milli azadlıq naminə mübarizə hissi hakim idi. Buna görə də sovet imperiyası kimi qəddar bir siyasi mexanizmə qarşı mücadilə açan Azərbaycan xalqı bu tarixi gündə azadlıqsevər və mücadiləçi olduğunu qətiyyətlə nümayiş etdirdi. Tankların qabağında canını sipər edən xalq istiqlaliyyət yolunda özünü şəhid edərək Vətən torpağını öz qanı ilə suvardı. Buna görə də milli azadlıq uğrunda qətiyyət və dönməzlik nümayiş etdirən xalqımızın tarixində 20 Yanvar qəhrəmanlıq və şücaətlə dolu şanlı bir tarix səhifəsini təşkil edir. 20 Yanvar günü, həmçinin xalqımızın azadlıq üçün apardığı mücadilə yolunda misilsiz qəhrəmanlıq örnəyidir.

1988-ci ildən başlanan xalq hərəkatı ermənilərin Azərbaycan torpaqlarına qarşı ərazi iddialarına yönəlməklə bərabər milli azadlıq və müstəqillik məqsədi də kəsb edirdi. Erməni xəyanətkarlarının ərazi iddiaları vətən naminə canını qurban etməyə hazır çoxmilyonluq xalq kütləsi tərəfindən qəti etirazla qarşılandı, imperiya qüvvələrinin Azərbaycana qarşı xəyanətkar və ermənipərəst mövqeyi nifrət və qəzəblə qarşılanaraq xalqın milli birliyi ilə mübarizə halı almasına səbəb oldu. Beləliklə, torpaqlarımızın bütövlüyü və milli istiqlaliyyət məqsədi kəsb edən xalq hərəkatı geniş vüsət aldı. Xalqın iradəsini qırmaq niyyətilə qanlı terror aktına əl atan Sovet imperiyası qoşunlarının Bakı şəhərinə yeritməklə planlı şəkildə xalqı məhv etmək məqsədi güdürdü.

Xəyanətkar mövqe tutan Azərbaycanın o zamankı rəhbərləri də sovet imperiya qüvvələrinin dəyirmanına su tökərək bu qanlı hadisələrin baş verməsinə imkan vermiş, hətta Azərbaycan xalqının bu qanlı hadisələrdən xəbərsiz qalmasına cəhd göstərmişdilər. 20 Yanvar faciəsinə ilk münasibət bildirən və siyasi-hüquqi qiymət verən xalqımızın böyük oğlu ulu öndər Heydər Əliyev olmuşdur. 1990-cı il yanvarın 21-də xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək xaincəsinə törədilmiş 20 Yanvar faciəsi ilə əlaqədar çıxış etmiş, bu barədə məlumatı bütün dünyaya bildirmiş, cinayətkarları və xüsusilə, SSRİ rəhbərliyini ağır ittiham etmişdi. Şübhəsiz, Ulu Öndərin bu çıxışı olmasa və yayınlanmasaydı, heç bir dünya ölkəsində, ayrı-ayrı adamlarda, hətta blokadaya salınaraq Azərbaycanın əsas hissəsindən ayrı düşmüş Naxçıvanda bu barədə məlumat olmayacaqdı.

20 Yanvar faciəsinə rəsmi münasibət də məhz ulu öndər Heydər Əliyev tərəfindən doğma vətəni Naxçıvanda olarkən bildirilmişdir. Ümummilli lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olarkən Ali Məclisin 21 noyabr 1990-cı il tarixli sessiyasında şəxsən təşəbbüskarlıq göstərərək bu qanlı hadisəyə qarşı rəsmi münasibət bildirmiş, ilk siyasi-hüquqi qiymət verilmişdir.

Hətta Azərbaycanda dövlət müstəqilliyi əldə olunduqdan sonra da başları hakimiyyət uğrunda mübarizəyə qarışmış respublika rəhbərləri 20 Yanvar qırğınına siyasi-hüquqi qiymət verilməsi və cinayətkarların müəyyən edilməsinə maraq göstərməmiş, bu istiqamətdə məqsədyönlü iş aparmamışdılar. Yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdandan sonra 1994-cü ildə Qanlı Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilmişdir. Həmçinin Ümummilli Liderimiz Şəhidlər xiyabanını ziyarət edərkən burada memorial kompleksin ucaldılması ilə bağlı tapşırıq vermiş, 20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi ilə bağlı 1994-cü il yanvarın 5-də imzalanan Fərmanla Azərbaycan Respublikasının Milli Məclisinə hadisəyə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olunmuşdu. 1994-cü ilin fevralında Milli Məclisin xüsusi sessiyasında Azərbaycana qoşun yeridilməsinin xalqımıza qarşı hərbi təcavüz və cinayət kimi qiymətləndirilməsi, təqsirkarların məsuliyyət dərəcəsinin müəyyənləşdirilməsi də məhz Ümummilli Liderimizin təşəbbüsü ilə mümkün olmuşdur. Cinayəti törədənlərin adları ictimaiyyətə çatdırılmış və 20 Yanvar Umumxalq Hüzn Günü olaraq elan edilmişdir. XXI əsrin lideri kimi şöhrətlənən ulu öndərimiz Heydər Əliyev 20 Yanvar faciəsinə qiymət verərkən demişdir: “Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi”.

Qeyd etmək lazımdır ki, 20 Yanvar faciəsinə gedən yol Azərbaycanın göz bəbəyi olan Naxçıvanın ərazisinə silahlı hücum və basqınlardan başlamışdır. Azərbaycanın qədim və əzəli torpağı olan Naxçıvana silahlı hücum edən ermənilərə qarşı Naxçıvan əhalisi qəhrəmanlıq və mübarizliklə cavab vermişdir. Sədərəyə hücumla başlanan bu basqınları naxçıvanlılar qəhrəmanlıqla dəf etmiş və Vətənin bir qarış torpağını da düşmənə

verməmək uğrunda canı və qanı ilə döyüşmüşdür. 1990-cı ildən şiddətlənən erməni hücumları zamanı Naxçıvan özünün mübarizə əzmini, Vətənə bağlılıq, qeyrət və qəhrəmanlıq şücaətini ortaya qoydu. Döyüşə atılan hər oğulun ürəyində vətənpərvərlik duyğuları, alnında qəhrəmanlıq yazısı görünürdü. Torpaq uğrunda şəhid olan hər bir igidimizin qəlbində, dilində "Vətən sağ olsun" nidası eşidilirdi. Onlarla naxçıvanlı şəhid oldu, xəsarət aldı, fiziki şikəstlik qazandı. Lakin Vətənin bir qarışı da düşmən tapdağına verilmədi. Naxçıvan torpağı qəhrəmanlıq və qeyrət dolu insanların mübarizə əzmi, ulu öndər Heydər Əliyevin uzaqgörən zəkası, siyasi qətiyyəti, diplomatik məharəti nəticəsində müdafiə olundu, qorundu və inkişaf etdirildi. Ulu öndər Heydər Əliyevin məharətli diplomatik addımları ilə Naxçıvan Muxtar Respublikası düşmən işğalından qorunmaqla bərabər blokadanın çətinliklərindən xilas edildi, əhalinin həyat şəraiti və yaşayışı təmin edildi.

Bu gün davam və inkişaf etdirilən Heydər Əliyev siyasəti Naxçıvan Muxtar Respublikasında yüksək inkişaf, sürətli dirçəliş və vüsətli abadlıq-quruculuq, yeniləşmə ilə müşayiət olunur. Şəhidlərimizin qanı bahasına qorunan torpaqlarımızda əhalinin rahat və əmin-amanlıq içərisində yaşayışı təmin olunub, hər cür şərait və imkanlar yaradılıb. Dünən vətənpərvər sakinlərin qoruduğu sərhədləri bu gün inkişaf etmiş Azərbaycan ordusunun əsgərləri qoruyur, inkişaf və tərəqqi yolu keçən ölkə düşmənə ən layiqli cavabı ifadə edir.

20 Yanvar faciə dolu hadisə olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzminin nümayişidir. Həmin müdhiş gecədə həlak olan Vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı və dövlət müstəqilliyinə yol açdılar. Bu gün Azərbaycan bayrağı torpaqlarımızın hər bölgəsində qürur və fəxarətlə dalğalanır. Azərbaycan xalqı şəhidlərinin simasında bütün dünyaya azadlıq üçün ölümə hazır olan millət idealını təcəssüm etdirdi. Bu gün azad torpağımızın hər guşəsində milli fəxarət və qürur nümayiş etdirən Şəhidlər xiyabanı var. Onların canlarını sevərək fəda etdiyi Azərbaycan xalqı isə adlarını uca tutur, əbədiləşdirir, həmişə hörmət və saygı ilə xatırlayır. Dövlətimiz tərəfindən 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, əlil olanların sosial müdafiəsinin gücləndirilməsi üçün bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, ölkə Prezidenti cənab İlham Əliyevin "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 2006-cı il 19 yanvar, "1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 2011-ci il 19 yanvar tarixli fərmanları ilə bu kateqoriyadan olan insanlara göstərilən dövlət qayğısı daha da artırılmışdır. Həmçinin Bakı şəhərinin Yasamal rayonundakı "20 Yanvar" dairəsində şəhidlərin xatirəsinə memorial abidə kompleksi ucaldılmışdır.

20 Yanvar faciəsindən 28 il ötür. Əbədi, dönməz və sarsılmaz müstəqilliyimizin işığında yaşayan xalqımız hər il yanvarın 20-də Şəhidlər xiyabanına üz tutur, azadlığımızın qandallarını sındırmış şəhidlərimizi ehtiramla yad edir, xatirəsini əziz tutur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "Azərbaycan xalqı bu günü heç vaxt yaddan çıxarmayacaq. Azadlıq, müstəqillik uğrunda, Vətən uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxarılmamalıdır"'.

**İki sahil.**-2018.-19 yanvar.-№11.-S.10.

## 20 Yanvar - tarixin sınaq məqamı

**Şövqi Bünyatov,**
"20 Yanvar" Fondunun sədri.

### ŞƏHİDLƏR
(Poemadan bir parça)

Qatil gülləsinə qurban gedərkən
Gözünü sabaha dikdi şəhidlər;
Üçrəngli bayrağı öz qanlarıyla
Vətən torpağına çəkdi şəhidlər.

Zalim öyünməsin zülümləriylə, —
Min bir böhtanıyla, min bir şəriylə;
Həqiqət uğrunda ölümləriylə
Ölümü kamına çəkdi şəhidlər.

O şənbə gecəsi, o qətl günü, —
Mümkünə döndərdik
çox namümkünü;
Xalqın qəlbindəki qorxu mülkünü
O gecə dağıdıb sökdü şəhidlər.

Tarixi yaşadıb diləyimizdə,
Bir yumruğa döndük o gecə biz də;
Yıxıb köləliyi ürəyimizdə
Cəsarət mülkünü tikdi şəhidlər.

...İnsan insan olur öz hünəriylə,
Millət millət olur xeyri, şəriylə;
Torpağın bağrına cəsədləriylə
Azadlıq tumunu əkdi şəhidlər.

**Bəxtiyar Vahabzadə.**

Azərbaycan qədim dövlətdir və öz varlığını dönə-dönə sübut edib. Elə millət var ki, hansı isə güclü bir dövlətin himayəsinə sığınıb, ağacın gövdəsində göbələk kimi mövcudluğunu davam etdirir. Ancaq Azərbaycan məhz tarixdə qədim köklü-budaqlı bir ağac kimi, kimə isə sığınmadığı üçün tez-tez sınağa çəkilməli olub. Bəzən o, dadlı, şirin tikə kimi nəhəng dövlətlərin çəkişmə meydanına çevrilib, bəzən bərəkətli torpaqlarına, zəngin sərvətlərinə görə yadellilərin işğalına məruz qalıb.

Azərbaycan tarixinin şərəfli və qürur duyulacaq səhifələri çoxdur. 20 Yanvar da onlardan biridir. Məhz həmin gün Azərbaycanın müstəqilliyinin bərpasının ilk addımını atdı. Cavabında isə İmperiya ordusu tərəfindən qan gölündə boğuldu. Ulu öndər Heydər Əliyev 1998-ci ildə Şəhidlər Xiyabanında etdiyi çıxış zamanı həmin günə belə qiymət vermişdi: "O, ayrı-ayrı insanlara edilən qəsd, təcavüz deyildi, bu, bütün Azərbaycan xalqına, Azərbaycan millətinə, Azərbaycan ölkəsinə edilən hərbi təcavüz idi və bizim xalqımıza qarşı soyqırım idi. Bu təcavüz nəticəsində həlak olanlar xalq qəhrəmanlarıdır, onlar millətimizin qəhrəmanlarıdır. Onların həlak olması bizim üçün, xalqımız üçün, sizlər üçün, ailə üzvləri üçün böyük itkidir, faciədir. Ancaq eyni zamanda onların şəhid olması xalqımızın qəhrəmanlıq rəmzidir. Onların şəhid olması zamanı tökülən qan bütün xalqımızın qanıdır. O qanın hər damcısında bizim xalqımızın qüdrəti var, xalqımızın qəhrəmanlığı var, xalqımızın milli azadlıq, müstəqillik arzuları vardır. O gecə tökülən qanlar müqəddəs qanlardır. Onlar bizim xalqımızın əsrlər boyu milli azadlıq, müstəqillik uğrunda tökdüyü qanlara qovuşmuş qanlardır, o gecə tökülən qanlar Azərbaycanın müstəqilliyini nümayiş etdirən milli bayrağımızın üstündəki qandır". Həqiqətən də, dinc

sakinlərin qətlə yetirilməsi, yüzlərlə insanın müxtəlif dərəcəli xəsarət alması, ömürlük şikəst olması, illər sonra aldığı yaradan dünyasını dəyişməsi 20 Yanvar hadisəsini qanlı İmperiyanı bəlkə də qanlı hərbi cinayəti sırasına daxil etdi. Bir həqiqət də vardır ki, hadisənin vurğulanmalı olan başqa və daha əhəmiyyətli məqamı nisbətən arxa planda idi. Həmin ərəfədə, xüsusilə həmin gecədə lider yox idi, xalq çaşqınlıq içində idi. Qəribədir ki, illər sonra hələ də şərhçilər, şahidlər həmin məqamın çaşqınlığına bir açıqlama verməkdə çətinlik çəkirlər. Düzdür, ayrı-ayrı dəstələrin inandığı, arxası ilə gedə biləcəyi şəxslər var idi, ancaq söhbət məhz bütün milləti öz arxası ilə apara biləcək bir şəxsiyyətdən gedir ki, millət də məhz onun yoxluğunun əziyyətini çəkirdi, öz hərəkətlərində, ideyalarında pərakəndəlik yaşayırdı. Təəssüf və böyük ürək ağrısı ilə qeyd etmək lazımdır ki, belə bir Lider faciə baş verəndən sonra önə çıxmalı oldu. İllərdir millətindən ayrı salınan, özü də ciddi təzyiqlərə məruz qalan Heydər Əliyev öz şəxsi problemlərini bir kənara qoyaraq məhz millətinin yanında durmaq üçün ayağa qalxdı. Əlbəttə, o vaxta qədər artıq Heydər Əliyev 1969-1982-ci illərdə təqribən 13 il ərzində Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi, daha sonra isə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini olmuşdu və bütün bu illər ərzində Azərbaycanın çiçəklənməsində, Sovetlər Birliyində 15 respublika arasında şərəfli bir yer tutmasında istisna rol oynamışdı. Heydər Əliyevin məhz 20 Yanvarda öz millətinin yanında olması, onun axan qanına sahib çıxması, günahkara səsini qaldırıb, onun cəzalanmasını tələb etməsi Ümummilli Liderin əvəzolunmaz siyasi portretini çəkdi!

Azərbaycanın tarixi çox qədim və keşməkeşlidir, bu tarixdə çox əhəmiyyətli bir fakt daim ön planda tutulmalı və vurğulanmalıdır. Millət məhz bir Liderdən başqasına əmanət olaraq ötürülməlidir. Keçidlərdə boşluqlar yarananda millət böyük zərər çəkir, hətta məhvlə üz-üzə qala bilir. Qədimdən başlayan bu ənənə Şah İsmayıldan, Cavad Xandan və daha neçə Liderdən keçərək Məhəmməd Əmin Rəsulzadənin simasında Şərqdə ilk Demokratik Respublikanın qurulmasına səbəb olmuşdu. Azərbaycanın çox qısa sürən bu intibah dövründən sonra gələn Sovet İmperiyasının məqsədi milləti Lidersiz qoymaq idi. Stalin rejiminin əksər ziyalıları repressiyaya məruz qoyması xalqı daha çox çaşqınlığa, ümidsizliyə salmışdı. Təsadüfi deyil ki, həmin vaxtlar məhz millətin öndə duran şəxsiyyətləri, mütəfəkkirləri xalq düşməni elan edilirdi. Həqiqət isə bu idi ki, o şəxslər əslində millətin Lideri, düşünən başı olduqlarına görə, İmperiyanın düşməni idilər. 20 Yanvar məhz bu düşmənçiliyin növbəti təzahürü oldu.

Bəli, bir millətin maddi və mənəvi sərvətini yağmalamaq, onun şəxsiyyətinə dil uzatmaq hətta tarixin səhifələrindən silinmək üçün əvvəlcə onun Liderini uzaqlaşdırmaq lazımdır. İmperiya da məhz bu cür hərəkət etdi. Artıq tarixə çevrilmiş həmin günlərə baxanda, bu fakt açıq-aşkar görünür. Heydər Əliyevin siyasi arenadan getməsi ilə Azərbaycanın milli heysiyyatı və ərazisi eyni anda təcavüzə məruz qaldı. Nəhayət, proseslər öz pik həddinə çatdı və 1990-cı il yanvarın 19-u gecəsi Qızıl ordu Azərbaycan paytaxtına yeridildi, fövqəladə vəziyyət elan edilərək günahsız dinc sakinlər gülləbaran edildi, görünməmiş bir qırğın törədildi.

Bu, sadə bir əməliyyat deyildi. Əhalinin xəbəri olmadan ölkədə fövqəladə vəziyyət elan olunmuşdu. İnsanları ümumiyyətlə məlumatsız qoymaq, qorxuya salmaq məqsədi ilə axşam saatlarında ölkənin yeganə televiziyasının enerji bloku partladılmışdı. Dəhşətli bir haldır ki, həmin gecə ölkənin paytaxtında baş verənləri Azadlıq Radiosundan və helikopterlərdən atılmış vərəqələrdən xəbər tuta bilmişdilər. Əməliyyatın xüsusi hazırlanmasının daha bir göstəricisi isə şəhərə beş istiqamətdən ordunun yeridilməsi olmuşdu. Şəhərə daxil olan nizamlı qoşun əhalini hər cür üsulla qətlə yetirmişdilər: tanklar yollardakı avtomobilləri və hətta təcili yardım maşınlarını əzərək barrikadalardan keçmiş, yaralılara yardım göstərən həkimləri atəşə tutmuş, qaçan adamları güllə yağışına tutmuş, yaralıları süngüləyib güllələmişdilər, hətta dinc sakinlərlə dolu avtobus da gülləbaran edilmişdir. Tarixi məlumatlara əsaslanaraq tədqiqatçılar qeyd edirlər ki, "SSRİ tarixində ilk dəfə idi ki, Sovet Silahlı Qüvvələri Sovet şəhərinə - Bakıya hərbi müdaxilə etdilər. Bu, həm Azərbaycan, həm də Sovet İttifaqı üçün böyük faciə oldu. Ordu hissələri cəmi bir neçə saat ərzində şəhəri tam nəzarətə aldı və Moskvanın hakimiyyəti bərpa edildi. Lakin Moskva məhz elə 1990-cı il yanvarın 20-də Azərbaycanı itirdi". Lakin bir faktı vurğulamaq lazımdır. Belə ki, Bakıda ayağa qalxan əhali Sovet rəhbərliyindən ədalətli qərar gözləyirdilər. Əslində, rəhbərlik anlayırdı ki, Azərbaycana qarşı qurduğu xain plana xalq sərt reaksiya verəcək və bu etirazlar daha da böyüyəcək. Bu səbəbdən, "ədalətli qərar" kimi bəri başdan xalqı qan gölündə boğub qorxutmaq oldu. Məlumatlara əsasən, "Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışdı. Fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürülmüşdü. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda - yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdir". Ümumilikdə isə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və Azərbaycan rayonlarında 146 nəfər öldürüldü, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu; hərbi qulluqçular

tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edildi. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milis nəfərləri var idi. Sonradan araşdırmalar aparan Moskvadakı "Şit" ("Qalxan") adlı müstəqil hərbi qrup belə bir nəticəyə gəlmişdi ki, Sovet ordusu sovet şəhərinin sakinlərinə qarşı əsl müharibə aparıb və buna görə əməliyyata rəhbərlik edənlər məhkəməyə verilməlidir.

Biz bu hadisəyə təsadüfən pik nöqtə demədik. Bundan sonra proseslər enən xətt üzrə getməli idi - gözü qorxudulmuş bir xalqın susdurulması çətin olmayacaqdı. Lideri olmayan, sakini sorğu-sualsız qətlə yetirilən bir millətdən nə gözləmək olardı ki?! Ancaq gözlənilən kimi olmadı. Məhz belə bir ağır məqamda Heydər Əliyev ayağa qalxdı! Qırğın gününün sabahı Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəlməklə o, sadəcə bir söz demiş oldu: "Azərbaycan tək deyil! Mən varam!" Məhz bu gəlişi ilə Heydər Əliyev ümummilli liderin necə olduğunu əyani şəkildə göstərdi. Nümayəndəlikdəki çıxışının əvvəlində o deyir: "Geniş infarkt keçirmişəm. Xəstəliyimlə əlaqədar iki ildən artıqdır ki, pensiyadayam. Azərbaycanı tərk etdiyim 1982-ci ilin dekabrından keçən müddətdə bu gün ilk dəfədir ki, Azərbaycan SSR-in Moskvadakı daimi nümayəndəliyinin astanasına qədəm qoyuram. Mən baş vermiş hadisələr haqqında dünən xəbər tutmuşam və təbiidir ki, bu hadisəyə laqeyd qala bilməzdim. ... Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm". Cəmi 2-3 cümlədə Heydər Əliyev millətindən ayrı düşmüş bir Lideri təsvir edir və öz xəstəliyinə baxmayaraq millətinin təhlükəli vəziyyətinə laqeyd qala bilmədiyini vurğulayır. Onun belə bir girişlə öz bəyanatını başlaması həm də əhəmiyyətli bir məqamı ön plana çəkirdi: Lider və millət bir-birindən ayrı düşəndə hər ikisi zəifləyir.

Bəyanatdan belə məlum olur ki, iki il ərzində Heydər Əliyev hadisələri çox diqqətlə və ürəkağrısı ilə izləyirmiş. Bəli, millət bilərəkdən bu qırğına doğru sürüklənmişdi, onun sabitliyini pozmaq, ərazilərini mənimsəmək, varlığını silmək üçün millətin öz içində sanki bir özünüməhv proqramı işə salınmışdı. 20 Yanvarın faciəsi yalnız qırğının törənməsində, insanların öldürülməsində deyildi. Daha dəhşətli olan respublikanın başında duran şəxsin xalqı birləşdirmək gücü və idarəetmə qabiliyyəti, intellekti yox idi. Xalqdan çox uzaq, səriştəsiz, təsadüfi bir şəxs idi. Axı Lider məhz öz milləti ilə bütöv, vəhdət halında olan şəxsdir, onunla öz arasında dərin uçurum yaradan yox. Heydər Əliyev bunu öz bəyanatında çox gözəl vurğulayır. Məhz millətini tanıyan Lider onun problemini, narahatlığını düzgün dərk edib dəyərləndirə bilir və onun həllində öz millətinin heysiyyatını, təhlükəsizliyini, gələcəyini nəzərə alır. Heydər Əliyev uzun illər Azərbaycana rəhbərlik etmişdi, xalqın arasında olmuşdu, onun ruhunu tanıyırdı və onu dinləməyi bacarırdı. Məhz buna görədir ki, millət də onu dinləyirdi. O bilirdi, əmin idi ki, Lider xalqını anlamalı, onun tələbini, etirazını, baş verə biləcək təhlükənin səbəblərini əvvəlcədən dərk etməlidir ki, vəziyyət gərginləşməsin. 20 Yanvar hadisəsi - bu qanlı gecə hər iki qüvvəni düşmənə qarşı, ucalmaq və məhv olmamaq üçün birləşməyə çağırdı, daha doğrusu, belə bir zərurətin yetişdiyini göstərdi.

Qeyd etmək lazımdır ki, həmin vaxtlar öz bəyanatı ilə Heydər Əliyev vətəndən uzaqda olsa da, onun ayrılmaz hissəsi olduğunu bəyan etmiş oldu. Bəli, o günlər bütün millət, bütün Azərbaycan matəm içində idi, ancaq sınmamışdı. Çünki ən məsuliyyətli məqamda qolundan tutan güclü bir əl olmuşdu. Bundan sonrası isə artıq zamanın hökmünə bağlı idi. Düzdür, Azərbaycanın özündə hələ də Liderlik baxımdan ciddi problemlər yaşanmaqda idi, müharibə gedirdi və bu gün özünü milli qəhrəman elan etmiş bir kəs sabah silahı öz millətinə qarşı çevirə bilirdi. Bütün bunlar millətin güvənini, inamını yenidən sarsıtmağa başlamışdı. Azərbaycan xalqı ciddi təhlükədə idi və Heydər Əliyev bunu gözəl dərk edirdi. Bu səbəbdən o, çox keçmədən 1990-cı ilin iyulunda Azərbaycana qayıtdı. Bu Azərbaycan millətinə arxa durmaq üçün qayıtmaq idi və buna görə də Heydər Əliyev Azərbaycanın siyasi həyatına daxil oldu. Təbii ki, Azərbaycanı bu hala gətirən qüvvələr ona mane olur, həyatı üçün təhlükələr yaradırdılar. Azərbaycanın xoş gününü, nizamlı, sakit həyatını, rifahını görmək istəməyənlər təbii ki, bu qayıdışı istəmirdilər, çünki onların planına nəinki maneə, hətta onu mümkünsüz edən bir addım idi. Bu səbəbdən Heydər Əliyevin Azərbaycana qayıdışını vəziyyətdən hakimiyyətə gəlmək üçün sui-istifadə adlandıranlar da tapıldı. Ancaq ulu öndərin də öz məqsədi var idi - milləti bu dar amandan xilas edib ayağa qaldırmaq. Təbii ki, belə ali missiyasında o, xalqa güvənirdi və bu güvəninə görə də irəli gedə bilirdi.

Xalqın və onun Liderinin tarixi sınaq məqamı möhtəşəm bir abidə ilə əbədiləşdirildi. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ildə inşası başlanan və 9 oktyabr 1998-ci il açılışı olan "Əbədi Məşəl" abidə-kompleksi əslində Lider-millət vəhdətinin bir göstəricisi oldu. Bununla Heydər Əliyev 1990-cı il yanvarın 21-də qorxmadan Moskvada Azərbaycan nümayəndəliyinə gələrək dünyaya bəyan etdiyi etiraz səsinə, millətin öz müstəqilliyi üçün axıtdığı qanına abidə qoydu. İndi Şəhidlər Xiyabanına ziyarətə gələnlər öncə qəhrəman Azərbaycan oğulları qarşısından keçib bu ölməzliyin abidəsinin möhtəşəmliyi ilə üz-üzə durmalı olurlar. İllər sonra, faciənin on bir illiyində millətin ulu öndəri məsələnin məhz bu əbədilik tərəfini vurğulayır: "Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 yanvar hadisələrindən on bir il keçir. 1987-

ci ildən başlayaraq ortaya atılan qondarma Dağlıq Qarabağ problemi XX əsrdə Azərbaycan xalqına qarşı düşünülmüş şəkildə həyata keçirilən qərəzli siyasətin növbəti bir mərhələsi idi. ...Xalqımız 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, ən ağır sınaqlara sinə gəlmək əzmini bütün dünyaya nümayiş etdirdi. 1990-cı ilin Qanlı Yanvarında Azərbaycanın şəhidlik zirvəsinə ucalmış Vətən övladları özlərinin fədakarlığı ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar." Onu da əlavə etmək lazımdır ki, hər il 20 Yanvar hadisəsinin anımından əvvəl ulu öndər bu tarixi dönə-dönə vətəndaşlara xatırlatmağı özünə borc bilirdi, çünki bu yalnız bir faciə deyildi, bir millətin sınaq səhifəsi idi. Bu hadisə həm millətin ruhunu, əzmini ortaya qoydu, həm də bir çox şəxslərin əsl simasını açıb göstərdi. 20 Yanvar bir hadisə kimi olub bitmədi, tarixin bir səhifəsi kimi çevrilmədi, əksinə, bir zərrəbin olub işıqlı və qaranlıq insanları, cəsuru və qorxağı, fədaini və xaini bir-birindən fərqləndirdi, kimin kim olduğunu tanıtdı.

Bəli, 20 Yanvar Liderin olmamasına görə millətin yaşadığı bir faciədir. Bir qanlı faciənin qəhrəmanlıq səhifəsinə çevrilməsi üçün həm millətdən, həm də onun Liderindən böyük əzm, hünər tələb olunur. Əsl qəhrəmanlıq isə müəyyən qanlı səhifələrdən keçsə də, millətin öz mahiyyətinə qayıtmasıdır. Qədim tarix yenə bütün əzəməti ilə davam etməkdədir. Ulu Öndər 20 Yanvar gününün Azərbaycan tarixində ölkəmizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda qəhrəmanlıq rəmzi kimi müstəsna əhəmiyyətini nəzərə alaraq bildirib: "Qalan xalqımızın qəhrəmanlığı, mərdliyi, igidliyidir, iradəsidir, yenilməzliyidir. Xalqımız heç vaxt sınmayacaqdır. Əmin olun ki, respublikanın prezidenti kimi, bu gün bir daha bəyan edirəm, xalqımızın milli azadlığını qoruyub saxlamaq, dövlət müstəqilliyini qorumaq və inkişaf etdirmək mənim müqəddəs vəzifəmdir. Hesab edirəm ki, hər bir namuslu vətəndaşın müqəddəs vəzifəsidir. Gəlin bu müqəddəs vəzifələrimizi şərəflə yerinə yetirək. Şəhidlərə Allahdan bir daha rəhmət diləyirəm".

Nəhayət, vurğulanmalı olan sonuncu məsələ məsuliyyət duyğusudur. Faciədən illər keçsə də, artıq Sovetlər Birliyi dağılsa da, Ulu Öndər əllərini cavabdehin yaxasından çəkmək istəmir, onun günahını dünyaya car çəkirdi. Bununla o bu tarixi unudulmağa qoymurdu. 1999-cu il. Millətin lideri xəstədir, Gülhanə Tibb Akademiyasında müalicədədir, ancaq yenə də millətinin taleyini düşünür. Rusiyanın NTV kanalına müsahibələrindən birində 20 Yanvarla bağlı deyir: "Haqq-ədalətin bərpa olunması naminə və Rusiya ilə Azərbaycan arasında, Rusiya xalqı ilə Azərbaycan xalqı arasında mehriban, dostluq münasibətlərinin inkişaf etməsi naminə demokratik Rusiya buna qiymət verməlidir". Ulu Öndər millətin taleyinə görə məsul olduğunu heç vaxt unutmadı - nə xəstə olanda, nə xarici səfərlərdə, nə çətin məqamda, nə xoş günündə. O, bu məsuliyyətin böyüklüyünü, ağırlığını, tarixi əhəmiyyətini dərk etdiyinə görə, sevdiyi, arxasında durduğu və dəstəyini hər zaman hiss etdiyi doğma millətinin taleyini də bir o qədər sevdiyi və güvəndiyi bir xələfinə əmanət etməli idi. Etdi də.

Ümummilli lider Heydər Əliyevin ən layiqli siyasi varisi ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə hər il 20 Yanvar - Ümumxalq Hüzn Günü böyük ehtiramla həm Azərbaycanda, həm də dünya ölkələrində yad edilir.

**Respublika.-**2018.-20 yanvar.-№14.-S.2.

**Qanlı gecənin sualları...**

**“Proseslərdə əli olan adamların böyük qismi bu gün də aramızdadır, sərbəst gəzirlər”**

**Onların arasında siyasətçilər də var, millət vəkilləri də. Hamı onları yaxşı tanıyır**

**İsmayıl**

**Bu gün 20 Yanvar faciəsinin ildönümüdür. Düz 28 il əvvəl sovet qoşunları Bakıda bəşəriyyətin ən qanlı cinayətini törətdilər. Aralarında qadın və uşaqların, yaşlı adamların olduğu yüzlərlə silahsız insan sovet tankının tırtılları altında əzildi, avtomat güllələrinə tuş gəldi. Qanlı yanvar gecəsində günahsız insanlar şəhid edilsə də, xalqın azadlıq eşqini və milli iradəsini əzmək mümkün olmadı. Azərbaycan əhalisi yanvar gecəsi tankın qabağına əliyalın necə çıxmışdısa, faciənin səhərisi günü daha güclü iradə ilə yenidən küçələrə axışdı. Qadağalara məhəl qoymayan xalqın igid oğulları və qızları şəhidlərimizin nəşini küçələrdə buraxmadılar, hamısını bir-bir dəfn etdilər. Hər il 20 Yanvar hadisəsinin ildönümü ölkə ictimaiyyəti tərəfindən qeyd olunur. Əksəriyyətimiz Şəhidlər Xiyabanını ziyarət edərək, azadlıq uğrunda canını qurban verən qəhrəman insanların ruhunu yad edirik. Nəzərə alaq ki, 20 Yanvar hadisəsindən 28 il keçib. Təbii olaraq, bir çoxumuz, xüsusən, həmin tarixdən sonra dünyaya gələn nəsil qanlı gecədə yaşanan olayların şahidi olmayıb.**

Dəhşətli qətliam barədə daha sonradan hadisə şahidlərinin və orada gördüklərini qələmə alan şəxslərin qeydləri vasitəsilə xəbər tutublar. 20 Yanvar faciəsi baş verərkən həyatını ortaya qoyaraq, video və foto görüntüləri, o cümlədən yaşanan qanlı olayları obyektiv şəkildə həm yerli, həm də dünya ictimaiyyətinin diqqətinə çatdırmağa çalışan zümrədən ən birincisi mətbuat nümayəndələri idi.

Məhz bir qrup jurnalistin qəhrəmanlığı sayəsində Bakıda baş verənlər haqqında dolğun məlumatlar əldə etmək, onları gələcək nəsillərə ötürmək mümkün olub.

**2 milyon tirajla nəşr olunan "Səhər” qəzeti**

Qəhrəman jurnalistlərin adları çəkiləndə ilk olaraq "Səhər” qəzetini ərsəyə gətirən Azərbaycanın əməkdar mədəniyyət işçisi, tanınmış yazıçı-publisist Məzahir Süleymanzadə yada düşür. Ustad jurnalist qanlı-qadalı günlərdə fəaliyyət göstərməklə kifayətlənməyib, daha sonra da bu istiqamətdə işini, araşdırmasını davam etdirib. Məhz bunun davamı olaraq, qanlı yanvar faciəsinin 20-ci ildönümü ərəfəsində "20 Yanvar: Güllələnmiş qəzet - "Səhər” kitabını qələmə alıb. Kitaba jurnalistin baş redaktoru olduğu, 1990-cı il 20 Yanvar qırğınından dərhal sonra informasiya blokadasını yararaq 2 milyon tirajla nəşr olunmuş "Səhər” qəzeti haqqında xatirələri, müsahibələri, müəllifin 20 ildən sonra qanlı hadisələrə münasibətini əks etdirən materiallar daxil edilib. Nəşr "Səhər” qəzetinin bəyanatı ilə açılır. Bəyanatda oxuyuruq: "Bakı qan içində, bütün dünyadan təcrid olunmuş vəziyyətdədir. "Səhər” qəzetinin əməkdaşları fövqəladə vəziyyət şəraitində öz həyatlarını təhlükə qarşısında qoyub materiallar hazırlayırlar. İndiki şəraitdə qəzet buraxmaq mümkün olmadığı üçün həmin materialları müxtəlif vasitələrlə xarici kütləvi informasiya vasitələrinə göndərməyə çalışırıq. Ümid edirik ki, dünya ictimaiyyəti günahsız xalqımıza qarşı törədilən vəhşilikdən xəbər tutacaq, öz etiraz səsini ucaldacaq”. Bu bəyanat 1990-cı il yanvarın 20-də Məzahir Süleymanzadənin iş otağındakı hökumət telefonu vasitəsilə SSRİ-nin bütün müttəfiq respublikalarına çatdırılıb, Tbilisidən nüfuzlu beynəlxalq informasiya agentliklərinə göndərilib.

**"Fotoqrafların çəkdikləri şəkillərə baxdıqda dəhşətə gəldik. Onları dərc etmək lazım idi”**

Qanlı gecədən sonra yaşananlarla bağlı "Şərq”ə xatirələrini bölüşən qocaman jurnalist Məzahir Süleymanzadə deyib ki, qırğını başda Qorbaçov olmaqla Kommunist Partiyası törətdiyindən "Kommunist” qəzetinin nəşrindən söhbət gedə bilməzdi. Ona görə də qərara gəldik ki, "Səhər” qəzetini buraxaq: "O dövrdə "Səhər” 4 səhifədən ibarət idi, 400 min tirajla nəşr olunurdu və əsasən iqtisadi xəbərlərə yer ayırırdı. Təbii ki, bu hadisələrin hamısı haqqında məlumat 4 səhifəyə sığmazdı. Əvvəlcə material toplamağa başladıq. Fotoqrafların çəkdikləri şəkillərə baxdıqda dəhşətə gəldik. Onları dərc etmək lazım idi. Amma necə? "Kommunist” qəzetinin kağız ehtiyatından yararlanmaqla 2 milyon tirajla nəşr olunmaq haqda qərara gəldik. Amma ortaya başqa problem çıxırdı. Hər an çap prosesini dayandıra bilərdilər. SİTA (Sovet İttifaqı Teleqraf Agentliyi) baş

verənlərlə bağlı qısa informasiya yaymışdı. Orada göstərilirdi ki, guya "ekstremistlərin üsyanını yatırmaq üçün onlardan bir neçəsi öldürülüb”. Amma əslində belə deyildi. Dinc əhaliyə açılan atəşləri, uşaqların, qadınların və yaşlıların meyitləri əks olunmuş fotoları dərc etməklə bu yalanı üzə çıxarmaq və əhalini informasiya blokadasından azad etmək lazım idi. 11 jurnalistimizi şəhərin müxtəlif yerlərinə göndərdik ki, materiallar hazırlasınlar. Bir neçə ziyalımız şəhidlərin Dağüstü parkda dəfn olunmasını təklif etdilər. Dəfndə minlərlə insanın iştirak edəcəyini bilirdik. Məqsədimiz onların hamısını qəzetlə təmin etmək idi. Bununla həm baş verənlər barədə əhaliyə dolğun məlumat çatdırmalı, həm də informasiya blokadasını qismən də olsa yarmalı idik”.

**"Qəzet buraxmaq qəhrəmanlıq hesab olunurdusa,**
**onu oxucuya çatdırmaq ikiqat qəhrəmanlıq idi”**

M.Süleymanzadənin sözlərinə görə, 2 milyon tirajla çap olunan "Səhər” 10-15 yük maşınına güclə yerləşdi. İndi həmin qəzetləri camaat arasında paylamaq lazım idi: "Təsəvvür edin ki, nəşriyyatdan Şəhidlər Xiyabanına getmək üçün nə qədər əziyyət çəkdik. Hər tində əlisilahlı əsgərlər dayanmışdı. Hamısında da maşınları yoxlayırdılar. Qəzetləri görəndə fikirləşdilər ki, təxribatçı vərəqələrdi. Bir haşiyə çıxım. Hadisələrin 10 illiyi ilə əlaqədar Respublika Sarayında təşkil olunan tədbirdə Prezident Heydər Əliyev mənə tribuna verdi. Çıxışım zamanı dedim ki, qəzet buraxmaq qəhrəmanlıq hesab olunurdusa, onu oxucuya çatdırmaq ikiqat qəhrəmanlıq idi. Həqiqətən də belə idi. Zülmlə qəzetləri Şəhidlər Xiyabanına çatdıra bildik və gün ərzində orada olanlara pulsuz payladıq. Bundan sonra işçilərimizdən həbs edilənlər də oldu, təzyiqə məruz qalanlar da. Hətta qəzetimizi güllələdilər də. Bu haqda çox danışılıb. Qısaca onu deyim ki, redaksiyanın yaxınlığında parça dükanı var idi. Qəzeti həmin dükanın vitrininə yapışdırmışdılar. Əldə edə bilməyənlər vitrinin qarşısına toplaşıb qəzeti oxuyurdular. Artıq xeyli adamın ora toplaşdığını görən əsgərlər onları dağıtmaq üçün güllə atdılar. Həmin güllələrdən bir neçəsi "Səhər”ə dəymişdi...” Bir məqamı da qeyd edim ki, qəzet qırğından 5 gün sonra, yanvarın 25-də işıq üzü gördü. Bunu daha əvvəl də edə bilərdik. Ayın 25-ni ona görə gözlədik ki, həmin gün şəhidlər torpağa tapşırılırdı və camaat da dəfndə iştirak etmək üçün bir yerə yığışdı. Həmin gün "Səhər” qəlbi yaralı insanların yaralarına bir növ məlhəm oldu”.

**"20 Yanvar hadisəsinin 50 illiyini də qeyd edəndə bəzi suallara cavab axtaracağıq”**

Ustad jurnalist 20 yanvar hadisəsinin siyasi məqamlarına da toxunub. Bildirib ki, hadisənin qaranlıq məqamları çoxdur: "28 ildir ən azı jurnalistika səviyyəsində, jurnalistlərin köməyi ilə axtarışlar davam edir. Biz hələ də həqiqət axtarışındayıq. Günahkar kim idi, əmri kim vermişdi? Səbəb və məqsəd nə idi? Bilirsiz ki, bununla bağlı müxtəlif mülahizələr var. Amma yenə də cavabsız suallar qalmaqdadır. Hesab edirəm ki, biz 20 Yanvar hadisəsinin 50 illiyini də qeyd edəndə bəzi suallara cavab axtaracağıq. Bir sıra hadisələrə birmənalı qiymət vermək olmur. Biz bir şey bilirik və deyirik, başqaları isə tamamən başqa şey deyir. Azərbaycanın keçmiş rəhbərliyində təmsil olunan adamlar hələ də həyatdadır. Onların böyük əksəriyyəti qanlı gecənin səbəblərinin açılmasında maraqlı deyillər. Hələ o vaxt ictimaiyyətin təzyiqi ilə, jurnalistlərin də böyük dəstəyi ilə İstintaq Komissiyası yaradılmışdı. Komissiya xeyli material toplamışdı. Toplanan materialların hamısı Moskvaya aparıldı ki, guya orada faktlar araşdırılacaq və hadisəyə hüquqi qiymət veriləcək. Çox təəssüf ki, həmin materiallar mənimsənildi və Moskva dairələri tərəfindən yox edildi. Yəqin ki, əlimizdə müəyyən materiallar qalıb. Kitablarda və müsahibələrdə həmin faktları, dövrün bəzi sənədlərini açıqlamışıq. 28 il ərzində bu materiallar media orqanlarında dərc olunub. Demək olar ki, hər il açıqlanan və dərc olunan sənədlərə yeniləri əlavə edilib”.

**"Həmin adamlar özlərini ictimaiyyətə "qəhrəman” kimi təqdim edirlər”**

Görkəmli jurnalist prosesin gedişatında yeknəsəklik olduğunu bildirib: "Hər il yanvar ayının 20-də Şəhidlər Xiyabanında qırmızı qərənfillərdən xalça toxuyuruq, şəhidlərin xatirəsini yad edirik, müxtəlif tədbirlər keçiririk. Vəssalam, yenidən növbəti ilin yanvarına qədər gözləyirik. İşimiz bundan ibarətdir. Görünür, bu məsələyə münasibəti bir qədər dəyişmək lazımdır. Nə qədər ki, əsl həqiqət üzə çıxmayıb, şəhidlərimizin də ruhu şad olmayacaq. Qanlı yanvar hadisəsində və ondan sonrakı proseslərdə əli olan adamların böyük qismi bu gün də aramızdadır, sərbəst gəzirlər. Ən qəribəsi isə budur ki, həmin adamlar özlərini ictimaiyyətə "qəhrəman” kimi təqdim edirlər. Onların arasında siyasətçilər də var, millət vəkilləri də. Hamı onları yaxşı tanıyır. İllər keçdikcə,

sular daha da durulacaq, hər şey aydın görünəcək. Biz əlimizdən gələni edirik ki, yanvar hadisəsi mümkün qədər geniş işıqlandırılsın. Çünki bu hadisə Azərbaycan tarixinin misli görülməmiş bir faciəsidir. Ümummilli liderimiz Heydər Əliyev 20 Yanvar hadisəsinə siyasi qiymət verdi və müxtəlif qərarlar qəbul etdi. Qarşıdan hadisənin 30 illiyi gəlir. Yəqin ki, 30 illik bir qədər başqa formada qeyd olunacaq. Bəlkə də hadisələrə yenidən baxılacaq, yenidən qiymət veriləcək.

20 Yanvar həm də bizim qəhrəmanlıq tariximizdir. Həmin dövrdə silahsız adamlar qəhrəmanlıq etdilər, soydaşlarımız Vətənə məhəbbət nümunəsi göstərdilər. Amma çox təəssüf ki, qanlı olaydan öz şəxsi məqsədləri və karyeraları üçün istifadə edən adamlar da oldu. Həmin şəxslərin hazırda aramızda olması bizi ağrıdır. Həmin adamları ifşa etmək və öz yerlərini göstərmək lazımdır. Allah şəhidlərimizə rəhmət eləsin! Biz həmişə onları hörmətlə, minnətlə yad edəcəyik və xatirələrini əziz tutacağıq".

**Şərq**.-2018.-20 yanvar.-№12.-S.8.

## 1990-cı ilin yanvar hadisələri: ermənilərin Naxçıvanı işğal etmək planı necə pozuldu?

**Rauf Kəngərli**,
AZƏRTAC-ın Naxçıvan Muxtar Respublikasındakı bürosunun rəhbəri

**20 Yanvar faciəsi ərəfəsində hiyləgər düşmən Naxçıvan Muxtar Respublikasını işğal planlarını həyata keçirməyə cəhd göstərirdi. Belə ki, 1989-cu il dekabrın 14-də ermənilər tərəfindən güclü atəşə tutulan Sədərək, Günnüt və Havuş kəndləri 1990-cı il yanvarın 19-da səhər saat 11 radələrindən etibarən daha intensiv hücumlara məruz qaldı. O vaxt ermənilər əsas qüvvələrini Sədərək istiqamətinə yönəltmişdi. Həmin gün Sədərək ilk dəfə top atəşinə tutuldu. Ermənilərin yanvarın 19-da ciddi cəhdlə bütün istiqamətlərdə muxtar respublikaya hücum etməsi isə onu göstərirdi ki, xain qonşularımız Bakıya qoşun yeridiləcəyindən və bununla da Naxçıvanın köməksiz qalacağından xəbərdar olublar. Bu isə SSRİ rəhbərliyinin çirkin planının tərkib hissəsi idi.**

### Naxçıvanlılar qədim diyarın müdafiəsi uğrunda yumruq kimi birləşdilər

Həmin ərəfədə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Kərki kəndi SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyi ilə ermənilər tərəfindən işğal olundu. Kərki və Sədərəyin müdafiəsi uğrunda gedən döyüşlərdə şəhid olanların sayı saatbasaat artırdı. Məhərrəm Seyidov, Etibar Əhmədov, Məhəmməd Məmmədov, Abbasəli Nəzərəliyev, İdris Məmmədov kimi igidlər ağır döyüşlərdə qəhrəmancasına həlak oldular. Bütün bunlara baxmayaraq, ermənilər gözləmədikləri müqavimətə rast gəldilər və Sədərəyin müdafiə xəttini keçə bilmədilər. Naxçıvanlılar bir yumruq kimi birləşərək qədim diyarın müdafiəsində iştirak etdilər. Bu vəziyyət sovet rəhbərliyini də çaş-baş saldı.

Həmin günlərdə silah-sursat az olsa da, naxçıvanlılar bir addım belə geri çəkilmək barədə düşünmürdülər. Qəhrəman sədərəklilərin kişisi də, qadını da, uşağı da, qocası da torpaq uğrunda ölməyə hazır idi. Hər kəsin ümumi fikri bu idi ki, sona qədər döyüşəcək, ölsək də, bir qarış torpağı düşmənə verməyəcəyik. Belə də oldu.

Qeyd etdiyimiz kimi, yanvarın 18-dən 19-na keçən gecə baş verən döyüşlərdə ən böyük problem silah çatışmazlığı idi. Əhali müdafiə olunmaq üçün silaha böyük ehtiyac duyurdu. Əldə olan silah isə əsasən ov tüfəngləri idi. Sədərəklilər əllərinə balta alaraq düşmənə müqavimət göstərməyə hazırlaşırdılar. İlk köməyə Ordubad və Şərur rayonlarından 40 könüllü gəldi. Çox qısa zamanda muxtar respublikanın bütün bölgələrindən onlarla könüllü Sədərəyin müdafiəsinə qoşuldu. Naxçıvanlılar bir yumruq kimi birləşdilər. Həmin dövrün şahidlərinin sözlərinə görə, Qızıldaşda ermənilər 14 yerdə top qoymuşdular. Sədərək oradan güclü top atəşinə tutulurdu. Naxçıvanlılar isə 2 ədəd “TOZ-8”, 2 ədəd pulemyot, 4 ədəd ov silahı ilə ermənilərin qarşısını alırdı.

### Düşmən gülləsinə ilk tuş gələn sədərəkli iki azyaşlı – Malik və Elvin qardaşları oldu

Şiddətli döyüşlərin getdiyi bir vaxtda rayon ərazisindəki Əyyub mağarası, Cin təndiri, Yetimlər, Həsənqulu bağı, Qaraağac, Qurdbaba, Nadirin düzü kimi ərazilər naxçıvanlıların səngərinə çevrilmişdi. Düşmən gülləsinə ilk tuş gələn sədərəkli iki qardaş – Malik və Elvin oldu. Onlar hələ məktəbə də getmirdilər. Naxçıvanlıların güc aldıqları yeganə qüvvə ulu öndər Heydər Əliyev idi. Doğma yurda qayıdan Ulu Öndərin döyüşlərin davam etdiyi illərdə dəfələrlə Sədərəyə gəlməsi, bölgə sakinlərinin yanında olması təkcə Sədərəyi deyil, bütün Naxçıvanı erməni işğalından qorudu. Naxçıvanlılar dahi şəxsiyyətin ətrafında sıx birləşdilər, düşmənə müqavimət göstərdilər.

1990-cı ilin yanvar döyüşlərində Sədərəyin düşmənə ciddi müqavimət göstərməsinin əsas səbəbi əhalidə vətənpərvərlik hisslərinin, Vətənə bağlılığın yüksək olması idi. Bu hisslər könüllülərə güc, qüvvət verirdi. Ümummilli lider Heydər Əliyev Naxçıvana gələndən sonra əhali artıq tam əmin idi ki, düşmən qalib gələ bilməyəcək. Çünki həmin vaxtdan sonra Naxçıvanda ordu quruculuğuna başlanıldı. Bu, naxçıvanlılara cəsarət verdi, səngərlərdə daha inamla dayandılar, düşmənə həddini bildirdilər. Bir sözlə, Sədərək məğlubedilməzlik simvoluna çevrildi.

### Naxçıvan MSSR Ali Sovetinin SSRİ-nin tərkibindən çıxmaq haqqında qərarı dünyanın diqqətini bu qədim diyara yönəltdi

Yanvar hadisələri zamanı Naxçıvanda sovet ordusunun erməni hərbi birləşmələrinə dəstək verməsinə, SSRİ rəhbərliyinin təcavüzkar hərəkətlərə göz yummasına qarşı ciddi etiraz dalğası yarandı. 1990-cı il yanvarın 19-da təkcə sovet rəhbərliyini deyil, bütün dünyanı təəccübləndirən növbəti hadisə baş verdi. Naxçıvan Muxtar Sovet Sosialist Respublikası (MSSR) SSRİ-nin tərkibindən çıxdığını bildirərək, özünü müstəqil respublika elan etdi. Naxçıvan MSSR Ali Sovetinin qərarında qeyd olunurdu ki, bu qərar muxtar respublikanın ərazi bütövlüyü və vətəndaşlarının həyatı təhlükə qarşısında qaldığı və beynəlxalq hüquqi qüvvəsi olan Qars müqaviləsinin şərtləri kobud şəkildə pozulduğu üçün qəbul edilib. Qərarda Azərbaycanın ovaxtkı kommunist rəhbərliyinin Naxçıvana qarşı erməni təcavüzünə biganə qalması da buna səbəb kimi göstərilirdi.

Ulu öndər Heydər Əliyev 1998-ci il yanvarın 14-də Azərbaycan Respublikası Konstitusiya Komissiyasının iclasında çıxışı zamanı Naxçıvan Muxtar Respublikasının Konstitusiya statusuna münasibət bildirərkən demişdi: “1990-cı il yanvarın 19-da Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Naxçıvanın Sovetlər İttifaqının tərkibindən çıxması haqqında qərarı, mən hesab edirəm ki, tarixi bir əhəmiyyət kəsb edibdir. Doğrudur, Azərbaycanın Ali Soveti yanvarın 29-da bu qərarı ləğv edibdir. Amma bu, tarixdə qalan bir hadisədir. Naxçıvan Muxtar Respublikasının insanları və Ali Sovetdə təmsil olunan adamlar öz iradələrini ifadə ediblər. Nəyə görə? - Azərbaycana qarşı edilən ədalətsizliyə görə.

Naxçıvana Ermənistan tərəfindən hücumlar edilmişdi. O vaxt Kərki kəndi əldən getmişdi, başqa kəndlərə hücumlar edilmişdi. Hələ Ermənistanda, həm də Naxçıvanda olan sovet qoşunları da naxçıvanlıları müdafiə etməmişdilər – baxmayaraq ki, orada həddindən çox sovet qoşunları var idi. Ona görə də naxçıvanlıların başqa əlacı olmamışdı, qərar qəbul etmişdilər”.

Naxçıvan MSSR Ali Sovetinin qəbul etdiyi qərar o gecə və sonrakı günlərdə dünyanın nəzərlərini Moskvanın xalqımıza qarşı törətdiyi hərbi-siyasi cinayətlərə, ermənilərin Naxçıvana təcavüzünə yönəltdi. Ən əsası isə dağılmaz deyilən qüdrətli Sovet İttifaqının çöküşü də məhz yanvarın 19-da Naxçıvandan elan edilmiş oldu.

Qanlı Yanvar qırğınından sonrakı dövr - 1990-cı ilin fevral-may ayları da blokada vəziyyətində olan Naxçıvanda çox gərgin keçdi. Biçənək, Şada, Gərməçataq, Sədərək, Havuş kəndləri erməni hücumlarına məruz qaldı. 1990-1993-cü illərdə ermənilərin 14 hücumu zamanı Sədərək 109 şəhid verdi...

**Düşmənə göz dağı olub Naxçıvan**

Vaxtilə şiddətli döyüşlərin getdiyi bir məkanda bu gün gözoxşayan bir qəsəbə - möhtəşəm Heydərabad qəsəbəsi ucaldılıb. Bir vaxtlar işğalçı Ermənistanın zəbt etmək istədiyi Azərbaycanın strateji məntəqəsi muxtar respublika rəhbərinin diqqət və qayğısı ilə sürətlə inkişaf etdirilərək düşmənə gözdağına çevrilib.

Bu gün sədərəklilər evlərində rahat, təhlükəsiz bir şəraitdə yaşayır, muxtar respublikamızın inkişafına öz töhfələrini verirlər. Çünki ötən əsrin 90-cı illərində Naxçıvanın müdafiəsində öz sözünü demiş bu yurd yeri bu gün də igid, qəhrəman əsgərlərimiz tərəfindən göz bəbəyi kimi qorunur. Burada xidmətin günün tələbləri səviyyəsində təşkili üçün hər cür şərait yaradılıb, maddi-texniki baza tələb olunan səviyyədə möhkəmləndirilib, həyata keçirilən kompleks tədbirlər hərbçilərin döyüş qabiliyyətinin və mənəvi-psixoloji səviyyəsinin yüksəlməsinə səbəb olub. Doğma Naxçıvanımızın keşiyində dayanan Əlahiddə Ümumqoşun Ordu bu gün istənilən hərbi vəzifəni yerinə yetirmək qüdrətindədir.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dediyi kimi: “Ordu quruculuğu sahəsində aparılan islahatlar, Naxçıvanda Əlahiddə Ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir. Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan ordusu bu gün güclü ordudur. Naxçıvan ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır”.

Bu gün Sədərəkdə ötən əsrin 90-cı illərində baş verən hadisələrin yenidən təkrarlanması mümkün deyil. Çünki bu gün Naxçıvan əvvəlki kimi təklənmiş, unudulmuş Naxçıvan deyil. Bu gün Naxçıvan sürətlə inkişaf etmiş, vətənpərvərlik yanğısı ilə yenidən ucaldılmış, düşmənə göz dağına çevrilmiş qüdrətli Naxçıvandır. Bu gün erməni işğalçılarının başı üstündə asılan “Damokl qılıncı” adlandırılan Naxçıvan ordusu Ali Baş Komandanın bütün əmrlərini hər an layiqincə yerinə yetirməyə qadirdir.

**Səs**.-2018.-20 yanvar.-№12.-S.8-9.

**Azərbaycan xalqının istiqlal və mücadilə yolu**

**1990-cı ilin 20 Yanvar faciəsindən 28 il ötür**

**Nəzakət Ələddinqızı**

XX əsr tarixinə insanlığa və bəşəriyyətə qarşı ən amansız və dəhşətli cinayətlərdən biri kimi düşmüş 1990-cı ilin 20 Yanvar faciəsindən 28 il ötür. Bu tarixi gündə Azərbaycan xalqı əsrlər boyu qəlbində yaşatdığı milli azadlıq və istiqlal istəyindən geri çəkilməyəcəyini, müqəddəs amal uğrunda, hətta canından belə keçməyə hazır olduğunu bütün dünyaya nümayiş etdirdi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş Sovet ordusunun hərbi hissələri Bakı şəhərində azadlıq uğrunda ayağa qalxan dinc əhaliyə qarşı misli görünməmiş qətliam törətdi. Xalqımıza qarşı törədilmiş bu qanlı cinayət, əslində, bəşəriyyətə, humanizmə və insanlığa qarşı həyata keçirilmiş dəhşətli terror aktıdır. Bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi və milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Bu, uzun illər Sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı və öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir. Bu tarix həm də kimin kim olduğunu sübut edən növbəti imtahan idi. Bu qanlı hadisənin törədilməsində əsas məqsədlərdən biri öz haqlı tələblərini irəli sürən, bu tələblərə demokratik yollarla nail olmaq istəyən, istiqlaliyyət, azadlıq, suverenlik istəyində olan Azərbaycan xalqının iradəsini qırmaq və insanların müstəqillik arzularını tankların altında əzmək idi.

Ölkəmizin ən yeni tarixində istiqlal mücadiləsinin dönüş nöqtəsi olan bu gün tariximizin həm qanlı, həm də şanlı səhifəsidir. Həmin gün azadlıq, istiqlaliyyət uğrunda küçələrə və meydanlara çıxan Azərbaycan xalqına qarşı törədilmiş ağlasığmaz terror aktı dəhşətli cinayət hadisəsi kimi tarixə düşdü. Həmin gün müstəqillik istəyi ilə həmrəylik nümayiş etdirən dinc əhaliyə qarşı həyata keçirilən cəza tədbiri Beynəlxalq İnsan Haqları Bəyannaməsinin və bu sahədə qəbul olunmuş digər konvensiyaların müddəalarının kobud şəkildə pozulması demək idi. Artıq çökməkdə olan Sovet rejimi son günlərində bütün tarixi ərzində törətdiyi cinayətlər sırasına misli görünməmiş bir vəhşilik aktı da əlavə etdi.

**İnsanları qadağan olunmuş güllələrlə qətlə yetirərək, bəşər tarixində görünməyən vəhşiliyə əl atdılar**

Torpaqlarının bir qarışını da düşmənə qıymayan xalq ayağa qalxmış və bu ayrı-seçkiliyə və ədalətsizliyə dözməyərək, “Torpaqdan pay olmaz!” deyərək, etiraz səsini ucaltmışdı. 1990-cı il yanvarın 19-da Mixail Qorbaçov SSRİ Konstitusiyasının 71-ci maddələrini kobud surətdə pozaraq, Bakıda fövqaladə vəziyyət elan olunması haqqında fərman imzaladı. Lakin buna baxmayaraq, Bakıda dinc əhaliyə divan tutulması üçün hazırlanmış plan məxfi şəkildə həyata keçirildi. İlk növbədə, Azərbaycan Televiziyasının enerji bloku partladıldı. Bu əməliyyatı SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin “ALFA” qrupu yanvarın 19-da həyata keçirdi. Respublika üzrə televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan olunmasından xəbərsiz əhaliyə amansız divan tutdu. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə təpədən-dırnağa qədər silahlanmış Sovet Ordu hissələri heç bir xəbərdarlıq edilmədən Bakı şəhərinə və Azərbaycanın bir sıra digər rayonlarına yeridilərək, Azərbaycan xalqına vəhşicəsinə divan tutdu. Günahsız insanları tankların altında xıncım-xıncım edərək, qadağan olunmuş güllələrlə qətlə yetirərək, bəşər tarixində görünməyən vəhşiliyə əl atdı. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yanvarın 20-də səhər saat 7.00-da respublika radiosu ilə bildirildi. Buna qədər yüzlərlə insan qətlə yetirilmiş, çoxlu sayda insan isə ağır vəziyyətdə xəstəxanalara yerləşdirilmişdi. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışlar. Fövqəladə vəziyyət elan edildikdən sonra isə, yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində daha 21 nəfər öldürülmüşdür. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda - yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdir. Nəticədə, ölənlərin sayı 147-yə çatdı. 700-dək adam ağır bədən xəsarəti aldı, 800 nəfərdən çox Azərbaycan vətəndaşı qanunsuz həbs edildi. Həlak olan dinc sakinlər arasında uşaqlar, qocalar, gənclər və qadınlar var idi.

**Xalqın haqq səsini batırmaq üçün ölkəmizə 35 minlik ordu yeridilib**

Azərbaycana qarşı soyqırımı həyata keçirmiş Sovet rejiminə qarşı ən kəskin bəyənatı, o vaxt Moskvada yaşayan, ermənilərin fitvası, min hiylə və məkri ilə 1987-ci ildə SSRİ rəhbərliyindən uzaqlaşdırılmış, lakin hələ də təqib və təzyiqlərə məruz qalan Ümummilli Lider Heydər Əliyev verdi. Ulu Öndər faciə törədiləndən bir gün sonra yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, mətbuat konfransı keçirdi, dünyanın bütün kütləvi informasiya vasitələrinin nümayəndələri qarşısında SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı törətdiyi soyqırımı kəskin pislədi, bunu insanlığa və humanizmə sığışmayan hərəkət kimi qiymətləndirdi. Ulu Öndər Heydər Əliyev bu dəhşətli faciəyə siyasi qiymət verilməsini tələb etdi. Təəssüflər olsun ki, Azərbaycanın o vaxtkı rəhbərliyi bu qanlı cinayətin, bilavasitə təşkilatçısı və iştirakçısı olmuş SSRİ rəhbərliyi cinayətkarların məsuliyyətə cəlb olunmasından ötrü heç bir tədbir görməmişdir.

20 Yanvar faciəsinə ilk dəfə Azərbaycan xalqının Xilaskarı və Qurucusu, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə siyasi-hüquqi qiymət verilmişdir. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1990-cı il noyabrın 21-də bu məsələni geniş müzakirə edərək, qanlı hadisəyə siyasi-hüquqi qiymət verdi. Ümummilli Lider Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra bu dəhşətli cinayət hadisəsinə obyektiv qiymət verildi. Məhz Ulu Öndərin təklifi ilə 1994-cü ildə 20 Yanvar hadisələrini yetərincə qiymətləndirmək istiqamətində addımlar atıldı. Vətənin azadlığı və suverenliyi uğrunda şəhid olanlara 20 Yanvar şəhidi adı verildi. Ümummilli Lider 20 Yanvar günü imperiya qoşunları qarşısında mərdi-mərdanə dayanan Azərbaycanın mərd oğul və qızlarının bu dəyanətini çox yüksək qiymətləndirərək demişdir: “1990-cı ilin Qanlı Yanvarında Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalmış Vətən övladları özlərinin fədakarlığı və şəhidliyi ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar. Bu gün Azərbaycan xalqı özünün milli mənliyini qorumaq üçün canlarından keçən övladları ilə fəxr edir”.

**Xalqın qanı bahasına
qazanılmış müstəqillik əbədi və daimidir**

Hər il yanvarın 20-də Şəhidlər Xiyabanına gələnlər, bir tərəfdən, xəyanət və fəlakətin səbəbkarlarını lənətləyir, digər tərəfdən, qürur hisslərini gizlətmirlər. Axı şəhidlər təpədən- dırnağacan silahlanmış qoşunun qabağından qaçmadı, Vətəni necə sevməyi, azadlıq, müstəqillik uğrunda qurban getməyi göstərdilər və ölümləri ilə ölümsüzlük qazandılar.

20 Yanvar gününün Azərbaycan tarixində ölkəmizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə qəhrəmanlıq rəmzi kimi böyük əhəmiyyəti var. Hər şeydən əvvəl, həmin gün Azərbaycan tarixinə azadlığa aparan yol kimi düşdü. Digər tərəfdən, mənfur qonşumuza - təcavüzkar Ermənistana aydın oldu ki, Azərbaycan xalqı ərazisinin bir qarışını belə digər xalqlara güzəştə getməyəcək. Bu yolda canlarını qurban verəcək, sinələrini sipər edəcək, lakin geriyə dönməyəcək 20 Yanvar şəhidləri kimi.

Şəhidlik, həqiqətən də, qeyrət və hünər zirvəsidir. Hər kəsin də taleyinə bu müqəddəsliyə qovuşmaq yazılmır. Şəhidlər nura qənşər bir yolun əbədi yolçularıdır. Bu gün müstəqil Azərbaycan dövlətinin başçısı İlham Əliyevin rəhbərliyi ilə 20 Yanvar həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması sahəsində ardıcıl iş aparılır. Dünyanın hər bir ölkəsində tədbirlər keçirilir. Vətənimizin müstəqilliyi, azadlığı uğrunda canlarını qurban verən mərd oğul və qızlarımızın əziz xatirələri qəlbimizdə həmişə yaşayacaq. 20 Yanvar faciəsi istiqlaliyyətə can atan xalqımızın mübarizliyini, qəhrəmanlığını, qorxmazlığını və cəsarətini nümayiş etdirdi. Xalqın qanı bahasına qazanılmış müstəqillik əbədi və daimidir. Şəhidlər ölməzdir! Onlar Azərbaycan xalqının Azadlıq hərəkatı tarixini öz qanları ilə yazan ilk qaranquşlar kimi müstəqil dövlətimizin səmasında daim dolaşmaqdadır.

Biz Azərbaycanın ərazi bütövlüyünü Ali Baş Komandan, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə tezliklə bərpa edəcəyik. Erməni işğalının və müharibə vəziyyətinin davam etdiyini nəzərə alan Azərbaycan dövləti öz ordusunun gücünü, hərbi kadrların peşəkarlıq səviyyəsini durmadan artırır və hərbi qüdrətini yüksəldir. Azərbaycan tərəfi açıq bəyan edib ki, sülh danışıqları nəticə verməzsə, münaqişə hərb yolu ilə həll ediləcəkdir. 2016-cı ilin aprel döyüşləri Azərbaycan Ordusunun gücünü ortaya qoymuş oldu. Ermənilərin törətdikləri təxribatların qarşısının alınması zamanı Azərbaycan əsgəri düşmənə ərazilərimizə qarşı hərbi təcavüz siyasətinin davam etdirildiyi illərin ən sərt cavabını verərək, ən ağır zərbəsini vurdu. Azərbaycanın getdikcə artan qüdrətini və gücünü düşmən qovulduğu yüksəkliklərlə və verdiyi itkilərlə gördü.

Azərbaycan Prezidenti İlham Əliyev işğal altında olan torpaqlarımızın geri qaytarılacağını çıxışlarında əminliklə qeyd edir: “Bizim orduda xidmət edən gənclərimiz vətəni ləyaqətlə qoruyurlar və düşmənə çox güclü zərbələr vururlar. Belə də olmalıdır, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və bütün cəmiyyətin diqqəti bu məqsədə yönəlib. Cəmiyyətdə müşahidə olunan həmrəylik və səfərbərlik bizim qələbəmizi

şərtləndirən amillərdən biridir, iqtisadi və hərbi gücüdür. Biz istənilən yolla öz ərazi bütövlüyümüzü bərpa edəcəyik".

Gözü yolda qalan torpaqlarımızın düşmən işğalından azad olacağı gün uzaqda deyildi. Zaman yetişəcək, erməni faşistləri zəbt etdikləri torpaqlarımızı, şəhərlərimizi sülh yolu ilə tərk etməsələr, Azərbaycan xalqı və onun rəşadətli ordusu düşməni məhv edərək, öz torpaqlarını azad edəcəkdir. O zaman şəhidlərimizin ruhu şad olacaqdır.

**Səs.**-2018.-20 yanvar.-№ 12.-S.4.

## Qan yaddaşımız

**Əbülfət Mədətoğlu**

***Bəlli olduğu kimi, 20 Yanvar Azərbaycan tarixində təkcə faciə deyil, Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Bu, uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir. Bu tarix həm də kimin kim olduğunu sübut edən növbəti imtahan idi.***

**Sovet imperiyası günahsız insanların qanını axıtsa da, milli qürurumuzu qıra bilmədi**

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda Sovet ordusu tərəfindən dinc əhaliyə qarşı dəhşətli, kütləvi qırğın hadisəsi törədildi. Bu qanlı hadisənin törədilməsində əsas məqsədlərdən biri öz haqlı tələblərini irəli sürən, bu tələblərə demokratik yollarla nail olmaq istəyən, istiqlaliyyət, azadlıq, suverenlik istəyində olan Azərbaycan xalqının iradəsini qırmaq, insanların müstəqillik arzularını tankların tırtılları altında əzmək idi. Sovet imperiyası günahsız insanların şanını axıtsa da, xalqımıza qarşı misli görünməmiş qəddarlıq etsə də, istəyinə nail ola bilmədi, milli qürurumuzu qıra bilmədi.

Xalqın başına gətirilən bu cinayət Sovet imperiyasının iç üzünü bariz bir şəkildə ortaya çıxardı. Əslində imperiyanın Bakıda bu qanlı hadisəni törətməklə İttifaqa üzv olan digər respublikalara göz dağı vermək planı, imperiyanı zor gücünə mühafizə etmək təşəbbüsü də boşa çıxmış oldu.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycanda günahsız insanların güllə-boran edilməsi əməliyyatı SSRİ Müdafiə Nazirliyi, DİN xüsusi təyinatlıları və SSRİ DTK-nın təxribat qrupları tərəfindən təşkil olunmuşdur. Bu, Azərbaycan xalqını qorxutmaq, onun milli oyanışını, ərazi bütövlüyünü, suverenlik uğurunda mübarizliyini məhv edib sındırmaq məqsədi daşıyan mənfur planın tərkib hissəsi idi. Mixail Qorbaçov başda olmaqla Sovet imperiyasının rəhbərliyi Bakıda "erməni kartından" məharətlə istifadə etdi. Guya Bakıya qoşun onları, hərbi qulluqçuların ailələrini qorumaq, "millətçi ekstremislər" tərəfindən hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdir. Əslində isə bu açıq riyakarlıq, imperiyanın növbəti qəddarlığını ört-basdır etmək üçün qabaqcadan hazırlanmış iftiralar və böhtanlar idi. Çünki Sovet rəhbərliyinin "dəlliləri" hətta həqiqətə yaxın olsaydı belə, Bakıya təpədən dırnağa tək silahlandırılmış qoşun göndərməyə ehtiyac yox idi. Ona görə ki, həmin vaxt burda daxili qoşunların 11 min 500 əsgəri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri var idi. 4-cü ordunun komandanlığı da Bakıda yerləşirdi.

M. Qorbaçov SSRİ Konstitusiyasının 119, Azərbaycan SSR Konstitutsiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzalamışdı. SSRİ BDK-nın "Alfa" qrupu yanvarın 19-u saat 19:27-də Azərbaycan televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və əhaliyə divan tutmağa başladı. M. Qorbaçovun fərmanı qüvvəyə minənədək - yanvarın 20-dən saat 00:00-dək artıq 9 nəfər öldürülmüşdü. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100 nəfərdən çox idi. Halbuki M. Qorbaçovun Azərbaycana ezam etdiyi yüksək vəzifəli emissarlar həyasızcasına bəyan edirdilər ki, Bakıda fövqəladə vəziyyət elan olunmayacaqdır.

### Xalqının səsinə hər kəsdən əvvəl səs verən Heydər Əliyev oldu

Xalq o günlərdə böyük bir həqiqəti - meydanda həqiqi liderin olmamasını da bütün mahiyyətiylə dərk etdi.

O müdhiş günlərdə Heydər Əliyevin - qüdrətli liderin respublikada yoxluğu günün ən böyük həqiqəti kimi dərk olundu. Amma Bakıda olmamasına baxmayaraq, xalqının səsinə hər kəsdən əvvəl səs verən də elə Heydər Əliyev oldu. Ümummilli liderimiz Moskvada xüsusi nəzarət altında ola-ola, özünü və ailə üzvlərinin həyatını təhlükə qarşısında qoyaraq, hadisələrdən dərhal sonra, 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəldi. Ulu Öndər təcavüzə kəskin etirazını bildirdi. Faciəni törədənləri, şəxsən Qorbaçovu kəskin ittiham etdi, qoşunların Bakıda çıxarılmasını tələb etdi. Xalqımızın ümummilli lideri

Heydər Əliyevin 1990-cı il 21 yanvar tarixli bəyanatı həm də faciəyə verilən ilk siyasi qiymət idi - özü də imperiyanın mərkəzində, Moskvada...

XX əsrdə totalitarizmin törətdiyi ən qanlı terror aktları sırasında 20 Yanvar cinayəti də var. Bu, bəşəriyyət və ən insanlıq əleyhinə törədilmiş dəhşətli əməl idi. Dinc əhaliyə qarşı həyata keçirilən cəza tədbirləri zamanı 1949-cu ilin Cenevrə Konvensiyasının, Beynəlxalq Hərbi Tribunalın Əsasnaməsinin, Beynəlxalq İnsan Haqları Bəyannaməsinin insan haqlarına dair digər beynəlxalq aktların çoxsaylı maddələri pozulmuşdu.

Bu məqamlar 20 Yanvar hadisələri ilə bağlı aparılmış ən səthi təhqiqatlarda da təsdiqlənir.

Ulu Öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra bu məsələ yenidən gündəmə gəldi. 20 Yanvar hadisələrini lazımınca qiymətləndirmək yolunda ciddi addımlar atıldı. "20 Yanvar hadisələrinin 4-cü ildönümünün keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 5 yanvar 1994-cü il tarixli fərmanı ilə Milli Məclisə 20 yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olundu.

Milli Məclisdə müzakirələrin yekunu olaraq 1994-cü il martın 29-da "1990-cu il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul edildi. Qərarda 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildi.

Ulu öndər şəhidlərin ailələrini də dövlət qayğısı ilə əhatə etdi. Eləcə də 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı hər zaman dövlət başçısının diqqətində olub. 1993-cü ildən üzü bəri 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər görülüb və bu gün də görülməkdədir. Azərbaycan Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə 20 Yanvar təcavüzü zamanı yüksək vətəndaşlıq nümunəsi göstərərək həlak olmuş Azərbaycan Respublikası vətəndaşlarına "20 Yanvar şəhidi" fəxri adı verilib, "1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə dövlət qayğısının artırılması haqqında" 2003-cü il 15 yanvar tarixli sərəncama əsasən, əlil olmuş şəxslərə verilən aylıq müavinət artırılıb və bu iş indi də davamlı olaraq həyata keçirilir.

İlham Əliyev 20 Yanvar faciəsində qətlə yetirilənlərin, müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinin dövlət səviyyəsində həllini mühüm vəzifələrdən biri kimi qarşıya qoyub.

Ulu öndər Heydər Əliyevin daxili və xarici siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev 20 Yanvar faciəsində qətlə yetirilənlərin, müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinin dövlət səviyyəsində həllini mühüm vəzifələrdən biri kimi qarşıya qoyub. Ölkəmizdə bu istiqamətdə böyük tədbirlər həyata keçirilir.

Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir. Ölkənin iqtisadi durumunun yüksəlməsi özünü bu qəbildən olan insanların həyat və məişətində daha qabarıq göstərir. 2006-cı il yanvarın 19-da ölkə başçısının fərmanı ilə 20 Yanvar şəhidlərinin ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilib. Dövlət başçısının fərmanı ilə 140 nəfər 20 Yanvar şəhidi fəxri adı almış şəxslərin 180 nəfər ailə üzvünə ayda 300 manat məbləğində Prezident təqaüdü verilir. 2006-cı il yanvarın 1-dən qüvvəyə minən əmək pensiyaları haqqında qanuna əsasən 20 Yanvar şəhidlərinin əmək pensiyasını alan hər bir ailə üzvünə aldığı pensiyadan başqa əlavə ödəniş verilir.

### Hadisəyə dünyanın reaksiyası

Yanvarın 20-də artıq bütün dünya Bakıda törədilmiş dəhşətli qırğından xəbər tutdu. Artıq sovet qoşunlarının Bakıya hərbi müdaxiləsi dünyanın bir sıra ölkələrində etirazla qarşılanmışdır.

Qərb ölkələrinin mövqeyinə gəldikdə isə, Sovet İttifaqının Azərbaycana hərbi müdaxiləsinə müxtəlif reaksiyalar vermişlər. Bu reaksiyalar ümumilikdə müsbət olsa da, ancaq obyektiv reallığı əks etdirmirdi. Məsələn, ABŞ hökuməti bu hərbi müdaxiləni anlayışla qarşıladığını bildirmişdir. Avropa İttifaqının rəsmi nümayəndəsi Qeor isə demişdir ki, qan axıdılmadan yenidənqurma tətbiq edilə bilməz.

Avstraliyada nəşr olunan "The Canberra Times" qəzetində "1990-cı ilin 20 yanvarı: Azərbaycanda qırmızı terrorun qara üzü" adlı məqalə dərc olunmuşdur.

Məqalədə 1980-ci illərin ikinci yarısında erməni millətçilərinin keçmiş Sovet İttifaqında yaranan gərgin vəziyyətdən istifadə edərək Azərbaycanın Dağlıq Qarabağ vilayətini Ermənistana birləşdirmək istiqamətində məkrli planın həyata keçirilməsi məqsədilə keçmiş SSRİ rəhbəri Mixail Qorbaçovun dəstəyini aldıqları bildirilir. Qeyd edilir ki, Ermənistanda həyata keçirilən etnik təmizləmə siyasəti nəticəsində ötən əsrin 80-ci illərinin sonlarında 250 min azərbaycanlı öz ata-baba yurdlarından zorla qovulmuş, 200-dən artıq insan amansızlıqla qətlə yetirilmişdir. Buna etiraz olaraq, azərbaycanlıların böyük əksəriyyəti Bakı və digər şəhərlərdə meydanlara çıxaraq, kommunist rejiminə etimadsızlıq göstərmiş və Azərbaycana müstəqillik verilməsi şüarları ilə çıxış etmişdir.

Məqalədə, həmçinin qeyd edilmişdir ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş sovet ordusunun böyük kontingenti Bakıya daxil olmuş və silahsız insanlara atəş açmışdır: "Bu aksiya SSRİ-nin və Azərbaycan SSR-in konstitusiyalarına və insan hüquqları haqqında beynəlxalq paktın müddəalarına ziddir. Əməliyyatdan əvvəl Azərbaycan televiziyasının enerji blokunun partladılması nəticəsində insanlar informasiyadan məhrum olunmuş, ordunun atəş açmasından və insanların qətlə yetirilməsindən yeddi saat sonra fövqəladə vəziyyət elan edilmişdir. Bu əməliyyatın əsl məqsədi müstəqillik həsrəti ilə yaşayan Azərbaycan xalqına dərs vermək olmuşdur".

Məqalə Azərbaycan xalqının Vətənin ərazi bütövlüyü və azadlığı uğrunda canlarından keçənləri heç zaman unutmayacağı və onların xatirəsinin daim əziz tutulacağı barədə fikirlə tamamlanır.

Britaniya mediası Qanlı Yanvardan bəhs edən məqalə dərc edib. "The London Post" və bir neçə portallarda 20 Yanvar faciəsinə həsr olunmuş məqalələr dərc edilib. Məqalələrdə xalqımızın qan yaddaşı olan 20 Yanvar hadisələri ətraflı təhlil olunub. Qeyd olunub ki, kütləvi qırğın sovet ordusu tərəfindən ağır hərbi texnika və silahlarla, xüsusi qəddarlıqla törədilmiş və mülki vətəndaşlar qətlə yetirilmişdir.

ABŞ Konqresinin ən nüfuzlu nəşri olan, senator və konqresmenlər, xarici siyasət ekspertləri və geniş ictimaiyyət tərəfindən mütəmadi olaraq izlənən "The Hill", Perunun nüfuzlu kütləvi informasiya vasitələrindən biri olan "El Peruano", eləcə də Kolumbiyanın ən tanınmış mətbu orqanları olan "El Espectador" qəzetlərində Azərbaycanın müstəqilliyinə yol açmış "Qara Yanvar"dan bəhs edən məqalələr dərc edilmişdir. Həmçinin Kanada, Latın Amerikası ölkələri, Avstraliya, Yeni Zelandiya, Birləşmiş Ərəb Əmirlikləri, Rusiya Federasiyası, Qırğızıstan, Qazaxıstan, Rumıniya, Bolqarıstan və digər ölkələrin qəzet və portallarında 20 Yanvar faciəsindən bəhs edən məqalələr dərc olunmuşdur.

Göründüyü kimi, dünyanın əksər ölkələri Sovet ordusunun insanlığa xas olmayan bu qəddarlığını kəskin tənqid etmiş və Azərbaycanın haqq işini dəstəklədiklərini bildirmişlər.

**Xalqımız 20 Yanvar hadisələrinin 28-ci ildönümünü qeyd edir**

Bu il xalqımız 20 Yanvar hadisələrinin 28-ci ildönümünü qeyd edir, igid övladlarının fədakarlığını məhəbbətlə xatırlayır, onların əziz xatirəsini böyük ehtiramla yad edir. Təkcə 20 Yanvar günü deyil, bu faciə Azərbaycan xalqının yaddaşına Qan Yaddaşımız kimi həkk olunub böyükdən kiçiyə kimi hər bir Azərbaycan vətəndaşı bu faciəni hər gün yad edir, vətən uğrunda canından, qanından keçən şəhidlərimizi unutmur və unutmayacaq. 20 Yanvar faciəsi ölkənin bütün qurumlarında, Daxili işlər oqranlarında, ordumuzda, özəl təşkilatlarda, bir sözlə, hər yerdə dərin ehtiramla yad edilir.

Bakının ən möhtəşəm məkanında Vətən uğrunda canlarını qurban vermiş mərd, igid oğul və qızlarımızın uyuduğu Şəhidlər Xiyabanı xalqımız üçün müqəddəs bir and yerinə, milli iradəmizin şanlı-şərəfli bir ünvanına çevrilib. Şəhidlərimiz və Şəhidlər Xiyabanı azadlığımızın, müstəqilliyimizin, milli iradəmizin simvolu kimi bundan sonrakı nəsillərə də bir qürur mənbəyi olacaqdır. Bu həm də, onu göstərir ki, bizim Müstəqilliyimiz Əbədidir, Dönməzdir. Bu yolda Azərbaycan xalqı hər zaman iradəsini ortaya qoyub Dövlətçiliyimizi qorumağa hazırdır.

**Azərbaycan Respublikasının Prezidenti yanında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi fondunun maliyyə yardımı ilə**

**Ədalət**.-2018.-19 yanvar.-№ 11.-S.7.; 20 yanvar.-№ 12.-S.4.

## Yıxılmadıq, ayaqda durduq...

### 20 Yanvara 28 ildən sonra baxış

**Əslində biz O GÜN küllərimizdən, faciəmizdən, şəhidliyimizdən pərvaz edərək millət olduq və içimizdəki, milli yaddaşımızdakı istiqlal, müstəqillik qığılcımı də məhz HƏMİN GÜN partlayışla alovlandı: müstəqilliyə gedən yolumuz qanla suvarıldı, şəhidləri milləti qazi etdi...**

O GÜN matəmə düşdük, qəhr olduq, amma yıxılmadıq, ayaqda durduq və xalqın iradəsi nifrətini qəzəbə çevirməyə yetdi. Və hüzn günümüzü qürur günümüzə, tariximizin şanlı səhifəsinə çevirməyi bacardıq...

AZƏRTAC "20 Yanvar: müasir tariximizin şəhid qanı ilə yazılmış hünər səhifəsi" adlı anım yazısında hüzn və qürur günümüzün önəmli məqamlarını yad edir...

Hər bir tarixi hadisənin qiymətini zaman verir. 20 Yanvarın mənasını, tariximizdəki yerini və rolunu illər keçdikcə daha aydın dərk edirik. Vaxtilə ulu öndər Heydər Əliyev bu barədə danışarkən deyirdi: "1990-cı ilin 20 yanvarı Azərbaycan xalqının tarixinin ən faciəli, qara səhifəsi, həm də qəhrəmanlıq, rəşadət səhifəsidir. Biz o günlərdən nə qədər çox uzaqlaşsaq, həmin günlərin Azərbaycan xalqının tarixində necə mühüm yer tutduğunu bir o qədər dərk edəcəyik və bəlkə də gələcək nəsillər buna daha doğru, daha düzgün qiymət verəcəklər. Ancaq bir şey həqiqətdir ki, 1990-cı ilin 20 yanvarı Azərbaycan xalqının həyatında dönüş mərhələsi, dönüş nöqtəsi olmuşdur".

Həmin qanlı yanvar günündən 28 il ötür. İllər keçdikcə bu hadisəyə baxışlar dəyişir. Vaxtilə ağlayıb-sızlayır, qəm dəryasına batır, şəhid məzarlarına qərənfillər düzməklə təskinlik tapırdıq. İndi isə kədərlə yanaşı, ürəklərdə sonsuz qürur hissi də baş qaldırır. Onda - qaranlıq səmada güllələrin parıldadığı, küçələrdə tankların şütüdüyü qış gecəsində azadlıq günəşinin doğmasından, həyatımızda başlayan dönüşdən hələ xəbərsiz idik. Bilmirdik ki, üstümüzə tankla hücuma keçən bu imperiyanın sonu çatıb və cəmi iki il sonra Azərbaycan yenidən müstəqil dövlət olacaq. İndi şəhidləri azadlıq müjdəsi gətirən qaranquşlara bənzədirik.

Ötən 28 ildə həyatımız büsbütün, müqayisəyə gəlməz dərəcədə dəyişib, 90-cı ilin Bakısından, 28 il əvvəlki Azərbaycandan, demək olar, əsər-əlamət qalmayıb. İmzalar içində imzamız, bayraqlar sırasında bayrağımız, sözlər yanında sözümüz var. İllərin və zamanın axarında dəyişməz qalan isə xalqın şəhidlərə hörmət və ehtiramıdır.

Biz ötüb keçən zamanın fonunda dünyanın soyuq üzünü, ədalətsizliyini, xalqımızın faciəsinə özgə dərdi kimi baxdığını da gördük. 90-cı ilin yanvarında Bakıya hücum əmri verən, yüzlərlə günahsız insanın ölümünə bais olan Mixail Qorbaçova Nobel sülh mükafatı verdilər. Təzada baxın: nahaq axıdılan qan və sülh mükafatı...

### Kədərdən baş qaldıran ümid və inam

Həmin yanvar günləri zülmət gecəyə bənzəyirdi. Havadan qan və ölüm qoxusu gəlirdi. Analar fəryad qoparır, qız-gəlinlər ağı deyir, kişilər göz yaşlarını güclə saxlayırdılar. Ədalət, haqq divanı qurulsa, bir xalqın başına gətirilən müsibətə bu gün minlərlə, on minlərlə insan şahidlik edər.

İmperiya qoşunlarının Bakıda törətdiyi hərbi cinayətin digər təkzibolunmaz dəlil-sübutu fotoşəkillərdir. Qanlı epizodların, şəhidlərin dəfnində yaşanan nəhəng izdihamın, insan portretlərinin əks olunduğu bu fotolar xalqın faciəsini və hünərini zamandan-zamana daşıyır. Onlara diqqət yetirsək, ümumxalq kədərinin içərisindən baş qaldıran ümid və inamı da görə bilərik. Xüsusən faciənin ertəsi gün o vaxt Moskvada yaşayan Heydər Əliyevin Azərbaycan nümayəndəliyinə gələrək bu kədərə şərik çıxması, sovet rəhbərliyinin Bakıda törətdiyi hərbi cinayəti pisləməsi xalqımıza güc verdi, ona böyük dayaq oldu.

AZƏRTAC-ın fotoarxivində 20 Yanvar faciəsinin miqyasını, Azərbaycan xalqının müsibətini və yenilməzliyini əks etdirən yüzlərlə fotoşəkil toplanıb. Bu gün həmin fotoları bir daha təqdim edirik: baxaq, xatırlayaq, yaddaşımızı təzələyək...

20 Yanvar faciəsinə bir günün, yaxud bir ayın ərzində baş verən hadisə kimi baxmaq olmaz. Rəsmi Moskva tərəfindən erməni separatizminə rəvac və dəstək verilməsi, respublika rəhbərliyinin mütiliyi və milli mənafeyə zidd mövqeyi xalqı hiddətləndirmiş, güclü etiraz dalğası doğurmuşdu. Böyüklü-kiçikli hamı küçə və meydanlara axışırdı. Mitinqçilərin sıraları günbəgün genişlənir, paytaxtın baş meydanında xalqın azadlıq istəyini əks etdirən şüar və plakatlar görünməyə başlayırdı. Beləliklə, əldən gedən torpaq uğrunda mübarizə tədricən azadlıq hərəkatına çevrilirdi.

Can üstə olan imperiya çıxış yolu kimi Bakıda fövqəladə vəziyyət rejimi elan etdi, bundan bir nəticə hasil olmadığını gördükdə Azərbaycan paytaxtına qoşun yeritmək qərarına gəldi. Həmin günlər küçə və meydanlarda çəkilmiş fotolar 20 Yanvar ərəfəsində yaranmış ictimai-siyasi vəziyyəti, xalqın əhval-ruhiyyəsini anlamağa yardımçı ola bilər.

## Misli-bərabəri olmayan qəddarlıq

1990-cı il, 20 yanvar, saat 00:00. Bir neçə gün əvvəl Bakı ətrafında yerləşdirilmiş ordu birləşmələri beş istiqamətdən şəhərə soxuldu. Küçələrdə şütüyən tanklar və zirehli maşınlar qarşılarına çıxan avtomobilləri, insanları əzib keçir, əsgərlər heç kəsə aman vermirdilər.

Yanvarın 20-də səhər hava işıqlaşar-işıqlaşmaz küçələrə axışan Bakı sakinləri indiki “20 Yanvar” dairəsində (onda həmin ərazi XI qızıl ordu meydanı adlanırdı) və ona yaxın küçələrdə dəhşətli mənzərələrlə qarşılaşdılar: tankların əzib keçdiyi cəsədlər, avtobuslar, yük və minik avtomobilləri, qar üzərindəki qan izləri... Xəstəxanalar yaralılarla dolu idi. Şəhərin mərkəzi küçə və meydanları tanklar və silahlı əsgərlər tərəfindən mühasirəyə alınmışdı.

Yanvarın 19-dan 20-nə keçən gecə və sonrakı bir neçə gündə Bakıda və Azərbaycanın digər bölgələrində 147 nəfər qəddarcasına öldürüldü, 744 nəfər yaralandı, 800-dən çox insan qanunsuz həbs olundu. Öldürülənlər və yaralananlar arasında qadınlar və qocalar, hətta uşaqlar da vardı. Onlardan bəziləri ömürlük şikəst oldu.

Bu hadisələrdən bir müddət sonra - 1990-cı ilin noyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında çıxış edən Ulu Öndər faciə barədə danışarkən deyirdi: “Mən belə hesab edirəm ki, 19-20 yanvarda baş vermiş bu faciə həm Sovet İttifaqının siyasi rəhbərliyinin, şəxsən Qorbaçovun böyük günahının nəticəsidir, onun diktatorluq meyillərindən əmələ gəlmiş bir haldır və eyni zamanda, Azərbaycan rəhbərlərinin xalqa xəyanəti və cinayətinin nəticəsidir. Mən belə fikirdəyəm ki, Böyük Vətən müharibəsi qurtarandan sonra Sovetlər İttifaqında, ölkənin daxilində - heç bir yerdə, heç bir regionda bu qədər, bu miqyasda qanlı qırğın olmamışdır... Bunun nə qədər böyük miqyasda olmağını onunla da ölçmək olar ki, bu hərbi aksiyanın həyata keçirilməsi üçün SSRİ müdafiə naziri Yazov, SSRİ daxili işlər naziri Bakatin vaxtından qabaq gəlib Bakıda oturub, bu əməliyyatlara rəhbərlik ediblər”.

Bəzi məlumatlara görə, hadisə ərəfəsində Bakıya və Bakı ətrafına Sovet ordusunun və daxili qoşunların Azərbaycan xalqına nifrət ruhunda köklənmiş 65 min nəfərlik kontingenti yerləşdirilmişdi.

Qəddarlığın da misli-bərabəri yox idi. “Şit” təşkilatının müstəqil ekspertləri tərəfindən hazırlanmış hesabatdan: “Adamları xüsusi qəddarlıqla və yaxın məsafədən güllələmişlər. Məsələn, Y. Meyeroviçə 21, D. Xanməmmədova 10-dan çox, R. Rüstəmova 23 güllə vurulmuşdur, xəstəxanalar, “təcili yardım” maşınları atəşə tutulmuş, həkimlər öldürülmüşlər, adamlar süngü-bıçaqla qətlə yetirilmişlər. Atəş zamanı “Kalaşnikov” avtomatının ağırlıq mərkəzi dəyişən 5,45 çaplı güllələrindən istifadə edilmişdir. Həlak olanlar arasında yetkinlik yaşına çatmayanlar, qadınlar, qocalar, şikəstlər də var idi”.

Hərbçilər fotomüxbirləri hadisə yerinə yaxın buraxmırdılar. Bununla belə, bəziləri həyatlarını təhlükəyə ataraq kütləvi qırğının ayrı-ayrı epizodlarını fotoobyektivə köçürə bildilər. İmperiya ordusunun hərbi müdaxiləsinin, cəza əməliyyatının ağır nəticələrini əks etdirən bu ağ-qara fotoşəkillər qanlı cinayəti törədənlərə qarşı bir ittiham aktı olaraq qalır.

## 20 Yanvar: faciə və qəhrəmanlığın üst-üstə düşdüyü nadir məqam

Hər bir xalqın tarixində həm faciəli məqamlar, həm də qəhrəmanlıq səhifələri olur. Lakin çox nadir hallarda bu iki məqam üst-üstə düşür. 20 Yanvar Azərbaycan tarixinin məhz belə səhifəsidir. Şəhidlər son mənzilə görünməmiş izdihamla yola salındı. Xalq faciə qurbanlarını son mənzilə çiyinlər üstündə apardı. Şəhidlərin dəfni nə qədər ağır səhnə olsa da, bir o qədər də qürurverici məqamdır. Bu iki məqamı həmin vaxt çəkilmiş fotolarda aydın görmək olur.

Fotoşəkillər bizi bir daha 1990-cı ilin 22 yanvarına qaytarır: Bakının ən yüksək nöqtələrindən birində - o vaxt “Dağüstü park” adlanan yerdə şəhidlər üçün məzarlar qazılıb. Cənazələr indiki “Azadlıq” meydanına düzülüb. Şəhidlərlə vidalaşmaq üçün buraya milyonlarla insan toplaşıb.

İnsan seli məzarlığa yaxınlaşır. Bu vida anlarında doğmalarını, əzizlərini itirmiş insanların ağrı-acıları, keçirdikləri hissləri ifadə etmək üçün söz tapmaq çətindir. Köməyə yenə fotolar gəlir...

## Şəhid qanı: bayrağımızdakı qırmızı rəng

Onlar Vətən naminə şəhid oldular, bununla da milyonlara fədakarlıq dərsi keçdilər. 1990-cı ilin yanvar hadisələri zamanı həlak olmuş qəhrəman Vətən övladlarının xatirəsi hər bir həmvətənimiz üçün əzizdir.

Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin fədakarlığını, Vətən qarşısındakı xidmətlərini yüksək qiymətləndirərək deyib: "Azadlıq, müstəqillik uğrunda, Vətən uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxarılmamalıdır".

Ulu öndər Heydər Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində bir sıra mühüm addımlar atmış, qərarlar qəbul etmişdi. Bu siyasəti davam etdirən Prezident İlham Əliyevin Sərəncamına əsasən 2007-ci ildə Şəhidlər xiyabanı vahid kompleks kimi yenidən qurulub.

Şəhidlər xiyabanı Azərbaycan xalqının 28 il əvvəl düçar olduğu böyük faciə ilə yanaşı, yenilməz iradəsindən xəbər verir. Özündə ümummilli kədər və iztirabın nişanələrini yaşatmaqla bərabər, mübarizlik rəmzinə çevrilib.

Bu müqəddəs məkanı uşaqdan tutmuş böyüyədək hamı ziyarət edir. Günün istənilən vaxtı burada müxtəlif yaşda insanlar görmək olar. Onlar şəhid məzarları önündə ayaq saxlayır, qranit lövhəyə həkk edilmiş adları oxuyur, şəkillərə baxırlar. Bu məzarlarda uyuyan şəhidlər Azərbaycanın müxtəlif guşələrində doğulublar. Ölüm tarixi, əbədiyyətə qovuşduqları məkan isə eynidir: 20 yanvar 1990-cı il, Şəhidlər xiyabanı.

28 ildir ki, hər 20 Yanvar günü Şəhidlər xiyabanında böyük izdiham yaşanır. Şəhid məzarları önündən yüz minlərlə insan ötüb-keçir. Ötüb keçən illər xalqın şəhidlərinə olan ehtiramını nəinki azaltmır, əksinə, 28 il əvvəl baş verənlərin mənası, bu xiyabanda əbədiyyətə qovuşanların gördüyü işlərin mahiyyəti zaman keçdikcə daha da aydınlaşır. Xalqımız azadlıq arzusuna qovuşub, hər birimiz müstəqil dövlətin vətəndaşı olmağımızla fəxr edirik. Onda - 1990-cı ilin yanvarında müstəqillik bir xəyal, bir arzu idi. Şəhidlərimizin axan qanı, xalqın verdiyi qurbanlar hədər getmədi, xəyal və arzular həqiqət oldu.

Şəhid qanı müqəddəsdir. Ona ən dəqiq qiyməti ulu öndər Heydər Əliyev verib: "O qanın hər damcısında bizim xalqımızın qüdrəti var, xalqımızın qəhrəmanlığı var, xalqımızın milli azadlıq, müstəqillik arzuları vardır. O gecə tökülən qanlar müqəddəs qanlardır. Onlar bizim xalqımızın əsrlər boyu milli azadlıq, müstəqillik uğrunda tökdüyü qanlara qovuşmuş qanlardır, o gecə tökülən qanlar Azərbaycanın müstəqilliyini nümayiş etdirən milli bayrağımızın üstündəki qandır".

Ekspress.-2018.-20-22 yanvar.-№ 12.-S.8-9.

## 20 Yanvar: müasir tariximizin şəhid qanı ilə yazılmış hünər səhifəsi

Hər bir tarixi hadisənin qiymətini zaman verir. 20 Yanvarın mənasını, tariximizdəki yerini və rolunu illər keçdikcə daha aydın dərk edirik. Vaxtilə ulu öndər Heydər Əliyev bu barədə danışarkən deyirdi: "1990-cı ilin 20 yanvarı Azərbaycan xalqının tarixinin ən faciəli, qara səhifəsi, həm də qəhrəmanlıq, rəşadət səhifəsidir. Biz o günlərdən nə qədər çox uzaqlaşsaq, həmin günlərin Azərbaycan xalqının tarixində necə mühüm yer tutduğunu bir o qədər dərk edəcəyik və bəlkə də gələcək nəsillər buna daha doğru, daha düzgün qiymət verəcəklər. Ancaq bir şey həqiqətdir ki, 1990-cı ilin 20 yanvarı Azərbaycan xalqının həyatında dönüş mərhələsi, dönüş nöqtəsi olmuşdur".

## 20 Yanvara 28 ildən sonra baxış

Həmin qanlı yanvar günündən 28 il ötür. İllər keçdikcə bu hadisəyə baxışlar dəyişir. Vaxtilə ağlayıb-sızlayır, qəm dəryasına batır, şəhid məzarlarına qərənfillər düzməklə təskinlik tapırdıq. İndi isə kədərlə yanaşı, ürəklərdə sonsuz qürur hissi də baş qaldırır. Onda - qaranlıq səmada güllələrin parıldadığı, küçələrdə tankların şütüdüyü qış gecəsində azadlıq günəşinin doğmasından, həyatımızda başlayan dönüşdən hələ xəbərsiz idik. Bilmirdik ki, üstümüzə tankla hücuma keçən bu imperiyanın sonu çatıb və cəmi iki il sonra Azərbaycan yenidən müstəqil dövlət olacaq. İndi şəhidləri azadlıq müjdəsi gətirən qaranquşlara bənzədirik.

Ötən 28 ildə həyatımız büsbütün, müqayisəyə gəlməz dərəcədə dəyişib, 90-cı ilin Bakısından, 28 il əvvəlki Azərbaycandan, demək olar, əsər-əlamət qalmayıb. İmzalar içində imzamız, bayraqlar sırasında bayrağımız, sözlər yanında sözümüz var. İllərin və zamanın axarında dəyişməz qalan isə xalqın şəhidlərə hörmət və ehtiramıdır.

Biz ötüb keçən zamanın fonunda dünyanın soyuq üzünü, ədalətsizliyini, xalqımızın faciəsinə özgə dərdi kimi baxdığını da gördük. 90-cı ilin yanvarında Bakıya hücum əmri verən, yüzlərlə günahsız insanın ölümünə bais olan Mixail Qorbaçova Nobel sülh mükafatı verdilər. Təzada baxın: nahaq axıdılan qan və sülh mükafatı...

## Kədərin içərisindən baş qaldıran ümid və inam

Həmin yanvar günləri zülmət gecəyə bənzəyirdi. Havadan qan və ölüm qoxusu gəlirdi. Analar fəryad qoparır, qız-gəlinlər ağı deyir, kişilər göz yaşlarını güclə saxlayırdılar. Ədalət, haqq divanı qurulsa, bir xalqın başına gətirilən müsibətə bu gün minlərlə, on minlərlə insan şahidlik edər.

İmperiya qoşunlarının Bakıda törətdiyi hərbi cinayətin digər təkzibolunmaz dəlil-sübutu fotoşəkillərdir. Qanlı epizodların, şəhidlərin dəfnində yaşanan nəhəng izdihamın, insan portretlərinin əks olunduğu bu fotolar xalqın faciəsini və hünərini zamandan-zamana daşıyır. Onlara diqqət yetirsək, ümumxalq kədərinin içərisindən baş qaldıran ümid və inamı da görə bilərik. Xüsusən faciənin ertəsi gün o vaxt Moskvada yaşayan Heydər Əliyevin Azərbaycan nümayəndəliyinə gələrək bu kədərə şərik çıxması, sovet rəhbərliyinin Bakıda törətdiyi hərbi cinayəti pisləməsi xalqımıza güc verdi, ona böyük dayaq oldu.

AZƏRTAC-ın fotoarxivində 20 Yanvar faciəsinin miqyasını, Azərbaycan xalqının müsibətini və yenilməzliyini əks etdirən yüzlərlə fotoşəkil toplanıb. Bu gün həmin fotoları bir daha təqdim edirik: baxaq, xatırlayaq, yaddaşımızı təzələyək...

20 Yanvar faciəsinə bir günün, yaxud bir ayın ərzində baş verən hadisə kimi baxmaq olmaz. Rəsmi Moskva tərəfindən erməni separatizminə rəvac və dəstək verilməsi, respublika rəhbərliyinin mütiliyi və milli mənafeyə zidd mövqeyi xalqı hiddətləndirmiş, güclü etiraz dalğası doğurmuşdu. Böyüklü-kiçikli hamı küçə və meydanlara axışırdı. Mitinqçilərin sıraları günbəgün genişlənir, paytaxtın baş meydanında xalqın azadlıq istəyini əks etdirən şüar və plakatlar görünməyə başlayırdı. Beləliklə, əldən gedən torpaq uğrunda mübarizə tədricən azadlıq hərəkatına çevrilirdi.

Can üstə olan imperiya çıxış yolu kimi Bakıda fövqəladə vəziyyət rejimi elan etdi, bundan bir nəticə hasil olmadığını gördükdə Azərbaycan paytaxtına qoşun yeritmək qərarına gəldi. Həmin günlər küçə və meydanlarda çəkilmiş fotolar 20 Yanvar ərəfəsində yaranmış ictimai-siyasi vəziyyəti, xalqın əhval-ruhiyyəsini anlamağa yardımçı ola bilər.

## Misli-bərabəri olmayan qəddarlıq

1990-cı il, 20 yanvar, saat 00:00. Bir neçə gün əvvəl Bakı ətrafında yerləşdirilmiş ordu birləşmələri beş istiqamətdən şəhərə soxuldu. Küçələrdə şütüyən tanklar və zirehli maşınlar qarşılarına çıxan avtomobilləri, insanları əzib keçir, əsgərlər heç kəsə aman vermirdilər.

Yanvarın 20-də səhər hava işıqlaşar-işıqlaşmaz küçələrə axışan Bakı sakinləri indiki "20 Yanvar" dairəsində (onda həmin ərazi XI qızıl ordu meydanı adlanırdı) və ona yaxın küçələrdə dəhşətli mənzərələrlə qarşılaşdılar: tankların əzib keçdiyi cəsədlər, avtobuslar, yük və minik avtomobilləri, qar üzərindəki qan izləri... Xəstəxanalar yaralılarla dolu idi. Şəhərin mərkəzi küçə və meydanları tanklar və silahlı əsgərlər tərəfindən mühasirəyə alınmışdı.

Yanvarın 19-dan 20-nə keçən gecə və sonrakı bir neçə gündə Bakıda və Azərbaycanın digər bölgələrində 147 nəfər qəddarcasına öldürüldü, 744 nəfər yaralandı, 800-dən çox insan qanunsuz həbs olundu. Öldürülənlər və yaralananlar arasında qadınlar və qocalar, hətta uşaqlar da vardı. Onlardan bəziləri ömürlük şikəst oldu.

Bu hadisələrdən bir müddət sonra – 1990-cı ilin noyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında çıxış edən Ulu Öndər faciə barədə danışarkən deyirdi: "Mən belə hesab edirəm ki, 19-20 yanvarda baş vermiş bu faciə həm Sovet İttifaqının siyasi rəhbərliyinin, şəxsən Qorbaçovun böyük günahının nəticəsidir, onun diktatorluq meyillərindən əmələ gəlmiş bir haldır və eyni zamanda, Azərbaycan rəhbərlərinin xalqa xəyanəti və cinayətinin nəticəsidir. Mən belə fikirdəyəm ki, Böyük Vətən müharibəsi qurtarandan sonra Sovetlər İttifaqında, ölkənin daxilində - heç bir yerdə, heç bir regionda bu qədər, bu miqyasda qanlı qırğın olmamışdır... Bunun nə qədər böyük miqyasda olmağını onunla da ölçmək olar ki, bu hərbi aksiyanın həyata keçirilməsi üçün SSRİ müdafiə naziri Yazov, SSRİ daxili işlər naziri Bakatin vaxtından qabaq gəlib Bakıda oturub, bu əməliyyatlara rəhbərlik ediblər".

Bəzi məlumatlara görə, hadisə ərəfəsində Bakıya və Bakı ətrafına Sovet ordusunun və daxili qoşunların Azərbaycan xalqına nifrət ruhunda köklənmiş 65 min nəfərlik kontingenti yerləşdirilmişdi.

Qəddarlığın da misli-bərabəri yox idi. "Şit" təşkilatının müstəqil ekspertləri tərəfindən hazırlanmış hesabatdan: "Adamları xüsusi qəddarlıqla və yaxın məsafədən güllələmişlər. Məsələn, Y. Meyeroviçə 21, D. Xanməmmədova 10-dan çox, R. Rüstəmova 23 güllə vurulmuşdur, xəstəxanalar, "təcili yardım" maşınları atəşə tutulmuş, həkimlər öldürülmüşlər, adamlar süngü-bıçaqla qətlə yetirilmişlər. Atəş zamanı "Kalaşnikov" avtomatının ağırlıq mərkəzi dəyişən 5,45 çaplı güllələrindən istifadə edilmişdir. Həlak olanlar arasında yetkinlik yaşına çatmayanlar, qadınlar, qocalar, şikəstlər də var idi".

Hərbçilər fotomüxbirləri hadisə yerinə yaxın buraxmırdılar. Bununla belə, bəziləri həyatlarını təhlükəyə ataraq kütləvi qırğının ayrı-ayrı epizodlarını fotoobyektivə köçürə bildilər. İmperiya ordusunun hərbi müdaxiləsinin, cəza əməliyyatının ağır nəticələrini əks etdirən bu ağ-qara fotoşəkillər qanlı cinayəti törədənlərə qarşı bir ittiham aktı olaraq qalır.

**20 Yanvar: faciə və qəhrəmanlığın üst-üstə düşdüyü nadir məqam**

Hər bir xalqın tarixində həm faciəli məqamlar, həm də qəhrəmanlıq səhifələri olur. Lakin çox nadir hallarda bu iki məqam üst-üstə düşür. 20 Yanvar Azərbaycan tarixinin məhz belə səhifəsidir. Şəhidlər son mənzilə görünməmiş izdihamla yola salındı. Xalq faciə qurbanlarını son mənzilə çiyinlər üstündə apardı. Şəhidlərin dəfni nə qədər ağır səhnə olsa da, bir o qədər də qürurverici məqamdır. Bu iki məqamı həmin vaxt çəkilmiş fotolarda aydın görmək olur.

Fotoşəkillər bizi bir daha 1990-cı ilin 22 yanvarına qaytarır: Bakının ən yüksək nöqtələrindən birində - o vaxt "Dağüstü park" adlanan yerdə şəhidlər üçün məzarlar qazılıb. Cənazələr indiki "Azadlıq" meydanına düzülüb. Şəhidlərlə vidalaşmaq üçün buraya milyonlarla insan toplaşıb.

İnsan seli məzarlığa yaxınlaşır. Bu vida anlarında doğmalarını, əzizlərini itirmiş insanların ağrı-acıları, keçirdikləri hissləri ifadə etmək üçün söz tapmaq çətindir. Köməyə yenə fotolar gəlir...

**Şəhid qanı: bayrağımızdakı qırmızı rəng**

Onlar Vətən naminə şəhid oldular, bununla da milyonlara fədakarlıq dərsi keçdilər. 1990-cı ilin yanvar hadisələri zamanı həlak olmuş qəhrəman Vətən övladlarının xatirəsi hər bir həmvətənimiz üçün əzizdir.

Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin fədakarlığını, Vətən qarşısındakı xidmətlərini yüksək qiymətləndirərək deyib: "Azadlıq, müstəqillik uğrunda, Vətən uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan

xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxarılmamalıdır".

Ulu öndər Heydər Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində bir sıra mühüm addımlar atmış, qərarlar qəbul etmişdi. Bu siyasəti davam etdirən Prezident İlham Əliyevin Sərəncamına əsasən 2007-ci ildə Şəhidlər xiyabanı vahid kompleks kimi yenidən qurulub.

Şəhidlər xiyabanı Azərbaycan xalqının 28 il əvvəl düçar olduğu böyük faciə ilə yanaşı, yenilməz iradəsindən xəbər verir. Özündə ümummilli kədər və iztirabın nişanələrini yaşatmaqla bərabər, mübarizlik rəmzinə çevrilib.

Bu müqəddəs məkanı uşaqdan tutmuş böyüyədək hamı ziyarət edir. Günün istənilən vaxtı burada müxtəlif yaşda insanlar görmək olar. Onlar şəhid məzarları önündə ayaq saxlayır, qranit lövhəyə həkk edilmiş adları oxuyur, şəkillərə baxırlar. Bu məzarlarda uyuyan şəhidlər Azərbaycanın müxtəlif guşələrində doğulublar. Ölüm tarixi, əbədiyyətə qovuşduqları məkan isə eynidir: 20 yanvar 1990-cı il, Şəhidlər xiyabanı.

28 ildir ki, hər 20 Yanvar günü Şəhidlər xiyabanında böyük izdiham yaşanır. Şəhid məzarları önündən yüz minlərlə insan ötüb-keçir. Ötüb keçən illər xalqın şəhidlərinə olan ehtiramını nəinki azaltmır, əksinə, 28 il əvvəl baş verənlərin mənası, bu xiyabanda əbədiyyətə qovuşanların gördüyü işlərin mahiyyəti zaman keçdikcə daha da aydınlaşır. Xalqımız azadlıq arzusuna qovuşub, hər birimiz müstəqil dövlətin vətəndaşı olmağımızla fəxr edirik. Onda - 1990-cı ilin yanvarında müstəqillik bir xəyal, bir arzu idi. Şəhidlərimizin axan qanı, xalqın verdiyi qurbanlar hədər getmədi, xəyal və arzular həqiqət oldu.

Şəhid qanı müqəddəsdir. Ona ən dəqiq qiyməti ulu öndər Heydər Əliyev verib: "O qanın hər damcısında bizim xalqımızın qüdrəti var, xalqımızın qəhrəmanlığı var, xalqımızın milli azadlıq, müstəqillik arzuları vardır. O gecə tökülən qanlar müqəddəs qanlardır. Onlar bizim xalqımızın əsrlər boyu milli azadlıq, müstəqillik uğrunda tökdüyü qanlara qovuşmuş qanlardır, o gecə tökülən qanlar Azərbaycanın müstəqilliyini nümayiş etdirən milli bayrağımızın üstündəki qandır".

**İki sahil.**-2018.-20 yanvar.-№ 12.-S.2.

## SSRİ-nin süqutu 20 Yanvar faciəsi ilə başladı

**Elçin Zaman**

Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı ilin 20 Yanvar hadisələrindən artıq 28 il keçir. Keçmiş sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz bəşər tarixində insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi qalacaqdır. Milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə silahlı təcavüz nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi.

### Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan xüsusi təlim keçmiş erməni əsgər və zabitləri daxil edilmişdi

Sovet ordusunun böyük heyətinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi. SSRİ 1956-cı ildə o vaxtki Çexoslovakiyaya, 1968-ci ildə Macarıstana və 1979-cu ildə Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni hətta o zamankı Sovet İttifaqının müttəfiq respublikalarından biri olan Azərbaycanda da təkrarlamaqdan çəkinmədi. Heç şübhəsiz ki, 1990-cu il yanvarın 20-də Bakıda baş verən hadisələri Ermənistanın Azərbaycana hərbi təcavüzündən ayrıca təhlil etmək düzgün olmazdı. Çünki Azərbaycan həmin dövrdə qonşu Ermənistanın təcavüzünə də məruz qalmışdı. Belə bir şəraitdə sovet rəhbərliyi nəinki münaqişənin qarşısını almaq üçün qəti tədbirlər görməmiş, əksinə, Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan xüsusi təlim keçmiş erməni əsgər və zabitləri, eləcə də sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantlar da daxil edilmişdi. Ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkarlıq siyasəti və keçmiş SSRİ rəhbərliyinin onlara himayədarlığına öz qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı sovet ordusunun xüsusi təlim keçmiş hissələrindən istifadə olunması 1990-cı ilin 20 yanvarında qanlı faciəyə gətirib çıxardı.

### "Alfa" qrupu hansı cinayətləri törətmişdi?

1990-cı ilin yanvar ayında M. Qorbaçov başda olmaqla sovet imperiyasının rəhbərliyi Bakıda vəziyyətin öz məcrasından çıxdığını və hakimiyyətin təhlükədə olduğunu bəhanə edərək qoşunun yeridilməsi üçün müxtəlif dezinformasiyalar yayırdı. Guya Bakıya qoşun hərbi qulluqçuların ailələrini qorumaq, hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə bu tamamilə saxta bir tezis idi. Çünki sovet rəhbərliyinin "faktları" hətta həqiqətə yaxın olsaydı belə, Bakıya xüsusi təlim keçmiş qoşun göndərməyə ehtiyac yox idi. Ona görə ki, həmin vaxt daxili qoşunların 11 min 500 əsgəri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri, eləcə də 4-cü ordunun komandanlığı da Bakıda yerləşirdi.

Bütün bunlara baxmayaraq, 1990-cı il yanvarın 19-da M. Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. Lakin əhalinin bundan məlumatsız qalması üçün SSRİ DTK-nın "Alfa" qrupu tərəfindən yanvarın 19-da saat 19.27-də Azərbaycan Televiziyasının enerji bloku partladıldı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və dinc əhaliyə amansız divan tutuldu. Qorbaçovun fərmanı qüvvəyə minənədək - yanvarın 20-də saat 00:00-dək artıq 9 nəfər öldürülmüşdü. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100 nəfərə çatmışdı. Belə ki, artıq yanvarın 20-də 131 insan öldürülmüşdü. Onlardan 117-si azərbaycanlı, 6-sı rus, 3-ü yəhudi, 3-ü tatar idi. 744 adam ağır xəsarət almış, 4-şəxs itkin düşmüş, 400 nəfər isə həbs edilmişdir. Fövqəladə vəziyyət elan ediləndən sonra isə 21 nəfər qətlə yetirilmişdi. Fövqəladə vəziyyət elan edilməmiş rayonlarda - Neftçala və Lənkəranda 25-26 nəfər öldürülmüşdü.

### Qanlı Şənbə gecəsi mənim yaddaşımda...

Qeyd edək ki, həmin günlərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tələbə və müəllimləri azadlıq hərəkatının əsas aparıcı qüvvəsi hesab edilirdilər. Həmin vaxt mən jurnalistika fakültəsinin tələbəsi idim. Konkret desəm, 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə bizə bildirdilər ki, şəhərdə föqəladə vəziyyət elan edilib, insanları daha gur toplaşdıqları yerlərdən evlərinə göndərmək lazımdır. Biz bir qrup tələbə ilə Salyan kazarmasının qarşısına getdik. Saat 23:45 idi. Salyan kazarmasından çıxan zirehli hərbi texnikalar dörd tərəfə atəş açaraq məşhur "Olimp" mağazasına doğru irəliləyirdi. İlk vurulan təcili tibbi yardım maşını oldu. Sonra atəşlərini evlərə və binalara doğru yönəltdilər. Biz küçənin ortasında qalmağın təhlükəli olduğunu görüb yaxınlıqdakı həyət evlərinə, dar küçələrə qaçdıq. Artıq şəhərdə qətliam başlamışdı. "Elmlər Akademiyası" metrosu stansiyası və çörək zavodu tərəfdən yeni BTR-lər gəlirdi. Təxminən gecə saat 3-də radioda Azərbaycan dilində, amma erməni ləhcəsində emosional bir səslə insanları küçələrə çağırırdılar. Məqsəd məlum idi: küçədə daha çox insan qırmaq. Səhərə kimi şəhərdə atəş davam etdi. Biz qaldığımız evdən çıxıb universitetin yataqxanasına getmək istəyərkən küçədə tankların və PDM-lərin gəzdiyini gördük. Ara küçələrlə yataqxanaya gedəndə ADU-nun qarşısında xeyli əsgər və hərbi texnikanın dayandığını gördük.

**Şayiə qruplarının məqsədi nə idi?**

Yanvarın 20- dən sonrakı günlərdə isə Bakıda xüsusi şayiə qrupları peyda oldular. Şayiələr yayılırdı ki, guya Bakının bir neçə yerində hələ də sovet qoşunları ilə döyüşən xalq cəbhəsinin üzvləri var və onlar təslim olmurlar. Ona görə də onlara kömək lazımdır. Eyni zamanda, şayiə buraxdılar ki, guya Salyan kazarmasındakı azərbaycanlı zabitlər və gizirlər Sovet qoşunları ilə döyüşürlər.

20 yanvar günündən başlayaraq tanklar və PDM-lər gündə bir neçə dəfə tələbə yataqxanasının qarşısından keçərək, hətta ara-sıra havaya atəş açaraq tələbələri qorxuda saxlayırdılar. Bütün bunlar bizə qarşı psixoloji hücum idi. Sanki onlar insanları qıcıqlandırmaq istəyirdilər ki, öldürməyə, qətl etməyə qurbanları daha çox olsun.

Eşidəndə ki, Bakı xəstəxanalarında yüzlərlə yaralı və ölü var, insanlar oraya axışırdı. Hamı ölənini və yaralısını axtarırdı. Xəstəxanaya baş çəkəndə insanların necə vəhşicəsinə qətl edildiyini aydın şəkildə gördük.

Amma o da həqiqət idi ki, yanvarın 22-dən başlayaraq Bakının əsas küçələrində bu qırğına etiraz olaraq dirəniş başlamışdı. Hətta parlamentin və Mərkəzi Komitənin binasına doğru yüzlərlə insanın yürüşü təşkil edilmişdi. Düzdür, artıq Bakıda qətliam törədən vəhşi zabitləri gənc əsgərlər əvəzləyirdi. Onlar da bu qətliamdan narazı görünürdülər. Hətta onlar biləndə ki, Bakıda qətlə yetirilənlərin sayın 100- dən artıqdır heyrətlənirdilər. Artıq Bakıda insanlar sovet tanklarının lülələrinə qırmızı qərənfillər də taxırdılar. Bununla da göstərirdilər ki, biz terrorçu, ekstremist deyilik, sülhpərvər xalqıq. O günlərdə xalqımız öz şəhidlərini də böyük izdihamla dəfn etdi. Tankların və PDM-lərin əhatəsində 1 milyondan çox insan şəhidləri son mənzillərinə böyük qələbəliklə yola saldı. Bu izdihamı görən Qorbaçov hökuməti bir daha anladı ki, Azərbaycan xalqının azadlıq mübarizəsini sındırmaq mümkün olmayacaqdır.

**İki sahil**.-2018.-20 yanvar.-№ 12.-S.13.

## 20 Yanvar faciəsi ədəbiyyatımızda

**Təranə Məhərrəmova**

**20 Yanvar faciəsindən 28 il ötür. Xalqımızın azadlıq, müstəqillik yolu uğrunda mübarizəsi o vaxtdan bəri ədəbiyyat və incəsənət adamlarının mövzusuna çevrilib. Ancaq xalqımızın təcavüzə məruz qalmasını daha dolğun əks etdirən nəsr nümunəsinin olmadığı qeyd edilir. Elə bir əsər ki, faciənin miqyasını dünya oxucularının diqqətinə yönəltsin, haqq səsimizi dünyaya yaya bilsin. Ədəbiyyat adamlarının 20 Yanvar faciəsinə mükəmməl bir əsər həsr etməmələrinin səbəb nədir?**

**"Müzakirə"mizdə bu suala aydınlıq gətirməyə çalışdıq.**

**Yazıçı Aqil Abbas:**

- Ədəbiyyatda, jurnalistikada 20 Yanvar faciəsi daim təbliğ olunur. Amma ədəbiyyatda, xüsusən nəsrdə istənilən səviyyədə hadisələrin təfərrüatını əks etdirən mükəmməl bir əsər yazılmayıb. Düzdür, müəyyən şeirlər, poemalar yazılıb - poeziya nümunələri var. Məmməd Aslan, Məmməd Araz, Qabil, Bəxtiyar Vahabzadə bu mövzuda yazıblar. 20 Yanvar hadisələri ilə bağlı film çəkilib. Bilirsiniz ki, film daha böyük auditoriyaya ünvanlanır. Əgər bir əsəri 100 min insan oxuyarsa, bir filmə 100 milyon tamaşaçı baxa bilir. 20 Yanvarla bağlı Rafiq Səmənderin "Şəhidlər" kitabı sanballı bir əsərdir. Ancaq roman və ya povest janrında faciəni tam əks etdirən səviyyəli bir əsərlə rastlaşmamışıq. Qarabağ müharibəsi ilə bağlı isə daha çox bədii əsər yazılıb. Və yaxud əsrin əvvəllərindəki hadisələrlə bağlı romanlar qələmə alınıb. Düzdür, bu mövzuda dövlət sifarişi ilə də əsər yazmaq olar. Ancaq sifarişlə yazmaqdansa, içdən gələni yazmaq lazımdır. Nə üçün dövlət sifariş verməlidir? Sadəcə, dövlət ən yaxşı roman mövzusunda müsabiqə edə bilər. Onda da bəlkə 100 mənasız roman yazacaqlar. Bu cür mövzular insanın içindən gəlməli, onun vətəndaşlıq mövqeyindən süzülməlidir. Dövlət bu istiqamətdə öz təbliğatını aparıb və aparır. Eyni zamanda, dünya ölkələrində bu faciə ilə bağlı tədbirlər keçirilir. Bu faciə ilə bağlı yazmaq yazıçıların işidir".

**Ədəbi tənqidçi Vaqif Yusifli:**

- 20 Yanvar hadisələri başlayandan bəri indiyə qədər poeziyada, publisistikada, nəsrdə bu mövzu işlənməkdədir. Bununla bağlı şikayətlənməyə dəyməz. 90-cı ilin əvvəllərində Qabilin "Mərsiyə" şeiri dillər əzbəri idi. Məmməd Aslanın "Ağla qərənfil, ağla»"şeiri hamı tərəfindən oxunurdu. Mirvarid Dilbazi, Ələkbər Salahzadə, Nüsrət Kəsəmənli və başqa şairlərin yaradıcılığında 20 Yanvar faciəsi ilə bağlı mövzu işlənməkdə idi. Zəlimxan Yaqubun bu mövzuda şeirlərini unutmaq olmaz. Yəni yara hələ təzə idi və Azərbaycan şairləri və yazıçıları daha çox 20 Yanvarın müsibətinin xalqımıza, mənəviyyatımıza, tariximizə gətirdiyi bəlalardan yazırdılar. Yadımdadır ki, Əzizə Cəfərzadə 20 Yanvar şəhidlərinin məzarı üstündə bayatılar deyirdi. Təbii ki, şəhidlik Azərbaycan ədəbiyyatında ilk mövzu deyil. Füzulinin "Hədiqətüs-sühəda" adlı əsəri dünya ədəbiyyatı üçün də şəhidlik mövzusunda yazılan ən yaxşı əsərlərdən biridir. 20 Yanvar faciəsinin ən klassik nümunəsini Xalq şairi Bəxtiyar Vahabzadə yazdı. Şairin "Şənbə gecəsinə gedən yol»" publisistik əsərində 20 Yanvar faciəsinin yaranmasının səbəbləri, mahiyyəti əks olundu. Şairin "Şəhidlər" poemasının alternativi yoxdur. Hələ bu mövzuda elə bir sanballı əsər meydana çıxmayıb ki, bu poemadakı fikirləri həm xalqın faciəsi, həm də qəhrəmanlıq tarixi kimi əks etdirsin. Füzuli də "Həqiqətüs-sühəda" əsərində "Ya şəhid olmaq gərək, ya qəhrəman olmaq gərək" deyir. Əgər şəhidlik adı psixoloji mənada başa düşülərsə, təbii ki, bu, əsas ola bilməz. Çünki igidlər qəhrəmanlığa gedər. 20 Yanvarda da xalq rus ordusunun törətdiyi vəhşilikləri heç cür unuda bilməzdi. Bu mənada Azərbaycan poeziyasında da həmin mövzu layiqli yerini tapdı. Həmçinin faciə poeziyada daha çox əks olundu. Elə bir şairimiz yoxdur ki, 20 Yanvar hadisəsinə aid şeir yazmasın. Təbii ki, yazılan bu şeirlərin, poemaların çoxu bədii nöqteyi-nəzərdən qaneedici deyil. Sadəcə, təsir məqamları var. Ancaq elə şeirlər var ki, onlar həmişə yaşayacaq. Azərbaycan nasirləri isə demək olar ki, 20 Yanvar hadisələrini hələ layiqincə əks etdirməyiblər. Ortada Sabir Əhmədlinin "20 Yanvar" hekayələri, Arif Abdullazadənin "Qanlı yaddaş" romanı, İsi Məlikzadənin povesti var. Amma faciə poeziyada olduğu kimi nəsrdə dolğun əks olunmayıb. Publisistikada isə 20 Yanvar şəhidlərinin hər biri və yaxud bir rayonun, bir kəndin şəhidləri haqqında çoxlu yazılar var. Rafiq Səməndərin, Hidayətin və başqa publisistlərin əsərləri çap olunub. Təəssüf ki, son illərdə bu mövzu sanki unudulmaqdadır. Arzu edirəm ki, xalqımızın tarixində həmişəlik qalacaq, şəhidliyi qəhrəmanlığa çevirən, xalqın özünü dərk etməsinə səbəb olan belə bir mövzunu daim işıqlandıracaq əsərlər yazılsın.

**Şair, publisist Vasif Süleyman:**

- 20 Yanvar bir millətin milli-azadlıq mübarizəsinin ən şanlı səhifələrindən biridir. 20 Yanvar hadisələri şair və yazıçılarımızın əsərlərində bir çox hallarda əks olunub. Amma ümumilikdə nə ədəbiyyatda, nə tarixin yaddaşında bu hadisə lazımınca əks olunmayıb. 20 Yanvar deyəndə, ilk yada düşən Rafiq Səməndərin "Şəhidlər" kitabı olur. Sonralar Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Mirvarid Dilbazi, Xəlil Rza, Məmməd Aslan, Sabir Rüstəmxanlı, Nüsrət Kəsəmənli, Musa Ələkbərli və digərləri 20 Yanvar hadisəsinə onlarla şeir həsr ediblər. Hadisələr zamanı Fəqanə Ənvərqızı adlı bir şagirdin yazdığı şeir daha çox yadımda qalıb:

Qan rəngində çiçəksən,
Qərənfil!
Allah səni yaradıb,
Ona görə qəşəngsən,
Qərənfil!

Hansı prizmadan yanaşmağından asılı olmayaraq, düşünürəm ki, 20 Yanvarla bağlı fundamental bir əsər ortaya qoyulmalıdır.

Bəzən 20 Yanvara "QARA YANVAR" deyirlər. Amma bu qara bədlik, bədbinlik nişanəsi deyil ki. Qara dünyanı yaradan rənglərdən biridir. Qara qorxunc, dəhşətli, vahiməli, zəhmli, olduqca qorxulu, çox dəhşətli epitet funksiyası daşımaqla bərabər, "cəsarət və güclülük" mənasını da daşıyır.

Bu baxımdan, "QARA YANVAR" deməkdən çəkinmək yox, qürur duymaq lazımdır - yəni qəhrəmanlıq tarixinin şərəfli bir səhifəsi kimi. Bu baxımdan, şair Elbarizin 20 Yanvar haqqında yazdığı şeiri bunun ən yaxşı nümunələrindən hesab edirəm:

Siz ona baxmayan qara gün kimi,
Elin haqq səsidir, 20 Yanvar.
Bütün zalımlara, qaniçənlərə,
Nifrət hədəsidir, 20 Yanvar.

Nə vaxtdan buxovda donan millətin,
"Azadlıq" - hayqırıb, yanan millətin.
Bu atam millətin, anam millətin,
Savaş həvəsidir, 20 Yanvar.

Namərd yarasıdır, dev günahıdır,
Çox da ki, millətin dərdi, ahıdır.
Bu gün hamımızın səcdəgahıdır,
Şöhrət zirvəsidir, 20 Yanvar.

**"Azərbaycan ədəbiyyatında kifayət qədər əks olunub"**

**Şair Musa Urud:**

- 20 Yanvar faciəsi Azərbaycan ədəbiyyatında kifayət qədər əks olunub. Belə ki, artıq şair və yazıçılarımız, jurnalistlər, ziyalılar fəal vətəndaş mövqeyi tutaraq, faciə ilə bağlı öz fikirlərini ortaya qoyublar. Məmməd Aslan, Qabil, Bəxtiyar Vahabzadə, Məmməd Arazın 20 Yanvarla bağlı şeirləri mətbuata çıxdı. Mən özüm də 20 Yanvar şəhidlərinə şeir həsr etmişəm və çap olunub. Bundan əlavə, hadisələrlə bağlı tamaşalar səhnələşdirilib, bədii-publisistik əsərlər yazılıb. 20 Yanvar faciəsinin öyrənilməsində, xatırlanmasında istər təhsil ocaqlarının, istərsə mətbuatın, istərsə də ədəbiyyat adamlarının mövqeyi məni qane edir.

**Ədəbiyyatşünas Rüstəm Kamal:**

– Nə bir ədəbiyyatçı, nə bir oxucu, nə də bir vətəndaş kimi 20 Yanvar faciəsinin Azərbaycan ədəbiyyatında əksi məni qane edir. Biz bu gün uşaqlarımıza o hadisələri canlandıra, o qəhrəmanları təqdim edə, şəhidlərimizin obrazlarını göstərə biləcək mətnlərə həsrətik. Yalnız göz yaşları və romantika, pafos, çağırışlar, emosiyalar əksini tapır. Xüsusən poeziyada psevdoemosionallıq baş alıb gedir. Nəsirdə isə ümumiyyətlə, 20 Yanvar hadisələrinin təsvirindən danışmaq olmaz. Düzü, bilmirəm, 20 Yanvarla bağlı hansı bədii əsər, hekayə,

povest, romanın adını çəkmək olar ki, oxucu bu millətin üzləşdiyi fəlakətin miqyasını anlaya, o milli faciənin bədii ifadəsini görə bilsin. Təəssüf ki, belə bir mətn mənim əlimə keçməyib. Hər halda, belə bir əsər olsaydı, yəqin ki, sorağı yayılardı. Bəxtiyar Vahabzadənin "Şəhidlər" poemasından başqa orta məktəb müəllimləri 20 Yanvarla bağlı əlavə materiallardan istifadə etməyə demək olar normal mətnlər tapmırlar. Görünür, bizim faciəmizdən xüsusən nəsrdə ifadə etmək təcrübəmiz yoxdur. Biz şəxsi acılarımızı bayatıda, oxşamada, ağıda deyə bilirik, amma hələ epik janrda söyləməyə gücümüz çatmır. Baxmayaraq ki, bu xalq zaman-zaman, tarix boyunca müharibələr içində olub, qan-qadalar görüb, torpaqları gedib, şəhidlər verib, işğal olunub, amma bizdə bu faciəni yazmaq ənənəsi yoxdur. Ancaq bu faciəni yazmaq lazımdır. Görünür, hələ bizdə şəhidlik kultu əsas kulta çevrilə bilməyib. Məsələn, Kərbəla şəhidləri bizim ədəbiyyatımızda özünə o qədər kök salıb ki, Füzulidən üzü bəri vətən şəhidləri o mükəmməl obrazların kölgəsində qalır. Bu baxımdan, bizim hələ şəhidlik kultunu qabarda biləcək səviyyədə nə mərsiyələrimiz, nə də romanlarımız var. Bu sahədə böyük bir boşluq mövcuddur. İnanıram ki, bizim müharibə travmalarımız mükəmməl bir ədəbi təcrübəyə çevriləcək. Buna həm Azərbaycan ədəbiyyatının, həm oxucusunun, həm də tariximizin ehtiyacı və tələbatı var. Ola bilsin ki, xalq tarixin bir çox konkret faktlarını və hadisələrini unutsun, ancaq həmin hadisələr, qəhrəmanlar, şəhidlər bədii mətndə əksini taparsa, millət öz tarixini o əsərlər əsasında bərpa edə bilər. Ona görə də, 20 Yanvar faciələrinin ədəbiyyatda əks olunmasına ehtiyac var.

**Kaspi.**-2018.-20 Yanvar.-№ 12.-S.10.

## 20 Yanvar faciəsi və mətbuat

### Ehsanımız yalnız söz olsa da, millətimizi ovundurmağa çalışırdıq

**Aynurə Paşayeva**,
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Mətbuat tarixi və publisistika şöbəsinin elmi işçisi

**Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 20 Yanvar faciəsi xalqımızın yenilməz əzmkarlığını, mütəşəkkilliyini, mətanətini, vətənpərvərlik hissinin qüdrətini göstərən və yaşadan zəfər salnaməsidir. 1980-ci illərin sonunda Sovet İttifaqında ictimai-siyasi həyatın demokratikləşməsi nəticəsində, Azərbaycanda başlanan siyasi oyanış, rəhbərliyi ciddi narahat edirdi.**

Bu oyanışın qarşısını almaq üçün bəhanə axtaran Moskva, səbəbi də, bəhanəni də özü hazırladı. Respublikada hakimiyyətsizliyin hökmü, özbaşınalıq, ermənilərin azərbaycanlılara qarşı Dağlıq Qarabağda təcavüzkarlığı, milli müstəqillik yolunu tutmuş xalqın etirazları Moskvaya planını həyata keçirmək üçün şərait yaratdı. 1990-cı il yanvarın əvvəllərində mərkəzin göstərişi ilə müxtəlif qoşun hissələri Bakıya gətirildi. Bakıda və respublikanın rayonlarında 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdur. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət və şəxsi əmlak məhv edilmişdir.

Tarixin bu dəhşətli faciəsi Azərbaycan publisistlərində siyasi hadisələrə qarşı operativ maraq və münasibət oyatdı.

Ancaq gərgin siyasi iğtişaşların tüğyan etdiyi 1990-cı illərdə bəzən ictimai rəyə istiqamət verən mətbuat da öz sözünü deməkdə çətinlik çəkirdi.

Yanvarın 19-da hərbi əməliyyatın növbəti mərhələsi kimi Azərbaycan televiziyasının enerji bloku partladılmış, respublika televiziyası və radiosunun verilişləri tamamilə kəsilmişdir. Faciə baş verən gündən isə digər kütləvi informasiya vasitələrinin fəaliyyəti dayandırılmış, xalq informasiya almaq hüququndan məhrum edilmişdi. Həmin dövrdə Azərbaycan KP MK-nın orqanı olan "Kommunist" qəzeti 18 yanvar 1990-cı ildə nəşr olunduqdan sonra, bir də 27 yanvar 1990-cı il tarixdə çıxdı. Başqa sözlə, doqquz gün qəzet çap edilməmiş, bu müddətdə 20 Yanvar faciəsi barədə xalqa rəsmi məlumat verilməmişdi.

Milli faciənin miqyası ilə bağlı ilk xəbər verən "Kommunist" qəzetinin əlavəsi olan "Səhər" qəzeti idi. Yanvarın 22-də "Səhər" qəzeti 2 milyon tirajla çap olunaraq əhaliyə pulsuz paylanıldı. Matəm nömrəsindən sonrakı sayında qəzetdə ölənlərin siyahısı verildi, rus və ingilis dillərində çap olunaraq dünya mətbuatına çatdırıldı. Baş redaktorun müavini Məzahir Süleymanzadə yazırdı: "Ehsanımız yalnız söz olsa da, millətimizi ovundurmağa çalışırdıq Oğul itirmiş analar, ər itirmiş gəlinlər ağı, bayatı deməyi "Səhər"dən öyrəndilər".

Həmin dövrdə dünya ictimaiyyəti də hadisə haqqında informasiyalara biganə qalmadı. Böyük Britaniyanın "The Times", "The "Guardian" qəzetləri, BBC kanalı, ABŞ-ın "Los Angeles Times", "The New York Times", "Washinqton Post", "Kristian Sayens Monitor", "Baltimor San" və digər media orqanları Qara Yanvar, xalqın azadlıq ideyalarını boğanlar haqqında məlumat vermişdilər.

"Azərbaycan" qəzetində 1990-1994-cü illər 20 Yanvar faciəsinə aid qəbul olunmuş qərarların və sənədlərin xronikası və müəyyən şərhlər verilmişdir. Həmin qərarların, sənədlərin mətni ilə tanış olduqda insan dəhşətə gəlir. Ötən dörd il ərzində bu faciəvi hala biganə münasibət, ardıcıl olmayan siyasət, faciənin ört-basdır edilməsi aşkarlanır. Çünki həmin dövrdə ancaq senzura icazəsindən keçən xəbərlərin çapına icazə verirdilər.

Bu dövrdə azad söz xalqın tribunası idi. Tez bir zamanda xalqı ayağa qaldıra biləcək operativ janra ehtiyac yaranmışdı. Ədəbiyyatda iki janr önə keçdi: bədii publisistika və poeziya. Xalqın etirazları leqal nəşrlərlə yanaşı, qeyri leqal nəşr olunan qəzetlərin çap olunmasına yol açdı. Həmin dövrdə sərt senzura nəzarəti, mətbu orqanlarına "yuxarıdan" edilən təzyiqlər, münaqişələri işıqlandırmaq təcrübəsizliyi və s. kimi amillərin təsiri altında olan, 70 illik "sovet xofu"nun və 30-cu illərin repressiyasını unutmayan KİV-in böyük hissəsi çox şeyi mətbuatda açıq söyləməyə cəsarət etmirdi.

Mətbuat üzərində olan senzura 1998-ci ilə qədər davam etməkdə idi. Yalnız ümummilli lider Heydər Əliyevin 1998-ci il avqustun 6-da imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman kütləvi informasiya vasitələrinin sərbəst inkişafı,

onların cəmiyyətin demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrilməsi yolunda dövlət siyasətinin həyata keçirilməsində mühüm addım oldu.

1990-cı illər mətbuatında informasiyanın tirajlanması ilə bağlı mövcud çatışmazlıqlar da bir tərəfdən başa düşüləndir. Çünki 70 il ərzində avtoritar modelin təsiri ilə fəaliyyət göstərən Azərbaycan mətbuatı, cəmiyyəti məlumatlandırmaq funksiyasından daha çox, hakimiyyətin vacib bildiyi informasiyanı təbliğ etmişdir. Ancaq 1988-ci ildə xalqın milli oyanışı sayəsində "Kommunist" partiyasının təntənəsi, Partiya plenumlarının müxtəlif kompaniyaları, Sovet dövrünün şablon, plakat mövzuları, sxematizm, trafaretlərdən uzaq müstəqillik dövrü Azərbaycan publisistikası meydana gəldi.

Azərbaycan Yazıçılar Birliyinin mətbu orqanı olan "Azərbaycan" ədəbi-bədii jurnalında Bəxtiyar Vahabzadənin "Şənbə gecəsinə gedən yol" (1990, № 9-10) publisistik oçerkində müəllif, 20 Yanvar faciəsinin yüzlərlə dəhşətli epizodları fonunda Sovet imperiyasının Azərbaycan xalqına qarşı törətdiyi genosid aktını ifşa etmişdir.

B. Vahabzadə əsərdə 1918-ci ildə Azərbaycanda törədilən qırğınların sahibi, vaxtilə adına heykəllər ucaltdığımız S. Şaumyan, onun havadarı S.Lalayanı lənətləyir, ermənilərin Dağlıq Qarabağ iddiaları, tarixi saxtalaşdırmaq cəhdləri, xalqımıza qarşı törədilən faciələrin səbəblərini aydınlaşdırır, tutarlı arqumentlərlə böhtançı erməni siyasətini ifşa edir, bu siyasi prosesə şərait yaradan Qarbaçov və bəzi azərbaycanlı rəhbərləri də tənqid etməkdən çəkinmirdi: "Bizə çoxdan məlumdur ki, başımıza açılan bu oyunlar təkcə balaca xalqın, erməni lobbisinin işi deyil. Bu işlərin başında erməni mafiyasına istiqamət verən, onu güclü silahlarla təchiz edən, hətta açıq-açığına müdafiəsinə keçib hər məsələdə Azərbaycan xalqını təkləyən M.S. Qarbaçov özü durur" (Vahabzadə Bəxtiyar. "Şənbə gecəsinə gedən yol"/ "Azərbaycan" jurnalı, Bakı, 1990, №9, s. 17).

Milli şüurun güclənməsində böyük rolu olan, həqiqətpərəstliyə sadiq, 20 Yanvar faciəsinin ağrılarını, kədərini dərindən duyan publisist B. Vahabzadə, gərgin siyasi burulğanların içərisində "Şənbə gecəsinə gedən yol" oçerkində xalqın əzmkarlığı, mətanəti qarşısında bir daha səcdə edir: "Mən bir daha inandım ki, bu xalqı qırmaq olar, əzmək olar, amma sındırmaq olmaz.

Ey mənim dözümlü xalqım, görə bilmədiyimiz, qiymətləndirə bilmədiyimiz ürəyinə, bu ürəkdə yatan namusuna, qeyrətinə qurban olum! Sən nə qədər böyüksənmiş!" (Vahabzadə Bəxtiyar. "Şənbə gecəsinə gedən yol"/ "Azərbaycan" jurnalı, Bakı, 1990, №10, s. 20).

Xalqımızın yaddaşına qanlı faciə kimi daxil olan 20 Yanvar hadisəsi milli tariximizin ən şanlı və qəhrəmanlıq səhifələrindən birini təşkil edir. Qanlı Yanvar faciəsi ulu öndər Heydər Əliyevin "20 yanvar faciəsinin dördüncü ildönümünün keçirilməsi haqqında" 1994-cü il 5 yanvar tarixli Fərmanı ilə öz siyasi qiymətini aldı. Məhz 20 Yanvar faciəsindən başlayaraq Azərbaycan xalqı SSRİ-nin tərkibində ədaləti bərpa etməyin qeyri-mümkünlüyünü və milli haqlarımıza obyektiv yanaşmanın nümayiş olunması ilə bağlı inamını birdəfəlik itirdi.

Qanını, canını vətən uğrunda fəda edən, sözündə yox, əməlində vətənpərvərliyini sübuta yetirən şəhidlərimizin ruhu şad olsun!

**Kaspi.**-2018.-20-22 yanvar.-№12.-S.7.

**O gecə tökülən qanlar**

**20 Yanvar - tariximizin sağalmaz yarası kimi**

**Fizuli İbrahimzadə**,
Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasının Humanitar fənlər kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru

**Xalqımızın taleyində faciələr silsiləsi az olmayıb. Zaman-zaman işğalçıların təcavüzünə məruz qalmış millətimiz bəzən kiminsə, kimlərinsə məqsədlərinin həyata keçirilməsinin qurbanına çevrilib.**

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə də xalqımız tarixinin dəhşətli faciələrindən birini yaşadı. Sovet qoşunları torpaqlarımızın bütövlüyü, azadlığı uğrunda sinələrini sipər edən Azərbaycanın mərd oğul və qızlarını tanklar altına qoydu, güllələbaran etdi. Dinc əhaliyə atəş açdılar. Qanlı Yanvar günlərində Azərbaycanda 132 nəfər qətlə yetirildi, 612 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu, onlardan 112 nəfəri SSRİ-nin müxtəlif şəhərlərinə aparılaraq həbsxanalarda saxlanıldı. Bir faktı da nəzərdən qaçırmaq olmaz ki, fövqəladə vəziyyət elan edilməsi barədə xəbər səhər saat 7-də elan edilənədək hərbçilər 100 nəfərə yaxın Azərbaycan vətəndaşını qətlə yetirmişdilər.

Azərbaycanın belə bir mürəkkəb, faciəli, habelə informasiya blokadasına alındığı bir şəraitdə baş vermiş həqiqətləri operativ surətdə dünya ictimaiyyətinə çatdırmaq zərurəti yaranmışdı. Dəhşətli faciəyə kəskin etiraz olaraq 1990-cı il yanvarın 21-də ailəsi ilə birgə heç bir təzyiqdən, hətta fiziki cəhətdən məhv edilmək təhlükəsindən qorxmadan Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək mətbuat konfransı keçirən ümummilli liderimiz Heydər Əliyevin xalqımıza başsağlığı və hadisəyə operativ və düzgün qiymət verməsi, imperiyanın mərkəzində oturub onun iç üzünün açıqlaması tarixdə analoqu olmayan hadisədir. "Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı nümayəndəsindən xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm.

Azərbaycanda baş vermiş hadisələri mən hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm. Azərbaycanda yaranmış mürəkkəb vəziyyətin bir sıra səbəbləri vardır.

Bunlar üçün ilk növbədə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin artıq sabiq birinci katibi Vəzirov müqəssirdir.

Azərbaycana kənardan böyük ordu kontingenti yeridilmişdir.

Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdırlar" - deyən ulu öndərin bu qətiyyətli mövqeyi xalqımızın o ağır günlərində totalitar rejimə qarşı sarsıdıcı zərbə oldu. Psixoloji sarsıntı içərisində yaşayan azərbaycanlılar 1990-cı il yanvarın 21-də ümummilli liderin qəzəbli və qətiyyətli bəyanatının doğurduğu əks-sədanı eşitdilər. Heydər Əliyev mənsub olduğu xalqın faciəsinə məsuliyyət daşıyanları Kremlin bir addımlığında, həm də bütün dünyanın gözü qarşısında ittiham edirdi.

Ümummilli liderimiz sonrakı mərhələdə 20 Yanvar faciəsinin törədilməsinə qarşı barışmaz mövqeyini daha kəskin şəkildə nümayiş etdirərək, qətiyyətli addım atdı. Onun Bakıya qoşun yeridilməsinə, dinc əhaliyə amansız divan tutulmasına qarşı bəyanat verərək, Kommunist Partiyasının sıralarını tərk etməsi ən ağır anlarda yenə xalqı ilə birlikdə olmasını göstərdi.

Ulu öndərimiz Heydər Əliyevin 20 Yanvar faciəsini törədənlərə qarşı barışmaz mövqeyi sonralar etdiyi bütün çıxışlarının, bəyanatlarının, imzaladığı sənədlərin əsas leytmotivi olmuşdur. Azərbaycan xalqına qarşı cinayət törədən şəxslərin ciddi cəzalandırılması məsələsi onun fəaliyyətinin bütün sonrakı mərhələlərdə də aktuallığını qoruyub saxlamışdır. Ulu öndərimiz həmişə bu mövqedə olmuşdur ki, xalqa qarşı törədilən hər hansı cinayət cəzasız qalmamalıdır.

Təsadüfi deyil ki, 20 Yanvar hadisələri ilk hüquqi-siyasi qiymətini də Naxçıvan MR Ali Məclisi tərəfindən Heydər Əliyevin işləyib hazırladığı "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərarı ilə 1990-cı il 21 noyabr sessiyasında almışdır. Qərarın bu gün də müasirlik və tarixilik baxımından aktuallığını nəzərə, alıb onun bəzi bəndlərinin diqqətə çatdırılmasını vacib sayırıq:

1. 1990-cı ilin yanvar ayında Bakı şəhərində törədilmiş qanlı hadisələr Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətlədirilsin.

2. Dinc əhaliyə, silahsız kütləyə, heç bir müqavimət göstərməyən günahsız adamlara qarşı müasir silahlarla, hərbi texnika ilə zorakılıq edilməsi, qocaların, qadınların, uşaqların qətlə yetirilməsi Azərbaycan xalqına qarşı açıq təcavüz kimi ittiham edilsin.

3. Bir ilə yaxın vaxt keçməsinə baxmayaraq, Bakı faciələrinə Azərbaycan SSR Ali hakimiyyət orqanları tərəfindən siyasi qiymət verilməməsi, bununla əlaqədar yaradılmış xüsusi deputat komissiyasının işinin qeyri-müəyyən səbəblərdən başa çatdırılmaması, qanlı hadisələrin günahkarlarının aşkara çıxarılıb qanuni məsuliyyətə verilməməsinə qəti etiraz olunsun. Azərbaycan SSR Ali Sovetindən tələb edilsin ki, ən qısa müddətdə həmin məsələni parlamentin müzakirəsinə çıxarsın

4. Bu qərar qəbul edilən andan 20 Yanvar günü hər il Naxçıvan Muxtar Respublikasında Milli Matəm günü kimi qeyd edilsin.

5. Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin ki, 20 Yanvar günü hər il Azərbaycan SSR-də Milli Matəm günü kimi qeyd edilsin.

Bu bir həqiqətdir ki, Qanlı Yanvar faciəsi hərtərəfli, əhatəli və daha dolğun qiymətini məhz Heydər Əliyevin xalqın təkidi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə aldı.

Ulu öndərimizin 1994-cü il 5 yanvar tarixli sərəncamında faciənin respublika miqyasında geniş araşdırılıb hüquqi-siyasi qiymət verilməsi tövsiyə olunurdu. Həmin il yanvar ayının 12-də Heydər Əliyevin sədrliyi ilə 20 Yanvar faciəsinin 4-cü ildönümü ilə bağlı tədbirlərin hazırlanması və keçirilməsi üzrə dövlət komissiyasının iclası keçirildi. İclasda çıxış edən ümummilli liderimiz Heydər Əliyev faciəyə tam və hərtərəfli hüquqi-siyasi qiymətin verilməsi vacibliyini önə çəkdi.

Dövlət komissiyasının ciddi fəaliyyəti nəticəsində 1994-cü il mart ayının 29-da Milli Məclis "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında” qərarı qəbul etdi. Sənəddə 20 Yanvar faciəsi qabaqcadan şüurlu surətdə planlaşdırılmış və vəhşicəsinə həyata keçirilmiş cinayət aktı kimi qiymətləndirilirdi. Qeyd olunurdu ki, Bakıya qoşun yeridilməsi milli azadlıq hərəkatını boğmaq və kommunist rejimini saxlamaq məqsədinə xidmət edib. Eyni zamanda, əsas məqsəd xalq hərəkatına zərbə vurmaq, istiqlaliyyət uğrunda mübarizə aparan qüvvələri məhv etmək olub. Qərarda faciənin günahkarları konkret adlarla göstərilir, ötən dörd il müddətində respublika hüquq-mühafizə orqanlarının bu ağır cinayətin istintaqı ilə bağlı fəaliyyəti yarıtmaz qiymətləndirilirdi.

Ümummilli liderimiz Heydər Əliyev 20 Yanvar şəhidlərinin xatirəsini daim əziz tutmuş, onların adlarının əbədiləşdirilməsi məqsədilə bir sıra sərəncamlar imzalamışdır. Ulu öndərin 2000-ci il 17 yanvar tarixli fərmanına əsasən, 20 Yanvar təcavüzü zamanı yüksək vətəndaşlıq nümunəsi göstərərək həlak olmuş Azərbaycan Respublikası vətəndaşlarına "20 Yanvar şəhidi” fəxri adı verilmişdir. Eləcə də "1990-cı il yanvar hadisələri zamanı əlil olmuş şəxslərə dövlət qayğısının artırılması haqqında” 2003-cü il 15 yanvar tarixli sərəncamına əsasən, əlil olmuş şəxslərə verilən aylıq müavinət artırılmışdır. Bakı şəhərində şəhidlərin xatirəsinə möhtəşəm xatirə kompleksi ucaldılmışdır. Ümummilli liderimiz Heydər Əliyev xalqın qəhrəmanlığını yüksək qiymətləndirərək demişdir: "Bu təcavüz nəticəsində həlak olanlar xalq qəhrəmanlarıdır. Onların həlak olması bizim üçün, xalqımız üçün, sizlər üçün, ailə üzvləri üçün böyük itkidir, faciədir. Ancaq eyni zamanda onların şəhid olması xalqımızın qəhrəmanlıq rəmzidir. Onların şəhid olması zamanı tökülən qan bütün xalqımızın qanıdır. O qanın hər damcısında xalqımızın qüdrəti, qəhrəmanlığı var, xalqımızın milli-azadlıq, müstəqillik arzuları vardır. O gecə tökülən qanlar müqəddəs qanlardır. Onlar bizim xalqımızın əsrlər boyu milli-azadlıq, müstəqillik uğrunda tökdüyü qanlara qovuşmuş qanlardır. O gecə tökülən qanlar Azərbaycanın müstəqilliyini nümayiş etdirən milli bayrağımızın üstündəki qandır”.

Göründüyü kimi, yalnız ümummilli lideri Heydər Əliyevin qətiyyəti, barışmaz mövqeyi nəticəsində 20 Yanvar faciəsinin səbəblərini araşdırmaq, günahkarları aşkar etmək, onlara obyektiv hüquqi-siyasi qiymət vermək, bu əsasda baş verənlərdən düzgün nəticə çaxarmaq, xalqın qan yaddaşına həkk olunan bu hadisələrdən ibrət dərsi almaq mümkün olmuşdur. Çünki, 1990-cı ilin 20 Yanvarı bizim təkcə faciə günümüz yox, həm də tariximizin şərəfli səhifəsidir. Azərbaycanın milli-azadlıq hərəkatının yüksəliş zirvəsi, xalqın ictimai-siyasi təfəkküründə yaranmış böyük təbəddülatlar günüdür. 1990-cı ilin 20 Yanvarı elə bir şanlı tarixdir ki, əsrlər, qərinələr keçsə də, o heç zaman xalqın yaddaşından silinməyəcək, həmişə yad ediləcək, bu faciənin baş verməsinə rəvac verən səbəbkarlar lənətlənəcək, xalq və dövlət mənafeyini hər şeydən uca tutan ümummilli liderimiz Heydər Əliyev isə əbədi olaraq tarixdə yaşayacaqdır.

**Kaspi**.-2018.-20-22 yanvar.-№12.-S.5.

## Azadlıq uğrunda mücadilə tarixi

**Məhəmməd Nərimanoğlu**

Xalqımızın qürur günü 20 Yanvar - şənbə gecəsi! Həmin gün sovet ordusunun ağır, zirehli texnikasının tapdağı altında qalanların fəryadlarının, ah-nalələrinin eşidilmədiyi, ağsaqqal və ağbirçəklərin, toy üstündə olan oğul və qızların qanlarına qəltan olduqları, hakimiyyət eşelonunda mürgüləyənlərə, hələ də gözlərini Kremlə dikənlərə inamın itdiyi gün kimi tarixə yazıldı.

20 Yanvar təkcə xalqımızın azadlıq mübarizəsinin boğulduğu deyil, həm də yetmiş illik imperiya buxovundan sıyrılıb çıxaraq müstəqillik uğrunda əzmkarlığını nümayiş etdirdiyi gün kimi də tariximizin şərəfli səhifələrindəndir.

Xalqımızın milli oyanış və azadlıq mübarizəsinin mühüm mərhələsi sayılan 1990-cı ilin qanlı Yanvarından 28 il ötür. Hər bir hadisədən müəyyən zaman keçdikdən sonra o, daha dərindən dərk edilir və nəticə çıxarılır. Bu, bir xalqın həm imperiyanın qəddarlığına və amansızlığına qarşı savaşı, eyni zamanda, bütünlüklə millətin ölüm-dirim mübarizəsi idi. Şərəflə yaşadığımız o gecədən xalqımız qalib, imperiya isə məğlub çıxdı, baxmayaraq ki, oğul və qızlarımız qanlarına qəltan edildi, tankların tırtılları altında xıncım-xıncım doğrandılar... Qərənfil libaslı Bakı o müdhiş günlərdə şəhid qanında boğulsa da, xalqımızın və millətimizin azadlıq carçıları birliyə, bütövlüyə, daha doğrusu, ölümsüzlüyə - şəhidliyə yol açdı...

Həmin tarixi günlərdə xalqımızın milli birliyi dünya ictimaiyyətini heyrətə gətirmişdi. Dağüstü parkın Şəhidlər xiyabanına çevrilməsi, torpaq və azadlıq uğrunda canlarından və qanlarından keçmiş vətən övladlarının burada dəfn olunması xalqın iradəsi və hökmü ilə gerçəkləşdi. Həmin hüznlü, matəmli günlərdə yaradılan İctimai Dəfn Komissiyasının fədakarlığını da xüsusi qeyd etmək lazımdır. Milli-azadlıq hərəkatının iştirakçılarından biri, qanlı Yanvar faciəsi zamanı şəhidlərimizin dəfnini təşkil etmiş həmin komissiyanın sədri, iqtisad elmləri doktoru, professor Qüdrət Əbdülsəlimzadə qanunsuz həbslər, hərbçilərin qəzəb doğuran hərəkətlərinin baş alıb getdiyi günlərdən söz açan “Nikbin faciə”, “Qanlı Yanvardan 15 il keçdi...” adlı dərc olunmuş qeydlərinə yeni faktlar, materiallar daxil edib “20 yaşlı 20 Yanvar” kitabını çapdan buraxdırdı. O günlərin sərt fövqəladə vəziyyətdə, yerli hakimiyyət qurumlarının iflic olması, hərbi vertolyotların əsəbləri oynadan vahiməli gurultuları, vaxtaşırı şəhərin müxtəlif yerlərindən eşidilən atəş səsləri, kütləvi təqiblər, təhqiramiz yoxlamalar haqqında dolğun və təkzibolunmaz faktlar həmin topluda öz əksini çox dolğun tapdı.

Bu toplu gələcəkdə o günləri hərtərəfli əks etdirən sanballı elmi tədqiqatlar aparıldıqda, həmin hadisələrin şahidi olmuş müəllifin tarixi ardıcıllıq prinsipləri, xronoloji qaydada yazılmış qeydləri, bəzi zəruri təkrarları nəzərə almaqla, baş vermiş proseslərin obyektiv mənzərəsinin yaradılması işinə müəyyən xidmət göstərəcək: “Yağışlı-yağmurlu yanvar günlərinin biri idi. Qaş qaralırdı. Pərişan və nimdaş geyinmiş 15-16 yaşlı bir oğlan uşağı göz yaşları içində İctimai Dəfn Komissiyası üzvlərinə yaxınlaşaraq, həlak olmuş və bir həftədir ki, axtardığı atasını, nəhayət, meyitxanadan tapdığını söylədi. Komissiya üzvləri və köməkçilər dərhal ora yollandılar. Rus hərbçisinin açdığı atəşin qurbanı olmuş V.V.Yermiçevin tabutu Şəhidlər xiyabanına gətirildi.

Qaranlıq havada, şam işığında hamımızın islandığımız bir vəziyyətdə şəhidi dəfn etməyə başladıq. Bu anda Boris Vasiliyeviçin oğlunun atasını tabutda deyil, azərbaycanlı şəhidlərdən biri kimi basdırılması təklifi hamımızı kövrəltdi. Komissiya üzvlərindən kimsə astaca dedi:

- Oğlum, bəlkə anan razı olmadı?

Məlum oldu ki, oğlanın anası ağır xəstədir, bacısı isə ondan xeyli kiçikdir.

Hamı bir anlıq susdu. Mən fikrimi qəti bildirdim:

- O, böyük oğul kimi indi evin kişisidir. Onun sözü bizim üçün qanundur.

Bu fakta diqqəti çəkməyim təsadüfi deyil. Amma o günlərdə şovinistlər bizi “islam təməlçiliyi”ndə günahlandırırdı”.

20 Yanvar hadisələrində milli oyanışı boğmağa çalışan sovet diktaturası ilk növbədə informasiya blokadası yaratdı, hərbi senzura tətbiq etdi ki, törədilən vəhşiliklərdən dünya ictimaiyyəti xəbərsiz olsun. Fövqəladə vəziyyət rejimində yaşayan Azərbaycan xalqının haqq səsini heç bir senzura boğa bilməzdi. Gizli yollarla Azərbaycana gəlmiş xarici ölkələrin müxtəlif KİV nümayəndələri 20 Yanvar hadisələri barədə həqiqətin dünya ictimaiyyətinə çatdırılmasında əvəzsiz rol oynadılar. ABŞ, Kanada, İngiltərə, Türkiyə, İran, Fransa, Çin, Yaponiya, Hindistan, Misir, Polşa, İtaliya, Almaniya, Macarıstan, ümumiyyətlə, 80-dən artıq ölkəni təmsil etmiş

jurnalistlər səmimi etiraf edirdilər ki, Bakıya çatana kimi onların burada baş vermiş, habelə hələ də davam edən hadisələrə münasibətləri birmənalı olmamışdı.

Bakıda litvalı jurnalistin hərbçilər tərəfindən qətlə yetirilməsi, Salyan kazarmasındakı bir neçə gün davam etmiş qanlı toqquşma, Bakı limanındakı qarşıdurma, xarici tələbələrin həlak olması və yaralanması, şəhərin müxtəlif hissələrindən tapılmış insan cəsədləri, şəhidlərin dəfninə qoyulmuş ciddi maneələr, Sumqayıt yolunda elm adamlarının gülləbaran edilməsi, təqiblər, işğalçı ordunun əsgər və zabitlərinin özbaşınalığı, girov saxlanılanlar haqqında məlumatların gizlədilməsi, yaxud saxtalaşdırılması faktları xarici KİV nümayəndələrində təəccüb və qəzəb doğuraraq, M.Qorbaçov başda olmaqla, “sovet demokratiyası”, habelə “yenidənqurma”sının əsl mahiyyətini üzə çıxararaq ifşa etmişdi.

Ümummilli lider Heydər Əliyev o zaman Moskvada Azərbaycan nümayəndəliyinə gələrək sovet ordusunun xalqımızın azadlıq səsini boğmaq üçün Bakıya qoşun yeritməsini birmənalı olaraq qətiyyətlə pisləmiş və bu qanlı hadisənin müstəqillik uğrunda mübarizə yolunu tutmuş hər bir müttəfiq respublikada baş verməyəcəyinə kimsəni inandırmağın çətinliyini dünya ictimaiyyətinin diqqətinə çatdırmışdır.

Şəhidlər xiyabanında, son mənzilində uyuyan qurbanlarımız arasında Vətən məhəbbəti dastana çevrilmiş İlham və Fərizə ilə yanaşı, ölümü ilə Əzrayılı başqalarından bir anlıq da olsa, yayındıran, 1932-ci ildə Qafan rayonunda dünyaya gəlib, ömrünün ixtiyar çağlarında erməni vandalları tərəfindən yurdundan didərgin salınmış Mürvət Rəhim oğlu, poetik nəfəsi çox erkən ülviyyətə qovuşan Ülvi Bünyadzadə, sinif otağında qara partası boş qalmış İlqar, avtobusda qorxudan atasına sığınan, daim 7-ci sinif şagirdi kimi xatırlanacaq Larisa, 50 yaşlı Cəbrayıl Xanməmmədov, 66 yaşlı ağsaqqal, 13-14 yaşlı məktəbli, 45 yaşlı yəhudi həkim, 16 yaşlı qız, 43 yaşlı, 31 yaşlı tatar sürücü, 46 yaşlı ləzgi yanğınsöndürən də var...

Deməli, 20 Yanvar təkcə azərbaycanlıların deyil, eyni zamanda respublikamızda yaşayan müxtəlif millətlərin ümumi faciəsidir və azadlıq uğrunda mücadilə tarixidir!

Xalq şairi Bəxtiyar Vahabzadə yazırdı: “...Dünənə qədər hər gün rast gəldiyimiz, milyonlardan biri kimi tanıdığımız bu adi cavanlar bir gecənin içində nə boyda böyük qəlbə malik olduqlarını ölümləri ilə təsdiq edib qeyri-adiləşdilər. Şənbə gecəsi onların adilikdən qeyri-adiliyə qovuşuq gecəsi oldu. Heç demə, ömrümüz boyu adlarını fəxrlə çəkdiyimiz tarixi qəhrəmanlarımız da şənbə gecəsinin oğulları kimi adi adamlarmış. Zaman keçəcək, xalq bu igidləri barəsində də əfsanəvi dastanlar yaradacaq, şair və yazıçılarımız kitablar bağlayacaq, poemalar və cild-cild romanlar yazacaqlar...”

Necə unutmaq olar ki, xalqa qarşı silah işlədən hərbçilər qətlə yetirdiklərini dəfn etməyə də imkan vermir, Şəhidlər xiyabanında fitnə-fəsad törədir, silah işlədir, atəş açır və sonradan bunu “təsadüf” sayırdılar.

Sovet ordusunun Bakıya qəfil hücumu, amansız təcavüzünü təsdiqləyən çoxsaylı faktlardan görünür ki, 20 Yanvar hadisələri paytaxt Bakıda milli-azadlıq hərəkatını yatırmaq, onu beşiyindəcə boğmaqla yanaşı, əksəriyyəti erməni muzdlu dəstələrindən təşkil edilmiş “xüsusi təyinatlılar”la onlara amansız divan tutulması üçün hazırlanmış ssenarinin bir “pərdəsi” idi. Faktlar da bunu təsdiqləyirdi: öldürülmüş Yuri Meyroviçin cəsədində 21, D.Xanməmmədovun meyitində 10, R.Rüstəmovun qanlı bədənində isə 25 güllə yeri vardı. 25 güllə! Bu, bütöv bir avtomat sırasıdır. Yaxud da günün-günortasında yolun kənarındakı minik maşınını əzib keçən və içərisindəkiləri qətlə yetirən sovet tankının sürücüsünün hərəkətlərini ya təsadüfi, ya da əmri verilməmiş saymaq olardımı?!

Hələ ki torpaqlarımız erməni daşnaklarının işğalı altındadır. Hələ ki Qarabağa aparan yol şəhidlikdən keçir. Qarabağın tacı, xalqımızın musiqi konservatoriyası Şuşa sındırılmış könül şüşəsidir, ona görə də şəhidlik tariximizin sonuncu səhifəsindəki andımıza nöqtə yox, nida qoyulacaq! 20 Yanvardan başlayan şəhidlik Qarabağa yol başladı. Minlərlə azadlıq aşiqi, Vətənə, yurda, torpağa bağlı gənclərimiz, ata-analarımız, qardaş-bacılarımız əsir yurdlarımızın şəhidinə çevrildi.

Şəhidlər xiyabanları Vətənimizin hər bir guşəsində al qırmızı qərənfil libası geyindi. Mübariz İbrahimov kimi cəsur, qorxmaz, igid Vətən övladları - Şəhidlər xiyabanında uyuyan milli-azadlıq mücahidlərinin ölümsüzlüklərinə and içərək qeyrətini silaha çevirdi. Demək, Vətən, uğrunda ölən var! Demək, Torpaq möcüzədir... Torpaq əzəldir... Torpaq sondur...

**Azərbaycan.-**2018.-20 yanvar.-№14.-S.5.

## Can verən imperiyanın qurbanları

**Seyran Cavadov**

Mixail Qorbaçov hakimiyyətə gələndən az sonra Sov.İKP MK Siyasi Bürosunun üzvlərindən Heydər Əliyevi, Andrey Qromıkonu, Dinmuxamed Kunayevi, Vasili Şerbitskini və digər görkəmli şəxsiyyətləri müxtəlif bəhanələrlə SSRİ rəhbərliyindən kənarlaşdırdı. Elə bundan sonra milli zəmində baş verən qarşıdurmalar getdikcə genişləndi. Qazaxıstan, Gürcüstan, Özbəkistan, Pribaltika respublikalarında, habelə Rusiyanın daxilində silahlı toqquşmalar çoxlu sayda insan tələfatı ilə nəticələndi. Hiyləgər erməni millətçiləri bu dəfə rüşvətxor və xain M.Qorbaçovu ələ alaraq onilliklər boyu həsrətində olduqları məqsədlərinə çatmaqdan ötrü əzəli, əbədi torpaqlarımız olan Dağlıq Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək üçün məkrli niyyətlərə əl atırdılar. M.Qorbaçovun hadisələri daha da dolaşdırması, xalqımızın hüquqlarını xaincəsinə pozaraq ermənipərəst mövqedə dayanması bütün Azərbaycan vətəndaşlarını hiddətləndirmişdi. O günlərdə "Bir dəli quyuya bir daş atıbdı" adlı şeir yazaraq qəzəb və nifrətimi ifadə etdim:

Gör necə söz deyib aqil babalar,
Bu sözün ardında mənalı bir sirr.
Bir dəli quyuya bir daş atıbdır,
Min ağıllı onu çıxara bilmir.

"Daşa" da ad qoyub çox əziz-xələf,
Deyir ki, qoyuram "yenidənqurma".
O daş o quyuya atılan gündən
Başladı vurhavur, yenidənqırma.

Hərdən ip salladı özü quyuya.
Tarix naxələftək onu anmasın.
İpə bilə-bilə sabun çəkdi ki,
Xilas olunmağa ümid qalmasın.

Bir az sayıq olun, ölkələr, xalqlar,
Bu daşda məkrli, çirkin bir sirr var.
Biz onu quyuda qoya bilmərik,
Yoxsa bu dünyanı çəkib aparar.

Yaranan vəziyyət isə ermənilərin iştahasını daha da artırırdı. Sovetlər dövründə Dağlıq Qarabağ Vilayətində komsomol və partiya işində çalışmış R.Köçaryan və qatil S.Sarkisyan Xankəndidə bu işlərə bilavasitə rəhbərlik edirdilər. Onlar Qarabağda azərbaycanlı əhaliyə divan tutur, xalqımızı dədə-baba torpaqlarından qovur, mitinqlər təşkil edib Dağlıq Qarabağın Ermənistana birləşdirilməsini tələb edirdilər. Ermənilərin tərəfini saxlayan M.Qorbaçov qəsdən özünü bilməməzliyə vurur, deyirdi ki, kimin haqlı olduğunu bilmək mümkün deyil, guya bunu aydınlaşdırmaq lazımdır. Guya SSRİ-də bəzi məsələlərin əsl mahiyyəti hələlik məlum deyil, bunları araşdırmaq müəyyən vaxt tələb edir. Bu cür bəhanələrlə Qorbaçov ermənilərə silahlanmaq və cinayətlərini genişləndirmək üçün münbit şərait yaradırdı. Azərbaycanın o zamankı rəhbərliyi isə vəziyyətdən çıxış yolu tapıb xalqı müdafiə etmək əvəzinə, mərkəzin əlində oyuncağa çevrilmişdi və Kremlin diktə etdiklərini robot kimi icra etməkdə idi. 1988-ci ildə Topxana meşəsində ermənilər tərəfindən ağacların qırılması Azərbaycan xalqının səbir kasasını daşdırdı. Paytaxt Bakıda, respublikamızın bütün rayonlarında xalq ayağa qalxdı, torpağımızda yaşayıb çörəyimizi yeyən, suyumuzu içən, üstəlik, özümüzə qənim kəsilən ermənilərin hərəkətlərinə göz yuman mərkəzin ikiüzlü siyasətinə etirazını bildirdi. Xalq azadlıq, haqq-ədalət istəyirdi! Amma ermənilərə rəvac verən mərkəzi hökumət xalqımızın haqq səsini boğdu, nümayişi dağıtdı. Məsələ düyünə düşmədən həll oluna bilərdi, əgər Moskva düzgün mövqe tutub ocağı daha da alovlandırmasaydı. Lakin münaqişə ermənilərin hazırladığı ssenari üzrə davam edir, qurbanların sayı artır, Ermənistanda yaşayan azərbaycanlı əhali son nəfərinə kimi əzəli torpaqlarından vəhşi üsullarla qovulur, Qarabağ od tutub yanır, Sumqayıt faciəsi törədilir və günahlar hiyləgərliklə azərbaycanlıların üstünə atılırdı.

Azərbaycanda isə hakimiyyət uğrunda çəkişmələr gedirdi. Onsuz da əliyalın olan xalq hiyləgər və təpədən-dırnağa qədər silahlanmış düşmənin təzyiqi altında idi. Başıpozuq silahlı dəstələrimiz isə ordu kimi birləşəcək bir vəziyyətdə deyildi. Nəhayət, 1990-cı ilin yanvarı. Xalq hərəkatı getdikcə güclənirdi. Hökumətdən Azərbaycanın haqlı tələblərinə ədalətlə baxmaq, düzgün mövqe tutmaq tələb olunurdu. Xalq azad söz demək, sərbəst fikir ifadə etmək hüququndan istifadə etmək istəyirdi. Uzun illər boyu inanıb güvəndiyimiz sovet ordusu xalqın haqq səsini boğmaq üçün 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıya hücum etdi. Guya fövqəladə vəziyyət həyata keçirilirmiş. Əslində, bu, can verən qırmızı imperiyanın öz ömrünü uzatmaq üçün son cəhdi idi. Fövqəladə vəziyyəti xalqa elan etmədən Qərb istiqamətindən də şəhərə soxulan ordu qarşısına nə çıxdısa, güllələbaran etdi. Tanklar avtomobilləri tırtılları altında qoyur, silahlılar dinc əhalini, uşaqları, qadınları, qocaları, hətta bu mənzərəyə çoxmərtəbəli binaların eyvanlarından baxan sakinləri avtomatlardan atəşə tuturdular. İndiki 20 Yanvar metrosunun ətrafındakı küçə və prospektlər qana bələndi. Həmin axşam və səhər qətliam davam etmişdi. Nəticədə 130-dan çox vətəndaşımız şəhid oldu. Onların arasında uşaqlar, qadınlar və qocalar da vardı, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz olaraq həbs edildi.

1990-cı ilin yanvarı faciəli olduğu qədər də xalqımızın tarixində qəhrəmanlıq səhifəsidir. Sovet imperiyası qanlı cinayəti ilə Azərbaycan xalqını sarsıda bilmədi. Əksinə, xalqımız özündə yeni güc tapdı. Milliyyətindən, din və təriqətindən asılı olmayaraq birləşərək yumruğa döndü. Şəhidlərimiz sonsuz bir ehtiramla, izdihamla Dağüstü parkda dəfn olundular.

Şəhidlərimizdən biri Salyan şəhərində böyüyüb boya-başa çatmış Elçin İmanov idi. O, Tibb Universitetinin 4-cü kursunda oxuyurdu. Elçin də düşmən gülləsinə tuş gəldi, təhsili kimi neçə-neçə arzuları da yarımçıq qaldı. Salyan camaatı böyükdən tutmuş kiçiyə kimi Elçin İmanovla vidalaşmağa gəldi. Şəhidi Salyan qəbiristanlığında torpağa tapşırdılar. 20 Yanvar hadisələri qəlbi Vətən eşqi ilə çırpınan hər kəsi hədsiz dərəcədə hiddətləndirmişdi. Salyan rayonunun Sarvan kənd sakini, adlı-sanlı əmək adamı, fiziki cəhətdən çox sağlam olan Sakit Səmədovun ürəyi baş verən bu haqsızlığa, cinayətə, zülmə dözə bilmədi, birdəfəlik dayandı.

20 Yanvar hadisələri qırmızı imperiyaya qarşı ümumxalq hiddətini və nifrətini daha da alovlandırdı. Rayonlarda da əhali ayağa qalxaraq bu hadisəni törədənləri lənətləyir və bunun üçün cavab verməyi tələb edirdilər. Odur ki Cənub bölgəsində növbəti hədəf Lənkəran və Neftçala rayonları oldu. Yanvarın 22-də xüsusi təyinatlı qırmızı ordunun zabit və əsgərləri Lənkəran şəhərini mühasirəyə aldılar. Onların bu özbaşınalığına qarşı müqavimət göstərən adamlara divan tutuldu. Lənkəran rayon sakinləri Vaqif Məmmədov, Salman Baxşıyev, Şahin Məmmədov, Rahim Məmmədov və Rövşən Bədəlov həlak oldular. Hadisələrin iştirakçısı Rafiq Rüstəmovun sözlərinə görə sonrakı mərhələdə imperiya qoşunlarının silahlıları 16 nəfər lənkəranlı gənci Rusiyanın Ulyanovsk, 30 nəfəri isə Bakı yaxınlığındakı Şüvəlan qəsəbəsinə apararaq 30 gün həbsxanada saxlamışdılar. Onlardan 1 nəfəri - Toğrul Abdullayev Ulyanovska aparılarkən vertolyotda boğularaq öldürülmüşdü.

Lənkərandan sonra yanvar ayının 25-də silahlanmış ordu qüvvələri Neftçala rayon mərkəzinə yeridilər. Burada da dinc əhaliyə amansız divan tutuldu. Rayon sakinləri Şəmsəddin Orucov, Əbülfəz Cəfərov və Nurəddin Ağahüseynov həlak oldular. Bundan başqa, 9 nəfər yaralandı, 37 nəfər həbs edildi. Həbsxanada onlar dözülməz işgəncələrə məruz qaldılar. Bu qəzəbli, kədərli günlərdə şəhidlərə olan məhəbbət və ehtiram da şeirlərə çevrilirdi:

Siz ey Vətən yolunda şirin canından keçib,
İgidliyi, mərdliyi özünə amal seçib,
Ömrün bahar çağında həyatdan erkən köçüb,
Ölümüylə bu yurdu, torpağı yaşadanlar!
Yaşayan hər ömürdə qanınız, canınız var!

Səs verdiniz Vətənin harayına, səsinə,
Yüksəldiniz müqəddəs şəhidlik zirvəsinə.
Məzarınız dönübdür ziyarət türbəsinə.
İnanın, and içirik, qanınız alınacaq!
Xatirəniz, ruhunuz həmişə anılacaq!

Bir ata övladından el oğluna döndünüz.
Kim deyir ki, öldünüz, kim deyir ki, söndünüz?!
Gələcək nəsillərə yetəcəkdir ününüz.

Siz bu gün də, sabah da - əsrlərlə sağsınız!
Bu yurdun sinəsində vüqarsınız, dağsınız!

Siz yazdınız millətin tarixini qan ilə,
Sinənizdə yurd saldı yurda atılan güllə.
Məzarınız tutulub min çələngə, min gülə.
Tərsiniz çiçək kimi, həmişə baharsınız!
Azərbaycan köksündə həmişə yaşarsınız!

20 Yanvar, Xocalı soyqırımı, torpaqlarımızın zəbt edilməsi ən yeni tariximizin qanlı səhifələridir. Bütün bu həqiqətlərin dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara çatdırılması, cinayətkarların cəzalandırılması ilə bağlı Prezident İlham Əliyev və onun göstərişi ilə lazımi qurumlar sistemli şəkildə iş aparırlar. Görülən tədbirlər sayəsində Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağ haqqındakı həqiqətlər dünyaya yayılır. Lakin düşmən çirkin niyyətindən hələ də dönmək istəmir. Xarici ölkələrdə yaşayan milyonçu ermənilər də ayrı-ayrı siyasətçiləri, diplomatları, jurnalistləri ələ almaqdadır və bu istiqamətdə pullarını xərcləməkdə xəsislik etmirlər. ATƏT-ə həmsədrlik edən ölkələrin səfirləri dəfələrlə dəyişsə də, vəziyyət dəyişmir ki, dəyişmir! Onlar tutduqları ikili mövqedən əl çəkmirlər. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi hələ də icra olunmamış qalır!

**Azərbaycan.-**2018.-20 yanvar.-№14.-S.3.

**Qanlı şənbənin məktəbli şəhidləri**

**Məhəmməd Nərimanoğlu**

**Qanlı-qadalı, odlu-alovlu illər bəşər tarixində zaman-zaman təkrarlanıb. Xalqımız da bu od-alovların içərisindən az keçməyib. Elə buna görə azadlıqsevərdir, mətindir, iradəli, dözümlüdür! Ölümün gözünə belə, dik baxmaq isə şərəfdir. Bu, xalqımızın hünəriylə qazandığı şərəf, alın yazısı və tale payıdır: uşaqdan-böyüyə cəllad üstünə, silah qabağına yeriyir, qorxmazlığı, cəsurluğu ilə ölümə meydan oxuyurdu.**

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə zalıma, zülmə tabe olmayan xalqımız qədim Bakını qan çanağına döndərən imperiya cəlladları ilə üz-üzə dayananda onların arasında 13 yaşlı İlqarla Larisa, 14 yaşlı Nəriman, 16 yaşlı Vera, eləcə də yaşı səksəni haqlayan Sura Babayeva və Yunus Rəhimov da vardı...

Nə idi bu ixtiyar yaşlı nənə ilə babanın, eləcə də məktəbli balaların günahı?! O müdhiş gecənin şahidləri olmaqmı? Yoxsa azadlıq aşiqlərinin necə güllələbaran edilməsini görüb qaniçən cəlladlara nifrətlə baxmaqlarımı?

Larisa Fərman qızı Məmmədova Bakıdakı Tofiq Hüseynov adına 134 nömrəli 7 “v” sinfində oxuyurdu. Sinif yoldaşları Larisanı heç zaman solmayacaq çiçəyə bənzədiblər. Onların Larisa haqqında yazdıqları xatirələrdə göstərilir ki, Şəhidlər xiyabanında alovlanan əbədi məşəl də heç vaxt sönməyəcək. Çünki bu məşəl öz alovunu, odunu xiyabanda uyuyan şəhidlərin vətənə, torpağa sevgisindən, azadlıq eşqindən götürüb. İllər ötəcək, nəsillər dəyişəcək, lakin şəhidlərimizin xatirəsi ürəklərdə daim yaşayacaq və onlar heç vaxt unudulmayacaq. Larisa Məmmədova və İlqar İbrahimov kimi fidan şəhidlərimiz isə Azərbaycan xalqının yaddaşında 13 yaşlı məktəbli kimi əbədi qalacaqlar.

Xalq şairi Bəxtiyar Vahabzadə o qanlı gecə şəhid olan 13 yaşlı Larisanı şeir dili ilə oxşadı:

On üç yaşlı körpə bala,
Yazıq anan necə dözsün
Bu kədərə, bu məlala?
Məzarının baş ucunda
kuklan da var.
Bu gün laylay çalmalıykən
sən kuklana,
Kuklan sənə laylay çalar.
Sən özün də kukla idin.
Bu dünyanın əvvəlini,
Axırını heç bilmədin.
Kim kuklaya güllə atar?
Atan oldu...…

1977-ci il avqustun 11-də Bakı şəhərində anadan olan Larisa Məmmədova musiqi təhsili də alırdı. O müdhiş gecədə xalqımızın müxtəlif yaşlı insanları içərisində Larisanın hər dəfə xatırlanması səbəbsiz deyil.

Görün bu yaşda qızcığaz nə deyib atasına: “Mən mübariz xalqımızı və üçrəngli bayrağımızı görmək istəyirəm!”

O gecə atası Fərmanın işlədiyi avtomobil parkının işçiləri ilə birlikdə L.Şmidt adına Zavodun yanında “İkarus” avtobusunda oturduqları yerdə güllələbarana tutulurlar. Qaniçənlər, imperiya cəlladları Vətən, xalq üçün döyünən bapbalaca ürəyini susdurmaq üçün Larisanı hədəf seçiblər. Ürəyini nişan alıblar. Ata-bala al-qana bələniblər. Təcili xəstəxanaya çatdırılıblar. Ata amansız və vaxtsız ölümün pəncəsindən xilas edilsə də, Larisa adını azadlıq aşiqləri qurbanlarının siyahısına yazdırıb. O gecənin qaliblərindən biri sayılan 13 yaşlı şəhid Larisa Məmmədova “Azadlıq uğrunda fəxri mübariz” adı qazanıb!

Ulu öndər Heydər Əliyev 20 Yanvar şəhidlərinin ailə üzvləri ilə görüşlərinin birində demişdir: “20 Yanvar faciəsi mənim üçün xalqımızın ən ağır faciəsidir. Amma eyni zamanda 20 Yanvar Azərbaycan xalqının mərdlik, qəhrəmanlıq və şəhidlik zirvəsinə qalxmasının əyani nümayişidir”.

Bəli, Azərbaycan xalqı bu zirvəyə qalxmağı bacardı. 13 yaşlı məktəbli balalar da sübut etdilər ki, onlar xalqın azadlığı, gələcəyi üçün lazım gələrsə, göz qırpmadan canlarından keçməyi bacarırlar.

Həmin görüşdə “20 Yanvar” Cəmiyyətinin sədri, Larisanın atası, o məşum gecədən sinəsində bala dağı saxlayan Fərman Məmmədov ulu öndərə, onlara göstərilən diqqət və qayğıya görə minnətdarlığını belə bildirdi:

“Mən şəhid Larisa Məmmədovanın atasıyam. Özüm də II qrup əliləm, 20 Yanvar hadisələri zamanı yaralanmışam. Sizə inanırıq, dediyiniz işlərin hamısı görülür, biz də kömək edirik, çalışırıq, 1994-cü ildə Sizin verdiyiniz qərar əsasında Şəhidlər xiyabanında “20 Yanvar” Cəmiyyətinə yer verilib. Biz oranın təmiri ilə də məşğul olmuşuq. Orada 20 Yanvarda şəhid və əlil olanların balaları üçün pulsuz ingilis və fransız dilləri kursları açmışıq”.

Ukraynanın Donetsk vilayətindən öz səadətinin ardınca Azərbaycana gəlmiş Qalina Urvaçova-Məmmədova (Larisanın anası) o gündən ümumxalq kədərini qəribə bir özünəməxsusluqla, suallar fırtınasında yaşayır: “Kim idi balalarımızı hədəf seçən? Bizi niyə güllələbarana tutmuşdular o günlər?!”

Hər il 20 Yanvar ərəfəsində təhsil aldığı məktəbdə Larisadan danışılır. Xatirəsinə həsr olunan yazı, şeir, rəsm müsabiqələri keçirilir. 134 nömrəli məktəbdə onun adını daşıyan şagird təşkilatı da fəaliyyət göstərir. Bunlar bir daha əminlik yaradır ki, bu balaca qız ürəklərdə yaşayır.

...20 Yanvarda hələ ölümün nə olduğunun fərqində olmayanlar şəhidlik zirvəsinə yüksələcəklərini ağıllarına belə gətirmirdilər. Günlərini məktəbli dostları ilə keçirən bu balaların ovuc boyda ürəklərindəki böyük vətən sevgisi, azadlıq arzusu onları da həmin gecə od-alovun içinə çəkib apardı. O ayazlı-şaxtalı gecədə 13 yaşlı İlqar dostları Zakir və Pərvizlə qonşuları Nazimin “Zaporojets” markalı maşını ilə sinəsini düşmən tanklarına sipər edən soydaşlarımıza ocaq qalayıb isinmək üçün odun aparırdı. Qəfildən tanklarla üz-üzə gəldilər. Maşınlarını saxlayıb qaçmaq məcburiyyətində qaldılar. Düşmən tankı əvvəlcə maşının üstündən keçərək onu yerə yapışdırdı. Sonra qaçan bu fidanları atəşə tutdu. İlqar arxada olduğundan, ağır yaralandı. Xəstəxanaya çatdırsalar da...

İbrahimov İlqar Rəşid oğlu Bakının Yasamal rayonundakı 167 nömrəli məktəbin 7 “a” sinfində oxuyurdu. Yadigar qalan şəklindən görünür ki, gülərüz olub. Tay-tuşlarından fərqli olaraq onun nə yaşı böyüdü, nə də boyu. Amma ürəklərdə boy atdı, yaşadı. Tay-tuşlarından uzunömürlü oldu İlqar. Deyirlər ki, sakit təbiətli olan bu uşaq ədəbiyyatı, xüsusən də poeziyanı çox sevirmiş. Kim bilir, yaşasaydı, bəlkə də tanınmış şair, nasir... olacaqdı. Ömrü yetmədi, amma İlqarın adı milyonlardan yox, Vətənin azadlıq aşiqlərindən biri kimi tarixə yazıldı. Qanlı şənbənin qurbanlarından, Şəhidlər xiyabanının əbədi sakinlərindən biri olaraq, o, ən müqəddəs və şərəfli sayılan şəhid adını qazandı. Bir vaxtlar hər gün qapısını açdığı məktəbdə indi 20 Yanvar faciəsinə, İlqarın xatirəsinə həsr olunmuş silsilə tədbirlər keçirilir.

Bu da müqəddəs, ziyarətgah bildiyimiz, görüşünə qəm-qüssə, kədərlə gəldiyimiz Şəhidlər xiyabanı. İlqarın məzarı şair-şəhid, tələbə Ülvi Bünyadzadənin qəbri ilə yanaşıdır.

İlqar o gecə ilk və son dəfə anasını eşitmədi. Balaca bacıları Alla ilə Səbinə də onun arxasınca ağladılar, xeyri olmadı. Anası Katya İlqarın qayıtmayacağına əmin idi. Ona görə də ona soyuq olacağından qorxub, yun köynəyini götürüb küçəyə qaçdı. Amma... gec idi. Onun arxasınca baxa-baxa qaldı: kəlmələri dilində, yun köynəyi isə əlində...

...28 ildir ki, müqəddəs ziyarətgaha çevrilən Şəhidlər xiyabanında yan-yana düzülən, eyni biçimli məzarlarda yatanların hər biri xalqımızın doğması, əzizi kimi anılır, yad edilir, xatırlanır, yaddaşlara yazılır. Amma İlhamla Fərizə kimi, İlqarla Larisanın... məzarları üzərinə əyiləndə bir cüt göz yaşı yanaqlarda süzülür. Axı, elə 13 yaşındaca ömrü daşlaşan bu məktəbli balaların məsum baxışları sinə dağlayır, ona görə hər kəs ağlayır. Larisanın məzarının üstündən oyuncaqlar əskik olmayıb: saralıb-solsalar da...

**Azərbaycan.**-2018.-20 yanvar.-№14.-S.1,4.

**20 Yanvar – xalqımızın azadlıq arzusunun, müstəqillik uğrunda mübarizəsinin yenilməzlik günü**

**Cavanşir Feyziyev,**
Milli Məclisin deputatı, fəlsəfə doktoru

***19-20 yanvarda baş vermiş bu faciə həm Sovet İttifaqının siyasi rəhbərliyinin, şəxsən Qorbaçovun böyük günahının nəticəsidir, onun diktatorluq meyillərindən əmələ gəlmiş bir haldır və eyni zamanda Azərbaycan rəhbərlərinin xalqa xəyanəti və cinayətinin nəticəsidir. Mən belə fikirdəyəm ki, Böyük Vətən müharibəsi qurtarandan sonra Sovetlər İttifaqında, ölkənin daxilində – heç bir yerdə, heç bir regionda bu qədər, bu miqyasda qanlı qırğın olmamışdır.***

***Heydər ƏLİYEV***
***Ümummilli lider***

***1990-cı illərin əvvəllərində – xalqımız üçün ən ağır dövrdə yenə də Heydər Əliyev öz liderlik keyfiyyətlərini göstərmiş, böyük cəsarət, vətənpərvərlik göstərmiş və qanlı 20 Yanvar hadisələrini Sovet İttifaqının mərkəzində, Moskva şəhərində pisləmişdir. Mən o günü yaxşı xatırlayıram. Mən fəxr edirəm ki, o gün atamla birlikdə idim və Heydər Əliyevin o qətiyyətli çıxışı, Vətəninə, xalqına olan bağlılığı bütün Azərbaycan xalqına bir daha göstərdi ki, o, xalqa bağlı olan böyük bir liderdir.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**20 Yanvar yaxın keçmişimizdə yaşamış olduğumuz ən faciəvi günlərdən biri olsa da, xalqımızın yaddaşına həm də qəhrəmanlıq tarixi kimi həkk olundu. Faciənin törədilməsindən keçən illər ərzində bu hadisəni doğuran səbəblərin, onun hüquqi, ictimai-siyasi, psixoloji nəticələrinin araşdırılması, öyrənilməsi və öyrədilməsi artıq ənənəyə çevrilmiş bir sualla müşayiət olunur: 20 Yanvara gedən yol nədən və haradan başlandı? Cavabında isə hadisələrin şahidləri 20 Yanvar ərəfəsindəki son günlərin, eləcə də ayların hadisələrini bir-bir xatırlayır və onların arasında faciəyə yol açan səbəbləri və səhvləri araşdırıb tapmağa çalışırıq.**

Mübahisələr bəzən bir-birimizi qınamağa qədər, hətta günahlandırmağa qədər uzanır. Bir ifratçılıqdan digər yanlışa qədər çarpazlaşan mülahizələr yalnız bir nöqtədə ortaqlaşır: belə sonluğu heç kim gözləmirdi. Bəli, doğrudan da, o zaman çox az adam inana bilərdi ki, dövlət öz vətəndaşına, dinc vətəndaşına belə divan tuta bilər.Yəqin, ona görə ki, biz Xeyirlə Şərin mübarizəsinin nağıllarda olduğu kimi, həmişə Xeyrin qələbəsi ilə bitməsinə inanmaq istəyində olmuşuq. Amma bəzən Şər, qısa müddətə olsa da, üstün gəlir. 20 Yanvar məhz Şərin Xeyiri üstələdiyi qısa bir məqam idi. Bu Şərin gəldiyi yol isə bir aylıq, iki aylıq deyildi.

Bu, çox uzaqdan gələn bir yol idi. Bu yol Cavad xanın meydanda tək qalıb şəhid olduğu vaxtdan başlayırdı; 1813-cü ilin "Gülüstan"ından gəlirdi, 1828-ci ilin "Türkmənçay"ından keçirdi. Nəhayət, bu yolun bizə ən yaxın hissəsi 1920-ci ilin 28 aprelindən başlamışdı; 30-cu illərin qaranlıq dolanbaclarından, 40-cı illərin ağrı-acılarından, 50–60-cı illərin ağır məhrumiyyətlərindən keçib gəlmişdi 20 Yanvara. Bütün bunlar çox uzun və çox üzüntülü bir hekayədir–azadlıqsevər bir məmləkətin, insanpərvər bir millətin, məğrur bir xalqın tale yazısıdır. 20 Yanvar isə bu hekayənin son fəslidir. Bu fəsildə də qarşımıza Şər çıxmışdı.

Növbəti dəfə düşmənlərimizin hiyləsi ilə bizi təhdid edən namərd qonşularımız vətən torpaqlarımıza göz dikmişdilər. Ölkəmizin ərazi bütövlüyünə qarşı yönəldilən məkrli əməllər, riyakar qəsdlər, SSRİ rəhbərliyi tərəfindən açıq-aşkar xalqımıza qarşı yürüdülən düşmənçilik siyasəti artıq imperiya boyunduruğunda yaşamağın daha ağır fəlakətlərə yol aça biləcəyini anlatmaqdaydı. Xüsusən, 1988-ci ilin martında Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi və SSRİ Nazirlər Sovetinin dolayısı ilə Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılmasına yönəlmiş "Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi haqqında" qərarı qəbul etməsi və 1989-cu ilin yanvarında SSRİ Ali Soveti Rəyasət Heyətinin "Dağlıq Qarabağda Xüsusi İdarəetmə Forması yaratmaq haqqında" fərmanı Azərbaycanın ərazi bütövlüyünün pozulmasına qarşı ermənilərin illər uzunu planlı şəkildə hazırladığı və nəhayət icra olunan tədbirlərin birbaşa imperiya rəhbərliyi tərəfindən dəstəkləndiyini göstərirdi.

Bütün bunlarla, eyni zamanda, Ermənistan ərazisində yaşayan azərbaycanlıların öz tarixi torpaqlarından qovularaq çıxarılması və bunu SSRİ rəhbərliyinin "görməməsi" soydaşlarımıza qarşı həyata keçirilən etnik

təmizləmə siyasətinin məhz Kremlin "yardımı və strategiyası" ilə baş tutmasına heç bir şübhə yeri qoymurdu. O zamankı Azərbaycan rəhbərliyinin isə baş verən proseslərə, sanki, heç bir şey olmamış kimi, seyrçi münasibət göstərməsi, özünü "bilməməzliyə" və "eşitməməzliyə" vurması, ümummilli maraqların müdafiəsi yolunda heç bir əməli addımın atmaması xalqın əsəblərini tarıma çəkmiş, onun səbir kasasını doldurmuşdu.

Mübarizə meydanında tək qaldığını görən Azərbaycan xalqının səfərbər olmaqdan başqa çarəsi yox idi. Bütün ümidlər haqsızlığa qarşı tarixən etiraz səsini ucaltmağı bacaran, əzəli yurdunu düşmənlərdən qanı bahasına qorumağa hər zaman hazır olan və monolit gücünü öz milli varlığında hiss edən Azərbaycan xalqına idi. Azərbaycanlılara qarşı məqsədli şəkildə həyata keçirilən bu fitnəkar siyasət öz hüquqları və ərazi bütövlüyü uğrunda meydanlara atılmış həmvətənlərimizin ürəklərində azadlıq yanğısını daha da alovlandırmışdı. Artıq xalq mövcud olduğu bütün müddətdə sovet imperiyasının yürütdüyü repressiv siyasəti öz tarixinə və milli mənliyinə vurulmuş bir ləkə kimi görürdü. Azadlıq eşqi ilə yanan vətən övladları bu ləkəni öz qanları bahasına da olsa yumağa hazır idilər.

O zaman xalqı etiraz səsini ucaltmağa vadar edən çox sayda obyektiv səbəblər mövcud idi. Mərkəzi hökumət tərəfindən milli mənafeyimizə zidd siyasətin yürüdülməsi, bu siyasətin qarşısının alınması üçün ölkə rəhbərliyi tərəfindən heç bir tədbir görülməməsi xalqla hakimiyyət arasında yaranmış uçurumu daha da dərinləşdirməklə kütləvi etiraz dalğasının baş qaldırmasına rəvac vermişdi. Belə bir məqamda insanların haqlı etirazlarını dinləmək, mövcud problemlərin siyasi yolla həll edilməsinə yönəlmiş addımlar atmaq əvəzinə, imperiyanın öz ənənəsinə sadiq qalaraq zora əl atması onun antihumanist təbiətini və ən iyrənc yollarla belə həyata keçirməyə hər an hazır olduğu imperialist siyasətini tam aydınlığı ilə aşkara çıxarmış oldu. Meydanlara öz haqq səsini ucaltmaq, milli heysiyyatını və mənliyini qorumaq əzmi ilə çıxan fədakar vətən övladları bütün gözlənilməzliklərə hazır idilər. Amma hələ də heç kim bu qədər dəhşətli amansızlığı—dövlətin öz vətəndaşına qənim kəsilməsini gözləmirdi. Çünki sovet rəhbərliyinin 70 il bir dam altında yaşadığı dinc bir xalqa qarşı bu qədər qəddarlıq nümayiş etdirəcəyi o zaman ağlasığmaz idi.

Ölməz şairimiz Bəxtiyar Vahabzadənin dediyi kimi: "Axı, heç kəsin ağlına gələ bilməzdi ki, qəlbi Vətən hissi ilə çırpınan, əli silahsız, özü günahsız olan bu atalar, analar, balalar özünü dost kimi, qardaş kimi qələmə verən bir ordunun əlində qətlə yetirilsin".

Lakin inanmaq istədiyimiz xoş sonluqlu ehtimal özünü doğrultmadı. Soyuq 20 Yanvar səhəri açılmağa macal tapmamış bəşər tarixinin insanlığa sığmayan ən faciəvi hadisələrindən biri– Bakı küçələrində dinc nümayişçilərin güllələbaranı baş verdi.

O müdhiş gecənin səhəri Bakının ürəkağrıdan dəhşətli mənzərəsinə işıq saldı. Xalq düşmən tankının tırtılları altında parçalanmış, sinələri düşmən güllələrindən deşik-deşik olmuş övladlarını qan gölündə tapdı. Bu, Azadlığın bərpasına gedən yolda ilk şəhidlərin verildiyi 20 Yanvar səhəri idi. Azərbaycana, nəyin bahasına olursa-olsun, milli mücadiləni boğmaq və yatırtmaq məqsədi ilə yeridilən rus qoşunları Bakıda və respublikanın müxtəlif rayonlarında 131 nəfər mülki şəxsi küçələrdə, evlərində, avtomobillərində, iş yerlərində qətlə yetirdi, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu.

Nə qədər hüznlü və acı olsa da, xalq öz qəhrəman övladlarını son mənzilə yola salmağa özündə güc tapdı. Haqq, azadlıq yolunda şəhidlik zirvəsinə ucalmaq nə qədər şərəfli idisə, düşmən silahının nişangahında Vətən şəhidlərini layiqincə son mənzilə yola salmaq da bir o qədər namus və şərəf məsələsi idi. Xalq sarsılmadı, əyilmədi, qorxmadı. Qanlı faciənin qurbanları azadlığı uğrunda can verdiyi Vətən torpağına yüz minlərin çiyinlərində getdilər və müqəddəs torpaqda əbədiyyətə qovuşdular.

Bu müqəddəs torpaq hələ əsrin əvvəllərində–1918–1920-ci illərdəVətənin azadlığı və ərazi bütövlüyü uğrunda canını qurban vermiş soydaşlarımızı öz qoynuna almışdı. Hələ o zaman xalqın istiqlalı uğrunda şəhid olmuş azadlıq carçılarının dəfn edildiyi Şəhidlər xiyabanı bu dəfə də eyni amal uğrunda mübarizəyə qalxmış qəhrəman oğullarını öz bağrına basdı. O qəhrəman oğulları ki, ucaldıqları məbəddən əbədi və dönməz olan istiqlaliyyət yolumuza hər zaman şəfəq saçırlar.

O günə qədər yəqin heç kimin ağlına gəlməzdi ki, Azərbaycanda bu qədər qərənfil var! Sanki o qərənfillər öz ləçək qanadları ilə şəhidlərin qəbri üstünə sərilməyə uçub gəlmişdi. Şəhidlərin məzarları üzərinə qonmuş milyonlarla qərənfil onların 20 Yanvar gecəsində Vətən torpağına axıdılan al qanını xatırladırdı.

Həmin günün mənzərəsi faciəvi olduğu qədər də möhtəşəmdir. Azadlığımızın bərpası yolunda ilk şəhidlərin verildiyi Qanlı yanvar gecəsi cəsarətin, fədakarlığın, milli məfkurənin dönməz oyanışının əyani təcəssümü idi. Baş verən hadisələr xalqımızın azadlıq arzusunun, müstəqillik idealının 70 il davam edən sovet hərb maşınının repressiyasına rəğmən sönmədiyini, əksinə, yeni güc qazandığını bir daha nümayiş etdirdi.

Bununla, Azərbaycan xalqı zülmə, ədalətsizliyə və zorakılığa boyun əyməyəcəyini, milli iradəsinin sarsılmazlığını təkcə imperiya rəhbərliyinə deyil, bütün dünyaya göstərdi və özünün milli azadlığı uğrunda

mübarizəsinin dönməz olduğuna şübhə yeri qoymadı. Prezident İlham Əliyevin dediyi kimi: "20 Yanvar günü bizim böyük faciəmizdir, ancaq eyni zamanda, Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsidir. Azərbaycan xalqı öz iradəsini göstərdi. O gündən keçən müddət ərzində Azərbaycan, demək olar ki, tamamilə yeni mərhələyə qədəm qoydu. 20 Yanvar faciəsi Azərbaycan xalqının yaddaşından heç vaxt silinməyəcəkdir".

Doğrudan da, qəhrəmanlıqla dolu keçmişi, dövlətçilik ənənəsi olan, böyük bir coğrafiyada dövlətlər yaratmış, zaman-zaman yadellilərə qarşı səfərbər olub birgə mübarizə aparmış, dünya mədəniyyət xəzinəsinə öz dəst-xətti ilə dəyərli töhfələr vermiş bir millət uzun müddət əsarət altında yaşaya bilərdimi? Öz keçmişindən, sanki, qan damarları ilə axıb gələn vətən sevgisi, milli özünüdərk, zülmə, ədalətsizliyə boyun əyməmək kimi hisslər qazanmış bir xalq öz çiyinlərində bu əsarətin ağırlığını, ağrı-acısını çoxmu çəkəcəkdi? İyirminci əsrin əvvəllərində – 100 il əvvəl öz tarixi dövlətçilik ənənələrinə söykənərək Şərqdə ilk demokratik dövlət quran bir xalq qısa zaman kəsiyindən sonra yenidən imperiya caynağına düşməsini uzun müddət necə qəbul edə bilərdi?!

Hər bir xalqın milli birliyinin, iradəsinin və özünüdərkinin hansı dərəcədə olması məhz onun üzləşdiyi ən çətin anlarda mövcud proseslərə və çağırışlara ümumi reaksiyasında özünü göstərir. 28 il əvvəl üzləşdiyimiz belə bir məqamda xalqımızın mübarizlik əzminin təzahürü, təzyiqlərə boyun əyməyən əzmkar iradə nümayiş etdirməsi tariximizə Qanlı yanvar adlı yeni bir mübarizə səhifəsi yazdı.

20 Yanvar faciəsi, sözün əsl mənasında, xalqımızın milli özünüdərkində yeni bir mərhələnin başlanğıcı oldu. Xalq öz qərarını verdi: "Yolumuz azadlıqdır!"

Siyasi və iqtisadi böhranlar məngənəsində boğulan və boğulduqca daha da azğınlaşan, 70 il özünə bayraq etdiyi kommunizm ideyalarının iflası artıq heç kimdə şübhə doğurmayan və dayaqları silkələnməyə başlayan Sovet imperiyası bu hadisəni törətməklə nəyə nail olmaq istəyirdi? Tarixin səhnəsindən birdəfəlik silinmək ərəfəsində imperiyanın ucqar bir ölkəsində əvvəlcədən qurulmuş plan əsasıında dinc nümayişçilərin güllələbaran edilməsinə qərar verənlər nəyə ümid edirdilər?

Az sonra imperiya çökəndə aydın olacaqdı ki, bu qərarı verənlərin və bu faciəni törədənlərin özlərinin də bu suallara cavabları yox imiş. Baş verənlər isə Azərbaycan xalqının milli mübarizə əzmini və iradəsini sındıra bilmədi. Əksinə, 20 Yanvar hadisəsi öz qanunauyğun məntiqi və zəncirvari təsiri ilə bütün imperiya ərazisində milli azadlıq hərəkatlarının yenidən daha böyük vüsətlə alovlanmasına və Sovet İttifaqının süqutunun daha da sürətlənməsinə rəvac verdi. Bu hadisə Sovet imperiyası üçün "sonun başlanğıcı" oldu. Bu faciənin baş verməsinə qədər ölkədə mövcud problemlərin, baş qaldırmış etirazların siyasi yolla həll olunacağına ümidlər hələ də qalmaqda idi.

Lakin bir insanın yaşaya biləcəyi orta ömür qədər yaşamış imperiya özü ilə həmyaşıd olan "sovet nəsli"nin böyüklü-kiçikli hamısına atəş açmaqla, bu ümidləri tamamilə al-üst etdi. O zamana qədər hələ də Azərbaycanın müstəqilliyinə müəyyən qədər ümidsiz yanaşanlar da bu hadisənin baş verməsi ilə artıq imperiya boyunduruğunda yaşamağın qeyri-mümkünlüyünü dərk etdilər və milli azadlıq hərəkatının fəal iştirakçılarına çevrildilər.

Bu faciəvi olay onilliklər ərzində insanlara sırınan "humanist" əsaslı kommunizm ideologiyasının puçluğunu sübut etdi və məhz bu hadisədən sonra kommunist partiyasından kütləvi istefalar, cəmiyyətin bütün təbəqələri tərəfindən müxtəlif formalarda ifadə olunan etirazlar ittifaqın hər yerini bürüdü və onun dayaqlarını sarsıtdı. Həmin ərəfədə SSRİ-nin bir çox respublikalarında mərkəz əleyhinə etirazlar baş qaldırmışdı. Gürcüstan və Baltikyanı ölkələrdə də sovet qoşun hissələri dinc nümayişçilərin üstünə silah qaldırmışdı. Lakin Azərbaycanda baş qaldıran etirazlara qarşı törədilmiş 20 Yanvar hadisəsi öz qəddarlığı, misli görünməmiş vəhşiliyi və dağıdıcı miqyası ilə əvvəlki olaylardan çox fərqlənirdi.

Xüsusi qəddarlıqla müşayiət olunan kütləvi qətliam aktının həyata keçirildiyi müddətdə SSRİ müdafiə naziri Dmitri Yazovun, daxili işlər naziri Vadim Bakatinin və digər yüksək rütbəli hərbçilərin Bakıda olması bu qanlı cinayət əməlinin əvvəlcədən planlaşdırılmış olduğunu göstərirdi. İmperiyanın hərbi qoşun hissələrinin fövqəladə vəziyyət elan edilmədən Bakıya yeridilməsi həm ölkə qanunvericiliyinin, həm də beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması demək idi. "Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında" SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı yalnız qanlı cinayət hadisəsi törədildikdən sonra elan edilmişdi.

Görünür, imperiya rəhbərliyinin xalqımıza qarşı qəzəb hissi o qədər güclü və hərbi təcavüz həyata keçirmək niyyəti o qədər qəti idi ki, törətdiyi qeyri-insanlıq aktına əvvəlcədən "hüquqi don" geyindirməyə belə ehtiyac duymamışdı. Baş verəcək hadisələrin və faciənin miqyası barədə məlumatların geniş xalq kütləsinə çatdırılmasının qarşısını almaq məqsədi ilə Azərbaycan Televiziyasının enerji blokunun partladılması da qanlı cinayət əməlinin əvvəlcədən müəyyən edilmiş plan əsasında həyata keçirildiyini bir daha göstərir. Bununla

respublika televiziyası və radiosunun verilişləri tamamilə kəsilmiş və bütün ölkə ərazisində informasiyasızlıq mühiti yaradılmışdı.

Ancaq həmişə millətləri qaranlıqda və məlumatsızlıqda idarə etməyə alışmış düşmənlərimiz bilmirdilər ki, bu zaman insanların səsini bir-birinə çatdıran, o səsləri xalqın səsinə çevirən yenilməz bir qüvvə vardı. Bu millətin canındakı azadlıq sevgisi idi! Bu sevgini boğmağa isə heç bir yumruğun gücü çatmayacaqdı!.. İmperiyanın zor gücünə söykənmiş siyasəti ilə Azərbaycan xalqının məğrurluğu və qırılmaz iradəsi qarşılaşarkən, hansı tərəfin məğlubiyyətə düçar olacağı əvvəlcədən aydın idi. Sadəcə, Mixail Qorbaçov və onun ətrafındakı cinayətkarlar bunu anlaya bilməzdilər.

Yarandığı gündən etibarən, xalqımıza qarşı qərəzli siyasət yürüdən sovet imperiyası belə bir qəddarlıq aktı ilə özünün düşmənçilik "ənənəsindən" əl çəkmədiyini bir daha göstərdi. M. Qorbaçov başda olmaqla, ittifaqın bütün vəzifəli şəxslərinin ciddi heç nə olmamış kimi davranmaları, törətdikləri qanlı cinayəti ört-basdır etmək cəhdləri Azərbaycan xalqına qarşı olan qərəzin və nifrətin açıq təzahürü idi. Azərbaycan SSR rəhbərliyinin qanlı olay barədə bəyanat belə verməməsi, belə bir çətin anda xalqın dərdinə şərik çıxmaması xüsusilə təəssüf doğuran məqam idi.

20 Yanvar faciəsinin 10-cu ildönümü haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanında dyildiyi kimi: "Xalqın tələbi və bir qrup deputatın təşəbbüsü ilə Azərbaycan SSR Ali Sovetinin 1990-cı il yanvarın 22-də Yanvar faciəsi ilə bağlı çağırılmış sessiyasına respublikanın bir sıra siyasi və dövlət rəhbərlərinin gəlməməsi isə onların xalqın taleyinə biganə qaldıqlarını, törədilmiş cinayətdə bu və ya digər dərəcədə iştirak etdiklərini bir daha təsdiq etmişdir. Respublika rəhbərliyi hətta şəhidlərin dəfn mərasiminə gəlməyi belə lazım bilməmişdi. Bu fakt bir daha hakimiyyətlə xalq arasında o zaman dərin uçurumun yarandığını və hakimiyyətdə təmsil olunan şəxslərin xalqın iradəsini ifadə etmək iqtidarında olmadığını göstərirdi.

Qanlı yanvar faciəsindən sonra bu hadisəyə verilən reaksiyalar və ya ümumiyyətlə, hadisəyə münasibət bildirilməməsi kimin kim olduğunu və kimin hansı məqsədə xidmət etdiyini tam aydınlığı ilə göstərdi. Xalqın taleyüklü bir anında ümummilli lider Heydər Əliyevin ən faciəvi günlərindən birini yaşayan Azərbaycanın xalqının acısına şərik çıxması onun öz xalqına olan sonsuz məhəbbətinin ifadəsi idi. Xalqımızın qeyrətli oğlu Heydər Əliyev faciədən xəbər tutan kimi Azərbaycana göndərdiyi hüzn dolu başsağlığında bildirmişdi: "Bakı şəhərinə sovet ordusu hissələrinin yeridilməsi ilə əlaqədar xalqımızın başına gəlmiş faciədən--dinc əhalinin qırılmasından böyük ürək ağrısı ilə xəbər tutdum. Bu matəm günündə həlak olanların ailələrinə və yaxınlarına, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm. Mən bu düşünülmüş aksiyanı pisləyir, onu antihumanist, antidemokratik, qanunazidd hesab edirəm. Bu ağır gündə sizi ağıllı-kamallı olmağa, həmrəyliyə və birliyə çağırıram".

Sovet qoşunlarının Bakıda törətdiyi qanlı hadisə ilə bağlı elə ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək öz xalqına başsağlığı diləyən Heydər Əliyev xüsusi qəddarlıqla törədilmiş cinayətin təşkilatçılarını və icraçılarını cəsarətlə ittiham etdi və onların cəzalandırılmasını tələb etdi. Bu qanlı faciənin önlənə bilməsi üçün bütün imkanların mövcud olduğu bir şəraitdə belə bir qeyri-insani hadisənin törədilməsini kökündən yanlış addım kimi qiymətləndirən Heydər Əliyev bu cür yollarla Azərbaycan xalqının iradəsini qırmağın mümkün olmadığını və olmayacağını açıq şəkildə bəyan etdi: "Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm... Hesab edirəm ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur. Təəssüf ki, Azərbaycan rəhbərliyi, həmçinin ölkənin ali siyasi rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir".

Bütün təhlükələrə baxmayaraq, xalqımıza qarşı törədilmiş qanlı faciənin əsl səbəbkarlarının elə həmin gün imperiyanın mərkəzindən bütün dünyaya bəyan edilməsi –xalqımızın üzləşdiyi ən çətin məqamlarda ulu öndər Heydər Əliyevin ümummilli mövqedən çıxış etmək cəsarətini, onun təkcə xalqın qələbələrinin deyil, həm də dərdinin önündə dayandığını bir daha sübut etdi.

Cinayətin törədildiyi vaxtdan keçən bir neçə illər ərzində 20 Yanvar hadisələrinə lazımi siyasi-hüquqi qiymətin verilməməsi də vacib məsələlərdən biri idi. Mövcudluğunun mahiyyətində zorakılıq və hegemonluq daşıyan imperiyanın onun rəhbərliyi tərəfindən verilən göstəriş əsasında baş vermiş bəşəri cinayətə hüquqi qiymət verə biləcək qədər səmimiyyətə və iradəyə malik olmadığı əvvəlcədən məlum idi. Ona görə də 1990-cı ilin dekabrında SSRİ Baş Hərbi Prokurorluğunun hərbi qulluqçuların 20 Yanvarda Bakıda baş vermiş hadisələrlə bağlı əməllərində cinayət tərkibi görməyərək işə xitam verməsi heç kimi təəccübləndirməmişdi. Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin faciəli olayların araşdırılması ilə bağlı yaratdığı istintaq komissiyasının fəaliyyətinin heç bir nəticə və heç bir əsas olmadan dayandırılması isə

təəccüb doğurmaya bilməzdi. Bu Azərbaycanın o zamankı rəhbərliyinin baş vermiş qanlı faciəyə siyasi-hüquqi qiymət verə bilmək iqtidarında olmadığını nümayiş etdirirdi.

Təəssüf ki, daha sonra 1992-ci ilin 19 yanvarında qəbul edilmiş "1990-cı il yanvarın 19--20-də Bakı şəhərinə qoşunların yeridilməsi ilə əlaqədar faciəli hadisələrin təfsilatının və səbəblərinin təhqiqi üzrə Azərbaycan Respublikası Ali Soveti komissiyasının işinin yekunlarına dair" Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurasının Qərarında da ölkənin ali qanunverici orqanının qeyd olunan komissiyanın fəaliyyətinin qənaətbəxş olması ilə kifayətlənməsi, qanlı hadisənin sifarişçiləri və icraçılarının göstərilməməsi Azərbaycan xalqına qarşı törədilmiş ən ağır cinayətlərdən biri olan 20 Yanvar faciəsinin ciddiyyətinə və əhəmiyyətinə görə qiymət verilmədiyini bir daha təsdiqlədi.

Ümummilli lider Heydər Əliyev 20 Yanvar faciəsinə siyasi qiymət verilməsi ilə bağlı ilk addımları Naxcıvanda atmışdır. Vətənə dönəndən sonra ilk üz tutduğu yer Şəhidlər xiyabanı olan ulu öndər Naxçıvan Muxtar Respublikası Ali Məclisində aparılan müzakirə zamanı qətiyyətlə demişdi: "19--20 yanvar 1990-cı il hadisələri, Bakıda baş vermiş hadisələr faciəvi hadisədir və mən belə hesab edirəm ki, Azərbaycanın 1920-ci ildən sonrakı tarixində belə faciəvi hadisə olmamışdır... 19--20 yanvarda baş vermiş bu faciə həm Sovet İttifaqının siyasi rəhbərliyinin, şəxsən Qorbaçovun böyük günahının nəticəsidir, onun diktatorluq meyillərindən əmələ gəlmiş bir haldır və eyni zamanda Azərbaycan rəhbərlərinin xalqa xəyanəti və cinayətinin nəticəsidir. Mən belə fikirdəyəm ki, Böyük Vətən müharibəsi qurtarandan sonra Sovetlər İttifaqında, ölkənin daxilində--heç bir yerdə, heç bir regionda bu qədər, bu miqyasda qanlı qırğın olmamışdır".

20 Yanvar hadisələrinin təkcə xalqımıza deyil, bütün insanlığa qarşı cinayət olduğunu sübut etmək, faciə qurbanlarının hüquqlarının müdafiəsini təmin etmək, axıdılmış günahsız qanların baiskarlarının cəzalandırılması üçün siyasi, hüquqi zəmin formalaşdırmaq olduqca önəmli məsələ idi. Məhz buna görə Prezident Heydər Əliyevin "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" 5 yanvar 1994-cü il tarixli fərmanında Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası tərəfindən 1992-ci ildə qəbul olunmuş müvafiq qərarda Qanlı yanvar hadisələrinin əsl səbəblərinin açıqlanmadığı və həqiqi günahkarların aşkar edilmədiyi nəzərə çatdırıldı və Azərbaycan Respublikasının Milli Məclisinə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməsi və bu məqsədlə Milli Məclisin xüsusi sessiyasının keçirilməsi tövsiyə edildi.

Beləliklə, 1994-cü ilin martında Azərbaycan Respublikasının Milli Məclisi 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilməsi haqqında xüsusi qərar qəbul etdi. Bu qərarın qəbul edilməsinin əhəmiyyəti ondan ibarət idi ki, haqq və ədalətin müdafiəsi naminə küçələrə çıxmış silahsız adamların qəddarcasına qətlə yetirilməsi hərbi təcavüz və hərbi cinayət kimi qiymətləndirildi, qanlı faciənin sifarişçiləri və icraçıları açıq şəkildə bəyan edildi və bu cinayətin istintaqını həyata keçirən hüquq-mühafizə orqanlarının fəaliyyətinin qənaətbəxş olmadığı bildirildi. Bununla da, nəhayət ki, qanlı faciəyə dövlət səviyyəsində münasibət bildirilməsi təmin edildi.

20 Yanvar faciəsinin törədilməsindən Moskvada ali sovet rəhbərliyində istefa vermiş atası Heydər Əliyevlə bir yerdə, eyni vaxtda xəbər tutmuş Azərbaycanın indiki Prezidenti İlham Əliyev bu qanlı qətliamla bağlı həmişə öz müdrik müəllimi, siyasi sələfi ilə eyni fikirdə və mövqedə olmuşdur: "1990-cı illərin əvvəllərində-- xalqımız üçün ən ağır dövrdə yenə də Heydər Əliyev öz liderlik keyfiyyətlərini göstərmiş, böyük cəsarət, vətənpərvərlik göstərmiş və qanlı 20 Yanvar hadisələrini Sovet İttifaqının mərkəzində, Moskva şəhərində pisləmişdir. Mən o günü yaxşı xatırlayıram. Mən fəxr edirəm ki, o gün atamla birlikdə idim və Heydər Əliyevin o qətiyyətli çıxışı, Vətəninə, xalqına olan bağlılığı bütün Azərbaycan xalqına bir daha göstərdi ki, o, xalqa bağlı olan böyük bir liderdir".

Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin ideya və əməllərini davam etdirdiyi son 15 ildə öz sələfinin 20 Yanvarla bağlı prinsipial mövqeyinə də sadiq qalmış, faciə qurbanlarının xatirəsinin əziz tutulması, şəhid ailələrinə və qırğında əlil olanlara dövlət qayğısı göstərilməsi ilə əlaqədar bütün zəruri tədbirləri yüksək səviyyədə gerçəkləşdirmişdir. Dövlət başçısının 20 Yanvar faciəsi barədə söylədiyi öyünclü mülahizə bu qanlı hadisənin əsl mahiyyətini və tarixdəki yerini çox dəqiq ifadə edir: "20 Yanvar günü bizim böyük faciəmizdir, ancaq eyni zamanda, Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsidir. Azərbaycan xalqı öz iradəsini göstərdi. O gündən keçən müddət ərzində Azərbaycan, demək olar ki, tamamilə yeni mərhələyə qədəm qoydu".

Faciədən 28 il keçir."Əbədi, dönməz və sarsılmaz" müstəqilliyimizin işığında yaşayan xalq hər il yanvarın 20-də Şəhidlər xiyabanına üz tutur, azadlığımızın qandallarını sındırmış şəhidlərimizi ehtiramla yad edir. Şəhidlər xiyabanını ziyarətə gələn yüz minlərlə həmvətənimiz azadlığımız uğrunda şəhid olmuş soydaşlarımızın məzarı qarşısında baş əyərək onların xatirəsini əziz tutur.

Prezident İlham Əliyevin Şəhidlər xiyabanını ziyarət edərkən vurğuladığı kimi: "Azərbaycan xalqı bu günü heç vaxt yaddan çıxarmayacaq. Azadlıq, müstəqillik uğrunda, vətən uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil,

qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxarılmamalıdır."

Bəli, nə qədər ki, xalqımız yaşayacaq, nə qədər ki, müstəqil Azərbaycan var olacaq--şəhidlər heç zaman unudulmayacaq. Onlar xalqın azadlığı yolunda canlarından da keçməyə hazır olduqlarını göstərdilər və bu yolla getdilər. Ölümə gedən yollar onları ölməzliyə--əbədiyyətə, xalqımızı isə əbədi azadlığa qovuşdurdu. Şəhidlərin yarımçıq qırılmış ömürləri canlarını qurban verdikləri amallarda və əməllərdə davam edir.

**Xalq qəzeti.-**2018.-20 yanvar.-№14.-S.1,3.

**Mixail Qorbaçovun gecikmiş və yarımçıq etirafı onun qanlı cinayətlərini yuya bilməz**

**Tahir Aydınoğlu**

***1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə o vaxtkı sovet rəhbərliyinin ali vəzifə borcuna və adi insanlıq xislətinə zidd olaraq, bütün qoşun növlərini səfərbər etməklə, güc nazirlərinin bilavasitə iştirakı ilə ittifaq dövlətinin müttəfiq bir subyekti olan Azərbaycan SSR-in paytaxtına irimiqyaslı hücum təşkil etməsi, çox sayda dinc insanın qətlə yetirilməsi və yaralanması xalqımızı uşaqdan-böyüyə, qadından-qocaya hamını ayağa qaldırdı, niftət və qəzəb adlı nəhəng bir tonqalı alovlandırdı.***

Törədilmiş vəhşiliyin qanlı görüntüləri, xəyanətkar izləri milyonlarla insanı yüksək bir cərəyan kimi silkələyib eyni məcraya yönəltdi. Yumruq halına gəlmiş xalqımız heç bir hərbi gücün ram edə bilməyəcəyi qüdrətli bir sipərə döndü. Şəhərə yeridilmiş zəhmli bir güc--gecə yatmış şəhərin başında fırtına qoparmış müasir hərbi texnikanın və mərkəzi obyektlərə sıx-sıx yerləşdirilmiş qoşun bölüklərinin özü səhərin açılması ilə güclü bir qasırğanın qoynuna düşüb acizləşdi.

Gecənin qana bələdiyi şəhərin yaralarına gur işıq salan o qırğın səhəri vətəndaşı olduğu dövlətdən xəyanət və qəddarlıq görmüş xalqımız gur axınlarla Mərkəzi Komitə deyilən respublikanın baş qərargahına tərəf axışıb, gecəni burada keçirmiş, qorxub-çəkinmədən yerində dayanaraq zirehli texnikanın əhatəsində qalmış dinc, əliyalın soydaşlarımıza qoşulmağa can atırdı. Qəzəblənmiş insan seli çox keçmədi ki, zirehli texnikadan “hörülmüş” dəmir hasarı uçuraraq, sanki, alov püskürən böyük bir vulkana döndü.

Çox keçmədi ki, yurdsevər rəssamlarımız Mərkəzi Komitənin qarşısında uzanan hündür divarı iri bir pannoya çevirib, qanlı “Bakı zəfəri”nin bədnam müəllifi, sovet rəhbəri Mixail Qorbaçovun böyük bir karikaturasını oraya rəsm etdilər. Nəhəng təsvirdə Qorbaçovun əlindəki baltadan qan süzülürdü. Rəsmin altında rusca, “Qorbaçov insan qəssabıdır” anlamı verən sözlər yazılmışdı.

Heç şübhəsiz, o anlarda və saatlarda Bakıda baş verənləri nəfəs dərmədən izləyən Kreml ağasına şəhərdəki digər önəmli təfərrüatlarla yanaşı, bu karikatura barədə də bilgi çatdırılmışdı. Lakin yanvarın 22-də şəhidlərin dəfnindən sonra - xalqın mübarizəsi 40 günlük dinc etirazlar məcrasına dönənədək bu karikaturanı heç bir qüvvə həmin yerdən yox edə bilmədi. Bu karikaturanı tirajlayan fotolarsa bütün dünyaya yayılaraq insan qəssabına çevrilmiş Qorbaçovu şiddətli bir hiddət və nifrətlə üz-üzə qoydu.

O saatlarda və günlərdə Qorbaçovun öz qanlı əməli barədə nə düşündüyünü söyləmək çətindir. Amma illər keçəndən sonra sonuncu sovet tiranı “Həyat və islahatlar” adı ilə çap olunmuş xatirələrində, yüngül də olsa, özünü suçlu bilib. O dövrü yada salan insan qəssabı səmimi, ya qeyri-səmimi yazıb: “1990-cı ilin yanvarında çoxlu sayda bakılının həyatı yarımçıq qaldı. Bu ağırdır, çox ağırdır”. Bəs o vaxt bunu düşünmək olmazdımı? Əlbəttə, olardı, lakin ətrafını sarmaşıq kimi bürümüş erməni-daşnak güruhunun yaratdığı sədd bu həqiqəti görməyə imkan verməmişdi.

İllər sonra “əsas günahı” Qarabağ hadisələrində görən Qorbaçov, görəsən, “Qarabağ cinini” şüşədən çıxaranda nə düşünmüşdü? Bəlkə, elə bilmişdi ki, dünyanın ən gözəl bir məkanını min illər boyu öz qanı-canı ilə qoruyub Vətən eləmiş Azərbaycan xalqı onun xatirinə Qarabağı siniyə qoyub özgə torpaqlarına təşnə olan ermənilərə peşkəş edəcək?! Axı o aylarda və illərdə, elə həmin gecə də Azərbaycan xalqı ona görə ayağa qalxmışdı ki, Qorbaçovun özünə anlatsın: “Torpaqdan pay olmaz!”, “Həddini aşmış erməniləri yerində oturdun!” O gecə ermənilərə güzəştə getməməyin heyfini azərbaycanlılardan alan bədnam “Baş katib”in illər sonrakı əsassız bəhanəsi, əlbəttə, Bakıda “yarımçıq qırılmış ömürləri” bitişdirməyə qadir deyil.

Daha sonra “90-cı ilin yanvarından dərs götürülübmü? Şübhə edirəm: bunun sübutu erməni-azərbaycanlı müharibəsidir” - deyən Qorbaçov bu müharibəyə özünün bais olduğunu unutdurmaqmı istəyir? Bu qanlı hadisələrdən yaxasını kənara çəkməyə can atan M.Qorbaçov sovet qoşunlarının Bakıya hərbi müdaxiləsinə “fövqəladə şəraitin” məcbur etdiyini yazıb: “1990-cı ilin yanvarında fövqəladə şərait bizi fövqəladə vəziyyətin elan edilməsinə məcbur etdi. Bu addım daha çox qan axıdılmasının qarşısını almaq üçün atıldı”--deyə eks-prezident vicdanı ağrımadan yazıb.

20 Yanvar qırğınının səhərisi gün Moskvada Azərbaycan nümayəndəliyinə gələn xalqımızın qeyrətli oğlu Heydər Əliyev görün vəziyyəti vaxtında nizama salmağın mümkünlüyünü necə aydın göstərib: “Artıq iki ildir ki, Azərbaycan və Ermənistan arasında millətlərarası münaqişə gedir. Həmin münaqişəni Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr törətmişdir. Azərbaycan və Ermənistan, eləcə də, ölkənin ali siyasi partiya rəhbərlərinə bu məsələni tənzimləmək, daxili müharibəyə, millətlərarası münaqişəyə son qoymaq və milli

mənsubiyyətindən asılı olmayaraq hər bir adamın ümumi federativ ittifaq olan SSRİ-də azad yaşamasına şərait yaratmaq üçün iki illik müddət kifayət idi. Hesab edirəm ki, ötən iki ildə bu istiqamətdə lazımi səviyyədə iş aparılmamışdır. Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı".

M.Qorbaçov Bakıya qoşun yeridilməsinin bir səbəbini də "Azərbaycanda hakimiyyətin parçalanmasında" görüb. Axı bu parçalanmanı da o özü yaratmışdı. Onun naşı, gerçək toqquşmalara aparan hökmlərini yerinə yetirən Azərbaycan rəhbərliyi bu mütiliyi ilə öz xalqının gözündən düşmüşdü. Qorbaçov da öz xalqının maraqlarından heç vaxt bir addım geri çəkilməyən dünya şöhrətli dövlət xadimi Heydər Əliyevi məhz onun məkrli niyyətlərinə qarşı olduğuna görə böyük siyasətdən uzaqlaşdırmışdı.

Daha sonra yeni qondarma arqumentlərə üz tutan M.Qorbaçov bildirib: "13 yanvarda Bakıda xuliqan elementlər insan itkisi ilə müşayiət olunan kütləvi iğtişaş törədiblər". Axı sovet diktatoru niyə yada salmır ki, bu iğtişaşlar onun sonrakı planlarını həyata keçirmək üçün məqsədli şəkildə törədilmişdi. Əgər o dinclik yaradan idisə niyə bu fitnəkarlığın qarşısını vaxtında almaq əvəzinə, bütöv bir xalqın üstünə qoşun yeridirdi? Əgər o, günahsız insanları qorumaq istəyirdisə niyə Ermənistandan 200 min azərbaycanlı qarət və təhqir olunub qovulanda özünü görməzliyə vurmuşdu?

Keçmiş SSRİ prezidenti ardınca yazıb: "Mən Prezident Şurasının üzvü Primakovu və Sov.İKP Mərkəzi Komitəsi adından Aleksandr Girenkonu Bakıya göndərdim. Onlar mənə zəng vurub bildirdilər ki, Azərbaycanda vəziyyət nəzarətdən çıxıb. 18 rayonda hakimiyyət orqanlarının fəaliyyəti dayandırılıb və İranla 200 km sərhəd sökülüb". Yenə yalan və riyakarlıq. Axı sərhədlər rus sərhədçilərinin gözü qarşısında və onların iştirakı ilə sökülmüşdü. Qorbaçova da bu lazım idi ki, bəhanə gətirib "dikbaş", "sözəbaxmayan" azərbaycanlılara qanlı divan tutsun.

"20 yanvar mənə dərs oldu" - yazan Qorbaçov 20 Yanvar qırğınının məsuliyyətini dolayısı yolla olsa da, etiraf edib: "Bu faciəli hadisədən dərs götürdüm. Hakimiyyət ekstremal situasiyada güc tətbiqindən imtina edə bilməz. Ancaq bu aksiya mütləq olaraq əsaslandırılmalı və çox sərt tədbirlərlə bağlı addım məhdudlaşdırılmalıdır. Problemin həlli yalnız siyasi yolla tapılmalıdır".

Bunu dərk etmək üçün illər lazım idimi? Belə sərt tədbirlərə ehtiyac olmadığını, qarşıdurmanı aradan qaldırmağı və vəziyyətin nizama salınmasını dinc üsullarla da həyata keçirməyin mümkünlüyünü Qorbaçovun özünə siyasi rəqib seçdiyi Heydər Əliyev Azərbaycan nümayəndəliyindəki bəyanatında qətiyyətlə söyləmişdi: "Hesab edirəm ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur. Təəssüf ki, Azərbaycan rəhbərliyi, həmçinin ölkənin ali siyasi rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir. Sərhədlərə edilən təcavüzü vaxtında aradan qaldırmaq mümkün idi. Axı üç ay əvvəl sərhəd zolağı ilə bağlı camaat öz tələblərini irəli sürmüşdü. Fəqət heç kəs onlarla görüşmək, izahat işi aparmaq və lazımi ölçü götürmək istəməmişdir. Təkrar edirəm: camaatı sakitləşdirmək üçün də imkanlar tükənməmişdi."

Həmin bəyanatda ulu öndərin söylədikləri Qorbaçovun, xala-xətrin qalmasın, etirafının qeyri-səmimiliyini qəti surətdə ortaya qoyur: "Bütün vəziyyətlərdə hesab edirəm ki, məsələni siyasi cəhətdən tənzimləmək, xalqla mükaliməyə girmək üçün əlverişli imkanlar olmuşdur. Lakin onlardan səmərəli istifadə edilməmişdir. Nəhayət, 19-dan 20-nə keçən gecə sovet ordusunun, SSRİ DİN-in böyük kontingenti Bakı şəhərinə yeridilmişdir. Nəticəsi isə göz qabağındadır. Bunun törətdiyi faciələr hamımıza məlumdur. Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Bəli, kobud siyasi səhv buraxılmışdır. Bütün bunlar qabaqcadan nəzərə alınmalı və vaxtında vacib, zəruri tədbirlər qəbul edilməli idi. Ordu yeridilmiş, günahsız adamlar həlak olmuşlar".

Azərbaycan xalqının həqiqi lideri həmin bəyanatında Qorbaçovun gələcək qənaətini, azı, 20 il qabaqlamışdı: "Zənnimcə, ölkənin ali siyasi rəhbərliyinə vəziyyət barədə vaxtında kifayət qədər düzgün, dəqiq, obyektiv informasiyalar çatdırılmamışdır. Rəhbərlik çaşqınlığa salındığından belə qərar qəbul etmişdir". Ulu öndər öz yekun qənaətini isə belə ifadə etmişdi: "Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır".

Böyük siyasət və dövlət xadimi Heydər Əliyev az sonra Vətənə dönəndə Mixail Qorbaçovun 20 Yanvarla bağlı cinayətinə belə qiymət vermişdi: "Azərbaycan Respublikasının ali hakimiyyət orqanından tələb etməliyik ki, qısa müddətdə, yaxud heç olmasa növbəti sessiyada bu məsələ müzakirə olunsun. Yanvar hadisələrinə siyasi qiymət verilsin və bu hadisənin günahkarları - kim olursa-olsun, Qorbaçovdan tutmuş aşağı respublika rəhbərlərinə kimi, keçmiş, ya indiki - fərqi yoxdur, bu, xalqa qarşı cinayətdir, - cəzalandırılsın. Bir nəfəri öldürənə qanunlara görə ən yüksək cəza verirlər. Ancaq burada gör nə qədər adam həlak olubdur - bir nəfər

günahkar meydana çıxmayıbdır. Bu qədər qanunsuzluğa, demokratiyanın bu qədər pozulmasına dözmək olmaz. Ona görə bu məsələyə biz özümüz siyasi qiymət verməliyik, respublikanın Ali hakimiyyət orqanından tələb etməliyik ki, buna baxsın və günahkarlar cəzalandırılsın".

Sonda bildirək ki, illər sonra eks-prezident kimi Türkiyəyə səfər edən M. Qorbaçov "20 Yanvar qırğınını həyatının ən böyük səhvi" adlandırmışdı. Lakin bu etiraf da onun bəşəri cinayətini yuyub təmizləmir, qanlı lənət damğasını bioqrafiyasından silmir.

**Xalq qəzeti.-**2018.-20 yanvar.-№14.-S.2.

## Şəhidlər xiyabanında düşüncələr

**Zərifə Hüseynova**

***20 Yanvar günü bizim böyük faciəmizdir, ancaq eyni zamanda, Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsidir. Azərbaycan xalqı öz iradəsini göstərdi. O gündən keçən müddət ərzində Azərbaycan, demək olar ki, tamamilə yeni mərhələyə qədəm qoydu... 20 Yanvar faciəsi Azərbaycan xalqının yaddaşından heç vaxt silinməyəcəkdir.***

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

– Sən kimsən? Adın nə?

– ...

– Adsız insanmı olar? Təkcə insanın yox, hər şeyin adı var. Bax, bura Şəhidlər xiyabanıdır, bu, qəbir daşlarıdır, bu, şam ağaclarıdır... Görürsən, hər şeyin adı var. Bəs sənin?

– ...

– Kimin- kimsən varmı? Haralısan? Düzdür, burada yatanların hamısı Azərbaycan övladıdır, amma insanın doğulduğu yurdu var axı...

– ...

– Bəlkə sevdiyin vardı? Gör, nə soruşuram? Olsaydı, çoxdan axtarardı, səndən xəbər tutardı, bilərdi ki, bu yerin üstündə, göyün altında yoxsan...

...Haqqında məlumata baxıram. Əynində yun köynək, cins şalvar... Bu soyuqda çölə belə çıxardılarmı? Gödəkcə yox, palto yox, heç pencək də yox! Nəydi səni gecənin bir aləmində bayıra səsləyən? Dostunmu, qardaşınmı, həmkarın, qohumunmu?

Yooox! Səni ora çəkən özünün hələ aydın dərk eləmədiyin kişilik, mənəmlik, mən də varamlıq cəsarəti idi. Neçə gündən, aydan bəri qarışıqlıq yaşayan şəhərin üstünü alan qara buludların göz yaşları idi. Ertədən xəbər gəzirdi axı, "sovet qoşunları gəlir, tanklarla". Gələn kim idi? ...Məlum deyildi...

Əliyalın sən və sənlər neyləyə bilərdi?... Gücünüz nəyə çatardı? Əl-ələ verib tankın qabağını kəsməyə, eləmi? Güman edirdiniz ki, "böyük qardaş" dayanacaq, şəhərə girməyəcək, üstünüzə gəlməyəcək. Qürurunuz sizi geri çəkilməyə qoymadı. Bir-birinizə baxıb cəsarətlənmişdiniz. İçinizdəki Azadlıq, Müstəqillik, Vətən sevgisi hər şeyi unutdurmuşdu.

"Azadlıq! Müstəqillik!" deyə hayqıran gənclərin səsini kim eşidəcəkdi?

Əfsuslar olsun ki, düşündüyünüz olmadı, "böyük qardaş" dayanmadı,...

Gücünüz qan verməyə, can fəda etməyə çatdı.

Bundan əvvəl Gürcüstanda –Tbilisidə, Litvada – Vilnüsdə olanları unutmuşdunuzmu? Bilmirdinizmi ki, mənfur rejim müstəqillik, azadlıq arzulayanların istəyini elə beşiyindəcə boğur.

...O gecə atəş səslərindən qulaq tutulurdu. Güllələr səmada şütüyürdü, səs- küydən ağız deyəni qulaq eşitmirdi. "Ay oğul, ay bala!" harayları gecəni qoynuna almışdı. Maşınların siqnal səsi, insanların ah-ufu, "ay ana!" kəlmələri göyə yüksəlmişdi.

...Şəhər səhəri dirigözlü açdı. Tanınmaz hala düşən şəhər. Bu insanlar haradan vaxt tapıb, gül tapıb asfaltın qana boyanan yerlərini qərənfillərlə "dəfn" eləmişdilər? Şəhərin mikrorayon tərəfdən girişi güllərlə haləyə alınmışdı. Qadınlar ağı deyirdilər. Heç bilmirdilər, tökülən qan kimin, verilən can kimindir. Bildikləri o idi ki, onlar Vətən oğullarıdır, azadlıq uğrunda candan keçənlərdir.

Xəstəxanaların həyəti insanlarla dolu idi. Kimin balası, atası, qardaşı, nişanlısı, həyat yoldaşı gecə evə gəlməmişdisə, onu arayırdı. Gecə növbəsini bitirən həkimlər evə tələsmirdi. Yaralılar çox idi, bir yandan gətirirdilər, palatalarda yer olmadığından dəhlizlərdə stulları bitişdirib çarpayı əvəzinə istifadə edirdilər. Hər yerdən qan qoxusu gəlirdi... Həkimlərin əlac edə bilmədiklərini Semaşkoya –"morq"a göndərirdilər. Aləm bir-birinə dəymişdi. Xəstəxananın bütün tibb personalı səhərəcən mərtəbələrlə aşağı- yuxarı qaçırdı. Yüngül yaralıları tibb bacılarının öhdəsinə buraxmışdılar. Hər yaralıya vaxt itirmək olmazdı. Qanaxmadan huşlarını, hətta, həmin andaca həyatlarını itirənlər vardı. Ağ xalatlar qan rənginə boyanmışdı. Respublika Klinik Xəstəxanasında işləyən bir həkim tanışım sonralar danışırdı ki, "elektrik xətləri kəsildiyindən lampa işığında əməliyyat edirdik. Elə yaralılar vardı ki, qanı saxlamaq mümkün olmurdu. Hadisə yerinə yaxın olduğu üçün,

yaralıları həm qucaqda, həm kimlərinsə şəxsi maşınında, həm də "təcili yardım"la daşıyırdılar. Gecə növbəsinin həkimləri çatmadığından, evdən həkimləri səfərbər etmişdik... Yaralıların bəziləri tanınmaz halda idi. Qolsuz, ayaqsız, çapalayan bədənlər insanı dəhşətə gətirirdi. Yaralıların ah-ufu, doğmalarını axtaranların səs-küyü, tibb heyətinin təlaşı bir-birinə qarışıb xaos yaratmışdı. Qan qrupunu bilən insanlar yaşamla mücadilə aparanlara könüllü qan verirdilər. Dərd hamını birləşdirmişdi. Hərə öz yaxınını axtarır, soraqlayırdı. Ağır gecə idi".

...Amma orada səni arayan olmadı. Tanıyan olmadı... Tanınası halın da yox idi axı... siman dəyişmiş, üzün əzilmişdi. Alnında güllə yeri vardı. Ölümün gözünə dik baxmışdın.

O gecə Azərbaycan xalqının son əsarət gecəsi oldu. O gecə tariximizə şərəf tarixi kimi həkk olundu, xalq qürurunun tapdanmasına, millət olaraq istismar olunmasına, köləliyə qarşı üsyana qalxdı. Millət birliyini, yekdilliyini, Vətənə sevgi və sədaqətini, lazım gələrsə, qandan-candan keçməyə hazır olduğunu sübut etdi.

20 Yanvar--qan yaddaşımızdır, fəxarət yerimizdir. Millətimizin əsarət boyunduruğunu sındırdığı, yekdil olaraq güclü rejimə qalib gələ biləcəyinə inandığı gündür.

Həmin gecə küçələr qanla yuyulmuşdu... Və o qan günlərlə axıdıldığı yerdə qaldı... Üstü qərənfillərlə bəzəndi.

Qurban təkcə etiraz üçün ayağa qalxan, tankların qarşısına cəsarətlə çıxan, ölümün gözünə şəstlə baxan sizlər deyildiniz ki. Gələn quduzlar elə təlimlatlanmışdılar ki, küçədə, balkonda, həyətdə gəzənlərə də atəş açırdılar. Gözlərinə görünəni atəşə tuturdular.

Niyə? Nə üçün? Millətin günahı nə idi? Bu suallar hamını düşündürürdü. Sonralar AMEA-nın həqiqi üzvü, Rusiya EA-nın müxbir üzvü, Azərbaycan Pediatrlar Assosiasiyasının prezidenti, tibb elmləri doktoru, professor Adilə Namazova danışırdı: " Fevral ayında Moskvada keçirilən sessiyada Azərbaycandan olan qadın deputatlarımız qara örpəkdə, kişilər qara kostyumda bir cərgədə oturmuşduq. M.Qorbaçov gözünü bizdən çəkmirdi. İclasdan sonra ona dedim ki, bizi qəbul etsin. Mən, Anar və Midhət Abbasov onunla görüşdük. Özümlə bir torba teleqram aparmışdım. Dedim ki, "azərbaycanlıların başına bu nə oyundu gətirmisiniz? Onları niyə qırdırmısınız? Deyirsiniz ki, azərbaycanlılar rusların əleyhinə çıxıb, ayağa qalxıblar. Biz sizin deputatlarıq. Elə bir məlumat almışdınızsa, bizi çağıraydınız, danışdıraydınız, məsləhətləşəydiniz. Axı dedikləriniz həqiqət deyil. Siz rusları da qırdırmısınız. Bessantinin nəvəsi Vera Lvovna gecə su içməyə qalxanda mətbəxdə güllələnib. Larisa Mamedova dərsdən qayıdanda. O qızın anası rusdur, oxuduğu məktəbin dərs hissə müdiri rusdur, baxın, bu teleqramlarda Azərbaycan haqqında nələr deyirlər? Məlumat toplayırdınızsa, onlardan toplayaydınız. Martın əvvəlində şəhidlərin 40 mərasimidi. Adətimizə görə 40 mərasimi ölən günə bərabər tutulur və qeyd edilir. O vaxta qədər göstəriş verin, rus əsgərləri Bakıdan çıxsın. Yoxsa, əzizləri həlak olanlar onlara hücum edəcək, yeni çaxnaşma düşəcək. Mərkəzi Televiziya vasitəsi ilə Azərbaycan xalqına başsağlığı verin. Yoxsa onlar sakitləşməyəcəklər".

Axı siz heç bilmədiniz ki, hadisənin ertəsi günü dəhşətli faciəyə kəskin etiraz olaraq, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ailə üzvləri ilə birgə Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək hadisəyə operativ və düzgün qiymət verən ilk vətənpərvər lider oldu. Psixoloji və ruhi sarsıntı içərisində yaşayan xalqımız ulu öndərin oradakı qəzəbli və qətiyyətli bəyanatının doğurduğu əks-sədanı gördü. Ümummilli lider Heydər Əliyev bütün təzyiqlərə və təhdidlərə baxmayaraq, mənsub olduğu xalqın faciəsinə məsuliyyət daşıyanları Kremlin bir addımlığında, həm də bütün dünyanın gözü qarşısında ittiham etdi. Bu ittiham xalqda gələcəyə, müstəqilliyə, azadlığa bir inam yaratdı.

O müdhiş gecəni yaşayanlar, cinayətə şahidlik edənlər, bir gecədə neçə il qocalanlar... Biz onları gördük, onlarla çiyin-çiyinə addımladıq, onlarla yaşadıq, yaşlandıq. 28 il az müddət deyil. Amma həmin faciə şahidlərinin bəziləri dünyalarını dəyişsələr də, o məşum günləri xatırlayanlar, saatına, dəqiqəsinə qədər unutmayanlardan əksəriyyəti hələ də aramızda, sıramızdadı.

Sən burada tək deyilsən ki... Elə xiyabana girəndə İlhamla Fərizə boy-boya verib bəy-gəlin paltarında, dərdli təbəssümlə qarşılayırlar gələnləri. Onlar bu şəkli xiyabanda başdaşından yox, evlərinin baş divarından asmalıydılar. Zalım güllə və ölümə qalib gələn məhəbbət bu şəkli buraya gətirdi! Haradan biləsiniz ki, həmin günlərdə fələk mənim də qəddimi əymişdi. Siz dəfn olunan gün məhəbbətimin, sevgimin, sevincimin əbədi dəfn edildiyinin 40-cı günü idi.

Xiyabandakıların çoxu elə sənin tay-tuşundu ki... Hələ səndən kiçiklər də var. Məktəblilərə-- 167 nömrəli məktəbin şagirdi İlqara, 134 nömrəli məktəbdən Larisaya, 42 nömrəli məktəbin şagirdi Nərimana baxıram. Suallar qəlbimi didir: bu yaşınızda günahınız nə idi, neyləmişdiniz?

Xiyabanın qucaq açdığı digər şəhidlərə nəzər salıram. Anasına Kəlbəcər dərdindən sonra bir dağ da çəkən Mahir Quliyev, iki körpə qız balasını özünə həsrət qoyan Rasim Muxtarov, gözəl gözləri danışan Mehman Həsənov, baxışlarından cəsurluq yağan Tariyel Abdullayev, bir dəqiqəliyə həyətə düşüb gülləyə tuş

gələn ağsaqqal Əliyusif Qocamanov, qəzet köşkünün satıcısı Sahib Həsənov, – siz günahsız qurbanlar quduzlaşmış köpək sürüsünə neyləyə bilərdiniz?.. Gücünüz nəyə çatar, əliniz hara yetərdi? Əbədi gedişinizlə özünüzdən sonra neçə-neçə insanı gözü yaşlı qoydunuz.

...Təkcə səni xatırlayan yox! Eləmi düşünürsən? Yox, yox! Xalqımız qədirbilən xalqdır. Ona edilən yaxşılığı, elə pisliyi də unutmur. Sən qanını, canını azadlıq yolunda verən mücahidsən. Səni unutmaq, xatırlamamaq, anmamaq mümkünmü? Mən səni ziyarətə gələndə qəbrinin yanında hər dəfə onlarca adam görürəm. Ruhuna dualar oxuyurlar.

Mənim başdaşına "Naməlum" yazılan şəhidim. Bax, gördünmü, o birilərdən çox səninlə dərdləşdim, sənə ŞƏHİDİM dedim. Adın var. Özü də bütün yüksəklikdən ucalarda duran, bütün adlardan daha şərəfli olan addır.

***Sən ölümünlə ölümü şərəfləndirənlərdənsən.***
***Sən qürur mənbəyimiz, and yerimiz, sevgimizsən.***
***Sən, Vətənə qurban getmək necə olur, – ifadəsinin sübutusan.***
***Sən Azərbaycan tarixinin şanlı səhifələrinə adı qanla yazılmış Vətən oğlusan.***
***Sən Vətənə xidməti könüllü olaraq can verməklə yerinə yetirənsən.***
***Sən hələ də səni arayanların qəlbində sağsan, ərənsən, igidsən.***
***Sən bu fani dünyadan təkcə məzara yox, ürəklərə də köçən Allah bəndəsisən.***
***Unutma! Neçə ki, Azərbaycan var, xalqımız var, sən də o qədər qəlblərdə yaşayacaqsan.***
***Şəhidliyinin 28 yaşı mübarək olsun!***

**Xalq qəzeti.-**2018.-20 yanvar.-№14.-S.5.

**Xalqımızın şərəf və qəhrəmanlıq salnaməsi**

**Elçin Əhmədov,**
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru

***Ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və Sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədi ilə həyata keçirilmiş 20 Yanvar faciəsi totalitar kommunist rejiminin Azərbaycan xalqına qarşı hərbi təcavüzü və cinayəti idi.***

***Heydər ƏLİYEV***
***Ümummilli lider***

***20 Yanvar faciəsi Azərbaycan xalqının yaddaşından heç vaxt silinməyəcəkdir. Şəhidlərimizin əziz ruhu daim yaşayacaq, onların əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır. Mən o dəhşətli gündə yaxınlarını itirmiş bütün insanlara bir daha başsağlığı verirəm. Şəhidlərimizin ruhu əbədi yaşayacaq və yaşamalıdır.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**1990-cı ildə Bakıda törədilmiş 20 Yanvar qırğını və Azərbaycan tarixində ondan əvvəl baş vermiş faciəli hadisələr XX əsr boyu xalqımıza qarşı yeridilən düşünülmüş siyasətin növbəti təzahürü idi. Sovet rəhbərliyinin himayədarlığı ilə başlayan Dağlıq Qarabağ hadisələri, Azərbaycan xalqına qarşı soyqırımı və azərbaycanlıların Ermənistan ərazisindəki əzəli torpaqlarından qovulması bu siyasətin mərhələləridir.**

Heç şübhəsiz ki, 1990-cı il yanvarın 20-də Bakıda baş verən hadisələri Qarabağdakı erməni təcavüzündən ayrıca təhlil etmək düzgün olmazdı. Hər dəfə Qarabağa dair ərazi iddiaları kənardan, məhz Ermənistanın təbliği, təhriki və təzyiqi ilə ortaya atılırdı. Heç şübhəsiz, ermənilərin bu ərazi iddiaları birdən-birə deyil, Yerevanda, Moskvada və Qərbdə olan himayədarları tərəfindən hələ xeyli əvvəl diqqətlə və hərtərəfli plan əsasında hazırlanmışdı. Sovet dövründə mərkəzi hakimiyyət orqanlarının himayədarlığı ilə Azərbaycan əleyhinə məqsədyönlü şəkildə təbliğat kampaniyası aparılmış və nəticədə, mənfi ictimai fikir formalaşdırılmışdı.

Ümummilli lider Heydər Əliyev 1987-ci il oktyabrın 21-də Sov.İKP MK-nın plenumunda vəzifəsindən istefa verdikdən bir neçə gün sonra ermənilər özlərinin yaxın və uzaq xaricdəki himayədarlarının köməyi ilə "Böyük Ermənistan" ideyasını həyata keçirmək üçün ölkədəki "aşkarlıq və demokratiya"dan istifadə edərək, yenidən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə dair əsassız ərazi iddiaları irəli sürdülər. Ermənilərin Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi uğrunda iki komitəsi – Yerevanda "Qarabağ" komitəsi və onun Dağlıq Qarabağda uzun müddət gizli fəaliyyət göstərən "Krunk" açıq mübarizəyə başlamış, separatçılıq hərəkatı genişlənmişdi.

1989-cu il yanvarın 12-də SSRİ Ali Soveti Rəyasət Heyəti DQMV-də və onun ətrafında millətlərarası münasibətlərin gərginliyinin davam etməsi ilə əlaqədar olaraq və bunun qarşısını alıb regionda vəziyyəti sabitləşdirmək məqsədilə Dağlıq Qarabağın Azərbaycan SSR tərkibində muxtar vilayət statusunu saxlamaqla, DQMV-də xüsusi idarə formasının tətbiq edilməsi haqqında fərman imzaladı. Həmin fərmanla DQMV-də bilavasitə SSRİ-nin ali dövlət hakimiyyəti və idarə orqanlarına tabe olan Xüsusi İdarə Komitəsi yaradıldı. Xüsusi İdarə Komitəsi "millətlərarası münasibətlərin daha da kəskinləşməsinin qarşısını almaq və bu regionda vəziyyəti sabitləşdirmək" adı altında yaradılsa da, fərmanda göstərilənlərin əksinə olaraq bu komitənin fəaliyyətdə olduğu müddətdə DQMV-də vəziyyət daha da kəskinləşdi.

Komitənin sədri Arkadi Volski vəziyyəti sabitləşdirmək deyil, əksinə gərginləşdirmək siyasəti yürütdü. Onun fəal "səyləri" nəticəsində az müddət ərzində vilayətin idarə və müəssisələrinin, demək olar ki, hamısı Azərbaycanın tabeliyindən çıxarılaraq Mərkəzin tabeliyinə keçirildi. Bütün sənədlərdə DQMV Azərbaycanın, tərkibindən çıxarılmışdı. Belə ki, o dövrdə SSRİ Plan Komitəsinin hesabat sənədlərində Dağlıq Qarabağ əslində on altıncı müttəfiq respublika kimi, əlahiddə göstərilirdi. Vilayət İcraiyyə Komitəsinin binasının üzərində dalğalanan Azərbaycan bayrağı çıxarılıb Ermənistanın bayrağı sancılmışdı. Hər gün Xankəndi –Yerevan marşrutu üzrə təyyarələr 22 dəfə reysə çıxırdı. Bununla yanaşı, Ermənistan SSR Ali Soveti 1989-cu il dekabrın 1-də Azəbaycanın suverenliyini kobud surətdə pozaraq, DQMV-nin Ermənistan SSR-lə birləşdirilməsi haqqında

Konstitusiyaya zidd qərar qəbul etdi. 42 gün ərzində DQMV-nin müəssisələri Ermənistanın müvafiq nazirlik və idarələrinin tabeliyinə verildi.

1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti Azərbaycanın suverenliyini kobud surətdə pozaraq, DQMV-nin Ermənistana birləşdirilməsi haqqında konstitusiyaya zidd qərar qəbul etdi. 42 gün ərzində DQMV-nin müəssisələri Ermənistanın müvafiq nazirlik və idarələrinin tabeliyinə verildi. Birbaşa mərkəzin fəaliyyətsizliyi, bəzən isə açıq himayədarlığı sayəsində DQMV iqtisadiyyatının və digər sahələrinin faktiki olaraq Azərbaycandan ayrılması və Ermənistana istiqamətləndirilməsi baş verdi. Bütün rayon partiya komitələri Ermənistan KP-nın tərkibinə daxil oldu. Azərbaycanın bütün dövlət atributları (bayrağı, gerbi, himni və s.) dəyişdirildi və DQMV ərazisində Ermənistanın bayrağı və gerbi asıldı. Bununla da, Ermənistan beynəlxalq hüququn əsas norma və prinsiplərini pozaraq, Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialarını rəsmən elan etdi.

Beləliklə, Ermənistan rəhbərliyi və erməni millətçiləri mərkəzin bəzi dairələrinin köməyi ilə vilayətdə əsl mənada Dağlıq Qarabağın iqtisadi, ictimai-siyasi və mədəni cəhətdən mənimsənilməsi prosesi aparırdılar. Belə bir şəraitdə sovet rəhbərliyi nəinki münaqişənin qarşısını almaq üçün qəti tədbirlər görməmiş, əksinə, Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan xüsusi təlim keçmiş erməni əsgər və zabitləri, eləcə də sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantlar da daxil edilmişdi.

Ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkarlıq siyasəti və keçmiş SSRİ rəhbərliyinin onlara himayədarlığına öz qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı sovet ordusunun xüsusi təlim keçmiş hissələrindən istifadə olunması 1990-cı ilin 20 yanvarında qanlı faciəyə gətirib çıxardı.

1990-cı il yanvarın 15-də SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri M.Qorbaçov "DQMV və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında" fərman imzaladı. Azərbaycan SSR Ali Sovetinə təklif edildi ki, Bakı və Gəncə şəhərlərində və başqa yaşayış məntəqələrində qadağan saatlarının tətbiq edilməsi də daxil olmaqla, lazımi tədbirlər görülsün.

Bununla yanaşı, Ermənistanın ərazi iddiası obyekti olan Dağlıq Qarabağ bölgəsinə nəinki aidiyyəti olmayan və onun hüdudlarından kənarda yerləşən bir sıra ərazilərimiz Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Bu genişmiqyaslı hərbi təcavüz münaqişəni mahiyyətcə yeni – işğalçılıq səviyyəsinə keçirdi. Hazırda təkcə Yuxarı Qarabağın deyil, eləcə də digər ərazilərimizin işğal altında olması Ermənistanın Azərbaycana qarşı dövlət səviyyəsində ərazi iddiasında olduğunu təsdiq edir. Belə ki, yanvarın 15-də Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Kərki kəndi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu. 1920-ci illərdə Naxçıvan ərazisinin bir hissəsinin Ermənistana verilməsi nəticəsində Kərki kəndi Ermənistan ərazisində anklav vəziyyətində qalmışdı. Kərki kəndinin işğal olunmasında Ermənistan ərazisindəki dislokasiya olunmuş SSRİ Müdafiə Nazirliyi 7-ci ordusunun hərbçiləri də yaxından iştirak etmişdilər. Kərki kəndi hazırda işğal altındadır. Ayın 19-da Naxçıvan MSSR Ali Soveti Muxtar Respublikanın SSRİ-nin tərkibindən çıxması haqqında qərar qəbul etdi.

1990-cı ilin yanvar ayında M.Qorbaçov başda olmaqla sovet imperiyasının rəhbərliyi Bakıda vəziyyətin öz məcrasından çıxdığını və hakimiyyətin təhlükədə olduğunu bəhanə edərək, buraya qoşun yeridilməsi üçün müxtəlif dezinformasiyalar yayırdı. Guya Bakıya qoşun hərbi qulluqçuların ailələrini qorumaq, hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə bu tamamilə saxta bir tezis idi.

Bütün bunlara baxmayaraq, 1990-cı il yanvarın 19-da Mixail Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. Lakin əhalinin bundan məlumatsız qalması üçün SSRİ DTK-nın "Alfa" qrupu tərəfindən yanvarın 19-da saat 19.27-də Azərbaycan televiziyasının enerji bloku partladıldı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və dinc əhaliyə amansız divan tutdu.

M.Qorbaçovun fərmanı qüvvəyə minənədək – yanvarın 19-da gecə yarısınadək 9 nəfər öldürülmüşdü. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100 nəfərə çatmışdı. Belə ki, artıq yanvarın 20-də 131 insan öldürülmüş, onlardan 117-si azərbaycanlı, 6-sı rus, 3-ü yəhudi, 3-ü tatar idi; 744 adam ağır xəsarət almış, 4-şəxs itkin düşmüş, 400 nəfər isə həbs edilmişdi. Sovet qoşunları fövqəladə vəziyyət elan olunmayan rayonlara – yanvarın 25-də Neftçalaya, bir gün sonra isə Lənkərana yeridilmiş, nəticədə hər iki rayonda dinc insanlar qətlə yetirilmişdir. Beləliklə, sovet qoşunlarının Bakıya və Azərbaycanın digər rayonlarına hərbi müdaxiləsi nəticəsində öldürülən insanların sayı rəsmi olaraq 147-ə çatmışdı.

**"Şit" təşkilatı ekspertlərinin hesabatından:**

**– Adamları xüsusi qəddarlıqla və yaxın məsafədən güllələmişlər. Məsələn, Y.Meyeroviçə 21, D.Xanməmmədova 10-dan çox, R.Rüstəmova 23 güllə vurulmuşdur;**

**– xəstəxanalar, "təcili yardım" maşınları atəşə tutulmuş, həkimlər öldürülmüşdür;**

**– adamlar süngü-bıçaqla qətlə yetirilmişdir. Onların arasında hər iki gözü tutulmuş B.Yefimtsev də var;**

**– "Kalaşnikov" avtomatının ağırlıq mərkəzi dəyişən 5,45 çaplı güllələrindən istifadə edilmişdir.**

1948-ci ilin İnsan Hüquqları haqqında Bəyannəməsi, 1966-cı ilin Vətəndaş və Siyasi İnsan Hüquqları haqqında Beynəlxalq Pakt, 1966-cı ilin Mədəni, Sosial və İqtisadi Hüquqları haqqında Beynəlxalq Pakt və 1975-ci ilin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Helsinki Yekun Aktı, ATƏM-in 1989-cu il Vyana görüşünün son qərarı (fövqəladə vəziyyətdə və hərbi münaqişələr zamanı qadın və uşaq hüquqlarının müdafiəsi Bəyannaməsi), hərbi əməliyyatların aparılmasını tənzimləyən qüvvədə olan müqavilələr, əsasən də 1980-cı ilin döyüş zamanı yüngül fırlanan və yayılan güllələrin istifadə edilməməsinin Bəyannaməsi (1967-ci ildə quru döyüşünün qayda və qanunları barədə IV Haaqa Müqaviləsi) də bura daxil olmaqla qüvvədə olan bütün insan hüquqlarına dair beynəlxalq müqavilələr kobudcasına pozulmuşdur.

Yanvarın 20-də artıq bütün dünya Bakıda törədilmiş dəhşətli qırğından xəbər tutdu. Artıq sovet qoşunlarının Bakıya hərbi müdaxiləsi dünyanın bir sıra ölkələrində etirazla qarşılanmışdır. Belə ki, Bakıda törədilən cinayətlər qonşu və qardaş Türkiyədə sərt reaksiyalara səbəb olmuş, ölkənin hər yerində etiraz mitinqləri və nümayişlər keçirilmişdir. Ankara, İstanbul, Qars, İzmir, Kayseri və başqa şəhərlərdə keçirilən mitinq və nümayişlərdə sovet rəhbərliyinin törətdiyi bu cinayəti müdafiə edən Amerika Birləşmiş Ştatları pislənmişdir. Eyni zamanda, Türkiyənin rəsmi şəxsləri, Türkiyə hökuməti Bakıda törədilən hadisəni tənqid etməklə yanaşı, Azərbaycana yardım göstərilməsi təklifi ilə də çıxış etmişlər.

İranın Milli Təhlükəsizlik Şurası yığıncaq keçirmiş və bu barədə bəyanat qəbul etmişdir. İran parlamentinin 160-dan çox üzvü M.Qorbaçovun Azərbaycana silahlı təcavüzünü pisləmişdir. İran Prezidenti Rəfsəncani və İranın dini lideri Xameneyi Qorbaçovun atdığı bu addımı kəskin tənqid etmişlər. Bununla yanaşı, Türkiyə və İranın kütləvi informasiya vasitələri sovet qoşunlarının Bakıda törətdiyi qanlı hadisəni kəskin tənqid etmiş və bunu qırğın adlandırmışdır.

Qərb ölkələrinin mövqeyinə gəldikdə isə, Sovet İttifaqının Azərbaycana hərbi müdaxiləsinə müxtəlif reaksiyalar vermişlər. Bu reaksiyalar ümumilikdə müsbət olsa da, ancaq obyektiv reallığı əks etdirmirdi. Məsələn, ABŞ hökuməti bu hərbi müdaxiləni anlayışla qarşıladığını bildirmişdir. Avropa İttifaqının rəsmi nümayəndəsi Qeor isə demişdir ki, qan axıdılmadan yenidənqurma tətbiq edilə bilməz. Avropanın müxtəlif yerlərindən gələn fikirlər isə Qərbin mövqeyini izah etmək baxımından maraqlıdır. Məsələn, "Ştern" məcmuəsi və "Tribuna lyudu" qəzeti bu hadisələri qeyri-obyektiv işıqlandıraraq, qüvvədən istifadə olunmasının zəruri olduğu bildirmişdir.

**Nəticədə, Bakıda baş verən hadisələr dünya ictimaiyyətinə yanlış izah edilirdi. Bundan əlavə "Los-Anceles Tayms", "Vaşinqton Post", "Krisçen Sayens Monitor", "Nyu-york Tayms", "Baltimor San" mətbu orqanlarında, eləcə də, bir sıra xarici radiostansiyaların məlumatlarında baş verən hadisələrə, xüsusilə, sovet ordusunun hərbi müdaxiləsinə haqq qazandırılmasa da, çox vaxt bu qanlı cinayətə laqeyd münasibət özünü göstərirdi.**

O zaman ümummilli lider Heydər Əliyev bütün çətinliklərə baxmayaraq, 1990-cı il yanvarın 21-də siyasi iradə nümayiş etdirərək, Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəlmiş və SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə ittiham edən bəyanat vermişdir.

1993-cü ilin ikinci yarısında ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Bundan sonra, 1990-cı ilin Qanlı Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. **"20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 1994-cü il tarixli fərmanında deyilirdi: "Xalqımızın tarixinə qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı ilin yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermişdir. Tarixin yaddaşına qanla yazılmış həmin gündən bizi 4 illik zaman məsafəsi ayırır. Təəssüf ki, 4 il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilməmişdir".**

**Fərmanda Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymətin verilməsi, bu məqsədlə parlamentin xüsusi sessiyasının keçirilməsi məsələsinə baxılması tövsiyə edilirdi. Milli Məclisdə müzakirələrin yekunu olaraq 1994-cü il martın 29-da qəbul edilən qərarda, nəhayət ki, 1990-cı ilin 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi.**

1990-cı ilin Yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan Vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar.

**Xalq qəzeti.-**2018.-20 yanvar.-№14.-S.4.

## 20 Yanvar - müstəqilliyə gedən yolda xalqımızın şərəf və qəhrəmanlıq salnaməsi

## 1990-ci ildə Bakıda baş verən hadisələri Qarabağdaki erməni təcavüzündən ayrıca təhlil etmək mümkün deyil

**Elçin Əhmədov**,
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru

1990-cı ildə Bakıda 20 Yanvar və Azərbaycan tarixində ondan əvvəl baş vermiş faciəli hadisələr XX əsr boyu xalqımıza qarşı yeridilən düşünülmüş siyasətin növbəti təzahürü idi. Sovet rəhbərliyinin himayədarlığı ilə başlayan Dağlıq Qarabağ hadisələri, Azərbaycan xalqına qarşı soyqırımı və azərbaycanlıların Ermənistan ərazisindəki əzəli torpaqlarından qovulması bu siyasətin mərhələləridir.

Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrindən artıq 28 il keçir. Keçmiş sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi qalacaq. Milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə silahlı təcavüz nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi.

Sovet Ordusunun böyük heyətinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi. SSRİ 1956-cı ildə Çexoslovakiyaya, 1968-ci ildə Macarıstana və 1979-cu ildə Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni hətta o zamankı Sovet İttifaqının müttəfiq respublikalarından biri olan Azərbaycanda da təkrarlamaqdan çəkinmədi.

### Ermənistanın Azərbaycana təcavüzü və 20 Yanvar faciəsinə aparan yol

1990-cı il yanvarın 20-də Bakıda baş verən hadisələri Qarabağdakı erməni təcavüzündən ayrıca təhlil etmək düzgün olmazdı. Hər dəfə Qarabağa dair ərazi iddiaları kənardan, məhz Ermənistanın təbliği, təhriki və təzyiqi ilə ortaya atılırdı. Heç şübhəsiz, ermənilərin bu ərazi iddiaları birdən-birə deyil, Yerevanda, Moskvada və Qərbdə olan himayədarları tərəfindən hələ xeyli əvvəl diqqətlə və hərtərəfli plan əsasında hazırlanmışdı. Sovet dövründə mərkəzi hakimiyyət orqanlarının himayədarlığı ilə Azərbaycan əleyhinə məqsədyönlü şəkildə təbliğat kampaniyası aparılmış və nəticədə, mənfi ictimai fikir formalaşdırılmışdı. Erməni ideoloqları və onların ilhamvericiləri Azərbaycanın tarixi, sosial-iqtisadi inkişafı haqqında faktları açıq-aşkar saxtalaşdıraraq bütün ittifaq miqyasında yaymışdılar.

Ümummilli lider Heydər Əliyev 1987-ci il oktyabrın 21-də Sov.İKP plenumunda vəzifəsindən istefa verdikdən bir neçə gün sonra ermənilər özlərinin yaxın və uzaq xaricdəki himayədarlarının köməkliyi ilə “Böyük Ermənistan” ideyasını həyata keçirmək üçün aşkarlıq və demokratiyadan istifadə edərək yenidən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə dair əsassız ərazi iddiaları irəli sürdülər. Ermənilərin Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi uğrunda iki komitəsi - Yerevanda “Qarabağ” komitəsi və onun Dağlıq Qarabağda uzun müddət gizli fəaliyyət göstərən yerli təşkilatı olan “Krunk” açıq fəal mübarizəyə başlamış, separatçılıq hərəkatı genişlənmişdi.

1988-ci il hadisələri başlayanda ilk vaxtlar vəziyyəti son dərəcə gərginləşdirməyə, ictimai rəyi öz tərəflərinə çəkməyə çalışan erməni siyasətçiləri və onların mərkəzi ittifaqdakı himayədarları tərəfindən vilayətin iqtisadi geriliyi pərdəsi altında Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün uzun müddətdən bəri hazırlanmış plan üzrə Xankəndində və Yerevanda davamlı tətillər keçirilərək, müəssisələr dayandırılır və kütləvi mitinqlər təşkil edilirdi. Lakin baş verən sonrakı hadisələr DQMV-nin sosial-iqtisadi geriliyi barədə erməni siyasətçiləri və onların mərkəzdəki himayədarlarının irəli sürdükləri bu saxta tezisin yalnız bəhanə, əsas məqsədin isə Ermənistanın Azərbaycana qarşı ərazi iddiasında olduğunu göstərdi. Artıq ilin ikinci yarısında vəziyyət o qədər mürəkkəbləşdi ki, DQMV-nin azərbaycanlı əhalisinə qarşı silahlı təcavüz oldu. Belə ki, avqustun axırı və sentyabrın əvvəllərində Kərkicahan və Xocalı üzərinə ermənilərin kütləvi hücumu baş verdi.

1988-ci il sentyabrın 18-də ermənilər Xankəndində yaşayan 15 minə qədər azərbaycanlını şəhərdən zorakılıqla çıxardılar, onların evləri yandırıldı, özlərini isə Şuşa və ətraf rayonlara köçməyə məcbur etdilər. Sentyabrın 21-də DQMV-də xüsusi vəziyyət elan edildi və qadağan saatı qoyuldu. Lakin xüsusi vəziyyətin

tətbiq olunması da DQMV-də və Ermənistanda zorakılığın qarşısını ala bilmədi. Mərkəzi ittifaq orqanlarının hadisələrə birtərəfli yanaşması nəticəsində Dağlıq Qarabağ və Ermənistanda yaşayan azərbaycanlılar hərbi təcavüzə məruz qalmaqla yanaşı, kütləvi şəkildə öz doğma yurdlarından çıxarıldılar.

1989-cu il yanvarın 12-də SSRİ Ali Soveti Rəyasət Heyəti DQMV-də və onun ətrafında millətlərarası münasibətlərin gərginliyinin davam etməsi ilə əlaqədar olaraq və bunun qarşısını alıb regionda vəziyyəti sabitləşdirmək məqsədilə Dağlıq Qarabağın Azərbaycan SSR tərkibində Muxtar Vilayət statusunu saxlamaqla DQMV-də xüsusi idarə formasının tətbiq edilməsi haqqında fərman qəbul etdi. Həmin fərmanla DQMV-də bilavasitə SSRİ-nin ali dövlət hakimiyyəti və idarə orqanlarına tabe olan Xüsusi İdarə Komitəsi yaradıldı. Xüsusi İdarə Komitəsi "millətlərarası münasibətlərin daha da kəskinləşməsinin qarşısını almaq və bu regionda vəziyyəti sabitləşdirmək" adı altında yaradılsa da, fərmanda göstərilənlərin əksinə olaraq bu komitənin fəaliyyətdə olduğu müddətdə DQMV-də vəziyyət daha da kəskinləşmişdi.

Komitənin sədri A. İ. Volski vəziyyəti sabitləşdirmək deyil, əksinə gərginləşdirmək siyasəti yürütdü. Onun fəal "səyləri" nəticəsində az müddət ərzində vilayətin idarə və müəssisələrinin demək olar ki, hamısı Azərbaycanın tabeliyindən çıxarılaraq mərkəzin tabeliyinə keçirildi. Bütün sənədlərdə DQMV Azərbaycanın tərkibindən çıxarılmışdı. Belə ki, o dövrdə SSRİ Plan Komitəsinin Hesabat sənədlərində Dağlıq Qarabağ əslində on altıncı müttəfiq respublika kimi, əlahiddə göstərilirdi. Vilayət İcraiyyə Komitəsinin binasının üzərində dalğalanan Azərbaycan bayrağı çıxarılıb Ermənistanın bayrağı sancılmışdı. Hər gün Xankəndi-Yerevan marşrutu üzrə təyyarələr 22 dəfə reysə çıxırdı. Bununla yanaşı, Ermənistan SSR Ali Soveti 1989-cu il dekabrın 1-də Azərbaycanın suverenliyini kobud surətdə pozaraq DQMV-nin Ermənistan SSR-lə birləşdirilməsi haqqında Konstitusiyaya zidd qərar qəbul etdi. 42 gün ərzində DQMV-nin müəssisələri Ermənistanın müvafiq nazirlik və idarələrinin tabeliyinə verildi.

1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti Azərbaycanın suverenliyini kobud surətdə pozaraq, DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsi haqqında Konstitusiyaya zidd qərar qəbul etdi. 42 gün ərzində DQMV-nin müəssisələri Ermənistanın müvafiq nazirlik və idarələrinin tabeliyinə verildi. Birbaşa mərkəzin fəaliyyətsizliyi, bəzən isə açıq himayədarlığı sayəsində DQMV iqtisadiyyatının və digər sahələrinin faktiki olaraq Azərbaycandan ayrılması və Ermənistana istiqamətləndirilməsi baş verdi. Bütün rayon partiya komitələri Ermənistan KP-nın tərkibinə daxil oldu. Azərbaycanın bütün dövlət atributları (bayrağı, gerbi, himni və s.) dəyişdirildi və DQMV ərazisində Ermənistanın bayrağı və gerbi asıldı. Bununla da, Ermənistan beynəlxalq hüququn əsas norma və prinsiplərini pozaraq Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialarını rəsmən elan etdi.

Nəticədə, Sovet rəhbərliyinin çox ciddi və bağışlanılmaz səhvləri və ermənipərəst siyasəti 1988-ci ilin sonu - 1989-cu ilin əvvəllərində vəziyyətin getdikcə kəskinləşməsinə gətirib çıxardı, DQMV və Azərbaycanın Ermənistanla həmsərhəd bölgələrində erməni təcavüzü daha geniş miqyas aldı. Bu illərdə törədilən terror aktları nəticəsində yüzlərlə azərbaycanlının həyatına son qoyuldu. Minlərlə azərbaycanlı SSRİ-nin hakim dairələri tərəfindən himayə edilən ermənilərin işğalçılıq siyasətinin qurbanı oldu.

Bu dövrdə Dağlıq Qarabağ bölgəsində yaşayan ermənilərə Azərbaycandan ayrılaraq Ermənistanla birləşməyin zəruriliyinə nail olmaq ideyasını süni surətdə qəbul etdirən təcavüzkar dövlət buna nail olmaq üçün Dağlıq Qarabağdan azərbaycanlıları soyqırıma və təcavüzə məruz qoyub didərgin salmış, eləcə də Ermənistandan azərbaycanlıları tarixən yaşadığı torpaqlardan zorakılıqla deportasiya etmişdir. 1988-ci ilin sonunda ermənilər Ermənistanda genişmiqyaslı etnik təmizləmə - azərbaycanlılardan təmizləmək aksiyasını həyata keçirdilər. Belə ki, 1988-ci il noyabrın 22-dən dekabrın 7-dək olan müddət ərzində azərbaycanlılar yaşayan 22 rayonda 170 sırf və 94 qarışıq (ermənilərlə) yaşayış məskənləri boşaldılmış, nəticədə 200 mindən artıq azərbaycanlı əhali Azərbaycana qovulmuşdur. Həmin vaxt 216 azərbaycanlı, o cümlədən, 57 qadın, körpə və 18 uşaq qətlə yetirilmişdir.

## Qanlı 20 Yanvar

Beləliklə, Ermənistan rəhbərliyi və erməni millətçiləri mərkəzin bəzi dairələrinin köməkliyi ilə vilayətdə əsl mənada Dağlıq Qarabağın iqtisadi, ictimai-siyasi və mədəni cəhətdən mənimsənilməsi prosesi aparırdılar. Belə bir şəraitdə sovet rəhbərliyi nəinki münaqişənin qarşısını almaq üçün qəti tədbirlər görmüş, əksinə, Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan xüsusi təlim keçmiş erməni əsgər və zabitləri, eləcə də sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantlar da daxil edilmişdi.

Ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkarlıq siyasəti və keçmiş SSRİ rəhbərliyinin onlara himayədarlığına öz qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı sovet ordusunun

xüsusi təlim keçmiş hissələrindən istifadə olunması 1990-cı ilin 20 yanvarında qanlı faciəyə gətirib çıxardı. 1990-cı il yanvarın 15-də SSRİ Ali Sovetinin Rəyasət Heyətinin sədri M. Qorbaçov "DQMV və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında" fərman imzaladı. Azərbaycan SSR Ali Sovetinə təklif edildi ki, Bakı və Gəncə şəhərlərində və başqa yaşayış məntəqələrində qadağan saatlarının tətbiq edilməsi də daxil olmaqla, lazımi tədbirlər görülsün.

Bununla yanaşı, Ermənistanın ərazi iddiası obyekti olan Dağlıq Qarabağ bölgəsinə nəinki aidiyyatı olmayan və onun hüdudlarından kənarda yerləşən bir sıra ərazilərimiz Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Bu genişmiqyaslı hərbi təcavüz münaqişəni mahiyyətcə yeni - işğalçılıq səviyyəsinə keçirdi. Hazırda təkcə Yuxarı Qarabağın deyil, eləcə də digər ərazilərimizin işğal altında olması Ermənistanın Azərbaycana qarşı dövlət səviyyəsində ərazi iddiasında olduğunu təsdiq edir. Belə ki, yanvarın 15-də Naxçıvan Muxtar Respublikası Sədərək rayonunun Kərki kəndi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu. 1920-ci illərdə Naxçıvan ərazisinin bir hissəsinin Ermənistana verilməsi nəticəsində Kərki kəndi Ermənistan ərazisində anklav vəziyyətində qalmışdı. Kərki kəndinin işğal olunmasında Ermənistan ərazisindəki dislokasiya olunmuş SSRİ Müdafiə Nazirliyi 7-ci ordusunun hərbçiləri də yaxından iştirak etmişdilər. Kərki kəndi hal-hazırda işğal altındadır. Ayın 19-da Naxçıvan MSSR Ali Soveti Muxtar Respublikanın SSRİ-nin tərkibindən çıxması haqqında qərar qəbul etdi.

1990-cı ilin yanvar ayında M. Qorbaçov başda olmaqla sovet imperiyasının rəhbərliyi Bakıda vəziyyətin öz məcrasından çıxdığını və hakimiyyətin təhlükədə olduğunu bəhanə edərək qoşunun yeridilməsi üçün müxtəlif dezinformasiyalar yayırdı. Guya Bakıya qoşun hərbi qulluqçuların ailələrini qorumaq, hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə bu, tamamilə saxta bir tezis idi. Çünki sovet rəhbərliyinin "dəlilləri" hətta həqiqətə yaxın olsaydı belə, Bakıya xüsusi təlim keçmiş qoşun göndərməyə ehtiyac yox idi. Ona görə ki, həmin vaxt burada daxili qoşunların 11 min 500 əsgəri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri, eləcə də 4-cü ordunun komandanlığı da Bakıda yerləşirdi.

Bütün bunlara baxmayaraq, 1990-cı il yanvarın 19-da M. Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. Lakin əhalinin bundan məlumatsız qalması üçün SSRİ DTK-nın "Alfa" qrupu tərəfindən yanvarın 19-da saat 19.27-də Azərbaycan televiziyasının enerji bloku partladıldı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və dinc əhaliyə amansız divan tutuldu.

M. Qorbaçovun fərmanı qüvvəyə minənədək - yanvarın 20-də saat 00-dək artıq 9 nəfər öldürülmüşdü. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100 nəfərə çatmışdı. Belə ki, artıq yanvarın 20-də 131 insan öldürülmüş: onlardan 117-si azərbaycanlı, 6-sı rus, 3-ü yəhudi, 3-ü tatar; 744 adam ağır xəsarət almış; 4 şəxs itkin düşmüş; 400 nəfər isə həbs edilmişdir. Sovet qoşunları fövqəladə vəziyyət elan olunmayan rayonlara - yanvarın 25-də Neftçalaya, bir gün sonra isə Lənkərana yeridilmiş, nəticədə hər iki rayonda dinc insanlar qətlə yetirilmişlər. Beləliklə, sovet qoşunlarının Bakıya və Azərbaycanın digər rayonlarına hərbi müdaxiləsi nəticəsində öldürülən insanların sayı rəsmi olaraq 147-ə çatmışdı.

**"Şit" təşkilatı ekspertlərinin hesabatından:**

- adamları xüsusi qəddarlıqla və yaxın məsafədən güllələmişdilər. Məsələn, Y. Meyeroviçə 21, D. Xanməmmədova 10-dan çox, R. Rüstəmova 23 güllə vurulmuşdu;
- xəstəxanalar, "təcili yardım" maşınları atəşə tutulmuş, həkimlər öldürülmüşdü;
- adamlar süngü-bıçaqla qətlə yetirilmişdi. Onların arasında hər iki gözü tutulmuş B. Yefimtsev də var;
- "Kalaşnikov" avtomatının ağırlıq mərkəzi dəyişən 5,45 çaplı güllələrindən istifadə edilmişdi.

1948-ci ilin İnsan Hüquqları haqqında Bəyannaməsi, 1966-cı ilin Vətəndaş və Siyasi İnsan Hüquqları haqqında Beynəlxalq Pakt, 1966-cı ilin Mədəni, Sosial və İqtisadi Hüquqları haqqında Beynəlxalq Pakt və 1975-ci ilin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Helsinki Yekun Aktı, ATƏM-in 1989-cu il Vyana görüşünün son qərarı (fövqəladə vəziyyətdə və hərbi münaqişələr zamanı qadın və uşaq hüquqlarının müdafiəsi Bəyannaməsi), hərbi əməliyyatların aparılmasını tənzimləyən qüvvədə olan müqavilələr, əsasən də 1980-ci ilin döyüş zamanı yüngül fırlanan və yayılan güllələrin istifadə edilməməsinin Bəyannaməsi (1967-ci ildə quru döyüşünün qayda və qanunları barədə IV Haaqa müqaviləsi) də bura daxil olmaqla qüvvədə olan bütün İnsan Hüquqlarına əsaslanan beynəlxalq müqavilələr kobudcasına pozulmuşdu.

**Hadisəyə dünyanın reaksiyası**

Yanvarın 20-də artıq bütün dünya Bakıda törədilmiş dəhşətli qırğından xəbər tutdu. Artıq sovet qoşunlarının Bakıya hərbi müdaxiləsi dünyanın bir sıra ölkələrində etirazla qarşılanmışdır. Belə ki, Bakıda törədilən cinayətlər qonşu və qardaş Türkiyədə sərt reaksiyalara səbəb olmuş, ölkənin hər yerində mitinq və nümayişlər keçirilmişdir. Ankara, İstanbul, Qars, İzmir, Kayseri və başqa şəhərlərdə keçirilən mitinq və nümayişlərdə sovet rəhbərliyinin törətdiyi bu cinayəti müdafiə edən Amerika Birləşmiş Ştatları pislənmişdir. Eyni zamanda, Türkiyənin rəsmi şəxsləri, Türkiyə hökuməti Bakıda törədilən hadisəni tənqid etməklə yanaşı, Azərbaycana yardım göstərilməsi təklifi ilə də çıxış etmişdilər.

İranın milli təhlükəsizlik şurası yığıncaq keçirmiş və bu barədə bəyanat qəbul etmişdi. İran parlamentinin 160-dan çox üzvü M. Qorbaçovun Azərbaycana silahlı təcavüzünü pisləmişdi. İran prezidenti Rəfsəncani və İranın dini lideri Xameneyi M. Qorbaçovun atdığı bu addımı kəskin tənqid etmişdilər. Bununla yanaşı, Türkiyə və İranın kütləvi informasiya vasitələri sovet qoşunlarının Bakıda törətdiyi qanlı hadisəni kəskin tənqid etmiş və bunu qırğın adlandırmışdı.

Qərb ölkələrinin mövqeyinə gəldikdə isə Sovet İttifaqının Azərbaycana hərbi müdaxiləsinə müxtəlif reaksiyalar verilmişdi. Bu reaksiyalar ümumilikdə müsbət olsa da, ancaq obyektiv reallığı əks etdirmirdi. Məsələn, ABŞ hökuməti bu hərbi müdaxiləni anlayışla qarşıladığını bildirmişdi. Avropa İttifaqının rəsmi nümayəndəsi Qeor isə demişdi ki, qan axıdılmadan yenidənqurma tətbiq edilə bilməz. Avropanın müxtəlif yerlərindən gələn fikirlər isə qərbin mövqeyini izah etmək baxımından maraqlıdır. Məsələn, “Ştern” məcmuəsi və “Tribuna lyudu” qəzeti bu hadisələri qeyri-obyektiv işıqlandıraraq, qüvvədən istifadə olunmasının zəruri olduğu bildirmişdi.

Nəticədə, Bakıda baş verən hadisələr dünya ictimaiyyətinə yanlış izah edilirdi. Bundan əlavə, “Los-Anceles Tayms”, “Vaşinqton Post”, “Krisçen Sayens Monitor”, “Nyu-York Tayms”, “Baltimor San” mətbu orqanlarında, eləcə də, bir sıra xarici radiostansiyaların məlumatlarında Bakıda baş verən hadisələrə, xüsusilə, sovet ordusunun hərbi müdaxiləsinə haqq qazandırılmasa da, çox vaxt bu qanlı cinayətə laqeyd münasibət özünü göstərirdi. Sovet rəhbərləri ordunun Bakıya göndərilməsi qərarını müxtəlif cür izah edirdilər. O vaxtkı SSRİ-nin xarici işlər naziri Eduard Şevarnadze ordunun müdaxiləsini yalnız qan tökülməsinin qarşısını almaq üçün göndərildiyini bildirmişdi. Sovet xarici işlər nazirinin bu bəyanatı müdafiə naziri Yazovun bəyanatı ilə ziddiyyət təşkil edirdi. Müdafiə naziri öz bəyanatında Bakıda hakimiyyətin ələ keçirilməsinin qarşısını almaq üçün hərbi hissələrin göndərildiyini bildirmişdi.

Faciədən bir neçə il sonra, yəni 1994-cü ilin yanvarında bu qanlı cinayətin başında duran SSRİ müdafiə naziri marşal Yazov DFVK işi üzrə prosesdə ifadə verərkən bildirmişdi: “1990-cı il yanvarın 19-da Qorbaçov məni, Bakatini və Kryuçkovu yanına çağırıb Bakıda fövqəladə vəziyyət tətbiq etmək əmrini verdi. Mən heç bir yazılı qərar, heç bir fərman görməmişəm”. Daxili işlər naziri Bakatin isə, yanvarın 21-də Azərbaycan daxili işlər nazirliyində keçirdiyi görüşdə bəyan etmişdir ki, “əgər siz (Azərbaycan xalqı nəzərdə tutulur - E.Ə.) sovet hakimiyyətini istəməsəniz, sizinlə uzunmüddətli müharibə olacaq”.

1990-cı ildə Bakıda baş verən qırğına şəxsən qol çəkmiş M. Qorbaçov həmin il Beynəlxalq Nobel Sülh mükafatına layiq görüldü. 1995-ci ilin aprelin 27-də Türkiyədə səfərdə olan keçmiş SSRİ prezidenti Mixail Qorbaçov İstanbulun Çırağan sarayında onun şərəfinə verilən ziyafətdə çıxış edərkən öz siyasi bioqrafiyasının bəzi məqamlarına toxunmuş və 1990-cı il 20 yanvar hadisələrindən danışarkən öz günahını acizanə şəkildə etiraf edərək bildirmişdi: “Bakıda fövqəladə vəziyyət elan etmək və oraya qoşun göndərmək mənim siyasi həyatımın ən böyük səhvi idi”.

**525-ci qəzet.**-2018.-20 yanvar.-№12.-S.8-9.

**Tariximizin şərəfli səhifəsi**

**20 Yanvar faciəsinin 27-ci ildönümünün keçirilməsi ilə bağlı tədbir planı təsdiq edilib**

**Günel Eyyubova**

Azərbaycan Prezidenti Administrasiyası rəhbərinin Sərəncamı ilə "20 Yanvar faciəsinin iyirmi yeddinci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilib. Həmin tarixə qısa bir nəzər salaq. Tariximizə əbədi həkk olunan 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə mərkəz Bakıya və rayonlarımızın bəzilərinə keçmiş Sovet İttifaqının qoşun hissələri yeridilərək, əliyalın dinc əhali qətlə yetirildi, yüzlərlə insan yaralandı və itkin düşdü. Qoşunların Bakıya yeridilməsi nəticəsində paytaxtda və respublika rayonlarında 147 nəfər öldürüldü, 744 nəfər yaralandı, 841 nəfər həbs olundu. O müdhiş gecədə sanki xalqımızın iradəsi, Vətənə sevgisi sınandı. Sovet imperiyasının azğınlaşmış ordusu qarşısına silahsız, lakin ürəyi vətən sevgisi ilə döyünən oğullarımız canlarından, qanlarından keçərək müasir tariximizin qəhrəmanlıq zirvəsini fəth edərək şəhidlik zirvəsinə ucaldılar.

Xalqa bu qədər zülm etmək, günahsız əhalini tankın tırtılları altında əzməkdə məqsəd nə idi?! Əlbəttə, məqsəd Azərbaycanda güclənən müstəqillik hərəkatını boğmaq, xalqın əzmini qırmaq idi. Lakin Bakıda və bəzi rayonlarımızda törədilən bu qanlı hadisələr xalqın müstəqillik arzusunu məhv edə bilmədi, əksinə daha da alovlandıraraq, öz amalları uğrunda daha qətiyyətlə mübarizə aparmasına səbəb oldu. Həmin gün azadlığı hər şeydən uca tutan Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar.

Sərəncamda da qeyd edildiyi kimi, respublikanın şəhər və rayonlarında, o cümlədən idarə və təşkilatlarda 20 Yanvar hadisələri ilə bağlı konfrans, toplantı və mühazirələrin təşkili, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşaların göstərilməsi, bədii və sənədli filmlərin nümayiş etdirilməsi, bu tədbirlərin kütləvi informasiya vasitələrində geniş işıqlandırılması, dünya ictimaiyyətinin diqqətini faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri və icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar faciəsi barədə materialların verilməsi nəzərdə tutulub.

Xatırladaq ki, Azərbaycanın qəhrəmanlıq salnaməsinə qızıl hərflərlə yazılan bu hadisəyə də elə ilk qiyməti müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyev verib. 1993-cü ildə yenidən hakimiyyətə qayıdan Ulu Öndər dünyanın diqqətini Azərbaycan həqiqətlərinə, başımıza gətirilən faciələrə yönəltdi, xalqın haqq səsini dünyaya çatdırdı. Faktların dili ilə əsl həqiqət beynəlxalq ictimaiyyətə bəyan edildi. Daha sonra ümummilli lider Heydər Əliyevin 1994-cü ildə 20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi ilə bağlı Fərmanında Milli Məclisə faciəyə tam və əsaslandırılmış siyasi-hüquqi qiymət verilməsi tövsiyə olundu. Milli Məclis həmin ilin martın 29-da 20 Yanvar faciəsi ilə bağlı qərar qəbul etdi.

Son 13 ildə Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanın iqtisadi və siyasi mövqeyinin daha da möhkəmləndirilməsini şərtləndirdi. Azərbaycan həqiqətləri əsaslı şəkildə dünyaya çatdırıldı. Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın, Fondun vitse-prezidenti Leyla Əliyevanın Azərbaycan həqiqətlərinin beynəlxalq miqyasda təbliği istiqamətində gördükləri işlər də danılmazdır. Qeyd etdiyimiz kimi, Heydər Əliyev Fondu və onun xarici ölkələrdəki nümayəndəlikləri, eləcə də səfirliklərimiz həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində biri-birindən əhəmiyyətli tədbirlər həyata keçirirlər. Hər il 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar konfranslar, sərgilər, görüşlər təşkil olunur, kitablar, foto-albomlar və broşürlər çap edilərək paylanılır. Xatırladaq ki, Fondun dəstəyi ilə hər il dünyanın müxtəlif bölgələrində, o cümlədən ABŞ-da 20 Yanvar hadisələri barədə məlumatlandırma kampaniyası aparılır. Azərbaycanın ABŞ, Çin, Yaponiya, Fransa, Böyük Britaniya və başqa dövlətlərdəki səfirlikləri Azərbaycan və türk diaspor təşkilatları ilə birlikdə genişmiqyaslı tədbirlər keçirir və həmin ölkələrin ictimaiyyəti məlumatlandırılır. Eləcə də ABŞ-ın federal və yerli hakimiyyətlərinə, ictimaiyyətinə və mətbuata 20 Yanvar hadisələri ilə bağlı minlərlə məktub göndərilir. Bu səylərin nəticəsində tarixi hadisələrə həsr edilən məqalələr Nyu-York, Nyu-Cersi, Pensilvaniya ştatının yerli qəzetlərində dərc edilir.

Göstərildiyi kimi, tədbirlər planına əsasən, respublikanın bütün tədris müəssisələrində faciəyə həsr edilmiş xüsusi dərs keçiriləcək, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardım

veriləcək, Şəhidlər xiyabanı ərazisində lazımi işlər aparılacaq, Azərbaycanda fəaliyyət göstərən əsas dini konfessiya və qurumlar tərəfindən faciə qurbanlarının xatirəsinə dini mərasimlər təşkil ediləcək.

Bundan başqa, Sərəncamda paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər xiyabanına ziyarətinin təşkili, saat 12:00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, gəmilər, avtomobillər və qatarlar vasitəsilə səs siqnallarının verilməsi, gün ərzində Şəhidlər xiyabanında matəm musiqisinin səsləndirilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində hüzn əlaməti olaraq dövlət bayraqlarının endirilməsi və digər tədbirlər də nəzərdə tutulub. Təbii ki, məqsəd Azərbaycan reallıqlarını, ən əsası Azərbaycanın dövlət müstəqilliyinin əbədi, dönməz və sarsılmaz olduğunu bir daha dünyaya çatdırmaqdır.

**İki sahil.-2017.-11 yanvar.-№4.-S.11.**

**Şərəf və qəhrəmanlıq salnaməsi**

**Elçin ƏHMƏDOV,**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının dosenti,
siyasi elmlər doktoru

Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrindən 26 il ötür. Keçmiş sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi tarixdə qalacaqdır. Milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə silahlı təcavüz nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi.

1990-cı ildə Bakıda 20 Yanvar və Azərbaycan tarixində ondan əvvəl baş vermiş faciəli hadisələr XX əsr boyu xalqımıza qarşı yeridilən düşünülmüş siyasətin növbəti təzahürü idi. Sovet rəhbərliyinin himayədarlığı ilə başlayan Dağlıq Qarabağ hadisələri, Azərbaycan xalqına qarşı soyqırımı və azərbaycanlıların Ermənistan ərazisindəki əzəli torpaqlarından qovulması bu siyasətin mərhələləridir. Sovet Ordusunun böyük heyətinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi. SSRİ 1956-cı ildə Çexoslovakiyaya, 1968-ci ildə Macarıstana və 1979-cu ildə Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni hətta o zamankı Sovet İttifaqının müttəfiq respublikalarından biri olan Azərbaycanda da təkrarlamaqdan çəkinmədi.

*Qarabağ münaqişəsi və*
*Qanlı Yanvara aparan yol*

Heç şübhəsiz ki, 1990-cı il yanvarın 20-də Bakıda baş verən hadisələri Qarabağdakı erməni təcavüzündən ayrıca təhlil etmək düzgün olmazdı. Hər dəfə Qarabağa dair ərazi iddiaları kənardan, məhz, Ermənistanın təbliği, təhriki və təzyiqi ilə ortaya atılırdı. Təbii ki, ermənilərin bu ərazi iddiaları birdən-birə deyil, Yerevanda, Moskvada və Qərbdə olan himayədarları tərəfindən hələ xeyli əvvəl diqqətlə və hərtərəfli plan əsasında hazırlanmışdı. Sovet dövründə mərkəzi hakimiyyət orqanlarının himayədarlığı ilə Azərbaycan əleyhinə məqsədyönlü şəkildə təbliğat kampaniyası aparılmış və nəticədə, mənfi ictimai fikir formalaşdırılmışdı. Erməni ideoloqları və onların ilhamvericiləri Azərbaycanın tarixi, sosial-iqtisadi inkişafı haqqında faktları açıq-aşkar saxtalaşdıraraq bütün İttifaq miqyasında yaymışdılar. Ümummilli lider Heydər Əliyev Sov.İKPMK-nın plenumunda vəzifəsindən istefa verdikdən bir neçə gün sonra ermənilər özlərinin yaxın və uzaq xaricdəki himayədarlarının köməkliyi ilə "Böyük Ermənistan" ideyasını həyata keçirmək üçün aşkarlıq və demokratiyadan istifadə edərək yenidən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə dair ərazi iddiaları irəli sürdülər. Ermənilərin Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi uğrunda iki komitəsi - Yerevanda "Qarabağ" komitəsi və onun Dağlıq Qarabağda uzun müddət gizli fəaliyyət göstərən yerli təşkilatı olan "Krunk" açıq fəal mübarizəyə başlamış, separatçılıq hərəkatı genişlənmişdi. 1988-ci il hadisələri başlayanda ilk vaxtlar vəziyyəti son dərəcə gərginləşdirməyə, ictimai rəyi öz tərəflərinə çəkməyə çalışan erməni siyasətçiləri və onların sovet ittifaqındakı himayədarları tərəfindən vilayətin iqtisadi geriliyi pərdəsi altında Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün uzun müddətdən bəri hazırlanmış plan üzrə Xankəndidə və Yerevanda davamlı tətillər keçirilərək, müəssisələr dayandırılır və kütləvi mitinqlər təşkil edilirdi. Lakin baş verən sonrakı hadisələr DQMV-nin sosial-iqtisadi geriliyi barədə erməni siyasətçiləri və onların mərkəzdəki himayədarlarının irəli sürdükləri bu saxta tezisin yalnız bəhanə, əsas məqsədin isə Ermənistanın Azərbaycana qarşı ərazi iddiasında olduğunu göstərdi.

1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti Azərbaycanın suverenliyini kobud surətdə pozaraq, DQMV-nin Ermənistana birləşdirilməsi haqqında Konstitusiyaya zidd qərar qəbul etdi. 42 gün ərzində DQMV-nin müəssisələri Ermənistanın müvafiq nazirlik və idarələrinin tabeliyinə verildi. Birbaşa mərkəzin fəaliyyətsizliyi, bəzən isə açıq himayədarlığı sayəsində DQMV iqtisadiyyatının və digər sahələrinin faktiki olaraq Azərbaycandan ayrılması və Ermənistana istiqamətləndirilməsi baş verdi. Bütün rayon partiya komitələri Ermənistan KP-nın tərkibinə daxil oldu. Azərbaycanın bütün dövlət atributları (bayrağı, gerbi, himni və s.) dəyişdirildi və DQMV ərazisində Ermənistanın bayrağı və gerbi asıldı. Bununla da, Ermənistan beynəlxalq hüququn əsas norma və prinsiplərini pozaraq Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialarını rəsmən elan etdi.

Nəticədə, Sovet rəhbərliyinin çox ciddi və bağışlanılmaz səhvləri və ermənipərəst siyasəti 1989-cu ilin sonları 1990-cı ilin əvvəllərində vəziyyətin getdikcə kəskinləşməsinə gətirib çıxardı, DQMV və Azərbaycanın Ermənistanla həmsərhəd bölgələrində erməni təcavüzü daha geniş miqyas aldı. Bu illərdə törədilən terror aktları nəticəsində yüzlərlə azərbaycanlının həyatına son qoyuldu. Minlərlə azərbaycanlı SSRİ-nin hakim dairələri tərəfindən himayə edilən ermənilərin işğalçılıq siyasətinin qurbanı oldu. Bu dövrdə Dağlıq Qarabağ bölgəsində yaşayan ermənilərə Azərbaycandan ayrılaraq Ermənistanla birləşməyin zəruriliyinə nail olmaq ideyasını süni surətdə qəbul etdirən təcavüzkar dövlət buna nail olmaq üçün Dağlıq Qarabağdan azərbaycanlıları soyqırıma və təcavüzə məruz qoyub, didərgin salmış, eləcə də Ermənistandakı azərbaycanlıları tarixən yaşadıqları torpaqlardan zorakılıqla deportasiya etmişdir.

Beləliklə, Ermənistan rəhbərliyi və erməni millətçiləri mərkəzin bəzi dairələrinin köməkliyi ilə vilayətdə əsl mənada Dağlıq Qarabağın iqtisadi, ictimai-siyasi və mədəni cəhətdən mənimsənilməsi prosesi aparırdılar. Belə bir şəraitdə sovet rəhbərliyi nəinki münaqişənin qarşısını almaq üçün qəti tədbirlər görməmiş, əksinə, Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan xüsusi təlim keçmiş erməni əsgər və zabitləri, eləcə də sovet hərbi hissələrində xidmət edən erməniləri, hətta erməni kursantlarını da daxil etmişdi.

Ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkarlıq siyasəti və keçmiş SSRİ rəhbərliyinin onlara himayədarlığına öz qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı sovet ordusunun xüsusi təlim keçmiş hissələrindən istifadə olunması 1990-cı ilin 20 yanvarında qanlı faciəyə gətirib çıxardı. 1990-cı il yanvar 15-də SSRİ Ali Sovetinin Rəyasət Heyətinin sədri Mixail Qorbaçov "DQMV və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında" fərman imzaladı. Azərbaycan SSR Ali Sovetinə təklif edildi ki, Bakı və Gəncə şəhərlərində və başqa yaşayış məntəqələrində qadağan saatlarının tətbiq edilməsi də daxil olmaqla, lazımi tədbirlər görülsün.

Bununla yanaşı, Ermənistanın ərazi iddiası obyekti olan Dağlıq Qarabağ bölgəsinə nəinki aidiyyatı olmayan və onun hüdudlarından kənarda yerləşən bir sıra ərazilərimiz Ermənistan sılahlı qüvvələri tərəfindən işğal edildi. Bu genişmiqyaslı hərbi təcavüz münaqişəni mahiyyətcə yeni - işğalçılıq səviyyəsinə keçirdi. Belə ki, yanvarın 18-19-da Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Kərki kəndi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu. 1920-ci illərdə Naxçıvan ərazisinin bir hissəsinin Ermənistana verilməsi nəticəsində Kərki kəndi Ermənistan ərazisində anklav vəziyyətində qalmışdı. Kərki kəndinin işğal olunmasında Ermənistan ərazisindəki dislokasiya olunmuş SSRİ Müdafiə Nazirliyi 7-ci ordusunun hərbçiləri də yaxından iştirak etmişdilər. Kərki kəndi hal-hazırda işğal altındadır. Ayın 19-da Naxçıvan MSSR Ali Soveti Muxtar Respublikanın SSRİ-nin tərkibindən çıxması haqqında qərar qəbul etdi.

1990-cı ilin yanvar ayında sovet imperiyasının rəhbərliyi Bakıda vəziyyətin öz məcrasından çıxdığını və hakimiyyətin təhlükədə olduğunu bəhanə edərək Azərbaycana qoşun yeridilməsi üçün müxtəlif dezinformasiyalar yayırdı. Guya Bakıya qoşun hərbi qulluqçuların ailələrini qorumaq, hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə, bu, tamamilə saxta bir tezis idi. Çünki sovet rəhbərliyinin "dəlilləri" hətta həqiqətə yaxın olsaydı belə, Bakıya xüsusi təlim keçmiş qoşun göndərməyə ehtiyac yox idi. Ona görə ki, həmin vaxt burada daxili qoşunların 11 min 500 əsgəri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri, eləcə də 4-cü ordunun komandanlığı da Bakıda yerləşirdi.

Bütün bunlara baxmayaraq, 1990-cı il yanvarın 19-da M.Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. Lakin əhalinin bundan məlumatsız qalması üçün SSRİ DTK-nın "Alfa" qrupu tərəfindən yanvarın 19-da saat 19.27-də Azərbaycan televiziyasının enerji bloku partladıldı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və dinc əhaliyə amansız divan tutuldu.

M.Qorbaçovun fərmanı qüvvəyə minənədək – yanvarın 20-də gecə yarısınadək artıq 9 nəfər öldürülmüşdü. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100 nəfərə çatmışdı. Belə ki, artıq yanvarın 20-də 131 insan öldürülmüş: onlardan 117-si azərbaycanlı, 6-sı rus, 3-ü yəhudi, 3-ü tatar; 744 adam ağır xəsarət almış; 4-şəxs itkin düşmüş; 400 nəfər isə həbs edilmişdir. Sovet qoşunları fövqəladə vəziyyət elan olunmayan rayonlara - yanvarın 25-də Neftçalaya, bir gün sonra isə Lənkərana yeridilmiş, nəticədə hər iki rayonda ümumilikdə 26 nəfər öldürülmüşdür. Beləliklə, sovet qoşunlarının Bakıya və Azərbaycanın digər rayonlarına hərbi müdaxiləsi nəticəsində öldürülən insanların sayı rəsmi olaraq 147-ə çatmışdı.

**"Şit" təşkilatı ekspertlərinin hesabatından:**

*– adamları xüsusi qəddarlıqla və yaxın məsafədən güllələmişlər. Məsələn, Y.Meyeroviçə 21, D.Xanməmmədova 10-dan çox, R.Rüstəmova 23 güllə vurulmuşdur;*

*– xəstəxanalar, "təcili yardım" maşınları atəşə tutulmuş, həkimlər öldürülmüşdür;*

*– adamlar süngü-bıçaqla qətlə yetirilmişdir. Onların arasında hər iki gözü tutulmuş B.Yefimtsev də var;*

*– "Kalaşnikov" avtomatının ağırlıq mərkəzi dəyişən 5,45 çaplı güllələrindən istifadə edilmişdir.*

1948-ci ilin İnsan Hüquqları haqqında Bəyannaməsi, 1966-cı ilin Vətəndaş və Siyasi İnsan Hüquqları haqqında Beynəlxalq Pakt, 1966-cı ilin Mədəni, Sosial və İqtisadi Hüquqları haqqında Beynəlxalq Pakt və 1975-ci ilin Avorpada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Helsinki Yekun Aktı, ATƏM-in 1989-cu il Vyana görüşünün son qərarı (fövqalədə vəziyyətdə və hərbi münaqişələr zamanı qadın və uşaq hüquqlarının müdafiəsi Bəyannaməsi), hərbi əməliyyatların aparılmasını tənzimləyən qüvvədə olan müqavilələr, əsasən də 1980-ci ilin döyüş zamanı yüngül fırlanan və yayılan güllələrin istifadə edilməməsi Bəyannaməsi ( 1967-ci ildə quru döyüşünün qayda və qanunları barədə IV Haaqa muqaviləsi) də bura daxil olmaqla qüvvədə olan bütün İnsan Hüquqlarına əsaslanan beynəlxalq müqavilələr kobudcasına pozulmuşdur.

*Hadisəyə dünyanın reaksiyası*

Yanvarın 20-də artıq bütün dünya Bakıda törədilmiş dəhşətli qırğından xəbər tutdu. Artıq sovet qoşunlarının Bakıya hərbi müdaxiləsi dünyanın bir sıra ölkələrində etirazla qarşılanmışdır. Belə ki, Bakıda törədilən cinayətlər qonşu və qardaş Türkiyədə sərt reaksiyalara səbəb olmuş, ölkənin hər yerində mitinq və nümayişlər keçirilmişdir. Ankara, İstanbul, Qars, İzmir, Kayseri və başqa şəhərlərdə keçirilən mitinq və nümayişlərdə sovet rəhbərliyinin törətdiyi bu cinayəti müdafiə edən Amerika Birləşmiş Ştatları pislənmişdir. Eyni zamanda, Türkiyənin rəsmi şəxsləri, Türkiyə hökuməti Bakıda törədilən hadisəni tənqid etməklə yanaşı, Azərbaycana yardım göstərilməsi təklifi ilə də çıxış etmişlər.

İranın Milli Təhlükəsizlik Şurası yığıncaq keçirmiş və bu barədə bəyanat qəbul etmişdir. İran parlamentinin 160-dan çox üzvü M.Qorbaçovun Azərbaycana silahlı təcavüzünü pisləmişdir. İran Prezidenti Rəfsəncani və İranın dini lideri Xameneyi M.Qorbaçovun atdığı bu addımı kəskin tənqid etmişlər. Bununla yanaşı, Türkiyə və İranın kütləvi informasiya vasitələri sovet qoşunlarının Bakıda törətdiyi qanlı hadisəni kəskin tənqid etmiş və bunu qırğın adlandırmışdır.

Qərb ölkələrinin mövqeyinə gəldikdə isə, onlar Sovet İttifaqının Azərbaycana hərbi müdaxiləsinə müxtəlif reaksiyalar vermişdilər. Bu reaksiyalar ümumilikdə müsbət olsa da, ancaq obyektiv reallığı əks etdirmirdi. Məsələn, ABŞ hökuməti bu hərbi müdaxiləni anlayışla qarşıladığını bildirmişdir. Avropa İttifaqının rəsmi nümayəndəsi Qeor isə demişdir ki, qan axıdılmadan yenidənqurma tətbiq edilə bilməz. Avropanın müxtəlif yerlərindən gələn fikirlər isə Qərbin mövqeyini izah etmək baxımından maraqlıdır. Məsələn, "Ştern" məcmuəsi və "Tribuna lyudu" qəzeti bu hadisələri qeyri-obyektiv işıqlandıraraq, qüvvədən istifadə olunmasının zəruri olduğu bildirmişdir.

Nəticədə, Bakıda baş verən hadisələr dünya ictimaiyyətinə yanlış izah edilirdi. Bundan əlavə "Los-Anceles Tayms", "Vaşinqton Post", "Krisçen Sayens Monitor", "Nyu-york Tayms", "Baltimor San" mətbu orqanlarında, eləcə də, bir sıra xarici radiostansiyaların məlumatlarında Bakıda baş verən hadisələrə, xüsusilə, sovet ordusunun hərbi müdaxiləsinə haqq qazandırılmasa da, çox vaxt bu qanlı cinayətə laqeyd münasibət özünü göstərirdi.

1990-cı ildə Bakıda baş verən qırğına şəxsən qol çəkmiş M.Qorbaçov həmin il Beynəlxalq Nobel Sülh Mükafatına layiq görüldü. 1995-ci ilin aprelin 27-də Türkiyədə səfərdə olan keçmiş SSRİ prezidenti Mixail Qorbaçov İstanbulun Çırağan sarayında onun şərəfinə verilən ziyafətdə çıxış edərkən öz siyasi bioqrafiyasının bəzi məqamlarına toxunmuş və 1990-cı il 20 Yanvar hadisələrindən danışarkən öz günahını acizanə şəkildə etiraf edərək bildirmişdi: "Bakıda fövqəladə vəziyyət elan etmək və oraya qoşun göndərmək mənim siyasi həyatımın ən böyük səhvi idi".

Sovet İttifaqının 1990-cı ilin yanvarındakı cinayətkar hərəkəti Azərbaycan xalqının SSRİ-dən müstəqillik əldə etmək cəhdlərinin qarşısını almağa yönəlmişdi. Bu barədə Amerikalı konqresmen Din Heller həmin qanlı hadisədən 20 il sonra Azərbaycan diasporuna göndərdiyi məktubda bildirmişdir: "20 il əvvəl Azərbaycanda Sovet imperiyasının son amansızlıqlarından biri baş verib. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet ordusu Azərbaycan xalqı arasında yayılmış SSRİ-dən azad olmaq istəklərinin qarşısını almaq məqsədi ilə Azərbaycan paytaxtına daxil oldu. "Qanlı Yanvar" adını almış hadisələr zamanı 100-dən çox Azərbaycan vətəndaşı öldürüldü və yaralandı".

O zaman yalnız ümummilli liderimiz Heydər Əliyev bütün çətinliklərə baxmayaraq, siyasi iradə nümayiş etdirərək Moskvadakı Azərbaycan nümayəndəliyinə gəlmiş və SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə ittiham edərək, bəyanatla çıxış etmişdir. Azərbaycan rəhbərliyinə qayıdışdan sonra Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ilin yanvar ayında Milli Məclisdə 20 Yanvar hadisələrinə siyasi qiymət verilmişdi.

1990-cı ilin Yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan Vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar. Bu gün 20 Yanvar faciəsi müstəqil Azərbaycan dövlətinin tarixinə qanlı xalqımızın şərəf və qəhrəmanlıq səhifəsi kimi yazılmışdır.

**“Xalq qəzeti”.-**2016.- 20 yanvar.-№ 13.-S.5.

**Milli azadlıq hərəkatının zirvəsi**

**Elnur HACALIYEV**

**Ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinə tam siyasi-hüquqi qiymət verildi**

Ötən əsrin 70-ci illərindən başlanan milli ruhun yüksəlişi xalqımızın illərdən bəri qəlbində yaşatdığı azadlıq mübarizəsində əsas hərəkətverici qüvvəyə çevrilməsində mühüm zəmin oldu. Totalitar sistemin elm və mədəniyyət xadimlərinə, ziyalılara qarşı ağır təzyiqləri, təqib və təhdidləri Sovet İttifaqının bir çox başqa respublikalarında özünü aşkar hiss etdirdiyi halda, cəsur, möhkəm iradə sahibi Heydər Əliyev Azərbaycanda yaradıcı insanlar üçün sərbəst düşünmək və düşündüyünü tam ifadə edə bilmək, alt qatda isə milli-mənəvi ideala, Azərbaycanın dövlətçilik tarixində suverenliyi, müstəqilliyi təmin edən dəyərlərə aparan yolları tapmaq imkanı verən şərait yaratmışdı. 1980-ci illərin sonu, 1990-cı illərin əvvəlində müstəqillik hərəkatının geniş vüsət alması Heydər Əliyev dövründəki həmin iqtisadi yüksəliş və ona paralel olaraq tarixi fürsətdən dərhal bəhrələnməyə hazır milli mübarizlik ruhunun təşəkkül tapması sayəsində mümkün olmuşdur. 1987-ci ildə Qorbaçov-erməni işbirliyi tərəfindən istefaya göndərildikdən sonra Heydər Əliyevin özünə və ailəsinə qarşı təzyiqlər gücləndi. Amma Heydər Əliyevin siyasi hakimiyyətdən kənarlaşdırılmasının ən ağır zərbəsi Azərbaycana dəydi. Heydər Əliyev siyasi fəaliyyətdən uzaqlaşdıqdan sonra Ermənistanın Azərbaycan əleyhinə çıxışları güclənməyə başladı. 1988-ci il fevralın 20-də Xankəndidə vilayət xalq deputatları sovetinin sessiyası vilayətin Ermənistana "birləşdirilməsi" barədə qərar qəbul etdi. Moskva zahirən erməni separatçılığını müdafiə etmir, hətta Sov.İKP.MK DQMV-nin birləşdirilməsinin qeyri-mümkünlüyü barədə əlahiddə qərar da qəbul edir. Qərarda bunun qarşısıalınmaz nəticələrə səbəb ola biləcəyi qeyd olunurdu. Lakin bu qərar kağız üzərində qalır, Dağlıq Qarabağ ətrafındakı siyasi ehtiraslar getdikcə şiddətlənirdi. Həmin illərdə Heydər Əliyev erməni lobbisinin və şovinist dairələrin süni şəkildə yaratdıqları tam siyasi izolyasiyada idi. Azərbaycan xalqı müdafiəsiz, himayəsiz qalmışdı.

1988-ci ilin noyabr-dekabr aylarında cərəyan edən hadisələrin ağır xronologiyası yaddaşlardan heç zaman silinməyəcək. Respublika Prokurorluğunun məlumatında deyilirdi: 1988-ci ilin noyabr ayının 28-dən dekabr ayının 8-dək kütləvi surətdə azərbaycanlılar yaşayan 22 rayonun 185 yaşayış məntəqəsinə quldurcasına basqın edən erməni vəhşiləri 217 nəfəri müxtəlif işgəncə ilə qətlə yetirmişlər. Onlardan 49 nəfəri divan tutulmaqdan qorxub qaçarkən dağlarda çovğuna düşüb donmuş, 41 nəfəri qəddarlıqla döyülüb öldürülmüş, 115 nəfər diri-diri yandırılmış, 16 nəfəri güllələnmiş, 10 nəfər təhqirlərə dözməyib infarktdan ölmüş, 2 nəfər erməni həkimləri tərəfindən xəstəxanada öldürülmüş, 3 nəfər suda boğulub öldürülmüş, 1 nəfər asılmış, 1 nəfər əzablardan qurtarmaq üçün özünü öldürmüş, 1 nəfər elektriklə öldürülmüş, 2 nəfərin başı kəsilmiş, 29 nəfər qəsdən avtomobilin altına salınmaqla öldürülmüş, 3 nəfər xəstəxanada olarkən tibbi xidmət göstərilməməsi nəticəsində öldürülmüş, 8 nəfər oğurlanmışdır. Öldürülənlərdən 57 nəfəri qadın, 5 nəfəri körpə uşaq, 18 nəfəri yeniyetmə olmuşdur. Qırğın Ermənistanın 19 rayonu, 11 şəhərində törədilmişdir. 250 min azərbaycanlı məcburi qaydada deportasiya edilmiş, mənzil və əmlaklarından məhrum olmuşlar.

SSRİ-nin o vaxtkı rəhbəri M.S.Qorbaçovun Azərbaycana, xalqımıza düşmən münasibəti ağır nəticələrə səbəb oldu. Onun respublikaya rəhbər göndərildiyi, milli hisslərdən uzaq olan Ə.Vəzirovun hakimiyyəti dövründə Moskvanın "səyi" nəticəsində Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal edilməsi prosesi dərinləşir, antiazərbaycan siyasəti həyata keçirilirdi. 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə isə Kreml Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə qarşı cıxan Azərbaycan xalqını cəzalandırmaq üçün qırğın törətdi.

Bakıdakı qanlı qırğından sonra özünü və doğmalarını izləyən ağır təhlükələrə baxmayaraq, Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələn Heydər Əliyev mərkəzin Bakıda keçirdiyi vəhşiliyə qarşı kəskin bəyanat verdi, bu cəlladlığı pislədi. M.Qorbaçovun əli ilə tökülən qanlara etiraz etdiyini, insanların azadlıq istəyinin məhv edilməsinin mümkünsüzlüyünü söylədi. Bu, sözün həqiqi mənasında, təkcə Azərbaycan xalqına deyil, SSRİ məkanında azadlıq eşqi ilə yaşayan bütün xalqlara dəstək idi. Heydər Əliyevin həmin bəyanatı bir daha sübut etdi ki, siyasətdə böyük addımları ancaq dahilər ata bilirlər. Heydər Əliyevin M.Qorbaçovun ünvanına söylədiyi ittihamlar təkcə Bakıda deyil, Tbilisi, Vilnüs, Riqa və digər şəhərlərdə də hörmət və ehtiramla qarşılanmış, ulu öndərimizin bu aydın mövqeyi o dövrün siyasi təlatümlərindən çaşqın vəziyyətə düşən milyonlarla insan üçün aydın bir istiqamətə çevrilmişdi.

Ulu öndər Heydər Əliyev 1990-cı il 20 Yanvar faciəsi ilə əlaqədar Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirilmiş tədbirdə demişdi: “Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı. Bunlar üçün ilk növbədə, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin artıq sabiq birinci katibi Vəzirov müqəssirdir. Bu yüksək vəzifədə olduğu müddətdə o, Azərbaycandakı vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə, özünün səhv addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurum yaratmışdır. Xalq isə hiddətlənmişdir. Elə buna görə də Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında aylarla davam edən mitinqlərdə dəfələrlə Azərbaycanın partiya rəhbərlərinin istefası tələbi irəli sürülmüşdür. Söhbət əslində, Vəzirovun istefasından gedirdi. Bəs bu məsələ indiyə kimi niyə həll olunmamışdır?

Yalnız dünən Bakı şəhərinə ordu yeridildikdən, qırğın və dağıntılar baş verdikdən sonra Vəzirov Azərbaycandan əslində, qaçmışdır. Bu, böyük səhvdir. Ən böyük səhv isə sözsüz ki, qeyri-ciddi, bu yüksək vəzifəyə əsla yaramayan adamın bir vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə birinci katib təyin edilməsi idi. Ancaq iş təkcə bununla bitmir. İndi yanvarın 19-dan 20-nə keçən gecə baş vermiş və bu gün də davam edən faciənin üstündə dayanmaq istəyirəm. Hesab edirəm ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur. Təəssüf ki, Azərbaycan rəhbərliyi, həmçinin ölkənin ali siyasi rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir”.

Sov.İKP sıralarını tərk edən ulu öndər özünün partiya ilə əlaqələrinin qırılmasını belə izah etmişdi: “Mən Kommunist Partiyasına xeyli güc və enerji sərf etmişəm. Mən SSRİ-nin rəhbərlərindən biri olmuşam. Lakin əmin olanda ki, bu quruluşun məhvi labüddür, partiya dönükdür və açıq-aydın xalqın əleyhinədir, mən onun sıralarını heyifsilənmədən tərk etdim. Azadlıq və demokratiya ideallarına xidmət naminə tərk etdim”. Artıq Heydər Əliyev Moskvada qala bilməzdi. Ulu öndəri ölkənin gələcək müqəddəratının həll olunduğu Vətən, coşqun siyasi hadisələrin mərkəzi özünə sarı çəkirdi. Heç bir vəzifəsi olmadığı və fəal siyasətdən kənarda qaldığı illərdə də hörmət və ehtiramla qarşılanan növbəti addımı onun Moskvadan Azərbaycana qayıtmaq barədə qərarı idi. Azərbaycan həmin dövrdə çox ağır günlərini yaşayırdı. SSRİ-nin dağılmasından sonra Azərbaycan ağır bəlalarla üzləşmiş, parçalanmaq təhlükəsi qarşısında qalmışdı. Ona görə də Heydər Əliyev həmin çətin məqamda öz xalqının yanında olmağı məqsədəuyğun saydı və Moskvadan Azərbaycana qayıtdı. Amma Heydər Əliyev Moskvada nə qədər təhdid və təzyiqlər altında yaşayırdısa, Azərbaycanda da onu xalqa zidd hakimiyyət tərəfindən bir o qədər təzyiq və hədələr gözləyirdi. Hətta ulu öndərin siyasi dəst-xəttinə və dövlətçilik təcrübəsinə açıq rəğbət göstərən tanınmış yazıçı Əjdər Xanbabayevin qətlə yetirilməsi ilə Heydər Əliyevə xəbərdarlıq edilmişdi. Ancaq böyük siyasətçinin öz xalqına inamı, eyni zamanda, xalqa bağlılığı tam qarşılıqlı idi. Xalq ona inanır, öz böyük oğlunu bütün təhlükələrdən qorumağa hazır olduğunu bildirirdi. Məhz həmin inamın nəticəsində Heydər Əliyev 1990-cı il iyulun 20-də təyyarə ilə Bakıya gəldi. İki gün sonra - iyulun 22-də isə səhər saatlarında ulu öndər hakimiyyətin təhdidləri nəticəsində Bakıdan Naxçıvana getməyə məcbur oldu. Bu, böyük qayıdışın başlanğıcı idi. Heydər Əliyevin Moskvadan Naxçıvana qayıdışı, o dövrün bəzi qəzetlərində yazıldığı kimi, əyalət mərkəzinə yox, Vətənə, böyük siyasətə fəal şəkildə, birmənalı, ardıcıl, qətiyyətli qayıdış idi.

Azərbaycanın siyasi tarixində özünə parlaq iz qoymuş bu böyük şəxsiyyətin Naxçıvanda yenidən siyasi hakimiyyətə qayıdışı, sıravi deputat, sonralar isə Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi fəaliyyət göstərməsi Naxçıvandan başlanan müstəqillik yolunun bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı. Ulu öndər 1990-cı ilin payızında keçirilən seçkilərdə Naxçıvan və Azərbaycan parlamentinə deputat seçildi. 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymətin verilməməsi onu ciddi narahat edirdi. 1990-cı ilin noyabr ayında ulu öndərin böyük siyasi nüfuzu sayəsində 20 Yanvar faciəsinə prinsipial qiymət verilməsi məsələsi yenidən gündəmə gəldi. Bu mənada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasının noyabrın 21-də keçirilən iclası yadda qaldı. Heydər Əliyev xalq deputatı kimi “1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında” qərar layihəsini işləyib Ali Məclisin müzakirəsinə təqdim etdi. Sessiyadakı çıxışında xalqımızın hərbi, siyasi, mənəvi təcavüzə məruz qalmasından narahatlıqla danışan Heydər Əliyev ürək yanğısı və qətiyyətlə deyirdi: “Başımıza böyük bəla gəlib, millət əzilib, millətə qarşı təcavüz olub, ancaq indiyə qədər Azərbaycan xalqının həyatında baş vermiş bu faciəli hadisəyə qiymət verilməyib... Bu qədər qanunsuzluğa, demokratiyanın pozulmasına dözmək olmaz. Bu məsələyə biz özümüz siyasi qiymət verməliyik, respublikanın ali hakimiyyət orqanından tələb etməliyik ki, bu məsələyə baxsın və günahkarlar cəzalandırılsın”. Heydər Əliyevin xalqın milli faciəsi ilə bağlı qaldırdığı taleyüklü məsələ xalq deputatları tərəfindən qətiyyətlə

müdafiə olunurdu. Naxçıvan Ali Məclisinin birinci sessiyasında "1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar qəbul edildi. Naxçıvan MR Ali Məclisinin 21 noyabr 1990-cı il tarixli qərarında göstərilirdi:

"Yanvar faciəsinin səbəkarlarının - istər İttifaq, istərsə də respublika rəhbər partiya, sovet, hüquq-mühafizə orqanı işçilərinin, hərbçilərin bu günədək aşkar edilib qanunla məsuliyyətə cəlb olunmaması xalqda dərin hiddət və etiraz doğurmuşdur.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bütün bunları işğalçı siyasət və dəqiq düşünülmüş hərbi təcavüz kimi qiymətləndirərək insan hüquqları bəyannaməsinin kobud şəkildə pozulması kimi nəzərdə tutularaq qərara alır:

1. 1990-cı ilin yanvar ayında Bakı şəhərində törədilmiş qanlı hadisələr Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirilsin.

2. Dinc əhaliyə, silahsız kütləyə, heç bir müqavimət göstərməyən günahsız adamlara qarşı müasir silahla, hərbi texnika ilə zorakılıq edilməsi, qocaların, qadınların, uşaqların qətlə yetirilməsi Azərbaycan xalqına qarşı açıq təcavüz kimi ittiham edilsin.

3. Bir ilə yaxın vaxt keçməsinə baxmayaraq, Bakı faciələrinə Azərbaycan SSR ali hakimiyyət orqanları tərəfindən siyasi qiymət verilməməsi, bununla əlaqədar yaradılmış Xüsusi Deputat Komissiyasının işinin qeyri-müəyyən səbəblərdən başa çatdırılmaması qanlı hadisələrin günahkarlarının aşkara çıxarılıb qanuni məsuliyyətə verilməməsinə qəti eiraz olunsun.

Azərbaycan SSR Ali Sovetindən tələb edilsin ki, ən qısa müddətdə həmin məsələni parlamentin müzakirəsinə çıxarsın.

4. Bu qərar qəbul edilən andan 20 Yanvar günü hər il Naxçıvan Muxtar Respublikasında Milli Matəm Günü kimi qeyd edilsin.

5. Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin ki, 20 Yanvar günü hər il Azərbaycan SSR-də Milli matəm kimi qeyd edilsin".

Göründüyü kimi, qərarda 20 Yanvar hadisələri Azərbaycanın suveren hüquqlarına, dinc əhaliyə, heç bir müqavimət göstərməyən günahsız adamlara, Azərbaycan xalqına qarşı açıq təcavüz kimi qiymətləndirilir. Həmçinin Azərbaycanın o vaxtkı rəhbərliyinin cinayətkar fəaliyyəti bir daha qeyd olunaraq deyilir ki, Qanlı Yanvar hadisələrinin günahkarlarını üzə çıxarmaq, hadisələri təhlil etmək və siyasi qiymət vermək üçün respublika əhalisinin təkidli tələbinə baxmayaraq faktiki olaraq faciədən ötən müddət ərzində heç bir tədbir görülməmişdir. Qəribə idi ki, respublika Ali Sovetinin yanvar hadisələrini təhqiq etməli olan komissiyası da öz işi ilə məşğul olmamışdır. Respublika rəhbərliyinin bu etinasızlığı haqlı olaraq xalqda hiddət və etiraz doğururdu.

Ulu öndər Heydər Əliyev Azərbaycan xalqına qarşı soyqırımı siyasətini həyata keçirməyə rəvac verənlərlə mübarizəsini ona qarşı az qala, düşmən mövqedə duran Ali Sovetdə və digər istiqamətlərdə də davam etdirir, böyükdən kiçiyə qədər hər kəsə məlum olan qatillərin hüquqi müstəvidə aşkar olunmasını, faciəyə siyasi qiymətin verilməsini tələb edirdi. Heydər Əliyev Azərbaycan SSR Ali Sovetinin 7 mart 1991-ci il tarixli sessiyasındakı çıxışında deyirdi: "1990-cı il yanvarın 20-də İttifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edilmişdir. Heç bir əsas olmadan, xəbər vermədən, dövlət qanunlarını kobudcasına pozaraq Bakı şəhərinə müasir silahlı sovet ordusunun qoşun hissələri yeridilmiş, onlar vəhşilik, qəddarlıq etmiş, nəticədə nahaq qan tökülmüş, yüzlərlə adam həlak olmuş, xəsarət almış, itkin düşmüşdür. Təəssüf ki, bu təcavüz indiyə qədər davam edir. Bir ildən artıqdır ki, Azərbaycanın paytaxtı fövqəladə vəziyyət şəraitində yaşayır. Bizim sessiyamız da bu şəraitdə keçirilir. Bir ildən artıqdır ki, Azərbaycan xalqı şəhidlərə matəm saxlayır. Respublikanın şəhərlərində, qəsəbələrində, kəndlərində şəhidlərin xatirəsinə abidələr ucaldılır. Fəqət, qatillər indiyə qədər aşkar olunmayıb. Buna heç vəchlə bəraət qazandırmaq olmaz. Bu məsələ müzakirə olunmalıdır. 20 Yanvar faciəsinə Ali Sovetin sessiyası siyasi qiymət verməlidir, onun günahkarlarını müəyyən etməlidir". Heydər Əliyev 1991-ci il iyunun 19-da SSRİ Nazirlər Sovetinə göndərdiyi məktubunda yazırdı: "Yanvar hadisələrində yüzlərlə adam öldürüldü və şikəst edildi. Artıq il yarım keçib. Nəinki bu dəhşətli cinayətlərin hamıya çoxdan məlum olan günahkarları üzə çıxarılmayıb, əksinə, bunları ört-basdır etmək üçün əllərindən gələni edirlər. Ümid edirlər ki, zaman keçdikcə bu faciə unudulacaq. Ancaq tarix dəfələrlə sübut etmişdir ki, doğma xalqa qarşı yönəldilmiş qanlı cinayətləri on illər keçsə də, unutmaq və bağışlamaq mümkün deyil". Azərbaycan Respublikası Ali Sovetinin 29 avqust 1991-ci il tarixli sessiyasındakı çıxışında isə Heydər Əliyev deyirdi: "20 Yanvar faciəsi dövründən il yarımdan çox vaxt keçir. Bu gün burada da, bu salonda cürbəcür söhbətlər gedir. Bir qrup bir fikirdədir, məndən qabaq çıxış edən Rəhimov başqa fikirdədir. Mən sual verirəm: Ali Sovetin sədri Elmira Qafarovaya, Azərbaycan prezidenti Ayaz Mütəllibova: nə üçün indiyə qədər bu

məsələyə siyasi qiymət verilməyib? Bu məsələnin həm siyasi tərəfi var, həm hüquqi tərəfi var. Bu məsələyə dərhal siyasi qiymət vermək olardı. O ki qaldı hüquqi cəhəti, ayrı-ayrı adamların məsuliyyətə cəlb olunması, onu şübhəsiz ki, istintaq yolu ilə aydınlaşdırmaq lazımdır. Buna siyasi qiymət verilmədiyinə görə başqa tədbirlər həyata keçirmək mümkün olmur".

Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinə tam siyasi-hüquqi qiymətin verilməsi vəzifəsinin qarşıya qoyulması günün tələbi idi. Ulu öndər dövrün mürəkkəbliyinə və görüləsi işlərin çoxluğuna baxmayaraq, tariximizin şanlı və qanlı səhifəsi sayılan 20 Yanvar faciəsinin başvermə səbəblərini və günahkarlarının araşdırılması ilə də məşğul oldu. 1994-cü il yanvarın 5-də 20 Yanvar faciəsinin dördüncü ildönümünün keçirilməsi ilə bağlı verdiyi fərmanda Milli Məclisə faciəyə tam siyasi-hüquqi qiymət verməsi tövsiyə olunurdu. Yalnız bundan sonra aparılan araşdırmalar nəticəsində məlum oldu ki, 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməməsində maraqlı olan qüvvələr var imiş. 1991-1993-cü illərdə hakimiyyətdə qalmaq istəyən iqtidar, hakimiyyətə gəlmək istəyən müxalifət nümayəndələri bu dəhşətli faciədən yararlanmaq istəyirmişlər. Heydər Əliyev 1994-cü il yanvarın 12-də dövlət komissiyasının geniş iclasında Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının 1992-ci il 19 yanvar tarixli qərarını xatırladaraq bu qərarda yanvar hadisələrinin əsl səbəblərinin açıqlanmadığını, həqiqi günahkarların aşkar edilmədiyini, iki il ərzində həmin qərarın özünün yerinə yetirilmədiyini nəzərə çatdırdı. Respublika səviyyəsində 20 Yanvar faciəsinə tam siyasi-hüquqi qiymətin verilməməsini ciddi tənqid edən Heydər Əliyev 1992-ci ildə Milli Şura tərəfindən qəbul edilmiş səthi və başdansovdu qərarın xalqa xəyanət olduğunu bəyan etdi: "Bu qərarı oxuyanda doğrusu, çox həyəcanlandım. Düşündüm ki, Milli Şura nə üçün öz millətinin, öz xalqının aqibətinə, taleyinə bu qədər biganə qalıb? Qərarı oxuyandan sonra bir daha qəti fikrə gəldim ki, bu faciəyə, bu hadisəyə niyə indiyə qədər siyasi qiymət verilməyib... Mənim fikrim belədir ki, bu qərarın qəbul edilməsi Azərbaycan xalqına bəlkə də 20 yanvar 1990-cı ildə olan faciə kimi böyük xəyanətdir. İki il keçəndən sonra deputat-istintaq komissiyasının ortaya bir şey çıxarmaması, boş-boş sözlərlə camaatı aldatması, qərarda bu komissiyanın işinin qənaətbəxş hesab edilməsi yenə də deyirəm, xəyanətdir".

1994-ci il martın 29-da Milli Məclis tərəfindən "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" adlı xüsusi qərar qəbul edildi. Qərarda 1990-cı ilin 20 Yanvar hadisələri Azərbaycanda vüsət almış milli-azadlıq hərəkatını boğmaq, demokratik və suveren bir dövlət amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və belə bir yola qədəm qoyan xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. Xalq hərəkatını boğmaq ucun 20 Yanvar faciəsini təşkil etmiş Sovet İttifaqı Kommunist Partiyası, sovet dövləti və hökuməti rəhbərliyinin, o cümlədən şəxsən Mixail Qorbaçovun Azərbaycan xalqına qarşı ağır cinayət törətdiyi qeyd olunmuşdur. Eyni zamanda, xalqa qarşı törədilən hərbi təcavüzə görə məsuliyyətin o dövrdəki respublika rəhbərliyinin üzərinə düşdüyü, onların Azərbaycan xalqına xəyanət etdikləri qeyd olunmuşdur. Beləliklə, Heydər Əliyevin təkidi və təşəbbüsü sayəsində xalqımıza qarşı törədilən bu qanlı və qəddar aksiyaya siyasi-hüquqi qiymət verildi.

"20 Yanvar şəhidi" fəxri adının təsis edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti 31 mart 1998-ci il tarixdə fərman imzalamışdır. 29 dekabr 1998-ci ildə "20 Yanvar şəhidi" fəxri adı haqqında Əsasnamə təsdiq edilmişdir. 1990-cı il yanvarın 20-də keçmiş SSRİ silahlı qüvvələrinin Bakıya və respublikanın bir neçə rayonuna hərbi təcavüzü zamanı həlak olmuş insanlara "20 Yanvar şəhidi" fəxri adı verilmişdir. Heydər Əliyev 20 Yanvar faciəsinin bütün dünyada tanıdılmasına, hər zaman şəhidlərin xatirəsinin əziz tutulmasına diqqətlə yanaşırdı. Bakının ən uca nöqtəsində yerləşən Şəhidlər xiyabanında Azərbaycanın azadlığı uğrunda şəhid olanların xatirəsinə ucaldılmış möhtəşəm "Əbədi məşəl" abidə-kompleksi də məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü və qayğısı ilə tikilib.

Ulu öndərin bütün sahələrdə siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev şəhidlərin xatirəsinin uca tutulmasına, şəhid ailələrinin sosial məsələlərinin həll edilməsinə xüsusi diqqət göstərir, hər il yanvarın 20-də Şəhidlər xiyabanını ziyarət edərək "Əbədi məşəl" abidə kompleksinin önünə əklil qoyur. Dövlət başçısı 2004-cü ildə 20 Yanvar faciəsinin 14-cü ildönümünün keçirilməsi ilə bağlı sərəncamında bildirirdi ki, Azərbaycan övladları 1990-cı il yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar: "Həmin gün respublikada haqq-ədalətin bərqərar edilməsi tələbləri ilə çıxış edən Azərbaycan xalqının inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq məqsədilə totalitar sovet rejiminin həyata keçirdiyi terror aktı nəticəsində bəşər tarixində insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri baş verdi. Yüzlərlə günahsız insan yaralandı və qətlə yetirildi. Ən ağır sınaqlara sinə gərmək əzmini bütün dünyaya nümayiş etdirən Azərbaycan övladları 1990-cı il yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar". Prezident İlham Əliyev 1990-cı ilin yanvarında şəhid olmuş oğul və qızlarımızın xatirəsinin əbədiləşdirilməsi,

adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi üçün mühüm qərarlar vermişdir. Dövlət başçısının 19 yanvar 2006-cı il tarixli "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" fərmanı ilə şəhid ailələrinə dövlət qayğısını artırmaq məqsədilə təqaüd verilir.

Bu gün Bakıda hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş bir yer var. Bu, 20 Yanvar faciəsi qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər xiyabanıdır.

Hər il olduğu kimi, bu il də Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin sərəncamı ilə 20 Yanvar faciəsinin ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq edilib. Sənəddə respublikanın şəhər və rayonlarında, o cümlədən idarə və təşkilatlarda 20 Yanvar hadisələri ilə bağlı konfrans, toplantı və mühazirələrin təşkili, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşaların göstərilməsi, bədii və sənədli filmlərin nümayiş etdirilməsi, bu tədbirlərin kütləvi informasiya vasitələrində geniş işıqlandırılması, dünya ictimaiyyətinin diqqətini faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri, diaspor qurumları və icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar faciəsi barədə materialların verilməsi nəzərdə tutulub.

Tədbirlər planına əsasən, respublikanın bütün tədris müəssisələrində faciəyə həsr edilmiş xüsusi dərs aparılır, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardım verilir, Şəhidlər xiyabanı ərazisində lazımi işlər görülür, Azərbaycanda təmsil olunan əsas dini konfessiya və qurumlar tərəfindən faciə qurbanlarının xatirəsinə dini mərasimlər təşkil edilir.

Sərəncamda paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər xiyabanına ziyarətinin təşkili, saat 12.00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, gəmilər, avtomobillər və qatarlar vasitəsilə səs siqnallarının verilməsi, gün ərzində Şəhidlər xiyabanında matəm musiqisinin səsləndirilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində hüzn əlaməti olaraq dövlət bayraqlarının endirilməsi və digər tədbirlər keçirilir.

1990-cı ilin Qanlı Yanvar hadisəsi Azərbaycan xalqı üçün təkcə böyük faciə deyildir. O, ləyaqətini qorumaq üçün hər cür qurban verməyə hazır olan xalqın tarixində şərəfli bir səhifədir. 20 Yanvar faciəsi, eyni zamanda, həm ümumxalq faciəsi, həm də müstəqillik, istiqlal uğrunda xalqımızın apardığı milli azadlıq hərəkatının zirvəsi kimi Azərbaycan tarixinə həkk olunub. Ümummilli lider Heydər Əliyevin söylədiyi kimi, bu təcavüz xalqımızı mənəvi cəhətdən çox sarsıtsa da, itkilərə məruz qoysa da, onun mənliyini tapdalaya bilmədi, qürurunu sındıra bilmədi, qəhrəmanlıq salnaməsinə yeni bir səhifə kimi yazıldı.

**"Azərbaycan".-**2016.- 20 yanvar.-№ 13.-S.4.

## 20 Yanvar - azərbaycançılıq tariximizin qəhrəmanlıq səhifəsi...

**İradə SARIYEVA**

**Azərbaycan tarixinin müxtəlif mərhələlərində ağır sınaq dövrləri olub, xalqımız öz azadlığı, müstəqilliyi uğrunda şəhidlər verib. XX yüzillikdə də Azərbaycan xalqı çoxlu bəlalarla, ağrı-acı ilə qarşılaşıb, torpaqlarımız təcavüzə məruz qalıb, respublikamızın paytaxtında daşnak və rus birləşmələrinin əli ilə nahaq qan tökülüb. XX əsrin 1990-cı ilinin ilk ayında baş verən faciə başımıza gətirilən növbəti bəla olmaqla, həm də xalqımızın ellikcə birləşib düşmənə müqavimət göstərməsinin nişanəsidir.**

Düşmən, şər çağırılmamış qonaq qismində qapımızı kəsib bizə divan tutanda elimizin vətənpərvər insanları düşmənə öz gücünü göstərmək məqsədilə meydanlara, küçələrə axışdı. Xalqın inadını, azadlıq istəyini, arzularını imperiya tankları qıra bilmədi, xalqımızın yolunda oğul və qızlarımız şəhid oldular. 1990-cı ilin 20 yanvar tarixində 26 il bundan əvvəl baş verən hadisə indi də yaddaşlarda, dərsliklərdə, rəsmi sənədlərdə, xatirə filmlərində, abidələrdə yaşayır. O günün yadigarı Şəhidlər Xiyabanıdır. Biz bu gün Şəhidlər Xiyabanını ən müqəddəs ocaq, pir, əzizlərimizin uyuduğu məkan kimi ziyarət edirik.

Qara Yanvar kimi tariximizə düşən 20 Yanvar hadisəsini uzun illərdir həm də qəhrəmanlıq salnaməmizə yazılan tarix hesab edirik.

**1990-cı ilin 20 yanvar günü...**

Bakı özünün ən şaxtalı, soyuqlu günlərindən birini yaşayırdı. Bir tərəfdən şəhərimizin üzərinə yeriyən tanklar, zirehli texnika, onun yaratdığı qorxu, həyəcan, o biri tərəfdən isə azadlıq, istiqlal istəyən xalqın təlatümə gələn arzusu. Hamı meydanlara axışmağa can atır, hər kəs nifrətini, qəzəbini yumruğa çevirib düşmən tankının önünə yerimək istəyir. Fikirləşirlər ki, bəlkə şəhərimizə qətl məqsədilə gələnlər camaatı əliyalın görüb atəş açmayacaqlar. Amma elə olmadı. Əliyalın insanlara güllə atıldı. Qara Yanvar günü beləcə başladı. İnsanlar şəhid oldu, Bakı özü də şahid şəhərə çevrildi, çünki hər şey gözləri qarşısında baş verirdi.

Bakı qana boyandı
İnsan qanına...
Yağılar zalım olub
Qıydı insan canına...

Azərbaycanın dövlətçilik tarixində, azərbaycançılıq ruhunun inkişafında, milli vətənpərvərlik hisslərinin yaranmasında 20 Yanvar hadisəsi və şəhidlərimiz böyük örnəkdir.

**Tarixdən səhifələr...**

20 Yanvar qurbanlarından yazan tarixçilər qeyd edir ki, 1987-ci ilin oktyabrında ermənilərin Azərbaycana qarşı torpaq iddialarının həyata keçirilməsinə mane olan Heydər Əliyev Sov. İKP MK Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən uzaqlaşdırıldı. Heydər Əliyevin SSRİ rəhbərliyindən kənarlaşdırılmasından dərhal sonra ermənilər Mixail Qorbaçovun xeyir-duası ilə Qarabağ avantürasına start verdilər. Tədqiqatçılar qeyd edir ki, 1988-ci il fevralın 20-də Ermənistanın bilavasitə müdaxiləsi ilə DQMV Xalq Deputatları Sovetinin iclası keçirildi. Sovetin tərkibindəki 140 deputatdan 110-u erməni, digərləri isə azərbaycanlılar idi. Azərbaycanlı deputatlar yığıncağa buraxılmadılar. İclasda DQMV-nin Azərbaycan SSR-dən Ermənistan SSR-ə verilməsi haqqında Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetlərinə müraciət edildi. 1988-ci il fevralın 25-də Georgi Şahnazarovun və Aleksandr Yakovlevin müşayiəti ilə Sov.İKP MK-nın baş katibi Mixail Qorbaçov Silva Kaputikyanı və Zoriy Balayanı qəbul edib. Onlar M.Qorbaçova saxta xəritələr və tarixi arayışlar təqdim etmiş, onu DQMV-nin Azərbaycanın tərkibində qalmasının mümkünsüzlüyünə inandırmağa çalışmışlar...

Tarixçilər yazır ki, milli ədavətin ilk qurbanları Ermənistanda yaşayan azərbaycanlılar oldu. 1988-ci ilin yanvarında Qafan və Mehridən ilk qaçqınlar Azərbaycana pənah gətirdi. 1988-ci il fevralın 19-da İrəvanda "Ermənistan türklərdən təmizlənməli!", "Ermənistanda yalnız ermənilər yaşamalıdır" kimi mənfur şüarlarla

mitinqlər keçirilirdi. Elə həmin gün Bakıda da antiermәni ruhlu kütləvi mitinq təşkil olundu. 1988-1989-cu illərdə Ermənistan ərazisində azərbaycanlılara qarşı son etnik təmizləmə həyata keçirildi. Beləliklə, Ermənistandakı 185 Azərbaycan kəndindən 230 min azərbaycanlı qovuldu. Deportasiya zamanı 255 nəfər öldürüldü, 1200 adam yaralandı, 31 min ev, 165 kolxoz və sovxozun əmlakı talan edildi. Bu olaylara Moskva göz yumur, M.Qorbaçov məkrli bəyanatlar verir, Azərbaycanın o zamankı rəhbərləri isə səriştəsiz mövqe nümayiş etdirirdilər. Tədqiqatçılar yazır ki, Ermənistanın ərazi iddiaları və Dağlıq Qarabağda separatçılıq hərəkatı 1988-ci ildə respublikanın ərazi bütövlüyünün müdafiəsi uğrunda kütləvi xalq hərəkatının yaranmasına gətirib çıxardı. Respublikada milli mənlik şüurunun daha da güclənməsi və demokratik proseslərin inkişafı 1989-cu ilin sentyabrında Azərbaycan Ali Sovetinin "Azərbaycan SSR-in suverenliyi haqqında" Konstitusiya Qanunu qəbul etməsi ilə əlamətdar olub. Tədqiqatçıların araşdırdığı sənədlərdən oxuyuruq: "1989-cu ilin sonu, 1990-cı ilin yanvarında Azərbaycanda ictimai-siyasi vəziyyət xeyli kəskinləşdi, qarşıdurma dərinləşdi, mövcud iqtidarın hadisələrə nəzarəti son dərəcədə zəiflədi. Hakimiyyət böhranı və respublikadakı hadisələrə nəzarətin tam itirilməsi bunda təzahür etdi ki, Dağlıq Qarabağda və Ermənistanla sərhəddə erməni yaraqlılarının qanlı əməllərinin ardınca Cəlilabad və Lənkəran rayonlarında sovet və partiya orqanları devrildi, İranla sərhəddəki istehkamlar dağıdıldı...1990-cı il yanvarın 16-da Bakı şəhərinin girəcəklərində və Bakı qarnizonu hissələrinin ətrafında vətəndaşlar yük və minik avtomaşınlarını yan-yana qoyaraq piketlər təşkil etdilər (bilavasitə şəhərdə 60 qoşun hissəsindən 34-nün yolu kəsilib). Piketlərin ətrafında daim şəhər sakinlərinin böyük dəstələri olurdu. 1990-cı il yanvarın 18-də Bakıda və Azərbaycanın on bir başqa rayonunda keçirilən izdihamlı mitinqlərdə ümumi tətilin başlandığı elan olundu. Tələb edilirdi ki, qonşu respublikanın ərazi iddialarına son qoyulsun. Bakı ətrafında cəmləşən qoşunlar çəkilib aparılsın və Dağlıq Qarabağa, Ermənistanla sərhədyanı rayonlara göndərilsin. Xəbərdarlıq edilirdi ki, qadağan saatının qoyulması ağır nəticələr verə bilər. Mitinqçilər Azərbaycan KP MK-nın binasını mühasirəyə almışdılar. 1990-cı il yanvarın 19-da Mixail Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı".

**Bakıda müsibət...**

Tədqiqatçılar yazır ki, 1990-cı il yanvarın 19-u saat 19:27-də SSRİ DTK-nın "Alfa" qrupu və respublika DTK-sının rəhbərliyi tərəfindən təşkil edilən əməliyyat nəticəsində respublika televiziyasının enerji bloku partladılmışdı ki, Bakıda fövqəladə vəziyyət elan edilməsi və qoşunun şəhərə girməsi barədə əhaliyə rəsmi məlumat çatdırılmasın. Halbuki, həmin vaxt 26 yerdə piketlər, barrikadalar qurulmuş, şəhərdəki 60 qoşun hissəsindən 34-nün, o cümlədən Salyan kazarmasının giriş-çıxış yolu kəsilmişdi. Xalq Cəbhəsinin bəzi liderləri əhaliyə dağılmağı, bəziləri isə müqavimət göstərməyi məsləhət görürdü.

Tarixçilər yazır ki, SSRİ Müdafiə Nazirliyinin, DİN və DTK-nın hazırlayıb həyata keçirdiyi "Udar" adlı əməliyyatda əsas rolu xüsusi təyinatlı "Alfa" və SSRİ DTK-nın "A" təxribat qrupları oynayırdı. Yanvar hadisələri zamanı Bakıya yeridilən hərbi qruplaşmanın tərkibinə 76, 104, 106-cı qvardiya hava-desant diviziyalarının üç alayı, 295-ci motoatıcı diviziya, xüsusi təyinatlı 22-ci briqada, Qara dəniz donanması dəniz piyadalarının 882-ci taboru, DTK-nın 7-ci idarəsinin xüsusi təyinatlı "Alfa" qrupu və s. hərbi hissələr daxil idi. Yanvarın 19-da gecə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və əhaliyə divan tutdu. Mixail Qorbaçovun fərmanı qüvvəyə minənədək (20 yanvar, saat 00:00) artıq 9 nəfər öldürülmüşdü. Tanklar və BTR-lər Bakı küçələrində qarşılarına çıxan hər şeyi əzir, hərbçilər hər yanı amansız atəşə tuturdular. İnsanlar nəinki küçələrdə, hətta avtobusda gedərkən, öz mənzillərində oturduqları yerdə güllələrə tuş gəlirdilər. Yaralıları aparmağa gələn təcili yardım maşınlarını və tibb işçilərini də atəşə tuturdular.

Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Halbuki, Mixail Qorbaçovun Azərbaycana ezam etdiyi yüksək vəzifəli emissarlar həyasızcasına bəyan edirdilər ki, Bakıda fövqəladə vəziyyət elan olunmayacaq.

Tədqiqatçılar yazır ki, beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və respublikanın rayonlarında 147 nəfər öldürülüb, 744 nəfər yaralanıb, 841 nəfər qanunsuz həbs olunub, onlardan 112 nəfəri SSRİ-nin müxtəlif şəhərlərinə aparılaraq həbsxanalarda saxlanıb. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları dağıdılıb, yandırıcı güllələrin törətdiyi yanğınlar nəticəsində külli miqdarda dövlət əmlakı və şəxsi əmlak məhv edilib.

Mətbuat tədqiqatçıları yazır ki, Qara Yanvar dövri mətbuatda geniş şəkildə işıqlandırılıb.

Bildiyimiz kimi, 20 Yanvar hadisəsinə hüquqi-siyasi qiymət Azərbaycanın sabiq Prezidenti mərhum Heydər Əliyev tərəfindən verilib. Məlumdur ki, xalqın bu ağır günlərində, 1990-cı il yanvarın 21-də Heydər Əliyev

Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, təşkil olunmuş yığıncaqda çıxış edərək, xalqla birgə olduğunu bildirdi, 20 Yanvar faciəsinə siyasi qiymət verdi, onun hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu, mərkəzin və o zamankı respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv olduğunu göstərdi. Bu tarixi çıxışın mətni dünyaya, respublikaya geniş yayıldı. Xalqın qəlbində ümid çırağı yandı.

Tarixi sənədlərdə qeyd edilir ki, 1992-ci il yanvarın 18-də Azərbaycan Respublikasının qanunu ilə "Şəhidlər günü" adı altında Azərbaycan Respublikasının Əmək Qanunları Məcəlləsinə əlavə edilmiş 66-1-ci maddənin adı (Maddə 66-1. Şəhidlər günü) və mətni 1999-cu ildə qüvvəyə minmiş Əmək Məcəlləsində tamamilə dəyişildi və yeni redaksiyada belə verildi: "Maddə 106. Ümumxalq hüzn günü.

Hər il yanvarın 20-si Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərin xatirəsini yadetmə günü - Ümumxalq hüzn günüdür. Bu gün iş günü hesab edilmir".

Tarixçilər yazır ki, Azərbaycan Respublikası Ali Sovetinin 1990-cı il 22 yanvar tarixli fövqəladə sessiyasında qəbul olunmuş qərarda SSRİ Ali Soveti Rəyasət Heyətinin 1990-cı il 19 yanvar tarixli fərmanı qanunsuz sayılmış, onun əsasında həyata keçirilən hərbi-siyasi tədbir suveren Azərbaycan Respublikasına təcavüz kimi, Bakı şəhərinin yüzlərlə sakininin həlakına və yaralanmasına səbəb olmuş hərbi qulluqçuların hərəkətləri isə Azərbaycan xalqına qarşı cinayət kimi qiymətləndirilib. Respublika Ali Sovetinin həmin sessiyasında yanvar faciəsinin təhqiqi üzrə deputat-istintaq komissiyası yaradılıb, komissiyanın tərkibinə Azərbaycan Xalq Cəbhəsinin nümayəndələri də daxil edilmişdi. M.T.Abasov komissiyanın sədri, T.Y.Qarayev sədrin müavini təsdiq edilmişdi. Komissiya deputatların iştirakı ilə sorğular keçirmiş, Əbdürrəhman Vəzirov, Viktor Polyaniçko, Əfrand Daşdəmirov, Həsən Həsənov, Rafiq Zeynalov, Rafiq Əliyev, Elmira Qafarova, Ayaz Mütəllibov, Aydın Məmmədov, Vaqif Hüseynov, N.Kərimov, Əbülfəz Əliyev, Hikmət Hacızadə, Sabit Bağırov, İsa Qəmbərov, Nəcəf Nəcəfov, Tofiq Qasımov, Sabir Rüstəmxanlı, Firudin Səməndərov sorğu-sual edilmişlər.

Tarixçilər yazır ki, 1990-cı il yanvarın 19-20-də Bakı şəhərinə qoşunların yeridilməsi ilə əlaqədar faciəli hadisələrin təfsilatının və səbəblərinin təhqiqi üzrə Azərbaycan Respublikası Ali Sovetinin deputat-istintaq komissiyasının yaradılmasına və Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının 19 yanvar 1992-ci il tarixli iclasında həmin komissiyanın işinin yekunlarının müzakirə edilməsinə baxmayaraq, 1994-cü ilə qədər bu məsələyə siyasi-hüquqi qiymət verilməyib. Yalnız Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan Respublikası Milli Məclisinin 29 mart 1994-cü il tarixli iclasında 1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr müzakirə edilmiş və bu hadisələrə siyasi-hüquqi qiymət verilib.

Tədqiqatçılar qeyd edir ki, 20 Yanvar hadisəsi xalqımızın yaddaşına qanlı faciə kimi daxil olsa da, bütövlükdə milli tariximizin ən şanlı və qəhrəmanlıq səhifələrindən birini təşkil edir. Məhz 20 Yanvardan başlayaraq Azərbaycan xalqı SSRİ-nin tərkibində ədaləti bərpa etməyin qeyri-mümkünlüyü və milli haqlarımıza obyektiv yanaşma nümayiş olunacağına öz inamını birdəfəlik itirdi. Hakimiyyətin mənbəyi sayılan və öz hüquqları uğrunda düşüncəsi, fikri, sözü, həmrəyliyi ilə mübarizəyə qaldı xalq.

Məlum olduğu kimi, Bakı şəhərinin ən hündür yerində yerləşən Şəhidlər Xiyabanında Azərbaycanın azadlığı uğrunda mübarizədə şəhid olanların xatirəsinə ucaldılmış möhtəşəm "Əbədi məşəl" abidə-kompleksi də Heydər Əliyevin təşəbbüsü ilə tikilib. Azərbaycan Prezidentinin 2000-ci il, yanvarın 17-də imzaladığı Fərmanla 1990-cı il 20 Yanvar faciəsi zamanı şəhid olanlara "20 Yanvar şəhidi" fəxri adı verilib.

Bu gün Azərbaycan xalqı azadlıq uğrunda canlarını qurban edən şəhidlərimizin və cəsur Vətən övladlarının qəhrəmanlıq mübarizəsini çox böyük hörmət və ehtiramla əziz tutur, onların igidliyini yüksək qiymətləndirir. Tarixçilər qeyd edir ki, şəhidlərimizin qanı bahasına qazanılan müstəqilliyimizi qanımızla və canımızla qorumalı, Heydər Əliyevin dediyi kimi, onu daimi, əbədi və dönməz etməliyik.

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**“Bakı Xəbər”**.-2016.-19 yanvar.-№ 10.-S.15.

## Qəhrəmanlıq salnaməsinin parlaq səhifəsi

**Tağı ƏHMƏDOV,**
YAP Yasamal Rayon Təşkilatının sədri

**...O müdhiş gecədən, qanlı şənbədən bizi 26 illik bir zaman məsafəsi ayırır. Amma baş vermiş faciənin ağrı-acısını, törədilmiş cinayətin amansızlığını nə vaxtın axarı unutdura bilir, nə də tarixin gedişi...1990-cı ilin 20 yanvarı xalqımızın yaddaş salnaməsinə əbədi olaraq hüzn və qürur anı kimi həkk olunmuşdur. Hüznümüz - həmin gün həyatını itirmiş həmvətənlərimizin nakam taleyi, günahsız insanların vəhşicəsinə qətlə yetirilməsi ilə bağlıdırsa, qürurumuz azadlıqsevər xalqımızın mübarizə ruhunun ən zəhmli hərbi güc, ən qorxunc döyüş silahları qarşısında belə əyilməzliyindən qaynaqlanır.**

Keçmiş SSRİ dövlətinin süqutu siyasi hakimiyyətin şəriksiz sahibi olan Kommunist Partiyasına M.Qorbaçov kimi avantürist və karyerist bir adamın gətirilməsi ilə başlandı. Onun "yenidənqurma" adı ilə həyata keçirdiyi siyasət sovet cəmiyyətinin uzun illər ərzində möhkəmlənmiş sütunlarını elə sarsıtdı ki, xalqların "könüllü ittifaqı" çox sürətlə çat verdi. Bu ittifaqın üzvü olmasına baxmayaraq, daim öz qonşularının torpaqlarına göz dikən namərd ermənilər belə bir vaxtda öz mənfur niyyətlərini gerçəkləşdirmək, Qarabağı inzibati cəhətdən Azərbaycandan ayırmaq fürsəti qazandıqlarını düşündülər. Onların bu məsələni aktuallaşdırmaq cəhdlərinə sovet hökumətinin məsuliyyətsiz münasibəti xalqımızı real təhlükə qarşısında səfərbər olmağa, öz mənafeyini qorumağa məcbur edirdi. Ulu Öndər Heydər Əliyevin 1970-80-ci illərdə respublikamızda apardığı siyasət nəticəsində milli özünüdərk prosesinin başlanması, xalqımızın milli mənlik şüurunun yetkinləşməsi xəyanətkar qonşuların düşmənçilik iddialarına qarşı mübarizə aparmaq üçün yaxşı bir zəmin oldu.

Belə bir fakt danılmazdır ki, erməni millətçilərinin tarixən xəyallarında qurduqları "Böyük Ermənistan" planını yenidən işə salmaq cəhdləri Azərbaycanın dahi oğlu Heydər Əliyevin siyasi hakimiyyətdən uzaqlaşdırılmasından sonra rəvac tapa bilmişdi. SSRİ kimi çoxmillətli, nəhəng bir dövlətdə bir türk oğlunun qazandığı ümumxalq məhəbbəti, onun ağlı, zəkası və qətiyyəti özünü sərsəm çıxışları və mənfur əməlləri ilə ölkədə gözdən salmış, erməni mafiyasının təsiri altına düşmüş M.Qorbaçovda kəskin həsəd və paxıllıq hissi ilə yanaşı, həm də qorxu yaradırdı. O zaman aparıcı xarici dövlətlərin beyin mərkəzləri apardıqları təhlillər əsasında belə qənaətə gəlirdilər ki, Heydər Əliyev SSRİ-ni iflasdan xilas edib onu qoruya biləcək yeganə siyasi liderdir.

Ulu Öndərimizin 1987-ci ildə ali dövlət hakimiyyətindən uzaqlaşdırılmasından bir gün sonra M.Qorbaçovun iqtisadi məsələlər üzrə məsləhətçisi, Moskvadakı erməni mafiyasının başçılarından olan akademik Aqanbekyanın Fransanın "Humanite" qəzetində müsahibəsi çıxdı. Bu bədnam iqtisadçı alim müsahibədə iddia edirdi ki, Dağlıq Qarabağ iqtisadi cəhətdən Ermənistana yaxındır. Məhz bu iddia az sonra Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi uğrunda separat çıxışların ideoloji əsasını təşkil etdi.

Erməni millətçilərinin Azərbaycana qarşı təxribat planlarını həyata keçirmək üçün əməli fəaliyyətə keçmələri də məhz bundan sonra başlandı. Xankəndidə, Göyçədə, İrəvanda biri-birinin ardınca soydaşlarımıza qarşı zorakılıqlar, qarət və qəsdlər törədildi, onların öz tarixi ata-baba yurdlarından qovulması ardıcıl xarakter aldı. Bütün bunlar sovet hökuməti başçılarının cinayətkar biganəliyi, laqeydliyi, Azərbaycana düşmən münasibəti fonunda həyata keçirilirdi.

Ermənistanda və Dağlıq Qarabağda soydaşlarımıza qarşı davamlı olaraq törədilən cinayətlər, getdikcə daha da şiddətlənən ərazi iddiaları xalqımızın kəskin etirazına səbəb olur, özünümüdafiə tədbirləri görməsi zərurəti, öz səsini dünyaya çatdırmaq zərurəti doğururdu. Dağlıq Qarabağdakı separatçılığa qarşı 1988-ci ilin noyabr-dekabr aylarında Bakıda ümumxalq mitinqlərinin keçirilməsi, 1989-cu il dekabrın 31-də Naxçıvanda Azərbaycan-İran sərhədində tikanlı məftillərin sökülərək Arazın o tayındakı soydaşlarımızla əlaqə yaradılması cəhdləri SSRİ rəhbərliyini hədsiz dərəcədə qəzəbləndirdi. Nəticədə Azərbaycanda xalq hərəkatının yatırılmasına əlverişli zəmin yaratmaq üçün SSRİ Dövlət Təhlükəsizlik Komitəsi öz agentləri vasitəsilə Bakıda, Lənkəranda, Cəlilabadda, Neftçalada və digər bölgələrdə təxribat və iğtişaşlar törətdi. 1990-cı ilin yanvar ayında Bakıya qoşun hissələrinin yeridilməsi barədə qərar da guya bu iğtişaşların qarşısını almaq məqsədilə qəbul edilmişdi.

SSRİ və Azərbaycan rəhbərliyinin nümayəndələri televiziya ilə çıxış edərək, Bakıda fövqəladə vəziyyət tətbiq olunmayacağı, hərbi qüvvələrdən istifadə edilməyəcəyi, dinc əhaliyə atəş açılmayacağı barədə vədlər versələr də, şəhəri mühasirəyə almış, özü də əksəriyyəti Stavropoldan gətirilmiş, qəzəbli və azğınlaşmış erməni saqqallılarından ibarət dəstələr və güclü döyüş texnikası bir neçə saat sonra xəbərdarlıqsız hərəkətə keçdilər. Sovet imperiyasının rəhbərləri yanvarın 19-dan 20-nə keçən gecə Bakıda küçə və meydanlara toplaşmış

azadlıqsevər insanlara atəş açılması barədə əmr verdilər, ordu dinc və günahsız əhaliyə qarşı döyüş əməliyyatına başladı.

O gecə törədilən vəhşi qırğının canlı şahidi kimi baş verənləri təfərrüatlı təsvir etmək bu gün də mənim üçün çox çətindir. On illər keçsə də, bu dözülməz faciəni - millətimizə qarşı törədilən qətliamı, qeyrətli, vətənpərvər soydaşlarımızın qanına qəltan edilməsini unutmaq mümkün deyildir.

Həmin vaxt mən metropolitendə distansiya rəisi vəzifəsində işləyir, eyni zamanda, xalq hərəkatına fəal dəstək verir, kollektivin milli mənafelərimizin qorunmasına səfərbər olunmasına çalışırdım. Faciə baş verən gecə mən “Elmlər Akademiyası” stansiyasında idim. Bəzi etirazçı qüvvələr metropolitenin də ümumrespublika tətilinə qoşulmasını istəsələr də, biz bütün kollektivin iş başında olmasını məqsədəuyğun saymışdıq və həmin gecəki hadisələr göstərdi ki, bu, çox düzgün qərar idi. Maşinistlər, növbətçilər, çilingərlər, bütün kollektiv iş başında idilər. Məzuniyyətdə, hətta xəstə olanlar da, heç kimin dəvəti olmadan öz ürəklərinin hökmü ilə vətəndaşlıq borclarını yerinə yetirmək naminə iş yerinə gəlmişdilər.

Qoşun hissələrinin metronun “20 Yanvar” stansiyası həndəvərində, Biləcəri yoxuşunda, Salyan kazarmasının qarşısında, indiki “Koroğlu” stansiyası yaxınlığında adamlara atəş açdığı barədə xəbərlər aldıq. Sovet ordusunun tankları keçmiş Tbilisi prospektindəki rəmzi barrikadaları darmadağın etmiş, ətrafda toplaşan insanlara avtomatlardan atəş açmışdılar. Köməksiz və silahsız adamlar metro stansiyalarına doluşmağa başlamışdılar. Yaralıların, qorxuya düşmüş qadınların, qocaların və uşaqların harayından qulaq tutulurdu. Həmin dəqiqələrdə metro stansiyaları əhalinin üz tutduğu, güvəndiyi sığınacağa, hərbi terminlə desək, blindaja çevrilmişdi. Əhali metro qatarlarına, stansiya keçidlərinə, sözün əsl mənasında, bir xilas yolu kimi baxırdı. 20 Yanvar stansiyasının xəstəxanaya tərəf çıxan keçidi, Allahdan olan kimi, yırtıcıların nəzərindən qaçmışdı. Həmin keçidlə yüzlərlə yaralını xəstəxanaya çatdırmaq mümkün oldu.

Faciənin baş verdiyi gecə və sonrakı günlərdə metro işçiləri, həqiqətən, böyük fədakarlıqlar göstərdilər. Metropoliten işçilərindən biri - “Nərimanov” stansiyasında çilingər işləyən İlqar Qarayev şəhid oldu. Həmin günlərdə çiyin-çiyinə çalışdığım həmkarlarımın - Vaqif Həşimovun, Fəxrəddin İbrahimovun, İsmayıl Maxanovun, Vilayət Əsgərovun göstərdikləri hünər və fədakarlıqları unutmuram. Bu adamlar dinc əhalinin öz ünvanlarına çatdırılması, yaralıların daşınması, qorxmuş, vahiməyə düşmüş əhalinin təhlükəsiz şəraitdə bir nəfəs dərməsi üçün əllərindən gələni etmişdilər. O vaxt metropolitenin rəisi işləyən Vahid Nadirli ilə hər dəqiqə əlaqə saxlayır, operativ tədbirlər görülməsinə nail olurduq. Xoşbəxtlikdən sovet əsgərləri metronun işinə müdaxilə etməkdən çəkinmişdilər. Görünür, yer altında onları hansısa sürprizin gözlədiyini güman etmişdilər. Hər halda, çətin, qorxulu vəziyyət idi. Hər dəqiqə problemlərlə üzləşən metro əməkdaşları bütün çətinliklərə mərdliklə, fədakarlıqla sinə gərdilər, öz vətəndaşlıq borclarını ləyaqətlə yerinə yetirdilər. Bu bizim hər birimiz üçün şərəfli sınaq anı idi...

Həmin gecənin və ondan sonrakı günlərin faciəli statistikası indi hamıya məlumdur: Bakının müxtəlif rayonlarında sovet əsgərləri tərəfindən 134 insan qətlə yetirilmiş, 730-dan artıq vətəndaş yaralanmış və xəsarət almışdı. Onların arasında qadınlar və uşaqlar da vardı.

Xalqın ağır günündə ulu öndərimiz Heydər Əliyevin Moskvada öz haqq səsini ucaltması, sovet dövlətinə, onun rəhbərlərinə qətiyyət və cəsarətlə öz etirazını bildirməsi və bunun bütün dünyaya səs salması bizim hər birimiz üçün əvəzsiz təsəlli, eyni zamanda, qürurverici hadisə oldu. Yanvarın 21-də özünün və ailə üzvlərinin həyatını təhlükə altında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələn Heydər Əliyev xalqımıza başsağlığı verdi və mətbuat konfransı keçirib, başda Qorbaçov olmaqla Bakıdakı terror aktına rəvac verən hakimiyyət nümayəndələrini və hərbçiləri cinayətkar, onların dinc əhaliyə tutduqları divanı isə bütöv bir xalqa qarşı edilən tarixi cinayət adlandırdı və bu vəhşiliyə etiraz əlaməti olaraq Kommunist Partiyası sıralarından çıxdığını bəyan etdi.

Təəssüf ki, o dövrdə Azərbaycanda hakimiyyətdə olanlar qorxaqlıq, səbatsızlıq göstərdilər, xalqa qarşı xəyanət yolunu tutdular. Nə bu hadisələr zamanı qaçıb aradan çıxan maymaq Vəzirovdan sonra hakimiyyətə gətirilmiş A.Mütəllibov, nə də xalq azadlıq hərəkatı dalğasında müstəqil dövlətimizin idarəçiliyini ələ almış AXC-Müsavat cütlüyü 20 Yanvar hadisələrinə hüquqi-siyasi qiymət verməyi bacarmadılar.

Yalnız 1990-cı ilin iyulunda Moskvadan vətənə qayıdan Heydər Əliyevin təşəbbüsü ilə həmin il noyabr ayının 21-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 20 Yanvar faciəsinə ilk dəfə siyasi-hüquqi qiymət verən sənəd qəbul edildi. Azərbaycan xalqının ümumi rəyini özündə təcəssüm etdirən bu qərar Heydər Əliyev qətiyyətinin və cəsarətinin təzahürü idi. Sənəddə respublika rəhbərliyindən tələb olunurdu ki, 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verilsin. Lakin xalqın istək və arzularına xilaf çıxan, milli mənafelərə biganəlik göstərən o vaxtkı respublika rəhbərliyi bu tələbi yerinə yetirmədi.

Bu şərəfli missiya yenə ulu öndər Heydər Əliyevin üzərinə düşdü. Xalqın təkidli tələbi ilə respublika rəhbərliyinə qayıdan ümummilli liderimiz 1994-cü il yanvarın 12-də keçirdiyi müşavirədə bu barədə deyirdi: "Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişdir. Görünür ki, ötən yaxın illərdəki Sovetlər Birliyi, respublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsl mahiyyətini xalqa bəyan etməmişlər".

Ulu öndərimizin təşəbbüsü ilə hadisəyə tam siyasi-hüquqi qiymət verilməsi Milli Məclisə tövsiyə olundu və elə 1994-cü ildə parlamentimiz müvafiq qərar qəbul etdi.

Heydər Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsinə, onların ailələrinə dövlət qayğısının gücləndirilməsinə hər zaman böyük diqqət göstərir, hər il yanvarın 20-də Şəhidlər Xiyabanını ziyarət edir, şəhid ailələri ilə görüşür, onların problemləri ilə maraqlanırdı.

Ulu öndərimizin layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyev də bu ənənəyə sadiqdir və 20 Yanvar şəhidlərinin xatirəsinin uca tutulmasına, şəhid ailələrinin sosial məsələlərinin həllinə xüsusi diqqət göstərir. "Həmin gün respublikada haqq-ədalətin bərqərar edilməsi tələbləri ilə çıxış edən Azərbaycan xalqının inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq məqsədilə totalitar sovet rejiminin həyata keçirdiyi terror aktı nəticəsində bəşər tarixində insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri baş verdi. Yüzlərlə günahsız insan yaralandı və qətlə yetirildi. Ən ağır sınaqlara sinə gərmək əzmini bütün dünyaya nümayiş etdirən Azərbaycan övladları 1990-cı il yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar" - bu fikirlər möhtərəm Prezidentimizə məxsusdur, xalqımızın qəhrəmanlıq salnaməsinə onun dərin ehtiramını ifadə edir. Bu gün hər birimiz üçün müqəddəs ziyarətgaha çevrilmiş, 20 Yanvar faciəsi qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər Xiyabanı məhz cənab İlham Əliyevin təşəbbüsü ilə tam təmir edilmiş və yenidən qurulmuşdur.

O məşum günlərin canlı şahidləri yaxşı xatırlayırlar ki, Dağüstü parkda 20 Yanvar şəhidləri üçün qəbirlər qazılarkən torpağın altından insan sümükləri çıxırdı. 1918-ci ilin martında Bakıda bolşeviklərin dəstəyi ilə erməni-daşnak dəstələri tərəfindən İsmailiyyə binasına yığılaraq yandırılan azərbaycanlıların cəsədləri məhz burada basdırılmışdı. Sovet dövləti həmin soyqırımını unutdurmaq üçün qəbirlərin üstündə gəzinti meydançası salmış, burada Kirovun heykəlini qoymuşdu. Amma tarix təkrarlanır: 1990-cı ilin yanvarında soyqırımı qurbanlarının ruhları azadlıq, müstəqillik uğrunda şəhid olan həmvətənlərimizin ruhları ilə birləşdi və bura xalqımızın əbədi və müqəddəs ziyarətgahına çevrildi.

Sabah 20 Yanvar faciəsinin 26-cı ildönümü tamam olur. Yeni Azərbaycan Partiyası, onun yerli təşkilatları Ümumxalq Hüzn Gününün keçirilməsi, tariximizin bu qəhrəmanlıq səhifəsinin ehtiramla xatırlanması üçün tədbirlər planı hazırlamışdır və onun yerinə yetirilməsinə başlamışdır.

...Milli azadlıq hərəkatının bütün iştirakçılarının, 20 Yanvar şəhidlərinin və torpaqlarımızın bütövlüyü uğrunda canını fəda edənlərin ən ümdə arzusu Azərbaycanı müstəqil və güclü bir dövlət kimi görmək idi. ümummilli lider Heydər Əliyevin müdrik və möhtəşəm fəaliyyəti, onun davamçısı cənab İlham Əliyevin qüdrətli və mükəmməl idarəçiliyi, siyasi uzaqgörənliyi sayəsində bu gün müstəqil Azərbaycan regionun liderinə, dünya birliyinin ən perspektivli dövlətinə çevrilmiş, xalqımız rifaha və firavanlığa qovuşmuşdur. Dövlətimizin hərbi və iqtisadi gücü, onun rəhbərinin dürüst və məqsədyönlü siyasəti ilə doğma Qarabağımız da tezliklə işğaldan azad ediləcək, bütöv və böyük Azərbaycan tarixə öz şanlı zəfərini əbədi yazacaqdır!

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

**"Respublika".-**2016.-19 yanvar.-№ 12.-S.5.

**20 Yanvar xalqımızın şərəf, ləyaqət və eyni zamanda faciə tarixidir**

*Milli Məclisin deputatı, tarix elmləri doktoru Fəzail İbrahimli ilə müsahibə*

**- Fəzail müəllim, xalqımız bu günlər 20 Yanvar faciəsinin 26-cı ildönümünü, şəhidlərimizin əziz xatirəsini böyük ehtiramla yad edir. Sizcə, 20 Yanvar hadisəsinin Azərbaycan tarixində yeri və rolu nədən ibarətdir?**

- 20 Yanvar hadisəsi xalqımızın şərəf, ləyaqət və eyni zamanda faciə tarixidir. Əslində, bu hadisənin dərin kökləri var. 20 Yanvar faciəsi Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra sovet hökumətinin 1920-ci ildən 1990-cı ilə qədər apardığı antiazərbaycan, antimilli siyasətinin sonuncu akkordu idi. Sovet hökuməti qurulduqdan sonra Azərbaycanın dilinə, dininə, əxlaqına, mədəniyyətinə zidd olan yeni sosial-siyasi proseslər başladı.

Bəzən tarixçilər mart soyqırımı ilə bağlı danışan zaman bunun əhatə dairəsini ətraflı verir. Amma onu da bilmək lazımdır ki, sovet hökuməti qurulandan sonra Azərbaycanda 1920-ci ilin aprelindən 1921-ci ilin avqusuna qədər 48 min adam güllələnib. Yəni mart soyqırımı yeni formada davam edib. 1 il ərzində 48 min insanın güllələnməsi də soyqırım idi. Həmin o prosesin davamı idi ki, mart soyqırımını törədən daşnaklar sovet hökuməti qurulanda libasını dəyişib bolşevik oldular. Repressiya illərində, kollektivləşmə illərində, müharibə illərində nə qədər azərbaycanlılar öldürüldü. İkinci dünya müharibəsindən sonra isə azərbaycanlılara qarşı deportasiya baş verdi, soydaşlarımız öz dədə-baba yurdlarından zorla köçürüldülər.

Bunların hamısı bir zəncirin həlqələri idi. 20 Yanvar faciəsi isə zəncirin son həlqəsi idi. Yəni başlanğıcda 48 min insanı öldürən bir hökumət ölümqabağı son akkordlarını vurdu. 20 Yanvar keçmiş SSRİ-nin ölümqabağı dövrünün bir nümunəsi idi. 70 il ərzində millətlərin üzərində kommunizm, sosializm idelogiyası bir eksperiment kimi aparıldı. Hər bir ideya müəyyən şəraitə uyğun formaşalaraq inkişaf edir. Sosializm ideyası da 16-cı ildə İngiltərədə irəli sürüldü. 18-ci əsrdə Fransada utopik sosialisitlər yarandı. 19-cu əsrin ortalarında alman yəhudiləri Marks və Engelsin düşüncəsinin məhsulu olaraq Kommunist Partiyasının manifesti yarandı. Bu ideyadan yapışan Lenin və onun silahdaşları sosializm qurmaq istədilər. Əslində, bu ideyalar alman psixologiyası üçün düşünülmüşdü. Çünki manifestdə əsas ideya o idi ki, bütün ölkələrdə sosializm eyni zamanda qurulmalıdır. Lenin isə bu ideyanı darmadağın etdi, 1916-ci ildə proletar inqilabının hərbi proqramı əsərini yazdı və sosializmi ilk olaraq Rusiyada qurmağa çalışdı. Onun Almaniyanın casusu olduğu sübuta yetiriib. Onu hakimiyyətə gətirməklə Rusiyanı Birinci dünya müharibəsindən çıxardılar. Məqsəd o idi ki, müharibədə alman tərəfi daha güclü olsun. Trotski də Amerikanın casusu idi. Bax, bu casuslar belə bir dövlət, hakimiyyət yaratdılar. Sonradan Stalin onların hamısının axırına çıxdı və bir Qafqaz düşüncəsində stalinzm adı altında hökumət yaradaraq onu möhkəmləndirdi. Burada marksismdən, leninizmdən əsər-əlamət yox idi. Stalının ölümündən sonra Xruşşov, sonra Brejnev bu hökuməti sökdü. Nəhayət, Amerikanın casusu Mixail Qarbaçov hakimiyyətə gəldi və SSRİ-ni dağıtmaq üçün əlindən gələni etdi. SSRİ-ni dağıtmaq üçün nə lazım idi? İlk növbədə, milli münaqişələri qızışdırmaq. Zəif nöqtələr isə Pribalitika və Azərbaycanın Dağlıq Qarabağ bölgəsi idi. Yanvar hadisələri də məhz Qarabağ məsələsi üzərində yarandı. SSRİ rəhbərliyi Azərbaycan xalqını susdurmaq, milli azadlıq mübarizəsini qırmaq üçün fürsət gözləyirdi. Bəzi hadisələrin baş verməsinə Kremlin özü şərait yaratdı ki, Bakıya qoşun yeritsin.

Beləliklə, 1990-cı il yanvarnı 19-da Azərbaycana, Bakıya hücum edildi. Hücumu kriminal adamlardan, narkomanlardan formalaşdırılan dəstələr həyata keçirdi. Kreml xalqımızdan qisas aldı. Amma bu hadisə xalqımızın azadlıq mübarizəsini qıra bilmədi. Yanvar hadisələri tariximizdə qanlı hadisə kimi yazıldı. Tariximizdə qanlı hadisələr 20 Yanvar faciəsi ilə bitmir. İlin 12 ayının 11-də qanlı hadisələr baş verib. Fevralda Xocalı soyqırımı, 1918-ci il mart soyqırımı, apreldə Xalq Cümhuriyyətinin süqutu və Kəlbəcərin işğalı, mayda Şuşa və Laçının işğalı və s. Bütün xalq bilməlidir ki, bütün bu qanlı hadisələrdə 200 ildən artıq müddətdə xristan ağuşuna sığanan ermənilərin rolu böyük olub. Bu da tariximizdə zədə yaradıb. Amma bütün bunların qarşısında xalqımız mübariz dayanıb, nə 4-7-ci əsrlərdə sasani işğalına boyun əymədi, nə 3-7-ci əsrlərdə ərəb işğalına boyun əymədi, öz dövlətini yaratdı. Ataların belə bir məsəli var ki, «Hər yanlışda bir naxış var». Diqqətin edin, 1918-ci ilin mart soyqırımı baş verəndən sonra Azərbaycan Xalq Cümhuriyyəti yarandı. 20 Yanvar faciəsi baş verəndən sonra isə Azərbaycan öz müstəqilliyini bərpa etdi. Ona görə də, hesab edirəm ki, 20 Yanvar şərəf və ləyaqət tarixidir. Bir təsəllimiz var ki, bu gün müstəqil Azərbaycan dövləti mövcuddur. Hər bir vətəndaş bu gün qürurla deyə bilər ki, mən müstəqil Azərbaycanın vətəndaşıyam.

**- O zamanki respublika rəhbərliyinin səriştəsizliyi və qətiyyətsizliyi bu faciənin baş verməsinə nə dərəcədə təsir göstərdi?**

- Həmin dövrdə Azərbaycanı Kommunist Partiyasının rəhbərləri idarə edirdilər. Təbii ki, Moskvadan gələn göstərişləri yerinə yetirirdilər. Moskva elə adamları rəhbər təyin etmişdi ki, hər bir əmrə tabe olsunlar. Şübhəsiz, 20 Yanvar facəsinin baş verməsində Azərbaycan hakimiyyətinin qətiyyətsizliyi də müəyyən rol oynadı. Əgər hakimiyyətdə vətənpərvər insanlar olsaydı, bəlkə də bu faciə baş verməzdi. Xatirinizdədirsə, Gürcüstanda da qanlı hadisələr törədəndə bu respublikanın rəhbəri etiraz əlaməti olaraq istefa verdi. Yəni o dövrlərdə Azərbaycan rəhbərliyinin zəifliyi, söz sahibi olmaması da bu faciəyə rəvac verdi. Əgər respublikanın başçısı keçmiş SSRİ rəhbəri Mixail Qarbaçovla ciddi şəkildə danışıqlar aparsaydı, bəlkə də qırğının qarşısı alına bilərdi. Burada bir haşiyəyə çıxım. İkinci dünya müharibə dövründə Bakının köçürülməsi haqqında qərar qəbul edildi. Bu qərarın verilməsində Stalinin ətrafında olan ermənilərin əli var idi. Amma Azərbaycanın rəhbəri Mircəfər Bağırov Stalinlə görüşüb məsələni həll edir və Bakının köçürülməsinin qarşısını alır. Əgər o zaman Bakı köçürülsəydi, onun sonrakı varlığı sual altında olardı.

Bu mənada hesab edirəm ki, əgər vətənpərvər, xalqın maraqlarını qoruyan insanlar hakimiyyətdə olsaydı 20 Yanvar faciəsinin qarşısı alınardı. Təbii ki, Ümummilli liderimiz Heydər Əliyev respublikanın rəhbəri olsaydı, bu faciə də baş verməzdi.

**- 20 Yanvar faciəsi ərəfəsində Azərbaycan informasiya blokadasına alınmışdı. Amma o zaman Moskvada yaşayan Ulu öndər Heydər Əliyev 20 Yanvar faciəsi ilə bağlı çıxış edərək Sovet rejiminin xalqımıza qarşı törətdiyi cinayəti bütün dünyaya bəyan etdi. Bu bəyanatın tarixi əhəmiyyəti haqqında nə deyə bilərsiniz?**

- 20 Yanvar faciəsi törədilən zaman Azərbaycan xalqı iflic vəziyyətinə - informasiya blokadasına salınmış, radio, televiziya susdurulmuş, mətbuatın nəşrinə qadağa qoyulmuşdu. O günlərdə Azərbaycan xalqı sanki başsız qalmışdı. Belə ağır vəziyyətdə xalqına həyan çıxan o vaxt siyasi səhnədən kənarda olan Ümummilli lider Heydər Əliyev oldu. O, böyük cəsarət nümayiş etdirərək yanvarın 21-də Azərbaycanın Moskvadakı nümayəndəliyində mətbuat konfransı keçirdi, 20 Yanvar faciəsinin mahiyyətini açıqladı. İmperiya rəhbərliyini qatil adlandıran Heydər Əliyev faciənin törədilmə səbəblərini və təşkilatçılarının adlarını açıqladı. 20 Yanvar faciəsini törədənlərin cinayət məsuliyyətinə cəlb edilməsini qətiyyətlə tələb edən Heydər Əliyev baş vermiş faciə ilə əlaqədar Azərbaycan xalqına başsağlığı verdi. Ulu öndərin Moskva nümayəndəliyindəki tarixi çıxışının mətni bütün maneələrə baxmayaraq, dünyaya yayıldı. Bu çıxış məhz o zaman informasiya blokadasında olan Azərbaycanda baş verən 20 Yanvar faciəsinə əsl siyasi qiymət idi.

**- Fəzail müəllim, bu gün şəhid ailələrinə göstərilən diqqət və qayğını necə qiymətləndirirsiniz?**

- Təbii ki, bütün şəhidlərimiz xatirəsi daim anılmalı, onların alilələri diqqət mərkəzində olmalıdır. Çünki şəhidlər milli iftixarımızdır. Qeyd edim ki, 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra Ulu öndər Heydər Əliyev bu məsələni diqqət mərkəzində saxladı. Məhz Onun təşəbbüsü ilə ölkə parlamenti 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verdi. Həmçinin, 20 Yanvar şəhidlərinin adları əbədiləşdirildi, onların ailələri qayğı ilə əhatə olundu. Bu gün Prezident İlham Əliyev tərəfindən bu kurs davam etdirilir və 20 Yanvar şəhidlərinin ailələrinin sosial müdafiəsi daim diqqət mərkəzində saxlanılır.

Bilirsiniz ki, bugünlərdə Prezident İlham Əliyev tərəfindən şəhid ailələrinə və 20 Yanvar faciəsi zamanı əlil olmuş şəxslərə verilən Prezident təqaüdünün artırılması iləbağlı qərar verdi. Bu qərarlar bütün cəmiyyətimiz tərəfindən yüksək qarşılanır. Çünki şəhidlərin xatirəsinin daim uca tutulması cəmiyyətimizdə vətənpərvərlik ruhunun daim yüksəlməsi üçün mühüm rol oynayır.

**"Yeni Azərbaycan".-** 2016.- 19 yanvar.- № 010.-S.6.

## İstiqlal mücadiləsinin qürur rəmzi

**Rəşad CƏFƏRLİ.**

**Azərbaycanın istiqlaliyyət yolunun ilk şəhidlik zirvəsi sayılan 20 Yanvar faciəsi yeni tariximizə həm də bir qürur günü kimi yazıldı. Çünki bu hadisə günahsız insanların amansız bir formada qətlə yetirilməsi ilə nəticələnsə də, öz azadlığına, müstəqilliyinə can atan Azərbaycan xalqının mübarizliyini, məğrurluğunu bir daha bütün dünyaya, o cümlədən ovaxtkı imperiya rəhbərliyinə aydın şəkildə nümayiş etdirdi. Tarixə qanla yazılan 20 Yanvar faciəsi Vətəni, azadlığı uğrunda ölümün gözünə dik baxan Azərbaycan övladlarının varlığını bir daha dünyaya tanıtmaqla yanaşı, SSRİ adlanan nəhəng imperiyanın çöküşündə əsas amillərdən biri oldu.**

### Azərbaycanın ərazi bütövlüyünə qəsdin başlanğıcı

Faciəyə gedən yolun başlanğıcı isə onun törədilməsindən xeyli müddət əvvələ, SSRİ rəhbərliyinə M.Qorbaçovun gəlişi ilə başlamışdı. Çünki Qorbaçovun simasında daim Azərbaycana qarşı məkrli, xəyanətkar mövqe tutmuş ermənilər özlərinə daha yaxın olan himayədar tapa bildilər. Düzdür, ilkin vaxtlarda ermənilər Azərbaycanla bağlı bədnam niyyətlərinin həyata keçirilməsində hər hansı ciddi addımlar atmaqda acizlik çəkirdilər və hətta əsas himayədarları belə onlara yardım göstərə bilmirdi. Çünki həmin vaxt ümummilli lider Heydər Əliyevin Sov.İKP MK-nın Siyasi Bürosunda olması ermənilərə və Qorbaçova Azərbaycanla bağlı planların reallaşmasına, o cümlədən Qarabağ münaqişəsinin törədilməsinə imkan vermirdi. Elə bu səbəbdən həm ermənilər, həm də onların mərkəzi hakimiyyətdə olan himayədarları o vaxtlar Dağlıq Qarabağ Muxtar Vilayəti adlanan bu Azərbaycan bölgəsi ilə bağlı məkrli planlarını həyata keçirmək üçün M.Qorbaçovun vasitəsilə Heydər Əliyevin Siyasi Bürodan uzaqlaşdırılmasına nail ola bildilər.

Təsadüfi deyil ki, ümummilli liderin Siyasi Bürodan getməsindən sonra 1987-ci ilin noyabrında M.Qorbaçovun məsləhətçisi olan qatı daşnak A.Aqanbekyanın Parisdə “Humanite” qəzetindəki bəyanatında bildirilirdi ki, Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılıb Ermənistana verilməsinə dair Moskvanın artıq razılığı var. Bütün bunları xatırlayan Heydər Əliyev qeyd edirdi: “Siyasi Bürodan istefa verdikdən 15 gün sonra Qarabağ məsələsi ortaya çıxdı. Qorbaçovun ən yaxın adamı, iqtisadi məsələlər üzrə müşaviri, milliyyətcə erməni olan professor Aqanbekyan Parisdə keçirdiyi bir mətbuat konfransında “Dağlıq Qarabağ Ermənistana verilməlidir”, - demiş, bu məsələ ilə əlaqədar Qorbaçovu da qızışdırmışdır. Moskvanın Qarabağ əməliyyatı mənim Siyasi Bürodan getməyimdən 15 gün sonra həyata keçirilməyə başladı. Deməli, bu plan hələ əvvəlcədən hazırlanmış, lakin tətbiq olunmasına mən ciddi maneə imişəm”.

SSRİ rəhbərliyinin Dağlıq Qarabağın Ermənistana verilməsinə dair razılığının olduğu 1988-ci ilin əvvəllərində M.Qorbaçovun Silva Kaputikyan başda olmaqla bir qrup şovinist erməni ilə görüşü zamanı da üzə çıxdı. Bunun ardınca Xankəndidə, Yerevanda antiazərbaycan və antitürk ruhlu mitinqlər genişləndi.

Məhz bundan sonra erməni “Qarabağ Komitəsi”, onun Dağlıq Qarabağ Muxtar Vilayətindəki separatçı-terrorçu təşkilatı “Krunk” gizli fəaliyyətlərinə son qoyaraq açıq şəkildə niyyətlərini bəyan etməyə, Azərbaycana qarşı ərazi iddiaları səsləndirməyə başladı. Bunun nəticəsi olaraq ermənilər tərəfindən “Miatsum” adlanan hərəkat da formalaşdırıldı.

Bütün bunlar 1988-ci ilin fevralından etibarən, hadisələrin daha gərgin və aqressiv məcrada inkişafı ilə nəticələndi. Məhz həmin dövrdə həm Dağlıq Qarabağda, həm də Yerevanda Azərbaycan torpaqlarının Ermənistana birləşdirilməsi tələbi ilə silsilə mitinqlər başladı. SSRİ rəhbərliyi tərəfindən heç bir ciddi müqavimət görməyən və bundan daha da ruhlanan ermənilər Dağlıq Qarabağ Muxtar Vilayəti Sovetinin vilayətin statusuna baxılması haqqında Azərbaycan SSR Ali Sovetinə müraciət qəbul etdilər. Baş verənlərə paralel olaraq Ermənistanda da azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirilirdi.

### Azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti

Azərbaycanın ovaxtkı rəhbərliyi hadisələrə fəal müdaxilə etmək əvəzinə, Kremldən gələn əmrlər əsasında hərəkət edir, xalqın taleyinə biganə yanaşmağa üstünlük verirdi. Kreml isə həm Azərbaycana göndərdiyi emissarlar, həm də ölkənin qətiyyətsiz rəhbərliyi vasitəsilə Azərbaycana qarşı daha məkrli ssenarilər hazırlamaqda idi. Erməni təxribatçılarının da hazırlanmasında yaxından iştirak etdiyi bu ssenarinin əsas

hədəflərindən biri Azərbaycanda ermənilərə qarşı dözümsüz münasibətin formalaşmasına dair görüntülər yaratmaq idi. Elə bu məqsədlə də 1988-ci ilin fevralında məlum Sumqayıt hadisələri törədildi.

Müxtəlif millətlərin nümayəndələrinin yaşadığı sənaye şəhəri olan Sumqayıtda iğtişaşlar yaratmaqla artıq siyasi dünyanın yeni səviyyədə gündəminə gətirilmiş "böyük Ermənistan" xülyasının gerçəkləşdirilməsi üçün ermənilərə çox lazım idi. Bu məsələdə sovet DTK-nın da özünəməxsus rolu oldu. Beləliklə, əvvəlcədən planlaşdırılmış Sumqayıt olayları törədildi və o dövrdə Azərbaycanda hakimiyyətdə olanlar SSRİ rəhbərliyinin, ermənilərin niyyətini, qlobal hadisələrin mahiyyətini axıra kimi dərk etmək iqtidarında olmadıqlarından qanlı hadisələrin yaşanmasının qarşısını almaq üçün müvafiq addımlar atılmasında acizlik nümayiş etdirdilər. Sumqayıt hadisələrinin əvvəlcədən hazırlandığını o da sübuta yetirir ki, olaylar baş verən yerlərdə öncədən çoxlu telefoto operatorlar, jurnalistlər yerləşdirilmişdi. Bunun nəticəsində düşünülmüş, ssenarisi əvvəlcədən cızılmış Sumqayıt hadisələri saxtakarlıqlarla, uydurmalarla dünyaya yayıldı. Bundan sonra ermənilər Ermənistanda və Dağlıq Qarabağda belə bir əhval yaratdılar ki, artıq azərbaycanlılarla ermənilər bir yerdə yaşaya bilməzlər. Bunun nəticəsi olaraq indiki Ermənistanın yarandığı əzəli Azərbaycan torpaqlarında yaşayan 250 min soydaşımız 1988-ci ilin sonuna kimi qətlə yetirilməklə, əmlakları talan olunmaqla ən qəddar formada deportasiya olundular.

Dağlıq Qarabağda da vəziyyət getdikcə gərginləşirdi və bu işdə yenə əsas rol oynayan tərəflərdən biri Azərbaycan rəhbərliyinin acizliyindən istifadə edərək hadisələri istədiyi kimi istiqamətləndirən SSRİ rəhbərliyi idi. Bütün bunlara qarşı Azərbaycan rəhbərliyi tərəfindən heç bir qətiyyətli addım atılmadı. M.Qorbaçov isə tədbir görmək əvəzinə, DQMV-nin sosial-iqtisadi inkişafının geridə qalması barədə ermənilərin uydurduqları yalanı müdafiə edərək ittifaq büdcəsindən oraya 400 min rubl vəsait ayrılmasına göstəriş verdi. 1988-ci il iyunun 15-də Ermənistan SSR Ali Soveti DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qərar qəbul etdi. İyul ayında SSRİ Ali Sovetinin Rəyasət Heyətinin sessiyasında Dağlıq Qarabağ məsələsi müzakirə edilən zaman Azərbaycandan olan deputatlarla yanaşı, qanunazidd olaraq Ermənistandan olan deputatlar eyni hüquqda orada iştirak etdilər. Bu isə Qorbaçov və onun ətrafının Ermənistan üçün yaratdığı yeni imkan demək idi.

İttifaq rəhbərliyinin Azərbaycan xalqına qarşı ən böyük xəyanəti özünü növbəti dəfə 1989-cu ilin yanvarında göstərdi. Belə ki, həmin il yanvarın 12-də "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarəçilik formasının tətbiqi haqqında" SSRİ Ali Soveti qərar qəbul etdi və bu, ermənilərin istəyinə tam uyğun idi. Çünki DQMV-də xüsusi idarəçilik forması tətbiq edildiyi ilk gündən birbaşa Moskvaya tabe olan ermənipərəst A.Volski burada yaşayan bütün soydaşlarımızın çıxarılmasına nail oldu. Qısa müddətdə 50 min nəfər azərbaycanlı DQMV-dən qovuldu. Halbuki, Azərbaycanın o dövrkü siyasi rəhbərliyi sözügedən idarənin yaranmasını böyük uğur kimi qiymətləndirir və bu idarəyə çox böyük ümidlər bəsləyirdi. Yalnız xalq hərəkatının təsiri altında 1989-cu il noyabrın 28-də vilayətin idarəsi mərkəzin nəzarəti altında olan Azərbaycan SSR Təşkilat Komitəsinə tapşırıldı. Təşkilat komitəsinin sədri təyin edilən V.Polyaniçko, əslində, öz sələfinin siyasətini davam etdirir və azərbaycanlılar sıxışdırılırdı.

Ümumiyyətlə, 20 Yanvar hadisəsinə qədər SSRİ və respublika rəhbərliyinin çıxardığı qərar və fərmanların heç birində Azərbaycanın xeyrinə bircə maddə belə olmadı. Bir tərəfdən Azərbaycan xalqını sakitləşdirməyə yönələn addımlar atılır, digər tərəfdən isə respublikanın suverenliyinə, ərazi bütövlüyünə xələl gətirən qərarlar qəbul olunurdu. Bu, Ermənistanın SSRİ rəhbərliyi tərəfindən ən yüksək səviyyədə müdafiə olunduğunu göstərirdi.

**Yeni təxribata hazırlıq**

1989-cu ilin noyabrından səbir kasası dolmuş xalq Bakının mərkəzi meydanında mitinqlərə başladı. Yanvarın 18-də Bakıda və Azərbaycanın 11 rayonunda keçirilən izdihamlı mitinqlərdə ümumi tətilin başlandığı elan edildi. Lakin genişlənməkdə olan xalq hərəkatına ilk dövrlərdə səriştəsiz rəhbərlik, edilən xəyanətkarlıq isə ölkəni daha ağır vəziyyətə salırdı. Bununla belə, Dağlıq Qarabağın Azərbaycandan qoparılaraq Ermənistana verilməsinə şərait yaradan Qorbaçov hakimiyyəti ölkəyə genişlənən milli-azadlıq hərəkatının boğulması üçün müxtəlif vasitələr üzərində baş sındırırdı.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Vəzirov isə Moskvanın marionetkası olaraq həm Dağlıq Qarabağın ermənilərin əlinə keçməsinin qarşısını almaq, həm də ölkədəki vəziyyəti sabitləşdirmək üçün heç nə edə bilmirdi. Əksinə, özünün səhv addımları, yarıtmaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurumu daha da dərinləşdirirdi. Elə buna görə də Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında aylarla davam edən mitinqlərdə dəfələrlə Azərbaycanın partiya rəhbərlərinin istefası

tələbi irəli sürülmüşdü. Təəssüf ki, bu dövrdə xalq hərəkatına rəhbərlik edənlər də böyük səriştəsizlik nümayiş etdirir, çox vaxt DTK-nın istədiyi ssenarilərə uyğun hərəkət edirdilər.

1989-cu ilin sonu, 1990-cı ilin yanvarında Azərbaycanda ictimai-siyasi vəziyyət xeyli kəskinləşdi, qarşıdurma dərinləşdi, mövcud iqtidarın hadisələrə nəzarəti son dərəcədə zəiflədi. SSRİ rəhbərliyi isə Azərbaycanı növbəti dəfə cəzalandırmaq üçün Sumqayıt ssenarisinə uyğun təxribatlara start verdi. Milli-azadlıq hərəkatının mərkəzi olan Bakıda ilk olaraq yerli milis tərk-silah edildi, mərkəzdən isə daxili qoşun hissələri şəhərə gətirildi. Yanvarın 13-də Bakıda bir erməninin iki azərbaycanlını öldürməsi fitnəkarlıqlar üçün əsas oldu və iki gün ərzində Bakıda süni şəkildə erməni talanı təşkil edildi. Mərkəz tərəfindən düşünülmüş və taktiki baxımdan hərtərəfli hazırlanmış bu məkrli plan hazır ssenari üzrə aparıldı. Elə bu səbəbdən də ayrı-ayrı dəstələrin əməllərinin qarşısını almaq üçün ali hakimiyyət və hüquq-mühafizə orqanları tərəfindən heç bir tədbir görülmədi. Halbuki Bakıda SSRİ Daxili İşlər Nazirliyinin 12 min nəfərlik silahlı qüvvəsi var idi. Bu dövrdə ölkəyə rəhbərlik edən Vəzirov isə yaranan vəziyyətdən istifadə edərək sovet qoşunlarının müdaxiləsinə şərait yaratmağa, bununla həm də xalq hərəkatını boğmağa çalışırdı.

Yanvarın 14-də Azərbaycan KP MK-nın bürosunda vəziyyət müzakirə olundu və Vəzirovun təkidi ilə çağırılan Azərbaycan SSR Ali Sovetinin sessiyasında DQMV-də və zəruri olarsa, ona bitişik rayonlarda, eləcə də sərhəd boyunca fövqəladə vəziyyət elan edilməsi, lazım gələrsə, mərkəzdən kömək göstərilməsi haqqında qərar qəbul olundu. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin müraciəti ilə SSRİ Ali Sovetinin Rəyasət Heyəti yanvarın 15-də “Dağlıq Qarabağ və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında” fərman verdi. Həmçinin SSRİ Ali Soveti Bakı, Gəncə şəhərlərində, eləcə də başqa yaşayış məntəqələrində qadağan saatlarının tətbiq edilməsini və digər zəruri tədbirlər görülməsini Azərbaycan SSR Ali Sovetinə təklif etdi.

**“Azərbaycan”.-**2016.-17 yanvar.-№11.-S.6.

**Qanla yazılmış qəhrəmanlıq tarixi**

**Xuraman İsmayılqızı**

**20 Yanvar hadisələrinə ilk siyasi-hüquqi qiymət ulu öndər Heydər Əliyev tərəfindən verildi**

Hələ sovetlərin vaxtında Bakının istirahət guşəsi kimi tanınan Dağüstü Parkın ərazisi əvvəllər Çəmbərəkənd kimi tanınıb. Oradakı qəbiristanlıq ötən əsrdə ermənilərin törətdikləri soyqırımlarda həlak olan Bakı sakinlərinin kütləvi olaraq dəfn edildiyi yer olub. Sovet ideologiyasının hakim kəsildiyi o illərdə işğalçılıq siyasətini pərdələmək üçün təfəkkürümüzü "qardaşlıq, birlik" psixologiyası ilə korlayan imperiya şovinist əməllərini gizlətmək üçün Kirovun heykəlini soydaşlarımızın məzarları üstündə ucaltmaqla bir daha tariximizi saxtalaşdırmışdır. Amma tarix təkrar olunduğu kimi torpaq qoynunda saxladığı günahsız nakamların ruhlarını Tanrı əmanəti kimi qoruyub saxlayır.

1990-cı ildə tarix təkrar olundu. Bir şənbə gününə təsadüf edən 20 Yanvar hadisəsi 1905-ci ildə Rusiyada 9 yanvar qanlı bazar günü törədilən qırğının təkrarı kimi imperiyanın iç üzünü göstərdi. 111 il bundan əvvəl törədilən qanlı hadisələrin müəllifi keşiş Qapon olsa da, eyni imperiya siyasətinə sadiqlik Bakı hadisələrində təkrarlandı. Çar Nikolayı M. Qorbaçov, Ə. Vəzirov, D. Yazov, B. Bakatin, B. Barennikov kimi qana susayan qatillər əvəzlədilər.

Yanvarın 19-dan 20-nə keçən gecə ermənilərin çoxluq təşkil etdiyi imperiya qoşunları Bakını güllələbaran etdilər. O gecədən əvvəl isə Sədərəkdə (Naxçıvan MR) ermənilərin silahlı hücumları zamanı ilk şəhidlərimiz azyaşlı Maliklə Elvin qardaşları oldu, rayondakı bəzi obyektlər dağıdıldı. Amma insanlar bilmirdilər ki, əsrlərdən bəri sadiq qaldığı "parçala, hökm sür" siyasətini yeritməklə günahsız insanların qanını tökən mənfur xislətli imperiyanın susadığı qan-qada bununla bitməyəcək.

20 yanvar 1990-cı ildə Bakının səhəri gözünü qanla açdı. Həmin gün imperiya nökərləri xalqların milli oyanış istəyini susdurmaq üçün Almatıda, Vilnüsdə, Tbilisidə sınaqdan keçirdikləri "təcrübəni" Bakıda da tətbiq etdilər. Qaniçən ermənilərdən, peşəkar döyüşçülərdən təşkil olunmuş " xilaskar qızıl ordu"nun zirehli hərbi maşınları, tankları sovetlərin buxovundan, əsarətindən qurtarmaq üçün haqq səsini ucaldan dinc əhalinin üstünə yeridildi. Heç bir xəbərdarlıq edilmədən insanlara qarşı vəhşiliklər törədən "paqonlular" Bakıda qanlı qırğınlar törətdilər. İnsanların azadlıq, istiqlaliyyət, müstəqillik səslərini güllələrin dili ilə susdurmağa çalışdılar. Amma unutdular ki, zalımın zülmü olsa da, haqqın da bükülməz qolu, dönməz üzü vardır. Canlı sipər çəkməklə tankların qarşısını kəsən, düşmənə meydan oxuyan oğullarımız ölümləri ilə imperiyanın gücsüzlüyünü göstərdilər.

Bu zülmə qarşı ilk etirazını bildirən, o zaman Moskvada yaşayan xalqımızın müdrik oğlu, Vətənini, xalqını canından artıq sevən ulu öndər Heydər Əliyev təhdid və təzyiqlərdən çəkinməyərək Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək 20 Yanvar qırğınlarını ölkəmizin suverenliyinə qarşı törədilmiş zorakılıq, təcavüzkarlıq adlandırdı və faciəyə siyasi qiymət verilməsini tələb etdi: "Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Bəli, kobud siyasi səhv buraxılmışdır. Onlar sadəcə olaraq respublikadakı əsl vəziyyəti qiymətləndirə bilməmiş, Azərbaycan xalqının psixologiyasını anlamamış, əhalinin müxtəlif təbəqələri ilə əlaqələri zəiflətmişlər. Onlar görünür işlərin belə ağır faciəyə çevriləcəyini əvvəlcədən düşünməmişlər. Bütün bunlar qabaqcadan nəzərə alınmalı və vaxtında vacib, zəruri tədbirlər qəbul edilməli idi. Ordu yeridilmiş, günahsız adamlar həlak olmuşlar" söyləməklə əsl günahkarların da cəzalarına çatması üçün cinayətə cəlb olunmalarının zəruriliyini bildirdi: "Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə bərk ayaqda Azərbaycanı qoyub qaçan Vəzirov öz xalqı qarşısında məsuliyyət daşımalıdır. Ölkənin ali siyasi rəhbərliyinə yanlış məlumat verənlər də məsuliyyət daşımalıdır."

Azərbaycanı canından artıq sevən Ulu Öndər faciə ilə bağlı Azərbaycan xalqına teleqram göndərərək insanları belə ağır məqamlarda birliyə, həmrəyliyə çağırdı: "Azərbaycan KP MK-ya, Ali Sovetə, Nazirlər Sovetinə, Azərbaycan xalqına.

Bakı şəhərinə sovet ordusu hissələrinin yeridilməsi ilə əlaqədar xalqımızın başına gətirilən faciədən - dinc əhalinin qırılmasından böyük ürək ağrısı ilə xəbər tutdum. Bu matəm günündə həlak olanların ailələrinə və yaxınlarına, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm.

Mən düşünülmüş aksiyanı pisləyir, onu antihumanist, antidemokratik, qanuna zidd hesab edirəm. Bu ağır gündə sizi ağıllı, kamallı olmağa, həmrəyliyə və birliyə çağırıram.

Mənim teleqramımın respublika mətbuatında dərc olunmasını, radio və televiziya ilə verilməsini, matəm mitinqində oxunmasını xahiş edirəm.

**Heydər Əliyev**
**Moskva, 21 yanvar 1990-cı il.”**

Şəhidlərimizin tökülən qanlarına bais olanların mütləq cəzalandırılacağını, belə ağır günlərdə xalqı ilə bir olduğunu bildirən Ulu Öndərin müraciəti təbii ki, üzülən xalqa çatdırılmadı. Teleqramı gizlədən nakəslər günahsız insanları qırğına verdikləri üçün vicdan əzabı çəkmədilər. 19 yanvarda Azərbaycan Televiziyasının enerji blokunu partlatmaqla əsl həqiqətləri xalqdan, dünya ictimaiyyətindən gizlədənlər vəhşiliklərini ört- basdır etmək üçün haqqını tələb edən vətənpərvərlərə ekstremist adı verməkdən belə utanmadılar.

Səbəb isə bəlli idi. Türklərin bir məsəlində qeyd olunur ki, qurğuşun ünvan tanımır. Cinayətkarlar üçün qətlə yetirdiyi insanların kimliyi, şəxsiyyəti deyil, öz maraqları, cılız düşüncələri önəmlidir. Elə bu səbəbdən də qadın, uşaq, ahıl, cavan - yaşından asılı olmayaraq qarşıya çıxan hər kəs imperiyanın maraqlarına qurban getdilər. Həmin gecə və ondan sonra törədilmiş kütləvi zorakılıqlar nəticəsində onlarla günahsız insan öldürülmüş, dinc əhaliyə qarşı amansız əzab-əziyyətlər verilmiş, yaralıları daşıyan təcili yardım maşınları, evlərin eyvanları belə gülləbaran edilmişdi.

“Qardaşlıq ailəsi”ndə zorla saxlanılan imperiya üçün xalqların azadlıq, müstəqillik çağırışları kabus kimi qorxulu idi. Xüsusilə təbii sərvətləri ilə zəngin olan Azərbaycanı itirmək imperiyanın şah damarının kəsilməsi demək idi. Buna görə də nəyin bahasına olursa olsun Bakıdan yüksələn azadlıq səslərini susdurmaq əmri verilmişdi. Xalqla bir olmaq əvəzinə Kremldə əyləşən ağalarına üz tutaraq yerli əhaliyə qarşı xəyanət edən respublikanın o vaxtkı rəhbəri Əbdürrəhman Vəzirov Azərbaycana qoşun yeridilməsinə şərait yaratdı. Onun xahiş və tələbinə uyğun olaraq 1990-cı ilin yanvar ayının əvvəllərindən etibarən SSRİ Müdafiə Nazirliyinin, Daxili Qoşunların və DTK-nın böyük hərbi kontingenti Azərbaycana gətirildi və Qala, Nasosnı aerodramlarında, Salyan kazarmasında yerləşdirildi. Yəni 20 Yanvar hadisələrinə əvvəlcədən hazırlıq görülmüş, ordu döyüş vəziyyətinə gətirilmişdi. Bakının sübh sükutunu pozan tankların və güllələrin səsindən hələ də nələrin baş verdiyini dərk etməyən insanlar inana bilmirdilər ki, illərdən bəri özlərinə “böyük qardaş” hesab edib, hər əmrlərinə müntəzir olduqları imperiya qaniçənləri belə qırğınlar törədə bilərlər.

SSRİ rəhbəri, ermənipərəst M. Qorbaçov erməni əsilli arvadının və yaxını Aqanbekyanın istəyinə uyğun olaraq Dağlıq Qarabağın Azərbaycandan qoparılması planının ilk mərhələsinə başladı.

Müstəqil bir dövlətə qarşı siyasi cinayətkarlıq olan yanvar hadisələri törədildi. İnsanlar qətlə yetirildikdən sonra Qorbaçovun sərəncamı ilə Bakıda, Gəncədə, Naxçıvanda fövqəladə vəziyyət elan olundu, komendant saatı tətbiq edildi. Gündüz belə küçədə gördükləri insanlara qarşı zorakılıq tətbiq edən, içində insan olan maşınları tanklarla əzən “xilaskar sovet əsgəri” “qardaşlıq” himnini güllələrin səsi ilə “oxudu.”

26 il bundan əvvəl törədilən qırğınlar Azərbaycan xalqını inamından döndərə bilmədi. Ağır dövrdə min bir çətinliklə Azərbaycana qayıdan, ancaq respublika rəhbərliyi tərəfindən təzyiqlərə məruz qaldığı üçün doğulduğu Naxçıvana gələn ulu öndər Heydər Əliyev bu sahədə də qətiyyətini əsirgəmədi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sıravi deputatı Heydər Əliyevin təşəbbüsü ilə hazırlanan “1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında” qərar layihəsi müzakirəyə çıxarıldı. Ümummilli lider Heydər Əliyevin nüfuzu sayəsində 21 noyabr 1992-ci il tarixdə qəbul olunmuş bu qərar 20 Yanvar hadisələrinə verilən ilk siyasi-hüquqi qiymət oldu. Beş bənddən ibarət həmin tarixi əhəmiyyətli sənəddə qeyd olunurdu ki, 1990-cı il yanvar ayında Bakıda törədilən qanlı hadisələr Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirilsin. Dinc əhalinin qətlə yetirilməsi, göstərilən zorakılıq Azərbaycan xalqına açıq təcavüz kimi ittiham edilsin. Respublikanın ali hakimiyyət orqanları tərəfindən Bakı faciələrinə siyasi qiymət verilməməsi, bununla əlaqədar yaradılmış xüsusi deputat komissiyasının işinin qeyri-müəyyən səbəblərdən başa çatdırılmaması, günahkarların aşkara çıxarılıb məsuliyyətə cəlb olunmaması etirazla qarşılansın.

Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyevin imzası ilə qəbul olunmuş bəyanatı da bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı kimi qiymətləndirmək olar. Bəyanatda deyilirdi ki, hadisələr imperiya qüvvələri ilə xalqa xəyanət yolunu tutmuş Azərbaycanın kommunist rəhbərliyi tərəfindən birgə həyata keçirilmişdir. Hakimlik missiyasını qoruyub saxlamaq üçün xalqına qarşı çoxminli silahlı qüvvələrin təcavüzünü təşkil edən respublika rəhbərliyi heç bir hüquqi əsası olmadan Bakıda fövqəladə vəziyyət rejiminin tətbiqindən belə çəkinməmişdir.

Yanvar hadisələrinə geniş mənada əsl hüquqi-siyasi qiymət xalqımızın qeyrətli oğlu Heydər Əliyevin xalqın təkidli tələbi ilə Azərbaycan rəhbərliyinə qayıdışından sonra mümkün oldu. Qanları ilə dilimizə şəhidlik ifadəsini əlavə edən qəhrəmanlar bütün Azərbaycan xalqının övladı kimi sevildi, xatirəsi əziz tutuldu. Bu gün

həmin tarixi anları bütünlükdə Azərbaycan xalqı üçün müqəddəs olan Şəhidlər xiyabanında sıralanan məzar daşları yaşadır. 20 Yanvar və Qarabağ döyüşlərində həlak olmuş qəhrəmanlarımız daşlaşmış şəkillərinin dili ilə onları ziyarət edən soydaşlarımıza, qonaqlara “biz varıq, olacağıq, həmişə qalacağıq” deyirlər. Prezident İlham Əliyevin şəhid ailələrinə göstərdiyi diqqət və qayğı şəhidlərin ölməzlik rəmzidir. Azadlıq mücadiləmizin başlanğıc tarixi olan 20 Yanvar həm də milli məfkurəmizin oyanışı kimi də dəyərlidir. Ölümsüzlüyə qovuşmaqla xalqımızın təfəkkürünə əbədi mübarizlik, xoşbəxt gələcək naminə qətiyyətli olmağı öyrədən şəhidlər istək və arzuları ilə həmişə sıralarımızdadırlar. Azərbaycanın qazandığı bütün uğurlarda onların da payı var. Şəhidlər ölməz! Vətən bölünməz. Tanrı bütün şəhidlərimizə rəhmət eləsin.

**“İki sahil”.-**2016.-16 yanvar.-№ 8.-S.4.

## 20 Yanvar Azərbaycanın istiqlal mübarizəsində önəmli mərhələdir

**Əliqismət BƏDƏLOV**

Ötən əsrin son onilliyində dünyada baş verən böyük siyasi dəyişikliklər SSRİ adlanan imperiyadan da yan keçməmişdir. Bu nəhəng dövlətin əsarətdə saxladığı digər xalqlar kimi, Azərbaycan xalqı da tarixi ədaləti, müstəqilliyini bərpa etmək, suveren, azad yaşamaq istəyirdi. Kreml rəhbərliyini də ən çox qorxuya salan elə bu idi. Təbii sərvətlərlə zəngin olan Azərbaycan kimi bir respublikanı əldən vermək istəməyən sovet hökuməti xalqın istəyinin qarşısını almaq üçün totalitar rejimə məxsus olan plan hazırlayırdı.

Bu planı Qazaxıstanda, Baltikyanı republikalarda həyata keçirən imperiyanın növbəti hədəfi Azərbaycan idi. Başda Mixail Qorbaçov olmaqla rus imperiyası bu qanlı hərəkətləri ilə başqa respublikalarda da baş qaldırmaqda olan azadlıq, müstəqillik istəklərinin qarşısını almaq istəyirdi. Bu məqsədlə milli münaqişə zəminində böyük nifaq yaradılmasına əl atıldı.

SSRİ rəhbərliyinin himayədarlığı ilə şovinist erməni millətçiləri qızışdırılaraq Azərbaycana qarşı yönəldildi. Dağlıq Qarabağda azərbaycanlılar yaşayan kəndlərə edilən basqınlar, onların ata-baba yurdlarından didərgin salınması xalqın çox kəskin etirazına səbəb olmuşdu. Meydanlara toplaşan xalq haqsızlıq və ədalətsizliyə son qoyulmasını tələb edirdi. Lakin mərkəzi hökumət bu tələblərə məhəl qoymayaraq erməniləri daha da qızışdırır, Azərbaycanda millətlərarası ayrı-seçkilik toxumu səpirdi. Digər tərəfdən, 80-ci illərin sonlarında Azərbaycanda başlanan siyasi oyanış Mərkəzi ciddi narahat edirdi. Bu oyanışın qarşısını almaq üçün bəhanə axtaran Moskva elə səbəbi də, bəhanəni də özü hazırladı.

80-ci illərin ikinci yarısında Azərbaycanın tərkib hissəsi olan Dağlıq Qarabağ Muxtar Vilayətində fəaliyyət göstərən təxribatçı “Krunk” erməni ekstremist təşkilatı SSRİ-dəki və xaricdəki erməni “Milli müqəddəratın müstəqil təyin edilməsi birliyi” və “Siyasi məhbusların müdafiəsi erməni komitəsi”nin himayəsindən yararlanaraq fəaliyyətini gücləndirdi. “55-lər komitəsi” adlanan orqanın tapşırıqları əsasında “Krunk” vilayətin erməni əhalisini Dağlıq Qarabağın Ermənistana verilməsini tələb etməyə çağırırdı.

1988-ci ilin yanvarından etibarən “Türksüz Ermənistan” və Dağlıq Qarabağ uğrunda millətçi hərəkatın planlı fəaliyyəti başlandı. 1988-ci il yanvarın 25-də Ermənistanda yaşayan azərbaycanlıların ilk qrupu öz torpaqlarından didərgin salındı. Artıq fevralın 23-nə qədər isti ocaqlarından didərgin salınanların sayı 4 min nəfərə çatdı. Bu hadisə bir tərəfdən Ermənistanda yaşayan azərbaycanlılar arasında vahimə yaradır, digər tərəfdən isə Azərbaycanda ictimai-siyasi vəziyyəti gərginləşdirirdi. Eyni zamanda, erməni-azərbaycanlı münaqişəsinin törədilməsinə rəvac verirdi. Kreml rəhbərliyinin və dünya dövlətlərinin gözü qarşısında baş verən bu hadisələrə heç bir reaksiya yox idi. 1988-ci il fevralın 19-da Muxtar vilayətin Ali Sovetin sessiyasının keçirilməsi, DQMV-nin statusu məsələsinə baxılması haqqında SSRİ Ali Sovetinə müraciət qəbul edilməsi çağırışları altında kütləvi antiazərbaycan mitinqləri keçirildi. Elə həmin gün Bakıda da bu hadisələrə etiraz edən kütləvi mitinq təşkil olundu.

“Şit” ictimai təşkilatının müstəqil təhqiqatının nəticələrində bildirilirdi ki, Mixail Qorbaçov öz çirkin niyyətini həyata keçirmək üçün Bakıda erməni əhaliyə qarşı kütləvi talanlar törədilməsi barədə DTK-ya göstəriş vermişdi. Heç bir təqsiri olmayan kişilər və qadınlar, ahıl adamlar öldürülürdü. Erməni ailələri Bakı qarnizonunun hissələrində, Qırmızı Bayraq Ordenli Xəzər Hərbi Donanmasında, rayon daxili işlər şöbələrində, məscidlərdə, milliyyətcə azərbaycanlı və rus olan ayrı-ayrı vətəndaşların evlərində sığınacaq tapır və qorunurdular. Elə həmin günlərdə hərbi qulluqçuların və dənizçilərin mühafizəsi ilə erməni ailələrinin kütləvi surətdə köçürülməsinə başlanmışdı və bu iş Bakıda fövqəladə vəziyyət elan olunanadək davam etdirilmişdi. Talanlar zamanı Azərbaycanın Daxili İşlər Nazirliyinin və Dövlət Təhlükəsizliyi Komitəsinin şəxsi heyətinin və həmin vaxt şəhərdə olmuş SSRİ Daxili İşlər Nazirliyinin daxili qoşunları heç bir iş görmürdülər, hərçənd aşkar qətllər, zorakılıq, qarətlər və azğınlıqlar baş verirdi.

Bakıda fövqəladə vəziyyət tətbiq edilməsi barədə əhaliyə vaxtında xəbərdarlıq edilməmişdi. Hərbi qüvvə işlədilməyə hazırlıq görüldüyü barədə əhali vaxtında xəbərdar edilsəydi, küçə və meydanlara toplaşan dinc əhali evlərinə dağılışar və tələfat da az olardı. Vətəndaşlıq hüquqları və siyasi hüquqlar haqqında 1966-cı il tarixli Beynəlxalq Paktın 4-cü maddəsinin 1-ci bəndində deyilir ki, fövqəladə vəziyyət tətbiq ediləcəyini rəsmən elan etmək lazımdır. Halbuki Bakıda fövqəladə vəziyyət tətbiq edildiyini əhali ilk dəfə ancaq yanvarın 20-də səhər saat 5.30-da şəhərin komendantı Dubinyakın radio ilə çıxışından və vertolyotların səpməyə başladıqları vərəqələrdən öyrənmişdi. O vaxt şəhər artıq qoşunlar tərəfindən tutulmuş və xalqımıza qarşı qətliam olmuşdu. Bakıda faciə törədilmişdi və istiqlaliyyət, müstəqillik aşiqlərinin qanı axıdılmışdı. SSRİ imperiyası, sözün həqiqi mənasında, istədiyinə nail olmuşdu. Azərbaycan rəhbərlərinin hərəsi bir tərəfə qaçmışdı. Xalqı

meydanlara səsləyən, imperiya ordusuna müqavimət göstərməyə çağıran, özlərini Xalq Cəbhəsinin liderləri adlandıranlar da qeybə çəkilmişdilər. Dünənə kimi meydanlarda qəhrəmanlıqdan danışan azadlıq hərəkatının önünə düşənlərin heç biri gözə görünmürdü. Faciənin miqyası və qəddarlığı xalqı təşvişə salmış, çoxlarını qorxutmuşdu. Baş vermiş qanlı hadisə barədə nə xalqa, nə də dünya ictimaiyyətinə məlumat verilirdi.

Bu qətliamın təşkilatçılarının və icraçılarının bir addımlığında—Moskvada bir səs ucaldı. Bu səs xalqı birləşdirdi, xalqımızda ümid yaratdı, insanların təşviş və qorxusunu birdəfəlik aradan qaldırdı. Bu, Azərbaycan xalqının görkəmli oğlu, böyük siyasi və dövlət xadimi Heydər Əliyevin səsi idi. Ömrünü xalqına, onun inkişafına həsr etmiş Heydər Əliyev susa bilməzdi. Bu ağır və məşəqqətli günlərdə yenə də xalqının yanında oldu, onun dərdinə şərik çıxdı. Ulu öndər Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək faciənin təşkilatçılarını, şəxsən Mixail Qorbaçovu kəskin tənqid etdi və Azərbaycan xalqına başsağlığı verdi. Heydər Əliyev 1990-cı il 20 Yanvar faciəsi ilə əlaqədar Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirilmiş yığıncaqda demişdir: "Mən baş vermiş hadisələr haqqında dünən xəbər tutmuşam və təbiidir ki, bu hadisəyə laqeyd qala bilməzdim. Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində, böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm... Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm.

Azərbaycanda yaranmış mürəkkəb vəziyyətin bir sıra səbəbləri vardır. Vaxtımızın məhdudluğundan bu məsələlərin üzərində ətraflı dayanmaq istəmirəm. Artıq iki ildir ki, Azərbaycan və Ermənistan arasında millətlərarası münaqişə gedir. Həmin münaqişəni Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr törətmişdir. Azərbaycan və Ermənistan, eləcə də, ölkənin ali siyasi partiya rəhbərlərinə bu məsələni tənzimləmək, daxili müharibəyə, millətlərarası münaqişəyə son qoymaq və milli mənsubiyyətindən asılı olmayaraq, hər bir adamın ümumi federativ ittifaq olan SSRİ-də azad yaşamasına şərait yaratmaq üçün iki illik müddət kifayət idi. Hesab edirəm ki, ötən iki ildə bu istiqamətdə lazımi səviyyədə iş aparılmamışdır. Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı. Bunlar üçün ilk növbədə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin artıq sabiq birinci katibi Vəzirov müqəssirdir".

Heydər Əliyev yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun, SSRİ DİN-in böyük kontingenti Bakı şəhərinə yeridilməsinin böyük səhv olduğunu bildirmişdir: "Bunun törətdiyi faciələr hamımıza məlumdur. Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Bəli, kobud siyasi səhv buraxılmışdır. Onlar, sadəcə olaraq, respublikadakı əsl vəziyyəti qiymətləndirə bilməmiş, Azərbaycan xalqının psixologiyasını anlamamış, əhalinin müxtəlif təbəqələri ilə əlaqələri zəiflətmişlər". Ulu öndər demişdir ki, qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır.

Mixail Qorbaçov başda olmaqla sovet imperiyasının rəhbərliyi Bakıda "rus və erməni kartından" məharətlə istifadə etdi. Guya Bakıya qoşun hərbi qulluqçuların ailələrini qorumaq, "millətçi ekstremistlər" tərəfindən hakimiyyətin zorla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə bu açıq riyakarlıq, ağ yalan idi. Çünki sovet rəhbərliyinin "dəlilləri" hətta həqiqətə yaxın olsaydı belə, Bakıya təpədən-dırnağadək silahlandırılmış qoşun göndərməyə ehtiyac yox idi. Ona görə ki, həmin vaxt burada daxili qoşunların 11 min 500 əsgəri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri var idi, 4-cü ordunun komandanlığı da Bakıda yerləşirdi.

20 Yanvar faciəsinin araşdırılması üçün yaradılmış istintaq komissiyasının materiallarında da bildirilir ki, adamları xüsusi qəddarlıqla öldürərək, yaxın məsafədən güllələmişlər. Məsələn, D.Xanməmmədova 10-dan çox, R.Rüstəmova 23 güllə vurulmuşdur. Xəstəxanalar, təcili yardım maşınları atəşə tutulmuş, həkimlər öldürülmüş, adamlar süngü-bıçaqla qətlə yetirilmişlər.

Bütün bunlar bir daha təsdiqləyir ki, imperiya xalqı bu yolla qorxudaraq, onu vahiməyə salmaq, iradəsini qırmaq, boyun əyməyə məcbur etmək istəyirdi ki, xalq azadlıq və suverenlik tələbindən əl çəksin, Dağlıq Qarabağın işğalı ilə barışsın. Ancaq Mixail Qorbaçov istəyinə nail ola bilmədi, əksinə, onun özü Azərbaycan xalqı qarşısında cılızlaşdı, sındı və zalım, qəddar, qaniçən kimi yaddaşlara həkk olundu.

Tanınmış britaniyalı jurnalist Tom de Vaal "Qara bağ" kitabında yazır ki, Bakıda hərbi vəziyyətin elan edilməsini başa düşmək olardı. Lakin sovet əsgərlərinin avtobusdakı insanları atəşə tutmalarını, 14 yaşlı qız uşağını güllələməklərini başa düşmək olmurdu. Bu, dəhşət idi.

Görkəmli rusiyalı kinorejissor Stanislav Qovoruxin "Repetisiya" (Məşq) məqaləsində yazırdı ki, sovet əsgərləri Bakıya işğalçı kimi daxil olmuşdular. Heç bir qayda-qanun yaratmaqdan söhbət gedə bilməzdi, söhbət işğaldan gedirdi.

20 Yanvar və Azərbaycan tarixində ondan əvvəlki və sonrakı faciəli hadisələr XX əsr boyu xalqımıza qarşı yeridilən düşünülmüş siyasətin bariz nümunəsidir. Azərbaycan xalqına qarşı soyqırımı, sovet hakimiyyəti illərində Azərbaycan ərazilərinin tədricən ilhaq olunması, nəticədə 1 milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkün halına düşməsi sovet rəhbərliyinin havadarlığı ilə başlayan Dağlıq Qarabağ hadisələri, azərbaycanlıların Ermənistan ərazisindəki əzəli torpaqlarından qovulması bu siyasətin mərhələləridir.

1990-cı ilin Yanvar qırğını nə qədər faciəli olsa da, həmin hadisə xalqın iradəsini, milli azadlıq uğrunda mübarizəsini ifadə etdi. Azərbaycanın tarixinə parlaq səhifə yazdı, milli azadlığımız, müstəqilliyimiz üçün yol açdı.

Bakının ən yüksək nöqtələrindən birində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş bir ünvan var. Bu, 20 Yanvar qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər xiyabanıdır. Hər il yanvarın 20-də xalqımız Vətənin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş Azərbaycan oğul və qızlarının əziz xatirəsini ehtiramla yad etmək üçün buranı ziyarət edir. Nəsillər dəyişəcək, lakin Vətən oğullarının xatirəsi ürəklərdə əbədi yaşayacaq.

**"Xalq qəzeti".-** 2016.-16 yanvar.- № 10.- S. 9.

## 20 Yanvar hadisələri Azərbaycan tarixinə qəhrəmanlıq səhifəsi kimi həkk olunub

**Rüstəm XƏLİLOV,**
Milli Məclisin deputatı

1990 -cı il yanvarın 20-də Azərbaycan xalqına qarşı törədilmiş müdhiş cinayətdən 26 il ötür. Bu illər ərzində o dəhşətli faciə bir an da olsa, unudulmamış, Vətənimizin istiqlaliyyəti, azadlığı, müstəqilliyi uğrunda canlarından keçmiş mərd oğul və qızlarımızın – şəhidlərimizin uyuduqları Şəhidlər xiyabanı hər bir azərbaycanlı üçün əsl ziyarətgaha çevrilmişdir. Hətta, xarici ölkələrdən republikamıza gələn qonaqlar da Şəhidlər xiyabanına gedərək, Vətən yolunda canlarını qurban verənlərin məzarları üzərinə tər çiçəklər düzür, onlara ehtiramlarını bildirirlər. Qəhrəmanlar unudulmur, həyat durduqca onlar yaşayır, gələcək nəsillərə örnək olurlar. 1990 -cı il Yanvarın 20-də şəhid olanlar da beləcə yetişən gənc nəsil üçün əsl vətənpərvərlik məktəbidir.

O məşəqqətli günlər hər birimizin yaddaşına əbədi həkk olunub. Həmin gün Azərbaycanın müstəqillik tarixinə qanla yazılmış bir səhifədir, ancaq təkcə faciə deyil. Bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizdəki azadlıq istəyinin oyanış günü idi. 1990 - cı ilin 20 yanvar günü uzun illər Sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi, ərazi bütövlüyü uğrunda qəhrəmanlıq nümayiş etdirdiyi şərəfli bir tarixdir.

Hər il 20 Yanvar faciəsinin ildönümünün respublikamızın bütün ərazilərində kütləvi şəkildə qeyd olunması, anım mərasimlərinin keçirilməsi, şəhidlərin xatirəsinin ehtiramla yad edilməsi ilə əlaqədar tədbirlər planı təsdiqlənir. Bu il də həmin ənənəyə sadiq olaraq, Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin sərəncamı ilə “20 Yanvar faciəsinin iyirmi altıncı ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı” təsdiq edilib. Tədbirlər planına uyğun olaraq, respublikanın şəhər və rayonlarında, o cümlədən idarə və təşkilatlarda 20 Yanvar hadisələri ilə bağlı konfrans, toplantı və mühazirələrin təşkili, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşaların göstərilməsi, bədii və sənədli filmlərin nümayiş etdirilməsi planlaşdırılıb. Bunların kütləvi informasiya vasitələrində geniş işıqlandırılması, dünya ictimaiyyətinin diqqətini faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri, diaspor qurumları və icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar faciəsi barədə materialların verilməsi nəzərdə tutulub.

Tədbirlər planına əsasən, respublikanın bütün tədris müəssisələrində faciəyə həsr edilmiş xüsusi dərs aparılacaq. Belə dərslər böyük əhəmiyyət kəsb edir. Yetişən gənc nəslin hərbi vətənpərvərlik ruhunda böyüməsində, Vətənə, xalqa, millətə sonsuz məhəbbət hisslərinin oyanmasında böyük rol oynayır. Gələcək nəsillər qədirbilənlik ruhunda yetişir, torpaq, ərazi bötövlüyümüz uğrunda canlarını qurban verənlərin yolunu davam etdirmək hissləri baş qaldırır.

Planda, həmçinin 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardım verilməsi, Şəhidlər xiyabanı ərazisində lazımi işlər aparılması, Azərbaycanda təmsil olunan əsas dini konfessiya və qurumlar tərəfindən faciə qurbanlarının xatirəsinə dini mərasimlər təşkil edilməsi də nəzərdə tutulub.

Bundan başqa, sərəncamda paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər xiyabanına ziyarətinin təşkili, saat 12.00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, gəmilər, avtomobillər və qatarlar vasitəsilə səs siqnallarının verilməsi, gün ərzində Şəhidlər xiyabanında matəm musiqisinin səsləndirilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində hüzn əlaməti olaraq, dövlət bayraqlarının endirilməsi və digər tədbirlər də nəzərdə tutulub.

Bütün bunlar bir daha təsdiqləyir ki, Vətən yolunda, istiqlaliyyət, azadlıq, suverenlik uğrunda canını qurban verənlər hər birimizin qəlbində öz heykəllərini qoyublar.

20 Yanvar faciəsi barədə söz açarkən qeyd etməliyik ki, 1988-ci ildən başlayaraq, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ Muxtar Vilayətində güclənən erməni separatizminə keçmiş sovet dövləti tərəfindən rəvac verilirdi. Azərbaycanlıların Ermənistandakı tarixi-etnik torpaqlarından, ata-baba yurdlarından, isti ocaqlarından zorla köçürülməsi, vəhşicəsinə qovulması xalqımızın səbrini tükəndirmişdi. Keçmiş imperiya rəhbərliyinin xeyir-duası ilə Ermənistanın Azərbaycana qarşı başladığı ərazi iddiaları nəticə etibarilə xalqımızın milli müstəqillik və istiqlaliyyət uğrunda mübarizəsinə yeni impulslar verdi. Xalqımız ölkəmizin ərazi bütövlüyünu qoruyub saxlamaq üçün 1988-ci ildə öz iradəsini ortaya qoydu. Respublika vətəndaşları İttifaq mərkəzinin Azərbaycana qarşı məqsədli şəkildə həyata keçirdiyi məkrli plana etiraz edir, Dağlıq Qarabağdakı ermənilərin separatçı və ekstremist hərəkətlərinin qarşısının alınmasını, haqq-ədalətin bərpa olunmasını istəyirdi. Ərazisinin ilhaq edilməsi cəhdlərinə qarşı qətiyyətlə çıxan xalqımızın milli ruhu,

özünüdərk hissi yüksəlmiş, müqavimət əzmi artmışdı. Həmin dövrdən başlanan ümumxalq hərəkatı meydan epopeyası kimi yüksək zirvəyə yüksəlmişdi. Rejimin həyata keçirdiyi repressiv tədbirlər Azərbaycanda meydan hərəkatının qarşısını müəyyən qədər alsa da, xalqın içində olan narazılığı qətiyyən boğa bilmədi.

O vaxtkı SSRİ rəhbərliyinin əmri ilə, xalqımızın etirazına cavab olaraq, Azərbaycanda genişlənən milli azadlıq hərəkatının qarşısını almaq və xalqın haqq səsini boğmaq üçün cəza tədbirləri hazırlanırdı. Həmin vaxt Bakıda və Sumqayıtda ermənilərə qarşı törədilən təxribatlar – tarixdə “erməni talanları” adı ilə qalmış olaylar Azərbaycana qarşı SSRİ DTK-sının qurduğu məkrli planların növbəti tərkib hissəsi idi. O vaxt respublikamız hələ SSRİ adlı imperiyanın tərkibində idi. Amma o imperiya ömrünün son günlərini yaşayırdı. Azərbaycanı və digər postsovet respublikaları kimi dərhal qarmağına keçirmək istəyən digər “sivil” imperiyaların və düşmən dövlətlərin kəşfiyyatları da öz işini görməkdə idi. Odur ki, Bakı casuslar, təxribatçılar məkanına çevrilmişdi. Dağlıq Qarabağ və ətraf bölgələrimizdə erməni terrorçuların dinc soydaşlarımıza hücum və qətliamları, Bakıda və bölgələrdə yaşayan ermənilərə qarşı hücumlar, DİN-in bir addımlığındakı erməni kilsəsinin yandırılması sanki gözlənilən faciəni daha da yaxınlaşdırırdı. O zaman qəlbləri imperiyaya, erməni işğalçılarına qarşı nifrətlə dolu olan soydaşlarımızın, xüsusən gənclərimizin çoxu bu cür hadisələrə sevinir, özlərini sanki düşmən üzərində qələbə çaldıqları kimi hiss edirdilər. Əslində isə, bütün bunlar Azərbaycanı Qara Yanvara, sonra da bütün Qarabağın yandırılaraq əlimizdən alınmasına aparan yolun məkrli planı idi.

Keçmiş SSRİ rəhbəri, Azərbaycana qarşı törədilən bu qətliamın ssenari müəllifi və təşkilatçısı Mixail Qorbaçov 1988-ci il iyulun 18-də SSRİ Ali Sovetinin iclasında da bu planını dilə gətirmişdi. Onun erməni deputatlara “Siz Bakıdakı 200 min ermənininin başına nə gələcəyi barədə düşünmüsünüzmü?” – sualı da buna işarə idi. Bunun ardınca həm erməni, həm də azərbaycanlıları qızışdıran təxribatçı qərar qəbul edildi və aksiyalar təşkil olundu. 1988-ci ilin sonunda Ermənistandan bütün soydaşlarımızın vəhşicəsinə deportasiyası, 1989-cu ilin martında Moskvanın qərarı ilə DQMV-nin Azərbaycandan ayrılaraq ermənipərəst Volskinin rəhbəri olduğu xüsusi idarənin tabeçiliyinə verilməsi SSRİ rəhbərliyinin Azərbaycana qarşı xüsusi məkrinin tərkib hissəsi idi. Təəssüf ki, Azərbaycanın o vaxtkı rəhbərliyi və xüsusi xidmət orqanları bu planların, o cümlədən, Bakıdakı “erməni talanları”nın qarşısını almaq üçün hər hansı bir tədbir görmədi və M.Qorbaçovun tapşırıqlarını can-başla yerinə yetirdilər.

Həmin dövrdə adlarını Azərbaycan Xalq Cəbhəsinin liderləri qoyan və hakimiyyəti ələ keçirmək üçün min oyundan çıxan bir qrup şəxs də “erməni talanları”nın olacağını bilirdi. Lakin onlar səslərini çıxarmır, yaranmış vəziyyətdən öz məqsədləri üçün yararlanmağa çalışırdılar. Sanki pusquda dayanıb məqam gözləyirdilər. Həmin vaxt Bakıda 40-a yaxın təxribat qrupu var idi. Onlar “erməni talanları” törədərək vəziyyəti daha da gərginləşdirirdilər. O dövrdə Bakıda SSRİ daxili qoşunlarının 60-70 minlik kontingenti var idi. Sonradan yayılan məlumatlarda bildirilirdi ki, həmin günlər talan törədənlər arasında həmin qoşunların mülki forma geyinmiş əməkdaşları da olub. Bu təxribatlar 20 Yanvar faciəsini sürətlə yaxınlaşdırdı və SSRİ rəhbərliyi guya Bakıda yaşayan dinc əhalinin və müxtəlif millətlərin nümayəndələrinin təhlükəsizliyini təmin etmək məqsədilə Bakıya qoşun yeritdi. Özlərinin deməlderinə görə, guya Azərbaycan xalqının qayğısına qalırmış və “ekstremist qüvvələri” zərərsizləşdirmək istəyirlərmiş.

Yanvarın 16-dan başlayaraq Bakıda xaotik proseslər baş verir, AXC fəallarının təkidi ilə insanlar müxtəlif yerlərdə istehkamlar qururdular. Hətta paytaxtda imperiyaya məxsus hərbi texnikanın yerdəyişməsinə və hərəkətinə də rast gəlinirdi. Belə bir ağır vəziyyətdə AXC-nin yerləşdiyi qərargahda ikitirəlik hökm sürürdü. Bir hissə xalqı sovet ordusu ilə üz-üzə qoymağa çalışır, digər qrup isə hadisələrə biganə yanaşmaqda davam edirdi. AXC fəalları insanlar arasında təbliğat işi aparmaq, əliyalın vətəndaşları silahlı ordu ilə üz-üzə gəlməkdən çəkindirmək əvəzinə, “azadlıq yalnız qanla alınmalıdır” kimi populist şüarlar irəli sürürdülər. Bunun isə nəticəsi çox ağır oldu.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun hərbi hissələri və zirehli texnikası Bakı və Sumqayıt şəhərlərinə, habelə ölkəmizin bir çox şəhər və rayonlarına yeridildi. Erməni əsilli zabit və əsgərlər də bu əməliyyatlara cəlb edilmişdi. Hərbi gəmilərdən çıxarılan desant qrupları da şəhər üzərinə hücuma keçmiş, ağır hərbi texnika dinc əhalinin qurduğu barrikadaları asanlıqla dağıtmışdı. Nəticədə beynəlxalq hüquq normaları, keçmiş SSRİ-nin və Azərbaycan SSR-in konstitusiyalarının müvafiq müddəaları kobudcasına pozulmuş, öz torpaqlarının, milli mənliyinin müdafiəsinə qalxmış çoxmillətli xalqımıza vəhşicəsinə divan tutulmuşdu. Sovet qoşunlarının təcavüzü nəticəsində milliyyətindən, yaşından və cinsindən asılı olmayaraq, silahsız mülki şəxslər amansızcasına öldürülmüş, paytaxtda, şəhərətrafı qəsəbələrdə və rayonlarda dinc, günahsız insanlar yaralanmış, yüzlərlə adam itkin düşmüş və qanunsuz həbs edilmişdi. Yanvarın 20-də fövqəladə vəziyyət elan edildikdən sonra isə daha 21 nəfər öldürülmüşdü. Yaralıları çıxaran təcili tibbi yardım maşınlarına və həkimlərə də atəş açılmış, tibb işçiləri də yaralanmış, şəhid olmuşdu.

Sovet ordusunun böyük kontingentinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edilmişdi. Kommunist diktaturası Çexoslovakiyaya, Macarıstana, Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni hətta o zamankı Sovet İttifaqının müttəfiq respublikalarından biri olan Azərbaycanda da təkrarlamaqdan çəkinmədi. Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni əsgər və zabitləri, sovet hərbi hissələrində xidmət edən ermənilər, erməni kursantlar da daxil edilmişdi.

Azərbaycanın informasiya blokadasına alındığı bir şəraitdə baş vermiş həqiqətləri operativ surətdə dünya ictimaiyyətinə çatdırmaq zərurəti yaranmışdı. Dəhşətli faciəyə kəskin etiraz olaraq 1990-cı il yanvarın 21-də ailəsi ilə birgə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək mətbuat konfransı keçirən ümummilli liderimiz Heydər Əliyev hadisəyə operativ və düzgün qiymət verən ilk vətənpərvər siyasi xadim oldu. Ulu öndərin qətiyyətli mövqeyi respublikamızın informasiya blokadasına alındığı ağır günlərdə totalitar rejimə ağır və sarsıdıcı zərbə endirdi.

Heydər Əliyev çıxışında kommunist rejiminin gerçək simasını açmış, xalqımızın suveren hüquqlarına qəsd olunduğunu bildirmiş, bu siyasətə qəti etirazını ifadə etmişdi. Ulu öndər üzləşdiyi təzyiqlərə məhəl qoymadan, öz cəsarəti, yenilməzliyi ilə Azərbaycana sədaqətini bir daha nümayiş etdirmişdi. Psixoloji və ruhi sarsıntı, qorxu, xof içərisində yaşayan azərbaycanlılar 1990-cı il yanvarın 21-də qüdrətli şəxsiyyət Heydər Əliyevin Azərbaycanın Moskvadakı nümayəndəliyinin binasında qəzəbli və qətiyyətli bəyanatının doğurduğu əks-sədanı eşitdilər. Bununla da sanki təsəlli tapdılar və bir qədər rahatlandılar. Heydər Əliyev bütün təzyiqlərə və təhdidlərə baxmayaraq, mənsub olduğu xalqın faciəsinə məsuliyyət daşıyanları Kremlin bir addımlığında, həm də bütün dünyanın gözü qarşısında ittiham edirdi.

1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclis həmin tarixi Ümumxalq Hüzn Günü elan etmiş və həmin gün respublikamızda hər il qeyd edilir. Qanlı hadisə zamanı hünər nümunəsi göstərərək həlak olmuş Azərbaycan Respublikası vətəndaşlarına ölkə Prezidentinin fərmanına əsasən “20 Yanvar şəhidi” fəxri adı verilmişdir. Eləcə də “1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə dövlət qayğısının artırılması haqqında” sərəncama əsasən müxtəlif tədbirlər həyata keçirilir. Bu şəxslərə müvafiq müavinət, həmçinin həmin ailələrə ölkə başçısının fərmanı ilə Prezident təqaüdü verilir. Şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, mənzil şəraitinin yaxşılaşdırılması dövlətimizin diqqət mərkəzində saxladığı prioritet sahələrdəndir.

Azərbaycan xalqının qürur ünvanına çevrilmiş 20 Yanvar hadisələrindən 26 il ötür. Bu tarixi gündə Azərbaycan xalqı əsrlər boyu qəlbində yaşatdığı milli azadlıq və istiqlal istəyindən geri çəkilməyəcəyini, bu müqəddəs amal uğrunda hətta canından belə keçməyə hazır olduğunu bütün dünyaya nümayiş etdirdi. Bu hadisə xalqımızın milli azadlıq və müstəqillik uğrunda mübarizəsinin kulliminasiya nöqtəsi olmaqla, çağdaş tariximizə qürur və şərəf mübarizəsi kimi daxil oldu.

**“Xalq qəzeti”**. - 2016.-15 yanvar.- № 9.- S. 9.

**Xalqın azadlıq uğrunda mübarizə əzmini qıra bilmədilər**

**Bəxtiyar QARACA**

1990-cı ilin 20 Yanvar günü Azərbaycan tarixində təkcə faciə kimi deyil, eyni zamanda, xalqımızın istiqlal yolunun, müstəqillik arzularının zirvəsi, milli məfkurəmizdə azadlıq istəyinin oyanış günü kimi daima yaşayacaqdır. 20 Yanvar həm də uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini şərəflə ucaltdığı, öz ərazi bütövlüyü, suverenliyi uğrunda qəhrəmanlıq, mərdlik nümayiş etdirdiyi şərəfli bir gündür. Bu, həm də dostun düşməndən seçildiyi, imtahana çəkildiyi bir gün idi.

Həmin hadisələrdən illər keçməsinə baxmayaraq, o, xalqımızın qan yaddaşına əbədi həkk olunub. Sovet dövlətinin hərb maşınının o gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi terror aktı, ümumilikdə, insanlığa qarşı ən ağır cinayətlərdən biri kimi tarixdə qalacaqdır. Öz azadlığı uğrunda mübarizəyə qalxan insanlara divan tutulması, yüzlərlə günahsızın qətlə yetirilməsi sovet rejiminin təhdid və hədədən ibarət cinayətkar mahiyyətini bir daha bütün dünyaya açıb göstərdi.

Həmin gün vaxtilə Çexoslovakiyaya, Macarıstana, Əfqanıstana zorla qoşun yeridən sovet rəhbərliyi bunu müttəfiq respublikalardan biri olan Azərbaycanda da təkrarlamaqdan çəkinmədi. O vaxt Azərbaycan qonşu Ermənistanın da təcavüzü ilə üz-üzə qalmışdı - Qarabağda hadisələr gündən-günə şiddətlənir, azərbaycanlılar kütləvi şəkildə deportasiya edilir, öz doğma ocaqlarından didərgin salınırdılar. Belə bir vaxtda sovet hökuməti münaqişənin qarşısını almaq, Ermənistanı işğalçılıq iddialarından çəkindirmək əvəzinə Bakıya qoşun hissələri yeritdi, Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni əsgər və zabitləri də hərbi əməliyyata cəlb etdi.

Qoşun kontingentinə "doyüş tapşırığı"nı yerinə yetirmək üçün möhkəm psixoloji hazırlıq keçirilmişdi. Sovetlər birliyinin rəhbərliyi "erməni kartı"ndan məharətlə istifadə edərək guya qoşunların hərbi qulluqçuların ailələrini qorumaq, hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridildiyini bəyan edirdi. Əslində isə bu, riyakarlıqdan və yalandan başqa bir şey deyildi. Çünki həmin vaxt burada daxili qoşunların əsgərləri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri var idi. 4-cü ordunun komandanlığı da Bakıda yerləşirdi.

Bütün bunlara baxmayaraq, 1990-cı il yanvarın 19-da Mixail Qorbaçov yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. Bir gün əvvəl - yanvarın 19-da isə SSRİ DTK-nın "Alfa" qrupu Azərbaycan televiziyasının enerji blokunu partlatdı və bununla respublikada televiziya verilişləri dayandırıldı, əhali baş verənlərdən məlumatsız qaldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə girdi və əhaliyə divan tutmağa başladı. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100 nəfərə çatmışdı.

Hərbçilər hər yana atəş acır, insanlar küçədə, avtobusda, öz mənzillərində oturduqları yerdə güllələrə tuş gəlirdilər. Bir neçə gün ərzində 140-dan çox insan öldürüldü, 700-dək yaralandı, 800-dən çoxu qanunsuz həbs edildi.

İnsanlar xüsusi qəddarlıqla öldürülmüşdü. Şəhidlərdən birinə 21, digərinə 10-dan çox, başqa birisinə isə 23 güllə vurulmuş, maşınlar atəşə tutulmuş, həkimlər belə qətlə yetirilmişdilər. Həlak olanlar arasında yetkinlik yaşına çatmayanlar, qadınlar, qocalar, şikəstlər də var idi.

Yanvarın 20-də artıq bütün dünya Bakıda törədilmiş dəhşətli qırğından xəbər tutdu.

20 Yanvar və Azərbaycan tarixində ondan əvvəlki faciəli hadisələr XX əsr boyu xalqımıza qarşı yeridilən düşünülmüş siyasətin növbəti təzahürü idi. Azərbaycan xalqına qarşı soyqırımı, sovet hakimiyyəti illərində Azərbaycan ərazilərinin tədricən ilhaq olunması, nəticədə ölkənin ərazisinin 125 mindən 87 min kvadratkilometrədək azalması, sovet rəhbərliyinin havadarlığı ilə başlayan Dağlıq Qarabağ hadisələri, azərbaycanlıların Ermənistan ərazisindəki əzəli torpaqlarından qovulması bu siyasətin məntiqi nəticəsi idi.

1990-cı ilin 20 Yanvarı nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. O müdhiş gecədə həlak olan Vətən oğulları Azərbaycan tarixinə parlaq səhifələr yazdı, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar...

**"Azərbaycan"**.-2016.-15 yanvar.-№ 9.- S. 6.

**Azərbaycançılıq: 20 Yanvar sınağı**

**Vidadi Rzayev**
Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin əməkdaş

Bu il o müdhiş, qanlı yanvar gecəsinin 26-cı ildönümünü anacağıq. Günlər yaxınlaşdıqca elə bil hamıda yenidən bir gərginlik, sarsıntı, bununla yanaşı həm də bir daxili qürur hissi canlanır. Çox qəribədir... Adətən böyük itkilər, faciələr insanlar tərəfindən hüznlə, kədərlə anılır. 20 yanvar faciəsi isə nəticə etibarı ilə müstəqil Azərbaycanın yaranmasına aparan şanlı yolun bir hissəsi olduğuna görə, həm də qürur günümüzdür. Bilirik ki, həmin gün televiziya və radio efirlərində yenə də Habil Əliyevin səsləndirdiyi "Zabul-segah" parçası, Kamil Cəlilovun qoboyundan çıxan "Zəminxarə" sədası, Alim Qasımovun qəlbləri riqqətə gətirən "Humayun" muğamı bizlərə bir daha xatırladacaq ki, bu gün şənlənmək, deyib-gülmək, nə də ağlamaq - sızlamaq günü deyil, baş verən hadisələri bir daha təhlil etmək, ölkəmizin müstəqilliyini daha da möhkəmləndirmək, hakimiyyət-xalq birliyinin sarsılmazlığını qorumaq barədə düşünmək günüdür.

Düz 26 il bundan əvvəl gözəl Bakımız qan çanağına döndü. Bir gecədə onilliklər boyu formalaşmış Sovet ordusuna və Kommunist partiyasına olan inam tamamilə qırıldı. Həmin gecə yalnız Bakıda 131 nəfər qoca, qadın, uşaq, alim, həkim, milis qətlə yetirildi. Bizə bir ibrət dərsi olan həmin faciəli gecənin bir xüsusiyyəti ondan ibarət idi ki, yüz illər, bəlkə də min illər boyu bu ərazidə məskunlaşmış, qardaşlaşmış müxtəlif xalqların nümayəndələri yalnız xoş gündə deyil, faciəli anlarda belə bir olmağı, dinindən, milli mənsubiyyətindən, inancından asılı olmayaraq bu Vətən yolunda şəhid olmağa hazır olduqlarını sübut etdilər.

Budur azərbaycançılıq məfkurəsi, multikulturalizmi, budur Azərbaycan gerçəkliyi.

Ümummilli Liderimiz Heydər Əliyev haqlı olaraq deyirdi ki, "Azərbaycan Respublikasının ən böyük, bəlkə də, ən birinci sərvəti yüz illər boyu bu ərazidə yaşayan dostlaşan, qardaşlaşan xalqların sarsılmaz biliyidir".

Baş vermiş bu böyük faciənin detallarını təhlil etdikcə bir daha aydın olur ki, 1990-cı il 20 yanvar faciəsi uzun zaman çərçivəsində ona doğru gedən yolun dayanacaqlarından sadəcə biri idi. Bir tərəfdən qondarma "Dağlıq Qarabağ problemi"nin "çözülməsi", digər tərəfdən isə imperiyanın əyalətlərdəki hegemonluğunu nümayiş etdirmək üçün belə bir qanlı cinayət törədildi. M. Qorbaçov rejimi üçün Azərbaycan xalqının milli iradəsini qırmaq yolun üzərində başlıca maneə Heydər Əliyev idi. 1987-ci ilin oktyabrında SSRİ hökuməti və Sovet İttifaqı Kommunist partiyasının siyasi bürosu Heydər Əliyevin vəzifədən kənarlaşdırılmasına nail oldu. Lakin o zamankı iqtidar anlamırdı ki, Heydər Əliyevi vəzifədən çıxarmaq olar, lakin ruhunu, əzmini, doğma Azərbaycanına və xalqına bağlılığını qıra bilməz.

1988-ci ildə M. Qorbaçov başda olmaqla SSRİ rəhbərliyindəki havadarlarına arxayın olan Ermənistan SSR hakimiyyət qurumları tarixi Azərbaycan torpaqlarında qərarlaşmış 185 Azərbaycan kəndindən 230 min azərbaycanlının zorla qovulmasına nail oldu. Ermənistanın əsassız ərazi iddiaları və Dağlıq Qarabağdakı separatçılıq Respublikamızın ərazi bütövlüyünün müdafiəsi uğrunda kütləvi xalq

hərəkatının yaranmasına gətirib çıxardı. 1990-cı ilin əvvəllərində Azərbaycanda ictimai-siyasi vəziyyət kəskinləşdi, hökumət böhranı başladı, bir sıra rayonlarda sovet və partiya orqanları devrildi, İranla sərhəddəki istehkamlar dağıdıldı.

1990-cı ilin yanvarın 13-də Bakıda təxribat törədildi. Yanvarın 19-u üçün 300-ə qədər rus ordu generalının rəhbərliyi altında 60 min nəfərdən artıq qoşun hissələri Bakı və ətraf ərazilərdə yerləşdirildi. M. Qorbaçov SSRİ Konstitusiyasının 119-cu və Azərbaycan SSR Konstitusiyasının 71-ci maddəsini kobud sürətdə pozaraq yanvarın 20-də Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında Fərman imzaladı. Fərmanın elan olunmasına maneə törətmək üçün Azərbaycan televiziyasının enerji bloku partladıldı.

SSRİ-nin Krasnodar, Rostov və Stravropol vilayətlərindən toplanmış və əsasən də erməni əsilli könüllülərdən ibarət təşkil olunmuş başıpozuq orduya izah edilmişdi ki, sizə müqavimət göstərəcək insanlar islam radikalizmi ilə silahlanmış azərbaycanlılar olacaqdır. Halbuki, həmin gün silahlı ordu qarşısında dayanan xalq nümayəndələri tərkibində yüzlərlə rus, yəhudi, talış, kürd, ləzgi, tatar və digər xalqların nümayəndələri var idi. Onlar öz bədənlərini ümumi vətənimiz olan Azərbaycan uğrunda sipər edərək azadlıq yolunda şəhid olmağa hazır olduqlarını nümayiş etdirirdilər.

Həmin gün və daha 2 gün sonra Respublika üzrə 147 nəfər vəhşicəsinə öldürüldü, 612 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs edildi, yüzlərlə bina dağıdıldı. Şəhidlər arasında azərbaycanlılar ilə yanaşı, 11 talış, 6 rus, 3 tatar, 3 yəhudi, 2 ləzgi, 2 kürd, 2 tat, 1avar, 1ukraynalı var idi.

Azərbaycanlı Cəbrayıl Xanməmmədova 23, rus Boris Yefimtsevə 21 güllə vurulmuşdu. Bu onu göstərirdi ki, silahlı Sovet ordusu Azərbaycan xalqının iradəsindən qorxurdu.

20 yanvar faciəsi bir daha sübut etdi ki, Azərbaycanda tarixən formalaşmış və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları tərəfindən deyildiyi kimi, həyat tərzinə çevrilmiş multikulturalizm bağlılığını heç bir qüvvə sarsıda bilməz.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev cənabları tərəfindən 2016-cı ilin "Azərbaycanda multikulturalizm ili" elan etməsi, eyni zamanda 20 yanvar faciəsində dini əqidəsindən, dilindən, etnik mənsubiyyətindən asılı olmayaraq Vətən uğrunda şəhid olan azərbaycanlıların ruhuna ən böyük hörmətdir.

**"Olaylar".-**2016.-14 yanvar.-№ 248.-S.11.

**20 Yanvar 1990-cı il – xalqımızın tarixinin qanlı və şanlı səhifəsi**

**Vüqar QƏDİROV,**
Azərbaycan Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına
Dövlət Dəstəyi Şurasının üzvü, Qaçqın və Məcburi Köçkün Gənclər Təşkilatının sədri

**Azərbaycan xalqı bu günü heç vaxt yaddan çıxarmayacaq və gələcəkdə də hər il bu gün qeyd olunmalıdır. Azadlıq, müstəqillik uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxarılmamalıdır.**

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

1990-cı ilin 20 Yanvarı XX əsr tarixində totalitarizmin həyata keçirdiyi ən qəddar terror aktlarından biridir. Bu, Azərbaycan xalqına qarşı yönəldilmiş ən dəhşətli cinayətdir. Sovet ordusunun dinc əhaliyə qarşı yağdırdığı güllələr hərəni bir yerdə yaxaladı. Silahsız vətənpərvər insanlar qətiyyət, cəsarət və qəhrəmanlıq göstərib, rus imperiyasının böyük ordusu ilə üz-üzə durdu, təcavüzün qarşısını almağa qalxdı.

Lakin azğınlaşmış imperiya ordusunun güllələbaranı nəticəsində insanlar küçədə, avtobusda, xüsusi minik maşınlarında həlak oldular və ya yaralandılar, hətta, öz eyvanında, qapısının ağzında, evinin içində qətlə yetirilənlər oldu. Uşaq, ahıl, ağbirçək, neçə-neçə Vətən övladı düşmən gülləsinə tuş gəlib həlak oldu, yaralanaraq sağlamlığını əbədi itirdi. O müdhiş gecədə xalqımızın ən ləyaqətli övladları ölkəmizin azadlığı, tarixi torpaqlarımızın bölünməzliyi yolunda canlarından keçdilər. Sinəsini düşmən gülləsinə sipər edən övladlarımız Şəhidlər xiyabanında daşlaşıb heykəlləşdilər, əbədiyyətə qovuşdular.

Xalqımız bu faciədə həyatdan vaxtsız getmiş övladlarına matəm saxlamaqla bərabər, eyni zamanda onların şəhidlik zirvəsinə baxaraq başını dik tutmalıdır. Çünki Vətən şəhidləri ilə ucalır.

26 il öncə Azərbaycan xalqının taleyində nəhs və qorxunc günlər yaşanırdı. Xalqımız sovet hərb maşınının zoruna məruz qalmışdı. Millətimiz təcavüzə uğramış, günahsız insanlar güllələbaran edilmiş, milli heysiyyatımız tankların tırtılları altına atılmışdı. Başda Mixail Qorbaçov olmaqla, keçmiş SSRİ rəhbərliyi Azərbaycan xalqını qorxutmaq, onun milli oyanışını, Vətən, torpaq uğrunda mübarizliyini məhv edib sındırmaq məqsədi daşıyan mənfur plan hazırlayırdı. 1990-cı ilin 20 Yanvarında xalqımıza qarşı törədilən qanlı faciə də məhz bu planın bir hissəsi idi. Biz bu qətliamı, bir qayda olaraq, yalnız kədər, hüzn, matəm günü kimi qeyd etmiş, şəhidlərimizin ruhunu ağı və sızıltı ilə anmışıq. Bu əhval təbiidir. Çünki həmin gün Ümumxalq Hüzn Günüdür. Ancaq bir şeyi unutmamalıyıq ki, 20 Yanvar Azərbaycan xalqının tarixində, sadəcə, ağı və acı ilə xatırlanacaq gün deyil! Eyni zamanda, həm də xalqımızın şan-şöhrət, milli məfkurəmizin oyanış və şərəf günüdür. Məhz həmin gün Bakının küçə və meydanlarını boyamış şəhid qanları bir anlamda milli məfkurəmizin oyanan günəşinin qırmızı şəfəqini simvolizə edirdi. Xalqımız həmin gün ölkəmizin başı üzərində dayanmış dəhşətli kabusa, sovet ordusunun qorxunc qaragüruhuna qarşı sinəsini sipər etməyi, özünün mənliyini və mətinliyini nümayiş etdirməyi bacardı. Məhz həmin hadisələr bilavasitə nümayiş etdirdi ki, Azərbaycan xalqı özgürlük mübarizəsinə qalxmaq, pozulmuş hüquqlarının, suverenliyinin bərpa olunması uğrunda mərdlik, cəsarət və qəhrəmanlıq əzminə sahibdir.

1990-cı ilin 20 Yanvarı Azərbaycanın istiqlaliyyət yolunun ilk şəhidlik zirvəsi idi. Ötən illər ərzində "Qanlı Yanvar"ın tarixi, mənəvi, siyasi və digər aspektləri araşdırılmış, hadisəyə Azərbaycan dövləti tərəfindən hüquqi qiymət verilmişdir.

Həmin gün Azərbaycanın o vaxtkı rəhbərliyinin istəyi və SSRİ rəhbərliyinin əmri ilə Azərbaycanda kommunist rejimini saxlamaq və milli azadlıq hərəkatını boğmaq məqsədilə Bakıya 35 minlik ordu yeridilmişdi. SSRİ Müdafiə Nazirliyi, DİN və DTK-nın hazırlayıb həyata keçirdiyi "Udar" adlı əməliyyatda əsas rolu xüsusi təyinatlı "ALFA" və SSRİ DTK-nın "A" təxribat qrupları oynayırdı. Sovet qoşunlarının təcavüzü nəticəsində Bakıda öldürülənlər arasında beş millətin nümayəndəsi, 20-dən çox qadın, uşaq var idi. "Qara Yanvar"ın indiyədək özündə saxladığı sirlər çoxdur. 100 cildlik istintaq materialının 69 cildi Bakıdan Moskvaya, keçmiş SSRİ Prokurorluğuna aparılıb və bir daha geri qaytarılmayıb. Azərbaycan xalqının məruz qaldığı bu təcavüz indiyədək bəşəriyyət əleyhinə cinayət kimi beynəlxalq müstəvidə hələ də layiq olduğu təsnifatı almayıb.

İnsanlıq əleyhinə törədilmiş bu müdhiş cinayət nəticəsində BMT-nin İnsan Hüquqları haqqında Ümumi Bəyannaməsinin, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın, habelə insan hüquqlarına dair digər hüquqi sənədlərin müddəaları kobud şəkildə pozulmuşdur. Bu, bəşəriyyət və insanlıq əleyhinə törədilmiş dəhşətli qətliam idi. Dinc əhaliyə qarşı həyata keçirilən cəza tədbirləri zamanı 1949-cu ilin Cenevrə Konvensiyasının, Beynəlxalq Hərbi Tribunalın Əsasnaməsinin, Beynəlxalq İnsan haqları Bəyannaməsinin, insan haqlarına dair digər beynəlxalq aktların çoxsaylı müddəaları pozulmuşdu. Bu məqamlar 20 Yanvar hadisələri ilə bağlı aparılmış ən səthi təhqiqatlarda da təsdiqlənir. Kütləvi itkilərlə nəticələnən 20 Yanvar faciəsi öz mahiyyətinə və miqyasına görə XX əsrdə törədilmiş ən dəhşətli cinayətlərdəndir. Lakin bu qanlı cinayətə indiyədək beynəlxalq hüquqi qiymət verilməyib, aksiyanın sifarişçiləri və icraçıları hələ də cəzalandırılmayıb.

SSRİ-nin digər bölgələrində, o cümlədən Tbilisidə və Baltikyanı respublikalarda baş vermiş hadisələr sovet rəhbərliyi, xalq deputatları səviyyəsində müzakirə edilsə də, 20 Yanvar hadisələri şüurlu şəkildə təhrif edilərək yanlış yozuma və unutqanlığa məhkum edilmişdi. Bircə faktı vurğulamaq yetər ki, keçmiş SSRİ prezidenti M.Qorbaçov Azərbaycanda həyata keçirilmiş əməliyyata yalnız bir dəfə, 1991-ci ildə, 20 Yanvarın ildönümündə Azərbaycan xalqına başsağlığı verməklə münasibət bildirmişdi.

Bu faciədən sonra Azərbaycan rəhbərliyinin atdığı addımlar cəsarətsizlik və siyasi təslimçilik, qorxaqlıq və itaətsizlik nümunəsi idi. O vaxt Azərbaycan xalqı adından Bakıdan yeganə etiraz bəyanatı Şeyxülislam Allahşükür Paşazadə tərəfindən verilmişdi. SSRİ rəhbərliyinə, habelə, BMT-yə, dünya dövlətlərinə ünvanlanan və kəskinliyi ilə seçilən həmin bəyanatda 20 Yanvar faciəsinin törədilməsinə görə günahın bilavasitə Kremlin və M.Qorbaçovun üzərinə düşdüyü vurğulanırdı.

O dövrdə Azərbaycan xalqı adından ən ciddi bəyanatı Moskvada Kremlin nəzarəti altında saxlanılan ulu öndər Heydər Əliyev vermişdi. Ulu öndər məhz imperiyanın mərkəzində, dünyanın aparıcı KİV təmsilçiləri qarşısında çıxış edərək, 20 Yanvar faciəsində insanlığa qarşı törədilən qırğınlara siyasi qiymət verilməsini, günahkarların cəzalandırılmasını tələb edən bəyanat vermişdi. Ulu öndərin qətiyyətli mövde nümayiş etdirməsi ciddi rezonans doğurmuşdu. Heydər Əliyevin həmin bəyanatda sovet dövlətinin başçısı M.Qorbaçovu birbaşa ittiham etməsi onun cəsarətinin, öz xalqına, millətinə, Vətəninə dərin məhəbbətinin, bağlılığının daha bir sübutu idi. Böyük vətənpərvər Heydər Əliyev bütün dünyaya sübut etdi ki, belə cəsarətli və prinsipial addımı yalnız o ata bilər. Əslində, ulu öndərimizin bu bəyanatı elə Azərbaycan xalqının haqq səsi idi. Bu bəyanat həm də faciədən sonra mənəvi-psixoloji cəhətdən sarsılmış xalqımıza böyük təsəlli olmaqla yanaşı, dünya ictimaiyyətinə Azərbaycanda baş vermiş faciənin miqyası barədə əsl həqiqətlərin lazımınca çatdırılmasında mühüm rol oynadı.

Həmin gün Moskvada öz xalqına dayaq olan Heydər Əliyevin etiraz səsi bütün dünyaya yayıldı. O gün heç kəs başını aşağı əymədi. Biz şəhid verdik, lakin qalib gəldik. Biz nə əyildik, nə sındıq. O gün “Azadlıq!” sədası göylərə qalxdı. Biz o azadlığı qanımız bahasına əldə etdik...

Ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra bu məsələ yenidən gündəmə gəldi, 20 Yanvar hadisələrini lazımınca qiymətləndirmək yolunda ciddi addımlar atıldı. Məhz ulu öndərin sərəncamı ilə 20 Yanvar Ümumxalq Hüzn Günü elan olundu. 20 Yanvar faciəsinin hərtərəfli, əhatəli və dolğun qiyməti xalqımızın dahi oğlu Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə verildi.

Tarixi şəxsiyyət Heydər Əliyevin daxili və xarici siyasətini uğurla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyev 20 Yanvar faciəsində qətlə yetirilənlərin, müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinin dövlət səviyyəsində həllini prioritet vəzifələrdən biri kimi qarşıya qoyub. Bu istiqamətdə mütəmadi olaraq böyük tədbirlər həyata keçirilir. Şəhid ailələrinin, əlillərin sosial müdafiəsi ildən-ilə möhkəmləndirilir. Dövlət başçısının Şəhidlər xiyabanı kompleksinin yenidən qurulması ilə bağlı sərəncamı şəhidlərimizin xatirəsinə böyük ehtiramın daha bir nümunəsinə çevrildi.

Ölkə başçısının fərmanı ilə 20 Yanvar şəhidlərinin ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilib. 140 nəfər 20 Yanvar şəhidi fəxri adı almış şəxslərin 180 nəfər ailə üzvünə Prezident təqaüdü verilir. 2006-cı il yanvarın 1-dən qüvvəyə minən “Əmək pensiyaları haqqında” Qanuna əsasən, 20 Yanvar şəhidlərinin əmək pensiyasını alan hər bir ailə üzvünə aldığı pensiyadan başqa əlavə ödəniş verilir.

Həmçinin ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva şəhid ailələrinin, əlillərin və müharibə veteranlarının həyat səviyyəsinin yüksəldilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətlərin bütün dünya ictimaiyyətinə lazımınca çatdırılması üçün böyük əzmlə, fədakarlıqla çalışırlar.

... Əbədi qəhrəmanlıq dünyasına qovuşarkən şəhidlərimiz əsl azərbaycanlıya xas olan mərdlik, qəhrəmanlıq nümayiş etdirərək demişlər: “ Təki Vətən yaşasın, təki azadlığımız bərpa edilsin, təki müstəqilliyimiz qorunsun”. Bu arzu, bu amal və istək uğrunda canlarını Vətənimizin azadlığı uğrunda qurban verən mərd

övladlarımız  şəhid oldular, əbədiyyətə qovuşdular, işğalçıların top-tüfəngindən çəkinmədilər. Onlar əlçatmaz şəhidlik zirvəsinə, ölməzlik, əbədiyyət səviyyəsinə yüksəldilər. Şəhidlərimiz  Vətən, torpaq uğrunda ölməyi bizə öyrətdilər. Yalnız bu yolla müstəqilliyimizi, azadlığımızı qoruya bildik, qaldırdığımız üçrəngli bayrağı  heç vaxt enməyə qoymarıq.

**"Xalq qəzeti".-**2016.-14 yanvar.-№ 8.-S.6.

## Faciə barədə əsl həqiqətlər dünyaya çatdırılıb

**Rəhman SALMANLI**

Azərbaycan xalqının tarixinə qanla yazılmış 1990-cı ilin 20 Yanvarı ötən əsrin ən faciəli hadisələrindən biridir. Azərbaycanda vüsət almış milli azadlıq hərəkatını boğmaq, demokratik və suveren dövlət yaratmaq amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini aşağılamaq və belə bir yola qədəm qoyan hər hansı xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədi ilə 1990-cı il yanvarın 20-də Sovet Silahlı Qüvvələrinin qoşunları Bakı şəhərinə və respublikanın bir neçə rayonuna yeridilmiş, haqq və ədalətin müdafiəsi naminə küçələrə çıxmış dinc adamlar qəddarcasına qətlə yetirilmişdir. İmperiya qüvvələri öz qanlı hakimiyyətlərinin ömrünü uzatmaq üçün azadlıq istəyində olanlara qarşı etdiyi haqsızlıqlar və vandal hərəkətlərinin dünya ictimaiyyətinə çatdırılmasında vətənpərvər insanların, xüsusilə də Heydər Əliyev Fondunun böyük xidmətləri var.

20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verilməsi ulu öndər Heydər Əliyevin uzaqgörənliyi sayəsində reallaşmışdır. Özündən əvvəlki rəhbərlərdən fərqli olaraq bu məsələyə xalqın mənafeyi baxımından yanaşan ulu öndər Heydər Əliyev 1994-cü il yanvarın 5-də " 20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" fərman imzalamışdır. Adı çəkilən sənəddə Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymətin verilməsi, bu məqsədlə parlamentin xüsusi sessiyasının keçirilməsi məsələsinə baxılması tövsiyə edilirdi. Milli Məclisdə aparılan müzakirələrin yekunu olaraq 1994-cü il martın 29-da qəbul edilən qərarda 1990-cı ilin 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. Qərarda 1990-cı ilin 20 Yanvar hadisələri Azərbaycanda vüsət almış milli-azadlıq hərəkatını boğmaq, suveren bir dövlət amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, belə bir yola qədəm qoyan xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. Bununla da, Azərbaycan xalqının taixinə qanla yazılan 20 Yanvar hadisələri barədə əsl həqiqətlər dünya ictimaiyyətinə təqdim olundu. Bu həqiqətlərin dünyaya çatdırılmasında Heydər Əliyev Fondu və onun xarici ölkələrdəki təmsilçiləri, eləcə də səfirliklərimiz böyük işlər gördülər. Hər il 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar konfranslar, simpoziumlar, yığıncaqlar, sərgilər, görüşlər təşkil edilir, kitablar, foto-albomlar və broşürlər dünya ictimaiyyətinə çatdırılır. Bu tədbirlərdə Sovet İttifaqının dağıldığı dövrdə öz dövlət müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış Azərbaycan xalqına qarşı törədilmiş qətliamın səbəbləri, ermənilərin, onların havadarlarının məkrli siyasəti ictimaiyyətə bir daha açıqlanır. Həmin günlərdə məhz ümummilli lider Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək qətliamın günahkarlarını ifşa etdiyi xatırlanır. Bu görüşlərdə xüsusilə vurğulanan məqamlardan biri də budur ki, həmin qanlı hadisələrdən illər keçməsinə baxmayaraq, bizimlə həmrəy olan millətlər və xalqlar o müdhiş gecəni daim xatırlayır, faciəni törədənlərə öz dərin nifrətlərini bildirirlər. Heydər Əliyev Fondunun dəstəyi ilə Türkiyənin ən nüfuzlu elm ocaqlarından birində, Bursa şəhər rəhbərliyinin də iştirak etdiyi konfransda Bursa Universitetinin professoru Göksəl İşyar və dosent Barış Özdal əsrlər boyu ermənilərin Azərbaycanda və Anadoluda törətdikləri qırğınlardan, o cümlədən 20 Yanvar və Xocalı faciələrindən ürək ağrısı ilə söz açmış və sovet qoşunlarının dinc əhaliyə qarşı qətliamını əsl cinayət adlandırmışlar. Sonda konfrans iştirakçıları 20 Yanvar faciəsindən bəhs edən fotoşəkillərdən ibarət sərgi ilə tanış olmuşlar.

Xalqımızın qan yaddaşında əbədi yaşayan 20 Yanvar faciəsi Ümumxalq Hüzn Günü kimi Azərbaycanla həmrəy olan ölkələrdə geniş qeyd edilir. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə bu cinayət hadisəsi bütün dünyaya tarixi faktlar və həqiqətlər əsasında çatdırılır.

20 Yanvar faciəsi şəhidlərinin xatirəsi qonşu Gürcüstan azərbaycanlılarının sıx yaşadığı rayonlarda da hər il böyük ehtiramla anılır. Bolnisi Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Bolnisi Rayon İcra Hakimiyyətinin iclas salonunda 20 Yanvar faciəsinə həsr olunmuş fotosərgilər nümayiş etdirilir. Azərbaycan və Gürcüstan ictimaiyyətinin nümayəndələri faciə qurbanlarının xatirəsini ehtiramla yad edirlər.

Heydər Əliyev Fondunun dəstəyi və təşəbbüsü ilə Pakistanın Pəncab əyalətinin Qucarxan bölgəsində isə "20 Yanvar Şəhidləri Bulağı"nın açılışı olub.

20 Yanvar faciəsi hər il ABŞ paytaxtında və onun ştatlarında da qeyd edilir. İldönümlə əlaqədar keçirilən mərasimlərdə çıxış edənlər 20 Yanvarın hər bir azərbaycanlının yaddaşında həkk edilən tarix olduğunu vurğulayırlar.

Vətənimizin müstəqilliyi uğrunda canlarından keçən şəhidlərin tökülən qanı xalqımızın siyasi iradəsini daha da möhkəmlədərək ölkəmizin suverenliyi uğrunda başlanan hərəkatı sona çatdırmışdır.

Həmin tədbirdə çıxış edən ABŞ-dakı Azərbaycan diasporu fəallarından Həbib Azərsina 1990-cı ilin yanvarında Bakıda baş verənlərin ABŞ mediasında necə işıqlandırılması barədə xatirələrindən danışmışdı. Onun sözlərinə görə, sovet hakimiyyətinə müqavimətin qaynar nöqtələrindən biri kimi Azərbaycanda milli hərəkatın güclənməsi 20 Yanvara qədər daim "Vaşinqton Post", "Nyu-York Tayms", "LA Tayms" və digər nüfuzlu mətbuat orqanlarının baş səhifəsində yer alırdı: "Qara Yanvar hadisələri isə elə həmin gün bir çox telekanalların xəbər proqramlarında başlıqlardan birinə çevrilmişdi. O zaman Amerikanın ən baxımlı CBS kanalının axşam xəbərləri proqramı verilişini Bakıdakı qanlı hadisələrə həsr edilən materialla açmışdı. Bir neçə dəqiqəlik süjetdə Azərbaycanın xəritəsi, sovet qoşunlarının paytaxt şəhəri Bakıya hansı istiqamətlərdən və necə hücum etməsi, əsgərlərin dinc nümayişçilərə atəş açması, günahsız insanları qətlə yetirməsi barədə ətraflı məlumat verilmişdi". Həbib Azərsina əlavə etmişdi ki, ABŞ-da yaşayan azərbaycanlılar o zaman bu hadisələri böyük həyəcanla izləyirdilər: "Bakıda axıdılan qan həmvətənlərimizə dərin kədər hissi yaşatsa da, Vətənlərinin müstəqilliyi uğrunda mübarizəsi hər bir Amerika azərbaycanlısını həm də ruhlandırmışdı. Vaşinqtonda yaşayan azərbaycanlılar dərhal təşkilatlanaraq o zaman Ağ evin yaxınlığında yerləşən SSR-i səfirliyi qarşısında etiraz aksiyası keçirmiş, "Qızıl Ordu günahsız insanları qətlə yetirir", "Sovet qoşunları Sovet vətəndaşlarına qarşı" kimi şüarlar səsləndirmişdilər".

Heydər Əliyev Fondunun dəstəyi ilə ABŞ-da hər il yanvar hadisələri barədə məlumatlandırma kampaniyası aparılır. ABŞ-ın federal və yerli hakimiyyətlərinə, ictimayyətinə və mətbuata Qara Yanvar hadisələri ilə bağlı minlərlə məktub göndərilir. Bu səylərin nəticəsində tarixi hadisələrə həsr edilən məqalələr Nyu-York, Nyu-Cersi, Pensilvaniya ştatının yerli qəzetlərində dərc edilir.

Azərbaycan-Amerika Şurası və Amerikanın Azərbaycan Cəmiyyəti hər il birgə bəyanatla çıxış edərək Amerikada yaşayan azərbaycanlıları Qara Yanvar qəhramanlarının və şəhidlərinin əziz xatirəsini anmağa çağırırlar.

Avropa ölkələrində də 20 Yanvar faciəsinin ildönümünə həsr olunan silsilə tədbirlər keçirilir, dinc əhaliyə qarşı törədilən qətliam pislənilir, şəhidlərin xatirəsi ehtiramla yad edilir.

Bu sahədə Heydər Əliyev Fondunun dəstəyi ilə reallaşdırılan layihələrin xüsusi əhəmiyyəti var. Həmin layihələrin icrası çərçivəsində bütün yaradıcı qurumlar və dövlət orqanları Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında özünəməxsus uğurlara imza atırlar.

**"Azərbaycan".**-2016.-14 yanvar.-№ 8.- S.5.

# 20 YANVAR – Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi

**Əliqismət BƏDƏLOV**

**Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar günü respublikada haqq-ədalətin bərqərar edilməsi tələbləri ilə çıxış edən Azərbaycan xalqının inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq məqsədilə totalitar sovet rejiminin həyata keçirdiyi terror aktı nəticəsində bəşər tarixində insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri baş verdi. Yüzlərlə günahsız insan yaralandı və qətlə yetirildi. Ən ağır sınaqlara sinə gərmək əzmini bütün dünyaya nümayiş etdirən Azərbaycan övladları 1990-cı il yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar.**

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

XX əsr tarixində totalitarizmin həyata keçirdiyi ən qəddar terror aktlarından biri olan 20 Yanvar faciəsi Azərbaycan xalqına qarşı yönəldilmiş dəhşətli cinayətdir. 1990-cı il 20 Yanvar faciəsində şəhid olanların xatirəsini bu gün hörmətlə yad edərkən fəxrlə, qürur hissi ilə deyə bilərik ki, onların uğrunda canlarını qurban verdikləri müstəqilliyin əldə olunmasından artıq 26 il keçmişdir. Ancaq minlərlə, milyonlarla insanın mənəviyyatına, mənliyinə, vüqarına, milli hisslərinə vurulan zərbələrin ağrı-acısı bu gün də unudulmayıb. Bu, bir faktdır ki, 20 Yanvar gününün Azərbaycan tarixində ölkəmizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda qəhrəmanlıq rəmzi kimi müstəsna əhəmiyyəti olmuşdur.

Həmin gün Azərbaycan xalqına qarşı törədilmiş dəhşətli terror aktı qanlı cinayət hadisəsi kimi tarixə düşmüşdür. Müstəqillik istəyi ilə həmrəylik nümayiş etdirən dinc əhaliyə qarşı qadağan olunmuş silahlardan istifadə olunması Beynəlxalq İnsan Haqları Bəyannaməsinin və bu sahədə qəbul olunmuş digər konvensiyaların müddəalarının kobud şəkildə pozulması demək idi. Artıq süquta yetməkdə olan sovet rejimi son nəfəsində bütün tarixi ərzində törətdiyi ağır cinayətlər sırasına misli görünməmiş bir vəhşilik aktı da əlavə etdi.

Ermənistanın ölkəmizə qarşı ərazi iddialarını SSRİ rəhbərliyinin açıq şəkildə dəstəkləməsi və Azərbaycan rəhbərlərinin xəyanətkar siyasət yeritməsi xalqı qəzəbləndirmişdi. Bu ayrı-seçkilikdən qəzəblənmiş xalq ayağa qalxmış və “Torpaqdan pay olmaz!”— deyərək etiraz səsini qaldırmışdı. Konstitusiya hüquqlarının bərqərar edilməsi tələbi ilə küçə və meydanlara çıxan dinc əhali qəflətən güllələbaran edilmiş, insanlar qəddarlığa məruz qalmışlar. Yüzlərlə dinc əhali qətlə yetirilmiş, ağır yaralanmış və ömürlük əlil olmuşdur. Sovet rejiminin bu qanlı terror aktı dünya birliyi tərəfindən də kəskin pislənilmişdi.

Fakt ondan ibarətdir ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet ordusu erməni quldur dəstələri ilə birgə Azərbaycan xalqına qarşı terror aktı həyata keçirmişdir. Xalqın haqq səsini boğmaq üçün qanlı terror aktına əl atan Sovet rejimi Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni əsgər və zabitləri, sovet hərbi hissələrində xidmətdə olan erməniləri respublikamızın üzərinə göndərmişdir. Sovet ordusunun şəhərə girməsi Azərbaycanın o vaxtkı rəhbərliyinin istəyi, SSRİ Ali Sovetinin 19 yanvar 1990-cı il tarixli qərarı, eləcə də keçmiş SSRİ-nin o vaxtkı rəhbəri Mixail Qorbaçovun razılığı ilə olmuşdur. Azərbaycanı birdəfəlik sovet imperiyasının buxovunda saxlamaq və sovet rejiminin hegomonluğunu hələ uzun müddət davam etdirmək məqsədilə Bakıya 35 minlik ordu yeridilmişdi.

Azərbaycan xalqına divan tutulması üçün SSRİ Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizlik Komitəsinin birgə hazırlayıb həyata keçirdiyi əməliyyatda xüsusi təyinatlı “ALFA” və SSRİ DTK-nın “A” təxribat qrupları əsas vəzifələrin icraçıları olmuşdular. Mixail Qorbaçov başda olmaqla, Sovet imperiyasının digər rəhbərləri də milli ayrı-seçkilik bəhanəsindən istifadə edərək öz çirkin niyyətlərini həyata keçirmişdilər. Guya Bakıya yeridilən qoşun hakimiyyəti zorakı yollarla ələ keçirməyə çalışan “millətçi ekstremistlər”i zərərsizləşdirəcək və hərbi qulluqçuların ailələrini qoruyacaqmış. Bu, qabaqcadan hazırlanmış uydurma plan idi. Elə həmin vaxt Bakıda daxili qoşunların 11,5 min əsgəri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri var idi. Sovet dövləti tabeliyində olan həmin qüvvələrdən istifadə edə bilərdi.

Mixail Qorbaçov SSRİ Konstitusiyasının 71-ci maddəsini kobud şəkildə pozaraq 1990-cı il yanvarın 19-da Bakıda fövqəladə vəziyyət elan olunması haqqında fərman imzalamışdı. Lakin buna baxmayaraq, Bakıda dinc əhaliyə divan tutulması üçün hazırlanmış plan məxfi şəkildə həyata keçirilmişdi. İlk növbədə, Azərbaycan Televiziyasının enerji bloku partladıldı. Bu əməliyyatı SSRİ DTK-nın “ALFA” qrupu yanvarın 19-da həyata keçirdi. Respublika üzrə televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan

olunmasından xəbərsiz əhaliyə amansız divan tutdu. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yanvarın 20-də səhər saat 7.00-da radio ilə bildirilmişdi.

Sovet ordusunun hərbi təcavüzü nəticəsində Bakıda yüzlərlə mülki vətəndaş öldürülmüş və yaralanmışdı. 1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi.

Həmin vaxt Azərbaycanda hakimiyyətdə olanlar bu qanlı faciənin əsl səbəbini xalqdan gizlətməyə çalışır, təqsirkar isə "azərbaycanlı ekstremist qüvvələr" hesab olunurdu. Geciəykən qaçıb aradan çıxan Əbdürrəhman Vəzirov bununla məsuliyyətdən yaxasını qurtarmaq istəyirdi. Bu qanlı faciəyə isə hüquqi qiymət verilmir, qətliamın əsas təşkilatçı və icraçılarının adları açıqlanmırdı.

20 Yanvar faciəsinə ilk dəfə ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə siyasi-hüquqi qiymət verilmişdir. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1990-cı il noyabrın 21-də bu məsələni geniş müzakirə edərək qanlı hadisəyə siyasi-hüquqi qiymət verdi. Həmin vaxt qəbul edilmiş böyük əhəmiyyət kəsb edən sənəddə qeyd olunurdu ki, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri M.S.Qorbaçov, Sov,İKP.MK katibi A.Girenko, SSRİ müdafiə naziri D. Yazov, daxili işlər naziri V.Bakatin, Sov.İKP MK-nın məsul işçisi R.Mixaylov, Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirov, Azərbaycan KP MK-nın büro üzvləri V.Polyaniçko, M.Məmmədov, V.Hüseynov xalqımıza qarşı törədilən bu siyasi və hərbi qəsd üçün birbaşa məsuliyyət daşıyır və cavabdehdirlər.

Həmin vaxt Azərbaycan Xalq Cəbhəsinin bəzi fəalları da Bakıda qan töküləcəyi barədə məlumatlı olublar. Onların yaranmış bu fürsətdən istifadə edərək hakimiyyəti ələ keçirmək məqsədləri olduğundan gözlənilən faciə barəsində əhalini xəbərdar etməmişdilər. Bu barədə sonradan açıqlama yayan AXC fəallarından biri Zərdüşt Əlizadə həmfikirlərinin gözləmə mövqeyində olduqlarını bildirmişdi. O, həmfikirlərini qınayaraq demişdi ki, İsa Qəmbər, Rəhim Qazıyev, Nemət Pənahlı və bu məsələdən qabaqcadan xəbərdar olan digərləri xalqa məlumat verməyiblər. Onlar imperiya qoşunlarının Bakıya daxil olacaqları vaxtı dəqiqliyinə qədər bilirdilər. Ona görə də məqamında qaçıb aradan çıxmışdılar.

AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə də qanlı Yanvar faciəsi öz həqiqi qiymətini ala bilməmişdi. 1991-ci il martın 7-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında çıxış edən xalq deputatı Heydər Əliyev 20 Yanvar hadisəsini növbəti dəfə çox sərt şəkildə şərh edib: "...1990-cı il yanvarın 20-də İttifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edilmişdir. Heç bir əsas olmadan, xəbər vermədən, dövlət qanunlarını kobudcasına pozaraq, Bakı şəhərinə müasir silahlı sovet ordusunun qoşun hissələri yeridilmiş, onlar vəhşilik, qəddarlıq etmiş, nəticədə nahaq qan tökülmüş, yüzlərlə adam həlak olmuş, xəsarət almış, itkin düşmüşdür".

Heydər Əliyevin növbəti sərt addımı isə SSRİ Nazirlər Sovetinin partiya təşkilatına ünvanladığı 19 iyul 1991-ci il tarixli ərizəsi olmuşdur. Ulu öndər Kommunist Partiyası sıralarından çıxmasına dair bu ərizəsində kommunist rejiminin ölkəni uçuruma apardığını, SSRİ-nin dağılmasının labüdlüyünü açıq şəkildə bəyan etmişdir. Heydər Əliyev bu müraciətdə 20 Yanvar hadisəsi ilə bağlı qeydlərində bildirirmişdir: "Bu antihumanist, konstitusiyaya və hüquqazidd hərəkəti ittiham edərkən Sov. İKP və Azərbaycan KP MK-nın bu cinayətin üstünü açacağına və günahkarları üzə çıxaracağına ümid edirdim. Artıq yarım il keçib. Nəinki bu dəhşətli cinayətlərin hamıya çoxdan məlum olan günahkarları üzə çıxarılmayıb, əksinə, bunları ört-basdır etmək üçün əllərindən gələni edirlər. Ümid edirlər ki, bu faciə unudulacaq. Ancaq tarix dəfələrlə sübut etmişdir ki, doğma xalqa qarşı yönəldilmiş qanlı cinayətləri on illər keçsə də, unutmaq və bağışlamaq mümkün deyil". Beləliklə, 1991-ci ilin iyulunda Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir.

Xalqın təkidilə Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra 1990-cı ilin qanlı Yanvar faciəsinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildi. "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 1994-cü il tarixli fərmanında deyilirdi: "Xalqımızın tarixinə qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermişdir. Tarixin yaddaşına qanla yazılmış həmin gündən bizi 4 illik zaman məsafəsi ayırır. Təəssüf ki, 4 il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilməmişdir".

Fərmanda Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymətin verilməsi, bu məqsədlə parlamentin xüsusi sessiyasının keçirilməsi məsələsinə baxılması tövsiyə edilirdi. Milli Məclisdə müzakirələrin yekunu olaraq 1994-cü il martın 29-da qəbul edilən qərarda, nəhayət ki, 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. Qərarda 1990-cı ilin 20 Yanvar hadisələri Azərbaycanda vüsət almış milli-azadlıq hərəkatını boğmaq, suveren bir dövlət amalı ilə ayağa qalxan xalqın inam və iradəsini

qırmaq, belə bir yola qədəm qoyan xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirildi.

Ulu öndər ölkəyə rəhbərlik etdiyi sonrakı illərdə də canlarını Vətənimizin ərazi bütövlüyü yolunda qurban verənlərin, həmçinin bu yolda əlil olanların adlarının əbədiləşdirilməsini, sosial müdafiəsinin gücləndirilməsini daim diqqətdə saxlamışdır.

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş müdrik siyasi kursu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev 20 Yanvar şəhidlərinin, bütövlükdə bu qəbildən olanların ailələrinə dövlət səviyyəsində qayğı və köməkliyin göstərilməsi, onların sosial müdafiəsinin gücləndirilməsi üçün bütün lazımi tədbirləri həyata keçirir. Milli dövlətçiliyini yenidən bərpa etmiş respublikamızda ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəman Azərbaycan övladlarının xatirəsinin əbədiləşdirilməsi üçün dövlət səviyyəsində mühüm işlər görülmüş, bütün bölgələrimizdə şəhidlərin xatirəsinə abidə-komplekslər ucaldılmışdır. Bütün bunlar xalqımızın və dövlətimizin 20 Yanvar faciəsi zamanı həlak olmuş şəhid soydaşlarımızın ruhuna bəslədiyi böyük hörmət və ehtiramın parlaq nümunəsidir. Həmçinin dövlət başçısı 20 Yanvar hadisələri zamanı şəhid olmuş şəxslərin ailələrinin, eyni zamanda, həmin hadisələr zamanı öz sağlamlıqlarını itirərək əlil olmuş şəxslərin sosial müdafiəsinin gücləndirilməsi və onlara dövlət qayğısının artırılması məqsədilə mütəmadi olaraq müvafiq sərəncam və fərmanlar imzalayır.

XX əsr xalqımızın tarixinə, taleyinə həm qanlı fəlakət və faciələrlə, eyni zamanda, həm də qəhrəmanlıqlarla dolu olan bir dövr kimi daxil olmuşdur. 20 Yanvar hadisələrini biz həm faciə, həm də qəhrəmanlıq kimi səciyyələndiririk.

Xalqımız 1990-cı il yanvarın 20-də hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, ən ağır sınaqlara sinə gərmək əzmini bütün dünyaya nümayiş etdirdi. Həmin gün Azərbaycanın şəhidlik zirvəsinə ucalmış Vətən övladları özlərinin fədakarlığı ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar.

**“Xalq qəzeti”.-**2016.-13 yanvar.-№ 7.-S.4.

## 20 Yanvar hadisələri Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsini boğmaq məqsədini daşıyırdı

**İttifaq MİRZƏBƏYLİ**

***Azərbaycanda vüsət tapmış milli azadlıq hərəkatını boğmaq, demokratik və suveren bir dövlət yaratmaq amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və belə bir yola qədəm qoyan hər hansı xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə 1990-cı il yanvarın 20-də Sovet Silahlı Qüvvələrinin Bakı şəhərinə və respublikanın bir neçə rayonuna yeridilməsi, nəticədə haqq və ədalətin müdafiəsi naminə küçələrə çıxmış silahsız adamların qəddarcasına qətlə yetirilməsi Azərbaycan xalqına qarşı totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirilsin.***

***1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında Azərbaycan Respublikası Milli Məclisinin 29 mart 1994-cü il tarixli qərarından***

Tarixin bütün dönəmlərində olduğu kimi, ötən əsrin səksəninci illərinin ikinci yarısından sonra da imperiya xislətli qüvvələr öz qanlı hakimiyyətlərinin ömrünü uzatmaq üçün baş qaldıran milli-azadlıq hərəkatlarının hamısını qan içərisində boğmaq, müstəqil dövlət yaratmağa çalışan xalqların arzusunu tank tırtılları altında əzmək istəyirdilər. Çox təəssüf ki, Sovet imperiyasını qorumaq istəyən qüvvələr qeyd olunan illərdə bir sıra ölkələrdə bu qəbildən olan addımlar atmış və azadlıq istəyənlərin gözünün odunu almışdılar.

İmperiyapərəstlərin 1990-cı ilin yanvar ayında Bakıda törətdikləri faciə və qırğınlar əvvəlkilərin hamısına nisbətən daha dəhşətli və irimiqyaslı olsa da, xalqımızın gözünün odunu almaq mümkün olmadı. Çünki Azərbaycandan əvvəl qırğın törədilmiş ölkələrin hamısında azadlıq fədailəri təzyiqlərə məruz qalandan, hərəkat liderləri “təhlükəsizləşdiriləndən” sonra kütlə tamamilə ruhdan düşürdü. Azərbaycanda isə bunun tamamilə əksi baş verdi. Belə ki, ölkəmizdə hələ 1988-ci ilin fevralında başlanan xalq azadlıq hərəkatı 1990-cı il 20 Yanvar faciəsindən sonra daha da konkretləşdirilərək milli-azadlıq hərəkatına çevrilmişdi. Bunun da bir neçə mühüm səbəbi var idi. Ən birinci səbəb o idi ki, 20 Yanvar faciəsinin ertəsi günü Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələn ümummilli liderimiz Heydər Əliyev öz kəskin etiraz bəyanatı ilə xalqa ürək-dirək vermiş, azadlqsevər insanlar həmin bəyanatdan ruhlanaraq öz mübarizələrini bilavasitə milli-azadlıq hərəkatı istiqamətində konkretləşdirmişdilər. Yəni, Heydər Əliyevin həmin bəyanatına qədər olan dövrdə bizim hərəkat təmsilçilərimiz SSRİ rəhbərliyinin müxtəlif istiqamətli, ən çox isə milli ayrı-seçkilik siyasətinə etiraz edir, bu siyasətin islah olunmasına, nəticədə bizə də digər xalqlar kimi hörmətlə yanaşılmasını tələb etməyə çalışırdılar. 20 Yanvar hadisələrindən sonra isə hərəkatın məqsədi nəyəsə etiraz etmək məcrasından çıxarılaraq, müstəqil dövlət qurmaq müstəvisinə qaldırılmışdı.

Əlbəttə, bütün bunların qiymətləndirilməsi tarixçilərin vəzifəsidir və məmnunluqla qeyd edə bilərik ki, təkcə bizim tarixçilərimiz deyil, eləcə də, bütün ziyalılarımız özünəməxsus vətənpərvərlik nümunəsi göstərərək, dünyanın hər yerində səsləndirdikləri Azərbaycan həqiqətləri sırasında 20 Yanvar faciəsini daim yada salırlar. Dövri olaraq yada salınan və dünya ictimaiyyətinin nəzərinə çatdırılan faktlar ondan ibarətdir ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinə və Azərbaycanın bir neçə rayonuna keçmiş Sovet İttifaqının qoşun hissələri fövqəladə vəziyyət elan edilmədən yeridilmiş, dinc əhaliyə divan tutulmuş, yüzlərlə insan qətlə yetirilmiş, yaralanmış, itkin düşmüşdür. Sovet ordusunun, xüsusi təyinatlı dəstələrin və daxili qoşunların iri kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklərlə müşayiət edilmişdir. Bu zaman xüsusilə yada salınır ki, Sovet imperiyasının güc strukturları bilavasitə bu imperiyaya daxil olan respublikanın paytaxtını – hələ 70 il əvvəl işğal olunmuş şəhəri növbəti dəfə tankla-topla zəbt edirdi.

Bu zəbtetmə nəticəsində Bakıda və respublika rayonlarında öldürülmüş, əlil edilmiş, qanunsuz olaraq həbsxanaya atılmış insanların sayı, Kremlin milli ayrı-seçkilik siyasəti nəticəsində tənəzzül səviyyəsinə gətirilmiş Azərbaycan iqtisadiyyatına vurulmuş ziyanın məbləği barədə dəfələrlə söhbət açılıb. Ancaq Mixail Qorbaçovun və yerli imperiyapərəstlərin həmin qanlı əməli nəticəsində Azərbaycan xalqına vurulan mənəvi zərbənin miqyası, ölçüsü, məbləği qətiyyən hesaba gələcək səviyyədə deyildi. Çünki, qabaqcadan düşünülüb hazırlanmış bu təcavüzkarlıq aksiyası Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq, xalqı təhqir edərək ona mənəvi zərbə vurmaq məqsədi daşıyırdı.

Bizə mənəvi zərbə olan məqamlardan biri də o idi ki, bu faciənin törədilməsində Kreml rəhbərləri ilə yanaşı, öz qan qardaşlarımız, soydaşlarımız, o zamankı Azərbaycan rəhbərləri də günahkar idilər. Normal düşüncəli adam üçün bu, ağır zərbədir. O zaman ölkədə belə bir fikir mövcud idi ki, Azərbaycan rəhbərliyi Dağlıq Qarabağ məsələsində Mərkəzlə sövdələşərək öz xalqına qarşı gizli xəyanətkar planlar həyata keçirir. Azərbaycan rəhbərləri öz yarıtmaz və yararsız fəaliyyəti ilə xalqla hakimiyyət arasında keçilməz uçurum yaratmışdılar. Məhz həmin dövrdə bir neçə ay Bakıda və respublikamızın digər şəhər və rayonlarında keçirilmiş izdihamlı mitinqlərdə Azərbaycan rəhbərliyinin istefası tələb olunurdu. Çox təssüf ki, cəmiyyətdə yaranmış qarşıdurmanın siyasi yollarla tənzimlənməsi üçün Azərbaycan rəhbərliyi mövcud imkanlardan istifadə etmirdi. Hakim dairələrin müxalifətlə apardığı iş siyasi oyun və intriqalar istiqamətində qurulur və yarıtmaz olurdu. Bir çox taleyüklü məsələnin həllində Azərbaycan rəhbərliyi acizlik nümayiş etdirirdi. Nəticədə respublikada kəskin hakimiyyət böhranı yaranmışdı.

Məhz həmin böhranın göstəricisi idi ki, 1989-cu ilin axırından yanvar hadisələrinə kimi respublika rəhbərləri Əbdürrəhman Vəzirov və Ayaz Mütəllibov öz imzaları ilə Moskvaya şifroqramlar göndərmişdilər . Şifroqramlarda Bakıya əlavə daxili qoşun və Sovet ordusu qüvvələrinin göndərilməsi tələb olunurdu. Bu səbəbdən Bakıda hərbi qüvvələrin yerləşdirilməsi və təminatı ilə əlaqədar müxtəlif hazırlıq işləri aparılmış, hadisələrə bir neçə gün qalmış Bakı şəhərinin xəstəxanaları tələsik boşaldılmış, külli miqdarda yaralıların yerləşdirilməsi üçün hazırlıq görülmüş, Sovet ordusu hərbi qulluqçularının ailə üzvləri təcili surətdə Bakı şəhərindən köçürülmüşdü. Beləliklə, Moskva və Bakı rəhbərlərinin birgə fəaliyyəti nəticəsində hərbi təcavüz və qoşunların yeridilməsi üçün hər cür şərait yaradılmışdı.

Daha bir məqama diqqət yönəldək. Tarixi sənədlər göstərir ki, Azərbaycan üçün belə bir faciəli gündə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Əbdürrəhman Vəzirov xalqa qarşı xəyanətkarlıq yolu tutaraq yanvarın 19 və 20-də öz iş yerində olmaq əvəzinə yanvarın 19-nu Dövlət Təhlükəsizliyi Komitəsinin binasında DTK sədri Vaqif Hüseynovla birlikdə keçirmişdir. Sonra isə o, gizli surətdə SSRİ Müdafiə Nazirliyinin Bakıda yerləşən hərbi qərargahına getmiş, yanvarın 20-nə keçən gecə həmin qərargahda SSRİ müdafiə naziri Dmitri Yazovla və daxili işlər naziri Vadim Bakatinlə birlikdə hərbi əməliyyata rəhbərlik etmişdir. Nəhayət, yanvarın 21-də yalnız öz şəxsi təhlükəsizliyini təmin etmək üçün gizli şəkildə hərbi təyyarə ilə Moskvaya qaçmışdır. Deməli, öz hakimiyyətini nəyin bahasına olursa-olsun qoruyub saxlamaq məqsədi güdən keçmiş Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Əbdürrəhman Vəzirov bu ağır cinayətin bilavasitə təşkilatçısı və iştirakçısı olmuşdur.

Bu da bir fakt idi ki, Azərbaycan xalqını dəhşət və müsibətə düçar etmiş 20 Yanvar faciəsi bütün dünyada əks-səda doğurmuş, mütərəqqi qüvvələrin qəzəb və hiddətinə səbəb olmuşdu. Xarici ölkələrin radiostansiyaları da Yanvar faciəsi haqqında hərtərəfli informasiyalar verir və imperiya qüvvələrini lənətləyirdi. Sivilizasiyalı dövlətlərin təcrübəsindən fərqli olaraq Azərbaycanın siyasi rəhbərliyi nəinki istefaya getməmiş, hətta belə bir məqamda susmağı daha üstün tutmuşdu. Xalqının şəhidlər verdiyi faciəli günlərdə heç bir dövlət rəsmisi bu faciəyə rəsmi bəyanatla münasibətini bildirməmiş, xalqın qəzəbindən qorxaraq şəhidlərin dəfn mərasimində iştirak etməmiş, yas içində olan xalqına başsağlığı belə verməmişdi.

Hələ bunlar harasıdır? Azərbaycan rəhbərliyi 1993-cü ilin ikinci yarısına, ulu öndər Heydər Əliyevin xalqın təkidli tələb və çağırışları ilə siyasi hakimiyyətə qayıdışınadək 20 Yanvar faciəsinə siyasi və ya hüquqi qiymət verilməsinə cəhd etməmişdir. Üstəlik, respublikada kommunist rejimi mövcud olduğu zaman 20 Yanvar faciəsinə siyasi qiymət verilməsini dəfələrlə tələb edən Azərbaycan Xalq Cəbhəsinin rəsmiləri hakimiyyətdə olduqları müddətdə faciəyə siyasi qiymət vermək üçün öz imkanlarından istifadə etməmişlər.

Bir daha xatırladaq ki, 1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələrə tam siyasi-hüquqi qiymət verilməməsi Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "20 Yanvar faciəsinin dördüncü ildönümünün keçirilməsi haqqında" 1994-cü il 5 yanvar tarixli fərmanında göstərilmiş və bununla əlaqədar Milli Məclisin xüsusi iclasının keçirilməsi tövsiyə olunmuşdur. Azərbaycan Respublikasının Milli Məclisində bu məsələyə baxılarkən yaradılmış redaksiya komissiyası tərəfindən Ali Sovetdə, Prezident Aparatında, Azərbaycan Respublikasının Prokurorluğunda, Milli Təhlükəsizlik Nazirliyində, Daxili İşlər Nazirliyində, Baş Arxiv İdarəsində olan materiallar və deputat istintaq komissiyasının rəyi nəzərdən keçirilmiş və müvafiq qərar qəbul edimişdi.

Doqquz bənddən ibarət olan bu qərar barədə əvvəllər dəfələrlə söz açdığımıza görə indi ancaq həmin qərarın sonuncu bəndindəki bir ifadəni yada salmaqla kifayətlənirik: "Yanvar faciəsinin Azərbaycan xalqının tarixində böyük siyasi əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, habelə Azərbaycanın azadlığı uğrunda şəhid olanların xatirəsini əbədiləşdirmək məqsədilə Bakı şəhərində xatirə kompleksi yaradılsın".

Bəli, 20 Yanvar hadisələri bizim üçün təkcə göz yaşları ilə xatırlanacaq qanlı səhifə deyil, həm də, daim fəxrlə anacağımız, böyük siyasi əhəmiyyətə malik şanlı salnamələrimizdən biridir.

**"Xalq qəzeti".**-2016.-12 yanvar.-№ 6.-S.9.

**Qanlı Yanvar – xalqımızın milli əzmkarlıq salnaməsi**

**Anar TURAN**

**Azərbaycan xalqının tarixində faciəli günlər az olmamışdır. Son iki yüz ildə çar Rusiyasının işğalçılıq planlarının həyata keçməsindən və xüsusilə, Cənubi Qafqazda "erməni vilayəti", sonradan isə "Ermənistan dövləti" yaradılandan sonra yüz minlərlə soydaşımız qətlə yetirilmiş, yurdları talan edilmişdir.**

Lakin bütün bu ağır sınaqlara və sarsıntılara Azərbaycan xalqı mətinliklə sinə gərməyi bacarmış və bu gün müstəqil Azərbaycanın mövcudluğu həmin əzmkarlığın sübutuna çevrilmişdir. Əlbəttə, minlərlə Vətən övladının şəhid düşdüyü bu torpaqlarda bir günü xüsusi qeyd edirik. XX əsrin sonunda dünyanın gözü qarşısında, keçmiş SSRİ prezidenti Mixail Qorbaçovun əmri ilə Bakıya yeridilmiş sovet qoşunları çoxsaylı mülki vətəndaşımızı qətlə yetirmiş və yüzlərlə insan bu hücumdan ağır yaralanmışdır. Milyonlarla insanımız isə mənəvi-psixoloji cəhətdən sarsıntı keçirmişdir. Xalqımız o günləri unutmamışdır. Hər il milyonlarla insanın Şəhidlər xiyabanına gedərək həlak olan oğul və qızlarımızın məzarları önündə ehtiramlarını bildirmələri, əklillər, çiçəklər düzməsi buna əyani sübutdur.

Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrindən iyirmi altı il keçir. Keçmiş sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi vəhşi terror aktı insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi bəşər tarixində qara səhifə olaraq xatırlanır. Milli azadlıq hərəkatı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi.

Sovet Ordusu keçmiş İttifaq ölkələrinə və sosializm quruluşu ilə idarə olunan bir sıra Şərqi Avropa ölkələrinə qoşun yeritmişdi. Lakin, Azərbaycanda yeridilən qoşunun törətdiyi əməllər xüsusi qəddarlığı ilə seçilirdi. Sanki, illərin intiqamı alınırmış kimi hərəkət edilirdi. 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti zorla devrildikdən sonra torpaqlarımıza daxil olan sovet qoşunları hansı vəhşiliklərə əl atmışdılarsa, indi də ssenari eyni idi. O zaman Gəncə şəhərində böyük üsyan yatırılmışdı və minlərlə soydaşımız şəhid edilmişdi. Bu dəfə də Bakıda xalqımızın azadlıq ideyalarına sarıldığından bərk qorxuya düşən M. Qorbaçov əhalinin qarşısına zirehli texnika və ağır silahlanmış ordu hissələrini çıxardı. Keçmiş İttifaq rəhbərliyinin xalqımıza olan patoloji nifrəti həm də onda idi ki, Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni əsgər və zabitləri, sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantlar da daxil edilmişdi.

Bakıya yeridilmiş qoşun kontingentinin sayı 60 min nəfərə çatırdı, - əsgərlərə "döyüş tapşırığını" yerinə yetirmək üçün möhkəm psixoloji hazırlıq keçmişdilər."Şit" təşkilatının müstəqil hərbi ekspertlərinin hesabatında bildirilir ki, sovet əsgərlərinə təlqin olunmuşdu ki, guya onları Bakıya rusları müdafiə etmək üçün gətirmişlər, yerli əhali onları vəhşiçəsinə məhv edir, ekstremistlər Salyan kazarmalarının (Bakıda əsas hərbi qarnizonun yerləşdiyi ərazi) ətrafındakı evlərin damlarında snayperlər yerləşdirmişlər, təkcə bu ərazidə 110 atəş nöqtəsi var; binalar, mənzillər Azərbaycan Xalq Cəbhəsinin yaraqlıları ilə doludur, onlar sizi güclü avtomat-pulemyot atəşinə tutacaqlar.

O zaman Mixail Qorbaçov başda olmaqla, sovet imperiyasının rəhbərliyi Bakıda "rus və erməni kartından" məharətlə istifadə etdi. Guya Bakıya qoşun onları, hərbi qulluqçuların ailələrini qorumaq, "millətçi ekstremistlər" tərəfindən hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə bu, açıq riyakarlıq, ağ yalan idi. Çünki sovet rəhbərliyinin "dəlilləri" hətta həqiqətə yaxın olsaydı belə, Bakıya təpədən-dırnağadək silahlandırılmış qoşun göndərməyə ehtiyac yox idi. Ona görə ki, həmin vaxt burada daxili qoşunların 11,5 min əsgəri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri var idi, 4-cü ordunun komandanlığı da Bakıda yerləşirdi.

Bütün bunlara baxmayaraq, 1990-cı il yanvarın 19-da Mixail Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. SSRİ DTK-nın "Alfa" qrupu yanvarın 19-da saat 19.27-də

Azərbaycan Televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və əhaliyə divan tutmağa başladı. M.Qorbaçovun fərmanı qüvvəyə minənədək artıq 9 nəfər öldürülmüşdü. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100 nəfərə çatmışdı. Halbuki, Qorbaçovun Azərbaycana ezam etdiyi yüksək vəzifəli emissarlar həyasızcasına bəyan edirdilər ki, Bakıda fövqəladə vəziyyət elan olunmayacaqdır. Bax, əli yüzlərlə insanın qanına batmış, sonralar Nobel Sülh Mükafatı (?!) almış Mixail Qorbaçov başda olmaqla, sovet imperiyası rəhbərliyinin rəzil siması bu idi.

Tanklar, zirehli transportyorlar Bakı küçələrində qarşılarına çıxan hər şeyi əzir, hərbçilər hər yanı amansız atəşə tuturdular. İnsanlar nəinki küçələrdə, hətta avtobusda gedərkən, öz mənzillərində oturduqları yerdə güllələrə tuş gəlirdilər. Yaralıları aparmağa gələn "təcili yardım" maşınlarını və tibb işçilərini də atəşə tuturdular. Bir neçə gün ərzində 137 nəfər öldürüldü, 700-ədək dinc sakin yaralandı, 800-dən çox adam qanunsuz həbs edildi. Öldürülənlərdən 117-si azərbaycanlı, 6-sı rus, 3-ü yəhudi, 3-ü tatar idi. 744 adam ağır xəsarət almış; 4-şəxs itkin düşmüş; 400 nəfər isə həbs edilmişdir. Fövqəladə vəziyyət elan ediləndən sonra isə 21 nəfər qətlə yetirilmişdir. Fövqəladə vəziyyət elan edilməmiş rayonlarda – Neftçala və Lənkəranda 25 nəfər öldürülmüşdü.

Hadisələrin bu cür gedişatı və sonrakı inkişafı onu sübut etdi ki, Sovet rəhbərliyi Dağlıq Qarabağ münaqişəsini birdəfəlik ermənilərin xeyrinə həll etmək üçün bu yolu tutmuş, Azərbaycan torpaqlarını ermənilərin rahat işğal etmələri üçün yol açmış, xalqımızın azadlıq və müstəqillik arzularını boğmaq, əhalinin iradəsini qırmaq üçün bu cinayəti törətmişdi.

SSRİ rəhbərliyində elə düşünürdülər ki, belə cinayətkar addım ataraq dinc əhalini güllələbaran etməklə xalqımızın etirazlarının qarşısını kəsə biləcəklər. Lakin sonrakı hadisələr sovet rəhbərliyinin bütün ümidlərini fiaskoya uğratdı. Əgər əvvəllər on minlərlə insan SSRİ rəhbərliyinin özbaşınalıqlarına etiraz edirdisə bu dəfə milyonlarla insan Bakının mərkəzinədək Azadlıq meydanına toplaşaraq, — azadlıq, müstəqillik, cinayətkar Mixail Qorbaçovun məsuliyyətə cəlb olunmasını, sovet qoşunlarının ölkədən çıxarılmasını tələb etdi. Milyonlarla soydaşımız 20 Yanvar günü qətlə yetirilmiş şəhidlərimizi son mənzilə yola saldı. Hamı bir nəfər kimi, kütləvi qəbiristanlığın hazırlıq işlərinə könüllü olaraq cəlb olundu. Həmin gün bütün xalq, bəlkə də, tarix boyu çox nadir şəkildə rast gəlinən birlik, həmrəylik nümunələrindən birini göstərdi. Hər kəs meydanda idi. Hər kəs azadlıq eşqi ilə alışıb yanırdı. Hər kəs sovet rəhbərliyinin cinayətkar əməllərinin cavablandırılmasını, kriminal sovet rəhbərliyinin cəzalandırılmasını tələb edirdi. Beləliklə, 20 Yanvar qanlı hadisələrində 1948-ci ilin İnsan Hüquqları haqqında Bəyannaməsi, 1966-cı ilin Vətəndaş və Siyasi İnsan Hüquqları haqqında Beynəlxalq Pakt, 1966-cı ilin Mədəni, Sosial və İqtisadi Hüquqları haqqında Beynəlxalq Pakt və 1975-ci ilin Avorpada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Helsinki Yekun Aktı, ATƏM-in 1989-cu il Vyana görüşünün son qərarı (fövqalədə vəziyyətdə və hərbi münaqişələr zamanı qadın və uşaq hüquqlarının müdafiəsi Bəyannaməsi), hərbi əməliyyatların aparılmasını tənzimləyən qüvvədə olan müqavilələr, əsasən də 1980-ci ilin döyüş zamanı yüngül fırlanan və yayılan güllələrin istifadə edilməməsi haqqında Bəyannaməsi (1967-ci ildə quru döyüşünün qayda və qanunları barədə IV Haaqa Müqaviləsi) də bura daxil olmaqla, insan hüquqlarına aid bütün beynəlxalq müqavilələr kobudcasına pozulmuşdur.

Yanvarın 20-də bütün dünya Bakıda törədilmiş dəhşətli qırğından xəbər tutdu. Artıq sovet qoşunlarının Bakıya hərbi müdaxiləsi dünyanın bir sıra ölkələrində etirazla qarşılanmışdı. Belə ki, Bakıda törədilən cinayətlər qonşu və qardaş Türkiyədə sərt reaksiyalara səbəb olmuş, ölkənin hər yerində mitinq və nümayişlər keçirilmişdir. Ankara, İstanbul, Qars, İzmir, Kayseri və başqa şəhərlərdə keçirilən mitinq və nümayişlərdə sovet rəhbərliyinin törətdiyi bu cinayəti müdafiə edən Amerika Birləşmiş Ştatları pislənmişdi. Eyni zamanda, Türkiyənin rəsmi şəxsləri, Türkiyə hökuməti Bakıda törədilən hadisəni tənqid etməklə yanaşı, Azərbaycana yardım göstərilməsi təklifi ilə də çıxış etmişlər.

İranın Milli Təhlükəsizlik Şurası yığıncaq keçirmiş və bu barədə bəyanat qəbul etmişdir. İran parlamentinin 160-dan çox üzvü M.Qorbaçovun Azərbaycana silahlı təcavüzünü pisləmişdir. İran Prezidenti Rəfsəncani və İranın dini lideri Xameneyi M.Qorbaçovun atdığı bu addımı kəskin tənqid etmişlər.

Eyni zamanda, Türkiyə və İranın kütləvi informasiya vasitələri sovet qoşunlarının Bakıda törətdikləri qanlı hadisəni kəskin tənqid etmiş və bunu qırğın adlandırmışdı.

Qərb ölkələrinin mövqeyinə gəldikdə isə, Sovet İttifaqının Azərbaycana hərbi müdaxiləsinə müxtəlif reaksiyalar vermişlər. Bu reaksiyalar ümumilikdə müsbət olsa da, ancaq obyektiv reallığı əks etdirmirdi. Məsələn, ABŞ hökuməti bu hərbi müdaxiləni anlayışla qarşıladığını bildirmişdir. Avropa İttifaqının rəsmi nümayəndəsi isə demişdir ki, qan axıdılmadan yenidənqurma tətbiq edilə bilməz. Avropanın müxtəlif

yerlərindən gələn fikirlər isə Qərbin mövqeyini izah etmək baxımından maraqlıdır. Məsələn, “Ştern” məcmuəsi və “Tribuna lyudu” qəzeti bu hadisələri qeyri-obyektiv işıqlandıraraq, qüvvədən istifadə olunmasının zəruri olduğu bildirmişdir.

Nəticədə Bakıda baş verən hadisələr dünya ictimaiyyətinə yanlış izah edilirdi. Bundan əlavə, “Los-Anceles Tayms”, “Vaşinqton Post”, “Krisçen Sayens Monitor”, “Nyu-York Tayms”, “Baltimor San” mətbu orqanlarında, eləcə də, bir sıra xarici radiostansiyaların məlumatlarında Bakıda baş verən hadisələrə, xüsusilə, sovet ordusunun hərbi müdaxiləsinə haqq qazandırılmasa da, çox vaxt bu qanlı cinayətə laqeyd münasibət özünü göstərirdi.

Faciədən bir neçə il sonra, yəni 1994-cü ilin yanvarında bu qanlı cinayətin başında duran SSRİ müdafiə naziri marşal Yazov DFVK işi üzrə prosesdə ifadə verərkən bildirmişdi: “1990-cı il yanvarın 19-da Qorbaçov məni, Bakatini və Kryuçkovu yanına çağırıb Bakıda fövqəladə vəziyyət tətbiq etmək əmrini verdi. Mən heç bir yazılı qərar, heç bir fərman görməmişəm”.

Daxili işlər naziri Bakatin isə yanvarın 21-də Azərbaycan Daxili İşlər Nazirliyində keçirdiyi görüşdə bəyan etmişdir ki, “əgər siz sovet hakimiyyətini istəməsəniz, sizinlə uzunmüddətli müharibə olacaq”.

1990-cı ildə Bakıda baş verən qırğına şəxsən qol çəkmiş M.Qorbaçov həmin il Beynəlxalq Nobel Sülh Mükafatına layiq görüldü. 1995-ci il aprelin 27-də Türkiyədə səfərdə olan keçmiş SSRİ prezidenti Mixail Qorbaçov İstanbulun Çırağan sarayında onun şərəfinə verilən ziyafətdə çıxış edərkən öz siyasi bioqrafiyasının bəzi məqamlarına toxunmuş və 1990-cı il 20 Yanvar hadisələrindən danışarkən öz günahını acizanə şəkildə etiraf edərək bildirmişdi:"Bakıda fövqəladə vəziyyət elan etmək və oraya qoşun göndərmək mənim siyasi həyatımın ən böyük səhvi idi".

O zaman yalnız ümummilli liderimiz Heydər Əliyev bütün çətinliklərə baxmayaraq, siyasi iradə nümayiş etdirib Moskvadakı Azərbaycan nümayəndəliyinə gəlmiş və SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə pisləyən bəyanatla çıxış etmişdir. Azərbaycan rəhbərliyinə qayıdışdan sonra Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ilin yanvar ayında Milli Məclisdə Azərbaycan xalqına qarşı təcavüz olan faciəvi 20 Yanvar hadisələrinə siyasi qiymət verdi.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra 1990-cı ilin Qanlı Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. “20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 1994-cü il tarixli fərmanında deyilirdi: “Xalqımızın tarixinə qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermişdir. Tarixin yaddaşına qanla yazılmış həmin gündən bizi 4 illik zaman məsafəsi ayırır. Təəssüf ki, 4 il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilməmişdir”.

Fərmanda Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymətin verilməsi, bu məqsədlə parlamentin xüsusi sessiyasının keçirilməsi məsələsinə baxılması tövsiyə edilirdi. Milli Məclisdə müzakirələrin yekunu olaraq 1994-cü il martın 29-da qəbul edilən qərarda, nəhayət ki, 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildi.

1990-cı ilin Yanvar qırğını nə qədər faciəli və dəhşətli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Xalqımız 20 Yanvar günü və sonrası əsl əzmkarlıq salnaməsi yazdı. Həmin müdhiş gecədə həlak olan Vətən oğulları Azərbaycanın tarixində parlaq səhifə yaratdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar. Şəhidlərin arzuları həyata keçdi. 1991-ci il oktyabrın 18-də Azərbaycan müstəqilliyini elan etdi. Bu gün xalqımızın qan yaddaşı dedikdə xatırlanan, hörmətlə anılan və ən çox təbliğ olunan günlərdən biri 20 Yanvardır. Nə qədər Azərbaycan var, azərbaycanlılar var 20 Yanvar faciəsi və eyni zamanda, bu qəhrəmanlıq salnaməsi unudulmayacaqdır.

**“Xalq qəzeti”.**-2016.-10 yanvar.-№ 5.-S.4.

### Azərbaycanın istiqlal tarixinə qanla yazılmış 20 Yanvar faciəsindən 26 il keçir

**Əliqismət BƏDƏLOV**

Azadlıq, istiqlaliyyət, müstəqillik uğrunda mübarizəyə qalxan dinc əhaliyə tutulan amansız divan, sanki, dünən baş vermişdir. Xalq o günü heç vaxt unutmur. Hər il on minlərlə soydaşımız Bakının ən uca yerində hamımız üçün müqəddəs sayılan Şəhidlər xiyabanına gedir, müstəqillik uğrunda sinələrini sipər etmiş mərd oğul və qızlarımızı böyük ehtiramla yad edir, məzarları önünə tər gül-çiçək dəstələri düzür.

Şəhidlərimizin xatirəsinin böyük ehtiramla yad edilməsi dövlətimizin diqqət mərkəzində saxladığı prioritet sahələrdəndir. Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin sərəncamı ilə "20 Yanvar faciəsinin iyirmi altıncı ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı"nın təsdiq edilməsi də bunun bariz nümunəsidir.

Sənəddə respublikanın şəhər və rayonlarında, o cümlədən idarə və təşkilatlarda 20 Yanvar hadisələri ilə bağlı konfrans, toplantı və mühazirələrin təşkili, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşaların göstərilməsi, bədii və sənədli filmlərin nümayiş etdirilməsi, bu tədbirlərin kütləvi informasiya vasitələrində geniş işıqlandırılması, dünya ictimaiyyətinin diqqətini faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri, diaspor qurumları və icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar faciəsi barədə materialların verilməsi nəzərdə tutulub.

Tədbirlər planına əsasən, respublikanın bütün tədris müəssisələrində faciəyə həsr edilmiş xüsusi dərs aparılacaq, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardım veriləcək, Şəhidlər xiyabanı ərazisində lazımi işlər aparılacaq, Azərbaycandakı əsas dini konfessiya və qurumlar tərəfindən faciə qurbanlarının xatirəsinə dini mərasimlər təşkil ediləcək.

Bundan başqa, sərəncamda paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər xiyabanına ziyarətinin təşkili, saat 12.00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, gəmilər, avtomobillər və qatarlar vasitəsilə səs siqnallarının verilməsi, gün ərzində Şəhidlər xiyabanında matəm musiqisinin səsləndirilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində hüzn əlaməti olaraq dövlət bayraqlarının endirilməsi və digər tədbirlər nəzərdə tutulub.

Azərbaycan xalqına qarşı törədilən qətliam dünyanın bütün ölkələrində ciddi narahatlıq doğurmuş və aparıcı kütləvi informasiya vasitələri bu barədə mütəmadi olaraq geniş məqalələr dərc etmişlər. "Daily Times", "Navai Vakt", "The News", "Pakistan Observer", "National Herald Tribune" "Jahan Pakistan", "Dunya", "Khabrian", "Statestimes" qəzetləri, "Diplomatik Star", "Centreline" jurnalları, "DNA News", "Naibaat", "UNN Pakistan" informasiya agentlikləri, Livanın "Əl-Cumhuriyyət" qəzeti, "The Guardian", Türkiyə və digər ölkələrin mətbu orqanlarında "Azərbaycan Qara Yanvar xatirəsini yad edir" adlı məqalələr dərc olunub.

Dünyanın tanınmış ictimai-siyasi xadimləri də 20 Yanvar faciəsini "demokratiyaya, haqq-ədalətə zidd" adlandırmış, bu faciəni törədənləri kəskin tənqid etmişlər. ABŞ Konqresinin üzvü Madelin Bordallonun fikirləri bu baxımdan diqqəti cəlb edir. Konqresmen 20 Yanvar faciəsi ilə əlaqədar konqresdə bəyanatla çıxış edərək, bu hadisəni keçmiş sosialist ölkələrindəki demokratik hərəkatın başlanğıcı kimi diqqətə çatdırmışdır.

M.Bordallo 20 Yanvar faciəsi ərəfəsində Azərbaycanda milli azadlıq hərəkatının geniş vüsət aldığını bildirmiş, hərəkatın qarşısını almaq məqsədilə çoxminli sovet qoşunlarının Bakıda kütləvi qətliam törətdiyini bəyan etmişdir. Konqres üzvü bu hadisənin Azərbaycan xalqının müstəqillik mübarizəsini daha da gücləndirdiyini və bu proseslərin ölkəmizin azadlıq əldə etməsi ilə nəticələndiyini vurğulamışdır.

Bəs 20 Yanvar qətliamının törədilməsinin əsas səbəbi nə olmuşdur? Niyə təpədən dırnağadək ən müasir silahlarla silahlanmış sovet rəhbərliyi bu qanlı faciəni törətməyə əl atdı? Keçmiş SSRİ rəhbərliyinin millətlərarası ayrı-seçkilik toxumu səpməsi artıq özünün pik həddinə çatmışdı. Torpaqlarımızın hissə-hissə Ermənistana birləşdirilməsi, nəhayət, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın da Ermənistana bəxşiş verilməsi xalqımızın səbir kasasını daşdırdı. 1980-ci illərin sonlarında Azərbaycanda ictimai-siyasi vəziyyət kəskinləşmişdi. Keçmiş Sovet İttifaqında gedən proseslər, ölkə rəhbərliyinin uğursuz "yenidənqurma" siyasəti, iqtisadi islahatların düzgün aparılmaması, milli siyasət sahəsində buraxılan kobud səhvlər, bütün respublikalarda olduğu kimi, Azərbaycanda da milli-azadlıq hərəkatının geniş vüsət almasına səbəb oldu.

Regionda ictimai-siyasi vəziyyətin kəskinləşməsinin əsas səbəblərindən biri də Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etməsi, uydurma "Dağlıq Qarabağ problemi"nin ortaya atılması idi. SSRİ rəhbərliyindəki havadarlarına arxalanan ermənilərin Azərbaycanın ərazilərinə iddiaları və dinc əhaliyə

qarşı törətdikləri cinayətlər xalqımızın hiddətinə səbəb oldu. 1988-ci ildə Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar başlayan milli-azadlıq hərəkatı öz möhtəşəmliyi və prinsipiallığı ilə SSRİ rəhbərliyinin ciddi narahatlığına səbəb oldu.

Ölkəmizdə milli-azadlıq mücadiləsi Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağda baş qaldıran erməni separatizminə və qədim türk torpaqları sayılan Qərbi Azərbaycandan 300 mindən çox soydaşımızın zorla öz ata-baba yurdlarından qovulmasına etiraz əlaməti olaraq keçirilən nümayiş və mitinqlərlə başladı. Həmin nümayiş və mitinqlərdə keçmiş sovet rəhbərliyindən və onun respublikamızdakı təmsilçilərindən ermənilərin qanunsuz hərəkətlərinə son qoyulmasını, münaqişənin ideoloqlarının və icraçılarının cəzalandırılmasını tələb edirdi. Mitinqlərin getdikcə kütləvi hal alması artıq Kremli silkələməyə başlamışdı. Ancaq İttifaq rəhbərliyi ermənipərəst mövqeyindən əl çəkmək istəmir, müxtəlif vasitələrlə onların müdafiəsinə qalxırdı. Azərbaycanlılar zorla öz doğma yurd-yuvalarından qovulur, onların ev-eşikləri vəhşicəsinə dağıdılır və ya zorla əllərindən alınır, özləri isə ən ağır təhqirlərə, işgəncə və qətllərə məruz qalırdılar. Təklənmiş Azərbaycan xalqı küçə və meydanlara axışaraq bu ədalətsizliyə və ayrı-seçkiliyə son qoyulmasını tələb edirdi. Həmin dövrdə respublikamızda ictimai-siyasi vəziyyəti ağırlaşdıran amillərdən biri də ölkə rəhbərliyində təmsil olunan şəxslərin səriştəsizliyi, qorxaqlığı və Moskvaya itaət göstərməsi idi. Onların milli maraqlardan çox uzaqda olmaları və özlərini xalqın lideri hesab edənlərin hadisələrin sonrakı gedişini düzgün proqnozlaşdıra bilməmələri də vəziyyətin bu həddə çatmasında mühüm yer tuturdu. Azərbaycan, faktiki olaraq, vəzifə kürsüsü uğrunda mübarizə meydanına çevrilmişdi. Respublikada yaranmış özbaşınalıq və hərc-mərclik isə SSRİ rəhbərliyinə, xüsusilə, bu münaqişənin əsas təşkilatçılarından olan Mixail Qorbaçova və onun Azərbaycandakı Əbdürrəhman Vəzirov kimi əlaltılarına Bakıda müxtəlif təxribatlar törətmək üçün fürsət verdi. 1990-cı il yanvarın əvvəllərində keçmiş SSRİ-nin xüsusi xidmət orqanlarının əməkdaşları yerlərdəki emissarlarının yaxından köməkliyi ilə Bakıda müxtəlif iğtişaşlar törətdilər. Qabaqcadan planlaşdırılmış bu təxribartlar M.Qorbaçov hakimiyyətinə Bakıya qoşun yeritmək üçün əsas verdi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş sovet ordusunun ən müasir döyüş texnikası ilə silahlanmış hissələri Bakıda çox dəhşətli və qanlı bir cinayət törətdilər. Öz hüquqlarının bərpası, həmçinin müstəqillik, azadlıq istəyi ilə küçə və meydanlara toplaşmış dinc mülki əhaliyə odlu silahlardan atəş açıldı və xalqa divan tutuldu. Xüsusi təlim keçmiş əsgərlər hətta qoca və uşaqlara belə rəhm etmirdilər. Nəticədə, həmin gecə 131 nəfər soydaşımız amansızcasına qətlə yetirildi, 700-dən çox adam yaralandı, 321 nəfər itkin düşdü, yüzlərlə insan həbs edildi, ömürlük şikəst oldu.

Həmin vaxt Azərbaycan informasiya blokadasına alınmışdı. Dəhşətli faciədən bir az öncə Azərbaycan Televiziyasının enerji bloku partladılmışdı. Radio işləmirdi, qəzetlər nəşr edilmirdi. O dövrdə Azərbaycan hakimiyyətində təmsil olunan simasız və satqın rəhbərlər isə baş vermiş faciə haqqında xalqa təhrif edilmiş məlumatların verilməsinə çalışırdılar. Dünya ictimaiyyəti Azərbaycanda baş vermiş bu qanlı və məşum hadisədən xəbərsiz idi. Belə ağır və müsibətli bir vaxtda xalqımızın vətənpərvər oğlu, ulu öndərimiz Heydər Əliyev Moskvada xüsusi nəzarət altında saxlanılmasına, təzyiq və təqiblərə məruz qalmasına baxmayaraq, yanvarın 21-də oğlu və silahdaşı İlham Əliyevlə birgə Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək, Sovet ordusunun Bakıda törətdiyi bu qanlı cinayəti kəskin pisləyən bəyanat verdi. Heydər Əliyev faciənin bütün günahkarlarının cəzalandırılmasını tələb etdi. Elə həmin gün ulu öndər Heydər Əliyev Azərbaycan KP MK, respublikanın Ali Soveti və Nazirlər Sovetinə teleqram göndərmişdi.

SSRİ-nin hələ hökm sürdüyü bir vaxtda, Kreml başçısını paytaxtın özündə tənqid etmək, sözün əsl mənasında, böyük hünər və cəsarət istəyirdi. Ulu öndər Heydər Əliyev və oğlu İlham Əliyev bununla, hər şeydən əvvəl, Vətən, xalq qarşısında vətəndaşlıq və milli mövqe nümayiş etdirdilər... Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1990-cı il 21 yanvar tarixli bəyanatı həm də faciəyə verilən ilk siyasi qiymət idi - özü də Moskvada...

Ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra bu məsələ yenidən gündəmə gəldi, 20 Yanvar hadisələrini lazımınca qiymətləndirmək yolunda ciddi addımlar atıldı. 1990-cı il noyabrın 21-də böyük siyasi xadim Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsi ilə bağlı tarixi qərar qəbul etdi. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyindən sonra isə bu faciəyə hüquqi qiymət verildi. Ulu öndər 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra ilk olaraq Şəhidlər xiyabanını ziyarət etdi. Elə yerindəcə tapşırıq verdi ki, qısa müddətdə bütün şəhid məzarlarının üstü layiqincə götürülsün və burada memorial kompleks ucaldılsın. Bunun üçün dövlət səviyyəsində lazımi vəsait ayrıldı və bu iş qısa zamanda başa çatdırıldı. Məhz ulu öndərin sərəncamı ilə 20 Yanvar Ümumxalq Hüzn Günü elan olundu...

Bakıda Vətən şəhidlərinə böyük ehtiramla xatirə kompleksi ucaldıldı. Həmin vaxtdan Şəhidlər xiyabanı xalqımızın müqəddəs and yerinə, ziyarətgahına çevrildi... Ulu öndərin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev Vətənimizin azadlığı, ərazi bütövlüyü uğrunda şəhid olanların, müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinin dövlət səviyyəsində həllini həssas vəzifələrdən biri kimi qarşıya qoyub. Ölkəmizdə bu istiqamətdə böyük tədbirlər həyata keçirilir. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir.

Dövlət başçısının Şəhidlər xiyabanı kompleksinin yenidən qurulması ilə bağlı sərəncamı şəhidlərimizin xatirəsinə ehtiramın daha bir nümunəsinə çevrildi. 2006-cı il yanvarın 19-da dövlət başçısının "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" fərmanı ilə 20 Yanvar şəhidlərinin ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilib. Son illərdə ölkədə əlil və şəhid ailələrinin mənzil təminatını yaxşılaşdırmaq üçün dövlət hesabına fərdi və yaşayış evləri inşa olunur.

Bütün sahələrdə həyata keçirdiyi layihələri, xeyirxahlıq missiyası ilə nəinki ölkəmizdə məmnunluqla qarşılanan, hətta dünyanın diqqət mərkəzində olan Heydər Əliyev Fondu və onun prezidenti Mehriban xanım Əliyeva müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinə də böyük qayğı ilə yanaşır. Heydər Əliyev Fondu 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, faciə qurbanlarının ailələrinin problemlərinin həlli, sağlamlığının bərpası istiqamətində mühüm işlər görür. Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının sədri Leyla xanım Əliyevanın da bu istiqamətdə həyata keçirdiyi tədbirlər yüksək dəyərlərə malikdir. Məhz onun təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən Qarabağ münaqişəsi, xalqımızın tarixi yaddaşı ilə bağlı kitablar, bukletlər, albomlar nəşr olunmuş, filmlər çəkilmişdir.

Xalqımız 20 Yanvar faciəsinin 26-cı ildönümünü qeyd edir, canlarını Vətənimizin azadlığı, müstəqilliyi yolunda qurban verən mərd oğul və qızlarımızın fədakarlığı, onların əziz xatirələri ehtiramla yad olunur. Bu qədirbilənlik həm də Qarabağda da eyni mətinliklə Qələbə qazanılacağına böyük əminlik yaradır.

**"Xalq qəzeti".-**2015.-9 yanvar.-№ 4.-S.4.

**20 Yanvar: Tariximizin qanlı və şanlı səhifəsi”**

**Vasif SƏMƏDOV,**
“Kaspian-İzvestiya” Beynəlxalq İnformasiya Agentliyinin prezidenti,
Azərbaycan Respublikasının Əməkdar jurnalisti,

**Leyla RƏŞİD,**
BDU-nun jurnalistika fakültəsinin əməkdaşı,
Doktorant

**Şəhidlərin qəhrəmanlığına, cəlladların vəhşiliyinə və xalqımızın sarsılmaz iradəsinə şahidlik edən tarixi mənbə**

**XX yüzillik Azərbaycan xalqının taleyinə, tarixinə ən qanlı hadisələrlə, faciələrlə, misli görünməmiş soyqırımlarla yanaşı, müstəqillik və azadlıq uğrunda mübarizə, hünər və qəhrəmanlıq, milli oyanış və özünüdərk əsri kimi də daxil olmuşdur. Həmin əsrin əvvəllərində müstəqilliyimizə gedən yol 1918-ci il mart qırğınları ilə başlamış, az sonra Azərbaycanın, ümumən, müsəlman Şərqinin tarixində ilk demokratik, parlamentli respublika - Azərbaycan Xalq Cümhuriyyəti yaradılmış və cəmi iyirmi üç ay fəaliyyət göstərmişdir.**

Yetmiş dörd ildən sonra sükut buzu əridi. Azərbaycan Xalq Cümhuriyyətinin uzun illər xalqdan gizli saxlanılmış tarixi, fəaliyyəti, əhəmiyyəti haqqında söz açıldı. Azərbaycan milli azadlıq hərəkatı xalqımızın milli şüurunun inkişafında böyük rol oynadı. Lakin tarixi ədalətsizliyi bərpa edib istiqlalına qovuşmaq istəyən xalqı rus imperiyası müstəqil görmək istəmirdi. XX yüzilliyin sonlarında müstəqilliyimizin bərpasına aparan yol isə 1990-cı ilin 20 Yanvarından başladı. Həmin gün öz hüquqları uğrunda mübarizəyə qalxmış xalqımız sovet ordusunun zirehli tankları, xüsusi təyinatlı hərbi dəstələri ilə üzləşdi.

20 Yanvar faciəsi XX əsr Azərbaycan tarixində baş vermiş qanlı hadisələrin, soyqırımı aktlarının məntiqi davamı, çar Rusiyasının “parçala-hökm sür” siyasətinin növbəti təzahürü idi. Azərbaycan xalqına qarşı soyqırımlar, torpaqlarımızın 114 min kvadratkilometrdən 87 min kvadratkilometrədək azalması, SSRİ dövründə soydaşlarımızın indi Ermənistan adlandırılan ərazidəki əzəli, ata-baba yurdlarından son nəfərinədək qovulması, sovet rəhbərliyinin havadarlığı ilə başlayan Dağlıq Qarabağ hadisələri, bu dəfə torpaqlarının iyirmi faizinin işğalı bu məkrli siyasətin mərhələləridir.

Qan yaddaşımıza böyük faciə və qəhrəmanlıq kimi həkk olunan 20 Yanvar müstəqillik əzmimizi, milli kimliyimizi dünyaya tanıdan gün oldu. Bu tarix Azərbaycanın istiqlalı yolunda milli məfkurəmizdən güc alan qarşısıalınmaz azadlıq istəyinin dünyaya bəyan edilməsinin başlanğıcı oldu. 20 Yanvar qırğını həm də sovet rejiminin ermənilərlə birgə apardıqları antiazərbaycan siyasətinin tərkib hissəsi kimi qiymətləndirilməlidir. Qabaqcadan düşünülüb-hazırlanmış bu təcavüzkarlıq aksiyası Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mubarizəsini boğmaq, ona mənəvi zərbə vurmaq məqsədi daşımışdır. Lakin sovet imperiyası insanlıq adına sığmayan əməlləri ilə Azərbaycan xalqının iradəsini qıra bilmədi.

Qanlı Yanvar milli azadlıq hərəkatının daha da yüksəlməsinə və nəticədə, Azərbaycanın yenidən müstəqilliyə qovuşmasına yol açdı. Uzun illər ərzində milli azadlığını bərpa etmək arzusu ilə yaşayan xalqımız nəyə qadir olduğunu sübut etdi. Tarix bir daha göstərdi ki, dövlətçilik ənənələrini yaşadan xalqımızı müstəqilliyi uğrunda mübarizədə qorxutmaq, susdurmaq, dayandırmaq mümkünsüzdür.

Zaman keçdikcə Qanlı Yanvar hadisələrinə müxtəlif aspektlərdən yanaşılır: xalqımız 20 Yanvarı təkcə hüzn günü kimi deyil, eyni zamanda, milli qürur və iftixar günü kimi anır. Faciənin 25-ci ildönümü ərəfəsində ərsəyə gələn, ictimaiyyətə təqdim edilən Prezident Administrasiyası İctimai-siyasi məsələlər şöbəsinin və AzərTAc-ın birgə layihəsi — “20 Yanvar - Tariximizin qanlı və şanlı səhifəsi” kitab-albomu uzun illər sovet imperiyası əsarətində yaşamış Azərbaycan xalqının azadlıq iradəsini, müstəqillik uğrunda mübarizəsini əks etdirən tarixi sübut-dəlillərin toplandığı qiymətli mənbədir.

“20 Yanvar: Tariximizin qanlı və şanlı səhifəsi” milli azadlığı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə edilən kütləvi terroru, totalitar sovet rejiminin cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirən mötəbər ittihamnamədir. Bu, Prezident Administrasiyası İctimai-siyasi məsələlər şöbəsi ilə AzərTAc-ın “Xocalı— iyirminci əsrin soyqırımı” kitabından sonra ikinci layihəsidir. Hər

iki layihənin rəhbəri Prezident Administrasiyasının şöbə müdiri, professor Əli Həsənov və AzərTAc-ın baş direktoru Aslan Aslanovdur.

Öz tipoloji xarakteri ilə fərqlənən "Tariximizin qanlı və şanlı səhifəsi" kitab-albomu Azərbaycan xalqının 25 il əvvəl yaşadığı faciənin, 20 Yanvar həqiqətlərinin dünya ictimaiyyətinə, bugünkü və gələcək nəsillərə çatdırılması baxımından uğurlu bir layihədir. Bu, eyni zamanda, vətənpərvər ziyalıların vətəndaşlıq mövqeyinin yeni parlaq ifadəsidir.

Layihənin məramının ifadə olunduğu Ön sözdə səslənən "Bu fotonəşr Bakıda törədilmiş kütləvi qırğının əsas baiskarı Mixail Qorbaçovu Nobel Sülh mükafatına layiq görmüş dünya üçün yaddaş kitabıdır" — fikri diqqəti cəlb edir və düşündürür. Bu, həm də Ermənistan—Azərbaycan müharibəsinə, Qarabağ həqiqətlərinə ikili standartla yanaşan beynəlxalq aləmə cinayətkarların hələ də cəzasız qalması barədə mesajdır.

20 Yanvara aparan yolun nə vaxt və haradan başlanıldığını göstərən hadisələrin xronoloji ardıcıllığı, tarixi faktlara əsaslanan şərhlər, dərin təhlillər və Azərbaycan xalqının müsibətini, qırğının miqyasını əks etdirən yüzlərlə fotoşəkil- güllə ilə vurulmuş, tankın tırtılları altında tapdanaraq əzilmiş insan cəsədləri, şikəst edilmiş, ağır yaralanmış insanlar, qanlı cəza əməliyyatının ağır nəticələrini, müəyyən epizodlarını əks etdirən materiallar, fotosənədlər kitab-albomun tarixi və informasiyalılıq dəyərini nümayiş etdirir.

Bəhs etdiyimiz kitabın dəyəri 20 Yanvar hadisələrinə dair təkzibedilməz fotoşəkillərin və sənədlərin, tarixi materialların, statistik məlumatların küll halında təqdim edilməsi, daha geniş auditoriyaya çatdırılması üçün fotonəşrin dörd dildə - Azərbaycan, ingilis, rus və ərəb dillərində çap olunması, oxucuda, xüsusən, dünya ictimaiyyətində faciə barədə aydın və obyektiv təssəvvürün yaradılmasındadır. Hər kəsin qavraya biləcəyi tərzdə, dəqiq, lakonik və çox səmimi bir üslubda ifadə olunmuş fikirlər siyasi, ideoloji, mənəvi mahiyyəti, məna-məzmun konkretliyi ilə diqqəti cəlb edir.

Kitabda 20 Yanvar hadisələrinin səbəblərini, həmin hadisələr ərəfəsində Azərbaycanda yaranmış gərgin ictimai-siyasi vəziyyəti, Ermənistanın əsassız ərazi iddiaları və Dağlıq Qarabağı Azərbaycandan ayırmaq cəhdləri ilə əlaqədar baş qaldırmış etiraz dalğası, keçmiş sovet rəhbərlərinin xalqımıza qarşı ədalətsiz siyasəti və digər mühüm məqamlar xronoloji ardıcıllıqla təqdim edilir. Həmin dövrdə cərəyan edən hadisələrin və faciəni əks etdirən fotosənədlərin "20 Yanvara aparan yol", "İnformasiya blokadası", "Qanlı statistika", "Vida günü", "Şəhidlər", "Şəhidlər xiyabanı - müqəddəs məkan" başlıqları altında qruplaşdırılması oxucu auditoriyasına faciə haqqında dəqiq informasiya verir.

"20 Yanvar - Tariximizin qanlı və şanlı səhifəsi" kitab-albomu 1987-ci ildən başlayan bir dövrü əhatə edir. Bu dövrdə cərəyan edən hadisələrin xarakteri, obyektiv, subyektiv səbəbləri tarixi xronologiya ilə əks olunur. Xalqımızın o vaxt SSRİ-də gedən proseslərə real təsir etmək imkanı olan lideri Heydər Əliyev siyasi səhnədən uzaqlaşdırıldıqdan sonra M. Qorbaçovun müşaviri A. Aqanbekyanın Parisdə "Humanite" qəzetinə müsahibəsində "Dağlıq Qarabağın Ermənistanın tərkibinə verilməsi zəruriliyindən və bu məsələyə M.Qorbaçovun razılıq verməsindən" danışması etnik münaqişənin yaxınlaşdığına bir siqnal olmuşdu. Nəşrdə qeyd edildiyi kimi, 20 Yanvara gedən yol da ermənilərin Dağlıq Qarabağa əsassız ərazi iddiaları ilə başlanmışdır. 1987-ci ildə Qarabağda yaradılmış "Krunk" radikal- separatçı erməni təşkilatının Xankəndində keçirdiyi ilk antiazərbaycan mitinqləri də baş verəcək faciələrin ilk qığılcımları idi.

1988-ci ildə Dağlıq Qarabağda baş qaldırmış erməni separatizminə Kreml rəhbərliyinin rəvac verməsi, 1989-cu ildə SSRİ Ali Sovetinin qərarı ilə DQMV-də yaradılmış Xüsusi İdarə Komitəsinin Azərbaycana qarşı qərəzli mövqeyi sayəsində muxtar vilayətin idarə-müəssisələrinin tədricən Azərbaycanın tabeçiliyindən çıxarılması, vilayət ərazisində soydaşlarımıza divan tutulması, DTK-nın çeşidli təxribatlar törətməsi və s. hadisələr xronologiyadan aydın olur ki, nəhayət, Bakıda dinc əhalinin ağır hərbi texnikanın köməyi ilə vəhşicəsinə qətliamına aparırmış. Kitab-albomda faciənin tükürpədici, qanlı epizodlarını əks etdirən fotosənədlər keçmiş sovet dövlətinin həmin günlərdə Azərbaycanda həyata keçirdiyi vəhşi terror aktlarının insanlığa qarşı ən ağır cinayətlərdən olduğunu təsdiq edir.

"İnformasiya blokadası" bölməsində qeyd edildiyi kimi, faciə barədə xəbərlərin dünyaya yayılmasının qarşısını almaq, Azərbaycan ətrafında informasiya blokadası yaratmaq planı cəza ssenarisinin tərkib hissəsi olmuşdur. Belə bir maraqlı cəhətə nəşrdə xüsusi diqqət yetirilir ki, M.Qorbaçovun göstərişi, D.Yazovun komandanlığı altında həyata keçirilən Qanlı Yanvar faciəsi baş verdikdən bir gün sonra bu informasiya blokadasını geniş cəbhədə yaran ümummilli lider Heydər Əliyev həmin vaxt Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək, Bakı qırğınına ilk olaraq etirazını bildirmiş və siyasi-hüquqi qiymət vermişdir.

"Qanlı statistika" başlığı altında toplanan fotosənədlər, "Şit" təşkilatının müstəqil ekspertləri tərəfindən hazırlanmış hesabat, ölənlər, yaralananlar və qanunsuz həbs olunanlarla bağlı statistika 20 Yanvar faciəsinin

miqyasını, sovet ordusunun, xüsusi təyinatlı dəstələrin və daxili qoşunların iri kontingentinin Azərbaycan paytaxtının xüsusi qəddarlıqla zəbt etməsini göstərir.

Kitab-albomun ən maraqlı və təsirli bölmələrindən birində -"Vida günü"ndə göstərilir ki, şəhidlərin son mənzilə yola salınması Azərbaycan tarixində o vaxtadək yaşanmamış ümummilli dəfn mərasimi olmuşdur. Həmin anların, epizodların, insan izdihamının iri planda əks olunduğu fotoşəkillər belə düşünməyə əsas verir ki, bu möhtəşəm hüznlü birlik sonrakı illərin anım günlərində də davam edərək, xalqımızın milli həmrəyliyinin formalaşmasında və möhkəmlənməsində başlanğıc rolu oynamışdır.

Yeni nəşrdə oxucuya bir daha aydın olur ki, Azərbaycan xalqının azadlıq mübarizəsinə, 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verilməsi, şəhidlərin xatirəsinin əbədiləşdirilməsi ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi tədbirlərlə mümkün olmuşdur. Ulu öndərin ölkəyə rəhbərliyi dövründə şəhidlərin xatirəsinin əbədiləşdirilməsi istiqamətində atdığı addımlar, o cümlədən 1998-ci il 31 mart tarixli fərmanla "20 Yanvar şəhidi" fəxri adının təsis edilməsi, 1998-ci il 5 avqust tarixli sərəncama əsasən Şəhidlər xiyabanında "Əbədi məşəl" kompleksinin yaradılması, şəhid ailələrinə göstərilən diqqət və qayğı, bu ənənəni ölkə Prezidenti İlham Əliyevin davam etdirməsi kitabın "Şəhidlər", "Şəhidlər xiyabanı - müqəddəs məkan" bölməsində geniş əksini tapmışdır.

Kitabda paytaxtın rəsmi qonaqlarının, dövlət və hökumət başçılarının, məşhur insanların əlamətdar günlərdə və ölkəmizə səfər proqramlarında mütləq şəkildə Şəhidlər xiyabanının ziyarət etməsi faktının görüntüləri Vətən qurbanlarının xatirəsinə rəsmi ehtiramın dövlət səviyyəsində təcəssümü kimi sərgilənir. Şəhidlərin əbədiyyətə qovuşduğu bu məkana Heydər Əliyevin verdiyi qiymət nəşrin tarixi, siyasi, tərbiyəvi, həmçinin milli-mənəvi dəyərini ortaya qoyur: "Xalqımızın tarixində çox əzəmətli, qiymətli abidələr var. Ancaq Şəhidlər xiyabanı, XX əsrin sonunda Azərbaycan xalqının milli azadlığı uğrunda özünü qurban vermiş şəhidlərinin məzarları Azərbaycan Respublikasının torpağının ən müqəddəs yeridir və ən qiymətli abidəsidir".

Ulu öndərin "şəhidlərin hər qanının damcısında bizim xalqımızın qüdrəti var, qəhrəmanlığı var, xalqımızın milli azadlıq, müstəqillik arzuları vardır. O gecə tökülən qanlar müqəddəs qanlardır. Onlar bizim xalqımızın əsrlər boyu milli azadlıq, müstəqillik uğrunda tökdüyü qanlara qovuşmuş qanlardır, o gecə tökülən qanlar Azərbaycanın müstəqilliyini nümayiş etdirən milli bayrağımızın üstündəki qandır" sitatı isə bu dəyərli layihənin mükəmməl epiloqudur.

Geniş oxucu kütləsi, həmçinin dünya ictimaiyyəti üçün nəzərdə tutulmuş kitab-albom yeni nəsildə milli vətənpərvərlik, dövlətçilik hislərinin tərbiyə olunması, milli kimlik məfkurəsinin formalaşması baxımından ibrət dərsliyidir. "20 Yanvar: Tariximizin qanlı və şanlı səhifəsi" Azərbaycanın yeni tarixini əks etdirən faktların önəmli toplusudur. Bu qiymətli nəşr tirajlanaraq orta məktəblərə, ali təhsil müəssisələrinə, hərbi hissələrə, Azərbaycanı dünyada təmsil edən səfirliklərə, həmçinin dünya dövlətlərinin ölkəmizdəki nümayəndəliklərinə, diaspor təşkilatlarına da çatdırılmalıdır. 20 Yanvar cinayətinin təşkilatçılarının və icraçılarının indiyədək cəzasız qaldığı, beynəlxalq aləmdə Azərbaycana qarşı ikili standartların hökm sürdüyü dövrdə belə bir nəşrin dünyaya yayılmasına da böyük ehtiyac var.

Nəfis şəkildə nəşr edilmiş kitab- albomda Oqtay Məmmədov, Yaşar Xəlilov, Rafiq Bağırov, Namiq Şəfiyev, Asim Talıbov, Fərid Xayrulin, Mirnaib Həsənov, Oleq Litvin, Sergey Platkeyviç, Rauf Umudov, Tahir Cəfərov, Rasim Sadıqov və Fərid Məmmədovun çəkdikləri fotoşəkillər toplanmışdır. Mətni ingilis dilinə Nadir İsmayılov, Orxan Muradov, rus dilinə Nazim Xıdırov, Ayişə Axundova, ərəb dilinə isə Şıxəli Əliyev tərcümə etmişlər.

Vətəndaş təəssübkeşliyi , qan yaddaşının hökmü ilə yazılıb- tərtib edilmiş bu kitab- albom, şübhəsiz, dəyərli faktlar, sübutlar mənbəyi kimi həm ölkəmizdə, həm də xaricdə yaşayan hər bir qeyrətli azərbaycanlının stolüstü kitabı olacaq.

"Xalq qəzeti".-2015.-1 fevral.-N 24.-S.4.

## 20 Yanvar - Qürur mənbəyimiz

**Havva MƏMMƏDOVA,**
tarix elmləri doktoru,
professor

**Azərbaycan xalqı bu günü heç vaxt yaddan çıxarmayacaq və gələcəkdə də hər il bu gün qeyd olunmalıdır. Azadlıq, müstəqillik uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxarılmamalıdır.**

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

1988-ci ilin fevralından etibarən keçmiş SSRİ rəhbərliyinin ədalətsiz mövqeyi, millətlər arasında ayrı-seçkilik toxumu səpməsi və təcavüzkarı şirnikləndirmə siyasəti Ermənistanın, habelə Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vılayəti rəhbərlərinin millətçi-şovinist təbliğatına və yerli azərbaycanlı əhaliyə qarşı Konstitusiyaya zidd hərəkətlərinə rəvac verdi. Bu, Ermənistanın Azərbaycana qarşı genişmiqyaslı hərbi-sıyasi təcavüzünün başlanğıcı idi.

Sovet İttifiqanın rəhbəri Mixail Qorbaçov Azərbaycan xalqına divan tutmaq, onun haqq səsini zorla, silah gücünə boğmaq üçün SSRİ Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizlik Komitəsinin, həmçinin, “ALFA” və SSRİ DTK-nın “A” təxribat qruplarının xüsusi hazırlıq keçmiş qoşunlarından istifadə etdi. Bu dəhşətli hərbi cinayəti həyata keçirmək üçün DTK “təxribat maşını” işə salındı. Bakıda hərbi xidmətdə olan rus zabitlərinin ailələri qabaqcadan ölkədən çıxarıldı və süni surətdə “rus qaçqınları” problemi yaradıldı. M.Qorbaçovun bilavasitə göstərişi ilə güc nazirləri Yazov, Bakatin və Kryuçkovun başçılıq etdikləri sovet ordusunun kontingenti 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə heç bir xəbərdarlıq edilmədən qəflətən Bakıya yeridildi. Kommunist diktaturası 1956-cı ildə Macarıstana, 1968-ci ildə Çexoslovakiyaya və 1979-cu ildə Əfqanıstana qarşı cinayətkar hərbi təcavüzü 1990-cı ildə Azərbaycan xalqına qarşı törətdi. Bu cinayət öz qəddarlığına görə əvvəlkilərdən tamamilə fərqlənirdi. Çünki Azərbaycana göndərilən amansız və peşəkar cəza dəstələrinin tərkibində erməni əsgər və zabitləri çoxluq təşkil edirdilər. Stavropol, Krasnodar, Rostov və digər yerlərdən səfərbərliyə alınan, hətta Azərbaycandakı sovet hərbi hissələrində xidmət edən erməni əsgər və zabitlərinin əliyalın xalqın üzərinə göndərilməsi qabaqcadan planlaşdırılmış qətliam idi. Sovet imperiyasının milli münaqişələri silah gücünə “tənzimləməkdə” “böyük təcrübə” qazanmış ordusu öz qəddarlığını Azərbaycan xalqından da “əsirgəmədi”.

20 Yanvar 1990-cı il tarixdə dinc əhaliyə qarşı həyata keçirilən cəza tədbirləri zamanı, insanlıq əleyhinə törədilmiş dəhşətli əməl nəticəsində BMT-nin İnsan Hüquqları haqqında Ümumi Bəyannaməsinin, 1949-cu il Cenevrə Konvensiyasının, habelə insan hüquqlarına dair digər beynəlxalq hüquqi sənədlərin müddəaları kobud şəkildə pozulmuşdur.

Bu faciəyə ilk olaraq öz etirazını bildirən isə ulu öndər Heydər Əliyev oldu. Həmin dövrdə sovet imperiyasının rəhbərliyi tərəfindən ciddi nəzarət altında saxlanılan və anbaan təqib olunan Heydər Əliyev bütün bunlara baxmayaraq, 1990-cı il yanvarın 21-də Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək mətbuat konfransı keçirdi. O, baş verənlərlə bağlı açıqlama verdi və xalqımıza qarşı törədilən cinayəti ifşa etdi. Heydər Əliyev sovet rəhbərliyinin xalqımıza qarşı etdiyi bu zorakılığı kəskin pislədi. Azadlıq və istiqlaliyyət uğrunda öz haqq səsini qaldıran dinc, əliyalın insanlara qarşı həyata keçirilmiş hüquqa, demokratiyaya və insanlığa zidd aksiya kimi ittiham etdi. Ulu öndər Bakıda törədilən qanlı faciənin təşkilatçılarını cinayətkar adlandırdı və aksiyanı törədənlərin məsuliyyətə cəlb olunmasını qətiyyətlə tələb etdi: “Mən baş vermiş hadisələr haqqında dünən xəbər tutmuşam və təbiidir ki, bu hadisəyə laqeyd qala bilməzdim. Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan Daimi Nümayəndəliyində böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanda baş vermiş hadisələri hüquqa, demokratiyaya, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm”.

Kommunist ideologiyasının hökmranlıq etdiyi bir dövrdə, imperiyanın hələ də hökmünü yeritdirdiyi vaxtda ölkəni və onun başçısını mərkəzdə bu şəkildə kəskin tənqid etmək, sözün əsl mənasında, böyük hünər və cəsarət

tələb edirdi. Müdrik şəxsiyyət öz bəyanatında açıq şəkildə o zamankı SSRİ rəhbərinin birbaşa göstərişi ilə tökülən qanlara etiraz etdiyini, insanların azadlıq istəyinin məhv edilməsinin mümkünsüzlüyünü söyləmiş, ağır günlərdə xalqının yanında olduğunu bir daha sübut etmişdir. Xalqımızın böyük oğlu Heydər Əliyevin 20 Yanvar hadisələri ilə bağlı Azərbaycan xalqına göndərdiyi başsağlığında deyilirdi: "Bakı şəhərinə sovet ordu hissələrinin yeridilməsi ilə əlaqədar xalqımızın başına gətirilən faciədən, dinc əhalinin qırılmasından böyük ürəkağrısı ilə xəbər tutdum. Bu matəm günündə həlak olanların ailələrinə və yaxınlarına, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm".

Heydər Əliyev 20 Yanvar faciəsini qəsbkarlıq və cinayətkar hərəkət adlandırdı, bütün İttifaq rəhbərlərini mətbuat konfransında iştirak edənlərin gözü qarşısında ittiham etdi və qətliama kəskin etirazını bildirdi. Ulu öndərin siyasi iradəsi sayəsində 20 Yanvar hadisələri ilə bağlı informasiya blokadası darmadağın edildi və dünya ictimaiyyəti Sovet İttifaqının növbəti qəddarlığından, dinc əhaliyə amansızcasına divan tutmasından, qadağan olunmuş silahlardan atəş açmasından xəbərdar oldu.

Qanlı Yanvar faciəsi ilə bağlı Heydər Əliyev tərəfindən verilən kəskin bəyanat artıq Azərbaycan tarixində yeni siyasi dövrün başlanmasını bildirirdi. Heydər Əliyevin növbəti sərt addımı isə SSRİ Nazirlər Sovetinin partiya təşkilatına ünvanladığı 19 iyul 1991-ci il tarixli ərizəsidir. O, kommunist partiyası sıralarından çıxmasına dair bu ərizəsində kommunist rejiminin ölkəni uçuruma apardığını, SSRİ-nin dağılmasının labüdlüyünü açıq bəyan etmişdi. Heydər Əliyev bu müraciətdə 20 Yanvar hadisəsi ilə bağlı qeydlərində bildirirdi: "Bu antihumanist, konstitusiyaya və hüquqa zidd hərəkəti ittiham edərkən Sov. İKP və Azərbaycan KP MK-nın bu cinayətin üstünü açacağına və günahkarları üzə çıxaracağına ümid edirdim. Artıq yarım il keçib. Nəinki bu dəhşətli cinayətlərin hamıya çoxdan məlum olan günahkarları üzə çıxarılmayıb, əksinə, bunları ört-basdır etmək üçün əllərindən gələni edirlər. Ümid edirlər ki, bu faciə unudulacaq. Ancaq tarix dəfələrlə sübut etmişdir ki, doğma xalqa qarşı yönəldilmiş qanlı cinayətləri on illər keçsə də, unutmaq və bağışlamaq mümkün deyil." Beləliklə, 1991-ci ilin iyulunda Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etdi.

Təəssüf ki, Azərbaycan dövlət müstəqiliyini əldə etdikdən sonrakı ilk illərdə başı hakimiyyət uğrunda mübarizəyə qarışmış respublika rəhbərləri 20 Yanvar qırğınına siyasi-hüquqi qiymət verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində heç bir iş aparmadılar. İlk dəfə ulu öndər Heydər Əliyev tərəfindən Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 20 Yanvar faciəsinə siyasi qiymət verildi. Ümummilli liderimizin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 21 noyabr tarixli sessiyasında "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar qəbul olundu. 1992-ci il yanvarın 13-də "1990-cı ilin yanvar ayında Bakı faciəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin bəyanatı" qəbul olundu.

1990-cı ilin yanvarından sonra hakimiyyətdə olan qüvvələrin bu məsələdə ilk vəzifəsi faciəni təhlil etmək, günahkarları üzə çıxarmaq və dövlət səviyyəsində siyasi-hüquqi qiymət vermək olsa da, respublika əhalisinin təkidli tələblərinə baxmayaraq, bununla bağlı 1993-cü ilə qədər faktiki olaraq heç bir tədbir görülməmişdi. 1990-cı il yanvar ayının 22-də çağırılan Azərbaycan Ali Sovetinin fövqəladə sessiyası öz işini yarımçıq qoymuş və sonrakı sessiyalarda bu məsələnin müzakirəsini davam etdirməmişdi. Ali Sovetin yanvar hadisələrini tədqiq etməli olan komissiyasının işi başa çatdırılmamış qalmışdı.

1991-ci il martın 7-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında çıxış edən xalq deputatı Heydər Əliyev 20 Yanvar hadisəsini növbəti dəfə çox sərt şəkildə şərh edib: "...1990-cı il yanvarın 20-də İttifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edimişdir. Heç bir əsas olmadan, xəbər vermədən, dövlət qanunlarını kobudcasına pozaraq, Bakı şəhərinə müasir silahlı sovet ordusunun qoşun hissələri yeridilmiş, onlar vəhşilik, qəddarlıq etmiş, nəticədə nahaq qan tökülmüş, yüzlərlə adam həlak olmuş, xəsarət almış, itkin düşmüşdür."

Xalqın təkidli xahişlərindən sonra müstəqil Azərbaycana rəhbərlik edən Heydər Əliyev 20 Yanvar faciəsinə dövlət səviyyəsində hüquqi-siyasi qiymət verilməsini təmin etdi. 1994-cü ilin fevralında Milli Məclisin xüsusi sessiyasındakı müzakirələrdən sonra Azərbaycana qoşun yeridilməsi xalqımıza qarşı hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. Həmin il mart ayının 29-da isə Milli Məclis "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul etdi. Qərarda 1990-cı ilin 20 Yanvar hadisələri Azərbaycanda vüsət almış milli-azadlıq hərəkatını boğmaq, suveren bir dövlət amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, belə bir yola qədəm qoyan xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. Beləliklə, ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verilməsi milli dövlətçiliyimizin bərpası istiqamətində də mühüm rol oynadı.

1994-cü il yanvarın 12-də keçirdiyi müşavirədə Prezident Heydər Əliyev 20 Yanvar faciəsinə münasibət bildirərkən respublika rəhbərliyinin bu dəhşətli hadisə barədə xalqa müfəssəl məlumat verməməsini qətiyyətlə pisləmişdir: "...Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişdir. Görünür ki, ötən yaxın illərdəki Sovetlər Birliyi, respublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsl mahiyyətini xalqa bəyan etməmişlər".

Heydər Əliyev şəhidləri və şəhid ailələrini heç vaxt diqqətdən kənar qoymurdu. 20 Yanvar faciəsinin bütün ildönümlərində şəxsən Şəhidlər xiyabanını ziyarət edən ulu öndər, şəhid ailələrinə müraciətlə bütün Azərbaycan xalqı adından onlara başsağlığı verir, problemləri ilə yaxından maraqlanırdı.

Ümummilli liderimizin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev şəhidlərin xatirəsinin uca tutulmasına, şəhid ailələrinin sosial məsələlərinin yoluna qoyulmasına xüsusi diqqət göstərir. Dövlətimizin başçısının "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 19 yanvar 2006-cı il tarixli fərmanı bu baxımdan müstəsna əhəmiyyət kəsb edir. Prezident İlham Əliyev Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərin xatirəsinin dövlət səviyyəsində böyük ehtiramla yad edilməsi üçün müvafiq qərarlar qəbul edib. Məhz dövlətimizin başçısının təşəbbüsü ilə Şəhidlər xiyabanında əsaslı təmir və yenidənqurma işləri aparılıb, Bakının "20 Yanvar" dairəsində Qanlı Yanvar şəhidlərinin xatirəsinə memorial abidə kompleksi ucaldılıb.

...Son illərdə ölkədə əlil və şəhid ailələrinin mənzil təminatını yaxşılaşdırmaq üçün dövlət hesabına fərdi və yaşayış evləri inşa olunur. Müvafiq olaraq 20 Yanvar şəhidlərinin ailələri, əlilləri də belə mənzillərlə təmin olunur. Konkret rəqəmlə desək, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 40 nəfər şəhid ailəsi və 20 Yanvar əlili mənzillə, 47 nəfər əlil isə "Oka" markalı maşınla təmin edilib. Əlillərin sağlamlığının bərpası da diqqət mərkəzindədir. Onların reabilitasiyası üçün respublikada yeni sağlamlıq mərkəzləri inşa olunub. Bu gün xalqımız 20 Yanvar hadisələrinin 25-ci ildönümünü qeyd edir, igid övladlarının fədakarlığını məhəbbətlə xatırlayır, onların əziz xatirəsini böyük ehtiramla yad edir. Bu qədirbilənlik həm də o deməkdir ki, az keçməyəcək Qarabağda da eyni mətinliklə Qələbə qazanacağıq...

Bu qələbəyə həm də Azərbaycanın bugünkü hərtərəfli uğurları, bütün dünyada gündən-günə artan nüfuzu Ali Baş Komandan, Prezident İlham Əliyevin bu istiqamətdə qətiyyətli addımları da zəmanət verir...

**"Xalq qəzeti".-**2015.-24 yanvar.-N 17.-S.6.

## Şəhidlərimizin dəfninin təşkili xalqın müdrikliyinin və dəyanətinin təsdiqi oldu

**Qüdrət ƏBDÜLSƏLİMZADƏ,**
Professor

**Ölkələrin və millətlərin tarixində elə unudulmaz "həqiqət anları" yaşanır ki, o günlər öz məna yükü, ictimai-siyasi, sosial-iqtisadi, mənəvi-əxlaqi dəyərləri etibarilə əsrlərə bərabər olub, "dönüş nöqtəsi" rolunu oynayaraq, uzun illər boyu aparılmış mübarizə yolunun məntiqi yekun məqamının yetişdiyindən xəbər verir.**

Həm faciə, həm də qəhrəmanlıq timsalına çevrilmiş Qanlı 20 Yanvar təsadüfi, yaxud kiminsə hansısa səhvinin nəticəsi deyil, bütövlükdə bolşevik rejiminin amansız daxili və qəsbkar xarici siyasətinin qaçılmaz yekunu idi. Ölkənin milli sərvətini öz əlində mərkəzləşdirib idarə edən, insan haqq və hüquqlarını hər addımda tapdalayan, milyonlarla adamı təqib edən bir ictimai quruluş və onun yerlərdəki hakimiyyət orqanları, tez-gec iflasa uğramalı, məhv olub "tarixin zibilliyinə" atılmalı idi.

Azadlığını və istiqlalını boş vədlərdə, yalançı şüarlarda, qondarma çağırışlarda deyil, dünyanı iki sistemə ayırmış "şər imperiyası" ilə mübarizədə olduğunu dərk edən ölkənin Qazaxıstan, Litva, Gürcüstan, Moldova, Ukrayna və Azərbaycan kimi müttəfiq respublikalarını bürümüş etiraz nümayişlərinə son qoymaq üçün qərəzlə düşünülüb, amansızlıqla həyata keçirilərək başqalarına "ibrət dərsi" vermək məqsədi güdən Qanlı Yanvar totalitar-hərbi sovet rejiminin əsl mahiyyətini bütün dünyaya göstərdi.

Təsadüfi deyildir ki, Qanlı Yanvar hadisələri ilə bağlı Şeyxülislam Hacı Allahşükür Paşazadənin Mərkəzə, Birləşmiş Millətlər Təşkilatına və bütün dövlətlərin başçılarına ünvanlanmış bəyanatında deyilirdi: "...O dövlət ki, öz ordusunu öz vətəndaşlarının qatilinə çevirir, o dövlət ki, öz adamlarına layiqli güzərandan daha çox ölmək hüququ verir, belə dövlət ancaq nifrətə layiqdir".

O günlərdə Bakıda və Azərbaycanda baş verən qanunsuzluqlara və ədalətsizliklərə qarşı etiraz edən "Qardian" (İngiltərə) qəzeti yazmışdı: "Ordunun Bakıya hücumu zamanı günahsız adamların vəhşicəsinə güllələnməsi, tankların yolu kəsmiş gənclərin tonqallar ətrafında toplaşan insanların üstündən keçərək onların cəsədlərini tanınmaz hala salması beynəlxalq ictimaiyyət tərəfindən pislənməlidir".

"Nyu-York Tayms" qəzeti (ABŞ) yazırdı: "Bakının işğalından sonra xalqını sevən hər bir azərbaycanlıda Moskvaya və Qorbaçova nifrət hissi oyanmışdır... Vaxtilə üzüyola bir müstəmləkə olan Azərbaycan, indi öz suverən, demokratik hüquqlarını tələb edir".

ABŞ-ın "Baltimor san" qəzeti 23 yanvar 1990-cı il sayında Kremlin "millətçi üsyanı" yatırmaq bəhanəsilə müstəqil respublikaya qoşun yeritməsi faktının hüquqi cəhətdən əsassız olduğuna münasibət bidirərək yazmışdı: "Bu qərar, konstitusiyanı kobud surətdə pozmaq, eyni zamanda, suveren respublikanın hüquqlarını tapdalamaqdır."

Xüsusilə, sovet rəhbərliyinin guya "Azərbaycanda İslam respublikası yaratmaq" uydurmasını tənqid edən müxtəlif xarici mətbuat vasitələri təkidlə soruşurdular: "Sovet rəhbərliyi bunu deyərkən, görəsən, əlində tutarlı əsası vardırmı?"

Qanlı Yanvar hadisələrində İslam amili ilə bağlı "Nyu-York Tayms" qəzeti müxbirinin sualına şəhidlərin dəfnini təşkil etmiş İctimai Komissiyanın cavabında deyilmişdir: "Şəhidlər xiyabanında azərbaycanlılarla yanaşı ruslar, yəhudilər, tatarlar, ləzgilər də dəfn olunmuşlar... Bizi "İslam fundamentalizmində" günahlandırırlar... Biz fundamentalist olsaydıq, yəhudiləri və rusları burada dəfn edərdikmi?!"

Konkret tarixi şəraitin zəruri məntiqi nəticəsi olub, xalqın tələb və iradəsi ilə 20 yanvar 1990-cı ilin səhər saatlarında keçmiş Mərkəzi Komitənin qarşısında keçirilən etiraz mitinqində formalaşmış İctimai Dəfn Komissiyası (həmin komissiyaya rəhbərlik mənə həvalə edildi — Q.Ə.) o dövrdəki əsl hakimiyyətsizlik, fövqəladə vəziyyət, ciddi komendant saatı şəraitində Azərbaycan xalqının müdrikliyinin, vətəndaş həmrəyliyinin, milli qeyrətinin, ümumbəşəri dəyərlərə sədaqətinin parlaq ifadəsi kimi qiymətləndirilməlidir.

Qəhrəman şəhidlərimizin dəfn mərasimi ilə bağlı müəyyən təşkilati və əlaqələndirmə işlərini yerinə yetirmək məqsədilə bir neçə günlüyə yaradılmış İctimai Komissiya, xalqın məsləhəti ilə öz fəaliyyətini 42 gün (1990-cı il yanvarın 20-dən mart ayının 2-dək) davam etdirməli oldu. Bu komissiyaya Şeyxülislam Hacı Allahşükür Paşazadə də daxil olmaqla, cəmiyyətin müxtəlif təbəqələrinin nümayəndələri, o cümlədən fəhlə, mühəndis və müəllim, jurnalist və inşaatçı, qulluqçu və alim daxil idi. Onların adlarını millətlərimizə və gələcək nəsillərə xatırlatmağı özümə borc sayıram: Azər Nəbiyev, Xəliyəddin Xəlilov, Xalid Muxtarov, Rəhim Qasımov, Bağır Bağırov, Nəriman Əliyev, İsmayıl İncəli, Malik Mehdiyev və İbrahim Əliyev.

Fövqəladə vəziyyət və məlumatsızlıq şəraitində xalqın həm ziyarət, həm ünsiyyət, həm də milli həmrəylik simvoluna çevrilmiş Şəhidlər xiyabanında insanlar bir-biri ilə dərdləşir, “Azadlıq” radiosu, “Vətən” cəmiyyəti xətti ilə eşitdiklərini bölüşür, gizli şəkildə nəşr olunmuş “Səhər”, “Fövqəladə vəziyyət” qəzetləri əldən-ələ ötürülür, həlak olanlar və yaralananlar haqqında xəbərlər dəqiqləşdirilir, itkin düşənlərin taleyinin araşdırılması ilə bağlı müraciətə imzalar toplanır, vətənpərvər ruhlu şeirlər səslənir, müxtəlif yerlərdən gələnlərin qəzəbli çıxışları eşidilir, xəstəxanalardakı yaralılara baş çəkmək üçün könüllü qruplar yaradılır, “Qurani-Kərim”in səbrə şağıran sədaları altında yüz minlərlə insan göz yaşlarını qəlblərinə axıdaraq kədərlə qərənfil dənizini xatırladan bu müqəddəs məkanda torpağa tapşırılmış unudulmaz oğul-qızlarımızı, azadlıq şəhidlərini fasiləsiz axınla, dərin hörmət və sayğı ilə yad edirdi.

...Ana-bacıların ağlaşması, kişilərin boğuq hıçqırıqları, tonqallarda yandırılan partiya biletlərinin kəsif tüstüsü, tankların qulaq batıran gurultusu, uzaqdan eşidilən güllə səsləri, təcili yardım maşınlarını köməyə çağıranların harayı, bu qırğına qol qoymuş mərkəzi və yerli hakimiyyət orqanlarının ünvanına söylənən qəzəbli lənətlər, ətrafdakı silahlı hərbiçilərin hər an yeni faciələr törətməyə hazır vəziyyəti — insanlarda köməksizlik, hətta ümidizlik əhval-ruhiyyəsi, baş verə biləcək daha dəhşətli vahimələr yaratmışdı. O ağır günlərin reallığını yaşamaq nə qədər dözülməz olsa da, görünür, mümkün imiş.

Amma həmin mürəkkəb vəziyyəti hərtərəfli qiymətləndirib, düzgün qərarlar əsasında hərəkət etmək olduqca çətin idi.

Belə bir mürəkkəb vəziyyətdə İctimai Dəfn Komissiyasının müraciətində deyilirdi: “Şənbə gecəsi xalqımıza ağır faciə üz vermişdir... Bakıda fövqəladə vəziyyət elan olunmuşdur, hərbiçilər hər işə nəzarət edir, mətbuat orqanları bağlanmış, televiziya sıradan çıxarılmış, radio isə yalnız hərbi komendatlığın əhalini hədələyən xəbərlərini yayır. Şəhərdə həbslər davam edir, küçələr hərbiçilərin törətdikləri cinayətlərin qan izləri, vurduqları ziyanlarla doludur. Abşeron kəndlərindən, Sabunçu dairəsindən, Tiflis prospektindən, metronun “Gənclik” stansiyası ətrafından, “Qurd qapısı” istiqamətindən, Salyan kazarmasından, “İnşaatçılar” prospektindən bu gecəki qanlı qırğın haqqında yeni məlumatlar alınmaqdadır. Xəstəxanalarda çoxlu yaralılar var... Lakin xalq və millət sarsılsa da, əyilməməlidir, özündə güc-qüvvət tapıb səbrli-təmkinli olmalı, ilk növbədə, çoxsaylı şəhidlərimizin onların uca adlarına, əməllərinə görə layiqli dəfni, uğrunda canlarından keçdikləri Vətən torpağına tapşırılması barəsində düşünməliyik. Bu bizim milli, dini, insani və vətəndaşlıq borcumuzdur... Bütün şəhidlərimizin bir məkanda, Dağüstü parkda, vaxtilə 1918-ci ilin mart qırğını qurbanlarının dəfn olunduğu ərazidə, vahid qardaşlıq qəbirstanlığında torpağa tapşırılmasına nail olmalıyıq...”

Fikrimizcə, 20 Yanvar faciəsinin ilk gərgin günlərində xalqın sonsuz qəzəb-nifrət dalğasının real qüvvələr nisbəti baxımından gələcək nəticələrini nəzərə almayan radikal meyillərdən çəkindirərək, dinc, davamlı mübarizə taktikasının seçimi, şübhəsiz, həm yaranmış ziddiyyətli qarşıdurma vəziyyəti, həm də perspektiv istiqlal mübarizəsi mərhələsinin tələblərinə daha uyğun olan optimal bir variant idi.

...Yaxşı xatırlayıram, 22 yanvar 1990-ci ildə son dərəcə gərgin və mürəkkəb vəziyyətdə Azərbaycan xalqı yeni, daha dəhşətli fəlakətlər törədilə biləcəyi təhlükəsindən çəkinməyərək, milyondan artıq adamın iştirak etdiyi kütləvi dəfn mərasimi təşkil edərək, şəhidlərin cənazələrini çiyinlərində Azadlıq meydanından Şəhidlər xiyabanına qədər gətirdi. Bakının qərənfil dənizini xatırladan mərkəzi prospekt və küçələri boyunca Dağüstü parka tərəf irəliləyən bu görünməmiş ümumxalq matəm mərasiminin əzəməti və intizami işğalçı ordunu, onun zabit və generallarını, yerli hakimiyyət orqanlarını, buradakı vəziyyət haqqında fasiləsiz surətdə birbaşa məlumatlandırılan Moskva rəhbərliyini, həqiqətən, qorxuya salmışdı. Xüsusilə, “İslam təməlçiliyində” ittiham olunan bir millətin həlak olmuş öz övladları ilə yanaşı, rusları, yəhudiləri, tatarları, ləzgiləri də böyük bir şərəf və ləyaqətlə bir məkanda – Şəhidlər xiyabanında dəfn etməsi, xalqımıza qarşı bu faciəni törədənləri, sözün əsl mənasında, heyrətləndirmişdi.

Qırx iki gün ərzində müxtəlif problemlərlə bağlı hərbiçilərlə məcburi görüşlərdən birində yaşlı rus zabitinin dediyi sözləri indi də unuda bilmirəm: “Əmrə tabe olmaq düşüncə və mühakimə qabiliyyətindən məhrum olmaq demək deyildir. Mən bu yerlərdə ilk dəfədir ki, oluram. İnanın ki, çoxumuz baş verənlər üçün xəcalət çəkirik...” Doğrudan da, əmrə tabe olan əsgərin, yaxud məmurun səriştəsiz rəhbərliyin cinayətkar tapşırıqlarını yerinə yetirməsinə haqq qazandırmaq çətin olsa da, bu fakta görə xalqlar arasında nifaq toxumları səpmək cəhdləri yolverilməzdir.

Millətimizin o tarixi sınaq günlərində Moskvada təcrid olunmuş vəziyyyətdə yaşayan Heydər Əliyevin cinayət törədən Kremlin siyasi rəhbərliyini, şəxsən M.Qorbaçovu ittiham etməsi əsl fədakarlıq nümunəsi idi.

Qeyd etmək zəruridir ki, Şəhidlər xiyabanında dəfn mərasimlərinin təşkili və buraya müxtəlif yerlərdən ziyarətə gəlmiş insanların qarşılanıb yola salınması, habelə səliqə-sahman, müəyyən abadlıq işlərinin aparılması ilə yanaşı, eyni zamanda, xalqın tələbi ilə hər il anım günlərinin keçirilməsi, bu ərazidə Şəhidlər Muzeyi

tikilməsi, əbədi məşəl yandırılması, buraya xüsusi status verilməsi, şəhidlərin şərəfinə möhtəşəm abidə ucaldılması, gələcəkdə açıq səma altında Vahid Xatirə Kompleksinin formalaşması, milli şüurun yüksəlişi prosesinin, "hakimiyyətin mənbəyi xalqdır" həqiqətinin təsdiqi idi.

Bu mənada, tarixi yaddaş və haqq-ədalət naminə bütün məsuliyyəti ilə hamıya xatırlatmağı özümə borc bilirəm ki, milli azadlıq mübarizəsi yolumuzun mühüm bir mərhələsi olmuş 20 Yanvar hadisələrinin əsl mənbəyi və müəllifi, iştirakçısı və aparıcı qüvvəsi, baş qəhrəmanı, şübhəsiz, Azərbaycan xalqı idi. Milli özündərkin və məsuliyyətin məntiqi nəticəsi kimi xalqın hökmü ilə müstəqil bir qurum kimi yaradılmış İctimai Dəfn Komissiyasının formalaşması, habelə fəaliyyəti konkret tarix şəraitin tələblərindən doğan bir zərurət, orada kimlərinsə təmsil olunması təsadüfi xarakter daşımışdır. Lakin hər təsadüfdə zərurətin müəyyən izləri özünü hökmən göstərməlidir.

Qanlı Yanvar hadisələrinin siyasi-ictimai, sosial-iqtisadi, mənəvi-əxlaqi, beynəlxalq dərsləri və aspektləri barəsində zaman keçdikcə, daha dərindən düşünüb, hərtərəfli təhlil etdikcə, millətimizin həmrəylik ideyalarına sadiqliyinin, azadlıq mücadiləsi yollarında dönməzliyinin, ən çətin anlarda müdrikliyinin, faciəli hadisələri istiqlal naminə nikbin ruhlu mübarizəyə çevirməyinin şahidi oluruq.

Bizim günlərimizdə xalqın və millətin qayğı və arzuları ilə yaşamaq, şəhidlərimizin uğrunda canlarından keçdikləri müstəqlliyimizi qorumaq, ölkəmizin pozulmuş ərazi bütövlüyünü bərpa etmək, vahid Azərbaycan ideyasını reallaşdırmaq, demokratik islahatlar xəttini ardıcıllıqla davam etdirmək, əhalinin həyat səviyyəsini durmadan yaxşılaşdırmaq zərurəti elə nəcib vəzifələrdir ki, yalnız bu istiqamətdəki yorulmaz səylərimizlə başımız üzərində dolaşan narahat şəhid ruhlarına onların layiq olduqları, həm də umduqları əbədi rahatlığı gətirə bilərik.

Allah cəmi şəhidlərə rəhmət eləsin! Amin!

**"Xalq qəzeti".-**2015.-22 yanvar.-N 15.-S.7.

**Azərbaycan xalqının azadlıq mübarizəsinin şanlı qəhrəmanlıq səhifəsi**

***Sovet imperiyası tərəfindən xalqımıza qarşı törədilən 20 Yanvar faciəsindən 25 il ötür***

20 yanvar 1990-cı il Azərbaycan xalqının məruz qaldığı ən dəhşətli faciələrdən birini əks etdirən tarixdir. Bu həm də xalqımızın azadlıq mübarizəsi tarixinə qızıl hərflərlə yazılmış şanlı qəhrəmanlıq səhifəsidir. SSRİ-nin çöküş ərəfəsində olduğu bir zamanda xalqımıza qarşı törədilmiş 20 Yanvar faciəsi Azərbaycanın azadlıq mübarizəsinə vurulmağa cəhd edilən zərbə idi. SSRİ rəhbərliyinin xalqımıza, onun azadlıq mübarizəsinə qarşı həyata keçirdiyi bu əməliyyat Sovet imperiyasının siyasətinin gerçək mahiyyətini əks etdirən növbəti arqument oldu. Bu fakt, eyni zamanda, SSRİ-nin Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi təcavüzkar siyasəti dəstəkləməsinə növbəti dəfə dəlalət edirdi.

**20 Yanvar faciəsi xalqımızın qan yaddaşıdır**

Bu qanlı aksiyalar nəticəsində Bakıda və respublikanın rayonlarında 147 nəfər qətlə yetirildi, 744 nəfər yaralandı, 841 nəfər isə həbs olundu. Bu, sözün əsl mənasında, öz hüquqları və azadlığı uğrunda ayağa qalxan xalqın inam və iradəsini sıradan çıxarmaq və Sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədi ilə həyata keçirilmiş qanlı cinayət idi. O da qeyd olunmalıdır ki, Sovet ordusunun vəhşilikləri təkcə həmin gecə ilə məhdudlaşmadı və bir müddət müxtəlif yerlərdə dəhşətli qətliamlar davam etdirildi. Təxribat planına uyğun olaraq əvvəlcədən televiziyanın enerji bloku partladıldığından radio və televiziya verilişlərinin yayımı dayandırılmışdı, eyni zamanda, qəzetlər də nəşr olunmurdu. Mərkəzi mətbuat və Rusiyanın televiziya kanalları isə hadisəni təhrif edən yalan məlumatlar yaymaqda idi. Görünməmiş zorakılıqla üzləşən, qanı küçələrə axıdılan insanlar informasiyasız və köməksiz durumda acınacaqlı vəziyyətdə qalmışdılar.

**Antimilli qüvvələrin xəyanətkar mövqeyi: 20 Yanvar faciəsinə laqeyd və qərəzli münasibət**

Bu faciənin törədilməsindən sonra müşahidə olunan ən dəhşətli faktlardan biri o zamankı Azərbaycan rəhbərliyinin xəyanətkar, antimilli mövqeyi oldu. O zaman ölkəyə "rəhbərlik" edən səriştəsiz qüvvələrin bu məsələyə biganə qalması, hər vəchlə hadisənin mahiyyətini gizlətməyə çalışmaları bir daha bunu sübut etdi ki, bəhs olunan qüvvələr Moskvanın kölgəsi altında, kölə psixologiyası ilə yaşayırlar və xalqın ali mənafeyini mərkəzin imperialist maraqlarına qurban verməkdən çəkinmirlər. Törədilmiş cinayət və onun nəticələri aşkar olduğu halda, respublika rəhbərliyi baş vermiş faciənin mahiyyətini hər vasitə ilə ört-basdır etməyə cəhd göstərirdi. Xalqın tələbi və bir qrup deputatın təşəbbüsü ilə Azərbaycan SSR Ali Sovetinin 1990-cı il yanvarın 22-də 20 Yanvar faciəsi ilə bağlı çağırılmış sessiyasına respublikanın əksər siyasi və dövlət rəhbərlərinin gəlməməsi isə onların xalqın taleyinə biganə qaldıqlarını, törədilmiş cinayətdə bu və ya digər dərəcədə iştirak etdiklərini bir daha təsdiq etdi. Nə qədər ikrah hissi oyatsa da, bu, bir həqiqət idi ki, o zamankı respublika rəhbərliyi, hətta şəhidlərin - 20 Yanvar qurbanlarının dəfn mərasiminə gəlməyi belə lüzum bilməmişdi.

Bu hadisələrdən sonra xalqımız daha bir acınacaqlı gerçəkliyin şahidi oldu. Xalqın mübarizəsini siyasi niyyətləri üçün alətə çevirən Azərbaycan Xalq Cəbhəsinin başında duranların iç üzü ortaya çıxmışdı. 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilməsi tələbi ilə dəfələrlə çıxış edən Azərbaycan Xalq Cəbhəsi hakimiyyətə gəldikdən sonra nədənsə bu mövzunu "unutmağa" başlamışdı. Onlar hakimiyyətdə olduğu dövrdə faciəyə siyasi-hüquqi qiymət vermək üçün öz imkanlarından istifadə etməmişdilər. Beləliklə, faciədən uzun müddət keçsə də, SSRİ tərəfindən xalqa qarşı törədilmiş ağır cinayətə siyasi-hüquqi qiymət verilməmişdi. Hələ Azərbaycanda Sovet hakimiyyəti mövcud olduğu dövrdə 20 Yanvar faciəsi ilə bağlı olan və geniş xalq kütlələri tərəfindən yığılıb Dövlət İstintaq Komissiyasına təhvil verilmiş konkret dəlil və sübutlar qəsdən ölkəmizdən çıxarılmışdı. O dövrdə Azərbaycanın prokurorluq və hüquq-mühafizə orqanları müvafiq istintaq tədbirləri həyata keçirməmiş, hətta əksinə, 20 Yanvar faciəsi ilə bağlı bir sıra məxfi sənədlər, o cümlədən, mühüm arxiv sənədləri bütövlükdə və ya qismən məhv edilmişdi.

1990-cı ilin yanvarından sonra hakimiyyətdə olan qüvvələrin bu məsələdə ilk vəzifəsi faciəni təhlil etmək, günahkarları üzə çıxarmaq və buna dövlət səviyyəsində siyasi-hüquqi qiymət vermək olsa da, respublika əhalisinin təkidli tələblərinə baxmayaraq, bununla bağlı 1993-cü ilə qədər faktiki olaraq heç bir tədbir görülmədi. 1990-cı il yanvar ayının 22-də çağırılan Azərbaycan Ali Sovetinin fövqəladə sessiyası öz işini yarımçıq qoydu və sonrakı sessiyalarda bu məsələnin müzakirəsini davam etdirmədi. Ali Sovetin yanvar

hadisələrini tədqiq etməli olan komissiyasının da işi başa çatdırılmamış qaldı. Çünki Azərbaycanı bu faciəyə gətirib çıxarmış səriştəsiz rəhbərlər vətənpərvərlik hisslərindən məhrum olduqlarından, habelə öz şəxsi ambisiyalarının əsirinə çevrildiklərindən xalqın gözünə pərdə asmaq niyyətinə düşmüşdülər. 1993-cü ilə qədər Azərbaycana rəhbərlik edən şəxslərin heç biri bu faciə ilə bağlı əsl həqiqəti aşkar etməyə özündə cəsarət tapmadı, əksinə, müxtəlif səthi qərarlar qəbul edə-edə faciənin müsibətlərini xalqımıza unutdurmağa çalışdı. Xalqın taleyi üçün məsuliyyət daşımalı olan kəslərin bu cür biganəliyinə xəyanətdən başqa bir ad vermək olmaz. Azadlıq və mübarizə yolu 20 Yanvar hadisələrindən keçmiş xalqımızın bu faciəsinə ilk üç il müddətində siyasi-hüquqi qiymət verilməməsi, əslində, Azərbaycanın o dövrdə hakimiyyətdə olmuş iqtidarlarının öz xalqına xəyanəti kimi səciyyələndirilməlidir.

**20 Yanvar faciəsinə ilk siyasi-hüquqi qiymət Ümummilli lider Heydər Əliyev tərəfindən verildi**

Amma bütün bunlara baxmayaraq, Ümummilli lider Heydər Əliyev bu məsələyə xüsusi həssaslıqla yanaşaraq hadisəyə siyasi-hüquqi qiymət verilməsi, cinayətkarların aşkarlanması istiqamətində yorulmaz fəaliyyət göstərdi. Qanlı faciənin ertəsi günü həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələn xalqımızın Ümummilli lideri Heydər Əliyev qanlı faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında qəzəblə qınadı, ifşaedici və cəsarətli bəyanat verdi.

Daha sonra Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsinə ilk siyasi qiymət verdi. Naxçıvan MR Ali Məclisi 21 noyabr 1990-cı il tarixli qərar qəbul etdi: "Yanvar faciələrinin səbəbkarlarının - istər İttifaq, istərsə də respublika rəhbər partiya, Sovet, hüquq-mühafizə orqanı işçilərinin, hərbçilərin bu günədək aşkar edilib qanunla məsuliyyətə cəlb olunmaması xalqda dərin hiddət və etiraz doğurmuşdur. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bütün bunları işğalçı siyasət və dəqiq düşünülmüş hərbi təcavüz kimi qiymətləndirərək və insan hüquqları bəyannaməsinin kobud şəkildə pozulması kimi nəzərdə tutaraq qərara alır ki, 1990-cı ilin yanvar ayında Bakı şəhərində törədilmiş qanlı hadisələr Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirilsin".

Azərbaycan SSR Ali Sovetinin 7 mart 1991-ci il tarixli sessiyasındakı çıxışı zamanı Ümummilli lider Heydər Əliyev bəyan etdi ki, 1990-cı il yanvarın 20-də İttifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edilmişdir: "Heç bir əsas olmadan, xəbər vermədən, dövlət qanunlarını kobudcasına pozaraq Bakı şəhərinə müasir silahlı Sovet ordusunun qoşun hissələri yeridilmiş, onlar vəhşilik, qəddarlıq etmiş, nəticədə nahaq qan tökülmüş, yüzlərlə adam həlak olmuş, xəsarət almış, itkin düşmüşdür. Təəssüf ki, bu təcavüz indiyə qədər davam edir. Bir ildən artıqdır ki, Azərbaycanın paytaxtı fövqəladə vəziyyət şəraitində yaşayır. Bizim sessiyamız da bu şəraitdə keçirilir. Bir ildən artıqdır ki, Azərbaycan xalqı şəhidlərə matəm saxlayır. Respublikanın şəhərlərində, qəsəbələrində, kəndlərində şəhidlərin xatirəsinə abidələr ucaldılır. Fəqət, qatillər indiyə qədər aşkar olunmayıb. Buna heç vəchlə bəraət qazandırmaq olmaz. Bu məsələ müzakirə olunmalıdır. 20 Yanvar faciəsinə Ali Sovetin sessiyası siyasi qiymət verməlidir, onun günahkarlarını müəyyən etməlidir".

Bunun ardınca Ulu öndər Heydər Əliyev 1991-ci il iyunun 19-da SSRİ Nazirlər Kabinetinə hadisəylə bağlı məktub göndərdi: "Yanvar hadisələrində yüzlərlə adam öldürüldü və şikəst edildi. Artıq il yarım keçib. Nəinki bu dəhşətli cinayətlərin hamıya çoxdan məlum olan günahkarları üzə çıxarılmayıb, əksinə, bunları ört-basdır etmək üçün əllərindən gələni edirlər. Ümid edirlər ki, zaman keçdikcə bu faciə unudulacaq. Ancaq tarix dəfələrlə sübut etmişdir ki, doğma xalqa qarşı yönəldilmiş qanlı cinayətləri on illər keçsə də, unutmaq və bağışlamaq mümkün deyil".

Bütün bunlarla yanaşı, Ümummilli lider Heydər Əliyev 1994-cü il yanvar ayının 5-də 20 Yanvar faciəsinin dördüncü ildönümünün keçirilməsi ilə bağlı Fərman imzaladı. Fərmanda Milli Məclisə tövsiyə olunurdu ki, faciəyə tam siyasi-hüquqi qiymət verilsin. Bunun ardınca isə 1994-cü il yanvarın 12-də dövlət komissiyasının geniş iclasında Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının 1992-ci il 19 yanvar tarixli qərarını xatırladaraq bu qərarda 20 Yanvar hadisələrinin əsl səbəblərinin açıqlanmadığını, həqiqi günahkarların aşkar edilmədiyini, iki il ərzində həmin qərarın özünü doğrultmadığını diqqətə çatdırdı. Ulu öndər Heydər Əliyev ötən dörd ildə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməməsini və o zamankı Milli Şura tərəfindən qəbul edilmiş qərarın səthi xarakterli olmasını diqqətə çatdırdı: "Bu qərarı oxuyanda, doğrusu, çox həyəcanlandım. Düşündüm ki, Milli Şura nə üçün öz millətinin, öz xalqının aqibətinə, taleyinə bu qədər biganə qalıb? Qərarı oxuyandan sonra bir daha qəti fikrə gəldim ki, bu faciəyə, bu hadisəyə niyə indiyə qədər siyasi qiymət verilməyib. Mənim fikrim belədir ki, bu qərarın qəbul edilməsi Azərbaycan xalqına, bəlkə də, 20 Yanvar 1990-cı ildə olan faciə kimi böyük xəyanətdir. İki il keçəndən sonra deputat-

istintaq komissiyasının ortaya bir şey çıxarmaması, boş-boş sözlərlə camaatı aldatması, qərarda bu komissiyanın işinin qənaətbəxş hesab edilməsi, yenə də deyirəm, xəyanətdir".

Ümummilli lider Heydər Əliyevin bu istiqamətdə gərgin əməyinin nəticəsi kimi, 1994-cü il mart ayının 29-da "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" adlı xüsusi qərar qəbul edildi. Bununla da Azərbaycan xalqının məruz qaldığı dəhşətli faciəyə - 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilmiş oldu.

**20 Yanvar faciəsi unudulmur**

Azərbaycan xalqına qarşı tarixən törədilən cinayətlərin daim yaddaşlarda qalması, xüsusən də son onilliklərdə yaşanan faciələrdən zərər çəkənlərə - şəhid ailələri, məcburi köçkün və qaçqın ailələrinə qayğı göstərilməsi Prezident İlham Əliyevin də diqqət mərkəzindədir. Bu baxımdan, 20 Yanvar faciəsi istisna deyil.

Xalqımız hər il 20 Yanvar faciəsi qurbanlarını yad edir, hadisənin üzərindən artıq 25 il keçməsinə baxmayaraq, SSRİ ordusunun azərbaycanlılara qarşı törətdiyi bu qırğınla bağlı respublikada və ölkədən kənarda geniş tədbirlər, müxtəlif aksiyalar keçirilir. Bu tədbirlərin keçirilməsində dövlətin dəstəyi və təşkilatçılığı ilə görülən işlər danılmazdır. Təsadüfi deyil ki, 20 Yanvar hadisəsinin 25-ci ildönümünün keçirilməsi ilə bağlı qəbul olunan tədbirlər planında da görüləcək tədbirlər geniş əksini tapıb.

Ümumiyyətlə, bu gün Azərbaycanda 20 Yanvar faciəsinin qurbanları da daxil olmaqla bütün şəhid ailələrinə dövlət tərəfindən xüsusi yardım və güzəştlər edilir. Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə göstərilən dövlət qayğısı ölkədə həyata keçirilən sosial siyasətin mühüm tərkib hissəsini təşkil edir. Sürətlə inkişaf edən respublikamızın iqtisadi gücünün, maliyyə imkanlarının artması fonunda dövlətimiz sosial müdafiəyə ehtiyacı olan ailələrin maddi və mənzil-məişət şəraitinin yaxşılaşması üçün daha böyük imkanlar yaradıb. Dövlətin bu sahəyə ayırdığı diqqət və qayğının göstəricisi olaraq son illərdə bilavasitə Prezident İlham Əliyevin imzaladığı sərəncamlar əsasında irimiqyaslı layihələr həyata keçirilib.

**"Yeni Azərbaycan".-**2015.-21 yanvar.-№ 11.-S.3.

## 20 YANVAR FACİƏSİ –Sovet imperiyasının sonunun başlanğıcı

**Elman NƏSİROV,**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının Siyasi
Araşdırmalar İnstitutunun direktoru,
YAP beynəlxalq əlaqələr komissiyasının katibi,
siyasi elmlər doktoru, professor

**...O Qanlı Yanvar günü xalqımız öz əziz vətəndaşlarını itirsə də, öz namusunu, şərəfini qoruya bilmişdir. Xalqımız sübut etmişdir ki, onun iradəsini qırmaq olmaz. Azadlıq, müstəqillik uğrunda mübarizə davam edib və indi artıq Azərbaycan Respublikası müstəqil dövlətdir, öz azadlığına, suverenliyinə nail olmuşdur.**

**Heydər ƏLİYEV**
**Ümummilli lider**

**Azərbaycan xalqının minilliklərlə ölçülən zəngin və şərəfli tarixində həm qəhrəmanlıq, həm də faciə səhifələri bir-birini əvəz etmiş, nəsildən-nəslə qan yaddaşı və gen vasitəsilə ötürülmüşdür. Tariximizin 20 Yanvar səhifəsinin unikallığı isə ondadır ki, o eyni vaxtda həm faciə, həm də qəhrəmanlıq nümunəsidir. Sözügedən reallıqdan çıxış edərək, qədirbilən oxuculara təqdim etdiyimiz bu yazıda məqsədimiz hər iki anlamı özündə birləşdirən 20 Yanvar hadisələrinə 25 illik zaman kəsiyindən nəzər yetirib, bir sıra suallara cavab axtarmaqdır. Onları aşağıdakı ardıcılıqla təqdim edib, təhlilimizə başlayaq:**

**Birincisi, 20 Yanvar faciəsini şərtləndirən amillər hansılardır və onun qarşısını almaq nə dərəcədə mümkün idi?**

Fikrimizcə, 20 Yanvar faciəsinə aparan yol, əsasən, 2 amillə şərtlənmişdir: əvvəla, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və SSRİ rəhbərliyinin ermənipərəst siyasəti:

Digər tərəfdən, Azərbaycan rəhbərliyinin qətiyyətsiz və antimilli siyasəti, Azərbaycan Xalq Cəbhəsinin timsalında müxalifətin təxribatçı addımları.

Hadisələrin təhlili göstərir ki, Azərbayacan rəhbərliyi və müxalifəti həmin tarixi şəraitdə ümummilli maraqları şəxsi mənafeyin fövqünə qoymaq bacarığı nümayiş etdirə bilsəydi, antimilli və təxribatçı addımlar atmasaydı, Moskvanın Azərbaycan xalqına qarşı qanlı ssenariləri həyata keçirmək imkanı minimuma enə bilərdi. Zənnimizcə, məhz Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 15 yanvar 1990-cı il tarixli qərarında "Müdafiə Nazirliyi, hüquq-mühafizə və SSRİ-nin digər icra orqanlarından xahiş edirik ki, ölkə konstitusiyasının 81-ci maddəsinə uyğun olaraq, Azərbaycan SSR-ə müvafiq zəruri yardımı həyata keçirsin" – şəklində ifadə olunmuş mövqe Mixail Qorbaçov başda olmaqla SSRİ rəhbərliyini həm arxayınlaşdırmış, həm də Azərbaycan əleyhinə addımlarının radikallıq səviyyəsini daha da gücləndirmişdir. Xatırladaq ki, 1977-ci il 7 oktyabr tarixində qəbul edilmiş SSRİ Konstitusiyasının 81-ci maddəsinə görə, müttəfiq respublikaların suveren hüquqları SSRİ tərəfindən qorunmalıdır.

Bundan savayı, 1989-cu ilin sonlarında bəzi rayonlarda Xalq Cəbhəsinin hakimiyyəti ələ kecirməsi, Naxçıvanın İranla sərhədindəki tikanlı məftillərin sökülüb atılması, xalq hərəkatının radikal qanadının Milli Müdafiə Şurası təşkil edərək nəzarəti öz əlinə alması, 1990-cı il yanvarın 13-15-də Dövlət Təhlükəsizlik Komitəsinin Sumqayıt ssenarisi əsasında "erməni talanları" törətməsi Moskvanın əlinə Azərbaycan xalqını cəzalandırmaq fursəti vermişdi.

**İkincisi, Bakıya yeridilən qoşun hissələrinin hədsiz qəddarlığı nə ilə bağlı idi?**

İstintaq müəyyən etmişdir ki, 1990-cı il yanvarın ortalarında SSRİ Müdafiə və Daxili İşlər Nazirliklərinin, habelə başqa xüsusi təyinatlı hərbi birləşmələrin 66 min nəfərdən çox əsgər və zabiti Bakı şəhərinə gətirilərək, Qala və "Nasoslu" aerodromlarında, Respublika stadionunda, Salyan kazarmasında yerləşdirilmişdi. Azərbaycana göndərilən ordu hissələrinin tərkibinə Stavropoldan, Rostovdan, Krasnodardan səfərbər edilmiş erməni zabit və əsgərləri, hərbi məktəblərdə təhsil alan erməni kursantları da cəlb edilmişdi. Respublikaya

gətirilmiş hərbi qüvvələrin, əməliyyatlara rəhbərlik etmək üçün Bakıya gələn 300-dən artıq yüksək rütbəli zabit və generalların ərzaq təminatı, nəqliyyatla, yanacaqla təmin edilməsi respublika büdcəsindən ödənilirdi.

Həmin hərbi qüvvələr üzərində xüsusi psixoloji sınaqların keçirildiyi haqqında təkzibedilməz faktlar vardır. Onlara belə bir dezinformasiya təlqin olunurdu:

– Yerli əhali-azərbaycanlılar rusları qırmağa hazırlaşırlar və siz müqəddəs bir vəzifəni – rusları və bütünlükdə şəhərin xristian əhalisini labüd fəlakətdən xilas etməlisiniz.

– Salyan kazarması ətrafında və evlərin damlarında snayperlər yerləşdirilmişdir və hədəflərində yalnız siz olacaqsınız. Ona görə də özünümüdafiə instinktindən çıxış edərək patronlarınıza heyfiniz gəlməsin.

– Azərbaycan Xalq Cəbhəsinin hərbi dəstələri şəhərin strateji nöqtələrində yerləşdirilmişdir və onların amansız müqavimət göstərəcəklərini nəzərə alıb, qətiyyət və adekvat qəddarlıq nümayiş etdirin.

– Müqavimət göstərən tərəfin milli, sovet ordusu və ya daxili qoşunların geyimində də olması mümkündür və bu reallığı nəzərə alıb, onları davamlı atəş hədəfinə çevirməyi bacarmalısınız.

Bir sözlə, SSRİ rəhbərliyinin "xeyir-duası" ilə 66 minlik qoşun hissələrini, xüsusilə, erməni mənşəli əsgər və zabitləri, eyni zamanda həbsxanadan məlum məqsəd naminə azadlığa buraxılmış məhbusları Bakıda hər cür vəhşiliklər törətməyə psixoloji baxımdan tam hazırlamışdılar.

**Üçüncüsü, SSRİ rəhbərliyinin törətdiyi 20 Yanvar faciəsində dünyanın digər fövqəldövləti olan ABŞ-ın üzərinə hansı məsuliyyət düşür?**

ABŞ-da 1994-2001-ci illərdə Dövlət katibinin müavini işləmiş Stroub Telbotun həmmüəllifi olduğu "Ən yüksək səviyyədə" adlı kitabda qeyd olunur ki, 1989-cu il dekabrın 24-də ABŞ-ın Dövlət katibi Ceyms Beyker ölkəsinin Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri Cek Motlak vasitəsilə SSRİ-nin Xarici İşlər naziri Eduard Şevardnadzeyə məlumat çatdırır ki, əgər sovet qoşunları Rumıniyaya ölkədaxili sabitliyin bərpası naminə müdaxilə edərsə, ABŞ bu insidenti etirazla qarşılamayacaqdır. Eduard Şevardnadze cavabında bildirir ki, ABŞ SSRİ-ni hərbi avantüraya cəlb etmək istəyir və bununla da özünün Panamaya olan müdaxiləsinə haqq qazandırmağa çalışır. SSRİ-nin Xarici İşlər naziri qeyd edir ki, ölkəsi prinsip etibarilə yeni xarici siyasət kursunu həyata keçirir. Bu kursa görə, SSRİ daha sosialist ölkələrinin daxili işlərinə qarışmayacaqdır. Bu mövqedən göründüyü kimi, söhbət yalnız sosialist ölkələrindən gedirdi, sovet respublikalarından yox. Deməli, Mixail Qorbaçov başda olmaqla, SSRİ rəhbərliyi ABŞ-ın Rumıniya ilə bağlı məlum mövqeyindən bir sıra nəticələr çıxardı. İlk nəticə isə ondan ibarət oldu ki, sovet qoşunlarını Azərbaycan xalqının müstəqillik mücadiləsinə qarşı Bakıya yeridəcəyi təqdirdə ABŞ-ın etirazı olmayacaqdır. Moskva həm də onun fərqində idi ki, ABŞ-ın güclü erməni lobbisi və diasporu da Vaşınqtonun Bakı qırğınına qarşı laqeyd mövqeyinin formalaşmasında öz rolunu oynayacaqdır. Taktiki baxımdan belə qiymətləndirmədə Moskva yanılmamışdı. ABŞ 20 Yanvar faciəsini olduqca soyuqqanlı qarşıladı. "Sem dayı" Rumıniya hadisələri fonunda davranışı ilə SSRİ-nin Bakı avantürasına dolayısı ilə "yaşıl işıq" yandırdığının fərqində idi. Həm də fərqində idi ki, belə avantüralar əzəli rəqibi və düşməni olan SSRİ-nin məhvinin tarixi "X" anını son dərəcə yaxınlaşdırmağa xidmət göstərir. ABŞ yanılmamışdı. 20 Yanvar faciəsi SSRİ-nin sonunun başlanğıcını şərtləndirən proseslərin katalizatoru oldu.

**Dördüncüsü, 20 Yanvar bəşəri cinayətinə ölkədaxili və beynəlxalq siyasi-hüquqi qiymətin verilməsi vəziyyəti və onun perspektivlərini necə dəyərləndirmək olar?**

20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verilməsi məsələsi ümummilli lider Heydər Əliyevin sayəsində həllini tapmışdır. Yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək xalqla birgə olduğunu bildirdi, 20 Yanvar faciəsinə siyasi qiymət verdi, onun hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu, mərkəzin və o zamankı respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv olduğunu göstərdi. O, baş vermiş faciə ilə əlaqədar xalqımıza başsağlığı verdi və mətbuat konfransı keçirib, başda Qorbaçov olmaqla Bakıdakı terror aktına rəvac verən hakimiyyət nümayəndələrini və hərbçiləri cinayətkar, onların dinc əhaliyə tutduqları divanı isə bütöv bir xalqa qarşı edilən tarixi cinayət adlandırdı. Bu tarixi çıxışın mətni dünyaya, respublikaya geniş yayıldı. Xalqın qəlbində ümid çırağı yandı.

1990-cı ilin iyulunda Moskvadan Vətənə qayıdan Heydər Əliyevin təşəbbüsü ilə həmin il noyabr ayının 21-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 20 Yanvar faciəsinə ilk dəfə siyasi-hüquqi qiymət verən

sənəd qəbul edildi. Naxçıvan Ali Məclisində qəbul edilmiş və 20 Yanvar faciəsinə ilk siyasi-hüquqi qiymət verən, eyni zamanda Azərbaycan xalqının ümumi rəyini özündə təcəssüm etdirən bu qərar Heydər Əliyev qətiyyətinin təzahürü kimi tarixə düşdü. Sənəddə respublika səviyyəsində 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməsi respublika rəhbərliyindən tələb edilirdi. Ölkəmiz müstəqillik qazandıqdan sonra da 1993-cü ilə qədər iqtidarda olanların heç biri faciə ilə bağlı əsl həqiqəti aşkar etməyə özündə cəsarət tapmadı.

Yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra 1990-cı ilin 20 Yanvar hadisələrinin hüquqi müstəvidə əsl mahiyyəti açıqlandı. 1994-cü il yanvarın 12-də keçirdiyi müşavirədə ümummilli lider Heydər Əliyev bu barədə deyirdi: “Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişdir. Görünür ki, ötən yaxın illərdəki Sovetlər Birliyi, respublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsl mahiyyətini xalqa bəyan etməmişlər”.

Ulu öndərin 20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi ilə bağlı 1994-cü il yanvarın 5-də imzaladığı fərmanda həm də Milli Məclisə hadisəyə tam siyasi-hüquqi qiymət verməsi tövsiyə olunurdu. Bu qiymət xalqımızın müstəqillik yolunda çarpışmasının dolğun mənzərəsini əks etdirməli idi. 1994-cü il mart ayının 29-da respublika parlamenti “1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında” qərar qəbul etdi.

Prezident İlham Əliyev 1990-cı ilin 20 Yanvarında şəhid olmuş oğul və qızlarımızın xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi üçün mühüm sənədlər imzalamışdır. Dövlət başçısının 19 yanvar 2006-cı il tarixli “20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” fərmanı da bu məqsədə xidmət edir.

Bu gün Bakının ən yüksək nöqtələrindən birində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş bir ünvan vardır. Bu, 20 Yanvar faciəsi qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər xiyabanıdır. Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Şəhidlər xiyabanında əsaslı təmir və yenidənqurma işləri aparılmış, 20 Yanvar şəhidlərinin xatirəsinə kompleks ucaldılmışdır.

Azərbaycanespublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin imzaladığı sərəncamlara əsasən, hər il ölkəmizdə və xaricdə 20 Yanvar faciəsinin ildönümləri ilə bağlı silsilə anım tədbirləri keçirilir. Bu il də Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin sərəncamı ilə “20 Yanvar faciəsinin iyirmi beşinci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı” təsdiq edilmişdir.

Sənəddə respublikanın şəhər və rayonlarında, o cümlədən idarə və təşkilatlarda 20 Yanvar hadisələri ilə bağlı toplantı, konfrans və mühazirələrin təşkili, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşaların göstərilməsi, bədii və sənədli filmlərin nümayiş etdirilməsi, bu tədbirlərin kütləvi informasiya vasitələrində geniş işıqlandırılması, dünya ictimaiyyətinin diqqətini faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri və diaspor qurumları tərəfindən müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar faciəsi barədə materialların verilməsi nəzərdə tutulub.

İnanırıq ki, Azərbaycan xalqının qanına əli batmış cinayətkarlar gec-tez öz layiqli cəzalarını alacaqlar. Əminik ki, Azərbaycanın bütün istiqamətlər üzrə güclənməsi, beynəlxalq mövqeyinin möhkəmlənməsi, dünyada etibarlı tərəfdaşa çevrilməsi, ən başlıcası isə ölkəmizdə siyasi sabitliyin olması və xalqın öz Prezidenti ətrafında monolit birlik nümayiş etdirməsi həm Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllini, həm də bu konfliktin birbaşa nəticəsi olan 20 Yanvar faciəsinə beynəlxalq siyasi-hüquqi qiymətin verilməsini təmin edəcəkdir.

**“Xalq qəzeti”.-**2015.-20 yanvar.-N 14.-S.2.

**Qanlı Yanvar faciəsi və "Asala" erməni terror təşkilatı**
**(Qanlı cinayətlərin görünməyən tərəfləri)**

**Rövşən VƏLİZADƏ,**
AMEA İnsan Hüquqları İnstitutunun
siyasi-iqtisadi münaqişələr şöbəsinin müdiri,
politoloq

**Xalqımızın tarixinə qanlı Yanvar faciəsi kimi daxil olmuş həmin gün – 1990-cı il yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermişdir.**

**Heydər ƏLİYEV**
**Ümummilli lider**

Araşdırma materiallarına görə, Vyanada (Avstriya) fəaliyyət göstərən "Ermənilər öyrənən strateji mərkəz"in direktor müavini, əslən Sumqayıt ermənisi olan E.D.Manukyan 2012-ci il oktyabrın 3-də Dünya Erməni Diasporunun rəhbərlərinə ünvanladığı çağırışda bildirirdi ki, nəyin bahasına olursa olsun, dünya arxivlərini, ən məxvi qovluqları erməniləri "cinayətkar" kimi tanıdan materiallardan, fakt və sənədlərdən təmizləmək vaxtıdır. Yeni yüzil bunu bizdən tələb edir. Yoxsa, gələcək nəsillər bu "uydurmalara" inana bilər.

Məlumata görə, artıq dünya kitabxana və arxivlərinin rəhbərləri bunu etiraf edir, çıxış yolu axtarırlar. Məsələn, ötən yüzilliyin son illərinədək Sovet İttifaqının xarici kəşfiyyatına rəhbərlik edən general-leytenant Vadim Alekseyeviç Kirpiçenko şəxsi arxivində qoruyub saxladığı bir neçə qovluq yoxa çıxıb. Kirpiçenkonun Dövlət Təhlükəsizlik Komitəsinin sədri, ordu generalı Vladimir Aleksandroviç Kryuçkova ünvanladığı məktubda qeyd edirdi:

"Mənim yanıma əslən Livandan olan erməni mənşəli Emel Orduyan adlı birisi gəldi. Biz onunla Heratda tanış olmuşduq. (Xatırladım ki, general Kirpiçenko həmin vaxt Moskvanın Kabildəki daimi nümayəndəliyinin rəhbəri idi). O, verdiyi məlumatda iddia edirdi ki, özlərini Erməni Milli Azadlıq Ordusu hesab edən ASALA erməni terrorçularının silahlı birləşmələri Azərbaycana hücuma hazırlaşırlar. Bu terror dəstəsinin böyük bir qrupu artıq Livanın Bəqa vadisində özlərinin döyüş taktikalarını sınaqdan çıxarırlar..."

On bir gündən sonra kəşfiyyat generalı ikinci məktubu göndərir və qeyd edirdi: "Birinci məktuba əlavə olaraq bildirirəm ki, "Asala" erməni ordusunun (terrorçu ifadəsi çıxarılıb- R.V.) Azərbaycana müxtəlif istiqamətlərdə hücumlarına, hansı səbəbdənsə, Moskva dəstək verib. Kreml "Asala"nın Azərbaycana dərs vermək üçün hərbi-sursatla təminatını boynuna götürüb." Rus generalı bunu da iddia edirdi ki, erməni diasporunun yaratdığı "Asala" silahlı birləşməsinin tərkibində Erməni Milli Asambleyasının üzvləri də var. Bu dəstəyə ABŞ-da həbsdə olan Murad Topalyanın başçılıq etməsi də maraq doğurmaya bilməz.

Məlumata görə, "Asala"nın yedəyində Bakıya girən bu silahlı dəstənin Baş Qərargahı Ohayo ştatındakı Bedfor şəhərində idi. Digər tərəfdən, o da məlum idi ki, silahlı terror dəstəsi ilkin hərbi hazırlıqlarını Massaçusets ştatındakı (ABŞ)"Hayastan" hərbi-təlim düşərgəsində keçib.

Erməni Milli Asambleyasının silahlıları ABŞ Dövlət Departamentinin rəsmi sənədlərində terrorçu dəstə kimi qeyd olunur. Murad Topalyana gəlincə, o hansı səbəblərə görəsə, Bakıda vuruşmaq üçün (?) Bedford həbsxanasından azad olunaraq, "Asala"nın sıralarına göndərilir. İndiyə qədər bu sualın cavabını heç kəs verə bilmir. Azərbaycana qarşı hazırlanmış qətliam planında hər şey diqqətlə ölçülüb-biçilmişdi. Bu planda hansı təbəqədən nə qədər adam öləcək, o da məlum idi. "Erməni Milli Asambleyası" Bakıya hücum zamanı respublikanın Daxili İşlər Nazirliyinə, Azərbaycan KP MK-ya basqın edib, binaları dağıtmalı, tank mərmiləri ilə oraları yerlə-yeksan etməli idi.

Rus kəşfiyyatının ən bacarıqlı simalarından sayılan V.A.Kirpiçenkonun məktubları baş verə biləcək çox ciddi hadisələrdən xəbər verirdi. Onun "ərəb dostu" Emel Orduyanın məlumatları başqa istiqamətlərdən də kəşfiyyat məlumatlarında öz təsdiqini tapırdı. General Kirpiçenkonun məktubları buna baxmayaraq, hələ də cavabsız qalmışdı. Sadəcə, məktubların qəbulu ilə bağlı cavablar verilirdi.

Həmin vaxt ABŞ-ın yeni seçilən prezidenti (1989-1990) Corc Herbert Uolker Buş idi. Prezidentlikdən əvvəl o, ABŞ-ın MKİ-nin direktoru olmuşdu. Buş Moskvadakı rezidenturasında çalışan polkovnik Hell Harvini Bakıya tələsdirirdi. Görünür, Ağ ev də "Asala"nın terror planları haqqında geniş və hərtərəfli məlumatlara malik idi.

Üçüncü məktubda isə general V.A.Kirpiçenko artıq "Asala"nın Azərbaycanda törədə biləcəyi qanlı cinayətin vaxt və zamanından danışırdı: "Məktublarıma əlavə olaraq bildirirəm ki, "Asala" erməni ordusu Azərbaycan sərhədlərini 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə, saat 00:15-də pozacaq. Onlar artıq kiçik dəstələr şəklində Livandan, Suriyadan, İraqdan, Bəhreyndən, Sudandan, CAR-dan, Fransadan, İngiltərədən, Bolqarıstandan... Moskvaya, Leninqrada, Rostova, Stavropola uçurlar... Onlar Sovet qoşunlarının kontingentində hissələrə bölünüblər. Verilən materialları araşdırmanızı xahiş edirəm".

Digər bir məlumatda isə bildirilir ki, "Asala" erməni silahlı terror birləşmələri özünün yaranma tarixinin yubileyini Bakıda, görünməmiş qanlı cinayətlərilə qeyd etməli idi. Bu, 1989-cu il iyulun 15-də Beyrutda keçirilən 19 ölkənin erməni diaspor təşkilatlarının beynəlxalq konfransında çıxarılan yekun qərarın hökmü idi. Qərarın icrası isə uzun müddət Moskvanın təhlükəsizlik orqanlarında çalışan, Azərbaycana qarşı həmişə qərəzli mövqedə dayanan, ehtiyata buraxılmış kəşfiyyat generalı M.S.Ovanesyana tapşırılmışdı. Azərbaycanda isə siyasi qüvvələr hakimiyyət hərisliyi ilə didişirdi.

Araşdırma materialları arasında təsadüf etdiyimiz məlumatlardan bu da aydın olur ki, dünyada bir sıra cinayətlərin iştirakçısı olan "Asala"nın 15 illiyini 20 yanvar 1990-cı ildə Azərbaycanın, Türkiyənin və İranın bir sıra ərazilərində məskunlaşan ermənilər də qeyd ediblər. Azərbaycan ərazisində tarixin ən amansız və qanlı səhifələrindən birini yazan, silahsız insanlara basqın edib, əzən, məhv edən "Asala"ya o vaxt hələ də Bakıda yaşamaqda olan ermənilər həmin gecə "xilaskar ordu" kimi baxmışdılar.

Məlumata görə, həmin gecə ermənilər üçün Bakıdakı erməni kilsəsi ən güclü istehkamlardan birinə çevrilmişdi. Maraqlısı bu idi ki, kilsədəki telefon "qovşağı"ndan sərbəst şəkildə Eçmiədzinlə, Yerevanla, Moskva ilə, Parislə, Tel-Əvivlə, Vaşinqtonla, Londonla, Tehranla, Ankara ilə... nəhayət... Xankəndindəki 366-cı alayla danışmaq mümkün olub. Sadə, çəhrayı rəngli telefonun dəstəyini qaldırmaq kifayət idi.

Həmin vaxt ABŞ Dövlət Departamenti tərəfindən maliyyələşdirilən "Azadlıq" radiosu qan içində boğulan, tənha və kimsəsiz qalan Azərbaycanı "ipə-sapa yatmayan" şotlandlara bənzədirdi.

"Asala" Bakıda törətdiyi qırğınlardan iki gün sonra, 1990-cı il yanvarın 22-də "Hayastan" jurnalının (16 dildə) nəşrinə başladı. ABŞ-dakı erməni diasporu Erməni Xalq Hərəkatı adlı yeni bir təşkilatın nizamnaməsini yaydı. Nizamnaməni təhlil edən erməni terror birləşmələrinin Bakı bürosunun lideri, uzun müddət sərhəd qoşunlarında çalışan kəşfiyyat mayoru M.Q.Gevorkov bildirirdi ki, biz "Asala"nın il- dönümünü Bakıda təntənə ilə qeyd etdik.

"Asala"nın Bakıya silahlı hücumundan sonra Fransada formalaşan Erməni Milli Hərəkatı, Böyük Britaniyada qərar tutan Erməni Təşkilatı, ABŞ-da "Böyük və mütəşəkkil erməni qruplaşması" "Asala" erməni silahlı ordusunu dünya ictimaiyyətinə "Demokratik (Xalq) Cəbhə" kimi təqdim etməyə başladılar.

Kəşfiyyat polkovniki Q.B.Smirnov baş verən qanlı Bakı hadisəlırini araşdırarkən göstərirdi ki, ermənilər hücumdan öncə Azərbaycanla bağlı çox güclü və hərtərəfli təhlil olunmuş, dəqiq və təkzib olunmayan strateji kəşfiyyat məlumatlarına malik olublar. Polkovnik haqlı olaraq belə bir sualı ortaya qoyur: Kim idi bütün bunların arxasında dayanan?

Polkovnik belə bir qənaətə də gəlirdi ki, Bakı qırğınlarını törədən "Asala"nın tərkibində ABŞ-ın Florida Ştatında geniş hərbi düşərgələrə malik, bilavasitə erməni narkobaronlarının yaratdıqları "Bubi" terror təşkilatının üzvləri də var idi. O, daha sonra yazırdı: "Mən həmişə baş verən terror hadisələrini araşdırmışam. Əgər təcrübəli kəşfiyyat generalı, ölkənin ictimai-siyasi durumuna ciddi bələd olan Heydər Əliyev öz möhtəşəm və dünyanı sarsıdan çıxışında cəmi yarım saat geciksəydi... onun və onun ətrafında olanların həyatını xilas etmək mümkün olmayacaqdı."

1990-cı il yanvarın 20-də... Heydər Əliyevin çekist dostları general V.A.Şebarşinin və V.A.Kirpiçenkonun təkidilə yaradılmış "Anti-terror" qrupunun üzvləri Azərbaycanın Moskvadakı daimi nümayəndəliyindən 12 kq partlayıcı maddə götürərək, ətraf binalarda qərar tutan 16 nəfər erməni terrorçusunu həbs etmişdilər. Məhz bundan sonra Heydər Əliyevin sərbəst çıxışına təminat verilmişdi. Məlumata görə, həmin gün Heydər Əliyev və onun ətrafına zərər verə biləcək D.S.Mirzoyan (hərbi kəşfiyyat mayoru), L.M.Bazuyan (istefada olan hərbçi), Q.M.Emilyan (tarixçi), F.M.Qalustyan ("Asala"), E.D.Melikyants ("Dro"), M.D.Şanx (Cənubi Afrika vətəndaşı), R.B.Sarkisyan (Yerevanda yaradılmış "Krunk" təşkilatı), H.S.Samvel (bərpa olunmuş "Erməni bürosu"nun üzvü) və başqa erməni terrorçusu həbs olunmuşdular.

1990-cı il yanvarın 28-də Dəməşqdə ingilis dilində nəşr olunan "Suriya vaxtı" qəzeti ikinci səhifəsində "Qafqazda baş verən hadisələrin icmalı" yazısında "Asala" erməni silahlı birləşmələrinin Bakıda törətdikləri qanlı cinayətlərə haqq qazandıraraq, yazırdı: " 1990-cı il yanvarın 20-də ermənilərin "Xilas dəstələri" (Şübhəsiz, bu "Asala" erməni ordusuna işarə idi) erməni bacı və qardaşlarını ölümdən xilas etmək üçün Bakıya ayaq basdılar. Yüzlərlə erməni ailəsi xilas olundu (?) " Yerli radionun müxbiri Cubran İsmayılın qələmə aldığı bu

yazı fransız və ərəb dillərinə də tərcümə olunub, yayılmışdı. Başqa bir məlumatda isə bildirilir ki, bu yazı, eləcə də bu yazıya bənzər bir neçə yazı ”Ermənilər üçün qırmızı xətt" kitabçası adı altında Strasburqda satışa çıxarılmışdır.

1990-cı il fevralın 19-da Kabildən (Əfqanıstan) Moskvaya qayıdan general-leytenant, məşhur kəşfiyyatçı V.A.Kirpiçenko onun göndərdiyi məktub və teleqramları cavabsız qoyan Dövlət Təhlükəsizlik Komitəsinin sədri, ordu generalı V.A.Kryuçkovla görüşür. Bu vaxt generalın işlədiyi Birinci Baş İdarəyə general Leonid Vladimiroviç Şebarşin başçılıq edirdi. Kəşfiyyat generalı 1990-cı il fevralın 26-da məktubları əsasında Siyasi Büroya “xüsusi arayış”ını hazırlayır.

General Siyasi Bürodan aydınlaşdırmağa çalışırdı ki, nə üçün Əfqanıstanda əslən Livandan olan “Sarvar” adlı agentindən əldə etdiyi məlumatlar işlənməmiş qalıb. General soruşurdu: “ Siyasi Büro millətləri və xalqları parçalayan, insanları məhv edən, ölkə ərazisində qeyri-qanuni fəaliyyət göstərən “Asala” separatçı erməni ordusu ilə bağlı hansı tədbirləri işləyib?" Daha sonra general sorğularının birində qeyd edirdi: “1990-cı il yanvarın 20-də Azərbaycan xalqına edilən silahlı erməni basqınlarının təşkilatçılarına Kremldə dəstək verənlər kimlərdir? Bakı həmişə strateji əhəmiyyətinə görə xarici kəşfiyyat üçün əlçatmaz olub. Qapıları açan kimlərdir?

Məlumata görə, general rəhmətə gedənədək ordu generalı, hadisələrə biganə qalan V.A.Kryuçkovla görüşməkdən imtina edib. Faktiki olaraq general V.A.Kryuçkov yəqin etmişdi ki, Moskva, Leninqrad, Stavropol, Rostov əraziləri erməni emissarları ilə dolurdur. Yoxlama materiallarına görə, təkcə Rostov ərazisinə Afrika ölkələrindən 1989-cu ilin sentyabr ayında 407 nəfər erməni gəlmişdi. Bu ermənilər tədricən İttifaq ərazisindəki erməni silahlı qruplaşmalarında görünürdü”

Maraqlı məqamlardan biri də bu idi ki, 1989-cu il noyabrın 20-dən xarici ölkələrdən gələn ermənilər Bakıda məskunlaşaraq “Asala” silahlı erməni ordusunun yolunu gözləyirdilər. Bu fakt ordu generalının kəşfiyyat materiallarından biri idi. “Andres Kastro” deyilən silahlı qrup 1989-cu ilin dekabr ayının ortalarında Bakıda görünmüşdü. Bu terror təşkilatının üzvləri, məlumata görə, artıq “Asala” terror təşkilatı üçün kiçik bir plan cızmışdı.

1990-cı ilin qanlı yanvar faciəsindən sonra general V.A.Kryuçkovun göstərişilə ölkənin təhlükəsizlik xidməti sıralarından milliyyətcə erməni olan və bilavasitə “Asala” erməni ordusunun qurulmasında iştirak edən, ermənilərin silah və digər hərbi sursatlarla təmin olunmasında, Gürcüstanda, Stavropolda, Rostovda hərbi bazaların, qoşun kontingentinin, tank diviziyalarının və hərbi vertolyotların onların istifadəsinə verilməsində ittiham edilən 28 kəşfiyyat zabiti, Müdafiə Nazirliyinin tabeliyində olan Baş Kəşfiyyat İdarəsinin yüksək rütbəli 43 nəfər əməkdaşı işdən qovulmuşdular.

1990-cı il 20 yanvar basqını ilə bağlı hərbiləşdirilmiş erməni terror birləşmələrinin törətdikləri cinayətlər haqqında Bakıdan heç bir operativ kəşfiyyat materialı göndərilməyib və yaxud göndərilən şifroqramlar və açıq mətnli teleqramlar məhv edilib. Bu gün bu istiqamətdə RF-nın kəşfiyyat idarələrində açılan “Məlumat qovluqları” bomboşdur(?)

**“Xalq qəzeti”.-**2015.-20 yanvar.-N 14.-S.8.

## Qürur günü

**Hüseynbala MİRƏLƏMOV,**
Milli Məclisin deputatı

**...Dəyərli yazıçımız Anarın "Otel otağı" povestinin motivləri əsasında çəkilmiş eyni adlı filmdən maraqlı bir epizodu tez-tez xatırlayıram.**

**Ankaradan İstanbula doğru avtobus yolçuluğu vaxtı yanaşı oturacaqda əyləşmiş notarius məmuru filmin qəhrəmanına - Kərim Əsgəroğluna üz tutur:**

**- Əfəndim, bir şey soruşmaq zorundayam.**

**- Buyurun...**

**- Azəri qardaşlarımız necə olur ki, torpaqlarını ermənilərə buraxırlar?.. Laçını, Şuşanı?.. Necə olur ki, Bosniyada xalq son damla qanına kimi savaşır, torpaqlarını müdafiə edir, amma azəri qardaşlarımız bir damla qan tökmədən ev-eşiklərini düşmənə buraxırlar? Bu, üzqızardıcı bir hadisə deyilmi?**

**- Siz Bakıya gəldinizmi heç?!**

**- Xeyr, gələmədim.**

**- Bir gəlin Bakıya, aparım sizi Şəhidlər xiyabanına. Orda torpaq uğrunda yüzlərlə şəhid olanların məzarlarını gördükdə, azəri qardaşlarınız üçün xəcalət çəkməzsiniz...**

* * *

Dünyanın istənilən yerində, zamanın istənilən anında Azərbaycan xalqına qarşı səslənə biləcək bütün mümkün hərzə-hədyanlara hələ 25 il əvvəldən verilmiş cavabımızdır, bu məkan...

Dilimizin söz xəzinəsində "qeyrət damarı" deyə bir ifadə var. Bu, insan səbrinin son həddini, Adəm övladının öz heysiyyətini qorumaq zərurətini dərk etdiyi məqamda ölümü belə gözə alıb irəli yürüdüyü anı ifadə edir.

Düzü, anatomiyaya, fiziologiyaya o qədər dərindən aşina olmadığımdan bu ifadənin hansı elmi əsaslara söykəndiyini izah etməkdə çətinlik çəkirəm. İnsan orqanizmində belə bir damar həqiqətən varmı, yoxmu, əgər varsa, bədənin hansı nahiyəsində yerləşir, bilmirəm!..

Öz şərəf və ləyaqətini qorumaqdan ötrü ölümə getməyi insana sinir siqnallarının necə diktə etdiyini bu cür sirlərin biliciləri olan alimlərin yozumlarından oxumaq daha maraqlı olar.

Amma əgər məndən xalqın, torpağın, Vətənin qeyrət damarı barədə xəbər alsalar, heç bir tərəddüd etmədən onun yerini dəqiqliklə nişan verərəm: bu, Vətən paytaxtının ən hündür nöqtəsində dənizə, Günəşə doğru uzanıb gedən və öz ucalığı ilə Azərbaycanın da boyunu ucaldan, başını uca edən Şəhidlər xiyabanıdır!..

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canını fəda etmiş qəhrəman balalarımızı Vətənin dörd bir yanında ağuşuna almış saysız-hesabsız xiyabanlardır, şəhid məzarlarıdır!..

* * *

Azərbaycandakı Şəhidlər xiyabanlarının ilk sakinləri barədə düşüncələrimi qələmə almaq istərdim, amma hiss edirəm ki, "ilk sakinlər" yanaşması yerinə düşməyəcək. Çünki tarix boyu Azərbaycan uğrunda canını fəda edib cansız bədəni ilə bir parça Vətən torpağına sığınan qəhrəmanlarımız həmişə olub. Əfsuslar olsun ki, onların amalları yerinə yetməyib. Bu qəhrəmanlıq, fədakarlıq onların arzusunda olduğu müstəqil, qüdrətli dövlət ideyasının həyata keçməsi və əbədi var olması ilə nəticələnməyib.

İstiqlal ideyasının yerini tutan qorxu, repressiya, siyasi asılılıq mühiti zaman keçdikcə şəhidləri unutdurmağa başlayıb, onların məzarlarına doğru aparan cığırları da yavaş-yavaş ot basıb və günlərin birində hətta bu məzarları torpağın sinəsindən kürüyüb yerində park salıblar.

Azərbaycan şəhidlərinin amalları, onların məzarları ilə birgə torpağa gömülmüş arzuları məhz indi göyərib, məhz indi gerçək olub və biz bu gün o gerçəkliyin əhatəsində yaşayırıq.

* * *

Müstəqil Azərbaycan dövlətinin adının çəkildiyi hər məkan şəhidlərimizin müqəddəs amallarının reallığa qovuşduğu yerdir!

Üçrəngli bayrağımızın göylərdə qanad açdığı hər an səmadakı bayrağımızın al-əlvan rəngindən şəhid ruhlarının şad olduğu məqamdır!

Bu gün Azərbaycandakı ən böyük Şəhidlər xiyabanının ötən əsrin əvvəllərində Azərbaycanın istiqlalı uğrunda vuruşmuş Vətən sevdalılarının, xalqımıza qarşı soyqırımlarını durdurmaq üçün əlinə silah alıb şərin üzərinə yürüyən qəhrəman övladlarımızın bir zamanlar park salmaq adı ilə torpaqdan, tarixdən silinən məzarlarının yerində qərar tutması da mənim üçün simvolik məna daşıyır.

...Və hər il 20 Yanvar günü şəhidlərimizi ziyarət etmək üçün elliklə Şəhidlər xiyabanına doğru yol almağımız, hər ilin 20 Yanvar günü Azərbaycanda bir anım ruzigarının əsməsi bizim - müstəqil Azərbaycan dövlətinin tarixdəki ən qüdrətli günlərinin, illərinin şahidlərinin müqəddəs şəhid ruhları qarşısında mənəvi hesabatımızdır!

Bu il də belə illərdən düz 25-cisi...

Rəqəm ritorikasına görə, Hüznün Yubileyi...

Yenə yolumuz Şəhidlər xiyabanına sarıdır...

Yürüyüşümüz - ayaqda olmağımızın, illər ötdükcə daha da möhkəmlənməyimizin, mətinləşməyimizin nişanəsi...

İzdihamımız birliyimizin nümayişi...

Nizamımız - xaosu, qarışıqlığı arxada qoyub düzgün, aydın, sivil bir yolla gələcəyə doğru irəliləməyimizin rəmzi...

Əllərimizdəki qərənfillər - şəhidlərimizin nakam talelərinə üzüntümüzün, verdiyimiz qurbanlara görə acı təəssüfümüzün, içimizdəki kədərin rəngi...

Gözlərimizdəki işıq - Vətənimizə, dövlətimizə sevgimizin izharı...

* * *

Biz - ömrün ixtiyar, yaxud orta yaşlarını, eləcə də gənclik, yeniyetməlik dönəmlərini ötən əsrin 80-ci illərinin sonları - 90-cı illərinin əvvəllərində yaşamışlar, əslində nə qədər böyük tarixi əhəmiyyətə malik hadisələrin bilavasitə şahidləri olduğumuzun, bəlkə heç fərqində deyilik.

20 Yanvar faciəsi də bu hadisələrdən ən mühümü idi...

Hər il yanvarın 19-dan 20-nə keçən gecənin məlum saatlarında özümdən ixtiyarsız bir anlıq gözlərimi yumub o anlarda nələrin baş verdiyini xatırlamağa çalışıram.

Bir-birindən dəhşətli epizodlar kabus kimi gözlərim önündən keçir...

Onda Azərbaycan Dövlət Yanacaq Komitəsi sədrinin birinci müavini vəzifəsində çalışırdım. Bakıda fövqəladə vəziyyət rejimi tətbiq olunduğundan şəhərdə hərəkət üçün komendantlıq tərəfindən mənə də xüsusi rəsmi icazə vərəqəsi vermişdilər.

Gecə Bakıda törədilmiş qətliamın dəhşətli mənzərələri səhər Yasamal rayonundan komitəmizin yerləşdiyi Xətai rayonuna doğru aparan yolda, küçəyə doğru ilk addımlarımdan ətrafımı sardı. Küçələrdəki postlarda addımbaşı saxlayıb sorğu-sual edirdilər, hər dəfə icazə sənədimi göstərib küçədən-küçəyə, postdan-posta adlamalı olurdum.

Bakı küçələrində üzləşdiyim mənzərələrdən ruhum sarsılırdı. Küçələr qan gölünə dönmüşdü, sazaqlı, şaxtalı yanvar səhərində, tozlu küçələrdə qalmış cəsədlər, asfaltın üzərindəki qan ləkələri, əzilmiş avtomobillər, güllələrdən deşik-deşik olmuş divarlar heç vaxt unuda bilməyəcəyim Dəhşət Xatirəsi kimi yaddaşıma hopurdu.

Soyuq qış küləyi küçəyə doğru ilk addımımdan başlanmış göz yaşlarımı qurutmuşdu, göz yaşlarım artıq içimə axırdı və o vaxtdan bəri elə bilirəm ki, 1990-cı ilin 20 Yanvar səhəri içimə axan o göz yaşları indiyə qədər dayanmayıb.

Hər ilin 20 Yanvar səhəri içimə damcılayan o göz yaşlarının istiliyini, acı tamını ürəyimdə hiss edirəm...

* * *

20 Yanvar faciəsi baş verməyə bilərdimi?!

Sovet ordusunun Bakıda amansızlıqla həyata keçirdiyi cəza tədbirləri nəticəsində heç bir günahı olmayan 133 nəfər dinc paytaxt sakininin öldürülməsinin, 744 nəfərin yaralanmasının, 841 nəfərin qanunsuz həbsinin qarşısını almaq mümkün idimi?!

Müstəqilliyini qansız-qadasız, heç bir qurban vermədən elan etmiş başqa postsovet ölkələrinin yaxın təcrübəsini yada salıb hərdən düşünürük: bəlkə, bu, bizdə də mümkün idi?!

Hərbi gücü, amansızlığı, öz vətəndaşlarına qarşı kütləvi repressiyaları, dünyanın müxtəlif regionlarında törətdiyi qətliamlarla tarixin xatırladığı ən qəddar rejimlərdən olan sovet rejimi ilə bu qədər cəsarətli şəkildə üz-üzə gəlməmək və belə böyük itkilərlə üzləşməmək üçün, bəlkə bir qədər səbr etmək olardı?!

Yenə bəlkələr, bəlkələr...

Əfsus ki, bu suallara cavab vermək iqtidarında deyiləm. Çünki tarix nə keçmiş, nə də gələcək haqqında şərt və gümanlarla danışmağı sevmir. Onun istinad mənbəyi konkret zaman və məkanda yaşanan reallıqlardır.

Bu birmənalı həqiqət qarşısında qəlbimdəki əminliyin qoyduğu yalnız bircə qeyd-şərt var: əgər o dövrdə Azərbaycan rəhbərliyində səriştəsiz kəslər yox, xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyev olsaydı, bəli, 20 Yanvar faciəsi baş verməyəcəkdi.

Heydər Əliyev vəziyyətin bu yerə qədər gəlməsini zəkasının gücü ilə əngəlləyə biləcəkdi. Bu qədər itkilər də yaşanmayacaqdı.

Amma 25 il əvvəl yanvarın 19-dan 20-nə keçən o mənhus gecənin reallıqları tamam başqa idi...

* * *

Azərbaycana qarşı mənfur niyyətlərini həyata keçirməkdən ötrü ən kiçik fürsəti belə əldən buraxmayan xəyanətkar ermənilər üçün həyat yoldaşı Raisa Maksimovna qiymətli hədiyyələrdən, rüşvətin, bəxşişin dürlü növlərindən əsla vaz keçməyən Mixail Sergeyeviç Qorbaçovun hakimiyyətə gəlişi çoxdan gözlədikləri imkan idi.

Amma M.Qorbaçovun hakimiyyətinin ilk illərində SSRİ rəhbərliyində Heydər Əliyev kimi qüdrətli bir Azərbaycan övladının təmsil olunması ermənilərin öz niyyətlərini işə salmalarına mane olurdu. Heydər Əliyevin siyasi gücü, qətiyyəti, zəhmi onlara Azərbaycana qarşı planlarını işə salmağa imkan vermirdi.

Buna görə də ermənilər Heydər Əliyevin Siyasi Bürodan istefa verdiyi günə qədər gözlədilər. Onun istefasından cəmi 15 gün sonra isə ermənilərin Dağlıq Qarabağla bağlı iddiaları gündəmə gəldi.

Parisdə keçirdiyi mətbuat konfransında Dağlıq Qarabağın Ermənistana verilməsi iddiasını irəli sürən, Fransanın "Humanite" qəzetindəki bəyanatında Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılıb Ermənistana birləşdirilməsinə Moskvanın da razılığını bildirməsi barədə məlumat verən Aqanbekyan M.Qorbaçovun ən yaxın adamı idi. SSRİ rəhbərinin iqtisadi məsələlər üzrə müşaviri vəzifəsində çalışırdı.

1988-ci ilin əvvəllərində M.Qorbaçovun Silva Kaputikyan başda olmaqla, bir qrup şovinist erməni ilə görüşü SSRİ rəhbərliyinin Dağlıq Qarabağın Ermənistana verilməsinə dair razılığının növbəti ifşası oldu...

* * *

Ssenarinin çox sürətlə keçən davamı məlumdur: Xankəndidə, İrəvanda antiazərbaycan və antitürk ovqatlı mitinqlərə start verilir. Erməni "Qarabağ Komitəsi", onun keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətindəki separatçı-terrorçu təşkilatı "Krunk" gizli fəaliyyətlərinə son qoyub öz bəd niyyətlərini açıq şəkildə bəyan etməyə, Azərbaycana qarşı ərazi iddiaları irəli sürməyə başlayır. Xəyanətkar qonşularımız tez bir zamanda "Miatsum" adlanan hərəkat da formalaşdırırlar.

1988-ci ilin fevralından etibarən, həm Dağlıq Qarabağda, həm də İrəvanda Azərbaycan torpaqlarının Ermənistana birləşdirilməsi tələbi ilə keçirilən mitinqlər silsilə şəkil alır.

SSRİ rəhbərliyinin heç bir ciddi reaksiyasının olmamasından ruhlanan ermənilər Dağlıq Qarabağ Muxtar Vilayəti Sovetinin vilayətin statusuna baxılması haqqında Azərbaycan SSR Ali Sovetinə müraciət qəbul etməsinə nail olurlar.

Azərbaycanın o vaxtkı rəhbərliyi isə hadisələrə fəal müdaxilə etmək əvəzinə, Kremldən gələn əmrləri kortəbii şəkildə yerinə yetirir. Azərbaycan xalqı, demək olar ki, taleyin ümidinə buraxılır.

Bir azdan Kreml Azərbaycana qarşı ssenarinin daha dəhşətli epizodlarını işə salır. Azərbaycan cəmiyyətində guya ermənilərə qarşı dözümsüz münasibətin olması barədə görüntü yaratmaq üçün 1988-ci ilin fevralında kimlər tərəfindən təşkil olunduğu artıq kimsəyə qaranlıq qalmayan məlum Sumqayıt təxribatları törədilir.

Əsasən sovet DTK-sının həyata keçirdiyi bu təxribatdan ermənilər də təbliğat məqsədilə yetərincə yararlana bilirlər. Fitvası xeyli əvvəldən verilmiş, ssenarisi dəqiqliklə cızılmış Sumqayıt hadisələri bir az da saxtakarlıqlarla, uydurmalarla "bəzədilib" dünyaya yayılır. Beləliklə, ermənilər Ermənistanda və Dağlıq Qarabağda guya azərbaycanlılarla ermənilərin bir yerdə yaşamasının mümkünsüzlüyü əhvalını yaradırlar.

Bu iki xalqın bəs indiyə qədər Azərbaycan torpaqlarında əsrlərlə bir yerdə necə yaşadıqlarını kimsə soruşmur. İki xalq arasında məqsədli şəkildə qızışdırılan təfriqənin əsl səbəbləri kimsəni ilgiləndirmir. Əvəzində, indiki Ermənistanın mövcud olduğu tarixi torpaqlarımızda yüzlərlə soydaşımız qətlə yetirilir. 250 min azərbaycanlı 1988-ci ilin sonuna qədər deportasiya olunur, onların əmlakları talanır.

M.Qorbaçov Dağlıq Qarabağda gündən-günə gərginləşən vəziyyəti nizama salmaq yerinə, DQMV-nin sosial-iqtisadi inkişafının guya geridə qalması barədə ermənilərin uydurduqları yalanı müdafiə edir və ittifaq büdcəsindən ora 400 min rubl vəsait ayırır.

1988-ci il iyunun 15-də Ermənistan SSR Ali Soveti DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qərar qəbul edir. İyul ayında SSRİ Ali Sovetinin Rəyasət Heyətinin sessiyasında Dağlıq Qarabağ məsələsi ilə bağlı müzakirələrə Azərbaycandan olan deputatlarla eyni hüquqda Ermənistan deputatları da qatılırlar. Bu, qanunazidd idi. Amma Qorbaçov və ətrafı ermənilərin maraqları naminə qanunları tapdayaraq onlara belə bir imkan yaratmaqdan çəkinməmişdi...

* * *

1989-cu ilin yanvarında ittifaq rəhbərliyinin Azərbaycan xalqına xəyanətlərinin ən müdhişinə sıra gəldi. Yanvarın 12-də SSRİ Ali Soveti "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarəçilik formasının tətbiqi haqqında" qərar qəbul etdi. Ermənilərin istədikləri də zatən bu idi.

O vaxtlar xidməti işimlə əlaqədar tez-tez Xankəndiyə - Arkadi Volskinin rəhbərlik etdiyi Xüsusi İdarənin iclaslarına gedirdim. Müzakirə olunan bütün məsələlər yalnız və yalnız ermənilərin xeyrinə həll olunurdu (Ermənilər əbəs yerə Volskini Yeravanski adlandırmırdılar ki - H.M.). Ən dəhşətlisi o idi ki, mən öz doğma vətənimdə iki əli avtomatlı rus əsgərinin müşayiəti ilə gəzirdim. Ermənilər mənə düşmən kimi baxırdılar. Əgər avtomatlı rus əsgərləri olmayasdı, onlar yəqin ki, məni qətlə yetirərdilər...

DQMV-də xüsusi idarəçilik formasının tətbiqini birbaşa Moskvaya tabe olan erməniпərəst A.Volski həyata keçirirdi. Azərbaycanın o dövrkü siyasi rəhbərliyinin xüsusi idarəçilik formasına olan mənasız ümidlərinə rəğmən ermənilər qısa müddətdə A.Volskinin əli ilə 50 min azərbaycanlının DQMV-dən qovulmasına nail ola bildilər.

Yalnız xalq hərəkatının təsiri altında 1989-cu il noyabrın 28-də vilayətin idarəsi mərkəzin nəzarəti altında olan Azərbaycan SSR Təşkilat Komitəsinə tapşırıldı. Amma vəziyyət yenə dəyişmədi. Bu dəfə də təşkilat komitəsinin sədri təyin edilən V.Polyaniçko azərbaycanlıların sıxışdırılmasını davam etdirirdi...

* * *

20 Yanvar hadisəsinə qədər SSRİ və respublika rəhbərliyi guya vəziyyəti nizama salmaq məqsədi ilə çox qərarlar, fərmanlar, sərəncamlar qəbul eləmişdi. Amma arxiv sənədlərini ortaya töküb zərrəbinlə sətir-sətir oxusaq, bu sənədlərin hansındasa Azərbaycanın xeyrinə bircə maddəyə belə rast gələ bilmərik. Bunların hamısı Azərbaycan xalqını sakitləşdirib susdurmağa, ermənilərin niyyətlərinə qapı açmağa xidmət edirdi.

Bura qədər dözüm göstərən, təmkinli davranışlarını qoruyan Azərbaycan xalqının səbr kasası 1989-cu ilin noyabrında daşdı. Xalq anladı ki, öz vəzifə kürsüsünü qorumaqdan özgə dərdi olmayan səriştəsiz rəhbərlərdən Vətənə, millətə bir fayda olmayacaq.

Yanvarın 18-də Bakıda və Azərbaycanın 11 rayonunda izdihamlı mitinqlər başlandı. Ümumi tətil elan edildi. Əfsuslar olsun ki, o dövrdə vəziyyətə nəzarət edə bilməyən ölkə rəhbərləri kimi, xalq hərəkatına rəhbərlik məsuliyyətini üzərinə götürmüş təcrübəsiz, səbatsız şəxslər də məsələlərə yanaşmalarda böyük səriştəsizlik nümayiş etdirirdilər. Emosional, düşünülməmiş qərarları ilə çox vaxt bilərəkdən, yaxud bilməyərəkdən DTK-nın düzüb-qoşduğu ssenariləri yerinə yetirirdilər.

20 Yanvar hadisələri ərəfəsində Bakıda və Azərbaycanın başqa mərkəzi şəhərlərində silsilə təxribatlar ara vermirdi. Gah Bakıda milis tərksilah edilir, gah 1 erməni 2 azərbaycanlını qətlə yetirir, gah da hansısa qruplar Bakıda süni şəkildə erməni talanları görüntüsü yaradırdılar.

Ən qəribəsi budur ki, SSRİ Daxili İşlər Nazirliyinin o dövrdə Bakıda olan 12 min nəfərlik silahlı qüvvəsi vəziyyəti nizama salmaq üçün heç bir təşəbbüs göstərmirdi. O dövrdə Azərbaycana rəhbərlik edən Ə.Vəzirov isə elə düşünürdü ki, sovet qoşunlarının müdaxiləsinə şərait yaratsa, gündən-günə güclənən xalq hərəkatını boğub kreslosunda möhkəmlənə bilər.

Və buna heç bir lüzum olmadığı halda belə bir qərar verildi...

* * *

Bu tarixi xronologiyadan çıxan nəticə budur ki, 25 il əvvəl yanvarın 19-dan 20-nə keçən o mənhus gecənin reallıqlarını yaradan səbəblər Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının SSRİ rəhbərliyi tərəfindən açıq-aşkar dəstəklənməsi, Azərbaycanın o zamankı rəhbərliyinin xəyanətkar siyasətinə etiraz əlaməti olaraq xalqımızın ayağa qalxıb mövqeyini bildirməsi və süqutunun labüdlüyünü dərk edən, buna görə getdikcə daha da azğınlaşan sovet rejiminin belə bir dəhşətli qətliam törətməklə həm Azərbaycanın, həm də müstəqillik arzusunda olan başqa keçmiş ittifaq respublikalarının gözünü qorxutmaq idi.

Faciənin bu qədər dəhşətli miqyasına görə onun təşkilatçıları, dəstəkçiləri ilə birgə reallığı düzgün qiymətləndirmədən buna şərait yaratmış bir çoxlarını da günahlandırmaq olar.

Şəhərin ətrafında, Bakı qarnizonu ətrafında sədlərin yaradılması, olsun ki, doğru addım deyildi. Avtomobillərdən, avtobus və trolleybuslardan barrikadaların qurulması, piketlərin təşkili, insanların emosiyalarını daşıran çıxışların edilməsi bəlkə də zalıma fürsət verirdi. Amma bu mülahizələri davam etdirsək, 25 il əvvəl Bakı küçələrində silahsız əli ilə, yalın sinəsi ilə sovet tanklarının üzərinə yeriyən Azərbaycan övladlarının dünyanı heyrətə gətirmiş qəhrəmanlığını kiçiltmiş olarıq. Pərdə arxasında aparılan bütün siyasi oyunlara, kabinetlərdə cızılan təxribat planlarına rəğmən küçələrdə, meydanlarda Vətən üçün şəhid olmağa hər an hazır bir xalq vardı. Və bu xalqın igid övladlarından birinin indiki Azərbaycan Dillər Universitetinin həmin gecə şəhid olmuş 21 yaşlı tələbəsi, böyük istedada malik Ülvi Bünyadzadənin üstündən tapılmış "And"ın mətni əlimdədir: "Mən, Bünyadzadə Ülvi Yusif oğlu, həyatımda ilk və son dəfə öz vicdanım qarşısında and içirəm; bir elin, bir millətin adını təmsil etdiyimi heç zaman unutmayacağam; Azərbaycan torpağımın qürurdan, qeyrətdən yoğrulmuş adını müqəddəs tutacaq, bu ada ləkə vurmaq istəyən bütün ünsürlərə qarşı duracağam; öz azərbaycanlı varlığıma, vicdanıma, məsləkimə, əsl-nəcabətimə, damarlarımda axan azərbaycanlı qanına layiq oğul olacaq, qorxaqlığı, alçaqlığı, yaltaqlığı, özümə yaxın buraxmayacaq, nəyin bahasına olursa-olsun öz azərbaycanlı "mən"imi təsdiq edəcəyəm.

Əgər vədimə xilaf çıxsam, qoy anamın südü, elimin çörəyi mənə haram olsun, Vətən üzü görməyim.

İmza: Bünyadzadə ÜLVİ. 10.IX-89".

Ülvi bu mətni 1989-cu ilin 10 sentyabrında yazmışdı. O vaxtdan ürəyinin üstündə gəzdirirdi. Düşünürəm ki, o gecə öz milli mənini təsdiq etməkdən ötrü, Vətənin təəssübünü çəkmək üçün Bakı küçələrində barrikadalar qurmuş bütün insanların qəlbində belə bir and vardı.

Onlar bu yola sonu düşünmədən çıxmışdılar. Çünki qorxmadan çıxdıqları bu yolun gec-tez milli amallara qovuşacağını, Azərbaycanın istiqlalında qərar tutacağını bilirdilər.

Və qanın qılınca qalib gəldiyi gecənin tarixini yazmağın, öz ölümləri ilə SSRİ-nin bütün dayaqlarını sarsıdıb onun süqutunu sürətləndirməyin və bununla da tək Azərbaycanın deyil, bütün keçmiş sovet respublikalarının dövlət müstəqilliyinə yol açmağın missiyasını Tanrı Onların - 20 Yanvar şəhidlərimizin alnına yazmışdı...

* * *

20 Yanvar faciəsinin səhəri o ağır, çətin, kövrək anlarda Azərbaycanın Moskvadakı nümayəndəliyinə tələsən Heydər Əliyev də, ulu öndərin övladları da, xalqın yeganə təsəllisini üzük qaşı kimi əhatəyə alıb Moskva küçələrində yürüyən soydaşlarımız da yola bu andla çıxmışdılar.

Onlar üçün də bu yolun sonunda yalnız Azərbaycan vardı.

Olub-keçənləri xatırladıqca tarixin maraqlı qanunauyğunluqlarına heyrətlənməyə bilmirəm. Dünənə qədər xalqa liderlik iddiası ilə guruldayanların çətin məqamlarla üzləşən kimi qaçıb ortalardan qeyb olduqları həlledici anlarda meydana təkbaşına çıxıb Vətənə söykək olmaq, xalqı yıxılmağa, sınmağa qoymamaq sanki Heydər Əliyevin ilahi missiyası imiş...

Faciə gecəsinin o dəhşətli saatlarına qədər barrikadaları bir-bir dolaşıb insanları qorxub qaçmamağa, müqavimət göstərməyə çağıran "liderlər"in çoxu 20 Yanvar səhəri özləri qorxudan ilim-ilim itmişdilər. Onları "gördüm" deyən tapılmırdı.

Bir neçə il sonra yaşanacaq 1993-cü ilin böhran dolu günlərində olduğu kimi meydanda yenə Heydər Əliyev dayanmışdı...

Vətəndə də o ağır anlarda ümummilli liderə kömək vəzifəsini Heydər Əliyevin daim güvəndiyi dəyərli ziyalılar - Şeyxülislam Hacı Allahşükür Paşazadə, Bəxtiyar Vahabzadə, akademik Ziya Bünyadov, Yusif Səmədoğlu kimi şəxsiyyətlərimiz yerinə yetirirdilər.

Heç bir təhlükədən, təzyiqlərdən qorxmadan şərin, zülmün, haqsızlığın üzərinə yürüyənlər, Azərbaycanın haqq səsini dünyaya yetirənlər ulu öndər Heydər Əliyev və heç bir firqəyə bağlı olmayan ziyalılar idi.

20 Yanvar faciəsinin baş verdiyi günlərdə Heydər Əliyevin səhhəti qaydasında deyildi, Moskva ətrafındakı "Barvixa" sanatoriyasında müalicəsini davam etdirirdi. Xəstəlikdən tam sağalmamış, bədxahlarının min cür fitnələri ilə üz-üzə gəlməli olan, mətbuatda haqqında davamlı böhtanlar yazılan ulu öndər də onda xalqımız kimi tam müdafiəsiz idi.

Heydər Əliyev onun Azərbaycanın daimi nümayəndəliyindəki çıxışına Kremlin mümkün cavab reaksiyalarını da zəngin təcrübəsi işığında təhlil etməmiş deyildi. Bu reaksiya həm onun özü, həm də doğmaları üçün kifayət qədər ciddi nəticələrə gətirə bilərdi.

Amma Heydər Əliyev o çətin sınaq anında susmaq, xalqın qarşısına çıxmamaq üçün özünə ixtiyar vermirdi. Çünki həmin gün dünyada yaşayan bütün azərbaycanlılar, qəlbi Azərbaycanla döyünən bütün soydaşlarımız

məhz Heydər Əliyevin sözünü gözləyirdilər. Növbəti addımlarını onun qərarları əsasında müəyyənləşdirməyə çalışırdılar.

Ümummilli liderin 20 Yanvar faciəsi ilə bağlı keçirdiyi mətbuat konfransı bizim sonralar daha geniş miqyas alacaq informasiya savaşındakı ilk mühüm qələbəmiz idi.

Heydər Əliyevin dünyanın telekameralar vasitəsilə Ona zillənmiş baxışları qarşısında 20 Yanvar faktına kəskin siyasi qiymət verməsi, günahkarları öz adları ilə çağırması Azərbaycan xalqına qarşı bu hərbi təcavüz və cinayət aktının ört-basdır cəhdlərini, onun məzmunu ilə manipulyasiya meyillərini alt-üst etdi.

...Və bu cəsarət nümayişi XX əsr tarixinin SSRİ adlı kədərli hekayəsinin bitməsinə daha bir vəsilə oldu.

* * *

20 Yanvar faciəsindən 25 il ötdü...

Bu 25 ildə biz şəhidlərimizi ancaq kədərlə anmışıq, onların itkisindən göynəyən ruhumuzu matəm musiqisinin hüznlü ahəngi ilə ovutmağa çalışmışıq.

Son illər ayrı-ayrı yazarlarımızın qələmlərində bu mövzuda aparılan müzakirələrə indi mən də qoşuluram.

Gəlin bu günün itkiləri ilə birgə, Vətənə qazandırdığı möhtəşəm tarixə də bir nəzər salaq.

Mərhum şairimiz Bəxtiyar Vahabzadənin 20 Yanvar faciəsinin hüznlü günlərində təsəlli kimi dillərdə dolaşan şeirindən bir bəndi təkrar-təkrar xatırlayaq:

Zalım öyünməsin zülmləriylə,
Millət-millət olar xeyir-şəriylə,
Torpağın köksünə cəsədləriylə,
Azadlıq toxumu əkdi şəhidlər.

20 Yanvar şəhidlərinin o gecə öz cəsədləri ilə torpağın köksündə əkdikləri azadlıq toxumunun bu 25 ildə yetirdiyi ən lətif meyvə müstəqil Azərbaycan dövlətidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən qüdrətli dövrünü yaşayan dövlətimizin misilsiz nailiyyətləridir.

Ona görə də daha kədərlənməyək...

20 Yanvar haqqın nahaqqa, məzlumun zalıma, adilliyin ədalətsizliyə qalib gəldiyi gündür.

20 Yanvar bizim millət olduğumuz, dövlət olduğumuz gündür...

Bu günü daha kədər günü kimi yox, qürur günü kimi yaşamağa çalışaq.

Bu günü övladlarımıza da belə tanıdaq.

Hər ilin 20 Yanvar günü azərbaycanlı olmağımızla daha çox qürur duyaq və qəddimizi dik tutaq.

Qoy başımız şəhidlərimizin müqəddəs ruhlarına bir az da yaxın olsun...

**“Azərbaycan”.-**2015.-20 yanvar.-N 14.-S.3.

## Qəhrəmanlıq salnaməsi

## 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi-hüquqi qiymətin verilməsi ulu öndər Heydər Əliyevin sayəsində mümkün olmuşdur

*Elnur HACALIYEV*

**Hər bir xalqı beynəlxalq miqyasda tanıdaraq məşhurlaşdıran təkcə onların zəngin təbii sərvətləri və maddi mədəniyyət inciləri deyil, həm də dünya siyasətində mühüm rol oynamış fenomen şəxsiyyətləridir. Məhz belə fenomen şəxsiyyətlərin müəyyənləşdirdiyi mütərəqqi yol hər bir millətin strateji inkişaf konsepsiyasına çevrilməklə, onun dünya arenasında özünəlayiq yer tutmasını təmin edir. Ümummilli liderlik ucalığına yüksəlmiş Heydər Əliyev də dövrünün dahi və yaradıcı şəxsiyyətlərindən biri olaraq, bizlərə Azərbaycan boyda qüdrətli bir əsər bəxş etmişdir.**

1988-ci ildə Dağlıq Qarabağda baş qaldırmış erməni separatizminə Kreml rəhbərliyi tərəfindən rəvac verilməsi, 1989-cu ildə SSRİ Ali Sovetinin qərarı ilə DQMV-də yaradılmış Xususi İdarə Komitəsinin Azərbaycana qarşı qərəzli movqeyi sayəsində muxtar vilayətin idarə-muəssisələrinin tədricən Azərbaycanın tabeciliyindən cıxarılması, azərbaycanlıların Ermənistandakı tarixi-etnik torpaqlarından tamamilə deportasiya edilməsi, Moskvanın erməni separatcılarını cəzalandırmaq əvəzinə, Azərbaycan xalqının əl-qolunu bağlaması millətin səbir kasasını daşırmışdı. Nəhayət, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Kreml Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə qarşı cıxan Azərbaycan xalqını cəzalandırmaq ucun Qanlı Yanvar qırğınını torətdi.

Bakıdakı faciədən sonra onu və doğmalarını izləyən ağır təhlükələrə baxmayaraq, Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələn Heydər Əliyev ittifaq mərkəzinin Bakıda keçirdiyi vəhşiliyə qarşı kəskin bəyanat verdi, bu cəlladlığı pislədi. M.Qorbaçovun əli ilə tökülən qanlara etirazını, insanların azadlıq istəyinin məhv edilməsinin mümkünsüzlüyünü bildirdi. Bu, sözün həqiqi mənasında, təkcə Azərbaycan xalqına deyil, SSRİ məkanında azadlıq eşqi ilə yaşayan bütün xalqlara dəstək idi. Heydər Əliyevin həmin bəyanatı bir daha sübut etdi ki, siyasətdə böyük addımları ancaq dahilər ata bilirlər. Heydər Əliyevin M.Qorbaçovun ünvanına söylədiyi ittihamlar təkcə Bakıda deyil, Tbilisi, Vilnüs, Riqa və digər şəhərlərdə də hörmət və ehtiramla qarşılanmış, ulu öndərin bu aydın mövqeyi o dövrün siyasi təlatümlərindən çaşqın vəziyyətə düşən milyonlarla insan üçün aydın bir istiqamətə çevrilmişdi.

Ulu öndər Heydər Əliyev 1990-cı il 20 Yanvar faciəsi ilə əlaqədar Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirilmiş tədbirdə bildirmişdi: “Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı. Bunlar üçün ilk növbədə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin artıq sabiq birinci katibi Vəzirov müqəssirdir. Bu yüksək vəzifədə olduğu müddətdə o, Azərbaycandakı vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə, özünün səhv addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurum yaratmışdır. Xalq isə hiddətlənmişdir. Elə buna görə də Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında aylarla davam edən mitinqlərdə dəfələrlə Azərbaycanın partiya rəhbərlərinin istefası tələbi irəli sürülmüşdür. Söhbət əslində Vəzirovun istefasından gedirdi. Bəs bu məsələ indiyə kimi niyə həll olunmamışdır?

Yalnız dünən Bakı şəhərinə ordu yeridildikdən, qırğın və dağıntılar baş verdikdən sonra Vəzirov Azərbaycandan əslində qaçmışdır. Bu, böyük səhvdir. Ən böyük səhv isə sözsüz ki, qeyri-ciddi, bu yüksək vəzifəyə əsla yaramayan adamın bir vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə birinci katib təyin edilməsi idi. Ancaq, iş təkcə bununla bitmir. İndi yanvarın 19-dan 20-nə keçən gecə baş vermiş və bu gün də davam edən faciənin üstündə dayanmaq istəyirəm. Hesab edirəm ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur. Təəssüf ki, Azərbaycan rəhbərliyi, həmçinin ölkənin ali siyasi rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir”.

Sov.İKP sıralarını tərk edən ulu öndər özünün partiya ilə əlaqələrinin qırılmasını belə izah etmişdi: “Mən Kommunist Partiyasına xeyli güc və enerji sərf etmişəm. Mən SSRİ-nin rəhbərlərindən biri olmuşam. Lakin əmin olanda ki bu quruluşun məhvi labüddür, partiya dönükdür və açıq-aydın xalqın əleyhinədir, mən onun sıralarını heyifsilənmədən tərk etdim. Azadlıq və demokratiya ideallarına xidmət naminə tərk etdim”. Artıq Heydər Əliyev Moskvada qala bilməzdi. Ulu öndəri ölkənin gələcək müqəddəratının həll olunduğu Vətən, coşqun siyasi hadisələrin mərkəzi özünə sarı çəkirdi. Ulu öndərin heç bir vəzifəsi olmadığı və fəal siyasətdən

kənarda qaldığı illərdə hörmət və ehtiramla qarşılanan növbəti addımı onun Moskvadan Azərbaycana qayıtmaq barədə qərarı idi. Azərbaycan həmin dövrdə çox ağır günlərini yaşayırdı. SSRİ-nin dağılmasından sonra Azərbaycan ağır bəlalarla üzləşmiş, parçalanmaq təhlükəsi qarşısında qalmışdı. Ona görə də Heydər Əliyev həmin çətin məqamda öz xalqının yanında olmağı məqsədəuyğun saydı və Moskvadan Azərbaycana qayıtdı. Amma Heydər Əliyev Moskvada nə qədər təhdid və təzyiqlər altında yaşayırdısa, Azərbaycanda da onu xalqa zidd hakimiyyət tərəfindən bir o qədər təzyiq və hədələr gözləyirdi. Hətta ulu öndərin siyasi dəst-xəttinə və dövlətçilik təcrübəsinə açıq rəğbət göstərən tanınmış yazıçı Əjdər Xanbabayevin qətlə yetirilməsi ilə Heydər Əliyevə xəbərdarlıq edilmişdi. Ancaq böyük siyasətçinin öz xalqına inamı, eyni zamanda xalqa bağlılığı tam qarşılıqlı idi. Xalq ona inanır və hər zaman öz böyük oğlunu bütün təhlükələrdən qorumağa hazır olduğunu bildirirdi. Məhz həmin inamın nəticəsində Heydər Əliyev 1990-cı il iyulun 20-də təyyarə ilə Bakıya gəldi. İki gün sonra - iyulun 22-də isə səhər saatlarında ulu öndər hakimiyyətin təhdidləri nəticəsində təyyarə ilə Bakıdan Naxçıvana getməyə məcbur oldu. Bu, böyük qayıdışın başlanğıcı idi. Heydər Əliyevin Moskvadan Naxçıvana qayıdışı, o dövrün bəzi qəzetlərində yazıldığı kimi, əyalət mərkəzinə yox, Vətənə, böyük siyasətə fəal şəkildə, birmənalı, ardıcıl, qətiyyətli qayıdış idi.

Azərbaycanın siyasi tarixində özünə parlaq iz qoymuş bu böyük şəxsiyyətin Naxçıvanda yenidən siyasi hakimiyyətə qayıdışı, Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi fəaliyyət göstərməsi Naxçıvandan başlanan müstəqillik yolunun bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxartdı. Ulu öndər 1990-cı ilin payızında keçirilən seçkilərdə Naxçıvan və Azərbaycan parlamentinə deputat seçildi. 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymətin verilməməsi onu ciddi narahat edirdi. 1990-cı ilin noyabr ayında ulu öndərin böyük siyasi nüfuzu sayəsində 20 Yanvar faciəsinə prinsipial qiymət verilməsi məsələsi yenidən gündəliyə gəldi. Bu mənada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasının noyabrın 21-də keçirilən iclası yadda qaldı. Heydər Əliyev xalq deputatı kimi "1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar layihəsini işləyib Ali Məclisin müzakirəsinə təqdim etdi. Sessiyada çıxışında xalqımızın hərbi, siyasi, mənəvi təcavüzə məruz qalmasından narahatlıqla danışan Heydər Əliyev ürək yanğısı və qətiyyətlə deyirdi: "Başımıza böyük bəla gəlib, millət əzilib, millətə qarşı təcavüz olub, ancaq indiyə qədər Azərbaycan xalqının həyatında baş vermiş bu faciəli hadisəyə qiymət verilməyib... Bu qədər qanunsuzluğa, demokratiyanın pozulmasına dözmək olmaz. Bu məsələyə biz özümüz siyasi qiymət verməliyik, respublikanın ali hakimiyyət orqanından tələb etməliyik ki, bu məsələyə baxsın və günahkarlar cəzalandırılsın".

Heydər Əliyevin xalqın milli faciəsi ilə bağlı qaldırdığı taleyüklü məsələ xalq deputatları tərəfindən qətiyyətlə müdafiə olundu. Ali Məclisin birinci sessiyasında "1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar qəbul edildi. Naxçıvan MR Ali Məclisinin 21 noyabr 1990-cı il tarixli qərarında göstərilirdi:

"Yanvar faciələrinin səbəbkarlarının - istər ittifaq, istərsə də respublika rəhbər-partiya, sovet, hüquq-mühafizə orqanı işçilərinin, hərbçilərin bu günədək aşkar edilib qanunla məsuliyyətə cəlb olunmaması xalqda dərin hiddət və etiraz doğurmuşdur.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bütün bunları işğalçı siyasət və dəqiq düşünülmüş hərbi təcavüz kimi qiymətləndirərək insan hüquqları bəyannaməsinin kobud şəkildə pozulması kimi nəzərdə tutaraq qərara alır:

1.1990-cı ilin yanvar ayında Bakı şəhərində törədilmiş qanlı hadisələr Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirilsin.

2. Dinc əhaliyə, silahsız kütləyə, heç bir müqavimət göstərməyən günahsız adamlara qarşı müasir silahla, hərbi texnika ilə zorakılıq edilməsi, qocaların, qadınların, uşaqların qətlə yetirilməsi Azərbaycan xalqına qarşı açıq təcavüz kimi ittiham edilsin.

3. Bir ilə yaxın vaxt keçməsinə baxmayaraq, Bakı faciələrinə Azərbaycan SSR ali hakimiyyət orqanları tərəfindən siyasi qiymət verilməməsi, bununla əlaqədar yaradılmış Xüsusi Deputat Komissiyasının işinin qeyri-müəyyən səbəblərdən başa çatdırılmaması, qanlı hadisələrin günahkarlarının aşkara çıxarılıb qanuni məsuliyyətə verilməməsinə qəti etiraz olunsun.

Azərbaycan SSR Ali Sovetindən tələb edilsin ki, ən qısa müddətdə həmin məsələni parlamentin müzakirəsinə çıxarsın.

4.Bu qərar qəbul edilən andan 20 Yanvar günü hər il Naxçıvan Muxtar Respublikasında Milli Matəm günü kimi qeyd edilsin.

5. Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin ki, 20 Yanvar günü hər il Azərbaycan SSR-də Milli Matəm günü kimi qeyd edilsin".

Qərarda 20 Yanvar hadisələri Azərbaycanın suveren hüquqlarına, dinc əhaliyə, günahsız adamlara, Azərbaycan xalqına qarşı açıq təcavüz kimi qiymətləndirilirdi. Həmçinin Azərbaycanın o vaxtkı rəhbərliyinin cinayətkar fəaliyyəti bir daha qeyd olunaraq deyilirdi ki, qanlı yanvar hadisələrinin günahkarlarını üzə çıxarmaq, onu təhlil etmək və siyasi qiymət vermək üçün respublika əhalisinin təkidli tələbinə baxmayaraq faktiki olaraq faciədən ötən müddət ərzində heç bir tədbir görülməmişdir. Qəribə idi ki, respublika Ali Sovetinin yanvar hadisələrini təhqiq etməli olan komissiyası da öz işi ilə məşğul olmamışdır. Respublika rəhbərliyinin bu etinasızlığı haqlı olaraq xalqda hiddət və etiraz doğururdu.

Ulu öndər Heydər Əliyev Azərbaycan xalqına qarşı soyqırımı siyasətini həyata keçirməyə rəvac verənlərlə mübarizəsini ona qarşı az qala düşmən mövqedə duran Ali Sovetdə və digər istiqamətlərdə də davam etdirir, böyükdən kiçiyə qədər hər kəsə məlum olan qatillərin hüquqi müstəvidə aşkar olunmasını, faciəyə siyasi qiymətin verilməsini tələb edirdi. Heydər Əliyev Azərbaycan SSR Ali Sovetinin 7 mart 1991-ci il tarixli sessiyasındakı çıxışında deyirdi: “1990-ci il yanvarın 20-də ittifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edilmişdir. Heç bir əsas olmadan, xəbər vermədən, dövlət qanunlarını kobudcasına pozaraq Bakı şəhərinə müasir silahlı sovet ordusunun qoşun hissələri yeridilmiş, onlar vəhşilik, qəddarlıq etmiş, nəticədə nahaq qan tökülmüş, yüzlərlə adam həlak olmuş, xəsarət almış, itkin düşmüşdür. Təəssüf ki, bu təcavüz indiyə qədər davam edir. Bir ildən artıqdır ki, Azərbaycanın paytaxtı fövqəladə vəziyyət şəraitində yaşayır. Bizim sessiyamız da bu şəraitdə keçirilir. Bir ildən artıqdır ki, Azərbaycan xalqı şəhidlərə matəm saxlayır. Respublikanın şəhərlərində, qəsəbələrində, kəndlərində şəhidlərin xatirəsinə abidələr ucaldılır. Fəqət, qatillər indiyə qədər aşkar olunmayıb. Buna heç vəchlə bəraət qazandırmaq olmaz. Bu məsələ müzakirə olunmalıdır. 20 Yanvar faciəsinə Ali Sovetin sessiyası siyasi qiymət verməlidir, onun günahkarlarını müəyyən etməlidir”.

Heydər Əliyev 1991-ci il iyunun 19-da SSRİ Nazirlər Sovetinə göndərdiyi məktubunda yazırdı: “Yanvar hadisələrində yüzlərlə adam öldürüldü və şikəst edildi. Artıq il yarım keçib. Nəinki bu dəhşətli cinayətlərin hamıya çoxdan məlum olan günahkarları üzə çıxarılmayıb, əksinə, bunları ört-basdır etmək üçün əllərindən gələni edirlər. Ümid edirlər ki, zaman keçdikcə bu faciə unudulacaq. Ancaq tarix dəfələrlə sübut etmişdir ki, doğma xalqa qarşı yönəldilmiş qanlı cinayətləri on illər keçsə də, unutmaq və bağışlamaq mümkün deyil”.

Azərbaycan Respublikası Ali Sovetinin 29 avqust 1991-ci il tarixli sessiyasındakı çıxışında isə Heydər Əliyev deyirdi: “20 Yanvar faciəsi dövründən il yarımdan çox vaxt keçir. Bu gün burada da, bu salonda cürbəcür söhbətlər gedir. Bir qrup bir fikirdədir, məndən qabaq çıxış edən Rəhimov başqa fikirdədir. Mən sual verirəm, Ali Sovetin Sədri Elmira Qafarovaya, Azərbaycan Prezidenti Ayaz Mütəllibova: nə üçün indiyə qədər bu məsələyə siyasi qiymət verilməyib? Bu məsələnin həm siyasi tərəfi var, həm hüquqi tərəfi var. Bu məsələyə dərhal siyasi qiymət vermək olardı. O ki qaldı hüquqi cəhəti, ayrı-ayrı adamların məsuliyyətə cəlb olunması, onu şübhəsiz ki, istintaq yolu ilə aydınlaşdırmaq lazımdır. Buna siyasi qiymət verilmədiyinə görə başqa tədbirlər həyata keçirmək mümkün olmur”.

Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinə tam siyasi-hüquqi qiymətin verilməsi vəzifəsinin qarşıya qoyulması günün tələbi idi. Ulu öndər dövrün mürəkkəbliyinə və görüləsi işlərin çoxluğuna baxmayaraq, tariximizin şanlı və qanlı səhifəsi sayılan 20 Yanvar faciəsinin başvermə səbəblərini və günahkarlarının araşdırılması ilə də məşğul oldu. Heydər Əliyevin 1994-cü il yanvarın 5-də 20 Yanvar faciəsinin dördüncü ildönümünün keçirilməsi ilə bağlı verdiyi fərmanda Milli Məclisə faciəyə tam siyasi-hüquqi qiymət verməsi tövsiyə olunurdu. Yalnız bundan sonra aparılan araşdırmalar nəticəsində məlum oldu ki, 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməməsində maraqlı olan qüvvələr var imiş. 1991-1993-cü illərdə hakimiyyətdə qalmaq istəyən iqtidar, hakimiyyətə gəlmək istəyən müxalifət nümayəndələri bu dəhşətli faciədən yararlanmaq istəyirmişlər. Heydər Əliyev 1994-cü il yanvarın 12-də dövlət komissiyasının geniş iclasında Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının 1992-ci il 19 yanvar tarixli qərarını xatırlayaraq bu qərarda yanvar hadisələrinin əsl səbəblərinin açıqlanmadığını, həqiqi günahkarların aşkar edilmədiyini, iki il ərzində həmin qərarın özünün yerinə yetirilmədiyini nəzərə çatdırdı. Respublika səviyyəsində 20 Yanvar faciəsinə tam siyasi-hüquqi qiymətin verilməməsini ciddi tənqid edən Heydər Əliyev 1992-ci ildə Milli Şura tərəfindən qəbul edilmiş səthi və başdansovdu qərarın xalqa xəyanət olduğunu bəyan etdi: “Bu qərarı oxuyanda doğrusu çox həyəcanlandım. Düşündüm ki, Milli Şura nə üçün öz millətinin, öz xalqının aqibətinə, taleyinə bu qədər biganə qalıb? Qərarı oxuyandan sonra bir daha qəti fikrə gəldim ki, bu faciəyə, bu hadisəyə niyə indiyə qədər siyasi qiymət verilməyib... Mənim fikrim belədir ki, bu qərarın qəbul edilməsi Azərbaycan xalqına bəlkə də 20 yanvar 1990-cı ildə olan faciə kimi böyük xəyanətdir. İki il keçəndən sonra deputat-istintaq komissiyasının ortaya bir şey çıxarmaması, boş-boş sözlərlə camaatı aldatması, qərarda bu komissiyanın işinin qənaətbəxş hesab edilməsi yenə də deyirəm, xəyanətdir”.

1994-cü il martın 29-da Milli Məclis tərəfindən "1990-ci il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" xüsusi qərar qəbul edildi. Qərarda 1990-cı ilin 20 Yanvar hadisələri Azərbaycanda vüsət almış milli-azadlıq hərəkatını boğmaq, demokratik və suveren bir dövlət amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və belə bir yola qədəm qoyan xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. Beləliklə, Heydər Əliyevin təkidi və təşəbbüsü sayəsində xalqımıza qarşı törədilən bu qanlı və qəddar aksiyaya siyasi-hüquqi qiymət verildi.

1990-cı ilin Qanlı Yanvar hadisəsi Azərbaycan xalqı ucun təkcə boyuk faciə deyildir. O, ləyaqətini qorumaq ucun hər cur qurban verməyə hazır olan xalqın tarixində şərəfli bir səhifədir. 20 Yanvar faciəsi həm umumxalq faciəsi, həm də mustəqillik, istiqlal uğrunda xalqımızın apardığı milli azadlıq hərəkatının zirvəsi kimi Azərbaycan tarixinə həkk olunub. Umummilli lider Heydər Əliyevin soylədiyi kimi, bu təcavuz xalqımızı mənəvi cəhətdən cox sarsıtsa da, itkilərə məruz qoysa da, onun mənliyini tapdalaya bilmədi, qürurunu sındıra bilmədi, qəhrəmanlıq salnaməsinə yeni bir səhifə kimi yazıldı.

Azərbaycanın ötən 23 ildə müstəqil dövlət kimi əldə etdiyi çoxşaxəli nailiyyətlər, ilk növbədə, əsrlərlə davam edən tarixi mübarizənin nəticəsi sayılmalıdır. Taleyin qismətindən xalqımız milli özünəməxsusluğunu səciyyələndirən keyfiyyətləri, milli dövlətçilik ənənələrini yaşatmaq, azadlıq, müstəqillik nemətinə qovuşmaq üçün çətin sınaqlardan çıxmalı olmuşdur. Bu baxımdan azərbaycanlıların milli dövlətçilik şüurunun və ənənələrinin inkişafı prosesi uzun əsrlər boyu davam etmiş, xalqın formalaşma, təşkilatlanma və özünütəsdiqləmə prosesinə əsaslı təkan vermişdir.

**"Azərbaycan".-**2015.-18 yanvar.-N 13.-S.4.

**Tarix öz yaddaşında yaxşını da, yamanı da möhkəm saxlayır**

**"Qara Yanvar dialoqu"nu oxuyarkən bu həqiqəti bir daha xatırlayırsan**

**Flora SADIQLI.**

**"20 Yanvar 1990-cı il Azərbaycanın tarixində ən faciəli gündür. Ancaq eyni zamanda o gecə, o gün Azərbaycan xalqı öz qəhrəmanlığını, rəşadətini və şəhidlik zirvəsinə qalxa bilməsini bütün dünyaya nümayiş etdirdi".**

**Heydər ƏLİYEV**

**"Azadlıq, müstəqillik uğrunda, vətən uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir".**

**İlham ƏLİYEV**

**1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycanın paytaxtı Bakı şəhərinə fövqəladə vəziyyət elan edilmədən keçmiş sovet qoşun hissələri yeridildi. Onlar eləcə də respublikanın bir neçə digər bölgəsinə daxil olmuşdu. Ordunun, xüsusi təyinatlı dəstələrin və daxili qoşunların iri kontingentinin Bakıya göndərilmiş nümayəndələri şəhərdə ağlasığmaz vəhşiliklər törədir, qəddarlıq, qeyri-insani hərəkətlər edirdilər. Azğınlıq o yerə çatmışdı ki, gözləri uşaq, qadın və qocaları da seçmirdi. SSRİ və Azərbaycan konstitusiyalarının prinsipləri, bunlarla bahəm bütün insanlıq qanunları pozulmuşdu. Hətta təcili yardım maşınlarını da hədəfə çevirir, həkimləri və tibb bacılarını, milis işçilərini atəşə tuturdular. Bu, əvvəlcədən düşünülmüş, hazırlanmış bir təcavüzkarlıq idi. Məqsəd isə Azərbaycan xalqının azadlıq istəyini boğmaq, müstəqillik arzusunu puç etmək, mübarizə əzmini qırmaq idi.**

20 Yanvar ərəfəsindəki dövrdə Azərbaycanın rəhbərliyi xalqla hakimiyyət arasında dərin uçurum yaratmışdı. Artıq bir neçə ay idi paytaxtda, digər şəhər və bölgələrdə izdihamlı mitinqlər keçirilir, respublika rəhbərliyinin istefası tələb olunurdu. Belə ki, rəhbərlik yaranmış qarşıdurmanın siyasi yollarla tənzimlənməsi üçün heç bir iş görməmişdi. Ona görə də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə, ələlxüsus MK-nın birinci katibi Əbdürrəhman Vəzirova kəskin etirazlar səslənirdi. O, öz xalqına qarşı gizli planlar qurmaqda, xəyanətdə günahlandırılırdı. Geniş xalq kütləsinin qəzəbinə eləcə də Sov.İKP MK-nın, şəxsən Mixail Qorbaçovun qərəzli, düşmən mövqeyi də səbəb olmuşdu.

"1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 1994-cü il 29 mart tarixli qərarında deyildiyi kimi: "Qoşunların Bakıya yeridilməsi kommunist rejimini saxlamaq, milli azadlıq hərəkatını boğmaq məqsədinə xidmət etmişdir. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi bürosunun 1990-cı il yanvarın 14-də keçirilmiş iclasında fövqəladə rejimin tətbiq edilməsi ilə əlaqədar irəli sürülmüş təkliflər hakimiyyəti itirmək qorxusu ilə bağlı olmuşdur... Hüquqi əsası olmadan Bakıda fövqəladə vəziyyət elan edilməsi, silahlı qüvvələrin şəhərə soxulub heç bir müqavimətlə üzləşmədən ağır texnika və məhvedici silahlar vasitəsilə dinc əhaliyə qəddarcasına divan tutması Azərbaycan xalqına qarşı cinayət olmuşdur. Bu cəza tədbiri şüurlu surətdə planlaşdırılmış və vəhşicəsinə həyata keçirilmişdir.

Əsas məqsəd Azərbaycanda xalq hərəkatına zərbə vurmaq, mövcud olan rejimin dağıdılmasına yol verməmək və istiqlaliyyət uğrunda mübarizə aparan qüvvələri məhv etmək olmuşdur".

O qanlı Yanvar hadisələrindən 25 il keçir. Zaman ötsə də, faciənin dəhşətlərini unutmur, həmin hadisələr vaxtı şəhidlik zirvəsinə yüksələnlərin əziz xatirəsini qəlbimizdə yaşadırıq. Yaşlı nəsil öz gözü ilə gördüklərini xatırlayıb dönə-dönə həmin əzablı hissləri yenidən yaşayır. Gənc nəsil bizi - ata-analarını, nənə-babalarını dinləyir, qələmə alınan xatirələrdən, yazılan kitablardan, çəkilən filmlərdən həqiqəti öyrənir. Elə buna görə də o vaxtdan bəri Şəhidlər xiyabanı özünün al qərənfil libasını dəyişmir. Bu güllər şəhidlərin əziz xatirəsinə bəslədiyimiz solmaz sevginin rəmzinə çevrilib.

Şəhid olanların xatirəsi nə qədər əzizdirsə, qanlı qırğın törədənlərə nifrət ondan da dərindir. İnsanlıq nahaq qanların baiskarlarını hələ çox lənətləyəcək, tarix onları çox ittiham edəcək. Tarixin ittihamı isə çox ağır olur...

1990-cı ilin faciəli Yanvar günləri anbaan xatirimizdədir. Onda xalqımızın çörəkdən, sudan çox informasiyaya ehtiyacı var idi. Azərbaycan televiziyasının enerji bloku partladılmışdı, radio işləmirdi, qəzetlər

çıxmırdı. O müdhiş gecədən sonra da küçələrdə güllə səsləri eşidilir, əsgər maşınları şütüyür, Moskva radiosu isə hadisəni öz mənafeyinə uyğunlaşdırıb yalan xəbərlər yayırdı. Guya Bakıda ekstremistlər sovet əsgər və zabitlərini qətlə yetiriblər.

Dünya ictimaiyyətinə əsl həqiqəti çatdırmaq, yayılan böhtan xəbərləri təkzib etmək lazım idi. Respublikanın hər tərəfində camaat baş verənlər haqqında doğru-dürüst məlumat gözləyirdi.

İnsanları necə, hansı yolla məlumatlandırmalı? Fövqəladə vəziyyət şəraitində nəinki qəzet buraxmaq, şəhərə çıxmaq belə təhlükəli idi. Lakin öz vətəndaşlıq vəzifəsini yerinə yetirən, peşə borcuna sadiq qalan jurnalistlərimiz bəlkə də mümkün olmayan bir işin öhdəsindən bacarıqla gəldilər. Əlbəttə, o günlərdə bir nömrəli qəzet sayılan "Kommunist"in çıxması qeyri-mümkün idi. Beləliklə, taleyin hökmü ilə 20 Yanvar faciəsi barədə ilk söz demək məsuliyyəti məhz "Səhər"in - artıq xeyli müddət idi "Kommunist"ə əlavə kimi nəşr olunan "Səhər" qəzetinin öhdəsinə düşdü.

Şəhidlərin dəfn günündə "Səhər" dərdli xalqın yarasına sanki məlhəm oldu. Həmin matəm nömrəsi 2 milyon tirajla nəşr olunaraq əhaliyə pulsuz paylandı. Qəzetdə "Vətən bu gün ağı deyir..." adlı 11 jurnalistin qələmindən çıxmış kollektiv reportaj dərc olunmuşdu. Həmin müəlliflər qrupuna Rəfail Nağıyev, Məzahir Süleymanzadə və Şakir Yaqubov rəhbərlik etmişdilər.

Qəzetin əməkdaşı kimi "Səhər"in o nömrəsinin necə hazırlanmasını mən də heç vaxt unuda bilmirəm. Həmkarlarımın tapşırıqlarını alıb şəhərə dağılışdığını görəndə əlimdə qeyd dəftərçəsi və qələm həyəcanla Məzahir Süleymanzadənin iş otağına daxil oldum. Məzahir müəllimlə qısa dialoqumuz illər keçsə də, dönə-dönə qulaqlarımda səslənir:

- Bəs mən?!.

- Nə vaxt görsən ki, o azğınlaşmış ordu bizim hamımızı - bu redaksiyada işləyən kişilərin hamısını güllələyib, yazan və qəzeti çıxaran yoxdur, onda əlindəki o bloknotunu və karandaşını götürüb şəhərə sən düşərsən...

Kövrək məqamlar yaşanırdı: o günlərdə hamı elə bil bir-birinin doğması idi, hamı bir-birinin dərdinə şərik çıxır, daha doğrusu, birgə matəm saxlayır, bir-birini qorumağa çalışırdı.

Qanlı Yanvar hadisələrinin 25 illiyini hüzn və qürurla qeyd etdiyimiz bu günlərdə əziz həmkarlarımızın, ulu öndər Heydər Əliyevin qiymətləndirdiyi kimi, "jurnalistika qəhrəmanlığı"nı bir daha xatırladıq. "Səhər"i araya-ərsəyə gətirən jurnalistlər qrupuna rəhbərlik edən üç nəfərdən biri - Rəfail müəllim xeyli vaxtdır dünyasını dəyişib. Qəlbimizdə Məzahir Süleymanzadə, Şakir Yaqubovla görüşüb bir daha xəyalən 25 il əvvələ qayıtmaq istəyi oyandı.

Və nə xoş hadisə, nə xoş təsadüf! Eşitdik ki, bu günlərdə onların həmmüəllifliyi ilə "Qara Yanvar dialoqu" adlı kitab işıq üzü görüb. Hər biri əməkdar mədəniyyət işçisi, Ali Media Mükafatı laureatı olan müəlliflər yeni kitabı 20 Yanvar faciəsinin 25 illiyinə həsr ediblər. Kitab Azərbaycan Mətbuat Şurası Ahıl Jurnalistlər Məclisinin tövsiyəsi ilə nəşr olunub.

"Qara Yanvar dialoqu" adından da göründüyü kimi, iki qələm sahibinin söhbəti üslubunda yazılıb. Təbii ki, qeydlərimizin əvvəlində haqqında bəhs olunan olayların hamısı burada öz əksini tapıb.

Məzahir Süleymanzadə deyir: "Hər ikimiz kitab da yazmışıq, müsahibələr də vermişik. Amma 25 ildən sonra dönüb bir daha geriyə baxmaq, baş verən hadisələri təhlil etmək, daha çox rəsmi sənədlərə istinadən olub keçənlərə münasibət bildirmək də vətəndaşlıq borcumuzdur. Biz hər ikimiz həmin hadisələrin təkcə şahidi yox, həm də iştirakçısıyıq".

Şakir Yaqubov da belə düşünür: "20 Yanvardan bəri Bakı qırğını barədə çox yazılıb, çox deyilib. Bu mövzu az qala nüfuz məsələsinə çevrilib, siyasi qazanc mənbəyinə dönüb. Çox istərdim ki, bu söhbətə həmin nəzərlə baxılmasın. Sadəcə, o məşum günlərin şahidi kimi, daha çox şəxsən özümüzə məlum olan faktları oxucuların geniş dairəsinə çatdırmaqdır istəyimiz. Məhşər məqamında kiməsə, nəyəsə bəlkə gərək oldu".

Kitabda bir daha xatırlanır ki, 1990-cı il 20 Yanvar qırğını barədə birinci sözü ümummilli lider Heydər Əliyev söyləyib. Yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində ilk cəsarətli fikri ulu öndər dilə gətirib, kəskin bəyanat verib və deyib: "Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Bəli, kobud siyasi səhv buraxılmışdır. Onlar, sadəcə olaraq, respublikadakı əsl vəziyyəti qiymətləndirə bilməmiş, Azərbaycan xalqının psixologiyasını anlamamış, əhalinin müxtəlif təbəqələri ilə əlaqələri zəiflətmişlər. Onlar, görünür, bu işlərin belə ağır faciəyə çevriləcəyini əvvəlcədən düşünməmişlər. Bütün bunlar qabaqcadan nəzərə alınmalı və vaxtında vacib, zəruri tədbirlər qəbul edilməli idi. Ordu yeridilmiş, günahsız adamlar həlak olmuşlar".

Həmsöhbətlər kitab boyu 20 Yanvara gələn qanlı yolun haradan və nə vaxt başlandığını, azərbaycanlıların kütləvi surətdə Ermənistandakı ata-baba yurdlarından qovulmasını, Şuşadakı Topxana meşəsinin harayını, o illərin bir çox digər ictimai-siyasi hadisələrini xatırlayırlar.

Nəhayət, Şakir Yaqubov "Səhər"in sözügedən matəm nömrəsinin hazırlanmasını bütün nüansları ilə, anbaan yada salır: "Bazar ertəsi - yanvarın 22-də ayaqüstü, dəhlizdə keçən yığıncağımızın son sözü bu oldu: bu günə qədər nə etmişiksə, necə yaşamışıqsa, bunların hamısı qalır 1990-cı il yanvarın 20-dən o tayda. İndən belə vicdanımızın əleyhinə getməyə, ürəyimizin hökm etmədiyi kimi yazmağa haqqımız yoxdur...

Yığıncaqdan birbaşa hərə aldığı tapşırığın ardınca yollanır. Qızğın iş gedir. Materiallar üst-üstə qalanır. Azərbaycan SSR Ali Sovetinin dünən, yanvarın 21-də axşam başlanan fövqəladə sessiyası yanvarın 22-də səhərə yaxın işini başa çatdırıb - bu barədə xəbərimiz var; bir qayda olaraq rəsmi materiallar teletaypla, "Azərinform" vasitəsilə daxil olur, ancaq indi sessiyadan bir xətt də material almamışıq. Telefon zənglərimiz heç yana çatmır - nəinki şəhər, bütün Azərbaycan matəm içindədir. Bu yandan isə SİTA ən müxtəlif materiallar verir - Qorbaçovun mərkəzi televiziya ilə çıxışından tutmuş sərhədyanı rayonlardan qərəzli reportajlara qədər... Qorbaçov deyir ki, "Sovet ordusunun və daxili qoşunların əsgərləri və zabitləri SSRİ Konstitusiyasının və qanunun müdafiəsi sahəsində öz borclarını yerinə yetirirlər" və s. Rusdilli xalqlar əleyhinə psixozu dolayısı şiddətləndirən yazılar da gözə dəyir. Hamısının da üstündə danışıqsız icra edilməsi tələb olunan qrif var. Heç nəyə baxmadan ciddi seçim gedir... Qaydaya görə saat 12-dək cari nömrə üçün müəyyən qədər materialı yığmaqdan ötrü mətbəəyə göndərməliyik. Mətbəə isə işləmir. Xəbər çıxır ki, Mətbuat prospektindəki redaksiyaların başçıları "Kommunist" nəşriyyatının direktoru Musa Nəbiyevin yanına yığışıblar - mətbəə fəhlələri ilə işə başlamaq barədə danışıqlar gedir".

Şakir müəllim bütün detalları xatırlayır. Məsələn, deyir ki, birinci səhifədə verilən iri şəklin yanındakı essevari şəkilsözünü, əslində ağını Əfqan yazıb. Ş.Yaqubovun nömrənin məzmununu açan cümləsindəki "Azərbaycanın azadlığı və istiqlaliyyəti uğrunda" sözlərini Rəfail müəllim bu cür redaktə edib: Azərbaycanın tam suverenliyi və ərazi bütövlüyü uğrunda". "Həlak olmuş" kəlməsi isə "şəhid olmuş" ifadəsi ilə əvəz edilib. (Bəli, o Qanlı şənbə gecəsinin qurbanlarını ilk dəfə "Səhər" şəhid adlandırıb - F.S.). Şəhidlərin dəfn mərasimindən reportajı Hidayət Elvüsal, Rusvat Bayramov, Bəxtiyar Sadıqov, Tahir Rüstəmov, Araz Qurbanov və Zülfüqar Rüfətoğlu hazırlamışdılar: Hökumət evinin qarşısındakı meydandan Dağüstü parka qədər qəm karvanının keçdiyi yol boyunca hərəsi bir nöqtədə dayanıb, həmin nöqtədəki əhval-ruhiyyəni qələmə almışdı. Redaksiyada oturub ağır dərdi siqaret tüstüsü ilə bol-bol ciyərlərinə, ürəyinə çəkən Vaqif Bəhmənli isə mahir bənna kimi daşı daş üstünə qoyub əzəmətli qala divarı ucaltmışdı: "O gecə bütün Azərbaycan xalqı minillik qəhrəmanlıq, yenilməzlik tarixini təkrar edirdi. Qanlı tarix təkrar olunurdu. Xalq qurban verə-verə oyanırdı, ayağa qalxırdı" - bu sözlər Vaqifin qələmindən süzülmüşdü.

Nömrədə fotojurnalistlər Fərman Bağırovun, Cahangir İbadovun, Ağaəli Məmmədovun, Rafiq Nəbiyevin və Yaşar Xəlilovun böyük çətinliklə çəkdiyi şəkillər yerləşdirilmişdi.

"Səhər"in 25 il ərzində saralmış həmin nömrəsi Bakının şəhidlərin dəfn günündəki mənzərəsini bu günün oxucusuna belə çatdırır: "Bazar ertəsi. Yanvarın 22-si. Bakı yas içindədir. Bu gün iki milyonluq bir şəhərdə bir gülümsər üz görmək mümkün deyil. Azadlıq və həqiqət meydanı qəm, dərd əlindən çat verir. Yüz illər boyu qızların, oğlanların qəm-qüssəsiz qalxdığı Qız qalasının - ismət, namus qalasının köksünə qara bayraq sancılıb. Qız qalası özü boyda daş olub ədalətsizliyin, namərdliyin təpəsinə düşmək istəyir. Qız qalası üz cırır, yaxa yırtır. Neçə-neçə şəhid cənazəsi onun müqəddəs göz yaşlarına bürünür. Bu göz yaşları Şəhid yaralarına məlhəm ola bilmir".

Dialoqda Xəlil Rza Ulutürkün "Çıxdı "Səhər" qəzeti, səhər boyandı qana" misralarını xatırladan M.Süleymanzadə deyir: "Ümumiyyətlə, 20 Yanvar qırğını və 20 Yanvar şəhidləri haqqında çox yazılıb. Hələ bundan sonra da yazılacaq. Ancaq heç bir yazı "Vətən bu gün ağı deyir..." reportajının yerini verməyəcək".

Sonra Məzahir müəllim qəzetin həmin nömrəsindən bir parçanı misal gətirərək o günlərin kədər dolu əhval-ruhiyyəsini, hüznünü, hətta qürurunu, eləcə də qəzetçilərin üzləşdiyi çətinlikləri yada salır: "İstəkli oxucular, 20 Yanvar Qanlı şənbə günündə Bakıda şəhid olmuş yurddaşlarımızın son mənzilə yola salınması mərasimindən əməkdaşlarımızın hazırladığı reportaj, dəhşətli faciədən bəhs edən fotoşəkillər yanvarın 22-də bizdən asılı olmayan səbəblərə görə çap edilmədi. Aradan iki soyuq və hüznlü qış günü keçib. Həmin fasiləyə görə materiallara əl gəzdirmək, matəm dəqiqələrinin göynərtili əhval-ruhiyyəsini əks etdirən cümlələri zamanca dəyişdirmək də olardı. Xalqımızın, eləcə də bizim hamımızın şəhidlərlə vidalaşdığımız dəqiqələrdə keçirdiyimiz sarsıntı və həyəcanları, ağrı-acını, sonsuz dərdi olduğu kimi çatdırmaq üçün bir vergülə də toxunmadıq".

Həmin nömrəsində “Səhər” uzaqgörənliklə yazırdı: “Yox, bu gənclər ölməmişlər və heç zaman ölməyəcəklər. Hər dəfə sən, mən, o, “Şəhidlər xiyabanı”na baxanda onların ölməz ruhu ilə salamlaşacaq və sonsuz minnətdarlıqla təkrar-təkrar deyəcəyik:

- Rahat yatın, əzizlərimiz. Sizin hər damla qanınız Vətən torpağına atılmış igidlik imzasıdır”.

Fədakar müəlliflərinin səyi, zəhməti və bacarığı ilə qəzetin növbəti nömrələri də çıxdı.

Məzahir Süleymanzadə: “Səhər” düz 40 gün 20 Yanvar şəhidlərinə yas tutdu, - deyir. - Ehsanımız yalnız söz olsa da, millətimizi ovundurmağa çalışırdıq. Oğul itirmiş analar, qardaş itirmiş bacılar, ər itirmiş gəlinlər ağı, bayatı deməyi “Səhər”dən öyrəndilər”.

Yeri gəlmişkən qeyd edək ki, 20 Yanvarla bağlı indi dillər əzbəri olan bir çox əsərləri, o cümlədən şair Məmməd Aslanın məşhur “Ağla, qərənfil, ağla” şerini, el ağbirçəyi, professor Əzizə Cəfərzadənin söylədiyi bayatıları - ağıları, İlham-Fərizə sevgisinin təfərrüatlarını da oxuculara ilk dəfə məhz “Səhər” çatdırıb.

Hər yazı, hər nömrə çətinliklə başa gəlirdi. Bir çox hallarda hərbçilər jurnalistlərə hədə-qorxu gəlir, onları təqib edirdilər. “Qara Yanvar dialoqu”nda Şakir Yaqubov deyir: “...Komendantlığın Nəsimi rayon şöbəsindən üçüncü dəfə, axşam saat səkkizin yarısında kor-peşiman qayıtdım. Gecə işi üçün buraxılış vərəqəsi vermədilər bizə. Bir kapitanla ağızlaşaraq: “Nə haqla bizə buraxılış vərəqəsi vermirsiniz? Biz yarım milyon tirajla çıxan qəzetik, MK-nın orqanıyıq” - deyə etirazımı bildirərkən qonşu otaqdan çıxıb bizə yaxınlaşan nataraz polkovnikin acıqlı sözləri indi də qulaqlarımda səslənir: “Hansı qəzetdir o? Milli dildə çıxan qəzet? Tüpürüm sənin MK-na da, qəzetinə də!.. Lazım deyil sənin qəzetin heç kimə! Çıxırsa, qoy “Vışka” çıxsın, “Bakinski raboçi” çıxsın...” Və bir də etirazıma cavab: “İndi səni otuz sutkalığa qoduqluğa atarıq, onda bilərsən ki, sovet zabiti kimdir və onunla ağız-ağıza vermək nə deməkdir!” Onsuz da bəlli idi ki, sovet zabiti kimdir və onunla ağız-ağıza vermək nə deməkdir: gündüz ana torpağa tapşırdığımız şəhidlərin al qanını səkilərdən, yollardan hələ yumamışdılar...”

Nəhayət, deyilənlərə bir məqamı da əlavə etmək istərdik. Həmin dəhşətli gündə və ondan sonrakı ağır dövrdə qəzet buraxan, məqalələr yazan həmkarlarımız artıq yaşa dolublar, hamısının saçına dən düşüb. O vaxt, ölümü, bax beləcə, gözünün altına alıb öz vətəndaşlıq borcunu yerinə yetirəndə, qələmə sarılıb Vətəninin müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizəyə başlayanda isə hamısı cavan idi. Bakının qanlı küçələri ilə addımlayıb redaksiyaya, mətbəəyə, tapşırıq yerinə yetirməyə gedəndə evdən hərəsinin arxasınca iki-üç körpə boylanırdı... Onların özləri isə ölümün gözünə dik baxırdılar!

Bax beləcə, tarix yaxşını da, yamanı da öz yaddaşında möhkəm mühafizə edib saxlayır. Onun pis əməl sahiblərinə qarşı ittihamı böyük olur. Tarixin səhifələrindən yaxşı əməllər barədə xəbər tutan yeni-yeni nəsillər isə bu əməllərin sahiblərinə minnətdar duyğular bəsləyirlər.

**“Azərbaycan”.-**2015.-16 yanvar.-N 11.-S.10.

## Qanlı yanvar gecəsi

**İlham Abbasov,**
Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının baş müəllimi- hüquq üzrə fəlsəfə doktoru,
Baş ədliyyə müşaviri prokurorluğun fəxri işçisi

***Hər bir şəhid bizdən ötrü böyük itkidir. Onların xatirəsi bizim üçün əzizdir, qəlbimizdə daim yaşayacaqdır.***

**Ümummilli lider Heydər Əliyev**

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinə, həmişə dünyada sülh ordusu kimi qələmə verilən, Sovet ordusunun xüsusi təyinatlı dəstələri və daxili qoşunların iri kontingenti Azərbaycanın bir neçə rayonuna, keçmiş Sovet İttifaqının qoşun hissələri fövqəladə vəziyyət elan edilmədən yeridilmiş, dinc əhaliyə divan tutulmuş, yüzlərlə insan qətlə yetirilmiş, yaralanmış, itkin düşmüşdür. Sovet ordusunun xüsusi təyinatlı dəstələri və daxili qoşunların iri kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklərlə müşayiət edilmişdir.

Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışlar. Fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürülmüşdür. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda - yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdir.

Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və respublika rayonlarında 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdur. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və çoxsaylı şəxsi əmlak məhv edilmişdir. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milis nəfərləri olmuşdur. Keçmiş SSRİ Konstitusiyası, keçmiş Azərbaycan SSR Konstitusiyası kobudcasına pozulmuş, Azərbaycan Respublikasının suveren hüquqları tapdalanmışdır.

Yanvarın 22-də Bakıda şəhidlərin izdihamlı dəfn mərasimi təşkil edildi. Lakin təpədən-dırnağa qədər silahlanmış, "müzəffər sülh ordusu" kimi dünya ictimaiyyətinə həmişə təqdim edilən Sovet ordusu hissələrinin qarşısına xalqı çıxaranlar, hətta iqtidar nümayəndələri də dəfn mərasimində iştirak etməyi lazım bilmədilər.

Yalnız o zaman Moskvada məcburi istefaya göndərilmiş ümummilli lider Heydər Əliyev özünün və yaxınlarının həyatını təhlükə qarşısında qoyaraq, yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, buraya yığışmış azərbaycanlılar qarşısında çıxış etmiş, keçmiş SSRİ rəhbərliyinin, o cümlədən Mixail Qorbaçovun xalqımıza yabançı siyasətini çıxışında kəskin tənqid etmişdir. Ümummilli lider Heydər Əliyev çıxışında demişdir: "İndi yanvarın 19-dan 20-nə keçən gecə baş vermiş və bu gün də davam edən faciənin üstündə dayanmaq istəyirəm. Hesab edirəm ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur. Təəssüf ki, Azərbaycan rəhbərliyi, həmçinin ölkənin ali siyasi rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir".

Həqiqətən həmin vaxt Bakıda daxili qoşunların 12000 canlı qüvvəsi vardı. Bundan əlavə Bakıda keçmiş Sovet ordusu hissələrinin canlı qüvvəsi və polis orqanlarının (o zamankı milis orqanlarının- İ.A.) əməkdaşları vardı. Bununla da Bakıda baş vermiş hadisələrin qarşısını almaq mümkün idi. Ümummilli lider Heydər Əliyev həmin çıxışında SSRİ rəhbərliyinin, o cümlədən Mixail Qorbaçovun siyasətini bəyanatında kəskin tənqid etmişdir.

Ümummilli lider Heydər Əliyev, həmçinin 21 yanvar 1990-cı ildə Azərbaycan KP Mərkəzi Komitəsinə, Ali Sovetə, Nazirlər Sovetinə, Azərbaycan xalqına 20 Yanvar faciəsi ilə əlaqədar başsağlığı teleqramı göndərmiş, teleqramın respublika mətbuatında dərc olunmasını, radio və televiziya ilə verilməsini, matəm mitinqində oxunmasını xahiş etsə də, həmin teleqramın rəsmi mətbuatda dərc edilməsi belə məsləhət bilinməmişdir.

Keçmiş SSRİ Ali Sovetinin Rəyasət Heyəti 15 yanvar 1990-cı il tarixdə "Dağlıq Qarabağ Muxtar Vilayətində və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında" Fərman qəbul etmişdir. Fərmanın 1-ci maddəsində keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin, keçmiş Azərbaycan SSR-in ona bitişik rayonların, Ermənistan SSR Gorus rayonunun ərazisində, habelə Azərbaycan SSR ərazisində SSRİ-nin dövlət sərhədi boyunca sərhədyanı zonada fövqəladə vəziyyət elan edilməsi nəzərdə tutulurdu.

Beləliklə, Fərmanda Bakıda fövqəladə vəziyyət elan edilməsi nəzərdə tutulmamışdı. Yalnız keçmiş SSRİ Ali Soveti Rəyasət Heyətinin 19 yanvar 1990-cı il tarixli Fərmanı ilə SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanının təsirini Bakı şəhərinin ərazisində şamil etməklə, 1990-cı il yanvarın 20-dən Bakıda fövqəladə

vəziyyət elan edilmişdir. Lakin “Fövqəladə vəziyyətin hüquqi rejimi haqqında” keçmiş SSRİ Qanunu isə yalnız 3 aprel 1990-cı il tarixdə, başqa sözlə, həmin faciə baş verdikdən 2 ay 16 gün sonra qəbul edilmişdir.

Beləliklə, fövqəladə vəziyyətin hüquqi rejimi haqqında müvafiq qanun mövcud olmadığı, fövqəladə vəziyyətin hüquqi rejiminin anlayışı, əsasları və qaydası müəyyən edilmədiyi halda Bakı şəhərində qanunsuz olaraq fövqəladə vəziyyət elan edilmişdir.

1990-cı il yanvarın 19-20-də Bakı şəhərinə qoşunların yeridilməsi ilə əlaqədar faciəli hadisələrin təfsilatının və səbəblərinin təhqiqi üzrə Azərbaycan Respublikası Ali Sovetinin deputat-istintaq komissiyasının yaradılmasına və Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının 19 yanvar 1992-ci il tarixli iclasında həmin komissiyanın işinin yekunlarının müzakirə edilməsinə baxmayaraq, 1994-cü ilə qədər bu məsələyə siyasi-hüquqi qiymət verilməmişdir. Yalnız ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan Respublikası Milli Məclisinin 29 mart 1994-cü il tarixli iclasında 1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr müzakirə edilmiş və bu hadisələrə siyasi-hüquqi qiymət verilmişdir.

20 Yanvar hadisələri ərəfəsində keçmiş Sovet İttifaqı Kommunist Partiyasının rəhbərliyinin xalqın mənafeyinə zidd olan siyasəti, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı Mərkəzin, şəxsən Mixail Qorbaçovun apardığı qeyri-obyektiv və qərəzli xətti geniş xalq kütlələrinin qəzəbinə səbəb olmuşdur.

Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının “1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında” 29 mart 1994-cü il tarixli qərarının 1-ci bəndində Azərbaycanda vüsət tapmış milli azadlıq hərəkatını boğmaq, demokratik və suveren bir dövlət yaratmaq amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və belə bir yola qədəm qoyan hər hansı xalqa Sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə 1990-cı il yanvarın 20-də Sovet Silahlı Qüvvələrinin Bakı şəhərinə yeridilməsi, nəticədə haqq və ədalətin müdafiəsi naminə küçələrə çıxmış silahsız adamların qəddarcasına qətlə yetirilməsi Azərbaycan xalqına qarşı totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirilmişdir.

Türk dünyasının böyük şairi Bəxtiyar Vahabzadə “Şənbə gecəsinə gedən yol” məqaləsində yazmışdır: “Qarabağ hadisələri başlanandan indiyə qədər əlimə qələm alanda bütün vücudum lərzəyə gəlir. Zülmün və haqsızlığın bu dərəcədə ola biləcəyini təsəvvürümə gətirə bilmirəm”.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: “Azadlıq, müstəqillik uğrunda, Vətən uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur”.

Bu matəm günü ərəfəsində biz bir daha çağdaş milli azadlıq mübarizəsinin öncülləri, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində örnək olan şəhidlərimizə Allahdan rəhmət diləyirik.

**“İki sahil”.**-2015.-15 yanvar.-№ 8.-S.10.

## 20 YANVAR - müdhiş cinayət

**Paşa ƏMİRCANOV**

**Azərbaycan tarixinin ən qanlı səhifələrindən biri olan 20 Yanvar faciəsindən 25 il keçir. Aradan bu qədər müddət keçməsinə baxmayaraq, 20 Yanvar gecəsində xalqımızın kürəyinə vurulmuş ağır yara hələ də sızlamaqda, təkcə o qırğınların şahidi olmuş insanların deyil, o faciəli günləri gözləri ilə görməmiş gənc nəslin belə ürəyini ağrıtmaqdadır.**

Əlbəttə, 20 Yanvar faciəsi, eləcə də keçən əsrin 80-ci illərinin sonlarından başlayaraq Azərbaycan xalqının tarixinə qanla yazılmış digər səhifələr hələ uzun zaman unudulmayacaq. Bu mövzu hələ uzun müddət tarixçilərimizin araşdırmalarına, yazıçı və şairlərimizin dəyişməz mövzusuna, vətəndaşlarımızın fəryadına səbəb olacaq. Üstəlik, bu, təkcə başımıza gələn bəlanın böyüklüyü, ağırlığı ilə deyil, həm də günahsız insanlarımızın qanını tökmüş naxələflərin hələ də dünya üzündə cəzasız gəzməsi ilə bağlıdır. Aradan 25 il keçsə də, istər o dövrdə keçmiş SSRİ rəhbərliyində təmsil olunmuş sərəncamçı qatillər, istərsə də Bakı küçələrində millətinin ədalət hayqırtısını müdafiəyə qalxmış əliyalın, günahsız insanları öz qanında boğmuş icraçı qatillər öz layiqli cəzalarını almayıb. Təbii ki, SSRİ-nin sabiq rəhbəri Mixail Qorbaçov başda olmaqla.

20 Yanvar faciəsi, şübhəsiz ki, xalqımızın tarixində ən amansız, ən qəddar bir səhifə kimi min illərin o başından da aydınca görünəcək. Amma bu, Azərbaycanın Rusiya imperiyasının tərkibinə daxil olmasından sonra baş vermiş heç də ilk belə qəddarlıq deyil. Məhz Rusiya imperiyasının əsarətinə keçdikdən sonra xalqımızın bir-birindən ağır faciələri başlanmışdır. Tarixi torpaqlarımıza ermənilər köçürülmüş, ərazilərimizdə milli-etnik münaqişələrin əsası qoyulmuş, ayrı-ayrı regionlarımız qan çanağına dönmüş, İrəvan quberniyası və ətraf ərazilərdə ermənilər üçün dövlət yaradılmış, 1923-cü ildə Qarabağın dağlıq hissəsində qondarma erməni muxtar vilayəti formalaşdırılmışdı.

Bütün bunlar Rusiyanın Azərbaycanın türk-müsəlman əhalisinə ciddi təzyiqləri, bəzən də yeri gəldikcə sərt cəzalandırma tədbirləri nəticəsində mümkün olmuşdu. 1918-1920-ci illərdə bütün ölkə boyu xalqımıza qarşı əsl soyqırımı siyasəti həyata keçirilmiş, 1949-1953-cü illərdə SSRİ hökumətinin qərarı ilə Qərbi Azərbaycan torpaqlarından yüz minlərlə soydaşımız deportasiya edilmişdi. Elə 1988-ci ildə Dağlıq Qarabağda başlanmış separatçı hərəkat da SSRİ-nin süqutu fonunda heç bir günah sahibi olmayan Azərbaycan xalqını cəzalandırmaq, özlərini Rusiya imperiyasının sadiq nökəri kimi təqdim etməyi bacarmış erməniləri yeni ərazi bəxşişləri ilə mükafatlandırmaq məqsədi daşıyırdı.

Keçən əsrin 80-ci illərinin axırlarında SSRİ-nin əliqanlı rəhbəri Mixail Qorbaçov Qərbdən aldığı göstərişlər əsasında imperiyanı dağıtmaq planları üzərində işləyirdi. Bu planları həyata keçirmək üçün ittifaq xalqları arasında nifaq toxumu səpmək ən yaxşı yol idi. Və ilk belə plan Qarabağda icra olunmağa başladı. Ermənilərin Azərbaycana qarşı ərazi iddiası irəli sürməsi, tarixi torpağımız olan Qarabağın dağlıq hissəsinin Ermənistana birləşdirilməsi ilə bağlı çıxışlar xalqımızın ciddi etirazına səbəb oldu. Belə ədalətsiz bir tələbin reallaşması ilə necə barışmaq olardı?! Bax, o zamandan da Azərbaycandan etiraz səsləri ucalmağa başladı. Təbii ki, SSRİ rəhbəri Mixail Qorbaçov Dağlıq Qarabağı ermənilərə bağışlamağa söz vermişdi və ortaya çıxmış münaqişədə birmənalı olaraq erməni tərəfinin mövqeyini dəstəkləyirdi. 1989-cu ildə SSRİ Ali Sovetinin qərarı ilə Dağlıq Qarabağ Muxtar Vilayətində yaradılmış Xüsusi İdarə Komitəsinin Azərbaycana qarşı qərəzli mövqeyi sayəsində muxtar vilayətin idarə-müəssisələrinin tədricən Azərbaycanın tabeçiliyindən çıxarılması, azərbaycanlıların Ermənistandakı tarixi torpaqlarından tamamilə deportasiya edilməsi, Moskvanın erməni separatçılarını cəzalandırmaq əvəzinə, Azərbaycan xalqının əl-qolunu bağlaması millətin səbir kasasını daşırmışdı.

Azərbaycanın haqq səsi rəsmi Moskva tərəfindən tamamilə qulaqardına vurulurdu. Azərbaycan əhalisi isə etirazını bildirmək üçün uzun müddət Azadlıq meydanında qərarlaşdı, davamlı mitinqlər başlandı. Ancaq sülhsevər və tolerant Azərbaycan xalqının ənənələrinə uyğun olaraq bütün etirazlar dinc xarakter daşıyır, heç bir zorakılığa yol verilmirdi. Sadəcə, Dağlıq Qarabağın Ermənistana verilməsinin mümkünsüzlüyü Moskva və İrəvanın diqqətinə çatdırılırdı.

Nəhayət, münaqişənin dərinləşdirilməsi məqsədilə SSRİ Dövlət Təhlükəsizlik Komitəsi tərəfindən Sumqayıt və Bakıda etnik ermənilərə qarşı zorakılıqlara rəvac verildi. Bu hadisə, ümumiyyətlə, Azərbaycan xalqının təbiətinə tamamilə yad bir məsələ idi. Özünün tolerantlığı ilə dünyada yaxşı tanınan azərbaycanlıların belə bir qəddarlığa yol verməsi ağlabatan deyildi. Bu zorakılıqları Moskvanın siyasi texnoloqları məhz azərbaycanlıları cəzalandırmaq üçün bəhanə kimi uydurub ortaya atmışdılar. Bununla da Moskva arzu etdiyi fürsəti əldə etdi və

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Dağlıq Qarabağın Ermənistana verilməsinə mane olmaq istəyən Azərbaycan xalqının iradəsini qırmaq üçün Bakıya böyük ordu yeritdi.

Bəzi məlumatlara görə, Bakıda ümumxalq etirazını boğmaq üçün SSRİ hökuməti 66 min nəfərlik canlı qüvvə, çoxlu sayda hərbi texnika göndərmişdi. Azərbaycan xalqını qanına qəltan etmək üçün göndərilmiş ordu hissələrinin tərkibinə ermənilərin yığcam yaşadıqları Stavropol, Rostov, Krasnodar və digər vilayətlərdən erməni əsilli qaniçənlər də daxil edilmişdi. Təkcə bu faktın özü sovet rəhbərliyinin xalqımıza qarşı düşmənçilik niyyətini təsdiq etmək üçün kifayətdir. Moskva qaniçənlərinin fikrincə, azərbaycanlıları ən qəddar formada cəzalandırmaq lazım idi və bunun üçün ermənilər daha çox kara gələ bilərdi. Və təəssüflər ki, belə də oldu. Əliyalın etirazçı insanlara qarşı görünməmiş qəddarlıqla davranıldı və ölüm statistikası yüksək rəqəmlərlə qeydə alındı.

Bakıda və Azərbaycanın bəzi rayonlarında fövqəladə vəziyyət elan edilməsi məsələsi də müəmmalı şəkildə həll edildi. Təcrübədən məlumdur ki, hər hansı bir yerdə fövqəladə vəziyyət elan edilərkən bu barədə əhaliyə əvvəlcədən məlumat verilir. Ancaq Azərbaycanda bu təcrübəyə də bilərəkdən əməl olunmadı. Əvvəlcə Bakı və başqa rayonlarda əhalinin güllələbaranına başlanıldı, aradan xeyli vaxt keçdikdən sonra isə fövqəladə vəziyyət elan olunduğu barədə məlumat verildi. Bu məlumatın verilməsinin özündə də bir müəmma, bir sirr gizlənmişdi.

Yəqin, hamı yaxşı xatırlayır ki, yanvarın 19-da axşam saatlarında Azərbaycan Televiziyasının enerji bloku məhz SSRİ DTK əməkdaşları tərəfindən partladıldı və Azərbaycan əhalisinin televiziya vasitəsilə hər hansı informasiya almasının qarşısı alındı. Bununla da, sovet qoşunlarının dinc əhaliyə qarşı atəşləri yanvarın 19-da axşam saatlarında başlamış olsa da, fövqəladə vəziyyətin tətbiqi barədə elan yalnız yanvarın 20-də gecə saatlarında verildi. O da radio vasitəsilə. Hətta paytaxt əhalisinin çox hissəsi bu xəbəri yalnız səhəri günü eşidə bilmişdi. Bu da Moskvanın Azərbaycan xalqına qarşı növbəti xəyanəti idi. Bakıda əhalinin güllələbaran edilməsinə isə əsasən o zaman SSRİ-nin Müdafiə naziri olmuş Dmitri Yazov və Daxili İşlər naziri Vadim Bakatin rəhbərlik etmişdilər. Sov.İKP MK-nın bir sıra rəsmi şəxsləri də o zaman Bakıda idilər və bu qanlı qırğına rəhbərlik edirdilər.

Həmin qanlı gecədə Bakı qan gölünə qərq oldu, küçələrdə güllələnmiş, yaralanmış günahsız insanların - qoca, qadın və uşaqların qanı axırdı. Azğınlaşmış əsgərlər yoldan keçən hər kəsə atəş açır, küçələr boyu sıralanmış yaşayış binalarını güllələbaran edir, hətta təcili yardım maşınlarına belə rəhm etmirdilər. Bəzi yerlərdə ağır hərbi texnikalar, tanklar adamların və minik maşınlarının üstündən keçirdi. Bununla da, Bakı əhalisi fövqəladə vəziyyət elan olunmasından xəbər tutana qədər artıq 82 nəfər amansızlıqla qətlə yetirilmiş, 20 nəfər ölümcül yaralar almışdı. Yanvarın 20-də və sonrakı günlərdə isə Bakıda 57 nəfər günahsız insan qətlə yetirilmişdi. Bütövlükdə isə cəmi bir neçə gün ərzində Bakıda və respublikanın rayonlarında 147 nəfərin həyatına son qoyulmuşdu. 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuş, onlardan 112 nəfəri SSRİ-nin müxtəlif şəhərlərinə aparılaraq həbsxanalara atılmışdı. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 maşın, o cümlədən, təcili tibbi yardım maşınları sıradan çıxarılmış, yandırıcı güllələrin törətdiyi yanğınlar nəticəsində külli miqdarda dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdi. Dəqiq hesablamalara görə, dövlət, ictimai və şəxsi əmlaka həmin dövrün qiymətləri ilə 5.637.286 rubl miqdarında maddi ziyan vurulmuşdu.

Amma bütün bunlara baxmayaraq, Azərbaycan xalqının iradəsini sındırmaq mümkün olmadı. Xalq öz azadlığı və müstəqilliyi uğrunda daha inadla mübarizə aparmağa başladı. Paytaxtda fövqəladə vəziyyət rejiminin hökm sürməsinə baxmayaraq xalq yanvarın 22-də öz şəhid övladlarını böyük ehtiramla dəfn etdi. 20 Yanvar şəhidlərimizin nəşi 1918-ci ildə Bakıda törədilmiş soyqırımı qurbanlarının dəfn olunduğu Şəhidlər xiyabanında torpağa tapşırıldı. Şəhidlər xiyabanı azadlığın rəmzi olan qırmızı qərənfillərlə bəzədildi. Moskvanın bütün təzyiqlərinə baxmayaraq, Azərbaycan xalqı milli adət-ənənəsinə uyğun şəkildə şəhidlərinə yas tutdu. Bütün idarə və müəssisələrdə iş dayandırıldı və bu proses 40 gün - şəhidlərin 40-ı çıxana qədər davam etdi. Hamımızın yadındadır ki, Bakıdakı bütün dövlət müəssisələrində iclaslar keçirilirdi ki, bu cür davam edə bilməz, işə başlamaq lazımdır. Amma bu cəhdlər heç bir nəticə vermədi, xalq öz şəhidlərinə ehtiramını sona qədər qoruyub saxladı.

Amma, o faciəli günlərdə öz xalqına xəyanət etmiş, Bakıya qoşun yeridilməsinə icazə vermiş milli satqın rəhbərlər üzə çıxmadılar. Respublika KP MK-nın o vaxtkı birinci katibi Əbdürrəhman Vəzirov, ümumiyyətlə, itib-batdı və çox sonralar məlum oldu ki, Bakının atəş altına düşdüyü anlardaca ölkəni qoyub Moskvaya qaçıb. Bir çox başqa vəzifə sahibləri də xalqın gözünə görünməyə çox gec cəsarət tapdılar. Xalqı tankların qabağına çıxarmış, sovet ordusunun Bakıya girməsinə mane olmağa çağırmış, bunun üçün insanları xüsusi nəqliyyat vasitələri ilə müvafiq yerlərə daşımış Xalq Cəbhəsinin üzdəniraq liderləri də uzun müddət qeybə çəkilmişdilər.

O ağır günlərdə yalnız Moskvada yaşayan xalqımızın böyük oğlu Heydər Əliyev özünün etiraz səsini ucaltdı. O, yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək xalqla həmrəy olduğunu bildirdi,

Bakı qırğınının günahkarlarını, o cümlədən, şəxsən Qorbaçovu ittiham etdi. Elə 20 Yanvar faciəsinə dövlət səviyyəsində əsl siyasi-hüquqi qiymət verilməsi məsələsi də ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra mümkün oldu. Ona qədər bəzi istintaq hərəkətləri aparılmış olsa da, faciəyə müvafiq qiymət verilməmişdi. Bu missiyanı həyata keçirmək üçün özündə cəsarəti də Heydər Əliyev tapdı. Onun təşəbbüsü ilə 1994-cü ilin fevral ayında Milli Məclisin xüsusi sessiyası keçirildi və faciənin əsl qiyməti verildi. Baş vermiş hadisələr Azərbaycan xalqına qarşı totalitar kommunist rejimi tərəfindən törədilmiş hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. Xalq hərəkatını boğmaq üçün 20 Yanvar faciəsini təşkil etmiş Sovet İttifaqı Kommunist Partiyası, sovet dövləti və hökuməti rəhbərliyinin, o cumlədən, şəxsən Mixail Qorbacovun Azərbaycan xalqına qarşı ağır cinayət törətdiyi qeyd olundu. Eyni zamanda, respublikanın o vaxtkı rəhbərləri Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov (Nazirlər Sovetinin sədri), Viktor Polyanicko (Azərbaycan KP MK-nın ikinci katibi) və Vaqif Hüseynovun (Azərbaycan DTK-nın sədri) siyasi məsuliyyət daşıdığı, onların Azərbaycan xalqına xəyanət etdikləri qeyd olundu.

Bununla yanaşı, şəhidlərimizin əsl qiymətini qədirbilən xalqımız verdi. 1990-cı ilin 20 yanvarından bəri hər il o qırğın günü milyonlarla vətəndaşımız Şəhidlər xiyabanına gələrək şəhid balalarına hörmət və ehtiramını izhar edir, Allahdan rəhmət diləyir, şəhid məzarları üzərinə tər çiçəklər qoyur. Bu, artıq milli ənənə şəklini alıb. Əslində bu cür izdihamlı anım mərasimini heç bir sərəncamla, əmrlə icra etmək mümkün deyil. Bu, ümumxalq sevgisi, ümumxalq ehtiramıdır.

Azərbaycan dövləti isə Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra 20 Yanvar şəhidlərinin ailələrinə qayğı və diqqətini ildən-ilə artırmaqdadır. Prezident İlham Əliyevin diqqəti sayəsində bu qayğı hazırda ən yüksək səviyyədədir. Əlbəttə, belə də olmalıdır. Çünki şəhidlərimiz milli azadlıq mübarizəmizdə ilk qurbanlarımız olaraq bizi istiqlal uğrunda savaşda daha da cəsarətli olmağa ruhlandırıb. Azərbaycan məhz onların şücaəti sayəsində sovet imperiyasının qanlı caynağından qopub müstəqillik qazana bildi. Gəlin bu igid oğul və qızlarımızın ruhu naminə azadlıq və müstəqilliyimizi möhkəmləndirmək üçün var gücümüzlə çalışaq! Allah şəhidlərimizə rəhmət eləsin!

**“Xalq qəzeti”.-**2015.-15 yanvar.-N 10.-S.5.

## 20 Yanvar faciəsinə ilk etirazı Heydər Əliyev bildirdi

**Rəşad CƏFƏRLİ**

**Süquta məhkum olmuş sovet rejimi özünün son günlərində bütün mövcudiyyəti ərzində törətmiş olduğu cinayətlər sırasına misli görünməmiş bir faciəni də əlavə etdi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinə yeridilən sovet ordusu hissələri Ermənistanın respublikamıza qarşı ərazi iddialarının SSRİ rəhbərliyi tərəfindən açıq-aşkar dəstəklənməsinə və Azərbaycanın o zamankı rəhbərliyinin xəyanətkar siyasətinə etiraz əlaməti olaraq ayağa qalxmış xalqımıza vəhşicəsinə divan tutdu.**

### Müdhiş gecə

25 il əvvəl yanvarın 20-nə keçən gecə M.Qorbaçovun göstərişi ilə Bakıya qoşun yeridildi. Azərbaycanı informasiya blokadasına almaq və xalqın haqq səsini boğmaq üçün SSRİ DTK-nın “Alfa” qrupu respublika televiziyasının enerji blokunu partlatdı. Televiziya susduruldu, kütləvi informasiya vasitələri üzərinə, qəzet və jurnalların nəşrinə qadağalar qoyuldu. Beləliklə, Azərbaycan tam şəkildə blokadaya düşdü, əhali hər hansı bir məlumat almaq mənbəyindən məhrum oldu.

Bakıya qoşun yeridiləndə isə tanklardan, zirehli transportyorlardan, piyadaların döyüş maşınlarından istifadə edildi. Zirehli texnikanın üstündə nömrələr yox idi. Qırmızı Bayraq ordenli Xəzər Hərbi Dəniz Donanmasının gəmilərindən desant çıxarılmışdı. Tanklar və ZTR-lər Bakı küçələrində qarşılarına çıxan hər şeyi əzir, hərbçilər hər yanı amansız atəşə tuturdular. İnsanlar nəinki küçələrdə, hətta avtobusda gedərkən, öz mənzillərində oturduqları yerdə güllələrə tuş gəlirdilər. Azğınlaşmış hərbçilər yaralıları aparmağa gələn təcili yardım maşınlarını və tibb işçilərini də atəşə tuturdular.

SSRİ Müdafiə Nazirliyinin, DİN və DTK-nın hazırlayıb həyata keçirdiyi “Udar” adlı əməliyyatda əsas rolu xüsusi təyinatlı “Alfa” və SSRİ DTK-nın “A” təxribat qrupları oynayırdı. Sonradan isə məlum oldu ki, Bakıya hücum çəkib, qırğın törədən hərbi hissələrin şəxsi heyəti arasında cinayətkarlar və ermənilər də olub. Beləliklə, sovet qoşunlarının təcavüzü nəticəsində təkcə Bakı şəhərində 131 nəfər xüsusi amansızlıqla qətlə yetirildi, 800 nəfərdən çox adam yaralandı. Vəhşiləşmiş hərbçilər tərəfindən 200 ev və mənzil talan edilərək yandırıldı, 80 avtomaşın, o cümlədən təcili yardım maşını, külli miqdarda şəxsi və dövlət əmlakı məhv edildi. Ölkənin baş meydanındakı tribunadan SSRİ rəhbərliyini hədələyənlər və xalq hərəkatına rəhbərlik etdiklərini bildirənlər, özlərini “liderlər” adlandıranlar isə faciə zamanı xalqla birgə olmadılar. Bu isə onların bir daha hakimiyyətə gəlmək üçün oyunlar oynadığını və bu məqsədlə xalqı qırğına verməyə belə hazır olduqlarını göstərirdi.

Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız ertəsi gün şəhər hərbi komendantı Dubinyakın radio ilə çıxışında və vertolyotlardan səpilən vərəqələrdə bildirildi. Halbuki Qorbaçovun Azərbaycana ezam etdiyi yüksək vəzifəli emissarlar həyasızcasına bəyan edirdilər ki, Bakıda fövqəladə vəziyyət elan olunmayacaq.

Ən acınacaqlı hal isə burası idi ki, respublika rəhbərliyi də əvvəlcədən xalqa xəyanət yolu tutaraq bu qəsdin qarşısını almaq üçün heç bir tədbir görmədi, cinayətin iştirakçısı ola-ola zahirən hadisələrdən kənarda qalmağa çalışdı. Moskvanın qabağında həmişə mütilik və satqınlıq nümunəsi göstərən, faciə törənən gecə isə qorxusundan tələm-tələsik respublikadan qaçan Ə.Vəzirov, həmin günlərdə Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi seçilən A.Mütəllibov bu dəhşətli faciənin izlərini nəyin bahasına olursa-olsun ört-basdır etməyə, xalqın haqq səsini fövqəladə rejim tətbiq etməklə boğmağa çalışırdı.

### Sovet rəhbərliyinə ilk və ən kəskin etiraz səsini ucaldan ulu öndər Heydər Əliyev oldu

O ağır günlərdə faciə ətrafında xəyanət sükutunu ilk yaran Heydər Əliyevin haqq səsi oldu. Faciənin ertəsi günü ilk dəfə olaraq Heydər Əliyevin Azərbaycan xalqına qarşı törədilən cinayətə, qanlı təcavüzə qarşı etiraz səsi ucaldı. Təbii ki, milli-azadlıq istəyi ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədi ilə həyata keçirilən bu müdhiş faciə qəlbi Vətən eşqi ilə döyünən xalqın mərd və mübariz oğlunu narahat etməyə bilməzdi. Çünki dahi insan, uzaqgörən şəxsiyyət yaxşı bilirdi ki, bu faciə totalitar kommunist rejiminin Azərbaycan xalqına qarşı hərbi təcavüzü və cinayətidir. Heydər Əliyev hadisənin ertəsi günü Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək

keçirdiyi mətbuat konfransında bu vəhşiliyi qətiyyətlə pisləməklə yanaşı, onun törəmə səbəblərini də açıqladı, təşkilatçılarının, günahkarlarının adını bütün dünyaya bəyan etdi:

"Əziz həmvətənlərim, xanımlar və cənablar!

Bildiyiniz kimi, uzun illər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində işləmiş, Sov. İKP MK Siyasi Bürosunun üzvü olmuşam. Geniş infarkt keçirmişəm. Xəstəliyimlə əlaqədar iki ildən artıqdır ki, pensiyadayam. Azərbaycanı tərk etdiyim 1982-ci ilin dekabrından keçən müddətdə bu gün ilk dəfədir ki, Azərbaycan SSR-in Moskvadakı daimi nümayəndəliyinin astanasına qədəm qoyuram. Mən baş vermiş hadisələr haqqında dünən xəbər tutmuşam və təbiidir ki, bu hadisəyə laqeyd qala bilməzdim. Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı daimi nümayəndəsi Söhrab İbrahimovdan xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm.

Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm. Azərbaycanda yaranmış mürəkkəb vəziyyətin bir sıra səbəbləri vardır. Vaxtımızın məhdudluğundan bu məsələlərin üzərində ətraflı dayanmaq istəmirəm. Artıq iki ildir ki, Azərbaycan və Ermənistan arasında millətlərarası münaqişə gedir. Həmin münaqişəni Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr törətmişdir. Azərbaycan və Ermənistan, eləcə də ölkənin ali siyasi partiya rəhbərlərinə bu məsələni tənzimləmək, daxili müharibəyə, millətlərarası münaqişəyə son qoymaq və milli mənsubiyyətindən asılı olmayaraq hər bir adamın ümumi federativ ittifaq olan SSRİ-də azad yaşamasına şərait yaratmaq üçün iki illik müddət kifayət idi. Hesab edirəm ki, ötən iki ildə bu istiqamətdə lazımi səviyyədə iş aparılmamışdır. Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı.

Bunlar üçün ilk növbədə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin artıq sabiq birinci katibi Vəzirov müqəssirdir. Bu yüksək vəzifədə olduğu müddətdə o, Azərbaycandakı vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə, özünün səhv addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurum yaratmışdır. Xalq isə hiddətlənmişdir. Elə buna görə də Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında aylarla davam edən mitinqlərdə dəfələrlə Azərbaycanın partiya rəhbərlərinin istefası tələbi irəli sürülmüşdür. Söhbət əslində Vəzirovun istefasından gedirdi. Bəs bu məsələ indiyə kimi niyə həll olunmamışdır?

Yalnız dünən Bakı şəhərinə ordu yeridildikdən, qırğın və dağıntılar baş verdikdən sonra Vəzirov Azərbaycandan əslində qaçmışdır. Bu, böyük səhvdir. Ən böyük səhv isə sözsüz ki, qeyri-ciddi, bu yüksək vəzifəyə əsla yaramayan adamın bir vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə birinci katib təyin edilməsi idi.

Ancaq, iş təkcə bununla bitmir. İndi yanvarın 19-dan 20-nə keçən gecə baş vermiş və bu gün də davam edən faciənin üstündə dayanmaq istəyirəm. Hesab edirəm ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur. Təəssüf ki, Azərbaycan rəhbərliyi, həmçinin ölkənin ali siyasi rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir. Sərhədlərə edilən təcavüzü vaxtında aradan qaldırmaq mümkün idi. Axı üç ay əvvəl sərhəd zolağı ilə bağlı camaat öz tələblərini irəli sürmüşdü. Fəqət heç kəs onlarla görüşmək, izahat işi aparmaq və lazımi ölçü götürmək istəməmişdir. Təkrar edirəm: camaatı sakitləşdirmək üçün də imkanlar tükənməmişdi. İki-üç ay əvvəl Azərbaycan partiya rəhbərliyinin möhkəmləndirilməsi məsələsi həll edilsə idi, vəziyyət gərginləşməz, ordu yeridilməsinə zərurət yaranmazdı. Bütün vəziyyətlərdə hesab edirəm ki, məsələni siyasi cəhətdən tənzimləmək, xalqla mükaliməyə girmək üçün əlverişli imkanlar olmuşdur. Lakin onlardan səmərəli istifadə edilməmişdir. Nəhayət, 19-dan 20-nə keçən gecə sovet ordusunun, SSRİ DİN-in böyük kontingenti Bakı şəhərinə yeridilmişdir. Nəticəsi isə göz qabağındadır. Bunun törətdiyi faciələr hamımıza məlumdur. Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Bəli, kobud siyasi səhv buraxılmışdır. Onlar, sadəcə olaraq, respublikadakı əsl vəziyyəti qiymətləndirə bilməmiş, Azərbaycan xalqının psixologiyasını anlamamış, əhalinin müxtəlif təbəqələri ilə əlaqələri zəiflətmişlər. Onlar, görünür, bu işlərin belə ağır faciəyə çevriləcəyini əvvəlcədən düşünməmişlər.

Bütün bunlar qabaqcadan nəzərə alınmalı və vaxtında vacib, zəruri tədbirlər qəbul edilməli idi. Ordu yeridilmiş, günahsız adamlar həlak olmuşlar. Yeri gəlmişkən deyim ki, ölənlər arasında hərbi qulluqçuların olması haqqında da məlumatlar daxil olur. Sual olunur: ölkənin ali dövlət, partiya rəhbərliyinin səhv qərarı ucundan, olmayan qiyamı yatırtmaq adı ilə Azərbaycana göndərilmiş rus gənclərinin günahı nədir? Azərbaycana

kənardan böyük ordu kontingenti yeridilmişdir. Respublikada neçə ordu birləşməsinin olduğu mənə yaxşı bəllidir. Azərbaycanda kifayət qədər - 4-cü ordu, Xəzər Hərbi Dəniz Donanması, desant qoşunlarının diviziyası, Hava Hücumundan Müdafiə Qoşunları, DİN-in daxili qoşun birləşmələri vardır. Oraya əlavə qoşun yeritmək nəyə lazım idi? Əgər belə zərurət var idisə, orada yerləşən hərbi hissələrdən də istifadə etmək olardı. Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə bərk ayaqda Azərbaycanı qoyub qaçmış Vəzirov, öz xalqı qarşısında məsuliyyət daşımalıdır. Ölkənin ali siyasi rəhbərliyinə yanlış məlumat verənlər də məsuliyyət daşımalıdır. Zənnimcə, ölkənin ali siyasi rəhbərliyinə vəziyyət barədə vaxtında kifayət qədər düzgün, dəqiq, obyektiv informasiyalar çatdırılmamışdır. Rəhbərlik çaşqınlığa salındığından belə qərar qəbul etmişdir. Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır".

Heydər Əliyev bu bəyanatı verməklə ittifaq rəhbərlərinin kəskin təzyiq və təsirlərinə məruz qalacağını gözləri önünə gətirsə də, özünəməxsus qətiyyət və cəsarət nümayiş etdirdi. Həyatının hər an təhlükədə olmasına baxmayaraq qətiyyətlə bütün dünyaya faciənin hüquqi-demokratik prinsiplərə zidd olduğunu, Azərbaycan xalqına qarşı hərbi təcavüzün SSRİ və Azərbaycan SSR rəhbərliyi tərəfindən həyata keçirildiyini bəyan etdi.

Elə həmin gün Heydər Əliyev Azərbaycan xalqına başsağlığı teleqramı göndərdi. Teleqramda deyilirdi: "Bakı şəhərinə sovet ordusu hissələrinin yeridilməsi ilə əlaqədar xalqımızın başına gəlmiş faciədən - dinc əhalinin qırılmasından böyük ürək ağrısı ilə xəbər tutdum. Bu matəm günündə həlak olanların ailələrinə və yaxınlarına, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm. Mən bu düşünülmüş aksiyanı pisləyir, onu antihumanist, antidemokratik, qanunazidd hesab edirəm. Bu ağır gündə sizi ağıllı-kamallı olmağa, həmrəyliyə və birliyə çağırıram".

**1992-ci ildə Milli Şura tərəfindən qəbul edilmiş səthi və başdansovdu qərar xalqa xəyanət idi**

Ulu öndər Heydər Əliyev Azərbaycana qayıtdıqdan sonra da 20 Yanvar faciəsinin araşdırılmasını və bu hadisəyə hüquqi-siyasi qiymətin verilməsi məsələsini diqqətində saxladı. Məhz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi "1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərarda 20 Yanvar faciəsinə ilk hüquqi-siyasi qiymət verildi.

1993-cü ildə xalqın istəyi ilə hakimiyyət sükanı arxasına keçən ulu öndər işlərinin çoxluğuna baxmayaraq 20 Yanvar faciəsinin başvermə səbəblərinin və günahkarlarının araşdırılmasına diqqət ayırdı. Heydər Əliyevin 1994-cü il yanvarın 5-də 20 Yanvar faciəsinin dördüncü ildönümünün keçirilməsi ilə bağlı verdiyi fərmanda Milli Məclisə faciəyə tam siyasi-hüquqi qiymət verməsi tövsiyə olundu. Bundan sonra aparılan araşdırmalar nəticəsində məlum oldu ki, 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməməsində maraqlı olan qüvvələr var imiş. 1991-1993-cü illərdə hakimiyyətdə qalmaq istəyən iqtidar, hakimiyyətə gəlmək istəyən müxalifət nümayəndələri bu dəhşətli faciədən yararlanmaq istəyirmişlər.

Heydər Əliyev 1994-cü il yanvarın 12-də dövlət komissiyasının geniş iclasında Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının 1992-ci il 19 yanvar tarixli qərarını xatırladaraq bu qərarda yanvar hadisələrinin əsl səbəblərinin açıqlanmadığını, həqiqi günahkarların aşkar edilmədiyini, iki il ərzində həmin qərarın özünün yerinə yetirilmədiyini nəzərə çatdırdı.

Respublika səviyyəsində 20 Yanvar faciəsinə tam hüquqi-siyasi qiymətin verilməməsini ciddi tənqid edən Heydər Əliyev 1992-ci ildə Milli Şura tərəfindən qəbul edilmiş səthi və başdansovdu qərarın xalqa xəyanət olduğunu bəyan etdi.

1994-cü il martın 29-da Milli Məclis tərəfindən "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" xüsusi qərar qəbul edildi. Qərarda 1990-cı ilin 20 Yanvar hadisələri Azərbaycanda vüsət almış milli-azadlıq hərəkatını boğmaq, demokratik və suveren bir dövlət amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və belə bir yola qədəm qoyan xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. Sənəddə Sovet İttifaqı Kommunist Partiyasının, sovet dövləti və hökumətinin, həmçinin Azərbaycan rəhbərliyinin xalqımıza xəyanət etdikləri siyasi-hüquqi müstəvidə öz əksini tapdı. Konkret şəxslərin bu qanlı faciənin törədilməsində məsuliyyət daşıdıqları və digər məsələlər də sənəddə qeyd olundu. Beləliklə, ulu öndər Heydər Əliyevin təkidi və təşəbbüsü sayəsində xalqımıza qarşı törədilən qanlı və qəddar aksiyaya dövlət səviyyəsində düzgün və əsl hüquqi-siyasi qiymət verildi.

**"Azərbaycan".-**2015.-14 yanvar.-N 10.-S.2.

**Qəhrəmanlıq tariximizin 20 Yanvar səhifəsi**

**İradə ƏLİYEVA**

**Azərbaycan xalqının qürur mücəssəməsinə çevrilən 1990-cı ilin 20 Yanvar hadisələrindən 25 il ötür. Ən yeni tariximizin şərəfli səhifələrindən biri sayılan 20 Yanvar xalqımızın azadlıq, demokratiya və suverenlik uğrunda apardığı mübarizənin dönməzliyini bütün dünyaya nümayiş etdirdi, milli azadlıq hərəkatının müstəqilliyə doğru irəliləməsində ciddi dönüş nöqtəsi oldu.**

Azərbaycanın istiqlal tarixi çox faciələr görüb. Lakin qanlı 20 Yanvar hadisələri insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi bəşər tarixində əbədi qalacaqdır. Bu, keçmiş sovet hərb maşınının böyük bir millətə tuşlanmış amansız terror aktı idi. İllər keçdikcə xalqımız 20 Yanvar qırğınının əsl mahiyyətinin səbəblərini daha aydın şəkildə dərk edir və hər dəfə də haqsızlığın miqyası heç bir ölçüyə sığmadığı kimi, faciəyə aparan ədalətsiz siyasətin, daha doğrusu, xəyanətkarlığın hüdud tanımadığı dönə-dönə sübut olunur. Bu qanlı tarixi unutdurmaq üçün vaxtilə nə qədər təşəbbüslər oldu: qəzetlər buraxılmadı, dövlət televiziyasının enerji bloku partladıldı, ölkənin bütün kütləvi informasiya vasitələri iflic vəziyyətinə salındı. Hətta 20 Yanvar faciəsi zamanı baş vermiş hadisələr bilərəkdən təhrif edilərək yanlış yozuma və unutqanlığa məhkum olundu. Lakin xəyanətkarlar anlamırdılar ki, Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiqliyini, vətənin azadlığı və müstəqilliyi uğrunda ən ağır sınaqlara dözmək, hətta şəhid vermək qüdrətini bütün dünyaya göstərmək əzmindədir.

Bu qanlı tarix - 20 Yanvar faciəsi həm də SSRİ adlanan nəhəng imperiyanın iflasında da əsas amillərdən biri oldu.

Həmin gün 137 dinc insanın xüsusi qəddarlıqla qətlə yetirilməsi, 1000-ə yaxın vətəndaşımızın yaralanması, şübhəsiz, xalqımız üçün böyük dərd, faciə idi. Lakin bu hadisə eyni zamanda xalqımızın milli azadlıq və müstəqillik uğrunda mübarizəsinin kulminasiya, dönüş nöqtəsinə çevrildi.

Tarixi prizmadan yanaşdıqda aydın olur ki, 20 Yanvara aparan yol 1988-ci ilin ziddiyyətli hadisələrindən başlanır. Keçmiş imperiya rəhbərliyinin xeyir-duası ilə Ermənistanın Azərbaycana qarşı başladığı ərazi iddiaları nəticə etibarilə xalqımızın milli müstəqillik və istiqlaliyyət uğrunda mübarizəsinə impulslar verdi. Respublika vətəndaşları SSRİ rəhbərliyinin Azərbaycana qarşı məqsədli şəkildə həyata keçirdiyi məkrli plana etirazlarını bildirdi, Dağlıq Qarabağdakı ermənilərin separatçı və ekstremist hərəkətlərinin qarşısının alınmasını, haqq-ədalətin bərpa olunmasını tələb etdi. Bu zaman ərazisinin ilhaq edilməsi cəhdlərinə qarşı qətiyyətlə çıxan xalqımızın müqavimət əzmi daha da artmışdı. Rejimin həyata keçirdiyi repressiv tədbirlər Azərbaycanda bu hərəkatın qarşısını müəyyən qədər alsa da, əhalinin narazılığını qətiyyən boğa bilmədi.

1989-cu ildən etibarən ümumxalq etirazları yenidən bütün respublikanı bürüdü. Dağlıq Qarabağ Muxtar Vilayətini Azərbaycanın tabeliyindən çıxarmaq yolunda Moskvanın atdığı növbəti addım SSRİ Ali Soveti Rəyasət Heyətinin muxtar vilayətdə xüsusi idarəetmə forması yaratmaq haqqında 1989-cu il yanvarın 12-də verdiyi fərman oldu. Dağlıq Qarabağın idarə olunması mərkəzin nümayəndəsi A.İ.Volskinin başçılığı ilə yaradılmış Xüsusi İdarəetmə Komitəsinə həvalə edildi. SSRİ rəhbərliyi qəbul etdiyi rəsmi sənədlərində belə bir təsəvvür yaratmağa çalışırdı ki, regionda yaranmış vəziyyəti normallaşdırmaq üçün atdığı addımlarda həm Azərbaycana, həm də Ermənistana münasibətdə paritetlik mövqeyindən çıxış edir. Halbuki Azərbaycana, azərbaycanlılara qarşı qərəzli münasibət açıq-aşkar göz qabağında idi. Azərbaycanlılar hələ 1988-ci ildən əvvəl də SSRİ-nin mərkəzi kütləvi informasiya vasitələrində və Ermənistanın müxtəlif mətbu orqanlarında məqsədyönlü şəkildə həyata keçirilən ideoloji təcavüzə məruz qalırdılar. Bu, 1988-ci ildə Ermənistanda, eləcə də DQMV-də başlanmış kütləvi etnik təmizləmə əməliyyatının hazırlıq mərhələsi də hesab edilə bilərdi. Ermənistanda yaşayan azərbaycanlıların misli görünməmiş qəddarlıqla ata-baba yurdlarını tərk etməyə məcbur edilən zaman neçə-neçə soydaşımız, o cümlədən qocalar, qadınlar və uşaqlar qətlə yetirildi. Bütün bunlar SSRİ rəsmiləri tərəfindən tam sükutla müşayiət olunurdu. 1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti Dağlıq

Qarabağın Ermənistana birləşdirilməsi haqqında qərar qəbul etdi. Bu xəyanətkar planların həyata keçirilməsinin qarşısını almaq üçün xalq ayağa qalxdı. SSRİ rəhbərliyi isə hüququ pozulan azərbaycanlılara divan tutmaq yolunu seçdi.

1990-cı il yanvarın 19-da Azərbaycanda fövqəladə vəziyyətin elan edilməsinə 7 saat qalmış sovet ordusunun böyük kontingentinin, xüsusi təyinatlı dəstələrin və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Bakının zəbt edilməsi xüsusi qəddarlıqla və misli görünməmiş vəhşiliklərlə müşayiət olundu. Öz milli mənafeyi və hüquqlarının qorunması üçün ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və beləliklə sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə 20 Yanvar faciəsi totalitar kommunist rejiminin Azərbaycana, azərbaycanlılara qarşı hərbi təcavüzü və ağlasığmaz cinayəti idi. Bu, insan hüquqlarına dair bir çox beynəlxalq sənədlərin, o cümlədən "İnsan hüquqlarının ümumi Bəyannaməsi", "Vətəndaş və siyasi hüquqlar haqqında" və "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" beynəlxalq paktların, habelə keçmiş SSRİ və Azərbaycan SSR-in konstitusiyalarının kobudcasına pozulması demək idi. Kommunist diktaturası vaxtilə Çexoslovakiyaya, Macarıstana, Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni hətta o zamankı Sovet İttifaqının müttəfiq respublikalarından olan Azərbaycanda da təkrarlamaqdan çəkinmədi. Ordu hissələrinin tərkibində Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni əsgər və zabitləri, sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantlar da var idi.

SSRİ DTK-sının "Alfa" qrupu yanvarın 19-da saat 19.27-də Azərbaycan televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və əhaliyə divan tutmağa başladı. M.Qorbaçovun fərmanı qüvvəyə minənədək - yanvarın 20-də gecə saat 1-dək xeyli adam öldürülmüşdü. Bakıda fövqəladə və-ziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100 nəfərə çatmışdı. Halbuki Qorbaçovun Azərbaycana ezam etdiyi yüksək vəzifəli emissarlar həyasızcasına bəyan edirdilər ki, Bakıda fövqəladə vəziyyət elan olunmayacaq.

Respublikanın informasiya blokadasına alındığı bir şəraitdə baş vermiş həqiqətləri operativ surətdə dünya ictimaiyyətinə çatdırmaq zərurəti yaranmışdı. Dəhşətli faciəyə kəskin etiraz olaraq 1990-cı il yanvarın 21-də ailə üzvləri ilə birgə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək mətbuat konfransı keçirən ulu öndər Heydər Əliyev hadisəyə operativ və düzgün qiymət verən ilk vətənpərvər lider oldu. Psixoloji və ruhi sarsıntı içərisində yaşayan azərbaycanlılar ulu öndərin Moskva Nümayəndəliyinin binasında qəzəbli və qətiyyətli bəyanatının doğurduğu əks-sədanı gördülər. Ümummilli lider Heydər Əliyev bütün təzyiqlərə və təhdidlərə baxmayaraq, mənsub olduğu xalqın faciəsinə məsuliyyət daşıyanları Kremlin bir addımlığında, həm də bütün dünyanın gözü qarşısında ittiham etdi.

Burada Azərbaycan xalqına qarşı cinayət törədən şəxslərin ciddi şəkildə cəzalandırılması qarşıya qoyuldu. Həmin məsələ ümummilli liderin fəaliyyətinin bütün sonrakı mərhələlərində də aktuallığını qoruyub saxladı. Ulu öndər Heydər Əliyev həmişə bu mövqedə olmuşdur ki, xalqa qarşı törədilən hər hansı cinayət cəzasız qalmamalıdır. Təsadüfi deyil ki, hadisəyə ilk hüquqi- siyasi qiymət də 1991-ci ilin noyabr ayında - onun Naxçıvan Ali Sovetinə rəhbərlik etdiyi vaxtda verildi. Həmin il noyabr ayının 21-də Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Ali Məclisi tərəfindən qəbul edilmiş müvafiq qərarda (1991-ci il 21 noyabr) 20 Yanvarın Milli Matəm Günü kimi qeyd olunması göstərildi. Sənəddə ilk dəfə olaraq faciənin əsas günahkarları adbaad sadalandı və onların birbaşa məsuliyyət daşıdıqları göstərildi. Bu, hadisəyə verilən ilk rəsmi hüquqi-siyasi qiymət idi.

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinə tam siyasi-hüquqi qiymət verilməsi məsələsi günün tələbi oldu. Çünki bu hadisə Azərbaycan tarixində özünün dolğun mənzərəsini əks etdirməli idi. Ümummilli lider dövrün mürəkkəbliyinə baxmayaraq, tariximizin şanlı və qanlı səhifəsi sayılan 20 Yanvar faciəsinin başvermə səbəbləri və günahkarların araşdırılması ilə ciddi məşğul oldu. Dövlət səviyyəsində layihələr hazırlandı. Yalnız bundan sonra mətbuatımız da böyük qayğı ilə üzünü qanlı Yanvar hadisələrinin tarixinə yönəltdi. Bütün iştirakçıların, şahidlərin ifadələri toplandı, hadisələrin bütün təfərrüatı dəqiqliyi ilə sənədləşdirildi. Baş verənlərə obyektiv siyasi qiymət vermək çağırışı və təkidi ən çox ulu

öndər Heydər Əliyevə məxsus idi. Ölkə rəhbərinin 1994-cü il yanvarın 5-də 20 Yanvar faciəsinin dördüncü ildönümünün keçirilməsi ilə bağlı imzaladığı fərmanda Milli Məclisə tövsiyə olunurdu ki, faciəyə tam siyasi-hüquqi qiymət verilsin. Azərbaycan Respublikasının Milli Məclisi həmin məsələyə xüsusi sessiya həsr edərək bir neçə gün davam edən iclaslarda yanvar hadisələrinin əsl səbəblərini açıqladı, həqiqi günahkarlar aşkarlandı. Bu, xalqımızın, dövlətimizin milli tariximiz qarşısında müqəddəs borcu idi. Azərbaycan Yanvar faciəsinin milli azadlıq mübarizələrini şanlı tariximizin fonunda yenidən gördü və qiymətləndirdi.

1994-cü il martın 29-da "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" adlı xüsusi qərar qəbul edildi. Beləliklə, Heydər Əliyevin təkidi və rəhbərliyi sayəsində xalqımıza qarşı törədilən bu qanlı və qəddar aksiyaya siyasi-hüquqi qiymət verildi. Ümummilli liderin 2000-ci ildə 20 Yanvar faciəsinin 10-cu ildönümü haqqında imzaladığı fərmanda deyilirdi ki, XX əsr tarixində totalitarizmin törətdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı işlədilmiş cinayət, əslində, bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli bir əməldir.

Bu gün 20 Yanvar iştirakçıları və şəhid ailələri dövlətin daim diqqət mərkəzindədir. Prezident İlham Əliyev şəhidlərin adının uca tutulmasına, onların ailələrinin sosial məsələlərinin yoluna qoyulmasına xüsusi qayğı göstərir, hər il yanvarın 20-də Şəhidlər xiyabanını ziyarət edərək "Əbədi məşəl" abidə kompleksinin önünə əklil qoyur. Dövlət başçısı 2004-cü ildə 20 Yanvar faciəsinin 14-cü ildönümünün keçirilməsi ilə bağlı sərəncamında bildirirdi ki, Azərbaycan övladları 1990-cı il yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar, ən ağır sınaqlara sinə gərmək əzmini bütün dünyaya nümayiş etdirdilər.

Faciədən sonrakı tarixi proses xalqımızın siyasi iradəsinin, müstəqillik arzularının yenilməzliyini bir daha təsdiqlədi. 20 Yanvar hadisələrində qurbanlar verildi, lakin həmin faciəli günlər inam və sınaq günü kimi də yadda qaldı. Qəhrəman xalq həmin gün özünün azad və müstəqil yaşamağa layiq olduğunu bir daha sübut etdi.

**"Azərbaycan".-**2015.-14 yanvar.-N 9.-S.10.

### Bakıda 13 yanvar "erməni talanları" necə təşkil edilmişdi?

**Sultan Laçın**

Düz bir qərinə öncə - Bakıda baş vermiş və tarixdə "erməni talanları" adı ilə qalmış olaylar Azərbaycana qarşı şər qüvvələrin qurduğu məkrli planların növbəti tərkib hissəsi idi. Onda hələ SSRİ adlı imperiyanın tərkibində idik. Amma o imperiya can verməkdə idi. Fəqət, bizi də digər postsovet respublikaları kimi dərhal qarmağına keçirmək istəyən digər "sivil" imperiyaların və düşmən dövlətlərin kəşfiyyatları da öz işini görməkdə idi. Odur ki, Bakı casuslar, təxribatçılar məkanına çevrilmişdi. Həmin hadisələr ərəfəsində bu sətirlərin müəllifi də İranla sərhədlərimizin açılması, Dağlıq Qarabağ və ətraf bölgələrimizdə erməni terrorçuların dinc soydaşlarımıza hücum və qətliamları fonunda Bakıdakı xaotik proseslərin şahidi olub. Təxminən dekabrın sonunda Mərkəzi Univermağın yaxınlığında - DİN-in iki addımlığındakı erməni kilsəsinin yandırılmasını da gözlərimlə görmüşdüm. O zaman qəlbləri imperiyaya, erməni işğalçılarına qarşı nifrətlə dolu olan soydaşlarımızın, xüsusən gənclərimizin çoxu bu cür olaylara sevinir, özlərini qalib kimi hiss edirdilər. Əslində ayıq intuisiya ilə hiss etmək olurdu ki, bütün bunlar Azərbaycanın xeyrinə olmayan bumeranq effektli təxribatlardır. Və əsl qalib nə azərbaycanlılar, nə də ermənilər idi. Əsl qalib bu məkrli ssenari və planları həyata keçirənlər idi. Erməni kilsəsinin yandırılması kimi "erməni talanları" da Qara Yanvara, sonra da bütün Qarabağın yandırılaraq əlimizdən alınmasına yol açırdı.

### Vəzirov silah buraxılmasına razılıq vermişdi?

Ali məktəbin üçüncü kursunda oxuyurdum. Təxminən 15 fəal tələbə Laçındakı sərhəd kəndlərini daşnak dəstələrindən qorumaq üçün qış tətili günlərində oraya yollanmağa qərar vermişdik. Bunun üçün rektoratdan imtahanları da vaxtından əvvəl vermək üçün icazə almışdıq. Bu minvalla 1990-cı il yanvarın 12-də səhər tezdən yola düşdük. Bakıdan çox nigaran ayrıldıq. Hiss olunurdu ki, ya paytaxtda, ya da bölgələrdə nəsə müdhiş hadisə gözlənilir. Biz Laçına silahsız gedirdik. Aramızdakı AXC-nin institutdakı dayaq dəstəsinin fəallarındann olan "şovinist" ləqəbli bir yoldaşımız AXC Müdafiə Komitəsi və Nemət Pənahlı ilə yaxın əlaqədə idi. Deyirdi ki, Laçında yerləşəndən bir neçə gün sonra Nemət bəy bizə silah yollayacağına söz verib. Maraqlıdır ki, ertəsi gün, yəni yanvarın 13-də erməni talanlarının başlamasından az öncə Azadlıq meydanında mitinqdə çıxış edən N. Pənahlı respublika rəhbəri Ə. Vəzirovla razılaşma əsasında Səttarxan zavodunda avtomat atıcı silahlar istehsal ediləcəyini söyləmişdi. Amma nə Laçına - bizə Bakıdan silah gətirən oldu, nə də Səttarxan zavodunda silah buraxıldı. Görəsən, Vəzirov Moskvanın icazəsi olmadan belə bir işə qol qoyardımı? Bəs bu doğru deyildisə, onda Nemət bəy bu xəbəri nə məqsədlə yaymışdı? Hadisələrdən 25 il ötsə də, bax, neçə-neçə belə suallara dürüst cavab tapmaq mümkün olmur. Əlac qalır proseslərin fəal iştirakçılarının və şahidlərin xatirələrini araşdırmağa.

### Qorbaçov 1988-ci ildə Bakıdakı 200 min ermənidən danışmışdı

Sumqayıtda 1988-ci ilin fevralındakı "erməni qırğını" kimi Bakıdakı oxşar olayların da illər öncə planlaşdırıldığı şəksizdir. Hələ 1988-ci il iyulun 18-də SSRİ Ali Sovetinin iclasında SSRİ lideri M. Qorbaçovun erməni deputatlara "Siz Bakıdakı 200 min erməninin başına nə gələcəyi barədə düşünmüsünüzmü?" - sualı buna işarə deyildimi? Bunun ardınca həm erməni, həm də azərbaycanlıları qızışdıran təxribatçı qərar və digər aksiyalar, 1988-ci ilin sonunda Ermənistandan bütün soydaşlarımızın vəhşicəsinə deportasiyası, 1989-cu ilin martında Moskvanın qərarı ilə DQMV-nin Azərbaycandan ayrılaraq ermənipərəst Volskinin rəhbəri olduğu xüsusi idarənin tabeçiliyinə verilməsi və s. SSRİ-ni dağıtmaq məqsədi güdən düşmən güclərin Azərbaycana qarşı xüsusi məkrindən xəbər verirdi. Bəs Azərbaycanın o vaxtkı rəhbərliyi və xüsusi xidmət orqanları bu planların, o cümlədən, Bakıdakı "erməni talanları"nın qarşısını almaq üçün hər hansı bir tədbir görə bilirdimi, yoxsa?.

### DTK-nın 5–ci şöbəsinin rəisi Vladimir Mirzoyev kim idi?

19 yanvar 2013-cü il tarixdə mətbuatda hansı mənbəyə əsaslandığı göstərilməyən maraqlı bir məlumat dərc edilib: "Azərbaycan xalq hərəkatını parçalamaq, onun rəhbərlərini xalqın gözündən salmaq və bu çərçivədə də Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə nail olmaq məqsədilə SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin

göstərişi ilə 1989-cu il oktyabrın 7-də Azərbaycan SSR DTK-sının 12 zabitindən ibarət "Böhran qrupu" yaradıldı. "Böhran qrupu"na rəhbərlik 5-ci şöbənin rəisi Vladimir Mirzəyevə tapşırıldı. Qrupun vəzifəsi xalq hərəkatına rəhbərlik edənlər arasında nifaq, fitnə-fəsad toxumları səpmək, azərbaycanlı-erməni qarşıdurmasını daha da körükləmək idi. 1990-cı il yanvarın 13-14-də Bakıda erməni qırğınlarını da məhz bu qrup təşkil etdi. Məqsəd bu yolla Moskvanın Azərbaycana qoşun yeritməsinə və bununla Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə zəmin hazırlamaq idi. Halbuki həmin dövrdə SSRİ daxili qoşunlarının Bakıda erməni qırğınlarının qarşısını ala bilməsi üçün kifayət qədər qüvvəsi var idi. Sonralar "Böhran qrupu"na dair istintaq materialları göstərdi ki, "Böhran qrupu" fitnə-fəsadlar, mənzillərin yandırılması, qətllərlə məşğul olub".

Maraqlıdır ki, həmin vaxt SSRİ DTK-da ideoloji işlərlə məşğul olan 5-ci şöbənin başında DTK sədrinin müavini olan, hələ 1970-ci illərdən erməni-azərbaycanlı münasibətlərinə nəzarət etmiş general Filip Bobkov dururdu. 13 yanvar hadisələri zamanı isə o birbaşa Bakıda oturub hadisələrə nəzarət edirdi.

1989-1991-ci illərdə Azərbaycan DTK sədri olmuş Vaqif Hüseynovun isə araşdırdığımız müsahibə, məqalə və kitablarında istər sözügedən "Böhran qrupu"nun, istərsə də 5-ci şöbənin rəisi Vladimir Mirzəyevin adına rast gəlinmir. O da diqqətəlayiq faktdır ki, Moskvanın 26 avqust 1995-ci il tarixli "Kommersant" qəzetində Azərbaycanın "Turan" agentliyinə istinadən Vladimir Mirzəyevin həmin günlərdə Bakıda bir neçə digər generalla birlikdə dövlət çevrilişinə cəhddə günahlandırılaraq həbs edilməsi barədə məlumat yayılıb.

### "Bu kortəbii hərəkatın nəticəsi olub"

Uzun müddət Azərbaycan DTK-da çalışmış keçmiş MTN polkovniki İlham İsmayıl DTK-nın şöbə rəisi olmuş Vladimir Mirzoyevi o zaman tanıdığını və onun "erməni talanları"nda rolu olduğuna inanmadığını söylədi: "Vladimir Mirzoyevin ermənilərlə heç bir əlaqəsi olmayıb. Onun anası rus, atası isə bildiyimə görə, azərbaycanlı olub. O, daha çox Azərbaycana bağlı idi, nəinki Rusiyaya. Hətta 1990-cı ilin yanvarında televiziyanın enerji blokunun partladılmasında onun əli ola biləcəyini düşünmüşdülər, lakin sonra bunun da yalan olduğu təsdiqlənmişdi. V. Mirzoyevin "erməni talanları"nı təşkil etməsi barədə söz-söhbəti də absurd hesab edirəm. Çünki mən Gəncə ətrafında işləyərkən V. Mirzəyev oraya gəlmişdi və onunla bu münaqişə barədə söhbətlərimiz olmuşdu. Bilirdim ki, o, ermənilərə nifrət edir. Ümumiyyətlə, o zaman dövlətin, o cümlədən, DTK-nın guya bu talanları 20 Yanvar faciəsinə əsas hazırlamaq üçün törətməsi fikri ilə də razı deyiləm. DTK maksimum çalışırdı ki, qan tökülməsin. Və xalqı qarşıdurmadan çəkinməyə çağırırdı. Hətta Moskvadan gələnlər də, Primakov da camaatı küçələrdən yığmağa çalışırdı. Hesab edirəm ki, "erməni talanları", sadəcə, Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların kortəbii qisas hərəkatının nəticəsi olub".

### AXC liderləri "erməni talanları"nın olacağını bilirdi

O dövrdə AXC-nin qurucu və fəallarından olmuş Zərdüşt Əlizadə isə özünün rus dilində nəşr edilmiş "İkinci respublikanın sonu" kitabında 13 yanvar hadisələrində əsasən Kommunist Partiyası rəhbərliyini və AXC-nin radikal qanadını günahlandırır: "Erməni talanları haqqında düşünərkən dəfələrlə özümə sual edirəm: "Necə olur ki, mən, Elmlər Akademiyasının sıravi əməkdaşı, fəal cəbhəçi həmin talanların hazırlanmasını bilir və bu barədə xəbərdarlıq edirdim, amma vətəndaşların təhlükəsizliyinə cavabdeh olan SSRİ-nin nəhəng dövlət aparatı və xüsusi xidmət orqanları bunu bilmir, buna hazırlaşmır və qarşısının alınması üçün heç bir tədbir görmürdülər? Talanlar günü bir qaragüruhun bir adamı qovmasını görən Arzu Abdullayeva yaxınlıqdakı başında kaska, bir əlində avtomat, bir əlində isə "Nağıl" tortu olan əsgərdən soruşur: "Siz niyə qarışmırsınız? Niyə insanları müdafiə etmirsiniz?". Əsgər cavab verir ki, bizə əmr yoxdur?". Bəli, hakimiyyət "talanlar"ın olacağını bilirdi. Bilirdi və məqsədyönlü şəkildə heç nəyə qarışmırdı ki, bundan bütöv xalqa qarşı genişmiqyaslı qanlı aksiya törətmək üçün "əsas" kimi istifadə etsin. Yerli hakimiyyət də bilirdi. Bilirdi, amma talanların qarşısını almaq, onun AXC-dən olan təşkilatçılarına müqavimət göstərmək üçün heç bir tədbir görmürdü. AXC liderləri də bilirdi. Amma bir hissəsi talanların baş tutmasında maraqlı idi. Digərləri isə sədr və onun "uşaqları" tərəfindən qorxudulmuşdu.

### "Mitinq "ermənilərə ölüm!" çağırışı ilə bitdi"

Etibar Məmmədov, Nemət Pənahov və Rəhim Qazıyev üçlüyünün KPMK rəhbərliyi ilə separat danışıqlar aparması barədə informasiyalardan narahat olan AXC İdarə Heyətinin üzvləri sədrdən həmin danışıqların açıqlanmasını tələb edirdilər. Tofiq Qasımov əks halda İH-nin iclasında həmin üçlüyün AXC-dən çıxarılması

barədə məsələ qaldıracağı ilə hədələyirdi. Hədə təsirini göstərdi və səhər Etibar Məmmədov İH-də peyda oldu”. Z. Əlizadənin sözlərinə görə, E. Məmmədov artıq Vəzirovla danışıqların başa çatdığını və ermənilərin DQMV-dən kütləvi şəkildə çıxarılması məqsədilə Milli Müdafiə Şurası yaradılması haqda razılığa gəlindiyini bildirib. MMŞ-də DİN, Rabitə, Səhiyyə, Nəqliyyat nazirliklərinin və Dövlət Yanacaq Komitəsindən bir nümayəndə olacağı və həmin qurumların AXC dəstələrinin lazımi şəkildə təchiz edəcəyini söyləyib. “Bəs silah haradan əldə ediləcək?” - sualına E. Məmmədov “Öz zavodlarımızda istehsal edəcəyik. Səttarxan zavodundan başlayarıq” cavabını verib. ADU-nun hüquq fakültəsinin dekanı Firudin Səməndərov E. Məmmədova MMŞ-nin yaradılmasının sovet qanunları ilə heç bir hüquqi əsasının olmadığını və bunun AXC rəhbərliyinə cinayət işi açılmasına və bütün Azərbaycan xalqına qarşı repressiyalara başlamağa əsas verəcəyini izah etməyə çalışıb. Tofiq Qasımov, Sabir Rüstəmxanlı, Hikmət Hacızadə, Sabit Bağırov və s. də məsələyə öz kəskin etirazlarını bildirsələr də, nəticə alınmayıb. O halda T. Qasımov sözügedən “üçlüyün” AXC-dən uzaqlaşdırılmasını tələb edib. Ancaq təxribatın qarşısının alınmasına az qalmış İsa Qəmbərin “birləşdirici” çıxışı MMŞ-nin yolunu açıb. Sonda “ortaq məxrəcə” gələn idarə heyəti bütöv tərkibdə Azadlıq meydanına mitinqə yollanıb. Mitinqdə ifrat vətənpərvər və anti-erməni çıxışlar edilib. Mitinqin sonuna yaxın Bayılda bir erməninin bir azərbaycanlını balta ilə öldürməsi haqda məlumat gəlib və AXC liderləri həmin informasiyanı dərhal (!) tribunadan səsləndirib (!). Keçmiş AXC lideri yazır: “Mitinq “ermənilərə ölüm!” çağırışı ilə bitdi və kütlə dağılışdı. Ağıllı adamlar evlərinə tələsdi, talançılar isə küçələrə dağılışdı. Namxuda, soyad və ünvanlar da əllərində idi”.

### “Cəbhəçilər talanların qarşısını alamağa çalışıblar”

AXC Müdafiə Komitəsinin sədri olmuş Məmməd Əlizadə “ANS”in 12 yanvar 2012-ci il tarixli “Ən yeni tarix” verilişində deyib: “Yanvarın 13-də gecə biz şəhərdə iki qara Volqa tutduq. Onlar evlərə soxulub provokasiya ilə məşğul olurdular. Onları AXC qərargahının yanına gətirdik. Onlarda Ali Məhkəmənin işçiləri olması barədə saxta vəsiqələr var idi. Ancaq maşınların heç birinin nömrəsi yox idi. Həmin hadisələr gizli, ağlımıza belə gəlməyən qüvvələr tərəfindən ciddi şəkildə təşkil olunmuşdu. İlk dəfə yanvarın 13-də saat 10:30-da Bayılda ermənilər iki azərbaycanlını qətlə yetirdi. Bu xəbər şəhərə yayılan kimi də ermənilərə qarşı talan cəhdləri başlanıb. Aeroport yolunda erməniləri soyan bandit qrupundan alınan 3 mln. rubl dəyərində qızıl-zinət əşyalarını həmin vaxt Bakıda olan SSRİ daxili işlər naziri Barannikova protokolla təhvil vermişdik. Yəni bununla biz sübut edirdik ki, biz talanları təşkil etmirik, əksinə, onların qarşısını alırıq”.

AXC Nəsimi rayon şöbəsinin sabiq sədri Əli Quliyevin sözlərinə görə, onlar talanların qarşısını maksimum almağa çalışıblar. Güc strukturları bizə heç bir kömək göstərmirdi. Görünür Moskvadan göstəriş belə imiş... O günlər Bakıda cəmi 6-8 nəfər erməni ölüb”.

### Bakıda 40-a yaxın təxribat qrupu var idi

AXC Müdafiə Komitəsinin sədr müavini olmuş Nurəddin Xoca: “AXC sədri Elçibəyin göstərişi ilə “KQB”nin təxribatlarının qarşısını almaq üçün xüsusi “Zəngəzur komitəsi” yaradılmışdı. Şəhərdə 40-a yaxın təxribat qrupu var idi. Onlardan 3-də bizim öz aramızda idi. Bizim səylərimiz nəticəsində “KQB”nin təxribatı tam alınmadı.

AXC fəallarından olan Köçəri Nağıbəyli deyir ki, Bakıda SSRİ daxili qoşunlarının 60-70 minlik kontingenti var idi. Həmin günlər talan törədənlər arasında həmin qoşunların mülki forma geyinmiş əməkdaşları da olub: “Biz beləl追lərini tutub 22-ci polis bölməsinə təhvil verirdik. Biz gəlib dəmiryol vağzalına çatanda görürdük ki, həmin adamlar bizdən əvvəl çatıblar. Çünki Azərbaycan hüquq-mühafizə orqanlarının bütün səlahiyyətləri əlindən alınmışdı. Hər şeyi, Moskva, DTK həll edirdi”.

Şükürlər olsun ki, bu gün artıq çox şeyi Moskva, DTK deyil, öz dövlətimiz, güc və təhlükəsizlik strukturları həll edir. Gəlin, bu gün gec olsa da, hər birimiz ötüb-keçənlər barədə gerçəkləri danışaq. Bir daha Qara Yanvarların təkrarlanmaması üçün.

**“Həftə içi”.**-2015.-13 yanvar.-№ 5.-S.3

## 20 Yanvar faciəsi nə qədər dəhşətli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq əzmini qıra bilmədi

**İttifaq MİRZƏBƏYLİ**

**...1990-cı il yanvarın 20-də İttifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edilmişdir. Heç bir əsas olmadan, xəbər vermədən, dövlət qanunlarını kobudcasına pozaraq, Bakı şəhərinə müasir silahlı sovet ordusunun qoşun hissələri yeridilmiş, onlar vəhşilik, qəddarlıq etmiş, nəticədə nahaq qan tökülmüş, yüzlərlə adam həlak olmuş, xəsarət almış, itkin düşmüşdür.**

**Ulu öndər Heydər Əliyevin 1991-ci il martın 7-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasındakı çıxışından**

Bu gün planetin istənilən nöqtəsində yaşayan soydaşlarımız, dostlarımız, tərəfdaşlarımız və müttəfiqlərimiz dünya xəritəsindəki qüdrətli Azərbaycan dövlətinin uğurlarına sevinir, xalqımızın öz müstəqilliyini əbədiləşdirmək üçün atdığı qətiyyətli addımları ilə fəxr edirlər.

Dünya siyasətçiləri BMT Təhlükəsizlik Şurasına və Avropa Şurasının Nazirlər Komitəsinə sədrlik edən Azərbaycan dövləti barədə səxavətlə, səmimiyyətlə və ən başlıcası hamının eşidəcəyi bir tərzdə söz açırlar. İndi hamı Azərbaycan barədə danışanda çalışır ki, səsi daha böyük auditoriyada eşidilsin. Ancaq 25 il əvvəl, Azərbaycanda vüsət alan milli - azadlıq hərəkatını elə ilk mərhələdəcə boğmaq istəyən Sovet imperiyasının Bakını qanına qəltan etdiyi günlər Azərbaycan və azərbaycanlılar barədə heç kim danışmaq istəmir, danışanlar isə öz səslərini mümkün olandan da çox sıxırdılar.

1990-cı ilin yanvarında işğal, təzyiq, faciə, qırğın və qan-qada ilə üz-üzə qalmış Azərbaycan haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün xalqın əlində böyük dövlət xadimi Heydər Əliyevin faciənin ertəsi günü Moskvada Kreml rəhbərlərini ittiham edən kəskin bəyanatı və millətin azadlıq arzularının daşıyıcısı olan ziyalılarımızın canfəşanlığı var idi. Vəssalam. Bu gün isə Azərbaycan həqiqətlərinin dünya miqyasında ən gur səslə hamıya eşitdirilməsi üçün göydə qüdrətli rabitə peykimiz, yerdə isə qətiyyətli dövlət başçımız vardır. Bugünkü Azərbaycan həqiqətlərini eşidənlər inana bilmirlər ki, cəmi 25 il əvvəl böyük bir imperiya bu xalqın ruhunu və əzmini qırmaq üçün qeyri-adi bir hərbi güclə Azərbaycan paytaxtını darmadağın etmək əmrini vermişdi. Çoxları inanmasa da, bu, bir tarixi fakt idi. Ulu öndər Heydər Əliyevin dediyi kimi, həmin gün biz tariximizin təkcə qanlı deyil, həm də şanlı səhifələrindən birini yaşamışdıq.

Ümummilli liderimiz 20 Yanvar hadisəsinin bu günümüz və gələcəyimiz öçün olan əhəmiyyətini nəzərə alaraq, demək olar ki, keçirdiyi hər görüşdə bu hadisənin tarixi dərslərindən bəhs etmişdir. 1997-ci il yanvarın 31-də Milli Elmlər Akademiyasının rəhbərliyi, həqiqi və müxbir üzvləri, institut direktorları və aparıcı alimləri ilə görüşdə çıxış edən ulu öndər demişdir: "...Xalqımız bundan tarixi nəticə çıxarmalıdır. Biz gərək heç vaxt əyilməyək, heç vaxt sınmayaq. Bilirsiniz, millətin mənafeyi hər bir insanın həyatından üstün olmalıdır."

Qanlı Yanvar faciəsi ilə bağlı Heydər Əliyev tərəfindən verilən ən kəskin bəyanat məhz 1990-cı il yanvarın 21-də, Kremlin qulağının dibində, Azərbaycana düşmənçilik mövqeyindən əl çəkə bilməyən Mixail Qorbaçovun adamlarının gözü qabağında səsləndirilən bəyanat idi. Tarixçilərin fikrincə, həmin bəyanat Azərbaycan tarixində yeni siyasi dövrün başlandığını bildirirdi. Heydər Əliyevin növbəti sərt addımı isə SSRİ Nazirlər Sovetinin partiya təşkilatına ünvanladığı 19 iyul 1991-ci il tarixli ərizəsində göstərdiyi məqamlar idi. Ulu öndər həmin müraciətdə 20 Yanvar hadisəsi ilə bağlı qeydlərində bildirirdi: "Bu antihumanist, konstitusiyaya və hüquqa zidd hərəkəti ittiham edərkən Sov. IKP və Azərbaycan KP MK-nın bu cinayətin üstünü açacağına və günahkarları üzə çıxaracağına ümid edirdim. Artıq yarım il keçib. Nəinki bu dəhşətli cinayətlərin hamıya çoxdan məlum olan günahkarları üzə çıxarılmayıb, əksinə bunları ört -basdır etmək üçün əllərindən gələni edirlər. Ümid edirlər ki, bu faciə unudulacaq. Ancaq tarix dəfələrlə sübut etmişdir ki, doğma xalqa qarşı yönəldilmiş qanlı cinayətləri on illər keçsə də, unutmaq və bağışlamaq mümkün deyil."

Xalqımızın yaxşı yadındadır ki, 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verilməməsi Heydər Əliyevi çox düşündürən məsələlərdən biri idi. Ulu öndər1994-cü il yanvarın 12-də keçirdiyi müşavirədə bu barədə deyirdi: "...Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişdir. Görünür ki, ötən yaxın illərdəki Sovetlər Birliyi, resrublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsl mahiyyətini xalqa bəyan etməmişlər".

Özündən əvvəlki rəhbərlərə nisbətən məsələyə tamamilə başqa prizmadan yanaşan Azərbaycan Prezidenti Heydər Əliyev 1994-cü il yanvarın 5-də “20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında” fərman imzalamışdı. Sənəddə deyilirdi: “Xalqımızın tarixinə qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı ilin yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermişdir. Tarixin yaddaşına qanla yazılmış həmin gündən bizi 4 illik zaman məsafəsi ayırır. Təəssüf ki, 4 il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilməmişdir”.

Adıçəkilən sənəddə Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymətin verilməsi, bu məqsədlə parlamentin xüsusi sessiyasının keçirilməsi məsələsinə baxılması tövsiyə edilirdi. Həmin addımlar məhz ulu öndərin tövsiyələri əsasında atıldı və Milli Məclisdə müzakirələrin yekunu olaraq 1994-cü il martın 29-da qəbul edilən qərarda, nəhayət ki, 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. Qərarda 1990-cı ilin 20 Yanvar hadisələri Azərbaycanda vüsət almış milli-azadlıq hərəkatını boğmaq, suveren bir dövlət amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, belə bir yola qədəm qoyan xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. Bir sözlə, Azərbaycan xalqının tarixinə qanla yazılan 20 Yanvar hadisələri barədə həqiqətlər dünya ictimaiyyətinə bədxahlarımızın uydurduğu"faktlar" kimi deyil, məhz həqiqət kimi təqdim olundu.

Həqiqət isə ondan ibarət idi ki, Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 1990-cı ilin 20 Yanvarında ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən azadlıq fədailəri Bakının küçələrinə və meydanlarına çıxaraq Kremlin siyasətinə öz qəti etirazlarını bildirirdilər. Öz haqqını tələb edən geniş xalq kütlələrinə qarşı sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misli görünməmiş faciəyə gətirib çıxarmışdı. Böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi Mixail Qorbaçov başda olmaqla, cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, öz azadlığına, müstəqilliyinə can atan xalqımızın həm də mübarizliyini, əyilməzliyini, məğrurluğunu nümayiş etdirdi. Məhz bunun nəticəsində uzun illərdən bəri arzusunda olduğumuz müstəqilliyə qovuşduq və ölkəmiz suverenlik əldə etdi.

Xüsusilə vurğulanmalı məqamlardan biri də odur ki, həmin qanlı hadisələrdən illər keçməsinə baxmayaraq, xalqımız o müdhiş gecəni daim xatırlayır, faciəni törədənlərə öz dərin nifrətini bildirir. Xalqımızın qan yaddaşında əbədi yaşayacaq 20 Yanvar faciəsini respublikamız hər il Ümumxalq Hüzn Günü kimi geniş qeyd edir. Bu cinayət hadisəsi bütün dünyaya tarixi faktlar və həqiqətlər əsasında çatdırılır.

Ölkənin və regionun kütləvi informasiya vasitələri dönə-dönə yazırlar ki, ulu öndər Heydər Əliyevin bütün xarici səfərlərində və beynəlxaq tədbirlərdəki çıxışlarında olduğu kimi, Prezident İlham Əliyevin də istənilən dostumuz və bədxahımız olan siyasətçilərlə görüşlərində bu məsələlər çox böyük ustalıqla gündəliyə gətirilir və Azərbaycanın mənafeyi baxımından müzakirəsinə nail olunur. Bu sahədə Heydər Əliyev Fondunun təşəbbüsü ilə reallaşdırılan layihələrin əhəmiyyətini xüsusilə qeyd etmək zərurəti var. Bununla belə, bütün yaradıcı qurumlar və dövlət orqanları Azərbaycan həqiqətlərinin beynəlxalq aləmə məhz olduğu kimi çatdırılmasında özünəməxsus uğurlara imza atırlar. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının (preslib.az ) işləyib hazırladığı elektron layihələr də bu baxımdan xüsusi əhəmiyyət kəsb edir.

Kitabxananın daha da təkmilləşdirilmiş variantda oxuculara təqdim etdiyi “Təcavüz: 20 Yanvar. Bakı, 1990" adlı elektron layihə tariximizin qanlı və şanlı səhifələrindən olan həmin gün barədə nəyisə öyrənmək və ya dəqiqləşdirmək istəyən hər kəs üçün çox dəyərli vəsaitdir. Bəlkə də hansısa oxucu belə düşünə bilər ki, xeyli əvvəl baş vermiş bir faciə barədə nəyin dəqiqləşdirilməsi mümkündür? Bu suala cavab olaraq bir məsələni yada salmaq lazımdır. Belə ki, 20 Yanvar faciəsi ilə bağlı son 15 ildə dünyanın müxtəlif ölkələrində keçirilən anım tədbirlərinin, az qala, hərəsində bu faciə zamanı həlak olan insanların sayı fərqli göstərilir. 122-dən (Rusiya) 177-yə qədər olan (ABŞ) bu rəqəmlərin heç biri imperiya ordusunun Azərbaycan azadlıqsevərlərinin başına gətirdiyi müsibətin miqyasını kiçiltmək iqtidarında deyil. Ancaq ulu öndər Heydər Əliyevin bizə tövsiyə etdiyi kimi, biz bütün hadisələri öz adı ilə qeyd etməli, bütün faktların ən həqiqi variantını tapmalı, rəqəmlərin isə dəqiqini göstərməliyik. Prezident kitabxanasının qeyd etdiyimiz elektron layihəsində hadisələr, faktlar və rəqəmlər, sanki, mikroskopla öyrənilmiş kimi dəqiqləşdirilmişdir.” Azərbaycana qarşı cinayət", “Rəsmi sənədlər”, “Elektron resurslar” və “Fotoarxiv” adlı Azərbaycan, ingilis və rus dillərində tərtib olunmuş bu layihənin sənədləri arasında akademik Ramiz Mehdiyevin 2000-ci ildə işıq üzü görmüş “Azərbaycana qarşı soyqırımı gerçəkləri” adlı kitabının 20 Yanvar faciəsinə həsr olunmuş fəsli (“Facıənin analitik təhlili” ) verilib. Bu sənəddə qanlı faciədə dini amil, Qafqaz amili, milli amil, 20 Yanvarın geosiyasi aspekti, 20 Yanvar və

Dağlıq Qarabağ münaqişəsi tarixi gerçəkliklərlə üz-üzə qoyulur, Qanlı Yanvarın ibrət dərsləri və bu kimi məsələlər analitik təhlil olunur. "Xronologiya - 20. Yanvara aparan yol" adlı bölmədə isə ermənilərin hələ 1987-ci il oktyabrın 18-də İrəvan şəhərinin ekoloji cəhətdən çirklənməsinə etiraz bəhanəsi ilə təşkil etdikləri mitinqdə Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi haqqındakı çağırışlarından başlayaraq, bu faciə ilə bilavasitə bağlı olan bütün məqamlar öz əksini tapıb.

Bir sözlə, milli tariximizin qanlı və şanlı səhifələrindən olan 20 Yanvar hadisələrinin yaddaşlardan silinməməsi üçün həm dövlətimiz və dövlət başçımız, həm də xalqın önündə gedən ziyalılar kifayət qədər iş görüblər və bu tədbirlər dövri olaraq davam etdirilir. Həmin tədbirlərin önündə isə şəhid adına ehtiram və şəhid ailələrinə göstərilən dövlət qayğısı dayanır. Fəxr edirik ki, xalqımız müstəqil dövlətimizə əbədilik qazandırmaq üçün çalışmaqla yanaşı, bu müstəqillik uğrunda canını fəda etmiş insanların ruhuna göstərilən ehtiramı da ildən-ilə artırır.

**"Xalq qəzeti".**-2015.-13 yanvar.-N 8.-S.5.

## "Rusiyanın 20 Yanvara görə məhkəməyə verilməsi reallıqdan uzaqdır"

## Vəfa Quluzadə: "Bunu günümüz üçün aktual hesab eləmirəm"

## Vahid Əhmədov: "Bu addımın müsbət mənada hansısa nəticə verəcəyi inandırıcı deyil"

**"20 Yanvar hüquqi bir cinayət əməli deyil. 20 Yanvar siyasi hadisə idi. Mahiyyət etibari ilə Azərbaycan Rusiyanın tərkibindən çıxmaq istəyirdi. Sovet hökuməti, rus imperiyası isə bunun qarşısını almaq istəyirdi.**

Əgər bu gün cinayət məsuliyyətə cəlb olunması gərəkən bir qüvvə varsa, o da Rusiya imperiyasıdır". Bu fikirləri Azərbaycan Demokrat Partiyasının (ADP) sədri Sərdar Cəlaloğlu bildirib. O, 20 yanvar olaylarına görə Rusiya hökumətini məhkəməyə verməyin mümkünlüyünü vurğulayıb: "Təbii ki, bu, hüququn yox, beynəlxalq hüququn predmetidir. Daxili hüquqla bu məsələyə qiymət vermək gülüncdür. Niyə? Çünki biz müstəqil olmaq istəmişik. Ruslar isə buna razı olmayıb. Buna görə də bizi qırıblar. Bu, kriminal bir hadisə deyil ki? Müharibədə insanlar bir-birini öldürür. Müharibədə kimi buna görə məsuliyyətə cəlb edirlər? Sadəcə müharibələrdə beynəlxalq qanunları pozmağa görə məsuliyyət var. Amma müharibədə iştirak edib kimisə öldürməyə görə məsuliyyət yoxdur. Əgər sovet hökuməti qalsaydı, o zaman Bakıya qoşun yeridənlər, bu prosesdə yer alanlar – azərbaycanlı və ya qeyri-azərbaycanlı olsun- onlara böyük mükafatlar, vəzifələr veriləcəkdi. Hətta o zaman 20 Yanvar hadisələrinin törədilməsini istəyən azərbaycanlılara mərkəzi hökumət tərəfindən rütbə və mükafatlar verildi. Bunu hamı bilir. Bu baxımdan biz bu məsələni bu cür həll edə bilmərik. Əgər 20 Yanvar məsələsi ilə bağlı Azərbaycan həqiqətən də düzgün qərar qəbul etmək istəyirsə, həmin hadisələrə görə indiki Rusiya hökumətini beynəlxalq məhkəməyə verməlidir. Çünki Rusiya hökuməti özünü SSRİ hökumətinin qanuni varisi kimi elan edib. SSRİ-yə olan borcları da o alıb, SSRİ-nin ödəməli olduğu borcları da o verib. SSRİ-yə görə də məsuliyyəti Rusiya daşıyır. Bu baxımdan biz bu imperiyanı beynəlxalq məhkəməyə verə bilərik. Amma bununla bağlı daxildə hansısa məhkəmə qurmaq düzgün deyil. Heç bir Azərbaycan qanunu yox idi ki, o zaman bu məsələni tənzimləsin. Bu məsələdə boşluq mövcuddur. Problem yanlış müstəvidə dəyərləndirildiyi üçün, bugünə qədər də buna lazımi qiymət verilməyib".

**Sabiq dövlət müşaviri, politoloq Vəfa Quluzadə** isə bu məsələni bu gün üçün real hesab etmədiyini vurğulayıb: "Rusiyanın 20 Yanvar olaylarına görə məhkəməyə verilməsi bu gün üçün reallıqdan uzaqdır. Bunu günümüz üçün aktual hesab eləmirəm. Bəlkə bunun da zamanı gələcək. Bütün dünya həmin hadisələrin kim tərəfindən və niyə törədildiyini bilsə də Rusiya xofu bəşəriyyətin canından hələ çıxmadığından hamı susmağa üstünlük verir. Buna görə də məsələ ilə bağlı əlavə şərh vermək zənnimcə düzgün deyil".

**Millət vəkili Vahid Əhmədov** məsələ ilə bağlı maraqlı fikirlər səsləndirib. Millət vəkilinin sözlərinə görə, bu addımın müsbət mənada hansısa nəticə verəcəyi inandırıcı deyil: "Bu hadisələr SSRİ dönəmində baş verib. O vaxt Rusiya SSRİ tərkibindki dövlətlərdən biri idi. Rusiya SSRİ-nin varisi kimi qəbul edildiyinə görə, onu beynəlxalq məhkəməyə vermək olar. Lakin bunun hansısa nəticəsi olacaqmı? Şəxsən mən buna inanmıram. Lakin bunun Azərbaycan-Rusiya münasibətlərində gərginliyə səbəb olacağı şübhəsizdir. Rusiya bizə qonşu olan bir dövlətdir. Rusiya və Azərbaycan arasında normal iqtisadi-siyasi əlaqələr var. Dünyada iqtisadi-siysi böhran gedir. Rusiyanın məhkəməyə verilməsi münasibətlərdə problem yarada bilər. Buna görə də bu barədə hərtərəfli fikirləşmək lazımdır. Məsələnin iqtisadi, siyasi tərəflərini araşdırmaq lazımdır. Elə etmək lazımdır ki, Azərbaycana ciddi ziyan dəyməsin. Hesab edirəm ki, Azərbaycan Rusiyanı beynəlxalq məhkəməyə versə belə, bunun hər hansı nəticəsi olmayacaq. Zənnimcə kimlərsə divident qazanmaq üçün bu məsələləri ortaya atır. Dünyanın indiki düzənində bu, o qədər də nəzərəçarpacaq məsələ olmayacaq. Doğrudur, bizim üçün ağır faciədir. Bizim insanlarımız qırılıb, dövlətimizə, millətimizə hücum olunub. Lakin bir şeyin ki, nəticəsi olmayacaq, zənnimcə bunun üzərinə getməyin bir mənası yoxdur".

**Əli**

**"Xalq Cəbhəsi".-**2015.-8 yanvar.-N 3.-S.7.

# Dönüş günü - 20 YANVAR

***Musa Qasımlı,***
Milli Məclisin deputatı,
professor

**1990-cı il 20 Yanvar günü hər bir azərbaycanlının yaddaşına hopub.**
**Hansı proseslər 20 Yanvara apardı?**
**Bu hadisə necə baş verdi? 20 Yanvar tariximizdə hansı rolu oynadı?**

Məlum olduğu kimi, 1990-cı il yanvarın 20-də sovet rəhbərliyi Azərbaycanın paytaxtı Bakıya qoşun yeridərək dinc əhaliyə divan tutmqla neçə-neçə günahsız insanı amansızlıqla öldürdü. Bu hadisə nə üçün baş verdi? Onun səbəbləri hansılar idi?

Tarixi mənbələr sübut edir ki, Qarabağ bölgəsinin heç bir zaman Ermənistanın tərkibində və erməni kütləsinin təsiri altında olmadığına baxmayaraq, Ermənistan SSR onu ələ keçirmək üçün müxtəlif zamanlarda əsassız iddialar irəli sürüb. 1985-ci ilin martında M.S.Qorbaçov SSRİ rəhbəri seçildikdən sonra bu iddialar daha da artdı. Ermənilər Dağlıq Qarabağ Muxtar Vilayətini ələ keçirmək üçün ilk növbədə Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin üzərinə total böhtan dolu hücuma keçdilər. Heydər Əliyev 1987-ci il oktyabrın 21-də keçirilən Sov.İKP MK plenumunda vəzifəsindən azad edildikdən bir neçə gün sonra M.Qorbaçovun iqtisadiyyat məsələləri üzrə müşaviri Abel Aqanbekyanın Parisdə "İnterkontinental" hoteldə yerli erməni nümayəndələri qarşısında etdiyi çıxışında Azərbaycanın Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi barədə sovet rəhbərinin razılığını aldığını bildirirdi. Noyabrın 18-də "Humanite" qəzetinin və tezliklə digər xarici ölkələrdəki erməni mətbuatı və radiostansiyalarının başlıca mövzusuna çevrilən bu bəyanatın ardınca Ermənistanın əsassız ərazi iddiaları artdı.

Ermənistan nümayəndələri 1987-ci ilin noyabrında Moskvaya gedərək mərkəzi orqanlar qarşısında əsassız tələblər irəli sürdülər. Elə həmin ayda Ermənistanın Qafan və Meğri rayonlarında azərbaycanlılara edilən hücumlar nəticəsində yüzlərlə soydaşımız qaçqına çevrilərək Azərbaycana gəldi.

Ermənistan nümayəndələri 1988-ci ilin fevralında yenidən Moskvaya gedib sovet orqanları qarşısında tələblərini irəli sürdülər. Bundan az sonra - həmin il fevralın 11-də Xankəndidə mitinqlər və mövcud konstitusiya quruluşu əleyhinə fəaliyyətlər başladı. Bu fəaliyyətlər Ermənistanda və vilayətdə azərbaycanlılara qarşı zorakılıq və hücumlar, bir müddət sonra azərbaycanlı qaçqın və məcburi köçkünlərin axını ilə müşayiət olundu. Ermənistandan gəlib Azərbaycanın Dağlıq Qarabağ regionunda təbliğat aparan "Qarabağ" və "Krunk" təşkilatlarının fəalları iki xalq arasında düşmənçilik toxumları səpir, separatçılığı qızışdırırdılar.

Azərbaycan cəmiyyətinin doğurmadığı Dağlıq Qarabağ münaqişəsi Ermənistanın Azərbaycanın daxili işlərinə bilavasitə kobud müdaxiləsinin nəticəsi idi. Belə ki, 1980-ci illərin ortalarından etibarən Ermənistanda bir çox müəssisə və kooperativlər yarımleqal şəraitdə odlu silah, partlayıcı maddələr istehsal edərək Dağlıq Qarabağ bölgəsinə göndərir, sovet Ermənistanı rəhbərlərinin himayəsi altında qanunsuz silahlı birləşmələri silah və sursatla, rabitə vasitələri, o cümlədən nəqliyyatla təmin edirdilər.

Münaqişənin başlanmasına SSRİ-də gedən bir sıra daxili amillər təsir etdi. Ətrafındakı erməni xadimlərinin təsiri altında olan M.S.Qorbaçov yenidənqurma, aşkarlıq və demokratikləşdirmə siyasətini həyata keçirə bilmədiyi üçün yerlərdə günahkarlar axtarmağa və onları cəzalandırmağa cəhdlər edirdi.

SSRİ-nin dağılmasında maraqlı olan bəzi Qərb dövlətləri də milli münasibətləri qızışdırırdılar. Sovet İttifaqını demokratik və güclü bir dövlət kimi görməkdə maraqlı olmayan ölkələr Sovet İttifaqını daha tez dağıtmağın yolunun ən zəif həlqə olan milli münasibətlərin kəskinləşdirilməsindən keçdiyini yaxşı bilirdilər.

1988-ci il fevralın 18-də etdiyi çıxışında M.Qorbaçov SSRİ-də milli münasibətlər məsələsinə baxılmasının vacibliyini söylədi. M.Qorbaçovun çıxışı erməniləri daha da ruhlandırdı. Onlar fevralın 20-də DQMV Xalq Deputatları Sovetinin iclasını keçirdilər. Sovetin tərkibindəki 140 deputatdan 110-u erməni, qalanları isə azərbaycanlılar idi. Azərbaycanlı deputatlar yığıncağa buraxılmadılar. Vilayətin erməni icmasının nümayəndələri DQMV-nin Azərbaycan SSR-dən Ermənistan SSR-ə verilməsi haqqında Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetlərinə müraciət etmək haqqında qərar qəbul etdilər. Bu, Azərbaycan ilə Ermənistan arasında münasibətləri daha da gərginləşdirdi.

Ermənistandan azərbaycanlıların qovulmasına başlanıldı. Azərbaycana ilk qaçqınlar gəlməyə başladı. Qafandan qovulan 70 nəfər fevralın 21-də Azərbaycan KP MK-nın qəbul otağına gələrək Ermənistanda

yaşamağın mümkün olmadığını söylədilər. Onları qəbul edən məsul işçilər bu barədə Ermənistan rəhbərliyinə müraciət etməyi məsləhət bildilər.

Sov.İKP MK fevralın 21-də "Dağlıq Qarabağda hadisələr haqqında" qərar qəbul etdi. Vilayətdə yaranmış vəziyyətin siyasi cəhətdən ciddi qiymətləndirildiyi qərarda qeyd edilirdi ki, bu regionda milli-ərazi quruluşunun dəyişdirilməsi hərəkətləri və tələbləri Azərbaycan və Ermənistan zəhmətkeşlərinin maraqlarına ziddir, millətlərarası münasibətlərə ziyan vurur, məsuliyyətli qərarlar qəbul edilməsə, çətin düzələn nəticələr verə bilər. Qərarda bütün bunların hamısının ekstremist əhval-ruhiyyəli şəxslərin məsuliyyətsiz çağırışlarına yerli partiya və sovet orqanlarının gözləmə mövqeyinin nəticəsi olduğu göstərilirdi. Sov.İKP MK vəziyyəti normallaşdırmaq üçün bütün məsuliyyəti Azərbaycan və Ermənistan KP MK-nın və şəxsən MK-nın birinci katiblərinin üzərinə qoyur, vilayətin sosial-iqtisadi inkişafına dair tədbirləri işləyib hazırlamaq tapşırırdı.

Fevralın 22-də bu qərarı müzakirə edərək bəyənən Azərbaycan KP MK Bürosu vəziyyəti normallaşdırmaq işini Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinə tapşırdı. Vilayətin sosial-iqtisadi inkişafı üçün tədbirləri hazırlayıb Azərbaycan KP MK-ya təqdim etmək göstərişi verildi. Əhali arasında təbliğat işləri aparmaq tövsiyə edildi. Mətbuat, radio və televiziyanın imkanlarından istifadə edərək erməni və Azərbaycan xalqı arasında dostluğun təbliği vacib sayıldı.

Lakin bu qərarlar yerinə yetirilməmiş ilk qan töküldü. Xankəndi-Ağdam şose yolu üstündə yerləşən Əsgəran qəsəbəsi yaxınlığında silahlılar DQMV Xalq Deputatları Sovetinin ayrılma barədə qərarına qarşı etiraz edən dinc azərbaycanlılara fevralın 22-də atəş açdılar. İki azərbaycanlı gənc həlak oldu. Onlar münaqişənin ilk qurbanları idi. Beləliklə, Ermənistanın Azərbaycanın daxili işlərinə müdaxiləsinin ilk konkret nəticəsi Əsgəranda iki azərbaycanlının öldürülməsi oldu.

İşdə yol verdiyi nöqsanlara görə Boris Gevorkov fevralın 25-də Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinin birinci katibi vəzifəsindən azad edildi. Bu vəzifəyə Vilayət Xalq Deputatları Soveti sədrinin birinci müavini, Vilayət Aqrar-Sənaye Kombinatının sədri Nikolay Poqosyan gətirildi.

Həmin gün Sov.İKP MK baş katibi Mixail Qorbaçov Azərbaycan və Ermənistan zəhmətkeşlərinə müraciət etdi. Bu müraciətdən irəli gələn vəzifələrin yerinə yetirilməsi tədbirləri barədə Sov.İKP MK qərar qəbul etdi. Azərbaycan KP MK Bürosu fevralın 26-da həmin qərarı bəyəndi. Respublikada əhali arasında geniş iş aparmaq tədbirləri müəyyənləşdirildi.

Bütün bunlara baxmayaraq, Ermənistan Azərbaycan ərazilərini işğal etmək məqsədi ilə hərbi bazalar yaratmaq üçün əraziyə hərbi birləşmələr, böyük miqdarda silah, sursat göndərməyə, azərbaycanlı əhaliyə qarşı terror hərəkətlərini həyata keçirməyə, onları öldürməyə, evlərini yandırmağa və sərhədyanı kəndləri atəşə tutmağa başlamışdı. Ermənistan təcavüzkarlığını ört-basdır etmək üçün Azərbaycanın Dağlıq Qarabağ bölgəsində "erməni xalqı"nın öz müqəddəratını təyin etməsi, ermənilərin hüquqlarının pozulması, sosial-iqtisadi inkişafının geriliyi barədə mülahizələr irəli sürürdü. Lakin bütün bunların heç bir əsası yox idi. DQMV muxtar qurumlar içərisində sosial-iqtisadi və mədəni baxımdan ən inkişaf etmişlərindən biri idi.

Bu zaman Ermənistandan azərbaycanlıların qovulması artıq kütləvi hal almışdı. Qaçqınlar Azərbaycanın müxtəlif rayonlarına, xüsusən Bakı və Sumqayıt şəhərlərinə üz tuturdular. Ermənistandan qovularaq evsiz-eşiksiz qalan və yaşamaq üçün imkanları olmayan insanlar dövlət orqanlarından hüquqlarının qorunmasını tələb edirdilər. Əsgəranda iki nəfər azərbaycanlının öldürülməsi əhalini daha da hiddətləndirmişdi. Onlardan fərqli olaraq ermənilər Azərbaycanda yaşayır və işləyirdilər.

Yaranmış gərgin vəziyyətdə 1988-ci il fevralın 26-28-də Sumqayıtda sovet xüsusi xidmət orqanlarının təşkili ilə iğtişaş baş verdi. Bununla sovet rəhbərliyi Azərbaycana təzyiq etmək, Ermənistan rəhbərliyi isə azərbaycanlıların və ermənilərin bir yerdə yaşamasının mümkün olmadığını göstərmək istəyirdi.

Azərbaycan hakimiyyətinin vəziyyəti sabitləşdirmək səylərinə baxmayaraq, Ermənistanın kobud müdaxilələrini dayandırmaq mümkün olmurdu. Millətçi əhval-ruhiyyəli şəxslərin Ermənistandan DQMV-nin bir sıra rayonlarına gələrək Dağlıq Qarabağ regionunun Azərbaycan SSR-in tərkibindən çıxarılması üçün yüksək dairələrə müraciət etmək və Ermənistan SSR və DQMV-dən Moskvaya nümayəndələr göndərmək məqsədilə kütləvi imza toplamaq kimi qızışdırıcılıq fəaliyyəti ilə məşğul olurdular.

Ermənistanın Azərbaycana qarşı müdaxiləsi və iki respublika arasında münaqişə Sov.İKP MK-da 1988-ci il martın 9-da keçirilən müşavirədə geniş müzakirə edildi. Sov.İKP MK Siyasi Bürosunun qərarı ilə Dağlıq Qarabağ Muxtar Vilayətində yığılıb qalmış problemləri dərindən və hərtərəfli öyrənmək tapşırıldı.

Azərbaycan KP MK qarşısında duran vəzifələr isə 1988-ci il martın 13-də Azərbaycan KP MK Bürosunun iclasında müzakirə edildi. Geniş bir qərar qəbul olundu. Qərarda Sov.İKP MK-nın 9 mart tarixli müşavirəsinin nəticələri bəyənilir, erməni və Azərbaycan xalqları arasında dostluğu möhkəmləndirmək xəttinə dönmədən əməl etmək yerli partiya, sovet və təsərrüfat orqanlarından tələb edilirdi.

Azərbaycan tərəfinin vəziyyəti normallaşdırmaq cəhdlərinə baxmayaraq, Ermənistan kobud müdaxilələrini davam etdirirdi. Yerevanda çap edilən məqalələrin bəzilərində müəlliflər bu və ya başqa şəkildə Azərbaycan SSR-in bəzi rayonlarının Ermənistana məxsus əzəli torpaqlar olduğunu əsaslandırmağa cəhd edir, erməni əhalisinin müəyyən hissəsində "tarixi ədalətin bərpası" zəruriliyi fikrini formalaşdırırdılar.

Yaranmış vəziyyət Sov.İKP MK Siyasi Bürosunun 1988-ci il martın 21-də keçirilən iclasında müzakirə edildi. İclasda müttəfiq respublikaların rəyasət heyətlərinin iclaslarının keçirilməsi və müvafiq müraciət etmələri təklif olundu. Ermənistana və Azərbaycana ilk olaraq Rusiya müraciət etməli idi.

Bir müddət sonra Rusiya, Ukrayna, Gürcüstan, Belarus, Özbəkistan, Qazaxıstan, Litva, Moldova, Latviya, Qırğızıstan, Tacikistan, Türkmənistan və Estoniya SSR Ali Soveti Rəyasət heyətləri münaqişəni dayandırmaq barədə Azərbaycana və Ermənistana müraciət etdilər.

SSRİ Ali Sovetinin Rəyasət Heyəti martın 23-də Dağlıq Qarabağda, Azərbaycan SSR-də və Ermənistan SSR-də vəziyyətə dair müttəfiq respublikaların müraciəti barədə tədbirlər haqqında qərar qəbul etdi. Qərarda mürəkkəb milli-ərazi məsələlərinin dövlət hakimiyyət orqanlarına təzyiq yolu ilə həlli cəhdləri pislənilirdi. Lakin bu müraciətin nəticəsi olmadı.

Azərbaycan hakimiyyəti Ermənistanın müdaxiləsinin qarşısını ala, respublikanın hüquqlarını qoruya və böhrandan çıxara bilmədi. Yaranmış ağır vəziyyət Azərbaycanda hakimiyyət dəyişikliyinə gətirdi. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Kamran Bağırov 1988-ci il mayın 21-də vəzifəsindən azad edildi. Mərkəz tərəfindən həmin vəzifəyə uzun illər boyu Azərbaycandan kənarda yaşamış, milli ruha yad olan Əbdürrəhman Vəzirov, Ermənistanda isə Karen Dəmirçiyanın əvəzinə Suren Arutunyan hakimiyyətə gətirildi. Hakimiyyət dəyişikliyi vəziyyəti nəinki düzəltmədi, əksinə, xeyli ağırlaşdırdı. Böhran daha da dərinləşdi. İdarəçilik qabiliyyəti olmayan Əbdürrəhman Vəzirov problemi həll etməyi bacarmadığından diqqəti yayındırmağa başladı. Bu isə Azərbaycanın daxilində gərginliyi daha da artırdı. Xalq ilə hakimiyyət arasında uçurum, hakimiyyət daxilində ziddiyyətlər daha da dərinləşdi.

Hakimiyyət dəyişikliyi Ermənistandan azərbaycanlıların qovulmalarını dayandırmadı. Qovulmanın motivləri aşağıdakılar idi: azərbaycanlı əhali ətrafında yaradılmış qeyri-sağlam mənəvi-psixoloji mühit; "Ermənistandan rədd olun" şüarı; silahla hədələnmələri və həyatları üçün təhlükənin olması; ticarət obyektlərində azərbaycanlılara xidmət göstərilməməsi və təhqir olunmaları; Ermənistanın partiya və sovet orqanlarının azərbaycanlıların şikayətlərinə baxmaması.

Sovet rəhbərliyinin müraciətlərinə baxmayaraq, ermənilər iyunun 13-də Yerevanda böyük mitinq keçirdilər. Bundan bir neçə gün sonra, iyunun 15-də keçirilən Ermənistan SSR Ali Sovetinin sessiyası DQMV Sovetinin yuxarıda göstərilən müraciətinə baxaraq DQMV-nin Ermənistanın tərkibinə girməsinə razılıq verdi. Həmçinin DQMV-nin Azərbaycan SSR-dən Ermənistan SSR-ə verilməsi barədə müsbət qərar qəbul etmək haqqında Bakıya və Moskvaya müraciət etdi. Cavab olaraq Azərbaycan SSR Ali Soveti və onun Rəyasət Heyəti 1988-ci il iyunun 13 və 17-də qəbul etdiyi qərarlarda SSRİ konstitusiyasının 78-ci və Azərbaycan SSR Konstitusiyasının 70-ci maddələrini əsas gətirərək DQMV-nin Azərbaycan SSR-dən alınaraq Ermənistan SSR-ə birləşdirilməsinin qəbuledilməz və qeyri-mümkün olduğunu bildirdi. Bundan sonra müttəfiq respublikalar arasında sərhəd dəyişikliyinin mümkünlüyünü müzakirə etmək üçün ciddi bir əsas olmadığını və SSRİ Konstitusiyasının müddəalarını, Azərbaycan SSR-in və Ermənistan SSR-in qüvvədə olan əsas qanunlarını nəzərə alaraq məsələnin artıq bağlandığını hesab etmək olardı. Lakin belə olmadı. Ermənistan Azərbaycanın daxili işlərinə kobud müdaxilələrini daha da genişləndirərək xaricdəki erməni diasporunu da bu işə cəlb etdi. İyunun 16-da 100 minə yaxın erməni SSRİ-nin Parisdəki səfiriliyi önündə mitinq keçirərək Dağlıq Qarabağın Ermənistana verilməsini tələb etdi.

Bu zaman Ermənistandan qovulan azərbaycanlılar kortəbii mitinqlər keçirərək DQMV-də qayda-qanun yaradılmasını, Ermənistanda yaşayan azərbaycanlıların təhlükəsizliyinin təmin olunmasını, həyat və əmək fəaliyyətləri üçün normal şərait yaradılmasını tələb edirdilər. Azərbaycan hakimiyyəti bu haqlı tələbləri yerinə yetirə bilmirdi. Moskvada isə zəif, xalqdan ayrı düşmüş respublika rəhbərliyini dinləmək istəmirdilər. Ermənistandan azərbaycanlıların vəhşicəsinə qovulmalarına cavab olaraq qaçqınlar da Azərbaycandakı ermənilərin işdən çıxarılmasını tələb edirdilər. Bu zaman Ermənistandan qovulan azərbaycanlıların sayı 16 min nəfəri ötüb keçmişdi. Bir müddət sonra onların sayı 18 min 500 nəfər oldu.

İyul ayının əvvəllərindən etibarən Yerevanda və Ermənistanın digər şəhərlərində kütləvi mitinqlər keçirildi. Həmin mitinqlərlə təxminən eyni vaxtda, 1988-ci il iyulun 12-də DQMV Xalq Deputatları Soveti bölgənin Azərbaycan SSR-dən birtərəfli qaydada ayrılmasına dair qərar qəbul etdi. Buna cavab olaraq iyulun 13-də Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti SSRİ və Azərbaycan SSR konstitusiyalarına, eləcə də Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında qanununa əsaslanaraq DQMV Xalq Deputatları

Sovetinin vilayətin Azərbaycan SSR-dən birtərəfli qaydada ayrılmasına dair DQMV Xalq Deputatları Sovetinin 12 iyul tarixli qərarının qanunsuz olduğuna və heç bir hüquqi qüvvəsi olmadığına dair qərar qəbul etdi.

SSRİ Ali Sovetinin Rəyasət Heyəti 1988-ci il iyulun 18-də Ermənistan SSR və Azərbaycan SSR Ali sovetlərinin Dağlıq Qarabağ haqqında məsələ üzrə qərarları barədə qərar qəbul etdi. Qərarda Ermənistan ilə Azərbaycan arasında konstitusiya əsasında müəyyənləşdirilmiş milli-ərazi bölgüsünün dəyişdirilməsinin yolverilməzliyi bildirilərək göstərilirdi ki, SSRİ Konstitusiyasının 78-ci maddəsinə əsasən müttəfiq respublikanın ərazisi onun razılığı olmadan dəyişdirilə bilməz. Müttəfiq respublikalar arasında sərhədlər müvafiq respublikaların qarşılıqlı razılığı və SSRİ-nin ali orqanlarının təsdiqi nəticəsində mümkün ola bilərdi. Bu müddəa Ermənistan SSR və Azərbaycan SSR konstitusiyalarında da əksini tapmışdı.

Beləliklə, Ermənistan SSR-in Dağlıq Qarabağ bölgəsini Azərbaycan SSR-dən qopararaq tərkibinə qatmaq məqsədilə başladığı açıq müdaxilə SSRİ Konstitusiyasının kobud şəkildə pozulması ilə müşayiət olunduğundan hüquqi nəticə doğurmadı. SSRİ Ali Sovetinin Rəyasət Heyəti bu iddiaları rədd etdi.

Buna baxmayaraq, DQMV-də müəssisələr işləmirdi. Az sonra vilayətdə milli zəmində toqquşmalar baş verdi. Qanlı toqquşmaların qarşısını almaq üçün 1988-ci il iyulun 28-də Azərbaycanın Dağlıq Qarabağ regionunda fövqəladə vəziyyət elan edildi.

Ermənistanda isə qovulan azərbaycanlıların sayı daha da artmışdı. Azərbaycan hakimiyyəti Ermənistandakı azərbaycanlıların hüquqlarını qorumaq iqtidarında deyildi. Respublika böyük fəlakətlə üz-üzə qalmışdı. 1988-ci il avqustun 1-nə olan məlumata görə, Ermənistandan qovulan qaçqınlar Azərbaycanın 45 şəhər və rayonuna toplanmışdı.1988-ci ilin oktyabrın əvvəllərinə olan məlumata görə, Ermənistandan Azərbaycana 28 min 225 nəfər və ya 6 min 516 ailə qovulmuşdu. Azərbaycanlılar DQMV-dən də zorla qovulurdular. Xankəndidən, Əsgəran, Martuni və Hadrut rayonlarından Şuşa, Ağdam və digər rayonlara 3 min 69 nəfər və ya 569 azərbaycanlı məcburi köçkün ailəsi gəlmişdi. Azərbaycan hakimiyyəti onların hüquqlarını qorumaqda gücsüz idi. Mərkəzi hökumət isə azərbaycanlıları qaçqına çevirən, üstəlik, respublikamıza qarşı əsassız iddialar irəli sürən Ermənistanı cəzalandırmırdı.

1988-ci ilin sonları üçün Ermənistandan qovularaq qaçqına çevrilən azərbaycanlıların sayı 110 min nəfərə çatmışdı. Onların Dağlıq Qarabağ regionunda yerləşdirilməsinə icazə verilmədi. Ermənistanda ev-eşiklərini itirmiş, vilayətə yerləşmiş azərbaycanlı qaçıqınlar mərkəzi və Azərbaycan hakimiyyəti tərəfindən zorla oradan çıxarıldılar.

1988-ci il dekabrın 7-də Ermənistanda 25 min adamın ölümünə və 500 min adamın evsiz-eşiksiz qalmasına səbəb olan zəlzələ baş verdi. Əsassız ərazi iddiaları irəli sürməsinə və tarixi torpaqlarında yaşayan azərbaycanlıları zorla qovaraq qaçqına çevirməsinə baxmayaraq, Azərbaycanda Ermənistan üçün humanitar yardım toplandı. Qəribə idi. Humanitar yardım toplayanlar arasında Ermənistanda tarixi torpaqlarından qovulan, ev-eşiklərini itirən azərbaycanlılar da var idi. Azərbaycan dekabrın 12-də Ermənistana humanitar yardımla dolu İL-76 təyyarəsində 77 xilasedici göndərdi. Lakin təyyarə Ermənistan səmasında vuruldu. Bir nəfərdən başqa təyyarədəki bütün insanlar həlak oldular.

Zəlzələnin nəticələrini aradan qaldırmaq üçün çalışan xarici ölkə xilasedicilərinin rastlaşdığı fakt təyyarə qəzasından daha dəhşətli idi. Onlar ermənilər tərəfindən diri-diri doldurularaq qaynaqlanmış qaz borularından 30 nəfərədək azərbaycanlı uşağın meyitini tapdılar. Bu, Ermənistanda azərbaycanlılara qarşı düşmənçilik və nifrət hisslərinin həddinin olmadığını göstərirdi. Təbii fəlakət Ermənistanın işinə yaradı. Zəlzələdən ziyan çəkən əhaliyə yardım adı altında Ermənistana xarici ölkələrdəki erməni diasporu çoxlu silah və sursat göndərdi.

Sovet rəhbərliyi bu zaman Azərbaycanın hüquqlarını kobudcasına pozan daha bir addım atdı. SSRİ Ali Sovetinin Rəyasət Heyəti 1989-cu il yanvarın 12-də Azərbaycan konstitusiyasına zidd olaraq 10025 [1]-li qərarı ilə Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi İdarə Komitəsi yaratdı. Komitənin tərkibinə 8 nəfər daxil edildi. Onların 5 nəfəri Sov.İKP MK, mərkəzi nazirlik və idarələrin nümayəndələri idilər. Komitənin tərkibində SSRİ DTK-nın iki əməkdaşı çalışırdı. Sov.İKP MK Siyasi Bürosunun 13 yanvar tarixli P146/41[1]-li qərarı ilə Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində Xüsusi İdarə Komitəsi yaradılmasına dair qərar qəbul olundu. Komitənin sədri Arkadiy Volski təyin edildi.

Komitənin yaradılması regionun Azərbaycanın nəzarətindən çıxmasında əsas rol oynadı. Ermənilər Azərbaycanın dəmiryolları və avtomobil yollarına qarşı təxribatlar törətməyə, Dağlıq Qarabağ regionunda kütləvi talanlar etməyə, təbii sərvətləri dağıtmağa və meşələri qırmağa başladılar.

Bunlara cavab olaraq avqustun 12-də Bakıda kütləvi mitinqlər başladı. Əhali Ermənistanın Azərbaycanın daxili işlərinə qarışmasının və təcavüzünün dayandırılmasını tələb edirdi.

"Dağlıq Qarabağ Muxtar Vilayəti əhalisinin səlahiyyətli nümayəndələrinin konqresi" 1989-cu il avqustun 16-da keçirilən iclasında Dağlıq Qarabağın Azərbaycan SSR tərkibində muxtariyyətini tanımaqdan imtina etdiyini bildirdi. "Konqres" eyni zamanda DQMV-ni Azərbaycan SSR Konstitusiyasının və respublikanın digər qanunlarının işləmədiyi "müstəqil ittifaq ərazisi" elan etdi, DQMV-də müstəsna xalq hakimiyyətini bəyan edən "milli şura" yaratdı. Bütün bunlar Xüsusi İdarə Komitəsinin fəaliyyət göstərdiyi müddətdə baş verdi. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti isə avqustun 26-da "Dağlıq Qarabağ Muxtar Vilayəti əhalisinin səlahiyyətli nümayəndələrinin konqresi"nin qərarını qanunsuz elan etdi.

Bunun ardınca Azərbaycan SSR Ali Soveti 1989-cu il sentyabrın 23-də Azərbaycan Sovet Sosialist Respublikasının suverenliyi haqqında Azərbaycan SSR-in Konstitusiya qanununu qəbul etdi. Qanunun 5-ci maddəsində yazılırdı: "Azərbaycan SSR-in suverenliyi Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan MSSR və Dağlıq Qarabağ Muxtar Vilayəti də daxil olmaqla respublikanın bütün ərazisinə şamil edilir" və "Azərbaycan SSR-in digər müttəfiq respublikalarla sərhədləri yalnız müvafiq respublikaların qarşılıqlı sazişi üzrə dəyişdirilə bilər".

Azərbaycan tərəfi Xüsusi İdarə Komitəsinin fəaliyyətinə narazılığını bildirdi. Geri çəkilən sovet rəhbərliyi noyabrın 28-də Xüsusi İdarə Komitəsini ləğv etdi. Onun əvəzində SSRİ Ali Soveti Xüsusi Komissiyasının nəzarəti altında Dağlıq Qarabağ üzrə Azərbaycan SSR-in Təşkilat Komitəsini yaratdı. Ermənistan rəhbərliyi SSRİ Ali Sovetinin bu qərarını qəbul etmədi. Ermənistanda erməni milli hərəkatı quruldu. Onun rəhbərliyinə şərqşünas alim Levon Ter-Petrosyan gətirildi. Hərəkatın əsas məqsədi Azərbaycanın Dağlıq Qarabağ regionunu Ermənistana birləşdirmək idi. Ermənistan SSR Ali Soveti 1989-cu il dekabrın 1-də Ermənistan SSR və Dağlıq Qarabağı birləşdirmək haqqında qərar qəbul etdi. Xankəndidə Ermənistan SSR bayrağı qaldırıldı. Heç şübhəsiz, Ermənistan parlamentinin bir müttəfiq respublikanın ərazisinin müəyyən hissəsinin digərinin xeyrinə birtərəfli qaydada ələ keçirilməsini qanunilələşdirməyə və digər dövlətin ərazisində Konstitusiyaya zidd qurumun yaradılmasına yönəldilmiş bu və bir çox digər qərarları beynəlxalq hüquqa zidd idi. Buna görə Azərbaycan tərəfi dekabrın 2-də həmin qərarın hüquqi əsası olmadığını bəyan etdi.

Azərbaycanlıların bir qismi etiraz əlaməti olaraq dekabr ayında İran ilə sərhəd məftillərini sökdü. Bu, Azərbaycan xalqı tərəfindən tarixi istəyinin yerinə yetirilməsində bir addım idisə, sovet hakimiyyəti tərəfindən xarici ölkələrdə respublikada baş verən hadisələrin "islam fundamentalizmi" kimi təbliğ edilməsinə gətirib çıxardı.

Bu hadisələrə paralel olaraq Ermənistandan azərbaycanlıların vəhşicəsinə qovulması davam edirdi. Kütləvi qovulma ölüm və zorakılıq halları ilə müşayiət olunurdu. Azərbaycan SSR Prokurorluğunun məlumatına əsasən 1988-1989-cu illərdə münaqişə zəminində 216 nəfər azərbaycanlı öldürülmüşdü. Öldürülənlərin əksəriyyəti uşaqlar, qadınlar və yaşlı adamlar idi. Kütləvi zorakılıq və talanlar dövründə erməni hərbiləşdirilmiş qruplaşmaları xüsusi qəddarlığı ilə seçilirdilər. Münaqişənin gedişində azərbaycanlılar yaşadıqları 172 kənddən qovuldular. Bütövlükdə münaqişənin gedişində Ermənistan ərazisindən 185 min 519 nəfər və ya 40897 azərbaycanlı ailə qovuldu. Onların hamısı əmlaksız və evsiz-eşiksiz qaldılar. Ermənistanda azərbaycanlılara məxsus bütün tarixi yer adları dəyişdirilərək erməniləşdirildi. Sonralar, 1991-ci il aprelin 9-da Ermənistan Respublikası Ali Soveti Rəyasət Heyətinin qəbul etdiyi qərarla azərbaycanlılara məxsus 94 kəndin də adı dəyişdirildi. Ermənistanda azərbaycanlılara məxsus tarix və mədəniyyət abidələri, məzarlar və məscidlər tamamilə dağıdıldı, yerlə yeksan edildi.

Vilayətdə də azərbaycanlılara qarşı zorakılıq dayanmırdı. Ermənistan SSR Ali Soveti Azərbaycanın daxili işlərinə müdaxiləni davam etdirərək yanvarın 9-da Dağlıq Qarabağı 1990-cı il iqtisadi planına daxil etdi. Bu isə Azərbaycan ilə Ermənistan arasında münasibətləri daha da pisləşdirdi.

Azərbaycanda ictimai-siyasi vəziyyət kəskinləşdi. 1990-cı il yanvarın 10-da SSRİ Ali Sovetinin Rəyasət Heyəti "Dağlıq Qarabağ barəsində Ermənistan SSR Ali Sovetinin 1989-cu il dekabrın 1-də və 1990-cı il yanvarın 9-da qəbul etdiyi qərarların SSRİ Konstitusiyasına uyğun olmaması haqqında" qərar qəbul etdi. Qərarda Azərbaycan SSR-in razılığı olmadan Ermənistan SSR ilə Dağlıq Qarabağın yenidən birləşdirilməsinin qanunsuz olduğu bildirilirdi. Buna cavab olaraq Ermənistan SSR Ali Soveti respublikasında yalnız Ermənistan qanunlarının qüvvədə olduğunu bildirdi.

Mərkəzi hökumətin azərbaycanlıların etirazlarına məhəl qoymaması və hüquqlarını qorumaması nəticəsində Azərbaycanda vəziyyət daha da pisləşdi. Uğursuzluqlar daxili siyasi sabitsizliyə və böhrana gətirib çıxardı. Bakıda mitinqlər ara vermirdi. Əhali Ermənistanın müdaxiləsini dayandırmağı, Dağlıq Qarabağ regionunda vəziyyəti normallaşdırmağı, Ermənistandan qovulan adamların problemlərinin həllini tələb edirdi. Xalqdan ayrı düşmüş Azərbaycan hakimiyyəti isə bunları yerinə yetirməyə qadir deyildi. Hakimiyyət orqanları fəaliyyətsiz hala düşmüşdülər. Respublikanın paytaxtında vəziyyət nəzarətdən çıxırdı. Azərbaycanın

bölgələrində də vəziyyət gərginləşmişdi. Bir neçə rayonda Azərbaycan Xalq Cəbhəsinin fəalları hakimiyyət orqanlarını ələ keçirdilər. Yanvarın 11-12-də Lənkəranda mitinqçilər Azərbaycan KP şəhər partiya komitəsinin və yerli radiostansiyanın binalarını tutdular. Bir neçə rayonda da bu hal təkrar olundu. Qoşun hissələrinin şəhərə girməsinə haqq qazandırmaq üçün sovet xüsusi xidmət orqanları yanvarın 13-də Bakıda yaşayan bəzi ermənilərə qarşı zorakılıq hərəkətlərini təşkil etdi.Yanvarın 17-dən etibarən Azərbaycana əlavə sovet hərbi hissələri gətirilməyə başlandı. Azərbaycana yeridilən sovet əsgərlərinin sayı yanvarın 19-da 24 minə çatmışdı. Azərbaycan xalqı sovet qoşun hissələrinin qarşısında küçələrdə əliyalın qalmışdı.

**Bəşəriyyətə və humanizmə qarşı dəhşətli cinayət**

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan televiziyasının enerji bloku partladıldı. Əhali baş verən hadisələr barədə heç bir informasiya ala bilmədi. M.Qorbaçov Bakıda fövqəladə vəziyyət elan edilməsi barədə dekret imzaladı. Elə həmin gecə M.Qorbaçov başda olmaqla sovet rəhbərliyi əsasən Rostov, Krasnodar və Stavropoldan gətirilmiş ehtiyat əsgər və zabitlərdən komplektləşdirilmiş ordu hissələrinə etirazları yatırmaq üçün Bakıda dinc əhaliyə qarşı silah işlətmək əmrini verdi. Ordunun Bakıda və Azərbaycanın digər ərazilərində görünməmiş vəhşiliyi nəticəsində dəhşətli qətliam baş verdi. 130 dinc azərbaycanlı öldürüldü, 700 nəfər yaralandı, 12 nəfər itkin düşdü. 20 Yanvar hadisəsi nəticəsində Əbdürrəhman Vəzirov respublikadan qaçdı. Azərbaycan Xalq Cəbhəsinin liderləri də qaçıb gizləndilər.

Həmin vaxtlarda sərt nəzarət altında olan böyük dövlət və siyasi xadim Heydər Əliyev ailə üzvləri ilə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək bəyanat verdi, sovet rəhbərliyinin hərəkətlərini ittiham etdi, baş verən hadisəni hüquqa zidd, demokratiyaya yad, humanizm prinsiplərinin əleyhinə olduğunu bildirdi.

20 Yanvar hadisəsi sovet hakimiyyətinin vətəndaşlarına qarşı törətdiyi ağır cinayət idi. Bu hadisənin mahiyyətini təhlil edən akademik Ramiz Mehdiyev yazır: "Totalitar kommunist rejimin XX əsrdə həyata keçirdiyi ən qanlı terror aktlarından biri olan bu təcavüz Azərbaycan xalqına qarşı, bəşəriyyətə və humanizmə qarşı dəhşətli cinayətdir".

**SSRİ-nin əsaslarını dağıdan hadisə**

20 Yanvar hadisəsi SSRİ-nin mövcudluğuna son qoyan amillərdən biri oldu. Bu, SSRİ siyasi sisteminin böhranını və M.Qorbaçovun yenidənqurma, aşkarlıq və demokratikləşdirmə siyasətinin iflasını göstərdi. Azərbaycan xalqı ilə hakimiyyət arasında uçurum daha da dərinləşdi. Həlak olanların xatirəsinə ehtiram əlaməti olaraq Azərbaycanda fabrik və zavodlar 40 gün işləmədi. Bu isə vahid bir zəncir kimi bir-birinə bağlanmış sovet iqtisadiyyatının dağılmasına ciddi təsir etdi. Ölkənin iqtisadi əsasları sarsıldı.

Xalqın orduya, xüsusi xidmət orqanlarına, bütövlükdə mərkəzi hakimiyyətə olan inamı tamamilə sarsıldı. Kommunistlər partiya biletlərindən imtina etməklə SSRİ-nin ideoloji əsasını sarsıtdılar.

20 Yanvar hadisəsi Azərbaycan xalqının həyatında dönüş mərhələsi oldu. Xalq bundan sonra mərkəzlə yolunun bir olmayacağını, keçmişə qayıdışın mümkünsüzlüyünü dərk etdi və yerli hakimiyyətə də etimad bəsləmədi. Müstəqillik və milli azadlıq mərhələsi başladı. Azərbaycan xalqı nicat yolunu yalnız müstəqillikdə gördü.

**Sovet atributlarından imtina edilir**

Belə bir şəraitdə 1990-cı il noyabrın 17-də Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyasının qərarı ilə Naxçıvan MSSR adından "Sovet Sosialist" sözləri çıxarılaraq Naxçıvan Muxtar Respublikası adlandırıldı. Azərbaycan Cümhuriyyətinin üçrəngli bayrağı rəsmi olaraq qəbul edildi. Sessiya Azərbaycan SSR Ali Sovetinə müraciət edərək sovet sosialist ifadələrindən imtina etməyi, üçrəngli bayrağı dövlət bayrağı olaraq qəbul etməyi təklif etdi. Naxçıvanda sovet sistemindən imtina olunması geniş əks-səda doğurdu. Naxçıvan müstəqil Azərbaycan dövlətçiliyinin onurğa sütunu oldu.

1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Azərbaycan Respublikası adı rəsmi olaraq qəbul edildi. Martın 17-də ölkədə SSRİ-nin saxlanılıb-saxlanılmaması barədə referendum keçirildi. SSRİ-nin saxlanılmasının tərəfdarları üstünlük qazandılar. Azərbaycanda isə Naxçıvan Muxtar Respublikasında referendum boykot edildi.

Dünyada və ölkədə baş verən obyektiv proseslərin təsiri altında SSRİ-nin dağılması sürətləndi. 1991-ci il avqustun 19-da M.Qorbaçovun devrilməsi məqsədi ilə edilən çevriliş cəhdi iflasa uğradıqdan sonra ölkənin dağılması sürətləndi. Azərbaycan 1991-ci il avqustun 30-da dövlət müstəqilliyinin bərpası haqqında bəyannamə

qəbul etdi. Bir müddət sonra hələ SSRİ mövcud olduğu bir şəraitdə -oktyabrın 18-də isə Azərbaycanın dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya aktı qəbul olundu.

**"Azərbaycan".-**2014.-18-19 yanvar.-№ 10.-S.10.-№11.-S. 5.

## 20 Yanvar faciəsinə gedən yol

***Rəşad Cəfərli***

Azərbaycanın istiqlaliyyət yolunun ilk şəhidlik zirvəsi sayılan 20 Yanvar faciəsi yeni tariximizə həm də bir qürur günü kimi yazıldı. Çünki bu hadisə günahsız insanların amansız bir formada qətlə yetirilməsi ilə nəticələnsə də, öz azadlığına, müstəqilliyinə can atan Azərbaycan xalqının mübarizliyini, məğrurluğunu bir daha bütün dünyaya, o cümlədən o vaxtkı imperiya rəhbərliyinə aydın şəkildə nümayiş etdirdi. Tarixə qanla yazılan 20 Yanvar faciəsi Vətəni, azadlığı uğrunda ölümün gözünə dik baxan Azərbaycan övladlarının sarsılmazlığını bir daha dünyaya tanıtmaqla yanaşı, SSRİ adlanan nəhəng imperiyanın çöküşündə əsas amillərdən biri oldu.

Süquta məhkum olmuş sovet rejimi özünün son günlərində bütün mövcudiyyəti ərzində törətmiş olduğu cinayətlər sırasına misli görünməmiş bir faciəni də əlavə etdi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinə yeridilən sovet ordusu Ermənistanın respublikamıza qarşı ərazi iddialarının SSRİ rəhbərliyi tərəfindən açıq-aşkar dəstəklənməsinə və Azərbaycanın o zamankı rəhbərliyinin xəyanətkar siyasətinə etiraz əlaməti olaraq ayağa qalxmış xalqımıza vəhşicəsinə divan tutdu.

### Milli faciə

Faciəyə gedən yolun başlanğıcı onun törədilməsindən xeyli əvvəl, SSRİ rəhbərliyinə M.Qorbaçovun gəlişi ilə başlamışdı. Qorbaçovun simasında daim Azərbaycana qarşı məkrli, xəyanətkar mövqe tutmuş ermənilər özlərinə yaxın himayədar tapmışdılar. Əlbəttə, nə qədər ki Heydər Əliyev SSRİ rəhbərliyində təmsil olunurdu, ermənilər Azərbaycanla bağlı bədnam niyyətlərini həyata keçirə bilmirdilər. Çünki Heydər Əliyevin Siyasi Büroda olması ermənilərə və Qorbaçova Azərbaycanla bağlı planlarının reallaşmasına, o cümlədən Qarabağ münaqişəsinin törədilməsinə imkan vermirdi. Elə buna görə Qarabağ məsələsinin Heydər Əliyev Siyasi Bürodan istefa verdikdən cəmi 15 gün sonra ortaya çıxması təsadüfi sayılmamalıdır. O vaxt M.Qorbaçovun ən yaxın adamı, iqtisadi məsələlər üzrə müşaviri, milliyyətcə erməni olan Aqanbekyan Parisdə keçirdiyi mətbuat konfransında Dağlıq Qarabağın Ermənistana verilməsi iddiasını irəli sürmüş, "Humanite" qəzetindəki bəyanatında Moskvanın buna razılığının olduğunu bildirmişdi.

SSRİ rəhbərliyinin Dağlıq Qarabağın Ermənistana verilməsinə dair razılığının olduğu 1988-ci ilin əvvəllərində M.Qorbaçovun Silva Kaputikyan başda olmaqla, bir qrup şovinist erməni ilə görüşü zamanı da üzə çıxdı. Bunun ardınca Xankəndidə, Yerevanda antiazərbaycan və antitürk ruhlu mitinqlər genişləndi.

Məhz bundan sonra erməni "Qarabağ Komitəsi", onun Dağlıq Qarabağ Muxtar Vilayətindəki separatçı-terrorçu təşkilatı olan "Krunk" gizli fəaliyyətlərinə son qoyaraq açıq şəkildə niyyətlərini bəyan etməyə, Azərbaycana qarşı ərazi iddiaları səsləndirməyə başladı. Bunun nəticəsi olaraq ermənilər tərəfindən "Miatsum" adlanan hərəkat formalaşdırıldı.

Bütün bunlar 1988-ci ilin fevralından etibarən hadisələrin daha gərgin və aqressiv məcrada inkişafı ilə nəticələndi. Məhz həmin dövrdə həm Dağlıq Qarabağda, həm də Yerevanda Azərbaycan torpaqlarının Ermənistana birləşdirilməsi tələbi ilə silsilə mitinqlər başladı. SSRİ rəhbərliyi tərəfindən heç bir ciddi müqavimət görməyən və bundan daha da ruhlanan ermənilər Dağlıq Qarabağ Muxtar Vilayəti Sovetinin vilayətin statusuna baxılması haqqında Azərbaycan SSR Ali Sovetinə müraciət qəbul etməsinə nail oldular.

### Ermənistanda və Qarabağda etnik təmizləmə siyasəti həyata keçirilirdi

Azərbaycanın o vaxtkı rəhbərliyi hadisələrə fəal müdaxilə etmək əvəzinə, Kremldən gələn əmrlər əsasında hərəkət edir və bununla xalqın taleyinə biganə yanaşırdı. Kreml isə həm Azərbaycana göndərdyi emissarlar, həm də ölkənin qətiyyətsiz rəhbərliyi vasitəsilə daha məkrli ssenarilər hazırlamaqda idi. Erməni təxribatçılarının da yaxından iştirak etdiyi bu ssenarilərin əsas hədəflərindən biri Azərbaycanda ermənilərə qarşı

dözümsüz münasibətin formalaşmasına dair görüntülər yaratmaq idi. Elə bu məqsədlə də 1988-ci ilin fevralında məlum Sumqayıt hadisələri törədildi.

Müxtəlif millətlərin nümayəndələrinin yaşadığı sənaye şəhəri Sumqayıtda iğtişaşlar yaratmaqla siyasi dünyanın yeni səviyyədə gündəminə gətirilmiş "böyük Ermənistan" xülyasının gerçəkləşdirilməsi üçün ermənilərə çox lazım idi. Lakin bu məsələdə sovet DTK-nın da özünəməxsus rolu oldu. Beləliklə, əvvəlcədən planlaşdırılmış Sumqayıt olayları törədildi və o dövrdə Azərbaycanda hakimiyyətdə olanlar SSRİ rəhbərliyinin, ermənilərin niyyətlərini, qlobal hadisələrin mahiyyətini axıra kimi dərk etmək iqtidarında olmadıqlarından qanlı hadisələrin yaşanmasının qarşısını almaq üçün müvafiq addımlar atılmasında acizlik nümayiş etdirdilər. Sumqayıt hadisələrinin əvvəlcədən hazırlandığını o da sübuta yetirir ki, olaylar baş verən yerlərdə öncədən çoxlu teleoperatorlar, jurnalistlər yerləşdirilmişdi. Bunun nəticəsində düşünülmüş, ssenarisi əvvəlcədən cızılmış Sumqayıt hadisələri saxtakarlıqlarla, uydurmalarla dünyaya yayıldı. Bundan sonra ermənilər Ermənistanda və Dağlıq Qarabağda belə bir əhval yaratdılar ki, artıq azərbaycanlılarla ermənilər bir yerdə yaşaya bilməzlər. Bunun nəticəsi olaraq indiki Ermənistanın yarandığı əzəli Azərbaycan torpaqlarında yaşayan yüz minlərlə soydaşlarımız 1988-ci ilin sonuna kimi qətlə yetirilməklə, əmlakları talan olunmaqla ən qəddar formada deportasiya olundular.

Dağlıq Qarabağda da vəziyyət getdikcə gərginləşirdi və bu işdə yenə əsas rol oynayan tərəflərdən biri Azərbaycan rəhbərliyinin acizliyindən istifadə edərək hadisələri istədiyi kimi istiqamətləndirən Kreml təmsilçiləri idi. Bütün bunlara qarşı Azərbaycan rəhbərliyi tərəfindən heç bir qətiyyətli addım atılmadı. M.Qorbaçov isə tədbir görmək əvəzinə, DQMV-nin sosial-iqtisadi inkişafının geridə qalması barədə ermənilərin uydurduqları yalanı müdafiə edərək İttifaq büdcəsindən vilayətə 400 min rubl vəsait ayrılmasına göstəriş verdi. 1988-ci il iyunun 15-də Ermənistan SSR Ali Soveti DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qərar qəbul etdi. İyul ayında SSRİ Ali Sovetinin Rəyasət Heyətinin sessiyasında Dağlıq Qarabağ məsələsi müzakirə edilən zaman Azərbaycandan olan deputatlarla yanaşı, qanunazidd olaraq Ermənistandan olan deputatlar da eyni hüquqda orada iştirak etdilər. Bu isə Qorbaçov və onun ətrafının Ermənistan üçün yaratdığı yeni imkan demək idi.

İttifaq rəhbərliyinin Azərbaycan xalqına qarşı ən böyük xəyanəti özünü növbəti dəfə 1989-cu ilin yanvarında göstərdi. Belə ki, həmin il yanvarın 12-də "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarəçilik formasının tətbiqi haqqında" SSRİ Ali Soveti qərar qəbul etdi və bu, ermənilərin istəyinə tam uyğun idi. Çünki DQMV-də xüsusi idarəçilik forması tətbiq edildiyi ilk gündən birbaşa Moskvaya tabe olan ermənipərəst A.Volski burada yaşayan bütün azərbaycanlı soydaşlarımızın çıxarılmasına nail oldu. Qısa müddətdə 50 min nəfər azərbaycanlı DQMV-dən qovuldu. Halbuki Azərbaycanın siyasi rəhbərliyi sözügedən idarənin yaranmasını böyük uğur kimi qiymətləndirir və bu idarəyə çox böyük ümidlər bəsləyirdi. Yalnız xalq hərəkatının təsiri altında 1989-cu il noyabrın 28-də vilayətin idarəsi mərkəzin nəzarəti altında olan Azərbaycan SSR Təşkilat Komitəsinə tapşırıldı. Təşkilat Komitəsinin sədri təyin edilən V.Polyaniçko əslində öz sələfinin siyasətini davam etdirdi və azərbaycanlılar daha da sıxışdırılırdı.

Ümumiyyətlə, 20 Yanvar faciəsinə qədər SSRİ və respublika rəhbərliyinin çıxardığı qərar və fərmanların heç birində Azərbaycanın xeyrinə bircə maddə belə olmadı. Bir tərəfdən Azərbaycan xalqını sakitləşdirməyə yönələn addımlar atılır, digər tərəfdən isə respublikanın suverenliyinə, ərazi bütövlüyünə xələl gətirən qərarlar qəbul olunurdu. Bu, Ermənistanın SSRİ rəhbərliyi tərəfindən ən yüksək səviyyədə müdafiə olunduğunu göstərirdi.

1989-cu ilin noyabrından səbr kasası dolmuş xalq Bakının mərkəzi meydanında mitinqlərə başladı. Yanvarın 18-də Bakıda və Azərbaycanın 11 rayonunda keçirilən izdihamlı mitinqlərdə ümumi tətilin başlandığı elan edildi. Lakin genişlənməkdə olan xalq hərəkatına ilk dövrlərdə səriştəsiz rəhbərlik, xəyanətkarlıq ölkəni daha ağır vəziyyətə salırdı. Dağlıq Qarabağın Azərbaycandan qoparılaraq Ermənistana verilməsinə şərait yaradan Qorbaçov isə respublikada genişlənən milli-azadlıq hərəkatının boğulması üçün müxtəlif vasitələr üzərində baş sındırırdı.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Vəzirov Moskvanın marionetkası olaraq həm Dağlıq Qarabağın ermənilərin əlinə keçməsinin qarşısını almaq, həm də ölkədəki vəziyyəti sabitləşdirmək üçün heç nə edə bilmirdi. Əksinə, özünün səhv addımları, yarıtmaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurumu daha da dərinləşdirirdi. Elə buna görə də Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında aylarla davam edən mitinqlərdə dəfələrlə Azərbaycanın partiya rəhbərlərinin istefası tələbi irəli sürülmüşdü. Bu dövrdə xalq hərəkatına rəhbərlik edənlər də böyük səriştəsizlik göstərir, çox vaxt DTK-nın istədiyi ssenarilərə uyğun hərəkət edirdilər.

1989-cu ilin sonu, 1990-cı ilin yanvarında Azərbaycanda ictimai-siyasi vəziyyət xeyli kəskinləşdi, qarşıdurma dərinləşdi, mövcud iqtidarın hadisələrə nəzarəti son dərəcə zəiflədi. SSRİ rəhbərliyi isə Azərbaycanı növbəti dəfə cəzalandırmaq üçün Sumqayıt ssenarisinə uyğun təxribatlara start verdi. Milli-azadlıq hərəkatının mərkəzi olan Bakıda ilk olaraq yerli milis tərksilah edildi, əvəzində daxili qoşun hissələri şəhərə gətirildi. Yanvarın 13-də Bakıda bir erməninin iki azərbaycanlını öldürməsi fitnəkarlıqlar üçün əsas oldu və iki gün ərzində Bakıda süni şəkildə erməni talanı təşkil edildi. Mərkəz tərəfindən düşünülmüş və taktiki baxımdan hərtərəfli hazırlanmış bu məkrli plan hazır ssenari üzrə aparıldı. Elə bu səbəbdən də ayrı-ayrı dəstələrin əməllərinin qarşısını almaq üçün ali hakimiyyət və hüquq-mühafizə orqanları tərəfindən heç bir tədbir görülmədi. Halbuki Bakıda SSRİ Daxili İşlər Nazirliyinin 12 min nəfərlik silahlı qüvvəsi var idi. Bu dövrdə ölkəyə rəhbərlik edən Vəzirov isə yaranan vəziyyətdən istifadə edərək sovet qoşunlarının müdaxiləsinə şərait yaratmağa, bununla həm də xalq hərəkatını boğmağa çalışırdı.

Yanvarın 14-də Azərbaycan KP MK-nın Bürosunda vəziyyət müzakirə olundu və Vəzirovun təkidi ilə çağırılan Azərbaycan SSR Ali Sovetinin sessiyasında DQMV-də və zəruri olarsa, ona bitişik rayonlarda, eləcə də sərhəd boyunca fövqəladə vəziyyət elan edilməsi, lazım gələrsə, mərkəzdən kömək göstərilməsi haqqında qərar qəbul olundu. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin müraciəti ilə SSRİ Ali Sovetinin Rəyasət Heyəti yanvarın 15-də "Dağlıq Qarabağ və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında" fərman verdi. Həmçinin SSRİ Ali Soveti Bakı, Gəncə şəhərlərində, eləcə də başqa yaşayış məntəqələrində qadağan saatlarının tətbiq edilməsini və digər zəruri tədbirlər görülməsini Azərbaycan SSR Ali Sovetinə təklif etdi.

## Müdhiş gecə...

Bu dövrdə mərkəzdən Azərbaycana, xüsusən də Bakı ətrafına əlavə qoşun hissələri və hərbi texnika gətirilməsi prosesi davam edirdi. Əslində bu, Bakıya qoşun yeridilməsi üçün ilkin hazırlıqdan başqa bir şey deyildi. Xalq hərəkatına rəhbərlik edənlər, o cümlədən Xalq Cəbhəsinin təmsilçiləri isə vəziyyəti düzgün qiymətləndirmək əvəzinə, şəhərin ətrafında, o cümlədən Bakı qarnizonu ətrafında sədlər, barrikadalar yaratmağa başladı. Yük və minik maşınlarından, avtobus və trolleybuslardan, eləcə də başqa vasitələrdən istifadə etməklə barrikadalar quruldu, piketlər düzəldildi. Lakin 20 Yanvarda bu düzgün olmayan taktikadan bəhrələnən sovet ordusu çoxlu sayda dinc əhalinin qırılmasına, yaralanmasına rəvac verdi.

20 Yanvar hadisələri ərəfəsində Moskva SSRİ Ali Soveti İttifaq Sovetinin sədri Y.Primakovu və Sov.İKP MK katibi Girenkonu Bakıya göndərdi. Lakin onların AXC-nin radikal və liberal qanadları ilə görüşüb apardığı danışıqlar heç bir nəticə vermədi. Yanvarın 17-də Azərbaycan KP MK binası qarşısında böyük mitinq başlandı və üç gün davam etdi. Mitinqlərdə Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulması, Bakı ətrafına yığılmış qoşunların Dağlıq Qarabağa göndərilməsi, respublika rəhbərliyinin istefası və digər tələblər irəli sürüldü.

Sovet rəhbərliyi isə Azərbaycan xalqının müstəqillik uğrunda apardığı mübarizənin qarşısını almaq, milli-azadlıq hərəkatına zərbə vurmaq, habelə digər müttəfiq respublikalara dərs vermək üçün 1990-cı il yanvarın 19-da "Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında" fərman imzaladı. Halbuki bununla Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozurdu.

Digər tərəfdən bu fərmanın tətbiqi barədə əhaliyə məlumat verilməmişdi. Xalqdan fərqli olaraq respublika rəhbərliyi yanvarın 20-nə keçən gecə Bakıya ordu yeridiləcəyindən xəbərdar idi. Həmin günlər güman edilirdi ki, ölkə rəhbərliyinin istefa verməsi gərginliyi nisbətən azaldar, adamlar barrikadaları tərk edərək dağılardılar. Lakin bunun əksinə olaraq, axşamçağı boş küçələrdə üstünə səsgücləndirici quraşdırılmış maşınlardakı insanlar xalqı piketlərə səsləyirdilər.

Yanvarın 19-dan 20-nə keçən gecə SSRİ rəhbəri M.Qorbaçovun göstərişi və Azərbaycanın o zamankı səriştəsiz rəhbərlərinin razılığı ilə Bakıya qoşun yeridildi. Azərbaycanı informasiya blokadasına almaq və xalqın haqq səsini boğmaq üçün SSRİ DTK-nın "Alfa" qrupu respublika televiziyasının enerji blokunu yanvarın 19-da partlatdı. Televiziya susduruldu, kütləvi informasiya vasitələri üzərinə, qəzet və jurnalların nəşrinə qadağalar qoyuldu. Beləliklə, Azərbaycan tam şəkildə blokadaya düşdü, əhali hər hansı bir məlumat almaq mənbəyindən məhrum oldu.

Bakıya qoşun yeridiləndə isə tanklardan, zirehli transportyorlardan, piyadaların döyüş maşınlarından istifadə edildi. Zirehli texnikanın üstündə nömrələr yox idi. Qırmızı Bayraq Ordenli Xəzər Hərbi Donanmasının gəmilərindən desant çıxarılmışdı. Tanklar və ZTR-lər Bakı küçələrində hər şeyi əzir, hərbçilər qarşılarına

çıxanları amansız atəşə tuturdular. İnsanlar nəinki küçələrdə, hətta avtobusda gedərkən, öz mənzillərində oturduqları yerdə güllələrə tuş gəlirdilər. Gözlərini qan tutmuş hərbçilər yaralıları aparmağa gələn təcili yardım maşınlarını və tibb işçilərini də atəşə tuturdular.

SSRİ Müdafiə Nazirliyinin, DİN və DTK-nın hazırlayıb həyata keçirdiyi "Udar" ("Zərbə") adlı əməliyyatda əsas rolu xüsusi təyinatlı "Alfa" və SSRİ DTK-nın "A" təxribat qrupları oynayırdı. Sonradan isə məlum oldu ki, Bakıya hücum çəkib qırğın törədən hərbi hissələrin şəxsi heyəti arasında cinayətkarlar və ermənilər də olub. Beləliklə, sovet qoşunlarının təcavüzü nəticəsində təkcə Bakı şəhərində 131 nəfər xüsusi amansızlıqla qətlə yetirildi, 800 nəfərdən çox adam yaralandı. Vəhşiləşmiş hərbçilər tərəfindən 200 ev və mənzil talan edilərək yandırıldı, 80 avtomaşın, o cümlədən təcili yardım maşını, külli miqdarda şəxsi və dövlət əmlakı məhv edildi. Ölkənin baş meydanındakı tribunadan SSRİ rəhbərliyini hədələyənlər və xalq hərəkatına rəhbərlik etdiklərini bildirənlər, özlərini "liderlər" adlandıranlar isə faciə zamanı xalqla birgə olmadılar. Bu isə onların bir daha hakimiyyətə gəlmək üçün oyunlar oynadığını və bu məqsədlə xalqı qırğına verməyə hazır olduqlarını göstərirdi.

**Faciəyə etiraz səsini birinci ucaldan ümummilli lider Heydər Əliyev oldu**

Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız ertəsi gün şəhər hərbi komendantı Dubinyakın radio ilə çıxışında və vertolyotlardan səpilən vərəqələrdə bildirildi. Halbuki Qorbaçovun Azərbaycana ezam etdiyi vəzifəli emissarlar həyasızcasına bəyan edirdilər ki, Bakıda fövqəladə vəziyyət elan olunmayacaq.

Ən acınacaqlı hal isə o idi ki, respublika rəhbərliyi əvvəlcədən xalqa xəyanət yolu tutaraq bu qəsdin qarşısını almaq üçün heç bir tədbir görmədi, cinayətin iştirakçısı ola-ola zahirən hadisələrdən kənarda qalmağa çalışdı. Moskvanın qabağında həmişə mütilik göstərən, faciə törənən gecə isə qorxusundan tələm-tələsik respublikadan qaçan Ə.Vəzirov, həmin günlərdə əli xalqın qanına boyansa da, Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi seçilən A.Mütəllibov bu dəhşətli faciənin izlərini nəyin bahasına olursa-olsun ört-basdır etməyə, xalqın haqq səsini fövqəladə rejim tətbiq etməklə boğmağa çalışırdı.

O ağır günlərdə 20 Yanvar faciəsi ətrafında xəyanət sükutunu ilk və mütəmadi olaraq yaran Heydər Əliyevin haqq səsi və dəyişməz mövqeyi oldu. Faciənin ertəsi günü ilk dəfə olaraq Heydər Əliyevin Azərbaycan xalqına qarşı törədilən cinayətə, qanlı təcavüzə qarşı etiraz səsi ucaldı. Təbii ki, milli-azadlıq istəyi ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə həyata keçirilən bu müdhiş faciə qəlbi Vətən eşqi ilə döyünən xalqın mərd və mübariz oğlunu narahat etməyə bilməzdi. Çünki dahi insan, uzaqgörən şəxsiyyət yaxşı bilirdi ki, bu faciə totalitar kommunist rejiminin Azərbaycan xalqına qarşı hərbi təcavüzü və cinayətidir. Heydər Əliyev hadisənin ertəsi günü Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək keçirdiyi mətbuat konfransında bu vəhşiliyi qətiyyətlə pisləməklə yanaşı, onun törəmə səbəblərini də açıqladı, təşkilatçılarının, günahkarlarının adını bütün dünyaya bəyan etdi:

"Əziz həmvətənlərim, xanımlar və cənablar!

Bildiyiniz kimi, uzun illər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində işləmiş, Sov. İKP MK Siyasi Bürosunun üzvü olmuşam. Geniş infarkt keçirmişəm. Xəstəliyimlə əlaqədar iki ildən artıqdır ki, pensiyadayam. Azərbaycanı tərk etdiyim 1982-ci ilin dekabrından keçən müddətdə bu gün ilk dəfədir ki, Azərbaycan SSR-in Moskvadakı daimi nümayəndəliyinin astanasına qədəm qoyuram. Mən baş vermiş hadisələr haqqında dünən xəbər tutmuşam və təbiidir ki, bu hadisəyə laqeyd qala bilməzdim. Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində böyük itkilərə səbəb olmuş faciə ilə bağlı Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı daimi nümayəndəsi Söhrab İbrahimovdan xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm.

Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm. Azərbaycanda yaranmış mürəkkəb vəziyyətin bir sıra səbəbləri vardır. Vaxtımızın məhdudluğundan bu məsələlərin üzərində ətraflı dayanmaq istəmirəm. Artıq iki ildir ki, Azərbaycan və Ermənistan arasında millətlərarası münaqişə gedir. Həmin münaqişəni Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr törətmişdir. Azərbaycan və Ermənistan, eləcə də ölkənin ali siyasi partiya rəhbərlərinə bu məsələni tənzimləmək, daxili müharibəyə, millətlərarası münaqişəyə son qoymaq və milli mənsubiyyətindən asılı olmayaraq, hər bir adamın ümumi

federativ ittifaq olan SSRİ-də azad yaşamasına şərait yaratmaq üçün ikiillik müddət kifayət idi. Hesab edirəm ki, ötən iki ildə bu istiqamətdə lazımi səviyyədə iş aparılmamışdır. Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı.

Bunlar üçün, ilk növbədə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin sabiq birinci katibi Vəzirov müqəssirdir. Yüksək vəzifədə olduğu müddətdə o, Azərbaycandakı vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə, özünün səhv addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurum yaratmışdır. Xalq isə hiddətlənmişdir. Elə buna görə də Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında aylarla davam edən mitinqlərdə dəfələrlə Azərbaycanın partiya rəhbərlərinin istefası tələbi irəli sürülmüşdür. Söhbət əslində Vəzirovun istefasından gedirdi. Bəs bu məsələ indiyə kimi niyə həll olunmamışdır?

Yalnız dünən Bakı şəhərinə ordu yeridildikdən, qırğın və dağıntılar baş verdikdən sonra Vəzirov Azərbaycandan əslində qaçmışdır. Bu, böyük səhvdir. Ən böyük səhv isə sözsüz ki, qeyri-ciddi, bu yüksək vəzifəyə əsla yaramayan adamın bir vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə birinci katib təyin edilməsi idi.

Ancaq iş təkcə bununla bitmir. İndi yanvarın 19-dan 20-nə keçən gecə baş vermiş və bu gün də davam edən faciənin üstündə dayanmaq istəyirəm. Hesab edirəm ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur. Təəssüf ki, Azərbaycan rəhbərliyi, həmçinin ölkənin ali siyasi rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir. Sərhədlərə edilən təcavüzü vaxtında aradan qaldırmaq mümkün idi. Axı üç ay əvvəl sərhəd zolağı ilə bağlı camaat öz tələblərini irəli sürmüşdü. Fəqət, heç kəs onlarla görüşmək, izahat işi aparmaq və lazımi ölçü götürmək istəməmişdir. Təkrar edirəm: camaatı sakitləşdirmək üçün də imkanlar tükənməmişdi. İki-üç ay əvvəl Azərbaycan partiya rəhbərliyinin möhkəmləndirilməsi məsələsi həll edilsə idi, vəziyyət gərginləşməz, ordu yeridilməsinə zərurət yaranmazdı. Bütün vəziyyətlərdə hesab edirəm ki, məsələni siyasi cəhətdən tənzimləmək, xalqla mükaliməyə girmək üçün əlverişli imkanlar olmuşdur. Lakin onlardan səmərəli istifadə edilməmişdir. Nəhayət, 19-dan 20-nə keçən gecə sovet ordusunun, SSRİ DİN-in böyük kontingenti Bakı şəhərinə yeridilmişdir. Nəticəsi isə göz qabağındadır. Bunun törətdiyi faciələr hamımıza məlumdur. Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Bəli, kobud siyasi səhv buraxılmışdır. Onlar, sadəcə olaraq respublikadakı əsl vəziyyəti qiymətləndirə bilməmiş, Azərbaycan xalqının psixologiyasını anlamamış, əhalinin müxtəlif təbəqələri ilə əlaqələri zəiflətmişlər. Onlar görünür, bu işlərin belə ağır faciəyə çevriləcəyini əvvəlcədən düşünməmişlər.

Bütün bunlar qabaqcadan nəzərə alınmalı və vaxtında vacib, zəruri tədbirlər qəbul edilməli idi. Ordu yeridilmiş, günahsız adamlar həlak olmuşlar. Yeri gəlmişkən deyim ki, ölənlər arasında hərbi qulluqçuların olması haqqında da məlumatlar daxil olur. Sual olunur: ölkənin ali dövlət, partiya rəhbərliyinin səhv qərarı ucundan, olmayan qiyamı yatırtmaq adı ilə Azərbaycana göndərilmiş rus gənclərinin günahı nədir? Azərbaycana kənardan böyük ordu kontingenti yeridilmişdir. Respublikada neçə ordu birləşməsinin olduğu mənə yaxşı bəllidir. Azərbaycanda kifayət qədər - 4-cü ordu, Xəzər Hərbi Dəniz Donanması, desant qoşunlarının diviziyası, Hava Hücumundan Müdafiə Qoşunları, DİN-in daxili qoşun birləşmələri vardır. Oraya əlavə qoşun yeritmək nəyə lazım idi? Əgər belə zərurət var idisə, orada yerləşən hərbi hissələrdən də istifadə etmək olardı. Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə bərk ayaqda Azərbaycanı qoyub qaçmış Vəzirov, xalqı qarşısında məsuliyyət daşımalıdır. Ölkənin ali siyasi rəhbərliyinə yanlış məlumat verənlər də məsuliyyət daşımalıdır. Zənnimcə, ölkənin ali siyasi rəhbərliyinə vəziyyət barədə vaxtında kifayət qədər düzgün, dəqiq, obyektiv informasiyalar çatdırılmamışdır. Rəhbərlik çaşqınlığa salındığından belə qərar qəbul etmişdir. Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır".

Heydər Əliyev bu bəyanatı verməklə ittifaq rəhbərlərinin kəskin təzyiq və təsirlərinə məruz qalacağını gözləri önünə gətirsə də, özünəməxsus qətiyyət və cəsarət nümayiş etdirdi. Həyatının hər an təhlükədə olmasına baxmayaraq qətiyyətlə dünyaya faciənin hüquqi-demokratik prinsiplərə zidd olduğunu, Azərbaycan xalqına qarşı hərbi təcavüzün SSRİ və Azərbaycan SSR rəhbərliyi tərəfindən həyata keçirildiyini bəyan etdi.

Elə həmin gün Heydər Əliyev Azərbaycan xalqına başsağlığı teleqramı göndərdi. Teleqramda deyilirdi: "Bakı şəhərinə sovet ordusu hissələrinin yeridilməsi ilə əlaqədar xalqımızın başına gəlmiş faciədən - dinc əhalinin qırılmasından böyük ürək ağrısı ilə xəbər tutdum. Bu matəm günündə həlak olanların ailələrinə və yaxınlarına, Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm. Mən düşünülmüş aksiyanı pisləyir, onu antihumanist, antidemokratik, qanunazidd hesab edirəm. Bu ağır gündə sizi ağıllı-kamallı olmağa, həmrəyliyə və birliyə çağırıram".

**İlk hüquqi-siyasi qiymət**

Heydər Əliyev 1990-cı ildə Naxçıvana gəldi və həmin ilin payızında keçirilən seçkilərdə Naxçıvan və Azərbaycan parlamentinə deputat seçildi. 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymətin verilməməsi onu ciddi narahat edirdi. 1990-cı ilin noyabr ayında ulu öndərin böyük siyasi nüfuzu sayəsində 20 Yanvar faciəsinə prinsipial qiymət verilməsi məsələsi yenidən gündəliyə gəldi. Bu mənada, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasının noyabrın 21-də keçirilən iclası yadda qaldı. Heydər Əliyev xalq deputatı kimi "1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar layihəsini işləyib Ali Məclisin müzakirəsinə təqdim etdi.

Elə həmin sessiyadakı çıxışında xalqımızın hərbi, siyasi, mənəvi təcavüzə məruz qalmasından narahatlıqla danışan ulu öndər Heydər Əliyev ürək yanğısı və qətiyyətlə deyirdi: "Başımıza böyük bəla gəlib, millət əzilib, millətə qarşı təcavüz olub, ancaq indiyə qədər Azərbaycan xalqının həyatında baş vermiş bu faciəli hadisəyə qiymət verilməyib... Bu qədər qanunsuzluğa, demokratiyanın pozulmasına dözmək olmaz. Bu məsələyə biz özümüz siyasi qiymət verməliyik, respublikanın ali hakimiyyət orqanından tələb etməliyik ki, bu məsələyə baxsın və günahkarlar cəzalandırılsın".

Heydər Əliyevin xalqın milli faciəsi ilə bağlı qaldırdığı taleyüklü məsələ xalq deputatları tərəfindən qətiyyətlə müdafiə olunurdu. Ali Məclisin birinci sessiyasında "1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar qəbul edildi.

Naxçıvan MR Ali Məclisinin 21 noyabr 1990-cı il tarixli qərarından:

"Yanvar faciələrinin səbəbkarlarının - istər ittifaq, istərsə də respublika rəhbər partiya, sovet, hüquq-mühafizə orqanı işçilərinin, hərbçilərinin bugünədək aşkar edilib qanunla məsuliyyətə cəlb olunmaması xalqda dərin hiddət və etiraz doğurmuşdur.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bunları işğalçı siyasət və dəqiq düşünülmüş hərbi təcavüz kimi qiymətləndirərək insan hüquqları bəyannaməsinin kobud şəkildə pozulması kimi nəzərdə tutaraq qərara alır:

1. 1990-cı ilin yanvar ayında Bakı şəhərində törədilmiş qanlı hadisələr Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirilsin.

2. Dinc əhaliyə, silahsız kütləyə, heç bir müqavimət göstərməyən günahsız adamlara qarşı müasir silahla, hərbi texnika ilə zorakılıq edilməsi, qocaların, qadınların, uşaqların qətlə yetirilməsi Azərbaycan xalqına qarşı açıq təcavüz kimi ittiham edilsin.

3. Bir ilə yaxın vaxt keçməsinə baxmayaraq, Bakı faciələrinə Azərbaycan SSR ali hakimiyyət orqanları tərəfindən siyasi qiymət verilməməsinə, bununla əlaqədar yaradılmış Xüsusi Deputat Komissiyasının işinin qeyri-müəyyən səbəblərdən başa çatdırılmamasına, qanlı hadisələrin günahkarlarının aşkara çıxarılıb qanuni məsuliyyətə verilməməsinə qəti etiraz olunsun.

Azərbaycan SSR Ali Sovetindən tələb edilsin ki, ən qısa müddətdə həmin məsələni parlamentin müzakirəsinə çıxarsın.

4. Bu qərar qəbul edilən andan 20 Yanvar günü hər il Naxçıvan Muxtar Respublikasında Milli matəm günü kimi qeyd edilsin.

5. Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin ki, 20 Yanvar günü hər il Azərbaycan SSR-də Milli matəm günü kimi qeyd edilsin".

Göründüyü kimi, qərarda 20 Yanvar hadisələri Azərbaycanın suveren hüquqlarına, dinc əhaliyə, heç bir müqavimət göstərməyən günahsız adamlara, Azərbaycan xalqına qarşı açıq təcavüz kimi qiymətləndirilir. Həmçinin Azərbaycanın o vaxtkı rəhbərliyinin cinayətkar fəaliyyəti bir daha qeyd olunaraq deyilir ki, qanlı Yanvar hadisələrinin günahkarlarını üzə çıxarmaq, onu təhlil etmək və siyasi qiymət vermək üçün respublika əhalisinin təkidli tələbinə baxmayaraq, faktiki olaraq faciədən ötən müddət ərzində heç bir tədbir görülməmişdir. Qəribə idi ki, respublika Ali Sovetinin Yanvar hadisələrini təhqiq etməli olan komissiyası da öz işi ilə məşğul olmamışdır. Respublika rəhbərliyinin bu etinasızlığı haqlı olaraq xalqda hiddət və etiraz doğururdu.

Sovet hakimiyyətinin süqutundan, Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsindən sonra bir müddət başları hakimiyyət uğrunda mübarizəyə qarışmış siyasətbazlar xalqımıza qarşı törədilmiş bu ağır cinayətin səbəblərinin araşdırılması, ona siyasi-hüquqi qiymət verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində məqsədyönlü iş aparmadılar.

Onlar bu məsələdə heç maraqlı da deyildilər, çünki həmin cinayətin törədilməsinin məsuliyyəti bu və ya digər dərəcədə onların da üzərinə düşürdü. Düzdür, həmin dövrdə müxtəlif siyasi platformalardan çıxış edən

ayrı-ayrı siyasi partiyalar 20 Yanvar faciəsi ilə bağlı bütün günahları Moskvanın üzərinə atmağa cəhd göstərmişdilər. Amma ulu öndər Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıdışına qədər nə A.Mütəllibov, nə də AXC-Müsavat iqtidarı tərəfindən faciəyə siyasi qiymət verilməsi üçün heç bir iş görülmədi.

Ulu öndər Heydər Əliyev isə Azərbaycan xalqına qarşı soyqırımı siyasətini həyata keçirməyə rəvac verənlərlə mübarizəsini ona qarşı az qala düşmən mövqedə duran Ali Sovetdə və digər istiqamətlərdə də davam etdirir, böyükdən kiçiyə qədər hər kəsə məlum olan qatillərin hüquqi müstəvidə aşkar olunmasını, faciəyə siyasi qiymətin verilməsini tələb edirdi. Heydər Əliyev Azərbaycan SSR Ali Sovetinin 7 mart 1991-ci il tarixli sessiyasındakı çıxışında deyirdi: "1990-cı il yanvarın 20-də ittifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edilmişdir. Heç bir əsas olmadan, xəbər vermədən, dövlət qanunlarını kobudcasına pozaraq Bakı şəhərinə müasir silahlı sovet ordusunun qoşun hissələri yeridilmiş, onlar vəhşilik, qəddarlıq etmiş, nəticədə nahaq qan tökülmüş, yüzlərlə adam həlak olmuş, xəsarət almış, itkin düşmüşdür. Təəssüf ki, bu təcavüz indiyə qədər davam edir. Bir ildən artıqdır ki, Azərbaycanın paytaxtı fövqəladə vəziyyət şəraitində yaşayır. Bizim sessiyamız da bu şəraitdə keçirilir. Bir ildən artıqdır ki, Azərbaycan xalqı şəhidlərə matəm saxlayır. Respublikanın şəhərlərində, qəsəbələrində, kəndlərində şəhidlərin xatirəsinə abidələr ucaldılır. Fəqət, qatillər indiyə qədər aşkar olunmayıb. Buna heç vəchlə bəraət qazandırmaq olmaz. Bu məsələ müzakirə olunmalıdır. 20 Yanvar faciəsinə Ali Sovetin sessiyası siyasi qiymət verməlidir, onun günahkarlarını müəyyən etməlidir".

Ulu öndər Heydər Əliyev 1991-ci il iyunun 19-da SSRİ Nazirlər Kabinetinə göndərdiyi məktubunda yazırdı: "Yanvar hadisələrində yüzlərlə adam öldürüldü və şikəst edildi... Artıq il yarım keçib. Nəinki bu dəhşətli cinayətlərin hamıya çoxdan məlum olan günahkarları üzə çıxarılmayıb, əksinə, bunları ört-basdır etmək üçün əllərindən gələni edirlər. Ümid edirlər ki, zaman keçdikcə bu faciə unudulacaq. Ancaq tarix dəfələrlə sübut etmişdir ki, doğma xalqa qarşı yönəldilmiş qanlı cinayətləri on illər keçsə də, unutmaq və bağışlamaq mümkün deyil".

Azərbaycan Respublikası Ali Sovetinin 29 avqust 1991-ci il tarixli sessiyasında çıxışında isə Heydər Əliyev deyirdi: "20 Yanvar faciəsi dövründən il yarımdan çox vaxt keçir. Bu gün burada da, bu salonda cürbəcür söhbətlər gedir. Bir qrup bir fikirdədir, məndən qabaq çıxış edən Rəhimov başqa fikirdədir. Mən sual verirəm, Ali Sovetin sədri Elmira Qafarovaya, Azərbaycan prezidenti Ayaz Mütəllibova: nə üçün indiyə qədər bu məsələyə siyasi qiymət verilməyib? Bu məsələnin həm siyasi tərəfi var, həm hüquqi tərəfi var. Bu məsələyə dərhal siyasi qiymət vermək olardı. O ki qaldı hüquqi cəhəti, ayrı-ayrı adamların məsuliyyətə cəlb olunması, onu şübhəsiz ki, istintaq yolu ilə aydınlaşdırmaq lazımdır. Buna siyasi qiymət verilmədiyinə görə başqa tədbirlər həyata keçirmək mümkün olmur".

## Milli Şura tərəfindən qəbul edilmiş qərar xalqa xəyanət idi

Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinə tam siyasi-hüquqi qiymətin verilməsi qarşıya qoyulmuş günün tələbi idi. Ulu öndər dövrün mürəkkəbliyinə və görüləsi işlərin çoxluğuna baxmayaraq, tariximizin şanlı və qanlı səhifəsi sayılan 20 Yanvar faciəsinin başvermə səbəblərini və günahkarlarının araşdırılması ilə də məşğul oldu. Heydər Əliyevin 1994-cü il yanvarın 5-də 20 Yanvar faciəsinin dördüncü ildönümünün keçirilməsi ilə bağlı verdiyi fərmanda Milli Məclisə faciəyə tam siyasi-hüquqi qiymət verməsi tövsiyə olundu. Yalnız bundan sonra aparılan araşdırmalar nəticəsində məlum oldu ki, 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməməsində maraqlı olan qüvvələr var imiş. 1991-1993-cü illərdə hakimiyyətdə qalmaq istəyən iqtidar, hakimiyyətə gəlmək istəyən müxalifət nümayəndələri bu dəhşətli faciədən yararlanmaq istəyirmişlər. Ulu öndər Heydər Əliyev 1994-cü il yanvarın 12-də dövlət komissiyasının geniş iclasında Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının 1992-ci il 19 yanvar tarixli qərarını xatırladaraq bu sənəddə yanvar hadisələrinin əsl səbəblərinin açıqlanmadığını, həqiqi günahkarların aşkar edilmədiyini, iki il ərzində həmin qərarın özünün yerinə yetirilmədiyini nəzərə çatdırdı. Respublika səviyyəsində 20 Yanvar faciəsinə tam siyasi- hüquqi qiymətin verilməməsini ciddi tənqid edən Heydər Əliyev 1992-ci ildə Milli Şura tərəfindən qəbul edilmiş səti və başdansovdu qərarın xalqa xəyanət olduğunu bəyan etdi: "Bu qərarı oxuyanda, doğrusu, çox həyəcanlandım. Düşündüm ki, Milli Şura nə üçün öz millətinin, öz xalqının aqibətinə, taleyinə bu qədər biganə qalıb? Qərarı oxuyandan sonra bir daha qəti fikrə gəldim ki, bu faciəyə, bu hadisəyə niyə indiyə qədər siyasi qiymət verilməyib... Mənim fikrim belədir ki, bu qərarın qəbul edilməsi Azərbaycan xalqına bəlkə də 20 Yanvar 1990-cı ildə olan faciə kimi böyük xəyanətdir. İki il keçəndən sonra deputat-istintaq komissiyasının ortaya bir şey çıxarmaması, boş-boş sözlərlə camaatı aldatması, qərarda bu komissiyanın işinin qənaətbəxş hesab edilməsi yenə də deyirəm, xəyanətdir".

1994-cü il martın 29-da Milli Məclis tərəfindən "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" adlı xüsusi qərar qəbul edildi. Qərarda 1990-cı ilin 20 Yanvar hadisələri Azərbaycanda vüsət almış milli-azadlıq hərəkatını boğmaq, demokratik və suveren bir dövlət amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və belə bir yola qədəm qoyan xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. Sənəddə Sovet İttifaqı Kommunist Partiyasının, sovet dövləti və hökumətinin, şəxsən Mixail Qorbaçovun Azərbaycana qarşı ağır cinayət törətdikləri, Əbdürrəhman Vəzirovun, Ayaz Mütəllibovun, Viktor Polyaniçkonun, Vaqif Hüseynovun xalqımıza xəyanət etdikləri siyasi-hüquqi müstəvidə öz əksini tapdı. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Elmira Qafarovanın, Azərbaycan Kommunist Partiyası Bakı Şəhər Komitəsinin birinci katibi Müslüm Məmmədovun bu qanlı faciənin törədilməsində məsuliyyət daşıdıqları və digər məsələlər sənəddə qeyd olundu. Beləliklə, Heydər Əliyevin təkidi və təşəbbüsü sayəsində xalqımıza qarşı törədilən bu qanlı və qəddar aksiyaya siyasi-hüquqi qiymət verildi.

## Şəhidlərin xatirəsi həmişə uca tutulacaq

Təəssüf ki, zamanın və şəraitin doğurduğu səbəblərdən 20 Yanvar faciəsini törədənlər hüquqi müstəvidə layiq olduqları cəzanı almadılar. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 2000-ci ildə 20 Yanvar faciəsinin 10-cu ildönümü haqqında imzaladığı fərmanda deyilirdi: "XX əsr tarixində totalitarizmin törətdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı işlədilmiş cinayət əslində bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli bir əməldir. Həmin cinayəti törədənlər indiyədək öz cəzalarını almamışlar. Xalqımız əmindir ki, müqəssirlər tarix, bəşəriyyət, eləcə də Azərbaycan xalqı qarşısında cavab verməli olacaqlar".

"20 Yanvar şəhidi" fəxri adının təsis edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti 31 mart 1998-ci il tarixdə fərman imzalamışdır. 29 dekabr 1998-ci ildə "20 Yanvar şəhidi" fəxri adı haqqında Əsasnamə təsdiq edilmişdir. 1990-cı il yanvarın 20-də keçmiş SSRİ silahlı qüvvələrinin Bakıya və respublikanın bir neçə rayonuna hərbi təcavüzü zamanı həlak olmuş insanlara "20 Yanvar Şəhidi" fəxri adı verilmişdir.

Ümummilli lider Heydər Əliyev 20 Yanvar faciəsinin dünyada tanıdılmasına, hər zaman şəhidlərin xatirəsinin əziz tutulmasına diqqətlə yanaşırdı. Bakının ən uca nöqtəsində yerləşən Şəhidlər xiyabınında Azərbaycanın azadlığı uğrunda şəhid olanların xatirəsinə ucaldılmış möhtəşəm "Əbədi məşəl" abidə kompleksi də məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü və qayğısı ilə tikilib.

## Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident

İlham Əliyev 20 yanvar şəhidlərinin xatirəsinin uca tutulmasına, şəhid ailələrinin sosial məsələlərinin yoluna qoyulmasına xüsusi diqqət göstərir, hər il yanvarın 20-də Şəhidlər xiyabanını ziyarət edərək "Əbədi məşəl" abidə kompleksinin önünə əklil qoyur. Dövlət başçısı 2004-cü ildə 20 Yanvar faciəsinin 14-cü ildönümünün keçirilməsi ilə bağlı sərəncamında bildirirdi ki, Azərbaycan övladları 1990-cı il yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar: "Həmin gün respublikada haqq-ədalətin bərqərar edilməsi tələbləri ilə çıxış edən Azərbaycan xalqının inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq məqsədilə totalitar sovet rejiminin həyata keçirdiyi terror aktı nəticəsində bəşər tarixində insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri baş verdi. Yüzlərlə günahsız insan yaralandı və qətlə yetirildi. Ən ağır sınaqlara sinə gərmək əzmini bütün dünyaya nümayiş etdirən Azərbaycan övladları 1990-cı il yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar".

Prezident İlham Əliyev 1990-cı ilin yanvarında şəhid olmuş oğul və qızlarımızın xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi üçün mühüm qərarlar vermişdir. Dövlətimizin başçısının 19 yanvar 2006-cı il tarixli "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" fərmanı ilə şəhid ailələrinə dövlət qayğısını artırmaq məqsədilə təqaüd verilir.

Bu gün Bakının ən yüksək nöqtələrindən birində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş bir yer var. Bu, 20 Yanvar faciəsi qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər xiyabanıdır. Məhz Azərbaycan Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə Şəhidlər xiyabanında əsaslı təmir və yenidənqurma işləri aparılıb.

## 20 Yanvar hadisəsinin araşdırılması istiqamətində ilk elmi-analitik yanaşma

20 Yanvar qırğını barədə indiyədək çox yazılıb. Onlarca məqalə, kitab, illüstrasiya materialları dərc olunub. Lakin faciəyə elmi-analitik yanaşma ilk dəfə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Azərbaycanlılara qarşı soyqırımı gerçəklikləri" əsərində öz əksini tapmışdır. Həmin əsərdə qanlı faciə bir neçə aspektdən - dini, milli, Qafqaz amilləri və geosiyasi aspektlərdən, Dağlıq Qarabağ problemi kontekstindən araşdırılmış, qanlı Yanvarın ibrət dərsləri təhlil edilmişdir.

Akademik Ramiz Mehdiyevin "Azərbaycanlılara qarşı soyqırımı gerçəklikləri" kitabı 20 Yanvar qırğınının tarixinin doğru-düzgün işıqlandırılması sahəsində çox mühüm elmi hadisədir. Bu əsər 20 Yanvar faciəsinin tarixşünaslığına qiymətli bir töhfədir. Akademik Ramiz Mehdiyevin əsərinin bu vaxtadək 20 Yanvar barədə yazılanlardan ən mühüm fərqi, həm də başlıca məziyyəti burasındadır ki, müəllif ilk dəfə olaraq 20 Yanvarı dərin tarixi-elmi planda və ümumdünya tarixi kontekstində qələmə alıb. Görkəmli alim 1990-cı ilin yanvarında Bakıda törədilmiş qanlı faciənin tarixi və sosial-siyasi köklərini araşdırıb üzə çıxarır, ona çox geniş məkanda və uzun zaman kəsiyində nəzər salır, mühüm ümumiləşdirmələr aparır, 20 Yanvara gələn tarixi yolu addım-addım izləyir, təhlil edir və bu faciə ilə əlaqədar olan hadisələri, prosesləri elmi araşdırma süzgəcindən keçirir. Dünyanın geniş oxucu kütlələrinə təqdim olunan bu əsərin ən uğurlu cəhəti onun obyektivliyində, elmiliyindədir. Müəllif bu dəhşətli cinayəti araşdırarkən emosionallıqdan uzaqda durmağı bacarmış, baş verən hadisənin tarixi köklərini və gedişini öz oxucularına soyuqqanlılıqla, vicdanlı bir alim mövqeyindən təqdim etməyi bacarmışdır.

Akademik Ramiz Mehdiyev 20 Yanvar hadisələrinin səbəbləri barədə yazır: "Yanvar faciəsinin bir çox səbəbləri var, onun kökləri tarixin dərinliklərinə gedib çıxır. Yenidənqurma onların inkişafını ancaq sürətləndirdi, labüd faciənin son mərhələsini yaxınlaşdırdı. Bəs bu səbəblər ümumən hansılardır? Əvvəla, mərkəzin sovet imperiyasını, kommunist sistemini nəyin bahasına olursa-olsun, qoruyub saxlamaq cəhdi; ikincisi, milli respublikalarda hakimiyyəti və oyuncaq rejimləri möhkəmlətmək cəhdi; üçüncüsü, SSRİ rəhbərlərinin Azərbaycan xalqı barəsində qərəzli siyasəti, yenidənqurma haqqında demaqoqcasına şüarlar altında sərhədləri dəyişdirmək və xüsusən Azərbaycanın ərazi bütövlüyünü pozmaq cəhdi; dördüncüsü, keçmiş mərkəzin mənəvi, siyasi, maliyyə və hərbi-iqtisadi yardımına əsaslanan erməni separatizmi və Ermənistanın təcavüzü; beşincisi, Azərbaycan rəhbərlərinin xəyanətkar fəaliyyəti; altıncısı, ayağa qalxmış xalqa rəhbərliyi məsuliyyətsizcəsinə öz əllərinə alanların naşılığı və siyasətbazlığı".

Akademik Ramiz Mehdiyev əsərdə haqlı olaraq belə bir məsələ qoyur ki, nə üçün sovet ordusunun Tbilisidə (1989) və Vilnüsdə (1991) həyata keçirdiyi cəza əməliyyatlarından fərqli olaraq, Bakıda bu qədər genişmiqyaslı və qəddarcasına qırğın törədildi? Özü də bu qırğınların cəlladı M.Qorbaçov gürcü və Litva xalqlarından üzr istədiyi halda Azərbaycan xalqından nə üçün üzr istəmədi? Müəllif bunu başlıca olaraq üç amillə əlaqələndirir: dini amil; Qafqaz amili; türk amili.

20 Yanvar hadisələri Azərbaycanın müstəqillik mübarizəsi tarixinə faciə və xalqımızın qəhrəmanlıq salnaməsi kimi yazıldı. Həmin ağrılı günlər həm də sınaq dövrü kimi yadda qaldı. Azərbaycan xalqı həmin gün azad yaşamağa layiq olduğunu bütün dünyaya sübut etdi. Bu faciə kimin kim olduğunu da üzə çıxardı.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirdi. Haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş Vətən övladları o qanlı gündə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar.

**“Azərbaycan”.-**2014.-18-19 yanvar.-№ 10.-S. 11, № 11.-S. 6-7.

## Əsarətin son gecəsi

***Cavanşir Feyziyev***
Milli Məclisin deputatı,
Fəlsəfə doktoru

Hər bir xalqın hansı dərəcədə milli birliyə, milli iradəyə və milli özünüdərkə malik olması məhz onun üzləşdiyi ən çətin anlarda mövcud proseslərə və çağırışlara ümumxalq reaksiyasında özünü göstərir. 24 il əvvəl üzləşdiyimiz belə bir məqamda xalqımızın mübarizlik əzminin təzahürü, təzyiqlərə boyun əyməyən əzmkar iradə nümayiş etdirməsi tariximizə yeni bir mübarizə səhifəsi yazdı - Qanlı Yanvar səhifəsi. 20 yanvar yaxın keçmişimizdə yaşamış olduğumuz ən faciəvi günlərdən biri olsa da, xalqımızın yaddaşına həm də qəhrəmanlıq tarixi kimi həkk olundu. Faciənin törədilməsindən keçən 24 il ərzində bu hadisəni doğuran səbəblərin, onun hüquqi, ictimai-siyasi, psixoloji nəticələrinin araşdırılması, öyrənilməsi və öyrədilməsi artıq ənənəyə çevrilmiş bir sualla müşayiət olunur: 20 Yanvara gedən yol nədən və haradan başlandı? Cavabında isə hadisələrin şahidləri 20 Yanvar ərəfəsindəki son ayın, uzağı bir neçə ayların hadisələrini bir-bir xatırlayır və onların arasında faciəyə yol açan səbəbləri və səhvləri araşdırıb tapmağa çalışırlar. Mübahisələr bəzən bir-birimizi qınamağa qədər, hətta günahlandırmağa qədər uzanır. Bir ifratçılıqdan digər ifratçılığa qədər haçalanan mülahizələr yalnız bir fikirdə yekdil olurlar: belə sonluğu heç kim gözləmirdi. Bəli, doğrudan da o zaman çox az adam inana bilərdi ki, dövlət öz vətəndaşına belə divan tuta bilər. Yəqin ona görə ki, biz Xeyirlə Şərin mübarizəsinin nağıllarda olduğu kimi, həmişə Xeyrin qələbəsi ilə bitməsinə inanmaq dərəcəsində sadəlövh idik. Amma bəzən Şər də qalib gəlir, qısa müddətə də olsa. 20 Yanvar məhz Şərin Xeyirə qalib gəldiyi bir an idi – qısa bir an. Bu Şərin gəldiyi yol isə bir aylıq, iki aylıq yol deyildi. Bu - çox uzaqdan gələn bir yoldu. Bu yol 1814-cü ilin "Türkmənçay"ından gəlir, bu yol 1828-ci ilin "Gülüstan"ından keçir. Nəhayət, bu yolun bizə ən yaxın döngəsi 1920-ci ilin 28 aprelindən başlamışdı. 30-cu illərin qaranlıq dolanbaclarından, 40-cı illərin ağrı-acılarından, 50-60-cı illərin ağır məhrumiyyətlərindən keçib gəlmişdik 20 Yanvara. Bütün bunlar çox uzun və çox üzüntülü bir hekayədir - azadlıqsevər bir məmləkətin, insanpərvər bir millətin, məğrur bir xalqın əsarət hekayəsidir. 20 Yanvar isə bu hekayənin son fəslidir. Bu fəsildə də qarşımıza Şər çıxmışdı. Növbəti dəfə düşmənlərimizin hiyləsi ilə bizi təhdid edən namərd qonşularımız vətən torpaqlarımıza göz dikmişdilər. Ölkəmizin ərazi bütövlüyünə qarşı aparılan məkrli fəaliyyətlər, riyakar qəsdlər, SSRİ rəhbərliyi tərəfindən açıq-aşkar xalqımıza qarşı yürüdülən düşmənçilik siyasəti xalqımıza artıq imperiya boyunduruğunda yaşamağın daha ağır fəlakətlərə yol aça biləcəyini anlatmaqdaydı. Xüsusən, 1988-ci ilin martında Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi və SSRİ Nazirlər Soveti tərəfindən dolayısı ilə Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılmasına yönəlmiş "Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi haqqında" Qərarın qəbul edilməsi və 1989-cu ilin yanvarında SSRİ Ali Soveti Rəyasət Heyətinin "Dağlıq Qarabağda Xüsusi İdarəetmə Forması yaratmaq haqqında" Fərmanı ölkəmizin ərazi bütövlüyünün pozulmasına qarşı ermənilər tərəfindən planlı şəkildə icra olunan tədbirlərin birbaşa imperiya rəhbərliyi tərəfindən dəstəkləndiyini göstərirdi.

Bütün bunlarla eyni zamanda Ermənistan ərazisində yaşayan azərbaycanlıların öz tarixi torpaqlarından qovularaq çıxarılması və buna SSRİ rəhbərliyi tərəfindən göstərilən "görməməzlik" soydaşlarımıza qarşı həyata keçirilən etnik təmizləmə siyasətinin məhz İttifaqın "yardımı və strategiyası" ilə baş tutmasına heç bir şübhə yeri qoymurdu. Azərbaycan SSR rəhbərliyinin isə baş verən proseslərə sanki heç bir şey olmamış kimi, seyrçi münasibət göstərməsi, özünü "bilməməzliyə" və "eşitməməzliyə" vurması, ümummilli maraqların müdafiəsi yolunda heç bir əməli addımın atılmaması xalqın əsəblərini tarıma çəkmiş, onu sonsuz dərəcədə hiddətləndirmişdi. Mübarizə meydanında tək qaldığını görən Azərbaycan xalqının səfərbər olmaqdan başqa çarəsi yox idi. Bütün ümidlər haqsızlığa qarşı həmişə öz etiraz səsini ucaltmağı bacaran, öz tarixi yurdunu düşmənlərdən qanı bahasına qorumağa hazır olan və monolit gücünü öz milli varlığında hiss edən Azərbaycan Xalqına idi. Azərbaycanlılara qarşı məqsədli şəkildə həyata keçirilən bu fitnəkar siyasət öz hüquqları və ərazi bütövlüyü uğrunda meydana atılmış həmvətənlərimizin ürəklərində azadlıq yanğısını daha da alovlandırmışdı. Artıq xalq mövcud olduğu bütün müddətdə sovet imperiyasının yürütdüyü repressiv siyasəti öz tarixinə və milli mənliyinə vurulmuş bir ləkə kimi görürdü. Azadlıq eşqi ilə yanan vətən övladları bu ləkəni öz qanları bahasına da olsa yumağa hazır idilər.

O zaman xalqı etiraz səsini ucaltmağa vadar edən çox sayda obyektiv səbəblər mövcud idi. Mərkəzi hökumət tərəfindən milli mənafeyimizə zidd siyasətin yürüdülməsi, bu siyasətin qarşısının alınması üçün ölkə rəhbərliyi tərəfindən heç bir tədbir görülməməsi xalqla hakimiyyət arasında yaranmış uçurumu daha da

dərinləşdirməklə kütləvi etiraz dalğasının baş qaldırmasına rəvac vermişdi. Belə bir məqamda insanların haqlı etirazlarını dinləmək, mövcud problemlərin siyasi yolla həll edilməsinə yönəlmiş addımlar atmaq əvəzinə, imperiyanın öz ənənəsinə sadiq qalaraq zora əl atması – onun anti-humanist təbiətini və ən iyrənc yollarla belə həyata keçirməyə hər an hazır olduğu imperialist siyasətini tam aydınlığı ilə ifşa etmiş oldu. Meydanlara öz haqq səsini ucaltmaq, milli heysiyyatını və milli mənliyini qorumaq əzmi ilə çıxan fədakar vətən övladları bütün gözlənilməzliklərə hazır idilər. Amma heç kim bu gözlənilməzlikləri gözləmirdi. Çünki sovet rəhbərliyinin 70 il bir dam altında yaşadığı öz vətəndaşlarına qarşı bu qədər qəddarlıq nümayiş etdirəcəyi ağlasığmaz görünürdü. Ölməz şairimiz Bəxtiyar Vahabzadənin dediyi kimi: “Axı, heç kəsin ağlına gələ bilməzdi ki, qəlbi Vətən hissi ilə çırpınan, əli silahsız, özü günahsız olan bu atalar, analar, balalar, özünü dost kimi, qardaş kimi qələmə verən bir ordunun əlində qətlə yetirilsin”. Lakin inanmaq istədiyimiz xoş sonluqlu ehtimal özünü doğrultmadı. Soyuq 20 yanvar səhəri açılmağa macal tapmamış bəşər tarixinin insanlığa sığmayan ən faciəvi hadisələrindən biri – Bakı küçələrində dinc nümayişçilərin güllələbaranı baş verdi: Azərbaycana, nəyin bahasına olursa-olsun milli mücadiləni boğmaq və yatırtmaq məqsədi ilə yeridilən rus qoşunları Bakıda və respublikanın müxtəlif rayonlarında 131 nəfər mülki şəxsi küçələrdə, evlərində, avtomobillərində, iş yerlərində qətlə yetirdi, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu.

O müdhiş gecənin aydınlığa dönməsi Bakının ürəkağrıdan dəhşətli mənzərəsinə işıq saldı. Xalq düşmən tankının tırtılları altında parçalanmış, sinələri düşmən güllələrindən deşik-deşik olmuş övladlarını qan gölündə tapdı. Bu - Azadlığın bərpasına gedən yolda ilk şəhidlərin verildiyi 20 Yanvar səhəri idi.

Nə qədər hüznlü və acı olsa da, xalq öz qəhrəman övladlarını son mənzilə yola salmağa özündə güc tapdı. Haqq, azadlıq yolunda şəhidlik zirvəsinə ucalmaq nə qədər şərəfli idisə, düşmən silahının nişangahında Vətənin şəhidlərini layiqincə son mənzilə yola salmaq da bir o qədər namus və şərəf məsələsi idi. Xalq sarsılmadı, əyilmədi, qorxmadı. Qanlı faciənin qurbanları azadlığı uğrunda can verdiyi Vətən torpağına yüzminlərin çiyinlərində daşındılar və Müqəddəs torpaqda əbədiyyətə qovuşdular. Bu torpaq hələ əsrin əvvəllərində öz Vətəninin azadlığı və ərazi bütövlüyü uğrunda canını qurban vermiş soydaşlarımızı öz qoynuna almışdı. Bütöv bir xalqın istiqlalı uğrunda şəhid olmuş azadlıq carçılarının dəfn edildiyi Şəhidlər Xiyabanı bu dəfə də eyni amal uğrunda mübarizəyə qalxmış qəhrəman oğullarını öz bağrına basırdı. O qəhrəman oğulları ki, ucaldıqları məbəddən əbədi və dönməz olan istiqlaliyyət yolumuza hər zaman şəfəq saçır. O günə qədər yəqin heç kimin ağlına gəlməzdi ki, Azərbaycanda bu qədər qərənfil var! Sanki o qərənfillər “öz ayaqları ilə” şəhidlərin qəbri üstünə sərilməyə gəlmişdilər. Onlar şəhidlərin al qanıtək məzarların üzərinə çıxıb bu torpağın və bu torpaqda uyuyan vətən övladlarının sipərinə çevrilmişdilər.

Həmin günün mənzərəsi faciəvi olduğu qədər də möhtəşəmdir. Azadlığımızın bərpası yolunda ilk şəhidlərin verildiyi Qanlı Yanvar gecəsi cəsarətin, fədakarlığın, milli məfkurənin dönməz oyanışının əyani təcəssümü idi. Baş verən hadisələr xalqımızın azadlıq arzusunun, müstəqillik idealının 70 il davam edən sovet hərb maşınının repressiyasına rəğmən sönmədiyini, əksinə, yeni güc qazandığını bir daha nümayiş etdirdi. Bununla, Azərbaycan xalqı zülmə, ədalətsizliyə, repressiyaya və zorakılığa boyun əyməyəcəyini, milli iradəsinin sarsılmazlığını təkcə imperiya rəhbərliyinə deyil, bütün dünyaya göstərdi və milli azadlıq mübarizəsinin dönməz olduğuna şübhə yeri qoymadı. Qəhrəmanlıqla dolu keçmişi, dövlətçilik ənənəsi olan, böyük bir coğrafiyada dövlətlər yaratmış, yadellilərə qarşı səfərbər olub birgə mübarizə aparmış, dünya mədəniyyət xəzinəsinə öz dəst-xətti ilə dəyərli töhfəsini vermiş bir millət uzun müddət əsarət altında yaşaya bilərdimi? Öz keçmişindən sanki qan damarları ilə axıb gələn vətən sevgisi, milli özünüdərk, zülmə, ədalətsizliyə boyun əyməmək kimi hisslərə malik olan bir xalq öz çiyinlərində bu əsarətin ağırlığını, ağrı-acısını çoxmu çəkəcəkdi? İyirminci əsrin əvvəllərində öz tarixi dövlətçilik ənənələrinə dayanaraq Şərqdə ilk demokratik dövlət quran bir xalq qısa zaman kəsiyindən sonra yenidən imperiya caynağına düşməsini uzun müddət necə qəbul edə bilərdi?! 20 yanvar faciəsi, sözün əsl mənasında, xalqımızın milli özünü dərkində yeni bir mərhələnin başlanğıcı oldu. Xalq öz qərarını verdi: Yolumuz –Azadlıqdır!

Siyasi və iqtisadi böhranlar məngənəsində boğulan və boğulduqca daha da azğınlaşan, 70 il özünə bayraq etdiyi kommunizm ideyalarının iflası artıq heç kimdə şübhə doğurmayan və dayaqları silkələnməyə başlayan Sovet imperiyası bu hadisəni törətməklə nəyə nail olmaq istəyirdi? Tarixin səhnəsindən birdəfəlik silinmək ərəfəsində imperiyanın ucqar bir ölkəsində əvvəlcədən qurulmuş plan əsasında dinc nümayişçilərin güllələbaran edilməsinə qərar verənlər nəyə ümid edirdilər? Az sonra – imperiya çökəndən sonra aydın olacaqdı ki, bu qərarı verənlərin və bu faciəni törədənlərin özlərinin də bu suallara cavabları yox imiş. Baş verənlər isə Azərbaycan xalqının milli mübarizə əzmini və iradəsini sındıra bilmədi. Əksinə, 20 yanvar hadisəsi öz qanunauyğun məntiqi və zəncirvari təsiri ilə bütün imperiya ərazisində milli azadlıq hərəkatlarının yenidən daha böyük vüsətlə alovlanmasına və Sovet İttifaqının süqutunun daha da sürətlənməsinə rəvac verdi. Bu hadisə Sovet

İmperiyası üçün “sonun başlanğıcı” oldu. Bu faciənin baş verməsinə qədər ölkədə mövcud problemlərin, baş qaldırmış etirazların siyasi yolla həll olunacağına ümidlər hələ də qalmaqda idi. Lakin bir nəslin yaşaya biləcəyi qədər ömür yaşamış imperiya özü ilə həmyaşıd olan vətəndaş nəslinin böyüklü-kiçikli hamısına atəş açmaqla bu ümidləri tamamilə al-üst etdi. O zamana qədər hələ də Azərbaycanın müstəqilliyinə müəyyən qədər skeptik yanaşanlar da bu hadisənin baş verməsi ilə artıq imperiya boyunduruğunda yaşamağın qeyri-mümkünlüyünü dərk etdilər və milli azadlıq hərəkatının aktiv iştirakçılarına çevrildilər.

Bu faciəvi olay onilliklər ərzində insanlara sırınan “humanist” əsaslı kommunizm ideologiyasının puçluğunu sübut etdi və məhz bu hadisədən sonra kommunist partiyasından kütləvi istefalar, cəmiyyətin bütün təbəqələri tərəfindən müxtəlif formalarda ifadə olunan etirazlar İttifaqın hər yerini bürüdü və onun dayaqlarını sarsıtdı. Həmin ərəfədə SSRİ-nin bir çox respublikalarında İttifaq əleyhinə etirazlar baş qaldırmışdı. Gürcüstan və Baltikyanı ölkələrdə də hərbi qoşun hissələri tərəfindən dinc nümayişçilərə qarşı silah tətbiq olunmuşdu. Lakin Azərbaycanda törədilmiş 20 yanvar hadisəsi öz qəddarlığı, misli görünməmiş vəhşiliyi və dağıdıcı miqyası ilə əvvəlki olaylardan çox fərqlənirdi. Xüsusi qəddarlıqla müşayiət olunan kütləvi qətliam aktının həyata keçirildiyi müddətdə SSRİ müdafiə naziri Dmitri Yazovun, daxili işlər naziri Vadim Bakatinin və digər yüksək rütbəli hərbçilərin Bakıda olması bu qanlı cinayət əməlinin əvvəlcədən planlaşdırılmış olduğunu göstərirdi. İmperiyanın hərbi qoşun hissələrinin fövqəladə vəziyyət elan edilmədən Bakıya yeridilməsi həm ölkə qanunvericiliyinin, həm də beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması demək idi. “Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında” SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı yalnız qanlı cinayət hadisəsi törədildikdən sonra elan edilmişdi. Görünür, imperiya rəhbərliyinin xalqımıza qarşı qəzəb hissi o qədər güclü və hərbi təcavüz həyata keçirmək niyyəti o qədər qəti idi ki, törətdiyi qeyri-insanlıq aktına əvvəlcədən “hüquqi don” geyindirməyə belə ehtiyac duymamışdı. Baş verəcək hadisələrin və faciənin miqyası barədə məlumatların geniş xalq kütləsinə çatdırılmasının qarşısını almaq məqsədi ilə Azərbaycan televiziyasının enerji blokunun partladılması da qanlı cinayət əməlinin əvvəlcədən müəyyən edilən plan əsasında həyata keçirildiyini bir daha göstərir. Bununla Respublika televiziyası və radiosunun verilişləri tamamilə kəsilmiş və bütün ölkə ərazisində informasiyasızlıq mühiti yaradılmışdı. Ancaq həmişə millətləri qaranlıqda və məlumatsızlıqda idarə etməyə alışmış düşmənlərimiz bilmirdilər ki, bu zaman insanların səsini bir-birinə çatdıran, o səsləri Xalqın Səsinə çevirən yenilməz bir qüvvə vardı bu millətin canında. – Onların Azadlıq sevgisi! Bu sevgini boğmağa isə heç bir Yumruğun gücü çatmayacaqdı!.. İmperiyanın zor gücünə söykənmiş siyasəti ilə Azərbaycan xalqının məğrurluğu və qırılmaz iradəsi qarşılaşarkən, hansı tərəfin məğlubiyyətə düçar olacağı əvvəlcədən aydın idi. Sadəcə, Mixail Qorbaçov və onun ətrafındakı cinayətkarlar bunu anlaya bilmədilər. Qorbaçov başda olmaqla, İttifaqın bütün vəzifəli şəxslərinin ciddi heç nə olmamış kimi davranmaları, törətdikləri qanlı cinayəti ört-basdır etmək cəhdləri Azərbaycan xalqına qarşı olan qərəzin və nifrətin açıq təzahürü idi. Azərbaycan SSR rəhbərliyinin qanlı olay barədə bəyanat belə verməməsi, belə bir çətin anda xalqın dərdinə şərik çıxmaması xüsusilə təəssüf doğuran məqam idi.

“Xalqın tələbi və bir qrup deputatın təşəbbüsü ilə Azərbaycan SSR Ali Sovetinin 1990-cı il yanvarın 22-də Yanvar faciəsi ilə bağlı çağırılmış sessiyasına respublikanın bir sıra siyasi və dövlət rəhbərlərinin gəlməməsi isə onların xalqın taleyinə biganə qaldıqlarını, törədilmiş cinayətdə bu və ya digər dərəcədə iştirak etdiklərini bir daha təsdiq etmişdir. Respublika rəhbərliyi hətta şəhidlərin dəfn mərasiminə gəlməyi belə lazım bilməmişdi” (20 Yanvar faciəsinin 10-cu ildönümü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanından, 16 dekabr 1999, № 228).

Qanlı yanvar faciəsindən sonra bu hadisəyə verilən reaksiyalar, daha doğrusu hadisəyə heç bir münasibət bildirilməməsi kimin kim olduğunu və hansı məqsədə xidmət etdiyini tam aydınlığı ilə göstərdi. Xalqın taleyüklü bir anında ümummilli lider Heydər Əliyevin ən faciəvi günlərindən birini yaşayan Azərbaycanın ağrı-acısına şərik çıxması onun öz xalqına olan sonsuz məhəbbətinin ifadəsi idi. Sovet qoşunlarının Bakıda törətdiyi qanlı hadisə ilə bağlı elə ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək öz xalqına başsağlığı diləyən Heydər Əliyev, xüsusi qəddarlıqla törədilmiş cinayətin təşkilatçılarını və icraçılarını cəsarətlə ittiham etdi və onların cəzalandırılmasını tələb etdi. Bu qanlı faciənin önlənə bilməsi üçün bütün imkanların mövcud olduğu bir şəraitdə belə bir qeyri-insani hadisənin törədilməsini kökündən yanlış addım kimi qiymətləndirən Heydər Əliyev bu cür yollarla Azərbaycan xalqının iradəsini qırmağın mümkün olmayacağını açıq şəkildə bəyan etdi. Bütün təhlükələrə baxmayaraq, xalqımıza qarşı törədilmiş qanlı faciənin əsl səbəbkarlarının elə həmin gün imperiyanın mərkəzindən bütün dünyaya bəyan edilməsi üzləşdiyimiz ən çətin məqamda Heydər Əliyevin ümummilli mövqedən çıxış etmək cəsarətini, onun təkcə xalqın qələbələrinin deyil, həm də dərdinin önündə dayandığını bir daha sübut etdi.

Cinayətin törədildiyi vaxtdan keçən bir neçə illər ərzində 20 yanvar hadisələrinə lazımi siyasi-hüquqi qiymətin verilməməsi də vacib məsələlərdən biri idi. Mövcudluğunun mahiyyətində zorakılıq və hegemonluq daşıyan imperiyanın baş vermiş bəşəri cinayətə hüquqi qiymət verə biləcək qədər səmimiyyətə və iradəyə malik olmayacağı əvvəlcədən məlum idi. Ona görə də 1990-cı ilin dekabrında SSRİ Baş hərbi prokurorluğunun hərbi qulluqçuların 20 yanvarda Bakıda baş vermiş hadisələrlə bağlı əməllərində cinayət tərkibi görməyərək işə xitam verməsi heç kimi təəccübləndirmədi. Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi tərəfindən faciəli olayların araşdırılması ilə bağlı yaradılmış İstintaq komissiyasının fəaliyyətinin heç bir nəticə və heç bir əsas olmadan dayandırılması isə təəccüb doğurmaya bilməzdi. Bu o zamankı ölkə rəhbərliyinin baş vermiş qanlı faciəyə siyasi-hüquqi qiymət verə bilmək iqtidarında olmadığını nümayiş etdirirdi. Təəssüf ki, daha sonra 1992-ci ilin 19 yanvarında qəbul edilmiş “1990-cı il yanvarın 19-20-də Bakı şəhərinə qoşunların yeridilməsi ilə əlaqədar faciəli hadisələrin təfsilatının və səbəblərinin təhqiqi üzrə Azərbaycan Respublikası Ali Soveti komissiyasının işinin yekunlarına dair” Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurasının Qərarının da qeyd olunan komissiyanın fəaliyyətinin qənaətbəxş olması ilə kifayətlənməsi, 20 Yanvar faciəsinə ciddiyyətinə və mahiyyətinə görə qiymət verilmədiyini bir daha təsdiqlədi.

20 yanvar hadisələrinin təkcə xalqımıza qarşı deyil, bütün insanlığa qarşı cinayət olduğunu sübut etmək, faciə qurbanlarının hüquqlarının müdafiəsini təmin etmək, axıdılmış günahsız qanların baiskarlarının cəzalandırılması üçün siyasi, hüquqi zəmin formalaşdırmaq olduqca önəmli məsələ idi. Məhz buna görə Prezident Heydər Əliyevin “20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında” 5 yanvar 1994-cü il tarixli Fərmanında Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası tərəfindən 1992-ci ildə qəbul olunmuş müvafiq Qərarda yanvar hadisələrinin əsl səbəblərinin açıqlanmadığı və həqiqi günahkarların aşkar edilmədiyi nəzərə çatdırıldı. Həmin Fərmanla Azərbaycan Respublikasının Milli Məclisinə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməsi və bu məqsədlə Milli Məclisin xüsusi sessiyasının keçirilməsi tövsiyə edildi.

Beləliklə, Azərbaycan Respublikasının Milli Məclisi 1994-cü ilin martında 20 yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilməsi haqqında xüsusi Qərar qəbul etdi. Haqq və ədalətin müdafiəsi naminə küçələrə çıxmış silahsız adamların qəddarcasına qətlə yetirilməsi hərbi təcavüz və cinayət kimi qiymətləndirildi, qanlı faciənin sifarişçiləri və icraçıları açıq şəkildə bəyan edildi və bu cinayətin istintaqını həyata keçirən hüquq mühafizə orqanlarının fəaliyyətinin qənaətbəxş olmadığı bildirildi. Bununla da, nəhayət ki, qanlı faciəyə dövlət səviyyəsində münasibət bildirilməsi təmin edildi.

Faciədən 24 il keçir. “Əbədi, dönməz və sarsılmaz” müstəqilliyimizin işığında yaşayan xalq hər il yanvarın 20-də Şəhidlər Xiyabanına üz tutur, azadlığımızın qandallarını sındırmış şəhidlərimizi ehtiramla yad edirlər. Şəhidlər Xiyabanını ziyarətə gələn yüz minlərlə həmvətənimiz azadlığımız uğrunda şəhid olmuş soydaşlarımızın məzarı qarşısında baş əyərək onların xatirəsini əziz tuturlar. Prezident İlham Əliyevin Şəhidlər Xiyabanını ziyarət edərkən vurğuladığı kimi: “Azərbaycan xalqı bu günü heç vaxt yaddan çıxarmayacaq. Azadlıq, müstəqillik uğrunda, vətən uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxarılmamalıdır.”

Bəli, şəhidlər unudulmaz. Onlar xalqın azadlığı yolunda canlarından da keçməyə hazır olduqlarını göstərdilər və bu yolu getdilər. Ölümə gedən yollar onları ölməzliyə - əbədiyyətə, xalqımızı isə əbədi azadlığa qovuşdurdu. Bu bir tarixdir. Şərəfli bir tarix. Tarix isə onu unudanları bağışlamır.

Şəhidlərimizə əbədi rəhmət və xalqımıza əbədi azadlıq arzusu ilə

**“Səs”.**-2014.-18 yanvar.-№ 9.-S.15.

# Müstəqilliyimizə gedən yol 20 yanvardan keçir

*Eldar Qəhrəmanov*
Azərbaycan Universitetinin rektoru

**"Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi. 1990-cı ilin Qanlı Yanvarında Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalmış Vətən övladları özlərinin fədakarlığı, şəhidliyi ilə xalqımızın qəhrəmanlıq səlnaməsinə parlaq səhifə yazdılar".**

**Heydər Əliyev**

**"Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar günü respublikada haqq-ədalətin bərqərar edilməsi tələbləri ilə çıxış edən Azərbaycan xalqının inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq məqsədilə totalitar sovet rejiminin həyata keçirdiyi terror aktı nəticəsində bəşər tarixində insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri baş verdi. Yüzlərlə günahsız insan yaralandı və qətlə yetirildi. Ən ağır sınaqlara sinə gərmək əzmini bütün dünyaya nümayiş etdirən Azərbaycan övladları 1990-cı il yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar. Azərbaycan xalqı öz igid övladlarının fədakarlığını yüksək qiymətləndirərək, hər il 20 Yanvarda onların əziz xatirəsini böyük ehtiramla yad edir".**

**İlham Əliyev**

XX əsr tarixində totalitarizmin həyata keçirdiyi ən qəddar terror aktlarından biri olan 20 Yanvar faciəsi Azərbaycan xalqına qarşı yönəldilmiş ən dəhşətli cinayətdir. Hara gəldi yağdırılan güllələr hərəni bir yerdə yaxaladı, kimisini küçədə, avtobusda, xüsusi minik maşınlarında, kimisini öz eyvanında, qapısının ağzında, evinin içində qətlə yetirdi. Neçə-neçə vətən övladları düşmən gülləsinə tuş gəlib həlak oldu, ömürlük əlil oldu, yaralanıb həmişəlik sağlamlığını itirdi. Minlərlə, milyonlarla insanların mənəviyyatına, mənliyinə, vüqarına, milli hisslərinə vurulan zərbələrin ağrı-acısının həddi-hüdudu yox idi.

Silahsız vətənpərvər insanlar qətiyyət, cəsarət və qəhrəmanlıq göstərib, mərkəzin böyük ordusu ilə üz-üzə durdu, təcavüzün qarşısını almağa qalxdı. Lakin qeyri-bərabər qarşıdurmada 137 Azərbaycan vətəndaşı həlak oldu, canını vətən yolunda qurban verdi, yüzlərlə insan yaralandı, şikəst oldu və itkin düşdü. O gecə xalqımızın ən ləyaqətli övladları ölkəmizin azadlığı, tarixi torpaqlarımızın bölünməzliyi yolunda şirin canlarından keçdilər.

20 Yanvar gecəsində xüsusi hazırlıqlı rus əsgərləri azadlıq istəyənlərin ürəklərinə, müstəqillik haqqında düşünən beyinlərə, həqiqəti deyən dillərə, təcavüzə etiraz edən səslərə atəş açdılar. O gecə neçə-neçə cavan, qoca, uşaq, qadın qətlə yetirildi, ata-ana övladsız qaldı, bacılar qardaşını, gəlinlər ərini itirdilər, sinəsinə düşmən gülləsinə sipər çəkən övladlarımız Şəhidlər Xiyabanında daşlaşıb heykəlləşdilər, əbədiyyətə qovuşdular.

Heydər Əliyevin 20 yanvar faciəsi ilə bağlı imzaladığı sərəncamında deyilirdi: "...ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənafeyini alçaltmaq və sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədi ilə həyata keçirilmiş 20 Yanvar faciəsi totalitar kommunist rejiminin Azərbaycan xalqına qarşı hərbi təcavüzü və cinayəti idi "

20 Yanvar məzmunca terror aksiyası, qanlı faciə, bəşəriyyət qarşısında cinayət olsa da, xarakter etibarilə açıq hərbi təcavüz idi. Vahid ölkə daxilində mərkəz, ittifaqın müstəqil hüquqlu subyektinə elan etmədən gecə vaxtı 170 minlik ordu yeritdi, özünün "vətəndaşlarına" amansız divan tutdu.

Sovet imperiyasının 1990-cı ilin yanvar ayının 20-də Azərbaycanda törətdiyi hərbi təcavüz beynəlxalq hüququn "Yus Çodens" prinsipinə, hər bir dövlətin və bütünlükdə dünya dövlətlər birliyinin mənafelərinə xidmət edən, icrası hamı üçün məcburi sayılan beynəlxalq hüquq normalarına ziddir. İmperiya hərbi təcavüzlə BMT-nin Nizamnaməsinin 1,55 və 56-cı maddələrini, 1948-ci il insan hüquqları haqqında Ümumi Bəyannamənin, insan hüquqlarının və azadlıqlarının qorunması və onların təmin edilməsi barədə öhdəliklərinin yerinə yetirilməsi prinsipini kobud şəkildə pozdu.

İmperiya 20 Yanvar faciəsini törədərkən öhdəsinə götürdüyü bütün beynəlxalq öhdəlikləri pozaraq, BMT-yə, onun TŞ-yə, dünyanın demokratik ictimaiyyətinə meydan oxudu, özünün totalitar rejimə 1966-cı il " Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakta" qoşulmuş və onun prinsiplərinə əməl edəcəyini öhdəsinə

götürmüşdür. Lakin, mərkəz həmin paktın 6-cı maddəsində təsbit edilmiş "yaşamaq hüququ hər bir insanın ayrılmaz hüququdur" prinsipini pozaraq, Bakıda yüzlərlə insanı vəhşicəsinə məhv etdi.

Paktın 7-ci maddəsində qeyd edilmiş "Heç kəs işgəncələrə, qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan davranışa və ya cəzaya məruz qalmamalıdır" prinsipini pozan sovet imperiyasının hərbi hissələri əliyalın, silahsız insanları tankların altında əzdi, yerlə-yeksan etdi, ömürlük şikəst qoydu.

Demokratik dünya təcrübəsində qəbul edilmiş meyara görə "heç kəs qanunsuz cəzalandırılmamalıdır, heç bir cinayətkar cəzasız qalmamalıdır" . Bu meyar ən demokratik ənənələrə, sivil dövlətçilik prinsiplərinə söykənir. Lakin sovet imperiyası bu demokratik prinsipi kobud pozaraq, Paktın 9-cu maddəsinə məhəl qoymadan günahsız insanları həbs etdi, işgəncələrə məruz qoydu, onlara qeyri-qanuni əzablar verdi, yaxınlarına məlumat vermədən gizli yerlərdə saxladı.

70 illik əsarət zəncirini qırıb tullamaq arzusu ilə yaşayan insanlar qəzəbini qılınca çevirərək qatı millətçi erməni separatçılarının və SSRİ-nin ermənipərəst rəhbərliyinin mənfur niyyətlərinə baş əymədi və azadlıq əzmindən dönmədi. Nə qırmızı imperiyanın tankları, ölümsaçan güllələri, nə də törədilmiş qırğınlar, dəhşətli qətl hadisələri Azərbaycan xalqının iradəsini qıra bilmədi. İmperiyanın müxtəlif cəza tədbirləri ilə müşayiət olunan hərbi təcavüzü Azərbaycan xalqının iradəsini, mübarizə əzmini sarsılda bilmədi, azadlığı uğrunda ayağa qalxan millətimizi düz çökdürmək niyyətləri puça çıxdı. Tarixi qəhrəmanlıq ənənələrinə sadiq qalan vətən övladları bu dəfə də millət qarşısında vətəndaşlıq borcunu ləyaqətlə yerinə yetirdi.

Xalqın əzmi göstərdi ki, Azərbaycanı silah gücünə əsarətdə saxlamaq,70 il ərzində sürgünlər, qadağalar, haqsızlıqlar rəmzinə çevrilmiş fövqəl dövlətin süqutunu dayandırmaq mümkün deyil. İmperiya iddialarından doğan bu qərəzli, faciəli aksiya ittifaqın dayaqlarını sarsıtdı, onun süqutunu yaxınlaşdırdı, xalqın müstəqilliyinin labüdlüyünü təsdiq etdi, onun milli şüurunda inqilabi keyfiyyət dəyişikliyi yaratdı. Cəsarət, qətiyyət, vətənpərvərlik nümayiş etdirən xalq bir daha sübut etdi ki, onun mübarizə və azadlıq əzmini qırmaq mümkün deyil.

Azadlığa, müstəqilliyə qovuşmaq üçün bütün təzyiqləri dəf etməyə hazır olan xalqımızın arzularının və məhkum olduğu əsarətdən qurtuluşunun reallığı aydın görünürdü. Heç bir məkrli niyyət, qara əllər azadlıqsevər xalqın müqəddəs arzularını, azadlıq ideyalarını boğa bilmədi, xalqımız müstəqilliyə daha da yaxınlaşdı.

20 Yanvar günü xalqımız böyük itkilər versə də o, öz namusunu və şərəfini qoruya bildi və sübut etdi ki, onun iradəsini qırmaq olmaz. 20 Yanvar faciəsi Sovet imperiyasının Azərbaycana və bütün insanlığa qarşı törətdiyi ən ağır cinayət idi. 20 Yanvar faciəsi qırğını Azərbaycan xalqının qəddini əysə də, onu sındıra bilmədi, əksinə daha da mətinləşdirdi, mübariz etdi, daha böyük əzmlə azadlıq uğrunda döyüşə qovuşdurdu. Xalq özünün qəhrəmanlıq səlnaməsini yazdı, tarixi mübarizlik ənənələrini daha da gücləndirdi, onun vətənpərvər övladları vətənin azadlığı yolunda şəxsi həyatını şəhidlik zirvəsinə yüksəltmək əzmini təsdiq etdilər.

Qanlı-qadalı 20 Yanvar faciəsi xalqımızın azadlıq iradəsini, müstəqillik əzmini əzmək, söndürmək məqsədi güdsə də, Azərbaycan tarixinə matəm günü kimi düşdü, müstəqilliyimiz yolunda yeni mərhələ oldu.

Qədim tariximizdə çoxsaylı müharibələrə, fəlakətlərə, faciələrə düçar olmuş Azərbaycan xalqı heç zaman zorakılığa, təcavüzə baş əyməmiş, ədalətsizliklə barışmamış, yeni qüvvə toplamış, mübarizlik göstərmiş , qalib gəlmişdir. Erməni mafiyasının fitvası ilə törədilən imperiyanın qanlı 20 Yanvar faciəsi də belə oldu. Mərkəzin 20 Yanvar faciəsi Azərbaycan xalqının nifrətini, etirazını, mübarizə əzmini daha da gücləndirdi, müstəqillik tariximizin mühüm mərhələsinə çevrildi.

Təəssüflə deməliyik ki, sovet imperiyasının Azərbaycan xalqına qarşı törətdiyi bu təcavüz aktına uzun müddət hüquqi-siyasi qiymət verilməmişdir. Yalnız faciədən dörd il sonra Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclis 1994-cü ildə 20 Yanvar faciəsinin başvermə səbəbləri və günahkarlarının hüquqi, siyasi və mənəvi məsuliyyətini ətraflı müzakirə etmiş, onların konkret adlarını ictimaiyyətə çatdırmışdır. Araşdırmalar zamanı məlum olmuşdur ki, mərkəzin hərbi müdaxiləsi ermənilərin məkrli planı, sovet imperiyasının geostrateji siyasəti, respublika rəhbərliyinin qətiyyətsizliyi, müti mərkəzçilik mövqeyi, müxalifətin hakimiyyət hərisliyi, təcrübəsizliyi sayəsində reallaşmaq imkanı əldə etdi.

Çaş-baş qalan xalqın bu ağır günündə Heydər Əliyev 1990-cı ilin yanvar ayının 21-də, faciənin ertəsi günü Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəlib ittifaq rəhbərliyini və onun vəhşi ordusunu cəsarətlə ittiham etdi, xalqımıza mənəvi və siyasi dayaq verdi, onu yeni qüvvə ilə mübarizəni davam etdirməyə çağırdı. Heydər Əliyevin imperiya qarşısında, onun paytaxtında mərkəzin ünvanına söylədiyi cəsarətli ittihamları xalqın mübarizə əzmini daha da gücləndirdi, qətiyyətli addimlar atmağa ruhlandırdı.

Yalnız Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ciddi-cəhdi nəticəsində 1994-cü ildə bütün sənədlər üzə çıxarıldı, 20 Yanvar faciəsi öz hüquqi-siyasi qiymətini aldı və onun törədilməsində əli olmuş şəxslər ifşa edildi. Azərbaycan itirdiklərinin müqabilində azadlıq, müstəqillik qazandı. Xalq bu müstəqilliyi göz

bəbəyi kimi qoruyur, möhkəmləndirir, şəhidlərimizin xatirəsini yad edir, firavan həyat uğrunda əzmlə çalışır, işğal edilmiş torpaqlarımızın azad edilməsi üçün mübarizə aparır.

Qanlı 20 Yanvar faciəsi mahiyyət etibarı ilə qəddarlıq, vəhşilik baxımından yaddaşlardan silinməyən, beyinlərdə min illərlə yaşayan, şüurlara qanla yazılan tarixi hadisədir.

Qərəzli meyarlarla silahsız, günahsız insanların böyük qəddarlıqla kütləvi qətlə yetirilməsi beynəlxalq cinayət kimi unudulmazdır, bağışlanmazdır. Şəhidlər xiyabanında uyuyan, əbədiyyətə qovuşan qəhrəman övladlarımızın .şəhərin ən yüksək nöqtəsindən boylanan qəzəbli baxışları, nifrəti, ünvanları bəlli olan qan içən cəlladlara, xəyanətkarlara və vəzifə hərislərinə yönəlib. Şəhidlərin nifrət dolu ruhu, haqq, ədalət, qanun gec-tez cinayətkarların əli ilə dünyasını dəyişənlərin qanına bulanmış məmurları, hərbiçiləri məhşər ayağına çəkəcək, onlara dar ağacı quracaqdır.

Bütün faciəli nəticələri ilə birlikdə 20 Yanvar Azərbaycan xalqının yaddaşına, tarixinə milli azadlıq, dövlət müstəqilliyi uğrunda mübarizəsinin zirvəsi kimi daxil olmuşdur. 20-si yanvarda itirdiklərimizlə yanaşı, bu faciədə xalqımız vahid birliyini, qəhrəmanlıq əzmini bir daha nümayiş etdirdi. Silahlı imperiya ordusuna qarşı əliyalın, silahsız çıxan, qorxub qaçmayan, cəsarətli insanlar ölkəmizin ərazi birliyinin və suveren hüquqlarının müdafiəsinə qalxdı və şəxsi həyatı ilə hesablaşmadı.

Hərbi, siyasi, mənəvi təcavüzə məruz qalan xalqımız, vətənin suverenliyi və azadlığı naminə ən ağır sınaqlara tab gətirdi, millət, torpaq uğrunda şəhid olmaq əzmini bütün dünyada nümayiş etdirdi. Vətənimizin istiqlalı yolunda şəhidlik zirvəsinə ucalan qeyrətli övladlarımız xalqımızın şanlı tarixinə daha bir qəhrəmanlıq salnaməsi yazdılar. 20 yanvardan 24 il keçsə də biz o müdhiş gecəni, şəhidlərimizin qəhrəmanlığını min illərlə unutmayacaq, ürəklərimizdə yaşadacayıq. Ulu öndər Heydər Əliyevin dediyi kimi xalqımız o günü heç vaxt unutmayacaqdır. Çünki 20 Yanvar ayrı-ayrı insanlara edilən qəsd, təcavüz deyildir, bu bütün Azərbaycan xalqına, Azərbaycan millətinə, Azərbaycan ölkəsinə edilən hərbi təcavüz idi. Bu təcavüz nəticəsində həlak olanlar xalq qəhrəmanlarıdır , onlar millətimizin qəhrəmanlarıdır.

24 il bundan əvvəl baş verən qanlı 20 Yanvar faciəsi xalqımızın azadlıq iradəsini, əzmini qırmaq, sındırmaq məqsədi güdsə də, Azərbaycan tarixinə qəhrəmanlıq günü kimi düşdü, müstəqilliyimizin yolunda yeni mərhələ oldu. Qədim tarixində çox saylı faciələrə düçar olmuş Azərbaycan xalqı heç zaman zorakılığa, təcavüzə baş əyməmiş, ədalətsizliklə barışmamış, yeni qüvvə toplamış, mübarizlik göstərmiş, qalib gəlmişdir. İmperiyanın və ermənilərin fitvası ilə törədilən qanlı 20 Yanvar faciəsi Azərbaycan xalqının nifrətini, etirazını, mübarizə əzmini daha da gücləndirdi, müstəqillik tariximizin mühüm mərhələsinə çevrildi.

Ulu öndər Heydər Əliyev demişdir: “1990-cı ilin 20 Yanvarı Azərbaycan xalqının tarixinin ən faciəli, qara səhifəsi, həm də qəhrəmanlıq, rəşadət səhifəsidir. Biz o günlərdən nə qədər uzaqlaşsaq, həmin günlərin Azərbaycan xalqının tarixində necə mühüm yer tutduğunu bir o qədər dərk edəcəyik və bəlkə də gələcək nəsillər buna daha dolğun daha düzgün qiymət verəcəklər.” 1993-cü ilin oktyabr ayında Prezident seçilən Heydər Əliyev 20 Yanvar hadisəsinin səbəblərini və nəticələrini araşdırmaq üçün xüsusi dövlət komissiyası yaratdı, faciəyə siyasi-hüquqi qiymət verilməsini Milli Məclisə tövsiyyə etdi. 1994-cü ilin yanvar ayının 18-də Milli Məclis 20 Yanvar faciəsinin səbəblərini və nəticələrini müzakirə etməyə başladı, hüquqi və mənəvi məsuliyyət daşıyan günahkarların siyahısını elan etdi.

20 Yanvar faciəsi Sovet imperiyasının Azərbaycana və bütün insanlara qarşı törətdiyi ən ağır cinayət idi. 20 Yanvar qırğını Azərbaycan xalqının qəddini əysə də, onu sındıra bilmədi, əksinə daha da mətinləşdirdi, mübariz etdi, daha böyük əzmlə azadlıq uğrunda döyüşə sövq etdi. Xalq özünün qəhrəmanlıq səlnaməsini yazdı, tarixi mübarizlik ənənələrini özünə qaytardı, onun vətənpərvər övladları Vətən, azadlıq yolunda şəxsi həyatlarını qurban verib şəhidlik zirvəsinə yüksəlmək əzmini təsdiq etdilər.

Müxtəlif vəziyyətlərdə şüurlu surətdə şəhidlik taleyini seçən övladlarımız arasında respublikamızın ali məktəblərinin 12 tələbəsi olmuşdur.

Şəhid tələbələrimizin dünyasını dəyişdiyi vaxtdan xeyli müddət keçsə də onların cəsarəti, qətiyyəti, vətənə bağlılığı bu gündə bizi düşündürür, sevindirir, hər birimizdə qürur hissi doğurur. Şəhidlərimizin vətən, millət sevgisi onların genində, ana südündə, ata qeyrətindədir. Çünki, nakam həyatını vətən yolunda fəda etmək qeyrət, cəsarət, ürək tələb edir. Vətənin taleyi təhlükə qarşısında qaldıqda bizim şəhid tələbələrimiz vətəndaşlıq duyumu ilə miskin yaşamaqdansa, qeyrətli ölümə üstünlük verdilər.

Əbədi qəhrəmanlıq dünyasına qovuşarkən şəhidlərimiz kişi cəsarəti göstərib demişlər: “ təki vətən yaşasın, təki azadlığımız bərpa edilsin, təki müstəqilliyimiz qorunsun”. Bizim övladlarımız bu amalla canlarını qurban verdilər, şəhid oldular, əbədiyyətə qovuşdular, işğalçıların top-tüfəngindən çəkinmədilər, vətən yolunda ölümə hökm oxudular, müstəqilliyimiz uğrunda ölərək ölməzlik, əbədiyyət səviyyəsinə yüksəldilər. Şəhidlərimiz ölməklə vətən, torpaq uğrunda ölməyi bizə öyrətdilər, hər birimizə millət, vətən yolunda ölümə

hazır olmağı vəsiyyət etdilər. Çünki, yalnız bu yolla müstəqilliyimizi, azadlığımızı qoruya bildik, qaldırdığımız üçrəngli bayrağı enməyə qoymadıq.

Bizim şəhidlərimizin qəhrəmanlığı göstərdi ki, Azərbaycanın müstəqilliyi əbədidir və onu heç bir qüvvə döndərə bilməz.

Prezident Heydər Əliyev cənablarının dediyi kimi müstəqilliyimiz yolunda faciəli mərhələ olan qanlı 20 Yanvar günü və onun qurbanları heç bir zaman unudulmayacaq və xalqın tarixində əbədi yaşayacaqdır.

Böyük qürur hissi ilə qeyd edirik ki, həyatını vətən üçün, xalq üçün qurban verən qəhrəman, cəsarətli, qeyrətli övladlarımız yetişmişdir. Onlar şərəfli ölümü miskin həyatdan üstün tutdular. Bu qətiyyətin, milli qeyrətin, mənəvi yetkinliyin, vətəndaşlıq hissinin zirvəsidir. Bu milli qeyrət üçün biz şəhidlərimizin valideynlərinə minnətdarıq.

Biz inanırıq ki, qəhrəmanlıq mücəssəməsinə çevrilmiş şəhidlərimiz haqqında gələcəkdə çoxsaylı kitablar yazılacaqdır. Bununla belə 20 Yanvar şəhidləri haqqında oxuculara təqdim edilən bu xatirə kitabı hələlik ilk təşəbbüsdür. Əminik ki, həyatını vətən və müstəqilliyimiz yolunda qurban vermiş şəhidlərimizin xatirələrini əbədiləşdirmək məqsədi ilə gələcəkdə daha çox iş görüləcək, onların qeyrətli həyat yolunun bütün çalarları daha ətraflı qələmə alınacaq, bütün xalqımıza çatdırılacaqdır.

Şəhidlərimizin qəhrəmanlığı xalqımızın yaddaşında əbədi yaşayacaq, həmişə xatırlanacaq, gənclərə nümunə olacaqdır. Şəhidlərimizin valideynləri, övladları onların vətəndaşlıq qeyrəti ilə fəxr edə bilərlər. Onların buna mənəvi haqqı vardır. Çünki Azərbaycanın müstəqilliyinin qazanılmasında bu qəhrəmanların övladlarının xidmətləri böyükdür.

**Allah şəhidlərimizə rəhmət eləsin, onların məzarı nurla dolsun!**

**“Səs”.**-2014.-17 yanvar.-№ 7.-S.8-9.

# Milli Qürur mənbəyi

***Valeh RƏHİMLİ***

20 Yanvar hadisələrindən 24 il keçir. Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş həmin gün keçmiş sovet dövlətinin xalqımıza qarşı həyata keçirdiyi vəhşi terror aktı, insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi yazıldı. Azadlığı uğrunda mübarizəyə qalxmış dinc əhaliyə divan tutulması, günahsız insanların qətlə yetirilməsi totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar əməllərini dünyaya bir daha nümayiş etdirdi.

Bakıya yeridilən sovet ordusunun xüsusi təyinatlı bölmələrin və daxili qoşunların əsgərləri görünməmiş qəddarlıq və vəhşiliklər törədirdilər. Çexoslovakiyaya, Macarıstana, Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni o zamankı sovet ittifaqının müttəfiq respublikalarından biri olan Azərbaycanda da təkrarlamaqdan çəkinməyən kommunust diktaturası sankı süqutunun heyifini alırdı.

Həmin vaxt Azərbaycan qonşu Ermənistanın da təcavüzünə məruz qalmışdı. Sovet rəhbərliyi nəinki münaqişənin qarşısını almaq üçün qəti tədbirlər görmüş, əksinə, Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Krasnodardan, Stavropoldan və Rostovdan səfərbərliyə alınan erməni əsgər və zabitləri, hətta erməni kursantları da daxil etmişdi. Bakıya yeridilmiş qoşuna xüsusi döyüş tapşırığı verilmiş və əməliyyatı yerinə yetirmək üçün möhkəm psixoloji hazırlıq keçmişdilər.

Guya qoşun Bakıya hərbi qulluqçuların ailələrini qorumaq, "millətçi ekstremistlər" tərəfindən hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində bu riyakarlıq idi. Çünki sovet rəhbərliyinin dedikləri həqiqət olsaydı belə, Bakıya təpədən-dırnağadək silahlandırılmış qoşun göndərməyə ehtiyac yox idi. Ona görə ki, həmin vaxt Bakıda daxili qoşunların 11,5 min əsgəri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri var idi. Hətta 4-cü ordunun komandanlığı da Bakıda yerləşirdi.

1990-cı il yanvarın 19-da Mixail Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. Lakin SSRİ DTK-nın "Alfa" qrupu yanvarın 19-da saat 19.27-də Azərbaycan televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və əhaliyə divan tutmağa başladı. Fərmanı qüvvəyə minənədək - yanvarın 20-də saat 00-dək artıq 9 nəfər öldürülmüşdü. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat əhaliyə yalnız yanvarın 20-də, səhər saat 7-də çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100 nəfərə çatmışdı.

Bakı küçələrində hərəkət edən tanklar və BTR-lər qarşısına çıxan hər şeyi əzir, dağıdır, hərbçilər şəhəri güllə yağışına tuturdular. İnsanlar nəinki küçələrdə, hətta avtobusda gedərkən, öz mənzillərində oturduqları yerdə güllələrə tuş gəlirdilər. Yaralıları aparmağa gələn "təcili yardım" maşınlarını və tibb işçilərini də atəşə tuturdular. Bir neçə gün ərzində 140-dək insan öldürüldü, 700 nəfərədək yaralandı, 800-dən çox adam qanunsuz həbs edildi.

20 Yanvar şəhidləri Dağüstü Parkda dəfn olundu. Tarıxə nəzər salanda görürük ki, 20 Yanvar faciəsindən neçə illər öncə də bura qəbiristanlıq olub. Vaxtilə Çəmbərəkənd qəbiristanlığı kimi tanınan bu yer sovetlər dönəmində yox edilərək yerində Dağüstü Park salınmışdı. Parkın ən görkəmli yerində isə bolşevik liderlərindən sayılan, əli yüzlərlə insanın qanına batmış S.M.Kirovun heykəli ucaldılmışdı. Həmin şəhidlərin narahat ruhu onların məzarları üzərində ucaldılmış bir cəlladın heykəlindən xilas edildi. 1990-cı ilin 20 Yanvar faciəsi şəhidlərinin bu yerdə dəfn olunmasi ilə bu müqəddəs yerin əzəli statusu özünə qaytarıldı.

Şəhidlər Xiyabanına girərkən bizi ilk qarşılayan 20 Yanvar şəhidləri İlham və Fərizənin qəbridir. Onlar Azərbaycanın milli mücadilə rəmzi, sevgi, sədaqət rəmzidir bizim üçün. 20 Yanvar gecəsi İlham rus işğalçıları tərəfindən qətlə yetirilərək şəhid oldu. Bu xəbəri eşidən sevgilisi Fərizə isə "İlhamsız yaşamaqdansa ölmək yaxşıdır" deyib intihar etdi. İyirminci əsrin yeni məhəbbət dastanı yarandı - İlham və Fərizə dastanı. Leyli və Məcnun, Fərhad və Şirin kimi məhəbbət dastanlarının sırasına bir dastan da əlavə edildi. Ancaq digər məhəbbət dastanlarından fərqli olaraq bu dastanın qəhrəmanlarını çoxlarımız tanıyırdıq. 2003-cü ildən başlayaraq İlhamla Fərizənin toy günü - 30 iyun isə Azərbaycanda "Sevgililər Günü" kimi qeyd edilməyə başladı.

Azərbaycanın müstəqilliyi uğrunda bızə bəxş olunan bugünkü firavan və gözəl həyat namınə canlarından keçən insanları nədən məhz doğum günlərində və ya ölüm günlərində xatırlayırıq?! Axı, daim qəlbimizdə yaşamağa haqqı olan bu qəhrəmanları vaxtaşırı xatırlamaq, yada salmaq bizim hər birimizin mənəvi borcudur. İnanın ki, bu həm də gənc nəslin vətənpərvər ruhda böyüməsinə müsbət təsirini göstərər. Televiziya

kanallarında gərəksiz və əxlaqa zidd olan verilişlərdən, söhbətlərdən, sou proqramlardansa gözünü qırpmadan vətən, bu xalq üçün canından keçən insanlarla bağlı verilişlər hazırlamaq, onları xatırlamaq, yada salmaq daha məqsədəuyğun və faydalıdır. Bu həm də onların ruhları qarşısında yerinə yetirməli olduğumuz mənəvi borcdur.

Şəhid ailələri həmişə ölkə rəhbərinin diqqətində olub. Ulu öndər hər zaman şəhid ailələrini dövlət qayğısı ilə əhatə edirdi. 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı dövlət başçısının diqqətində olub. 1993-ci ildən üzü bəri 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər görülüb və bu gün də görülməkdədir. Azərbaycan Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə 20 Yanvar təcavüzü zamanı yüksək vətəndaşlıq nümunəsi göstərərək həlak olmuş Azərbaycan Respublikası vətəndaşlarına "20 Yanvar şəhidi" fəxri adı verilib, "1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə dövlət qayğısının artırılması haqqında" 2003-cü il 15 yanvar tarixli sərəncama əsasən əlil olmuş şəxslərə verilən aylıq müavinət artırıldı və bu iş davamlı olaraq həyata keçirilir.

Prezident İlham Əliyev də müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinin dövlət səviyyəsində həllini mühüm vəzifələrdən biri kimi qarşıya qoyub. Ölkəmizdə bu istiqamətdə böyük işlər həyata keçirilir. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir.

2006-cı il yanvarın 19-da dövlət başçısının " 20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Fərmanı ilə 20 Yanvar şəhidlərinin ailələri üçün Prezident təqaüdü təsis edildi. Bütün bunlar ölkə rəhbərinin 20 Yanvar şəhidlərinə, bütövlükdə Azərbaycanın müstəqilliyi, azadlığı uğrunda canından keçmiş şəhidlərimizə, onların ailələrinə gösrərilən qayğı və diqqətin təzahürüdür. Bizim də üzərimizə düşən vəzifə hər zaman onları xatırlamaq və qəlbimizdə yaşatmaqdır.

**“Azərbaycan”.-**2014.-17 yanvar.-N 9.-S.5.

# Milli ruhun yüksəlişi

*Elnur HACALIYEV*

Milli özünüdərk duyğularının, milli ruhun yüksəlişi xalqımızın illərdən bəri qəlbində yaşatdığı milli dövlətçilik ideyasının milli-azadlıq mübarizəsində əsas hərəkətverici qüvvəyə çevrilməsində mühüm zəmin oldu. 1980-ci illərin sonu, 90-cı illərin əvvəllərində müstəqillik uğrunda mübarizənin yüksəlişi Heydər Əliyevin rəhbərliyinin birinci mərhələsində iqtisadiyyatın inkişafı və milli mübarizlik ruhunun təşəkkülü nəticəsində mümkün oldu.

1988-ci ildə Dağlıq Qarabağda baş qaldırmış erməni separatizminə Kreml rəhbərliyi tərəfindən rəvac verilməsi, 1989-cu ildə SSRİ Ali Sovetinin qərarı ilə DQMV-də yaradılmış Xüsusi İdarə Komitəsinin Azərbaycana qarşı qərəzli mövqeyi sayəsində muxtar vilayətin idarə-müəssisələrinin tədricən Azərbaycanın tabeçiliyindən çıxarılması, azərbaycanlıların Ermənistandakı tarixi-etnik torpaqlarından tamamilə deportasiya edilməsi, Moskvanın erməni separatçılarını cəzalandırmaq əvəzinə Azərbaycan xalqının əl-qolunu bağlaması millətin səbir kasasını daşırmışdı. Nəhayət, 1990-cı ilin əvvəlində Kreml Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə qarşı çıxan Azərbaycan xalqını cəzalandırmaq üçün Qanlı Yanvar qırğınını törətdi.

1989-cu ilin yayından etibarən Moskvanın Bakıya əlavə qoşun hissələri göndərməsi üçün Azərbaycan KP MK-nın birinci katibi Əbdürrəhman Vəzirovun, Nazirlər Sovetinin sədri Ayaz Mütəllibovun, Azərbaycan KP MK-nın ikinci katibi Viktor Polyanickonun, Azərbaycan SSR daxili işlər nazirinin birinci muavini Viktor Barannikovun imzası ilə SSRİ hökumətinin rəhbərlərinə şifrəli telefonoqramlar göndərilmişdi. İstintaq müəyyən etmişdir ki, 1990-cı il yanvarın ortalarında SSRİ Müdafiə və Daxili İşlər nazirliklərinin, habelə başqa xüsusi təyinatlı hərbi birləşmələrin 66 min nəfərdən cox əsgər və zabiti Bakı şəhərinə gətirilərək Qala və "Nasoslu" aerodromlarında, Respublika stadionunda, Salyan kazarmasında yerləşdirilmişdi. Azərbaycana gondərilən ordu hissələrinin tərkibinə Stavropoldan, Rostovdan, Krasnodardan səfərbər edilmiş erməni zabit və əsgərləri, hərbi məktəblərdə təhsil alan erməni kursantları da cəlb edilmişdi. Respublikaya gətirilmiş hərbi qüvvələrin, əməliyyatlara rəhbərlik etmək üçün Bakıya gələn 300-dən artıq yüksək rütbəli zabit və generalların ərzaq təminatı, nəqliyyatla, yanacaqla təmin edilməsi respublika büdcəsindən ödənilirdi.

15 yanvar 1990-cı ildə M.Qorbaçov DQMV-də və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. Fərmanın 7-ci bəndində Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinə Bakı və Gəncə şəhərində və digər yaşayış məntəqələrində qadağan saatı tətbiq edilməsi də daxil olmaqla hər cür lazımi tədbirlər görmək təklif edilmişdi. SSRİ Ali Sovetinin Rəyasət Heyəti yanvarın 20-də saat 00-dan etibarən "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" qərar qəbul etmişdir.

Yanvarın 19-da SSRİ DTK-nın "Alfa" qrupu və respublika DTK-nın rəhbərliyi tərəfindən təşkil edilən əməliyyat nəticəsində respublika televiziyasının enerji bloku partladılmışdı ki, Bakıda fövqəladə vəziyyət elan edilməsi və qoşunun şəhərə girməsi barədə əhaliyə rəsmi məlumat çatdırılmasın. Halbuki həmin vaxt 26 yerdə piketlər, barrikadalar qurulmuş, şəhərdəki 60 qoşun hissəsindən 34-nün, o cümlədən Salyan kazarmasının giriş-cıxış yolu kəsilmişdi.

Fövqəladə vəziyyətin yanvarın 20-də saat 00-da tətbiq edilməsinə baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat 21-dən etibarən birinci olaraq Türkan-Qala tərəfdən şəhərə yeridildi. "Bakı əməliyyatı"na rəhbərliyi birbaşa SSRİ müdafiə naziri Dmitri Yazov, SSRİ daxili işlər naziri Vadim Bakatin, SSRİ DTK sədrinin müavini Filip Babkov həyata kecirmişdilər.

Bakı qarnizonunun qoşunları, gətirilən hərbi hissələr, hərbi gəmilərdən çıxarılan desant qrupları şəhər üzərinə hucuma keçdi. Ağır hərbi texnika çox asanlıqla barrikadaları dağıtdı. Şəhərin küçələri güllələnmiş və yaralanmış günahsız adamların - qocaların, qadınların, uşaqların qanına qərq olmuşdu. Hərbçilər təsadüfən küçəyə çıxanları, yaşayış evlərini, təcili yardım maşınlarını atəşə tutur, yaralıları öldürür, meyitləri yandırırdılar. Adamları ağır hərbi texnikanın tırtılları altına salır, əzabla öldürürdülər.

Bakıya yeridilən qoşun kontingenti qapalı düşərgələrdə saxlanılırdı. Onlarla əhali ilə ünsiyyətdə olmağa imkan verilmirdi ki, xalqın əliyalın olmasından xəbər tutmasınlar. Bakıya yeridilən əsgər və zabitlərə demişdilər ki, "islam fundamentalistləri", "pantürkistlər" Azərbaycanda sovet hakimiyyətini deviriblər, ona gorə də onları məhv etmək lazımdır. Məhz azərbaycanlılara qarşı nifrət hissi ilə köklənən, spirtli içkilər vasitəsilə qızışdırılaraq şəhərə hücum edən əsgər və zabitlər qadına, qocaya, körpəyə, hətta təcili yardım maşınlarının sürücülərinə və həkimlərə fərq qoymadan atəş acmış, onları vəhşicəsinə qətlə yetirmişdilər. Tanklar və BTR-lər içi insanlarla dolu minik maşınlarını əzib keçirdilər. Xəstəxanaların işıqlarını kəsmişdilər ki, yaralılara tibbi yardım göstərmək mümkün olmasın. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri

amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışlar. Müəyyən olunmuşdur ki, "Mulki və siyasi hüquqlar haqqında" 1966-cı il Beynəlxalq Aktın birinci bəndinə əsasən fərman imzalandığı andan fövqəladə vəziyyətin tətbiqi və müddətləri barədə Bakı şəhərinin əhalisinə rəsmi xəbərdarlıq edilməli idi. Lakin buna qəsdən əməl olunmamışdır.

Kütləvi insan qırğını törədildikdən sonra - yəni 20 Yanvar 1990-cı il səhər saat 5.30-da radio vasitəsilə Bakı şəhər komendantı V.Dubinyak fövqəladə vəziyyət tətbiq edildiyi barədə rəsmi məlumat vermişdir. Halbuki yanvarın 20-də saat 00-dan başlanmış hərbi əməliyyatlarda tanklardan və müxtəlif təyinatlı zirehli döyüş maşınlarından istifadə edilmiş, Xəzər hərbi donanmasına məxsus gəmilərdən şəhərə desant çıxarılmışdı. Azərbaycan xalqına qarşı törədilmiş bu təcavuz aktı mərhələ-mərhələ həyata keçirilmiş, şəhərdə qarətlərlə nəticələnən təxribatlar törədilmişdir.

Fövqəladə vəziyyət elan edildikdən sonra da, yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində daha 57 nəfər öldürülmüşdür. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda - yanvarın 25-də Neftçalada 2 nəfər və yanvarın 26-da Lənkəranda 6 nəfər qətlə yetirilmişdir. Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və respublikanın rayonlarında 147 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuş, onlardan 112 nəfəri SSRİ-nin müxtəlif şəhərlərinə aparılaraq həbsxanalarda saxlanılmışdı. Hərbi qulluqcular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları dağıdılmış, yandırıcı güllələrin törətdiyi yanğınlar nəticəsində külli miqdarda dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdir.

Bütün bunlar nəinki Azərbaycan xalqının gözünü qorxutdu, əksinə, onun sovet imperiyasına qarşı nifrətini qat-qat artırdı. Xalq avtomat süngülərinin, tank lülələrinin ona tuşlanmasından qorxmayıb şəhidlərini kücə və meydanlardan topladı. Topun-tüfəngin hər küçədə, hər tində qoyulmasına, fövqəladə vəziyyət rejiminə baxmayaraq, yanvarın 22-də xalq oz şəhidlərini "Azadlıq" meydanından son mənzilə - Şəhidlər xiyabanına yola saldı. Dünyanın heç bir ölkəsində şəhidlərimizin dəfn mərasimindəki kimi izdihama təsaduf edilməyib. Azərbaycan xalqı 40 gün matəm saxladı. Xalq aclığa dözdü, lakin etiraz əlaməti olaraq 40 gün tətil etdi.

Xalqa qarşı sovet ordusunun qanlı cinayətləri isə hələ bitmək bilmirdi. Qanlı qırğına etirazını bildirmək üçün Bakı buxtasına gəlmiş "Xəzərneftdonanması"nın gəmiləri hərbi gəmilər tərəfindən mühasirəyə alınaraq güllәbaran edilmiş, onlarla dənizçi həbs olunmuşdu. "Sabit Orucov" gəmisi "SOS!" siqnalı ilə dünyaya faciə barədə məlumat vermişdi. Şəhərə dənizdən hücumun qarşısını almaq üçün Azərbaycan dənizçiləri həyatlarını riskə qoyaraq gəmiləri Bakı buxtasına yığmışdılar. Yanvarın 21-də saat 20.30 dəqiqədə iki hərbi gəminin və iki katerin müşayiəti ilə naməlum yük aparılması haqqında məlumat alan dənizcilər silahlı quldurlarla əliyalın qeyri-bərabər mübarizəyə girişmişdilər. Sovet hərbi gəmilərindən açılan atəş nəticəsində "Neftqaz-18", "Neftqaz-64", "Aktau", "Şirvan-2", "Celeken-1", "Atlet-21", "Vodoley-4" gəmiləri ciddi surətdə zədələnmişdi. Qanlı Yanvardan sonra başlanmış kutləvi repressiyalara qəhrəman dənizçilər də məruz qalmışlar.

20 Yanvar qırğınlarından sonra xalq vahimə içində idi. Bakıdakı qanlı qırğından sonra onu və doğmalarını izləyən ağır təhlükələrə baxmayaraq, Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələn Neydər Əliyev mərkəzin Bakıda keçirdiyi vəhşiliyə qarşı kəskin bəyanat verdi, bu cəlladlığı pislədi. M.Qorbaçovun əli ilə tökülən qanlara etiraz etdiyini, insanların azadlıq istəyinin məhv edilməsinin mümkünsüzlüyünü söylədi. Bu, sözün həqiqi mənasında, təkcə Azərbaycan xalqına deyil, SSRİ məkanında azadlıq eşqi ilə yaşayan bütün xalqlara dəstək idi. Neydər Əliyevin həmin bəyanatı bir daha sübut etdi ki, siyasətdə böyük addımları ancaq dahilər ata bilirlər. Heydər Əliyevin M.Qorbaçovun ünvanına söylədiyi ittihamlar təkcə Bakıda deyil, Tbilisi, Vilnüs, Riqa və digər şəhərlərdə də ehtiramla qarşılanmış, ulu öndərin bu aydın mövqeyi o dövrün siyasi təlatümlərindən çaşqın vəziyyətə düşən milyonlarla insan üçün aydın bir istiqamətə çevrilmişdi.

Ulu öndər Heydər Əliyev 1990-cı il 20 Yanvar faciəsi ilə əlaqədar Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirilmiş tədbirdə bildirmişdi: "Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı. Bunlar üçün ilk növbədə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin artıq sabiq birinci katibi Vəzirov müqəssirdir. Bu yüksək vəzifədə olduğu müddətdə o, Azərbaycandakı vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə, özünün səhv addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurum yaratmışdır. Xalq isə hiddətlənmişdir. Elə buna görə də Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında aylarla davam edən mitinqlərdə dəfələrlə Azərbaycanın partiya rəhbərlərinin istefası tələbi irəli sürülmüşdür. Söhbət əslində Vəzirovun istefasından gedirdi. Bəs bu məsələ indiyə kimi niyə həll olunmamışdır?

Yalnız dünən Bakı şəhərinə ordu yeridildikdən, qırğın və dağıntılar baş verdikdən sonra Vəzirov Azərbaycandan əslində qaçmışdır. Bu, böyük səhvdir. Ən böyük səhv isə sözsüz ki, qeyri-ciddi, bu yüksək vəzifəyə əsla yaramayan adamın bir vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə birinci katib təyin edilməsi idi. Ancaq iş təkcə bununla bitmir. İndi yanvarın 19-dan 20-nə keçən gecə baş vermiş və bu gün də davam edən faciənin üstündə dayanmaq istəyirəm. Hesab edirəm ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur. Təəssüf ki, Azərbaycan rəhbərliyi, həmçinin ölkənin ali siyasi rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir".

Sov.İKP sıralarını tərk edən ulu öndər özünün rartiya ilə əlaqələrinin qırılmasını belə izah etmişdi: "Mən Kommunist Partiyasına xeyli güc və eneryi sərf etmişəm. Mən SSRİ-nin rəhbərlərindən biri olmuşam. Lakin əmin olanda ki bu quruluşun məhvi labüddür, rartiya dönükdür və açıq-aydın xalqın əleyhinədir, mən onun sıralarını heyfsilənmədən tərk etdim. Azadlıq və demokratiya ideallarına xidmət naminə tərk etdim". Artıq Neydər Əliyev Moskvada qala bilməzdi. Ulu öndəri ölkənin gələcək müqəddəratının həll olunduğu Vətən, coşqun siyasi hadisələrin mərkəzi özünə sarı çəkirdi. Ulu öndərin heç bir vəzifəsi olmadığı və fəal siyasətdən kənarda qaldığı illərdə hörmət və ehtiramla qarşılanan növbəti addımı onun Moskvadan Azərbaycana qayıtmaq barədə qərarı idi. Azərbaycan həmin dövrdə çox ağır günlərini yaşayırdı. SSRİ-nin dağılmasından sonra Azərbaycan ağır bəlalarla üzləşmiş, rarçalanmaq təhlükəsi qarşısında qalmışdı. Ona görə də Neydər Əliyev həmin çətin məqamda öz xalqının yanında olmağı məqsədəuyğun saydı və Moskvadan Azərbaycana qayıtdı. Amma Neydər Əliyev Moskvada nə qədər təhdid və təzyiqlər altında yaşayırdısa, Azərbaycanda da onu xalqa zidd hakimiyyət tərəfindən bir o qədər təzyiq və hədələr gözləyirdi. Nətta ulu öndərin siyasi dəst-xəttinə və dövlətçilik təcrübəsinə açıq rəğbət göstərən tanınmış yazıçı Əydər Xanbabayevin qətlə yetirilməsi ilə Neydər Əliyevə xəbərdarlıq edilmişdi. Ancaq böyük siyasətçinin öz xalqına inamı, eyni zamanda xalqa bağlılığı tam qarşılıqlı idi. Xalq ona inanır və hər zaman öz böyük oğlunu bütün təhlükələrdən qorumağa hazır olduğunu bildirirdi. Məhz həmin inamın nəticəsində Neydər Əliyev 1990-cı il iyulun 20-də təyyarə ilə Bakıya gəldi. İki gün sonra - iyulun 22-də isə səhər saatlarında ulu öndər hakimiyyətin təhdidləri nəticəsində təyyarə ilə Bakıdan Naxçıvana getməyə məcbur oldu. Bu, böyük qayıdışın başlanğıcı idi. Heydər Əliyevin Moskvadan Naxçıvana qayıdışı, o dövrün bəzi qəzetlərində yazıldığı kimi, əyalət mərkəzinə yox, Vətənə, böyük siyasətə fəal şəkildə, birmənalı, ardıcıl, qətiyyətli qayıdış idi.

Xalqın tələbi və bir qrup deputatın təşəbbüsü ilə 1990-cı il yanvarın 22-də çağırılan Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyasında respublikanın əksər siyasi və dövlət rəhbərləri iştirak etməmişdilər. Sessiyaya respublika rəhbərlərinin gəlməmələri onların xalqın taleyinə biganə qaldıqlarını, törədilmiş cinayətdə bu və ya digər dərəcədə iştirak etdiklərini göstərirdi. Fövqəladə sessiya Bakı şəhərində törədilmiş faciəli hadisələrin təhqiqi uçun deputat-istintaq komissiyası yaradılması barədə qərar qəbul etmişdir. Lakin bu komissiya hadisəyə huquqi-siyasi qiymət vermək əvəzinə, ölənlər və yaralananlar, dövlətə və ictimai təşkilatlara, vətəndaşlara vurulan ziyan haqqında informasiya xarakterli məlumatlar toplamaqla işini bitirmişdi.

1990-cı il yanvarın 24-dən 25-nə keçən gecə Azərbaycan KP MK-nın təşkilati məsələyə həsr olunmuş plenumu keçirilmişdir. Plenumda gündəliyə respublikada siyasi vəziyyətlə əlaqədar məsələ salınmış, Bakı şəhərində fövqəladə vəziyyətin tətbiqinin səbəblərini təhqiq etmək üçün komissiya yaradılmışdır. Lakin respublika kommunistlərinin ali orqanı faciəyə siyasi qiymət verməmiş, ümumiyyətlə, heç bir bəyanatla çıxış etməmişdir.

SSRİ Baş Prokurorluğunun ədliyyə polkovniki V.Medvedevin rəhbərliyi ilə təşkil etdiyi istintaq qrupu cinayət hadisələrinin araşdırılmasını çox səthi aparmış, istintaq hərbçilərin hərəkətlərində cinayət tərkibi olmaması nəticəsinə gəlmişdi. 20 iyul 1990-cı il tarixdə cinayət işinin xitam olunması barədə qərar qəbul olunmuş, cinayət işinin materialları Moskvaya aparılmışdı. Təəssuf ki, həmin vaxt Azərbaycan Respublikası Prokurorluğu törədilmiş cinayət hadisələri ilə bağlı heç bir cinayət işi başlamamışdı.

Qanlı Yanvar qırğını həm də rus şovinistlərinin ermənilərlə birgə apardıqları anti-Azərbaycan siyasətinin tərkib hissəsi idi. Lakin imperiya cəlladları qanlı əməlləri ilə Azərbaycan xalqının iradəsini qıra bilmədilər. Qanlı Yanvar milli azadlıq hərəkatının daha da yüksəlməsinə və nəticədə Azərbaycanın yenidən müstəqilliyə qovuşmasına gətirib çıxardı.

20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verilməsi məsələsi ümummilli lider Heydər Əliyevin sayəsində həllini tapmışdır. Onun tövsiyəsi ilə 1994-cü ilin fevral ayında Milli Məclisin xüsusi sessiyası kecirilmişdir. Sessiya 1990-cı il yanvarın 20-də sovet silahlı qüvvələrinin Bakı şəhərinə və respublikanın bir necə rayonuna yeridilməsini, nəticədə haqq və ədalətin mudafiəsi naminə küçələrə çıxmış silahsız adamların qəddarcasına qətlə yetirilməsini Azərbaycan xalqına qarşı totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirmişdir. Xalq hərəkatını boğmaq üçün 20 Yanvar faciəsini

təşkil etmiş sovet ittifaqı Kommunist Partiyası, sovet dövləti və hökumət rəhbərliyinin, o cümlədən şəxsən Mixail Qorbacovun Azərbaycan xalqına qarşı ağır cinayət törətdiyi qeyd olunmuşdur. Eyni zamanda xalqa qarşı törədilən hərbi təcavüzə görə məsuliyyətin o dövrdəki respublika rəhbərliyinin (Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov, Viktor Polyaniçko, Vaqif Hüseynov) üzərinə düşdüyü, onların Azərbaycan xalqına xəyanət etdikləri qeyd olunmuşdur.

"20 Yanvar Şəhidi" fəxri adının təsis edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti 31 mart 1998-ci il tarixdə fərman imzalamışdır. 29 dekabr 1998-ci ildə "20 Yanvar Şəhidi" fəxri adı haqqında Əsasnamə təsdiq edilmişdir. 1990-cı il yanvarın 20-də keçmiş SSRİ silahlı qüvvələrinin Bakıya və respublikanın bir neçə rayonuna hərbi təcavüzü zamanı həlak olmuş 147 nəfərə indiyədək "20 Yanvar Şəhidi" fəxri adı verilmişdir.

1990-cı ilin Qanlı Yanvar hadisəsi Azərbaycan xalqı üçün təkcə boyük faciə deyildir. O, ləyaqətini qorumaq üçün hər cür qurban verməyə hazır olan xalqın tarixində şərəfli bir səhifədir. 20 Yanvar faciəsi, həm ümumxalq faciəsi, həm də müstəqillik, istiqlal uğrunda xalqımızın apardığı milli azadlıq hərəkatının zirvəsi kimi Azərbaycan tarixinə həkk olunub. Ümummilli lider Heydər Əliyevin söylədiyi kimi, bu təcavüz xalqımızı mənəvi cəhətdən cox sarsıtsa da, itkilərə məruz qoysa da, onun mənliyini tapdalaya bilmədi, qürurunu sındıra bilmədi, qəhrəmanlıq salnaməsinə yeni bir səhifə kimi yazıldı.

**“Azərbaycan”.-**2014.-17 yanvar.-N 9.-S.3.

## Xalqımızın qəhrəmanlıq salnaməsi

*Zeynal VƏFA*

*Vətən yolunda şəhidlik ən ali bir zirvədir. Əsl qeyrət, hünər və mərdanəlik, şərəf, ləyaqət zirvəsidir. 1990-cı ilin 20 Yanvar gecəsi məhz belə bir zirvəni fəth edib əbədiyaşarlıq hüququ qazandı 24 ildən bəri Dağüstü parkdakı Şəhidlər xiyabanında əbədiyyət yuxusuna getmiş qan qardaşlarımız. Onların fədakarlığını yüksək qiymətləndirən ulu öndər Heydər Əliyev deyirdi: "Azərbaycan xalqı 1990-cı ilin 20 Yanvarında hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, vətənin azadlıq və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi. 1990-cı ilin yanvarında Azərbaycanın azadlıq və müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalmış vətən övladları özlərinin fədakarlığı, şəhidliyi ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifələr yazdılar. Bu gün xalqımız öz milli mənliyini qorumaq üçün canlarından keçməyə hazır olan övladları ilə fəxr edir". Bəli, o mərdanə insanlar həqiqətən də xalqımızın qürur mənbəyidir. Çünki onlar vətənin 70 illik imperiya əsarətindən xilası, xalqın uzun illər boyu arzuladığı azadlıq və müstəqilliyinə qovuşması, millətin öz "Mən"ini dünya qarşısında nümayiş etdirməsi naminə şəhid olublar.*

20 Yanvardan bir neçə gün öncə Mixail Qorbaçovun göstərişi ilə Bakıya təpədən-dırnağacan silahlandırılmış 66 min 500 nəfərlik ordu yeridilmişdi. Hətta onlara möhkəm psixoloji hazırlıq da keçmişdilər. Güya həmin ordu Azərbaycana "yerli ekstremist qruplar tərəfindən ağır işgəncələrə məruz qalan və qətlə yetirilən rusları müdafiə etmək üçün gətirilib". Əslində isə bu, ağ yalan idi. Sovet rəhbərliyinin bu riyakar yalanı həqiqətə uyğun olsaydı belə, Bakıya belə bir ordu göndərməyə qətiyyən ehtiyac yox idi. Çünki onsuz da o vaxt Azərbaycanda daxili qoşunların minlərlə əsgəri, SSRİ Müdafiə Nazirliyinin tabeliyində olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri var idi. Hətta 4-cü ordunun komandanlığı da Bakıda yerləşirdi. Onun verdiyi fərman SSRİ Konstitusiyasının 119-cu və Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozmaqla bərabər, həm də xalqımıza qarşı bəşəri bir cinayət idi. Onlar qırğından 3 gün əvvəl Azərbaycan televiziyası mərkəzinin enerji blokunu partlatmış, respublika radiosunu susdurmuş, qəzet və jurnalların çapına embarqo qoymuş, ölkə ərazisindən kənara çıxışı dayandırmaq üçün dəmir yolunu və təyyarə limanını nəzarətə götürmüşdülər. Məqsəd dünya ölkələri ilə Azərbaycan arasındakı əlaqələri qırmaq, əhalini öz içinə qapanıb qalmaq məcburiyyətində qoymaq, öz suverenliyi naminə mübarizəyə qalxmış xalqın haqq səsini boğmaq idi. 70 illik əsarət boyunduruğundan xilas olub öz müstəqilliyinə qovuşmaq naminə ayağa qalxmış xalqın qarşısında aciz qalmış respublika rəhbərliyi paytaxtda baş verən hadisələrə nəzarət edə bilmədiyindən həm ittifaq mərkəzindəki, həm də respublika daxilindəki qaragüruhçu qüvvələr və yerli erməni şovinistləri öz çirkin niyyətlərini həyata keçirmək üçün bütün cinayətkar aksiyalardan məharətlə istifadə edirdilər. O vaxt digər respublikalar kimi, Azərbaycan da SSRİ-nin tərkibində idi və Moskva zəngin sərvətlər beşiyi olan belə bir məmləkətin əldən çıxmasına heç cür imkan verməzdi. Buna görə yanvarın 19-dan 20-nə keçən gecə əsas aparıcı qüvvələri "Alfa" və SSRİ DTK-sının "A" təxribat qrupları olan, əsgər və zabitlərinin əksəriyyəti spirtli içkilər qəbul etmiş krasnodarlı və stavropollu ermənilərdən ibarət vəhşiləri dinc əhaliyə divan tutdu. Onlar həmin gecə qan gölündə üzdürdülər paytaxtımızı. İmperiya tanklarının tırtılları altında nə qədər yurddaşımız qaldı. Güllələrdən deşik-deşik oldu nəhəng binaların beton sinələri. 70 illik imperiya zülmətindən sıyrılıb öz işıqlı gələcəyinə, müstəqilliyinə doğru addımlayan büllur mənəviyyatlı bir xalqın azadlıq arzularına güllələr atıldı. O faciəli gecədə imperiya gülləlləri son nöqtə qoydu 137 nəfər günahsız yurddaşımızın hələ doğulmamış sabahlarına. Xəstəxanalarda əzab burulğanına düşdü bədənləri düşmən güllələrindən deşik-deşik olmuş 700-dək qan qardaşımız. Həbs olunub qaranlıq zindan divarları arasına atıldı 800 nəfərdən çox vətəndaşımız. Həlak olanlar arasında yetkinlik yaşına çatmamış uşaqlar, əldən düşmüş qocalar, şikəstlər və qadınlar da var idi. Bu idimi Kreml rəhbərliyinin "millətçi ekstremist" adlandırdığı insanlar? 1937-ci ildə Azərbaycanın minlərlə ağıl korifeyini qarlı Sibir düzlərində dondurub buz heykəllərə döndərən, Nargin adalarında güllə yağmuruna tuş edən, yüz minlərlə yurddaşımızı öz doğma ata-baba torpaqlarından didərgin salıb Orta Asiyanın və Qazaxıstanın qızmar səhralarına sürgün edən, yaraları bugünədək qan verən Dağlıq Qarabağımızın və digər 7 rayonumuzun ermənilər tərəfindən işğalına imkan yaratmaqla 1 milyon 200 min azərbaycanlını uzun illərdən bəri vətəndə vətənsizlik əzabına düçar edən imperiyadan bundan artıq nə gözləmək olardı ki?

20 Yanvar gününün səhəri Bakı küçələrində 70 il başımız üstə dalğalanan qan rəngli SSRİ bayraqlarının ayaqlar altına atılması və yandırılması başlandı. Minlərlə azərbaycanlı Sov.İKP sıralarından

çıxdığını bəyan etdi. Partiya biletlərindən nəhəng tonqallar qalandı. Millətimizin qəzəb və nifrət atəşiydi həmin tonqalları alovlandıran. Bizi "ikinci növ xalq" adlandıranlar qarşısında öz məğrurluq və mərdanəliyimizi sübuta yetirdik.

İki gün sonra, yanvarın 22-də şəhidlərin dəfn mərasimi başlandı. Qədirbilən xalqımız Azadlıq meydanından Dağüstü parkadək növbə ilə çiyinlərində daşıyırdı azadlıq və müstəqilliyi yolunda həlak olmuş mərdanə övladlarımızın qırmızı örpəkli tabutlarını. Lakin təəssüflər olsun ki, həmin ümumxalq matəmində respublikamızı bu ağır faciələrə düçar etmiş nə iqtidar, nə də müxalifət liderlərindən bir nəfər belə gözə dəymədi. Əgər bu günahsız millətin qanının tökülməsində günahları yox idisə, niyə xalqın gözünə görünməkdən qorxurdu onlar? "Los-Anceles Tayms" qəzeti 1990-cı il 23 yanvar tarixli nömrəsində yazırdı: "Yanvarın 22-də keçirilən kütləvi dəfn mərasimi hər cür mitinqləri qadağan edən fövqəladə vəziyyətə açıqca meydan oxumaqdır. Şəhidlərin dəfn mərasimi "Moskva" mehmanxanasının yuxarı mərtəbələrində yerləşdirilmiş adamlar və snayperlər tərəfindən diqqətlə izlənir və nəzarət altında saxlanılırdı. Bütün sərt maneələrə və təhlükəli nəzarətə baxmayaraq, qeyrətli insanlar şəhidlərin xatirəsinə layiq dəfn mərasimi keçirilməsinə nail oldular".

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan SSR Ali Sovetinin yanvarın 20-də öz işinə başlayan fövqəladə sessiyasında və Azərbaycan KP MK-nın yanvarın 22-də keçirilən yığıncağında dünyanın ən böyük faciələrindən biri olan 20 Yanvar qırğınlarına birtərəfli qiymət verilməsi öz vəzifə kürsülərini xalqın taleyindən üstün tutanların xəyanətinə əyani sübut idi. 20 Yanvar qırğınlarına vaxtında və dolğun qiymət verilməməsi xalqı məyus etdi. Həmin vaxt xalqı vahid bir əqidə bayrağı altında birləşdirib düşmənə qarşı mübarizəyə səfərbər edəsi bir qüvvə olmadığından sonralar məmləkətimizin faciələr dastanına Xocalı soyqırımı, Şuşa, Laçın, Qubadlı, Kəlbəcər, Zəngilan, Ağdam, Cəbrayıl, Füzuli və Dağlıq Qarabağın işğalı kimi qanlı səhifələr də əlavə olundu. Ulu öndər Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin 1990-cı il 29 avqust sessiyasındakı çıxışında qətiyyətlə deyirdi: "Artıq dağıdılmış Sov.İKP-nin tərkib hissəsi olan Azərbaycan KP dərhal hakimiyyətdən getməlidir. Onun bütün strukturları ləğv olunmalı, əmlakı milliləşdirilməlidir. Onun mətbu orqanlarının fəaliyyəti dayandırılmalıdır. Azərbaycan KP MK-nın xunta ilə əməkdaşlıq edib-etməməsini aydınlaşdırmaq üçün parlament komissiyası yaradılmalıdır. Hərbi təcavüzün bütün günahkarları aydınlaşdırılıb məsuliyyətə cəlb olunmalıdır". Bu, 20 Yanvar faciəsinin törədicilərinə qarşı ən sərt ittiham idi.

Əgər o vaxt respublikanın ali vəzifə kürsülərində əyləşənlər öz yerlərini möhkəmləndirmək naminə müti qullar kimi mərkəzin əmr və göstərişlərini danışıqsız yerinə yetirmək əvəzinə iqtidarlı-müxalifətli vahid bir əqidə bayrağı altında birləşməklə Kremlin cinayətkar hərəkətlərinə qarşı haqq mücadiləsinə qalxıb bütün dünya boyu öz etiraz səslərini ucaltsaydılar, nə 20 Yanvar qırğınları baş verər, nə də bu qədər torpaqlarımız düşmən tapdağına məruz qalardı.

20 Yanvar qırğınlarına yalnız ümummilli lider Heydər Əliyev xalqın arzusu və təkidli tələbi ilə yenidən hakimiyyətə gəldikdən bir il sonra qətiyyətli və obyektiv qiymət verildi və bu dəhşətli faciənin əsl günahkarlarının adları açıqlandı.

Gündən-günə gözəlləşən, abadlaşan paytaxtımızın ən yüksək nöqtələrindən birində hər bir azərbaycanlı ücün müqəddəs and yerinə çevrilmiş bir məkan var. Bu, 20 Yanvar qurbanlarının və ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş igidlərimizin dəfn edildiyi müqəddəs Şəhidlər xiyabanıdır. Orada əbədiyyət yuxusuna getmiş övladlarımızın məzarları önündə səcdəyə durmaq, onların xatirəsini hörmət və ehtiramla yad etmək hər bir Azərbaycan vətəndaşının mənəvi borcudur. Çünki onlar vətənin və xalqın 70 illik imperiya köləliyindən xilası, bugünkü azadlığımız və müstəqilliyimiz naminə həlak olublar. Bu cür müqəddəs amallar uğrunda həlak olanların isə ömrü vətənin və xalqın ömrü qədərdir.

**“Azərbaycan”.-**2014.-16 yanvar.-N 8.-S.5.

## 20 Yanvar – öz azadlığı uğrunda canından keçməyə hazır olan xalqın sınaq gecəsi

*Telman ƏLİYEV*

***1980-ci illərin axırlarında Azərbaycanda ictimai-siyasi vəziyyət kəskinləşmişdi. Keçmiş Sovet İttifaqında gedən proseslər, ölkə rəhbərliyinin uğursuz "yenidənqurma" siyasəti, iqtisadi islahatların düzgün aparılmaması, milli siyasət sahəsində buraxılan kobud səhvlər Azərbaycanda milli-azadlıq hərəkatının geniş vüsət almasına səbəb olmuşdu. Respublikamızda ictimai-siyasi vəziyyətin kəskinləşməsinin əsas səbəblərindən biri də Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etməsi, qondarma "Dağlıq Qarabağ problemi"nin ortaya atılması idi.***

SSRİ rəhbərliyindəki havadarlarına arxalanan ermənilərin Azərbaycanın ərazilərinə iddiaları və dinc əhaliyə qarşı törətdikləri cinayətlər xalq kütlələrinin hiddətinə səbəb olmuşdu. 1988-ci ilin noyabr-dekabr aylarında keçirilən ümumxalq mitinqləri, 1989-cu il dekabrın 31-də Naxçıvanda Azərbaycan-İran sərhədinin sökülməsi SSRİ rəhbərliyini qorxuya salmaya bilməzdi. Ona görə də SSRİ Dövlət Təhlükəsizlik Komitəsi (DTK) Azərbaycanda xalq hərəkatının yatırılmasına əlverişli zəmin yaratmaq üçün Bakıda, Lənkəranda, Cəlilabadda, Neftçalada və digər bölgələrdə təxribatlar törədərək ermənilərin və rusların talanını təşkil etdi. Kütləvi iğtişaşların qarşısını almaq bəhanəsi ilə SSRİ rəhbərliyi 1990-cı ilin yanvar ayında Bakıya qoşun hissələri yeritməyə başladı.

1990-cı il yanvarın 18-də televiziya ilə çıxış edən SSRİ və Azərbaycan rəhbərliyinin nümayəndələri respublika əhalisinə söz verdilər ki, Bakıda fövqəladə vəziyyət tətbiq olunmayacaq və belə tədbir nəzərdə tutulmayıb. Ancaq bu vaxt DTK diviziyasının və desant hissələrinin Bakıya atılması başa çatmaqda idi.

Yanvarın 19-da axşam Azərbaycan televiziyasının enerji bloku partladıldı. Sonralar 20 Yanvar hadisələrini araşdıran dövlət komissiyası tərəfindən sübut edilmişdir ki, həmin partlayış DTK tərəfindən planlaşdırılıb və həyata keçirilib.

Yanvarın 19-dan 20-nə keçən gecə heç bir xəbərdarlıq edilmədən şəhərə daxil olan sovet qoşun hissələri küçələrə çıxıb öz etirazlarını bildirən dinc əhalini pulemyotlardan və avtomatlardan atəşə tutdu. Həmin gecə Bakının müxtəlif rayonlarında sovet əsgərləri tərəfindən 121 insan qətlə yetirildi, 700-dən artıq vətəndaş yaralandı və xəsarət aldı. Sonrakı günlər də daxil olmaqla 132 nəfər həlak olmuşdur ki, onlardan da 123-ü kişi, 5-i qadın, 4-ü uşaq idi.

20 Yanvar faciəsində azərbaycanlılarla yanaşı, Bakıda yaşayan 6 rus, 3 tatar və 3 yəhudi də həlak olmuşdu. Həlak olanların arasında 4 milis işçisi, 1 həkim, 1 aspirant, 3 elmlər doktoru olub. Qeydə alınan 700-dən çox yaralının 25-i qadın, 20-si uşaq idi.

Bakı şəhərinə 20 Yanvar tarixindən fövqəladə vəziyyət tətbiq olunması barədə SSRİ Ali Sovetinin 19 yanvar tarixli fərmanı isə yalnız bir gün sonra zirehli maşınlarda quraşdırılmış səsgücləndiricilərlə xalqa elan edildi. Elə həmin gün ərzində, yəni 20 yanvarda 5 nəfər dinc sakin imperiya ordusu tərəfindən güllələndi.

Yanvarın 21-də isə o zaman Moskvada yaşayan ümummilli liderimiz Heydər Əliyev heç nədən çəkinmədən, həyatını təhlükə qarşısında qoyaraq ailəsi ilə birlikdə Azərbaycanın paytaxdakı daimi nümayəndəliyinə gəldi. Ulu öndər baş vermiş faciə ilə əlaqədar xalqımıza başsağlığı verdi və mətbuat konfransı keçirib, başda Qorbaçov olmaqla Bakıdakı terror aktına rəvac verən hakimiyyət nümayəndələrini və hərbçiləri cinayətkar, onların dinc əhaliyə tutduqları divanı isə bütöv bir xalqa qarşı edilən tarixi cinayət adlandırdı. Həmin tarixi cinayətin ört-basdır edildiyini görən Heydər Əliyev insanlığa qarşı bu vəhşiliyə etiraz əlaməti olaraq, sonradan Kommunist Partiyası sıralarından çıxdığını bəyan etdi.

Sabiq SSRİ prezidenti M.Qorbaçov 1995-ci ilin aprel ayında Türkiyədə səfərdə olarkən 1990-cı il yanvar qırğınından bəhs edib, "Bakıda fövqəladə vəziyyət elan etmək və oraya qoşun göndərmək mənim siyasi həyatımda ən böyük səhvim idi",- deyərək öz günahını etiraf etmişdir.

Azərbaycan xalqı öz qəhrəman övladlarının fədakarlığını yüksək qiymətləndirərək hər il 20 Yanvarda onların əziz xatirəsini dərin ehtiramla yad edir.

20 Yanvar hadisələri xalqımızın milli mənliyinə, milli azadlıq ruhuna qarşı təcavüz idi. Lakin Azərbaycan xalqı öz qürurunu itirmədi, onun iradəsi qırılmadı. Xalqımızın qan yaddaşına silinməz faciə kimi yazılmış 20 Yanvar eyni zamanda Azərbaycan tarixində bir qəhrəmanlıq səhifəsidir. Biz 20 Yanvarı milli matəm, hüzn günü kimi qeyd edirik, ancaq o müdhiş gecəni həm də iftixar hissi ilə xatırlayırıq, 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycana qarşı törədilmiş cinayət, tökülmüş nahaq qanlar, insanların vəhşicəsinə qətlə yetirilməsi xalqımızın müstəqillik uğrunda mübarizə əzmini qıra bilmədi. SSRİ rəhbərliyinin

törətdiyi bu qanlı cinayət xalqı daha da birləşdirdi, onun mübarizliyini daha da artırdı. Həmin gecə Azərbaycan xalqı özünün yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini, azadlıq uğrunda mübarizə əzmini bütün dünyaya bəyan etdi. Məhz bu əzmin, iradənin sayəsində xalqımız müqəddəs arzusuna çatdı, milli azadlığına qovuşdu. Azərbaycan müstəqil dövlət kimi dünya birliyinə daxil oldu.

Ümummilli liderimiz Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra 1990-cı ilin bu hadisələrin səbəbləri və nəticələri daha dəqiq araşdırıldı və müstəqil Azərbaycan Respublikası 1994-cü ildə 20 Yanvar faciəsinin hərbi təcavüz və cinayət kimi siyasi-hüquqi qiymətini verdi. Həmin hadisələrin təşkilatçıları olan Mixail Qorbaçov, Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibovun və başqalarının cəzalandırılması tələb olundu.

Sonrakı illərdə qəbul olunmuş rəsmi sənədlərdə də 20 Yanvar gününün Azərbaycan tarixində ölkəmizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda qəhrəmanlıq rəmzi kimi müstəsna əhəmiyyəti yüksək qiymətləndirilmişdir.

20 Yanvar faciəsində şəhid olanların xatirəsini bu gün hörmətlə yad edərkən fəxrlə deyə bilərik ki, onların uğrunda canlarını qurban verdikləri müstəqilliyin əldə olunmasından artıq 23 il keçmişdir. Müstəqil Azərbaycan Respublikası bütün dünyaya sübut etmişdir ki, müstəqilliyimiz əbədidir, dönməzdir.

Ancaq müstəqilliyimizin ilk illərində, 1991-1993-cü illərdə Ermənistanın Azərbaycana ədalətsiz ərazi iddiası və təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal olundu və bu günə qədər respublikamızın ərazi bütövlüyü bərpa olunmamışdır. Ona görə də 20 Yanvar faciəsinin 24-cü ildönümü ərəfəsində hər bir Azərbaycan vətəndaşı, Milli Ordumuzun hər bir əsgəri, giziri və zabiti bir daha dərk etməlidir ki, şəhidlərimizin qanı bahasına müstəqil olmuş Azərbaycanın ərazi bütövlüyünü bərpa etməliyik.

Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızın azad olunması sahəsində görülən işlərlə bağlı Azərbaycan dövlətinin rəsmi mövqeyini bəyan edərək demişdir: “Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir”.

Keçmiş sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi vəhşi terror aktı insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi bəşər tarixində qara səhifə olaraq qalacaqdır. Milli azadlığı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi.

Sovet ordusunun böyük kontingentinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi. Kommunist diktaturası Çexoslovakiyaya, Macarıstana, Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni o zamankı Sovet İttifaqının müttəfiq respublikalarından biri olan Azərbaycanda da təkrarlamaqdan çəkinmədi. Həmin vaxt Azərbaycan qonşu Ermənistanın da təcavüzünə məruz qalmışdı. Belə bir şəraitdə sovet rəhbərliyi nəinki münaqişənin qarşısını almaq üçün qəti tədbirlər görməmiş, əksinə, Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni əsgər və zabitləri, sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantlar da daxil etmişdi.

Bakıya yeridilmiş qoşun kontingentinə, - bəzi məlumatlara görə, onun sayı 60 min nəfərə çatırdı, - “doyüş tapşırığını” yerinə yetirmək üçün möhkəm psixoloji hazırlıq keçirilmişdi. “Şit” təşkilatı müstəqil hərbi ekspertlərinin hesabatında oxuyuruq: Sizi Bakıya rusları müdafiə etmək üçün gətirmişlər, yerli əhali onları vəhşiçəsinə məhv edir; ekstremistlər Salyan kazarmalarının (Bakıda əsas hərbi qarnizonun yerləşdiyi ərazi) ətrafındakı evlərin damlarında snayperlər yerləşdirmişlər, təkcə bu ərazidə 110 atəş nöqtəsi var; binalar, mənzillər Azərbaycan Xalq Cəbhəsinin yaraqlıları ilə doludur, onlar sizi güclü avtomat-pulemyot atəşinə tutacaqlar".

Mixail Qorbaçov başda olmaqla sovet imperiyasının rəhbərliyi Bakıda “rus və erməni kartından” məharətlə istifadə etdi. Guya Bakıya qoşun onları, hərbi qulluqçuların ailələrini qorumaq, “millətçi ekstremistlər” tərəfindən hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə bu açıq riyakarlıq, ağ yalan idi. Çünki sovet rəhbərliyinin “dəlilləri” hətta həqiqətə yaxın olsaydı belə, Bakıya təpədən-dırnağadək silahlandırılmış qoşun göndərməyə ehtiyac yox idi. Ona görə ki, həmin vaxt burada daxili qoşunların 11,5 min əsgəri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri var idi. 4-cü ordunun komandanlığı da Bakıda yerləşirdi.

“Şit” təşkilatı ekspertlərinin hesabatından:

- Adamları xüsusi qəddarlıqla və yaxın məsafədən güllələmişlər. Məsələn, Y.Meyeroviçə 21, D.Xanməmmədova 10-dan çox, R.Rüstəmova 23 güllə vurulmuşdu;

- xəstəxanalar, "təcili yardım" maşınları atəşə tutulmuş, həkimlər öldürülmüşdür;

- adamlar süngü-bıçaqla qətlə yetirilmişdir. Onların arasında hər iki gözü tutulmuş B.Yefimtsev də var;

- "Kalaşnikov" avtomatlarında ağırlıq mərkəzi dəyişən 5,45 çaplı güllələrdən istifadə edilmişdir.

Həlak olanlar arasında yetkinlik yaşına çatmayanlar, qadınlar, qocalar, şikəstlər də var idi. Qorbaçovun və ətrafındakıların "millətçi ekstremistlər" adlandırdıqları bunlar idimi?

Yanvarın 20-də artıq bütün dünya Bakıda törədilmiş dəhşətli qırğından xəbər tutdu. Amma görün, o vaxtkı sovet imperiyasının ideoloji ruporu olan "Pravda" qəzeti 22 yanvar tarixli nömrəsində nə yazırdı:

"Fövqəladə vəziyyət elan edilməsi üçün görülmüş tədbirlər nəticəsində guya qadınlar və uşaqların tələf olması barədə bəyanatlar aşkar fitnəkar xarakter daşıyır. Bir daha təkrar etmək lazımdır ki, bu, qərəzli yalandır! Ondan məqsəd əhalini sovet ordusuna və hüquq-mühafizə orqanlarına qarşı qaldırmaqdır..."

20 Yanvar və Azərbaycan tarixində ondan əvvəlki faciəli hadisələr XX əsr boyu xalqımıza qarşı yeridilən düşünülmüş siyasətin növbəti təzahürü idi. Azərbaycan xalqına qarşı soyqırımı, sovet hakimiyyəti illərində Azərbaycan ərazilərinin tədricən ilhaq olunması, nəticədə ölkənin ərazisinin 125 min kvadratkilometrdən 86,6 min kvadratkilometrədək azalması, sovet rəhbərliyinin havadarlığı ilə başlayan Dağlıq Qarabağ hadisələri, azərbaycanlıların Ermənistan ərazisindəki əzəli torpaqlarından qovulması bu siyasətin mərhələləridir.

1990-cı ilin Yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan vətəndaşlarımızın Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar.

Bakının ən yüksək nöqtələrindən birində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş bir yer var. Bu, 20 Yanvar qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər Xiyabanıdır. Hər il yanvarın 20-də minlərlə insan Vətənin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş Azərbaycan oğul və qızlarının əziz xatirəsini ehtiramla yad etmək üçün buranı ziyarət edir. Nəsillər dəyişəcək, lakin Vətən oğullarının xatirəsi ürəklərdə əbədi yaşayacaqdır.

**"Xalq qəzeti".-**2014.-15 yanvar.-N 7.-S.4.

# Qanlı şənbə gecəsi rənglərin dilində

***Məhəmməd NƏRİMANOĞLU***

*Hər bir tarixi hadisə ictimai mahiyyətindən asılı olaraq xalqın yaddaşına yazılmaqla yanaşı, həm də bədii sənət əsərlərinin mövzusuna çevrilir. Bütün dövrlərdə istər münaqişələri, istər müharibələri, istərsə də digər fəlakətləri xalq necə yaşayıbsa, onun yetirdiyi yaradıcı övladları həmin hadisəni bədii ifadə vasitələri ilə yaddaşlara yazıblar.*

20 Yanvar 1990-cı il tarixi də yaddaşlara məhz qanla yazıldı. Azadlığın zorla, qan bahasına alındığını da bura əlavə etsək, deyə bilərik ki, 20 Yanvar xalqımızın yaşadığı müsibətlər və facilərdən biri olsa da, əslində, qürur və iftixar mənbəyi, milli oyanış, birlik, həmrəylik günüdür!

Ulu öndər Heydər Əliyev demişdir: "20 Yanvar hadisələrini bir faciə kimi təsvir etmək azdır. 20 Yanvar Azərbaycan xalqının milli azadlıq uğrunda mənliyini müdafiə etmək yolunda göstərdiyi qəhrəmanlıq nümunəsidir. Ona görə də qəhrəman Azərbaycan balalarının tankın altında əzilməsi faktını göstərməklə kifayətlənməyib, onların qəhrəmanlığını, cəsurluğunu, ölümün gözünə dik baxaraq təcavüzkarın qarşısına çıxmalarını da təsvir etmək lazımdır. Bəlkə də bu, daha çox lazımdır. Təəssüf ki, buradakı əsərlərin arasında mən belələrini görmədim. Ola bilər, bu ondan irəli gəlir ki, biz Yanvar hadisələri baş verəndən indiyədək bununla əlaqədar ancaq ağlayırıq. Şübhəsiz ki, kədərimiz, qəm-qüssəmiz böyükdür. Ancaq kədərlənməklə yanaşı, xalqımız göstərdi ki, Azərbaycanın qəhrəman oğulları o böyüklükdə sovet ittifaqının ordusu qarşısında dayanmağa qadirdirlər".

20 Yanvardan ötən zaman məsafəsindən baxanda o günlərin müdhişliyi, vahiməliyi ilə yanaşı, gəncliyin yenilməzliyini, xalqımızın azadlıq səsinin heç bir imperiya cəlladları tərəfindən susdurula bilmədiyini görürsən. Təbii ki, hər bir xalq azadlığı və müstəqilliyi uğrunda apardığı mübarizə meydanlarında mətinlik, əyilməzlik dərsi keçir. Qanları ilə torpağa "Azadlıq" yazan şəhidlərimiz imperiyanın vandalizm, işğalçı, terrorçu, bir sözlə, antiinsan, antihumanist siyasəti qarşısına əliyalın çıxmaqla xalqımızın mübarizliyini, əzmkarlığını təsdiqlədilər. Şəhidlər xiyabanının hər vaxt ziyarət yerinə çevrilməsi də bundan irəli gəlir.

Ulu öndər Heydər Əliyevin 1995-ci il yanvarın 18-də R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində keçirilən "Qanlı Yanvar" rəssamlıq sərgisindəki çıxışından sonra bədii əsərlərdə şəhidlərin ölməzliyini və müqəddəsliyini təsdiq edən obrazlar yaradılmağa başlandı. Təkcə poeziyada, nəsr və ya səhnə əsərlərində deyil, incəsənətin ayrı-ayrı janrlarında 20 Yanvar aparıcı mövzuya çevrildi. Rəssamlıq sahəsində bu şərəfli tariximiz bəlkə də daha canlı, qanlı və obrazlı təsvir edildi.

Təsviri sənətin görkəmli nümayəndəsi, xalq rəssamı Mikayıl Abdullayev rənglərin harmoniyasından yaratdığı "Nakamların dəfni" əsəri ilə bir daha 20 Yanvar faciəsinin unudulmayacağını göstərdi. Hər il bir qayda olaraq istər beynəlxalq səviyyədə, istərsə də respublika miqyasında 20 Yanvarla bağlı bədii sənət əsərlərinin sərgisi keçirilir və demək olar ki, bu, silsilə xarakteri daşıyır. Rəssamlar İttifaqının sədri, xalq rəssamı Fərhad Xəlilov belə əsərlərin vacibliyinə toxunaraq bildirdi: "Xalq yaxşı günləri yaşadıqca faciələrinin də unudulmaması naminə onları gələcək nəsillərə çatdırmalıdır. Tarixin belə qanlı səhifələrinin yaddan çıxmaması üçün ən yaxşı vasitələrdən biri də bu əsərlərdir. Belə əsərlər nə qədər çox olarsa, həmin tarixi dünya xalqlarının diqqətinə çatdırmaq bir o qədər mümkünləşər və asanlaşar".

20 Yanvar təkcə Azərbaycan xalqının deyil, bəşər tarixinin ən qanlı səhifələrindən biri, insanlığa qarşı təcavüzdür. 19 yanvar - şənbə gecəsi qanla başlasa da, azadlığın şəfəq kimi saçıldığı günə çevrildi. İmperiya cəlladlarının vəhşi simaları xalqımızın məğrurluğu altında əriyib yoxa çıxdı. Oğul və qızlarımız tankların, ağır texnikanın altında can versələr də qəhrəmanlıq obrazı yaratdılar. Bu qanlı hadisə Azərbaycan xalqının iradəsini, yenilməzliyini dünyaya nümayiş etdirdi. Tariximizin 20 Yanvar səhifəsi incəsənət əsərlərində əksini tapdıqca yaddaşlarda daha dərin izlər buraxdı, heykəlləşdi. Qürur mənbəyimiz, fəxr yerimiz olan Şəhidlər xiyabanı Vətənə, torpağa, anaya, könül sevdasına məhəbbətin ünvanına çevrildi.

Görkəmli fırça ustalarından Rasim Babayevin "Təcavüz", Kirman Abdinin plakat janrında işlədiyi və xüsusilə seçilən bir sıra silsilə əsərlərində, rəngkar Hacırza Fərzəliyevin "Ağlı-qaralı dünya", Fikrət İbrahimovun "Gələcək naminə", Həmzə Abdullayevin "Çərxi-fələk", İsmayıl İsmayılovun "Haqq tərəzisi", "Qafar Seyfullayevin "Öncə Vətəndir...", Asim Səmədovun "Ruhlar" və s. tablolarda qanlı şənbə gecəsinin ağrı-acılı yaşantıları yaddaqalan öz bədii ifadəsini tapıb desək, daha doğru olardı.

Qrafika ustası Arif Hüseynovun "Qara tağlı natürmort", Fəxrəddin Əliyevin "Qara Yanvar" və Arif Ələsgərovun "20 Yanvar" əsərləri də xalqımızın imperiya təcavüzünə məruz qaldığı gecəyə həsr olunmuş bədii

sənət nümunələri olmaqla yanaşı daim ayıq-sayıq olmağa səsləyirlər. Xalq rəssamı Ağəli İbrahimovun fikrincə, 20 Yanvar faciəsi təsviri sənətin əbədi mövzularından biridir: "Bu tarix yaddaşlardan silinməyəcək və indiyədək olduğu kimi, bundan sonra da 20 Yanvar Azərbaycan rəssamlarının vətəndaşlıq mövqeyindən daima müraciət etdiyi mövzu kimi qalacaq. Xalq rəssamları mərhum Mikayıl Abdullayev, Kamil Nəcəfzadə, Xanlar Əhmədov və başqaları da bu mövzuda yaddaqalan sənət əsərləri yaradıblar. Düşünürəm ki, nəinki bütün rəssamlarımız, heykəltəraşlarımız və incəsənətin digər növləri ilə məşğul olan bütün yaradıcı insanlar hər zaman bu mövzuya müraciət edəcəklər".

Azərbaycan Milli Konservatoriyasının nəzdində fəaliyyət göstərən respublika İncəsənət Gimnaziyasının müəllimi, rəssam İlqar Əkbərov həmkarlarından fərqli olaraq, o zamanlar faciəyə ilk münasibət bildirib. O, bu mövzuya həsr etdiyi əsəri hadisələrin qaynar vaxtı, Bakı qan içində boğulanda, 1990-cı ildə yaradıb. "Şəhidlər" adlanan həmin əsər R.Mustafayev adına Dövlət İncəsənət Muzeyində nümayiş etdirilir. Onun fikrincə, rəssamlıqla məşğul olan yeniyetmələrə bu mövzunun mahiyyəti izah edilməlidir ki, sonralar onların düşüncələri və təxəyyülləri əsərə çevriləndə obrazlar dolğun yaradılsın. Bu təbliğin nəticəsidir ki, rəssamlığa həvəsi olan uşaqlar da adıçəkilən mövzuya daha çox maraq göstərirlər.

Respublikanın müxtəlif bölgələrində 20 Yanvar faciəsinin qurbanlarına həsr olunmuş sənət əsərləri, o cümlədən heykəltəraşlıq nümunələri olan xatirə kompleksləri ucaldılıb. Paytaxt Bakının Yasamal rayonu ərazisindəki "20 Yanvar" dairəsində Qanlı Yanvar şəhidlərinin xatirəsinə ucaldılan memorial abidə (memarı Ədalət Məmmədov, heykəltəraşları Cavanşir Dadaşov və Azad Əliyevdir) kompleksləri və s. buna parlaq misal ola bilər. Kompleksin üzərində 20 Yanvar faciəsi zamanı şəhid olmuş 147 mücahidin adı və soyadı, habelə ümummilli lider Heydər Əliyevin qanlı Yanvarla bağlı söylədiyi "1990-cı il yanvarın 20-si Azərbaycan tarixinə ən faciəli günlərindən biri, eyni zamanda xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olmuşdur" fikri qızıl hərflərlə həkk edilib.

20 Yanvar faciəsi, təbii ki, yalnız tanınmış xalq sənətkarlarının əsərlərində deyil, onların yetirmələrinin yaradıcılıq nümunələrində də öz əksini tapır. Bakı şəhəri 2 saylı Uşaq İncəsənət Məktəbinin ibtidai sinif şagirdlərindən Lalə Babayevanın "20 Yanvar", Fatimə Əbilovanın "Dünya göz yumur", Sevinc Məmmədovanın "Ana fəryadı", Elvin Şahməmmədovun "Sovet ordusunun Bakıya basqını", Ülkər Əmirovanın "Erməni qəddarlığı", Ülkər Əliyevanın "Erməni vəhşiliyi" adı ilə təqdim olunan rəsm əsərləri bir daha bu mövzunun onlar üçün müqəddəs olduğunu təsdiqləyir.

Tarix bütün hadisələri özündə yaşadır. Bu mövzuya həsr olunmuş təsviri sənət əsərlərində, heykəltəraşlıq və memarlıq nümunələrində həm tarix yaşadılır, həm də xalqımızın qəhrəmanlığı təbliğ olunur.

**“Azərbaycan”.-**2014.-15 yanvar.-N 07.-S.4.

## Milli Qürur mənbəyi

***Valeh RƏHİMLİ***

*20 Yanvar hadisələrindən 24 il keçir. Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş həmin gün keçmiş sovet dövlətinin xalqımıza qarşı həyata keçirdiyi vəhşi terror aktı, insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi yazıldı. Azadlığı uğrunda mübarizəyə qalxmış dinc əhaliyə divan tutulması, günahsız insanların qətlə yetirilməsi totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar əməllərini dünyaya bir daha nümayiş etdirdi.*

Bakıya yeridilən sovet ordusunun xüsusi təyinatlı bölmələrin və daxili qoşunların əsgərləri görünməmiş qəddarlıq və vəhşiliklər törədirdilər. Çexoslovakiyaya, Macarıstana, Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni o zamankı sovet ittifaqının müttəfiq respublikalarından biri olan Azərbaycanda da təkrarlamaqdan çəkinməyən kommunust diktaturası sankı süqutunun heyifini alırdı.

Həmin vaxt Azərbaycan qonşu Ermənistanın da təcavüzünə məruz qalmışdı. Sovet rəhbərliyi nəinki münaqişənin qarşısını almaq üçün qəti tədbirlər görmüş, əksinə, Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Krasnodardan, Stavropoldan və Rostovdan səfərbərliyə alınan erməni əsgər və zabitləri, hətta erməni kursantları da daxil etmişdi. Bakıya yeridilmiş qoşuna xüsusi döyüş tapşırığı verilmiş və əməliyyatı yerinə yetirmək üçün möhkəm psixoloji hazırlıq keçmişdilər.

Guya qoşun Bakıya hərbi qulluqçuların ailələrini qorumaq, "millətçi ekstremistlər" tərəfindən hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində bu riyakarlıq idi. Çünki sovet rəhbərliyinin dedikləri həqiqət olsaydı belə, Bakıya təpədən-dırnağadək silahlandırılmış qoşun göndərməyə ehtiyac yox idi. Ona görə ki, həmin vaxt Bakıda daxili qoşunların 11,5 min əsgəri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri var idi. Hətta 4-cü ordunun komandanlığı da Bakıda yerləşirdi.

1990-cı il yanvarın 19-da Mixail Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. Lakin SSRİ DTK-nın "Alfa" qrupu yanvarın 19-da saat 19.27-də Azərbaycan televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və əhaliyə divan tutmağa başladı. Fərmanı qüvvəyə minənədək - yanvarın 20-də saat 00-dək artıq 9 nəfər öldürülmüşdü. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat əhaliyə yalnız yanvarın 20-də, səhər saat 7-də çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100 nəfərə çatmışdı.

Bakı küçələrində hərəkət edən tanklar və BTR-lər qarşısına çıxan hər şeyi əzir, dağıdır, hərbçilər şəhəri güllə yağışına tuturdular. İnsanlar nəinki küçələrdə, hətta avtobusda gedərkən, öz mənzillərində oturduqları yerdə güllələrə tuş gəlirdilər. Yaralıları aparmağa gələn "təcili yardım" maşınlarını və tibb işçilərini də atəşə tuturdular. Bir neçə gün ərzində 140-dək insan öldürüldü, 700 nəfərədək yaralandı, 800-dən çox adam qanunsuz həbs edildi.

20 Yanvar şəhidləri Dağüstü Parkda dəfn olundu. Tarıxə nəzər salanda görürük ki, 20 Yanvar faciəsindən neçə illər öncə də bura qəbiristanlıq olub. Vaxtilə Çəmbərəkənd qəbiristanlığı kimi tanınan bu yer sovetlər dönəmində yox edilərək yerində Dağüstü Park salınmışdı. Parkın ən görkəmli yerində isə bolşevik liderlərindən sayılan, əli yüzlərlə insanın qanına batmış S.M.Kirovun heykəli ucaldılmışdı. Həmin şəhidlərin narahat ruhu onların məzarları üzərində ucaldılmış bir cəlladın heykəlindən xilas edildi. 1990-cı ilin 20 Yanvar faciəsi şəhidlərinin bu yerdə dəfn olunmasi ilə bu müqəddəs yerin əzəli statusu özünə qaytarıldı.

Şəhidlər Xiyabanına girərkən bizi ilk qarşılayan 20 Yanvar şəhidləri İlham və Fərizənin qəbridir. Onlar Azərbaycanın milli mücadilə rəmzi, sevgi, sədaqət rəmzidir bizim üçün. 20 Yanvar gecəsi İlham rus işğalçıları tərəfindən qətlə yetirilərək şəhid oldu. Bu xəbəri eşidən sevgilisi Fərizə isə "İlhamsız yaşamaqdansa ölmək yaxşıdır" deyib intihar etdi. İyirminci əsrin yeni məhəbbət dastanı yarandı - İlham və Fərizə dastanı. Leyli və Məcnun, Fərhad və Şirin kimi məhəbbət dastanlarının sırasına bir dastan da əlavə edildi. Ancaq digər məhəbbət dastanlarından fərqli olaraq bu dastanın qəhrəmanlarını çoxlarımız tanıyırdıq. 2003-cü ildən başlayaraq İlhamla Fərizənin toy günü - 30 iyun isə Azərbaycanda "Sevgililər Günü" kimi qeyd edilməyə başladı.

Azərbaycanın müstəqilliyi uğrunda bızə bəxş olunan bugünkü firavan və gözəl həyat namınə canlarından keçən insanları nədən məhz doğum günlərində və ya ölüm günlərində xatırlayırıq?! Axı, daim

qəlbimizdə yaşamağa haqqı olan bu qəhrəmanları vaxtaşırı xatırlamaq, yada salmaq bizim hər birimizin mənəvi borcudur. İnanın ki, bu həm də gənc nəslin vətənpərvər ruhda böyüməsinə müsbət təsirini göstərər. Televiziya kanallarında gərəksiz və əxlaqa zidd olan verilişlərdən, söhbətlərdən, sou proqramlardansa gözünü qırpmadan vətən, bu xalq üçün canından keçən insanlarla bağlı verilişlər hazırlamaq, onları xatırlamaq, yada salmaq daha məqsədəuyğun və faydalıdır. Bu həm də onların ruhları qarşısında yerinə yetirməli olduğumuz mənəvi borcdur.

Şəhid ailələri həmişə ölkə rəhbərinin diqqətində olub. Ulu öndər hər zaman şəhid ailələrini dövlət qayğısı ilə əhatə edirdi. 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı dövlət başçısının diqqətində olub. 1993-ci ildən üzü bəri 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər görülüb və bu gün də görülməkdədir. Azərbaycan Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə 20 Yanvar təcavüzü zamanı yüksək vətəndaşlıq nümunəsi göstərərək həlak olmuş Azərbaycan Respublikası vətəndaşlarına "20 Yanvar şəhidi" fəxri adı verilib, "1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə dövlət qayğısının artırılması haqqında" 2003-cü il 15 yanvar tarixli sərəncama əsasən əlil olmuş şəxslərə verilən aylıq müavinət artırıldı və bu iş davamlı olaraq həyata keçirilir.

Prezident İlham Əliyev də müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinin dövlət səviyyəsində həllini mühüm vəzifələrdən biri kimi qarşıya qoyub. Ölkəmizdə bu istiqamətdə böyük işlər həyata keçirilir. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir.

2006-cı il yanvarın 19-da dövlət başçısının " 20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Fərmanı ilə 20 Yanvar şəhidlərinin ailələri üçün Prezident təqaüdü təsis edildi. Bütün bunlar ölkə rəhbərinin 20 Yanvar şəhidlərinə, bütövlükdə Azərbaycanın müstəqilliyi, azadlığı uğrunda canından keçmiş şəhidlərimizə, onların ailələrinə gösrərilən qayğı və diqqətin təzahürüdür. Bizim də üzərimizə düşən vəzifə hər zaman onları xatırlamaq və qəlbimizdə yaşatmaqdır.

**“Azərbaycan”.-**2014.-15 yanvar.-N 07.-S.4.

# 20 Yanvar hadisələri tariximizin həm faciə, həm də qəhrəmanlıq səhifəsidir

*Səmayə XUDAŞİRİN,*
***"Qızıl qələm" mükafatı laureatı***

***Zaman keçdikcə, illər bizi 20 Yanvar, Xocalı və Qarakənd faciələrindən uzaqlaşdırdıqca biz həmin tarixi faktlar barədə daha tez-tez danışmalıyıq. Hər birimiz o səhifələrin hamısının təkcə ölkə çərçivəsində deyil, hətta bütün dünyada dövri olaraq gündəliyə gətirilməsinə çalışmalıyıq. Çünki müasir tariximizin həmin qanlı səhifələri heç zaman unudulmamalıdır.***

Gənc nəslin yaddaşına o səhifələri biz müəllimlər, valideynlər, alimlər, yaradıcı təşkilatlar, xüsusən, kütləvi informasiya vasitələri həkk etməlidirlər. Özü də təkcə faciə və ya qara gün kimi deyil, həm də milli azadlıq hərəkatımızın şanlı səhifələrindən biri, dünya xəritəsində öz müstəqil dövlətini görmək istəyən xalqın fədakarlıq, qəhrəmanlıq günü kimi. Məncə bunu etmək o qədər də çətin deyil. Çünki bizim önümüzdə böyük dövlət və siyasət xadimi, ulu öndər Heydər Əliyevin tarixi hadisələrə yanaşma nümunəsi vardır. Həmin nümunə adıçəkilən faciələrin gənc nəslin yaddaşına yazılması prosesində hər birimizə dərs ola bilər.

Öncə qeyd edim ki, bu sətirlərlə adıçəkilən facilərimizin yaddan çıxdığını və ya unudulduğunu dilə gətirmək fikrimiz yoxdur. Əsla! Əksinə, qeyd etməyi vacib sayıram ki, həm Azərbaycan dövləti, həm ayrı-ayrı dövlət qurumlarımız, həm də Heydər Əliyev Fondu, xüsusən, fondun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsünə qoşulan diplomatik missiyalarımız son bir neçə ildə bu istiqamətdə kifayət qədər iş görüblər. Ancaq o işləri bizim hamımız görməliyik. Xüsusən, gənc nəslin təlim və tərbiyə aldığı müəssisələrdə, kontingenti gənclərdən ibarət olan istənilən auditoriyada bu məsələlərdən təkcə faciələrin ildönümü yaxınlaşanda deyil, dövri olaraq danışmalıyıq.

Biz bu gün hər addımı gülüstana çevrilən Azərbaycan haqında danışarkən bu günlərimiz üçün öz canlarını əsirgəməyən 20 Yanvar şəhidlərinin cəsarətini, qanlı faciənin ertəsi günü Moskvada - faciənin baiskarı Qorbaçovun gözünün qabağında Kremlin ayrı-seçkilik siyasətini lənətləyən bəyanatla çıxış etmiş böyük liderimizin qətiyyətini yada salmalıyıq. Biz Azərbaycan Respublikasının son iki ildə BMT Təhlükəsizlik Şurası kimi mötəbər beynəlxalq təşkilata sədrlik etdiyini fəxrlə qeyd etdiyimiz zaman xatırlatmalıyıq ki, 1990-cı ilin yanvarında böyük əksəriyyəti uşaqlardan, qadınlardan və qocalardan ibarət olan günahsız insanlarımızın qanı tökülərkən BMT-də oturan insanların heç biri bizim fəryadımızı eşitmirdi.

20 Yanvar faciəsi barədə danışarkən xüsusilə qeyd etməli olduğumuz məqamlardan biri də odur ki, həmin qanlı hadisə Azərbaycan xalqının milli azadlıq hərəkatının qarşısını almaq üçün törədilmişdi. Qurulmuş plana görə həmin hərəkatın qarşısı mütləq alına bilərdi. Əgər Heydər Əliyev faktoru ortaya çıxmasaydı, Kremlin bu istəyi mütləq baş tutacaqdı. Ancaq Mixail Qorbaçovun gözlədiyinin əksinə olaraq Heydər Əliyev faktoru ortaya çıxdı və Azərbaycan milli azadlıq hərəkatı nəinki boğulmadı, əksinə öndə getməyi bacaran bir liderin gözlənilmədən ortaya çıxmasına görə bu hərəkat daha da genişləndi və dönməz xarakter aldı. Azərbaycan xalqının ötən ilin oktyabrında keçirilmiş prezident seçkilərində yenidən Heydər Əliyev siyasətinin davamçısına səs verməsinin təməlində dayanan əsas məqamlardan biri də məhz həmin tarixi fakt idi. Yəni, 20 Yanvar faciəsinin ertəsi günü Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək Mixail Qorbaçovu qətiyyətli tənqid edən Heydər Əliyev həmin addımıyla müstəqilliyə gedən yolumuzun yarıda qırılmasının qarşısının almışdı.

Bakı qırğınında o zamankı SSRİ rəhbəri Mixail Qorbaçovun birbaşa günahkar olması barədə söylənilənlər kiminsə subyektiv fikiri deyil, tarixi fakt idi. Mixail Qorbaçov özü də sonralar bunu etiraf etmişdi. O, 1995-ci ildə Türkiyədə olarkən 20 Yanvar qırğını ilə bağlı suala verdiyi cavabında özünün günahkar olduğunu açıq şəkildə boynuna almışdı. Amma Qərbdə belə bir cəllada Nobel mükafatı vermişdilər. Kiminsə qəsdindən, qərəzindən asılı olmayaraq ölkəmizdə hər il yanvar ayının 20-si Azərbaycan xalqı tərəfindən hüzn və kədərlə, həm də azadlıq mübarizəsinin şərəf və qürur zirvəsi kimi yad edilir. Bu faciə haqqında çox yazılıb və hələ çox yazılacaq. Bizim də məqsədimiz bu qanlı faciə ərəfəsində o günlərə bir daha qayıtmaq və başımıza gətirilənləri analiz etmək, ondan ibrət götürmək, səhvlərimizdən nəticə çıxarmaqdır. Ən başlıcası isə faciəyə aparan yol dəqiqliklə qələmə alınmalıdır. Qeyd etməliyik ki, ötən əsrin 80-ci illərində SSRİ-də baş verən hakimiyyət dəyişikliyi nəticəsində Qorbaçovun SSRİ-ni idarə etməyə başladığı gündən həmin böyük ölkəni silkələyən qarşıdurmalar və ittifaq respublikalarında münaqişələr başlandı.

1988-ci il fevral ayının 20-də Dağlıq Qarabağ Muxtar Vilayəti Partiya Komitəsinin plenumunda "Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) Azərbaycanın tərkibindən çıxarılaraq Ermənistanın tərkibinə daxil edilməsi" barədə qərar qəbul edildi. Bunun ardınca Ermənistandakı azərbaycanlıların doğma dədə-baba

yurdlarından deportasiyası başlandı. Bütün bunlar isə Azərbaycanda geniş əks-səda verdi. Bunu görən ermənilər öz iddialarına haqq qazandırmaq üçün Sumqayıt qırğınını hazırladılar. Onlar Sumqayıtda 5-10 nəfər ermənini qurban verməklə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün əsaslı bəhanə əldə edəcəklərinə əmin idilər. Amma onların bu planı da baş tutmadı. Bununla belə, Qorbaçov və onun ətrafındakı erməni mafiyası Dağlıq Qarabağ ətrafındakı oyunları davam etdirdilər. Bu baxımdan1988-ci ilin mart ayında Sov. İKP MK-nın və SSRİ Nazirlər Sovetinin "Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi haqqında" qəbul etdiyi xüsusi qərar vilayətin Azərbaycandan alınaraq Ermənistana verilməsi yolunda atılan növbəti addım oldu.

Bu məsələyə Azərbaycanın o zamankı rəhbərliyinin qətiyyətli münasibət bildirməməsinə baxmayaraq hadisələrin inkişafı Qorbaçovun və ermənilərin arzuladığı istiqamətdə getmirdi. Ona görə də Kreml rəhbərinin və ermənilərin həyasızlığı görünməyən bir həddə çatdı. Belə olanda isə Azərbaycan xalqı öz torpaqlarının müdafiəsi uğrunda ayağa qalxdı. Hadisələrin bu məcraya yönəlməsi isə Qorbaçova və erməni mafiyasına Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi planlarını həyata keçirməyə imkan vermədi. Nəticədə onlar öz məkrli planlarınıı reallaşdırmaq  üçün başqa yollar axtarmağa məcbur oldular. Məsələn, 1989-cu il yanvar ayının 12-də SSRİ Ali Soveti Rəyasət Heyəti tərəfindən muxtar vilayətdə xüsusi idarəçilik formasının tətbiq edilməsi haqqında verilən fərman Dağlıq Qarabağın Azərbaycanın tabeliyindən çıxarılması üçün növbəti cəhdlərdən biri oldu. Bu məqsədlə də Dağlıq Qarabağda ermənilərin öz adamı hesab edilən Arkadi Volski Xüsusi İdarə Komitəsinin rəhbəri təyin edildi. Lakin hadisələrin gedişi göstərdi ki, Moskva Dağlıq Qarabağda xüsusi idarəetmə komitəsi yaratmaqla belə, bu ərazinin Azərbaycandan alınaraq Ermənistana birləşdirilməsinə nail ola bilməyəcək. Ona görə də Ermənistan SSR Ali Soveti 1989-cu il dekabr ayının 9-da "Dağlıq Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi haqda" qərar qəbul etdi. Bu da, öz növbəsində, Azərbaycanda vəziyyətin daha da gərginləşməsinə gətirib çıxardı.

Tarixi sənədlər göstərir ki, regionda yaranmış gərgin vəziyyətdən ermənilərin xeyrinə istifadə etməyə çalışan qüvvələr Azərbaycan xalq hərəkatını parçalamaq, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə nail olmaq məqsədi ilə SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin göstərişi ilə 1989-cu il oktyabrın 7-də Azərbaycan SSR DTK-nın 12 zabitindən ibarət "Böhran qrupu" yaratmışdı. Qrupun vəzifəsi xalq hərəkatına rəhbərlik edənlər arasında nifaq, fitnə-fəsad toxumları səpmək, azərbaycanlı-erməni qarşıdurmasını daha da körükləmək idi. 1990-cı il yanvar ayının 13-14-də DTK Bakıda iğtişaş təşkil etdi. Məqsəd bu yolla Moskvanın Azərbaycana qoşun yeritməsinə və bununla Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə zəmin hazırlamaq idi. Hadisələrin sonrakı gedişi isə hamıya məlumdur. Mixail Qorbaçov Bakıda günahsız insanların qırılmasına başlanandan xeyli sonra Azərbaycan paytaxtında fövqəladə vəziyyətin elan edilməsi haqqında fərman imzaladı. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də, səhər saat 7-də respublika radiosu ilə çatdırılmışdı. Ermənilər Mixail Qorbaçovu o qədər şirnikləndirmişdilər ki, o, Azərbaycan xalqının gözünü qorxutmaq üçün heç nədən çəkinmirdi. Hətta, Bakıya qoşun yeridiləndə  Dünya müharibələrində istifadə olunmuş hərbi taktikaların tətbiqini də məqsədəuyğun saymışdılar. Azərbaycan paytaxtına hücum eynilə müharibədə olıduğu kimi 5 istiqamətdən - Binə-Qala, Salyan kazarması, "Qurd qapısı", Sumqayıt-Nasosnı və Xəzər dənizi tərəfindən başlamışdı. Şəhərə yeridilən tanklar və digər hərbi texnika dinc əhaliyə atəş açır, heç kəsə aman vermirdi. Nəticədə qısa müddətdə 131 nəfər öldürüldü, 700-dək dinc sakin yaralandı, 800-dən çox adam qanunsuz həbs edildi. Yaralananların bəziləri sonradan öldüyünə görə 20 Yanvar şəhidlərimizin sayı 147-yə çatmışdı.

20 Yanvar qırğınını, həmçinin sovet ordusunun Bakıda və Vilnüsdə dinc əhaliyə qarşı törətdiyi qırğınları araşdıran "Şit" hüquq-müdafiə təşkilatının eksperti Gennadi Melkov bir neçə il əvvəl Azərbaycan mətbuatına verdiyi açıqlamasında qeyd etmişdi ki, "Mixail Qorbaçov hərbi canidir. Onun yeri bu saat rəhbəri olduğu fond deyil, həbsxanadır. O, SSRİ-nin ilk və son prezidenti kimi öz xalqının qanına bais olmuş bir şəxsdir". Həmin ekspertin fikrincə Bakı qırğınında bir çox adamlar günahkar olsa da, əsas günahkar məhz Mixail Qorbaçovdur.

Bütün bunlar az imiş kimi, hətta, SSRİ dağılandan sonra da bəzi antiazərbaycan, antitürk qüvvələr 1990-cı ilin 20 yanvarında Bakıda və respublikamızın başqa şəhər və rayonlarında törədilmiş qanlı faciələrə görə ədalətsizcəsinə bizim özümüzü günahlandırırdılar. Nə yaxşı ki, xalqın böyük əksəriyyətinin təkidli xahişi və israrlı təklifi ilə ulu öndər Heydər Əliyev ölkədə siyasi hakimiyyətə qayıtdı. Məhz həmin qayıdışdan sonra 20 Yanvar faciəsinə hüquqi və siyasi qiymət verildi. Elə, "biz 20 Yanvar faciəsini təkcə faciə kimi deyil, həm də müasir tariximizin şanlı səhifələrindən biri kimi xatırlamalıyıq" ifadəsini də ilk dəfə məhz Heydər Əliyevdən eşitmişik. Nə yaxşı ki, ölkəmizdə Heydər Əliyev siyasəti davam edir və biz milli tariximizin bütün səhifələrini məhz olduğu kimi, öyrənir və öyrədirik.

**“Xalq qəzeti”.-**2014.-14 yanvar.-N 06.-S.4.

## 20 Yanvar faciəsi insanlığa qarşı bir cinayətdir

***Samir Quliyev***
*Qafqaz Universiteti*
*İqtisadiyyat və idarəetmə fakültəsində dekan müavini*

"20 Yanvar faciəsi" SSRİ-nin dağılma prossesində baş verən, hədəfində insanlıq adına dəyərləri yox eləmək olan, ən qanlı hadisələrdən biridir. 1988-ci ildən etibarən Ermənistanın dövlət dəstəkli terrorizmi nəticəsində Dağlıq Qarabağda müharibəyə çəkilən Azərbaycan Respublikası milli birlik mübarizəsi aparırdı. Azərbaycan xalqı, SSRİ dövründəki assimilyasiya siyasətindən ən az təsirlənən xalq olub. O dövrdə xalqın küçələrə tökülməsi, mitinqlərdə iştirak etməsi, milli birlik və bərabərlik adına verilən bəyanatlarla Azərbaycan xalqı öz suverenliyini yetmiş il sanki ürəyində yaşatdığını bütün dünyaya göstərib. Yarım əsrdən çox SSRİ tərkibində olan Azərbaycanı saxlamaq sovetlər üçün o qədər də asan olmayacaqdı. Bizləri bizlərdən daha yaxşı tanıyan sovet başbilənləri bu həqiqəti də çox yaxşı bilirdilər.

Bu kontekstdə, 1990-cı ilin 19-20 yanvar tarixlərində Bakıda sovetlər tərəfindən tarix boyunca əmsalına ancaq orta əsrlərdə rast gələcəyimiz bir qırğın həyata keçirildi. 26 min nəfərlik sovet birlikləri Bakını işğal edərək əhatəyə almış və şəhərdəki silahsız, dinc əhaliyə qarşı tanklarla, ağır silahlarla planlı şəkildə hücum təşkil etdi. Bu hücumlar qarşısında çaş-baş qalan Bakı əhalisi tanklar vasitəsilə əzilərək, silahlara tuş gələrək mərhəmətsizcə sovet ordusu tərəfindən qətl edildi. Bu qətliamlardakı əsas məqsəd Bakı mərkəz olmaqla, bütün Azərbaycanı sanki əsir alaraq sovetin təsirində bir hökumət təsis etmək və Ermənistanla davam edən Dağlıq Qarabağ müharibəsində Azərbaycanı tamamilə gücsüz buraxmaq idi.

Bu qətliam nəticəsində qadın, yaşlı və uşaqlarla birlikdə 170 nəfər vəhşicəsinə öldürülmüş, 370 nəfər ağır yaralanmış, 321 nəfər itkin düşmüş və Bakı şəhəri döyüş meydanına çevrilmişdi. 20 Yanvar tarixində Bakıdakı qırğınla birlikdə Azərbaycanda sovet rejiminin süqutu sürətləndi. SSRİ-nin dağılması ərəfəsində müxtəlif sovet ölkələrində (Gürcüstanda, Latviyada, Qazaxıstanda) mərkəzi hökumət tərəfindən insanlığa sığmayan tədbirlər görülsə də, digər sovet respublikalarından fərqli olaraq Azərbaycan xalqı, 1991-ci ildə təkrar qazandığı müstəqilliyini ancaq qanla əldə edə bildi.

Həmin illərdə sovet lideri olan M. Qorbaçovun qərarları ilə Bakıda sadəcə Azərbaycan xalqına qarşı deyil, bütün insanlığa qarşı həyata keçirilən 20 Yanvar faciəsindən 24 il keçir. SSRİ-nin dağılmasında fəal rol oynayan Qorbaçovun başqa imperialist güclər tərəfindən "qəhrəman" olduğu elan edildi. Hətta insanlıq naminə cinayətdə imzası olan bu adama Nobel mükafatı verilərək, onun fəaliyyətləri xüsusilə də Qərb dövlətləri tərəfindən təqdir edildi.

Bakının ən yüksək yerlərindən birində yerləşən Şəhidlər xiyabanını ziyarət edib orada hüzur içərisində Azərbaycanın dirçəlişini izləyən şəhidlərimizi yad edərkən, müstəqilliyimizin nə qədər dəyərli olduğunu daha yaxşı anlaya bilərik. 20 Yanvar faciəsi imperializmin kirli üzünü, fəsadlarını da açıq aydın göstərməsi baxımından əhəmiyyət kəsb edir. O tarixlərdə Qərb dövlətləri SSRİ-nin dağılmasına hazır deyildilər. Bu səbəbdən Qərb dövlətləri ümumiyyətlə, SSRİ regionunda Rusiyaya öncəlik verən siyasət aparırdılar.

Bunun səbəblərinə nəzər salanda, 20 Yanvar faciəsi türklərə və eyni zamanda müsəlman əhaliyə indekslənmiş, qlobal səviyyədə imperialist siyasətlərin bir məhsulu, yeni dünya "nizamındakı" bir mərhələsi kimi əslində bütün insanlıq adına işlənmiş bir cinayətdir. Bu qətliamın bu şəkildə bilinməsi və xatırlanması zərurətdi... Cani kimdir görəsən... Sovet rejimidirmi? Nobel mükafatına layiq görülən Qorbaçovdurmu? Cinayətkarlar, adları nə olursa olsun, dövrdən dövrə dəyişiklik göstərən, ancaq hədəfləri insanlıq, insani dəyərlər olan "cinayət mərkəzli sistem" yaradan və tətbiq edənlərdir... Bu oyunların mərkəzində qalmamaq üçün xalq olaraq öz dəyərlərimizə sahib çıxmalıyıq. İmperialist məqsədlər çərçivəsində SSRİ ordusu tərəfindən törədilən 20 Yanvar faciəsini doğru oxumalıyıq və bunun kimi bir daha qanlı cinayətlərə məruz qalmamaq üçün, necə deyərlər - tariximizin bu şəkildə təkrar edilməməsi adına, bu hadisələrdən lazımi dərsləri almağımız əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamına da müvafiq, “20 Yanvar faciəsinin 24-cü ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı”nın xüsusilə də xaricə istiqamətli olaraq intensiv həyata keçirilməsi və insanlığa qarşı bir cinayətə məruz qaldığımızın göstərilməsi önəmlidir. Təkrar ildönümü səbəbilə bütün şəhidlərimizi hörmət və sevgiylə xatırlayaraq onlarla qürur duyur, bizlərə buraxdıqları vətən torpağından onlara Allahdan rəhmət diləyirik.

**“Palitra”.**-2014.-14 yanvar.-№ 5.-S.12.

## Qəhrəmanlıq tariximizin “20 Yanvar”səhifəsi

*Əliqismət BƏDƏLOV*

***20 Yanvar faciəsindən 24 il ötür. Ancaq həmin o məşəqqətli günlər hər birimizin yaddaşına əbədi həkk olunub. Həmin gün Azərbaycan tarixində qanla yazılmış bir səhifədir, ancaq təkcə faciə deyil. Bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günü idi. 1990 - cı ilin 20 yanvar günü uzun illər Sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir.***

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda sovet ordusu tərəfindən dinc əhaliyə qarşı dəhşətli, kütləvi qırğın hadisəsi törədildi. Bu qanlı hadisənin törədilməsində əsas məqsədlərdən biri öz haqlı tələblərini irəli sürən, bu tələblərə demokratik yollarla nail olmaq istəyən, istiqlaliyyət, azadlıq, suverenlik istəyində olan Azərbaycan xalqının iradəsini qırmaq, insanların müstəqillik arzularını tankların tırtılları altında əzmək idi. Sovet imperiyası günahsız insanların qanını axıtsa da, xalqımıza qarşı misli görünməmiş qəddarlıq etsə də, istəyinə nail ola bilmədi, milli qürurumuzu qıra bilmədi.

Xalqın başına gətirilən bu cinayət sovet imperiyasının iç üzünü bariz bir şəkildə ortaya çıxartdı. Əslində imperiyanın Bakıda bu qanlı hadisəni törətməklə ittifaqa üzv olan digər respublikalara göz dağı vermək planı, imperyanı zor gücünə mühafizə etmək təşəbbüsü də boşa çıxmış oldu.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycanda günahsız insanların güllələbaran edilməsi əməliyyatı SSRİ Müdafiə Nazirliyi, DİN xüsusi təyinatları və SSRİ DTK-nın “A” təxribat qrupları tərəfindən təşkil olunmuşdu. Bu faciəni törədənlər Azərbaycan xalqını qorxutmaq, onun milli oyanışını, ərazi bütövlüyü, suverenlik uğrunda mübarizliyini məhv edib sındırmaq məqsədi daşıyan mənfur planın tərkib hissəsi idi. Mixail Qorbaçov başda olmaqla sovet imperiyasının rəhbərliyi Bakıda “erməni kartından” məharətlə istifadə etdi. Guya Bakıya qoşun onları, hərbi qulluqçuların ailələrini qorumaq, “millətçi ekstremistlər” tərəfindən hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə bu açıq riyakarlıq, imperiyanın növbəti qəddarlığını ört-basdır etmək üçün qabaqcadan hazırlanmış iftiralar və böhtanlar idi. Çünki sovet rəhbərliyinin “dəlilləri” hətta həqiqətə yaxın olsaydı belə, Bakıya təpədən-dırnağadək silahlandırılmış qoşun göndərməyə ehtiyac yox idi. Ona görə ki, həmin vaxt burada daxili qoşunların 11,5 min əsgəri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri var idi. 4-cü ordunun komandanlığı da Bakıda yerləşirdi.

Mixail Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzalamışdı.

SSRİ DTK-nın “Alfa” qrupu yanvarın 19-da saat 19.27-də Azərbaycan televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və əhaliyə divan tutmağa başladı. M.Qorbaçovun fərmanı qüvvəyə minənədək - yanvarın 20-də saat 00-dək artıq 9 nəfər öldürülmüşdü. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100 nəfərdən çox idi. Halbuki, M.Qorbaçovun Azərbaycana ezam etdiyi yüksək vəzifəli emissarlar həyasızcasına bəyan edirdilər ki, Bakıda fövqəladə vəziyyət elan olunmayacaqdır.

Əli yüzlərlə insanın qanına batmış, sonralar Nobel sülh mükafatı (?!) almış Mixail Qorbaçov başda olmaqla sovet imperiyası rəhbərliyinin rəzil siması bu idi:

- 1990-cı ilin yanvarında sovet qoşunlarının Bakıda həyata keçirdikləri qırğınlarda 131 nəfər öldürülmüş, 600-dən çox adam yaralanmışdı. Öldürülənlər arasında beş millətin nümayəndələri, 20-dən çox qadın, uşaq var idi;

- adamları xüsusi qəddarlıqla və yaxın məsafədən güllələmişlər. Məsələn, Y.Meyeroviçə 21, D.Xanməmmədova 10-dan çox, R.Rüstəmova 23 güllə vurulmuşdur;

- xəstəxanalar, "təcili yardım" maşınları atəşə tutulmuş, həkimlər öldürülmüşdür;

- adamlar süngü-bıçaqla qətlə yetirilmişdir. Onların arasında hər iki gözü tutulmuş B.Yefimtsev də var;

- "Kalaşnikov" avtomatının ağırlıq mərkəzi dəyişən 5,45 çaplı güllələrindən istifadə edilmişdir.

Həlak olanlar arasında yetkinlik yaşına çatmayanlar, qadınlar, qocalar, şikəstlər də var idi. M.Qorbaçovun və ətrafındakıların "millətçi ekstremistlər" adlandırdıqları bunlar idimi?

O dönəmdə özlərini "azadlıq mücahidləri" kimi tanıdan Xalq Cəbhəsinin aparıcı üzvlərinin, həmçinin ölkəyə rəhbərlik edən Əbdülrrəhman Vəzirovun, Azərbaycan DTK sədri Vaqif Hüseynovun və hakimiyyətdə təmsil olunan digərlərinin öz vəzifələrini qoruyub saxlamaq üçün bu faciənin kütləvi qan-qada ilə müşayiət olunmasında rolu az olmayıb. İmperiya ordusunun hansı xislətdə olduğunu gizlətməklə onlar əliyalın insanları top-tüfəngin, tankların qabağına sürüklədilər. Əgər əsil həqiqəti xalqdan gizlətməsəydilər və imperiyanın tapşırıqlarını qul kimi icra etməsəydilər, kim bilir bəlkə də bu faciə baş verməzdi. Onlar isə azadlıq arzusunda olan əliyalın insanları aldatdılar, obyektiv gerçəkliyin nədən ibarət olduğunu ört-basdır etdilər. Son anda isə-faciə baş verən gecə qaçıb aradan çıxdılar. Yanvarın19-dan 20-nə keçən gecə bəzilərinin sədası yeyib-içmək məclisindən, bəzilərinin səsi isə xarici ölkələrdən eşidildi. Ambisiyalarından, siyasi avantüralarından əl çəkməyən belə xəyanətkarlar sonradan arsız-arsız deyirdilər ki, guya onların heç nədən xəbərləri olmayıb.

Xalq o günlərdə böyük bir həqiqəti - meydanda həqiqi liderin olmamasını da bütün mahiyyəti ilə dərk etdi. O müdhiş günlərdə Heydər Əliyevin - qüdrətli liderin respublikada yoxluğu günün ən böyük həqiqəti kimi dərk olundu. Amma Bakıda olmamasına baxmayaraq, xalqının səsinə hər kəsdən əvvəl səs verən də elə Heydər Əliyev oldu. Ümummilli liderimiz Moskvada xüsusi nəzarət altında ola-ola, özünün və ailə üzvlərinin həyatını açıq təhlükə qarşısında qoyaraq, hadisələrdən dərhal sonra, 1990-cı il yanvarın 21-də silahdaşı, o çətin günlərdə atasını bir an belə tək qoymayan İlham Əliyevlə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəldi. Ulu öndər təcavüzə kəskin etirazını bildirdi, faciəni törədənləri, şəxsən M.S.Qorbaçovu kəskin ittiham etdi, qoşunların Bakıdan çıxarılmasını tələb etdi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1990-cı il 21 yanvar tarixli bəyanatı həm də faciəyə verilən ilk siyasi qiymət idi - özü də imperiyanın mərkəzində, Moskvada...

SSRİ-nin digər bölgələrində, o cümlədən Tbilisidə və Baltikyanı respublikalarda baş vermiş hadisələr sovet rəhbərliyi, xalq deputatları səviyyəsində müzakirə edilsə də, Azərbaycanda törədilmiş 20 Yanvar hadisələri şüurlu şəkildə təhrif edilərək yanlış yozuma və unutqanlığa məhkum edilmişdi. Bircə faktı vurğulamaq yetər ki, SSRİ prezidenti M.Qorbaçov Azərbaycanda həyata keçirilmiş əməliyyata yalnız bir dəfə, 1991-ci ildə, 20 Yanvar faciəsinin ildönümündə Azərbaycan xalqına başsağlığı verməklə münasibət bildirmişdi.

Beynəlxalq birlik 1956-cı ilin Budapeşt, 1968-ci ilin Praqa, o cümlədən 1989-cu ilin Tbilisi, 1991-ci ilin Riqa və Vilnüs hadisələrinə müvafiq hüquqi qiymət verdiyi halda, 1990-cı ilin yanvarında Bakıda törədilmiş qanlı faciəyə fərqli prizmadan baxdı. 1990-cı ilin dekabrında isə Qorbaçova hətta Nobel sülh mükafatı da verildi. Azərbaycan o vaxtkı rəhbərliyinin cəsarətsiz və qorxaq siyasəti, kölə psixologiyası üzündən 20 Yanvar nəinki beynəlxalq, hətta ittifaq müstəvisində də layiq olduğu hüquqi-siyasi qiyməti almamışdı. Bu qanlı faciədən sonra Azərbaycan rəhbərliyinin atdığı addımlar cəsarətsizlik və siyasi təslimçilik nümayişi idi. Onların kölə psixologiyasının nəticəsi olaraq 20 Yanvar hadisələri yanlış yozuma və unutqanlığa məhkum edilmişdi.

XX əsrdə totalitarizmin törətdiyi ən qanlı terror aktları sırasında 20 Yanvar cinayəti də var. Bu, bəşəriyyət və insanlıq əleyhinə törədilmiş dəhşətli əməl idi. Dinc əhaliyə qarşı həyata keçirilən cəza tədbirləri zamanı 1949-cu ilin Cenevrə Konvensiyasının, Beynəlxalq Hərbi Tribunalın Əsasnaməsinin, Beynəlxalq İnsan haqları Bəyannaməsinin, insan haqlarına dair digər beynəlxalq aktların çoxsaylı müddəaları pozulmuşdu. Bu məqamlar 20 Yanvar hadisələri ilə bağlı aparılmış ən səthi təhqiqatlarda da təsdiqlənir.

Ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra bu məsələ yenidən gündəmə gəldi, 20 Yanvar hadisələrini lazımınca qiymətləndirmək yolunda ciddi addımlar atıldı. 1990-cı il noyabrın 21-də böyük siyasi xadim Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsi ilə bağlı tarixi qərar qəbul etdi. Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra ilk olaraq Şəhidlər Xiyabanını ziyarət etdi. Və elə yerindəcə tapşırıq verdi ki, qısa müddətdə bütün şəhid məzarlarının üstü götürülsün və burada memorial kompleks ucaldılsın. Bunun üçün dövlət səviyyəsində lazımi vəsait ayrıldı və bu iş qısa zamanda başa çatdırıldı. Məhz ulu öndərin sərəncamı ilə 20 Yanvar ümumxalq hüzn günü elan olundu...

“20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 5 yanvar 1994-cü il tarixli fərmanı ilə Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olundu... Milli Məclisdə müzakirələrin yekunu olaraq 1994-cü il martın 29-da “1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında” qərar qəbul edildi. Qərarda, 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildi...

Ulu öndər şəhidlərin ailələrini də dövlət qayğısı ilə əhatə etdi. Eləcə də 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı hər zaman dövlət başçısının diqqətində olub. 1993-cü ildən üzü bəri 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər görülüb və bu gün də görülməkdədir. Azərbaycan Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə 20 Yanvar təcavüzü zamanı yüksək vətəndaşlıq nümunəsi göstərərək həlak olmuş Azərbaycan Respublikası vətəndaşlarına “20 Yanvar şəhidi” fəxri adı verilib, “1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə dövlət qayğısının artırılması haqqında” 2003-cü il 15 yanvar tarixli sərəncama əsasən, əlil olmuş şəxslərə verilən aylıq müavinət artırılıb və bu iş indi də davamlı olaraq həyata keçirilir.

Ulu öndər Heydər Əliyevin daxili və xarici siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev 20 Yanvar faciəsində qətlə yetirilənlərin, müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinin dövlət səviyyəsində həllini mühüm vəzifələrdən biri kimi qarşıya qoyub. Ölkəmizdə bu istiqamətdə böyük tədbirlər həyata keçirilir. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir. Ölkənin iqtisadi durumunun yüksəlməsi özünü bu qəbildən olan insanların həyat və məişətində daha qabarıq göstərir. Dövlət başçısının Şəhidlər Xiyabanı kompleksinin yenidən qurulması ilə bağlı sərəncamı Vətən şəhidlərinin xatirəsinə ehtiramın daha bir nümunəsinə çevrildi. Prezident İlham Əliyevin sərəncamına əsasən, Şəhidlər Xiyabanı vahid kompleks kimi yüksək səviyyədə yenidən quruldu, abadlaşdırıldı...

2006-cı il yanvarın 19-da ölkə başçısının fərmanı ilə 20 Yanvar şəhidlərinin ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilib. Möhtərəm Prezidentimizin fərmanı ilə 140 nəfər 20 Yanvar şəhidi fəxri adı almış şəxslərin 180 nəfər ailə üzvünə ayda 300 manat məbləğində Prezident təqaüdü verilir. 2006-cı il yanvarın 1-dən qüvvəyə minən əmək pensiyaları haqqında qanuna əsasən 20 Yanvar şəhidlərinin əmək pensiyasını alan hər bir ailə üzvünə aldığı pensiyadan başqa əlavə ödəniş verilir.

Son illərdə ölkədə əlil və şəhid ailələrinin mənzil təminatını yaxşılaşdırmaq üçün dövlət hesabına fərdi və yaşayış evləri inşa olunur. Müvafiq olaraq, 20 Yanvar şəhidlərinin ailələrinə, əlillərə də verilir. Əlillərin sağlamlığının bərpası da diqqət mərkəzindədir. Onların reabilitasiyası üçün respublikada yeni sağlamlıq mərkəzləri inşa olunub.

20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində daha bir addım metronun “20 Yanvar” stansiyasının üzərindəki dairədə xatirə kompleksinin yaradılması oldu...

Prezident İlham Əliyevin tapşırığı ilə 2009-cu ilin oktyabrında Bakının Yasamal rayonundakı “20 Yanvar” dairəsində memorial abidə kompleksinin inşasına başlanıldı. 2010-cu il yanvarın 20-də isə kompleksin açılışı oldu. Ümumi sahəsi 1500 kvadratmetr olan xatirə kompleksinin mərkəzində hündürlüyü postamentlə birlikdə 8 metr olan əzəmətli abidə ucaldılıb. Kompleksin üzərində 20 Yanvar faciəsi zamanı həlak olmuş 147 nəfərin adı və soyadı qızılı hərflərlə həkk olunub.

Bütün sahələrdə həyata keçirdiyi layihələri, xeyirxahlıq missiyası ilə nəinki ölkəmizdə, dünyada diqqət mərkəzində olan Heydər Əliyev Fondu və onun Prezidenti Mehriban xanım Əliyeva müharibə veteranlarının,

şəhid ailələrinin, əlillərin problemlərinə də böyük qayğı ilə yanaşır. Heydər Əliyev Fondu 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, faciə qurbanlarının ailələrinin problemlərinin həlli, sağlamlığının bərpası istiqamətində mühüm işlər görür.

Bu il xalqımız 20 Yanvar hadisələrinin 24-cü ildönümünü qeyd edir, igid övladlarının fədakarlığını məhəbbətlə xatırlayır, onların əziz xatirəsini böyük ehtiramla yad edir. Bu qədirbilənlik həm də o deməkdir ki, az keçməyəcək Qarabağda da eyni mətinliklə Qələbə qazanacağıq. Bu qələbəyə həm də Azərbaycanın bugünkü hərtərəfli uğurları, bütün dünyada gündən-günə artan nüfuzu, dövlətimizin başçısı, Ali Baş Komandan, Prezident İlham Əliyevin bu istiqamətdə qətiyyətli addımları da zəmanət verir.

Bakının ən mötəşəm məkanında Vətən uğrunda canlarını qurban vermiş mərd, igid oğul və qızlarımızın uyuduğu Şəhidlər Xiyabanı xalqımız üçün müqəddəs bir and yerinə, milli iradəmizin şanlı-şərəfli bir salnaməsinə çevrilib. Şəhidlərimiz və Şəhidlər Xiyabanı azadlığımızın, müstəqilliyimizin, milli iradəmizin simvolu kimi bundan sonrakı nəsillərə də bir qürur mənbəyi olacaqdır.

**“Xalq qəzeti”.-**2014.-12 yanvar.-N 05.-S.4.

# 20 Yanvar faciəsinin dövlət anım tədbirləri ictimai maraq tələblərinə tam cavab verir

**İradə SARIYEVA**
Yazı Azərbaycan Respublikasının
Prezidenti Yanında Kütləvi İnformasiya
Vasitələrinin İnkişafına Dövlət Dəstəyi
Fondunun maliyyə dəstəyilə çap olunur.

## Rəsmi sənədlər faciənin beynəlxalq tanınmasında müstəsna rol oynayır

**Son günlər davamlı olaraq xalqımızın tarixi faciələrindən söhbət açırıq. 31 mart azərbaycanlıların soyqırımından, Quba soyqırımından, Xocalı genosidindən ətraflı danışdıq. İndi də Azərbaycan xalqının həyatını kökündən dəyişən, onu dövlət müstəqilliyini əldə etməyə haraylayan 20 Yanvar faciəsini xatırlamaq fikrindəyik.**

1990-cı ilin 20 yanvar günündə baş verən bu qanlı hadisə zamanı çoxlu sayda vətəndaşımız dövlətimizin suverenliyi uğrunda canlarından keçib şəhid oldular. Bu faciənin başvermə səbəbləri, qırğına tuş gələn insanların qəhrəmanlığı haqqında yüzlərlə yazı yazılıb, bu faciəyə qiymət verilib. Amma bu məsələni nə qədər gündəmə gətirsək, yenə də köhnəlmir, bir tərbiyəvi, örnək olay kimi insanların yaddaşında yaşayır.

20 Yanvar faciəsinə xalqımız özünün yalnız qara günü kimi deyil, həm də özünü, varlığını bir daha təsdiq etdiyi şərəfli, şanlı bir gün kimi münasibət bəsləyir. Həmin gün Vətən öz övladlarını sanki sınağa çəkdi və heç kəs bu sınaqdan üzü qara çıxmadı. Canlarını tankların altına atanlar, sinələrini avtomat güllələrinə sipər edənlər dövlətimizin azadlığını qazandılar. Allah onların hamısına rəhmət etsin! Azərbaycanda iyirmi yanvar şəhidlərinin ruhuna hər zaman böyük hörmət, ehtiram olub, olacaq da. 20 Yanvar şəhidlərinin vəfat etdiyi tarix hər il ardıcıl olaraq ümumxalq hüzn günü kimi yada salınır. Məlumdur ki, Azərbaycan ictimaiyyəti, Azərbaycan dövləti hər zaman 20 Yanvar şəhidlərinin dəfn edildiyi Şəhidlər Xiyabanını ziyarət edir. Bu xiyaban müqəddəs bir məkan kimi xaricdən gələn rəsmi, eləcə də qeyri-rəsmi qonaqların ilk gəldiyi, baş əydiyi yerlərdən biridir. Azərbaycan dövlətinin, ölkə Prezidentinin 20 Yanvar faciəsinə xüsusi münasibəti var. Bu məsələdə dövlət və ictimaiyyətin mövqeyi, fikirləri üst-üstə düşür.

Tarixçilər bildirir ki, 20 Yanvar faciəsinin baş verməsində günahkar olan şəxslər məsuliyyətə cəlb edilməsə də, xalqımızın ictimai qınağına tuş gəliblər.

Tarixçi Vəfa Təhməzovanın sözlərinə görə, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusu erməni quldur dəstələrilə birgə Azərbaycan xalqına qarşı terror aktı həyata keçirib: "Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olan 1990-cı ilin 20 yanvar günündə xalqımız ayağa qalxaraq torpaqlarımıza qarşı ərazi iddiası ilə çıxış edən daşnak ermənilərə tutarlı cavab verdi. Ermənistanın ölkəmizə qarşı yeritdiyi təcavüzkar siyasət, onun şovinist hərəkətləri xalqımızı çox hiddətləndirdi. Bu üzdən Bakının küçələrinə və meydanlarına çıxaraq buna öz qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misli görünməmiş faciəyə gətirib çıxardı. Həmin faciəli günlərdə öz ölkəsinin,xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi Mixail Qorbaçov başda olmaqla cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, öz azadlığına, müstəqilliyinə can atan Azərbaycan xalqının həm də mübarizliyini, əyilməzliyini, məğrurluğunu nümayiş etdirdi. 1990-cı ilin 20 yanvarında keçmiş sovet dövlətinin hərb maşınının Azərbaycan xalqına qarşı həyata keçirdiyi qətllər insanlığa qarşı törədilən ən ağır cinayətlərdən biri kimi bəşər tarixində qara səhifə olaraq qalacaq. Milli azadlığı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxan dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. Sovet ordusunun böyük kontingentinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi. Kommunist diktaturası Çexoslovakiyaya, Macarıstana, Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni hətta o zamankı Sovet İttifaqının müttəfiq respublikalarından biri olan Azərbaycanda da təkrarlamaqdan çəkinmədi. Həmin vaxt Azərbaycan qonşu Ermənistanın da təcavüzünə məruz qaldı. Belə bir şəraitdə sovet rəhbərliyi nəinki münaqişənin qarşısını almaq

üçün qəti tədbirlər görməmiş, əksinə, Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni əsgər və zabitləri, sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantları da daxil etmişdi. Bakıya yeridilən qoşunun tərkibinə gəlincə, rəsmi sənədlərə görə, onların sayı 60 min nəfərə yaxın olub. Onlar "döyüş tapşırığı"nı həyata keçirmək üçün möhkəm psixoloji hazırlığa malik idilər. Mixail Qorbaçov başda olmaqla sovet imperiyasının rəhbərliyi Bakıda "rus və erməni kartından" məharətlə istifadə etdi. Guya Bakıya qoşun onları, hərbi qulluqçuların ailələrini qorumaq, "millətçi ekstremistlər" tərəfindən hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilib. Əslində, bu, açıq riyakarlıq, ağ yalan idi. Çünki sovet rəhbərliyinin "dəlilləri" hətta həqiqətə yaxın olsaydı belə, Bakıya təpədən-dırnağadək silahlandırılan qoşun göndərməyə ehtiyac yox idi. Ona görə ki, həmin vaxt burada daxili qoşunların 11,5 min əsgəri,Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri var idi. 4-cü ordunun komandanlığı da Bakıda yerləşirdi".

Bilirik ki, həmin ordunun Bakıya yeridilməsi xalqımıza böyük bir kədər, hüzn yaşatdı. Bu ağrı-acının əsas günahkarlarından biri SSRİ-nin ilk və son prezidenti Mixail Qarbaçov idi. Qanlı 20 Yanvar faciəsindən dərhal sonra öz həyatını və ailə üzvlərinin həyatını təhlükə altında qoyan ümummilli lider Heydər Əliyev Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək xalqımızın haqq səsini dünyaya çatdırıb, keçmiş SSRİ rəhbərliyinin cinayətkar əməllərini ifşa edib: "20 Yanvar faciəsinə ulu öndər Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra siyasi və hüquqi qiymət verildi, həmin qırğının azadlıq və müstəqillik uğrunda mübarizəyə qalxan xalqımıza divan tutmaq üçün törədildiyi bəyan edildi. Ümummilli liderimiz Heydər Əliyevin xüsusi fərmanları və sərəncamları ilə 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi üçün genişmiqyaslı tədbirlər həyata keçirilib, "20 Yanvar şəhidi" fəxri adı təsis olunub, ölkəmizin rəsmi təqviminə 20 Yanvar Ümumxalq Hüzn Günü kimi daxil edilib, Şəhidlər Xiyabanında "Əbədi məşəl" abidə kompleksi ucalıb, şəhid ailələrinin və əlillərin sosial problemlərinin həlli ilə bağlı mühüm işlər görülüb. Ulu öndərin bu siyasəti Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Şəhid ailələrinə xüsusi diqqət və qayğı göstərilir. Dövlətimizin başçısının Sərəncamı ilə 20 Yanvar şəhidlərinin ailələrinə Prezident təqaüdü təyin edilib.

İllər keçsə də, xalqımız 20 Yanvar faciəsi qurbanlarının milli azadlıq mübarizəmizin tarixindəki qəhrəmanlığını heç vaxt unutmayacaq, qanunun aliliyi, insan hüquqlarının müdafiəsi, dövlətçiliyimizin möhkəmlənməsi naminə milli həmrəyliyi daha da möhkəmləndirəcək. Azərbaycan ictimaiyyəti 20 Yanvar faciəsində böyük imtahandan keçdi. Burada şəhid olanlar bu xalqın bir parçası olan insanlar idi. 1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan Vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar. 17 yanvar 1992-ci ildə Ali Sovetin Milli Şurası (1991-1992-ci illərdə qanunverici orqan funksiyasını yerinə yetirən orqan) "20 Yanvarın "Şəhidlər günü" elan olunması haqqında" Qanun qəbul etdi. Qanuna əsasən, yanvarın 20-si ölkə ərazisində qeyri-iş günü elan olundu. 18 yanvar 1992-ci ildə Ali Sovetin Milli Şurasında 1990-cı ilin 20 Yanvar hadisələri ilə bağlı yaradılan parlament komissiyasının (sədr akademik Mitəd Abbasov, müavin vitse-spiker Tamerlan Qarayev idi) hesabatı dinlənildi. Parlamentin qəbul etdiyi qərarda 20 Yanvar faciəsi SSRİ-nin ali hakimiyyət orqanlarının Azərbaycan xalqına və insanlığa qarşı ağır cinayəti kimi qiymətləndirildi. Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonrakı ilk illərdə başları hakimiyyət uğrunda mübarizəyə qarışmış respublika rəhbərləri 20 Yanvar qırğınına siyasi-hüquqi qiymət verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində məqsədyönlü iş aparmadılar. Yalnız 1994-cü ildə Qanlı Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verildi, faciənin günahkarlarının adları açıq şəkildə bəyan edildi..."

Xalqımızın əbədi and yeri olan Şəhidlər Xiyabanının yenidən qurulması və əsaslı şəkildə bərpası Azərbaycan ictimaiyyətinin ürəyindən olan bir məsələ oldu. Dövlət başçımız İlham Əliyevin Şəhidlər Xiyabanı Kompleksinin yenidən qurulması ilə bağlı Sərəncamı Vətən şəhidlərinin xatirəsinə ehtiramın daha bir nümunəsinə çevrildi. Bu Sərəncama əsasən, Şəhidlər Xiyabanı vahid kompleks kimi yüksək səviyyədə yenidən quruldu, abadlaşdırıldı. 2006-cı il yanvarın 19-da dövlət başçısının "20 Yanvar şəhidlərinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Fərmanı ilə 20 Yanvar şəhidlərinin ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilib. Azərbaycan dövlətinin 20 Yanvar faciəsilə bağlı həyata keçirdiyi məqsədyönlü siyasət öz bəhrəsini verməkdədir. Artıq dünyanın bir çox yerində 20 Yanvar şəhidləri azadlıq uğrunda mücadilə verən insanlar kimi yada salınır. Bu gün dünyanın müxtəlif yerlərində yaşayan azərbaycanlılar 20 Yanvar şəhidlərinin qəhrəmanlığını fəxrlə xatırlayır. Dərsliklərdə şagirdlərə 20 Yanvar şəhidlərinin qəhrəmanlıq epopeyası haqqında məzmunlu bilgi verilir. Bədii və sənədli

filmlərdə 20 Yanvar şəhidlərinin həyatı, şücaəti təsvir edilir, yüzlərlə təsviri incəsənət nümunəsindən onların igidliyi boylanır...

Milli hüzn günlərimizə münasibətdə dövlətimizin apardığı siyasət, həyata keçirdiyi işlər ictimaiyyətin, şəhid ailələrinin, eləcə də 20 Yanvar hadisəsində əlil olanların maraq və məqsədləri, arzu-istəklərilə uzlaşır, həmahəng səslənir...

**“Bakı Xəbər”.-**2013.-5 mart.-N 41.-S.15.

## 20 Yanvar: oyanışın ilk səhəri

**Cavanşir Feyziyev,**
Milli Məclisin deputatı,
fəlsəfə doktoru

**Hər bir xalqın hansı dərəcədə milli birliyə, milli iradəyə və milli özünüdərkə malik olması məhz onun üzləşdiyi ən çətin anlarda mövcud proseslərə və çağırışlara ümumxalq reaksiyasında özünü göstərir. 23 il əvvəl üzləşdiyimiz belə bir məqamda xalqımızın mübarizlik əzminin təzahürü, təzyiqlərə boyun əyməyən əzmkar iradə nümayiş etdirməsi tariximizə yeni bir mübarizə səhifəsi yazdı - Qanlı Yanvar səhifəsi.**

20 Yanvar yaxın keçmişimizdə yaşamış olduğumuz ən faciəvi günlərdən biri olsa da, xalqımızın yaddaşına həm də qəhrəmanlıq tarixi kimi həkk olundu. Faciənin törədilməsindən keçən 23 il ərzində bu hadisəni doğuran səbəblərin, onun hüquqi, ictimai-siyasi, psixoloji nəticələrinin araşdırılması, öyrənilməsi və öyrədilməsi artıq ənənəyə çevrilmiş bir sualla müşayiət olunur: 20 Yanvara gedən yol nədən və haradan başlandı? Cavabında isə hadisələrin şahidləri 20 Yanvar ərəfəsindəki son ayın, uzağı, bir neçə ayın hadisələrini bir-bir xatırlayır və onların arasında faciəyə yol açan səbəbləri və səhvləri araşdırıb tapmağa çalışırlar. Mübahisələr bəzən bir-birimizi qınamağa, hətta günahlandırmağa qədər uzanır. Bir ifratçılıqdan digər ifratçılığa qədər müxtəlifləşən mülahizələr yalnız bir fikirdə yekdil olur: belə sonluğu heç kim gözləmirdi.

Bəli, doğrudan da, o zaman çox az adam inana bilərdi ki, dövlət dinc vətəndaşına belə divan tuta bilər.Yəqin, ona görə ki, biz Xeyirlə Şərin mübarizəsinin nağıllarda olduğu kimi, həmişə Xeyirin qələbəsi ilə bitməsinə inanmaq dərəcəsində sadəlövhük. Amma bəzən Şər də qalib gəlir, qısa müddətə də olsa. 20 Yanvar məhz Şərin Xeyirə qalib gəldiyi bir an idi - qısa bir an. Bu Şərin gəldiyi yol isə bir-iki aylıq yol deyildi. Bu, çox uzaqdan gələn bir yoldu. Bu yol 1814-cü ilin "Türkmənçay"ından gəlir, bu yol 1828-ci ilin "Gülüstan"ından keçir. Nəhayət, bu yolun bizə ən yaxın döngəsi 1920-ci ilin 28 aprelindən başlamışdı. 30-cu illərin qaranlıq dolanbaclarından, 40-cı illərin ağrı-acılarından, 50-60-cı illərin ağır məhrumiyyətlərindən keçib gəlmişdik 20 Yanvara. Bütün bunlar çox uzun və üzüntülü bir hekayədir -azadlıqsevər bir məmləkətin, insanpərvər bir millətin, məğrur bir xalqın əsarət hekayəsidir. 20 Yanvar isə bu hekayənin son fəslidir.Bu fəsildə də qarşımıza Şər çıxmışdı.

Növbəti dəfə düşmənlərimizin hiyləsi ilə bizi təhdid edən namərd qonşularımız Vətən torpaqlarımıza göz dikmişdilər. Ölkəmizin ərazi bütövlüyünə qarşı aparılanməkrli fəaliyyətlər, riyakar qəsdlər, SSRİ rəhbərliyi tərəfindən açıq-aşkar xalqımıza qarşı yürüdülən düşmənçilik siyasəti xalqımıza artıq imperiya boyunduruğunda yaşamağın daha ağır fəlakətlərə yol aça biləcəyini anlatmaqdaydı. Xüsusən, 1988-ci ilin martında Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi və SSRİ Nazirlər Soveti tərəfindən dolayısı ilə Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılmasına yönəlmiş "Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi haqqında" qərarın qəbul edilməsi və 1989-cu ilin yanvarında SSRİ Ali Soveti Rəyasət Heyətinin "Dağlıq Qarabağda Xüsusi İdarəetmə Forması yaratmaq haqqında" fərmanı ölkəmizin ərazi bütövlüyünün pozulmasına qarşı ermənilər tərəfindən planlı şəkildə icra olunan tədbirlərin birbaşa imperiya rəhbərliyi tərəfindən dəstəkləndiyini göstərirdi.

Bütün bunlarla yanaşı, Ermənistan ərazisində yaşayan azərbaycanlıların öz tarixi torpaqlarından qovularaq çıxarılması və buna SSRİ rəhbərliyi tərəfindən göstərilən" görməməzlik" soydaşlarımıza qarşı həyata keçirilən etnik təmizləmə siyasətinin məhz ittifaqın "yardımı və strategiyası" iləbaş tutmasına heç bir şübhə yeri qoymurdu. Azərbaycan SSR rəhbərliyinin isə baş verən proseslərə, sanki, heç bir şey olmamış kimi, seyrçi münasibət göstərməsi, özünü "bilməməzliyə" və "eşitməməzliyə" vurması, ümummilli maraqların müdafiəsi yolunda heç bir əməli addımın atılmaması xalqın əsəblərini tarıma çəkmiş, onu sonsuz dərəcədə hiddətləndirmişdi. Mübarizə meydanında tək qaldığını görən Azərbaycan xalqının səfərbər olmaqdan başqa çarəsi yox idi.Bütün ümidlər haqsızlığa qarşı həmişə öz etiraz səsini ucaltmağı bacaran, öz tarixi yurdunu düşmənlərdən qanı bahasına qorumağa hər zaman hazır olan və monolit gücünü öz milli varlığında hiss edən Azərbaycan Xalqına idi.

Azərbaycanlılara qarşı məqsədli şəkildə həyata keçirilən bu fitnəkar siyasət öz hüquqları və ərazi bütövlüyü uğrunda meydanlara atılmış həmvətənlərimizin ürəklərində azadlıq yanğısını daha da alovlandırmışdı. Artıq xalq mövcud olduğu bütün müddətdə sovet imperiyasının yürütdüyü repressiv siyasəti öz tarixinə və milli mənliyinə vurulmuş bir ləkə kimi görürdü. Azadlıq eşqi ilə yanan vətən övladları bu ləkəni öz qanları bahasına da olsa yumağa hazır idilər.

O zaman xalqı etiraz səsini ucaltmağa vadar edən çox sayda obyektiv səbəblər mövcud idi. Mərkəzi hökümət tərəfindən milli mənafeyimizə zidd siyasətin yürüdülməsi, bu siyasətin qarşısının alınması üçün ölkə rəhbərliyi tərəfindən heç bir tədbir görülməməsi xalqla hakimiyyət arasında yaranmış uçurumu daha da dərinləşdirməklə kütləvi etiraz dalğasının baş qaldırmasına rəvac vermişdi. Belə bir məqamda insanların haqlı etirazlarını dinləmək, mövcud problemlərin siyasi yolla həll edilməsinə yönəlmiş addımlar atmaq əvəzinə, imperiyanın öz ənənəsinə sadiq qalaraq zora əl atması - onun anti-humanist təbiətini və ən iyrənc yollarla belə həyata keçirməyə hər an hazır olduğu imperialist siyasətini tam aydınlığı ilə ifşa etmiş oldu. Meydanlara öz haqq səsini ucaltmaq, milliheysiyyatını və milli mənliyini qorumaq əzmi ilə çıxan fədakar Vətən övladları bütün gözlənilməzliklərə hazır idilər. Amma heç kim bu gözlənilməzlikləri gözləmirdi. Çünki sovet rəhbərliyinin 70 il bir dam altında yaşatdığı öz vətəndaşlarına qarşı bu qədər qəddarlıq nümayiş etdirəcəyi ağlasığmaz görünürdü.

Ölməz şairimiz Bəxtiyar Vahabzadənin dediyi kimi: “Axı, heç kəsin ağlına gələ bilməzdi ki, qəlbi Vətən hissi ilə çırpınan, əli silahsız, özü günahsız olan bu atalar, analar, balalar, özünü dost kimi, qardaş kimi qələmə verən bir ordunun əlində qətlə yetirilsin”. Lakin inanmaq istədiyimiz xoş sonluqlu ehtimal özünü doğrultmadı. Soyuq 20 yanvar səhəri açılmağa macal tapmamış bəşər tarixinin insanlığa sığmayan ən faciəvi hadisələrindən biri- Bakı küçələrində dinc nümayişçilərin güllləbaranı baş verdi: Azərbaycana, nəyin bahasına olurasa-olsun, milli mücadiləni boğmaq və yatırtmaq məqsədi ilə yeridilən rus qoşunları Bakıda və respublikanın müxtəlif rayonlarında 131 nəfər mülki şəxsi küçələrdə, evlərində, avtomobillərində, iş yerlərində qətlə yetirdi. 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu.

O müdhiş gecənin aydınlığa dönməsi Bakının ürəkağrıdan dəhşətli mənzərəsinə işıq saldı. Xalq düşmən tankının tırtılları altında parçalanmış, sinələri düşmən güllələrindən deşik-deşik olmuş övladlarınıqan gölündə tapdı. Bu, azadlığın bərpasına gedən yolda ilk şəhidlərin verildiyi 20 Yanvar səhəri idi. Nə qədər hüznlü və acı olsa da, xalq öz qəhrəman övladlarını son mənzilə yola salmağa özündə güc tapdı. Haqq, azadlıq yolunda şəhidlik zirvəsinə ucalmaq nə qədər şərəfli idisə, düşmən silahının nişangahında Vətənin şəhidlərini layiqincə son mənzilə yola salmaq da bir o qədər namus və şərəf məsələsi idi. Xalq sarsılmadı, əyilmədi, qorxmadı.

Qanlı faciənin qurbanları azadlığı uğrunda can verdiyi Vətən torpağına yüzminlərin çiyinlərində daşındılar və müqəddəs torpaqda əbədiyyətə qovuşdular. Bu müqəddəs torpaq hələ əsrin əvvəllərində öz Vətəninin azadlığı və ərazi bütövlüyü uğrunda canını qurban vermiş soydaşlarımızı öz qoynuna almışdı. Bütöv bir xalqın istiqlalı uğrunda şəhid olmuş azadlıq carçılarının dəfn edildiyi Şəhidlər Xiyabanı bu dəfə də eyni amal uğrunda mübarizəyə qalxmış qəhrəman oğullarını öz bağrına basdı. O qəhrəman oğulları ki, ucaldıqları məbəddən əbədi və dönməz olan istiqlaliyyət yolumuza hər zaman şəfəq saçır. O günə qədər yəqin, heç kimin ağlına gəlməzdi ki, Azərbaycanda bu qədər qərənfil var! Sanki, o qərənfillər “öz ayaqları ilə” şəhidlərin qəbri üstünə sərilməyə gəlmişdi. Onlar şəhidlərin al qanıtək məzarların üzərinə çıxıb bu torpağın və bu torpaqda uyuyan vətən övladlarının sipərinə çevrilmişdilər.

Həmin günün mənzərəsi faciəvi olduğu qədər də möhtəşəmdir. Azadlığımızın bərpası yolunda ilk şəhidlərin verildiyi Qanlı Yanvar gecəsi cəsarətin, fədakarlığın, milli məfkurənin dönməz oyanışının əyani təcəssümü idi.Baş verən hadisələr xalqımızın azadlıq arzusunun, müstəqillik idealının 70 il davam edən sovet hərb maşınının repressiyasına rəğmən sönmədiyini, əksinə, yeni güc qazandığını bir daha nümayiş etdirdi. Bununla, Azərbaycan xalqı zülmə, ədalətsizliyə, repressiyaya və zorakılığa boyun əyməyəcəyini, milli iradəsinin sarsılmazlığını təkcə imperiya rəhbərliyinə deyil, bütün dünyaya göstərdi və özünün milli azadlığı uğrunda mübarizəsinin dönməz olduğuna şübhə yeri qoymadı.

Qəhrəmanlıqla dolu keçmişi, dövlətçilik ənənəsi olan, böyük bir coğrafiyada dövlətlər yaratmış, yadellilərə qarşı səfərbər olub birgə mübarizə aparmış, dünya mədəniyyət xəzinəsinə öz dəst-xətti ilə dəyərli töhfəsini vermiş bir millət uzun müddət əsarət altında yaşaya bilərdimi? Öz keçmişindən, sanki, qan damarları ilə axıb gələn vətən sevgisi, milli özünüdərk, zülmə, ədalətsizliyə boyun əyməmək kimi hisslərə malik olan bir xalq öz çiyinlərində bu əsarətin ağırlığını, ağrı-acısını çoxmu çəkəcəkdi? İyirminci əsrin əvvəllərində öz tarixi dövlətçilik ənənələrinə dayanaraq Şərqdə ilk demokratik dövlət quran bir xalq qısa zaman kəsiyindən sonra yenidən imperiya caynağına düşməsini uzun müddət necə qəbul edə bilərdi?! 20 Yanvar faciəsi, sözün əsl mənasında, xalqımızın milli özünüdərkində yeni bir mərhələnin başlanğıcı oldu. Xalq öz qərarını verdi: Yolumuz -Azadlıqdır!

Siyasi və iqtisadi böhranlar məngənəsində boğulan və boğulduqca daha da azğınlaşan, 70 il özünə bayraq etdiyi kommunizm ideyalarının iflası artıq heç kimdə şübhə doğurmayan və dayaqları silkələnməyə başlayan Sovet imperiyası bu hadisəni törətməklə nəyə nail olmaq istəyirdi? Tarixin səhnəsindən birdəfəlik silinmək ərəfəsində imperiyanın ucqar bir ölkəsində əvvəlcədən qurulmuş plan əsasında dinc nümayişçilərin güllləbaran edilməsinə qərar verənlər nəyə ümid edirdilər? Az sonra - imperiya çökəndən sonra aydın olacaqdı ki, bu qərarı

verənlərin və bu faciəni törədənlərin özlərinin də bu suallara cavabları yox imiş. Baş verənlər isə Azərbaycan xalqının milli mübarizə əzmini və iradəsini sındıra bilmədi. Əksinə, 20 Yanvar hadisəsi öz qanunauyğun məntiqi və zəncirvari təsiri ilə bütün imperiya ərazisində milli azadlıq hərəkatlarının yenidən daha böyük vüsətlə alovlanmasına vəSovet İttifaqının süqutunun daha da sürətlənməsinə rəvac verdi.

Bu hadisə Sovet İmperiyası üçün "sonun başlanğıcı" oldu. Bu faciənin baş verməsinə qədər ölkədə mövcud problemlərin, baş qaldırmış etirazların siyasi yolla həll olunacağına ümidlər hələ də qalmaqda idi. Lakin bir nəslin yaşaya biləcəyi qədər ömür yaşamış imperiya özü ilə həmyaşıd olan vətəndaş nəslinin böyüklü-kiçikli hamısına atəş açmaqla bu ümidləri tamamilə alt-üst etdi. O zamana qədər hələ də Azərbaycanın müstəqilliyinə müəyyən qədər skeptik yanaşanlar da bu hadisənin baş verməsi ilə artıq imperiya boyunduruğunda yaşamağın qeyri-mümkünlüyünü dərk etdilər və milli azadlıq hərəkatının aktiv iştirakçılarına çevrildilər. Bu faciəvi olay onilliklər ərzində insanlara sırınan "humanist" əsaslı kommunizm ideologiyasının puçluğunu sübut etdi və məhz bu hadisədən sonra kommunist partiyasından kütləvi istefalar, cəmiyyətin bütün təbəqələri tərəfindən müxtəlif formalarda ifadə olunan etirazlar İttifaqın hər yerini bürüdü və onun dayaqlarını sarsıtdı.

Həmin ərəfədə SSRİ-nin bir çox respublikalarında İttifaq əleyhinə etirazlar baş qaldırmışdı. Gürcüstan və Baltikyanı ölkələrdə də hərbi qoşun hissələri tərəfindən dinc nümayişçilərə qarşı silah tətbiq olunmuşdu.Lakin Azərbaycanda baş qaldıran etirazlara qarşı törədilmiş 20 yanvar hadisəsi öz qəddarlığı, misli görünməmiş vəhşiliyi və dağıdıcı miqyası ilə əvvəlki olaylardan çox fərqlənirdi. Xüsusi qəddarlıqla müşayiət olunan kütləvi qətliam aktının həyata keçirildiyi müddətdə SSRİ müdafiə naziri Dmitri Yazovun, daxili işlər naziri Vadim Bakatinin və digər yüksək rütbəli hərbçilərin Bakıda olması bu qanlı cinayət əməlinin əvvəlcədən planlaşdırılmış olduğunu göstərirdi. İmperiyanın hərbi qoşun hissələrinin fövqəladə vəziyyət elan edilmədən Bakıya yeridilməsi həm ölkə qanunvericiliyinin, həm də beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması demək idi.

"Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında" SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı yalnız qanlı cinayət hadisəsi törədildikdən sonra elan edilmişdi. Görünür, imperiya rəhbərliyinin xalqımıza qarşı qəzəb hissi o qədər güclü və hərbi təcavüz həyata keçirmək niyyəti o qədər qəti idi ki, törətdiyi qeyri-insanlıq aktına əvvəlcədən "hüquqi don" geyindirməyə belə ehtiyac duymamışdı. Baş verəcək hadisələrin və faciənin miqyası barədə məlumatların geniş xalq kütləsinə çatdırılmasının qarşısını almaq məqsədi ilə Azərbaycan televiziyasının enerji blokunun partladılması da qanlı cinayət əməlinin əvvəlcədən müəyyən edilən plan əsasında həyata keçirildiyini bir daha göstərir. Bununla respublika televiziyası və radiosunun verilişləri tamamilə kəsilmiş və bütün ölkə ərazisində informasiyasızlıq mühiti yaradılmışdı. Ancaq həmişə millətləri qaranlıqda və məlumatsızlıqda idarə etməyə alışmış düşmənlərimiz bilmirdilər ki, bu zaman insanların səsini bir-birinə çatdıran, o səsləri xalqın səsinə çevirən yenilməz bir qüvvə vardı bu millətin canında. - Onların azadlıq sevgisi! Bu sevgini boğmağa isə heç bir yumruğun gücü çatmayacaqdı!..

İmperiyanın zor gücünə söykənmiş siyasəti ilə Azərbaycan xalqının məğrurluğu və qırılmaz iradəsi qarşılaşarkən, hansı tərəfin məğlubiyyətə düçar olacağı əvvəlcədən aydın idi. Sadəcə, Mixail Qorbaçov və onun ətrafındakı cinayətkarlar bunu anlaya bilməzdilər. Yarandığı gündən etibarən, xalqımıza qarşı qərəzli siyasət yürüdən sovet imperiyası belə bir qəddarlıq aktı ilə özünün düşmənçilik "ənənəsindən" əl çəkmədiyini bir daha göstərdi. Qorbaçov başda olmaqla, İttifaqın bütün vəzifəli şəxslərinin ciddi heç nə olmamış kimi davranmaları, törətdikləri qanlı cinayəti ört-basdır etmək cəhdləri Azərbaycan xalqına qarşı olan qərəzin və nifrətin açıq təzahürü idi.

Azərbaycan SSR rəhbərliyinin qanlı olay barədə bəyanat belə verməməsi, belə bir çətin anda xalqın dərdinə şərik çıxmaması xüsusilə təəssüf doğuran məqam idi. "Xalqın tələbi və bir qrup deputatın təşəbbüsü ilə Azərbaycan SSR Ali Sovetinin 1990-cı il yanvarın 22-də Yanvar faciəsi ilə bağlı çağırılmış sessiyasına respublikanın bir sıra siyasi və dövlət rəhbərlərinin gəlməməsi isə onların xalqın taleyinə biganə qaldıqlarını, törədilmiş cinayətdə bu və ya digər dərəcədə iştirak etdiklərini bir daha təsdiq etmişdir. Respublika rəhbərliyi hətta şəhidlərin dəfn mərasiminə gəlməyi belə lazım bilməmişdi" (20 Yanvar faciəsinin 10-cu ildönümü haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanından, 16 dekabr 1999, № 228).Bu fakt bir daha hakimiyyətlə xalq arasında o zaman dərin uçurumun yarandığını və hakimiyyətdə təmsil olunan şəxslərin xalqın iradəsini ifadə etmək iqtidarında olmadığını göstərirdi.

Qanlı Yanvar faciəsindən sonra bu hadisəyə verilən reaksiyalar və ya ümumiyyətlə hadisəyə münasibət bildirilməməsi kimin kim olduğunu və kimin hansı məqsədə xidmət etdiyini tam aydınlığı ilə göstərdi. Xalqın taleyüklü bir anında ümummilli lider Heydər Əliyevin ən faciəvi günlərindən birini yaşayan Azərbaycan xalqının acısına şərik çıxması - onun öz xalqına olan sonsuz məhəbbətinin ifadəsi idi. Sovet qoşunlarının Bakıda törətdiyi qanlı hadisə ilə bağlı elə ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək öz

xalqına başsağlığı diləyən Heydər Əliyev, xüsusi qəddarlıqla törədilmiş cinayətin təşkilatçılarını və icraçılarını cəsarətlə ittiham etdi və onların cəzalandırılmasını tələb etdi. Bu qanlı faciənin önlənə bilməsi üçün bütün imkanların mövcud olduğu bir şəraitdə belə bir qeyri-insani hadisənin törədilməsini kökündən yanlış addım kimi qiymətləndirən Heydər Əliyev bu cür yollarla Azərbaycan xalqının iradəsini qırmağın mümkün olmadığını və olmayacağını açıq şəkildə bəyan etdi. Bütün təhlükələrə baxmayaraq, xalqımıza qarşı törədilmiş qanlı faciənin əsl səbəbkarlarının elə həmin gün imperiyanın mərkəzindən bütün dünyaya bəyan edilməsi -xalqımızın üzləşdiyi ən çətin məqamlarda Heydər Əliyevin ümummilli mövqedən çıxış etmək cəsarətini, onun təkcə xalqın qələbələrinin deyil, həm də dərdinin önündə dayandığını bir daha sübut etdi.

Cinayətin törədildiyi vaxtdan keçən bir neçə illər ərzində 20 Yanvar hadisələrinə lazımi siyasi-hüquqi qiymətin verilməməsi də vacibməsələlərdən biri idi. Mövcudluğunun mahiyyətində zorakılıq və hegemonluq daşıyan imperiyanın onun rəhbərliyi tərəfindən verilən göstəriş əsasında baş vermiş bəşəri cinayətə hüquqi qiymət verə biləcək qədər səmimiyyətə və iradəyə malik olmadığı əvvəlcədən hər bir azərbaycanlıya məlum idi. Ona görə də 1990-cı ilin dekabrında SSRİ Baş Hərbi Prokurorluğunun hərbi qulluqçuların 20 yanvarda Bakıda baş vermiş hadisələrlə bağlı əməllərində cinayət tərkibi görməyərək işə xitam verməsi heç kimi təəccübləndirməmişdi. Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi tərəfindən faciəli olayların araşdırılması ilə bağlı yaradılmış İstintaq komissiyasının fəaliyyətinin heç bir nəticə və heç bir əsas olmadan dayandırılması isə təəccüb doğurmaya bilməzdi. Bu, o zamankı ölkə rəhbərliyinin baş vermiş qanlı faciəyə siyasi-hüquqi qiymət verə bilmək iqtidarında olmadığını nümayiş etdirirdi.

Təəssüf ki, daha sonra 1992-ci ilin 19 yanvarında qəbul edilmiş “1990-cı il yanvarın 19-20-də Bakı şəhərinə qoşunların yeridilməsi ilə əlaqədar faciəli hadisələrin təfsilatının və səbəblərinin təhqiqi üzrə Azərbaycan Respublikası Ali Soveti komissiyasının işinin yekunlarına dair” Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurasının Qərarında da ölkənin ali qanunverici orqanının qeyd olunan komissiyanın fəaliyyətinin qənaətbəxş olması ilə kifayətlənməsi, qanlı hadisənin sifarişçiləri və icraçılarının göstərilməməsi Azərbaycan xalqına qarşı törədilmiş ən ağır cinayətlərdən biri olan 20 Yanvar faciəsinə ciddiyyətinə və əhəmiyyətinə görə qiymət verilmədiyini bir daha təsdiqlədi.

20 Yanvar hadisələrinin təkcə xalqımıza qarşı deyil, bütün insanlığa qarşı cinayət olduğunu sübut etmək, faciə qurbanlarının hüquqlarının müdafiəsini təmin etmək, axıdılmış günahsız qanların baiskarlarının cəzalandırılması üçün siyasi, hüquqi zəmin formalaşdırmaq olduqca önəmli məsələ idi. Məhz buna görə Prezident Heydər Əliyevin “20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında” 5 yanvar 1994-cü il tarixli fərmanında Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası tərəfindən 1992-ci ildə qəbul olunmuş müvafiq qərarda yanvar hadisələrinin əsl səbəblərinin açıqlanmadığı və həqiqi günahkarların aşkar edilmədiyi nəzərə çatdırıldı və Azərbaycan Respublikasının Milli Məclisinə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməsi və bu məqsədlə Milli Məclisin xüsusi sessiyasının keçirilməsi tövsiyə edildi.

Beləliklə, Azərbaycan Respublikasının Milli Məclisi 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin tövsiyəsinə müvafiq olaraq, 1994-cü ilin martında xüsusi qərar qəbul etdi. Bu qərarın qəbul edilməsinin əhəmiyyəti ondan ibarət idi ki, haqq və ədalətin müdafiəsi naminə küçələrə çıxmış silahsız adamların qəddarcasına qətlə yetirilməsi hərbi təcavüz və cinayət kimi qiymətləndirildi, qanlı faciənin sifarişçiləri və icraçıları açıq şəkildə bəyan edildi və bu cinayətin istintaqını həyata keçirən hüquq- mühafizə orqanlarının fəaliyyətinin qənaətbəxş olmadığı bildirildi.Bununla da, nəhayət ki, qanlı faciəyə dövlət səviyyəsində münasibət bildirilməsi təmin edildi.

Faciədən 23 il keçir. Əbədi, dönməz və sarsılmaz müstəqilliyimizin işığında yaşayan xalq hər il yanvarın 20-də Şəhidlər Xiyabanına üz tutur, azadlığımızın qandallarını sındırmış şəhidlərimizi ehtiramla yad edirlər. Şəhidlər Xiyabanını ziyarətə gələn yüz minlərlə həmvətənimiz azadlığımız uğrunda şəhid olmuş soydaşlarımızın məzarı qarşısında baş əyərək onların xatirəsini əziz tuturlar.Prezident İlham Əliyevin Şəhidlər Xiyabanını ziyarət edərkən vurğuladığı kimi: “Azərbaycan xalqı bu günü heç vaxt yaddan çıxarmayacaq. Azadlıq, müstəqillik uğrunda, Vətən uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxarılmamalıdır.”

Bəli, şəhidlər unudulmaz. Onlar xalqın azadlığı yolunda canlarından da keçməyə hazır olduqlarını göstərdilər və bu yolu getdilər. Ölümə gedən yollar onları ölməzliyə - əbədiyyətə, xalqımızı isə əbədi azadlığa qovuşdurdu. Bu, tarixdir. Şərəfli bir tarix. Tarix isə onu unudanları bağışlamır.

**“Xalq qəzeti”.-**2013.-20 yanvar.-N 13.-S.3.

# Cinayət var, cəza isə yoxdur

**Arif Cəmil oğlu Quliyev,**
Ukrayna Milli Aviasiya Universitetinin Beynəlxalq Münasibətlər
İnstitutunun beynəlxalq hüquq kafedrasının professoru

**"Kiyevski teleqraf" qəzetində Ukrayna Milli Aviasiya Universitetinin Beynəlxalq Münasibətlər İnstitutunun beynəlxalq hüquq kafedrasının professoru Arif Cəmil oğlu Quliyevin məqaləsi dərc edilmişdir. AzərTAc həmin məqaləni təqdim edir.**

Monteskyö yazırdı: "Qanunilik pərdəsi və ədalət bayrağı altında çıxış edən müstəbidlik ən qəddar müstəbidlikdir". 20 Yanvar bütün Azərbaycan xalqı üçün hüzn günüdür. Bu gün həmin xalqın tarixinə "Qara Yanvar" və ya "Qanlı Yanvar" adı ilə daxil olmuşdur. Keçmiş Sovet İttifaqının işğalçı totalitar rejimi tərəfindən Azərbaycanın dinc əhalisinə qarşı törədilmiş dəhşətli cinayət, insanlığa və humanizmə qarşı ən ağır cinayətlərdən biridir. Əhaliyə kütləvi şəkildə divan tutulması nəticəsində müxtəlif millətlərə və məzhəblərə mənsub olan yüzlərlə günahsız adam öldürülmüş və yaralanmışdır.

Hərbiləşdirilmiş sovet ordu hissələrinin Bakıya daxil olması görünməmiş cinayətlərlə müşayiət olunmuş, dinc əhaliyə xüsusi qəddarlıq və etinasızlıqla divan tutulmuşdur. Bu məqalənin müəllifi Bakıda törədilmiş Qanlı Yanvar hadisələrinin şahidi və iştirakçısı olmuşdur...

... Bakı küçələrində tanklar və zirehli transportyorlar qarşısına çıxan hər kəsi və hər şeyi süpürüb keçir, özündən sonra qanlı iz qoyurdu. Projektorların işığı adamı kor edir, hər yerdə avtomat səsləri eşidilir, insanlara yaxın məsafədən atəş açılır, yaralıları tankların tırtılları altında əzir, onları süngülərlə qətlə yetirirdilər. Güllələr vıyıltı ilə uçur, ətrafda odlu qığılcımlar görünürdü. İnsanları nəinki küçədə, həm də ictimai nəqliyyatda, hətta xəstəxanalarda və öz mənzillərində öldürürlər. "Təcili yardım" maşınlarına, ağ xalatlı tibb işçilərinə atəş açılırdı. Qocalara, qadınlara, uşaqlara da rəhm etmirdilər... İnsanlar vahimə içində qaçırlar... 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə bakılıların yaddaşına belə həkk olunmuşdur. Mən də o gecəni belə xatırlayıram.

SSRİ öz bioqrafiyasının son səhifəsini öz vətəndaşlarına qarşı ağır cinayətlə ləkələmişdir. Qanlı Sovet rejimi Azərbaycan əhalisinə qabaqcadan planlaşdırılmış divan tutmaq aktını həyata keçirdi. Bu əhalinin yeganə "təqsiri" öz ərazisinin bir hissəsi olan Dağlıq Qarabağın zorla onun əlindən alınmasına qarşı dinc etirazını bildirməsi idi. Cinayət qabaqcadan düşünülmüş və hərtərəfli planlaşdırılmışdı, çünki bu hadisələrin törədilməsindən bir neçə gün əvvəl rus zabitlərinin ailələri Azərbaycandan çıxarılmış, süni şəkildə "rus qaçqınlar" problemi yaradılmışdı. Eyni zamanda, kütləvi informasiya vasitələrində vəd edilmişdir ki, Bakıya heç bir hərbi hissə daxil olmayacaq, şəhərdə fövqəladə vəziyyət tətbiq edilməyəcəkdir. Lakin yanvarın 19-dan 20-nə keçən gecə SSRİ-nin birinci və axırıncı prezidenti, Ali Baş komandan Mixail Qorbaçovun göstərişi ilə ümumi sayı 40 min nəfər olan sovet qoşun hissələri, güc nazirləri Dmitri Yazovun, Vadim Bakatinin və Vladimir Kryuçkovun bilavasitə rəhbərliyi ilə heç bir xəbərdarlıq edilmədən Azərbaycan paytaxtına soxuldu. Qoşunların kütləvi şəkildə müxtəlif istiqamətlərdən yeridilməsi Bakı qarnizonunun hərbi hissələrinin və müvəqqəti dislokasiya yerlərində olan hissələrin hərəkətə gətirilməsi, habelə hərbi gəmilərdən desant qoşunları çıxarılması ilə başlandı. Bundan bir neçə saat əvvəl Azərbaycan televiziyasının enerji bloku partladılmış, nəticədə həm ölkə daxilində, həm də ətraf aləmlə informasiya əlaqə kəsilmişdi. Bütün əsas magistrallar, aeroportlar, vağzallar və dəniz limanı bağlanmışdı.

Lakin Bakıda fövqəladə vəziyyət yalnız ertəsi gün, cəza dəstələri artıq öz qanlı əməllərini törədərək şəhəri tərk edəndən sonra elan olundu. O vaxta qədər artıq 82 nəfər öldürülmüş, daha 20 nəfər ölümcül yaralanmışdı. Bakıya nizami ordunun yeni hissələri daxil oldu, lakin vəhşiliklər davam edirdi. Əhalini vahimə içində saxlayırdılar, insanların küçəyə çıxması qadağan edilmişdi, özlərinin həlak olmuş və ya yaralanmış qohumlarını tapmağa çalışanları isə orduya tabe olmamaq və ona müqavimət göstərmək bəhanəsi ilə günün günorta çağı küçələrdə güllələyirdilər. İşğalçılar çoxsaylı təhrikçi hərəkətlər edir, dinc əhalinin müqavimət göstərməsi mənzərəsi yaradılırdı.

Bakı şəhərinin hərbi komendantı general-leytenant Vladimir Dubinyak bakılılara müraciət hazırlamışdı. Helikopterlərdən vərəqələr şəklində yayılan bu müraciətdə deyilirdi: "SSRİ Ali Soveti Rəyasət Heyətinin

fərmanı ilə Bakıda vəziyyəti normallaşdırmaq məqsədilə yanvarın 20-dən fövqəladə vəziyyət tətbiq edilmişdir. Bu qərar yalnız yaranmış mürəkkəb şəraitlə bağlıdır. Vəziyyətin daha da kəskinləşməsi bizim hamımız fəlakətə gətirib çıxara bilər... Hərbi komendanta hər hansı təşkilatların, özfəaliyyət birliklərinin bağlanması və buraxılması da daxil olmaqla onların fəaliyyətini dayandırmaq; nəqliyyat vasitələrinə baxış keçirmək və vətəndaşların mənzillərində pasport rejiminə nəzarət etmək; fövqəladə vəziyyət rejimini pozan və ya onun yerinə yetirilməsinə mane olan şəxslərin 30 günə qədər müddətə inzibati həbs etmək hüququ verilir. Əmrlərə tabe olmamaq və ya onların yerinə yetirilməməsi cinayət məsuliyyəti doğurur. Fövqəladə vəziyyət rejimi ordu, donanma və DİN bölmələrinə hücum ediləcəyi halda silah tətbiq edilməsini nəzərdə tutur".

Bundan bir neçə saat sonra Dubinyak azərbaycanlıları orduya və ruslara qarşı yönəlmiş əhval-ruhiyyədə, naməlum şəxslər tərəfindən hərbi naryadlara atəş açılması, xəstəxanaların pəncərələrindən atəş açılması kimi hallarda ittiham edən məlumat yaymışdı. Bu cür təhrikçi məlumat vasitəsilə guya azərbaycanlı ekstremistlərdən özlərini müdafiə etməyə məcbur olan əsgərlərin hərəkətlərinə bəraət qazandırılırdı. Eyni zamanda, hərbçilər silahlı azərbaycanlıları aradan qaldırmaq bəhanəsi ilə evlərə atəş açır, Bakı sakinlərinin əmlakını qarət edir və oğurlayırdı. Bu cür özbaşınalıqlar nəticəsində sovet hərbi qulluqçuları 200 evi və mənzili, 80 avtomaşını, o cümlədən 7 "təcili yardım" maşınını yandırmışdılar.

Bütün bu faciəli hadisələr zamanı mən Bakıda olmuşam, yaralıların küçələrdən yığılmasına və onların xəstəxanalara çatdırılmasına kömək etmişəm. Onların çoxu yolda ölürdü. Yaralılar arasında elələri vardır ki, onlara 20-dən çox güllə dəymişdi. İnsanlara avtomat silahlardan, dəzgahlı Kalaşnikov pulemyotlarından atəş açılır, qadağan olunmuş və xüsusi dağıdıcı qüvvəyə malik güllələrdən istifadə edilirdi.

Atəşə tutulanlar küçələrdə tankların öz projektorlarının işığı ilə adamların gözünü qamaşdıraraq hərəkət etməsini, bu tankların hərəsində əllərində avtomat silahlar olan 6-7 nəfərin olmasını söyləyirdilər. Adamlara çatmağa təxminən 150 metr qalanda atəş açmağa başlayır, qaçanları arxadan vurur, sığınacaqlarda gizlənmiş vətəndaşları döyüş texnikası üzərində quraşdırılmış projektorların köməyi ilə axtarıb tapır və onlara yenidən atəş açılırdı. Tanklar onların yanından keçən "təcili yardım" maşınlarını, yol kənarında dayanan avtomobilləri əzib keçirdi, onlar öz yolunda hər hansı hərəkətə şiddətli atəşlə mane olurdu.

Sonradan məlum oldu ki, paytaxta yaxın rayonlarda da insan tələfatı olmuşdur. Bu qanlı qırğın 147 nəfəri həyatdan məhrum etmiş, 800-dən çox adam yaralanmış, 841 nəfər qanunsuz həbs edilmiş, yüzlərlə adam itkin düşmüşdür.

O faciəli hadisələri xatırlayanda daim bir neçə sual qarşıya çıxır. Bu cür geniş miqyaslı və qəddar qanlı qırğını törədənlər öz əməllərinə nə ilə haqq qazandıra bilər? Ölkədə fövqəladə vəziyyət tətbiq edilməsinə razılıq vermiş və öz vətəndaşlarının mənafelərini müdafiə etmək və qorumaq əvəzinə Moskvanın bütün göstərişlərini danışıqsız yerinə yetirən Azərbaycanın o vaxtkı kommunist rəhbərliyi öz xalqına qarşı xəyanətə nə ilə haqq qazandıra bilər? Ölkədə vəziyyəti normallaşdırmaq və sabitləşdirmək üçün tədbirlər görməyin zəruri olması ilə? Məgər cinayətə hər hansı zərurətlə haqq qazandırmaq olarmı? Eyni zamanda, həm dövlətdə hüquqi qaydanı müdafiə etmək, həm də onun heç bir günahı olmayan vətəndaşlarının qanını tökmək olmaz.

Tarixdə bundan əvvəl Alma-Atada (1986), Tbilisidə (1989), daha sonra Düşənbədə (1990), Vilnüsdə və Riqada (1991) analoji hadisələr olmuş, həmin hadisələr zamanı da dinc əhali arasında kommunist rejiminin hərbi təcavüzünün qurbanları olmuşdur. Lakin Azərbaycan xalqına qarşı törədilmiş cinayət özünün qəddarlığına görə kommunist diktaturasının bütün əvvəlki cinayətlərindən daha ağırdır. Gürcüstanda və Litvada qanlı qırğınların əsas cəlladı olmuş Qorbaçov sonradan həmin ölkələrin xalqlarından üzr istəmiş, ən qanlı cinayətin qurbanı olmuş Azərbaycan xalqından isə üzr də istəməmişdir.

Bəs, əlləri yüzlərlə bakılının qanına bulaşmış keçmiş Sovet İttifaqı rəhbərlərinin əsl niyyəti nə idi? Aşkardır ki, Qorbaçov və onun ətrafındakılar Azərbaycanın ərazi bütövlüyünün pozulması bahasına ermənilərin ərazi iddialarını təmin etmək istəyir, Azərbaycana qarşı ilk növbədə din amilinə əsaslanan qərəzli siyasət yeridilirdi. Ermənilərin ərazi iddialarının Qorbaçov tərəfindən dəstəklənməsinin əsas səbəblərindən biri məhz azərbaycanlıların İslam dininə etiqad etməsi idi. Mən Azərbaycan dövlət aparatında rəhbər vəzifədə işləyərkən dəfələrlə yəqin etmişəm ki, sovet sistemi din amilindən həmişə təhrikçilik məqsədləri üçün istifadə etmiş, mərkəzin siyasəti islam dininə etiqad bəsləyən əhaliyə qarşı ayrı-seçkilik üzərində qurulmuşdur. Bir sözlə, Azərbaycanda xalq hərəkatının boğulmasında misli görünməmiş qəddarlıq, ilk növbədə onun vətəndaşlarının dini mənsubiyyəti ilə şərtlənmişdi.

20 Yanvar hadisələri öz hakimiyyətini nəyin bahasına olur-olsun möhkəmlətməyə və əldə saxlamağa çalışan Kreml rəhbərlərinin cinayətkar mahiyyətini ifşa etməklə bərabər həm də Azərbaycan xalqı ilə Azərbaycanın sovetpərəst, öz vətəndaşlarına qarşı cinayətin birbaşa iştirakçılarına çevrilmiş hakimiyyət orqanları arasında böyük bir uçurum olmasını göstərdi. Azərbaycan KP MK-nın birinci katibi Əbdülrəhman Vəzirov başda

olmaqla respublikanın Viktor Polyaniçko, Ayaz Mütəllibov, Vaqif Hüseynov kimi iradəsiz rəhbərləri quruculuğa və birliyə can atan xalqın iradəsinə rəğmən hərəkət edirdilər. Respublika üçün həlledici anda öz iradəsini və qüvvəsini yumruq kimi toplayaraq öz xalqının şərəf və ləyaqətini müdafiə etmək lazım gələndə isə onlar sadəcə olaraq Azərbaycandan qaçdılar, bununla da ikiqat satqınlıq etdilər. İstər yanvarın 20-də dinc vətəndaşlara atəş açmaq barədə əmr verənlərə, istərsə də dinməzcə razılaşaraq buna şərait yaradanlara heç cür haqq qazandırmaq olmaz.

Azərbaycan SSR Ali Sovetinin 1990-cı il yanvar hadisələrinin təhqiqatı üzrə komissiyası bu faciəni Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparanları qorxutmaq məqsədilə həyasızcasına həyata keçirilmiş, qabaqcadan planlaşdırılmış cəza aksiyası kimi qiymətləndirmişdi: “Azərbaycan SSR Ali Soveti sovet qoşun hissələri və bölmələrinin yeganə məqsədini SSRİ Konstitusiyasının 81-ci maddəsinə uyğun olaraq Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisində vəziyyəti normal hala salmaqdan və Azərbaycan SSR-in suveren hüquqlarını təmin etməkdən ibarət olmalı olduğunu qeyd edərək, SSRİ Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Komitəsi qoşunlarının respublikanın paytaxtı Bakı şəhərində dinc əhaliyə qanlı divan tutması, yüzlərlə adamın öldürülməsi və yaralanması ilə əlaqədar Azərbaycan xalqının qəzəb və hiddətini ifadə edərək, SSRİ-nin təşkili haqqında müqavilənin şərtlərinin və SSRİ Konstitusiyasının kobud surətdə pozulduğunu, suveren Azərbaycan Sovet Sosialist Respublikasının razılığı olmadan Bakı şəhərində fövqəladə vəziyyət elan olunması və buraya qoşun yeridilməsi haqqında qərar qəbul etmiş SSRİ-nin hakimiyyət və idarə orqanları tərəfindən Azərbaycan SSR-in suveren hüquqlarının açıq-aşkar tapdalandığını təsdiq edərək qərara alır ...”.

Yanvarın 22-də, şəhidlərin dəfn günündə Azərbaycan xalqının birləşməsi parlaq şəkildə təzahür etdi. Fövqəladə vəziyyət rejiminə baxmayaraq, minlərlə insan qətlə yetirilmiş soydaşlarının dəfn mərasimində iştirak etdi. Bu insanlar bir-biri ilə qabaqcadan razılaşmadan meydana, sonra isə günahsız qətlə yetirilmiş şəhidləri son mənzilə ləyaqətlə yola salmaq üçün qəbiristana yollandılar. İnsanlar həlak olanların cəsədləri olan tabutları əllərində aparır, onları həmin gündən Şəhidlər Xiyabanı adlanan dağüstü parkda dəfn edirdilər.

Kommunist rejiminin Azərbaycan xalqına qarşı bu cinayəti hüquqda soyqırımı və dövlət terrorizmi kimi tövsif edilir. Sovet İttifaqının rəhbərləri İnsan Hüquqları Haqqında 1966-cı il Paktının, 1975-ci il Helsinki Yekun Aktının, 1899-cu və 1907-ci illərin Haaqa konfranslarının, 1949-cu il Cenevrə Konvensiyasının və nəhayət, soyqırımının qadağan edilməsi və ona görə cəza haqqında 1948-ci il konvensiyasının silahlı qüvvələrdən dinc əhaliyə qarşı cəza tədbirləri tətbiq edilməklə istifadə olunmasının qadağan edilməsini nəzərdə tutan əsas müddəalarını pozmuşlar.

Lakin o vaxt Qərbin aparıcı dövlətləri Bakıda baş verən faciəli hadisələrə heç bir münasibət bildirməmiş, bu işlərə əsla müdaxilə etməməkdə “ikili standartlar” mövqeyi tutaraq Qorbaçovun dağıdıcı siyasətini dəstəkləmişdilər. Həmin dövrdə ayrılıqda götürülmüş Azərbaycan bu dövlətlər üçün geosiyasi baxımdan maraqlı deyildi. Soyuq müharibədə SSRİ-nin düşmənlərinin əsas strateji hədəfi Sovet İttifaqının tamamilə dağılması idi və Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan xalqına qanlı divan tutulması onların yalnız xeyrinə idi. Qərb mətbuatı qeyri-obyektiv mövqe tuturdu, onun dərc etdiyi xəbərlər və məqalələr ümumiləşdirici xarakter daşıyır, bütün sovetlər ölkəsində vəziyyət, SSRİ-də o vaxt həyata keçirilməkdə olan yenidənqurmanın, demokratik proseslərin gedişinə təsir baxımından təhlil edilirdi.

Bəzi qəzetlər Qorbaçovu açıq-aşkar dəstəkləyir, ona rəğbət bildirir və hesab edirdilər ki, onun respublikaya qoşun yeritməkdən qeyri çıxış yolu yox idi. “Nyu-York Tayms” (ABŞ) qəzeti 22 yanvar nömrəsində yazır: “...Bu respublikada etnik üsyanın hərbi qüvvə ilə yatırılması ölkə daxilində alqışlanmasa da, geniş dəstəklənir və qərb hökumətlərinin təmkinli rəğbətinə səbəb olur...”. “Sandi ekspress” qəzetində isə belə bir fikir söylənilir: “Açığını desək, Qorbaçovun oraya qoşun göndərməkdən başqa çıxış yolu yox idi”.

Lakin Bakıdakı dramatik hadisələri əsasən SSRİ-nin daxili problemi hesab edirdilər. Qərbin kütləvi informasiya vasitələrinin əksəriyyəti, eləcə də Avropa və ABŞ-ın bir sıra siyasi xadimləri və təşkilatları həmin hadisələri bu cür qiymətləndirirdi. ABŞ dövlət departamentinin nümayəndəsi Marqaret Tatuayler Amerika hökuməti adından çıxış edərək bildirmişdi ki, ABŞ Azərbaycanı dəstəkləmir, buna görə də Bakıdakı hadisələri şərh etməyə lüzum görmür. ABŞ dövlət departamenti Qorbaçovu açıq-aşkar dəstəkləyir, belə hesab edirdi ki, onun səyləri iki düşmən xalq arasında sülhün qorunub saxlanmasına yönəlmişdir. Böyük Britaniya XİN də Azərbaycandakı vəziyyəti “SSRİ-nin daxili işi” kimi qiymətləndirmişdi, İtaliyanın xarici işlər naziri Canni de Mikeris də buna oxşar fikir söyləmişdi. Aşkardır ki, SSRİ rəhbərliyi Qərbi Bakıda baş verən hadisələri qərəzli şəkildə qiymətləndirməyə hazırlamışdı, çünki o vaxt sovet mətbuatında Azərbaycanda “İslam ekstremizminin yayılması” barədə sərsəm fikirlər səylə yayılırdı.

Qarabağ probleminin sülh yolu ilə həll edilməsinin tərəfdarı olan Azərbaycan xalqı əmin olduğunu bildirir ki, dünya dövlətlərinin, parlamentlərin, beynəlxalq təşkilatların birgə səyləri sayəsində Azərbaycan respublikasının ərazi bütövlüyü təmin ediləcək, qaçqınlar və məcburi köçkünlər öz doğma evlərinə qayıdacaqlar.

İlk baxışda bu faciənin bütün mənzərəsi bərpa edildiyinə, müvafiq nəticələr çıxarıldığına, təqsirkarların adları elan edildiyinə baxmayaraq, hər dəfə fikrən 90-cı illərə qayıdanda Bakıdakı o faciəli yanvar hadisələrinin tarixi dərslərini dərk etməyə tükənməz tələbat duyulur. Yanvar hadisələrinin dərsləri siyasi baxımdan çox qiymətli və həmişə aktualdır.

Həmin yanvar günlərində Moskvada gözdən salınmış siyasi xadim vəziyyətində olan Heydər Əliyev Azərbaycanın daimi nümayəndəliyində çıxış edərək birinci olaraq bu dərslərdən birini belə ifadə etmişdi: “Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm... Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı... Bunlar üçün ilk növbədə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin artıq sabiq birinci katibi Vəzirov müqəssirdir. Bu yüksək vəzifədə olduğu müddətdə o, Azərbaycandakı vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə, özünün səhv addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurum yaratmışdır... Hesab edirəm ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur. Təəssüf ki, Azərbaycan rəhbərliyi, həmçinin ölkənin ali siyasi rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir...”.

Kreml tərəfindən dövlətin idarə edilməsindən kənarlaşdırılmış Heydər Əliyev öz xalqının faciəsindən kənarda qalmadı. Onun Azərbaycanın Moskvadakı nümayəndəliyində çıxışı o dövrdə hakimiyyətə görünməmiş meydan oxumaq idi və şəxsən onun üçün, onun ailə üzvləri üçün böyük xoşagəlməzliklərə səbəb ola bilərdi. 1993-cü ildə Azərbaycanda hakimiyyətə gələn Heydər Əliyev respublikada sabitliyin və demokratiyanın bərpa olunmasına çox qüvvə sərf etmiş, 1994-cü ildə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zonasında döyüş əməliyyatlarının dayandırılmasına nail olmuşdu. Buna görə Azərbaycan xalqı onu öz xilaskarı adlandırmışdı, 1993-cü il iyunun 15-də xalqın iradəsi ilə Heydər Əliyev Bakıya gəldi və Milli Məclisə rəhbərlik etməyə başladı. O vaxtdan həmin gün Milli Qurtuluş Günü kimi hər gün qeyd edilir.

Faciənin ibrət dərsləri göz qabağındadır. İdeoloji ziddiyyətlərə, mövqelərin fərqli olmasına, mənafe və ambisiyaların toqquşmasına baxmayaraq onlar zorakılıq yolu ilə həll edilməməlidir. İcrası günahsız insanların həlak olmasına gətirib çıxaran qərarlar humanist və qanuni qərarlar hesab edilə bilməz. Ayrıca şəxsin həyatı, ləyaqəti və təhlükəsizliyi bütövlükdə bəşəriyyətin təhlükəsizliyinin təmin edilməsində prioritet olmalıdır. Bu, hər hansı siyasətdən, hər hansı ideyalardan daha vacibdir, çünki insan hüquqlarına diqqət yetirilmədikdə, belə siyasətin, belə ideyaların heç bir əhəmiyyəti yoxdur. Siyasətçilər bunu dərk etməsələr cəmiyyət dözümsüzlüyün məşum nəticələrindən, xalqın həyati mənafelərinə etinasız yanaşan hakimiyyətin siyasi ambisiyalarından sığortalana bilməz.

Mən əminəm ki, Mixail Qorbaçovun və onun ətrafındakıların azərbaycanlıları məruz qoyduğu iztirablara, qanın su yerinə axmasına yol verməmək olardı. Əgər Kremlin qərəzli, cinayətkar siyasəti olmasaydı, əgər Azərbaycanın o vaxtkı rəhbərləri qorxaqcasına razılıq verməsəydi, hər şey başqa cür ola bilərdi. Təəssüf ki, 90-cı il Bakı faciəsinin təqsirkarları hələ də layiqli cəzalarını almamışlar. Axı, heç bir təqsiri olmayan insanların qətlə yetirilməsinə görə, hələ də heç kəs cavab verməmişdir.

**“Xalq qəzeti”.-**2013.-20 yanvar.-N 13.-S.5.

## Bəşəriyyətə, insanlığa qarşı törədilən cinayət

### Müqəssirlər tarix, bəşəriyyət, eləcə də Azərbaycan xalqı qarşısında cavab verməli olacaqlar

*İradə Əliyeva*

**Azərbaycan xalqının qürur mücəssəməsinə çevrilmiş 1990-cı ilin 20 Yanvar hadisələrindən 23 il ötür. Ən yeni tariximizin qan yaddaşı kimi unudulmayan 20 Yanvar xalqımızın azadlıq və müstəqillik uğrunda apardığı mübarizənin dönməzliyini bütün dünyaya göstərdi, milli azadlıq hərəkatının mətin addımlarla müstəqillik hədəfinə doğru irəliləməsində ciddi dönüş nöqtəsi oldu. 1990-cı ildə xalq əliyalın, fəqət sarsılmaz iradə ilə başdan-ayağa silahlanmış qəddar sovet hərb maşınına qarşı duraraq imperiyanın Azərbaycanın milli azadlıq hərəkatını susdurmağa yönələn cəhdlərini tamamilə boşa çıxardı.**

Bu mənada, 1990-cı ilin 20 Yanvar hadisələri xalqımızın müasir tarixinin ən şərəfli səhifələrindən biri, milli azadlıq hərəkatının yüksəliş zirvəsi idi. 20 Yanvar özümüzü bir millət kimi tanıyan və dərk edən gündür. Həmin hadisələr günahsız insanların amansız formada qətlə yetirilməsi ilə nəticələnsə də, öz azadlığına, müstəqilliyinə can atan hər bir Azərbaycan vətəndaşının mübarizliyini, məğrurluğunu bir daha bütün dünyaya, o cümlədən o vaxtkı imperiya rəhbərliyinə aydın şəkildə nümayiş etdirdi. Bu qanlı tarix - 20 Yanvar faciəsi SSRİ adlanan nəhəng imperiyanın iflasında da əsas amillərdən biri oldu.

Tarixi prizmadan yanaşdıqda aydın olur ki, 20 Yanvara aparan yol 1988-ci ilin ziddiyyətli hadisələrindən başlanır.

Keçmiş imperiya rəhbərliyinin xeyir-duası ilə Ermənistanın Azərbaycana qarşı başladığı ərazi iddiaları nəticə etibarilə xalqımızın milli müstəqillik və istiqlaliyyət uğrunda mübarizəsinə impulslar verdi. Respublika vətəndaşları mərkəzin Azərbaycana qarşı məqsədli şəkildə həyata keçirdiyi məkrli plana etirazlarını bildirdi, Dağlıq Qarabağdakı ermənilərin separatçı və ekstremist hərəkətlərinin qarşısının alınmasını, haqq-ədalətin bərpa olunmasını tələb etdi. Bu zaman ərazisinin ilhaq edilməsi cəhdlərinə qarşı qətiyyətlə çıxan xalqımızın müqavimət əzmi artmışdı. Rejimin həyata keçirdiyi repressiv tədbirlər Azərbaycanda bu hərəkatın qarsını müəyyən qədər alsa da, əhalinin içində olan narazılığı qətiyyən boğa bilmədi. 1989-cu ildən etibarən ümumxalq etirazları yenidən bütün respublikanı bürüdü.

1990-cı il yanvarın 19-da Azərbaycanda fövqəladə vəziyyətin elan edilməsinə 7 saat qalmış 11 minlik sovet ordusu respublikamızın paytaxtı Bakı şəhərinə yeridildi. Bu isə insan hüquqlarına dair bir çox beynəlxalq sənədlərin, o cümlədən "İnsan hüquqlarının ümumi Bəyannaməsi", "Vətəndaş və siyasi hüquqlar haqqında" və "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" beynəlxalq paktların, habelə keçmiş SSRİ və Azərbaycan SSR-nin konstitusiyalarının kobudcasına pozulması demək idi. Sovet ordusunun böyük kontingentinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi. Kommunist diktaturası Çexoslovakiyaya, Macarıstana, Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni hətta o zamankı Sovet İttifaqının müttəfiq respublikalarından biri olan Azərbaycanda da təkrarlamaqdan çəkinmədi. Ordu hissələrinin tərkibində Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni əsgər və zabitləri, sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantlar da var idi.

SSRİ DTK-sının "Alfa" qrupu yanvarın 19-da saat 19.27-də Azərbaycan televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və əhaliyə divan tutmağa başladı. M.Qorbaçovun fərmanı qüvvəyə minənədək - yanvarın 20-də gecə saat 1-dək artıq xeyli adam öldürülmüşdü. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı artıq 100 nəfərə çatmışdı. Halbuki, Qorbaçovun Azərbaycana ezam etdiyi yüksək vəzifəli emissarlar həyasızcasına bəyan edirdilər ki, Bakıda fövqəladə vəziyyət elan olunmayacaqdır.

Respublikanın informasiya blokadasına alındığı bir şəraitdə baş vermiş həqiqətləri operativ surətdə dünya ictimaiyyətinə çatdırmaq zərurəti yaranmışdı. Dəhşətli faciəyə kəskin etiraz olaraq 1990-cı il yanvarın 21-də ailəsi ilə birgə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək mətbuat konfransı keçirən ulu öndər Heydər Əliyev hadisəyə operativ və düzgün qiymət verən ilk vətənpərvər lider oldu. Psixoloji və ruhi sarsıntı içərisində yaşayan azərbaycanlılar ulu öndərin Moskva nümayəndəliyinin binasında qəzəbli və qətiyyətli bəyanatının doğurduğu əks-sədanın şahidi oldular. Heydər Əliyev bütün təzyiqlərə və təhdidlərə baxmayaraq, mənsub olduğu xalqın faciəsinqə məsuliyyət daşıyanları Kremlin bir addımlığında, həm də bütün dünyanın gözü

qarşısında ittiham edirdi: "Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm".

Burada Azərbaycan xalqına qarşı cinayət törədən şəxslərin ciddi şəkildə cəzalandırılması qarşıya qoyuldu. Həmin məsələ ümummilli liderin fəaliyyətinin bütün sonrakı mərhələlərində də aktuallığını qoruyub saxladı. Ulu öndər Heydər Əliyev həmişə bu mövqedə olmuşdur ki, xalqa qarşı törədilən hər hansı cinayət cəzasız qalmamalıdır. Təsadüfi deyil ki, hadisəyə ilk hüquqi- siyasi qiymət də 1991-ci ilin noyabr ayında - onun Naxçıvan Ali Sovetinə rəhbərlik etdiyi vaxtda verildi. Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Ali Məclisi tərəfindən qəbul edilmiş müvafiq qərarda (1991-ci il 21 noyabr) 20 Yanvar Milli Matəm günü kimi qeyd olundu.

Sənəddə ilk dəfə olaraq faciənin əsas günahkarları adbaad sadalandı və onların birbaşa məsuliyyət daşıdıqları göstərildi. Bu, əslində, hadisəyə verilən ilk rəsmi hüquqi-siyasi qiymət idi. Qəbul olunan sənəddə həmçinin göstərilirdi ki, respublika rəhbərliyi xalqa xəyanət yolu tutaraq bu qəsdin qarşısını almaq üçün heç bir əməli tədbir görməmiş, səbatsızlıq göstərmiş, yol verilən cinayətin iştirakçısı ola-ola, zahirən hadisələrdən kənarda qalmağa çalışmışdır. Bu sənəd ümummilli lider Heydər Əliyevin nə qədər cəsarətli və Vətənini, xalqını sevən, bu yolda ən ağır mübarizədən belə çəkinməyən fenomen şəxsiyyət olduğunu təsdiqləyir.

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinə tam siyasi-hüquqi qiymət verilməsi məsələsinin qarşıya qoyulması günün tələbi oldu. Çünki bu hadisə Azərbaycan tarixində özünün dolğun mənzərəsini əks etdirməli idi. Ümummilli lider dövrün mürəkkəbliyinə və işlərin çoxluğuna baxmayaraq, tariximizin şanlı və qanlı səhifəsi sayılan 20 Yanvar faciəsinin başvermə səbəbləri və günahkarların araşdırılması ilə ciddi məşğul oldu. Ulu öndər Heydər Əliyevin 1994-cü il yanvarın 5-də 20 Yanvar faciəsinin dördüncü ildönümünün keçirilməsi ilə bağlı imzaladığı fərmanda Milli Məclisə tövsiyə olunurdu ki, faciəyə tam siyasi-hüquqi qiymət verilsin. Aparılan ciddi araşdırmalardan sonra 1994-cü il yanvarın 12-də dövlət komissiyasının geniş iclası keçirildi.

Ulu öndər həmin iclasda Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının 1992-ci il 19 yanvar tarixli qərarını xatırladaraq bu sənəddə yanvar hadisələrinin əsl səbəblərinin açıqlanmadığını, həqiqi günahkarların aşkar edilmədiyini, iki il ərzində qərarın özünü doğrultmadığını nəzərə çatdırdı, onun səthi, başdansovdu hazırlandığını ciddi tənqid etdi: "Bu qərarı oxuyanda, doğrusu, çox həyəcanlandım. Düşündüm ki, Milli Şura nə üçün öz millətinin, öz xalqının aqibətinə, taleyinə bu qədər biganə qalıb? Qərarı oxuyandan sonra bir daha qəti fikrə gəldim ki, bu faciəyə, bu hadisəyə niyə indiyə qədər siyasi qiymət verilməyib... Mənim fikrim belədir ki, bu qərarın qəbul edilməsi Azərbaycan xalqına bəlkə də 20 Yanvar 1990-cı ildə olan faciə kimi böyük xəyanətdir. İki il keçəndən sonra deputat-istintaq komissiyasının ortaya bir şey çıxarmaması, boş-boş sözlərlə camaatı aldatması, qərarda bu komissiyanın işinin qənaətbəxş hesab edilməsi, yenə də deyirəm, xəyanətdir".

20 Yanvar hadisələrinin əsl mahiyyəti də məhz böyük strateqin təşəbbüsü və bilavasitə iştirakı ilə açıqlandı. 1994-cü il martın 29-da "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" adlı xüsusi qərar qəbul edildi. Beləliklə, Heydər Əliyevin təkidi və rəhbərliyi sayəsində xalqımıza qarşı törədilən bu qanlı və qəddar aksiyaya siyasi-hüquqi qiymət verildi. Ümummilli liderin 2000-ci ildə, 20 Yanvar faciəsinin 10-cu ildönümü haqqında imzaladığı fərmanda deyilirdi ki, XX əsr tarixində totalitarizmin törətdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı işlədilmiş cinayət, əslində, bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli bir əməldir. Xalqımız əmindir ki, müqəssirlər tarix, bəşəriyyət, eləcə də Azərbaycan xalqı qarşısında cavab verməli olacaqlar.

20 Yanvar hadisələrində müəyyən qurbanlar verilsə də, həmin faciəli günlər inam və sınaq günü kimi də yadda qaldı. Qəhrəman xalq həmin gün özünün azad və müstəqil yaşamağa layiq olduğunu bir daha sübut etdi.

Ulu öndər Heydər Əliyev 20 Yanvar faciəsinin bütün dünyada tanıdılması, şəhidlərin xatirəsinin əbədiləşdirilməsinə hər zaman diqqətlə yanaşdı. Elə bu məqsədlə Şəhidlər xiyabanında Azərbaycanın azadlığı uğrunda şəhid olanların xatirəsinə ucaldılmış "Əbədi məşəl" abidə kompleksi də məhz Heydər Əliyevin təşəbbüsü ilə inşa olundu. Ulu öndər bu abidənin ucaldılmasını şəhidlərin qarşısında Azərbaycan xalqının müqəddəs və mənəvi borcunun yerinə yetirilməsi kimi dəyərləndirirdi. 1998-ci ilin oktyabrında abidənin açılışında Heydər Əliyev dedi: "Mən çox məmnunam ki, ötən illərdə şəhidlərin xatirəsini əbədiləşdirmək üçün və onların qəhrəmanlıq nümunələrini Azərbaycanda təbliğ etmək üçün, gənc nəslə, yeni-yeni nəsillərə çatdırmaq üçün bütün işləri görmüşük və bundan sonra da görəcəyik".

Ölkə rəhbəri tərəfindən 20 Yanvar şəhidlərinin xatirəsi daim əziz tutulmuş, onların adlarının əbədiləşdirilməsi məqsədilə bir sıra sərəncamlar imzalanmışdır. 2000-ci il 17 yanvar tarixli fərmana əsasən 20 Yanvar təcavüzü zamanı yüksək vətəndaşlıq nümunəsi göstərərək həlak olmuş Azərbaycan Respublikası vətəndaşlarına "20 Yanvar şəhidi" fəxri adı verilmişdir. "1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olmuş

şəxslərə dövlət qayğısının artırılması haqqında" 2003-cü 15 yanvar tarixli sərəncamla əlil olmuş şəxslərə verilən aylıq müavinət artırılmışdır.

Prezident İlham Əliyev də bu ənənəyə sadiq qalaraq Vətənin azadlığı uğrunda canından keçmiş şəhidlərin xatirəsinin əbədiləşdirilməsi, onların ailələrinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün bütün zəruri tədbirləri həyata keçirir. Dövlət başçısının "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 19 yanvar 2006-cı il tarixli fərmanı bu baxımdan müstəsna əhəmiyyətə malikdir. Bundan başqa, dövlət başçısı hər il Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərin xatirəsinin dövlət səviyyəsində böyük ehtiramla yad edilməsi üçün müvafiq qərarlar qəbul edir.

20 Yanvar tarixi xalqımızın qan yaddaşı kimi bu gün respublikada böyük ehtiramla anılır. Orta ümumtəhsil məktəblərinin şagirdlərinə, ali məktəb tələbələrinə hadisənin baş vermə səbəbləri, mahiyyəti geniş izah edilir, bütün bunlar da gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsinə müsbət təsir göstərir. Bütövlükdə Azərbaycan xalqı onun milli mənliyini qorumaq üçün öz canını fəda etmiş vətəndaşları ilə fəxr edir, onların xatirəsini əziz tutur.

**“Azərbaycan”.-**2013.-19 yanvar.-N 12.-S.6.

# Qanlı Yanvar – xalqımızın qan yaddaşı

*Anar Turan*

**Azərbaycan xalqının azadlığı və ölkəmizin ərazi bütövlüyü naminə mübarizə tarixinə 1990-cı il 20 yanvar gecəsi daha bir şərəfli gün kimi daxil oldu. Ölkəmizə qarşı əsassız ərazi iddiaları ilə çıxış edən Ermənistanın təcavüzkar siyasətinə qarşı kəskin etiraz bildirən və SSRİ rəhbərliyinin ermənilərə haqsız olaraq himayədarlıq etməsinə hiddətlənən xalqımız paytaxt Bakının küçə və meydanlarına çıxaraq tapdalanmış hüquqlarını tələb etməyə başladı.**

Etiraz dalğası ölkəmizin, demək olar ki, bütün regionlarını əhatə etməyə başlamışdı. Əsas 11 rayonda izdihamlı mitinqlər təşkil edildi. Dağlıq Qarabağın Ermənistana birləşdirmə cəhdləri, erməni terror və quldur birləşmələrinin Azərbaycan kəndlərinə vəhşicəsinə basqını, silahsız və günahsız soydaşlarımızın qətlə yetirilməsi, yüzminlərlə soydaşımızın öz qədim yurdundan - Qərbi Azərbaycan torpaqlarından işgəncələrlə qovulması xalqımızın "səbrini daşdırmış" və insanlar meydanlara axın etmişdilər.

SSRİ rəhbərliyi yerli əlaltılarının köməyi ilə radikallaşmağa məcbur etdiyi xalqa divan tutmaq üçün münasib şəraiti tapa bildi. 1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti Azərbaycan Ali Sovetinin razılığı olmadan yanvarın 20-də saat 24-dən " Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verdi. Xalqı qəfildən yaxalamaq, ona divan tutmaq, qırğın törətmək məqsədi ilə qoşunlardan istifadə etmək niyyəti, heç kəsə aman verilməyəcəyi elan edilmədi. Fövqəladə vəziyyətin başlanma vaxtı gizli saxlanıldı. Fövqəladə vəziyyətin, komendant saatının vaxtında elan edilməsi Moskvanın qanlı planlarını poza bilərdi. Ona görə də AXC İdarə Heyəti komendant saatı tətbiq olunduğu təqdirdə orduya müqavimət göstərmədən piketləri götürmək haqqında qərar qəbul etmişdi. Lakin eyni zamanda, piketçilər Moskvanın və respublika rəhbərliyinin səlahiyyətli nümayəndələrinin ordunun şəhərə girməyəcəyi haqqında dəfələrlə təkrar etdikləri vədlərə inanmışdılar. Xalqın məlumatlandırılmaması üçün yanvarın 19-da saat 19.27-də Azərbaycan televiziyasının enerji bloku partladılaraq sıradan çıxarılmışdı. Fövqəladə vəziyyətin yanvarın 20-də gecəyarıdan başlayacağının elan olunmasına baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat 21-dən birinci olaraq Türkan-Qala tərəfdən şəhərə yeridildi. "Bakı əməliyyatı" kimi həyata keçirilən bu qanlı hərbi plana SSRİ müdafiə naziri D.Yazov birbaşa özü rəhbərlik edirdi. Bakı qarnizonunun qoşunları, gətirilən hərbi hissələr, hərbi gəmilərdən çıxarılan desant hücuma keçdi. Ağır hərbi texnika çox asanlıqla barrikadaları dağıtdı. Əskərlər gözyaşardıcı qazdan istifadə edir, eyni zamanda adamları avtomat silahdan atəşə tuturdular. Adamların gizlənməsi üçün bir sıra yerlərdə elektrik stansiyalarının işçiləri küçə fənərlərini söndürmüşdülər. Lakin qaçıb müxtəlif sığınacaqlarda gizlənən adamlar döyüş texnikasının projektorlarının köməyi ilə tapılır, atəşə tutulurdular. Şəhərin küçələri yüzlərlə ölmüş və yaralanmış günahsız adamların - qocaların, qadınların, uşaqların qanına qərq olmuşdu. Sovet hərbçiləri təsadüfən yola çıxanları, yaşayış evlərini, təcili yardım maşınlarını atəşə tutur, yaralıları öldürür, meyitləri yandırır, təhqir edir, eybəcər hala salırdılar. Adamları ağır hərbi texnikanın tırtılları altına salır, əzabla Qanlı Yanvar – xalqımızın qan yaddaşı öldürürdülər. Onlar tibb müəssisələrini dövrəyə alaraq yaralı mülki şəxslərin buraya gətirilməsinə, habelə tibbi personalın yaralılara köməyə getməsinə mane olurdular.

Bakıya və respublikanın digər yaşayış məntəqələrinə sovet ordusunun hücumu vaxtı 137 nəfər, o cümlədən 117 azərbaycanlı, 6 rus, 3 yəhudi, 3 tatar öldürülmüş, 744 nəfər yaralanmışdı. 400 nəfərdən çox insan həbs olunmuş, 4 nəfər itkin düşmüşdü. Evlər yandırılmış, ictimai və şəxsi nəqliyyat vasitələrinə böyük maddi ziyan dəymişdi. Fövqəladə vəziyyət haqqında fərman yanvarın 20-də saat 7-də elan olunmuşdu. Qanlı Yanvara etiraz olaraq respublikada 40 günlük ümummmilli tətil başlandı. Azərbaycanda yüksək vəzifə sahibi olanlar xalqa kömək etmək, ona arxa olmaq əvəzinə, vəzifə kürsülərini qorumaq naminə qaçıb gizləndilər. Bir sıra qabaqcıl ziyalılar yanvarın 20-də Elmlər Akademiyasında etiraz mitinqi keçirdilər. Ziyalıların səsini boğmaq, onları qorxutmaq üçün bu mitinqin iştirakçısı olan iki görkəmli elm xadimi, professor işə gedərkən tankın altına salınıb məhv edildi. SSRİ Müdafiə Nazirliyinin, DİN və DTK-nın keçirdiyi əməliyyatda əsas rolu xüsusi təyinatlı "ALFA" və SSRİ DTK-nın "A" təxribat qrupları oynayırdı.

Sovet ordusunun böyük kontingentinin, xüsusi təyinatlı bölmələrinin və daxili qoşun hissələrinin Bakıya yeridilməsi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi. Kommunist diktaturası Çexoslavakiya, Macarıstan, Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni Sovet İttifaqının müttəfiq respublikalarından biri oan Azərbaycanda da təkrarlamaqdan çəkinmədi. Hərbi müdaxilənin daha amansız olması üçün qoşun birləşmələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni əsgər və zabitlər, sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantları da daxil edilmişdi.

"Şit" təşkilatına mənsub müstəqil hərbi ekspertlərin hesabatından bəlli olur ki, Bakıya yeridilmiş qoşun kontingentinin sayı 60 minə çatırdı. Onlar "döyüş tapşırığını" yerinə yetirmək üçün möhkəm psixoloji hazırlıq keçmişdilər. "Sizi Bakıya rusları müdafiə etmək üçün gətirmişlər, yerli əhali onları vəhşicəsinə məhv edir, ektremistlər Salyan kazarmalarının (Bakıda əsas qarnizonun yerləşdiyi ərazi) ətrafındakı evlərin damlarında snayperlər yerləşdirmişlər. Təkcə bu ərazidə 110 atəş nöqtəsi var; binalar, mənzillər, Azərbaycan Xalq Cəbhəsinin yaraqlıları ilə doludur, onlar sizi güclü avtomat-pulemyot atəşinə tutacaqlar"- kimi fikirlər sovet generallarının əsgərlərə verdiyi göstərişlər idi.

Mixail Qorbaçov başda olmaqla sovet imperiyasının rəhbərliyi Bakıda "rus və erməni kartından" məharətlə istifadə etdi. Güya Bakıya qoşun onları, hərbi qulluqçuların ailələrini qorumaq, "millətçi ekstremistlər" tərəfindən hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində hadisələrin eybəcər gedişatı onu sübut etdi ki, Sovet rəhbərliyinin gəldiyi bu "qənaət" tamamilə ağ yalan və hiyləgərliyin göstəricisi idi. Məsələ ondadır ki, əgər sovet rəhbərliyinin iddiaları həqiqət olsaydı belə, Bakıya 60 minlik qoşun göndərməyə ehtiyac yox idi.Çünki, həmin vaxt burada daxili qoşunların 12 minlik əsgəri və Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri var idi. 4-cü ordunun komandanlığı da Bakıda yerləşirdi. Yəni bütün bunlar Sovet rəhbərliyinin göstərdiyi amansız şou idi və xalqın silahsız olduğunu görəndən sonra belə ordu öz vətəndaşlarına qarşı terror etməkdən çəkinmədi.

Həmin gün xalqımız ən ağır günlərini yaşayırdı. Vahimə içində hadisələrin gedişatını həyəcanla izləyən kütlə nə edəcəyini də doğru-dürüst anlamırdı. Yaşanan şok və 70 il qardaş və xilaskar obrazı kimi xalqa təbliğ edilmiş bir ordunun belə qırğın törətməsi inandırıcı deyildi. Lakin fakt faktlığında qalırdı ki, Sovet İttifaqı artıq etibarını və əvvəlki imicini itirmişdi.

Yanvarın 21-də ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək burada təşkil olunmuş izdihamlı yığıncaqda iştirak etdi. Bu ağır günlərdə böyük siyasətçi xalqla bir yerdə olduğunu bildirərək, 20 Yanvar faciəsinə siyasi qiymət verdi, əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd, Mərkəzin və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi.

Bu tarixi çıxışın mətni respublikada, bütün dünyada geniş yayıldı. Təklənən, əli heç nəyə çatmayan xalqın qəlbində ümid çırağı yandı. Xalq Heydər Əliyev kimi nüfuzlu şəxsiyyətin, doğma oğlunun onunla olduğunu, onu cəsarətlə müdafiə ediyini gördü, bir daha ürəkləndi.

Bakı şəhəri və bütün Azərbaycan, fövqəladə vəziyyətin olmasına baxmayaraq, yanvarın 22-də şəhidlərlə vidalaşdı. Şəhər matəm libası geyinmişdi. Respublikada üç gün matəm elan olunmuşdu. " Azadlıq" meydanında böyük izdihamlı matəm mitinqi keçirildi. Mitinqdə milyondan artıq insan iştirak edirdi. Bu görünməmiş izdiham idi. Azərbaycan xalqı ilk dəfə idi ki, belə böyük etiraz səsini ucaldan izdihamın şahidi olurdu. Tarixən böyük dövlətlər yaratmış xalqımız sovet müstəmləkəsinə çevriləndən sonra ilk dəfə idi ki, öz haqq səsini belə ucaldırdı. O gün, hamı bir yumruq kimi Vətənin dərdini bölüşmək üçün meydana axın-axın gəlirdi. Gurultulu, emosional, milləti milli mübarizəyə səsləyən bəyanat və çıxışlar eşidilirdi. Küçələrdə, Azərbaycan KP Mərkəzi Komitəsinin binasının divarlarında "Qorbaçov cəlladdır!", " Rədd olsun Sov. İKP!", " İşğalçılar, rədd olub gedin!" və s. kimi şüarlar yazılmışdı. Partiya biletlərindən tonqallar qalanırdı. Şəhidlər izdihamın müşayəti ilə şəhərin ən hündür nöqtəsində—Dağüstü Parkda dəfn edildilər. Xalq dəfn mərasimində iştirak etdi. Hamı bir nəfər kimi şəhidlərimizin layiqli şəkildə torpağa tapşırılması üçün əsl milli qeyrət nümayiş etdirdi. Görünməmiş hadisədir ki, 40 gün ərzində xiyabanı 22 milyondan artıq insan ziyarət edirdi. Bütün bölgələrimizdən olan vətəndaşlarımız şəhidlərimizlə vidalaşmağa gəlmişdilər. Hətta elə insanlarımız da var idi ki, hər gün oranı ziyarətə gəlirdi. Bu birlik ölkəsinin, xalqının azadlığı, şərəf və ləyaqəti uğrunda canlarından keçən Vətən övladlarının şərəfinə idi. Hansı ki, bu günkü müstəqilliyimizin birbaşa səbəkarları məhz onlar idi.

Böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi Mixail Qorbaçov başda olmaqla cinayətkar imperiya rəhbərliyinin Azərbaycan xalqına qarşı xəyanətkar siyasətinə dözməyən, öz azadlığına, müstəqilliyinə can atan millətimizin həm də mübarizliyini, əyilməzliyini, məğrurluğunu nümayiş etdirdi.

SSRİ rəhbərliyi öz bədnam cinayətkar əməllərindən peşman olmaqdansa hadisələri təhrif etmək və dünyaya yalan informasiya çatdırmaq yolunu tutmuşdu. Yanvarın 20-də artıq bütün dünya Bakıda törədilmiş dəhşətli qırğından xəbər tutduğu bir vəziyyətdə o vaxtkı sovet imperiyasının ideoloji ruporu olan "Pravda" qəzeti 22 yanvar tarixli nömrəsində yazırdı: "Fövqəladə vəziyyət elan edilməsi üçün görülmüş tədbirlər nəticəsində guya qadınlar və uşaqların tələf olması barədə bəyanatlar aşkar fitnəkar xarakter daşıyır. Bir daha təkrar etmək lazımdır ki, bu, qərəzli yalandır! Ondan məqsəd əhalini sovet ordusuna və hüquq - mühafizə orqanlarına qarşı

qaldırmaqdır". Bu da öz növbəsində Mərkəzin başında duranların və onlara canla-başla xidmət edənlərin iç üzünü bir daha üzə çıxartdı.

"Qara Yanvar"ın indiyədək özündə saxladığı sirlər çoxdur. 100 cildlik istintaq materiallarının 69 cildi Bakıdan Moskvaya,keçmiş SSRİ Prokurorluğuna aparılıb və bir daha geri qaytarılmayıb.Azərbaycan xalqının məruz qaldığı bu təcavüz indiyədək bəşəriyyət əleyhinə cinayət kimi beynəlxalq müstəvidə layiq olduğu qiyməti almayıb. Ümumxalq matəm günü elan edilmiş hər il yanvarın 20-də başda cənab Prezidentimiz İlham Əliyev olmaqla Azərbaycan rəhbərliyi, ölkədəki diplomatik korpusun təmsilçiləri, bütün ictimai sektoru təmsil edən fəallar, vətəndaşlar faciə nəticəsində həlak olmuş insanların dəfn olunduğu Şəhidlər Xiyabanını ziyarət edir.

20 Yanvar qətliamının ildönümlərində Azərbaycanın bütün şəhər və rayonlarında, eləcə də kənd və qəsəbələrində dövlət bayraqları matəm əlaməti olaraq endirilir, Bakı vaxtı ilə saat 12.00-da ölkə ərazisində şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilərək, bütün gəmilər, avtomobillər və qatarlar siqnal verir.

İstiqlal tariximizin şərəfli səhifəsi olan 20 Yanvar günü Vətənimizin azadlığı uğrunda hayqırtısı idi. Bu hayqırtını, bu səsi boğmağa çalışsalar da şəhidlərimiz buna imkan vermədilər. Azərbaycan şəhidi mərdlik, cəsarət mücəssəməsi olmasını sübut etdi. Onlar sübut etdilər ki, azadlığı heç bir xalqa qızıl nimçədə hədiyyə vermirlər. Onu qazanmaq üçün vuruşmaq, mübarizə aparmaq lazımdır. Biz bir xalq kimi öyünə bilərik ki, belə şəhidlərimiz var. Bu torpaqdan ötrü kifayət qədər canından keçən oğul və qızlarımız var. İllər keçdikcə dəyişən nəsil üçün nümunəvi vətənpərvərlik məktəbimiz var.

**"Xalq qəzeti".-**2013.-18 yanvar.-N 11.-S.4.

# MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR

**Həmid Vəliyev,**
professor, BDU beynəlxalq jurnalistika kafedrasının müdiri,
Gürcüstan SSR-in Əməkdar jurnalisti

**Şəhidlərimizin arzusu çin olmuşdur**

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet imperiyasının sadiq keşikçisi Sovet ordusu qoşunlarının Bakıda törətdiyi vəhşiliklər barədə xəbər ildırım sürəti ilə Gürcüstana çatdı. Gürcülər xəbəri təəccüblə qarşılamadılar, çünki onlar Baltikyanı ölkələrdə, Qazaxıstanın o zamankı paytaxtı Almatıda, nəhayət, 1989-cu il aprelin 9-da Tbilisidə sovet əsgərlərinin törətdikləri vəhşiliklərin şahidi olmuşdular. Müstəqillik uğrunda mübarizə aparanların qanına-qəltan edilmələri gürcülərin imperiyaya qarşı nifrətini kəskin surətdə artırmışdı. Sovet ordusunun hücumu nəticəsində 13 nəfər Gürcüstan vətəndaşı şəhid olmuşdu, çoxlu dinc əhali müxtəlif dərəcəli bədən xəsarəti almışdı. Sovet təbliğat vasitələri- radio, televiziya və mətbuat onları narkoman kimi qələmə verməyə cəhd göstərir, Kremlin vəhşiliyini hər vasitə ilə ört-basdır etməyə çalışırdılar.

Yeri gəlmişkən, Moskva radio və televiziyası Bakı faciəsi, Azərbaycan xalqının başına gətirilən fəlakətlər barəsində də heç nə demir, efiri sovet xalqlarının “sarsılmaz dostluğu”, sənaye və kənd təsərrüfatı, elm və texnika sahəsində qazanılmış nailiyyətlər haqqında xəbərlərlə doldururdu. Yeganə informasiya mənbəyi xarici radiostansiyalar idi. Bunların da verdikləri məlumatların obyektivliyinə şübhə yaranırdı. Çünki sovet hökumətinin xaricə sürgün etdiyi Paruyr Ayrikyan, kökündən xəbərsiz, nankor Zori Balayan, cızmaqara şeirlər yazmaqla erməni şovinistinə çevrilmiş Silva Kaputikyan kimiləri əzəli torpağımız Qarabağ ətrafında o qədər yalan yaymışdılar ki, Azərbaycan informasiya blokadasından çıxa bilmirdi. Belə bir vəziyyət isə Qorbaçovun və ətrafının ürəyindən xəbər verirdi.

Azərbaycan televiziyası partladılmışdı. Radioda verilişlər getmirdi. Hərdənbir hansısa əsgər Bakı hərbi komendantının məlumatını hecçələyə - hecçələyə oxuyurdu... Qəzetlər çıxmırdı.

O dövrdə Tbilisidə Gürcüstan KP MK-nın, Gürcüstan SSR Ali Sovetinin və Nazirlər Sovetinin orqanı “Sovet Gürcüstanı” qəzetində redaktor müavini vəzifəsində çalışırdım. Telefonum zəng çaldı. Dəstəyi götürdüm. Titrək səsli qadın həyəcanla özünü təqdim etdi. Moskvadan danışdığını bildirdi.

- Bakıda bizi qırırlar. Günahsız adamların qanı su yerinə axır. Qocalara, qadınlara, uşaqlara belə aman vermirlər. Qorbaçov müstəqillik istəyən xalqımızı qan dənizində boğmaq istəyir. Amma arzusu gözündə qalacaq. Tarix boyu çox ağır sınaqlara məruz qalmış Azərbaycan yaşamışdır. Növbəti sınaq nə qədər ağır olsa da, Azərbaycan bu sınağa da sinə gərəcək, dostunu düşmənindən seçməyi bacaracaq, yaşayacaqdır... Sizdən xahişimiz var: Bu gün günortadan sonra sizə Bakı faciəsini əks etdirən fotoşəkillər və mətn gətirəcəklər. Onları çap edin və həmin nömrədən 10 nüsxə ayırıb təyyarə ilə Domodedovo aeroportuna göndərin; gələn şəxs zərfi əlində tutsun; biz qarşılayıb götürərik. Qəzetləri xarici ölkələrin səfirlik və müxbirlərinə çatdıracağıq. Sağ olun...

Qadının səsində qəm və kədərlə yanaşı, qəzəb və hiddət, nifrət və kin, qeyrət və cəsarət vardı. Həmin səs bizi qisas və intiqam almağa çağırırdı. Bu, xahiş deyildi. Mənim üçün, damarlarında azərbaycanlı qanı axanların hamısı üçün əmr idi, kişi qeyrətli qadının əmri. Əmr isə müzakirə edilmir, icra olunur. Təəssüf ki, aradan artıq 23 il keçdiyinə görə həmin xanımın adı yadımda qalmamışdır.

Doğrudan da, xanımın dediyi kimi, saat 14.00 radələrində 35-40 yaşlarında iki nəfər kişi “Kommunist” nəşriyyatının üçüncü mərtəbəsində yerləşən redaksiyamıza gəldi. Son dərəcə həyəcanlı olan bu şəxslərin gətirdikləri fotoşəkillərə baxmaq mümkün deyildi. Sovet əsgərlərinin “qəhrəmanlığı”nı seyr etmək üçün insan daş qəlbli olmalı idi. Şəkillər azərbaycanlılara qarşı ermənilərin törətdikləri vəhşilikləri xatırladırdı...

O dövrdə “Sovet Gürcüstanı” A2, yəni böyük formatda həftədə üç dəfə nəşr edilirdi. Bu gecə çapa gedəcək nömrənin içəri səhifələrini bütünlüklə fotoşəkillər - insanı dəhşətə gətirən, faciəni törədənlərdən intiqam almağa çağıran mənzərələr tutdu. Sovet qoşunlarının 1989-cu ilin aprel ayında Tbilisi şəhərində dinc əhalini qanına-qəltan etməsindən yanıqlı olan gürcü senzorlar şəkillərin çapına icazə verdilər. Biz bundan istifadə edərək, həmin fotoşəkillərin gürcü və rusdilli mətbuatda, o cümlədən, Mərkəzi Komitənin orqanları olan “Kommunist” və “Zarya Vostoka” qəzetlərində də verilməsini təmin etdik. Ertəsi gün səhər tezdən Moskvaya göndərdik. Təxminən 3 saat sonra telefonum zəng çaldı. Həmin xanım idi. Aeroportdan danışırdı:

-Təşəkkür edirəm. Böyük və çox gərəkli iş görübsünüz...

-Dəyməz, bu, bizim də işimizdir. Biz 20 Yanvar faciəsi ilə bağlı material dərc etdiyimiz bütün nömrələri sizə çatdırmağa çalışacağıq. İndicə bizə xəbər gəldi ki, Gürcüstanın azərbaycanlılar yaşayan rayonlarında etiraz mitinqləri keçirilir. Qardabanidə təşkil olunmuş mitinqdə minlərlə adam iştirak etmişdir. Transparantlar və şüarlarda Moskvanın əməlləri kəskin surətdə pislənir. Şüarlardan bəzilərinə diqqət yetirək: "Qorbaçov canidir!", "Azərbaycandan əlinizi çəkin!" Marneuli şəhərində də Kremlin vəhşiliklərinə etiraz bildirən mitinq təşkil edilmişdir.

Deyirlər, hər yara sağalar, buna vaxt lazımdır. Amma xalqın həyatında elə yaralar olur ki, heç vaxt sağalmır. Həmin xalqın bütün nəsilləri bu yaralara baxaraq, tarixini daim yada salır, yaranı vuranlara nifrət hissini getdikcə gücləndirir, diqqəti şəhidlik zirvəsinə yüksələnlərin arzularının daha geniş şəkildə həyata keçirilməsinə yönəldirlər. 20 Yanvar şəhidlərimiz ötən 23 il ərzində qürur mənbəyimizə, Şəhidlər Xiyabanı gənclərimizin vətənpərvərlik tərbiyəsi məktəbinə çevrilmişdir. Biz Ümumxalq

Hüzn Günündə Şəhidlər xiyabanına gəlməklə, Vətənimizin müstəqilliyi uğrunda qurban gedənlərin müqəddəs ruhları qarşısında baş əyir, onlarla fəxr etdiyimizi bildiririk. Eyni zamanda, onlara misilsiz iftixar hissi ilə hesabat veririk: ulularımız demişlər: "Qisas qiyamətə qalmaz". Bəli, qisas tezliklə alındı. Uğrunda şəhidlərimizin qurban getdikləri arzu həqiqətə çevrildi. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının müstəqilliyi bərpa olundu.

Məlum olduğu kimi, biz bu il mayın 28- də Azərbaycan Xalq Cümhuriyyətinin 95-ci ildönümünü təntənə ilə qeyd edəcəyik. Müsəlman Şərqində ilk demokratik dövlətin məhz Azərbaycanda elan olunması, həmçinin müasir dövrdə həyatın bütün sahələrində çox böyük uğurlar qazanmağımız dövlətimizin beynəlxalq miqyasda nüfuzunun artması ilə nəticələnir.

Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən davam etdirilən siyasət nəticəsində Azərbaycan dünya birliyində layiqli yer tutur. İqtisadiyyatın inkişafı sahəsində qazandığımız nailiyyətlər bizi dünya miqyasında qüdrətli dövlət kimi tanıdır. Ötən ilin yekunlarına əsasən, ölkəmiz ümumi inkişaf göstəricilərinə görə, lider mövqeyini qoruyub saxlamışdır. Belə bir faktı qeyd etmək lazımdır ki, Azərbaycan Cənubi Qafqaz iqtisadiyyatının 80 faizinə sahiblik edir. Bu isə ölkənin iqtisadi inkişaf prioritetlərinin elmi əsaslara söykəndiyini və respublikanın mövcud potensialı ilə uzlaşdığını göstərir.

Ölkəmizin beynəlxalq nüfuzunun durmadan artdığını sübut edən çoxlu faktlar vardır. "Eurovision-2012" mahnı müsabiqəsinin ötən il Bakıda keçirilməsi, Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi hər bir azərbaycanlının qəlbini iftixar hissi ilə doldurur. Dünyanın müxtəlif ölkələrinə səpələnmiş azərbaycanlılar öz tarixi vətənləri ilə fəxr edirlər. İndi azərbaycanlılar dedikdə 50 milyonluq bir xalq gözlərimiz önünə gəlir. Ümummilli liderimiz Heydər Əliyevin yolunun qətiyyətli davamçısı Prezident İlham Əliyevin dünya azərbaycanlılarının II qurultayında böyük iftixar hissi ilə dediyi "Biz 50 milyonuq" sözləri hər bir azərbaycanlıya qürur verir. Məhz bu 50 milyonluq əhali dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, şəhidlərimizin ruhu önündə baş əyir, onların arzularının çin olması üçün əllərindən gələni edəcəklərini nümayiş etdirirlər.

**"Yeni Azərbaycan".-**2013.-17 yanvar.-№8.-S.5.

## Şəhidlərimizin qanı yerdə qalmayacaq

**Fatma Əliyeva,**
Demokratik Azərbaycan Dünyası Partiyasının sədri

**1988-ci ildə Azərbaycanda baş verən ictimai-siyasi hadisələr xalqın əsəblərini tarıma çəkirdi. SSRİ rəhbərliyinin milli ayrı - seçkiliyi, ölkəmizə qarşı ədalətsizliyi vəziyyəti getdikcə daha da mürəkkəbləşdirirdi. Həmin dövrdə milli siyasət sahəsində buraxılan kobud səhvlərdən və ermənilərin açıq şəkildə himayə olunmasından faydalanan Ermənistan Respublikası məkrli niyyətini - Azərbaycana qarşı ərazi iddiasını və Dağlıq Qarabağın öz ölkələrinə birləşdirilməsi istəyini açıq şəkildə bəyan etdi. SSRİ rəhbərliyindəki havadarlarına arxalanan erməni separatçıları getdikcə daha da azğınlaşırdılar.**

Onlar dinc əhaliyə qarşı hazırladıqları dəhşətli cinayət planını həyata keçirmək üçün geniş imkanlar qazanmışdılar. Ermənilər min hiylə və məkrlə Qarabağda münaqişəni getdikcə qızışdırdı və Ermənistandakı tarixi torpaqlarımızdan azərbaycanlıların növbəti deportasiyası başlandı. Qabaqcadan düşünülmüş şəkildə hazırlanmış Sumqayıt hadisələri baş verdi.1988-ci ilin noyabr-dekabr aylarında Azərbaycan xalqının haqlı olaraq hiddətinə səbəb olan təxribat xarakterli bu hadisələr, xalqın ümumxalq mitinqlərinə başlamasına təkan verdi. Xalq hərəkatının keçirdiyi kütləvi mitinqlər SSRİ rəhbərliyini qorxuya saldı və ölkəmizə qarşı hərbi təcavüz planı hazırlandı. Buna qədər müxtəlif ölkələrdə baş vermiş etiraz aksiyalarını ordu gücünə, qan tökülməsi hesabına yatızdıran keçmiş SSRİ-nin rəhbəri Mixail Qorbaçov növbəti məkrli planını Azərbaycanda həyata keçirməyi qərara almışdı.

Getdikcə alovlanan etiraz dalğaları geniş vüsət alırdı. 1990-cı ilin əvvəllərində bu hadisələr artıq özünün pik nöqtəsinə çatmışdı. Mitinqlər isə səngimək bilmirdi. 1990-cı il yanvarın 18-də televiziya ilə çıxış edən SSRİ və Azərbaycan rəhbərliyi hüququ tapdalanmış xalqımızı sakitləşdirmək üçün onlara yalan vədlər verdilər və qəzəblənmiş xalqı əmin edirdilər ki, Bakıda fövqəladə vəziyyət tətbiq edilməyəcək. Ancaq bu vaxt ərzində DTK-nın diviziyasının və desant hissələrinin-cəmi 35 min nəfərin Bakıya yerləşdirilməsi artıq başa çatmaqda idi.

Yanvarın 19-da axşam Azərbaycan televiziyasının enerji bloku partladıldıqdan sonra sanki müharibə başlandı. Heç bir xəbərdarlıq edilmədən şəhərə daxil olan sovet qoşun hissələri imperiyanın hazırladığı “UDAR” adlı əməliyyat planını həyata keçirməyə başladı. Dinc əhali pulemyotlardan və avtomatlardan atəşə tutuldu. Silahsız insanların üzərinə şığıyan tanklar rəhm etmədən onları tırtılların altına aldı.

Bu qətliamda 147 nəfər, o cümlədən qoca, uşaq, qadın amansızcasına qətlə yetirildi. 1000-ə qədər dinc əhali yaralandı. 600-dən artıq insan itkin düşdü. Bu qanlı faciə Azərbaycan xalqından, həmçinin beynəlxalq təşkilatlardan gizli saxlanıldı. Hadisənin baş verməsindən bir gün sonra ulu öndər Heydər Əliyev sovet ordusunun Azərbaycanda törətdiyi dəhşətli qətliam barəsində beynəlxalq aləmə məlumat verdi. Həmin vaxt Moskvada ciddi nəzarət altında yaşayan, xalqına son dərəcə sadiq olan ümummilli lider Heydər Əliyev təqiblərə məruz qaldığı bir dövrdə, heç bir təhlükəyə baxmayaraq, böyük bir cəsarətlə baş verən hadisəyə qarşı etiraz səsini ucaltmaq üçün Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəldi və orada mətbuat konfransı keçirdi. Ulu öndər SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı törətdiyi qanlı faciə barəsində ətraflı məlumat verərək demişdir: “...Azərbaycanda baş verən hadisələrə gəlincə, onları antihüquq, demokratiyaya yad, humanizm prinsiplərinə tam zidd hesab edirəm. Yanvarın 19-dan 20-nə keçən gecə Bakıya Sovet Ordusunun iri kontingenti və SSRİ DİN-nin qoşunları yeridilib. Bunun hansı faciə ilə nəticələndiyi indi bizə yaxşı məlumdur. Belə qərar qəbul etmiş insanların hərəkətlərini siyasi səhv hesab edirəm. Kobud siyasi səhvə yol verilmişdir”.

Ümummilli liderimiz Heydər Əliyev elə həmin mətbuat konfransında başda Mixail Qorbaçov olmaqla Bakıdakı terror aktına rəvac verən hakimiyyət nümayəndələrini və hərbçiləri cinayətkar adlandırdı.

Dünyanın aparıcı KİV təmsilçilərinin qarşısında verilən bu bəyanat böyük rezonans doğurdu. Bu sərt bəyanat xalqımızın özünə olan inamını artırdı, böyük ruh verdi. İmperiya ordusu xalqımızın azadlıq, müstəqillik arzusunu boğa bilmədi. Faciə baş versə də, mərd oğul və qızlarımız mübarizələrini sona qədər davam etdirdilər. 20 Yanvar azərbaycanlılara qarşı planlı şəkildə aparılan soyqırımı kampaniyası idi. Lakin sovet hərb maşınının qorxunc qaragüruhuna qarşı sinəsini sipər edən xalqımız təsdiq etdi ki, özgürlük mübarizəsinə qalxmaq, pozulmuş hüquqlarının, suverenliyinin bərpa olunması uğrunda savaşmaq əzminə malikdir.

Sabiq SSRİ prezidenti M.Qorbaçov Azərbaycan xalqının bu əzmkarlığı, cəsarəti, mübarizliyi qarşısında həm silahlı ordusunun, həm də mənəviyyatının nə qədər cılız olduğunu dərk etdiyindəndir ki, 1995-ci ilin aprel ayında Türkiyə səfərində 1990-cı ilin yanvar qırğınından bəhs edərkən: “Bakıda fövqəladə vəziyyət elan etmək və oraya qoşun göndərmək mənim siyasi həyatımda ən böyük səhvim idi” - deyərək, öz günahını etiraf etmişdi.

Qan yaddaşımıza silinməz faciə kimi yazılan 20 Yanvar Azərbaycanın istiqlaliyyət yolunda apardığı mübarizənin ilk şəhidlik zirvəsi idi. Bu vəhşilikdən, yüzlərlə günahsız insanın axıdılan qanından xalqımızın iradəsi qırılmadı, qüruru itmədi. Tökülmüş qanlar, insanların vəhşicəsinə qətlə yetirilməsi Azərbaycan xalqının birliyini daha da möhkəmləndirdi, müstəqillik uğrunda apardığı mübarizəni daha da artırdı. Həmin günlər dünya informasiya mərkəzləri Azərbaycan xalqına qarşı törədilən bu qətliamı, soyqırımı əks etdirdikcə, bəşəriyyətə xalqımızın Vətəninə, torpağına sədaqəti, azadlıq uğrunda mübarizə əzminin böyüklüyü bir daha bəyan edildi.

Ərazi bütövlüyü pozulmuş, hüquqları tapdanmış xalqımız bu qanlı təcavüzü Kremlin cavabı kimi qiymətləndirdi və tezliklə SSRİ-nin tərkibindən çıxmaq məsələsini qaldırdı. Azərbaycan xalqı ciddi təzyiqlərlə üzləşməsinə baxmayaraq, yenə də öz beynəlmiləlçiliyini bir dəyər kimi qorumaqla siyasi sayıqlıq nümayiş etdirdi.

20 Yanvar faciəsində qətlə yetirilmiş insanlar dinindən, dilindən asılı olmayaraq bir yerdə-Şəhidlər Xiyabanında torpağa basdırıldı. Bu, ermənipərəst sovet rəhbərlərinin məntiqini alt-üst etdi. Qarabağda guya hüquqları tapdalanan ermənilərin yalan və uydurmaları puça çıxdı.

Bu faciənin bu cür həlli monoton xalq olmayan Azərbaycan xalqının milli və dini ədavətdən uzaq olmasını, bu torpaqda yaşayan bütün xalqların nümayəndələrini özündən ayırmadığını, onları özlərinin milli sərvəti hesab etməsini təsdiqlədi.

Ümummilli liderimiz Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra, 1990-cı il yanvar hadisələrinin səbəbləri daha dəqiq araşdırıldı və 1994-cü ildə 20 yanvar faciəsinə hərbi təcavüz və cinayət kimi tam siyasi-hüquqi qiymət verildi. Bu hadisələrin təşkilatçıları Mixail Qorbaçov, Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov, Vaqif Hüseynov və başqalarının cəzalandırılması tələb olundu.

“Qara yanvar” indiyədək özündə çox sirlər saxlamışdı. 100 cildlik istintaq materialının 69 cildi Moskvaya, keçmiş SSRİ Prokurorluğuna aparılmış və bu günədək onlardan hələ də bir xəbər yoxdur. Elə bu səbəbdən də Azərbaycan xalqına qarşı törədilən soyqırım və terror aktının əsil səbəbləri və günahkarları bəşəriyyətdən gizli qalmışdı. Totalitar rejimin xalqımızın başına gətirdiyi bu qanlı faciə, dünya birliyi tərəfindən beynəlxalq müstəvidə layiq olduğu hüquqi-siyasi qiymətini hələ almamışdır.

20 Yanvar ağır cinayət hadisəsidir. Dinc əhaliyə qarşı həyata keçirilən cəza tədbirləri zamanı 1949-cu ilin Cenevrə Konvensiyasının, Beynəlxalq Hərbi Tribunalın Əsasnaməsinin, Beynəlxalq İnsan haqları Bəyannaməsinin, insan haqlarına dair Beynəlxalq aktların çoxsaylı müddəaları pozulmuşdur. Bu məqamlar 20 Yanvar hadisələri ilə bağlı aparılmış ən səthi təhqiqatlarda da öz əksini tapıb.

Bu gün ulu öndər Heydər Əliyevin siyasi xəttini böyük ustalıqla davam etdirən möhtərm Prezidentimiz İlham Əliyev Azərbaycanın regiondakı, qitədəki, dünyadakı mövqeyini daha da gücləndirməyə nail olub. Ölkə başçısı 20 Yanvar hadisələrinin beynəlxalq müstəvidə siyasi -hüquqi qiymətini alması üçün əlindən gələni edir. Azərbaycan Prezidenti İlham Əliyev 20 Yanvar faciəsini xalqımıza qarşı törədilən qətliam kimi qiymətləndirərək, bunun məqsədli qırğının bir halqası olduğunu beynəlxalq təşkilatların diqqətinə çatdıraraq demişdir: “20 Yanvar günü bizim böyük faciəmizdir, ancaq eyni zamanda Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsidir. O gündən keçən müddət ərzində Azərbaycan demək olar ki, tamamilə yeni mərhələyə qədəm qoydu. Bu gün ölkəmiz dünyada ən sürətlə inkişaf edən ölkədir. Azərbaycan sübut etdi ki, xalqının iradəsinə əsaslanaraq müstəqil, azad ölkə kimi uğurla inkişaf edir. 20 Yanvar faciəsi Azərbaycan xalqının yaddaşından heç vaxt silinməyəcəkdir. Şəhidlərimizin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaq”.

Bəli, biz 1990-cı il yanvarın 20-də şəhid verdik! Lakin, nə əyildik, nə də sındıq! Biz qanımız bahasına müstəqillik qazandıq! Biz hər dəfə Şəhidlər Xiyabanını ziyarət edərkən onların qəhrəmanlığından güc, qüvvət, əzəmət alırıq. Şəhidlərimizin ruhu bizə vətəni canımız kimi sevməyi, göz bəbəyi kimi qorumağı öyrətdi.

İndi hər bir Azərbaycan vətəndaşı, Azərbaycan ordusunun hər bir əsgər və zabiti yaxşı başa düşür və dərk edir ki, şəhidlərimizin qanı bahasına müstəqillik əldə etmiş ölkəmizin bir qarış torpağı da erməni tapdağı altında qalmayacaq. Bu gün yüksək döyüş hazırlığına, silahların və hərbi texnikanın sirlərinə mükəmməl yiyələnmiş, intizamlı, mənəvi-psixoloji cəhətdən dözümlü, ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərimizin qisasını almağa tam hazır olan Azərbaycan Ordusu var.

Qeyd etmək istəyirəm ki, xaricdə yaşayan azərbaycanlılar 20 Yanvar hadisəsi haqqında dünya ictimaiyyətini daha geniş məlumatlandırmaq üçün çox işlər görür. ABŞ - Azərbaycan şəbəkəsi Texas və Nyu-York ştatlarının parlamentində 20 Yanvarla bağlı 2 rəsmi qətnamənin qəbul edilməsinə artıq nail olub. Qətnamə “Qara yanvar”la

bağlı Amerika ictimaiyyətini və ölkə qanunvericiliyini bu qeyri-insani aksiyanı rəsmi şəkildə pisləyən sənəd qəbul etməyə çağırır. Bundan əlavə, Benilüks Azərbaycanlıları Konqresinin Avropa Parlamentinə və Benilüks ölkələrinin qanunverici qurumlarına ünvanlanmış müraciətində deyilir ki, 1990-cı il yanvarın 20-si hüzn günü olmaqla yanaşı, eyni zamanda Azərbaycanda sovet hakimiyyətinin sona çatması günüdür. Müraciətdə Avropa qanunvericiləri bu qeyri-insani aksiyanı rəsmi şəkildə pisləyən qətnamə qəbul etməyə çağırılır.

Əsrlər keçsə də, Qara Yanvar faciəsinin Azərbaycanın və azərbaycanlıların qanlı tarixi olduğunu dünyaya tanıtmalıyıq. Dünya ictimaiyyəti də bilməlidir ki, bu qan heç vaxt yerdə qalmayacaq!

**“Xalq qəzeti”.-**2012.-17 yanvar.-N 10.-S.6.

# 20 Yanvar faciəsi barədə ən dəqiq və rəsmi sənədlərlə hamının tanış olması mümkündür

*İttifaq Mirzəbəyli*

**Bu cinayət hadisəsi bütün dünyaya tarixi faktlar və həqiqətlər əsasında çatdırılır. Azərbaycan gənc müstəqil dövlət olduğuna görə ötən əsrin 90-cı illərində bizim səsimizi bir çox dairələrdə bilərəkdən, əksər ünvanlarda isə müxtəlif səbəblərdən "eşitmirdilər".**

Heydər Əliyev siyasəti və xüsusən, ulu öndərin maneə tanımayan diplomatik fəaliyyəti nəticəsində Azərbaycanın səsi dünyanın ən müxtəlif guşələrində eşidilməyə başladı. Bizim beynəlxalq aləmdə daha çox eşitdirməli olduğumuz Dağlıq Qarabağ münaqişəsi,

20 Yanvar faciəsi, Xocalı soyqırımı, tarixi ərazilərimizin böyük əksəriyyətinə sahib çıxa bilməməyimiz və bu kimi digər məsələlər artıq planetimizin bütün guşələrində hamı üçün eşidilən olub.

Ulu öndər Heydər Əliyevin bütün xarici səfərlərində və beynəlxaq tədbirlərdəki çıxışlarında olduğu kimi Prezident İlham Əliyevin də istənilən dostumuz və bədxahımız olan siyasətçilərlə görüşlərində bu məsələlər çox böyük ustalıqla gündəliyə gətirilir və Azərbaycanın mənafeyi baxımından müzakirəsinə nail olunur. Bu sahədə Heydər Əliyev Fondunun təşəbbüsü ilə reallaşdırılan layihələrin əhəmiyyətini xüsusilə qeyd etmək zərurəti var. Bununla belə, bütün yaradıcı qurumlar və dövlət orqanları Azərbaycan həqiqətlərinin beynəlxalq aləmə məhz olduğu kimi çatdırılmasında özünəməxsus uğurlara imza atırlar. **Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının (preslib.az )** işləyib hazırladığı elektron layihələr də bu baxımdan xüsusi əhəmiyyət kəsb edir.

Kitabxananın 20 Yanvar faciəsinin növbəti ildönümü ərəfəsində daha da təkmilləşdirilmiş variantda oxuculara təqdim etdiyi "Təcavüz: 20 Yanvar. Bakı, 1990" adlı elektron layihə tariximizin qanlı və şanlı səhifələrindən olan həmin qara gün barədə nəyisə öyrənmək və ya dəqiqləşdirmək istəyən hər kəs üçün çox dəyərli vəsaitdir. Bəlkə də hansısa oxucu belə düşünə bilər ki, 23 il əvvəl baş vermiş bir faciə barədə nəyin dəqiqləşdirilməsi mümkündür? Bu suala cavab olaraq bir məsələni yada salmaq lazımdır. Belə ki, 20 Yanvar faciəsi ilə bağlı son 15 ildə dünyanın müxtəlif ölkələrində keçirilən anım tədbirlərinin, az qala, hərəsində bu faciə zamanı həlak olan insanların sayı fərqli göstərilir. 122-dən (Rusiya) 177-yə qədər olan (ABŞ) bu rəqəmlərin heç biri imperiya ordusunun Azərbaycan azadlıqsevərlərinin başına gətirdiyi müsibətin miqyasını kiçiltmək iqtidarında deyil. Ancaq ulu öndər Heydər Əliyevin bizə tövsiyə etdiyi kimi biz bütün hadisələri adıyla qeyd etməli, bütün faktların ən həqiqi variantını tapmalı, rəqəmlərin isə ən dəqiqini göstərməliyik. Prezident kitabxanasının qeyd etdiyimiz elektron layihəsində hadisələr, faktlar və rəqəmlər, sanki, mikroskopla öyrənilmiş kimi dəqiqləşdirilib. Aşağıda həmin faktları və rəqəmləri oxuculara təqdim edəcəyik.

" Azərbaycana qarşı cinayət", "Rəsmi sənədlər", "Elektron resurslar" və "Fotoarxiv" adlı Azərbaycan, ingilis və rus dillərində tərtib olunmuş bu layihənin sənədləri arasında akademik Ramiz Mehdiyevin 2000-ci ildə işıq üzü görmüş "Azərbaycana qarşı soyqırımı gerçəkləri" adlı kitabının 20 Yanvar faciəsinə həsr olunmuş fəsli ("Faciənin analitik təhlili" ) verilib. Bu sənəddə qanlı faciədə dini amil, Qafqaz amili, milli amil, 20 Yanvarın geosiyasi aspekti, 20 Yanvar və Dağlıq Qarabağ münaqişəsi tarixi gerçəkliklərlə üz-üzə qoyulur, Qanlı yanvarın ibrət dərsləri və bu kimi məsələlər analitik şəkildə təhlil olunur. "Xronologiya – 20. Yanvara aparan yol" adlı bölmədə isə ermənilərin hələ 1987-ci il oktyabrın 18-də İrəvan şəhərinin ekoloji cəhətdən çirklənməsinə etiraz bəhanəsiylə təşkil etdikləri mitinqdə Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi haqqındakı çağırışlarından başlayaraq, bu faciə ilə bilavasitə bağlı olan bütün məqamlar öz əksini tapıb.

Bu yazının qələmə alınması zərurətini yaradan bəzi məqamları xüsusilə yada salaq. Əvvəla, 20 Yanvar şəhidlərinin sayı barədə. Adını çəkdiyimiz internet materialında oxuyuruq ki, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 17 yanvar 2000-ci il (137 nəfər), 28 yanvar 2002-ci il (2 nəfər), 27 sentyabr 2003-cü il (2 nəfər) və Prezident İlham Əliyevin 6 fevral 2008-ci il tarixli (6 nəfər) fərman və sərəncamları ilə "20 Yanvar şəhidi" fəxri adı verilmiş soydaşlarımızla birlikdə faciənin qurbanları 147 nəfərdir. Yəni bu barədə indiyə kimi səsləndirilən rəqəmlər faciədən sonrakı illərdə komissiyalar tərəfindən göstərilən ilkin rəqəmlər idi. İnternet materialındakı "Rəsmi sənədlər" bölməsində faciə ilə bağlı parlament qərarları ( 14 sənəd), fərman, sərəncam və tədbirlər planları (34 sənəd) və eləcə də görüşlər, qəbullar, çıxışlar, müsahibələr, bəyanatlar (22

sənəd) öz əksini tapır. Həmin sənədlərin hər biri müasir tariximizin daha dəqiq öyrənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Yaxud bir məqama diqqət yetirək. Faciədən on ay sonra – 1990-cı il dekabrın 5-də ölkə Prezidentinin fərmanıyla 20 Yanvar Azərbaycanda ümumxalq hüzn günü elan edilib. Cəmi 47 gün sonra isə məhz həmin prezidentin başqa bir fərmanı ilə Azərbaycanda hüzn günü elan edilməsi ilə bağlı fərman ləğv olunub. Nə üçün? Bəhanə belə olub ki, ölkədə “Şəhidlər Günü” elan olunduğuna görə hüzn gününə ehtiyac yoxdur. Əslində isə söhbət Moskvanın diqtəsi ilə atılan addımlardan – 20 Yanvar faciəsinin yaddaşlardan silinməsi üçün edilən cəhdlərdən gedirdi. Yeri gəlmişkən, adı çəkilən internet materialında 20 Yanvar faciəsindən sonra ölkədə mövcud olmuş hər üç iqtidarın bu ümumxalq hüznünə olan münasibəti çox aydın şəkildə, konkret sənədlərin dili ilə öz əksini tapır. Bircə məqamı yada salaq. Ulu öndər Heydər Əliyevin 1994-cü il yanvarın 5-də imzaladığı fərmanla yaradılmış Dövlət Komissiyasına qədər bu istiqamətdə heç bir ciddi addım atılmamışdı. Doğrudur, bir neçə xüsusi komissiya formalaşdırılmışdı. Ancaq onların da adı xüsusi idi. Özləri isə ümumi söhbətlərlə fəaliyyətlərini bitmiş hesab etmişdilər.

Bir sözlə, ötən əsrin sonlarında özünün tarixi haqqı olan dövlət müstəqilliyinə qovuşmaq üçün mübarizəyə qalxmış Azərbaycan xalqı bu yolda ilk böyük zərbəni 1990-cı ilin yanvar ayında almışdı. Həmin faciənin milli yaddaşımızda əbədiləşdirilməsi üçün atılan istənilən addım yüksək qiymətləndirilir və dəstəklənir. Ən başlıcası, bu qanlı və şanlı səhifə hər bir soydaşımızın yaddaşına əbədi yazılıb.

**“Xalq qəzeti”.-**2013.-16 yanvar.-N 9.-S.8.

# 20 Yanvar Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinin qəhrəmanlıq səhifəsidir

*Havva Məmmədova,*
tarix elmləri doktoru

**1990-cı ilin qanlı 20 Yanvar hadisələrindən 23 il keçir. İyirmi üç il əvvəl sovet imperiyasının Azərbaycan xalqına, eyni zamanda bəşəriyyətə qarşı törətdiyi misli görünməmiş vəhşilik bu gün də unudulmayıb.Vətənin azadlığı və müstəqilliyi naminə öz haqq səsini qaldırmış dinc, əliyalın insanların gülləbaran olunması və hərbi zirehli maşınların altında xıncım-xıncım edilməsi 1949-cu ilin Cenevrə Konvensiyasının, Beynəlxalq Hərbi Tribunalın Əsasnaməsinin, Beynəlxalq İnsan Haqları Bəyannaməsinin, insan haqlarına dair digər çoxsaylı beynəlxalq aktların müddəalarının kobud şəkildə pozulması demək idi.**

1990-cı il yanvarın 20-də sovet rejimi Azərbaycan xalqına qarşı əvvəlcədən düşünülmüş və planlaşdırılmış dəhşətli qırğın aktı həyata keçirdi. Dinc əhaliyə qarşı tarixdə misli görünməmiş cinayət törədildi. Dövlət öz vətəndaşlarına - əliyalın mülki əhaliyə, o cümlədən uşaqlara, qadınlara, qocalara silah qaldırdı. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın zorla qoparılıb alınmasına dinc yolla etiraz edən əhaliyə imperiya ordusu tərəfindən qəddarcasına divan tutuldu. Bakıda və respublikanın digər rayonlarında qan su yerinə axdı.

1988-ci ildən başlayan hadisələr sovet rejiminin süqutundan xəbər verirdi. Hadisələrin getdikcə daha da gərginləşməsindən qorxuya düşmüş SSRİ-nin o vaxtkı rəhbəri Mixail Qorbaçov çürüməkdə olan sovet imperiyasını qoruyub saxlamaq üçün ən çirkin vasitələrə əl atırdı. Hətta bu yolda sovet ordusunun gücündən də yararlanmaqdan çəkinmirdi. Dinc əhaliyə qanlı divan tutulması ilk dəfə 1989-cu ildə Tbilisidə baş verdi. Ölkədə baş verən hadisələrə etiraz edən əhali gülləbaran edildi. Əslində M.Qorbaçov bu qəddarlığı ilə digər xalqlara “ibrət dərsi” vermək istəyirdi. Bir il sonra isə–1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə M. Qorbaçovun rəhbərliyi ilə sovet ordusu erməni quldur dəstələri ilə birgə Azərbaycan xalqına qarşı dəhşətli terror aktı həyata keçirdi. Azərbaycana göndərilən peşəkar cəza dəstələrinin tərkib hissəsinə Stavropol, Krasnodar, Rostov və başqa yerlərdən səfərbərliyə alınan erməni əsgər və zabitləri, Azərbaycandakı sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantlar da daxil edilmişdi. Rus imperiyasının və çarizmin milli münaqişələr və qırğınlar törətmək sahəsindəki “zəngin” tarixi təcrübəsi də 1990-cı ilin 20 yanvarında Azərbaycan xalqına qarşı törədilən qırğın zamanı bütünlüklə nəzərə alınmışdı. Keçmiş SSRİ rəhbəri Azərbaycandakı azadlıq aşiqlərini bu yolla susdurmağa cəhd etdi.

Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 1990-cı ilin 20 yanvarında ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçələrinə və meydanlarına çıxaraq buna öz qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı sovet ordusunun döyüş hissələri tərəfindən qanlı divan tutulması tarixdə analoqu olmayan hadisədir. Həmin faciəli günlərdə öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar.

Böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi Mixail Qorbaçov başda olmaqla cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, öz azadlığına, müstəqilliyinə can atan Azərbaycan xalqının həm də mübarizliyini, əyilməzliyini, məğrurluğunu nümayiş etdirdi.

1990-cı ilin 20 yanvarında keçmiş sovet dövlətinin hərb maşınının Azərbaycan xalqına qarşı həyata keçirdiyi qətllər insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi bəşər tarixində qara səhifə olaraq qalacaqdır. Milli azadlığı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi.

Sovet hərbi hissələrinin Azərbaycana təcavüzü, dinc, əliyalın insanların kütləvi surətdə, faciəli şəkildə qətlə yetirilmələri artıq təkcə məhvə doğru gedən sovet rejiminin dağılmasının əlaməti deyildi. Bu, həm də azərbaycanlıları öz əzəli və tarixi dədə-baba torpaqlarından sıxışdırıb çıxarmaq barədə qabaqcadan hazırlanmış məqsədyönlü siyasətin tərkib hissəsi idi. Bu qanlı faciə SSRİ rəhbərliyinin beynəlmiləlçilik adı ilə bütün vasitələrlə ört-basdır etməyə cəhd göstərdiyi siyasətin həyata keçirilməsini bir daha təsdiqlədi. Xalq soydaşlarımızın öz isti ocaqlarından, əzəli və tarixi torpaqlarından, yurd-yuvalarından kütləvi surətdə,

qəddarlıqla çıxarılmasına, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə ciddi etirazını bildirir, buna yol verməməyi tələb edirdi.

Həmin dövrdə Azərbaycan Ermənistanın təcavüzünə məruz qalmışdı. Təbii ki, SSRİ-nin o vaxtkı rəhbəri Mixail Qorbaçovun millətlər arasında ayrı-seçkilik salması və Ermənistana açıq-aşkar himayədarlıq etməsi respublikamızda dözülməz vəziyyət yaratmışdı. Belə bir şəraitdə sovet ittifaqının rəhbərliyi ədalətli, qanuni qərar qəbul etmək əvəzinə, ordunun gücündən istifadə etdi. Qəddarlıq və xüsusi amansızlıqla insanlara divan tutan sovet ordusunun Bakıya və regionlara girməsi və fövqəladə vəziyyətin elan edilməsi Azərbaycanın o vaxtkı rəhbərliyinin razılığı, istəyi və SSRİ Ali Sovetinin 19 yanvar 1990-cı il tarixli qərarı, eləcə də M.Qorbaçovun razılığı ilə olmuşdur. 1990-cı il yanvarın 19-da Mixail Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. Xalqın istiqlaliyyət və azadlıq arzusunu gözündə qoymaq üçün Bakıya təxminən 35 minlik ordu yeridilmişdi. Bu qanlı əməliyyatın yerinə yetirilməsində SSRİ Müdafiə Nazirliyi, DİN və DTK-nın hazırlayıb həyata keçirdiyi əməliyyatda xüsusi təyinatlı "ALFA" və SSRİ DTK-nın "A" təxribat qrupları əsas rol oynamışlar. Sonradan isə öz qanlı əməllərini ört - basdır etmək üçün demişdilər ki, guya Bakıya yeridilən sovet ordusu şəhərdəki hərbi qulluqçuların ailələrini qoruyacaq, "millətçi ekstremistlər" tərəfindən hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını alacaqmış. Təbii ki, bu, ittifaq rəhbərliyinin öz qanlı əməllərini həyata keçirmək, azadlıq, müstəqillik istəyi ilə etiraz səsini qaldırmış bir xalqın səsini boğmaq üçün uydurulduğu bəhanə idi.

"Millətçi ekstremistlər"in hakimiyyətin zorakılıqla ələ keçirilməsindən söhbət düşmüşkən burada bir məqamı qeyd etmək mütləq vacibdir. Adlarını xalq hərəkatının liderləri qoyan bəzi vəzifə hərisləri həmin dövrdə respublikada yaranmış qarışıqlıqdan istifadə edərək hakimiyyəti ələ keçirməyə çalışırdılar. Əslində isə "meydan qəhrəmanları" kimi tanınan belələri 20 Yanvar faciəsinə görə bilavasitə siyasi və mənəvi məsuliyyət daşıyırlar. Silahsız insanları təpədən-dırnağadək silahlanmış sovet ordusunun üstünə göndərən üzdəniraq xalq hərəkatının liderləri faciəli nəticələr üçün məsuliyyət hiss etməli idilər.

Bakının imperiyanın nəzarəti altına alınması planı DİN-in, DTK-nın və sovet ordusunun hissələri ilə, müdafiə naziri Yazovun komandanlığı altında həyata keçirildi. Azərbaycanın o vaxtkı rəhbəri Əbdürrəhman Vəzirovun cəsarətsiz, qətiyyətsiz addımları, siyasi təslimçilik nümayiş etdirməsi qanlı faciənin üstünün ört-basdır edilməsinə, cinayətin baş verməsində əsas günahkarın Azərbaycan xalqında olmasını sübut etməyə istiqamətlənmişdi. O vaxt informasiya blokadasında boğulan Azərbaycan bu qanlı hadisə barəsində dünya ictimaiyyətinə ətraflı məlumat verməkdə aciz idi. SSRİ DTK-nın "ALFA" qrupunun yanvarın 19-da saat 19.27-də Azərbaycan Televiziyasının enerji blokunu partlatması nəticəsində bu dəhşətli hadisə barəsində hətta yerli əhali, regionlarda yaşayanlar da ətraflı məlumat ala bilməmişdilər. 20 Yanvar faciəsi barəsində beynəlxalq aləmə ilk məlumat ulu öndər Heydər Əliyev tərəfindən verildi. 1987-ci ildə Kremldə tutduğu vəzifədən uzaqlaşdırılan, lakin bundan sonra da təqib və təzyiqlərə məruz qalan ümummilli lider Heydər Əliyev Bakıda törədilən faciənin ertəsi günü - yanvarın 21-də həyatını riskə qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək mətbuat konfransı keçirdi və dünyanın aparıcı kütləvi informasiya vasitələri təmsilçiləri qarşısında sovet rəhbərliyinin Azərbaycan xalqına qarşı təcavüzünü açıq şəkildə pisləyən bəyanat verdi və bu dəhşətli faciəyə siyasi qiymət verilməsini tələb etdi. Ümummilli lider dünyanın tanınmış kütləvi informasiya vasitələri qarşısındakı çıxışında demişdir: "Azərbaycana kənardan böyük ordu kontingenti yeridilmişdir. Respublikada neçə ordu birləşməsinin olduğu mənə yaxşı bəllidir. Azərbaycanda kifayət qədər - 4-cü ordu, Xəzər Hərbi Dəniz Donanması, Desant qoşunlarının diviziyası, Hava Hücumundan Müdafiə Qoşunları, Daxili İşlər Nazirliyinin daxili qoşun birləşmələri vardır. Oraya əlavə qoşun yeritmək nəyə lazım idi? Əgər belə zərurət var idisə, orada yerləşən hərbi hissələrdən də istifadə etmək olardı. Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə bərk ayaqda Azərbaycanı qoyub qaçmış Vəzirov öz xalqı qarşısında məsuliyyət daşımalıdır. Ölkənin ali siyasi rəhbərliyinə yanlış məlumat verənlər də məsuliyyət daşımalıdırlar, zənnimcə, ölkənin ali siyasi rəhbərliyinə vəziyyət barədə vaxtında kifayət qədər düzgün, dəqiq, obyektiv informasiyalar çatdırılmamışdır. Rəhbərlik çaşqınlığa salındığından belə qərar qəbul etmişdir. Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır".

Ulu öndərin etiraz səsi bütün dünyaya yayıldı və böyük rezonans doğurdu. Təəssüflər olsun ki, Azərbaycanın o vaxtkı rəhbərləri əks mövqe tutdular və ümidlərini yenə də Moskvaya bağladılar. Həm SSRİ, həm də Azərbaycan rəhbərliyi bu qanlı cinayətin bilavasitə təşkilatçıları və iştirakçıları nəinki onun açılması və cinayətkarların məsuliyyətə cəlb olunmasından ötrü tədbirlər görmüş, əksinə törədilmiş cinayətləri ört-basdır etmək üçün əllərindən gələni etmişdilər. 20 Yanvar faciəsinə ilk dəfə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1990-cı il noyabrın 21-də öz siyasi-

hüquqi qiymətini vermişdir. Bu tarixi sənəddə qeyd olunmuşdur ki, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri M.S.Qorbaçov, Sov.İKP MK katibi A.Girenko, SSRİ müdafiə naziri D.Yazov, SSRİ daxili işlər naziri V.Bakatin, Sov.İKP MK-nın məsul işçisi A.Mixaylov, Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirov, Nazirlər Sovetinin sədri A.Mütəllibov, Azərbaycan KP MK-nın büro üzvləri V.Polyaniçko, M.Məmmədov, DTK-nın sədri V.Hüseynov xalqımıza qarşı törədilən bu siyasi və hərbi qəsd üçün cavabdehdirlər və birbaşa məsuliyyət daşıyırlar.

Ulu öndər Heydər Əliyev 1991-ci ildə Azərbaycan SSR Ali Sovetinin sessiyalarında dəfələrlə 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verilməsi ilə bağlı məsələ qaldırmışdır. Həmin il avqust ayının 29-da böyük öndər parlamentdəki çıxışında bir daha bu məsələyə münasibət bildirmiş və qətiyyətlə demişdir: "20 Yanvar faciəsindən il yarımdan çox vaxt keçir. Bu gün burada da, bu salonda da cürbəcür söhbətlər gedir...Mən sual verirəm Ali Sovetin sədri Elmira Qafarovaya, Azərbaycan Prezidenti Ayaz Mütəllibova. Nə üçün indiyə qədər bu məsələyə siyasi qiymət verilməyib ? Bu məsələnin həm siyasi, həm də hüquqi tərəfləri var. Bu məsələyə dərhal siyasi qiymət vermək olardı. 20 Yanvar hadisəsini törədənlər xalqımıza xəyanət ediblər. Ancaq ondan sonrakı işlərdə də bu hadisənin üstünü ört-basdır edənlər ikiqat xəyanət ediblər".

Sonradan hakimiyyəti ələ keçirmiş AXC-Müsavat birliyi dövründə də Qanlı Yanvar faciəsi öz həqiqi qiymətini ala bilmədi. Yalnız ümummilli lider Heydər Əliyev yenidən siyasi hakimiyyətə gəldikdən sonra bu dəhşətli cinayət əməlinə obyektiv qiymət verildi. Ulu öndərin təşəbbüsü və təklifi ilə 1994-cü ildə 20 Yanvar hadisələrini lazımınca qiymətləndirmək yolunda ciddi addımlar atıldı. Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 1994-cü il tarixli fərmanında deyilir: "Xalqımızın tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermişdir. Tarixin yaddaşına qanla yazılmış həmin gündən bizi 4 illik zaman məsafəsi ayırır. Təəssüf ki, bu 4 il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilməmişdir.

Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının bu barədə müvafiq qərarı olmuşdur. Lakin 1992-ci il 19 yanvar tarixli bu qərarda yanvar hadisələrinin əsil səbəbləri açıqlanmamış, həqiqi günahkarları aşkar edilməmişdir. Bununla belə həmin qərarın özü də qəbul edildiyi 2 il ərzində yerinə yetirilməmişdir".

Məhz bu fərmanla Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunmuşdur ki, 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilsin. Bundan sonra Milli Məclis 20 Yanvar faciəsinə həsr olunmuş xüsusi sessiya keçirmiş və 1994-cü il martın 29-da qərar qəbul etmişdir. Həmin qərarın ayrı-ayrı bəndlərinə diqqət yetirdikdə bu dəhşətli faciənin təşkilatçılarının kimlər olduğu tam dəqiqliklə müəyyənləşir.

Qərarın 2-ci bəndində deyiyir: "İşğalçılıq siyasəti ilə Azərbaycanın suverenliyinə qəsd etmiş, xalq hərəkatını boğmaq üçün bədnam kommunist ideologiyası libasında köhnə imperiya iddialarını həyata keçirmək məqsədilə 20 Yanvar faciəsini təşkil etmiş Sovet İttifaqı Kommunist Partiyası, sovet dövləti və hökuməti rəhbərliyinin, şəxsən Mixail Qorbaçovun Azərbaycan xalqına qarşı ağır cinayət törətdiyi qeyd olunsun".

3-cü bənd: "Xalqa qarşı törədilən hərbi təcavüzə görə məsuliyyət eyni zamanda Azərbaycan Kommunist Partiyası rəhbərliyinin üzərinə düşür. Xalqın azadlıq hərəkatını boğmaq məqsədilə sovet qoşunlarının Azərbaycana çağırılmasına və xalqa qarşı yönəldilməsinə razılıq verən, vətəndaşların əmin-amanlığını təmin etməyən, hakim mövqelərini qorumaq naminə öz xalqının qanının axıdılmasına yol verən Əbdürrəhman Vəzirovun təcavüzün birbaşa təşkilatçısı və iştirakçısı olduğu, Ayaz Mütəllibovun, Viktor Polyaniçkonun, Vaqif Hüseynovun bu cinayətdə bilavasitə iştirak etdikləri, bununla da Azərbaycan xalqına xəyanət etdikləri qeyd olunsun".

Qərarda həmçinin Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Elmira Qafarovanın, Azərbaycan Kommunist Partiyası Bakı Şəhər Komitəsinin birinci katibi Müslüm Məmmədovun sovet imperiyasının qoşun hissələrinin Bakı şəhərinə yeridilməsi ilə əlaqədar heç bir konkret tədbir görmədiklərinə və vətəndaşların təhlükəsizliyini təmin etmədiklərinə görə yüksək vəzifəli şəxslər kimi məsuliyyət daşıdıqları qeyd edilir.

Ulu öndərin daxili və xarici siyasətini ləyaqətlə davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyev bütün sahələrdə olduğu kimim 20Yanvar faciəsinin qurbanlarının əziz xatirəsinin yad edilməsini daim diqqət mərkəzində saxlayır. Bakının ən yüksək yerində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş 20 Yanvar qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər Xiyabanı hər bir soydaşımız üçün ən ülvi ziyarətgahdır. Möhtərəm Prezidentimiz İlham Əliyevin diqqət və qayğısı sayəsində Şəhidlər Xiyabanı abadlaşdırılmış, faciə qurbanlarının ailələrinin sosial problemlərinin aradan qaldırılması istiqamətində daha təsirli tədbirlər görülmüşdür. Dövlətimizin başçısı bu faciəni xalqımıza qarşı qəsd adlandıraraq demişdir: "Bu qanlı faciə, deyə bilərəm ki, Sovet İttifaqı zamanında dinc əhaliyə qarşı törədilən ən amansız qanlı cinayət idi. O vaxtadək sovet ordusu dinc əhaliyə qarşı heç vaxt bu qədər qəddarlıqla, vəhşiliklə cəlb edilməmişdi. Yüzlərlə insan həlak oldu, itkin düşdü, yaralandı. Bu cinayəti törədənlər Sovet

İttifaqının o vaxtkı rəhbərliyi və Azərbaycanın o vaxtkı yerli rəhbərliyi idi... Həyat göstərir ki, bu faciəni heç kim unutmur, Azərbaycan xalqı unutmur. Baxmayaraq ki, bu illər ərzində yeni nəsil yetişir, uşaqlar, yeniyetmələr, hansılar ki, o günləri görməyiblər, yəni o vaxt yaşamayıblar. Amma onlar da bu ağır günlərdə bizim kimi, sizin kimi, öz doğmalarını itirən adamlar kimi eyni hissləri keçirirlər. Onlar da daim tariximizin bu həm faciəvi, həm qəhrəmanlıq səhifəsini qəlblərində yaşatmalıdırlar".

20 Yanvar faciəsi bir daha təsdiqlədi ki, Azərbaycanın mərd oğul və qızları torpağımızın hər bir qarışının azadlığı uğrunda canlarını qurban verməyə hazırdırlar. Bu faciə Azərbaycanın dövlət müstəqilliyinin qazanılması yolunda dönüş məqamı oldu. Mərd oğul və qızlarımızın qəhrəmanlığı və qanı bahasına qazanılmış müstəqillik dönməz və əbədidir.

**"Xalq qəzeti".-**2013.-15 yanvar.-N 8.-S.6.

# Azərbaycan tarixinin bir zamanı da belə yazıldı: 20 YANVAR FACİƏSİ

*Zümrüd Bayramova*

**Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamı əsasında ölkənin bütün şəhər və rayonlarında geniş tədbirlərin təşkili nəzərdə tutulur**

XX əsrin sonlarında Azərbaycanda müstəqillik uğrunda baş qaldıran milli- azadlıq hərəkatı sonrakı mərhələdə müstəqilliyimizin bünövrəsini qoydu. 70 illik sovet imperiyasının buxovlarını qırmaq və SSRİ rəhbərliyinin mövcud rejiminə siyasi güc nümayiş etdirmək olduqca çətin olsa da, xalqın mübarizə əzmi bu keşməkeşli yolda qalib oldu. Etiraf edək ki, xalqımız bu dövrü çox faciəli və ağır bir dövr yaşamışdı. Müstəqillik yollarında itkilərimiz də kifayət qədər oldu. Ötən əsrin 90-cı ilində baş verən 20 Yanvar faciəsi xalqın qan yaddaşının silinməz səhifəsinə yazıldı.

Bu gün artıq Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş ağrılı-acılı 1990-cı il 20 Yanvar hadisələrindən iyirmi üç il keçir. Həmin gün keçmiş sovet dövlətinin hərb maşınının Azərbaycan xalqına qarşı həyata keçirdiyi vəhşi terror aktı insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi bəşər tarixində qara səhifə olaraq yer alıb. Milli azadlığı hər vəchlə boğmaq istəyi, ölkənin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə tutulan divan, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. Bəlli oldu ki, həmin gecə 131 nəfər qətlə yetirildi, 700-ə yaxın insan isə, bu və ya digər dərəcədə bədən xəsarəti aldı. Bakıda avtomaşınlar dağıdıldı, evlər güllələbaran edildi, dinc sakinlərə atəş açıldı. Ancaq xalqımızın tarixinin ən şanlı, parlaq səhifələrindən olan 20 Yanvar hadisəsi xalqımızın mübarizə əzmini qıra bilmədi. Azərbaycan müstəqillik uğrunda mübarizəsini davam etdirdi və 1991-ci il oktyabr ayının 18-də müstəqillik aktının qəbul edilməsinə nail olmaqla istəyini reallaşdırdı.

Xalqımızın şanlı tarixinə yazılan 20 Yanvar hadisəsindən iyirmi üç il keçməsinə baxmayaraq, Azərbaycan xalqı qan yaddaşını böyük hüznlə yad edir. Bu hadisənin geniş tərkibdə keçirilməsi ilə əlaqədar olaraq, hər il tədbirlər planı hazırlanır və yüksək səviyyədə həyata keçirilir. Bu günlərdə Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin "20 Yanvar faciəsinin iyirmi üçüncü ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planının təsdiq olunmasına dair imzaladığı sərəncama əsasən, ölkənin bütün şəhər və rayonlarında, idarə, müəssisə və təşkilatlarda 20 Yanvar hadisələri ilə bağlı toplantı, konfrans və mühazirələrin təşkil olunması, o cümlədən, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşaların göstərilməsi, bədii və sənədli filmlərin nümayişi nəzərdə tutulur.

Artıq illərdir ki, faciənin mahiyyətinin, rus ordusunun iyrənc simasının, insanların azadlıq istəyinin lazımı səviyyədə təqdimində, onun coğrafi məkanının genişləndirilməsi istiqamətində ardıcıl və planlı şəkildə tədbirlər gerçəkləşir. Yaşanılan qırğının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması üçün Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri və Azərbaycan icmaları vasitəsilə mərasimlər təşkil edilir, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar faciəsi barədə materiallar təqdim edilir. Bu və ya digər görülən işlərin davamı olaraq sözügedən sənədə əsasən də, 20 Yanvar faciəsinin dünya ictimaiyyətinə çatdırılması ilə bağlı tədbirlərin təşkili planlaşdırılır.

Tədbirlər planında 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardım verilməsi, Şəhidlər Xiyabanı ərazisində təmizlik-abadlıq işlərinin aparılması, bütün tədris müəssisələrində yanvarın 18-də faciəyə həsr olunmuş xüsusi dərsin keçirilməsi də öz əksini tapıb. Bütün bunlarla yanaşı, sənəddə həmin gün ərzində ölkənin hər yerində faciə qurbanlarının xatirəsini yad etmək məqsədi ilə dövlət bayraqlarının endirilməsi və digər tədbirlərin reallaşdırılması nəzərdə tutulub.

Bütün nəzərdə tutulan tədbirlər Azərbaycan dövlətinin, xalqının həmin müdhiş gecədə həlak olan vətən oğullarına olan məhəbbəti ilə yanaşı, Azərbaycanın milli azadlığı, müstəqilliyi uğrunda yollar açdılar.

Belə bir tarixi yaşayan Azərbaycan hadisələrə hüquqi müstəvidən yanaşdı. Etiraf edək ki, Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonrakı ilk illərdə ölkə daxilində baş verən hərc-mərclik respublika rəhbərləri tərəfindən 20 Yanvar qırğınına siyasi-hüquqi qiymət verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində məqsədyönlü iş aparılmadı. Yalnız 1994-cü ildə Qanlı Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verildi, faciənin günahkarlarının adları açıq şəkildə bəyan edildi.

Bu gün Bakının ən yüksək nöqtələrindən birində hər birimiz üçün müqəddəs and yerinə çevrilmiş məkan var: 20 Yanvar qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər Xiyabanı. Hər il yanvarın 20-də minlərlə insan Vətənin azadlığı və suverenliyi uğrunda canlarından

keçmiş Azərbaycan oğul və qızlarının əziz xatirəsini ehtiramla yad etmək üçün buranı ziyarət edir. Yeni nəsillərə tariximiz bu zirvədən aydın və olduğu kimi görünür. Azərbaycan tarixinin bir zamanı da belə yazıldı: 20 YANVAR FACİƏSİ.

**"Səs".-**2013.-12 yanvar.-№5.-S.6.

# 20 Yanvar faciəsi Azərbaycan xalqına qarşı törədilmiş dəhşətli soyqırımıdır

*Əliqismət Bədəlov*

**20 Yanvar günü bizim böyük faciəmizdir, ancaq eyni zamanda Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsidir. O gündən keçən müddət ərzində Azərbaycan demək olar ki, tamamilə yeni mərhələyə qədəm qoydu. Bu gün ölkəmiz dünyada ən sürətlə inkişaf edən ölkədir. Azərbaycan sübut etdi ki, xalqının iradəsinə əsaslanaraq müstəqil, azad ölkə kimi uğurla inkişaf edir. 20 Yanvar faciəsi Azərbaycan xalqının yaddaşından heç vaxt silinməyəcəkdir. Şəhidlərimizin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaq.**

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

**O faciəli, dəhşətli, qanlı hadisələrdən 23 il keçir. Həmin müdhiş gecədə ayaqdan başa qədər silahlanmış imperiya ordusunun əliyalın dinc əhaliyə, azadlıq, müstəqillik arzusunda olan insanlara qanlı divan tutmasından 23 il ötür. Həmin gün dinc əhali güllləbaran edilsə də xalqımızın polad iradəsini sındıra bilmədi, insanları müstəqillik, istiqlaliyyət istəyindən döndərməyi bacarmadı. Azərbaycan xalqının bu əzmi, azadlıq eşqi imperiyanı dəhşətə gətirdi. Respublikamızda ehtiyac olmadığı halda qeyri - qanuni fövqəladə vəziyyət elan olunsa da, xalq imperiyanın qarşısından çəkilmədi, qorxmadı və azadlıq, müstəqillik uğrunda mübarizəsini sona qədər davam etdirdi.**

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə heç bir xəbərdarlıq edilmədən şəhərə daxil olan sovet qoşun hissələri müstəqillik arzusu ilə küçələrə çıxan dinc əhalini pulemyotlardan və avtomatlardan atəşə tutdu. SSRİ Müdafiə Nazirliyinin, DİN və DTK-nın hazırlayıb həyata keçirdiyi “Udar” adlı əməliyyatda əsas rolu xüsusi təyinatlı “ALFA” və SSRİ DTK-nın “A” təxribat qrupları oynayırdı. Bakının müxtəlif rayonlarında sovet əsgərləri tərəfindən 121 insan qətlə yetirildi, 700-dən artıq vətəndaş yaralandı və ağır xəsarət aldı. Sonrakı günlər də daxil olmaqla 132 nəfər həlak oldu. Onlardan 123-ü kişi, 5-i qadın, 4-ü uşaq idi.

20 Yanvar faciəsində azərbaycanlılarla yanaşı, Bakıda yaşayan 6 rus, 3 tatar, 3 yəhudi həlak olmuşdur. Həlak olanların arasında 4 polis , 1 həkim,

1 aspirant, 3 elmlər doktoru olub. 700-dən çox yaralının 25-i qadın, 20-si uşaq idi. Bu faciə əslində imperiya ordusunun, erməni quldur dəstələri ilə birgə Azərbaycan xalqına qarşı həyata keçirdiyi terror aktı idi. Böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi keçmiş SSRİ - nin rəhbəri Mixail Qorbaçov başda olmaqla cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinin nəticəsi idi. Buna dözməyən, öz azadlığına, müstəqilliyinə qovuşmaq istəyən Azərbaycan xalqı öz mübarizliyini, əyilməzliyini, məğrurluğunu nümayiş etdirdi.

1989-cu ildə Tbilisidə əlləri günahsız insanların qanına batmış Mixail Qorbaçov öz çirkin niyyətlərini bu dəfə xalqımıza qarışı yönəltmişdi. Beynəlxalq birlik 1956-cı ilin Budapeşt, 1968-ci ilin Praqa, o cümlədən 1989-cu ilin Tbilisi, 1991-ci ilin Riqa və Vilnüs hadisələrinə müvafiq hüquqi qiymət verdiyi halda, 1990-cı ilin yanvarında Bakıda yaşanan qanlı olaylara fərqli prizmadan yanaşdı. Azərbaycan mənfur qonşusu Ermənistanın da təcavüzünə məruz qalmışdı. Belə bir vaxtda sovet rəhbərliyi münaqişənin qarşısını almaq üçün qəti tədbirlər görmək əvəzinə, Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni əsgər və zabitləri, sovet hərbi hissələrində xidmət edən erməniləri, hətta erməni kursantları da daxil etmişdi.

Bakıda “rus və erməni kartından” məharətlə istifadə olundu. Guya Bakıya qoşun yeritməkdə əsas məqsəd hərbi qulluqçuların ailələrini qorumaq, “millətçi ekstremistlər” tərəfindən hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq idi. Əslində isə bu çökməkdə olan imperiyanın növbəti uydurması, azadlıq istəyində olan xalqı odlu silahla qorxutmaq, zorakı yollarla susdurmaq və öz əsarətlərində saxlamaq idi. Əgər imperiya rəhbərliyinin söylədikləri hətta həqiqətə yaxın olsaydı belə, Bakıya ən müasir silahlarla təpədən-dırnağadək silahlandırılmış qoşun göndərməyə ehtiyac yox idi. Ona görə ki, həmin vaxt burada daxili qoşunların 11,5 min əsgəri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri , hava hücumundan müdafiə qüvvələri var idi. 4-cü ordunun komandanlığı da Bakıda yerləşirdi.

20 Yanvar faciəsini doğuran əsas səbəblər, xalqımızı soyqırımına gətirib çıxaran, Mixail Qorbaçovu qorxuya salan nə idi?

1980-ci illərin axırlarında Azərbaycanda ictimai-siyasi vəziyyət kəskinləşdi. Keçmiş Sovet İttifaqında gedən proseslər, ölkə rəhbərliyinin uğursuz "yenidənqurma" siyasəti, iqtisadi islahatların düzgün aparılmaması, milli siyasət sahəsində buraxılan kobud səhvlər bütün respublikalarda olduğu kimi, Azərbaycanda da milli-azadlıq hərəkatının geniş vüsət almasına səbəb olmuşdu. Azərbaycanda ictimai-siyasi vəziyyətin kəskinləşməsinin əsas səbəblərindən biri də Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etməsi və qondarma "Dağlıq Qarabağ problemi"nin ortaya atılması idi.Mixail Qorbaçova və SSRİ rəhbərliyindəki digər havadarlarına arxalanan ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və dinc əhaliyə qarşı terror aktları nəhayət xalqın səbr kasasını daşdırdı . "Torpaqdan pay olmaz" tələbi ilə ayağa qalxan xalqın etiraz dalğaları Kremli silkələməyə başlamışdı. Ümumxalq mitinqləri, 1989-cu il dekabrın 31-də Naxçıvanda Azərbaycan-İran sərhədinin sökülməsi, xalqın azadlıq və müstəqillik uğrunda mübarizəsi SSRİ rəhbərliyini qorxuya salmaya bilməzdi. Ona görə də Azərbaycanda baş qaldırmış xalqın etiraz səsini boğmaq üçün SSRİ Dövlət Təhlükəsizlik Komitəsi tərəfindən planlar cızıldı. Bakıda, Sumqayıtda. Lənkəranda, Cəlilabadda, Neftçalada və digər bölgələrdə ermənilərə və ruslara qarşı düşünülmüş şəkildə təxribatlar törədildi. Digər tərəfdən Azərbaycana rəhbərlik edən Əbdürrəhman Vəzirovun yarıtmaz dövlət idarəçiliyi, Kremlin itaətində dayanması, milli adət - ənənlərimizə zidd hərəkətləri xalqı daha da qəzəbləndirmişdi.

Ölkədə yaranmış qarışıqlıqdan, anarxiya və özbaşınalıqdan şəxsi mənafeləri naminə istifadə edərək hakimiyyəti ələ keçirməyə çalışan, özlərini xalq hərəkatının lideri hesab edənlər vəziyyəti daha da kəskinləşdirirdi. İsa Qəmbər, Nemət Pənahlı, Rəhim Qazıyev və digərləri sovet qoşunlarına müqavimət göstərmək üçün xalqı küçələrə çıxmağa çağırırdılar. "Meydan liderləri" küçə və meydanlara çıxanlara silah paylanılacağı barədə yalan vədlər verir, imperiya ordusunun şəhərə yaxınlaşdığını bilsələr də, bunu gizli saxlayırdılar. Son anda isə onların hamısı qaçıb aradan çıxdılar. O dövrdə ölkəyə rəhbərlik edən Ə.Vəzirovun, həmçinin A.Mütəllibovun və respublika DTK-sının sədri V.Hüseynovun imzası ilə Moskvaya göndərilmiş şifroqramlar sovet ordusunun Bakıya yeridilməsi üçün Mixail Qorbaçovun əlində əsas olmuşdur. Sonra baş verən dəhşətli faciənin ağır nəticələri indi də hər birimizin ürəyini ağrıdır.

20 Yanvar cinayəti. Bəşəriyyət və insanlıq əleyhinə törədilmiş dəhşətli əməl idi. Dinc əhaliyə qarşı həyata keçirilən cəza tədbirləri zamanı 1949-cu ilin Cenevrə Konvensiyasının, Beynəlxalq Hərbi Tribunalın Əsasnaməsinin, Beynəlxalq İnsan Haqları Bəyannaməsinin, insan haqlarına dair digər beynəlxalq aktların çoxsaylı müddəaları pozulmuşdu. Bu məqamlar 20 Yanvar hadisələri ilə bağlı aparılmış ən səthi təhqiqatlarda da təsdiqlənir.

20 Yanvar faciəsinin günahkarları uzun müddət xalqdan gizli saxlanıldı. Hətta A.Müttəlibovdan sonra hakimiyyəti ələ keçirmiş AXC - Müsavat cütlüyü bu faciənin tötədilməsinin əsl mahiyyətini açmaqda maraqlı olmadı. Bunun əsas səbəblərindən biri bu facənin törədilməsində həmin hakimiyyətdə yüksək vəzifədə təmsil olunanlardan bəzilərinin bilavasitə iştirakçı olması idi. Yalnız ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verildi. Heydər Əliyev hələ hakimiyyətə gəlməmişdən qabaq demişdir: "Mən belə hesab edirəm ki, 19-20 yanvarda baş vermiş bu fajiə həm Sovet İttifaqının siyasi rəhbərliyinin, şəxsən Mixail Qorbaçovun böyük günahının nəticəsidir, onun diktatorluq meyillərindən əmələ gəlmiş bir haldır və eyni zamanda Azərbaycan rəhbərlərinin xalqa xəyanətinin və cinayətinin nəticəsidir"

Ulu öndərin hakimiyyətə yenidən qayıdışından sonra -1994-cü ildə 20 Yanvar faciəsinə hüquqi- siyasi qiymət verildi, bu faciə Azərbaycan xalqına qarşı törədilmiş hərbi təcavüz və cinayət kimi dəyərləndirildi. Müstəqil Azərbaycanın tarixinə xalqımıza qarşı törədilmiş dəhşətli soyqırımı kimi həkk olunmuş 20 Yanvar faciəsi sonralar da Heydər Əliyev tərəfindən daim diqqət mərkəzində saxlanıldı və həmin günün "Azərbaycan tarixində, ölkəmizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda qəhrəmanlıq rəmzi kimi müstəsna əhəmiyyəti" qeyd edildi.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin "20 Yanvar faciəsinin on birinci, on ikinci və on üçüncü ildönümünün keçirilməsi haqqında 5 yanvar 2001-ci il, 5 yanvar 2002-ci il və 28 dekabr 2002-ci il tarixli sərəncamları da həm 20 Yanvar faciəsinə diqqətinin, həm də həmin faciə qurbanlarının xatirəsinə ehtiramının ifadəsi kimi təqdirəlayiqdir.

Hər il Qanlı Yanvar faciəsinin törədilməsinin ildönümü ölkə rəhbərliyi və xalq tərəfindən böyük izdihamla qeyd olunur, şəhidlərin xatirəsi anılır. Xalqımıza qarşı törədilmiş bu soyqırımı ərəfəsində Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar da 20 Yanvar faciəsi qurbanlarının xatirəsinə ümumxalq ehtiramının ifadəsi olmaqla yanaşı, eyni zamanda Heydər Əliyev siyasətinin uğurlu davamı kimi də qiymətlidir. Həmin sərəncamların birində deyilir: "Xalqımız 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, ən ağır sınaqlara sinə gərmək əzmini bütün dünyaya nümayiş

etdirdi. 1990-cı ilin Qanlı Yanvarında Azərbaycanın şəhidlik zirvəsinə ucalmış Vətən övladları özlərinin fədakarlığı ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar”.

20 Yanvar hadisələri xalqımızın milli mənliyinə, milli azadlıq ruhuna qarşı təcavüz idi. Lakin Azərbaycan xalqı öz qürurunu, mənliyini itirmədi, onun iradəsi qırılmadı. Xalqımızın qan yaddaşına ağır faciə kimi yazılmış 20 Yanvar, eyni zamanda, Azərbaycan tarixində bir qəhrəmanlıq səhifəsidir.

**“Xalq qəzeti”.-**2013.-11 yanvar.-N 5.-S.5.

# Qanlı Yanvar faciəsi imperiyanın süqutunu sürətləndirdi

**Firudin Cümşüdlü**,
tarix elmləri namizədi,
ADPU-nun Azərbaycan tarixi kafedrasının dosenti

XX əsrin ən nəhəng imperiyalarından sayılan sovet dövləti azadlıq uğrunda mübarizə aparan xalqımıza divan tutmaq üçün səyini getdikcə artırırdı. Azərbaycanın sərhədlərinin pozulması bəhanəsi də bu mənada qanlı qırğına haqq qazandıra bilərdi. Buna görə də imperiya başçıları məhz sərhədçilərə insanlara dəyməmək əmri vermişdilər.

Artıq dekabrın 31-də Araz çayı ətrafı 137 kilometrlik Sovet-İran sərhədində izdiham baş qaldırdı. Nəticədə sərhəd qurğuları uçuruldu. Hər iki tərəfin adamları Arazı keçərək bir-biri ilə görüşdülər.1990-cı il yanvarın 7-də SSRİ-Türkiyə sərhədində də həyəcanlar baş qaldırdı. Yanvarın 18-də Biləsuvar və Cəlilabad ərazilərində sərhəd qurğuları dağıdıldı. Xalq cənub tərəfdəki qan qardaşları ilə qovuşdu. Belə bir şəraitdə Lənkəranda hadisələr sakit şəkildə davam edirdi. AXC-nin Lənkəran şöbəsi rayonda hakimiyyət orqanlarının işini müvəqqəti dayandırmağı qərara aldı.1990-cı il yanvarın 11-də rayon partiya komitəsi, daxili işlər şöbəsi mətbəə və digər sahələr mühasirəyə alındı. Rayonda müvəqqəti müdafiə komitəsi yaradıldı

.Yanvarın 12-də xalqa divan tutmaq məqsədilə ölkənin mexanikləşdirilmiş hərbi hissələri Lənkərana yeridildi.Bunun qarşısını kəsmək üçün qonşu Salyan, Sabirabad, Kürdəmir bölgələrində xalq ordu hissələri hərəkət edən yolların qarşısını kəsdi.

Bu hadisələr hakimiyyət böhranının,eləcə də, Moskva canişini və onun aparatının Azərbaycanda baş verən hadisələrə nəzarəti tam itirməsinin təcəssümü idi. Belə bir şəraitdə ermənilərin təhrikçilik hərəkətləri , onların sərhəd kəndlərimizə, eləcə də, Dağlıq Qarabağdakı azərbaycanlılar yaşayan bölgələrə silahlı hücumları güclənirdi.Yanvarın 12-də Ermənistandan 500 nəfərlik silahlı quldur dəstəsi 20 vertolyotla Xanlar rayonunun Quşçu kəndinə basqın edib silahsız əhaliyə divan tutdu, çoxlu insan - qadınlar, uşaqlar vəhşicəsinə öldürüldü. Bütün bunlara müxtəlif yollarla şərait yaradan Moskva rəhbərliyi öz məqsədinə çatmış, xalqı radikallaşdıra bilmişdi.

Yanvarın 12-də Azərbaycandakı radikal qüvvələr Milli Müdafiə Şurası (MMŞ) yaratdılar. Məqsədləri silahlı özünümüdafiə dəstələrini bir yerə cəmləşdirmək, yeni hərbi dəstələr yaratmaq və erməni hərbi birləşmələrinin basqınlarının qarşısını kəsmək idi. Respublikada AXC-ni dağıtmaq, xalq hərəkatını yatırmaq üçün münasib şərait yetişmişdi. Yanvarın 13-də Bakıda bir erməninin 2 nəfər azərbaycanlını öldürməsi paytaxtda iğtişaşları gücləndirdi. Yerli hüquq-mühafizə orqanları, eləcə də, Bakıda yerləşən SSRİ Daxili İşlər Nazirliyinin 12 minlik silahlı dəstələri isə bunun qarşısını almağa heç bir cəhd göstərmədi.

İmperiya Bakıda sovet dövlətinin devriləcəyindən, eləcə də, Azərbaycanın əldən çıxacağından qorxub paytaxt ətrafına əlavə ordu bölmələri, ağır texnika yeritməyə başladı. MMŞ-nin fəallığı ilə Bakıətrafı sahələrdə və Bakı qarnizonunun yaxınlığında əhali yük, minik maşınlarını, avtobusları yan-yana düzərək barrikadalar yaratdılar. Yolların ətrafında 26 iri maneə təşkil edildi. Salyan kazarmasının yolu kəsildi. 1990-cı il yanvarın ortalarında Azərbaycan KP MK-nın büro iclaslarında respublikadakı mövcud vəziyyət müzakirə olunurdu. Çıxış edənlər Ə.Vəzirov, A.Mütəllibov, V.Polyaniçko, E.Qafarova və başqaları, eləcə də, Bakıda olan Y.Primakov və yüksək rütbəli Moskva hərbçiləri güc tətbiq olunmasının zəruriliyini bildirdilər. Buna etiraz edən və ya başqa təklif verən isə olmadı. 1990-cı il yanvarın 15-də Ə.Vəzirov Moskvaya teleqram göndərərək, tələb edirdi ki, “Antisovet,antipatiya şüarları ilə mitinq edən ekstremistlərin liderləri dərhal məsuliyyətə cəlb edilməlidirlər. Bunun üçün hüquqi əsaslar vardır”. Bunun ardınca Azərbaycan SSR Nazirlər Sovetinin sədri A. Mütəllibov Moskvaya göndərdiyi teleqramda bildirirdi ki, respublikanın SSRİ güc nazirlikləri hərbi kontingentini qeyri-qanuni silahlı birləşmələri tərkisilah etmək üçün əməliyyat keçirəcəkləri müddətdə yerləşdirmək və ərzaqla təmin etmək üçün hər cür imkanı vardır.

Azərbaycan Ali Soveti Rəyasət Heyətinin müraciətinə əsasən SSRİ Ali Soveti Rəyasət Heyəti yanvarın 15-də “Dağlıq Qarabağ Muxtar Vilayəti və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında” Fərman verdi.İmperiya Azərbaycan Ali Sovetinə təklif etdi ki, Bakı və Gəncə şəhərlərində və digər yaşayış məntəqələrində komendant saatı tətbiq edilməsi də daxil olmaqla lazımi tədbirlər görsün.

1990-cı il yanvarın 17-dən AKP MK-nın binası qarşısında əzəmətli mitinq başlandı, ümumi tətil elan olundu. Mitinqdəki çıxışlarda tələb edildi ki, Moskva Ermənistanın Azərbaycana ərazi iddialarına qəti olaraq son qoysun. İmperiyanın Bakıya və ətraf bölgələrə yığdığı qoşunlar Dağlıq Qarabağa və erməni hücumlarına məruz qalan sərhəd bölgələrinə göndərilsin. Mərkəz Naxçıvanda da xalqı cəzalandırmaq məqsədilə fövqəladə

vəziyyət tətbiq edilməsi üçün təzyiqlərini artırırdı.Yanvarın 18-də Şərur rayonu Kərki kəndinin erməni işğalçıları tərəfindən zəbt edilməsi vəziyyəti daha da mürəkkəbləşdirdi. Xalqın tələbi ilə yanvarın 19-da Naxçıvan MSSR Ali Soveti muxtar respublikanın SSRİ tərkibindən çıxması haqqında qərar qəbul etdi. Bundan məqsəd isə Azərbaycanda baş verən hadisələrə, sovet ordusunun qanlı əməllərinə dünya xalqlarının diqqətini cəlb etmək idi və bu addım müəyyən rol oynaya bildi.

SSRİ Ali Soveti Rəyasət Heyəti 1990-cı il yanvarın 19-da "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" Fərman verdi. Xalqa divan tutmaq, qırğın törətmək üçün ordudan istifadə olunacağı nəzərə alınaraq fövqəladə vəziyyətin elan olunacağı vaxt gizli saxlanıldı. Bakıda fəaliyyətlərini davam etdirən radikallar insanlara "Silah, kömək gələcək" - deyə yalan vədlər verir, xalqın bir hissəsini barrikadaları sonadək qorumağı və buranı tərk etməməyə çağırırdılar. Piketdə iştirak edənlər imperiyanın, eləcə də, Azərbaycanın səlahiyyətli nümayəndələrinin qoşunun şəhərə daxil olmayacağı ilə bağlı dəfələrlə təkrar etdikləri yalan vədlərə inanmışdılar.

Xalq baş verə biləcək qırğından xəbər tutmasın deyə, yanvarın 19-da respublika televiziyasının enerji bloku partladılaraq sıradan çıxarıldı. Qoşun bölmələri yanvarın 19-da Türkan-Qala istiqamətindən şəhərə hərəkət etməyə başladılar. "Bakı əməliyyatı"na sovet dövlətinin müdafiə naziri D.Yazov birbaşa başçılıq edirdi. Ağır hərbi texnika asanlıqla barrikadaları dağıtmağa başladı. Əsgərlər gözyaşardıcı qazdan istifadə edir, əliyalın adamlara avtomat silahlardan atəş açırdılar. Hərbçilər təsadüf nəticəsində yola çıxanları, yaşayış evlərini, təcili yardım maşınlarını, nəqliyyatı atəşə tutur, yaralı insanları öldürür, meyitləri yandırdılar. Bakı küçələri öldürülmüş, yaralanmış adamların, qocaların, qadınların, uşaqların qanına qərq olmuşdu. Əsgərlər tibbi heyətin yaralılara köməyə getməsinə şərait yaratmır, hər vəchlə buna mane olmağa çalışırdılar. Əldə olunmuş rəsmi məlumatlara görə, Bakıya və başqa yaşayış məntəqələrinə sovet qoşunlarının basqını vaxtı 131 nəfər, o cümlədən, 117 azərbaycanlı, 6 rus, 3 yəhudi və 3 tatar öldürülmüş, 744 nəfər yaralanmış, 400 nəfər həbs edilmiş, 4 nəfər isə itkin düşmüşdür.

Fövqəladə vəziyyət haqqında Fərman artıq iş-işdən keçəndən sonra,yanvarın 20-də elan olunmuşdu. Azərbaycanda rəhbər vəzifədə olanlar xalqa kömək etmək,ona arxa durmaq əvəzinə kürsülərini qorumaq naminə qaçıb gizləndilər. Ziyalıların bir qismi yanvarın 20-də Elmlər Akademiyasında etiraz mitinqi keçirdi. Ziyalıları qorxutmaq üçün bu mitinqin iştirakçısı olan 3 tanınmış alim, professor Bakı - Sumqayıt yolunda tankın altına salınıb məhv edildi.

Başsız qalmış xalq qorxu içində idi. Yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək 6 minədək adamın iştirak etdiyi izdihamlı yığıncaqda çıxış etdi və bu ağır günlərdə heç yerdən kömək almayan doğma xalqı ilə birgə olduğunu nümayiş etdirdi. O, çıxışında bildirdi ki,"Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya və siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsəydi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün zəmin yaranmazdı". Heydər Əliyev çıxışında respublika rəhbərlərinin yarıtmaz fəaliyyətini ifşa etdi və bildirdi ki, Vəzirov bu yüksək vəzifədə olduğu müddətdə... Azərbaycanda vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə, səhv addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurum yaratmışdır". Ümummilli Lider qorxmadan imperiya rəhbərlərini "qatillər" adlandırırdı. Heydər Əliyev Azərbaycan xalqına verdiyi başsağlığında soydaşlarımızı ağır gündə "ağıllı, kamallı olmağa, həmrəyliyə və birliyə çağırdı". Xalq Heydər Əliyev kimi bacarıqlı, böyük nüfuz sahibi olan bir şəxsiyyətin onunla olduğunu, onu qorxmadan müdafiə etdiyini gördü, ürəkləndi...

Şəhidlər Bakının ən uca yerində - Dağüstü Parkda dəfn edildi.1990-cı ilin qanlı yanvarı Azərbaycan xalqı üçün yalnız böyük faciə deyildir. Bu hadisə həm də ləyaqətini, qeyrətini qorumaq üçün mübarizə aparmaqla bu yolda qurbanlar verməyə hazır olan xalqın tarixində şərəfli bir səhifədir. Heydər Əliyevin "Bizim ittifaqdan nicatımız yoxdur" sözləri xalqın ümumi rəyinin ifadəsi oldu. Xalq hərəkatı bu şüar altında keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Özlərini xalqın övladı sayıb dar gündə ona xəyanət edən rəhbərlər mühakimə olunmalıdırlar. Heysiyyətini itirmiş o zamankı respublika rəhbərləri məsuliyyətdən xilas olmaq üçün bütün günahları SSRİ rəhbərliyinin üzərinə atırdı. Lakin heç kəs heç vaxt tarix qarşısında günahını gizlədə bilməz...

**"Səs".-**2012.-24 yanvar.-№12.-S.10.

## 20 Yanvar faciəsinin zirvəsi

***Rəsmiyyə Rzalı***

22 ildir ki, Azərbaycan xalqı millət kimi 20 yanvar tarixli sabahını beləcə açır: sakit, hüznlü, üzgün, həm də məğrur. Bu tarixi xalqımız yaradıb, haqsızlığa üsyanla, qanını tökməklə. Heç kim başqa işlərinin dalınca tələsmir bu sabah. Bu sabah bir özgə sabahdır millətimiz üçün. Hamı gedəcəyi ünvanı bilir, kiməsə ünvan göstərməyə ehtiyac yoxdur, zirvədə dayanan şəhidlər xiyabanı insanları özünə çəkir. Hər qara daşdan bir işıq boylanır elə bil. Yol yoldaşımız isə qərənfillərdir bu sabah.

Böyük Hüseyn Cavid demişkən: "Azadlıq, öylə nazlı afət ki, qan tökülməyincə üzə gülməz o işvəkar". Biz isə o nazlı afətin üzünün gülməsi üçün çox qanlar tökmüşük. Amma yaralarımız yenə də açıqdır, qaysaqlanmır, nə edək? Çünki uğrunda övladları şəhid olan Vətən torpaqlarının bir hissəsi düşmən tapdağındadır.

Bu sabah yenə həmən sabahdır, 22 il öncəki kimi: sıxıntılı, qarlı, yağışlı, küləkli, duman-çiskinli. Gün axşama dönəndə bu məkan daha kövrək, daha kədərli, hüznlü, üşəntili görünür. Hələ müqəddəslərimizin ruhlarını sevindirə bilməmişik, torpaqlarımızı işğaldan azad etməmişik. Hər şeyə rəğmən biz 20 Yanvar tarixini faciə kimi yaşamırıq, xalqımızın özünüdərki, şərəf və ləyaqətimizin ucalığı, milli istiqlalımız uğrunda müqəddəs savaşımız kimi yaşayırıq. Bu, bizim millət haqqımızdır!

Amma hələ yoldayıq, onlara doğru gedirik. Hava soyuq olsa da, balaca oğlan atasının əlindən tutub insanların axınıyla gedir. Adını soruşduq, üşüyə-üşüyə Qədir - dedi. Atası söhbətimizə müdaxilə etdi: "Yanvarın 20-də yaralıları daşıyarkən atam Qədir Axundov da şəhid olmuşdu, Bu, mənim oğlumdur, atamın adını qoymuşuq, birinci sinifdə oxuyur, indi babasının ziyarətinə aparıram. Qədirdən soruşduq ki, səhər evdən çıxanda üşüyüb evə dönmək istəmədin? Balaca yol yoldaşımız həqiqəti deməkdən çəkinmədi: - Əlcəklərimi taxmamışdım deyə üşüyürdüm. Amma atam qar da yağsa gedəcəyik - deyəndə bu mənim ürəyimdən oldu. Qədirin atasıyla bir də həmsöhbət oluruq:

- Biz qardaş-bacılar Şəhidlər xiyabanında böyüdük, atamın "gözü qarşısında", ailə həyatı quranda da xeyir-dua almaq üçün hüzuruna gəlmişdik. İndi də nəvələrini gətiririk ki, görüb tanısınlar, onunla qürur duysunlar. Amma şəhidlərimizin qisasını almamışıq, atalar da deyib ki, qisas qiyamətə qalmaz, gərək biz də qisasımızı qiyamətə qoymayaq...

Növbəti söhbətdaşımız hərbçi olduğundan özünü polkovnik Bəşirov kimi təqdim etdi. Biz də etika göstərib adını soruşmadıq. Bu da hərbçilərin özünü təqdimetmə formasıdır. Ziyarətə gedirdi. Tanımaza-bilməzə bir-birimizə Vətən başsağlığı verdik, şəhidlərimizə Allahdan rəhmət dilədik, bununla da söhbətimizə körpü saldıq:

- Hər il Şəhidlər xiyabanına gələndə düşünürəm ki, hər daşdan bir igid boylanacaq, mənə sual verəcək, Bəşirov, torpaqlarımızı işğaldan azad etdinizmi? Mən nə cavab verəcəm? Təkcə özümə deyil, hər bir vətəndaşa arzulayıram ki, tezliklə elə gün gəlsin ki, şəhidlərimizi ziyarətə gedəndə şad xəbər aparaq, onların ruhunu sevindirək.

İnsanların üzündə həm hüzn, kədər, həm də düşməndən qisas, intiqam ifadəsi görünür. Elə bil əllərindəki qərənfil də top-tüfəngdir, yaxınlaşsan partlayacaq. Bizim doğrudan da, düşməndən alınmamış qisasımız qalıb. Əli günahsız Azərbaycan vətəndaşlarının qanına batmış Mixail Qorbaçov "Nobel" Sülh mükafatı aldı, bu azmış kimi oyuncaq siyasət adamı törətdiyi cinayət əməlinə dünyada hüquqi don geyindirdi. Güya Azərbaycanda yaranmaqda olan islam fundamentalizminin qarşısını alırmış. Azərbaycan xalqı var olduğu tarixdən indiyədək heç bir zaman islam fundamentalizmi adlı problemlə üzləşməyib. Dünyanın hər yerində ölkəmiz tolerantlıq nümunəsi kimi göstərilir. O anlamadı ki, bu ölkədə islam təhlükəsi yaranmışdırsa, bəs niyə ölənlərin arasında çoxlu rus, yəhudi, tatar, ukraynalı və ləzgilər var?..

Hər tərəf insandır, ona görə də yaxınlaşıb söhbətləşmək çətin deyildi, mövzu da aydındır: hadisələri yenidən xatırlamaq, millətimizin övladlarının qanını tökənləri lənətləmək, bir də Qarabağa getmək arzusu. Biznes Unversitetinin tələbəsi Ləman Misirli ziyarətə anasıyla gedirdi. Söhbətimizə onunla başlasaq da, anası hadisələrin şahidi olduğunu bildirdi:

- Mən institutun sonuncu kursunda oxuyurdum, neçə gün idi dərsə də getmirdik. Əslində, məktəbləri rəsmi şəkildə bağlamamışdılar, amma tələbələr instituta getmirdi. Hamımız meydanlarda idik. Hadisə baş verən gecəsi biz tələbə qızlar küçəyə çıxmasaq da, səhər tezdən heç nədən, heç kimdən qorxmadan qan vermək üçün xəstəxanalara qaçdıq. Yaralıları daşımaq üçün köməyə gedirdik. Heç kim evdə qalmamışdı. Hamı Azadlıq meydanına toplaşmışdı. Qadınlar haray qoparır, göz yaşları tökürdülər. Qan vermək üçün axşama qədər xəstəxananın qarşısında növbə tutub gözlədik, həkimlər, tibb bacıları da ağlayırdılar. Biz o vaxta qədər belə hadisələri ancaq televeziyada görmüşdük, ən betərini özümüz yaşadıq.

**Ləman da söhbətimizə qoşulur. Deyir ki, mən olanlar haqqında oxumuş və eşitmişəm:**

- Hər dəfə Şəhidlər xiyabanına gedəndə müqəddəslərimizə olan hörmətdən kövrəlirəm. Çox gözəl xiyaban salınıb. Bəlkə də dünyada birincidir, sanki dünyanın ən gözəl parkıdır. Bunlar şəhidlərimizin əziz xatirəsinə böyük hörmət əlamətidir. Allah onlara rəhmət eləsin, ruhları şad olsun. Daha Azərbaycan oğlu-qızı şəhid olmasın, xalqımız belə günlər yaşamasın, Qarabağın qələbə sevincini yaşasın". Amin!

**Növbəti həmsöhbətimiz Rəbiyyə İsmayılova Asiya Universitetinin filologiya fakültəsinin tələbəsidir. O dedi:**

- Ötən əsrin sonlarında, yəni doxsanıncı illərin əvvəllərində xalqımızın milli azadlıq uğrunda apardığı mübarizə yenidən baş qaldırdı. Yetmiş yaşlı sovet imperiyası milli azadlıq uğrunda mübarizələri beşiyindəcə boğmaq üçün ayrı-ayrı müttəfiq respublikalarda cinayət əməlləri törətdi. Lakin Bakıda yaşananlar tamamilə fərqli oldu. Çünki daim azadlıq eşqi ilə qəlbi döyünən xalqımızın mübarizəsi daha kəskin və əzmkar formada idi. Qarabağı Azərbaycandan qoparmağa çalışan erməni daşnaklarının əlində oyuncağa çevrilmiş sovet imperiyasının rəhbərləri xalqımıza qarşı görünməmiş faciə törətdilər. Lakin həmin dəhşətli günlərdə imperiyanın qanlı caynaqlarından qurtaran xalqımız şəhidliyin müqəddəsliyini dünyaya bəyan etmiş oldu.

22 ildən sonra həmin qətliam törədilən günlərə baxanda təkcə qanlı göz yaşlarımız axmır, qəlbimizdə qürur və iftixar hissi də baş qaldırır. Vətənimizin hər guşəsində salınan xiyabanlar mərd, mübariz, döyüşkən, düşmənə layiqincə cavab verən igidlərimizin əbədi məskəni kimi daim anılır, ziyarət yerinə çevrilir.

**Bakı şəhər sakini Səbinə Zahir öz fikirlərini belə izah etdi:**

- 20 Yanvar şəhidlərinin uyuduğu xiyaban uşaqdan-böyüyə hər birimiz üçün müqəddəs məkandır. Ona görə də illər keçdikcə bu xiyaban nəsillərimizin ziyarətgahına çevriləcək. Bu gün, o qanlı və dəhşətli gecədən 22 il keçdikdən sonra xalqımızın Şəhidlər xiyabanını mütəşəkkil qaydada ziyarət etməsi də bunu təsdiqləyir. Xiyabana tələsən hər kəsin baxışlarında qəm-kədərlə yanaşı, bir mübarizlik, əzmkarlıq ifadələri də hiss olunur. 20 Yanvar miqyasına görə ağrılı-acılı faciədirsə, mahiyyəti mübarizlikdir və tariximizin şanlı səhifəsidir. O dəhşətli gün bir daha təsdiqlədi ki, xalqımızın milli azadlıq duyğularını, qətiyyətini hər hansı imperiyanın nə tankı, nə topu, nə də digər ağır hərbi texnikası ilə sındırmaq olmaz! Təbii ki, 20 Yanvar öz dəhşətləri ilə yaddaşımıza yazılıb. Çürüməkdə olan, müvazinətini itirmiş sovet imperiyasının cəlladları o müdhiş gecədə daşnaklarla birləşərək Bakını qan çanağına döndərmişdi. Keçmiş SSRİ-nin ilk və həm də sonuncu prezidenti M. Qorbaçov nəinki milli azadlıq mübarizlərinin qətlinə, əslində, insanlığa qarşı fərman vermişdi. Lakin o dəhşətli gecədən qan içində çıxan xalqımızın mərd, qorxmaz, mübariz övladları öz şəhidlikləri ilə imperiya xislətli, erməni qiyafəli ölümə qələbə çaldılar.

**Kəlbəcər rayonundan məcburi köçkün Elşən Nəcəfli də söhbətə qoşulur:**

- 20 Yanvar yaddaşıma uşaq təxəyyülü ilə yazılsa da, sanki o dəhşətləri özüm yaşamışam. Əslində, belə idi.

1990-cı il yanvar ayının 19-dan 22-dək anam Aybəniz xanımla birlikdə Bakı şəhərində, xalam Əntiqə müəlliməgildə idik. O gecə Rəzulzadə qəsəbəsindən şəhərə daxil olan tankların vəhşi səslərinin, küçə boyu sıralanmış doqquzmərtəbəli yaşayış binalarını necə atəşə tutduqlarının şahidiyəm. Evlərin eyvanına çıxmaq belə qorxulu idi. O zaman 6 yaşında idim. 22 ildən sonra həmin gecənin ağrılarını yaşadıqca qəhərlənmirəm. Doğrudan da, xalqımızın və dövlətimizin azadlığı, müstəqilliyi uğrunda can vermək şərəfdir. Ona görə də 20 Yanvar yalnız matəm günü deyil, həmçinin xalqımızın milli mübarizəsinin qələbəsidir. Qürur və iftixar günü olan 20 Yanvar xalqımızın qəhrəmanlıq mücəssəməsi, azadlıq uğrunda mübarizəsinin zirvəsi kimi daim anılacaq və yaşanacaqdır.

Bakının füsunkar görkəmi, dünyanın inkişaf etmiş dövlətlərinin paytaxtlarından birinə çevrilməsi, respublikamızın ayrı-ayrı bölgələrinin hərtərəfli, daha doğrusu, bütün istiqamətlərdə inkişafı da məhz azadlıq və müstəqillik uğrunda apardığımız mübarizənin nəticəsidir. Biz məğlubedilməz xalq kimi haqqımızı tələb etməyi bacarmış və buna nail olmuşuq. Bundan sonra isə onun daimiliyi və əbədiliyi uğrunda ulu öndər Heydər Əliyevin məqsədyönlü siyasətini davam etdirən Prezident İlham Əliyevin ətrafında sıx birləşməklə mübarizəmizi davam etdirəcəyik.

- Şəhidlər xiyabanı müqəddəs məkandır, oranı ziyarət etmək hər birimizin borcudur. Xalqımızın azadlıqsevər oğul və qızlarının uyuduğu torpağa qədəm basmaqla biz dünya xalqlarına milli müstəqilliyi göz bəbəyi kimi qorumağa, vətənimizin şəhidinə çevrilməyə hazır olduğumuzu göstəririk.

**Bu sözləri isə Bakı şəhər sakini Nadir Abbaszadə dedi və əlavə etdi:**

- Bu, bizim şərəfli tariximizdir. Biz təkcə şəhidlərimizi anmaqla öz borcumuzu yerinə yetirmir, eyni zamanda onların uğrunda qurban getdiyi torpağımızı düşmən əsarətindən xilas etməyə hazır olduğumuzu da bildiririk. Milli mücadiləmizin zirvəsi olan 20 Yanvar eyni zamanda sovet imperiyasının süqutunu, məhvini tarixləşdirən bir gündür. Doğrudan da, hər zülmət gecənin bir işıqlı səhəri olur. 1990-cı il yanvarın 19-u gecəsi nə qədər müdhiş, qorxunc, vahiməli və uzun idisə, 20 yanvar qan qoxulu səhərlə açılsa da, parlaq, şəfəqli, əzəmətli və qürurlu gün idi. Həmin gün milli birliyimizin əsası qoyuldu. Biz bu birliyi, mütəşəkkilliyi daim qorumaq üçün də Şəhidlər xiyabanını ziyarətə gəlirik.

Xiyabanın hər il abadlaşması isə şəhidlərimizin müqəddəs ruhuna dövlətimizin və onun başçısının qayğısıdır. Şəhidliyin zirvəsi olan xiyabana insan axınının ardı-arası kəsilmir. Bu, bir daha onu göstərir ki, illər keçsə də, canı, qanı ilə müstəqillik, azadlıq tarixi yazmış Vətən övladları heç zaman unudulmayacaq.

**"Azərinşaat" MMC-nin əməkdaşı Fəxrəddin Novruzovun fikirləri də maraqlı idi**:

- Şəhidlər xiyabanını ziyarət etmək üçün atam Həmid, anam Minayə ilə ulu Gəncə torpağından gəlmişik. Qanlı Yanvarın dəhşətləri sinəmizə sağalmaz yaralar vursa da, bu gün bu müqəddəs məkana qəhərlə deyil, qürur və iftixar hissi ilə gəlmişik. Müqəddəslərimizin ruhları qarşısında borcumuzu torpaqlarımızı düşməndən azad etməklə yerinə yetirmiş olarıq. Bu borc təkcə onlar kimi, Vətən, torpaq uğrunda şəhid olmaqdan ibarət deyil. Artıq dövlətimizin müstəqilliyinin bərpasından 20 il ötüb. Bu illər ərzində dövlət müstəqilliyinin qorunub saxlanılması, ölkəmizin iqtisadi, siyasi, hərbi qüdrətinin artması bir daha göstərir ki, biz milli azadlıq uğrunda mübarizələrdən mətin keçməklə yanaşı, onu göz bəbəyi kimi saxlamağı da bacaran xalqıq. Hər birimiz öz əməli fəaliyyətimizlə müstəqilliyimizin daimiliyi və əbədiliyinə töhfəmizi verə bilərik. Bəli, Qarabağ və ona bitişik digər işğal altında qalan torpaqlarımızın azadlığı uğrunda mübarizədə də, lazım gələrsə şəhid olmağı bacaracağıq. Bizim xalq buna qadirdir. Sülhpərvər xalq olmağımızla yanaşı, düşmənə nifrətimiz də qədərincədir.

**“Azərbaycan”.-**2012.-21 yanvar.-N 15.-S.3.

## Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuş 20 yanvar faciəsi əsla unudulmayacaqdır

**Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin yap.org.az-a müsahibəsi**

**- Şeyx həzrətləri, yanvar ayının 20-də 1990-cı ildə baş vermiş qanlı hadisələrin ildönümüdür. İstərdik, tarixə yenidən ekskurs edərək bu olaylara nəzər salasınız və 20 yanvarı doğuran, baş verməsini şərtləndirən səbəblərdən danışasınız...**

- Bismillahir-rəhmanir-rəhim!

1990-cı ilin qanlı hadisələrindən nə qədər zaman keçsə də Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuş 20 yanvar faciəsi əsla unudulmayacaqdır. Haqqı tələb etdiklərinə görə minlərlə insanın güllələbaran edilməsini yaddan çıxarmaq mümkün deyildir. Şəhid olanların, yaralananların, itkin düşənlərin ağrı-acısı hələ də qəlblərdədir. Allah şəhidlərimizə rəhmət eləsin, ruhları şad olsun!

1990-cı ilin 20 yanvarında baş verən hadisələrin təfsilatını çoxlarınız xatırlayırsınız, lakin baş vermiş faciəni törədən səbəbləri, qanlı qırğına aparan yolları, bu siyasi təcavüz aktının əsl ssenarilərini əksəriyət lazımınca bilmir. Əslində bu, "böyük Ermənistan" xülyası ilə yaşayan aqambekyanların, şahnazarovların, balayanların əlində oyuncağa çevrilmiş Qorbaçov kimi ləyaqətsiz dövlət rəhbərinin xalqımıza qarşı öncədən hazırlanmış planı idi. Onlar hələ 1987-ci ildə xalqımızın böyük oğlu Heydər Əliyevi Siyasi Büro üzvlüyündən kənarlaşdırarkən Azərbaycanı başsız qoymaq, yenilməz nüfuza malik rəhbərdən məhrum etmək niyyətindəydilər.

Dağlıq Qarabağ və ətrafındakı hadisələr cərəyan edərkən ölkəmizin və əhalimizin başına gətirilən müsibətlərin əsas mənbəyi yerli hakimiyyətin səriştəsizliyi, sapı özümüzdən olan baltaların Sovetlərin havası ilə oynaması, xalqın tələb və ehtiyaclarına biganəlikdi. Əsgəran qarşıdurmasını, Topxana meşələrinin qırılmasını, azərbaycanlıların qaçqınlar ordusuna çevrilməsini laqeydliklə seyr edənlər Heydər Əliyevi siyasi arenaya dəvət etmək, onun dövlət idarəçiliyi təcrübəsindən, müdrikliyindən, iş bacarığından istifadə etmək əvəzinə intriqalar qurur, müxtəlif qruplaşmalar yaradır, əks-təbliğat kampaniyaları aparırdılar. Beləliklə, ölkədəki hakimiyyətin siyasi simasızlığına arxalanan sovet rejimi Azərbaycanın sahibsiz və arxasız qaldığına dair tam əminlik əldə etdi və növbəti təxribat onun planlarının davamı oldu.

Hadisələrin sonrakı gedişatını əksəriyyətimiz yaxşı xatırlayırıq: 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunları fövqəladə vəziyyət elan etmədən Bakıya daxil olaraq öz vətəndaşlarına - qocalara, qadınlara, uşaqlara, bir sözlə dinc əhaliyə qanlı divan tutdular. Bu təcavüzkarlıq aksiyası Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq, xalqı təhqir etmək və ona mənəvi zərbə vurmaq məqsədi daşıyırdı.

Vəziyyətin ən acınacaqlı məqamı ölkənin çətin günündə o zamankı respublika rəhbərliyinin bacarıqsızlığı sayəsində dövlətin bütün siyasi və inzibati orqanlarının iflic vəziyyətinə düşməsi ilə bağlıydı. Ölkədə tam bir hakimiyyət boşluğu yaranmış, xalq və dövlət arasında dəhşətli bir uçurum əmələ gəlmişdi. Dövlətə və Allahsız kommunist ideologiyasına inamını itirən Azərbaycan xalqı bu məqamda kimə müraciət edəcəyini bilmirdi. Digər tərəfdən, mərkəz vəziyyətdən istifadə edərək baş verənləri milli və dini münaqişə kimi qələmə verməyə çalışır, xalqımızın istibdada qarşı mübarizəsini dünya ictimaiyyətinə İslam fundamentalizmi, ekstremizm kimi təqdim edirdi. Azərbaycanın taleyi, hətta xəritədəki varlığı şübhə altındaydı - məqsəd dövlətimizi parçalamaq, separatçılığa sürükləmək, milli məhvə məhkum etməkdi.

Bütün faciəsi ilə yanaşı, 20 yanvar günü xalqımızın milli suverenlik, azadlıq uğrunda şəhidliyə hazırlıq ruhunun və yenilməz iradəsinin rəmzinə çevrilmişdir. Təpədən dırnağadək silahlanmış ordunun cəza tədbirlərinə məruz qalan xalqımız diz çökmədi, azadlıq əzmini itirmədi, haqq səsini daha da yüksəkdən bəyan etdi.

Bu səsi ilk dəfə Moskvadan xalqımızın mərd oğlu, müdrik dövlət xadimi Heydər Əliyev ucaltdı, qanlı cinayətin təşkilatçılarını qəzəblə ittiham etdi, onu hüquqa, demokratiyaya, humanizmə zidd hadisə kimi xarakterizə etdi. Siyasi liderimizin kəskin müraciəti xalqı ruhlandırdı və birləşdirdi. Bir milyondan artıq insan təqiblərdən, hətta ölümdən qorxmayaraq şəhərin baş meydanına axışdı, azadlıq uğrunda qurban getmiş şəhidlərin ruhuna and içərək onları torpağa tapşırdı.

Azadlığın, müstəqilliyin yolu ağırdır, daşlı-kəsəklidir. Bu yolda qurbanlarımız az olmamışdır. Bu gün hər bir azərbaycanlının boynunda şəhid haqqı var. Biz şəhid ailələrini unutmuruq və heç zaman unutmayacağıq. Bu mənəvi borc şəhidlərimizin unudulmaz xatirəsi qarşısında illərdən bəri ürəklərimizdə gəzdirdiyimiz vətəndaşlıq qürurunun və qan yaddaşımızın əyani təzahürüdür. Bu, Azərbaycanın müstəqilliyi, dövlətçiliyimizin bərpası,

torpaqlarımızın qaytarılması və imansız bir imperiyanın dağılması uğrunda mübarizənin ilk qurbanlarına - 20 Yanvar və Qarabağ müharibəsi şəhidlərinə, Allah-Taala nəzərində ən yüksək məqamlardan sayılan şəhidlik zirvəsinə ucalanlara sonsuz ehtiramımızdır.

**- O dövrdə Siz çox böyük əhəmiyyət daşıyan, çox cəsarətli və xalqımızın milli maraqlarını ifadə edən bəyanat verdiniz. Bu bəyanatın mahiyyəti və o dövr üçün əhəmiyyəti nədə idi?**

- Həqiqət bundan ibarətdir ki, həmin günlərdə ölkədə çalışan, fəaliyyət göstərən, təcavüzkarlara sinə gərən, minlərlə faciə qurbanlarının, milyonlarla vətəndaşın yeganə ümid yeri - Qafqaz Müsəlmanları İdarəsi oldu. Qafqaz Müsəlmanları İdarəsi hadisələrin ilk dəqiqəsindən qərargaha çevrildi; yanvarın 22-də şəhidlərin misli görünməmiş dəfn mərasiminin təşkilati rəhbərliyi, yaralılara dərman və maddi yardım göstərilməsi, şəhid ailələrinə ərzaq paylanması, 40 gün ərzində təmənnasız dini xidmətin təşkili - bunlar bizim fəaliyyətimizin yalnız görünən tərəfiydi. Əslində o məqamda İdarə bütün şərəf və ləyaqəti ilə imperiya siyasətinin riyakarlığına meydan oxudu, informasiya blokadasını yararaq baş verənləri dünyaya bəyan etdi və yalançı "qəhrəmanlardan" fərqli olaraq xalqa həqiqi mənəvi dəstək oldu. Əgər o zaman keçmiş SSRİ rəhbərliyinin siyasi avantüralarına aldanıb hakimiyyət təklifləri qəbul edilsəydi, sonra xalqımızın, dövlətimizin başına nə müsibətlər gələcəyini təsəvvür etmək belə çətindir. Və nəhayət, əgər o faciəli dünənimizdə Heydər Əliyevin bizə və xalqımıza mənəvi dəstəyi olmasaydı, bugünkü sabitliyi, əmin-amanlığı, xalq və dövlət birliyini görmək bizə nəsib olmaya bilərdi.

Bütün bunlar gəlişi gözəl sözlər deyil, 20 illik tariximizin müqayisəli təhlilindən yaranan mülahizələrdir. O qanlı dönəmdə belə məsuliyyətin altına girməyin nə dərəcə ağır və təhlükəli olduğunu çoxlarınız xatırlayırsınız. Fövqəladə vəziyyətin elan edilməsinə baxmayaraq yanvarın 21-də Təzəpir məscidinin həyətində minlərlə insanın iştirak etdiyi mitinq keçirildi. Şəhidlər üçün dəfn yerinin təyin olunması məsələsində hərbi komendaturanın ciddi narazılığına baxmayaraq Dağüstü parkın seçilməsində israr olundu. Yanvarın 22-də tarixdə görünməmiş milyonluq izdihama başçılıq edərək dəfn mərasiminin önündə durduq və ilk dəfə olaraq allahsız sovet rejimini "mənfur imperiya" ifadəsi ilə lənətlədik. Dəfn prosesində bir nəfər belə hərbçinin iştirakına və müdaxiləsinə imkan verilmədi. Ölkədə bütün informasiya agentliklərinin nəzarətdə olduğu bir vaxtda biz "Vətən" cəmiyyətinin teleksi ilə gizli şəkildə BMT-nin Baş katibliyinə, dünyanın dövlət başçılarına və dini rəhbərlərə, SSRİ Ali Sovetinin sədri sayılan Mixail Qorbaçova bəyanatımızı ünvanlaya bildik.

1990-cı ilin 21 yanvarında bu cəllada etiraz müraciətimdə mən xalqımın səsini çatdırdım: "Siz bilin ki, bu faciə ilə bağlı əsl həqiqəti dünya ictimaiyyətinə çatdırmaq üçün əlimizdən gələni edəcəyik. Çünki o dövlət ki imperiya hökmranlığı niyyəti ilə millətlərarası çaxnaşmaları aradan qaldırmaq əvəzinə onu daha da qızışdırır, o dövlət ki öz ordusunu öz vətəndaşlarının qatilinə çevirir, o dövlət ki öz adamlarına layiqli güzərandan daha çox ölmək hüququ verir, belə dövlət ancaq nifrətə layiqdir... Özlərini əsl işğalçı kimi aparan cəza qoşunlarını Bakıya yeritməklə siz sovet hökumətini rüsvay etdiniz və bununla təsdiq etdiniz ki, müstəqillik və xalqların ləyaqəti kimi anlayışlar bu hökumətə tamamilə yaddır. Siz bununla özünüzü bir siyasi xadim və bacarıqsız dövlət başçısı kimi ifşa etdiniz. Sizin haqqınızda yaranmış bir əfsanə də puç oldu, çünki bir əli ilə xarici məmləkətlərdə sülh sazişi, o biri əli ilə öz vətəndaşlarına qarşı cəza tədbirləri imzalayan adamı "Sülh uğrunda mübariz" adlandırmaq ən azı ləyaqətsizlikdir. Bütün Azərbaycan xalqının iradəsini ifadə edərək mən Bakıdan qoşun hissələrinin dərhal çıxarılmasını qətiyyətlə tələb edirəm. Heç bir xalqla, həmçinin azərbaycanlılarla silah gücüylə danışmaq olmaz. Bu, 10 gün, yaxud Əfqanıstandakı kimi 10 il davam edə bilər. Amma gec-tez ədalət və haqq işi qələbə çalmalıdır".

Həmin günlərdə İtaliyanın "Reppublika" qəzetinin müxbiri Entso Mauro ilə görüşüb Bakıda törədilən cinayətlər haqqında həqiqətləri o zamankı Roma Papası II İoann Pavelə çatdırdıq. Daha sonra, ilk günlərdə bir sıra rəsmi şəxslərin etirazına baxmayaraq, 20 Yanvar faciəsinin bütün qurbanlarının müqəddəs şəhid kimi tanınmasına və "şəhid" ifadəsinin qəbul edilməsinə nail olduq.

Bu gün o dövr hadisələrinin tarixi ardıcıllığını izləyən hər kəs Qafqaz Müsəlmanları İdarəsinin təmənnasız və fədakar fəaliyyətinin şahidi ola bilər. Qorbaçova ünvanladığım bəyanata gəlincə, bu mənim din xadimi olaraq Allah və Vətənim qarşısında mənəvi borcumdan irəli gəldi. Heç bir təhlükəyə baxmayaraq ədalət naminə xalqımızın haqq səsi qaldırıldı, mənfur qatil öz adı ilə çağırıldı, dünyanın iki böyük dövlətindən birinin üzdəniraq rəhbəri "əli xalqımızın qanına batmış cəllad" kimi damğalandı. O an bunun nə demək olduğunu təsəvvür etmək çətin deyil. Həmin anlarda xalqıma dəstək ola, onun yaralı qəlbinə məlhəm ola bildimsə, mənimsün bundan böyük dəyər ola bilməz. Düşünürəm ki, bu bəyanata tarixi qiyməti elə tarix özü və insanlarımız verə bilər.

**- O dövrdə qanlı hadisələr davam edərkən, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək, bu hadisələri qınadı və kəskin etiraz bildirdi.**

**Ulu öndərin bu münasibəti Azərbaycanın ictimai-siyasi həyatında və olayların gələcək inkişafında hansı təsiri göstərdi?**

- Bəli, o ağır günlərdə, apardığımız mücadilədə bizim mənəvi dəstəyə, yol göstərən rəhbərə, zülməti işıqlandıran bir insana böyük ehtiyacımız vardı. Həmin günlərdə Qafqaz Müsəlmanları İdarəsinin ünvanına daxil olan ilk başsağlığı teleqramı Moskvadan, Ulu Öndərimiz mərhum Heydər Əliyevdən gəldi. Qəlbi daim xalqın taleyi ilə döyünən bu böyük insan baş verənləri Azərbaycan xalqına qarşı törədilmiş cəza tədbirləri kimi dəyərləndirirdi. Moskvadakı Daimi nümayəndəliyimizdə həmvətənlərimiz qarşısında çıxışıyla sovet imperiya siyasətini kəskin tənqid edən, kommunist ideallarından və partiya biletindən imtina edən Heydər Əliyev xalqın həqiqi mənəvi atasının, əsl dövlət xadiminin və mübariz başçının dəyişməz ləyaqətini nümayiş etdirdi. Elə buna görə də, sonralar məhz onun hakimiyyətə yenidən qayıdışı dönəmində 20 Yanvar hadisələri siyasi qiymət alaraq SSRİ dövlətinin Azərbaycan xalqına qarşı törətdiyi hərbi təcavüz aktı kimi qiymətləndirildi. Onadək ölkəyə rəhbərlik edənlərin buna siyasi savadı və iradəsi yetərli olmadı.

Bu bir həqiqətdir ki, 20 yanvar Azərbaycanı gözləyən bəlaların ilkin mərhələsi idi. O zaman xalqın haqq səsini, harayını dünyaya yaya bilməsəydik - Moskvadan Heydər Əliyev, Bakıdan isə biz təcavüzü ifşa edən bəyənatlarla çıxış etməsəydik, xalq birləşərək vətənə sədaqətini nümayiş etdirə bilməsəydi gələcəkdə Azərbaycan bəlalardan qurtula bilməyəcəkdi. Məhz bu birliyimiz sayəsində Azərbaycanın parçalanması ilə bağlı xain planların reallaşmasına imkan vermədik.

**- 20 Yanvar hadisələrindən 22 il ötməsinə baxmayaraq, hələ də günahkarlar layiqli cəzalarını almayıblar. Sizcə, bu istiqamətdə hansı tədbirlər görülməlidir?**

- Qafqaz Müsəlmanları İdarəsi qanlı hadisələrin ilk günündən çalışdı ki, Qarabağ münaqişəsinin davamı olan 20 yanvar faciəsini dünya ictimaiyyətinə, nüfuzlu beynəlxalq təşkilatlara çatdırsın, haqq işimizə dəstək qazansın, törədilən cinayət bəşəriyyətə qarşı yönəldilən amansız cəza tədbiri kimi qiymətləndirilsin.

Ulu öndərimiz Heydər Əliyevin sayəsində Azərbaycan dövləti tərəfindən hüquqi-siyasi qiymətini almış 20 yanvar faciəsinə, təəssüf ki, bu günə qədər beynəlxalq müstəvidə hüquqi qiymət verilməyib, cinayətkarlar məsuliyyətə cəlb olunmayıb və Azərbaycan xalqının cəlladları layiqli cəzalarını almayıblar. Azərbaycan xalqının tam mənəvi haqqı vardır ki, öz qatillərini - Mixail Qorbaçovu və onun əlaltılarını, o cümlədən, sapı özümüzdən olan baltaları məhkəməyə cəlb etsin. Əyani, ya qiyabi - fərq etməz, elə açıq məhkəmə qurulmalıdır ki, orada dəlil və sübutlar, sənədlər və canlı şahidlərin ifadələri, beynəlxalq qanunlar zəminində və ekspertlərin rəyi əsasında canilərin qəddarlığı, riyakarlığı, vəhşiliyi, əsl niyyətləri dünya ictimaiyyətinə tam şəkildə açılsın. Önəmli məqamlardan biri də o olmalıdır ki, bu cinayətə, çirkin əmələ bəraət qazandırmaq üçün guya Azərbaycanda “islam fundamentalizmi” bəhanəsi kimi əsassız ittihamların yürüdülməsi faktı ifşa olunsun.

**“Səs”.-**2012.-19 yanvar.-№10.-S.6.

## 20 Yanvar: Xalqımızın azadlıq mübarizəsinin qəhrəmanlıq səhifəsi

## 20 Yanvar şəhidləri ölümləri ilə sübut etdilər ki, Azərbaycan xalqının azadlıq uğrunda mübarizə əzmi sınmaz, əyilməzdir

Xalqımızın azadlıq mübarizəsinin qəhrəmanlıq səhifəsi olan 1990-cı il 20 Yanvar hadisələrindən 22 il ötür. Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin sərəncamı ilə "20 Yanvar faciəsinin iyirmi ikinci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilmişdir.

Sənəddə respublikanın bütün şəhər və rayonlarında, o cümlədən müəssisə, idarə və təşkilatlarda 20 Yanvar hadisələri ilə bağlı konfrans, dəyirmi masa və mühazirələrin təşkil olunması, bu tədbirlərin mətbuatda ətraflı işıqlandırılması, faciənin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması məqsədi ilə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri və Azərbaycan icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində Yanvar faciəsi barədə materialların verilməsi nəzərdə tutulmuşdur. Tədbirlər planına uyğun olaraq 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardım veriləcək, Şəhidlər xiyabanı ərazisində təmizlik-abadlıq işləri aparılacaq, bütün tədris müəssisələrində yanvarın 19-da faciəyə həsr olunmuş xüsusi dərs keçiləcək, Azərbaycanda təmsil olunan əsas dini konfessiya və qurumlar tərəfindən faciə qurbanlarının xatirəsinə xüsusi dini mərasimlər təşkil olunacaq. Bundan başqa, sənəddə paytaxt ictimaiyyətinin Şəhidlər xiyabanına ziyarətinin təşkili, saat 12.00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, ardınca isə gəmilər, avtomobillər və qatarlar vasitəsilə səs siqnallarının verilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində matəm əlaməti olaraq və faciə qurbanlarının xatirəsini yad etmək məqsədi ilə dövlət bayraqlarının endirilməsi və digər tədbirlər nəzərdə tutulmuşdur.

Məqsəd təbii ki, 20 Yanvar faciəsinin əsl mahiyyətinin bir daha dünya ictimaiyyətinə çatdırılmasıdır. Ulu öndər Heydər Əliyev bildirmişdir: "Bir şey həqiqətdir ki, 1990-cı il 20 Yanvarı Azərbaycan xalqının həyatında dönüş mərhələsi, dönüş nöqtəsi olmuşdur. Biz 20 Yanvar hadisələrinə indiyə qədər bir faciə kimi qiymət veririk. Həmin gün tariximizə qara gün kimi daxil olmuşdur. Şübhəsiz ki, bunda həqiqət var. Ancaq hadisə hansısa səbəbdən baş verir, beləcə durduğu yerdə baş vermir, bu, ola bilər təbii fəlakət olsun. Amma cəmiyyətdə baş verən hadisənin şəbhəsiz ki, səbəbi olur. Ona görə də bu hadisələrə geniş mənada yanaşmaq lazımdır. Getdikcə bu hadisələrin daha geniş mənasını dərk edirik." Bu fikir də hər zamaq önə çəkilir ki, 20 Yanvar hadisəsi ayrı-ayrı insanların deyil, bütöv bir xalqın taleyidir.

20 Yanvar faciəsini nə qədər böyük ağrı hissi ilə xatırlasaq da, xalqımızın azadlıq uğrunda mübarizə əzmini sındırmağın mümkünsüzlüyünü görəndə bundan böyük qürur hissi keçiririk. Uzun illər imperiya əsarəti altında yaşayan xalqımız azadlığa qovuşmaq üçün canından belə keçməyə hazır olduğunu dünyaya nümayiş etdirdi. İmperiya qüvvələri tərəfindən həyata keçirilmiş 20 Yanvar hadisələri Azərbaycanda demokratik proseslərə qəsd, dəqiq düşünülmüş hərbi təcavüz, respublikanın suveren hüquqlarını, ümumiyyətlə, insan hüquqlarını pozan hərəkət idi.

Bu hadisələri faciələrimiz kimi təhlil edərkən, eyni zamanda onların sonrakı proseslərin inkişafında nə kimi təsir göstərdiyini də yaddan çıxarmamalıyıq. Ulu öndər Heydər Əliyevin qeyd etdiyi kimi, Vətən, torpaq uğrunda həlak olanlar şəhidlik zirvəsinə ucalırlar. 20 Yanvar hadisələri zamanı şəhid olan oğul və qızlarımız vətənin azadlığı, suverenliyi uğurunda göstərdikləri şücaətlə bugünkü gənclərimizə örnək oldular. Aforizmə çevrilən "Torpaq uğrunda ölən varsa, Vətəndir" fikri də deyilənlərin təsdiqidir. Bu gün hər bir azərbaycanlının and yerinə çevrilmiş Şəhidlər xiyabanında uyuyan oğul və qızlarımızın ruhu o zaman şad olar ki, ağrılı problemimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz ədalətli həllini tapsın, soydaşlarımız doğma yurd-yuvalarına qayıtsın, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun.

Ötən ilin mühüm hadisələrindən biri olan dövlət müstəqilliyimizin bərpa olunmasının 20-ci ildönümünün dövlət səviyyəsində qeyd olunması Azərbaycanın 20 illik müstəqillik tarixində keçdiyi yolun təhlili baxımından xüsusi əhəmiyyət kəsb etdi. "İyirmi il həm böyük, həm də çox da böyük olmayan müddətdir. İyirmi il ərzində çox iş görmək olar, heç nə görməmək də olar. Azərbaycanda son 17 ildə, müstəqilliyimizin birinci iki ilini çıxmaq şərti ilə, doğrudan da tarixi nailiyyətlər əldə edilmişdir. Bu gün danışdığımız bütün uğurlar bu müstəqilliyin nəticəsidir" söyləyən dövlət başçısı İlham Əliyev bildirir ki, müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük dəyərdir. Müstəqillikdən qiymətli heç bir şey ola bilməz.

Hər bir inkişafın, tərəqqinin əsasında azadlıq, müstəqillik dayanır. Ümummilli lider Heydər Əliyev müstəqilliyi xalqların xoşbəxtliyi üçün başlıca amil hesab edərək bildirmişdir ki, azadlıq və istiqlaliyyət hər bir

xalqın milli sərvətidir. Eyni zamanda diqqətə çatdırırdı ki, Azərbaycan xalqı öz dövlətini dəstəkləyir, müdafiə edir və bu da xalqımızın əbədi müstəqilliyinin təminatıdır. Bu da həqiqətdir ki, müstəqillik, azadlıq yolu qədər çətin yol yoxdur. 1990-cı ilin 19-20 yanvar tarixlərində baş verən hadisələr bir daha bu gerçəkliyi ortaya qoydu. Azərbaycan xalqı göstərdiyi qətiyyətlə bir daha nümayiş etdirdi ki, heç bir qüvvə onların milli azadlıq uğrunda mübarizə əzmini qıra bilməz. Həmin tarixlərdə Bakını işğal edərək qırğın törədən, əsasən ermənilərdən ibarət sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, hərbi dəniz donanmasının və daxili qoşunların bölmələri dinc əhaliyə qarşı görünməmiş vəhşiliklər törətdi, günahsız insanlar qətlə yetirildi, yaralandı, əlil oldu, itkin düşdü. Həmin vaxtlarda Bakıda 82 nəfər amansızcasına qətlə yetirilmiş, 20 nəfər ölümcül yaralanmışdır. Fövqəladə vəziyyət elan edildikdən sonra da Bakı şəhərində daha 21 nəfər öldürülmüş, paytaxtdan kənar rayonlarda - Neftçala və Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdir. Beləliklə, sovet ordusu qoşunlarının hərbi əməliyyatları nəticəsində Bakıda və rayonlarda 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdur. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdir. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milis nəfərləri olmuşdur. Bütün dünya isə bu faciəyə göz yumdu.

Faciənin səhəri günü Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək Bakıya hərbi müdaxiləni respublikanın süverenliyinə qarşı terror kimi qiymətləndirən ümummilli lider Heydər Əliyev belə ağır məqamda xalqla birlikdə olduğunu bildirdi, qanlı faciələri pislədi, günahsız, silahsız adamların axıdılan qanlarını insanlığa qarşı törədilmiş xəyanət adlandırdı və Bakıya yuxarıda qeyd olunan Azərbaycan xalqı ilə birliyini əks etdirən teleqram yolladı. Təbii ki, o vaxt xalqın Heydər Əliyevə olan etimad və inamından qorxuya düşən Azərbaycanın hakimiyyətdə olan rəhbərliyi bu teleqram barədə xalqı məlumatlandırmadı. Yanvar hadisələrinə siyasi qiymət verilmədi, qırğınların törədilməsinin səbəbkarlarının, günahkarlarının adları belə xalqa açıqlanmadı. Xəyanətin davamı olan, hadisələrə siyasi qiymət verilməsi üçün yanvar ayının 22-nə təyin edilən respublika Ali Sovetinin sessiyası belə təxirə salındı. O ağır dövrdə min bir çətinliklə Azərbaycana qayıdan, ancaq respublika rəhbərliyi tərəfindən təzyiqlərə məruz qaldığı üçün doğulduğu Naxçıvana gələn ümummilli lider Heydər Əliyev bu sahədə də qətiyyətini əsirgəmədi. Naxçıvan MR Ali Məclisinin sıravi deputatı Heydər Əliyevin təşəbbüsü ilə hazırlanan "1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar layihəsi müzakirəyə çıxarıldı. Heydər Əliyevin nüfuzu sayəsində 21 noyabr 1992-ci il tarixdə qəbul olunmuş bu qərar 20 Yanvar hadisələrinə verilən ilk siyasi, hüquqi qiymət oldu.

Həmin tarixi əhəmiyyətli sənəddə qeyd olunurdu ki, 1990-cı il yanvar ayında Bakıda törədilən qanlı hadisələr Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirilsin. Dinc əhalinin qətlə yetirilməsi, göstərilən zorakılıq Azərbaycan xalqına açıq təcavüz kimi ittiham edilsin. Respublikanın ali hakimiyyət orqanları tərəfindən Bakı faciələrinə siyasi qiymət verilməməsi, bununla əlaqədar yaradılmış xüsusi deputat komissiyasının işinin qeyri-müəyyən səbəblərdən başa çatdırılmaması, günahkarların aşkara çıxarılıb məsuliyyətə cəlb olunmaması etirazla qarşılansın.

13 yanvar 1992-ci ildə Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyevin imzası ilə qəbul olunmuş bəyanatı bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı kimi qiymətləndirmək olar. Bəyanatda deyilirdi ki, hadisələr imperiya qüvvələri ilə xalqa xəyanət yolunu tutmuş Azərbaycanın kommunist rəhbərliyi tərəfindən birgə həyata keçirilmişdir. Hakimlik missiyasını qoruyub saxlamaq üçün xalqına qarşı çoxminli silahlı qüvvələrin təcavüzünü təşkil edən respublika rəhbərliyi heç bir hüquqi əsası olmadan Bakıda fövqəladə vəziyyət rejiminin tətbiqindən belə çəkinməmişdir.

Yanvar hadisələrinə geniş mənada əsl hüquqi, siyasi qiymət ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra mümkün oldu. Uğurlu daxili və xarici siyasəti ilə Azərbaycanın dövlət müstəqliyinin əbədiliyini, dönməzliyini təmin edən dahi şəxsiyyət Heydər Əliyev respublikaya rəhbərliyə başladığı ilk gündən ölkənin iflic vəziyyətə düşən iqtisadiyyatını bərpa etmək istiqamətində genişmiqyaslı islahatlar aparmaqla, ölkə iqtisadiyyatının inkişafında yeni mərhələnin əsasını qoyan "Əsrin müqaviləsi" kimi önəmli müqaviləni imzalamaqla Azərbaycanın iqtisadi və siyasi mövqeyinin möhkəmləndirilməsinə nail oldu. Dahi şəxsiyyət Heydər Əliyev 20 Yanvar faciəsinin səbəblərinin, günahkarlarının aşkarlanması üçün yaradılan komissiyanın işini bərpa etməklə əsl həqiqəti üzə çıxardı, xalqla birliyini bir daha təsdiqlədi. Bildirildi ki, Bakı faciələrinin geniş miqyas almasında, kütləvi insan tələfatı ilə nəticələnməsində o dövrdə iqtidarda olanlar qədər günahkar idilər. Silahsız insanları qırğından çəkindirmək əvəzinə tankların qabağına yollayan AXC-Müsavat rəhbərləri 1994 və 1995-ci illərdə ölkədə baş verən, xarici qüvvələrin planlaşdırdıqları dövlət çevrilişlərində iştirak etməklə əvvəlki xəyanətlərini təkrarlamaqdan belə çəkinmədilər.

Amma mərd, qorxmaz xalqımız yenilmədi, əyilmədi. Şəhidlərin ruhlarını uca tutmaq üçün Azərbaycanın müstəqilliyinin əbədiliyi uğrunda xilaskarlıq missiyasını yerinə yetirən ümummilli lider Heydər Əliyevin ətrafında sıx birləşdi. 2003-cü ildən bu günə qədər olan dövrü böyük yolun davamı kimi dəyərləndirən xalqımız ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə dəstək olduqlarını onun ətrafında sıx birləşməklə nümayiş etdirirlər. Bu birliyin sayəsində Azərbaycanın uğurları bir-birini əvəzləməkdə, səsi dünyanın ən nüfuzlu təşkilatlarının tribunasından eşidilməkdədir. BMT, AŞPA, ATƏT, İKT kimi nüfuzlu beynəlxalq təşkilatlarda təmsil olunan Azərbaycanın dünya miqyasında qazandığı mövqe və nüfuzda da şəhidlərimizin payı vardır. Ölkəmizin BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi o deməkdir ki, salnaməmizə azadlıq sözünü qanları ilə yazmış şəhidlərin mətanəti sayəsində Azərbaycan müstəqil, suveren dövlət kimi tanınır, inkişaf edir, qazandığı liderlik statusunu qoruyur. Möhtərəm Prezidentimiz İlham Əliyev Nazirlər Kabinetinin 2011-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2012-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasda bildirmişdir: “155 ölkənin etimadını, inamını qazanmaq çox çətin və eyni zamanda, məsuliyyətli işdir. Azərbaycanın uğurlu siyasəti, müstəqil siyasətimiz, prinsipial mövqeyimiz, etibarlı tərəfdaş kimi özümüzü təqdimetmə imkanlarımız bax, bu vəziyyətə gətirib çıxarmışdır. Biz bu qələbəni rəqabət şəraitində əldə edə bilmişik və növbəti iki il ərzində dünyanın bir nömrəli, ən mötəbər təşkilatında üzv kimi öz prinsipial mövqeyimizi göstərəcəyik.” Respublikamızın 155 dövlətin etimadını qazanaraq bu səviyyəyə yüksəlməsi bir daha təsdiqləyir ki, torpaqlarımız uğrunda canlarından keçmiş şəhidlərimiz, 20 Yanvar, Xocalı qırğınlarında həlak olmuş soydaşlarımız qələbə ünvanlı yolda Azərbaycan xalqı ilə birgə addımlayır. Şəhid ailələrinə diqqət və qayğı dövlətin siyasətində prioritet istiqamətlərdəndir. Şəhid ailələrinin imtiyazları artırılır, xatirələri əbədiləşdirilir.

Çox təəssüf ki, müasir dövrümüzdə günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar qırğınına, Xocalı soyqırımına, Dağlıq Qarabağ münaqişəsinə biganə, etinasız yanaşan beynəlxalq təşkilatlar, dünya ictimaiyyəti hələ də Ermənistanın Azərbaycana təcavüzünə ədalətli mövqe nümayiş etdirmir, ikili standartlara son qoyulmur.

Prezident İlham Əliyev xarici ölkələrə səfərlərində üzləşdiyimiz Dağlıq Qarabağ probleminin əsl səbəb və mahiyyətini açıqlayır, iqtisadi sahədə olduğu kimi diplomatiyada da Ermənistanı qabaqlayan Azərbaycanın ədalətli mövqeyini diqqətə çatdırır, torpaqlarımızın işğalının səbəb və mahiyyətini, təcavüzün 20 Yanvar hadisələrindən başlandığını diqqətə çatdırır.

Prezident İlham Əliyev dünyanın ən nüfuzlu təşkilatlarının tribunasından bəyan edir ki, dünya dövlətləri problemin mahiyyətini düzgün təhlil edib, ədalətli mövqe nümayiş etdirsələr, problemin ədalətli həllinə tezliklə nail olmaq olar. Nazirlər Kabinetinin 2011-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2012-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlət başçısı İlham Əliyev əsas diqqəti Dağlıq Qarabağ probleminin həlli istiqamətində atılan addımlara, göstərilən səylərə yönəldərək bildirdi ki, problemin nizamlanması prosesinin uzanmasına səbəb Ermənistanın qeyri-konstruktiv mövqeyi, danışıqlarda qeyri- səmimi davranışıdır. Beynəlxalq qüvvələrin münasibətlərində müsbət hallar önə çəkilərək bildirilmişdir ki, əgər həmsədr ölkələrin bəyanatlarından sonra konkret təklifləri, addımları olarsa, münaqişəni tezliklə həll etmək olar. Əgər bu bəyanat sadəcə olaraq bəyanat kimi qalacaqsa, onda danışıqların perspektivləri ümidverici olmayacaq. Dövlət başçısı İlham Əliyev bu bəyanatı ilə ikili yanaşmanın yaratdığı problemi açıqlayır. Münaqişənin həllində iki yolun-sülh və hərb yolunun olduğu bir daha diqqətə çatdırıldı. Sözsüz ki, diplomatik mübarizədə əhəmiyyətli uğurlara imza atan Azərbaycan hərb yolunu seçərsə, yenə də qələbəmiz qaçılmazdır. Bu gün tam iftixar hissi ilə qeyd edə bilərik ki, Azərbaycanın güclü, peşəkar, işğal altında olan torpaqlarımızı azad etməyə qadir ordusu var. Hər bir vətənpərvər insan ölkəsinin belə güclü, qüdrətli ordusu ilə fəxr edir. Gənclərimizdə vətənpərvərlik ruhunun daha da yüksəldilməsini qarşıya ən ümdə məqsəd kimi qoyan Prezident İlham Əliyevin çağırışına həmişə hazır olduğunu bildirən Azərbaycan əsgəri torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Azərbaycanın hər bir sahədə inkişaf dövrünü yaşaması, regionda və dünyada əsil söz sahibinə çevrilməsi bu gün harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlını sevindirir, gələcəyə, ən əsası mühüm problemimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həllinə inamı artırır. Ulu öndər Heydər Əliyevin “Suverenliyimizi daimi yaşatmaq, dövlət müstəqilliyimizi əbədi etmək üçün harada yaşamasından asılı olmayaraq bu gün hər bir azərbaycanlıdan müqəddəs Azərbaycan qayəsi ətrafında əməl və əqidə birliyi, sarsılmaz həmrəylik tələb olunur” fikri hər bir azərbaycanlının həyat amalına çevrilərək, onun fəaliyyətinin əsasında dayanır. Azərbaycan dövlətinin uğurlu siyasəti nəticəsində torpaqlarımızın işğaldan azad olunacağı, ərazi bütövlüyümüzün bərpa ediləcəyi, şəhidlərimizin ruhunun şad olacağı gün uzaqda deyil.

**“İki sahil”in Analitik Qrupu**

**“İki sahil”.-**2012.-19 yanvar.-№10.-S.6.

## Müasir tariximizin unudulmaz səhifəsi

***Rza Talıbov,***
siyasi elmlər üzrə fəlsəfə doktoru

## 20 Yanvar xalqımızın faciəli, eyni zamanda qəhrəmanlıq salnaməsidir

**20 Yanvarın Azərbaycan tarixində özünəməxsus yeri var. 22 ildir ki, xalqımız bu faciənin ağrısı ilə yaşayır, o müdhiş gecə Vətən yolunda, azadlıq və istiqlaliyyət uğrunda şəhid olmuş övladlarının xatirəsini ehtiramla yad edir. Həmin günün daha bir özünəməxsusluğunu ulu öndərimiz Heydər Əliyev çox dəqiq ifadə edib: “20 Yanvar 1990-cı il Azərbaycanın tarixində ən faciəli gündür. Ancaq eyni zamanda o gün Azərbaycan xalqı öz qəhrəmanlığını, rəşadətini və şəhidlik zirvəsinə qalxa bilməsini bütün dünyaya nümayiş etdirdi. Ona görə də bu gün biz həmişə qəm, kədər içində oluruq. Amma eyni zamanda böyük qürur hissi keçiririk ki, xalqımız qəhrəman xalqdır, əyilməz xalqdır, sınmaz xalqdır”.**

Həqiqətən də, 20 Yanvar hadisələri tarix boyu ən sərt sınaqlara mərdliklə sinə gərmək əzmini sübuta yetirmiş Azərbaycan xalqının qəhrəmanlıq salnaməsində mühüm səhifə təşkil etməklə, milli iradə və mənlik şüurunun ali təcəssümünə çevrilib. Xalqımızın azadlıq və müstəqilliyə gedən yolu heç də hamar olmayıb, yüzlərlə soydaşımızın qanı-canı, saysız-hesabsız məhrumiyyətlər hesabına başa gəlib. 1990-cı il yanvarın 19-dan 20-sinə keçən gecə Azərbaycan xalqı görünməmiş vəhşiliklə üzləşsə də, yüzlərlə fədakar oğul və qızlarını itirsə də, sarsılmadı və istiqlaliyyəti uğrunda mübarizəsini zəfərlə başa vurdu. Həmin gün baş verən faciəli hadisələr süquta uğramaqda olan Sovet imperiyasının repressiya “maşınının” xalqımıza qarşı törətdiyi amansız cinayət idi. Bu hadisələr zamanı 130-dan çox dinc insanın xüsusi qəddarlıqla qətlə yetirilməsi, min nəfərə yaxın sakinin yaralanması, şübhəsiz, xalqımız üçün böyük dərd, faciə idi. Lakin bununla belə, bu hadisə azadlıq və müstəqillik uğrunda mübarizənin kulminasiya nöqtəsi olmaqla, müasir tariximizə qürur və şərəf mübarizəsi kimi daxil oldu.

Qanlı Yanvar həm də özünün ibrətamiz məqamlarına və tarixi dərslərinə görə müstəsna əhəmiyyətə malikdir. Bu, təkcə tarixi yaşatmaq baxımından deyil, yaddaşların daim oyaq saxlanması və gələcəyimiz üçün də vacib və gərəklidir. Tarixi prizmadan yanaşsaq, 20 Yanvara aparan yol xalqımızın qəddar düşməni M.Qorbaçovun bədnam “yenidənqurması”ndan başlanıb. Həmin illərdə xalqımızın dahi oğlu, dünya səviyyəli dövlət başçısı və siyasətçi Heydər Əliyev Sovet İttifaqının rəhbərləri arasında öz erudisiyası və qabiliyyətləri ilə seçilirdi. Yalnız bir faktı qeyd edək ki, köməkçilərinin əvvəlcədən hazırladığı mətnlərə ehtiyac duymadan saatlarla sərbəst danışması, vacib məsələləri kəskin şəkildə qoymaq bacarığı əksər Siyasi Büro üzvləri, xüsusən də M.Qorbaçov tərəfindən qısqanclıqla qarşılanırdı. Heydər Əliyevi siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət, şəksiz lider adlandıran ABŞ-ın görkəmli siyasi xadimi Zbiqnev Bjezinski müsahibələrində bildirib ki, o, hələ 80-ci illərdə Ağ Evdə çalışdığı vaxt Heydər Əliyevi SSRİ-nin aparıcı rəhbərlərindən biri kimi tanıyır və Sov.İKP MK-nın baş katibi vəzifəsinə ən layiqli namizəd kimi görürdü. Ermənilərin əlində “alətə” çevrilən Qorbaçovun səyləri ilə SSRİ kimi nəhəng dövləti idarə etməyə ən real namizəd olan Heydər Əliyevin Siyasi Büro üzvlüyündən və tutduğu ali vəzifədən bilərəkdən uzaqlaşdırılması həm də bütövlükdə Azərbaycana və xalqımıza qarşı yönəldilmiş təxribat idi.

1987-ci ilin oktyabr ayında ulu öndər Heydər Əliyevin SSRİ-nin ali rəhbərliyindən uzaqlaşdırılması ilə Azərbaycanın faciələrinin əsası qoyuldu və bu, respublikamıza qarşı hazırlanmış məkrli planların həyata keçirilməsi yolunda ilk addım oldu. Yalnız bundan sonra ermənilərin əl-qolu açıldı və Azərbaycana qarşı ərazi iddiaları yenidən gündəmə gəldi. Faciələrin miqyasına, münaqişəli vəziyyətlərin mürəkkəbliyinə görə keçən əsrin 90-cı illərinin başlanğıcı respublikamız üçün ən ağır dövr olmuşdur. Dağlıq Qarabağ və ona bitişik rayonlarda baş verən hadisələr həyatın normal ahəngini pozmuşdu. Artıq 1987-ci ilin ortalarından başlayaraq Dağlıq Qarabağdan həyəcanlı xəbərlər gəlirdi. Azərbaycanın o vaxtkı rəhbərlərinin biganəliyi və xəyanəti üzündən 1988-ci ildə hadisələr daha da gərginləşdi və xalq özü öz başına çarə qılmaq məcburiyyətində qaldı. 1989-cu ilin payızında ermənilərin daha da azğınlaşaraq Şuşa yaxınlığındakı Topxana meşəsini dağıtdıqları və oradakı nadir floranı məhv etdikləri barədə gələn xəbərlər xalqın səbir kasasını daşdırdı və Bakının mərkəzi meydanı yüz minlərlə insanın səsi ilə kükrəməyə başladı. Həmin vaxtdan etibarən ümumxalq etirazları bütün

respublikanı bürüdü və o dövrdəki respublika rəhbərliyinin xəyanətkar mövqeyi ucbatından bu proses idarəolunmaz müstəviyə keçməyə başladı.

1990-cı il yanvarın 19-da Azərbaycanda fövqəladə vəziyyətin elan edilməsinə 7 saat qalmış 11 minlik Sovet ordusu respublikamızın paytaxtı Bakı şəhərinə yeridilərkən insan hüquqlarına dair beynəlxalq sənədlər, o cümlədən "İnsan hüquqlarının Ümumi Bəyannaməsi", "Vətəndaş və siyasi hüquqlar haqqında" və "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" beynəlxalq paktlar, habelə keçmiş SSRİ və Azərbaycan SSR-in konstitusiyaları kobudcasına pozuldu. Sovet ordusunun böyük kontingentinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi. Azərbaycan xalqına öz düşmən mövqeyi ilə tanınan M.Qorbaçov İttifaq Konstitusiyasının 119-cu və Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini pozmaqla, "Bakı şəhərində fövqəladə vəziyyətin elan olunması haqqında" yanvarın 19-da imzaladığı fərmana əsasən, lakin bu haqda şəhər əhalisinə heç bir məlumat verilmədən təpədən-dırnağadək silahlanmış və əksəriyyəti ermənilərdən, onlara rəğbət bəsləyənlərdən ibarət olan qoşun hissələri Bakıya və digər ərazilərimizə yeridilmişdi. SSRİ DTK-nın "Alfa" qrupu yanvarın 19-da saat 19:27-də Azərbaycan televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və əhaliyə divan tutmağa başladı. M.Qorbaçovun fərmanı qüvvəyə minənədək — yanvarın 20-də gecə 1-dək artıq xeyli insan öldürülmüşdü. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı artıq 100 nəfərə çatmışdı. Halbuki Qorbaçovun Azərbaycana ezam etdiyi yüksək vəzifəli emissarlar həyasızcasına bəyan edirdilər ki, Bakıda fövqəladə vəziyyət elan olunmayacaqdır. Elə həmin gecə əlinə sanki xalqımızın qanını içmək üçün fürsət düşmüş erməni və rus qoşun birləşmələri dinc əhaliyə qarşı qəddarlığı və vəhşiliyi ilə dünyada analoqu olmayan qırğın törətmişlər.

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, öz şəxsi mənafeyini xalqın milli mənafeyindən üstün tutan, Kremlin "əlaltısı"na çevrilən Azərbaycanın o vaxtki rəhbərləri—Ə.Vəzirov və digərləri xalqa xəyanət edərək imperiyanın qeyri-qanuni hərəkətlərini dəstəkləyib, xalqın milli azadlıq hərəkatını zorla boğmağa cəhd göstərmiş, misli görünməmiş cinayətə nəinki göz yummuş, hətta onun iştirakçısına çevrilmişlər.

O ağır günlərdə 20 Yanvar faciəsi ətrafında xəyanət sükutunu ilk və mütəmadi olaraq yaran Heydər Əliyevin haqq səsi və dəyişməz mövqeyi oldu. Heydər Əliyev faciəyə münasibətini hadisə baş verən günün ertəsi Moskvada Azərbaycanın daimi nümayəndəliyinin binasında, bütün vəzifələrdən kənarlaşdırıldığına, həyatının hər an təhlükədə olduğuna baxmayaraq, bildirmişdi. Qətiyyətlə bütün dünyaya faciənin hüquqi-demokratik prinsiplərə zidd olduğunu, Azərbaycan xalqına qarşı hərbi təcavüzün Sovet İttifaqı və Azərbaycan rəhbərliyi tərəfindən həyata keçirildiyini bəyan etmişdi: "Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm". Bəli, Heydər Əliyev totalitar rejimin hələ yaşadığı, qılıncının dalının da, qabağının da kəsdiyi bir vaxtda cəsarətlə bildirdi ki, bu təcavüz Azərbaycan xalqına qarşı cinayətdir və faciəyə siyasi qiymət verilməlidir.

Az sonra Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsinə ilk siyasi qiymət verdi. Tarix təsdiqlədi ki, Azərbaycanın dirçəlişi, müstəqillik yolu məhz xalqımızın böyük və fədakar oğlu Heydər Əliyevin 1990-cı ildə Naxçıvana gəlişi, o dövrdə çox ağır sınaqlarla təkbaşına qalan, demək olar ki, taleyin ümidinə buraxılan Muxtar Respublikadakı fəaliyyəti ilə başlayıb. Təəssüf ki, həmin dövrdə Azərbaycana rəhbərlik edən səriştəsiz iqtidarlar Heydər Əliyevin simasında özlərinə güclü siyasi rəqib görərək bu dahi şəxsiyyətin dövlətçilik təcrübəsindən Azərbaycan xalqının rifahı naminə istifadə etməyə qorxdu. Naxçıvana qayıdan Heydər Əliyevi əhali böyük sevinc və ümüdlə qarşıladı. 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası olduqca gərgin bir dövr yaşayırdı. Bu dövrdə Dağlıq Qarabağ problemi ətrafında yayılan dalğanın zərbə qüvvəsinə məruz qalan, sərhədyanı kəndləri ermənilər tərəfindən işğal və qarət olunan, dincliyi əlindən alınan Naxçıvan taleyin ümidinə buraxılmış tənha adanı xatırladırdı. Azərbaycanla nəqliyyat-kommunikasiya əlaqələri kəsiləndən sonra iqtisadi və siyasi böhran içində boğulan, erməni təcavüzü qarşısında əliyalın və köməksiz vəziyyətdə qoyulan Naxçıvanı yalnız Heydər Əliyev müdrikliyi və qüdrəti bütün bəlalardan, işğal olunmaq təhlükəsindən hifz edib qorudu. Ulu öndərimizin rəhbərliyi ilə Naxçıvanda dövlət quruculuğu və idarəetmənin təkmilləşdirilməsi istiqamətində mühüm işlər görüldü. Azərbaycan Prezidenti İlham Əliyev həmin dövrü tariximizin mühüm mərhələsi kimi dəyərləndirərək deyib: "Demək olar ki, ölkəmizin müstəqilliyinin bünövrəsi məhz o illərdə qoyulmuşdur. 1990-cı ildə Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Ali Sovetinin sessiyasında qəbul edilmiş tarixi qərarlar Azərbaycanın dövlət müstəqilliyini şərtləndirdi".

Həmin dövrdə Naxçıvan MR Ali Məclisi ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə bir sıra tarixi qərarlar qəbul edib ki, onların da içərisində 20 Yanvar faciəsi ilə bağlı qərar xüsusi yer tutur. Həmin il noyabr ayının 21-də Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Ali Məclisi tərəfindən qəbul edilmiş müvafiq qərarda 20 Yanvarın Milli Matəm Günü kimi qeyd olunması qərara alınmışdı. Qərarda ilk dəfə olaraq faciənin əsas günahkarları adbaad sadalanmış və onların birbaşa məsuliyyət daşıdıqları göstərilmişdi. Bu, əslində, hadisəyə verilən ilk rəsmi hüquqi-siyasi qiymət idi. Sənəddə vurğulanırdı ki, Yanvar faciələrinin səbəbkarlarının – istər İttifaq, istərsə də respublika rəhbər partiya, sovet, hüquq-mühafizə orqanı işçilərinin, hərbçilərin bu günədək aşkar edilib qanunla məsuliyyətə cəlb olunmaması xalqda dərin hiddət və etiraz doğurmuşdur. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bütün bunları işğalçı siyasət və dəqiq düşünülmüş hərbi təcavüz kimi qiymətləndirərək, insan hüquqları bəyannaməsinin kobud şəkildə pozulması adlandırmışdı. 1990-cı ilin yanvar ayında Bakı şəhərində törədilmiş qanlı hadisələri respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirən Naxçıvan MR Ali Məclisinin qərarında dinc əhaliyə, silahsız kütləyə, heç bir müqavimət göstərməyən günahsız adamlara qarşı müasir silahla, hərbi texnika ilə zorakılıq edilməsi, qocaların, qadınların, uşaqların qətlə yetirilməsi Azərbaycan xalqına qarşı açıq təcavüz kimi ittiham edilmişdi. Bu tarixi sənəddə həmçinin Bakı faciələrinə Azərbaycan SSR ali hakimiyyət orqanları tərəfindən siyasi qiymət verilməməsi, bununla əlaqədar yaradılmış Xüsusi Deputat Komissiyasının işinin qeyri-müəyyən səbəblərdən başa çatdırılmaması, qanlı hadisələrin günahkarlarının aşkara çıxarılıb qanuni məsuliyyətə verilməməsinə qəti etiraz olunur və Azərbaycan SSR Ali Sovetindən tələb edilirdi ki, ən qısa müddətdə həmin məsələni parlamentin müzakirəsinə çıxarsın.

Heydər Əliyev istər 1991-ci il iyunun 19-da SSRİ Nazirlər Kabinetinə göndərdiyi məktubunda, istərsə də Azərbaycan Respublikası Ali Sovetinin 29 avqust 1991-ci il tarixli sessiyasındakı çıxışında da 20 Yanvar hadisələrinə siyasi və hüquqi qiymət verilməsini və günahkarlların cəzalandırılmasını qətiyyətlə tələb etmişdi. Bu, daim xalqı ilə birlikdə olan, ən çətin və ağır günlərdə ona arxa sayılan ulu öndər Heydər Əliyevin hələ Sovet hakimiyyəti dövründə tutduğu prinsipial mövqe idi. Bütövlükdə isə 1994-cü ildə Heydər Əliyevin təşəbbüsü ilə görülən işlərə qədər nə respublikanın kommunist rəhbərliyi, nə də dəfələrlə kommunistlərdən 20 Yanvara siyasi qiymət verilməsini tələb edən "AXC-Müsavat" rəhbərliyi öz iqtidarı dövründə faciəyə siyasi qiymət verilməsindən ötrü imkanlardan istifadə edib.

Yalnız Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinə ölkə miqyasında siyasi-hüquqi qiymət verilməsi gerçəkləşdi. Heydər Əliyev dövrün mürəkkəbliyinə və görüləsi işlərin çoxluğuna baxmayaraq, tariximizin şanlı və qanlı səhifəsi sayılan 20 Yanvar faciəsinin başvermə səbəbləri və günahkarların araşdırılması ilə də məşğul oldu. 1994-cü ildə 20 Yanvar hadisələrinin mahiyyəti məhz ulu öndərimizin təşəbbüsü və bilavasitə iştirakı ilə açıqlandı. Həmin il martın 29-da "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" adlı xüsusi qərar qəbul edildi. Beləliklə, Heydər Əliyevin təkidi və rəhbərliyi sayəsində xalqımıza qarşı törədilən bu qanlı və qəddar aksiyaya siyasi-hüquqi qiymət verildi.

Heydər Əliyev 20 Yanvar faciəsinin bütün dünyada tanıdılması, şəhidlərin xatirəsinin əbədiləşdirilməsinə hər zaman diqqətlə yanaşıb. Elə bu məqsədlə Şəhidlər Xiyabanında Azərbaycanın azadlığı uğrunda şəhid olanların xatirəsinə ucaldılmış "Əbədi məşəl" abidə kompleksi də məhz ulu öndərin təşəbbüsü ilə inşa olunub. Bakının ən uca zirvəsində yerləşən bu möhtəşəm abidə Heydər Əliyevin diqqət və qayğısı ilə qısa müddətdə tikildi. Ulu öndər bu abidənin ucaldılmasını şəhidlərin qarşısında Azərbaycan xalqının müqəddəs və mənəvi borcunun yerinə yetirilməsi kimi dəyərləndirirdi.

Bizi 20 Yanvar hadisələrindən iyirmi iki il ayırır. Həmin hadisələrdən az sonra ölkəmiz öz dövlət müstəqilliyini bərpa etməyə nail oldu. Azərbaycan artıq 20 ildir ki, müstəqil dövlətdir, bu illər ərzində çox böyük inkişaf və təqərri yolu keçib, Heydər Əliyevin müdrik siyasi kursu Azərbaycanın uğur modeli kimi bütün dünyada qəbul edilir. Bu gün ulu öndərimizin siyasəti regionumuzun və Azərbaycanın yeni parlaq lideri, Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Möhtərəm İlham Əliyev ulu öndərimizin idarəçilik məktəbindən maksimum bəhrələnərək, bu məktəbin daha da təkmilləşdirilməsinə təkan vermiş, onu müasir tələblər səviyyəsinə qaldırmışdır. Son səkkiz ildə Azərbaycanın dünyada analoqu olmayan sürətli inkişafı, 1 milyondan artıq yeni iş yerinin açılması, enerji sahəsi ilə yanaşı, qeyri-neft sektorunun önəmli şəkildə tərəqqisi, milli sahibkarlığın formalaşması və inkişafı, hər bir vətəndaşın maddi rifah halının yuksəlməsi, diaspor və lobbiçilik fəaliyyətinin genişləndirilməsi, Azərbaycanın milli mənafeyinə cavab verən balanslaşdırılmış xarici siyasətin yürüdülməsi, Qərbə inteqrasiya prosesinin sürətləndirilməsi vahid siyasi platformaya söykənən, çoxşaxəli və genişmiqyaslı bu qlobal strateji xəttin prioritet istiqamətləridir.

Ötən ilin oktyabr ayında Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi isə bu illər ərzində aparılan müdrik siyasi kursun təntənəsidir. 20 il ərzində belə böyük uğurun əldə edilməsi böyük tarixi nailiyyət, Azərbaycanın müstəqil ölkə kimi özünü dünyada tam mənada təsdiq etməsidir. Azərbaycan dövləti hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələrə doğru inamla irəliləyir.

Bu baxımdan 20 Yanvar Azərbaycanın azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrundakı mübarizədə qəhrəmanlıq rəmzinə çevrilib. Şəhidlər Xiyabanında alovlanan əbədi məşəl isə müstəqillik yolumuzu daim işıqlandırır.

**"Respublika".**-2012.-19 yanvar.-N 13.-S.4.

## İctimai dəfn komissiyası və onun fəaliyyəti

**1990-cı ilin soyuq və şaxtalı 20 yanvar səhəri… Mənfur bolşevik rejiminin zəhmli ordusunun qəfil vəhşi hücumundan sarsılmış, lakin əyilməmiş məğrur xalq öz nifrət-qəzəbini ifadə etmək üçün Bakı şəhərində elan olunmuş hərbi vəziyyətin ciddi qadağalarına baxmayaraq, keçmiş Mərkəzi Komitənin qarşısındakı meydanda etiraz mitinqinə toplaşmışdır…**

**Qanlı şənbə gecəsində həlak olanlar, yaralananlar, həbs edilənlər, itkin düşənlər haqqında şəhərin müxtəlif yerlərindən, ətraf kəndlərdən alınan yeni acı xəbərlər, bəd məlumatlar, kədərli faktlar dalğalanan dənizi xatırladan mitinq iştirakçılarını daha da həyəcanlandırır… Bir-birini əvəz edən fasiləsiz mitinqin çıxışçıları, törədilmiş cinayətin canlı şahidləri, müxtəlif peşə-sənət sahibləri, yaşlılar, qadınlar, gənclər, mərkəzi və yerli hakimiyyət orqanlarını, bu qırğına qol qoymuş rəhbərləri lənətləyir, xalqı mübarizəyə, intiqam almağa çağırırlar.**

Ana-bacıların ağlaşması, kişilərin boğuq hıçqırıqları, yandırılan partiya biletlərinin tüstüsü, tankların tırıltısı, vertolyotların uğultusu, yaxından-uzaqdan eşidilən güllə səsləri, təcili yardım maşınını köməyə çağıranların harayı, ətrafdakı hərbçilərin əhatəsi, elə bir dəhşətli mənzərə, köməksizlik-kimsəsizlik, hətta ümidsizlik əhval-ruhiyyəsi, baş verə biləcək daha qorxulu faciələr vahiməsi duyğusu yaratmışdı ki, həmin anlarda insanın keçirdiyi hissləri təsvir edib başqalarına çatdırmaqda qələm aciz, söz isə gücsüzdür. O ağır günləri yaşamaq nə qədər çətin olsa da, görünür, hər halda mümkün idi…, amma həmin anların yaratdığı real təhlükə, qorxu, şəxsi və milli məsuliyyət kimi qarışıq hisslərdən doğan mürəkkəb vəziyyəti obyektiv qiymətləndirib düzgün hərəkət etmək olduqca müşkül məsələ idi…

Azər Nəbiyev, Xəliyyəddin Xəlilov, Xalid Muxtarov, Sabir Rüstəmxanlı, Rəhim Qazıyev, Nemət Pənahov, Nəriman Əliyev, İsmayıl İncəli və başqalarının ayrı-ayrılıqda, habelə birlikdə ayaqüstü mübahisəli məsləhətləşmələrdən sonra razılaşdırılmış ümumi fikri hər an idarəedilməz partlayış həddində olan, qəzəbdən əsəbləri tarıma çəkilmiş mitinq iştirakçılarına çatdırmaq, eyni zamanda onların rəyini bilmək üçün çıxış etmək mənə həvalə olundu. Boğuq bir səslə, çətinliklə olsa da, rabitəsiz şəkildə, lakin ümumxalq mitinqinin qəzəb-nifrət enerjisinə qoşularaq, qətiyyətlə onlara müraciət etdim:

—Qardaşlar, bacılar! Millətimizə ağır faciə üz vermişdir.Xalqımızın qanı axıdılmış, öz haqqını, azadlığını, müstəqilliyini tələb edən oğul-qızlarımız amansızlıqla öldürülmüş, tankların altında əzilmiş, yaralanmış, şikəst edilmiş, həbs olunmuşdur… Bakıda hərbçilər tərəfindən fövqəladə vəziyyət elan olunmuşdur… Ordu hər işə nəzarət edir, mətbuat orqanları bağlanmış, televiziya sıradan çıxarılmış, radio isə yalnız hərbi komendantlığın əhalini hədələyən xəbərlərini verir… Şəhərdə həbslər davam edir, küçələr hərbçilərin törətdikləri cinayətlərin qan izləri, dağıntıları, vurduqları maddi ziyanları ilə doludur…

Abşeron kəndlərindən, Sabunçu dairəsindən, Gənclik metrosu ətrafından, Tiflis prospektindən, Qurd qapısı istiqamətindən, Salyan kazarmasından, İnşaatçılar prospektindən gecəki qanlı qırğın haqqında yeni məlumatlar alınmaqdadır… Bu ağır itki və faciəli vəziyyətin məsuliyyəti bizə nə qədər çətin görünsə də, ayıq olmağa,yeni cinayətlərə hazır durmuş və açıq desək Mərkəzdən əmr almış hərbçilərə belə bir imkanı verməməyə çağırır…

Sizin qəzəbiniz, nifrətiniz, intiqam hissiniz, göz yaşlarınız, lənət səsləriniz ümummilli kədərimizin necə ağır olduğunu sübut edir… Lakin xalq və millət sarsılsa da, əyilməməlidir. Biz ilk növbədə şəhidlərimizin adlarına, əməllərinə görə layiqincə dəfni, uğrunda canlarından keçdikləri Vətən torpağına tapşırılması barədə düşünüb hərəkət etməliyik. Bu bizim milli, dini, insani vətəndaşlıq borcumuzdur. Bütün şəhidlərin bir məkanda, qardaşlıq qəbirstanlığında dəfn olunması məsləhət bilinir… Şəhidlərimizin vaxtilə 1918-ci ildə mart qırğını qurbanlarının dəfn olunduğu Dağüstü ərazidə torpağa tapşırılması razılaşdırılmışdır.

Vaxtı itirmək olmaz! Kim könüllü surətdə bu savab və müqəddəs işdə iştirak etmək istəyirsə, sizdən sol tərəfdəki saatın yanına toplaşsın… Mitinq davam edir.

Mitinq iştirakçılarından bir neçə yüz nəfərlə aralıq kəsmə yolla Dağüstü parka qalxdıq. Orada "Bərpaçı" Tikinti İdarəsinin rəisi Malik Mehdiyevlə görüşüb, uyğun yer seçilməsini onunla, sonra isə hamılıqla razılaşıb

işə başladıq. İşin həcmini və yerin quruluşunu nəzərə alaraq buraya müvafiq texnika gətirmək təklifinə camaat qəti etiraz edərək bildirdilər ki, "biz şəhidlərimizin qəbirlərini əllərimizlə qazacağıq".

Doğrudan da, hərbçilərin hədə-qorxularına, axşama yaxın işi davam etdirməyi qadağan etmələrinə baxmayaraq, səhəri gün yenidən Dağüstü əraziyə gələn könüllülər, dərin kədər və sükut içində bir-birini əvəz edərək, yanvarın 21-də axşama yaxın şəhidlər üçün 120 qəbir hazırlaya bildilər.

Xalqın hökmü və İctimai Dəfn Komissiyasının təşkilatçılığı ilə həyata keçirilən bu ümummilli tədbir, ordunun işğalına, onun qəfil hücumuna, törədilmiş vəhşiliklərə, fövqəladə vəziyyətin sərt tələblərinə qarşı milli etiraz və müqavimətin ifadəsi, habelə azadlıq uğrunda aparılan mübarizənin konkret şəraitə uyğun forması idi. Ən başlıcası isə haqq işimiz və istiqlalımız yolunda başlanmış hərəkatın yeni bir mərhələsi üçün xalqı səfərbər etmək və göstərmək idi ki:

Onlar Şəhid olub Millətimizə,
Qorxmazlıq dərsini təlim keçdilər.

Fövqəladə vəziyyət şəraitində belə bir addımın atılmasının nə demək olduğunu ABŞ-da nəşr olunan "Los-Anceles Tayms" qəzeti, 1990-cı il 23 yanvar sayında belə qiymətləndirmişdi: "Yanvarın 20 və 21-də gündüz təşkil edilən yürüşlər və 22 -də keçirilən kütləvi dəfn mərasimi hər cür mitinqləri qadağan edən fövqəladə vəziyyətə qarşı açıqca meydan oxumaqdır".

Mərkəzə və yerli hakimiyyət orqanlarına qarşı etiraz, habelə mitinqlərin təşkil edildiyi "Şəhidlər Xiyabanı" ərazisində İctimai Dəfn Komissiyasının çoxcəhətli fəaliyyəti həqiqətən tarixi bir hadisə olub milli azadlıq hərəkatımızın unudulmaz səhifəsidir.

Dəfn üçün rəsmi orqanlardan icazə məsələsini həll etmək Azər Nəbiyevə həvalə olunmuşdu. Fövqəladə vəziyyət şəraitində bütün idarə, təşkilat, qurumların səlahiyyətləri Bakı şəhər komendantlığına keçmiş, onların iş otaqları, seyfləri bağlanıb möhürlənmişdi. O zaman 26-lar rayonunun birinci katibi rəhmətlik Vəli Məmmədov və icra komitəsinin sədri Əli Məmmədovun heç kəslə razılaşmadan, təsadüfən tapılmış rəsmi blankda şəhidlərin Dağlıq parkın ərazisində dəfn olunmasına icazə vermələri, əsl qeyrət və vətəndaşlıq mövqeyi nümunəsi idi.

Eyni sözləri Bakı şəhər Sovetinin sədri Niyazi Qaraqaşlı və onun müavini Ədalət Əzizov haqqında da demək borcumuzdur. Onlar, Mərkəzi Komitə və Nazirlər Kabinetindən fərqli olaraq dəfn işinə aşkar-gizli şəkildə kömək göstərmiş, yeri gəldikdə İctimai Dəfn Komissiyasının işini, fəaliyyətini müxtəlif dairələrdə müdafiə etmişlər.

Tarixi yaddaş və ədalət naminə, xalqın iradəsi və hökmü ilə yaradılmış, elin məsləhətləri, tövsiyələri və nəzarəti altında 42 gün (20 yanvardan-2 aprelə kimi) fəaliyyət göstərmiş İctimai Dəfn Komissiyasının fövqəladə vəziyyət şəraitindəki mürəkkəb, həm də məsuliyyətli işinin səfərbəredici əhəmiyyətini nəzərə alaraq, onun üzvlərinin adlarını Millətimizə, eyni zamanda gələcək nəsillərə xatırlatmağı zəruri sayıram:

1. Hacı Allahşükür Paşazadə
2. Azər Nəbiyev
3. Xəliyəddin Xəlilov
4. Xalid Muxtarov
5. Nəriman Əliyev
6. İsmayıl İncəli
7. Malik Mehdiyev
8. İbrahim Əliyev
9. Rəhim Qasımov
10.Bağır Bağırov

İctimai Dəfn Komissiyasının köməkçilər dəstəsinin gündəlik gərgin və çevik fəaliyyətinə Etibar Səmədov, Rüstəm Xalıqov başçılıq etmişlər.

Bu komissiyaya din xadimi və fəhlə, jurnalist və mühəndis, inşaatçı və elmi işçi, müəllim və alim kimi cəmiyyətin müxtəlif təbəqələrinə mənsub, ayrı-ayrı peşə-sənət sahiblərinin daxil olması faktı bir tərəfdən onun ümummilli xarakter daşıdığının, digər tərəfdən isə xalqın ictimai şüur oyanışının yeni mərhələyə yüksəldiyinin göstəricisi idi.

Eyni zamanda unutmamalıyıq ki, o günlərdə cəmiyyətin bir qütbündə Moskvada təcrid olunmuş vəziyyətdə yaşayan Heydər Əliyevin mərkəzin siyasi rəhbərliyini faciə törətməkdə ittiham etməsi mərdliyi; X.R.Ulutürk, İ.Şıxlı, B.Vahabzadə, A.Məlikov, T.İsmayılov, Ş.Hüseynov cəsarəti; A.Paşazadə, E.Qafarova kəskin etirazı; S.Əhmədov, İ.Həmidov, F.Hacıyev, A.Mənsurov kişiliyi; C.Həsənli, Z.Yaqub, E.Salayev, N.Quliyev, C.Əliyev, B.Nəbiyev mövqeyi; Qabil, Anar, Elçin çağırışı; M.Xəzər, E.Əhmədova, S.Əsgərova yanğısı; Flora xanım və Sahilə xanım dəyanəti; İ.Mustafayev, A.İbrahimov, T.Bağırov ağsaqqal məsləhətləri; "Səhər" və "Fövqəladə vəziyyət" qəzeti əməkdaşlarının, "Azadlıq" radiosu və "Vətən" cəmiyyətinin vətəndaşlıq qeyrəti durmuşdursa, digər qütbündəki "sapı özümüzdən baltaların", neçə üzlü satqınların, yalançı qəhrəmanların, qorxaq ziyalıların,

yaranmış vəziyyətdən “faydalanmaq” istəyən yaltaq məmurların, simasız dövlət qulluqçularının ləyaqətsiz hərəkətləri, hərbçilərlə əməkdaşlıq əlaqələri qəzəbli ikrah hissi doğururdu.

Millətin çətin günlərində xalqın iradəsiylə yaradılmış İctimai Dəfn Komissiyası üzvlərinə müxtəlif səviyyələrdə təsirlər göstərilmiş, onlar hədələnmiş, izahat üçün hüquq-mühafizə orqanlarına çağırılmış, böhtan və şantajlara məruz qalmışlar. Belə hallar bir daha təsdiq edir ki, doğrudan da hər hansı millətdə iki millət, iki mədəniyyət, iki əxlaq-davranış normaları olmuş, vardır, görünür, gələcəkdə də olacaqdır.

İctimai Dəfn Komissiyası fəaliyyətini təkcə şəhidlərin son mənzilə yola salınmasının yüksək səviyyədə təşkili ilə məhdudlaşdırmamışdır. Onun üzvləri eyni zamanda həlak olanların siyahısının dəqiqləşdirilməsi, şəhid ailələrinə maddi-mənəvi kömək göstərilməsi, xəstəxanalardakı yaralılara baş çəkilməsi, həbs olunanlar haqqında məlumat toplanması və onların azad edilməsi üçün imzalar toplanması, itkin düşənlərin taleyinin araşdırılması ilə bağlı müxtəlif orqanlara müraciət olunması, “Şəhidlər Xiyabanı” ətrafındakı hərbçilərlə mürəkkəb münasibətlərin çətinliklə də olsa, nizamlanması, müxtəlif səpkili fitnəkarlıq hərəkətlərinin qarşısının alınması, dünyanın müxtəlif qitə və ölkələrindən Bakıya leqal və bəzən də qeyri-leqal yollarla gəlmiş kütləvi informasiya vasitələri nümayəndələrinin yerləşdirilməsi, onların real vəziyyətlə məlumatlandırılması, təhlükəsizliyi, habelə zəruri olduqda yola salınması, matəm içərisində olan xalqda milli azadlıq və vətənpərvərlik hisslərinin gücləndirilməsi, müstəqillik uğrunda mübarizənin davam etməsi ideyasının təbliği, yerli mətbuat orqanlarında Komissiyanın lazımlı işinin işıqlandırılıb qiymətləndirilməsi və onun üzvləri ilə müsahibələrin təşkil olunması, Xiyabanın ərazisinin təkcə gündüzlər deyil, gecələr də istər hərbçilərin, istərsə də öyrədilmiş qrupların xəbis hərəkətlərindən qorunması istiqamətində öz həyatlarını təhlükə altında qoysalar da, xüsusi bir fədakarlıqla çalışmışlar.

İctimai Dəfn Komissiyasının ilk 42 gün və sonrakı illərdə də “Şəhidlər Xiyabanı”nda həyata keçirdiyi müxtəlif tədbirlərin yüksək səviyyədə, xalqımıızın şərəf-ləyaqətinə, dini-milli xüsusiyyətlərinə, mənəvi-əxlaqi dəyərlərinə uyğun təşkilində Vaqif, Gündüz, Əbdül, İsgəndər, Seyfulla, Adil, Təfəkkür, Fərhad, İlham, Xəlil, Mehman, Cavanşir, Yaşar, Eldar, Möhsün, Üzeyir, Mötəbər, Rahib, Vasif, İxtiyar, Məhəmməd, Tamerlan, Əli, Feyruz kimi insanların gərgin əməyi, böyük zəhməti, əvəzsiz səyləri, həqiqətən unudulmazdır və hörmətə layiqdir.

… Xatırlayıram, guya Bakıda “cəmisi bir neçə silahlı terrorçu öldürülmüş”, yaxud Azərbaycanda “islam respublikası” yaratmaq istəyirlər kimi Mərkəzin qərəzli böhtanlarına, uydurmalarına cavab olaraq, yanvar ayının 22-dən başlayaraq, bir neçə gün ərzində 50 nəfərdən artıq şəhidin dəfni və onların arasında ixtiyar kişinin, yaşlı qadının, məktəbli uşaqların, kor rus əlilin, yəhudi həkimin, tatar sürücünün, ləzgi yanğınsöndürənin, gənclərin, tibb bacısının olması, hakim dairələri qorxuya salmışdı.

Mərkəzin “islam təməlçiliyi” ilə bağlı əsassız iddialarına gəldikdə, “Nyu-york tayms” (ABŞ) qəzeti müxbirinin sualına İctimai Dəfn Komissiyasının cavabında bildirilmişdir ki, “Şəhidlər Xiyabanı”nda azərbaycanlılarla bir məkanda, yan-yana rus, tatar, yəhudi, ləzgi millətindən olanlar da dəfn olunmuşlar. “Bizi islam təməlçiliyində günahlandırırlar. Biz fundamentalist olsaydıq, yəhudiləri və rusları burada dəfn edərdikmi?”

Mərkəzin hakim dairələri də onların yerlərdəki buyruqqulları öz vəhşi əməllərinin faciəli nəticələrini ört-basdır etməyə çalışaraq, şəhidlərin bir məkanda dəfninin əleyhinə olsalar da, lakin xalqın qəti əzmi qarşısında buna nail ola bilmədilər. Bu məsələyə toxunan “Baltimor san” qəzeti yazmışdı: “Moskvanın rəsmi məlumatlarında ölənlərin sayının 83 nəfər olduğu bildirilmişdir. Amma jurnalistlərin və yerli sakinlərin dediyinə görə həlak olanların sayı yüzlərlədir”. Sonrakı araşdırmalar Qanlı Yanvar hadisələrində Bakıda həlak olanların sayının 132 nəfər olduğu müəyyənləşdirsə də, lakin əslində nə qədər kədərli səslənsə belə, ürək ağrısı ilə etiraf etməliyik ki, şəhidlərin sayı xeyli çox olmuşdur.

İngiltərədə nəşr olunan “Qardian” qəzeti 22 yanvar 1990-cı il sayında yazmışdı: “Bu hərbi əməliyyatı əsassız bir qorxu və səksəkənin nəticəsi kimi yozmaq olar. Ordunun hücumu zamanı günahsız adamların (cavanların, qadınların, uşaqların) vəhşicəsinə güllələnməsi, tankların özlərini onların altına atan cavanları basıb keçməsi, tonqallar ətrafında qızınan azərbaycanlıların üzərinə hücuma keçərək, cəsədlərin tanınmaz hala salınması bütün dünya ictimaiyyəti tərəfindən pislənməlidir”.

ABŞ, Kanada, İngiltərə, Yaponiya, Türkiyə, Çin, İran, Macarıstan, Misir, İtaliya, Almaniya, Braziliya, Polşa kimi müxtəlif ölkələri təmsil edən jurnalistlər, “Şəhidlər Xiyabanı”nda İctimai Dəfn Komissiyasının üzvləri, buraya ziyarətə gələnlər, şəhid ailələri və hadisələrin iştirakçıları, habelə şahidləri ilə söhbətlərində, görüşlərində səmimiyyətlə etiraf edirdilər ki, Bakıya gələnə qədər onların burada baş vermiş hadisələrə münasibətləri birmənalı olmamışdır. Lakin öz gözləri ilə gördükləri, apardıqları müsahibələr, peşə təcrübələri, müxtəlif ictimai təbəqələrin nümayəndələri ilə ünsiyyətləri, onları obyektiv surətdə tamamilə başqa məntiqi nəticələrə gətirib çıxarmışdır. Kütləvi informasiya vasitələri nümayəndələrin əksəriyyəti yerli rəhbərliyin fəaliyyətsizliyini, Salyan kazarmasındakı qanlı hadisələri, dinc əhaliyə qarşı qadağan olunmuş vasitələrdən istifadə olunmasını,

hərbçilərin özbaşınalıqlarını qətiyyətlə pisləmiş, mübarizəmizə rəğbət bəsləmiş, xalqımızın ləyaqəti və nəcibliyi önündə hörmətlə baş əymişlər.

Qeyd etməyi zəruri bilirəm ki, 20 Yanvar şəhidlərinin dəfninin təşkili və "Şəhidlər Xiyabanı"nın xalqımızın müqəddəs and yeri, habelə uca ziyarət məkanına çevrilməsində İctimai Dəfn Komissiyası müstəsna bir rol oynamışdır. Snayperlərin hədəfi olmuş; hərbçilərin hədə və təhqirlərinə məruz qalmış; dövlət məmurlarının nifrət və istehzaları ilə qarşılaşmış; "sapı özümüzdən olan baltaların" ləyaqətsiz hərəkətləri və qərəzli böhtanları ilə rastlaşmış; yaxın-uzaq tanışların "qayğıkeş" məsləhətlərini, "Şəhidlər Xiyabanı"nın tez-gec "dağıdılacağı", hakimiyyətlə baş-başa gəlməyin "yaxşılıqla qurtarmayacağı", gördüyümüz işin "faydasız olduğu" barədə öyüd-nəsihətlərini eşitmiş, lakin xalqın inamına, gücünə arxalanmış, tarix qarşısındakı məsuliyyətini dərk etmiş İctimai Dəfn Komissiyası, onun fədakar köməkçilər dəstəsi öz vətəndaşlıq və övladlıq borclarını yerinə yetirmişlər.

Qanlı 20 Yanvar hadisələrindən sonra fövqəladə vəziyyət və əslində hakimiyyətsizlik şəraitində cəmiyyətdə milli birliyə nail olmaq, şəhidlərin dəfnini təşkil etmək, milli-azadlıq mübarizəsinin yeni mərhələsi üçün xalqın inamını özünə qaytarmaq məqsədilə:

Ölümə, cəfaya hazır olmayan
Millət hazır deyil, azadlığa da
ideyasının açıq-aydın hikmət işığında:
Nə yatmısan, qoca Vulkan, səninləyəm
Ayağa dur Azərbaycan, səninləyəm!
səfərbəredici mübariz çağırışının:
Bəsdir fəraq odlarından kül ələndi başımıza
Dur ayağa! Ya azad ol, ya tamam yan Azərbaycan!
istiqamətindəki İctimai Dəfn Komissiyasının ictimai-siyasi fəaliyyəti obyektiv elmi-nəzəri və ədalətli mənəvi-əxlaqi meyarlarla dəyərləndirilməlidir.

Şübhəsiz, konkret şəraitin məntiqi nəticəsi olub, tarixi zərurət kimi meydana çıxmış belə bir müstəqil qurum, bütün xalqın bir parçası kimi onun səlahiyyətli nümayəndəsi rolunu oynamışdırsa, xalq isə bütövlükdə bu milli qurumun yaradıcısı, arxası, məsləhətçisi və istiqamətləndiricisi olmuşdur. İctimai Dəfn Komissiyası tərəfindən irəli sürülmüş şəhidlərin qırx və hər il anım günlərinin keçirilməsi, "Şəhidlər Məscidi"nin tikilməsi, Xiyabanda Əbədi Məşəl yandırılması, ərazinin abadlaşdırılaraq şəhidlərin ad və əməllərinə layiq yenidən qurulması, burada şəhidlərin şərəfinə əzəmətli abidə ucaldılması, fəxri qarovul xidmətinin təşkili, Muzey yaradılması, Vahid Xatirə Kompleksinin formalaşması, "Şəhidlər Xiyabanı" ərazisinə xüsusi status verilməsi və əvvəlki nəsillərin azadlıq mücahidlərinin dünyanın müxtəlif ölkələrindəki qəbirlərinin bu müqəddəs məkana köçürülməsi, nəhayət buranın milli yaddaşımızın Əbədi Ziyarətinə və And Ocağına çevrilməsi kimi milli qeyri-şərəf yüklü ideyaların da müəllifi "hər bir hakimiyyətin mənbəyi" sayılan xalqın özü olmuşdur. Xalqın səsi isə Tanrının səsidir.

Bizim günlərimizdə xalqın və millətin haqq səsini eşitmək, onun müxtəlif səpkili qayğıları ilə yaşamaq, şəhidlərimizin uğrunda canlarından keçdikləri müstəqilliyimizi qorumaq, ölkəmizin pozulmuş ərazi bütövlüyünü bərpa etmək, vahid Azərbaycan ideyasını reallaşdırmaq, cəmiyyətin sosial təbəqələşməsi prosesinin kəskinləşməsinə yol verməmək, demokratik islahatlar xəttini davam etdirmək, əhalinin maddi-mədəni həyat səviyyəsini yaxşılaşdırmaq, iqtidar-müxalifət münasibətlərini Vətənə sədaqət, millətə xidmət müstəvisində tənzimləmək elə nəcib vəzifələrdir ki, yalnız bu istiqamətdəki səylərimizlə başımız üzərində əbədi dolaşan narahat şəhid ruhlarına əbədi rahatlıq gətirə bilərik:

Şəhidəm, sönmərəm, bil,
Torpağa dönmərəm, bil,
Ürəklərdə yaşaram
Canlıyam, ölmərəm, bil.
Allah cəmi şəhidlərə rəhmət eləsin.
Onların məğrur ruhları şad olsun.
Müqəddəs qəbirləri nurla dolsun. Amin!

**İctimai Dəfn Komissiyasının sədri**
**Hacı Qüdrət Əbdülsəlimzadə.**

**"Respublika".-**2012.-19 yanvar.-N 13.-S.5.

## Müstəqilliyə gedən yolda xalqımızın şərəf və qəhrəmanlıq salnaməsi

***Elçin Əhmədov,***
Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik
Akademiyası beynəlxalq münasibətlər və xarici siyasət
kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru

**Bu təcavüz nəticəsində həlak olanlar xalq qəhrəmanlarıdır, onlar millətimizin qəhrəmanlarıdır. Onların şəhid olması zamanı tökülən qan bütün xalqımızın qanıdır. O qanın hər damlasında xalqımızın qüdrəti , qəhrəmanlığı var, xalqımızın milli azadlıq, müstəqillik arzuları vardır.**

**Heydər ƏLİYEV**
**Ümummilli lider**

**XX əsrin 80-ci illərinin ikinci yarısında Sovetlər İttifaqında yenidənqurma adı altında bir sıra dəyişikliklər baş verdi. Belə bir şəraitdə ermənilər özlərinin yaxın və uzaq xaricdəki himayədarlarının köməyi ilə "Böyük Ermənistan" ideyasını həyata keçirmək üçün aşkarlıq və demokratiyadan istifadə edərək yenidən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə dair ərazi iddiaları irəli sürdülər. Hər dəfə Qarabağa dair ərazi iddiaları kənardan, məhz, Ermənistanın təbliği, təhriki və təzyiqi ilə ortaya atılmışdır. Heç şübhəsiz, ermənilərin bu ərazi iddiaları birdən-birə deyil, Yerevanda, Moskvada və Qərbdə olan himayədarları tərəfindən hələ xeyli əvvəl diqqətlə və hərtərəfli plan əsasında hazırlanmışdı.**

Münaqişənin başlanğıcında Azərbaycan ümid edirdi ki, məsələ mərkəzi hakimiyyət orqanları tərəfindən ədalətlə həll olunacaq. Lakin təcavüzkarla təcavüzə məruz qalanın eyni tutulması nəticəsində bu günədək həllini tapmayan münaqişənin əsası qoyuldu. Sovet rəhbərliyinin məsələyə vaxtında və prinsipial qiymət verməməsi, Ermənistanın ərazi iddialarının əsassız olmasının göstərilməməsi əvvəl Əsgəranda, sonra isə ermənilər tərəfindən xüsusi plan əsasında hazırlanmış Sumqayıtda baş verən faciəli hadisələrə gətirib çıxartdı.

Nəticədə, Sovet rəhbərliyinin çox ciddi və bağışlanılmaz səhvləri və ermənipərəst siyasəti 1989-cu ilin sonu - 1990-cı ilin əvvəllərində vəziyyətin getdikcə kəskinləşməsinə gətirib çıxartdı, DQMV və Azərbaycanın Ermənistanla həmsərhəd bölgələrində erməni təcavüzü daha geniş miqyas aldı. Bu illərdə törədilən terror aktları nəticəsində yüzlərlə azərbaycanlının həyatına son qoyuldu. Minlərlə azərbaycanlı SSRİ-nin hakim dairələri tərəfindən himayə edilən ermənilərin işğalçılıq siyasətinin qurbanı oldu.

1990-cı ilin yanvar ayında Bakıya Sovet ordusunun hərbi müdaxiləsi və Azərbaycan tarixində ondan əvvəl baş vermiş faciəli hadisələr XX əsr boyu xalqımıza qarşı yeridilən düşünülmüş siyasətin növbəti təzahürü idi. Sovet rəhbərliyinin himayədarlığı ilə başlayan Dağlıq Qarabağ hadisələri, Azərbaycan xalqına qarşı soyqırımı və azərbaycanlıların Ermənistan ərazisindəki əzəli torpaqlarından qovulması bu siyasətin mərhələləridir.

**Sovet qoşunlarının Bakıya hərbi müdaxiləsi**

Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrindən artıq iyirmi iki il keçir. Keçmiş sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi qalacaqdır. Milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə silahlı təcavüz nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi.

Sovet Ordusunun böyük heyətinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi. SSRİ 1956-cı ildə Çexoslovakiyaya, 1968-ci ildə Macarıstana və 1979-cu ildə Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni hətta o zamankı Sovet İttifaqının müttəfiq respublikalarından biri olan Azərbaycanda da təkrarlamaqdan çəkinmədi. Heç şübhəsiz ki, 1990-cı il yanvarın 20-də Bakıda baş verən hadisələri Qarabağdakı erməni təcavüzündən ayrıca təhlil etmək düzgün olmazdı. Çünki Azərbaycan həmin dövrdə qonşu Ermənistanın təcavüzünə də məruz qalmışdı. Belə bir şəraitdə sovet rəhbərliyi nəinki münaqişənin qarşısını almaq üçün qəti tədbirlər görməmiş, əksinə, Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan xüsusi təlim keçmiş erməni əsgər və zabitləri, eləcə də sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantlar da daxil edilmişdi.

Ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkarlıq siyasəti və keçmiş SSRİ rəhbərliyinin onlara himayədarlığına öz qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı sovet ordusunun xüsusi təlim keçmiş hissələrindən istifadə olunması 1990-cı ilin 20 yanvarında qanlı faciəyə gətirib çıxardı.

1990-cı ilin yanvar ayında Mixail Qorbaçov başda olmaqla sovet imperiyasının rəhbərliyi Bakıda vəziyyətin öz məcrasından çıxdığını və hakimiyyətin təhlükədə olduğunu bəhanə edərək qoşunun yeridilməsi üçün müxtəlif dezinformasiyalar yayırdı. Guya Bakıya qoşun hərbi qulluqçuların ailələrini qorumaq, hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə bu, tamamilə saxta bir tezis idi. Çünki sovet rəhbərliyinin "dəlilləri" hətta həqiqətə yaxın olsaydı belə, Bakıya xüsusi təlim keçmiş qoşun göndərməyə ehtiyac yox idi. Ona görə ki, həmin vaxt burada daxili qoşunların 11 min 500 əsgəri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri var idi. Eləcə də 4-cü ordunun komandanlığı da Bakıda yerləşirdi.

Bütün bunlara baxmayaraq, 1990-cı il yanvarın 19-da M.Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında rəsmi sənəd imzaladı. Lakin əhalinin bundan məlumatsız qalması üçün SSRİ DTK-nın "Alfa" qrupu tərəfindən yanvarın 19-da saat 19.27-də Azərbaycan televiziyasının enerji bloku partladıldı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və dinc əhaliyə amansız divan tutuldu. Qorbaçovun fərmanı qüvvəyə minənədək - yanvarın 20-də saat 00.00-dək artıq 9 nəfər öldürülmüşdü. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100 nəfərə çatmışdı.

Beləliklə, artıq yanvarın 20-də 131 insan öldürülmüş: onlardan 117-si azərbaycanlı, 6-sı rus, 3-ü yəhudi, 3-ü tatar; 744 adam ağır xəsarət almış; 4-şəxs itkin düşmüş; 400 nəfər isə həbs edilmişdir. Fövqəladə vəziyyət elan ediləndən sonra isə 21 nəfər qətlə yetirilmişdir. Fövqəladə vəziyyət elan edilməmiş rayonlarda - Neftçala və Lənkəranda 25-26 nəfər öldürülmüşdü.

"Şit" təşkilatı ekspertlərinin hesabatından:

adamları xüsusi qəddarlıqla və yaxın məsafədən güllələmişlər. Məsələn, Y.Meyeroviçə 21, D.Xanməmmədova 10-dan çox, R.Rüstəmova 23 güllə vurulmuşdur;

xəstəxanalar, "təcili yardım" maşınları atəşə tutulmuş, həkimlər öldürülmüşdür;

adamlar süngü-bıçaqla qətlə yetirilmişdir. Onların arasında hər iki gözü tutulmuş B.Yefimtsev də var;

"Kalaşnikov" avtomatının ağırlıq mərkəzi dəyişən 5,45 çaplı güllələrindən istifadə edilmişdir.

1948-ci ilin İnsan Hüquqları haqqında Bəyannəməsi, 1966-cı ilin Vətəndaş və Siyasi İnsan Hüquqları haqqında Beynəlxalq Pakt, 1966-cı ilin Mədəni, Sosial və İqtisadi Hüquqları haqqında Beynəlxalq Pakt və 1975-ci ilin Avorpada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Helsinki Yekun Aktı, ATƏM-in 1989-cu il Vyana görüşünün son qərarı (fövqəladə vəziyyətdə və hərbi münaqişələr zamanı qadın və uşaq hüquqlarının müdafiəsi Bəyannaməsi), hərbi əməliyyatların aparılmasını tənzimləyən qüvvədə olan müqavilələr, əsasən də 1980-cı ilin döyüş zamanı yüngül fırlanan və yayılan güllələrin istifadə edilməməsi haqqında Bəyannamə (1967-ci ildə quru döyüşünün qayda və qanunları barədə IV Haaqa müqaviləsi) də bura daxil olmaqla qüvvədə olan bütün İnsan Hüquqlarına əsaslanan beynəlxalq müqavilələr kobudcasına pozulmuşdur.

**Hadisəyə dünyanın reaksiyası**

Yanvarın 20-də artıq bütün dünya Bakıda törədilmiş dəhşətli qırğından xəbər tutdu. Artıq sovet qoşunlarının Bakıya hərbi müdaxiləsi dünyanın bir sıra ölkələrində etirazla qarşılanmışdır.

Belə ki, Bakıda törədilən cinayətlər qonşu və qardaş Türkiyədə sərt reaksiyalara səbəb olmuş, ölkənin hər yerində mitinq və nümayişlər keçirilmişdir. Ankara, İstanbul, Qars, İzmir, Kayseri və başqa şəhərlərdə keçirilən mitinq və nümayişlərdə sovet rəhbərliyinin törətdiyi bu cinayəti müdafiə edən Amerika Birləşmiş Ştatları pislənmişdir. Eyni zamanda Türkiyənin rəsmi şəxsləri, Türkiyə hökuməti Bakıda törədilən hadisəni tənqid etməklə yanaşı, Azərbaycana yardım göstərilməsi təklifi ilə də çıxış etmişlər.

İranın milli təhlükəsizlik şurası yığıncaq keçirmiş və bu barədə bəyanat qəbul etmişdir. İran parlamentinin 160-dan çox üzvü M.Qorbaçovun Azərbaycana silahlı təcavüzünü pisləmişdir. İran prezidenti Rəfsəncani və İranın dini lideri Xameneyi M.Qorbaçovun atdığı bu addımı kəskin tənqid etmişlər.

Bununla yanaşı, Türkiyə və İranın kütləvi informasiya vasitələri sovet qoşunlarının Bakıda törətdiyi qanlı hadisəni kəskin tənqid etmiş və bunu qırğın adlandırmışdır.

Qərb ölkələrinin mövqeyinə gəldikdə isə, Sovet İttifaqının Azərbaycana hərbi müdaxiləsinə müxtəlif reaksiyalar vermişlər. Bu reaksiyalar ümumilikdə müsbət olsa da, ancaq obyektiv reallığı əks etdirmirdi. Məsələn, ABŞ hökuməti bu hərbi müdaxiləni anlayışla qarşıladığını bildirmişdir. Avropa İttifaqının rəsmi

nümayəndəsi Qeor isə demişdir ki, qan axıdılmadan yenidənqurma tətbiq edilə bilməz. Avropanın müxtəlif yerlərindən gələn fikirlər isə qərbin mövqeyini izah etmək baxımından maraqlıdır. Məsələn, "Ştern" məcmuəsi və "Tribuna lyudu" qəzeti bu hadisələri qeyri-obyektiv işıqlandıraraq, qüvvədən istifadə olunmasının zəruri olduğu bildirmişdir.

Nəticədə, Bakıda baş verən hadisələr dünya ictimaiyyətinə yanlış izah edilirdi. Bundan əlavə "Los-Anceles Tayms", "Vaşinqton Post", "Krisçen Sayens Monitor", "Nyu-york Tayms", "Baltimor San" mətbu orqanlarında, eləcə də, bir sıra xarici radiostansiyaların məlumatlarında Bakıda baş verən hadisələrə, xüsusilə, sovet ordusunun hərbi müdaxiləsinə haqq qazandırılmasa da, çox vaxt bu qanlı cinayətə laqeyd münasibət özünü göstərirdi.

Faciədən bir neçə il sonra, yəni 1994-cü ilin yanvarında bu qanlı cinayətin başında duran SSRİ müdafiə naziri, marşal Yazov DFVK işi üzrə prosesdə ifadə verərkən bildirmişdi: "1990-cı il yanvarın 19-da Qorbaçov məni, Bakatini və Kryuçkovu yanına çağırıb Bakıda fövqəladə vəziyyət tətbiq etmək əmrini verdi. Mən heç bir yazılı qərar, heç bir fərman görməmişəm".

Daxili işlər naziri Bakatin isə, yanvarın 21-də Azərbaycan Respublikası Daxili İşlər Nazirliyində keçirdiyi görüşdə bəyan etmişdir ki, "əgər siz (Azərbaycan xalqı nəzərdə tutulur- E.Ə.) sovet hakimiyyətini istəməsəniz, sizinlə uzunmüddətli müharibə olacaq".

1990-cı ildə Bakıda baş verən qırğına şəxsən rəhbərlik etmiş M.Qorbaçov həmin il Beynəlxalq Nobel Sülh mükafatına layiq görüldü. 1995-ci il aprelin 27-də Türkiyədə səfərdə olan keçmiş SSRİ prezidenti Mixail Qorbaçov İstanbulun Çırağan sarayında onun şərəfinə verilən ziyafətdə çıxış edərkən öz siyasi bioqrafiyasının bəzi məqamlarına toxunmuş və 1990-cı il 20 yanvar hadisələrindən danışarkən öz günahını acizanə şəkildə etiraf edərək bildirmişdi: "Bakıda fövqəladə vəziyyət elan etmək və oraya qoşun göndərmək mənim siyasi həyatımın ən böyük səhvi idi".

Sovet İttifaqının 1990-cı ilin yanvarındakı cinayətkar hərəkəti Azərbaycan xalqının SSRİ-dən müstəqillik əldə etmək cəhdlərinin qarşısını almağa yönəlmişdi. Bu barədə Amerikalı konqresmen Din Heller həmin qanlı hadisədən 20 il sonra Azərbaycan diasporuna göndərdiyi məktubda bildirmişdir:

"20 il əvvəl Azərbaycanda Sovet imperiyasının son amansızlıqlarından biri baş verib. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet ordusu Azərbaycan xalqı arasında yayılmış SSRİ-dən azad olmaq istəklərinin qarşısını almaq məqsədi ilə Azərbaycan paytaxtına daxil oldu. "Qanlı Yanvar" adını almış hadisələr zamanı 100-dən çox Azərbaycan vətəndaşı öldürüldü və yaralandı".

Onun sözlərinə görə, "Qanlı Yanvar" Sovet İttifaqının Azərbaycandakı idarəçiliyinin sonu olub. Azərbaycan 18 oktyabr 1991-ci ildə öz müstəqilliyini bərpa edib. Hər il yanvarın 19-20-də Azərbaycan vətəndaşları vətəni uğrunda dəyərli canlarından keçən həmyerlilərini xatırlayırlar. Dünyada hər kəsin "Qanlı Yanvar" faciəsini xatırlaması və həmin gün canlarından keçənlərin xatirəsini yad etməsi vacibdir".

**20 yanvar hadisələrinə siyasi qiymət verilməsi**

O zaman yalnız ümummilli liderimiz Heydər Əliyev bütün çətinliklərə baxmayaraq siyasi iradə nümayiş etdirərək Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəlmiş və SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə ittiham edərək bəyanatla çıxış etmişdir. Azərbaycan rəhbərliyinə qayıdışdan sonra Heydər Əliyevin təşəbbüsü ilə 1994-cu ilin yanvar ayında Milli Məclisdə Azərbaycan xalqına qarşı hərbi təcəvüz olan faciəvi 20 yanvar hadisələrinə siyasi qiymət verilməsinə nail oldu.

Yalnız Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra 1990-cı il qanlı Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 1994-cü il tarixli fərmanında deyilirdi: "Xalqımızın tarixinə qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermişdir. Tarixin yaddaşına qanla yazılmış həmin gündən bizi 4 illik zaman məsafəsi ayırır. Təəssüf ki, 4 il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilməmişdir".

Fərmanda Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymətin verilməsi, bu məqsədlə parlamentin xüsusi sessiyasının keçirilməsi məsələsinə baxılması tövsiyə edilirdi. Milli Məclisdə müzakirələrin yekunu olaraq 1994-cü il martın 29-da qəbul edilən qərarda, nəhayət ki, 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi.

1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar. Bu gün Azərbaycan xalqının tarixinə qanlı 20 yanvar faciəsi müstəqilliyə gedən yolda xalqımızın şərəf və qəhrəmanlıq səhifəsi kimi yazılmışdır.

**"Xalq qəzeti"**.-2012.-18 yanvar.-N 12.-S.4.

## Şanlı tariximizin qanlı səhifəsi

***Aydın Zəkiyev,***
Qaradağ Rayon İcra Hakimiyyətinin
təhsil, səhiyyə və mədəniyyət
şöbəsinin böyük məsləhətçisi.

XX əsr tarixinə insanlığa və bəşəriyyətə qarşı ən amansız və dəhşətli cinayətlərdən biri kimi düşmüş 1990-cı ilin 20 Yanvar hadisələrindən iyirmi iki il keçir. İnsanlarımızı qəlbən sarsıtmış bu faciəli gündə Azərbaycan xalqı əsrlər boyu qəlbində yaşatdığı milli azadlıq və istiqlal istəyindən geri çəkilməyəcəyini, bu müqəddəs amal uğrunda hətta canından belə keçməyə hazır olduğunu bütün dünyaya nümayiş etdirdi. Tarixin elə anları olur ki, xalqın taleyinə əbədilik yazılır. Müdhiş 20 Yanvar günü də Azərbaycanın çağdaş tarixində müstəqillik yolunda cəsarətli, ən dəyərli səhifələrdən biri sayılır. Azadlıq deyə qətiyyətlə ayağa qalxmış əliyalın xalq təpədən-dırnağa kimi silahlanmış imperiya qoşunlarının qarşısında əyilmədi, sınmadı. Mərd insanlar əsarətdən ölümü üstün tutdular və şərəfli şəhidlik zirvəsinə yüksəlməklə həm özlərinə, həm də Vətənə qəhrəmanlıq salnaməsi yaratdılar.

1990-cı ilin 19-20 yanvarında baş verən faciəli hadisələr süquta uğramaqda olan sovet imperiyasının mənfur repressiya maşınının xalqımıza qarşı törətdiyi amansız cinayət idi. Bu faciə Azərbaycan xalqını qorxutmaq, onun milli oyanışını, torpaq uğrunda mübarizliyini məhv edib sındırmaq məqsədi daşıyan mənfur planın tərkib hissəsi idi. Xalqımız həmin gün üstünə şığıyan tanklara, avtomat və pulemyot güllələrinə qarşı sinəsini verməyi, öz mənliyini və mətinliyini nümayiş etdirməyi bacardı. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet imperiyası rəhbərlərinin göstərişi ilə xüsusi hərbi birləşmələr və zirehli texnika Bakı və Sumqayıt şəhərlərinə, habelə Azərbaycanın bir çox rayonuna yeridilmiş, dinc əhaliyə xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklə divan tutulmuşdu. Öz torpaqlarının müdafiəsi naminə mübarizəyə qalxmış yüzlərlə silahsız insan, o cümlədən yaşlılar, qadınlar və uşaqlar qətlə yetirilmiş, yaralanmış, itkin düşmüş, inzibati binalara, yaşayış evlərinə, nəqliyyat vasitələrinə ciddi zərər vurulmuşdur. İnsanlıq simasını itirmiş hərbi canilər həlak olanların dəqiq sayını gizlətmək üçün onların cəsədlərini belə məhv etmişlər. SSRİ Müdafiə və Daxili İşlər nazirliklərinin, Dövlət Təhlükəsizlik Komitəsinin birgə həyata keçirdiyi hərbi əməliyyat nəticəsində bir neçə istiqamətdən Bakıya daxil olan qoşunlar təkcə paytaxtda 130-dan artıq mülki şəxsi amansızcasına öldürmüş, 600-dən çox adamı yaralamış, ölçüyəgəlməz dağıntılar törətmişlər. Hücum zamanı qadağan edilmiş güllələrdən istifadə olunmuş, hətta yaralıları çıxaran təcili tibbi yardım maşınlarına və həkimlərə atəş açılmış, neçə tibb işçisi yaralanmış, şəhid olmuşdur.

O dövrün Azərbaycandakı fərasətsiz iqtidarı isə son nəfəsdə olan imperiya qarşısında hələ də mütilik göstərir, xalqa kömək etmək əvəzinə, əksinə, onun əl-qolunu tutub saxlamağa çalışır, beləliklə xalqa açıq-aşkar xəyanət edirdi. Xalq hər tərəfdən təcrid olunmuş vəziyyətə düşmüşdü.

20 Yanvar faciəsinə siyasi-hüquqi qiyməti ilk olaraq ulu öndərimiz Heydər Əliyev vermişdir. Həyatının təhlükədə olmasına baxmayaraq, 1990-cı il yanvarın 21-də Heydər Əliyev Moskvada, Kremlin bir addımlığında bu dəhşətli hadisəyə münasibətini bildirərkən kəskin bəyanatında Bakıda törədilən qırğınlara siyasi qiymət verilməsini, M. Qorbaçov başda olmaqla bütün günahkarların cəzalandırılmasını tələb etmişdir. Ulu öndərimizin bu addımı həm Azərbaycanda, həm də ölkə hüdudlarından kənarda böyük rezonans doğurdu. Bu qətiyyətli mövqe dərin sarsıntı içində olan xalqa mənəvi dəstək oldu. Bununla da Heydər Əliyev hər zaman xalqla, onun problemləri ilə birgə olduğunu, dərdinə şərik çıxdığını sübuta yetirdi. Yalnız bundan sonra bütün dünya xalqımızın başına gətirilən faciədən xəbər tutdu və bu cinayətləri qətiyyətlə pislədi. 1990-cı ilin yanvarın 22-də İngiltərənin "Qardian" qəzeti yazmışdı: "Bu dəhşətli hərbi əməliyyatı 70 illik imperiya əsarətindən qurtulmaq üçün ayağa qalxmış Azərbaycan xalqının coşğun mübarizə əzminin imperiyanın qəlbində yaratdığı qorxu xofunun nəticəsi kimi də izah etmək olar. Ordunun şəhərə hücumu zamanı günahsız insanların vəhşicəsinə güllələnməsi, tankların adamları öz tırtılları altında əzib keçməsi, qışın şaxtalı gecəsində tonqallar ətrafında qızınan dinc azərbaycanlıların üzərinə hücuma keçərək cəsədlərini tanınmaz hala salması bütün dünya ictimaiyyəti tərəfindən nifrət və qəzəblə qarşılanıb pislənməlidir".

Yanvarın 23-də isə ABŞ-ın "Los-Anceles Tayms" qəzeti hadisələrə belə qiymət vermişdi: "Yanvarın 20-də və 21-də təşkil edilən yürüşlər, 22-də keçirilən kütləvi dəfn mərasimi hər cür mitinqləri qadağan edən fövqəladə vəziyyətə qarşı açıqdan-açığa meydan oxumaqdır. Şəhidlər xiyabanında keçirilən dəfn mərasimi "Moskva"

mehmanxanasının yuxarı mərtəbələrində yerləşdirilmiş xüsusi nəzarətçilər və snayperlər tərəfindən diqqətlə izlənirdi. Bütün sərt maneələrə və təhlükəli nəzarətə baxmayaraq, qeyrətli insanlar şəhidlərin xatirəsinə layiq dəfn mərasiminin keçirilməsinə nail oldular”. Dünyanın nüfuzlu qəzetlərində dərc olunan bu fikirlər Azərbaycan xalqının nə qədər mübariz, qəhrəman xalq olduğunun dünya ictimaiyyəti tərəfindən təsdiqi idi.

20 Yanvara aparan yol M.Qorbaçovun ermənilərə havadarlığı və Azərbaycana düşmənçiliyi ilə, bu fonda xalqımızın azadlıq mübarizəsinə qalxmağı ilə başlanıb. Keçmiş imperiya rəhbərliyinin xeyir-duası ilə Ermənistanın Azərbaycana qarşı başladığı ərazi iddiaları nəticə etibarilə xalqımızın milli müstəqillik və istiqlaliyyət uğrunda mübarizəsinə əlavə impulslar verdi. Xalqımız ərazi bütövlüyünü qoruyub saxlamaq üçün 1988-ci ildə iradəsini ortaya qoydu. Rejimin həyata keçirdiyi repressiv tədbirlər Azərbaycanda xalqın içində olan narazılığı qətiyyən boğa bilmədi. Xalq imperiyanın Azərbaycana qarşı məqsədli şəkildə həyata keçirdiyi məkrli plana etiraz edir, Dağlıq Qarabağdakı ermənilərin separatçı və ekstremist hərəkətlərinin qarşısının alınmasını, haqq-ədalətin bərpa olunmasını istəyirdi. Ərazisinin işğal edilməsi cəhdlərinə qarşı qətiyyətlə çıxan xalqımızın milli ruhu, özünüdərk hissi yüksəlmiş, müqavimət əzmi artmışdı.

Həmin dövrdə sovet DTK-sı tərəfindən təlimatlandırılmış müəyyən qüvvələr xalqı məqsədli şəkildə sovet qoşunları ilə üz-üzə qoymaq taktikası seçmişdilər. Belə vəziyyətdə nə o vaxt Azərbaycana rəhbərlik edənlər, nə də AXC rəhbərliyi insanlar arasında təbliğat işi aparmır, əliyalın vətəndaşları silahlı ordu ilə üz-üzə gəlməkdən çəkindirmirdilər. Bu yanaşma isə 20 Yanvarda günahsız insanların ölümü, faciənin miqyasının genişlənməsi ilə nəticələndi.

Yalnız 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyev hakimiyyətə qayıdandan sonra ilk dəfə olaraq Milli Məclisdə bu qanlı hadisəyə siyasi və hüquqi qiymət verildi. 20 Yanvar hadisələri qurbanlarının ailə üzvləri, müdhiş olaylar zamanı ziyan çəkənlərin hamısı dövlət qayğısı ilə əhatə olundu. Qanlı qırğın zamanı həlak olanlara “20 Yanvar şəhidi” fəxri adı verildi. “20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün təsis edilməsi haqqında cənab İlham Əliyevin sərəncamı isə vətənin mərd oğullarına dövlət qayğısının yeni parlaq təzahürüdür. Bu faciəli hadisələr zamanı Bakının Qaradağ rayonunun əhalisi də əliyalın vəziyyətdə təpədən-dırnağa silahlanmış sovet ordusuna qarşı şücaətlə dayanmışdır. Rayonun Qobustan qəsəbə sakini Azad Rzayev şəhidlik zirvəsinə yüksəlmiş, on iki nəfər isə əlil olmuşdur. Qaradağ rayonun şəxsi amansızcasına öldürmüş, 600-dən çox adamı yaralamış, ölçüyəgəlməz dağıntılar törətmişlər. Hücum zamanı qadağan edilmiş güllələrdən istifadə olunmuş, hətta yaralıları çıxaran təcili tibbi yardım maşınlarına və həkimlərə atəş açılmış, neçə tibb işçisi yaralanmış, şəhid olmuşdur.

O dövrün Azərbaycandakı fərasətsiz iqtidarı isə son nəfəsdə olan imperiya qarşısında hələ də mütilik göstərir, xalqa kömək etmək əvəzinə, əksinə, onun əl-qolunu tutub saxlamağa çalışır, beləliklə xalqa açıq-aşkar xəyanət edirdi. Xalq hər tərəfdən təcrid olunmuş vəziyyətə düşmüşdü.

20 Yanvar faciəsinə siyasi-hüquqi qiyməti ilk olaraq ulu öndərimiz Heydər Əliyev vermişdir. Həyatının təhlükədə olmasına baxmayaraq, 1990-cı il yanvarın 21-də Heydər Əliyev Moskvada, Kremlin bir addımlığında bu dəhşətli hadisəyə münasibətini bildirərkən kəskin bəyanatında Bakıda törədilən qırğınlara siyasi qiymət verilməsini, M. Qorbaçov başda olmaqla bütün günahkarların cəzalandırılmasını tələb etmişdir. Ulu öndərimizin bu addımı həm Azərbaycanda, həm də ölkə hüdudlarından kənarda böyük rezonans doğurdu. Bu qətiyyətli mövqe dərin sarsıntı içində olan xalqa mənəvi dəstək oldu. Bununla da Heydər Əliyev hər zaman xalqla, onun problemləri ilə birgə olduğunu, dərdinə şərik çıxdığını sübuta yetirdi. Yalnız bundan sonra bütün dünya xalqımızın başına gətirilən faciədən xəbər tutdu və bu cinayətləri qətiyyətlə pislədi. 1990-cı ilin yanvarın 22-də İngiltərənin “Qardian” qəzeti yazmışdı: “Bu dəhşətli hərbi əməliyyatı 70 illik imperiya əsarətindən qurtulmaq üçün ayağa qalxmış Azərbaycan xalqının coşğun mübarizə əzminin imperiyanın qəlbində yaratdığı qorxu xofunun nəticəsi kimi də izah etmək olar. Ordunun şəhərə hücumu zamanı günahsız insanların vəhşicəsinə güllələnməsi, tankların adamları öz tırtılları altında əzib keçməsi, qışın şaxtalı gecəsində tonqallar ətrafında qızınan dinc azərbaycanlıların üzərinə hücuma keçərək cəsədlərini tanınmaz hala salması bütün dünya ictimaiyyəti tərəfindən nifrət və qəzəblə qarşılanıb pislənməlidir”.

Yanvarın 23-də isə ABŞ-ın “Los-Anceles Tayms” qəzeti hadisələrə belə qiymət vermişdi: “Yanvarın 20-də və 21-də təşkil edilən yürüşlər, 22-də keçirilən kütləvi dəfn mərasimi hər cür mitinqləri qadağan edən fövqəladə vəziyyətə qarşı açıqdan-açığa meydan oxumaqdır. Şəhidlər xiyabanında keçirilən dəfn mərasimi “Moskva” mehmanxanasının yuxarı mərtəbələrində yerləşdirilmiş xüsusi nəzarətçilər və snayperlər tərəfindən diqqətlə izlənirdi. Bütün sərt maneələrə və təhlükəli nəzarətə baxmayaraq, qeyrətli insanlar şəhidlərin xatirəsinə layiq dəfn mərasiminin keçirilməsinə nail oldular”. Dünyanın nüfuzlu qəzetlərində dərc olunan bu fikirlər Azərbaycan xalqının nə qədər mübariz, qəhrəman xalq olduğunun dünya ictimaiyyəti tərəfindən təsdiqi idi.

20 Yanvara aparan yol M.Qorbaçovun ermənilərə havadarlığı və Azərbaycana düşmənçiliyi ilə, bu fonda xalqımızın azadlıq mübarizəsinə qalxmağı ilə başlanıb. Keçmiş imperiya rəhbərliyinin xeyir-duası ilə Ermənistanın Azərbaycana qarşı başladığı ərazi iddiaları nəticə etibarilə xalqımızın milli müstəqillik və istiqlaliyyət uğrunda mübarizəsinə əlavə impulslar verdi. Xalqımız ərazi bütövlüyünü qoruyub saxlamaq üçün 1988-ci ildə iradəsini ortaya qoydu. Rejimin həyata keçirdiyi repressiv tədbirlər Azərbaycanda xalqın içində olan narazılığı qətiyyən boğa bilmədi. Xalq imperiyanın Azərbaycana qarşı məqsədli şəkildə həyata keçirdiyi məkrli plana etiraz edir, Dağlıq Qarabağdakı ermənilərin separatçı və ekstremist hərəkətlərinin qarşısının alınmasını, haqq-ədalətin bərpa olunmasını istəyirdi. Ərazisinin işğal edilməsi cəhdlərinə qarşı qətiyyətlə çıxan xalqımızın milli ruhu, özünüdərk hissi yüksəlmiş, müqavimət əzmi artmışdı.

Həmin dövrdə sovet DTK-sı tərəfindən təlimatlandırılmış müəyyən qüvvələr xalqı məqsədli şəkildə sovet qoşunları ilə üz-üzə qoymaq taktikası seçmişdilər. Belə vəziyyətdə nə o vaxt Azərbaycana rəhbərlik edənlər, nə də AXC rəhbərliyi insanlar arasında təbliğat işi aparmır, əliyalın vətəndaşları silahlı ordu ilə üz-üzə gəlməkdən çəkindirmirdilər. Bu yanaşma isə 20 Yanvarda günahsız insanların ölümü, faciənin miqyasının genişlənməsi ilə nəticələndi.

Yalnız 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyev hakimiyyətə qayıdandan sonra ilk dəfə olaraq Milli Məclisdə bu qanlı hadisəyə siyasi və hüquqi qiymət verildi. 20 Yanvar hadisələri qurbanlarının ailə üzvləri, müdhiş olaylar zamanı ziyan çəkənlərin hamısı dövlət qayğısı ilə əhatə olundu. Qanlı qırğın zamanı həlak olanlara “20 Yanvar şəhidi” fəxri adı verildi. “20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün təsis edilməsi haqqında cənab İlham Əliyevin sərəncamı isə vətənin mərd oğullarına dövlət qayğısının yeni parlaq təzahürüdür. Bu faciəli hadisələr zamanı Bakının Qaradağ rayonunun əhalisi də əliyalın vəziyyətdə təpədən-dırnağa silahlanmış sovet ordusuna qarşı şücaətlə dayanmışdır. Rayonun Qobustan qəsəbə sakini Azad Rzayev şəhidlik zirvəsinə yüksəlmiş, on iki nəfər isə əlil olmuşdur. Qaradağ rayonun şəxsi amansızcasına öldürmüş, 600-dən çox adamı yaralamış, ölçüyəgəlməz dağıntılar törətmişlər. Hücum zamanı qadağan edilmiş güllələrdən istifadə olunmuş, hətta yaralıları çıxaran təcili tibbi yardım maşınlarına və həkimlərə atəş açılmış, neçə tibb işçisi yaralanmış, şəhid olmuşdur.Qaradağ rayonu Qobustan qəsəbəsindəki 223 saylı orta məktəb indi şəhid Azad Rzayevin adını daşıyır. Şəhid ailəsi və 20 Yanvar əlilləri rayon rəhbərliyinin daim diqqət və qayğısı ilə əhatə olunublar. Hər il olduğu kimi, bu il də rayon icra hakimiyyəti tərəfindən bu ailələrə ərzaq və maddi yardım göstərilmişdir.

Bakı şəhərində şəhidlərin xatirəsinə möhtəşəm abidə ucaldılmış, onların uyuduğu torpaq soydaşlarımız üçün and yerinə çevrilmişdir. Respublikamızda hər il 20 Yanvar—Ümumxalq Hüzn Günü kimi qeyd edilir və xalqımız igid övladlarının fədakarlığını ehtiramla yad edir. 20 Yanvarda dinc əhaliyə qarşı həyata keçirilən cəza tədbirləri zamanı, insanlıq əleyhinə törədilmiş dəhşətli əməl nəticəsində BMT-nin İnsan Hüquqları haqqında ümumi Bəyannaməsinin, habelə insan hüquqlarına dair beynəlxalq hüquqi sənədlərin müddəaları kobud şəkildə pozulmuşdur. 20 Yanvar faciəsi kütləvi insan itkisi ilə nəticələnən terror hadisələri sırasında öz mahiyyətinə və miqyasına görə dəhşətli bir cinayətdir. 1990-cı ilin qanlı yanvar hadisələri xalqımızın qan yaddaşında əbədi qalacaq bir tarixdir. Bu, elə bir tarixdir ki, bizdən sonrakı nəsillər də xalqımıza qarşı yönələn bu cinayətin törədilmə səbəblərini öyrənəcək, əlləri yüzlərcə günahsız adamın qanına batmış imperiya cəlladlarını, onların əlaltıları olan erməniləri lənətləyəcək, Vətən yolunda, azadlıq və istiqlal uğrunda canlarından keçən şəhidlərimizi zaman-zaman xatırlayacaqdır. Ulu öndərimiz bu hadisələrlə bağlı demişdir: “**Azərbaycan xalqı öz qəhrəman övladlarının fədakarlığını yüksək qiymətləndirərək hər il 20 Yanvarda onların xatirəsini dərin ehtiramla yad edir. 20 Yanvar gününün Azərbaycanın tarixində ölkəmizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə qəhrəmanlıq rəmzi kimi böyük əhəmiyyəti vardır. Vətənin azadlığı, suverenliyi uğrunda özlərini qurban verən şəhidlərin xatirəsi həmişə qəlbimizdə yaşayacaqdır”.**

**“Respublika”.**-2012.-18 yanvar.-N 12.-S.5.

## 20 Yanvar faciəsi şahid nəzəri ilə

*Bəxtimşah Tağıyeva*

Hər bir insan yaşa dolduqca keçdiyi ömür yoluna dönüb baxır, gördüyü işlərə qiymət verir, hər addımının pis və ya yaxşılığını dəyərləndirir. 1990-ci ilin 20 yanvarından illər keçdikcə mən də dönüb arxaya baxdım, gördüm ki, hərəkatda olarkən etdiyimiz fəaliyyətlər yuxu kimidir, bəlkə də bəziləri buna (gördüyümüz işlərə) inanmayacaq. Axı o illərdə bütün hadisələrin mərkəzində mən və dostlarım da dururdu. Xalq Cəbhəsi yaranmazdan əvvəl 1988-ci ildə "Meydan" hərəkatı zamanı mən Azadlıq Meydanında belə bir təşkilatın yaranmasının labüdlüyünü insanlara izah edir, təşkilatın strukturunu başa salırdım. Hətta "Meydan" filmində də mənim gördüyüm işlər - fəaliyyətlərim çəkilmişdir.

1988-ci il "Meydan" hərəkatı zamanı mən də başqaları kimi meydandakılara hər cür köməklik göstərirdim. Sonra isə dostlarımızı tək qoymamaq və baş verə biləcək xoşagəlməz hadisələrin qarşısını almaq üçün meydanda gecələməli olduq. Bir növü polis kimi hamı yatana qədər gəzib ara qarışdıranları, meydandakılara ləkə yaxmaq istəyənləri ordan uzaqlaşdırırdıq. Hətta bir dəfə gecə soyuqda üşüməmək üçün hökumət evinin polislərini yola gətirib onlardan xeyli odun da almışdım. Sonra fövqəladə vəziyyət elan edildikdə isə - saat 12-dən sonra heç kəs meydandan çıxa bilmirdi, əks halda tuturdular. Və Meydan tanklarla əhatə olunmuşdu. Əli dubinkalı əsgərlər isə tanklarla birgə meydanı dövrəyə almışdılar. Bizi qorxutmaq, meydan- dan çıxartmaq üçün tanklar meydana hərəkətə keçəndə hamımız əl-ələ tutub tankın qabağına keçdik və onlar bizim üstümüzdən keçmək istəmədilər.

Yadımdadır, rus mayoru ilə mübahisə etdim və bildirdim ki, biz evə getmək istəyirik. O isə dedi ki, siz 1 metr meydandan aralanan kimi sizi həbs edəcəyik. Mən isə onu ələ salmaq üçün dedim ki, dünyanın qəribə sərhədləri var, meydandan çıxan kimi həbs olunuruq, burda isə biz sərbəstik və istədiyimizi deyə bilərik.

Azərbaycan xalqı meydan hərəkatı zamanı müstəqillik istəyirdi, ancaq bir məsələ var ki, biz tələsirdik, çünki o vaxt sovet imperiyası dağılmaq üzrəydi və bildiyimiz ,kimi imperiya sonradan dağıldı və tərkibində olan hər bir dövlətə müstəqillik verildi. Lakin bu vaxt imperiya başqalarına görk olsun deyə bizi cəzalandırmışdı. Yəni Qara 20 Yanvarı törətmişdi.

Azərbaycan xalqı mübariz, döyüşkən xalqdır. Mən məhz o illərdə bunun bir daha şahidi oldum. Lakin yatanda bu milləti oyatmaq da çətindir.

Hələ 20 yanvar faciələrindən qabaq hadisələrin gedişi faciələrin olacağından xəbər verirdi. Meydanda dar ağaclarının qurulması, dövlət strukturlarının fəaliyyətsizliyi, aşağıların idarə oluna bilməməsi, qəbul olunan qərarların yerinə yetirilməməsi sovet sisteminin başında duranları sistemi qoru- maq üçün ölçü götürməyə məcbur etdi. M. Qorbaçov və onun tərəfdarları Azərbaycandakı xalq hərəkatını qiyam adlandırdı və onu yatırmaq üçün ermənilərdən ibarət qoşun dəstəsi göndərdi. Onlar isə bir neçə gün şəhəri əhatəyə alaraq xalq cəbhəsinin liderləri ilə danışıqlara başladılar. Ancaq heç kəs geri çəkilmək istəmirdi. Liderlər isə əsgərlərin xalqa atəş açacağına inanmırdılar. Primakov xalq cəbhəsinin liderlərinə yanvarın 19-u günü şəhəri təmizləyəcəklərini bildirmişdi. Onlar isə bunu xalqdan gizlətmişdilər.

Ayın 19-u axşam evə gəlib çörək yeyərkən saat 19.45-də televizorun verilişləri dayandırıldı. Başa düşdüm ki, vəziyyət gərginləşib, geriyə yol yoxdur. Tez evdən çıxıb cəbhənin qərargahına getdim ki, vəziyyəti dəqiq öyrənim. Yolda cəbhənin taksisi (o vaxt taksilərin əksəriyyəti xalq cəbhəsinə pulsuz xidmət göstərirdi) təsadüfən məni indiki Təbriz küçəsində yerləşən Səttarxan adına maşınqayırma zavoduna gətirdi və orada gördüklərimi indiyədək unutmamışam. Orada tanıdığım gənclərin əllərində armaturlar vardı və mən ağlaya-ağlaya onlardan soruşdum ki, əgər tank gəlsə siz bunlarla nə edə bilərsiniz? Məni inandırmaq istədilər ki, narahat olmayım, heç bir hadisə olmayacaq.

Göz yaşlarımı tökə-tökə qərargaha getdim və asayişə nəzarət edən M.Ə.-yə gördüklərimi danışdım və xahiş etdim ki, faciələrə yol verməsinlər. O da məni arxayın etdi ki, qorxma heç bir şey olmayacaq. Lakin mən inanmadım, narahat olduğum üçün Cavad adlı oğlanla postları yoxlamağa getdik. (Onu da bildirim ki, o vaxt rus qoşunlarının qabağını almaq üçün bir çox yerlərdə post-qərargahlar qurulmuşdu). Bir neçəsini yoxladıq hamı yüksək əhval-ruhiyyədə idi. Sanki hamı toya-bayrama hazırlaşırdı və bizə dedilər ki, Nemət, Etibar bizə dəydi və kömək gələcəyini bildirdilər. Maşınla indiki 20 Yanvar metrosuna çatanda dedilər ki, "Salyanski kazarma" tərəfdən atışma səsi gəlir. Biz təcili olaraq ora qayıtdıq və gördük ki, doğrudan da atəş açırlar.

Atəş səsinə yaxınlıqda yaşayan adamlar ayaqyalın-başıaçıq, alt paltarında evdən qaçıb gəlmişdilər və onlara da «qorxmayın əsl güllə deyil» deyib sakitləşdirirdilər. Mən qərara aldım ki, yaxına gedib əlimi tutum əgər əlim deşilsə demək güllələr həqiqidir, əgər deşilməsə demək güllələr yalançıdır. O anda heç düşünmürdüm

ki, qüllə mənim alnıma deyil, başıma da dəyə bilər. Güllə açılan yerə yarım metr qalmış Cavad mənim qolumdan tutub kənara çəkdi və təklif etdi ki, gedib xalq cəbhəsinə xəbər verək. Biz razılaşıb maşına oturduq və maşında mənə bildirdi ki, güllələr həqiqi imiş. Soruşdum hardan bilirsən? - dedi ki, təcili yardım maşınında kimi isə tikirdilər.

Biz maşınla Prezident Aparatının qabağına çatıb qaça-qaça kütləyə yaxınlaşdıqda cəbhənin rəhbərlərindən heç kəs orada yox idi. Biz vəziyyəti onlara başa salmaq istədik, lakin bizi şantajist kimi həbs edib, o zamankı Oktyabr rayonunun qərargahına gətirdilər. Iki saat sorğu-sual etdilər, guya kiməsə xidmət etdiyimizi öyrənmək istədilər.

Sonra qərargahın rəhbəri Ülvi Həkimov gəlib çıxdı və məni görən kimi «bu bizim aktivistdir, cəbhənin üzvüdür, dedikləri doğrudur», deyib bizi azad etdirdi.

Cavad maşına oturan kimi məni evimizə aparmaq istədi. Lakin artıq küçələrin əksəriyyəti rus qoşunları tərəfindən tutulmuşdu və bir neçə yerdə avtomatla bizə atəş açmaq istədilər. Dostum cəld maşını çevirib məni tanımadığım yollarla yaşadığım sovetski məhəlləsinə gətirib çıxardı və evimizə qədər mənimlə birgə gəldi. Bildirdi ki, «sən bu gün ölmək istəyirsən mən buna imkan verməzəm».

Kirayə qaldığım evə girən kimi bacımın və rəfiqəsinin ağladığını gördüm. Onlar məni görüb sevindilər. Mən qardaşımın və dostunun (onlar Salyanski kazarma tərəfdəydilər) evdə olmadığım görüb evdəkiləri sakitləşdirdim və onları tapmaq üçün evdən çıxdım. Məhəllədə yaşayan bütün insanlar küçələrin künc-bucağında gizlənmişdilər.

Heç kəsə bir söz demədən Olimpə tərəf getməyimi sakit qarşılaya bilməyənlər «qabaqda atırlar, getmə» deyib qışqırdılar. Lakin mən bir şey fikirləşirdim, birdən uşaqlar yaralı olar onlara kömək etməliyəm. Olimpə çatmağa az qalmış bir səs məni ayıltdı. Bu qardaşım idi: "Əgər ölmüşəmsə səhər gəlib ölümü aparарsan indi səni vurarlar qayıt".

Mən geri qayıtmaq istəmirdim, lakin qardaşım dedi ki, tank onların gözləri qabağında böyük maşınları kitab kimi əzib keçdi. Onlar gizlənib güclə canlarını qurtarıb. Məni məcbur evə gətirdilər.

Artıq gecə saat 3.30 idi, qardaşımın dostu da gəlib çıxmışdı. Heç birimiz danışmırdıq, nə edəcəyimizi bilmirdik, atışma səsləri lap yaxından gəlirdi. Bayıra çıxmaq da, evdə oturmaq da qorxulu idi. Təklif etdim ki, yatmasaq da yerimizə uzanaq, ən azından sakitləşərdik.

Səhər açılmamış durub evdən çıxmaq istədim. Qardaşım isə öləcəyimdən (mənim çılğın olduğumu bilirdi) qorxub qapını kəsib məni evdən çıxmağa qoymurdu. Yarım saat mübahisə, dava-dalaşdan sonra bildirdim ki, heç kim məni saxlaya bilməz getməliyəm. Və nəhayət evdən çıxdım, metro Elmlər Akademiyasına çatmamış yolda gördüklərim məni dəhşətə gətirdi. Axşam mənim getmək istədiyim yerlərdə insan qanı vardı, hər tərəf qan gölməçəsiylə doluydu. Onu da deyim ki, bu yerləri uzun müddət qərənfillər bəzədi, heç bir maşın həmin yerlərdən keçmirdi. Yolda tanklar dayanmışdi və rus mayoru dayanıb yoldan keçənlərə baxırdı. Mən yaxınlaşıb onları rus dilində təhqir etməyə başladım və dedim ki, siz Azərbaycan xalqının qatillərsiniz. Dediyim hər bir təhqiramiz söz ona pis təsir edirdi, bizi zəbt (akupant) etmisiz, deyəndə gənclər mənim qabağıma keçdi və mənə «danışma onlar səni həbs edərlər» dedilər. Mənsə - heç nə artıq məni saxlaya bilməz - dedim.

Sonra ağlaya-ağlaya Prezident Aparatının qabağına getdim, hər yerdə tanklar, əli silahlı əsgərlər dayanmışdı və xalq aparatın qabağında cəbhənin başbilənlərini gözləyirdi. Üç dəfə tankı adamların üstünə sürdülər, insanlar vahimə içərisində idi. Sən demə bu zaman bir neçə adam tankın təkərləri altına düşüb və Dəqiq yadımda deyil, təxminən gündüz saat 3-ə qalmış İsa Qəmbər gəlib xalqa müraciət oxudu. Müraciətdə deyilirdi ki, xalq başqa üsulla mübarizəyə başlayır. Heç kəs işə çıxmayacaq, evdə oturacaq, o zamana qədər ki, cəbhə hökumətə verdiyi tələblərə cavab alacaq.

Hamı meydanı tərk etdi və qərargahı rus qoşunları zəbt etdikləri üçün, artıq bir-birimizlə əlaqə saxlamaq çətin idi. Buna baxmayaraq hər gün müxtəlif ünvanlarda görüşüb, əllə xalqa müraciətlər yazırdıq və sonra çətinliklə də olsa metroların qabağına yapışdırırdıq ki, xalq ruhdan düşməsin. Ayın 21-də sanki mən ayıldım, tanıdığım uşaqları görmək üçün həm xəstəxanaları, həm də meyitxanaları gəzdim. Gördüklərim məni dəhşətə gətirirdi. Belə vicdansızlıq, qaniçənlik olarmı? - deyə öz-özümə soruşurdum. Meyitxanalarda gördüyüm o cavanlar sonradan şəhidlər xiyabanında basdırılmadı. Xəstəxanada yatan cəbhəçilərə sağalana qədər yemək-ərzaq daşıdım, bütün istəklərini yerinə yetirirdim.

Yanvarın 22-də Şəhidlər Xiyabanında 78 şəhidi bütün xalqla birgə dəfn etdik. Bütün xalq 40 gün matəm saxladı. Və bu zaman o vaxtkı Kirov parkının vaxtilə qəbirstanlıq olduğu məlum oldu. Oradan çıxan sümükləri ağ parçaya büküb iki qəbirdə basdırdılar. Mən 40 gün şəhidlər xiyabanına gəldim, özümü onlara borclu sayırdım. Lakin iki gün ağladığım üçün şəhidləri dəfn edərkən artıq göz yaşlarım qurumuşdu. Heç bir damcı belə gözümdən yaş gəlmədi, lakin heç kəs bilmirdi ki, mən hansı hissləri keçirirəm.

Bir dəfə rus mayoru Şəhidlər Xiyabanında əsgərlərə havaya güllə atdırıb ora gələnləri qorxudurdu. Mən onu başa saldım ki, «bunu etmək olmaz günahdır, ölənləri təhqir edirsiniz». Onlar mənə qulaq asıb çıxıb getdilər. Mənim bəlkə də sarışın olmağım, rusa oxşamağım onları inandırırdı. Ancaq inanmıram ki, onlar o zaman kimə isə qulaq asırdılar.

O vaxt belə bir xəbər də çıxdı ki, ölənlərin çoxunu gəmi ilə Nargin adasına apardılar. Bizim başqa gəmilər onun qabağını kəsib buraxmadığı üçün sahildə dayanan tanklar gəmilərə atəş açıb və onları sıradan çıxardıb. Biz dostlarla iki-iki sahildə gəzib baş verənləri rəhbərlərə çatdırırdıq, üstəlik də gizlicə vərəqələr yayırdıq. Özümüzü elə göstərirdik ki, guya gəzməyə çıxmışıq, lakin əslində biz mübarizə aparırdıq.

Bir dəfə axşam saat 8-ə qalmış mən avtomat telefondan zəng etməyə çıxmışdım. Bir də onu gördüm ki, bir rus əsgəri mənə yaxınlaşdı, avtomatı mənə söykədi, əlini tətiyə qoymuşdu. Istədim soruşum ki, nə baş verib, lakin gördüm ki, yoldan bir kalon keçir, bir tank qabaqda, bir tank arxada 100-dən artıq (əli silahlı, xüsusi geyimli) əsgərlər ortada gedir.

Özümü məşğul göstərib sakitcə da- yandım, onlar uzaqlaşan kimi əsgər silahını çəkib getdi.

Bir dəfə də avtobusda işə gedərkən saxlayıb bizi yoxlamağa başladılar. Mən hay-küy salıb onlarla dalaşmağa başladım. İş yoldaşlarımdan biri dedi, «deyəsən sən ölümündən qorxmursan, ancaq biz qorxuruq, sakit ol, evimizə sağ-salamat gedib çıxa bilək».

Bu hadisələrdən sonra mən anladım ki, yeri-göyü idarə edən varlıq var, dəfələrlə ölümdən qurtardığım üçün alın yazısına inandım. Deməli, mənim ölümüm hələ yazılmamışdı, bunlar təsadüf ola bilməzdi. Məni yaxından tanıyanların çoxu şəhidlər xiyabanındakı basdırılan şəhidlərin içindən məni axtarmışdılar. Hadisələrdən 20 il keçməsinə baxmayaraq hələ də hadisələri unuda bilmirəm.

Qeyd etməliyəm ki, orada şəhid olanların çox az bir qismi cəbhənin üzvüydii. Lakin bu tökülən qanlar imperiyanı qoruyub saxlaya bilmədi. İmperiya inildəyə-inildəyə sükuta doğru getməyə başladı. Imperiyanın dağıldığını görən rus imperialistləri zəngin Azərbaycanı əldə saxlamaq məqsədiylə Qarabağ münaqişəsi yaratdı və 20 ildir ki, münaqişənin həll olunmasına imkan vermir.

Belə düşünürəm ki, ermənilərə "hədiyyə" edilmiş torpaqlarımızı sözlə geri qaytarmaq olmaz. Torpaqlarımızı geri qaytarmaq üçün qeyrətli oğul və qızlarımızın döyüşərək qan töküb almağı lazımdır. Bu müharibə labüddür.

20 Yanvar hadisələrinin günahkarları həm cəbhənin rəhbərləri, həm də o zamankı hakimiyyət idi. Hakimiyyətdə olanlar cəbhəçiləri qorxutmaq üçün fəlakətlərin qabağını almadılar. Cəbhəçilər isə hakimiyyətə gəlmək üçün faciələrin baş verməsinə imkan yaratdılar və nəticədə 20 Yanvar hadisələri baş verdi. Xalq bundan ibrət götürməlidir.

Qalib gəlməyin yeganə yolu mübarizədir. Azərbaycan dövlətinin başçısı İlham Əliyev torpaqlarımızın sülh yolu ilə qaytarılması üçün hələ ki, danışıqlar aparır. Inanırıq ki, itirilmiş torpaqlarımız geri qaytarılacaq.

**“Azad Azərbaycan”.-**2012.-17 yanvar.-№7.-S.4.

# İnsanlığa qarşı qanlı cinayət

*İradə Əliyeva*

**20 Yanvar hadisələri yalnız ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra siyasi-hüquqi qiymətini aldı**

**Ötən əsrin 80-ci illərinin sonlarında Azərbaycanda baş qaldırmış milli azadlıq hərəkatının genişlənməsi keçmiş Sovet İttifaqının rəhbərlərini ciddi şəkildə narahat etməyə başlamışdı. Kreml nəyin bahasına olursa-olsun Azərbaycan xalqını susdurmağa, onun tarixi hüquqlarını tanımadığını nümayiş etdirməyə çalışırdı. Dağlıq Qarabağ münaqişəsinin meydana çıxmasından sonra respublikada İttifaq rəhbərliyinə qarşı inamsızlıq daha da artdı və bu proses getdikcə güclənməyə başladı. Çünki bütün azərbaycanlılar imperiyanın soyuq münasibətini açıq şəkildə hiss edir və baş verən proseslərin hansısa məkrli bir ssenarinin tərkib hissəsi olduğunu aydın başa düşürdülər. İttifaq rəhbərliyi Azərbaycan xalqının iradəsini sındırmaq, onun mübarizə əzmini zəiflətmək üçün bütün vasitələrdən istifadə edirdi.**

Azərbaycana düşmən mövqe tutan qüvvələr gələcək planlarını rahat şəkildə həyata keçirmək üçün ilk növbədə xalqımızın proseslərə real təsir imkanlarına malik liderlərini aradan götürməyə çalışırdılar. 1987-ci ildə ulu öndər Heydər Əliyevin Siyasi Bürodan və Nazirlər Kabineti sədrinin birinci müavini vəzifələrindən uzaqlaşdırılması da bu məqsədə xidmət edirdi. Təsadüfi deyildi ki, ermənilərin Azərbaycan torpaqlarını işğal etməyə hesablanmış planlarının ilkin mərhələsi də məhz həmin hadisədən cəmi bir il sonra həyata keçirilməyə başlandı. Heydər Əliyevin siyasi nüfuzu və fövqəladə xarakter daşıyan keyfiyyətləri bu planın qarşısında ciddi bir maneə kimi dayanırdı. Ümummilli lider tutduğu vəzifələrdən istefa verdikdən sonra işğalçılar fəallaşmağa başladılar və bu, tezliklə Azərbaycanın böyük itkilər verməsinə gətirib çıxardı.

1989-cu ilin sonlarına yaxın Qafqazda vəziyyət daha da gərginləşdi və artıq 90-cı ilin əvvəllərində hadisələr katastrofik həddə çatdı. SSRİ rəhbərliyi vəziyyətə nəzarət edə bilmədiyi üçün respublikada haqq-ədalətin bərqərar edilməsi uğrunda səsini ucaldan xalqa açıq divan tutmaq yolunu seçdi. Sovet ordusunun, xüsusi təyinatlı dəstələrin və daxili qoşunların iri kontingentinin 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən respublikaya daxil olması xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklərlə müşayiət edildi. Keçmiş SSRİ rəhbərliyinin göstərişi ilə xüsusi səfərbər edilmiş hərbi birləşmələr və zirehli texnika Bakı və Sumqayıt şəhərlərinə, habelə Azərbaycanın bir neçə rayonuna yeridildi. Ərazi bütövlüyünə qarşı yönəlmiş təcavüzə etiraz edən, haqq-ədalətin bərqərar olmasını istəyən, azadlıq, müstəqillik uğrunda mücadilə aparan, mərkəzin siyasətinə etiraz edən yüzlərlə dinc insan, o cümlədən uşaq, qoca, qadın qətlə yetirildi, yaralandı, itkin düşdü. Bir çox inzibati binalara, yaşayış evlərinə, nəqliyyat vasitələrinə böyük zərər vuruldu. Törədilmiş faciəni dünya ictimaiyyətindən gizlətmək məqsədi ilə radio-televiziya mərkəzinin enerji bloku partladıldı, Azərbaycan tam informasiya blokadasına salındı. SSRİ Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin və Dövlət Təhlükəsizlik Komitəsinin birgə həyata keçirdiyi əməliyyat nəticəsində təkcə Bakı şəhərində 131 mülki şəxs öldürüldü, 700-dən çox adam yaralandı. Qeyd edək ki, bu tarixi cinayət hadisəsi artıq sovet imperiyasının müttəfiq respublikalara qarşı terrorçu mövqe tutduğunu sübut etməklə yanaşı, həm də mövcud totalitar quruluşun əsaslarının sarsıldığına işarə idi. Sovet ordusunun Bakıya hücumundan sonra İttifaqın bütün respublikalarında milli azadlıq hərəkatı daha da güclənməyə başladı.

Yanvarın 19-da Azərbaycanda fövqəladə vəziyyətin elan edilməsinə 7 saat qalmış 11 min nəfərlik Sovet ordusunun respublikamızın paytaxtı Bakı şəhərinə yeridilməsi ilk növbədə insan hüquqlarına dair beynəlxalq sənədlərə, o cümlədən "İnsan hüquqlarının Ümumi Bəyannaməsi"nə, "Vətəndaş və siyasi hüquqlar haqqında" və "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" beynəlxalq paktlara, habelə keçmiş SSRİ və Azərbaycan SSR-in konstitusiyalarının kobudcasına pozulmasına dəlalət edirdi. Kommunist diktaturası Çexoslovakiyaya, Macarıstana, Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni hətta o zamankı Sovet İttifaqının müttəfiq respublikalarından biri olan Azərbaycanda da təkrarlamaqdan çəkinmədi. Bu ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni əsgər və zabitləri, sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantları da daxil edilmişdi. Cinayəti ört-basdır etməyə və hərəkətlərinə hüquqi don geydirməyə çalışan o vaxtkı SSRİ rəhbərliyi həmin tədbirlərin "SSRİ Konstitusiyasının müddəalarına uyğunluğu", "insanların hüquq və azadlıqlarının müdafiəsi məqsədi daşıdığını" iddia etsə də, həyata keçirilmiş aksiyanın qeyri-hüquqi, cinayət xarakterli olduğu hamıya bəlli idi. Keçmiş SSRİ Konstitusiyasının 119-cu maddəsinin 14-cü bəndinə əsasən, SSRİ Ali Sovetinin Rəyasət Heyəti SSRİ-nin müdafiəsi və onun

vətəndaşlarının təhlükəsizliyinin təmin olunması məqsədilə bütün ölkədə və ya onun ayrı-ayrı ərazilərində fövqəladə və ya hərbi vəziyyəti yalnız o halda elan edə bilərdi ki, bu məsələyə müttəfiq respublikanın Ali Sovetinin Rəyasət Heyəti tərəfindən baxılsın. Lakin Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin bu məsələyə baxmasına imkan verilməmişdi.

SSRİ DTK-nın "Alfa" qrupu yanvarın 19-da saat 19.27-də Azərbaycan televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz şəhərə daxil oldu və əhaliyə divan tutdu.

Hadisələrdən dərhal sonra - 1990-cı il yanvarın 21-də öz həyatını təhlükə qarşısında qoyaraq ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələn ümummilli lider Heydər Əliyev sovet rəhbərliyinin xalqımıza qarşı etdiyi bu zorakılığı pisləmiş, bunu bütöv bir xalqa qarşı həyata keçirilmiş qəsbkarlıq və cinayətkar hərəkət adlandırmış, bütün İttifaq rəhbərlərini kütləvi informasiya vasitələrinin gözü qarşısında ittiham etmiş, təcavüzə kəskin etirazını bildirmişdi: "Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində, böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı nümayəndəsindən xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm. Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm" deyən ulu öndərin bu qətiyyətli mövqeyi respublikamızın informasiya blokadasına alındığı ağır günlərdə totalitar rejimə ağır və sarsıdıcı zərbə oldu. Bundan başqa, ulu öndər Rusiyanın Arxangelsk televiziyasına verdiyi müsahibədə ilk dəfə olaraq hadisələrə siyasi qiymət vermişdi. Etiraf etmək lazımdır ki, hələ Sovet İttifaqının yaşadığı bir dövrdə bu cür açıq bəyanatlarla çıxış etmək həyatını risk altına qoymaq demək idi, lakin ulu öndər heç nədən çəkinmədən belə bir addımı atdı və bu onun Azərbaycan xalqına sözün əsl mənasında ürəkdən bağlılığını təsdiqləyən növbəti faktlardan biri idi.

Qanlı Yanvar faciəsi ilə əlaqədar Heydər Əliyev tərəfindən verilən kəskin bəyanat artıq Azərbaycan tarixində yeni siyasi dövrün başlandığını bildirirdi. Ulu öndərin növbəti sərt addımı isə SSRİ Nazirlər Sovetinin partiya təşkilatına ünvanladığı 19 iyul 1990-cı il tarixli ərizə oldu. Ümummilli lider Kommunist Partiyası sıralarından çıxmasına dair ərizəsində bu rejimin ölkəni uçuruma apardığını, SSRİ-nin dağılmasının labüdlüyünü açıq bəyan edirdi. Heydər Əliyev bu müraciətdə 20 Yanvar hadisəsi ilə bağlı qeydlərində bildirirdi: "Bu antihumanist, konstitusiyaya və hüquqa zidd hərəkəti ittiham edərkən Sov.İKP və Azərbaycan KP MK-nın bu cinayətin üstünü açacağına və günahkarları üzə çıxaracağına ümid edirdim. Artıq yarım il keçib. Nəinki bu dəhşətli cinayətlərin hamıya çoxdan məlum olan günahkarları üzə çıxarılmayıb, əksinə, bunları ört-basdır etmək üçün əllərindən gələni edirlər. Ümid edirlər ki, bu faciə unudulacaq. Ancaq tarix dəfələrlə sübut etmişdir ki, doğma xalqa qarşı yönəldilmiş qanlı cinayətləri on illər keçsə də, unutmaq və bağışlamaq mümkün deyil".

20 Yanvar faciəsi nəinki Azərbaycanı, hətta bütün dünyanı lərzəyə gətirmişdi, lakin respublika rəhbərliyi baş verənlərin üzərindən qəribə bir sükutla keçməyə üstünlük verirdi. Beləliklə də xalqın milli faciəsinə laqeyd münasibətini ortaya qoyaraq Kremlin qəzəbinə tuş gəlməməyə can atırdı. Ən qəribəsi isə o idi ki, hətta həmin hadisədən sonra Azərbaycan hakimiyyəti SSRİ-nin saxlanmasına dair referendum keçirməyə və onun nəticələrini Kremlin maraqlarına uyğun bir şəkildə saxtalaşdırmağa da cəsarət etdi. Tarix isə bu cür xəyanətləri bağışlamır. Çox keçmədi ki, Azərbaycan xalqına qarşı törədilmiş bu qanlı terror aktına laqeyd bir sükutla cavab verənlər tarixin arxivinə atıldılar. Amma Heydər Əliyev hələ də mübarizənin ön sıralarında idi.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisində ulu öndər 20 Yanvar hadisəsinə siyasi-hüquqi qiymət verən sənədin qəbul edilməsinə nail oldu. Azərbaycan xalqının ali hüquqlarına təcavüz aktı olan bu hadisəni parlamentin müzakirəsinə çıxardı və tezliklə Naxçıvanda bu faciəyə rəsmi münasibət ifadə edən hüquqi sənəd qəbul olundu. 1990-cı il noyabr ayının 21-də ümummilli liderin şəxsən özü tərəfindən hazırlanmış qərar layihəsi müzakirəyə verildi.

Sənəddə 20 Yanvar faciəsini törədənlər açıq şəkildə ifşa edilirdilər: "Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq məqsədi daşıyan bu işğalçı hərəkət nəticəsində görünməmiş vəhşiliklərə yol verilmiş, günahsız insanlar, o cümlədən uşaqlar, qocalar, qadınlar qətlə yetirilmiş, yüzlərlə adam yaralanmışdır". Bundan başqa, qərarda cinayətin iştirakçıları və təşkilatçılarının adı da öz əksini tapdı.

Naxçıvan Ali Məclisində qəbul edilmiş və 20 Yanvar faciəsinə ilk siyasi-hüquqi qiymət verən, eyni zamanda Azərbaycan xalqının ümumi rəyini özündə təcəssüm etdirən bu qərar Heydər Əliyev qətiyyətinin təzahürü kimi tarixə düşdü. Şübhəsiz ki, SSRİ-nin ən yüksək vəzifəli rəhbərlərini bütöv bir xalqa qarşı cinayətdə ittiham etmək

o zaman çox böyük cəsarət və qətiyyət tələb edirdi və qəbul olunmuş qərarın bütün məsuliyyəti məhz ulu öndərin üzərinə düşürdü.

Qərar layihəsində Azərbaycana rəhbərlik edən qüvvələrin hadisəyə siyasi-hüquqi qiymət verməkdən çəkinməsi də ciddi etiraz doğurmuşdu və Naxçıvan Ali Məclisi respublika rəhbərliyindən təcili tədbirlər görməyi tələb edirdi. Çünki bununla bağlı Azərbaycan SSR Ali Sovetinin 20 Yanvar faciəsindən bir neçə gün sonra keçirilmiş iclası yarımçıq saxlanılmışdı və bu faktın özü respublikaya rəhbərlik edənlərin baş verənlərə münasibətini tam ifadə edirdi. Ümummilli lider Heydər Əliyev isə dövlət səviyyəsində Qanlı Yanvar faciəsinə siyasi-hüquqi qiymət verən sənədin qəbul edilməsi istiqamətində fəaliyyətini davam etdirirdi. Azərbaycan SSR Ali Sovetinin 1991-ci il 7 mart tarixli sessiyasında xalqımızın böyük oğlu faciə ilə bağlı növbəti dəfə öz fikirlərini bildirərək ölkə rəhbərliyini konkret addımlar atmağa çağırdı: "Bir ildən artıqdır ki, Azərbaycan xalqı şəhidlərə matəm saxlayır. Respublikanın şəhərlərində, qəsəbələrində, kəndlərində şəhidlərin xatirəsinə abidələr ucaldılır. Fəqət qatillər indiyə qədər aşkar olunmayıb. Buna heç vəchlə bəraət qazandırmaq olmaz. Bu məsələ müzakirə olunmalıdır. 20 Yanvar faciəsinə Ali Sovetin sessiyası siyasi qiymət verməlidir, onun günahkarlarını müəyyən etməlidir".

Bir müddətdən sonra, 1991-ci ilin 19 iyununda ümummilli lider Heydər Əliyev SSRİ Nazirlər Kabinetinə məktub göndərərək faciənin səbəbkarlarının aşkar olunmadığını, əksinə, hadisələrin üstünü ört-basdır etmək üçün rəhbərliyin xüsusi canfəşanlıq göstərdiyini kəskin şəkildə pislədi, rəsmi Moskvadan qəti addımlar atmağı tələb etdi. Lakin bundan sonra da faciənin günahkarlarının aşkarlanması üçün heç bir tədbir görülmədi. Elə həmin ilin avqustunda Heydər Əliyev bu məsələni respublika Ali Sovetinin sessiyasında yenidən qaldırdı. Ali Sovetin 19 avqust tarixli sessiyasında çıxış edən ümummilli lider bir daha göstərdi ki, bu məsələ müzakirə olunmalıdır və parlament 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verməlidir.

Ulu öndər Heydər Əliyevin "Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır" tələbi onun bu məsələ ilə bağlı sonralar etdiyi bütün çıxışlarının, bəyanatlarının, imzaladığı sənədlərin əsas leytmotivi olmuşdur. Azərbaycan xalqına qarşı cinayət törədən şəxslərin ciddi şəkildə cəzalandırılması məsələsi böyük şəxsiyyətin fəaliyyətinin bütün sonrakı mərhələlərində də öz aktuallığını qoruyub saxlamışdır.

Qanlı Yanvar faciəsi hərtərəfli, əhatəli və dolğun qiymətini məhz ulu öndərin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra aldı. Ümummilli liderin 1994-cü il 5 yanvar tarixli fərmanında qanlı aksiyanın respublika miqyasında geniş araşdırılıb ona hüquqi-siyasi qiymət verilməsi tövsiyə olunurdu: "Xalqımızın tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermişdir. Tarixin yaddaşına qanla yazılmış həmin gündən bizi 4 illik zaman məsafəsi ayırır. Təəssüf ki, 4 il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilməmişdir".

Həmin il yanvarın 12-də Heydər Əliyevin sədrliyi ilə 20 Yanvar faciəsinin 4-cü ildönümü ilə bağlı tədbirlərin hazırlanması və keçirilməsi üzrə Dövlət Komissiyasının iclası oldu. İclasda çıxış edən Heydər Əliyev hadisəyə tam və hərtərəfli hüquqi-siyasi qiymət verilməsinin vacibliyini önə çəkdi.

Dövlət Komissiyasının ciddi fəaliyyəti nəticəsində 1994-cü il mart ayının 29-da Milli Məclis "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul etdi. Sənəddə 20 Yanvar faciəsi qabaqcadan şüurlu surətdə planlaşdırılmış və vəhşicəsinə həyata keçirilmiş cinayət aktı kimi qiymətləndirilirdi. Qeyd olunurdu ki, Bakıya qoşun yeridilməsi milli azadlıq hərəkatını boğmaq və kommunist rejimini saxlamaq məqsədinə xidmət edib. Eyni zamanda, əsas məqsəd xalq hərəkatına zərbə vurmaq, istiqlaliyyət uğrunda mübarizə aparan qüvvələri məhv etmək olub. Bundan əlavə, qərarda faciənin günahkarları konkret adlarla göstərilirdi.

Ümummilli lider Heydər Əliyev 20 Yanvar şəhidlərinin xatirəsini daim əziz tutmuş, onların adlarının əbədiləşdirilməsi məqsədilə sərəncamlar imzalamışdır. Ulu öndərin 17 yanvar 2000-ci il tarixli fərmanına əsasən, 20 Yanvar təcavüzü zamanı yüksək vətəndaşlıq nümunəsi göstərərək həlak olmuş Azərbaycan Respublikası vətəndaşlarına "20 Yanvar şəhidi" fəxri adı verilmişdir. Eləcə də "1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə dövlət qayğısının artırılması haqqında" 15 yanvar 2003-cü il tarixli sərəncama əsasən, əlil olmuş şəxslərə verilən aylıq müavinət artırılmışdır. Bakı şəhərində şəhidlərin xatirəsinə möhtəşəm xatirə kompleksi ucaldılmışdır. Ümummilli lider Heydər Əliyev xalqın qəhrəmanlığını yüksək dəyərləndirərək demişdir: "Bu təcavüz nəticəsində həlak olanlar xalq qəhrəmanlarıdır, onlar millətimizin qəhrəmanlarıdır. Onların həlak olması bizim üçün, xalqımız üçün, sizlər üçün, ailə üzvləri üçün böyük itkidir, faciədir. Ancaq eyni zamanda onların şəhid olması xalqımızın qəhrəmanlıq rəmzidir. Onların şəhid olması zamanı tökülən qan bütün xalqımızın qanıdır. O qanın hər damcısında xalqımızın qüdrəti, qəhrəmanlığı var, xalqımızın milli azadlıq, müstəqillik arzuları vardır. O gecə tökülən qanlar müqəddəs qanlardır. Onlar bizim xalqımızın əsrlər

boyu milli azadlıq, müstəqillik uğrunda tökdüyü qanlara qovuşmuş qanlardır. O gecə tökülən qanlar Azərbaycanın müstəqilliyini nümayiş etdirən milli bayrağımızın üstündəki qandır".

Ötən müddətdə respublikada 20 Yanvar hadisələri zamanı həlak olmuş insanların xatirəsinin əbədiləşdirilməsi istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. 20 Yanvar - Ümumxalq Hüzn Günü elan olunmuş, şəhidlərin xatirəsinə xüsusi memorial kompleks ucaldılmış, ölkəmizin şəhər və rayonlarında xiyabanlar salınmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev xalqın faciələrinə daim xüsusi həssaslıqla yanaşaraq bütün çıxışlarında bildirir ki, bu qanlı aksiya sovet rejiminin qəddarlığını, saxtalığını və iflasa uğradığını bütün dünyaya bəyan etmiş, Sovetlər birliyinə inamı tamamilə puça çıxarmış, xalqın imperiya buxovundan qurtulmasına, azadlıq uğrunda mübarizlik əzminin möhkəmlənməsinə, xarici düşmən qarşısında və milli müstəqillik naminə bütün qüvvələrin birləşməsinə güclü təkan vermişdir: "20 Yanvar günü bizim böyük faciəmizdir, ancaq eyni zamanda, Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsidir. Azərbaycan xalqı öz iradəsini göstərdi. O gündən keçən müddət ərzində Azərbaycan, demək olar ki, tamamilə yeni mərhələyə qədəm qoydu... Bu gün ölkəmiz dünyada ən sürətlə inkişaf edən ölkədir. Azərbaycan sübut etdi ki, xalqının iradəsinə əsaslanaraq müstəqil, azad ölkə kimi inkişaf edir. 20 Yanvar faciəsi Azərbaycan xalqının yaddaşından heç vaxt silinməyəcəkdir". Ölkə rəhbəri bu illər ərzində vətənin azadlığı uğrunda canından keçmiş şəhidlərin xatirəsinin əbədiləşdirilməsi, onların ailələrinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün bütün zəruri tədbirləri həyata keçirir. Dövlət başçısının "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 19 yanvar 2006-cı il tarixli fərmanı bu baxımdan müstəsna əhəmiyyət kəsb edir. Dövlət başçısı Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərin xatirəsinin dövlət səviyyəsində böyük ehtiramla yad edilməsi üçün müvafiq qərarlar qəbul edib.

XX əsr tarixində totalitarizmin ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsində Azərbaycana qarşı işlədilmiş cinayət əslində bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli bir əməldir. Həmin gün xalqımız hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi. Qanlı qırğından 22 il keçməsinə baxmayaraq, o müdhiş gecəni hamı xatırlayır, ağrılarını yaşayır, bu fəlakətin baiskarlarına dərin nifrətini bildirir. Hər il milyonlarla insan şəhidlərimizin əziz xatirəsini dərin ehtiramla yad edir.

**“Azərbaycan”.**-2012.-17 yanvar.-N 11.-S.6.

# 20 Yanvar faciəsi: səbəblər, nəticələr

***Qafar Cəbiyev,***
Azərbaycan Müəllimlər İnstitutu ictimai fənlər
kafedrasının müdiri,
tarix elmləri doktoru, professor

**Hər bir ölkənin, hər bir millətin tarixində elə hadisələr baş verir ki, onlar yaşından, peşəsindən, təhsilindən, cəmiyyətdəki mövqeyindən asılı olmayaraq hər kəsin əbədi qan yaddaşına hopur. 20 Yanvar faciəsi belə hadisələrdəndir. O gün Azərbaycan xalqı onilliklər boyu özünə arxa-dayaq bildiyi sovet hökuməti və ordusu tərəfindən gülləbaran olundu. Xalqın hissləri, inam və gümanı atəşə məruz qaldı. Küçə və meydanlara toplaşan yüz minlərlə insanın haqq səsini, etirazını susdurmaq naminə Bakıda misli-bərabəri olmayan vəhşilik və vandalizm tədbirlərinə əl atıldı.**

1990-cı ilin 20 Yanvar günü Azərbaycan xalqına qarşı həyata keçirilən vəhşi terror aktı insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi bəşər tarixində qara səhifə olaraq qalacaqdır. Milli azadlığı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxan dinc əhaliyə qarşı törədilən kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması sovet rejiminin cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi.

Sovet ordusunun böyük kontingentinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi görünməmiş qəddarlıq və vəhşiliklə müşayiət edildi. Sovet imperiyası Çexoslovakiya, Macarıstan və Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni bu dəfə Azərbaycanda təkrarlamaqdan çəkinmədi. Təəccüb doğuran odur ki, Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə əsasən Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan milliyətcə erməni əsgər, kursant və zabitləri daxil edilmişdi. Azərbaycanla Ermənistanın müharibə vəziyyətində olduğu bir şəraitdə bu, SSRİ rəhbərliyi tərəfindən açıq-aşkar erməni mövqeyinin müdafiə olunması idi. Bu ondan xəbər verirdi ki, geniş ictimaiyyətin də duyduğu kimi, Raisa və Mişa Qorbaçovlar həqiqətən də Qarabağı ermənilərə satıbmış.

Beləliklə, Mixail Qorbaçov başda olmaqla imperiya rəhbərliyi Bakıda "rus və erməni kartından" məharətlə istifadə etdi. Həm də Bakıya qoşun guya rusları və hərbi qulluqçuların ailələrini qorumaq, "millətçi ekstremistlər" tərəfindən hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə, bu, açıq-aşkar riyakarlıq və ağ yalan idi. Çünki sovet rəhbərliyinin "dəlilləri" hətta həqiqətə yaxın olsaydı belə, Bakıya təpədən dırnağadək silahlandırılmış qoşun göndərməyə ehtiyac yox idi. Ona görə ki, həmin vaxt burada daxili qoşunların, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonlarının çoxsaylı hərbi hissələri və hava hücumundan müdafiə qüvvələri var idi. Üstəlik 4-cü ordunun komandanlığı da Bakıda yerləşirdi.

Bütün bunlara baxmayaraq, 1990-cı il yanvarın 19-da Mixail Qorbaçov SSRİ Konstitusiyasının 119-cu və Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrinin tələblərini kobud şəkildə pozaraq, yanvarın 20-də Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. SSRİ DTK-nın "Alfa" qrupu isə bundan xeyli əvvəl, yəni yanvarın 19-da saat 19:27-də Azərbaycan Televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verlişləri dayandırıldı. Qorbaçovun fərmanı qüvvəyə minənədək, yəni yanvarın 20-sinə keçən gecənin yarısınadək 9 nəfər öldürülmüşdü. Fövqəladə vəziyyətin elan olunması haqqında məlumat əhaliyə yanvarın 20-də, səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxtadək öldürülənlərin artıq 100 nəfərə çatmışdı. Halbuki, Qorbaçovun Azərbaycana ezam etdiyi yüksək vəzifəli emissarlar, o cümlədən Primakov və Girenko həyasızcasına bəyan edirdilər ki, Bakıda fövqəladə vəziyyət tətbiq olunmayacaq.

Beləliklə, yanvarın 20-də gecə ordu hissələri şəhərə daxil oldu. Tanklar və BTR-lər Bakı küçələrində qarşılarına çıxan hər şeyi və hər kəsi atəşə tuturdu. Bu minvalla 137 nəfər öldürüldü, 700-dək insan yaralandı, 800 nəfərdən çox Azərbaycan vətəndaşı qanunsuz olaraq həbs edildi.

20 Yanvar hadisələri ilə bağlı təhlil və araşdırmalar aparmış beynəlxalq ekspertlərin hesabatlarında adamların xüsusi qəddarlıqla və yaxın məsafədən güllələndiyi, xəstəxanaların, "təcili yardım" maşınlarının, yaralılara ilkin tibbi yardım göstərən insanların atəşə tutulduğu, bir çoxunun süngü və bıçaqla qətlə yetirildiyi bildirilir.

Yanvarın 20-də artıq bütün dünya Bakıda törədilmiş dəhşətli qırğından xəbər tutdu. Amma görün, sovet imperiyasının ideoloji ruporu olan "Pravda" qəzeti 22 yanvar tarixli nömrəsində nə yazırdı: "Fövqəladə vəziyyət elan edilməsi üçün görülmüş tədbirlər nəticəsində guya qadınlar və uşaqların tələf olması barədə bəyanatlar

aşkar fitnəkar xarakter daşıyır. Bir daha təkrar etmək lazımdır ki, bu, qərəzli yalandır! Ondan məqsəd əhalini sovet ordusuna və hüquq-mühafizə orqanlarına qarşı qaldırmaqdır"...

20 Yanvar faciəsi XX əsrdə Azərbaycan xalqına qarşı yeridilən imperiyapərəst siyasətin növbəti təzahürü idi. Xalqımıza qarşı soyqırımı, sovet hakimiyyəti illərində Azərbaycan ərazilərinin 125 min kvadratkilometrdən 87 min kvadratkilometrədək azalması, sovet rəhbərliyinin havadarlığı ilə başlayan Dağlıq Qarabağ hadisələri və azərbaycanlıların Ermənistan ərazisindəki əzəli torpaqlarından qovulması bu çirkin siyasətin ayrı-ayrı mərhələləridir.

20 Yanvar hadisəsinə ilk olaraq ulu öndər Heydər Əliyev münasibət bildirdi. Ümummilli lider özünün və yaxınlarının həyatını təhlükə qarşısında qoyaraq 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək azərbaycanlılar və xarici jurnalistlər qarşısında bəyanat verdi, Mixail Qorbaçovun xalqımıza düşmən siyasətini ifşa etdi. Heydər Əliyev bu hadisəni hüquqa, demokratiyaya və humanizmə zidd addım kimi dəyərləndirdi. Məhz ulu öndərin siyasi iradəsi sayəsində 20 Yanvarla bağlı informasiya blokadası yarılmış oldu.

Ötən illər ərzində 20 Yanvar hadisəsi müxtəlif səviyyələrdə və müxtəlif rakurslardan uzun-uzadı təhlil olunub. Və hər dəfə də ən çox səslənən suallardan biri bu olub: 20 Yanvar faciəsi baş verməyə bilərdimi?! Əslində, bu, son dərəcə məntiqsiz sualdır. Ona görə məntiqsizdir ki, bu faciə artıq baş verib. Bəs elə isə faciənin başvermə səbəbləri barədə nə demək olar? Bu suala cavab tapmaq üçün o günlərdə Bakıda davam edən izdihamlı mitinqləri yada salaq. Bu insanları Azadlıq meydanına toplayan ən mühüm səbəb Qarabağ problemi idi. Bu problemi isə SSRİ rəhbərliyi və Kommunist rejimini dağıtmaq planları üzərində illər boyu baş sındıran beynəlxalq güc mərkəzləri yaratmışdı. Erməniləri ov tulası kimi fitləyə-fitləyə meydana məhz onlar çıxarmışdı.

Əfsuslar olsun ki, Əbdürrəhman Vəzirov başda olmaqla o zamankı Azərbaycan rəhbərləri vəziyyətin ciddiliyini lazımınca dəyərləndirməklə optimal qərarlar qəbul etmək iqtidarında deyildi. Belə bir məsuliyyətli məqamda xalqın etiraz dalğasından öz çirkin planlarını reallaşdırmaq üçün fürsət kimi sui-istifadə edənlər də tapıldı. Bu yolla əvvəlcə Ayaz Mütəllibov, onun ardınca isə Azərbaycan Xalq Cəbhəsi hakimiyyəti qəsb etdi. Lakin onların bacarıqsız və fərasətsiz olduğu, nə Qarabağ problemini, nə də digər problemləri həll etmək iqtidarında olmadıqları tezliklə hər kəsə ayan oldu.

Vətənimizin və xalqımızın tarixinə son dərəcə böhranlı illər kimi düşən bu dövrdə Azərbaycanın bir dövlət olaraq mövcudluğu üçün çox ciddi təhlükə yaranmışdı. Həm daxildən, həm də xaricdən olan düşmən qüvvələrin eyni vaxtda hərəkətə keçmələri, Azərbaycanı parçalayaraq məhv etmələri üçün real təhlükə yaranmışdı. Azərbaycanı belə bir mürəkkəb və böhranlı durumdan ancaq və ancaq Heydər Əliyev xilas edə bilərdi və etdi də.

1990-cı ilin Yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan Vətən oğulları Azərbaycan tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar. Əfsuslar olsun ki, Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonrakı ilk illərdə başı hakimiyyət uğrunda mübarizəyə qarışmış respublika rəhbərləri 20 Yanvar qırğınına siyasi-hüquqi qiymət verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində heç bir iş aparmadılar. Yalnız 1993-cü ildə xalqın təkidli tələbi ilə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilmiş, xalqımıza qarşı törədilmiş bu ağır cinayətin səbəbləri araşdırılmış, cinayətkarların adları açıqlanmışdır.

Azərbaycan xalqı qədirbilən xalqdır. Şəhidlər Xiyabanının sözdə deyil, işdə, əməldə hər birimiz üçün, sözün əsl mənasında, and yerinə çevrilməsi bunun əyani təsdiqidir. Bir Allah şahiddir ki, şəhidlərimizin ruhunun əbədi olaraq uyuduğu bu xiyaban elə əbədi olaraq da izdihamlıdır. İnsanlar günün bütün saatlarında, həm də bütün ilboyu oranı ziyarət edirlər. Azərbaycana gələn bütün əcnəbi qonaqlar da oranı ziyarət edirlər. Dövlət və hökumət rəhbərləri, görkəmli ictimai xadimlər, elm, sənət və söz adamları Azərbaycanla tanışlığa məhz Şəhidlər Xiyabanından başlayırlar.

Şəhidlərin anım günü bizim üçün həm də bir hesabat məqamıdır. Bu gün hər birimiz çox böyük qürur və iftixar hissi ilə deyə bilərik ki, 20 Yanvar şəhidlərinin mübarizəsi və fədakarlığı hədər getməmişdir. Onların uğrunda canlarını fəda etdikləri müstəqil Azərbaycan dövləti günü-gündən inkişaf edir, qüdrətlənir, daha da çiçəklənir. Doğrudur, Qarabağ savaşı hələ ki, məntiqi sonluğuna çatmayıb, torpaqlarımız işğal altında qalmaqda davam edir. Amma bunun da bir sonu var. Qoy heç kəs unutmasın ki, Azərbaycan müharibənin ancaq birinci mərhələsini uduzub. Qoy, hər kəs, o cümlədən dostlarımız da, düşmənlərimiz də əmin olsunlar ki, torpaqlarımız bütünlüklə azad olunanadək, qaçqın və köçkünlərimizin sonuncu nümayəndəsi öz ata-baba yurduna dönənədək müharibə davam edəcəkdir. Biz gücümüzə, ordumuza, dövlətimizə, hökumətimizə güvənirik. Biz Prezidentimizə və Ali Baş Komandanımıza güvənirik. Biz haqqa, ədalətə güvənirik. Biz inanırıq ki, dünyanın

mütərəqqi qüvvələri Azərbaycanın haqq işini bundan sonra da dəstəkləyəcəklər. Biz inanırıq ki, Qarabağ probleminin həllində ikili standartlardan çıxış edənlər də nəhayət, konstruktiv mövqe nümayiş etdirməli olacaqlar. Zaman, şərait və özlərinin düçar olacağı bu cür problemlər onları buna məcbur edəcəkdir.

Azərbaycan Ordusunun gücü və qüdrəti ilə hesablaşmağın zamanına da çox qalmayıb. Bu gün Azərbaycan Ordusu nəinki Qarabağı, həm də əzəli torpaqlarımız olan Zəngəzuru və İrəvanı da azad etmək iqtidarındadır.

Təsəvvür edin, Azərbaycan hökuməti dövlət büdcəsindən hərbi xərclərə hər il orta hesabla 3 milyard manat vəsait ayırır. Bu isə Ermənistan dövlətinin bütövlükdə illik dövlət büdcəsindən çoxdur. Bu gün Azərbaycanın Müdafiə Sənayesi Nazirliyinin müəssisində yüzlərlə ən yeni silah-sursat növü istehsal olunur. Bütün bunlar, əlbəttə, Ermənistan tərəfinin Qarabağla bağlı danışıqlarda nümayiş etdirdiyi süni şıltaqlığın perspektivsizliyindən xəbər verir. Erməni liderləri unudurlar ki, onların qeyri-konstruktiv mövqeyi, bütövlükdə Ermənistanın bir dövlət olaraq mövcudluğu üçün çox ciddi təhlükə mənbəyidir.

Ermənilər bizim ürəyiyumşaq və unutqan xalq olduğumuzu bilirlər. Görünür, elə bu səbəbdən də danışıqları uzatmaq naminə bütün vasitələrdən istifadə edirlər. Amma unudurlar ki, artıq bu xına o xınadan deyil. Yəni, artıq məşhur atalar məsəlində deyildiyi kimi, bıçaq sümüyə dirənib. Azərbaycan xalqı, Azərbaycan dövləti və Azərbaycan Prezidenti hələlik səbr və siyasi iradə nümayiş etdirirlər. Əgər hadisələr bu cür davam edərsə, Azərbaycan dövləti, təbiidir ki, digər mümkün vasitələrə, o cümlədən torpaqlarımızın hərbi yolla azad olunmasına da başlaya bilər.

Bakının ən yüksək nöqtələrindən birində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş bir yer var. Bu, 20 Yanvar qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər Xiyabanıdır. Hər gün minlərlə insan Vətənin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş bu insanların əziz xatirəsini ehtiramla yad etmək üçün oranı ziyarət edir. Zaman keçəcək, nəsillər dəyişəcək, lakin Vətən oğullarının xatirəsi ürəklərdə əbədi yaşayacaqdır. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

**“Xalq qəzeti”.-**2012.-17 yanvar.-N 11.-S.5.

## 20 Yanvar xalqımızın qəhrəmanlıq tarixidir

### 22 il əvvəl Sovet imperiyasının Azərbaycan xalqına qarşı törətdiyi qətliama ilk siyasi qiymət Ümummilli lider Heydər Əliyev tərəfindən verilib

20 Yanvar müasir Azərbaycan tarixinin həm kədərli, həm də qəhrəmanlıq səhifəsidir. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqının azadlıq və istiqlal mübarizəsini boğmaq məqsədilə Sovet imperiyası Bakı şəhərinə böyük hərbi qüvvə yeritdi, günahsız insanlar qanına qəltan edildi, misli görünməmiş vəhşiliklər törədildi. Əslində, həmin faciə imperiyanın tək Azərbaycan xalqına qarşı yox, həm də bəşəriyyətə, humanizmə, insanlığa qarşı yönəldilmiş soyqırımı siyasəti idi.

Həmin müdhiş gecə xalqımız böyük bir faciə ilə üzləşsə də, özünün vətənə, torpağa sədaqətini, qəhrəmanlığını, azadlıq və müstəqillik uğrunda mübarizə əzmini, sarsılmazlığını bir daha nümayiş etdirdi. Rəsmi məlumata görə, həmin vaxt təkcə Bakı şəhərində 131 nəfər xüsusi amansızlıqla qətlə yetirilib, 744 nəfər yaralanıb, 841 nəfər isə həbs olunub. Həlak olanlar arasında qadınlar, uşaqlar, qocalar da vardı. Tərkibində ermənilərin də olduğu Sovet hərbçiləri tərəfindən 200 ev və mənzil talan edilərək yandırıldı, 80 avtomaşın, o cümlədən, təcili yardım maşını, külli miqdarda şəxsi və dövlət əmlakı məhv edildi.

Bu faciəyə ilk olaraq öz etirazını bildirən isə Ulu öndər Heydər Əliyev oldu. Həmin dövrdə Sovet imperiyasının rəhbərliyi tərəfindən təqiblərə məruz qalan Ümummilli lider Heydər Əliyev 1990-cı il yanvarın 21-də Moskvada yerləşən Azərbaycan nümayəndəliyinə gələrək mətbuat konfransı keçirdi və baş verənlərlə bağlı açıqlama verdi, xalqımıza qarşı törədilən cinayəti ifşa etdi. Ümummilli lider Heydər Əliyev sonralar o prosesləri belə xatırlayırdı: "Mən Moskvada olarkən Azərbaycana edilən bu cinayətə qarşı etiraz səsimi qaldırdım, xalqımla, millətimlə həmrəy olduğumu bildirdim...".

Əslində, həmin müdhiş gecədə həyata keçirilən qanlı aksiyanın əsas məqsədi Azərbaycan xalqının inam və iradəsini qırmaq, həmçinin, Sovet hərb maşınının gücünü nümayiş etdirmək idi. 22 il əvvəl həyata keçirilən bu dəhşətli faciə totalitar kommunist rejimin Azərbaycan xalqına qarşı hərbi təcavüzü və cinayəti kimi tarixə düşdü və həmin cinayətin üstünü ört-basdır etmək mümkün olmadı. Moskvanın, imperiyapərəst respublika rəhbərlərinin hədə-qorxularına, təzyiq və təqiblərinə baxmayaraq, xalqının mərd, qorxmaz və uzaqgörən oğlu, Ulu öndər Heydər Əliyevin istər Moskvada fərdi təqaüdçü kimi yaşayarkən, istər Azərbaycan Ali Sovetinin deputatı, istər Naxçıvanda Ali Məclisin Sədri olarkən, istərsə də yenidən Azərbaycanda hakimiyyətə qayıdışından sonra nümayiş etdirdiyi qətiyyət və cəsarət sayəsində bu faciəyə əsl hüquqi-siyasi qiymət verildi. Milli azadlıq, müstəqillik uğrunda mübarizənin yeni, həlledici mərhələsi isə məhz o gündən başlandı.

Yuxarıda da vurğuladığımız kimi, Ulu öndər hadisənin ertəsi günü Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək buradakı mətbuat konfransında bu vəhşiliyi qətiyyətlə pisləməklə yanaşı, onun törəmə səbəblərini də açıqladı, hadisənin təşkilatçılarının, günahkarlarının adını bütün dünyaya bəyan etdi: "...19-dan 20-nə keçən gecə sovet ordusunun, SSRİ DİN-in böyük kontingenti Bakı şəhərinə yeridilmişdir. Nəticəsi isə göz qabağındadır. Bunun törətdiyi faciələr hamımıza məlumdur. Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Bəli, kobud siyasi səhv buraxılmışdır".

Mətbuat konfransında kəskin bəyanatı ilə kifayətlənməyən Ümummilli lider elə həmin gün Azərbaycan KP Mərkəzi Komitəsinə, Ali Sovetə, Nazirlər Kabinetinə, Azərbaycan xalqına ünvanladığı teleqramda: "Mən bu düşünülmüş aksiyanı pisləyir, onu antihumanist, antidemokratik, qanuna zidd hesab edirəm" deməklə bu ağır gündə xalqın dərdinə şərik olduğunu bildirməklə yanaşı, onu təmkinli olmağa, həmrəyliyə və birliyə çağırırdı.

1990-cı ilin noyabr ayında dahi şəxsiyyətin böyük siyasi nüfuzu sayəsində 20 Yanvar faciəsinə prinsipial hüquqi-siyasi qiymət verilməsi məsələsi yenidən gündəmə gəldi. Bu mənada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasının noyabrın 21-də keçirilən iclası tarixə düşdü. Həmin sessiyada Ulu öndər Heydər Əliyev xalq deputatı kimi, "1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" Qərar layihəsini işləyib Ali Məclisin müzakirəsinə təqdim etdi.

Sessiyadakı çıxışında xalqımızın hərbi, siyasi, mənəvi təcavüzə məruz qalmasından narahatlıqla danışan Ulu öndər Heydər Əliyev deyirdi: "...Mən belə fikirdəyəm ki, Böyük Vətən müharibəsi qurtarandan sonra Sovetlər İttifaqında, ölkənin daxilində, - heç bir yerdə, heç bir regionda bu qədər, bu miqyasda qırğın olmamışdı. Bunu da edib Sovet ordusu. Və bunun nə qədər böyük miqyasda olmağını onunla ölçmək olar ki, bu hərbi aksiyanın həyata keçirilməsi üçün SSRİ müdafiə naziri Yazov, SSRİ daxili işlər naziri Bakatin vaxtından qabaq gəlib Bakı- da oturub bu əməliyyatlara rəhbərlik ediblər. Müharibə vaxtı hərbi nazir az-az cəbhəyə gedərdi, ancaq görün bu hərbi əməliyyatlara bunlar nə qədər böyük fikir veriblər. Demək, bu, Azərbaycan xalqına qarşı göstərilən hərbi təcavüzdür, təhqirdir. Azərbaycan xalqının qarşısında cinayətdir..."

Amma təəssüflər olsun ki, Ulu öndər Heydər Əliyevin Naxçıvanda yaşayıb-işlədiyi dövrdə Onun təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisində dövlətçiliyimizin bərpası, müstəqilliyimizlə, eləcə də, digər taleyüklü məsələlərlə bağlı uzaqgörənliklə qəbul olunan tarixi və siyasi əhəmiyyətli qərarlara o zamankı respublika rəhbərləri qısqanclıqla yanaşdığından Muxtar Respublika parlamentinin Azərbaycan Ali Soveti qarşısında qanun- vericilik təşəbbüsü ilə qaldırdığı məsələlərə baxılmırdı.

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra 1990-cı ilin Qanlı Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. İlk əvvəl "20 Yanvar faciəsinin dördüncü ildönümünün keçirilməsi haqqında" 5 yanvar 1994-cü il tarixdə Fərman imzalandı. Həmin Fərmanda da qeyd olundu ki: "Təəssüf ki, 4 il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilməmişdir".

Ümummilli liderimizin rəhbərliyi altında 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verilməsi milli dövlətçiliyimizin bərpası istiqamətində də mühüm rol oynadı. Həmin gün tariximizə faciə kimi daxil olsa da, Ümummilli liderimizin sözləri ilə desək, həm də xalqımızın həyatında dönüş mərhələsi, dönüş nöqtəsi oldu.

**“Yeni Azərbaycan”.-**2012.-14 yanvar.-№ 7.-S.3.

## Qanlı Yanvar faciəsi imperiyanın süqutunu sürətləndirdi

**Firudin Cümşüdlü,**
tarix elmləri namizədi,
ADPU-nun Azərbaycan tarixi kafedrasının dosenti

**Yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək 6 minədək adamın iştirak etdiyi izdihamlı yığıncaqda çıxış etdi və bu ağır günlərdə heç yerdən kömək almayan doğma xalqı ilə birgə olduğunu nümayiş etdirdi. O, çıxışında bildirdi ki, "Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya və siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsəydi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün zəmin yaranmazdı".**

XX əsrin ən nəhəng imperiyalarından sayılan Sovet dövləti azadlıq uğrunda mübarizə aparan xalqımıza divan tutmaq üçün səyini getdikcə artırırdı. Azərbaycanın qonşu İranla sərhədlərinin pozulması bəhanəsi də bu mənada qanlı qırğına haqq qazandıra bilərdi. Buna görə də imperiya başçıları məhz sərhədçilərə insanlara dəyməmək əmri vermişdilər.

Artıq dekabrın 31-də Araz çayı ətrafı 137 kilometrlik Sovet-İran sərhədində izdiham baş qaldırdı. Nəticədə sərhəd qurğuları uçuruldu. Hər iki tərəfin adamları Arazı keçərək bir-biri ilə görüşdülər.1990-cı il yanvarın 7-də SSRİ-Türkiyə sərhədində də həyəcanlar baş qaldırdı.Yanvarın 18-də Biləsuvar və Cəlilabad ərazilərində sərhəd qurğuları dağıdıldı. Xalq Cənubdakı qan qardaşları ilə qovuşdu. Belə bir şəraitdə Lənkəranda hadisələr sakit şəkildə davam edirdi. AXC-nin Lənkəran şöbəsi rayonda hakimiyyət orqanlarının işini müvəqqəti dayandırmağı qərara aldı.1990-cı il yanvarın 11-də rayon partiya komitəsi, daxili işlər şöbəsi,mətbəə və digər sahələr mühasirəyə alındı. Rayonda müvəqqəti müdafiə komitəsi yaradıldı.Yanvarın 12-də xalqa divan tutmaq məqsədilə ölkənin mexanikləşdirilmiş hərbi hissələri Lənkərana yeridildi.Bunun qarşısını kəsmək üçün qonşu Salyan, Sabirabad, Kürdəmir bölgələrində xalq ordu hissələri hərəkət edən yolların qarşısını kəsdi.

Bütün bunlar hakimiyyət böhranının, eləcə də Moskva canişinin və onun aparatının Azərbaycanda baş verən hadisələrə nəzarəti tam itirməsinin təcəssümü idi. Belə bir şəraitdə ermənilərin təhrikçilik hərəkətləri , onların sərhəd kəndlərimizə, eləcə də Dağlıq Qarabağdakı azərbaycanlılar yaşayan bölgələrə silahlı hücumları güclənirdi.Yanvarın 12-də Ermənistandan 500 nəfərlik silahlı quldur dəstəsi 20 vertolyotla Xanlar rayonunun Quşçu kəndinə basqın edib silahsız əhaliyə divan tutdu, çoxlu insan - qadınlar, uşaqlar vəhşicəsinə öldürüldü. Bütün bunlara müxtəlif yollarla şərait yaradan Moskva rəhbərliyi isə öz məqsədinə çatmış, xalqı radikallaşdıra bilmişdi.

Yanvarın 12-də Azərbaycandakı radikal qüvvələr Milli Müdafiə Şurası (MMŞ) yaratdılar. Onların əsas məqsədi silahlı özünümüdafiə dəstələrini bir yerə cəmləşdirmək, yeni hərbi dəstələr yaratmaq və erməni hərbi birləşmələrinin basqınlarının qarşısını kəsmək idi. Respublikada AXC-ni dağıtmaq, xalq hərəkatını yatırmaq üçün münasib şərait yetişmişdi. Yanvarın 13-də Bakıda bir erməninin 2 nəfər azərbaycanlını öldürməsi paytaxtda iğtişaşları gücləndirdi. Yerli hüquq-mühafizə orqanları, eləcə də Bakıda yerləşən SSRİ Daxili İşlər Nazirliyinin 12 minlik silahlı dəstələri isə bunun qarşısını almağa heç bir cəhd göstərmədi . İmperiya Bakıda Sovet hakimiyyətinin devriləcəyindən, eləcə də Azərbaycanın əldən çıxacağından qorxub paytaxt ətrafına əlavə ordu bölmələri, ağır texnika yeritməyə başladı. MMŞ-in fəallığı ilə paytaxtətrafı ərazilərdə və Bakı qarnizonunun yaxınlığında yük, minik maşınları, avtobuslardan ibarət barrikadalar yaradıldı. Yolların ətrafında 26 iri maneə təşkil edildi. Salyan kazarmasının yolu kəsildi.

1990-cı il yanvarın ortalarında Azərbaycan KP MK-nın büro iclaslarında respublikadakı mövcud vəziyyət müzakirə olunurdu. Çıxış edənlər Ə.Vəzirov, A.Mütəllibov, V.Polyaniçko, E.Qafarova və başqaları, eləcə də Bakıda olan Y.Primakov və yüksək rütbəli Moskva hərbçiləri güc tətbiq olunmasının zəruriliyini bildirdilər. Buna etiraz edən və ya başqa təklif verən isə olmadı. 1990-cı il yanvarın 15-də Ə.Vəzirov Moskvaya teleqram göndərərək tələb edirdi ki, "Antisovet,antipatiya şüarları ilə mitinq edən ekstremistlərin liderləri dərhal məsuliyyətə cəlb edilməlidirlər.Bunun üçün hüquqi əsaslar vardır". Bunun ardınca Azərbaycan SSR Nazirlər Sovetinin sədri A.Mütəllibov Moskvaya göndərdiyi teleqramda bildirirdi ki, respublikanın SSRİ güc nazirliklərinin hərbi kontingentini qeyri-qanuni silahlı birləşmələri tərksilah etmək üçün əməliyyat keçirəcəkləri müddətdə yerləşdirmək və ərzaqla təmin etmək üçün hər cür imkanı vardır.

Azərbaycan Ali Soveti Rəyasət Heyətinin müraciətinə əsasən SSRİ Ali Soveti Rəyasət Heyəti yanvarın 15-də "Dağlıq Qarabağ Muxtar Vilayəti və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında"

fərman verdi. İmperiya Azərbaycan Ali Sovetinə təklif etdi ki, Bakı və Gəncə şəhərlərində, eləcə də digər yaşayış məntəqələrində komendant saatı tətbiq edilməsi də daxil olmaqla lazımı tədbirlər görsün.

1990-cı il yanvarın 17-dən Azərbaycan KP MK-nın binası qarşısında əzəmətli mitinq başlandı, ümümi tətil elan olundu. Mitinqdəki çıxışlarda tələb edildi ki, Moskva Ermənistanın Azərbaycana ərazi iddialarına qəti olaraq son qoysun. İmperiyanın Bakıya və ətraf bölgələrə yığdığı qoşunlar Dağlıq Qarabağa və erməni hücumlarına məruz qalan sərhəd bölgələrinə göndərilsin. Mərkəz Naxçıvanda da xalqı cəzalandırmaq məqsədilə fövqəladə vəziyyət tətbiq edilməsi üçün təzyiqlərini artırırdı.Yanvarın 18-də Şərur rayonu Kərki kəndinin erməni işğalçıları tərəfindən zəbt edilməsi vəziyyəti daha da mürəkkəbləşdirdi. Xalqın tələbi ilə yanvarın 19-da Naxçıvan MSSR Ali Soveti muxtar respublikanın SSRİ tərkibindən çıxması haqqında qərar qəbul etdi. Bundan məqsəd isə Azərbaycanda baş verən hadisələrə, Sovet ordusunun qanlı əməllərinə dünya xalqlarının diqqətini cəlb etmək idi və bu addım müəyyən rol oynaya bildi.

SSRİ Ali Soveti Rəyasət Heyəti 1990-cı il yanvarın 19-da "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verdi. Xalqa divan tutmaq, qırğın törətmək üçün ordudan istifadə olunacağı nəzərə alınaraq fövqəladə vəziyyətin elan olunacağı vaxt gizli saxlanıldı. Bakıda fəaliyyətlərini davam etdirən radikallar insanlara "Silah, kömək gələcək" - deyə yalan vədlər verir, xalqın bir hissəsini barrikadaları sonadək qorumağa və buranı tərk etməməyə çağırırdılar. Piketdə iştirak edənlər imperiyanın, eləcə də Azərbaycanın səlahiyyətli nümayəndələrinin qoşunun şəhərə daxil olmayacağı ilə bağlı dəfələrlə təkrar etdikləri yalan vədlərə inanmışdılar.

Xalq baş verə biləcək qırğından xəbər tutmasın deyə, yanvarın 19-da respublika televiziyasının enerji bloku partladılaraq sıradan çıxarıldı. Qoşun bölmələri yanvarın 19-da Türkan-Qala istiqamətindən şəhərə hərəkət etməyə başladı. "Bakı əməliyyatı"na Sovet dövlətinin müdafiə naziri D.Yazov birbaşa başçılıq edirdi. Ağır hərbi texnika asanlıqla barrikadaları dağıtmağa başladı. Əsgərlər gözyaşardıcı qazdan istifadə edir, əliyalın adamlara avtomat silahlardan atəş açırdılar. Hərbçilər təsadüf nəticəsində yola çıxanları, yaşayış evlərini, təcili yardım maşınlarını,nəqliyyatı atəşə tutur, yaralı insanları öldürür, meyitləri yandırırdılar. Bakı küçələri öldürülmüş, yaralanmış adamların, qocaların, qadınların və uşaqların qanına qərq olmuşdu. Əsgərlər tibbi heyətin yaralılara köməyə getməsinə imkan vermir, hər vəchlə buna mane olmağa çalışırdılar. Əldə olunmuş rəsmi məlumatlara görə, Bakıya və başqa yaşayış məntəqələrinə Sovet qoşunlarının basqını vaxtı 131 nəfər, o cümlədən 117 azərbaycanlı, 6 rus, 3 yəhudi və 3 tatar öldürülmüş, 744 nəfər yaralanmış, 400 nəfər həbs edilmiş, 4 nəfər isə itgin düşmüşdür. Fövqəladə vəziyyət haqqında fərman artıq iş-işdən keçəndən sonra, yanvarın 20-də elan olunmuşdu. Azərbaycanda rəhbər vəzifədə olanlar xalqa kömək etmək, ona arxa durmaq əvəzinə kürsülərini qorumaq naminə qaçıb gizləndilər. Ziyalıların bir qismi yanvarın 20-də Elmlər Akademiyasında etiraz mitinqi keçirdi. Ziyalıları qorxutmaq üçün bu mitinqin iştirakçısı olan 3 tanınmış alim, professor Bakı-Sumqayıt yolunda tankın altına salınıb məhv edildi.

Başsız qalmış xalq qorxu içində idi. Yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək 6 minədək adamın iştirak etdiyi izdihamlı yığıncaqda çıxış etdi və bu ağır günlərdə heç yerdən kömək almayan doğma xalqı ilə birgə olduğunu nümayiş etdirdi. O, çıxışında bildirdi ki, "Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya və siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsəydi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün zəmin yaranmazdı". Heydər Əliyev çıxışında respublika rəhbərlərinin yarıtmaz fəaliyyətini ifşa etdi və bildirdi ki, Ə. Vəzirov bu yüksək vəzifədə olduğu müddətdə Azərbaycanda vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə, səhv addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurum yaratmışdır". Ümummilli lider qorxmadan imperiya rəhbərlərini "qatillər" adlandırırdı. Heydər Əliyev Azərbaycan xalqına verdiyi başsağlığında soydaşlarımızı ağır gündə "ağıllı, kamallı olmağa, həmrəyliyə və birliyə çağırdı". Xalq Heydər Əliyev kimi bacarıqlı, böyük nüfuz sahibi olan bir şəxsiyyətin onunla olduğunu, onu qorxmadan müdafiə etdiyini gördü, ürəkləndi...

Şəhidlər Bakının ən uca yerində - Dağüstü parkda dəfn edildi. 1990-cı ilin qanlı yanvarı Azərbaycan xalqı üçün yalnız böyük faciə deyildir. Bu hadisə həm də ləyaqətini, qeyrətini qorumaq üçün mübarizə aparmaqla bu yolda qurbanlar verməyə hazır olan xalqın tarixində şərəfli bir səhifədir. Heydər Əliyevin "Bizim İttifaqdan nicatımız yoxdur" sözləri xalqın ümumi rəyinin ifadəsi oldu. Xalq hərəkatı bu şüar altında keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Özlərini xalqın övladı sayıb dar gündə ona xəyanət edən rəhbərlər mühakimə olunmalıdırlar. Heysiyyətini itirmiş o zamankı respublika rəhbərləri məsuliyyətdən xilas olmaq üçün bütün günahları SSRİ rəhbərliyinin üzərinə atırdı. Lakin heç kəs heç vaxt tarix qarşısında günahını gizlədə bilməz...

**“Xalq qəzeti”.**-2012.-15 yanvar.-N 10.-S.3.

## Qanlı 20 Yanvar faciəsi

*Rəşad Cəfərli*

**Azərbaycanın istiqlaliyyət yolunun ilk şəhidlik zirvəsi sayılan 20 Yanvar faciəsi yeni tariximizə həm də bir qürur günü kimi yazıldı. Çünki bu hadisə günahsız insanların amansız bir formada qətlə yetirilməsi ilə nəticələnsə də, öz azadlığına, müstəqilliyinə can atan Azərbaycan xalqının mübarizliyini, məğrurluğunu bir daha bütün dünyaya, o cümlədən ovaxtkı imperiya rəhbərliyinə aydın şəkildə nümayiş etdirdi. Tarixə qanla yazılan 20 Yanvar faciəsi Vətəni, azadlığı uğrunda ölümün gözünə dik baxan Azərbaycan övladlarının varlığını bir daha dünyaya tanıtmaqla yanaşı, SSRİ adlanan nəhəng imperiyanın çöküşündə əsas amillərdən biri oldu.**

Süquta məhkum olmuş sovet rejimi özünün son günlərində bütün mövcudiyyəti ərzində törətmiş olduğu cinayətlər sırasına misli görünməmiş bir faciəni də əlavə etdi. 1990-cı il yanvarın 19-dan 20-ə keçən gecə Bakı şəhərinə yeridilən sovet ordusu hissələri Ermənistanın respublikamıza qarşı ərazi iddialarının SSRİ rəhbərliyi tərəfindən açıq-aşkar dəstəklənməsinə və Azərbaycanın o zamankı rəhbərliyinin xəyanətkar siyasətinə etiraz əlaməti olaraq ayağa qalxmış xalqımıza vəhşicəsinə divan tutdu.

### Faciəyə gedən yol

Faciəyə gedən yolun başlanğıcı onun törədilməsindən xeyli müddət əvvələ, SSRİ rəhbərliyinə M.Qorbaçovun gəlişi ilə başlamışdı. Qorbaçovun simasında daim Azərbaycana qarşı məkrli, xəyanətkar mövqe tutmuş ermənilər özlərinə yaxın himayədar tapmışdılar. Əlbəttə, nə qədər ki, Heydər Əliyev SSRİ rəhbərliyində təmsil olunurdu, ermənilər Azərbaycanla bağlı bədnam niyyətlərini həyata keçirə bilmirdilər. Çünki Heydər Əliyevin Siyasi Büroda olması ermənilərə və Qorbaçova Azərbaycanla bağlı planlarının reallaşmasına, o cümlədən Qarabağ münaqişəsinin törədilməsinə imkan vermirdi. Elə buna görə Qarabağ məsələsinin Heydər Əliyev Siyasi Bürodan istefa verdikdən cəmi 15 gün sonra ortaya çıxması təsadüfi sayılmamalıdır. O vaxt M.Qorbaçovun ən yaxın adamı, iqtisadi məsələlər üzrə müşaviri, milliyyətcə erməni olan Aqanbekyan Parisdə keçirdiyi mətbuat konfransında Dağlıq Qarabağın Ermənistana verilməsi iddiasını irəli sürmüş, “Humanite” qəzetindəki bəyanatında Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılıb Ermənistana verilməsinə dair Moskvanın razılığının olduğunu bildirmişdi.

SSRİ rəhbərliyinin Dağlıq Qarabağın Ermənistana verilməsinə dair razılığının olduğu 1988-ci ilin əvvəllərində M.Qorbaçovun Silva Kaputikyan başda olmaqla, bir qrup şovinist erməni ilə görüşü zamanı da üzə çıxdı. Bunun ardınca Xankəndidə, Yerevanda antiazərbaycan və antitürk ruhlu mitinqlər genişləndi.

Məhz bundan sonra erməni “Qarabağ Komitəsi”, onun Dağlıq Qarabağ Muxtar Vilayətindəki separatçı-terrorçu təşkilatı olan “Krunk” gizli fəaliyyətlərinə son qoyaraq açıq şəkildə niyyətlərini bəyan etməyə, Azərbaycana qarşı ərazi iddiaları səsləndirməyə başladı. Bunun nəticəsi olaraq ermənilər tərəfindən “Miatsum” adlanan hərəkat formalaşdırıldı.

Bütün bunlar 1988-ci ilin fevralından etibarən hadisələrin daha gərgin və aqressiv məcrada inkişafı ilə nəticələndi. Məhz həmin dövrdə həm Dağlıq Qarabağda, həm də Yerevanda Azərbaycan torpaqlarının Ermənistana birləşdirilməsi tələbi ilə silsilə mitinqlər başladı. SSRİ rəhbərliyi tərəfindən heç bir ciddi müqavimət görməyən və bundan daha da ruhlanan ermənilər Dağlıq Qarabağ Muxtar Vilayəti Sovetinin vilayətin statusuna baxılması haqqında Azərbaycan SSR Ali Sovetinə müraciət qəbul etməsinə nail oldular.

### Baş verənlərə paralel olaraq Ermənistanda və Qarabağda etnik təmizləmə siyasəti həyata keçirilirdi

Azərbaycanın o vaxtkı rəhbərliyi hadisələrə fəal müdaxilə etmək əvəzinə, Kremldən gələn əmrlər əsasında hərəkət edir və bununla xalqın taleyinə biganə yanaşırdı. Kreml isə həm Azərbaycana göndərdiyi emissarlar, həm də ölkənin qətiyyətsiz rəhbərliyi vasitəsilə daha məkrli ssenarilər hazırlamaqda idi. Erməni təxribatçılarının da yaxından iştirak etdiyi bu ssenarilərin əsas hədəflərindən biri Azərbaycanda ermənilərə qarşı dözümsüz münasibətin formalaşmasına dair görüntülər yaratmaq idi. Elə bu məqsədlə də 1988-ci ilin fevralında məlum Sumqayıt hadisələri törədildi.

Müxtəlif millətlərin nümayəndələrinin yaşadığı sənaye şəhəri olan Sumqayıtda iğtişaşlar yaratmaqla siyasi dünyanın yeni səviyyədə gündəminə gətirilmiş “böyük Ermənistan” xülyasının gerçəkləşdirilməsi üçün

ermənilərə çox lazım idi. Lakin bu məsələdə sovet DTK-nın da özünəməxsus rolu oldu. Beləliklə, əvvəlcədən planlaşdırılmış Sumqayıt olayları törədildi və o dövrdə Azərbaycanda hakimiyyətdə olanlar SSRİ rəhbərliyinin, ermənilərin niyyətini, qlobal hadisələrin mahiyyətini axıra kimi dərk etmək iqtidarında olmadıqlarından qanlı hadisələrin yaşanmasının qarşısını almaq üçün müvafiq addımlar atılmasında acizlik nümayiş etdirdilər. Sumqayıt hadisələrinin əvvəlcədən hazırlandığını o da sübuta yetirir ki, olaylar baş verən yerlərdə öncədən çoxlu telefoto operatorlar, jurnalistlər yerləşdirilmişdi. Bunun nəticəsində düşünülmüş, ssenarisi əvvəlcədən cızılmış Sumqayıt hadisələri saxtakarlıqlarla, uydurmalarla dünyaya yayıldı. Bundan sonra ermənilər Ermənistanda və Dağlıq Qarabağda belə bir əhval yaratdılar ki, artıq azərbaycanlılarla ermənilər bir yerdə yaşaya bilməzlər. Bunun nəticəsi olaraq indiki Ermənistanın yarandığı əzəli Azərbaycan torpaqlarında yaşayan yüz minlərlə soydaşlarımız 1988-ci ilin sonuna kimi qətlə yetirilməklə, əmlakları talan olunmaqla ən qəddar formada deportasiya olundular.

Dağlıq Qarabağda da vəziyyət getdikcə gərginləşirdi və bu işdə yenə əsas rol oynayan tərəflərdən biri Azərbaycan rəhbərliyinin acizliyindən istifadə edərək hadisələri istədiyi kimi istiqamətləndirən Kreml təmsilçiləri idi. Bütün bunlara qarşı Azərbaycan rəhbərliyi tərəfindən heç bir qətiyyətli addım atılmadı. M.Qorbaçov isə tədbir görmək əvəzinə, DQMV-nin sosial-iqtisadi inkişafının geridə qalması barədə ermənilərin uydurduqları yalanı müdafiə edərək ittifaq büdcəsindən vilayətə 400 min rubl vəsait ayrılmasına göstəriş verdi. 1988-ci il iyunun 15-də Ermənistan SSR Ali Soveti DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qərar qəbul etdi. İyul ayında SSRİ Ali Sovetinin Rəyasət Heyətinin sessiyasında Dağlıq Qarabağ məsələsi müzakirə edilən zaman Azərbaycandan olan deputatlarla yanaşı, qanunazidd olaraq Ermənistandan olan deputatlar da eyni hüquqda orada iştirak etdilər. Bu isə Qorbaçov və onun ətrafının Ermənistan üçün yaratdığı yeni imkan demək idi.

İttifaq rəhbərliyinin Azərbaycan xalqına qarşı ən böyük xəyanəti özünü növbəti dəfə 1989-cu ilin yanvarında göstərdi. Belə ki, həmin il yanvarın 12-də “Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarəçilik formasının tətbiqi haqqında” SSRİ Ali Soveti qərar qəbul etdi və bu, ermənilərin istəyinə tam uyğun idi. Çünki DQMV-də xüsusi idarəçilik forması tətbiq edildiyi ilk gündən birbaşa Moskvaya tabe olan ermənipərəst A.Volski burada yaşayan bütün azərbaycanlı soydaşlarımızın çıxarılmasına nail oldu. Qısa müddətdə 50 min nəfər azərbaycanlı DQMV-dən qovuldu. Halbuki Azərbaycanın siyasi rəhbərliyi sözügedən idarənin yaranmasını böyük uğur kimi qiymətləndirir və bu idarəyə çox böyük ümidlər bəsləyirdi. Yalnız xalq hərəkatının təsiri altında 1989-cu il noyabrın 28-də vilayətin idarəsi mərkəzin nəzarəti altında olan Azərbaycan SSR Təşkilat Komitəsinə tapşırıldı. Təşkilat Komitəsinin sədri təyin edilən V.Polyaniçko əslində öz sələfinin siyasətini davam etdirdi və azərbaycanlılar daha da sıxışdırılırdı.

Ümumiyyətlə, 20 Yanvar faciəsinə qədər SSRİ və respublika rəhbərliyinin çıxardığı qərar və fərmanların heç birində Azərbaycanın xeyrinə bircə maddə belə olmadı. Bir tərəfdən Azərbaycan xalqını sakitləşdirməyə yönələn addımlar atılır, digər tərəfdən isə respublikanın suverenliyinə, ərazi bütövlüyünə xələl gətirən qərarlar qəbul olunurdu. Bu, Ermənistanın SSRİ rəhbərliyi tərəfindən ən yüksək səviyyədə müdafiə olunduğunu göstərirdi.

1989-cu ilin noyabrından səbr kasası dolmuş xalq Bakının mərkəzi meydanında mitinqlərə başladı. Yanvarın 18-də Bakıda və Azərbaycanın 11 rayonunda keçirilən izdihamlı mitinqlərdə ümumi tətilin başlandığı elan edildi. Lakin genişlənməkdə olan xalq hərəkatına ilk dövrlərdə səriştəsiz rəhbərlik, edilən xəyanətkarlıq ölkəni daha ağır vəziyyətə salırdı. Bununla belə, Dağlıq Qarabağın Azərbaycandan qoparılaraq Ermənistana verilməsinə şərait yaradan Qorbaçov respublikada genişlənən milli-azadlıq hərəkatının boğulması üçün müxtəlif vasitələr üzərində baş sındırırdı.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Vəzirov isə Moskvanın marionetkası olaraq həm Dağlıq Qarabağın ermənilərin əlinə keçməsinin qarşısını almaq, həm də ölkədəki vəziyyəti sabitləşdirmək üçün heç nə edə bilmirdi. Əksinə, özünün səhv addımları, yarıtmaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurumu daha da dərinləşdirirdi. Elə buna görə də Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında aylarla davam edən mitinqlərdə dəfələrlə

Azərbaycanın partiya rəhbərlərinin istefası tələbi irəli sürülmüşdü. Bu dövrdə xalq hərəkatına rəhbərlik edənlər də böyük səriştəsizlik göstərir, çox vaxt DTK-nın istədiyi ssenarilərə uyğun hərəkət edirdilər.

1989-cu ilin sonu, 1990-cı ilin yanvarında Azərbaycanda ictimai-siyasi vəziyyət xeyli kəskinləşdi, qarşıdurma dərinləşdi, mövcud iqtidarın hadisələrə nəzarəti son dərəcədə zəiflədi. SSRİ rəhbərliyi isə Azərbaycanı növbəti dəfə cəzalandırmaq üçün Sumqayıt ssenarisinə uyğun təxribatlara start verdi. Milli-azadlıq hərəkatının mərkəzi olan Bakıda ilk olaraq yerli milis tərksilah edildi, mərkəzdən isə daxili qoşun hissələri şəhərə gətirildi. Yanvarın 13-də Bakıda bir erməninin iki azərbaycanlını öldürməsi fitnəkarlıqlar üçün əsas oldu

və iki gün ərzində Bakıda süni şəkildə erməni talanı təşkil edildi. Mərkəz tərəfindən düşünülmüş və taktiki baxımdan hərtərəfli hazırlanmış bu məkrli plan hazır ssenari üzrə aparıldı. Elə bu səbəbdən də ayrı-ayrı dəstələrin əməllərinin qarşısını almaq üçün ali hakimiyyət və hüquq-mühafizə orqanları tərəfindən heç bir tədbir görülmədi. Halbuki Bakıda SSRİ Daxili İşlər Nazirliyinin 12 min nəfərlik silahlı qüvvəsi var idi. Bu dövrdə ölkəyə rəhbərlik edən Vəzirov isə yaranan vəziyyətdən istifadə edərək sovet qoşunlarının müdaxiləsinə şərait yaratmağa, bununla həm də xalq hərəkatını boğmağa çalışırdı.

Yanvarın 14-də Azərbaycan KP MK-nın Bürosunda vəziyyət müzakirə olundu və Vəzirovun təkidi ilə çağırılan Azərbaycan SSR Ali Sovetinin sessiyasında DQMV-də və zəruri olarsa, ona bitişik rayonlarda, eləcə də sərhəd boyunca fövqəladə vəziyyət elan edilməsi, lazım gələrsə, mərkəzdən kömək göstərilməsi haqqında qərar qəbul olundu. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin müraciəti ilə SSRİ Ali Sovetinin Rəyasət Heyəti yanvarın 15-də “Dağlıq Qarabağ və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında” fərman verdi. Həmçinin SSRİ Ali Soveti Bakı, Gəncə şəhərlərində, eləcə də başqa yaşayış məntəqələrində qadağan saatlarının tətbiq edilməsini və digər zəruri tədbirlər görülməsini Azərbaycan SSR Ali Sovetinə təklif etdi.

**Müdhiş gecə...**

Bu dövrdə Mərkəzdən Azərbaycana, xüsusən də Bakı ətrafına əlavə qoşun hissələri və hərbi texnika gətirilməsi prosesi davam edirdi. Əslində bu, Bakıya qoşun yeridilməsi üçün ilkin hazırlıqdan başqa bir şey deyildi. Xalq hərəkatına rəhbərlik edənlər, o cümlədən Xalq Cəbhəsinin təmsilçiləri isə vəziyyəti düzgün qiymətləndirmək əvəzinə, şəhərin ətrafında, o cümlədən Bakı qarnizonu ətrafında sədlər, barrikadalar yaratmağa başladı. Yük və minik maşınlarından, avtobus və trolleybuslardan, eləcə də başqa vasitələrdən istifadə etməklə barrikadalar quruldu, piketlər düzəldildi. Lakin 20 Yanvarda bu düzgün olmayan taktikadan bəhrələnən sovet ordusu çoxlu sayda dinc əhalinin qırılmasına, yaralanmasına rəvac verdi.

Yanvar hadisələri ərəfəsində Moskva SSR Ali Soveti İttifaq Sovetinin sədri Y.Pirmakovu və Sov.İKP MK katibi Girenkonu Bakıya göndərdi. Lakin onların AXC-nin radikal və liberal qanadları ilə görüşüb apardığı danışıqlar heç bir nəticə vermədi. Yanvarın 17-də Azərbaycan KP MK binası qarşısında böyük mitinq başlandı və üç gün davam etdi. Mitinqlərdə Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulması, Bakı ətrafına yığılmış qoşunların Dağlıq Qarabağa göndərilməsi, respublika rəhbərliyinin istefası və digər tələblər irəli sürüldü.

Sovet rəhbərliyi isə Azərbaycan xalqının müstəqillik uğrunda apardığı mübarizənin qarşısını almaq, milli-azadlıq hərəkatına zərbə vurmaq, habelə digər müttəfiq respublikalara dərs vermək üçün 1990-cı il yanvarın 19-da “Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında” fərman imzaladı. Halbuki bununla Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozurdu.

Digər tərəfdən bu fərmanın tətbiqi barədə əhaliyə məlumat verilməmişdi. Xalqdan fərqli olaraq respublika rəhbərliyi yanvarın 20-nə keçən gecə Bakıya ordu yeridiləcəyindən xəbərdar idi. Həmin günlər güman edilirdi ki, ölkə rəhbərliyinin istefa verməsi gərginliyi nisbətən azaldar, adamlar barrikadaları tərk edərək dağılardılar. Lakin bunun əksinə olaraq, axşamçağı boş küçələrdə üstünə səsgücləndirici quraşdırılmış maşınlardakı insanlar xalqı piketlərə səsləyirdilər.

Yanvarın 19-dan 20-nə keçən gecə SSRİ rəhbəri M.Qorbaçovun göstərişi və Azərbaycanın o zamankı səriştəsiz rəhbərlərinin razılığı ilə Bakıya qoşun yeridildi. Azərbaycanı informasiya blokadasına almaq və xalqın haqq səsini boğmaq üçün SSRİ DTK-nın “Alfa” qrupu respublika televiziyasının enerji blokunu yanvarın 19-da partlatdı. Televiziya susduruldu, kütləvi informasiya vasitələri üzərinə, qəzet və jurnalların nəşrinə qadağalar qoyuldu. Beləliklə, Azərbaycan tam şəkildə blokadaya düşdü, əhali hər hansı bir məlumat almaq mənbəyindən məhrum oldu.

Bakıya qoşun yeridiləndə isə tanklardan, zirehli transportyorlardan, piyadaların döyüş maşınlarından istifadə edildi. Zirehli texnikanın üstündə nömrələr yox idi. Qırmızı Bayraq Ordenli Xəzər Hərbi Donanmasının gəmilərindən desant çıxarılmışdı. Tanklar və ZTR-lər Bakı küçələrində qarşılarına çıxan hər şeyi əzir, hərbçilər qarşılarına çıxanları amansız atəşə tuturdular. İnsanlar nəinki küçələrdə, hətta avtobusda gedərkən, öz mənzillərində oturduqları yerdə güllələrə tuş gəlirdilər. Gözlərini qan tutmuş hərbçilər yaralıları aparmağa gələn təcili yardım maşınlarını və tibb işçilərini də atəşə tuturdular.

**Süquta məhkum olmuş sovet rejimi özünün son günlərində bütün mövcudiyyəti ərzində törətmiş olduğu cinayətlər sırasına misli görünməmiş bir faciəni də əlavə etdi. 1990-cı il yanvarın 19-dan 20-nə**

**keçən gecə Bakı şəhərinə yeridilən sovet ordusu hissələri Ermənistanın respublikamıza qarşı ərazi iddialarının SSRİ rəhbərliyi tərəfindən açıq-aşkar dəstəklənməsinə və Azərbaycanın o zamankı rəhbərliyinin xəyanətkar siyasətinə etiraz əlaməti olaraq ayağa qalxmış xalqımıza vəhşicəsinə divan tutdu.**

SSRİ Müdafiə Nazirliyinin, DİN və DTK-nın hazırlayıb həyata keçirdiyi "Udar" ("Zərbə") adlı əməliyyatda əsas rolu xüsusi təyinatlı "Alfa" və SSRİ DTK-nın "A" təxribat qrupları oynayırdı. Sonradan isə məlum oldu ki, Bakıya hücum çəkib qırğın törədən hərbi hissələrin şəxsi heyəti arasında cinayətkarlar və ermənilər də olub. Beləliklə, sovet qoşunlarının təcavüzü nəticəsində təkcə Bakı şəhərində 131 nəfər xüsusi amansızlıqla qətlə yetirildi, 800 nəfərdən çox adam yaralandı. Vəhşiləşmiş hərbçilər tərəfindən 200 ev və mənzil talan edilərək yandırıldı, 80 avtomaşın, o cümlədən təcili yardım maşını, külli miqdarda şəxsi və dövlət əmlakı məhv edildi. Ölkənin baş meydanındakı tribunadan SSRİ rəhbərliyini hədələyən və xalq hərəkatına rəhbərlik etdiklərini bildirənlər, özlərini "liderlər" adlandıranlar isə faciə zamanı xalqla birgə olmadılar. Bu isə onların bir daha hakimiyyətə gəlmək üçün oyunlar oynadığını və bu məqsədlə xalqı qırğına verməyə belə hazır olduqlarını göstərirdi.

Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız ertəsi gün şəhər hərbi komendantı Dubinyakın radio ilə çıxışında və vertolyotlardan səpilən vərəqələrdə bildirildi. Halbuki Qorbaçovun Azərbaycana ezam etdiyi yüksək vəzifəli emissarlar həyasızcasına bəyan edirdilər ki, Bakıda fövqəladə vəziyyət elan olunmayacaq.

**Faciəyə etiraz səsini birinci ucaldan Heydər Əliyev oldu**

Ən acınacaqlı hal isə o idi ki, respublika rəhbərliyi əvvəlcədən xalqa xəyanət yolu tutaraq bu qəsdin qarşısını almaq üçün heç bir tədbir görmədi, cinayətin iştirakçısı ola-ola zahirən hadisələrdən kənarda qalmağa çalışdı. Moskvanın qabağında həmişə mütilik və satqınlıq nümunəsi göstərən, faciə törənən gecə isə qorxusundan tələm-tələsik respublikadan qaçan Ə.Vəzirov, həmin günlərdə əli xalqın qanına boyansa da, Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi seçilən A.Mütəllibov bu dəhşətli faciənin izlərini nəyin bahasına olursa-olsun ört-basdır etməyə, xalqın haqq səsini fövqəladə rejim tətbiq etməklə boğmağa çalışırdı.

O ağır günlərdə 20 Yanvar faciəsi ətrafında xəyanət sükutunu ilk və mütəmadi olaraq yaran Heydər Əliyevin haqq səsi və dəyişməz mövqeyi oldu. Faciənin ertəsi günü ilk dəfə olaraq Heydər Əliyevin Azərbaycan xalqına qarşı törədilən cinayətə, qanlı təcavüzə qarşı etiraz səsi ucaldı. Təbii ki, milli-azadlıq istəyi ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə həyata keçirilən bu müdhiş faciə qəlbi Vətən eşqi ilə döyünən xalqın mərd və mübariz oğlunu narahat etməyə bilməzdi. Çünki dahi insan, uzaqgörən şəxsiyyət yaxşı bilirdi ki, bu faciə totalitar kommunist rejiminin Azərbaycan xalqına qarşı hərbi təcavüzü və cinayətidir. Heydər Əliyev hadisənin ertəsi günü Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək keçirdiyi mətbuat konfransında bu vəhşiliyi qətiyyətlə pisləməklə yanaşı, onun törəmə səbəblərini də açıqladı, təşkilatçılarının, günahkarlarının adını bütün dünyaya bəyan etdi:

"Əziz həmvətənlərim, xanımlar və cənablar!

Bildiyiniz kimi, uzun illər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində işləmiş, Sov. İKP MK Siyasi Bürosunun üzvü olmuşam. Geniş infarkt keçirmişəm. Xəstəliyimlə əlaqədar iki ildən artıqdır ki, pensiyadayam. Azərbaycanı tərk etdiyim 1982-ci ilin dekabrından keçən müddətdə bu gün ilk dəfədir ki, Azərbaycan SSR-in Moskvadakı daimi nümayəndəliyinin astanasına qədəm qoyuram. Mən baş vermiş hadisələr haqqında dünən xəbər tutmuşam və təbiidir ki, bu hadisəyə laqeyd qala bilməzdim. Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində, böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı daimi nümayəndəsi Söhrab İbrahimovdan xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm.

Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm. Azərbaycanda yaranmış mürəkkəb vəziyyətin bir sıra səbəbləri vardır. Vaxtımızın məhdudluğundan bu məsələlərin üzərində ətraflı dayanmaq istəmirəm. Artıq iki ildir ki, Azərbaycan və Ermənistan arasında millətlərarası münaqişə gedir. Həmin münaqişəni Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr törətmişdir. Azərbaycan və Ermənistan, eləcə də ölkənin ali siyasi partiya rəhbərlərinə bu məsələni tənzimləmək, daxili müharibəyə, millətlərarası münaqişəyə son qoymaq və milli mənsubiyyətindən asılı olmayaraq, hər bir adamın ümumi federativ ittifaq olan SSRİ-də azad yaşamasına şərait yaratmaq üçün ikiillik müddət kifayət idi. Hesab edirəm

ki, ötən iki ildə bu istiqamətdə lazımi səviyyədə iş aparılmamışdır. Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı.

Bunlar üçün, ilk növbədə, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin artıq sabiq birinci katibi Vəzirov müqəssirdir. Bu yüksək vəzifədə olduğu müddətdə o, Azərbaycandakı vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə, özünün səhv addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurum yaratmışdır. Xalq isə hiddətlənmişdir. Elə buna görə də Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında aylarla davam edən mitinqlərdə dəfələrlə Azərbaycanın partiya rəhbərlərinin istefası tələbi irəli sürülmüşdür. Söhbət əslində Vəzirovun istefasından gedirdi. Bəs bu məsələ indiyə kimi niyə həll olunmamışdır?

Yalnız dünən Bakı şəhərinə ordu yeridildikdən, qırğın və dağıntılar baş verdikdən sonra Vəzirov Azərbaycandan əslində qaçmışdır. Bu, böyük səhvdir. Ən böyük səhv isə sözsüz ki, qeyri-ciddi, bu yüksək vəzifəyə əsla yaramayan adamın bir vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə birinci katib təyin edilməsi idi.

Ancaq iş təkcə bununla bitmir. İndi yanvarın 19-dan 20-nə keçən gecə baş vermiş və bu gün də davam edən faciənin üstündə dayanmaq istəyirəm. Hesab edirəm ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur. Təəssüf ki, Azərbaycan rəhbərliyi, həmçinin ölkənin ali siyasi rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir. Sərhədlərə edilən təcavüzü vaxtında aradan qaldırmaq mümkün idi. Axı üç ay əvvəl sərhəd zolağı ilə bağlı camaat öz tələblərini irəli sürmüşdü. Fəqət, heç kəs onlarla görüşmək, izahat işi aparmaq və lazımi ölçü götürmək istəməmişdir. Təkrar edirəm: camaatı sakitləşdirmək üçün də imkanlar tükənməmişdi. İki-üç ay əvvəl Azərbaycan partiya rəhbərliyinin möhkəmləndirilməsi məsələsi həll edilsə idi, vəziyyət gərginləşməz, ordu yeridilməsinə zərurət yaranmazdı. Bütün vəziyyətlərdə hesab edirəm ki, məsələni siyasi cəhətdən tənzimləmək, xalqla mükaliməyə girmək üçün əlverişli imkanlar olmuşdur. Lakin onlardan səmərəli istifadə edilməmişdir. Nəhayət, 19-dan 20-nə keçən gecə sovet ordusunun, SSRİ DİN-in böyük kontingenti Bakı şəhərinə yeridilmişdir. Nəticəsi isə göz qabağındadır. Bunun törətdiyi faciələr hamımıza məlumdur. Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Bəli, kobud siyasi səhv buraxılmışdır. Onlar, sadəcə olaraq, respublikadakı əsl vəziyyəti qiymətləndirə bilməmiş, Azərbaycan xalqının psixologiyasını anlamamış, əhalinin müxtəlif təbəqələri ilə əlaqələri zəiflətmişlər. Onlar, görünür, bu işlərin belə ağır faciəyə çevriləcəyini əvvəlcədən düşünməmişlər.

Bütün bunlar qabaqcadan nəzərə alınmalı və vaxtında vacib, zəruri tədbirlər qəbul edilməli idi. Ordu yeridilmiş, günahsız adamlar həlak olmuşlar. Yeri gəlmişkən deyim ki, ölənlər arasında hərbi qulluqçuların olması haqqında da məlumatlar daxil olur. Sual olunur: ölkənin ali dövlət, partiya rəhbərliyinin səhv qərarı ucundan, olmayan qiyamı yatırtmaq adı ilə Azərbaycana göndərilmiş rus gənclərinin günahı nədir? Azərbaycana kənardan böyük ordu kontingenti yeridilmişdir. Respublikada neçə ordu birləşməsinin olduğu mənə yaxşı bəllidir. Azərbaycanda kifayət qədər - 4-cü ordu, Xəzər Hərbi Dəniz Donanması, desant qoşunlarının diviziyası, Hava Hücumundan Müdafiə Qoşunları, DİN-in daxili qoşun birləşmələri vardır. Oraya əlavə qoşun yeritmək nəyə lazım idi? Əgər belə zərurət var idisə, orada yerləşən hərbi hissələrdən də istifadə etmək olardı. Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə bərk ayaqda Azərbaycanı qoyub qaçmış Vəzirov, öz xalqı qarşısında məsuliyyət daşımalıdır. Ölkənin ali siyasi rəhbərliyinə yanlış məlumat verənlər də məsuliyyət daşımalıdır. Zənnimcə, ölkənin ali siyasi rəhbərliyinə vəziyyət barədə vaxtında kifayət qədər düzgün, dəqiq, obyektiv informasiyalar çatdırılmamışdır. Rəhbərlik çaşqınlığa salındığından belə qərar qəbul etmişdir. Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır".

Heydər Əliyev bu bəyanatı verməklə ittifaq rəhbərlərinin kəskin təzyiq və təsirlərinə məruz qalacağını gözləri önünə gətirsə də, özünəməxsus qətiyyət və cəsarət nümayiş etdirdi. Həyatının hər an təhlükədə olmasına baxmayaraq, qətiyyətlə bütün dünyaya faciənin hüquqi-demokratik prinsiplərə zidd olduğunu, Azərbaycan xalqına qarşı hərbi təcavüzün SSRİ və Azərbaycan SSR rəhbərliyi tərəfindən həyata keçirildiyini bəyan etdi.

Elə həmin gün Heydər Əliyev Azərbaycan xalqına başsağlığı teleqramı göndərdi. Teleqramda deyilirdi: "Bakı şəhərinə sovet ordusu hissələrinin yeridilməsi ilə əlaqədar xalqımızın başına gəlmiş faciədən - dinc əhalinin qırılmasından böyük ürək ağrısı ilə xəbər tutdum. Bu matəm günündə həlak olanların ailələrinə və yaxınlarına, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm. Mən bu düşünülmüş aksiyanı pisləyir, onu antihumanist, antidemokratik, qanunazidd hesab edirəm. Bu ağır gündə sizi ağıllı-kamallı olmağa, həmrəyliyə və birliyə çağırıram".

**İlk hüquqi-siyasi qiymət**

Heydər Əliyev 1990-cı ildə Naxçıvana gəldi və həmin ilin payızında keçirilən seçkilərdə Naxçıvan və Azərbaycan parlamentinə deputat seçildi. 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymətin verilməməsi onu ciddi

narahat edirdi. 1990-cı ilin noyabr ayında ulu öndərin böyük siyasi nüfuzu sayəsində 20 Yanvar faciəsinə prinsipial qiymət verilməsi məsələsi yenidən gündəliyə gəldi. Bu mənada, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasının noyabrın 21-də keçirilən iclası yadda qaldı. Heydər Əliyev xalq deputatı kimi "**1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında**" qərar layihəsini işləyib Ali Məclisin müzakirəsinə təqdim etdi.

Elə həmin sessiyadakı çıxışında xalqımızın hərbi, siyasi, mənəvi təcavüzə məruz qalmasından narahatlıqla danışan Heydər Əliyev ürək yanğısı və qətiyyətlə deyirdi: "**Başımıza böyük bəla gəlib, millət əzilib, millətə qarşı təcavüz olub, ancaq indiyə qədər Azərbaycan xalqının həyatında baş vermiş bu faciəli hadisəyə qiymət verilməyib... Bu qədər qanunsuzluğa, demokratiyanın pozulmasına dözmək olmaz. Bu məsələyə biz özümüz siyasi qiymət verməliyik, respublikanın ali hakimiyyət orqanından tələb etməliyik ki, bu məsələyə baxsın və günahkarlar cəzalandırılsın**".

Heydər Əliyevin xalqın milli faciəsi ilə bağlı qaldırdığı taleyüklü məsələ xalq deputatları tərəfindən qətiyyətlə müdafiə olunurdu. Ali Məclisin birinci sessiyasında "1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar qəbul edildi.

**Naxçıvan MR Ali Məclisinin 21 noyabr 1990-cı il tarixli qərarından:**

"Yanvar faciələrinin səbəbkarlarının - istər ittifaq, istərsə də respublika rəhbər partiya, sovet, hüquq-mühafizə orqanı işçilərinin, hərbçilərinin bugünədək aşkar edilib qanunla məsuliyyətə cəlb olunmaması xalqda dərin hiddət və etiraz doğurmuşdur.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bütün bunları işğalçı siyasət və dəqiq düşünülmüş hərbi təcavüz kimi qiymətləndirərək insan hüquqları bəyannaməsinin kobud şəkildə pozulması kimi nəzərdə tutaraq qərara alır:

1. 1990-cı ilin yanvar ayında Bakı şəhərində törədilmiş qanlı hadisələr Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirilsin.

2. Dinc əhaliyə, silahsız kütləyə, heç bir müqavimət göstərməyən günahsız adamlara qarşı müasir silahla, hərbi texnika ilə zorakılıq edilməsi, qocaların, qadınların, uşaqların qətlə yetirilməsi Azərbaycan xalqına qarşı açıq təcavüz kimi ittiham edilsin.

3. Bir ilə yaxın vaxt keçməsinə baxmayaraq, Bakı faciələrinə Azərbaycan SSR ali hakimiyyət orqanları tərəfindən siyasi qiymət verilməməsinə, bununla əlaqədar yaradılmış Xüsusi Deputat Komissiyasının işinin qeyri-müəyyən səbəblərdən başa çatdırılmamasına, qanlı hadisələrin günahkarlarının aşkara çıxarılıb qanuni məsuliyyətə verilməməsinə qəti etiraz olunsun.

Azərbaycan SSR Ali Sovetindən tələb edilsin ki, ən qısa müddətdə həmin məsələni parlamentin müzakirəsinə çıxarsın.

4. Bu qərar qəbul edilən andan 20 Yanvar günü hər il Naxçıvan Muxtar Respublikasında Milli matəm günü kimi qeyd edilsin.

5. Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin ki, 20 Yanvar günü hər il Azərbaycan SSR-də Milli matəm günü kimi qeyd edilsin".

Göründüyü kimi, qərarda 20 Yanvar hadisələri Azərbaycanın suveren hüquqlarına, dinc əhaliyə, heç bir müqavimət göstərməyən günahsız adamlara, Azərbaycan xalqına qarşı açıq təcavüz kimi qiymətləndirilir. Həmçinin Azərbaycanın o vaxtkı rəhbərliyinin cinayətkar fəaliyyəti bir daha qeyd olunaraq deyilir ki, qanlı Yanvar hadisələrinin günahkarlarını üzə çıxarmaq, onu təhlil etmək və siyasi qiymət vermək üçün respublika əhalisinin təkidli tələbinə baxmayaraq, faktiki olaraq faciədən ötən müddət ərzində heç bir tədbir görülməmişdir. Qəribə idi ki, respublika Ali Sovetinin Yanvar hadisələrini təhqiq etməli olan komissiyası da öz işi ilə məşğul olmamışdır. Respublika rəhbərliyinin bu etinasızlığı haqlı olaraq xalqda hiddət və etiraz doğururdu.

Sovet hakimiyyətinin süqutundan, Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsindən sonra bir müddət başları hakimiyyət uğrunda mübarizəyə qarışmış siyasətbazlar xalqımıza qarşı törədilmiş bu ağır cinayətin səbəblərinin araşdırılması, ona siyasi-hüquqi qiymət verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində məqsədyönlü iş aparmadılar. Onlar bu məsələdə heç maraqlı da deyildilər, çünki həmin cinayətin törədilməsinin məsuliyyəti bu və ya digər dərəcədə onların da üzərinə düşürdü. Düzdür, həmin dövrdə müxtəlif siyasi platformalardan çıxış edən ayrı-ayrı siyasi partiyalar 20 Yanvar faciəsi ilə bağlı bütün günahları Moskvanın üzərinə atmağa cəhd göstərmişdilər. Amma Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıdışına qədər nə A.Mütəllibov, nə də AXC-Müsavat iqtidarı tərəfindən faciəyə siyasi qiymət verilməsi üçün heç bir iş görülmədi.

Heydər Əliyev isə Azərbaycan xalqına qarşı soyqırımı siyasətini həyata keçirməyə rəvac verənlərlə mübarizəsini ona qarşı az qala düşmən mövqedə duran Ali Sovetdə və digər istiqamətlərdə də davam etdirir, böyükdən kiçiyə qədər hər kəsə məlum olan qatillərin hüquqi müstəvidə aşkar olunmasını, faciəyə siyasi qiymətin verilməsini tələb edirdi. Heydər Əliyev Azərbaycan SSR Ali Sovetinin 7 mart 1991-ci il tarixli

sessiyasındakı çıxışında deyirdi: "1990-cı il yanvarın 20-də ittifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edilmişdir. Heç bir əsas olmadan, xəbər vermədən, dövlət qanunlarını kobudcasına pozaraq Bakı şəhərinə müasir silahlı sovet ordusunun qoşun hissələri yeridilmiş, onlar vəhşilik, qəddarlıq etmiş, nəticədə nahaq qan tökülmüş, yüzlərlə adam həlak olmuş, xəsarət almış, itkin düşmüşdür. Təəssüf ki, bu təcavüz indiyə qədər davam edir. Bir ildən artıqdır ki, Azərbaycanın paytaxtı fövqəladə vəziyyət şəraitində yaşayır. Bizim sessiyamız da bu şəraitdə keçirilir. Bir ildən artıqdır ki, Azərbaycan xalqı şəhidlərə matəm saxlayır. Respublikanın şəhərlərində, qəsəbələrində, kəndlərində şəhidlərin xatirəsinə abidələr ucaldılır. Fəqət, qatillər indiyə qədər aşkar olunmayıb. Buna heç vəchlə bəraət qazandırmaq olmaz. Bu məsələ müzakirə olunmalıdır. 20 Yanvar faciəsinə Ali Sovetin sessiyası siyasi qiymət verməlidir, onun günahkarlarını müəyyən etməlidir".

Heydər Əliyev 1991-ci il iyunun 19-da SSRİ Nazirlər Kabinetinə göndərdiyi məktubunda yazırdı: "Yanvar hadisələrində yüzlərlə adam öldürüldü və şikəst edildi... Artıq il yarım keçib. Nəinki bu dəhşətli cinayətlərin hamıya çoxdan məlum olan günahkarları üzə çıxarılmayıb, əksinə, bunları ört-basdır etmək üçün əllərindən gələni edirlər. Ümid edirlər ki, zaman keçdikcə bu faciə unudulacaq. Ancaq tarix dəfələrlə sübut etmişdir ki, doğma xalqa qarşı yönəldilmiş qanlı cinayətləri on illər keçsə də, unutmaq və bağışlamaq mümkün deyil".

Azərbaycan Respublikası Ali Sovetinin 29 avqust 1991-ci il tarixli sessiyasında çıxışında isə Heydər Əliyev deyirdi: "20 Yanvar faciəsi dövründən il yarımdan çox vaxt keçir. Bu gün burada da, bu salonda cürbəcür söhbətlər gedir. Bir qrup bir fikirdədir, məndən qabaq çıxış edən Rəhimov başqa fikirdədir. Mən sual verirəm, Ali Sovetin sədri Elmira Qafarovaya, Azərbaycan prezidenti Ayaz Mütəllibova: nə üçün indiyə qədər bu məsələyə siyasi qiymət verilməyib? Bu məsələnin həm siyasi tərəfi var, həm hüquqi tərəfi var. Bu məsələyə dərhal siyasi qiymət vermək olardı. O ki qaldı hüquqi cəhəti, ayrı-ayrı adamların məsuliyyətə cəlb olunması, onu şübhəsiz ki, istintaq yolu ilə aydınlaşdırmaq lazımdır. Buna siyasi qiymət verilmədiyinə görə başqa tədbirlər həyata keçirmək mümkün olmur".

**Milli Şura tərəfindən qəbul edilmiş qərar xalqa xəyanət idi**

Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinə tam siyasi-hüquqi qiymətin verilməsi qarşıya qoyulmuş günün tələbi idi. Ulu öndər dövrün mürəkkəbliyinə və görüləsi işlərin çoxluğuna baxmayaraq, tariximizin şanlı və qanlı səhifəsi sayılan 20 Yanvar faciəsinin başvermə səbəblərini və günahkarlarının araşdırılması ilə də məşğul oldu. Heydər Əliyevin 1994-cü il yanvarın 5-də 20 Yanvar faciəsinin dördüncü ildönümünün keçirilməsi ilə bağlı verdiyi fərmanda Milli Məclisə faciəyə tam siyasi-hüquqi qiymət verməsi tövsiyə olundu. Yalnız bundan sonra aparılan araşdırmalar nəticəsində məlum oldu ki, 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməməsində maraqlı olan qüvvələr var imiş. 1991-1993-cü illərdə hakimiyyətdə qalmaq istəyən iqtidar, hakimiyyətə gəlmək istəyən müxalifət nümayəndələri bu dəhşətli faciədən yararlanmaq istəyirmişlər. Heydər Əliyev 1994-cü il yanvarın 12-də dövlət komissiyasının geniş iclasında Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının 1992-ci il 19 yanvar tarixli qərarını xatırladaraq bu qərarda yanvar hadisələrinin əsl səbəblərinin açıqlanmadığını, həqiqi günahkarların aşkar edilmədiyini, iki il ərzində həmin qərarın özünün yerinə yetirilmədiyini nəzərə çatdırdı. Respublika səviyyəsində 20 Yanvar faciəsinə tam siyasi- hüquqi qiymətin verilməməsini ciddi tənqid edən Heydər Əliyev 1992-ci ildə Milli Şura tərəfindən qəbul edilmiş səti və başdansovdu qərarın xalqa xəyanət olduğunu bəyan etdi: "Bu qərarı oxuyanda, doğrusu, çox həyəcanlandım. Düşündüm ki, Milli Şura nə üçün öz millətinin, öz xalqının aqibətinə, taleyinə bu qədər biganə qalıb? Qərarı oxuyandan sonra bir daha qəti fikrə gəldim ki, bu faciəyə, bu hadisəyə niyə indiyə qədər siyasi qiymət verilməyib... Mənim fikrim belədir ki, bu qərarın qəbul edilməsi Azərbaycan xalqına bəlkə də 20 Yanvar 1990-cı ildə olan faciə kimi böyük xəyanətdir. İki il keçəndən sonra deputat-istintaq komissiyasının ortaya bir şey çıxarmaması, boş-boş sözlərlə camaatı aldatması, qərarda bu komissiyanın işinin qənaətbəxş hesab edilməsi yenə də deyirəm, xəyanətdir".

1994-cü il martın 29-da Milli Məclis tərəfindən "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" adlı xüsusi qərar qəbul edildi. Qərarda 1990-cı ilin 20 Yanvar hadisələri Azərbaycanda vüsət almış milli-azadlıq hərəkatını boğmaq, demokratik və suveren bir dövlət amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və belə bir yola qədəm qoyan xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. Sənəddə Sovet İttifaqı Kommunist Partiyasının, sovet dövləti və hökumətinin, şəxsən Mixail Qorbaçovun Azərbaycana qarşı ağır cinayət törətdikləri, Əbdürrəhman Vəzirovun, Ayaz Mütəllibovun, Viktor Polyaniçkonun, Vaqif Hüseynovun xalqımıza xəyanət etdikləri siyasi-hüquqi müstəvidə öz əksini tapdı. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Elmira Qafarovanın, Azərbaycan Kommunist Partiyası Bakı Şəhər Komitəsinin birinci katibi Müslüm Məmmədovun bu qanlı faciənin törədilməsində məsuliyyət daşıdıqları və digər məsələlər də sənəddə qeyd olundu. Beləliklə, Heydər Əliyevin təkidi və təşəbbüsü sayəsində xalqımıza qarşı törədilən bu qanlı və qəddar aksiyaya siyasi-hüquqi qiymət verildi.

**Şəhidlərin xatirəsi həmişə uca tutulacaq**

Təəssüf ki, zamanın və şəraitin doğurduğu səbəblərdən 20 Yanvar faciəsini törədənlər hüquqi müstəvidə layiq olduqları cəzanı almadılar. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 2000-ci ildə 20 Yanvar faciəsinin 10-cu ildönümü haqqında imzaladığı fərmanda bu barədə deyilirdi: "XX əsr tarixində totalitarizmin törətdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı işlədilmiş cinayət əslində bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli bir əməldir. Həmin cinayəti törədənlər indiyədək öz cəzalarını almamışlar. Xalqımız əmindir ki, müqəssirlər tarix, bəşəriyyət, eləcə də Azərbaycan xalqı qarşısında cavab verməli olacaqlar".

"20 Yanvar şəhidi" fəxri adının təsis edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti 31 mart 1998-ci il tarixdə fərman imzalamışdır. 29 dekabr 1998-ci ildə "20 Yanvar şəhidi" fəxri adı haqqında Əsasnamə təsdiq edilmişdir. 1990-cı il yanvarın 20-də keçmiş SSRİ silahlı qüvvələrinin Bakıya və respublikanın bir neçə rayonuna hərbi təcavüzü zamanı həlak olmuş insanlara "20 Yanvar şəhidi" fəxri adı verilmişdir.

Heydər Əliyev 20 Yanvar faciəsinin bütün dünyada tanıdılmasına, hər zaman şəhidlərin xatirəsinin əziz tutulmasına diqqətlə yanaşırdı. Bakının ən uca nöqtəsində yerləşən Şəhidlər xiyabınında Azərbaycanın azadlığı uğrunda şəhid olanların xatirəsinə ucaldılmış möhtəşəm "Əbədi məşəl" abidə kompleksi də məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü və qayğısı ilə tikilib.

Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev 20 yanvar şəhidlərinin xatirəsinin uca tutulmasına, şəhid ailələrinin sosial məsələlərinin yoluna qoyulmasına xüsusi diqqət göstərir, hər il yanvarın 20-də Şəhidlər xiyabanını ziyarət edərək "Əbədi məşəl" abidə kompleksinin önünə əklil qoyur. Dövlətimizin başçısı 2004-cü ildə 20 Yanvar faciəsinin 14-cü ildönümünün keçirilməsi ilə bağlı sərəncamında bildirirdi ki, Azərbaycan övladları 1990-cı il yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar: "Həmin gün respublikada haqq-ədalətin bərqərar edilməsi tələbləri ilə çıxış edən Azərbaycan xalqının inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq məqsədilə totalitar sovet rejiminin həyata keçirdiyi terror aktı nəticəsində bəşər tarixində insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri baş verdi. Yüzlərlə günahsız insan yaralandı və qətlə yetirildi. Ən ağır sınaqlara sinə gərmək əzmini bütün dünyaya nümayiş etdirən Azərbaycan övladları 1990-cı il yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar".

Prezident İlham Əliyev 1990-cı ilin yanvarında şəhid olmuş oğul və qızlarımızın xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi üçün mühüm qərarlar vermişdir. Dövlətimizin başçısının 19 yanvar 2006-cı il tarixli "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" fərmanı ilə şəhid ailələrinə dövlət qayğısını artırmaq məqsədilə təqaüd verilir.

Bu gün Bakının ən yüksək nöqtələrindən birində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş bir yer var. Bu, 20 Yanvar faciəsi qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər xiyabanıdır. Məhz Azərbaycan Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə Şəhidlər xiyabanında əsaslı təmir və yenidənqurma işləri aparılıb.

**20 Yanvar hadisəsinin araşdırılması istiqamətində ilk elmi-analitik yanaşma**

20 Yanvar qırğını barədə indiyədək çox yazılıb. Onlarca məqalə, kitab, illüstrasiya materialları dərc olunub. Lakin faciəyə elmi-analitik yanaşma ilk dəfə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Azərbaycanlılara qarşı soyqırımı gerçəklikləri" əsərində öz əksini tapmışdır. Həmin əsərdə qanlı faciə bir neçə aspektdən - dini, milli, Qafqaz amilləri və geosiyasi aspektlərdən, Dağlıq Qarabağ problemi kontekstindən araşdırılmış, qanlı Yanvarın ibrət dərsləri təhlil edilmişdir.

Akademik Ramiz Mehdiyevin "Azərbaycanlılara qarşı soyqırımı gerçəklikləri" kitabı 20 Yanvar qırğınının tarixinin doğru-düzgün işıqlandırılması sahəsində çox mühüm elmi hadisədir. Bu əsər 20 Yanvar faciəsinin tarixşünaslığına qiymətli bir töhfədir. Akademik Ramiz Mehdiyevin əsərinin bu vaxtadək 20 Yanvar barədə yazılanlardan ən mühüm fərqi, həm də başlıca məziyyəti burasındadır ki, müəllif ilk dəfə olaraq 20 Yanvarı dərin tarixi-elmi planda və ümumdünya tarixi kontekstində qələmə alıb. Görkəmli alim 1990-cı ilin yanvarında Bakıda törədilmiş qanlı faciənin tarixi və sosial-siyasi köklərini araşdırıb üzə çıxarır, ona çox geniş məkanda və uzun zaman kəsiyində nəzər salır, mühüm ümumiləşdirmələr aparır, 20 Yanvara gələn tarixi yolu addım-addım izləyir, təhlil edir və bu faciə ilə əlaqədar olan hadisələri, prosesləri elmi araşdırma süzgəcindən keçirir. Dünyanın geniş oxucu kütlələrinə təqdim olunan bu əsərin ən uğurlu cəhəti onun obyektivliyində, elmiliyindədir. Müəllif bu dəhşətli cinayəti araşdırarkən emosionallıqdan uzaqda durmağı bacarmış, baş verən hadisənin tarixi köklərini və gedişini öz oxucularına soyuqqanlılıqla - vicdanlı bir alim mövqeyindən təqdim etməyi bacarmışdır.

Akademik Ramiz Mehdiyev 20 Yanvar hadisələrinin səbəbləri barədə yazır: "Yanvar faciəsinin bir çox səbəbləri var, onun kökləri tarixin dərinliklərinə gedib çıxır. Yenidənqurma onların inkişafını ancaq sürətləndirdi, labüd faciənin son mərhələsini yaxınlaşdırdı. Bəs bu səbəblər ümumən hansılardır? Əvvəla, mərkəzin sovet imperiyasını, kommunist sistemini nəyin bahasına olursa-olsun, qoruyub saxlamaq cəhdi; ikincisi, milli respublikalarda hakimiyyəti və oyuncaq rejimləri möhkəmlətmək cəhdi; üçüncüsü, SSRİ rəhbərlərinin Azərbaycan xalqı barəsində qərəzli siyasəti, yenidənqurma haqqında demaqoqcasına şüarlar altında sərhədləri dəyişdirmək və xüsusən Azərbaycanın ərazi bütövlüyünü pozmaq cəhdi; dördüncüsü, keçmiş mərkəzin mənəvi, siyasi, maliyyə və hərbi-iqtisadi yardımına əsaslanan erməni separatizmi və Ermənistanın təcavüzü; beşincisi, Azərbaycan rəhbərlərinin xəyanətkar fəaliyyəti; altıncısı, ayağa qalxmış xalqa rəhbərliyi məsuliyyətsizcəsinə öz əllərinə alanların naşılığı və siyasətbazlığı".

Akademik Ramiz Mehdiyev əsərdə haqlı olaraq belə bir məsələ qoyur ki, nə üçün sovet ordusunun Tbilisidə (1989) və Vilnüsdə (1991) həyata keçirdiyi cəza əməliyyatlarından fərqli olaraq, Bakıda bu qədər genişmiqyaslı və qəddarcasına qırğın törədildi? Özü də bütün bu qırğınların cəlladı olan M.Qorbaçov gürcü və Litva xalqlarından üzr istədiyi halda Azərbaycan xalqından nə üçün üzr istəmədi? Müəllif bunu başlıca olaraq üç amillə əlaqələndirir: dini amil; Qafqaz amili; türk amili.

20 Yanvar hadisələri Azərbaycanın müstəqillik mübarizəsi tarixinə faciə və xalqımızın qəhrəmanlıq salnaməsi kimi yazıldı. Həmin ağrılı günlər həm də sınaq dövrü kimi yadda qaldı. Azərbaycan xalqı həmin gün azad yaşamağa layiq olduğunu bütün dünyaya sübut etdi. Bu faciə kimin kim olduğunu da üzə çıxardı.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirdi. Haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş Vətən övladları o qanlı gündə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar.

**“Azərbaycan”.-2012.-** 13 yanvar.-N 8.-S.3.; 14 yanvar.-N 9.-S.2.; 15 yanvar.-N 10.-S.3.

# "20 Yanvar, Dağlıq Qarabağla bağlı sanballı foto-saytımız yoxdur"

***Laçın Səmla***

## Mirnaib Həsənoğlu: "İndi hamı fotoqrafiya ilə məşğuldur"

Çağdaş dünyamızda təsviri incəsənətin növlərindən biri kimi fotoqrafiya yüksək qiymətləndirilir. Dünyanın aparıcı ölkələrində fotoqrafların sərgiləri mühüm mədəniyyət hadisəsinə çevrilir. Tanınmış fotoqraflar milli mədəniyyətin təmsilçiləri kimi bütün dünyada öz ölkələrini təmsil edir, onları tanıdırlar. Bu baxımdan fotoqrafiyaya böyük maraq müşahidə olunur.

Azərbaycanda vəziyyət necədir? Ölkəmizdə peşəkar fotoqraflar milli mədəniyyətimizin inkişafına öz töhfələrini verə bilirlərmi? Bu və digər məsələlərə Azərbaycan Fotoqraflar Birliyinin yeni seçilmiş sədri Mirnaib Həsənoğlu ilə söhbətimizdə aydınlıq gətirməyə çalışmışıq.

**- Mirnaib müəllim, Azərbaycan Fotoqraflar Birliyi nə zaman yarandı və bunu yaratmaqda məqsəd nə idi?**

- Sovetlər İttifaqı dağıldıqdan sonra Azərbaycan Fotoqraflar Birliyi (AFB) adı altında qeyri-rəsmi olaraq bir yerə toplanmışdıq. 1994-cü ildə Fransanın Kann şəhərində keçirilən kino-festivalda "Azərbaycan fotoqrafiyası" adı altında sərgi keçirdik. Sərgi iştirakçılarına 120-yə yaxın iş təqdim etdik. Bundan sonra Azərbaycan fotoqraflarını bir yerə yığmağı qarşımıza məqsəd qoyduq. Bunu yaradıcı təşkilat kimi görmək istədik. Və beləliklə, AFB 1998-ci ilin noyabrında Ədliyyə Nazirliyində qeydiyyatdan keçdi.

**- O zaman birliyin təsisçiləri kimlər idi?**

- Hazırda Milli Məclisdə fotoqraf işləyən Rafiq Qəmbərov, Asim Talıb, mərhum Namiq Məmmədov və mən AFB-nin təsisçisi olduq. Qeydiyyatdan keçdikdən sonra konfrans keçirdik. Yəni AFB QHT kimi fəaliyyət göstərir. Hər zaman məqsədimiz Azərbaycanda fotoqrafiyaya qarşı münasibəti dəyişdirmək olub. Arzumuz fotoqrafiyanı yaradıcı bir sənət, incəsənətin bir növü kimi Azərbaycanda tanıtmaqdır.

**- Necə düşünürsünüz, məqsəd və arzunuza nail ola bildinizmi?**

- Arzumuza nail olsaydıq, indi Azərbaycanda fotoqrafiya muzeyi, AFB-nin hansısa bir statusu olardı. Fotoqrafiya ölkənin, xalqın tarixi olan incəsənətin bir sahəsidir. AFB-dən söz düşəndə hərdən mənə deyirlər ki, Dövlət Arxivi var, sənədlər orda toplanır, guya AFB-yə ehtiyac yoxdur. Xatırladım ki, Dövlət Arxivində fotoqrafiyanın başqa bir sahəsi, sırf sənədli fotoqrafiya, müəyyən rəsmi xronika toplanılır. Bütün dünyada fotoqrafiyanı incəsənətin bir növü kimi qəbul edirlər. Biz də bunu istəyir, buna çalışırıq. Fotoqrafiya evinin Dövlət Arxivindən fərqi ondadır ki o, fotoqrafiyanın və ölkənin təbliği ilə məşğuldur.

**- O zaman sizin bu arzularınıza mane olan nədir?**

- Kimsə mane olmur. Sadəcə, bu neçə illərdə müəyyən işlər görmüşük, Azərbaycanda iki böyük foto-festival keçirmişik. Sərgidə 40-dan artıq ölkədən fotoqraf iştirak edib. Müəyyən layihələrdə iştirak edib qrantlar almışıq. Foto-festivalı öz gücümüzə təşkil etmişdik. Biz siyasətlə məşğul olan təşkilat deyilik. Amma 1999-cu ildə "Əsrdən əsrə" adlı Heydər Əliyevin foto-sərgisini keçirdik. Biz hər şeyə fotoqrafik tərəfdən yanaşırıq. Biz bu xalqın salnaməsini yazan bir peşə ilə məşğuluq. Etdiklərimiz və etmək istədiklərimiz yalnız bu yönümdədir.

**- AFB-nin neçə üzvü var?**

- Hazırda 150 üzvümüz var. Amma birliyə üzv olmaq istəyənlərin sayı çoxdur. Fotoqrafiya elə bir həddə çatıb ki, insanlar bundan özünü ifadə vasitəsi kimi istifadə edir. İndi bəlkə də insanlar rəssamlıqla bir o qədər də məşğul olmur. Hamı fotoqrafiya ilə məşğuldur. Mobil telefondan tutmuş bahalı aparaturaya kimi alıb nə isə çəkirlər, nə isə yaradırlar. Yeri gələndə kimsə bu peşəylə qazancını da çıxarır və bu normal bir haldır. Dediyim kimi, AFB-yə üzv olmaq istəyənlər çoxdur, amma onları cərgələrimizə qəbul etmək iqtidarında deyilik. 500 adamı birliyə üzv qəbul etməklə problem bitmir. Onlarla işləmək, maarifləndirmək, onların sərgilərini təşkil etmək, xaricdə keçirilən sərgilərə yönəltmək lazımdır. Bu bizim maliyyə və yer problemimizlə bağlıdır. Azərbaycan fotoqrafiya sənətinə dəstək arzulayırıq. İki festival keçirdik, xaricdə foto-sərgilərdə iştirak

etdik, fərdi və qrup sərgilərimiz təşkil olundu. Biz həmin yerdə bir vətəndaş kimi Azərbaycan Respublikasını təmsil etmişik. Bizim üçün ən öndə gedən məsələ ölkəmizə qulluq etməkdir. Azərbaycan haqqında çıxan informasiyaların 90 faizi yerli fotoqrafların işidir. Azərbaycanla, Qarabağ müharibəsi ilə, ölkədəki inkişafla bağlı gedən proseslərdə məlumatları yerli fotoqraflar verir. Amma 1990-cı il 20 Yanvar faciəsiylə, Azərbaycanda gedən demokratik proseslərlə, Dağlıq Qarabağ müharibəsi ilə bağlı ortaya çıxarılacaq sanballı bir foto-saytımız və ya kitabımız isə yoxdur.

**- Deməli, gələcək layihələrinizdən biri də bu olacaq...**

- Məqsədimiz odur ki, Azərbaycanda 20 Yanvar faciəsi, Qarabağ müharibəsi, qaçqınların həyatı haqqında foto-saytlar yaradaq. Kitablara hələ ki, gücümüz çatmır. Kimlərinsə bu işə dəstək olacağına ümid edirik. Fotoqrafiyayla məşğul olan insanlar var ki, yaşa dolurlar, dünyasını dəyişənlər var. İstəmirik arxivlər itib-batsın. Bunların çoxu şəxsi arxivlərdir. Bunlar heç bir yerə, dövlətə verilməyib. Çünki fotoqrafların çəkdiyi həmin neqativlər onun sərvətidir. Heç kim öz əmlakını çölə atmaq istəmir. Heç kim çəkdiklərinin aqibətini bilməmiş onu kiməsə vermək istəmir. Hazırda bu problemlərlə məşğul olmağa çalışırıq. Dediyim kimi, iki foto-festival keçirmişik. Yaxın gələcəkdə keçirmək istədiyimiz növbəti foto-festivalın yerinin və sahəsinin dəyişik olmasını arzulayırıq. Bütün dünyada qəbul olunmuş açıq foto-sərgilər var ki, biz bunu Azərbaycanda reallaşdırmağa çalışırıq. İstəyirik ki, yeraltı keçidlərdə, metropoliten stansiyalarında, bir sıra parklarda, bulvarda xüsusi sərgilər təşkil edək. Özünüz də bilirsiniz ki, insanlar indi muzeylərə, qalereyalara getmir. Sərginin ilk günü gəlir, sonrakı günlərdə bir-iki nəfərdən başqa, kimsəni orada görmək olmur. Amma açıq sərgilər olarsa, bu, insanların bu peşə ilə bağlı maariflənməsinə xidmət etmiş olar.

**“Həftə içi”.-**2011.-10 mart.-N.39.-S.7.

## 20 Yanvar - tariximizin şərəf və qəhrəmanlıq səhifəsi

***Elçin Əhmədov,***
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru

**1990-cı ildə Bakıda baş vermiş 20 Yanvar faciəsi XX əsr boyu xalqımıza qarşı yeridilən düşünülmüş siyasətin növbəti təzahürü idi. Sovet rəhbərliyinin himayədarlığı ilə başlayan Dağlıq Qarabağ hadisələri, ermənilərin Azərbaycan xalqına qarşı soyqırımı və azərbaycanlıların Ermənistan ərazisindəki əzəli torpaqlarından deportasiyası bu siyasətin mərhələləridir.**

Keçmiş sovet dövləti hərb maşınının iyirmi bir il əvvəl Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi yaddaşlarda qalacaqdır. Milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə silahlı təcavüz nəticəsində 147 günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi.

Sovet Ordusunun böyük heyətinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət olundu. SSRİ 1956-cı ildə Çexoslovakiyaya, 1968-ci ildə Macarıstana və 1979-cu ildə Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni Sovet İttifaqının müttəfiq respublikalarından biri olan Azərbaycanda da təkrarlamaqdan çəkinmədi. Heç şübhəsiz, 1990-cı il yanvarın 20-də Bakıda baş verən hadisələri Qarabağdakı erməni təcavüzündən ayrıca təhlil etmək düzgün olmazdı. Çünki Azərbaycan həmin dövrdə qonşu Ermənistanın təcavüzünə də məruz qalmışdı. Belə bir şəraitdə sovet rəhbərliyi nəinki münaqişənin qarşısını almaq üçün qəti tədbirlər görməmiş, əksinə, Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan xüsusi təlim keçmiş erməni əsgər və zabitləri, eləcə də sovet hərbi hissələrində xidmət edən erməniləri, hətta erməni kursantları da daxil etmişdi.

1990-cı ilin yanvar ayında M. Qorbaçov başda olmaqla sovet imperiyasının rəhbərliyi Bakıda vəziyyətin öz məcrasından çıxdığını və hakimiyyətin təhlükədə olduğunu bəhanə edərək qoşunun yeridilməsi üçün müxtəlif dezinformasiyalar yayırdı. Guya, Bakıya qoşun hərbi qulluqçuların ailələrini qorumaq, hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə bu tamamilə saxta bir tezis idi. Çünki sovet rəhbərliyinin "dəlilləri" hətta həqiqətə yaxın olsaydı belə, Bakıya xüsusi təlim keçmiş qoşun göndərməyə ehtiyac yox idi. Ona görə ki, həmin vaxt daxili qoşunların 11 min 500 əsgəri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri, eləcə də 4-cü ordunun komandanlığı Bakıda yerləşirdi.

Bütün bunlara baxmayaraq, 1990-cı il yanvarın 19-da M.Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. Əhalinin bundan məlumatsız qalması üçün SSRİ DTK-nın "Alfa" qrupu tərəfindən yanvarın 19-da saat 19.27-də Azərbaycan televiziyasının enerji bloku partladıldı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyətin elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və dinc əhaliyə amansız divan tutdu. Qorbaçovun fərmanı qüvvəyə minənədək - yanvarın 20-də saat 00-dək artıq 9 nəfər öldürülmüşdü. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100 nəfərə çatmışdı. Belə ki, artıq yanvarın 20-də 131 insan öldürülmüş: onlardan 117-si azərbaycanlı, 6-sı rus, 3-ü yəhudi, 3-ü tatar; 744 adam ağır xəsarət almış; 4 şəxs itkin düşmüş; 400 nəfər isə həbs edilmişdi. Fövqəladə vəziyyət elan ediləndən sonra isə 21 nəfər qətlə yetirilmişdir. Fövqəladə vəziyyət elan edilməmiş rayonlarda - Neftçala və Lənkəranda 25-26 nəfər öldürülmüşdü.

"Şit" təşkilatı ekspertlərinin hesabatından:

- adamları xüsusi qəddarlıqla və yaxın məsafədən güllələmişlər. Məsələn, Y. Meyeroviçə 21, D. Xanməmmədova 10-dan çox, R. Rüstəmova 23 güllə vurulmuşdur;
- xəstəxanalar, "təcili yardım" maşınları atəşə tutulmuş, həkimlər öldürülmüşdür;
- adamlar süngü-bıçaqla qətlə yetirilmişdir. Onların arasında hər iki gözü tutulmuş B. Yefimtsev də var;
- "Kalaşnikov" avtomatının ağırlıq mərkəzi dəyişən 5,45 çaplı güllələrindən istifadə edilmişdir.

1948-ci ilin İnsan Hüquqları haqqında Bəyannaməsi, 1966-cı ilin Vətəndaş və Siyasi İnsan Hüquqları haqqında Beynəlxalq Pakt, 1966-cı ilin Mədəni, Sosial və İqtisadi Hüquqları haqqında Beynəlxalq Pakt və 1975-ci ilin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Helsinki Yekun Aktı, ATƏM-in 1989-cu il Vyana görüşünün son qərarı (fövqəladə vəziyyətdə və hərbi münaqişələr zamanı qadın və uşaq hüquqlarının müdafiəsi Bəyannaməsi), hərbi əməliyyatların aparılmasını tənzimləyən qüvvədə olan müqavilələr, əsasən də 1980-ci ilin döyüş zamanı yüngül fırlanan və yayılan güllələrin istifadə edilməməsinin Bəyannaməsi (1967-ci ildə quru döyüşünün qayda və qanunları barədə IV Haaqa muqaviləsi) də bura daxil olmaqla qüvvədə olan bütün insan hüquqlarına əsaslanan beynəlxalq müqavilələr kobudcasına pozulmuşdur.

Yanvarın 20-də artıq bütün dünya Bakıda törədilmiş dəhşətli qırğından xəbər tutdu. Artıq sovet qoşunlarının Bakıya hərbi müdaxiləsi dünyanın bir sıra ölkələrində etirazla qarşılanmışdı. Belə ki, Bakıda törədilən cinayətlər qonşu və qardaş Türkiyədə sərt reaksiyalara səbəb olmuş, ölkənin hər yerində mitinq və nümayişlər keçirilmişdi. Ankara, İstanbul, Qars, İzmir, Kayseri və başqa şəhərlərdə keçirilən mitinq və nümayişlərdə sovet rəhbərliyinin törətdiyi bu cinayəti müdafiə edən Amerika Birləşmiş Ştatları pislənmişdi. Eyni zamanda Türkiyənin rəsmi şəxsləri, Türkiyə hökuməti Bakıda törədilən hadisəni tənqid etməklə yanaşı, Azərbaycana yardım göstərilməsi təklifi ilə də çıxış etmişlər.

İranın milli təhlükəsizlik şurası yığıncaq keçirmiş və bu barədə bəyanat qəbul etmişdi. İran parlamentinin 160-dan çox üzvü M. Qorbaçovun Azərbaycana silahlı təcavüzünü pisləmişdi. İran prezidenti Rəfsəncani və İranın dini lideri Xameneyi M. Qorbaçovun atdığı bu addımı kəskin tənqid etmişlər. Bununla yanaşı, Türkiyə və İranın kütləvi informasiya vasitələri sovet qoşunlarının Bakıda törətdiyi qanlı hadisəni kəskin tənqid etmiş və bunu qırğın adlandırmışdı.

Qərb ölkələrinin mövqeyinə gəldikdə isə, Sovet İttifaqının Azərbaycana hərbi müdaxiləsinə müxtəlif reaksiyalar vermişlər. Bu reaksiyalar ümumilikdə müsbət olsa da, obyektiv reallığı əks etdirmirdi. Məsələn, ABŞ hökuməti bu hərbi müdaxiləni anlayışla qarşıladığını bildirmişdi. Avropa İttifaqının rəsmi nümayəndəsi Qeor isə demişdi ki, qan axıdılmadan yenidənqurma tətbiq edilə bilməz. Avropanın müxtəlif yerlərindən gələn fikirlər isə qərbin mövqeyini izah etmək baxımından maraqlıdır. Məsələn, "Ştern" məcmuəsi və "Tribuna lyudu" qəzeti bu hadisələri qeyri-obyektiv işıqlandıraraq, qüvvədən istifadə olunmasının zəruri olduğunu bildirmişdilər.

Bunun nəticəsi idi ki, Bakıda baş verən hadisələr dünya ictimaiyyətinə yanlış izah edilirdi. "Los-Anceles Tayms", "Vaşinqton Post", "Krisçen Sayens Monitor", "Nyu-York Tayms", "Baltimor San" mətbu orqanlarında, eləcə də, bir sıra xarici radiostansiyaların məlumatlarında Bakıda baş verən hadisələrə, xüsusilə, sovet ordusunun hərbi müdaxiləsinə haqq qazandırılmasa da, çox vaxt bu qanlı cinayətə laqeyd münasibət özünü göstərirdi.

Sovet rəhbərləri ordunun Bakıya göndərilməsi qərarını müxtəlif cür izah edirdilər. O vaxtkı SSRİ-nin xarici işlər naziri Şevarnadze ordunun müdaxiləsini yalnız qan tökülməsinin qarşısını almaq üçün göndərildiyini bildirmişdi. Sovet xarici işlər nazirinin bu bəyanatı müdafiə naziri Yazovun bəyanatı ilə ziddiyyət təşkil edirdi. Müdafiə naziri öz bəyanatında Bakıda hakimiyyətin ələ keçirilməsinin qarşısını almaq üçün hərbi hissələrin göndərildiyini bildirmişdi.

Faciədən bir neçə il sonra, yəni 1994-cü ilin yanvarında bu qanlı cinayətin başında duran SSRİ müdafiə naziri marşal Yazov DFVK işi üzrə prosesdə ifadə verərkən bildirmişdi: "1990-cı il yanvarın 19-da Qorbaçov məni, Bakatini və Kryuçkovu yanına çağırıb Bakıda fövqəladə vəziyyət tətbiq etmək əmrini verdi. Mən heç bir yazılı qərar, heç bir fərman görməmişəm".

Daxili işlər naziri Bakatin isə, yanvarın 21-də Azərbaycan Daxili İşlər Nazirliyində keçirdiyi görüşdə bəyan etmişdi ki, "əgər siz (Azərbaycan xalqı nəzərdə tutulur- E.Ə.) sovet hakimiyyətini istəməsəniz, sizinlə uzunmüddətli müharibə olacaq".

1990-cı ildə Bakıda baş verən qırğına şəxsən qol çəkmiş M. Qorbaçov həmin il Beynəlxalq Nobel Sülh mükafatına layiq görüldü. 1995-ci ilin aprelin 27-də Türkiyədə səfərdə olan keçmiş SSRİ prezidenti Mixail Qorbaçov İstanbulun Çırağan sarayında onun şərəfinə verilən ziyafətdə çıxış edərkən öz siyasi bioqrafiyasının bəzi məqamlarına toxunmuş və 1990-cı il 20 yanvar hadisələrindən danışarkən öz günahını acizanə şəkildə etiraf edərək bildirmişdi: "Bakıda fövqəladə vəziyyət elan etmək və oraya qoşun göndərmək mənim siyasi həyatımın ən böyük səhvi idi".

Sovet İttifaqının 1990-cı ilin yanvarındakı cinayətkar hərəkəti Azərbaycan xalqının SSRİ-dən müstəqillik əldə etmək cəhdlərinin qarşısını almağa yönəlmişdi. Amerikalı konqresmen Din Heller bu qanlı hadisədən 20 il sonra Azərbaycan diasporuna göndərdiyi məktubda bildirmişdir:

"20 il əvvəl Azərbaycanda Sovet imperiyasının son amansızlıqlarından biri baş verib. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusu Azərbaycan xalqı arasında yayılmış SSRİ-dən azad olmaq istəklərinin

qarşısını almaq məqsədi ilə Azərbaycan paytaxtına daxil oldu. "Qanlı Yanvar" adını almış hadisələr zamanı 100-dən çox Azərbaycan vətəndaşı öldürüldü və yaralandı". Onun sözlərinə görə, "Qanlı Yanvar" Sovet İttifaqının Azərbaycandakı idarəçiliyinin sonu olub. Azərbaycan 18 oktyabr 1991-ci ildə öz müstəqilliyini bərpa edib. Hər il yanvarın 19-20-də Azərbaycan vətəndaşları Vətən uğrunda dəyərli canlarından keçən həmyerlilərini xatırlayırlar. Dünyada hər kəsin "Qanlı Yanvar" faciəsini xatırlaması və həmin gün canlarından keçənlərin xatirəsini yad etməsi vacibdir.

O zaman yalnız ümummilli liderimiz Heydər Əliyev bütün çətinliklərə baxmayaraq, siyasi iradə nümayiş etdirərək Moskvadakı Azərbaycan nümayəndəliyinə gəlmiş və SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə ittiham edərək bəyanatla çıxış etmişdir. Azərbaycan rəhbərliyinə ikinci dəfə qayıdışdan sonra Heydər Əliyevin təşəbbüsü ilə 1994-cu ilin yanvar ayında Milli Məclisdə Azərbaycan xalqına qarşı törədilən faciəvi 20 Yanvar hadisələrinə siyasi qiymət verildi.

Yalnız Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra 1990-cı ilin qanlı Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 1994-cü il tarixli fərmanında deyilirdi: "Xalqımızın tarixinə qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermişdir. Tarixin yaddaşına qanla yazılmış həmin gündən bizi 4 illik zaman məsafəsi ayırır. Təəssüf ki, 4 il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilməmişdir".

Fərmanda Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymətin verilməsi, bu məqsədlə parlamentin xüsusi sessiyasının keçirilməsi məsələsinə baxılması tövsiyə edilirdi. Milli Məclisdə müzakirələrin yekunu olaraq 1994-cü il martın 29-da qəbul edilən qərarda, nəhayət ki, 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi.

1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan Vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar. Bu gün müstəqil Azərbaycan dövlətinin tarixinə qanlı 20 Yanvar faciəsi xalqımızın şərəf və qəhrəmanlıq səhifəsi kimi yazılmışdır.

**“Xalq qəzeti”.-**2011.-27 yanvar.-N 19.-S.4.

# "20 YANVAR" GÜNÜ MÜNASİBƏTİ İLƏ MEKSİKANIN "EXCELSIOR" VƏ "EL UNIVERSAL" QƏZETLƏRİNDƏ SƏFİR İLQAR MUXTAROVUN MƏQALƏLƏRİ DƏRC OLUNUB

20 Yanvar Milli Matəm Gününün 21-ci ildönümü ilə əlaqədar 2011-ci ilin 20 yanvar tarixində Meksikanın iki ən nüfuzlu nəşrlərindən olan "Excelsior" və "El Universal" qəzetlərində səfir İlqar Muxtarovun "Azərbaycan: unudulmayan tarix"("El Universal") və "1990-cı ilin 20 yanvarı – Azərbaycanda heç vaxt unudulmayacaq tarix" ("Excelsior") başlıqlı məqalələri dərc edilib. Səfirlikdən SİA-ya verilən xəbərə görə, məqalələrdə 20 Yanvar faciəsinin baş vermə səbəbləri və sözügedən dövrdə qonşu Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı həyata keçirilən dəhşətli zorakılıqlara göz yuman M. Qorbaçovun əmri ilə Sovet ordusunun Bakıya soxulması və Azərbaycanın silahsız dinc əhalisinə qarşı törətdiyi qeyri-insani cinayətləri və faciənin təfərrüatlarından bəhs olunur.

Bu xüsusda, həmçinin nüfuzlu beynəlxalq insan hüquqları institutlarından biri olan "Human Rights Watch" təşkilatının faciəvi hadisələrə dair ədalətli mövqeyinə də istinad edilib. Həmçinin, ölkəmizin azadlığı naminə həlak olmuş şəhidlərin yad edilməsi üçün xalqın müqəddəs ziyarətgahına çevrilən Şəhidlər Xiyabanının bütün Azərbaycan vətəndaşları tərəfindən hər il ziyarət olunduğu qeyd edilərək bildirilib ki, "Qara Yanvar" hadisələri Azərbaycan tarixində sadəcə faciə kimi yadda qalmamış, əksinə ölkəmizin suverenliyi və müstəqilliyi ideyaları uğurunda mübarizədə xalqımızın iradəsini və mübarizlik əzmini daha da möhkəmləndirib.

Qeyd etmək istərdik ki, 20 Yanvar Milli Matəm Gününün 21-ci ildönümü ilə əlaqədar 2011-ci ilin 20 yanvar tarixində səfirliyin press-relizi də yayılıb. Məlumat, eyni zamanda Meksikanın Hökumət orqanlarının rəhbərləri, Xarici İşlər Naziri və Nazir müavinləri, XİN-in struktur bölmələri, Meksika Senatının üzvləri, ayrı-ayrı ştatların Qubernatorları və Meksikada akkreditə olunan səfirliklərə göndərilib.

**"Səs".**-2011.-22 yanvar.-N.12.-S.7.

# Mən tarana gedirəm!

**Kərəm Məmmədov,**
20 Yanvar 1990-cı ildə "ÜİLKGİ-nin 40 illiyi" adına teploxodun kapitanı

Ötən il "Xural"da dərc olunan və böyük Oxucu rəğbəti qazanan bu yazı bu günlərdə kitab şəklində işıq üzü görəcək. "Xural" Oxucularının israrlı təkidlərindən sonra yazını təkrar dərc etməyi uyğun bildik. 20 Yanvar qan yaddaşı olduğu üçün və o qan yaddaşında baş verənləri heç bir zaman unutmamaq və unutdurmamaq üçün…

**Əvəz Zeynallının Kərəm Məmmədovun "Mən tarana gedirəm!" kitabına yazdığı giriş…**

## Dənizçilərin haqqı

Mən Kərəm Məmmədovu tanımırdım. Açığı, onu tanıyana qədər 1990-cı ilin yanvar hadisələrində dənizçilərin hansı qəhrəmanlıqlar və rəşadət göstərdikləri haqqında da özəl bilgilərim yoxdu. Alışılmış, ənənəvi məlumatların və videoroliklərin dediklərindən savayı onsuz da ciddi araşdırmaların şahidi olmuruq elə də. Düzü, Kərəm Məmmədov ötən il "Xural"ın redaksiyasına gələndə və əlindəki yazı qovluğunu mənə uzadanda elə də maraqlı deyildim. Nədən ki, iri və çoxsəhifəli elə yazılar gəlir ki birdən, adam nə yox deyə, nə də dərc edə bilir. Kərəm müəllimin də yazısını elə bilmişdim…

Ancaq ilkin tanışlıq, bu "abidə kimi insan"ın duruşu, üz-gözündən yağan asalət məni cəlb etdi və millətimin nə böyük və nə şərəfli bir millət olduğunu, nə böyük və nə şərəfli bir tarix yazdığını bir daha ondan öyrənmiş oldum. Kərəm Məmmədovun "Mən tarana gedirəm!" yazılar silsiləsini nəinki "Xural"da dərc etdim – həm də su kimi içdim, yemək kimi yedim… Təkcə mənmi? Yazının dərc olunduğu 5 həftə boyunca istər deputatlardan, istər ictimai-siyasi xadimlərdən, istər digər tanınmış insanlardan olsun – maraqlı və ilginc reaksiyalar aldım. Mən bu yazını oxuyub telefon dəstəyində hönkürən millət vəkili qarşılaşdım. Yox, heç nə və heç bir olay təsadüfi deyildi. Nə də Kərəm müəllim özünü yazıçılıqda sınayan və ya yaradıcılığı olan böyük bir yazıçı deyildi. Sadəcə Kərəm Məmmədov hər şeyi çılpaqcasına, olduğu kimi qələmə almışdı. O mənhus və millətimizin şirə, başındakıların dovşana döndüyü günlərdə olub-bitənləri təhrif etmədən, apaçıq millətinin diqqətinə çatdırmışdı. Ona görə yazının dərci bu qədər rezonans doğurmuş, ona görə telefonun dəstəyində ağlayan deputatlarla qarşılaşmışdıq.

Yazının dərc olunmasından və hadisələrin əsas şahidlərindən birinin saatlarla bəhs etdiyi söhbətlərindən sonra o qənaətə gəldim ki, 20 Yanvar hadisələrində oynadığı rola görə Kərəm Məmmədovun çalışdığı "Xəzərdənizdonanma" idarəsi ən yüksək mükafatlara layiqdir və tez-gec bu haqqı alacaqlarına əminəm. Təsəvvür edin, rus-erməni-sovet ordu birləşmələri Bakıya müdaxilə edib, dinc vətəndaşlar soyqırıma məruz qalıb, ölkə yas içində, "televiziyalar çoxdan ölgün", mətbuat yox – beynəlxalq blokadaya alınmış durumdayıq… Birdən heç kimin gözləmədiyi halda Xəzər Dənizində çalışan millət oğullarının şahlanışı baş verir. Mən Kərəm müəllimin bu kitabını oxuyandan sonra bildim ki, Bakı dənizçilərinin sayəsində biz ilk gündən bütün dünyanın hər tərəfinə informasiyalar göndərmiş, hadisələrdən detallarına qədər dünyanı məlumatlandırmışıq.

Maraqlı və ilginc detallardan biri də Kərəm Məmmədovun bu əsərinin bəzi qəzetlər tərəfindən geri qaytarılması, ya da tam dərc olunmamasıdır. Gör bu millətin övladları nə günlərlə üz-üzə qalıb. Ki, artıq tariximizin böyük və ciddi bir hissəsini belə dərc etməkdən aciz və qorxar hala gəlmişik…

"Mən tarana gedirəm!" Azərbaycan dənizçilərinin millətin ağır günlərində göstərdiyi kişilik və mərdlik salnaməsidir. Bəli, məhz Azərbaycan əslində budur! Əsla və əsla bizə təqdim olunan millətlə, bizə sırıdılan "geridəqalmış" və "patavalı" vətəndaşlara malik olan bir dövlət fikri ilə heç bir zaman məhz buna görə razılaşmadım. Azərbaycan budur və bu Azərbaycan əslində heç bir zaman məğlub olmamalıdır. Dənizçilərin rəşadəti, onların generallar və məxsusən admiral Sidorovla söhbətləri, SSRİ-nin qaniçən müdafiə naziri Yazovla mükalimələri nə qədər böyük və ehtişamlı bir mübarizə hərəkatına malik olduğumuzu göstərir. Bizim dənizçilər tabe olduqları SSRİ-nin mərkəzi orqanlarından müstəqil şəkildə millətin səfinə keçiblər, informasiya blokadasını yarıblar, Bakıda baş verənlər haqqında müfəssəl məlumatları bütün dünyaya ötürüblər, Bakıdan həlak olan və öldürülən insanların cəsədlərinin çıxarılmaması üçün Bakı buxtasını mühasirəyə alıblar. Nələr… nələr etməyiblər? Sonra da ölməkdə olan sovet rejiminin amansız repressiyalarına məruz qalıb, güllləbaran edilib, həbs olunub, öldürülüblər…

Digər orqanlar da, digər qurumlar da kaş ki beləcə davranaydılar… Kaş ki ölkənin ali rəhbərliyi də bu cür dirayətli və planlı hərəkət edəydilər… Polisindən ədliyyəsinə, ağ işçisindən qara işçisinə…

İnanıram ki, gün gələcək 1990-cı ilin yanvar hadisələrində baş verən bu hadisələrin hamısı öz layiqli qiymətini alacaq. Ona da inanıram ki, gün gələcək Azərbaycan dənizçilərinin bu qəhrəmanlıq dastanı dünyanın aparıcı media-film qurumlarının əsas mövzularından biri olacaq. Ona da inanıram ki, Kərəm Məmmədovun bu araşdırma-memuarı son olmayacaq və bu sahədə ciddi addımlar dövlət tərəfindən də atılacaq. Elə Kərəm Məmmədovun güllələnən gəminin muzeyə çevrilməsi təklifləri kimi…

Bir də… Yazının ilkin dərcində yazılan yazıların kitab formasında toplanması, onun ingilis, fransız, alman və rus dillərinə çevrilib bütün dünyaya yayılması haqqında dəyərli təkliflər olmuşdu. İnanıram ki, təklif sahibləri bu dəyərli kitabı dedikləri kimi, ən azı 4-5 dilə çevirib dünyaya yayacaqlar…

**Əvəz Zeynallı**
**“Xural” qəzetinin baş redaktoru**

Tariximizin səhifələrinə qanlı hərflərlə yazılmış 1990-cı il 20 Yanvar faciəsindən artıq 21 il keçməsinə baxmayaraq, bütün hadisələr sanki dünən baş veribmiş kimi gözümüzün qabağından keçir. Yanvarın 19-dan 20-nə keçən gecəyə “şəhid gecə” də demək olar, “şahid gecə” də. Çünki 20 Yanvar Vətənimizin azadlığı uğrunda şəhidliyimizə şahid olan gecə idi. Yüksək kürsülərdən, qəzetlərin səhifələrindən, radio və televiziyadan mücərrəd “Gəlin, birləşək!” kəlməsi nə qədər ucuz səslənsə də, “Qara Yanvar” gecəsindən sonra xalq bir yumruq kimi birləşdi. Bakıda axıdılan günahsız qanlara özü qan içində boğulan Qarabağ, Mil, Muğan, Şirvan, Cənubi Azərbaycan, Türkiyə – bütün dünya türkləri və müsəlmanları öz dərdi kimi acıdı. Həmin gecə Azərbaycan radiosu və televiziyası terrorun qurbanı olub partladılan vaxt, Şuşa televiziyası bütün Azərbaycana bu dərdin dərinliyini anlatmağa, xalqı səbirli, təmkinli, eyni zamanda mübariz olmağa çağırırdı. Şuşa televiziyası susdurulanda estafeti Lənkəran televiziyası davam etdirdi.

20 Yanvar – qanlı gecənin səhəri hüzn və matəm içərisində olan xalqın ürəyində ümid işığı yandıran, gecə ikən Bakı buxtasını mühasirəyə almış hərbi gəmilərin hərəkətinə yol verməyən, sovet ordusunun törətdiyi amansız qırğını və vəhşiliyi bütün dünyaya çatdıran Xəzər dənizçiləri oldular. “Xəzərdənizneftdonanma” idarəsinin hərəkətdə olan iri 102 gəmisi, çoxlu xırda gəmi artıq yanvarın 20-də günün ikinci yarısında Bakı buxtasında idi. Onların aramsız həyəcan siqnalları şəhidlərimizi son mənzilə yola salana qədər və ondan sonra da davam etdi. Sahildən dənizçilərə zənglər olunurdu: “Bizim qeyrətli qardaşlarımız, ümidimiz sizədir.”

Dənizçilərin verdikləri “SOS” Bakı həqiqətini bütün dünyaya çatdırdı. Dənizçilərin dilində “ölü dəqiqələr” deyilən bir termin var: hər saatdan bir üç dəqiqə bütün dünyanın dənizçiləri yeni məlumatlar alırlar. Yanvarın 20-si səhər saat 11.30 radələrindən 21-nə keçən gecəyədək 4 dəfə təkrar olunan “SOS”un ilk mətninin əks-sədasını dənizçilər bir saat keçəndən sonra Kalininqraddan, Qara dənizdən, Baltik dənizindən verilən radioqramlardan alırdılar: “Qardaşlar, möhkəm dayanın, naviqasiya olmadığı üçün Xəzərə üzə bilmirik.” Səhərə yaxın isə Sakit və Atlantik okeanlarında üzən dünyanın 50-dən artıq ölkəsinin gəmiləri dənizçilərimizin səsinə səs verdilər. Bütün radioqramlarda bizimlə həmrəy olduqlarını, dərdimizə şərik çıxdıqlarını, bu faciənin bütün dünyaya çatdırılmasında kömək edəcəklərini bildirirdilər. Tarixdə ilk dəfə idi ki, dünya dənizçiləri öz həmrəyliyini belə mütəşəkkil nümayiş etdirirdi. Sosial şərait və qayğıları eyni olmayan dənizçilər ağır gündə birləşməyin mümkünlüyünü bir daha sübut etdilər.

Bakı buxtasına sədd çəkən gəmilərimiz dor ağaclarından Sovet bayrağını endirərək, onun yerinə matəm bayrağı qaldırdılar. Şəhidlərimizin qırxını verənə qədər bu bayraqlar aşağı endirilmədi.

Dənizçilərin həyəcanlı söhbətlərini dinlədikcə, o günləri bir daha yaşayırsan, lakin hələ də “20 Yanvar” faciəsinin günahkarları məsuliyyətə cəlb olunmamışlar. Dünya hələ də o gecə Azərbaycan xalqının taleyinə yazılmış faciənin həqiqi dəhşətlərindən xəbərsizdir. Hələ də çoxlarının xəbəri yoxdur ki, o qanlı gecədə “Xəzərdənizneftdonanma” idarəsinin mətin dənizçiləri olmasaydı, Bakıda Qorbaçovun, Yazovun və daşnakların məkrli ssenarisi daha neçə gün davam edəcəkdi. Ona görə də bu gün o qanlı günlərdə dənizçilərimizin fədakarlığını, ölümün gözünə dik baxaraq göstərdiyi qəhrəmanlığı unutmaq onların xidmət və xatirələrinə hörmətsizlik, gələcək nəsillər qarşısında cinayətdir.

1988-1990-cı illər milli-azadlıq hərəkatının fəal iştirakçısı olmuş dənizçiləri “Xəzərdənizneftdonanma” idarəsinin rəhbərliyi hər vasitə ilə dənizdə saxlamağa çalışırdı. Yanvarın 13-15-dəki hadisələrdən sonra dənizçilər tələm-tələsik xarici radiostansiyaların vasitəsilə xəbər tuturdular. Xüsusilə, “Azadlıq” radiostansiyasının aparıcısı Mirzə Xəzərin məlumatları çox köməyə gəlirdi…

***

Mən “ÜİLKGİ-nin 40 illiyi” adına teploxodun kapitanı idim. Yanvarın 19-da, saat 16.00-da Nargin adasından Mərkəzi Komitənin qarşısındakı izdiham çox aydın görünürdü. Hava tutqun və soyuq idi. Bütün heyət göyərtədən şəhərə tamaşa edirdi. Bakı heç vaxt dənizdən belə sakit və kimsəsiz görünməmişdi. Dispetçerdən körpüyə yan almaq üçün icazə istədim. O, mənə reyddə lövbərə dayanmaq əmrini verdi.

Lövbərdə dayanıb şəhəri və Mərkəzi Komitənin qarşısındakı izdihamı durbin vasitəsilə müşahidə edirik. Saat 22.00-da isə Bakının giriş yerlərində Novruz bayramının xatırladan tonqallar yanırdı, dənizdən gələn gəmilər ətrafda lövbər atırdı.

Gecədən xeyli keçir. Şəhərdə görünməmiş dəhşətlər başlayır. Şimal-şərq və qərb tərəfdən şəhərə böyük sürətlə ordu yeridilir. Saysız-hesabsız tank və digər hərbi maşınlar şəhərin mərkəzinə irəliləyir.

Artıq yanvarın 20-nə keçən gecə tankların Mərkəzi Komitəni mühasirəyə aldığı aydın görünürdü. Rus-sovet ordusu şəhərin üstünə işıqsaçan güllələri yağış kimi yağdırırdı. Adama elə gəlirdi ki, Bakıya hücum edən alın tərimiz və sərvətimiz hesabına saxlanılan sovet ordusu deyil, qaniçən, vəhşi, amansız faşist ordusudur.

Biz dəhşətə gəlmişdik, əli silahsız dənizçilər də elə həmin gecə həyəcan siqnalları verməklə öz mübarizələrinə başladılar. Ordunun vəhşiliyi qaranlıqda dənizdən çox aydın görünürdü. Sahildən heç bir məlumat ala bilmirdik. Bu bizi daha da çaşdırırdı. Səhərə yaxın Bakı limanında gəmilərin sayı çoxalmağa başladı.

Yanvarın 20-də, saat 10.00-da gəmilər artıq özlərinə daha yaxşı mövqe seçərək dəniz vağzalı ətrafına toplaşmağa başladı. Buradan həm Mərkəzi Komitənin qarşısındakı izdiham aydın görünür, həm də hərbi dənizçilərin qarşısını almaq üçün yaxşı mövqe idi.

Axır ki, dispetçerlikdən şəhərdə qırğınlar olduğunu və bu qırğınların davam etdiyini bildirdilər. Bu dəhşətli xəbər bütün dənizçiləri sarsıtdı. Onların hiddətini cilovlamaq olmurdu. Əli yalın dənizçilərimiz gəmiləri tərk edib, vəhşilərlə əlbəyaxa vuruşmaq istəyirdilər. “Xəzərdənizneftdonanma” gəmiləri radio vasitəsilə bir-biri ilə əlaqə saxlayır, vəziyyətlə tanış olurdular.

Çox keçmədi ki, Bakı buxtasına yüzlərlə irili-xırdalı gəmi daxil oldu. Ağsaqqal kapitanlar dənizçiləri təmkinli olmağa çağırır, təkliflər verirdilər. Qısa vaxtda birgə hərəkət etmək üçün qərargah yaradıldı. Gəmilərin düzgün mövqe tutması ilə təcrübəli kapitanlardan bir neçəsi məşğul idi.

“Neft Daşları”ndakı neftçilər sahilə çıxmaq üçün dənizçilərdən gəmi tələb edirdilər. Neftçilər və dənizçilər artıq heç bir rəhbərliyə tabe olmurdular. Son bir neçə ildə kimin kim olduğunu başa düşmüşdülər. Donanmanın rəisi və rəhbər işçiləri yanvarın 20-də işə çıxmamışdılar. Donanmanı bir neçə qabaqcıl kapitan idarə edirdi. “Sabit Orucov” sərnişin gəmisi qərargah seçilmişdi. Bu gəmi Bakı limanının sərnişin vağzalında dayanmışdı. Sahildə bütün xəbərləri dənizçilər oradan alırdılar. Gəmilər radiotelefonla idarə edilirdi. Bizim bütün danışıqlarımıza hərbçilər də qulaq asır, maqnitofona köçürürdülər. Hərbi dənizçilər arasında yüksək vəzifəli ermənilər də var idi. Onlar hər dəqiqə bizi hərbi dənizçilərlə üzbəüz qoymağa çalışırdılar. Hərdənbir bizimlə telefon əlaqəsinə girir, çaşdırıcı suallar verirdilər.

Tanklar və silahlı əsgərlərdən başqa şəhərdə heç kəs görünmürdü. Ara-sıra tanklardan atəş açılırdı. Sahildən “qırğınlar davam edir” xəbərini alırdıq.

Cəsarətli kapitanlar əməli iş görmək üçün bir sıra təkliflər irəli sürürdülər. Odur ki, yanvarın 20-də saat 20.00-da gəmilərin birində iclas keçirmək qərarına gəldik. İclasda bəzi təkliflər verildi.

“Neftqaz-18″ gəmisinin kapitanı Gülağa Məcidov təklif etdi ki, dənizçilərin təcili tələbləri hazırlansın. “B. Babazadə” sərnişin gəmisinin kapitanı Müzəffər Əliyev Bakıdakı qırğınları bütün dünyaya çatdırmaq üçün yollar axtarmağı, gəmilərin birindən “SOS” verməyi təklif etdi. Müdaxilə ərəfəsində Bakı teleradiostudiyasının enerji bloku partladılmış, ölkə informasiya mənbəyindən məhrum edilmişdi. “VİXR-12″ gəmisinin kapitanı mərhum İbrahim Salayev təklif etdi ki, həyəcan siqnallarını kor-koranə vermək olmaz: “Təklif edirəm ki, siqnalar gündüzlər hər yarım saatdan bir 5 dəqiqə, gecələr hər saatdan bir 5 dəqiqə eyni vaxtda verilsin.”

Kapitanlardan Murad Əliyev, Mövlud Əliyev, bu sətirlərin müəllifi, Müzəffər Əliyev, Gülağa Məcidov, Kişi Mütəllimov, Firudin Hüseynov, Səhman Rüstəmov, mərhum İbrahim Salayev, Rafiq Əfəndiyev, Ağalar İbrahimov, Elxan Hüseynov, Fizuli Bünyatov və başqaları tələbnamənin və “SOS”-un mətnini hazırlamaq üçün işə başladılar.

Artıq bir sutka idi ki, şəhərdə qırğın davam edirdi. Hərbçilərlə bizim aramızda münasibət gərginləşirdi. Hərbi donanmada qulluq edən qeyrətli azərbaycanlılar bizə tez-tez məlumat verirdilər.

Bir sutka idi ki, biz Sov İKP MK üzvü, SSRİ Müdafiə nazirinin müavini admiral V.V.Sidorovdan dalbadal xəbərdarlıq alırdıq. Təcili olaraq Bakı buxtasını tərk etməyimizi tələb edirdilər. Admirallar telefon əlaqəsinə girərək bizi gah dilə tutur, gah da hədə-qorxu gəlirdilər.

Yanvarın 20-i saat 22.00-da iclasın ikinci hissəsi başlandı. "SOS"-un məzmunu oxundu. Dənizçilərin tələbləri radiotelefon vasitəsi ilə buxtadakı bütün gəmilərin heyətlərinə çatdırıldı.

Dənizçilərimizin 5 maddədən ibarət tələbnaməsi Sov İKP Baş katibi M.S.Qorbaçovun, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri E.Qafarovanın və SSRİ Ali Sovetinin deputatı Q.A.Abbasovun (Neftçi Qurban) ünvanına göndərildi.

Hərbçilərin rabitə kodundan istifadə edərək "Vosxod"la təcili əlaqəyə girib dənizçilərin tələblərinin Bakının hərbi komendantı general V.S.Dubinyaka verilməsini tələb etdik. "Vosxod" da hərbi qərargahla əlaqə yaradaraq tələbimizi ora çatdırdı. Qərargahdan bizə cavab verdilər ki, dənizçilər öz tələblərini komendant V.S.Dubinyaka yox, admiral V.V.Sidorova verə bilərlər. Özü də sabah.

Dənizçilərin tələbnaməsinin mətni belə idi:

Председателю Президиума Верховного Совета СССР тов.Горбачеву М.С.
копия: Председателю Президиума Верховного Совет Азерб.ССР Э.Кафаровой
копия: Народному депутату Верховного Совета СССР Абасову К.А.
копия: Военному коменданту города Баку
копия: Народному фронту Азербайджана

В ночь на 20 января 1990 года командование Вооруженных Сил СССР, по решению Верховного Совета СССР, без согласия Президиума Верховного Совета Азербайджанской ССР и Азербайджанского правительства с применением оружия, тяжелой техники и особо подготовленным контингентом Вооруженных Сил вошло в г. Баку суверенного Азербайджана, тем самым попраны права человека, суверенитет республики. Пролита кровь тысячи мирного населения, стариков, женщин, детей, молодежи.

Учитывая вышеизложенное, в целях немедленного прекращения дальнейшего кровопролития населения нашего города, вес состав гражданского флота Каспийского бассейна требует:

1. До 24.00 21 января войска должны быть выведены из территории города Баку.
2. Сегодня – 21 января сего года, в 20.00 /Московск.времени/ в знак протеста в подтверждение своих действий в Бакинской бухте будет сожжено одно судно.
3. В случае применения силы с берега или с моря все суда будут сожжены на рейде, танкеры у причалов и береговые нефтяные объекты.
4. Если начнется движение кораблей ККФ, они будут остановлены мирными гражданскими судами со всеми его последствиями.
5. Ответственность за содеянное будет ложиться на Президиум Верховного Совета СССР.

Добавления к требованиям от 21 января 1990 г:

1. Учитывая созыв Чрезвычайной сессии Верховного Совета Азерб. ССР, приостановить выполнение пункта 2-3.
2. Члены экипажей судов могут пойти на совместный диалог с представителями Президиума Верховного Совета Азерб. ССР, Народного фронта Азербайджана, военного коменданта, корреспондентами всех республик, в том числе зарубежных, а также с участием представителей всех религий.
3. Неудовлетворительные решения по нашим требованиям оставляют в силе наши требования от 21 января 1990 г.

Подпись: суда, стоящие на рейде с интернациональным экипажем в количестве 81 единицы.

SOS-un mətni də hazırdır. Vermək olar. Ancaq mətni vermək məsələsində bir sıra çətinliklərə rast gəldik. Ona görə ki, donanmanın bütün gəmi radistləri rus millətindən idilər. Onlar SOS-un məzmununu oxuyan kimi verməkdən imtina edirdilər. Çox çətinliklə bir nəfər SOS-un mətnini efirə verməyə razı oldu. Bir şərtlə ki, onun kimliyini, hansı gəmidən verildiyini heç kəs bilməsin. Hər saatdan bir üç dəfə "SOS" verildi:

Всем, всем, всем!

В ночь с 19 на 20 января 1990 года совершено вторжение на территорию Азербайджана советских войск. На улицах, площадях Баку убиты, ранены тысячи мирных безоружных жителей раздавлены танками. Растоптаны права человека. Всем цивилизованным государствам, дорожащим свободой! Просим откликнуться на призыв о помощи. Истекающий кровью народ Азербайджана вызывает о помощи.

Всем, всем, всем!

Около 23.00 Московского времени на рейде Бакинской бухты военным кораблем (бортовой номер 469) обстрелено мирное судно, стоящее на якоре, "Челекен-1". Кровопролитие продолжается.

Всем, всем, всем!

Миролюбивой общественности планеты Земля! 22 января 1990 года военный комендант г.Баку применение оружия военных кораблей против гражданских судов; вывозят тела убитых Азербайджанских граждан, чтобы скрыть свои злодеяния от народа Азербайджана. Перед мировой общественностью обстреляны корабельной артиллерией теплоходы "Актау", "Нефтегаз-10", "Нефтегаз-16", "40 лет ВЛКСМ", "Нефтегаз-3", гражданские суда Каспийского флота в Бакинской бухте.

Всем, всем, всем!

Мировой общественности планеты Земля!

Находящиеся в Бакинской бухте, продолжают требовать свои прежние условия. Оккупация Баку, бесчинства, убийства мирного населения Соетской Армией продолжаются.

В ночь с 19 на 20 января 1990 года Баку подвергнут оккупации Советских Войск; попраны права суверенного Азербайжана. Убиты, ранены тысячи мирных людей. Демократию Азербайджана оккупационные войска залили кровью. Советские войска войну продолжают на территории Карабаха совместно с Арменией.

Всем, всем, всем!

Миролоюбивая общественность планеты Земля! Мирное население Баку, всего Азербайджана затоплены своей кровью. Свободолюбивые граждане уничтожены "доблестной" армией по указанию Кремля. Просим помощи у населения планеты Земля.

…Güclü radiostansiyanın təhlükəsizlik kanalı ilə birinci radioqram bütün dünya efirinə verildi.

Yanvarın 20-i saat 24-də radioqrammanı bütün dünya aldı. Sovet Ordusunun Bakıda törətdiyi qanlı cinayəti artıq ört-basdır etməyə heç bir imkan qalmamışdı. Bütün müsəlman dünyasına qan udduran Yazovun Bakıdakı qanlı cinayətinin üstünü örtmək daha mümkün deyildi. Ola bilsin ki, Yazov öz planında dənizçilərin əlində olan bu güclü silahı nəzərə almamışdı. Ola bilsin ki, onun qanlı cinayəti bir həftə davam edəcəkdi.

Rus hərbçiləri ilə aramız getdikcə gərginləşirdi. "Vosxod" yenidən bizim qərargahla – "S.Orucov"la əlaqəyə girdi. İcazə istədilər ki, dənizdən gələn hərbi gəmini hərbi bazaya, yəni Bayıl hərbi limanına buraxaq. Onun gövdə nömrəsi 469 idi. İcazə verdik.

Yanvarın 21-i, gecə saat 2-də həmin gəmi gözlənilmədən bizim "Çələkən-1" gəmisinə iriçaplı pulemyot və avtomatlardan atəş açdı. Təsadüf nəticəsində yaralanan və ölən olmadı. Gəminin aşpazı, milliyyətcə rus olan Nadejda Qonçarova efirə çıxaraq rus ordusunu "faşist ordusu" adlandırdı. Onun səsini bütün hərbçilər çox aydın eşidirdilər. O, rus dilində hərbçiləri yamanlayır, öz iş yerində təsadüfən sağ qaldığını bildirirdi. Bu hadisədən sonra bizimlə hərbçilər arasında münasibət daha da kəskinləşdi. Sahildən isə heç bir xəbər yox idi. Hərbçilərlə dənizçilərimiz arasında gərginlik son həddə çatmışdı. Efirdə artıq bir-birimizi qiyabi tanıyırdıq. Fəal

kapitanların adlarını hərbçilər öyrənə bilmişdilər. Odur ki, şərti adları götürməyə məcbur olduq. Mənim şərti adım "Səfər bəy" idi.

Ayın 21-də bizə dəniz qərargahından 73-cü kanalla Azərbaycan dilində xəbər verdilər ki, gecələr şəhərdən Bayıl hərbi dəniz körpüsünə çoxlu şəhid meyiti gətirir, dənizə tökmək üçün hərbi gəmilərə yükləyirlər. Vətən uğrunda, azadlıq uğrunda şəhid olmuş igid oğulların cəsədini yandırıb izi itirməyə çalışırlar. Şəhərdən kənara çıxarır, dənizə tökürlər…

Misilsiz faciə törədən "xilaskar ordu"dan hər şey gözləmək olardı. Deməli, bu vəhşilər öz qanlı cinayətlərinin üstünü örtmək istəyirlər.

Bu xəbərlərdən hiddətlənən silahsız dənizçilər son çarəyə – gəmi döyüşünə (tarana) hazırlaşırdılar. Bir neçə gəmi lövbəri qaldıraraq döyüşə hazır dayandı.

"Vosxod"la əlaqəyə girərək xəbərdarlıq etdik ki, əgər hərbçilər bu işə əl atsalar, biz hərbi gəmiləri öz gəmilərimizlə vurub Bakı buxtasında batıracağıq. Hərbçilər bizi əmin etməyə çalışırdılar ki, heç bir hərbi gəmi nə limandan çıxacaq, nə də limana daxil olacaq. Ancaq bir neçə dəqiqədən sonra "Vosxod" yenidən bizimlə əlaqəyə girərək bildirdi ki, hərbi gəmilərin bir neçəsi buxtadan çıxmalıdır. Özü də bu gəmidə meyitlər yox, hərbçilərin ailələridir. Onlar Mahaçqala şəhərinə gedirlər.

Biz belə başa düşdük ki: hərbçilər öz ailələrini Bakıdan ona görə çıxarırlar ki, yeni vəhşiliklərə əl atsınlar. Görünür, qırğın davam edəcək. Odur ki, biz həmin gəmilərin yoxlamadan sonra getməsinə razılıq verəcəyimizi bildirdik. Danışığa əsasən, bizim gəmimiz həmin gəmiləri yoxlayıb onlarla birlikdə Bakı buxtasından çıxmalı idi. Bizim tərəfimizdən bu işi "Babazadə" sərnişin gəmisinin heyəti və onun kapitanı Müzəffər Əliyev öhdələrinə götürdülər. Donanmanın hörmətli kapitanı Müzəffər Əliyev çox ağır bir işə əl qoyurdu.

Gecə hər iki tərəfin razılığı ilə "Babazadə" gəmisi hərbi limana daxil oldu. Bu anlar, bu dəqiqələr çox qorxulu idi. Canilərdən hər nə desən gözləmək olardı. M.Əliyev oradan xəbər verdi ki, hərbçilər təpədən-dırnağa kimi silahlanmış və döyüşə hazır vəziyyətdədirlər. Gəmini yoxlamağa da icazə vermirlər, bizi girov götürmək istəyirlər.

Təcili "Babazadə" gəmisindən sağ-salamat qayıtmasını tələb etdik. Gəmi qayıtdıqdan sonra: "Biz heç bir hərbi gəminin buxtadan çıxmasına icəzə verməyəcəyik" deyə xəbərdarlıq etdik.

Belə olan halda hərbçilər yeni hiyləyə əl atdılar. Dedilər ki, guya iki hərbi gəmi gecə növbəsinə gedir. Onları buraxmaq lazımdır. Dənizçilərin möhkəm dayandıqlarını və rədd cavabını alan admiral V.V.Sidorov yeni bir cinayətə əl atdı. Dənizdən gələn bizim "Aktau" yedək gəmisini güllələbaran etdirdi. Xoşbəxtlikdən ölüm bu dəfə də yan keçdi. Ancaq gəmi sualtı hissəsindən deşildi. Dənizçilərin və kapitanın baş köməkçisi Maarif Xəlilovun fədakarlığı nəticəsində gəmi batmadı.

Artıq bir gün ərzində öz məkrli niyyətlərini həyata keçirə bilməyən general D.Yazov və admiral V.V.Sidorov M.Qorbaçovun və bütün dünyanın qarşısında biabır olmamaq, dənizçilərin mühasirəsini yarmaq üçün hər vasitəyə əl atmağa çalışırdılar. Öz mövqelərində möhkəm dayanan, ölümün gözünə dik baxan dənizçilərimizin arasına qarmaqarışıqlıq salmaq üçün hərbçilər Bakı limanına bir hərbi gəmi buraxdılar. O dəqiqə döyüşə hazır olan "Neftqaz-10″, "Neftqaz-18″, "Neftqaz-64″ və "ÜİLKGİ-nin 40 illiyi" güclü avtomat, raket atəşinə məruz qaldılar. Kapitan G.Məcidovun, R.Dəmirovun və digər kapitanların, bütün şəxsi heyətin cəsarəti və mətinliyi sayəsində hərbi gəmi öz yerinə oturduldu, hərbi gəmi taran nəticəsində batmaq təhlükəsi qarşısında qalaraq atəşi saxladı və tülkü kimi sivişib aradan çıxdı.

Döyüşdə dənizçilərimiz get-gedə mətinləşirdilər. Gecə döyüşündə məğlub olan admiral V.Sidorov taktikanı dəyişərək dənizçilərimizlə görüş təyin etmək məcburiyyətində qaldı.

Yanvarın 21-də saat 12.00-da xəbər tutduq ki, idarənin rəisi C. Məmmədov dəniz vağzalında "Sabit Orucov" gəmisindədir və mənimlə telefon əlaqəsinə girmək istəyir. Saat 12.30-da mən telefonla əlaqə saxladım. "Sabit Orucov" gəmisinin kapitanı M. Əliyev mənə xəbər verdi ki, rəisi təcili yardım maşını ilə xəstəxanaya göndərdik…

…1988-ci ilin təlatümlü noyabr günlərində idarənin rəisi və partkomu bilmirdilər nə etsinlər. Xalqın tərəfinə keçsələr, öz kreslolarını itirəcəkdilər. Dövlət mövqeyini də qorumaq mümkün deyildi. Çünki artıq xalq hərəkətə gəlmişdi, küçə-meydanlar dalğalanırdı. Ümumiyyətlə, idarə rəhbərliyi ikili mövqe tutmuşdu – nə "yardan doyur", nə "əldən qoya" bilirdilər. 1988-ci il noyabr ayının əvvələrində dənizçilər bir neçə dəfə donanmanın ümumi yığıncağını çağırdılar. Bu yığıncaqlarda təklif olunurdu ki, donanmada işləyən qabaqcıl erməni nümayəndələri Yerevana getsinlər, orada yerli radio və televiziya ilə çıxış edib Bakıda onlara heç kimin toxunmadığını bildirsinlər.

Ermənistanda isə azərbaycanlıları ata-baba yurdlarından elliklə qovdular. Belə olan halda həm donanmada işləyən ermənilər və həm də idarə rəhbərliyi, xüsusilə idarənin “partkomu” N. Böyükzadə dənizçilərin bu təkliflərinin əleyhinə çıxdılar. Dedilər ki, əgər donanmadan Yerevan nümayəndə heyəti gedərsə, onları Ermənistandan geri buraxmazlar. Hətta Yerevanda satqın kimi öldürərlər. Belə olan halda, noyabrın 10-da liman-bazada dənizçilərin mitinqi keçirildi, orada mən də çıxış etdim və 300 nəfər dənizçinin imzaladığı etiraz aktını idarənin rəhbərliyinə təqdim etdim. Sonradan həmin sənədin taleyi məlum olmadı. Məndən sonra Faiq Balabəyli çıxış etdi. Sonra rəis də çıxış edərək dənizçilərlə bir olduğunu söylədi.

Dənizçilər haradan biləydilər ki, ermənilərə qarşı imzalanmış sənəd idarə rəhbərliyinin əlində bir "silah" olacaq, sonralar Azərbaycan KP MK- nın fövqəladə məlum plenumunda Azərbaycan KP MK-nın birinci katibi A.N. Mütəllibova "Xəzərdənizneftdonanma" idarəsinə arayış veriləcək, dəniz blokadasında iştirak edən vətənpərvər dənizçilərin hamısı "narkoman və ekstremist" elan ediləcəkdi (Arayış Az.KP MK-nın arxivində var). idarə rəhbərliyi Azərbaycan milli hərəkatını boğmaq üçün əllərindən nə gəlirdisə edirdilər. Belə ki, Moskvada yaranmış MTN-ə teleqram vuraraq 1990-cı ilin 20 Yanvarında azərbaycanlıları qanına qəltan edən qırmızı bolşeviklərin yenidən hakimiyyətə gəl- mələrini alqışlayırdılar.

Баку 142461/1 79 21/8 0800

МОСКВА Кремль, государственному комитету по чрезвычайному положению в СССР - коллектив Каспийского Нефтепромыслового Флота полностью одобряет обращение к советскому народу государственного комитета по чрезвычайному положению в СССР и одобряет постановление номер 1. особенно, пункт-2 о незамедлительном расформировании военизированных . структур действующих вопреки конституции и законам СССР Выражаем надежду, что государственный комитет по чрезвычайному положению в СССР энергичными действиями претворит в жизнь свое постановление, стабилизирует обстановку в стране = 01/622 от имени коллектива Мамедов Д.Х., Беюк-заде Н.М., Ахмедов А.А.

Xalq hərəkatı getdikcə güclənirdi. Dənizçilər də milli-azadlıq hərəkatında mətinləşir və öz liderlərini üzə çıxarırdılar. Donanmada işləyən ermənilərə və onları müdafiə edən idarə "rəhbərliyinə" dənizçilərin nifrəti gündən-günə güclənirdi. Artıq fəal dənizçilərin adları DTK-ya verilmişdi. M. Əliyev, F. Bünyatov, H. Atakişiyev, E,- Hüseynov, Murad Əliyev, Ağalar İbrahimov və bu sətirlərin müəllifi 20 Yanvar hadisələrinə kimi və ondan sonra da rus DTK-sı tərəfindən təqib olunurdular.

20 Yanvar hadisələrində evlərin- dən bayıra çıxmayan idarə "rəhbərləri" yanvarın 21-də idarənin rəisi C. Məmmədovun iş otağına yığışaraq radiotelefonla dənizçilərin bütün danışıqlarına qulaq asırdılar. Danışıq zamanı dənizçilərin fəallarının adları, familiyaları və ev ünvanları rəisin iş otağında idarənin rəhbərliyi tərəfindən DTK-nın nümayəndəsinə verilirdi. Oradan rəhbərlik rəislə birlikdə dəniz vağzalına, "Sabit Orucov" gəmisinə gəlmişdi. Donanmanın bütün gəmilərini Bakı buxtasında görən rəis, həqiqətən ürəyini tutaraq xəstəxanaya getmişdi. Ümumiyyətlə, donanmanın ən çətin vaxtlarında rəis öz çıxış yolunu xəstəxanada tapırdı...

İdarənin baş mühəndisi Gülhseyn Bağırovun dediklərlndən:

- 21 yanvarda istehsalat birliyinə gəldim. Birliyin baş direktoru Neftçi Qurbanın iş otağına ehtiyatla daxil oldum. O da 16-cı kanalda "reyd"lə dənizçilərin hərbçilərlə apardıqları qeyri- adi danışıqlara qulaq asırdı.

Məni gördü, heç nə demədi. Mən sakitcə onun yanından çıxmaq istəyəndə dedi: "GDI, sən niyə dənizçilərin yanında deyilsən? Onların başından bir tük əskik olsa, mən sizin..." - dedi.

Mən həmişə zabitəli və tələbkar gördüyüm rəisi tanıya bilmirdim. Dənizçilərin cəsur fədakarlığına haqq qazandıran el ağsaqqalının sözlərin-

dən sonra elə bil mənə bir qüvvə gəlmişdi.

Baş direktorun müavini O. Zeynalovun iş otağına girdim. O, həmişə ağıllı məsləhətləri ilə bütün neft sənayesi işçiləri, xüsusi ilə dənizçilər arasında böyük hörmət qazanmışdı. Neftçi Qurbanla söhbətimizi ona söylədim. Əhməd müəllim: "indi hər bir vicdanlı azərbaycanlı, əlbəttə, dənizçilərlə bir yerdə olmalıdır", - dedi. Söhbətə baş direktorun müavini Z. Salmanov qarışdı: "Necə olur-olsun, biz dənizçiləri qorumalıyıq." Bu vaxt Qurban Abbasov birliyin baş mühəndisi, mərhum Namiq Ofəndiyevə sərəncam verdi ki, Ali Sovetə zəng etsin, Elmira Qafarova qoy dənizçilərin nümayəndələrini qəbul etsin.

Biz istehsalat birliyindən /Azneft/ piyada dəniz vağzalına - "Sabit Orucov" gəmisinə, dənizçilərin qərargahına gəldik.

Gəmi kapitanlarından Kişi Mütəllimov, İbrahim Salayev, Maarif Xəlilov, Mövlud Əliyev və Müzəffər Əliyevdən ibarət nümayəndə heyəti dənizçilərin tələbnamələrini Bakı komendantı general V.S. Dubinyaka aparmalı oldu. Yenidən biz "Vosxod"la əlaqəyə girərək, nümayəndə heyətinin təhlükəsizliyini tələb etdik. "Vosxod" da xüsusi nümayəndə heyətinin hərbi katerlə dəniz vağzalından Bayıl limanına kimi aparılıb geri

gətirilməsinə təminat verdi. Saat 14.00-da hərbi kater vağzala yan aldı. Bizim beş kapitan hərbi katerə mindi. Hərbi kater ağ bayraqla göyərtəsində bir neçə avtomatlı hərbçilərlə bizim gəmilərin arasından Bayıl limanına istiqamət aldı...

Bu intizarlı anlar bizim hamımıza olduqca çətin idi. Kapitan yoldaşları- mızın həlak olması demək idi.

Kapitan Kişi Mütəllimovun dediklərindən:

Bizi hərbi körpüdə iki kontr-admiral qarşıladı. Bayıl limanı müharibə vəziyyətində idi. Körpünün hər iki tərəfində əsgərlər əllərində avtomat və yanlarında itlər əmrə müntəzəm dayanmışdılar. Körpüdə dayanan gəmilərin göyərtəsindəki əsgərlər əllərindəki avtomatları bizə tuşlamışdılar.

Həmişə fəxr etdiyimiz sovet əsgərlərinin sifətləri insan qanına susayan faşist əsgərlərinə oxşayırdı.

Körpüdə bizi gözləyən iki qara "Volqa"ya oturaraq hərbi qərargaha gəldik. Qərargahın həyətində ev əşyaları olan minlərlə qadın-uşaq yığışmışdı. Vaxt tapıb bizi aparan sürücüdən soruşduq: "Bunlar hara köçürlər?" Sürücü: "Hamısı rus zabitlərinin ailələridir" - dedi. Şayiə yayıblar ki, guya azərbaycanlılar onları qıracaqlar. "Əgər rus zabitləri öz ailələrini təcili olaraq Bakıdan köçürürlərsə, deməli, Bakıda qırğınlar hələ davam edəcək" - biz də belə fikirləşdik. Hərbi qərargahda gördüyümüz vəziyyət də buna inanmağa əsas verirdi.

Yoldaş admiral, deyin görək, şəhərdə ölənlər çoxdurmu? - deyə soruşdum.

Bakıda böyük imtiyazlarla əhatə olunmuş, Azərbaycan xalqının çörəyini yeyən, Xəzər hərbi dəniz donanmasının komandanı, Azərbaycan SSR Ali Sovetinin deputatı Lyaşenko: "Beş-on nəfər ekstremist ölüb" - dedi.

Admiral bizimlə daha mübahisə etmədən harasa zəng çaldı və sonra dedi ki, general Dubinyak çox məşğuldur. Siz mənə etibar edin, tələbinizi general Dubinyaka çatdıraram.

Admiral V.V. Sİdorovla söhbətimiz çox çəkmədi. Bizim cavabımızı dəniz- çilər gözləyirdilər. Söhbət əsnasında hiss etdik ki, ölümlə üzbəüz dayanmışıq. Hərbçilərin hansısa gizli planlarına mane oluruq.

Tez-tez Sidorov bizim limanı tərk etməyimizi tələb edirdi. Hər dəqiqə hədələyirdi. Necə olursa-olsun, bizə ötən gecədəki məğlubiyyətini bağışlamayacağını bildirirdi. Cavabımız isə qəti oldu: "Bütün dənizçilər ölümə hazırdır. Tələbimiz yerinə yetirilməsə, buxtanın mühasirəsini açmayacağıq" dedik və hərbi qərargahı tərk etdik...

Nümayəndələr admiral V.V.Sİdorovun yanından gələndən sonra kapitanlar özlərinin ikinci gizli iclaslarını keçirmək qərarına gəldilər. Sabah şəhidlərin dəfn mərasimi olacaqdı. Artıq şəhərdəki bütün hadisələrdən xəbəri- miz vardı. Hərbçilər yeni-yeni cinayətə əl atırdılar. Yanvarın 23-də bizə xəbər gəldi ki, şəhidlərin dəfn günündən sonra dənizçilərin nümayəndələrini Ali Sovetin Rəyasət Heyətinin sədri Elmi¬ra Qafarova qəbul edəcək. Odur ki, gizli iclasda Ali Sovetə getmək üçün 7 nəfərdən ibarət nümayəndə heyəti - Müzəffər Əliyev, Mövlud Əliyev, Ağalar İbrahimov, İbrahim Salayev, Y.N. Radçenko, R. Əfəndiyev və bu sətirlərin müəllifi seçildik. Gəmilərdən Sovet bayrağını endirmək və yerinə matəm bayrağı qaldırmaq, həmçinin dənizçilərin tətil komitəsini yaratmaq qərarı qəbul edildi. Saat 10.00-da 8 nəfərdən ibarət nümayəndə heyəti Ali Sovetə yola düşdük.

Nümayəndə heyətinin tərkibində mərhum Ağası Hacıyev də vardı. Onu dənizdə buruq tikinti idarəsinin rəisi, gözəl insan, yaxşı mütəxəssis kimi tanıyırdım. Axır vaxtlar Ağası müəllim birliyin nəqliyyat üzrə rəis müavini işləyirdi. Hadisənin ilk günlərindən bu vətənpərvər insan dənizçilərlə həmrəy olur, bizimlə tez-tez telefon əlaqəsinə girirdi. İndi o da bizimlə birlikdə Ali Sovetə gedirdi.

Şəhidlərimizin qızıl qanı tökülmüş yerlərdə, yol boyu düzülmüş qərənfillərə baxırdıq. ilahi, Şəhidlər Xiyabanına kimi nə qədər qərənfil düzülmüşdü!.. Şəhər ölü sükutuna dalmışdı. Küçələrdə heç bir gediş-gəliş yoxdu. Tinlərdə və meydanlarda əli avtomatlı əsgərlər, tanklar və ZTR-lər dayanmışdı. Radio və telestudiya tamamilə əsgərlər tərəfindən mühasirə olunmuşdu. Biz Ali Sovetə çatanda Ağası müəllim dedi: "Çağırılmamış qonaqlar heç gedənə oxşamırlar."

Elmira Qafarovanın yanına qalxdıq. Ağası müəllim birinci mərtəbədə bizi gözləməli oldu. Elmira Qafarova qara paltarda bizi iş otağının yanında qarşıladı. Bir-bir hamımızla görüşdü. Bildirdi ki, sizin tələblər Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyasının qərarında öz əksini tapıb. Daha sonra Elmira xanım bildirdi ki, hər şey hərbçilərin əlindədir, onun özünə normal şəkildə işləməyə belə imkan vermirlər. Elmira Qafarovanın iş otağında SSRİ xalq deputatları Tofiq İsmayılov, Arif Məlikov, A. Əmənov, Şeyxülislam Allahşükür Paşazadə və adını bilmədiyim bir azərbaycanlı qadın var idi. O qadın bizi bir-bir öpür və ağlayırdı. Tofiq İsmayılov bizi qucaqlayaraq: "Çox sağ olun, qırğının qarşısını ala bildiniz, o qanlı gecədən sarsılmış xalqın itirilmiş inamını özünə qaytardınız", - dedi və əlavə etdi: "Gəmiləri batırmaq, ya da yandırmaq lazım deyil, gec-tez ruslar gedəcək, donanma isə bizimdir."

Bu vaxt telefon zəng çaldı. Arif Məlikov telefon dəstəyini götürdü, dinlədi və cavab verdi: "Грошь цена вашей армии, что не может поймать одного экстремиста", - deyərək, dəstəyi yerinə qoydu. Sonra üzünü Elmira xanıma tutaraq dedi: "Yazovdur, deyir ki, Salyan kazarmasının qarşısında bir ekstremist var, bizim əsgərlərə güllə atır."

Həmişə televizor ekranında həlim gördüyüm dünya şöhrətli bəstəkarın qaniçən imperiyanın hərbi nazirinə belə sərt cavabı məni heyran etdi. Əgər bu xalqın bəstəkarı, qandan doymayan qoca hərbi nazirə belə ca¬vab verirsə, onda xalqın məğlub olmağa haqqı yoxdur. Arif müəllim yuxusuzluqdan çox yorğun görünürdü. O, ağlayan anaya dedi: "Bu qəhrəmanlara çay verin."

Sonra yuxarı mərtəbədə biz çay içə-içə söhbətimizi davam etdirdik. Burada təklif etdik ki, Ali Sovetin bir qrup deputatı Bayılda hərbi qərargahı və hərbi gəmilərin anbarlarını təcili yoxlasın. Ola bilsin ki, meyitləri orada gizlədiblər. Elmira xanım məsləhət etdi ki, tələbinizi həyata keçirməyi hələlik saxlayın, çünki Ali Sovetin Fövqəladə Sessiyası davam edir. Ona görə də gəmilərdən birini yanvar 21- də yandırmaq məsələsini müvəqqəti dayandırdıq.

Elmira Qafarovanın iş otağından çıxanda o bizimlə həmrəy olduğunu bildirdi və deputat qrupu ilə əlaqə saxlamağımızı tövsiyə etdi. Bizi yuxarı mərtəbədə jurnalistlər gözləyirdilər. Burada Ramiz Fətəliyevi də gördük. Rusdilli jurnalistlərin bir sıra suallarına cavab verdik.

Ali Sovetdən çıxanda deputatlardan Arif Məlikov, Şeyxülislam Allahşükür Paşazadə, Tofiq İsmayılov və "Babazadə" gəmisinin kapitanı Müzəffər Əliyev elə oradanca general

Yazovun yanına getdilər. Qalan nümayəndələrlə biz "Sabit Orucov" gəmisinə qayıtdıq. Saat 16.30-da bizə bildirdilər ki, idarəmizin baş mühəndisi Gülhüseyn Bağırov Xəzər hərbi dəniz donanmasının komandanın yanında danışıqlar aparmaq üçün sizi gözləyir.

"Biz Ali Sovetdən hansı xəbərlə gəldiyimizi dənizçilərə çatdırmamış nə danışıqlar aparırlar?" - deyə ora getmək istəmədik. Dənizçilər belə qərara gəldilər ki, yenə həmin nümayəndələr admiral V.V. Sidorovla görüşə getsinlər. Biz - yəni Mövlud Əliyev, Kişi Mütəllimov, İbrahim Salayev, Ağası Hacıyev və mən yeni görüşə getməli olduq. 18.20-də hərbi qərargaha daxil olduq. Bura elə bil köçkünlər məntəqəsi idi. Minlərlə qadın, uşaq və qoca var idi. Dəstə ilə gedən-gələn uşaqlar, qadınlar ağlaşırdılar. Bizi elə yerlərlə aparırdılar ki, sanki bu mənzərəni gözümüzə soxmaq istəyirdilər. Başdan-ayağa silahlı əsgərlər elə bil bu saat bizi güllələyəcəkdilər. Adamı dəhşət bürüyürdü. Yenə Ağası müəllim dedi:

Görəsən, biz buradan sağ və salamat qayıda biləcəyikmi?

18.30 radələrində bizi komandirin otağına gətirdilər. Gülhüseyn Bağırov, Qulu Ağayev və SSRİ Hərbi Dəniz Donanmasının komandanı admiral V.V. Sidorov orada idilər. Bəli, mənimlə dəfələrlə "əlaqə"yə girən qoca köpək bu idi. Enlikürək, iki metrə qədər boyu olan bu admiral bizi başdan-ayağa süzərək, birinci dəqiqədən hədə-qorxu ilə sözə başladı. Yanvarın 23-nə qədərki hərəkətlərimizi cinayət adlandırdı və cinayət məcəlləsinin bir neçə maddəsini oxuyaraq, bizi 9 ildən 15 ilə qədər həbsə alacaqlarını bildirdi. Daha sonra qeyd etdi ki, guya gəmilərin birində 2 çəllək yanacaq /hərəsi 5 tonluq/ olub, məqsədimiz isə bu olub ki, o çənləri yandırıb gəmini yana-yana hərbi bazaya sürək, bütün hərbi gəmiləri partladaq. Guya indi həmin çənlər olan gəmini gizlətmişik. Bundan əlavə, "Aleksey Kortunov", ya da "Sabit Orucov" sərnişin gəmisinin göyərtəsində əli avtomatlı "boyevik"lər olub, hərbçilər onların şəkillərini çəkiblər. Qəti etiraz etdik ki, bu bizə qarşı fitnəkarlıqdır, biz-. də elə bir şey olmayıb. Tələb etdik ki, sübut etsinlər. O isə: "Bəli, lazım gəlsə hər şeyi sübut edərik", - deyə "Sabit Orucov" gəmisinin kapitanına 15 il, "ÜİLKGİ-nin 40 illiyi" gəmisinin kapitanına - yəni mənə güllələnmə kəsdirəcəyinə söz verdi. Mən Mövludun üzünə baxdım:

Deyəsən, bu faşist bizi tanımır?

Mövlud: - Niyə? - sualını verdi.

Mən admiralam, onlara gecə "əlaqə" ilə xəbərdarlıq etdim ki, hərbi gəmiləri təqib etməsinlər, onlar nəinki məni eşitmədilər, hətta "OİLKGİ-nin 40 illiyi"nin kapitanı məni kobud söyüşlərlə söydü - deyə admiral daha da əsəbiləşdi.

Man "Yoldaş admiral" "əlaqə"də siz görünmürdünüz!.." - dedim.

"Axı, mən danışıq vaxtı özümü təqdim etdim ki, sizinlə danışan admiral Sidorovdur!"

Görünür, admiralın Bakıda tökdüyü qanlardan xəbəri yox idi, ya da elə bilirdi ki, nə istəsələr edə bilərlər.

Bakılı kontr-admiral telefonu götürüb kiminləsə danışdı: "Bəli, kapitanlar buradadırlar", - dedi. Sonra üzünü admiral V.V. Sidorova tutaraq:

Bakı sovetinin sədri Rüfət Ağayevdir. Çox yaxşı oğlandır, - dedi və Rüfət Ağayevi təriflədi.

Sözünün axırında general Yazovun onu möhkəm hədələdiyini və bizim gəmilərin fitinin onu zara gətirdiyini bildirdi:

Yazov mənə əmr edib ki, gəmilərin səsi kəsilməsə, səni hərbi tribunala verəcəyəm, - dedi. Ona görə də biz Bakı buxtasında ayın 23-ü saat 24.00-da fövqəladə vəziyyət elan edirik. Gəmilərinizi batıracayıq, - deyərək dişlərini qıcadı.

**"Xural".-**2011.-9-15 yanvar.-N.1.-S.7,16-22 yanvar.-N.2.-S.7.

## Xalqımızın azadlıq mübarizəsinin qanlı səhifəsi

**Əliqismət Bədəlov**

**1990-cı ilin 20 yanvarında Bakı şəhərində və Azərbaycanın bir sıra rayonlarında başda Mixail Qorbaçov olmaqla Sovet imperiyasının həyata keçirdiyi amansız qırğını xalqımız heç vaxt unutmayacaq. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə başdan-ayağa ən müasir silahlarla silahlanmış sovet ordusu Azərbaycan xalqına qarşı misli görünməmiş cinayət törətdi. Qabaqcadan planlaşdırılmış və düşünülmüş bu hərbi müdaxilə nəticəsində yüzlərlə günahsız insan öldürüldü, ağır bədən xəsarəti aldı və həbs olundu. SSRİ adlı dövlət öz vətəndaşlarına - əliyalın mülki əhaliyə, o cümlədən uşaqlara, qadınlara, qocalara silah qaldırdı. İstiqlaliyyət, azadlıq, müstəqillik arzusu ilə öz haqq səsini qaldıran, Vətənin ərazi bütövlüyü uğrunda mübarizə aparan, millətlər arasında ayrı-seçkiliyə son qoyulması tələbi ilə küçə və meydanlara çıxan insanlar güllələbaran edildi.**

...1987-ci ildə Heydər Əliyev hiylə və məkrlə SSRİ-nin rəhbərliyindən uzaqlaşdırıldıqdan sonra Azərbaycana qarşı torpaq iddiasında olan erməni şovinistləri xeyli fəallaşdılar. Sən demə, onlar tarixi şəxsiyyət Heydər Əliyevin nüfuzu, ad-sanı, müdrikliyi qarşısında aciz imiş və xəbis niyyətlərini həyata keçirməyə cürətləri çatmırmış. 1988-ci ildən başlayaraq, Azərbaycana qarşı ərazi iddialarını açıq şəkildə büruzə verən erməni şovinistləri öz niyyətlərini gerçəkləşdirmək üçün SSRİ-nin o vaxtkı rəhbəri M. Qorbaçovla da qabaqcadan sövdələşmə aparıblarmış. Onlar Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün min oyundan çıxır, guya bu ərazilərin tarixən onlara mənsub olması barədə hər cür yalana, böhtana, saxtakarlığa əl atırdılar.

Millətlər arasında ayrı-seçkilik, ədavət toxumu səpən M. Qorbaçov ermənilərə havadarlıq edir, Azərbaycan torpaqlarının ermənilər tərəfindən işğalına şərait yaradırdı. Vəziyyətin getdikcə daha kəskin xarakter aldığını görən, Azərbaycanın o vaxtkı rəhbərliyinin xəyanətkar siyasət yeritdiyini və cəsarətsizlik, qorxaqlıq nümayiş etdirdiyini hiss edən xalqın qəzəbi, hiddəti aşıb-daşırdı. Vətənin bir qarış torpağını nankor qonşularımıza qıymayan xalq bu ədalətsizliyə, haqsızlığa dözməyərək "Torpaqdan pay olmaz" - deyərək öz haqq səsini qaldırdı. Konstitusiya hüquqlarının kobud şəkildə pozulmasına ciddi narazılığını bildirən insanların etiraz dalğası getdikcə daha geniş vüsət alırdı. Bu etiraz səsi, nəhayət, Kremli silkələdi və M. Qorbaçov vəziyyətdən çıxış yolunu əliyalın xalqın üstünə 35 minlik ordu yeritməkdə tapdı.

M. Qorbaçov Azərbaycan xalqına divan tutmaq, onun haqq səsini zorla, silah gücünə boğmaq üçün SSRİ Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizlik Komitəsinin, həmçinin, "ALFA" və SSRİ DTK-nın "A" təxribat qruplarının xüsusi hazırlıq keçmiş qoşunlarından istifadə etdi. Bu dəhşətli hərbi cinayəti həyata keçirmək üçün DTK"təxribat maşını" işə salındı. Bakıda hərbi xidmətdə olan rus zabitlərinin ailələri qabaqcadan ölkədən çıxarıldı və süni surətdə "rus qaçqınları" problemi yaradıldı.

Sovet imperiyasının hər bir tapşırığını can-başla yerinə yetirən Azərbaycanın o vaxtkı rəhbərliyi xalqı aldadaraq deyirdi ki, Bakıya heç bir ordu hissələri yeridilməyəcək. Özlərini milli azadlıq hərəkatının liderləri adlandıran Rəhim Qazıyev, Etibar Məmmədov, İsa Qəmbər, Nemət Pənahlı bu məsələdən qabaqcadan xəbərdar olsalar da, küçə və meydanlarda etiraz səsini qaldıran insanları bu barədə məlumatlandırmadılar.

Bu barədə sonradan Azərbaycan Xalq Cəbhəsinin fəallarından biri Zərdüşt Əlizadə açıqlama yaymışdır. O, həmfikirlərinin gözləmə mövqeyində olduqlarını bildirmişdi. Xalqın küçə və meydanlardan dağılmasına hər vasitə ilə mane olan, onlara yalan məlumatlar verən milli azadlıq hərəkatının "liderləri" yanvarın 19-dan 20-nə keçən gecə qaçıb aradan çıxdılar.

M. Qorbaçovun bilavasitə göstərişi ilə güc nazirləri Yazov, Bakatin və Kryuçkovun başçılıq etdikləri sovet ordusunun kontingenti 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə heç bir xəbərdarlıq edilmədən qəflətən Bakıya yeridildi. Kommunist diktaturası 1956-cı ildə Macarıstana, 1968-ci ildə Çexoslovakiyaya və 1979-cu ildə Əfqanıstana qarşı cinayətkar hərbi təcavüzü 1990-cı ildə Azərbaycan xalqına qarşı törətdi. Bu cinayət öz qəddarlığına görə əvvəlkilərdən tamamilə fərqlənirdi. Çünki Azərbaycana göndərilən qəddar və peşəkar cəza dəstələrinin tərkibində erməni əsgər və zabitləri çoxluq təşkil edirdilər. Stavropol, Krasnodar, Rostov və digər yerlərdən səfərbərliyə alınan, hətta Azərbaycandakı sovet hərbi hissələrində xidmət edən erməni əsgər və zabitlərinin əliyalın xalqın üzərinə göndərilməsi qabaqcadan planlaşdırılmışdı. Sovet imperiyasının milli münaqişələri silah gücünə "tənzimləməkdə" "böyük təcrübə" qazanmış ordusu öz qəddarlığını Azərbaycan xalqından da "əsirgəmədi".

Yanvarın 19-dan 20-nə keçən gecə səhərədək Bakı küçələrində ağır texnikanın, tankların, zirehli maşınların, iri çaplı pulemyotların, avtomatların səsi kəsilmədi. Həmin gecə qəflətən işıqlar söndürüldü və öz dövlətindən qəddarlıq, amansız rəftar, gülləbaran gözləməyən əhali projektorların gur işıqları altında çaş-baş qaldılar və xüsusi amansızlıqla qətlə yetirildilər. Maskalanmış quduz imperiya əsgər və zabitləri beynəlxalq hüquq normalarına belə əhəmiyyət vermədən qadınları, uşaqları, qocaları, hətta yaralıların köməyinə gələn tibb işçilərini, təcili tibbi yardım maşınlarını da gülləbaran edirdilər. Bir anın içərisində küçə və meydanlar günahsız insanların qanına boyandı. Qanlı cinayət başa çatdıqdan sonra azğınlaşmış ordu hissələri tələm-tələsik şəhəri tərk etmiş, fövqəladə vəziyyət barədə fərman elan olunmuş və Bakıda "qayda-qanunu bərpa etmək" adı ilə yeni nizami ordu hissələri şəhərə yeridilmişdi. Bu qanlı cinayətin üstünü ört-basdır etmək məqsədi ilə yanvarın 20-də əhaliyə küçəyə çıxmaq qadağan olunmuşdu.

Azərbaycanda törədilmiş dəhşətli faciənin ört-basdır edilməsi, beynəlxalq ictimaiyyətə ətraflı məlumat verilməməsi üçün bütün vasitələrə əl atan sovet rejimi kütləvi informasiya vasitələrini də susdurmuşdu. Hərbi cinayətdən bir gün qabaq televiziyanın enerji blokunun partladılmasında da əsas məqsəd sonra törədiləcək qanlı hadisə barəsində məlumat yayılmasının qarşısını almaq olmuşdur.

Həmişə çətin məqamlarda xalqının köməyinə çatan, ürəyi millətinin, Vətənin yanında olan müdrik siyasi xadim, türk dünyasının lideri Heydər Əliyev bu dəfə də xalqın səsinə səs verdi. O vaxtlar Moskvada ciddi nəzarət altında olan, ağır vəziyyətdə yaşayan ulu öndər Heydər Əliyev 1990-cı il yanvarın 21-də Azərbaycan nümayəndəliyinə gələrək bu dəhşətli faciə ilə əlaqədar dünya ictimaiyyətinə məlumat verdi. Azərbaycan xalqına başsağlığı verdi. Azərbaycanda baş vermiş hadisələrin hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab etdiyini qətiyyətlə bildirdi. Ulu öndər həmin tarixi çıxışında dedi: "Hesab edirəm ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur. Təəssüf ki, Azərbaycan rəhbərliyi,həmçinin ölkənin ali siyasi rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir. Sərhədlərə edilən təcavüzü vaxtında aradan qaldırmaq mümkün idi. Axı, camaat sərhəd zolağı ilə bağlı tələblərini üç ay əvvəl irəli sürmüşdü. Fəqət, heç kəs onlarla görüşmək, izahat işi aparmaq və lazımi ölçü götürmək istəməmişdir. Təkrar edirəm: camaatı sakitləşdirmək üçün də imkanlar tükənməmişdi. İki-üç ay əvvəl Azərbaycan partiya rəhbərliyinin möhkəmləndirilməsi məsələsi həll edilsə idi, vəziyyət gərginləşməz, ordu yeridilməsinə zərurət yaranmazdı. Bütün vəziyyətlərdə hesab edirəm ki, məsələni siyasi cəhətdən tənzimləmək, xalqla mükaliməyə girmək üçün əlverişli imkanlar olmuşdur. Lakin onlardan səmərəli istifadə edilməmişdir. Nəhayət, yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun, SSRİ Daxili İşlər Nazirliyinin böyük kontingenti Bakı şəhərinə yeridilmişdir. Nəticəsi göz qabağındadır. Bunun törətdiyi faciələr hamımıza məlumdur".

1993-cü ildə xalqın çoxsaylı müraciətindən sonra yenidən Azərbaycana rəhbərlik edən ulu öndər Heydər Əliyev ilk növbədə ölkədə yaranmış anarxiya və özbaşınalığın qarşısını aldı. Tədricən ölkədə nizam-intizam yaradıldı, ictimai-siyasi sabitlik təmin edildi. Xalqın gələcəyə olan inamı, ümidi getdikcə artdı. Heydər Əliyevə qədər Azərbaycana rəhbərlik edənlərin heç biri 1990-cı il yanvarın 20-də xalqımızın başına gətirilmiş bu dəhşətli faciəyə hüquqi-siyasi qiymət verilməsi, qanlı olayın törədilməsinin əsl səbəbləri, günahkarların adının açıqlanması barədə düşünən olmamışdı. Həmin dövrdə ölkəyə rəhbərlik edən Ə. Vəzirov, A. Mütəllibov və AXC-Müsavat cütlüyü yanvar hadisələrinin törədilməsində həqiqi günahkarların aşkar edilməsinin, bu barədə xalqa məlumat verilməsinin üstündən sükutla keçmişlər.Bütün bunlar ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra reallaşdı. İlk dəfə Heydər Əliyev 1994-cü il yanvarın 5-də 20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında fərman imzaladı. Bu fərmanın 2-ci bəndində Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunurdu ki, 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət versin və bu məqsədlə Milli Məclisin xüsusi sessiyasının keçirilməsi məsələsinə baxsın.

1994-cü il martın 29-da 1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr Milli Məclisdə geniş müzakirə edilmiş və 9 bənddən ibarət qərar qəbul olunmuşdur. Həmin qərarda göstərilir ki, sovet qoşunlarının Azərbaycana qanunsuz yeridilməsi nəticəsində Bakıda və respublikanın rayonlarında 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdur. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdir. Bu hərbi təcavüz nəticəsində Azərbaycan SSR Konstitusiyası, Azərbaycan Respublikasının suveren hüquqları pozulmuşdur.

Qərarın 2-ci bəndində yazılır: "İşğalçılıq siyasəti ilə Azərbaycanın suverenliyinə qəsd etmiş, xalq hərəkatını boğmaq üçün bədnam kommunist ideologiyası libasında köhnə imperiya iddialarını həyata keçirmək məqsədilə 20 Yanvar faciəsini təşkil etmiş Sovet İttifaqı Kommunist Partiyası, sovet dövləti və hökuməti rəhbərliyinin, şəxsən Mixail Qorbaçovun Azərbaycan xalqına qarşı ağır cinayət törətdiyi qeyd olunsun".

Bununla yanaşı, xalqın azadlıq hərəkatını boğmaq məqsədilə sovet qoşunlarının Azərbaycana çağırılmasına və xalqa qarşı yönəldilməsinə razılıq verən, vətəndaşların əmin- amanlığını təmin etməyən, hakim mövqelərini qorumaq naminə öz xalqının qanının axıdılmasına yol verən Əbdürrəhman Vəzirovun təcavüzün birbaşa təşkilatçısı və iştirakçısı olduğu, Ayaz Mütəllibovun, Viktor Polyaniçkonun, Vaqif Hüseynovun bilavasitə bu cinayətdə iştirak etmələri, bununla da Azərbaycan xalqına xəyanət etdikləri qərarda öz əksini tapıb.

Ulu öndər Heydər Əliyev 20 Yanvar faciəsində şəhid olanların ailələrinin, yaralananların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm əhəmiyyətli fərmanlar imzalamışdır.

Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev Vətən uğrunda şəhid olan, əmək qabiliyyətini itirən insanlara dövlət tərəfindən təyin edilmiş sosial müavinətlərin artırılması barədə qərarlar qəbul etmiş, onların həyat tərzinin daha da yaxşılaşdırılması ilə əlaqədar mühüm əhəmiyyət kəsb edən tədbirlər həyata keçirmişdir. Belə nəcib və kövrək insanları daim diqqət mərkəzində saxlayan ölkə Prezidenti canlarını Vətən yolunda qurban vermiş insanların, 20 Yanvar şəhidlərinin heç vaxt unudulmayacağını xüsusi vurğulayaraq demişdir: "Azərbaycan xalqı bu günü heç vaxt yaddan çıxarmayacaq və gələcəkdə də hər il bu gün qeyd olunmalıdır. Azadlıq, müstəqillik uğrunda, Vətən uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxarılmamalıdır".

**“Xalq qəzeti”**.-2011.-20 yanvar.-N 14.-S.1,4.

## "Əbədiyyət simfoniyası"

**Oqtay Oruclu**

### Güllə işığı ilə aydınlanan gecə

Bu gün kiçikdən-böyüyəcən hamımız şəhidlərimizin məzarını, onların müqəddəs ruhlarını yad etdiyimiz günləri yenidən yaşayırıq. İllərdir Şəhidlər xiyabanına, o günahsız insanların dəfn olunduqları məzarıstana axışıb gələn insan seli birliyimizin təsdiqini bir daha nümayiş etdirir.

20 Yanvar - xalqımızın şərəf günlərindən biri...

O gecə küçələri boyamış al şəhid qanları milli məfkurəmizin oyanan günəşini simvolizə edir. Xalqımız həmin gün üstünə zəhərli ilan tək hücum çəkən sovet qoşunlarına qarşı sinəsini verməyi, özünün mənliyini və mətinliyini nümayiş etdirməyi bacardı. Bu onu göstərdi ki, millətimiz azadlıq mübarizəsinə qalxmaq, pozulmuş hüquqlarının bərpa olunması uğrunda döyüşmək əzminə sahibdir.

O səhər anam, atam, alimim, şairim, həkimim, fəhləm ağlayırdı - Millətim ağlayırdı. Ancaq bu ağlamaq başqa ağlamaqlara bənzəmirdi. Bu göz yaşı millətin paklıq, aydınlanma yaşıydı. Bu göz yaşında şəhidlərin ruhu "yuyulurdu". O soyuq səhər tamam başqa SƏHƏR idi.

1990-cı ilin qanlı yanvar gecəsi böyük bir xalqın milli mənlik şüurunun məhv edilməsinə, onun dövlətçilik tarixi boyunca əyilməz, şahanə qürurunun sındırılmasına yönəldilən barbarcasına atılmış, düşünülmüş bir addım idi. Yüzlərlə günahsız qurban verdiyimiz həmin gecə bizi daha da mətinləşdirdi, sərtləşdirdi. Bizi bir xalq, bir millət olaraq daha sıx birləşdirən ümumi kədərimizdən, ümumi dərdimizdən müqəddəs bir and yerimiz yarandı: ŞƏHİDLƏR XİYABANI!

Artıq 21 ildir xalqımızın tarixinə qara hərflərlə yazılmış 20 Yanvar faciəsinin ildönümlərini böyük hüzn və kədərlə qarşılayır, yola salırıq. O qanlı, müdhiş gecədən bizi kifayət qədər uzun zaman ayırsa da, xalqımız o dəhşətli yaşantını bircə an da olsun yaddan çıxarmır. O il doğulan uşaqlar artıq yeniyetmə gəncdirlər. Torpaq uğrunda canlarından keçə biləcək, ya şəhid, ya qazi olmağa hazır cəngavərdirlər. Faciəmizin qan yaddaşımızdan silinməməsi, belə dəhşətli hadisələrin bir daha təkrarlanmaması üçün öz milli varlığımızı, gücümüzü, yenilməz xalq olduğumuzu düşmənə sübut etməliyik.

Bu gün kiçikdən-böyüyəcən hamımız şəhidlərimizin məzarını, onların müqəddəs ruhlarını yad etdiyimiz günləri yenidən yaşayırıq. İllərdir Şəhidlər xiyabanına, o günahsız insanların dəfn olunduqları məzarıstana axışıb gələn insan seli birliyimizin təsdiqini bir daha nümayiş etdirir.

Xoşməramlı, sülhsevər bir ölkənin azadlıq, müstəqillik ideyalarına qarşı açıq-aşkàr müharibə elan edənlərin mənfur niyyətləri, həyata keçirdikləri irimiqyaslı qanlı qırğından hər kəs çoxdan xəbər tutsa da, susmağa, gördüklərini görməzliyə vurmağa üstünlük veriblər.

Qonaq getdiyimiz yerə apardıgımız qərənfillər də o gün öldü. Ləkələndi. Gül də şəhid oldu. Lakin hər ilin 20 Yanvarında Şəhidlər xiyabanına üz tutan ziyarətçiləri gün ərzində müşayiət edən həzin, kədərli milli musiqimiz matəm musiqisi kimi ürəklərimizi parçalayır. Bəli, bunlar hər il təkrar olunur. Nə qədər ki, şəhidlərimizin qanı alınmayıb, bu göz yaşları axacaq...

Azərbaycanımızın qan yaddaşına əbədi yazılmış matəm günlərimizin xatirinə bir diləyim var. Bu günlərin xatirəsinə "Əbədiyyət simfoniyası" bəstələnsin - bir himn kimi! Bu himni uşaqdan-böyüyə hər kəs əzbər bilsin və var səsiylə oxusun!

Təsəvvür edin ki, televiziya ilə elan olunur: - "Sabah, yanvar ayının 20-də gündüz saat 12.00-da Şəhidlər xiyabanında şəhidlərimizin ruhuna "Əbədiyyət simfoniyası" ifa olunacaq. Bu himn qəlbində vətəndaşlıq yanğısı olan hər bir azərbaycanlının dilində səslənməlidir!"

Bir anlığa təsəvvür edin. Gözlərinizin önünə gətirirsinizmi?! Sükut əvəzinə, sonsuz izdihama qoşulan insanlar deyilən vaxtda şanlı heykəllərə dönərək böyük ehtişamla bu himni səsləndirir, gəmilərin fiti nəhəng izdihamın səsinə səs verir. Bu qan coşduran birlik, həmrəylik simfoniyasının səsi bütün Bakını ayağa qaldırır. Evlərdə, küçələrdə olan bütün insanlar bir andaca ayaq saxlayır, yumruqlarını düyünləyərək başları üzərinə qaldırırlar. Bütün şəhər, bütün Azərbaycan, bütün Türk dünyası həmin an "Əbədiyyət simfoniyası"nı ifa edir və bu səsi təkcə dostlarımız eşitmir, düşmənlərimizin qulaqlarında da uğuldayan bu himnin sədaları onları da təşvişə salır, qorxudaraq lərzəyə gətirir. Bu himn onların bizdən oğurlayaraq zorla özlərininki etmək istədikləri xalq mahnılarına bənzəməz. Çünki bu himn bizim üçün "Əbədiyyət simfoniyası", onlar üçünsə ölüm hökmü olacaq!

Milli birliyimiz, milli qurtuluşumuz bu himni səsləndirməyimizlə başlanmalıdır! "Əbədiyyət simfoniyası"nın tezliklə bəstələnib səsləndirilməsi ümidiylə.

**"Zaman"**.-2011.-20-21 yanvar.-N.8.-S.8.

## 20 Yanvar - Azərbaycan xalqının qəhrəmanlıq salnaməsi

1990-cı ilin 20 Yanvar hadisələrindən 21 il ötür. Vaxt keçdikcə, o qanlı faciədən zaman kontekstində uzaqlaşdıqca, qanlı Yanvar hadisələrinin səbəbləri, bu hadisələrin günahkarları, onlara yardım edənlər, verilmiş yanlış qərarlar və onların törətdikləri ağır fəsadlar, üzləşdiyi bütün haqsızlıqlara və ədalətsizliklərə baxmayaraq, Azərbaycan xalqının göstərdiyi böyük qəhrəmanlıqlar haqqında dolğun və əhatəli fikir yürütmək daha asan olur. Ona görə də, 21 il sonra qanlı 20 Yanvar hadisələrinin ildönümü ərəfəsində yenidən bu hadisələri təhlil etmək, onu düzgün qiymətləndirməklə, həm xalqımızın tarixində çox mühüm əhəmiyyəti olan bu məşəqqətli olaylara yenidən nəzər salırıq, həm də bu qəhrəmanlıq salnaməsinin müəlliflərini - şəhidlərimizin xatirəsini yad edirik.

### Qanlı yanvar gecəsi...

1988-ci ildə Dağlıq Qarabağda baş qaldırmış erməni separatizminə Kreml rəhbərliyi tərəfindən rəvac verilmişdi. 1989-cu ildə SSRİ Ali Sovetinin qərarı ilə DQMV-də yaradılmış Xüsusi İdarə Komitəsinin Azərbaycana qarşı qərəzli mövqeyi vəziyyəti daha da gərginləşdirmiş və Muxtar Vilayətin idarə-müəssisələrinin tədricən Azərbaycanın tabeçiliyindən çıxarılmasına səbəb olmuşdu. 1990-cı il yanvarın 13-15-də SSRİ Təhlükəsizlik Komitəsinin Sumqayıt ssenarisi əsasında ermənilərin öz əli ilə “erməni talanları” törətməsi vəziyyəti daha da mürəkkəbləşdirmişdi. Nəhayət, 1990-cı ilin əvvəlində Kreml Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə qarşı çıxan Azərbaycan xalqını cəzalandırmaq üçün qanlı yanvar qırğınını törətdi.

1990-cı il yanvarın ortalarında SSRİ Müdafiə və Daxili işlər nazirliklərinin, habelə başqa xüsusi təyinatlı hərbi birləşmələrin 66 min nəfərdən çox əsgər və zabiti Bakı şəhərinə gətirilərək, Qala və Nasosnu (indiki Z.Tağıyev qəsəbəsi) aerodromlarında, Respublika stadionunda, Salyan kazarmasında yerləşdirilmişdi. Azərbaycana göndərilən ordu hissələrinin tərkibinə Stavropol, Rostov və Krasnodardan səfərbər edilmiş erməni zabit və əsgərləri, hərbi məktəblərdə təhsil alan erməni kursantları da cəlb edilmişdi. Respublikaya gətirilmiş hərbi qüvvələrin, əməliyyatlara rəhbərlik etmək üçün Bakıya gələn 300-dən artıq yüksək rütbəli zabit və generalların ərzaq təminatı, nəqliyyatla, yanacaqla təmin edilməsi respublika büdcəsindən ödənilirdi.

15 yanvar 1990-cı ildə SSRİ Ali Sovetinin sədri M.Qorbaçov DQMV-də və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzalamış, həmin fərmanın 7-ci bəndində Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinə Bakı və Gəncə şəhərində və digər yaşayış məntəqələrində qadağan saatı tətbiq edilməsi də daxil olmaqla hər cür lazımi tədbirlər görmək təklif edilmişdi. Lakin buna baxmayaraq, SSRİ Ali Sovetinin Rəyasət Heyəti yuxarıda qeyd olunan fərmanın ziddinə olaraq 1990-cı il yanvarın 19-da Azərbaycan SSR Ali Sovetinin hüquqi qüvvəsi olmayan 15 yanvar tarixli saxta qərarına əsasən yanvarın 19-dan 20-nə keçən gecədən etibarən “Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında” fərman qəbul etmişdi. Müəyyən edilmişdi ki, bu fərmanı imzalamaqla keçmiş SSRİ-nin rəhbəri M. Qorbaçov İttifaq Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozmuşdu.

Yanvarın 19-da SSRİ DTK-nın “Alfa” qrupu və respublika DTK-sının rəhbərliyi tərəfindən təşkil edilən əməliyyat nəticəsində respublika televiziyasının enerji bloku partladılmışdı ki, Bakıda fövqəladə vəziyyət elan edilməsi və qoşunun şəhərə girməsi barədə əhaliyə rəsmi məlumat çatdırılmasın. Halbuki, həmin vaxt 26 yerdə piketlər, barrikadalar qurulmuş, şəhərdəki 60 qoşun hissəsindən 34-nün, o cümlədən, Salyan kazarmasının giriş-çıxış yolu kəsilmişdi.

Fövqəladə vəziyyətin yanvarın 19-dan 20-nə keçən gecə tətbiq edilməsinə baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat 21-dən etibarən birinci olaraq Türkan-Qala tərəfdən şəhərə yeridildi. “Bakı əməliyyatı”na rəhbərliyi birbaşa SSRİ müdafiə naziri Dmitri Yazov, SSRİ daxili işlər naziri Vadim Bakatin, SSRİ DTK sədrinin müavini Filip Babkov həyata keçirmişdilər.

Bakı qarnizonunun qoşunları, gətirilən hərbi hissələr, hərbi gəmilərdən çıxarılan desant qrupları şəhər üzərinə hücuma keçmiş. Ağır hərbi texnika çox asanlıqla barrikadaları dağıtmışdı. Şəhərin küçələri güllələnmiş və yaralanmış günahsız adamların - qocaların, qadınların, uşaqların qanına qərq olmuşdu. Hərbçilər təsadüfən küçəyə çıxanları, yaşayış evlərini, təcili yardım maşınlarını atəşə tutur, yaralıları öldürür, meyitləri yandırır, təhqir edir, eybəcər hala salırdılar. Adamları ağır hərbi texnikanın tırtılları altına salır, əzabla öldürürdülər.

Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək Sovet ordusu öz dövlətinin vətəndaşlarına qarşı qəddar cinayət törətmiş, 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışdılar. Müəyyən olunmuşdu ki, “Mülki və siyasi hüquqlar haqqında” 1966-cı il Beynəlxalq Aktın birinci bəndinə əsasən, fərman imzalandığı andan fövqəladə vəziyyətin tətbiqi və müddətləri barədə Bakı şəhərinin əhalisinə rəsmi xəbərdarlıq edilməli idi. Lakin buna qəsdən əməl olunmamışdı. Kütləvi insan qırğını törədildikdən sonra - yəni, 20 yanvar

1990-cı il səhər saat 5.30-da radio vasitəsilə Bakı şəhər komendantı V.Dubinyak fövqəladə vəziyyət tətbiq edildiyi barədə rəsmi məlumatı efirə vermişdi. Halbuki, yanvarın 19-da gecə saatlarında başlanmış hərbi əməliyyatlarda tanklardan və müxtəlif təyinatlı zirehli döyüş maşınlarından istifadə edilmiş, Xəzər hərbi donanmasına məxsus gəmilərdən şəhərə desant çıxarılmışdı. Azərbaycan xalqına qarşı törədilmiş bu təcavüz aktı mərhələ-mərhələ həyata keçirilmiş, şəhərdə qarətlərlə nəticələnən təxribatlar törədilmişdi.

Fövqəladə vəziyyət elan edildikdən sonra da, yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində daha 57 nəfər öldürülmüşdü. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda - yanvarın 25-də Neftçalada 2 nəfər və yanvarın 26-da Lənkəranda 6 nəfər qətlə yetirilmişdi.

Beləliklə, Sovet qoşunlarının qanunsuz yeridilməsi nəticəsində Bakıda və respublikanın rayonlarında 147 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuş, onlardan 112 nəfəri SSRİ-nin müxtəlif şəhərlərinə aparılaraq həbsxanalarda saxlanılmışdı. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən, təcili yardım maşınları dağıdılmış, yandırıcı güllələrin törətdiyi yanğınlar nəticəsində külli miqdarda dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdi. Dövlət, ictimai və şəxsi əmlaka həmin dövrün qiymətləri ilə 5.637.286 rubl miqdarında maddi ziyan vurulmuşdu.

Həlak olanlar arasında yetkinlik yaşına çatmayanlar, qadınlar, qocalar, şikəstlər də var idi. Qabaqcadan düşünülüb hazırlanmış bu təcavüzkarlıq aksiyası Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq, xalqı təhqir edərək ona mənəvi zərbə vurmaq məqsədi daşımışdı. Lakin bütün bunlar Azərbaycan xalqının gözünü qorxutmadı, əksinə, onun Sovet imperiyasına qarşı nifrətini qat-qat artırdı.

Xalqa qarşı Sovet ordusunun qanlı cinayətləri isə hələ bitmək bilmirdi. Qanlı qırğına etirazını bildirmək üçün Bakı buxtasına gəlmiş “Xəzərneftdonanması”nın gəmiləri hərbi gəmilər tərəfindən mühasirəyə alınaraq güllələbaran edilmiş, onlarla dənizçi həbs olunmuşdu. “Sabit Orucov” gəmisi “SOS!” siqnalı ilə bütün dünyaya faciə barədə məlumat vermişdi. Şəhərə dənizdən hücumun qarşısını almaq üçün Azərbaycan dənizçiləri həyatlarını riskə ataraq bütün gəmiləri Bakı buxtasına yığmışdılar. Yanvarın 21-də saat 20.30 radələrində iki hərbi gəminin və iki katerin müşayiəti ilə naməlum yük aparılması haqqında məlumat alan dənizçilər silahlı quldurlarla əliyalın qeyri-bərabər mübarizəyə girişmişdilər. Sovet hərbi gəmilərindən açılan atəş nəticəsində “Neftqaz-18”, “Neftqaz-64”, “Aktau”, “Şirvan-2”, “Çeleken-1”, “Atlet-21”, “Vodoley-4” gəmiləri ciddi zədələnmişdi. Qanlı Yanvardan sonra başlanmış kütləvi repressiyalara qəhrəman dənizçilər də məruz qalmışdılar.

Bir sözlə, bu qanlı Yanvar faciəsi Qorbaçovun antiislam və antitürk siyasətini üzə çıxardı. Elə ona görə də, deyə bilərik ki, törədilmiş qanlı cinayətə görə birbaşa olaraq, məsuliyyət daşıyanlardan biri də SSRİ-nin o vaxtkı rəhbəri M. Qorbaçovdur. Amma bu günə qədər onun bu qanlı faciəyə rəvac verən qərarlarına görə, cəzalandırılması baş tutmayıb. Bu gün hər kəsi düşündürən bir məsələ var. Nə üçün Alma-Ata (1986), Tbilisi (1989), Vilnüs (1991) hadisələri 20 Yanvar faciəsi qədər qanlı və genişmiqyaslı olmamışdı? Nə üçün Tbilisi və Vilnüs hadisələri ilə əlaqədar Qorbaçov peşman olduğunu bildirdi, gürcü və Litva xalqlarından üzr istədi, amma Azərbaycanda baş vermiş hadisələrlə əlaqədar isə bunu etmədi?

Qeyd edək ki, tarixə Nürnberq prosesi kimi daxil olmuş beynəlxalq tribunalın qərarı ilə Almaniyanın ali dövlət və hərbi xadimləri dünya və insanlıq əleyhinə qəsd (mülki əhalinin qırılması, onunla qəddar davranış, ictimai və şəxsi əmlakın talanması və s.) hazırlamaqda və həyata keçirməkdə ittiham olunmuşdular. Məhz buna görə, indiyədək dünyanın hər yerində dövlət orqanları və ictimai hərəkatlar bütün rütbə və mənsəblərdən olan nasist cinayətkarları aşkara çıxarır və ədalət məhkəməsinə verirlər. Nürnberq prosesi tarixdə təcavüzü ən ağır cinayət elan etmiş ilk beynəlxalq məhkəmədir. SSRİ və Azərbaycan rəhbərlərinin, habelə 1990-cı ilin yanvarında Azərbaycana soxulmuş Sovet hərbi kontingentinin hərəkətlərində Nürnberq prosesində pislənmiş bütün əlamətlər var. Məhz buna görə də, 20 Yanvar faciəsinin bütün müqəssirləri öz əməlləri üçün xalq qarşısında, ədalət məhkəməsi qarşısında cavab verməlidirlər.

Düşünürük ki, bir zaman gələcək və bu qanlı cinayətin səbəbkarları cəzalandırılacaq, Qorbaçov da əməllərinə görə, Azərbaycan xalqından üzr istəyəcək.

Təbii ki, Qorbaçov bu dəhşətli cinayətə görə, məsuliyyət daşıyan yeganə adam deyil. Məlum olduğu kimi, xalqın tələbi və bir qrup deputatın təşəbbüsü ilə 1990-cı il yanvarın 22-də çağırılan Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyasında respublikanın əksər siyasi və dövlət rəhbərləri iştirak etməmişdilər. Sessiyaya respublika rəhbərlərinin gəlməmələri onların xalqın taleyinə biganə qaldıqlarını, törədilmiş cinayətdə bu və ya digər dərəcədə iştirak etdiklərini göstərirdi. Bu bir həqiqətdir ki, Azərbaycan KP MK-nın birinci katibi Ə. Vəzirov Moskvanın bütün göstərişlərini sözsüz yerinə yetirərək, öz xalqına qarşı ağır cinayətin bilavasitə təşkilatçısı və iştirakçısı olmuşdu. Azərbaycan KP MK-nın ikinci katibi V. Polyaniçko, hökumətin sədri A. Mütəllibov, DTK-nın sədri V.Hüseynov bu cinayətin birbaşa iştirakçıları idilər. Eyni zamanda, Bakı Şəhər

Partiya Komitəsinin birinci katibi M. Məmmədov Bakıya qoşun bölmələrinin yeridilməsinə qarşı tədbirlər görülməməsinə, vətəndaşların təhlükəsizliyinin təmin edilməməsinə görə siyasi məsuliyyət daşıyır. Həmçinin, Azərbaycan KP MK Bürosunun digər üzvləri, hüquq-mühafizə orqanlarının rəhbərləri mənəvi-siyasi məsuliyyət daşıyırlar. Qanlı faciədən sonra onlar nəinki etiraz etmədilər, hətta heç səslərini də çıxarmadılar. Amma Azərbaycan xalqının başına gətirilən bu qanlı faciəyə ilk siyasi-hüquqi qiyməti verən, təhlükələrdən çəkinməyərək Sovet hakimiyyətinin bu əməlinə etiraz edən Ümummilli lider Heydər Əliyev oldu.

**Xilaskarın Moskvada səslənən etirazı**

1990-cı il yanvarın 21-də Sovet rejiminin qadağalarına rəğmən, həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələn Ulu öndər Heydər Əliyev qanlı faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında ittiham etdi, ifşaedici və cəsarətli bir bəyanat verdi. Öz xalqı ilə həmrəylik nümayiş etdirən Ulu öndər bu faciəyə siyasi-hüquqi qiymət verən ilk şəxs kimi tarixə düşdü. “Mən baş vermiş hadisələr haqqında dünən xəbər tutmuşam və təbiidir ki, bu hadisəyə laqeyd qala bilməzdim. Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində, böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim”, deyən Ulu öndərimiz daha sonra qeyd etdi ki, artıq iki ildir ki, Azərbaycan və Ermənistan arasında millətlərarası münaqişə gedir: “Həmin münaqişəni Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr törətmişdir. Azərbaycan və Ermənistan, eləcə də, ölkənin ali siyasi partiya rəhbərlərinə bu məsələni tənzimləmək, daxili müharibəyə, millətlərarası münaqişəyə son qoymaq və milli mənsubiyyətindən asılı olmayaraq, hər bir adamın ümumi federativ ittifaq olan SSRİ-də azad yaşamasına şərait yaratmaq üçün iki illik müddət kifayət idi. Hesab edirəm ki, ötən iki ildə bu istiqamətdə lazımi səviyyədə iş aparılmamışdır. Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı”.

Daha sonra Ümummilli liderimiz bildirdi ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur: “Təəssüf ki, Azərbaycan rəhbərliyi, həmçinin, ölkənin ali siyasi rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir. Sərhədlərə edilən təcavüzü vaxtında aradan qaldırmaq mümkün idi. Axı üç ay əvvəl sərhəd zolağı ilə bağlı camaat öz tələblərini irəli sürmüşdü. Fəqət heç kəs onlarla görüşmək, izahat işi aparmaq və lazımi ölçü götürmək istəməmişdir. Təkrar edirəm: camaatı sakitləşdirmək üçün də imkanlar tükənməmişdi. İki-üç ay əvvəl Azərbaycan partiya rəhbərliyinin möhkəmləndirilməsi məsələsi həll edilsə idi, vəziyyət gərginləşməz, ordu yeridilməsinə zərurət yaranmazdı. Bütün vəziyyətlərdə hesab edirəm ki, məsələni siyasi cəhətdən tənzimləmək, xalqla mükaliməyə girmək üçün əlverişli imkanlar olmuşdur. Lakin onlardan səmərəli istifadə edilməmişdir. Nəhayət, 19-dan 20-nə keçən gecə Sovet ordusunun, SSRİ DİN-in böyük kontingenti Bakı şəhərinə yeridilmişdir. Nəticəsi isə göz qabağındadır. Bunun törətdiyi faciələr hamımıza məlumdur. Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Bəli, kobud siyasi səhv buraxılmışdır”.

Ulu öndərimiz Bakıya rus ordusunun yeridilməsi ilə bağlı SSRİ rəhbərliyinin qərarını da kəskin tənqid edərək bu qərarı verənlərdən bunun səbəbini xalqa açıqlamağı tələb etdi: “Azərbaycana kənardan böyük ordu kontingenti yeridilmişdir. Respublikada neçə ordu birləşməsinin olduğu mənə yaxşı bəllidir. Azərbaycanda kifayət qədər - 4-cü ordu, Xəzər Hərbi Dəniz Donanması, desant qoşunlarının diviziyası, Hava Hücumundan Müdafiə Qoşunları, DİN-in daxili qoşun birləşmələri vardır. Oraya əlavə qoşun yeritmək nəyə lazım idi? Əgər belə zərurət var idisə, orada yerləşən hərbi hissələrdən də istifadə etmək olardı. Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə bərk ayaqda Azərbaycanı qoyub qaçmış Vəzirov, öz xalqı qarşısında məsuliyyət daşımalıdır”.

Qeyd etmək yerinə düşər ki, Ulu öndər Heydər Əliyevin bu bəyanatı təkcə baş verənlər haqqında ölkəmizdən kənarda yaşayanları məlumatlandırmırdı, bu bəyanat hər şeydən əvvəl 20 Yanvar faciəsinin əsl siyasi-hüquqi qiyməti idi. Özü həyatının ən təhlükəli dövrlərindən birini yaşamasına baxmayaraq, bu böyük insan xalqına arxa durmağı, ona yönələn ədalətsizliyə qarşı qətiyyətlə çıxmağı bacardı.

Amma təəssüflər olsun ki, nə Azərbaycanın o zamankı hakimiyyəti, nə də bu hakimiyyətə can atan həmin dövrün müxalifəti bu faciənin əsl qiymətinin verilməsi istiqamətində heç bir addım atmadı. Məsələn, törədilmiş cinayət və onun nəticələri göz qabağında olduğu halda, respublikanın həmin dövrdəki rəhbərliyi baş vermiş faciənin mahiyyətini hər vasitə ilə ört-basdır etməyə cəhd göstərirdi. Nə qədər ikrah hissi oyatsa da, bu bir həqiqət idi ki, o dövrki respublika rəhbərliyi, hətta şəhidlərin-20 Yanvar qurbanlarının dəfn mərasiminə

gəlməyə belə lüzum görməmişdi. Bu isə həmin vaxt Azərbaycanda xalqa yad bir hakimiyyətin olduğunu bir daha təsdiqləyirdi.

**AXC-Müsavat hakimiyyəti də 20 Yanvar hadisələrinə siyasi qiymət vermədi!..**

Yeri gəlmişkən, bu hadisələrdən sonra xalqımız daha bir gerçəkliyin də şahidi oldu. Xalqın mübarizəsini, tökülən qanı siyasi niyyətləri üçün alətə çevirən Azərbaycan Xalq Cəbhəsinin başında duranların iç üzü yavaş-yavaş açılmağa başlamışdı. Belə ki, 20 Yanvar hadisələrinə siyasi qiymət verilməsi tələbi ilə dəfələrlə çıxış edən Azərbaycan Xalq Cəbhəsi hakimiyyətə gəldikdən sonra, daha dəqiq desək, AXC-Müsavat hakimiyyəti zamanı nədənsə bu mövzu unudulmağa başlandı. Onlar hakimiyyətdə olduğu dövrdə faciəyə siyasi qiymət vermək üçün öz imkanlarından istifadə etmədi.

Beləliklə, hadisələrdən uzun müddət keçsə də, keçmiş SSRİ-nin və Azərbaycanın rəhbərliyi tərəfindən xalqa qarşı törədilmiş ağır cinayət açılmamış qaldı. Hələ Azərbaycanda Sovet hakimiyyəti mövcud olduğu dövrdə 20 Yanvar faciəsi ilə bağlı olan və geniş xalq kütlələri tərəfindən yığılıb Dövlət İstintaq Komissiyasına təhvil verilmiş konkret dəlil və sübutlar qəsdən Azərbaycandan çıxarılıb aparıldı. O dövrdə Azərbaycanın prokurorluq və hüquq-mühafizə orqanları müvafiq istintaq tədbirlərini həyata keçirmədi, hətta əksinə, 20 Yanvar faciəsi ilə bağlı bir sıra məxfi sənədlər, o cümlədən, mühüm arxiv sənədləri bütövlükdə və ya qismən məhv edildi.

1990-cı ilin yanvarından sonra hakimiyyətdə olan qüvvələrin bu məsələdə ilk vəzifəsi faciəni təhlil etmək, günahkarları üzə çıxarmaq və dövlət səviyyəsində siyasi-hüquqi qiymət vermək olsa da, respublika əhalisinin təkidli tələblərinə baxmayaraq, bununla bağlı 1993-cü ilə qədər faktiki olaraq heç bir tədbir görülmədi. 1990-cı il yanvar ayının 22-də çağırılan Azərbaycan Ali Sovetinin fövqəladə sessiyası öz işini yarımçıq qoydu və sonrakı sessiyalarda bu məsələnin müzakirəsi davam etdirilmədi. Ali Sovetin yanvar hadisələrini tədqiq etməli olan komissiyasının da işi başa çatdırılmamış qaldı. Çünki Azərbaycanı bu faciəyə gətirib çıxarmış səriştəsiz rəhbərlər vətənpərvərlik hisslərindən məhrum olduqlarından, habelə, öz şəxsi ambisiyalarının əsirinə çevrildiklərindən xalqın gözünə pərdə asmaq niyyətinə düşmüşdülər.

Sonralar aparılan araşdırmalar nəticəsində məlum oldu ki, əslində, 20 Yanvar faciəsinin səbəblərinin açıqlanmamasında maraqlı olan qüvvələr var imiş. 1991-1993-cü illərdə hakimiyyətdə qalmaq istəyən iqtidar və hakimiyyətə gəlmək istəyən müxalifət nümayəndələri bu dəhşətli faciədən yararlanmaq istəyirmişlər.

Bir sözlə, 1993-cü ilə qədər Azərbaycana rəhbərlik edən şəxslərin heç biri bu faciə ilə bağlı əsl həqiqəti aşkar etməyə özündə cəsarət tapmadı, əksinə, müxtəlif səthi qərarlar qəbul edə-edə və ya etdirə-etdirə bu günün müsibətlərini xalqımıza unutdurmağa çalışdı. Xalqın taleyi üçün məsuliyyət daşımalı olan kəslərin bu cür biganəliyinə xəyanətdən başqa bir ad vermək olmaz.

Ulu öndər 20 Yanvar faciəsi ilə bağlı əsl həqiqətlərin üzə çıxarılması istiqamətində mübarizəsini Bakıda da davam etdirdi

Onu da vurğulamaq yerinə düşər ki, 20 Yanvar faciəsinin əsl qiymətinin verilməsi istiqamətində mübarizəsini davam etdirən Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsinə ilk siyasi qiymət verdi. Belə ki, Naxçıvan MR Ali Məclisinin 21 noyabr 1990-cı il tarixli qərarında göstərilirdi ki, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar hadisələrini işğalçı siyasət və dəqiq düşünülmüş hərbi təcavüz və Azərbaycan SSR-nin suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirir. Bu qərar qəbul edilən andan 20 Yanvar günü hər il Naxçıvan Muxtar Respublikasında Milli matəm günü kimi qeyd edilməyə başlandı.

Ulu öndər Heydər Əliyev Azərbaycan xalqına qarşı soyqırımı siyasətini həyata keçirməyə rəvac verənlərlə mübarizəsini Ona qarşı az qala düşmən mövqedə duran Ali Sovetdə və digər istiqamətlərdə də davam etdirirdi. Məhz Ümummilli lider Heydər Əliyev hər kəsə məlum olan qatillərin hüquqi müstəvidə aşkar olunmasını, faciəyə siyasi qiymət verilməsini tələb edirdi. Heydər Əliyev Azərbaycan SSR Ali Sovetinin 7 mart 1991-ci il tarixli sessiyasındakı çıxışı zamanı bir daha bəyan etdi ki, 1990-cı il yanvarın 20-də İttifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edilmişdir: “Təəssüf ki, bu təcavüz indiyə qədər davam edir. Bir ildən artıqdır ki, Azərbaycanın paytaxtı fövqəladə vəziyyət şəraitində yaşayır. Bizim sessiyamız da bu şəraitdə keçirilir. Bir ildən artıqdır ki, Azərbaycan xalqı şəhidlərə matəm saxlayır. Respublikanın şəhərlərində, qəsəbələrində, kəndlərində şəhidlərin xatirəsinə abidələr ucaldılır. Fəqət, qatillər indiyə qədər aşkar olunmayıb. Buna heç vəchlə bəraət qazandırmaq olmaz. Bu məsələ müzakirə olunmalıdır. 20 Yanvar faciəsinə Ali Sovetin sessiyası siyasi qiymət verməlidir, onun günahkarlarını müəyyən etməlidir”.

Ulu öndər Heydər Əliyevin 1991-ci il iyunun 19-da SSRİ Nazirlər Kabinetinə göndərdiyi məktubunda isə vurğulanırdı ki, 20 Yanvar hadisələrində yüzlərlə adam öldürüldü və şikəst edildi: "Artıq il yarım keçib. Nəinki bu dəhşətli cinayətlərin hamıya çoxdan məlum olan günahkarları üzə çıxarılmayıb, əksinə, bunları ört-basdır etmək üçün əllərindən gələni edirlər. Ümid edirlər ki, zaman keçdikcə bu faciə unudulacaq. Ancaq tarix dəfələrlə sübut etmişdir ki, doğma xalqa qarşı yönəldilmiş qanlı cinayətləri onillər keçsə də, unutmaq və bağışlamaq mümkün deyil".

### Vaxt, zaman gələcək, 20 Yanvar hadisələrini törədənlər mühakimə olunacaqlar

Bütün bunlar hamısı Heydər Əliyevin hələ Sovet hakimiyyəti dövründə tutduğu kəskin mövqe idi. Onun 1993-cü ildə hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinə tam siyasi-hüquqi qiymət verilməsi vəzifəsinin qarşıya qoyulması günün tələbi idi. Çünki Azərbaycan tarixinin, azadlıq uğrunda mücadiləsinin şanlı səhifələrindən biri kimi bu, xalqımızın müstəqillik yolunda çarpışmasının dolğun mənzərəsini əks etdirməli idi. Ulu öndər Heydər Əliyev dövrün mürəkkəbliyinə və görüləsi işlərin çoxluğuna baxmayaraq, tariximizin şanlı və qanlı səhifəsi sayılan 20 Yanvar faciəsinin başvermə səbəbləri və günahkarların araşdırılması ilə də məşğul oldu. Ulu öndərin 20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi ilə bağlı 1994-cü il yanvarın 5-də imzaladığı Fərmanda həm də Milli Məclisə hadisəyə tam siyasi-hüquqi qiymət verməsi tövsiyə olunurdu. Məhz Ümummilli liderimizin təşəbbüsü və göstərişləri ilə 1994-cü ilin mart ayının 29-da parlament "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" Qərar qəbul etdi. Beləliklə də, 20 Yanvar faciəsi məhz Ulu öndər Heydər Əliyevin prinsipial və ardıcıl mübarizəsindən sonra öz siyasi-hüquqi qiymətini aldı.

Ümummilli liderimiz 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsinə, onların ailələrinə dövlət qayğısının gücləndirilməsinə hər zaman böyük diqqətlə yanaşırdı. Ulu öndər hər il yanvarın 20-də Şəhidlər Xiyabanına gələrək ziyarət edir, şəhid ailələri ilə görüşür, qayğıları ilə maraqlanırdı. Bu gün Şəhidlər Xiyabanında ucalan "Əbədi məşəl" abidə kompleksi də məhz Heydər Əliyevin təşəbbüsü ilə şəhidlərin xatirəsinə ehtiram əlaməti olaraq inşa olunub. Heydər Əliyevin 2000-ci il yanvarın 17-də imzaladığı Fərmanla isə 1990-cı ilin faciəli yanvar günlərində şəhid olmuş oğul və qızlarımıza "20 Yanvar şəhidi" fəxri adı verilib.

### Azərbaycan övladları yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar

Ulu öndərimiz Heydər Əliyevin yolunu uğurla davam etdirən Prezident İlham Əliyev də şəhidlərin xatirəsinin uca tutulmasına, şəhid ailələrinin sosial məsələlərinin yoluna qoyulmasına xüsusi diqqət göstərir, hər il yanvarın 20-də Şəhidlər Xiyabanını ziyarət edərək "Əbədi məşəl" abidə kompleksinin önünə əklil qoyur. Dövlətimizin başçısı 2004-cü ildə 20 Yanvar faciəsinin 14-cü ildönümünün keçirilməsi ilə bağlı Sərəncamında bildirirdi ki, Azərbaycan övladları 1990-cı il yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar: "Həmin gün respublikada haqq-ədalətin bərqərar edilməsi tələbləri ilə çıxış edən Azərbaycan xalqının inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq məqsədilə, totalitar Sovet rejiminin həyata keçirdiyi terror aktı nəticəsində bəşər tarixində insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri baş verdi. Yüzlərlə günahsız insan yaralandı və qətlə yetirildi. Ən ağır sınaqlara sinə gərmək əzmini bütün dünyaya nümayiş etdirən Azərbaycan övladları 1990-cı il yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar".

Prezident İlham Əliyev 1990-cı ilin yanvarında şəhid olmuş oğul və qızlarımızın xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi üçün də mühüm işlər görmüşdür. Dövlətimizin başçısının 19 yanvar 2006-cı il tarixli "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Fərmanına əsasən, şəhid ailələrinə dövlət qayğısını artırmaq məqsədilə təqaüd verilir. Məhz Azərbaycan Prezidentinin təşəbbüsü ilə Şəhidlər Xiyabanında təmir və yenidənqurma işləri aparılıb. Bundan başqa, Bakının Yasamal rayonundakı "20 Yanvar" dairəsində, Həsən bəy Zərdabi və Müzəffər Həsənov küçələrinin kəsişməsində Qanlı Yanvar şəhidlərinin xatirəsinə ucaldılmış memorial abidə kompleksi inşa olunub. Yeri gəlmişkən, kompleksin açılış mərasimində iştirak edən dövlətimizin başçısı 20 Yanvar hadisələrinə də qiymət verib. Prezident İlham Əliyev bir daha vurğulayıb ki, bu qanlı faciə, Sovet İttifaqı zamanında dinc əhaliyə qarşı törədilən ən amansız qanlı cinayət idi: "O vaxtadək Sovet ordusu dinc əhaliyə qarşı heç vaxt bu qədər qəddarlıqla, vəhşiliklə cəlb edilməmişdi. Yüzlərlə insan həlak oldu, itkin düşdü, yaralandı. Bu cinayəti törədənlər Sovet İttifaqının o vaxtkı rəhbərliyi və Azərbaycanın o vaxtkı yerli rəhbərliyi idi. Ancaq dərd orasındadır ki, faciə günündən keçən 3-4 il ərzində Azərbaycanda heç kim, heç bir vəzifəli şəxs, heç bir dövlət qurumu bu faciəyə siyasi qiymət

verməmişdi. Lakin Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıdandan sonra Onun təşəbbüsü ilə Milli Məclis siyasi qərar qəbul etdi, cinayətkarları öz adları ilə adlandırdı və ədaləti bərpa etdi".

Şübhəsiz, 20 Yanvar tarixdə bir faciə, dəhşətli bir terror aktı kimi qaldı. Amma bununla bərabər, Prezident İlham Əliyevin də vurğuladığı kimi, 20 Yanvar günü həm də Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsidir. Həmin məşəqqətli gündə bütün hədələrə, təhdidlərə, ölümlə üz-üzə dayanmasına baxmayaraq, xalqımız, müstəqillik, azadlıq uğrunda lazım gələndə şəhid ola biləcəyini də göstərdi. Elə buna görə də, 20 Yanvar faciəsi Azərbaycan xalqının yaddaşından heç vaxt silinməyəcək, Şəhidlərimizin əziz ruhu daim anılacaq, onların əziz xatirəsi qədirbilən Azərbaycan xalqının qəlbində əbədi yaşayacaq.

**"Yeni Azərbaycan"ın analitik qrupu**

**"Yeni Azərbaycan"**.-2011.-20 yanvar.-N.11.-S.6.

## 20 Yanvar 1990-cı il – dövrümüzün ən böyük milli-azadlıq hərəkatlarından birinin tarixidir

***Müsahibimiz AMEA-nın Tarix İnstitutunun baş elmi işçisi. tarix elmləri doktoru, professor Kərim Şükürovdur***

**- Kərim müəllim, 20 Yanvar faciəsindən 21 il ötür. Tarixçi alim kimi sizcə, bu hadisə Azərbaycan tarixində necə qiymətləndirilə bilər?**

- 20 Yanvar 1990-cı il – dövrümüzün ən böyük milli-azadlıq hərəkatlarından birinin tarixidir. Belə bir fikir söyləmək üçün yalnız 20 Yanvar deyil, bu hadisəyə qədər olan hadisələr və ondan müstəqilliyin ilk dövrlərinədək olan tarix birlikdə nəzərdən keçirilməlidir.

**- Bu halda, ilk əvvəl bu milli-azadlıq hərəkatının səbəbləri üzərində dayanaq...**

- Bunun üçün SSRİ-də 1980-cı illərin ortalarından 1990-cı ilin yanvarınadək olan şərait nəzərə alınmalıdır. Bu şəraiti bütün təfsilatı üzərində dayanmadan, qısaca desək, həmin dövrdə SSRİ son mərhələsini yaşayırdı. Bu kontekstdə Ermənistan əvvəllər də olduğu kimi (1918-1920, 1920-1923, 1945 və s.) yenidən Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış edir. SSRİ rəhbərliyi isə müxtəlif vasitələrlə Ermənistanı və Azərbaycandakı erməni separatçılarını dəstəkləyirdi. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, Azərbaycanın o vaxtkı rəhbərləri cərəyan edən hadisələrin mahiyyətini anlamır, tarixi məsuliyyətlərini dərk edə bilmirdilər. Ölkənin taleyüklü problemini xalq öz üzərinə götürdü. Azərbaycanda geniş xalq hərəkatı meydana gəldi. Adətən, xalq hərəkatları geniş miqyasına, əhalinin bütün təbəqələrini əhatə etməsinə, yalnız ölkə deyil, bütövlükdə region və dünya üçün də ciddi əhəmiyyətə malik olmasına görə onun tərkibində müxtəlif siyasi qüvvələr də olur. Birmənalı şəkildə demək olar ki, 1980-cı illərin sonları – 90-cı illərin əvvəllərində Azərbaycanda xalq hərəkatında milli azadlıq istiqaməti, dövlətin ərazi bütövlüyünün təmin edilməsi uğrunda mübarizə üstün yer tuturdu. Bu Azərbaycan xalqına qarşı açıq-aşkar düşmənçilik xətti yeridən SSRİ rəhbərliyini təmin etmirdi. Ona görə də, Sovet dövlətinin ən yüksək dairələrində Azərbaycan xalqına, onun milli-azadlıq hərəkatına sözün əsl mənasında divan tutmaq qərara alındı.

**- 20 Yanvar hadisələrinə dair ən xarakterik faktların tarixi-nöqteyi nəzərdən araşdırılması da vacib məsələlərdəndir. Bu araşdırmalar hansı faktları ortaya çıxarır?**

- 20 Yanvar hadisələrinə dair müəyyən faktlar xalqımıza yaxşı məlumdur. Onların hamısı üzərində xüsusi dayanmaq istəmirəm, amma elə faktlar var ki, mütləq qeyd edilməlidir. Məlumdur ki, əvvəllər çar, sonralar isə Sovet Rusiyası dövründə Bakını ələ keçirmək üçün məxsusi "Bakı əməliyyatı" hazırlanmışdı. 1723, 1806 və 1920-ci illərdəki əməliyyatlar nəticəsində Bakı işğal edilmişdi. 1990-cı il 20 yanvar "Bakı əməliyyatı" isə tamam fərqli oldu. SSRİ kimi bir imperiya bu əməliyyatla süqutunu təsdiqlədi. Burada çox maraqlı bir faktı da xatırlatmaq istəyirəm. 1920-ci ildə Sovet hakimiyyəti ilk dəfə Bakıda qurulmuşdu. Gəncədə, Qarabağda, Zaqatalada və Azərbaycanın digər yerlərində isə güclü antisovet üsyanları baş vermişdi. Təxminən 70 il sonra Bakıda baş verən xalq hərəkatı və ona qarşı silahlı əməliyyat isə Sovet sisteminin dağılmasını müəyyənləşdirdi.

Əlbəttə, 20 Yanvar (sonrakı günlər də nəzərə alınmaqla) ümum-Azərbaycan hadisəsi idi. Bütün hallarda hərəkat iştirakçılarına qarşı çox böyük qəddarlıq nümayiş etdirilmişdi. Rəsmi məlumatdan bəzi faktlara diqqət yetirək: öldürülən 96 nəfərə aid məlumatdan aydın olur ki, onlardan 42 nəfəri piketdə (33 nəfər əvvəldən, 9 nəfər sonra), 23 nəfər maşında, 7 nəfər evdə, 19 nəfər evlərinin yaxınlığında, 5 nəfər isə müxtəlif yerlərdə öldürülmüşdür. Əslində rəqəmlər hər şeyi aydın ifadə edir. 96 nəfərdən yalnız 33 nəfər piketdə öldürülmüşdür (qalan 9 nəfər isə sonradan gəlib). Deməli, əsas ideya məhz xalqa (!) divan tutmaq olub. Digər bir fakt: silahla öldürülən 82 nəfərdən 38 nəfər öndən, 44 nəfər isə arxadan güllələnmişdir. Onlardan 29 nəfəri başdan, 39 nəfəri bədəndən (68 nəfər) vurulmuşdur, 9 nəfər hərbi texnikanın tırtılları altında qalmışdır. Bu öldürülənlərdən müəyyən hissəyə aid məlumatlardır. Belə faktlar təhlil olunarkən öldürülmə ehtimalı olan adamlar, onların keçirdikləri hisslər və s. də nəzərə alınmalıdır. Tətbiq olunan silahlar, texnika da xüsusi söhbətin mövzusudur. Burada xatırlatdığımız və bizə məlum olan digər faktlar qəddarlığın miqyasını tam təsəvvür etməyə imkan verir.

İstər Azərbaycan, istər də dünya tarixindən bizə məlum olan oxşar hadisələrlə müqayisə aparsaq, deyə bilərik ki, qeyd edilən nəticə xalqın gücü və qüdrətini, onun iradəsini, ona qarşı duran qüvvələrin isə acizliyini, çıxılmazlığını, siyasi məhvə məhkumluğunu göstərirdi.

**- Burada bir maraqlı məsələ də ortaya çıxır. Xalq hərəkatının daha səmərəli şəkildə təşkilatlanması mümkün idimi?**

- Tarixi təcrübə üçün bu sualın olduqca mühüm əhəmiyyəti vardır. O zaman siyasi səhnədə olan şəxslər və təşkilatlar yaxşı məlumdur. Onlardan heç biri həmin dövrdə Azərbaycan xalqının qarşısında duran məsələləri dərk edib, onu həll etmək, yüksələn xalq hərəkatını qarşılaya biləcək səviyyədə olmadı. Ümummilli lider Heydər Əliyevin yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirdiyi mətbuat konfransında çıxışı hadisələrə siyasi qiymət olmaqla bərabər, eyni zamanda göstərilən tələbə bir cavab oldu. Həmin çıxışın sonunda xüsusilə qeyd edilirdi ki, qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır. 1990-cı il noyabrın 21-də Ulu öndər Heydər Əliyevin sədrliyilə Naxçıvan Ali Məclisi 20 yanvar hadisələrinə bir daha əsaslı siyasi qiymət verdi.

**- Bəs 20 Yanvar hadisəsinin sonrakı tarixi proseslərdəki rolunu necə dəyərləndirmək mümkündür?**

- Azərbaycan xalqı 20 Yanvar faciəsini böyük tarixə, dövlətçilik anlayışına malik olan bir xalq kimi qarşıladı. Bəlkə də, hər hansı başqa bir xalq olsaydı, bu hadisələrdən uzun müddət özünə gələ bilməzdi. Respublikadakı hakimiyyət dəyişikliyinə baxmayaraq, xalq Vətən uğrunda şəhid olanların xatirəsinə qırx gün matəm saxladı. Bu sadəcə matəm də deyildi. Mövcud quruluşa, zorakılığa etiraz, yeni mübarizəyə hazırlıq idi. 20 Yanvar Azərbaycan xalqını daha da mətinləşdirdi, hədəflərini daha da aydınlaşdırdı. Xalqla ona rəhbərlik etmək iddiasında olanlar arasındakı uyğunsuzluq dərinləşdi. Yeni milli çağırış Ümumilli lider Heydər Əliyevin siyasi arenaya qayıdışına səbəb oldu. Azərbaycanın dövlət müstəqilliyini əldə etməsi və onun dönməzliyi uğrunda ardıcıl, məqsədyönlü mübarizə öz bəhrələrini verdi. Bununla əlaqədar bir qanunauyğunluğa diqqəti cəlb etmək istərdim. Demək olar ki, son vaxtlar hər il 20 Yanvar hadisələrinin ildönümü ərəfəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə ötən ilin sosial-iqtisadi inkişafının yekunlarına dair Nazirlər Kabinetinin iclası keçirilir. Bu iclaslarda Azərbaycanın əldə etdiyi nailiyyətlərə dair hər bir faktı, eyni zamanda şəhidlərin uğrunda canından keçdiyi ümummilli məqsəd üzrə bir hesabat da adlandırmaq olar. Bu baxımdan Prezidentin nitqindən bir məqamı xüsusilə qeyd etmək istərdim: “Azərbaycan dövləti heç zaman imkan verməz ki, ikinci erməni dövləti yenə də Azərbaycanın tarixi torpaqlarında yaradılsın. Yəni bu, danışıqlar mövzusu deyil və heç vaxt olmayacaqdır”.

**“İki sahil”**.-2011.-20 yanvar.-N.11.-S.5.

## Moskvada 20 yanvarla bağlı materialları kimlər yayıb?

**Vidadi**

Uzun illər heç kimin bilmədiyi bir hadisənin tarixçəsi «Azadlıq»da

80-ci illərin sonlarından başlayaraq Rusiyada gizli şəkildə nəşr edilən "Anti Sovetskaya Pravda" qəzetində Bakıda törədilən 20 yanvar faciəsi ilə bağlı materialların kimlər tərəfindən və necə yerləşdirildiyi barədə çoxları məlumatsızdır. Hətta bir neçə il əvvəl rəsmi dövlət qəzeti olan "Azərbaycan" "Anti Sovetskaya Pravda"nın 1990-ci ilin yanvar ayında işıq üzü görən 7 və 8-ci saylarında 20 yanvar faciəsi barədə dərc edilən materialları təkrar çap etsə də, o zaman bu böyük fədakarlığın kimlər tərəfindən edildiyini yazmadı. Qəzet bu işi naməlum şəxslərin fəaliyyəti kimi təqdim etdi. Çünki doğrudan da həmin fədakar insanların kim olduğu bəlli deyildi. Lakin 20 yanvar faciəsinin 21-ci ildönümündə biz o zaman bu böyük fədakarlığı edən şəxslərin kimlər olduğunu oxucularımızın diqqətinə çatdıracağıq.

"Anti Sovetskaya Pravda" qəzetinin baş redaktoru Sergey Boqdanov adlı şəxs olub. Həmin qəzet o zaman Kommunist Partiyasına alternativ yaradılan Respublika Partiyastnın rəsmi orqanı kimi fəaliyyət göstərib. Sergey Boqdanov məhz 20 yanvar faciəsilə ilə bağlı materiallar qəzetində dərc etdirdiyinə görə sonradan qətlə yetirilib.

Bu məlumatlan bizə AXCP-nin Saatlı şöbəsinin sədri Şamil Hacıbəyli verib.

Onun özünün də 20 yanvar faciəsilə bağlı həqiqətlərin "Anti Sovetskaya Pravda" qəzeti vasitəsilə yayılmasında müstəsna xidmətləri olub. Şamil Hacıbəyli həmin dövrü belə xatırlayır: "20 yanvar faciəsi baş verəndən bir neçə gün sonra rəhmətlik Əbülfəz Elçibəy belə bir müraciət etmişdi ki, Rusiyada təhsil alan gənclər Sovet ordusunun törətdiyi bu vəhşiliklər barədə materialları Moskva, Leninqrad və digər bu kimi iri şəhərlərdə yaysınlar. Mən də o zaman Rusiyada təhsil alırdım. Amma 20 yanvar hadisələri zamanı Bakıda idim. Əbülfəz bəyin müraciətindən sonra bu işi öz üzərinə götürənlərdən biri də mən oldum. Digər iki nəfər Ramazan Səmədov və Kamal adlı bir cəbhəçi idi. Qurban Məmmədov 20 yanvar hadisələri zamanı çəkilən videokasetləri bizə verdi. Tapşırığa görə biz bu kasetləri Moskvada yaymalıydıq. Lakin Moskvaya bilet tapa bilmədik. Qurban Məmmədov bizi Leninqrada yola saldı. Leninqradda bizi tələbə yoldaşlarım Sergey Poxomov və Marina Paley qarşıladı. Mən gəlişimizin səbəbini onlara izah etdim. Sergeyle Marina bizə kömək edecəklərini dedilər. Və doğrudan da bu materialların yayılmasında böyük fədakarlıq göstərdilər".

Şamil bəyin sözlərinə görə, tələbə yoldaşı Marina Paley onları "Anti Sovetskaya Pravda" qəzetinin redaktoru Sergey Boqdanovla tanış edib. Sergey Boqdanov 20 yanvar hadisələri zamanı çəkilən videogörüntülərə baxıb və qezetinin 2 sayını bu dəhşətli olaya həsr edəcəyini bildirib: "Sergey Boqdanov vədinə əməl etdi. Başqa bir tələbə yoldaşım Pyotr Kojevnikov 20 yanvar hadisələri çəkilən videokasetlərdən bəzi görüntüləri yerli televiziyada yayımladı. Təbii ki, bu, ona işdən qovulmaq bahasına gəldi. Bundan sonra Marina Paley Leninqraddakı Ziyalılar Evində yerli ziyalılarla bizim görüşümüzü təşkil etdi. Videokasetlər orada da nümayiş etdirildi. Bu arada artıq "Anti Sovetskaya Pravda"nın 20 yanvar hadisələrinə həsr olunmuş sayları hazır oldu. Biz həmin qəzeti Moskvaya aparmalı idik. O zaman tələbə yoldaşım Murad Köhnəqala Moskvada idi. Ona zəng vurdum. Murad gəldi və biz qəzetləri kisələrə yığaraq Moskvaya apardıq və orada yaymağa başladıq".

Şamil Hacıbəyli deyir ki, qəzetlərinin bir hissəsini yaydıqdan sonra qalan hissəni Bakıya aparmaq lazım oldu: "Artıq Moskvada bizi axtarırdılar. Çünki o zamankı hökumət paytaxtda belə materialların yayılmasından bərk narahat olmuşdu. Biz Bakıya bir bilet tapdıq. Ramazan Səmədov Bakıya getməli olduğu üçün qəzetləri də ona verdik. Lakin aerovağzalda polis bizi saxladı və kisənin ağzını açılmasını tələb etdi. Biz hamımız təşviş içində idik. Çünki bəlli həbs olunmaq təhlükəsi ilə üzləşmişdik. Lakin bu an möcüzə baş verdi. Hava limanının işçilərindən biri bizi saxlayan polisə dedi ki, kənarda dava düşüb. Polis bizə kisəni açmağı əmr edərək hadisə yerinə getdi. Biz tez Ramazan Səmədovu təyyarəyə yola saldıq və həbs olunmaqdan qurtulduq".

Şamil Hacıbəyli indiyə qədər bu barədə susmağına da aydınlıq gətirdi: "Bu faktı ictimailəşdirməyə ehtiyac duymurdum. Amma hər dəfə bu məsələ gündəmə gəlir və heç kim bilmir ki, bu işi kimlər görüb. Ona görə də istədim ki, ictimaiyyət xüsusilə Sergey Boqdanov, Marina Paley, Sergey Poxomov, Pyotr Kojevnikov, Ramazan Səmədov və Murad Köhnəqalanın o zaman belə bir fədakarlıq etdiyindən xəbərdar olsun".

**“Azadlıq”**.-2011.-20-22 yanvar.-N 15.-S12.

## Azadlıq hərəkatının mühüm mərhələsi

**Teymur Əhmədov**

20 Yanvar hadisələrinin ildönümü ilə bağlı qəzetimiz unudulmaz şəhidlərimizin dəfnini milli-dini ənənələrimizin tələbləri səviyyəsində təşkil etmiş və xalq tərəfindən yaradılaraq onun daimi nəzarəti altında fəaliyyət göstərmiş İctimai Dəfn Komissiyasının sədri, iqtisad elmləri doktoru, professor **Qüdrət Əbdülsəlimzadəyə** müraciət etmiş, oxucularımızı maraqlandıran bir sıra suallara cavab verməyi xahiş etmişdir.

Fövqəladə vəziyyətin sərt qaydalarının hökm sürdüyü o ağır günlərdə ciddi maneləri, həyatları üçün real təhlükələri dəf edərək, ilk 42 gün ərzində millətimizin hərtərəfli köməyinə arxalanmış İctimai Dəfn Komissiyasının üzvlərinə, onun köməkçilər dəstəsinə, həmin mərasimin bütün iştirakçılarına, uzaq-yaxın ölkələrdən gələrək kədərimizə şərik insanlara, faciəmiz haqqında həqiqəti dünya ictimaiyyətinə çatdırmış kütləvi informasiya vasitələrinin işçilərinə, jurnalistlərə qəzetimizin əməkdaşları adından təşəkkürümüzü bildirir, onların fədakarlığı qarşısında baş əyirik… Allah cəmi şəhidlərə rəhmət eləsin. Amin!

Tarixi yaddaş, haqq-ədalət, gələcək nəsillərə nümunə kimi ümummilli matəm mərasiminə başçılıq etmiş İctimai Dəfn Komissiyası üzvlərinin adlarını respublikamızın ictimaiyyətinə bir daha çatdırmağı özümüzə şərəf bilirik:

1. Hacı Allahşükür Paşazadə—şeyxülislam
2. Azər Nəbiyev—müəllim
3. Xəliyyəddin Xəlilov—elmi işçi
4. Bağır Bağırov—fəhlə
5. Rəhim Qasımov—müəllim
6. Xalid Muxtarov—qulluqçu
7. Malik Mehdiyev—mühəndis
8. İsmayıl İncəli—jurnalist
9. Nəriman Əliyev—memar
10. İbrahim Əliyev—inşaatçı

İctimai Dəfn Komissiyasının köməkçilər dəstəsinin işinə Etibar Səmədov və Səfər Xalıqov başçılıq etmişlər.

Köməkçilər dəstəsinin—Vaqif, İskəndər, Əbdül, Seyfulla, Gündüz, Yaşar, Adil, Eldar, Mötəbər, Rahib, Xəlil, Cavanşir, İxtiyar, Üzeyir, Mehman, Tamerlan, Tofiq, Vasif, Əli, Məhəmməd, İsmayıl, Möhsüm, Elşad, Emil, Feyruz, İlham, Təvəkkül, Tahir, Fuad, Fərhad kimi üzvlərinin öz vətəndaşlıq və insanlıq borclarını necə məsuliyyətlə yerinə yetirmələri heç vaxt unudulmamalıdır.

**—Qüdrət müəllim, xalqımızın azadlığı və müstəqilliyi yolunda mühüm bir mərhələ olmuş 20 Yanvar hadisələri ərəfəsindəki vəziyyəti necə qiymətləndirirsiniz?**

—Həqiqətən, çox mürəkkəb və son dərəcədə çətin bir vəziyyət yaranmışdı. Dünyanın altıda bir hissəsində yerləşib, sosializm sisteminə başçılıq edən, atom-nüvə raketləri ilə silahlanmış və bəşəriyyətin inkişaf yolunu zorakı üsullarla dəyişməyə cəhd edən totalitar-diktatura rejimli sovet quruluşuna qarşı çıxmaq, gələcək siyasi-ictimai, sosial-iqtisadi, mənəvi-əxlaqi nəticələri baxımından ciddi proseslərin olacağından xəbər verirdi.

Həmin sistemin cəmiyyət həyatında yaratdığı mücərrəd "Vahid Sovet xalqı" çərçivəsinin sərt qayda-qanunlarını pozmaq, təkpartiyalılıq prinsiplərini sarsıtmaq, mərkəzləşdirilmiş idarəçilik üsullarına qarşı çıxmaq, milli-mənəvi dəyərlər müstəvisində insan hüquqları və haqları uğrunda mübarizə aparmaq oğul-qızlarımızın mənfur imperiyanın "parçala və ağalıq et" siyasətinə qarşı əsl qeyrət duruşu idi.

Belə bir cəhəti də qeyd etməyi lazım bilirəm ki, sovet-bolşevik rejimi illərində bütün təqiblərə, həbslərə, repressiyalara, sürgünlərə, edamlara baxmayaraq, bu sistemə qarşı mübarizə bəzən aşkar, bəzən də gizli formalar alsa da, lakin həmişə davam etmişdir. O dövrdə Rusiyanın müxtəlif regionlarında, Ukraynada, Orta Asiyada, Pribaltikada, Zaqafqaziyada, o cümlədən də Azərbaycanda (Gəncədə, Qarabağda, Şəki-Zaqatala,

Quba-Xaçmaz, Lənkəran-Astara bölgələrində) baş vermiş qanlı-qadalı etiraz çıxışları, gizli cəmiyyətlər, hərəkatlar bunu sübut edir.

Açıq deyək ki, hər adam da bu tarixi milli-mənəvi oyanış, sınaq anlarının iştirakçısı və fədaisi ola bilməmişdi… Unudulmaz Nazim Hikmətin təbirincə desək, gərək qəlbində Vətən və onun taleyi üçün "sən yanmasan, mən yanmasam" alovu şölələnsin ki, yaşadığın cəmiyyət "qaranlıqlardan aydınlığa çıxsın".

Bu mənada, bəzilərinin irəli sürdükləri "azadlığı mübarizə yolu və qanımızla deyil", yaxud "müstəqilliyimiz bizə keçmiş quruluşun dağılması sayəsində bəxş edilmişdir" fikirləri, eyhamları xəstə təfəkkürün məhsuludur. Qədim yunan mütəfəkkirlərinin "düşüncə tərzi cəzalandırıla bilməz" hikmətinə hörmətlə yanaşı, təkcə onu xatırlatmaq istəyirəm ki, həmin dövrdə Azərbaycan xalqının beynəlxalq ictimaiyyət tərəfindən "dünyanın ən mübariz xalqı" kimi qiymətləndirilməsi, azadlıq və müstəqillik hərəkatımıza, onun minyonlarla iştirakçılarına, sınanmış liderlərinə, bədxah mövqe tutanlara ən yaxşı cavabdır.

Ərazisinin müəyyən hissəsinin işğal olunduğu, yüz minlərlə vətəndaşının qaçqın və köçkün həyatı yaşamağa məcbur olduğu, ölkəmizə qarşı ikili siyasət metodlarından hələ də istifadə edildiyi, beynəlxalq hüquq normalarının, habelə BMT-nin məlum qətnamələrinin pozulduğu bir şəraitdə apardığımız ədalətli mübarizə tarixi ənənələrimizə, qəhrəmanlıq-şəhidlik nümunələrinə arxalanaraq, bir örnək mənbəyi kimi əsl vətənpərvərlik tərbiyəsi məktəbi rolunu oynamalıdır.

**—Sizcə, qanlı 20 Yanvar hadisələrinin qarşısını almaq mümkün idi, yoxsa o proseslər qaçılmazdı?**

—Xalqların və insanların taleyində baş vermiş və artıq tarixə çevrilmiş siyasi-ictimai prosesləri, o cümlədən də 20 Yanvar hadisələrini "belə etsəydilər, elə olardı" fəlsəfi fərziyyəsi mövqelərindən qiymətləndirmək doğru deyildir. Əlbəttə, o prosesləri doğuran səbəbləri onun ideoloji kökləri, uğurları, nəzərə alınması mümkün olmayan cəhətlərinin konkret zaman və məkan, habelə daxili xarici qüvvələr nisbəti baxımından təhlili əvəzinə, "özümüzü bir qədər təmkinli aparsaydıq, faciə olmazdı" hökmünü vermək daha asandır.

XX əsrin 80-ci illərində Kreml rəhbərliyinin doqmatik və mahiyyətcə şovinist siyasət xətti, mərkəzi hakimiyyətin maraqlarına zidd olan böhranlı vəziyyətlər yarandıqda, orada insanların özlərini necə aparmalarından, yaxud yerli rəhbərlikdə kimlərin yerləşdirilməsindən asılı olmayaraq, sərt addımların atılması, hətta buna haqq qazandırmaq üçün əvvəlcədən düşünülüb qurulmuş təxribat xarakterli aktların həyata keçirilməsi qaçılmaz idi. Çünki sovet imperiyası kimi nəhəng bir dövlətin çökdüyü, hakim kommunist partiyasının öz nüfuzunu itirdiyi, ölkə iqtisadiyyatının hərbiləşdirildiyi, mərkəzləşdirilmiş təsərrüfat həyatının səmərəliliyinin getdikcə zəiflədiyi şəraitdə, yüksək inkişaf etmiş ölkələrlə iqtisadi yarışda sosialist ölkələrinin aşkar uduzması reallığında, cəmiyyət qanun və ədalət meyarları ilə deyil, mövcud rejimin güc-təhlükəsizlik orqanlarının hazırladıqları ssenarilər əsasında idarə olunmuşdur.

O dövrdə Alma-Ata, Tiflis, Vilnüs şəhərlərində, Moldova, Krım, Qafqazda gedən ictimai-siyasi proseslər, müttəfiq respublikaların İttifaqdan ayrılmaq səyləri, onların "suverenlik nümayişləri", ümumiyyətlə, ölkədə milli azadlıq hərəkatının müxtəlif formalarının getdikcə genişləndiyi nəzərə alınarsa, 20 Yanvar qırğınının gizli ad altında, məxfi şəkildə, xüsusi əməliyyat kimi hazırlanıb həyata keçirilməsi aydın olar.

Konkret Azərbaycana gəldikdə isə buradakı ictimai-siyasi proseslər, xalqla hakimiyyət arasındakı qarşıdurma elə bir həddə çatmışdı ki, Mərkəz imperiyanın digər bölgələrinə də "ibrət dərsi" vermək naminə yaranmış "problemlər düyününü" sivil yollarla aradan qaldırmaq niyyətində olmadığından, yaxud bacarmadığından, məsələnin zorakı-hərbi variantına üstünlük verdi.

İmperiyanın yüksək dairələrində uzun müddətə, dəqiqlik və amansızlıqla hazırlanaraq, müxtəlif ordu hissələrinin əlaqələndirilmiş irimiqyaslı hərbi əməliyyatları üçün əsas hədəf, zərbə nöqtəsi Azərbaycan, onun paytaxtı Bakı seçilmişdi. Bu qaçılmaz addımı şərtləndirən amillər sırasında obyektiv cəhətlərlə yanaşı, sırf subyektiv şəxsi qərəzlik münasibətlərinin rolu da unudulmamalıdır.

Yeri gəlmişkən, aşağıdakı rəsmi sənədi "Respublika" qəzeti oxucularının diqqətinə çatdırmaq istəyirəm.
Bakı şəhərində fövqəladə
vəziyyətin tətbiqi haqqında
SSRİ Ali Soveti
Rəyasət Heyətinin fərmanı

Bakı şəhərində vəziyyətin son dərəcə kəskinləşməsi, cinayətkar-ekstremist qüvvələrin zorakılıqla kütləvi iğtişaşlar təşkil etməklə qanuni fəaliyyət göstərən dövlət orqanlarını hakimiyyətdən kənar etmək cəhdləri ilə

əlaqədar olaraq və vətəndaşların müdafiəsini, habelə təhlükəsizliyini təmin etmək üçün SSRİ Ali Soveti Rəyasət Heyəti SSRİ Konstitusiyasının 119-cu maddəsinin 14-cü bəndini rəhbər tutaraq qərara alır:

1990-cı il yanvarın 20-dən Bakı şəhərində fövqəladə vəziyyət elan olunsun, SSRİ Ali Soveti Rəyasət Heyətinin 1990-cı il 15 yanvar tarixli fərmanının qüvvəsi onun ərazisinə şamil edilsin.

M.Qorbaçov,
SSRİ Ali Sovetinin sədri.
Moskva, Kreml.
19 yanvar 1990-cı il.

Ölkənin və müstəqil Azərbaycan Respublikasının vətəndaşlarına qarşı ölüm hökmü xarakterli belə bir fərman imzalamış səlahiyyət sahibinin Beynəlxalq Məhkəmə qarşısında öz cinayətkar əməlinə görə cavab verməməsi xalqımızda haqlı qəzəb doğurur.

Diqqətəlayiq tarixi faktdır ki, Qanlı Yanvar hadisələri vaxtı, Moskvada siyasi və ictimai fəaliyyətdən uzaqlaşdırılmış, Heydər Əliyev, bütün təhlükələrə baxmayaraq, yanvarın 21-də Azərbaycan Respublikasının nümayəndəliyindəki bəyanatında qətiyyətlə demişdir: "Mən hesab edirəm ki, 19-20 yanvarda baş vermiş bu faciə həm Sovet İttifaqının siyasi rəhbərliyinin, həm də şəxsən M.S.Qorbaçovun böyük günahı nəticəsidir, onun diktatorluq meyillərindən əmələ gəlmiş bir haldır və eyni zamanda Azərbaycan rəhbərliyinin xalqa xəyanəti və cinayətinin nəticəsidir".

**—Ağır vəziyyət və çaşqınlıq şəraitində xalqın iradəsi ilə yaradılmış İctimai Dəfn Komissiyasının formalaşması, habelə fəaliyyəti barəsində oxucularımıza məlumat verməyiniz yerinə düşərdi.**

—İctimai Dəfn Komissiyasının yaradılmasını, xalqımızın müdrikliyi və uzaqgörənliyinin nümunəsi hesab edirəm. Tankların zəhmli gurultusu, vertalyotların boğuq uğultusu, yaxından-uzaqdan eşidilən güllə səsləri, ana-bacıların ağlaşması, kişilərin qəzəbli baxışları, gənclərin çılğın etirazları, partiya biletlərinin yandırılması, həlak olanlar haqqında yeni xəbərlər alınması, fövqəladə vəziyyətin qayda-qanunlarına əməl olunmadığı halda, daha sərt cəza tədbirləri görüləcəyi xofunun yaratdığı psixoloji gərginlik, soyuq yanvar şaxtasının narahatlığı fonunda şəhidlərin icazə verilməyən dəfnini təşkil etmək böyük cəsarət, məsuliyyət və yeni nəticələri bəlli olmayan təhlükəli risqə getmək idi…

Sualınıza qayıdaraq bildirirəm ki, şəhidlərin birlikdə, vahid bir məkanda dəfni məsələsi yanvarın 20-də səhər tezdən keçmiş Mərkəzi Komitənin qarşısında keçirilmiş mitinqdə qaldırılmışdır. Mitinqin aparıcıları və iştirakçıları arasında İsmayıl İncəli, Azər Nəbiyev, Xəliyyəddin Xəlilov, Rəhim Qazıyev, Nemət Pənahov, Sabir Rüstəmxanlı, Nəriman Əliyev, Rəhim Qasımov və başqaları vardı. Getdikcə sayı artan mitinq iştirakçılarını idarə etmək çətinləşirdi. Onlar Mərkəzi Komitənin binasına hücum etmək və oranı dağıtmaq istəyirdilər. Müxtəlif vasitələrlə öyrənə bildik ki, binanın içərisində xeyli silahlı əsgər və zabit yerləşdirilmişdir. Onlar isə binanın ayrı-ayrı nöqtələrindən müşahidə apararaq, yaranmış vəziyyət haqqında məlumat verir və yəqin ki, müəyyən göstərişlər alırdılar…

Mitinq iştirakçılarını çətinliklədə olsa, sakitləşdirdikdən sonra məsləhətləşmələr, əsasında şəhidlərimiz üçün 1918-ci il mart qırğını qurbanlarının dəfn olunduqları Dağüstü parkın ərazisinin seçildiyi razılaşdırıldı və mənə mintinq iştirakçıları qarşısında çıxış etmək təklif olundu.

…Xatırlayıram ki, başımıza gələn bu qanlı faciədən özümüzü itirməmək və sarsılsaq da əyilməmək zəruriliyinin milli qeyrət-namus məsələsi olduğunu dərk edərək, indi ilk növbədə daha ciddi qurban, habelə dağıntılarla üzləşməmək üçün yersiz çılğın hərəkətlərə yol verməməli, tarix qarşısında haqq-ədalət borcumuz sayılan şəhidlərimizin dəfnini layiq olduqları səviyyədə, uğrunda canlarından keçdikləri Vətən torpağına tapşırılması vəzifəsini məsuliyyətlə yerinə yetirməliyik. "Bu, bizim milli, dini, insani, vətəndaşlıq borcumuzdur… Bütün şəhidlərimizin bir məkanda, qardaşlıq qəbiristanlığında dəfn olunmasına nail olmalıyıq… Çünki tarix xalqımıza qarşı törədilmiş bu qanlı cinayəti unutmağı bizə heç vaxt bağışlaya bilməz… Vaxt itirmək olmaz! Kim könüllü surətdə bu savab və müqəddəs işdə iştirak etmək istəyirsə, meydandakı saatın yanına toplansın…".

Bir neçə yüz adam Dağüstü parka şəhidlərimiz üçün qəbirlər hazırlanmağa yollandıq. Xalqın fasiləsiz mitinqi sonrakı günlərdə də davam etsə də, lakin tədricən hadisələrin ağırlıq mərkəzi İctimai Dəfn Komissiyasının yerləşdiyi və fəaliyyət göstərdiyi Şəhidlər Xiyabanına keçmişdi. Yanvarın 20-dən başlayaraq

mart ayının 2-nə qədər davam etmiş 42 gün ərzində İctimai Dəfn Komissiyası öz işini xalqın məsləhət və tövsiyələri əsasında qurmuş, onun gündəlik nəzarəti altında çalışmışdır.

—Həmin dövrdə “qanunsuz və icazəsiz” fəaliyyət göstərmiş İctimai Dəfn Komissiyasının fəaliyyətinə mane olan qüvvələr haqqında nə deyə bilərsiniz?

—Hərbçi əsgər-zabitlərin, mülki paltarda olan orqan işçilərinin, hərbçilərin nəzər-diqqətini Şəhidlər Xiyabanına cəlb etmək istəyən xüsusi öyrədilmiş adamların, yaxud “sapı özündən olan baltaların”, fitnəkar, “əlil və dilənçilərin”, hətta hay-küyçü, davakar kişi-qadınların aşkar naqis hərəkətlərinə, yalançı şayiələrinə, əsassız ittihamlarına baxmayaraq, xalqa arxalanan, onunla məsləhətləşən İctimai Dəfn Komissiyası ən gərgin anlarda belə vəziyyəti özünün köməkçilər dəstəsinin köməyi ilə nəzarətində saxlaya bilmişdi. Hər dəfə güllə atılmaq, bıçaq çıxarmaq, bomba partlayışı tükdən asılı olduğu zaman, sanki İlahi qüvvə müqəddəs Şəhidlər Xiyabanını və orada öz vətəndaşlıq borcunu yerinə yetirən adamları qorumuşdur.

Müxtəlif səpkili fitnəkar təxribatların qarşısını almaq üçün İctimai Dəfn Komissiyası, həmin əməl sahiblərinə qətiyyətlə bildirmişdi: “Bəlkə də biz sizlərin milli namus-qeyrətə yaraşmayan bədxah əməllərinizi, kimlərinsə tapşırığını yerinə yetirdiyinizi nəzərə alaraq, hərəkətlərinizi bağışlaya bildik… Lakin əmin olun ki, millətimiz, torpağımız, ana südü, duz-çörək və şəhidlərimizin ölməz ruhları, belə bir günahı heç vaxt bağışlamayacaqdır”.

Millətimizin o faciəli günlərində, bu fikrin Şəhidlər Xiyabanında, yüz minlərlə insanın ziyarəti gedişində təkrar-təkrar səslənməsi, eyni zamanda fədakar jurnalistlərin köməyi ilə mətbuatda işıqlandırılması, şübhəsiz, müəyyən pozucu qrupların və onların havadarlarının daha xəbis hərəkətlərinin qarşısını xeyli dərəcədə ala bilmişdi.

O ağır və gərgin günlərdə bir sıra bədxah əməllərin həyata keçirilməsi səylərinə baxmayaraq, çevik tədbirlər nəticəsində İctimai Dəfn Komissiyasının fəaliyyət göstərdiyi 42 gün ərzində Şəhidlər Xiyabanı ərazisində heç bir ciddi qayda-qanun pozuntusunun olmaması və təxribatlara yol verilməməsi, millətimizin nəcibliyinə, öz göz yaşlarını qəlbinə axıtmaq ləyaqətinə sübutdur.

Belə bir cəhəti də qeyd etmək istəyirəm ki, 20 Yanvar hadisələrində respublikanın hüquq-mühafizə orqanlarında çalışan oğul-qızlarımız, öz gələcək vəzifə yüksəlişini, ən başlıcası isə, şəxsi taleyini zərbə altında qoymaqdan çəkinməyərək, ailə üzvləri və yaxın adamları vasitəsilə, müxtəlif yollarla İctimai Dəfn Komissiyasına bir sıra zəruri ehtiyat xəbərdarlıq məlumatları göndərmiş, bəzən aşkar, bəzən də gizli yollarla köməklərini əsirgəməmişlər. Sonrakı illərdə müxtəlif şəraitdə, yolda, metroda, xeyir-hüzr məclislərində, görüşlərdə o şəxslər özlərini tanıtmış, həmin əsl sınaq günlərini, şəhidlərimizi, milli birliyimizi məğrurluqla xatırlayaraq birlikdə etiraf edirəm ki, kövrəlmişik, şairin sözlərini yada salmışıq:

Heykəlləşib “Qara Yanvar” burada,
And yerimiz–Xiyabanı qoruyaq!

**—O günlərin ən yadda qalmış hansı anlarını, hadisələrini xatırlayrsınız?**

—O günlərin hər biri “əsrə bərabər bir gün” kimi dəyərləndirilməli, öyrənilməli, tədqiq olunmalı, elmi-nəzəri cəhətdən ümumiləşdirilməli, ədəbiyyatda, publisistikada, musiqidə, rəssamlıqda öz əksini tapmalıdır. Ədalət naminə qeyd etməliyəm ki, bu sahədə müəyyən işlər görülmüş və görülməkdədir. Bununla yanaşı, milli azadlıq hərəkatımızın mühüm bir mərhələsi sayılan Qanlı 20 Yanvar hadisələrinin siyasi-ictimai baxımdan, rəsmi sənədlər və arxiv materialları əsasında hərtərəfli öyrənilməsinə, həmin proseslərin ibrət dərsləri üzərində düşünməyə, onun yeni nəslin vətənpərvərlik tərbiyəsindəki roluna daha ciddi diqqət yetirilməlidir.

Ən müasir texnika, hətta qadağan olunmuş döyüş vasitələri, sursatı ilə silahlanmış ön minlərlə hərbçinin qərəzkarlıqla düşünülərək, vəhşiliklə həyata keçirilmiş qəfil hücumuna, dağıntılara, yüzlərlə insanın həlak olmasına, yaralanmasına, həbsinə baxmayaraq, eyni zamanda fövqəladə vəziyyət şəraitinin bütün rəsmi-məcburi qaydalarını, qadağan tədbirlərini pozaraq:

a) mərkəzi və yerli hakimiyyət orqanlarına qarşı izdihamlı mitinqlər keçirməsini;

b) xalqın tələbi və hökmü ilə İctimai Dəfn Komissiyasının yaradılmasını, bu qurumun hərbçilərin əhatəsi, habelə snayperlərin hədəfində 42 gün gecəli-gündüzlü fəaliyyətini;

c) yüz minlərlə adamın iştirakı ilə Şəhidlərin Bakının ən yüksək zirvəsində, onların milli və dini mənsubiyyətlərinə fərq qoyulmadan, eyni bir məkanda torpağa tapşırılmasını;

ç) 1990-cı il yanvarın 22-dən başlanmış, sonrakı 40 gün və bugünə qədər davam edən, yəqin ki, həmişə xalqımızın bu əbədi ziyarətgahına fasiləsiz axını;

d) şəhidlərin həlak olduğu yerlərin, Şəhidlər Xiyabanına gedən yolların, xiyabanın və şəhid məzarlarının qırmızı qərənfil, gül-çiçəklərə qərq olmasını;

e) Salyan kazarması adlanan hissədə, müxtəlif millətlərdən olan hərbçilərin, azərbaycanlı əsgər-zabitlərlə işğalçılara qarşı çiyin-çiyinə son nəfəslərinə qədər döyüşərək həlak olmalarını, meyitlərinin isə gizli surətdə Bakı limanındakı gəmilərə daşınaraq, naməlum istiqamətə aparılmasını;

ə) şəhidlərin dəfni günü, dağüstü ərazidə qoyulmuş nəhəng heykəlin dağıdılması kimi əvvəlcədən düşünülmüş fitnəkarlıq aktı törətməklə, şəhidlərin bu ərazidə və bir yerdə deyil, dağınıq halda başqa-başqa yerlərdə dəfn olunması məqsədilə təşkil olunmuş son dərəcədə təhlükəli, habelə mərasim iştirakçıları ilə hərbçilər arasında hökmən qarşıdurmaya (!) hesablanmış, həqiqətən dəhşətli yeni bir faciənin qarşısının fədakar oğullarımızın səyləri nəticəsində alınmasını necə unutmaq olar?… Vidadi Babanlı demişkən:

Bəli, qərənfilli qəbirlərdəki
Azadlıq, istiqlal şəhidləridi.
Ulu babaların varisi təki
Məğrur bir millətin igidləridi.

**—Şəhidlər Xiyabanının gələcəyi ilə bağlı düşüncələriniz, fikirləriniz nədir?**

—Şəhidlər Xiyabanı milli azadlıq hərəkatımızın və oğul-qızlarımızın mübarizliyi nəticəsində qazandığımız istiqlalın, müstəqil dövlətin, suverenliyimizin rəmzlərindən biri kimi xalqımızın müqəddəs and yeri və ziyarətgahıdır.

Razılıq hissilə qeyd etmək lazımdır ki, son 20 il ərzində Şəhidlər Xiyabanında çox böyük yenidənqurma və abadlıq işləri aparılmışdır. Bununla yanaşı, hələ vaxtilə xalqın məsləhət və tələbi ilə irəli sürülmüş bir sıra təkliflərin, arzuların həyata keçirilməməsi təəssüf doğurur.

Fikrimcə, Şəhidlər Xiyabanının geniş ərazisi müasir memarlıq sənəti tələblərinə cavab verən və müsabiqədə qalib gəlib, ümumxalq müzakirəsində bəyənilmiş layihə əsasında, xalqımızın azadlıq hərəkatının müxtəlif mübarizə mərhələlərini ardıcıllıqla əks etdirən əsl mənəvi-tərbiyəvi vətənpərvərlik ocağına, tarixi abidə-qoruğa çevrilməlidir.

Açıq səma altında yaradılacaq bu vahid xatirə kompleksinə rəsmi status verilməli, fəxri əsgəri qarovul xidməti təşkil edilməli, ayrıca "Şəhidlər Muzeyi" fəaliyyət göstərməli, keçdiyimiz əzablı və şərəfli mübarizələr yolunu əks etdirən sərgi zalları, müxtəlif istiqamətli yaradıcılıq studiyaları, kinolektoriya, kitabxana fəaliyyət göstərməlidir.

Eyni zamanda burada müxtəlif görüşlər, diskussiyalar keçirməli, sərbəst xalq tribunası, ayrıca radio-televiziya qovşağı olmalı, bir neçə dil bilən səriştəli bələdçilər buraya gələnlərə xarici ölkələrin rəsmi nümayəndə heyətlərinə, turistlərə hərtərfli məlumat verməlidirlər.

**—Söhbətimizə yekun və son söz kimi nə demək istərdiniz?**

—Müqəddəs "Qurani-Kərim"də buyrulur ki, şəhidləri ölmüş sanmayın, onların yeri və məqamı uca Tanrı dərgahındadır. Çünki onlar Vətən, Torpaq, İnam, Şərəf uğrunda mübarizə yolunun aydınlarıdır. Onların məqsəd və amalları şəhid şair Ülvinin misralarında belə ifadə olunmuşdur: "Vətən üçün doğulmuşuq, Torpaq üçün ölməliyik…".

Şəhid ölməzliyi, onların xatirəsinin əbədiyaşarlığı, əməllərinin ibrət dərslərinin həmişə bizimlə və gələcək yeni-yeni nəsillərlə olacağı reallığının ifadəsi öz əksini, hələ sovet-bolşevik rejiminin hökm sürdüyü bir dövrdə—1991-ci ilin sentyabr ayında "Azadlıq" meydanında keçirilmiş ümumxalq mitinqinin yekdil hökmü ilə Qanlı 20 Yanvar şəhidlərinə Azərbaycanın Milli Qəhrəmanı adı verilməsində tapmışdır.

20 Yanvar bir tərəfdən xalqımızın tarixində qanlı faciə olsa da, digər tərəfdən, milli özündərkin, onun şərəf-ləyaqətinin ucalığı, gələcək mübarizə əzminin daha da möhkəmləndirilməsi, istiqlal uğrunda son qələbəyə qədər “olum, ya ölüm” sınaqlarına hazır olmaq mənasında—nikbin faciə kimi səciyyələndirilməlidir. Bu proseslərdə cəmiyyətin bütün ictimai təbəqələrinin iştirakı və onun qurbanları arasında fəhlə və tələbənin, alim və məktəblinin, həkim və təqaüdçünün, qulluqçu və evdar qadının olması baş vermiş hadisələrin əsl xalq hərəkatı xarakteri daşıdığını təsdiq edir.

Söhbətimizi şəhid jurnalist Alı Mustafayevin çağırış-vəsiyyət xarakterli aşağıdakı fikirləri ilə yekunlaşdırmaq istəyirəm:

“Azərbaycan Torpağı! Azadlıq və ədalət yolunda zülmün zəncirlərini qıran şəhidlərin ruhu önündə ayağa dur! Vətən, xeyirlə şərin əbədi mübarizəsi sənin taleyindən keçir… Tanrı qüdrətinin təcəssümü oğuldu, ərdi, Vətəndi şəhidlər!…

Onların ruhu ürəklərə inam, qollara qüvvət, insanlara hörmət, həyata sevgidir, dərd yükü deyil, kamillik zirvəsidir. Nəsillərin əbədi məhək daşı, tarixin itməz və silinməz yaddaşı, namus, qeyrət, vicdan və ləyaqət meyarı şəhidlərdir. Vətən, Vətən, Vətəndi Şəhidlər!”.

Qarşıdakı pozulmuş ərazi bütövlüyümüzün bərpası, vahid və bölünməz Azərbaycan torpağı, xalqımızın üzləşdiyi mürəkkəb daxili-xarici, sosial-iqtisadi, mənəvi-əxlaqi problemlərin həlli, müstəqil dövlət quruculuğunun çətin, lakin şərəfli yolları ilə irəliləyən bir ölkənin vətəndaşlarına həmişə xatırlatmalıdır:

Ölmədik, əsarət qapılarını
Hələ qanımızla çox döyəcəyik…
Hələ qarşıdadır Şəhid ömrümüz,
Qərənfil altında qalan yollarda
Şəhid olacağıq, ölməyəcəyik!

Bu şərəfli yolun davamçısı olmaq üçün milli birliyimizi qoruyub möhkəmləndirməli, demokratik dəyərlərə hörmətlə yanaşmalı, dövlətçilik prinsiplərinə sədaqətlə əməl olunmalıdır. Gələcəyimiz, yüksəlişimiz qloballaşan müasir dünyanın vahid təsərrüfat həyatına inteqrasiya prosesləri əsasında daha fəal surətdə qoşulmaq perspektivlərimiz bunu tələb edir.

Allah bütün şəhidlərə rəhmət eləsin. Amin!

**“Respublika”**.-2011.-20 yanvar.-N 14.-S.3.

## Azərbaycan xalqının mənəvi ucalıq və dəyanət günü

### Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə ilə müsahibə

**- Şeyx həzrətləri, 20 yanvar faciəsinin növbəti ildönümü ərəfəsindəyik. Hər ötən il məlum hadisəyə münasibəti konkretləşdirir, tarixi həqiqətləri daha çox üzə çıxarır. Həmin hadisələrin ən fəal iştirakçılarından biri kimi Sizin də bu faciəyə 21 il sonrakı münasibətinizi bilmək maraqlı olardı...**

- Bismillahir-Rəhmanir-Rəhim. İlk öncə, Qanlı Yanvar hadisələrinin 21-ci ildönümündə müqəddəs şəhidlərimizin əziz xatirəsini ehtiramla yad edirəm. Bir millət olaraq şəhid olmuş dəyərli həmvətənlərimizin ruhu qarşısında borcluyuq. Bu borc şəhidlərimizin unudulmaz xatirəsi qarşısında illərdən bəri ürəklərimizdə gəzdirdiyimiz vətəndaşlıq qürurunun və qan yaddaşımızın əyani təzahürüdür. Bu, Azərbaycanın müstəqilliyi, dövlətçiliyimizin bərpası, torpaqlarımızın qaytarılması və imansız bir imperiyanın dağılması uğrunda mübarizənin ilk qurbanlarına - 20 Yanvar və Qarabağ müharibəsi şəhidlərinə, Allah-taala nəzərində ən yüksək məqamlardan sayılan şəhidlik zirvəsinə ucalanlara sonsuz ehtiramımızdır.

Tarixin öz qanunauyğunluqları var. Dünyanın gəlişi ilahi bir nizama bağlıdır. Günahsız şəhidlərin müqəddəs qanlarının axıdılmasına bais olanlar, bu ədalətsiz fərmana qol qoyanlar həm bu dünyada, həm də Qiyamət günü tarix qarşısında, Allah-təala qarşısında layiqli cəzadan yaxa qurtara bilməyəcəklər. Biz nikbin və alnıaçıq xalqıq, öz dərdimizi özümüz çəkirik, müsibətlərimizi tez-tez yada salıb gileylənmirik. 20 Yanvar müsibətimiz isə Qiyamət gününə qədər unudulan deyil! Fəqət biz bir şeyi dəqiq bilirik: yolumuz haqq yoludur, islam haqq yoluna çağırışdır! Ona görə də Allah-taalanın köməyi həmişə bizim tərəfimizdə olacaq.

Həmişə belə hesab etmişəm ki, 20 Yanvar faciəsi XX əsr tariximizə xeyirlə şərin, ədalətlə zülmün, şəfqətlə rəhimsizliyin, işıqla zülmətin, azadlıqla əsarətin, məhəbbətlə nifrətin, insanpərvərliklə insansevməzliyin əbədi mübarizəsinin misilsiz nümunəsi kimi düşən bir hadisədir. 20 Yanvar bir tərəfdən xalqımızın sinəsinə çəkilən dağ olsa da, digər tərəfdən onun mübarizə ruhunun, azadlıq istəyinin əbədiliyini bir daha sübuta yetirdi. Qanlı şənbə gecəsində qurban gedən şəhidlər minlərin deyil, milyonların qəlbinə azadlıq toxumu səpdilər.

1990-cı ilin 20 yanvarında baş verən hadisələrin təfsilatını yəqin ki, hamı xatırlayır, lakin baş vermiş faciəni törədən səbəbləri, qanlı qırğına aparan yolları, bu siyasi təcavüz aktının əsl ssenarilərini hələ də əksəriyyətiniz bilmir. Əslində, bu, "böyük Ermənistan" xülyası ilə yaşayan aqanbekyanların, şahnazarovların, balayanların əlində oyuncağa çevrilmiş Qorbaçov kimi ləyaqətsiz dövlət rəhbərinin xalqımıza qarşı öncədən hazırlanmış planı idi! Onlar hələ 1987-ci ildə xalqımızın böyük oğlu Heydər Əliyevi Siyasi Büro üzvlüyündən kənarlaşdırarkən Azərbaycanı başsız qoymaq, yenilməz nüfuza malik rəhbərdən məhrum etmək niyyətində idilər! Heydər Əliyevin SSRİ dövlətinin yüksək mənsəbli liderlərindən olması, Siyasi Büro üzvü seçilməsi o zaman dünya müsəlman dövlətlərinin rəhbərləri tərəfindən böyük iftixar və qürur hissi ilə qarşılanırdı. Onun nüfuzunun yenilməzliyi Moskvanın erməni lobbisini narahat edir, Qorbaçov və ətrafını qıcıqlandırırdı. Heydər Əliyevi siyasi həyatdan uzaqlaşdırmaqla bu nüfuzun sınacağına ümid bəsləyənlər öncə bu niyyətlərini həyata keçirdilər.

Dağlıq Qarabağ və ətrafındakı hadisələr cərəyan edərkən ölkəmizin və əhalimizin başına gətirilən müsibətlərin əsas mənbəyi yerli hakimiyyətin səriştəsizliyi, sapı özümüzdən olan "baltaların" qorbaçovların havası ilə oynaması, xalqın tələb və ehtiyaclarına biganəlik idi. Əsgəran qarşıdurmasını, Topxana meşələrinin qırılmasını, azərbaycanlıların öz doğma torpaqlarında qaçqına çevrilmələrini laqeydliklə seyr edən rəhbərlik Heydər Əliyevi siyasi arenaya dəvət etmək, onun təcrübəsindən, müdrikliyindən, iş bacarığından istifadə etmək əvəzinə, ona qarşı intriqalar qurur, müxtəlif qruplaşmalar yaradır, əks-təbliğat kampaniyaları aparırdılar. Beləliklə, ölkədəki hakimiyyətin siyasi simasızlığına arxalanan imperiya rejimi Azərbaycanın sahibsiz və arxasız qaldığına dair tam əminlik əldə etdi və növbəti təxribat planını həyata keçirdi.

Hadisələrin sonrakı gedişatı hamınıza məlumdur: 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə cəllad sovet qoşunları fövqəladə vəziyyət elan etmədən Bakıya daxil olaraq vətəndaşlarımıza - qocalara, qadınlara, uşaqlara, azərbaycanlılara, ruslara, yəhudilərə, bir sözlə, dinc əhaliyə qanlı divan tutdular. Xüsusi təyinatlı dəstələrin amansız qəddarlığı nəticəsində Bakıda və respublikanın bir sıra rayonlarında rəsmən 131 nəfər şəhid edildi, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu! Bu təcavüzkarlıq aksiyası Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq, xalqı təhqir etmək və ona mənəvi zərbə vurmaq məqsədi daşıyırdı.

**- 20 yanvar faciəsindən sonra yaranmış hakimiyyət boşluğu vəziyyətində şəhidlərin dəfni, ictimai durumun nəzarətdən çıxmaması kimi tədbirlər necə təşkil olundu?**

- Əslində, ölkədə hakimiyyət boşluğu 20 yanvardan sonra yox, faciədən bir neçə gün əvvəl başlamışdı. Elə xalqımızın başına bu müsibətin gətirilməsi də məhz Azərbaycana rəhbərlik edənlərin öz səlahiyyətlərinin icrası ilə məşğul olmamasının, millətimizin qatı düşməni M.Qorbaçovun bədxah əmrlərinin icraçısına çevrilmələrinin nəticəsi idi. Vəziyyətin ən ümidsiz məqamı ölkənin çətin günündə o zamankı respublika rəhbərliyinin səriştəsizliyi sayəsində dövlətin bütün siyasi və inzibati orqanlarının iflic vəziyyətinə düşməsi ilə bağlı idi. Ölkədə tam bir hakimiyyət boşluğu yaranmış, xalq və dövlət arasında dəhşətli uçurum əmələ gəlmişdi. Dövlətə və allahsız kommunist ideologiyasına inamını itirən Azərbaycan xalqı bu məqamda kimə müraciət edəcəyini bilmirdi.

Digər tərəfdən, mərkəz vəziyyətdən istifadə edərək baş verənləri milli və dini münaqişə kimi qələmə verməyə çalışır, xalqımızın istibdada qarşı mübarizəsini dünya ictimaiyyətinə islam fundamentalizmi, ekstremizm kimi təqdim edirdi. Ölkəmizin taleyi, hətta xəritədəki varlığı şübhə altındaydı - məqsəd dövlətimizi parçalamaq, separatçılığa sürükləmək, milli məhvə məhkum etmək idi. Bütün bunlar erməni millətçilərinin əlində oyuncağa çevrilmiş qorbaçovların, faşist ruhlu sovet siyasi rəhbərliyinin uzun illər ərzində xalqımıza qarşı planlaşdırdığı düşmənçilik siyasətinin bariz təzahürü idi.

Həmin günlərdə ölkədə çalışan, fəaliyyət göstərən, təcavüzkarlara sinə gərən, minlərlə faciə qurbanının, milyonlarla vətəndaşın yeganə ümid yeri - Qafqaz Müsəlmanları İdarəsi - Təzəpir məscidi idi. Qafqaz Müsəlmanları İdarəsi hadisələrin ilk dəqiqəsindən qərargaha çevrildi; yanvarın 22-də İctimai Dəfn Komissiyası ilə birlikdə şəhidlərin misli görünməmiş dəfn mərasiminin təşkilati rəhbərliyi, yaralılara dərman və maddi yardım göstərilməsi, şəhid ailələrinə ərzaq paylanması, 40 gün ərzində təmənnasız dini xidmətin təşkili - bunlar bizim fəaliyyətimizin yalnız görünən tərəfi idi. Əslində, o məqamda idarə bütün şərəf və ləyaqəti ilə imperiya siyasətinin riyakarlığına meydan oxudu, informasiya blokadasını yararaq baş verənləri dünyaya bəyan etdi və yalançı "qəhrəmanlardan" fərqli olaraq xalqa həqiqi mənəvi dəstək oldu. Əgər o zaman keçmiş SSRİ rəhbərliyinin siyasi avantüralarına aldanıb hakimiyyət təklifləri qəbul edilsəydi, sonra xalqımızın, dövlətimizin başına nə müsibətlər gələcəyini təsəvvür etmək belə, çətindir.

Bütün bunlar gəlişigözəl sözlər deyil, 21 illik tariximizin müqayisəli təhlilindən yaranan mülahizələrdir. O qanlı dönəmdə belə məsuliyyətin altına girməyin nə dərəcədə ağır və təhlükəli olduğunu çoxlarınız xatırlayırsınız. Fövqəladə vəziyyətin elan edilməsinə baxmayaraq, yanvarın 21-də Təzəpir məscidinin həyətində minlərlə insanın iştirak etdiyi mitinq keçirildi. İctimai Dəfn Komissiyası şəhidlər üçün dəfn yerinin təyin olunması məsələsində, hərbi komendaturanın ciddi narazılığına baxmayaraq, Dağüstü parkın seçilməsində israr etdi. Yanvarın 22-də tarixdə görünməmiş milyonluq izdihama başçılıq edərək dəfn mərasiminin önündə durduq və ilk dəfə olaraq allahsız sovet rejimini "mənfur imperiya" ifadəsi ilə lənətlədik. Dəfn prosesində bir nəfər belə hərbçinin iştirakına və müdaxiləsinə imkan verilmədi. Ölkədə bütün informasiya agentliklərinin nəzarətdə olduğu bir vaxtda biz "Vətən" cəmiyyətinin teleksi ilə gizli şəkildə BMT-nin Baş katibliyinə, dünyanın dövlət başçılarına və dini rəhbərlərə, ən əsası isə əli xalqımızın qanına batmış Mixail Qorbaçova bəyanatımızı ünvanlaya bildik.

1990-cı ilin 21 yanvarında bu cəllada etiraz müraciətimdə mən xalqımın səsini çatdırdım: "Siz bilin ki, bu faciə ilə bağlı əsl həqiqəti dünya ictimaiyyətinə çatdırmaq üçün əlimizdən gələni edəcəyik. Çünki o dövlət ki imperiya hökmranlığı niyyəti ilə millətlərarası çaxnaşmaları aradan qaldırmaq əvəzinə, onu daha da qızışdırır, o dövlət ki öz ordusunu öz vətəndaşlarının qatilinə çevirir, o dövlət ki öz adamlarına layiqli güzərandan daha çox ölmək hüququ verir, belə dövlət ancaq nifrətə layiqdir... Özlərini əsl işğalçı kimi aparan cəza qoşunlarını Bakıya yeritməklə siz sovet hökumətini rüsvay etdiniz və bununla, təsdiq etdiniz ki, müstəqillik və xalqların ləyaqəti kimi anlayışlar bu hökumətə tamamilə yaddır. Siz bununla özünüzü bir siyasi xadim və bacarıqsız dövlət başçısı kimi ifşa etdiniz. Sizin haqqınızda yaranmış bir əfsanə də puç oldu, çünki bir əli ilə xarici məmləkətlərdə sülh sazişi, o biri əli ilə öz vətəndaşlarına qarşı cəza tədbirləri imzalayan adamı "Sülh uğrunda mübariz" adlandırmaq ən azı, ləyaqətsizlikdir. Bütün Azərbaycan xalqının iradəsini ifadə edərək mən Bakıdan qoşun hissələrinin dərhal çıxarılmasını qətiyyətlə tələb edirəm. Heç bir xalqla, həmçinin azərbaycanlılarla silah gücüylə danışmaq olmaz. Bu, 10 gün, yaxud Əfqanıstandakı kimi 10 il davam edə bilər. Amma gec-tez ədalət və haqq işi qələbə çalmalıdır".

İslam Konfransı Təşkilatına, "Azadlıq" radiostansiyasına, İtaliyanın "Respublika" qəzetinə, dünyanın bir sıra aparıcı kütləvi informasiya vasitələrinə Bakıda törədilən cinayətlər haqqında həqiqətləri çatdırdıq. Daha sonra, ilk günlərdə bir sıra rəsmi şəxslərin etirazına baxmayaraq 20 Yanvar faciəsinin bütün qurbanlarının müqəddəs şəhid kimi tanınmasına və "şəhid" ifadəsinin qəbul edilməsinə nail olduq.

**- Həmin çətin və təhlükəli günlərdə Heydər Əliyevin Moskvada heç bir maneəyə baxmayaraq xalqımızın səsinə səs verməsi, faciəyə görə M.Qorbaçovu və bütünlüklə İttifaq rəhbərliyini birmənalı olaraq ittiham etməsi Azərbaycanda necə qarşılandı?**

- Həmin günlərdə, bu çətin mücadilədə bizim mənəvi dəstəyə, yol göstərən rəhbərə, zülməti işıqlandıran bir insana böyük ehtiyacımız vardı. Bu insan yenə də Heydər Əliyev oldu! Onun Moskvada verdiyi kəskin bəyanat 20 yanvar hadisələrinə verilən ilk obyektiv siyasi qiymət olmaqla yanaşı, həm də faciənin əsl mahiyyətini, səbəbkarlarını, günahkarlarını tam çılpaqlığı ilə aşkar göstərdi. Əgər o faciəli dünənimizdə Heydər Əliyevin bizə və xalqımıza mənəvi dəstəyi olmasaydı, bugünkü sabitliyi, əmin-amanlığı, xalq və dövlət birliyini görmək bizə nəsib olmazdı.

Bir tarixi faktı da xatırlatmaq istərdim. Həmin günlərdə Qafqaz Müsəlmanları İdarəsinin ünvanına ilk başsağlığı teleqramı Moskvadan, ulu öndərimiz Heydər Əliyevdən gəldi. Qəlbi daim xalqın taleyi ilə döyünən bu böyük insan baş verənləri Azərbaycan xalqına qarşı törədilmiş cəza tədbirləri kimi dəyərləndirdi. Moskvadakı daimi nümayəndəliyimizdə həmvətənlərimiz qarşısında çıxışıyla sovet imperiya siyasətini kəskin tənqid edən, kommunist ideyalarından imtina edən Heydər Əliyev xalqın həqiqi mənəvi atasının, əsl dövlət xadiminin və mübariz başçının dəyişməz ləyaqətini nümayiş etdirdi. Elə buna görə də 4 il ərzində düzgün siyasi qiymətini ala bilməyən 20 Yanvar hadisələri sonralar məhz onun hakimiyyətə yenidən qayıdışı dönəmində SSRİ dövlətinin Azərbaycan xalqına qarşı törətdiyi hərbi təcavüz aktı kimi siyasi qiymətini aldı.

**- Həmin günlərdə Qafqaz Müsəlmanları İdarəsinin üzərinə mənəvi yüklə yanaşı, həm də ictimai səfərbəredici funksiya da düşürdü...**

- Düzgün qeyd edirsiniz. Hadisələrin gedişi idarəmizi proseslərin önünə çıxarmışdı, hamı son sözü bizdən gözləyirdi. Təsəvvürünüzə gətirin, köhnə hakimiyyət qaçıb, yeni hakimiyyət yalnız kağız üzərindədir, əslində isə yoxdur, müxalifət fəalları gizlənirlər - bütün nəzərlər bizim üzərimzə cəmlənib. Ölkənin vətənpərvər insanları, ictimai xadimlər, ziyalılar, deputatlar, bir sözlə, Azərbaycanın sabahından narahat olan şəxslər məhz bizim idarədə toplaşır, saatbasaat dəyişən vəziyyəti dəyərləndirərək, müvafiq qərarları qəbul edirdik.

Qafqaz Müsəlmanları İdarəsi bu müddət ərzində bütün qüvvə və ehtiyatlarını səfərbər etdi. O ağır məqamları Allahın yardımı, mənəvi silahdaşlarımızın, idarənin əməkdaşlarının, xristian və yəhudi dini icmalarının rəhbərlərinin, müsəlman din xadimlərinin, Bakı İslam Universitetinin müəllimləri və tələbələrinin fəal vətəndaş mövqeləri, ən əsası isə böyük bir xalq ordusunun qətiyyəti ilə keçdik. Dünyanın bir sıra müsəlman ölkələrindən, özəlliklə Türkiyə, Misir, Küveyt və Qafqazdan olan din qardaşlarımızın həmrəylik aksiyalarını xüsusi minnətdarlıqla qeyd etmək istəyirəm. O günlərdə Dağıstanın Dərbənd şəhərindən, Gürcüstanın Rustavi, Marneuli, Dmanisi şəhərlərindən zərər çəkmiş şəhid və yaralıların ailələri üçün ərzaq və dava-dərman göndərilirdi. Qafqaz Müsəlmanları İdarəsi, sözün həqiqi mənasında, ölkənin siyasi ab-havasını qoruyan və ictimai sabitliyi təmin edən mərkəzə - qərargaha çevrilmişdi. Bu gün həmin hadisələrin tarixi ardıcıllığını izləyən hər kəs Qafqaz Müsəlmanları İdarəsinin təmənnasız və fədakar fəaliyyətinin şahidi ola bilər.

Bizim fəaliyyətimiz, əlbəttə, 40 günlük aramsız matəm mərasimləri ilə bitmədi, daha sonra da 21 il ərzində biz həm 20 Yanvar, həm də Qarabağ şəhidlərinin ailələrinə maddi və mənəvi yardımımızı əsirgəmədik. Yüzlərlə şəhid və əlil ailəsi müxtəlif yardımlarla təmin olundu, bu günə qədər onlar bizim xeyriyyə işlərimizdə xüsusi güzəştlərə malikdirlər. Amma biz hələ də şəhidlərə münasibətdə haqq-ədalətin tam yerini tutmadığını düşünürük. Biz geniş və hərtərəfli araşdırmalar aparacaq yeni istintaq komissiyasının yaradılmasını, bu hadisələri törədənlərin, başda Qorbaçov olmaqla ona rəvac verənlərin cinayət məsuliyyətinə cəlb olunmasını, Beynəlxalq Haaqa məhkəməsinə çıxarılmasını tələb edirik. Çox istərdik ki, tarixin acı dərslərinin təkrar olunmaması üçün hadisələrin siyasi xarakterini açıqlayan sənədli xronikalar, filmlər, əsərlər yaransın və əsl həqiqətlərlə illərdən bəri xalqı narahat edən şübhələrə son qoyulsun. Biz bu təşəbbüslə artıq Milli Məclisə müraciət etmişik.

**- Şəhidlik islam dəyərlərinə görə, ən ali mərtəbələrdən sayılır. Bəs, bu munis insanların haqq mücadiləsi öz nəticəsini necə tapdı?**

- Şəhidlik böyük məktəbdir. Yüz illər keçsə də, şəhidlər hörmətlə anılacaq, 20 Yanvar faciəsi İslamın müqəddəs aşura mərasimi kimi uca və əziz tutulacaqdır! Çünki şəhidlik imanın ən yüksək zirvəsi, insan əxlaqının ən gözəl nümunəsidir. Şəhidlər bütün bəşəriyyət üçün fədakarlıq örnəyidirlər. Elə buna görə də biz Qanlı Yanvar hadisələrinin 21 illik mərasiminin Azərbaycan xalqının mənəvi ucalıq və dəyanət günü kimi qeyd olunmasının tərəfdarıyıq. Unutmayaq ki, 20 Yanvar bizi müstəqilliyə, iqtisadi tərəqqiyə, milli və dini dəyərlərin bərpasına aparan yolun ilk mübarizəsi və ilk mənəvi qələbəsi idi. Heç bir mübarizə qansız olmadığı kimi, bizim də mücadiləmiz, təəssüf ki, qurbansız olmadı. Amma biz dözüm və fədakarlığımızla düşmənlərə meydan

oxuduq, Allahın köməyi ilə dövlətçiliyimizi və milli varlığımızı qoruyub saxladıq, yeni, daha gözəl bir Azərbaycan yaratdıq! Bu, şəhidlərimizin apardığı haqq mücadiləsinin uğurlu, məntiqi nəticəsidir.

Şükürlər olsun ki, İlahinin bizə böyük lütfü sayəsində ölkəmizin siyasi rəhbərliyinə Heydər Əliyev kimi müdrik rəhbər və İlham Əliyev kimi nüfuzlu lider gəldi. Ölkənin ən çətin məqamlarında, iqtisadi böhranlar və ictimai gərginliklər dönəmində belə, möhtərəm Prezidentimiz milli dəyərlərimizə, dindarlarımızın arzu və ehtiyaclarına həssaslıqla yanaşdı. Elə buna görə də biz dindarlar Azərbaycan xalqının gələcəyi naminə aparılan daxili və xarici siyasəti hər zaman bəyənir və ürəkdən dəstəkləyirik. Bu gün də inanırıq ki, Allahın köməyi və Ali Baş Komandanımızın rəhbərliyi ilə Qarabağ torpaqlarımızın qaytarılması uğrunda haqq mücadiləmizi qalib kimi başa vuracaq, dövlətimizin qüdrətini dünyaya bəyan edəcəyik, inşallah!

Mən bir daha ruhanilərimiz və dindarlarımız adından şəhidlərin ailələrinə, yaxınlarına, bütün Azərbaycan xalqına qadir Allahdan rəhmət, səbir və dəyanət diləyirəm. Və bu gün də 21 il əvvəlki müraciətimdə dediyim kimi, bir daha əmin olduğumu bildirmək istəyirəm ki, şəhidlərin müqəddəs qanlarının axıdılmasına bais olanlar həm bu dünyada tarix qarşısında, həm də Qiyamət günü Allah-taala qarşısında layiqli cəzadan yaxa qurtara bilməyəcəklər! Bu bizim duamız və hər birimizin ədalətə ümididir! Allah şəhidlərimizə rəhmət eləsin və hər zaman xalqımızın köməyi olsun! Amin!

**İxtiyar Hüseynli**

**“Azərbaycan”**.-2011.-20 yanvar.-N 14.-S.3.

## Müdhiş gecənin ibrət dərsləri

**Bəxtiyar Sadıqov**

### Qətliama ilk etiraz xalqın xilaskarından gəldi

Sanki qəflətən aydın səmada göy guruldadı. Dünyanın bütün informasiya kanalları SSRİ rəhbərliyindən uzaqlaşdırılaraq ömrünün çox ağır və təhlükəli günlərini yaşayan xalqın böyük oğlu Heydər Əliyevin bəyanatını yaymağa başladı. Azərbaycanın informasiya blokadasına alındığı bir şəraitdə baş vermiş həqiqətləri operativ surətdə dünya ictimaiyyətinə çatdırmaq böyük cəsarət tələb edirdi. Fəqət, dəhşətli faciəyə kəskin etiraz olaraq 1990-cı il yanvarın 21-də ailəsi ilə birgə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək mətbuat konfransı keçirən ümummilli lider Heydər Əliyev hadisəyə operativ və düzgün qiymət verən ilk vətənpərvər siyasi xadim oldu. Həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələn Heydər Əliyev ifşaedici və cəsarətli bir bəyanat verdi:

"Əziz həmvətənlərim!

Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı daimi nümayəndəsindən xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm.

Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm. Azərbaycanda yaranmış mürəkkəb vəziyyətin bir sıra səbəbləri vardır. Vaxtımızın məhdudluğundan bu məsələlərin üzərində ətraflı dayanmaq istəmirəm...

Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya-siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı.

Bunlar üçün ilk növbədə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin artıq sabiq birinci katibi Vəzirov müqəssirdir. Bu yüksək vəzifədə olduğu müddətdə o, Azərbaycandakı vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə, özünün səhv addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurum yaratmışdır. Xalq isə hiddətlənmişdir. Elə buna görə də Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında aylarla davam edən mitinqlərdə dəfələrlə Azərbaycanın partiya rəhbərliyinin istefası tələbi irəli sürülmüşdür. Söhbət əslində Vəzirovun istefasından gedirdi. Bəs bu məsələ indiyə kimi niyə həll olunmamışdır? Yalnız dünən Bakı şəhərinə ordu yeridildikdən, qırğın və dağıntılar baş verdikdən sonra Vəzirov Azərbaycandan əslində qaçmışdır. Bu, böyük səhvdir. Ən böyük səhv isə, sözsüz ki, qeyri-ciddi, bu yüksək vəzifəyə əsla yaramayan adamın bir vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə birinci katib təyin edilməsi idi. Ancaq iş təkcə bununla bitmir.

İndi yanvarın 19-dan 20-nə keçən gecə baş vermiş və bu gün də davam edən faciənin üstündə dayanmaq istəyirəm. Hesab edirəm ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur. Təəssüf ki, Azərbaycan rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir...

Nəhayət, 19-dan 20-nə keçən gecə sovet ordusunun, SSRİ Daxili İşlər Nazirliyinin böyük kontingenti Bakı şəhərinə yeridilmişdir. Nəticəsi isə göz qabağındadır. Bunun törətdiyi faciələr hamımıza məlumdur.

Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə bərk ayaqda Azərbaycanı qoyub qaçmış Vəzirov öz xalqı qarşısında məsuliyyət daşımalıdır. Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır".

Elə həmin gün Heydər Əliyev Azərbaycan xalqına başsağlığı teleqramı göndərdi. Teleqramda deyilirdi: "Bakı şəhərinə sovet ordusu hissələrinin yeridilməsi ilə əlaqədar xalqımızın başına gətirilən faciədən, dinc əhalinin qırılmasından böyük ürəkağrısı ilə xəbər tutdum. Bu matəm günündə həlak olanların ailələrinə və yaxınlarına, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm".

Sanki yanar ürəklərə su çiləndi. Xalq kimsəsizlik xofundan qurtardı, mərd və qorxmaz müdafiəçisinin, haqqını müdafiə edərək sözünü deyəninin olduğunu gördü. Özü həyatının ən təhlükəli və ağır dövrlərindən

birini yaşamasına baxmayaraq, bu böyük insan xalqına arxa durmağı, ona yönələn ədalətsizliyə qarşı qətiyyətlə çıxmağı bacardı.

Xalqın belə faciəli günlərində isə Azərbaycanda hakimiyyət davası davam edirdi. Xalqın qanı və göz yaşları üzərindən adlayaraq keçən A.Mütəllibov respublikaya başçılıq etməyə başladı. Şəhidlərin dəfnində belə iştirak etməyən respublika başçısı bu cür vəhşiliyin və qəddarlığın araşdırılması, baş verən hadisələrin təhlil edilərək cinayətkarların cəzalandırılması barədə düşünmək belə istəmirdi. Fikri-zikri çoxdan bəri həsrətində olduğu vəzifədə yerini möhkəmləndirmək, Moskva ilə münasibətlərini mehribanlaşdırmaq idi. Dağlıq Qarabağda baş verən hadisələr də qulağına girmirdi. Elə bil bu xalqın ona heç bir aidiyyəti yox idi. Sona qədər də mərkəzin anti-Azərbaycan tapşırıqlarını can-başla yerinə yetirdi. Ən nəhayət, xalqın qəzəbindən qorxaraq sələfi Vəzirov kimi Moskvaya qaçdı. Amma gec-tez əməllərinə görə, xalq qarşısındakı cinayətinə görə cavab verəcəkdir!

İlk dəfə meydan qəhrəmanlarının da iç üzü 20 Yanvar hadisələri zamanı açıldı. Ölkənin baş meydanındakı tribunadan SSRİ rəhbərliyini hədələyən, xalqı istehkamlar qurmağa, silahlı əsgərlərə və zirehli texnikaya müqavimət göstərməyə çağıran "liderlər" həlledici məqamda gizləndilər. Əslində, onlar dinc əhalinin güllələbaran ediləcəyini gözəl bilirdilər. Amma bu vasitə ilə Vəzirovu sıradan çıxararaq hakimiyyətə gəlmək istəyirdilər. Bəli, məhz vəzifə xatirinə azadlıq uğrunda mübarizəyə qalxmış insanları qəsdən qırğına, ölümün pəncəsinə göndərdilər. Kimisi Elmlər Akademiyasının zirzəmisində, kimisi evində daldalandı, bəziləri isə respublikadan qaçdı. Xalqı qana susamış, əlisilahlı imperiya qoşunu üzərinə göndərən "meydan qəhrəmanları"nın birinin də burnu qanamadı. Və azadlıq uğrunda şəhid gedənlər nə qədər yüksəklərə qalxdılarsa, onlar da bir o qədər alçalıb xalqın nəzərindən düşdülər.

20 Yanvar hadisələrinə münasibətdə - həm Azərbaycanın müstəqilliyi uğrunda canlarından belə keçməyə hazır olanların aldadılmasında və ölümə təhrik edilməsində, həm də baş vermiş faciənin qiymətləndirilməsində eyni mövqe tutsalar da, vəzifə kürsüsü naminə vuruşda sonradan düşmənə çevrildilər. Xalq hərəkatının dalğaları qoynunda hakimiyyətə gələn AXC - Müsavat cütlüyü Ayaz Mütəllibovu rəhbərlikdən uzaqlaşdırdıqdan sonra özü də iqtidarda uzun müddət duruş gətirə bilmədi. Amma hakimiyyətdə olduqları müddətdə 20 Yanvar hadisələrinin obyektiv qiymətləndirilməsinə təşəbbüs belə göstərmədilər. Yalnız ulu öndər Heydər Əliyev fəlakət baş verən andan hadisəyə öz kəskin və prinsipial münasibətini bildirdi, sona qədər də mövqeyindən geri çəkilmədi.

Xalqın ağır günlərində daim onunla olan lider

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 16 dekabr 1999-cu ildə 20 Yanvar faciəsinin 10-cu ildönümü haqqında xüsusi sərəncam imzaladı. Sərəncamda on il əvvəl törədilən faciəyə ədalətli və obyektiv qiymət verilməklə yanaşı, cinayətin açılmamasından, bütün günahkarların cəzalandırılmamasından narahatlıq hissi də ifadə olunurdu.

Törədilmiş cinayət və onun nəticələri göz qabağında olduğu halda, respublika rəhbərliyi baş vermiş faciənin mahiyyətini hər vasitə ilə ört-basdır etməyə cəhd göstərmişdi. Xalqın tələbi və bir qrup deputatın təşəbbüsü ilə Azərbaycan SSR Ali Sovetinin 1990-cı il yanvarın 22-də Yanvar faciəsi ilə bağlı çağırılmış sessiyasına respublikanın əksər siyasi və dövlət rəhbərlərinin gəlməməsi isə onların xalqın taleyinə biganə qaldıqlarını, törədilmiş cinayətdə bu və ya digər dərəcədə iştirak etdiklərini bir daha təsdiq etmişdi.

20 Yanvar hadisələrinə siyasi qiymət verilməsi tələbi ilə dəfələrlə çıxış edən Azərbaycan Xalq Cəbhəsi də hakimiyyətdə olduğu dövrdə faciəyə siyasi qiymət vermək üçün öz imkanlarından istifadə etməmişdir. Beləliklə, hadisələrdən uzun müddət keçsə də, keçmiş SSRİ-nin və Azərbaycanın rəhbərliyi tərəfindən xalqa qarşı törədilmiş ağır cinayət açılmamış qalmışdı.

Hələ Azərbaycanda sovet hakimiyyəti mövcud olduğu dövrdə 20 Yanvar faciəsi ilə bağlı olan və geniş xalq kütlələri tərəfindən yığılıb Dövlət İstintaq Komissiyasına təhvil verilmiş konkret dəlil və sübutlar qəsdən Azərbaycandan çıxarılıb aparılmışdı. O dövrdə Azərbaycanın prokurorluq və hüquq-mühafizə orqanları müvafiq istintaq tədbirləri həyata keçirməmiş, hətta əksinə, 20 Yanvar faciəsi ilə bağlı bir sıra məxfi sənədlər, o cümlədən mühüm arxiv sənədləri bütövlükdə və ya qismən məhv edilmişdi.

Bu fərmana qədər də ulu öndər Heydər Əliyev ardıcıl və müntəzəm surətdə hadisələrə obyektiv qiymət verilməsinə çalışmış, bir sıra sənədlərin qəbul edilməsinə nail olmuşdu. 20 Yanvar hadisələrinə ilk hüquqi-siyasi qiymət 1991-ci ilin noyabr ayında - onun Naxçıvan Ali Sovetinə rəhbərlik etdiyi vaxtda verilmişdi. Ulu öndər Heydər Əliyev 1990-cı ilin iyulunda Naxçıvana qayıtdıqdan və 1991-ci il sentyabr ayının 9-da Naxçıvan Ali Məclisinin Sədri seçildikdən sonra faciəyə hüquqi-siyasi qiymət vermək imkanı yarandı. Həmin il noyabr

ayının 21-də Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Ali Məclisi tərəfindən qəbul edilmiş müvafiq qərarda 20 Yanvarın Milli Matəm Günü kimi qeyd olunması qərara alınmışdı.

Naxçıvan MR Ali Məclisinin 21 noyabr 1990-cı il tarixli qərarından:

"Yanvar faciələrinin səbəbkarlarının - istər İttifaq, istərsə də respublika rəhbər partiya, sovet, hüquq-mühafizə orqanı işçilərinin, hərbçilərin bu günədək aşkar edilib qanunla məsuliyyətə cəlb olunmaması xalqda dərin hiddət və etiraz doğurmuşdur.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bütün bunları işğalçı siyasət və dəqiq düşünülmüş hərbi təcavüz kimi qiymətləndirərək insan hüquqları bəyannaməsinin kobud şəkildə pozulması kimi nəzərdə tutaraq qərara alır:

1. 1990-cı ilin yanvar ayında Bakı şəhərində törədilmiş qanlı hadisələr Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirilsin.

2. Dinc əhaliyə, silahsız kütləyə, heç bir müqavimət göstərməyən günahsız adamlara qarşı müasir silahla, hərbi texnika ilə zorakılıq edilməsi, qocaların, qadınların, uşaqların qətlə yetirilməsi Azərbaycan xalqına qarşı açıq təcavüz kimi ittiham edilsin.

3. Bir ilə yaxın vaxt keçməsinə baxmayaraq, Bakı faciələrinə Azərbaycan SSR ali hakimiyyət orqanları tərəfindən siyasi qiymət verilməməsi, bununla əlaqədar yaradılmış Xüsusi Deputat Komissiyasının işinin qeyri-müəyyən səbəblərdən başa çatdırılmaması, qanlı hadisələrin günahkarlarının aşkara çıxarılıb qanuni məsuliyyətə verilməməsinə qəti etiraz olunsun.

Azərbaycan SSR Ali Sovetindən tələb edilsin ki, ən qısa müddətdə həmin məsələni parlamentin müzakirəsinə çıxarsın.

4. Bu qərar qəbul edilən andan 20 Yanvar günü hər il Naxçıvan Muxtar Respublikasında Milli Matəm Günü kimi qeyd edilsin.

5. Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin ki, 20 Yanvar günü hər il Azərbaycan SSR-də Milli Matəm Günü kimi qeyd edilsin".

Heydər Əliyev bu mübarizəsini ona qarşı az qala düşmən mövqedə duran Ali Sovetdə də davam etdirirdi.

O ağır günlərdə 20 Yanvar faciəsi ətrafında hökm sürən xəyanət sükutunu mütəmadi olaraq pozan məhz Heydər Əliyevin haqq səsi və dəyişməz mövqeyi oldu. Heydər Əliyevin Azərbaycan SSR Ali Sovetinin 7 mart 1991-ci il tarixli sessiyasındakı çıxışından: "1990-cı il yanvarın 20-də İttifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edilmişdir. Heç bir əsas olmadan, xəbər vermədən, dövlət qanunlarını kobudcasına pozaraq Bakı şəhərinə müasir silahlı sovet ordusunun qoşun hissələri yeridilmiş, onlar vəhşilik, qəddarlıq etmiş, nəticədə nahaq qan tökülmüş, yüzlərlə adam həlak olmuş, xəsarət almış, itkin düşmüşdür.

Təəssüf ki, bu təcavüz indiyə qədər davam edir. Bir ildən artıqdır ki, Azərbaycanın paytaxtı fövqəladə vəziyyət şəraitində yaşayır. Bizim sessiyamız da bu şəraitdə keçirilir. Bir ildən artıqdır ki, Azərbaycan xalqı şəhidlərə matəm saxlayır. Respublikanın şəhərlərində, qəsəbələrində, kəndlərində şəhidlərin xatirəsinə abidələr ucaldılır. Fəqət, qatillər indiyə qədər aşkar olunmayıb. Buna heç vəchlə bəraət qazandırmaq olmaz. Bu məsələ müzakirə olunmalıdır. 20 Yanvar faciəsinə Ali Sovetin sessiyası siyasi qiymət verməlidir, onun günahkarlarını müəyyən etməlidir".

Heydər Əliyevin 1991-ci il iyunun 19-da SSRİ Nazirlər Kabinetinə göndərdiyi məktubundan:

"Yanvar hadisələrində yüzlərlə adam öldürüldü və şikəst edildi.

Artıq il yarım keçib. Nəinki bu dəhşətli cinayətlərin hamıya çoxdan məlum olan günahkarları üzə çıxarılmayıb, əksinə, bunları ört-basdır etmək üçün əllərindən gələni edirlər. Ümid edirlər ki, zaman keçdikcə bu faciə unudulacaq. Ancaq tarix dəfələrlə sübut etmişdir ki, doğma xalqa qarşı yönəldilmiş qanlı cinayətləri on illər keçsə də, unutmaq və bağışlamaq mümkün deyil".

Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin 29 avqust 1991-ci il tarixli sessiyasında çıxışından:

"20 Yanvar faciəsi dövründən il yarımdan çox vaxt keçir. Bu gün burada da, bu salonda cürbəcür söhbətlər gedir. Bir qrup bir fikirdədir, məndən qabaq çıxış edən Rəhimov başqa fikirdədir. Mən sual verirəm, Ali Sovetin sədri Elmira Qafarovaya, Azərbaycan prezidenti Ayaz Mütəllibova: nə üçün indiyə qədər bu məsələyə siyasi qiymət verilməyib? Bu məsələnin həm siyasi tərəfi var, həm hüquqi tərəfi var. Bu məsələyə dərhal siyasi qiymət vermək olardı. O ki qaldı hüquqi cəhəti, ayrı-ayrı adamların məsuliyyətə cəlb olunması, onu, şübhəsiz ki, istintaq yolu ilə aydınlaşdırmaq lazımdır. Buna siyasi qiymət verilmədiyinə görə başqa tədbirlər həyata keçirmək mümkün olmur".

Bütün bunlar öz əli ilə tikib qurduğu Bakıda yaşamasına imkan verilməyən, amma daim xalqı ilə birlikdə olan, ən çətin və ağır günlərdə ona arxa sayılan möhtərəm Heydər Əliyevin mövqeyi idi. Doğrudur, müxtəlif siyasi platformadan çıxış edən ayrı-ayrı siyasi qüvvələr 20 Yanvar faciəsinə münasibətdə həmfikir təsiri

bağışlayırdılar. Hətta onlar SSRİ dağıldıqdan sonra cürətə gələrək bütün günahları Moskvanın üzərinə atmağa cəhdlər də göstərmişdilər. Bütövlükdə isə 1994-cü ildə cənab Heydər Əliyevin təşəbbüsü ilə görülən işlərə qədər nə respublikanın kommunist rəhbərliyi, nə də dəfələrlə kommunistlərdən 20 Yanvara siyasi qiymət verilməsini tələb edən AXC öz iqtidarı dövründə faciəyə siyasi qiymət verilməsindən ötrü imkanlardan istifadə etməyib.

20 Yanvara ilk obyektiv siyasi qiyməti Heydər Əliyev verdi

Xalqın arzu və tələbi ilə ölkə rəhbərliyinə qayıdan Heydər Əliyev dövrün mürəkkəbliyinə və görüləsi işlərin çoxluğuna baxmayaraq, tariximizin şanlı və qanlı səhifəsi sayılan 20 Yanvar faciəsinin başvermə səbəblərini və günahkarlarının araşdırılması ilə də məşğul oldu. Beləliklə, 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verildi. Heydər Əliyev bununla əlaqədar olaraq 1994-cü il yanvarın 5-də xüsusi fərman imzaladı. Həmin fərmanda Yanvar hadisələrinə qiymət verilməsindən ötrü Milli Məclisin ayrıca sessiyasının keçirilməsi tövsiyə olunmuşdu. 1994-cü il yanvarın 2-də ulu öndər Heydər Əliyevin sədrliyi ilə 20 Yanvar faciəsinin dördüncü ildönümü münasibətilə yaradılan dövlət komissiyasının iclası keçirildi. İclasda çıxış edən Heydər Əliyev ötən dörd ildə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməməsini, o zamankı Milli Şura tərəfindən qəbul edilmiş 19 yanvar 1992-ci il tarixli qərarın səthi, başdansovdu hazırlandığını ciddi tənqid etdi: "Xalqımızın tarixinə qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermişdir. Tarixin yaddaşına qanla yazılmış həmin gündən bizi 4 illik zaman məsafəsi ayırır. Təəssüf ki, 4 il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilməmişdir".

Bundan sonra Milli Məclisin iclaslarında 20 Yanvar faciəsi ilə bağlı məsələ dərindən və ətraflı araşdırıldı, 1994-cü il martın 29-da "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" adlı xüsusi qərar qəbul edildi. Beləliklə, Heydər Əliyevin təkidi və rəhbərliyi sayəsində xalqımıza qarşı törədilən bu qanlı və qəddar aksiyaya siyasi-hüquqi qiymət verildi. Sənəddə 20 Yanvar faciəsi qabaqcadan şüurlu surətdə planlaşdırılmış və vəhşicəsinə həyata keçirilmiş cinayət aktı kimi qiymətləndirilirdi. Qeyd olunurdu ki, Bakıya qoşun yeridilməsi milli azadlıq hərəkatını boğmaq və kommunist rejimini saxlamaq məqsədinə xidmət edib. Eyni zamanda, əsas məqsəd xalq hərəkatına zərbə vurmaq, istiqlaliyyət uğrunda mübarizə aparan qüvvələri məhv etmək olub. Bundan əlavə, qərarda faciənin günahkarları konkret adlarla göstərilir, ötən dörd il müddətində respublika hüquq-mühafizə orqanlarının bu ağır cinayətin istintaqı ilə bağlı fəaliyyəti yarıtmaz qiymətləndirilirdi.

Təəssüf ki, indiyədək həmin cinayəti törədənlər layiq olduqları cəzanı almamışlar. Ulu öndər Heydər Əliyevin 20 Yanvar faciəsinin 10-cu ildönümü haqqında imzaladığı fərmanda deyilir: "XX əsr tarixində totalitarizmin törətdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı işlədilmiş cinayət əslində bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli bir əməldir. Həmin cinayəti törədənlər indiyədək öz cəzalarını almamışlar. Xalqımız əmindir ki, müqəssirlər tarix, bəşəriyyət, eləcə də Azərbaycan xalqı qarşısında cavab verməli olacaqlar".

Heydər Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsinə, onların ailələrinə dövlət qayğısının gücləndirilməsinə hər zaman böyük diqqətlə yanaşırdı. Ulu öndər hər il yanvarın 20-də Şəhidlər xiyabanına gələrək ziyarət edir, şəhid ailələri ilə görüşür, onların qayğıları ilə maraqlanırdı. Bu gün Şəhidlər xiyabanında ucalan "Əbədi məşəl" abidə kompleksi də məhz Heydər Əliyevin təşəbbüsü ilə şəhidlərin xatirəsinə ehtiram əlaməti olaraq inşa olunub. Heydər Əliyevin 2000-ci il yanvarın 17-də imzaladığı fərmanla isə 1990-cı ilin faciəli yanvar günlərində şəhid olmuş oğul və qızlarımıza "20 Yanvar şəhidi" fəxri adı verildi.

Ümummilli liderin "1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə dövlət qayğısının artırılması haqqında" 2003-cü il 15 yanvar tarixli Sərəncama əsasən, əlil olmuş şəxslərə verilən aylıq müavinət artırılmışdır. Bakı şəhərində şəhidlərin xatirəsinə möhtəşəm xatirə kompleksi ucaldılmışdır. "1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə dövlət qayğısının artırılması haqqında" 2003-cü il 15 yanvar tarixli Sərəncama əsasən, əlil olmuş şəxslərə verilən aylıq müavinət artırılmışdır.

Ulu öndər Heydər Əliyev 20 Yanvar faciəsinin bütün dünyada tanıdılmasına, şəhidlərin xatirəsinin əbədiləşdirilməsinə də hər zaman diqqətlə yanaşırdı. Azərbaycanın azadlığı uğrunda şəhid olanların xatirəsinə Şəhidlər xiyabanında ucaldılmış "Əbədi məşəl" abidə kompleksi də məhz Heydər Əliyevin təşəbbüsü ilə inşa olunub. Bakının ən uca zirvəsində yerləşən, hündürlüyü 22 metr olan bu möhtəşəm abidə Heydər Əliyevin diqqət və qayğısı ilə qısa müddətdə tikildi. Ulu öndər bu abidənin ucaldılmasını şəhidlərin qarşısında Azərbaycan xalqının müqəddəs və mənəvi borcunun yerinə yetirilməsi kimi dəyərləndirirdi. 1998-ci ilin oktyabrında abidənin açılışında Heydər Əliyev deyirdi: "Bu təcavüz nəticəsində həlak olanlar xalq

qəhrəmanlarıdır, onlar millətimizin qəhrəmanlarıdır. Onların həlak olması bizim üçün, xalqımız üçün, sizlər üçün, ailə üzvləri üçün böyük itkidir, faciədir. Ancaq eyni zamanda onların şəhid olması xalqımızın qəhrəmanlıq rəmzidir. Onların şəhid olması zamanı tökülən qan bütün xalqımızın qanıdır. O qanın hər damcısında xalqımızın qüdrəti, qəhrəmanlığı var, xalqımızın milli azadlıq, müstəqillik arzuları vardır. O gecə tökülən qanlar müqəddəs qanlardır. Onlar bizim xalqımızın əsrlər boyu milli azadlıq, müstəqillik uğrunda tökdüyü qanlara qovuşmuş qanlardır. O gecə tökülən qanlar Azərbaycanın müstəqilliyini nümayiş etdirən milli bayrağımızın üstündəki qandır".

20 Yanvar hadisələrində müəyyən qurbanlar verilsə də, həmin faciəli günlər inam və sınaq günü kimi də yadda qaldı. Qəhrəman xalq həmin gün özünün azad və müstəqil yaşamağa layiq olduğunu bir daha sübut etdi. Faciə baş verən zaman kimin kim olduğu da müəyyənləşdi. Özü təqib və təhlükələrlə dolu şəraitdə yaşamasına baxmayaraq, ulu öndər Heydər Əliyev əli xalqın qanına batmışları ifşa etməklə xalqını hamıdan çox sevdiyini və daim onunla birlikdə olduğunu nümayiş etdirdi. Dar gündə milləti güllə qabağına göndərərək özləri qaçıb gizlənən "psevdoqəhrəmanlar" və digər "siyasətçilər" də iç üzlərini göstərdilər.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyev də 1990-cı ilin yanvarında şəhid olmuş oğul və qızlarımızın xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi üçün mühüm qərarlar imzalamışdır. Dövlət başçısının 19 yanvar 2006-cı il tarixli "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Fərmanı ilə şəhid ailələrinə dövlət qayğısını artırmaq məqsədilə təqaüd verilir.

Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından 21 il keçməsinə baxmayaraq, xalqımız o müdhiş gecəni daim xatırlayır, həmin faciənin ağrısı ilə yaşayır. Bu vəhşiliyi törədənlərə, xəyanət və fəlakətin səbəbkarlarına öz dərin nifrətini bildirir. Azərbaycan xalqı öz qəhrəman övladlarının fədakarlığını yüksək qiymətləndirərək, hər il 20 Yanvarda onların xatirəsini dərin ehtiramla yad edir. Hər il dövlət səviyyəsində geniş tədbirlər planı hazırlanaraq həyata keçirilir, qanlı qırğının ildönümü respublikanın bütün şəhər və rayonlarında qeyd olunur.

Bu müqəddəs ziyarətgaha gedərkən şəhidlərimizi hörmətlə anır, ərazi bütövlüyümüzün bərpa ediləcəyinə, qurbanlar vermiş Azərbaycanımızın xoşbəxt günlərə çıxacağına qəlbən inanırıq!

**“Azərbaycan”**.-2011.-20 yanvar.-N 14.-S.1-2.

## 20 Yanvar gecəsinin qəhrəmanları

**Faiq Balabəyli**

### Dənizçilərimiz sovet ordusuna güclü müqavimət göstəriblər

Tariximizin səhifələrinə qara hərflərlə yazılmış 20 Yanvar faciəsindən 21 il ötməsinə baxmayaraq, lent kimi gözümüzün qabağından çəkilməyən o gecəyə "Şahid gecə" demək olardı, "Şəhid gecə" də... Yüksək kürsülərdən, qəzetlərin səhifələrindən, radio və televiziyadan "gəlin birləşək" kəlməsi nə qədər ucuz səslənirdisə, bunun əksinə olaraq həmin Qara Yanvar gecəsi Bakıda axıdılan günahsız qanlara özü qan içində boğulan Qarabağ, Mil, Muğan, Şirvan, Cənubi Azərbaycan, Türkiyə, bütün dünya azərbaycanlıları, habelə insanlıq ölçüsüylə yaşayanlar şəxsi dərdi kimi yanaşdı. Azərbaycan radiosu və televiziyası terrorun qurbanı olub partladılan vaxt Şuşa televiziyası bütün Azərbaycana bu dərdin böyüklüyünü çatdırdı, xalqı səbirli, təmkinli, eyni zamanda mübariz olmağa çağırdı. Şuşa televiziyası susdurulanda isə estafeti Lənkəran televiziyası davam etdirdi. Kim necə bacardısa, eləcə də xalqın ümumi dərdini aradan qaldırmaq üçün vətəndaşlıq borcunu həyata keçildi. O ağbirçək analarımızın, ötkəm sözlü ağsaqqallarımızın, kürəkləri lay divar olan oğlanlarımızın, ismətli qız-gəlinlərimizin, məsum körpələrimizin kütləvi surətdə şəhid olduqları gecə də şəhidliyimizin şahid olduğu gecə idi. O gecədən 21 il keçdi. O gecə heç zaman unudulmayacaq. O gecənin qurbanlarının hələ də rahatlıq tapa bilməyən ruhları qarşısında 21 ilin uzaqlığından üzü bəri nə qədər narahatıqsa, elə beləcə də narahat olacağıq. Ta o vaxta qədər ki, şəhidlərimizin ruhu rahatlıq tapa bilməyib, torpaqlarımız yağı ayaqlarının tapdağından xilas olmayıb.

O gecə azadlığımız uğrunda şəhidlik zirvəsinə gedən yolun başlanğıcıdır.

Sovet imperiyasına qarşı sonsuz qəzəblə, dost kimi tanıdığımız düşmənlə Bakı buxtasında ölüm-dirim savaşına çıxan, faciəmizi ilkin olaraq dünya ictimaiyyətinə çatdıran, heç kəsin xəyalına belə gətirmədiyi qəhrəmanlıq göstərən, şəhərdəki qırğınların qarşısını öz etiraz aksiyaları ilə alan Xəzər Dəniz Neft Donanma İdarəsinin dənizçilərinin şücaəti haqqında çox danışılsa da az yazılıb. Bu qan dolu gecənin səhəri hüzn və matəm içərisində olan bakılıların ürəyində ümid işığı yandıran, gecə ikən Bakı buxtasını mühasirəyə almış hərbi gəmilərin hərəkətinə yol verməyən, sovet ordusunun törətdiyi amansız qırğını və vəhşiliyi bütün dünyaya çatdıran Xəzər dənizçiləri oldular. "Xəzər-neftdonanma" idarəsinin 100-ə yaxın gəmisi yanvarın 20-də, günün ikinci yarısında Bakı buxtasında idi. Onların aramsız həyəcan siqnalları şəhidlərimizi son mənzilə yola salana qədər və ondan sonra davam edildi. Sahildən dənizçilərə zənglər olunurdu: "Bizim qeyrətli qardaşlarımız, ümidimiz sizədir". Bütün dünya Azərbaycandan danışırdı. Və bütün danışıqlar da yalanla, iftira ilə dolu idi. Dənizçilərin verdikləri "SOS" isə həqiqəti dünyaya çatdırdı. Dənizçilərin dilində "Ölüm həqiqətləri" deyilən bir termin var: hər saatdan bir üç dəqiqə bütün dünyanın dənizçiləri yeni məlumatlar alırlar. Yanvarın 20- dən 21-nə keçən gecə də 4 dəfə təkrar olunan "SOS" un ilk mətninin bəhrəsini dənizçilər bir saatdan sonra gördülər. Əvvəl Kalininqraddan, Qara dənizdən, Baltik dənizindən verilən radioqramlarda deyilirdi: "Bratı, derjites. Naviqasiya net, ne smojem plavat v Kaspi".

Səhərə yaxın isə dünyanın 50-dən artıq ölkəsinin Sakit və Atlantik okeanlarında üzən gəmiləri dənizçilərimizin səsinə səs verdilər, onlarla həmrəy olduqlarını, dərdlərinə şərik çıxıb məlumatın bütün dünyaya yayılmasına kömək edəcəklərini bildirdilər. Tarixdə dünya dənizçilərinin görünməmiş həmrəyliyi günü idi bu. Həyat tərzləri, sosial qayğıları eyni olmayan dənizçilər ağır gündə birləşməyin mümkünlüyünü bir daha sübut etdilər. Bakı buxtasına yığışan gəmilər dor ağaclarından qara bayraqlar asmışdılar. O günlər İran İslam Respublikasının Bakıya yük gətirmiş və kapitanı azərbaycanlı (türk) olan "İran Bəşir" gəmisinin də dor ağacından qara bayrağın asıldığının, həyəcan siqnalı verərək şəhidlərimizə yas saxladığının şahidi olduq.

Yanvarın 19-u saat 22.30 olardı. Gəmini lövbərdə saxlayıb kapitanla, onun baş köməkçisi Saleh Nurəliyevlə sabah görəcəyimiz işi planlaşdırırdıq. Radio vasitəsi ilə Bakıda qırğın olduğunu eşidib kapitan körpüsünə qalxdım. Eşitdiyimi hava telefonu vasitəsi ilə "Neft daşları"nın ətrafında olan gəmilərə xəbər verdim. Vaxt itirmədən hadisəni bütün təfsilatı ilə öyrəndik və telefonla yaxındakı gəmilərin kapitanları ilə kiçik məşvərət keçirildi. Son vaxtlar paytaxtımızdakı siyasi gərginlik barədə radiodan verilən məlumatın dəqiqliyi bizi vadar etdi ki, sahilə qayıdaq. Xatırladım ki, səsimizə ilk səs verən "Aleksey Kortunov", "Sovet Naxçıvanı","Neftqaz-19" gəmiləri oldu. Biz Bakı buxtasına yanvarın 20-si saat 11.00- da çatdıq. Buxtanı "Xəzər-neftdonanma" idarəsinin gəmiləri mühasirəyə almışdı. Qərargahdan - "Sabit Orucov" gəmisinin kapitanı Mövlud Əliyevdən tapşırıq alıb müəyyən olunan nöqtədə durduq. Hərbi gəmilərin hərəkətinin qarşısını demək olar ki, tamamilə almışdıq. Qırğın günündən əvvəl - 13 yanvardan başlayaraq biz gəmilərlə erməni ailələrini Türkmənistana

çatdırırdıq. Bu o vaxt idi ki, Moskva erməni ailələrinə təxritibatlar təşkil etməklə xalqımızın müstəqillik uğrunda apardığı hərəkatı boğmağa bəhanə axtarırdı. Hadisə günü gəmimiz Neft Daşlarının yaxınlığında dayanmışdı. Kayutda kitab oxuyurdum. Matroslardan biri həyəcanla içəri daxil oldu ki, bəs radiodalğalarında Bakıda qırğın olduğu barədə xəbərlər verildi. Rejim qaydasını pozaraq kapitanı gözləmədən rabitə vasitəsi ilə bütün gəmilərimizə "Məni eşidən gəmilər, Bakıda qırğındır, Bakıya qayıdın" deyə SOS siqnalı verdim. Çox keçmədən "Sovet Naxçıvanı", "Neft Qazon" gəmilərindən bizimlə əlaqəyə girib məlumatı dəqiqləşdirdilər. 20 Yanvarın səhərisi isə bizim Xəzər Dəniz Neft Donanma İdarəsinin 100-ə qədər gəmisi Bakı Buxtasını mühasirəyə aldı. Dənizçilər Kapitanlar Şurası yaratmışdı ki, dinc vətəndaşlarımızın güllələnməsinə cavab olaraq sistemli etiraz dalğası təşkil edə bilsinlər. Bu, Moskvaya nümayişkaranə tətil etirazı olmaqla yanaşı, həm də sovet ordusunun hərbi gəmilərinin şəhərə hücumunun qarşısını alırdı. Buxtadan şəhərdə törədilən vəhşiliklər aydınca görünürdü. Şəhərə basqın etmək istəyən hərbi gəmilərdən isə aramsız olaraq bizə hədə-qorxu gəlirdi. Dənizçilər 5 müddəa ilə çıxış edirdi. Biz Moskvanın Azərbaycandan üzr istəməsini, ordunun Bakıdan çıxmasını tələb edirdik. Qeyd edim ki, hər yarım saatdan bir "SOS" siqnalı ilə bütün ölkələrin gəmilərinə 20 Yanvar faciəsi ilə bağlı məlumat göndərirdik. Onlar da bizə cavab göndərib dənizçi həmrəyliyi göstərirdilər. Hadisə haqqında beynəlxalq rabitə vasitəsi ilə məlumatlar ötürülürdü. Çünki artıq Bakının dünya ilə əlaqəsi kəsilmişdi. Həmin vaxt Bakı tam işğal olunmuşdu, yalnız Bakı Buxtası unudulmuşdu. Səhv etdiklərini sonradan SSRİ müdafiə naziri Yazov etiraf etdi: "Mənim yeganə və ən kobud səhvim Bakı Buxtasını nəzarətsiz buraxmağım və dənizçilərin belə döyüşkən olduqlarını bilməməyimdəydi".

Bakı Buxtası təslim edilməmiş tənha ada idi. Məsələ burasındadır ki, fövqəladə vəziyyət elan edilərkən dəniz amili nəzərə alınmamışdı və bu da bizə əlavə şans verirdi. Qurudan bizə soydaşlarımız ümidlə dözüm arzulayırdılar. Kapitanlar Şurası dəniz hərəkatının dinc tətilə keçməsini istəyirdi ki, hərbçilərə yeni qırğın törətmələrinə bəhanə verməsinlər. Çünki artıq dənizdə də fövqəladə vəziyyət elan edilirdi.

Tələblərimizi şura üzvlərindən ibarət nümayəndə heyəti yanvarın 21-də Moskvadan gəmiş SSRİ müdafiə nazirinin hərbi donanma üzrə birinci müavini, admiral Sidirova çatdırdı. O isə qışqırıb bağırmış "40 let VLKSM"ın kapitanına güllələnmə, "Sabit Orucov" gəmisinin kapitanına isə 15 il həbs cəzası verməklə hədələmişdi. Bayıla tərəf hərbi maşın karvanını müşahidə etmişdik. Dəqiqləşdirdiyimiz məlumata görə, meyitləri dənizə tökmək üçün hərbi gəmilərə yığırdılar. Sovet ordusu öz cinayətini ört-basdır etmək istəyirdi. Buna isə yol vermək olmazdı. "Vosxod" hərbi gəmisinə rabitə vasitəsi ilə xəbərdarlıq etdik ki, əgər belə bir cinayətə əl atılsa, həmin hərbi gəmiləri batıracağıq. Tələb etdik ki, hərbi gəmilər yerindən tərpənməsinlər. Hərbçilər bizi əmin etməyə çalışdılar ki, iki hərbi gəmi buxtadan çıxacaq və onlar hərbçi ailələrini Mahaçqalaya aparacaqlar. Yoxlama tələb etdik. Əvvəlcə razılaşsalar da, sonra yenə bəhanəyə əl atıb sözlərini dəyişdilər. Bu halda "40 let VLKSM" başda olmaqla 5 gəmimiz döyüşə atıldı. Döyüş hərbçilərin güclü avtomat atəşləri altında gedirdi. Buna baxmayaraq, hərbi gəmiləri öz yerlərində oturtmaq mümkün oldu. Admiral Sidirov mənən məğlub oldu. Yanvarın 24-də Yazovun xüsusi əmri ilə Xəzər dənizində və Bakı Buxtasında fövqəladə vəziyyət elan edildi. Artıq belə vəziyyətdə biz dinc tətilə keçmək məcburiyyətində qalırdıq. Ancaq bu dəfə də sovet ordusu hiyləgər və qaniçən addımını atdı. Bizə verilmiş vaxtın bitməsinə 30 dəqiqə qalmış gəmilərimizə qəfil hücum başlandı. BMP-lərdən, vertolyotlardan atəş açılır, desantlar tökülürdü. "Vodoley-4" gəmisinə sahildən tanklar atəş açırdı, gəmi 3 yerdən top zədəsi aldı və yanğın başladı. Gəmi güllələrdən deşik-deşik oldu. Eləcə də "Sabit Orucov" gəmisi yandırıldı. Digər gəmilər də eyni aqibəti yaşayırdı. Gəmilər həbs edilir, qarət edilir, dənizçiləri avtomatların qundağı ilə döyürdülər. Yanvarın 25-də isə hələ də müqavimət göstərən "Vixr-12", "Atlet-24" gəmilərini də ələ keçirib qarət etdilər. "Atlet-24"ü ələ keçirən hərbçilərin saqqalları uzun, yaşları da 30-dan yuxarı idi. Ümumilikdə 47 nəfər dənizçi həbs olunub Rusiya və Azərbaycan zindanlarına salındı.

**“Xalq Cəbhəsi”**.-2011.-19 yanvar.-N 10.-S.11.

## Azərbaycan xalqının mübarizə əzmi imperiyanı qorxuya salmışdı

**Rüstəm Xəlilov,**
Milli Məclisin deputatı

**Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı ilin 20 Yanvarından 21 il keçir. Keçmiş sovet dövlətinin hərbi birləşmələrinin həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi amansız divantutma aksiyası tarixdə insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi qalacaqdır. Milli azadlıq, istiqlaliyyət, ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə amansız divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və ömürlük şikəst olması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi.**

Sovet ordusunun böyük kontingentinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi. Kommunist diktaturası Çexoslovakiyaya, Macarıstana, Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni, Sovet İttifaqının müttəfiq respublikalarından biri olan Azərbaycanda da təkrarladı. Həmin vaxt Azərbaycan qonşu Ermənistanın da təcavüzünə məruz qalmışdı. Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni əsgər və zabitləri, sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantlar da daxil edilmişdi. Bakıya yeridilmiş qoşun kontingentinə "döyüş tapşırığını" yerinə yetirmək üçün möhkəm psixoloji hazırlıq keçmişdilər. Onlara bildirmişdilər ki, sizi Bakıya rusları müdafiə etmək üçün gətiriblər, yerli əhali onları vəhşicəsinə məhv edir, ekstremistlər Bakıda əsas hərbi qarnizonun yerləşdiyi Salyan kazarmasının ətrafındakı evlərin damlarında snayperlər yerləşdiriblər, təkcə bu ərazidə 110 atəş nöqtəsi var. Binalar, mənzillər Azərbaycan Xalq Cəbhəsinin silahlıları ilə doludur, onlar sizi güclü avtomat-pulemyot atəşinə tutacaqlar.

Mixail Qorbaçov başda olmaqla sovet imperiyasının rəhbərliyi Bakıda "rus və erməni kartından" məharətlə istifadə etdi. Guya Bakıya qoşun, hərbi qulluqçuların ailələrini qorumaq, "millətçi ekstremistlər" tərəfindən hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə bu, açıq riyakarlıq, ağ yalan idi. Sovet rəhbərliyinin "dəlilləri" hətta həqiqətə yaxın olsaydı belə, Bakıya təpədən-dırnağadək silahlandırılmış qoşun göndərməyə ehtiyac yox idi. Ona görə ki, həmin vaxt burada daxili qoşunların 11,5 min əsgəri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri var idi. 4-cü ordunun komandanlığı da Bakıda yerləşirdi. Bütün bunlara baxmayaraq, 1990-cı il yanvarın 19-da Mixail Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyanın 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı.SSRİ DTK-nın "Alfa" qrupu isə yanvarın 19-da saat 19.27-də Azərbaycan televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və əhaliyə divan tutmağa başladı. Qorbaçovun fərmanı qüvvəyə minənədək - yanvarın 20-də saat 00-dək artıq 9 nəfər öldürülmüşdü. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100 nəfərə çatmışdı. Tanklar və BTR-lər Bakı küçələrində qarşılarına çıxan hər şeyi əzir, hərbçilər hər yanı amansız atəşə tuturdular. İnsanlar nəinki küçələrdə, hətta avtobusda gedərkən, öz mənzillərində oturduqları yerdə güllələrə tuş gəlirdilər. Bir neçə gün ərzində 137 nəfər öldürüldü, 700-dək insan yaralandı, 800-dən çox adam qanunsuz həbs edildi.

Həlak olanlar arasında yetkinlik yaşına çatmayanlar, qadınlar, qocalar, şikəstlər də var idi. Qorbaçovun və ətrafındakıların "millətçi ekstremistlər" adlandırdıqları bunlar idimi? Yanvarın 20-də artıq bütün dünya Bakıda törədilmiş dəhşətli qırğından xəbər tutdu. Amma görün, o vaxtkı sovet imperiyasının ideoloji ruporu olan "Pravda" qəzeti 22 yanvar tarixli nömrəsində nə yazırdı: "Fövqəladə vəziyyət elan edilməsi üçün görülmüş tədbirlər nəticəsində guya qadınlar və uşaqların tələf olması barədə bəyanatlar aşkar fitnəkar xarakter daşıyır. Bir daha təkrar etmək lazımdır ki, bu, qərəzli yalandır! Ondan məqsəd əhalini sovet ordusuna və hüquq mühafizə orqanlarına qarşı qaldırmaqdır"...

20 Yanvar və Azərbaycan tarixində ondan əvvəlki faciəli hadisələr XX əsr boyu xalqımıza qarşı yeridilən düşünülmüş siyasətin növbəti təzahürü idi. Azərbaycan xalqına qarşı soyqırımı, sovet hakimiyyəti illərində Azərbaycan ərazilərinin tədricən zəbt olunması, nəticədə ölkənin ərazisinin 125 min kvadratkilometrdən 87 min kvadratkilometrədək azalması, sovet rəhbərliyinin havadarlığı ilə başlayan Dağlıq Qarabağ hadisələri, azərbaycanlıların Ermənistan ərazisindəki əzəli torpaqlarından qovulması bu siyasətin mərhələləridir.

1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar... 20 Yanvar hadisəsi xalqımızın milli-azadlıq hisslərinin güclü olduğunu, Azərbaycanda müstəqil dövlət quruculuğu üçün sosial əsasların olduğunu, bizim müstəqil yaşamaq və mövcud olmaq maraqlarımızı, xalqın qəhrəmanlığını göstərdi. Həmçinin, o zaman Azərbaycana rəhbərlik edənlərin gücsüzlüyünü nümayiş etdirdi, eləcə də xalq hərəkatına başçılıq edənlərin hərəkatı idarə etmək iqtidarında olmadığını ortaya qoydu. Bu hadisə xalqın müstəqil dövlət qurmaq uğrunda mübarizəsinə mərkəzi hakimiyyətin gözlənilməz və kifayət qədər sərt reaksiyası idi. Təəssüf ki, bu mübarizəyə rəhbərlik edərək onu istiqamətləndirən lider yox idi.

20 Yanvar istiqlal mübarizəmizin zirvələrindən biridir. 20 Yanvar hadisələrində ayağa qalxan xalqımızın yeganə tələbi torpaqlarımızın əldən verilməməsi idi. Bu hadisə göstərdi ki, çar Rusiyasının siyasətini bu dəfə sovet imperiyası davam etdirir. Yenə də milli ayrıseçkilik aparılır, ermənilər müdafiə olunur, imperiya Dağlıq Qarabağı Ermənistana vermək istəyir. Qarabağ uğrunda hərəkat milli azadlıq mübarizəsi idi.

Azərbaycanda baş verən milli azadlıq hərəkatı sovet dövlətinin dağılmasında güclü rol oynadı. Bu hadisə Sovet imperiyasının idarəçilik üsul-idarəsinə güclü zərbə vurdu.

O zaman Moskvada güclü nəzarət altında yaşayan ulu öndər Heydər Əliyev Azərbaycan nümayəndəliyinə gələrək 20 Yanvar faciəsinin ertəsi günü sovet rejiminin xalqımıza qarşı törətdiyi cinayəti bütün dünyaya bəyan etdi. Bu bəyanatın böyük tarixi əhəmiyyəti var idi.

Ulu öndərimizin bəyanatı Azərbaycanın müstəqillik tarixinin ən böyük aktlarından biridir. 1990-cı illərin əvvəlində baş verən hadisələr bir daha göstərdi ki, Heydər Əliyev sözün həqiqi mənasında siyasi liderdir.

Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonrakı ilk illərdə başları hakimiyyət uğrunda mübarizəyə qarışmış respublika rəhbərləri 20 Yanvar qırğınına siyasi-hüquqi qiymət verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində məqsədyönlü iş aparmadılar. Yalnız 1994-cü ildə Heydər Əliyevin səyi sayəsində Qanlı Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verildi, faciənin günahkarlarının adları açıq şəkildə bəyan edildi...

Bundan əvvəl Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1990-cı il noyabrın 21-də bu məsələni geniş müzakirə edərək qanlı hadisəyə siyasi-hüquqi qiymət vermişdi. Həmin vaxt qəbul edilmiş qərarda qeyd edilmişdi ki, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri M.S.Qorbaçov, Sov.İKP MK-nın katibi A.V.Girenko, SSRİ müdafiə naziri D.Yazov, SSRİ daxili işlər naziri V.Bakatin, Sov.İKP MK-nın məsul işçisi A.Mixaylov, Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirov, Nazirlər Sovetinin sədri A.Mütəllibov, Azərbaycan KP MK-nın büro üzvləri V.Polyaniçko, M.Məmmədov, V.Hüseynov xalqımıza qarşı törədilən bu qətliam üçün birbaşa məsuliyyət daşıyırlar.

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan Xalq Cəbhəsinin bir sıra fəalları Bakıda qan töküləcəyindən xəbərdar idilər. Hakimiyyəti ələ keçirmək üçün dəridən-qabıqdan çıxan bu adamlar əhalini vaxtında xəbərdar etmək əvəzinə gəncləri meydanlarda sona qədər dayanmağa çağırır, guya indicə silah gətirilib paylanılacağı barədə yalan məlumatlar verirdilər. İstiqlaliyyət, müstəqillik, suverenlik istəyi ilə küçə və meydanlara toplaşanlar belə "liderlərə" inanıb silah-sursat gözlədilər. Sonda isə... küçə və meydanlar insan qanına boyandı. Azərbaycanın 130-dan çox mərd oğul və qızı torpaqlarımızın azadlığı, ərazi bütövlüyümüz, müstəqillik, istiqlaliyyət uğrunda şəhidlik zirvəsinə yüksəldi.

Həmin hadisələr nümayiş etdirdi ki, Azərbaycan xalqı istiqlaliyyət, ərazi bütövlüyü, müstəqillik, haqq işi, ədalət uğrunda mübarizəyə qalxmaq, pozulmuş hüquqlarının, suverenliyinin bərpa olunması uğrunda savaşmaq əzminə malikdir. 1990-cı ilin 20 Yanvarı Azərbaycanın istiqlaliyyət yolunun ilk şəhidlik zirvəsi idi. Bu mənada ulu öndər Heydər Əliyevin 20 Yanvar şəhidlərinin ailələrinin və bu qanlı faciədə yaralananların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində görülən işlər xalqımızın ürəyindən olmuşdur.

Bu gün Azərbaycanda Heydər Əliyev yolu, siyasi kursu uğurla davam etdirilir. Möhtərəm Prezidentimiz İlham Əliyev torpaqlarımızın müdafiəsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin ailələrinə və sağlamlıqlarını itirənlərə xüsusi diqqət və qayğı göstərir. 20 Yanvar şəhidlərinin ailələrinə verilən dövlət yardımı artırılıb. Onların sosial müdafiəsinin gücləndirilməsi ilə əlaqədar müxtəlif tədbirlər həyata keçirilir. Bakının ən uca zirvəsində hamının müqəddəs ziyarətgah hesab etdiyi Şəhidlər Xiyabanında əsaslı yenidənqurma və abadlıq işləri aparılmışdır. Dövlət başçımızın göstərişi ilə şəhid ailələrinə və Vətənimizin müdafiəsi uğrunda əlil olanlara pulsuz mənzil və maşın verilir. İldən-ilə artan iqtisadi qüdrətimiz belə nəcib insanların həyat səviyyəsinin getdikcə yüksəlməsinə zəmin yaradır.

Bütün bunlar göstərir ki, torpaqlarımız uğrunda döyüşənlərin heç biri unudulmur, onların xatirəsi xalqın qəlbində əbədi yaşayır.

**"Xalq qəzeti"**.-2011.-18 yanvar.-N 12.-S.5.

## "20 Yanvar xalqımızın qəhrəmanlıq səhifəsi idi"

### "SSRİ mənəvi cəhətdən öz varlığına Bakıda son qoydu"

**20 Yanvar faciəsiylə bağlı suallarımızı tarixçi alim Cəmil Həsənli cavablandırır**

**- Cəmil müəllim, yaxın günlərdə 21-ci ildönümünü anmağa hazırlaşdığımız 20 Yanvar hadisələrində tarixi baxımından qaranlıq məqamlar qalıb, ya yox?**

- Əlbəttə tarix üçün qaranlıq məqamlar dünən də olub, bu gün də var, sabah da olacaq. Mən əminliklə deyirəm ki, böyük dövlətlərin başçıları 20 Yanvar hadisəsinin olacağından əvvəlcədən xəbərdar idilər, yəni, sovet rəhbərliyi bu böyük hadisə ilə bağlı onları xəbərdar etmişdi. Yanvar hadisələrindən bir neçə gün sonra, səhv etmirəmsə, 26-da Siyasi Büronun iclası oldu. Mixail Qorbaçovun orada bir çıxışı var və o deyir ki, indi Azərbaycanda vəziyyətimiz Almaniyada olduğumuz kimidir. Söhbət hələ o zaman mövcud olan Almaniya Demokratik Respublikasından gedirdi. O deyirdi ki, Almaniyadakı kimi, Azərbaycanda da vəzifəyə gətirilməli adam tapa bilmirik. Bu, bütövlükdə siyasi bir böhran idi. Baxmayaraq ki, bizdən əvvəl Tiflis və digər hadisələr olmuşdu və dinc əhalinin üzərinə lokal şəkildə ordu yeridilmişdi, amma o hadisələrin heç birinə Sovet İttifaqını çökdürən amil kimi baxmaq olmaz. SSRİ öz varlığına mənəvi cəhətdən Bakıda son qoydu. O zaman Bakı sovet şəhəri idi, küçələrə çıxanlar sovet adamlarıydı, onların üzərinə gələn də sovet ordusuydu. Bu adamlar gözləmirdilər ki, öz ordusu onların üzərinə gələr. Yəni mənəvi-psixoloji cəhətdən insanlar buna hazır deyildilər. Sovet tankları sovet adamlarının üzərinə yeridi və sovet avtomatlarından açılan güllə, bir respublika çərçivəsində sovet adamlarının sovet quruluşuna olan inamına son qoydu. Bununla da baxmayaraq ki, şəhər sözün tam mənasında işğal edildi, ordu müvəqqəti olaraq qələbə çaldı, bu sovetlərin pir qələbəsi oldu. Bu hadisədən sonra cəmiyyət elə böyük sarsıntılar yaşadı ki, bir daha özünə gələ bilmədi. Bakı hadisələrindən sonra sovetlərin böhranı daha da dərinləşməyə başladı və quruluş dağıldı. Dağılma sürəti elə yüksək oldu ki, onu dağıtmaq istəyən xarici qüvvələr belə sürətə hazır deyildilər. ABŞ-ın yaxın planında SSRİ-nin dağılması yox idi. Onların əsas strateji məqsədi sovetləri zəiflətmək idi. Amma Sovet İttifaqı onların düşündüyündən çox zəif idi və ona görə ilk ciddi böhrandan sonra dağıldı. ABŞ bütün siyasətini SSRİ-nin varlığı üzərində qurmuşdu.

**- 20 Yanvar hadisəsindən sonra ilk illərdə tarixçilər deyirdilər ki, bir çox məqamların aydınlaşması üçün zaman lazımdır. Artıq 21 il keçib. Həmin zaman gəlib çatıb, yoxsa, yenə də zaman lazımdır?**

- 21 il keçməsinə baxmayaraq, tarixçilərin həmin hadisəni lazımi dərəcədə qiymətləndirməsi üçün vacib sənədlər açılmayıb. Bu, bəlkə də çox nadir hadisələrdəndir ki, tarixçilər ilk zamanlar bu hadisəyə daha yaxın idilər, nəinki sonra. Ölkə daxilində bu, yeganə hadisə idi ki, əməliyyata birbaşa müdafiə naziri özü rəhbərlik edirdi və Yazov özü Bakıya gəlmişdi. SSRİ daxilində hələ belə bir hadisə olmamışdı ki, müdafiə naziri birbaşa özü hərbi əməliyyat keçirilən əraziyə gəlsin. Normalda hamı bu hadisədən sonra öz evinə girməli idi və şəhidlərin meyitləri ortalıqda qalmalıydı. Bütün proses buna hesablanmışdı. Amma səhəri gün nə oldu? Dəstə-dəstə insanlar partiya-sovet orqanlarının qarşısına axışır və sovetlərin başlıca mənəvi siyasi simvolu olan partiya biletlərini cırıb atırdılar. Əməliyyatın keçirilməsinə sərəncam verən insan haqqında, yəni, Qorbaçov haqqında şəhərin müxtəlif yerlərində "cəllad", "rədd olsun sovet höküməti", deyə yazırdılar. Bu, böyük bir tarixi hadisə idi. Xatırlayıram ki, çox adam o zaman çox iş gördü. Şəhidlərin torpağa tapşırılması prosesi isə, şəhərdə o zamana qədər görünməmiş bir izdiham ilə müşaiyət olundu. Milyondan artıq insan bu prosesdə iştirak etdi. Deməli, atılan güllələr sovet ideologiyası baxımından hədər getmişdi. Cəmiyyət qorxmadı və diz çökmədi. İnqilabi ideya kütlələrə hakim kəsilmişdi. O zaman biz universitetin bir neçə müəllimi Şüvəlandan tutmuş Yasamala qədər bütün xəstəxanaları gəzdik və yaralıların çoxu ilə görüşüb, hansı şəraitdə yaralandıqları barədə ifadələrini aldıq. Bütün bunları ya diktofona, ya dəftərə qeyd etdik. İnsanlar böyük vətənpərvərlik nümunələri göstərdilər - rejissorlar, operatorlar, kino işçiləri. Onlar nəyi bacarırdılarsa, onu da lentə alırdılar. Yadımdadır ki, 1990-cı ilin mart ayında SSRİ xalqlarının qurultayı keçiriləcəkdi və biz də həmin topladığımız materialı, o cümlədən, yaxşı çəkilib, montaj edilmiş kasseti Moskvaya apardıq. O zaman SSRİ xalqlarının Ali Sovetinin qurultayının deputatları Moskva mehmanxanasında yaşayırdılar. Lenti göstərmək çox çətin idi və bizə bu məsələdə Oljas Süleymenov kömək etdi. O həmin mehmanxanada zalın alınması, kinonun nümayişi məsələsində böyük yardım göstərdi. O zaman ictimai istintaq komitəsi də vardı və hesab edirəm ki, onlar da çox zəngin materiallar toplamışdılar. Təəssüf hissi ilə bildirmək ki, öz materiallarımızın surətini çıxarmamışdıq və onları qurultaya elə də təqdim etdik. Amma bilavasitə Yanvar hadisələrini özündə əks etdirən rəsmi sənədlər hələ də bəlli deyil.

**- Yəqin ki, Rusiya arxivlərində bu hadisə ilə bağlı çoxlu sənəd qalar. Necə düşünürsünüz, onların açılması tam mənzərəni aydınlaşdırar?**

- Təəssüf ki, Rusiya arxivlərində bu tip sənədlər hələ də açılmayıb və hazırda bu sənədlər Federal Təhlükəsizlik Xidmətinin arxivində yerləşir. Böyük mənada SSRİ DTK-nın hazırladığı bir əməliyyat idi. 1988-ci ildə Sumqayıt hadisələrini SSRİ DTK-nın əməkdaşları bilavasitə hazırlamışdılar, 20 Yanvar hadisələri də bu baxımdan istisna olmadı. Bu hadisə ərəfəsində DTK demək olar ki, bütün şəbəkəsini hərəkətə gətirmişdi. Yanvarın 19-da Azərbaycan televiziyasının enerji blokunun partladılması hərbi kəşfiyyatın işiydi.

**- 20 Yanvar hadisələrindən hansı tarixi dərslər götürüldü?**

- Birincisi, silahla qələbə qazanmaq olar, amma daimi olaraq silaha güvənmək olmaz. Cəmiyyətin içində sabit, oturuşmuş münasibətlər olmasa, silah da kömək etməz. Sovet İttifaqı dünyanın ən nəhəng silah cəbhəxanası idi, amma o da işğal etməyinə baxmayaraq, otura bilmədi. İkincisi, cəmiyyətdə hər hansı dəyişikliyin mənbəyi daxili qüvvədir. O dövr Azərbaycan inqilabının böyük sosial bazası onun içində idi. Meydanları lərzəyə gətirən, Sovet İttifaqının sarsıdan proseslərdə iştirak edən xalq idi və o tarixin səhnəsindəydi. Bu anonim yox, real bir xalq idi. Xalqa onun içindən çıxan Xalq Cəbhəsi və unudulmaz lider Əbülfəz Elçibəy rəhbərlik edirdi. Hər hansı bir qürur mənbəyini xalqın içərisində axtarmaq lazımdır. Tarixdən xəbərsiz insanlar deyirlər ki, heç bir meydana çıxmağa ehtiyac yox idi və Azərbaycan da Asiya respublikaları kimi müstəqil olacaqdı. Deyirlər ki, heç bir qurban verməyə ehtiyac yox idi. Amma bu hadisə Azərbaycan xalqının potensialını göstərdi və dünyanın strateji mərkəzləri belə bir potensiala heyran olmuşdular. Bu hadisə xalqın qəhrəmanlıq səhifəsiydi. 1918-ci il 28 may hadisəsinə yol 1918-ci il mart hadisələrindən keçdisə, 1991-ci il müstəqilliyinə yol 1990-cı il 20 Yanvar hadisəsindən keçdi.

**Səlcuq**

**“Xalq Cəbhəsi”.**-2011.-18 yanvar.-N 9.-S.5.

## Qanlı Yanvar faciəsi

**İlham Abbasov,**
Ədliyyə Nazirliyi Ədliyyə
Akademiyasının prorektoru - hüquq
üzrə fəlsəfə doktoru,
baş ədliyyə müşaviri,
prokurorluğun fəxri işçisi.

**20 Yanvar hadisəsinin tariximizdəki yeri, qiyməti ayrı-ayrı insanların taleyi ilə məhdudlaşa bilməz. Bu, ayrı-ayrı insan- ların deyil, bütöv bir xalqın taleyidir.**

**Ümummilli lider**
**Heydər ƏLİYEV.**

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinə və Azərbaycanın bir neçə rayonuna keçmiş Sovet İttifaqının qoşun hissələri fövqəladə vəziyyət elan edilmədən yeridilmiş, dinc əhaliyə divan tutulmuş, yüzlərlə insan qətlə yetirilmiş, yaralanmış, itkin düşmüşdür. Sovet ordusunun, xüsusi təyinatlı dəstələrin və daxili qoşunların iri kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklərlə müşayiət edilmişdir.

Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışlar. Fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürülmüşdür. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda - yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdir.

Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və respublika rayonlarında 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdur. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdir. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin, təcili yardım işçiləri və milis nəfərləri olmuşdur. SSRİ Konstitusiyası, Azərbaycan SSR Konstitusiyası kobudcasına pozulmuş, Azərbaycan Respublikasının suveren hüquqları tapdalanmışdı.

Həmin vaxtlar mən Qubadlı rayon prokuroru vəzifəsində işləyirdim. Rayon Ermənistanla həmsərhəd idi. Qondarma "Dağlıq Qarabağ hadisələri ilə" bağlı 1988-ci ildən başlayaraq sərhəd kəndləri erməni yaraqlılarının hücumlarına məruz qalırdı. İlk dəfə sərhəddə yerləşən Eyvazlı kəndi erməni yaraqlıları tərəfindən bütünlüklə yandırıldı və kənd əhalisinin böyük hissəsi rayon mərkəzində məskunlaşdı, bir hissəsi isə digər rayonlara köçməli oldu. Bütöv bir kəndin yandırılması faktı respublika ictimaiyyətindən gizlədildi. Bu haqda məlumatlar nəinki respublika ictimaiyyəti, hətta Qubadlı ilə qonşu olan rayonların əhalisindən gizlədildi. Bu, həmin dövr iqtidarının xalqa zidd, yabançı siyasətindən irəli gəlirdi.

Bakıya qanunsuz qoşun yeridildikdən sonra keçmiş Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin orqanı olan "Kommunist" qəzetinin 15-ci (21083) nömrəsi 18 yanvar 1990-cı il tarixdə çıxdığı halda, 16-cı (21084) nömrəsi 27 yanvar 1990-cı il tarixdə çıxmış, başqa sözlə, doqquz gün qəzet çap edilməmiş, bu müddətdə 20 Yanvar faciəsi barədə xalqa rəsmi məlumat verilməmiş, təskinlikgətirici bir söz deyilməmişdir.

Bundan əvvəl isə yanvarın 19-da saat təxminən 19.30-da hərbi əməliyyatın növbəti mərhələsi kimi Azərbaycan Televiziyasının enerji bloku partladılmış, respublika televiziyası və radiosunun verilişləri tamamilə kəsilmişdir. Faciə baş verən gündən isə digər kütləvi informasiya vasitələrinin fəaliyyəti dayandırılmış, xalq informasiya almaq hüququndan məhrum edilmişdi.

Yanvarın 22-də Bakıda şəhidlərin izdihamlı dəfn mərasimi təşkil edildi. İqtidar nümayəndələri dəfn mərasimində iştirak etməyi lazım bilmədilər. Yalnız o zaman Moskvada məcburi istefaya göndərilmiş ümummilli lider Heydər Əliyev özünün və yaxınlarının həyatını təhlükə qarşısında qoyaraq, yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, buraya yığışmış azərbaycanlılar qarşısında çıxış etmiş, keçmiş SSRI rəhbərliyinin, o cümlədən Mixail Qorbaçovun xalqımıza yabançı siyasətini çıxışında kəskin tənqid etmişdir. Ümummilli lider Heydər Əliyev çıxışında demişdir: "İndi yanvarın 19-dan 20-nə keçən gecə baş vermiş və bu gün də davam edən faciənin üstündə dayanmaq istəyirəm. Hesab edirəm ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur.

Təəssüf ki, Azərbaycan rəhbərliyi, həmçinin ölkənin ali siyasi rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir".

Həmin vaxt Bakıda daxili qoşunların 12000 canlı qüvvəsi vardı. Bundan əla- və, Bakıda keçmiş sovet ordusu hissələrinin canlı qüvvəsi və polis orqanlarının (o zamankı milis orqanlarının - İ.A.) əməkdaşları vardı.

Ümummilli lider Heydər Əliyev həmçinin 21 yanvar 1990-cı ildə Azərbaycan KP MK-ya, Ali Sovetə, Nazirlər Sovetinə, Azərbaycan xalqına 20 Yanvar faciəsi ilə əlaqədar başsağlığı teleqramı göndərmiş, teleqramın respublika mətbuatında dərc olunmasını, radio və televiziya ilə verilməsini, matəm mitinqində oxunmasını xahiş etsə də, həmin teleqramın rəsmi mətbuatda dərc edilməsi belə məsləhət bilinməmişdir.

Heyəti 15 yanvar 1990-cı ildə "Dağlıq Qarabağ Muxtar Vilayətində və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında" fərman qəbul etmişdir. Fərmanın 1-ci maddəsində Dağlıq Qarabağ Muxtar Vilayətinin, Azərbaycan SSR-in ona bitişik rayonlarının, Ermənistan SSR Gorus rayonunun ərazisində, habelə Azərbaycan SSR ərazisində SSRİ-nin dövlət sərhədi boyunca sərhədyanı zonada fövqəladə vəziyyət elan edilməsi nəzərdə tutulurdu.

Beləliklə, fərmanda Bakıda fövqəladə vəziyyət elan edilməsi nəzərdə tutulmamışdı. Yalnız keçmiş SSRİ Ali Soveti Rəyasət Heyətinin 19 yanvar 1990-cı il tarixli fərmanı ilə SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanının təsirini Bakı şəhərinin ərazisində şamil etməklə, 1990-cı il yanvarın 20-dən Bakı- da fövqəladə vəziyyət elan edilmişdir. Lakin "Fövqəladə vəziyyətin hüquqi rejimi haqqında" keçmiş SSRİ qanunu isə yalnız 3 aprel 1990-cı il, başqa sözlə, 2 ay 16 gün sonra qəbul edilmişdir.

Belələikə, fövqəladə vəziyyətin hüquqi rejimi haqqında müvafiq qanun mövcud olmadığı, fövqəladə vəziyyətin hüquqi rejiminin anlayışı, əsasları və qaydası müəyyən edilmədiyi halda, Bakı şəhərində qanunsuz olaraq fövqəladə vəziyyət elan edilmişdir.

1990-cı il yanvarın 19-20-də Bakı şəhərinə qoşunların yeridilməsi ilə əlaqədar faciəli hadisələrin təfsilatının və səbəblərinin təhqiqi üzrə Azərbaycan Respublikası Ali Sovetinin deputat-istintaq komissiyasının yaradılmasına və Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının 19 yanvar 1992-ci il tarixli iclasında həmin komissiyanın işinin yekunlarının müzakirə edilməsinə baxmayaraq, 1994-cü ilə qədər bu məsələyə siyasi-hüquqi qiymət verilməmişdir. Yalnız ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan Respublikası Milli Məclisinin 29 mart 1994-cü il tarixli iclasında 1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr müzakirə edilmiş və bu hadisələrə siyasi-hüquqi qiymət verilmişdir.

Qərarda göstərilir ki, qabaqcadan düşünülüb hazırlanmış bu təcavüzkarlıq aksiyası Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq, xalqı təhqir edərək ona mənəvi zərbə vurmaq məqsədi daşımışdır.

20 Yanvar hadisələri ərəfəsində Sovet Ittifaqı Kommunist Partiyasının rəhbərliyinin xalqın mənafeyinə zidd olan siyasəti, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı Mərkəzin, şəxsən Mixail Qorbaçovun apardığı qeyri- obyektiv və qərəzli xətti geniş xalq kütlələrinin qəzəbinə səbəb olmuşdur.

Azərbaycan xalqını dəhşət və müsibətə düçar etmiş 20 Yanvar faciəsi bütün dünyada əks-səda doğurmuş, mütərəqqi qüvvələrin qəzəb və hiddətinə səbəb olmuşdur. Bir çox ölkələrin radiostansiyaları da Yanvar faciəsi haqqında hərtərəfli informasiya verir və imperiya qüvvələrini lənətləyirdi.

Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının "1990-cı il yanvarın 20- də Bakıda törədilmiş faciəli hadisələr haqqında" 29 mart 1994-cü il tarixli qərarının 1-ci bəndində Azərbaycanda vüsət tapmış milli azadlıq hərəkatını boğmaq, demokratik və suveren bir dövlət yaratmaq amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və belə bir yola qədəm qoyan hər hansı xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə 1990-cı il yanvarın 20-də sovet silahlı qüvvələrinin Bakı şəhərinə və ədalətin müdafiəsi naminə küçələrə yeridilməsi, nəticədə haqq və ədalətin müdafiəsi naminə küçələrə çıxmış silahsız adamların qəddarcasına qətlə yetirilməsi Azərbaycan xalqına qarşı totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirilmişdir.

Xalqımız artıq 20 Yanvar faciəsinin 21-ci ildönümünü qeyd etməyə hazırlaşır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: "20 Yanvarda sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirdi. Azərbaycanda haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş Vətən övladları Qanlı Yanvarda xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar".

Bu faciənin ildönümü ərəfəsində 1990-ci ildə Moskva qəzetlərinin birində dərc edilmiş yazıdakı epizodlardan birini yaxşı xatırlayıram. Qəzet 20 Yanvar faciəsinə həsr edilmiş məqaləsində hadisələrə özünəməxsus şəkildə qeyri- obyektiv qiymət verməklə, məqaləni bu sonluqla qurtarırdı: "...orada, Bakıda

qırmızı qərənfillər küçələrdə ayaq altına səpələnmişdir. Burada, Moskvada metronun "Mayakovski" stansiyası qarşısında isə həmin qərənfillər yenə də on rubla satılır".

Qəribə məntiqdir!! Müxbiri həmin müdhiş günlərdə qanına qəltan edilmiş yüzlərlə insanın taleyi deyil, faciənin baş verdiyi küçələrə düzülmüş al qərənfillərin Moskvada yenə də on rubla satılması daha çox narahat edirdi. Atalar yaxşı deyib: "Qılınc yarası sağalar, söz yarası sağalmaz".

*Tarixi yaşadıb diləyimizdə*
*Bir yumruğa döndük o gecə biz də;*
*Yıxıb köləliyi ürəyimizdə*
*Cəsarət mülkünü tikdi şəhidlər.*
*...İnsan insan olur öz hünəriylə,*
*Millət millət olur xeyri, şəriylə;*
*Torpağın bağrına cəsədləriylə*
*Azadlıq toxumu əkdi şəhidlər.*

Həmçinin, böyük şair "Şənbə gecəsinə gedən yol" kitabında yazırdı: "Şəhidlər Xiyabanı bizim xalqın and yeri, Şənbə gecəsi isə qatillərimizə nifrət gecəsi kimi yaddaşlara həkk olunacaq"

Nə qədər ki 20 Yanvar faciəsi qondarma "Dağlıq Qarabağ problemi" ilə əlaqədardır, bununla bağlı bir məqamı da qeyd etmək xüsusilə yerinə düşər. Xalqımız bu problemin beynəlxalq hüquq normalarına müvafiq dinc yolla yaxın vaxtlarda ədalətli həllini səbirsizliklə gözləyir. Lakin Qarabağ probleminin dinc yolla həlli istisna olduğu halda, şübhəsiz, xalqımız Silahlı Qüvvələrimizin Ali baş komandanı, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə öz torpağını hərb yolu ilə azad etmək hüququnu özündə saxlayır. Bu bizim təbii, ayrılmaz, konstitusion hüququmuzudur.

Təsadüfü deyildir ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev demişdir: "Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır və heç vaxt müzakirə mövzusu olmayıbdır... Biz öz mövqeyimizi, eyni zamanda, iqtisadiyyatımızın, ordu potensialımızın möhkəmlənməsi ilə daha da gücləndirməliyik".

Bu matəm günü ərəfəsində biz bir daha çağdaş milli azadlıq mübarizəsinin öncülləri, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində örnək olan şəhidlərimizə Allahdan rəhmət diləyirik.

**“Respublika”.**-2011.-18 yanvar.-N 12.-S.5.

## Qocalan dərdin ucalığı

**Flora Xəlilzadə**

**O vaxt min arzu və niyyətlə gözlənilən il at üstündə gəlirdi. İkinci dünya müharibəsinin ağrı-acılarını yaşamış insanlar ilin qara at üstündə tamamlanmasından üşənərək "Allah xeyir eləsin" söyləmişdilər müharibə işarətidi. Əlbəttə fikirlərin, sınama və müşahidələrin üst-üstə düşməsi bəzən təsadüfən olur. Amma həqiqətən 90-cı ilin 20 Yanvarı qara gəldi. O dəhşətli günlər bütövlükdə millətimiz üçün əsl imtahan oldu.**

Əzəlimiz və sonumuz olan torpaq həqiqətən möcüzədir. Ona baş əyəni göyə qaldırır. Yolunda ölümə sinə gərəni şəhidliyə ucaldır. Bu qəribə rütbənin epiteti isə ölümsüzlükdür.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusu tərəfindən xalqımıza qarşı analoqu tapılmayan qəddarlıq törədildi. Azərbaycan xalqına totalitar kommunist rejimi tərəfindən edilən hərbi təcavüzün məqsədi demokratik bir dövlət yaratmaq amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, mənliyini alçaltmaq, milli azadlıq hərəkatını boğmaq idi. Bu səbəbdən də dinc əhaliyə qarşı törədilən ağır cinayət nəticəsində yüzlərlə insan yaralandı və qəddarcasına qətlə yetirildi.

İndi o faciədən 21 il keçir. Bu qocalan dərdin ucalığında ötənlərə boylananda tariximizin qanla yazılmış yaddaşından süzülən xatirələrin qarşısında bir etiraf qolumuzdan yapışır: ağlama, mərdlərin var, mərd ol, namərdlərin var. "20 Yanvar şəhidi" fəxri adının təsis edilməsi haqqında 1998-ci ildə ümummilli lider Heydər Əliyev tərəfindən imzalanan fərmanda deyilir: "20 Yanvar xalqımızın qəhrəmanlıq günüdür. Azərbaycan xalqı hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiqliyini, vətənin müstəqilliyini qorumaq üçün şəhid olmaq əzmini bütün dünyaya nümayiş etdirmişdir. Azadlıq yolunda özünü qurban vermiş şəhidlərimizin fədakarlığı xalqımızın qəlbində daim yaşayacaq, gələcək nəsillər üçün qəhrəmanlıq məktəbi olacaqdır".

O qara gecə azadlıq yolunda ayağa qalxaraq namərd gülləsinə tuş gələnlərin arasında mübarizlərlə bərabər, 15 yaşdan başlamış 60 yaşa qədər təkcə azərbaycanlılar deyil, tatar, ləzgi, yəhudi, rus və başqa xalqların nümayəndələri də var.

Başına çox bəlalar gəlmiş Azərbaycan zaman-zaman düçar olduğu qasırğalardan, haqsızlıqlardan məhz fədakar övladlarının şücaəti sayəsində qalib çıxıb. O qanlı-qadalı qış gecəsində doğulan körpələrin indi 21 yaşı var. inanmaq istəmirsən ki, ara- dan bu qədər illər keçib. Sanki dünən hər şey olmuş kimi təptəzədir. Hələ də gözlərimiz önündən boz havalı, qüssəli Bakının o qəhərli günləri çəkilmir. Əlbəttə, 20 Yanvar, əslində, millətimizin qürur və şərafət günüdür. Nail olduğumuz azadlığı kimdənsə sovqat almadıq. Onu qanımızla, canımızla, torpağa tapşırdığımız müqəddəs əmanətlərimizlə əldə etdik. Pay- taxtımızın dağüstü parkında öz varlıq- ları ilə hopduqları torpağı millətin hünər dastanına çevirən şəhidlərin ruhu ilə qazandıq. Ötən əsrin əvvəllərində də bu yerlərdə erməni daşnaklarının və bolşeviklərinin güdazına getmiş soydaşlarımız torpağa tapşırılmışdı.

Amma sovet rejiminin sərt qanunları yaddaşımızın üstündən qara xətt çəkmişdi. Torpaq isə heç nəyi unutmur. Yeni qurbanlarını qoynuna alanda naməlum şəhidlərin dağılmış sümükləri üzə çıxdı. Bu, tarixin ən ağır ittihamı olsa da, millətimizin suçu deyildi.

Şahidlər yaxşı xatırlayırlar ki, o gecənin səhəri Bakının çox təzadlı bir rəngi vardı. Havanın ovqatından ürəksıxıcı bir boşluq, ona həmahəng atəş səsləri, küçələrdə zirehli maşınlar, yad əsgərlər, qara bayraqlı evlər, damlar, pəncərələr, şəhidlərin qanı tökülmüş torpağa döşənmiş al qırmızı qərənfillər və bir də ağır ləngərli insan izdihamı. Həmin vahiməli günlər heç vaxt gözlərimiz önündən çəkilmir. İlk dəfə şəhidlərin şərəfli ölümü önündə sağ qaldığımıza görə xəcalət çəkir- dik. Bizim hər birimiz həyatla ölümün qovuşuğunda çırpınan millətimizin birliyinin, eyni dərdin, fəlakətin içində candan, qandan yaratdığı həmrəyliyin şahidi olduq. O gün millətimizin Azərbaycan adlı müqəddəs bir anası var idi - məhz yeganə anası. Yaşından asılı olmayaraq hamı bu mərd və dərdli ananın başına qara şal bağlatdırmış qatillərə, qaniçənlərə nifrət bəsləyirdi. O gün bəbəsindən ahılına kimi hamı döyüş ruhunda idi. O gün insanlar elə qorxmaz, cəsarətli, vüqarlı görünürdülər ki... Dərd bizi ağ- latsa da, ürəyimizi yesə də, gözümüzü göynətsə də, vüqarımızı əyə bilmədi.

20 Yanvardan danışanda həmişə xəyalımıza unudulmaz xalq yazıçısı Əzizə xanım Cəfərzadə gəlir. Onun yanıqlı səsi, çəkdiyi bayatılar ürəyi- mizdən həm tikan çıxarırdı, həm də sinəmizə köz kimi sıxılırdı:

*Arazam, keç üstümdən,*

*Keç, karvan, keç üstümdən.*
*Bu dərdi mən əkmişəm,*
*Dəryaz al, biç üstümdən.*

O gün Azərbaycanın səsini içində boğurdular. Boğurdular ki, harayını kimsə eşidib köməyinə gəlməsin. Səsimiz içimizə düşsə də, o ağır məqamlarda jurnalist həmkarlarımız dəridən-qabıqdan çıxırdılar. Xüsusilə də mərhum Elmira Əmrahqızının 1990-cı ilin yanvarındakı fəaliyyəti əsl qəhrəmanlıq nümunəsi idi. Bakının ağır dərdləri Elmira xanımın titrək səsi ilə dünyaya yayılırdı. O vaxt təkcə xarici ölkələrdə yaşayan soydaşlarımız deyil, Azərbaycanın özündə də məhz Elmira xanımı dinləyir, onun həyəcan dolu məlumatları əsasında Bakıda baş verənlərdən xəbər tuturdular.

Ölümlə həyat arasında çırpınan insanlar çox əziyyətlə olsa da, Bakıda törədilən vəhşiliklərin bir qismini videokameraların yaddaşına köçürməyə çalışırdılar. Heç bir ölüm qorxusu onların damların üstünə çıxıb yad əsgərlərin qəddarlığını, vəhşiliyini əks etdirən kadrları çəkməsinə mane ola bilmirdi. Fövqəladə vəziyyət şəraitində Ali Sovetin təcili toplantısında xalq artisti Zeynəb Xanlarova böyük şücaət göstərərək kamerası ilə həmin iclası lentin yaddaşına köçürdü. Görkəmli müğənnimiz bir il şəhidlərə yas saxlayaraq oxumadı. O bu sükutu ilə qaniçənlərin murdar sifətinə sanki tərs şillə vurdu.

1990-cı ilin qanlı şənbə gecəsi, əslində, azadlıq şimşəyinə döndü. Çünki müstəqillik arzusu ilə yaşayan insanların bu niyyətə çatmaları üçün ölümlə, qan-qada ilə üzləşməyi lazım gəlmişdi. O şənbə gecəsi Azərbaycanın qəhrəman oğullarının ruhu da silahsız, əliyalın halda ölüm üzərinə gedən igidlərlə birgə idi. Nə istəyirdi bu xalq? Azadlıq! Elə buna görə də sinəsinə güllə sıxdılar. Oğlunu, qızını şil-küt etdilər. Amma şəhidlər öz ölümləri ilə təsdiqlədilər ki, heç bir qüvvə onları bu müqəddəs yoldan döndərə bilməz. Onların sinəsindən axan al qana buludlar kişnədi, göy qan ağladı, Vətən torpağı qara geydi. Bununla belə, millət sübut etdi ki, azadlıq yolunda ölümə də hazırdır. Yalın əllərlə tanklar üzərinə atılan cavanların ölümü göstərdi ki, azadlıq bu millətə halaldır. Xalq şairi Bəxtiyar Vahabzadə yazırdı:

*Şəhid rütbəsinə qalxan cavanlar,*
*Sinəsi hər zülmə qalxan cavanlar.*
*Böyük Nəsiminin, ulu Babəkin*
*Xeyir-duasını aldı o gecə.*
*Zamandan irəli sıçrayıb, yəqin,*
*Tarixdə tarix tək qaldı o gecə.*

Şairlərimizdən Məmməd Araz, Nəbi Xəzri, Xəlil Rza Ulutürk, Mədinə Gülgün, Məmməd Aslan, Cabir Novruz, Tofiq Mütəllibov, Şahmar Əkbərzadə, Nüsrət Kəsəmənli və digərləri də o ağır günlərin dərdini misra-misra dilə gətirdilər. O gecə Azərbaycanda başqa bir şərəfli ad da doğuldu: Şəhid anası! Xalq şairi Fikrət Qoca 20 Yanvarla bağlı xeyli şeirin müəllifidir. Onun "Şəhid anaları" şeiri isə kəsb etdiyi mənasına görə daha təsirlidir:

*Dərd daş atar, ayna sınar,*
*Sınar evin sonası da.*
*Dönər şəhid anasına,*
*Dünyaya gələn analar.*

Unuda bilmədiyimiz və o günlər ürəyimizə toxtaqlıq gətirən məqamlardan biri də Qazaxıstan Yazıçılar İttifaqı İdarə Heyətinin birinci katibi Oljas Süleymenovun Azərbaycanda baş verən hadisələrdən xəbər tutan günün səhəri Bakıda olması idi. O, həmkarları, ziyalılar və gənclərlə görüşərək dərdimizə şərik çıxdı. Yaşadığı mehmanxananın divarlarına sovet əsgərlərinin tuşladığı avtomatları gözlərj ilə görən bu qələm sahibi inamla deyirdi: "Qışdan sonra mütləq bahar gələcək". Əlbəttə, təki dəryalarımız qurumasın. Bir arx buxarlansa, dünya dağılmaz ki?!

O günlərdə Ramiz Quliyevin tarı, Habilin kamanı, Kamil Cəlilovun qa- boyu millətin dərdini öz yanıqlı avazında dilə gətirdi. Hər kəsin ürəyin- dən bu keçirdi ki, qoy haqqın fəryadı bitməsin. Hər pərdədə təzə güllər açılsın. Bizim qabil, məharətli, unudulmaz, ustad tarzənlərimiz çox olub.

Amma etiraf edək ki, xalq artisti Ramiz Quliyevin yaradıcılığında 20 Yanvar yeni bir mərhələ açdı. O gündən başlayaraq bu tarzənin ürəyindən su içən barmaqları tarda bir başqa aləm yaratdı. Simlərin tufanında azadlıq eşqi" çırpındı.

Qanlı şənbə gecəsi ilə bağlı poeziyamızda nümunələr çoxdur. Nəsr əsərləri də var. Publisistikamız daha fəal idi. Bakıda fövqəladə vəziyyət elan olunduqdan sonra, demək olar ki, televiziya, radio işləmir, qəzetlər çıxmır, hətta küçələrdə ictimai nəqliyyat belə gözə dəymirdi. Belə bir ağır vəziyyətdə "Səhər" qəzetinin əməkdaşları həyatlarını təhlükə qarşısında qoyaraq materiallar hazırladılar. Güllələnmiş, yaralı "Səhər" yenidən oxuculara

çatdırıldı. Bu qəzet 40 gün 20 Yanvar şəhidlərinə yas saxladı. Əzizə Cəfərzadənin bayatıları ilə yanaşı, publisistik qeydləri də çap olundu. Orada oxuyuruq: "Mənim xalqım haqq işi uğrunda bütünlüklə ayağa qalxıb. Bu xalq içərisində bircə nəfər də laqeyd adam yoxdur. Saysız qurbanlar verdik. Hamının da dilində "Vətən", "Vətən torpağı" sözləri oldu". Məmməd Aslan "Səhər"in vasitəsilə üzünü qərənfillərə tutdu: "Sən mənim ağlar gözüm, ağla, qərənfil, ağla!" "Azərbaycan qadını" jurnalının baş redaktoru Xalidə Hasilova "Səhər"də "Güllər ehsana döndü" məqaləsini dərc etdirdi. Şahmar Əkbərzadənin, Ağalar Mirzənin, Hidayət Elvüsalın, Fikrət Sadığın, Flora Sadıqovanın yazıları təskinlik gətirdi oxuculara. Nəriman Həsənzadənin "Qafqaz" şeiri dillər əzbərinə çevrildi.

Bir məsələ təəssüf doğurur ki, teatrlarda çox sonralar da bu mövzuda yazılan uğurlu bir əsərə rast gəlinmədi. Müxtəlif rejissorların poetik nümunələr əsasında hazırladığı kompozisiyalar olsa da, bu faciənin dramaturji mətndə əks-sədası və səhnə həlli çox vacibdir. Teatrlarda bu boşluq hələ də qalmaqdadır.

20 Yanvar gecəsində bir şair də itirdik: Ülvi Bünyadzadə! Şəhidliyindən xeyli əvvəl yazdığı misraları hər bir torpaqsevərin məramı kimi səslənməkdədir:

*Həyat üçün doğulmuşuq,*
*Vətən üçün ölməliyik.*

Bax, bu ideya, bu istək, bu məqsəd naminə insanların ürəyində ölüm qorxusu yox idi. O gecə, əslində, ölən qorxumuz idi. Bir şıqqıltıya belə üşənən canımızdan qorxu hissi yoxa çəkilmişdi. Ölümün üstünə cəsarətlə yeriyirdik. Silahlı adamların qaniçən baxışlarından hürkümüz yox idi. Necə qürurlu bir gün idi! Ölüm şərəf sayılırdı! Təki millətin ruhu ölməsin. O gecə güllə yağışı altında dünyaya gələn körpələrin arasında oğlan çocuqları daha çox idi. Yeni əsgərlər doğulurdu. Dağları aşıb sönən Günəş səhərlər yenidən məmləkətimizə boylanırdı! Urəyimizə gələn qarışıq duyğulardan bir rahatlıq tapırdıq. Şəhidlik Allahın bağışladığı elə bir tacdır ki, hər başa qoyulmaz!

**“Azərbaycan”.**-2011.-18 yanvar.-N 12.-S.7.

# Xalqın iradəsini qıra bilmədilər

**Rəsmiyyə Rzalı**

**Tarixin qan yaddaşı**

**20 Yanvar faciəsindən 21 il keçir**

**1988-ci il fevralın 20-də Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) Xalq Deputatları Sovetinin azərbaycanlı deputatların iştirakı olmadan növbədənkənar sessiyası keçirilir. İclasda DQMV-nin Azərbaycanın tərkibindən çıxarılaraq Ermənistanın tərkibinə verilməsi haqqında qərar qəbul olunur və bu məsələnin müsbət həll olunması üçün SSRİ Ali Soveti qarşısında vəsatət qaldırılır. Bu xəbər Dağlıq Qarabağda və ətraf rayonlarda yaşayan azərbaycanlıları hiddətləndirir. Sabahısı səhər tezdən minlərlə insan Ağdamın mərkəzi yoluna toplaşaraq əliyalın Əsgərana tərəf axışır. Günortaya qədər qonşu rayonlardan da yürüşə qoşulanların sayı artır.**

Həmin vaxt Azərbaycan KP Mərkəzi Komitəsində vəziyyət gərgin idi, Ağdamda "bir qrup başıpozuğun təxribatçı hərəkətinin qarşısını almaq üçün" tədbir görülürdü. Qarabağda isə vəziyyət başqa şəkil alırdı. Ziyalılar çıxış edərək azərbaycanlılarla ermənilərin həmişə dinc yanaşı yaşadıqlarını deyir, yersiz iddialardan əl çəkmələrini tələb edirdilər. İki ağdamlı gənc - Əli və Bəxtiyar həmin gün Əsgəranda ermənilər tərəfindən qətlə yetirildilər.

Yaradılmış qondarma Dağlıq Qarabağ milli şurası ilə Ermənistan SSR Ali Soveti birlikdə yenidən analoji qərar qəbul etdi və SSRİ Ali Soveti qarşısında vəsatət qaldırıldı.

Fevralın 25-də səhər-səhər Əsgəranda daha iki azərbaycanlı şəhid edildi. Hadisələr getdikcə gərginləşirdi. "Qara qarğalar" dimdiyindən dırnağınadək silahlansalar da, azərbaycanlılara əllərinə sapand almağa da icazə verilmirdi. Fevralın 25-i axşam Ermənistanın katolikosu I Vazgen televiziya vasitəsilə ermənilərə müraciət etdi: "Mən də Dağlıq Qarabağın Sovet Ermənistanına birləşdirilməsi məsələsinin həllindən bərk rəncidəyəm. Mən bu məsələni təbii, qanuni və konstitusion məsələ hesab edirəm. Əminəm ki, indiki yenidənqurma və demokratikləşdirmə günlərində Sovet hökuməti həmin məsələyə tam ciddiyyəti ilə yanaşacaqdır. Bu günlərdə mən xaricdən, bizim kilsə təşkilatlarından çoxlu məktublar alıram, telefon zəngləri olur. Onlar xaricdəki iki milyon erməninin adından məndən xahiş edirlər ki, Dağlıq Qarabağ məsələsinin Sovet İttifaqının Konstitusiyasına uyğun olaraq, habelə DQMV Xalq Deputatları Sovetinin qərarına və demokratiyaya uyğun olaraq ədalətli qiymətini alması üçün Sovet hökumətinin qarşısında vəsatət qaldırım. Mən bu bəyanatları nəzərə alaraq bizim çox hörmətli Mixail Qorbaçova teleqram vurub xahiş etmişəm ki, məsələni DQMV-nin erməni əhalisi üçün müsbət həll etsin. Mən əmin edirəm ki, DQMV-yə dair məsələ SSRİ-də millətlərin öz müqəddəratını təyin etməsi əsasında, Moskvada ali səviyyədə tezliklə xüsusi olaraq həll ediləcəkdir..."

Dini rəhbərin çıxışından sonra daha da qızışan daşnaklar Dağlıq Qarabağda yaşayan azərbaycanlıları hədələyir, ev-eşiklərindən qovur, bir sözlə, vəziyyəti gərginləşdirirdilər. Bir neçə günün ərzində üç mindən çox azərbaycanlı Xankəndidən və ermənilərin çoxluq təşkil etdiyi kəndlərdən ətraf rayonlara köçməyə məcbur oldu.

Məsələ ilə bağlı Azərbaycan SSR Ali Sovet Rəyasət Heyəti təcili növbədənkənar iclas keçirərək Ermənistanın bu addımını suveren Azərbaycan SSR-in işlərinə kobudcasına müdaxilə, onun ərazi bütövlüyünə qəsd kimi qiymətləndirdi. Ermənistanın bu hərəkəti müttəfiq respublikalar arasında münasibətlər praktikasına zidd hərəkət sayılaraq birmənalı şəkildə bəyan edildi ki, bu qərarın heç bir qüvvəsi yoxdur və Azərbaycan SSR-in ərazisinə şamil edilə bilməz.

Azərbaycan xalqı səbirsizliklə gözləyirdi ki, SSRİ Ali Soveti konstitusiyanı kobud şəkildə pozduğuna görə Ermənistanı cəzalandıracaq, qəbul etdiyi qərarı dərhal ləğv edəcək. Lakin nəinki belə olmadı, daha betəri baş verdi. 1989-cu il noyabrın 28-də SSRİ Ali Sovetinin sessiyası "DQMV-də vəziyyəti normallaşdırmağa dair tədbirlər haqqında" qərar layihəsi hazırladı. Prinsipcə bu qərar iki xalqın mənafelərini uzlaşdırmağa, Azərbaycanda və ətraf bölgələrdə vəziyyətin axara düşəcəyinə xidmət etməli idi. 1990-cı il yanvarın 9-da SSRİ Ali Sovetinin sessiyasında qeyri-konstitusion hərəkətə yol verildi. Həmin tarixdə keçirilən iclasda DQMV-nin sosial-iqtisadi inkişaf planının Ermənistan SSR-in iqtisadi və sosial inkişafına dair dövlət planına daxil edilməsi haqqında qərar qəbul edildi. Bu qərar ermənilərin 1988-ci il fevralın 20-də qəbul etdiyi qərarın təsdiqi idi. Vəziyyət arzuolunmaz xarakter alırdı. Azərbaycan xalqı ayağa qalxdı.

Yanvarın 10-da SSRİ Ali Soveti Qorbaçovun iştirakı ilə iclas keçirərək Ermənistanın həmin qərarının SSRİ Konstitusiyasına uyğun gəlmədiyini bildirən başqa bir qərar qəbul etdi. Lakin bunun heç bir təsir gücü olmadı. Çünki artıq regionda vəziyyət kritik həddə çatmışdı. Azərbaycanı mitinq dalğası bürümüşdü, iş dayanmışdı, sənaye müəssisələri, fabrik-zavodlar tətil edirdi. SSRİ-nin tərkibindən çıxmaq haqqında şüarlar səslənirdi. Sumqayıt hadisələri baş vermişdi, Qarabağda qan tökülürdü. Sərhəd rayonlarında da erməni silahlı birləşmələri ilə azərbaycanlı könüllülər arasında döyüşlər gedirdi.

Daxili siyasi vəziyyət də gərgin idi. Xalqın tələbləri ilə Azərbaycan rəsmilərinin istəyi üst-üstə düşmürdü. Əlində ov tüfəngi düşmənlə üzbəüz mövqelərdə duranlar təxribatçı adı ilə həbs olunurdular. Xalq özü öz taleyini həll etmək məcburiyyətində qalmışdı.

1990-cı il yanvarın əvvəlindən Bakıda vəziyyət kritik həddə idi. Şəhərdə kimlər tərəfindən törədildiyi məlum olmayan talanlar yer alır, həm erməni, həm də azərbaycanlılar arasında tələfat baş verirdi. MK-nın binası qarşısında isə mitinqlər gecə-gündüz davam edirdi. Heç bir hökumət rəsmisi xalqın qarşısına çıxb nə etmək lazım gəldiyini demirdi. Çünki özləri də nə edəcəklərini bilmirdilər. Bir də ki, kükrəyən xalqın qəzəbindən qorxurdular.

Söz-söhbət gəzirdi ki, şəhərə silahlı ordu girəcək. Vəziyyət xalqın düşündüyündən və təsəvvür etdiyindən də ağır idi. Tbilisi prospektində, Biləcəri enişində o zaman "XI Qızıl Ordu" adlanan meydanda, Salyan kazarmasının giriş qapılarının ağzında, Binə yolunda, metronun "Məşədi Əzizbəyov" stansiyasının həndəvərində, üç istiqamətdə aereportdan şəhərə gələn yolda və başqa yerlərdə yük maşınlarının hesabına yaradılmış "barrikadaların" ətrafında kortəbii mitinqlər gedirdi. Şəhərin sənaye müəssisələrində iş dayandırılmış, ali məktəblərin auditoriyaları boşalmışdı.

Yanvarın 19-u gecəsi qəflətən ekranlara qaranlıq çökdü, televiziyanın enerji bloku partladıldı, radio susdu. Şəhərin hər yerindən atəş səsləri ilə silahlı ordu şəhərin canına daraşdı. Tanklar silahsız və günahsız insanları tırtılları altında əzib tapdalayır, insanların üstünə od ələyirdi. İttifaq hökuməti Azərbaycan xalqının qanunlarını və beynəlxalq hüquq normalarını tapdalayaraq milləti qırıb tökmüşdü. Sübh tezdən bakılılar dəhşətli mənzərənin şahidi oldular. Asfalt yollar al qana boyanmış, imperiya qaniçənləri bir gecənin içərisində xalqı qanına qəltan etmiş, meyitlər eybəcər hala salınmışdı. Xəstəxanalar və təcili yardım maşınları da güllələbaran edilmişdi. Rayonlarda da qan tökülmüş, Neftçalada 26, Lənkəranda 8 nəfər qətlə yetirilmişdi.

1988-ci ilin fevralından 1990-cı il yanvarın 20-nə gedən yolda təcavüzkar Ermənistanın və imperiyanın hazırladığı hiyləgər planlar bu qanlı faciədən sonra da xalqımızın başına çox fəlakətlər gətirdi. Azərbaycanda vüsət tapmış milli azadlıq hərəkatını boğmaq, demokratik və suveren bir dövlət yaratmaq amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və belə bir yola qədəm qoyan hər hansı xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə 1990-cı il yanvarın 20-də sovet silahlı qüvvələrinin Bakı şəhərinə və respublikanın bir neçə rayonuna yeridilməsi nəticəsində haqq və ədalətin müdafiəsi naminə küçələrə çıxmış silahsız adamlar qəddarcasına qətlə yetirildilər. Hadisələrdən sonra SSRİ-nin yüksək dairələrində bu qanlı qırğına haqq qazandırmaq üçün cürbəcür bəhanələr gətirilirdi. Kimi bunu 89-cu ilin sonu və 90-cı illərin əvvəlləri üçün Azərbaycanda yaranan hakimiyyətsizlik xaosunun qarşısını almaq, kimi Xalq Cəbhəsinin radikal qanadının silah gücünə hakimiyyəti ələ keçirmək, kimi "islam dövləti", "Böyük Azərbaycan" yaratmaq niyyətlərinə yol verməmək, kimi də SSRİ-İran sərhədində məlum hadisələrlə əlaqədar Sovet dövlətinin sərhədlərinin toxunulmazlığını təmin etmək naminə atılmış addım kimi yozurdu. Lakin qoşunların əliyalın xalqın üstünə göndərilməsinin səbəbi bu deyildi. İmperiya amirliyi baxımından bu cinayətkar əməlin bircə məqsədi vardı: xalqın mübarizə əzmini qırmaq və müstəqillik amalına zərbə endirmək!

Tarixin isə öz qanunauyğunluqları var. Günahsız insanların qanının axıdılmasına bais olanlar bundan başqa heç nəyə nail olmadılar. Bu gün xalqımız azad, müstəqil və güclü bir dövlətdir. Azərbaycanın üzərinə gələn ordunun mənsub olduğu təcavüzkar imperiya isə çoxdan çöküb.

**“Azərbaycan”.**-2011.-16 yanvar.-N 11.-S.4.

## 20 Yanvar faciəsi və Heydər Əliyev qətiyyəti

**Vaqif Məmmədov,**
NDU-nun "Qeyrət' nəşriyyatının direktoru, tarix elmləri namizədi

Xalqımızın tarixinə qəhrəmanlıq səhifəsi kimi yazılan 20 Yanvar faciəsində nə qədər böyük itkilərimiz olsa da, 70 il hökm sürmüş totalitar sovet rejimi tərəfindən millətimizin əzmini, xalqın azadlıq mübarizəsini yerindəcə boğmağa cəhd göstərilsə də "cidan çuvalda gizlətmək" mümkün olmadı.

Əlbəttə, bu faciənin törədilməsinin əsas səbəbkarı olan M.S. Qorbaçov və onun əlaltıları, o cümlədən Ə. Vəzirov, A. Mütəllibov, V. Hüseynov kimi vətən xainləri və vəzifə hərisləri bu faciəni gizlətmək, onun siyasi motivini dəyişmək niyyətində olsalar da bunu bacara bilmədilər. 20 Yanvar faciəsinin mahiyyəti, onu törədənlərin iç üzü Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev tərəfindən açıldı. Bu faciənin Azərbaycan xalqına qarşı hərbi təcavüz və cinayət olduğunu tam əminliklə bilən o dahi insan hadisəni eşidən günün səhərisi səhhətinin ağır olmasına baxmayaraq, xəstəxanadan çıxıb Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlmiş, orda keçirdiyi mətbuat konfransında Azərbaycan xalqına qarşı edilən bu vəhşiliyi qətiyyətlə pisləmiş, ilk dəfə olaraq faciəni törədənlərin adlarını bütün dünyaya bəyan etmişdi. Belə bir qətiyyət və cəsarət o dövr sovet rejimində heç kəsin ağlına belə gəlməyən çox riskli addım idi ki, öz həyatını və ailə üzvlərinin həyatını təhlükədə qoymasına baxmayaraq ümummilli lider o addımı atdı. Həmin mətbuat konfransında Heydər Əliyevin böyük cəsarətlə söylədiyi aşağıdakı fikri zaman sonralar təsdiqlədi:

"Mən belə hesab edirəm ki, 19-20 yanvarda baş vermiş bu faciə həm Sovet İttifaqının siyasi rəhbərliyinin, şəxsən M.S. Qorbaçovun böyük günahının nəticəsidir, onun diktatorluq meyillərindən əmələ gəlmiş bir haldır və eyni zamanda Azərbaycan rəhbərlərinin xalqa xəyanətinin və cinayətinin nəticəsidir".

Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində mətbuat konfransında kəskin bəyanatla çıxış etməklə yanaşı, eyni zamanda həmin gün Azərbaycan KP MK-ya, Azərbaycan SSR Nazirlər Sovetinə, Azərbaycan Ali Sovetinə və Azərbaycan xalqına da teleqram göndərmişdir. Həmin teleqramda da o, hadisəyə öz münasibətini bildirdi.

"Mən bu düşünülmüş aksiyanı pisləyir, onu antihumanist, antidemokratik, qanuna zidd hesab edirəm".

Məhz bu cəsarətli bəyanatlarına, xalqın milli şüurunun inkişafında heç bir ölçüyə gəlməyən böyük nüfuzuna və xidmətlərinə görə 20 Yanvar hadisələrindən sonra Heydər Əliyevə qarşı Sovet və o vaxtkı Azərbaycan rəhbərliyi tərəfindən daha güclü repressiya planları hazırlandı, hətta işsiz, təqaüdçü olmasına baxmayaraq Bakıya gəlib orada yaşamasına imkan verilmədi. Belə bir vaxtda doğulduğu Naxçıvana üz tutan o dahi insan doğma torpaqda böyük hörmət və izzətlə qarşılandı, həmin ilin son- larında keçirilən seçkilərdə həm Naxçıvan, həm də Azərbaycan parlamentlərinə deputat seçildi. Heydər Əliyevin xalq deputatı kimi fəaliyyətinin ilk günlərindən onu ciddi düşündürən ən vacib məsələlərdən biri də 20 Yanvar faciəsinə siyasi qiymət verilməsi məsələsi oldu. Sıravi deputat olan Heydər Əliyevin hazırladığı "1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar layihəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990- cı il noyabrın 21-də keçirilən birinci sessiyasının gündəliyinə çıxarıldı və həmin sessiyada "1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət veril- məsi haqqında" yekdilliklə qərar qəbul olundu.

Təəssüflə qeyd etməliyik ki, 1990-cı ilin sonlarında Naxçıvan parlamentində qəbul olunan bu tarixi əhəmiyyətli qərara o vaxtkı ölkə rəhbərliyi tərəfindən lazımi reaksiya verilmədi, bu məsələnin həlli Heydər Əliyevin Azərbaycan rəhbərliyinə ikinci qayıdışına qədər yubadıldı. Nəhayət ulu öndərin hakimiyyətə yenidən qayıdışından sonra (1994-cü ildə) 20 Yanvar faciəsinə hüquqi siyasi qiymət verildi, bu faciə Azərbaycan xalqına qarşı törədilmiş hərbi təcavüz və cinayət kimi dəyərləndirildi ki, məhz bu fikri də uzaqgörən siyasi xadim, Azərbaycan xalqının böyük lideri Heydər Əliyev hadisədən bir gün sonra Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində səsləndirmişdi.

Xalqın tarixində əbədiyaşar bir gün olan 20 Yanvar faciəsi sonralar da Heydər Əliyev tərəfindən daim diqqət mərkəzində oldu və həmin günün "Azərbaycan tarixində, ölkəmizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda qəhrəmanlıq rəmzi kimi müstəsna əhəmiyyəti" qeyd edildi.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin "20 Yanvar faciəsinin on birinci ildönümünün, on ikinci ildönümünün və on üçüncü ildönümünün keçirilməsi haqqında 5 yanvar 2001-ci il, 5 yanvar 2002-ci il və 28 dekabr 2002-ci il tarixli sərəncamları da həm 20 Yanvar faciəsinə diqqətinin, həm də həmin faciə qurbanlarının xatirəsinə ehtiramının ifadəsi kimi təqdirəlayiqdir.

Hər il Qanlı Yanvar faciəsinin törədilməsinin ildönümü ölkə rəhbərliyi və xalq tərəfindən böyük izdihamla qeyd olunur, şəhidlərin xatirəsi anılır. Hər il 20 yanvar ərəfəsində bu faciə ilə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar da 20 Yanvar faciəsi qurbanlarının xatirəsinə ümumxalq ehtiramının ifadəsi olmaqla yanaşı, eyni zamanda Heydər Əliyev siyasətinin uğurlu davamı kimi də qiymətlidir. Həmin sərəncamların birində deyilir:

"Xalqımız 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, ən ağır sınaqlara sinə gərmək əzmini bütün dünyaya nümayiş etdirdi. 1990-cı ilin Qanlı Yanvarında Azərbaycanın şəhidlik zirvəsinə ucalmış Vətən övladları özlərinin fədakarlığı ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar".

**“İki sahil”.**-2011.-15 yanvar.-N.8.-S.12.

## Xalqımızın qürur günü

**Məhəmməd Nərimanoğlu**

**20 Yanvar - Şənbə gecəsi! Həmin gün sovet ordusunun ağır, zirehli texnikasının tapdağı altında qalanların fəryadlarının, ah-nalələrinin eşidilmədiyi, ağsaqqal və ağbirçəklərin, toy üstündə olan oğul və qızların qanlarına qəltan olduqları, hakimiyyət eşelonunda mürgüləyənlərə, hələ də gözlərini Kremlə dikənlərə inamın itdiyi gün kimi tarixə yazıldı.**

**Amma tarix yaddaşındakı qanlı-qadalı, eləcə də mübarizələrlə dolu səhifələri ilə gələcəyə gərəkdir. Bu mənada, 20 Yanvar təkcə xalqımızın azadlıq mübarizəsinin boğulduğu deyil, həm də yetmiş illik imperiya buxovundan sıyrılaraq müstəqillik uğrunda əzmkarlığını nümayiş etdirdiyi gün kimi də tariximizin şərəfli səhifələrindəndir.**

Xalqımızın milli oyanış və azadlıq mübarizəsinin mühüm mərhələsi sayılan 1990-cı ilin Qanlı Yanvarından 21 il ötür. Hər bir hadisədən müəyyən zaman keçdikdən sonra o, daha dərindən dərk edilir və nəticə çıxarılır. Təbii ki, o günlər xalqımızın yaddaşına ağrı-acılı, göz yaşları ilə yazıldı. Bu, bir elin qəddarlığa, amansızlığa qarşı savaşı deyil, bütünlüklə millətin ölüm-dirim mübarizəsi idi. Şərəfli yaşadığımız o gecədən xalqımız qalib, imperiya isə məğlub çıxdı, baxmayaraq ki, oğul və qızlarımızın qanlarına qəltan edilmiş, tankların tırtılları altında xıncım-xıncım doğranmışdılar... Qərənfil libaslı Bakı şəhid qanında boğulsa da, xalqımızın və millətimizin azadlıq carçıları milli birliyə, bütövlüyə, daha doğrusu, ölümsüzlüyə - şəhidliyə yol açmışdı...

Həmin tarixi günlərdə xalqımızın milli birliyi dünya ictimaiyyətini heyrətə gətirmişdi. Dağüstü parkın Şəhidlər xiyabanına çevrilməsi, torpaq və azadlıq uğrunda canlarından və qanlarından keçmiş vətən övladlarının burada dəfn olunması xalqın iradəsi və hökmü ilə gerçəkləşmişdir. Burada İctimai Dəfn Komissiyasının fədakarlığını da xüsusi qeyd etmək lazımdır. Milli-azadlıq hərəkatının iştirakçılarından biri kimi 1990-cı il Qanlı Yanvar faciəsi zamanı şəhidlərimizin dəfnini təşkil etmiş İctimai Dəfn Komissiyasının sədri olmuş, iqtisad elmləri doktoru, professor Qüdrət Əbdülsəlimzadə ilə həmsöhbət olmaq bir daha həmin məşəqqətli olduğu qədər də, şərəfli tarixi günləri yenidən yaşamaq deməkdir.

Qüdrət müəllim sərt fövqəladə vəziyyətdə, yerli hakimiyyət qurumlarının iflicliyi, hərbi vertolyotların əsəbləri oynadan vahiməli gurultuları, vaxtaşırı şəhərin müxtəlif yerlərindən eşidilən atəş səsləri, kütləvi təqiblər, təhqiramiz yoxlamalar, qanunsuz həbslər, hərbçilərin qəzəbdoğuran hərəkətlərinin baş alıb getdiyi günlərdə çox məsuliyyətli bir işə rəhbərlik etməsinin çətinliyi barədə danışdı:

- 20 Yanvar hadisələrindən sonra düşüncə və fikirlərimin ifadəsi olmuş "Nikbin faciə", "Qanlı Yanvardan 15 il keçdi..." adlı dərc olunmuş qeydlərimə yeni faktlar, materiallar daxil etməklə "20 yaşlı 20 Yanvar" kitabını hazırladım. Kitab 20 Yanvarın 20 illik tarixinə həsr edildi. Burada o günlərin və ümumiyyətlə, sonrakı illərdə 20 Yanvar faciələrinə xalqımızın və dövlətimizin birmənalı münasibətinə həsr olunmuş materiallar toplanıb.

Şübhəsiz, bu toplu gələcəkdə o günləri hərtərəfli əks etdirən sanballı elmi tədqiqatlar aparıldıqda, həmin hadisələrin şahidi olmuş müəllifin tarixi ardıcıllıq prinsipləri, xronoloji qaydada yazılmış qeydləri, bəzi zəruri təkrarları nəzərə almaqla, baş vermiş proseslərin obyektiv mənzərəsinin yaradılması işinə müəyyən xidmət göstərəcək mənbədir.

O günlərin ağrılı anları redaksiyamızın qonağı olmuş həmsöhbətimizin yaddaşından süzülür:

- Yağışlı-yağmurlu yanvar günlərinin biri idi. Qaş qaralırdı. Pərişan və nimdaş geyinmiş 15-16 yaşlı bir oğlan uşağı göz yaşları içində İctimai Dəfn Komissiyası üzvlərinə yaxınlaşaraq, həlak olmuş və bir həftədir ki, axtardığı gözlərindən əlil atasını, nəhayət, meyitxanadan tapdığını söylədi. Komissiya üzvləri və köməkçilər dərhal ora yollandılar. Rus hərbçisinin açdığı atəşin qurbanı olmuş V.V.Yermiçyevin tabutu Şəhidlər xiyabanına gətirildi. Qaranlıq havada, şam işığında hamımızın islandığımız bir vəziyyətdə şəhidi dəfn etməyə başladıq. Bu anda Boris Vasiliyeviçin oğlunun atasını tabutda deyil, azərbaycanlı şəhidlərindən biri kimi basdırılması təklifi hamımızı kövrəltdi. Komissiya üzvlərindən kimsə astaca dedi:

- Oğlum, bəlkə anan razı olmadı?

Məlum oldu ki, oğlanın anası ağır xəstədir, bacısı isə ondan xeyli kiçikdir.

Hamı bir anlıq susdu. Mən fikrimi qəti bildirdim:

- O, böyük oğul kimi indi evin kişisidir. Onun sözü bizim üçün qanundur.

Bu fakta diqqəti çəkməyim təsadüfi deyil. Amma o günlərdə şovinistlər bizi "islam təməlçiliyi"ndə günahlandırırdı.

20 Yanvar hadisələrində milli oyanışı boğmağa çalışan sovet diktaturası ilk növbədə informasiya blokadası yaratmış, hərbi senzura tətbiq etmişdi ki, törədilən vəhşiliklərdən dünya ictimaiyyəti xəbərsiz olsun. Fövqəladə

vəziyyət rejimində yaşayan Azərbaycan xalqının haqq səsini heç bir senzura boğa bilməzdi. Gizli yollarla Azərbaycana gəlmiş xarici ölkələrin müxtəlif kütləvi informasiya vasitələri nümayəndələri 20 Yanvar hadisələri barəsində həqiqətin dünya ictimaiyyətinə çatdırılmasında əvəzsiz rol oynamışdır. ABŞ, Kanada, İngiltərə, Türkiyə, İran, Fransa, Çin, Yaponiya, Hindistan, Misir, Polşa, İtaliya, Almaniya, Macarıstan, ümumiyyətlə, 80-dən artıq ölkəni təmsil etmiş jurnalistlər səmimi etiraf edirdilər ki, Bakıya çatana kimi onların burada baş vermiş, habelə hələ də davam edən hadisələrə münasibətləri birmənalı olmamışdır.

Bakıda litvalı jurnalistin hərbçilər tərəfindən qətlə yetirilməsi, Salyan kazarmasındakı bir neçə gün davam etmiş qanlı toqquşma, Bakı limanındakı qarşıdurma, xarici tələbələrin həlak olması və yaralanması, şəhərin müxtəlif hissələrindən tapılmış insan cəsədləri, şəhidlərin dəfninə qoyulmuş ciddi maneələr, Sumqayıt yolunda elm adamlarının gülləbaran edilməsi, kütləvi həbslər, təqiblər, işğalçı ordunun əsgər və zabitlərinin özbaşınalığı, həbs edilənlər haqqında məlumatların gizlədilməsi, yaxud saxtalaşdırılması faktları xarici KİV nümayəndələrində təəccüb və qəzəb doğuraraq M.Qorbaçov başda olmaqla "sovet demokratiyası", habelə "yenidənqurması"nın əsl mahiyyətini ifşa etmişdi.

Ümummilli lider Heydər Əliyev o zaman Moskvada Azərbaycan nümayəndəliyinə gələrək sovet ordusunun xalqımızın azadlıq səsini boğmaq üçün Bakıya qoşun yeritməsini birmənalı olaraq qətiyyətlə pisləmiş və bu qanlı olayın müstəqillik uğrunda mübarizə yolunu tutmuş hər bir müttəfiq respublikada baş verməyəcəyinə kimsəni inandırmağın çətinliyini dünya ictimaiyyətinin diqqətinə çatdırmışdır.

Şəhidlərimizin qanı ilə yazılmış "20 yaşlı 20 Yanvar"ın 21 illik tarixinin səhifələrindən oxuyuruq: "...Fədailər və Şəhidlər xiyabanında, öz son mənzilində uyuyan qurbanlarımız arasında Vətən məhəbbəti dastana çevrilmiş İlham və Fərizə ilə yanaşı, sağ qolun faciəsini bizə yaşadan, 1964-cü il təvəllüdlü Yusif Sadıqov, ölümüylə əzrayılı başqalarından bir anlıq da olsa yayındıran, 1932-ci ildə Qafan rayonunda dünyaya gəlib, ömrünün ixtiyar çağlarında erməni vandalları tərəfindən yurd-yuvasından didərgin salınmış Mürvət Rəhim oğlu, poetik nəfəsi çox erkən ülviyyətə qovuşan Ülvi Bünyadzadə, sinif otağında qara partası boş qalmış İlqar, avtobusda qorxudan atasına sığınan, daim 7-ci sinif şagirdi kimi xatırlanacaq Larisa, ölümünə gülən 50 yaşlı Cəbrayıl Xanməmmədov..., bir sözlə, 66 yaşlı azərbaycanlı ixtiyar qoca və 13-14 yaşlı məktəbli, 45 yaşlı yəhudi həkim, 16 yaşlı yeniyetmə qız, 43 yaşlı milliyyətcə rus əlili (gözlərindən məhrum), 17 yaşlı gənc, 31 yaşlı tatar sürücü, 46 yaşlı ləzgi yanğınsöndürən vardır...

Deməli, bu, təkcə azərbaycanlıların deyil, eyni zamanda respublikamızda yaşayan müxtəlif millətlərin ümumi faciəsidir...".

Xalq şairi Bəxtiyar Vahabzadə yazırdı: "...Dünənə qədər hər gün rast gəldiyimiz, milyonlardan biri kimi tanıdığımız bu adi cavanlar bir gecənin içində nə boyda böyük qəlbə malik olduqlarını ölümləri ilə təsdiq edib qeyri-adiləşdilər. Şənbə gecəsi onların adilikdən qeyri-adiliyə qovuşuq gecəsi oldu. Heç demə, ömrümüz boyu adlarını fəxrlə çəkdiyimiz tarixi qəhrəmanlarımız da şənbə gecəsinin oğulları kimi adi adamlarmış. Zaman keçəcək, xalq bu igidləri barəsində də əfsanəvi dastanlar yaradacaq, şair və yazıçılarımız kitablar bağlayacaq, poemalar və cild-cild romanlar yazacaqlar...".

Komissiyanın birbaşa fəaliyyəti ilə həyata keçirilən dəfn mərasiminin bir-iki deyil, qırx gündən artıq davam etməsi də faciənin miqyasının genişliyini, şəhidlərimizin respublikamızın əksər bölgələrini əhatə etdiyini təsdiqləyir. Həmsöhbətim bu məsələ ətrafında yaddaqalanları dilə gətirir. Komissiya sədri etiraf edir ki, vaxt gələcək, bu gün bəlkə də əhəmiyyətsiz görünən bir hadisə sabah çox vacib fakt kimi qiymətləndiriləcəkdir: "Necə unutmaq olar ki, xalqa qarşı silah işlədən hərbçilər qətlə yetirdiklərini rahat basdırmağa da imkan vermir, Şəhidlər xiyabanında fitnə-fəsad törədir, silah işlədir, atəş açır və sonradan bunu "təsadüf" kimi izah etdirirdilər. Xüsusilə 62-ci şəhiddən sonra xiyabanda dəfn olunmağa icazə vermirdilər ki, guya rəsmi məlumatda ölənlərin sayı 62 göstərilmişdir. Ən dəhşətlisi isə budur ki, istintaq orqanları, guya nəyi isə "aydınlaşdırmaq" üçün şəhid qəbirlərini açmağa cəhd göstərirdilər, lakin qarşısı alındı...".

Sovet Ordusunun Bakıya qəfil hücumu, amansız təcavüzünü təsdiqləyən çoxsaylı faktlardan görünür ki, 20 Yanvar hadisələri paytaxt Bakıda milli-azadlıq hərəkatını yatırtmaq, onu beşiyindəcə boğmaq deyil, eyni zamanda, əksəriyyəti erməni muzdlu dəstələrindən təşkil edilmiş "xüsusi təyinatlılar"la onlara amansız divan tutulması üçün hazırlanmış ssenarinin bir "pərdəsi" idi. Q.Əbdülsəlimzadə söyləyir: "...Öldürülmüş Y.Meyreoviçin cəsədində 21, D.Xanməmmədovun meyitində 10, R.Rüstəmovun qanlı bədənində isə 23 güllə yeri vardı. 23 güllə! Bu, bütöv bir avtomat sırasıdır. Yaxud da günün günortasında yolun kənarındakı minik maşınını əzib keçən və içərisindəkiləri qətlə yetirən sovet tankçısının hərəkətlərini ya təsadüfi, ya da əmri verilməmiş saymaq olardımı?!"...

EHələ ki torpaqlarımız erməni daşnaklarının işğalı altındadır. Hələ ki Qarabağa aparan yolumuz şəhidliyimizdən keçir, hələ ki doğma yurd-yuvasından perik düşmüş insanların and yerinə çevrilmiş, Qarabağın

tacı, Azərbaycanın zirvəsi Şuşa sındırılmış könül şüşəsidir, ona görə də şəhidlik tariximizin sonuncu səhifəsindəki andımıza nöqtə yox, nida qoyulacaq. 20 Yanvardan başlayan şəhidliyimiz Qarabağa yol başladı. Minlərlə azadlıq aşiqi, Vətənə, yurda, torpağa bağlı gənclərimiz, ata-analarımız, qardaş və bacılarımız əsir yurdlarımızın şəhidinə - aşiqinə çevrildi. Şəhidlər xiyabanları Vətənimizin hər bir guşəsində al-qırmızı qərənfil libası geyindi. Minlərimiz bu torpaq uğrunda ölümün gözünə dik baxmağı özünün şərəfli borcu saydı. Mübariz İbrahimov kimi cəsur, qorxmaz, igid Vətən övladları - Şəhidlər xiyabanında uyuyan milli-azadlıq mücahidlərinin ölümsüzlüklərinə and içərək qeyrətini silaha çevirdi. Demək, Vətən, uğrunda ölən var!

Demək, Torpaq möcüzədir... Torpaq əzəldir... Torpaq sondur...

**“Azərbaycan”.**-2011.-15 yanvar.-N 10.-S.6.

## ABŞ və Avropa 20 yanvar qırğınını dəstəkləyib

**21 il əvvəlin baş verən ümumxalq faciəsinin təfərrüatları «Bizim Yol»da**

**Çapay Sultanov: «Zaqafqaziya, Moskva, Leninqrad hərbi dairələrinin iştirakı ilə Bakıya 50 minlik hərbi qüvvə hazırlanmışdı»**

**Bir həftədən sonra 1990-cı ilin 20 Yanvar faciəsinin 21-ci ildönümü qeyd ediləcək. Bu müddət ərzində baş verən faciə haqqında kitablar yazılıb, siyasilər, politoloqlar, hadisələrin iştirakçısı sıravi vətəndaşlar danışıb. Tanınmış yazıçı, professor Çapay Sultanovun faciə ilə bağlı "İmperiyanın son zərbəsi" kitabı sözün əsl mənasında 20 Yanvar enskilopediyası sayıla bilər. Əsərdə həmin dövrün hadisələri detallarına qədər araşdırılıb. Kitabda faciə ərəfəsində SSR-i rəhbərliyində çəkişmələr, 20 yanvar faciəsinə beynəlxalq münasibət, ermənilərin separatçı fəaliyyəti, Kremlin onlara hərtərəfli dəstəyindən ətraflı bəhs olunur. Təəssüf ki, kitab ingilis, rus və türk dillərində nəşr olunsa da, bu günə qədər öz dilimizdə oxunmaqdan məhrumdur.**
**Çapay müəllimlə söhbətimizdə 20 Yanvar faciəsinin görünən və görünməyən tərəflərinə işıq salmağa çalışdıq. Bu cəhdimizin necə alınmasını isə oxucuların ixtiyarına buraxırıq.**

**- Çapay müəllim, 20 Yanvar faciəsinə gətirən səbəblər nədən ibarət idi?**
- SSRİ prezidenti Mixail Qorbaçovun ordunun Bakıya daxil olmasına göstəriş verməsinin əsas səbəbini onun artıq zəifləməsində axtarmaq lazımdır. Ölkə rəhbərliyində, konkret Mərkəzi Komitədə ona qarşı güclü müxalifət vardı. Ona görə o, öz gücünü göstərmək istəyirdi. Bu güc isə Azərbaycanda göstərildi. Çünki o, yaxşı bilirdi ki, Azərbaycanda həyata keçirdiyi qanlı aksiya nə Avropa Parlamentində, nə də ABŞ-da xüsusi etiraz doğurmayacaq.

**- Bunun üçün səbəblər nədən ibarətdir?**
- Birincisi ona görə ki, Qorbaçov Azərbaycanın o zaman xaricdə güclü diasporasının və başqa ölkədən dəstəyinin olmadığını bilirdi. Məsələ onda idi ki, SSRİ prezidenti hər şeyi yaxşı hesablamışdı. Onun hesablaması da özünü doğrultdu. Məsələn, o zaman SSRİ-nin Amerikadakı səfiri Dobrının (səfirinin həyat yoldaşı Xaçaturyan soyadlı erməni idi) Buşla bu barədə danışmışdı. Sonradan səfir özü də dedi ki, yaxşı oldu ki, Buş onları dəstəklədi. Yaxud, Avropa Parlamenti hadisəyə öz münasibətini bildirdi və bu, Qorbaçova dəstəkdən ibarət idi. Adi bir fakt: yanvarın 18-də "Moskovskiy novosti" qəzeti məlumat yaymışdı ki, Avropa Parlamenti SSRİ rəhbərliyindən Azərbaycana ordu yeridilməsini tələb edib. Türkiyəyə gəldikdə, Turqut Özal "Biz SSRİ-nin daxili işinə qarışmamalıyıq" bəyanatını verdi. Halbuki, türk xalqı çox narahat idi və etiraz mitinqləri ilə öz münasibətini ifadə etdi. Sualının konkret cavabına gəldikdə, səbəblər çoxdur və mən sıralama ilə faktlara diqqətinizi çəkəcəyəm. Bunların birincisi ondan ibarət idi ki, 1989-cu ilin dekabrın sonunda İranla sərhəd dirəkləri söküldü. Bu, sovet rəhbərliyinə Azərbaycana qoşun yeritmək üçün ilk bəhanəni verdi. İkinci, 20 Yanvar hadisələrindən əvvəl Bakıya şübhəli adamlar gəlmişdi və DİN-in rəsmi məlumatına görə yanvarın 22-də onların sayı 4468 nəfər olub. Tanınmış bəstəkar, 20 Yanvar faciəsi ilə bağlı yaradılan komissiyanın üzvü Arif Məlikovun yazdıqlarından məlum olur ki, həbs olunanlar arasında həmin şübhəlilərdən var idi. Onlar başqa respublikaların vətəndaşları olub. Bu adamlardan narkotik maddə də tapılmışdı. Üçüncü, SSRİ Ali Sovetin milli məsələlər üzrə komitəsinin sədri Tarazeviç 1989-cu ilin dekabrın 19-da Azərbaycan Mərkəzi Komitəsinin Büro yığıncağındakı çıxışında Dağlıq Qarabağa münasibətdə "özünüidarə ərazisi" termini işlətmişdi. Bu, Volskinin "Qarabağ xalqı" sözündən sonra işlənən bir fikir idi. Bundan neçə il sonra Yakovlev "Qarabağ dili"ndən danışacaqdı. Həmin Tarazeviç bizi Ermənistanı mühasirədə saxlamaqda ittiham edərək Laçın dəhlizinin açılmasının vacibliyindən bəhs edirdi. Hətta o, öz çıxışını "Mərkəz Ermənistanın mühasirədə qalmağına imkan verməyəcək, çünki bu, respublikanın iqtisadiyyatının dağılması deməkdir" sözləri ilə bitirdi. Fikir verin, bu çıxışı kim edir?! Və bu cür çıxışlar vəziyyəti daha da gərginləşdirirdi. Dördüncü, yanvarın əvvəlində DTK-nın "Vımpel" qrupunun zabitləri, 7-ci idarənin "A" xidməti Naxçıvana döyüş tapşırıqları adı ilə gəldilər və artıq 15 yanvarda onlar Bakıdaydılar. Bu qrup "Abşeron" hotelində qalırdı. Amma ondan 3 gün əvvəl Bakı hava limanında Bakatin və Bobkovun rəhbərliyi ilə desant dəstəsi hazır vəziyyətdə idi. Təsəvvür edin ki, Nazirlər Sovetinin (NS) rəhbər şəxslərindən biri Azərbaycan KP MK-nə NS-nın dəhlizlərində Moskvadan gələn hərbçilərin nə üçün olduğunu sual etmişdi. Ona cavab vermişdilər ki, onlar özlərinə işləmək üçün kabinet axtarırlar. Acınacaqlı hal ondan ibarətdir ki, yanvarın 9-da Moskvanın yüksək çinli məmurları Girenko, Nişanov

və Jdanov Xankəndinə gedəndə ermənilər onları gülləyə tuturlar və bu adamlar Bakıya qayıtmalı olurlar. Hətta Nişanov bu hadisə bağlı deyir ki, xüsusi qüvvələr onu öldürmək istəyib ki, sonra bunu ermənilərə bağlasınlar. Görürsünüz, mərkəzin münasibətini?! Başqa bir fakt, yanvarın 14-də DTK-nın "Alfa" qrupunun rəhbərlərindən Boltunov öz komandası ilə Bakıya gəlir. Bundan əlavə DTK-nın ikinci və beşinci idarələrinin zabitləri Bakıya gəlmişdilər. Elə həmin vaxt Primakov və Girenko da Bakıya gəlirlər. Bəs sual olunur, ermənilər həmin ərəfədə nə edirdilər, birinci, yanvarın 13-də Kərki işğal olunur, iki gün sonra Xanlar rayonunun Quşçu, Naxçıvanın Sədərək kəndləri hücuma məruz qalır. Yanvarın 14-də "Qarabağ" Komitəsi Ermənistanda Azərbaycanla müharibə adı ilə hərbi səfərbərlik elan edir. Amma bunların müqabilində Moskva Azərbaycan ekstremistlərindən danışır. Və yanvarın 15-də Sobçak Leninqrad telekanalının "Beşinci təkər" proqramında Azərbaycanda 600 min rusun faciə ilə üzləşməsi haqqında təxribatçı bəyanatla çıxış edir. 16-19 yanvarda isə Zaqafqaziya, Moskva, Leninqrad və başqa hərbi dairələrin iştirakı ilə Bakıya göndərilmək üçün 50 minlik hərbçi hazır vəziyyətə gətirilir. O cümlədən hərbi-dəniz donanması və DİN-in daxili qoşunları Xəzər dəniz donanmasını mühasirəyə alırlar. Bakı qornizonunun azərbaycanlı olan bütün zabit heyəti təcrid olunur. Həm də respublika DİN-nin və DTK-nın tabel silahı inventarizasiya adı ilə yığılır. SSRİ DİN-in daxili qoşunlarının Dzerjinski və "Don-100" adına diviziyaları Dağlıq Qarabağın azərbaycanlılar yaşayan bölgələri nəzarətə götürür. Bütün bunları oxucuda aydın təsəvvür yaratmaq üçün sadaladım. Yəni bu, bir işğal idi və Tiflis, Vilnüs hadisələri ilə müqayisə oluna bilməzdi.

**- Əgər Qorbaçov daxili müxalifəti zəiflətmək istəyirdisə, müxaliflərdən ən əsası ordu rəhbərliyi idi. Ancaq Bakıya SSRİ-nin müdafiə naziri Yazov da gəlmişdi. Bu zaman prezidentə müxalif olan ordu rəhbərliyinin mövqeyi necə izah oluna bilər?**

- Məsələ ondadır ki, faciədən bir neçə il sonra müdafiə naziri Yazov günahkarın Qorbaçov olduğunu bildirdi. Məsələn, Yazovun "Exo Sumqait" filminə müsahibəsi dediklərimi təsdiqləyir. Yazovun xatırladığı bir epizodu qeyd etmək yetər ki, buna görə Qorbaçova indi də məhkəmə iddiası qaldırmaq olar. Qorbaçov Yazova deyəndə ki, tezliklə ordunu Bakıya yerit, müdafiə naziri ondan yazılı əmr istəyib. O zaman Qorbaşov cavab verib ki, sən bu kağız parçasından nə yapışmısan, kağızı sonra verəcəyəm, ordunu yerit. Halbuki, ordu yeridiləndə Ali Sovetdə müzakirə olunmalı və bunun nəticəsində qərar qəbul edilməlidir. Ancaq bunların heç biri olmamışdı. Qorbaçov özü fərdi şəkildə bu qərarı qəbul etmişdi.

**- Belə çıxır ki, ordunun yeridilməsində əsas səbəb kimi göstərilən yanvarın 13-də ermənilərə qarşı həyata keçirilmiş təzyiqlər əsassızdır?**

- Əlbəttə, əsassızdır. Tanınmış kinorejissor Qovrouxin bu barədə bildirmişdi ki, artıq o zaman Bakıda bir erməni belə yox idi. Yəni 13 yanvardan sonra şəhərdə tam sakitlik idi və demokratik şəkildə keçirilən mitinqlərə qarşı isə bu cür hərbi əməliyyatlar keçirilmir. Necə ki, o zaman bu cür demokratik etiraz aksiyaları Ermənistanda, Gürcüstanda, Litvada da keçirilirdi. Bəs niyə bu respublikalara ordu yeridilmədi? Baltik respublikaları ümumiyyətlə ittifaqdan ayrılma kursu götürmüşdülər və keçirilən mitinqlərdə əsas şüarlar da bu mövqeyi ifadə edirdi. Azərbaycandakı mitinqlərdə isə ittifaqdan ayrılma yox, demokratiya tələbləri yer almışdı.

**- Beləliklə, yenə o məsələyə qayıdırıq ki, Qorbaçov daxildəki müxalifəti əzmək üçün bu addımı atdı...**

- Bilirsiniz, Sizin yanaşmanızda determenizm sistemi əsas götürülüb. Yəni elə bir hadisə yoxdur ki, orda yalnız bir səbəb göstərilsin, hər hansı hadisənin baş verməsində 10-15 səbəb göstərilir. Ordunun Bakıya yeridilməsində səbəblər çox idi, amma əsas səbəb Qorbaçovun daxili müxalifətə güc göstərməsi və Bakıda qanlı hadisə törətməklə sovet xalqlarına dərs vermək istəyirdi.

**- Ümumiyyətlə, Siz Qorbaçov fenomenini necə qiymətləndirirsiniz?**

- Bu barədə bir qəzet səhifəsinə sığan çıxış etmək mümkün deyil. Fransız romantik yazıçısı Ekzüperinin çox gözəl fikirləri var. O, deyirdi ki, biz hamımız uşaqlıqdan gəlmişik. Bu fikirdə çox böyük məna və informasiya yükü var. Gəlin, Ekzüperinin həmin fikri əsasında Qorbaçovun uşaqlığına baxaq. Birinci katibin köməkçisi Boldin yazırdı ki, Qorbaçov müharibə illərinin ağır günlərini tez-tez xatırlayırdı. Amma heç sevməzdi ki, evlərində olan faşist işğalçılarına necə yemək hazırlamasından danışsın. Çünki kiçik Mixail tez-tez hitlerçilərə toyuq təmizləyirdi. Konkret olaraq, Mixail pis işləyəndə faşistlərlə təmasda olan bir kalmık onu döyürdü. Yəqin ki, Qorbaçova faşistlərə stolundan da nəsə qalırdı. Yetkinlik yaşına çatandan sonra, yəni hərbi xidmətdə o, ərzaq anbarına rəhbərlik edir. Hətta bu barədə"Moskovskiy Komsomolest" qəzetinin 28.06.04 tarixli sayında Qorbaçovun şəkli də var. Mən bir faktı da xatırlayıb söhbətimizin bu hissəsinə nöqtə qoyulmasını istərdim.

Adətən bir sıra siyasətçilər karyeralarını bitirəndən sonra biznesə üz tuturlar. Konkret olaraq, reklam roliklərinə çəkilib qazanc əldə edirlər. SSRİ-nin sonuncu prezidenti bu biznesdən yararlansa da, uğursuz alındı. O, reklam gəlirlərinə görə müğənni Orbakayte ilə dördüncü yeri bölüşməli oldu. Birinci yerdə isə tanınmış tennisçi Mariya Şarapova idi. Bu, artıq Qorbaçova verilən qiymətdir.

**- Qayıdaq söhbətimizin əsas məğzinə, bir sual həmişə açıq qalır, ordunu Bakıya kim çağırmışdı?**

**Natiq Cavadlı**

**"Bizim Yol".**-2011.-14 yanvar.-N 7.-S.7.

## 20 Yanvardan 21 il keçir...

### Aydın Ağayev: "Faciələrimizin dünyaya tanıdılmasında diaspor təşkilatlarının rolu vacibdir"

**Bir neçə gündən sonra Azərbaycan salnaməsinə yazılan qanlı tarixin - 20 Yanvar faciəsinin 21-ci ildönümü anılacaq. 21 il öncə baş verən müdhiş hadisə bütün dünya azərbaycanlılarının, eləcə də sülhsevər dövlətlərin yaddaşından silinmir. Çünki həmin gün bütün Azərbaycan və azərbaycanlılar matəm içində idi. 21 il öncə başımıza gətirilən faciəyə qısa ekskursiya edək.**

Yanvarın 19-dan 20-nə keçən gecə SSRİ-nin ilk prezidenti Mixail Sergeyeviç Qorbaçovun əmri ilə sovet ordusunun Ryazan və Tuladakı desant, Krasnodar, Stavropol və Rostov vilayətlərində yerləşən motoatıcı diviziya qüvvələri Bakıya daxil oldu. "Zərbə" kodu altında keçirilən əməliyyatda ağır hərbi texnikayla yanaşı, minlərlə əsgər və zabit iştirak edib. Bir gecədə 170 günahsız sakin qətlə yetirildi, 400-ü yaralandı, onlarca itkin düşənlər qeydə alındı. Öldürülənlər arasında 5 millətin nümayəndəsi də vardı. Qanlı 20 Yanvar faciəsinin əsas səbəbkarı olan Mixail Qorbaçov məsuliyyəti öz üzərindən atmaq üçün ordunun Bakıya yeridilməsini 1990-cı il 13-15 yanvarda Bakıda ermənilərə münasibətlə əlaqələndirdi. Əməliyyatda "Alfa", "Vımpel" və "Vityaz" kimi xüsusi təyinatlı dəstələrin iştirakı əsas məqsəddən xəbər verirdi - azərbaycanlıların azadlıq uğrunda mübarizəsini yatırtmaq.

Qanlı 20 Yanvar faciəsi heç də təsadüfi baş verməyib. Bu, Kremldə düşünülmüş plan idi ki, Qorbaçovun ermənipərəst ətrafı bu faciənin baş verməsində xüsusi fəallıq göstəriblər. Şahnazaryan, Sitaryan, Ambarsumyanlar kimi yüzlərlə erməni yaltağının o vaxtkı sovetlər rəhbərliyinə yol açmaları nəticəsində bu faciə baş verdi. Faciənin ssenarisi hələ 1987-ci ildə cızılmışdı... Ermənilər əvvəlcə Quqarkda 33 azərbaycanlını qətlə yetirdilər, 1990-cı il yanvarın 12-də isə Ermənistandakı rus ordusunun vertolyotları Azərbaycanın Xanlar rayonunu atəşə tutdular.

Faciənin baş verdiyi gün Bakıda "Krunk" və "Aydad" təşkilatlarının xətti ilə ermənilərə işləyən media nümayəndələri yerləşdirilmişdi. 1990-cı il fevralın 9-da Moskva radiosuna müsahibə verən Bakıdakı erməni kilsəsinin keçmiş işçisi Xaçik Xocaryan bildirib ki, "Krunk" sovet ordusunun Qafqazda müsəlman ekstremizminə qarşı həyata keçirdiyi hərbi əməliyyatların işaqlandırılmasında xüsusi rol oynayıb. Bu kimi məlumatları təsdiqləmək məqsədilə ermənilər "Siqma" və "Qamma" kimi fransız agentliklərinin nümayəndələrinin Bakıya gəlişinə şərait yaratdılar. Bu agentliklər Bakıdakı faciəni ermənilərin mövqeyindən işıqlandırdılar. Fransalı ermənipərəst jurnalistlər Bantyura Stefana və Peynara Mişelya isə dünyaya faciənin baş verməsində məhz azərbaycanlıların məsuliyyət daşıdıqlarını bildiriblər. İki ingilis jurnalisti - Braun Bencamin və Pek Louri isə Bakıya İrandan gəlmişdilər. Onlar Bakıdakı faciəni İsfahandakı erməni diasporlarına nümayiş etdiriblər.

Faciədə isə erməni hərbçilərin iştirakı danılmaz faktdır. Həmin gecə Bakıya 186 erməni əsgər və zabit gətirilib. 20 Yanvar faciəsinin təhqiqatı ilə məşğul olan Rusiya Federasiyası Hərbi Prokurorluğunun müstəntiqi polkovnik Arbuzov Rusiyanın Baş Xüsusi Kəşfiyyat İdarəsinə ünvanladığı məktubda soruşub: "Hansı hərbi hissələrdən bu qədər erməni yığılıb?" Sual cavabsız qalıb. Elə faciənin əsl iştirakçılarından sayılan Girenko, Primakov, Yazov, Bakatin kimi o vaxtkı yüksək vəzifəli sovet məmurları, başda Qorbaçov olmaqla cəzasız qalıblar. Bu faciənin uğurla həyata keçirilməsindən sonra əməliyyata rəhbərlik edən polkovnik Lebed general-mayor, Yazov isə marşal rütbəsi aldı. Rusiya Müdafiə Nazirliyinin arxivində isə bu faciəylə bağlı sənədlər itirildi. Faciəni azərbaycanlıların yaddaşından silmək üçün ermənipərəst qüvvələr bu günədək dəridən-qabıqdan çıxırlar. Əksər ölkələr 20 Yanvarı Azərbaycandakı daxili siyasi mübarizənin, hakimiyyət davasının nəticəsi kimi dəyərləndirdi. Beynəlxalq birlik 1956-cı ilin Budapeşt, 1968-ci ilin Praqa, o cümlədən 1989-cu ilin Tiflis, 1991-ci ilin Riqa və Vilnüs hadisələrinə müvafiq hüquqi qiymət verdiyi halda, 1990-cı ilin 20 Yanvar hadisələri Moskvanın hansısa ekstremist qüvvələri zərərsizləşdirmək və guya dinc əhalini qırğınlardan, xaosdan qorumaq üçün atdığı məcburi addım kimi tanındı. 20 Yanvardan sonra o vaxtkı Azərbaycan rəhbərliyinin atdığı addımlar cəsarətsizlik və siyasi təslimçilik nümayişi idi.

Politoloq Aydın Ağayevin fikrincə, 20 Yanvarda baş verənlər keçmiş SSRİ-nin digər regionunda baş verənlərin hamısından dəhşətlidir: "Törədilən vəhşilik, qırılan insanlar, dağıdılan şəhər heç bir faciəylə müqayisə oluna bilməz. İkincisi, o vaxt artıq dağılmaqda olan dövlətin bir daha özünə gələ bilməməsində bu hadisələrin böyük rolu oldu". Politoloq bildirdi ki, son illərdə bu faciələrin dünyaya çatdırılmasında böyük işlər görülüb. İlbəil bunun sərhəddi genişlənəcək. Onun sözlərinə görə, son yeni tarixi şəraitdə xalqımıza vurulan ağır yaralardan biri də 20 Yanvar faciəsidir. Politoloq faciələrimizin dünyaya tanıdılmasında diaspor təşkilatlarının

rolunun da vacibliyinə diqqəti çəkdi: "Mən diaspora hərəkatına ümidliyəm. Əvvəlki illərlə müqayisədə xeyli dərəcədə işlər görülür. Amma bu diasporlar arasındakı mübahisələr adamı hərdən peşman edir. Mübahisələr müxtəlif səbəblərdən qaynaqlansa da olmamalıdır. Düzdür, dövlətimiz, komitə bu sahədə diqqətini artırsa da, diaspora xeyli aktivləşməlidir ki, bu kimi faciələrimiz dünyada tanıdılsın. Eyni zamanda, bir neçə istiqamətdə işləməliyik. 20 Yanvar, Xocalı soyqırımı, mart qırğınlarının hamısını eyni səviyyədə tutub dünyaya çatdırmalıyıq. Hamısının kökü eynidir. Bu mənada iş asan deyil. Heç olmasa, beynəlxalq səviyyədə xalqımıza qarşı ermənilərin və havadarlarının törətdiyi faciələrin hərbi cinayət kimi tanıdılması üçün böyük işlər görülməlidir. Bunu sübut edəcək bir çox faktlar var. Amma asan deyil". Politoloq dedi ki, o vaxtları Pribaltikada törədilən xırda bir hadisədən hər yerdə danışırdılar, amma Bakıda baş verənlərə o qədər əhəmiyyət vermirdilər: "Amma indi bu faciələrimizdən danışırlar. Təbliğatımızı daha da gücləndirməliyik".

Liberal Demokrat Partiyasının sədri Fuad Əliyev isə dedi ki, hər bir azərbaycanlı getdiyi xarici məkanda Azərbaycanın başına gətirilən faciələrdən danışmalıdır: "Bu da bir həqiqətdir ki, son beş ildə faciələrimiz dünyanın ayrı-ayrı ölkələrində qeyd olunmaqla xalqımıza qarşı keçmiş SSRİ rəhbərliyinin, işğalçı Ermənistanın irticaçı mövqeyi ifşa olunur. Mənə elə gəlir ki, bu istiqamətdə bütün gücümüz səfərbər olunmalıdır. Avropa ilə əməkdaşlıq edən yerli QHT-lər, diaspor təşkilatlarımız, imkanlı azərbaycanlılar başımıza gətirilən faciələrimizin dünyada tanıdılmasında yaxından köməklik göstərməlidirlər". Partiya sədri faciələrimizin dünya dövlətlərinin ali qanunverici orqanları tərəfindən tanıdılmasının mürəkkəb olduğunu desə də, təbliğat aparmaqla ən azından həmin cəmiyyətlərin şüurunda dəyişikliyə nail olunmasının mümkünlüyünü bildirdi.

**Cavid**

**“Xalq Cəbhəsi”.**-2011.-14 yanvar.-N 7.-S.8.

## 20 Yanvar - tariximizin qəhrəmanlıq səhifəsi

## Qan yaddaşımız

**Hər dəfə yanvar ayı gələndə o müdhiş, zülmətli gecə yadıma düşür və mən həmin dəhşətli, faciəli günü xatırlamaqla özümə təskinlik verirəm. Elə bil, dünən olmuşdu. Şəhərdə işıqları söndürmüşdülər. Qonşum Loğman Orucovla gecənin qaranlığında, çətinliklə də olsa, Tbilisi prospektinə gəldik. Biləcəri qəsəbəsinə, şəhərə gedən yolları iri tonnajlı maşınlarla bağlamışdılar. "Şamaxinka" deyilən yerdə çoxlu adam toplaşmışdı. Əksəriyyəti gənclərdən və yeniyetmələrdən ibarət olan bu adamlar tonqal qalayıb qışın şaxtasını ovundurmaq istəyirdilər. Ancaq nə qədər çalışırdılarsa da havadakı sərtliyi yumşalda bilmirdilər.**

Şimaldan gözlənilən bəla insanları vahimələndirsə də, qorxutmurdu. Bunu meydana toplaşanların sayının getdikcə çoxalması da sübut edirdi. Əliyalın adamlar doğma şəhərlərini təcavüzdən qorumaq üçün canlı sipər olmağa hazırlaşırdılar. Gecə saat 12-yə qalmış evə qayıtdıq. Bir az keçmişdi ki, aləm bir-birinə dəydi. Tankların, zirehli maşınların gurultusu şəhəri başına götürdü. İşıq saçan güllələr, top atəşləri gecəni gündüzə çevirdi. Səmada şaqqıldayan mərmilər ətrafa ölüm saçırdı.

- Öldürdülər, qırdılar, dağıtdılar - deyərək özünü hövlnak evə çatdıran qonşunun oğlunu sakitləşdirmək mümkün deyildi. Gördüklərindən dəhşətə gəlmiş gəncin hönkürtüsü bütün binanı ayağa qaldırmışdı.

Səhərədək çimir alan olmadı. Artıq binamızın həndəvərində əli avtomatlı "soldatlar" dolaşırdı. Radio, televiziya, telefon işləmirdi. Gecə yarısından başlanan hücum əməliyyatı səhər açılanda səngisə də, arabir atəş səsləri eşidilirdi. Şəhərin strateji əhəmiyyət daşıyan obyektləri, küçə və meydanları təcavüzkar ordu hissələri tərəfindən tam nəzarətə götürülmüşdü. Təqvimə görə yanvarın 20-si istirahət günü idi. Fövqəladə vəziyyət, komendant saatı tətbiq edilməsinə baxmayaraq, bütün şəhər əhalisi küçələrə çıxmışdı. Təcavüzə məruz qalaraq həyatlarını itirmiş insanların qanı tökülən ərazilərə al qərənfillər düzülmüşdü. Bunu Bakıətrafı kənd və qəsəbələrdə yaşayan adamlar etmişdilər. Onlar dolanışıq üçün həyətlərində yetişdirdikləri qərənfilləri günahsız həlak olmuş şəhidlərin ruhuna təmənnasız ərməğan edirdilər. 40 gün ölkənin baş şəhəri al qərənfillərə bürünərək şəhidlərə yas saxladı.

Şəhidlərin dəfn gününü xatırlayıram. Dağüstü parkda, Çəmbərəkənddə azadlıq mücahidləri dəfn olunurdu. Paytaxtın Azadlıq meydanından başlanan dəfn mərasimində iştirak etmək üçün Bakı şəhərinin əhalisi ilə yanaşı, Azərbaycanın digər şəhər və rayonlarından, kənd və qəsəbələrindən yüz minlərlə adam gəlmişdi. Bütün xalq matəm içində idi. Belə izdihamlı dəfn mərasimi Azərbaycan Respublikasının tarixində olmamışdı. Dəfn mərasiminin önündə şeyxülislam Hacı Allahşükür Paşazadə, ölkənin görkəmli ziyalıları, adlı-sanlı elm, mədəniyyət və incəsənət xadimləri gedirdilər.

Xalqın başına gətirilmiş müsibətdə, bu və ya digər şəkildə günahı olan respublika rəhbərlərinin dəfn mərasimində iştirak etməmələri müəmmalı söz-söhbətlərə, haqlı suallar yaranmasına səbəb olmuşdu. Axı, bu təcavüz Azərbaycan xalqına qarşı edilmişdi, həlak olanlar Azərbaycanın milli azadlığı uğrunda qurban getmişdilər. Buna görə də əgər onlar xalqın həqiqi rəhbərləri idilərsə, ölkəyə başçılıq edirdilərsə, gərək gəlib mərasimin önündə duraydılar. Ancaq bu, baş vermədi.

Əksinə, şəhidlərin qırxı çıxmamış respublikada hakimiyyət uğrunda qızğın mübarizə getdi. Xalqın başına gətirilmiş müsibətin əsl səbəbkarı olan Mixail Qorbaçov isə ali səlahiyyət imkanlarından istifadə edərək Azərbaycanın yeni rəhbərlərinə 20 Yanvar faciəsini tez bir zamanda unutdurdu.

İyirmi bir il bundan əvvəl baş vermiş 20 Yanvar hadisələrini indi hərtərəfli təhlil edəndə bu nəticəyə gəlmək mümkündür. 1990-cı ilin 20 yanvarından sonra respublikamızda siyasi proseslər Azərbaycan xalqının, ölkəmizin mənafeyinə uyğun getmədiyi üçün hadisələrə doğru-dürüst qiymət vermək bir o qədər də asan deyildi. Elə buna görədir ki, 20 Yanvar hadisələrinə sonrakı illərdə də düzgün, həqiqi siyasi qiymət verilməmişdi. Doğrudur, yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqında bir təlatüm, coşğunluq, həyəcan əmələ gəlmişdi, elə bil vulkan püskürürdü. İnsanların qəlbində güclü hissiyyat oyanmışdı. Məhz bunlara görə, yanvarın 22-də Azərbaycanın o vaxtkı rəhbərlərinin iradəsinə zidd olaraq, ölkəmizin vətənpərvər deputatları, ziyalıları respublika Ali Sovetinin fövqəladə sessiyasını topladılar. Ağır şəraitdə, böyük təzyiqlər, təhlükə qarşısında, qorxu altında bu məsələ müzakirə olundu. Gecə yarısınadək davam edən müzakirələrdə faciənin başvermə səbəbləri araşdırıldı, günahkarların adları çəkildi, kütləvi insan qırğınına gətirib çıxaran bu təcavüzə xalqın qəti etirazı bildirildi.

Ali Sovetin rəhbərliyinin kənarda qaldığı həmin sessiyanı xalq şairi Bəxtiyar Vahabzadə və xalq yazıçısı İsmayıl Şıxlı aparırdılar. Bu işə onlar ikisi rəhbərlik edirdi. Ağır, çox ziddiyyətli bir şəraitdə - sovet ordusunun Azərbaycandakı hökmranlığı zamanı, Sovet İttifaqı Kommunist Partiyasının Azərbaycana təzyiq göstərdiyi bir vaxtda qəbul edilən həmin qərar xalqın böyük kədərinə, qəm-qüssəsinə müəyyən təskinlik verdi. Bu, həqiqətən də yüksək qiymətə layiq bir şücaət, qəhrəmanlıq idi. Ancaq bundan sonra nələr baş verdi? Təəssüf ki, o vaxt Azərbaycanı idarə edən, xalqın etimad göstərdiyi və xalqa xidmət etməli olan adamlar getdikcə bu faciəni ört-basdır etməyə çalışırdılar. Bütün bunların canlı şahidi kimi deyə bilərəm ki, SSRİ Ali Sovetinin sessiyalarında bu məsələnin müzakirəsinə səy göstərmək əvəzinə, respublikamızın deputat rəhbərləri - Əbdürrəhman Vəzirov, Viktor Polyaniçko, Ayaz Mütəllibov və başqaları ağızlarına su alıb susmağı üstün tuturdular.

Ona görə də bu məsələ xeyli vaxt üstüörtülü qaldı, lazımi səviyyədə müzakirə olunmadı, 20 Yanvar faciəsinə həqiqi, geniş hüquqi-siyasi qiymət verilmədi. Yalnız ümummilli liderimiz Heydər Əliyev xalqın təkidi ilə Azərbaycanda hakimiyyətə qayıdandan sonra bu məsələ yenidən gündəmə gətirildi. Yeri gəlmişkən qeyd edək ki, 20 Yanvar faciəsi baş verəndə ulu öndərimiz Heydər Əliyev Moskvada yaşayırdı, heç yerdə işləmirdi, infarkt keçirmişdi. Ağır xəstə olmasına baxmayaraq yanvarın 21-də Moskvada azərbaycanlıların toplaşdığı mitinqdə iştirak edən Heydər Əliyev Kremlin göstərişi ilə törədilmiş Bakı hadisələrini pislədi, öz etirazını bildirdi. Heç nədən, heç kəsdən çəkinmədən, qorxmadan bu ağlasığmaz təcavüzün baiskarlarını ciddi ittiham etdi.

Bundan sonra, Moskvada yaşamağın təhlükəli olduğunu hiss edən ümummilli liderimiz Bakıya qayıtdı. Ulu öndərə burada da yaşamağa imkan vermədilər. Sadiq insanların, həqiqi dostların məsləhəti ilə Heydər Əliyev doğma yurdu Naxçıvana üz tutdu. Böyük xalq coşğusu, sevgisi və məhəbbəti ilə qarşılanan Heydər Əliyev Azərbaycan Ali Sovetinə Naxçıvandan deputat seçildi, 1990-cı ilin sonunda muxtar respublikanın Ali Sovetində,sonralar isə Azərbaycanın Ali Sovetində çıxış edərək 20 Yanvar hadisələrinin səbəbkarlarını aşkara çıxarmağı və bu faciəyə siyasi qiymət verməyi tələb etdi. Lakin respublikanın o vaxtkı rəhbərliyi buna etinasız yanaşdı. Belə laqeydliyə və Azərbaycan xalqına qarşı Moskvanın qərəzli mövqe tutmasına etiraz əlaməti olaraq bəyanat verən Heydər Əliyev Sov.İKP sıralarından çıxdı.

Faciədən iki il keçəndən sonra, hadisənin ikinci ildönümü ərəfəsində, yanvarın 19-da Milli Şura belə bir qərar qəbul etdi ki, bu məsələnin üstü tamamilə örtülsün, basdırılsın və ləğv olunsun. Axı necə ola bilərdi ki, iki il ərzində fəaliyyət göstərən deputat-istintaq komissiyası guya araşdırma, istintaq aparıb, amma heç kimin adını çəkməyib? Qərarda nə qədər qəribə səslənsə də göstərilirdi ki, təhqiqat zamanı keçmiş Sovet İttifaqının və Azərbaycanın rəhbərlərindən bu məsələ üzrə günahkar olan adamların araşdırılıb istintaqa cəlb edilməsinə xüsusi diqqət yetirilsin.

Məlumdur ki, faciədən sonra Azərbaycanda rəhbərlər dəyişdilər, bu cinayətdə günahı olan adamların bəziləri vəzifədən kənarlaşdırıldılar. Ölkənin rəhbərliyinə gələn yeni adamların əksəriyyəti vaxtilə 20 Yanvar faciəsi baş verən dövrdə hakimiyyətdə olanları ittiham edənlər, günahlandıranlar idi. Bəs görəsən nə üçün onlar bu məsələyə yenidən baxmadılar, xalqın başına gətirilən müsibətə lazımi qiymət verməк istəmədilər? Ona görə ki, həmin bu qərarı qəbul etmiş Milli Şuranın 50 faizi müxalifətdə olan adamlar idi. Belə başdansovdu qərarın qəbul olunması onlara da sərf edirdi.

Ancaq bununla ulu öndərimiz Heydər Əliyev barışa bilməzdi. Hakimiyyəti dövründə xalqa sədaqətlə xidmət edən bu dahi şəxsiyyət Azərbaycana ikinci dəfə rəhbər gələndən az sonra, "20 Yanvar faciəsi Vətənini, xalqını sevən hər bir adamın bağlanmamış yarasıdır" - deyən ümummilli liderimiz bu məsələni yenidən gündəmə gətirdi və 1994-cü il yanvarın 5-də xüsusi fərman imzaladı. Həmin fərman iki hissədən ibarət olub. Birinci hissə hadisənin dördüncü ildönümü ilə əlaqədar lazımi tədbirlərin hazırlanması və keçirilməsi, ikinci hissə isə 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət vermək üçün Milli Məclisə edilən tövsiyələrdən ibarət idi.

Məhz ulu öndərimizin tapşırığını yerinə yetirən Milli Məclis 20 Yanvar faciəsinin nəticələrini iki-üç ay müddətində geniş müzakirə etdi. Bu müzakirələr televiziya vasitəsilə göstərildi. Təəssüf hissi ilə qeyd edilməlidir ki, o vaxt hakimiyyətdə olanların bir hissəsi də, hətta hakimiyyətə qarşı müxalifətdə olan, milli azadlıq hərəkatında iştirak edən, habelə ona rəhbərlik edən adamlar da bu hadisələrin müzakirə olunmasını istəmirdilər. Bəziləri deyirdi ki, bu məsələyə gərək otuz ildən sonra qiymət verilsin. Bir başqası söyləyirdi ki, müzakirələr 50 ildən sonraya qalsın.

Bütün bunlara baxmayaraq, çətinliklə də olsa müzakirələr aparıldı. Ümummilli liderimiz Heydər Əliyev bir neçə dəfə parlamentin iclasına gələrək öz fikirlərini söylədi. Nəhayət, üstündən dörd ildən çox vaxt keçən 1990-cı ilin 20 Yanvar hadisələrinə geniş, ədalətli, müfəssəl qiymət verilən qərar çıxarıldı. Qeyd olundu ki, Azərbaycan xalqının tarixində qəhrəmanlıq nümunələri çox olmuşdur, xalqımızın başına çox bəlalar gəlmişdir. Əgər təkcə XX əsri götürsək, 1918-1920-ci, 1937-1938-ci, 1949-1950-ci illəri xatırlamaq kifayətdir. Həmin illərdə xalqımızın başına gətirilən müsibətləri unutmaq olmaz. Ancaq 1990-cı ilin yanvarında, əsrimizin sonuna

yaxın baş vermiş hadisələr əvvəlkilərin heç biri ilə müqayisə oluna bilməz. Çünki bu dövr Azərbaycan xalqının artıq milli oyanış, öz mənliyini sübut etmək, milli azadlıq hisslərini aşkara çıxarmaq, büruzə vermək mərhələsi idi.

Ona görə də xalqımız 20 Yanvar hadisələrinə bir tərəfdən faciə kimi baxır, digər tərəfdən isə milli azadlıq hərəkatının kulminasiya nöqtəsi, qələbəsi kimi qiymətləndirir. 20 Yanvar faciəsi Azərbaycan xalqının qan yaddaşıdır. Əsrlər ötəcək, 20 Yanvar tariximizdə xalqın mətinliyi, qəhrəmanlığı, mübarizliyi rəmzi kimi qalacaqdır.

**Telman Əliyev**

**"Xalq qəzeti".**-2011.-14 yanvar.-N 9.-S.5.

## Müstəqilliyə aparan şərəfli yol

**Azərbaycan tarixində elə günlər var ki, bütövlükdə xalqın milli idealları uğrunda şanlı mübarizəsini, bu yolda hər cür məhrumiyyətə sinə gərmək əzmini özündə təcəssüm etdirir. Bu mənada, 20 Yanvar tarixi də Azərbaycan xalqının qürur və şərəf mücəssəməsinə çevrilmişdir.**

**1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə ərazi bütövlüyünə qarşı yönəlmiş təcavüzə etiraz edən, haqq-ədalətin bərqərar edilməsini istəyən, azadlıq, müstəqillik ideyaları uğrunda şərəfli mücadilə aparan Azərbaycan xalqının inam və iradəsini qırmaq, heysiyyətını alçaltmaq məqsədilə totalitar sovet rejiminin həyata keçirdiyi terror aktı nəticəsində bəşər tarixində insanlığa qarşı törədilmiş qanlı hadisələrdən biri baş vermişdir. İrticaya xidmət edən silahlı birləşmələrin qeyri-qanuni olaraq Bakıya yeridilməsi nəticəsində dinc insanlara divan tutulmuş, yüzlərlə insan qətlə yetirilmiş, yaralanmış, itkin düşmüşdür.**

Keçmiş SSRİ prezidenti Mixail Qorbaçovun göstərişi ilə xüsusi səfərbər edilmiş hərbi birləşmələr və zirehli texnika həmin gün Bakı və Sumqayıt şəhərlərinə, habelə Azərbaycanın bir neçə rayonuna yeridildi, dinc əhaliyə xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklərlə divan tutuldu. Torpaqlarının müdafiəsinə qalxaraq fövqəladə vəziyyətin elan olunmasına etiraz edən yüzlərlə insan, o cümlədən uşaq, qoca, qadın qətlə yetirildi, yaralandı, itkin düşdü, bir çox inzibati binalar, yaşayış evləri güllələbaran edildi, tanklar qarşılarına çıxan nəqliyyat vasitələrini dəmir yığınına çevirdi.

SSRİ DTK-nın "Alfa" qrupu yanvarın 19-da saat 19.27-də Azərbaycan televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz şəhərə daxil oldu, əhaliyə divan tutmağa başladı. M. Qorbaçovun fərmanı qüvvəyə minənədək - yanvarın 20-də gecə 1-dək artıq 9 nəfər öldürülmüşdü. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı artıq 100 nəfərə çatmışdı. Halbuki Qorbaçovun Azərbaycana ezam etdiyi yüksək vəzifəli emissarlar həyasızcasına bəyan edirdilər ki, Bakıda fövqəladə vəziyyət elan olunmayacaqdır.

Azərbaycanın informasiya blokadasına alındığı bir şəraitdə baş vermiş həqiqətləri operativ şəkildə dünya ictimaiyyətinə çatdırmaq zərurəti yaranmışdı. Dəhşətli faciəyə kəskin etiraz olaraq 1990-cı il yanvarın 21-də ailəsi ilə birgə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək mətbuat konfransı keçirən ümummilli lider Heydər Əliyev hadisəyə operativ və düzgün qiymət verən ilk vətənpərvər siyasi xadimlərdən idi. "Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində, böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı nümayəndəsindən xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm" - deyən ulu öndərin bu qətiyyətli mövqeyi respublikamızın informasiya blokadasına alındığı ağır günlərdə totalitar rejimə ağır və sarsıdıcı zərbə oldu. Heydər Əliyev çıxışında kommunist rejiminin gerçək simasını açdı, xalqın suveren hüquqlarına qəsd olunduğunu bildirdi, anneksiya siyasətinə qəti etirazını ifadə etdi. Ulu öndər üzləşdiyi hərbə-zorbalara məhəl qoymadan, öz cəsarəti, yenilməzliyi ilə Azərbaycana sədaqətini göstərdi.

Bu böyük şəxsiyyət bütün təzyiqlərə və təhdidlərə baxmayaraq, mənsub olduğu xalqın faciəsinə məsuliyyət daşıyanları Kremlin bir addımlığında, həm də bütün dünyanın gözü qarşısında ittiham edirdi. Totalitar rejimin "repressiya maşını"nın sərtliklə işə düşdüyü bir zamanda keçmiş SSRİ rəhbərliyini, konkret olaraq M. Qorbaçovu, Ə. Vəzirovu və başqalarını baş vermiş hadisəyə görə kəskin ittiham etmək böyük risk idi. Ümummilli lider sonrakı mərhələdə daha bir qətiyyətli addım ataraq Kommunist Partiyasının sıralarından istefa verdi.

Ulu öndər Heydər Əliyevin "Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır" tələbi onun bu məsələ ilə bağlı sonralar etdiyi bütün çıxışlarının, bəyanatlarının, imzaladığı sənədlərin əsas leytmotivi olmuşdur. Azərbaycan xalqına qarşı cinayət törədən şəxslərin ciddi şəkildə cəzalandırılması məsələsi onun fəaliyyətinin bütün sonrakı mərhələlərində də aktuallığını qoruyub saxlamışdır. Təsadüfi deyildir ki, hadisəyə ilk hüquqi-siyasi qiymət də 1991-ci il noyabr ayında - onun Naxçıvan Ali Sovetinə rəhbərlik etdiyi vaxtda verildi. Heydər Əliyev 1990-cı ilin iyulunda Naxçıvana qayıtdıqdan və 1991-ci il sentyabr ayının 9-da Naxçıvan Ali Məclisinin Sədri seçildikdən sonra 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət vermək imkanı yarandı. Həmin il noyabr ayının 21-də Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Ali Məclisi tərəfindən qəbul edilmiş müvafiq qərarda hər il 20 Yanvarın Milli Matəm Günü qeyd olunması qərara alınmışdı. Qərarda ilk dəfə olaraq faciənin əsas

günahkarları adbaad sadalanmış, onların birbaşa məsuliyyət daşıdıqları göstərilmişdi. Bu, əslində, hadisəyə verilən ilk rəsmi hüquqi-siyasi qiymət idi.

Qəbul olunan sənəddə həmçinin göstərilirdi ki, respublika rəhbərliyi xalqa xəyanət yolu tutaraq bu qəsdin qarşısını almaq üçün heç bir əməli tədbir görməmiş, səbatsızlıq göstərmiş, yol verilən cinayətin iştirakçısı ola-ola, zahirən hadisələrdən kənarda qalmağa çalışmışdır. Bu sənəd bir daha ümummilli lider Heydər Əliyevin nə qədər cəsarətli və qorxmaz, Vətənini və xalqını sevən, bu yolda ən ağır mübarizədən belə, çəkinməyən fenomenal şəxsiyyət olduğunu təsdiqləyir.

Qanlı Yanvar faciəsi hərtərəfli, əhatəli və dolğun qiymətini də məhz Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə aldı. Ulu öndərin 1994-cü il 5 yanvar tarixli sərəncamında faciənin respublika miqyasında geniş araşdırılıb hüquqi-siyasi qiymət verilməsi tövsiyə olunurdu. Həmin il yanvar ayının 12-də Heydər Əliyevin sədrliyi ilə 20 Yanvar faciəsinin 4-cü ildönümü ilə bağlı tədbirlərin hazırlanması və keçirilməsi üzrə dövlət komissiyasının iclası keçirildi. İclasda çıxış edən Azərbaycan Prezidenti Heydər Əliyev hadisəyə tam və hərtərəfli hüquqi-siyasi qiymətin verilməsi vacibliyini önə çəkdi.

Dövlət komissiyasının ciddi fəaliyyəti nəticəsində 1994-cü il mart ayının 29-da Milli Məclis "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul etdi. Sənəddə 20 Yanvar faciəsi qabaqcadan şüurlu surətdə planlaşdırılmış və vəhşicəsinə həyata keçirilmiş cinayət aktı kimi qiymətləndirilirdi. Bakıya qoşun yeridilməsi milli azadlıq hərəkatını boğmaq və kommunist rejimini saxlamaq məqsədinə xidmət edirdi. Eyni zamanda, əsas məqsəd xalq hərəkatına zərbə vurmaq, istiqlaliyyət uğrunda mübarizə aparan qüvvələri məhv etmək olub. Bundan əlavə, qərarda faciənin günahkarları konkret adlarla göstərilir, ötən dörd il müddətində respublika hüquq-mühafizə orqanlarının bu ağır cinayətin istintaqı ilə bağlı fəaliyyəti yarıtmaz qiymətləndirilirdi.

Ümummilli lider Heydər Əliyev 20 Yanvar şəhidlərinin xatirəsini daim əziz tutmuş, onların adlarının əbədiləşdirilməsi məqsədilə bir sıra sərəncamlar imzalamışdır. Onun 2000-ci il 17 yanvar tarixli fərmanına əsasən, 20 Yanvar təcavüzü zamanı yüksək vətəndaşlıq nümunəsi göstərərək həlak olmuş Azərbaycan Respublikası vətəndaşlarına "20 Yanvar şəhidi" fəxri adı verilmişdir. Eləcə də "1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə dövlət qayğısının artırılması haqqında" 2003-cü il 15 yanvar tarixli sərəncama əsasən, əlil olmuş şəxslərə verilən aylıq müavinət artırılmışdır. Bundan başqa, Bakı şəhərində şəhidlərin xatirəsinə möhtəşəm xatirə kompleksi ucaldılmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev də bu ənənəyə sadiq qalaraq Vətənin azadlığı uğrunda canından keçmiş şəhidlərin xatirəsinin əbədiləşdirilməsi, onların ailələrinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün bütün zəruri tədbirləri həyata keçirir. Dövlət başçısının "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 19 yanvar 2006-cı il tarixli fərmanı bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Bundan başqa, dövlət səviyyəsində hər il Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərin xatirəsinin böyük ehtiramla yad edilməsi üçün müvafiq qərarlar qəbul olunur.

Bütün bunlar göstərir ki, yalnız ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra faciələrimizin səbəblərini araşdırmaq, onlara obyektiv hüquqi-siyasi qiymət vermək, bu əsasda baş verənlərdən düzgün nəticə çıxarmaq imkanı yaranmışdır.

1990-cı ilin 20 Yanvarı elə şanlı tarixdir ki, qərinələr, əsrlər keçsə də, xalqın yaddaşından silinməyəcək, həmişə yad ediləcək, bu faciənin baş verməsinə rəvac verənlər lənətlənəcəklər. Keçmiş sovet dövlətinin hərb maşınının Azərbaycan xalqına qarşı həyata keçirdiyi vəhşi terror aktı insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi bəşər tarixində qara səhifə olaraq qalacaqdır.

**S.Elmanoğlu**

**“Azərbaycan”.**-2011.-14 yanvar.-N 9.-S.5.

## 20 Yanvara gedən yol

### Tarixin Qan Yaddaşı

### 20 Yanvar faciəsindən 21 il keçir

**Azərbaycanın istiqlaliyyət yolunun ilk şəhidlik zirvəsi sayılan 20 Yanvar faciəsi yeni tariximizə həm də bir qürur günü kimi yazıldı. Çünki bu hadisə günahsız insanların amansız bir formada qətlə yetirilməsi ilə nəticələnsə də, öz azadlığına, müstəqilliyinə can atan Azərbaycan xalqının mübarizliyini, məğrurluğunu bir daha bütün dünyaya, o cümlədən o vaxtkı imperiya rəhbərliyinə aydın şəkildə nümayiş etdirdi. Tarixə qanla yazılan 20 Yanvar faciəsi Vətəni, azadlığı uğrunda ölümün gözünə dik baxan Azərbaycan övladlarının varlığını bir daha dünyaya tanıtmaqla yanaşı, SSRİ adlanan nəhəng imperiyanın çöküşündə əsas amillərdən biri oldu.**

**Azərbaycanın ərazi bütövlüyünə qəsdin başlanğıcı**

Faciəyə gedən yolun başlanğıcı isə onun törədilməsindən xeyli müddət əvvələ, SSRİ rəhbərliyinə M. Qorbaçovun gəlişi ilə başlamışdı. Çünki Qorbaçovun simasında daim Azərbaycana qarşı məkrli, xəyanətkar mövqe tutmuş ermənilər özlərinə daha yaxın olan himayədar tapa bildilər. Düzdür, ilkin vaxtlarda ermənilər Azərbaycanla bağlı bədnam niyyətlərinin həyata keçirilməsində hər hansı ciddi addımlar atmaqda acizlik çəkirdilər və hətta əsas himayədarları belə onlara yardım göstərə bilmirdi. Çünki həmin vaxt ümummilli lider Heydər Əliyevin Siyasi Büroda olması ermənilərə və Qorbaçova Azərbaycanla bağlı planların reallaşmasına, o cümlədən Qarabağ münaqişəsinin törədilməsinə imkan vermirdi. Elə bu səbəbdən həm ermənilər, həm də onların mərkəzi hakimiyyətdə olan himayədarları o vaxtlar Dağlıq Qarabağ Muxtar Vilayəti adlanan bu Azərbaycan bölgəsi ilə bağlı məkrli planlarını həyata keçirmək üçün M. Qorbaçovun vasitəsilə Heydər Əliyevin Siyasi Bürodan uzaqlaşdırılmasına nail ola bildilər.

Təsadüfi deyil ki, ümummilli liderin Siyasi Bürodan getməsindən sonra 1987-ci ilin noyabrında M. Qorbaçovun məsləhətçisi olan qatı daşnak A.Aqanbekyanın Parisdə "Humanite" qəzetindəki bəyanatında bildirilirdi ki, Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılıb Ermənistana verilməsinə dair Moskvanın artıq razılığı var. Bütün bunları xatırlayan Heydər Əliyev qeyd edirdi: "Siyasi bürodan istefa verdikdən 15 gün sonra Qarabağ məsələsi ortaya çıxdı. Qorbaçovun ən yaxın adamı, iqtisadi məsələlər üzrə müşaviri, milliyyətcə erməni olan professor Aqanbekyan Parisdə keçirdiyi bir mətbuat konfransında "Dağlıq Qarabağ Ermənistana verilməlidir", - demiş, bu məsələ ilə əlaqədar Qorbaçovu da qızışdırmışdır. Moskvanın Qarabağ əməliyyatı mənim Siyasi Bürodan getməyimdən 15 gün sonra həyata keçirilməyə başladı. Deməli, bu plan hələ əvvəlcədən hazırlanmış, lakin tətbiq olunmasına mən ciddi maneə imişəm".

SSRİ rəhbərliyinin Dağlıq Qarabağın Ermənistana verilməsinə dair razılığının olduğu 1988-ci ilin əvvəllərində M. Qorbaçovun Silva Kaputikyan başda olmaqla, bir qrup şovinist erməni ilə görüşü zamanı da üzə çıxdı. Bunun ardınca Xankəndidə, Yerevanda antiazərbaycan və antitürk ruhlu mitinqlər genişləndi

Məhz bundan sonra erməni "Qarabağ Komitəsi", onun Dağlıq Qarabağ Muxtar Vilayətindəki separatçı-terrorçu təşkilatı "Krunk" gizli fəaliyyətlərinə son qoyaraq açıq şəkildə niyyətlərini bəyan etməyə, Azərbaycana qarşı ərazi iddiaları səsləndirməyə başladı. Bunun nəticəsi olaraq ermənilər tərəfindən "Miatsum" adlanan hərəkat da formalaşdırıldı.

Bütün bunlar 1988-ci ilin fevralından etibarən, hadisələrin daha gərgin və aqressiv məcrada inkişafı ilə nəticələndi. Məhz həmin dövrdə həm Dağlıq Qarabağda, həm də Yerevanda Azərbaycan torpaqlarının Ermənistana birləşdirilməsi tələbi ilə silsilə mitinqlər başladı. SSRİ rəhbərliyi tərəfindən heç bir ciddi müqavimət görməyən və bundan daha da ruhlanan ermənilər Dağlıq Qarabağ Muxtar Vilayəti Sovetinin vilayətin statusuna baxılması haqqında Azərbaycan SSR Ali Sovetinə müraciət qəbul etməsinə nail oldular. Baş verənlərə paralel olaraq Ermənistanda da azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirilirdi.

**Ermənistanda və Dağlıq Qarabağda azərbaycanlılara qarşı başlanan etnik təmizləmə siyasəti**

Azərbaycanın ovaxtkı rəhbərliyi hadisələrə fəal müdaxilə etmək əvəzinə, Kremldən gələn əmrlər əsasında hərəkət edir, xalqın taleyinə biganə yanaşmağa üstünlük verirdi. Kreml isə həm Azərbaycana göndərdyi emissarlar, həm də ölkənin qətiyyətsiz rəhbərliyi vasitəsilə Azərbaycana qarşı daha məkrli ssenarilər

hazırlamaqda idi. Erməni təxribatçılarının da hazırlanmasında yaxından iştirak etdiyi bu ssenarinin əsas hədəflərindən biri Azərbaycanda ermənilərə qarşı dözümsüz münasibətin formalaşmasına dair görüntülər yaratmaq idi. Elə bu məqsədlə də 1988-ci ilin fevralında məlum Sumqayıt hadisələri törədildi.

Müxtəlif millətlərin nümayəndələrinin yaşadığı sənaye şəhəri olan Sumqayıtda iğtişaşlar yaratmaqla artıq siyasi dünyanın yeni səviyyədə gündəminə gətirilmiş "böyük Ermənistan" xülyasının gerçəkləşdirilməsi üçün ermənilərə çox lazım idi. Lakin bu məsələdə sovet DTK-nın da özünəməxsus rolu oldu. Beləliklə, əvvəlcədən planlaşdırılmış Sumqayıt olayları törədildi və o dövrdə Azərbaycanda hakimiyyətdə olanlar SSRİ rəhbərliyinin, ermənilərin niyyətini, qlobal hadisələrin mahiyyətini axıra kimi dərk etmək iqtidarında olmadıqlarından qanlı hadisələrin yaşanmasının qarşısını almaq üçün müvafiq addımlar atılmasında acizlik nümayiş etdirdilər. Sumqayıt hadisələrinin əvvəlcədən hazırlandığını o da sübuta yetirir ki, olaylar baş verən yerlərdə öncədən çoxlu telefoto operatorlar, jurnalistlər yerləşdirilmişdi. Bunun nəticəsində düşünülmüş, ssnearisi əvvəlcədən cızılmış Sumqayıt hadisələri saxtakarlıqlarla, uydurmalarla dünyaya yayıldı. Bundan sonra ermənilər Ermənistanda və Dağlıq Qarabağda belə bir əhval yaratdılar ki, artıq azərbaycanlılarla ermənilər bir yerdə yaşaya bilməzlər. Bunun nəticəsi olaraq indiki Ermənistanın yarandığı əzəli Azərbaycan torpaqlarında yaşayan 250 min soydaşımız 1988-ci ilin sonuna kimi qətlə yetirilməklə, əmlakları talan olunmaqla ən qəddar formada deportasiya olundular.

Dağlıq Qarabağda da vəziyyət getdikcə gərginləşirdi və bu işdə yenə əsas rol oynayan tərəflərdən biri Azərbaycan rəhbərliyinin acizliyindən istifadə edərək hadisələri istədiyi kimi istiqamətləndirən SSRİ rəhbərliyi idi. Bütün bunlara qarşı Azərbaycan rəhbərliyi tərəfindən heç bir qətiyyətli addım atılmadı. M.Qorbaçov isə tədbir görmək əvəzinə, DQMV-nin sosial-iqtisadi inkişafının geridə qalması barədə ermənilərin uydurduqları yalanı müdafiə edərək ittifaq büdcəsindən oraya 400 min rubl vəsait ayrılmasına göstəriş verdi. 1988-ci il iyunun 15-də Ermənistan SSR Ali Soveti DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qərar qəbul etdi. İyul ayında SSRİ Ali Sovetinin Rəyasət Heyətinin sessiyasında Dağlıq Qarabağ məsələsi müzakirə edilən zaman Azərbaycandan olan deputatlarla yanaşı, qanunazidd olaraq Ermənistandan olan deputatlar eyni hüquqda orada iştirak etdilər. Bu isə Qorbaçov və onun ətrafının Ermənistan üçün yaratdığı yeni imkan demək idi.

İttifaq rəhbərliyinin Azərbaycan xalqına qarşı ən böyük xəyanəti özünü növbəti dəfə 1989-cu ilin yanvarında göstərdi. Belə ki, həmin il yanvarın 12-də "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarəçilik formasının tətbiqi haqqında" SSRİ Ali Soveti qərar qəbul etdi və bu, ermənilərin istəyinə tam uyğun idi. Çünki DQMV-də xüsusi idarəçilik forması tətbiq edildiyi ilk gündən birbaşa Moskvaya tabe olan ermənipərəst A.Volski burada yaşayan bütün azərbaycanlı soydaşlarımızın çıxarılmasına nail oldu. Qısa müddətdə 50 min nəfər azərbaycanlı DQMV-dən qovuldu. Halbuki, Azərbaycanın odövrkü siyasi rəhbərliyi sözügedən idarənin yaranmasını böyük uğur kimi qiymətləndirir və bu idarəyə çox böyük ümidlər bəsləyirdi. Yalnız xalq hərəkatının təsiri altında 1989-cu il noyabrın 28-də vilayətin idarəsi mərkəzin nəzarəti altında olan Azərbaycan SSR Təşkilat Komitəsinə tapşırıldı. Təşkilat komitəsinin sədri təyin edilən V.Polyaniçko, əslində, öz sələfinin siyasətini davam etdirir və azərbaycanlılar sıxışdırılırdı.

Ümumiyyətlə, 20 Yanvar hadisəsinə qədər SSRİ və respublika rəhbərliyinin çıxardığı qərar və fərmanların heç birində Azərbaycanın xeyrinə bircə maddə belə olmadı. Bir tərəfdən Azərbaycan xalqını sakitləşdirməyə yönələn addımlar atılır, digər tərəfdən isə respublikanın suverenliyinə, ərazi bütövlüyünə xələl gətirən qərarlar qəbul olunurdu. Bu, Ermənistanın SSRİ rəhbərliyi tərəfindən ən yüksək səviyyədə müdafiə olunduğunu göstərirdi.

**Yeni təxribata hazırlıq**

1989-cu ilin noyabrından səbr kasası dolmuş xalq Bakının mərkəzi meydanında mitinqlərə başladı. Yanvarın
18-də Bakıda və Azərbaycanın 11 rayonunda keçirilən izdihamlı mitinqlərdə ümumi tətilin başlandığı elan edildi. Lakin genişlənməkdə olan xalq hərəkatına ilk dövrlərdə səriştəsiz rəhbərlik, edilən xəyanətkarlıq isə ölkəni daha ağır vəziyyətə salırdı. Bununla belə, Dağlıq Qarabağın Azərbaycandan qoparılaraq Ermənistana verilməsinə şərait yaradan Qorbaçov hakimiyyəti ölkəyə genişlənən milli-azadlıq hərəkatının boğulması üçün müxtəlif vasitələr üzərində baş sındırırdı.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Vəzirov isə Moskvanın marionetkası olaraq həm Dağlıq Qarabağın ermənilərin əlinə keçməsinin qarşısını almaq, həm də ölkədəki vəziyyəti sabitləşdirmək üçün heç nə edə bilmirdi. Əksinə, özünün səhv addımları, yarıtmaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurumu daha da dərinləşdirirdi. Elə buna görə də Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında aylarla davam edən mitinqlərdə dəfələrlə Azərbaycanın partiya rəhbərlərinin istefası

tələbi irəli sürülmüşdü. Təəssüf ki, bu dövrdə xalq hərəkatına rəhbərlik edənlər də böyük səriştəsizlik nümayiş etdirir, çox vaxt DTK-nın istədiyi ssenarilərə uyğun hərəkət edirdilər.

1989-cu ilin sonu, 1990-cı ilin yanvarında Azərbaycanda ictimai-siyasi vəziyyət xeyli kəskinləşdi, qarşıdurma dərinləşdi, mövcud iqtidarın hadisələrə nəzarəti son dərəcədə zəiflədi. SSRİ rəhbərliyi isə Azərbaycanı növbəti dəfə cəzalandırmaq üçün Sumqayıt ssenarisinə uyğun təxribatlara start verdi. Milli-azadlıq hərəkatının mərkəzi olan Bakıda ilk olaraq yerli milis tərksilah edildi, mərkəzdən isə daxili qoşun hissələri şəhərə gətirildi. Yanvarın 13-də Bakıda bir erməninin iki azərbaycanlını öldürməsi fitnəkarlıqlar üçün əsas oldu və iki gün ərzində Bakıda süni şəkildə erməni talanı təşkil edildi. Mərkəz tərəfindən düşünülmüş və taktiki baxımdan hərtərəfli hazırlanmış bu məkrli plan hazır ssenari üzrə aparıldı. Elə bu səbəbdən də ayrı-ayrı dəstələrin əməllərinin qarşısını almaq üçün ali hakimiyyət və hüquq-mühafizə orqanları tərəfindən heç bir tədbir görülmədi. Halbuki Bakıda SSRİ Daxili İşlər Nazirliyinin 12 min nəfərlik silahlı qüvvəsi var idi. Bu dövrdə ölkəyə rəhbərlik edən Vəzirov isə yaranan vəziyyətdən istifadə edərək sovet qoşunlarının müdaxiləsinə şərait yaratmağa, bununla həm də xalq hərəkatını boğmağa çalışırdı.

Yanvarın 14-də Azərbaycan KP MK-nın bürosunda vəziyyət müzakirə olundu və Vəzirovun təkidi ilə çağırılan Azərbaycan SSR Ali Sovetinin sessiyasında DQMV-də və zəruri olarsa, ona bitişik rayonlarda, eləcə də sərhəd boyunca fövqəladə vəziyyət elan edilməsi, lazım gələrsə, Mərkəzdən kömək göstərilməsi haqqında qərar qəbul olundu. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin müraciəti ilə SSRİ Ali Sovetinin Rəyasət Heyəti yanvarın 15-də "Dağlıq Qarabağ və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında" fərman verdi. Həmçinin SSRİ Ali Soveti Bakı, Gəncə şəhərlərində, eləcə də başqa yaşayış məntəqələrində qadağan saatlarının tətbiq edilməsi və digər zəruri tədbirlər görülməsini Azərbaycan SSR Ali Sovetinə təklif etdi.

### Qanlı gecə

Bu dövrdə Mərkəzdən Azərbaycana, xüsusən də Bakı ətrafına əlavə qoşun hissələri və hərbi texnika gətirilməsi prosesi davam edirdi. Əslində, bu, Bakıya qoşun yeridilməsi üçün ilkin hazırlıqdan başqa bir şey deyildi. Xalq hərəkatına rəhbərlik edənlər, o cümlədən Xalq Cəbhəsinin təmsilçiləri isə vəziyyəti düzgün qiymətləndirmək əvəzinə, şəhərin ətrafında, o cümlədən Bakı qarnizonu ətrafında sədlər, barrikadalar yaratmağa başladı. Yük və minik maşınları, avtobus və trolleybuslardan, eləcə də başqa vasitələrdən barrikadalar quruldu, piketlər düzəldildi. Lakin 20 Yanvarda bu düzgün olmayan taktika çoxlu sayda dinc əhalinin qırılmasına, yaralanmasına səbəb oldu.

Yanvar hadisələri ərəfəsində Moskva SSR Ali Soveti İttifaq Sovetinin sədri Y.Pirmakovu və Sov.İKP MK katibi Girenkonu Bakıya göndərdi. Lakin onların AXC-nin radikal və liberal qanadları ilə görüşüb apardığı danışıqlar heç bir nəticə vermədi. Yanvarın 17-də Azərbaycan KP MK binası qarşısında böyük mitinq başlandı və üç gün davam etdi. Mitinqdə Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulması, Bakı ətrafına yığılmış qoşunların Dağlıq Qarabağa göndərilməsi, respublika rəhbərliyinin istefası və digər tələblər irəli sürüldü.

Sovet rəhbərliyi isə Azərbaycan xalqının müstəqillik uğrunda apardığı mübarizənin qarşısını almaq, milli-azadlıq hərəkatına zərbə vurmaq, habelə digər müttəfiq respublikalara dərs vermək üçün 1990-cı il yanvarın 19-da "Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında" fərman imzaladı. Halbuki bununla Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozurdu.

Digər tərəfdən bu fərmanın tətbiqi barədə əhaliyə xəbər verilməmişdi. Xalqdan fərqli olaraq respublika rəhbərliyi yanvarın 20-nə keçən gecə Bakıya ordu yeridiləcəyindən xəbərdar idi. Həmin günlər güman edilirdi ki, ölkə rəhbərliyinin istefa verməsi gərginliyi nisbətən azaldar, adamlar barrikadaları tərk edərək dağılardılar. Lakin bunun əksinə olaraq, axşamçağı boş küçələrdə üstünə səsgücləndirici quraşdırılmış maşınlardakı insanlar xalqı piketlərə səsləyirdilər.

Yanvarın 19-dan 20-nə keçən gecə SSRİ rəhbəri M.Qorbaçovun göstərişi və Azərbaycanın ozamankı maymaq rəhbərlərinin razılığı ilə Bakıya qoşun yeridildi. Azərbaycanı informasiya blokadasına almaq və xalqın haqq səsini boğmaq üçün SSRİ DTK-nın "Alfa" qrupu respublika televiziyasının enerji blokunu yanvarın 19-da partlatdı. Televiziya susduruldu, kütləvi informasiya vasitələri üzərinə, qəzet və jurnalların nəşrinə qadağalar qoyuldu. Beləliklə, Azərbaycan tam şəkildə blokadaya düşdü, əhali hər hansı bir məlumat almaq mənbəyindən məhrum oldu.

Bakıya qoşun yeridiləndə isə tanklardan, zirehli transportyorlardan, piyadaların döyüş maşınlarından istifadə edildi. Zirehli texnikanın üstündə nömrələr yox idi. Qırmızı Bayraq Ordenli Xəzər Hərbi Donanmasının

gəmilərindən desant çıxarılmışdı. Tanklar və ZTR-lər Bakı küçələrində qarşılarına çıxan hər şeyi əzir, hərbçilər hər yanı amansız atəşə tuturdular. İnsanlar nəinki küçələrdə, hətta avtobusda gedərkən, öz mənzillərində oturduqları yerdə güllələrə tuş gəlirdilər. Yaralıları aparmağa gələn təcili yardım maşınlarını və tibb işçilərini də atəşə tuturdular.

SSRİ Müdafiə Nazirliyinin, DİN və DTK-nın hazırlayıb həyata keçirdiyi "Udar" ("Zərbə") adlı əməliyyatda əsas rolu xüsusi təyinatlı "Alfa" və SSRİ DTK-nın "A" təxribat qrupları oynayırdı. Sonradan isə məlum oldu ki, Bakıya hücum çəkib, qırğın törədən hərbi hissələrin şəxsi heyəti arasında cinayətkarlar və ermənilər də olub. Beləliklə, sovet qoşunlarının təcavüzü nəticəsində Bakıda onlarla mülki vətəndaş öldürüldü, yüzlərlə adam yaralandı. Ölkənin baş meydanındakı tribunadan SSRİ rəhbərliyini hədələyən və xalq hərəkatına rəhbərlik etdiklərini bildirənlər, özlərini "liderlər" adlandıranlar isə faciə zamanı xalqla birgə olmadılar. Bu isə onların bir daha hakimiyyətə gəlmək üçün oyunlar oynadığını və bu məqsədlə xalqı qırğına verməyə belə hazır olduğunu göstərirdi.

Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız ertəsi gün şəhər hərbi komendantı Dubinyakın radio ilə çıxışında və vertolyotlardan səpilən vərəqələrdə bildirildi. Halbuki Qorbaçovun Azərbaycana ezam etdiyi yüksək vəzifəli emissarlar həyasızcasına bəyan edirdilər ki, Bakıda fövqəladə vəziyyət elan olunmayacaq.

**Faciəyə ilk cəsarətli münasibət və həqiqi hüquqi qiymət**

Faciədən sonra ozamankı Azərbaycana başçılıq edən Ə.Vəzirov gizli şəkildə respublikadan çıxmışdı. Vəzifəyə gətirilən A.Mütəllibov isə Moskva himayədarlarının buyurduqlarını yerinə yetirirdi. Azərbaycan xalqının belə ağır vəziyyətində o zaman vəzifədən və siyasi səhnədən uzaqlaşdırılmış Heydər Əliyev böyük cəsarət nümayiş etdirərək yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi nümayəndəliyinə gedib mətbuat konfransı keçirdi. Ulu öndər Bakıda törədilən qanlı faciənin səbəblərini və təşkilatçılarını cinayətkar adlandırdı və aksiyanı törədənlərin məsuliyyətə cəlb edilməsini qətiyyətlə tələb etdi. Bilavasitə imperiyanın mərkəzində, dünyanın onlarca KİV təmsilçisinin qarşısında verilən bəyanat böyük əks-səda doğurdu.

Elə həmin gün Heydər Əliyev Azərbaycan xalqına başsağlığı teleqramı göndərdi. Teleqramda deyilirdi: "Bakı şəhərinə sovet ordusu hissələrinin yeridilməsi ilə əlaqədar xalqımızın başına gətirilən faciədən, dinc əhalinin qırılmasından böyük ürəkağrısı ilə xəbər tutdum. Bu matəm günündə həlak olanların ailələrinə və yaxınlarına, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm".

Xalqın tələbi və bir qrup deputatın təşəbbüsü ilə Azərbaycan SSR Ali Sovetinin 1990-cı il yanvarın 22-də Yanvar faciəsi ilə bağlı çağırılmış sessiyasına respublikanın əksər siyasi və dövlət rəhbərlərinin gəlməməsi isə onların xalqın taleyinə biganə qaldıqlarını, törədilmiş cinayətdə bu və ya digər dərəcədə iştirak etdiklərini bir daha təsdiq etdi. Respublika rəhbərliyi hətta şəhidlərin dəfn mərasiminə gəlməyi belə lazım bilmədi.

20 Yanvar faciəsinə hüquqi qiymət isə yalnız Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıtmasından sonra mümkün oldu. 1994-cü il yanvarın 2-də Heydər Əliyevin sədrliyi ilə 20 Yanvar faciəsinin dördüncü ildönümü münasibətilə yaradılan dövlət komissiyasının iclası keçirildi. İclasda çıxış edən ulu öndər ötən dörd ildə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməməsini, ozamankı Milli Şura tərəfindən qəbul edilmiş 19 yanvar 1992-ci il tarixli qərarın səthi, başdansovdu hazırlandığını ciddi tənqid etdi. Bundan sonra Milli Məclisin iclaslarında 20 Yanvar faciəsi ilə bağlı məsələ dərindən və ətraflı araşdırıldı, 1994-cü il martın 29-da "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" adlı xüsusi qərar qəbul edildi. Beləliklə, Heydər Əliyevin təkidi və rəhbərliyi sayəsində xalqımıza qarşı törədilən bu qanlı və qəddar aksiyaya siyasi-hüquqi qiymət verildi.

Bunun ardınca ulu öndər

16 dekabr 1999-cu ildə 20 Yanvar faciəsinin 10-cu ildönümü haqqında xüsusi fərman imzaladı. Fərmanda on il əvvəl törədilən faciəyə ədalətli və obyektiv qiymət verilməklə yanaşı, cinayətin açılmamasından, bütün günahkarların cəzalandırılmamasından narahatlıq hissi də ifadə olunurdu. Fərmanda deyilirdi: "XX əsr tarixində totalitarizmin törətdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı işlədilmiş cinayət əslində bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli bir əməldir. Həmin cinayəti törədənlər indiyədək öz cəzalarını almamışlar. Xalqımız əmindir ki, müqəssirlər tarix, bəşəriyyət, eləcə də Azərbaycan xalqı qarşısında cavab verməli olacaqlar".

Azərbaycan tarixinə faciə kimi yazılan 20 Yanvar həm də ölkəmizin uzun illərdən bəri arzusunda olduğu müstəqilliyinə qovuşmasında müstəsna rol oynadı. Xalq həmin hadisələr zamanı öz qətiyyətini nümayiş etdirməklə yenilməzliyini, iradəsini təkcə SSRİ rəhbərliyinə yox, bütün dünyaya nümayiş etdirdi.

**Rasim Bayramov**
**“Azərbaycan”.**-2011.-13 yanvar.-N 8.-S.4.

## Qanlı Yanvar faciəsi imperiyanın süqutunu sürətləndirdi

**Firudin Cümşüdlü**,
tarix elmləri namizədi, ADPU-nun Azərbaycan tarixi kafedrasının dosenti

**XX əsrin ən nəhəng imperiyalarından sayılan Sovet dövləti azadlıq uğrunda mübarizə aparan xalqımıza divan tutmaq üçün səyini getdikcə artırırdı. Azərbaycanın sərhədlərinin pozulması bəhanəsi də bu mənada qanlı qırğına haqq qazandıra bilərdi. Buna görə də imperiya başçıları məhz sərhədçilərə insanlara dəyməmək əmri vermişdilər. Artıq dekabrın 31-də Araz çayı ətrafı 137 kilometrlik Sovet-İran sərhədində izdiham baş qaldırdı. Nəticədə sərhəd qurğuları uçuruldu. Hər iki tərəfin adamları Arazı keçərək bir-biri ilə görüşdülər. 1990-cı il yanvarın 7-də SSRİ-Türkiyə sərhədində də həyəcanlar baş qaldırdı. Yanvarın 18-də Biləsuvar və Cəlilabad ərazilərində sərhəd qurğuları dağıdıldı. Xalq Cənub tərəfdəki qan qardaşları ilə qovuşdu.**

Belə bir şəraitdə Lənkəranda hadisələr sakit şəkildə davam edirdi. AXC-nin Lənkəran şöbəsi rayonda hakimiyyət orqanlarının işini müvəqqəti dayandırmağı qərara aldı. 1990-cı il yanvarın 11-də rayon partiya komitəsi, daxili işlər şöbəsi, mətbəə və digər sahələr mühasirəyə alındı. Rayonda müvəqqəti müdafiə komitəsi yaradıldı. Yanvarın 12-də xalqa divan tutmaq məqsədilə ölkənin mexanikləşdirilmiş hərbi hissələri Lənkərana yeridildi. Bunun qarşısını kəsmək üçün qonşu Salyan, Sabirabad, Kürdəmir bölgələrində xalq ordu hissələri hərəkət edən yolların qarşısını kəsdi.

Bu hadisələr hakimiyyət böhranının, eləcə də Moskva canişininin və onun aparatının Azərbaycanda baş verən hadisələrə nəzarəti tam itirməsinin təcəssümü idi. Belə bir şəraitdə ermənilərin təhrikçilik hərəkətləri , onların sərhəd kəndlərimizə, eləcə də Dağlıq Qarabağdakı azərbaycanlılar yaşayan bölgələrə silahlı hücumları güclənirdi. Yanvarın 12-də Ermənistandan 500 nəfərlik silahlı quldur dəstəsi 20 vertolyotla Xanlar rayonunun Quşçu kəndinə basqın edib silahsız əhaliyə divan tutdu, çoxlu insan — qadınlar, uşaqlar vəhşicəsinə öldürüldü.

Bütün bunlara müxtəlif yollarla şərait yaradan Moskva rəhbərliyi öz məqsədinə çatmış, xalqı radikallaşdıra bilmişdi.

Yanvarın 12-də Azərbaycandakı radikal qüvvələr Milli Müdafiə Şurası (MMŞ) yaratdılar. Məqsədləri silahlı özünümüdafiə dəstələrini bir yerə cəmləşdirmək, yeni hərbi dəstələr yaratmaq və erməni hərbi birləşmələrinin basqınlarının qarşısını kəsmək idi. Respublikada AXC-ni dağıtmaq, xalq hərəkatını yatırtmaq üçün münasib şərait yetişmişdi. Yanvarın 13-də Bakıda bir erməninin 2 nəfər azərbaycanlını öldürməsi paytaxtda iğtişaşları gücləndirdi. Yerli hüquq-mühafizə orqanları, eləcə də Bakıda yerləşən SSRİ Daxili İşlər Nazirliyinin 12 minlik silahlı dəstələri isə bunun qarşısını almağa heç bir cəhd göstərmədi.

İmperiya Bakıda Sovet dövlətinin devriləcəyindən, eləcə də Azərbaycanın əldən çıxacağından qorxub paytaxt ətrafına əlavə ordu bölmələri, ağır texnika yeritməyə başladı. MMŞ-nin fəallığı ilə Bakıətrafı sahələrdə və Bakı qarnizonunun yaxınlığında əhali yük, minik maşınlarını, avtobusları yan-yana düzərək barrikadalar yaratdı. Yolların ətrafında 26 iri maneə təşkil edildi. Salyan kazarmasının yolu kəsildi. 1990-cı il yanvarın ortalarında Azərbaycan KP MK-nın büro iclaslarında respublikadakı mövcud vəziyyət müzakirə olunurdu. Çıxış edənlər – Ə. Vəzirov, A. Mütəllibov, V. Polyaniçko, E. Qafarova və başqaları, eləcə də Bakıda olan Y.Primakov və yüksək rütbəli Moskva hərbçiləri güc tətbiq olunmasının zəruriliyini bildirdilər. Buna etiraz edən və ya başqa təklif verən isə olmadı. 1990-cı il yanvarın 15-də Ə. Vəzirov Moskvaya teleqram göndərərək tələb edirdi ki “Antisovet, antipatiya şüarları ilə mitinq edən ekstremistlərin liderləri dərhal məsuliyyətə cəlb edilməlidirlər. Bunun üçün hüquqi əsaslar vardır”. Bunun ardınca Azərbaycan SSR Nazirlər Sovetinin sədri A. Mütəllibov

Moskvaya göndərdiyi teleqramda bildirirdi ki, respublikanın SSRİ güc nazirliklərinin hərbi kontingentini qeyri-qanuni silahlı birləşmələri tərk-silah etmək üçün əməliyyat keçirəcəyi müddətdə yerləşdirmək və ərzaqla təmin etmək üçün hər cür imkanı vardır.

Azərbaycan Ali Soveti Rəyasət Heyətinin müraciətinə əsasən SSRİ Ali Soveti Rəyasət Heyəti yanvarın 15-də “Dağlıq Qarabağ Muxtar Vilayəti və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında” fərman verdi. İmperiya Azərbaycan Ali Sovetinə təklif etdi ki, Bakı və Gəncə şəhərlərində və digər yaşayış məntəqələrində komendant saatı tətbiq edilməsi də daxil olmaqla lazımi tədbirlər görsün.

1990-cı il yanvarın 17-dən AKP MK-nın binası qarşısında əzəmətli mitinq başlandı, ümumi tətil elan olundu. Mitinqdəki çıxışlarda tələb edildi ki, Moskva Ermənistanın Azərbaycana ərazi iddialarına qəti olaraq son qoysun. İmperiyanın Bakıya və ətraf bölgələrə yığdığı qoşunlar Dağlıq Qarabağa və erməni hücumlarına məruz qalan sərhəd bölgələrinə göndərilsin. Mərkəz Naxçıvanda da xalqı cəzalandırmaq məqsədilə fövqəladə vəziyyət tətbiq edilməsi üçün təzyiqlərini artırırdı. Yanvarın 18-də Şərur rayonu Kərki kəndinin erməni işğalçıları tərəfindən zəbt edilməsi vəziyyəti daha da mürəkkəbləşdirdi. Xalqın tələbi ilə yanvarın 19-da Naxçıvan MSSR Ali Soveti muxtar respublikanın SSRİ tərkibindən çıxması haqqında qərar qəbul etdi. Bundan məqsəd isə Azərbaycanda baş verən hadisələrə, Sovet ordusunun qanlı əməllərinə dünya xalqlarının diqqətini cəlb etmək idi və bu addım müəyyən rol oynaya bildi.

SSRİ Ali Soveti Rəyasət Heyəti 1990-cı il yanvarın 19-da “Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında” fərman verdi. Xalqa divan tutmaq, qırğın törətmək üçün ordudan istifadə olunacağı nəzərə alınaraq fövqəladə vəziyyətin elan olunacağı vaxt gizli saxlanıldı. Bakıda fəaliyyətlərini davam etdirən radikallar insanlara “Silah, kömək gələcək” — deyə yalan vədlər verir, xalqın bir hissəsini barrikadaları sonadək qorumağı və buranı tərk etməməyə çağırırdılar. Piketdə iştirak edənlər imperiyanın, eləcə də Azərbaycanın səlahiyyətli nümayəndələrinin qoşunun şəhərə daxil olmayacağı ilə bağlı dəfələrlə təkrar etdikləri yalan vədlərə inanmışdılar.

Xalq baş verə biləcək qırğından xəbər tutmasın deyə, yanvarın 19-da respublika televiziyasının enerji bloku partladılaraq sıradan çıxarıldı. Qoşun bölmələri yanvarın 19-da Türkan-Qala istiqamətindən şəhərə hərəkət etməyə başladılar. “Bakı əməliyyatı”na Sovet dövlətinin müdafiə naziri D. Yazov birbaşa başçılıq edirdi. Ağır hərbi texnika asanlıqla barrikadaları dağıtmağa başladı. Əsgərlər gözyaşardıcı qazdan istifadə edir, əliyalın adamlara avtomat silahlardan atəş açırdılar. Hərbçilər təsadüf nəticəsində yola çıxanları, yaşayış evlərini, təcili yardım maşınlarını, nəqliyyatı atəşə tutur, yaralı insanları öldürür, meyitləri yandırırdılar. Bakı küçələri öldürülmüş, yaralanmış adamların, qocaların, qadınların, uşaqların qanına qərq olmuşdu. Əsgərlər tibbi heyətin yaralılara köməyə getməsinə şərait yaratmır, hər vəchlə buna mane olmağa çalışırdılar. Əldə olunmuş rəsmi məlumatlara görə, Bakıya və başqa yaşayış məntəqələrinə Sovet qoşunlarının basqını vaxtı 131 nəfər, o cümlədən 117 azərbaycanlı, 6 rus, 3 yəhudi və 3 tatar öldürülmüş, 744 nəfər yaralanmış, 400 nəfər həbs edilmiş, 4 nəfər isə itkin düşmüşdür.

Fövqəladə vəziyyət haqqında fərman artıq iş-işdən keçəndən sonra, yanvarın 20-də elan olunmuşdu. Azərbaycanda rəhbər vəzifədə olanlar xalqa kömək etmək, ona arxa durmaq əvəzinə kürsülərini qorumaq naminə qaçıb gizləndilər. Ziyalıların bir qismi yanvarın 20-də Elmlər Akademiyasında etiraz mitinqi keçirdi. Ziyalıları qorxutmaq üçün bu mitinqin iştirakçısı olan 3 tanınmış alim, professor Bakı — Sumqayıt yolunda tankın altına salınıb məhv edildi.

Başsız qalmış xalq qorxu içində idi. Yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək 6 minədək adamın iştirak etdiyi izdihamlı yığıncaqda çıxış etdi və bu ağır günlərdə heç yerdən kömək almayan doğma xalqı ilə birgə olduğunu nümayiş etdirdi. O, çıxışında bildirdi ki, “Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya və siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsəydi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün zəmin yaranmazdı”. Heydər Əliyev çıxışında respublika rəhbərlərinin yarıtmaz fəaliyyətini ifşa etdi və bildirdi ki, Vəzirov bu yüksək vəzifədə olduğu müddətdə Azərbaycanda vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə, səhv

addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurum yaratmışdır". Ümummilli lider qorxmadan imperiya rəhbərlərini "qatillər" adlandırırdı. Heydər Əliyev Azərbaycan xalqına verdiyi başsağlığında soydaşlarımızı ağır gündə "ağıllı, kamallı olmağa, həmrəyliyə və birliyə çağırdı". Xalq Heydər Əliyev kimi bacarıqlı, böyük nüfuz sahibi olan bir şəxsiyyətin onunla olduğunu, onu qorxmadan müdafiə etdiyini gördü, ürəkləndi...

Şəhidlər Bakının ən uca yerində — Dağüstü parkda dəfn edildi. 1990-cı ilin qanlı yanvarı Azərbaycan xalqı üçün yalnız böyük faciə deyildir. Bu hadisə həm də ləyaqətini, qeyrətini qorumaq üçün mübarizə aparmaqla bu yolda qurbanlar verməyə hazır olan xalqın tarixində şərəfli bir səhifədir. Heydər Əliyevin "Bizim ittifaqdan nicatımız yoxdur" sözləri xalqın ümumi rəyinin ifadəsi oldu. Xalq hərəkatı bu şüar altında keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Özlərini xalqın övladı sayıb, dar gündə ona xəyanət edən rəhbərlər mühakimə olunmalıdırlar. Heysiyyətini itirmiş o zamankı respublika rəhbərləri məsuliyyətdən xilas olmaq üçün bütün günahları SSRİ rəhbərliyinin üzərinə atırdı. Lakin heç kəs heç vaxt tarix qarşısında günahını gizlədə bilməz...

**"Xalq qəzeti".**- 2010.- 22 yanvar.- N 16.- S.4.

## 20 Yanvar bütün incəlikləri ilə dünyaya çatdırılmalıdır

### YAP faciənin ildönümü ilə bağlı Dəyirmi masa keçirib

Dünən Atatürk mərkəzində Yeni Azərbaycan Partiyası (YAP) 20 Yanvar faciəsinin 20-ci ildönümü ilə bağlı Dəyirmi masa keçirdi. Tədbiri açan YAP icra katibi, millət vəkili Əli Əhmədov bildirdi ki, Azərbaycan xalqının tarixində qanlı hadisələr çox olub: "1990-cı il yanvarın 20-də baş verən olay Azərbaycan xalqının tarixinə amansızlığı və anlaşılmazlığı ilə seçilən faciələrdən biri kimi düşəcək. Söhbət həm çoxlu sayda insanların qətlə yetirilməsindən, həm də dövlətin öz vətəndaşlarına amansızcasına divan tutmasından gedir. Tarixdə belə hadisələrə çox az rast gəlinib. Çox təəssüflə qeyd etmək lazımdır ki, Azərbaycan xalqının bu faciəsini dünya miqyasında təbliğ etmək, buna lazımınca beynəlxalq qiymət verilməsinə nail olmaq mümkün olmadı". YAP icra katibi vurğuladı ki, ömrünü başa vuran Sovetlər İttifaqının son illərində ittifaq respublikalarında Bakı hadisələrinə oxşar hadisələr baş versə də, Bakı olayı onlardan əhəmiyyətli dərəcədə fərqlənir. "Mən belə hesab edirəm ki, 20 Yanvar faciəsinin ildönümünün qeyd edilməsi tək bu faciənin qurbanlarına çevrilmiş insanların xatirəsinin qeyd etmək mərasiminə çevrilməməlidir. Əsas məqam ondan ibarət olmalıdır ki, biz bu faciəni yetərincə, bütün təfərrüatları və incəlikləri ilə dünyaya çatdıra bilək". Ə. Əhmədov qeyd etdi ki, 20 Yanvar faciəsindən ötən 20 il ərzində Azərbaycan əhalisi əhəmiyyətli dərəcədə artıb: "Təbii, bu faciə tarixin yaddaşına çevrilib. Biz çalışmalıyıq ki, bu faciə Azərbaycan xalqının, onun bütün nəsillərinin yaddaşında dərin həkk olunan qanlı olay olsun. Bundan da gələcək nəsillərimiz lazımi ibrət dərsi götürsünlər. Faciədən ötən 20 il ərzində Azərbaycanın əhalisi 2 milyona yaxın artıb. Təqribən indiki Azərbaycan əhalisinin 23-24 faizi faciə baş verəndən sonra dünyaya gəlmiş insanlardır. Bizim qarşımıza qoyduğumuz məqsədlərdən biri də ondan ibarət olmalıdır ki, gələcək nəsillər bu faciəni filmlərdən görməklə yanaşı, insanların öz dilindən də eşitsin. Onların da yaddaşına bu qanlı faciə birdəfəlik həkk olunsun. Beləliklə, bu faciə nəinki unudulmasın, ondan gələcək nəsil də dərs çıxarsın".

YAP icra katibi daha sonra maraqları bir məqama toxundu. O, təəssüflə qeyd etdi ki, sanki başımıza gələn faciələr haqqında danışmaqdan utanırıq, bəzən onun miqyasını azaltmağa çalışırıq: "Bunun haqqında başqalarına xas olan formada danışmaqdan yan keçirik. 20 Yanvar faciəsindən bir neçə gün əvvəl SSRİ-nin xüsusi xidmət orqanlarının Bakıda törətdikləri təxribatlar nəticəsində təxminən 10 nəfər erməni əsilli Bakı sakini qətlə yetirilmişdi. İndi Ermənistanda aparılan təbliğat nəticəsində bu rəqəm 400-ə çatdırılıb. Ermənistanın təhsil naziri bununla bağlı ölkənin təhsil müəssisələrində dərslər keçirilməsi tapşırığını verib. 20 ildən sonra bu rəqəm 400-ə qaldırıb, yəqin daha 20 ildən sonra bu rəqəm 1000-nə çatdırılacaq, 100 il keçdikdən sonra bu rəqəm şübhəsiz ki, 10-15 min təşkil edəcək". Onun sözlərinə görə, bədnam qonşularımız bunu artıq praktikadan keçiriblər. Söhbət qondarma soyqırımından gedir. Ermənilər həmin hadisələr zamanı ölənlərin sayını 1,5 mln-a çatdırıblar. "Biz isə sanki böyük günaha batırmışıq kimi başımıza gələn faciələr nəticəsində qurban gedənlərin dəqiq sayını deməkdən belə çəkinirik. Mən belə hesab edirəm ki, 20 Yanvar faciəsi nəticəsində həlak olanların sayını da biz dəqiq bilmirik. O zaman itkin düşən və taleyi bu günə qədər də məlum olmayan çoxlu sayda insan var ki, onları biz həlak olanların siyahısına daxil etməmişik. Aldığı yara nəticəsində bir neçə ildən sonra vəfat edənlər var ki, onların adı bu siyahıya daxil edilməyib. Beləliklə, biz faciəmizin miqyasını həmişə kiçiltməyə çalışmışıq. Elə bil ki, başımıza gətirilən faciənin həqiqi miqyasını deməkdən utanmışıq. Amma digərləri isə 20 ilin içərisində 10 nəfəri gətirib 400-ə çatdırıb" - deyə millət vəkili vurğuladı. Ə. Əhmədov bildirdi ki, həlak olanların dəqiq sayı ilə bağlı araşdırma aparılmasına xüsusi ehtiyac var. Bu, rəsmi şəkildə dövlət orqanları tərəfindən araşdırılmalıdır: "Mənə elə gəlir ki, törədilən faciələrin həqiqi miqyası dəqiq bilinməlidir. Millət onun başına gətirilən faciələrin günahkarlarını, onun səbəblərini dəqiqliyi ilə bilməlidir. Bizim hər il 20 Yanvar faciəsi ilə bağlı keçirdiyimiz bu cür anma mərasimlərinin qarşısında duran başlıca məqsəd bundan ibarət olmalıdır. Söhbət sadəcə, bu faciəni pisləmək yox, bu faciənin günahkarlarını lənətləməkdən yox, həm də buna düzgün siyasi, tarixi qiymət verilməsinə səy göstərməkdən ibarət olmalıdır".

Ə. Əhmədov onu da qeyd etdi ki, 20 Yanvar faciəsinə siyasi qiymət verilib, ancaq buna mütləq hüquqi qiymət də verilməlidir: "20 Yanvar faciəsi məsələsi yenidən parlamentdə müzakirəyə çıxarılmalıdır. YAP müzakirələrin intensivləşdirilməsi və dünya ictimaiyyətinə, parlamentlərinə müraciətin qəbul olunması üçün əlindən gələni edəcək". Millət vəkili 20 Yanvar faciəsinin araşdırılması ilə bağlı Milli Məclisə müraciəti də ədalətli hesab etdiyini bildirdi.

Daha sonra çıxış edən Sosial Rifah Partiyasının sədri Xanhüseyn Kazımlı bildirdi ki, 20 Yanvar faciəsi Azərbaycan xalqının tarixinə qəhrəmanlıq günü kimi düşüb: "Deyərdim ki, faciənin dünya miqyasında çatdırılması üçün az-çox iş görülüb". X. Kazımlı bildirdi ki, Azərbaycana zaman-zaman hücumlar olub, amma hər dəfə bu hücumların qarşısı xalqın birliyi ilə alınıb.

Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı isə 20 Yanvarla Azərbaycanın yeni qəhrəmanlıq tarixinin yazıldığını vurğuladı. Partiya sədri Qafqaz Müsəlmanları İdarəsinin rəhbəri Allahşükür Paşazadənin parlamentə etdiyi müraciəti də müsbət dəyərləndirdi: "20 Yanvar faciəsinin əsl səbəbkarı olan Mixail Qorbaçovun Nobel mükafatına layiq görülməsi çox təəssüfləndiricidir". Onun fikrincə, həmin mükafatın geri alınması üçün Nobel Komitəsi qarşısında məsələ qaldırılmalıdır.

Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa bildirdi ki, 20 Yanvar faciəsi Azərbaycan xalqının tarixində çox dərin bir iz buraxıb: "20 Yanvar elə bir faciədir ki, millətin bütün təbəqələrinin heysiyyatına toxunub". Millət vəkili ümumiyyətlə, bu hadisəyə üç mərhələdə baxmağın tərəfdarı olduğunu bildirdi: "Birinci - 20 Yanvara qədərki etiraz hərəkatı, ikinci - 20 Yanvar faciəsinin baş verdiyi tarixi gün, üçüncü isə bu faciəyə xalqın münasibəti". Onun sözlərinə görə, 20 Yanvar bütövlükdə sovet hakimiyyəti tərəfindən Azərbaycan xalqına qarşı həyata keçirilən məqsədyönlü, planlı, əvvəlcədən hazırlanan təxribat idi. "Azərbaycan xalqının bir eksperiment kimi seçilməsi, xalqın iradəsinin sınağa çəkilməsi məqsədi güdülürdü. Hesab edirəm ki, Azərbaycan xalqı bu sınaqdan yüksək səviyyədə çıxa bildi". Onun sözlərinə görə, istər Azərbaycan hakimiyyəti, istərsə də xalq tərəfindən bu hadisəyə çox böyük qiymət verilib. F. Mustafa bildirdi ki, bu hadisəni törədənlərin cəzalandırılması istiqamətində taktikamız bir qədər çox yayındırıcı olduğuna görə uğur qazana bilmədik. O da deputat həmkarı F. Ağamalı kimi hadisənin əsas günahkarı olan o vaxtkı rəhbər Mixail Qorbaçovun Nobel sülh mükafatından məhrum edilməsi üçün Nobel Komitəsinə müraciət edilməli olduğunu bildirdi. Deputat qeyd etdi ki, 20 Yanvar faciəsi şərhə ehtiyacı olmayan bir hadisədir və bu hadisəni törədənlərin cəzalandırılması istiqamətində addımların atılması vacibdir.

Millət vəkili Cəmil Həsənli isə bildirib ki, 20 Yanvar faciəsinə xalq və dövlət olaraq yüksək qiymət verilib: "Amma bu hadisə təsadüfən baş vermiş hadisə deyildi, bu bir dövləti cinayət idi. Təbliğat zamanı da bu amilin qabardılmasına ehtiyac var".

Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev də 20 Yanvar faciəsinin törədilməsində SSRİ-nin o vaxtkı rəhbəri Mixail Qorbaçovla bərabər, dövlətin o vaxtkı rəhbərliyinin də məsuliyyət daşıdığını bildirdi. Millət vəkili 20 Yanvar hadisələrini daha dolğun əks etdirən filmlərin olmadığını da dilə gətirdi: "Mən təklif edərdim ki, həmin hadisələrlə bağlı əcnəbilərin iştirakı ilə filmlər çəkilsin. Hollivud rejissorları ilə müqavilə imzalanmalıdır".

**Azər NURİYEV**

**"Kaspi".-** 2010.- 20-21 yanvar.- N.11.- S.1, 4.

## Etibar Məmmədov: "20 Yanvarın olmaması mümkün deyildi"

Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) lideri, Milli Azadlıq Hərəkatının rəhbərlərindən biri Etibar Məmmədov "Turan"a müsahibə verib. Müsahibəni ixtisarla oxucularımıza təqdim edirik.

**- 20 Yanvar hadisəsinin müəllifi kim idi?**

- 20 Yanvar Milli Azadlıq Hərəkatının qarşısını almaq məqsədi ilə o zamankı SSRİ rəhbərliyi tərəfindən həyata keçirilən aksiya idi. Burada beynəlxalq vəziyyət, xarici və daxili səbəblərin hər birinin öz rolu var idi. Əsas isə o idi ki, mərkəzi hakimiyyət günbəgün güclənən azadlıq hərəkatının qarşısını almaq və başqalarının da gözünü qorxutmaq üçün cəza aksiyası həyata keçirmək qərarına gəlmişdi.

**- 20 Yanvar hadisələrinə gedən yolda daxili və Moskva amillərini necə xarakterizə edərdiniz?**

- Milli azadlıq hərəkatı Qarabağ məsələsi ilə başlamışdı. Azərbaycan ərazisinin bir hissəsini öz dövlətinin ərazisinə qatmaq üçün ermənilərin hərəkatı başlamışdı. Ermənilər keçmiş SSRİ rəhbərliyi səviyyəsində böyük dəstək əldə etmişdi. Azərbaycan isə buna müqavimət hərəkatı ilə cavab verdi. Müqavimət hərəkatı fəaliyyətə başlayan zaman məlum oldu ki, Azərbaycanın o zamankı rəhbərliyində olanlar bu prosesdə xalqın tələbinə uyğun hərəkət edə bilmir. Bu səbəbdən də rəhbərliyin fəaliyyətini xalqın istəyinə uyğun həyata keçirmək üçün onların səlahiyyətlərini ələ almaq kampaniyası başladı. Bu isə təşkilatlanma ilə nəticələndi, Xalq Cəbhəsi hərəkatı yarandı. Bir qədər sonra hərəkat xarakterini dəyişərək, milli-azadlıq hərəkatına çevrildi. Çünki SSRİ daxilində Dağlıq Qarabağ probleminin həlli artıq qeyri-mümkün görünürdü.

**- O zamankı həmkarlarınızdan bəzilərinin iddiasına görə, 20 Yanvar hadisəsi olmaya bilərdi. Onların fikrincə, bu, Xalq Cəbhəsinin liderlərinin emosional hərəkətləri nəticəsində baş verib. Siz necə fikirləşirsiniz?**

- Belə yanaşma onların emosional fikirlərindən və ya qərəzli mövqelərindən irəli gəlir. Çünki o zaman onlar kommunist rəhbərlər kimi xalq hərəkatının güclənməsindən çox qorxuya düşmüşdü. Onlar güclənən xalq hərəkatına uyğun fəaliyyət göstərmədikləri və onun tələblərinə cavab vermədikləri üçün özlərini kənarlaşdırmaq məcburiyyətində qalmışdılar. Bir daha deyirəm ki, bu hadisələrin səbəbi güclənən xalq hərəkatı və xalq hərəkatının milli azadlıq hərəkatına çevrilməsi idi. Bunun qarşısını almaq üçün mərkəzi hakimiyyət cəza aksiyası keçirmək qərarına gəlmişdi. Yəni, 20 Yanvarın olmaması mümkün deyildi. Çünki SSRİ kimi güclü bir imperiya varlığını saxlamaq üçün hansısa tədbirlərə əl atmalı idi. Bu tədbirlərin içərisində cəza aksiyaları da var idi.

**- Cəza aksiyalarından qaçmaq mümkün idimi?**

- Mümkün olsa idi, Gürcüstan bu aksiyadan qaça bilərdi, ondan öncə Alma-Atıda cəza aksiyası baş vermişdi, Bakıda cəza aksiyasından sonra bu, Vilnüsdə baş verdi. Ən sonda isə kommunist rejimi özünü qorumaq üçün 1991-ci ilin avqustunda Moskvada cəza aksiyası həyata keçirməyə məcbur oldu. Cəza aksiyalarından qaçmaq mümkün deyildi. Bu, tarixi bir hərəkatdır və bütün imperiyaların dağılması prosesində baş verib. Azərbaycandan da çox itkilər verən ölkələr belə öz müstəqilliyinə qovuşandan sonra hərəkata qarşı ittiham irəli sürməyiblər ki, müstəqillik öz-özünə baş tutacaqdı.

**- 20 Yanvarın tarixi dərsləri nədir?**

- Tarixi dərslər, təəssüf ki, hələ tam öyrənilməyib. Mənim fikrimcə, tarixi dərsləri odur ki, təhlükə olanda xalq bütün qüvvələrini birləşdirmək üçün özündə güc tapır. Azərbaycan xalqının ən böyük milli birliyi yanvar hadisələri və ondan sonrakı dövrdə olub. Bu cür böyük birliyə Azərbaycan bu hadisələrdən öncə də, sonra da nail ola bilməyib.

20 Yanvarın ikinci dərsi ondan ibarətdir ki, Azərbaycanda bu prosesdən sonrakı hadisələr göstərdi ki, nə zaman hakimiyyətdə olanların bir hissəsi xalqla birləşmirsə, bu qrup adamlar mübarizənin birinci mərhələsində ötəri müvəffəqiyyət əldə etsə də, ikinci mərhələdə süquta uğrayır.

20 Yanvarın digər ölkələrdəki hərəkatlardan fərqi o idi ki, Azərbaycanın kommunist rəhbərlərindən bir nəfər belə xalqın tərəfinə keçmədi.

**- 20 Yanvar hadisələrindən sonra ilk həbs olunanlardan biri də siz oldunuz. Moskvanın məşhur Lefortovo həbsxanasında saxlandınız. O günləri necə xatırlayırsınız?**

- Mən Moskvada həbs olundum. 20 Yanvardan sonra Azərbaycan dünyada təklənmiş millət vəziyyətinə düşmüşdü. Çünki Bakıda cəza aksiyasını həyata keçirənlər beynəlxalq güclərdən dəstək alırdı. Amerika və Avropa keçmiş Sovet İttifaqı Kommunist Partiyasının baş katibi Mixail Qorbaçovu dəstəkləyirdi. Dünya ictimaiyyətinə belə təqdim olunmuşdu ki, Bakıda dini ekstremist qüvvələr dünyəvi hakimiyyəti devirib dini dövlət qurmaq istəyir. Məhz M.Qorbaçov bunun qarşısını alır. Bu yanlış məlumatların qarşısını almaq, dünya ictimaiyyətinə həqiqəti çatdırmaq üçün Azərbaycan informasiya blokadasından çıxmalı idi. Mən qərara aldım ki, xarici jurnalistlərin yeganə akkreditə olunduğu Moskvaya gedim. Moskvada Azərbaycanın daimi nümayəndəliyində mətbuat konfransı keçirdim və hadisələrin birbaşa iştirakçısı kimi həqiqi məlumatları beynəlxalq medianın diqqətinə çatdırdım. Mətbuat konfransının gedişində mənə müraciət etdilər ki, SSRİ rəhbərliyi ilə görüşlər keçirim və məsələni müzakirə edək. Hətta M.Qorbaçovun bir nümayəndəsi də gəlmişdi və Mərkəzi Komitənin katibi Yakovlevin adından görüş istəmişdi. Ancaq həmin gecə daimi nümayəndəliyə hücum etdilər, nümayəndəliyi dağıtdılar və məni həbs etdilər. Həbs prosesi zamanı orada yaşayan azərbaycanlılar özlərini çox dəyanətli apardı, həbs olunandan sonra da çox böyük dəstək aldım. Xalqın dəstəyi isə mənə güc verirdi ki, həbsxanadakı ağır istintaq prosesində dayana bilim. Xalqın dəstəyinə arxayın olan mən və həbsdə olan hərəkatçılar sübut etdik ki, hər hansı cinayət etməmişik, gələcəkdə də milli azadlıq hərəkatını davam etdirəcəyik.

**“Ekspress”.-** 2010.- 20-21 yanvar.- N.11.- S.12.

## 20 Yanvar qəhrəmanlıq günü kimi yaddaşlara yazılmalıdır

### Respondentlərimizin əksəriyyəti bu fikirdədir

20 il bundan əvvəl 20 Yanvar tarixində xalqımızın qəhrəman övladları sovet imperiyasının hərb maşınları ilə üz-üzə gələrək şəhidlik zirvəsinə ucaldı, yüzlərlə insan ömürlük əlillik həyatına məhkum oldu. Uzun illər bu faciənin günahkarları bilinsə də, dilə gətirilib dünya ictimaiyyətinə yetərincə çatdırılmırdı. Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonrakı ilk illərdə başları hakimiyyət uğrunda mübarizəyə qarışmış respublika rəhbərləri 20 Yanvar qırğınına siyasi-hüquqi qiymət verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində məqsədyönlü iş aparmadılar. Yalnız 1994-cü ildə Qanlı Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi, faciənin günahkarlarının adları açıq şəkildə bəyan edildi...

Üstündən illər ötəndən sonra bu hadisəyə yanaşmamızda nə dəyişib? 20 Yanvar xalqımız tərəfindən necə xatırlanır?

"Lider" TV-nin əməkdaşı Rahil Kərimov fikirlərini bizimlə bölüşərək, 20 Yanvarın əslində, faciə günü kimi deyil, qəhrəmanlıq günü kimi qeyd olunmasını vacib bilir:

- Əslində, Qanlı Yanvar gecəsindən sonra insanlar hər il bu günü təbii olaraq faciə günü kimi qeyd etməyə başladılar... Bu normaldır, çünki onlarla günahsız insan qurban verdik o gecə... Lakin zaman keçdikcə insanların təfəkkür tərzi dəyişir, dünyaya baxış dəyişir... Son illər bir sıra ziyalılar tərəfindən irəli sürülən bir fikir mənim çox xoşuma gəldi. Belə ki, onlar düşünürlər ki, 20 Yanvar günü əslində, faciə günü kimi deyil, qəhrəmanlıq günü kimi qeyd olunmalıdır. Bir çoxları bu fikrə qarşı çıxdı. Lakin mən tam cəsarətlə bu fikirlə razıyam. Əsaslandırım niyə?

Azərbaycan SSRİ-nin əsarəti altındaydı. Bu əsarət zənciri gec-tez qırılmalıydı. Artıq möhtəşəm Meydan hərəkatı başlamışdı. 100 minlərlə insan meydanlarda gecələyərək Azadlıq tələb edirdi. Bu qarşısıalınmaz mücadilə təbii ki, Rusiyanın heç xoşuna gəlmirdi. Sovetlər onu da istisna etmirdi ki, hələ 8-9-cu əsrlərdə Babək Xürrəmidin başçılığı altında Məğribdən Məşriqə qədər uzanmış nəhəng Ərəb xilafətinin hökmranlıq atəşini söndürmüş üsyankar Azərbaycan xalqı bu gün eyni ssenari ilə sovet hökumətini də diz çökdürə bilər. Bütün bunları çox gözəl başa düşən SSRİ rəhbərləri təcili tədbirlər görməyə başlayırlar və hərəkatın güc yolu ilə susdurulmasına əl atırlar. Görünür, sovetlər bizim tarixi o qədər də yaxşı bilmirdilər. Bilmirdilər ki, bu xalqın əli yarandığı gündən qanla oynayıb, torpağı qanla yoğrulub.

Faciə baş verir. Lakin sonrakı günlərdə yenə böyük insan seli meydanlarda, küçələrdə idi. Mən əminəm ki, o faciədən sonra milyon insanı yenidən bir arada görən sovet rəhbərlərinin ağlından həmin an bu söz keçib: "Bunlar ölümdən də qorxmurlar?"

Nəyəsə nail olmaq üçün nəyisə qurban vermək lazımdır... Xüsusilə əgər nail olduğun AZADLIQDIRSA, qurban LABÜDDÜR. Bizə bu müstəqilliyi vermədilər, biz özümüz aldıq. Qurban bahasına, qan bahasına da olsa aldıq.

Ssenarist Nazim Əliyev 20 Yanvara həsr olunan filmlərin çəkilməməsindən şikayətləndi:

- 20 Yanvar mən və mənim dövlətim üçün özünümüdafiə siqnallarından biridir. Bu faciə vətənini sevən hər bir şəxsin ürəyində silinməz iz qoydu. İstərdim ki, hər bir azərbaycanlı heç olmasa ildə bir dəfə Şəhidlər xiyabanını ziyarət eləsin. Amma 20 Yanvar tarixində TV kanallarda yalnız Şəhidlər xiyabanının, insanların kütləvi ziyarətinin göstərilməsi ilə raza deyiləm. Bizim bir çox televiziya kanalımız xiyabanın bir tərəfində kamera quraşdırır, bura kollektiv şəkildə gəlib-gedən adamları çəkir, kadrarxasında isə qaboyda çalınan "Segah" adamın ürəyini daha da ağrıdır. Fikrimcə, 20 Yanvar faciəsinə yenidən baxış olaraq sənədli və ya bədii filmlər çəkilərək, dünya ictimaiyyətinə və gənc nəslə çatdırılmalıdır. Məncə, 20 Yanvar matəm günü kimi yox, daha çox qəhrəmanlıq günü kimi qeyd olunsa, yaxşı olar. Çünki başı bu cür faciələr görməyən millət özünü tapa bilməz. Gəzməyi yıxıla-yıxıla öyrənmək lazımdır. Amma yıxılanda ağlamaq olmaz.

Maştağa Mədəniyyət evinin təşkilatçısı Məhbubə Məmmədlisə 20 Yanvar faciəsini yetərincə qeyd etmədiyimizə deyir:

- Mən bu günü xatırlamasam da, KİV-lərdən, kitablardan, o günü yaşayan insanlardan topladığım məlumatlar kifayət edir ki, 20 Yanvar gecəsi haqqında təsəvvür yaradım. O günkü lent yazıları ilə tanış olduqda daha çox diqqətimi çəkən Azərbaycan xalqının birliyi oldu. Təəssüf ki, indi insanlar başqalaşıb, mənəviyyatdan söz açmağa belə dəyməz, nəinki birlik. Bu gün 20 Yanvar faciəsini yetərincə qeyd etmirik. Yolumuz Şəhidlər xiyabanından ildə bir dəfə düşə, ya düşməyə... Həmin gün Şəhidlər xiyabanına getmək və ya gül qoymaq şərt deyil. Fikrimcə, bizlər meydana toplaşıb şəhidlərimizi yadetmə mərasimi təşkil etməliyik. Eyni zamanda, bu günü faciə günü kimi deyil, müstəqillik günü kimi qeyd edək. Bu faciədən artıq 20 il keçib. Daha ağlamaq, sızlamaq lazım deyil. Yalnız yumruq kimi bir olub, sınmadığımızı, güclü olduğumuzu göstərək. Təbii ki, dildə deyil, əməldə".

Ədəbiyyat müəllimәsi Ülkər İslamqızı 20 Yanvar hadisəsi ilə bağlı maarifləndirmə işlərinin çox az olduğunu bildirir:

- Həmin illərdə yaşımın az olmasına baxmayaraq, məktəbdən, ailəmdən aldığım məlumatlardan faciənin dəhşətini anlamaq o qədər də çətin olmur. Hər il məktəbimizdə müəllimlərimiz və məktəb rəhbərliyi bu faciənin detallarını aydınlaşdırır və bu hadisəni görməmiş gənclərə məlumat verməyə çalışırlar. Bəzən düşünürəm ki, Azərbaycan xalqının başına gələn bu hadisə haqqında danışmaq üçün yalnız yanvar ayının 20-ni, yaxud yanvarın 20-nə bir-iki gün qalmışı gözləmək lazımdır. Təəssüflər olsun ki, bu belədir. Amma başına bu böyüklükdə müsibətlər gətirilmiş xalq gərək susmasın. 1 ildə 2-3 gün aparılan təbliğat istənilən nəticəni verməz. Bunun üçün güclü maarifləndirmə işi aparılmalıdır. Maarifləndirmə insanların məşğul olduqları bütün sahələri əhatə etməlidir. Ən vacib maarifləndirmə vasitələri radio və televiziya, mətbuat-qəzet və jurnallar, kitablar, tamaşalardır. İstər elmi işçi, istər şagird, tələbə, istərsə də evdar xanımlar bu vasitələrin köməkliyi ilə maariflənsinlər və özlərindən sonra gələn nəsli də maarifləndirsinlər. Yalnız və yalnız MAARİFLƏNMƏK?? Düşünürəm ki, ilk növbədə bizim xalq unutqansızlığı öyrənsə, daha düzgün olar. Çünki xalqımızın başına nə gəlirsə hamısı unutqanlığından gəlir. Sadəlövhlüyümüzdən irəli gələrək keçmişimizə unutqanlılıqla yanaşsaq, keçmişdə etdiyimiz səhvləri unutsaq, gələcəkdə həmin səhvlər yenidən təkrar oluna bilər. Buna görə gələcək nəslimizi düzgün istiqamətdə, sağlam ruhda böyütməliyik. Əslində, hər bir vətəndaşın sağlam ruhda böyüməsi ən əvvəl ailədən başlamalıdır. Vətənpərvərlik hissi, vətənə məhəbbət öncə ailədə tərbiyə olunmalı, sonra isə əsas məsuliyyət məktəbin üzərinə düşməli və burada formalaşdırılmalıdır. Valideynlər 20 Yanvar günü televiziya və radiolarda gedən təbliğat və maarifləndirici verilişləri ötürüb, digər ölkələrin əyləncəli verilişlərinə baxırsa, məktəbdə müəllimlər 20 Yanvar mövzusunda aparılan mövzuları başqa günə keçirirsə, yaxud da bu mövzuda yazılan inşaları yoxlamaqdan bezirsə, onda bu zaman vətənpərvərlik mövzusundan danışmağa dəyməz. Acınacaqlı hal budur ki, bu formada tərbiyələnən ailələrə çox rast gəlinir. Ən böyük faciəmiz də elə buradan başlayır!

**Könül Mayılova**

**“Kaspi”.-** 2010.- 20-21 yanvar.- N.11.- S.11.

## Milli azadlıq fədailərinin poetik dünyası

**Azərbaycanın indiyədək yaşanmış tarixinə nəzər salanda ən qabaq və aydın görünən ülvi məqsədi mifli müstəqilliyi, vətən azadlığı və demokratik həyat uğrunda mübarizəsi olub. Milli tarixin bu gedişatını təsəvvürümüzdə dolğunlaşdırmaq üçün apardığımız araşdırmalar içində dünyəvi dəyərə malik hadisə, fakt 1918-ci il 28 Mayda Azərbaycan Demokratik Cümhuriyyətinin elan olunmasıdır. 1918-1920-ci illərdə yaşanan günlərin bədii əksini o dövrün ədəbiyyatında bütün zənginliyi ilə görmək mümkündür. Bağrımdan qopmayan 20 yaşlı bir şəhid şairin - Üfvi Bünyadzadənin tale sirrinə bələd olmaq UçUn 1918-20-ci illərin ədəbi gənclik səhifəsini vərəqlədim: 19 yaşlı Cəfər Cabbarlı, 19 yaşlı Ümmugülsüm, 19 yaşlı Əli Yusif (ADC-nin Fransaya təhsil almaq UçUn göndərdiyi 100 nəfərdən biri), 26 yaşlı Əhməd Cavad imzalı şeiriərilə rastlaşdım. Həyatın bərkinə-boşuna düsməyən, ancaq səmimi, dupduru duyğular burulğanında qaynayan gənclik poeziyasının əsasən qan yaddaşına, şeirimizin milli köklərinə bağlılığını gördüm.**

**Ey türk, sən ey qəhrəman,**
**igid oğlu Turanın!**
**Şanlı, ulu babanın öyüdünü unutma.**
**Sən də yürü o yolu, ad çıxarsın əsgərin,**
**Ulular ardınca get, başqa bir yolu tutma!**

Bu Ümmügülsümün sətirləridir.

**Bu ay, yıldız boyaların qurultayı nə demək**
**Bizcə böylə söyləmək:**
**Bu göy boya moğaldan qalmış bir türk nişanım,**
**Bir türk oğlu olmalı.**
**Yaşıl boya islamçığın sarsılmayan inamı,**
**Ürəklərə dolmalı.**
**Şu al boya azadlığın, təcəddüdün ormanı,**
**Mədəniyyət bulmalı.**
**Səkkiz uclu ulu yıldız da**
**səkkiz hərfli od yurdu.**

Bu misralar isə Cəfər Cabbarlının "Azərbaycan bayrağına" şeirindəndir.

Qan yaddaşı ilə köklənən gənclik poeziyası mübarizə və döyüşkən duyğulu notlar-dan ötüb yeni respublikanın tərənnümü hissinə köklənmişdi. İlk əvvəl müharibə vəziyyətində yaşayan Vətənimizi qorumağa, öz oğullarını səfərbərliyə, xilas etməyə, erməni daşnaklarının Bakıda, Şamaxıda, Qubada, Göyçədə, Zəngəzurda, Dağlıq Qarabağda... misli görünməmiş qırğınların qarşısını almağa çağırış sədalı şeirlər eşidildi. Bu tərəfdən də ingilis ordusunun Bakını dəstəkləyib əlinə alması milləti sarsıtdı. Qarışıq tarixi olayların nəticəsi olaraq Bakıda hərbi səfərbərlik elan edildi.

Gənclik ictimai-siyasi motivli şeirləri ilə Vətəni müdafiəyə çağırırdı. Bu sətirlər igid oğullar sayəsində qazanılmış milli azadlığımızı, siyasi-mədəni təfəkkürümüzün qələbəsini qorumağın səfərbərlik poetikası idi. Onlar 1919-cu il 26 avqust tarixdə parlament binasında rəsmən elan olunmuş "Yaşıl qələm" dərnəyi ətrafında birləşərək yenicə yaranmış milli dövlətin mənəvi sütununa çevrildilər.

***Ey buzlu şimaldan qopan ruzigar,***
***Toxunma qəlbimə, atəşi parlar.***
***Sakın, gəlmə, səni nəfəsim boğar,***
***Dəf ol! Vətənimdə görəməm səni!***

Yenə Ümmügülsümün sətirləridir.

ADC süquta uğrasa da milli mübarizləri-miz ədəbi-bədii salnamələrdə, tarix səhifələrində azadlıq aşiqləri kimi "əbədiləşdilər".

Bu poeziya milli özünüdərketmə şüurunun bir daha formalaşma mərhələsində müasir poeziyamızın nur mayasına çevrilərək:

***Həyat üçün doğulmuşuq,***
***Vətən üçün ölməliyik!***

— ideallı misralarla yeni səhifə açdı: Ülvi Bünyadzadə imzasıyla.

Cəfər Cabbarlı da, Ümmügülsüm də, Əli Yusif də, Əhməd Cavad da "Molla Nəsrəddin" məktəbinin havasını, suyunu dadmışdılar, Sabir, Hadi şcirləri ilə köklənmişdilər. Əsrin əvvəllərində - 1906-cı ildə Məhəmməd Hadi "Amali tərəqqi" adlı bir şeir yazmışdı:

***Əsasi-fikrimiz təmini-istiqbali-millətdir,***

***Ürəkdə bəslənən amalımız-iqbali-millətdir.***

***Yeganə nöqteyi mətlub-istiqlali-millətdir.***

Burada əsas fikir, şair ürəyində bəslənən, qorlanan yeganə mətləb, niyyət, amal millətinin xoş iqbalı və istiqlallı olmasıdır. Təbii ki, bunun üçün də yurd, Vətən keşiyi vacibdir. Vətən keşiyi, millət azadlığı isə müstəqillik və demokratiya uğrunda mübarizədən başlayır. Elə bu eşqlə yazıb-yaradan Abbas Səhhətin 1914-cü ildə qələmə gətirdiyi: ***Könlümün sevgili məhbubi mənim,***
***Vətənimdir, Vətənimdir, Vətənim.***

- duyğulan romantik hiss, gerçək yaşantıdır. Belə şərəfli bir tarix yaşamış şeirimizə xitabən Ülvi yazmışdı:

***Düz yolda çarpışmaq igidlik deyil.***
***İgidlik balaca cığır açmaqdadır.***

O, Hadilərin, Səhhətlərin, Cəfərlərin açdığı cığın milli mübarizə zamanın gənclik yoluna məşəl sanırdı. 1988-ci ildə Azərbaycan torpağının, xalqının başı üstündə qara buludlar topalaşanda gənclik daha duyuq göründü. Bu yandan da sovet hökumətindən ümid kəsilməmişdi. Moskvaya teleqramlar, məktublar göndərilirdi, kömək istəyirdik. Ermənilərin, daşnakların xəyanətkarlığını isbata çalışırdıq. Moskva isə guya heç nə bilmirdi, görmürdü. Sanki həmin teleqramların cavabı olaraq Azərbaycana rəhbər sifətilə bir təlxək göndərildi. Onun təfəkkürü imperiya qanunlar ilə elə manqurtlaşmışdı ki, xalq üçün, torpaq üçün nə isə ummaq gülünc idi. Minlərlə Azərbaycan ailəsi evindən-eşiyindən qovulmuşdu, var-dövləti tarmar olunmuşdu, yüzlərlə insan şikəst edilmişdi (burnu, qulağı kəsilmiş, gözləri ovulmuşdu, ana bətnindəki körpə süngülənmişdi, Topxana meşəsi doğranmışdı, şəhid məzarları yaranmışdı) — erməninin törətdiyi bir belə zülmün qabağında isə o, sevincək TV-yə müsahibə verirdi ki, "xalqım, gözün aydın, ermənilər Bakıya qayıdır". Onun xalq, Vətən qarşısında ən böyük xəyanəti isə Bakıya atəş açılması üçün Qorbaçova fürsət yaratması olmuşdu.

Son 70 ilin siyasi-mənəvi terroru kimi aşkarladığımız bir faktı da 1918-20-ci illərdə Azərbaycanın azadlığı uğrunda olan minlərlə şəhidin qanının ört-basdır edilməsi idi. Bəlkə də elə o şəhid ruhların qiyamıyla bu mübarizələr başlamışdı. İmperiya ideologiyası ilə o şəhidlərin məzarları üstündə diskoteka, gecə barları fəaliyyət göstərirdi. 1918-ci ilin milli mücahidlərinin təbirincə desək, "onlar — o böyük vücudlar tam vaxtında bir məleykeyi-nicat kimi yetişərək özləri öldülər, fəqət bizi ölümdən qurtardılar. Onlar - o ölümü istehkar edən böyük adamlar. bizə yaşamaq üçün ölmənin nə məsud, nə şanlı, nə şərəfli bir xislət olduğunu öyrətdilər. Onlar — o fədakar insanlar Azərbaycan Cümhuriyyətinin payidar olmasna, məmləkətimizin cəllad ciyəsindən qurtulmasına səbəb oldular!. Şühadə qəbri üzəri-nə gedib də fatihə verməyinizi unutmayınız!"

1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə... O gecəyəcən iki il idi ki, Azərbaycan xalqı haqq uğrunda, azadlıq, Azərbaycanın bütövlüyü uğrunda mübarizə meydanında ayaq üstə idi. Torpağının, yurdunun azadlığını istəyirdi. Heç kəsdən heç nə ummurdu, istəmirdi. Özünü yağı tapdağından, nəfsindən müdafiəyə qalxmışdı. Bir həftə idi ki, imperiya sovet ordusu libasında öz tank-topu ilə, avtomat-pulemyotu ilə gəlib Azərbaycanın Xəzər duvaqlı Bakısının ətrafında şöngümüşdü. Xalq imperiyaya məxsus ağır hərbi sursatları görə-görə əliyalın, qəlbi Vətən, Azərbaycan, Bakı eşqi ilə dolu yol üstünə çıxmışdı. 19-dan 20-nə keçən gecə atəş açılacağını çoxlarımız iş yerindən, oxuduğumuz məktəbdən eşitmişdik (bu gümanı onsuz da hər gün yaşayırdıq). Və hər gün də əzmimizdə dönməz idik. Tankların qabağında qurduğumuz oyuncaq çəpərlər yanından çəkilmirdik.

Ülvinin fəlsəfə müəllimi professor Nurəddin Kazımov danışır ki, (həmin söhbəti IV sinfin "Oxu" kitabından şagirdlər də bilirlər) ayın 19-da səhər saat 11 olardı. Ülvi mənə yaxınlaşdı ki, müəllim, bir imtahanım

qalıb — fəlsəfədəndir. İzn verin, bu gün o imtahanı verim. Dedim ki, oğul, indi imtahandan çıxmısan, get dincəl, sabah gələrsən, ilk olaraq səndən soruşacam. O isə inad etdi. "Nə dincəlmək, müəllim, dünya qarışıb, ordu gəlib oturub Bakının dörd tərəfində. Bu gecə, deyirlər atacaqlar. Həyatı bilmək olmaz. Borclu qalmaq istəmirəm. Qaçıb gizlənməyəcəyik ki?"

Gəncliyinə heyfim gəldi, kövrəltdi məni, cəsarətinə isə heyran oldum. Dedim, yaxşı, nə bilirsən, danış. Razılaşmadı. Bilet çəkdi. Elə ayaqüstə suallara əhatəli cavab verdi. 5 verdim. Sevincək getdi. Səhəri səksəkədə açdım. İnstituta zəng etdim, onu soruşdum. Dedilər ki, hamı Ülvini axtarır. Axşam isə onun şəhid olmasını eşitdim. Özümü bağışlaya bilmirəm ki, niyə onu qorumağa cəhd etmədim.

Ülvi isə bütün xalqla birgə idi. 1990-cı il yanvarın 20-nə keçən gecə ilk andan güllələr göydən qucaq-qucaq səpələndi. Sovet ordusu Bakıya təcavüz edərək dinc əhalini **j** qanına qəltan etdi. Yollar-izlər tank tırtılları altında darmadağın oldu. Evlərdə, yollarda, maşınlarda insanlar şəhid oldular. Gecə güllələri uşaq, böyük, gənc-qoca tanımadı. O gecənin güllələri hamımıza dəydi — içimizdən keçdi. Səhəri qızıl qan içində açdıq. Amma ölmədik. Şəhid olduq. Şahidlər isə öz dizlərinə dayaq olub məğrurcasına ayağa qalxdılar. Yanvarın 22-də şəhidləri bəzəkli kəcavələrdə xalq başı üstə bayraq edib şəhərin uca yerində dəfn etdi. İndi ora Şəhidlər Xiyabanı adlanır. Mirzə Cəlilin sözləri elə bil həmin günlərə yazılmışdı: "Bu gün Kərbəla meydanı Azərbaycandakı vətənpərvərlik meydanıdır. Yekə bir millətin dili, namusu, hüququ, Vətəni təhlükədədir. Axıtmalı qanımız, ehsan etməli pulumuz varsa, gözümüzün qabağında ürəklər parçalayan Azərbaycan matəmgahı durur".

Küçələrdəki qan ləkələrini, gölməçələrin qərənfillə bəzədilər. O il Bakı qərənfilləri şəhidlərə qismət oldu. Ulularımız deyib ki, Şəhidə ağlamazlar. Dahi Nizami Gəncəvi isə şəhid müqəddəsliyini belə tərənnüm edib:

***Şəhidəm, qan rəngli olsun kəfənim,***
***Qoy belə bəzənsin bayramım mənim.***

O gecə Vətən andı içib azadlıq yoluna çıxan Ülvi Bünyadzadə də şəhid oldu. 20 yaşlı tələbə idi. Xarici Dillər İnstitutunda oxuyurdu, əlaçı idi, fəal ictimaiyyətçi idi, gözəl şair qəlbi var idi...

***Mən Ülviyəm, ülvi sözə aşiqəm,***
***Saf ürəyə, büllur üzə aşiqəm.***
***Gözlərin tək ala gözə aşiqəm,***
***Sevdiyim o ala gözə əlvida!***

O gecədən sonra doğulan oğullar 20 yaşı bitirib 21 yaşa qədəm qoyurlar. Ülvinin şəhid yaşna. Bir neçə ay öncə 20 yaşlı şəhid Ülvinin 40 yaşı tamam oldu. Şəhid adı ilə yanaşı, bir do ədəbi taleyi ilə 20 ildir ki, mənəvi ömür yaşayır. Ülvi ölümündən 4 ay əvvəl bir And yazmışdı:

1920-ci ili tarix səhifələrində gəncliyə ünvanlanmış bir müraciət var: "Ey gənclik! Sənin öhdəndə böyük vəzifə var: Səndən əvvəlki nəsil yoxdan bir bayraq, müqəddəs bir ideal rəmzi yaratdı. Onu min müşkülatla yüksəldərək dedi ki, bir kərə yüksələn bayraq bir daha enməz! Əlbəttə ki, sən onun ümidini qırmayacaq, bu gün parlaman binası üzərində azərilərin yanıq ürəklərinə enmiş bu bayrağı təkrar o bina üzərinə dikəcək və bu yolda ya qazi, ya da şəhid olacaqsan!"

Həmin müraciətə XX əsrin son onilliyində:

***Atama oğul deyiləm,***
***Anama oğul deyiləm.***
***Bu ocağın kor çırağı,***
***Yanmayacaq işığıyam.***
***Atam-anam zəmanədir.***
***Mən zəmanə uşağıyam.*** - deyən Ülvinin "And"ı Varis cavabı idi. 20 Yanvardan az sonra — 10-15 gün sonra onun ədəbi yaradıcılığı haqda və Andı "Ədəbiyyat və incəsənət" qəzetində - "Ülviləşən Ulvim" adlı bir məqalədə dərc edil-di. O vaxt həmin qəzetdə onu tanıyırdılar. Əsgərlikdən, demək olar ki, tez-tez məktub yazardı və həmin qəzetin ünvanına göndərrərdi. "Məktubu niyə evimizə yazmırsan" — deyə soruşanda yazardı: "Sən bilmirsən ki, hər dəfə o ünvana göndərəndən sonra necə ilhama gəlirəm. Əsgərlik yuxuma haram qatıb, şirin-şirin yazmaq həvəsindən doymuram".

O gecənin "Şəhid şairləri" haqqında məqalələr dərc etmək istədik. İlhamın sevgilisi , Fərizənin əlyazmasını çap etdik:

***“Ana, məni bağışla, Mən İlhamsız yaşaya bilmərəm!"***

İkicə qısa cümlədir. Amma o sözlərin arxasında böyük bir eşq dastanı yaşandı.
Mikayıl Müşfiqin əmisi nəvəsi Cavad İsmayılzadənin inamla yazdığı:
***Mən də öz dövrümün bir Müşfiqiyəm!***
- sətirlərini, publisist Nəsib Ələkbərovun oğlu Azərin bir hekayəsini, Səxavətin:
***Azərbaycan - canım, ruhum mənim!***
- misralı şeirlərini tapıb mətbuata təqdim etdik.

Ülvinin zəngin ədəbi irsindən indiyəcən altı kitabı nəşr olunub. 200-ə qədər şeiri toplandı - qrup qızlarından, dostlarından, əsgərlik yoldaşlarından, institut qəzetinin redaksiyasından, sinif yoldaşlarından, DAŞkəsəndə üzv olduğu "Daşkəsən" ədəbi birliyinin üzvlərindən, "Daşkəsən" rayon qəzetinin səhifələrindən, ədəbiyyat müəllimlərindən, bir də evdə divanın içində gizlətdiyi qovluqlarında, əl boyda vərəqlərdə və s.

Ülvinin şeirlərində Uca Türk qəlbinin döyüntüsü, böyük Turan dünyası əks olunub.
***O taydan Savalan, bu taydan Qosqar,***
***Buludlar başında körpü salıbdı.***
***Bu mənfur dirəklər, acı tikanlar,***
***Bilmirəm heç kimdən miras qalıbdı.***
və ya
***Bilin, daşdan deyil mənim ürəyim,***
***Səttarxan hədəsi, Cavanşir bəhsi, Koroğlu gərdişi,***
***Nəsimi səsi. Xətai cürəti, Nəbi gülləsi,***
***Babək qılıncının dəvasıdı o.***
Ülvinin şeirlərində gənclik təravəti şehlidir:
***Bahar nə şirin şeymiş,***
***Ətri bənövşədəymiş.***
***Ömrüm sənin eşqindi,***
***Eşqin də bənövşəymiş!***
Aşiqanə duyğularını isə ancaq sətirlərdə yaşadı:
***Kirpiklərin məni aldı nişana,***
***Ürəyimdə qaldı səndən nişana.***
***Dedim: Ay qız, anam gəlsin nişana,***
***Gözlərini süzdün yana dilbərim.***
***Dedim, sənsən gözəlliyin ilk barı,***
***Qoyma sıxsın məni sevgi qubarı.***
***Ülvinin qəbrinə qoyarsan barı,***
***Bir bənövşə, sən, ey sona dilbərim!***

"Ölüm insanların son heyrətidir" - bu hansısa bir filosofun sözüdür" - yazan Ülvinin şeirlərində "ölüm" obrazına tez-tez rast gəlmək olur:
***Mən qorxmuram uzaq yola çıxmaqdan.***
***Bu yolun***
***şaxtasından, soyuğundan mən qorxmuram.***
***Mən qorxmuram uzaq yola çıxmaqdan.***
***Bu yolun acısından, ağrısından,***
***"Ölüm" adlı yuxusundan mən qorxmuram.*** və ya
***Məni belə aciz görmə qəbirdə,***
***Qəbirdə də Qarabağın özüyəm.***
və ya
***Deyirəm, vüsalın nə azmış ömrü,***
***Gedirəm, əlvida, gözəl, əlvida.***
və ya
***Səbrsiz olsa da sənin gül oğlun,***
***Səbrlə duracaq qəbrim, ay ana.***
və s. Bu şeirlərin elmi təhlili, yəqin ki, ayrıca tədqiqat mövzusudur.

Ülvinin iki əsəri - "Qansızlar" povesti və "Ömür yolu" poeması Əfqanıstanda həlak olmuş Azərbaycan oğullarının xatirəsinə ithaf olunmuşdu. 19 yaşın qələmində bu əsər çox kövrək, həssas, Vətən məhəbbətli, ağır psixoloji məqamlı, lirik duyğulu, təsirli alınıb. Poemadakı obrazlar - Əfqanıstanda günahsız yerə ölən oğulların ruhlarıdır. Ruhların dili ilə olan Əfqanıstan torpağına aparıb çıxaran imperiya oyunlarını, oyunbazlarını lənətləyir. Qarabağın başına açılan müsibətlərdən narahatçılıqlar keçirirlər. Cismən məhv olan oğulların ruhlan müəllifin — Ülvinin yuxusuna dolur və ona Vətənə ləyaqətli, şərəfli oğul olmağı arzulayırlar. Onların acı taleyinə ağrıyan və nakam talelərini qələmə alan Ülvi yazır:

***Zəifdi qüdrətim, kütdü qələmim,***
***Ürək dolub daşır, yaza bilmirəm.***
***Mən də sizin kimi həyat yolunda,***
***Azmaq istəyirəm, aza bilmirəm.***

Pyeslər qovluğunda "Uğursuz məhəbbət", "Məhəbbətin manifesti", Göyçə gözəli Həcərə ithaf olunmuş "Bir papağın sərgüzəşti", "Dilqəmi", səhnələşdirdiyi "Dədə Qorqud" kimi səhnə əsərləri vardı.

Nəsr qovluğunda 40-a qədər hekayəsi var. "Tale" adlı yarımçıq hekayəsi var. Üç-dörd variantda işləyib. 1986-cı ildə yazılıb. Əsərin qəhrəmanı 20 yaşında olanda Bakının qaranlıq küçəsində millətinin və öz başına gələcək faciəni qələmə alıb - oxuyanda heyrətlənməyə bilmirsən.

İngilis ədəbiyyatı şedevrlərinin — Makkey, Bayron, Kiplinq, Hud, Şelli, Sauti... digər 10-a qədər dünyaşöhrətli müəllifin əsərlərindən ən gözəl nümunələri orijinaldan tərcümə edib.

Ülvi əsgərlikdən — Uzaq Sibirdən tez-tez məktub yazardı. O məktublar daha çox ictimai-siyasi, ədəbi məzmunlu məqalələrə oxşadığından atmamışdım. Bəzən bir məktubda 3-4 şeir göndərərdi. Uzaq Sibirin havasını: »

***Bu torpağa Allah qarğıyıb nədir,***
***Günəşi buz, adamları buzdu, buz.***

və ya

***Bizim yerdə günəş gülümsəyəndə,***
***Torpaq da öz al rənginə bələnir.***
***Bizim yerdə qar gözləri üşütmür,***
***Bizdə qar da çiçək kimi ələnir.***

O, fəal ictimaiyyətçi idi. Uzaq Sibirdə yaratdığı "Xətai" dərnəyinin, əsgərlikdən qayıtdıqdan sonra dostlar ilə birgə yaratdığı "Şimali Azərbaycan Azad Tələbələr İttifaqı"nın proqram və nizamnaməsini özü yazmışdı. Gözəl publisistik qələmi var idi. Onun publisistikası siyasi-ictimji xarakterdədir. "10 yanvar 1990-cı il" tarixli bir məqaləsini "Azərbaycan" qəzetinə aparmışdı. Qayıdanda dedi ki, "baş redaktorla tanış oldum. Çox məzmunlu görüş-söhbətimiz oldu". Amma o məqalə çap olanda Ülvi artıq şəhid olmuşdu.

Ülvi Azərbaycanın Azadlığı uğrunda şəhid oldu. Azərbaycan öz müstəqilliyini qazandı. 19 ildirki, bu xoşbəxtliyin şirinliyini ruhumuzda duyuruq. Amma kaş torpaqları-mız — Göyçə, Zəngəzur, Qarabağ azad olaydı. Bütöv Azərbaycan eşqini XXI əsrin balalarına təhvil verəydik.

***Anam da, övladlarım da,***
***Məni qəmgin xatırlasın,***
***Qoy ən əziz dostlarımsa,***
***Həmişəlik yadırğasın.***
***Bir ocağın ətrafında,***
***Mənə ehsan paylasınlar.***
***Qoy lap məni "bəxtsiz" deyə***
***Bənzətsinlər bir yazığa.***
***Ancaq gözlə, gəlməliyəm***
***Bir ölümün acığına.***

Bu şeir, sanki, Ülvinin vida nəğməsidir. Ülvi gəldi — Şəhid ucalığı, nəğməli sətirləri, rəngarəng ədəbi yazıları ilə. Təbii ki, Ülvi ömrünü bir məqalə çərçivəsində vərəqləmək olmur. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Azadlığımız daim var olsun!

***Almaz ÜLVİ***

**“Xalq qəzeti”.-** 2010.- 20 yanvar.- N 14.- S.5.

## Tariximizin qəhrəmanlıq salnaməsi

**Sevinc Budaqova**,
tarix elmləri namizədi, 46 saylı məktəbin direktoru

**Biz bu dərdi, bu qəmi daim qəlbimizdə saxlayacağıq. Ancaq, eyni zamanda, bu şəhidlərin qəhrəmanlığı Azərbaycan xalqı üçün, Azərbaycan gəncləri üçün örnək olub. Bundan sonra da örnək olacaqdır. Mən tam əminəm ki, Azərbaycanın bugünkü nəsli də, gələcək nəsilləri də bu şəhidlərin qəhrəmanlığından nümunə götürəcəklər. Azərbaycan xalqının milli azadlığını qorumaq üçün, respublikamızın müstəqilliyini qorumaq üçün daim mübarizədə olacaqdır. Daim qəhrəmanlıq nümunələri, vətənpərvərlik nümunələri göstərəcəklər.**

**Heydər ƏLİYEV**
**Ümummilli lider**

**Azərbaycan xalqının qürur mücəssiməsinə çevrilmiş 1990-cı ilin 20 Yanvar hadisələrindən 20 il ötür. Tariximizin şərəfli səhifəsi olan 20 Yanvar xalqımızın azadlıq və müstəqillik uğrunda apardığı mübarizənin dönməz olduğunu bütün dünyaya göstərdi, milli azadlıq hərəkatının müstəqillik hədəfinə doğru irəliləməsində dönüş nöqtəsi oldu. 1990-cı ildə Azərbaycan xalqı əliyalın, fəqət sarsılmaz iradə ilə başdan-ayağa silahlanmış qəddar sovet hərb maşınına qarşı duraraq imperiyanın Azərbaycan milli azadlıq hərəkatını susdurmağa yönəlik cəhdlərini tamamilə boşa çıxardı.**

Hadisənin başvermə səbəbləri ilə bağlı zaman-zaman müxtəlif ziddiyyətli fikirlərə, rəylərə rast gəlinsə də, bütün əks mövqelər bir nöqtədə kəsişir: bu tarixi gündə Azərbaycan xalqı əsrlər boyu qəlbində yaşatdığı milli azadlıq və istiqlal istəyindən geri çəkilməyəcəyini, bu müqəddəs amal uğrunda hətta canından belə keçməyə hazır olduğunu bütün dünyaya nümayiş etdirdi.

1990-cı ilin 20 yanvarında baş verən faciəli hadisələr süquta uğramaqda olan sovet imperiyasının mənfur repressiya maşınının xalqımıza qarşı törətdiyi amansız cinayət idi. Həmin gün insanların xüsusi qəddarlıqla qətlə yetirilməsi, yaralanması, şübhəsiz, xalqımız üçün böyük dərd, faciə idi. Lakin, eyni zamanda, bu hadisə xalqımızın milli azadlıq və müstəqillik uğrunda mübarizəsinin kulminasiya nöqtəsi olmaqla, çağdaş tariximizə qürur və şərəf mübarizəsi kimi daxil oldu.

Tarixi prizmadan yanaşdıqda, aydın olur ki, 20 Yanvara aparan yol 1988-ci ilin ziddiyyətli hadisələrindən başlanır. Keçmiş imperiya rəhbərliyinin xeyir-duası ilə Ermənistanın Azərbaycana qarşı başladığı ərazi iddiaları nəticə etibarilə xalqımızın milli müstəqillik və istiqlaliyyət uğrunda mübarizəsinə impulslar verdi. Xalqımız ərazi bütövlüyünü qoruyub saxlamaq üçün 1988-ci ildə iradəsini ortaya qoydu. Respublika vətəndaşları Kremlin Azərbaycana qarşı məqsədli şəkildə həyata keçirdiyi məkrli plana etiraz edir, Dağlıq Qarabağdakı ermənilərin separatçı və ekstremist hərəkətlərinin qarşısının alınmasını, haqq-ədalətin bərpa olunmasını istəyirdi. Ərazisinin ilhaq edilməsi cəhdlərinə qarşı qətiyyətlə çıxan xalqımızın milli ruhu, özünüdərk hissi yüksəlmiş, müqavimət əzmi artmışdı. Həmin dövrdən başlanan ümumxalq hərəkatı meydan epopeyası kimi yüksək zirvəyə yüksəldi. Rejimin həyata keçirdiyi repressiv tədbirlər Azərbaycanda meydan hərəkatının qarşısını müəyyən qədər alsa da, xalqın içində olan narazılığı qətiyyən boğa bilmədi.

1989-cu ildən etibarən ümumxalq etirazları yenidən bütün respublikanı bürüdü və avqust ayından bu proses idarəolunmaz müstəviyə keçməyə başladı. İlin sonunda xalq hərəkatını idarə etməyi üzərinə götürmüş Azərbaycan Xalq Cəbhəsində parçalanma baş verdi. 1990-cı ilin əvvəllərində təşkilat tamamilə iflic vəziyyətinə düşdü. AXC-nin yeni İdarə Heyəti və Məclisi formalaşsa da, təşkilatın rəhbərliyində respublikada baş verən hadisələrə münasibətdə ziddiyyətlər üzə çıxmışdı. 20 Yanvar faciəsi ərəfəsində AXC faktiki olaraq iki yerə parçalanmışdı, belə bir vəziyyətdə onun hadisələrə nüfuz etmək imkanları yox idi.

Yanvarın 19-da Azərbaycanda fövqəladə vəziyyətin elan edilməsinə 7 saat qalmış 11 minlik sovet ordusu respublikamızın paytaxtı Bakı şəhərinə yeridilərkən insan hüquqlarına dair beynəlxalq sənədlər, o cümlədən "İnsan hüquqlarının ümumi Bəyannaməsi", "Vətəndaş və siyasi hüquqlar haqqında" və "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" beynəlxalq paktlar, habelə keçmiş SSRİ və Azərbaycan SSR-in konstitusiyaları kobudcasına pozuldu. Sovet Ordusunun böyük kontingentinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi. Kommunist diktaturası Çexoslovakiyaya, Macarıstana, Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni hətta o zamankı Sovet İttifaqının müttəfiq respublikalarından biri olan Azərbaycanda da təkrarlamaqdan çəkinmədi. Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni əsgər və zabitləri, sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantlar da daxil edilmişdi.

SSRİ DTK-nın "Alfa" qrupu yanvarın 19-da saat 19. 27-də Azərbaycan televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil olaraq əhaliyə divan tutmağa başladı. M. Qorbaçovun fərmanı qüvvəyə minənədək – yanvarın 20-də gecə 1-dək artıq 9 nəfər öldürülmüşdü. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı artıq 100 nəfərə çatmışdı. Halbuki, Qorbaçovun Azərbaycana ezam etdiyi yüksək vəzifəli emissarlar həyasızcasına bəyan edirdilər ki, Bakıda fövqəladə vəziyyət elan olunmayacaqdır.

Azərbaycanın informasiya blokadasına alındığı bir şəraitdə baş vermiş həqiqətləri operativ surətdə dünya ictimaiyyətinə çatdırmaq zərurəti yaranmışdı. Dəhşətli faciəyə kəskin etiraz olaraq 1990-cı il yanvarın 21-də ailəsi ilə birgə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək mətbuat konfransı keçirən ümummilli lider Heydər Əliyev hadisəyə operativ və düzgün qiymət verən ilk vətənpərvər siyasi xadim idi. Psixoloji və ruhi sarsıntı içərisində yaşayan azərbaycanlılar 1990-cı il yanvarın 21-də onun Moskva nümayəndəliyinin binasında qəzəbli və qətiyyətli bəyanatının doğurduğu əks-sədanı eşitdilər. Heydər Əliyev bütün təzyiqlərə və təhdidlərə baxmayaraq, mənsub olduğu xalqın faciəsinə məsuliyyət daşıyanları Kremlin bir addımlığında, həm də bütün dünyanın gözü qarşısında ittiham edirdi: "Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm".

Azərbaycan xalqına qarşı cinayət törədən şəxslərin ciddi şəkildə cəzalandırılması məsələsi onun fəaliyyətinin bütün sonrakı mərhələlərində də aktuallığını qoruyub saxlamışdır. Ulu öndər Heydər Əliyev həmişə bu mövqedə olmuşdur ki, xalqa qarşı törədilən hər hansı cinayət cəzasız qalmamalıdır. Təsadüfi deyil, hadisəyə ilk hüquqi siyasi qiymət də 1991-ci il noyabr ayında, onun Naxçıvan Ali Sovetinə rəhbərlik etdiyi vaxtda verildi. Heydər Əliyev 1990-cı ilin iyulunda Naxçıvana qayıtdıqdan və 1991-ci il sentyabr ayının 9-da Naxçıvan Ali Məclisinin sədri seçildikdən sonra 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət vermək imkanı yarandı. Həmin il noyabr ayının 21-də Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Ali Məclisi tərəfindən qəbul edilmiş müvafiq qərarda 20 Yanvarın Milli Matəm Günü kimi qeyd olunması qərara alınmışdı. Qərarda ilk dəfə olaraq faciənin əsas günahkarları adbaad sadalanmış və onların birbaşa məsuliyyət daşıdıqları göstərilmişdi. Bu, əslində, hadisəyə verilən ilk rəsmi siyasi qiymət idi. Qəbul olunan sənəddə həmçinin göstərilirdi ki, respublika rəhbərliyi xalqa xəyanət yolu tutaraq bu qəsdin qarşısını almaq üçün heç bir əməli tədbir görməmiş, səbatsızlıq göstərmiş, yol verilən cinayətin iştirakçısı ola-ola, zahirən hadisələrdən kənarda qalmağa çalışmışdır.

Bu sənəd ümummilli lider Heydər Əliyevin nə qədər cəsarətli və qorxmaz, Vətənini və xalqını sevən, bu yolda ən ağır mübarizədən belə çəkinməyən fenomenal şəxsiyyət olduğunu təsdiqləyir.

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinə tam siyasi-hüquqi qiymət verilməsi vəzifəsinin qarşıya qoyulması günün tələbi idi. Çünki Azərbaycan tarixinin, azadlıq uğrunda mücadiləsinin şanlı səhifələrindən biri kimi bu, xalqımızın müstəqillik yolunda çarpışmasının dolğun mənzərəsini əks etdirməli idi. Heydər Əliyev dövrün mürəkkəbliyinə və görüləsi işlərin çoxluğuna baxmayaraq, tariximizin şanlı və qanlı səhifəsi sayılan 20 Yanvar faciəsinin başvermə səbəbləri və günahkarların araşdırılması ilə də məşğul oldu. Heydər Əliyev 1994-cü il yanvarın 5-də 20 Yanvar faciəsinin dördüncü

ildönümünün keçirilməsi ilə bağlı imzaladığı fərmanda Milli Məclisə tövsiyə olunurdu ki, faciəyə tam siyasi-hüquqi qiymət verilsin.

Bundan sonra aparılan araşdırmalar nəticəsində məlum oldu ki, sən demə, 20 Yanvar faciəsinin səbəblərinin tam açıqlanmamasında maraqlı olan qüvvələr var imiş. 1991-1993-cü illərdə hakimiyyətdə qalmaq istəyən iqtidar, hakimiyyətə gəlmək istəyən müxalifət nümayəndələri bu dəhşətli faciədən yararlanmaq istəyirmiş. Prezident Heydər Əliyev 1994-cü il yanvarın 12-də dövlət komissiyasının geniş iclasında Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının 1992-ci il 19 yanvar tarixli qərarını xatırladaraq bu qərarda yanvar hadisələrinin əsl səbəblərinin açıqlanmadığını, həqiqi günahkarların aşkar edilmədiyini, iki il ərzində həmin qərarın özünü doğrultmadığını nəzərə çatdırdı. İclasda çıxış edən cənab Heydər Əliyev ötən dörd ildə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməməsini, o zamankı Milli Şura tərəfindən qəbul edilmiş qərarın səthi, başdansovdu hazırlandığını ciddi tənqid etdi: “Bu qərarı oxuyanda, doğrusu, çox həyəcanlandım. Düşündüm ki, Milli Şura nə üçün öz millətinin, öz xalqının aqibətinə, taleyinə bu qədər biganə qalıb? Qərarı oxuyandan sonra bir daha qəti fikrə gəldim ki, bu faciəyə, bu hadisəyə niyə indiyə qədər siyasi qiymət verilməyib... Mənim fikrim belədir ki, bu qərarın qəbul edilməsi Azərbaycan xalqına, bəlkə də, 20 Yanvar 1990-cı ildə olan faciə kimi böyük xəyanətdir. İki il keçəndən sonra deputat-istintaq komissiyasının ortaya bir şey çıxarmaması, boş-boş sözlərlə camaatı aldatması, qərarda bu komissiyanın işinin qənaətbəxş hesab edilməsi, yenə də deyirəm, xəyanətdir”.

Yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinin mahiyyəti məhz onun təşəbbüsü və bilavasitə iştirakı ilə açıqlandı. 1994-cü il martın 29-da “1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında” adlı xüsusi qərar qəbul edildi. Beləliklə, Heydər Əliyevin təkidi və rəhbərliyi sayəsində xalqımıza qarşı törədilən bu qanlı və qəddar aksiyaya siyasi-hüquqi qiymət verildi.

Ümummilli liderin 2000-ci ildə, 20 Yanvar faciəsinin 10-cu ildönümü haqqında imzaladığı fərmanda deyilirdi ki, XX əsr tarixində totalitarizmin törətdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı işlədilmiş cinayət, əslində, bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli bir əməldir. Həmin cinayəti törədənlər indiyədək öz cəzalarını almamışlar. Xalqımız əmindir ki, müqəssirlər tarix, bəşəriyyət, eləcə də Azərbaycan xalqı qarşısında cavab verməli olacaqlar.

20 Yanvar hadisələrində müəyyən qurbanlar verilsə də, həmin faciəli günlər inam və sınaq günü kimi də yadda qaldı. Qəhrəman xalq həmin gün özünün azad və müstəqil yaşamağa layiq olduğunu bir daha sübut etdi. Faciə baş verən zaman kimin kim olduğu da müəyyənləşdi. Özü təqib və təhlükələrlə dolu şəraitdə yaşamasına baxmayaraq, Heydər Əliyev əli xalqın qanına batmışları ifşa etməklə xalqını hamıdan çox sevdiyini və daim onunla birlikdə olduğunu nümayiş etdirdi.

Ulu öndər Heydər Əliyev 20 Yanvar faciəsinin bütün dünyada tanıdılmasına, şəhidlərin xatirəsinin ucaldılmasına hər zaman diqqətlə yanaşıb. Elə bu məqsədlə Şəhidlər Xiyabanında Azərbaycanın azadlığı uğrunda şəhid olanların xatirəsinə ucaldılmış “Əbədi məşəl” abidə kompleksi də məhz Heydər Əliyevin təşəbbüsü ilə inşa olunub. Bakının görkəmli yerində yerləşən, hündürlüyü 22 metr olan bu möhtəşəm abidə Heydər Əliyevin diqqət və qayğısı ilə qısa müddətdə tikildi. Ulu öndər bu abidənin ucaldılmasını şəhidlərin qarşısında Azərbaycan xalqının müqəddəs və mənəvi borcunun yerinə yetirilməsi kimi dəyərləndirirdi. 1998-ci ilin oktyabrında abidənin açılışında Heydər Əliyev deyirdi: “Mən çox məmnunam ki, ötən illərdə şəhidlərin xatirəsini əbədiləşdirmək üçün və onların qəhrəmanlıq nümunələrini Azərbaycanda təbliğ etmək üçün, gənc nəslə, yeni-yeni nəsillərə çatdırmaq üçün bütün işləri görmüşük və bundan sonra da görəcəyik”.

Ümummilli lider Heydər Əliyev 20 Yanvar şəhidlərinin xatirəsini daim əziz tutmuş, onların adlarının əbədiləşdirilməsi məqsədilə bir sıra sərəncamlar imzalamışdır. Ulu öndərin 2000-ci il 17 yanvar tarixli fərmanına əsasən, 20 Yanvar təcavüzü zamanı yüksək vətəndaşlıq nümunəsi göstərərək həlak olmuş Azərbaycan Respublikası vətəndaşlarına “20 Yanvar şəhidi” fəxri adı verilmişdir. Eləcə də “1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə dövlət qayğısının artırılması haqqında” 2003-cü 15 yanvar tarixli sərəncama əsasən, əlil olmuş şəxslərə verilən aylıq müavinət artırılmışdır.

Ulu öndər xalqın faciələrinə daim xüsusi həssaslıqla yanaşmış, eyni zamanda, 20 Yanvar hadisələri zamanı həlak olmuş insanların xatirəsinin əbədiləşdirilməsi istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirmişdir. Məhz böyük öndərin sərəncamı ilə 20 Yanvar Ümumxalq Hüzn Günü elan olunmuşdur. Şəhidlərin xatirəsinə ucaldılmış xüsusi memorial kompleks də Heydər Əliyevin təşəbbüsü ilə ərsəyə gəlmişdir. Həmin gün

Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərin xatirəsi dövlət səviyyəsində böyük ehtiramla yad edilir.

**“Xalq qəzeti”.**- 2010.- 20 yanvar.- N 14.- S.4.

## Şəhidlərimizin ruhuna təskinlik gətirək

**Qüdrət Əbdülsəlimzadə,**
iqtisad elmləri doktoru, professor

**Redaksiyadan: 20 yanvar şəhidlərinin dəfnini təşkil etmiş ictimai dəfn komissiyasının sədri, iqtisad elmləri doktoru, professor Qüdrət Əbdülsəlimzadənin "20 yaşlı 20 Yanvar" kitabı çapdan çıxmışdır. Bu kitaba müəllifin 20 Yanvar hadisələri və şəhidlərin dəfninin təşkili ilə bağlı məqalə və müsahibələri, eləcə də bəzi sənədlər daxil edilmişdir. Kitabın "Nəticə" hissəsini qısa ixtisarla oxuculara təqdim edirik.**

Qədim və zəngin bir tarixə malik olan Azərbaycan xalqının milli-azadlıq hərəkatı prosesində 20 Yanvar, həqiqətən, oyanış, habelə özünüdərkin ifadəsi kimi tamamilə yeni, son məqsədə çatmaq, müstəqil dövlətçilik ənənələrini bərpa etmək uğrunda mübarizə yolunda, şübhəsiz, ayrıca mərhələ təşkil edir.

Xalqımızın keçdiyi əzablı, lakin şərəfli, məşəqqətlərlə dolu sınaq və oğul-qızlarının qanı ilə suvarılmış uzun mübarizələrin məntiqi nəticəsi olan 20 Yanvar hadisələri, onu bütün dünyaya öz tarixi adət-ənənələrinə bağlı, habelə müasir dünyanın sivil qaydaları ilə yaşamağa qadir yetkin, eyni zamanda, əyilməz, müdrik bir millət kimi tanıtdı.

İmperiya ağalarının, onun müti ideoloqlarının və satqın cızmaqaraçı yazarlarının, habelə "sapı özümüzdən olan baltaların" bu hadisələrin əsl səbəbləri, hərəkətverici qüvvələri, proseslərin məqsədi, obyektiv gedişi, nəhayət acılı-ağrılı faciəli nəticələri haqqında böhtan-iftiralarla dolu qərəzli mövqelərinə baxmayaraq, tezliklə dünya ictimaiyyəti görüb inandı ki, Qanlı Yanvar istiqlaliyyət, suverenlik, müstəqillik uğrunda mübarizəyə qalxmış millətin, son 200 il ərzində işğalçı çarizmin müstəmləkəçilik siyasətinə, zorakı-totalitar bolşevik rejiminin mənfur ideologiyasına qarşı haqq-ədalət mücadiləsinin yeni mərhələsinin unudulmaz parlaq səhifələridir.

Sərt fövqəladə vəziyyət gerçəkliyi, yerli hakimiyyət qurumlarının iflicliyi, hərbi vertolyotların əsəbləri oynadan gurultusu, vaxtaşırı şəhərin müxtəlif hissələrindən eşidilən atəş səsləri, kütləvi tədbirlər, təhqiramiz yoxlamalar, qanunsuz həbslər, hərbçilərin harın hərəkətləri, obyektiv rəsmi məlumatsızlıq və informasiya məhdudluğu şəraitində Azərbaycan xalqı zəhmli ordunun qəfil zərbələri ilə əzilsə də, zülmün hökmünə sinə gərməsi, özündə qeyrət-cəsarət taparaq mübarizəsini yeni vasitələrlə davam etdirməsi tarixi faktdır.

Millətin ayrı-ayrı ictimai təbəqələrinə məxsus oğul-qızlarının müxtəlif aşkar-gizli kanallardan istifadə etməklə, 20 Yanvar faciəsi barədə dünya ictimaiyyətinə ilkin həqiqətləri çatdırmaq səyləri; ümumxalq mitinqinin hökmü ilə şəhidlərin dəfni üçün konkret ərazi seçilməsi və dərhal qəbirlərin qazılması, habelə digər təşkilati işlərə başlamaq üçün İctimai Komissiyanın formalaşdırılması; bütün maneə və hədələrə baxmayaraq 1990-cı il yanvarın 21-i gecəsi tam tərkibdə olmasa da, parlamentin növbədənkənar fövqəladə sessiyasının çağırılması, habelə orada baş vermiş hadisələrin qızğın müzakirə edilərək siyasi cəhətdən qiymətləndirilməsi; Şəhidlərin dəfninə hazırlıq ərəfəsində məscidlərin və din xadimlərinin göz yaşları axıdaraq, fədakarlıqla yerinə yetirdikləri dini ayin təyinatlı təmənnasız xidmət zəhmətlərini, habelə sonrakı savab fəaliyyətlərini; iki milyona yaxın adamın iştirak etdiyi şəhidləri onların şərəfinə adlandırılmış "Şəhidlər Xiyabanı"nda son mənzilə yola salınması mərasiminin əzəmətli etiraz dalğalarını xatırladan nümayiş xarakterli unudulmaz mənzərəsi; ilk gündən başlayaraq, xalqın iradəsi ilə bu müqəddəs yerin milli ziyarət və and ocağına çevrilməsi, şübhəsiz, hadisələrə tənqidi təhlil mövqeyindən yeni şüur, habelə özünüdərk amilləri müstəsivində yanaşmağın nəticəsi idi.

O qanlı-qadalı "qara yanvar" gecəsindən başlanmış şəhid ailələrinə və yaralılara ümumxalq qayğısı, "Səhər" və "Fövqəladə vəziyyət" qəzetləri əməkdaşlarının əsl mərdlik tələb edən, həmin hadisələrə həsr olunmuş xüsusi nömrələr buraxmaları, hüquq-mühafizə orqanları sisteminin bir sıra işçilərinin öz talelərini zərbə altına qoyaraq, İctimai Dəfn Komissiyasına zəruri ehtiyat-xəbərdarlıq məlumatları çatdırmaları, Abşeron kəndləri sakinlərinin zəhmətlə becərdikləri və dolanacaq vasitəsi olan al qərənfilləri Bakının küçə, meydan və

yollarına səpmələri, “Azadlıq” radiostansiyası Azərbaycan verilişləri redaksiyasının kədər və ürək yanğısı ilə dünyaya yaydığı obyektiv məlumatları, “Şəhidlər Xiyabanı” ərazisi və onun ətrafında baş verə biləcək təxribatçılıq hərəkətləri ehtimalından ziyarətə gələn saysız-hesabsız insan axınını qorumaq məqsədilə, yalnız İctimai Komissiyasının bir-iki üzvü ilə əlaqə saxlayan könüllü silahlı dəstə üzvlərinin qeyrət-namus ucalığı, şaxtalı yanvar-fevral gecələrində “Şəhidlər Xiyabanı”nda səhərədək növbə çəkən gənclərin cəsarəti, yaxın-uzaq Azərbaycan rayonlarından, qonşu respublikalardan, xarici dövlətlərdən gəlmiş insanların göz yaşları, qəzəb-nifrət hissləri mürəkkəb mənzərələrini xatırladıqca, həmin faciəli hadisələrin şəhidi yox, şahidi olduğun üçün, sanki, xəcalət çəkir və kövrəlirsən...

Bütün bunlar, habelə söylənməsi və qələmə alınması məsləhət olmayan digər anlar, bəlkə də tarixdə az bənzəri ola biləcək qaynar Qafqaz çılğınlığı ilə təmkinli Şərq müdrikliyinin elə fenomen — möcüzəsidir ki, həmin proseslərin yaşantı hisslərini sakitcə təsvir edib, bütün rəngarəng çalarları ilə canlandırmaq çox çətindir, bəlkə də heç mümkün deyildir.

20 Yanvar hadisələrindən 20 il keçməsinə baxmayaraq, hələ də o günlərin bir sıra “qaranlıq səhifələri” açılmadığından, həmin proseslər barəsində son söz söyləyib qəti nəticəyə gəlmək, habelə hökm vermək hüququnun “zamana ehtiyacı vardır”.

Fikrimi aydınlaşdırmaq üçün qeyd etməliyəm ki, həmin proseslərin meydana çıxmasının tarixi səbəbləri, hazırlanması mərhələləri, həyata keçirilməsi gedişi, sonrakı siyasi-ictimai nəticələri istiqamətində imperiya mərkəzinin, yerli hakimiyyət orqanlarının, kəşfiyyat xidmətlərinin, partiya liderlərinin, hərəkat başçılarının, respublikada vəziyyətin gərginləşdirilməsində və “daha çox qan tökülməsində” maraqlı olub, “bulanıq suda balıq tutmağı” qarşılarına məqsəd qoymuş qüvvələrin, qonşu ölkələrin maraq səviyyəsi, aparıcı dünya dövlətlərinin mövqeyi faktlar, sənədlər, arxiv materialları əsasında öyrənilərək, müqayisəli təhlil edilib, obyektiv surətdə ümumiləşdirilməyincə, nə qədər kədərli səslənsə də, Azərbaycan tarixinin ən yeni dövrünün zirvə səhifələrindən sayılan o günlərin real mənzərəsini yaratmaq çətindir.

Fikrimizcə, 20 Yanvar hadisələrinin tarixi rolu xalqımızın taleyində və onun uzunmüddətli azadlıq hərəkatı mübarizəsi yolunda yeni bir mərhələ olmasında, milli oyanışa və birliyə güclü təkan verməsində, son məqsəd kimi Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsindədir.

Bu gün qarşımızda duran əsas vəzifə cəmiyyətin müxtəlif təbəqələrinin mərkəzləşdirilmiş səylərini qarşıda duran siyasi-ictimai, diplomatik-hərbi, iqtisadi-sosial, mənəvi-əxlaqi problemlərin optimal həlli yollarının tapılmasına yönəltməkdən ibarətdir. Müasir inteqrasiya və beynəlxalq miqyasda qloballaşma prosesləri axarında, dünya təsərrüfat həyatında ölkəmizin malik olduğu potensiala layiq yer tutmaq imkanları məhz bu istiqamətdə axtarılmalıdır. Həmin yolla irəliləyişimiz, köklü problemlərimizin həllini reallaşdırmaqla yanaşı, eyni zamanda, Vətənimiz üzərində dolaşan narahat şəhid ruhlarına, şübhəsiz, təskinlik gətirərdi.

**“Xalq qəzeti”.-** 2010.- 20 yanvar.- N 14.- S.3.

## Müqəddəs məhəbbətin nakam barı

**(Dünyaya gəlməyən 20 yaşlı övladın dilindən)**

**Atam da şəhid, anam da... Biri Vətən, torpaq qurbanı, o biri də eşqinin, məhəbbətinin şəhidi. Atam İlham, anam Fərizə. Heyif ki, onlara heç vaxt belə müraciət edilmədi. Birinə əlisilahlı, bədheybət qatil atəş açdı, o birinə isə elə öz zərif əlləri zəhər içirtdi...**

Mən şəhid olacaq gənclə şəhidliyə qovuşacaq gözəlin arzusu - qarşılıqlı saf məhəbbətlərinin ilk bəhrəsi idim. Bu dünyaya gəlməyə qoymadılar. Bahara tələsirdim, yanvarda gülləbarana tutdular. Günəş həvəsliydim, bir zülmətdə dondurdular. Harayımı eşidən də olmadı. Məni dünyaya gətirməyə borclu insanların öz könüllərindəcə torpağın qoynuna düşdüm. Bəlli də olmadı kim idim, rəngim, ruhum necəydi, çəkim, ölçüm nə idi...

Ürəkdən ürəyə süzülən bir zəif işıq idim, söndürdülər. Qönçələnmiş vüsal çiçəyi idim, açılmağa qoymadılar. Mənə yaman qıydılar. Atama, anama övlad ola bilmədim.

**Atam susdu qan içində,**
**Anam getdi an içində,**
**Bu səbəbdən doğulmadım**
**Ruh oldum can içində.**

Bu daşlaşmış məhəbbətin qəm oylağıyam, dərd-səriyəm, həsrətiyəm, nakam bir ailənin don vurmuş bənövşəsiyəm, ya da bəlkə qartal balasıyam. Hərdən ziyarətə gələnlərin səsini - bayatılarını eşidirəm. Atam, anam ən yuxa, kövrək sözlərlə əzizlənir, gülə-çiçəyə bürünür. Yenə də harayım eşidilmir, səsim heç kimə çatmır. Nənə, baba, xala, bibi, dayı, əmi, ay bu qoşa məzarın sahibləri! Hərdən məni də yada salın, daha körpə deyiləm ki?! İndi mənim 20 yaşım var. Görmədiyiniz qamətimi oxşayın, gülməyən üzümə, açılmayan gözümə, silah tutmayan əllərimə, Vətənə sipər olmayan halıma, əsgər gedə bilməyən vücuduma bir ürəkdən ağlayın. Axı hardan biləsiniz kim idim mən?! Vətənə oğul da olardım, mərd ürəkli, qeyrətli bir qız da. Amma mən faciə qurbanı oldum. Atamın, anamın yolunu tutdum. Mən də beləcə, adsız-sansız şəhid oldum. Bir-birlərini candan sevən valideynlərimi tənha qoymadım. Onların ruhlarını öz körpəcə canımda birləşdirdim. Qovuşdurdum ki, atam, anam haqq dünyasında mənsiz olmasınlar. Bəlkə də bəxtəvərlikdir bu? Ciyərparaları da onlarla birlikdədir.

Atam Vətən aşiqi idi, onun azadlığı yolunda da şəhid düşdü. Anam da atamı çox sevirdi. Onun bu gedişinə dözmədi, sədaqətini, mətanətini göstərdi. Məhəbbətin ölümə qalib gəlmək qüdrətini zərif vücudu ilə dünyaya bəyan etdi. Əlisilahlı zalımlara meydan oxudu: "Siz öldürərsiniz, qətlə yetirərsiniz, amma bizi bir-birimizdən ayıra bilməzsiniz". Atam ölümsüzlüyə, anam da atama qovuşdu. Mən də bu hünərli, etibarlı əzizlərimə fəda oldum. Anamdan ayrılmadan atama yetişdim. Təki Vətən yaşasın!

İllər ötəcək, atam, anam qocalacaq, mən də yaşa dolacağam. Amma bir bəxtəvərlik var ki, biz bir daha ölməyəcəyik. Elə bax bu Şəhidlər xiyabanında daşlaşmış səadətin simvolu kimi əbədi məhəbbət dastanına dönəcəyik. Həmişə bizdən danışacaqlar. Hər kəs bizi yad edəcək, hər kəs bizə and içəcək, söz verəcək!

Zəmanənin nəfəsi çox ağır idi. Atam, anam bu kələfi dolaşmış dünyanın düyününü açmaqda köməksiz qaldılar. Amma əyilmədilər. Atam silahlı düşmənin, anam da ölümün üstünə qorxub çəkinmədən, qalib kimi mərd-mərdanə yeridi. Azərbaycan övladlarının torpaq eşqini və məhəbbətini zirvələrə qaldırdılar. Öz ölümləri ilə ona əbədi heykəl qoydular. Adları tarixin pozulmaz səhifələrinə əbədilik yazılan şəhidlərimiz gələcək nəsil üçün, əslində, bir Vətən dərsliyi yaratdılar. İnsan Vətənini necə sevə bilər, insan sevgisi yolunda ölməyi necə bacarar? Atamla anamın həyatında bu sualların cavabları var. Unudulan mən oldum - körpəcə fidanları. Bu

dünyanın rəngini görməyən, amma hər şeyi duyan mən. Vətən məhəbbəti gör necə qüdrətlidir, hər şeyə, hər istəyə qalib gəlir.

O gecə uşaqlara da güllə atdılar. O gecə dünyaya yeni körpələr də gəldi. Bir tərəfdə ölüm, bir tərəfdə həyat başladı. Bəzən də bir-birinə qarışdı. Bəlkə mənim gələcək sevgilim də o gecə doğulanların arasında olub. Bilən varmı? O uşaqların taleyində yaşarıq. Öldürülən də bizik, doğulan da.

Mənim şəhid atam, mənim şəhid anam! Ruhunuz inciməsin. Məni bu dünyaya gətirə bilmədiyiniz üçün küskün deyiləm ki! Mən sizsiz yetim olardım. Bəlkə sizin fədakarlığınızdan da gec xəbər tutardım. Bu qara mərmərdən boylanan şəklinizə baxa-baxa qalardım. Amma indi içinizdəyəm, birlikdəyik. Canım canınızdan ayrılmadı. Heç çoxu bilmədi bu dərdimizi. Bu qoşa məzarda bir varlıqda uyuyuruq. İndi mən 20 Yanvarla yaşıdam. Mən də bu cür şəhidəm! Qəmlənməyə dəyərmi? Şəhidlik ki ölməzlikdir.

Dünyaya gəlməyən, kimliyi bəlli olmayan 20 yaşlı şəhidimiz! Sənə ağı deməyə kimin dili gələr? Sən Cənnət quşuydun. O müqəddəs ünvana da qanadlandın. Bizi yandıran odur ki, sən tək deyildin. O gecənin qara caynaqları həm də ana bətnində nə vaxtsa uyuyacaq neçə körpənin həyatına qəsd demək idi. Çoxu sənin kimi heç doğulmadı da! Yerə-göyə sığmayan bu dərdlərin çəkilməsi zor oldu. Bax, bu düşüncələrin əlində əzilərkən qəfildən qapı döyüldü. Qonşu idi. 1990-cı ilin 20 Yanvarında doğulmuş oğlu Qalibin ad gününə çağırırdı. Amma evə yığışmadıq. Hamılıqla Şəhidlər xiyabanına yollandıq. Qalib Fərizə ilə İlhamın məzarı önündə sükuta qərq oldu. Kimsə ağı deyirdi:

**Boya biç,**
**Qamətə tut, boya biç**
**Yaxasız köynəyimi**
**Göz yaşınla boya, biç.**

**Flora Xəlilzadə**
**"Azərbaycan".-** 2010.- 20 yanvar.- N 14.- S.6.

## Müstəqillik tariximizin şərəfli tarixi

**"Ən ağır sınaqlara**
**sinə gərmək əzmini bütün dünyaya**
**nümayiş etdirən Azərbaycan övladları 1990-cı ilin yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar".**

**İlham ƏLİYEV**

Azərbaycanın çağdaş tarixində elə şərəfli günlər var ki, bütövlükdə xalqın milli ideallar uğrunda mübarizəsini, bu yolda hər cür məhrumiyyətlərə sinə gərmək əzmini özündə təcəssüm etdirir. 20-ci ildönümü tamam olan 20 Yanvar faciəsi də milli qəhrəmanlıq salnaməmizdə belə parlaq səhifələrdən biridir. 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə ölkəmizin ərazi bütövlüyünə qarşı yönəlmiş təcavüzə etiraz edən, haqq-ədalətin bərqərar olunmasını istəyən, azadlıq, müstəqillik uğrunda şərəfli mücadilə aparan xalqımızın inam və iradəsini qırmaq, milli mənliyini məhv etmək məqsədilə totalitar sovet rejiminin həyata keçirdiyi terror aktı nəticəsində bəşər tarixində insanlığa qarşı törədilmiş ən qanlı hadisələrdən biri baş verdi.

Azərbaycan xalqı əliyalın, fəqət sarsılmaz iradə ilə başdan-ayağa silahlanmış qəddar sovet hərb maşınına qarşı duraraq imperiyanın Azərbaycan milli azadlıq hərəkatını susdurmağa yönələn cəhdlərini tamamilə boşa çıxardı. Hadisənin başvermə səbəbləri ilə bağlı zaman-zaman müxtəlif ziddiyyətli fikirlərə, rəylərə rast gəlinsə də, bütün mövqelər bir nöqtədə kəsişir: bu tarixi gündə Azərbaycan xalqı əsrlər boyu qəlbində yaşatdığı milli azadlıq və istiqlal istəyindən geri çəkilməyəcəyini, bu müqəddəs amal uğrunda hətta canından belə keçməyə hazır olduğunu bütün dünyaya nümayiş etdirdi.

1990-cı ilin 20 Yanvarında baş verən faciəli hadisələr süquta uğramaqda olan sovet imperiyasının mənfur repressiya maşınının xalqımıza qarşı törətdiyi amansız cinayət idi. Həmin gün 133 dinc insanın xüsusi qəddarlıqla qətlə yetirilməsi, 1000-ə yaxın insanın yaralanması xalqımız üçün böyük dərd, faciə idi. Lakin eyni zamanda, bu hadisə xalqımızın milli azadlıq və müstəqillik uğrunda mübarizəsinin kulminasiya nöqtəsi olmaqla, çağdaş tariximizə qürur və şərəf mübarizəsi kimi daxil oldu.

Tarixi prizmadan yanaşdıqda, aydın olur ki, 20 Yanvara aparan yol 1988-ci ilin milli azadlıq hərəkatından başlanır. Keçmiş imperiya rəhbərliyinin razılığı ilə Ermənistanın Azərbaycana qarşı başladığı ərazi iddiaları nəticə etibarilə xalqımızın müstəqillik və istiqlaliyyət uğrunda mübarizəsinə impulslar verdi. Xalqımız ərazi bütövlüyünü qoruyub saxlamaq üçün 1988-ci ildə iradəsini ortaya qoydu. Respublika vətəndaşları mərkəzin Azərbaycana qarşı məqsədli şəkildə həyata keçirdiyi məkrli plana etiraz edir, Dağlıq Qarabağdakı ermənilərin separatçı və ekstremist hərəkətlərinin qarşısının alınmasını, haqq-ədalətin bərpa olunmasını istəyirdi. Ərazisinin ilhaq edilməsi cəhdlərinə qarşı qətiyyətlə çıxan xalqımızın milli ruhu, özünüdərk hissi yüksəlmiş, müqavimət əzmi artmışdı. Həmin dövrdən başlanan ümumxalq hərəkatı meydan epopeyası kimi yüksək zirvəyə yüksəlmişdi. Rejimin həyata keçirdiyi repressiv tədbirlər Azərbaycanda meydan hərəkatının qarşısını müəyyən qədər alsa da, xalqın içində olan narazılığı qətiyyən boğa bilmədi.

1990-cı ilin 20 Yanvar qətliamı isə keçmiş SSRİ rəhbərliyinin əvvəlcədən hazırlanmış xüsusi planı əsasında həyata keçirildi. SSRİ DTK-sının "Alfa" qrupu yanvarın 19-da saat 19. 27-də Azərbaycan Televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil olaraq əhaliyə divan tutmağa başladı. M. Qorbaçovun fərmanı qüvvəyə minənədək - yanvarın 20-də gecə saat 1-dək artıq 9 nəfər öldürülmüşdü. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika Radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı artıq 100 nəfərə çatmışdı.

Azərbaycanın informasiya blokadasına alındığı bir şəraitdə baş vermiş həqiqətləri operativ surətdə dünya ictimaiyyətinə çatdırmaq zərurəti yarandı. Dəhşətli faciəyə kəskin etiraz olaraq 1990-cı il yanvarın 21-də ailəsi ilə birgə Azərbaycanın Moskvadakı Daimi nümayəndəliyinə gələrək bəyanatla çıxış edən ümummilli lider

Heydər Əliyev hadisəyə operativ və düzgün qiymət vermiş ilk vətənpərvər siyasi xadim idi. Psixoloji və ruhi sarsıntı içərisində yaşayan azərbaycanlılar 1990-cı il yanvarın 21-də Heydər Əliyevin Moskva nümayəndəliyinin binasında qəzəbli və qətiyyətli bəyanatının doğurduğu əks-sədanı eşitdilər. Ulu öndər bütün təzyiqlərə və təhdidlərə baxmayaraq, mənsub olduğu xalqın faciəsinə məsuliyyət daşıyanları Kremlin bir addımlığında, həm də bütün dünyanın gözü qarşısında ittiham etdi: "Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm".

Ulu öndərin "Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır" tələbi onun bu məsələ ilə bağlı sonralar etdiyi bütün çıxışlarının, bəyanatlarının, imzaladığı sənədlərin əsas leytmotivi olmuşdur. Azərbaycan xalqına qarşı cinayət törədən şəxslərin ciddi şəkildə cəzalandırılması məsələsi onun fəaliyyətinin bütün sonrakı mərhələlərində də öz aktuallığını qoruyub saxlamışdır. 20 Yanvar hadisələrinə ilk obyektiv hüquqi-siyasi qiymət isə 1991-ci il noyabr ayında - onun Naxçıvan Ali Sovetinə rəhbərlik etdiyi vaxtda verilmişdir. Ulu öndər Heydər Əliyev 1990-cı ilin iyulunda Naxçıvana qayıtdıqdan və 1991-ci il sentyabr ayının 9-da Naxçıvan Ali Məclisinin Sədri seçildikdən sonra faciəyə hüquqi-siyasi qiymət vermək imkanı yarandı. Həmin il noyabr ayının 21-də Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Ali Məclisi tərəfindən qəbul edilmiş müvafiq qərarda 20 Yanvarın Milli Matəm Günü kimi qeyd olunması qərara alınmışdı.

Ulu öndərin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinə tam siyasi-hüquqi qiymət verilməsi onun qarşıya qoyduğu vacib tələb idi. Heydər Əliyev dövrün mürəkkəbliyinə və görüləcək işlərin çoxluğuna baxmayaraq, tariximizin şanlı və qanlı səhifəsi sayılan 20 Yanvar faciəsinin başvermə səbəbləri və günahkarların araşdırılması ilə də məşğul oldu. Ulu öndərin 1994-cü il yanvarın 5-də 20 Yanvar faciəsinin dördüncü ildönümünün keçirilməsi ilə bağlı imzaladığı fərmanda Milli Məclisə faciəyə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olunurdu.

Heydər Əliyev 1994-cü il yanvarın 12-də dövlət komissiyasının geniş iclasında Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının 1992-ci il 19 yanvar tarixli qərarını xatırladaraq bu qərarda yanvar hadisələrinin əsl səbəblərinin açıqlanmadığını, həqiqi günahkarların aşkar edilmədiyini, iki il ərzində həmin qərarın özünü doğrultmadığını nəzərə çarpdırdı. İclasda çıxış edən Heydər Əliyev ötən dörd ildə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməməsini, o zamankı Milli Şura tərəfindən qəbul edilmiş qərarın səthi, başdansovdu hazırlanmasını ciddi tənqid etdi. "Bu qərarı oxuyanda, doğrusu, çox həyəcanlandım. Düşündüm ki, Milli Şura nə üçün öz millətinin, öz xalqının aqibətinə, taleyinə bu qədər biganə qalıb? Qərarı oxuyandan sonra bir daha qəti fikrə gəldim ki, bu faciəyə, bu hadisəyə niyə indiyə qədər siyasi qiymət verilməyib... Mənim fikrim belədir ki, bu qərarın qəbul edilməsi Azərbaycan xalqına bəlkə də 20 Yanvar 1990-cı ildə olan faciə kimi böyük xəyanətdir".

Ümummilli liderin 2000-ci ildə 20 Yanvar faciəsinin 10-cu ildönümü ilə bağlı imzaladığı fərmanda deyilirdi ki, XX əsr tarixində totalitarizmin törətdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı işlədilmiş cinayət, əslində, bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli bir əməldir. Həmin cinayəti törədənlər indiyədək öz cəzalarını almamışlar. Xalqımız əmindir ki, müqəssirlər tarix, bəşəriyyət, eləcə də Azərbaycan xalqı qarşısında cavab verməli olacaqlar.

**İ. ƏLİYEVA**

**"Azərbaycan".-** 2010.- 20 yanvar.- N 14.- S.4.

# Faciələrimizin ibrət dərsləri

**Qafar Əliyev,**
Azərbaycan Respublikası Prezident Administrasiyası İctimai-siyasi məsələlər
şöbəsinin sektor müdiri

**Azərbaycan qədim tarixə, zəngin mədəniyyətə, tükənməz təbii sərvətlərə və əlverişli geostrateji mövqeyə malik olduğundan əsrlər boyu bütün güclü dövlətləri, fatehləri özünə cəlb etmiş, işğalçıların təcavüzlərinə məruz qalmış, aramsız davam edən soyqırımlarının və deportasiyaların qurbanı olmuşdur. Bu, Azərbaycan tarixinin heç kim tərəfindən inkar olunmayan acı reallıqlarıdır. İstər yunanlar, romalılar, ərəblər və monqollara, istərsə də farslar və ruslara məxsus imperiyalar həm qurulub möhkəmlənərkən, həm də süqut edib dağılarkən ermənilər bütün əlverişli məqamlardan faydalanaraq ərazilərini genişləndiriblər. Beləliklə, dövlət quran erməni millətçilərindən fərqli olaraq, Azərbaycan və ya bu dövlətin ərazilərində parçalanmış xanlıqlar əlverişli tarixi şanslardan yararlanmaq, qüdrətli dövlətə çevrilmək üçün nadir imkanlardan istifadə etmək fürsətlərini əllərindən buraxıblar.**

20 Yanvar faciəsinin 20-ci ildönümü ərəfəsində artıq bizə bütün faciələrimizi yenidən nəzərdən keçirməyə, hadisələri çılğın hisslərdən, emosional gərginliklərdən fərqli soyuq təfəkkür, analitik düşüncə tərzi ilə nisbətən geniş diapazonda araşdırmağa imkan verir. Əgər biz 20 il əvvəl 20 Yanvar faciəsini yalnız Bakıda, Azərbaycanda gedən siyasi proseslərin baxış bucağı altında nəzərdən keçirirdiksə, indi bu hadisələrə bütün Qafqazın, hətta müasir dünyanın hərbi-siyasi kontekstində yenidən yanaşmağımız zəruridir. Bakıda ötən əsrin əvvəlindəki mart qırğınları, 20 Yanvar, Xocalı faciəsi və Dağlıq Qarabağ müharibəsi nəyə xidmət edirdi, erməni millətçilərindən başqa hansı supergüclərin maraqlarını təmin edirdi, bu hadisələrin arxasınca dünyanın siyasi arenasında hansı proseslər gedirdi və bu faciələr bir katalizator kimi dünyanın hərb səhnəsində hansı münaqişələrin həllinə, hansılarının dərinləşməsinə təkan verirdi?

Hər bir xalqın və ölkənin tarixində onun inkişafı, tərəqqisi və qələbələrindən başqa, süqutuna, məğlubiyyətlərinə səbəb olan faciələr olur. Əslində, dövlət, xalq varsa, onun sərvətləri və ərazilərinə nisbətən varlı, iqtisadi cəhətdən güclü dövlətlərin iddialı olması müasir dünya düzənində güclülərlə zəiflərin əbədi çarpışması kimi qeyri-adi deyil, əksinə, gözlənilən bir haldır. Bu baxımdan bütünlükdə Cənubi Qafqaz bölgəsində təbii sərvətləri ilə zəngin olan bir dövlətin də böyük güc mərkəzlərinin strateji maraqları çərçivəsinə daxil olması, burada gedən siyasi və hərbi proseslərdə supergüclərin fəal iştirak etməsi başadüşüləndir. Çünki tarixən Cənubi Qafqazda gedən bütün hərbi proseslərin - münaqişə, toqquşma və müharibələrin əsas motivləri Azərbaycanın təbii sərvətlərinin ya tam, ya da onların üstündə nəzarətin qismən ələ keçirilməsi ilə bağlı olub. Bu baxımdan biz Azərbaycan tarixinin müəyyən dövrlərini nəzərdən keçirəndə qəribə situasiya ilə üzləşirik. Qafqaz uğrunda kim nə qədər vuruşursa vuruşsun, kim qələbə çalırsa çalsın, fərqi yoxdur, son anda qazanan erməni millətçiləri olub. Necə olur ki, dövləti, ordusu və təchizat sistemi, ön və arxa cəbhəsi olmayan bir xalq gözlənilmədən qoşun yaradır, döyüşlərə girir və cəmi bir əsrin içində dövlətini də qurur, ərazilərini də genişləndirir? Lakin əsas döyüşləri aparan dövlətlər isə son nəticədə Cənubi Qafqazda səngimək bilməyən münaqişələrdən savayı nəsə qazanmırlar. Bütün bunlar araşdırılmalı, tədqiq olunmalıdır.

Ermənilər tarixin bütün çətin məqamlarında dünyadakı anarxiya və xaosdan öz millətçi ideyalarını reallaşdırmaq, dövlət qurmaq üçün heç bir vasitədən çəkinmədən məharətlə istifadə edə biliblər. Siyasi təşkilatlar, terrorçu dəstələr və hərbi birləşmələr qismində bütün dünyada bir məqsəd uğrunda təşkilatlanan erməni millətçiləri tarixin bütün təlatümlərindən, tufanlarından maksimum dərəcədə faydalanaraq öz ambisiyalarını təmin edə biliblər. Buna imkan verən birinci amil qeyd etdiyimiz kimi, erməni millətçilərinin bizə nisbətən daha sürətlə təşkilatlanması, daha çevik beynəlxalq şüura təsir edərək Qafqazda baş verənlərə özlərini təmin edən mövqedən siyasi qiymətlərin verilməsinə nail olmasıdır. Bu baxımdan reallıq naminə etiraf etməliyik ki, erməni millətçiləri daha çevik təşkilatlanıb və bütün dünyada Qafqaz bölgəsində baş verən

çoxsaylı terror aktlarına, törətdikləri soyqırımlara, apardıqları etnik təmizləmələrə "əzabkeş xalqın" mənəvi haqqı kimi bəraət qazandıra biliblər.

Ötən əsrlərin tarixinə bir qəzet yazısında qayıtmağın mümkünsüz olduğunu nəzərə alaraq yalnız son yüz ilin hadisələrini ötəri də olsa nəzərdən keçirməyə cəhd edək. Bütün dünyada və Rusiyada XIX əsrin sonunda və XX əsrin əvvəllərində inqilabi proseslər inkişaf edir, fəhlə hərəkatı vüsət alırdı. Erməni millətçiləri bu ərəfədə "Armenekan", "Qnçak", "Daşnaksütyun" və sair təşkilatlarını yaradaraq "Böyük Ermənistan" ideyasını dünyanın siyasi səhnəsinə çıxardırlar.

Artıq real qüvvə kimi təşkilatlanmış erməni millətçiləri ən güclü dövlətlərlə bütün istiqamətlərdə əlaqələrini qurub, yaşadıqları ərazilərdən əməkdaşlıq etdikləri dövlətlərə kəşfiyyat xarakterli məlumatları ötürür, onlardan silah-sursat alır, mümkün qədər hərbi əməliyyatlara qoşulan ölkələrin sayını artırmağa, müharibələrin mərkəzini Qafqaza, ordan da cənuba çəkməyə çalışırdılar. Eyni zamanda, müxtəlif silahlı dəstələri birləşdirmək məqsədilə təbliğat, qorxu və hədə ilə dinc yaşamaq istəyən erməniləri zorla silahlandırıb Azərbaycan ərazilərinə soxur, qırğınlar törədirdilər. Məhz XIX əsrin əvvəllərindən ermənilərin Rusiyanın qəyyumluğu altında Azərbaycan torpaqlarına köçürülməsi ilə paralel, azərbaycanlıların yaşadıqları minillik ərazilərdən kütləvi deportasiyası başlayır. Buna əsas səbəb hər hansı müharibələrin baş verə biləcəyi halda imperiyanın cənubundan doğa bilən təhlükələrə qarşı ermənilərdən ibarət dövlətin Rusiyanın forpostu kimi yaradılmasının zəruriliyinə imperiyanın asanlıqla inanılması olub. Lakin tarix özünü imperiyanın forpostu kimi təqdim etməkdən üzülən erməni millətçilərinin dəfələrlə Rusiyaya etdikləri xəyanətlərin də şahididir. 1917-ci il burjua inqilabından sonra Rusiyada mütləqiyyət zəifləyən kimi "Daşnaksütyun" partiyasının ideoloqu Mkrtıç Portokolyan erməniləri həmişə olduğu kimi türklərə qarşı və həm də tamamilə gözlənilmədən ruslara qarşı mübarizədə birləşməyə çağırıb. Bu günün özündə belə erməni millətçiləri nəinki Rusiyada, hətta ərazilərində yaşadıqları Qərb dövlətlərində iki qanada bölünərək həm iqtidar və həm də müxalifətlə sıx əməkdaşlıq edirlər.

Erməni bolşeviki Stepan Şaumyanın belə bir fikri vardı ki, müsəlman azərbaycanlılarının kortəbii vətənpərvərliyi ermənilərin şüurlu və təşkilatlanmış millətçiliyi qarşısında həmişə aciz qalacaq, məğlubiyyətə uğrayacaq. Lakin Bakıda törətdiyi müsəlman qırğınları ilə qürurlanan Leninin Qafqaz canişini belə vacib siyasi məqamı unudub ki, şüurlu, təşkilatlanmış erməni millətçiliyi faşist ideologiyasından bəhrələndiyindən gec-tez iflasa uğrayacaq, xəstə təxəyyülün məhsulu kimi tarixin arxivinə salınacaq.

Ötən əsrin əvvəlindən 50-ci illərə kimi müharibənin hər ikisində erməni millətçiləri şimal qonşularının qəyyumluğu altında Azərbaycan ərazilərində saysız-hesabsız vəhşiliklər törətdilər, yeni torpaqlar zəbt etdilər, yüz minlərlə azərbaycanlını öz yurdlarından didərgin saldılar. Dünyada baş verən irimiqyaslı müharibələr, faşizmin baş qaldırması elə böyük faciələr idi ki, "balaca və zavallı erməni xalqının" qamarladıqları ərazilər, törətdikləri vəhşiliklər planetin ümumi mənzərəsində bir faciə kimi nəzərə belə çarpa bilməzdi. Bunları qeyd etməkdə məqsədimiz odur ki, 90-cı illərdə erməni millətçiləri heç bir maneə olmadan Azərbaycan torpaqları hesabına ərazilərini genişləndirdilər.

Bu baxımdan erməni millətçiləri üçün XX əsrin birinci yarısı və 90-cı illəri faciələr üstündə qurulan zəfər əsri sayıla bilər. Digər bir tərəfdən Heydər Əliyev kimi tarixi bir şəxsiyyətin Azərbaycan Respublikasına rəhbər təyin edilməsi, 1987-ci ilə kimi keçmiş SSRİ-də ən güclü siyasi liderə çevrilməsi və onun 1993-cü ildə Azərbaycanda təkrar hakimiyyətə qayıdışı erməni millətçilərinin əsrlər boyu reallaşdırılan ideyalarına qarşı əzəmətli, dəf olunması mümkün olmayan sədd çəkdi.

Bu baxımdan XX əsrin əvvəli erməni ideoloqlarının, silahlı quldur dəstələrinin aramsız irəliləyişləri ilə tarixə düşsə də, ulu öndər Heydər Əliyevin sərkərdə qüdrəti sayəsində əsrin sonu bu qələbələrin qarşısının alınması, erməni təbliğat maşınının bir ideologiya kimi əvvəlki gücünü itirməsi ilə tamamlandı. Əsrlər boyu davam edən Ermənistan-Azərbaycan münaqişələrində belə dönüş nöqtəsinin yaranmasında Heydər Əliyev dühasının böyük dövlətçilik təcrübəsi, qeyri-adi siyasi zəkası, tarixi prosesləri öncədən görmə bacarığı və onları vaxtında qabaqlayaraq istiqamətini lazımi məcraya yönəldə bilmək məharəti böyük rol oynadı.

20 Yanvar faciəsini biz adətən Bakıya sovet qoşunlarının yeridilməsi kimi xatırlayırıq, lakin Azərbaycana qarşı aparılan bütün hərbi əməliyyatların, genosid aktlarının, etnik təmizləmələrin və digər aksiyaların kökündə

düşünülmüş, yüzilliklərə hesablanmış erməni işğal proqramının mərhələlərlə reallaşdığını görməmək qeyri-mümkündür. Bu baxımdan tarixi ədalətin bərqərar olması üçün siyasi və hərbi proseslərin ötən əsrin əvvəlindən bu günümüzə kimi bu rakursdan nəzərdən keçirilməsi, təkrar və həm də fərqli bir mövqedən, fərqli düşüncə tərzi ilə araşdırılması zəruridir. Azərbaycan xalqının və bütün bəşəriyyətin qan yaddaşına yazılan 20 Yanvar faciəsi də araşdırılarkən ötən yüzilliyin digər faciələrinin ümumi zəncirində nəzərdən keçirilməli, təhlil olunmalı, bütün oxşar və fərqli məqamlar araşdırılmalıdır.

20 Yanvar faciəsi Azərbaycanda demokratiyanın güclənməsinin, söz və mətbuat azadlığının toxunulmazlığının təmin edilməsinin vacibliyini diktə etdi. O zaman bütün mətbuata susmaq əmr olunmuşdu. Demokratiya, mətbuat və söz azadlığına qoyulan qadağalar, hakimiyyətin idarəçiliyində aşkarlığın, birbaşa ünsiyyətin olmaması xalqla dövlət arasında uçurumun yaranmasına gətirib çıxartdı. Xalqın iradəsinə, dayağına arxalanmayan hakimiyyətin sonu yoxdur. Əgər o dövrdə Azərbaycan dövlətinin səlahiyyətli vəzifə sahibləri ilə xalqın maraqları üst-üstə düşsəydi, biz Yanvar faciəsindən xilas ola bilərdik. Amma respublikaya təyin olunan rəhbərlərin Moskvanın diktəsi ilə hərəkət etməsi, bütün addımlarını və verilən qərarları Moskva ilə razılaşdırması, demokratiyanın boğulmasına gətirdi. Son nəticədə xalqla hakimiyyət arasında uçurum elə dərinləşdi ki, 20 Yanvar faciəsi qaçılmaz oldu.

Bu gün həm inkişaf etmiş Qərb dövlətləri, həm də postsovet məkanına daxil olan bəzi respublikalar Azərbaycanda nüfuzlarını istənilən vasitələrlə qorumaqla təbii sərvətlərimizdən yetərincə faydalanmaqda maraqlıdırlar. Azərbaycana təzyiq göstərmək üçün ən təsirli mexanizm Dağlıq Qarabağ problemidir. Bircə anlığa təsəvvür edək ki, Dağlıq Qarabağ problemi Azərbaycanın xeyrinə həll olunub. Bu halda əksər dövlətlər Azərbaycana təsir edən ən vacib siyasi aləti itirmiş olurlar. Məhz buna görə bəzi dövlətlər aparılan sülh danışıqlarını qeyri-müəyyən müddətə kimi uzatmağa cəhd etdiyindən saysız-hesabsız görüşlərlə problemin həllində görüntü yaratmaqla məşğuldurlar.

Biz ayıqlığımızı itirməməli, diaspor fəaliyyətini gücləndirməli, daxili və xarici siyasətdə çevik və həssas olmalı, dostlarımızla düşmənlərimiz arasındakı fərqi sezməliyik. Bu yaxınlarda Türkiyə ilə Azərbaycan arasında yaşanılan gərginlik onu göstərdi ki, düşmənlərimiz ən yaxın müttəfiqimizi belə öz tərəfinə çəkməkdə maraqlıdır. Yəni, bu təhlükələr realdır.

Ümummilli liderimiz Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda sabitlik yaratması, ölkənin siyasi qüdrətini on il ərzində artırması və bu siyasi kursun, dövlətçilik ənənələrinin, demokratik prinsiplərin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanı müasir dünya düzənində öz layiqli yerinə ucaltdı.

Lakin müasir dünya tarixinin sərt döngələri, müəyyən güc mərkəzlərinin gözlənilməz siyasi gedişləri bizi daim sayıq olmağa, ulu öndərimiz Heydər Əliyevə xas siyasi çeviklik və uzaqgörənliklə hərəkət etməyə sövq edir. Real təhlükələrdən qorunmaq üçün xalq və dövlət arasında inamı, etibarı daha da inkişaf etdirmək, milli birliyi, ümumdünya azərbaycanlılarının həmrəyliyini daha yeni səviyyələrə qaldırmaq vacibdir.

Hər bir məsələnin, o cümlədən faciələrin iki tərəfi var. Yəni, onları araşdırmaq, o hadisələrdən ibrət götürmək, nəticə çıxarmaq mümkündür.

1990-cı ilin Yanvar hadisələrinin arxasınca SSRİ kimi qüdrətli bir dövlət dağıldı. Ermənilər SSRİ-nin dağılmağa doğru getdiyini bilirdilər və duyurdular. Eyni zamanda, bu prosesdə onların böyük bir qismi fəal iştirak edirdi. Ona görə də onlar dağılmaqda olan SSRİ-dən özləri üçün nə isə əlavə torpaq və üstünlük əldə etməyə çalışırdılar. Bu məqsədlə də Dağlıq Qarabağ və ona bitişik rayonların işğal olunması üçün gizli planlar işləyib həyata keçirirdilər. Yəni, bütün faciələrin sonunda xaricdən dəstəklənən, istiqamətləndirilən erməni maraqları dururdu.

Üstündən 20 ildən çox keçməsinə baxmayaraq, bu günün özündə də Dağlıq Qarabağ probleminin öz layiqli həllini tapmaması və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmaması bir daha onu deməyə əsas verir ki, SSRİ-nin dağılması ilə dünyada yaranan geosiyasi reallıqlar hələ də öz məntiqi sonluğuna çatmamışdır. Dünyada yenə də satış bazarları və enerji mənbələri uğrunda mübarizələr davam etdikcə, Dağlıq Qarabağ probleminin həlli də bu mübarizələrin zəminində yeni mərhələyə adlayacaq. Ötən əsrin 90-cı illərində Dağlıq

Qarabağ məsələsinin gündəmə çıxarılması erməni millətçiləri ilə M. S. Qorbaçov başda olmaqla sovet rəhbərliyinin maraq dairəsinə daxil olan məsələ idisə, artıq bu gün böyük güc mərkəzləri Qarabağdan bir təzyiq vasitəsi, ideoloji silah, diplomatik fənd kimi istifadə etməyə üstünlük verirlər.

Bəzi qüvvələr bu problemi - yəni, Dağlıq Qarabağ problemini həll etmək, işğal altında olan torpaqları geri qaytarmaq, bir milyondan artıq qaçqın və məcburi köçkünün hüquqlarını bərpa etmək, regionda davamlı və ədalətli sülhə nail olmağa kömək etmək istəmirlər. Azərbaycana tutarlı təsir etmək üçün Dağlıq Qarabağ kimi etibarlı və tutarlı alətdən özlərini məhrum etmək istəmirlər. Bütün bunlar bizi ayıq-sayıq olmağa, cənab Prezident İlham Əliyevin ətrafında sıx birləşərək dünyada Azərbaycanın maraqlarını qorumağa sövq edir.

**“Azərbaycan”.**- 2010.- 20 yanvar.- N 14.- S.2,5.

## 20 Yanvar — xalqımıza qarşı qanlı cinayət

**XX əsrin tarixində totalitarizmin törətdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı işlədilmiş cinayət, əslində, bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli bir əməldir.**

**Heydər ƏLİYEV**
**Ümummilli lider**

**...1990-cı il 20 Yanvar faciəsi. Sovet rejiminin Azərbaycan xalqına qarşı planlaşdırdığı bu dəhşətli hərbi cinayətin törədilməsindən iyirmi il keçir. Buna baxmayaraq hər il yanvarın 19-dan 20-nə keçən gecə əhali təşviş keçirir. Sanki, indicə zirehli hərbi maşınların, tankların, pulemyotların, avtomatların səsi aləmi bürüyəcək, insanların qışqırtıları, haray-həşirləri bu qorxunc səsləri daha vahiməli edəcək. Əhaliyə elə gəlir ki, bir anın içərisində Bakının küçələri insan qanına bulaşacaq, yağış sularına qatışıb küçələr boyunca axacaq. Güllələrin vıyıltısı şirin yuxuya qərq olmuş körpələri vahiməli şəkildə oyadacaq, pəncərələrin şüşələrini çilik-çilik edəcək.**

Yox! Yox! Bütün bunlar arxada qaldı, özü də 20 il arxada! Həmin vaxt canlarını qurban verənlər, imperiya ordusunun tanklarının, zirehli hərbi maşınlarının, pulemyotlarının, avtomatlarının qarşısına çıxan əliyalın xalq bu günə can atırdı. Təəssüf ki, qanları bahasına qazandıqları müstəqil Azərbaycanda yaşamaq şəhidlərimizə nəsib olmadı.

Dinc əhaliyə qarşı tarixdə analoqu olmayan qırğının törədilməsini heç vaxt unuda bilmirəm. Təsəllim bircə odur ki istiqlaliyyət, azadlıq, müstəqillik yolunda mübarizəyə qalxmış xalqın haqq səsini boğa bilmədilər. Ən müasir silahlarla silahlanmış sovet ordusu Azərbaycan xalqının haqq səsini susdura bilmədi. Çürüməkdə olan Sovet rejimi günahsız insanların qanı hesabına öz ömrünü uzada bilmədi, haqq-ədalət, azadlıq uğrunda mübarizə bu rejimi çökdürdü, məhv etdi. Azərbaycan, nəhayət, imperiya buxovlarını qırıb atdı, müstəqillik yolunda ilk kövrək addımlarını atdı. Bəli, bu xoşbəxtlik, firavanlıq, müstəqillik, azadlıq mərd oğul və qızlarımızın qanı bahasına qazanıldı, özü də çox çətinliklə.

1987-ci ildə böyük tarixi şəxsiyyət Heydər Əliyev Sov. İKP MK Siyasi Bürosu üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavinliyindən istefa verdikdən sonra Azərbaycana qarşı təzyiqlər xeyli gücləndi. Ulu öndərin SSRİ adlı dövlətin ali rəhbərlərindən biri olduğu illərdə Azərbaycana qarşı öz çirkin niyyətlərini həyata keçirə bilməyən qüvvələr fəallaşdılar. Bir tərəfdən də Ermənistan ölkəmizə qarşı ərazi iddialarına başladı. Millətlər arasında milli ədavətin qarşısını almaq əvəzinə onu daha da qızışdıran Mixail Qorbaçov müdrik şəxsiyyət Heydər Əliyevin istefasından sonra, sanki, özündə cürət tapdı və Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün canfəşanlığa başladı. Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri Aqambekyan o vaxt Fransaya səfər edərkən Parisdə çıxışlarının birində Dağlıq Qarabağın Ermənistana verilməsini iqtisadi cəhətdən "əsaslandırmağa" cəhd göstərməklə M. Qorbaçovun bu "hədiyyəsinə" haqq qazandırmağa çalışırdı. Ancaq həm Mixail Qorbaçov, həm də Aqambekyan unudurdular ki, torpaqdan pay olmaz. Onlar Azərbaycan xalqının bu qədər vətənpərvər, mərd, qorxmaz, cəsarətli, qəhrəman olduğundan xəbərsiz idilər. M. Qorbaçova elə gəlirdi ki, bir kəlmə sözü ilə Azərbaycan xalqı sakitləşəcək, o da Dağlıq Qarabağı çox asanlıqla Ermənistana birləşdirəcək. Lakin hadisələrin sonrakı gedişi göstərdi ki, daş qayaya rast gəlib.

... 1988-ci ildən başlayaraq Azərbaycanda dərinləşməkdə olan ictimai-siyasi, hərbi böhran getdikcə daha kəskin xarakter alırdı. Heydər Əliyevin istefasından sonra özünün güclü dayağını və müdafiəsini itirmiş Azərbaycan xalqının haqq səsini eşidən yox idi. Doğma Vətənimizin ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın, Azərbaycanın ərazi bütövlüyünün müdafiəsinə qalxmış xalqımız öz güclü dayağını itirmişdi. Bir

tərəfdən də ölkəyə rəhbərlik edənlərin cəsarətsizliyi, Moskvanın tapşırıqlarını qeyd-şərtsiz yerinə yetirməsi, düşünülməmiş addımlar atması Azərbaycanın getdikcə tənəzzülə uğramasına gətirib çıxarır, yurdumuzun torpaqları bir-birinin ardınca düşmənlərin əlinə keçir, ölkədə dərin böhran yaranırdı. Həmin vaxtlarda Azərbaycanın daxilində, xalqın içərisində, millətin, bütün Azərbaycan vətəndaşlarının daxilində baş qaldıran vətənpərvərlik hisslərinin, milli azadlıq istəklərinin coşub-daşması minlərlə insanın meydanlara çıxması ilə nəticələndi. Xalqın küçə və meydanlara çıxmasının əsas səbəbi Azərbaycanı, Azərbaycan xalqının tarixini, adət-ənənələrini, ərazisini qorumaq idi. Xalq həm də Sovet İttifaqının rəhbərliyi tərəfindən Azərbaycana qarşı atılmış ədalətsiz addımlara və Azərbaycan rəhbərliyindəki ayrı-ayrı nalayiq şəxslərin xalqımıza zidd olan siyasətinə öz etiraz səsini qaldırmışdı.

Azərbaycan xalqının etiraz səsi getdikcə daha geniş vüsət aldı. Məsələnin bu səviyyəyə çatacağını xəyalına belə gətirməyən Mixail Qorbaçov qorxuya düşdü. Xalqın haqq səsini boğmaq üçün yeganə çıxış yolunu sovet ordusunu əliyalın insanların üzərinə göndərməkdə gördü. İlk növbədə Dövlət Təhlükəsizlik Komitəsinin təxribat maşını işə salındı. Bundan ötrü Azərbaycanın o vaxtkı rəhbərləri ilə qabaqcadan razılaşdırılmış və planlaşdırılmış xüsusi hazırlıq işləri görüldü. Xəstəxanalar boşaldıldı, Bakıda xidmət edən rus zabitlərinin ailələri ölkədən çıxarıldı. Süni surətdə “rus qaçqınları” problemi yaradıldı. O vaxt fürsətdən yararlanmaq fikrinə düşərək özlərini xalq hərəkatının lideri adlandıran bəzi işbazlar dəhşətli cinayətin törədilməsinə sanki zəmin yaradır, xalqı kor-koranə fəlakətlərə vadar edirdilər.

Azərbaycan KP MK-nın birinci katibi Ə. Vəzirov Moskvanın bütün göstərişlərini sözsüz yerinə yetirir, öz xalqına qarşı hazırlanmış ağır cinayətin təşkilatçısı və iştirakçısı olmuşdur. Ə. Vəzirovla bərabər Azərbaycan KP MK-nın ikinci katibi Viktor Polyaniçko və digər hökumət nümayəndələri də bu qanlı faciəyə rəvac verdilər. Nəhayət, tarixdə analoqu olmayan bu dəhşətli faciə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə reallaşdı. Ən müasir silahlarla silahlanmış sovet ordusu misli görünməmiş qəddarlıqla dinc əhaliyə qanlı divan tutdu. Əsasən erməni əsgər və zabitlərindən komplekstləşdirilmiş imperiya ordusu Bakıda və respublikanın rayonlarında 130-dan çox adam, vəhşicəsinə qətlə yetirmiş, 700-dən çox insan müxtəlif dərəcəli ağır bədən xəsarətləri almış, 1000-dək adam qanunsuz həbs edilmişdir. Quduzlaşmış ordunun əsgər və zabitləri 200 ev və mənzili, 80 avtomaşını, o cümlədən təcili yardım maşınlarını, xeyli miqdarda dövlət əmlakını və şəxsi əmlakı məhv etmişlər. Həlak olanların arasında qadınlar, uşaqlar, qocalar, həmçinin təcili yardım işçiləri və milis nəfərləri olmuşdur. Bu təcavüz nəticəsində SSRİ Konstitusiyası və Azərbaycan SSR Konstitusiyası kobud şəkildə pozulmuş, Azərbaycan Respublikasının suveren hüquqları tapdalanmışdır. Qabaqcadan hazırlanmış bu təcavüzkarlıq aksiyasının təşkilində və icrasında Mixail Qorbaçovun göstərişi ilə güc nazirləri Yazov, Bakatin və Kryuçkov bilavasitə iştirak etmişlər.

SSRİ-nin o vaxtkı rəhbəri M. Qorbaçovun Tbilisidən sonra Azərbaycanda törətdiyi bu qanlı aksiya barəsində həm yerli əhaliyə, həm də dünya ictimaiyyətinə ətraflı məlumat verilmir, belə bir dəhşətli hadisənin xalqdan gizlədilməsinə cəhd edilirdi. Həmin dövrdə Moskvada ciddi nəzarət altında olan ulu öndər Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində 1990-cı il yanvarın 21-də keçirilmiş yığıncaqda çıxış edərək Azərbaycanda baş vermiş qanlı faciə barəsində dünya ictimaiyyətinə məlumat vermişdir. Ümummilli lider bu hadisəni hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab etmişdir. Dünyanın tanınmış kütləvi informasiya vasitələrinin nümayəndələri qarşısında çıxış edən müdrik şəxsiyyət Heydər Əliyev qırğının törədilməsinin səbəbləri, təşkilatçılar və icraçılar barəsində ətraflı məlumat vermiş, çıxışının sonunda isə qırğını törədənlərin hamısının layiqincə cəzalandırılmasını tələb etmişdir.

Törədilmiş cinayət və onun fəsadları göz qabağında olduğu halda, respublika rəhbərliyi baş vermiş faciəni hər vasitə ilə ört-basdır etməyə cəhd göstərirdi. Azərbaycan SSR Ali Sovetinin xalqın tələbi və bir qrup deputatın təşəbbüsü ilə 1990-cı il yanvarın 22-də çağırılmış sessiyasına ölkənin əksər siyasi və dövlət rəhbərləri gəlmədi.

20 Yanvar hadisələrinə siyasi qiymət verilməsi tələbi ilə dəfələrlə çıxış edən Azərbaycan Xalq Cəbhəsi də hakimiyyətdə olduğu dövrdə faciəyə siyasi qiymət vermək üçün öz imkanlarından istifadə etmədi. Bu da

səbəbsiz deyildi. Çünki bu faciənin törədilməsində AXC-Müsavat cütlüyünün də rolu olmuşdur. Ən başlıcası ona görə ki, əliyalın insanları aldadıb sovet ordusunun üstünə göndərən, “qorxmayın, ordu sizə toxunmayacaq” — deyən AXC-Müsavat cütlüyünün ali rəhbər vəzifələrdə təmsil olunan bəzi nümayəndələri idi. Beləliklə də, bu qanlı olaydan bir neçə il keçsə də keçmiş SSRİ-nin və Azərbaycanın rəhbərliyi tərəfindən xalqa qarşı törədilmiş bu ağır cinayətin üstü açılmamış qaldı, analoqu olmayan hadisəyə hüquqi-siyasi qiymət verilmədi.

Ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra 20 Yanvar hadisəsinə hüquqi-siyasi qiymət verilməsi istiqamətində addımlar atıldı. Respublika Prezidentinin 5 yanvar 1994-cü il tarixli fərmanı ilə Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olundu. Azərbaycan Respublikasının Milli Məclisi 20 Yanvar faciəsinə xüsusi sessiya həsr etdi, bu dəhşətli hadisənin əsl səbəbləri açıqlandı. Beləliklə də, 1990-cı il yanvarın 20-də törədilmiş faciəli hadisələrə Milli Məclisin 29 mart 1994-cü il tarixli qərarı ilə siyasi-hüquqi qiymət verildi.

... Bakı şəhərinin ən gözəl guşələrinin birində 20 Yanvar hadisələrinin qurbanları və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban verən mərd oğul və qızlarımız uyuyur. Hamımızın müqəddəs ziyarətgahına çevrilmiş “Şəhidlər Xiyabanı” dövlətimizin başçısı cənab İlham Əliyevin fərmanı ilə yenidən qurulmuş, digər bir fərmanı ilə həm 20 Yanvar, həm də ərazi bütövlüyümüz uğrunda şəhid olanların ailələrinin sosial müdafiəsi daha da gücləndirilmiş, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir.

Şəhidlik zirvəsini Vətəninə, xalqına qəlbən bağlanan mərd oğul və qızlarımız fəth edə bilərlər. Belə övladlarımız Şəhidlər Xiyabanında əbədi olaraq uyuyurlar. Onlar həyat durduqca yaşayacaqlar. Vətən uğrunda həlak olanlar heç vaxt unudulmurlar.

**Rüstəm XƏLİLOV**

**“Xalq qəzeti”.-** 2010.- 20 yanvar.- N 14.- S.3.

## 20 yanvar: bəşəri cinayətin pərdəarxası məqamları

### Həmin gün Azərbaycan xalqı öz milli mənliyini bütün dünyaya sübut etdi

Ötən əsrin sonuncu dekadasında Azərbaycan xalqına qarşı sovet imperiyasının törətdiyi bəşəri cinayətlər təbii ki, əsrlər ötsə də heç bir azərbaycanlının qan yaddaşından silinməyəcək. Bir sıra tarixçilər 20 yanvar qətliamını Kremlin, şəxsən Mixail Qorbaçovun imperiyanı saxlamaq naminə cəhdlərindən biri hesab etsə də, bu fikirlə birmənalı olaraq razılaşmaq mümkün deyil. Ən azı ona görə ki, Bakıda 20 il öncə törədilən və kütləvi insan qırğını ilə sonuclanan həmin dəhşətli hadisələr imperiyanın çöküşünü daha da sürətləndirdi. Bu hadisələr mərkəzdənqaçma prosesinə daha da təkan verdi. Bu qətliam sadəcə olaraq Qorbaçov-erməni siyasi əməkdaşlığının tarixi fürsətdən istifadə edərək Azərbaycan xalqından qisasın alınması idi...

### MƏKRLİ PLAN

Hadisənin baş vermə səbəbləri və onun nəticələri artıq hər kəsə məlumdur. Bu baxımdan, həmin mövzuya tamamilə başqa kontekstdən yanaşacayıq. Tarixi araşdırmalar sübut edir ki, Bakıya sovet qoşunlarının soxulması Qorbaçov və onun komandası tərəfindən ötən əsrin 80-cı illərin sonlarında Azərbaycanda geniş vüsət alan ümummilli hərəkata görkəmli tarixi şəxsiyyət Heydər Əliyevin rəhbərlik etməsinin qarşısını almağa xidmət edirdi. Çünki həqiqətən həmin dövrdə sovet imperiyasına qarşı mücadilə məqsədilə meydan və xiyabanlara axışan milyonlarla insan bu hərəkatın önündə Heydər Əliyevi görmək istədiklərini gizlətmirdilər.

Hər bir azərbaycanlı haqlı olaraq başa düşürdü ki, ulu öndər Heydər Əliyevin milli dövlətçiliyin qurulması prosesinə rəhbərlik etməsi Azərbaycanı gələcək bəlalardan sığortalayan əsas faktora çevriləcək. Bu baxımdan, Pribaltika respublikalarında olduğu kimi, Azərbaycanın da müstəqillik qazanması prosesində radikal və dağıdıcı elementləri arxa plana keçirmək mümkün idi.

Təbii ki, imperiyanın süqutu labüd tarixi proses olduğundan M.Qorbaçov və onun komandası çalışırdı ki, müstəqil dövlətçiliyə can atan xalqlara qarşı mümkün qədər çox problemlər yaradılsın. Bu həm də sonradan dirçəldilməsi nəzərdə tutulan rus imperiyasının əlinə həmin xalqlara qarşı təsir rıçaqlarının verilməsi baxımından çox lazım idi. Bu baxımdan, Azərbaycanda Dağlıq Qarabağ, Gürcüstanda Abxaziya və Osetiya, Moldovada "Dnestryanı respublika" sindromlarının təşkili heç də təsadüfü sayıla bilməz. Fəqət, Kremlin cızdığı ssenari tez bir zamanda əks effekt verməyə başladı. Azərbaycanda imperiyaya qarşı ümummilli mübarizənin vüsət almasına gətirib gətirib çıxaran əsas faktor olaraq Dağlıq Qarabağ münaqişəsinin başlanması olduğu bu baxımdan təsadüfü sayıla bilməz. Həmçinin, nəzərə almaq lazımdır ki, M.Qorbaçov öz planlarını həyata keçirmək üçün bütün maneələri aradan qaldırmağa çalışırdı. Qeyd olunan aspektdən 1987-ci ildə M.Qorbaçov qaragüruhunun təkidi ilə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin istefaya göndərilməsi bu baxımdan diqqəti xüsusi ilə cəlb edir.

Sözsüz ki, bu reallığı təsdiqləmək üçün saysız-hesabsız arqumentlər irəli sürmək olar. Lakin dahi öndər Heydər Əliyev və M.Qorbaçovun bununla ilgili mövqeləri həmin tarixi proseslərin mahiyyətini açmaq üçün çox gözəl fürsətdir. Bu baxımdan, tanınmış kinorejissor Vaqif Mustafayevin çəkdiyi "Bir həsədin tarixi" filmindəki Dağlıq Qarabağ münaqişəsi və 20 yanvar hadisələri ilə bağlı fraqmentin mətninin oxucuların mühakiməsinə verilməsi daha yaxşı olardı:

Heydər Əliyev: "Mən əmin oldum ki, Mixail Qorbaçov məsələyə düzgün yanaşmır. Onunla söhbətlərimin birində bildirdim ki, "siz slavyan mənşəli olmayan ləyaqətli insanlara qarşı dözümsüzsünüz". O, az qala mənim slavyan olmadığımı unutmuşdu. Mənimlə söhbətlərimdə elə ifadələr işlədirdi ki, bunlar məni düşündürür və ciddi narahat edirdi. İkincisi də Mixail Qorbaçov ermənilərlə çox sıx əlaqədə idi. Ermənilərin Qarabağa iddiaları həmişə olub. Mən SSRİ rəhbərliyində, Kremldə işlədiyim vaxtlarda bu siyasəti həyata keçirə bilmirdilər. Mənə məlum idi ki, Qarabağ barədə məsələlər cəmiyyətə açıqlanmamışdan əvvəl bu proses gedirdi".

Mixail Qorbaçov: "Bu proses artıq gedirdi, Qazaxıstandakı proseslər Qarabağdan da əvvəl başlamışdı. Bu hadisə 1986-cı ildə baş verdi".

Heydər Əliyev: "Mən bütün vəzifələrdən uzaqlaşdırılandan haradasa 25 gün sonra Qarabağ problemi ortaya çıxdı. Azərbaycan KP MK-nin və SSRİ rəhbərliyinin Dağlıq Qarabağ münaqişəsinin həlli prosesindəki yarıtmaz siyasətinə qarşı Azərbaycanda mitinqlər başladı. Bu mitinqlər inkişaf edərək böyük bir mütəşəkkil qüvvəyə çevrildi. Bu isə Azərbaycanda siyasi sabitliyin pozulmasına gətirib çıxartdı".

Mixail Qorbaçov: "Bəli çox pis vəziyyət yaranmışdı. Mən heç vaxt bunun günahını yaxına buraxmıram. Yox!"

Heydər Əliyev: "Əgər o, bu hadisələrin, münaqişənin baş verməsini istəməsəydi, onların qarşısını almaq üçün bütün imkanlarından istifadə edərdi. Ancaq o, bu proseslərin qarşısını almadı, əksinə istəyirdi ki, bu münaqişə inkişaf etsin, vəziyyət daha da mürəkkəbləşsin. O, özünün başladığı yolla getdi, bu yol isə Azərbaycana qoşun yeridilməsinə, Azərbaycan xalqının qanının tökülməsinə gətirib çıxartdı".

## QORBAÇOV-ERMƏNİ BİRLİYİ HEYDƏR ƏLİYEVƏ QARŞI

Bu fikirlərə rəğmən bir daha aydın olur ki, həqiqətən də ulu öndər Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən uzaqlaşdırılması Azərbaycan xalqına qarşı M.Qorbaçovun planlaşdırdığı qanlı cinayətlərə hazırlığın tərkib hissələrindən biri olmuşdur. Lakin Heydər Əliyev şəxsi həyatının real təhlükə qarşısında qalmasına və terror təhlükəsi ilə üzləşməsinə baxmayaraq sonadək mübarizə apardı. 20 yanvar qətliamının M.Qorbaçovun bəşəriyyətə qarşı törətdiyi qanlı cinayət olduğunu deməkdən çəkinmədi. Bunu yenə də həmin filmdə əksini tapan maraqlı kadrlar təsdiqləyə bilər.

Heydər Əliyev: "Yanvarın iyirmisi axşam mənə məlum oldu ki, Bakıya qoşun yeridiblər. İyirmisi axşam Mixail Qorbaçov televiziya ilə çıxış etdi. Mən onu dinləyirdim. Ayın iyirmi biri, hadisədən bir gün sonra mən evə gəldim. Ailə üzvlərimlə görüşdüm. Mənə məlum oldu ki, Moskvada yaşayan azərbaycanlılar matəmlə əlaqədar olaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinin qarşısına yığışıblar. Təbii ki, kənara çəkilib dura bilməzdim. Bu mənim xalqım, dövlətimdir. Mən ora getmək qərarına gəldim".

Mixail Qorbaçov: "Bu hadisələr baş verəndə biz Bakı ilə mütəmadi əlaqə saxlayırdıq. Respublika rəhbərliyi məlumat verirdi ki, hər şey nəzarət altındadır. Ancaq belə deyildi, nəsə fövqəladə tədbirlər görmək lazım idi. Mən buna görə, Yevgeni Primakovu və Andreyevi Bakıya göndərdim. Onlar getdilər. Həmin vaxt biz Ali Sovetin iclasını çağırdıq. Bu zaman Primakov Bakıdan zəng vuraraq təcili olaraq məni telefona çağırtdırdı. Təbii ki, mən bilirdim onu hara və nə məqsədlə göndərmişəm. O, mənə məlumat verərək dedi ki, "yoldaş Mixail Sergeyeviç təcili tədbirlər görülməlidir". Mən də həmin an dərhal daxili işlər naziri Bakatini yanıma çağırdım. Belə vəziyyətlərdə sözsüz ki, mən güc strukturlarının rəhbərləri ilə görüşüb onların rəyi ilə maraqlanmalı idim. Mən Bakatinə göstəriş verdim ki, təcili tədbirlər görülməlidir. O, isə mənə bildirdi ki, sözlə iş görmək düzgün deyil, bu heç bir fayda verməyəcək. Gərək prezidentin fərmanı olsun. Biz də fərman verdik. Bütün işlər rəsmi səviyyədə aparılırdı, hər şey qayda-qanun əsasında oldu. Biz Bakatinlə başqa cür danışmışdıq, lakin faciə baş verdi".

Təbii ki, bu fikirlər birmənalı olaraq M.Qorbaçovun Azərbaycan xalqına qarşı cinayət törətdiyini, lakin Heydər Əliyevin buna qarşı sonadək mübarizə aparması faktını ortaya qoyur. 20 yanvar faciəsindən dərhal sonra Qorbaçov-erməni siyasi işbirliyinin Heydər Əliyev və onun ailə üzvlərinə qarşı total mübarizəyə start vermələri faktı da bunu bir daha təsdiqləyir. Hətta, sovet imperiyası Heydər Əliyevin həbsini belə planlaşdırır və M.Qorbaçov öz rəqibinin fiziki məhvinə belə razılıq vermişdi. Bunu həmin dövrdə Daxili İşlər Nazirliyinin İstintaq İdarəsinin rəisi vəzifəsində çalışan Əzim Piriyevin etirafları da təsdiqləyə bilər: "Heydər Əliyevə qarşı qərəzli materialların toplanılması üçün Mixail Qorbaçov Azərbaycana 1500 nəfərlik operativ-istintaq qrupu göndərmişdi. Aslaxanov və Barannikin rəhbərlik etdiyi briqada şantaj, təzyiq və s. bu kimi üsullarla Heydər Əliyevin dövründə işləmiş vəzifəli şəxslərdən Ona qarşı izahatlar alırdılar. Şüvəlanda yerləşən istintaq təcridxanası SSRİ Daxili İşlər Nazirliyinin göstərişi ilə sərəncamımızdan alınıb həmin briqadanın ixtiyarına

verilmişdi. Orada Şkolnıy Vladimir Aleksandroviçin rəhbərlik etdiyi kəşfiyyat istintaq qrupu fəaliyyət göstərirdi. İstintaq qrupu müxtəlif vəzifəli şəxsləri və dustaqları dindirməklə Heydər Əliyev və onun ətrafındakı insanlara qarşı qərəzli izahatlar alırdılar".

Bəli, bütün bunlar real faktlardır. 20 yanvar hadisəsindən dərhal sonra Heydər Əliyevin ailə üzvlərinin, konkret olaraq İlham Əliyevin də təzyiqlərlə üzləşməsi faktı da bunu bir daha təsdiqləyə bilər. O da məlumdur ki, Heydər Əliyevin 1990-cı ilin yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində Mixail Qorbaçovun Azərbaycan xalqına qarşı törətdiyi qanlı cinayəti lənətləməsindən dərhal sonra İlham Əliyevə uzun illər təhsil aldığı Moskva Beynəlxalq Münasibətlər İnstitutunda pedaqoji fəaliyyətlə məşğul olmağa qadağa qoydular. Bunu isə şəxsən M.Qorbaçovun göstərişi ilə etmişdilər. Qeyd olunan faktı İlham Əliyev də öz xatirələrində etiraf edib: "Mənim atam Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyi qarşısında keçirilən mitinqdə çıxış edərək Qorbaçovun qanlı siyasətini pislədi. Bundan sonra isə bizim ailəmizə, şəxsən mənə qarşı təzyiqlər artdı. Onda mənə dedilər ki, sən artıq müəllim vəzifəsində işləyə bilməzsən. Siyasi institut olduğundan sən orada gələcək siyasətçilərə dərs deyə bilməzsən. Bu məni təəssüfləndirdi. Səbəbini öyrənməyə çalışdım. Mənə cavab verdilər ki, çünki sən Heydər Əliyevin oğlusan. Mən başa düşürdüm ki, o zaman mövcud olan sistem və həmin dövlətə rəhbərlik edən şəxslər özlərini pis vəziyyətə qoyacaqlar. Kiməsə qarşı pis rəftar etmək, mübarizə aparmaq olar. Ancaq siyasi mübarizə ailə üzvlərinə qarşı yönələndə bu həmin şəxslərin yüksək mənəviyyatlı adamlar olmadıqlarından xəbər verir".

## 20 YANVARA APARAN YOLLAR

Təbii ki, qanlı faciə birdən-birə baş vermədi. Buna zəmin yaradan hadisələr oldu. Belə ki, ermənipərəst Arkadi Volskinin başçılıq etdiyi Xüsusi İdarə Komitəsinin Azərbaycanın əleyhinə məqsədyönlü fəaliyyəti, respublikada baş verən hadisələrin mərkəzi kütləvi informasiya vasitələrində təhrif edilməsi, Ermənistandan və Dağlıq Qarabağdan zorakılıqla qovulan çoxlu sayda azərbaycanlı qaçqın və məcburi köçkünün Bakı şəhərində cəmləşməsi şəraiti mürəkkəbləşdirdi.

Fövqəladə vəziyyət elan edilməsi və bununla əlaqədar olaraq bu vəziyyətə riayət edilmədiyi halda, hərbi qüvvə işlədiləcəyi barədə əhalinin vaxtında xəbərdar edilməsinin böyük əhəmiyyəti vardır. Belə olsaydı əhali dağılıb evlərinə gedərdi, tələfat isə az olardı. Vətəndaşlıq hüquqları və siyasi hüquqlar haqqında 1966-cı il tarixli beynəlxalq paktın 4-cü maddəsinin 1-ci bəndində deyilir ki, fövqəladə vəziyyət tətbiq ediləcəyini rəsmən elan etmək lazımdır. Halbuki Bakıda fövqəladə vəziyyət tətbiq edildiyini əhali ilk dəfə ancaq yanvarın 20-də səhər saat 5.30-da şəhərin komendantı Dubinyakın radio ilə çıxışından və vertolyotların səpdiyi vərəqələrdən öyrənmişdi. O vaxt şəhər artıq qoşun tərəfindən tutulmuş və qırğınlar baş vermişdi. Lakin fərmana uyğun olaraq fövqəladə vəziyyət rejimi demək olar dərhal, 1990-cı il yanvarın 20-də saat 00.00-da tətbiq edilmişdi. Həmin dövrdə xalqı məlumatlandırmaq üçün bütün vasitələr məhv edildi.

1990-cı ilin 20 Yanvarı Azərbaycanın istiqlaliyyət yolunun ilk şəhidlik zirvəsi idi. Ötən illər ərzində "Qanlı Yanvar"ın tarixi, mənəvi, siyasi və s. aspektləri analiz edilib, hadisəyə Azərbaycan dövləti tərəfindən hüquqi qiymət verilib. Lakin təəssüf edilməlidir ki, biz indiyədək bu tarixi dünyaya yetərincə tanıda bilməmişik. Dünya hələ də 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycanda, onun paytaxtı Bakıda nələrin baş verdiyindən xeyli dərəcədə səthi informasiyaya malikdir.

Lakin o da etiraf edilməlidir ki, bu qanlı faciəni bütün dünyaya tanıtmaq üçün ulu öndərimiz Heydər Əliyev gecəli-gündüzlü çalışıb. Bu gün ulu öndərin ruhu Vətənimizin azadlığı uğrunda şəhid olmuş oğul və qızlarımızın ruhuna qovuşub. Ruhunuz şad olsun!

**"Səs".**- 2010.- 20 yanvar.- N.11.- S.13.

## Günahkarlar Haaqa tribunalına verilməlidir

«20 Yanvar» Azərbaycan xalqının tarixinə qanla yazılmış səhifələrdən biridir. Amma o müdhiş gecə tariximizə təkcə faciə kimi yox, həm də Azərbaycan xalqının mübarizlik, dönməzlik, qəhrəmanlıq günü kimi daxil oldu. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə SSRİ rəhbərliyinin razılığı və Mixail Qorbaçovun fərmanı ilə Bakıya qoşun yeridildi. Rəsmi rəqəmlərə görə 35 min nəfərdən ibarət həmin ordu hissələrinin tərkibinə SSRİ Daxili İşlər Nazirliyinin böyük kontingenti, SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin «Alfa» qrupu, həmçinin Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni əsgər və zabitləri, sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantlar da daxil edilmişdilər. «20 Yanvar» faciəsi zamanı və sonrakı günlərdə 132 nəfər dinc sakin vəhşicəsinə qətlə yetirildi, 700-dən çox adam yaralandı, Azərbaycan paytaxtına külli məbləğdə maddi ziyan dəydi. Törədilən vəhşiliklərdən dinc əhalini müdafiə etməyə çalışan Azərbaycan milisi də itkilər verdi. Həmin gecə öz xidməti vəzifəsini yerinə yetirən 5 milis işçisi qəhrəmancasına həlak oldu. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunları Bakıda törətdikləri vəhşiliklərlə, SSRİ rəhbərliyi öz xalqına, dinc əhaliyə qarşı həyata keçirdiyi cəza tədbirləri ilə 1949-cu il Cenevrə Konvensiyasının, Beynəlxalq Hərbi Tribunalın Əsasnaməsinin, Beynəlxalq İnsan Haqları Bəyannaməsinin və insan hüquqları ilə bağlı digər beynəlxalq aktların çoxsaylı müddəalarını kobud şəkildə pozmuş oldu. Buna görə də, Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən 14 fevral 1992-ci ildə xitam qərarı ləğv edilərək həmin dövrdə qüvvədə olan cinayət Məcəlləsinin 94-cü maddəsinin 4 və 6-cı bəndləri (ağırlaşdırıcı hallarda qəsdən adam öldürmə, 149-cu (əmlakı qəsdən məhv etmə və ya zədələmə, 168-ci (hakimiyyəti və ya qulluq səlahiyyətlərini aşma) və 255-ci (hakimiyyətdən sui-istifadə, hakimiyyət həddini aşma) maddələri ilə cinayət işi başlanılıb, istintaq bu gün də davam etdirilir. İstintaqla müəyyən edilib ki, törədilən cinayət nəticəsində 132 nəfər qətlə yetirilib, 612 nəfər yaralanıb, 841 nəfər qanunsuz həbs olunub, yüzlərlə bina dağıdılaraq dövlətə və vətəndaşlara külli miqdarda ziyan dəyib. Hadisə baş verən zaman Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olmuş Əbdürrəhman Vəzirov, Nazirlər Sovetinin sədri Ayaz Mütəllibov və digərlərinin cinayət məsuliyyətinə cəlb olunması barədə 1994-cü ildə qərarlar qəbul edilib. Onlar istintaqdan qaçıb gizləndikləri üçün barələrində həbs-qətimkan tədbiri seçilərək axtarış elan edilib. cinayətdə təqsirli bilinən, həmin dövrdə Ali Sovetin sədri olmuş Elmira Qafarova və Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin 2-ci katibi Viktor Polyaniçko vəfat etdikləri üçün barələrindəki cinayət işinə xitam verilib. cinayət işi SSRİ-nin Baş Prokurorluğunda başlandığından 68 cildlik cinayət işinin materialları Moskvaya aparılıb. Həmin materialların Azərbaycan Respublikasının Baş Prokurorluğuna qaytarılması üçün sorğular və təqsirləndirilən şəxslərin tutulub istintaqa verilməsi üçün qanunla müəyyən edilmiş zəruri sənədlər Rusiya Federasiyasının hüquq-mühafizə orqanlarına təqdim olunub. Lakin həmin sorğulara indiyədək müsbət cavab verilməyib. Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov APA-ya açıqlamasında bildirib ki, Rusiya «20 Yanvar» faciəsi ilə bağlı başlanan cinayət işinin materiallarını Azərbaycana qaytarmır. Onun sözlərinə görə, «20 Yanvar» faciəsi ilə bağlı ilkin araşdırmalar SSRİ Baş Prokurorluğu tərəfindən aparılıb və baş vermiş hadisələrlə əlaqədar hərbçilərin hərəkətlərində cinayət tərkibi olmaması nəticəsinə gəlinərək, 20 dekabr 1990-cı il tarixli qərarla cinayət işinin icraatına xitam verilib. Göründüyü kimi, üstündən 20 il keçsə də, hadisənin siyasi-hüquqi qiyməti hələ də tam olaraq verilməyib, cinayətkarlar cəzalandırılmayıb. Bəs bunun səbəbi nədir? Üstündən 20 il keçməsinə baxmayaraq, baş verən hadisə özünün siyasi-hüquqi qiymətini niyə tam olaraq almayıb?

Tarix elmləri namizədi, millət vəkili Cəmil Həsənli bildirdi ki, «20 Yanvar» hadisələrinə siyasi qiymət verilib, eyni zamanda faciə müəyyən mənada hüquqi qiymətini də alıb. Onun sözlərinə görə, «20 Yanvar» hadisəsi Azərbaycan xalqına qarşı törədilmiş dövləti cinayətdir: «Azərbaycanın rəsmi dövlət hakimiyyət orqanlarının, qanunverici orqanının bu məsələ barədə müvafiq qərarları var».

Müsahibimiz qeyd etdi ki, həmin dövrdə istintaq materialların surətlərini Azərbaycanda saxlamaq lazım idi: «Bu istiqamətdə çox ciddi səhvlərə yol verilib. Lakin bu sənədlər olmadan da çox şey aydındır. «20 Yanvar» hadisələrini özündə əks etdirən lentlər var. Bunlar o qədər təkzibolunmaz lentlərdir ki, həmin lentlər

hüquqi sənəd kimi kifayətdir. Mənə elə gəlir ki, «20 Yanvar»la bağlı hər hansı hüquqi qərar qəbul etmək üçün əlimizdə olan faktlar, şahid ifadələri, fotolar və digər sənədli materiallar kifayətdir». Millət vəkili bildirdi ki, Avropa İnsan Haqları Məhkəməsinə, Haaqa Beynəlxalq Tribunalına indiyədək «20 Yanvar» faciəsinə hüquqi qiymət verilməsi üçün müraciət edilməyib: «20 Yanvarla bağlı çox iş görülüb. Amma görüləsi işlər də var. Mən xüsusilə bu faciənin beynəlxalq müstəviyə çıxarılması ilə bağlı məsələləri nəzərdə tuturam. Məhkəməyə gərək müraciət edəsən ki, o da müvafiq işə baxsın». C.Həsənli Azərbaycanın «20 Yanvar» faciəsinə hüquqi qiymətin verilməsi üçün beynəlxalq məhkəmələrə müraciət edəcəyi təqdirdə, bunun Rusiya tərəfindən kəskin qarşılanacağını ehtimal etmədiyini də bildirdi.

Millət vəkili Mübariz Qurbanlı isə «20 Yanvar» faciəsinə rəsmi səviyyədə ilk dəfə Heydər Əliyevin təşəbbüsü və bilavasitə özünün işləyib-hazırladığı qərar layihəsi əsasında Naxçıvan Muxtar Respublikası Ali Məclisində siyasi qiymət verildiyini bildirdi: «Ümummilli lider Heydər Əliyev 1991-ci ildə Azərbaycan SSR Ali Sovetinin sessiyalarında dəfələrlə «20 Yanvar» faciəsinə siyasi-hüquqi qiymət verilməsi ilə bağlı məsələ qaldırsa da, o vaxtkı Azərbaycan rəhbərliyinin xalqın taleyinə biganəliyi nəticəsində bu məsələ öz həllini tapmadı. Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonrakı ilk illərdə başları hakimiyyət uğrunda mübarizəyə qarışmış respublika rəhbərləri «20 Yanvar» qırğınına siyasi-hüquqi qiymət verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində məqsədyönlü iş aparmadılar. Yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev yenidən siyasi rəhbərliyə qayıtdıqdan sonra, 1994-cü ildə qanlı yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verildi, faciənin günahkarlarının adları açıq şəkildə bəyan edildi. Milli Məclisdə 1994-cü il martın 29-da qəbul edilən qərarda, nəhayət ki, 1990-cı ilin qanlı «20 Yanvar» faciəsinə dövlət səviyyəsində siyasi qiymət verildi». Millət vəkili qeyd etdi ki, qərarda 1990-cı ilin «20 Yanvar» hadisələri Azərbaycanda vüsət almış milli-azadlıq hərəkatını boğmaq, demokratik və suveren bir dövlət amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və belə bir yola qədəm qoyan xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirilib: «Sənəddə Sovet İttifaqı Kommunist Partiyasının, sovet dövləti və hökumətinin, şəxsən Mixail Qorbaçovun Azərbaycana qarşı ağır cinayət törətdikləri, Əbdürrəhman Vəzirovun, Ayaz Mütəllibovun, Viktor Polyaniçkonun, Vaqif Hüseynovun xalqımıza xəyanət etdikləri siyasi-hüquqi müstəvidə öz əksini tapıb

Yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev yenidən siyasi rəhbərliyə qayıtdıqdan sonra, 1994-cü ildə qanlı yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verildi, faciənin günahkarlarının adları açıq şəkildə bəyan edildi. Milli Məclisdə 1994-cü il martın 29-da qəbul edilən qərarda, nəhayət ki, 1990-cı ilin qanlı «20 Yanvar» faciəsinə dövlət səviyyəsində siyasi qiymət verildi».

**Səxavət HƏMİD**

**"Mərkəz".-** 2010.- 20 yanvar.- N.11.- S.12**.**

## 20 Yanvar - xalqın milli mücadilə və müstəqillik simvolu

Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrindən 20 il keçir. SSRİ-nin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi vəhşi terror aktı insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi bəşər tarixində qara səhifə kimi əbədi həkk olunub. Milli azadlıq, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. Sovet Ordusunun böyük bir qisminin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi görünməmiş vəhşiliklə müşayiət edildi. Kommunist diktaturası Çexoslovakiyaya, Macarıstana, Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni hətta o zamankı Sovet İttifaqının müttəfiq respublikalarından biri olan Azərbaycanda da təkrarlamaqdan çəkinmədi. Həmin vaxt Azərbaycan elə SSRİ rəhbərliyindəkilərin təhriki və himayəsi ilə qonşu Ermənistanın da təcavüzünə məruz qalmışdı. Belə ki, sovet rəhbərliyi nəinki münaqişənin qarşısını almaq üçün qəti tədbirlər görməmiş, əksinə, Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni əsgər və zabitləri, sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantlar da daxil edilmişdi. Bakıya yeridilmiş qoşun kontingentinə, - bəzi məlumata görə, onun sayı 60 min nəfərə çatırdı, - “doyüş tapşırığını” yerinə yetirmək üçün möhkəm psixoloji hazırlıq keçmişdilər: “Sizi Bakıya rusları müdafiə etmək üçün gətirmişlər, yerli əhali onları vəhşiçəsinə məhv edir; ekstremistlər Salyan kazarmalarının (Bakıda əsas hərbi qarnizonun yerləşdiyi ərazi) ətrafındakı evlərin damlarında snayperlər yerləşdirmişlər, təkcə bu ərazidə 110 atəş nöqtəsi var; binalar, mənzillər Azərbaycan Xalq Cəbhəsinin yaraqlıları ilə doludur, onlar sizi güclü avtomat-pulemyot atəşinə tutacaqlar”. Mixail Qorbaçov başda olmaqla sovet imperiyasının rəhbərliyi Bakıda “rus və erməni kartından” məharətlə istifadə etdi. Guya Bakıya qoşun onları, hərbi qulluqçuların ailələrini qorumaq, “millətçi ekstremistlər” tərəfindən hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə bu açıq riyakarlıq, cinayətkar təxribatın baş tutması üçün ağ yalan idi. Çünki sovet rəhbərliyinin “dəlilləri” hətta həqiqətə yaxın olsaydı belə, Bakıya təpədən-dırnağadək silahlandırılmış qoşun göndərməyə ehtiyac yox idi. Ona görə ki, həmin vaxt burada daxili qoşunların 11,5 min əsgəri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri var idi. 4-cü ordunun komandanlığı da Bakıda yerləşirdi. Bu azmış kimi, 1990-cı il yanvarın 19-da Mixail Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. Lakin SSRİ DTK-nın “Alfa” qrupu yanvarın 19-da saat 19.27-də Azərbaycan televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və əhaliyə divan tutdu. Qorbaçovun fərmanı qüvvəyə minənədək - yanvarın 20-də saat 00-dək artıq 9 nəfər öldürülmüşdü. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100-ə çatmışdı. Halbuki, Qorbaçovun Azərbaycana ezam etdiyi yüksək çinli emissarlar həyasızcasına bəyan edirdilər ki, Bakıda fövqəladə vəziyyət elan olunmayacaq. Əli yüzlərlə insanın qanına batmış, sonralar Nobel sülh mükafatı (?!) almış Mixail Qorbaçov başda olmaqla sovet imperiyası rəhbərliyinin rəzil siması bu idi. Tanklar və BTR-lər Bakı küçələrində qarşılarına çıxan hər şeyi əzir, hərbçilər hər yanı amansız atəşə tuturdular. İnsanlar nəinki küçələrdə, hətta avtobusda gedərkən, öz mənzillərində oturduqları yerdə güllələrə tuş gəlirdilər. Yaralıları aparmağa gələn “təcili yardım” maşınlarını və tibb işçilərini də atəşə tuturdular. Bir neçə gün ərzində 132 nəfər öldürüldü, 700-dək yaralandı, 800-dən çox adam qanunsuz həbs edildi. “Şit” təşkilatı ekspertləri bildirirdi: “Adamları xüsusi qəddarlıqla və yaxın məsafədən güllələyiblər. Məsələn, Y. Meyeroviçə 21, D. Xanməmmədova 10-dan çox, R. Rüstəmova 23 güllə vurulub, xəstəxanalar, “təcili yardım” maşınları atəşə tutulub, həkimlər öldürülüb, adamlar süngü-bıçaqla qətlə yetirilib. Onların arasında hər iki gözü tutulmuş B. Yefimtsev də var. “Kalaşnikov” avtomatının ağırlıq mərkəzi dəyişən 5,45 çaplı güllələrindən istifadə edilib. Həlak olanlar arasında yetkinlik yaşına çatmayanlar, qadınlar, qocalar,

şikəstlər də var idi". Qorbaçovun və ətrafındakıların "millətçi ekstremistlər" adlandırdıqları bunlar idimi? Yanvarın 20-də artıq bütün dünya Bakıda törədilmiş dəhşətli qırğından xəbər tutdu. 20 Yanvar və Azərbaycan tarixində ondan əvvəlki faciəli hadisələr XX əsr boyu xalqımıza qarşı yeridilən düşünülmüş siyasətin növbəti təzahürü idi. Azərbaycan xalqına qarşı soyqırımı, sovet hakimiyyəti illərində Azərbaycan ərazilərinin tədricən ilhaq olunması, nəticədə ölkənin ərazisinin 125 min kvadrat kilometrdən 87 min kvadrat kilometrədək azalması, sovet rəhbərliyinin havadarlığı ilə başlayan Dağlıq Qarabağ hadisələri, azərbaycanlıların Ermənistan ərazisindəki əzəli torpaqlarından qovulması bu siyasətin mərhələləridir.20 Yanvarla bağlı bütün qeyd edilənlərlə yanaşı onu da bildirmək lazımdır ki, bu məsələyə təkcə faciə kimi yanaşmaq lazım deyil. Belə ki, bu tarixi olay eyni zamanda Azərbaycan xalqının müstəqillik məfkurəsinin oyanışı fonunda əsl milli həmrəyliyini nümayiş etdirdi. 1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini daha da alovlandırdı. Bu qırğına görə milyonların küçələrə çıxması və eyni məqsəd - qatillərin cəzalandırılması və Azərbaycana müstəqillik verilməsi, qırmızı imperiyanın caynağından ölkənin birdəfəlik qurtulması məqsədi uğrunda həmrəylik göstərmələri də milli birliyin bariz nümunəsi idi. 1918-ci ildə milli mücadilə edib milli dövlət yaradılmasından sonra ilk dəfə idi ki, millət belə birlik nümayiş etdirirdi. Bu, həm də dünyaya Azərbaycan adlı bir ölkənin, bir millətin tanıdılması baxımından çox vacib bir hadisə idi ki, bununla da Azərbaycanın gələcəkdə dünya birliyinə müstəqil bir ölkə kimi daxil olmasının təməli qoyulurdu. Çünki 20 Yanvardan sonra erməni işğalçılarına qarşı mübarizə eyni zamanda onların havadarı olan SSRİ rəhbərliyinə qarşı mübarizəyə çevrildi. Amma təəssüflə onu da qeyd etmək lazımdır ki, Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonrakı ilk illərdə başları daxili çəkişmələrə, hakimiyyət hərisliyinə qarışmış səriştəsiz hakimiyyət nümayəndələri 20 Yanvar qırğınına siyasi-hüquqi qiymət verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində məqsədyönlü iş aparmadı. Əslində xalqı öz hakimiyyət mənafeləri naminə 20 Yanvarda gecə küçələrə səsləyən, özləri isə küçəyə çıxmayan, qaçıb gizlənən o vaxtkı müxalifət liderlərindən daha sonradan faciə ilə bağlı nə isə xeyirli işlər gözləmək də düzgün olmazdı. Təsadüfi deyil ki, faciə vaxtı onların və yaxınlarının burnu belə qanamamışdı. Çünki evlərində oturmuşdular. Qeyd edək ki, bu məsələ yalnız ümummilli lider Heydər Əliyevin 1993-cü ildə ikinci dəfə hakimiyyətə qayıdışından sonra - 1994-cü ildə reallaşdı. Məhz ümummilli liderin məqsədli və prinsipial yanaşması nəticəsində Qanlı Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verildi, faciənin günahkarlarının adları açıq şəkildə dünyaya bəyan edildi... İndi Bakının ən yüksək nöqtələrindən birində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş bir yer var. Bu, 20 Yanvar qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər xiyabanıdır. Hər ildönümündə minlərlə insan Vətənin azadlığı uğrunda canlarından keçmiş Azərbaycan oğul və qızlarının əziz xatirəsini ehtiramla yad etmək üçün buranı ziyarət edir. Vətən oğullarının xatirəsi ürəklərdə əbədi yaşayacaq.

**İlkin**

**"Palitra".**- 2010.- 19 yanvar.- N.6.- S.5.

## Bu ağrı həmişə qəlbimizi sızladacaqdır

### Qafqaz Müsəlmanları İdarəsində 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş konfrans keçirilmişdir.

Konfrans iştirakçıları əvvəlcə Şəhidlər xiyabanını ziyarət etmiş, Azərbaycanın müstəqilliyi uğrunda canından keçmiş Vətən övladlarının məzarları üzərinə gül qoymuşlar.

Tədbir 20 Yanvar faciəsindən bəhs edən sənədli filmin nümayişi ilə başlanmışdır.

Şəhidlərin ruhuna dua oxunduqdan sonra Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam hacı Allahşükür Paşazadə çıxış etmişdir. O demişdir ki, Qanlı Yanvar hadisələrinin 20-ci ildönümü ərəfəsində yığışmağı özümüzə borc bildik. Bu, şəhidlərimizin unudulmaz xatirəsi qarşısında illərdən bəri ürəyimizdə gəzdirdiyimiz vətəndaşlıq qürurunun və qan yaddaşımızın əyani təzahürü, Azərbaycanın müstəqilliyi, dövlətçiliyimizin bərpası, torpaqlarımızın qaytarılması və imansız bir imperiyanın dağılması uğrunda mübarizənin ilk qurbanlarına - 20 Yanvar və Qarabağ müharibəsi şəhidlərinə, Allah-taala nəzərində ən yüksək məqamlardan sayılan şəhidlik zirvəsinə ucalanlara sonsuz ehtiramımızdır.

1990-cı ilin 20 yanvarında baş verən hadisələrin təfsilatını çoxlarınız xatırlayırsınız, lakin baş vermiş faciəni törədən səbəbləri, qanlı qırğına aparan yolları, bu siyasi təcavüz aktının əsl ssenarilərini hələ də əksəriyyət bilmir. Əslində bu, "Böyük Ermənistan" xülyası ilə yaşayan aqanbekyanların, şahnazarovların, balayanların əlində oyuncağa çevrilmiş Qorbaçov kimi ləyaqətsiz dövlət rəhbərinin xalqımıza qarşı əvvəlcədən hazırlanmış planı idi. Onlar hələ 1987-ci ildə xalqımızın böyük oğlu Heydər Əliyevi Sov.İKP MK Siyasi Büro üzvlüyündən kənarlaşdırarkən Azərbaycanı başsız qoymaq, yenilməz nüfuza malik rəhbərdən məhrum etmək niyyətində idilər. Heydər Əliyevin SSRİ dövlətinin yüksək mənsəbli liderlərindən olması, Siyasi Büro üzvü seçilməsi, o zaman dünya müsəlman dövlətlərinin rəhbərləri tərəfindən böyük iftixar və qürur hissi ilə qarşılanırdı. Onun nüfuzunun yenilməzliyi Moskvanın erməni lobbisini narahat edir, Qorbaçov və ətrafını qıcıqlandırırdı. Heydər Əliyevi siyasi həyatdan uzaqlaşdırmaqla bu nüfuzun sınacağına ümid bəsləyənlər ilk növbədə bu niyyətlərini həyata keçirdilər.

Dağlıq Qarabağ və ətrafındakı hadisələr cərəyan edərkən ölkəmizin və əhalimizin başına gətirilən müsibətlərin əsas mənbəyi yerli hakimiyyətin səriştəsizliyi, sapı özümüzdən olan baltaların sovet rəhbərlərinin çaldığı hava ilə oynaması, xalqın tələb və ehtiyaclarına biganəlik idi. Əsgəran qarşıdurmasını, Topxana meşələrinin qırılmasını, azərbaycanlıların qaçqınlar ordusuna çevrilməsini laqeydliklə seyr edənlər Heydər Əliyevi siyasi arenaya dəvət etmək, onun dövlət idarəçiliyi təcrübəsindən, müdrikliyindən, iş bacarığından istifadə etmək əvəzinə intriqalar qurur, müxtəlif qruplaşmalar yaradır, əks-təbliğat kampaniyaları aparırdılar.

Beləliklə, ölkədəki hakimiyyətin siyasi simasızlığına arxalanan sovet rejimi Azərbaycanın sahibsiz və arxasız qaldığına dair tam əminlik əldə etdi və növbəti təxribat onun planlarının davamı oldu.

Hadisələrin sonrakı gedişatını əksəriyyətimiz yaxşı xatırlayırıq: 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunları fövqəladə vəziyyət elan etmədən Bakıya daxil olaraq öz vətəndaşlarına - qocalara, qadınlara, uşaqlara, azərbaycanlılara, ruslara, yəhudilərə, bir sözlə, dinc əhaliyə qanlı divan tutdular. Xüsusi təyinatlı dəstələrin amansız qəddarlığı nəticəsində Bakıda və respublikanın bir sıra rayonlarında, bizim hesablamalarımıza görə, 137 nəfər şəhid edildi, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu. Bu təcavüzkarlıq aksiyası Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq, xalqı təhqir etmək və ona mənəvi zərbə vurmaq məqsədi daşıyırdı.

Vəziyyətin ən ümidsiz məqamı ölkənin çətin günündə o zamankı respublika rəhbərliyinin səriştəsizliyi sayəsində dövlətin bütün siyasi və inzibati orqanlarının iflic vəziyyətinə düşməsi ilə bağlı idi. Ölkədə tam bir hakimiyyət boşluğu yaranmış, xalq və dövlət arasında dəhşətli bir uçurum əmələ gəlmişdi. Dövlətə və allahsız kommunist ideologiyasına inamını itirən Azərbaycan xalqı bu məqamda kimə müraciət edəcəyini bilmirdi. Digər tərəfdən, mərkəz vəziyyətdən istifadə edərək baş verənləri milli və dini münaqişə kimi qələmə verməyə çalışır, xalqımızın istibdada qarşı mübarizəsini dünya ictimaiyyətinə islam fundamentalizmi, ekstremizm kimi

təqdim edirdi. Azərbaycanın taleyi, hətta xəritədəki varlığı şübhə altına alınmışdı. Məqsəd dövlətimizi parçalamaq, separatçılığa sürükləmək, milli məhvə məhkum etmək idi. Bütün bunlar ermənilərin əlində oyuncağa çevrilmiş qorbaçovların, faşist ruhlu sovet siyasi rəhbərliyinin uzun illər ərzində xalqımıza qarşı planlaşdırdığı düşmənçilik siyasətini aydın göstərirdi.

Həmin günlərdə ölkədə çalışan, fəaliyyət göstərən, təcavüzkarlara sinə gərən, minlərlə faciə qurbanlarının, milyonlarla vətəndaşın yeganə ümid yeri - Qafqaz Müsəlmanları İdarəsi idi. Qafqaz Müsəlmanları İdarəsi hadisələrin ilk dəqiqəsindən qərargaha çevrildi; yanvarın 22-də şəhidlərin misli görünməmiş dəfn mərasiminin təşkilatı rəhbərliyi, yaralılara dərman və maddi yardım göstərilməsi, şəhid ailələrinə ərzaq paylanması, 40 gün ərzində təmənnasız dini xidmətin təşkili - bunlar bizim fəaliyyətimizin yalnız görünən tərəfiydi. Əslində o məqamda idarə bütün şərəf və ləyaqəti ilə imperiya siyasətinin riyakarlığına meydan oxudu, informasiya blokadasını yararaq baş verənləri dünyaya bəyan etdi və yalançı "qəhrəmanlardan" fərqli olaraq xalqa həqiqi mənəvi dəstək oldu. Əgər o zaman keçmiş SSRİ rəhbərliyinin siyasi avantüralarına aldanıb hakimiyyət təklifləri qəbul edilsəydi, sonra xalqımızın, dövlətimizin başına nə müsibətlər gələcəyini təsəvvür etmək belə çətindir. Və nəhayət, əgər o faciəli dünənimizdə Heydər Əliyevin bizə və xalqımıza mənəvi dəstəyi olmasaydı, bugünkü sabitliyi, əmin-amanlığı, xalq və dövlət birliyini görmək bizə nəsib olmazdı.

Bu bir həqiqətdir ki, 20 Yanvar Azərbaycanı gözləyən bəlaların ilkin mərhələsi idi. O zaman xalqın haqq səsini, harayını dünyaya yaya bilməsəydik - Moskvadan Heydər Əliyev, Bakıdan isə biz təcavüzü ifşa edən bəyanatlarla çıxış etməsəydik, xalq birləşərək Vətənə sədaqətini nümayiş etdirməsəydi gələcəkdə Azərbaycan bu bəlalardan qurtula bilməyəcəkdi. Məhz bu birliyimiz sayəsində Azərbaycanın parçalanması ilə bağlı xain planların reallaşmasına imkan vermədik.

Bütün bunlar gəlişi gözəl sözlər deyil, 20 illik tariximizin müqayisəli təhlilindən yaranan mülahizələrdir. O qanlı dövrdə belə məsuliyyətin altına girməyin nə qədər ağır və təhlükəli olduğunu çoxlarınız xatırlayırsınız. Fövqəladə vəziyyətin elan edilməsinə baxmayaraq, yanvarın 21-də Təzəpir məscidinin həyətində minlərlə insanın iştirak etdiyi mitinq keçirildi. Şəhidlər üçün dəfn yerinin təyin olunması məsələsində hərbi komendaturanın ciddi narazılığına baxmayaraq, Dağüstü parkın seçilməsində israr olundu. Yanvarın 22-də tarixdə görünməmiş - milyonluq izdihama başçılıq edərək dəfn mərasiminin önündə durduq və ilk dəfə olaraq allahsız sovet rejimini "mənfur imperiya" ifadəsi ilə lənətlədik. Dəfn prosesində bir nəfər belə hərbçinin iştirakına və müdaxiləsinə imkan verilmədi. Ölkədə bütün informasiya agentliklərinin nəzarətdə olduğu bir vaxtda biz "Vətən" cəmiyyətinin teleksi ilə gizli şəkildə BMT-nin baş katibliyinə, dünyanın dövlət başçılarına və dini rəhbərlərə, SSRİ Ali Sovetinin sədri sayılan Mixail Qorbaçova bəyanatımızı ünvanlaya bildik. İtaliyanın "Respublika" qəzetinin müxbiri Entso Mauro ilə görüşüb Bakıda törədilən cinayətlər haqqında həqiqətləri o zamankı Roma Papası II İoann Pavelə çatdırdıq. Daha sonra, ilk günlərdə bir sıra rəsmi şəxslərin etirazına baxmayaraq, 20 Yanvar faciəsinin bütün qurbanlarının müqəddəs şəhid kimi tanınmasına və "şəhid" ifadəsinin qəbul edilməsinə nail olduq.

Bu mücadiləyə bizim mənəvi dəstəyə, yol göstərən rəhbərə, zülməti işıqlandıran bir insana böyük ehtiyacımız vardı. Həmin günlərdə Qafqaz Müsəlmanları İdarəsinin ünvanına daxil olan ilk başsağlığı teleqramı Moskvadan, ulu öndərimiz Heydər Əliyevdən gəldi. Qəlbi daim xalqın taleyi ilə döyünən bu böyük insan baş verənləri Azərbaycan xalqına qarşı törədilmiş cəza tədbirləri kimi dəyərləndirirdi. Moskvadakı daimi nümayəndəliyimizdə həmvətənlərimiz qarşısında çıxışı ilə sovet imperiya siyasətini kəskin tənqid edən, kommunist ideallarından və partiya biletindən imtina edən Heydər Əliyev xalqın həqiqi mənəvi atasının, əsl dövlət xadiminin və mübariz başçının dəyişməz ləyaqətini nümayiş etdirdi. Elə buna görə də, məhz onun hakimiyyətə qayıdışından sonra 20 Yanvar hadisələri siyasi qiymət alaraq SSRİ dövlətinin Azərbaycan xalqına qarşı törətdiyi hərbi təcavüz aktı kimi qiymətləndirildi.

Qafqaz Müsəlmanları İdarəsi bu müddət ərzində bütün qüvvə və ehtiyatlarını səfərbər etdi. O ağır məqamda yuxarıda Allah, yanımda yaxın dostlarım, idarənin əməkdaşları, xristian və yəhudi dini icmalarının rəhbərləri, müsəlman din xadimləri, Bakı İslam Universitetinin müəllimləri və tələbələri, arxamda isə böyük bir xalq ordusu vardı. Dünyanın bir sıra müsəlman və qeyri-müsəlman ölkələrindən, xüsusilə Türkiyə, Misir,

Küveyt və Qafqazdan olan din qardaşlarımızın həmrəylik aksiyalarını xüsusi minnətdarlıqla qeyd etmək istəyirəm. O günlərdə Dağıstanın Dərbənd şəhərindən, Gürcüstanın Rustavi, Marneuli, Dmanisi şəhərlərindən zərərçəkmiş şəhid və yaralıların ailələri üçün ərzaq və dava-dərman göndərilirdi.

Qafqaz Müsəlmanları İdarəsi, sözün həqiqi mənasında, ölkənin siyasi ab-havasını qoruyan və ictimai sabitliyi təmin edən mərkəzə - qərargaha çevrilmişdi. Bu gün həmin hadisələrin tarixi ardıcıllığını izləyən hər kəs Qafqaz Müsəlmanları İdarəsinin təmənnasız və fədakar fəaliyyətinin şahidi ola bilər.

Bizim fəaliyyətimiz, əlbəttə, 40 günlük aramsız matəm mərasimləri ilə bitmədi, daha sonra da - 20 il ərzində biz həm 20 Yanvar, həm də Qarabağ müharibəsi şəhidlərinin ailələrinə maddi və mənəvi yardımımızı əsirgəmədik. Yüzlərlə şəhid və əlil ailəsi müxtəlif yardımlarla təmin olundu, bu günə qədər onlar bizim xeyriyyə işlərimizdə xüsusi güzəştlərə malikdirlər. Amma biz hələ də şəhidlərə münasibətdə haqq-ədalətin tam yerini tutmadığını düşünürük. Biz geniş və hərtərəfli araşdırmalar aparacaq yeni istintaq komissiyasının yaradılmasını, bu hadisələri törədənlərin, başda M.Qorbaçov olmaqla ona rəvac verənlərin cinayət məsuliyyətinə cəlb olunmasını, beynəlxalq Haaqa məhkəməsinə çıxarılmasını tələb edirik. Çox istərdik ki, tarixin acı dərslərinin təkrar olunmaması üçün hadisələrin siyasi xarakterini açıqlayan sənədli xronikalar, filmlər, əsərlər yaransın və əsl həqiqətlərlə illərdən bəri xalqı narahat edən şübhələrə son qoyulsun. Biz bu təşəbbüslə dövlətimizə müraciət etməyi düşünürük.

Şəhidlik - böyük məktəbdir. Yüz illər keçsə də, şəhidlər hörmətlə anılacaq, 20 Yanvar faciəsi islamın müqəddəs Aşura mərasimi kimi uca və əziz tutulacaqdır. Çünki şəhidlik imanın ən yüksək zirvəsi, insan əxlaqının ən gözəl nümunəsidir. Şəhidlər bütün bəşəriyyət üçün fədakarlıq örnəyidirlər. Elə buna görə də biz Qanlı Yanvar hadisələrinin 20 illik mərasimlərinin Azərbaycan xalqının mənəvi ucalıq və dəyanət günü kimi qeyd olunmasının tərəfdarıyıq. Burada əyləşən bütün din xadimlərimizə, qazilərimizə, səlahiyyətli nümayəndələrimizə və ruhanilərimizə tədbirlərin bu səpkidə keçirilməsini tövsiyə edirik.

Unutmayın ki, 20 Yanvar bizi müstəqilliyə, iqtisadi tərəqqiyə, milli və dini dəyərlərin bərpasına aparan yolun ilk mübarizəsi və ilk mənəvi qələbəsi idi. Heç bir mübarizə qansız olmadığı kimi, bizim də mücadiləmiz, təəssüf ki, qurbansız olmadı. Amma biz dözüm və fədakarlığımızla düşmənlərə meydan oxuduq, Allahın köməyi ilə dövlətçiliyimizi və milli varlığımızı qoruyub saxladıq, yeni, daha gözəl bir Azərbaycan yaratdıq. Şükürlər olsun ki, İlahinin bizə böyük lütfü sayəsində ölkəmizin siyasi rəhbərliyinə Heydər Əliyev kimi müdrik rəhbər və İlham Əliyev kimi nüfuzlu lider gəldi. Ölkənin ən çətin məqamlarında, iqtisadi böhranlar və ictimai gərginliklər zamanı belə möhtərəm Prezidentimiz milli dəyərlərimizə, dindarlarımızın arzu və ehtiyaclarına həssaslıqla yanaşdı. Biz dindarlar Azərbaycan xalqının gələcəyi naminə yeridilən daxili və xarici siyasəti hər zaman bəyənir və ürəkdən dəstəkləyirik. Bu gün də inanırıq ki, Allahın köməyi və Ali Baş Komandanımızın rəhbərliyi ilə Qarabağ torpaqlarımızın qaytarılması uğrunda haqq mücadiləmizi qalib kimi başa vuracaq, dövlətimizin qüdrətini dünyaya bəyan edəcəyik, inşallah!

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Hidayət Orucov, YAP icra katibinin müavini, Milli Məclisin deputatı Mübariz Qurbanlı, AMEA Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı Yaqub Mahmudov, Milli Məclisin deputatı Fəttah Heydərov, Qafqaz Müsəlmanları İdarəsi Elmi-dini şurasının sədri akademik Vasim Məmmədəliyev, Bakı və Xəzəryanı Yeparxiyanın başçısı Aleksandr həzrətləri, Dağ Yəhudiləri İcmasının başçısı Semyon İxiilov qeyd etmişlər ki, 20 Yanvar XX əsr Azərbaycan tarixinin ən qanlı hadisəsidir. Ən başlıcası odur ki, yanvar hadisələri vətəndaş müharibəsinə gətirib çıxarmadı, azadlıq hərəkatının başlanğıcı oldu. Burada dinin, onun birləşdirici gücünün rolu xüsusi vurğulanmışdır. Şəhidlər müstəqilliyimizin bərpası işinə töhfə vermişlər.

Tədbirdə Yasamal rayonundakı şəhid ailələrinin nümayəndələri iştirak etmişlər.

Konfrans iştirakçıları adından Milli Məclisə müraciət qəbul olunmuşdur.

**“Azərbaycan”.**- 2010.- 19 yanvar.- N 13.- S.8.

## Prezident Kitabxanası tərəfindən hazırlanmış "Təcavüz. Bakı. 20 Yanvar 1990" elektron nəşrinin təqdimatı olmuşdur

Yanvarın 18-də Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası tərəfindən hazırlanmış "Təcavüz. Bakı. 20 Yanvar 1990" adlı elektron nəşrin təqdimatı keçirilmişdir.

Kitabxananın direktoru Mayıl Əhmədov bildirmişdir ki, 1990-cı ilin yanvarında Bakıda və Azərbaycanın bəzi rayonlarında törədilən qanlı qırğınlardan 20 il ötür. Bu müddətdə 20 Yanvar faciəsinin baş verməsinin səbəbləri, onun miqyası, ibrət dərsləri haqqında bir sıra tədqiqatlar aparılmış, məqalələr və kitablar yazılmış, ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə qanlı hadisəyə ölkənin ali qanunvericilik orqanı tərəfindən siyasi-hüquqi qiymət verilmişdir.

1990-cı ilin yanvarında törədilən qanlı aksiya zamanı 147 nəfərin şəhid olduğunu, 744 nəfərin yaralandığını, 841 nəfərin qanunsuz həbs edildiyini diqqətə çatdıran M. Əhmədov, bunun xalqımıza qarşı sovet hakimiyyəti illərində həyata keçirilən qətliamların sonuncu mərhələsi olduğunu vurğulamışdır.

Qeyd olunmuşdur ki, xalqımıza qarşı törədilən bu cinayəti ilk dəfə ulu öndər Heydər Əliyev 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirdiyi mətbuat konfransında kəskin surətdə pisləmiş, əliyalın xalqın güllləbaran edilməsini hüquqa, demokratiyaya, insanlığa zidd aksiya kimi qiymətləndirmişdir.

Sonra kitabxana tərəfindən hazırlanmış elektron nəşr barədə ətraflı məlumat verilmişdir. Bildirilmişdir ki, beş fəsildən ibarət elektron nəşrin "Azərbaycana qarşı cinayət" adlanan birinci fəslində qan yaddaşımız olan 20 Yanvar faciəsi haqqında dolğun məlumat toplanmışdır.

M. Əhmədov vurğulamışdır ki, 20 Yanvar faciəsinə elmi-analitik yanaşma ilk dəfə akademik Ramiz Mehdiyevin "Azərbaycanlılara qarşı soyqırımı gerçəklikləri" əsərində öz əksini tapmışdır. Həmin əsərdə qanlı faciə bir neçə aspektdən - dini, milli, Qafqaz amilləri və geosiyasi aspektlərdən, Dağlıq Qarabağ problemi kontekstindən araşdırılmış, Qanlı Yanvarın ibrət dərsləri təhlil edilmişdir.

Həmin fəslin digər bölməsində 20 Yanvara aparan hadisələrin qısa xronologiyası öz əksini tapmışdır. Sonuncu bölmədə isə 20 Yanvar şəhidlərinin ümumi siyahısı verilmişdir.

Elektron nəşrin ikinci fəsli "Rəsmi sənədlər" adlanır. Bu fəslin 1-ci bölməsində istər sovet hakimiyyəti dövründə, istərsə də müstəqillik illərində Azərbaycan parlamentində 20 Yanvar hadisələri ilə bağlı qəbul edilmiş qərarların tam mətni toplanmışdır. 2-ci bölmədə isə mövzu ilə əlaqədar Azərbaycan Prezidentinin indiyədək imzaladığı fərman və sərəncamlar əks olunmuşdur. Fəslin sonuncu bölməsində dövlətimizin başçısının 20 Yanvarla bağlı görüşləri, qəbulları, çıxışları, müsahibələri və bəyanatlarını özündə əks etdirən materiallar toplanmışdır.

Elektron nəşrin "Müraciətlər, bəyanatlar, tədbirlər" adlanan üçüncü fəslinin 1-ci bölməsində Bakıda fövqəladə vəziyyət tətbiq edilməsi ilə bağlı SSRİ Ali Soveti Rəyasət Heyətinin 19 yanvar 1990-cı il tarixli fərmanının, Bakıda komendant saatı tətbiq edilməsi haqqında şəhər komendantının əmrinin mətnləri verilmişdir.

Bu fəslin 2-ci bölməsi "Heydər Əliyev Qanlı Yanvar haqqında" adlanır və orada ümummilli liderin keçirdiyi mətbuat konfransında, Ali Sovetin sessiyalarında etdiyi çıxışlar, teleqramları toplanmışdır. "Müraciətlər, bəyanatlar və digər materiallar" adlanan bölmədə isə 1990-cı il yanvarın 20-dən başlayaraq Azərbaycan SSR Ali Sovetinin bəyanatları, ictimai-siyasi xadimlərin, görkəmli şəxsiyyətlərin, ayrı-ayrı kollektivlərin, insan hüquqlarının müdafiəsi ilə məşğul olan qurumların müraciətləri öz əksini tapmışdır. "Stenoqramlardan çıxarışlar" bölməsində 20 Yanvar hadisələrinə dair müzakirələr aparılmış Azərbaycan KP MK plenumlarının və Ali Sovetin sessiyalarının protokollarından çıxarışlar təqdim edilmişdir.

"Anma tədbirləri" adlanan bölmədə isə xarici ölkələrdə Qanlı Yanvar şəhidlərini anma mərasimləri, müxtəlif tədbirlər və aksiyalar haqqında məlumatlar xronoloji ardıcıllıqla toplanmışdır.

"Elektron resurslar" fəslində 20 Yanvar faciəsinin əks-sədasına dair xarici və yerli mətbuatda dərc edilmiş yazılar, analitik materiallar, kitabların elektron versiyaları və mövzuya aid biblioqrafiya öz əksini tapmışdır.

M. Əhmədov qeyd etmişdir ki, Qanlı Yanvar hadisələri baş verdiyi günlərdə bir çox videogörüntülər və fotoşəkillər çəkilmişdir. Bu gün həmin kadrlar və fotoşəkillər sovet rejiminin qanlı əməllərini yaddaşlarda bir daha canlandırır. Elektron nəşrin "Fotoarxiv" bölməsində tanınmış fotoqraf Mirnaib Həsənoğlunun fövqəladə vəziyyət rejimində çəkdiyi şəkillər yerləşdirilmişdir. Bu şəkillərin bəziləri ilk dəfədir ki, ictimaiyyətə təqdim edilir.

Kitabxananın direktoru vurğulamışdır ki, 20 Yanvar faciəsinə dair dolğun materiallar toplusu virtual məkanda ilk dəfə olaraq internet istifadəçilərinə təqdim olunmuşdur və bu elektron nəşr mütəmadi olaraq yenilənəcəkdir. Azərbaycan, rus və ingilis dillərində hazırlanmış bu elektron nəşr həm yerli, həm də əcnəbi tədqiqatçılar, habelə mövzu ilə maraqlanan digər şəxslər üçün əvəzsiz mənbə rolunu oynayacaqdır.

**“Azərbaycan”.-** 2010.- 19 yanvar.- N 13.- S.7.

## 20 Yanvar faciəsinə gedən yol

**İmran Cəfərzadə,**
***Azərbaycan Dövlət Neft Akademiyasının prorektoru,***
***professor***

***1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə Bakıdan Moskvaya 357, Vaşinqtona 14, Londona 12, Tehrana 173, Ankaraya 286 zəng edilmişdi***

***Müstəqilliyimiz yolunda millətçi ermənilərin və məkrli Sovet imperiyasının təşkil etdikləri hərbi-siyasi fitvaların ən təhlükəlisi 1990-cı il yanvar ayının 20-də həyata keçirildi. Yanvar faciəsinə gedən yol məkrli. ziddiyyətli. mürəkkəb və təhlükəli olmuş. erməni mafiyasının fitvaları və imperiyanın dəstəyi ilə planlaşdırılıb. Qanlı 20 Yanvar faciəsinə gedən yol məhəlli düşüncəli Mixail Qorbaçovun məlum "yenidənqurma". aşkarlıq və demokratikləşmə konsepsiyasının dalğaları üzərində qatı millətçi ermənilərin Azərbaycana qarsı qərəzli ərazi iddiaları imperiyanın geostrateji siyasəti və səriştəsiz respublika rəhbərliyinin səbatsızlığı zəminində başlanıb.***

Mixail Qorbaçovun yenidənqurma siyasəti cəmiyyətə qəbul edildikdən sonra ermənilərin ekstremizmi və separatizmi leqallaşdırıldı, onların dağıdıcı aksiyalarına aşkarlıq, söz azadlığı və demokratiya pərdəsi altında qanuni don geydirildi. Aydındır ki, o zaman hələ güclü olan sovet dövləti SSRİ Konstitusiyasının 81-ci maddəsinin tələblərinə əsasən Azərbaycanın suveren hüquqlarını və ərazi bütövlüyünü müdafiə etsəydi regionda gərginlik yaranmazdı, qanlı yanvar faciəsi baş tutmazdı.

1960-cı illərdən başlayan gizli erməni separatizmi Qorbaçovun "Yenidənqurma" siyasi kursundan bəhrələnib tədricən leqallaşdı və Ermənistanın dövlət, səviyyəsinə qaldırıldı 60-cı illərdə hazırlanmış ssenarilər, bədii və tarixi əsərlər, xəritələr Yerevanda, Moskvada işıq üzü gördü, Daşnaksutyun Partiyası fəallaşdı, Silva Kaputikyanın, Sero Xanzadyanın, Zori Balayanın timsalında yeni "erməni imperiyası" ilə bağlı dövlətçilik ideologiyası və erməni soyqırımı haqqında geniş miqyasda ideoloji təbliğat başlandı, azərbaycanlılara və türklərə qarşı qəddarlığı ilə məşhur olan qaniçən Andronikin obrazı "Miasum" bayrağına çevrildi, Azərbaycana qarşı ərazi iddiaları barədə müxtəlif ünvanlara rəsmi müraciətlər, məktublar axını başlandı.

***1987-ci ilin ortalarında Yerevanda başlayan separatizm dalğaları Dağlıq Qarabağa yayıldı, bölgədə Azərbaycan bayraqları yığışdırıldı, müəssisələrin adlarını göstərən lövhələr erməniləşdirildi, azərbaycanlılar işdən uzaqlaşdırıldı, sıxışdırıldı, mitinqlər, yığıncaqlar keçirildi, vilayətin Azərbaycanın tərkibindən çıxarılması çağırışları gücləndi.***

Erməni ideoloqları və mafioz qüvvələri mərkəzin hakimiyyət strukturlarına soxulan daşnakların, ermənipərəst məmurların, bazar prinsipləri əsasında ələ alınmış yeni demokratların, xarici erməni lobbisinin və kilsələrinin maliyyə yardımı və dəstəyi ilə böyük Ermənistan dövlətinin yaradılmasına xidmət edən ümumerməni deportasiya və annesiya proqrammı hazırlamışdılar. Ümumerməni deportasiya və anneksiya proqramı iri həcmi strateji və taktiki yönümlü aksiyaların keçirilməsini nəzərdə tuturdu.

*- əzəli Vətənini tanımayan, çar imperiyasının geostrateji maraqlarına müvafiq olaraq Qərbi Azərbaycana və vahid Qarabağın dağlıq hissəsinə köçürülən ermənilərin bu yerləri özününküləşdirilməsi toponomiza siyasətinin həyata keçirilməsi;*

*- Qərbi Azərbaycanda müstəqil erməni dövlətinin yaradılması və Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsində dağınıq vəziyyət-də məskunlaşan gəlmə ermənilərə milli ərazi muxtariyyətinin verilməsi;*

*-- müxtəlif fitvalar yolu ilə Azərbaycanın Ermənistanla həmsərhəd bölgələrinin yaşayış məntəqələrinin qopardılıb ilhaq edilməsi;*

*- böyük Ermənistan dövlətinin yaradılması ideyasının, təbliğin bu istiqamətdə tarixi, bədii, publisistik yazıların nəşr edilməsi və yayılması;*

*- qondarma erməni soyqırımının geniş məkanda tanıdılması və qəbul edilməsi;*

*- bütün ermənilərin qatı millətçi və böyük dövlətçilik şovinizmi ruhunda tərbiyə edilməsi;*

*- qonşu dövlətlərə qarşı ərazi iddialarının irəli sürülməsi;*

*- Şimal qonşumuzun dövlət məmurlarının yüksək rütbəli hərbçilərinin və mətbuat orqanlarının bazar prinsipləri üzrə ələ alınması;*

*- Stavropolda erməni mafiyasının toruna düşmüş Mixail Qorbaçovun Kremldə onu əhatə edən daşnak qrupunun təzyiqi ilə Ermənistanda formalaşmış separatizmin söz azadlığı pərdəsi altında dəstəklənməsi;*

*- 1987-ci ilin sonunda Mixail Qorbaçovun həyat yoldaşı Raisa Qorbaçovanın iştirakı ilə baş katibin iqtisadi məsələlər üzrə məsləhətçisi akademik Abel Aqanbekyanın Dağlıq Qarabağın Ermənistana verilməsi haqqında bəyanat verməsi;*

*- tərkibindən ayrılması haqqında vilayət sovetinin konstitusiyaya zidd qərarının qəbul edilməsi;*

*- vəziyyəti gərginləşdirmək məqsədi ilə Xankəndində qonşu azərbaycanlı yaşayış məntəqələrinin sakinlərindən bir neçə nəfərinin qətlə yetirilməsi;*

*- 1988-ci ilin fevral ayında - Dağlıq Qarabağın Azərbaycanın tərkibindən ayrılması haqqında vilayət sovetinin konstitusiyaya zidd qərarın qəbul edilməsi;*

*- vəziyyəti gərginləşdirmək məqsədi ilə Xankəndində qonşu azərbaycanlı yaşayış məntəqələrinin sakinlərindən bir neçə nəfərinin qətlə yetirilməsi;*

*- 1988-ci ilin fevral ayının sonunda mərkəzin xüsusi xidmət orqanlarının dəstəyi və iştirakı ilə Eduard Qriqoryanın terrorçu separatist dəstəsi tərəfindən Sumqayıt sindromunun təşkil edilməsi;*

*- tarixən formalaşmış məkrli erməni fitvasını davam etdirən soydaşlarını qurban vermək, Azərbaycan xalqını vəhşi qiyafəsində ictimaiyyətə təqdim etmək və bu yolla gələcək genişmiqyaslı hərbi işğalçılıq siyasətinə ideoloji bəraət qazandırmaq;*

*- Dağlıq Qarabağın azərbaycanlı yaşayış məntəqələrini zəbt etdikdən sonra bütün bölgəni və onun ətrafında yerləşən Aşağı Qarabağın şəhər və rayonlarım işğal etmək üçün ideoloji təminat yaratmaq məqsədi ilə erməni ideoloqları Azərbaycanda Turanın islam fundamentalizminin genişləndirilməsi, islam respublikasının yaradılması, dövlət çevrilişinin hazırlanması haqqında mərkəzə donoslar göndərmək, onu Azərbaycan xalqına qarşı sərt tədbirlər görməyə vadar etmək;*

*- erməni ideoloqlarının və mafioz qüvvələrinin fitvalarına və düşünülmüş böhtanlarına əsasən mərkəzin Müdafiə Nazirliyinin 53-cü diviziyasının 366-cı motoatıcı polkunun, Daxili İşlər Nazirliyinin daxili qoşunlarının 81-ci hərbi hissəsinin Xankəndində yerləşdirilməsində, onların erməni silahlı qüvvələri ilə birlikdə Azərbaycana qarşı döyüşlərdə iştirak edilməsinə nail olmaq;*

*- Dağlıq Qarabağın idarə edilməsi üçün mərkəzə tabe olan qurumun yaradılması;*

Araşdırmalar zamanı məlum olub ki, 20 Yanvar faciəsinə hazırlıq 1988-ci ildə, SSRİ-nin o vaxtkı rəhbəri M.Qorbaçovun ölkənin müdafiə naziri Dmitri Yazova verdiyi göstərişindən sonra başlanıb. M.Qorbaçov 1988-ci ilin mart ayının 19-da Təhlükəsizlik Şurasının iclasında regionlarda və respublikalarda rusların şərəf və ləyaqətinin qorunması üçün "Narodnaya volya" təşkilatının hərbi hissələrdə özəklərinin yaradılması haqqında marşal Dmitri Yazova göstəriş verdi. SSRİ müdafiə naziri, M.Qorbaçovun tapşırığına əsasən 1988-ci ilin iyul ayının 24-də hərbi hissələrdə qeyd edilən təşkilatların özəklərinin yaradılması haqqında əmr imzaladı. Avqust ayının 13-də Təhlükəsizlik Şurasının iclasında bu məsələ yenidən baxıldı və müvafiq qərar qəbul edildi.

1989-cu ilin dekabr ayının 24-də regionlarda rus millətinin şərəf və ləyaqətini qorumaq üçün yaradılan "Narodnaya volya" təşkilatının tənzimləyici özəklərindən biri Həştərxanın Voladarski yaşayış ərazisində yaradıldı. Özəyə 1985-1988 - ci illərdə Dağlıq Qarabağda hərbi xidmətdə olmuş kapitan Lüdviq Fyodoroviç Paxomov rəhbər təyin edildi və ona Azərbaycan istiqamətində "dinc təlim"də iştirak edəcəyi barədə göstəriş verildi. 170 nəfərdən ibarət olan bu tənzimləyici özəyə hərbi xidmətdə olmuş rus və erməni zabitləri daxil idi.

Voladarskidə yaradılmış təlim düşərgəsində zabitlər hazırlıq keçir, yeni silahlarla tanış olur, konkret tapşırıqlar alır, taktiki döyüşlərə hazırlaşırdılar.

O zaman Azərbaycanda hadisələr nəzarətdən çıxmışdı, ikihakimiyyətlilik hökm sürürdü, qanunlar işləmirdi, xırda. silahlı dəstələr özbaşınalıq edirdi. 1990-cı ilin yanvar ayının 12-də saat 16:10 dəqiqədə Bakı ümumqoşun məktəbinin zabitləri adından polkovnik D.Savalyev və siyasi şöbənin rəisi polkovnik O.Rusakov Moskvaya, təhlükəsizlik şurasına, M.Qorbaçovun və Dmitri Yazovun adına göndərdiyi teleqramda deyilirdi: "Bakıda vəziyyət Xalq Cəbhəsi tərəfindən idarə edilir. Yığılmış problemləri həll etmək üçün bütün siyasi imkanlar istifadə edilib. Biz hesab edirik ki, Bakıda ikinci Rumıniyaya yol vermək olmaz".

Armavir şəhərində Livandan gəlmiş ermənilərdən ibarət təşkil edilmiş "iza-din el-kassan" terrorçu qrupun xristian qanadının liderlərindən olan Yusefmotarrekin başçılıq etdiyi 41 nəfərli heyət, sovet hərbi geyimində hazırlıq keçirdi. Dəstə SSRİ Müdafiə Nazirliyinin sənədlərində "Voennaya deleqasiya" kodu ilə qeydə alınmışdı.

1990-cı ilin yanvar ayının 14-də Armavir şəhərində yerləşən 016 saylı hərbi hissədən polkovnik Arkadiy Fedoseev Şimali Qafqaz hərbi dairəsinə göndərdiyi məktubunda deyilirdi ki, "hərbi nümayəndələr əmrə hazırdır. Digər tərəfdən həmin ərəfədə Taqanroqda, Donetskdə, Krasnodarda, Moskva ətrafında yerləşən hərbi hissələr Azərbaycan istiqamətində yola düşməyə hazırlaşırdılar. Azərbaycana gəlmək üçün hazırlaşan hərbçilər arasında Ermənistandan, Rusiyadan və Livanda yaşayan çoxlu erməni terrorçuları da var idi.

Bütün hazırlıq işlərini gördükdən sonra ölkənin müdafiə naziri, marşal Dmitri Yazovun 1990-cı ilin yanvar ayının 16-da Azərbaycan rəhbərliyinə göndərdiyi məxfi məktubunda deyilirdi; "Əmin edirəm ki, ordunun məramı Xalq Cəbhəsinin hakimiyyətə can atan xadimlərinin təşkilati strukturunu dağıtmaqdan ibarətdir".

O da məlum olmuşdur ki, Azərbaycana qarşı nəzərdə tutulan təhlükəli aksiyaların hazırlanmasında Dağlıq Qarabağda və Bakıda yaşayan ermənilərin liderləri fəal iştirak etmiş, mərkəzin xüsusi xidmətlər orqanlarının əməkdaşları ilə əlaqə saxlamış, onlara Bakıda vəziyyət haqqında vaxtaşırı məlumat vermişlər. Onlardan yalnız birini xatırladaq. Yanvar ayının 19-da axşam saat 19:00-da Dağlıq Qarabağ kommunistlərinin keçmiş başçısı Boris Geyorkov Bakıdakı mənzilindən Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin kəşfiyyat idarəsinin rəhbərlərindən polkovnik Ağayanın və polkovnik Osipyanın iştirakı ilə Moskva ilə danışıqlar aparırdı.

Polkovnik Ağayan 1993-cü ilin sentyabr ayının 19-da Moskvada erməni diasporunun rəhbərləri ilə görüşündə 1990-cı ilin yanvar gecəsi barədə demişdir ki, "biz həmin vaxt Boris Gevorkovun Bakıdakı mənzilində idik. Onda o telefonla "Şərqi Büro" ilə danışıq aparırdı.

***Politoloq Rövşən Novruz oğlunun məlumatına görə 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə Bakıdan Moskvaya 357, Vaşinqtona 14, Londona 12, Tehrana 173, Ankaraya 286 zəng edilmişdi. Kimin-kimə zəng etməsi və nə danışması aydın olmasa da, hər halda məram kimlərəsə məlumdur.***

Azərbaycana qarşı ərazi iddialarının separatizm aksiyalarının başlanması haqqında ilk rəsmi siqnalı Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri Abel Qezoviç Aqanbekyan verdi. O, Parisdə erməni diasporunun nümayəndələri ilə görüşündə mətləbdən uzaqlaşaraq bildirdi ki, onun şəxsi qənaətinə görə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi bütün mülahizələr baxımından əlverişli və məqsədə müvafiqdir. Bu bəyanatın məkrli mənasının təhlili göstərir ki, çoxsaylı milli və ərazi-inzibati bölgələrdən ibarət olan sovetlər ittifaqının 15 bərabərhüquqlu bir subyektinin ərazisinin müəyyən hissəsinin SSRİ Konstitusiyasının 76-cı maddəsinə zidd olaraq başqa bir subyektinə verilməsini irəli sürmək böyük cəsarət tələb edirdi.

M.Qorbaçovun dəstəyinə arxalanan erməni separatçıları onun aşkarlıq siyasətinin pərdəsi altında ölkə miqyasında ilk dəfə 1987-ci ilin oktyabr ayında Yerevan şəhərinin Puşkin meydanında Azərbaycana qarşı ərazi iddiaları ilə mitinq keçirirdilər, soydaşlarının "qədim" erməni torpaqlarının azad edilməsi uğrunda mübarizəyə səslədilər. M.Qorbaçovun ermənipərəst mövqeyini bilən mərkəzin xüsusi xidmət orqanları daşnakların separatist hərəkətlərinə məhəl qoymadılar, ekstremistlərə qarşı tədbirlər görmədilər.

Erməni silahlı qüvvələrinin fəallığı və antiazərbaycan təbliğatının miqyasının genişləndirilməsi göstərdi ki, Ermənistandan və Dağlıq Qarabağdan çox uzaqda yerləşən Sumqayıt şəhərində 26 erməninin və 6 azərbaycanlının qətlə yetirilməsi erməni separatistlərinin işğalçılıq siyasətinə, Qarabağın dağlıq hissəsinin ilhaq edilməsinə ideoloji təminat yaratmaqdan ibarət idi.

***Ən əsas məsələ Sumqayıt hadisələrindən istifadə edib Azərbaycan xalqının vəhşi obrazını yaratmaq və beləliklə də Qarabağın Azərbaycanın tərkibində qalmasının qeyri-mümkünlüyünü mərkəzə inandırmaq və Ermənistana birləşdirmək idi.***

20 Yanvar faciəsi ərəfəsində erməni ideoloqları, daşnak mafiyası, yeni demokratlar və mərkəzin xüsusi xidmət orqanları sovet imperiyasının Azərbaycana hərbi müdaxiləsinə bəhanə hazırlamaq və ona ideoloji don geyindirmək məqsədi ilə 1990-cı ilin yanvar ayının 13-14-də Bakı şəhərində Sumqayıt sindromuna bənzər fitnəkar aksiya təşkil etdilər. Onlar bu dəfə də daşnakların əvvəllər sınaqdan keçirdikləri metodları işə salıb, adi, sadə hadisələri şişirdib millətlərarası münaqişələr səviyyəsinə yüksəltdilər, sonra isə özlərinin təşkil etdikləri qarşıdurmanı beynəlxalq problemə çevirdilər.

***Göründüyü kimi, erməni millətçiləri böyük dövlətçilik ideologiyasının reallaşması naminə istənilən vaxt soydaşlarını siyasi məqsədlərinə qurban verməyi adət etmişlər. Bu xəstəliyin simptomları bütün ermənilərin fanatikcəsinə qəbul etdikləri təhlükəli "miya-sum" və "böyük Ermənistan" ideologiyasının özəyində yetişmiş və formalaşmışdır. Bu xəstəlikdən beyinləri robotlaşmış erməni ideoloqları belə hesab edirlər ki, "mia-sum", "böyük Ermənistan" uğrunda mübarizədə qurban gedənlər sağ qalan ən görkəmli ermənidən qiymətlidir.***

1990-cı ilin yanvar ayının 19-na qədər Ermənistandan 300 min azərbaycanlı əhalisinin son nəfəsinə qədər qovulub çıxarılmasına baxmayaraq Bakı şəhərində və respublikanın bütün bölgələrində ermənilər geniş mənzillərində rahat yaşayır, gizli iqtisadiyyat sahəsində böyük bizneslə sərbəst məşğul olur, varlı həyat sürür, erməni separatçılarına aylıq vergi verir, ekstremistləri dəstəkləyir, terror aksiyalarında iştirak edir, ən vacib obyektlər və hadisələr haqqında şəxsi məlumatlar toplayıb Ermənistanın və mərkəzin xüsusi xidmət orqanlarına ötürürlər.

Bakıda ermənilərin Azərbaycana qarşı açıq-aşkar təhlükəli təxribatlar M.S.Qorbaçovun Ermənistandan qovulan azərbaycanlıların tamamilə biganəliyi və Bakıda yaşayan ermənilərin təhlükəsizliyinin qorunması barədə verdiyi sərt göstərişlə əlaqədar idi. Ermənistandan və .Dağlıq Qarabağdan, qovulan azərbaycanlıların yerləşdirilməsi Azərbaycanın daxili işi olmasına baxmayaraq, bu vacib məsələnin optimal və səmərəli həllində cəsarətsizlik, qorxaqlıq göstərən marionet Əbdürrəhman Vəzirovun günahı bağışlanmazdır. Əgər o vaxtlar Əbdürrəhman Vəzirov cəsarət, milli qeyrət göstərib Ermənistandan qovulan qaçqınları Dağlıq Qarabağda yerləşdirsəydi, adekvat cavab kimi, Azərbaycanda yaşayan ermənilərin Ermənistana köçürülməsinə naiİ ola bilsəydi, çox güman ki, hadisələrin istiqaməti dəyişərdi, 20 Yanvar faciəsinin qarşısının alınması imkanı yarana bilərdi. Təəssüf ki, mərkəzin ermənipərəst siyasəti respublika rəhbərliyinin təslimçilik siyasəti nəticəsində hərbi müdaxilə həyata keçirildi, günahsız insanlar qətlə yetirildi.

***1990-cı ilin yanvar ayının 13-də Bakı səhərində erməni mafiyasının və mərkəzin xüsusi xidmət orqanlarının hazırladıqları fitnəkar plan belə başladı. Maraqlıdır ki, həmin günlər Bakıda SSRİ DİN-in daxili qoşunlarının 11 min 500 əsgəri var idi. Lakin onlar qəsdən münaqişəyə müdaxilə etmədilər, qarşıdurmanı dayandırmadılar, asayişi, sabitliyi bərpa etməyə səy göstərmədilər.***

O vaxtlar SSRİ xalq deputatı seçilən, yazıçı Anar Kremldə M.Qorbaçova müraciət edərək soruşanda ki, SSRİ DİN-in məlumatına görə qarşıdurma zamanı beş min adam iştirak edirdi, Bakıda on iki mindən artıq qoşun var idi, hər iştirakçıya ikidən artıq əsgər düşürdü, nə üçün onlar qarşıdurmanı dayandırmadılar, işə qarışmadılar. M.S.Qorbaçov əllərini sinəsinin üstünə qoyub demişdi ki, ***"Doğrudan da nə üçün ".***

1990-cı ilin yanvar ayının 13-də Bakıda həyata keçirilən məkrli erməni sindromu 20 Yanvar faciəsinə istiqamətlənən ən təhlükəli siyasi aksiya idi. Olduğu kimi bu dəfə də yaranmış vəziyyətdən həmişə fitnəkarcasına istifadə edən ermənilər bir neçə soydaşlarını qətlə yetirib, onların cəsədlərini dəmir yol vağzalının perronuna, Bakıda təhsil alan xarici tələbələrin yataqxanalarının girəcəyinə, şəhərdə yerləşən xarici nümayəndəliklərinin önünə düzdülər, Azərbaycan haqqında düşmən obrazı yaratmağa çalışdılar. Erməni ideoloqları mərkəzin məmurları ilə birlikdə həyata keçirdikləri "sindroma" milli və siyasi xarakter verərək, Azərbaycanda sovet hakimiyyətinin təhlükə qarşısında olması haqqında Moskvaya operativ şifrlə məlumat göndərir, hərbi kömək tələb edirdilər. Mərkəz ermənilərin xəyanətkar məlumatlarını alan kimi yanvarın 15-də Sov.İKP MK Siyasi Bürosunun qərarı ilə Azərbaycanın bir sıra bölgələrində hərbi vəziyyət elan etdi. O vaxt Azərbaycanda 110 minlik hərbi hissələrin yerləşdirilməsinə baxmayaraq, yeni qərara əsasən respublikaya əlavə 66 min əsgər və zabit göndərildi. Erməni mafiyasının fitvası ilə Azərbaycana qarşı kinini, küdurətini, düşmənçilik hisslərini gizlədə bilməyən mərkəz 4 gün ərzində, 1990-cı ilin yanvar ayının 15-i və 19-da iki dəfə hərbi vəziyyət elan etdi və təqribən 170 minlik ordu ilə respublika əhalisinə divan tutdu.

***Mixail Qorbaçovun cinayətlərindən biri onun Bakıda fövqəladə vəziyyət elan edilməsi və imperiya ordusunun şəhərə müdaxiləsi haqqında imzaladığı fərmanla xəyanətkar oyun idi. Yanvarın 18-19-da imperiyanın bir çox yüksək dövlət məmurları Bakıda dövlət televiziyalarında imperiya ordusunun şəhərə daxil olmayacaqları haqqında rəsmi bəyanatlar verirdilər. Respublika televiziyasının enerji bloku partladıldıqdan, qoşunlar şəhərə daxil olduqdan, faciə törədildikdən sonra yanvarın 19-dan 20-nə keçən gecəni səhər saat 5:30-da radio Qorbaçovun fərmanını elan etdi. Halbuki "mülki və siyasi hüquqlar haqqında" 1966-cı il beynəlxalq konvensiyasının birinci bəndinə əsasən fövqəladə vəziyyət tətbiq edilməzdən qabaq elan edilməlidir. Burada məqsəd kriminogen vəziyyəni profilaktika, xəbərdarlıq və ya çətin anlarda az itkilər və sarsıntılar yolu ilə nizamlamaqdan ibarətdir.***

Sovet imperiyası 1966-cı il beynəlxalq konvensiyanın tələblərini pozaraq, vaxtında elan etmədən fövqəladə vəziyyəti tətbiq etdi, görünməmiş vəhşiliyə rəvac verdi. İnsanların kütləvi qətlə yetirilməsini təmin etdi, özünü qəddarlığı, imperiya xisləti ilə ifşa etdi, ittifaqda zorla birləşdirilən xalqların gözündən saldı.

Ölkənin Konstitusiyasını, qanunlarını pozan, Azərbaycana qarşı açıq-aşkar hərbi təcavüzə başlayan, onun ərazilərinin bir hissəsini zəbt edən, azərbaycanlıları Ermənistandan və Dağlıq Qarabağdan zorla qovub çıxaran erməni terrorçularına dərs verən və öz suveren hüquqlarını qorumağa qalxan Azərbaycan xalqına qarşı hərbi qüvvə tətbiq edən mərkəzin cinayət hərəkətləri millətin qəzəbinə və etirazına səbəb olmuşdu.

***Bütün bu cinayət əməllərinin müqabilində hər bir azərbaycanlının qəlbində imperiyaya qarsı nifrət və qəzəb atəşi alovlandı, cəsarət, qeyrət, namus, qəhrəmanlıq əzmi püskürüb ərşə qalxdı, ermənipərəst Mixail Qorbaçova lənətlər yağdırdı, onun səkilləri küçələrdə yandırıldı, bütün şəhər evlərinin pəncərələrindən qara matəm bayraqları asıldı. Bakı şəhərinə dolusan 67 min sovet silahlı qüvvələrin timsalında bütün imperiya ordusuna qarşı ümumazərbaycan nifrəti yarandı.***

Soyuq başla aparılan araşdırmaların nəticələri tam aydınlıqla təsdiq edir ki, 1987-1989-cu illərdə ermənilər mərkəzin dəstəyi ilə Azərbaycana qarşı hərbi təcavüzə başlamasaydılar, 20 yanvar faciəsi baş

verməzdi, insanlar qətlə yetirilməzdi, imperiya müdaxilə üçün bəhanələr tapa bilməzdi, ölkə miqyasında 19 qaynar nöqtə yaranmazdı. Bizim və respublika ictimaiyyətinin sağlam düşüncəli nümayəndələrinin qənaəti belədir.

Qarabağda erməni silahlı qüvvələrinin qətlə yetirdikləri yüzlərlə günahsız insanların sırasına 20 Yanvar şəhidləri də əlavə edildi. 20 Yanvar şəhidləri erməni mafiyasının fitvası ilə mərkəzin həyata keçirdiyi hərbi müdaxiləsi zamanı daşnakların əli ilə qətlə yetirildilər.

***20 Yanvar qanlı faciəsi əsrlər. qərinələr keçsə də. heç zaman unudulmayacaq. yaddaşımızda yaşayacaq. cinayətkarlar nifrətlənəcəklər.***

**“Azad Azərbaycan”.**- 2010.- 17 yanvar.- №7.- S.5.

## 20 Yanvar – Qan yaddaşımız

**Nazim Mustafa,**
AMEA Tarix İnstitutunun elmi işçisi

### 20 Yanvar faciəsinə aparan hadisələrin XRONOLOGİYASI

Hər bir xalqın tarixində həm faciəli məqamlar, həm də qəhrəmanlıq səhifələri olur. Çox nadir hallarda bu iki məqam üst-üstə düşür. Azərbaycan xalqı 1990-cı ilin Qanlı Yanvarını həm faciə, həm də qəhrəmanlıq səhifəsi kimi yaşadı. O müdhiş gecə Azərbaycan xalqı sınağa çəkildi. Həm xalqın öz içində yetişdirdiyi qəhrəmanlar üzə çıxdı, həm də ona başçılıq edənlərin kimliyi bəlli oldu.

1988-ci ildə Dağlıq Qarabağda baş qaldırmış erməni separatizminə Kreml rəhbərliyi tərəfindən rəvac verilməsi, 1989-cu ildə SSRİ Ali Sovetinin qərarı ilə DQMV-də yaradılmış Xüsusi İdarə Komitəsinin Azərbaycana qarşı qərəzli mövqeyi sayəsində muxtar vilayətin idarə-müəssisələrinin tədricən Azərbaycanın tabeçiliyindən çıxarılması, azərbaycanlıların Ermənistandakı tarixi-etnik torpaqlarından tamamilə deportasiya edilməsi, Moskvanın erməni separatçılarını cəzalandırmaq əvəzinə, Azərbaycan xalqının əl-qolunu bağlaması millətin səbir kasasını daşırmışdı. 1989-cu ilin sonlarında bəzi rayonlarda Xalq Cəbhəsinin hakimiyyəti ələ keçirməsi, Naxçıvanın İranla sərhədindəki tikanlı məftillərin sökülüb atılması, Xalq Hərəkatının radikal qanadının Milli Müdafiə Şurası təşkil edərək nəzarəti öz əlinə alması, 1990-cı il yanvarın 13-15-də Dövlət Təhlükəsizliyi Komitəsinin Sumqayıt ssenarisi əsasında "erməni talanları" törətməsi Moskvanın əlinə Azərbaycan xalqını cəzalandırmaq fürsəti vermişdi. Nəhayət, 1990-cı ilin əvvəlində Kreml Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə qarşı çıxan Azərbaycan xalqını cəzalandırmaq üçün Qanlı Yanvar qırğınını törətdi.

1989-cu ilin yayından etibarən Moskvanın Bakıya əlavə qoşun hissələri göndərməsi üçün Azərbaycan KP MK-nın birinci katibi Əbdürrəhman Vəzirovun, Nazirlər Sovetinin sədri Ayaz Mütəllibovun, Azərbaycan KP MK-nın ikinci katibi Viktor Polyaniçkonun, Azərbaycan SSR daxili işlər nazirinin birinci müavini Viktor Varannikovun imzası ilə SSRİ hökumətinin rəhbərlərinə şifrəli telefonoqramlar göndərilmişdi. İstintaq müəyyən etmişdir ki, 1990-cı il yanvarın ortalarında SSRİ müdafiə və daxili işlər nazirliklərinin, habelə başqa xüsusi təyinatlı hərbi birləşmələrin 66 min nəfərdən çox əsgər və zabiti Bakı şəhərinə gətirilərək, Qala və Nasoslu aerodromlarında, Respublika stadionunda, Salyan kazarmasında yerləşdirilmişdi. Azərbaycana göndərilən ordu hissələrinin tərkibinə Stavropoldan, Rostovdan, Krasnodardan səfərbər edilmiş erməni zabit və əsgərləri, hərbi məktəblərdə təhsil alan erməni kursantları da cəlb edilmişdi. Respublikaya gətirilmiş hərbi qüvvələrin, əməliyyatlara rəhbərlik etmək üçün Bakıya gələn 300-dən artıq yüksək rütbəli zabit və generalların ərzaq təminatı, nəqliyyatla, yanacaqla təmin edilməsi respublika büdcəsindən ödənilirdi.

15 yanvar 1990-cı ildə SSRİ Ali Sovetinin sədri M.Qorbaçov DQMV-də və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzalamış, həmin fərmanın 7-ci bəndində Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinə Bakı və Gəncə şəhərində və digər yaşayış məntəqələrində qadağan saatı tətbiq edilməsi də daxil olmaqla hər cür lazımi tədbirlər görmək təklif edilmişdi. Lakin buna baxmayaraq, SSRİ Ali Sovetinin Rəyasət Heyəti yuxarıda qeyd olunan fərmanın ziddinə olaraq 1990-cı il yanvarın 19-da Azərbaycan SSR Ali Sovetinin hüquqi qüvvəsi olmayan 15 yanvar tarixli saxta qərarına əsasən yanvarın 20-də saat 00-dan etibarən "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman qəbul etmişdir. Müəyyən edilmişdir ki, bu fərmanı imzalamaqla keçmiş SSRİ-nin rəhbəri M.Qorbaçov İttifaq Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozmuşdur.

Yanvarın 19-da SSRİ DTK-nın "Alfa" qrupu və respublika DTK-sının rəhbərliyi tərəfindən təşkil edilən əməliyyat nəticəsində respublika televiziyasının enerji bloku partladılmışdı ki, Bakıda fövqəladə vəziyyət elan edilməsi və qoşunun şəhərə girməsi barədə əhaliyə rəsmi məlumat çatdırılmasın. Halbuki, həmin vaxt müxtəlif

yerlərdə piketlər, barrikadalar qurulmuş, şəhərdəki qoşun hissələrinin, o cümlədən Salyan kazarmasının giriş-çıxış yolu kəsilmişdi. Xalq Cəbhəsinin bəzi liderləri əhaliyə dağılmağı, bəziləri isə müqavimət göstərməyi məsləhət görürdü.

Fövqəladə vəziyyətin yanvarın 20-də saat 00-da tətbiq edilməsinə baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat 21-dən etibarən birinci olaraq Türkan-Qala tərəfdən şəhərə yeridildi. "Bakı əməliyyatı"na rəhbərliyi birbaşa SSRİ müdafiə naziri Dimitri Yazov, SSRİ daxili işlər naziri Vadim Bakatin, SSRİ DTK sədrinin müavini Filip Babkov həyata keçirmişdilər.

Bakı qarnizonunun qoşunları, gətirilən hərbi hissələr, hərbi gəmilərdən çıxarılan desant qrupları şəhər üzərinə hücuma keçdi. Ağır hərbi texnika çox asanlıqla barrikadaları dağıtdı. Şəhərin küçələri güllələnmiş və yaralanmış günahsız adamların - qocaların, qadınların, uşaqların qanına qərq olmuşdu. Hərbçilər təsadüfən küçəyə çıxanları, yaşayış evlərini, təcili yardım maşınlarını atəşə tutur, yaralıları öldürür, meyitləri yandırır, təhqir edir, eybəcər hala salırdılar. Adamları ağır hərbi texnikanın tırtılları altına salır, əzabla öldürürdülər.

Bakıya yeridilən qoşun kontingenti qapalı düşərgələrdə saxlanılırdı. Onlarla əhali ilə ünsiyyətdə olmağa imkan verilmirdi ki, xalqın əliyalın olmasından xəbərdar olsunlar. Bakıya yeridilən əsgər və zabitlərə demişdilər ki, "islam fundamentalistləri", "pantürkistlər" Azərbaycanda sovet hakimiyyətini ələ keçiriblər, ona görə də onları məhv etmək lazımdır. Məhz azərbaycanlılara qarşı nifrət hissi ilə köklənən, spirtli içkilər vasitəsilə qızışdırılaraq, şəhərə hücum edən əsgər və zabitlər qadına, qocaya, körpəyə, hətta təcili yardım maşınlarının sürücülərinə və həkimlərə fərq qoymadan atəş açmış, onları vəhşicəsinə qətlə yetirmişdilər. Tanklar və BTR-lər içi insanlarla dolu minik maşınlarını əzib keçirdilər. Xəstəxanaların işıqlarını kəsmişdilər ki, yaralılara tibbi yardım göstərmək mümkün olmasın. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışlar. Müəyyən olunmuşdur ki, "Mülki və siyasi hüquqlar haqqında" 1966-cı il Beynəlxalq Aktın birinci bəndinə əsasən, fərman imzalandığı andan fövqəladə vəziyyətin tətbiqi və müddətləri barədə Bakı şəhərinin əhalisinə rəsmi xəbərdarlıq edilməli idi. Lakin buna qəsdən əməl olunmamışdır. Kütləvi insan qırğını törədildikdən sonra - yəni 20 yanvar 1990-cı il səhər saat 5.30-da radio vasitəsilə Bakı şəhər komendantı V. Dubinyak fövqəladə vəziyyət tətbiq edildiyi barədə rəsmi məlumatı efirə vermişdir. Halbuki, yanvarın 20-də saat 00-dan başlanmış hərbi əməliyyatlarda tanklardan və müxtəlif təyinatlı zirehli döyüş maşınlarından istifadə edilmiş, Xəzər hərbi donanmasına məxsus gəmilərdən şəhərə desant çıxarılmışdı. Azərbaycan xalqına qarşı törədilmiş bu təcavüz aktı mərhələ-mərhələ həyata keçirilmiş, şəhərdə qarətlərlə nəticələnən təxribatlar törədilmişdir. Fövqəladə vəziyyət elan edildikdən sonra da, yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində daha 57 nəfər öldürülmüşdür. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda – yanvarın 25-də Neftçalada 2 nəfər və yanvarın 26-da Lənkəranda 6 nəfər qətlə yetirilmişdir.

Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və respublikanın rayonlarında 147 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuş, onlardan 112 nəfəri SSRİ-nin müxtəlif şəhərlərinə aparılaraq həbsxanalarda saxlanılmışdı. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları dağıdılmış, yandırıcı güllələrin törətdiyi yanğınlar nəticəsində külli miqdarda dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdir. Dövlət, ictimai və şəxsi əmlaka həmin dövrün qiymətləri ilə 5.637.286 rubl miqdarında maddi ziyan vurulmuşdu.

Faciənin miqyası o dövrdə Rusiyada fəaliyyət göstərən "Şit" ictimai təşkilatının ekspertlərinin hesabatında daha dəqiqliklə ifadə edilmişdi:

– adamları xüsusi qəddarlıqla və yaxın məsafədən güllələmişlər. Məsələn, R.Rüstəmova 23, Y. Meyeroviçə 21, D. Xanməmmədova 10-dan çox güllə vurulmuşdur;

– xəstəxanalar, "təcili yardım" maşınları atəşə tutulmuş, həkimlər öldürülmüşdür;

– içərisində sərnişinlər, o cümlədən uşaqlar olan 39 nömrəli "İkarus" markalı marşrut avtobusu gülləyə tutulmuşdur;

– adamlar süngü-bıçaqla qətlə yetirilmişlər. Onların arasında hər iki gözü tutulmuş B.Yefimtsev də var;

– "Kalaşnikov" avtomatının ağırlıq mərkəzini dəyişən 5,45 mm çaplı güllələrindən istifadə edilmişdir.

Həlak olanlar arasında yetkinlik yaşına çatmayanlar, qadınlar, qocalar, şikəstlər də var idi.

Qabaqcadan düşünülüb hazırlanmış bu təcavüzkarlıq aksiyası Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq, xalqı təhqir edərək ona mənəvi zərbə vurmaq məqsədi daşımışdır.

Bütün bunlar nəinki Azərbaycan xalqının gözünü qorxutdu, əksinə onun Sovet imperiyasına qarşı nifrətini qat-qat artırdı. Xalq avtomat süngülərinin, tank lülələrinin ona tuşlanmasından qorxmayıb öz şəhidlərini küçə və meydanlardan topladı. Topun-tüfəngin hər küçədə, hər tində qoyulmasına, fövqəladə vəziyyət rejiminə baxmayaraq yanvarın 22-də xalq öz şəhidlərini "Azadlıq" meydanından son mənzilə – Şəhidlər Xiyabanına yola saldı. Dünyanın heç bir ölkəsində şəhidlərimizin dəfn mərasimindəki kimi izdihama təsadüf edilməyib. Azərbaycan xalqı 40 gün matəm saxladı. Xalq aclığa dözdü, lakin etiraz əlaməti olaraq 40 gün tətil etdi. Xalqa qarşı sovet ordusunun qanlı cinayətləri isə hələ bitmək bilmirdi. Qanlı qırğına etirazını bildirmək üçün Bakı buxtasına gəlmiş "Xəzərneftdonanması"nın gəmiləri hərbi gəmilər tərəfindən mühasirəyə alınaraq gülləboran edilmiş, onlarla dənizçi həbs olunmuşdu.

"Sabit Orucov" gəmisi "SOS!" siqnalı ilə bütün dünyaya faciə barədə məlumat vermişdi. Şəhərə dənizdən hücumun qarşısını almaq üçün Azərbaycan dənizçiləri həyatlarını riskə qoyaraq bütün gəmiləri Bakı buxtasına yığmışdılar. Yanvarın 21-də saat 20.30 dəqiqədə iki hərbi gəminin və iki katerin müşayiəti ilə naməlum yük aparılması haqqında məlumat alan dənizçilər silahlı quldurlarla əliyalın qeyri-bərabər mübarizəyə girişmişdilər. Sovet hərbi gəmilərindən açılan atəş nəticəsində "Neftqaz-18", "Neftqaz-64", "Aktau", "Şirvan-2" , "Çelikin-1", "Atlet-21", "Vodoley-4" gəmiləri ciddi surətdə zədələnmişdi. Qanlı Yanvardan sonra başlanmış kütləvi repressiyalara qəhrəman dənizçilər də məruz qalmışlar.

1987

18 oktyabr İrəvan şəhərinin ekoloji cəhətdən çirklənməsinə etiraz bəhanəsilə təşkil edilmiş mitinq zamanı Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) Ermənistana birləşdirilməsi haqqında çağırışlar edilmiş və imza toplanmışdır.

19 oktyabr Heydər Əliyev 1987-ci ilin oktyabrında erməni lobbisinin təzyiqi ilə keçmiş Sov.İKP MK-nın Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini vəzifəsindən uzaqlaşdırılmışdır.

18 noyabr Sov.İKP MK-nın baş katibi Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri Abel Aqanbekyan Parisdə "L'Humanite" qəzetinə verdiyi müsahibəsində DQMV-nin Ermənistana birləşdirilməsinin iqtisadi cəhətdən daha sərfəli olmasını və bu məsələ üzərində xüsusi komissiyanın işlədiyini bəyan etmişdi.

1 dekabr Dağlıq Qarabağ ermənilərinin təmsilçiləri muxtar vilayətin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilməsi haqqında hazırlanmış müraciəti Sov. İKP MK-ya təqdim etmişlər.

1988

8 yanvar Dağlıq Qarabağın erməni icmasının nümayəndələri muxtar vilayətin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilməsi haqqında hazırlanmış daha bir müraciəti və toplanmış imzaları SSRİ Ali Soveti sədrinin müavini P. Demiçevə təqdim etmişlər.

25 yanvar Ermənilərin azərbaycanlı yaşayış məntəqələrinə basqınları nəticəsində Ermənistan SSR-in Qafan və Meğri rayonlarından ilk yüzlərlə azərbaycanlı qaçqınlar Azərbaycana gəlmişdir.

8 fevral Xankəndində DQMV-nin Azərbaycan SSR-dən Ermənistan SSR-in tərkibinə verilməsi tələbi ilə yeni imza toplanması kampaniyasına başlanmışdır.

12 fevral DQMV-də gizli fəaliyyət göstərən separatçı "Krunk" ("Durna") təşkilatının təşkilatçılığı ilə DQMV-nin Ermənistana birləşdirilməsi tələbi ilə Xankəndidə ilk mitinq keçirilmişdir.

18 fevral Kremldəki erməni lobbisinin ən fəal təmsilçisi Georgi Şahnazarov Sov. İKP MK-nın baş katibi M. Qorbaçovun köməkçisi təyin edilmişdir.

Azərbaycan KP MK-nın ikinci katibi V. Konovalov DQMV Partiya Komitəsinin büro iclasında iştirak etmiş və mitinqlərin "Krunk" un rəhbərləri tərəfindən təşkil edildiyini bildirmiş, onların həbs edilməsi məsələsini qaldırmışdır.

Zor tətbiqi nəticəsində Ermənistanı tərk etmiş azərbaycanlı qaçqınların sayı 4 min nəfərə çatmışdır.

19 fevral DQMV Partiya Komitəsinin geniş büro iclasında mitinqlərin keçirilməsinə səbəb kimi Azərbaycan tərəfindən yaradılan sosial-iqtisadi problemlər göstərilmişdir. Büronun qərarını Moskvaya göndərmək və oradan nümayəndə heyəti çağırmaq qərara alınmışdır.

İrəvanda anti-türk çağırışları səsləndirilən mitinq keçirilmişdir. "Ermənistanı türklərdən təmizləməli !", "Ermənistanda ancaq ermənilər yaşamalıdır!" millətçi şüarlar irəli sürülmüşdür.

20 fevral Xankəndində Vilayət Xalq Deputatları Sovetinin növbədənkənar sessiyası keçirilmiş, muxtar vilayətin Azərbaycan SSR-in tərkibindən çıxarılıb Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında qəbul edilmiş qərara anlaşıqlı yanaşılması üçün Azərbaycan və Ermənistan Ali Sovetlərinin Rəyasət Heyətlərinə müraciət edilmiş, bu məsələnin müsbət həlli üçün SSRİ Ali Soveti qarşısında vəsatət qaldırılmışdır.

21 fevral Sov.İKP MK-nın Siyasi Bürosu Dağlıq Qarabağda vəziyyətlə bağlı məsələ müzakirə etmiş, Azərbaycan və Ermənistan kommunist partiyaları mərkəzi komitələrinə vəziyyəti normallaşdırmaq tapşırılmışdır.

Ermənilər İrəvanda qalmış son məscidi də dağıtmışlar.

22-23 fevral "DQMV Azərbaycanın ayrılmaz tərkib hissəsidir" şüarları ilə Bakıda və Sumqayıtda ilk mitinqlər keçirilmişdir.

22 fevral Sov.İKP MK katibi G. Razumovski Xankəndidə vilayət partiya fəallarının yığıncağında mövcud milli-ərazi quruluşunu dəyişdirmək məqsədini güdən tələblərin millətlərarası münasibətlərə ziyan vurduğunu, əgər ciddi tədbirlər görülməsə ağır nəticələrə gətirib çıxaracağını demişdir.

23 fevral Dağlıq Qarabağ Muxtar Vilayət Partiya Komitəsinin plenumu Boris Gevotkovu Vilayət Partiya Komitəsinin birinci katibi vəzifəsindən azad etmiş, həmin vəzifəyə qatı millətçi Henrix Poğosyan seçilmişdir.

24 fevral Bakıda və İrəvanda keçirilən respublika partiya fəallarının yığıncaqlarında Dağlıq Qarabağ məsələsi müzakirə edilmişdir.

Ermənilər Əsgəran rayonunda Bəxtiyar Quliyev və Əli Hacıyev adlı iki gənci qətlə yetirdikdən sonra Ağdam rayonunu sakinləri ilə Əsgəran sakinləri arasında Xankəndi-Ağdam yolunda qarşıdurma olmuş, 19 nəfər yaralanmışdır.

İrəvanda fəaliyyət göstərən və DQMV-də erməni separatizminin qızışdırılmasında təhrikçi rol oynayan "Qarabağ" komitəsinin rəhbərləri Silva Kaputikyan və Zori Balayan Moskvada Sov.İKP MK Siyasi Bürosunun üzvü, Sov.İKP MK-nın katibi Aleksandr Yakovlevlə üç saata yaxın danışıq aparmışlar.

23 fevral Etnik təmizləmə siyasəti həyata keçirmək məqsədilə ermənilər Qafan rayonunun azərbaycanlılar yaşayan kəndlərinə kütləvi basqınlar təşkil etmişlər.

25 fevral Kremldəki erməni lobbisinin başçısı, baş katibin köməkçisi Karen Şahnazarovun və Sov.İKP MK-nın katibi Aleksandr Yakovlevin müşayiəti ilə Sov.İKP MK-nın baş katibi M.Qorbaçov S.Kaputikyanı və Z.Balayanı qəbul etmişdir. Saatyarım müddətdə onlar M.Qorbaçova saxta xəritələr və tarixi arayışlar təqdim etmiş, onu DQMV-nin Azərbaycanın tərkibində qalmasının mümkünsüzlüyünə inandırmağa çalışmışlar.

Sov.İKP MK-nın katibi V.Dolgixin Ermənistan televiziyası ilə çıxış edərək Dağlıq Qarabağ məsələsinə Kremldə kompleks şəklində baxılacağı barədə söylədikləri erməni separatçılarını daha da ruhlandırmışdır.

26 fevral Sov.İKP MK-nın baş katibi M. S. Qorbaçov Azərbaycan və Ermənistan xalqlarına və zəhmətkeşlərinə televiziya ilə müraciət etmişdir.

Sov. İKP MK-nın beynəlxalq əlaqələr şöbəsi müdirinin birinci müavini Karen Brutens Bakıda olarkən İttifaq respublikaları arasında sərhədlərin dəyişdirilməsinin yolverilməzliyindən danışmışdır.

27 fevral Sov. İKP MK-nın beynəlxalq əlaqələr şöbəsi müdirinin birinci müavini Karen Brutens Xankəndinə gələrək erməni separatçılarının rəhbərləri ilə tam məxfi görüş keçirərək onları təlimatlandırmışdır.

Xankəndində bütün müəssisələr işini dayandırmışdır. "Bizə nə su, nə çörək, ancaq anamız Ermənistan lazımdır !", "Azərbaycanla - heç vaxt!" şüarları altında şəhərdə mitinq keçirilmişdir.

28 fevral Dağlıq Qarabağda və Ermənistanda azərbaycanlılara qarşı edilən zorakılıqlara etiraz əlaməti olaraq keçirilən mitinqdən sonra erməni ekstremistlərinin bilavasitə iştirakı ilə Sumqayıtda kütləvi iğtişaşlar törədilmişdir. 26 erməni, 6 azərbaycanlı qətlə yetirilmişdir. İstintaqla müəyyən edilmişdir ki, iğtişaşların

təşkilatçılarından biri milliyyətcə erməni Eduard Qriqoryan olmuşdur. İstintaq müəyyən etmişdir ki, iğtişaşlar zamanı E. Qriqoryan daha çox qəddarlıq edərək 5 ermənini qətlə yetirmişdir.

1 mart Sumqayıtda baş verən iğtişaşlardan sonra şəhəri tərk edən ermənilərin bir qismi Xankəndinə gəlmişlər.

2 mart Azərbaycanlı qaçqınlarının yeni dalğası başlanmışdır. Ermənistanın kəndlərindən qovulmuş bir çox ailələr Azərbaycanın Zəngilan və ona qonşu rayonlarına gəlmişlər.

2 mart Xankəndində Sumqayıtda öldürülən ermənilərə əvvəlcədən hazırlanmış abidə qoyulmuşdur.

6 mart Dağlıq Qarabağ Muxtar Vilayət Partiya Komitəsinin geniş büro iclasında DQMV-nin adının dəyişdirilərək Dağlıq Qarabağ Erməni Muxtar Vilayəti adlandırmaq qərara alınmış və onun təsdiqi üçün Sov.İKP MK-ya müraciət edilmişdi.

9 mart Sov.İKP MK-da keçirilən müşavirədə hər iki respublikanın partiya rəhbərlərinin məlumatları dinlənilmişdir.

10 mart Ermənistanın Zəngibasar (Masis) rayonunun Mehmandar kəndinə ermənilər basqın etmiş, 5 nəfəri qətlə yetirmişlər.

17 mart Azərbaycan KP Dağlıq Qarabağ Vilayət Komitəsinin plenumu DQMV-nin Ermənistana birləşdirilməsi haqqında məsələ müzakirə etmişdir.

22 mart Martın 21-də "Pravda" qəzetində dərc olunmuş "Emosiya və zəka (Gmoüii i razum)" məqaləsindən narazı qalan ermənilər Xankəndində tətillərə başlamışlar.

23 mart SSRİ Ali Soveti Rəyasət Heyətinin iclasında Dağlıq Qarabağda, Azərbaycan SSR-də və Ermənistan SSR-də vəziyyətlə bağlı məsələ müzakirə edilmişdir. Qəbul edilmiş qətnamədə qeyd edilirdi ki, milli-ərazi quruluşunun hakimiyyət orqanlarına təzyiq vasitəsilə dəyişdirilməsinə cəhdlərin edilməsi yolverilməzdir.

24 mart Sov. İKP. MK və SSRİ Nazirlər Soveti "1988-1995-ci illərdə Azərbaycan SSR-in DQMV-nin sosial-iqtisadi inkişafını sürətləndirmək tədbirləri haqqında" birgə qərar qəbul etmişdir.

Xalqlar arasında nifaq salmaq işində təqsirləndirilən separatçı "Krunk" təşkilatının fəaliyyəti Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin qərarı ilə qadağan edilmişdir. Həmin gün Xankəndi şəhər İcraiyyə Komitəsi "Krunk" təşkilatını rəsmi olaraq Dağlıq Qarabağı Ermənistana birləşdirici komitə kimi tanımışdır.

8 aprel Ermənilərin Zəngibasar (Masis) rayonunun Sarvanlar kəndinə basqını nəticəsində üç nəfər kənd sakini ağır bədən xəsarəti almışdır.

24 aprel Xankəndi şəhər İcraiyyə Komitəsinin qərarı ilə ilk dəfə olaraq uydurma "erməni soyqırımı"nı anma mərasimi keçirilmişdir.

Mayın 1-ci ongünlüyü Ermənistandan yenə min nəfər azərbaycanlı qaçqın gəlmişdir.

3 may Erməni separatçıları DQMV-nin Tuğ kəndində Ermənistan SSR-in bayrağını qaldıraraq iğtişaşlar törətmişlər.

11 may Ermənilər Vedi (Ararat) rayonunun Şirazlı kəndinə hücum etmiş, iki nəfər qətlə yetirilmiş, onlarla nəfər yaralanmış, evlər yandırılmışdır. Əhali Sovet-Türkiyə sərhədinə çəkilərək çadırlarda yaşamaq məcburiyyətində qalmışdır.

Ermənilərin İrəvandakı M.F.Axundov adına orta məktəbə və C. Cabbarlı adına İrəvan Azərbaycan Dövlət Dram Teatrına basqınlarından sonra həmin müəssisələr öz fəaliyyətlərini dayandırmışlar.

DQMV Vilayət Prokurorluğuna azərbaycanlı müavinin təyin edilməsinə etiraz olaraq Xankəndində mitinq keçirilmişdir.

13 may Ermənilər Xankəndində azərbaycanlıların yaşadıqları məhəllələrə hücum etmişlər. 6 nəfər yaralanmışdır.

16 may Xankəndindəki Pedaqoji İnstitutun azərbaycanlı tələbələrini erməni tələbə və müəllimlər instituta buraxmamışlar. Bu hadisə iyunun 6-da da təkrarlanmışdır.

18 may Bakıdakı "Azadlıq" meydanında (keçmiş V. İ. Lenin adına meydan) azərbaycanlıların Ermənistandan qovulmasına etiraz əlaməti olaraq mitinq keçirilmişdir.

21 may Ermənipərəst mövqe nümayiş etdirən Kremlin tövsiyəsi ilə Əbdürrəhman Vəzirov Azərbaycan KP MK-nın birinci katibi seçilmişdir.

Sov.İKP MK-nın katibi Y. Liqaçov DQMV-nin Ermənistana birləşdirilməsinin yolverilməz olduğunu bildirmişdir.

DQMV Xalq Deputatları Sovetinin sessiyasında SSRİ Ali Sovetinə Ermənistan SSR Ali Sovetinin qərarını müdafiə etmək və DQMV-nin müvəqqəti olaraq Azərbaycanın tərkibindən çıxarmaq haqqında müraciət qəbul olunmuşdur.

22 may Sov.İKP MK-nın katibi Y. K. Liqaçevin Bakıda olarkən guya DQMV məsələsinin həlli olunduğu və bir daha müzakirə olunmayacağı barədə fikir söyləməsinə etiraz olaraq Xankəndində üçüncü tətil dalğası başlanmışdır.

İyunun 1-ci ongünlüyü Azərbaycanı bir daha qaçqın dalğası bürümüşdür. Bir neçə gün ərzində Ermənistandan 2 min nəfər gəlmişdir. DQMV-də azərbaycanlılar iş yerlərinə buraxılmamışlar. Onlardan vilayəti tərk etmək tələb olunmuşdur.

11 iyun Bakının “Vorovski” adlanan qəsəbəsində Krasnodardan gəlmiş erməni terrorçusu Aleksandr Aqanbekyan milis serjantı Fazil İsmayılovu odlu silahla qətlə yetirmişdir.

14 iyun Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatına görə, respublikaya daha 4 min qaçqın gəlmişdir.

15 iyun Ermənistan SSR Ali Soveti DQMV Xalq Deputatları Sovetinin DQMV-nin Azərbaycan SSR-nin tərkibindən çıxıb Ermənistan SSR-in tərkibinə qəbul edilməsi xahişi ilə bağlı müraciətinə müsbət cavab vermək haqqında qərar qəbul etmişdir.

17 iyun Azərbaycan SSR Ali Soveti Ermənistan SSR Ali Sovetinin 15 iyun tarixli qərarının qəbuledilməzliyi haqqında qərar qəbul etmişdir.

19-20 iyun Ermənilər Zəngibasar (Masis) rayonunun Zəhmət, Zəngilər, Dəmirçi, Dostluq, Nizami, Sarvanlar kəndlərinə hücumlar etmiş, əhali Sovet-Türkiyə sərhədinə sığınmağa məcbur olmuşdur.

İyunun üçüncü ongünlüyü Ermənistandakı mürəkkəb vəziyyət yeni qaçqın axınına səbəb olmuşdur. Onlar çadır şəhərciklərində yerləşdirilirlər.

4 iyul DQMV İcraiyyə Komitəsi Ermənistandan gələn azərbaycanlı qaçqınların Şuşada və onun ətraf kəndlərində yerləşdirilmələrini qadağan edən qərar qəbul etmişdir.

9 iyul Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirovun tapşırığı ilə Şuşada və DQMV-nin digər məntəqələrində məskunlaşmış azərbaycanlı qaçqınlar muxtar respublika ərazisindən çıxarılaraq digər rayonlara göndərilmişlər.

12 iyul DQMV Xalq Deputatları Sovetinin sessiyası muxtar vilayətin Azərbaycan SSR-in tərkibindən çıxması haqqında qərar qəbul etmişdir.

13 iyul Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti DQMV Xalq Deputatları Soveti sessiyasının 12 iyul 1988-ci il tarixli qərarını qeyri-qanuni hesab etmişdir.

18 iyul SSRİ Ali Sovetinin Rəyasət Heyəti geniş iclasında “Ermənistan SSR və Azərbaycan SSR Ali Sovetlərinin Dağlıq Qarabağ barəsində qərarları haqqında” məsələni müzakirə etmiş, mövcud sərhədlərin və milli-ərazi bölgüsünün dəyişdirilməsini qeyri-mümkün hesab etmişdir.

Xalqın tələbi və bir qrup deputatın təşəbbüsü ilə 1990-cı il yanvarın 22-də çağırılan Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyasında respublikanın əksər siyasi və dövlət rəhbərləri iştirak etməmişdilər. Sessiyaya respublika rəhbərlərinin gəlməmələri onların xalqın taleyinə biganə qaldıqlarını, törədilmiş cinayətdə bu və ya digər dərəcədə iştirak etdiklərini göstərirdi. Fövqəladə sessiya Bakı şəhərində törədilmiş faciəli hadisələrin təhqiqi üçün deputat-istintaq komissiyası yaradılması barədə qərar qəbul etmişdir. Lakin bu komissiya hadisəyə hüquqi-siyasi qiymət vermək əvəzinə, ölənlər və yaralananlar, dövlətə və ictimai təşkilatlara, vətəndaşlara vurulan ziyan haqqında informasiya xarakterli məlumatlar toplamaqla işini bitirmişdi. Bu komissiya öz rəyini faciənin törədilməsindən iki il sonra - 1992-ci ildə SSRİ dövləti süqut etdikdən sonra Azərbaycan Respublikası

Ali Sovetinin Milli Şurasına təqdim etmişdi. Milli Şura isə 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət vermək əvəzinə, deputat-istintaq komissiyasının rəyini qənaətbəxş hesab edib, onu təsdiq etməklə kifayətlənmişdi.

20 Yanvar qırğınlarından sonra xalq vahimə içində idi. O, qanına bələnmiş, alçaldılmış, təhqir olunmuşdu. Yanvarın 21-də fərdi təqaüddə olan Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək burada təşkil olunmuş izdihamlı yığıncaqda çıxış etdi. Bu ağır günlərdə xalqla həmrəy olduğunu bildirdi. Əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd, Moskvanın və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi.

SSRİ Baş Prokurorluğunun ədliyyə polkovniki V. Medvedyevin rəhbərliyi ilə təşkil etdiyi istintaq qrupu cinayət hadisələrinin araşdırılmasını çox səthi aparmış, istintaq hərbçilərin hərəkətlərində cinayət tərkibi olmaması nəticəsinə gəlmişdi. 20 iyul 1990-cı il tarixdə cinayət işinin xitam olunması barədə qərar qəbul olunmuş, cinayət işinin materialları Moskvaya aparılmışdı. Təəssüf ki, həmin vaxt Azərbaycan Respublikası Prokurorluğu törədilmiş cinayət hadisələri ilə bağlı heç bir cinayət işi başlamamışdı.

Zaman keçdikcə bir sıra həqiqətlər meydana çıxır, 20 Yanvar faciəsinin qaranlıq məqamları aydın olur. 100 cildlik istintaq materiallarının 68 cildi Bakıdan Moskvaya, keçmiş SSRİ Prokurorluğuna aparılmışdır və indiyədək qaytarılmayıb. Bir sıra sənədlərin, o cümlədən keçmiş SSRİ-nin yüksək instansiyalarında, xüsusən də hazırda Rusiya Federasiyası Prokurorluğunda saxlanılan 68 cildlik cinayət işinin materiallarının əldə edilməsi 20 Yanvar faciəsinin miqyasını və baiskarlarının məsuliyyət dərəcəsini tam dəqiqliklə üzə çıxara bilər.

Qanlı Yanvar qırğını həm də rus şovinistlərinin ermənilərlə birgə apardıqları antiAzərbaycan siyasətinin tərkib hissəsi idi. Lakin imperiya cəlladları qanlı əməlləri ilə Azərbaycan xalqının iradəsini qıra bilmədilər. Qanlı Yanvar milli azadlıq hərəkatının daha da yüksəlməsinə və nəticədə Azərbaycanın yenidən müstəqilliyə qovuşmasına gətirib çıxardı.

20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verilməsi məsələsi ümummilli lider Heydər Əliyevin sayəsində həllini tapmışdır. Onun tövsiyəsi ilə 1994-cü ilin fevral ayında Milli Məclisin xüsusi sessiyası keçirilmişdir. Sessiya 1990-cı il yanvarın 20-də Sovet Silahlı Qüvvələrinin Bakı şəhərinə və respublikanın bir neçə rayonuna yeridilməsini, nəticədə haqq və ədalətin müdafiəsi naminə küçələrə çıxmış silahsız adamların qəddarcasına qətlə yetirilməsini Azərbaycan xalqına qarşı totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirmişdir. Xalq hərəkatını boğmaq üçün 20 Yanvar faciəsini təşkil etmiş Sovet İttifaqı Kommunist Partiyası, Sovet dövləti və hökuməti rəhbərliyinin, o cümlədən şəxsən Mixail Qorbaçovun Azərbaycan xalqına qarşı ağır cinayət törətdiyi qeyd olunmuşdur. Eyni zamanda, xalqa qarşı törədilən hərbi təcavüzə görə məsuliyyətin o dövrdəki respublika rəhbərliyinin (Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov, Viktor Polyaniçko, Vaqif Hüseynov) üzərinə düşdüyü, onların Azərbaycan xalqına xəyanət etdikləri qeyd olunmuşdur.

“20 Yanvar şəhidi” fəxri adının təsis edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti 31 mart 1998-ci il tarixdə fərman imzalamışdır. 29 dekabr 1998-ci ildə “20 Yanvar şəhidi” fəxri adi haqqında Əsasnamə təsdiq edilmişdir. 1990-cı il yanvarın 20-də keçmiş SSRİ Silahlı Qüvvələrinin Bakıya və respublikanın bir neçə rayonuna hərbi təcavüzü zamanı həlak olmuş 147 nəfərə indiyədək “20 Yanvar şəhidi” fəxri adı verilmişdir.

20 Yanvar hadisələrində şəhid olanların, itkin düşənlərin ailələrinə və əlil olan şəxslərə hər il birdəfəlik dövlət yardımları edilir.

1990-cı ilin Qanlı Yanvar hadisəsi Azərbaycan xalqı üçün təkcə böyük faciə deyildir. O, ləyaqətini qorumaq üçün hər cür qurban verməyə hazır olan xalqın tarixində şərəfli bir səhifədir.

20 Yanvar faciəsi, eyni zamanda, həm ümumxalq faciəsi, həm də müstəqillik, istiqlal və hürriyyət uğrunda xalqımızın apardığı milli azadlıq hərəkatının zirvəsi kimi Azərbaycan tarixinə həkk olunub. Ümummilli lider Heydər Əliyevin söylədiyi kimi, bu təcavüz xalqımızı mənəvi cəhətdən çox sarsıtsa da, itkilərə məruz qoysa da, onun mənliyini tapdalaya bilmədi, qürurunu sındıra bilmədi, qəhrəmanlıq salnaməsinə yeni bir səhifə kimi yazıldı.

Tariximizin bu səhifəsi imperiya güllələrinin səsindən açılsa da, şəhidlərimizin qanı ilə yazıldı. Həm də əbədi olaraq!

19 iyul DQMV Xalq Deputatları Sovetinin sessiyası növbəti dəfə DQMV-nin Azərbaycanın tərkibindən çıxması barədə antikonstitusion qərar qəbul etmişdir.

21 iyul Ermənilərin Kalinino rayon mərkəzində yaşayan azərbaycanlılara hücumu nəticəsində 86 yaşlı Məhəmməd Sadıqov qətlə yetirilmiş, onlarla adam yaralanmışdır.

26 iyul Sov.İKP MK-nın və SSRİ Ali Soveti Rəyasət Heyətinin birgə iclasında SSRİ Ali Soveti Rəyasət Heyətinin 18 iyul tarixli qərarı müzakirə edilmiş, SSRİ Ali Sovetinin deputatı, Sov.İKP MK-nın şöbə müdiri Arkadi Volskinin xüsusi səlahiyyətlərlə Sov.İKP MK-nın və SSRİ Ali Soveti Rəyasət Heyətinin nümayəndəsi kimi DQMV-yə göndərilməsi qərara alınmışdır.

20 avqust Xankəndi şəhər meydanında keçirilən mitinqdə Ermənistandan gələn azərbaycanlı qaçqınların muxtar vilayətin ərazisindən çıxarılmaları tələbi irəli sürülmüşdür.

24 avqust DQMV Xalq Deputatları Sovetinin sessiyası bir daha DQMV-nin Azərbaycanın inzibati tabeçiliyindən çıxarılıb Ermənistana tabe etdirilməsi barədə qərarı müdafiə etdiyini bəyan etmişdir.

3 sentyabr Xankəndi şəhəri yaxınlığındakı azərbaycanlılar yaşayan Kərkicahan kəndi ov tüfənglərindən atəşə tutulmuşdur. Üzərində “Azərbaycanlılar, Arsaq torpağında sizlərə yer yoxdur!” sözləri yazılan vərəqələr yayılmışdır.

8 sentyabr Xankəndi şəhərindəki vətəndaş xidməti bürosunda sifarişçilərin böyük məbləğdə aldadılması ilə bağlı respublika prokurorluğunda cinayət işinin açılmasına cəhd edilməsinə etiraz əlaməti olaraq daha bir tətil edilmişdir.

12 sentyabr Xankəndi şəhərində müxtəlif qanun pozuntusuna görə saxlanılanların azad edilməsi tələbi ilə çıxış edən 3 min erməni vilayət prokurorluğuna hücum etmiş, qapı-pəncərələri sındırmışlar. Prokurorluq işçiləri hərbçilərin müşayiəti ilə binanı tərk edərək canlarını qurtarmışlar.

18 sentyabr Xankəndi şəhərində keçirilən mitinqdən ayrılan 3-5 min erməni azərbaycanlılar yaşayan Xocalı şəhərinə hücum etmişlər. Atışma nəticəsində 1 nəfər ölmüş və 1 neçə nəfər yaralanmışdır.

18-23 sentyabr Ermənilər Xankəndi şəhərində azərbaycanlıların mənzillərinə basqınlar etmiş, 42 azərbaycanlı evi yandırılmışdır. Nəticədə 16 min nəfərlik azərbaycanlı əhalisi şəhəri tərk etməyə məcbur olmuşdur. Onların xeyli hissəsi Şuşa şəhərinə qaçmağa məcbur olmuşdur.

21 sentyabr DQMV ərazisində və Ağdam rayonunda xüsusi vəziyyət və komendant saatı tətbiq edilmişdir.

1 oktyabr M.Qorbaçov SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri seçilmişdir.

4 oktyabr SSRİ Ali Soveti Millətlər Sovetinin sədri A. E. Voss başda olmaqla Millətlər Sovetinin milli məsələlər üzrə deputat komissiyası vəziyyəti öyrənmək üçün DQMV-yə səfər etmişdir.

16 noyabr Ermənilər Şuşanın yaxınlığındakı Topxana meşəsində qanunsuz olaraq meşəni qırıb yerində İrəvandakı Kənəkert alüminium zavodunun sexinin və istirahət kompleksinin tikintisinə başlamışlar.

17 noyabr Azərbaycanda Xalq Hərəkatı başlanmışdır. (Hazırda 17 noyabr - Milli Dirçəliş Günü rəsmi dövlət bayramı kimi qeyd edilir.) Topxana meşəsində qanunsuz tikintiyə görə Bakıdakı “Azadlıq” meydanında 500 min nəfərdən artıq nümayişçinin cəmləşdiyi etiraz mitinqi keçirilmişdir.

18 noyabr - 5 dekabr Bakıdakı “Azadlıq” meydanında SSRİ rəhbərliyinin Dağlıq Qarabağ məsələsində tutduğu ikiüzlü mövqeyə, azərbaycanlıların Ermənistandan deportasiyasına etiraz əlaməti olaraq mitinqlər keçirilmişdir.

23 noyabr Topxanada aparılan qanunsuz tikinti dayandırılmışdır.

22 noyabr Ermənistan SSR Ali Sovetinin sessiyasının keçirildiyi Opera teatrının binasına mitinq iştirakçılarının hücumundan sonra sessiyanın gedişi dayandırılaraq rayon rəhbərlərinə tapşırıq verilmişdi ki, bir həftə ərzində Ermənistanı azərbaycanlılardan təmizləmək aksiyasını həyata keçirsinlər.

Ümumiyyətlə, 1988-ci il noyabrın 22-dən dekabrın 7-dək olan müddət ərzində azərbaycanlılar yaşayan 22 rayonda 170 sırf və 94 qarışıq (ermənilərlə) yaşayış məskənləri boşaldılmış, nəticədə 200 mindən artıq azərbaycanlı əhali Azərbaycana qovulmuşdur. Həmin vaxt 216 azərbaycanlı vəhşicəsinə qətlə yetirilmiş, minlərlə qadın, uşaq və qoca bədən xəsarəti almış, on minlərlə ailənin əmlakı qarət olunmuşdur.

24 noyabr Bakı, Naxçıvan və Gəncə şəhərlərində xüsusi vəziyyət və komendant saatı tətbiq edilmişdir.

Ermənistan ərazisindən Qubadlı rayonunun Eyvazlı, Qədirli, Davudlu kəndlərinə hücum edilmiş, Eyvazlı kəndi tamamilə yandırılmışdır.

26-27 noyabr Kirovakan şəhərinə bitişik Vartanlı (Şaumyan) kəndinə ermənilərin silahlı hücumu nəticəsində 14 nəfər azərbaycanlı vəhşicəsinə öldürülmüş və yandırılmışdır. Kəndin sağ qalan əhalisi qarlı-çovğunlu günlərdə dağlarla, meşələrlə yol gedərək 13-14 gün ərzində Azərbaycana gəlib çatmışdır.

27 noyabr Ermənilər Zəngibasar (Masis) rayonunun Zəhmət kəndinə basqın etmişlər. 5 nəfər qətlə yetirilmişdir.

28 noyabr Quqark rayonunun Saral və Qursalı kəndlərindən Azərbaycana yola düşən maşın karvanına Spitak rayonunun ərazisində ermənilərin basqınları nəticəsində 3 nəfər qətlə yetirilmiş, 7 nəfər yaralanmışdır.

Ermənilərin Basarkeçər rayonunun Çaxırlı, Qanlı, Kərkibaş, Şişqaya və Zod kəndlərinə silahlı basqınlarından sonra əliyalın əhali qarlı dağları aşaraq Azərbaycana gələrkən yolda 12 nəfər şaxtadan ölmüşdür.

30 noyabr Ermənilər Stepanavan (keçmiş Cəlaloğlu) rayonunun Qarqar kəndində yaşayan azərbaycanlılara hücum etmiş, kənd sakini Bəsti Mustafayevanı qarət etdikdən sonra üstünə neft töküb diri-diri yandırmışlar.

Ermənilər Quqark rayonunun Gözəldərə kəndinə basqın etmişlər.

1 dekabr İrəvanda “Qarabağ Komitəsi”nin üzvləri həbs edilmişlər.

5 dekabr Qoşunların köməyilə gecə “Azadlıq” meydanı mitinq iştirakçılarından təmizlənmişdir. Nümayişçilərlə toqquşma nəticəsində 3 nəfər həlak olmuşdur.

6-7 dekabr BMT-nin 43-cü sessiyasında iştirak etmək üçün Nyu-Yorka gələn M. Qorbaçovla erməni lobbisinin görüşü olmuşdur. Ermənilər M. Qorbaçova xristianlığa aid qədim bir əlyazma, İ. Ayvazovskinin rəsm əsərini və vaxtilə ingilis krallarına məxsus olmuş zərgərlik əşyalarını, Raisa Qorbaçovaya qiymətli qolbağı hədiyyə etmişdilər. Cəmisi üç ay SSRİ Nazirlər Sovetinin sədri vəzifəsində işləyən Nikolay Rıjkova isə “Şəbəkə” üslubunda hazırlanmış qiymətli məcməyi və 6 stəkanaltı hədiyyə göndərmişdilər.

7 dekabr Ermənistanda zəlzələ baş vermişdir. Fürsətdən istifadə edərək humanitar yardım adı altında xaricdən Ermənistana külli miqdarda silah-sursat gətirilmiş, sonradan həmin silah və sursat müxtəlif yollarla Dağlıq Qarabağa daşınaraq azərbaycanlılara qarşı istifadə edilmişdir.

8 dekabr Sov.İKP MK-nın baş katibi M.Qorbaçov Nyu-Yorka səfərini yarımçıq saxlayaraq Ermənistana zəlzələ zonasına gəlmişdir. İrəvanda keçirilən mitinqdə ermənilər yardım deyil, Dağlıq Qarabağın Ermənistana verilməsini tələb etmişlər.

11 dekabr Respublika Hərbi Komissarlığının və Mülki Müdafiə Qərargahının zəlzələdən zərər çəkənlərə yardım etmək üçün səfərbər edib Gümrüyə (Leninakana) göndərdiyi, içərisində müxtəlif peşə sahibləri (69 sərnişin, 9 ekipaj) olan “İL-76" təyyarəsi Gümrü yaxınlığında qəsdən qəzaya uğradıldı. Qəzadan yalnız bir nəfər sağ çıxdı. Lakin həmin qəzanın səbəblərini araşdırmaq üçün heç bir komissiya yaradılmadı.

Dekabrın 2-ci ongünlüyü Ermənistandan deportasiya edilən azərbaycanlı qaçqınlar qarlı aşırımlardan piyada aşaraq kütləvi surətdə Azərbaycana gəlmişlər. Mülki aviasiyanın vertolyotları xilasetmə əməliyyatlarına cəlb edilmişlər.

15 dekabr Sov.İKP MK “Azərbaycan SSR-in və Ermənistan SSR-in bəzi vəzifəli şəxslərinin qanunsuz hərəkətləri haqqında” qərar qəbul etmişdir. Bakını tərk edən ermənilər bundan sonra kütləvi surətdə geri qayıtmağa başlamışlar.

1989

12 yanvar SSRİ Ali Sovetinin Rəyasət Heyəti “Azərbaycan SSR-in DQMV-də xüsusi idarəçilik formasının tətbiqi haqqında” qərar qəbul etmişdir. Ermənipərəst A. Volskinin rəhbərliyi altında birbaşa Moskvaya tabe olan Xüsusi İdarə Komitəsi yaradılmışdır. Komitənin tərkibi 5 nəfər rus, 2 nəfər erməni, 1 nəfər azərbaycanlıdan ibarət olmuşdur.

28 yanvar A. Volski Ermənistana gedərək Dağlıq Qarabağ məsələsini müzakirə etmişdir.

2 aprel Rusiyadan olan deputat Qalina Starovoytovanın başçılığı ilə Ermənistandan 40 nəfər anti-Azərbaycan təbliğatı aparmaq üçün Xankəndinə gəlmişdir.

19 aprel 10 minlərlə erməninin zəlzələdən dağılmış Spitakdan Xankəndinə köçməsi haqqında yayılan xəbərlərə etiraz əlaməti olaraq Bakıda nümayiş keçirilmişdir.

20 aprel SSRİ Ali Soveti daimi yaşayış yerlərini müvəqqəti tərk etmiş azərbaycanlı və erməni millətindən olan şəxslərə köməklik göstərilməsi haqqında qərar qəbul etmişdir.

27 aprel Azərbaycan SSR Nazirlər Soveti Ermənistandan gələn qaçqınların Abşeron rayonunun Altıağac-Xızı zonasında yerləşdirilməsi haqqında qərar qəbul etmişdir.

Mayın 1-ci ongünlüyü DQMV-də iş yerindən qovulmuş azərbaycanlıların işlə təmin edilməsi üçün muxtar vilayətin azərbaycanlı kəndlərində sənaye obyektlərinin inşasına etiraz əlaməti olaraq ermənilər Xankəndində tətil etmişlər.

İrəvanda həbs edilmiş “Qarabağ Komitəsi”nin üzvləri azadlığa buraxılmışlar.

5 may “Sovetskiy Karabax” qəzetində Sov.İKP MK-nın baş katibi M.Qorbaçova açıq məktub ünvanlanmış və Azərbaycan hakimiyyətini təhqir edən, DQMV-nin Azərbaycanın tərkibindən çıxarılmayacağı təqdirdə kütləvi iğtişaşlar törədiləcəyi təhdidi ilə xüsusi nömrə buraxılmışdır.

6 may SSRİ Nazirlər Sovetinin qərarı ilə DQMV-dəki müəssisələr Azərbaycan SSR-in tabeçiliyindən çıxarılmışdır.

18 may Xankəndi şəhər sovetinin sessiyasında vilayətdə xüsusi idarəçilik formasının ləğvi, DQMV-nin Ermənistana birləşdirilməsi haqqında 20 fevral 1988-ci il tarixli qərarın təsdiq edilməsi üçün SSRİ xalq deputatlarının qurultayına müraciət qəbul edilmişdir.

19 may Sov. İKP. MK Siyasi Bürosunun Millətlərarası Münasibətlər Komissiyasının iclasında DQMV haqqında məsələ müzakirə edilmişdir.

25 may SSRİ xalq deputatlarının 1-ci qurultayında SSRİ Ali Sovetinin Dağlıq Qarabağ üzrə komissiyasının yaradılması qərara alınmışdır.

31 may SSRİ xalq deputatlarının qurultayında 1989-cu il aprelin 9-da Tbilisi şəhərində güc strukturları ilə toqquşma nəticəsində 9 nəfərin ölümü ilə nəticələnən hadisənin təhqiqi üçün komissiya yaradılması haqqında qərar qəbul edilmişdir. Lakin 1990-cı il yanvarın 20-də Bakıda 100-dən artıq əliyalın əhalinin qətlə yetirilməsi ilə nəticələnən qanlı olayla bağlı SSRİ Ali Soveti analoji addım atmadı.

1 iyun SSRİ xalq deputatlarının qurultayında çıxış edən Azərbaycan SSR Nazirlər Sovetinin sədri Ayaz Mütəllibov ermənilərin Azərbaycana qarşı ərazi iddiasından, Dağlıq Qarabağda baş qaldıran erməni separatizmindən bir kəlmə də olsun danışmamışdır.

8-9 iyun Xankəndi şəhərində keçirilən “Qarabağ hərəkatı”nın yığıncağında respublika və mərkəzi hakimiyyət orqanlarına itaətsizlik göstərmək və təxribatlar törətmək qərara alınır.

13 iyundan etibarən Xüsusi İdarə Komitəsinin ermənipərəst mövqeyi sayəsində DQMV ərazisindəki azərbaycanlı yaşayış məntəqələrinin blokadası başlanmışdır.

28 iyun Ermənilər tərəfindən Bədərə kəndindən Meşəli kəndinə gedən şose yoluna qoyulmuş partlayıcı qurğunun işə düşməsi nəticəsində maşındakı 6 nəfər mülki azərbaycanlı ağır yaralanmışdır.

7 iyul Xankəndi yaxınlığındakı Kərkicahan kəndi gecə odlu silahlardan atəşə tutulmuşdur. Daxili qoşunların sayəsində qarşıdurma dayandırılmışdır.

8 iyul Sonralar Ermənistan Respublikasının prezidenti olmuş Robert Koçaryanın rəhbərliyi altında Xankəndində “Arsax Erməni Xalq Hərəkatı - ”Miasum" (“Birləşmə”) hərəkatının təsis konfransı keçirilmişdir.

10 iyul Ermənilər Ağdam-Şuşa yolunu bir neçə yerdən dəmir-beton lövhələrlə və teleqraf dirəkləri ilə kəsmişlər. Yolun təmizlənməsi zamanı Xankəndində yaşayan bir qrup erməni hərbçilərə hücum etmiş, onlara silahlardan atəş açmış, 19 hərbçini yaralamışdır. Buna cavab olaraq kərkicahanlılar da Xankəndi yolunu daşlarla bağlamışlar.

11 iyul Xankəndində 3 azərbaycanlıya basqın edilmişdir. Onlardan 2-si öldürülmüş, 1-i ağır yaralanmışdır.

20 - 27 iyul SSRİ Ali Sovetinin DQMV üzrə komissiyası muxtar vilayətdə işləmişdir.

22 iyul Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti ABŞ Senatının ermənilərin xeyrinə olan 19 iyul tarixli qətnaməsinə qarşı etiraz bəyanatı qəbul etmişdir.

26 iyul Keçmiş Şaumyan (kənd) Xalq Deputatları Rayon Sovetinin növbədənkənar sessiyası rayonun DQMV-nin tərkibinə daxil edilməsi haqqında qanunsuz qərar qəbul etmişdir.

29 iyul Azərbaycandan Ermənistana gedən qatarlar Ermənistan ərazisində basqınlara məruz qaldığına görə onların hərəkəti dayandırılmışdır. Naxçıvan MSSR blokada vəziyyətinə düşmüşdür.

29 iyul -6 avqust Azərbaycan Xalq Cəbhəsinin təşkilatçılığı ilə Bakıda mitinqlər keçirilmiş, DQMV-də Xüsusi İdarə Komitəsinin ləğvi və Azərbaycanın suveren hüquqlarının bərpası tələb edilmişdir.

31 iyul Ermənistanın Gorus rayonundan Xankəndinə tikinti materiallarının altında silah daşıyan 13 maşın Laçın rayonu ərazisində saxlanılmışdır. Toqquşma baş vermiş, nəticədə 7 azərbaycanlı və bir neçə erməni sürücüsü və hərbçi yaralanmışdır.

1 avqust Ermənistanın Ararat (keçmiş Vedi) və Azərbaycanın Şərur (keçmiş İliç) rayonlarının sərhədində, Kərki kəndinin yaxınlığında silahlı toqquşma olmuşdur.

16 avqust Xankəndində “DQMV əhalisinin səlahiyyətli nümayəndələrinin qurultayı” keçirilmişdir. Qurultayda DQMV müstəqil İttifaq ərazisi elan edilmişdir. DQMV-də hakimiyyəti Milli Şura adlanan qeyri-qanuni qurum mənimsəmişdir.

20 avqust DQMV Milli Şurasının qərarı ilə 17 yaşından 50 yaşınadək bütün ermənilər “milli müdafiə dəstələri”nə cəlb edilmişlər.

25 avqust SSRİ rabitə nazirinin əmri ilə Dağlıq Qarabağın rabitə sisteminin Leninqrad vilayətinin rabitə idarəsinə tabeçiliyi ləğv edilmişdir.

27 avqust “DQMV əhalisinin səlahiyyətli nümayəndələri qurultayı”nın 16 avqust 1989-cu il tarixli qərarını Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti qanunsuz hesab etmişdir.

2 sentyabr Sov. İKP. MK-da Azərbaycan və Ermənistan MK-larının büro üzvlərinin və üzvlüyə namizədlərinin görüşü keçirilmişdir.

Sentyabrın 1-ci ongünlüyü “DQMV əhalisinin səlahiyyətli nümayəndələrinin qurultayı”nın qərarı Bakıda vəziyyətin gərginləşməsinə səbəb olmuş, şəhərdə mitinqlər və tətillər başlanmışdır.

9 sentyabr Bakıda keçirilən mitinqdə DQMV-də Xüsusi İdarə Komitəsinin buraxılması və Azərbaycanın bütün ərazisində onun suveren hüquqlarının bərpası tələb edilmişdir.

15 sentyabr Azərbaycan SSR Ali Sovetinin növbədənkənar sessiyası DQMV-də Xüsusi İdarə Komitəsinin ləğvi, iqtisadi müstəqillik haqqında qanun layihəsini hazırlamaq haqqında qərar qəbul etmişdir.

16 sentyabr Ermənilərin Tiflis-Bakı marşrut avtobusunda törətdikləri terror aksiyası nəticəsində 5 nəfər ölmüş, 25 nəfər yaralanmışdır.

18 sentyabr Ağdam şəhərinin yaxınlığındakı yolun təmizlənməsi üçün göndərilmiş hərbçilərlə sakinlər arasında toqquşma olmuşdur. Hərbçilərin əliyalın əhaliyə qarşı silah tətbiq etməsi vəziyyəti gərginləşdirmişdir. Nəticədə SSRİ DİN-in 2 əməkdaşı öldürülmüşdür.

20 sentyabr Ermənilər Basarkeçər rayonu ərazisindən Gəncə geoloji kəşfiyyat dəstəsinin Kəlbəcər rayonunun Söyüdlü yatağındakı sahəsinə partlayıcı qurğu qoyaraq mədəni partlatmışlar. Nəticədə bir nəfər yaralanmış, 4 ev yandırılmış, bütün texnika məhv edilmişdir.

22 sentyabr Xankəndi elektrotexnika zavodunun işçiləri Ağdam-Şuşa istiqamətində hərəkət edən azərbaycanlılara məxsus avtomaşınlara hücum etmişlər.

23 sentyabr Azərbaycan SSR Ali Sovetinin növbədənkənar sessiyasında “Azərbaycan SSR-in suverenliyi haqqında” Konstitusiya qanunu qəbul edilmişdir.

Sentyabrın sonuncu ongünlüyü Ermənistan ərazisində qatarlara edilən hücum Azərbaycan dəmir yolçularını tətilə sövq etmişdir. Ermənistana ünvanlanan yüklər yollarda ilişib qalmışdır.

3 oktyabr SSRİ Ali Sovetinin sessiyasında çıxış edən yazıçı Anar Rzayev ermənilərin Azərbaycana qarşı ərazi iddiasına Kremlin seyrçi münasibətini pisləmişdir.

5 oktyabr Azərbaycan SSR Nazirlər Soveti Azərbaycan Xalq Cəbhəsini rəsmi qeydə almışdır.

6 oktyabr Azərbaycan və Ermənistan arasında qatarların hərəkəti bərpa olunmuşdur.

7 oktyabr Şuşa ilə Ağdamı bağlayan Xəlfəliçay körpüsü gecəyarısı partladılmışdır. Şuşa rayonu faktiki olaraq blokada vəziyyətinə düşmüşdür. Cinayəti törədən erməni həbs olunmuşdur.

16 oktyabr İki nəfər Kərkicahan qəsəbə sakini evə qayıdarkən ermənilər tərəfindən qətlə yetirilmişdir.

19 oktyabr Culfa rayonunun Ərəfsə kəndi yaxınlığında yerli sakinlər Q. Bayramov və İ. Qafarov qətlə yetirilmişlər.

Oktyabrın 2-ci ongünlüyü Ermənilər əhalisinin mütləq əksəriyyəti azərbaycanlılardan ibarət olan Şuşa rayonuna gedən yolları blokadaya almışlar.

14 noyabr Qubadlı rayonunun Seytas kəndi yaxınlığında kənd sakini İnqilab Babaşov qətlə yetirilmiş, azyaşlı Xəyyam Əliyev yaralanmışdır.

17 noyabr Hadrut rayonunun Tuğ kəndində 9-cu sinif şagirdi Teyyub Süleymanov qətlə yetirilmişdir.

Noyabrın 2-ci ongünlüyü Ermənistana gedən dəmir yolları yenidən blokadaya alınmışdır. Ermənistan SSR ərazisində Azərbaycana məxsus qatarlara yenidən basqınlar edilmişdir.

24 noyabr Üç nəfər Qaradağlı kənd sakini qətlə yetirilmişdir.

28 noyabr SSRİ Ali Soveti "DQMV-də vəziyyəti normallaşdırmaq tədbirləri haqqında" qərar qəbul etmişdir. DQMV Xüsusi İdarəetmə Komitəsini ləğv etmək, vilayətin xalq deputatları sovetinin fəaliyyətini bərpa etmək, DQMV üzrə respublika təşkilat komitəsi yaratmaq qərara alınmışdır.

29 noyabr Ermənilər Qubadlı rayonunun sakinləri Qaçay Ələkbərovu, Telman Hümbətəliyevi və Mehdi Mehdiyevi qətlə yetirmişlər.

1 dekabr Ermənistan SSR Ali Soveti "Ermənistan SSR və Dağlıq Qarabağı birləşdirmək haqqında" anti-konstitusion qərar qəbul etmişdir. Xankəndində Ermənistan bayrağı qaldırılmış, muxtar vilayətin idarə və müəssisələri bütünlüklə Ermənistana tabe etdirilmişdir.

Dekabrın 1-ci və 2-ci ongünlüyü Ermənistan ərazilərindən Azərbaycanın sərhəd kəndlərinə çoxsaylı basqınlar qeydə alınmışdır. Ermənistandan gətirilən quldur dəstələri Xanlar və Şaumyan kənd rayonlarında yerləşdirilmişlər.

6 dekabr Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Azərbaycan KP MK-nın 2-ci katibi Viktor Polyaniçkonun rəhbərliyi ilə Respublika Təşkilat Komitəsi yaradılmışdır.

7 dekabr Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti Ermənistan Ali Sovetinin 1 dekabr 1989-cu il tarixli qərarını Azərbaycan SSR suverenliyinə yolverilməz müdaxilə və onun ərazi bütövlüyünə qəsd kimi qiymətləndirmişdir.

14 dekabr Şərurun Sədərək, Günnüt və Havuş kəndləri ermənilər tərəfindən güclü atəşə tutulmuşdur.

Erməni terrorçuları Xocavənd (Martuni) rayonunun Qaradağlı kənd sakini Tofiq Məmmədovun evini bomba ilə partlatmışlar.

20 dekabr Ermənilər Kərkicahan kəndinə hücum etmiş, 2 nəfəri güllə ilə yaralamışlar.

23 dekabr Xanlar rayonunun Azad kəndi ilə Hacıkənd kəndini birləşdirən körpünü partladarkən 2 erməni terrorçusu ölmüş, 2-si isə yaralı ələ keçmişdir.

31 dekabr Moskvanın Azərbaycana qarşı tutduğu qərəzli mövqeyinə, sərhəd rejiminin sadələşdirilməməsinə etiraz əlaməti olaraq Naxçıvan ərazisində Ordubaddan Sədərəyədək 137 km SSRİ-İran sərhəd qurğuları sökülmüşdür. (Hazırda 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü rəsmi dövlət bayramı kimi qeyd edilir.)

1990

2 yanvar Dağlıq Qarabağın ərazisində erməni ekstremistləri milis məktəbinin kursantlarını daşıyan avtokolonu daş-qalaq etmiş və atəşə tutmuşlar. Kursantların cavab atəşi nəticəsində bir erməni öldürülmüşdür.

4 yanvar Erməni terrorçuları Əsgəran-Ağdam körpüsünü partlatmışlar.

5 yanvar Erməni terrorçuları Şuşa şəhərini su ilə təmin edən boru kəmərini partlatmışlar. Sov.İKP MK-nın katibi A.Girenko və SSRİ Ali Soveti Millətlər Sovetinin sədri R. Nişanov Ə. Vəzirovun müşayiəti ilə Naxçıvan MSSR-ə getmişlər. Naxçıvan şəhərində mitinq keçirilmiş, əhali İttifaq rəhbərliyindən Azərbaycan xalqına qarşı

ədalətsizliyə son qoyulmasını, erməni təcavüzünün qarşısının alınması üçün ciddi tədbirlər görülməsini tələb etmişdirlər.

6 yanvar Erməni terrorçuları Ağdam şəhərində təzə istifadəyə verilmiş avtovağzal binasını partlatmış, nəticədə 2 nəfər həlak olmuşdur.

8 yanvar Sov.İKP MK-nın katibi A.Girenko və SSRİ Ali Soveti Millətlər Sovetinin sədri R. Nişanovun iştirakı ilə Azərbaycan KP MK-da müşavirə keçirilmişdir.

9 yanvar Sov.İKP MK-nın katibi A.Girenko və SSRİ Ali Soveti Millətlər Sovetinin sədri R. Nişanov Xankəndinə getmək istəmişlər. Lakin ermənilər aeroport yolunu blokadaya almış, daxili qoşunların əsgərlərinə atəş açmış, cavab atəşi nəticəsində 3 erməni yaralanmışdır. A.Girenko və R. Nişanov aeroportdan Bakıya qayıtmağa məcbur olmuşlar. Bu hadisəni ermənilər "xalqın böyük qələbəsi" adlandırmışlar.

1990-cı il üçün plan və büdcə məsələlərinə baxan Ermənistan SSR Ali Sovetinin sessiyası DQMV-nin, Şaumyan (kənd) rayonunun və Xanlar rayonunun Çaykənd kəndinin sosial-iqtisadi inkişaf planını öz fəaliyyət dairəsinə daxil etmişdir.

Qaradağlı kəndi N.Nərimanov adına kolxozun sədri S. Bayramov qətlə yetirilmişdir;

10 yanvar SSRİ Ali Sovetinin Rəyasət Heyəti "SSRİ-nin Dövlət Sərhədi haqqında qanunun Naxçıvan MSSR ərazisində kobud surətdə pozulması barədə", "Dağlıq Qarabağ barəsində Ermənistan SSR Ali Sovetinin 1989-cu il dekabrın 1-də və 1990-cı il yanvarın 9-da qəbul etdiyi aktların SSRİ Konstitusiyasına uyğun olmaması haqqında" və "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində vəziyyəti normal hala salmaq tədbirləri haqqında" Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1989-cu il 4 dekabr tarixli qərarının müddəalarının səlahiyyətsizliyi barəsində" qərarlar qəbul etmişdir.

11 yanvar Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti Ermənistan SSR Ali Sovetinin sessiyasının 9 yanvar tarixli qərarını respublikanın suverenliyinin kobudcasına pozulması və yenidənqurmaya qarşı diversiya kimi qiymətləndirmişdir.

12 yanvar Azərbaycan Xalq Cəbhəsinin radikallar qanadı Milli Müdafiə Şurası və özünümüdafiə dəstələri təşkil etmişdir.

Ermənistandan 20 vertolyotla gələn 500 nəfərlik silahlı quldur dəstəsinin Xanlar rayonunun Quşçu kəndinə hücumu nəticəsində onlarla dinc sakin yaralanmış və qətlə yetirilmişdir.

13-14 yanvar Bakıda bir erməninin iki azərbaycanlını öldürməsinə cavab olaraq ermənilərə qarşı iğtişaşlar baş vermişdir. Həmin vaxt Bakıda olan SSRİ Daxili İşlər Nazirliyinin 12 minlik silahlı qüvvəsi baş verən hadisələrə seyrçi münasibət göstərdi.

14 yanvar Azərbaycan KP MK-nın birinci katibi Əbdürrəhman Vəzirov Azərbaycan SSR Ali Soveti Sessiyası adından tərtib edilmiş, DQMV-də və zərurət olarsa, ona bitişik rayonlarda və sərhəd boyunda fövqəladə vəziyyət elan olunması və mərkəzdən lazımi köməklik göstərilməsi haqqında saxta qərarı SSRİ Ali Sovetinin Rəyasət Heyətinə göndərmişdir.

Ermənistandan vertolyotla gələn silahlı quldur dəstəsinin üzvləri Xanlar rayonunun Aşıqlar kəndinə hücum etmiş, bir nəfəri qətlə yetirmiş, bir neçə nəfəri odlu silahla yaralamışlar. Toğana kəndinə 3 nəfəri qətlə yetirmiş, 7 nəfəri girov götürmüşlər.

15 yanvar SSRİ Ali Sovetinin Rəyasət Heyətinin sədri M.Qorbaçov "DQMV və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında" fərman imzalamışdır. Azərbaycan SSR Ali Sovetinə təklif edilmişdir ki, Bakı və Gəncə şəhərlərində və başqa yaşayış məntəqələrində qadağan saatlarının tətbiq edilməsi də daxil olmaqla lazımi tədbirlər görsün.

Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, SSRİ Ali Soveti İttifaq Sovetinin sədri Y.M. Primakov, Sov.İKP MK katibi A.N. Girenko, SSRİ Nazirlər Soveti sədrinin müavini V. X. Doqujiyev Bakıya gəlmişlər.

"Qarabağ" və Krunk" separatçı təşkilatları "Erməni Ümummilli Hərəkatı"nda birləşərək Azərbaycana qarşı zorakılığı, terroru və hərbi əməliyyatları genişləndirmişlər. Ermənilər Laçın rayonunu Hacılar kəndinin çobanı Allahverdi Əbdüləzimovu qətlə yetirmiş, qoyun sürüsünü oğurlayıb aparmışlar.

15-17 yanvar SSRİ rəhbərliyi Bakının ətrafına müxtəlif kontingentli qoşun hissələri və ağır texnika gətirib yerləşdirmişdir. Azərbaycana göndərilən ordu hissələrinin tərkibinə Stavropoldan, Rostovdan, Krasnodardan səfərbər edilmiş erməni zabit və əsgərləri, hərbi məktəblərdə təhsil alan erməni kursantları cəlb edilmişdi. Bakının hərbi komendantlığı heç bir ehtiyac olmadığı halda, rusdilli əhalini və hərbi qulluqçuların ailələrini Azərbaycandan köçürməyə başlamışdır. Milli müdafiə dəstələrinin təşəbbüsü ilə şəhərin girəcəklərində və Bakı qarnizonu hissələrinin ətrafında avtomaşınlar düzülməklə barrikadalar qurulmuş, piketlər təşkil edilmişdir.

17 yanvar Azərbaycan KP MK-nın binasının qarşısında izdihamlı mitinq başlanmış və ümumi tətil elan olunmuşdur. Tələb edilmişdi ki, Ermənistanın Azərbaycana ərazi iddialarına son qoyulsun, imperiyanın Bakı ətrafına yığdığı qoşunlar Dağlıq Qarabağa və Ermənistan tərəfdən hücuma məruz qalan sərhəd bölgələrinə göndərilsin. SSRİ Ali Soveti İttifaq Sovetinin sədri Y.Primakov və Sov.İKP MK-nın katibi A.Girenko Xalq Cəbhəsinin nümayəndələri və Qaçqınlar Cəmiyyətinin rəhbərləri ilə görüşmüşlər.

18 yanvar Moskvanın Azərbaycana qarşı tutduğu qərəzli mövqeyinə etiraz əlaməti olaraq Biləsuvar və Cəlilabad rayonlarının ərazisində sərhəd qurğularının bir hissəsi sökülmüşdür. Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Kərki kəndi SSRİ Müdafiə Nazirliyi 7-ci ordusunun köməyilə ermənilər tərəfindən işğal olunmuşdur.

19 yanvar Respublika rəhbərliyinin istefası tələbi ilə Azərbaycan KP MK-nın binası qarşısında mitinqlər davam etmişdir. Moskvanın Bakıya göndərdiyi nümayəndələr - SSRİ Ali Soveti İttifaq sovetinin sədri Y.Primakov və Sov.İKP MK katibi A.Girenko mitinqin təşkilatçıları ilə görüşlərində qoşunların şəhərə girməyəcəyi barədə vədlər verdilər. Azərbaycan SSR və Naxçıvan MSSR ali qanunvericilik orqanlarının İttifaq orqanlarına dəfələrlə edilən müraciətlərinin nəticəsiz qalmasına, Ermənistan SSR tərəfindən edilən təcavüz nəticəsində Muxtar Respublikanın ərazi bütövlüyünün və vətəndaşlarının həyatının təhlükə qarşısında qalmasına, Qars müqaviləsinin şərtlərinin kobud surətdə pozulmasına etiraz əlaməti olaraq Naxçıvan MSSR Ali Sovetinin fövqəladə sessiyası Naxçıvan MSSR-in SSRİ-nin tərkibindən çıxaraq özünü müstəqil respublika elan etməsi haqqında qərar qəbul etmişdir. Həmin gün Ermənistanın Ararat (Vedi) rayonunu ərazisindən Sədərək kəndi atəşə tutulmuş, 8 nəfər, o cümlədən 2 azyaşlı uşaq həlak olmuşdur. Saat 19.27 dəqiqədə Azərbaycan televiziyasının enerji bloku partladılmışdır. Məqsəd fövqəladə vəziyyət rejiminin tətbiq edilməsi haqqında fərmanın əhaliyə çatdırılmasının qarşısını almaqdan və qırğınların miqyasının daha böyük olmasına rəvac verməkdən ibarət idi. Yalnız “Azadlıq” radiosu vasitəsilə dünya birliyi sovet qoşunlarının Bakıda törətdiyi vəhşiliklər barədə məlumat ala bilmişdi. SSRİ Ali Sovetinin Rəyasət Heyəti Azərbaycan SSR Ali Sovetinin razılığı olmadan yanvarın 20-də saat 00-dan “Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında” fərman vermişdir. Saat 21-dən etibarən SSRİ müdafiə naziri Dmitri Yazovun rəhbərliyi altında qoşun hissələri müxtəlif istiqamətlərdən barrikadaları dağıdaraq, əliyalın əhaliyə ağır texnikadan və müxtəlif tipli silahlardan atəş açaraq şəhərə daxil oldular.

20 yanvar SSRİ Müdafiə Nazirliyinin, SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin və SSRİ Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya yeridilmiş, dinc əhaliyə amansız divan tutulmuşdur. Bakı şəhərində saat 00-da fövqəladə vəziyyət tətbiq edilməsi haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı səhər saat 7-də radio ilə elan olunmuşdur. Həmin vaxtadək 100-dən artıq dinc sakin qətlə yetirilmiş, yüzlərlə dinc sakin yaralanmışdı. Azərbaycan KP MK-nın birinci katibi Əbdürrəhman Vəzirov yanvarın 20-nə keçən gecə gizli surətdə SSRİ Müdafiə Nazirliyinin Bakıda yerləşən hərbi qərargahına getmiş, Dmitri Yazovla birlikdə hərbi əməliyyatlara rəhbərlik etmişdir.

21 yanvar Heydər Əliyev ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək orada təşkil olunmuş izdihamlı yığıncaqda çıxış etmiş, faciənin Moskvanın və Azərbaycan rəhbərlərinin günahı üzündən baş verdiyini bildirmişdir. Əbdürrəhman Vəzirov öz şəxsi təhlükəsizliyini təmin etmək üçün gizli şəkildə hərbi təyyarə ilə Moskvaya qaçmışdır.

22 yanvar Bakıda “Azadlıq” meydanında 20 Yanvar şəhidlərinin dəfni ilə əlaqədar matəm mitinqi keçirilmişdir. Respublikada üç gün matəm elan olunmuşdur. Dağüstü Parkda - Şəhidlər Xiyabanında keçirilən dəfn mərasimində iki milyona yaxın insan iştirak etmişdir. Xalqın və bir qrup deputatların tələbi ilə Azərbaycan

SSR Ali Sovetinin fövqəladə sessiyası keçirilmiş, fövqəladə vəziyyət tətbiq edilməsi haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin 19 yanvar tarixli fərmanının fəaliyyətinin dayandırılması, ordu hissələrinin şəhərdən çıxarılması, qanlı qırğının təşkilatçılarının, təqsirkarlarının aşkarlanması üçün deputat komissiyasının yaradılması barədə qərar qəbul olunmuşdur. Azərbaycan SSR Ali Soveti Bakıda və bütün Azərbaycanda dinc əhaliyə qarşı görünməmiş cinayət törədilməsi ilə əlaqədar SSRİ Ali Sovetinə, müttəfiq respublikaların Ali Sovetlərinə, Sovet İttifaqının xalqlarına, dünyanın bütün dövlətlərinin parlamentlərinə, Birləşmiş Millətlər Təşkilatına müraciət qəbul etmişdir.

24-25 yanvar Azərbaycan KP MK-nın plenumu Azərbaycan SSR Nazirlər Sovetinin sədri Ayaz Mütəllibovu Azərbaycan KP MK-nın birinci katibi seçmişdir. Plenumda Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, SSRİ Ali Soveti İttifaq Sovetinin sədri Y.Primakov, Sov.İKP MK katibi A.Girenko çıxış etmişlər. Plenumda Bakı şəhərində yanvarın 19-20-də fövqəladə vəziyyətin tətbiqinin səbəblərini təhqiq etmək üçün komissiya yaradılmışdır. Lakin bu komissiya öz işini yarımçıq dayandırmış, faktiki olaraq cinayətin ört-basdır edilməsinə xidmət etmişdir. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti Həsən Həsənovun Azərbaycan SSR Nazirlər Sovetinin sədri təyin edilməsi haqqında qərar qəbul etmişdir.

25 yanvar Moskvadakı Azərbaycanın daimi nümayəndəliyinə basqın edilmişdir.

25-26 yanvar Sovet qoşunları fövqəladə vəziyyət elan olunmayan rayonlara - yanvarın 25-də Neftçalaya, bir gün sonra isə Lənkərana yeridilmişdir. Nəticədə 8 nəfər qətlə yetirilmiş, xeyli adam yaralanmışdır. Azərbaycan SSR Ali Soveti "Naxçıvan MSSR Ali Sovetinin 1990-cı il 19 yanvar tarixli qərarının Azərbaycan SSR Konstitusiyasına uyğun olmaması barəsində" fərman vermişdir.

"**Xalq qəzeti**".-2010.-16 yanvar.-N 11.-S.5.
**"Xalq qəzeti".-** 2010.- 17 yanvar.- N 12.- S.4-5.

## Şəhidlərimiz - iftixar mənbəyimiz

**Həmid Vəliyev,**
BDU-nun Beynəlxalq
jurnalistika kafedrasının müdiri, Gürcüstan
Respublikasının əməkdar jurnalisti

**1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet imperiyasının sadiq keşikçisi "qəhrəman" sovet ordusu qoşunlarının Bakıda törətməyə başladığı vəhşiliklər barədə xəbər ildırım sürəti ilə Gürcüstana çatdı. Gürcülər xəbəri təəccüblə qarşılamadılar, çünki onlar 1989-cu il aprelin 9-da sovet əsgərlərinin "igidliyinin" şahidi olmuşdular. 13 nəfər şəhid vermişdilər, çoxlu dinc vətəndaş müxtəlif dərəcəli bədən xəsarəti almışdı. Moskva müstəqillik uğrunda mübarizə aparan Gürcüstan əhalisinin gözünü qırğınla qorxutmaq istəmiş, dağılmaqda olan imperiyanı bu yolla xilas etməyə çalışmışdı.**

O zaman Moskva radio və televiziyası Bakı faciəsi, Azərbaycan xalqının başına gətirilən fəlakətlər barəsində heç nə demir, efiri sovet xalqlarının "sarsılmaz dostluğu", sənaye və kənd təsərrüfatı, elm və texnika sahəsində qazanılmış "nailiyyətlər" haqqında xəbərlərlə doldururdu. Yeganə informasiya mənbəyi xarici radiostansiyalar idi. Bunların da verdikləri məlumatların obyektivliyinə şübhə yaranırdı. Çünki sovet hökumətinin xaricə sürgün etdiyi Paruyr Ayrikyan, kökündən xəbərsiz qarabağlı iddiasında olan nankor Zori Balayan kimiləri əzəli torpağımız Qarabağ ətrafında o qədər yalan yaymışdılar ki, Azərbaycan informasiya blokadasından çıxa bilmirdi. Belə bir vəziyyət isə Qorbaçovun və ətrafının ürəyindən xəbər verirdi.

Azərbaycan televiziyasının enerji bloku partladılmışdı. Radioda verilişlər getmirdi. Hərdənbir hansısa əsgər Bakı hərbi komendantının məlumatını höccələyə-höccələyə oxuyurdu. Qəzetlər çıxmırdı.

Tbilisidə "Sovet Gürcüstanı" qəzetində redaktor müavini vəzifəsində çalışırdım. Telefon zəng çaldı. Dəstəyi götürdüm. Titrək səsli qadın həyəcanla özünü təqdim etdi. Moskvadan danışdığını bildirib dedi:

- Bakıda insanları qırırlar. Qan su yerinə axır. Qocalara, qadınlara, uşaqlara belə aman vermirlər. Qorbaçov haqqını tələb edən xalqımızı qan dənizində boğmaq istəyir. Amma arzusu gözündə qalacaq. Tarix boyu çox ağır sınaqlara məruz qalmış Azərbaycan yaşamışdır. Növbəti sınaq nə qədər ağır olsa da, Azərbaycan bu sınağa da sinə gərəcək, dostunu düşmənindən seçməyi bacaracaq, yaşayacaqdır... Sizdən xahişimiz var: bu gün günortadan sonra sizə Bakı faciəsini əks etdirən fotoşəkillər və mətn gətirəcəklər. Onları çap edin, həmin qəzetdən təyyarə ilə Domodedovo aeroportuna göndərin; gələn şəxs zərfi əlində tutsun, biz qarşılayıb götürərik. Qəzetləri xarici ölkələrin səfirliklərinə və müxbirlərinə çatdıracağıq. Sağ olun...

Qadının səsində qəm və kədərlə yanaşı, qəzəb və hiddət, qeyrət və cəsarət vardı. Həmin səs bizi qisas və intiqam almağa çağırırdı. Bu, xahiş deyildi, mənim üçün, damarlarında azərbaycanlı qanı axanların hamısı üçün əmr idi, kişi qeyrətli qadının əmri. Əmr isə müzakirə edilmir, icra olunur. Təəssüf ki, aradan artıq 20 il keçdiyinə görə həmin xanımın adı yadımda qalmamışdır.

Doğrudan da, xanımın dediyi kimi, saat 14.00 radələrində 35-40 yaşlarında iki nəfər kişi "Kommunist" nəşriyyatının üçüncü mərtəbəsində yerləşən redaksiyamıza gəldi. Son dərəcə həyəcanlı olan bu şəxslərin gətirdikləri fotoşəkillərə baxmaq mümkün deyildi. Sovet əsgərlərinin "qəhrəmanlığı"nı seyr etmək üçün insan daş qəlbli olmalı idi. Şəkillər azərbaycanlılara qarşı ermənilərin törətdikləri vəhşilikləri xatırladırdı...

O dövrdə "Sovet Gürcüstanı" A2, yəni böyük formatda həftədə üç dəfə nəşr edilirdi. Bu gecə çapa gedəcək nömrənin içəri səhifələrini bütünlüklə fotoşəkillər - insanı dəhşətə gətirən, faciəni törədənlərdən intiqam almağa çağıran mənzərələr tutdu. Sovet qoşunlarının 1989-cu ilin aprel ayında Tbilisi şəhərində dinc əhalini qanına qəltan etməsindən yanıqlı olan gürcü senzorlar şəkillərin çapına icazə verdilər. Biz bundan istifadə edərək, həmin fotoşəkillərin gürcü və rusdilli mətbuatda, o cümlədən Gürcüstan KP MK-nın orqanları olan "Kommunist" və "Zarya Vostoka" qəzetlərində də verilməsini təmin etdik. Ertəsi gün səhər tezdən Moskvaya göndərdik. Təxminən üç saat sonra telefonum zəng çaldı. Həmin xanım idi. Aeroportdan danışırdı:

- Təşəkkür edirəm. Böyük və çox gərəkli iş görmüsünüz...

- Bu, bizim də borcumuzdur. Biz 20 Yanvar faciəsi ilə bağlı material dərc etdiyimiz bütün nömrələri sizə çatdırmağa çalışacağıq. İndicə bizə xəbər gəldi ki, Gürcüstanın azərbaycanlılar yaşayan rayonlarında etiraz mitinqləri keçirilir. Qardabanidə təşkil olunmuş mitinqdə minlərlə adam iştirak etmişdir. Transparantlar və şüarlarda Moskvanın əməlləri kəskin surətdə pislənir. Şüarlardan bəzilərinə diqqət yetirək: "Qorbaçov canidir !", "Azərbaycandan əlinizi çəkin!"

Deyirlər, hər yara sağalar, buna vaxt lazımdır. Amma xalqın həyatında elə yaralar olur ki, heç vaxt sağalmır. Həmin xalqın bütün nəsilləri bu yaralara baxaraq, tarixini daim yada salır, yaranı vuranlara nifrət hissini getdikcə gücləndirir, diqqəti şəhidlik zirvəsinə yüksələnlərin arzularının daha geniş şəkildə həyata keçirilməsinə yönəldirlər. 20 Yanvar şəhidlərimiz ötən iyirmi il ərzində qürur mənbəyimizə, Şəhidlər xiyabanı gənclərimizin vətənpərvərlik tərbiyəsi məktəbinə çevrilmişdir. Biz Şəhidlər xiyabanına ümumxalq Hüzn günündə gəlməklə Vətənimizin müstəqilliyi uğrunda qurban gedənlərin müqəddəs ruhları qarşısında baş əyir, onlarla fəxr etdiyimizi bildiririk. Eyni zamanda onlara misilsiz iftixar hissi ilə hesabat veririk: ulularımız demişlər: "**Qisas qiyamətə qalmaz**". Bəli, qisas tezliklə alındı. Uğrunda şəhidlərimizin qurban getdikləri arzu həqiqətə çevrildi. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının müstəqilliyi bərpa olundu. Biz müstəqillik tariximizi yenidən 1918-ci il mayın 28-dən hesablamağa başladıq. Çətinliklərimiz çox oldu. Bu gün də var. Dağlıq Qarabağ problemi hələ də Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmamışdır. Hadisələrin gedişi, beynəlxalq təşkilatların məsələyə ciddi yanaşması göstərir ki, problem yaxın vaxtlarda həll ediləcəkdir.

Azərbaycan dünya birliyində özünə layiq yer tutur. Onun beynəlxalq nüfuzu durmadan artır. İqtisadiyyatın inkişafı sahəsində qazandığımız nailiyyətlər bizi dünya miqyasında qüdrətli dövlət kimi tanıdır. Ötən ilin yekunlarına əsasən, Azərbaycan öz iqtisadi göstəricilərinə görə MDB məkanında birinci yeri, dünya miqyasında isə öncül yerlərdən birini tutur. Dünyanın müxtəlif ölkələrinə səpələnmiş azərbaycanlılar öz tarixi vətənləri ilə fəxr edirlər. İndi azərbaycanlılar dedikdə 50 milyonluq bir xalq gözlərimiz önünə gəlir. Ümummilli lider Heydər Əliyevin yolunun qətiyyətli davamçısı İlham Əliyevin dünya azərbaycanlılarının II qurultayında böyük iftixar hissi ilə dediyi: "Biz 50 milyonuq" cümləsi hələ də qulaqlarımızda səslənir. Məhz bu 50 milyonluq əhali dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, şəhidlərimizin ruhu önündə baş əyir, onların arzularının çin olması üçün əllərindən gələni edəcəklərini nümayiş etdirirlər.

**“Azərbaycan”.-** 2010.- 17 yanvar.- N 12.- S.4.

## 20 Yanvar faciəsindən 20 il ötür

Bu il Azərbaycan xalqı 20 Yanvar faciəsinin 20 illiyini qeyd edəcək. Hər il olduğu kimi bu il də yaşadığımız qanlı tarixə nəzər salıb, nəticə çıxarmağa çalışacağıq. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycanın paytaxtı Bakıda və Bakı ətrafında nələr baş verdi? Qeyd edək ki, 1988-ci ildən dünyada, keçmiş Sovetlər İttifaqında, eləcə də Azərbaycanda proseslər gözlənilməz məcrada inkişaf edirdi. Bu baxımdan xalqımız milli azadlığını, müstəqilliyini və ərazi bütövlüyünü təmin etmək üçün ayağa qalxdı.

Ancaq qaniçən sovet ordusu hər dəfə olduğu kimi bu dəfə də milli azadlığı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə qarşı dünyada görünməmiş vəhşiliklərə əl atdı. Məhz kütləvi terror nəticəsində yüzlərlə günahsız insan qətlə yetirildi və yaralandı. Bütün bunlar isə onsuz da totalitar rejimin süqutu ərəfəsində onun cinayətkar əməllərini dünyaya bir daha açıb göstərdi. Qeyd edək ki, sovetlər ordusunun xeyli hissəsinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi insanlığa yaraşmayan qəddarlıq və misli görünməmiş vəhşiliklə müşayiət olunurdu. Çexoslovakiyaya, Macarıstana, Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni, hətta o zamankı sovetlər ittifaqının müttəfiq respublikalarına - Gürcüstana, Azərbaycana da tətbiq etməkdən çəkinməyən kommunist diktaturası süqutunu bir qədər də tezləşdirdi. Həmin dövrdə isə Azərbaycan ikitərəfli zərbə alırdı.

### Erməni "kursantlar" Bakıda

Azərbaycan xalqı bir tərəfdən Milli Azadlığı uğrunda mübarizə aparır, digər tərəfdən də Ermənistanın təcavüzkar əməllərinə cavab verməli olurdu. Sovet rəhbərliyi münaqişənin qarşısını almaq üçün nəinki tədbirlər görmür, əksinə, Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni əsgər və zabitləri, sovet hərbi hissəsində xidmət edən erməniləri, hətta erməni kursantları da daxil etmişdi. Azərbaycanın torpaqlarına göz dikən, xalqımızın hər an qanını içməyə hazır olan ermənilərin Bakıda hansı əməllər törətdikləri heç vaxt yaddaşlardan silinməyəcək. Zirehli texnikanı silahsız insanların üzərinə yeridən sovet ordusunun əsgər və zabitləri, eləcədə ermənilər uşaqlara, qocalara və qadınlara aman vermədən öldürür, sanki çoxdan gözlədikləri qisası alırdılar. Tanklar, zirehli transportyorlar Bakı küçələrində qarşılarına çıxan hər şeyi əzir, hərbçilər gözlərinə görünün bütün hər yanı amansızcasına atəşə tuturdular. İnsanlar nəinki küçələrdə, hətta avtobusda gedərkən, öz mənzillərində oturduqları yerdə güllələrə tuş gəlirdilər. Yaralıları aparmağa gələn təcili yardım maşınlarını və tibb işçilərini də atəşə tuturdular.

### Psixoloji hazırlıq

Bəzi məlumatlara görə, Bakıya yeridilən qoşun kontingentinin sayı 60 min nəfərə yaxın olub. Onlara "döyüş tapşırığını" yerinə yetirmək üçün psixoloji hazırlıq keçiblər. Onlara bildiriblər ki, "sizi Bakıya rusları müdafiə etmək məqsədilə gətiriblər". Onların uydurmalarına görə, yerli əhali rusları vəhşicəsinə məhv edir, "ekstremistlər" Salyan kazarmalarının ətrafındakı evlərin damlarında snayperlər yerləşdiriblər. Guya təkcə bu ərazidə 110 atəş nöqtəsi var və binalar, mənzillər Azərbaycan Xalq Cəbhəsinin yaraqlılarıyla doludur. Guya ki, onlar Bakıya yeridilən ordunu güclü avtomat və pulemyot atəşinə tutacaqlar. Sovet imperiyasının rəhbərliyi, başda Mixail Qarboçov olmaqla Bakıda "rus və erməni kartından" çox məharətlə yararlandı. Yenə də onların uydurmalarına görə, guya rus və erməniləri, hərbi qulluqçularının ailələrini qorumaq, "millətçi ekstremistlər"in hakimiyyətin zorakılıqla ələ keçirməsinin qarşısını almaq üçün Bakıya qoşun göndərilib. Qeyd edək ki, bütün bu yalanların əsası yox idi. Çünki Bakıda hər hansı təhlükə olsaydı belə, 60 min nəfərə yaxın əlavə ordunun göndərilməsinə ehtiyac duyulmurdu. Çünki həmin vaxt burada daxili qoşunların 11,5 min əsgəri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri vardı.

### Fövqəladə vəziyyətdən kimsənin xəbəri yox idi

Xatırladaq ki, 4-cü ordunun komandanlığı da Bakıda yerləşirdi. Ancaq bütün bu faktlara baxmayaraq, 1990-cı il yanvarın 19-da Mixail Qorboçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. SSRİ DTK-nın "Alfa" qrupu yanvarın 19-da saat 19:27-də Azərbaycan televiziyasının enerji blokunu partlatdı, ölkə ərazisində televiziya verilişləri dayandırıldı. Həmin gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və əhaliyə divan tutmağa başladı. Qorboçovun fərmanı qüvvəyə minənədək artıq 9 nəfər öldürülmüşdü. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yanvarın 20-də saat 7:00-da respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100 nəfərə çatmışdı. Ancaq bir neçə gün ərzində öldürülənlərin sayının 137 nəfər, yaralananların sayının 800-dən çox olduğu bildirildi.

**Öldürülənlərin əksəriyyəti dənizə tökülüb**

Qeyd edək ki, o vaxtlar göstərilən rəsmi rəqəmlərin həqiqətə uyğun olmadığı da vurğulanırdı. Çünki deyilənə görə, qaniçən ordunun əsgər və zabitləri qətlə yetirdikləri insanların bir hissəsini də dənizə tökmüşdülər. Şahidlərin söylədiklərinə görə, sonradan dənizin ləpəsi ölənlərin cəsədini vuraraq sahilə çıxarmışdı. Ancaq həmin cəsədlərin gətirilərək Şəhidlər Xiyabanında dəfn olunmasına icazə verilməmişdi. Sovet rejimi ölənlərin sayının çox olmasından əndişələndiyi üçün bütün iyrəncliklərə əl atırdı. Hətta məlumatlara görə, öldürülən insanları quyular qazaraq oraya atır və üstünü buldozerlə torpaqlayırdılar. Nəinki 19-dan 20-nə keçən gecə, eyni zamanda ondan sonrakı günlərdə də sovet ordusunun əsgərləri Bakıda və Bakı ətrafında istədikləri özbaşınalıqlara yol verir, insanları qorxu altında saxlayır, onlara tabe olmayanları qətlə yetirirdilər. Məsələn, Sumqayıtın layihə instutlarının birində çalışan üç nəfər alim 20 yanvar faciəsindən bir neçə gün sonra işlə bağlı Bakıya gələrkən, Ceyranbatan gölünün yaxınlığında sovet tankı ilə üz-üzə gəlirlər. Sovet əsgərinin əmrinə tabe olmayan ziyalılar sonda faciə ilə qarşılaşırlar. Belə ki, ziyalıların əyləşdikləri maşın tankın tırtılları altında qalaraq əzilir, onlar həlak olurlar. Halbuki həmin ziyalılar vəzifə borclarını yerinə yetirmək üçün Bakıya tələsirdilər.

**Qorbaçov mükafatlandırıldı**

İnsanlığa sığmayan bütün bu hadisələrdən bir neçə il sonra Mixail Qorboçov Nobel sülh mükafatı qazandı. Sual olunur, hansı yaxşı əməllərinə görə, ona mükafat verilməliydi? Bəlkə Qorbaçov Azərbaycanda, Gürcüstanda, eləcə də digər ölkələrdə günahsız insanların ölümünə fərman imzaladığı üçün mükafatladırılmışdı? Halbuki əli yüzlərlə günahsız insanın qanına batmış Mixail Qorbaçov layiqli cəzasını almalıydı. Məhkəmə qarşısında cavab verməliydi. Xatırladaq ki, İraqın keçmiş prezidenti Səddam Hüseyn həm də günahsız insanların ölümündə günahlandırılaraq 2006-cı ilin dekabrın 30-da asıldı. Törətdiyi günahlara görə ondan heç də geri qalmayan Mixail Qorbaçovu da bu aqibət gözləməlidir. Təkcə Mixail Qorbaçov deyil, bu işlərdə əli olanların hamısı eyni aqibətlə üzləşməlidir. Bax onda dünyada ədalətin bərqərar olduğuna Azərbaycan xalqı inana bilər. Bunun üçün özümüz də əməli fəaliyyətə başlamalıyıq. Milli Məclisdə yenidən müzakirələr keçirib, Avropa Məhkəməsinə müraciət etməliyik. Sovet İmperiyasının başında duranların cəzalandırılması tələbini qoymalıyıq. Nə qədər ki, bu tələbləri qoya bilməyəcəyik, başımıza gətirilən müsibətlərə görə günahkarların cəzalandırılmasına nail olmayacağıq, Mixail Qorboçov kimilərin Nobel sülh mükafatı qazanmasına seyirçi münasibət bəsləyəcəyik, onda istənilən vaxt belə hadisələrlə üzləşə bilərik. Yəni müdafiə mövqeyindən çıxmağın, hücum mövqeyinə keçməyin zamanı çoxdan gəlib.

**"Qanunvericilik aktları qəbul olunsun"**

Xatırladaq ki, Milli Demokratik Qüvvələr Birliyinə üzv olan partiyalar keçirdikləri son iclaslarında bu məsələylə bağlı bəyanat veriblər. Həmin bəyanatda bildirilir: "MDQB hesab edir ki, bu faciələrin üstündən illər keçməsinə baxmayaraq hələ də qırğınları törədənlər, bu işdə əli olanlar lazımı cəzalarını almayıblar. Halbuki həm 20 Yanvar, həm Xocalı bəşəriyyətə qarşı törədilmiş cinayətdir. Beynəlxalq aləmdə belə bir təcrübə var ki, terror aktı və yaxud kütləvi qırğın həyata keçirən cinayətkarlar həmişə olmasa da, əksər hallarda layiqli cəzalarını alırlar. Cinayətkarın dünyanın harasında yaşamasından asılı olmayaraq onu tutub gətirirlər, bu da mümkün olmayanda müxtəlif vasitələrlə cinayətkarları zərərsizləşdirirlər. Ona görə də biz MDQB olaraq hökumətdən tələb edirik ki, 20 Yanvar və Xocalı faciəsində əli olanların cəzalandırılması üçün lazım olan qanunvericilik aktlarını qəbul etsin. Bu faicələri törədən insanlar ədalət məhkəməsinə cəlb olsunlar. Harada yaşamasından asılı olmayaraq onlar cinayət məsuliyyətinə cəlb edilməli və yaxud zərərsizləşdirilməlidir. Bunu etmək Azərbaycan dövlətinin, xalqının haqqı, hüququdur. Cinayətkar azadlıqda gəzdikcə onun yeni cinayət törətməyə meyli olur. Amma cinayətkarlar vaxtında cəzalarını alanda digərlərini də yeni cinayətlərdən çəkindirmək mümkün olur. Bütün bunları nəzərə alaraq biz cinayətkarların cəzalarını almaq mexanizminin işə salınması üçün qanunvericilik aktlarının qəbulunu vacib sayırıq".

**Arzu Şirinova**

**"Xalq cəbhəsi". -** 2010. – 16-18 yanvar. - № 9. - S. 12.

## Vətən övladları şəhidlikləri ilə tarixdə silinməz izlər qoydular

**Ölkəmiz tarix boyu çox faciələrlə üzləşib. Lakin onların heç biri xalqımızın xatirə yaddaşında 1990-cı ilin qanlı 20 Yanvar faciəsi qədər əbədi yaşamaq hüququ qazanmayıb. Sinəsi qan gölməçələri, qoynu insan cəsədləri, küçə və meydanları acı fəryadlarla dolu yaralı bir səhər doğuldu həmin qaranlıq gecənin bətnindən. İmperiya silahlarından günah yağmuru yağırdı əli yalın millətimizin günahsızlığına. Güllələrdən deşik-deşik olurdu nəhəng binaların divar sinələri. 70 il qaranlıqdan aydınlığa çıxmaq ehtirası ilə qovrulan bir xalqın azadlıq və müstəqillik arzusuna tuşlanmışdı bu güllələr. Günbəgün poladlaşan iradəmizi yenidən əridib muma döndərmək, içimizdə imperiyaya qarşı alovlanan nifrət və qəzəbi söndürmək məqsədi daşıyırdı bu vəhşi soyqırımı.**

Daşnak mafiyasının ideyalarının gerçəkləşməsi naminə əlindən gələni əsirgəməyən ermənipərəst Mixail Qorbaçov hələ 20 Yanvardan bir neçə gün öncə Bakıya təpədən-dırnağa silahlandırılmış 66 min 500 nəfərlik ordu yeritmişdi. Onların arasında ölkədə saysız-hesabsız cinayətlərin və qətllərin törədicisi kimi tanınmış "Alfa" qrupu da var idi. Ordu rəhbərliyi Bakıda törədəcəkləri ağır cinayətlərdən respublika əhalisi və dünya ictimaiyyəti xəbər tutmasın deyə, qırğından bir neçə gün əvvəl Azərbaycan televiziya mərkəzinin enerji blokunu partlatmış, respublika radiosunu susdurmuş, qəzet və jurnalların çapına qadağa qoymuş, ölkə ərazisindən kənara çıxışı dayandırmaq üçün dəmir yolunu və təyyarə meydanını nəzarətə götürmüşdü. Günahsız millətimizin ağır faciələrə düçar olacağını bilsələr belə, onları gözlənilən fəlakətdən vaxtında xəbərdar etməyən respublika rəhbərlərinin biganəliyi və Bakıda qan töküləcəyini bilə-bilə xüsusi maşınlarda bütün şəhər boyu dolaşıb ruporlarla əliyalın xalqı meydanlara toplaşmağa səsləyən AXC-nin qaragüruhçu dəstələrinin hakimiyyət ehtirasının doğurduğu özbaşınalıq yanvarın 19-dan 20-nə keçən gecə əksəriyyəti krasnodarlı və stavropollu ermənilərdən ibarət vəhşi imperiya əsgərlərinin günahsız əhalini güllələbaran etmələri ilə nəticələndi. Onlar həmin gecə 133 nəfər günahsız yurddaşımızın ömrünə son nöqtə qoydular. Güllə yarası alan 744 nəfər xəstəxanalara düşdü. 841 nəfər insan zindanlara atıldı. Həlak olanlar arasında qadınlar, uşaqlar və qocalar da var idi.

İnamla demək olar ki, sovet imperiyasını 20 Yanvar hadisəsi qədər çökdürən, onun çirkin simasını dünya qarşısında tam çılpaqlığı ilə faş edən, ölkə daxilindəki xalqların milli azadlıq hərəkatına güclü təkan verən ikinci bir hadisə olmayıb.

O vaxt 20 Yanvar xalqın bütün övladlarını bir-birinə qırılmaz tellərlə bağlamışdı. Millət vahid bir mövqedən çıxış edirdi. Şəhidlərin dəfninin ilk günü mərasimdə 2 milyondan çox insan iştirak edirdi. Bu, dünya milli azadlıq hərəkatının fenomen hadisəsi kimi qiymətləndirilir. O gün paytaxtımızda şəhid qanı düşən hər yer əhali tərəfindən qırmızı qərənfillərlə örtülmüşdü. Yaşından və cinsindən asılı olmayaraq əksəriyyət vətənin azadlıq və müstəqilliyi naminə canından belə, keçməyə hazır idi. Ancaq təəssüflər olsun ki, az sonra vəzifə və rütbə hərisliyinin, var-dövlət ehtirasının doğurduğu parçalanmalar xalqın bütövlüyünə sarsıdıcı zərbələr endirib, onun mübarizə əzmini sarsıtdı. Xalqı vahid bir cəbhədə, vahid bir ideya bayrağı altında birləşdirib düşmənə qarşı mücadiləyə qaldırası bir qüvvə olmadığından müqəddəs torpaqlarımız bir-birinin ardınca düşmən işğalına məruz qaldı. Əgər 1990-cı ilin 20 Yanvar gecəsi 133 nəfər mərdanə övladımız şəhidlik zirvəsinə qalxmışdısa, 1994-cü ilədək uzanan odlu-alovlu cəbhə yollarında onların sayı 20 mini haqladı. 7 cənnətməkan rayonumuz və bütövlükdə Dağlıq Qarabağımız düşmən işğalına məruz qaldı.

20 Yanvar şəhidlərinin intiqamının alınacağı və düşmən tapdağına məruz qalmış torpaqlarımızın geri qayıdacağı gün uzaqda deyil. Ümummilli lider Heydər Əliyevin hələ 1999-cu ilin 16 dekabrında 20 Yanvar faciəsinin 10-cu ildönümü ilə əlaqədar imzaladığı fərmanda deyilir: "Azərbaycan xalqı 1990-cı ilin 20 Yanvarında hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, vətənin azadlıq və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi. 1990-cı ilin 20 Yanvarında Azərbaycanın azadlıq və müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalmış vətən övladları özlərinin fədakarlığı, şəhidliyi ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifələr

yazdılar. Bu gün də xalqımız onun milli mənliyini qorumaq üçün öz canlarından keçməyə hazır olan övladları ilə fəxr edir".

Artıq bizi 1990-cı ilin o müdhiş 20 Yanvar gecəsindən 20 illik bir zaman məsafəsi ayırır. Ancaq 20 əsr bundan sonra da xalqımız o məşum gecədə tökülən günahsız qanları, bugünkü müstəqilliyimiz yolunda canlarını qurban vermiş mərdanə övladlarımızı unutmayacaqlar. Bu gün müstəqilliyimiz uğrunda şəhid olanların məzarları önündə səcdəyə durmaq hər birimizin vicdan borcudur. Çünki onlar vətən və millət yolunda, xalqımızın 70 illik imperiya əsarətindən xilası yolunda, bugünkü azadlıq və müstəqilliyimiz yolunda şəhid olublar. Bu gün hər birimizin qəlbindədir həmin Şəhidlər xiyabanı.

**Zeynal Vəfa**

**“Azərbaycan”.-** 2010.- 16 yanvar.- N 11.- S.4.

## 20 Yanvar - hüzn və şərəf günü

**Sevinc Budaqova,**
tarix elmləri namizədi, dosent

### Bir də azadlığın misilsiz nemət olduğunun dərk edildiyi gündür

Xalqımız o gün həyatını qurban vermiş övladlarını yad etməklə bərabər, eyni zamanda onların şəhidlik zirvəsinə baxaraq başını dik tutmalıdır. Çünki Vətən və torpaq şəhidləri ilə ucalır.

20 il öncə milli taleyimizdə qorxunc günlər yaşandı. Bu xalq sovet hərb maşınının zorakılığına məruz qaldı. Açıq və çox qaba bir tərzdə təcavüzə məruz qoyulmuş, insanlar küçələrdə güllələbaran edilmiş, milli heysiyyətimiz tankların tırtılları altında tapdanmışdı.

Bu kobud zorakılıq Azərbaycan xalqını qorxutmaq, onun milli oyanışını, torpaq (Qarabağ) uğrunda inadkar dəyanətini sındırmaq məqsədi daşıyan mənfur planın tərkib hissəsi idi... Buna nail olacaqlarını düşünənlər səhv etdiklərini tez anladılar.

1990-cı ilin 20 Yanvarından bəri bu ildönümləri bir qayda olaraq yalnız hüzn kimi qeyd etmişik, o günü bir üzüntü ilə anmışıq. Amma bir şeyi unutmamalıyıq ki, 20 Yanvar Azərbaycan xalqının tarixində sadəcə üzüntü ilə xatırlanacaq gün deyil. Həm də bizim üçün şan və şərəf günüdür, mənlik günüdür.

Unutmamalıyıq ki, həmin gün küçələri boyamış al şəhid qanları bir anlamda milli heysiyyətimizdə doğan günəşin qızıl şəfəqlərini simvolizə edirdi. Vətəndaşımız o gün üstünə şığıyan dəhşətli kabusa, sovet hərbiyyəsinin qorxunc qaragüruhuna qarşı sinə gərməyi və deməli, öz mənliyini və mətinliyini nümayiş etdirməyi bacardı. O hadisələr açıqca göstərdi ki, azərbaycanlılar özgürlük savaşına qalxmaq, pozulmuş hüquqlarının, suverenliyinin bərpası uğrunda çarpışmaq əzminə sahibdir.

20 Yanvar istiqlal yolumuzda ilk şəhidlik zirvəsi idi. Ötən illər ərzində "Qanlı Yanvar"ın siyasi, mənəvi və s. aspektləri analiz edilib, hadisəyə Azərbaycan dövləti tərəfindən hüquqi qiymət verilib.

...Həmin gün Azərbaycanın o vaxtkı rəhbərliyinin istəyi və SSRİ rəhbərliyinin əmri ilə Azərbaycanda kommunist rejimini hakimiyyətdə saxlamaq və güclü milli-azadlıq hərəkatına çevrilməkdə olan oyanışı boğmaq məqsədilə Bakıya böyük bir ordu (rəsmi rəqəm 35 min göstərir) yeridilmişdi. SSRİ Müdafiə Nazirliyi, DİN və DTK-nın hazırlayıb həyata keçirdiyi "Udar" adlı əməliyyatda əsas rolu xüsusi təyinatlı və "ALFA" və SSRİ DTK-nın "A" təxribat qrupları oynayırdı.

Bu açıq təcavüz nəticəsində Bakıda 134 mülki vətəndaş öldürülmüş, 600-dən çox adam yaralanmışdı. Öldürülənlər arasında beş milliyyətdən olan vətən övladları, 20-dən çox qadın, uşaq vardı.

Qara Yanvarın indiyədək özündə saxladığı sirlər çoxdur. 100 cildlik istintaq materialının 69 cildi Bakıdan Moskvaya, keçmiş SSRİ Prokurorluğuna aparılıb və bir daha geri qaytarılmayıb.

Azərbaycan xalqının məruz qaldığı bu təcavüz indiyədək bəşəriyyət əleyhinə cinayət kimi beynəlxalq müstəvidə layiq olduğu hüquqi qiyməti almayıb. Bizdə də bu hadisələrə emosiya, kədər, yaxud mübarizlik salnaməsi kimi sırf pafoslu münasibət qalır.

Bu hadisələrin beynəlxalq müstəvidə gərəkən tarixi, siyasi və hüquqi qiymət almamasının səbəbini faciənin ilk günlərində axtarmaq lazımdır.

Hadisədən dərhal sonra Azərbaycanın o vaxtkı rəhbərliyi nəinki 20 Yanvarın gerçək miqyas və mahiyyətini dünya birliyinin diqqətinə çatdırmadı, əksinə, bu hərbi cinayəti retuş etməyə çalışdı.

Bu mövzu Azərbaycanda lap əvvəldən siyasi "razborka" predmetinə çevrildi. "Faciənin günahkarları kimdir?" sualına cavab daha çox Azərbaycanın daxilində axtarılıb, nəinki gerçək ünvanlarda. Məhz 20 Yanvara daxili siyasi konyunkturdan yanaşma dünyanın gözündə bu hadisənin mahiyyətini kiçiltdi. Əksər ölkələr 20 Yanvarın Azərbaycandakı daxili siyasi mübarizənin, hakimiyyət davasının nəticəsi kimi dəyərləndirdi. Beynəlxalq birlik 1956-cı ilin Budapeşt, 1968-ci ilin Praqa, o cümlədən 1989-cu ilin Tbilisi, 1991-ci ilin Riqa və

Vilnüs hadisələrinə müvafiq hüquqi qiymət verdiyi halda, 1990-cı ilin Yanvar hadisələrinə bu qiyməti verməyib.

20 Yanvardan sonra Azərbaycan rəhbərliyinin atdığı addımlar cəsarətsizlik və siyasi təslimçilik idi. O vaxt Azərbaycan xalqı adından yeganə etiraz bəyanatı şeyxülislam Paşazadə tərəfindən verilmişdi. SSRİ rəhbərliyinə, habelə BMT-yə, dünya dövlətlərinə ünvanlanan və kəskinliyi ilə seçilən bu bəyanatda 20 Yanvarın törədilməsinə görə günahın bilavasitə Kremlin və Mixail Qorbaçovun üzərinə düşdüyü vurğulanırdı. Həmin günlər Azərbaycan xalqı adından ən ciddi bəyanatı isə Moskvada yaşayan Heydər Əliyev verdi. Bilavasitə imperiyanın mərkəzində, dünyanın onlarca KİV təmsilçisinin qarşısında verilən bu bəyanat böyük əks-səda doğurmuşdu.

Tbilisidə və Baltikyanı respublikalarda baş vermiş hadisələr sovet rəhbərliyi, xalq deputatları səviyyəsində müzakirə edilsə də, 20 Yanvar hadisələri şüurlu şəkildə təhrif edilərək yanlış yozuma və unutqanlığa məhkum edilmişdi. Bircə faktı vurğulamaq yetər ki, prezident Mixail Qorbaçov Azərbaycanda həyata keçirilmiş əməliyyata yalnız bir dəfə, 1991-ci ildə - 20 Yanvarın ildönümündə Azərbaycan xalqına başsağlığı (?) verməklə münasibət bildirmişdi.

Şübhəsiz, XX əsrdə totalitarizmin törətdiyi ən qanlı terror aktları sırasında 20 Yanvar da var. Bu, bəşəriyyət və insanlıq əleyhinə törədilmiş dəhşətli əməl idi. Dinc əhaliyə qarşı həyata keçirilən cəza tədbirləri zamanı 1949-cu ilin Cenevrə Konvensiyasının, Beynəlxalq Hərbi Tribunalın Əsasnaməsinin, Beynəlxalq İnsan Haqları Bəyannaməsinin, insan haqlarına dair digər beynəlxalq aktların çoxsaylı müddəaları pozulmuşdu. Bu məqamlar 20 Yanvar hadisələri ilə bağlı aparılmış ən səthi təhqiqatlarda da təsdiqlənir.

Biz bu günün gerçək önəmini onun hüzn və şərəfi ilə birgə yaşamalıyıq. Ən önəmlisi isə bu tarixi, 20 Yanvarı dünyaya XX yüzildə bütöv bir xalqa qarşı törədilmiş cinayətlərin bir epizodu kimi tanıtdırmağı bacarmalıyıq. Təkcə ona görə yox ki, dünya bizim hüznə şərik olsun. Ona görə ki, dünya Azərbaycanı və azərbaycanlıların tarixini olduğu kimi bilsin. Bu aksiyanın Azərbaycan üçün, onun beynəlxalq imici üçün heç də formal olmayan əhəmiyyəti var...

İllər ötsə də, bu söz dəyişməyəcək. 1990, 20 Yanvar - Azərbaycanın salnaməsinə qanla yazılmış tarixdir.

Yığıncaqlar, mitinqlər... Totalitarizm boyunduruğundan azad olmaq istəyi. İnsanlarda buna olan dərin inamı. O günləri necə unuda bilərik?

Axşam saat 9-dan sonra şəhərin küçələrində şütüyən maşınlardakı meqafonla insanları - vətəni sevənləri XI Qızıl Ordu meydanına çağırırdılar. Hamı axın-axın yalnız bir səmtə - Biləcəri yoluna tərəf üz tuturdu. İnsanlar Bakıya, bir müttəfiq respublikanın paytaxtına nə üçün ordu bölmələri, hərbi texnika yeridilməli olduğunu anlaya bilmir və bunu istəmirdilər. Buna haqlı olaraq etiraz edirdilər.

Cinayət törədildi, günahsız insanlar şəhid oldular...

Kimsə sual edə bilər: görəsən, insanlar ordunun belə bir dəhşətli zorakılıq törədəcəyini bilsəydi, küçələrə çıxardımı? Bunun cavabını elə o günlərdə - şəhidlərin dəfni zamanı bütün qadağalara baxmayaraq, Azadlıq meydanından Dağüstü parka, indiki Şəhidlər xiyabanınadək uzanan, qorxu-hürkü bilməyən insan axını verdi.

O gün heç kəs başını aşağı əymədi. Biz şəhid verdik, lakin qalib gəldik. Biz nə əyildik, nə sındıq. O gün "Azadlıq!" sədası göylərə qalxdı. Biz bir millət olaraq azadlığı qanımız bahasına əldə etdik. Və nəyin bahasına olursa-olsun azadlığımızı qorumalıyıq. Budur bizim şəhidlər qarşısında müqəddəs borcumuz!

**“Ayna”.-** 2010.- 16 yanvar.- N.2.- S.18.

## 20 Yanvar faciəsi xalqımızın azadlıq mübarizəsinin zirvəsidir

**Müsahibimiz Milli Məclisin deputatı, YAP-ın İcra katibinin müavini Mübariz Qurbanlıdır**

**- Mübariz müəllim, tariximizin qanlı səhifələrindən olan 20 Yanvar faciəsindən 20 il ötür. Bu faciənin baş verdiyi dövrün ictimai-siyasi vəziyyətini necə xarakterizə edərdiniz?**

- 1980-ci illərin sonunda keçmiş sovet respublikalarında, o cümlədən də, Azərbaycanda milli hərəkat başlanmışdı. 1987-ci ildən başlayaraq erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan qopararaq Ermənistana birləşdirmək istiqamətində ciddi-cəhdlər etməyə başladılar. Bu da təsadüfi deyildi. 1987-ci ildə Heydər Əliyevin sovet rəhbərliyindən istefaya göndərilməsi ermənilərin əl-qolunu açdı. Onlar yaranmış şəraitdən, Mixail Qorbaçov və onun ailəsinin himayəsindən istifadə edərək, Dağlıq Qarabağı Azərbaycandan qoparıb Ermənistana birldəşdirmək üçün fəaliyyətə keçdilər. Bu fəaliyyət erməni ideoloqu Aqembekyanın Fransanın "Humanite" qəzetinə verdiyi müsahibə ilə başlayır. Bu bir, siqnal rolunu oynadı. Sonra isə Zori Balayanın azərbaycanlılara və türklərə qarşı yönələn cızma-qaraları erməni millətçiləri üçün ideoloji mənbə rolunu oynamağa başladı.

20 Yanvar faciəsi Azərbaycan xalqının öz ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizəsinin qarşısını almaq məqsədi daşıyırdı. Mixail Qorbaçov başda olmaqla, Moskvada hakimiyyətdə olan dairələr Azərbaycanı cəzalandırmaq məqsədilə ölkəmizə qoşun yeridilməsinə və qanlı terror törədilməsinə nail olurlar. Ümummilli liderimiz Heydər Əliyev 20 Yanvar hadisəsindən sonra həyatı təhlükədə olsa da, dərhal ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək qanlı faciənin törədilməsində Mixail Qorbaçov başda olmaqla, bütün günahkarların cinayətlərini dünyaya bəyan etdi.

**- Sovet imperiyasının dağılmasında bir sıra ciddi amillər rol oynayıb. Bu baxımdan necə hesab edirsiniz, 20 Yanvar hadisəsinin tarixi-siyasi əhəmiyyəti nədən ibarətdir?**

- Azərbaycanda baş verən bu hərəkat həqiqətən sovet dövlətinin dağılmasında kifayət qədər güclü rol oynayıb. 20 Yanvar hadisəsi sovet rejiminin iç üzünü açdı. Sübut olundu ki, çıxışların kəskinliyinə baxmayaraq, Pribaltikada, Ukraynada, Mərkəzi Asiyada, Gürcüstanda və Ermənistanda imperiya Azərbaycana qarşı olduğu qədər amansız tədbirlərə əl atmadı. Sovet rejimi ən müasir hərbi texnikanı əliyalın xalqımızın üzərinə yeritdi. Xalqımız ötən əsrin əvvəllərində verdiyi şəhidlərin ruhu ilə silahlanaraq sovet imperiyasına qarşı mübarizə aparırdı. Amma sovet dövlətinin dağılması daha mürəkkəb proses idi və bu, əslində, 1980-ci illərin ortalarından başlamışdı. Artıq sovet dövlətindən ayrılmalar labüd idi və Kommunist Partiyasının Siyasi Bürosunda da baş verən hadisələr onu göstərirdi ki, Moskvanın özü də müəyyən səviyyədə sovetlər hakimiyyətindən imtina etməyə hazırlaşır. Bu, yalnız Moskvanın daxili siyasətində yox, xarici siyasətində də özünü göstərirdi. Çünki dünyada elə proseslər gedirdi ki, Moskva sovet dövlətinin dağılacağını başa düşürdü. Buna görə də, prosesi mümkün qədər uzatmaq istəyirdilər. 20 Yanvar Azərbaycanın müstəqillik addımlarının və imkanlarının daha aydın şəkildə ifadə edildiyi yer oldu.

**- 20 Yanvar hadisəsini Azərbaycan tarixində dönüş anı kimi qiymətləndirmək olar? Ümumiyyətlə, bu hadisənin tariximizdəki rolu barədə nə deyə bilərsiniz?**

- 20 Yanvar Azərbaycan xalqının tarixinə qanla yazılmış səhifələrdən biridir. Amma o dəhşətli gecə tariximizə təkcə faciə kimi yox, həm də Azərbaycan xalqının mübarizlik, dönməzlik, qəhrəmanlıq günü kimi daxil oldu. Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi və mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi. 20 Yanvar hadisəsi xalqımızın milli-azadlıq hisslərinin güclü olduğunu, o zaman Azərbaycana rəhbərlik edənlərin isə zəifliyini göstərdi. Bu hadisə xalqın müstəqil dövlət qurmaq uğrunda mübarizəsinə mərkəzi hakimiyyətin gözlənilməz və kifayət qədər sərt reaksiyası idi. 20 Yanvar hadisələri onu da sübut etdi ki, Azərbaycan xalqı Qarabağın ondan qoparılıb başqasına verilməsinə razı deyil. Bütün bunlar torpaqlarımızın əlindən alınmasına qarşı xalqın kütləvi etirazı idi. Bu baxımdan, 20 Yanvar hadisələri istiqlal mübarizəmizin zirvələrindən biridir. Qanlı yanvar hadisələrində ayağa

qalxan xalqımızın yeganə tələbi Qarabağın əlimizdən getməməsi idi. Onu da qeyd edim ki, Car Rusiyasının siyasətini bu dəfə sovet imperiyası davam etdirirdi. Yenə də ayrı-seçkilik aparılır və ermənilər müdafiə olunur, imperiya Qarabağı ermənilərə vermək istəyirdi. Qarabağ uğrunda hərəkat milli azadlıq mübarizəsinə çevrildi. Xalq başa düşdü ki, torpaqlarını, suverenliyini qorumaq üçün azad olmalıdır.

**- 20 Yanvar hadisələrinə hüquqi-siyasi qiymət də Ulu öndərimizin təşəbbüsü ilə verildi...**

- 20 Yanvar faciəsinə rəsmi səviyyədə ilk dəfə Heydər Əliyevin təşəbbüsü və bilavasitə özünün işləyib-hazırladığı qərar layihəsi əsasında Naxçıvan Muxtar Respublikasının Ali Məclisində siyasi qiymət verildi.

Ümummilli lider Heydər Əliyev 1991-ci ildə Azərbaycan SSR Ali Sovetinin sessiyalarında dəfələrlə 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməsi ilə bağlı məsələ qaldırsa da, o vaxtkı Azərbaycan rəhbərliyinin xalqın taleyinə biganəliyi nəticəsində bu məsələ öz həllini tapmadı. Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonrakı ilk illərdə başları hakimiyyət uğrunda mübarizəyə qarışmış respublika rəhbərləri 20 Yanvar qırğınına siyasi-hüquqi qiymət verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində məqsədyönlü iş aparmadılar. Yalnız Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev yenidən siyasi rəhbərliyə qayıtdıqdan sonra, 1994-cü ildə Qanlı Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verildi, faciənin günahkarlarının adları açıq şəkildə bəyan edildi. Milli Məclisdə 1994-cü il martın 29-da qəbul edilən qərarda, nəhayət ki, 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi qiymət verildi. Qərarda 1990-cı ilin 20 Yanvar hadisələri Azərbaycanda vüsət almış milli-azadlıq hərəkatını boğmaq, demokratik və suveren bir dövlət amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və belə bir yola qədəm qoyan xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirildi.

Sənəddə Sovet İttifaqı Kommunist Partiyasının, sovet dövləti və hökumətinin, şəxsən Mixail Qorbaçovun Azərbaycana qarşı ağır cinayət törətdikləri, Əbdürrəhman Vəzirovun, Ayaz Mütəllibovun, Viktor Polyaniçkonun, Vaqif Hüseynovun xalqımıza xəyanət etdikləri siyasi-hüquqi müstəvidə öz əksini tapdı.

**Aynurə Şirinova**
**Şəmsiyyə Əliqızı**

**"İki sahil".**- 2010.- 15 yanvar.- N.8.- S.5.

## 20 Yanvar faciəsi Azərbaycanın tarixinə həm kədərli hadisə, həm də fədakarlıq və qəhrəmanlıq səhifəsi kimi daxil olmuşdur

**1990-cı il qanlı 20 yanvar hadisələrinin 20 ili tamam olur. İyirmi il əvvəl sovet imperiyasının Azərbaycan xalqına qarşı, eyni zamanda insanlığa qarşı törətdiyi misli görünməmiş vəhşilik sinələrə vurulmuş sağalmaz yaranı hələ də göynədir. Bu qanlı faciə dəhşətli bir cinayət hadisəsi kimi təkcə Azərbaycan tarixinə deyil, həmçinin bəşər tarixinə də daxil olmuşdur. İstiqlaliyyət, azadlıq və müstəqillik istəyi ilə küçələrə çıxmış dinc, əliyalın insanların güllələbaran olunması, ağır hərbi zirehli maşınların altında xıncım-xıncım edilməsi 1949-cu ilin Cenevrə Konvensiyasının, Beynəlxalq Hərbi Tribunalın Əsasnaməsinin, Beynəlxalq İnsan Haqları Bəyannaməsinin, insan haqlarına dair digər çoxsaylı beynəlxalq aktların müddəalarının kobud şəkildə pozulması demək idi.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 20 Yanvar faciəsinin onbeşinci ildönümünün keçirilməsi haqqında 2005-ci il yanvarın 3-də imzaladığı sərəncamda bu barədə deyilirdi: “Süquta məhkum olmuş sovet rejimi öz son günlərində bütün tarixi boyu törətmiş olduğu cinayətlər sırasına misli görünməmiş bir vəhşilik aktı da əlavə etdi.”

1988-ci ildən başlayan hadisələr Sovet rejiminin iflasından xəbər verirdi. Bundan qorxuya düşmüş SSRİ-nin o vaxtkı rəhbəri Mixail Qorbaçov çürüməkdə olan sovet imperiyasını qoruyub saxlamaq üçün ən çirkin vasitələrə əl atırdı. Son anda isə əllərini xalqların qanına batırdı. Dinc əhaliyə qanlı divan tutulması ilk dəfə 1989-cu ildə Tbilisidə baş verdi. Gözləri insan qanından doymayan M. Qorbaçov öz çirkin niyyətlərini Azərbaycanda da həyata keçirdi. Bir il sonra isə 1991-ci ildə Vilnüsdə belə bir vəhşilik törətdi.

Bütün bu qırğınlara bais olan M.Qorbaçov sonradan gürcü və Litva xalqlarından üzr istədi, lakin Azərbaycan xalqından üzr istəmədi. Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev sonralar yazdığı əsərlərində bunu əsasən üç amillə əlaqələndirmişdir: dini amil (daha doğrusu, islam amili); Qafqaz amili; türk amili. Təbii ki, akademik R. Mehdiyev öz mövqeyini şərh edərkən çoxsaylı mənbələrə istinad etmiş, tarixi sənədlərə, ədəbiyyatlara əsaslanmışdır.

...1990-cı ilin 20 Yanvarı Azərbaycanın istiqlaliyyət yolunun ilk şəhidlik zirvəsidir. İyirmi il əvvəl yanvarın 19-dan 20-nə keçən gecə təpədən-dırnağadək ən müasir silahlarla silahlanmış sovet ordusunun hissələri heç bir xəbərdarlıq edilmədən Bakı şəhərinə, eləcə də Azərbaycanın bir sıra şəhər və rayonlarına yeridilərək, azadlıq və istiqlaliyyət uğrunda ayağa qalxmış Azərbaycan xalqına vəhşicəsinə divan tutdu. Xalq Ermənistanın respublikamıza qarşı irəli sürdüyü ərazi iddialarının SSRİ rəhbərliyi tərəfindən dəstəklənməsinə, xalqın rəyi soruşulmadan torpaqlarımızın bir hissəsinin Ermənistana verilməsinə və Azərbaycan rəhbərlərinin xəyanətkar siyasət yeritməsinə dözməyərək öz haqq səsini qaldırmışdı. Öz Konstitusiya hüquqlarının bərqərar edilməsi tələbi ilə haqq səsini qaldıran dinc əhali güllələbaran edildi və bir anın içərisində Bakı küçələri insan qanına boyandı.

Sovet hərbi hissələrinin Azərbaycana təcavüzü, dinc, əliyalın insanların kütləvi surətdə faciəli şəkildə qətlə yetirilmələri artıq məhvə doğru gedən sovet rejiminin dağılmasının əlaməti deyildi. Bu, həm də azərbaycanlıları öz əzəli və tarixi dədə-baba torpaqlarından sıxışdırıb çıxarmaq barədə qabaqcadan hazırlanmış məqsədyönlü siyasətin tərkib hissəsi idi. Bu qanlı faciə SSRİ rəhbərliyinin beynəlmiləlçilik adı ilə bütün vasitələrlə ört-basdır etməyə cəhd göstərdiyi siyasətin həyata keçirilməsini bir daha təsdiqlədi. Xalq soydaşlarımızın öz isti ocaqlarından, əzəli və tarixi torpaqlarından, yurd-yuvalarından kütləvi surətdə qəddarlıqla çıxarılmasına, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə ciddi etirazını bildirir, buna yol verməməyi tələb edirdi.

Həmin dövrdə Azərbaycan Ermənistanın təcavüzünə məruz qalmışdı. Təbii ki, SSRİ-nin o vaxtkı rəhbəri Mixail Qorbaçovun millətlər arasında ayrı-seçkilik salması və Ermənistana açıq-aşkar himayədarlıq etməsi göz qabağında idi. Belə bir şəraitdə sovet ittifaqının rəhbərliyi ədalətli, qanuni qərar qəbul etmək əvəzinə, Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınmış erməni əsgər və zabitlərdən, həmçinin Sovet hərbi hissələrində

xidmət edən ermənilərdən, hətta erməni kursantlarından komplektləşdirilmiş ordunu Azərbaycana yeritdi. Qəddarlıq və xüsusi amansızlıqla insanlara divan tutan sovet ordusunun Bakıya və regionlara girməsi və fövqəladə vəziyyətin elan edilməsi Azərbaycanın o vaxtkı rəhbərliyinin razılığı, istəyi və SSRİ Ali Sovetinin 19 yanvar 1990-cı il tarixli qərarı, eləcə də M. Qorbaçovun razılığı ilə olmuşdur. Xalqın istiqlaliyyət və azadlıq arzusunu gözündə qoymaq üçün Bakıya təxminən 35 minlik ordu yeridilmişdi. Bu çirkin, iyrənc qanlı əməliyyatın yerinə yetirilməsində SSRİ Müdafiə Nazirliyi, DİN və DTK-nın hazırlayıb həyata keçirdiyi əməliyyatda xüsusi təyinatlı "ALFA" və SSRİ DTK-nın "A" təxribat qrupları əsas rol oynamışlar. Sonradan isə öz qanlı əməllərinə "həqiqət donu " geyindirməyə cəhd göstərərək utanıb-qızarmadan demişdilər ki, guya Bakıya yeridilən Sovet ordusu şəhərdəki hərbi qulluqçuların ailələrini qorumaq, "millətçi ekstremistlər" tərəfindən hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını alacaqmış. Təbii ki, bu, ittifaq rəhbərliyinin öz qanlı əməllərini həyata keçirmək məqsədi ilə quraşdırılmış ağ yalanı idi. Əgər sovet ordusu belə "dinc" məqsədlə Bakıya yeridilmişdisə, bəs onda niyə şəhərə daxil olan kimi heç bir xəbərdarlıq etmədən odlu silahlardan atəş açmağa başladı?

"Millətçi ekstremistlər"in hakimiyyətin zorakılıqla ələ keçirilməsindən söhbət düşmüşkən burada bir məqamı qeyd etmək mütləq vacibdir. Adlarını xalq hərəkatının liderləri qoyan, əslində isə "meydan qəhrəmanları" kimi tanınan İsa Qəmbərov, Etibar Məmmədov, Nemət Pənahov, Rəhim Qazıyev və başqaları 20 Yanvar faciəsinə görə bilavasitə siyasi və mənəvi məsuliyyət daşıyırlar. Silahsız insanları təpədən-dırnağadək silahlanmış sovet ordusunun üstünə göndərən üzdəniraq xalq hərəkatının liderləri faciəli nəticələr üçün məsuliyyət hiss etməli idilər. Özlərini qədirbilən, millətin, xalqın qayğısına qalan, təəssübkeş kimi göstərməyə çalışan "xalq hərəkatının liderləri"nin burunları da qanamadı. Hətta bu "liderlərin" həmfikirləri, cəbhədaşları da təsdiqləmişdilər ki, Bakıda qan tökülməsində və hakimiyyətin devrilməsində onların maraqları olub. Fakt üçün qeyd edək ki, Azərbaycan Xalq Cəbhəsi yaranan gündən bu qurumun fəallarından biri olan Zərdüşt Əlizadə öz fikrini açıq şəkildə bəyan etmiş və həmfikirlərinin bəzilərini ifşa etmişdir. Özlərini lider adlandıranlar imperiya qoşunlarının Bakıya daxil olmasından xəbər tutan kimi qaçıb aradan çıxmış, bəziləri isə qorxusundan öz evlərində yox, dost-tanışlarının bağ evlərində gizlənmişdilər. Bu fakt da M. Qorbaçovun "millətçi ekstremistlərin" hakimiyyətin zorakı yollarla ələ keçirilməsinin qarşısını almaq bəhanəsini alt-üst edir. 20 Yanvar faciəsinin təşkilatçılarından — Kremldə yüksək vəzifə tutanlardan birinin sonradan İsa Qəmbərovu ciddi-cəhdlə müdafiə etməsi, "onunla işiniz olmasın, bizim adamdır" deməsi bir daha təsdiqlədi ki, elə "millətçi ekstremistlər" də Kremlə xidmət edən, onların tapşırıqlarını yerinə yetirən muzdlular imiş. Belə xəyanətkarlıqların və sovet rejiminin qəddarlığının nəticəsində bir neçə gün ərzində 137 nəfər vəhşicəsinə qətlə yetirildi , 700-dək adam yaralandı, 800-dən çox adam qanunsuz həbs edildi. Həlak olanlar arasında dinc sakinlər - gənclər, uşaqlar, qocalar və qadınlar var idi.

Bakının imperiyanın nəzarəti altına alınması planı DİN-in, DTK-nın və sovet ordusunun hissələri ilə, müdafiə naziri Yazovun komandanlığı altında həyata keçirildi. Azərbaycanın o vaxtkı rəhbərliyinin cəsarətsiz, qətiyyətsiz addımları, siyasi təslimçilik nümayiş etdirməsi qanlı faciənin üstünün ört-basdır edilməsinə, cinayətin baş verməsində əsas günahkarın Azərbaycan xalqında olmasını sübut etməyə istiqamətlənmişdi. O vaxt informasiya blokadasında boğulan Azərbaycan bu qanlı hadisə barəsində dünya ictimaiyyətinə ətraflı məlumat verməkdə aciz idi. SSRİ DTK-nın "ALFA" qrupunun yanvarın 19-da saat 19.27-də Azərbaycan Televiziyasının enerji blokunu partlatması nəticəsində bu dəhşətli hadisə barəsində hətta yerli əhali, regionlarda yaşayanlar da ətraflı məlumat ala bilməmişdilər.

1987-ci ildə Kremldə tutduğu vəzifədən uzaqlaşdırılan, lakin bundan sonra da təqib və təzyiqlərə məruz qalan ümummilli lider Heydər Əliyev Bakıda törədilən faciənin ertəsi günü – yanvarın 21-də həyatını riskə qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək mətbuat konfransı keçirdi və dünyanın onlarla kütləvi informasiya vasitələri təmsilçiləri qarşısında sovet rəhbərliyinin Azərbaycan xalqına qarşı təcavüzünü açıq şəkildə pisləyən bəyanat verdi, bu dəhşətli faciəyə siyasi qiymət verilməsini tələb etdi. Ümummilli lider dünyanın tanınmış kütləvi informasiya vasitələri qarşısındakı çıxışında demişdir: " Azərbaycana kənardan böyük ordu kontingenti yeridilmişdir. Respublikada neçə ordu birləşməsinin olduğu

mənə yaxşı bəllidir. Azərbaycanda kifayət qədər — 4-cü ordu, Xəzər Hərbi Dəniz Donanması, Desant qoşunlarının diviziyası, Hava Hücumundan Müdafiə Qoşunları, Daxili İşlər Nazirliyinin daxili qoşun birləşmələri vardır. Oraya əlavə qoşun yeritmək nəyə lazım idi? Əgər belə zərurət var idisə, orada yerləşən hərbi hissələrdən də istifadə etmək olardı. Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə bərk ayaqda Azərbaycanı qoyub qaçmış Vəzirov öz xalqı qarşısında məsuliyyət daşımalıdır. Ölkənin ali siyasi rəhbərliyinə yanlış məlumat verənlər də məsuliyyət daşımalıdırlar, zənnimcə, ölkənin ali siyasi rəhbərliyinə vəziyyət barədə vaxtında kifayət qədər düzgün, dəqiq, obyektiv informasiyalar çatdırılmamışdır. Rəhbərlik çaşqınlığa salındığından belə qərar qəbul etmişdir. Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır".

Belə kəskin bəyanat vermək yüksək cəsarət tələb edirdi. Ulu öndərin etiraz səsi bütün dünyaya yayıldı və böyük rezonans doğurdu. Təəssüflər olsun ki, Azərbaycanın o vaxtkı rəhbərləri əks mövqe tutdular və ümidlərini yenə də Moskvaya bağladılar. Həm SSRİ, həm də Azərbaycan rəhbərliyi bu qanlı cinayətin bilavasitə təşkilatçıları və iştirakçıları nəinki onun açılması və cinayətkarların məsuliyyətə cəlb olunmasından ötrü tədbirlər görmüş, əksinə törədilmiş cinayətləri ört-basdır etmək üçün əllərindən gələni etmişdilər. 20 Yanvar faciəsinə ilk dəfə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1990-cı il noyabrın 21-də öz siyasi-hüquqi qiymətini vermişdir. Bu tarixi sənəddə qeyd olunmuşdur ki, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri M. S. Qorbaçov, Sov.İKP MK katibi A. Girenko, SSRİ müdafiə naziri D. Yazov, SSRİ daxili işlər naziri B. Bakatin, Sov.İKP MK-nın məsul işçisi A. Mixaylov, Azərbaycan KP MK-nın birinci katibi Ə. Vəzirov, Nazirlər Sovetinin sədri A. Mütəllibov, Azərbaycan KP MK-nın büro üzvləri V. Polyaniçko, M. Məmmədov, DTK-nın sədri V. Hüseynov xalqımıza qarşı törədilən bu siyasi və hərbi qəsd üçün cavabdehdirlər və birbaşa məsuliyyət daşıyırlar.

Ulu öndər Heydər Əliyev 1991-ci ildə Azərbaycan SSR Ali Sovetinin sessiyalarında dəfələrlə 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verilməsi ilə bağlı məsələ qaldırmışdır. Həmin il avqust ayının 29-da böyük öndər parlamentdəki çıxışında bir daha bu məsələyə münasibət bildirmiş və qətiyyətlə demişdir : "20 Yanvar faciəsindən il yarımdan çox vaxt keçir. Bu gün burada da, bu salonda da cürbəcür söhbətlər gedir...Mən sual verirəm Ali Sovetin sədri Elmira Qafarovaya, Azərbaycan Prezidenti Ayaz Mütəllibova. Nə üçün indiyə qədər bu məsələyə siyasi qiymət verilməyib? Bu məsələnin həm siyasi, həm də hüquqi tərəfləri var. Bu məsələyə dərhal siyasi qiymət vermək olardı. 20 Yanvar hadisəsini törədənlər xalqımıza xəyanət ediblər. Ancaq ondan sonrakı işlərdə də bu hadisənin üstünü ört-basdır edənlər ikiqat xəyanət ediblər.

Sonradan hakimiyyəti ələ keçirmiş AXC-Müsavat cütlüyü dövründə də Qanlı Yanvar faciəsi öz həqiqi qiymətini ala bilmədi. Yalnız ümummilli lider Heydər Əliyev yenidən siyasi hakimiyyətə gəldikdən sonra bu dəhşətli cinayət əməlinə obyektiv qiymət verildi. Böyük tarixi şəxsiyyətin təşəbbüsü və təklifi ilə 1994-cü ildə 20 Yanvar hadisələrini lazımınca qiymətləndirmək yolunda ciddi addımlar atıldı. Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 1994-cü il tarixli fərmanında deyilir: " Xalqımızın tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermişdir. Tarixin yaddaşına qanla yazılmış həmin gündən bizi 4 illik zaman məsafəsi ayırır. Təəssüf ki, bu 4 il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilməmişdir.

Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının bu barədə müvafiq qərarı olmuşdur. Lakin 1992-ci il 19 yanvar tarixli bu qərarda yanvar hadisələrinin əsl səbəbləri açıqlanmamış, həqiqi günahkarları aşkar edilməmişdir. Bununla belə həmin qərarın özü də qəbul edildiyi 2 il ərzində yerinə yetirilməmişdir."

Məhz bu fərmanla Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunmuşdur ki, 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilsin. Bu məqsədlə Milli Məclisin xüsusi sessiyasının keçirilməsi məsələsi qərara alınmışdır. Bundan sonra Milli Məclis 20 Yanvar faciəsinə həsr olunmuş xüsusi sessiya keçirmiş və 1994-cü il martın 29-da qərar qəbul etmişdir. Həmin qərarın ayrı-ayrı bəndlərinə diqqət yetirdikdə bu dəhşətli faciənin təşkilatçılarının kimlər olduğu tam dəqiqliklə müəyyənləşir. Məsələn, həmin qərarın bəndlərində bildirilir:

2-ci bənd: "İşğalçılıq siyasəti ilə Azərbaycanın suverenliyinə qəsd etmiş, xalq hərəkatını boğmaq üçün bədnam kommunist ideologiyası libasında köhnə imperiya iddialarını həyata keçirmək məqsədilə 20 Yanvar

faciəsini təşkil etmiş Sovet İttifaqı Kommunist Partiyası, Sovet dövləti və hökuməti rəhbərliyinin, şəxsən Mixail Qorbaçovun Azərbaycan xalqına qarşı ağır cinayət törətdiyi qeyd olunsun".

3-cü bənd: "Xalqa qarşı törədilən hərbi təcavüzə görə məsuliyyət eyni zamanda Azərbaycan Kommunist Partiyası rəhbərliyinin üzərinə düşür. Xalqın azadlıq hərəkatını boğmaq məqsədilə Sovet qoşunlarının Azərbaycana çağırılmasına və xalqa qarşı yönəldilməsinə razılıq verən, vətəndaşların əmin-amanlığını təmin etməyən, hakim mövqelərini qorumaq naminə öz xalqının qanının axıdılmasına yol verən Əbdürrəhman Vəzirovun təcavüzün birbaşa təşkilatçısı və iştirakçısı olduğu, Ayaz Mütəllibovun, Viktor Polyaniçkonun, Vaqif Hüseynovun bu cinayətdə bilavasitə iştirak etdikləri, bununla da Azərbaycan xalqına xəyanət etdikləri qeyd olunsun".

Qərarda həmçinin Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Elmira Qafarovanın, Azərbaycan Kommunist Partiyası Bakı şəhər Komitəsinin birinci katibi Müslüm Məmmədovun sovet imperiyasının qoşun hissələrinin Bakı şəhərinə yeridilməsi ilə əlaqədar heç bir konkret tədbir görmədiklərinə və vətəndaşların təhlükəsizliyini təmin etmədiklərinə görə yüksək vəzifəli şəxslər kimi məsuliyyət daşıdıqları qeyd edilir.

...Bakının ən yüksək nöqtələrinin birində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş 20 Yanvar qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər Xiyabanı hər bir soydaşımız üçün ən ülvi ziyarətgahdır. Möhtərəm Prezidentimiz İlham Əliyevin diqqət və qayğısı sayəsində Şəhidlər Xiyabanı yenidən abadlaşdırılmış, faciə qurbanlarının ailələrinin sosial problemlərinin aradan qaldırılması istiqamətində daha təsirli tədbirlər görülmüşdür. Hər bir azərbaycanlı, yetişən gənc nəsil çox yaxşı bilir ki, 1990-cı ilin 20 Yanvarı Azərbaycanın istiqlaliyyət yolunun ilk şəhidlik zirvəsi idi. Bu zirvəyə yüksəlmək çox çətindir. Çətin olduğu qədər də şərəflidir. 20 Yanvar faciəsi tarixi yaddaşımıza kədərli hadisə, hüznlü gün kimi həkk olunsa da, bu, həm də Azərbaycanın tarixinə fədakarlıq, qəhrəmanlıq, mərdlik zirvəsi kimi əbədi həkk olunub. Azərbaycan xalqı yüzilliyin sonunda əvəzedilməz qurbanlar verməklə bütün dünyaya sübut etdi ki, haqq-ədalətin, müstəqilliyin bərqərar olması yolunda, öz ləyaqətini qorumaq naminə hər cür qurbanlar verməyə qadirdir. 20 Yanvar faciəsi bir daha təsdiqlədi ki, Azərbaycanın mərd oğul və qızları torpaqlarının hər bir qarışının azadlığı uğrunda canlarını qurban verməyə hazırdırlar. Bu faciə Azərbaycanın dövlət müstəqilliyinin qazanılması yolunda dönüş məqamı oldu. Mərd oğul və qızlarımızın qəhrəmanlığı və qanı bahasına qazanılmış müstəqillik dönməz və əbədidir.

**Əliqismət Bədəlov**

**"Xalq qəzeti".-** 2010.- 15 yanvar.- N 10.- S.4.

## Sağalmaz söz yarası

**1990-cı ilin yanvarında ölkə tam iflic vəziyyətinə düşmüşdü. Qəzetlər çıxmırdı. Yanvarın 19-da Az.TV-nin enerji bloku partladıldığından televiziya verilişləri də dayanmışdı. 20 Yanvar qırğınından dərhal sonra informasiya blokadasını yararaq iki milyon tirajla nəşr olunan isə təkcə "Səhər" qəzeti idi. Məzahir Süleymanzadənin "Nurlan" nəşriyyat-poliqrafiya müəssisəsində çapdan çıxan "20 Yanvar: Güllələnmiş qəzet" kitabı faciənin 20 illiyinə həsr olunmuşdur. Kitaba müəllifin xatirələri, müsahibələri, 20 ildən sonra qanlı hadisələrə münasibətini əks etdirən materiallar daxil edilmişdir. Aşağıda həmin materiallardan birini dərc edirik:**

Olan oldu, keçən keçmədi, bir qeyrət düyünü olub qəlbimizin başına yazıldı. "Qanlı şənbə" günü tarixə çevrildi. Şəhidlərimizi ana torpağa tapşırdıq, cüməaxşamını keçirdik, üçü, yeddini verdik. Allah onlara rəhmət eləsin. Allah hamımıza səbr versin...

Səbrli olun, bir də ona görə ki, bundan sonra tanıdığınız, inandığınız, bel bağladığınız, ümid bəslədiyiniz adamlar haqqında ziddiyyətli fikirlər eşidəcəksiniz. Nəticə çıxarmağa tələsməyin. Unutmayın ki, bizim azadlıq ordumuzun Çexoslovakiyada törətdiyi qırğına 21 ildən, Əfqanıstan müharibəsində yerli xalqa "qardaşlıq köməyinə" isə 10 ildən sonra düzgün siyasi qiymət verilmişdir. Bakı hadisələrinin tam mənzərəsi neçə aydan, neçə ildən sonra aydınlaşacaq? Bu, tarixin işidir. Tarix heç kəsin səhvini bağışlamır.

Hələlik gəlin bütün deyilənlərə səbrlə qulaq asaq, yazılanları diqqətlə oxuyaq.

Mətbəə işçiləri ümumi tətilə qoşulduqlarına görə əksəriyyətiniz mərkəzi qəzetlərin "qanlı şənbə"dən sonrakı nömrələrini oxumamızsınız. Amma oxumaq lazımdır, heç olmasa ona görə ki, dostumuzu-düşmənimizi tanıyaq. Görək bizim haqqımızda nə yazırlar, görək şəhidlərimizin misli görünməmiş dəfn mərasimini ittifaq oxucularına necə çatdırırlar, görək bu qədər qan tökülməsinə nə ilə haqq qazandırırlar, görək rusların Bakıdan köçürülməsinə sərəncam verib ölkədə antiazərbaycan hərəkatı qaldıranlar kimlərdir??? Əlbəttə, bu suallar sizdə ittifaq qəzetlərinə maraq oyatsa da, onları tapa bilməyəcəksiniz. Odur ki, bir sıra materialların məzmunu ilə oxucuları tanış etməyi özümə borc bildim.

"Pravda", "İzvestiya", "Krasnaya zvezda" qəzetlərinin yanvarın 19-dan sonrakı nömrələrini vərəqlədikcə SİTA müxbirlərinin Bakıdan verdikləri xəbərləri nəzərdən keçirdikcə əsəblərimi güclə cilovlayıram. Azərbaycan xalqının timsalında "düşmən obrazını" məharətlə, xüsusi səylə yaradıblar. Bu materialları oxuyan ukraynalının, belarusun, latışın, estonun və xüsusilə də rusun mənim xalqım barədə nə düşünəcəyini təsəvvürə gətirmək o qədər də çətin deyil.

Əbdürrəhman Vəzirovun sonuncu mətbuat konfransını xatırlayıram. SİTA-nın müxbiri N.Demidov heyrətamiz səbirsizliklə soruşdu ki, Bakıda fövqəladə vəziyyət, nəhayət, elan ediləcəkmi? İndi məlum olur ki, niyə tələsirmiş. Budur, N. Demidovun qanlı gecədən SİTA-ya verdiyi reportajdan sətirlər: " - Bəlkə musiqiyə qulaq asaq? - deyə serjant mənə göz vuraraq radioqəbuledicinin düyməsini basdı. Onun əlində avtomat silah, mənim əlimdə avtomat qələm vardı".

N.Demidov avtomat qələmini avtomat silahla müqayisə edir. Bu müqayisə çox yerinə düşüb, ona görə ki, avtomat qələmin vurduğu yara musiqi sədaları altında qan tökən əsgər avtomatının törətdiyi fəlakətdən təhlükəlidir. Çünki güllə yarası sağalar, söz yarası yox. N. Demidovun "obyektivliyindən" daha bir misal gətirib keçək o biri materialların şərhinə: "Yaşlı bir azərbaycanlı qadın əsgərlərə yaxınlaşıb dedi: "Mənim əziz balalarım, nə yaxşı ki gəldiniz, bizə çox lazımsınız, biz qorxuruq!"

Əlbəttə, azərbaycanlı qadın əsgərə xoşgəldin də deyər, qurban olum da. Həmişə deyib də, hamımızın süfrəsi daim əsgərin üzünə açıq olub. Amma "şənbə gülləboranının" ertəsi günü yox. Həmin gün bütün Azərbaycan anaları ağı deyirdi, göz yaşı tökürdü...

Bakı dəniz limanındakı hadisələr barədə SİTA bildirir: "Admiral V.V.Sidorovun bəyanatına görə limanda heç bir blokada olmamışdır".

"SSRİ Xarici İşlər Nazirliyinin nümayəndəsi" Bakı dəniz limanında blokadanın yarılması barədə suala cavab verərkən bildirmişdir ki, iki qərargah gəmisini ələ keçirmək üçün dənizə desant salınmış, bu zaman hərbçilər tərəfindən bir güllə belə atılmamışdır".

"Paraşüt-desant bölməsi Xəzər Donanması gəmilərinin iştirakı ilə Bakı dəniz limanında blokadanı ləğv etmişdir. Onlar iki gəmini terrorçulardan təmizləmişlər. Əməliyyat zamanı buraya gələn üçüncü gəmidən pulemyot və avtomat atəşi açılmış, iki hərbi qulluqçu ağır yaralanmışdır. Basqını zərərsizləşdirmək üçün desant-döyüş maşınının topundan xəbərdarlıq atəşi açılmışdır. Lakin terrorçular atəşi dayandırmamışlar. Belə olduqda desant-döyüş maşını gəminin gövdəsinə bir neçə atəş açmışdır. Topdan istifadə edilməsi nəticəsində tələfat olmamışdır".

Bir xəbərin üç variantı. Oxucu hansına inansın?

"İzvestiya"nın parlament şərhçisi V. Şepotkin qəzetin 24 yanvar tarixli nömrəsində iddia edir ki, 1982-ci ildə Brejnev Bakıya gələrkən ona bağışlanmış brilyantlı qılıncın müəllifləri məsuliyyətə cəlb olunsaydı, bu gün vəziyyət belə kəskinləşməzdi. Yəni bütün bu qırğının təşkilatçıları "gizli iqtisadiyyatın" rəhbəridir. "İzvestiya"nın xüsusi müxbirləri yanvarın 23-də Bakıdan verdikləri reportaja Rostov vilayətindən olan sıravilər Boris Borisovun və İqor Redkonun öldürülməsi ilə başlayırlar. Əlbəttə, bu sətirlər qəlbimizi ağrıdır. Amma öldürülən təkcə əsgərlərdimi? Günahsız şəhidlərin də analarına, bacılarına təsəlliverici bir söz demək olmazdımı?

Yanvarın 25-də dərc edilmiş növbəti reportaj. "Gecələr bəzi adamlar motosikletlə şəhəri dolaşır, piyada patrul dəstələrinə hücum çəkirlər. Evlərin pəncərələrindən zirehli texnikaya benzin dolu bankalar atılır. Bəzi evlərin divarlarına üzərində "qatillər" yazılmış əsgər və zabit şəkilləri yapışdırılmışdır. Şayiə gəzir ki, şəhidlərin əvəzinə şəhərin rus əhalisi cavab verməli olacaq, xalq cəbhəsinin üzvü olmayan bakılılar da cəzalarına çatacaqlar".

Sonra müxbirlər bakılıların binaların birinə vurulmuş "Böyük Oktyabr XX əsrin əsas hadisəsidir" şüarını qoparmaq cəhdindən söhbət açır, bu zaman əsgərlərin özlərini olduqca təmkinli apardıqlarını bildirirlər. Görəsən, Bakıda "Böyük Oktyabr XX əsrin əsas hadisəsidir" şüarının qoparılması cəhdi böyük qəbahətdir, yoxsa Moskvada, Leninqradda V. İ. Leninin portretinin nümayişkaranə cırılması? Reportajın axırında Azərbaycan SSR Ali Sovetinin sessiyası haqqında qısa məlumat verilir və göstərilir ki, deputatlar qoşunların tezliklə şəhərdən çıxarılmasını tələb etmişlər.

"İzvestiya"nın xüsusi müxbiri İ. Andreyev qəzetin 26 yanvar tarixli nömrəsində Bakıdan köçürülən rusların, zabit ailələrinin aqibətini elə təsvir edir ki, sanki onlar - qadınlar, qocalar, uşaqlar, hətta südəmər körpələr vəhşilərin əlindən canlarını qurtarıb özlərini güclə aeroporta çatdırmışlar. Müxbir yazır: "İndi onlar rahat nəfəs ala bilərlər, çünki buradan Moskvaya cəmisi üç saatlıq uçuşdur". Yüksək rütbəli hərbçilər də Bakının rusdilli əhalisinin döyüldüyünü, təhqir olunduğunu bildirir, çıxış yolunu yalnız onların köçüb canlarını qurtarmasında görürlər.

Həmin nömrədə Q. Alimovun "Didərginlər Moskvaya gəlirlər" adlı reportajı da dərc olunub. İki qadın və bir uşaq təsvir olunmuş şəklin altında yazılıb: "Azərbaycandan 53 təyyarə gəlib, on minə yaxın didərgin gətirib. Bunlar - hərbçi ailələridir. Bunlar - qadınlar, uşaqlar, qocalardır. Bunlar - ruslardır..."

İlahi, nələr yazılmayıb bu reportajda? "Bakıda yaşamaq mümkün deyil", "Mağazada bizə çörək də satmırlar", "Hamı ruslardan üz döndərib", "Bizi döyürlər, təhqir edirlər", "Nə olur-olsun, bir də Bakıya qayıtmaram..."

Sonra müxbir göstərir ki, əsgərlər hərbi akademiyalarda papaqlarını götürüb didərginlər üçün qəpik-quruş yığırlar. Çünki onlar canlarını bakılıların əlindən güclə qurtarıb Moskvaya pulsuz qaçmışlar. Təcili olaraq ölkənin bir neçə bankında Azərbaycandan "qovulmuş" didərginlərə yardım üçün xüsusi hesab açılmışdır.

Əlbəttə, didərginə, evsiz-eşiksizə əl tutmaq, kömək etmək lazımdır. Amma bunu antiazərbaycan kampaniyasına çevirmək bədxahlıqdır. "İzvestiya"nın Bakıda güclü qar yağan gün, ermənilərin şəhərdən köçdüyü zaman çəkdiyi şəkli saxlayıb yanvarın 27-də dərc etməsinə başqa nə ad vermək olar? Həmin

nömrədəki reportajda da şəhərdəki əsas hadisələrdən çox rusların Bakıdan qovulmasından, onlara vurulan fiziki və mənəvi zərbədən bəhs edilir.

Sən demə, SSRİ müdafiə naziri, ordu generalı D.T. Yazov bir müddət Azərbaycanda xidmət edib, xalqımızın istiqanlığına, qəlbimizin təmizliyinə yaxşı bələddir. Heç olmasa o, Azərbaycandan zabit ailələrinin köçürülməsinin qarşısını vaxtında ala bilərdi. Buna nüfuzu da imkan verirdi, səlahiyyəti də çatırdı.

"İzvestiya"nın 28 yanvar nömrəsi. Birinci səhifədə R.Qutionotovun "Əsgərin borcu və ictimaiyyətin borcu" məqaləsi diqqəti cəlb edir. Müəllif əmindir ki, Bakıda fövqəladə vəziyyət elan etməkdən başqa çıxış yolu yox idi. Mən onun yerinə olsaydım, qəti fikir söyləməyə tələsməzdim. Çünki bu məsələ hələ müzakirə olunmayıb, hələ əsl həqiqət ortaya çıxarılmayıb.

Bakı dəniz limanından şəkil. Qaçqınlar gəmiyə minmək üçün basabas salıblar... Ümumiyyətlə, "İzvestiya"nın dərc etdiyi şəkillərə baxdıqca Ermənistandan vəhşicəsinə qovulmuş azərbaycanlı didərginlər yadıma düşür. O zaman onların şəkillərini qəzetdə dərc etmək istədik, Əbdürrəhman Vəzirov "məsləhət görmədi". Bu faciəli şəkillər mərkəzi qəzetlərin səhifələrində də görünmədi. Beləliklə, ölkə 200 mindən artıq azərbaycanlı didərginin faciəsindən əməlli-başlı xəbər tutmadı. İndi Moskva Hərbi Dairəsinə Bakıdan 14.377 nəfər rus köçürülüb, bütün dünyaya car çəkirlər. Bütün bunların nəyə, hansı məqsədə xidmət etdiyini indidən söyləmək çətindir. Amma bir şey qəti aydındır: azərbaycanlılarla rusların arasına, müsəlmanlarla xristianların arasına şübhə toxumu səpmək nə yenidənqurmaya xidmət edir, nə də xalqlar dostluğunun möhkəmləndirilməsinə. Hələlik bunu təkcə "Zaman" xəbərlər proqramının əməkdaşları başa düşüblər. Görəsən, "7 Gün" proqramına baxan "İzvestiya" müxbirləri Bakıda ruslara əsl münasibəti, özü də rusların, hərbçilərin öz dilindən eşidəndə hansı hissləri keçirdilər?

"7 Gün" proqramının aparıcısı A.Tixomirova bir də ona görə minnətdarıq ki, öz həmkarlarının səhvlərini düzəldərək həqiqəti dedi: öldürülənlər arasında qadınlar da, uşaqlar da var.

Bəs Qafqaz hadisələri barədə ordu qəzeti - "Krasnaya zvezda" nə yazır? Qəzetin 20 Yanvar tarixli nömrəsində Yerevandan verilmiş bir məqalə olduqca maraqlıdır. Müəllif V.Kosarev göstərir ki, Yerevanda və respublikanın digər şəhərlərində çoxminli mitinqlər keçirilir. Televiziya və radio vasitəsilə mitinqlərin başlanacağı vaxt bildirilir. Əsas tələb belədir - erməni əhalisinin müdafiəsi üçün bizə silah verin. Minlərlə adam "Ümummilli erməni hərəkatı" təşkilatına gedib müdafiə dəstələrinə üzv yazılır. Silahı olmayanların siyahısı ayrıca tutulur ki, onlar silahla təmin edilsinlər.

Hərbçilərin və onların ailə üzvlərinin ünvanına hədələr yağdırılır. Naməlum şəxslər general-mayor İ. Kondratyuku və dörd zabiti tutub girov saxlamışlar. Tələb edirlər: silah verin, sursat anbarlarının yerini göstərin.

Ermənistan KP MK-nın birinci katibi S. Arutyunyan təcili Moskvaya gedərək ölkənin partiya və dövlət rəhbərləri ilə görüşüb və yanvarın 18-də axşam bu görüş barədə televiziya vasitəsilə əhaliyə məlumat verib.

Bax, belə. Yanvarın 18-də Yerevanda silahlanmış adamların hərbçilərə və onların ailə üzvlərinə münasibəti də, yaranmış təhlükə də, radio və televiziyanın saqqallı ekstremistlərə xidmət etməsi də bu xəbərdən aydın olur. Bəs niyə fövqəladə vəziyyət Yerevanda yox, ancaq Bakıda elan olunub?

"Krasnaya zvezda"nın 24 yanvar tarixli nömrəsində dərc olunmuş materiallarda Bakıda, Yerevanda və Naxçıvanda vəziyyət təhlil olunur. Müxbir Bakıdan verdiyi materialda yazır: Yerli əhali qabağımızı kəsib soruşur: "Ruslar niyə köçürlər ?", "Hərbçilər öz ailələrini nə səbəbə aparırlar?"

Bəli, azərbaycanlılar bu köçhaköçün səbəbini bilmirlər, rusların Bakını tərk etməsini istəmirlər.

25 yanvar tarixli "Krasnaya zvezda"da şeyxülislam Allahşükür Paşazadənin M. S. Qorbaçova məktubuna xüsusi diqqət yetirilir və ondan sitat gətirilir: "Biz bunu heç vaxt unutmayacaq və heç kəsə bağışlamayacağıq". Sonra müxbir yazır ki, əsasən rusdilli əhalinin yaşadığı Artyom adasının suyu və qazı kəsilmişdir, çörək gətirilmir.

Artyom adasını bilmirəm, rusların yaşamadığı bizim binada da su və qaz kəsilmişdi. Bakıda belə şeylər tez-tez olur.

Qəzetin 26 yanvar tarixli nömrəsində təzə xəbər odur ki, Stavropoldan Bakıya gələn ehtiyat əsgərlər arasında Sov.İKP vilayət komitəsinin katibi İ.Nikişin, diyar, şəhər və rayon partiya komitələrinin, icraiyyə

komitələrinin 60 nəfər işçisi də olmuşdur. Onlar əsgər şineli geyərək əvvəldən axıradək Bakı əməliyyatında iştirak etmişlər.

**"Azərbaycan".-** 2010.- 15 yanvar. -N 10. -S.6.

# Qanlı 20 Yanvar faciəsindən 20 il ötür

*Bəşəriyyətə və insanlığa qarşı yönəlmiş cinayət*

**1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycanda, onun baş kəndi Bakıda yaşanan dəhşətli faciədən 20 il ötür. Köhnə imperiyanın mənfur xislətini tamamilə ifşa edən bu kütləvi və amansız soyqırımı aktı Azərbaycanın dövlət müstəqilliyinə və ərazi bütövlüyünə qarşı çevrilmiş terror siyasətinin təzahürü olmaqla, bütövlükdə bəşəriyyətə və insanlıq əleyhinə törədilmiş qəddar cinayətdir. Beynəlxalq hüquq norma və prinsiplərinə məhəl qoymayan, azğınlaşmış "beynəlmiləlçi" ordunun silahlı birləşmələri Bakıda bu qanlı olayı törədərkən doğma torpağını qəsbkarlara vermək istəməyən Azərbaycan xalqının mübarizə əzmini qırmaq və məhv etmək niyyətini güdürdü. Bəşəriyyətə və insanlığa qarşı yönəlmiş dəhşətli və sözlə ifadəsi mümkün olmayan cinayət...**

Yanvarın 19-dan 20-nə keçən gecə Bakı sakinlərinin gözləri yaşlı qaldı. Ana balasız, bacı qardaşsız, arvad ərsiz qaldı həmin gecə. Elə bil Bakının özü bütünlüklə qanlı hadisələrə hamilə qalmışdı həmin gecə uşaq, böyük, qoca, qız, hətta hamilə qadın bilmədən, ağır texnikanın tırtılları altına qoyan amansız hərbi birləşmələr öz vəhşiliyini bir daha sübut etdilər. Torpaqlarımızı qanla suladılar həmin gecə. Bir vaxtlar Bakıda mitinq edənləri narkoman adlandıranlar Bakıya silahlı narkomanları göndərərək, dinc, əliyalın azəri türklərinin gözünün odunu almaq, su yerinə nahaq qan axıtmaq istəyirdilər. Müəyyən qədər istəklərinə və məqsədlərinə nail olsalar da, sonda azəri türkünün səbri və qətiyyəti hərbi birləşmələri Bakıya göndərmiş başbilənlərin əzmini, iradəsini qırdı. Bakı həmin gecə gözüyaşlı qalsa da, şəhərdə su yerinə qan axsa da, bu göz yaşları, bu qan rusun tankına, müasir silahlarına, vəhşi təlim görmüş hərbi qüvvələrinə qalib gəldi.

İmperiyanın və nökərlərinin qanlı fəsadları təkcə böyük türk dünyasının deyil, bütün bəşəriyyətin başı üstünü qara kabus kimi bürüməklə, insanlığa qarşı yönəlmiş ən amansız, dəhşətli cinayətlərə rəvac verib, əsrlər boyu erməni terrorçuluğunun qurbanı olmuş Azərbaycan xalqının şüurunda dərin izlər buraxıb. Tarixi həqiqətlər göstərir ki, "Böyük Ermənistan" xülyası ilə yaşayan ermənilər daim öz əsassız və qeyri-hüquqi iddialarını reallaşdırmaq naminə terror və soyqırımı siyasətini "milli mübarizə" pərdəsi altında davam etdirərək, dövlət səviyyəsində dəstəkləyiblər. Bu baxımdan 1990-cı ilin 20 Yanvar faciəsi - qətliam heç də birinci deyildir. Ötən əsrin əvvəllərində əsası qoyulmuş vandalizm siyasətinin xəstələri olan ermənilərin rəvacı ilə silahlanmış rus qoşunları dəfələrlə Azərbaycana qarşı görünməmiş vəhşiliklər törədib, şəhərləri yandırıb, əhalini məhv edib. 1990-cı ilin soyuq yanvar günlərində əslində, heç soyuqluqdan əsər-əlamət qalmamışdı, azəri türkünün iradəsi, əzmi, qətiyyətli mübarizəsi soyuğu yarıb keçmişdi. Erməni və rus hərbi birləşmələri Bakıda asayişi bərpa etmək adıyla gecəykən əliyalın xalqın üstünə yeriməsi, qanına qəltan etməsi ilə nəticələnən bu faciə 1990-cı ildə miqyasına və qəddarlığına görə bəşər tarixində misli görünməmiş qanlı hadisə hesab olunurdu.

Cəmi bir neçə saat ərzində neçə-neçə dinc azərbaycanlı, uşaq, qadın, qoca öldürüldü, neçəsinə ağır xəsarət yetirildi, neçəsi əlil oldu, nə qədəri də itkin düşdü. O dövrdə keçmiş it-tifaq ordusunun hərbi birləşmələri azəri türklərini qətlə yetirmək üçün hitlerçi faşistlərin belə sınaqdan keçirmədikləri ən qəddar, tükürpərdici üsullardan istifadə etdi.

20 Yanvar faciəsi keçmiş ittifaq rəhbərliyinin və onun Azərbaycandakı nümayəndələrinin ölkəmizə təcavüzünün gerçək mahiyyəti, erməni terrorizminin və vəhşiliyinin dəhşətli miqyasını bütün çılpaqlığı ilə üzə çıxardı. Bu hadisə respublikamızın Qarabağ münaqişəsi adı ilə başlayan torpaq müharibəsində aldığı ən böyük zərbə, sonrakı məğlubiyyətimizi qismən labüd edən faciə oldu. Həmin dövrdə mərkəzi hakimiyyətin antimilli xarakteri, respublikada xaos və anarxiyanın baş alıb getməsi, vəzifə kürsüsü uğrunda amansız mübarizə, ordudakı başıpozuqluq, cəbhə xəttində yaşanan faciələrə göstərilən laqeydlik təkcə 20 Yanvar faciəsinin deyil, sonrakı müsibətlərimizin də əsas səbəblərindəndir. 1989-cu ilin sonlarında, 1990-cı ilin yanvarında Dağlıq Qarabağ münaqişəsi adı ilə start götürmüş siyasi oyunları xatırlayanda, ümumilikdə, Azərbaycanın problemlərinin səhnəarxası gerçəklikləri barədə kifayət qədər təsəvvür yaranır.

Həmin dövrdə hakimiyyətdə olan antimilli qüvvələrin Azərbaycanı qorumaq bacarığına malik olmadığı qabarıq görünürdü. Üstəlik, AXC ətrafında birləşmiş qüvvələr, qruplar da siyasi intriqaların güdazına verilmişdi. Hələ 1990-cı il yanvarın 13-də təxribatçı qüvvələrdən istifadə etməklə, Bakıda düşmən millətin nümayəndələrinə qarşı qıcıqlandırıcı hərəkətlərə yol verilmiş, tədricən olacaq hadisələr bir az da tezləşdirilmişdi. Moskvanın, xüsusən də o vaxtkı SSRİ-nin rəhbəri M.Qorbaçovun Azərbaycana göstərdiyi biganəlik laqeyd münasibət hamımıza bəlli idi. Bundan hiddətlənən xalqımız müəyyən tələblərlə Azadlıq meydanını tutmuş, mitinq dalğaları demək olar bütün ölkəni bürümüşdü. Kritik vəziyyətdə başını itirən köhnə

ittifaq rəhbərliyi və yerli hakimiyyət iflas həddində, müxalifətçilərsə hakimiyyət davasında idilər. Bakının müdafiəsi üçün qüvvələrin kortəbii şəkildə səfərbər olunması mərkəzi hakimiyyətin planlı tədbirlərinin həyata keçirilməsi, son nəticədə erməni-rus hərbi birləşmələrinin amansız qətliamına şərait yaratmış oldu. Azəri türklərinin azadlıq mücadiləsi yolunda çarpışmalarından hiddətlənən və Bakıdan səhv informasiyalar alan Kreml hökuməti gecəykən silahlı qüvvələri Bakıya tökdü.

Bakıda baş verənlər soyqırımı aktı olsa da, o zaman Azərbaycanda hakimiyyətdəkilərin məsuliyyətsizliyi və səhlənkarlığı üzündən rus işğalının gerçək mahiyyəti barədə dünya ictimaiyyəti yetərincə məlumatlandırılmamışdı. Rəsmi təbliğat Bakıda asayişi, dinc həyatı bərpa etməyi iddia etməklə, soyqırımı faktının miqyasını kiçiltmiş, milli maraqlara xəyanətkar mövqe tutulmuşdu.

1990-cı ildə hakimiyyət başına gəlmiş rəhbərlik bu və digər hüquq normalarına əsaslanmaqla, 20 Yanvar faciəsinin real mahiyyətinin dünya ictimaiyyətinə çatdırılması üçün heç bir iş görmədi. Halbuki artıq Bakı hadisələrini beynəlxalq ictimaiyyətin diqqət mərkəzinə gətirmək, beynəlxalq müstəvidə danışıqlara başlamaq, xalqın əsas mübarizəsini izah etmək olardı. Biz isə Moskvanın "narkomanlar Azərbaycanda hakimiyyəti ələ almaq, mövcud rejimi dəyişdirmək istəyirlər" kimi bu gün gülünc görünən yalan faktlarla razılaşmaq məcburiyyətində qaldıq.

20 Yanvar faciəsinin beynəlxalq müstəvidə tanıdılması və erməni faşizminin ifşası ilə bağlı ilk praktik təşəbbüs ulu öndər Heydər Əliyev tərəfindən Moskvada mətbuat konfransı keçirilərkən onun Qorbaçov hakimiyyətinə qarşı kəskin etirazı sayəsində mümkün oldu. Xalqın təkidli tələbilə hakimiyyətə qayıdışından sonrakı mərhələdə isə MM səviyyəsində tanıdıldı və dünyaya bəyan edildi.

Ümummilli lider hər zaman 20 Yanvar faciəsinə xüsusi həssaslıqla yaşanıb. Ulu öndər Heydər Əliyev hər il faciənin ildönümündə keçirilən matəm tədbirlərində iştirak edib, Bakı qırğınını kədər hissi ilə xatırlayıb. Bakı qırğınının Azərbaycan xalqının qan yaddaşı olduğunu dəfələrlə bəyan edən ulu Öndər, hadisələrə beynəlxalq aləmdə əsl siyasi qiymətin verilməsinin zəruriliyini vurğulayıb, bu məsələnin dünya ictimaiyyətinə çatdırılması və cinayəti törədən qüvvələrin cəzalarına çatmaları üçün xüsusi səy göstərib. Faciəni xalqımızın böyük dərdi, kədəri, qəmi adlandırmış Heydər Əliyev, eyni zamanda, Azərbaycanımızın əsrlər boyu keçdiyi mübarizə, milli azadlıq yolunu şanlı, uğurlu yol kimi dəyərləndirib.

Ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyev də 20 Yanvar şəhidlərinin xatirəsini həmişə əziz tutub, onları ehtiramla yad edib. Ölkə rəhbəri dəfələrlə günahkarların cəzalandırılması, 20 Yanvar hadisələrinin səbəbkarlarının tapılıb üzə çıxarılması işinin sonadək başa çatdırılması istiqamətində qətiyyətli addımlar atıb, bu işlə məşğul olan hüquq-mühafizə orqanlarının əməkdaşlarına müvafiq tapşırıqlarını da verib. 20 illik tarixi zaman məsafəsini yaşayan xalqımız bu ümiddədir ki, cənab İlham Əliyevin köməkliyi və təşəbbüsü sayəsində faciəni törədənlər mütləq cəzalarına çatacaqlar.

***Daşdəmir ƏJDƏROĞLU***

**“Qarabağ”.-** 2010.- 15-28 yanvar.- №1.- S.6.

## Şəhidlik zirvəsi, qəhrəmanlıq tarixi -
## Qan yaddaşımızda yaşayan tarix

**"1990-cı il yanvarın 20-də Azərbaycan xalqına qarşı ağır cinayət törədilmişdir. Azərbaycanın ərazi bütövlüyünün pozulması cəhdlərinə, keçmiş SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı apardığı ədalətsiz və qərəzli siyasətə, yerli rəhbərliyin yarıtmaz fəaliyyətinə etiraz əlaməti olaraq küçələrə çıxmış dinc əhaliyə divan tutmaq məqsədilə Bakı və respublikanın bir neçə rayonuna qanunsuz olaraq sovet qoşun hissələri yeridildi. Qəddarlıqla həyata keçirilən cəza tədbirləri nəticəsində Azərbaycanın yüzlərlə günahsız vətəndaşı yaralandı, qətlə yetirildi, Azərbaycan xalqına qarşı kütləvi terror aktı həyata keçirildi".**

**Heydər ƏLİYEV**

**"Dərd insanın belini əyər. Gözünün nurunu alar. Canına üşütmə salar. Sevincini çöhrəsində, gülüşünü dodağında dondurar. Lakin dərdə qalib gəlmək böyük qələbədir..." Bu müdrik, müqəddəs deyimlər ulu babalarımızdan bizlərə yadigar qalan tövsiyədir. Amma... Dərd də var, unudulmur, xatırlananda, yada düşəndə elə bil sinələrə od basırlar. 20 Yanvar faciəsi də varlığımızı yandıran oddur, ürəyimizi göynədən dərddir, baladır!**

### Salam, Şəhidlər Xiyabanı

Soyuqlu-sazaqlı - 20 il əvvəl olduğu kimi qış axşamıdır. Müqəddəs ünvan Şəhidlər Xiyabanı işığa qərq olub. Bədirlənmiş Ay ətrafa nur səpir. Ara yolla irəliləyirik. Qəfil eşitdiyimiz yanğılı səsdən ayaq saxladıq.

**Murovla Xaçın ağlar,**
**Tərlanla laçın ağlar.**
**Balası ölən ana,**
**Çəngələr saçın, ağlar.**

Ana ilə balanın söhbətini də xəyalımızda canlandırırıq: "Canım qurban, hardasan? Sən gedəndən nə gecəm var, nə gündüzüm..." "20 ildir burdayam, ana..." "Oğul, oğul! Səsinə qurban kəsilim. Sənsiz eynim açılmır, üzüm gülmür, könlüm qubar bağlayıb. Mən səni buramı üçün dünyaya gətirmişdim? Niyə tələsdin, a bala? Gecələr yatmadım. Kirpiyimlə od götürdüm. Səni sığalladım, tumarladım, layla dedim. Ayağına daş dəyəndə ürəyim dilim-dilim soyulardı... Böyüdükcə boyuna baxanda könlüm açılardı. Ürəyim fərəh-sevincdən dağ boyda olardı. 8 yaşından səni atasız böyütdüm. Min bir Əzaba qatlaşdım. Dedim, təki sən xoşbəxt olasan. Təzəcə institutu bitirmişdin. Hazırlaşırdım 22 yaşını qeyd edəm. Qohum-qonşunu başıma yığam, elçiliyə gedəm. Niyə nənə olmaq, gəlin görmək istəyimi, niyyətimi gözümdə qoydun, ay oğul?! İndi gözaltı elədiyim qız səni məndən soruşursa, nə cavab verim? Nə idi günahın, qəbahətin, a bala? Yaralarına qurban olum, oğul. Niyə belə "vəfasız" çıxdın? Niyə məni tənha, məyus qoydun?"

Bu, Mehman İbrahim oğlu Həsənovun anası Səmayə bacının səsi idi. Diz bükmüşdü oğlunun məzarı önündə. Gümüşü saçları Ay nurunun altında bəmbəyaz görünürdü...

### İyirmi il əvvəl...

1990-cı ilin ilk günlərində adamlar fərəh hissi keçirirdilər. Çünki il at üstündə təhvil olmuşdu. Uşaqdan-böyüyə bütün insanlar bəxtlərinə şirin qismət çıxacağına güman edirdilər. Di gəl ki, tale onların üzünə gülmədi. Necə ki, quş balası pərvazlananda qanadı qırarlar, göylərə boylana-boylana baxar, bax, eləcə insanlar da boyunları bükülü qaldılar... Yanvarın ikinci yarısı idi. "Azadlıq" meydanı nərildəyir, guruldayırdı. Əsarətdən - zülmdən, mənəvi sarsıntılardan, sıxıntıdan xilas olmaq istəyənlərin haray-həşiri dünyaya yayılırdı. Lakin burdan-bura Mərkəzi Komitənin binasına çatmırdı. Bəlkə də çatırdı, amma rəhbərlik adamların tələbini, istəyini eşitmirdi. Yox! Sadəcə olaraq onlarda milli duyum, milli hiss ərşə çəkilmişdi. Çalışırdılar ki, yaranmaq, yaltaqlanmaq yolu ilə layiq olmadıqları, amma sahib çıxdıqları vəzifədən kənar düşməsinlər. Minlərlə soydaşımız qırılaydı, ancaq onlara dəyib-dolaşan olmayaydı. Bax, belə idi onların amalları. Unutmuşdular ki, özgələrinin səadəti üstündə qur-ulan xoşbəxtlik gec-tez tar-mar olur!

O dövrün respublika rəhbərləri xalqdan büsbütün təcrid olunmuşdular. Meydana, küçəyə, teleekrana çıxıb təskinlik vermək, həyan olmaq əvəzinə, qapalı qapılar arxasında camaatı susdurmaq, perikdirmək, hətta

lazım gələrsə, əzmək, şikəst, mayıf etmək planlan hazırlayırdılar. Əslində bu müdhiş, qorxunc plan çox da uzaq-da deyil, gözümüzün önün-do idi. Zirehli, vahiməli tanklar paytaxtın girəcəyində göstəriş gözləyirdi. Bakının küçələrində, meydanlarında əlləri qalxanlı, dəyənəkli, silahlı hərbçilər sağdan vurub, soldan çıxırdılar. Doğrudanmı Ə. Vəzirovun, A. Mütəllibovun, V. Hüseynovun bu olaylardan xəbərləri, soraqları yox idi?

Sual, belə dözülməz vəziyyət meydana yığışanları da düşündürdü bəlkə məsafə aralıdır , onların səslərini, tələblərini rəhbərlər eşitmir? Bu qənaətə gəldilər ki, Mərkəzi Komitənin binası önünə toplaşsınlar. Orada aramsız mitinqlər başladı. İradlarını, istəklərini bildirənlərin çıxışları biri digərini əvəz edirdi. Lakin rəhbərlik susurdu. Sovet tanklarının çoxu artıq şəhərə daxil olmuşdu. Qış günəşi qüruba yaxınlaşırdı. Havadan qan qoxusu gəlirdi. 1990-cı il yanvarın 19-u saat 18 radələri idi.

## Partlayış

Bu sətirlərin müəllifi mən həmin vaxtlar Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində işləyirdim. Məhz hə-min gün bəlkə də dünyada bənzəri olmayan kriminal hadisənin canlı şahidiyəm. Bir vətəndaş, teleradio şirkətinin sabiq əməkdaşı kimi hadisədən sonra yaranmış şayiələrə, uydurmalara indi aydınlıq gətirmək istəyirəm: İş yerimiz gözləri ayaqlarının altını görməyən sovet ordusunun hərbi kontingenti tərəfindən zəbt edilmişdi. İşçilər onların hədələri, qorxuları altında doğma ünvandan qovulmuş, uzaqlaşdırılmışdı. Mərkəzi Komitənin nömrəli, nömrəsiz maşınları şirkətin həyətinə gəlib-gedirdi. Maşından düşənlərin, sovet zabitləri ilə pıçıldaşanların əksəriyyətini üzdən tanıyırdıq... Enerji blokunun partladılması, sıradan çıxarılması planlaşdırılmışdı. Təbii ki, onların qarşısını kimsə ala bilməzdi.

Enerji bloku niyə, nə üçün partladılmalıydı? Bunun səbəbləri çoxdur. Azərbaycan KP MK-nın birinci katibi Ə. Vəzirov itaətkar buyruqçu olmuşdu. Onu mərkəzdən və Bakıdakı nümayəndələri məcbur edirdilər ki, dinc əhali, vətəndaşlar baş verən hadisələrdən xəbər tutmasınlar. Televiziya-radio susmalıydı, vəssalam! İstək və tələb yerinə yetirildi. Beləliklə, XX əsrdə ilk və son dəfə təbliğat obyekti Ə. Vəzirovun təşəbbüsü ilə Bakıda partladıldı. Həmin gün hadisənin şahidi olanlardan eşitdiklərimizi xatırlayırıq:

İbrahim Hüseynov, enerji blokunun növbə rəisi: - İçəri iki nəfər daxil oldu. Birinin əlində avtomat silah vardı, o birinin əlində iki çanta. Məndən gərginlik xəttinin hardan gəlib, hardan çıxdığını soruşdular. Blokda nələr vardısa, hamısı ilə maraqlandılar. Sonra məni və Romanovu qabaqlarına qatıb apardılar. Soruşdum ki, bi-zi hara aparırsınız? Cavab verdilər ki, qorxmayın, sizə heç nə olmayacaq. Xeyli aralanmışdıq ki, birdən güclü titrəyiş, partlayış oldu. Dedim ki, Viktor, bloku partlatdılar...

Viktor Romanov, elektrik montyoru: - Mən növbəyə yanvarın 19-da saat 19-da gəlmişdim. Təxminən 15 dəqiqədən sonra sovet zabitləri sexə daxil oldu. Onlar enerji təchizatı sxemi ilə maraqlanırdılar. Rabitə kabellərinin keçdiyi yuvacıqları açıb baxır, qəribə-qəribə suallar verirdilər. Sonra mənə dedilər: "Səni komendant çağırır" Dostumla (İbrahimlə) məni apardılar. Bir neçə dəqiqədən sonra partlayış oldu. Bizə susmağı tapşırdılar, hədə-qorxu gəlirdilər.

"Komsomolskaya pravda" qəzeti həmin il fevralın 10-u sayında yazmışdı ki, mərkəzin birinci məqsədi Azərbaycanda teleradio şirkətini ələ keçirsin. Sovet ordusu niyyətinə çatdı.

## Ay ucalıb, gecə yarı olub...

Yaxınlarım biləndə ki, bu yazımla əlaqədar gecəni Şəhidlər Xiyabanında qalacağam, razı olmadılar. Amma getməliydim. Ruhlar məni çağırırdı... 1990-cı il 19 yanvar, axşam saat 23 radələri idi. Mərkəzi Komitənin qənşərində meydan "rəhbərləri" bilirdilər ki, teleradionun enerji bloku partladılıb. Sovet hərbi kontingenti bir işarəyə, himə bənddir ki, şəhərə soxulsun. Lakin iradlarından əl çəkmirdilər. Deyirdilər ki, yolları bağlamalıyıq, ordunun qarşısını (!) almalıyıq. Şıxov, Biləcəri enişinə, "Əzizbəyov" metrosu səmtə gedən insanların vüqarlı, qürurlu, inamlı addımlan 20 ildən sonra da gözlərim önündə canlananda onların qətiyyətlərinə yaxşını-pisini qiymət verim, bilmirəm. Bəlkə onlar zor qarşısında qalıb ölümün üstünə gedirdilər? Xeyr! Onlar azadlıq fədailəri idilər!

Həmfikirdə olduğum dostumla birgə Biləcəri enişinə gəldik. Orada tonqal qalanmışdı. Alov üç-dörd metr hündürlüyə qalxırdı. Ətrafda yüzlərlə adam vardı. Birdən hay düşdü ki, bəs "azadlıq aşiqi" - Nemət Pənahov bura gəlir. Xəbər doğru çıxdı. "Bəy" gəldi. Mirzə Cəlilin məşhur "Ölülər" pyesində-ki Şeyx Nəsrullah qəbiristanlıqda dayanıb, ətrafı eyhamla nəzərdən keçirdiyi kimi, Nemət bəy də eyni üsuldan istifadə etdi. Handan-hana dedi: "Camaat (Ölülər!), öldü var, döndü yoxdur. Biz tanklara da, orduya da qalib gəlməliyik. Bir azdan bura silah-sursat da gətirəcəklər..."

Bu arada bir gənc irəli çıxıb soruşdu: çox keçmədi "Bəy, deyirsiniz yəni tankları da susdura bilərik?" Nemət: "Bəli, son nəticə ölümdür!" "Bəy"i gətirən maşın onu gəldiyi yolla geri qaytardı. Sanki bu gedişi gözləyirmiş kimi Biləcəri enişinin aşağısında zirehli texnikanın mühərrikləri işə düşdü...

Taleyin qismətinə bir bax: 20 il əvvəl, yanvarın 19-da saat 24 radələrində gördüyüm gənc Fuadla burada - Şəhidlər Xiyabanındakı məzarı ilə üz-üzə dayanmışam. Amma onun baxışları, təbəssümü daşlaşıb. Daha heç vaxt, heç vədə Fuad Yavər oğlu Babayev bu dünyada olmayacaq. Əlvida, həmişəlik əlvida!. Ancaq həmin müdhiş gecədə Fuad ölməyə də bilərdi. Əgər baş verən hadisələri doğru-dürüst qiymətləndirən olsaydı. Əliyalın insanları təpədən-dırnağacan silahlanmış ordunun üstünə göndərməsəydilər.

...Tanklar üzü yoxuşa, tonqalın yandığı, insanların cəm olduğu səmtə doğru qalxırdı. İşıq saçan güllələr sanki onlara bələdçilik edirdi. Elə bil adamları durduqları yerə yapışdırmışdılar. Kimsə tərpənmirdi. Ölümlə onların arasında qısa məsafə qalmışdı. Bəlkə inanmırdılar ki, güvəndiyimiz ordu özümüzü qırar, qanımıza qəltan edər?!. Əgər beləydisə, bəs nə səbəbdən minlərlə əsgəri - zabiti səfərbər etmişdilər? Əfqanıstana, Çexoslovakiyaya, Pribaltikaya, Gürcüstana aparılan yüzlərlə tankı nə üçün indi də Azərbaycana gətirmişdilər? Yox! Basqınçıların qənaəti qəti idi: azadlıq, müstəqillik arzusunda olanları yandırmalı, dağıtmalı, əzməli, qan tökməli, öldürməliydilər. Allahım, o, nə müsibət idi görürdük? Bu, kino deyildi, həqiqət idi. Filmlərdə yaralanan, "ölən" aktyor kadr dəyişən kimi, üst-başını çırpıb ayağa durur, indi isə sinəsi, kürəyi gülləyə tuş gələnlərin ağızlarından qan fışqırırdı.

### Zəmanəmizin Levli və Məcnunu

İnsan qəribə məxluqdur, təkləndimi, yaddaşı ona yoldaşlıq edir. Asta addımlarla İlhamın, Fərizənin qoşa məzarlarına yaxınlaşıram. Mənə elə gəlir ki, bax, elə indicə, bu an onlar cüt göyərçin kimi qanad açıb uçacaqlar... Yox, daha uça bilməzlər. Qanadları qırılıb, daşlaşıb...

Taleləri onların üzünə tez güldü, tez də yaman günə qoydu. Arzu-muradları ürəklərində qaldı. Lakin nə qədər ki, Azərbaycanımız var, İlhamın, Fərizənin də adları, sədaqətləri yaşayacaq.

İlham Qarabağda - Ağdamda dünyaya göz açmışdı. Hələ bilmirdi Yer kürəsində Fərizə adlı qız var, ya yox? Vaxt yetişdi, subaylıq daşmı atmaq niyyətinə düşəndə onlar bir-birinin ürcahına çıxdılar. Ailə qurdular. Can deyib, can eşitdilər. O qanlı, faciəli gecədə İlham da Biləcəri yoxuşuna gəlmişdi. Amma... Güllə onu yerə sərdi, həyatı başa çatdı. Taqətini kəsən soraq gənc gəlinə, bətnində körpə gəzdirən, ana olmaq həvəsi ilə yaşayan Fərizəyə çatanda o, zərrə qədər olsun gileylənmədi, ağlamadı. Bəxt payı ilə razılaşdı. Güclə eşidiləcək tərzdə yalnız bunları dedi: "Bu işıqlı dünyada İlhamsız yaşayıb, gündə min dəfə ölüb-dirilməkdənsə, birdəfəlik ölmək daha yaxşıdır. İlham mənsiz darıxar. Onu tək qoya bilmərəm". İki gün ayrılıqdan sonra onlar yenidən qovuşdular. Bu dəfə əbədi, həmişəlik! İlhamın sinəsinə sovet gülləsi dəymiş, onu öldürmüşdü. Fərizə özünə qəsd etməklə İlhama, saf məhəbbətə, ülvi səadətə heykəl qoydu.

### Tökülən qanı tapdalamayın, günahdır!

...Sabahı gün yenidən qayıtdıq dünən axşam müsibətlər gördüyümüz yerə - Tbilisi prospektinə. Tək-tək adamlar vardı. Onların gözləri ağlamaqdan qan çanağına oxşayırdı. Kəsilmiş qollar gördük. Nə vaxtsa sevgilisini oxşamaq, bağrına basmaq üçün uzanan həmin qollar indi lazımsız, gərəksiz əşya kimi atılmışdı. Üstəlik barmağının biri də kəsilmişdi. Güman ki, o barmaqda üzük olub, çıxarda bilməyib, onu dibindən üzüblər. Duvaqlı gəlin gördük. Yolun kənarına düşmüş bir tay ayaqqabını sinəsinə basıb, hıçqıra-hıçqıra deyirdi: "Bu onundur (həyat yoldaşının), dünən almışdıq". 5-10 yaşlarında qız uşağı gördük, dəstəsindən ayrı düşmüş durna kimi fəğan, fəryad qoparırdı: "Ata, ata, hardasan?."

L.N.Tolstoy "Hacı Murad" əsərində yazıb ki, Hacı Muradın bədənindən kəsilən baş uzun müddət gülürdü. Sanki düşmənə (çar silahlıları nəzərdə tutulur) öz gülüşü ilə dərd verirdi... Mikrorayonların girəcəyində - 16 mərtəbəli binanın arxasında bədənindən üzülmüş baş gördük, hələ də dodaqları səyriyirdi. Yəqin ki, o da sovet ordusunun acığına gülürdü. Qəddi bükülmüş yaşlı qadın gördük. Ağlamağa, ağı deməyə gücü, taqəti qalmamışdı. Ondan eşitdik: "Küçələrə, səkilərə tökülmüş qanı tapdalamayın, günahdır..." Çiskin yağış yağırdı. Bizə elə gəldi ki, yağan adi yağış deyil, İsus Xristosun xəcalətdən axıtdığı göz yaşıdır... Qan gölməçələrini yavaş-yavaş yuyurdu.

Hara baxırdıq, qərənfil görürdük. Qan gölməçələrini indi də tək-tək, dəstə-dəstə qərənfillər əvəz edirdi. Hamısının da ləçəklərində göz yaşını xatırladan damcılar, gilələr vardı. Sanki onlar da ağlaşırdılar. Doğma Azərbaycanımızın başı üstündən qapqara ələm asılmışdı. Bayraqlar endirilmişdi. Ölkədə matəm elan

olunmuşdu. İnsanlar vəhşicəsinə qətlə yetirilmiş, şəhid olmuş əzizlərinin dəminə hazırlaşırdılar... "Qışda gün çıxar, istisi olmaz".

Amma indiki Günəş başqa vaxtlarda olduğuna bənzəmir. Hərarəti az olsa da, görünüşü dupdurudur. Bu, müqəddəs yerə - Şəhidlər Xiyabanına gələnlərin üzünə gülümsəyirdi. İnsanlar hıçqırtılarını gizlədə bilmirlər. Türk dünyasının böyük şəxsiyyəti Mustafa Paşa Atatürkün kəlamını xatırlayırıq: "Tarixi unutmaq - ananı unutmağa bərabərdir. O göz yaşı müqəddəsdir ki, o, adamları daha firavan, xoşbəxt sabahlara çağırır". Gələnlərin ardı-arası kəsilmir. Onların ikisinə yaxınlaşıb baş vermiş hadisələrə münasibətlərini öyrənirik:

**Tahir Hacıyev, ekspert:** - Qanlı günlərdə hüquq-mühafizə orqanlarından heç bir göstəriş almadıq. Həmin qurumun icazəsi, sərəncamı olmadan belə hadisələrlə bağlı ekspertiza aparmağa ixtiyarımız yoxdur. Lakin rəsmiyyətçiliyi bir kənara qoyaraq, bizdən asılı olan, hətta deyərdim ki, olmayanları da etməyə çalışdıq... Ölənlərin, yaralıların arasında 14 yaşlı yeniyetmələrdən tutmuş, 70-80 yaşlı ahıllar, müxtəlif millətlərin nümayəndələri var idi... Tədqiqat nəticəsində müəyyən etdik ki, Bakıda atılan güllələr hətta sovet dövlətinin Əfqanıstanla müharibə zamanı da istifadə olunmamışdı. Bunlar, beynəlxalq konvensiyaların qadağan etdiyi güllələr insan bədənini ağlasığmaz dərəcədə dağıdır, sümükləri qəlpələyir...

**Vaqif Yusifov, həkim**: - Gecə saat 12-dən səhər saat 6-dək 120 yaralı, 110 şəhid qəbul etdik. Səhər bu barədə Səhiyyə Nazirliyinə rəsmi məlumat verdik. Tədricən yaralıların sayı artırdı. Onların arasında 9-12 yaşlarında uşaqlar da vardı...

## O gün bir də geri qayıtmasın

**Qan yaddaşımıza yazılmış faciəli tariximizin üstünə bir il də gəldi. Lakin əsrlər keçsə də, 1990-cı il 20 Yanvar qanlı hadisəsi heç vaxt, heç vədə, heç zaman yaddan çıxmayacaq, dönə-dönə xatırlanacaq. Şəhidlərimizin qanları hədər axmadı. (.) qanlar bugünkü azadlığımızın, müstəqilliyimizin, dövlət quruculuğumuzun, tərəqqimizin atributlarının əsasıdır. Əlbəttə, 20 il əvvəl baş vermiş, törədilmiş qanlı faciə tariximizə qanla yazılıb. Lakin günahsız, qəbahətsiz axan o insanların qanı Milli dəyərlərimizi ucaltdı, məqsədimiz haqqında dərgahına yetişdi. Müstəqillik qazandıq. Hazırda respublikamız dünyada sosial-iqtisadi baxımdan ən inkişaf etmiş ölkə kimi tanınır. 20 Yanvar şəhidləri isə yaddaşlarda yaşayırlar.**

**Telman Məmmədxanlı**

**"Vətən səsi".**- 2010.- 15 yanvar.- №2.- S.3.

## 20 Yanvar zəfər günü kimi qeyd edilməlidir

**Cümşüd Nuriyev:** "Daxildə düşmən axtarmaq və yas tutmaq düzgün deyil"

**Dünən "Səs" qəzetinin təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 20-ci ildönümünə həsr olunmuş dəyirmi masa keçirilib. "20 Yanvar faciəsindən 20 il ötür" mövzusunda keçirilən dəyirmi masada millət vəkilləri, o dövrdəki Milli Azadlıq Hərəkatının fəalları, o cümlədən faciənin canlı şahidləri iştirak edib. "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev 20 Yanvar hadisələrinin xalqın qəhrəmanlıq salnaməsi olduğunu deyib. Ötən 20 il ərzində hadisəyə müxtəlif yanaşmaların olduğunu deyən baş redaktor 20 Yanvar hadisələrinə məhz ümummilli lider, mərhum prezident Heydər Əliyevin zamanında hüquqi-siyasi qiymət verildiyini bildirib. Milli Azadlıq Hərəkatının o dövrdəki fəallarından olan Nemət Pənahlı da yanvar hadisələrinin qəhrəmanlıq tarixi olduğunu söyləyib.**

Faciənin ertəsi gün belə bir açıqlama ilə çıxış etdiyini deyən Nemət Pənahlı Bakıda törədilən qətliamdan sonra Sovet imperiyasının süqutunun sürətləndiyini qeyd edib. Bildirib ki, 20 Yanvar sovet imperiyasının süqutu tarixi oldu. Azərbaycan Sosial Demokrat Partiyasının həmsədri **Araz Əlizadə** isə 20 Yanvar faciəsinin baş verməsində Milli Azadlıq Hərəkatının önündə olan şəxslərin də günahkar olduqlarını söyləyib. Onun sözlərinə görə, o zamankı AXC rəhbərliyinə Bakıda qırğınlar törədiləcəyi barədə xəbərdarlıqlar edilsə də, bu xəbərdarlıqlara heç bir məhəl qoyulmayıb: "Biz xəbərdarlıq edirdik ki, Tiflisdə törədilən qırğınlar Bakıda da həyata keçiriləcək. Ancaq o zamankı AXC rəhbərliyi iddia edirdi ki, Tiflisdən sonra Bakıda qırğın törədilə bilməz". Araz Əlizadə o zaman Milli Azadlıq Hərəkatının önündə olanların bir çoxlarının "KQB"-yə işlədiyini vurğulayıb: "Nemət Pənahlı "Azərbaycan" mehmanxanasının 807-ci otağında KQB-dən müəyyən təlimatlar alırdı. Eləcə də digər AXC rəhbərləri KQB-yə işləyirdi. Necə olur ki, xalq qırğına gedir, ancaq onun önündə olan liderlərin heç birinin burnu belə qanamır". Azadlıq Hərəkatçıları Birliyinin sədri **Təhmasib Novruzov** isə 1980-90-cı illərdəki azadlıq hərəkatına kölgə salmağın əleyhinə olduğunu deyib. Bildirib ki, bu Azərbaycan tarixinin şanlı bir səhifəsidir və ona hörmətlə yanaşılmalıdır. Hərəkatda olan ayrı-ayrı şəxslərin müəyyən səhv addımlar atdığını deyən T.Novruzov həmin dövrdə Azərbaycanda qarşı xarici dairələr tərəfindən təxribatlar, çaxnaşmalar törədildiyini söyləyib: "1991-ci ilin sentyabrında Bakı-Ağdam-Xankəndi qatarında erməni və rus əsilli iki nəfər saxlanmışdı və onlardan birinin üzərindən Azərbaycanda qarşıdurmalar yaratmaq üçün nəzərdə tutulan plan tapılmışdı. O, dövrdə həmin sənədi İsa Qəmbərə çatdırsam da, buna qarşı heç bir tədbir görülmədi. Bir müddət sonra aşkar edilən sənədin aqibəti barədə soruşanda İsa Qəmbər bildirdi ki, belə şeylərə baş qoşmağa dəyməz. Halbuki o bizə bir xəbərdarlıq idi və Rusiya kəşfiyyatının Azərbaycanda qarşıdurma yaratmaq cəhdlərinin qarşısı alına bilərdi". Sabiq AXC üzvü **Ramiz Tağıyev** də 20 Yanvar faciəsi zamanı Milli Azadlıq Hərəkatının önündə dayanan şəxslərin qaçıb gizləndiyini bildirib. Onun sözlərinə görə, həmin dövrdə Heydər Əliyev Azərbaycanda hakimiyyətdə olsaydı, bu qırğının qarşısı alınardı. Ramiz Tağıyev bütün bunlara baxmayaraq, Azərbaycanda gedən Milli Azadlıq Hərəkatının sovet imperiyasını dağıtdığını vurğulayıb. Sabiq millət vəkili **Cümşüd Nuriyev** isə təklif edib ki, 20 Yanvar zəfər günü kimi qeyd edilsin. Onun sözlərinə görə, bu məsələdə düşmən axtarmaq və ya yas tutmaq düzgün deyil. "istər-istəməz Azərbaycanda qan töküləcəkdi" deyən sabiq millət vəkili bildirib ki, həmin gün bütün xəstəxanalar hazırlıq vəziyyətinə gətirilmişdi. Faciə zamanı AXC rəhbərliyində təmsil olunanlardan heç birinin həlak olmamasına gəlincə, Cümşüd Nuriyev deyib ki, onların qırğın olacağından xəbəri vardı və vaxtında qaçıb gizlənmişdilər: "Digər tərəfdən onları tapıb cəzalandırmağa da maraq göstərilməlini. Çünki hələ 1988-ci ildə AXC rəhbərliyində təmsil olunanların bir qismi yazılı şəkildə Azadlıq Hərəkatında iştirak etmədiklərini bildirmişdilər. İsa Qəmbərin "kliçka"sı həmin dövrdə "Kobra" idi. Eləcə də digər liderlər bu və ya digər dərəcədə xarici qüvvələrin maraqlarına xidmət edirdilər. Faciə baş verən zaman Əbülfəz Elçibəy İsmayıllıda, Sabir Rüstəmxanlı isə Goranboyda idi. Ancaq onları axtarıb tapmağa maraq göstərilmədi". Millət vəkili **Eldar İbrahimov** da 20 Yanvarı milli qəhrəmanlıq tarixi kimi səciyyələndirib: "Düzdür, insanlarımız qırılsa da, mərdliklə imperiyaya qarşı sinə gərmişik. 0 dövrdə başda Qorbaçov olmaqla sovet rəhbərliyi Azərbaycanın iradəsini qırmaq istəyirdi. Hesab edirəm ki, bu məsələdə ən böyük günah başda Əbdürrəhman Vəzirov olmaqla o zamankı Azərbaycan rəhbərliyinin üzərinə düşür. O zamankı Milli Azadlıq Hərəkatının rəhbərliyində də müəyyən dərəcədə günah olub. Əgər hərəkat rəhbərləri Bakıda qırğın olacağını bilirdilərsə nə üçün onun qarşısı alınmadı?". Eldar İbrahimov Naxçıvanda da Bakı qırğınlarına oxşar faciənin törədilməsinin nəzərdə tutulduğunu, lakin bunun qarşısının alındığını diqqətə çatdırıb.

Qeyd edək ki, dəyirmi masa boyunca ASDP həmsədri Araz Əlizadə və Nemət Pənahlı kəskin şəkildə ittiham, hətta təhqirlərə yol verərək bir-birini o dövrdə KQB-yə işləməkdə günahlandırıblar.

**Süleyman**

**“Olaylar”.**- 2010.- 14 yanvar.- №3.- S.9.

## 20 Yanvar xalqın azadlıq mübarizəsinin qəhrəmanlıq səhifəsidir

## Şəhidlər millətin qeyrət rəmzidir

**Qədim tarixə malik olan Azərbaycan xalqı əsrlərin sınağından həmişə üzüağ çıxıb. İllərin qan yaddaşına neçə-neçə zəfərlər yazan xalqımız əsrlər boyu qəhrəmanlıq savaşlarında qəhrəmanlıqları ilə tarixə düşmüşdür. 1990-cı ilin 20 yanvar tarixində də millətimiz məhz belə bir qəhrəmanlıq salnaməsini yazdı. Bu tarixi gün, illər keçsə də, yaddaşlardan silinmir və silinməyəcək. Ziyalılarımız 20 Yanvar tarixi ilə bağlı yaddaşlarını bizimlə belə bölüşdü.**

**YAP Ağstafa rayon təşkilatının sədri Ramiz Tatarov:**

- Mövcud qanunlarla, o dövrün tələbatları ilə imperiyanın yaratdığı rejim uyğun gəlmirdi və dünya dövlətlərinin əksəriyyəti müstəqil idi. Rus imperiyasının müstəmləkə dövründə Azərbaycan xalqının müstəqillik, azadlıq arzusu, istəyi oyanmışdır. Ona görə də, Sovet İttifaqı öz müstəqilliyini qoruyub saxlaya bilmirdi. Ancaq imperiya zorakılıq yolu, güc yolu ilə də olsa, öz əvvəlki formasını saxlamaq istəyirdi. O dövrdə ulu öndər Heydər Əliyevin nüfuzu keçmiş Sovet ittifaqında artdığından, O, Siyasi Şuradan uzaqlaşdırıldı. Elə o zaman Qarabağ məsələsi ortaya atıldı. Ermənistanda yaşayan bütün azərbaycanlılar oradan, doğma torpaqlarından çıxarıldı. Qərbi Azərbaycandakı bütün insanlar zor gücü ilə deportasiya edildi. Azərbaycanın tarixi torpaqlarında soydaşlarımız kütləvi və vəhşicəsinə qətlə yetirildi. Xalq rejimə qarşı mübarizə apararaq, "Azadlıq" meydanına axışmağa başladı. Dövlət bu axının qarşısını almağa çalışsa da, bu, bir nəticə vermədi. Azadlıq hərəkatı, xalq hərəkatı bütün Azərbaycanı bürüdü. Bu zaman Qorbaçov Yazovun rəhbərliyi ilə Azərbaycana qoşun yeritdi. Xalq inanmırdı ki, sovet ordusu ona qarşı silaha əl atsın. Rusiyanın qeyri-qanuni şəkildə Azərbaycana yeritdiyi qoşun qanlı yanvar hadisəsini törətdi. Millət rus ordusunun bu qədər vəhşi olduğunu gözləmirdi. Bu qanlı 20 Yanvar faciəsi Azərbaycan xalqının yaddaşından heç bir zaman silinməyəcək. Xalq əliyalın da olsa, ayağa qalxdı. Öz sözünü dedi. Böyük bir imperiya ordusunun qarşısında əyilmədi, qorxmadı, qurbanlar verdi. Bu qurbanlar həm də xalqımızın azadlığı, müstəqilliyi uğrunda oldu. Ancaq xalqımız öz sözünü dedi və rus qoşunlarını Azərbaycandan çıxardı. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycana ikinci siyasi hakimiyyətə qayıtdıqdan sonra, ilk dəfə olaraq, məsələyə siyasi qiymət verildi. O günə qədər məsələyə heç bir münasibət bildirilməmişdi. İmperiya öz siyasətini təkcə Azərbaycanda deyil, Qazaxıstanda, Tbilisidə, Pribaltika ölkələrində də törətsə belə, heç nəyə nail ola bilmədi. Qeyd edim ki, qanlı Yanvar hadisələri bir tərəfdən bizi kədərləndirsə də, digər tərəfdən də, düşünürük ki, xalqımız öz müstəqilliyi uğrunda canını-qanını verdi. Elə bunun nəticəsidir ki, Şəhidlər Xiyabanı bizim and yerimiz, ziyarətgahımızdır. Eyni zamanda, 20 Yanvar şəhidləri millətin qeyrət rəmzidir. Bu qeyrəti, vüqarı həmişə uca tutmaq bizim borcumuzdur.

**- YAP Şəki rayon təşkilatının sədri Həsən Həsənov:**

- 20 Yanvar faciəsindən 20 il ötür. Bu 20 il ərzində bu məsələ həmişə dövlətin diqqət mərkəzində olub. Sözsüz ki, xalqın faciəsinə dövlət rəhbəri səviyyəsində bəslənən ehtiram, bir daha göstərir ki, ölkə Prezidenti İlham Əliyev hakimiyyəti ulu öndər Heydər Əliyevdən əxz etdiyi milli təəssübkeşlik missiyasını dönmədən həyata keçirir. Onu da qeyd edək ki, Prezident İlham Əliyev 1990-cı ilin yanvarında şəhid olmuş oğul və qızlarımızın xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi üçün son illər mühüm işlər görür. Prezidentin sərəncamları ilə 20 Yanvar faciəsinin ildönümü hər il respublikanın hər yerində geniş surətdə qeyd olunur. Eyni zamanda, Prezident İlham Əliyevin fərmanı ilə şəhid ailələrinə dövlət qayğısı artırılıb. Məhz bu qayğıya cavab olaraq xalqımız öz rəhbəri ətrafında daha sıx birləşir. Elə bu yaxınlarda Konstitusiyaya əlavə və dəyişikliklərin edilməsi ilə bağlı martın 18-də referendumun keçirilməsi də ictimaiyyətin təklifinin nəticəsində irəli sürüldü. Xalq ölkə Prezidentinin hər bir vətəndaşın Prezidenti olduğunun bu son illər ərzində bir daha şahidi olub. Bu gün də 20 Yanvar faciəsi ilə əlaqədar geniş tədbirlərin keçirilməsi ilə bağlı dövlət başçısı cənab İlham Əliyevin verdiyi sərəncamı onu sübut edir ki, Prezident xalqının dərdinə həmişə şərikdir və diqqətindədir. Çünki 20 Yanvar faciəsi hər bir azərbaycanlının yaddaşındadır. Bu faciə bir çox ailələri başsız qoydu. İnsanlar doğmalarını, qohumlarını, yaxınlarını itirdilər. Digər tərəfdən isə, Azərbaycan xalqı öz müstəqilliyini hər şeydən üstün, uca tutdu. Əliyalın xalq başdan-ayağa silahlanmış bir ordunun qarşısına əliyalın çıxdı. Xalqımız o günlərdə daha mütəşəkkil idi. Ən şirin nemət olan canını müstəqillik yolunda verən xalqımız öz suverenliyini qanı bahasına əldə etdi. imperiya

qüvvələri müxtəlif respublikalarda millətlərarası nifaq, düşmənçilik salır və keçmişdə olan münaqişələri yenidən oyadırdı. Bu, Qorbaçovun Azərbaycanda başlanan milli hərəkatı boğmaq arzusundan irəli gəlirdi. O zaman Azərbaycana rəhbərlik edən adamların xalqdan uzaq düşməsi bu hadisənin baş verməsinə rəvac verdi. Xalqın təşkilatlanması işini düzgün qura bilməyənlər xalqı meydanlara çağırırdı.

20 Yanvar faciəsi bir tarixdir və hadisələr hər kəsin gözü önündə baş verib. Tarix hadisələrdən bir neçə il əvvəl Heydər Əliyev şəxsiyyətini bizə bəxş etsəydi, təbii ki, bu qırğınlar, Qarabağ düyünü də olmazdı. Tarixdə şəxsiyyətin rolu böyükdür. Xəstə olmasına baxmayaraq, Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək, rəsmi şəkildə imperiyanın başçısına öz etirazını bildirdi. Ulu öndərin bu addımı faciənin acısını yaşayan xalqda özünə inam yaratdı. Ancaq cinayət olan yerdə cəza da olmalıdır. Bu faciəni törədənlər də öz qanuni cəzasını almalıdır. Xalqın nifrəti isə ən böyük cəzadır, onlar bu cəzanı alıblar və alacaqlar. Ancaq onu da qeyd edim ki, 20 Yanvar xalqımızın tarixinə şərəfli bir gün kimi həkk olundu. Yaşından asılı olmayaraq, hər bir azərbaycanlı şəhidlərin anım gününü qürurla, fəxrlə anır. Vətənin azadlığı, müstəqilliyi uğrunda canından keçən soydaşlarımızın məzarı xalqımızın ziyarətgahına çevrilib. Çünki 20 Yanvar tarixində baş verən hadisələr xalqımızın milli qürur hissini daha da formalaşdırdı.

Allah şəhidlərimizə rəhmət eləsin!

**YAP Beyləqan rayon təşkilatını sədri Rafael Pəşiyev:**

- Bu gün respublikamızın hər yerində olduğu kimi, Beyləqan rayonunda da 20 Yanvar faciəsinin 20-ci ildönümü ilə əlaqədar bir sıra tədbirlər planı hazırlanaraq həyata keçirilməkdədir. 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar, rayonun bütün qəsəbə və kəndlərində mərasimlər keçirilir, faciə qurbanları üçün ehsanlar verilir, şəhid ailələrinə yardımlar göstərilir. Bu tarixi faciə hər il, hər gün yaddaşlarda qalmalıdır. Qoy yeni nəsil bu faciənin mahiyyətini dərindən dərk etsin və tariximizin bu şərəfli səhifəsini dönə-dönə öyrənsinlər. Çünki 20 Yanvar faciəsi şərəfli bir tarixdir. Həmin gün 10 minlərlə vətən oğlu sovet imperiyasının Azərbaycan xalqına qarşı M.Qorbaçov başda olmaqla Moskvada oturan ermənipərəst rəhbərliyinin düşmənçilik siyasətinə öz etirazını bildirməsi və müstəqillik amalları uğrunda müqəddəs mübarizəyə qalxmışdır. Bu. əsil azadlıq mübarizəsi idi. Digər bır tərəfdən isə, igid oğul və qızlarımızın tarixi qəhrəmanlığı. onların müqəddəs şəhid qanları bütün dünyaya nümayiş etdirdi ki. Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda tarixi mübarizəyə qalxıb. Daima ermənilərin müdafiəsində duran M.Qorbaçov Azərbaycan xalqının azadlıq və istiqlal istəyini qanla boğmaq qərarına gəldi. O, ümummilli liderimiz Heydər Əliyevin qarşısında cılız olduğunu və bu tarixi şəxsiyyətə daim məğlub olduğunu gözəl dərk edirdi. Xalqımıza qarşı düşmənçilik mövqeyində dayanan M.Qorbaçovun əmri ilə sovet qoşunları yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinə daxil olaraq öz xalqının azadlığı və müstəqilliyi uğrunda mübarizəyə qalxmış insanların üzərinə yeridi. Lakin sovet imperiyasının top-tüfəngi xalqımızın qəhrəman oğul və qızlarını qorxutmadı. Əksinə, onların bu tarixi qəhrəmanlığı sahəsində Azərbaycan öz müstəqilliyinə qovuşdu. M.Qorbaçovun Moskvadakı digər canişinlərinin köməyi və dəstəyilə erməni daşnakları və 10 minlərlə azərbaycanlını öz yurd-yuvasından qovmuş, sonradan isə Dağlıq Qarabağdakı azərbaycanlılara qarşı vəhşicəsinə hücum edərək, divan tutmağa başlamışdılar. Bu gün biz 20 Yanvar faciəsini təkcə bir faciə kimi xatırlatmamalıyıq. Çünki bu, bizim tariximizdə olduqca şərəfli bır səhifədir. Həmin gün biz yüzlərlə şəhid versək də, müqəddəs şəhid qanları bahasına Azərbaycanın müstəqilliyini və azadlığını əldə etmişik. Onların qəhrəmanlığı göstərdi ki. Azərbaycanın igid oğul və qızları öz qanları bahasına doğma vətənlərini xilas etməyə qadirdirlər. 20 Yanvar faciəsi bizim tariximizdə milli qürur səhifəsidir.

**RƏFİQƏ KAMALQIZI**

**“Səs”**.- 2010.- 14 yanvar.- №7.- S.3.

## 20 Yanvar - xalqın sınaq günü

**Xalqın tarixi taleyi ilə bağlı xüsusi əhəmiyyət kəsb edən bir hadisə barədə söhbət düşərkən mütləq qan yaddaşı ifadəsi işlədilir. Bu, bir növ həmin faktın müstəsnalığını, fövqəladəliyini nişan verir. Bəlkə də qəribə görünə bilər, amma maye təbiətdə əsas informasiya daşıyıcısı kimi xarakterizə olunur. Qan da insan orqanizmindəki əsas maye olduğuna və fizioloji səviyyədə informasiya mənbəyi kimi çıxış etdiyinə görə elə bir xüsusi bioloji kod daşıyıcısına çevrilir ki, onda insan həyatı və inkişafının özünəməxsus proqramı molekulyar səviyyədə təqdim olunur. Azərbaycan xalqının qan yaddaşında onun tarixinə şərəf gətirən hadisələr çoxdur. Çünki biz həmişə elnən gələn bəlanı da "toy-bayrama" çevirməyi, yəni dərslərindən ibrət götürməyi bacarmışıq.**

Hər bir millətin, xalqın tarixi on-yüzillər sonrası dönə-dönə xatırlanıb yada salınan hadisələrlə zəngindir. O tarix kasıbdır, kasaddır ki, vərəqlənən səhifələrində yaşamın hər hansı taleyüklü bir dönəminə diqqəti çəkməsin, yüzillərin məhvərindən sıyırıb keçirdiyi yaddaş boxçasında bir xalqın ömürlüyünün qürur və rəşadətdən, iftixar və şücaətdən yoğrulmuş anlarına güzgü tutmasın. Heç şübhəsiz, əzilən, döyülən, zavallı tariximizdən də imtina etmirik. Deyirlər ki, insanların taleyi xalqların tarixidir. Mübahisə etmirəm. Bir gül göstərin ki, ləçəksiz bitsin, bir ağac göstərin ki, budaqları, pöhrələriylə qüdrətli olmasın. Elə bir xalq göstərin ki, taleyi zamanın şahə qalxan dalğalarında balıqçı təknəsitək atılıb-düşməsin, eləcə sığallı-sahmanlı ləpələrin qoynunda üzsün, qəzavü-qədərdən yan keçsin. Hər halda, Azərbaycan xalqı o bəxtəvərlərin sırasında olmayıb. Minilliklər boyu çəpərinin yağısı, başının qeylüqalı əskik düşməyib.

Bizləri unutqanlıqda qınayırlar. Bilsəniz, bu ürəyiyuxalığımız tarix boyu bizləri hansı qada-balalara, məhrumiyyətlərə ürcah etməyib?! Eləcə içimizdən, çölümüzdən vurula-vurula, bəzən axara düşüb, bəzən də qədərə baş əyməyib rüzgarlara sinə gərə-gərə gəlib çıxmışıq üçüncü minilliyin tifağına. Dünya xəritəsində Azərbaycan adlı bir dövlətin adını oxuyanda dişlərini qıcayan, təzyiqi pərsəng vuran, ovqatı təlx olan nə qədər ölkə var, bilsəniz...! Çox uzaqda da deyillər, elə ətrafımızdadırlar. Əl uzatsalar, dost desələr, üzümüzə gülsələr də ürəkləri qan ağlayır, qanımıza yerikləyirlər. Həmişə ayaqda saxladıqları nifrət və xəyanət xəncərini köksümüzə saplamağa məqam gəzirlər. Aqillər necə də yaxşı deyiblər: sən mənə dostumu göstər, düşmənimlə özüm də bacararam.

Bir Allah şahiddir ki, Azərbaycan dostluqda bivəfa, etibarsız, dönük olmayıb. Təknəmizin son tikəsini, suyumuzun son qətrəsini, ocağımızın son kösövünü də qapımıza gələndən müzayiqə etməmişik. Elə bu qonaqpərvərliyimiz, məğrurluğumuz, ləyaqət, şərəf, namus sahibi olmağımız başımızın "əngəl-kələfinə" çevrilib. Nə okeanın o tayında, nə də bu tayında heç kimsəyə boyun əymədiyimizdəndir ki, sovetlər çökəndən, çox sular axıb durulandan sonra da başı dik, vüqarla gəzirik, heç kimin "forpost"una (oxu - qapısının tulasına!) çevrilməmişik.

Bütün dünya bilir ki, Azərbaycanın bütün bəlaları Ermənistanla bağlıdır. Cümlə aləm agahdır ki, Azərbaycan Ermənistanın qarşısında aciz deyil. Bu iki ölkənin imkanlarını müqayisə etmək ən azı fəzanı çəkməyə, yaxud karlara simfonik musiqi dinlətməyə cəhd göstərmək kimi absurd bir məşğuliyyət olardı. Təxminən 200 il əvvəl də, ötən əsrin əvvəllərində və 80-ci illərinin axırında da erməniləri üstümüzə qısqırdan Rusiya imperiyası və həmin ideologiyanın xələfləri olmuşlar.

Həyasız erməni təbliğatının antiazərbaycan fəaliyyəti ötən əsrin 80-ci illərinin ortalarında məxsusi vüsət aldı və ölkə rəhbərliyinin qətiyyətsizliyi, prinsipsizliyi nəticəsində Dağlıq Qarabağ münaqişəsinin yaranıb alovlanmasını səbəbləndirdi. Münaqişənin ilkin mərhələsində yüz minlərlə azərbaycanlı öz tarixi torpaqlarından - indi Ermənistan adlanan diyardan qovuldu. Ölkə rəhbərliyinin passiv mövqeyi getdikcə güclənməkdə olan xalq hərəkatını boğmaq məqsədilə 1990-cı ilin yanvarında Bakıya silahlı qoşun dəstələrinin yeridilməsi və 20 Yanvar faciəsi ilə nəticələndi. Yenə də qan, nifrət, qəzəb... Yüzlərlə günahsız azərbaycanlı məhv edildi, şikəst oldu, yaralandı. Tariximizin bu faciəsi də erməni barmağı olmadan keçinmədi. Başlanğıcını 1988-ci ildən götürən erməni ekspansiyası, Dağlıq Qarabağda aparılan işğalçı müharibə və etnik təmizləmə azərbaycanlıların

soyqırımı qurbanlarının sayını bir neçə dəfə artırdı. Azərbaycan Respublikası ərazisinin 20 faizi işğal edilmiş, 18 mindən çox həmvətənimiz həlak olmuş, 20 mindən çox yaralanmış, 50 mindən çox əlil olmuş, 4 mindən çox əsir və itkin düşmüşdür. 1992-ci il fevralın 26-da əsrin ən dəhşətli cinayətlərindən biri olan Xocalı faciəsində böyük bir yaşayış məntəqəsi yer üzündən silinmiş, 63 nəfəri azyaşlı uşaq və 106 nəfəri qadın olmaqla 613 nəfər dinc əhali vəhşicəsinə öldürülmüş, 487 nəfər şikəst olmuş, 1275 nəfər əsir götürülərək ağlasığmaz işgəncə, təhqir və həqarətə məruz qalmışdır. Bütün bunların nəticəsi kimi təkcə XX əsrdə iki milyondan çox azərbaycanlı bu və ya digər şəkildə şovinist erməni dairələrinin və onların havadarlarının yürütdükləri soyqırımı siyasətinin təsirinə məruz qalmışdır. Azərbaycan isə həmişə özünü müdafiə edib. Qırılıb, qovulub, amma münaqişələrin həllində silaha sonuncu vasitə kimi baxıb. Elə 1990-cı ilin 20 Yanvarında da biz müdafiə olunurduq. Sonralar həmin o məşum günü Qanlı Yanvar kimi yazacaqdıq millətin tarixinə. Hər birimizin yaddaşında dərin şırımlar açan, qızıl qanla boyanmış iri hərflərlə.

1990-cı ilin havasından barıt və terror qoxuyan həmin qorxulu günlərində ulu öndər Heydər Əliyev min bir təqib və təhlükəyə baxmayaraq Moskvada Azərbaycan xalqına qarşı sovet ordusu tərəfindən törədilmiş bu amansız soyqırımı aktını pislədi. Respublikada ikinci dəfə hakimiyyətə gələndən sonra isə 20 Yanvarın Milli Məclis tərəfindən hüquqi və siyasi qiymətini almasının təşəbbüsçüsü kimi çıxış etdi.

Bu gün bizi əlləri biləyinə kimi Azərbaycan xalqının qanına bulaşmış Qorbaçov və başçılıq etdiyi kommunist xuntasının qanlı cinayətindən tam 20 illik bir tarix ayırır. Bizdə bunca zaman məsafəsinə bir igidin ömrü də deyirlər. Çünki həm 20 il əvvəl, həm də tarixin elə o həndəvərində cərəyan edən Qarabağ savaşında yaşı heç 20-ni haqlamamış neçə-neçə gəncimizin müqəddəs şəhid qanı ilə suvarıldı zavallı vətən torpağı. 20 Yanvardan sonra doğulanların o hadisə barədə göz yaddaşı yoxdur. Necə ki, bu gün böyüməkdə olan bir nəsil beşiklərinin başında Şuşa, Ağdam, Kəlbəcər, Qubadlı, Füzuli, Cəbrayıl, Zəngilan, Laçın haqqında ən şirin laylaları, ən qəmli bayatıları ürəkləri torpaq həsrətindən çərləyib çökən nənələrindən eşidiblər.

20 Yanvarda nələr baş verirdi? Əliyalın xalqı sovetin hərb maşınının üstünə qaldıran nə idi? Axı, hələ 91-in nəinki SSRİ-nin, bütövlükdə dünyanın müqəddəratını dəyişən tarixi Belovejsk anlaşmasına bir il vardı. O vaxtlar xalqın meydanlara ayaq açmış milli-azadlıq mübarizəsindən öz merkantil maraqları naminə bəhrələnmək istəyən daxili qüvvələrin az fitnələrə bais olmadıqları kimi qənaətlər də tirajlanırdı ümumi rəydə. Ancaq minlərlə insanı kükrəyən dağ seli kimi küçələrə tökən əsas nəsnə xalqın yenicə tamsınmağa başladığı azadlığın, müstəqilliyin şirin dadı idi. Azadlıq uğrunda boynuna kəfən dolamağı, qurban verməyi bacarmayan bir xalq heç vaxt belə bir bəşəri neməti haqq edə bilməz.

20 Yanvar tarixin dan yerindən üzübəri onunla yoldaşlıq etmiş əsilli-nəcabətli, ulu bir xalqın ləyaqətinə təcavüz, azadlıq uğrunda mübarizəsinin qarşısına sədd çəkmək qəsdi idisə də, digər tərəfdən...

20 Yanvar hansı cilddə təcəllə etməsindən asılı olmayaraq, imperiya əsarətinə, istibdadına etiraz nümunəsi idi.

20 Yanvar taleyüklü məqamlarda xalqın bir yumruq kimi birləşərək zindan çəkici kimi zülmün başına enməyə hazır olduğunun bariz nümayişi idi.

20 Yanvar ən ali varlıq olan anadan da bir köynək yaxın olan Vətən uğrunda ölümə hazır olanların bir qəhrəmanlıq və qürur nəğməsi idi.

Bəlkə də həmin gecə heç kim ölüm haqqında, havada çovuyan qəfil güllələrdən birinin hər an onu haqlaya biləcəyi barədə düşünmürdü. Əslində, buna nə vaxt vardı, nə macal.

Bəli, həmin gün tək Azərbaycan yox, dünyanın dörd bir yanına səpələnmiş bütün azərbaycanlılar öz şəhidləri üçün ağlayırdı. Xalq matəm içində idi. Aldığımız yara ağır və göynədici, hüznümüz dərin və sonsuz idi. Şəhidlərimizi dəfn etdik, ana-bacılarımızın göz yaşları ilə yuyunmuş qərənfilləri Bakının qan izləri qurumamış, müdhiş cinayətlərə şahid olmuş küçələrinə döşədik. Lakin Azərbaycan xalqının qüdrəti onda idi ki, bu hadisələrdən yenilmədi, matəm gününü özünün qəhrəmanlıq, birlik və qədirkeşlik gününə, qan yaddaşına çevirməyi bacardı. Bu cür tarixlər insanları, xalqları kiçiltmir, əksinə, onların əzmkarlığına, mübarizliyinə dəlalət edir. Çünki yaddaşımıza, qanımıza yazılıb.

**Xalid Niyazov**

**“Azərbaycan”.**- 2009.- 14 yanvar.- N 9.- S.6.

## Xalqımızın istiqlal mübarizəsinin ən şərəfli səhifələri

### 20 Yanvar faciəsi xalqımızın azadlıq mübarizəsinin zirvəsidir

**"XX əsr tarixində totalitarizmin törətdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı işlədilmiş cinayət, əslində, bəşəriyyətə, humanizmə, azadlığa qarşı həyata keçirilmiş dəhşətli bir əməldir. Xalqımız əmindir ki, müqəssirlər tarix, bəşəriyyət, eləcə də, Azərbaycan xalqı qarşısında cavab verməli olacaqlar. Bu gün Azərbaycan xalqı milli mənliyini qorumaq üçün öz canlarından keçməyə hazır olan övladları ilə fəxr edir".**

**Heydər ƏLİYEV**

Məlum olduğu kimi, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycanda baş verən qanlı 20 Yanvar hadisəsi hələ də yaddaşlardan silinməyib. Bu tarixi faciə, neçə illərdir ki, kütləvi formada yad edilir. Hər il Şəhidlər Xiyabanına kütləvi axın bir daha sübut edir ki, 20 Yanvar faciəsinin qurbanları Azərbaycanın müstəqilliyi uğrunda özlərini fəda edən şəxslər olduğu üçün heç vaxt yaddaşlardan silinməyəcək. Azərbaycan xalqına qarşı törədilmiş bu faciəli tarixi günə aydınlıq gətirmək üçün bir sıra siyasətçilərə müraciət etdik.

**YAP Cəlilabad rayon təşkilatının sədri Mirsüleyman Mirxaslı:**

- 20 Yanvar hadisəsi sovet imperiyası tarixində ən qanlı ləkələrdən biridir. Həmin vaxt Qorbaçov başda olmaqla, sovet rəhbərliyi SSRİ Konstitusiyasında göstərilən xalqların təhlükəsizliyinin təmin olunması prinsipini tapdayaraq, Azərbaycan xalqına qanlı divan tutdu. Halbuki bu dövlətin Konstitusiyasına görə, dövlət öz vətəndaşlarını qorumalı idi. Hesab edirəm ki, 20 Yanvar hadisəsi sovet imperiyasının Azərbaycan xalqına qarşı həyata keçirdiyi dəhşətli soyqırımı hadisəsidir. Dünya tarixi durduqca çar Rusiyası və sovet imperiyasının tarixi araşdırılarkən, hər iki imperiyanın xalqımıza qarşı apardığı qanlı soyqırım siyasətinin sırasında bir ağır səhifəni də 20 Yanvar faciəsi təşkil edir.

Qeyd edim ki, Azərbaycan xalqının tarixində 20 Yanvar hadisəsi ən şanlı, ən parlaq səhifələrdən biridir. 20 Yanvar hadisələri onu da sübut etdi ki, Azərbaycan xalqı Qarabağın ondan qoparılıb başqasına verilməsinə razı deyil. Bütün bunlar torpaqlarımızın əlindən alınmasına qarşı xalqın kütləvi etirazı idi. 20 Yanvar hadisələrində ayağa duran xalqımızın yeganə tələbi Qarabağın əlimizdən getməməsi idi. Xalq başa düşdü ki, torpaqlarını, suverenliyini qorumaq üçün azad olmalıdır.

20 Yanvar hadisələrinin mühüm nəticələrindən biri də odur ki, bu hadisə sovet imperiyasının dağılmasında ciddi rol oynadı. Həmin vaxt SSRİ-nin tərkibində olan respublikalarda Azərbaycandakı kimi imperiyaya qarşı kəskin dirəniş olmamışdı. Bu baxımdan, SSRİ-nin çökməsində xalqımızın mübarizəsi mühüm rol oynadı. Əlbəttə, SSRİ-nin dağılmasının ümumi səbəbləri var. Bu, sosializm sisteminin qüsurları ilə bağlıdır. Ancaq bu prosesin sürətlənməsində Azərbaycan xalqının mübarizəsi böyük önəm kəsb etdi və 20 Yanvar hadisəsi sovet rejiminin iç üzünü açdı. Ona görə də, 20 Yanvar hadisələri istiqlal mübarizəmizin nadir hadisələrindən biri və tariximizin qürur səhifəsidir.

Gələcək nəsillər öz yaddaşlarına həkk edəcəklər ki, Azərbaycan xalqını məhv etmək mümkün deyil. Belə vəziyyətlərdə millətin öndərləri üzə çıxaraq, mübarizənin önündə gedir. 20 Yanvar zamanı da belə oldu. O dövrdə Azərbaycan informasiya blokadasına alındığı halda, ulu öndər Heydər Əliyev yanvarın 21-də Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək, Qorbaçovun cinayətkar olduğunu dünyaya bəyan etdi. Sübut elədi ki, xalq sahibsiz deyil, Heydər Əliyev kimi rəhbəri var. Rəhbər nəyə qadir olduğunu 20 Yanvarda sübut etdi. Bu gün Azərbaycanda Heydər Əliyev yolu uğurla davam etdirilir. 20 Yanvar şəhidlərin ailələrinə dövlət yardımları artırılır. Prezident İlham Əliyev Heydər Əliyev siyasi kursunun layiqli davamçısı kimi böyük öndərimizin yolunu davam etdirir. Xüsusilə, Qarabağ məsələsində ölkə Prezidenti bütün dünyaya Ermənistanın təcavüzkar olduğunu bəyan edir. Dövlət başçısı, eyni zamanda, dünya miqyasında erməniləri başa salır ki,

onların oturduğu torpaqlar da tarixi Azərbaycan əraziləridir və Azərbaycan xalqının bu torpaqları tələb etmək hüququ var.

**YAP Qazax rayon təşkilatını sədri Həmid Pənahov:**

- Azərbaycanın tarixinə qanlı hərflərlə yazılmış 20 Yanvar faciəsinin 20-ci ildönümü qeyd ediləcək. Faciədən keçən müddət, nəinki həmin gecə baş verən dəhşətləri unutdurub, əksinə, həmin qanlı olayın yaddaşlarda həkk olunması prosesi baş verib. Faciənin şahidi olan insanlar indi də həmin gecənin vahiməsini xatırlayırlar. Xalqımız, o cümlədən, Qazax rayon sakinləri bir araya gələrək, tarixin ən çətin sınaq dövrü olduğunu bildirdilər. Onu da qeyd edim ki, 20 Yanvar hadisəsi həm Azərbaycanda, həm də sovet məkanında gedən proseslərin nəticəsi kimi meydana çıxmışdır.

O zaman ölkədə hakimiyyətsizliyin getdikcə vüsət alması, idarəçiliyin zəifləməsi insanların, geniş xalq kütləsinin mənafelərinin arxa plana keçməsi ilə nəticələnirdi. Bu məsələlərin həllində biganəliyin, özbaşınalığın artması belə bir etiraz dalğasının yaranmasına gətirib çıxarmışdır. Nəticədə, bir tərəfdən, Azərbaycana qarşı olan haqsız, ədalətsiz torpaq iddiası - Dağlıq Qarabağ məsələsinin fəallaşdırılması, digər tərəfdən Azərbaycanın bir respublika kimi mənafelərinin tapdalanması xalq arasında böyük narazılığa səbəb olurdu. Həmin məsələlərin Azərbaycanın mənafeləri nəzərə alınmadan inkişaf etməsi bütün bu hadisələri daha da kəskinləşdirdi. Ölkədəki vəziyyət 1989-cu ilin sonunda kritik həddə gəlib çatdı. Bu hakimiyyətsizlik, anarxiya, özbaşınalıq elə vəziyyət yaratdı ki, bu qarışıqlıqda bir sıra qüvvələr prosesləri öz mənafeyi üçün istifadə etməyə çalışdılar. Xüsusilə də, yanvar ayında Bakıda törədilən qırğınlarla bir sıra proseslərə təsir edilməyə çalışıldı. Amma buna baxmayaraq, 20 Yanvar hadisəsi zamanı Azərbaycan xalqının iradəsi, vətən, torpaqlarının bütövlüyünü qorumaq məsələsində düşüncə vəhdəti özünü göstərdi.

Ölkəmizin nümayəndələri, yaşlı və cavan nəsli bir daha o dövrkü mövqeyi ilə nümayiş etdirdi ki, hansısa siyasi dairələrin istəyindən asılı olmayaraq, sadə vətəndaşlar bu proseslərin müsbət məcrada inkişaf etməsinə, Azərbaycan xalqının həqiqi mənafelərinin qorunmasına tərəfdardırlar. Təbii ki, bütün bunlardan ötrü canlarını qurban verməyə də tərəddüd etmirlər. Onu da vurğulayım ki, bu gün Qazax rayon sakinləri o işğalçı mənfurların vəhşilikləri ilə hər gün, hər saat üzləşirlər. Lakin bu, sakinlərimizi heç də, qorxutmur, əksinə, onlara qarşı daha hiddətli olurlar. Bu, belə də olmalıdır. Elə 20 Yanvar faciəsi zamanı Azərbaycan övladlarının atdığı addım həm faciə, digər tərəfdən isə, həmişə qeyd etdiyimiz kimi, bir qəhrəmanlıq nümunəsi idi. Eyni zamanda, bu təcavüz Azərbaycana qarşı yönəldilmişdi və sovet qoşunlarının, məkrli erməni qüvvələrin atdığı bu addımlar xalqımızın iradəsini sarsıtmadı, əksinə, verilən itkilərə baxmayaraq, Azərbaycan xalqı öz qəti mövqeyindən dönmədi. Bu baxımdan, 20 Yanvar olayı tariximizə qanlı hərflərlə yazılmış şanlı hadisədir. Bu faciə həm qəhrəmanlıq abidəsi, həm də milli faciə kimi qəbul edilməlidir.

**YAP Hacıqabul rayon təşkilatının sədri Hafiz Bəşirov:**

- 20 Yanvar faciəsi hər bir azərbaycanlının yaddaşındadır. Bu faciə bir çox ailələri başsız qoydu. İnsanlar doğmalarını, qohumlarını, yaxınlarını itirdilər. Digər tərəfdən isə, Azərbaycan xalqı öz müstəqilliyini hər şeydən üstün, uca tutdu. Xalq başdan-ayağa silahlanmış bir ordunun qarşısına əliyalın çıxdı. Xalqımız o günlərdə daha mütəşəkkil idi. Ən şirin nemət olan canını müstəqillik yolunda verən xalqımız öz suverenliyini qanı bahasına əldə etdi. İmperiya qüvvələri müxtəlif respublikalarda millətlərarası nifaq, düşmənçilik salır və keçmişdə olan münaqişələri yenidən oyadırdı. Bu, Qorbaçovun Azərbaycanda başlanan milli hərəkatı boğmaq arzusundan irəli gəlirdi. O zaman Azərbaycana rəhbərlik edən adamların xalqdan uzaq düşməsi bu hadisənin baş verməsinə rəvac verdi. İşini düzgün qura bilməyənlər xalqı meydanlara çağırırdı.

Bu, bir tarixdir və hadisələr hər kəsin gözü önündə baş verib. O vaxt respublikaya rəhbərlik edən şəxs ulu öndərimiz Heydər Əliyev səviyyəsində olsaydı, yaxud da, elə öndərimizin özü olsaydı, Qorbaçov özündə o cəsarəti tapmazdı. Xalqla Heydər Əliyev arasında olan birlik qaniçənləri də qan tökməkdən çəkindirərdi. Azərbaycanın geosiyasi şəraiti bir çox ölkələrin maraqlarının bu ərazidə toqquşmasına gətirib çıxarırdı. Tarix bizə bir neçə il əvvəl Heydər Əliyev şəxsiyyətini bəxş etsəydi, təbii ki, bu qırğınlar, Qarabağ düyünü də

olmazdı. Tarixdə şəxsiyyətin rolu böyükdür. Xəstə olmasına baxmayaraq, Heydər Əliyev Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək, rəsmi şəkildə imperiyanın başçısına öz etirazını bildirdi.

Ulu öndərin bu addımı faciənin acısını yaşayan xalqda özünə inam yaratdı. Ancaq cinayət olan yerdə, cəza da olmalıdır. Bu faciəni törədənlər də öz qanuni cəzasını almalıdır. Xalqın nifrəti isə ən böyük cəzadır, onlar bu cəzanı alıblar və alacaqlar. Ancaq onu da qeyd edim ki, 20 Yanvar xalqımızın tarixinə şərəfli bir gün kimi həkk olundu. Yaşından asılı olmayaraq, hər bir azərbaycanlı şəhidlərin anım gününü qürurla, fəxrlə anır. Vətənin azadlığı, müstəqilliyi uğrunda canından keçən soydaşlarımızın məzarı xalqımızın ziyarətgahına çevrilib. 20 Yanvar tarixində baş verən hadisələr xalqımızın milli qürur hissini daha da formalaşdırdı. Allah şəhidlərə rəhmət eləsin!

**RƏFİQƏ KAMALQIZI**

**"Səs".**- 2010.- 13 yanvar.- N.6.- S.6.

## Xalqımıza qarşı soyqırımı siyasəti

*"Xalqımız keçmiş illərdə baş vermiş bütün hadisələrdən, faciələrdən, dəhşətlərdən nəticə çıxarmalıdır ".*
*Ümummilli lider Heydər Əliyev*

Mürəkkəb və keşməkeşli dövr sayılan XX əsr artıq tarixə çevrilsə də, XIX əsrin əvvəlində Birinci Rusiya-İran müharibəsinin qurtarması və Gülüstan sülh müqaviləsinin bağlanması ilə Azərbaycan torpaqlarının Rusiyaya ilhaq edilməsinin birinci mərhələsi başa çatdı.

1828-ci il fevralın 10-da Təbrizdən bir qədər cənubda Türkmənçay kəndində İranla Rusiya arasında sülh müqaviləsi imzalandı.

**Azərbaycanın ikiyə bölünməsini qəti təsdiq edən Türkmənçay müqaviləsi və onun ağır nəticələri, əslində, XIX əsrin əvvəllərində Azərbaycan xalqına qarşı soyqırımı siyasətinin başlanğıcı idi.**

**Tarixin təhlili göstərir ki, zaman-zaman Azərbaycan xalqının başına gətirilən faciələr özünün ağır nəticələri, amansızlığı ilə digər oxşar hadisələrdən fərqlənir.**

Ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli Fərmanında deyildiyi kimi, 1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədilə" erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş geniş miqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi.

Rusiyada 1917-ci ilin fevralında baş vermiş inqilab nəticəsində əsrlərlə ömür sürmüş mütləqiyyət quruluşu devrilir. Zaqafqaziyada Dövlət dumasına seçilmiş deputatlardan ibarət Zaqafqaziyanın idarəsi üzrə xüsusi komitə, noyabrda isə Zaqafqaziya Komissariatı yaradılır. Zaqafqaziyadan Rusiyanın Müəssislər Məclisinə seçilmiş və bolşeviklərin oktyabr çevrilişindən sonra onda iştirak edə bilməyən nümayəndələr 1918-ci il fevralın 14-də Tiflisdə toplaşırlar və Zaqafqaziyada ali hakimiyyət orqanı olan Zaqafqaziya Seymini yaradırlar.

Zaqafqaziya Seymi dağıldıqdan bir gün sonra, mayın 27-də Azərbaycanın istiqlaliyyətini elan etmək və ilk Azərbaycan hökuməti yaratmaq üçün Seymin bütün müsəlman nümayəndələri Tiflisdə toplanır.

May ayının 28-də Tiflisdə, keçmiş Qafqaz canişininin iqamətgahında, doktor Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycan Milli İslam Şurasının iclası keçirilir, Azərbaycanın istiqlaliyyəti haqqında Bəyannamə qəbul edilir və Şərqdə ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı bəyan edilir, həmçinin, sonra Milli Şura bitərəf Fətəli xan Xoyski başda olmaqla, Azərbaycan Xalq Cümhuriyyətinin ilk müvəqqəti hökumətini təşkil edir.

Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan üçün çox mürəkkəb bir tarixi şəraitdə fəaliyyətə başlayır.

**Sovetlər Birliyi dövründə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin "nə üçün Bakıda fəaliyyət göstərməməsi", - səbəbləri ictimaiyyətdən qəsdən gizlədilirdi.**

**Sovet tarix, hüquq və siyasi ədəbiyyatında Azərbaycan Xalq Cümhuriyyətinin və onun hökumətinin demokratik mahiyyəti kommunist ideologiyasının tələblərinə müvafiq olaraq bilərəkdən təhrif edilmiş, hələ bu azmış kimi, ilk demokratik respublikanın tarixi barədə məlumatlar saxtalaşdırmışdır. Əslində isə, səbəb başqa imiş.**

Bu vaxt Bakıda S.Şaumyan başda olmaqla, Azərbaycana qarşı düşmənçilik mövqeyi tutan Bakı Xalq Komissarları Soveti fəaliyyət göstərirdi. S.Şaumyanın rəhbərliyi ilə 1918-ci ilin martında Bakıda, Şamaxıda, Qubada törədilən azərbaycanlı qırğınlarından sonra Bakı kommunası azərbaycanlı əhali arasında öz nüfuzunu tamamilə itirmişdi. Onların hakimiyyəti Bakıdan кəпara çıxa bilməmişdi. Azərbaycanın qəzalarında isə tam

hakimiyyətsizlik və hərc-mərclik hökm sürürdü. Öz təsir dairəsini bütün Azərbaycan ərazisində genişləndirmək məqsədilə 1918-ci ilin iyunun 16-da Azərbaycan Milli Şurası Tiflisdən Gəncəyə köçür.

1918-ci ilin martın 30-u, 31-i və aprelin l-də bolşevik qiyafəsinə bürünən ermənilər Rusiyanın hərbi yardımı ilə Bakıda soyqırımı törədərək 15 müsəlmanı qətlə yetirmişdilər. Məqsəd Bakını ələ keçirməkdən, onun neft sərvətinə sahib olmaqdan ibarət idi. Həmin ilin aprel-may aylarında ermənilər Şamaxıda, Qubada, Xaçmazda, Ağsuda, Kürdəmirdə, Salyanda, Lənkəranda kütləvi qırğınlar törətmiş, 50 mindən artıq soydaşımızı ən vəhşi üsullarla qətlə yetirmişdilər. Qırğınlar İrəvan quberniyası ərazisində, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Qars vilayətində daha amansız şəkildə davam etdirilmişdi. Şamaxı qəzasında 58, Quba qəzasında 112, Gəncə (Yelizavetpol) quberniyasında 272 (o cümlədən Zəngəzurda 115, Qarabağda 157), İrəvan quberniyasında 211, Qars vilayətində 82 yaşayış məntəqəsi yerlə-yeksən edilmiş, yüz minlərlə azərbaycanlı qətlə yetirilmiş, bir milyona yaxın əhali öz tarixi-etnik torpaqlarından didərgin salınmışdır.

Zaqafqaziyanın sovetləşdirilməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədi ilə yeni vasitələrə əl atdılar.

**Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır.**

**Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar min illər boyu yaşadıqları öz doğma tarixi etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.**

1947-ci il dekabrın 23-də İ.Stalinin imzaladığı "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" SSRİ Nazirlər Sovetinin qərarı qəbul edildi.

**Müharibədən təzəcə çıxmış ölkədə belə bir köçürmə zərurəti nədən yaranmışdır? Adətən, hökumətin mühüm məsələyə dair qərarlarının preambulasmda bu qərarın qəbul edilməsinin zəruriliyi, bir qayda olaraq, açıqlanır və hüquqşünaslar yaxşı bilirlər ki, buna tarixi təfsir deyilir. Lakin istər SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli 4083 №-li, istərsə də "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" 10 mart 1948-ci il tarixli 754 №-li qərarlarında da bu haqda susmaq üstün tutulmuşdur.**

Bəli, yüz minlərlə azərbaycanlı məcburi surətdə öz doğma tarixi-etnik torpaqlarından SSRİ Nazirlər Sovetinin cəmi dörd vərəq həcmində olan qərarı əsasında didərgin salmır, lakin bu ədalətsiz aktın hansı zərurətdən irəli gəlməsi barədə həyasızcasına susmaq üstün tutulurdu. Təəssüf ki, bu suala Azərbaycan hökumətinin qəbul etdiyi 2 fevral 1948-ci il tarixli qərarında da cavab verilmirdi. Lakin, ittifaq hökumətindən fərqli olaraq, Azərbaycanın o zamankı rəhbərliyi real vəziyyətdən çıxış yolunu həmin qərarın məxfi qriflə verilməsində görmüş və məsələni respublika ictimaiyyətindən gizlətmişdir.

**Başqa hallarda olduğu kimi, İ.Stalin bu tədbirin də həyata keçirilməsində heç kəs qarşısında məsuliyyət daşımadığını və heç kəsə hesabat vermək istəmədiyini bir daha nümayiş etdirmək üçün elə ilk cümləsi "köçürülsün" sözü ilə başlanan ədalətsiz bir qərara imza atmışdır.**

**Bu sənədin ortaya çıxmasına qədər erməni millətçilərinin hansı "təşkilati" tədbirlərə əl atdıqlarını indi təsəvvür etmək çətin deyildir. Onlar Ermənistanı digər millətlərdən, ən başlıcası, azərbaycanlılardan təmizləmək niyyəti güdür və bunun üçün dəridən-qabıqdan çıxırdılar. Tarix göstərdi ki, ermənilər bu məqsədlərinə nail ola bildilər.**

Dağ şəraitində yaşamış on minlərlə adam Azərbaycanın aran rayonlarına köçürüldü. İllər boyu öz zəhmətləri ilə qurub yaratdıqları ev-eşiklər sovet hökuməti tərəfindən xarici ölkələrdən gələn ermənilərə "hədiyyə edildi". İqlim şəraitinin dəyişdirilməsi, min bir əziyyət, eləcə də doğma ocaq həsrəti minlərlə soydaşımızın həyatına son qoydu.

İ.Stalinin 1948-ci il martın 10-da imzaladığı "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" qərarı 23 dekabr 1947-ci il tarixli qərarın bir növ davamı kimi guya köçürülənlərə müəyyən imtiyazlar vermək niyyəti güdürdü. Sözsüz, Vətən, torpaq itkisi ilə üzləşən insanları belə imtiyazlarla ovundurmaq faydasız idi. Çünki ev-eşiyini, el-

obasını tərk edən adamları bu cür xırda güzəştlərlə ovundurmaq qeyri-mümkün idi. Lakin Stalin rejimi erməni millətçilərinin fitvası ilə öz işin görmüşdü.

**Bəs köçürülənlərin sonrakı taleyi necə olacaqdı? Onlar yeni iqlim şəraitinə uyğunlaşıb yaşaya biləcəkdilərmi? Bu suallar Stalin rejimini qətiyyən narahat etmirdi.**

Ümummilli lider Heydər Əliyevin imzaladığı "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 18 dekabr 1997-ci il tarixli Fərmanın verilməsi son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımızın ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalması, mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlıların indi Ermənistan, keçmiş İrəvan xanlığının ərazisindən - min illər boyu yaşadıqları öz doğma tarixi etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalması, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəninin dağıdılıb viran edilməsi və buna görə də bu tarixi ədalətsizliyə indiyə kimi hüquqi-siyasi qiymət verilməməsi zəruriliyindən irəli gəlmişdir.

**Təəssüflər olsun ki, azərbaycanlıların Ermənistan ərazisindən deportasiyası xalqımızın tarixində yeganə hal olmamışdır. 1948-1953 - cü illərdə azərbaycanlıların Ermənistan ərazisindən, tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiya edilməsinin əvvəlkilərdən bir fərqi də ondadır ki, bu qeyri-insani tədbir "sosializm gerçəkliyi" şəraitində, sovet dövlətinin "çiçəklənməyə doğru getdiyi" və Stalin Konstitusiyasının - SSRİ Konstitusiyasının qüvvədə olduğu bir dövrdə, SSRİ hökumətinin qərarları əsasında yerinə yetirilmişdir. SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli və 10 mart 1948-ci il tarixli qərarları ilə Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı dövlət səviyyəsində, özü də iri miqyasda həyata keçirilmişdir.**

**Bu qərarlar əsasında 1948-1953 - cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur, başqa sözlə, qovulmuşdur.**

Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar.

**Bu işdə erməni şovinist dairələrinin və keçmiş SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrdəki Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə biganəliyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkili və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır.**

Həmin dövrdə Ermənistan SSR ərazisindən kütləvi surətdə qovulmuş soydaşlarımızın böyük əksəriyyəti dünyasını dəyişmiş, sağ qalanlar keçmiş Azərbaycan SSR ərazisində yurd-məskən salmışlar. Lakin bu hadisələrdən yarım əsrdən artıq vaxt keçsə də bu tarixi ədalətsizliyin vurduğu mənəvi zərbəni xalqımızın indiki və gələcək nəsli heç vaxt yaddan çıxarmamalıdır. Çünki tarixi yaddaşsızlıq həqiqətən hər bir xalq, millət üçün faciəvi nəticələrə gətirib çıxarır.

**Tarix bir daha təkrarlanmaqla bunu əyani şəkildə sübut etdi. Belə ki, 1988-ci ildə Ermənistan ərazisində azərbaycanlıların başına gətirilən müsibətlər bəşər tarixinin ən qanlı səhifələri olmaqla bu hadisələr 1948-1953 - cü illər deportasiyasının bir növ məntiqi davamı hesab edilməlidir. Lakin təəssüflər olsun ki, respublikamız müstəqillik əldə etdikdən sonra da bu tarixi ədalətsizliklər beynəlxalq ictimaiyyətə lazımi səviyyədə çatdırılmamış, bu hadisələrə müvafiq beynəlxalq -hüquqi qiymət verilməmişdir.**

**Ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımlarının tarixi kökləri, siyasi-ictimai, ideoloji cəhətlərinin hər biri dərindən tədqiq olunmalı, aşkarlanıb bu haqda əsl həqiqət dünya ictimaiyyətinə çatdırılmalıdır.**

Çox təəssüf ki, ermənilərin azərbaycanlılara qarşı törətdiyi saysız-hesabsız cinayətlər lazımınca qələmə alınmamış, sənədləşdirilməmişdir. XX əsrdə Ermənistan və Azərbaycan ərazisində Vedibasar, Göyçə, Zəngəzur, Naxçıvan, Qarabağ, Bakı, Şamaxı, Quba və başqa bölgələrdə ermənilərin vəhşilikləri tarixi sənədlərdə lazımınca əks olunmamış, bunlara hüquqi-siyasi qiymət verilməmişdir.

Məhz ümummilli lider Heydər Əliyevin imzaladığı "1948-1953 - cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi – etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 18 dekabr 1997-ci il tarixli Fərmanı xalqımızın başına gətirilən bu tarixi ədalətsizliyin həm də dünya ictimaiyyətinə çatdırılması məqsədini daşıyır. Bu isə qondarma Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll edilməsi üçün, xüsusilə, vacibdir.

**Xalqımız hardan biləydi ki, onu bundan sonra 20 Yanvar, soyqırımı cinayətlərinin ən dəhşətlisi olan Xocalı faciəsi gözləyir.**

1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ münaqişəsinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına da respublikada düzgün siyasi qiymət verilmədi. Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında ermənilərin qeyri-konstitusion qərarını və Moskvanın, əslində, bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsi ilə Azərbaycanın tabeliyindən çıxarmasını xalqımız ciddi narazılıqla qarşıladı və mühüm siyasi aksiyalara əl atmaq məcburiyyəti qarşısında qaldı. Respublikada keçirilən mitinqlər zamanı torpaqlarımızın işğalı siyasəti qətiyyətlə pislənsə də, Azərbaycan rəhbərliyi öz passiv mövqeyindən əl çəkmədi. Məhz elə bunun nəticəsi olaraq, 1990-cı ilin yanvar ayında getdikcə güclənən xalq həzəkatını boğmaq məqsədilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu.

1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə yeksan edilməsi ilə başa çatdı.

Ümummilli lider Heydər Əliyev titanik, yorulmaz fəaliyyətini ona yönəltmişdir ki, qondarma Dağlıq Qarabağ məsələsi dinc yolla, beynəlxalq hüquq normalarına uyğun, ədalətli həllini tapsın. Lakin dünyada bir sıra dövlətlərə qarşı ikili standartlar mövcud olduğundan və s. səbəblərə görə bu məsələnin həlli yubadıldı. Təkcə bunu göstərmək kifayətdir ki, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılması haqqında BMT Təhlükəsizlik Şurası 4 qətnamə (822, 853, 874, 884 №-li) qəbul etmiş, lakin Ermənistan Respublikası həmin qətnamələrin tələblərinə indiyədək əməl etməmişdir.

**Bu gün biz böyük siyasətçi Heydər Əliyevin ailəsində doğulub, boya-başa çatmış, onun tərbiyəsini almış, yetkin bir siyasətçi kimi formalaşmış, Heydər Əliyev idarəçilik məktəbinin layiqli nümayəndəsi, onun müdrik, uzaqgörən, çevik daxili və xarici siyasətinin layiqli davamçısı cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti olması ilə fəxr edirik.**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: "Soyqırımı siyasəti müxtəlif dövrlərdə fərqli formalarda həyata keçirilmiş, kütləvi qətllər və hərbi əməliyyatlarla müşayiət olunmuşdur".

**İndi respublikamızın əhalisini bir sual ciddi düşündürür. Xalqımızın düçar olduğu belə faciələrin bir daha baş verməməsi, dövlətçiliyimizin daha da möhkəmləndirilməsi, ölkəmizin iqtisadi və hərbi qüdrətinin daha da yüksəldilməsi üçün nə etməli?! Cavab birmənalıdır: bunun üçün vətəndaş cəmiyyəti tam bərqərar olmalı, xaricdə yaşayan soydaşlarımız da daxil olmaqla, milli birliyə nail olunmalıdır. Buna isə ölkədə hər cür şərait vardır.**

**İlham Abbasov,**
Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının
prorektoru, baş ədliyyə müşaviri
hüquq elmləri namizədi

**“Qanunçuluq”.-** 2009.- №3.- S.38-41

## Tarixə şəhid qanı ilə yazılmış 20 Yanvar faciəsi

Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə xalqımızın tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 20 Yanvar müsibəti Ermənistanın təcavüzkar hərəkətlərinin və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığının nəticəsində baş vermişdir. Keçmiş Sovet dövlətinin hərb maşınının Azərbaycan xalqına qarşı həyata keçirdiyi bu vəhşi terror aktı insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi bəşərtarixində qara səhifə olaraq qalacaqdır. Milli azadlığı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. Sovet Ordusunun böyük kontingentinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi. Kommunist diktaturası Çexoslovakiyaya, Macarıstana, Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni, hətta Sovet İttifaqının müttəfiq respublikalarından biri olan Azərbaycanda da təkrarlamaqdan çəkinmədi.

Həmin vaxt Azərbaycan qonşu Ermənistanın da təcavüzünə məruz qalmışdı. Belə bir şəraitdə sovet rəhbərliyi nəinki münaqişənin qarşısını almaq üçün qəti tədbirlər görməmiş, əksinə, Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınmış erməni əsgər və zabitləri, sovet hərbi hissələrində xidmət etmiş ermənilər, hətta erməni kursantlar da daxil edilmişdi. Bakıya yeridilmiş qoşun kontingentinə, «döyüş tapşırığını» yerinə yetirmək üçün möhkəm psixoloji hazırlıq keçmişdilər («Şit» təşkilatı müstəqil hərbi ekspertlərinin hesabatından): «…sizi Bakıya rusları müdafiə etmək üçün gətirmişlər, yerli əhali onları vəhşicəsinə məhv edir; ekstremistlər Salyan kazarmalarının (Bakıda əsas hərbi qarnizonun yerləşdiyi ərazi) ətrafındakı evlərin damlarında snayperlər yerləşdirmişlər, təkcə bu ərazidə 110 atəş nöqtəsi var; binalar, mənzillər Azərbaycan Xalq Cəbhəsinin yaraqlıları ilə doludur, onlar sizi güclü avtomat-pulemyot atəşinə tutacaqlar».

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə SSRİ rəhbərliyinin göstərişi ilə Azərbaycanda kommunist rejimini saxlamaq və milli-azadlıq hərəkatını boğmaq məqsədilə Bakıya 35 minlik (bəzi məlumata görə; qoşun sayı 60 min nəfərə çatırdı) ordu yeridilmişdi. SSRİ Müdafiə Nazirliyi. DİN və DTK-nın hazırlayıb həyata keçirdiyi «Udar» adlı əməliyyatda əsas rolu xüsusi təyinatlı «ALFA» və SSRİ DTK-nın «A» təxribat qruplan «oynayırdı».

Mixail Qorbaçov başda olmaqla sovet imperiyasının rəhbərliyi Bakıda «rus və erməni kartı»ndan da məharətlə istifadə etdi. Guya Bakıya qoşun onları, hərbi qulluqçuların ailələrini qorumaq, «millətçi ekstremistlər» tərəfindən hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə bu açıq riyakarlıq, ağ yalan idi. Çünki Sovet rəhbərliyinin «dəliiləri» hətta həqiqətə yaxın olsaydı belə, Bakıya təpədən-dırnağadək silahlandırılmış qoşun göndərməyə ehtiyac yox idi. Ona görə ki, həmin vaxt burada daxili qoşunların 11,5 min əsgəri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri, Hava Hücumundan Müdafiə qüvvələri var idi. 4-cü Ordunun komandanlığı da Bakıda yerləşirdi. Bütün bunlara baxmayaraq. 1990-cı il yanvarın 19-da Mixail Qorbaçov SSRİ Konstitusiyasının 119-cu. Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini və eləcə də 1996-cı il «Vətəndaş və siyasi hüquqlar» barədə Beynəlxalq Müqavilənin I maddəsinə görə Azərbaycan Respublikasının suveren hüquqlarını kobud şəkildə pozaraq. yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. DTK-nın «Alfa» qrupu yanvarın 19-da saat 19.27-də Azərbaycan televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və əhaliyə divan tutmağa başladı. Qorbaçovun fərmanı qüvvəyə minənədək - yanvarın 20-də saat 00-dək artıq 9 nəfər öldürülmüşdü.

Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100 nəfərə çatmışdı. Halbuki, Qorbaçovun Azərbaycana ezam etdiyi yüksək vəzifəli emissarlar həyasızcasına bəyan edirdilər ki, Bakıda fövqəladə vəziyyət elan olunmayacaqdır. Əli yüzlərlə insanın qanına batmış, sonralar Nobel sülh mükafatı almış Mixail Qorbaçov başda olmaqla sovet imperiyası rəhbərliyinin rəzil siması bu idi…

Həmin gecə tanklar və «BTR»-lər Bakı küçələrində qarşılarına çıxan hər şeyi əzir, hərbçilər hər yanı amansız atəşə tuturdular. İnsanlar nəinki küçələrdə, hətta avtobuslarda gedərkən, öz mənzillərində oturduqları yerdə güllələrə tuş gəlirdilər. Yaralıları aparmağa gələn «Təcili yardım» maşınlarını və tibb işçilərini də atəşə tuturdular. Bir neçə gün ərzində 137 insan öldürülmüş (onlardan 117-si azərbaycanlı, 6-sı rus, 3-ü yəhudi, 3-ü tatar idi); 744 adam ağır xəsarət almış, 4 şəxs itkin düşmüş, 400 nəfər isə həbs edilmişdi. Yanvarın 20-də

fövqəladə vəziyyət elan ediləndən sonra əlavə 21 nəfər qətlə yetirilmişdi. Fövqəladə vəziyyət elan edilməmiş rayonlarda isə (Neftçala, Lənkəran) 25-26 nəfər öldürülmüşdü.

O ərəfədə baş vermis hadisə ilə bağlı bir çox xarici təşkilatlar hesabatlar hazırlayır və öz obyektiv mövqelərini ortaya qoyurdular. Bu təşkilatlardan biri olan «Şit» təşkilatının ekspertlərinin hesabatında qeyd edilir:

…«adamları xüsusi qəddarlıqla və yaxın məsafədən güllələmişlər. Məsələn, Y. Meyeroviçə 21, D. Xanməmmədova 10-dan çox, R. Rüstəmova 23 güllə vurulmuşdur;

- xəstəxanalar, «Təcili yardım» maşınları atəşə tutulmuş; həkimlər öldürülmüşdür;
- adamlar süngü-bıçaqla qətlə yetirilmişlər. Onların arasında hər iki gözü tutulmuş B.Yefimtsev də var;
- «Kalaşnikov» avtomatının ağırlıq mərkəzi dəyişən 5,45 çaplı güllələrindən istifadə edilmişdir».

Həlak olanlar arasında yetkinlik yaşına çatmayanlar, qadınlar, qocalar, şikəstlər də var idi. Qorbaçovun və ətrafındakıların «millətçi ekstremistlər» adlandırdıqları bunlar idimi? Öz ölkəsinin xalqına qarşı bu cür amansızlığa inanmaq çox çətindir.

Beynəlxalq Hərbi Tribunala, 1949-cu il Cenevrə müqaviləsinin «Hərbi Qurbanların Müdafiəsi» qərarına. 1977-ci il 1 və 2 Əlavə protokollarına və eləcə də Azərbaycan Konstitusiyasına əsaslanaraq bəzi hərbiçilər antihumanist hərəkətlərinə görə beynəlxalq cinayətkar hesab olunurlar. 1948-ci ilin insan Hüquqları barədə Ümumdünya Bəyannaməsi, 1966-cı ilin Vətəndaş və Siyasi insan Hüquqları barədə Beynəlxalq Pakt, 1966-cı ilin Mədəni, Sosial və iqtisadi Hüquqları barədə Beynəlxalq Pakt və 1975-ci ilin Avropada Təhlükəsizlik və Əməkdaşlıq razılaşmasının son bəyannaməsi, ATƏT-in 1989-cu il Vyana görüşünün son qərarı (fövqəladə vəziyyətdə və hərbi münaqişələr zamanı qadın və uşaq hüquqlarının müdafiəsi Bəyannaməsi). hərbi əməliyyatların aparılmasını tənzimləyən qüvvədə olan müqavilələr. əsasən də 1980-ci ilin döyüş zamanı yüngül fırlanan və yayılan güllələrin istifadə edilməməsinin Bəyannaməsi (1967-ci ildə quru döyüşünün qayda və qanunları barədə IV Haaqa müqaviləsi) də bura daxil olmaqla qüvvədə olan bütün insan Haqlarına əsaslanan beynəlxalq müqavilələr kobudcasına pozulmuşdur.

Yanvarın 20-də artıq bütün dünya Bakıda törədilmiş dəhşətli qırğından xəbərtutdu. Sovet imperiyasının ideoloji raporu olan «Pravda» qəzeti isə 22 yanvartarixli nömrəsində belə yazırdı: «Fövqəladə vəziyyət elan edilməsi üçün görülmüş tədbirlər nəticəsində guya qadınlar və uşaqların tələf olması barədə bəyanatlar aşkar fitnəkar xarakter daşıyır. Bir daha təkrar etmək lazımdır ki, bu, qərəzli yalandır! On-dan məqsəd əhalini sovet ordusuna və hüquq-mühafizə orqanlarına qarşı qaldırmaqdır…»

20 Yanvar və Azərbaycan tarixində ondan əvvəlki faciəli hadisələr XX əsr boyu xalqımıza qarşı yeridilən düşünülmüş siyasətin növbəti təzahürü idi. Azərbaycan xalqına qarşı soyqırımı, sovet hakimiyyəti illərində Azərbaycan ərazilərinin tədricən ilhaq olunması, nəticədə ölkə ərazisinin 125 min kvadrat kilometrdən 86.6 min kvadrat kilometrədək azalması, sovet rəhbərliyinin havadarlığı ilə başlayan Dağlıq Qarabağ hadisələri, azərbaycanlıların Ermənistan ərazisindəki əzəli torpaqlarından qovulması bu siyasətin mərhələləridir.

1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da. Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı. müstəqilliyi üçün yol açdılar…

Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonrakı ilk illərdə başları hakimiyyət uğrunda mübarizəyə qarışmış respublika rəhbərləri 20 Yanvar qırğınına siyasi-hüquqi qiymət verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində məqsədyönlü iş aparmadılar. Yalnız Ümummilli Lider Heydər Əliyevin səyi nəticəsində 1994-cü ildə Qanlı Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verildi, faciənin günahkarlarının adları açıq şəkildə bəyan edildi…

1990-cı ilin 20 Yanvarı xalqımızın qanı ilə, canı ilə yazdığı şanlı bir səhifədir. O gecə neçə gəlinlər gözüyaşlı, neçə analar sinəsidağlı, neçə körpələrimiz yetim qaldı. O məşum gecə sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından illər keçməsinə baxmayaraq, xalqımız o anları daim xatırlayır, həmin faciənin ağrısı ilə yaşayır, bu vəhşiliyi törədənlərə, xəyanət və fəlakətin səbəbkarlarına öz dərin nifrətini bildirir. Azərbaycan xalqı öz qəhrəman övladlarının fədakarlığını yüksək qiymətləndirərək hər il yanvarın 20-də onların xatirəsini dərin ehtiramla yad edir. Hər il dövlət səviyyəsində geniş tədbirlər planı hazırlanaraq həyata keçirilir, qanlı qırğının ildönümü respublikanın bütün şəhər və rayonlarında qeyd olunur. Şəhidlər Xiyabanının girişindən başlayaraq. hər yer al-qırmızı qərənfilə bürünür. Abşeron torpağının yetirdiyi, vaxtilə toy-büsatların, şadlıq məclislərinin bəzəyi olan qırmızı qərənfillərin də artıq on doqquz ildir ki, bağrı qan ağlayır - onlar müqəddəs şəhid qanının rəmzinə çevrilmişdir.

Böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi Qorbaçov başda olmaqla cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, öz azadlığına,

müstəqilliyinə can atan xalqımızın həm də mübarizliyini, əyilməzliyini. məğrurluğunu nümayiş etdirdi. 20 Yanvar hadisələrində xalqımız qurbanlar versə də, həmin faciəli gün inam və sınaq günü kimi yadda qalmışdır. Xalqımız həmin gün özünün azad və müstəqil yaşamağa layiq olduğunu bir daha sübut etmişdir. Çünki burada uyuyan insanlar saf, təmiz əqidə. ideya uğrunda ölümə gediblər.

Təəssüflər olsun ki, torpaqlarımızın 20 faizı düşmən tapdağında, işğal altındadır və hər bir qeyrətli vətəndaş bunun mənəvi ağrısını ürəyində daşıyır. Torpaqlarımız işğaldan azad ediləndə, burada əbədiyyətə qovuşan şəhidlərimizin ruhu da sevinəcək, biz bu ziyarətgaha alnıaçıq, üzüağ qədəm qoyacağıq.

Vətənin azadlığı, suverenliyi uğrunda özlərini qurban verən şəhidlərin xatirəsi həmişə qəlblərdə yaşayacaqdır. Qoy şəhidlərimizin ruhu şad olsun!

**Aygün Cəbrayılova,**
*Azərbaycan Respublikası Dini Qurumlarla*
*İş üzrə Dövlət Komitəsinin Dinşünaslıq ekspertizası,*
*İctimai məsələlər və analitik təhlil şöbəsinin baş mütəxəssisi*

**“Dövlət və din”.**- 2009.- №1(9).- S.41-45.

## 19 yanvarda televiziyanın enerji bloku niyə partladılmışdı?

1990-cı ilin faciəli yanvar günlərinin ən dəhşətli məqamlarından biri televiziyanın enerji blokunun partladılması idi. Məlumat üçün bildirək ki, ən operativ informasiya vasitəsi olan televiziya və radionun fasiləsiz fəaliyyəti məhz enerji blokunun işindən asılıdır. Enerji bloku işləmirsə, deməli, televiziya da, radio da susuz dəyirmana dönəcək. 1990-cı il yanvar ayının 19-da axşam enerji mənbəyi olan blokun partladılmasından məqsəd də, fövqəladə vəziyyət elan olunmadan, bir neçə saat sonra sovet qoşunlarının Bakını zəbt etməsinə haqq qazandırmaq, xalqı informasiya blokadasında saxlamaq idi. Həmin hadisə zamanı televiziyanın montaj otağında "Xəbərlər" proqramını efirə hazırlayan o vaxtkı baş redaktor müavini Telman Qafarovla söhbətdə həmin günləri xatırladıq.

- Telman müəllim, bildiyimizə görə, siz həmin o partlayış axşamı televiziyanı tərk edib getməyən bir neçə nəfərdən biri olmuşunuz. Rəhbərlik nəyə görə işçiləri oradan uzaqlaşdırmağa çalışmışdı? Bəs siz hansı səbəbdən orada qaldınız?

- Bu məsələlərə, demək olar, tam aydınlıq gətirilib. Aradan 19 il keçib. Həyatdan gedənlərin dalınca danışmaq istəmirəm. Allah günahlarını bağışlasın. Nə isə… Teleradio işçiləri günorta saatlarında dəstə-dəstə, tələsik televiziyanın giriş qapısından çıxanda mən, Alı Mustafayev, Nadir Abdullayev və operator Ələşrəf Maratlı şəhərdə ayrı-ayrı vətəndaşlardan müsahibələr götürüb işə qayıdırdıq. Bir neçə nəfərin təlaşla "hara gedirsiniz, qayıdın, idarədə heç kəs yoxdur" - deməsindən bir şey başa düşmədik. Sonra məlum oldu ki, işçilər məhz respublika rəhbərliyinin, Ə.Vəzirovun göstərişi ilə televiziyadan evə buraxılıb. İkinci mərtəbədəki montaj otağına gəldik. Tələsirdik, saat 8-də "Xəbərlər" efirə çıxmalı idi.

- Müsahibələri kimlərdən götürmüşdünüz? Mövzu nə idi?

- Əsas mövzu Qorbaçovun Azərbaycana qarşı düşmənçilik mövqeyi, bir də Ə.Vəzirovun və respublikanın digər rəhbərlərinin o günlərdəki antixalq mövqeyinin tənqidi idi. Son günlərdə Vəzirov televiziya rəhbərliyinə tapşırmışdı ki, məni tənqid etsinlər, amma təhqirə yol verməsinlər. Müsahibə verənlərin ağzından od püskürürdü, bəzən təhqiramiz ifadələr də işlədilirdi. Biz montaj zamanı çox dərinə gedib hər sözü "qayçılamırdıq". Saat 7-də məni telefona çağırdılar. Telefonda dedilər: "Telman, sən hələ ordasan? Yaşca səndən böyük bir şəxs kimi, həmyerlin kimi, xahiş edirəm, tələb edirəm, bu dəqiqə düş aşağı, özü də arxa qapıdan yox, əsas qapıdan - hovuz tərəfdən çıx".

- Danışan kim idi?

- İldırım Kəngərlinski, sədr müavini idi. İkimiz də əslən Yerevan şəhərindən olduğumuz üçün mənə canıyananlıq göstərirdi. Mən çıxmadım, qalıb işimi davam edirdim.

- Yanınızda kimlər vardı?

–"Günün ekranı" proqramının aparıcı əməkdaşları Alı Mustafayev, Nadir Abdullayev, montaj sexinin rəhbəri Rafiq Qasımov, bir də baş rejissor Vasif Babayev bir yerdə idik. Məni yenə telefona çağırdılar. Danışan rəhbərlərimizdən biri idi. Hökmlə danışdı. "Tez ol oradan get" - dedi. Rədd cavabı verdim, "gözlə, yaxandan medal asacaqlar" - deyib telefonu qapadı.

Axşam 8-ə 20 dəqiqə işləmiş boğuq bir gurultunun eşidilməyi ilə montaj otağının, bütövlükdə, binanın zülmətə qərq olması bir oldu. Kim isə dilləndi: " Partlatdılar, demişdilər də…"

Kibrit yandırıb aşağı qaçdıq. Arxa qapıdan həyətə çıxanda gözlərimizə inanmadıq. Enerji blokunun qapıları, avadanlıqların hissələri, daş-kəsək əraziyə səpələnmişdi. Blok hələ tüstülənirdi. Orda-burda kiçik alov görünür, qığılcımlar ətrafa səpələnirdi. "Bəlkə içəridə qalan, xəsarət alan var? "- deyib içəri atıldıq. Qabaqda mən, Rafiq Qasımov, bir də Alı Mustafayev idi. İçəridən harayımıza səs verən olmadı. Texniki işçilərdən biri gəlib dedi ki, içəridə heç kim qala bilməz, bir az əvvəl rus əsgərləri blokda işləyənlərin hamısını buradan qovdular. Çox keçmədi ki, əsgərlər bizi də oradan qovub küçəyə çıxartdılar. Montaj otağına qayıdıb lentlərimizi götürməyə də imkan vermədilər.

- Ertəsi gün yanvarın 20-si idi…

- Mən Bülbülə qəsəbəsində yaşayırdım. Səhər öz maşınımla evdən çıxıb aeroport yoluna çatanda gecə necə dəhşətlər törədildiyi mənə bəlli oldu. Yollar qana boyanmışdı, minik və yük maşınları əzik-üzük edilmişdi, qan gölməçələrinin yanına qərənfillər qoyulmuşdu. İnsan seli Mərkəzi Komitəyə tərəf üz tutmuşdu. Ara yollardan keçib televiziyaya çatdım. Axşam partladılmış enerji blokunun qabağında çoxlu yüksək rütbəli hərbçilər, rəhbər mülki şəxslər toplaşmışdı. Saat 9-da baş mühəndis Rəhim Dərafərin və bir neçə mütəxəssis təmirə başladılar.

- Həmin gün Teleradio Komitəsində, deyilənə görə, dramatik hadisələr baş verib …

- Saat 10-da bir neçə nəfər qarşı tərəfdə - hovuzun yanında söhbət edirdik. Xalq şairi Bəxtiyar Vahabzadə də gəldi. Gözündən qan damırdı, hirsindən əlləri əsir, dili söz tutmurdu. Elə bu vaxt televiziya və radioya nəzarət edən general Ovçinnikov mühafizəçilərinin əhatəsində bizə yaxınlaşıb əmr etdi ki, bir yerə toplaşmayın, ərazini tərk edin. Bunu deməyi ilə Bəxtiyar Vahabzadənin ona tərəf atılıb üzünə tüpürməyi, üstəlik "svoloç!" deməyi indi də gözümün qabağındadır. Bircə anda generalın mühafizəçiləri avtomatlarına güllə yeridib üstümüzə tuşladılar. Elə bu vaxt möcüzə baş verdi. Alı Mustafayev generala yaxınlaşıb şirin Qazax ləhcəsində, "tovariş general, on deputat, narodnıy poet" - dedi. General da, mühafizəçilər də qəzəblə bizdən uzaqlaşdılar…

- Enerji blokunun təmiri nə vaxt başa çatdı?

- Təxminən 2 gün sonra təmir başa çatdı, televiziya fəaliyyətə başladı. "Fəaliyyət" deyəndə ki, ancaq generallar Ovçininkov və Dubinyakın əmrləri, xalqı sakitliyə çağıran müraciətləri verilirdi. Özləri yazıb, özləri də oxuyurdular. Yollara səpələnmiş qərənfilləri, şəhid məzarlarını çəkmək, efirə vermək mümkün deyildi. General lentlərə baxandan sonra qərarını verdi. Məsələn, mən həmin günlərin birində şəxsən tanıdığım şəhid Zahid Əliyevin ailəsini və məzarını çəkib efirə vermək istəyəndə Ovçinnikov al qərənfillərə qərq olmuş məzarı görüb, sanki, gürzə ilanla rastlaşıbmış kimi bağırdı: "snyat" (çıxarılsın!) Höcətləşməm onunla bitdi ki, məni avtomat qundağı ilə itələyib otaqdan çıxardılar.

- Ümidiniz nəyə idi? Dövranın belə qalmayacağına inamınız vardımı?

- İnanın, bizi yaşadan ümid idi, inam idi. Bilirdik ki, Azərbaycan gec-tez müstəqil olacaq, şəhidlərimizin arzuları gerçəkləşəcək. Şükürlər olsun ki, indi o günləri yaşayırıq. Allah cəmi şəhidlərimizə rəhmət eləsin!

**Tahir AYDINOĞLU**

**"Xalq qəzeti".- 2009.-** 24 yanvar.- N 17.- S.4.

## Faciələrimiz rəhbərsizlikdən törəndi

**Ey Vətən oğlu, Vətən övladı  Sil gözün yaşını**
**Qan haçan yerdə qalıb? Təzələ öz yaddaşını.**
**QABİL**

Hegelin belə bir fikri var: **"Xalqlar və dövlətlər tarixdən heç vaxt və heç nəyi öyrənməyiblər".**

Bu sözlər bizim xalqımıza da aiddir. Son üç minillik tarixində xalqımızın başına 20 Yanvar və Xocalı faciələrinə oxşar bəlalar çox gəlib. Lakin tarixən sadə qəlbli və nikbin xalqımız öz yaxın və uzaq keçmişini unuda-unuda yaşadığından yaddaşında ibrət dərsi götürməyə elə bir hadisə qalmayıb.

20 Yanvar 1990-cı il və 26 fevral 1992-ci il tarixli faciələri Azərbaycan xalqına qarşı növbəti soyqırımları idi. Azərbaycan prezidenti Heydər Əliyev Yanvar hadisələri haqqında demişdir: "Yanvar hadisələrinin ildönümünü qeyd edərkən biz bir tərəfdən sovet tanklarının qarşısına əliyalın çıxan adamlarımızın qəhrəmanlığını təbliğ etməli və hadisələrin ibrət dərsini unutmamalıyıq, eyni zamanda həmin gün Vətənimizin azadlığı uğrunda canlarından keçənlərin xatirəsini yad etməliyik".

1990-cı il 20 Yanvardan, 1992-ci il 26 fevraldan keçən müddətdə bu ümummilli faciələrə siyasi qiymət verilməsi ümumi fikir birliyinin yaranması istiqamətində xeyli irəliləyiş olub. Əvvəllər məhdud şəxsi və partiya mənafeyindən bu məsələlərə yanaşanlar bu gün tədricən öz mövqeyini dəyişib ümumxalq mövqeyi baxımından onlara qiymət verirlər. Lakin bu hadisələrin başvermə səbəbləri, əsas günahkarları və ibrət dərsləri ilə bağlı mətbuatda dərc olunan məqalələrdən hiss olunur ki, bir çox ciddi fikir ayrılıqları hələ də qalmaqdadır. Və biz başımıza gələn faciələrdən bu gün də nəticə çıxarmamışıq.

Ona görə də hər iki faciənin başvermə səbəbləri, əsas günahkarları və ibrət dərsləri ilə bağlı öz fikirlərimi oxucularla bölüşmək qənaətinə gəldim.

**Əvvəlcə 1990-cı il 20 Yanvar faciəsini təhlil edək.**

**I. 20 Yanvar faciəsinin səbəbləri:**

Yanvar faciəsinin başvermə səbəbləri haqqında iki müxtəlif fikir var:

1) 20 Yanvar qırğını - sovet imperiyasını qoruyub saxlamaq və Azərbaycan xalqının milli-azadlıq hərəkatını boğmaq üçün törədilmişdi;

2) 20 Yanvar qırğını sovet dövlətini dağıtmaq üçün ortaya atılmış Dağlıq Qarabağ problemini ermənilərin xeyrinə həll etmək məqsədilə Azərbaycan xalqının gözünü qorxutmaq, onun milli-azadlıq hərəkatmı boğmaq üçün törədilmişdi

Səbəb kimi bunlardan hər ikisi eyni dərəcədə inandırıcı olsa da, ikinci fikir daha real və eynidir. Əgər M.S.Qorbaçov və onun əlaltıları 20 Yanvar qırğınını imperiyanı qoruyub saxlamaq üçün törətsəydi, gərək onda erməniləri, Baltikyanı ölkələri bizdən tez qıraydı. Çünki onlarda milli-azadlıq hərəkatı daha erkən başlamışdı. Zaman və hadisələrin sonrakı gedişi şəksiz sübut edir ki, M.S.Qorbaçov məhz SSRİ-ni dağıtmaq üçün 1986 - cı ilin dekabrında AIma-Ata hadisələrini, 1989-cu ilin aprelində Tbilisi hadisəsini, 1990-cı il yanvarın 20-də Bakı hadisəsini, 1991-ci ilin yayında isə Vilnüs hadisəsini törətdi. Özü də bu hadisələr planlı şəkildə, məxfi qrafik üzrə törədildi. Birinci fikri söyləyənlər, yəni "20 Yanvar qırğını imperiyanı qoruyub saxlamaq üçün törədilmişdi" şəklində mühakimə yürüdənlər əslində özləri də bilmədən, yaxud da bilərəkdən M.S.Qorbaçova və bu ağır cinayətin digər iştirakçılarına mənəvi haqq qazandırmış olurlar. Əlbəttə, dövlətin ağıllı başçısı onu qorumalıdır, dağıtmalı deyil ki?!

Əsl həqiqət isə ondan ibarətdir ki, M.S.Qorbaçovun SSRİ-ni dağıtmaq üçün rəvac verdiyi Qarabağ problemi tədricən genişlənib Ermənistan-Azərbaycan müharibəsinə çevrildi. Azərbaycanın o vaxtkı rəhbərliyinin maymaq, milli mənafedən uzaq antixalq siyasəti ermənipərəst Qorbaçov rejiminin Dağlıq Qarabağı Ermənistana vermək istiqamətində atdığı addımlara daha da şərait yaradırdı. Lakin həmvətənlərimizin didərgin salınmasından, torpaqlarımızın işğal olunmasından duyuq düşən Azərbaycan xalqı öz azadlığı, ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizəyə qalxdı. Getdikcə xalq hərəkatı yüksəlir, onun mütəşəkkilliyi artır, deməli, yuxarı Qarabağla bağlı gizli planların həyata keçirilməsi çətinləşirdi. Ermənistanda yaşayan 200.000 azəri zorla ata-baba torpaqlarından qovulduğundan Azərbaycanda yaşayan ermənilər üçün də müvafiq təhlükə artırdı. SSRİ-ni dağıtmaq vəzifəsini qarşısına qoyan M.S.Qorbaçova da elə bu lazım idi. Beləliklə, Bakıda və digər şəhərlərdə, eləcə də Dağlıq Qarabağda yaşayan ermənilərin həyatı üçün guya təhlükə yarandığını, islam fundamentalizminin gücləndiyini və s. bəhanə edərək M.S.Qorbaçov və onun komandası 1990-cı il Yanvar hadisələrini törətdi.

**M.S.Qorbaçovun özü 1995-ci ildə Moskvada nəşr olunan "Jizn i reformı" adlı kitabında yazır: "90-cı illər erməni azərbaycanlı münasibətlərinin yenidən kəskinləşməsi ilə əlamətdar oldu ki, bu da Bakıda erməni qırğınına, ermənilərin şəhərdən "çıxıb getməsinə" gətirib çıxardı. Bu faciə və tarixdən aldığım dərs budur: "Ekstremal şəraitlərdə hakimiyyət güc tətbiq etmədən keçinə bilməz". Onun bu sözləri 20 Yanvar faciəsinin törədilməsinin əsl mahiyyətini pərdələmək məqsədi güdür. Real tarixi həqiqət isə ondan ibarətdir ki, 1985-ci ilin aprelində hakimiyyət başına gələn və "yenidənqurma" konsepsiyası ilə guya SSRİ-də islahatlar aparmaq istədiyini bildirən M.S. Qorbaçovun əsl niyyəti bu dövləti dağıtmaq, xalqlar arasına nifaq salmaq, onları bir-birilə vuruşdurmaq idi.**

İndi bir daha aydın oldu ki, M.S.Qorbaçov və onun komandası SSRİ-ni dağıtmaq, Azərbaycan xalqının isə milli-azadlıq hərəkatını boğmaq, onun gözünü qorxutmaq və Qarabağ problemini Ermənistanın xeyrinə həll etmək məqsədilə 20 Yanvar faciəsini törətmişdir. Faciəni törədən ən başlıca səbəb bu idi. Aydındır ki, bu qlobal və beynəlxalq mahiyyətli hadisənin törədilməsinin digər səbəbləri də ola bilər. Lakin onlar ikinci dərəcəli səbəblər, yaxud da bu əsas səbəbdən törənən nəticələrdir.

20 Yanvar faciəsinin başvermə səbəblərindən danışarkən belə bir vacib sualı da aydınlaşdırmaq lazım gəlir: bu faciə obyektiv zərurətindənmi törənmişdi? Yaxud da həmin günlər kütləvi qırğınlardan qaçmaq və ya yan sovuşmaq mümkün idimi? Bu sualın cavabını verərkən ziyalılar, tədqiqatçılar və ya siyasətçilər yenə də əsasən 2 qrupa bölünürlər:

Birinci qrupun nümayəndələri 20 Yanvar faciəsini M.S.Qorbaçovun SSRİ-ni qoruyub saxlamaq məqsədilə törətdiyini iddia edərək belə bir fikir də irəli sürürlər ki, bu hadisədən qaçmaq mümkün deyildi. Faciə planlaşdırılmış bir hadisə idi. AMİP lideri Etibar Məmmədov deyir: **"Moskva bu cəza aksiyasını həyata keçirməliydi. Bunu əsaslandırmaq üçün Azərbaycanda hakimiyyətdə olan, xalqımızın taleyi üçün məsuliyyət daşıyan adamlardan da istifadə olunmuşdu. Onların əlilə Moskvaya teleqramlar hazırlanmışdı ki, Azərbaycanda kütləvi qırğınlar gedir, rus əhalisi kütləvi şəkildə çıxarılır və s. Bunun da qarşısını almaq, qayda-qanun yaratmaq üçün Bakıya ordu hissələri yeridilmişdi. Bunu əsas kimi götürüb ordunu Bakıya yeritmişdilər. Bu da xalqın gözünü qorxutmaq, onu cəzalandırmaq üçün hazırlanmış plan idi. Bu fikrin tərəfdarları 20 Yanvar faciəsini qanunauyğun bir proses kimi təqdim edirlər. Və bildirirlər ki, hər bir azadlıq qan tələb edir, ona görə də bu labüd bir proses idi. Digər tərəfdən də, onlar söyləyirlər ki, sovet imperiyası da digər bütün imperiyalar kimi dağılarkən mütləq ucqarlarda qan-qırğın törətməli idi. Xalq Cəbhəsinə və digər müxalifətçi partiyalara mənsub olan siyasətçilər deyirlər ki, bu, sovet imperiyasının təbiətindən doğan bir obyektiv hal idi. Maraqlıdır ki, onların bu ideyası "Respublika" qəzetində Musa Axundov və Qəşəm Əliyev tərəfindən daha da əsaslandırılır:**

**"… 70 il idi yol gəlirdik "20 Yanvara", 70 ilin bəhrəsiydi "Qara Yanvar", "20 Yanvar". 1920 - ci ilin 28 aprelindən üzü bəri hər an gözlənilirdi bu qırğın. Odur ki, bu soyqırımı mütləq olmalıydı. Fərqi yoxdur, beş gün tez, beş gün gec…".** Güman ki, müxalifət düşərgəsinin nümayəndələri də bu fikirdədirlər. Aydındır ki, kağızı, qəzeti və ya jurnalı doldurmaq üçün yazılmış və ya deyilmiş bu fikirlərin real həqiqətlə heç bir əlaqəsi yoxdur. Əgər biz bir anlığa 20 Yanvar faciəsinin Moskva tərəfindən planlaşdırılmış bir hadisə, quruluşun təbiətindən doğan hal olduğunu qəbul etsək, onda, deməli hadisələrin baş verməsində yerli rəhbərlərin və digər qüvvələrin günahlarını yüngülləşdirmiş və ya tamam yumuş oluruq. Əlbəttə, bu, tarixi saxtalaşdırmaq olardı. Bizə kimsə yalandan günahlandırmaq və ya kimisə sudan quru çıxarmaq yox, hadisəni törədən obyektiv səbəbləri və onun günahkarlarını aydınlaşdırmaq lazımdır.

İkinci qrupun nümayəndələri isə 20 Yanvar faciəsinin obyektiv, quruluşun təbiətindən gələn hal yox, tamamilə subyektiv amilın - yəni ayrı-ayrı vəzifəli şəxslərin Azərbaycan xalqına qarşı xəyanətinin nəticəsi hesab edirlər. Xalq şairi Bəxtiyar Vahabzadə, Dini Qurumlarla İş üzə Dövlət Komitəsinin (DQİDK) sədri Hidayət Orucov, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə, ASDP-nin həmsədri Zərdüşt Əlizadə və başqaları belə hesab edirlər ki, bu qırğm zəruri deyildi, ondan qaçmaq, onun qarşısını almaq mümkün idi. Bəxtiyar Vahabzadə (onun Yanvar qırğınına siyasi qiymət verməyə daha çox mənəvi haqqı çatır) bu barədə belə deyir: **"Mən o barədə bir kitab da yazmışam: "Şənbə gecəsinə gedən yol".** Əslinə baxsan, mən siyasətçi deyiləm. Amma belə şeyi zəruri hesab etmirəm. Düzdür, Xalq Cəbhəsi fəaliyyətdə idi, Milli Azadlıq Hərəkatı var idi, milli azadlıq duyğuları yetişmiş, cavanlarımız milli şüura çatmışdılar. Amma bütün bunlar "Şənbə gecəsi"ni zəruri hesab etməyə əsas vermirdi".

DQİDK sədri Hidayət Orucov öz müsahibəsində bildirir ki, faciənin qarşısını almaq mümkün idi. O halda ki, xalqın başında ağıllı, tədbirli, uzaqgörən, ən başlıcası isə millətinə sədaqətlə xidmət edən rəhbər olsaydı. Millətə sədaqətlə xidmət edən rəhbərin o vaxt kim ola biləcəyini şeyx həzrətləri öz müsahibəsində bir qədər də açıqlayır: **"Necə bilirsiniz, faciənin qarşısını almaq mümkün idimi",** - sualına Allahşükür Paşazadə

belə cavab verir: **“Bəli, onun qarşısını ala bilərdik. Əgər Vəzirovun istefasına nail olunsaydı. Çünki Vəzirov Moskvanın Azərbaycanda quyruğu idi. Mən elə bilirəm ki, həmin vaxt Azərbaycanda hakimiyyət dağılsa idi… Bizim ən böyük səhvimiz vaxtında Heydər Əliyevi hakimiyyətə gətirməməyimiz oldu. Əgər Heydər Əliyev onda gəlsəydi, bəlkə də o faciə baş verməzdi, Dağlıq Qarabağ məsələsi də bu vəziyyətə gəlib çıxmazdı”.**

Göründüyü kimi, 20 Yanvar faciəsi sadəcə olaraq rəhbərsizlikdən və hakimiyyətsizlikdən törəyib.

**II. 20 Yanvar faciəsinin əsas günahkarları**

Azərbaycan xalqına qarşı açıq təcavüz kimi qiymətləndirilən bu hadisədə 131 nəfər (122 kişi, 5 qadın, 4 uşaq) həlak olmuş, 700 nəfər (o cümlədən 25 qadın, 20 uşaq) yaralanmış, 12 nəfər isə itkin düşmüşdür. Həlak olanların milli mənsubiyyətinə görə 117 nəfəri azəri, 3-ü yəhudi, 3-ü tatar, 6-sı rus idi. Sosial mənsubiyyətinə görə 4-ü polis işçisi, 1-i həkim, 12-si tələbə, 1-i aspirant, 3-ü elmlər doktoru idi.

20 Yanvar faciəsinin dəhşətləri təkcə ölən və yaralananların sayı ilə deyil, həm də Bakıya yeridilmiş ordu hissələrinin xüsusi amansızlığı ilə onların insanlara qarşı törətdikləri vəhşiliklərlə (ölən və yaralananların əksəriyyəti arxadan vurulmuşdu) səciyyələnir. Bütün bu hərəkətlər şəksiz şəkildə 20 Yanvarın xüsusi niyyətlərlə. süni formada. özü da məqsədli şəkildə törədilməsindən xəbər verir. O şəxslər ki, 20 Yanvarın obyektiv səbəblərdən və ya quruluşun təbiətindən doğan bir hal olduğunu iddia edirlər, deməli, onlar beynəlxalq erməni lobbisinin Azərbaycan xalqına qarşı tarixi sovet quruluşundan çox-çox uzaqlara gedən məkrli planlarından, kin və küdurətinin dərəcəsindən xəbərsizdirlər.

Ermənilər bu dəfə öz planlarını M.S.Qorbaçovun əlilə törətdilər. 20 Yanvar mərkəzi və yerli dövlət hakimiyyəti orqanlarında oturmuş, ermənipərəst qatil, cəllad və qaniçən rəhbərlərin antidövlət və antixalq siyasətini və bir də hakimiyyətə can atan yeni siyasi qüvvələrin, o cümlədən Xalq Cəbhəsinə məxsus olan və DTK xətti ilə xalq hərəkatına yeridilmiş liderlərin günahı ucbatından baş verdi.

Faciədən keçən dövrdə bu günahkar tərəflərdən hər biri özünün günahsız olmaları haqqında nə qədər cəhdlər, təşəbbüslər etsələr də, tarix bu hadisəyə öz siyasi qiymətini vermişdir. Bununla belə, bu gün də faciənin əsas günahkarları və onların günahlarının nə dərəcədə çox və ya az olması məsələsində yersiz mübahisələr getməkdədir. Bəziləri Yanvar faciəsinin sovet quruluşunun təbiətindən doğduğu və ya sovet rəhbərləri tərəfindən planlaşdırıldığını və bu səbəbdən də ondan qaçmağın qeyri-mümkünlüyünü iddia etməklə, bu və ya başqa formada o vaxtkı yerli rəhbərlərin və ya Xalq Cəbhəsinin liderlərinin günahlarını yumaq və ya yüngülləşdirmək istəyirlər. ASDP-nin sədri Zərdüşt Əlizadə **“… Əlbəttə, həmin günlər kütləvi qırğınlardan qaçmaq olardı”,** - deyərək hadisənin baş verməsində 98 faiz M.S.Qorbaçovu, 2 faiz isə bilavasitə bu cinayətin törənməsi üçün qərar verən AXCP liderlərini günahkar hesab edir. Necə deyərlər, Ayaz Mütəllibovu, Ə.Vəzirovu və başqa yerli rəhbərləri isə “sudan quru” çıxarır.

Hadisələrin qaynar mərkəzində olsa da keçmiş ədliyyə naziri Əlisahib Orucov deyir: **“Əgər Moskva Azərbaycan Ali Sovetinin Rəyasət Heyətindən (onlar on bir nəfər idi) razılıq almasa idi, heç vaxt belə bir fərman verə bilməzdi. Qoşunun yeridilməsinin təşkilatçısı və təşəbbüsçüsü bizim rəhbərlik olmuşdur. Yoxsa, rusun nəyinə lazım idi ki, gəlib burada qan töksün”.** Bu sözlər 1988-ci ildən bu günə qədər baş verən proseslərin mahiyyətini Orucovun bu gün də başa düşmədiyini göstərir. O həm də unudur ki, 1986-cı ildə Alma-Ataya, 1989-cu ilin aprelində Gürcüstana, 1990-cı ilin yanvarında isə Bakıya qoşun yeridib dinc əhalini qıran zaman M.S.Qorbaçov ölkənin ali siyasi rəhbərliyi olan Sov-İKP MK-nın Siyasi Bürosu ilə məsləhətləşməmişdi və ölkənin ali rəhbərliyinin belə bir qərarı yox idi.

Kommunist Partiyasına mənsub olan bir çox digər nümayəndələr isə bu faciənin baş verməsində AXC-nin günahını daha çox şişirdərək deyirdilər: **“Həmin vaxt AXC dövlət çevrilişi törətmək istəyirdi”, “Qoşunlar bir gün də gec gəlsəydi, daha böyük faciə törənəcək, daha çox adam öləcəkdi”.** 1990-cı ilin yanvarın 25-də keçirilən Azərbaycan KP MK-nm növbədənkənar plenumunda Azərbaycan DTK-nın o vaxtkı sədri V.Hüseynov çıxış edərək bildirdi ki, 20 Yanvarda Bakıya qoşun yeridilməsinin hüquqi əsası var idi və guya qeyri-millətlərə qarşı zorakılıq halları olmuşdu, AXC hakimiyyətə gəlmək istəyirdi və s. elə oradaca xalqın qeyrətli oğullarından biri olan BDU-nun dosenti, MK üzvlüyünə namizəd Çingiz Həsənov Vaqif Hüseynova verdiyi sualda bildirib ki. sizin mövqeyinizlə M.S.Qorbaçovun mövqeyi eynidir. İndi mənə deyin: M.S.Qorbaçov sizin verdiyiniz məlumat əsasında çıxış edib, yoxsa sız onun çıxışma əsaslanırsınız? Ramiz Əhmədov, Qeysər Xəlilov və başqaları da ordunun Bakıya yeridilməsinə və qırğın törədilməsinə mənəvi haqq qazandırırlar. AXC-ni isə günahlandırırlar. Aydındır ki, bu fikirlər ümummilli mənafedən deyil, şəxsi hakimiyyət və ya qrup mənafeyindən deyilmiş sözlərdir və heç vaxt real həqiqətləri əks etdirə bilməz.

**I. 20 Yanvar faciəsinin ən böyük və birinci dərəcəli günahkarı M.S.Qorbaçov başda olmaqla o vaxtkı sovet rəhbərliyidir.** “Yenidənqurma” adı və ya guya islahatlar aparmaq bəhanəsi ilə həyata keçirilən tədbirlər əslində SSRİ-ni dağıtmaq məqsədi güdürdü Bu süni hərəkətlər nəinki Azərbaycana və digər sovet respublikalarına, eləcə də bütün bəşəriyyətə misli görünməmiş fəlakətlər gətirdi. 20 Yanvar faciəsi M.S.Qorbaçovun insanlığa, bəşəriyyətə qarşı törətdiyi yüzlərlə cinayətdən biri və bəlkə də ən dəhşətlisi idi. Ümumiyyətlə, 1985-ci ildən sonra keçmiş SSRİ ərazisində baş verən bütün faciə və hadisələrin ssenari müəllifi Sov.İKP MK-nın baş katibi Qorbaçov və onun erməni lobbisi tərəfindən ələ alınmış komandası idi.

1990-cı il yanvarın 19-da M.S.Qorbaçov “Yanvarın 20-dən Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında” SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarını imzalamışdı. Fərman yalnız yanvarın 20-də, səhər saat 6-7 radələrində, yəni televiziyanın enerji bloku partladıldıqdan və qırğın törədildikdən sonra radio ilə elan edilmişdi. Artıq o vaxt demək olar ki, əməliyyat başa çatmaqda idi. Əməliyyat başlamazda və fövqəladə vəziyyət elan olunmasından xeyli qabaq isə Bakı şəhərinə qrafik üzrə 1990-cı il yanvarın 11-də 2.557 nəfər, 12-də 1.061 nəfər, 13-də 710 nəfər, 14-də 1.415 nəfər, 16-da 1.600 nəfər, 17-də 225 nəfər, 18-də 190 nəfər, 19-da 60 nəfər əlavə əsgər, milis və kursant gətirilib.

**Ümumiyyətlə, qırğın vaxtı 66,5 min nəfərlik qoşundan istifadə edilib ki, onun da 44,9 mini Sovet ordusu, 20,6 mini daxili qoşunlar, 1.000 nəfəri isə kursant hissələri olub.**

Hadisə ərəfəsində, yəni 1990-cı il yanvarın 10-dan etibarən Azərbaycanda yaşayan yüksək vəzifəli rus vətəndaşlarının ailə və uşaqları aeroportdan Rusiyanın müxtəlif şəhərlərinə yola salınırmış. Bütün bunlar 20 Yanvarın M.S.Qorbaçov tərəfindən planlı şəkildə və xüsusi məqsədlərlə hazırlandığını və həyata keçirildiyini sübut edir. M.S.Qorbaçovun bu əmrinin həyata keçirilməsində bütün sovet rəhbərliyi, Sov.İKP MK Siyasi Bürosu və Nazirlər Kabinetinin üzvləri, eləcə də müdafiə naziri D.Yazov, onun müavini V.Barannikov, SSRİ daxili işlər naziri V.Bakatin, onun müavini A.Demodov, Sov.İKP MK katibi A.Girenko, Sov.İKP MK millətlərarası münasibətlər şöbəsinin müdir müavini V.Mixaylov, SSRİ müdafiə nazirinin birinci müavini, ordu generalı V.Varennikov, SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin birinci müavini F.Bobkov, kontr-admiral E.Sidorov və başqaları iştirak etmişlər. Onlar SSRİ-nin o vaxtkı qüvvədə olan Konstitusiyasının 119-cu maddəsinin 14-cü bəndini və Azərbaycan SSR Konstitusiyasını kobudcasına pozmuşlar. M.S.Qorbaçov Bakıda fövqəladə vəziyyət elan edərkən və qoşun yeridərkən Sov.İKP MK Siyasi Bürosunun razılığını almamışdı. Bu şəxslərin hamısı təkcə Azərbaycan xalqına qarşı deyil, eləcə də insanlığa qarşı cinayət törətdikləri üçün adları tarixin yaddaşına XX əsrin qaniçənləri kimi qara hərflərlə həkk olunmalıdır.

**2. 20 Yanvar faciəsinin II qrup günahkarları Ə. Vəzirov və A.Mütəllibov basda olmaqla Azərbaycanın o vaxtkı yerli rəhbərləri idi.**

Əgər biz 20 Yanvar faciəsinin M.S.Qorbaçov tərəfindən SSRİ-ni dağıtmaq və Azərbaycan xalqının gözünü qorxutmaqla Dağlıq Qarabağ problemini ermənilərin xeyrinə həll etmək məqsədilə törədildiyini deyiriksə, onda həmin vaxt Azərbaycanın yerli rəhbərləri olan Ə.R.Vəzirovun və A.N.MütəlIıbovun elə-belə, təsadüf nəticəsində və ya öz şəxsi qabiliyyətləri ilə həmin kürsülərə sahib olduqlarını düşünmək sadəlövhlük olardı. Ə.R.Vəzirov M.S.Qorbaçov tərəfindən o vəzifəyə Ermənistandan qovulan azərbaycanlıların Dağlıq Qarabağa yerləşdirilməsinə mane olmaq, Azərbaycandan isə ermənilərin çıxarılmasına imkan verməmək və ümumiyyətlə, Azərbaycan xalqının başının altına yastıq qoymaq, onu arxayınlaşdırmaq məqsədilə təyin edilmişdi. Ə.R.Vəzirov xalq tərəfindən “bambılı” ləqəbi qazansa da, “hamam tikmək”, “qoz əkmək”, “ölkəni kompüterləşdirmək” kimi sərsəm, yersiz ifadələr işlətməklə öz tarixi missiyasını “məharətlə” başa çatdırdı. 20 Yanvar 1990-cı il ərəfəsində artıq Ə.Vəzirov öz rolunu oynayıb bitirməkdə idi və həmin vaxt A.MütəIlibov fiquru yavaş-yavaş yeni “lider” obrazında xalqın şüuruna yeridilirdi. **Məlumdur ki, Dağlıq Qarabağ problemi SSRİ Ali Sovetində müzakirə edildiyi zaman, Ermənistan tərəfindən 1-ci şəxs - yəni Ermənistan KP MK-nın I katibi çıxış etdiyi halda, Azərbaycan tərəfindən isə 2-ci şəxs, yəni Nazirlər Sovetinin sədri Ayaz Mütəllibov çıxış edirdi. Onun yarı-çılpaq həqiqətləri rus dilində rəvan nitqlə söyləməsinə televiziyaya tamaşa edən xalqımız sadəlövhlüklə bu sözlərin səmimiyyətinə inanır, bu fiqurun gələcəyinə böyük ümidlə baxırdı. Həmin vaxt Ə.Vəzirov isə Azərbaycan nümayəndə heyətinin tərkibində əlini sifətinə qoyub qoyun kimi gözlərini döyürdü.**

**İndi anlayırıq ki. bütün bunların hamısı əvvəlcədən planlaşdırılmış bir ssenari imiş və Azərbaycanın o vaxtkı rəhbərləri ancaq və ancaq ermənilərin planlarını həyata keçirmək və torpaqlarımızın işğalına şərait yaratmaq. xalqın səfərbər olmasına. ayılmasına. milli-azadlıq hərəkatına mane olmaq üçün həmin kreslolara oturdulmuşlar.**

Nə isə, keçək əsas mətləbə. Nə idi onların günahı və səhvləri? 1990-cı il yanvarın 15-də Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti “Azərbaycan SSR-in DQMV-də vəziyyətin normallaşdırılması sahəsində

təxirəsalınmaz vəzifələr haqqında" qərar qəbul etmişdi. Qərarda nəzərdə tutulur ki, DQMV-yə bitişik rayonlarda və SSRİ-nin dövlət sərhədi boyunca fövqəladə vəziyyət tətbiq olunsun və həmin məsələ ilə əlaqədar SSRİ Ali Sovetinin Rəyasət Heyətinə müraciət edilsin. 1990-cı il yanvarın 15-də SSRİ Ali Sovetinin Rəyasət Heyəti DQMV-də və bəzi rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında qərar qəbul etmiş, həmin qərara əsasən 1990-cı il yanvarın 15-də yerli saat 23.00 - dən "DQMV ərazisində, Azərbaycan SSR-in ona bitişik rayonlarında, Ermənistan SSR-in Gorus rayonunda, habelə Azərbaycan SSR ərazisində SSRİ dövlət sərhədi boyunca sərhəd zonasında" fövqəladə vəziyyət elan edilmiş və Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinə təklif olunmuşdu ki, əhalinin, müəssisələrin, idarə və təşkilatların təhlükəsizliyini təmin etmək üçün Bakı, Gəncə şəhərlərində və digər yaşayış məntəqələrində qadağan saatının tətbiqi də daxil olmaqla lazım olan hər cür tədbirlər görsün. Sadəcə olaraq eyni vaxtda qəbul edilən və sözbəsöz oxşayan, üst-üstə düşən, heç bir ziddiyyət təşkil etməyən bu iki qərar o zaman Azərbaycan rəhbərliyinin Moskva ilə və Moskva rəhbərliyinin isə Azərbaycan rəhbərliyi ilə "əlbir" olduğunu sübut edir.

**Günah dərəcələrinə görə Azərbaycanın o vaxtkı rəhbərlərini sıra ilə düzsək, ilk növbədə Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirov və Azərbaycan SSR Nazirlər Sovetinin o vaxtkı sədri A.Mütəllibov, habelə Azərbaycan Ali Sovetinin sədri E.Qafarova, Azərbaycan DTK-nın sədri V.Hüseynov, Bakı şəhər Partiya Komitəsinin birinci katibi M.Məmmədov, Azərbaycan KP MK-nın bəziləri istisna olmaqla əksər büro üzvləri və ya üzvlüyə namizədlər, Nazirlər Soveti sədrinin müavinləri, hüquq-mühafizə orqanlarının rəhbərləri və b. bu ümumxalq faciəsində hərəsi öz xüsusi "töhfəsini" verməklə günahkar idilər.**

Məsələn, E.Qafarova Moskvaya teleqram vuraraq qoşun tələb etmişdi. Doğrudur, AKP MK-dan, Ali Sovetin Rəyasət Heyətindən ittifaq orqanlarına göndərilmiş teleqramları, habelə digər sənədləri əldə etmək mümkün olmamışdır. Yalnız Respublika Nazirlər Sovetinin qeydiyyat jurnalında sabiq sədr A.Mütəlhbovun belə teleqramı qeyd olunub.

V.Hüseynov Moskvaya eyni məzmunlu teleqram vurmaqdan əlavə 10 yanvar 1990-cı ildə Azərbaycan teleradio mərkəzinin enerji blokunun partladılmasında və Bakıda bəzi milli zəmində kütləvi iğtişaşların təşkil edilməsində şəxsən iştirak etmişdi.

**V.Hüseynov, Ə.Daşdəmirov, M.Məmmədov, R.Əhmədov və başqaları əvvəlcə əhalini fövqəladə vəziyyət tətbiq ediləcəyi haqda yalançı vədlər verməklə aldatmışdılarsa, qırğından sonra isə qoşunun yeridilməsinə və soyqırımına ideoloji bəraət qazandırmışdılar. Bu isə xalqa açıqdan-açığa xəyanət idi. Bu xəyanətkarların günahları ikiqat və ya üç-qat idi.**

Birincisi, onlar M.S.Qorbaçovun SSRİ-ni dağıtmaq və Azərbaycanı parçalamaq planlarından xəbərdar olduqları halda, SSRİ-nin dünyanın gözü qarşısında dağılmağa doğru getdiyini görə-görə öz çürük hakimiyyətlərini qoruyub saxlamaq naminə Moskvanın göstərişlərinə kor-koranə şəkildə tabe olur, beləliklə də, erməni planlarının həyata keçməsinə şərait yaradırdılar. Ermənilərin özləri etiraf etmişdilər ki, əgər Azərbaycanın o vaxtkı rəhbərliyi Ermənistandan qovulan azərbaycanlıları Dağlıq Qarabağa yerləşdirməyə başlasaydılar, ermənilər bu prosesi dayandırmağa məcbur olacaqdılar. Bax, burada Ə.Vəzirovun, A.MütəIIibovun və E.Qafarovanın Azərbaycan xalqına qarşı tarixi xəyanəti bir daha aşkar olur.

İkincisi, Azərbaycanın o vaxtkı yerli rəhbərləri xalqın qanına nə qədər susamışdılarsa, 20 Yanvar faciəsindən sonra da ancaq öz hakimiyyətləri haqda fikirləşirdilər. Onların heç biri istefa vermədilər, plenum çağırıb yeni I katib seçdilər, fövqəladə vəziyyəti uzatdılar, sovet qoşunlarının Bakıya yeridilməsinə, xalqı qırmasına bəraət qazandırdılar. Beləliklə, Azərbaycanın Ə.Vəzirov və A.MütəIIibov başda olmaqla o vaxtkı rəhbərliyi antixalq mövqeyi tutdu və Azərbaycan xalqına qarşı qırğınlar törədilməsinə, torpaqlarımızın işğal olunmasına, respublikanın mənəvi-psixoloji cəhətdən böyük sarsıntılara məruz qalmasına şərait yaratdılar. Onlar 20 Yanvar və Xocalı faciəsinin həm iştirakçısı, həm də vasitəçisi olmuş və bu qırğınlara bilavasitə şərait yaratmışdılar. Ona görə də 20 Yanvar faciəsinin 2-ci əsas günahkarı respublikanın o vaxtkı rəhbərliyi hesab olunur.

**Üçüncü, 20 Yanvar faciəsinin 3-cü qrup günahkarları Azərbaycan Xalq Cəbhəsinin bir çox liderləri idi.**

O zaman meydanlara toplaşan, milli azadlıq hərəkatına başlamış olan, milli müstəqillik istəyən xalqa rəhbərlik etmək, erməni-Azərbaycan müharibəsində milləti səfərbər etmək üçün bir siyasi təşkilatın yaradılması zəruri idi. Kommunist Partiyasının artıq siyasi səhnədən getdiyini, yeni bir təşkilatın isə yaranmasına ehtiyac olduğunu hiss edən xalq təbii ki, Xalq Cəbhəsinə maraq göstərir, onun liderlərinə rəğbətlə yanaşır və böyük ümidlər bəsləyirdi. Lakin SSRİ-ni dağıtmaq məqsədini güdən və bunun üçün də min cür fitnə-fəsadlar törədən, eləcə də Qarabağ "kartı"nı yenidən işə salan M.S.Qorbaçovun rəhbərlik etdiyi, istiqamətləndirdiyi SSRİ DTK-sı

da öz işini görmüş, yuxarıdan xalqın başı üzərində bir çox öz əlaltılarını “lıder” simasında xalq hərəkatına yeritmişdi. Xalq hərəkatı ilə Xalq Cəbhəsi arasında dərin ziddiyyət və uçurum var idi. Ona görə də hələ 1988-ci ildən xalq hərəkatı qarşıdurmalar, liderlərin bir-biri ilə yersiz mübahisələri, bir-birini günahlandırmaq və ya böhtan atmaq şəraitində inkişaf edirdi. Cəbhə liderləri özləri-özlərini açıqca hansısa kəşfiyyatın əlaltısı olmaqda günahlandırırdı. Xalq isə eşitdiklərinə sadəcə inanmaq istəmirdi. Bu məsələnin bir tərəfi. Məsələnin digər əsas cəhəti də onda idi ki, hadisələrin ilk anından xalqın istəyi ilə cəbhə liderlərinin istəyi arasında ziddiyyət yaranmışdı. Məsələn, xalq öz hərəkatına özünün içərisindən çıxmış Bəxtiyar Vahabzadə, Anar, Murtuz Ələsgərov, İmam Daşdəmirov, Ziya Bünyadov, Fərəməz Maqsudov, İsmayıl Şıxlı və b. kimi hörmətli el ağsaqqallarının rəhbərlik etməsini istəyirdisə, cəbhə liderləri onları “kommunist rejiminin yetişdirdiyi ziyalı” damğası ilə ləkələyib təhqir edir, zorla meydanlardan uzaqlaşdırırdı. Onlar əsl vətənpərvər ziyalıları özləri hərəkatdan kənarlaşdırır, daha sonra isə “ziyalılar passivlik edir” - deyə, şikayətlənirdilər.

Bir faktı xüsusilə qeyd etmək istəyirəm ki, Xalq Cəbhəsi ilə xalq hərəkatı arasında anlaşılmazlığın ən əsas səbəblərindən biri də Heydər Əliyev şəxsiyyətinə münasibət idi. Meydanlara toplaşan, nə edəcəyini, hara gedəcəyini, erməni işğalından necə xilas olacağını bilməyən xalqın yeganə ümidi və pənahı hələ 1988-ci ildən Heydər Əliyev idi. Xalq nəzərini Moskvada yaşayan Heydər Əliyevə dikir, bu ağır məqamda ondan məsləhətlər almaq istəyirdi. Xalq Cəbhəsinin liderləri isə ayrı-ayrı mitinqlərdə “o, KQB generalı olub”, “Kommunist Partiyasına xidmət edib” - kimi cəfəng ifadələrlə xalqın inamına, iradəsinə qarşı çıxırdılar. Xalqda sovet sisteminin müsbət və mütərəqqi olan bir çox cəhətlərinə daxili rəğbət var idi. Xalq Cəbhəsi liderləri isə ağına-bozuna baxmadan yaxın keçmişimizi lənətləyir, damğalayırdılar. Beləliklə, Xalq Cəbhəsi yarandığı gündən əsl vətənpərvər ziyalılarla bu təşkilatın liderləri arasında bir neçə prinsipial məsələdə dərin uçurum yaranmışdı və bunlara görə xalq bu qurumu heç vaxt qəbul edə bilməzdi. Xalq Cəbhəsi hakimiyyətə gəlmək üçün antikonstitusion üsul və vasitələrə əl atırdı. Əgər meydanlara toplaşan xalq yerindən yurdundan didərgin olanların öz doğma torpaqlarına qaytarılmasını, torpaqlarımızın müdafiə olunmasını tələb edirdisə, cəbhə liderləri daxildə “düşmən ovuna” çıxırdılar. Onların məqsədi əvvəlcə hakimiyyətə gəlmək, sonra isə torpaqlarımızı qorumaq idi. Ola bilsin ki, bir çoxu digər məqsədlər üçün hakimiyyətə can atırdılar. 1989-cu ildən və 1990-cı ilin yanvarı ərəfəsində Xalq Cəbhəsinin liderləri ilə respublika rəhbərliyi arasında hakimiyyət uğrunda mübarizə kəskinləşdiyi vaxt ermənilər Qarabağda öz işlərini görməkdə idilər. 1990-cı ilin yanvar hadisələri zamanı Azərbaycan xalqını qırmaq, onun gözünü qorxutmaq məqsədi güdən M.S.Qorbaçov daxildəki hakimiyyət mübarizəsi faktorundun istifadə edərək Azərbaycana qoşun yeritdi. Bu, cəbhəçilərin böyük taktiki səhvi idi. Adını “Xalq Cəbhəsi” qoymuş bir qurum milli mənafelər naminə xalq hərəkatmı birləşdirməyə nail ola bilmədi. Çünki onların məqsədləri çox dayaz və məhdud idi. Bu gün bəziləri 20 Yanvar faciəsinin baş verməsində ona görə Xalq Cəbhəsinin liderlərini günahlandırır ki, onlar guya xalqı əliyalın tankların qabağına çıxarıblar. Xeyr, bu Xalq Cəbhəsinin günahı deyildi. Əgər onlar xalqı səfərbər ediblərsə, bu özlüyündə müsbət hal idi. Lakin Xalq Cəbhəsinin günahı onda idi ki, hadisələrin mahiyyətini dərk etmirdilər, ətraflarında gedən prosesləri bir çoxu anlamırdı və xalqı səhv yola istiqamətləndirirdilər. Onlar bir tərəfdən deyirdilər ki, SSRİ imperiyadır, digər tərəfdən də xalqa toxtaqlıq verirdilər ki, qorxmayın, atəş açılmayacaq, qırğın olmayacaq. Qırğın baş verəndən sonra isə gah deyirdilər ki, biz gözləməzdik sovet əsgərləri xalqa atəş açar, gah da deyirdilər ki, bu xalq hərəkatı idi, xalq hərəkatı qırğınsız ola bilməz. Bu doğrudur ki, xalq hərəkatı qırğınsız, qansız ötüşmür. Amma o fikir də doğrudur ki, həqiqi xalq hərəkatında, müharibədə təkcə əsgərlər ölmür, komandirlər də həlak olur. Bəs, bizim hərəkatda? Şeyx Həzrətləri Allahşükür Paşazadə dəfn təşkil edən zaman Xalq Cəbhəsi liderlərindən heç biri onun ətrafında yox imiş. Təkcə İsa Qəmbər dəfndə iştirak etmək istəyib, onu da xalq dəfnə buraxmayıb. Xalq Cəbhəsi liderlərinin növbəti günahı xalqı matəm vəziyyətində qoyub qaçıb gizlənmələri oldu.

1990-cı il yanvarın 13-də Xalq Cəbhəsi Əbülfəz Elçibəy, Etibar Məmmədov, Rəhim Qazıyev, Nemət Pənahov və Xaliq Hacıyevdən ibarət Milli Müdafiə Şurası yaratmışdı. Lakin onun nə işlə məşğul olduğu heç kəsə bəlli olmadı. Onlar əhalidən pul yığırmışlar ki, guya silah alacaqlar və yaxud M.S.Qorbaçovu qətlə yetirəcəklər və s. Amma nə qədər silah aldıqları, ölən adamların müqabilində neçə sovet əsgəri öldürdükləri bəlli olmadı. Bəzən də liderlərin dilindən 20 Yanvar ərəfəsində ziddiyyətli fikirlər eşidilirmiş. Onlar deyirmişlər: “Pul gətirin, çoxlu silah alacağıq, DTK bizə silah verəcək?!”. Hansı DTK, sovet DTK-sımı, yaxud Vaqif Hüseynovun rəhbərlik etdiyi Azərbaycan DTK-sı? Əhalinin gülləboran ediləcəyi haqda Xalq Cəbhəsinin iki-üç üzvünü Azərbaycan KP MK-da II katib işləyən V.PoIyaniçkonun xəbərdar etməsi və bu faciədə Xalq Cəbhəsinin radikal qanadının günahkar olması barədə bir neçə dəfə fikir söylənmişdir.

Nəhayət, siyasi təşkilat kimi yaranan və qarşısına siyasi məqsədlər qoyan AXC-nin vahid konsepsiyası, planı, strategiya və taktikası yox idi. Xalq Cəbhəsinin funksionerləri sözdə Əbülfəz Elçibəyin liderliyini qəbul

etsələr də, əslində onların hərəsi özləri üçün bir lider idi və heç biri o birisinin ərizəsini oxumurdu. Xalq hərəkatının fəal iştirakçılarından Yusif Səmədoğlunun dediyi bu sözlər həqiqətdir: **“1990-cı il yanvarın 19-u gecəsi Xalq Cəbhəsinin idarə heyətinin iclası keçirildi. Orada biz müzakirə edirdik ki, camaatı mitinqlərdən, şəhərin küçə və meydanlarından dağıdaq, ya dağıtmayaq. Hələ iclasdan əvvəl mən bir neçə yerdə, o zamankı Mərkəzi Komitə (hazırkı Prezident Aparatı) binasının qabağında, Tbilisi prospektində çıxış edib adamlara deyəndə ki, dağılın evlərinizə, onlar mənə dedilər: Bizə Nemət Pənahov və o biriləri tapşırıblar ki, heç yerə tərpənməyin”…** Göründüyü kimi, siyasi mübarizə aparan bir təşkilatın vahid proqramı, fikir birliyi yox idi. Vahid mərkəzdən idarə olunmurdu və vahid məqsədlərə də xidmət etmirdi. Lakin bu sözlər, yəni 20 Yanvarda AXC-ni günahlandırmaq üçün gətirilən bu arqumentlər, əlbəttə, bütün AXC üzvlərinə və ya sıravi üzvlərə şamil deyil. Yazov **“Sovet Ordusu AXC-ni məhv etmək üçün Bakıya yeridilib”** - desə də, onun cəza mexanizmi ancaq hərəkatda heç bir məqsəd güdməyən sıravi cəbhəçilərə tətbiq olundu. AXC-nin başı liderlik uğrunda mübarizəyə qarışdığı vaxt sadə cəbhəçilər Vətən torpaqlarını qoruyurdular. Ona görə də biz bu sözləri yazmaqla Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparmış sıravi cəbhəçilərin fəaliyyətinə kölgə salmaq fikrindən uzağıq. Söhbət ancaq DTK xətti ilə hərəkata yeridilmiş və ələ alınmış Xalq Cəbhəsi liderlərinin günahından gedir. Onların rəyi, fikri və iradəsi ilə sadə cəbhəçilərin ideya və məqsədi həmişə fərqli olub. Heydər Əliyevə qarşı 1987-ci ildən sonra Moskvada kampaniyaya başlanılarkən və Azərbaycanın o vaxtkı rəhbərləri olan Ə.Vəzirov, A.Mütəllibov və V.Hüseynov bu məsələdə M.S.Qorbaçovla “həmrəy” olarkən çox maraqlı məsələdir ki, Ə.EIçibəy başda olmaqla AXC liderlərinin də fikirləri onlarla üst-üstə düşürdü. Lakin sıravi cəbhəçilər Heydər Əliyevə dərin məhəbbət bəsləyən xalqla həmişə bir olmuş, onun yenidən hakimiyyətə qayıtmasında fəal rol oynamışlar. Onlar Azərbaycanın milli-azadlıq hərəkatının lideri, milli müstəqilliyinin bayraqdarı simasında həmişə Heydər Əliyevi görmüş və onu özlərinə şəriksiz lider hesab etmişlər. 1990-cı ilin iyununda Heydər Əliyev Vətənə dönən andan, hələ ondan da xeyli əvvəl, yəni milli müstəqillik hərəkatının başlandığı andan milli vətənpərvərlərin, həqiqi ziyalıların, geniş xalq kütlələrinin əvəz olunmaz lideri idi. Dəxli yox idi, o hakimiyyətə qayıtdı və ya qayıtmadı. Çünki xalq, seçmə ziyalılar Heydər Əliyev Moskvada olanda Moskvaya, Naxçıvanda olanda da Naxçıvana onun yanına məsləhətə gəlirdilər. Təkcə Ə.Vəzirov, A.Mütəlibov, V.Hüseynov və onların komandasından, bir də bəzi cəbhə liderlərindən başqa, bütün Azərbaycan xalqı ən çətin anlarında xilaskar simasında yeganə ümummilli liderimiz Heydər Əliyevi görmüşdür. Göründüyü kimi, bəzi cəbhə liderləri də mələk donuna bürünərək öz fəaliyyətləri ilə məlum ssenarilərin həyata keçirilməsində M.S.Qorbaçova və erməni diasporuna yardımçı olmuşlar.

**20 Yanvar hadisələrinə**
**hüquqi-siyasi qiymətin verilməsi**

20 Yanvar faciəsinin başvermə səbəbləri və əsas günahkarlarının müəyyən edilməsi, eləcə də bu hadisədən ibrət dərsləri çıxarılması olduqca vacib əhəmiyyət daşıyır. Baş verdiyi gündən bugünədək 20 Yanvar faciəsinə siyasi qiymət verilməsi məsələsində Azərbaycanda iki əsas meyl olmuşdur. O şəxslər və ya qruplar ki, 20 Yanvar faciəsində günahkar tərəflərdir və ya onların tərəfdarlarıdır, onlar bu hadisəyə ya vaxtında qiymət verməmişlər, yaxud da yanlış siyasi qiymət vermişlər. Ayaz Mütəllibovun və Xalq Cəbhəsinin hakimiyyəti dövründə bu hadisə həmişə sükutla qarşılanıb. Hələ 1990-cı il yanvarın 22-də Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar fövqəladə sessiyası çağırılaraq orada 20 Yanvara siyasi qiymət verilməsi ortaya atılanda hadisələrdə şəxsi iştirakı və günahı olan Ayaz Mütəllibov və onun komandası bu işi pozmaq üçün dəridən-qabıqdan çıxmışlar. Ali Sovetin o vaxtkı sədri Elmira Qafarova özü sessiya çağırmalı olduğu halda, əksinə, hər vasitə ilə “sessiyanın gündəliyi bir ay öncədən elan olunmalıdır”, “kvorum yoxdur” və s. deyərək onu pozmaq istəmişdi. Azərbaycan DTK-sının o dövrdəki sədri Vaqif Hüseynov sessiya keçirilməsi vaxtı ayrıca otaqda əyləşib, onun normal şəraitdə keçirilməsinə mane olur, tez-tez MK katiblərini yanına çağırıb onlara Ayaz Mütəllibovdan və Polyaniçkodan aldığı tapşırıqları verirmiş.

Lakin bütün bunlara baxmayaraq, 1990-cı il yanvarın 22-də xalq şairi Bəxtiyar Vahabzadənin şəxsi təşəbbüsü və radioda çıxışı ilə fövqəladə sessiya çağırıldı. İsmayıl Şıxlı, Anar, Elçin, Almaz Hacıyeva, Zeynəb Xanlarova, Qədir İsmayılzadə, Aslan Nəsibov, Çingiz Həsənov və başqaları deputatların AIi Sovetə toplaşmasını təmin etdilər. Bir tərəfdə sessiyanın işini pozmağa çalışan, 20 Yanvar faciəsini ört-basdır etməklə cinayətkarları təmizə çıxarmaq istəyən satqın partnomenklatura deputatları, digər tərəfdə isə Vətənini sevən, bu faciəni dünyaya bəyan etmək istəyən, Azərbaycanın müstəqilliyini, sovet qoşunlarının respublikamızdan çıxarılmasını tələb edən vətənpərvər deputatlar dayanmışdı. İkincilər sessiyada üstünlük qazandılar və həmin sessiyada **“Bakıda fövqəladə vəziyyətin elan edilməsi ilə əlaqədar Mixail Qorbaçovun imzaladığı fərmanın icrasının dayandırılması haqqında”. “Yanvarın 19-da başlanan hadisələrin gedişində hərbi hissələrin qanunazidd hərəkətləri haqqında”. “Qoşunların şəhərdən çıxarılması haqqında”. “Bakıya qoşun**

**yeridilməsi ilə əlaqədar faciənin törədilməsi şəraitini və səbəblərini təhqiq etmək üçün deputat-istintaq komissiyasının yaradılması haqqında"** qərarlar qəbul edildi. Orada həmçinin **"Dünya xalqlarına və parlamentlərinə"** müraciət də qəbul olundu. Ağır şəraitdə keçən bu sessiya məhdud xarakter daşısa da, 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verildi. Fövqəladə sessiyanın qərarına əsasən SSRİ Ali Sovetinin üzvü, kimyaçı alim Midhəd Abbasovun sədr və BDU-nun hüquq fakültəsinin dekan müavini və Azərbaycan Xalq Cəbhəsi AIi Məclisinin sədri Tamerlan Qarayevin müavin olduğu, tərkibinə 21 rəsmi şəxsin, o cümlədən 3 nəfər Xalq Cəbhəsi nümayəndəsinin daxil olduğu komissiya yaradıldı. Komissiyanın işində riyaziyyatçı Əfruz Məşi qızı Eyvazova, DİN müstəntiqləri Zəlimxan Kərim oğlu Hüseynov və Taqiət Əli oğlu Zeynalov, hüquqşünas Aydın Alim oğlu Rəsulov, kimyaçı Səftər Məmməd oğlu Nəhmətov kimi 5 nəfər də Könüllü yaxından kömək edirdi. Komissiya 1991-ci ilin yanvar ayının 20-dək, yəni bir il müddətində bu hadisəni araşdırıb ilkin hesabat təqdim etməli idi. Lakin həmin vaxta hesabat başa çatdırılmadı. Onlar süründürməçilik edərək faciənin törədilməsinin əsl günahkarlarmı ört-basdır etmək yolunu tutdular. Yalnız 2 ildən sonra 1992-ci il yanvarın 19-da Milli Məclisin iclasına səthi məlumat çıxardılar. Milli Məclis isə kimlərisə faciənin günahkarı kimi ittiham etmək əvəzinə, komissiya üzvlərinə heç bir iş görməyə-görməyə təşəkkür elan etdi. Heydər Əliyev bu məsələdən bəhs edərkən 19 yanvar 1997 - ci ildə Xalq Cəbhəsi dövründə 20 Yanvar faciəsi haqqında qəbul olunmuş qərarı Azərbaycan xalqına qarşı 20 Yanvar faciəsi qədər böyük bir xəyanət adlandırmışdı.

**Yanvar faciəsinin 3-cü ildönümü də sükutla qarşılanıb, Azərbaycan rəhbərliyinin məsuliyyətinin üstündən keçilib. Beləliklə, vaxtında hüquqi-siyasi qiymət verilmədiyindən və cinayətkarlar aşkar olunub cəzalandırılmadığın görə həmin proseslərin davamı kimi Xocalı soyqırımı baş verdi.**

20 Yanvara hüquqi-siyasi qiymət verməyə Azərbaycan KP MK-nın aparatının ilk partiya təşkilatı tərəfindən də təşəbbüs göstərilmişdi. KP MK-nın aparatının sıravi işçiləri Çingiz Həsənov, Aslan Nəsibov və Novruz Ramazanov faciə gününün səhərisi MK aparatına (indiki Prezident Aparatı) gəlmiş, bütün işçilərin evlərinə zəng vuraraq aparata çağırmış, ilk partiya təşkilatının yığıncağını keçirmiş, orada Ə.Vəzirovun Sov.İKP sıralarından azad edilməsi və cinayət məsuliyyətinə cəlb olunması məsələsini qoymuş və 20 Yanvara siyasi qiymət verilməsini tələb etmişlər. Lakin sıravi işçilər tərəfindən qaldırılmış bu təşəbbüs yuxarı pillə işçilər tərəfindən soyuqqanlıqla ört-basdır edilmişdi.

**Faciəyə hüquqi-siyasi qiymət verilməsi təşəbbüsü 1990-cı il yanvar ayının 24-25 - də keçirilən Azərbaycan KP MK - nın plenumunda da qaldırılmışdı. İsmayıl Şıxlı, Mirzə İbrahimov, Aqşin Əlizadə, Ağalar Abbasov, İmran Mehdiyev, D.AsIanov, T.Rzayeva və b. 20 Yanvara partiya qiyməti və siyasi qiymət verilməsini təkidlə tələb etsələr də, A.Mütəllibov, V.PoIyaniçko və V.Hüseynov buna imkan vermədilər. Onlar hüquqi-siyasi qiymət verilməsi məsələsinə ötəri toxunub təşkilati məsələni ortaya ataraq 82 səslə Ayaz Mütəllibovu M.S.Qorbaçovun tövsiyəsi ilə Azərbaycan KP MK-nın birinci katibi seçdilər. Beləcə, Ayaz Mütəllibov Azərbaycan xalqının düşməni, cəllad M.S.Qorbaçovun tövsiyəsi ilə respublikanın yeni rəhbəri təyin edildi. Lakin plenumda demokratik əhvalı-ruhiyyəli kommunistlərin təkidi ilə komissiya yaradıldı. Bunlardan birinə Əfrand Daşdəmirov sədrlik edirdi (üzvləri R.Əhmədov, N.Axundov, N.Babayev (Xəzri), İ.QoIovina, A.Nəsibov, T.Rzayeva, İ.İsmayılov, Z.Hüseynzadə) və onun vəzifəsi 20 Yanvar faciəsinin səbəblərini təhqiq etməli idi.**

**1991-ci ilin martın 31-də keçirilən Azərbaycan KP MK-nın plenumunda faciəni araşdıran komissiyanın hesabatı dinlənildi. Ə.Daşdəmirov özünün quraşdırdığı suallar əsasında belə bir nəticə çıxardı ki. fövqəladə tədbirlər tələb edilir. Ayaz Mütəllibovun və M.S.Qorbacovun rəyi ilə üst-üstə düşən bu çıxışa görə. guya o vaxt xalq və millət parçalanmışdı. millətin daxilində toqquşma var idi və ona görə də fövqəladə vəziyyət labüd idi. Ə.Daşdəmirovun bu məlumatı haqqı tapdalanan xalqa mənəvi böhtan idi. Nahaq yerə qırılan da. günahkar olan da Azərbaycanr özü də öz "ideoloqlarımız "ın əli ilə.**

1990-cı ilin yanvarın 24-də keçirilən Azərbaycan KP MK-nın plenumunda yaradılan ikinci komissiyaya isə R.Axundov rəhbərlik edirdi və onun əsas vəzifəsi Ə.R.Vəzirovun Azərbaycan KP MK-nın birinci katibi işlədiyi müddətdəki fəaliyyətini yoxlamaq idi. Bu komissiyanın Ə.Vəzirovun fəaliyyəti haqqında hazırladığı məlumata Azərbaycan KP MK-nın 2 iyun 1990-cı il tarixli növbəti plenumunda baxıldı və 20 Yanvar faciəsinin əsas günahkarlarından biri olan Ə.R.Vəzirova cox səthi cəza-uçot vərəqəsinə yazılmaqla ciddi (?!) töhmət verildi və o, Azərbaycan KP MK-nın üzvlüyündən azad edildi. Ayaz Mütəllibov Vəzirovun nəinki cinayətkar olduğunu sübut etdirmədi, hətta onu partiyada saxlamağı məsləhət bildi. Bu da təbii idi, çünki cinayətkar cinayətkarı heç vaxt ələ verməz.

**Beləliklə, Azərbaycan KP MK-nın yanvar, mart və iyun plenumlarında Yanvar faciəsinə hüquqi-siyasi qiymət verilmədi və bunların nəticəsi olaraq növbəti faciələr baş verdi.**

Hüquqi-siyasi qiymətin verilməməsinin nəticəsidir ki, 20 Yanvar faciəsinin günahkarları içərisində öz rolu və xidmətləri olan Ramiz Əhmədov kimiləri bu gün də tez-tez Rusiyaya gedir, əvvəlki partiya silahdaşları ilə görüşüb xalqımıza qarşı yeni planlar hazırlayır. O vaxt "qonşular bir az da gec gəlsəydi, daha böyük fəlakətlər olacaqdı, bir nəfər kommunist də partiya biletini saxlamayacaqdı" kimi sözləri deyən Ramiz Əhmədov görəsən, hansı mənəvi haqla bu gün də öz siyasi fəaliyyətini davam etdirir.

**Vaxtında hüquqi-siyasi qiymət verilməməsinin nəticəsidir ki, faciələrimizin bir çox günahkarları bu gün də müxtəlif dövlət vəzifələrində oturub eyni qeyrət və "məharətlə" xalqımızın qanını sorur, iqtisadi islahatların, müstəqil dövlət quruculuğumuzun gedişinə mane olurlar. Onlar tədricən müəyyənləşdirilib kənarlaşdırılmalı, milli ruhlu vətənpərvər, vətənimizin faciələrinə dözməyərək öz səslərini vaxtında çıxarmış, torpaqlarımızın müdafiəsində həqiqətən vuruşmuş, dövlətçiliyimizə sədarətli kadrlarla əvəz olunmalıdır. Beləlri isə cəmiyyət içərisində də, sağlam siyasi partiyaların cərgəsində də elm xadimləri və digər ziyalılar arasında da çoxdur.**

20 Yanvar faciəsini araşdırmağı öz qarşısına məqsəd qoymuş bir çox digər komissiyalar da yaranmışdır. Onlardan Helsinki müşahidə qrupu, SSRİ Ali Sovetinin üçüncü sessiyasının qərarına əsasən yaradılmış hərbi prokuror Katusevin rəhbərliyi və Bakı qarnizonunun prokuror müavini V.Medvedevin iştirakı ilə SSRİ Hərbi Prokurorluğunun komissiyası, V.Q.Titovun başçılıq etdiyi Dövlət Təhlükəsizlik Komitəsinin istintaq qrupu da 20 Yanvara hüquqi-siyasi qiymət verə bilməmiş, cinayətkarları məsuliyyətə cəlb etməmişdi. Yalnız hərbçi ailələrini müdafiə məqsədi ilə yaradılan "Şit" adlı istintaq qrupu 1990-cı ilin yanvarından Bakıda fövqəladə vəziyyətin elan olunması və hərbi qoşun yeridilməsi üçün əsas olmadığı qənaətinə gəlmiş və sabiq SSRİ müdafiə naziri D.Yazova qarşı ittiham irəli sürmüşdü. Bu qrup onu Beynəlxalq Hərbi Tribunalın nizamnaməsinin 6-cı maddəsini pozmaqda, həmçinin Azərbaycan SSR Cinayət Məcəlləsinin şəxsiyyətə qarşı cinayətlərə aid maddələrinə düşən hərbi cinayət işlətməkdə günahlandırmışdı. Aydındır ki, təkcə Yazov özbaşına Bakıya qoşun yeridə bilməzdi. Ümumiyyətlə, bu beş araşdırma komissiyasının heç biri 20 Yanvar faciəsinə əsl qiymət verə bilməmiş, onun günahkarlarını tam açıqlamamışdır.

**20 Yanvar faciəsinin. eləcə də digər faciələrimizin başvermə səbəblərini. onun əsas günahkarlarıda bu ümumxalq faciəsinə hüquqi-siyasi qiymət verilməsinin təşkilatçısı və rəhbəri ümummilli liderimiz Heydər Əliyev olmuşdur.**

Heydər Əliyev hələ 1990-cı il yanvarın 21-də, yəni faciənin sabahısı günü Moskva ətrafındakı bağlardan birində müalicədə ola-ola, xəstə vəziyyətdə oğlu İlham Əliyev və qızı Sevil Əliyeva, eləcə də kürəkəni Mahmud Məmmədquluyev və nəvələri ilə birlikdə Moskvadakı Azərbaycan SSR-in daimi nümayəndəliyinə gəlib, Azərbaycan xalqına başsağlığı verib və mətbuat konfransı keçirdi. Sonra da Arxangelsk televiziyasına müsahibə verdi. Heydər Əliyev daimi nümayəndəlikdə mətbuat konfransındakı çıxışında bu faciənin Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələrlə birbaşa əlaqədar olduğunu, üstündən iki il keçməsinə baxmayaraq, bu sahədə ölkənin ali siyasi partiya rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlərin görülmədiyini qeyd edərək, məhz bunların nəticəsində çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilənin baş verdiyini bildirdi. Bütün bunlar üçün isə ilk növbədə Azərbaycan KP MK-nın sabiq birinci katibi Vəzirovun günahkar olduğunu elan etdi.

Heydər Əliyev 20 Yanvar faciəsinin baş verməsinin əsas günahkarları haqqında deyirdi: "Bunlar üçün ilk növbədə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin artıq sabiq birinci katibi Vəzirov müqəssirdir. Bu yüksək vəzifədə olduğu müddətdə o, Azərbaycandakı vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə, özünün səhv addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurum yaratmışdır. Xalq isə hiddətlənmişdir. Elə buna görə də Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında aylarla davam edən mitinqlərdə dəfələrlə Azərbaycanın partiya rəhbərliyinin istefası tələbi irəli sürülmüşdür. Söhbət əslində Vəzirovun istefasından gedirdi. Bəs məsələ indiyə kimi niyə həll olunmamışdır? Yalnız dünən Bakı şəhərinə ordu yeridildikdən, qırğın və dağıntılar baş verdikdən sonra Vəzirov Azərbaycandan, əslində qaçmışdır. Bu, böyük səhvdir. Ən böyük səhv, sözsüz ki, qeyri-ciddi, bu yüksək vəzifəyə əsla yaramayan adamın bir vaxt Azərbaycan KP MK - ya birinci katib təyin edilməsi idi.

**Göründüyü kimi, Heydər Əliyev sərt ittihamla həm ölkənin ali siyasi partiya rəhbərliyini, yəni M.S.Qorbaçovu, həm də Azərbaycan rəhbəri Ə.Vəzirovu bu qırğında ilk növbədə günahkar sayırdı.**

Daha sonra Heydər Əliyev 1990-cı ilin iyulunda Naxçıvana qayıtdıqdan və 1991-ci il sentyabr ayının 9-da Naxçıvan MR Ali Məclisinin sədri seçildikdən sonra 20 Yanvara daha əhatəli, hüquqi-siyasi qiymət verilməsi üçün şərait yarandı. Həmin il noyabr ayının 21-də Heydər Əliyevin əlilə yazdığı və Naxçıvan MR Ali Məclisi tərəfindən qəbul olunmuş müvafiq qərarda 20 Yanvarın Milli Matəm günü kimi qeyd olunması qərara alınmışdı. Faciənin əsas günahkarları adbaad sadalanmış və onların birbaşa məsuliyyət daşıdıqları

göstərilmişdir. Həmin sənəddə o vaxt hakimiyyətdə olan həm mərkəzi dövlət rəhbərləri SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri M.S.Qorbaçovun, Sov.İKP MK-nın katibi Girenkonun, SSRİ müdafiə naziri Yazovun SSRİ daxili işlər naziri Bakatinin, Sov.İKP MK-nın məsul işçisi Mixaylovun, həm də respublikada hakimiyyətdə olan Azərbaycan KP MK-nın birinci katibi Vəzirovun, Azərbaycan KP MK-nın büro üzvləri Polyaniçkonun, Müslüm Məmmədovun, Vaqif Hüseynovun, Nazirlər Sovetinin sədri A.Mütəllibovun adlarının çəkilməsi, xalqa qarşı həyata keçirilən bu siyasi və hərbi qəsd üçün cavabdeh olduqlarının və birbaşa məsuliyyət daşıdıqlarının heç nədən çəkinmədən qeyd olunması Heydər Əliyevin nə qədər cəsarətli və qorxmaz, Vətənini və xalqını sevən bir insan olduğunu, bu yolda ən ağır mübarizədən belə ehtiyat etmədiyini bir daha sübut etdi.

Axı o, böyük ordusu və texnikası olan M.S.Qorbaçovun qarşısında heç bir ordusu və silahlı qüvvəsi olmayan Naxçıvan kimi vilayətin rəhbəri idi və belə qərar yazmaq həqiqətən cəsarət tələb edirdi. Həmin sənədin qərar hissəsində deyilirdi:

1. 1990-cı ilin yanvar ayında Bakı şəhərində törədilmiş qanlı hadisələr Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirilsin.

2. Dinc əhaliyə, silahsız kütlələrə, heç bir müqavimət göstərməyən günahsız adamlara qarşı müasir silahla, hərbi texnika ilə zorakılıq edilməsi, qocaların, qadınların, uşaqların qətlə yetirilməsi Azərbaycan xalqına qarşı açıq təcavüz kimi ittiham edilsin.

3. Bir ilə yaxın vaxt keçməsinə baxmayaraq, Bakı faciəsinə Azərbaycan SSR-in ali hakimiyyət orqanları tərəfindən siyasi qiymət verilməmişdir. Bununla əlaqədar yaradılmış deputat komissiyasının işinin qeyri-müəyyən səbəblərdən başa çatdırılmamasına, qanlı hadisələrin günahkarlarının aşkara çıxarılıb qanuni məsuliyyətə verilməməsinə qəti etiraz olunsun.

Azərbaycan SSR Ali Sovetindən tələb edilsin ki, ən qısa müddətə həmin məsələ parlamentin müzakirəsinə çıxarılsın.

4. Bu qərar qəbul edilən andan 20 Yanvar günü hər il Naxçıvan Muxtar Respublikasında Milli Matəm günü kimi qeyd olunsun.

5. Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin ki, 20 Yanvar günü hər il Azərbaycan SSR-də Milli Matəm günü kimi qeyd edilsin.

Bu gün dövlət hakimiyyətində yüksək vəzifələr tutan, lakin 1990-93 - cü illərdə deputat-istintaq komissiyasının üzvü olmuş, səsini çıxarmaqdan belə qorxan yüksək vəzifə sahiblərinə Heydər Əliyevin bu cəsarətli qərarı bir nümunədir.

1990-cı il 20 Yanvar faciəsinin ümumrespublika miqyasında hərtərəfli şəkildə qiymətləndirilməsi isə ancaq ulu öndər Heydər Əliyev 1993-cü ilin iyununda yenidən hakimiyyətə qayıtdıqdan sonra mümkün oldu. 1994-cü il yanvarın 5-də Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin verdiyi sərəncamda bu faciənin respublika miqyasında geniş araşdırılıb hüquqi-siyasi qiymət verilməsi tövsiyə olunurdu. 1994-cü il yanvarın 12-də Heydər Əliyevin sədrliyilə 20 Yanvar faciəsinin 4-cü ildönümü ilə bağlı tədbirlərin hazırlanması və keçirilməsi üzrə dövlət komissiyasının geniş iclası oldu. Həmin iclasda Heydər Əliyev bildirdi ki, 4 il keçəndən sonra da biz bu bəlanın başvermə səbəblərini və günahkarlarını indiyə qədər dəqiq araşdıra bilməmişik.

Dövlət komissiyasının ciddi fəaliyyəti nəticəsində 1994-cü il mart ayının 29-da Azərbaycan Respublikası Milli Məclisi “1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında” qərar qəbul etdi.

Qərarda 20 Yanvar faciəsi qabaqcadan şüurlu surətdə planlaşdırılmış və vəhşicəsinə həyata keçirilmiş cinayət aktı kimi qiymətləndirilir. Orada qeyd olunur ki, qoşunların Bakıya yeridilməsi kommunist rejimini saxlamaq, milli-azadlıq hərəkatını boğmaq məqsədinə xidmət etmişdir. Əsas məqsəd Azərbaycanda xalq hərəkatına zərbə vurmaq, mövcud olan rejimin dağılmasına yol verməmək və istiqlaliyyət uğrunda mübarizə aparan qüvvələri məhv etmək olmuşdur.

Qərarda bu faciənin əsas günahkarları sırasında M.S.Qorbaçov, SSRİ Müdafiə naziri Dmitri Yazov, daxili işlər naziri Vadim Bakatin və başqaları qeyd olunur.

Azərbaycan rəhbərlərindən Azərbaycan KP MK-nın birinci katibi Əbdürrəhman Vəzirov, Azərbaycan KP MK-nın ikinci katibi Viktor Polyaniçko, Azərbaycan SSR Nazirlər Sovetinin sədri Ayaz Mütəllibov, Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinin sədri Vaqif Hüseynov, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Elmira Qafarova, Azərbaycan KP Bakı Şəhər Komitəsinin birinci katibi Müslüm Məmmədov, MK katibi Əfrand Daşdəmirov, Ali Sovetin 1990-cı il 22 yanvar fövqəladə sessiyasında yaradılmış deputat-istintaq komissiyasının sədri Midhəd Abbasov və başqaları günahlandırılır.

Qərarda həmçinin 1990-cı il 20 Yanvar hadisələrindən ötən 4 il ərzində respublika hüquq-mühafizə orqanlarının keçmiş rəhbərlərinin bu cinayət istintaqı ilə bağlı fəaliyyəti yarıtmaz hesab edilmiş, cinayətkar

şəxslərin müqəssirlik dərəcəsinin müəyyənləşdirilməsində hüquq-mühafizə orqanlarının fəaliyyəti qeyri-qənaətbəxş qiymətləndirilmişdir.

Beləliklə, yalnız və yalnız Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması ilə faciələrimizin səbəblərini araşdırmaq, onlara hüquqi-siyasi qiymət vermək, günahkarları cəzalandırmaq, bu əsasda isə bütövlükdə bu hadisələrdən ibrət dərsi götürmək üçün şərait yaranmışdır.

**YANVAR FACİƏSİNİN
ƏSAS İBRƏT DƏRSLƏRİ**

Hər hansı bir tarixi hadisə ibrət dərsi götürülmədikdə yaddaşlardan tez silinir. 1990-cı il Yanvar faciəsinin Azərbaycan tarixi üçün çox böyük ibrət dərsləri var. Yanvar faciəsinin ən əsas ibrət dərsi Azərbaycanın dövlət müstəqilliyinin zərurət olmasını xalqa anlatması oldu. Hər hansı xalq öz müstəqilliyini qoruya bilməsə, Könüllü və ya zorla başqa imperiyaların, dövlətlərin tərkibinə qatılsa, "böyük qardaş" deyə, kiminsə qoltuğuna sığınsa, onu hər an Yanvar faciələrinə oxşar faciələr gözləyəcək. Belə olan halda hər hansı millətin müqəddəratı özü tərəfindən deyil, daxil olduğu dövlətin rəhbərliyinin iradəsindən, yəni tam subyektiv amillərdən, hisslər və emosiyalardan asılı qalır. Məsələn, SSRİ dövründə Heydər Əliyevin yeritdiyi siyasət nəticəsində Sov.İKP MK-nın baş katibi L.İ.Brejnev və Y.V.Andropov Azərbaycana çox müsbət münasibət bəsləyirdilər və Azərbaycan onların dövründə həqiqətən xeyli inkişaf etdi.

**Amma sonralar M.S.Qorbaçov hakimiyyətə gələndən sonra isə Azərbaycana qarşı, eləcə də onun lideri olan Heydər Əliyevə qarşı təxribatlar törədildi. Heydər Əliyev heç bir əsas olmadan istefaya çıxmağa məcbur edildi, 200 mindən çox azəri öz dədə-baba torpaqlarından qovuldu, Dağlıq Qarabağda ermənilər yenidən baş qaldırdılar və 20 Yanvar faciəsi törədildi. Bütün bunlar onu sübut edir ki, hər hansı bir millət öz müqəddəratını özü müəyyən etməli, öz dövlətini, öz ordusunu, öz iqtisadiyyatını yaratmalı, müstəqil daxili və xarici siyasət yeritməlidir. Əgər ermənilərin torpağımıza təcavüzü zamanı Azərbaycanın öz milli ordusu olsaydı, öz sərhədlərini özü qorusaydı, torpaqlarımız bu qədər asanlıqla işğal edilməzdi, xalqımız bu qədər təhqir olunmazdı. Ona görə də Azərbaycanın müstəqilliyi mütləq və zərurətdir. Dahi öndərimiz Heydər Əliyev bütün çıxışlarında bu məsələyə xüsusi toxunaraq və bəyan edirdi ki, Azərbaycanın dövlət müstəqilliyi sarsılmazdır, əbədidir və heç bir vaxt heç bir kənar qüvvə bu müstəqilliyimizi dağıda bilməz. Bu sözlər bu gün qarşısına müxtəlif siyasi məqsədlər qoymuş partiyalara ciddi bir xəbərdarlıqdır.** O partiya ki Azərbaycanın dövlət müstəqilliyini qəbul etmir və hər hansı şəkildə onu hansısa gələcək imperiyanın tərkibində təsəvvür edir, bu tipli partiyalara bizim müstəqillik və demokratik inkişaf yolunu tutmuş gənc respublikamızda yer ola bilməz. Həmçinin o partiyalar ki bu gün də ancaq xarici dövlətlərin çaldığı hava ilə oynayır, xaricə kor-koranə aludəçilik edir, xaricdən dəstək alır, maliyyələşir və s. onlar da vaxtında aşkar edilib ifşa olunmalıdır.

Azərbaycanın müstəqil olması onun hansısa regional və ya beynəlxalq birliklərdə, inteqrasiya proseslərində iştirak etməsini istisna etmir. Məlumdur ki, Azərbaycan Müstəqil Dövlətlər Birliyinin, İslam Konfransı Təşkilatının, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvüdür. Lakin bu təşkilatların üzvü olması Azərbaycanın hər hansı şəkildə suveren hüquqlarını məhdudlaşdıra bilməz. Hər hansı yeni birlik forması ancaq və ancaq dövlətlərin bərabərhüquqlu olması və suverenliyinin qorunması şərti ilə mümkün ola bilər. Beləliklə, biz 20 Yanvar faciəsi tipli gələcək faciələrdən qaçmaq üçün mütləq öz müstəqilliyimizi əsrbəəsr, nəsilbənəsil qorumalı və bu yolda mübarizə aparmalıyıq.

**20 Yanvar faciəsinin 2-ci ibrət dərsi hakimiyyətsizliyin verə biləcəyi nəticələri xalqa anlatması oldu. 20 Yanvar, eləcə də hər hansı digər faciələrimiz hakimiyyətsizlikdən törəyib.**

Xalqa, dövlətə və millətə ancaq milli dəyərlərdən qaynaqlanan, xalqın içərisindən çıxmış, demokratik yolla seçilmiş şəxslər rəhbərlik etməlidir. Əgər millətə və ya xalqa öz xalqını sevən, vətənpərvər adamlar rəhbərlik edərsə, onda o xalq və ya millət hətta müstəqil olmadıqda belə öz milli mənafelərini təmin edə bilər. Erməni tarixi belə misallarla zəngindir. Fars, Bizans, türk, rus imperiyalarından ermənilər ancaq milli mənafe baxımından istifadə etmişlər. Bizim Azərbaycan Respublikasında isə ancaq 1970-1980 - ci illərdə Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə respublika SSRİ tərkibində tam müstəqil olmadığı halda belə çox böyük sıçrayışla irəliləmiş, Sovet İttifaqının böyük potensialından lazımınca bəhrələnmişdir.

Əlbəttə, həmin vətənpərvər adamlar müstəqillik şəraitində dövlətə rəhbərlik edərsə, onda inqilabi sıçrayışlar baş verər, böyük xariqələr yaranar. Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi müstəqillik illərində təkcə Azərbaycan nefti ilə bağlı görülmüş işləri, bağlanmış müqavilələri qeyd etmək kifayətdir. Bu müqavilələrin həyata keçməsi ilə respublikamızın siması inanılması mümkün olmayan dərəcədə dəyişəcək, o, dünyanın zəngin ölkələrindən birinə çevriləcək, əhalimizin, xalqımızın rifah halı, potensialı tam yüksələcəkdir. Xüsusilə keçid dövrlərində, dövlət öz müstəqilliyini yenicə qazandığı dövrdə xalqa onun əksəriyyətinin

inandığı, sevdiyi və arxasınca getdiyi adamlar rəhbərlik etməlidir. Yalnız belə şəxslər ölkəni fırtınalar və qasırğalardan çıxarıb müstəqillik yolu ilə inamla apara bilər, ölkədə vətəndaş həmrəyliyi, siyasi sabitlik və əmin-amanlıq bərqərar olar. Hamının və ya əksəriyyətin qəbul etmədiyi şəxs hakimiyyətə gəldikdə isə ölkədə özbaşınalıq, anarxiya, hərc-mərclik baş qaldırar ki, bunun da nəticəsində məlum faciələr törənər. 1988-ci ildən sonra respublikamızda baş verən hadisələr şəksiz şəkildə sübut etdi ki, zorla, qeyri-qanuni yollarla, millətin, xalqın qanı hesabına hakimiyyətə gəlmək olar, lakin onu əldə saxlamaq olmaz. Ə.Vəzirov M.S.Qorbaçov tərəfindən xalqın başı üstündən hakimiyyətə gətirilmişdi. Ona görə də 1990-cı ildə öz xalqını qırıb Moskvaya qaçdı. Ayaz Mütəllibov 20 Yanvarda şəhidlərin cəsədləri üstündən cinayətkar kimi hakimiyyətə gəldi və 1992-ci ilin martından da gəldiyi qayda ilə qaçıb Moskvada gizləndi. 1992-ci ilin mayında AXC qeyri-demokratik yolla, alternativsiz, xalqın əksəriyyətinin Heydər Əliyevi istədiyi, tələb etdiyi bir şəraitdə, siyasi fəallıq edərək hakimiyyəti zəbt etmişdi. Xalqın Heydər Əliyevi hakimiyyətə gətirmək haqqında qanuni tələblərini qulaqardına vurmaqla hakimiyyətə gələn Xalq Cəbhəsinin hakimiyyətinin ömrü heç bir il də çəkmədi. 1993-cü ilin iyun Gəncə qiyamı nəticəsində Cəbhə hakimiyyətinə son qoyuldu. 1993-cü ildə ölkədə vətəndaş müharibəsi başlandı, siyasi sabitlik pozuldu və dövlətin bütövlükdə və tamamilə dağılması təhlükəsi yarandı. Belə bir vaxtda Azərbaycan xalqının iradəsi və tələbi ilə onun Vətənini sevən oğlanlarının təşəbbüsü və fəaliyyəti ilə Heydər Əliyev yenidən hakimiyyətə dəvət olundu. 1993-cü ilin oktyabr ayında o, alternativ qaydada, demokratik yolla Azərbaycan Respublikasının prezidenti seçildi. Heydər Əliyev prezidentliyi dövründə sübut etdi ki, rəhbəri xalq özü seçir və bu dəfə də seçməkdə səhv etmədi.

**Digər tərəfdən isə son illərin təcrübəsi göstərdi ki. xalq özü seçdiyi rəhbərə inanır və ən ağır şəraitdə belə öz rəhbərini qorumağa. mühafizə etməyə qadirdir. 1994-cü ilin oktyabrında Surət Hüseynov dövlət çevrilişinə cəhd etmək istədikdə. Heydər Əliyevin gecə yarısı çağırışı ilə 100 mindən çox əhali maşınsız. miniksiz Prezident Aparatının qarşısına toplaşdı. Əgər 1993-cü ilin iyununda başlanan Gəncə qiyamı xalqın AXC-Müsavat iqtidarını müdafiə etmədiyinə görə. qiyamçıların Bakıya qədər gəlməsi və AXC iqtidarının məhvi ilə nəticələndisə. 1994-cü ildə eyni məqsəd daşıyan S,Hüseynovun növbəti cəhdi xalqın iradəsinə və yardımına arxalanan Heydər Əliyev tərəfindən layiqincə dəf edildi.**

Əgər 1990-1993 - cü illərdə "təyin olunmuş" rəhbərlər xalqın başına 20 Yanvar, Xocalı, Şuşa, Laçın kimi neçə-neçə faciələrin açılmasına şərait yaratdılarsa, bu əməllərin iştirakçısı oldularsa və onların bəd əməlləri nəticəsində torpaqlarımızın 20 faizi işğal edildisə, bir milyon qaçqın yarandısa və neçə-neçə əlavə faciələr törəndisə, Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlməsi ilə xalqımızı gözləyən növbəti fəlakətlərə son qoyuldu, siyasi sabitlik yarandı, torpaqlarımızın işğalı dayandırıldı və iqtisadi dağıntı prosesləri səngidi. Məgər bunlar tarixdə şəxsiyyətin böyük roluna ən bariz misallar deyilmi? Məgər bunlar hakimiyyətsizliklə hakimiyyətin mövcudluğunun, rəhbərsizliklə rəhbər mövcudluğunun, həqiqi liderlə "mifik lider" obrazının fərqini anlamaq üçün kifayət etmirmi?! Beləliklə, 20 Yanvar faciəsindən, eləcə də digər faciələrimizdən doğan ən başlıca növbəti ibrət dərsi odur ki, xalqa onun öz içərisindən çıxmış və həmin dövlətə, onun müstəqilliyinə. çiçəklənməsinə. inkişaf etməsinə xidmət etmək istəyən şəxsiyyətlər rəhbərlik etməlidir, hansısa xarici dövlətlərin əlaltıları və ya fırıldaqçı maliyyə qruplarının, mafioz dairələrin başçıları yox. Əgər 1988-ci ildən Ə. Vəzirov dövründə Heydər Əliyev respublikamıza rəhbərliyə qaytarılsaydı, nə 1990-cı il Yanvar qırğını, nə Xocalı faciəsi, nə Şuşa, nə Laçın, ümumiyyətlə, heç bir faciələrimiz olmayacaq, torpaqlarımız işğal edilməyəcək və Dağlıq Qarabağ problemi də baş qaldıra bilməyəcəkdi. Hətta cəsarətlə deyə bilərəm ki, heç Ermənistandan 200 mindən çox soydaşımız da öz dədə-baba torpaqlarını tərk etməyəcəkdi. Necə ki, Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması ilə Gürcüstandan Azərbaycana artıq başlamış olan axının qarşısı alındı, o adamların əlləri işə yatdı. Bu sadə həqiqətləri təkrarən yazmaqda məqsədim xalqın əksəriyyətinin bildiyi məlum hadisələri xatırlatmaq deyil, əksinə, bu gün də içərimizdə olan nankorları artıq baş vermiş olan bütün bu proseslərdən ibrət dərsi götürməyə çağırmaqdır. Onlar dərk etməlidirlər ki, faciələrimiz hakimiyyətsizlikdən, özbaşınalıqdan törəyib.

**Bu sadə həqiqətləri bir daha sadalamaqla bu gün də hakimiyyətə qeyri-qanuni yol və vasitələrlə can atan siyasi partiyalara onu xatırlatmaq istəyirəm ki, Qarabağ problemi olan, ərazisinin 20 faizinin işğal olunduğu, bir milyon isə qaçqının yaşadığı bir ölkədə Heydər Əliyev kimi ümummilli bir liderin ətrafında qeyd-şərtsiz və təmənnasız şəkildə birləşmək lazımdır. Hər hansı siyasi partiya liderinin və ya siyasi partiyanın Heydər Əliyev şəxsiyyətinə kölgə salmaq niyyəti varsa, onun Azərbaycanın gələcək siyasi mənzərəsində izi-tozu qalmayacaq. Bu, Azərbaycan xalqının iradəsi, istəyi və arzusudur. Türkiyədə mövcud siyasi partiyalar Konstitusiya və bir də Mustafa Kamal Atatürkün ideyaları əsasında fəaliyyət göstərdiyi kimi, Azərbaycanın siyasi partiyaları da dövlətimizin mövcud Konstitusiyası və Heydər Əliyev**

**ideyaları əsasında fəaliyyət göstərməli, demokratik, hüquqi Azərbaycan dövlətini qurub inkişaf etdirməlidir. Başqa yol ola bilməz.**

20 Yanvar faciəsinin növbəti ibrət dərsi həmrəyliyin, vətəndaş birliyinin hər cür hakimiyyətdən, o cümlədən siyasi hakimiyyətdən yüksəkdə olduğunu aşkar etməsidir. Ümummilli mənafe olan yerdə şəxsi hakimiyyət mübarizəsinə qoşulmaq millətə, xalqa ən böyük xəyanətdir. Əgər Ə.Vəzirov, A.Mütəllibov və Xalq Cəbhəsi vaxtında ümummilli mənafeləri əsas götürüb xalqın iradəsi əleyhinə getməsəydi və Heydər Əliyevlə əməkdaşlıq yolu tutsaydılar, onda milli birlik də vaxtında yaranar, erməni işğalının qarşısı da yerindəcə alınardı. Bu gün müxalifət liderləri ümummilli birlikdən, vətəndaş həmrəyliyindən çox dəm vururlar. Lakin özləri real hakimiyyətdə olduqları vaxt vətəndaş həmrəyliyi istiqamətində hansı real addımları atdıqlarından nədənsə söhbət açmırlar. Bizə milli birlik, vətəndaş həmrəyliyi lazımdır. Bizə yalnız Heydər Əliyevin ideyalarına sadiq olan və xalqın mənafeyini güdən mütərəqqi qüvvələrin, dövlətçiliyə sədaqətlə xidmət edən, mövcud Konstitusiyaya, qanunlara tabe olan siyasi partiyaların sağlam birliyi lazımdır, siyasi sabitlik naminə qeyri-sağlam qüvvələrin müvəqqəti “sazişi” yox. Belə “birlik” Azərbaycan xalqına, dövlətinə ancaq və ancaq gələcəkdə yeni faciələr gətirə bilər. Xalqımıza, dövlətimizə belə bir birlik lazım deyil.

**20 Yanvar faciəsi sağlam vətəndaş həmrəyliyi və milli birlik ideyasının millət, xalq və dövlət üçün nə dərəcədə əhəmiyyətli olduğunu bir daha xalqımıza anlatdı.**

Milli birlik, vətəndaş həmrəyliyi axtararkən xalqın sağlam hissəsinin və çoxluğun birliyinə arxalanmaq lazımdır. Vətənpərvər, demokratlar bu gün hər bir siyasi partiyanın tərkibində vardır. Biz bu gün kommunist partiyası liderlərini 20 Yanvar faciəsində günahlandırarkən o faktı da unutmamalıyıq ki, faciə baş verdiyi günün sabahsı əksər sıravi kommunistlər öz partiya biletlərini atmış və ya yandırmışlar. Azərbaycan Kommunist Partiyasının mərkəzi aparatında və eləcə də digər dövlət, hüquq-mühafizə orqanlarında əsasən aşağı rütbələrdə işləyən vəzifəli şəxslər arasında 20 Yanvar hadisələri zamanı ordunun törətdiyi cinayətləri pisləyən adamlar az olmamışdır.

**Eləcə də torpaqlarımızın müdafiəsi zamanı Vətənimizi təmənnasız qoruyan, bu yolda canlarım belə əsirgəməyən oğullarımız çox olmuşdur. Onlar bu gün də Heydər Əliyev siyasi kursunu bəyənir və milli dövlət quruculuğu prosesində namusla, fədakarlıqla iştirak edirlər. Biz ancaq bu cür adamların sağlam birliyinə, həmrəyliyinə əsaslanmalıyıq. Siyasi partiyalara, ictimai-siyasi təşkilatlara və cəmiyyətlərə gəldikdə isə bu gün həmin sferada gedən proseslər siyasi sabitliyi təmin edərək, milli həmrəyliyin tədricən də olsa yaranmasına şərait yaradacaq.**

Digər qütbdə yəni müxalifət düşərgəsində isə 1992-1993 - cü illər hakimiyyət uğrunda mübarizənin getdiyi dövrlərdə parçalanmaqda olan partiyalar bu gün saxta birlik nümayiş etdirməkdədirlər. Məlumdur ki, onları parçalayan səbəblər bu gün də qüvvədə qaldığından bu birləşmə də mümkün deyil. Lider, hakimiyyəti bir əldə cəmləşdirə biləcək vahid başçı müxalifət düşərgəsində olmadığından, onların gələcəkdə hansısa vəzifəyə gəlmək naminə məcburən, könülsüz birləşmələri ilə həqiqi birlik və həmrəylik əldə oluna bilməz. Belə birlik və həmrəylik yeni-yeni surətlər, Rəhim Qazıyevlər və Əlikramlar törədəcək. Xalqı isə bir dəfə aldatmaq olar.

**Qafar Əliyev,**
YAP Siyasi Şurasının üzvü, politoloq

**“Azad Azərbaycan”.-** 2009.- 20, 23 yanvar.- №9, 10.- S. 4,5.

## Azərbaycan xalqının qəhrəmanlıq salnaməsi

Süqutu ötən əsrin 80-ci illərində sürətlənən sovet imperiyası 70 il SSRİ tərkibində yaşamış xalqların ötən əsrin sonlarında güclənmiş milli azadlıq hərəkatının qarşısını nəyin bahasına olursa-olsun almağa, labüd iflasdan yaxa qurtarmağa çalışırdı. İttifaq ölkələri sırasında istiqlaliyyəti uğrunda ən güclü mübarizə aparan Azərbaycan xalqı milli azadlıq hərəkatındakı əzmkarlığına, qəhrəmanlığına görə "ilin xalqı" elan edilmişdi. Lakin imperiya xalqlara onların tələb etdiyi azadlığı asan yolla vermək niyyətində deyildi, ittifaq rəhbərliyi əsarətdən yaxa qurtarmağa çalışan ölkələri cəzalandırmağa hazırlaşırdı. Belə bir vaxtda - yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərində baş verən faciəli hadisələr milli azadlıq uğrunda mübarizənin ən yüksək mərhələsi idi. Xalq nəyin bahasına olursa-olsun, azadlığına qovuşmaq, suverenlik əldə etmək istəyirdi. Meydanlara toplaşan yüz minlərlə insan yalnız bu əzmlə mücadilə aparırdı. 20 Yanvar şəhidlərinin anım günündə hadisənin şahidləri əməkdaşımızla söhbətində faciə ilə bağlı xatirələrini bölüşdülər.

Faiq Sultanzəki, faciənin şahidi: "20 Yanvar hadisəsindən sonra aydın şəkildə başa düşdük ki, ittifaq rəhbərliyi Dağlıq Qarabağ məsələsində Ermənistanın təcavüzkar siyasətini dəstəkləyir. Hələ 20 Yanvar hadisəsindən bir neçə gün qabaq insanlar Nazirlər Sovetinin binası qarşısına toplaşaraq müstəqillik haqda tələblər səsləndirir, haqq səslərini ucaldırdılar. Meydana toplaşan azadlıq fədailəri Dağlıq Qarabağda cinayətkar hərəkətlərlə üzləşmiş həmvətənlərimizin təhlükəsizliklərinin təmin olunmasını, erməni daşnaklarının getdikcə azğınlaşan əməllərinin qarşısının alınmasını istəyirdi.

Ordu gecə paytaxt sakinlərini atəşə tutmağa başladı. İndiki "20 Yanvar" metro stansiyasının qarşısındakı dinc sakinlərin üzərinə ordu amansız hücuma keçdi. Hərbçilər yaşından, cinsindən asılı olmayaraq hər kəsə atəş açır, mərmi altında qalanların qadın və ya qoca olmasının fərqinə varmırdılar. Bir neçə dəqiqədən sonra hamı ordunun xalqa divan tutduğunu başa düşdü".

Nizami Rüstəmov, 20 Yanvar əlili: "Dəhşətli mənzərə idi. Hərbi birləşmələr gecə bir neçə istiqamətdən hücuma keçmişdi. İnsanlar tankların, zirehli transportyorların qarşısında əliyalın nə edə bilərdi? Nəsimi bazarının yanında dayanmışdıq. Qarşı tərəfdən bir taqım üstümüzə hücum çəkdi. Əsgərlər bizi qorxutmaq üçün əvvəlcə havaya atəş açdılar. Sonra isə bizi hədəfə aldılar. Mən qolumdan və ayağımdan yaralandım. Azğınlaşmış hərbçilər bizim qarşımızı qorxu ilə almağın mümkünsüzlüyünü görüb yanımızdan ötüb keçdilər. Onlara diqqət yetirdik, əksəriyyəti xüsusi təlim keçənlər idi. Bunlar fərqinə varmadan hər kəsi öldürməyə hazırlanmış qəddar hərbçilər idilər.

Yaralılara kömək etmək istəyənlər "Dostluq" kinoteatrının qarşısına üz tutduqda burada dəhşətli mənzərələrlə qarşılaşmışdılar. Yaxın dostum Arif Salmanova burada güllə dəymiş, o yerindəcə dünyasını dəyişmişdi. Ərazidə onlarla qadın, uşaq vardı. Əksəriyyəti yaralılar idi. Təcili yardım maşınları meyitlərlə, yaralılarla dolu idi. Qərara gəldik ki, həkimlərə kömək edək. Yaralıları gizlətməyə başladıq ki, azğın əsgərlər onları öldürməsinlər. İmperiya hərbçiləri hətta milis işçilərini də hədəf seçirdilər. Mənim yanımda milis çavuşu Telman Bağırovu atəşə tutdular, o və dostu şəhid oldu. Başqa bir dinc sakini avtomatla atəşə tutdular. Həmin şəxs də yaralandı. Çoxlu qan itirdiyindən onu həyata qaytarmaq mümkün olmadı.

Rasim Mirzəyev, hadisələrin şahidi: "Bu hadisələr imperiyanın öz mənafeləri naminə hər bir vətəndaşı qurban verməyə hazır olduğunu sübut etdi. Elə buna görə də dağılmaqda olan SSRİ-nin iflası ərəfəsində onlarla günahsız həmvətənimizin qanı axıdıldı. Yanvarın 20-si gecə saat 2-yə kimi qanlı hadisələrin, sovet ordusunun dinc əhaliyə qarşı törətdiyi vəhşiliklərin şahidi olduq. Köməksiz yaralılar çabalayırdılar, dinc sakinlər çaşqınlıq içində idilər. Əhali bir an nə baş verdiyini başa düşmədi. Çox keçmədən anladıq ki, ordu dinc sakinləri güllələbaran etməyə başlayıb. Ətrafımızda onlarla yaralı və ölən vardı. Azğınlaşmış hərbçilər qarşılarına çıxana aman vermirdilər. Şəhərin mərkəzi küçələrinə yeridilən tanklar avtomobilləri əzərək əhali arasında vahimə yaratmağa çalışırdılar".

Akif Səfərəliyev, hadisənin şahidi: "Ordunun hücumu gözlənilməz idi. Əsgərlər hətta qocaları da güllələbaran edirdilər. Meydanda olanlar atəş səsləri səngiyəndən sonra yaralıları xəstəxanalara daşımağa başladılar, eyni zamanda meyitlərin axtarılıb tapılmasında, sahiblərinə çatdırılmasında iştirak edirdilər. Meyitlər arasında kəsilmiş uşaq ayağı da vardı. Həmin səhnələri xatırlamaq çox ağırdır. Çünki bu qəddarlıq silahlı insanlara deyil, mülki əhaliyə, dinc insanlara qarşı törədilmişdi. Sovet imperiyası Azərbaycana qarşı elan olunmamış müharibə aparmışdı.

Dayım oğlu Bayram Əliyev düşmən gülləsinə tuş gəldi. Xeyli qan itirmişdi. O, dünyasını dəyişdi, şəhidlik zirvəsinə ucaldı. Biz Bayramla fəxr edirik. Yanvarın 21-i, bütün Azərbaycan yasa bürünmüşdü. Dəfn mərasimlərində üzləşdiyimiz hadisələr xüsusilə dözülməz idi. Biz xiyabana gələrək ilk üç şəhidin məzarını

qazmağa başladıq. Qarşılaşdığım səhnələr o qədər dözülməz idi ki, ilk məzarı qazarkən sarsıntı keçirib huşumu itirdim. Ayılanda özümü xəstəxanada, həkimlərin əhatəsində gördüm".

Əli Muradov, şəhid ailəsi: "Həmin gecə o qədər təhlükəli idi ki, bu, bir çoxlarımızın sağlamlığında fəsadlar yaratdı, psixi problemlər ortaya çıxartdı. Sovet ordusunun dinc əhalini güllələbaran etməsi faşizm zorakılığına daha çox bənzəyirdi. Yaxın qohumum Elmanın küçəyə çıxdığını bilirdik. O, baş verən proseslərdə yaxından iştirak edirdi. Ayın 21-də səhər tabutunu gətirdilər. Telman milis çavuşu idi. Milis işçisinin atəşə tutulması qaniçən ordunun hətta ictimai asayiş keşikçilərinə də aman vermədiyini sübut etdi. Yanvar hadisələri Azərbaycan xalqının qəhrəmanlıq salnaməsi idi. Xalq öz qəhrəmanlığı ilə sübut etdi ki, o öz azadlığı, müstəqilliyi naminə canını qurban verməyə hazırdır. 20 yanvar hadisələri həmvətənlərimizin azadlıq sevgisinin təcəssümü, qəhrəmanlıq salnaməsi idi".

Ərəstun Bayramov, hadisənin şahidi: "Gecə əsgərlər bizi atəşə tutdu. Həyəcan keçirirdik, hər tərəfdə meyitlər, yaralı insanlar vardı. Tələbə yoldaşım Elxan Əliyevi də güllə ilə vurdular. O, sinəsindən yaralandı, çoxlu qan itirdi. Digər yoldaşlarımla onu güllə yağışı altından çıxara bildik.

Azğınlaşmış hərbçilər yaşayış binalarına da atəş açırdılar. Dinc insanlara qarşı amansız zorakılıq etdilər. Çox istərdim ki, Azərbaycanın başına gətirilən bu faciə dünya ictimaiyyətinə daha geniş çatdırılsın və bəşəriyyət bu ədalətsizliyin qiymətini versin. Arzumuz budur ki, işğal olunan Qarabağ torpaqları geri qayıtsın, şəhidlərimizin ruhu şad olsun".

**Anar RASİMOĞLU**

**"Azərbaycan".-** 2009.- 22 yanvar.- N 15.- S.4.

## Azərbaycan tarixində qəhrəmanlıq səhifəsi

**Əli Orucov: "Təəssüf ki, illər keçdikcə 20 yanvar faciəsinin qurbanlarını ziyarətə gedən insanların sayı azalır"**

**"Bu cür unutqanlıq Azərbaycan xalqına yaraşmır"**

Bu günlərdə Azərbaycan xalqı 20 yanvar hadisələrinin 19-cu ildönümünü qeyd edir. 19 il əvvəl imperiya qoşunlarının Azərbaycanda həyata keçirdikləri qırğın keçmiş Sovetlər Birliyinin nə dərəcədə qaniçən olduğunu bir daha təsdiqlədi. Müstəqillik uğrunda ayağa qalxmış silahsız insanlara qarşı ağır texnikalardan istifadə edərək onlara divan tutmaq planı hələ faciədən bir neçə gün əvvəl hazırlanmışdı. Həmin dövrdə baş vermiş hadisələrin iştirakçısı, Bakıda tələbə həyatı yaşayan Əli Orucovun sözlərinə görə, Rusiya DTK-sı Bakıda çox yaxşı işləyərək yanvar qırğınının miqyasının geniş olmasına nail oldu. Keçən 19 il ərzində 20 yanvar faciəsinin günahkarlarının tam mənada cəzalandırılmamasını daxildə düşmən axtarışı ilə əlaqələndirən Əli Orucov hazırkı vəziyyətdə şəhidlərə olan biganə münasibətdən də danışıb. O, illər keçdikcə Şəhidlər Xiyabanını ziyarət edənlərin sayının az olmasını mənfi hal kimi dəyərləndirib.

**- Əli bəy, 20 yanvar faciəsi baş verən ərəfədə ölkədəki ictimai-siyasi vəziyyət necə idi və hansı zərurətdən Bakıda yanvar qırğını törədildi?**

- Həmin ildə mən tələbə idim və o zaman tələbə hərəkatı bu proseslərdə çox fəal idi. Demək olar ki, tələbələr cəmiyyətdə aparıcı qüvvəni təşkil edirdi. Bu prosesin baş verməsi xarici kəşfiyyat idarələrinin fəaliyyətinin nəticəsi idi. Hələ 20 yanvar qırğınından bir neçə gün əvvəl ermənilərin Bakıdakı mənzillərinə, eləcə də erməni ailələrinə düşünülmüş şəkildə hücumlar təşkil edilir, müəyyən neqativ hərəkətlər həyata keçirilirdi. Sanki bir emosiyalılıq vardı. Gənclərdə də məhz bu emosiya daha güclü olduğundan istər-istəməz bu proseslərə daha çox cəlb olunurdular. Hətta faciədən bir neçə gün əvvəl gecələr paytaxt küçələrində, xüsusi avtomobillərlə çağırışlar edirdilər ki, Bakıya sovet qoşunları girəcək və bunun qarşısını almaq lazımdır. Bu məqsədlə şəhərin müxtəlif yerlərində postlar da qurulmuşdu. Biz daha çox Biləcəri istiqamətindəki postlarda növbə çəkirdik. Ancaq bütün halda insanlar inanmırdı ki, sovet qoşunları onlara qarşı aqressiv münasibət göstərərək şəhərə daxil olacaq. Yanvarın 19-da, axşam saat 6-7 ərəfəsində Biləcəriyə gedən yolda toplaşmış insanlarla görüşən Nemət Pənahlı kütləyə xitabən bildirdi ki, geri çəkilməyin, mübariz olun və Sovet qoşunlarının Bakıya daxil olmasına imkan verməyin. Hətta Nemət Pənahlı oraya toplanmış insanlara silah göndəriləcəyini də dedi. Nemət Pənahlının çıxışından təxminən 2 saat sonra əraziyə 2 sisterndə yanacaq gətirildi və həmin oraya yığılan insanlara, xüsusən də gənclərə şüşə qablar payladılar ki, həmin benzin şüşələrə doldurulub şəhərə daxil olan tanklara qarşı atılsın. Bu açıq-aşkar təxribat idi. Bəlkə də bu təxribatın arxasında o vaxtkı Dövlət Təhlükəsizlik Komitəsi və ya başqa qüvvələr dayanırdı. Həmin gün gecə saat 24-dən sonra Salyan kazarması deyilən ərazidən atəş səsləri eşidildi. O ərəfədə biz ərazidə postda idik. Təxminən 20 dəqiqədən sonra 2 tank və 2 BTR 20 yanvar metrosu yaxınlığında dövrə vuraraq geri qayıtdı. Bundan sonra isə çox dəhşətli bir mənzərə yarandı. İnsanlar sovet qoşunlarının belə bir şəkildə hücuma keçəcəyi və qırğın törədəcəyini gözləmirdi. Sadəcə bunun insanları qorxutmaq xarakteri daşıdığı güman edilirdi. Ancaq görəndə ki, ətrafımızda olan insanlar qanın içərisindədir, o zaman bunun xalqa qarşı qırğın olduğunu müəyyən etdik. Bütün imkanlarımızı ona səfərbər etmişdik ki, yaralı insanları sovet qoşunlarının tankları altından xilas edək, onlara yardım göstərək. Həmin günlər çox dəhşətli idi və bir gənc olaraq bu günə qədər də həmin ərəfədə baş verənlərin dəhşətini unuda bilmirəm.

**- Sizcə məhdud sayda itgi ilə bu qırğından yaxa qurtarmaq mümkün idi?**

- O zaman insanlar ağılla deyil, emosiya ilə hərəkət edirdilər. Kütlə geri çəkilməməyə təhrik edilir və bildirilirdi ki, əks halda sovet qoşunları Bakıya daxil olacaq. Yanvar hadisələrindən bir qədər əvvəl isə, aprelin 9-da Gürcüstanda analoji hadisələr baş vermiş və dinc əhaliyə qarşı silah işlədilmişdi. Ona görə də əhalini küçələrdən çəkilməməyə və sovet qoşunlarının Bakıya daxil olmasına maneçilik törətməyə çağırırdılar. Hətta bir qədər ehtiyat edib meydanları tərk etmək istəyənlərə qorxaq deyilir, bəzi hallarda isə onlar təhqir olunurdu. Ona görə də o zaman bu prosesin qarşısını heç kim ala bilməzdi.

**- Həmin vaxt kütlə önündə olan şəxslərin DTK ilə işbirliyinə getdiyi və xalqa xəyanət etdikləri barədə zaman-zaman ehtimallar irəli sürülür. Siz də belə bir qənaətdəsiniz?**

- Mən bu cür düşünmürəm. O vaxt hərəkatın liderlərindən olan Etibar Məmmədov televiziya ilə xalqa müraciət edərək qırğından yaxa qurtarmaq üçün insanları geri çəkilməyə çağırmaq istəyib. Lakin nəzərdə tutulan müraciətdən 2 saat əvvəl televiziyanın enerji bloku partladıldı. Ona görə də xalqı bu qırğından qurtarmaq və ya faciəni minimuma endirmək üçün əlavə vasitə yox idi. O dövrdə həm indiki kimi mətbuat bolluğu yox idi, həm də insanların mübarizlik əzmi yüksək idi. Digər tərəfdən insanlar arasında rabitə əlaqələri

də zəif idi. Ona görə də bu proses qarşısıalınmaz idi. Düşünmürəm ki, kimsə bunu bilərəkdən edib və ya qırğını minimuma endirmək üçün əlində olan vasitələrdən yararlanmayıb. İndi nəsə söyləmək asandır. Ancaq o dövrdə insanları sakitləşdirmək, onları yola gətirmək çətin idi. Yaxşı yadımdadır ki, tanklar şəhərə girərkən bir qadın tankın qabağına qaçaraq onu yumruqlamağa başladı. Halbuki həmin şəxs görürdü ki, tankın üzərində olan əsgərlər insanlara, onun ətrafında olanlara atəş açırlar.

**- Faciənin üzərindən 19 il keçsə də, hələ də 20 yanvar qırğınını törədənlərin əsl günahkarları cəzalandırılmayıb. Bunun səbəbi nədir və sizcə bu məsələdə biz bir qədər unutqanlığa yol vermirikmi?**

- Çox təəssüf edirəm ki, əksər hallarda 20 yanvar faciəsi ilə bağlı daxildə günah axtarılır və bu hadisə bir növ siyasiləşdirilir. Bir sıra hallarda kimlərsə öz siyasi rəqiblərinə qarşı mübarizədə bundan bəhrələnməyə çalışırlar. Ancaq bu birmənalı olaraq hamıya məlumdur ki, 20 yanvar qırğınının həyata keçirilməsində Rusiya-erməni işbirliyi günahkardır. 20 yanvar faciəsi onların törətdikləri hadisə idi. Hamıya məlumdur ki, yanvarın 19-u gecə şəhərə daxil olanlar boyeviklər idi və onların sifətinə baxanda adamı vahimə basırdı. Onların hamısı cəllada oxşayırdı. Artıq onlar şəhərdə qırğın törətdikdən sonra həmin qüvvələri nisbətən yeni əsgərlər əvəz etdi. Bunun qarşısını almaq üçün isə Azərbaycanda acizlik var idi. Ancaq bütün halda bu faciə deyil, Azərbaycanın tarixində bir qəhrəmanlıq səhifəsidir. İnsanlar bir daha sübut etdilər kimi, onların mübarizəsini tanklar, ağır silahlar, vəhşilik dayandıra bilməz. Nəinki gənclər, hətta qadınlar da zirehli maşınların üzərinə şığıyır, Sovet qoşunlarına öz etirazlarını bildirirdilər.

**- Yəni günahkarların tam cəzalandırılmamasını daxildə düşmən axtarışı ilə əlaqələndirirsiniz?**

-20 yanvar qırğınının iştirakçılarının cəzalandırılmamasını sırf daxildə düşmən axtarışı ilə bağlamıram. Qırğının günahkarlarını Xüsusi Xidmət Orqanları və onların Azərbaycandakı nökərlərində görürəm. Hər halda rus DTK-sı Azərbaycanda çox gözəl işləyirdi və təxribatı məharətlə qurmuşdular. Təxribatın qarşısını almağa isə nə hərəkat nümayəndələri, nə də insanlar qadir idi. Çünki insanlarda bir ruh yüksəkliyi, mübarizlik, əzmkarlıq vardı. Hətta 20 yanvar hadisəsindən 2 gün sonra indiki Prezident Aparatının qarşısında böyük bir mitinq keçirildi. Həmin mitinqdə Mixail Qorbaçov üçün formal olaraq "dar ağacı" qurulmuşdu. Bir çoxları həmin mitinqdə partiya biletlərini cırdı və sovet hakimiyyətinin ünvanına sərt şüarlar səsləndirdi. Bu zaman yenidən əraziyə zirehli texnika gətirildi, lakin insanlar heç nədən çəkinmədilər. İnsanlarda imperiyaya qarşı böyük bir nifrət var idi. Bu nifrət o qədər yüksək idi ki, baş vermiş qırğına rəğmən insanlar yenə də ölümə getməyə hazır idilər.

**- Sizcə 20 yanvar faciəsinin qurbanları lazımı səviyyədə yad edilirmi və şəhidlərə göstərilən diqqət və qayğı qane edicidirmi?**

- Təəssüf ki, illər keçdikcə 20 yanvar faciəsinin qurbanlarını ziyarətə gedən insanların sayı azalır. Bunun özü məndə çox təəssüf hissi yaradır. Bir neçə illər əvvəl Şəhidlər Xiyabanına getmək, orada dəfn edilmiş şəhidləri ziyarət etmək bizdə qürur hissi yaradırdı və Azərbaycanın müstəqilliyi uğrunda canını fəda etmiş insanları ziyarət etməyi özümüzə borc bilirdik. Ancaq illər keçdikcə şəhidləri ziyarət edənlərin sayı azalır. Bu çox ağrılı bir haldır. Biz Azərbaycanın müstəqilliyi uğrunda canını fəda etmiş şəhidlərimizin xatirəsini həmişə əziz tutmalı, onları daima qəlbimizdə yaşatmalıyıq. Bu cür unutqanlıq Azərbaycan xalqına yaraşmır.

**Süleyman**

**"Olaylar".-** 2009.- 20-21 yanvar.- N.11.- S.4

## Bu qisas qiyamətə qalmaz…
## 20 Yanvar xalqımızın qəhrəmanlıq salnaməsi idi

19 il öncə - 1990-cı il yanvarın 19-dan 20-ə keçən gecə təxminən iki yüz il davam edən imperiya zülmündən cana doymuş Azərbaycan xalqı ayağa qalxaraq azad yaşamaq haqqının olduğunu bəyan etdi. Həmin gün xalqımızın özünüdərk prosesinin zirvəsi, milli oyanışın təntənəsi oldu. Torpaqlarımızın toxunulmazlığı uğrunda başlanmış mübarizə sonda vüsətli xalq hərəkatına çevrildi. Onilliklər boyu gücünü yığan xalqın hayqıran səsi imperiyanı lərzəyə saldı və onu sarsıtdı. Mərkəzin və onların yerdəki əlaltılarının cidd-cəhdləri ilə faciələr törədilsə də, xalqın dəmir iradəsini qıra bilmədilər. Özünün həqiqi, real məziyyətlərinə görə digərlərindən üstünlüyünü anlayan Azərbaycan xalqı sovet imperiyasının "geridə qalmış xalq" sindromunu qırdı və birləşərək azadlıq əzmini nümayiş etdirdi. Tarix bizi yenidən ağır sınaqlara çəkdi. Sovet imperiyası ilk qisasını Azərbaycandan aldı. Qanlı 20 Yanvar faciəsini törətdi…

Həmin gün Azərbaycanın o vaxtkı satqın rəhbərliyinin istəyi və SSRİ rəhbərliyinin əmri ilə ölkəmizdə kommunist rejimini saxlamaq məqsədilə Bakıya 35 minlik ordu yeridildi. SSRİ Müdafiə Nazirliyi və DTK-nın hazırlayıb həyata keçirdiyi "Udar" adlı əməliyyatda əsas rolu xüsusi təyinatlı "ALFA" və SSRİ DTK-nın "A" təxribat qrupları oynayırdı. Sovet qoşunlarının təcavüzü nəticəsində Bakıda 134 mülki vətəndaş öldürülmüş, 600-dən çox adam yaralanmışdı. Öldürülənlər arasında beş millətin nümayəndələri, 20-dən çox qadın, uşaq var. Lakin "Qara yanvarın indiyədək özündə saxladığı sirlər də çoxdur. 100 cildlik istintaq materialının 69 cildi Bakıdan Moskvaya, keçmiş SSRİ Prokurorluğuna aparılıb və bir daha geri qaytarılmayıb. Azərbaycan xalqının məruz qaldığı bu təcavüz indiyədək bəşəriyyət əleyhinə cinayət kimi beynəlxalq müstəvidə layiq olduğu təsnifatı almayıb. Bu hadisələrə emosiya, kədər, yaxud mübarizlik salnaməsi kimi pafoslu münasibətlə bərabər, bir qədər də soyuqqanlı olub, o hadisələrin gerçək mahiyyətini dünya birliyinin, çeşidli beynəlxalq təşkilatların önünə qoymaq barədə düşünməli, 20 Yanvara beynəlxalq-hüquqi qiymətin verilməsinə çalışmalıyıq.

1988-ci ildən başlayaraq Bakı şəhərində və respublikamızın rayonlarında ictimai-siyasi vəziyyət kəskinləşməyə başladı. Bunun əsas səbəbi Azərbaycanın əzəli torpaqları olan Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan Respublikasının tərkibindən çıxarılıb Ermənistana birləşdirilməsi barədə Dağlıq Qarabağda və Ermənistanda erməni millətçilərinin fəaliyyətinin gücləndirilməsi idi. Müttəfiq respublikanın suverenliyinin təminatçısı olan keçmiş SSRİ-nin ali dövlət hakimiyyəti orqanları Azərbaycan xalqının suveren hüquqlarını qorumaq sahəsində Konstitusiya öhdəliklərini yerinə yetirməkdə qətiyyət, əzmkarlıq göstərmədi. Dağlıq Qarabağda separatçıları vaxtında yerlərində oturtmadı və Ermənistanın əsassız ərazi iddialarını rədd etmədi. Bütün bunlar SSRİ-nin rəhbər orqanlarına və respublikanın suverenliyinin, ərazi bütövlüyünün müdafiəsi ilə bağlı problemləri həll etməyə acizlik göstərən o vaxtkı Azərbaycan rəhbərlərində Azərbaycan xalqının etimadını sarsıtmışdı. Ermənistanın ərazi iddiaları və Dağlıq Qarabağda separatçılıq hərəkəti 1988-ci ildə respublikanın ərazi bütövlüyünün müdafiəsi uğrunda kütləvi xalq hərəkatının yaranmasına gətirib çıxardı. Respublikamızda milli mənlik şüurunun daha da güclənməsi və demokratik proseslərin inkişafı "Azərbaycan SSRİ-nin suverenliyi haqqında" Konstitusiya qanununun qəbul edilməsi ilə nəticələndi.

Lakin ermənipərəst Arkadi Volskinin başçılıq etdiyi Xüsusi İdarə Komitəsinin Azərbaycanın əleyhinə məqsədyönlü fəaliyyəti, respublikada baş verən hadisələrin mərkəzi kütləvi informasiya vasitələrində təhrif edilməsi, Ermənistandan və Dağlıq Qarabağdan zorakılıqla qovulan çoxlu sayda azərbaycanlı qaçqın və məcburi köçkünün Bakı şəhərində cəmləşməsi şəraiti mürəkkəbləşdirdi. Azərbaycanın siyasi rəhbərliyinin tam çaşqınlığı, xalqla əlaqəsinin itməsi, müstəqilliyinin olmaması onun iflasını və hakimiyyətsizliyini labüd etmişdi. Qeyd etmək lazımdır ki, o vaxt şəhərdə SSRİ DİN daxili qoşunlarının iri kontingenti var idi və bu kontingentdən qəsdən istifadə edilmədi. Yanvarın 16-da Bakı şəhərinin girəcəyində və Bakı qarnizonu hissələrinin ətrafında vətəndaşlar minik və yük maşınlarını yan-yana qoyaraq piketlər təşkil etdilər. Piketlər Bakıya gələn imperiya qoşunlarının qarşısını kəsmək və Bakı qarnizonu hissələrinin öz yerlərindən çıxmasına yol verməK məqsədilə Milli Müdafiə Şurasının göstərişi ilə təşkil edilmişdi. Yanvarın 18-də Bakı və Azərbaycanın 11 başqa rayonunda keçirilən izdihamlı mitinqlərdə ümumi tətilin başlandığı elan olundu. Tələb edilirdi ki, Ermənistanın ərazi iddialarına son qoyulsun. Bakı ətrafında cəmləşən qoşunlar çəkilib aparılsın və Dağlıq Qarabağın Ermənistanla sərhədyanı rayonlarına göndərilsin. 1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti Rəyasət Heyətinin Mixail Qorbaçov tərəfindən imzalanmış fərmanına əsasən "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verildi. Fərman SSRİ Konstitusiyasının və həm də Azərbaycan Konstitusiyasına və eləcə də beynəlxalq hüquq normalarını pozmuş, fövqəladə vəziyyətin hüquqi rejimini tənzimləyən qanunvericilik aktının olmadığı bir şəraitdə qəbul edilmişdi. Fövqəladə vəziyyət elan edilməsi və

bununla əlaqədar olaraq bu vəziyyətə riayət edilmədiyi halda, hərbi qüvvə işlədiləcəyi barədə əhalinin vaxtında xəbərdar edilməsinin böyük əhəmiyyəti vardır. Belə olsaydı, əhali dağılıb evlərinə gedərdi, tələfat isə az olardı.

Vətəndaşlıq hüquqları və siyasi hüquqlar haqqında 1966-cı il tarixli beynəlxalq paktın 4-cü maddəsinin 1-ci bəndində deyilir ki, fövqəladə vəziyyət tətbiq ediləcəyini rəsmən elan etmək lazımdır. Halbuki Bakıda fövqəladə vəziyyət tətbiq edildiyini əhali ilk dəfə ancaq yanvarın 20-də səhər saat 5.30-da şəhərin komendantı Dubinyakın radio ilə çıxışından və vertolyotların səpdiyi vərəqələrdən öyrənmişdi. O vaxt şəhər artıq qoşun tərəfindən tutulmuş və qırğınlar baş vermişdi. Lakin fərmana uyğun olaraq fövqəladə vəziyyət rejimi demək olar dərhal, 1990-cı il yanvarın 20-də saat 00.00-da tətbiq edilmişdi.

Həmin dövrdə xalqı məlumatlandırmaq üçün bütün vasitələr məhv edildi. Teleradio partladıldı. Teleradionun keşiyində Bakı Ümumqoşun Komandirləri məktəbinin kursantları dayanırdı. Yanvarın 19-da, saat 19.00-da yarımhərbi, yarımidman forması geymiş dörd nəfər silahlı adam teleradio mərkəzinə gəlib, mühafizə dəstəsi isə dərhal onların sərəncamını yerinə yetirmişdir. Gələnlər mühafizəçilərdən enerji blokunun yerini öyrənib öz mühafizələri altında alaraq enerji blokunu saat 19.15-də partlatmışdılar. Ekspertlərin verdiyi rəyə görə, teleradio mərkəzinin enerji blokunu Sovet Ordusunun və SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin xüsusi qrupu partlatmışdı. İnsanlıq simalarını itirmiş imperiya qoşunları şəhərə daxil olarkən öz istiqlalı uğrunda sinələrini sipər etmiş qəhrəman oğul və qızlarımızı məhv etmək üçün tanklardan, zirehli transpartyorlardan, piyadaların döyüş maşınlarından istifadə edirdilər. Zirehli tankların üstündə nömrələri yox idi. “Qırmızı Bayraq” ordenli Xəzər Hərbi Donanmasının gəmilərindən desant çıxarılmışdı. Qoşunların şəhərə yeridilməsi əməliyyatı yanvarın 19-da təqribən saat 21 və 22 arasında Türkan və Qala qəsəbələri arasında qoşun hissələrinin yerləşdiyi rayondan başladı. Qoşunların hərəkəti istiqamətində təsadüfən yoldan keçən adamlar və avtomobil nəqliyyatı vasitələri güllələbaran edildi. Fərman qüvvəyə minənədək hərbi qulluqçular artıq doqquz vətəndaşı öldürmüşdülər. Qoşunun şəhərə kütləvi surətdə yeridilməsi müxtəlif istiqamətlərdə başlamışdı. Bakıya qoşun yeridilərkən hərbi qulluqçular tərəfindən və eləcə də erməni millətindən olan hərbi qulluqçular daha böyük qəddarlıqlar etmişdilər.

Qoşunlar gözqamaşdırıcı qaz tətbiq edərkən, eyni zamanda, adamları avtomat silahlardan güclü atəşə tuturdular. Tanklar piketləri yarıb keçirdilər. Hərbçilər tərəfindən yaralıların öldürülməsi, təsadüfən yoldan keçənlərin, yaşayış evlərinin, mağazaların, tibb müəssisələrinin atəşə tutulması dəhşət doğururdu. Təcili yardım maşınları yaralılara yaxın buraxılmır və atəşə tutulurdu. Bir çox vətəndaş öz evinin qarşısında, mənzilində, avtobusda güllələnib qətlə yetirilirdilər. Vətəndaşlar, o cümlədən, xidmətdə olan polis işçiləri sorğu-sualsız tutulurdular. Hərbi hakimiyyət orqanları yanvarın 20-də saat 22.00-dan etibarən qadağan saatı qoyulduğunu yanvarın 20-də saat 7-də elan etdi. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan edildikdən sonra, yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində daha 21 adam öldürülmüşdü. Daha on yeddi vətəndaş avtomaşınların atəşə tutulması nəticəsində maşınların içərisində öldürülmüşdü. Yeddi vətəndaş isə öz evində avtomatdan atılan atəşlə qətlə yetirilmişdi. Müayinə edilmiş 94 meyitin 82-də silah zədələri müəyyən edilmişdir. Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və respublikanın rayonlarında 190 adam öldürülmüş və 400-ə qədəri yaralanmışdır. Azərbaycan xalqının igid oğlan və qızları doğma Azərbaycanın azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda öz canlarından keçərək zirvəyə yüksəldilər. Onlar sovet imperiyasının dayaqlarını sarsıtdılar. Azğınlaşmış imperiya artıq başa düşdü ki, Azərbaycan xalqı artıq onların başa düşdüyü, beləcə qələmə verdikləri “geridə qalan xalq” deyil. Öz haqqını istəyən, imperiya boyunduruğunu ləğv edən xalqdır.

Sovet imperiyası bu ölməzlik zirvəsinə yüksələn Azərbaycanın qəhrəman oğul və qızlarının qarşısında lərzəyə düşdü. Bu çətin, ağır məqamlarda xalqımız özünün qəhrəman oğul və qızlarının simasında tarixin qəhrəmanlıq salnaməsinə öz igidliyini qızıl hərflərlə həkk etdi. Onların əziz xatirəsi xalqımızın qan yaddaşında əbədi yaşayacaq. Xalqımızın belə bir çətin məqamda yumruq kimi birləşərək sovet imperiyasına qarşı ölüm-dirim mübarizəsinə qalxması bu xalqın milli həmrəylik simvolu idi. Bəli, o vaxt hamı rus ordusunun faciə törədəcəyini yaxşı bilirdi, amma Vətənin azadlığı yolunda güllə qarşısına çıxmağı özünə şərəf bilən insanlar da vardı. Bu insanlar sonradan xalqa və daha sonra Azərbaycana çevrildi. Bu şəhidlik Vətənin azadlığı və müstəqilliyini qorumaq borcundan keçib. Biz Azərbaycanın torpaqları uğrunda ölmüşüksə, deməli, bu torpaqları Vətən etmişik! Allah bütün şəhidlərimizə rəhmət, ruhlarını şad etməklə, Azərbaycanın azadlığı yolunda kütləvi şəhidliyə hazır olmaqda xalqımıza dayaq dursun! Vətən şəhidlərini heç vaxt unutmayacaq! 20 Yanvar Azərbaycan xalqının hüzn və şərəf günüdür. Xalqımız bu faciədə həyatdan getmiş övladlarına matəm saxlamaqla bərabər, onların şəhidlik zirvəsinə baxaraq başını dik tutmalıdır.

20 Yanvar faciəsi Azərbaycan xalqını qorxutmaq, onun milli oyanışını, torpaq uğrunda mübarizliyini məhv edib sındırmaq məqsədi daşıyan mənfur planın tərkib hissəsi idi.

1990-cı ilin 20 Yanvarından ötən illəri bir qayda olaraq yalnız kədər, hüzn, matəm kimi qeyd etmişik, şəhidlərimizin ruhunu ağı və sızıntı ilə anmışıq. Ümumxalq hüzn günü-bu əhval təbiidir. Amma bir şeyi unutmamalıyıq ki, 20 Yanvar Azərbaycan xalqının tarixində, sadəcə, ağı və acı ilə xatırlanacaq gün deyil. 20 Yanvar həm də xalqımızın şan və şərəf günüdür. Unutmamalıyıq ki, həmin gün küçələri boyamış al şəhid qanları bir anlamda milli məfkurəmizin oyanan günəşinin qırmızı şəfəqini simvolizə edirdi. Xalqımız həmin gün üstünə şığıyan dəhşətli kabusa, sovet hərbiyyəsinin qorxunc qaragüruhuna qarşı sinəsini verməyi və dəməli, özünün mənliyini və mətinliyini nümayiş etdirməyi bacardı. Məhz həmin hadisələr bilavasitə nümayiş etdirdi ki, Azərbaycan xalqı özgürlük mübarizəsinə qalxmaq, pozulmuş hüquqlarının, suverenliyinin bərpa olunması uğrunda savaşmaq əzminə sahibdir.

1990-cı ilin 20 Yanvarı Azərbaycanın istiqlaliyyət yolunun ilk şəhidlik zirvəsi idi. Ötən illər ərzində “Qanlı Yanvar”ın tarixi, mənəvi, siyasi və s. aspektləri analiz edilib, hadisəyə Azərbaycan dövləti tərəfindən hüquqi qiymət verilib. Lakin təəssüf edilməlidir ki, biz indiyədək bu tarixi dünyaya yetərincə tanıda bilməmişik. Dünya hələ də 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycanda, onun paytaxtı Bakıda nələrin baş verdiyindən xeyli dərəcədə səthi informasiyaya malikdir. Lakin o da etiraf edilməlidir ki, bu qanlı faciəni bütün dünyaya tanıtmaq üçün ulu öndərimiz Heydər Əliyev gecəli-gündüzlü çalışıb. Bu gün ulu öndərin ruhu Vətənimizin azadlığı uğrunda şəhid olmuş oğul və qızlarımızın ruhuna qovuşub. Ruhunuz şad olsun!

**Z.Tağıyev**

**“Səs”.**- 2009.- 20 yanvar.- N.11.- S.5.

# 20 Yanvar - Şəhadət məktəbidir

**Azərbaycan xalqının rus-sovet imperiyasının cinayətkar və qatil hərbi birləşmələri tərəfindən növbəti dəfə qanlı təcavüzə məruz qaldığı gündən, yəni yanvarın 19-dan 19 il keçir.**

Yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinin və ölkənin müxtəlif bölgələrinin ayrı-ayrı istiqamətlərindən dinc insanlara qarşı həyata keçirilən cinayətlər tariximizə və yaddaşımıza “20 Yanvar” faciəsi kimi həkk olundu… Şər imperiyasının hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi vəhşi terror aktı insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi bəşər tarixində qalacaq. Milli azadlığı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi.

Sovet Ordusunun böyük kontingentinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi. Kommunist diktaturası Çexoslovakiyaya, Macarıstana, Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni hətta o zamankı Sovet İttifaqının müttəfiq respublikalarından biri olan Azərbaycanda da təkrarlamaqdan çəkinmədi. Həmin vaxt Azərbaycan qonşu Ermənistanın da təcavüzünə məruz qalmışdı. Belə bir şəraitdə Kreml nəinki münaqişənin qarşısını almaq üçün qəti tədbirlər görmədi, əksinə, Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni əsgər və zabitləri, sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantlar da daxil edildi.

Bakıya yeridilmiş qoşun kontingentinə (bəzi məlumata görə, onun sayı 60 min nəfərə çatırdı) “döyüş tapşırığını” yerinə yetirmək üçün psixoloji hazırlıq keçmiş, onlarda dinc insanlara qarşı amansız nifrət hissi oyatmışdılar:

“Sizi Bakıya rusları müdafiə etmək üçün gətiriblər;

Yerli əhali onları vəhşicəsinə məhv edir;

Ekstremistlər Salyan kazarmalarının (Bakıda əsas hərbi qarnizonun yerləşdiyi ərazi) ətrafındakı evlərin damlarında snayperlər yerləşdiriblər, təkcə bu ərazidə 110 atəş nöqtəsi var;

Binalar, mənzillər Azərbaycan Xalq Cəbhəsinin yaraqlıları ilə doludur, onlar sizi güclü avtomat-pulemyot atəşinə tutacaqlar”.

(”Şit” təşkilatı müstəqil hərbi ekspertlərinin hesabatından)

Beləliklə, Mixail Qorbaçov başda olmaqla sovet imperiyasının rəhbərliyi Bakıda “rus və erməni kartından” məharətlə istifadə etdi. Guya Bakıya qoşun onları, hərbi qulluqçuların ailələrini qorumaq, “millətçi ekstremistlər” tərəfindən hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə bu açıq riyakarlıq, ağ yalan idi. Çünki sovet rəhbərliyinin “dəlilləri” hətta həqiqətə yaxın olsaydı belə, Bakıya təpədən-dırnağadək silahlandırılmış qoşun göndərməyə ehtiyac yox idi. Ona görə ki, həmin vaxt burada daxili qoşunların 11,5 min əsgəri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri var idi. 4-cü ordunun komandanlığı da Bakıda yerləşirdi.

Bütün bunlara baxmayaraq, 1990-cı il yanvarın 19-da Mixail Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. Lakin SSRİ DTK-nın “Alfa” qrupu yanvarın 19-da saat 19:27-də Azərbaycan televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və əhaliyə divan tutmağa başladı. Qorbaçovun fərmanı qüvvəyə minənədək - yanvarın 20-də saat 00-dək artıq 9 nəfər öldürülmüşdü. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100 nəfərə çatmışdı. Halbuki, Qorbaçovun Azərbaycana ezam etdiyi yüksək vəzifəli emissarlar həyasızcasına bəyan edirdilər ki, Bakıda fövqəladə vəziyyət elan olunmayacaqdır. Bax, əli yüzlərlə insanın qanına batmış, sonralar Nobel sülh mükafatı (?!) almış Mixail Qorbaçov başda olmaqla sovet imperiyası rəhbərliyinin rəzil siması bu idi…

Tanklar və BTR-lər Bakı küçələrində qarşılarına çıxan hər şeyi əzir, hərbçilər hər yanı amansız atəşə tuturdular. İnsanlar nəinki küçələrdə, hətta avtobusda gedərkən, öz mənzillərində oturduqları yerdə güllələrə tuş gəlirdilər. Yaralıları aparmağa gələn “təcili yardım” maşınlarını və tibb işçilərini də atəşə tuturdular. Bir neçə gün ərzində 137 nəfər öldürüldü, 700-dək yaralandı, 800-dən çox adam qanunsuz həbs edildi.

“Adamları xüsusi qəddarlıqla və yaxın məsafədən güllələyiblər. Məsələn, Meyeroviçə 21, Xanməmmədova 10-dan çox, Rüstəmova 23 güllə vurulub;

“Xəstəxanalar, “təcili yardım” maşınları atəşə tutulub, həkimlər öldürülüb;

"Adamlar süngü-bıçaqla qətlə yetirilib. Onların arasında hər iki gözü tutulmuş Yefimtsev də var;
""Kalaşnikov" avtomatının ağırlıq mərkəzi dəyişən 5,45 çaplı güllələrindən istifadə edilib".
("Şit" təşkilatı ekspertlərinin hesabatından)

20 Yanvar və Azərbaycan tarixində ondan əvvəlki faciəli hadisələr XX əsr boyu xalqımıza qarşı yeridilən düşünülmüş siyasətin növbəti təzahürü idi. Azərbaycan xalqına qarşı soyqırımı, sovet hakimiyyəti illərində Azərbaycan ərazilərinin tədricən ilhaq olunması, nəticədə ölkənin ərazisinin 125 min kvadratkilometrdən 87 min kvadratkilometrədək azalması, rus-sovet rəhbərliyinin havadarlığı ilə başlayan Dağlıq Qarabağ hadisələri, azərbaycanlıların Ermənistan ərazisindəki əzəli torpaqlarından qovulması bu siyasətin mərhələləridir.

1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar…

…Zaman keçir. Hər il yanvarın 20-də sözlə ifadə edə bilmədiyimiz qəribə bir duyğu bizi Şəhidlər Xiyabanına doğru aparır - həyatın bitdiyi və azadlığın başladığı yerə…

Mənə elə gəlir ki, biz nəinki bir dövlət kimi, heç ayrı-ayrılıqda vətəndaş kimi də 20 Yanvarın əsil mahiyyətini dərk edə bilməmişik. Tariximizin müxtəlif dövrlərinə olduğu kimi, bu qısa zaman kəsiyinə də vahid və birmənalı mövqeyimizi müəyyənləşdirməmişik: Faciə, Cinayət, Xəyanət və ya Qəhrəmanlıq salnaməsi…

Mən nəhəng bir imperiyaya qarşı öz iradəsi və qətiyyətilə meydan oxuyan bir millətin qəhrəmanlığını matəm libasıyla aşağılamağın tərəfdarı deyiləm. Bu, ən yaxşı halda baş verənlərin mahiyyətini və miqyasını kiçiltməkdir.

20 Yanvar rus-sovet rejiminin ədalətinə və mərhəmətinə inananların faciəsi, yalın əlli insanlara divan tutan imperiyanın cinayəti, öz xalqını mənsəbinə qurban verənlərin cinayəti, Azərbaycan xalqının isə Qəhrəmanlıq Səlnaməsidir.

20 yanvar böyük Babəkin "Bir gün azad yaşamaq qırx il qul kimi, rəzil ömür sürməkdən daha yaxşıdır" fəlsəfəsinin bir millətin qan yaddaşından sıyrılaraq onu köləlikdən qəhrəmanlığa qədər yüksəldən bir tarixdir.

20 Yanvar Azərbaycan türklərinin misli görünməmiş şəhadət məktəbidir.

20 Yanvar istiqlalın istibdada, Milli İdrakın cəhalətə, cəsarətin qorxuya, işığın zülmətə, şərəfin rəzalətə qalib gəldiyi gündür. 20 Yanvar milli özünüdərkin, bütövlüyün təntənəsidir.

**"Xalq Cəbhəsi".** - 2009. - 20-21 yanvar. - № 11. - S. 7.

## Şərafət günü

Başı çox bəlalar görmüş Azərbaycan zaman-zaman düçar olduğu qasırğalardan, tufanlardan, haqsızlıqlardan məhz fədakar övladlarının şücaəti sayəsində qalib çıxıb. Sinəsinə min bir dağ çəkilsə də, ciyərparaları şil-küt edilsə də, səmasının dincliyi pozulsa da, üzləşdiyi bütün yaramazlıqların əhatəsindən sıyrılaraq öz ləyaqətini, qürurunu saxlaya bilib, başını həmişə dik tutub.

Bu məğrurluğu, vüqarı düşmənin gözünə ox olub, dostu sevindirib, doğmasını düşündürüb. Vətənin övladları o zaman azad yaşamaq, müstəqil olmaq istəyirdi. Azadlığa uzanan yollar isə heç vaxt hamar və asan olmur. Odlardan, tikanlardan, ölüm püskürən tankların və mərmilərin, topların hədəfindən keçir. Elə bu çətinliyə görə də əldə edilən azadlığın şirinliyi əvəzsizdir. Türk dünyasının böyük şairi Hüseyn Cavidin misralarıdır:

Azadlıq öylə nazlı afət ki, tək vüqar,
Qan tökülmədikcə üzə gülməz o işvəkar!

O qanlı-qadalı qış gecəsində doğulan körpələrin indi 19 yaşı var. İlk səslənişdə inanmaq istəmirsən ki, aradan bu qədər illər keçib. Sanki hər şey dünən olmuş kimi təptəzədir. Hələ də gözlərimiz önündən boz havalı, qüssəli Bakının o qəhərli günləri çəkilmir. 20 Yanvar, əslində, millətimizin qürur və şərafət günüdür. Çünki nail olmaq istədiyimiz azadlığı kimdənsə pay, sovqat, bəxşiş kimi almamışıq. Onu qanımızla, canımızla, torpağa tapşırdığımız müqəddəs əmanətlərimizlə əldə etmişik. Paytaxtımızın Dağüstü parkında öz varlıqları ilə hopduqları torpağı millətin hünər və şərafət dastanına çevirən şəhidlərin ruhu ilə qazanmışıq. Ötən əsrin əvvəllərində bu yerlərdə erməni daşnaklarının və bolşeviklərin güdazına getmiş soydaşlarımız torpağa tapşırılmışdı. Amma sovet rejiminin sərt qanunları yaddaşımızın üstündən qara xətt çəkmişdi. Torpaq isə heç nəyi unutmadı. Yeni şəhidlərini qoynuna alanda naməlum şəhidlərin dağılmış sümükləri üzə çıxdı. Bu, tarixin ən ağır ittihamı idi. Amma bu ittiham qarşısında bizim suçumuz yox idi.

O gecənin səhəri Bakının çox təzadlı bir rəngi var idi. Havanın ovqatından ürəksıxıcı bir bozluq, ona həmahəng atəş səsləri, küçələrdə zirehli maşınlar, yad əsgərlər, qara bayraqlı evlər, damlar, pəncərələr, şəhidlərin qanı tökülmüş torpağa döşənmiş al qırmızı qərənfillər və bir ağır ləngərli insan izdihamı. Bu vahiməli günlər heç vaxt gözlərimiz önündən çəkilmir. İlk dəfə şəhidlərin şərəfli ölümləri önündə sağ qaldığımıza görə xəcalət çəkdik. Bizim hər birimiz həyatla ölümün qovuşuğunda çırpınan millətimizin birliyinin, eyni dərdin, fəlakətin içində candan, qandan yaratdıqları həmrəyliyin şahidi olduq. O gün millətimizin Azərbaycan adlı müqəddəs bir anası var idi. Məhz yeganə anası… Yaşından asılı olmayaraq hamımız bu mərd və dərdli ananın başına qara şal bağlatdırmış qatillərə, qaniçənlərə nifrət bəsləyirdik. O gün insanlar elə qorxmaz, cəsarətli, vüqarlı görünürdülər ki… Dərd bizi ağlatsa da, ürəyimizi yesə də, gözümüzü göynətsə də, vüqarımızı əyə bilməmişdi. Bütün şəhər, bəlkə də bütün Azərbaycan şairi Məmməd Aslanın “Ağla, qərənfil, ağla” şeiri ilə nalə çəkirdi:

Bu günahsız qanlara,
Bu didilmiş canlara,
Bu cansız cavanlara,
Ağla, qərənfil, ağla!

Həmişə 20 Yanvardan danışanda xəyalıma ilkin gələn xalq yazıçısı, unudulmaz müəlliməmiz Əzizə xanım Cəfərzadə olub. Onun yanıqlı səsi, çəkdiyi bayatılar ürəyimizdən həm tikan çıxarırdı, həm də sinəmizə köz kimi sıxılırdı:

Arazam, keç üstümdən,
Keç, karvan, keç üstümdən.
Bu dərdi mən əkmişəm,
Dəryaz al, biç üstümdən.

Yaxından tanıdığımız kövrək təbiətli Əzizə xanımı o dərəcədə pərişan görməmişdik. Fəlakətin əlində yumağa dönmüş ağbirçək anamız dərdlərin içində əriyə-əriyə düşmənə meydan oxuyurdu: “Sən məni dəryaz kimi biç, nə qədər bacarırsan, biç. Amma mənim şəhidlərimin qanı torpağa toxum kimi düşüb. Hər yerdən boy verib cücərəcək”. Əlləri ilə ağ saçlarını üzüaşağı çəkən Əzizə xanımın o halı mənə Azərbaycan adlı bir məmləkətin sanki öz şəlalələri, dənizləri ilə qəzəbini nümayiş etdirirdi. O günlər Əzizə xanım tək deyildi. Tələbələri, həmkarları başına toplaşmışdı. Anamız Azərbaycanın naləsi sanki bu qadının bayatılarında dil açırdı: “Boyuna qurban, oğul, boyun torpaq aparır”.

Şairə Mədinə Gülgün “Şəhid balaları” adlı şeiri ilə içində haray salan tufanın ağısını çəkirdi:

Dərdimi necə deyim, vallah, deyə bilmirəm,

Mən necə üsyan edim yerə, göyə, bilmirəm,
Başıma qara salıb qara geyə bilmirəm,
Bu, şəhid balaların ölən çağı deyildi.

O gün Azərbaycanın səsini içində boğurdular ki, harayını kimsə eşidib köməyinə gəlməsin. Səsimiz içimizə düşsə də, o ağır məqamlarda jurnalist həmkarlarımız dəridən-qabıqdan çıxdılar. Xüsusilə də, mərhum Elmira Əmrahqızının 1990-cı ilin yanvarındakı fəaliyyəti əsl qəhrəmanlıq nümunəsi idi. Bakının ağır dərdləri Elmira xanımın qəhərli səsi ilə dünyaya yayılırdı. Azərbaycan televiziyası və radiosunun susdurulduğu bir vaxtda "Azadlıq" radiostansiyasında bu zərif həmkarımız titrək və kövrək səslə az qala hönkürürdü: "Bakını qana bələdilər". O vaxt təkcə xarici ölkələrdə yaşayan soydaşlarımız deyil, Azərbaycanın özündə də məhz Elmira Əmrahqızını dinləyir, onun həyəcan dolu məlumatları əsasında Bakıda baş verənlərdən xəbər tuturdular. "Azadlıq" radiostansiyasında çalışan həmyerlimizin də o dövrdəki fəaliyyətini unutmaq olmur. O gün xaricdə yaşayan Azərbaycan vətəndaşları da öz məmləkətlərinin dərdlərini dünyaya yaymağa çalışırdılar.

Ölümlə həyat arasında çırpınan insanlar çox əziyyətlə də olsa, Bakıda törədilən vəhşiliklərin bir qismini videokameraların yaddaşına köçürməyə çalışırdılar. Heç bir ölüm qorxusu onların damların üstünə çıxıb sovet əsgərlərinin qəddarlığını, vəhşiliyini əks etdirən kadrları çəkməsinə mane ola bilmirdi. Fövqəladə vəziyyət şəraitində Ali Məclisin təcili toplantısında xalq artisti Zeynəb Xanlarova böyük şücaət göstərərək öz şəxsi kamerası ilə həmin iclası lentin yaddaşına köçürdü. Görkəmli müğənnimiz bir il şəhidlərə yas saxlayaraq oxumadı. O, bu sükutu ilə qaniçənlərin murdar sifətlərinə sanki tərs sillə vurdu.

Xalq şairi Qabilin qələmə aldığı "Mərsiyə" şəhidlərin yas məclisində müntəzəm səslənirdi. Analar öz dərdlərini bu şeirin misraları ilə dilə gətirirdilər:

Öldü gənc, öldü uşaq, öldü gəlin-qızlarımız;
Ölmədi! Şanlı şəhid oldu neçə yüzlərimiz,
Bu saat Kərbübəla düzləridir düzlərimiz;
Necə qan ağlamasın üzlərimiz-gözlərimiz?!
Gecəni atəş ilə qırmızı qan eylədilər,
Xalqımı, millətimi güllləbaran eylədilər!

O gün Bakının bütün küçələrinə sanki qərənfil yağışı yağırdı. Azadlıq meydanından başlamış ta Şəhidlər xiyabanınadək baş-başa döşənmiş qərənfillər Azərbaycan xalqının torpağa axıdılmış qanının izi idi. Hər damla qan isə bizi intiqama, qisasa çağırırdı. Millətin göz yaşları qərənfillə qoşa düzülmüşdü o yerlərə. Dünya özü dəhşətə gəlmişdi bu mənzərədən. Qatillər yalnız igidlərə, uşaqlara, ağbirçəklərə deyil, həm də mənəviyyatımıza, nəğmələrimizə, ovqatımıza güllə atmışdılar. Bizim bütün ruhumuz eyni simin üstündə köklənmişdi. Gözlərimizdən eyni dərdin ağırlığı asılmışdı. İndi fikirləşəndə heyrətə gəlirəm ki, ruhumuzu, yazıb-yaratmaq eşqimizi, yaşamaq həvəsimizi o sarsıntıdan necə çıxara bildik? Mənəvi qürur hər şeyə qalib gəlir. Bizi əysələr də, sındıra bilmədilər. Azərbaycanın bütün ziyalı təbəqəsi, mədəniyyət işçiləri, yazıçı və şairləri düşmənə qarşı mübarizəyə qalxmışdı. Düşmən üstünə gedəndə ağlamazlar. Bəlkə də bu səbəbdən idi ki, xalq şairi Məmməd Arazın bir şerinə bəstələnmiş mahnı ruhumuzu ölməyə qoymurdu:

Bu torpağın son qurbanı mən olsam,
Öz odumda yanıb külə tən olsam,
Eldən ötən gülllələrlə dən olsam,
Ata, millət, oğul, deyib ağlama!
Ağlamağın yeri deyil, ağlama!

Bu təmkinə çağırışın, bu göz yaşına son qoymağa yalvarışın bir məqamı bəlli idi. Qoy pəncərəni döyən küləklər də ağlasın, eyvanına qonan quşlar da sızlasın, lap ürəyində ağlasan da, qoy içində qalsın, yadlar sənin göz yaşını görməsin. Çünki Məmməd Araz üzünü millətinə tutub qətiyyətlə deyirdi:

Əyilməkdir ağlamağın tərs üzü,
Dərdin dartıb üzməyəni dərd üzür.
Ağlayanı tez də tapır dərd-hüzür,
Bəlkə Tanrı belə yazıb, ağlama!
Səsini boğ, millət qızı, ağlama!

1990-cı ilin qanlı şənbə gecəsi, əslində, azadlıq şimşəyə döndü. Çünki müstəqillik arzusu ilə yaşayan insanlara bu arzuya çatmaq üçün ölümlə, qan-qada ilə üzləşmək lazım gəlmişdi. O şənbə gecəsi Azərbaycanın qəhrəman oğullarının ruhu da silahsız, əliyalın ölüm üstünə gedən igidlərlə birgə idi. Nə istəyirdi bu xalq? Azadlıq! Elə buna görə də onun sinəsinə güllə sıxdılar. Oğlunu, qızını tankın altına saldılar. Amma şəhidlər öz ölümləri ilə sübut etdilər ki, heç bir qüvvə onları bu müqəddəs yoldan döndərə bilməz. Onların sinəsindən axan

al qana buludlar kişnədi, göy qan ağladı, vətən torpağı qara bağladı. Bununla belə, millət təsdiqlədi ki, azadlıq yolunda ölümə də hazırdır. Yalın əllərlə tanklar üstünə atılan cavanların ölümü göstərdi ki, azadlıq bu millətə halaldır. Xalq şairi Bəxtiyar Vahabzadə "Şəhidlər" poemasında yazırdı:

Şəhid rütbəsinə qalxan cavanlar,
Sinəsi hər zülmə qalxan cavanlar.
Böyük Nəsiminin, ulu Babəkin,
Xeyir-duasını aldı o gecə.
Zamandan irəli sıçrayıb yəqin,
Tarixdə tarix tək qaldı o gecə.

Şairlərimizdən Nəbi Xəzri, Xəlil Rza Ulutürk, Cabir Novruz, Tofiq Mütəllibov, Şahmar Əkbərzadə, Fikrət Qoca və digərləri də o ağır günlərin dərdini misra-misra dilə gətirirdilər. Nüsrət Kəsəmənli yazırdı: "Bakı qanlı paltarını geyirdi… Qanlı köynəyinə bürünənlər şəhidlik zirvəsinə gedirdi". Çünki orada onların ikinci həyatı var idi.

O gecə Azərbaycanda başqa bir şərəfli ad da doğuldu. Şəhid anası. Xalq şairi Fikrət Qoca 20 Yanvarla bağlı bir xeyli şeir yazıb. Onun "Şəhid anaları" şeiri kəsb etdiyi mənasına görə daha təsirli və yaddaqalandır:

Dərd daş atar, ayna sınar,
Sınar evin sonası da.
Dönər şəhid anasına,
Dünyaya gələr analar.

Bəli, saçlarına taleyin ağır qarı yağmış, boğçasına qəm bağlamış şəhid anaları övlad bağçasına dərd əkdilər. Amma dözdülər, özlərini itirmədilər, əyilmədilər, onların övladları vətən üçün doğulmuşdu. Təsadüfi deyildi ki, gənc şair Ülvi Bünyadzadənin ölümündən xeyli əvvəl yazdığı bir şeiri bu mərd insanların məramı kimi səslənmişdi:

Həyat üçün doğulmuşuq,
Vətən üçün ölməliyik.

Bax, bu ideya, bu istək, bu məqsəd naminə insanların ürəyində ölüm qorxusu yox idi. Xalq şairi Sabir Rüstəmxanlı qanlı 20 Yanvar gecəsini "Ölən qorxumuz" adlandırıb. Şəhidlər, həqiqətən, heç vaxt ölmürlər. Ona görə də şair haqlı olaraq yazıb:

Kim deyir yolları qırıldı qısa,
Onlar əbədidi, batmayın yasa.

Unuda bilmədiyimiz və ürəyimizə toxtaqlıq gətirən məqamlardan biri də Qazaxıstan Yazıçılar İttifaqı İdarə Heyətinin birinci katibi Oljas Süleymenovun Azərbaycanda baş verən hadisələrdən xəbər tutan günün səhəri Bakıda olması idi. O, həmkarları, ziyalılar və gənclərlə görüşərək dərdimizə şərik çıxdı. Yaşadığı mehmanxananın divarlarına sovet əsgərlərinin tuşladığı avtomatları gözləri ilə görərək deyirdi: "Qışdan sonra mütləq bahar gələcək". Dəryalarımız qurumasın. Bir arx buxarlansa, dünya dağılmaz ki?!

O günlərdə Ramiz Quliyevin tarı, Habilin kamanı, Kamil Cəlilovun qaboyu millətin dərdini öz yanıqlı avazında dilə gətirməyə başlamışdı. Hər kəsin ürəyindən bu keçirdi ki, qoy haqqın fəryadı dilə gəlsin. Hər pərdədə təzə güllər bitsin.

Qanlı şənbə gecəsi ilə bağlı poeziyamızda nümunələr çoxdur. Nəsr əsərləri də var. Publisistlərimiz daha fəal olub. Amma təəssüf ki, teatrlarda tamaşaya qoyulacaq uğurlu bir əsərə hələ rast gəlinmir. Müxtəlif rejissorların poetik nümunələr əsasında hazırladığı kompozisiyalar olsa da, bu faciənin dramaturji mətndə əks-sədası və səhnə həlli çox vacibdir. Yəqin ki, gələcəkdə teatrların repertuarında biz bu məsələnin də həll ediləcəyini görəcəyik. Xalq şairi Nəriman Həsənzadənin "Qafqaz" adlı şeirində oxuyuruq:

Qanlı Yanvar qan içindən yadigardı,
ona - ləkə, bizə - Vətən yadigarı.
O şanlı gün, o kin-qisas unudulmaz,
Azərbaycan!
Gör nə deyib qoca Qafqaz, Azərbaycan:
qar nə qədər çox yağsa da, yaza qalmaz,
Azərbaycan!

Ruzigarın hər gedişinin sonrasını şairlər daha tez duyurlar. Bəlkə də buna görədir ki, dərdlərimiz, bizə üz vermiş faciələr poeziyamızda daha çox dilə gətirilib, nəinki nəsr əsərlərində. Təki millətin ruhu ölməsin. O gecə güllə yağışı altında dünyaya gələn körpələrin arasında oğlan cocuqları daha çox idi. Vətən üçün yeni əsgərlər doğulurdu. Dağları aşıb sönən Günəş səhərlər yenidən məmləkətimizə boylanırdı…

**Flora Xəlilzadə**

**"Azərbaycan".**- 2009.- 20 yanvar.- N 14.- S.5.

## Qəhrəmanlıq salnaməsi

1990-cı ilin 20 Yanvar hadisələri Azərbaycan xalqının tək faciəsi yox, həm də tarixinin ən şərəfli səhifələrindən biri, milli azadlıq hərəkatının yüksəliş zirvəsidir. 20 Yanvar özümüzü bir millət kimi tanıyan və dərk edən gündür. Həmin gün Bakı qırmızı rəngə boyanmışdı, açılan səhər şəhid oğul və qızlarımızın qanından rəng almışdı.

Keçmiş SSRİ rəhbərliyinin Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq məqsədi daşıyan vandal hərəkəti nəticəsində 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda görünməmiş vəhşiliklərə yol verildi, günahsız insanlar, o cümlədən uşaqlar, qocalar, qadınlar qətlə yetirildi, yüzlərlə adam müxtəlif dərəcəli bədən xəsarəti aldı. Böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi M.Qorbaçov başda olmaqla cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, öz azadlığına, müstəqilliyinə can atan xalqımızın həm də mübarizliyini, əyilməzliyini, məğrurluğunu nümayiş etdirdi. Məhz bunun nəticəsində uzun illərdən bəri arzusunda olduğumuz müstəqilliyə qovuşduq və ölkəmiz suverenlik əldə etdi.

1990-cı il 20 Yanvar hadisələri Azərbaycan xalqının milli bütövlüyünü təsdiqləyən ən böyük hadisələrdən biri kimi tarixin yaddaşına əbədi həkk edildi. Bu faciə xalqı yumruq kimi birləşdirdi və bütün dünya azərbaycanlılarının gücünü ifadə etdi. 20 Yanvar faciəsi bütün dünyanı lərzəyə gətirsə də, yerli hakimiyyət orqanları baş verənlərin üzərindən sükutla keçməyə üstünlük verir, xalqın milli faciəsinə laqeyd münasibətlərini ortaya qoyaraq Kremlin qəzəbinə tuş gəlmək istəmirdi.

1990-cı ilin yanvarından sonra hakimiyyətdə olan qüvvələrin bu məsələdə ilk vəzifəsi faciəni təhlil etmək, günahkarları üzə çıxarmaq və dövlət səviyyəsində siyasi-hüquqi qiymət vermək olsa da, respublika əhalisinin təkidli tələblərinə baxmayaraq, bununla bağlı faktiki olaraq heç bir tədbir görülmədi. 1990-cı il yanvar ayının 22-də çağırılan Azərbaycan Ali Sovetinin fövqəladə sessiyası öz işini yarımçıq qoydu və sonrakı sessiyalarda bu məsələnin müzakirəsini davam etdirmədi. Ali Sovetin yanvar hadisələrini tədqiq etməli olan komissiyasının da işi başa çatdırılmamış qaldı. Çünki Azərbaycanı bu faciəyə gətirib çıxarmış səriştəsiz rəhbərlər vətənpərvərlik hisslərindən məhrum olduqlarından, habelə öz şəxsi ambisiyalarının əsirinə çevrildiklərindən xalqın gözünə pərdə asmaq niyyətinə düşmüşdülər.

1990-cı ilin iyulunda Moskvadan vətənə qayıdan Heydər Əliyevin təşəbbüsü ilə həmin il noyabr ayının 21-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 20 Yanvar faciəsinə ilk dəfə siyasi-hüquqi qiymət verən sənəd qəbul edildi. Naxçıvan Ali Məclisində qəbul edilmiş və 20 Yanvar faciəsinə ilk siyasi-hüquqi qiymət verən, eyni zamanda Azərbaycan xalqının ümumi rəyini özündə təcəssüm etdirən bu qərar Heydər Əliyev qətiyyətinin təzahürü kimi tarixə düşdü. Sənəddə respublika səviyyəsində 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməsi respublika rəhbərliyindən tələb edilirdi.

Ölkəmiz müstəqillik qazandıqdan sonra da 1993-cü ilə qədər iqtidarda olanların heç biri faciə ilə bağlı əsl həqiqəti aşkar etməyə özündə cəsarət tapmadı. Ayaz Mütəllibov iqtidarı, sonra isə AXC-Müsavat qaragüruhu 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət vermək barədə düşünmədi. Baxmayaraq ki, hadisəyə siyasi-hüquqi qiymətin verilməsi istiqamətində çox iş görmək olardı. O illərdə hakimiyyətdə olanların cəsarətsizliyi və xəyanətinin nəticəsi kimi az qala bu faciə də unudulurdu, onu törədən cinayətkarlar da.

Xalqın taleyi üçün məsuliyyət daşımalı olan kəslərin bu cür biganəliyinə xəyanətdən başqa bir ad vermək olmaz. Azadlıq və mübarizə yolu Yanvar hadisələrindən keçmiş xalqımızın bu faciəsinə ilk üç il müddətində siyasi-hüquqi qiymət verilməməsi əslində Azərbaycanın o dövrdə hakimiyyətdə olmuş iqtidarlarının öz xalqına xəyanəti kimi qəbul edilir.

Yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra 1994-cü ilin 20 Yanvar hadisələrinin hüquqi müstəvidə əsl mahiyyəti açıqlandı. 1994-cü il yanvarın 12-də keçirdiyi müşavirədə ümummilli lider Heydər Əliyev bu barədə deyirdi: “Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişdir. Görünür ki, ötən yaxın illərdəki Sovetlər Birliyi, respublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsl mahiyyətini xalqa bəyan etməmişlər”.

Ulu öndərin 20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi ilə bağlı 1994-cü il yanvarın 5-də imzaladığı fərmanda həm də Milli Məclisə hadisəyə tam siyasi-hüquqi qiymət verməsi tövsiyə olunurdu. Bu qiymət xalqımızın müstəqillik yolunda çarpışmasının dolğun mənzərəsini əks etdirməli idi. 1994-cü il mart ayının 29-da respublika parlamenti “1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında” qərar qəbul etdi. Beləliklə də 20 Yanvar faciəsi məhz ümummilli lider Heydər Əliyevin prinsipial və ardıcıl mübarizəsindən sonra öz hüquqi-siyasi qiymətini aldı.

Heydər Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsinə, onların ailələrinə dövlət qayğısının gucləndirilməsinə hər zaman böyük diqqətlə yanaşırdı. Ulu öndər hər il yanvarın 20-də Şəhidlər xiyabanına gələrək ziyarət edir, şəhid ailələri ilə görüşür, onların qayğıları ilə maraqlanırdı.

Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev də 20 Yanvar şəhidlərinin xatirəsinin uca tutulmasına, şəhid ailələrinin sosial məsələlərinin yoluna qoyulmasına xüsusi diqqət göstərir, hər il yanvarın 20-də Şəhidlər xiyabanını ziyarət edərək "Əbədi məşəl" abidə kompleksinin önünə əklil qoyur. Dövlət başçısı 2004-cü ildə 20 Yanvar faciəsinin 14-cü ildönümünün keçirilməsi ilə bağlı sərəncamında bildirirdi ki, Azərbaycan övladları 1990-cı yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar: "Həmin gün respublikada haqq-ədalətin bərqərar edilməsi tələbləri ilə çıxış edən Azərbaycan xalqının inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq məqsədilə totalitar sovet rejiminin həyata keçirdiyi terror aktı nəticəsində bəşər tarixində insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri baş verdi. Yüzlərlə günahsız insan yaralandı və qətlə yetirildi. Ən ağır sınaqlara sinə gərmək əzmini bütün dünyaya nümayiş etdirən Azərbaycan övladları 1990-cı il yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar".

Prezident İlham Əliyev 1990-cı ilin yanvarında şəhid olmuş oğul və qızlarımızın xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi üçün mühüm sənədlər imzalamışdır. Dövlət başçısının 19 yanvar 2006-cı il tarixli "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" fərmanı da bu məqsədə xidmət edir.

Bu gün Bakının ən yüksək nöqtələrindən birində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş bir ünvan var. Bu, 20 Yanvar faciəsi qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər xiyabanıdır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə Şəhidlər xiyabanında əsaslı təmir və yenidənqurma işləri aparılıb.

Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından 19 il keçməsinə baxmayaraq, xalqımız o müdhiş gecəni daim xatırlayır, həmin faciənin ağrısı ilə yaşayır, bu vəhşiliyi törədənlərə, xəyanət və fəlakətin səbəbkarlarına dərin nifrətini bildirir. Azərbaycan xalqı öz qəhrəman övladlarının fədakarlığını yüksək qiymətləndirərək hər il 20 Yanvarda onların xatirəsini dərin ehtiramla yad edir. Dövlət səviyyəsində geniş tədbirlər planı hazırlanaraq həyata keçirilir, qanlı qırğının ildönümü respublikanın bütün şəhər və rayonlarında qeyd olunur.

20 Yanvar hadisələri Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə həm də qəhrəmanlıq səhifəsi kimi yazılıb. Bu mənada 20 Yanvarın Azərbaycanın tarixində ölkəmizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə qəhrəmanlıq salnaməsi kimi böyük əhəmiyyəti var. Həmin gün öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini uca tutan vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Vətənin azadlığı, suverenliyi uğrunda özlərini qurban verən şəhidlərin xatirəsi həmişə qəlbimizdə yaşayacaqdır.

**Rəşad CƏFƏRLİ**

**"Azərbaycan".-** 2009.- 20 yanvar.- N 14.- S.2.

## 21 yanvar 1990-cı il, Moskva. Heydər Əliyev: "Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır"

**1990-cı il 20 yanvar faciəsi ilə əlaqədar Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirilmiş yığıncaqda Heydər Əliyevin çıxışı**

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet imperiyası bütün mövcudiyyəti ərzində törətmiş olduğu cinayətlər sırasına misligörünməmiş birini də əlavə etdi. Həmin gecə Bakıya yeridilən sovet ordusu hissələri xalqımıza vəhşicəsinə divan tutdu. Bu, torpaqlarının bütövlüyü uğrunda mübarizəyə qalxmış və azadlıq idealları ilə yaşayan xalqımıza qarşı yönəldilmiş qəsd idi. Bu vəhşiliyin, hücumun məqsədi isə xalqın milli-azadlıq əzmini boğmaq idi.

Qanlı Yanvar faciəsinə, Azərbaycan xalqına qarşı törədilən cinayətə, qanlı təcavüzə ilk etiraz səsini ucaldan isə məhz ulu öndər Heydər Əliyev oldu. Hadisənin ertəsi günü Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələn xalqımızın dahi oğlu bu vəhşiliyi qətiyyətlə pisləməklə yanaşı, onun törədilməsi səbəblərini də açıqladı, təşkilatçılarının, günahkarlarının adını bütün dünyaya bəyan etdi.

Əziz həmvətənlərim, xanımlar və cənablar!

Bildiyiniz kimi, uzun illər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində işləmiş, Sov. İKP MK Siyasi Bürosunun üzvü olmuşam. Geniş infarkt keçirmişəm. Xəstəliyimlə əlaqədar iki ildən artıqdır ki, pensiyadayam. Azərbaycanı tərk etdiyim 1982-ci ilin dekabrından keçən müddətdə bu gün ilk dəfədir ki, Azərbaycan SSR-in Moskvadakı daimi nümayəndəliyinin astanasına qədəm qoyuram. Mən baş vermiş hadisələr haqqında dünən xəbər tutmuşam və təbiidir ki, bu hadisəyə laqeyd qala bilməzdim. Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində, böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı daimi nümayəndəsi Söhrab İbrahimovdan xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm.

Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm. Azərbaycanda yaranmış mürəkkəb vəziyyətin bir sıra səbəbləri vardır. Vaxtımızın məhdudluğundan bu məsələlərin üzərində ətraflı dayanmaq istəmirəm.

Artıq iki ildir ki, Azərbaycan və Ermənistan arasında millətlərarası münaqişə gedir. Həmin münaqişəni Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr törətmişdir. Azərbaycan və Ermənistan, eləcə də ölkənin ali siyasi partiya rəhbərlərinə bu məsələni tənzimləmək, daxili müharibəyə, millətlərarası münaqişəyə son qoymaq və milli mənsubiyyətindən asılı olmayaraq hər bir adamın ümumi federativ ittifaq olan SSRİ-də azad yaşamasına şərait yaratmaq üçün iki illik müddət kifayət idi.

Hesab edirəm ki, ötən iki ildə bu istiqamətdə lazımi səviyyədə iş aparılmamışdır. Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı.

Bunlar üçün ilk növbədə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin artıq sabiq birinci katibi Vəzirov müqəssirdir. Bu yüksək vəzifədə olduğu müddətdə o, Azərbaycandakı vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə, özünün səhv addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurum yaratmışdır. Xalq isə hiddətlənmişdir. Elə buna görə də Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında aylarla davam edən mitinqlərdə dəfələrlə Azərbaycanın partiya rəhbərlərinin istefası tələbi irəli sürülmüşdür. Söhbət əslində Vəzirovun istefasından gedirdi. Bəs bu məsələ indiyə kimi niyə həll olunmamışdır? Yalnız dünən Bakı şəhərinə ordu yeridildikdən, qırğın və dağıntılar baş verdikdən sonra Vəzirov Azərbaycandan əslində qaçmışdır. Bu, böyük səhvdir. Ən böyük səhv isə sözsüz ki, qeyri-ciddi, bu yüksək vəzifəyə əsla yaramayan adamın bir vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə birinci katib təyin edilməsi idi. Ancaq iş təkcə bununla bitmir.

İndi yanvarın 19-dan 20-nə keçən gecə baş vermiş və bu gün də davam edən faciənin üstündə dayanmaq istəyirəm. Hesab edirəm ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur. Təəssüf ki, Azərbaycan rəhbərliyi, həmçinin ölkənin ali siyasi rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir. Sərhədlərə edilən təcavüzü vaxtında aradan qaldırmaq mümkün idi. Axı üç ay əvvəl sərhəd zolağı ilə bağlı camaat öz tələblərini irəli sürmüşdü. Fəqət heç kəs onlarla görüşmək, izahat işi aparmaq və lazımi ölçü götürmək istəməmişdir.

Təkrar edirəm: camaatı sakitləşdirmək üçün də imkanlar tükənməmişdi. İki-üç ay əvvəl Azərbaycan partiya rəhbərliyinin möhkəmləndirilməsi məsələsi həll edilsə idi, vəziyyət gərginləşməz, ordu yeridilməsinə zərurət yaranmazdı. Bütün vəziyyətlərdə hesab edirəm ki, məsələni siyasi cəhətdən tənzimləmək, xalqla mükaliməyə girmək üçün əlverişli imkanlar olmuşdur. Lakin onlardan səmərəli istifadə edilməmişdir. Nəhayət, 19-dan 20-nə keçən gecə sovet ordusunun, SSRİ DİN-in böyük kontingenti Bakı şəhərinə yeridilmişdir. Nəticəsi isə göz qabağındadır. Bunun törətdiyi faciələr hamımıza məlumdur.

Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Bəli, kobud siyasi səhv buraxılmışdır. Onlar sadəcə olaraq respublikadakı əsl vəziyyəti qiymətləndirə bilməmiş, Azərbaycan xalqının psixologiyasını anlamamış, əhalinin müxtəlif təbəqələri ilə əlaqələri zəiflətmişlər. Onlar, görünür, bu işlərin belə ağır faciəyə çevriləcəyini əvvəlcədən düşünməmişlər.

Bütün bunlar qabaqcadan nəzərə alınmalı və vaxtında vacib, zəruri tədbirlər qəbul edilməli idi. Ordu yeridilmiş, günahsız adamlar həlak olmuşlar. Yeri gəlmişkən deyim ki, ölənlər arasında hərbi qulluqçuların olması haqqında da məlumatlar daxil olur. Sual olunur: ölkənin ali dövlət, partiya rəhbərliyinin səhv qərarı ucundan, olmayan qiyamı yatırtmaq adı ilə Azərbaycana göndərilmiş rus gənclərinin günahı nədir?

Azərbaycana kənardan böyük ordu kontingenti yeridilmişdir. Respublikada neçə ordu birləşməsinin olduğu mənə yaxşı bəllidir. Azərbaycanda kifayət qədər - 4-cü ordu, Xəzər Hərbi Dəniz Donanması, desant qoşunlarının diviziyası, Hava Hücumundan Müdafiə Qoşunları, DİN-in daxili qoşun birləşmələri vardır. Oraya əlavə qoşun yeritmək nəyə lazım idi? Əgər belə zərurət var idisə, orada yerləşən hərbi hissələrdən də istifadə etmək olardı. Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə bərk ayaqda Azərbaycanı qoyub qaçmış Vəzirov öz xalqı qarşısında məsuliyyət daşımalıdır. Ölkənin ali siyasi rəhbərliyinə yanlış məlumat verənlər də məsuliyyət daşımalıdır.

Zənnimcə, ölkənin ali siyasi rəhbərliyinə vəziyyət barədə vaxtında kifayət qədər düzgün, dəqiq, obyektiv informasiyalar çatdırılmamışdır. Rəhbərlik çaşqınlığa salındığından belə qərar qəbul etmişdir. Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır.

*21 yanvar 1990-cı il,*
*Moskva*

**“Azərbaycan“.-** 2009.- 20 yanvar.- N 14.- S.2.

# Milli qürur günü

Azərbaycan xalqının qürur ünvanına çevrilmiş 20 Yanvar hadisələrindən 19 il ötür. Hadisənin başvermə səbəbləri ilə bağlı zaman-zaman müxtəlif fikirlərə, rəylərə rast gəlinsə də, bütün əks mövqelər bir nöqtədə kəsişir: bu tarixi gündə Azərbaycan xalqı əsrlər boyu qəlbində yaşatdığı milli azadlıq və istiqlal istəyindən geri çəkilməyəcəyini, bu müqəddəs amal uğrunda hətta canından belə, keçməyə hazır olduğunu bütün dünyaya nümayiş etdirdi.

1990-cı il yanvarın 20-də baş verən faciəli hadisələr süquta uğramaqda olan sovet imperiyasının mənfur repressiya maşınının xalqımıza qarşı törətdiyi amansız cinayət idi. Həmin gün 130-dan çox dinc insanın xüsusi qəddarlıqla qətlə yetirilməsi, 1000-ə yaxın insanın yaralanması, şübhəsiz, xalqımız üçün böyük dərd, faciə idi. Lakin eyni zamanda, bu hadisə xalqımızın milli azadlıq və müstəqillik uğrunda mübarizəsinin kulminasiya nöqtəsi olmaqla, çağdaş tariximizə qürur və şərəf mübarizəsi kimi daxil oldu.

Tarixi prizmadan yanaşdıqda, aydın olur ki, 20 Yanvara aparan yol 1988-ci ilin ziddiyyətli hadisələrindən başlanır. Keçmiş imperiya rəhbərliyinin xeyir-duası ilə Ermənistanın Azərbaycana qarşı başladığı ərazi iddiaları nəticə etibarilə xalqımızın milli müstəqillik və istiqlaliyyət uğrunda mübarizəsinə impulslar verdi. Xalqımız ölkəmizin ərazi bütövlüyünu qoruyub saxlamaq üçün 1988-ci ildə öz iradəsini ortaya qoydu. Respublika vətəndaşları İttifaq mərkəzinin Azərbaycana qarşı məqsədli şəkildə həyata keçirdiyi məkrli plana etiraz edir, Dağlıq Qarabağdakı ermənilərin separatçı və ekstremist hərəkətlərinin qarşısının alınmasını, haqq-ədalətin bərpa olunmasını istəyirdi. Ərazisinin ilhaq edilməsi cəhdlərinə qarşı qətiyyətlə çıxan xalqımızın milli ruhu, özünüdərk hissi yüksəlmiş, müqavimət əzmi artmışdı. Həmin dövrdən başlanan ümumxalq hərəkatı meydan epopeyası kimi yüksək zirvəyə yüksəlmişdi. Rejimin həyata keçirdiyi repressiv tədbirlər Azərbaycanda meydan hərəkatının qarsını müəyyən qədər alsa da, xalqın içində olan narazılığı qətiyyən boğa bilmədi.

1989-cu ildən etibarən ümumxalq etirazları yenidən bütün respublikanı bürüdü və avqust ayından bu proses idarəolunmaz müstəviyə keçməyə başladı. İlin sonunda xalq hərəkatını idarə etməyi üzərinə götürmüş Azərbaycan Xalq Cəbhəsində parçalanma baş verdi. 1990-cı ilin əvvəllərində təşkilat tamamilə iflic vəziyyətinə düşdü. AXC-nin yeni idarə heyəti və məclisi formalaşsa da, təşkilatın rəhbərliyində respublikada baş verən hadisələrə münasibətdə ziddiyyətlər üzə çıxdı. 20 Yanvar faciəsi ərəfəsində AXC faktiki olaraq iki yerə parçalanmışdı, belə bir vəziyyətdə onun hadisələrə nüfuz etmək imkanları yox idi.

Yanvarın 16-dan başlayaraq Bakıda xaotik proseslər baş verir, AXC fəallarının təkidi ilə insanlar müxtəlif yerlərdə istehkamlar qururdular. Hətta paytaxtda imperiyaya məxsus hərbi texnikanın yerdəyişməsinə və hərəkətinə də rast gəlinirdi. Belə bir ağır vəziyyətdə AXC-nin yerləşdiyi qərargahda ikitirəlik hökm sürürdü. Bir hissə xalqı sovet ordusu ilə üz-üzə qoymağa çalışır, digər qrup isə hadisələrə biganə yanaşmaqda davam edirdi. AXC fəalları insanlar arasında təbliğat işi aparmaq, əliyalın vətəndaşları silahlı ordu ilə üz-üzə gəlməkdən çəkindirmək əvəzinə, “azadlıq yalnız qanla alınmalıdır” kimi populist şüarlar irəli sürürdülər. Bunun isə nəticəsi çox ağır oldu.

Yanvarın 19-da Azərbaycanda fövqəladə vəziyyətin elan edilməsinə 7 saat qalmış 11 minlik sovet ordusu respublikamızın paytaxtı Bakı şəhərinə yeridilərkən insan hüquqlarına dair beynəlxalq sənədlər, o cümlədən “İnsan hüquqlarının ümumi Bəyannaməsi”, “Vətəndaş və siyasi hüquqlar haqqında” və “İqtisadi, sosial və mədəni hüquqlar haqqında” beynəlxalq paktlar, habelə keçmiş SSRİ və Azərbaycan SSR-nin konstitusiyaları kobudcasına pozuldu. Sovet Ordusunun böyük kontingentinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi. Kommunist diktaturası Çexoslovakiyaya, Macarıstana, Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni hətta o zamankı Sovet İttifaqının müttəfiq respublikalarından biri olan Azərbaycanda da təkrarlamaqdan çəkinmədi. Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni əsgər və zabitləri, sovet hərbi hissələrində xidmət edən ermənilər, erməni kursantlar da daxil edilmişdi.

SSRİ DTK-nın “Alfa” qrupu yanvarın 19-da saat 19.27-də Azərbaycan televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və əhaliyə divan tutmağa başladı. M.Qorbaçovun fərmanı qüvvəyə minənədək - yanvarın 20-də gecə 1-dək artıq xeyli insan öldürülmüşdü. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı artıq 100 nəfərə çatmışdı. Halbuki, Qorbaçovun Azərbaycana ezam etdiyi yüksək vəzifəli emissarlar həyasızcasına bəyan edirdilər ki, Bakıda fövqəladə vəziyyət elan olunmayacaqdır.

Azərbaycanın informasiya blokadasına alındığı bir şəraitdə baş vermiş həqiqətləri operativ surətdə dünya ictimaiyyətinə çatdırmaq zərurəti yaranmışdı. Dəhşətli faciəyə kəskin etiraz olaraq 1990-cı il yanvarın

21-də ailəsi ilə birgə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək mətbuat konfransı keçirən ümummilli liderimiz Heydər Əliyev hadisəyə operativ və düzgün qiymət verən ilk vətənpərvər siyasi xadimlərdən idi. Ulu öndərin qətiyyətli mövqeyi respublikamızın informasiya blokadasına alındığı ağır günlərdə totalitar rejimə ağır və sarsıdıcı zərbə oldu. Heydər Əliyev çıxışında kommunist rejiminin gerçək simasını açmış, xalqımızın suveren hüquqlarına qəsd olunduğunu bildirmiş, anneksiya siyasətinə qəti etirazını ifadə etmişdi. Böyük öndər üzləşdiyi təzyiqlərə məhəl qoymadan, öz cəsarəti, yenilməzliyi ilə Azərbaycana sədaqətini göstərmişdi. Psixoloji və ruhi sarsıntı içərisində yaşayan azərbaycanlılar 1990-cı il yanvarın 21-də onun Moskva nümayəndəliyinin binasında qəzəbli və qətiyyətli bəyanatının doğurduğu əks-sədanı eşitdilər. Heydər Əliyev bütün təzyiqlərə və təhdidlərə baxmayaraq, mənsub olduğu xalqın faciəsinə məsuliyyət daşıyanları Kremlin bir addımlığında, həm də bütün dünyanın gözü qarşısında ittiham edirdi.

Azərbaycan xalqına qarşı cinayət törədən şəxslərin ciddi şəkildə cəzalandırılması məsələsi ümummilli liderin fəaliyyətinin bütün sonrakı mərhələlərində də aktuallığını qoruyub saxlamışdır. Ulu öndər Heydər Əliyev həmişə bu mövqedə olmuşdur ki, xalqa qarşı törədilən hər hansı cinayət cəzasız qalmamalıdır. Təsadüfi deyil, hadisəyə ilk hüquqi siyasi qiymət də 1991-ci il noyabr ayında - onun Naxçıvan Ali Sovetinə rəhbərlik etdiyi vaxtda verildi. Heydər Əliyev 1990-cı ilin iyulunda Naxçıvana qayıtdıqdan və 1991-ci il sentyabr ayının 9-da Naxçıvan Ali Məclisinin sədri seçildikdən sonra 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət vermək imkanı yarandı. Həmin il noyabr ayının 21-də Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Ali Məclisi tərəfindən qəbul edilmiş müvafiq qərarda 20 Yanvarın Milli Matəm Günü kimi qeyd olunması qərara alınmışdı. Qərarda ilk dəfə olaraq faciənin əsas günahkarları adbaad sadalanmış və onların birbaşa məsuliyyət daşıdıqları göstərilmişdi. Bu, əslində, hadisəyə verilən ilk rəsmi hüquqi-siyasi qiymət idi. Qəbul olunan sənəddə göstərilirdi ki, respublika rəhbərliyi xalqa xəyanət yolu tutaraq bu qəsdin qarşısını almaq üçün heç bir əməli tədbir görməmiş, səbatsızlıq göstərmiş, yol verilən cinayətin iştirakçısı ola-ola, zahirən hadisələrdən kənarda qalmağa çalışmışdır. Bu sənəd ümummilli lider Heydər Əliyevin nə qədər cəsarətli və qorxmaz, Vətənini və xalqını sevən, bu yolda ən ağır mübarizədən belə, çəkinməyən fenomenal şəxsiyyət olduğunu bir daha təsdiqləyir. Təsadüfi deyil ki, Qanlı Yanvar faciəsi hərtərəfli, əhatəli və dolğun qiymətini məhz Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə aldı. Ulu öndərin 1994-cü il 5 yanvar tarixli sərəncamında faciənin respublika miqyasında geniş araşdırılıb hüquqi-siyasi qiymət verilməsi tövsiyə olunurdu. Həmin il yanvar ayının 12-də Heydər Əliyevin sədrliyi ilə 20 Yanvar faciəsinin 4-cü ildönümü ilə bağlı tədbirlərin hazırlanması və keçirilməsi üzrə dövlət komissiyasının iclası keçirildi. İclasda çıxış edən Heydər Əliyev hadisəyə tam və hərtərəfli hüquqi-siyasi qiymətin verilməsi vacibliyini önə çəkdi. Dövlət komissiyasının ciddi fəaliyyəti nəticəsində 1994-cü il mart ayının 29-da Milli Məclis "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul etdi. Sənəddə 20 Yanvar faciəsi qabaqcadan şüurlu surətdə planlaşdırılmış və vəhşicəsinə həyata keçirilmiş cinayət aktı kimi qiymətləndirilirdi. Qeyd olunurdu ki, Bakıya qoşun yeridilməsi milli azadlıq hərəkatını boğmaq və kommunist rejimini saxlamaq məqsədinə xidmət edib. Eyni zamanda, əsas məqsəd xalq hərəkatına zərbə vurmaq, istiqlaliyyət uğrunda mübarizə aparan qüvvələri məhv etmək olub. Bundan əlavə, qərarda faciənin günahkarları konkret adlarla göstərilir, ötən dörd il müddətində respublika hüquq-mühafizə orqanlarının bu ağır cinayətin istintaqı ilə bağlı fəaliyyəti yarıtmaz qiymətləndirilirdi.

Ümummilli lider Heydər Əliyev 20 Yanvar şəhidlərinin xatirəsini daim əziz tutmuş, onların adlarının əbədiləşdirilməsi məqsədilə bir sıra sərəncamlar imzalamışdır. Ulu öndərin 2000-ci il 17 yanvar tarixli fərmanına əsasən, 20 Yanvar təcavüzü zamanı yüksək vətəndaşlıq nümunəsi göstərərək həlak olmuş Azərbaycan Respublikası vətəndaşlarına "20 Yanvar şəhidi" fəxri adı verilmişdir. Eləcə də "1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə dövlət qayğısının artırılması haqqında" 2003-cü 15 yanvar tarixli sərəncama əsasən, əlil olmuş şəxslərə verilən aylıq müavinət artırılmışdır. Ulu öndər xalqın faciələrinə daim xüsusi həssaslıqla yanaşmış, eyni zamanda, 20 Yanvar hadisələri zamanı həlak olmuş insanların xatirəsinin əbədiləşdirilməsi istiqamətində bir sıra mühüm addımlar həyata keçirmişdir. Şəhidlərin xatirəsinə ucaldılmış xüsusi memorial kompleks də Heydər Əliyevin təşəbbüsü ilə ərsəyə gəlmişdir. Həmin gün Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərin xatirəsi dövlət səviyyəsində böyük ehtiramla yad edilir.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra faciələrimizin səbəblərini araşdırmaq, onlara obyektiv hüquqi-siyasi qiymət vermək, bu əsasda baş verənlərdən düzgün nəticə çıxarmaq imkanı yaranmışdır. Məhz böyük öndərin sərəncamı ilə 20 Yanvar ümumxalq hüzn günü elan olunmuşdur. Həmin gün Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərin xatirəsi dövlət səviyyəsində böyük ehtiramla yad edilir. 1990-cı ilin 20 Yanvarı elə bir şanlı tarixdir ki, əsrlər, qərinələr keçsə

də, o, heç zaman xalqın yaddaşından silinməyəcək, həmişə yad ediləcək, bu faciənin baş verməsinə rəvac verənlər isə lənətlənəcəklər.

**S.ELMANOĞLU**

**“Azərbaycan“.**- 2009.- 20 yanvar.- N 14.- S.-1.

## 20 Yanvar həm hüzn, həm də milli qürur günümüzdür

1990-cı il 20 Yanvar hadisələrindən 19 il keçir. Lakin, hər bir azərbaycanlıya elə gəlir ki, bu müdhiş hadisələr, azadlıq carçılarına sovet ordusu tərəfindən tutulmuş qanlı divan indicə baş verib. Hər il yanvarın 20-də insanları səksəkəyə salan güllə vıyıltıları, tank, mərmi səsləri o illərin qanlı hadisələrini gözlərimiz önündə yenidən canlandırır. Ancaq xalqımız həmin günü təkcə hüzn günü kimi yox, həm də qəhrəmanlıq günü kimi qeyd edir. Küçələr, meydanlar azadlıq arzusunda, istəyində olan soydaşlarımızın qanına boyansa da, oğul və qızlarımız sovet ordusunun qəddarlığı, amansızlığı ilə üz-üzə dayansa da qorxmadı, geri çəkilmədi. Bakının ən uca, ən gözəl nöqtələrindən birində hər birimiz üçün müqəddəs and yerinə, ziyarətgaha çevrilmiş bir yer var: Şəhidlər Xiyabanı. 1990-cı il 20 Yanvar faciəsi qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə mərdliklə, cəsarətlə vuruşaraq həlak olanların əbədiyyətə qovuşduğu müqəddəs and yeri. Hər il yanvarın 19-dan başlayaraq insan seli Şəhidlər Xiyabanını öz ağuşuna alır. Vətənimizin azadlığı və suverenliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş igid oğul və qızlarımızın əziz xatirəsi böyük ehtiramla yad edilir, onların məzarları "qərənfil seli"nə qərq olur. Onlar heç vaxt unudulmayacaq. Çünki Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar.

Həmin gün… 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən müdhiş gecədə cinayətkar imperiya rəhbərliyi Azərbaycan xalqına qarşı dəhşətli qırğınlar törətdi. Digər müttəfiq respublikalarda günahsız insanların dəhşətli qətlinə fitva vermiş, əlləri insan qanına batmış SSRİ-nin o vaxtkı rəhbəri Mixail Qorbaçovun növbəti qurbanı Azərbaycan xalqı oldu. Azərbaycana qarşı qərəzli siyasəti, ölkəmizə qarşı ərazi iddiaları irəli sürən, ərazilərimizə yiyələnmək və torpaqlarımız hesabına "Böyük Ermənistan" imperiyası yaratmaq istəyən separatçı, təcavüzkar hərəkətləri açıq-aşkar dəstəkləyən M.Qorbaçov Bakıda misli görünməmiş qırğın törədilməsinə göstəriş verdi. Azərbaycan Respublikasının o vaxtkı xəyanətkar rəhbərlərinin kölə psixologiyası bu qanlı terror hadisəsinin törədilməsinə rəvac vermişdir. Ölkə rəhbərliyinin xəyanətkar əməllərinə etiraz əlaməti olaraq ayağa qalxmış, öz haqq səsini qaldırmış, "torpaqdan pay olmaz", - deyərək küçə və meydanlara çıxmış geniş xalq kütləsinə qarşı sovet ordusu qanlı divan tutdu. Günahsız insanlar qadağan olunmuş güllələrlə qətlə yetirildi, əhali xüsusi amansızlıqla tankların, zirehli hərbi maşınların altına salınaraq, xıncım-xıncım edildi. Lakin bu qanlı terror azadlıq fədailərinin iradəsini, milli qürurunu sarsıda bilmədi. 20 Yanvar faciəsi öz azadlığına, müstəqilliyinə can atan, sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış xalqımızın həm də mübarizliyini, əzmliyini, məğrurluğunu, tarixi qəhrəmanlıq ənənələrinə sadiqliyini bütün dünyaya nümayiş etdirdi. Xalqımız nəhayət ki, imperiyanın əsarətindən xilas oldu, uzun illərdən bəri arzusunda olduğu müstəqilliyə qovuşdu və Azərbaycan öz müstəqilliyini, suverenliyini əldə etdi. Buna baxmayaraq, xalqımıza qarşı törədilmiş cinayət hadisəsi, beynəlxalq hüququn norma və prinsiplərinə, habelə insan hüquq və azadlıqlarının qorunmasına aid beynəlxalq konvensiyalara tamamilə zidd olan bu dəhşətli hadisə dünya ictimaiyyətindən gizli saxlanılırdı. Bu cinayətkarların adları açıqlanmır, terror hadisəsinə siyasi-hüquqi qiymət verilmir, araşdırılma aparılmırdı.

O ərəfədə Moskvada yaşayan, həyatı hər an təhlükədə olan ümummilli lider Heydər Əliyev Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək yerli və beynəlxalq kütləvi informasiya vasitələrinin nümayəndələri üçün mətbuat konfransı keçirmiş, imperiyanın Azərbaycan xalqına qarşı törətdiyi soyqırım barəsində dünyaya məlumat vermişdir. Ulu öndər sovet ordusunun günahsız insanlara qarşı törətdiyi bu qanlı hadisəni kəskin pisləmiş, Azərbaycan xalqının hərbi, siyasi, mənəvi təcavüzə məruz qaldığını bildirmişdir.

Sovet hakimiyyətinin süqutundan sonra Azərbaycanda dövlət müstəqilliyi bərpa edildi. Başları birincilik uğrunda mübarizəyə qarışmış Azərbaycanın o vaxtı rəhbərliyi, AXC - Müsavat cütlüyünün dövlət məmurları xalqımıza qarşı törədilmiş bu ağır cinayətin səbəblərinin araşdırılması, ona siyasi-hüquqi qiymət verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində məqsədyönlü iş aparmadılar. Əksinə, bu cinayət hadisəsini unutdurmaq üçün min cür hiyləyə əl atdılar.

Yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi qiymət verildi və bu dəhşətli cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. Xalqa məlum oldu ki, SSRİ Ali Soveti rəyasət heyətinin sədri M.Qorbaçov, Sov. İKP MK katibi A.Girenko, SSRİ müdafiə naziri D.Yazov, SSRİ daxili işlər naziri V.Bakatin, Sov. İKP MK-nın məsul işçisi A.Mixaylov, Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirov, Nazirlər Sovetinin sədri A.Mütəllibov, Azərbaycan KP MK-nın büro üzvləri V.Polyaniçko və başqaları qanlı terror hadisəsinin əsas təşkilatçıları və icraçılarıdır.

Keçmiş sovet dövlətinin 1990-cı ilin 20 yanvarında Azərbaycan xalqına qarşı həyata keçirdiyi vəhşi terror aktı insanlığa, humanizmə qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi bəşər tarixində qara səhifə

olaraq əbədi qalacaqdır. Ölkəsinin ərazi bütövlüyü, suverenliyi uğrunda haqq səsini qaldırmış dinc əhaliyə amansız divan tutulması, yüzlərlə günahsız insanların - uşaqların, qocaların, qadınların qətlə yetirilməsi, ağır bədən xəsarətləri alması və ömürlük şikəst olmaları totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bir daha bütün dünyaya nümayiş etdirdi. Eyni zamanda, bütün dünyaya bəlli oldu ki, Azərbaycan xalqı öz Vətəninin suverenliyi uğrunda canını qurban verməyə hazırdır.

20 Yanvar gününün Azərbaycan tarixində ölkəmizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə qəhrəmanlıq rəmzi kimi böyük əhəmiyyəti var. Hər şeydən əvvəl həmin gün Azərbaycan tarixinə “Azadlığa aparan şanlı yol” kimi düşdü. Digər tərəfdən, mənfur qonşumuza-təcavüzkar Ermənistana aydın oldu ki, Azərbaycan xalqı ərazisinin bir qarışını belə digər xalqlara güzəştə getməyəcək. Bu yolda canlarını qurban verəcək, sinələrini sipər edəcək, lakin geriyə dönməyəcək. 20 Yanvar şəhidləri kimi…

Şəhidlər Xiyabanı yenidən insan selinə qərq olub. Ötən il dövlət başçımız cənab İlham Əliyevin göstərişi ilə yenidənqurma və abadlıq işləri aparılmış Şəhidlər Xiyabanı yenə qırmızı qərənfillərə “bürünüb”. Xalq öz mərd oğul və qızlarını böyük ehtiramla yad edir, buranın müqəddəs and yeri, ziyarətgah olduğu bir daha öz təsdiqini tapır.

İllər bir-birini əvəz edəcək, nəsillər dəyişəcək, lakin Vətən oğullarının xatirəsi ürəklərdə əbədi yaşayacaqdır. Xalqın milli qürur günü heç vaxt unudulmur. Axı, 20 Yanvar bizim milli qürur günümüzdür.

**Əliqismət Bədəlov**

**“Xalq qəzeti“.**- 2009.- 20 yanvar.- N 14.- S.1.

## Mirzə Xəzərin sensasion açıqlamaları

**Tanınmış jurnalist 20 Yanvar hadisələri ilə bağlı xatirələrini və başqa maraqlı məqamları müxbirimizlə bölüşdü**

İsveçrədə mühacirətdə olan müxbirimiz Elbəyi Həsənli tanınmış jurnalist Mirzə Xəzərdən növbəti müsahibə alıb. Müsahibə 20 Yanvar hadisələrinə həsr olunub. Onu diqqətinizə təqdim edirik.

- 20 Yanvar faciəsinin üstündən 19 il keçir. Və hər dəfə 20 yanvardan danışanda, o günlərin vahiməsi, dəhşəti, faciəsi mütləq sizinlə, Mirzə Xəzərlə xatirəmizdə canlanır. Xalq sizi unutmur və inanmıram unutsun. Siz özünüz on doqquz il əvvəlki faciəli günləri necə xatırlayırsınız?

- Mən 20 Yanvar faciəsi barədə xatirələrimdən danışmağa həmişə çətinlik çəkmişəm. Çox ağırdı. O günlərdə keçirtdiyim mənəvi və ruhi sarsıntı bu gün də məni təqib edir. Xatırlayanda vücudum titrəyir, əllərim əsir, nəfəsim təngiyir - boğuluram! Gözümün qabağına telefonlar, studiya mikrofonu və "imdad, imdad!" deyə nida edən yüzlərlə, minlərlə insan gəlir. Qulağımda isə imdad çağıran, nicat axtaran, hər yerdən əli üzülmüş, səsini lal və kar dünyaya eşitdirmək istəyən yüzlərlə insanın, bir millətin hayqırtısı - harayı, hönkürtüsü, fəryadı, naləsi səslənir! Hələ də səslənir! O ağır günlərdə, bütün müşkülatlara baxmayaraq, Azərbaycan qarşısında vicdan borcumu yerinə yetirdiyim üçün ruhum və vicdanım rahat, başım uca, üzüm ağdır… Yadımdadır, 1990-cı ilin fevral ayında mənim işimi və peşə taleyimi həll etməli olan komissiyanın sədri (İnspector General) məni sorğu-suala tutarkən, dindirmənin sonunda - "siz öz səhvinizi başa düşdünüzmü?", deyə soruşanda, ona - "Mən səhv etməmişəm, mən öz xalqımı tək qoya bilməzdim və jurnalist kimi deyil, bir azərbaycanlı kimi hərəkət etmişəm. əgər yenə bu cür şərait yaranarsa, mən eyni cür hərəkət edəcəyəm" cavabını verdim… Elə indi də sizin sualınıza cavab verəndə qulaqlarımda o köməksiz, arxasız insanların harayı səslənir…Buna görə xatirələrimdən danışmağa həmişə çətinlik çəkirəm. Məndən bir neçə dəfə Qara Yanvar barədə müsahibə götürüblər. Hər dəfə əzab çəkə-çəkə müsahibə vermişəm. Lakin təəssüf ki, çox vaxt götürdükləri müsahibənin 80 faizini qayçı ilə doğrayıblar. İndiki müsahibədə söylədiyim həqiqətləri mən bir neçə dəfə müxbirlərə söyləmişəm, amma redaktorlar dediklərimin 80 faizini qayçılayıb müsahibəmi ixtisarla çap etməyə üstünlük veriblər.

Azərbaycanda özlərini hakimi-mütləq hesab edən bəzi dairələr hələ də həqiqətdən qorxduqlarını büruzə verirlər. Ancaq əbəs yerə əlləşirlər. Həqiqət ondan qorxanlar üçün acıdırsa, onu sevənlər üçün şirindir.

**- Mirzə müəllim, o faciəli günlərdə radiostansiyada baş verənlər barədə oxucularımızın az məlumatı var. Bu boşluğu hələ dolduran olmayıb. Bu barədə ətraflı məlumat verə bilərsinizmi?**

- 1990-cı ilin yanvar günləri Bakıda, ümumiyyətlə Azərbaycanda vəziyyət son dərəcə gərginləşmişdi. O günlərdə Azərbaycanda müxbirimiz yox idi. 1989-cu ilin yanvar ayından başlayaraq bütün məlumatları Mehdi Məmmədovdan telefonla alırdıq. Bütün müsahibələri də bu telefon vasitəsilə aparırdıq. 1989-cu ilin sonu və 1990-cı ilin əvvəlində Azərbaycan rabitə nazirliyinin məsul işçisi olan Oruc Şirinov bizə Azərbaycanın hər yerində istədiyimiz şəxslə telefon əlaqəsi saxlamaq üçün şərait yaratdı. SSRİ silahlı qüvvələrinin xüsusi hissələri artıq Bakının qapılarında idi. 1990-cı il yanvarın 19-da axşam Mehdi Məmmədov, mərhum Yusif Səmədoğlu və Oruc Şirinovla danışıb evə getdim. Vəziyyət gərgin olduğundan adətən gecələr iş yerinə qayıdıb Bakı ilə əlaqə saxlayırdım. Həmin gecə, yanvarın 19-u Münxen vaxtı ilə saat 22.00-da, Bakı vaxtı ilə saat 01.00-da otağıma gəlib "sekreteri" yoxladım. Bakıdan həyəcanlı səsləri eşidib zəng elədim. Sovet qoşunları artıq Bakının küçələrində irəliləyirdilər.

Dərhal redaksiyanın əməkdaşlarını çağırdım və radiostansiyanın rəhbərliyinə xəbər verdim. Avropanın müxtəlif ölkələrində yaşayan həmyerlilərimizə xəbər verdim. Heç kimin heç bir şeydən xəbəri yox idi. İki saat içində yeni veriliş hazırlayıb efirə çıxdıq. Bakıda səhər erkən idi. Gün ərzində beş dəfə yayıma çıxırdıq. Fürsətdən istifadə edib əlavə efir saatı tələbilə rəhbərliyə müraciət etdim. Rumın redaksiyasından iki saat kəsib bizə verdilər. Avropanın hər yerindən, hətta ABŞ-dan belə Azərbaycandakı vəziyyət barədə məlumat almaq üçün bizə zəng edirdilər. Gecələr evə getmirdim. Çox vaxt otağımdan da çıxmırdım. Yanvarın 22-də qəflətən rəhbərliyin mövqeyinin dəyişdiyini gördüm. Rəhbərlik təlaş içində idi. SSRİ xarici işlər nazirliyi diplomatik kanallarla Vaşinqtonla və radiostansiyanın rəhbərliyi ilə əlaqə qurub yanvarın 20-si və 21-də efirə gedən verilişlərə qarşı sərt etirazını bildirmişdi. SSRİ rəhbərliyinin bizim verilişlərdən nə qədər ciddi təşvişə düşdüyünü mən, iki günlük verilişlərimizin sözbəsöz rus dilinə tərcümə edildiyini görəndə başa düşdüm. Bizim verilişlərin Kremli lərzəyə saldığını da gördüm. Yanvarın 21-də Mixail Qorbaçov Bakıya qoşun yeridilməsinə bəraət qazandıran məlum "nitqi"ni söylədi və ertəsi gün yanvarın 22-də radiostansiyanın "perexvat" şöbəsindən mənə orta dalğada Azərbaycan dilində yayılan 30 dəqiqəlik bir lent yazısını gətirdilər. Bu, Mixail Qorbaçovun nitqinin Azərbaycan dilinə tərcüməsi idi. Orta dalğada açılan bir yeni radio 48 saatdan sonra efirdən götürüldü.

Diktorun ləhcə ilə danışması onun kimliyini açıq göstərirdi. Görünür, azərbaycanlıları iqna edə bilməyən sovet rəsmiləri mətni "başqa" millətdən olan birisinə oxutdurmuşdular. Bütün bunlar, sovet rəhbərliyinin o günlərdə aciz vəziyyətə düşüyünü sübut edir. Buna baxmayaraq, SSRİ Xarici İşlər Nazirliyinin etiraz notası təsirini göstərdi. Yanvarın 22-də rumın redaksiyasından alınıb Azərbaycan redaksiyasına verilən iki saat əlavə efir vaxtını bizdən aldılar və həmən gündən etibarən hazırladığımız bütün proqramlara senzura tətbiq edilməyə başlandı. Senzurasız heç bir veriliş efirə verilə bilməzdi. Azərbaycan dilini az-çox anlayan bir neçə nəfər şəxs bütün verilişləri dinləyib təsdiq etmədikləri hissələr və fikirlər kəsildikdən sonra efirə çıxa bilərdik. Aydın görünürdü ki, rəsmilər özlərini sığortalamaq və məsuliyyətdən kənar durmaq qərarına gəliblər. Rəsmilərdən biri "məsuliyyət" məsələsini mənə izah edərkən səmimiyyətlə bildirdi ki, "Mirzə, senzuranı (monitorinqi) tətbiq etməklə biz, məsuliyyətə şərik olmuruq. Məsuliyyət yenə də sənin boynunda qalır". 1990-cı ilin fevral ayında məsələmi araşdıran inspektor (inspector general) radiostansiyanın rəsmilərindən hansının mənə yanvar faciəsinin ilk günlərində "yaşıl işıq" yandırdığını öyrənmək üçün çox səy göstərdi. "Hamı məsuliyyəti sənin üstünə atır, sən özünü müdafiə etməlisən, de görüm kim sənə icazə verdi", deyən inspektora cavab verdim ki, "heç kim mənə icazə verməyib, hər şey üçün mən məsuliyyət daşıyıram və cəzamı çəkməyə hazıram." Mənim işdən kənar ediləcəyim heç kimdə şübhə oyatmırdı. Yoxlama bir neçə ay sürdü. Komissiyanın hesabatı Vaşinqtonda, radioların işinə rəhbərlik edən "Beynəlxalq Radioverilişləri Şurasının İdarə Heyətinin müzakirəsinə verildi. Mənə töhmət yazdılar. Sonralar İdarə Heyətinin bir üzvü mənə "səni bu dəfə bağışladıq, ikinci dəfə bunu gözləmə" deyə xəbərdarlıq etdi.

**- "Azadlıq" RADİOSUNDA SENZURANIN TƏTBİQİNİ qeyd edirsiz. Siz sonralar da uzun müddət orada işləmisiz. Senzura ilə yenə qarşılaşdınızmı?**

- Bəli, qarşılaşdım. Bilirsiniz, radiostansiyanın rəsmilərinin nəzərində mən Qara Yanvar günlərində ciddi pozuntulara yol vermişdim. Bu səbəbdən, Qara Yanvar günlərində efirə verdiyim verilişlər üzündən məni işdən çıxartmamasına baxmayaraq, rəhbərliyin mənə olan etibarı sarsılmışdı. Mən artıq bir növ damğalanmışdım. Məhz buna görə 1990-cı ildən başlayaraq 1995-ci ildə radiostansiya Praqaya köçənədək Azərbaycan redaksiyasının verilişləri daima, necə deyərlər, "monitorinq" altında olmuş və daim nəzarətdə saxlanmışdır. Praqada vəziyyət dəyişdi, ancaq sərbəstlik uzun sürmədi. 2001-ci ildən başlayaraq mənə qarşı gözümçıxdı kampaniyası başladı. Və 2003-cü ilin avqust ayında rəhbərliyin illik fəaliyyətimlə bağlı yazılı rəyində mənim radiostansiyanın siyasi xəttini və qaydalarını ilk dəfə 1990-cı ilin yanvar ayında pozduğum qeyd olunurdu. Bir ay sonra məni işdən çıxartdılar.

**- Çox maraqlıdır. Söylədikləriniz barədə ilk dəfədir ki, eşidirəm. Çünki, o biri yanda, radio xaricində hər şey fərqli görünürdü.**

- Bilirsiniz, "Azad Avropa"-"Azadlıq" radiostansiyasının tarixində iki tarixi qalmaqal, iki sarsıntı olub. Biri, 1956-cı ildə Macarıstanda kommunist rejiminə qarşı xalq üsyanı zamanı radionun macar redaksiyasının efirə verdiyi verilişlərlə bağlı olan sarsıntı, ikincisi isə 20 Yanvar faciəsi zamanı radionun Azərbaycan redaksiyasının efirə ötürdüyü verilişlərlə əlaqədar. 1985-1993-cü illərdə "Azad Avropa" - "Azadlıq" radiolarının Nyu York şöbəsində müdir müavini işləmiş, hazırda isə Freedom House təşkilatının tədqiqat üzrə vitse-prezidenti olan Arç Paddington (Arch Puddington) ilk dəfə 2000-ci ildə Kentakki Universitetində nəşr edilən, 2003-cü ildə isə Nyu Yorkda çapdan çıxan və radiostansiyanın tarixinə həsr edilən "Azadlıq Carçısı: "Azad Avropa və Azadlıq radiolarının soyuq müharibədəki zəfəri" ( "Broadcasting Freedom: The Cold War Triumph of Radio Free "Europe and Radio Liberty") adlı kitabında 1956-cı il Macarıstan üsyanı zamanı radiostansiyanın macar redaksiyasının heç bir əsas olmadan Qərb ölkələrinin silahlı qüvvələrinin üsyançıların köməyinə gələcəyini bildirməklə böyük qalmaqala səbəb olduğunu qeyd edir. Azərbaycan redaksiyasının yanvar günlərindəki verilişlərinə toxunan amerikalı müəllif yazır ki, macarlardan fərqli olaraq Azərbaycan redaksiyası dinləyicilərə xaricdən yardım gəldiyini bəyan etməmişdir. Buna baxmayaraq qalmaqal çox böyük idi. Arç Paddington sonra yazır: "Ciddi biabırçılığa səbəb olan faktlar göz qabağında idi. "Azadlıq" radiosunun Bakıdakı müxbirləri döyüş meydanını xatırladan reportajlar - tankların, avtomatların səsini, vahimə içində olan mülki əhalinin fəryad və naləsini efirə verirdilər. Bundan başqa, bu verilişlərdə rusları istilaçı və bəzi hallarda "faşist" adlandırıb məhkum edən, xalqı yadelli işğalı qarşısında möhkəm olmağa çağıran ziyalı və siyasətçilərin də səsləri eşidilirdi. Azərbaycan Redaksiyasının üzvləri isə Azərbaycan xalqı ilə həmrəy olduğunu açıq-aşkar göstərərək, xalqı müqavimətə həvəsləndirirdi." Haşiyə çıxıb qeyd edim ki, Radionun peşə kodeksinə görə jurnalistlər bitərəf olmalı və hətta öz soydaşları belə çətin vəziyyətdə olsa, öz hisslərini gizlətməlidir. Mən hisslərimi gizlədə bilmədim. Bəli, mənim "qəbahətim" bu idi.

**- Arç Paddington Bakıya soxulan sovet qoşunlarını "istilaçı", sovet rəhbərliyini isə "faşist" adlandıran ziyalılardan bəhs edir. O ziyalıların adlarını çəkərsinizmi?**

- Əlbəttə, adlarını çəkərəm. Arç Paddington təfərrüatı bilmir, amma görünür o, 1990-cı il yanvarın 20-də ilk dəfə efirə ötürdüyüm və ən çox qalmaqala, şiddətli etiraz və tənqidlərə məruz qalan o məşhur verilişi nəzərdə tutur. Bu ilk veriliş Azərbaycan Xalq Cəbhəsinin bəyanatını oxuyan Yusif Səmədoğlunun səsini, Mixail Qorbaçovun, sovet rəhbərliyinin ünvanına son dərəcə sərt ittihamlar irəli sürən Bəxtiyar Vahabzadənin qısa müsahibəsini, Cəfər Cabbarlının mənim səsləndirdiyim "Məhkum Şərq" və "Şərqə" şerlərini ( "Qalx, qalx, qalx düşgün dünya"), Məmməd Əmin Rəsulzadənin "Bir kərə yüksələn bayraq bir daha enməz" şüarı ilə bitən gəncliyə müraciətinin mətnini və nəhayət, Xəlil Rzanın mənim səsləndirdiyim "Davam edir 37″ poemasını əhatə edirdi. Çox təsirli veriliş idi…

**- Mehdi Məmmədov haqqında sizin saytdan (www.mirzexezerinsesi.net) oxudum. Bakı Dövlət Universitetinin dosenti olub. 1989-1992-ci illərdə Azərbaycan Milli Azadlıq Hərəkatında iştirak edib. Onun haqqında əlavə nə deyə bilərsiz?**

- Məmnuniyyətlə. Mehdi Məmmədovun yalnız milli-azadlıq hərəkatında deyil, Qarabağ münaqişəsi alovlanan o illərdə informasiya blokadasında olan Azərbaycanın mövqeyinin xaricdə təbliğ olunmasında böyük xidmətləri vardır. Mehdi Məmmədovun Azərbaycan Xalq Cəbhəsinin yaranmasında və təbliğ edilməsində də müstəsna rolu olub. Mehdi Məmmədov SSRİ Dövlət Təhlükəsizliyi Komitəsi hər kəsin şəxsi həyatına belə nəzarət etdiyi illərdə, 1989-cu ilin yanvar ayından 1990-cı ilin aprel ayınadək "Azadlıq" radiosu ilə telefon rabitəsi yaradıb bizə müntəzəm məlumat verib. O, tanınmış ziyalılara, milli-azadlıq hərəkatının, Xalq Cəbhəsinin fəallarına öz telefonu vasitəsilə "Azadlıq" radiosuna müsahibələr verməsini təmin edən bir şəxsdir. Mehdinin xidmətlərinə indiyədək lazımı qiymət verilməməsi təəccüblüdür. Biz onun xidmətlərini heç zaman unutmamalıyıq.

Allah 20 Yanvar və Qarabağ şəhidlərinə rəhmət eləsin!

**Elbəyi HƏSƏNLİ**

**"Yeni Müsavat".** - 2009. - 19 yanvar. - №14. - S. 5.

## "Məqamı gələndə millətin meydanda olacağına inanıram"

**Etibar Məmmədov: "20 yanvar ərəfəsində SSRİ rəhbərliyində belə fikir vardı ki, Azərbaycan cəzalandırılmalıdır"**

**"Lefortovoda istəyirdilər ki, televiziyaya çıxıb günahlarımı etiraf edim"**

Budəfəki söhbətimiz büsbütün bir mövzuya həsr olunub. Qanlı sovet imperiyasının 19 il öncə Azərbaycan xalqının başına gətirdiyi növbəti faciənin ildönümü ərəfəsində rubrikamızın qonağı ilə yalnız bu barədə danışdıq. "Azadlıq, Qarabağ" hayqırtıları ilə meydanda olan əliyalın xalqın başına gətirilmiş müsibətdən başqa nədən danışasıydıq ki?! Həmsöhbətimiz milli-azadlıq hərəkatının liderlərindən biri, AMİP lideri Etibar Məmmədovdur.

**- Etibar bəy, 20 yanvar faciəsi barədə ən müxtəlif fikirlər səslənib. 19 il sonra bu hadisələri qiymətləndirərkən hansı qənaətə gəlirsiniz?**

- Bu hadisənin qiyməti artıq verilib. Kim bu qiyməti dəyişmək üçün nə qədər cəhd etsə də, bu, mümkün olmayacaq. Çünki o dövr millətin tarixində ən yüksək zirvədir, milli-azadlıq hərəkatının dönməz xarakter alması günüdür. Həmin hadisədən sonra bütün millətin beyninə həkk olundu ki, Azərbaycanın müstəqillik əldə etməsindən başqa yolu yoxdur və müstəqilliyi əldə etməlidir. Həmin gün millətin tarixində həm də görünməmiş birlik və bütövlük günü idi. Ona görə də ondan sonra kimlərin rəsmi və ya qeyri-rəsmi nə deməsindən, kimin nə qiymət verməsindən asılı olmayaraq bu qiymət bütün millət tərəfindən verilib, dəyişməz olaraq qalır və əbədi də qalacaq.

**- Bəs hüquqi qiymət?**

- Bir dəfə Xalq Cəbhəsi hakimiyyəti dövründə, bir dəfə də 1994-cü ildə Milli Məclis tərəfindən hüquqi qiymət verildi. Ancaq təəssüf ki, bunun davamı olmadı. Yəni bu hadisələrə görə hüquqi məsuliyyət daşıyan qurum və şəxslərin cəzalandırılması, bu işin öz məntiqi sonluğuna çatdırılması baş vermədi. Sadəcə, deklorativ şəkildə nəsə elan olundu və bəyanat xarakterli sənədlər konyunktur maraqlara xidmət etdi. Bütövlükdə isə Azərbaycan dövləti adından həmin hadisənin beynəlxalq hüquqa söykənərək hüquqi qiymət alması baş vermədi. Hətta qeyri-qanuni qəbul olunmuş bu cinayət xarakterli qərarın müəllif və icraçılarının SSRİ qanunları çərçivəsində də məsuliyyətə cəlb edilməsinə cəhd olmadı.

**- Sizcə, niyə? Cinayətkarların həbsinə nail olmaq mümkün deyildi, yoxsa başqa səbəblər vardı?**

- Onu deyə bilmərəm. Məhkəməyə vermək o demək deyil ki, məhkəmədə məsələ qaldırılan kimi kimlərsə dərhal həbs olunacaq, yaxud birbaşa beynəlxalq tribunala çıxarılacaqdı. Sadəcə, bu cəhdin özü olmayıb. Ancaq Azərbaycan daxilində müzakirə olunan bəzi sənədlər qəbul edilib, ona görə də məsələ bitib. SSRİ və Azərbaycan rəhbərliyində vəzifələrinə görə məsuliyyət daşıyan insanların cavabdehliyi ortaya qoyulmayıb. Məsələn, Azərbaycan rəhbərliyində bir sıra şəxslər olub ki, vəzifələrinə görə bir sıra işləri görməli idilər. Onlar o işləri görmədikləri üçün məsuliyyət daşıyır. Bəziləri hətta vəzifələrindən kənara çıxıb xalqın əleyhinə hansısa fəaliyyət göstərib və bu, cinayət xarakterli fəaliyyət olub, onlar da məsuliyyətə cəlb olunmayıb. SSRİ səviyyəsində bu qərarın qəbulunda və icrasında iştirak edən şəxslər də məsuliyyətdən kənarda qalıb. Yəni işlər lazımi səviyyədə aparılmayıb.

**- Qırğının günahkarlarından biri Primakovun adının sonradan materiallardan çıxarılması isə təəccüblü idi…**

- Bəli, Primakovun adı 1994-cü il qərarından çıxarılıb. O, bilavasitə həmin hadisələrin iştirakçısıdır, fövqəladə vəziyyət və ordunun Bakıya yeridilməsi haqda qeyri-qanuni qərarın qəbulunda və icrasında birbaşa iştirak etmiş adamdır. Primakov o zaman İttifaq Sovetinin sədri idi. Onun adının çıxarılmasında hansı amil rol oynadı, bunu müzakirə etmək istəmirəm. Ancaq təkcə Primakovun yox, bir çoxlarının adı oradan çıxarıldı. O adamlar ki, vəzifələrinə görə onların bu prosesə bilavasitə aidiyyəti var idi.

**- Bu gün həmin hadisələrə qayıtmaq gec deyil ki?**

- O məsələlərə həmişə qayıtmaq mümkün və zəruridir. Çünki o hadisələrin yaddaşlarda köhnəlməsinə cəhd göstərənlər var. Kimlərsə istəyir ki, bunun üstündən keçilsin. O hadisələrin xüsusən də dərsliklərdə, tarixi ədəbiyyatda təhrif olunmasına cəhdlər var. Eyni zamanda o hadisələrin xarakterini də dəyişməyə çalışır, bəzən hətta mahiyyətini də təhrif edirlər. Ona görə də yanvar hadisələri həmişə aktual olmalıdır. O hadisələrlə bağlı sənədlər də, canlı şahidlər də var. Bu sənədlər imkan verir ki, yanvar hadisələri istənilən vaxt beynəlxalq səviyyədə qaldırılsın.

**- Bakıya qoşun yeridilməsinə bəhanə verən hallardan danışarkən hərəkat rəhbərlərinin məsuliyyəti barədə də həmişə iddialar səslənib. Özünüzün o vaxt səhvlərə yol verdiyinizi düşünürsünüzmü, yoxsa bu, qarşısıalınmaz proses idi?**

- Prosesin qarşısıalınmazlığı artıq sübuta yetirilib. Bunun hansı səviyyədə hazırlanması elə bunun təsdiqidir. Hərəkat rəhbərlərinin və ya başqalarının nə etməsindən asılı olmayaraq hadisələri bu istiqamətə yönəldirdilər ki, Bakıya qoşun yeridilməsi üçün bəhanə tapılsın. Bunun qarşısının alınmasına ancaq rəsmi strukturlar tərəfindən cəhd ola bilərdi. Yəni bilavasitə səlahiyyətli rəsmi şəxslərin bir çox addımları o hadisələrin qarşısını almaqda böyük rol oynaya bilərdi. Təəssüf ki, Azərbaycan rəhbərliyi bunu etmədi. SSRİ rəhbərliyində artıq bu barədə fikir birliyi vardı ki, Azərbaycan cəzalandırılmalıdır. Ən yüksək səviyyədə fikir vardı ki, Azərbaycanı belə özbaşına qoymaq olmaz. Hətta Primakov da buradakı görüşlərində bunu etiraf etdi. Sözündən belə çıxdı ki, bu, qarşısıalınmazdır, Polyaniçko ilə söhbətdə də, Vəzirovla görüşdə də eyni sözləri demişdi ki, imperiya ilə zarafat etmək olmaz. O zaman milli-azadlıq hərəkatının ən güclüsü Azərbaycanda idi. Azərbaycanı cəzalandırmaqla həm xalqın gözünü qorxutmağı, həm də digər respublikalardakı, həmçinin Rusiyadakı hərəkatın qarşısını almağı qarşılarına məqsəd qoymuşdular. Bakıya qoşun yeridilməsi əməliyyatının özü də böyük şəhərlərə qoşun yeridilməsi ssenarisinin gerçəkləşdirilməsi üçün məşq idi. Sonra eyni xarakterli əməliyyat 1991-ci ilin avqustunda Moskvada - “QKÇP” vaxtı həyata keçirildi.

**- Və o hadisələrdən bir neçə gün sonra siz həbs olundunuz…**

- Mən yanvarın 22-də Bakıdan çıxdım. Mahaçqaladan Moskvaya uçmalıydım. Amma ora çatanda məlum oldu ki, hava iki gündən tez açılmayacaq. Ona görə məcburən Tiflisə gedib oradan Moskvaya uçdum. Azərbaycanın daimi nümayəndəliyində dünyanın hər yerindən olan jurnalistlərin iştirakı ilə mətbuat konfransı keçirildi. Çünki indikindən fərqli olaraq o vaxt xarici jurnalistlər Moskvadan başqa heç bir sovet şəhərində yox idi. Onların sərbəst hərəkəti də qadağan idi. Xüsusən də onları fövqəladə vəziyyətlə bağlı Bakıya buraxmırdılar. Mətbuat konfransını birinci dəfə pozmağa çalışdılar. Səhər saat 11-ə təyin olunsa da, qəfil xəbər tutduq ki, daimi nümayəndəlikdən kimsə KİV orqanlarına zəng edərək tədbirin olmayacağını deyib. Mətbuatı təkrar məlumatlandırandan sonra tədbir keçirildi. Orada olduğum vaxt Heydər Əliyev gəldi, görüşümüz, söhbətimiz oldu. O, mətbuat konfransını məndən qabaq keçirib etirazını bildirmişdi. Bu da əhəmiyyətli məsələ idi. Mən, sadəcə, hadisələrin iştirakçısı kimi və bilavasitə sənədli materiallar təqdim etməklə mətbuat konfransı keçirmişdim. Bu da vacib iş idi. Sonradan kiminsə xidmətini unutdurmağa çalışıblar ki, bu da bütün hakimiyyətlərə xarakterik bir şeydir.

Mətbuat konfransından sonra, deyəsən, general Alekseyev idi, mənimlə görüşdü və təklif etdi ki, Bakıdakı vəziyyətlə bağlı danışıqlar aparılsın. Onlar Bakının müqavimət göstərməsindən çox qorxurdu. Əlbəttə, danışıqlara heç kəs etiraz etmirdi. Sonra məlum oldu ki, heç SSRİ rəhbərliyində də eyni mövqe yoxdur. Yəni bəziləri vəziyyəti sakitləşdirməyin, digərləri isə daha sərt, repressiv tədbirlərin tərəfdarı idi. O zaman müxtəlif şəxslərlə danışıqlar oldu. Yeltsinin rəhbərlik etdiyi Rusiya demokratlarının regionlararası deputat qrupu təklif etdi ki, qrupun qarşısında çıxış edib Bakıdakı vəziyyət haqda məlumat verim. Afanasyev soyadlı şəxs gəlib məni aparmalı idi. Demişdi ki, heç bir halda nümayəndəlikdən kənara çıxmayım, çünki təhlükəlidir. Lakin çox keçmədi ətrafı mühasirəyə almağa başladılar. Tahir adlı bir oğlan vardı, bir az da mənə oxşayırdı. Mənim paltomu, şarfımı geyib bayıra çıxanda maşını atəşə tutdular. Dərhal da maşına basıb apardılar. Bir az keçdi, qayıdıb gəldi. Dedi gördülər çox oxşamıram, elə küçədə maşından tulladılar ki, çıx, get. O zaman birinci dəfə idi ki Moskvada şəhərin mərkəzində avtomatdan atəş açıb maşını güllələmişdilər. Az sonra xüsusi geyimli adamlar bizi mühasirəyə almağa başladı və əvvəlkilər gözdən itdi, hətta milis də yoxa çıxdı. Bildik ki, bunlar milisdən də güclü qüvvələrdir. Gecə “Alfa” qrupu nümayəndəliyə hücum etdi, iki-üç dəqiqənin içində qapı-pəncərələri sındırdılar, hərəsi bir tərəfdən girdi. Qapıları sındıra-sındıra gəldilər, hamını zala yığdılar. Əllərində silah camaatın başının üstündə dayanmışdılar. Hamımızı əlimiz boynumuzda akt zalına yığmışdılar. Sonra gəldilər ki, gəl, gedək. Aparandan sonra SSRİ prokurorunun müavini Abramovun barəmdə həbs qərarını mənə göstərdilər. Dedim əgər məni həbs edibsinizsə, heç olmasa mənə oxşayan adamları sərbəst buraxın. Onları buraxdılar.

**- Lefortovodakı günləri necə xatırlayırsınız?**

- SSRİ-də ən ciddi həbsxana idi. Oradakı dustaqlar tam təcrid olunur. Ətrafdan xəbər almaq, xəbər göndərmək imkanları minimumdur. Yəni başqa həbsxanalarda pul çox şeyi həll edirsə, burada pul məsələsi yox idi. Xəlil Rza, Rəhim Qazıyev və digərləri də Bakıda həbs olunub Lefortovoya gətirilmişdi. Orada 9 ay qaldım. İlk bir həftədə Bakıdan tam xəbərsiz idim. O müddətdə məni inandırmağa çalışırdılar ki, hamı sənə nifrət edir, hamı səndən imtina edib. Ona görə də sənin bir yolun var - televiziyaya çıxıb günahlarını etiraf edəsən və xalqı sənin etdiyin səhvləri təkrar etməməyə çağırasan. Əlbəttə, buna inanmırdım. Amma məni sındırmaq üçün bu

üsullardan istifadə edirdilər. O zaman televiziya ilə çıxış edənlər də olmuşdu. Hər adamın dözüm həddi müxtəlif olur. Ancaq belə çıxışlar hərəkata ciddi təsir göstərmədi. İkincisi də oradakı müstəntiqlərin, prokurorluq işçilərinin danışıqlarından hiss elədim ki, əvvəlki dövrlərdən fərqli olaraq onların öz aralarında nə fikir birliyi, nə də güclü xarakter yoxdur. Yəni bu dağılma prosesi onlara da təsir göstərmişdi. Onların bəziləri hətta söhbətlərində mənə simpatiya ilə yanaşırdı.

**- Azadlığınızda 1 milyon imzanın da az təsiri olmadı…**

- Təbii. O vaxt həbsdə olanların müdafiəsi çox effektiv quruldu və başqa məhkəmə qərarları birbaşa bəraət qərarları oldu. Yalnız mən gec bəraət aldım. 9 aydan sonra məni mühakimə etmək üçün Bakıya gətirdilər. Məhkəmə cəmi iki gün oldu. Noyabrın 1-də məhkəmədə fasilə elan olundu, barəmdəki həbs-qətimkan tədbiri dəyişdirildi və azad olundum. Dekabrda isə deputat seçildim. Təəssüf ki, cinayət işinə xitam verilmədi. Dəfələrlə müraciət etdim ki, bu məhkəmə işi davam etdirilsin, mənə ya cəza, ya da bəraət verilsin. Çünki havadan asılı vəziyyətdə qalmışdım. Ancaq buna baxılmadı. Hətta AXC hakimiyyətə gələndə də yenə müraciət etdim ki, artıq məhkəmə işini yekunlaşdırmaq bilavasitə sizin mənəvi borcunuzdur. O zaman da baxılmadı. Yalnız 1994-cü ilin əvvəlində, Milli Məclisdə yanvar hadisələri müzakirə olunanda mərhum Heydər Əliyev mənə söz verdi ki, sən də bu hadisələrlə bağlı münasibət bildir. Dedim ki, mən münasibət bildirə bilmərəm, çünki hələ məhkəmə işim başa çatmayıb. Yəni mənim münasibətim qərəzli münasibət kimi qəbul oluna bilər. Ondan sonra məhkəmə keçirildi və 4 ildən sonra mənə bəraət verildi.

**- O zaman həqiqətləri dünyaya, elə özümüzə də çatdıran tək ünvan “Azadlıq” radiosu idi. 19 il öncəki xidmətlərinin qarşılığında bu gün o radionun səsinin boğulmasını necə qarşılayırsınız?**

- Əlbəttə, “Azadlıq” o hadisələrin işıqlandırılmasında və dünya ictimaiyyətinə çatdırılmasında, xalqın özünü məlumatlandırmaq, onun fikirlərini çatdırmaq baxımından müstəsna rol oynadı. Hamı həmişə “Azadlıq” radiosunu, Mirzə Xəzərin səsini gözləyirdi. Özü də o vaxt verilişlərin sayını da artırmışdılar. Ancaq o zaman da radio qısa dalğalarda yayımlanırdı. İndi də köhnə dövrə qayıdıblar. Ona görə də kimin yoxdursa, gedib radio alsın, “Azadlıq”a qulaq assın.

**- Yanvar hadisələri, Lefortovoda keçirdiyiniz günləri qələmə almaq fikriniz yoxdur ki?**

- Orada olduğum vaxt gündəlik yazırdım. 1992-ci ildə elə “Lefortovo gündəliyi” adı altında çap olunub. Özü də iki dəfə, hərəsində 100 min tirajla. Ancaq bu gün heç özümdə də qalmayıb, yalnız əlyazması özümdədir. Fikrim var ki, gündəlik formasında o dövrün qeydiyyatını yenidən aparım.

**- Milli-azadlıq hərəkatı liderlərinin heç olmasa şəhidlərin ziyarətinə bir yerdə getməməsinə necə baxırsınız?**

- Mən hər ildönümdə Şəhidlər Xiyabanına ziyarətə partiya ilə bərabər gedirəm. Amma mənə başqalarından belə təklif olmayıb ki, gəl ziyarətə bir yerdə gedək.

**- Bəzən sovet tanklarının qarşısına əliyalın çıxan millətin nədən bu günə düşdüyü barədə çox fikirlər səslənir. Heç bu barədə düşünmüsünüzmü?**

- Əlbəttə. Bəzi şeyləri bir-biri ilə qarışdırmaq olmaz. Milli-azadlıq hərəkatı bir şeydir, ölkə daxilində demokratiya uğrunda hərəkat bir qədər fərqli şeydir. Yəni milli-azadlıq hərəkatında hamı birləşmişdi, bütün millət bütövləşmişdi, eyni nöqtəyə vura bilirdi və yaxşı nəticəsi də alındı. Ancaq müstəqil olandan sonra dövlətin qurulmasında, demokratiyanın inkişafında fikirlər fərqli ola bilərdi və belə də oldu. Təəssüf ki, bu müzakirələr normal xarakter daşımadı. Ondan sonra siyasi qüvvələr bir-birini məhv etmək yolunu tutdu, rəqabəti belə siyasətində axtarmağa başladı. Bu da öz acı nəticələrini göstərir. Ancaq mən yenə də millətin böyüklüyünə, məqamı gələndə meydanda olacağına inanıram.

**Elşad PAŞASOY**

**“Yeni Müsavat“.** - 2009. - 19 yanvar. - №14. - S. 7.

## 20 Yanvar - Azadlığa gedən yolun zirvəsi

***Ümummilli liderimiz Heydər Əliyev bu günü Azərbaycan xalqının sarsılmazlığının rəmzi kimi qiymətləndirmişdir***

Müstəqilliyimiz yolunda qatı millətçi ermənilərin və məkrli sovet imperiyasının təşkil etdikləri hərbi-siyasi fitvaların ən təhlükəlisi 1990-cı il yanvar ayının 20-də həyata keçirilmişdir. Yanvar faciəsinə gedən yol məkrli, ziddiyyətli, mürəkkəb və təhlükəli olmuş, erməni mafiyasının fitvaları və imperiyanın dəstəyi ilə planlaşdırılmışdır. Qanlı 20 Yanvar faciəsinə gedən yol məhəlli düşüncəli Mixail Qorbaçovun məlum yenidənqurma, aşkarlıq və demokratikləşmə konsepsiyasının dalğaları üzərində qatı millətçi ermənilərin Azərbaycana qarşı qərəzli ərazi iddialan, imperiyanın geostrateji siyasəti və səriştəsiz respublika rəhbərliyinin səbatsızlığı zəminində başlanmışdı.

Mixail Qorbaçovun yenidənqurma siyasəti cəmiyyətə qəbul edildikdən sonra ermənilərin ekstremizmi və separatizmi leqallaşdırıldı, onların dağıdıcı aksiyalarına aşkarlıq, söz azadlığı və demokratiya pərdəsi altında qanuni don geydirildi. Mixail Qorbaçovun dəstəyi ilə 1987-ci ildən başlayaraq Ermənistanda Dağlıq Qarabağın bu respublika ilə birləşdirilməsi meyli gücləndi və ümumerməni ideologiyasına çevrildi.

Aydındır ki, o zaman hələ güclü olan sovet dövləti və onun rəhbərliyi ikili standart siyasətindən əl çəkib ədalətli və qanuni mövqe tutsaydı, qatı millətçi erməni daşnaklarının ekstremist və separatist aksiyalarının qarşısını alsaydı və SSRİ Konstitusiyasının 81-ci maddəsinin tələblərinə əsasən Azərbaycanın suveren hüquqlarını və ərazi bütövlüyünü müdafiə etsəydi, regionda gərginlik yaranmazdı, qanlı Yanvar faciəsi baş tutmazdı.

Erməni mafioz qüvvələrinin təhriki ilə mərkəzin Azərbaycana qarşı həyata keçirdiyi təhlükəli hadisələrin, xüsusilə də hərbi müdaxilənin nəticəsində baş verən faciənin mahiyyətini anlamaq, ondan ibrət dərsi götürmək və nəticə çıxarmaq üçün bu qanlı cinayətə aparan uzun yola qısa da olsa nəzər salmağa böyük ehtiyac vardır.

Yaxın tariximizin və hadisələrin professional təhlili təsdiq edir ki, Pyotrdan başlayaraq imperiyanın dəstəyi ilə qonşu ölkələrdə məskunlaşan ermənilərin bir hissəsi XIX əsrin əvvəllərindən başlayaraq Azərbaycana köçürülmüş, onun Qarabağ bölgəsinin dağlıq hissəsində yerləşdirilmişdir.

Çox keçmədən imperiyanın fitvası ilə tarixən azərbaycanlıların əzəli torpağı olan Qərbi Azərbaycanda ermənilər yerləşdirildilər, "Qncaq", "Daşnaqsütyun" partiyaları təxribatlara başladılar. 1905-1907, 1917-1920 - ci illərdə azərbaycanlıların soyqırımı törədildi, 1915-ci ildə Türkiyədə dövlətə qarşı hərbi qiyam geniş vüsət aldı, 1920-ci ildə Qərbi Azərbaycan torpaqlarında Ermənistan Respublikası elan edildi, Azərbaycanın bir sıra bölgələri bu respublikaya verildi, süni surətdə iki hissəyə bölünən vahid Qarabağın dağlıq hissəsində gələn ermənilərə muxtariyyət verildi, mərkəzin qərarı ilə 1948-1950 - ci illərdə 300 min azərbaycanlı Qərbi Azərbaycandan - ata-baba yurdundan didərgin salındı.

Totalitar rejim şəraitində erməni ideoloqları dəfələrlə Dağlıq Qarabağın qondarma Ermənistan Respublikasına verilməsi barədə müraciət etsələr də, Azərbaycan rəhbərliyinin qəti mövqeyi ilə üzləşən mərkəz çoxsaylı milli qurumların dağılmasından ehtiyat edərək bu məkrli planları dəstəkləyə bilmədi.

1969-cu ildə Heydər Əliyev Azərbaycana rəhbər seçildikdən sonra onun cəsarətini və nüfuzunu nəzərə alan erməni daşnakları və mərkəzin qərəzli məmurları Azərbaycana qarşı ehtiyatlı siyasət yürütməyə başladılar. Onlar yaxşı bilirdilər ki, Heydər Əliyevin şəxsində Azərbaycanın qüdrətli, qeyrətli başçısı var, o, millətin və vətənin mənafelərinin pozulmasına yol verməz.

Heydər Əliyev Mixail Qorbaçovun qərəzli siyasətinə etiraz əlaməti olaraq, istefa verdikdən az sonra ermənilər yenidən Azərbaycana ərazi iddiaları irəli sürdülər, Dağlıq Qarabağda dövlət qiyamına başladılar və Qərbi Azərbaycanda bütün azərbaycanlılara qarşı etnik təmizləmə siyasətini həyata keçirdilər. Heydər Əliyev Siyasi Bürodan uzaqlaşdıqdan bir gün sonra Ermənistanda ümumxalq şənlikləri keçirildi. Azərbaycana qarşı ərazi iddialarının elan edilməsi, Yerevanda və Xankəndidə kütləvi mitinqlərin keçirilməsi, hərbi separatizmin, etnik təmizləmə prosesinin başlanması üçün əvvəldən hazırlanan tədbirlər bir daha dəqiqləşdirildi, konkret taktiki və strateji vəzifələr müəyyənləşdirildi. O vaxt Zori Balayan deyirdi ki, "Heydər Əliyev getdi, bəs indi nəyi gözləyirsiniz".

Azərbaycana qarşı ərazi iddialarının, separatizm aksiyalarının başlanması haqqında İlk rəsmi siqnalı Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri Abel Qezoviç Aqanbekyan verdi. O, Parisdə erməni diasporunun nümayəndələri ilə görüşündə mətləbdən uzaqlaşaraq bildirdi ki, onun şəxsi qənaətinə görə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi bütün mülahizələr baxımından əlverişli və məqsədəmüvafiqdir.

Hadisələrin sonrakı gedişi göstərirdi ki, Abel Aqanbekyanın Azərbaycanın ərazisinin əzəli tərkib hissəsi olan Qarabağın dağlıq hissəsinin Ermənistana verilməsi haqqında rəsmi bəyanatı Mixail Qorbaçovun ermənipərəst mövqeyi ilə bağlı idi, əks halda, SSRİ-nin milli dövlət və milli ərazi qurumlarının mərkəzdənqaçma meyillərinə stimul yaradan bu təhlükəli bəyanata ittifaq rəsmi səviyyədə siyasi, hüquqi qiymət verməli idi. Təəssüf ki, mərkəz Abel Aqanbekyanın bu təhlükəli bəyanatına reaksiya vermədi və ona münasibətini bildirmədi, beləliklə, hər şey aydın oldu.

Mixail Qorbaçovun dəstəyinə arxalanan erməni separatçıları onun aşkarlıq siyasətinin pərdəsi altında ölkə miqyasında ilk dəfə 1987-ci ilin oktyabr ayında Yerevan şəhərinin Ruşkin meydanında Azərbaycana qarşı ərazi iddiaları ilə mitinq keçirdilər, soydaşlarını "qədim" erməni torpaqlarının azad edilməsi uğrunda mübarizəyə səslədilər. Mixail Qorbaçovun ermənipərəst mövqeyini bilən mərkəzin xüsusi xidmət orqanları daşnakların separatçı hərəkətlərinə məhəl qoymadılar, ekstremistlərə qarşı tədbirlər görmədilər.

Aydındır ki, əhalisi, ərazisi və iqtisadi imkanları Azərbaycandan qat-qat az olan Ermənistan imperiyanın dəstəyi və yardımı olmadan Azərbaycana qarşı təcavüz etməyə cəsarət etməzdi. İmperiyanın ermənipərəst rəhbərliyi müttəfiq respublikaların suveren hüquqlarının müdafiəsinin təminatçı qarantı olan SSRİ Konstitusiyasının 81-ci maddəsini kobud şəkildə pozaraq, erməni separatçılarını dəstəklədi və onları silahla, maliyyə vəsaiti ilə təmin etdi. İmperiyadan dəstək alan erməni silahlı qüvvələri böyük məkanda Azərbaycana qarşı hərbi təcavüzə başladı, Qərbi Azərbaycanda və Dağlıq Qarabağda yüzlərlə yaşayış məntəqələrini işğal etdi.

Müdafiəsiz qalan xalq çıxış yolları axtarır, səriştəsiz rəhbərliyin istefasını, hakimiyyətin möhkəmləndirilməsini tələb edirdi. Bu gərgin vəziyyətdə xalqı vətənin müdafiəsinə qaldırmaq, torpaqlarımızı erməni separatizmindən qorumaq və dünya ictimaiyyətinin diqqətini Azərbaycanın problemlərinə cəlb etmək məqsədi ilə vətənpərvər qüvvələr milli azadlıq hərəkatına başladı, ümummilli tələbin ifadəsi olaraq meydanlara çıxdı, insanları uzunmüddətli etiraz mitinqlərinə səslədilər. Ədalətsizliyə, mərkəzin qərəzli geostrateji siyasətinə dözməyən xalq küçələrə çıxdı, etiraz səsini ucaltdı, xəyanətkarları ittiham etdi, azadlıq mücadiləsi uğrunda mübarizəyə qoşuldu.

1990-cı il yanvar ayının əvvəllərində Azadlıq meydanına toplaşan 100 minlərlə mitinq iştirakçıları MK-nın binasına tərəf üz tutub, "İstefa", "İstefa!" nidaları ilə səbatsız, səriştəsiz rəhbərliyi ittiham edirdilər. Yanvar ayının 3-dən əhali şəhərin küçələrinə, bağ və parklara toplaşıb, "İstefa", "İstefa!" şüarı ilə piket keçirir, avtobuslardan, yük maşınlarından barrikadalar yaradırdılar.

Xalqın birliyindən, cəsarətli mübarizə əzmindən ehtiyat edən mərkəzin xüsusi xidmət orqanları Bakıda yaşayan erməni separatçılarının fitvası ilə şəhərdə gərgin vəziyyətin yaranmasına rəvac verdi. Bu vaxt imperiyanın yüksək rütbəli rəhbərləri Bakıda idilər. Hadisələr təşkilati, məqsəd və vəzifələri baxımından 1988 -ci ilin 28-i fevral Sumqayıt sindromunun təkrarı idi.

Sumqayıt sindromu sovet imperiyasının və qatı millətçi ermənilərin geostrateji məqsədlərinə xidmət edən 20 Yanvar ssenarisinin tərkib hissəsi idi. Bu ssenari Azərbaycan xalqını sarsıtmaq, əzmək, kölə vəziyyətdə saxlamaq, müstəqillik və ərazi bütövlüyü uğrunda mübarizə əzmini qırmaq, başqalarına ibrət dərsi vermək məqsədi daşıyırdı.

İmperiya mənafeyini itirmək təhlükəsi qarşısında qalan mərkəz özünün yerli sadiq qullarını müdafiə etmək məqsədi ilə 1990-cı il yanvar ayının 19-dan 20 - nə keçən gecə xəbərdarlıq etmədən tanklar, BTR və BMP ilə silahlanan böyük ordu hissəsini Bakıya yeritdi. Rəsmi Kremlin o dövrkü rəhbərliyinin əmri ilə Bakıya yeridilmiş tanklar, toplar, digər hərbi texnika, təpədən dırnağadək hər cür silahlarla silahlanmış əsgərlər mülki əhaliyə divan tutdu, dəhşətli qırğınlar törətdi, əhalini ölümdirimlə üz-üzə qoydu.

Ümummilli liderimiz Heydər Əliyevin 20 Yanvar faciəsinin on ikinci ildönümü haqqında imzaladığı sərəncamda qeyd edilir ki, sovet ordusunun Bakı şəhərini işğal etməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edilmiş, yüzlərlə insan amansızcasına qətlə yetirilmişdir.

XX əsr tarixində totalitarizmin həyata keçirdiyi ən qəddar terror aktlarından biri olan 20 Yanvar faciəsi Azərbaycan xalqına qarşı yönəldilmiş ən dəhşətli cinayətdir. Hara gəldi yağdırılan güllələr hərəni bir yerdə yaxaladı, kimisini küçədə, avtobusda, xüsusi minik maşınlarında, kimisini öz eyvanında, qapısının ağzında, evinin içində qətlə yetirdi. Neçə-neçə vətən övladı düşmən gülləsinə tuş gəlib həlak oldu, ömürlük əlil oldu, yaralanıb həmişəlik sağlamlığını itirdi. Minlərlə, milyonlarla insanın mənəviyyatına, mənliyinə, vüqarına, milli hisslərinə vurulan ağrı-acının həddi-hüdudu yox idi.

Silahsız vətənpərvər insanlar qətiyyət, cəsarət və qəhrəmanlıq göstərib mərkəzin böyük ordusu ilə üz-üzə durdu, təcavüzün qarşısını almağa qalxdılar. Lakin qeyri-bərabər qarşıdurmada 137 Azərbaycan vətəndaşı həlak oldu, canını vətən yolunda qurban verdi, yüzlərlə insan yaralandı, şikəst oldu və itkin düşdü. O gecə

xalqımızın ən ləyaqətli övladları ölkəmizin azadlığı, tarixi, torpaqlarımızın bölünməzliyi yolunda şirin canlarından keçdilər.

20 Yanvar gecəsində xüsusi hazırlıqlı erməni-rus əsgərləri azadlıq istəyənlərin ürəklərinə, müstəqillik haqqında düşünən beyinlərə, həqiqəti deyən dillərə, təcavüzə etiraz edən səslərə atəş açdılar. O gecə neçə-neçə cavan, qoca, uşaq, qadın qətlə yetirildi, övladlar ata-anasız qaldılar, bacılar qardaşını, gəlinlər ərlərini itirdilər, sinəsini düşmən gülləsinə sipər çəkən övladlarımız Şəhidlər Xiyabanında əbədiyyətə qovuşdular.

Prezident Heydər Əliyevin sərəncamında deyilirdi: "… ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənafeyini alçaltmaq və sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədi ilə həyata keçirilmiş 20 Yanvar faciəsi totalitar kommunist rejiminin Azərbaycan xalqına qarşı təcavüzü və cinayəti idi".

20 Yanvar məzmunca terror aksiyası, qanlı faciə, bəşəriyyət qarşısında cinayət olsa da, xarakter etibarilə açıq hərbi təcavüz idi. Vahid ölkə daxilində mərkəz, ittifaqın müstəqil hüquqlu subyektinə elan etmədən gecə vaxtı 170 minlik ordu yeritdi, özünün "vətəndaşlarına" amansız divan tutdu.

Sovet imperiyasının 1990-cı il yanvar ayının 20-də Azərbaycanda törətdiyi hərbi təcavüz beynəlxalq hüququn "Yus Çodens" prinsipinə, hər bir dövlətin və bütünlükdə dünya dövlətlər birliyinin mənafelərinə xidmət edən, icrası hamı üçün məcburi sayılan beynəlxalq hüquq normalarına ziddir. İmperiya hərbi təcavüzlə BMT-nin Nizamnaməsinin 1, 55 və 56-cı maddələrini, 1948-ci il insan hüquqları haqqında Ümumi Bəyannamənin, insan hüquqlarının və azadlıqlarının qorunması və onların təmin edilməsi barədə öhdəliklərinin yerinə yetirilməsi prinsipini kobud şəkildə pozdu.

İmperiya 20 Yanvar faciəsini törədərkən öhdəsinə götürdüyü bütün beynəlxalq öhdəlikləri pozaraq, BMT-yə, onun Təhlükəsizlik Şurasına, dünyanın demokratik ictimaiyyətinə meydan oxudu, özünün totalitar rejimə sadiqliyini bir daha təsdiq etdi. Məlumdur ki, sovet rejimi 1966-cı "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakta qoşulmuş və onun prinsiplərinə əməl edəcəyini öhdəsinə götürmüşdü. Lakin mərkəz həmin paktın 6-cı maddəsində təsbit edilmiş "yaşamaq hüququ hər bir insanın ayrılmaz hüququdur" prinsipini pozaraq, Bakıda 100-lərlə insanı vəhşicəsinə məhv etdi.

Paktın 7-ci maddəsində qeyd edilmiş "Heç kəs işgəncələrə, qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan davranışa və ya cəzaya məruz qalmamalıdır" prinsipini pozan sovet imperiyasının hərbi hissələri əliyalın, silahsız insanları tankların altında əzdi, yerlə-yeksan etdi, ömürlük şikəst qoydu.

Demokratik dünya təcrübəsində qəbul edilmiş meyara görə "heç kəs qanunsuz cəzalandırılmamalıdır, heç bir cinayətkar cəzasız qalmamalıdır". Bu meyar ən demokratik ənənələrə, sivil dövlətçilik prinsiplərinə söykənir. Lakin sovet imperiyası bu demokratik prinsipi kobud şəkildə pozaraq, paktın 9-cu maddəsinə məhəl qoymadan, silahsız insanları həbs etdi, işgəncələrə məruz qoydu, onlara qeyri-qanuni əzablar verdi, yaxınlarına məlumat vermədən gizli yerlərdə saxladı.

70 illik əsarət zəncirini qırıb atmaq arzusu ilə yaşayan insanlar qəzəbini qılınca çevirərək, qatı millətçi erməni separatçılarının və SSRİ-nin ermənipərəst rəhbərliyinin mənfur niyyətlərinə baş əymədi və azadlıq əzmindən dönmədi. Nə qırmızı imperiyanın tankları, ölümsaçan güllələri, nə də törədilmiş qırğınlar, dəhşətli terror hadisələri Azərbaycan xalqının iradəsini qıra bilmədi. İmperiyanın müxtəlif cəza tədbirləri ilə müşayiət olunan hərbi təcavüzü Azərbaycan xalqının iradəsini, mübarizə əzmini sarsılda bilmədi, azadlığı uğrunda ayağa qalxan millətimizi diz çökdürmək niyyətləri puça çıxdı. Tarixi qəhrəmanlıq ənənələrinə sadiq qalan vətən övladları bu dəfə də millət qarşısında vətəndaşlıq borcunu ləyaqətlə yerinə yetirdi.

20 Yanvar günü xalqımız böyük itkilər versə də, o öz şərəfini qoruya bildi və sübut etdi ki, onun iradəsini qırmaq olmaz. 20 Yanvar faciəsi sovet imperiyasının Azərbaycana və bütün insanlığa qarşı törətdiyi ən ağır cinayət idi. 20 Yanvar qırğını Azərbaycan xalqının qəddini əysə də, onu sındıra bilmədi, əksinə daha da mətinləşdirdi, mübariz etdi, daha böyük əzmlə azadlıq uğrunda döyüşə qovuşdurdu. Xalq özünün qəhrəmanlıq salnaməsini yazdı, tarixi mübarizə ənənələrini daha da gücləndirdi, onun vətənpərvər övladları vətənin azadlığı yolunda şəxsi həyatını şəhidlik zirvəsinə yüksəltmək əzmini təsdiq etdilər.

Düşmənlərimizin törətdiyi 20 Yanvar faciəsi xalqımızın azadlıq iradəsini, müstəqillik əzmini əzmək, söndürmək məqsədi güdsə də, Azərbaycan tarixinə matəm günü kimi düşdü, müstəqilliyimiz yolunda yeni mərhələ oldu.

Qədim tariximizdə çoxsaylı müharibələrə, fəlakətlərə, faciələrə düçar olmuş Azərbaycan xalqı heç zaman zorakılığa, təcavüzə baş əyməmiş, ədalətsizliklə barışmamış, yeni qüvvə toplamış, mübarizlik göstərmiş, qalib gəlmişdir. Erməni mafiyasının fitvası ilə törədilən qanlı 20 Yanvar faciəsi də belə oldu. Mərkəzin 20 Yanvar faciəsi Azərbaycan xalqının nifrətini, etirazını, mübarizə əzmini daha da gücləndirdi, müstəqillik tariximizin mühüm mərhələsinə çevrildi.

Təəssüflə deməliyik ki, sovet imperiyasının Azərbaycan xalqına qarşı törətdiyi bu təcavüz aktına uzun müddət hüquqi-siyasi qiymət verilməmişdir. Yalnız faciədən dörd il sonra Prezident Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclis 1994-cü ildə 20 Yanvar faciəsinin başvermə səbəbləri və günahkarlarının hüquqi, siyasi və mənəvi məsuliyyətini ətraflı müzakirə etmiş, onların konkret adlarını ictimaiyyətə çatdırmışdır. Araşdırmalar zamanı məlum olmuşdur ki, mərkəzin hərbi müdaxiləsi ermənilərin məkrli planı, sovet imperiyasının geostrateji siyasəti, respublika rəhbərliyinin diqqətsizliyi, müti mərkəzçilik mövqeyi, müxalifətin hakimiyyət hərisliyi, təcrübəsizliyi sayəsində reallaşmaq imkanı əldə etdi.

20 Yanvar faciəsində xalq hərəkatının liderlərinin emosional addımları, təcrübəsizliyi, hakimiyyət hərisliyi ilə bağlı düşünülməmiş çağırışları gərginliyi daha da artırdı, qırğına başlamaq üçün səbəb axtaran imperiya məmurlarına bəhanə verdi. Təəssüf ki, onlar təhlükənin qarşısını almaq məqsədilə konstruktiv addımlar atmaq əvəzinə, düşünülməmiş çıxışlarla qarşıdurmanı daha da təhlükəli səmtə yönəltdilər.

1990-cı ilin yanvar ayının 6-da keçirilən AXC-nin konfransında sağlam düşüncəli insanlar yaxınlaşan təhlükə haqqında xəbərdarlıq etsələr də, liderlər buna məhəl qoymadılar. Çünki onlar hadisəni gərginləşdirməklə hakimiyyətə gəlmək, yüksək vəzifə tutmaq haqqında düşünür, bütün təhlükəli vasitələrdən istifadə etməyə çalışırdılar.

Qəribə olsa da, qanlı faciə başlanan kimi, onun fitvasını verənlər qaçıb gizləndilər, silahsız kütləni tanklarla üz-üzə qoydular.

Çaş-baş qalan xalqın bu ağır günündə Heydər Əliyev 1990-cı ilin yanvar ayının 21-də, faciənin ertəsi günü Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəlib ittifaq rəhbərliyini və onun vəhşi ordusunu cəsarətlə ittiham etdi, xalqımıza mənəvi və siyasi dayaq verdi, onu yeni qüvvə ilə mübarizəni davam etdirməyə çağırdı. Heydər Əliyevin imperiya qarşısında, onun paytaxtında mərkəzin ünvanına söylədiyi cəsarətli ittihamlar xalqın mübarizə əzmini daha da gücləndirdi, qətiyyətli addımlar atmağa ruhlandırdı.

Yalnız dörd il sonra ümummilli liderimiz Heydər Əliyevin cidd-cəhdi nəticəsində bütün sənədlər üzə çıxarıldı, 20 Yanvar faciəsi öz hüquqi-siyasi qiymətini aldı və onun törədilməsində əlləri olmuş şəxslər ifşa edildi.

Araşdırmalar zamanı Yanvar faciəsində şəhid olanlarla bərabər xalqın düşmənləri, vəzifə, rütbə qazananlar da, hakimiyyət hərisləri də aşkar olundu. Mütəxəssislərin fikrincə, Azərbaycan parlamentinin 20 Yanvar faciəsinə verdiyi qiymət yekun qiymət idi. Bu qiymət o vaxt üçün əldə olunan faktlara, istintaq sənədlərinə və materiallarına əsasən verilmişdir. Yəqin ki, müəyyən vaxt keçdikcə, yeni-yeni sənədlər aşkar ediləcək, 20 Yanvarın beynəlxalq miqyasda tam hüquqi-siyasi qiyməti veriləcəkdir.

Sovet rejiminin Azərbaycan xalqına qarşı törətdiyi qanlı terror aksiyası xatirələrdən silinməməli və dünya ictimaiyyətinə daha geniş şəkildə çatdırılmalıdır. 20 Yanvar faciəsini dünya dövlətlər birliyinə və beynəlxalq təşkilatlara yetərincə tanıtdırmaq üçün bu istiqamətdə hələ xeyli iş görülməlidir.

Cinayətkarların ifşa ediləcəyindən ehtiyat edən mərkəz 20 Yanvar faciəsinin istintaq materiallarının bir hissəsini məhv etdi, ən mühüm sənədləri DTK-nın arxivinə daşıdı. Vaxtilə Azərbaycan rəhbərliyinin səbatsızlığı üzündən 20 Yanvar hadisələri ilə bağlı istintaq materiallarının və sənədlərinin xeyli hissəsi indiyə qədər Moskvanın xüsusi xidmət orqanlarının arxivlərində saxlanılır. Sözsüz ki, Azərbaycan ictimaiyyəti bu materialların geri alınması və faciənin törədilməsinə görə cavabdehlik daşıyan şəxslərin ədalət məhkəməsi önünə çıxarılması istiqamətində səylərini axıradək davam etdirəcəklər. Azərbaycan xalqına qarşı törədilmiş bu qanlı faciədə əlləri olanların hamısı gec-tez cavab verməli olacaqlar.

Azərbaycan itirdiklərinin müqabilində azadlıq, müstəqillik qazandı. Azərbaycan rəhbərliyi bu müstəqilliyi göz bəbəyi kimi qoruyur, möhkəmləndirir, şəhidlərimizin xatirəsini yad edir, firavan həyat uğrunda əzmlə çalışır, işğal edilmiş torpaqlarımızın azad edilməsi üçün mübarizə aparır.

Elə məqamlar vardır ki, onların kədərini, dərdini, faciəli yaşantısını, ağrı-acısını zaman, vaxt ovuda bilmir. Belə olduqda vaxt, zaman bu məqamları yaddaşlardan silə bilmir. Bəzən əsrlər, nəsillər dəyişsə də, xatirələr yaşayır, gələcəyə ötürülür.

Qanlı 20 Yanvar faciəsi mahiyyət etibarilə qəddarlıq, vəhşilik baxımından yaddaşlardan silinməyən, beyinlərdə min illərlə yaşayan, şüurlara qanla yazılan tarixi hadisədir.

Qərəzli meyarlarla silahsız, günahsız insanların böyük qəddarlıqla kütləvi qətlə yetirilməsi beynəlxalq cinayət kimi unudulmazdır, bağışlanılmazdır. Şəhidlər Xiyabanında uyuyan, əbədiyyətə qovuşan qəhrəman övladlarımızın şəhərin ən yüksək nöqtəsindən boylanan qəzəbli baxışları, nifrəti, ünvanları bəlli olan qaniçən cəlladlara, xəyanətkarlara yönəlib. Şəhidlərin nifrət dolu ruhu, haqq, ədalət, qanun gec-tez cinayətkarların əlilə dünyasını dəyişənlərin qanına bulanmış məmurları, hərbçiləri məhşər ayağına çəkərək, onlara dar ağacı quracaqdır.

Bütün faciəli nəticələri ilə birlikdə 20 Yanvar Azərbaycan xalqının yaddaşına, tarixinə milli azadlıq, dövlət müstəqilliyi uğrunda mübarizəsinin zirvəsi kimi daxil olmuşdur. 20 Yanvarda itirdiklərimizlə yanaşı, bu faciədə xalqımız vahid birliyini, qəhrəmanlıq əzmini bir daha nümayiş etdirdi. Silahlı imperiya ordusuna qarşı əliyalın, silahsız çıxan, qorxub qaçmayan, cəsarətli insanlar ölkəmizin ərazi birliyinin və suveren hüquqlarının müdafiəsinə qalxdı və şəxsi həyatı ilə hesablaşmadı.

Hərbi, siyasi, mənəvi təcavüzə məruz qalan xalqımız, vətənin suverenliyi və azadlığı naminə ən ağır sınaqlara tab gətirdi, millət, torpaq uğrunda şəhid olmaq əzmini bütün dünyada nümayiş etdirdi. Vətənimizin istiqlalı yolunda şəhidlik zirvəsinə ucalan qeyrətli övladlarımız xalqımızın şanlı tarixinə daha bir qəhrəmanlıq salnaməsi yazdılar. 20 Yanvardan 19 il keçsə də, biz o müdhiş gecəni, şəhidlərimizin qəhrəmanlığını min illərlə unutmayacaq, ürəklərimizdə yaşadacağıq. Ulu öndərimiz Heydər Əliyevin dediyi kimi, xalqımız o günü heç vaxt unutmayacaqdır. Çünki 20 Yanvar ayrı-ayrı insanlara edilən qəsd, təcavüz deyildir, bu, bütün Azərbaycan xalqına, Azərbaycan millətinə, Azərbaycana edilən hərbi təcavüz idi. Bu təcavüz nəticəsində həlak olanlar xalq qəhrəmanlarıdır, onlar millətimizin qəhrəmanlarıdır.

Ümummilli liderimiz Heydər Əliyev demişdir: “1990-cı ilin 20 Yanvarı Azərbaycan xalqının tarixinin ən faciəli, qara səhifəsi, həm də qəhrəmanlıq, rəşadət səhifəsidir. Biz o günlərdən nə qədər uzaqlaşsaq, həmin günlərin Azərbaycan xalqının tarixində necə mühüm yer tutduğunu bir o qədər dərk edəcəyik və bəlkə də, gələcək nəsillər buna daha dolğun, daha düzgün qiymət verəcəklər”.

Heydər Əliyev Moskvada 20 Yanvar faciəsini bütöv xalqa qarşı qanlı terror, təcavüz aksiyası kimi qiymətləndirdi, sovet imperiyasının şovinist siyasətini dövləti cinayət adlandırdı, İttifaq rəhbərliyini bütün dünya qarşısında ittiham etdi.

Yanvarın 21-də ulu öndər Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirilən mətbuat konfransında Yanvar faciəsini, onun təşkilatçılarını cəsarətlə məhkum etdi, dünya ictimaiyyətini təcavüzü ittiham etməyə çağırdı. Mətbuat konfransından sonra Heydər Əliyev Azərbaycan xalqına başsağlığı teleqramı göndərdi və onu həmrəyliyə, birliyə çağırdı.

Bütün ölkədə məşhur olan Heydər Əliyevin sovet rəhbərliyini ittiham etməsindən ehtiyat edən Mixail Qorbaçov onun təxribat yolu ilə aradan götürülməsi üçün Dövlət Təhlükəsizlik Komitəsinin sədri Kryuçkova tapşırıq verdi. Beləliklə, ömrünün 30 ilini sıralarında xidmət etdiyi Dövlət Təhlükəsizlik Komitəsi onu mövcud quruluş əleyhinə olan şəxs kimi təqib etməyə başladı.

Təqiblərə baxmayaraq, qətiyyətli Heydər Əliyev daha cəsarətli addım atdı, sovet imperiyasının Azərbaycana qarşı hərbi təcavüzünə etiraz əlaməti olaraq, SSRİ Nazirlər Sovetinin ilk partiya təşkilatına ərizə verdi və Sov.İKP-nin tərkibindən çıxdığını bildirdi.

1993-cü ilin oktyabr ayında prezident seçilən Heydər Əliyev 20 Yanvar hadisəsinin səbəblərini və nəticələrini araşdırmaq üçün xüsusi dövlət komissiyası yaratdı, faciəyə siyasi-hüquqi qiymət verilməsini Milli Məclisə tövsiyə etdi. 1994-cü ilin yanvar ayının 18-də Milli Məclis 20 Yanvar faciəsinin səbəblərini və nəticələrini müzakirə etməyə başladı, hüquqi və mənəvi məsuliyyət daşıyan günahkarların siyahısını elan etdi.

Ulu öndərimiz Heydər Əliyevin 1999-cu il dekabr ayının 16-da 20 Yanvar faciəsinin onuncu ildönümü haqqında imzaladığı fərmanda qanlı Yanvar hadisələrini doğuran səbəblər, onun günahkarları və nəticələri şərh edilmiş, imperiyanın hərbi təcavüzünə siyasi-hüquqi qiymət verilmiş, hadisənin tədqiq və təbliğ edilməsi zərurəti qeyd edilmişdir.

Vətənə, xalqa qırılmaz tellərlə bağlı olan ümummilli liderimiz Heydər Əliyev millətin taleyi ilə bağlı məsələlərdə həmişə ardıcıl, qətiyyətli və dönməz olmuşdur. O, Türkiyə səfərində Rusiya jurnalistləri ilə görüşündə bəyan etmişdir ki, Sovetlər İttifaqı Baltikyanı ölkələrdə və Tbilisidə baş verən hadisələri müzakirə etsə də, onun varisi hələ də 20 Yanvar faciəsi barədə Azərbaycana üzrxahlıq etməmişdir.

20 Yanvar faciəsi sovet imperiyasının Azərbaycana və bütün insanlara qarşı törətdiyi ən ağır cinayət idi. 20 Yanvar qırğını Azərbaycan xalqının qəddini əysə də, onu sındıra bilmədi. Əksinə, daha da mətinləşdirdi, mübariz etdi, daha böyük əzmlə azadlıq uğrunda döyüşə sövq etdi. Xalq özünün qəhrəmanlıq salnaməsini yazdı, tarixi mübarizlik ənənələrini özünə qaytardı, onun vətənpərvər övladları Vətən, azadlıq yolunda şəxsi həyatlarını qurban verib, şəhidlik zirvəsinə yüksəlmək əzmini sübut etdilər.

**Siyavuş Qarayev**
Azərbaycan Dövlət Neft Akademiyasının rektoru**,**
AMEA - nın həqiqi üzvü

**“Respublika”.**- 2009.- 18 yanvar.- №13.- S.3

## Qara Yanvar

**Xalqı diz çökdürmək olmaz!**

**1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda baş verən hadisələri hər dəfə ürək ağrısı ilə yada salırıq. Artıq on doqquz ildir ki. şəhərimizin sakinləri o vaxtkı böyük ölkənin rəhbərliyi tərəfindən öz xalqına qarşı törədilmiş qanlı aksiyanı xatırlayanda həqiqətən sarsılırlar.**

O gecə misli görünməmiş qəddarlıq nümayiş etdirildi: tankların gurultusu, güllələrin vıyıltısı, avtomat silahların süngüləri şəhər sakinlərini vahiməyə salırdı. Bütün bunlar heç bir günahı olmayan dinc əhaliyə qarşı yönəlmişdi. Baş verənlərin həqiqət olmasına inana bilməyən insanlar əvvəlcə özlərini itirdi, sonra isə sarsıntı hissi keçirdilər.

Həmin dəhşətli gecədə Mərkəzin əmri ilə suveren respublikanın ərazisinə soxulmuş sovet ordusu qoşunları qarşısına çıxan hər şeyi yerlə-yeksan edir, hər kəsə atəş açırdı. Bu qanlı aksiyaya quru qoşunları ilə bərabər, hərbi dəniz, hərbi hava, desant qoşunları və hətta xüsusi təyinatlı bölmələr də cəlb edilmişdi. Azərbaycan paytaxtında əvvəlcədən xəbərdarlıq edilmədən fövqəladə vəziyyət tətbiq olundu. Qoşunlar rastlarına çıxan hər kəsi - qocalan, qadınları, cavanlan, uşaqları qanlarına qəltan edirdi… Yaşayış binaları, xəstəxanalar atəşə tutulur, tanklar təsadüfən yolda olan avtomobillərin üstündən sürüb keçirdi, hətta yaralılara da rəhm edilmirdi… Yüzlərlə insan həlak olmuş, yaralanmış, itkin düşmüşdü. Onların arasında azərbaycanlılarla yanaşı, əsrlər boyu çoxmillətli şəhərimizi təmsil edən ruslar, yəhudilər, tatarlar, başqa millətlərin nümayəndələri də vardı…

**Sovet kütləvi informasiya vasitələri Azərbaycanda törədilmiş qanlı yanvar hadisələrini, dinc vətən-daşlara divan tutulmasını sanki görmür, bu barədə heç bir məlumat verilmirdi. O vaxt Bakıya gəlmiş jurnalistlərin heç birinə Azərbaycan paytaxtında törədilmiş vəhşi aksiya haqqında həqiqəti dünyaya çatdırmaq üçün hazırladığı materialları ittifaq mətbuatında çap etdirmək, yaxud efir vasitəsilə yaymaq imkanı verilmədi. Respublika informasiya blokadasında idi. Yerli rəhbərlər**

**isə buna hər vasitə ilə kömək edirdilər. Təkcə bunu xatırlamaq kifayətdir ki, Bakıda televiziyanın sıradan çıxarılması hamin rəhbərlərin razılığı ilə baş vermişdi.**

O vaxt Azərinformun (indiki AzərTAc-ın) əməkdaşları da çətin günlər yaşayırdı. Agentliyin binasında əyləşən hərbi senzorun icazəsi olmadan heç bir məlumat yayılmırdı. Lakin Azərinformun jurnalistləri respublikada baş verənlər barədə həqiqəti yaymaq üçün yol tapdılar. Agentliyin işçiləri özlərinin hazırladığı, insan adlanmağa layiq olmayanların dünya ictimaiyyətindən gizlətdiyi həqiqətləri əks etdirən qısa, lakin faktlarla çox zəngin olan məlumatları gecənin qaranlığında paytaxtın müxtəlif hissələrində binaların divarlarına yapışdırırdılar.

Azərbaycan İnformasiya Agentliyinin jurnalistləri peşəkar və humanist borclarını beləcə yerinə yetirirdilər.

1990-cı ilin Qara Yanvar günlərindən əvvəlki hadisələri xatırladıqca bir daha yəqin edirsən ki, həmin hadisələrlə Qarabağ problemi arasında həm birbaşa, həm də dolayı əlaqə vardı. O dövrdə SSRİ Ali Sovetinin Azərbaycandan olan deputatlarından biri, bəstəkar Arif Məlikovun "Mən ittiham edirəm…" adlı publisistik kitabında haqlı olaraq qeyd etdiyi kimi, Qarabağ müharibəsi bir sıra prosesləri sürətləndirdi, kommunist rejiminin acizliyini açıb göstərdi. Müəllif yazır: **"Bu müharibə, yüz minlərlə qaçqın, neçə-neçə evin qapısını döymüş facіə Mərkəzin səbatsız və mənasız siyasəti, yerli rəhbərliyin aciz mövqeyi hadisələri təlatümə gətirdi və sürətləndirdi".**

Yadımdadır, həmin günlərdə keçirilən bütün mitinqlərdə Qarabağdakı separatizmə qarşı, Mərkəzin siyasətinə qarşı, bütövlükdə hə-min quruluşa qarşı getdikcə güclənən etiraz səsləri eşidilirdi. Totalitar rejimə qarşı uzun illər boyu yığılıb qalmış daxili etiraz hissləri üzə çıxırdı. Bu, belə də olmalı idi və oldu, Mərkəz əməlli-başlı qorxuya düşdü. Mərkəzin Azərbaycanı itirmək qorxusu real idi: respublikada demokratik qüvvələr möhkəmlənmişdi, onları idarə etmək getdikcə çətinləşirdi. Belə bir məqamda Moskva özünün əsas vasitəsindən - qoşunlardan istifadə etdi.

**Yanvar hadisələri zamanı tökülən qanlar Azərbaycan xalqının həmin illərdə məruz qaldığı böyük fiziki və mənəvi itkilərin bir növ yekunu oldu. O vaxt bizim başımız çox müsibətlər çəkdi Lakin dünyada ən şirin nemət olan Azadlıq naminə, dünyada ən uca dəyər olan insan ləyaqəti naminə bu müsibətlərə dözməyə dəyərdi!**

Bakıda yanvar hadisələri məlum həqiqəti bir daha təsdiq etdi: xalqa atəş açmaq olar, amma onu diz çökdürmək heç vaxt mümkün deyil!

Bəlkə də məhz həmin qanlı faciə günləri artıq dağılmaqda olan sovet imperiyasının can verməsi prosesinin kulminasiya nöqtəsi oldu. Məhz həmin hadisələr totalitar sistemin mahiyyətini, onun həqiqi məzmununu dünyaya göstərdi. Sistemin süqutunun başlanğıcı olan bu hadisələr keçmiş ittifaqa daxil olan başqa xalqlarla bərabər, Azərbaycan xalqının da çoxdan gözlədiyi ən qiymətli bir nemətlə -Müstəqillik əldə edilməsi ilə nəticələndi.

**Buna görə də rejimlə savaşın qurbanı olmuş həmvətənlərimizi hüznlə yad edərkən, onların qəhrəmanlığına ehtiramımızı bildirməklə yanaşı, bu hadisənin möhtəşəmliyini, xalqımızın qazandığı Azadlığın məna və mahiyyətini də yadda saxlamalıyıq!**

**"Azad Azərbaycan".**- 2009.- 18 yanvar.- N.8.- S.3

## Xalqı diz çökdürmək olmaz!

**1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda baş verən hadisələri hər dəfə ürək ağrısı ilə yada salırıq. Artıq on doqquz ildir ki. şəhərimizin sakinləri o vaxtkı böyük ölkənin rəhbərliyi tərəfindən öz xalqına qarşı törədilmiş qanlı aksiyanı xatırlayanda həqiqətən sarsılırlar.**

O gecə misli görünməmiş qəddarlıq nümayiş etdirildi: tankların gurultusu, güllələrin vıyıltısı, avtomat silahların süngüləri şəhər sakinlərini vahiməyə salırdı. Bütün bunlar heç bir günahı olmayan dinc əhaliyə qarşı yönəlmişdi. Baş verənlərin həqiqət olmasına inana bilməyən insanlar əvvəlcə özlərini itirdi, sonra isə sarsıntı hissi keçirdilər.

Həmin dəhşətli gecədə Mərkəzin əmri ilə suveren respublikanın ərazisinə soxulmuş sovet ordusu qoşunları qarşısına çıxan hər şeyi yerlə-yeksan edir, hər kəsə atəş açırdı. Bu qanlı aksiyaya quru qoşunları ilə bərabər, hərbi dəniz, hərbi hava, desant qoşunları və hətta xüsusi təyinatlı bölmələr də cəlb edilmişdi. Azərbaycan paytaxtında əvvəlcədən xəbərdarlıq edilmədən fövqəladə vəziyyət tətbiq olundu. Qoşunlar rastlarına çıxan hər kəsi - qocaları, qadınları, cavanları, uşaqları qanlarına qəltan edirdi… Yaşayış binaları, xəstəxanalar atəşə tutulur, tanklar təsadüfən yolda olan avtomobillərin üstündən sürüb keçirdi, hətta yaralılara da rəhm edilmirdi… Yüzlərlə insan həlak olmuş, yaralanmış, itkin düşmüşdü. Onların arasında azərbaycanlılarla yanaşı, əsrlər boyu çoxmillətli şəhərimizi təmsil edən ruslar, yəhudilər, tatarlar, başqa millətlərin nümayəndələri də vardı…

**Sovet kütləvi informasiya vasitələri Azərbaycanda törədilmiş qanlı yanvar hadisələrini, dinc vətən-daşlara divan tutulmasını sanki görmür, bu barədə heç bir məlumat verilmirdi. O vaxt Bakıya gəlmiş jurnalistlərin heç birinə Azərbaycan paytaxtında törədilmiş vəhşi aksiya haqqında həqiqəti dünyaya çatdırmaq üçün hazırladığı materialları ittifaq mətbuatında çap etdirmək, yaxud efir vasitəsilə yaymaq imkanı verilmədi. Respublika informasiya blokadasında idi. Yerli rəhbərlər**

**isə buna hər vasitə ilə kömək edirdilər. Təkcə bunu xatırlamaq kifayətdir ki, Bakıda televiziyanın sıradan çıxarılması hamin rəhbərlərin razılığı ilə baş vermişdi.**

O vaxt Azərinformun (indiki AzərTAc-ın) əməkdaşları da çətin günlər yaşayırdı. Agentliyin binasında əyləşən hərbi senzorun icazəsi olmadan heç bir məlumat yayılmırdı. Lakin Azərinformun jurnalistləri respublikada baş verənlər barədə həqiqəti yaymaq üçün yol tapdılar. Agentliyin işçiləri özlərinin hazırladığı, insan adlanmağa layiq olmayanların dünya ictimaiyyətindən gizlətdiyi həqiqətləri əks etdirən qısa, lakin faktlarla çox zəngin olan məlumatları gecənin qaranlığında paytaxtın müxtəlif hissələrində binaların divarlarına yapışdırırdılar.

Azərbaycan İnformasiya Agentliyinin jurnalistləri peşəkar və humanist borclarını beləcə yerinə yetirirdilər.

1990-cı ilin Qara Yanvar günlərindən əvvəlki hadisələri xatırladıqca bir daha yəqin edirsən ki, həmin hadisələrlə Qarabağ problemi arasında həm birbaşa, həm də dolayı əlaqə vardı. O dövrdə SSRİ Ali Sovetinin Azərbaycandan olan deputatlarından biri, bəstəkar Arif Məlikovun "Mən ittiham edirəm…" adlı publisistik kitabında haqlı olaraq qeyd etdiyi kimi, Qarabağ müharibəsi bir sıra prosesləri sürətləndirdi, kommunist rejiminin acizliyini açıb göstərdi. Müəllif yazır: **"Bu müharibə, yüz minlərlə qaçqın, neçə-neçə evin qapısını döymüş faciə Mərkəzin səbatsız və mənasız siyasəti, yerli rəhbərliyin aciz mövqeyi hadisələri təlatümə gətirdi və sürətləndirdi".**

Yadımdadır, həmin günlərdə keçirilən bütün mitinqlərdə Qarabağdakı separatizmə qarşı, Mərkəzin siyasətinə qarşı, bütövlükdə hə-min quruluşa qarşı getdikcə güclənən etiraz səsləri eşidilirdi. Totalitar rejimə qarşı uzun illər boyu yığılıb qalmış daxili etiraz hissləri üzə çıxırdı. Bu, belə də olmalı idi və oldu, Mərkəz əməlli-başlı qorxuya düşdü. Mərkəzin Azərbaycanı itirmək qorxusu real idi: respublikada demokratik qüvvələr möhkəmlənmişdi, onları idarə etmək getdikcə çətinləşirdi. Belə bir məqamda Moskva özünün əsas vasitəsindən - qoşunlardan istifadə etdi.

**Yanvar hadisələri zamanı tökülən qanlar Azərbaycan xalqının həmin illərdə məruz qaldığı böyük fiziki və mənəvi itkilərin bir növ yekunu oldu. O vaxt bizim başımız çox müsibətlər çəkdi Lakin dünyada ən şirin nemət olan Azadlıq naminə, dünyada ən uca dəyər olan insan ləyaqəti naminə bu müsibətlərə dözməyə dəyərdi!**

Bakıda yanvar hadisələri məlum həqiqəti bir daha təsdiq etdi: xalqa atəş açmaq olar, amma onu diz çökdürmək heç vaxt mümkün deyil!

Bəlkə də məhz həmin qanlı faciə günləri artıq dağılmaqda olan sovet imperiyasının can verməsi prosesinin kulminasiya nöqtəsi oldu. Məhz həmin hadisələr totalitar sistemin mahiyyətini, onun həqiqi məzmununu dünyaya göstərdi. Sistemin süqutunun başlanğıcı olan bu hadisələr keçmiş ittifaqa daxil olan başqa xalqlarla bərabər, Azərbaycan xalqının da çoxdan gözlədiyi ən qiymətli bir nemətlə -Müstəqillik əldə edilməsi ilə nəticələndi.

**Buna görə də rejimlə savaşın qurbanı olmuş həmvətənlərimizi hüznlə yad edərkən, onların qəhrəmanlığına ehtiramımızı bildirməklə yanaşı, bu hadisənin möhtəşəmliyini, xalqımızın qazandığı Azadlığın məna və mahiyyətini də yadda saxlamalıyıq!**

**“Azad Azərbaycan”.-** 2009.- 18 yanvar.- N.8.- S.3

# Azərbaycan milli azadlıq hərəkatının xüsusiyyətləri

**Ön söz**

İnsan cəmiyyətinin tarixi mədəniyyət və sivilizasiyanın birliyi və mübarizəsi ilə xarakterizə oluna bilər. Mədəniyyət sosial bir fenomendir. O əsasən milli fenomendir. Ənənələr, adətlər, mifoloji və dini etiqadlar, habelə dil kimi dəyərlər tarix boyu formalaşmışdır. Onlar nəsildən-nəslə ötürülüb. Sivilizasiya mədəniyyətdən fərqli olaraq əsasən elm, texnologiya, tədqiqat, idarəetmə metodları, ədəbiyyat, incəsənət və s. kimi intellektual məhsullardan ibarət olan beynəlxalq bir fenomendir. Lakin mədəniyyət və sivilizasiya arasındakı qeyd olunmuş fərq nisbidir. Sivilizasiya müxtəlif xalqlar tərəfindən qəbul edilmiş mədəniyyətin dəyərlərinə əsaslanır. Bu dəyərlər icma statusu alıb.

Mədəniyyət təbiətinə görə davamlı, mühafizəkar və müəyyənedici bir fenomendir. Mədəni determinizm ictimai elmlərin mühüm metodoloji prinsiplərindən biridir. Metodoloji bir əsas olaraq mədəni determinizm prinsipi bəzi Qərb alimlərinin əsərlərində tədqiq edilmişdir.

Mədəni dəyərlər insanın həyat və fəaliyyətində vacib bir rol oynayır. Onlar insanın dünyagörüşü və fəaliyyətinin motiv və istiqamətlərini müəyyən edir. Yeni mədəni dəyərlərin formalaşma prosesi uzun sürən prosesdir, çünki o, insanın daxili aləminə aiddir. Ronald İngelhart qeyd edir ki, rəhbərlər, qanunlar dəyişə bilər. Lakin mədəniyyətin fundamental dəyərlərində hər hansı bir dəyişikliyin baş verməsi üçün uzun illər gərəkdir. Mədəniyyətin müəyyənləşdirici rolu postsoyuq müharibə dövründə daha aydın görünürdü. Samuel Haminqton üçün postsoyuq müharibə illərində dünyada xalqlar arasındakı ideoloji, siyasi və ya iqtisadi əlamətlər ən mühüm fərqləndirici əlamətlər deyil. Onlar mədəni fərqlərdir. Buna görə "böyük dövlətlərin rəqabəti sivilizasiyaların toqquşması ilə əvəz olunur". Lakin mədəniyyətin davamlı və müəyyənedici təbiəti barədəki tezisi, Haminqton bəhs etdiyi kimi, heç də mədəni dəyərlərin ölğün və dəyişməz olduğu demək deyil. Haminqton müxtəlif xalqların tarixi inkişafının xüsusiyyətlərini mədəniyyətlərin xüsusiyyətlərinə bərabər tutur. Onun gəldiyi nəticə etnosentrizmin münasibətinə yaxındır. Məsələn, "Sivilizasiyaların toqquşması və dünya nizamının yenidən qurulması" kitabında postkommunist dövlətlərin demokratik inkişafının proqnozunu verərkən Haminqton qeyd edir ki, qərb xristian varisləri olan dövlətlər iqtisadi inkişafa və demokratik siyasətə doğru tərəqqiyə nail olmaqdadırlar; ortodoks xristian (yaxud da müsəlman) ölkələrində iqtisadi və siyasi inkişaf üçün perspektivlər şübhəlidir; müsəlman ölkələrində bu perspektivlər daha tutqundur. Bəs nə üçün Haminqton müsəlman ölkələrində iqtisadi, siyasi, habelə demokratik inkişaf üçün perspektivlərin tutqun olmasını deyir? Ona görə ki, qeyri-Qərb ölkələr arasında, ilk öncə, Konfusianizm və İslam demokratik inkişaf yolunda maneələr törədir. O bunu öz mədəniyyətlərinin təbiəti ilə izah edir. Xüsusən, Konfusianizm qrupunun şəxs üzərində üstünlüyünü vurğulayır, İslam dini və siyasi icma arasında fərq qoymur.

Əminəm ki, mədəniyyət digər ictimai hadisələri daim dəyişməkdədir. Bu prosesdə müxtəlif sivilizasiyalar vacib rol oynayır. Ənənəvi, dini və milli dəyərlər mədəniyyət sisteminin inteqral hissələridir. Bu dəyərlərin bəzisi hər hansı bir cəmiyyətin ictimai-iqtisadi inkişafından asılı olaraq insan həyatında həlledici rol oynayır. Mədəni dəyərlər sistemində milli dəyərlər üstündür, çünki öz tarixi inkişafında milli dəyərlər ənənəvi və dini dəyərlərin ardınca gedir. Milli mədəni dəyərlər millətçilikdə ifadə edilir.

Sinfi mübarizə nöqteyi-nəzərindən ictimai hadisələr təhlilindən ibarət olan marksist metodoloji paradiqmaları cəmiyyətin elmi cəhətdən öyrənilməsi və idarə olunması yolunda ciddi maneə olmuşdur. Cəmiyyətin tarixinin sinfi mübarizə tarixinə endirilməsi millətçilik kimi ictimai inkişafın tarixində belə bir əhəmiyyətli hadisə ilə bağlı təhlillərin olmasının nəticəsidir. Bu yaxınlardakı hadisələrin inkişafı bir tərəfdən bu paradiqmanın yanlışlığını aşkar edir, digər tərəfdən, sıxışdırılmış xalqların tarixində millətçiliyin əhəmiyyətini təsdiq edir. Yuxarıda deyilən mülahizələri təsdiq etmək üçün bir faktı ayırd etmək kifayət edər ki, Sovet İmperiyasının dağılması səbəblərindən biri qeyri-rus xalqlarının millətçiliyi idi. Bundan başqa, hal-hazırda bu millətçilik postsosialist dövlətlərində ictimai inkişafın məzmunu və istiqamətini müəyyənləşdirən həlledici ictimai bir fenomendir. Bütün sıxışdırılan xalqların millətçiliyi kimi keçmiş Sovet İttifaqının qeyri-rus xalqların millətçiliyi də onların milli azadlıq mübarizəsində öz dəqiq ifadəsini tapır. Başqa sözlərlə desək, sıxışdırılmış xalqların müasir tarixi onların milli azadlıq hərəkatı tarixindən başqa bir şey deyil. Buna görə keçmiş Sovet İttifaqının qeyri-rus xalqlarının müasir tarixinin millətçilik prizmasından ictimai-fəlsəfi təhlili bu tarixin təshih edilməsini irəli sürəcək və onların milli azadlıq hərəkatı kimi təqdim edəcək. Bu yanaşma öz növbəsində onların tarixinin yeni bir anlayışının meydana çıxmasına gətirəcək və postsovet dövlətlərində müasir dövrün xüsusiyyətlərini əhəmiyyətli dərəcədə təyin edəcək.

Bu məqalədə mən yuxarıda qeyd etdiyim mədəni determinizm prinsipindən, xüsusilə sıxışdırılmış xalqların müasir tarixinin onların milli azadlıq hərəkatından başqa bir şey olmadığı ideyasından istifadə edərək, Azərbaycanda millətçiliyin tarixi rolu və xüsusiyyətlərinin mədəniyyətə münasibətini təhlil edəcəyəm.

**Millətçiliyə dair marksist və qeyri-marksist anlayışlar**

Əvvəla, milli azadlıq hərəkatının əsası olan millətçiliyin mahiyyəti və əhəmiyyətini aşkarlamağa ehtiyacımız var. Deməyə dəyər ki, politologiyaya dair ədəbiyyatda millətçiliyin mahiyyəti və əhəmiyyəti ilə bağlı əks nöqteyi-nəzərlər mövcudur. Millətçilik marksist ədəbiyyatında mənfi bir fenomen kimi təqdim edilmişdir, çünki bu, dini, milli, irqi fərqliliyindən asılı olmayaraq, bütün dünya zəhmətkeşlərinin birləşməsi kimi marksist ideyaları ilə ziddiyyət təşkil edirdi. Marksizm millətçiliyi kapitalizmin törətdiyi əlamətlərdən biri kimi nəzərdən keçirirdi. Millətçilik sosialist dövlətlərinin ictimai reallığından çıxmış yayındırıcı bir fenomen kimi düşünülürdü. Bəzi sosialist dövlətlərində millətçi cərəyanlar onu keçmişin qalıqları, və ya dünya imperializminin sosialist dövlətlərinin daxili işlərinə qarışmasının nəticələri kimi izah edirdi. Millətçiliyin bu cür birtərəfli mənfi şərhi, şübhəsiz ki, millətçiliyin və milli azadlıq hərəkatının obyektiv və elmi araşdırılması yolunda maneələr yaradırdı.

Millətçiliyin obyektiv və elmi təhlili ilk dəfə Qərb ədəbiyyatında aparılmışdı. Millətçiliyə dair geniş Qərb təhlillərini yenidən qiymətləndirərək belə ümumi qənaətə gələ bilərik: birincisi, millətçilik bütün xalqların ictimai inkişafında gerçək və labüd bir haldır. O, milli şüurun formalaşması prosesinin ardınca gəlir, həmçinin dil və milli mədəniyyətin birliyi əsasında xalqın möhkəmlənməsi ilə xarakterizə olunur. Bu möhkəmlənmə ilə millətçilik insanların (xalqın) şüur, hissiyat və arzusunu təyin edir, habelə o, ictimai inkişafa öz əks təsirini göstərir. İkincisi, öz-özlüyündə millətçilik neytral bir fenomendir. Xarakteri bütövlüklə sosial-iqtisadi və mədəni amillərlə səciyyələnir. Demokratik, ənənəvi, liberal və inteqral millətçilik onun əsas formalarından olmuşdur. Bu formalar Avropada hələ 1789-cu il Fransa inqilabından İtaliya və Almaniyadakı faşist rejimlərinə qədər mövcud idi. Bu tarixi formalar öz kökü, məzmunu və əhəmiyyəti ilə bir-birindən fərqlənirdi. Xüsusilə, demokratik millətçilik milli demokratiya və fərdi azadlıq, dövlət və dinin hakimiyyətinin məhdudlaşması ideyasını müdafiə edirdi. Bioloji və totalitar millətçilik kimi cürbəcür formalara malik olan inteqral millətçilik insanları daha üstün və daha aşağı kateqoriyalara bölürdü. Totalitar millətçilik İtaliya və Almaniyada faşist rejimlərində öz təzahürünü tapmışdır. Keçmiş Sovet İttifaqında V.İ.Lenin tərəfindən qurulmuş kommunist rejimi totalitar millətçiliyin başqa bir forması hesab olunur.

Müəyyən mədəni və tarixi səbəblərə görə "üçüncü dünya"dakı millətçilik öz əsası, məzmunu və əhəmiyyəti ilə Avropa millətçiliyindən fərqli idi. İlk növbədə qeyd onunmalıdır ki, "üçüncü dünya"dakı millətçilik nisbətən gənc hərəkat olub. O, İkinci Dünya Müharibəsindən sonrakı dövrdə imperialist zülmünə qarşı formalaşmış və milli burjuaziyanın öz milli dövlətini yaratmaq arzusunu ifadə edirdi. Milli azadlıq hərəkatı onun əsas təzahür forması idi. "Üçüncü dünya"dakı millətçiliyin bu xüsusiyyətləri başqa xassələri müəyyənləşdirirdi. Ələlxüsus, bu millətçiliyin antiimperialist xarakteri onu kütləvi bir fenomen edərək nəzəri baza ilə təmin etməyi bacarmadı. Ona görə də, "üçüncü dünya"dakı millətçilik qeyri-iradi sosial proses idi. "Üçüncü dünya"dakı millətçiliyin sosialist dövlətlərinə yaxınlığı olmuşdur. Kommunizm və millətçilik ideologiyaları arasında olan mühüm uyğunsuzluqlara baxmayaraq, bu ideologiyalar qərb imperializminə qarşı mübarizədə eyni mövqeyə malik idilər. Məhz bu səbəbdən Sovet İttifaqının başçılığı ilə sosialist dövlətləri bütün lazımi yardımlarla inkişaf edən dövlətləri təmin edirdilər. SSRİ "üçüncü dünya"dakı millətçiliyin nəzəri bazasından istifadə edərək onlara nəzarət etməyə və sosialist oriyentasiya verməyə çalışırdı. "Üçüncü dünya"nın bəzi dövlətlərində (Vyetnam, Şimali Koreya, Əfqanıstan və s.) kommunistpərəst dövlətlərin yaradılması Sovet İttifaqının bu səylərilə sıx bağlı olmuşdur.

**Sovet dövründən əvvəl Azərbaycanda millətçilik**

Müstəqilliyini yaxınlarda əldə etmiş Azərbaycan inkişaf edən dövlətlər kateqoriyasına daxildir. Buna görə Azərbaycandakı millətçilik Avropa millətçiliyindən fərqləndirilir və həmçinin "üçüncü dünya"dakı millətçiliklə oxşar xüsusiyyətlərə malikdir. Azərbaycanda millətçiliyin formalaşması prosesi 19-cu əsrin ikinci yarısından başlamışdır. O zaman Azərbaycan Çar Rusiyasının əyaləti olduğuna görə milli azlıqların ruslaşdırılma, diskriminasiya və sıxışdırılması milli siyasətin əsasını təşkil edirdi. Azərbaycanda millətçiliyin təşəkkül tapması və inkişafının əsas hərəkətverici qüvvəsi Azərbaycan xalqının milli, mədəni müstəqilliyi uğrunda mübarizəsi olmuşdur. Ziya Göyalpa görə, şərq xalqları arasındakı milli hərəkatlar nəticə etibarilə üç mərhələdən keçir: mədəni, siyasi və iqtisadi. Qeyd olunmuş dövrləşməyə uyğun olaraq Azərbaycanda millətçilik ilk öncə özünü mədəni hərəkat kimi göstərmişdir.

Mədəni millətçiliyin daşıyıcıları olan Azərbaycan ədəbiyyatı, incəsənəti və maarifçiliyinin görkəmli nümayəndələri Həsən bəy Zərdabi, Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov mədəni hərəkata başçılıq edirdilər. Onlar Mirzə Fətəli Axundovun ənənəsini davam və inkişaf etdirərək xalqın nadanlığını, mövhumatçılığını, tərəqqiyə mane olan köhnə adətləri tənqid edir, şovinist Çar Rusiyasının milli siyasətini günahlandırırdılar.

Azərbaycan maarifçilərinin əsas fəaliyyət istiqamətləri aşağıdakı kimi görünürdü: birinci, yeni öyrətmə üsuluna (üsul-i-cədid) əsaslanan milli məktəblərin açılması. Bu üsul əhali arasında savadsızlığın aradan götürülməsi, dünyəvi və milli təhsilin tətbiq edilməsinə yönəldilmişdi; ikinci, dil və əlifba islahatı uğrunda mübarizə. Bu mübarizə ərəb əlifbasının latın əlifbası ilə əvəz edilməsi ideyasına əsaslanırdı. İlk dəfə bu ideya 19-cu əsrin birinci yarısında Mirzə Fətəli Axundov tərəfindən irəli sürülmüşdür. Dil islahatına gəldikdə, o, canlı xalq dili əsasında Azərbaycan ədəbi dilinin formalaşmasına yönəldilmişdi. Seyid Əzim Şirvani, Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Soltan Məcid Qənizadə, Nəriman Nərimanov və başqaları bu ideyanın təsiri altında öz əsərlərini adi adamların başa düşdüyü dildə yazmışdılar. Azərbaycan maarifçilərinin cəhdləri ədəbi Azərbaycan dilinin formalaşması və inkişafını irəli aparmışdı, millətin mədəni dirçəlişinə xidmət edirdi; üçüncü, milli kitabxanaların və oxu zallarının açılması. Azərbaycanda ilk oxu zalı Bakıda Həbib bəy Mahmudbəyov və Sultan Məcid Qənizadə tərəfindən açılmışdır. O kitabxanalarda və oxu zallarında çar hökumətinin qadağan etdiyi bəzi kitablar var idi. Oxucular arasında belə kitablar çox sevilirdi; dördüncü, "Nicat", "Sara", "Ədəb yurdu" və "Cəmiyyəti-Xeyriyyə" kimi xeyriyyə təşkilatlarının fəaliyyəti. Onlar varlı adamların ianələri hesabına maliyyələşdirilirdi, milli qəzet və jurnallara, Avropada təhsil alan azərbaycanlı tələbələrə də yardımlar edirdilər; beşinci, qəzet və jurnalların buraxılması. Azərbaycan maarifçiliyinin təmsilçiləri qəzet və jurnalları, milli və mədəni intibaha aid ideyaların yayılması üçün təsirli vasitə hesab edirdilər. 20-ci əsrin əvvəlində "Həyat", "Yeni həyat", "Füyuzat", "İrşad", "Tərəqqi" kimi qəzet və jurnallar Azərbaycan xalqının milli şüurunun inkişafında çox mühüm rol oynamışdır.

Beləliklə, ədəbiyyat və maarifçilik təmsilçilərinin səylərinə görə Azərbaycanda millətçilik mədəni hərəkat kimi öz tarixi vəzifəsini yerinə yetirdi. Nəticə etibarilə Azərbaycan xalqı öz mədəni və etnik birliyindən hali oldu.

Azərbaycanda millətçiliyin mədəni hərəkatdan siyasi hərəkata çevrilməsi Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Əlimərdan bəy Topçubaşov və Məhəmməd Əmin Rəsulzadə kimi görkəmli Azərbaycan ziyalılarının nəzəri və siyasi fəaliyyəti ilə bağlıdır. İlk dəfə onlar Azərbaycan xalqının sosial-siyasi hüquqlarının üstündə durmağa başladılar. Bu məqsədlə onlar bütün qanuni yollardan istifadə edirdilər: çara petisiyalar yazır, ali hökumət rəsmiləri ilə görüşür, Rusiya müsəlmanlarının qurultaylarını çağırır, habelə parlamentdə (Dumada) fəal iştirak edirdilər. Dövlət Dumasında Azərbaycan nümayəndəliyinin fəallığı artmışdı. 1905-ci ilin aprel ayında Azərbaycan nümayəndəliyi Dumada baxılması üçün "Rusiyanın müsəlman əhalisinin səlahiyyətli nümayəndələrinin adından" adlı petisiyanı hazırlayıb təqdim etdi. Petisiya Əlimərdan bəy Topçubaşov tərəfindən yazılmışdı. Dilarə Seyidzadənin dediyi kimi: "Petisiyanin əhəmiyyəti çara Azərbaycan xalqı tərəfindən təqdim edilmiş ilk proqram sənədi olmuşdu. Gələcəkdə ondan müxtəlif inzibati qurumlara çağırışlar etmək üçün bir əsas kimi istifadə edilirdi". Petisiya Rusiya müsəlmanlarına bərabər siyasi, vətəndaş, dini, mülki və mədəni hüquqların verilməsi zərurətini tələb edirdi. Bundan başqa, Rusiyada feodal qalıqlarının aradan qaldırılması haqqında və demokratik cəmiyyətin qurulması barəsində yazılmışdı. Petisiyanın çar hökuməti tərəfindən qəbul edilməməsinə baxmayaraq, o, Azərbaycanda siyasi millətçiliyin inkişaf səviyyəsini nümayiş etdirirdi.

Siyasi millətçiliyin nümayəndələri fəaliyyətlərinin əvvəlində millətçi ideyaları, xüsusən Azərbaycan xalqının türk birliyi barəsində ideyanı açıq surətdə təqdir edə bilmirdilər. Bu o faktla izah edilirdi ki, azərbaycanlılar özlərini dini xüsusiyyətlərinə görə eyniləşdirir, özlərini müsəlman hesab edirdilər. Onlar öz etnik birliyini anlamırdılar. Əslində, Azərbaycanda siyasi millətçiliyin təmsilçiləri islampərəstliyi (pan-islamizmi) milli azadlıq hərəkatı yolunda böyük bir maneə hesab edirdilər. Azərbaycan Demokratik Cümhuriyyətinin rəhbərlərindən biri Məhəmməd Əmin Rəsulzadə qeyd edirdi: "Tarixi təcrübə göstərir ki, bir tərəfdən dini və ruhani irticaçı hərəkatına dəstək vermək, digər tərəfdən müsəlman aləmində milli ideologiyanın formalaşmasına maneə olmaq müsəlman xalqlarının müstəqilliyinə yol vermir. Biz gərək bütün müsəlman dünyasında milli şüurun inkişaf prosesini gücləndirək, çünki milli mənliyin formalaşması sosial tərəqqinin səbəbi və milli müstəqilliyin əsasıdır".

Zamanla siyasi millətçiliyin təmsilçiləri millətçi pan-türkist ideyasını təbliq etməyə başladılar. Əvvəlcə bu, bütün türk xalqlarının birləşməsi və birləşmiş türk dövlətinin qurulması kimi romantik bir ideya – "Turan" ideyası idi. 20-ci əsrin əvvəlində azərbaycanlıların əksəriyyəti Azərbaycanın Türkiyə ilə birləşməsini

istəyirdi. Onlar bu siyasi birləşməni Rusiya hökmranlığından xilas olmaq vasitəsi hesab edirdilər. 1918-ci ilin əvvəlində Azərbaycan Demokratik Cümhuriyyətinin siyasi rəhbərlərindən biri Nağı Şeyxzamanlı öz xatirələrində qeyd edirdi ki, Azərbaycan xalqının siyasi müstəqilliyinin bəyan olunması üçün çox əlverişli şərait yaranmasına baxmayaraq (Rusiya xaosa düçar olmuşdu; rus kommunistləri daxili problemləri ilə məşğul idilər; siyasi motivlərə görə Osmanlı İmperiyası Azərbaycanın öz imperiyasına qatılmasından çəkinirdi; Türkiyə Azərbaycan xalqının xahişini qəbul etdi, erməni və rus hərbi qüvvələrinə qarşı döyüşlərdə onlara dəstək vermək üçün Nuru Paşanın rəhbərliyi altlnda hərbi qoşunlarını göndərdi; Azərbaycan xalqının milli azadlıq hərəkatına nüfuzlu görkəmli siyasi rəhbərlər başçılıq edirdi), onlar Azərbaycanın siyasi müstəqilliyi ideyasını qəbul etmədilər. Lakin siyasi millətçiliyin əksər liderləri bütün türk xalqlarının siyasi vahidliyi barəsində romantik ideyanı rədd edirdilər. Onlar azərbaycançılıq adlanan yeni milli-siyasi bir ideyanı irəli sürdülər. Azərbaycançılıq ideyası türkçülüyün konkret tarixi forması idi. O, Azərbaycan xalqının ictimai, iqtisadi, siyasi və mədəni inkişafının xüsusiyyətlərini ifadə edirdi və onların rifahının inkişafına yönəldilmişdi. Azərbaycançılığın nəzəri əsası üç istiqamətdə – türkləşmə, İslamlaşma və müasirləşmədə idi. Bu ideya Əli bəy Hüseynzadə tərəfindən onun "Həyat" jurnalında 1905-ci ildə irəli sürülmüşdü. Sonralar bu ideya Azərbaycan Demokratik Cümhuriyyətinin rəsmi doktrinası olmuş və respublikanın üçrəngli bayrağında öz rəmzi ifadəsini tapmışdır. 1918-ci ilin mart ayına kimi azərbaycançılıq ideyasının tərəfdarları federativizm mövqeyində olmuşdular. Onlar hesab edirdilər ki, Azərbaycan və Rusiya arasındakı münasibət federativizm prinsipi əsasında olmalıdır. Lakin bolşeviklərin erməni silahlı qüvvələri ilə birləşərək 1918-cı il mart hadisələri zamanı Bakı və Şamaxıda 10000-dən cox Azərbaycan əhalisini qətlə yetirməsindən sonra Azərbaycan milli azadlıq hərəkatının rəhbərləri federativizm ideyasını rədd etdilər. Onlar azərbaycançılıq ideyasını Azərbaycanın siyasi müstəqilliyinə nail olmasına yönəltdilər. 1918-cı il mayın 28-də bütün müsəlman dünyasında ilk dəfə olaraq Azərbaycanda demokratik respublika quruldu. Azərbaycan Demokratik Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadə qeyd edirdi: "ADC din bünövrəsi üstündə yaradılmış, başqa türk dövlətlərindən fərqli olaraq milli mədəni özünü təyinetmə, türk milli və demokratik pirinsipi əsasında qurulur".

ADC-nin qurulması Azərbaycanda siyasi millətçiliyin inkişafında yeni mərhələ olmuşdur. O, Azərbaycanda millətçiliyin ən ali üçüncü mərhələsi – iqtisadi mərhələsinə keçmək üçün bütün labüd şəraitləri hazırlamışdı. Lakin 1920-ci ilin aprel ayının 28-də Azərbaycanın bolşevik işğalı ilə bu keçid dayandırılmışdır. Artıq qeyd etdiyimiz kimi, bütün xalqların ictimai inkişafında obyektiv və labüd mərhələ olan Azərbaycanda millətçiliyin tarixi inkişafı Sovet basqını ilə müvvəqqəti olaraq dayandırılmışdır.

1920-ci ilin aprel ayının 28-nə qədər mövcud olmuş Azərbaycan millətçiliyi və milli azadlıq hərəkatının xüsusiyyətlərini təhlil edərək bəzi nəticələr cıxara bilərik: birinci, Rusiya imperiyasına qarşı Azərbaycan xalqının mübarizəsi Azərbaycanda millətçiliyin əsas hərəkətverici qüvvəsi idi; ikinci, mütərəqqi rus və avropalı nəzəriyyəçi və dövlət xadimlərinin ideyaları Azərbaycanda millətçiliyin formalaşması prosesinə cox böyük təsir etmişdi. Qeyd olunmalıdır ki, Azərbaycan millətçiliyinin təmsilçilərinin əksəriyyəti Rusiya və Avropada təhsil almışdılar. Bundan başqa, onlardan bəziləri (Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Əli bəy Hüseynzadə) Türkiyədə və İranda milli azadlıq hərəkatının fəal iştirakçıları olmuşdur; üçüncü, Azərbaycan xalqı milli azadlıq hərəkatını çox əlverişsiz vəziyyətdə aparırdı. Bu yolda iki nəhəng maneə var idi – rus imperializmi və erməni təcavüzü; dördüncü, Azərbaycanda millətçilik məzmunu və əhəmiyyətinə görə liberal millətçilik olmuşdur. Bunu Azərbaycan Demokratik Cümhuriyyətinin xarici və daxili siyasətində aydın görmək olardı. Onun daxili siyasəti şəxsiyyətin azadlığı, bərabərlik, həmrəylik və plüralizm prinsiplərinə əsaslanırdı. Məsələn, müxtəlif millət və siyasi partiyaların təmsilçilərindən ibarət parlament və hökumətin milli və siyasi tərkibinə baxa bilərik. Bu siyasi partiyaların bəziləri ("Daşnaktsütyun", "Russko-Slavyanskoye Obşestvo") ADC-yə qarşı düşmən münasibəti bəsləyirdilər.

Beləliklə, Sovet Rusiyası tərəfindən Azərbaycanın işğalı və burada Sovet hakimiyyətinin qurulması Azərbaycanda millətçiliyin inkişafını dayandırdı. Milli şüurun formalaşması prosesi başa çatmadı. Azərbaycanın 1991-ci il oktyabr ayının 18-nə qədər davam etmiş tarixinin Sovet düvrü yeni tarixi mərhələ təşkil edir.

**Sovet dövründə Azərbaycanda millətçilik**

Sovet dövrü ərzində Azərbaycan xalqının milli mədəni dəyərləri Sovet sivilizasiyasının dəyərlərinin birbaşa təsiri altında olmuşdur. Planlı iqtisadiyyat, Kommunist Partiyasının hökmranlığı əsasında birpartiyalı siyasi sistem, bazar münasibətlərinin ləğvi, qeyri-rus xalqların mədəni irsinin tədricən dağıdılması kommunist sivilizasiyasının əsas dəyərləri idi. Bu dəyərlər marksist-leninçi ideologiya əsasında qurulmuşdu və ictimai inkişafın obyektiv istiqaməti ilə ziddiyyət təşkil edirdi. Buna görə kommunist sivilizasiyasının dəyərləri süni idi.

Kommunist sivilizasiyasının dəyərləri həmçinin Azərbaycan xalqının milli dəyərlərinə də zidd idi. Kommunist sivilizasiyası və milli mədəniyyət arasında olan münasibətlər Sovet hökumətinin milli siyasəti ilə tənzimlənirdi. Bu siyasət Sovet tarixinin əvvəlində (1920-ci illər) korenizasiya (yerliləşdirmə) prinsiplərinə əsaslanırdı. Korenizasiya siyasəti qismən yerli millətçiliyi irəli sürürdü. Tadeuş Svyatixovskiyə görə, "Sovet millətinin yaradılması üzrə fəaliyyətin ən gözəçarpan aspekti 1923-cü ildən sonra korenizasiya (yerliləşdirmə) siyasəti idi. Bu, sadəcə olaraq, yerlilərin partiya və hökumətdə yüksək vəzifələrə çəkilməsinə qədər qalxırdı. Korenizasiya həm də qeyri-rus dillərinin rus dili ilə bərabərliyinə çağırırdı və millətlərin Sovet idarəçiliyi ilə barışmasına çəhd edirdi". Korenizasiyaya görə Azərbaycan ziyalılarının əksəriyyəti Sovet hakimiyyətini, Sovet hökumətinin milli siyasətini dəstəkləyirdi. Onlar korenizasiyanın yaratdığı əlverişli şəraitdən milli təhsilin, milli dilin, ədəbiyyat və incəsənətin inkişafı üçün istifadə edirdilər. Lakin 1930-cu illərin ortalarında Sovet milli siyasəti öz həqiqi simasını göstərdi. O, milli mədəniyyəti və millətçiliyin bütün təzahürlərini sıxışdırmağa başladı. Yerli millətçiliyin dağıdılması rus şovinizminin artması ilə müşayiət edilirdi. Rus kommunistləri totalitar dövlətin gücündən sui-istifadə edirdi. Onlar cəmiyyətin bütün sahələrində ruslaşdırma siyasətini fəal surətdə aparırdılar. Rus kommunistlərinin bəzi demokratik və beynəlxalq şüarlarla, habelə özünüidarəetmə və mədəni muxtariyyatın bəzi növlərini milli regionlara verməklə öz milli siyasətinin mahiyyətini maskalamağa müvəffəq olmalarına baxmayaraq, Sovet İttifaqının necəliyindən asılı olmayaraq, onun milli siyasəti totalitar millətçilikdən başqa bir şey deyildi. Halbuki, Sovet İttifaqı federativ dövlət, xalqların öz müqəddəratını təyinetmə pirinsipləri əsasında qurulmuşdu. Lakin 1930-cu ilin əvvəlinə qədər milli məsələnin demokratik həlli ilə bağlı bütün əsas ideyalar ya nəzərə alınmırdı, ya da sinfi mübarizə ideyaları ilə əvəz olunurdu.

Sovet milli siyasətinin əsas məsələlərindən biri bütün milli regionların siyasi, iqtisadi, ictimai və mədəni sahələrində islahatların həyata keçirilməsi idi. Geridə qalmış milli regionlar öz ictimai-iqtisadi, siyasi və mədəni inkişafında bu islahatlarla əsl tərəqqiyə nail oldular. Bu islahatlar bir tərəfdən milli regionlarda Sovet hakimiyyətini möhkəmləndirmiş, ruslaşdırma prosesini irəli sürmüşdü, digər tərəfdən, yerli millətçilik təhlükəsini aradan götürmüşdü. Totalitar dövlət cəmiyyətin bütün sahələrində ruslaşdırma siyasəti aparmaq üçün çox əlverişli şərait yaratmışdı. Siyasi sahədə ruslaşdırma əlamətləri Rusiya (mərkəz) ilə qeyri-rus respublikaları arasındakı münasibətlərdə görünürdü. Hökumətin yerli orqanları mərkəzin nəzarəti altında idi. Milli maraqları müdafiə edən hər hansı bir təşkilatın fəaliyyəti qadağan olunmuşdu. İqtisadi sahədə ruslaşdırma siyasətinin əlamətləri iqtisadiyyatın mərkəzləşməsində və şəxsi mülkiyyətin qadağan olunmasında görünürdü. Bu əlamətlər milli regionların maraqlarını nəzərə almırdı və onların iqtisadi potensiallarının qabağını alırdı. Mərkəzləşmiş idarəçilik respublikalar arasında sərt əmək bölgüsü əsasında qurulmuş SSRİ-nin birləşdirilmiş iqtisadi kompleksinin işləməsini təmin edirdi. Milli regionların bir-birindən və Rusiyadan asılılığını saxlamaq üçün mərkəz elə müəssisələr qurmuşdu ki, onların işləməsi başqa regionlarda yerləşdirilmiş müəssisələrin işləməsindən asılı idi. Buna görə milli regionları iqtisadi yolla bir-birinə bağlayaraq birləşdirilmiş iqtisadi kompleks totalitar dövlətin iqtisadi bazası kimi xidmət edirdi.

Mədəni sahədə ruslaşdırma siyasətinin həyata keçirilməsi başqa proseslərdən daha çətin olmuşdur. Bu onunla izah olunur ki, mədəni sahə adamların daxili aləmi, tarixi ənənələri, milli və mənəvi dəyərləri ilə sıx bağlıdır. Bu sahədə ruslaşdırmanın uğur qazanması cəmiyyətin başqa sahələrində onun həyata keçirilməsinə əhəmiyyətli dərəcədə təsir edə bilərdi. Yerli millətçiliyin qabağını almaq üçün Sovet İttifaqı Kommunist Partiyası və Sovet hökuməti milli mədəniyyətlərin bünövrələrini tədricən dağıdır, milli şüurun formalaşması prosesinə maneə törədirdi. Sovet Rusiyası öz ruslaşdırma siyasətində Çar Rusiyasını da üstələdi. Aşağıdakı fakta diqqət yetirək: rus missioneri prof. Nikolay İlminski tərəfindən 19-cu əsrdə türk xalqlarının ruslaşdırma metodu 1930-cu illərdə həyata keçirildi. Bu metoda uyğun olaraq türk dillərinin əlifbası rus əlifbasına uyğunlaşdırılıb, bunların hər biri ayrı yerli dil hesab edilirdi. Bu təcrübə türk xalqları arasında Azərbaycan, özbək, qırğız, türkmən və s. müxtəlif ədəbi dillərin formalaşmasına gətirib çıxarırdı. Beləliklə, türk xalqları kiril əlifbasını qəbul etməyə məcbur oldular.

Ruslaşdırma siyasəti Azərbaycan ziyalılarının görkəmli təmsilçilərinin müəyyən müqaviməti ilə qarşılaşmışdı. Bu müqavimət milli mədəniyyət ilə kommunist sivilizasiyası arasında toqquşma hesab oluna bilər. Sovet hökuməti həmin müqaviməti 1930-cu illərin axırında böyük terrorla qarşıladı. Azərbaycan ziyalılarının əksəriyyəti fiziki cəhətdən məhv edildi.

Beləliklə, Sov.İKP-nin və Sovet hökumətinin milli siyasəti, bir tərəfdən Azərbaycanda millətçiliyin təzahürlərinin sıxışdırılmasını, digər tərəfdən, rus şovinizminin inkişafını irəli sürürdü. Yuxarıda qeyd edildiyi kimi, milli mədəni dəyərlər kommunist sivilizasiyası ilə ziddiyyət təşkil edirdi. Buna görə kommunist sivilizasiyasının dəyərləri inzibati üsullarla tətbiq edilirdi. Belə bir nüfuzetmə yolu ilə milli mədəni dəyərlərin daxilində yeni dəyərlər sistemi təşkil olunurdu. Bu submədəni dəyərlər sistemi idi. Submədəni dəyərlər insan

qruplarının həyatında müəyyən rol oynayırdı. Lakin kommunist sivilizasiyasının əlavə məhsulu kimi submədəniyyət milli mədəni dəyərlərlə kommunist sivilizasiyası dəyərləri arasındakı ziddiyyəti məhv edə bilmədi. Bu ziddiyyət Azərbaycanda millətçiliyin formalaşması üçün əsas səbəblərdən biri idi. Milli mədəniyyətin əsas formalarından biri olan millətçiliyin kommunizmdən daha güclü qüvvə olduğu məlum oldu. Bu ziddiyyətdən başqa, aşağıdakı iki amil Azərbaycanda millətçiliyin dirçəlişinə səbəb olmuşdur: birinci, yuxarıda deyildiyi kimi, millətçilik bütün xalqların ictimai inkişafında obyektiv və labüd mərhələdir. O, müvəqqəti olaraq dayandırıla bilər. Millətçilik milli mədəni dəyərlərə əsaslanır. Milli mədəni dəyərlər dedikdə, vətənə, millətə, onun mədəniyyəti və tarixi keçmişinə sadiqliyi nəzərdə tutulur. Bu dəyərlər fərdləri şəxsiyyətə çevirir, milli dövlətin qurulmasını irəli sürür. Tarixə görə, milli mədəni dəyərlər böhran dövründə, xüsusilə bu dəyərlər assimilyasiya təhlükəsində olarkən öz təsirini göstərir; ikinci, Azərbaycan xalqı xarici hökmranlıq altında olmuşdur, onun milli müstəqilliyi yox idi. Bu fakt həmçinin Azərbaycanda milli azadlıq hərəkatının inkişafı üçün əlverişli şərait yaratmışdı. Lakin rus şovinizminin Sovet totalitar sistemi bu imkanın həyata keçməsi yolunda əsas maneə idi.

**Postsovet Azərbaycanda millətçilik**

1980-ci illərin əvvəlinə yaxın Sovet totalitar sistemi çürümə prosesini yaşayırdı. Bu onun sosial-iqtisadi göstəricilərə görə inkişaf etmiş dövlətlərdən geridə qalmasında özünü göstərirdi. “Qlasnost” (aşkarlıq) və “perestroyka” (yenidənqurma) siyasəti SSRİ-nin iqtisadi xarakterini dəyişən kimi Sovet İmperiyasının dağılma prosesi sürətləndi. M.S.Qorbaçov ümid edirdi ki, ictimai problemlər haqqında aşkarlıq rejimi modernləşdirməyi mümkün edəcək, lakin “qlasnost” qısa bir müddətdə rejimin özünü dəyişdirdi. “Perestroyka” siyasəti sıxışdırılmış xalqların milli azadlıq hərəkatı üçün əlverişli şərait yaratmışdı. Sovet respublikaları milli şüurun kamillik səviyyəsindən asılı oaraq milli azadlıq hərəkatlarının məqsədləri, üsulları və intensivliyinə görə bir-birindən fərqlənirdi. Baltikyanı ölkələrin milli hərəkatı daha mütəşəkkil və liberal idi. Başlanğıcda SSRİ-də milli azadlıq hərəkatları mərkəz və milli respublikalar arasında münasibətlərin yeniləşməsinə yönəldilmişdi. Onlar həqiqi suverenlik, federal qanunlara qarşı milli respublikalardakı qanunlara üstünlük verilməsini tələb edirdilər. Bu iddialar milli potensiallardan qeyri-qənaətbəxş istifadə, ictimai-iqtisadi inkişafda milli marağın və həvəsin azalması, ətraf mühitin çirklənməsi və s. kimi arqumentlərlə əsaslandırılırdı. “Perestroyka”nın əlverişli şəraitlərindən bəziləri təcavüzkar məqsədlərə geniş imkan açır, o cümlədən onlar başqa respublikalara qarşı ərazi iddiaları ilə çıxış edirdilər. Erməni milli hərəkatı Azərbaycanın Dağlıq Qarabağ regionunu

Ermənistana qatmaq kimi sərsəm bir ideya irəli sürmüşdü. Bəzi müəlliflər səhvən zənn edirlər ki, ermənilərin Dağlıq Qarabağ üzərində nəzarət uğrundakı mübarizəsi SSRİ-nin dağılmasında həlledici rol oynayıb. Bu hadisənin səbəbi nəticəsi ilə qarışdırılır. SSRİ-nin çox güclü təhlükəsizlik sistemi var idi və heç bir millətçi hərəkat onu dağıda bilməzdi. Hətta Sovet dövlətinin tərkibində daha güclü olan Ukrayna və Baltikyanı millətçi hərəkatları belə sıxışdırılırdı. Buna görə 1980-ci illərin axırında erməni milli hərəkatı və SSRİ-dəki başqa millətçi hərəkatlar Sovet İttifaqının çürüməsinin səbəbi deyil, nəticəsi idi. SSRİ-də erməni və bu cür millətçi hərəkatlar bütün milli azadlıq hərəkatları üçün təhlükəli idi. Birinci, onlar milli hərəkatın təcavüzkar qüvvəyə çevrilməsini irəli sürürdülər, bu da başqa xalqlara qarşı zorakılıq və nifrət yaratdı. İkinci, onlar qeyri-rus xalqları arasında milli hərəkatları dağıtmaq üçün mərkəzə imkan yaradırdı. Tarix boyu Rusiya və başqa imperiyalar azlıqlar arasındakı münaqişələrə həmişə dəstək verirdi.

Göründüyü kimi, Azərbaycanda millətçiliyin inkişafı 1980-ci illərin axırında Azərbaycanın Dağlıq Qarabağ regionunun Ermənistana qatılması barədə ermənilərin ərazi tələbləri ilə üz-üzə gəldi. Bu hadisə Azərbaycan xalqının milli azadlıq hərəkatının yolunda ciddi bir maneəyə döndü. Qarabağ problemi Azərbaycanda milli hərəkatı kütləvi hərəkata çevirdi. Azərbaycanın ərazi bütövlüyünün qorunması, demək olar ki, Azərbaycan əhalisinin hamısını milli azadlıq hərəkatına qoşulmağa sövq etdi. Azərbaycanda milli azadlıq hərəkatı öz miqyasına görə keçmiş Sovet İttifaqında ən böyüyü olmuşdur. Qeyd olunmalıdır ki, Ermənistanın Azərbaycana olan ərazi iddiaları Azərbaycan xalqının milli şüurunun oyanması prosesini sürətləndirdi. Nəticə etibarilə, Azərbaycandakı millətçiliyi siyasi mərhələyə çıxartdı. Lakin Azərbaycandakı millətçilik “üçüncü dünya”nın millətçiliyi kimi ciddi bir çatışmazlığa malik idi. Azərbaycandakı millətçilik kütləvi hərəkat olsa da, qeyri-iradi hərəkat olmuşdur. Azərbaycan xalqının əksəriyyəti milli azadlıq hərəkatını Qarabağ probleminə yönəltdi. O dövrdə müstəqil və demokratik dövlətin qurulması, milli mədəni dəyərlərin irəli çəkilməsi kimi fundamental məqsədlər lazımınca dərk olunmurdu.

Beləliklə, postsovet Azərbaycanda millətçiliyin inkişafı özünün əlverişsiz şəraitdə olduğunu gördü, çünki onun qarşısında iki problem var idi: birinci, Azərbaycanın ərazi bütövlüyünü erməni işğalından qorumaq; ikinci, Sovet İmperiyasına qarşı mübarizə aparıb Azərbaycanın siyasi müstəqilliyini bərpa etmək. Bu

məsələlərin həlli Azərbaycan xalqının kütləvi milli azadlıq hərəkatına rəhbərlik etmək və onu məqsədyönlü təşkil etmək üçün siyasi partiyanın yaradılmasını tələb edirdi. Bu tarixi zərurətə cavab olaraq 1988-ci ilin sonunda Azərbaycan Xalq Cəbhəsi (AXC) yaradıldı. AXC-nin yaradılması Azərbaycanda siyasi millətçiliyin daha da güclənməsinə işarə idi. AXC qeyri-iradi xalq hərəkatını aparmağa və onu ölkənin son dərəcə mühüm problemlərinin həllinə yönəltməyə qadir olan bir qüvvə idi. Lakin bəzi obyektiv (Azərbaycan xalqının milli şüurunun aşağı səviyyəsi; Azərbaycan xalqının milli azadlıq hərəkatını təcavüzkar bir hərəkat kimi təqdim etməyə çalışan xarici dövlətlərin məxfi xidmət orqanlarının təxribatçılıq fəaliyyəti; Rusiyanın Ermənistana göstərdiyi hərbi yardım) və subyektiv səbəblərə (Azərbaycanda milli hərəkatın nəzəri bazasının olmaması; AXC rəhbərlərinin əksəriyyətinin peşəkar keyfiyyətlərinin aşağı səviyyəsi; AXC daxilində parçalanma) görə AXC göstərilən tarixi vəzifələri həyata keçirməyi bacarmadı. Daxili və xarici düşmən qüvvələr AXC-nin bacarıqsızlığından istifadə etdilər. Azərbaycanda milli hərəkatı sıxışdırmaq üçün Sovet rəhbərliyi onu təcavüzkar bir hərəkat kimi qələmə verirdi. 20 yanvar 1990-ci ildə Sovet qoşunları Bakıya daxil oldu və yüzdən çox mülki şəxsi qətlə yetirdi. Mülki adamlara qarşı silahın tətbiqi Sovet rejiminin vəziyyətə nəzarət etməyə qadir olmadığı faktını üzə çıxartdı. Bu əməliyyat nəinki Azərbaycandakı millətçiliyin inkişafını dayandıra bildi, əksinə, ona yeni bir təkan verdi. Azərbaycan parlamenti 1991-ci il oktyabr ayının 18-də "Azərbaycanın müstəqilliyinin bərpası haqqında" qanun qəbul etdi. Azərbaycanın siyasi müstəqilliyinin bəyan olunması

Qarabağ problemini həll etmədi. Erməni silahlı qüvvələri Rusiyanın dəstəyi ilə Azərbaycan ərazisinin 20%-ni işğal etdi. Azərbaycanda bir milyondan artıq qaçqın və məcburi köçkün yarandı. Belə bir vəziyyətdə Azərbaycanda milli hərəkat hələ də qüvvədədir. Qeyd olunduğu kimi, əhalinin əksəriyyəti öz milli azadlıq hərəkatlnı Qarabağ böhranının həll olunmasına yönəldir. Azərbaycanın vəziyyəti xarici bir dövlətdən öz ərazi bütövlüyünü qorumaq məcburiyyətində olan bir dövlət üçün tipikdir. Oxşar hallarda "azadlıq" termini ictimai qurum daxilində milli müstəqillik mənasını kəsb etməyə başladı. İşğal olunmuş ərazilərin azad edilməsini təmin etmək bacarıqsızlığı Azərbaycanın siyasi rəhbərləri Əbdurrəhman Vəzirov, Ayaz Mütəllibov və Əbülfəz Elçibəyin istefa verməsinin əsas səbəbi olmuşdur. Onların istefası Azərbaycan xalqının tələbi ilə olmuşdur. Qarabağ böhranını həll edə bilməmələrinə gəldikdə, bu bəzi dövlətlətin, ilk öncə Rusiyanın münaqişəyə müdaxilə etməsi ilə bağlı idi. Rusiya Azərbaycanın milli azadlıq hərəkatındakı əhəmiyyətini dərk edirdi. Ona görə də, o, Azərbaycanı əlində saxlamaq üçün bu problemdən istifadə edirdi.

Azərbaycanda millətçiliyin iqtisadi mərhələsinə keçid dövlət müstəqilliyinin qurulmasından sonra başlandı. Hazırda Azərbaycandakı millətçiliyin iqtisadi mərhələsinin vəzifələri həyata keçirilir. Bunu ilk öncə Azərbaycanın təbii ehtiyatlara sahib olmaq hüquqlarının qaytarılmasında görmək olar. Bütün sənaye, kənd təsərrüfatı və başqa iqtisadi müəssisələr respublikanın əmlakı olmuşdur. Öz iqtisadi maraqlarını güdərək, Azərbaycan başqa dövlətlərlə yeni əlaqələr qurur, yeni qanunvericilik normalarını tətbiq edir və s. Lakin millətçiliyin siyasi mərhələsinin əsas vəzifəsi olan Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi hələ ki həll olunmayıb. Bu həll olunmamış məsələ Azərbaycanda millətçiliyin və milli azadlıq hərəkatının inkişafı yolunda çox boyük maneələr yaradır.

**Etibar Nəcəfov**
*Fəlsəfə elmləri doktoru*

**"Azərbaycan: BU GÜN VƏ SABAH".-** 2007.- № 5.- S.29-38.

# 20 YANVAR FACİƏSİ DÜNYA MƏTBUATINDA

**1990-cı ilin 20 Yanvarı xalqımızın xatirə yaddaşında dünyanın ən dəhşətli faciələrindən və milli azadlıq uğrunda mübarizə tarixinizin ən şanlı səhifələrindən biri kimi əbədi yaşayacaq gündür. O gün vəhşi imperiyanın Bakıda törətdiyi dəhşətli soyqırımı, tökdüyü günahsız qanlar, öz müstəqilliyi və ərazi bütövlüyü naminə ayağa qalxmış xalqın sarsılmaz həmrəyliyi, polad qətiyyəti, hünər və rəşadəti dünya mətbuatını da heyrətdə qoymuşdur.**

"Bu dəhşətli hərbi əməliyyatı 70 illik imperiya əsarətindən qurtulmaq üçün ayağa qalxmış Azərbaycan xalqının coşqun mübarizə əzminin imperiyanın qəlbində yaratdığı qorxu xofunun nəticəsi kimi də izah etmək olar. Ordunun şəhərə hücumu zamanı günahsız insanların vəhşicəsinə güllələnməsi, tankların adamları öz tırtılları altında əzib keçməsi, qışın şaxtalı gecəsində tonqallar ətrafında qızınan dinc azərbaycanlıların üzərinə hücuma keçərək cəsədlərini tanınmaz hala salması bütün dünya ictimaiyyəti tərəfindən nifrət və qəzəblə qarşılanıb pislənməlidir".

***(İngiltərə, "Qurdian" qəzeti, 22 yanvar 1990-cı il).***

"Yanvarın 20-də və 21-də təşkil edilən yürüşlər, 22-də keçirilən kütləvi dəfn mərasimi hər cür mitinqləri qadağan edən fövqəladə vəziyyətə qarşı açıqdan-açığa meydan oxumaqdır. Şəhidlər xiyabanında keçirilən dəfn mərasimi "Moskva" mehmanxanasının yuxarı mərtəbələrində yerləşdirilmiş xüsusi nəzarətçilər və snayperlər tərəfindən diqqətlə izlənirdi. Bütün sərt maneələrə və təhlükəli nəzarətə baxmayaraq, qeyrətli insanlar şəhidlərin xatirəsinə layiq dəfn mərasiminin keçirilməsinə nail oldular".

***("Los-Anceles Tayms" qəzeti, 23 yanvar 1990-cı il).***

"Kremlin 20 Yanvar qırğınlarını guya "millətçi üsyan"ı yatırtmaq adı altında həyata keçirməsi boş cəfəngiyatdan başqa bir şey deyildi. O vaxt Azərbaycanda Moskvanın uydurduğu "islam fundamentalizmi"ndən əsər-əlamət belə yox idi. Şəhidlər xiyabanında azərbaycanlılarla yanaşı vəhşi rus imperiyasının qurbanı olmuş ruslar, tatarlar, yəhudilər, ləzgilər və digər millətlərin nümayəndələri də dəfn olunmuşlar. O gün rus tanklarının tırtılları altında qalmış B.Vasilyevin, B.V.Yermiçyevin qırmızı örpəyə bürünmüş tabutları da Azərbaycan oğullarının çiyinlərində böyük hörmət və ehtiramla xiyabana gətirildi, milli azadlıq uğrunda mübarizədə qəhrəmancasına həlak olmuş öz azərbaycanlı qardaş və bacıları ilə bir yerdə torpağa tapşırıldı. Əgər azərbaycanlılar fundamentalist olsaydılar rusları və yəhudiləri Şəhidlər xiyabanında dəfn edərdilərmi?"

***("Nyu-York Tayms" qəzeti. fevral, 1990-cı il).***

"Bakının işğalından sonra öz doğma torpağına bütün varlığı ilə bağlı olan hər bir azərbaycanlının qəlbində Moskvaya və Mixail Qorbaçova dəhşətli bir nifrət hissi yaranmışdı. Vaxtilə rus imperiyasının müstəmləkəsi olan Azərbaycan indi öz suveren, demokratik hüquqlarını bərpa edir. Öz azadlıq və müstəqilliyi uğrunda mübarizə aparır. İndi adi satıcıdan tutmuş hakimiyyət nümayəndələrinədək uşaqlı-böyüklü hamı dərk edir ki, Moskva öz hüquqlarının bərpası uğrunda ayağa qalxmış milləti susdurmaq üçün Bakıya qoşun yeridib, günahsız qanlar töküb.

***("Nyu-York Tayms" qəzeti, 18 fevral 1990-cı il).***

**"Azərbaycan".** - 2007. – 20 yanvar. - N 12. - S. 1.

# Tariximizin Qanlı Yanvar faciəsi

İyirminci yüzilliyin 80-ci illərinin ortalarından başlayaraq Azərbaycanda milli özünüdərk və milli şüurun yenidən oyanması və demokratik təsisatlara sanki meydan verilməsi xalqımızın müstəqillik uğrunda mübarizəsinə yeni nəfəs verdi və milli-azadlıq hərəkatının genişlənməsinə güclü təsir göstərdi. Hərəkatın genişlənməsinə erməni separatistləri və erməni daşnakları tərəfindən süni surətdə yaradılan uydurma Dağlıq Qarabağ problemi və onun ətrafında baş verən dərin sosial-siyasi hadisələr oldu. Problemin yaranmasına və qızışmasına təsir edən başlıca amil 1985-ci ildə keçmiş İttifaqda hakimiyyəti ələ keçirən və özünün bütün varlığı ilə erməni mafiyasına sədaqətlə xidmət edən Mixail Qorbaçov və onun komandası oldu. Qorbaçovun hakimiyyətə gəlməsi ermənilərin Dağlıq Qarabağı zorla Azərbaycanın tərkibindən ayırıb Ermənistana birləşdirilməsi niyyətlərini bir daha aşkarladı və onlara əsrlərdən bəri gizli saxladıqları xəyanətkar və məkrli planlarını həyata keçirmək şansı verdi. 1988-ci ilin yanvarından başlayaraq türksüz Ermənistan və Dağlıq Qarabağ uğrunda millətçi hərəkatın planlı surətdə həyata keçirilməsi siyasəti sürətləndi.

Azərbaycanlıların öz doğma dədə-baba torpaqlarından qovulması və onların kütləvi surətdə deportasiya edilməsi əvvəlcə indi Ermənistan adlanan Qərbi Azərbaycanda, sonra isə Qarabağ ərazisində şüurlu şəkildə həyata keçirildi və ermənilər 1988-ci ildə əslində "monoetnik Ermənistan" yarada bildilər. Bu azmış kimi, 1988-ci ilin fevralında Xankəndidə böyük mitinq keçirib, Dağlıq Qarabağın Ermənistana verilməsi şüarı ilə çıxışlar etməyə başladılar.

İyirmi Yanvar faciəsinə doğru gedən yol mərkəz tərəfindən bütün təfsilatı ilə elə hazırlanmışdı ki, o, erməni millətçilərinin fitnəkar planlarına tam uyğun şəkildə qurulmuşdu. Çünki əsrlər boyu Azərbaycan torpaqlarına göz dikən erməni millətçiləri zaman-zaman ərazilərimizi işğal etmək və dənizdən-dənizə monoetnik erməni dövləti yaratmaq üçün türk xalqlarına qarşı soyqırımı siyasəti aparmış və özlərinin fitnəkar planlarını həyata keçirmək üçün bütün rəzil mübarizə üsullarından istifadə etmişlər. Erməni millətçilərinin məkrli planlarının həyata keçirilməsində başlıca vasitə Mərkəzdə M.Qorbaçovun hakimiyyəti zəbt etməsi oldu. M.Qorbaçov hakimiyyətə gəldiyi ilk günlərdən Azərbaycan-türk xalqlarına qarşı amansız oldu və həmişə də birmənalı şəkildə erməniləri müdafiə etdi. Çağdaş tariximizin diqqətlə araşdırılması bir daha sübut edir ki, bu avantürist adam rəhbərliyə gələn kimi Azərbaycana qarşı düşmən münasibətdə olmuşdu. Əvvəl gizli, sonra isə açıq formada bu siyasət özünü göstərdi. Tarix bunu sübut etdi.

M.Qorbaçovun siyasətini müdafiə edən ermənilər bundan istifadə edərək öz məqsədlərini həyata keçirməyə başladılar. Erməni millətçilərinin başçıları bilirdilər ki, onların həyata keçirmək istədikləri planlarına mane olacaq potensial qüvvə Heydər Əliyevdir. Çünki Heydər Əliyev özünün nəhəng siyasi gücü, nüfuzu və böyük qüvvəsi ilə erməni millətçilərinin fitnəkar siyasətinin qarşısını ala biləcək həlledici amil idi. Bunu nəzərə alan erməni siyasətçilərinin niyyətləri ilə Qorbaçovun qısqanclıq və xəyanətkar mövqeyi üst-üstə düşürdü. Odur ki, hər iki düşmən siyasəti birləşdi və nəticədə 1987-ci ilin oktyabrında Heydər Əliyev tutduğu vəzifələrdən azad edildi. Ermənilərə də elə bu lazım idi. Onlar bundan istifadə edərək dərhal fəallaşdılar. Ermənilərin fəallaşmasında M.Qorbaçovun məsləhətçisi Aqanbekyanın Parisdə "Humanite" qəzetində bəyanat verməsi oldu. O, bəyanatında bildirdi ki, Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılıb Ermənistana verilməsinə dair Moskvanın razılığı vardır. Bu fitnəkar bəyanatdan sonra "Qarabağ", "Krunk", "Miatsum" və başqa erməni-daşnak-millətçi təşkilatların antikonstitusion fəaliyyəti genişləndi və Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün müxtəlif planlar, hiyləgər ssenarilər və digər yollar hazırlanmağa başlandı. Qəribəsi odur ki, milli münaqişələrin közərməyə başladığı belə bir vaxtda - 1988-ci ilin əvvəllərində M.Qorbaçov Silva Kaputikyan başda olmaqla bir qrup millətçi erməniləri qəbul etdi. Bu hadisədən sonra Xankəndidə, Yerevanda antiazərbaycan və antitürk ruhlu mitinqlər qızışmağa başladı.

Mitinqlərdə azərbaycanlıların ünvanına təhqiramiz şüarlar işlədilirdi. 1988-ci ilin əvvəllərində Dağlıq Qarabağın Azərbaycandan ayrılıb Ermənistana verilməsi barədə antikonstitusion tələblər və şüarlar irəli sürüldü və fevralın 20-də belə bir qərar qəbul etdilər. Vilayət soveti bu qərarın SSRİ Ali Soveti tərəfindən qəbul və təsdiq edilməsini xahiş etdi. Həmin vaxtlarda 4 min nəfərdən çox azərbaycanlı öz doğma yurdlarından qovuldu.

Əsgəran, Masis, Qafan, Vedi rayonlarında azərbaycanlılara hücumlar intensiv şəkildə artdı. Günahsız azərbaycanlılar öldürüldü və yaralandı. 1988-ci il fevralın 27-28-də Qafan rayonundan 200 nəfər azərbaycanlı qovuldu.

1988-ci ilin mart-aprelində Vedi, Uluxanlı (Zəngibasar), Masis, Ararat, Qafan, Göyçə rayonlarında azərbaycanlı əhali yaşayan kəndlər talan edildi, onların evləri, malı, mülkü, maşınları yandırıldı, özləri isə təhqiramiz hərəkətlərə məruz qaldılar. Nəticədə qısa müddətdə həmin rayonlardan - 230 min azərbaycanlı əhali zorla qovuldu. Onlardan 214 nəfəri öldürüldü, 1154 nəfər yaralandı. Zorakılıqla qovulan əhali içərisində 15 min nəfəri kürd idi.

Bakıda baş verən bu olaylara rəsmi Moskva göz yumur, M.Qorbaçov ikiüzlü və riyakar bəyanatlar verir, Azərbaycanın o zamankı rəhbərləri isə maymaq və səriştəsiz mövqe nümayiş etdirirdi. Belə bir zamanda Azərbaycan xalqı güclü və kütləvi mitinqlərə başladı. 1988-ci ilin noyabr-dekabr aylarında olan meydan hərəkatı böyük bir qüvvə ilə azadlıq hərəkatına qalxdı. Əslində meydan hərəkatı xalqımızın müstəqillik uğrunda apardığı mübarizəyə gedən güclü və potensial ümumxalq hərəkatı və ümumxalq mübarizəsi idi.

Keçmiş Sovetlər İttifaqının rəhbərliyi riya-kar hərəkət edərək Dağlıq Qarabağ məsələsini "həll etməklə" güclənməkdə olan hərəkatın qarşısını almaq taktikası yeritdi. Əslində 1989-cu il yanvarın 12-də "Azərbaycan SSRİ-in DQMV-nin xüsusi idarəçilik formasının tətbiqi haqqında" SSRİ Ali Sovetinin qəbul etdiyi qərar ermənilərin istəyinə uyğun bir qərar idi. Çünki DQMV-də xüsusi idarəçilik forması tətbiq edildiyi gündən A.Volski vilayətdə yaşayan bütün azərbaycanlı soydaşlarımızın çıxarılmasına nail oldu. Qısa müddətdə 50 min nəfər azərbaycanlı DQMV-dən çıxarıldı. Nəticədə Azərbaycan xalqının tələbi ilə 1989-cu il noyabrın 28-də xüsusi idarə komitəsi ləğv edildi və vilayətin idarəsi Mərkəzin nəzarəti altında olan Azərbaycan SSR Təşkilat Komitəsinə tapşırıldı. Lakin artıq gec idi və vilayətdə azərbaycanlı qalmamışdı.

Bir mühüm, vacib məsələni də qeyd etmək lazımdır ki, 1989-cu ilin ortalarında Özbəkistandan 47 minə qədər Məhsəti türkü qovulmuşdu və onlar Azərbaycana pənah gətirmişdilər. Beləliklə, Azərbaycanda 250 minə qədər qaçqınlar və məcburi köçkünlər ordusu var idi.

1989-cu ilin sonu - 1990-cı ilin yanvarında Azərbaycanda ictimai-siyasi vəziyyət xeyli kəskinləşdi, qarşıdurma dərinləşdi, mövcud iqtidarın hadisələrə nəzarəti son dərəcə zəiflədi və siyasi partlayış şəraiti yarandı. Belə bir xaos vəziyyətdə mərkəzin kəşfiyyat orqanları yanvarın 13-14-də Bakıda süni şəkildə erməni talanı təşkil etdi. Mərkəz tərəfindən bütün təfsilatı Nə düşünülmüş və taktiki baxımdan hərtərəfli hazırlanmış bu məkrli plan hazır ssenari üzrə aparıldı və gözlənilən nəticələri verdi. İttifaq rəhbərlərinə də elə bu lazım idi.

Azərbaycan xalqına dərs vermək, müstəqillik uğrunda aparılan mübarizənin qarşısını almaq və milli-azadlıq hərəkatına zərbə vurmaq üçün, habelə digər müttəfiq respublikalara dərs olsun deyə çürüməkdə olan imperiyanı qorumaq məqsədilə 1990-cı il yanvarın 19-da ermənipərəst Moskva hökuməti "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman qəbul etdi. Lakin bu fərmanın tətbiqi barədə əhaliyə xəbər verilməmişdi. Mərkəz tərəfindən Azərbaycana qarşı aparılan mənəvi, ideoloji və siyasi təcavüz qısa müddət ərzində faciəli sonluqla bitdi. Bakı şəhərində fövqəladə vəziyyət haqqında fərmanı xalq səhər saat 7-də bildi. Fövqəladə vəziyyətin tətbiqi xalqa elan olunanadək saqqallı hərbçilər artıq 82 adamı öldürmüş, 20 nəfəri ölümcül yaralamışdılar. Yanvarın 19-dan 20-nə keçən gecə dinc əhaliyə qarşı misli görünməmiş vəhşiliklər edildi. SSRİ Müdafiə Nazirliyinin, SSRİ DTK-nın və SSRİ DİN-in xüsusi təlim görmüş qoşun hissələri 3 istiqamətdə Bakıya yeridilərək dinc əhaliyə qarşı misli görünməmiş cinayətkarlıq hərəkəti törədilmişdir. 20 Yanvar faciəsinin on beşinci ildönümünün keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı sərəncamda deyildiyi kimi, həmin gün sovet ordusu hissələri heç bir xəbərdarlıq edilmədən Bakı şəhərinə, eləcə də Azərbaycanın bir sıra digər şəhər və rayonlarına yeridilərək... Azərbaycan xalqına vəhşicəsinə divan tutdu. 20 Yanvar faciəsi zamanı rəsmi məlumata görə, 131 adam öldürülmüş, 744 adam yaralanmış, 400 nəfər qanunsuz həbs edilmiş, 4 nəfər itkin düşmüş, külli miqdarda maddi və mənəvi zərər vurulmuşdur. Əməliyyat zamanı vəhşiləşmiş hərbçilər tərəfindən gözə dəyən hər kəs öldürülür, yaşayış evləri və tibb müəssisələri atəşə tutulur, təcili yardım maşınları, yol kənarında dayanan avtomobillər tankların altına

salınıb əzilir, yaralananlar sonradan yerindəcə yenidən vurulub öldürülür, yerlərdə təcili yardım göstərən tibb işçiləri güllələnir di,

Dinc əhali üzərinə vəhşicəsinə hücuma keçən "sovet əsgərləri" ən müasir silahlardan istifadə edir, heç kimə aman vermir, qadınları, uşaqları, yaşlıları amansızcasına güllələyirdilər. Hətta yaralılara köməyə gələn tibb maşınlarını və tibb işçilərini güllə atəşinə tuturdular. Bakıya ilk qoşun dəstəsi Türkan-Qala tərəfdən yanvarın 19-da saat 21 radələrində hücuma başladı. Bakıya yeridilən qoşun dəstələrinin tərkibində, sonralar məlum olduğu kimi, ermənilər də var idi. Həmin saqqallı ermənilər cinayətkar babalarının törətdikləri 1918-ci il vəhşiliklərini təkrar edirdilər. Sonralar məlum oldu ki, cinayətkar ermənilərin Bakıdan çıxarılması barədə Azərbaycan DTK rəhbəri V.Hüseynov mərkəzə müraciət etmişdi. Ancaq artıq gec idi. Artıq həmin ermənilər 1-2 gündə "öz işini" görmüşdülər.

"Bakı əməliyyatına" SSRİ müdafiə naziri D.Yazov şəxsən rəhbərlik edirdi. Dinc əhali üzərinə müxtəlif istiqamətlərdən hücuma keçən əsgərlər ağır hərbi texnikanın köməyi ilə müdafiə xətlərini asanlıqla dağıdır, dörd tərəfə, yaşayış binalarının balkonlarına da güllə yağışı yağdırırdılar. Əsgərlər gözyaşardıcı qazdan, müasir silahlardan istifadə edirdilər. Qaçıb canlarını qurtarmağa çalışan silahsız, əliyalın adamlar tankların tırtılları altına düşürdülər. Hərbçilər tibb müəssisələrini, xəstəxanaları mühasirəyə alaraq yaralıların ora gətirilməsinə kobud şəkildə mane olurdular. Dünya müharibələri tarixində analoqu olmayan dəhşətli olaylar baş verir, qanlı cinayət hərəkətləri törədilirdi. Sovet imperiya dövləti öz xalqına, öz vətəndaşlarına divan tuturdu.

Bakıda fövqəladə vəziyyət tətbiq edilməyinə baxmayaraq, yanvarın 22-də Azərbaycan xalqı şəhidləri ilə vidalaşdı. Paytaxt matəm libası geyinmişdi. Respublikada 3 gün matəm elan olunmuşdu. Azərbaycanın bütün rayonlarında və Bakıda izdihamlı matəm mitinqləri keçirilirdi. Bakıda gedən matəm mərasimində bir milyondan çox insan iştirak edirdi. Bu, Azərbaycan xalqının azadlıq səsi, haqq, ədalət, demokratiya və müstəqillik uğrunda mübarizə səsi idi, Mərkəzin qanlı əməllərinə qarşı etiraz səsi idi. Küçələrdə, AKP MK binası divarlarında "Qorbaçov cəlladdır", "Rədd olsun Sov.İKP!", "İşğalçılar, rədd olub gedin!" şüarları yazılmışdı. Kommunist partiyasının biletləri tonqallarda yandırılır, bu qanlı cinayəti törədənlər lənətlənirdi.

"20 Yanvar faciəsinin keçirilməsi haqqında" respublika Prezidentinin fərmanında deyilir: Həmin gün keçmiş sovet dövlətinin hərb maşınının Azərbaycan xalqına qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi bəşər tarixində qalacaqdır. Öz qanuni konstitusiya hüquqlarının təmin edilməsi tələbi ilə ayağa qalxmış dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin cinayətkar mahiyyətini bütün dünyada bir daha nümayiş etdirdi.

20 Yanvar faciəsi törədilən zaman Azərbaycan xalqı ağır iflic vəziyyətinə və informasiya blokadasına salınmışdı, radio, televiziya susdurulmuş, onun enerji bloku silahlı hərbçilər tərəfindən vəhşicəsinə partladılmış, mətbuatın nəşrinə qadağa qoyulmuşdu. Azərbaycan sanki sakit və ölü bir dənizə bənzəyirdi. Çalxalanan bu dəniz ancaq öz sahillərini yalayırdı, başqa tərəfə yönələ bilmirdi. Xalq ağır və dəhşətli faciədən xəbərsiz idi. Dünya Azərbaycanda baş verən hadisələri izləyə bilmirdi. O zamankı Azərbaycan rəhbəri Ə.Vəzirov satqınlıq yolu tutaraq gizli şəkildə respublikadan qaçmışdı. Vəzifəyə gətirilən A.Mütəllibov isə Moskva himayədarlarının buyurduqlarını müti bir qul kimi icra edirdi. Beləliklə, Azərbaycan xalqı başsız qalmış, informasiya blokadasına düşmüşdü. Azərbaycan xalqının belə ağır vəziyyətində o zaman partiya və dövlət vəzifələrindən çıxarılmış və siyasi səhnədən uzaqlaşdırılmış, Moskvada uzaq bir yerdə yaşayan Heydər Əliyev böyük cəsarət nümayiş etdirərək yanvarın 21-də Azərbaycanın Moskvadakı nümayəndəliyinə gedib mətbuat konfransı keçirdi. Mətbuat konfransında Heydər Əliyev böyük cəsarətlə heç kimdən və heç nədən qorxmayaraq və öz şəxsi həyatını təhlükədə qoyaraq yanvarın 20-də Bakıda təşkil edilən və törədilən qanlı faciənin səbəblərini və təşkilatçılarını obyektiv faktlarla doğru, düzgün və dəqiq açıqladı, bir çox məsələlərə aydınlıq gətirdi, aksiyanı törədənlərin səbəbkarlarının cinayət məsuliyyətinə cəlb edilməsini qətiyyətlə tələb etdi.

Mitinq iştirakçıları qarşısında yüksək cəsarət və qətiyyət nümayiş etdirən Heydər Əliyev qorxmadan imperiya rəhbərlərini "qatillər" adlandırdı və bütün Azərbaycan xalqına baş vermiş faciə ilə əlaqədar başsağlığı verdi. Heydər Əliyevin bu cəsarətli bəyanatı kütləvi informasiya vasitəsilə bütün dünyaya çatdırıldı, blokadaya alınmış Azərbaycanın, qanına qəltan edilmiş xalqımızın, yüzlərlə itki verən millətimizin haqq səsini, fəryadını

sanki "sos" siqnalı vasitəsilə dünyaya çatdıran cəsarətli bir liderin, ürəyi daim Azərbaycanla olan müdrik bir ağsaqqalın, görkəmli ictimai-siyasi və dövlət xadimi olan dahi rəhbərin əsil qəhrəmanlığı və qətiyyəti idi. Heç yerdən köməyi olmayan xalqımız bu Vətən övladının cəsur və yenilməz bəyanatından güc tapdı, ilhama gəldi, imperiyanın qorxu və xofunu qətiyyətlə rədd edərək intensiv şəkildə azadlıq mübarizəsini, müstəqillik uğrunda apardığı mübarizəni qələbəyədək davam və inkişaf etdirdi. Bəli, zamanın o vaxtında, tarixin o mürəkkəb zamanında Heydər Əliyev əsil qəhrəmanlıq, nəsillərə nümunə olacaq igidlik və cəsarət nümayiş etdirmişdir. Heydər Əliyevin Moskvadakı tarixi çıxışının mətni bütün maneələrə baxmayaraq, respublikada və dünyada geniş yayıldı. Çıxışın mətni kasetlərə yazılaraq bütün Azərbaycan xalqının dil əzbərinə çevrildi. Beləliklə, təklənən və heç nəyə əli çatmayan xalqımızın qəlbində bir ümid nuru, ümid çırağı yandı. Xalq Heydər Əliyev kimi bacarıqlı, nüfuzlu bir şəxsiyyətin onunla olduğunu, onu cəsarətlə müdafiə etdiyini gördü və ürəkləndi.

20 Yanvar faciəsinin törədilməsinin çox dərin ictimai-siyasi səbəbləri və kökləri vardır. Zənnimizcə, bu səbəblər və köklər erməni millətçilərinin həyasız torpaq iddiaları və işğalçılıq siyasətinin məntiqi nəticəsi, erməni-rus təbliğatının antiazərbaycan və antimüsəlman mövqeyinin bariz nümunəsidir. Ona görə ki, erməni lobbisinin dəstəyi və köməyi ilə Sovet İttifaqında hakimiyyət piramidasında ən yüksək zirvəni zəbt edən M.S.Qorbaçov qısa zamanda erməni millətçilərini və erməni daşnaklarını öz ətrafına toplayaraq güclü hakimiyyət komandası yaratdı və onların əli ilə məhz müsəlman dünyasına qarşı düşmən obrazı formalaşdırdı. M.Qorbaçovun Azərbaycan xalqına qarşı düşmənçilik mövqeyi və antiazərbaycan siyasəti onun bütün hərəkətlərində - çıxışlarında, təbliğat kampaniyasında, qurultaylarda, konfranslarda, sessiyalarda və başqa tədbirlərdə özünü göstərirdi.

Respublika tarixşünaslığında və Azərbaycanda milli-azadlıq hərəkatı tarixində, habelə müstəqillik uğrunda genişlənən mübarizə tarixində bu problem geniş işıqlandırılmış, maraqlı və diqqəti cəlb edən fikirlər söylənilmişdir. Bu istiqamətdə professor Ramiz Mehdiyevin "Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri" (B.,2000) adlı kitabını xüsusi qeyd etmək lazımdır. Kitabda Ramiz Mehdiyev maraqlı fikir və rəy irəli sürür, göstərir ki, 20 Yanvar faciəsinə gətirib çıxarmış bir çox amillər, o cümlədən dini amil, Qafqaz amili ilə milli amil başlıca səbəb kimi göstərilə bilər. Müəllif hər bir amil və səbəb üzərində ətraflı düşünərək olduqca düzgün və obyektiv təhlillər aparmış və tariximizin bir çox qaranlıq məqamlarına aydınlıq gətirmişdir. Müəllif yazır: Azərbaycana qarşı qərəzli, ədalətsiz münasibətin əsasını uzaq hədəfli coğrafi-siyasi planlar təşkil edir ki, bu planları da SSRİ rəhbərliyi "beynəlmiləl qardaşlıq" yaradılması kimi ideoloji pərdə altında uzun illər həyata keçirmişdir. Əgər Alma-Ata (1986), Tbilisi (1989), Vilnüs (1991) hadisələrinə müraciət etsək, onda hökmən belə bir sual yaranır: nə üçün həmin aksiyalar bu qədər qanlı və genişmiqyaslı olmamışdır? Nə üçün Tbilisi və Vilnüs hadisələri ilə əlaqədar Qorbaçov peşman olduğunu bildirdi, gürcü və Litva xalqlarından üzr istədi, Azərbaycanda baş vermiş hadisələrlə əlaqədar isə bunu etmədi? Beləliklə, Azərbaycanda genişlənməkdə olan azadlıq və demokratik hərəkatı, müstəqillik uğrunda aparılan güclü hərəkata mane olmaq, xüsusilə azərbaycanlılara dərs vermək üçün cəzalandırmaq istədiyini həyata keçirən Qorbaçov belə bir hərəkəti etdi, Bakıya ordu yeridilməsinə, günahsız insanların kütləvi şəkildə öldürülməsinə göstəriş verdi.

Mərkəz tərəfindən təşkil edilən 20 Yanvar faciəsi Azərbaycanda milli azadlıq hərəkatına və demokratik proseslərə ağır zərbə vursa da, ancaq xalqın iradəsini qıra və müstəqillik uğrunda apardığı mübarizəsini dayandıra bilmədi. Əksinə, Qanlı Yanvar faciəsi bütün Azərbaycan xalqının istiqlaliyyət, milli-azadlıq və müstəqillik uğrunda apardığı hərəkata güclü təkan verdi və respublikada siyasi mübarizə yeni tarixi dövrə daxil oldu. 20 Yanvar faciəsi xalqımızın milli qürurunu və iradəsini sarsıda bilmədi. Qəhrəman Azərbaycan övladları şəhidlik zirvəsinə yüksələrək xalqımızın qan yaddaşında əbədiyyətə qovuşdular, şəhidliyi ilə ölməzliyə yüksəldilər. 20 Yanvar faciəsinin on beşinci ildönümünün keçirilməsi haqqında Prezident sərəncamında deyildiyi kimi, Azərbaycanda haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş Vətən övladları Qanlı Yanvarda xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar. Şəhidlik zirvəsinə yüksələn qəhrəman Vətən övladları xalqımızın qan yaddaşına əbədi həkk olundular.

Azərbaycanın müstəqilliyi uğrunda canlarını qurban edən bu cəsur insanlar bu gün hər bir Azərbaycanlı ailəsinin və övladlarının ürəyində əbədi bir heykəl ucaltmışlar. Ən uca məşəli isə ulu öndər Heydər Əliyev Şəhidlər Xiyabanında ucaltmışdır.

20 Yanvar faciəsinin güclü ibrət dərsi oldu. Faciəyə hüquqi-siyasi qiymətin verilməsi, ondan obyektiv nəticə çıxarmaq üçün ümummilli liderimiz, Prezident Heydər Əliyevin tapşırıq və göstərişlərindən sonra mümkün oldu. 20 Yanvar faciəsinin törədilməsi ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin 29 yanvar 1994-cü il tarixli qərarının böyük əhəmiyyəti oldu. Qərarda 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi, günahkarlar aydınlaşdırıldı, tədqiqatçı alimlər qarşısında faciənin tədqiq edilməsi və işıqlandırılması vəzifələri müəyyənləşdirildi.

1990-cı ilin fevral-martında və ondan sonrakı dövrdə də bütün Azərbaycan xalqı ayağa qalxdı, imperiya hökumətinə, onun yeritdiyi ayrı-seçkilik və müstəmləkəçilik siyasətinə qarşı hiddət və nifrətini, qələbə çalana qədər aparacağı mübarizəni bir daha bəyan etdi. Ancaq Qanlı Yanvar faciəsindən sonra rus süngülərinin köməyi ilə hakimiyyətə gələn A.Mütəllibov rejimi Azərbaycanı milli fəlakət həddinə gətirib çıxardı və respublikada demokratik hərəkatın ölkə daxilində dərinə və eninə sürətlə inkişaf etməsinə, habelə ictimai-siyasi qüvvələrin hakimiyyət uğrunda apardığı mübarizənin kəskinləşməsinə səbəb oldu.

Ə.Elçibəy başda olmaqla AXC qüvvələrinin hakimiyyətə gəlməsi ölkə daxilində siyasi sabitliyi təmin edə bilmədi və 90-cı illərin əvvəllərində erməni silahlı qüvvələri tərəfindən sürətlə işğal edilən torpaqlarımız daxildə ciddi kriminogen vəziyyət yaratdı. Belə bir vaxtda bütün ölkə əhalisinin diqqəti ağsaqqal və müdrik rəhbər, böyük ictimai-siyasi və dövlət xadimi, 1969-cu ildən 1982-ci ilə qədər respublikaya rəhbərlik etmiş Heydər Əliyevə yönəldi. Bütün Azərbaycan xalqında belə bir ümid yarandı ki, xalqı bu ağır vəziyyətdən qurtara bilən yeganə şəxsiyyət ancaq Heydər Əliyev ola bilər. Bəli, xalq yanılmamışdı. Sadə adamlardan tutmuş respublikanın tanınmış ziyalılarınadək hamı Heydər Əliyevin rəhbərliyə gəlməsini arzulayırdı. Xalqın səsinə qulaq asan, respublikanın tanınmış ziyalılarının təkidli xahişlərini yerinə yetirən, Azərbaycan prezidenti Ə.Elçibəyin dəfələrlə etdiyi dəvəti qəbul edən müdrik el ağsaqqalı, həmin vaxt Naxçıvan Ali Məclisinin sədri vəzifəsində işləyən Heydər Əliyev 1993-cü il iyunun 9-da Bakıya gəldi, iyunun 15-də Milli Məclisin sədri, oktyabrın 3-də isə ümumxalq səsverməsi yolu ilə Azərbaycan Respublikasının Prezidenti seçildi.

Heydər Əliyev respublika prezidenti seçiləndən sonra 1994-cü ildə 20 Yanvar faciəsinin hərbi təcavüz və cinayət kimi tam hüquqi-siyasi qiyməti verildi. Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasına qayıdışı və rəhbərliyi milli dövlətçilik tariximizin sınaq dövrü və sözün əsil mənasında, dirçəliş dövrü oldu. Heydər Əliyevin Azərbaycana qayıdışı xalqımızı dəfələrlə yaranmış vətəndaş müharibəsi təhlükələrindən xilas etdi, dərin sosial bəlalardan qurtardı, tezliklə müharibə cəbhəsində atəşkəsin əldə edilməsinə, respublika daxilində sabitliyin bərpa edilməsinə, müstəqil Azərbaycanın beynəlxalq əlaqələrinin genişlənməsinə nail olundu. Azərbaycan torpağının hər bir guşəsinə müqəddəs yer kimi baxan, onun bütövlüyü və müstəqilliyinin qorunması uğrunda yorulmadan mübarizə aparan Heydər Əliyev çıxışlarında dəfələrlə demişdir ki, Azərbaycanın müstəqilliyi əbədidir və Azərbaycan Respublikası müstəqil dövlət kimi daim yaşayacaqdır. Bəli, candan əziz olan istiqlalımızı qorumaq, milli dövlətçiliyimizi möhkəmləndirmək, Azərbaycanın sülhsevər siyasətini dünyaya çatdırmaq üçün biz hələ çox iş görməliyik.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2006-cı ilin martında dünya azərbaycanlılarının ikinci qurultayında demişdir: "... müstəqillik yalnız dövlət atributları ilə ölçülmür....., müstəqillik o deməkdir ki, dövlət və ölkənin rəhbərliyi öz xalqının maraqlarına tam cavab verən müstəqil siyasət aparmaq iqtidarında olsun".

Bu gün Azərbaycan xalqı azadlıq uğrunda canlarını qurban edən şəhidlərimizin və cəsur Vətən övladlarının qəhrəmanlıq mübarizəsini çox böyük hörmət və ehtiramla əziz tutur, onların igidliyini yüksək qiymətləndirir. Şəhidlərimizin qanı bahasına qazanılan müstəqilliyimizi qanımızla və canımızla qorumalı, ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi, onu daimi, əbədi və dönməz etməliyik. Bu yaxınlarda respublika Prezidenti cənab İlham Əliyevin dünya azərbaycanlılarına müraciətində dediyi kimi, xalqımız məkrli erməni təbliğatına qarşı müntəzəm surətdə önləyici hücum tədbirlərinin təşkilində təsirli addımlar atmalı, aparıcı ölkələrdə güclü

Azərbaycan lobbisinin formalaşdırılmasında həlledici işlər görməlidir. Bu istiqamətdə qarşıda hələ görüləcək çox işlərimiz vardır.

**Nuru Məmmədov,**
**professor**

**"Respublika".** - 2007. – 20 yanvar. - N 12. - S. 1, 4.

## Faciələrimiz rəhbərsizlikdən törəyib

**Ey Vətən oğlu, Vətən övladı,**
**Sil gözün yaşını,**
**Qan Haçan yerdə qalıb?**
**Təzələ üz yaddaşını.**

***QABİL***

**Azərbaycan qədim tarixə, zəngin mədəniyyətə, tükənməz yeraltı və yerüstü təbii sərvətlərə malik olan bir məmləkətdir. Bu ərazidə yaşayan əsas xalq və millət olan azərbaycanlıların ata-babaları milyon illərdən bəri buralarda yaşamış, ibtidai insanın yarandığı gündən bu günə qədər öz doğma torpaqlarını yadelli hücumlarından qorumuş, vətənin hər qarış torpağı uğrunda mərdliklə vuruşmuşdur. Onun dağlarının rəngində, torpaqlarının ətrində, meyvələrinin dadında, gül və çiçəklərinin qoxusunda bu torpaqlar uğrunda vuruşmuş və həlak olmuş milyonlarla oğul və qızlarımızın, ata və analarımızın, baba və nənələri-mizin qanının əlamətləri aydın hiss olunur.** Əsrlər boyu əlverişli coğrafi-strateji mövqeyinə, yəni Avropa və Asiyanın kəsişdiyi yerdə körpü rolunu oynadığına görə Şərqdən Qərbə, Qərbdən Şərqə, Şimaldan Cənuba, Cənubdan Şimala hərəkət edən bütün fatehlər, sərkərdələr məhz Azərbaycan ərazisindən keçib getmişlər. Azərbaycan xalqı son üç min illik tarixinin təqribən 2 min ilini müstəmləkə altında yaşamış, yalnız min ilə qədərini azad, müstəqil dövlət olmuşdur. O, öz tarixində heç bir xarici dövlətə hücum etməmiş, həmişə regionda barışa, sülhə tərəfdar olan bir xalq kimi öz çörəyini qonşularla bölməyə hazır olmuşdur. 1501-ci ildə - Şah İsmayıl Xətainin hakimiyyəti dövründə Azərbaycan dövləti olan, Səfəvilər 1 milyon 200 min kv.km ərazini əhatə etmiş və dünyada ən böyük imperiyalardan biri olmuşdur. Həmin vaxt Azərbaycan xalqının dili, mədəniyyəti, sosial-iqtisadi və mənəvi-psixoloji həyatı tam formalaşmış, dünya xalqları içərisində özünəlayiq yer tutmuşdur.

**Azərbaycan xalqı dünya mədəniyyətinə nadir sənətkarlar - Nizami Gəncəvi və Məhəmməd Füzuli kimi şairlər, Əcəmi Naxçıvani kimi memarlar, Üzeyir Hacıbəyov, Qara Qarayev, Fikrət Əmirov kimi bəstəkarlar, Nəsrəddin Tusi, Yusif Məmmədəliyev kimi alimlər, Babək, Koroğlu, Səttarxan, Qaçaq Nəbi kimi qəhrəmanlar, Məmmədəmin Rəsulzadə, Nəriman Nərimanov, Şeyx Məhəmməd Xiyabani, Seyidcəfər Pişəvəri, Heydər Əliyev kimi siyasətçilər bəxş etmişdir.** Tarix boyu Azərbaycan xalqı heç zaman başqa dövlətlərin və xalqların torpaqlarına göz dikməmiş, nahaq qanlar tökməmiş, tarixdə sülhsevər xalq imici qazanmışdır. Amma buna rəğmən əsrlər boyu daim Azərbaycanın zəngin təbii sərvətləri, əlverişli coğrafi mövqeyi dünya dövlətlərini maraqlandırmış, qəsbkarların bu torpaqlara basqın etməsinə səbəb olmuşdur. Bu səbəbdən də Azərbaycan xalqı zaman-zaman bir çox soyqırımlar, faciələrlə üzləşmiş, deportasiyaya məruz qalmışdır. Tarix boyu Azərbaycan dövləti dəfələrlə parçalanmaya məruz qalmış, dağıdılmış, onun tarixi, maddi və mənəvi abidələri, mədəniyyət xəzinəsi oğurlanmış və talan edilərək xarici dövlətlərə daşınıb aparılmışdır. Torpaqlarımızı bölən, onu qarış-qarış alaraq Azərbaycanı kiçiltməyə çalışan xarici dövlətlər eyni zamanda Dədə Qorqud, Nizami Gəncəvi, Məhəmməd Füzuli, Nəsimi və başqa tarixi şəxsiyyətlərimizin bu xalqa mənsub olmadığı haqda fikirlər yaymışlar. Onlar Azərbaycan xalqının kiçik, azsaylı olması, bu xalqın içərisindən güclü

dövlət xadimi, məşhur alim, şair çıxa bilməməsi, ancaq bazarlarda ticarət edən, dağlarda qoyun-quzu, mal-qara saxlayan, əkinçiliklə məşğul olan bir xalq olması təsəvvürü yaratmağa da cəhd etmişlər. **Bu təsəvvürlər XX əsrin II yarısında müdrik dövlət xadimi, XX əsrin ən böyük siyasətçilərindən biri olan Heydər Əlirza oğlu Əliyevin dövlət işinə və siyasətə başlaması ilə növbəti dəfə alt-üst oldu. Dünya xalqları bir daha anladılar ki, Azərbaycan xalqı təkcə dahi sənətkarlar, musiqiçilər, rəssamlar, bəstəkarlar, alimlər yetirən bir xalq deyil, o həm də XX əsr dünya siyasətçiləri ilə bir cərgədə dura biləcək Heydər Əliyev kimi dahi şəxsiyyəti yetirən xalqdır.** Bu xalqı tarix boyu nə qədər əzmək, tarixin səhnəsindən silmək, yox etmək istəmişlərsə də, son anda Heydər Əliyev kimi şəxsiyyətlər meydana çıxaraq onu məhv olmaqdan xilas etmiş, onun yaşamaq, var olmaq, dünya dövlətləri və millətləri cərgəsində əbədi dayanmaq hüququnu özünə qaytarmışlar.

**Dünyada bir böyük millətlər var, bir də kiçik. Həmin millətlərin nümayəndələri olan Çörçil, Ruzvelt, Şarl de Qoll, Mao Tze Dun, Ayatullah Xomeyni, Atatürk, Süleyman Dəmirəl, Lenin, Stalin və başqa tarixi şəxsiyyətlər sırasında bu gün möhtəşəm yer tutan Heydər Əliyev də Azərbaycan xalqının XX əsrdə dünya siyasətinə, bəşəriyyətə bəxş etdiyi dühalardan biridir.** Tanrı XX əsrdə Azərbaycan xalqına qarşı sistemli şəkildə törədilən genosid və soyqırım siyasəti yeridən xarici dövlətlərin cavabını" vermək uçun onu xilaskar kimi xalqımıza bəxş etmişdir.

Məlum olduğu kimi, XX əsrin sonlarında, SSRİ dağılan ərəfədə Azərbaycan xalqına qarşı törədilən növbəti deportasiya və soyqırımı siyasətinin, digər çoxlu faciələrin bünövrəsi Rusiya imperiyasının Qafqazı istila etməyə başladığı I Pyotrun dövründə qoyulmuşdur. Elə həmin dövrdən başlayaraq ermənilərin Qafqazda yerləşdirilməsi planı cızıldı və çar Rusiyasının imperialist siyasətinin icraçısı kimi onlardan istifadə olunmasına başlandı. 1768-ci ildə II Yekaterina imperiyanın ermənilərə məxsusi hamiliyi barədə fərman verdi. Bu siyasət növbəti rus çarları tərəfindən də davam etdirildi. 1802-ci ildə çar II Aleksandr tərəfindən ermənilərin müdafiə olunması barədə xüsusi göstəriş verildi. Həmin siyasətin kulminasiya nöqtəsi kimi rus imperatoru I Nikolay 1828-ci il martın 21-də İrəvan və Naxçıvan xanlıqları ərazisində "Erməni vilayəti"nin təşkili barədə fərman imzaladı.

**Rusiyanın XIX əsrdə Zaqafqaziyanı işğal etməsi nəticəsində "Gülüstan" (1812-ci il 13 fevral) və "Türkmənçay" (1828-ci il oktyabr) sülh müqavilələri ilə Azərbaycan növbəti dəfə İranla Rusiya arasında bölüşdürüldü. Azərbaycanın bir neçə xanlığı (Bakı, Şamaxı, Quba, Qarabağ, Gəncə, Naxçıvan, Şəki və s.) Rusiya imperiyası tərə-findən işğal olundu, süni şəkildə ermənilərin Türkiyə və İrandan Azərbaycan torpaq-larına köçürülməsi prosesi başlandı.** 1828-1898-ci illərdə İrandan və Türkiyədən Azərbaycana 1 milyon 200 min erməni köçürüldü. Onlardan 1 milyona yaxını ölkəmizin qərb bölgələrində, qalanları isə Qarabağ, Gəncə, Naxçıvan, Şəki, Şamaxı və s. qəzalarda yerləşdirildi. "Türkmənçay" müqaviləsinin 15-ci maddəsinə əsasən, İrandan köçürülən 40 min erməni İrəvan, Qarabağ və Naxçıvanda məskunlaşdı.

**Əsasən İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərinə köçürülən erməniləri yerli Azərbaycan xalqı duz-çörəklə, qonaqpərvərliklə qarşıladı. Lakin ermənilər həmin ərazilərdə məskunlaşandan sonra azərbaycanlıları öz doğma ata-baba yurdlarından sıxışdırıb çıxarmağa, onların ev-eşiklərini, bağlarını ələ keçirməyə başladılar. Onlar elə siyasət yeridirdilər ki, sadəcə azərbaycanlılar məcburiyyət qarşısında qalıb tədricən doğma el-obalarından baş götürüb getsinlər.**

Bundan başqa XIX əsrdə. baş verən Rusiya-Türkiyə müharibələrinin (1829, 1878) yekununda Türkiyə ərazisindən təxminən 85 min erməni köçürülərək İrəvan, Qarabağ və Naxçıvanda yerləşdirildi. 1915-ci ildə Türkiyədən köçən ermənilər kütləvi şəkildə İrəvan quberniyasına yerləşdirildi ki, bu da demoqrafik situasiyanı dəyişdi. Bununla belə 1916-cı ildə İrəvan əhalisinin təxminən 45 faizi, yəni 247 min nəfəri azərbaycanlılardan ibarət idi.

Çar Rusiyası tərəfindən rəsmi olaraq dəstəklənən bu siyasət ermənilərin daha da azğınlaşmasına, azərbaycanlıların XX əsrin əvvəllərində kütləvi şəkildə doğma torpaqlarından qovulmasına, onlara qarşı genosid və soyqırımı siyasəti yeridilməsinə gətirib çıxardı. Bu siyasətə XIX əsrin sonlarında yaradılmış erməni terror təşkilatları və siyasi partiyaları tərəfindən rəhbərlik edilirdi. **Belə təşkilatlardan 1885-ci ildə yaradılmış "Armenakan", 1887-ci ildə Cenevrədə yaradılmış "Qnçak", 1890-cı ildə yaradılmış "Daşnaksütyun"**

**partiyasını və 1895-ci ildə Nyu-Yorkda yaradılmış Erməni Vətənpərvərləri İttifaqını göstərmək olar. "Qnçak" təşkilatının ideoloqu, Türkiyə parlamentinin deputatı Stepan Ter-Danielyan idi. "Böyük Ermənistan" yaradılması ideyası ilə 1890-cı ildə Tiflisdə yaradılmış "Daşnaksütyun" partiyasının ideoloqu Mkrtıç Portakalyan erməniləri Türkiyə və Rusiya hökumətləri ilə mübarizə apararaq "Böyük Ermənistan" yaratmağa çağırırdı. O, 1921-ci ildə "Daşnaksütyun" partiyasının gəlirlərini gizlətdiyinə görə qətlə yetirildi.**

1909-cu ildə "Daşnaksütyun" partiyasının filialları artıq Paris, Cenevrə və Qahirədə fəaliyyət göstərirdi. Bəşəriyyətə zidd erməni məqsədlərini həyata keçirmək üçün fədai-kamikadze qruplarının yaradılmasına çağıran vərəqə və bəyannamələr məhz bu şəhərlərdə çap olunur və İstanbulda yayılırdı.

**"Daşnaksütyun" partiyasının rəhbərliyi ilə ermənilər 1905-ci ildən 1918-ci ilə qədər Türkiyədə və indi Ermənistan adlanan ərazilərdəki tarixi torpaqlarımız olan Zəngəzurda (Sisyan), Zəngibasarda (Masis), Ağbabada və başqa ərazilərdə, həmçinin Bakı, Naxçıvan, Gəncə, Şamaxı, Quba və başqa bölgələrdə azərbaycanlılara qarşı genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər**. 1906-cı il yanvarın 1-də Andranikin daşnak silahlı birləşmələri Qarabağın Papravənd kəndini bütövlükdə yandırdılar. Həmin il iyulun 12-də Azərbaycana yaxın erməni kəndlərindən toplanmış 10 min nəfərlik erməni dəstələri Şuşaya hücum etdilər. Bu qırğınlarda iştirak etmək istəməyən ermənilər "Daşnaksütyun" təşkilatının hökmü ilə güllələnirdi.

1905-1917-ci illərdə Qərbi Azərbaycan torpaqlarından azərbaycanlıların ilk kütləvi deportasiyası başlandı.

Rusiyada 1917-ci ilin oktyabr inqilabından sonra erməni daşnakları öz çirkin məqsədlərini bolşevik bayrağı altında gerçəkləşdirməyə başladılar.

1917-ci il dekabrın 16-da Rusiya Xalq Komissarları Sovetinin sədri V.İ.Lenin Stepan Şaumyanı Qafqaz işləri üzrə fövqəladə komissar təyin edir. Onun Gürcüstanda - Tiflisdə fəaliyyətinə imkan verilmədiyinə görə, o, gizli yolla Bakıya gəlir. Həmin vaxt 1918-ci ilin martında imzalanmış Brest-Litovsk sülh müqaviləsi nəticəsində çar Rusiyasının qoşunları işğal etdikləri Qars, Ərdəhan və Batumini tərk etmiş və Azərbaycan ərazilərində, o cümlədən Bakıda yerləşdirilmişdi. **Bakı kommunasının rəhbəri, erməniəsilli bolşevik S.Şaumyanın rəhbərliyi ilə Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədilə həmin rus ordu birləşmələri erməni-daşnak silahlı dəstələri ilə birləşərək Bakıda milli qırğın törətdilər. Öz doğma şəhərini müdafiə edən yerli əhaliyə "əksinqilabçı ünsürlər" damğası vuraraq qırdılar, evlərə, məscidlərə od vurub yandırdılar, milli memarlıq abidələrimizi talan edib dağıtdılar.** Martın 30-da səhər tezdən gəmilərdən Bakı şəhərinə açılan yaylım atəşilə başlanan qırğınlar üç gün davam etdi və 17 min azərbaycanlı qətlə yetirildi. Daşnak-boişevik qüvvələri Təzəpir məscidini topa tutmuş, İsmailliyə binasını yandırmış, günahsız körpələri, qoca və qadınları qətlə yetirmişdilər. Bakı Sovetinin sədri bolşevik Şaumyan V.İ.Lenini aldadaraq törədilən qırğının səbəbini ona 13 aprel 1918-ci il tarixdə göndərdiyi məktubda belə yazırdı: "Bizim süvari dəstəyə edilən silahlı hücumdan biz bir bəhanə kimi istifadə etdik və bütün cəbhə boyu hücuma keçdik. Biz artıq 6 min nəfərlik silahlı qüvvəyə malik idik. Daşnakların da 3-4 min nəfərlik silahlı milli hissələri var idi ki, o da bizim sərəncamımızda idi. Məhz onların iştirakı vətəndaş müharibəsinə milli qırğın xarakteri verdi. Lakin onun qarşısını almaq mümkün olmadı. Biz bu işə şüurlu surətdə getdik. Əgər azərbaycanlılar üstün gəlsəydilər, onda Bakı azərbaycanlıların paytaxtı elan edilə bilərdi". V.İ.Lenin onun yazdığı sözlərə inanaraq 14 may 1918-ci il tarixli cavab məktubunda "Biz sizin möhkəm və qəti siyasətinizə heyranıq. Əgər onu hazırkı ağır vəziyyətə uyğun ehtiyatlı diplomatiya ilə birləşdirə bilsəniz, biz qalib gələcəyik", - yazmışdı.

**1918-ci ilin mart-aprel ay-larında, S.Şaumyanın Bakı Sovetinə rəhbərlik etdiyi qısa zamanda ermənilər Bakıda, Şamaxıda, Qubada, Muğanda, Lənkəranda 50 mindən artıq azərbaycanlını qətlə yetirmişdilər. Onlar Bakını tamamilə, Şamaxı qəzasında 111, Quba qəzasında 284, Qarabağın dağlıq hissəsində 150, Zəngəzurda 125, İrəvan quberniyasında 211, Türkiyənin Qars vilayətində 92 kəndi od vurub yandırmışdılar. Bütövlükdə İrəvan quberniyasında 132 min azərbaycanlını məhv etmişdilər.**

1918-ci ilin mart ayında təkcə Bakı şəhərində Stepan Şaumyanın köməyi ilə 3 gün ərzində 30 min azərbaycanlı qətlə yetirildi.

**Ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımından danışarkən bəzi siyasi nəticələrə gəlmək olar. Birinci əsas nəticə odur ki, ermənilər daim "Güclünü ələ al, zəifi əz" prinsipi ilə hərəkət etmiş, həmişə tarixin dolaşıq, qarmaqarışıq dövrlərində fəallaşmış, illərlə cızdıqları planları işə salmış və məqsədlərinə müvəffəq olmuşlar.** Dünyada roma, yunan, ərəb, sasani, Bizans imperiyaları ağalıq edəndə ermənilər həmişə qonşu xalqları əzməkdə onlara yardımçı olmuşlar. O vaxtlar ki Osmanlı imperiyası dünyaya ağalıq edirdi, Səfəvilər dövləti adlanan Azərbaycan dövləti də qüdrətli idi, ermənilər heç bir şey edə bilmirdilər. Elə ki, Osmanlı imperiyası zəiflədi, çar Rusiyası ilə Osmanlı imperiyası arasında Balkanlar, Qafqaz və Orta Asiya uğrunda müharibələr genişləndi, ermənilər əlaltdan yaşadıqları dövlətin qanunlarını pozaraq, yüz illərlə yedikləri çörəyi tapdalayaraq çar Rusiyasının Qafqazda möhkəmlənmək planlarına kömək etməyə başladılar. Daha doğrusu, xəyanət və satqınlıq yolu tutdular. Və nəticədə əvvəlcə Yerevan quberniyası, daha sonra Ermənistan Respublikası yaratmağa müvəffəq oldular.

**İkinci məqam ondan ibarətdir ki, ermənilər bütün yerlərdə eyni amansızlıqla, müharibə qanunlarını və beynəlxalq hüquq normalarını pozaraq, XÜSUSİ qəddarlıq və vəhşiliklə müsəlman əhalisi olan türkləri, azərbaycanlıları, kürdləri və digər millətləri qırmışlar. Məqsəd isə əhalinin gözünü qorxudub kütləvi şəkildə öz ata-baba yerlərindən çıxarıb qovmaqdan və özgə torpaqları hesabına özlərinə dövlət qurmaqdan, ərazi ələ keçirməkdən, onların yaşa-maq üçün əlverişli olan ərazilərində məskunlaşmaqdan ibarət idi.**

Üçüncü məqam isə ondan ibarətdir ki, ələ keçirdikləri yerlərdə bütün mədəni-tarixi abidələri dağıtmış, tarixi izləri silmiş və ya yox etmiş, coğrafi ərazilərin adlarını dəyişdirmiş, tarixi faktları saxtalaşdırmış, dünya ictimaiyyətini aldatmağa və ya çaşdırmağa cəhd etmiş, çoxlu dezinformasiya yaymış, uydurma "erməni genosidi" terminini dünya mətbuatının gündəliyinə çıxara bilmişlər. Bununla da onlar diqqəti özlərinin bütün türk-müsəlman dünyasına qarşı törətdikləri cinayətlərdən yayındırmağa nail olmuş, üst-üstə bir milyondan artıq türk-azərbaycanlı əhalisini qırmaqla, bir milyondan çoxunu isə öz dədə-baba yurdlarından didərgin salmaqla bəşəriyyətə qarşı törətdikləri cinayətlərin izini itirməyə cəhd etmişlər.

**Ermənilər 24 aprel 1915-ci ildə baş vermiş hadisələrə istinad edərək həmin tarixin "erməni genosidi" günü kimi dünya dövlətləri tərəfindən tanınması üçün indi dəridən-qabıqdan çıxırlar**. Artıq məlumdur ki, əksinə, ermənilər Türkiyədə 1915-ci ilə qədər 30 il müddətində ardıcıl olaraq saysız-hesabsız terror və qətllər törətmiş, nəticədə Osmanlı imperiyasında "şübhəli millətə" çevrilmişlər. Birinci Dünya müharibəsi illərində öz sərhədlərinin təhlükəsizliyini təmin etmək üçün Türkiyə hökumətinin onları sərhədyanı bölgələrdən digər yerlərə köçürmək məqsədi ilə atdığı addımlara cavab olaraq erməni-daşnak silahlı dəstələri 1915-ci ilin 24 aprelində Türkiyənin Van şəhərində kütləvi qarətlər və qətllər törətmiş, 6 may 1915-ci ildə bu hərəkətləri genişləndirərək 3 min dinc sakini öldürmüş, ətraf kəndləri yandırmış, 14-16 may 1915-ci ildə yenə də orada yaşayan müsəlman əhalisini kütləvi şəkildə qırmış, daha sonra Türkiyənin Bitlis şəhərində 123 nəfəri vəhşicəsinə öldürmüş, Ərzurum, Qars, Xorasan və başqa şəhərlərdə də xeyli sayda insanı qırmış, kəndlərə, şəhərlərə, qəsəbələrə od vurub yandırmış, onları təqib edən hökumət qoşunlarından qaçaraq Araz çayını keçib Naxçıvana hücum etmişlər.

**Naxçıvanda da onlar Sədərək, Şərur, Ordubad və Şahbuz rayonları ərazilərindən Naxçıvan şəhərinə doğru irəliləmiş, indiki Sədərək rayonunun Sədərək kəndini, Şərur rayonunun bir neçə kəndini zəbt edərək od vurub yandırmış, minlərlə adamı amansızcasına öldürmüşlər. Culfa rayonunun Yayçı kəndinin əhalisini xüsusi qəddarlıqla qətlə yetirmiş, 2500 sakini öldürmüşlər.**

Qədim Naxçıvan torpağında qəddar və qaniçən Andranik Ozanyanın Türkiyədən özü ilə gətirdiyi və Naxçıvanda yaşayan ermənilər hesabına genişləndirdiyi erməni cəza dəstələri demək olar ki, bütün kəndlərə od vurub yandırmış, əhalini xüsusi amansızlıqla qırmışlar. Həmin vaxtlar Naxçıvan əhalisinin inadını qıraraq onu zorla Ermənistan quberniyasına tabe etmək üçün dəridən-qabıqdan çıxan ermənilər məqsədlərinə nail ola bilməmişlər.

**Lakin maraqlı fakt bundan ibarətdir ki, ermənilər həmin vaxt çar hökumətinin tam dəstəyi ilə hərəkət etmiş, Qafqazda olan bütün silah və sursat tam şəkildə onların ixtiyarına verilmişdir. 1918-ci ilin**

**yayında Naxçıvana gələn ingilis-Amerika hərbi birləşmələri də əslində çar Rusiyası ilə müharibə apardığı halda, Qafqazda erməni daşnakları ilə gizli sövdələşməyə girmiş, Naxçıvanı zorla ermənilərə vermək istəmiş, erməni daşnakı Varsanyanı Naxçıvana qubernator təyin etmişlər**. Həmin vaxt Azərbaycandan və Türkiyədən tam ayrı düşmüş Naxçıvan əhalisi qəhrəmancasına öz torpaqlarının müdafiəsinə başlamış, Araz-Türk Respublikası elan edilmiş, Kalbalı xanın başçılığı altında üsyana qalxan xalq həm ingilis-amerikan qoşunlarına, həm də erməni-daşnak silahlı quldurlarına ciddi müqavimət göstərmiş, öz torpaqlarına sahib çıxaraq "Biz tikə-tikə doğranıb, alovlar içərisində yanıb kül olsaq belə, öz ata-baba torpağımız Naxçıvanı Azərbaycandan ayrılmağa qoymarıq", - demişdir.

O zaman ermənilər Azərbaycanın digər bölgələrində, o cümlədən 1918-ci il martın 26-31-də Bakıda 30 min adamı amansızcasına qətlə yetirmiş, məscid və digər tarixi abidələrə od vurub yandırmışlar.

**Şamaxı da** 1918-ci il martın 18-də top atəşinə tutulub. Cavanşir qəzasında 200-dən artıq yaşayış məntəqəsi yandırılıb, 2 mindən artıq adam qətlə yetirilib.

**Quba qəzasında** 1918-ci il mayın 1-də qaniçən Amazaspın dəstələri tərəfindən qan su yerinə axıdılıb. Həmin dəstə Qubaya Stepan Şaumyanın tapşırığı ilə göndərilmişdi.

**Qubadlıda** 4 milyon nəğd pul, qızıl, əmlak zəbt edilmiş, 105 ev yandırılmış, 122 kənd dağıdılmışdı.

**Qarabağın Xələfli, Şıxlar, Əfəndilər, Sirik, Nüsüs, Məlikli kəndlərində və Cəbrayıl qəzasında qırğınlar törədən ermənilər 1918-ci ilin dekabrında 1500 nəfəri amansızlıqla qətlə yetirmişdilər. Zərqər kəndində çobanlıq edən Məşədi Məmiş kişinin kürəyinə qaynar samovar bağlayan ermənilər onun necə zillət çəkməsinə tamaşa edib həzz alırmışlar. 22 yaşlı Gültəkin adlı gəlin düşmənin əlinə keçməsin deyə qucağında körpəsi ilə özünü Diri dağdan Araz çayına atmışdı.**

1918-ci ilin yaz və payız fəsillərində Zəngəzurun 115 kəndində 3257 kişi, 2276 qadın, 2196 uşaq öldürülmüş, 1068 kişi, 794 qadın, 485 uşaq yaralanmışdı. O vaxt 15 iyul və 31 avqust 1918-ci il tarixli qərarlara əsasən, Azərbaycan Demokratik Respublikası tərəfindən Ələkbər bəy Xasməmmədovun sədrliyi ilə fövqəladə istintaq komissiyası təşkil edilmiş, lakin bu araşdırma 1920-ci il fevralın 2-də Sovet Rusiyası hökumətinin verdiyi amnistiya haqqında qanuna əsasən dayandırılmış, sənədlər arxivə verilmişdi.

**1917-ci il oktyabrın 25-də (noyabrın 7-də) V.İ.Lenin baş-da olmaqla bolşeviklərin Rusiyada hakimiyyətə gəlişi və 1922-ci il dekabrın 22-də SSRİ-nin qurulması ilə milli münaqişələrə bir müddət son qoyuldu və milli problemlər qismən həll edildi. O cümlədən erməni millətçilərinin azərbaycanlılara qarşı törətdikləri hərəkətlərin qarşısı qismən alındı.** Lakin "Daşnaksütyun" partiyasının ideyalarını daşıya-daşıya Sovet rəhbərliyinə qalxmış Anastas Mikoyan və başqa erməni millətçilərinin tövsiyəsi ilə Sovet dövlətinin rəhbəri İ.V.Stalin SSRİ Nazirlər Sovetinin sədri kimi 1947-ci il 23 dekabr tarixli "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 30 mart tarixli "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" qərarlarına imza atdı. Bu qərarların nəticəsində 150 mindən artıq azərbaycanlı qədim Azərbaycan torpaqlarından deportasiya edildi və Azərbaycan SSR-in Ağcabədi, Bərdə, Beyləqan, İmişli, Saatlı, Sabirabad və digər aran rayonlarına köçürüldü.

Üçüncü deportasiya və soyqırımı isə 1988-ci ildə ilk və sonuncu SSRİ prezidenti M.S.Qorbaçovun rəhbərliyi və birbaşa xeyir-duası ilə başlandı. SSRİ dağılarkən M.S.Qorbaçov başda olmaqla sovet rəhbərliyinin bəzi nümayəndələrinin dəstəyi ilə ermənilər sözün həqiqi mənasında Azərbaycan xalqının başına növbəti faciələr gətirdilər.

**Qısaca olaraq o hadisələri xatırlasaq görərik ki. XX əsrin sonunda SSRİ dağılma ərəfəsində olarkən ermənilər Azərbaycan xalqına qarşı dövlət səviyyəsində dəstəklənən terror və soyqırımı siyasəti aparmışlar:**

- 1988-ci ilin əvvəllərindən başlayaraq həmin ilin sonuna qədər Ermənistan Respublikasından azərbaycanlıları məcburi şəkildə qovmağa başladılar;

- 1988-ci il fevralın 13-də saat 10:00-da Xankəndində ilk mitinqlər başlandı. Həmin vaxt respublika rəhbərliyindən Azərbaycan KP MK-nın I katibi Kamran Bağırov, MK katibləri Ramiz Mehdiyev və Telman

Orucov oraya getmişdilər. Hadisələr yenicə başlayırdı, Moskvanın havadarlığına baxmayaraq, ermənilər hələ tamamilə ayağa qalxmamışdılar. Əgər vaxtında qətiyyətli addım atılsaydı, fəlakətə aparan hadisələrin qarşısını almaq olardı.

Təəssüflər olsun ki, MK-nın ideoloji məsələlər üzrə katibi Ramiz Mehdiyevin **"qətiyyətli addımlar atmağın vaxtıdır, yubanmaq olmaz", -** təklifi Azərbaycan KP MK-nın I katibi Kamran Bağırov və kənd təsərrüfatı məsələləri üzrə katib Telman Orucov tərəfindən qulaqardına vuruldu. Kamran Bağırov Moskva ilə məsləhətləşib sadəcə olaraq hadisələri müşahidə mövqeyi tutdu. Elə həmin vaxt Dağlıq Qarabağın həm azərbaycanlı, həm də erməni əhalisi deyirdi ki, Heydər Əliyev kimi qətiyyətli rəhbərin yeri görünür. Əgər Heydər Əliyev hakimiyyətdə olsaydı, bu namərdlər cəsarət edib belə fikrə düşə bilməzdilər;

- 1988-ci il fevralın 20-də DQMV XDS-nin növbədənkənar sessiyasında Dağlıq Qaraağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılması haqqında qərar qəbul edildi. Həmin qərara etiraz əlaməti olaraq fevralın 22-23-də Ağdam rayon əhalisi ayağa qalxaraq Xankandinə yürüş etdi. Toqquşma zamanı iki nəfər azərbaycanlı şəhid oldu buna baxmayaraq, Azərbaycanın iş başında olan qorxaq rəhbərliyinin əli ilə yürüş dayandırıldı;

- 1988-ci ilin fevralında Əsgəranda iki azərbaycanlı qətlə yetirildi;

- Ermənistan SSR-də Azərbaycan kəndlərinin yandırılmasına və azərbaycanlıların kütləvi şəkildə ata-baba torpaqlarından çıxarılmasına başlanıldı. Hazırda DİN ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Sadiq Gözəlov (həmin vaxt AzTV-nin Naxçıvan MR üzrə xüsusi müxbiri işləyirdi) Naxçıvana Ermənistandan gələn ilk qaçqınlarla görüşür, onların danışdıqlarını videolentə alaraq Bakıya göndərirdi. Onun söylədiyinə görə, Ermənistanda azərbaycanlıların yaşadığı yandırılmış ilk kənd Şirazlı olmuşdu. Həmin vaxt Naxçıvan MR daxili işlər naziri işləyən, hazırda Respublika daxili işlər naziri, general-polkovniki Ramil Usubov çəkiliş qrupuna həmin kəndə gedərək orada baş verənləri lentə almağı təklif etmiş və bu təklif S.Gözəlov tərəfindən müsbət qarşılanmışdı. Müxbir Sadiq Gözəlov və operator Ənvər Rəhimov gizli yolla Ermənistan SSR ərazisinə keçmiş, həyatları ilə risk edərək ilk dəfə ermənilərin törətdikləri vəhşilikləri lentə almış və Bakıya, AzTV-yə göndərmişdilər. Lakin o vaxtkı Azərbaycan rəhbərliyi bu siqnallara heç bir reaksiya vermir, əksinə jurnalistlərə "panika"ya uymamağı, səs-küy salmamağı, susmağı məsləhət görürdü;

- SSRİ-nin mərkəzi hakimiyyətinin başçısı M.S.Qorbaçov ermənilərin Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafının geridə qalması barədə uydurduqları yalanı müdafiə edərək İttifaq büdcəsindən oraya 400 min rubl vəsait ayırdı. (Hazırda isə ABŞ Konqresi hər il bu ərazidə yaşayan ermənilər üçün 10-12 milyon dollar yardım ayırır);

- Həmin il fevralın 26-28-də ermənilər tərəfindən Sumqayıt hadisələri törədildi və 8 erməni öldürüldü. Onlardan dördünün məhz erməni Qriqoryan tərəfindən qətlə yetirildiyini SSRİ prokurorluğunun istintaq komissiyası təsdiq etdi;

- 1988-ci il iyunun 15-də Ermənistan SSR Ali Soveti DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qərar qəbul etdi. İyunun 21-də isə DQMV XDS münaqişəli vəziyyətin həllinə "kömək" məqsədi ilə vilayətin birbaşa SSRİ hökumətinə tabe etdirilməsi barədə Moskvaya müraciət etdi. 1988-ci ilin sentyabrında DQMV-yə rəhbərlik M.S.Qorbaçovun xüsusi nümayəndəsi olan A.Volskiyə tapşırıldı. Onun vilayətə rəhbərlik etdiyi dövrdə Xan-kəndindən 12 min azərbaycanlı qovuldu. Şuşa şəhərində komendant saatı tətbiq edildi. 1989-cu ilin yanvarında DQMV faktiki olaraq Azərbaycan SSR-in tərkibindən çıxarılıb Moskvaya tabe etdirildi. Azərbaycan rəhbəri Ə.Vəzirov və onun ətrafı isə 1989-cu il martın 26-da Arkadi Volskini Şuşa, Laçın və Qubadlı seçki dairəsindən SSRİ Ali Sovetinə deputat seçdirdi;

- 1988-ci ilin noyabrında Spitakda 36 azərbaycanlı qətlə yetirildi. İki azərbaycanlı uşaq tarixdə misli görünməmiş bir vəhşilik nümunəsi ilə - hə iki tərəfdən qaynaq edilmiş borunun içinə salınaraq öldürüldü. Bu faktı fransız jurnalistləri qeydə alıb Avropada yaymışdılar;

- 1989-cu ildə Tbilisi-Bakı marşrutu ilə hərəkət edən avtobus partladıldı, 5 adam həlak oldu, 25 nəfər isə yaralandı;

- Daha sonra Şuşa-Bakı avtobusu partladıldı;

- Moskva-Bakı qatarı partladıldı;

- 1991-ci il noyabrın 10-da Şuşa üzərində Azərbaycana məxsus vertolyot vuruldu, 19 nəfər həlak oldu;

- 1992-ci il yanvarın 28-də saat 16:20-də Şuşa səmasında Azərbaycana məxsus olan Mİ-8 vertolyotu Xankəndi tərəfdən "Stinger" raketi ilə vuruldu, ekipaj üzvləri və sərnişinlər (cəmi 43 nəfər) həlak oldu;

- 1994-cü il martın 19-da erməni terrorçuları tərəfindən "Sadval" terror təşkilatının üzvlərinin əli ilə Bakı Metropolitenində partlayış törədildi, 14 nəfər həlak oldu, 49 nəfər isə yaralandı;

- 1994-cü il iyulun 3-də Bakı Metropolitenində Azər Aslanov adlı ermənilər tərəfindən ələ alınmış casusun əli ilə yenidən partlayış törədildi, 14 nəfər həlak oldu və 50 nəfər yaralandı;

- Bütün bunlardan əlavə Ermənistan Respublikasının silahlı qüvvələri SSRİ rəhbərliyinin və regionda qalan ordu birləşmələrinin köməyi ilə Azərbaycan ərazilərinin işğal olunmasını da həyata keçirirdilər. 1918-ci ildə - ADR dövründə Azərbaycanın ərazisi 114 min kv.km idi. 1920-1991-ci illərdə - Azərbaycan SSRİ-nir tərkibində olarkən onun ərazisi 86,6 min kv.km-ə endirildi. 1988-ci ildə başlanan hadisələr nəticəsində Azərbaycanın sahəsi 4,4 min kv.km olan Dağlıq Qarabağ ərazisi (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrud) də daxil olmaqla 13,210 kv.km ərazisi də işğal olundu;

- Şuşanın işğalı nəticəsində (8 may 1992-ci il) 72 nəfər şəhid oldu, 25 nəfər itkin düşdü, 30 min şuşalı Azərbaycanın müxtəlif rayonlarına səpələndi.

- Laçın. rayonu üzrə (18 may 1992-ci il) 1835 kv.km ərazi işğal olundu, 65 min laçınlı Azərbaycanın 64 rayonuna səpələndi;

- Kəlbəcər rayonu üzrə (3-4 aprel 1993-cü il) 1936 kv.km ərazi işğal olundu, 220 nəfər həlak oldu, 321 nəfər itkin düşdü, 60 min kəlbəcərli Azərbaycanın 56 rayonuna səpələndi;

Ağdam rayonu üzrə (23 iyul 1993-cü il) 1094 kv.km ərazi işğal olundu, 6 min nəfər həlak oldu, 130 min nəfər 58 şəhər və rayona səpələndi;

- Cəbrayıl rayonu üzrə (23 avqust 1993-cü il) 1050 kv.km ərazi işğal olundu, 360 nəfər həlak, 166 nəfər şikəst oldu, 60 min əhali 58 rayona səpələndi;

- Füzuli rayonu üzrə (23 avqust 1993-cü il) 1386 kv.km ərazi işğal olundu, 733 nəfər şəhid, 1209 nəfər əlil oldu, 181 nəfər itkin düşdü, 105 min füzulili 60 rayona səpələndi;

- Qubadlı rayonu üzrə (31 avqust 1993-cü il) 802 kv.km ərazi işğal olundu, 238 nəfər şəhid oldu, 100 nəfər itkin düşdü, 30 min yerli əhali Azərbaycanın 47 rayonuna səpələndi;

- Zəngilan rayonu üzrə (30 oktyabr 1993-cü il) 707 kv.km ərazi işğal olundu, 235 nəfər şəhid, 200 nəfər şikəst oldu, 35 min zəngilanlı 43 rayona səpələndi;

Beləliklə, Azərbaycanın 20 faiz, yəni 17 min kv.km ərazisi Ermənistan Respublikasının hərbi-siyasi işğalı altındadır. 18 mindən çox azərbaycanlı qətlə yetirilmiş, 20 min dinc sakin yaralanmış, 50 mindən çox insan əlil olmuşdur. Beş minədək azərbaycanlı bu günədək erməni əsirliyindədir. **Ermənistan silahlı qüvvələri tərəfindən 877 şəhər, kənd, qəsəbə qarət olunaraq dağıdılmış və yandırılmış, 500-dək tarixi abidə, 100-dən çox arxeoloji abidə, 22 muzey, 4 rəsm qalereyası, 6 dövlət teatrı, 9 tarixi əhəmiyyətli saray, 44 məbəd, 4,6 milyon nüsxə fondun - kitab və əlyazmaların saxlanıldığı 927 kitabxana, 690 orta məktəb, 850 məktəbəqədər müəssisə, 665 tibb məntəqəsi məhv edilmiş, Azərbaycana təqribən 100 milyard ABŞ dolları miqdarında ziyan vurulmuşdur.**

Ermənilərin azərbaycanlılara qarşı apardığı soyqırımı siyasətinin vəhşiliyi və qəddarlığı ilə seçilən ən son nümunəsi Xocalı şəhərində törədildi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərinin dinc sakinləri keçmiş Sovet ordusunun 366-cı alayının bilavasitə iştirakı ilə erməni millətçiləri tərəfindən tarixdə misli görünməmiş qəddarlıqla qətlə yetirildilər. Həmin gün 613 nəfər dinc əhali öldürüldü, 150 nəfər itkin düşdü, 487 nəfər şikəst oldu, 1275 nəfər isə əsir alındı. Həlak olanların 181 nəfərinin cəsədi məhkəmə - tibb ekspertizasından keçirilərkən məlum oldu ki, onlar xüsusi qəddarlıqla, yaxın məsafədən atəş açılaraq qətlə yetirilmiş, onların meyiti küt alətlə, bıçaqla tanın-maz hala salınmışdı. O cümlədən 17 nəfər qarın, 40 nəfər baş, 74 nəfər isə döş nahiyəsi-nə yaxın məsafədən atəş açılaraq öldürülmüşdü. Ümummilli liderimiz Heydər Əliyev Xocalı hadisəsinə qiymət verərkən demişdir: **"Xocalı soyqırımı adi cinayət deyil. Xocalı soyqırımı Ermənistan, ermənilər tərəfindən Azərbaycan xalqına qarşı edilən ən dəhşətli soyqırımıdır".**

Tarixi araşdırmalar göstərir ki, XX əsrin 80-90-cı illərində azərbaycanlılara qarşı törədilmiş cinayətlərdə həmin əsrin 70-80-ci illərində dünyanın müxtəlif yerlərində ermənilər tərəfindən yaradılmış terror təşkilatları xüsusi rol oynayır. **Buna misal olaraq 1972-ci il-də Vyanada yaradılmış "Erməni soyqırımı ədalət komandosları", 1973-cü ildə yaradılmış "Erməni soyqırımının intiqamçıları", 1975-ci il-də Beyrutda yaradılmış "Erməni gizli azadlıq ordusu", 1975-ci ildə Beyrutda yaradılmış "Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu (ASALA)", 1979-cu ildə yaradılmış "Erməni azadlıq cəbhəsi", 1981-ci ildə Fransada yaradılmış "Orli qrupu", 1988-ci ildə Moskvada yaradılmış "Erməni birliyi", ABŞ, Kanada və Qərbi Avropada fəaliyyət göstərən "Demokratik cəbhə", 1991-ci ildə Fransada yaradılmış "Erməni azadlıq hərəkatı (AOO)", 2001-ci ildə yaradılmış "Apostol" təşkilatlarını göstərmək olar. Həmin təşkilatlar bütün dünyada əsasən türklərə, azərbaycanlılara və başqa millətlərə qarşı saysız-hesabsız terror aktları törətmişlər.**

Qeyd etmək istərdim ki, əsrlər boyu Azərbaycan xalqına qarşı törədilən soyqırımı və deportasiya siyasətinin mahiyyətinin dövlət səviyyəsində araşdırılıb dünya ictimaiyyətinə çatdırılması məsələsinin təşkilatçısı və rəhbəri ümummilli lideri-miz Heydər Əliyev olmuşdur. Ulu öndərimiz Heydər Əliyevin 26 mart 1998-ci ildə imzaladığı **. "Azərbaycanlıların soyqırımı haqqında"** fərmanı ilə martın 31-i Azərbaycanlıların soyqırımı günü elan olunmuşdur. Həmin tarixi fərmanla bütün ziyalılara - tarixçi - alimlərə, politoloqlara tövsiyə olunur ki, zaman-zaman ört-basdır edilmiş, əsl deportasiya, soyqırım və genosid olan tarixi hadisələri araşdırıb, onların mahiyyətini dünya dövlətlərinə və millətlərinə çatdırsınlar. Bu fərman ilə ilk dəfə dövlət səviyyəsində 1918-ci ilin mart qırğınlarına da siyasi qiymət verildi. Orada deyilir-di: **"1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarizə adı altında Bakı kommunası Bakı quberniyasını azərbaycanlılardan təmizləmək niyyəti güdən mənfur plan həyata keçirməyə başladı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuş-dur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmış, milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabazarlığa çevirmişlər. Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində də xüsusi qəddarlıqla həyata keçirilmişdi. Bu ərazilərdə dinc əhali kütləvi şəkildə qətlə yetirilmiş, kəndlər dağıdılmış, milli mədəniyyət abidələri məhv edilmişdi.**

Məlum olduğu kimi, ermənilər bir tərəfdən azərbaycanlılara qarşı soyqırımı və deportasiya siyasəti törətmiş, onların yaşadıqları yerləri ələ keçirmiş, öz yurd-yuvalarından didərgin salmış, tarixi-memarlıq və mədəniyyət abidələrini dağıtmış, coğrafi adları dəyişdirmişlər. Digər tərəfdən də tarixi saxtalaşdırmaq, dənizdən-dənizə böyük erməni dövləti yaratmaq cəhdlərinə, öz vəhşi hərəkətlərinə bəraət qazandırmaq, dünya ictimaiyyətini aldatmaq üçün qondarma erməni soyqırımı məsələsini ortaya atmışlar.

**Hazırda ermənilər bu isti-qamətdə genişmiqyaslı proqramlar, layihələr işləyib - hazırlayır və həyata keçirirlər. Qarabağ, Naxçıvan, eləcə də bütöv Qafqazın tarixinin təhrif olunması həmin proqramın tərkib hissələrindən biridir.** Onlar həmçinin bütün dünyada genişmiqyaslı informasiya-təbliğat işi aparır, dünya dövlətlərinə dəstə-dəstə alimlər, yaradıcı ziyalılar ordusu yola salır, tamamilə riyakarlıqla dolu müxtəlif saxta kinofilmlər, videofilmlər nümayiş etdirir, kitab və rəsm əsərlərinin, tarixi-mədəniyyət abidələrinin sərgisini açırlar. Tarixi təhlil göstərir ki, ermənilər siyasi cəhətdən təşkilatlanmaq bacarığına görə azərbaycanlılardan bir qədər irəlidədirlər. Erməni bolşeviki Stepan Şaumyan öz məqalələrindən birində belə bir fikir yazıb ki, azərbaycanlıların kortəbii vətənpərvərliyi ermənilərin təşkilati cəhətdən güclü olan millətçiliyi ilə üz-üzə durur və ermənilər qalib gəlir. Bu fikir XX əsrin sonlarında, SSRİ dağılan ərəfədə növbəti dəfə öz təsdiqini tapdı. Siyasi təhlil göstərir ki, ermənilər bütün dövrlərdə tarixi hadisələri təhlil edərək, hadisələri qabaqlamış, baş verən tarixi proseslərdən öz milli mənafeləri naminə istifadə etməyə çalışmışlar. **Belə ki, XIX əsrdə baş verən Rusiya-türkiyə və Rusiya-İran müharibələrindən istifadə edən ermənilər çar Rusiyasının Qafqaz siyasətindən bəhrələnib Yerevan quberniyası yaradılmasına, daha sonra kütləvi şəkildə oraya köçərək gələcək Ermənistan Respublikası yaranmasına nail olublar. Daha sonra 1895-ci ildə ermənilər**

**"Daşnaksütyun" partiyasını, bir çox başqa millətçi-terrorçu təşkilatları, qeyri-hökumət qurumlarını və yaraqlı silahlı dəstələri yaradaraq, 1905-1917-ci illərdə çar Rusiyasında siyasi qarmaqarışıqlıqlar dövründən istifadə edib azərbaycanlıları kütləvi şəkildə qıraraq minlərlə soydaşımızı xüsusi amansızlıqla qətlə yetirib, kəndlərimizi, şəhərlərimizi, rayonlarımızı yandırıb, qarət edib Azərbaycan torpaqlarını ələ keçirdilər.** Sonra 1917-ci ildə Rusiyada hakimiyyətə bolşeviklər gələrkən də onlar millətçi - daşnak cildini dəyişib bolşevik olmuş, Lenindən, Stalindən və sovet dövlətinin başqa rəhbərlərindən, SSRİ dağılmağa başlayanda isə sonuncu, SSRİ rəhbəri M.S. Qorbaçovdan laziçınca bəhrələnə bilmişlər. Yazıq məzlum, sadəqəlbli, əməksevər və mədəni Azərbaycan xalqı isə daim amansız düşmənin qəfil planları, növbəti xəyanətləri, hücumları, terrorları ilə üz-üzə əliyalın, silahsız qalmış, müəyyən səbəblər üzündən zaman-zaman tarixi prosesləri və hadisələri düzgün qiymətləndirə bilməmiş, vaxtında təşkilatlanmamış, dünya siyasətində öz mövqeyini ortaya qoya bilməmiş və nəticədə də əzilmiş, torpaqları işğal olunmuş, soyqırıma, genosidə məruz qalmışdır.

**Nəyə görə belə olub? Bəlkə millətimiz və xalqımız aciz xalqdır, döyüşə bilmir, özünü qorumağa, yaşatmağa, dövlət qurmağa qadir olan xalq deyil? Niyə biz təşkilatlana bilmirik, niyə biz bütün dövrlərdə hakimiyyətsizliyin və rəhbərsizliyin qurbanı oluruq?!** Bütün bu fikirləri ümummilli liderimiz Heydər Əliyev öz dövlətçilik fəaliyyəti ilə alt-üst etdi və sübut etdi ki, Azərbaycan xalqı qəhrəman xalqdır, özünü, torpaqlarını qorumağa, azad etməyə, öz dövlətini yaşatmağa, dünyada tanıtmağa qadir xalqdır.

**Mən "Faciələrimiz rəhbərsizlikdən törəyib" adlı məqaləmdə faciələrimizin başvermə səbəblərinə aydınlıq gətirməyə, XX əsrin sonlarında SSRİ-nin dağılması ərəfəsində baş verən növbəti faciələrimizin, o cümlədən 20 Yanvar və Xocalı faciələrinin əsl mahiyyətini, torpaqlarımızın işğalı səbəblərini izah etməyə və bu faciələrimizdən ibrət dərsi götürmək, onlara tarixi-siyasi qiymət verilməsi istiqamətində ümummilli liderimiz Heydər Əliyevin gördüyü işlərdən bəhs etməyə çalışacağam.** Mənim bu məqaləm faciələrimiz haqqında elmi-siyasi tədqiqat əsəri kimi həm də Azərbaycan Respublikasının müstəqillik tarixini öyrənmək baxımından atılan bir addımdır.

## I. 20 YANVAR FACİƏSİNİN BAŞVERMƏ SƏBƏBLƏRİ

İndi isə ilk öncə Yanvar faciəsinin başvermə səbəblərini izah edək.

Hegelin belə bir fikri var: **"Xalqlar və dövlətlər tarixdən Heç vaxt və Heç nəyi öyrənməyiblər".** Bu sözlər bizim xalqımıza da aiddir. Son üç min illik tarixində xalqımızın başına 20 Yanvar və Xocalı faciələrinə oxşar bəlalar çox gəlib. Təəssüf ki, tarixən sadəqəlbli və nikbin xalqımız bəzən öz yaxın və uzaq keçmişini unuda-unuda yaşadığından baş verən hadisələrdən lazımi nəticə çıxarmayıb.

20 Yanvar 1990-cı il və 26 fevral 1992-ci il faciələri Azərbaycan xalqına qarşı növbəti soyqırımlar idi. Azərbaycan prezidenti Heydər Əliyev Yanvar hadisələri haqqında demişdin **"Yanvar hadisələrinin ildönümünü qeyd edərkən biz bir tərəfdən sovet tanklarının qarşısına əliyalın çıxan adamlarımızın qəhrəmanlığını təbliğ etməli və hadisələrin ibrət dərsini unutmamalıyıq, eyni zamanda həmin gün Vətənimizin azadlığı uğrunda canlarından keçənlərin xatirəsini yad etməliyik".**

1990-cı il 20 Yanvardan, 1992-ci il 26 fevraldan keçən müddətdə bu ümummilli faciələrə siyasi qiymət verilməsi, ümumi fikir birliyinin yaranması istiqamətində xeyli irəliləyiş olub. Əvvəllər bu məsələlərə məhdud şəxsi və partiya mənafeyindən yanaşanlar bu gün tədricən öz mövqeyini dəyişib baş verən hadisələrə ümumxalq mövqeyi baxımından qiymət verirlər. Lakin bu hadisələrin başvermə səbəbləri, əsas günahkarları və ibrət dərsləri ilə bağlı mətbuatda dərc olunan məqalələrdən hiss olunur ki, bir çox ciddi fikir ayrılıqları hələ də qalmaqdadır. Və biz başımıza gələn faciələrdən bu gün də nəticə çıxarmamışıq.

Ona görə də hər iki faciənin başvermə səbəbləri, əsas günahkarları və ibrət dərsləri ilə bağlı öz fikirlərimi oxucularla bölüşmək qənaətinə gəldim.

Əvvəlcə 1990-cı il 20 Yanvar faciəsini təhlil edək.

***Yanvar faciəsinin başvermə səbəbləri haqqında iki müxtəlif fikir var:***

1) 20 Yanvar qırğını sovet imperiyasını qoruyub-saxlamaq və Azərbaycan xalqının milli-azadlıq hərəkatını boğmaq üçün törədilmişdi;

2) 20 Yanvar qırğını sovet dövlətini dağıtmaq üçün ortaya atılmış Dağlıq Qarabağ problemini ermənilərin xeyrinə həll etmək, Azərbaycan xalqının gözünü qorxutmaq, Qarabağətrafı torpaqların da işğalına şərait yaratmaq, onun milli-azadlıq hərəkatını boğmaq, müstəqilliyinə mane olmaq üçün törədilmişdi.

Səbəb kimi bunlardan hər ikisi eyni dərəcədə inandırıcı olsa da, ikinci fikir daha real və elmidir. Əgər M.S.Qorbaçov və onun əlaltıları 20 Yanvar qırğınını imperiyanı qoruyub-saxlamaq üçün törətsəydi, gərək onda erməniləri, Baltikyanı ölkələrin xalqlarını bizdən tez qıraydı. Çünki onlarda milli-azadlıq hərəkatı daha erkən başlamışdı. Zaman və hadisələrin sonrakı gedişi şəksiz sübut edir ki, M.S.Qorbaçov məhz SSRİ-ni dağıtmaq üçün 1986-cı ilin dekabrında Alma-Ata hadisələrini, 1989-cu ilin aprelində Tbilisi hadisəsini, 1990-cı il yanvarın 20-də Bakı hadisəsini, 1991-ci ilin yayında isə Vilnüs hadisəsini törətdi. Özü də bu hadisələr planlı şəkildə, məxfi qrafik üzrə törədildi. Birinci fikri söyləyənlər, yəni "20 Yanvar qırğını imperiyanı qoruyub-saxlamaq üçün törədilmişdi" şəklində mühakimə yürüdənlər əslində özləri də bilmədən, yaxud da bilərəkdən M.S.Qorbaçova və bu ağır cinayətin digər iştirakçılarına mənəvi haqq qazandırmış olurlar. Əlbəttə, dövlətin ağıllı başçısı onu qorumalıdır, dağıtmalı deyil ki?!

Əsl həqiqət isə ondan ibarətdir ki, M.S.Qorbaçovun SSRİ-ni dağıtmaq üçün rəvac verdiyi Qarabağ problemi tədricən genişlənib Ermənistan-Azərbaycan müharibəsinə çevrildi. Azərbaycanın o vaxtkı rəhbərliyinin maymaq, milli mənafedən uzaq, antixalq siyasəti ermənipərəst Qorbaçov rejiminin Dağlıq Qarabağı Ermənistana vermək istiqamətində atdığı addımlara daha əlverişli şərait yaradırdı. Lakin həmvətənlərimizin didərgin salınmasından, torpaqlarımızın işğal olunmasından duyuq düşən Azərbaycan xalqı öz azadlığı, ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizəyə qalxdı. Getdikcə xalq hərəkatı yüksəlir, onun mütəşəkkilliyi artır, deməli, Yuxarı Qarabağla bağlı gizli planların həyata keçirilməsi çətinləşirdi. Ermənistanda yaşayan 230.000-dən artıq azəri zorla ata-baba torpaqlarından qovulduğundan Azərbaycanda yaşayan ermənilər üçün də müvafiq təhlükə artırdı. SSRİ-ni dağıtmaq vəzifəsini qarşısına qoyan M.S.Qorbaçova da elə bu lazım idi. Beləliklə, Bakıda və digər şəhərlərdə, eləcə də Dağlıq Qarabağda yaşayan ermənilərin həyatı üçün guya tə-lükə yarandığını, islam fundamentalizminin gücləndiyini və s. səbəbləri bəhanə edərək M.S.Qorbaçov və onun komandası 1990-cı il Yanvar hadisələrini törətdi.

**M.S.Qorbaçovun özü 1995-ci ildə Moskvada nəşr olunan "Jizn i reformı" adlı kitabında yazır: "90-cı illər erməni-azərbaycanlı münasibətlərinin yenidən kəskinləşməsi ilə əlamətdar oldu ki, bu da Bakıda erməni qırğınına, ermənilərin şəhərdən "çıxıb getməsinə" gətirib çıxardı. Bu faciə və tarixdən aldığım dərs budur: ekstremal şəraitlərdə hakimiyyət güc tətbiq etmədən keçinə bilməz".** Onun bu sözləri 20 Yanvar faciəsinin törədilməsinin əsl mahiyyətini pərdələmək məqsədi güdür. Real tarixi həqiqət isə ondan ibarətdir ki, 1985-ci ilin aprelində hakimiyyət başına gələn və "yenidənqurma" konsepsiyası ilə guya SSRİ-də islahatlar aparmaq istədiyini bildirən M.S.Qorbaçovun əsl niyyəti bu dövləti dağıtmaq, xalqlar arasına nifaq sal-maq, onları bir-birilə vuruşdurmaq idi.

**Qeyd:** 1998-ci ildə yazılmış bu fikirlər sonuncu SSRİ prezidenti Mixail Qorbacovun 2006-cı il mart ayının 2-də 75 yaşı tamam olarkən "Moskovskiy komsomolets" qəzetinə (bax: "Şərq" qəzeti, 3 mart 2006-cı II, №39, səh.7) verdiyi müsahibəsində tam təsdiqini tapdı. Həmin müsahibəsində M.S.Qorbaçov Dağlıq Qarabağ separatçı hərəkatının arxasında şəxsən özünün durduğunu etiraf edərək demişdir: **"Dağlıq Qarabağın Azərbaycan tərkibindən çıxması barədə qərar haqlı addım idi".** Öz müsahibəsində o, indiyə qədər çoxlarına qaranlıq qalan bəzi fikirlərə aydınlıq gətirərək bildirib: **"Düşünürəm ki, 1988-ci ildə Moskva istəsəydi, Dağlıq Qarabağda separatçı rejimə son qoya, Azərbaycan rəhbərliyini isə Dağlıq Qarabağa Ermənistana birləşmədən daha çox müstəqillik verməyə məcbur edə bilərdi".** *"Moskva bunu necə etmək istəyirdi"* sualına cavabında Qorbaçov etiraf edib ki, Moskva cəmi 180 min əhalisi olan Dağlıq Qarabağın inkişafına yarım milyard rubl ayırmağa, Bakını dotasiyalar ayırmağa məcbur etməyə, Ermənistanla kommunikasiya xətlərini açmağa, Dağlıq Qarabağa Azərbaycanın tərkibində muxtar respublika statusu verməyə hazırlaşırmış. **"Lakin**

**sabahısı gün Yerevanda yığışırlar və Qarabağı Ermənistanın ayrılmaz hissəsi elan edirlər. Nə etməli idim? Ermənistana qoşunmu yeritməli idim? Bu məsələdə kimin qalib gəlməsindən danışmaq olmur.**

**Erməniləri də qalib hesab etmək olmazdı. Mənim fikrimcə, Dağlıq Qarabağın Azərbaycan tərkibindən çıxması barədə qərar haqlı addım idi".**

SSRİ-nin bəşəriyyətə fəlakətlər bəxş edən ilk və sonuncu prezidenti öz dolaşıq və qarmaqarışıq fikirlərilə dolu bu müsahibəsində açıq şəkildə ermənipərəst olduğunu, Ermənistana qoşun yeridilməsinə razı olmadığı halda Bakıya, Tbilisiyə, Vilnüsə qoşunun onun əmri ilə yeridildiyini etiraf edir. Bakıya qoşun yeridilməsi səbəbini isə belə izah edir: **"Bəli, qansız ötüşmədi. Lakin demək istəyirəm ki, yalnız bir halda mənim əmrim ilə Bakıya qoşun yeridildi və paytaxtda komendant saatı tətbiq olundu. Bakıda hadisələr nəzarətdən çıxırdı, həm Ali Sovet, həm də Mərkəzi Komitə iflic vəziyyətində idi, 200 km sərhəd dağıdılmışdı, yerli orqanlar hücumlara məruz qalırdı. Mən təcili olaraq Yevgeni Primakovu və Andrey Girenkonu Bakıya göndərdim, onlar mənə məruzə etdilər və fövqəladə vəziyyət rejimi tətbiq edib qoşunların yeridilməsini təklif etdilər. Bu günə qədər də elə hesab edirəm ki, qoşunların yeridilməsi daha çox qan tökülməsinin qarşısını aldı".**

Bu açıqlamalara qulaq asar-kən və ya oxuyarkən istər-istəməz düşünürsən: şükür bu günümüzə, yazıq Azərbaycan xalqı, görün 1988-1993-cü illərdə hansı səviyyəli düşmənlə - bir vaxtlar dünyaya meydan oxuyan SSRİ rəhbəri M.S.Qorbaçovla və dünya erməni lobbisi ilə üz-üzə imiş. Əgər bu, həqiqətdirsə, onda bu günümüzə, yəni tamam qırılıb Yer üzündən silinməməyimizə, ya da parçalanıb ermənilərə və ayrı-ayrı dövlətlərə pay verilməməyimizə görə ulu Tanrıya min şükür. Bütün bunlara görə Allah-Təalaya, məkrli düşmənlərin planlarını alt-üst edən ümummilli liderimiz Heydər Əliyevə və qorxmazlığına, cəsarətinə, qəhrəmanlığına, dözümünə, səbrinə görə xalqımıza minnətdar olmalıyıq və əhsən deməliyik.

İndi bir daha aydın oldu ki, M.S.Qorbaçov və onun komandası SSRİ-ni dağıtmaq, Azərbaycan xalqının isə milli-azadlıq hərəkatını boğmaq, onun gözünü qorxutmaq və Qara-bağ problemini Ermənistanın xeyrinə həll etmək məqsədilə 20 Yanvar faciəsini törətmişdir. Faciəni törədən ən başlıca səbəb bu idi. Aydındır ki, bu qlobal və beynəlxalq mahiyyətli hadisənin törədilməsinin digər səbəbləri də ola bilər. Lakin onlar ikinci dərəcəli səbəblər, yaxud da bu əsas səbəbdən törənən nəticələrdir.

**20 Yanvar faciəsinin başvermə səbəblərindən danışarkən belə bir vacib sualı da aydınlaşdırmaq lazım gəlir: bu faciə obyektiv zərurətdənmi törənmişdi?**

**Yaxud da həmin günlər kütləvi qırğınlardan qaçmaq və ya sovuşmaq mümkün idimi? Bu sualın cavabını verərkən ziyalı**lar, **tədqiqatçılar və ya siyasətçilər yenə də əsasən 2 qrupa bölünürlər.**

Birinci qrupun: nümayəndələri 20 Yanvar faciəsini M.S.Qorbaçovun SSRİ-ni qoruyub-saxlamaq məqsədilə törətdiyini iddia edərək, belə bir fikir irəli sürürlər ki, bu hadisədən qaçmaq mümkün deyildi. Faciə planlaşdırılmış bir hadisə idi. AMİP lideri Etibar Məmmədov deyir **"Moskva bu cəza aksiyasını həyata keçirməliydi. Bunu əsaslandırmaq üçün Azərbaycanda hakimiyyətdə olan, xalqımızın taleyi üçün məsuliyyət daşıyan adamlardan da istifadə olunmuşdu. Onların əli ilə Moskva-ya teleqramlar hazırlanmışdı ki, Azərbaycanda kütləvi qırğınlar gedir, rus əhalisi kütləvi şəkildə ölkədən çıxarılır və s. Bunun da qarşısını almaq, qayda-qanun yaratmaq üçün Bakıya ordu hissələri yeridilmişdi. Bunu əsas kimi götürüb ordunu Bakıya yeritmişdilər. Bu da xalqın gözünü qorxutmaq, onu cəzalandırmaq üçün hazırlanmış plan idi".**

Bu fikrin tərəfdarları 20 Yanvar faciəsini qanunauyğun bir proses kimi təqdim edirlər. Və bildirirlər ki, hər bir azadlıq qan tələb edir, ona görə də bu, labüd bir proses idi. Digər tərəfdən də onlar söyləyirlər ki, sovet imperiyası da digər bütün imperiyalar kimi dağılarkən mütləq ucqarlarda qan-qırğın törətməli idi. Xalq Cəbhəsinə və digər müxalifət partiyalarına mənsub olan siyasətçilər deyirlər ki, bu, sovet imperiyasının təbiətindən doğan obyektiv bir hal idi. Maraqlıdır ki, onların bu ideyası "Respublika" qəzetində Musa Axundov və Qeşəm Əliyev tərəfindən daha da əsaslandırılır:

**"... 70 ildi yol gəlirdik 20 Yanvara, 70 ilin bəhrəsiydi Qara Yanvar, 20 Yanvar. 1920-ci ilin 28 aprelindən üzü bəri hər an gözlənilirdi bu qırğın. Odur ki, bu soyqırım mütləq olmalıydı. Fərqi yoxdur,**

**beş gün tez, beş gün gec...".** Güman ki, müxalifət düşərgəsinin nümayəndələri də bu fikirdədirlər. Aydındır ki, kağızı, qəzeti və ya jurnalı doldurmaq üçün yazılmış və ya deyilmiş bu fikirlərin real həqiqətlə heç bir əlaqəsi yoxdur. Əgər biz bir anlığa 20 Yanvar faciəsinin Moskva tərəfindən planlaşdırılmış bir hadisə, quruluşun təbiətindən doğan hal olduğunu qəbul etsək, onda, deməli, hadisələrin baş verməsində yerli rəhbərlərin və digər qüvvələrin günahlarını yüngülləşdirmiş və ya tamam yumuş oluruq. Əlbəttə, bu, tarixi saxtalaşdırmaq olardı. Bizə kimisə yalandan günahlandırmaq və ya kimisə sudan quru çıxarmaq yox, hadisəni törədən obyektiv səbəbləri və onun günahkarlarını aydınlaşdırmaq lazımdır.

İkinci qrupun nümayəndələri isə 20 Yanvar faciəsini obyektiv, quruluşun təbiətindən irəli gələn hal yox, tamamilə subyektiv amilin, yəni ayrı-ayrı vəzifəli şəxslərin Azərbaycan xalqına qarşı xəyanətinin nəticəsi hesab edirlər. **Xalq şairi Bəxtiyar Vahabzadə, milli siyasət məsələləri üzrə dövlət müşaviri Hidayət Orucov, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə, ASDP-nin həmsədri Zərdüşt Əlizadə və başqaları belə Hesab edirlər . ki, bu qırğın zərurİ deyildi, ondan qaçmaq, onun qarşısını almaq mümkün idi.** Bəxtiyar Vahabzadə (onun Yanvar qırğınına siyasi qiymət verməyə daha çox mənəvi haqqı çatır) bu barədə belə deyir: **"Mən o barədə bir kitab da yazmışam: "Şənbə gecəsinə gedən yol". Əslinə baxsan, mən siyasətçi deyiləm. Amma belə şeyi zəruri hesab etmirəm. Düzdür, Xalq Cəbhəsi fəaliyyətdə idi, milli-azadlıq hərəkatı var idi, milli-azadlıq duyğuları yetişmiş, cavanlarımız milli şüura çatmışdılar. Amma bütün bunlar "Şənbə gecəsi"ni zəruri hesab etməyə əsas vermirdi".** Dövlət müşaviri Hidayət Orucov da öz müsahibəsində bildirir ki, faciənin qarşısını almaq mümkün idi. O halda ki, xalqın başında ağıllı, tədbirli, uzaqgörən, ən başlıcası isə millətinə sədaqətlə xidmət edən rəhbər olsaydı. Millətə sədaqətlə xidmət edən rəhbərin o vaxt kim ola biləcəyini isə şeyx həzrətləri öz müsahibəsində bir qədər də açıqlayır. **"Necə bilirsiniz, faciənin qarşısını almaq mümkün idimi", -** sualına Allahşükür Paşazadə belə cavab verir: **"Bəli, onun qarşısını ala bilərdik. Əgər Vəzirovun istefasına nail olunsaydı. Çünki Vəzirov Moskvanın Azərbaycanda quyruğu idi. Mən elə bilirəm ki, həmin vaxt Azərbaycanda hakimiyyət dağılsa idi... Bizim ən böyük səhvimiz vaxtında Heydər Əliyevi hakimiyyətə gətirməməyimiz oldu. Əgər Heydər Əliyev onda gəlsəydi, bəlkə də o faciə baş verməzdi, Dağlıq Qarabağ məsələsi də bu vəziyyətə gəlib çıxmazdı".**

Göründüyü kimi, 20 Yanvar faciəsi sadəcə olaraq rəhbərsizlikdən və hakimiyyətsizlikdən törənib.

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev də "Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri" adlı kitabında bu məsələ haqqında belə yazır: **"Biz, nəhayət, dərk etməliyik: Azərbaycan xalqının tarixində bir çox bəlalar ona görə baş vermişdir ki, siyasi elita cəmiyyətin həyatını qurmağa və müstəqil dövlət yaratmağa çalışarkən ən üstün milli dəyərlər barədə heç də həmişə dəqiq təsəvvürə malik olmamışdır".**

## II. 20 YANVAR FACİƏSİNİN ƏSAS GÜNAHKARLARI

Azərbaycan xalqına qarşı açıq təcavüz kimi qiymətləndirilən bu hadisədə 131 nəfər adam (122 kişi, 5 qadın, 4 uşaq) həlak olmuş, 700 nəfər (o cümlədən 25 qadın, 20 uşaq) yaralanmış, 12 nəfər isə itkin düşmüşdür. Həlak olanların milli mənsubiyyətinə görə 117 nəfəri azəri, 3-ü yəhudi, 3-ü tatar, 6-sı rus idi. Sosial mənsubiyyətinə görə 4-ü polis işçisi, 1-i həkim, 12-si tələbə, 1-i aspirant, 3-ü elmlər doktoru idi.

20 Yanvar faciəsinin dəhşətləri təkcə ölən və yaralananların sayı ilə deyil, həm də Bakıya yeridilmiş ordu hissələrinin xüsusi amansızlığı ilə, onların insanlara qarşı törətdikləri vəhşiliklərlə ***(ölən və yaralananların əksəriyyəti arxadan vurulmuşdu)*** səciyyələnir. Bütün bu hərəkətlər şəksiz şəkildə 20 Yanvarın xüsusi niyyətlərlə, süni formada, özü də məqsədli şəkildə törədilməsindən xəbər verir. O şəxslər ki, 20 Yanvarın obyektiv səbəblərdən törəndiyini və ya quruluşun təbiətindən doğan bir hal olduğunu iddia edirlər, deməli, onlar beynəlxalq erməni lobbisinin Azərbaycan xalqına qarşı tarixi sovet quruluşundan çox-çox uzaqlara gedən məkrli planlarından, kin və küdurətinin dərəcəsindən xəbərsizdirlər.

Ermənilər bu dəfə öz planlarını M.S.Qorbaçovun əli ilə törətdilər. 20 Yanvar mərkəzi və yerli dövlət hakimiyyəti orqanlarında oturmuş, ermənipərəst, qatil, cəllad və qaniçən rəhbərlərin antidövlət və antixalq

siyasətinin və bir də hakimiyyətə can atan yeni siyasi qüvvələrin, o cümlədən Xalq Cəbhəsinə məxsus olan və DTK xətti ilə xalq hərəkatına yeridilmiş liderlərin günahı ucbatından baş verdi.

Faciədən keçən dövrdə bu günahkar tərəflərdən hər biri özünün günahsız olmasını hər vəchlə sübut etməyə çalışsa da, tarix bu hadisəyə öz siyasi qiymətini vermişdir. Bununla belə, bu gün də faciənin əsas günah-karları və onların günahlarının nə dərəcədə çox və ya az olması ilə bağlı yersiz mübahisələr getməkdədir. Bəziləri Yanvar faciəsinin sovet quruluşunun təbiətindən doğduğu və ya sovet rəhbərləri tərəfindən planlaşdırıldığını və bu səbəbdən də ondan qaçmağın qeyri-mümkünlüyünü iddia etməklə, bu və ya başqa formada o vaxtkı yerli rəhbərlərin və Xalq Cəbhəsinin liderlərinin günahlarını yumaq və ya yüngülləşdirmək istəyirlər. ASDP həmsədri Zərdüşt Əlizadə "... **Əlbəttə, həmin günlər kütləvi qırğınlardan qaç-maq olardı, - deyərək hadisənin baş verməsində 98 faiz M.S.Qorbaçovu, 2 faiz isə bilavasitə bu cinayətin törənməsi üçün qərar verən AXC liderlərini günahkar hesab edir. Necə deyərlər, Ayaz Mütəllibovu, Ə.Vəzirovu və başqa yerli rəhbərləri isə "sudan quru çıxarır".**

Hadisələrin qaynar mərkəzində olsa da, keçmiş ədliyyə naziri Əlisahib Orucov deyir: **"Əgər Moskva Azərbaycan Ali Sovetinin Rəyasət Heyətindən (onlar on bir nəfər idi) razılıq almasa idi, heç vaxt belə bir fərman verə bilməzdi. Qoşunun yeridilməsinin təşkilatçısı və təşəbbüsçüsü bizim rəhbərlik olmuşdu. Yoxsa rusun nəyinə lazım idi ki, gəlib burada qan töksün?"** Bu sözlər 1988-ci ildən bu günə qədər baş verən proseslərin mahiyyətini Orucovun bu gün də başa düşmədiyini göstərir. O, həm də unudur ki, 1986-cı ildə Alma-Ataya, 1989-cu ilin aprelində Gürcüstana, 1990-cı ilin yanvarında isə Bakıya qoşun yeridib dinc əhalini qıran zaman M.S.Qorbaçov ölkənin ali siyasi rəhbərliyi olan Sov.İKP MK-nın Siyasi Bürosu ilə məsləhətləşməmişdi və ölkənin ali rəhbərliyinin belə bir qərarı yox idi.

Kommunist Partiyasına mənsub olan bir çox digər nümayəndələr isə bu faciənin baş verməsində AXC-nin günahını daha çox şişirdərək deyirdilər: **"Həmin vaxt AXC dövlət çevrilişi törətmək istəyirdi"**, **"Qoşunlar bir gün də gec gəlsəydi, daha böyük faciə törənəcək, daha çox adam öləcəkdi"**. 1990-cı il yanvarın 25-də keçirilən Azərbaycan KP MK-nın növbədənkənar plenumunda Azərbaycan DTK-nın o vaxtkı sədri V.Hüseynov çıxış edərək bildirdi ki, 20 Yanvarda Bakıya qoşun yeridilməsinin hüquqi əsası var idi və guya qeyri-millətlərə qarşı zorakılıq halları olmuşdu, AXC hakimiyyətə gəlmək istəyirdi və s. Elə oradaca xalqın qeyrətli oğullarından biri olan BDU-nun dosenti, MK üzvlüyünə namizəd Çingiz Həsənov Vaqif Hüseynova verdiyi sualda bildirdi ki, **"sizin mövqeyinizlə M.S.Qorbaçovun mövqeyi eynidir. İndi mənə deyin: M.S.Qorbaçov sizin verdiyiniz məlumat əsasında çıxış edib, yoxsa siz onun çıxışına əsaslanırsınız?"**. Ramiz Əhmədov, Qeysər Xəlilov və başqaları da ordunun Bakıya yeridilməsinə və qırğın törədilməsinə mənəvi haqq qazandırır, AXC-ni isə günahlandırırlar: Aydındır ki, bu fikirlər ümummilli mənafedən deyil, şəxsi hakimiyyət və ya qrup mənafeyindən deyilmiş sözlərdir və heç vaxt real həqiqətləri əks etdirə bilməz. Bizim fikrimizcə, 20 Yanvarın baş verməsində 3 qrup günahkarlar dəstəsi var:

**1.** 20 Yanvar faciəsinin ən böyük və birinci dərəcəli günahkarı M.S.Qorbaçov başda olmaqla o vaxtkı sovet rəhbərliyidir. **"Yenidənqurma"** adı və ya guya islahatlar aparmaq bəhanəsi ilə həyata keçirilən tədbirlər əslində SSRİ-ni dağıtmaq məqsədi güdürdü. Bu süni hərəkətlər nəinki Azərbaycana və digər sovet respublikalarına, eləcə də bütün bəşəriyyətə misli görünməmiş fəlakətlər gətirdi. 20 Yanvar faciəsi M.S.Qorbaçovun insanlığa, bəşəriyyətə qarşı törətdiyi yüzilərlə cinayətdən biri və bəlkə də ən dəhşətlisi idi. Ümumiyyətlə, 1985-ci ildən sonra keçmiş SSRİ ərazisində baş verən bütün faciə və hadisələrin ssenari müəllifi Sov.İKP MK-nın baş katibi Qorbaçov və onun erməni lobbisi tərəfindən ələ alınmış komandası idi.

1990-cı il yanvarın 19-da M.S.Qorbaçov **"Yanvarın 20-dən Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında"** SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarını imzalamışdı. Fərman yalnız yanvarın 20-də, səhər saat 6-7 radələrində, yəni televiziyanın enerji bloku partladıldıqdan və qırğın törədildikdən sonra radio ilə elan edilmişdi. Artıq o vaxt demək olar ki, əməliyyat başa çatmaqda idi. Əməliyyat başlamazdan və fövqəladə vəziyyət elan olunmazdan xeyli qabaq isə Bakı şəhərinə qrafik üzrə 1990-cı il yanvarın 11-də 2.557 nəfər, 12-də 1.061 nəfər, 13-də 710 nəfər, 14-də 1.415 nəfər, 16-da 1.600 nəfər, 17-də 225 nəfər, 18-də 190 nəfər, 19-da 600

nəfər əlavə əsgər, milis və kursant gətirilib. Ümumiyyətlə, qırğın vaxtı 66,5 min nəfərlik qoşundan istifadə edilib ki, onun da 44,9 mini ordunun, 20,6 mini daxili qoşunların, 1.000 nəfəri isə kursant hissələri olub.

Hadisə ərəfəsində, yəni 1990-cı il yanvarın 10-dan etibarən Azərbaycanda yaşayan yüksək vəzifəli rus vətəndaşlarının ailə və uşaqları aeroportdan Rusiyanın müxtəlif şəhərlərinə yola salınırmış. Bütün bunlar 20 Yanvarın M.S.Qorbaçov tərəfindən planlı şəkildə və xüsusi məqsədlərlə hazırlandığını və həyata keçirildiyini sübut edir. M.S.Qorbaçovun bu əmrinin həyata keçirilməsində bütün sovet rəhbərliyi, Sov.İKP MK Siyasi Bürosu və Nazirlər Kabinetinin üzvləri, eləcə də müdafiə naziri D.Yazov, onun müavini V.Barannikov, SSRİ daxili işlər naziri V.Bakatin, onun müavini A.Demodov, Sov.İKP MK katibi A.Girenko, Sov.İKP MK millətlərarası münasibətlər şöbəsinin müdir müavini V.Mixaylov, SSRİ müdafiə nazirinin birinci müavini, ordu generalı V.Varennikov, SSRİ Dövlət Təhlükəsizlik Komitəsi sədrinin birinci müavini F.Bobkov, kontr-admiral E.Sidorov və başqaları iştirak etmişlər. Onlar SSRİ-nin o vaxt qüvvədə olan Konstitusiyasının 119-cu maddəsinin 14-cü bəndini və Azərbaycan SSR Konstitusiyasını kobudcasına pozmuşlar. M.S.Qorbaçov Bakıda fövqəladə vəziyyət elan edərkən və qoşun yeridərkən Sov.İKP MK Siyasi Bürosunun razılığını almamışdı. Bu şəxslərin hamısının adları təkcə Azərbaycan xalqına qarşı deyil, eləcə də insanlığa qarşı cinayət törətdikləri üçün tarixin yaddaşına XX əsrin qaniçənləri kimi qara hərflərlə həkk olunmalıdır.

**2.** 20 Yanvar faciəsinin II qrup günahkarları Ə.Vəzirov və A.Mütəllibov başda olmaqla Azərbaycanın o vaxtkı yerli rəhbərləri idi.

Əgər biz 20 Yanvar faciəsinin M.S.Qorbaçov tərəfindən SSRİ-ni dağıtmaq və Azərbaycan xalqının gözünü qorxutmaqla Dağlıq Qarabağ problemini ermənilərin xeyrinə həll etmək məqsədilə törədildiyini deyiriksə, onda həmin vaxt Azərbaycanın yerli rəhbərləri olan Ə.R.Vəzirovun və A.N.Mütəllibovun elə-belə, təsadüf nəticəsində və ya öz şəxsi qabiliyyətləri ilə həmin kürsülərə sahib olduqlarını düşünmək sadəlövhlük olardı. Ə.R.Vəzirov M.S.Qorbaçov tərəfindən o vəzifəyə Ermənistandan qovulan azərilərin Dağlıq Qarabağa yerləşdirilməsinə mane olmaq, Azərbaycandan isə ermənilərin çıxarılmasına imkan verməmək və ümumiyyətlə, Azərbaycan xalqının başının altına yastıq qoymaq, onu arxayınlaşdırmaq məqsədilə qoyulmuşdu. Ə.R.Vəzirov xalq tərəfindən "bambılı" ləqəbi qazansa da, hamam tikmək", "qoz əkmək", "ölkəni kompüterləşdirmək" kimi sərsəm, yersiz ifadələr işlətməklə öz tarixi missiyasını "məharətlə" başa çatdırdı. 20 Yanvar ərəfəsində artıq Ə.Vəzirov öz rolunu oynayıb bitirməkdə idi və həmin vaxt A.Mütəllibov fiquru yavaş-yavaş yeni "lider" obrazında xalqın şüuruna yeridilirdi. Məlumdur ki, Dağlıq Qarabağ problemi SSRİ Ali Sovetində müzakirə edildiyi zaman Ermənistan tərəfindən 1-ci şəxs, yəni Ermənistan KP MK-nın I katibi çıxış etdiyi halda, Azərbaycan tərəfindən isə 2-ci şəxs, yəni Nazirlər Sovetinin sədri Ayaz Mütəllibov çıxış edirdi. Onun televiziya vasitəsilə yarıçılpaq həqiqətləri rus dilində rəvan nitqlə söyləməsinə xalqımız sadəlövhlüklə inanır, bu fiqurun gələcəyinə böyük ümidlə baxırdı. Həmin vaxt Ə.Vəzirov Azərbaycan nümayəndə heyətinin tərkibində əlini sifətinə qoyub qoyun kimi gözlərini döyürdü.

**İndi anlayırıq ki, bütün bunların hamısı əvvəlcədən planlaşdırılmış bir ssenari imiş və Azərbaycanın o vaxtkı rəhbərləri ancaq və ancaq ermənilərin planlarını həyata keçirmək və torpaqlarımızın işğalına şərait yaratmaq, xalqın səfərbər olmasına, ayılmasına, milli-azadlıq hərəkatına mane olmaq üçün həmin kreslolara oturdulmuşdular. Keçək əsas mətləbə. Bəs nə idi onların günahı və səhvləri?**

1990-cı il yanvarın 15-də Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti "Azərbaycan SSR-in DQMV-də vəziyyətin normallaşdırılması sahəsində təxirəsalınmaz vəzifələr haqqında" qərar qəbul etmişdi. Qərarda nəzərdə tutulurdu ki, DQMV-yə bitişik rayonlarda və SSRİ-nin dövlət sərhədi boyunca fövqəladə vəziyyət tətbiq olunsun və həmin məsələ ilə əlaqədar SSRİ Ali Sovetinin Rəyasət heyətinə müraciət edilsin. **1990-cı il yanvarın 15-də SSRİ Ali Sovetinin Rəyasət Heyəti DQMV-də və bəzi rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında qərar qəbul etmiş, həmin qərara əsasən, 1990-cı il yanvarın 15-də yerli vaxtla saat 23.00-dan "DQMV ərazisində, Azərbaycan SSR-in ona bitişik rayonlarında, Ermənistan SSR-in Gorus rayonunda, habelə Azərbaycan SSR ərazisində SSRİ dövlət sərhədi boyunca sərhəd zonasında" fövqəladə vəziyyət elan edilmiş və Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinə təklif olunmuşdu ki, əhalinin, müəssisələrin, idarə və təşkilatların təhlükəsizliyini təmin etmək üçün Bakı, Gəncə şəhərlərində və digər**

**yaşayış məntəqələrində qadağan saatının tətbiqi də daxil olmaqla lazım olan hər cür tədbirlər görsün. Sadəcə olaraq eyni vaxtda qəbul edilən və sözbəsöz oxşayan, üst-üstə düşən, heç bir ziddiyyət təşkil etməyən bu iki qərar o zaman Azərbaycan rəhbərliyinin Moskva ilə, Moskva rəhbərliyinin isə Azərbaycan rəhbərliyi ilə əlbir olduğunu sübut edir.**

Günah dərəcələrinə görə Azərbaycanın o vaxtkı rəhbərlərini sıra ilə düzsək, ilk növbədə Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirov və Azərbaycan SSR Nazirlər Sovetinin o vaxtkı sədri A.Mütəllibov, habelə Azərbaycan Ali Sovetinin sədri E.Qafarova, Azərbaycan DTK-nın sədri V.Hüseynov, Bakı Şəhər Partiya Komitəsinin. birinci katibi M.Məmmədov, Azərbaycan KP MK-nın bəziləri istisna olmaqla əksər büro üzvləri və ya üzvlüyə namizədlər, Nazirlər Soveti sədrinin müavinləri, hüquq-mühafizə orqanlarının rəhbərləri və başqaları bu ümumxalq faciəsində hərəsi öz xüsusi "töhfə"sini verməklə günahkar idilər.

Məsələn. E.Qafarova Moskvaya teleqram vuraraq qoşun tələb etmişdi. Doğrudur, AKP MK-dan, Ali Sovetin Rəyasət Heyətindən ittifaq orqanlarına göndərilmiş teleqramları, habelə digər sənədləri əldə etmək mümkün olmamışdır. Yalnız respublika Nazirlər Sovetinin qeydiyyat jurnalında sabiq sədr A.Mütəllibovun belə teleqramı qeyd olunub.

V.Hüseynov Moskvaya eyni məzmunlu teleqram vurmaqdan əlavə 10 yanvar 1990-cı ildə Azərbaycan Teleradio Mərkəzinin enerji blokunun partladılmasında və Bakıda bəzi milli zəmində kütləvi iğtişaşların təşkil edilməsində şəxsən iştirak etmişdi.

V.Hüseynov, Ə.Daşdəmirov, M.Məmmədov, R.Əhmədov və başqaları əvvəlcə əhalini fövqəladə vəziyyət tətbiq edilməyəcəyi haqda yalançı vədlər verməklə aldatmışlarsa, qırğından sonra qoşunun yeridilməsinə və soyqırıma ideoloji bəraət qazandırmışlar. Bu isə xalqa açıqdan-açığa xəyanət idi. Bu xəyanətkarların günaHları ikiqat və bəlkə də üçqat idi.

**Birincisi**. onlar M.S.Qorbaçovun SSRİ-ni dağıtmaq və Azərbaycanı parçalamaq planlarından xəbərdar olduqları halda, SSRİ-nin dünyanın gözü qarşısında dağılmağa doğru getdiyini görə-görə öz çürük hakimiyyətlərini qoruyub-saxlamaq naminə Moskvanın göstərişlərinə kor-korana şəkildə tabe olur, beləliklə də, erməni planlarının həyata keçməsinə şərait yaradırdılar. Ermənilərin özləri etiraf etmişdilər ki, əgər Azərbaycanın o vaxtkı rəhbərliyi Ermənistandan qovulan azərbaycanlıları Dağlıq Qarabağa yerləşdirməyə başlasaydı, ermənilər bu prosesi dayandırmağa məcbur olacaqdılar. Bax, burada Ə.Vəzirovun, A.Mütəllibovun və E.Qafarovanın Azərbaycan xalqına qarşı tarixi xəyanəti bir daha aşkar olur.

**İkincisi.** Azərbaycanın o vaxtkı yerli rəhbərləri xalqın qanına nə qədər susamışdılarsa, 20 Yanvar faciəsindən sonra da ancaq öz hakimiyyətləri haqda fikirləşirdilər.

Onlardan heç biri istefa vermədi. Əksinə plenum çağırıb yeni I katib seçdilər, fövqəladə vəziyyəti uzatdılar, sovet qoşunlarının Bakıya yeridilməsinə, xalqı qırmasına bəraət qazandırdılar. Beləliklə, Azərbaycanın Ə.Vəzirov və A.Mütəllibov başda olmaqla o vaxtkı rəhbərliyi antixalq mövqe tutdu və Azərbaycan xalqına qarşı qırğınlar törədilməsinə, torpaqlarımızın işğal olunmasına, respublikanın mənəvi-psixoloji cəhətdən böyük sarsıntılara məruz qalmasına şərait yaratdılar. Onlar Yanvar və Xocalı faciəsinin həm iştirakçısı, həm də vasitəçisi olmuş və bu qırğınlara bilavasitə şərait yaratmışdılar. Ona görə də 20 Yanvar faciəsinin ikinci əsas günahkarı respublikanın o vaxtkı rəhbərliyi hesab olunur.

**Üçüncüsü.** 20 Yanvar faciəsinin 3-cü qrup günahkarları Azərbaycan Xalq Cəbhəsinin bir çox liderləri idi.

O zaman meydanlara toplaşan, milli-azadlıq hərəkatına başlamış olan, milli müstəqillik istəyən xalqa rəhbərlik etmək, Ermənistan-Azərbaycan müharibəsində milləti səfərbər etmək üçün hər hansı bir siyasi təşkilatın yaradılması zəruri idi. Kommunist Partiyasının artıq siyasi səhnədən getdiyini, yeni bir təşkilatın yaranmasına ehtiyac olduğunu hiss edən xalq təbii ki, Xalq Cəbhəsinə maraq göstərir, onun liderlərinə rəğbətlə yanaşır və böyük ümidlər bəsləyirdi. Lakin SSRİ-ni dağıtmaq məqsədi güdən və bunun üçün də min cür fitnə-fəsad törədən, eləcə də Qarabağ "kartı"nı yenidən işə salan M.S.Qorbaçovun rəhbərlik etdiyi, istiqamətləndirdiyi SSRİ DTK-sı da öz işini görmüş, yuxarıdan xalqın başı üzərindən bir çox əlaltılarını 'lider" simasında xalq hərəkatına yeritmişdi. O vaxt xalq hərəkatının rəhbərlərindən biri olan Nemət Pənahlı bir dəfə mənimlə söhbətində dedi ki, M.S.Qorbaçov onun yanına şəxsən adam göndərmiş, Moskva üçün işləməyi təklif etmiş,

əvəzində ona hər cür vəzifə, deputat mandatı və s. vədlər vermişdi. Lakin Nemət Pənahlı razılaşmamış, elçini təhqir etmişdi. Xalq hərəkatı ilə Xalq Cəbhəsi arasında dərin ziddiyyət və uçurum var idi. Ona görə də hələ 1988-ci ildən xalq hərəkatı qarşıdurmalar, liderlərin bir-biri ilə yersiz mübahisələri, bir-birini günahlandırmaq və ya böhtan atmaq şəraitində inkişaf edirdi. Cəbhə liderləri özləri-özlərini açıqca hansısa kəşfiyyatın əlaltısı olmaqda günahlandırırdı. Xalq isə eşitdiklərinə sadəcə inanmaq istəmirdi. Bu, məsələnin bir tərəfi.

Məsələnin digər əsas tərəfi o idi ki, hadisələrin ilk anından xalqın istəyi ilə Cəbhə liderlərinin istəyi arasında ziddiyyət yaranırdı. Məsələn, xalq öz hərəkatına özünün içərisindən çıxmış Bəxtiyar Vahabzadə, Anar, Murtuz Ələsgərov, İmam Daşdəmirov, Ziya Bünyadov, Fərəməz Maqsudov, İsmayıl Şıxlı və b. hörmətli el ağsaqqallarının rəhbərlik etməsini istəyirdisə, Cəbhə liderləri onları "kommunist rejiminin yetişdirdiyi ziyalı" damğası ilə ləkələyib təhqir edir, zorla meydanlardan uzaqlaşdırırdı. Onlar özləri əsl vətənpərvər ziyalıları hərəkatdan kənarlaşdırır, daha sonra isə **"Ziyalılar passivlik edir",** - deyə şikayətlənirdilər. Bir faktı xüsusilə qeyd etmək istəyirəm ki, Xalq Cəbhəsi ilə xalq hərəkatı arasında anlaşılmazlığın ən əsas səbəblərindən biri də Heydər Əliyev şəxsiyyətinə münasibət idi. Meydanlara toplaşan, nə edəcəyini, hara gedəcəyini, erməni işğalından necə xilas olacağını bilməyən xalqın yeganə ümidi və pənahı hələ 1988-ci ildən Heydər Əliyev idi. Xalq nəzərini Moskvada yaşayan Heydər Əliyevə dikir, bu ağır məqamda ondan məsləhət almaq istəyirdi. Xalq Cəbhəsinin liderləri isə ayrı-ayrı mitinqlərdə **"o, "KQB" generalı olub, Kommunist Partiyasına xidmət edib"** - kimi cəfəng ifadələrlə xalqın inamına, iradəsinə qarşı çıxırdı. Xalqda sovet sisteminin müsbət və mütərəqqi olan bir çox cəhətlərinə daxili rəğbət var idi. Xalq Cəbhəsi liderləri isə ağına-bozuna baxmadan yaxın keçmişimizi lənətləyir, damğalayırdılar. Beləliklə, Xalq Cəbhəsi yarandığı gündən əsl vətənpərvər ziyalılarla onun liderləri arasında bir neçə prinsipial məsələdə dərin uçurum yaranmışdı və bunlara görə xalq bu qurumu heç vaxt qəbul edə bilməzdi. Xalq Cəbhəsi hakimiyyətə gəlmək üçün antikonstitusion üsul və vasitələrə əl atırdı. Əgər meydanlara toplaşan xalq yerindən-yurdundan didərgin olanların öz doğma torpaqlarına qaytarılmasını, torpaqlarımızın müdafiə olunmasını tələb edirdisə, Cəbhə liderləri "daxildə düşmən ovuna" çıxırdılar. Onların məqsədi əvvəlcə hakimiyyətə gəlmək, sonra isə torpaqlarımızı qorumaq idi. Ola bilsin ki, bir çoxu digər məqsədlər üçün hakimiyyətə can atmışdır. 1989-cu il-də və 1990-cı ilin əvvəlində Xalq Cəbhəsi liderləri ilə respublika rəhbərliyi arasında hakimiyyət uğrunda mübarizə kəskinləşdiyi vaxt ermənilər Qarabağda öz işlərini görməkdə idilər. 1990-cı ilin Yanvar hadisələri zamanı Azərbaycan xalqını qırmaq, onun gözünü qorxutmaq məqsədi güdən M.S.Qorbaçov, bax, bu daxili hakimiyyət mübarizəsi faktorundan istifadə edərək Azərbaycana qoşun yeritdi. Bu, cəbhəçilərin böyük taktiki səhvi idi. Adını "Xalq Cəbhəsi" qoymuş bir qurum milli mənafelər naminə xalq hərəkatını birləşdirməyə nail ola bilmədi. Çünki onların məqsədləri çox dayaz və məhdud idi. Bu gün bəziləri 20 Yanvar faciəsinin baş verməsində ona görə Xalq Cəbhəsinin liderlərini günahlandırır ki, onlar guya xalqı əliyalın tankların qabağına çıxarıblar. Xeyr, bu, Xalq Cəbhəsinin günahı deyildi. Əgər onlar xalqı səfərbər ediblərsə, bu, özlüyündə müsbət hal idi. Xalq Cəbhəsinin günahı onda idi ki, hadisələrin mahiyyətini dərk etmirdi, ətrafında gedən prosesləri anlamırdı və xalqı səhv yola istiqamətləndirirdi. Onlar bir tərəfdən deyirdilər ki, SSRİ imperiyadır, digər tərəfdən də xalqa toxtaqlıq verirdilər ki, qorxmayın, atəş açılmayacaq, qırğın olmayacaq. Qırğın baş verəndən sonra isə gah deyirdilər ki, biz gözləmirdik ki, sovet əsgərləri xalqa atəş açar, gah da deyirdilər ki, bu, xalq hərəkatı idi, xalq hərəkatı qırğınsız ola bilməz. Bu doğrudur ki, xalq hərəkatı qırğınsız, qansız ötüşmür. Amma o fikir də doğrudur ki, həqiqi xalq hərəkatında, müharibədə təkcə əsgərlər ölmür, komandirlər də həlak olur. Bəs bizim hərəkatda? Şeyx həzrətləri Allahşükür Paşazadə dəfn təşkil edən zaman Xalq Cəbhəsi liderlərindən heç biri onun ətrafında yox imiş. Təkcə İsa Qəmbər dəfndə iştirak etmək istəyib, onu da xalq dəfnə buraxmayıb. Xalq Cəbhəsi liderlərinin növbəti günahı xalqı matəm vəziyyətində qoyub qaçıb gizlənmələri oldu.

1990-cı il yanvarın 13-də Xalq Cəbhəsi Əbülfəz Elçibəy, Etibar Məmmədov, Rəhim Qazıyev, Nemət Pənahov və Xaliq Hacıyevdən ibarət Milli Müdafiə Şurası yaratmışdı. Lakin onun nə işlə məşğul olduğu heç kəsə belli olmadı. Onlar əhalidən pul yığırmışlar ki, guya silah alacaqlar və yaxud M.S.Qorbaçovu qətlə yetirəcəklər və s. Amma nə qədər silah aldıqları, ölən adamların müqabilində neçə sovet əsgəri öldürdükləri belli olmadı. Bəzən də liderlərin dilindən 20 Yanvar ərəfəsində ziddiyyətli fikirlər eşidilirmiş. Onlar

deyirmişlər: **"Pul gətirin, çoxlu silah alacağıq, DTK bizə silah verəcək!"**. Hansı DTK, sovet DTK-sı, yaxud Vaqif Hüseynovun rəhbərlik etdiyi Azərbaycan DTK-sı? Əhalinin güllənbaran ediləcəyi haqda Xalq Cəbhəsinin iki-üç üzvünü Azərbaycan KP MK-da II katib işləyən V.Polyaniçkonun xəbərdar etməsi və bu faciədə Xalq Cəbhəsinin radikal qanadının günahkar olması barədə bir neçə dəfə fikir söylənilmişdir.

Nəhayət, siyasi təşkilat kimi yaranan və qarşısına siyasi məqsədlər qoyan AXC-nin vahid konsepsiyası, planı, strategiya və taktikası yox idi. **Xalq Cəbhəsinin funksionerləri sözdə Əbülfəz Elçibəyin liderliyini qəbul etsələr də, əslində onların hərəsi özü üçün bir lider idi və heç biri o birisinin "ərizəsini oxumurdu"**. Xalq hərəkatının fəal iştirakçılarından Yusif Səmədoğlunun dediyi bu sözlər həqiqətdir **"1990-cı il yanvarın 19-u gecəsi Xalq Cəbhəsi İdarə heyətinin iclası keçirildi. Orada biz müzakirə edirdik ki, camaatı mitinqlərdən, şəhərin küçə və meydanlarından dağıdaq, ya dağıtmayaq. Hələ iclasdan əvvəl mən bir neçə yerdə, o zamankı Mərkəzi Komitə (hazırkı Prezident Aparatı) binasının qabağında, Tbilisi prospektində çıxış edib adamlara deyəndə ki, dağılın evlərinizə, onlar mənə dedilər: - Bizə Nemət Pənahov və o biriləri tapşırıblar ki, heç yerə tərpənməyin"... Göründüyü kimi, siyasi mübarizə aparan bir təşkilatın vahid proqramı, fikir birliyi yox idi. Vahid mərkəzdən idarə olunmurdu və vahid məqsədlərə də xidmət etmirdi. Lakin bu sözlər, yəni 20 Yanvarda AXC-ni günahlandırmaq üçün gətirilən bu arqumentlər, əlbəttə, bütün AXC üzvlərinə və ya sıravi üzvlərə şamil edilə bilməz, Yazov "Sovet Ordusu AXC-ni məhv etmək üçün Bakıya yeridilib"**, - desə də, onun cəza mexanizmi ancaq hərəkatda heç bir məqsəd güdməyən sıravi cəbhəçilərə tətbiq olundu. AXC liderlərinin başı hakimiyyət uğrunda mübarizəyə qarışdığı vaxt sadə cəbhəçilər Vətən torpaqlarını qoruyurdular. Ona görə də, biz bu sözləri yazmaqla Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparmış sıravi cəbhəçilərin fəaliyyətinə kölgə salmaq fikrindən uzağıq. Söhbət ancaq DTK xətti ilə hərəkata yeridilmiş və ələ alınmış Xalq Cəbhəsi liderlərinin günahından gedir. Onların rəyi, fikri və iradəsi ilə sadə cəbhəçilərin ideya və məqsədi həmişə fərqli olub**. Heydər Əliyevə qarşı 1987-ci il-dən sonra Moskvada kampaniyaya başlanılarkən və Azərbaycanın o vaxtkı rəhbərləri olan Ə.Vəzirov, A.Mütellibov və V.Hüseynov bu məsələlərdə M.S. Qorbaçovla həmrəy olarkən çox maraqlı məsələdir ki bəzi AXC liderlərinin də fikirləri onlarla üst-üstə düşürdü.** Lakin sıravi cəbhəçilər Heydər Əliyevə dərin məhəbbət bəsləyən xalqla həmişə bir olmuş, onun yenidən hakimiyyətə qayıtmasında fəal rol oynamışlar. Onlar Azərbaycanın milli-azadlıq hərəkatının lideri, milli müstəqilliyinin bayraqdan simasında həmişə Heydər Əliyevi görmüş və onu özlərinə şəriksiz lider hesab etmişlər. 1990-cı ilin iyununda Heydər Əliyev Vətənə dönən andan, hələ ondan da xeyli əvvəl, yəni milli müstəqillik hərəkatının başlandığı andan milli vətənpərvərlərin, həqiqi ziyalıların, geniş xalq kütlələrinin əvəzolunmaz lideri idi. Dəxli yox idi, o, hakimiyyətə qayıtdı, ya qayıtmadı. **Çünki xalq, seçmə ziyalılar Heydər Əliyev Moskvada olanda Moskvaya, Naxçıvanda olanda isə Naxçıvana - onun yanına məsləhətə gedirdilər. Təkcə Ə.Vəzirov, A.Mütəllibov, V.Hüseynov və onların komandasından, bir də bəzi Cəbhə liderlərindən başqa, bütün Azərbaycan xalqı ən çətin anlarında xilaskar simasında yeganə ümummilli liderimiz Heydər Əliyevi görmüşdür.**

Göründüyü kimi, bəzi Cəbhə liderləri də mələk donuna bürünərək öz fəaliyyətləri ilə məlum ssenarilərin həyata keçirilməsində M.S.Qorbaçova və erməni diasporuna yardımçı olmuşlar.

## 20 YANVAR HADİSƏLƏRİNƏ HÜQUQİ-SİYASİ QİYMƏTİN VERİLMƏSİ

20 Yanvar faciəsinin başvermə səbəbləri və əsas günahkarlarının müəyyən edilməsi, eləcə də bu hadisədən ibrət dərsləri çıxarılması olduqca vacib əhəmiyyət daşıyır. Baş verdiyi gündən bu günədək 20 Yanvara siyasi qiymət verilməsi məsələsində Azərbaycanda iki əsas meyl olmuşdur. O şəxslər və ya qruplar ki, 20 Yanvar faciəsində günahkar tərəflərdir və ya onların tərəfdarlarıdır, onlar bu hadisəyə ya vaxtında qiymət verməmişlər, yaxud da yanlış siyasi qiymət vermişlər. **Ayaz Mütəllibovun və Xalq Cəbhəsinin hakimiyyəti dövründə bu hadisə həmişə sükutla qarşılanıb. Hələ 1990-cı il yanvarın 22-də Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar fövqəladə sessiyası çağırılaraq orada 20 Yanvara siyasi qiymət verilməsi məsələsi ortaya atılanda hadisələrdə şəxsi iştirakı və günahı olan Ayaz Mütəllibov və onun komandası bu işi pozmaq üçün**

**dəridən-qabıqdan çıxmışdı.** Ali Sovetin o vaxtkı sədri **Elmira Qafarova** özü sessiya çağırmalı olduğu halda, əksinə, hər vasitə ilə **"sessiyanın gündəliyi bir ay öncədən elan olunmalıdır", "kvorum yoxdur"** və s. deyərək onu pozmaq istəmişdi. Azərbaycan DTK-sının o dövrdəki sədri Vaqif Hüseynov sessiya keçirilən vaxt ayrıca otaqda əyləşib, onun normal şəraitdə işləməsinə mane olur. tez-tez MK katiblərini yanına çağırıb onlara Ayaz Mütəllibovdan və Polyaniçkodan aldığı tapşırıqları verirmiş. **Lakin bütün bunlara baxmayaraq, 1990-cı il yanvarın 22-də xalq şairi Bəxtiyar Vahabzadənin şəxsi təşəbbüsü və radioda çıxışı ilə fövqəladə sessiya çağırıldı. İsmayıl Şıxlı, Anar, Elçin, Almaz Hacıyeva, Zeynəb Xanlarova, Qədir İsmayılzadə, Aslan Nəsibov, Çingiz Həsənov və başqaları deputatların Ali Sovetə toplaşmasını təmin etdilər.** Bir tərəfdə sessiyanın işini pozmağa çalışan, 20 Yanvar faciəsini ört-basdır etməklə cinayətkarları təmizə çıxarmaq istəyən satqın partnomenklatura deputatları, digər tərəfdə isə Vətənini sevən, bu faciəni dünyaya bəyan etmək istəyən, Azərbaycanın müstəqilliyini, sovet qoşunlarının respublikadan çıxarılmasını tələb edən vətənpərvər deputatlar dayanmışdı. İkincilər sessiyada üstünlük qazandılar və həmin sessiyada **"Bakıda fövqəladə vəziyyətin elan edilməsi ilə əlaqədar Mixail Qorbaçovun imzaladığı fərmanın icrasının dayandırılması haqqında", "Yanvarın 19-da başlanan hadisələrin gedişində hərbi hissələrin qanunsuz hərəkətləri haqqında", "Qoşunların şəhərdən çıxarılması haqqında", "Bakıya qoşun yeridilməsi ilə əlaqədar faciənin törədilməsi şəraitini və səbəblərini təhqiq etmək üçün deputat-istintaq komissiyasının yaradılması haqqında"** qərarlar qəbul edildi. Orada həmçinin **"Dünya xalqlarına və parlamentlərinə müraciət"** də qəbul olundu. Ağır şəraitdə keçən bu sessiyada məhdud xarakter daşısa da, 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verildi. **Fövqəladə sessiyanın qərarına əsasən, SSRİ Ali Sovetinin üzvü, kimyaçı - alim Midhət Abbasovun sədr və BDU-nun hüquq fakültəsinin dekan müavini, Azərbaycan Xalq Cəbhəsi Ali Məclisinin sədri Tamerlan Qarayevin isə müavin olduğu, həmçinin tərkibinə 21 rəsmi şəxsin, o cümlədən 3 nəfər Xalq Cəbhəsi nümayəndəsinin daxil olduğu komissiya yaradıldı.** Komissiyanın işinə riyaziyyatçı - alim Əfruz Məşi qızı Eyvazova, DİN müstəntiqləri Zəlimxan Kərim oğlu Hüseynov və Taqiət Əli oğlu Zeynalov, hüquqşünas Aydın Alim oğlu Rəsulov, kimyaçı Səftər Məmməd oğlu Nəhmətov da könüllü olaraq yaxından kömək edirdi. Komissiya 1991-ci il yanvar ayının 20-dək, yəni bir il müddətində bu hadisəni araşdırıb ilkin hesabat təqdim etməli idi. Lakin hesabat hazırlanıb həmin vaxt başa çatdırılmadı. Onlar süründürməçilik edərək faciənin törədilməsinin əsl günahkarlarını ört-basdır etmək yolunu tutdular. **Yalnız 2 il-dən sonra - 1992-ci il yanvarın 19-da Milli Məclisin iclasına səthi məlumat çıxardılar. Milli Məclis isə kimlərisə faciənin günahkarı kimi ittiham etmək əvəzinə, komissiya üzvlərinə heç bir iş görməyə-görməyə təşəkkür elan etdi. Heydər Əliyev bu məsələdən bəhs edərkən 19 yanvar 1992-ci ildə - Xalq Cəbhəsi dövründə 20 Yanvar faciəsi haqqında qəbul olunmuş qərarı Azərbaycan xalqına qarşı 20 Yanvar faciəsi qədər böyük bir xəyanət adlandırmışdı.**

Yanvar faciəsinin 3-cü ildönümü də sükutla qarşılanıb, Azərbaycan rəhbərliyinin məsuliyyətinin üstündən keçilib. Beləliklə, vaxtında hüquqi-siyasi qiymət verilmədiyinə və cinayətkarlar aşkar olunub cəzalandırılmadığına görə həmin proseslərin davamı kimi Xocalı soyqırımı baş verdi.

20 Yanvara hüquqi-siyasi qiymət verilməsinə Azərbaycan KP MK aparatının ilk partiya təşkilatı tərəfindən də təşəbbüs göstərilmişdi. **KP MK aparatının sıravi işçiləri Çingiz Həsənov, Aslan Nəsibov və Novruz Ramazanov faciə gününün səhərisi MK aparatına (indiki Prezident Aparatı) gəlmiş, bütün işçilərin evlərinə zəng vuraraq aparata çağırmış, ilk partiya təşkilatının yığıncağını keçirmiş, orada Ə. Vəzirovun Sov.İKP sıralarından azad edilməsi və cinayət məsuliyyətinə cəlb olunması məsələsini qoymuş, 20 Yanvara siyasi qiymət verilməsini tələb etmişlər**. Lakin sıravi işçilər tərəfindən qaldırılmış bu təşəbbüs yuxarı pillə rəhbər işçiləri tərəfindən soyuqqanlılıqla ört-basdır edilmişdi.

Faciəyə hüquqi-siyasi qiymət verilməsi təşəbbüsü 1990-cı il yanvar ayının 24-25-də keçirilən Azərbaycan KP MK-nın plenumunda da qaldırılmışdı. **İsmayıl Şıxlı, Mirzə İbrahimov, Aqşin Əlizadə, professor Ağalar Abbasbəyli, İmran Mehdiyev, D. Aslanov, T. Rzayeva və b. 20 Yanvara partiya qiyməti və siyasi qiymət verilməsini təkidlə tələb etsələr də, A. Mütəllibov, V. Polyaniçko və V. Hüseynov buna imkan vermədilər.**

Onlar hüquqi-siyasi qiymət verilməsi məsələsinə ötəri toxunub təşkilati məsələni ortaya ataraq **82 səslə Ayaz Mütəllibovu M.S.Qorbaçovun tövsiyəsi ilə Azərbaycan KP MK-nın birinci katibi seçdilər**. Beləcə, Ayaz Mütəllibov Azərbaycan xalqının düşməni, cəllad M.S.Qorbaçovun tövsiyəsi ilə respublikanın yeni rəhbəri təyin edildi. Lakin plenumda demokratik əhval-ruhiyyəli kommunistlərin təkidi ilə komissiya yaradıldı. **Bu komissiyaya Əfrand Daşdamirov sədrlik edirdi (üzvləri R.Əhmədov, N. Axundov, N.Babayev (Xəzri), İ.Qolovina, A.Nəsibov, T.Rzayeva, İ.İsmayılov, Z.Hüseynzadə) və onun vəzifəsi 20 Yanvar faciəsinin səbəblərini təhqiq etmək idi**.

1991-ci il martın 31-də keçirilən Azərbaycan KP MK-nın plenumunda faciəni araşdıran komissiyanın hesabatı dinlənildi. Ə.Daşdəmirov özünün quraşdırdığı suallar əsasında belə bir nəticə çıxardı ki, həmin vaxt fövqəladə tədbirlərin görülməsi tələb edilirdi. Ayaz Mütəllibovun və M.S.Qorbaçovun rəyi ilə üst-üstə düşən bu çıxışa görə, guya o vaxt xalq və millət parçalanmışdı, millətin daxilində toqquşma var idi və ona görə də fövqəladə vəziyyət labüd idi. Ə.Daşdəmirovun bu məlumatı haqqı tapdalanan xalqa mənəvi böhtan idi. Nahaq yerə qırılan da, günahkar olan da Azərbaycan xalqı idi, özü də öz "ideoloqlarımız"ın əli ilə.

**1990-cı il yanvarın 24-də keçirilən Azərbaycan KP MK-nın plenumunda yaradılan ikinci komissiyaya isə R.Axundov rəhbərlik edirdi və onun əsas vəzifəsi Ə.R.Vəzirovun Azərbaycan KP MK-nın birinci katibi işlədiyi müddətdəki fəaliyyətini yoxlamaq idi. Bu komissiyanın Ə. Vəzirovun fəaliyyəti haqqında hazırladığı məlumata Azərbaycan KP MK-nın 2 iyun 1990-cı il tarixli növbəti plenumunda baxıldı və 20 Yanvar faciəsinin əsas günahkarlarından biri olan Ə.R.Vəzirova çox səthi cəza - uçot vərəqəsinə yazılmaqla ciddi (?!) töhmət verildi və o, Azərbaycan KP MK-nın üzvlüyündən azad edildi.**

Ayaz Mütəllibov Vəzirovun nəinki cinayətkar olduğunu sübut etdirmədi, hətta onu partiyada saxlamağı məsləhət bildi. Bu da təbii idi. Cinayətkar cinayətkarı ələ verməz.

Beləliklə, Azərbaycan KP MK-nın yanvar, mart və iyun plenumlarında Yanvar faciəsinə hüquqi-siyasi qiymət verilmədi və bunların nəticəsi olaraq növbəti faciələr baş verdi.

**Hadisəyə hüquqi-siyasi qiymətin verilməməsinin nəticəsi idi ki, 20 Yanvar faciəsinin günahkarları içərisində öz rolu və xidmətləri olan bəziləri bu gün də tez-tez Rusiyaya gedir, əvvəlki partiya silahdaşları ilə görüşüb xalqımıza qarşı yeni planlar hazırlayır**. O vaxt "qoşunlar bir az da gec gəlsəydi, daha böyük fəlakətlər olacaqdı, bir nəfər kommunist də partiya biletini saxlamayacaqdı" kimi sözləri deyən kommunistlər, görəsən, hansı mənəvi haqla bu gün də öz siyasi fəaliyyətlərini davam etdirirlər?!

Hadisəyə vaxtında hüquqi-siyasi qiymət verilməməsinin nəticəsidir ki, faciələrimizin bir çox günahkarları bu gün də müxtəlif dövlət vəzifələrində oturub eyni **"qeyrət"** və **"məharətlə"** xalqımızın qanını sorur, iqtisadi islahatların, müstəqil dövlət quruculuğumuzun gedişinə mane olurlar. Onlar tədricən müəyyənləşdirilib kənarlaşdırılmalı, milli ruhlu, vətənpərvər, Vətənimizin faciələrinə dözməyərək öz səslərini vaxtında çıxarmış, torpaqlarımızın müdafiəsində canla-başla vuruşmuş, dövlətçiliyimizə sədaqətli kadrlarla əvəz olunmalıdır. Belələri isə cəmiyyət içərisində də, sağlam siyasi partiyaların cərgəsində də, elm xadimləri və digər ziyalılar arasında da çoxdur.

1990-cı il 20 Yanvar faciəsini araşdırmağı qarşısına məqsəd qoymuş bir çox digər komissiyalar da yaranmışdı. Onlardan Helsinki müşahidə qrupu, SSRİ Ali Sovetinin üçüncü sessiyasının qərarına əsasən yaradılmış hərbi prokuror Katusevin rəhbərliyi və Bakı qarnizonunun prokuror müavini V.Medvedevin iştirakı ilə SSRİ Hərbi Prokurorluğunun komissiyası, V.Q.Titovun başçılıq etdiyi Dövlət Təhlükəsizlik Komitəsinin istintaq qrupu da 20 Yanvara hüquqi-siyasi qiymət verə bilməmiş, cinayətkarları məsuliyyətə cəlb etməmişdi. **Yalınız hərbçi ailələrini müdafiə məqsədi ilə yaradılan "Şit" adlı istintaq qrupu 1990-cı ilin yanvarında Bakıda fövqəladə vəziyyətin elan olunması və hərbi qoşun yeridilməsi üçün əsas olmadığı qənaətinə gəlmiş və sabiq SSRİ müdafiə naziri D.Yazova qarşı ittiham irəli sürmüşdü**. Bu qrup onu Beynəlxalq Hərbi Tribunalın nizamnaməsinin 6-cı maddəsini pozmaqda, həmçinin Azərbaycan SSR Cinayət Məcəlləsinin şəxsiyyətə qarşı cinayətlərə aid maddələrinə düşən hərbi cinayət işlətməkdə günahlandırmışdı. Aydındır ki, təkcə Yazov özbaşına Bakıya qoşun yeridə bilməzdi. Ümumiyyətlə, bu beş araşdırma komissiya-sının heç biri 20 Yanvar faciəsinə əsl qiymət verə bilməmiş, onun günahkarlarını tam açıqlamamışıdır.

20 Yanvar faciəsinin, eləcə də digər faciələrimizin başvermə səbəblərini, onun əsas günahkarlarını tam dolğunluğu ilə açan, müqəssirləri bütün dünyada ifşa edən, qatil kimi tanıtdıran, eyni zamanda bu ümumxalq faciəsinə hüquqi-siyasi qiymət verilməsinin təşkilatçısı və rəhbəri ümummilli liderimiz Heydər Əliyev olmuşdur.

**Heydər Əliyev hələ 1990-cı il yanvarın 21-də, yəni faciənin sabahsı günü Moskva ətrafındakı bağlardan birində müalicədə ola-ola, xəstə vəziyyətdə oğlu İlham Əliyev və qızı Sevil Əliyeva, eləcə də kürəkəni Mahmud Məmmədquliyev və nəvələri ilə birlikdə Moskvadakı Azərbaycan SSR-in daimi nümayəndəliyinə gəlib, Azərbaycan xalqına baş-sağlığı verib və mətbuat konfransı keçirdi**. Sonra da Arxangelsk televiziyasına müsahibə verdi. Heydər Əliyev daimi nümayəndəlikdə keçirdiyi mətbuat konfransındakı çıxışında bu faciənin Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələrlə birbaşa əlaqədar olduğunu, üstündən iki il keçməsinə baxmayaraq, bu sahədə ölkənin ali siyasi partiya rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlərin görülmədiyini qeyd edərək, məhz bunların nəticəsində çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilənin baş verdiyini bildirdi. Bütün bunlar üçün isə ilk növbədə Azərbaycan KP MK-nın sabiq birinci katibi Ə.Vəzirovun günahkar olduğunu elan etdi.

Heydər Əliyev 20 Yanvar faciəsinin baş verməsinin əsas günahkarları haqqında deyirdi**: "Bunlar üçün ilk növbədə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin artıq sabiq birinci katibi Vəzirov müqəssirdir. Bu yüksək vəzifədə olduğu müddətdə o, Azərbaycandakı vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə, özünün səhv addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurum yaratmışdır. Xalq isə hiddətlənmişdir. Elə buna görə də Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında aylarla davam edən mitinqlərdə dəfələrlə Azərbaycanın partiya rəhbərliyinin istefası tələbi irəli sürülmüşdür. Söhbət əslində Vəzirovun istefasından gedirdi. Bəs məsələ indiyə kimi niyə həll olunmamışdır? Yalnız dünən Bakı şəhərinə ordu yeridildikdən, qırğın və dağıntılar baş verdikdən sonra Vəzirov Azərbaycandan, əslində, qaçmışdır. Bu, böyük səhvdir. Ən böyük səhv, sözsüz ki, qeyri-ciddi, bu yüksək vəzifəyə əsla yaramayan adamın bir vaxt Azərbaycan KP MK-ya birinci katib təyin edilməsi idi".**

Göründüyü kimi, Heydər Əliyev sərt ittihamla həm ölkənin ali siyasi partiya rəhbərliyini, yəni M.S.Qorbaçovu, həm də Azərbaycan rəhbəri Ə.R.Vəzirovu bu qırğında ilk növbədə günahkar sayırdı.

**Daha sonra, yəni Heydər Əliyev 1990-cı ilin iyununda Naxçıvana qayıtdıqdan və 1991-ci il sentyabr ayının 3-də Naxçıvan MR Ali Məclisinin sədri seçildikdən sonra 20 Yanvara daha əhatəli hüquqi-siyasi qiymət verilməsi üçün şərait yarandı**. Həmin il noyabr ayının 21-də Heydər Əliyevin öz əli ilə yazdığı və Naxçıvan MR Ali Məclisi tərəfindən qəbul olunmuş müvafiq qərarda 20 Yanvarın Milli Matəm günü kimi qeyd olunması qərara alınmışdı. Faciənin əsas günahkarları adbaad sadalanmış və onların birbaşa məsuliyyət daşıdıqları göstərilmişdi. Həmin sənəddə o vaxt hakimiyyətdə olan həm mərkəzi dövlət rəhbərləri - SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri M.S.Qorbaçovun, Sov.İKP MK-nın katibi Girenkonun, SSRİ müdafiə naziri D.Yazovun, SSRİ daxili işlər naziri V.Bakatinin, Sov.İKP MK-nın məsul işçisi Mixaylovun, həm də respublikada hakimiyyətdə olan Azərbaycan KP MK-nın birinci katibi Vəzirovun, Azərbaycan KP MK-nın büro üzvləri Polyaniçkonun, Müslüm Məmmədovun, Vaqif Hüseynovun, Nazirlər Sovetinin sədri A.Mütəllibovun adlarının çəkilməsi, xalqa qarşı həyata keçirilən bu siyasi və hərbi qəsd üçün cavabdeh olduqlarının və birbaşa məsuliyyət daşıdıqlarının heç nədən çəkinmədən qeyd olunması Heydər Əliyevin nə qədər cəsarətli və qorxmaz, Vətənini və xalqını sevən bir insan olduğunu, bu yolda ən ağır mübarizə-dən belə ehtiyat etmədiyini bir daha sübut etdi. Axı o, Sovet dövlətinin başçısı kimi tabeliyində böyük ordu olan M.S.Qorbaçovun qarşısında heç bir ordusu və silahlı qüvvələri olmayan Naxçıvan kimi kiçik bir vilayətin rəhbəri idi və belə qərar yazmaq həqiqətən cəsarət tələb edirdi. Həmin sənədin qərar hissəsində deyilirdi:

1. 1990-cı ilin yanvar ayında Bakı şəhərində törədilmiş qanlı hadisələr Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirilsin;

2. Dinc əhaliyə, silahsız kütlələrə, heç bir müqavimət göstərməyən günahsız adamlara qarşı müasir silahla, hərbi texnika ilə zorakılıq edilməsi, qocaların, qadınların, uşaqların qətlə yetirilməsi Azərbaycan xalqına qarşı açıq təcavüz kimi ittiham edilsin;

3. Bir ilə yaxın vaxt keçməsinə baxmayaraq, Bakı faciəsinə Azərbaycan SSR-in ali hakimiyyət orqanları tərəfindən siyasi qiymət verilməmişdir. Bununla əlaqədar yaradılmış deputat komissiyasının işinin qeyri-müəyyən səbəblərdən başa çatdırılmamasına, qanlı hadisələrin günahkarlarının aşkara çıxarılıb qanuni məsuliyyətə verilməməsinə qəti etiraz olunsun;

Azərbaycan SSR Ali Sovetindən tələb edilsin ki, ən qısa müddətə həmin məsələ parlamentin müzakirəsinə çıxarılsın;

4. Bu qərar qəbul edilən andan 20 Yanvar günü hər il Naxçıvan Muxtar Respublikasında Milli Matəm günü kimi qeyd olunsun;

5. Azərbaycan SSR Ali Sove-tindən xahiş edilsin ki, 20 Yanvar günü hər il Azərbaycan SSR-də Milli Matəm günü kimi qeyd edilsin.

O vaxt Bakıda ali dövlət hakimiyyətində yüksək vəzifələr tutan, lakin 1990-1993-cü illərdə deputat-istintaq komissiyasının üzvü olmuş, səsini çıxarmaqdan belə qorxan yüksək vəzifə sahiblərinə Heydər Əliyevin bu cəsarətli qərarı bir nümunədir.

1990-cı il 20 Yanvar faciəsinin ümumrespublika miqyasında hərtərəfli şəkildə qiymətləndirilməsi isə ancaq ulu öndər Heydər Əliyev 1993-cü ilin iyununda yenidən hakimiyyətə qayıtdıqdan sonra mümkün oldu. **1994-cü il yanvarın 5-də Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin verdiyi sərəncamda bu faciənin respublika miqyasında geniş araşdırılıb hüquqi-siyasi qiymət verilməsi tövsiyə olunurdu**. 1994-cü il yanvarın 12-də Heydər Əliyevin sədrliyilə 20 Yanvar faciəsinin 4-cü ildönümü ilə bağlı tədbirlərin hazırlanması və keçirilməsi üzrə dövlət komissiyasının geniş iclası oldu. Həmin iclasda Heydər Əliyev bildirdi ki, **"4 il keçəndən sonra da biz bu bəlanın başvermə səbəblərini və günahkarlarını dəqiq araşdıra bilməmişik"**.

Dövlət komissiyasının ciddi fəaliyyəti nəticəsində 1994-cü il mart ayının 29-da Azərbaycan Respublikası Milli Məclisi **"1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında"** qərar qəbul etdi. Qərarda 20 Yanvar faciəsi qabaqcadan şüurlu surətdə planlaşdırılmış və vəhşicəsinə həyata keçirilmiş cinayət aktı kimi qiymətləndirilirdi. Orada qeyd olunurdu ki, qoşunların Bakıya yeridilməsi Azərbaycan xalqının gözünü qorxutmaq, milli-azadlıq hərəkatını boğmaq məqsədinə xidmət etmişdir. Əsas məqsəd Azərbaycanda xalq hərəkatına zərbə vurmaq, mövcud olan rejimin dağılmasına yol verməmək və istiqlaliyyət uğrunda mübarizə aparan qüvvələri məhv etmək olmuşdur.

Qərarda bu faciənin əsas günahkarları sırasında SSRİ prezidenti M.S.Qorbaçov. SSRİ müdafiə naziri Dmitri Yazov. daxili işlər naziri Vadim Bakatin və başqaları qeyd olunurdu. Orada Azərbaycan rəhbərlərindən Azərbaycan KP MK-nın birinci katibi Əbdürrəhman Vəzirov. Azərbaycan KP MK-nın ikinci katibi Viktor Polyaniçko. Azərbaycan SSR Nazirlər Sovetinin sədri Ayaz Mütəllibov. Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinin sədri Vaqif Hüseynov. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri ***Elmira Qafarova***, Azərbaycan KP Bakı Şəhər Komitəsinin birinci katibi **Müslüm Məmmədov,** MK katibi Əfrand Daşdəmirov. Ali Sovetin 1990-cı il 22 yanvar fövqəladə sessiyasında yaradılmış deputat-istintaq komissiyasının sədri Midhət Abbasov və başqaları günahlandırılırdı.

Qərarda həmçinin 1990-cı il 20 Yanvar hadisələrindən ötən 4 il ərzində respublika hüquq-mühafizə orqanlarının keçmiş rəhbərlərinin bu cinayətin istintaqı ilə bağlı fəaliyyəti yarıtmaz hesab edilmiş, cinayətkar şəxslərin müqəssirlik dərəcəsinin müəyyənləşdirilməsində hüquq-mühafizə orqanlarının fəaliyyəti qeyri-qənaətbəxş qiymətlən-dirilmişdir.

Beləliklə, yalnız və yalnız Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması ilə faciələrimizin səbəblərini araşdırmaq, onlara hüquqi-siyasi qiymət vermək, günahkarları cəzalandırmaq, bu əsasda isə bütövlükdə bu hadisələrdən ibrət dərsi götürmək üçün şərait yaranmışdır.

## YANVAR FACİƏSİNİN ƏSAS İBRƏT DƏRSLƏRİ

Hər hansı bir tarixi hadisə ibrət dərsi götürülmədikdə yaddaşlar-dan tez silinir. 1990-cı il Yanvar faciəsinin Azərbaycan tarixi üçün çox böyük ibrət dərsləri var. Yanvar faciəsinin ən əsas ibrət dərsi Azərbaycanın dövlət müstəqilliyinin zərurət olmasını xalqa anlatması oldu. Hər hansı xalq öz müstəqilliyini qoruya bilməsə, könüllü və ya zorla başqa imperiyaların, dövlətlərin tərkibinə qatılsa, **"böyük qardaş"** deyə, kiminsə qoltuğuna sığınsa, onu hər an Yanvar faciəsinə oxşar faciələr gözləyəcək. Belə olan hal-da hər hansı millətin müqəddəratı özü tərəfindən təyin olunmur, daxil olduğu dövlətin rəhbərliyinin iradəsindən, yəni tam subyektiv amillərdən, hisslər və emosiyalardan asılı qalır. **Məsələn, SSRİ dövründə Heydər Əliyevin yeritdiyi siyasət nəticəsində Sov.İKP MK-nın baş katibi Lİ.Brejnev və Y.V.Andropov Azərbaycana çox müsbət münasibət bəsləyirdilər və Azərbaycan onların dövründə həqiqətən xeyli inkişaf etdi.**

Amma sonralar, yəni M.S.Qor-baçov hakimiyyətə gələndən sonra Azərbaycana qarşı, eləcə də onun lideri olan Heydər Əliyevə qarşı təxribatlar törədildi. Heydər Əliyev heç bir əsas olmadan istefa verməyə məcbur edildi, **200 mindən çox azəri öz dədə-baba torpaqlarından qovuldu, Dağlıq Qarabağda ermənilər yenidən baş qaldırdılar və 20 Yanvar faciəsi törədildi**. Bütün bunlar onu sübut edir ki, hər hansı bir millət öz müqəddəratını özü müəyyən etməli, öz dövlətini, öz ordusunu, öz iqtisadiyyatını yaratmalı, müstəqil daxili və xarici siyasət yeritməlidir. Əgər ermənilərin torpaqlarımıza təcavüzü zamanı Azərbaycanın öz milli ordusu olsaydı, öz sərhədlərini özü qorusaydı, torpaqlarımız bu qədər asanlıqla işğal edilməz, xalqımız bu qədər təhqir olunmazdı. **Ona görə də Azərbaycanın müstəqilliyi mütləq zərurətdir. Dahi öndərimiz Heydər Əliyev bütün çıxışlarında bu məsələyə xüsusi toxunaraq bəyan edirdi ki, Azərbaycanın dövlət müstəqilliyi sarsılmazdır, əbədidir və heç bir vaxt heç bir kənar qüvvə müstəqilliyimizi dağıda bilməz**. Bu sözlər bu gün qarşısına müxtəlif siyasi məqsədlər qoymuş partiyalara ciddi bir xəbərdarlıqdır. O partiyalar ki Azərbaycanın dövlət müstəqilliyini qəbul etmir və hər hansı şəkildə onu hansısa gələcək imperiyanın tərkibində təsəvvür edir, belə partiyalara bizim müstəqillik və demokratik inkişaf yolunu tutmuş gənc respublikamızda yer ola bilməz. Həmçinin o partiyalar ki bu gün də ancaq xarici dövlətlərin çaldığı hava ilə oynayır, xaricə kor-koranə aludəçilik edir, xaricdən dəstək alır, maliyyələşir və s. onlar da vaxtında aşkar edilib ifşa olunmalıdır.

Azərbaycanın müstəqil olması onun hansısa regional və ya beynəlxalq birliklərə inteqrasiya proseslərində iştirak etməsini istisna etmir. **Məlumdur ki, Azərbaycan Müstəqil Dövlətlər Birliyinin, İslam Konfransı Təşkilatının, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvüdür**. Lakin bu təşkilatların üzvü olması Azərbaycanın hər hansı şəkildə suveren hüquqlarını məhdudlaşdıra bilməz. Hər hansı yeni birlik forması ancaq və ancaq dövlətlərin bərabərhüquqlu olması və suverenliyinin qorunması şərti ilə mümkün ola bilər. Beləliklə, biz 20 Yanvar faciəsi tipli gələcək faciələrdən qaçmaq üçün mütləq öz müstəqilliyimizi əsrbəəsr, nəsilbə-nəsil qorumalı və bu yolda mübarizə aparmalıyıq.

20 Yanvar faciəsinin ikinci ibrət dərsi hakimiyyətsizliyin və rəhbərsizliyin verə biləcəyi nəticələri xalqa anlatması oldu. 20 Yanvar, eləcə də hər hansı digər faciələrimiz Hakimiyyətsizlikdən törənib. Xalqa, dövlətə və millətə ancaq milli dəyərlərdən qaynaqlanan, xalqın içərisindən çıxmış, demokratik yolla seçilmiş şəxslər rəhbərlik etməlidir. Əgər millətə və ya xalqa öz xalqını sevən, vətənpərvər adamlar rəhbərlik edərsə, onda o xalq və ya millət, hətta müstəqil olmadıqda belə, öz milli mənafelərini təmin edə bilər. Erməni tarixi belə misallarla zəngindir. **Fars, Bizans türk, rus imperiyalarından ermənilər ancaq milli mənafe baxımından istifadə etmişlər. Bizim Azərbaycan Respublikasında isə ancaq 1970-1980-ci illərdə Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə respublika SSRİ tərkibin-də tam müstəqil olmadığı halda belə çox böyük sıçrayışla irəliləmiş, Sovet İttifaqının böyük potensialından lazımınca bəhrələnmişdir.**

Əlbəttə, həmin vətənpərvər adamlar müstəqillik şəraitində dövlətə rəhbərlik edərsə, onda inqilabi sıçrayışlar baş verər, böyük xariqələr yaranar. Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi müstəqillik illərində təkcə Azərbaycan nefti ilə bağlı görülmüş işləri, bağlanmış müqavilələri qeyd etmək kifayətdir. Bu müqavilələrin həyata keçməsi ilə respublikamızın siması inanılması mümkün olmayan dərə-cədə dəyişəcək, o, dünyanın zəngin ölkələrindən birinə çevriləcək, əhalimizin, xalqımızın rifah halı, potensialı tam yüksələcəkdir. Xüsusilə keçid dövrlərində, dövlət öz müstəqilliyini yenicə qazandığı dövrdə xalqa onun əksəriyyətinin inandığı, sevdiyi

və arxasınca getdiyi adamlar rəhbərlik etməlidir. Yalnız belə şəxslər ölkəni fırtınalar və qasırğalardan çıxarıb müstəqillik yolu ilə inamla apara bilər, ölkədə vətəndaş həmrəyliyi, siyasi sabitlik və əmin-amanlıq bərqərar olar. Hamının və ya əksəriyyətin qəbul etmədiyi şəxs hakimiyyətə gəldikdə isə ölkədə özbaşınalıq, anarxiya, hərc-mərclik baş qaldırar ki, bunun da nəticəsində məlum faciələr törənər. 1988-ci il-dən sonra respublikamızda baş verən hadisələr şəksiz şəkildə sübut etdi ki, zorla, qeyri-qanuni yollarla, millətin, xalqın qanı hesabına hakimiyyətə gəlmək olar, lakin onu əldə saxlamaq olmaz. Ə.Vəzirov M.S.Qorbaçov tərəfindən xalqın başı üstündən hakimiyyətə gətirilmişdi. Ona görə də 1990-cı ildə öz xalqını qırdırıb Moskvaya qaçdı. Ayaz Mütəllibov 1990-cı il 20 Yanvarda şəhidlərin cəsədləri üstündən keçib hakimiyyətə gəldi və 1992-ci ilin martında da gəldiyi qayda ilə qaçıb Moskvada gizləndi.

1992-ci ilin mayında AXC qeyri-demokratik yolla, alternativsiz, xalqın əksəriyyətinin Heydər Əliyevi istədiyi, tələb etdiyi bir şəraitdə, siyasi fəallıq edərək hakimiyyəti zəbt etmişdi. Xalqın Heydər Əliyevi hakimiyyətə gətirmək haqqında qanuni tələblərini qulaqardına vurmaqla hakimiyyətə gələn Xalq Cəbhəsinin hakimiyyətinin ömrü heç bir il də çəkmədi. 1993-cü ilin iyun Gəncə qiyamı nəticəsində Cəbhə hakimiyyətinə son qoyuldu. 1993-cü ildə ölkədə vətəndaş müharibəsi başlandı, siyasi sabitlik pozuldu və dövlətin tamamilə dağılması təhlükəsi yarandı. Belə bir vaxtda Azərbaycan xalqının iradəsi və tələbi ilə, onun Vətənini sevən oğul və qızlarının təşəbbüsü və fəaliyyəti ilə Heydər Əliyev yenidən hakimiyyətə dəvət olundu. 1993-cü ilin oktyabr ayında o, alternativ qaydada, demokratik yolla Azərbaycan Respublikasının prezidenti seçildi. Heydər Əliyev prezidentliyi dövründə sübut etdi ki, dahi rəhbəri xalq özü seçib və bu dəfə də seçməkdə səhv etməyib. Digər tərəfdən isə son illərin təcrübəsi göstərdi ki, xalq özü seçdiyi rəhbərə inanır və ən ağır şəraitdə belə öz rəhbərini qorumağa, mühafizə etməyə qadirdir. 1994-cü ilin oktyabrında Surət Hüseynov dövlət çevrilişinə cəhd etmək istədikdə, Heydər Əliyevin gecə yarısı çağırışı ilə 100 mindən çox əhali maşınsız, miniksiz Prezident Aparatının qarşısına toplaşdı. Əgər 1993-cü ilin iyununda başlanan Gəncə qiyamı xalqın AXC-Müsavat iqtidarını müdafiə etmədiyinə görə qiyamçıların Bakıya qədər gəlməsi və AXC iqtidarının məhvi ilə nəticələndisə, 1994-cü ildə eyni məqsəd daşıyan S.Hüseynovun növbəti cəhdi xalqın iradəsinə və yardımına arxalanan Heydər Əliyev tərəfindən layiqincə dəf edildi.

**Əgər 1990-1993-cü illərdə "təyin olunmuş" rəhbərlər xalqın başına 20 Yanvar, Xocalı, Şuşa, Laçın kimi neçə-neçə faciələrin açılmasına şərait yaratdılarsa, bu əməllərin iştirakçısı oldularsa və onların bəd əməlləri nəticəsində torpaqlarımızın 20 faizi işğal edildisə, bir milyonluq qaçqın ordusu yarandısa və neçə-neçə əlavə faciələr törəndisə, Heydər Əliyevin 1993-cü ildə məhz xalqın iradəsi ilə hakimiyyətə gəlməsi ilə xalqımızı gözləyən növbəti fəlakətlərə son qoyuldu, siyasi sabitlik yarandı, torpaqlarımızın işğalı dayandırıldı, iqtisadi dağıntı prosesləri səngidi və ölkə dinamik inkişaf yoluna qədəm qoydu**. Məgər bunlar tarix-də şəxsiyyətin böyük roluna ən bariz misallar deyilmi? Məgər bunlar hakimiyyətsizliklə hakimiyyətin mövcudluğunun, rəhbərsizliklə rəhbər mövcudluğunun, həqiqi liderlə "mifik lider" obrazının fərqini anlamaq üçün kifayət etmirmi?! Beləliklə, 20 Yanvar faciəsindən, eləcə də digər faciələrimizdən doğan ən başlıca növbəti ibrət dərsi odur ki, xalqa onun öz içərisindən çıxmış və həmin dövlətə, onun müstəqilliyinə, çiçəklənməsinə, inkişaf etməsinə xidmət etmək istəyən şəxsiyyətlər rəhbərlik etməlidir, hansısa xarici dövlətlərin əlaltıları və ya fırıldaqçı maliyyə qruplarının, mafioz dairələrin başçıları yox. **Əgər 1988-ci ildə Ə.Vəzirov yox, Heydər Əliyev respublikamıza rəhbərliyə qaytarılsaydı, nə 1990-cı il Yanvar qırğını, nə Xocalı faciəsi, nə Şuşa, nə Laçın, ümumiyyətlə, heç bir faciələrimiz olmayacaq, torpaqlarımız işğal edilməyəcək və Dağlıq Qarabağ problemi də baş qaldıra bilməyəcəkdi**. Hətta cəsarətlə deyə bilərəm ki, heç Ermənistandan olan 200 mindən çox soydaşımız da öz dədə-baba torpaqlarını tərk etməyəcəkdi. Necə ki, Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması ilə Gürcüstandan Azərbaycana artıq başlamış olan axının qarşısı alındı, o adamların əlləri işə yatdı. Bu sadə həqiqətləri təkrarən yazmaqda məqsədim xalqın əksəriyyətinin bildiyi məlum hadisələri xatırlatmaq deyil, əksinə, bu gün də içərimizdə olan nankorları artıq baş vermiş olan bütün bu proseslərdən ibrət dərsi götürməyə çağırmaqdır. Onlar dərk etməlidirlər ki, faciələrimiz hakimiyyətsizlikdən və rəhbərsizlikdən törənib.

**Bu sadə həqiqətləri bir daha sadalamaqla bu gün də hakimiyyətə qeyri-qanuni yol və vasitələrlə can atan siyasi partiyalara onu xatırlatmaq istəyirəm ki, Qarabağ problemi olan, ərazisinin 20 faizinin işğal olunduğu, bir milyon qaçqının və köçkünün yaşadığı bir ölkədə Heydər Əliyev kimi ümum-milli bir liderin ətrafında qeyd-şərtsiz və təmənnasız şəkildə birləşmək lazımdır.** Hər hansı siyasi partiya liderinin və ya siyasi partiyanın Heydər Əliyev şəxsiyyətinə kölgə salmaq niyyəti varsa, onun Azərbaycanın gələcək siyasi mənzərəsində izi-tozu qalmayacaq. Bu, Azərbaycan xalqının iradəsi, istəyi və arzusudur. Türkiyədə mövcud siyasi partiyalar Konstitusiya və bir də Mustafa Kamal Atatürkün ideyaları əsasında fəaliyyət göstərdiyi kimi, Azərbaycanın siyasi partiyaları da dövlətimizin mövcud Konstitusiyası və Heydər Əliyev ideyaları əsasında fəaliyyət göstərməli, demokratik, hüquqi Azərbaycan dövlətini qurub inkişaf etdirməlidir. Başqa yol ola bilməz!

20 Yanvar faciəsinin növbəti ibrət dərsi həmrəyliyin, vətəndaş birliyinin hər cür hakimiyyətdən, o cümlədən siyasi hakimiyyətdən yüksəkdə olduğunu aşkar etməsidir. **Ümummilli mənafe olan yerdə şəxsi hakimiyyət mübarizəsinə qoşulmaq millətə, xalqa ən böyük xəyanətdir. Əgər Ə.Vəzirov, A.Mütəllibov və Xalq Cəbhəsi vaxtında ümum-milli mənafeləri əsas götürüb xalqın iradəsi əleyhinə getməsəydilər, bir-biri ilə əməkdaşlıq və həmrəylik nümayiş etdirə bilsəydilər və Heydər Əliyevlə əməkdaşlıq yolu tutsaydılar, onda milli birlik də vaxtında yaranar, erməni işğalının qarşısı yerindəcə alınardı. Bu gün müxalifət liderləri ümummilli birlikdən, vətəndaş həmrəyliyindən çox dəm vururlar**. Lakin özləri real hakimiyyətdə olduqları vaxt vətəndaş həmrəyliyi istiqamətində hansı real addımları atdıqlarından nədənsə söhbət acmırlar. Bizə milli birlik, vətəndaş həmrəyliyi lazımdır. Bizə yalnız Heydər Əliyevin ideyalarına sadiq olan və xalqın mənafeyini güdən mütərəqqi qüvvələrin, dövlətçiliyə sədaqətlə xidmət edən, mövcud Konstitusiyaya, qanunlara tabe olan siyasi partiyaların sağlam birliyi lazımdır, siyasi sabitlik naminə qeyri-sağlam qüvvələrin müvəqqəti "sazişi" yox. Belə "birlik" Azərbaycan xalqına, dövlətinə ancaq və ancaq gələcəkdə yeni faciələr gətirə bilər. Xalqımıza, dövlətimizə belə bir birlik lazım deyil.

20 Yanvar faciəsi sağlam vətəndaş həmrəyliyi və milli birlik ideyasının millət, xalq və dövlət üçün nə dərəcədə əhəmiyyətli olduğunu bir daha xalqımıza anlatdı.

Faciələrimizin tarixi sübut edir ki, milli birlik, vətəndaş həmrəyliyi olmadan xalqın sağlam hissəsinin və çoxluğun birliyinə arxalanmadan düşmən təcavüzünü dəf etmək mümkün deyildir. Vətənpərvər, demokratik insanlar bu gün hər bir siyasi partiyanın tərkibində vardır. Biz bu gün Kommunist Partiyası liderlərini 20 Yanvar faciəsində günahlandırarkən bir faktı da unutmamalıyıq ki, faciə baş verdiyi günün sabahısı əksər sıravi kommunistlər öz partiya biletlərini atmış və ya yandırmışlar. Azərbaycan Kommunist Partiyasının mərkəzi aparatında və eləcə də digər dövlət, hüquq-mühafizə orqanlarında əsasən aşağı rütbələrdə işləyən vəzifəli şəxslər arasında 20 Yanvar hadisələri zamanı ordunun törətdiyi cinayətləri pisləyən adamlar az olmamışdır. **Ermənilərin kommunistləri. sosialistləri. daşnakları və s. lazım gəldikdə milli mənafelər naminə bir bayraq altında birləşə bildikləri və bir-birinə kömək etdikləri halda, bizdə müxtəlif qruplar bir-birini günahlandıraraq, "sən kommunistsən", "sən cəbhəçisən", "sən YAP-çısan" deyə-deyə bir-birinə qarşı vuruşmuşlar.**

Eləcə də torpaqlarımızın müdafiəsi zamanı Vətənimizi təmənnasız qoruyan, bu yolda canlarını belə əsirgəməyən oğullarımız çox olmuşdur. Onlar bu gün də Heydər Əliyev siyasi kursunu bəyənir və milli dövlət quruculuğu prosesində namusla, fədakarlıqla iştirak edirlər. Biz ancaq bu cür adamların sağlam birliyinə, həmrəyliyinə əsaslanmalıyıq. Siyasi partiyalara, ictimai-siyasi təşkilatlara və cəmiyyətlərə gəldikdə isə bu gün həmin sferada gedən proseslər onu sübut edir ki, get-gedə cəmiyyət daha çox konstruktiv, sağlam, demokratik partiyalara üstünlük verir, radikal və dağıdıcı müxalifət qüvvələrindən isə imtina edir. Bu isə ölkədə siyasi sabitliyi təmin edəcək, milli həmrəyliyin tədricən də olsa yaranmasına şərait yaradacaqdır.

Digər qütbdə, yəni radikal müxalifət düşərgəsində isə 1992-1993-cü illərdə hakimiyyət uğrunda mübarizənin getdiyi dövrlərdə parçalanmaqda olan partiyalardır ki, bu gün onlar saxta birik nümayiş etdirməkdədirlər. Məlumdur ki, onları parçalayan səbəblər bu gün də qüvvədə qaldığından bu birləşmə də mümkün deyil. Müxalifət düşərgəsində lider, onları cəmləşdirə biləcək vahid başçı olmadığından. onların gələcəkdə hansısa vəzifəyə gəlmək naminə məcburən, könülsüz birləşmələri ilə həqiqi birlik və həmrəylik əldə

oluna bilməz. **Belə birlik və həmrəylik yeni-yeni surət hüseynovlar, rəhim qazıyevlər və əlikrəm hümbətovlar törədəcək. Xalqı isə yalnız bir dəfə aldatmaq olar.**

**Qafar Əliyev,**
YAP Siyasi Şurasının üzvü, siyasi elmlər namizədi

**"Azad Azərbaycan".** - 2007. – 17,19,23 yanvar. - N 6,7,8. - S. 4-5.

## Vaxtı ilə hakimiyyətdə olan qüvvələrin 20 Yanvar faciəsinə tam siyasi-hüquqi qiymət verməməsi xalqa qarşı xəyanət idi

### Yalnız Heydər Əliyev faciəyə əsl qiymətin verilməsi üçün bütün cəbhələrdə mübarizə aparırdı

**Şəhidlərin al qanı torpağa hopmayıb, yox,**
**Onun damarlarında dolaşır ildırım tək!..**

***Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrindən on yeddi il keçir. Artıq on yeddinci ildir ki, Azərbaycan xalqı bu faciənin ağrısı ilə yaşayır. Süquta məhkum olmuş sovet rejimi öz son günlərində bütün tarixi boyu törətmiş olduğu cinayətlər sırasına misli görünməmiş bir vəhşilik aktı da əlavə etdi. Həmin gün Sovet ordusu hissələri heç bir xəbərdarlıq edilmədən Bakı şəhərinə, eləcə də Azərbaycanın bir sıra digər şəhər və rayonlarına yeridilərək Ermənistanın respublikamıza qarşı ərazi iddialarının SSRİ rəhbərliyi tərəfindən açıq-aşkar dəstəklənməsinə və o zamankı Azərbaycan rəhbərlərinin xəyanətkar siyasət yerit-məsinə etiraz əlaməti olaraq ayağa qalxmış Azərbaycan xalqına vəhşicəsinə divan tutdu.***

Bakının zəbt olunması SSRİ DİN-in, DTK-nın və Sovet ordusunun hissələrilə müdafiə naziri Yazovun komandanlığı altında həyata keçirildi. Heç bir xəbər-darlıq edilmədən şəhərin mərkəzində, kənarlarında milliyyətindən, yaşından, cinsindən asılı olmayaraq əliyalın insanlara atəşlər açıldı. Öz konstitusiya hüquqlarının bərqərar edilməsi tələbi ilə çıxış edən dinc, silahsız əhali güllələbaran edildi. Yüzlərlə günahsız insan yaralandı və qətlə yetirildi. Hətta qadağan olunmuş silahlardan, güllələrdən də istifadə olunurdu. Müstəqillik eşqində olanlar arzularının müqəddəsliyinə və reallığına inanırdılar. Odur ki, nə tankların zəhmli gurultusundan, nə də onlara tuşlanan silahların soyuq lüləsindən qorxurdular. Əfsus ki, onların bir çoxuna müstəqilliyi-mizi görmək qismət olmadı. Sovet rejiminin bu qanlı terror aktı bütün dünyada qətiyyətlə pisləndi.

O ağır günlərdə 20 Yanvar faciəsi ətrafında xəyanət sükutunu ilk və mütəmadi olaraq yaran Heydər Əliyevin haqq səsi və dəyişməz mövqeyi oldu. Heydər Əliyev faciəyə münasibətinin hadisə baş verən günün ertəsi Moskvada Azərbaycanın daimi nümayəndəliyinin binasında, bütün vəzifələrdən kənarlaşdırıldığına, həyatının hər an təhlükədə olduğuna baxmayaraq, bildirmişdi. Qətiyyətlə bütün dünyaya faciənin hüquqi-demokratik prinsiplərə zidd olduğunu, Azərbaycan xalqına qarşı hərbi təcavüzün Sovet İttifaqı və Azərbaycan rəhbərliyi tərəfindən həyata keçirildiyini bəyan etmişdi: "Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm". Bəli, Heydər Əliyev totalitar rejimin hələ yaşadığı, qılıncının dalının da, qabağının da kəsdiyi bir vaxtda cəsarətlə bildirdi ki, bu təcavüz Azərbaycan xalqına qarşı cinayətdir və faciəyə siyasi qiymət verilməlidir. Az sonra Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsinə ilk siyasi qiymət verdi

**Naxçıvan MR Ali Məclisinin 21 noyabr 1990-cı il tarixli qərarından:**

"Yanvar faciələrinin səbəbkarlarının - istər İttifaq, istərsə də respublika rəhbər partiya, sovet, hüquq-mühafizə orqanı işçilərinin, hərbçilərin bu günədək aşkar edilib qanunla məsuliyyətə cəlb olunmaması xalqda dərin hiddət və etiraz doğurmuşdur.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bütün bunları işğalçı siyasət və dəqiq düşünülmüş hərbi təcavüz kimi qiymətləndirərək və«insan hüquqları bəyannaməsinin kobud şəkildə pozulması kimi nəzərdə tutaraq qərara alır:

*1. 1990-cı ilin yanvar ayında Bakı şəhərində törədilmiş qanlı hadisələr Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirilsin.*

*2. Dinc əhaliyə, silahsız kütləyə, heç bir müqavimət göstərməyən günahsız adamlara qarşı müasir silahla, hərbi texnika ilə zorakılıq edilməsi, qocaların, qadınların, uşaqların qətlə yetirilməsi Azərbaycan xalqına qarşı açıq təcavüz kimi ittiham edilsin.*

*3. Bir ilə yaxın vaxt keçməsinə baxmayaraq, Bakı faciələrinə Azərbaycan SSR ali hakimiyyət orqanları tərəfindən siyasi qiymət verilməməsi, bununla əlaqədar yaradılmış Xüsusi Deputat Komissiyasının işinin qeyri-müəyyən səbəblərdən başa çatdırılmaması, qanlı hadisələrin günahkarlarının aşkara çıxarılıb qanuni məsuliyyətə verilməməsinə qəti etiraz olunsun.*

*Azərbaycan SSR Ali Sovetindən tələb edilsin ki, ən qısa müddətdə həmin məsələni parlamentin müzakirəsinə çıxarsın.*

*4. Bu qərar qəbul edilən andan 20 Yanvar günü hər il Naxçıvan Muxtar Respublikasında Milli matəm günü kimi qeyd edilsin.*

*5. Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin ki, 20 Yanvar günü hər il Azərbaycan SSR-də Milli matəm günü kimi qeyd edilsin".*

Ulu öndər Heydər Əliyev Azərbaycan xalqına qarşı soyqırımı siyasətini həyata keçirməyə rəvac verənlərlə mübarizəsini ona qarşı az qala düşmən mövqe-də duran Ali Sovetdə və digər istiqamətlərdə də davam etdirirdi. Məhz Heydər Əliyev hər kəsə məlum olan qatillərin hüquqi müstəvidə aşkar olunmasını, faciəyə siyasi qiymət verilməsini tələb edirdi. Heydər Əliyevin Azərbaycan SSR Ali Sovetinin 7 mart 1991-ci il tarixli sessiyasındakı çıxışından: "1990-cı il yanvarın 20-də İttifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edilmişdir. Heç bir əsas olmadan, xəbər vermədən, dövlət qanunlarını kobudcasına pozaraq Bakı şəhərinə müasir silahlı Sovet ordusunun qoşun hissələri yeridilmiş, onlar vəhşilik, qəddarlıq etmiş, nəticədə nahaq qan tökülmüş, yüzlərlə adam həlak olmuş, xəsarət almış, itkin düşmüşdür. Təəssüf ki, bu təcavüz indiyə qədər davam edir. Bir ildən artıqdır ki, Azərbaycanın paytaxtı fövqəladə vəziyyət şəraitində yaşayır. Bizim sessiyamız da bu şəraitdə keçirilir. Bir ildən artıqdır ki, Azərbaycan xalqı şəhidlərə matəm saxlayır. Respublikanın şəhərlərində, qəsəbələrində, kəndlərində şəhidlərin xatirəsinə abidələr ucaldılır. Fəqət, qatillər indiyə qədər aşkar olunmayıb. Buna heç vəchlə bəraət qazandırmaq olmaz. Bu məsələ müzakirə olunmalıdır. 20 Yanvar faciəsinə Ali Sovetin sessiyası siyasi qiymət verməlidir, onun günahkarlarını müəyyən etməlidir".

Heydər Əliyevin 1991-ci il iyunun 19-da SSRİ Nazirlər Kabinetinə göndərdiyi məktubundan: "Yanvar hadisələrində yüzlərlə adam öldürüldü və şikəst edildi. Artıq il yarım keçib. Nəinki bu dəhşətli cinayətlərin hamıya çoxdan məlum olan günahkarları üzə çıxarılmayıb, əksinə, bunları ört-basdır etmək üçün əllərindən gələni edirlər. Ümid edirlər ki, zaman keçdikcə bu faciə unudulacaq. Ancaq tarix dəfələrlə sübut etmişdir ki, doğma xalqa qarşı yönəldilmiş qanlı cinayətləri onillər keçsə də, unutmaq və bağışla-maq mümkün deyil."

Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin 29 avqust 1991-ci il tarixli sessiyasında çıxışından: "20 Yanvar faciəsi dövründən il yarımdan çox vaxt keçir. Bu gün burada da, bu salonda cürbəcür söhbətlər gedir. Bir qrup bir fikirdədir, məndən qabaq çıxış edən Rəhimov başqa fikirdədir. Mən sual verirəm, Ali Sovetin sədri Elmira Qafarovaya, Azərbaycan Prezidenti Ayaz Mütəllibova: nə üçün indiyə qədər bu məsələyə siyasi qiymət verilməyib? Bu məsələnin həm siyasi tərəfi var, həm hüquqi tərəfi var. Bu məsələyə dərhal siyasi qiymət vermək olardı. O ki qaldı hüquqi cəhəti, ayrı-ayrı adamların məsuliyyətə cəlb olunması. onu şübhəsiz ki, istintaq yolu ilə aydınlaşdırmaq lazımdır. Buna siyasi qiymət verilmədiyinə görə başqa tədbirlər həyata keçirmək mümkün olmur".

Bəli, bu, öz əli ilə tikib qurduğu Bakıda yaşamasına imkan verilməyən, amma daim xalqı ilə birlikdə olan, ən çətin və ağır günlərdə ona arxa sayılan möhtərəm Heydər Əliyevin hələ sovet hakimiyyəti dövründə tutduğu kəskin mövqe idi. Doğrudur, müxtəlif siyasi platformadan çıxış edən ayrı-ayrı siyasi qüvvələr 20 Yanvar faciəsinə münasibətdə həmfikir təsiri bağışlayırdılar. Hətta onlar SSRİ dağıldıqdan sonra cürətə gələrək bütün günahları Moskvanın üzərinə atmağa cəhdlər də göstərmişdilər. Bütövlükdə isə 1994-cü ildə cənab Heydər Əliyevin təşəbbüsü ilə görülən işlərə qədər nə respublikanın kommunist rəhbərliyi, nə də dəfələrlə

kommunistlərdən 20 Yanvara siyasi qiymət verilməsini tələb edən AXC öz iqtidarı dövründə faciəyə siyasi qiymət verilməsindən ötrü imkanlardan istifadə edib.

Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinə tam siyasi-hüquqi qiymət verilməsi vəzifəsinin qarşıya qoyulması günün tələbi idi. Çünki Azərbaycan tarixinin, azadlıq uğrunda mücadiləsinin şanlı səhifələrindən biri kimi bu, xalqımızın müstəqillik yolunda çarpışmasının dolğun mənzərəsini əks etdirməli idi. Heydər Əliyev dövrün mürəkkəbliyinə və görüləsi işlərin çoxluğuna baxmayaraq, tariximizin şanlı və qanlı səhifəsi sayılan 20 Yanvar faciəsinin başvermə səbəbləri və günahkarların araşdırılması ilə də məşğul oldu. Heydər Əliyev 1994-cü il yanvarın 5-də 20 Yanvar faciəsinin dördüncü ildönümünün keçirilməsi ilə bağlı imzaladığı fərmanda Milli Məclisə tövsiyə olunurdu ki, faciəyə tam siyasi-hüquqi qiymət verilsin. Bundan sonra aparılan araşdırmalar nəticəsində məlum oldu ki, sən demə, 20 Yanvar faciəsinin səbəblərinin tam açıqlanmamasında maraqlı olan qüvvələr var imiş. 1991-1993-cü illərdə hakimiyyətdə qalmaq istəyən iqtidar, hakimiyyətə gəlmək istəyən müxalifət nümayəndələri bu dəhşətli faciədən yararlanmaq istəyirmişlər. Prezident Heydər Əliyev 1994-cü il yan-varın 12-də dövlət komissiyasının geniş iclasında Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının 1992-ci il 19 yanvar tarixli qərarını xatırladaraq bu qərarda yanvar hadisələrinin əsl səbəblərinin açıqlanmadığını, həqiqi günahkarların aşkar edilmədiyini, iki il ərzində həmin qərarın özünü doğrultmadığını nəzərə çatdırdı. iclasda çıxış edən cənab Heydər Əliyev ötən dörd ildə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməməsini, o zamankı Milli Şura tərəfindən qəbul edilmiş qərarın səthi, başdansovdu hazırlandığını ciddi tənqid etdi. "Bu qərarı oxuyanda, doğrusu, çox həyəcanlandım. Düşündüm ki, Milli Şura nə üçün öz millətinin, öz xalqının aqibətinə, taleyinə bu qədər biganə qalıb? Qərarı oxuyandan sonra bir daha qəti fikrə gəldim ki, bu faciəyə, bu hadisəyə niyə indiyə qədər siyasi qiymət verilməyib... Mənim fikrim belədir ki, bu qərarın qəbul edilməsi Azərbaycan xalqına bəlkə də 20 Yanvar 1990-cı ildə olan faciə kimi böyük xəyanətdir. İki il keçəndən sonra deputat-istintaq komissiyasının ortaya bir şey çıxarmaması, boş-boş sözlərlə camaatı aldatması, qərarda bu komissiyanın işinin qənaətbəxş hesab edilməsi, yenə də deyirəm, xəyanətdir".

1992-ci ilin əvvəlindəki ictimai-siyasi vəziyyəti yada salsaq, aydın olur ki, belə bir sənəd həmin vaxtlarda Azərbaycana rəhbərlik edənlər üçün lazım idi. Lakin nəzərə alsaq ki, Milli Şurada təmsil olunanların yarısı müxalifətdə olanlar idi, onda həmin adamların belə bir qərarın qəbul edilməsinə razılıq vermələri şübhə doğurur. Hər halda iki il işləyən deputat-istintaq komissiyasının xalqa hərbi təcavüzün günahkarlarını aşkarlamaması belə deməyə əsas verir. Heydər Əliyev: "Faciədən sonra Azərbaycanda rəhbərlər dəyişdilər, bu cinayətdə iştirak edən adamlar kənarlaşdılar. Azərbaycan rəhbərliyinə yeni adamlar gəldi. Həmin adamların əksəriyyəti vaxtilə 20 Yanvar faciəsi baş verən dövrdə hakimiyyətdə olanları ittiham edənlər, günahlandıranlar idi. Bəs görəsən, onlar nə üçün bu məsələyə yenidən baxmadılar, bu məsələni yenidən qaldırmadılar, bu hadisəyə lazımi qiymət vermək istəmədilər? Ona görə ki, həmin bu qərarı qəbul etmiş Milli Şuranın 50 faizi müxalifətdə olmuş adamlar idi. Bəlkə belə bir qərarın qəbul edilməsi onların özləri üçün də faydalı idi".

Bəli, sovet hakimiyyətinin süqutundan və Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsindən sonra bir müddət başları hakimiyyət uğrunda mübarizəyə qarışmış Azərbaycan rəhbərləri xalqımıza qarşı törədilmiş bu ağır cinayətin səbəblərinin araşdırılması, ona siyasi-hüquqi qiymət verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində məqsədyönlü iş aparmadılar. Onlar bu məsələdə heç maraqlı da deyildilər, çünki həmin cinayətin törədilməsinin məsuliyyəti bu və ya digər dərəcədə onların da üzərinə düşürdü. Yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinin mahiyyəti məhz onun təşəbbüsü və bilavasitə iştirakı ilə açıqlandı. 1994-cü il martın 29-da "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" adlı xüsusi qərar qəbul edildi. Beləliklə, Heydər Əliyevin təkidi və rəhbərliyi sayəsində xalqımıza qarşı törədilən bu qanlı və qəddar aksiyaya siyasi-hüquqi qiymət verildi.

Təəssüf ki, indiyədək həmin cinayəti törədənlər layiq olduqları cəzanı almamışlar. Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin 2000-ci ildə, 20 Yanvar faciəsinin 10-cu ildönümü haqqında imzaladığı. fərmanda deyilirdi: "XX əsr tarixində totalitarizmin törətdiyi ən qanlı terror aktlarından biri olan 20

Yanvar faciəsində Azərbaycan xalqına qarşı işlədilmiş cinayət, əslində. bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli bir əməldir. Həmin cinayəti törədənlər indiyədək öz cəzalarını almamışlar. Xalqımız əmindir ki, müqəssirlər tarix, bəşəriyyət, eləcə də Azərbaycan xalqı qarşısında cavab verməli olacaqlar".

20 Yanvar hadisələrində müəyyən qurbanlar verilsə də, həmin faciəli günlər inam və sınaq günü kimi də yadda qaldı. Qəhrəman xalq həmin gün özünün azad və müstəqil yaşamağa layiq olduğunu bir daha sübut etdi. Faciə baş verən zaman kimin kim olduğu da müəyyənləşdi. Özü təqib və təhlükələrlə dolu şəraitdə yaşamasına baxmayaraq, Heydər Əliyev əli xalqın qanına batmış-ları ifşa etməklə xalqını hamıdan çox sevdiyini və daim onunla birlikdə olduğunu nümayiş etdirdi.

Heydər Əliyev 20 Yanvar faciəsinin bütün dünyada tanıdılması, şəhidlərin xatirəsinin ucaldılmasına hər zaman diqqətlə yanaşıb. Elə bu məqsədlə Şəhidlər xiyabanında Azərbaycanın azadlığı uğrunda şəhid olanların xatirəsinə ucaldılmış "Əbədi məşəl" abidə kompleksi də məhz Heydər Əliyevin təşəbbüsü ilə inşa olunub. Bakının ən uca zirvəsində yerləşən, hündürlüyü 22 metr olan bu möhtəşəm abidə Heydər Əliyevin diqqət və qayğısı ilə qısa müddətdə tikildi. Ulu öndər bu abidənin ucaldılmasını şəhidlərin qarşısında Azərbaycan xalqının müqəddəs və mənəvi borcunun yerinə yetirilməsi kimi dəyərləndirirdi. 1998-ci ilin oktyabrında abidənin açılışında Heydər Əliyev deyirdi: "Mən çox məmnunam ki, ötən illərdə şəhidlərin xatirəsini əbədiləşdirmək üçün və onların qəhrəmanlıq nümunələrini Azərbaycanda təbliğ etmək üçün, gənc nəslə, yeni-yeni nəsillərə çatdırmaq üçün bütün işləri görmüşük və bundan sonra da görəcəyik". Heydər Əliyevin 2000-ci il yanvarın 17-də imzaladığı fərmanla isə həmin faciəli günlər-də şəhid olmuş oğul və qızlarımıza "20 Yanvar şəhidi" fəxri adı verilib.

Azərbaycan Prezidenti İlham Əliyev də 1990-cı ilin yanvarında şəhid olmuş oğul və qızlarımızın xatirəsinin əbədiləş-dirilməsi, adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi üçün mühüm işlər görmüşdür. Prezidentin sərəncamları ilə 20 Yanvar faciəsinin ildönümləri hər il respublikanın hər yerində geniş qeyd olunur. Prezident İlham Əliyevin 19 yan-var 2006-cı il tarixli "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" fərmanı ilə şəhid ailələrinə dövlət qayğısı artırılmışdır.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirdi. Haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş Vətən övladları o qanlı gündə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar.

**Rəşad CƏFƏRLİ**

**“Azərbaycan”.** - 2007. – 20 yanvar. - N 12. - S. 2.

## Tariximizin qanla yazılmış səhifəsi

***1987-ci ildə ümummilli lider Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosu Üzvlüyündən istefa verdikdən sonra Azərbaycanın bası üzərini qara buludlar almağa başladı. Heydər Əliyev siyasəti, uzaqgörənliyi və müdrikliyi qarşısında aciz qalan SSRİ-nin o vaxtkı rəhbəri Mixail Qorbaçov tarixi şəxsiyyətin istefasından sonra öz çirkin niyyətlərini, milli ayrıseçkilik planını həyata keçirməyə başladı. Ulu öndər Heydər Əliyev rəhbər vəzifələrdə olarkən Azərbaycana qarşı hansısa bəd əməlini həyata keçirə bilməyənlərin, xüsusilə M.Qorbaçovun sanki qol-qanadları açıldı. Millətlər arasında ədavət, qarşıdurma toxumu səpən imperiya başçısı gizli planlarını reallaşdırmaq üçün imkan qazandı. Başda SSRİ rəhbərinin iqtisadi məsələlər üzrə müşaviri Aqambekyan olmaqla Azərbaycana qarşı torpaq iddiasına start verildi. Sən demə, M.Qorbaçov Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın Ermənistana verilməsi barədə ətrafındakı erməni lobbisinə vəd veribmiş. Hətta bundan ötrü onun həyat yoldaşı Raisa Qorbaçovaya ermənilər tərəfindən çox qiymətli bəxşiş . də verilibmiş.***

Aqambekyan yaranmış fürsətdən istifadə edərək Parisdə məqsədli səfərlərdə olarkən etdiyi çıxışlarının birində Dağlıq Qarabağın Ermənistana verilməsinin iqtisadi cəhətdən məqsədəuyğun olduğunu "əsaslandıraraq" Ermənistan-Azərbaycan münaqişəsinin ilk qığılcımını yandırdı.

1988-ci ildən başlayaraq Azərbaycanda dərinləşməkdə olan ictimai-siyasi, hərbi böhran, anarxiya və xaos getdikcə dərinləşirdi. Bir tərəfdən ölkə rəhbərliyinin qətiyyətsizliyi, korafəhmliyi və vəzifəsini qorumaqdan ötrü imperiya rəhbərliyinə mütiliyi ucbatından, digər tərəfdən isə Heydər Əliyevin istefasından sonra özünün güclü dayaqlarmı itirmiş Azərbaycan xalqının haqq səsini eşidən yox idi. O vaxtlar respublikaya rəhbərlik edənlərin, maddi-məsul vəzifələrdə çalışanların kölə psixologiyası, düşünülməmiş addımları düşmənlərimizin bizim üstümüzə ayaq açmalarına şərait yaradır, torpaqlarımızı ələ keçirmək iddialarını daha da artırırdı. Kreml rəhbərliyi isə haqqı nahaqqa qurban verir, Azərbaycan xalqının haqlı tələblərinə məhəl qoymur, erməni lobbisinin əli ilə mərkəzi televiziya və mətbuat vasitəsilə ölkəmizin ünvanına təhqir və böhtanların ardı-arasını kəsmirdi. Bu kampaniyaya rəhbərlik edən SSRİ başçısının, habelə mərkəzi hakimiyyətin ermənilərə münasibətdə ayrı-seçkiliyi, tərəfkeşliyi getdikcə daha artıq şəkildə özünü büruzə verirdi. Nəhayət, xalqımız bu haqsızlığa dözməyərək öz haqq səsini qaldıraraq mey-danlara çıxdı. Xalq artıq respublikanın o vaxtkı rəhbərləri Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov, Vaqif Hüseynov və digərlərinin xəyanətkar əməllərini dərk edirdi.

Yaranmış vəziyyətdən şəxsi mənafeləri üçün istifadə edərək özlərini xalq hərəkatının lideri adlandıran Nemət Pənahlı, İsa Qəmbər, Etibar Məmmədov və digərləri kor-təbii mitinqlər keçirir, ziyalılar, elm xadimlərini, idarəetmədə təcrübəsi olanları, həmçinin siyasət adamlarını tribunaya yaxın buraxmır, əsl vətənpərvərləri, öz faydalı məsləhətləri ilə kütləyə yol göstərə biləcək hörmətli, nüfuzlu ağsaqqalları hərəkatdan uzaqlaşdırırdılar. Ermənilər isə bundan istifadə edərək yurdumuzun torpaqlarını hissə-hissə ələ keçirirdilər.

Meydanlarda bolşeviklərə xas şüarlar səsləndirməklə özlərini göstərməyə çalışan, bununla da "lider" olduğunu sübut etməyə cəhd göstərən nemətlər, isalar. etibarlar arasında birincilik uğrunda intriqalar yarandı. Nəyin bahasına olursa-olsun, hakimiyyəti ələ keçirməyə cəhd göstərən bu "liderlər" meydana toplaşan yüz minlərlə insanı boş, mənasız, gülünc şüarlar səsləndirməklə baş qatırdılar.

Xalqın ayağa qalxmasından böyük təşvişə düşmüş M.Qorbaçov Alma-Atada və Tbilisidə axıtdığı günahsız insan qanından doymayıbmış kimi bu dəfə dişlərini Azərbaycana qıcadı. Əlləri qana batmış cəllad, qaniçən dövlət başçısı istiqlaliyyət, suverenlik və ərazi bütövlüyü istəyi ilə küçə və meydanlarda haqq səsini qaldıran xalqa qanlı divan tutmaq üçün DTK-nın təxribat maşınını işə saldı. SSRİ-nin o vaxtkı güc nazirləri Yazov, Bakatin və Kryuçkov hərbi cinayəti həyata keçirmək üçün ciddi hazırlıq işlərinə başlamışdılar. Xəstəxanalar boşaldıldı, Bakıda xidmət edən rus zabitlərinin ailələri ölkədən çıxarıldı, süni sürətdə "rus qaçqınları" problemi yaradıldı. Bakıya ordu yeridilməsi barədə söz-söhbətlər yayıldı. DTK nümayəndələri isə özlərini lider hesab edən müxalifət nümayəndələrindən bəzilərini ələ aldılar. O vaxtkı "liderlərdən" hesab edilən İ.Qəmbərin DTK nümayəndələri ilə əməkdaşlığı daha fəal idi. Rəsmi dairələr, həmçinin müxalifət

nümayəndələri kütləvi informasiya vasitələri, səsgücləndirici ilə çıxış edərək xalqı aldadır, Bakıya qoşun yeridilməyəcəyi barədə yalan informasiyalar yayırdılar. Onlar əliyalın xalqı evlərinə getməyə qoymur, indicə silah gətirəcəklərini deyərək yardım adı ilə topladıqları pulları bu yolla mənimsəyirdilər.

Yanvarın 19-dan 20-nə keçən gecə işğalçı sovet ordusunun zirehli hərbi texnikası bütün istiqamətlərdə hücuma keçdi. Bakı küçələrində amansız qırğın başlandı və bir anın içərisində qan su yerinə axdı. İmperiya ordusunun şəhərə hücum edəcəyindən, azadlıq aşiqlərinə divan tutacağından xəbərdar olan "meydan qəhrəmanları" bir saat əvvəl qaçıb aradan çıxmışdılar. Sovet ordusunu Azərbaycandakı "qalmaqalın", "dövlət çevrilişinin" qarşısını almaq üçün Bakıya çağıran Ə.Vəzirov, A.Mütəllibov, E.Qafarova və M.Məmmədov əliyalın xalqa bu barədə qabaqcadan məlumat verməmiş, 131 nəfərin ölümünə, 612 nəfərin isə yaralanmasına, ömürlük şikəst olmasına şərait yaratmışlar. Azərbaycana göndərilən peşəkar cəza dəstələrinin tərkibinə Stavropol, Krasnodar, Rostov və başqa yerlərdən səfərbərliyə alınan erməni əsgər və zabitləri, Azərbaycandakı sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantlar da daxil edilmişdi.

Qanlı yanvar faciəsinə, əhaliyə tutulmuş divana aydınlıq gətirilməsini tələb etmək əvəzinə Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirov gecə ikən qaçıb aradan çıxdı. A.Mütəllibov isə xalqın küçələrə axıdılmış qanı soyumamış Moskvaya gedərək mütiliyinin əvəzi olaraq Azərbaycana birinci katib kimi qayıtdı. Vəzifəsini qoruyub saxlamaq üçün qanlı faciəni unutdurmaq üçün müxtəlif vasitələrə əl atdı. O vaxt Moskvada xüsusi nəzarət altında yaşayan Heydər Əliyev isə qanlı faciə törədilən günün sabahı - yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək SSRİ hökumətinin günahsız insanları güllələbaran etməsi barədə bəyanat verdi.

Həyatını riskə qoyan ümummilli lider deyib: "Azərbaycana kənardan böyük ordu kontingenti yeridilmişdir. Respublikada neçə ordu birləşməsinin olduğu mənə yaxşı bəllidir. Azərbaycanda kifayət qədər - 4-cü ordu, Xəzər Hərbi Dəniz Donanması, Desant qoşunlarının diviziyası, Hava Hücumundan Müdafiə Qoşunları, Daxili İşlər Nazirliyinin daxili qoşun birləşmələri vardır. Oraya əlavə qoşun yeritmək nəyə lazım idi? Əgər belə bir zərurət var idisə, orada yerləşən hərbi hissələrdən də istifadə etmək olardı. Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə bərk ayaqda Azərbaycanı qoyub qaçmış Vəzirov öz xalqı qarşısında məsuliyyət daşımalıdır, Ölkənin ali siyasi rəhbərliyinə yanlış məlumat verənlər də məsuliyyət daşımalıdırlar. Zənnimcə, ölkənin ali siyasi rəhbərliyinə vəziyyət barədə vaxtında, kifayət qədər düzgün, dəqiq, obyektiv informasiyalar çatdırılmamışdır. Rəhbərlik çaşqınlığa salındığından belə qərar qəbul etmişdir. Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdırlar".

Nə Ayaz Mütəllibov, nə də AXC-Müsavat cütlüyü hakimiyyətdə olarkən 20 Yanvar faciəsinin törədilməsi səbəbini araşdırmaq, buna siyasi qiymət vermək barədə düşünmədilər. Çünki bu qanlı olayın törədilməsində təqsirkarlar cərgəsində özləri də var idi. Özləri özlərini necə ittiham edəcəkdilər?

Xalqın təkidli tələbi və xahişi ilə yenidən hakimiyyətə gələn ümummilli lider Heydər Əliyevin 5 yanvar 1994-cü il tarixli fərmanı ilə Milli Məclisə 20 yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilmə-si tövsiyə olunmuşdur.

Bu dəhşətli olaydan 17 il keçməsinə baxmayaraq uşaqdan böyüyə hamı 20 Yanvar faciəsini xalqın qan yaddaşı kimi xatırlayır. Azadlıq, müstəqillik uğrunda sinələrini sipər edən qəhrəman oğul və qızlarımızın uyuduqları Şəhidlər Xiyabanı bu gün hər bir azərbaycanlı üçün müqəddəs ziyarətgaha çevrilib. Qəhrəmanlar heç vaxt unudulmur. Onlar həyat durduqca yaşayırlar.

**Əliqismət BƏDƏLOV**

**“Xalq qəzeti”.** - 2007. – 20 yanvar. - N 12. - S. 4.

# Qanlı Yanvarın 17-ci ili

***Onlar şəhid olub Millətimizə Qorxmazlıq dərsini təlim keçdilər.***
***Bəxtiyar Vahabzadə***

20 Yanvar faciəsinin siyasi-ictimai səbəbləri, unudulmaz anları, mürəkkəb təzadları, ibrət dərsləri barəsində obyektiv-subyektiv xarakterli müxtəlif mövqeləri əks etdirən fikirlər söylənmişdir və bu gün də, o dövrdəki qüvvələri nisbəti reallığında cərəyan edən çətin proseslər fərqli baxışlarla qiymətləndirilir.

Lakin danılmaz bir həqiqət aydındır ki, bütün çətinliklər, məhrumiyyətlər, qadağalar Millətin azadlıq ruhunu qırmaq, onun sərbəst düşünmək və fəaliyyət göstərmək kimi təbii bəşəri arzusunu boğmaq, ictimai həyatın demokratikləşdirilməsinə yol vermədən, hər şeyi mərkəzləşdirilmiş qaydada, vahid ideologiya prinsipləri əsasında həll etmək cəhətləri heç bir totalitar siyasi rejimlərə, hakim dairələrə, diktatorlara nəsib olmamışdır.

Cəmiyyətdə baş verən prosesləri düşünüb təhlil etməklə, şübhə və mübahisələrdən keçərək düzgün mübarizə yolunu tapmaq, hakimiyyətin bütün əngəllərinə baxmayaraq, bu qanlı-qadalı yolun son nəticələrini şüurlu surətdə dərk edərək, öz məqsədinə doğru getmək cəsarətini, əzmini heç bir millətə qadağan edib, azadlıq, müstəqillik, suverenlik ideyalarından danışdırmaq mümkün deyildir.

Bu mənada çox əlamətdardır ki, keçmiş sovet rejimi və onun hüquq-mühafizə orqanlarının hər cür fitnə-fəsadlar törətməyə, təqiblər təşkil etməyə, cəza tədbirlərinə əl atmağa, həbslər aparmağa qadir olduğu bir siyasi sistem şəraitində, 1989-cu ildə millətimizin beynəlxalq ictimaiyyət tərəfindən "dünyanın ən mübariz xalqı" adına, şərəfinə layiq görülməsi, bəzi bədxahların "onsuz da sovet quruluşu dağılacaqdı" kimi çürük fəlsəfəsinə ən tutarlı cavablar.

O məşəqqətli və şərəfli günlərin unudulmaz hadisələrinə gəldikdə, 1990-cı il yanvar ayının 20-dən mart ayının 2-nə qədər davam etmiş ilk möhtəşəm izdihamlı 42 günün hər anı unudulmaz bir tarixdir. Fövqəladə vəziyyətin sərt qayda-qanunları, hərbiçilərin təhqiramiz hərəkətləri, "sapı özümüzdən baltaların" fitnəkarlığı şəraitində, uzaqdan-yaxından eşidilən atəş səsləri, hərbi vertolyotların uğultusu altında, hər an snayperlərin atəş hədəfinə çevrilə biləcək insanların şaxtalı havada, göz yaşlarını boğaraq, rəsmi icazəsiz şəhərin ən zirvə nöqtəsində şəhidlər üçün qəbir qazmaları, fasiləsiz surətdə bir-birini əvəz etmələri, gecələr orada gizli növbə çəkmələri, milli-demokratik hərəkatın bu yeni mərhələsinin nikbin faciə xarakterli ayrı-ayrı hadisələri və mənzərələri, həmin günlərin şahidlərinin təkcə xatirələrində deyil, 17 il keçdikdən sonra narahat yuxularında da yaşanır...

Həmin 42 gün, əsl işğal rejiminin təcridlik, məlumatsızlıq, müxtəlif şayiələr, qorxu-vahimələrlə dolu, soyuq və gecələri yarıqaranlıq, çoxmilyonlu bir şəhərin sınaq, qeyrət, dözüm müdrikliyi rəmzinə çevrildi.

22 yanvar 1990-cı ildə yüz minlərlə adamın iştirak etdiyi Şəhidlərin dəfn mərasiminin, əvvəlcədən düşünülüb hazırlanmış fitnəkarlıq addımlarına baxmayaraq (məsələn, "Azadlıq" meydanından insan axınının "Şəhidlər Xiyabanına doğru istiqamətləndiyi bir vaxtda, müəyyən qrupun Dağüstü parkdakı Kirovun heykəlini dağıtmaq və hərbiçilərin buraya daxil olmasına imkan yaratmaq cəhdləri, yaxud hərbiçilərin Mərkəzdən aldıqları təlimata görə 20 yanvar faciəsi qurbanlarının bir yerdə dəfn olunmasına imkan daxilində yol verməmək səyləri) Azərbaycan xalqına xas olan əsl ləyaqət, şərəf mərtəbəsində həlak olmuş yəhudi, rus, tatar, ləzgi millətlərinin də şəhidlərini öz övladları ilə birgə Torpağa tapşırmaları işğalçıları çaşdırmış, xarici jurnalistləri heyrətləndirmiş, dünya ictimaiyyətinin Moskvanın yaydığı saxta məlumatlara, "islam təməlçiliyi" barəsindəki təhlükəyə mövqeyini sarsıtmışdı.

Təsadüfi deyildir ki, o günlərdə İngiltərədə nəşr olunan "Qardion" qəzeti yazmışdı: "...Sovet rəhbəri Qarbaçov öz çıxışında göstərir ki, guya Azərbaycanda islam Respublikası yaratmaq qərara alınmışdır... Sovet rəhbəri bunu deyərkən görəsən əlində tutarlı əsası vardırmı?". ABŞ-da nəşr olunan "Nyu-York tayms" qəzeti müxbirinin islam amili ilə bağlı sualına, xalq tərəfindən yaradılmış İctimai Dəfn Komissiyasının cavabında

deyilmişdi: "Şəhidlər Xiyabanı"nda azərbaycanlılarla yanaşı ruslar, yəhudilər, tatarlar, ləzgilər də dəfn olunmuşlar... Biz fundamentalist olsaydıq, yəhudiləri və rusları burada dəfn edərdikmi?"

İstər izdihamlı dəfn mərasimi gedişində, istərsə də sonrakı ağır hüznlü 40 gün ərzində, yüz minlərlə adamın, müxtəlif xarici ölkələrin, ictimai təşkilatların, 80-dan artıq dövlətin kütləvi məlumat-informasiya vasitələri nümayəndələrinin ziyarət etdikləri "Şəhidlər Xiyabanı" ərazisində heç bir ciddi nizam-intizam pozuntusuna, qarışıqlığa, fitnə-fəsada yol verilməməsi, hər kəsin bilavasitə özü üçün deyil, eyni zamanda başqalarının da təhlükəsizliyi üçün məsuliyyət daşıması; Dəfn Komissiyası və onun çevik köməkçilər dəstəsinin bütün xahiş, göstəriş, tələblərinin hamılıqla dəqiqliklə, vətəndaşlıq borcu kimi yerinə yetirilmə-si, şübhəsiz Millətimizin uzaqgörən müdrikliyi qarşısında dünən də, bu gün də, gələcəkdə də hörmətlə baş əyməyi şərəfli borc səviyyəsinə yüksəldir.

Tarixi ədalət naminə, bütün məsuliyyəti ilə xatırlatmağı zəruri hesab edirəm ki, milli-demokratik azadlıq hərəkatı mübarizəsi yolumuzun mühüm mərhələsi sayılan 20 Yanvar hadisələrinin mənbəyi də, aparıcı qüvvəsi də, onun ağırlığını, qurbanlarını, məhrumiyyətlərini də öz çiyinlərində daşıyan baş qəhrəmanı da Azərbaycan xalqı olmuşdur. Biz hamımız bu xalqın övladları kimi, ayrı-ayrılıqda əqidəmizlə, səylərimizlə, fəaliyyətimizlə, ümummilli azadlıq hərəkatı mübarizəsinin iştirakçıları, fırtınalı dənizin zərrələri olmuşuq. Dənizlər zərrələrdən yarandığı kimi, Millət də onu təmsil edən övladlarından formalaşır və zərrəsiz dəniz olmadığı kimi, dənizsiz də zərrələr yoxdur. Bu vəhdət və birlik, qarşılıqlı anlaşma təkcə daxili deyil, həm də xarici beynəlxalq problemlərin həllində etibarlı vasitədir.

20 Yanvarın tarixi ibrət dərslərinə gəldikdə, ilk növbədə əsas daxili və xarici problemlərin həlli istiqamətində, bütün millətin ümumi mənafeyinə uyğun, müstəqil dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə yönəldilmiş addımlarda iqtidarlı-müxalifətli vahid uzunmüddətli iqtisadi-sosial inkişaf konsepsiyasının qarşılıqlı əməkdaşlıq prinsipləri müstəvisində işlənib hazırlanması, habelə ardıcıllıqla həyata keçirilməsi zəruridir.

Müasir beynəlxalq inteqrasiya və qloballaşma prosesləri şəraitində, sivil bazar münasibətləri, habelə hüquqi-demokratik cəmiyyətin formalaşdığı bir vaxtda, Şəhid qanları, mübarizəsi, amalları üzərində ucaldılmış müstəqil Azərbaycan dövlətində iqtidar-müxalifət münasibətlərini qərəzli şəkildə gərginləşdirərək, mitinqlər keçirilməsinə mane olmaq, redaksiyaları illər uzunu yerləşdikləri binalardan icra haqqı ödəmədiklərinə görə çıxarmaq, jurnalistlərə qarşı fiziki-siyasi təzyiqləri gücləndirmək, müxalifət liderlərinin xarici pasport almasına əngəl törətmək, mətbuatda ikitərəfli qaydada şərəf-ləyaqətin təhqirinə yönəldilmiş materiallar çap etmək, aclıq aksiyaları keçirilməsinə imkanlar yaratmaq, sonra isə bunu "siyasi şou" adlandırmaq, şübhəsiz XXI əsrdə yolverilməzdir, qəbuledilməzdir.

Əgər doğrudan da biz Şəhidlərin ruhunu şad və onların işinə sədaqətimizi təsdiq etmək istəyiriksə, iqtidarlı-müxalifətli milli vətəndaşlıq həmrəyliyinə nail olaraq, cəmiyyətin mövcud iqtisadi-sosial problemlərinin daha optimal yollarla həlli istiqamətində ideyalarla, elmi cəhətdən hərtərəfli əsaslandırılmış perspektiv inkişaf proqnozları ilə çıxış etməli, xalqı öz fəaliyyətində inandırmalı, demokratik birgəyaşayış prinsiplərinə əməl etməliyik.

Eyni zamanda unutmamalıyıq ki, hər hansı bir dövlət qurumu, yaxud məmurunun mövcud qayda-qanunların hərfi mənası arxasında gizlənmək, yaxud kiməsə yarınmaq üçün atdığı addımların sırf iqtisadi baxımdan deyil, onun son siyasi-ictimai nəticələrini düzgün qiymətləndirə bilmirsə, bu nöqsanı dövlətin adına ünvanlamaq doğru deyildir. Cəmiyyətin əsası olub, möhtəşəm bir ağacı xatırladan Dövlətdə, "qurumuş budaqları" olması təbiidir. Lakin bu xəstə budaqlar, inkişafa mane olan əngəllər cəsarətlə aradan qaldırılmalı, mübahisəli məsələlər məhkəmə proseslərində araşdırılmalı, hökmün sonrakı müvafiq mərhələlərdə, hətta Avropa məhkəməsi səviyyəsində baxılması imkanı, onun nə dərəcədə ədalətli olduğuna ictimaiyyəti inandırmalıdır.

Prezident İlham Əliyev cənablarının müxtəlif çıxış və müsahibələrində dəfələrlə qeyd etdiyi kimi, müstəqillik yolu mürəkkəb bir proses olduğundan, hələlik həll edə bilmədiyi problemlər qaldığından,

cəmiyyətin bütün qüvvələrinin səyləri əhalinin yoxsulluğunun aradan qaldırılmasına, inflyasiyanın tənzimlənməsinə yönəldilməlidir.

Hazırda hər nəfərə düşən ümumi daxili məhsulun həcminə, minimum əmək haqqı səviyyəsinə, pensiya təminatına, səhiyyə xidmətlərinə görə orta dünya standartlarından xeyli geridə qaldığımız halda, korrupsiya, mətbuat sərbəstliyi, insan hüquqlarının pozulması halları sahəsində təəssüf ki, irəlidəyik.

Bəzən beynəlxalq qurumların, müstəqil ekspertlərin, qeyri-dövlət təşkilatlarının apardıqları araşdırmalar əsasında ölkəmizin iqtisadi-sosial inkişaf parametrləri və ictimai-siyasi həyatın çatışmazlıqları, habelə dünya dövlətləri arasında müəyyən sahələrdə reytinqi məsələsi istər iqtidar, istərsə də müxalifət dairələrində hərtərəfli təhlil olunub, bu nöqsanlardan zəruri nəticələr çıxarmaq əvəzinə, həmin fikirlərin "qərəzliliyi", yaxud "əsl vəziyyəti" bilmədikləri haqqında yersiz hay-küy kompaniyası ətrafında düşündükcə, dahi Nizaminin misralarını xatırlayırsan:

Men ki, eyiblərini bircə-bircə sayanam,
Yamanını - yaxşını göstərən bir aynayam.
Düz, dəqiq göstərirsə ayna səni özünə,
Özünü qır, aynanı qırmaq yaraşmır sənə.

Bu problemlərin vaxt və maliyyə vəsaiti baxımından daha tez, eyni zamanda optimal həlli prosesi, hələ 20 Yanvar hadisələrinin başlanğıc mərhələsinə gedib çıxan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlıdır. Beynəlxalq hüquq prinsipləri və normalarına zidd olan, müəyyən maraqlı beynəlxalq dairələrin aşkar-gizli dəstəklədikləri bu təhlükəli münaqişə, onun həllinin obyektiv-subyektiv bəhanələrlə ləngidilməsi, son nəticələri etibarı ilə heç kəsə, ilk növbədə isə əsrlər boyu qonşu olmuş, iqtisadi-mədəni münasibətlər qurmuş Cənubi Qafqaz bölgəsi xalqlarına, ən başlıcası isə onların bu torpaqlarda yaşayacaq gələcək nəsillərinə dayanaqlı inkişaf perspektivləri vəd edə bilməz.

Məhdud bir ərazidə, oxşar iqlim qurşağında, tarixən formalaşmış nəqliyyat-rabitə şəbəkəsi, su hövzəsi, ekoloji problemlərlə bağlı bu xalqların müasir iqtisadi inteqrasiya və qloballaşma şəraitində, tədricən vahid dünya təsərrüfat sisteminə qaçılmaz qoşulması, təbii daxil olması yolu, düşmənçilikdən, ərazi iddialarından, nifrətdən, qərəzli ittihamlardan deyil, "üçüncü qüvvənin" yardımı, yaxud müdaxiləsi olmadan, kimin kim olduğunu təcrübədən yaxşı bilən Qafqaz kişilərinin, siyasi-dövlət xadimlərinin gələcəyimiz naminə müdriklik iradəsindən keçir.

Təsadüfi deyildir ki, bu xalqlar arasında daxili-xarici səbəblərlə bağlı münasibətlərin gərginləşdiyi ən çətin anlarda, həmişə bu qonşu millətlərin işıqlı simaları birgə hərəkət edərək, həmrəylik göstərərək, hadisələrin təhlükəli gedişinin qarşısını almağa çalışmış, öz xalqlarını xatalı yollardan çəkindirmiş və ən başlıcası isə buna nail ola bilmişlər.

Qafqaz xalqları mübarizə və Şəhid qanları bahasına imperiya əsarətindən ona görə xilas olmamışlar ki, öz müstəqilliklərini, suverenliklərini, milli talelərini, gələcək tərəqqilərini, kimlərinsə xəstə təxəyyülünün uydurduğu ərazi iddiaları münaqişələri ab-havası zəhərində əritsinlər...

Bu xalqlar, regionun nadir təbiətinə, rəngarəng iqlim xüsusiyyətlərinə, yeraltı-yerüstü sərvətlərinə arxalanaraq, qarşılıqlı anlaşma və əməkdaşlıq prinsipləri əsasında, qədim "İpək yolu"nun yeni tələblərə uyğun bərpasının, neft strategiyasının, tranzit-rabitə vasitələrinin, kurort turizm potensialının açdığı geniş imkanları milli iqtisadiyyatın yüksəldilməsi, əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılması istiqamətində yönəltməlidirlər.

Ona görə də hazırda cəmiyyətdə formalaşan münaqişənin "müharibə, ya sülh" yolu ilə həlli dilemmasına yanaşmada müxtəlif tərəflərin, ilk növbədə isə qonşu ölkənin beynəlxalq hüquq normalarına indiki mövqeyi, onun öz gələcək milli mənafeyi naminə hökmən dəyişməlidir. Siyasətçilərin ambisiyaları və naşılığı millətlərin bu gününü, xüsusilə gələcək perspektivlərini təhlükə altında qoymamalıdır.

Şəhid qanları və mübarizə qurbanları təməlində qazanılmış xalqlarımızın müstəqilliyi, demokratik dəyişikliklərin ardıcıllıqla reallaşdırılması, iqtisadi-sosial sahələrdə irəliləyişlərin davam etdirilməsi, cəmiyyətin mənəvi-əxlaqi dəyərlərinin təkmilləşməsi prosesinin təbii zəruriliyi bizi müdrikliyə, uzaqgörənliyə, ümumbəşəri keyfiyyətlərə layiq olmağa çağırır.

Allah cəmi Şəhidlərə rəhmət eləsin. Amin!

**Qüdrət ƏBDÜLSƏLİMZADƏ**
İctimai Dəfn Komissiyasının sədri, iqtisad elmləri doktoru, professor

**“Ədalət”.** - 2007. – 20 yanvar. - N 9. - S. 4.

## "20 Yanvar faciəsinin izlərini itirməyə çalışırdılar”

### Qüdrət Əbdülsəlimzadə: “İctimai Dəfn Komissiyasının ayrı-ayrı üzvlərini hüquq-mühafizə orqanlarına çağıraraq hədələyirdilər”

Qanlı 20 Yanvar hadisələrindən 17 il ötür. Müsahibimiz həmin günlərdə Şəhidlərin dəfnini təşkil etmiş İctimai Komissiyanın sədri, iqtisad elmləri doktoru, professor Qüdrət Əbdülsəlimzadədir

**- Hazırda nə işlə məşğul olursunuz?**

- 35 il Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda işləmişəm. Bir sıra əsərlərin müəllifiyəm. Milli azadlıq hərəkatının ilk günlərindən onun sıralarında fəal iştirak etmişəm. Mərhum Prezident Elçibəyin komandasının üzvü kimi Dövlət Əmlak Komitəsinin sədri təyin olunmuş, 1995-ci ilə qədər bu vəzifədə çalışmışam. Qərb və Biznes Universitetlərinin professoruyam.

**- Necə oldu ki, Şahidlərimizin dəfnini təşkil etmək üçün İctimai Komissiya yarandı və Siz onun sədri kimi fəaliyyət göstərdiniz?**

- O günlərin çaşqınlığını və faciələrlə səciyyələnən qarışıqlığını, fövqəladə vəziyyətin məhdudiyyətləri və yerli hakimiyyət orqanlarının iflic vəziyyətini nəzərə alsaq, bu haqda danışmaq mənim üçün çox çətindir. Çünki həmin mürəkkəb şəraitdə - qəzəb, kədər, əsəbilik, göz yaşlan içərisində, belə bir məsuliyyətli, həm də cəsarət tələb edən işin tam düşünülmüş surətdə getdiyini, addımların hansı təhlükələrlə rastlaşacağını, necə başa çatacağını bilmirdik. Ən başlıcası, bu müqəddəs vəzifəni yerinə yetirmək üçün sağ qalıb-qalmayacağımıza heç bir zəmanət yox idi. Həmin reallığın məntiqindən gələn hərəkətləri, konkret fəaliyyət addımlarını 17 il keçdikdən soma soyuqqanlıqla təhlil etmək, atışma səslərini, vertolyotların gurultusunu, hərbçilərin əmrlərini, "sapı özümüzdən baltaların" təxribatını, şəhərin müxtəlif nöqtələrində yerləşdirilmiş snayperlərin hədəfi gerçəkliyində yaşananları təhlil edib qiymətləndirmək mənim üçün çətindir. Belə bir tarixi anda "Hakimiyyətin əsl mənbəyi xalqdır" müddəası nəzəri baxışlardan hərəkətverici qüvvə fəaliyyətinə çevrilərək müzakirə və mübahisələr yoluyla qəti hökmünü verdi: bütün maneə və əngəllərə baxmayaraq, 20 Yanvar Şəhidləri Bakı şəhərinin ən uca zirvəsi sayılan Dağüstü ərazidə dəfn olunmalıdır; şəhidlərin dəfninin təşkili üçün təşəbbüs qrupu və ictimai komissiya yaradılmalıdır. İctimai Dəfn Komissiyası xalqın göstərişlərini yerinə yetirir, ona hesabat verir.

**"Bir sıra tanınmış adamlar milli şərəf borcundan imtina etdilər"**

1990-cı il yanvarın 20-də səhər tezdən keçmiş Mərkəzi Komitənin (indiki Prezident Aparatının) qarşısında keçirilən fasiləsiz ümumxalq etiraz mitinqinin iradəsilə yaradılmış təşəbbüs qrupu və onun köməkçiləri dəstəsi birbaşa Dağüstü əraziyə gələrək 1918-ci ildə qətlə yetirilmiş soydaşlarımızın torpağa tapşırıldıqları, sonralar bolşevik rejimi illərində "parka" çevrilmiş məkanda azadlıq Şəhidləri üçün məzarlar qazmağa başladılar.

**- İctimai Dəfn Komissiyasının tərkibi kimlərdən ibarət idi?**

- Hamı istəyirdi ki, təşəbbüs qrupu içərisindən formalaşacaq və sırf dəfn mərasimini yola verəcək İctimai Komissiyanın tərkibində millətin tanınmış adamları olsun, nüfuz sahibi kimi bu faciə haqqında öz sözlərini desinlər, çaşqın, vahimə içərisində olan xalqa məsləhətlərilə kömək etsinlər, yol göstərsinlər. Həmin mürəkkəb və sonrakı nəticələri aydın olmayan qanlı-qadalı proseslərin, təqiblərin, həbslərin davam etdiyi

fövqəladə hərbi vəziyyət şəraitinin bütün təhlükələrini, məhrumiyyətlərini, yerli-yersiz iradlarını yaşamış bir adam kimi heç kəsə heç nəyi irad tutmadan, lakin kədərlə qeyd etməliyəm ki, bir sıra tanınmış nüfuz sahibləri obyektiv-subyektiv səbəblər üzündən bu milli şərəf borcundan imtina etdilər. Belə bir vəziyyətdə İctimai Dəfn Komissiyasının tərkibi o vaxt aşağıdakı kimi formalaşdı: sədr; müavinlər (Azər Nəbiyev və Xəliyəddin Xəlilov); üzvlər (Allahşükür Paşazadə, Bağır Bağırov, Xalid Muxtarov, İbrahim Əliyev, İsmayıl İncəli, Malik Mehdiyev, Nəriman Əliyev, Rəhim Qasımov). Köməkçilər dəstəsinə Etibar Səmədov və Rüstəm Xalıqov başçılıq etmişdilər. Xatırlamaq istəyirəm ki, 20 Yanvar faciəsindən sonra xalqın iradəsilə belə bir müstəqil qurumun yaradılması konkret şəraitin məntiqi nəticəsi kimi milli həmrəyliyin zəruri ifadəsiydi, kimlərinsə orada ümumi el nəzarəti altında fəaliyyəti isə təsadüfi xarakter daşımırdı.

Şəhidlərimizin dəfn mərasimilə bağlı sırf təşkilati və müxtəlif tədbirləri əlaqələndirmə işlərini yerinə yetirmək məqsədiylə bir-iki günlüyə yaradılmış ictimai Komissiya fəaliyyətini 42 gün davam etdirməli oldu. Komissiya xalqın bir damlası kimi onun səlahiyyətli nümayəndəsi vəzifəsini yerinə yetirmişdi; xalq isə milli birlik rəmzi olmuş qurumun həm təşkilatçısı, arxası, məsləhətçisi, həm də istiqamətləndirici nəzarətçisi olmuşdu.

**"Müxtəlif şayiələr yayırdılar"**

**- İctimai Dəfn Komissiyasının işinə rəsmi dairələrin mane olmaları özünü nədə göstərmişdi?**

- Aydındır ki, sovet rejimi və fövqəladə vəziyyət şəraitində yerli hakimiyyət orqanları Moskvadan aldıqları təlimatlara uyğun olaraq 20 Yanvar faciəsinin izlərini itirməyə, həlak olanların ayrı-ayrı yerlərdə dəfn olunmasına, ümumiyyətlə, faciə qurbanlarının sayını azaltmağa çalışır, bütün günahlan işğalçı ordunun deyil, öz hüquqları uğrunda mübarizəyə qalxmış insanların, ilk növbədə isə Xalq Cəbhəsi liderlərinin üzərinə atırdılar, İctimai Dəfn Komissiyasını tanımaq istəmirdilər, onun ayrı-ayrı üzvlərini hüquq-mühafizə orqanlarına çağıraraq hədələyir, bu işin onlar üçün "yaxşı qurtarmayacağı" haqqında hədə-qorxu gəlirdilər.

Lakin tarixi ədalət naminə qeyd etməyi lazım bilirəm ki, o zaman rəsmi vəzifələrdə çalışan rəhmətlik Vəli Məmmədov, Elmira Qafarova, Abdulla İbrahimov, Tofiq Bağırov, Əli Məmmədov, Niyazi Qaraqaşlı, Ədalət Əzizov, habelə adlarını bilmədiyimiz hərbçilər, dövlət qulluqçuları, milis işçiləri, təhlükəsizlik orqanlarının əməkdaşları bəzən aşkar, bəzən də gizli surətdə İctimai Dəfn Komissiyasının rəsmi, yaxud qeyri-rəsmi xahişlərinin yerinə yetirilməsində öz səylərini əsirgəmədilər.

**- İşinizə mane olan digər qüvvələr - "sapı özümüzdən baltalar" tərəfindən əngəllər haqqında nə xatırlayırsınız?**

- Xəcalət və kədərlə xatırlayıram... Onların içərisində təsadüfi adamlarla yanaşı bir sıra ziyalıların, müəllimlərin, mühəndislərin, din xadimlərinin olması, bu işin müəyyən qüvvələr tərəfindən istiqamətləndirildiyini sübut edirdi. Onlar milliyyətindən asılı olmayaraq Şəhidlərin bir ərazidə dəfn edilməsinin əleyhinə çıxır; hökumətin bu məzarları hökmən başqa yerə köçürəcəyi haqqında şayiələr yayır; Komissiya üzvlərinin "hökumət adamları" olduqlarını söyləyir; müxtəlif pozucu hərəkətlərilə ətrafdakı silahlı hərbçilərin nəzər-diqqətini "Şəhidlər Xiyabanı"na cəlb etməyə, əhalidən pul toplamağa çalışır; fitnəkar şüarlar səsləndirir; tezliklə "Şəhidlər Xiyabanı"na hərbçilərin basqını olacağını deyərək xalqın ziyarətinin qarşısını almağa çalışırdılar.

Millətimizin o ağır günlərində Şəhidlərimizin dəfni kimi məsuliyyətli bir işi xalqın iradəsi və nəzarəti altında, vətəndaşlıq borcu səviyyəsində yerinə yetirən insanlara qarşı belə qəzəbli münasibəti ürək ağrısı ilə xatırlayaraq dəfnin üçüncü cümə axşamı mərasimində "Şəhidlər Xiyabanı"nda səslənmiş bir fikri demək istəyirəm: "Bəlkə də Dəfn Komissiyası çirkin əməllərinizi nə vaxtsa bağışlaya biləcək..., lakin Millətimiz, Torpağımız, Duz-Çörək, Ana Südü və Şəhidlərimizin Ölməz Ruhları belə bir günahı heç vaxt bağışlamayacaq".

**- 42 gün ərzində ən çox yadda qalan hansı hadisələr oldu?**

- Komissiya Şəhidlərimiz üçün qəbirlərin qazılıb hazırlanması və onların dəfnini təşkil etmək məqsədilə yaradılmışdı. Sonrakı günlərdə yeni qurbanlar, ziyarətə gələnlərin hərəkətini tənzimləmək, ərazidə təhlükəsizliyi qorumaq naminə işimizi davam etdirməli olduq. Şəhidlərin 40 gün mərasimi başa çatandan soma Komissiya səlahiyyətlərinin başa çatdığı haqda mart ayının 2-də axşam saatlarında ziyarətə gələnlərə məlumat verdi. O günlərin yadda qalan hadisələrinə gəldikdə isə hər an yaşanmış tarix olan dövrün salnaməsinin yazılması, hadisələrə dair yazıların toplanıb ümumiləşdirilməsi, nəhayət, "Şəhidlər Ensiklopediyası»nı nəşri məsuliyyətli vətəndaşlıq borcu kimi qarşıda durur...

**Vahid Xatirə Kompleksi yaradılmalıdır**

Saçlarını yolan anaların fəryadı, qardaşmı itirmiş bacıların hönkürtüləri, nişanlı qızların sonsuz kədərini, əzizlərini bayatılarla oxşayan gəlinlərin səsi, atalarının qəbri üstə gəlmiş boynu bükük balaların solğun çöhrələri, yaşlı kişilərin göz yaşlarını ətrafdakılardan gizlətməyə çalışmaları, həbs olunmuş övladlarımızın azad olunması üçün imzalar toplanması, "Yasin" surəsinin yanıqlı sədalan, minlərlə adamın Şəhidlərin ruhuna rəhmət və dua pıçıltıları, Komissiyanın xahiş və tələblərinin hamı tərəfindən hörmətlə yerinə yetirilməsi, şübhəsiz, unudulmazdır, tarixi anlardır, milli ləyaqətimizin şərəf-nəciblik mərtəbəsinin misilsiz təsdiqidir.

**- 20 Yanvar hadisələrinin ibrət dərslərini bugünkü reallıqlar baxımından necə qiymətləndirmək olar?**

- Nəhəng imperiyanın sərt diktatura rejimi şəraitində hər çətinliyə sinə gərmiş Xalqımızın milli birliyə gəlib Dağlıq Qarabağ münaqişəsini həll etməsi, quzeyli-güneyli Vahid Azərbaycanın yaradılması, şübhəsiz, keçdiyimiz əzablı mübarizə yolunun bütün Şəhidlərimizin məğrur ruhlarına ən böyük abidə olardı.

**- "Şəlıidlər Xiyabanı"m necə görmək istərdiniz?**

- Millətimizin bu baş ziyarətgahı və şərəf zirvəsi əbədi təyinatına uyğun orijinal tələblərə cavab verən yeni quruluşu, xalqımızın azadlıq uğrunda mübarizə yolunun müxtəlif mərhələlərini əks etdirən, açıq səma altında, "Şəhidlər Muzeyi"nin də daxil olduğu Vahid Xatirə Kompleksi kimi formalaşmalıdır. Bu barədə Bakı şəhər İcra Hakimiyyətinə və Prezident Aparatına ünvanlanmış müraciətlərimiz olub. İnanırıq ki, məğrur və nakam Şəhidlərimizin əbədi uyuduqları Müqəddəs Məkan tez-gec rəsmi statusa malik olacaq, onun qorunub saxlanması, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində misilsiz əhəmiyyəti dərk ediləcək, bir neçə ildən sonra 20 illiyi qeyd olunacaq Qanlı Yanvarın 20 yaşında arzularımız həqiqətə çevriləcək, hamımıza bir daha ibrət dərsi kimi xatırladacaq: "Torpaq uğrunda ölən varsa, Vətəndir!"

**Elçin Qaliboğlu**

**“Xalq cəbhəsi”.** - 2007. – 20-22 yanvar. - N 9. - S. 11.

# 20 Yanvar hadisələri xalqın azadlıq və müstəqillik əzmini daha da gücləndirdi

***XX əsr tarixində totalitarizmin törətdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı işlədilmiş cinayət, əslində, bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli bir əməldir. Həmin cinayəti törə dənlər indiyədək öz cəzalarını almamışlar. Xalqımız əmindir ki, müqəssirlər tarix, bəşəriyyət, eləcə də Azərbaycan xalqı qarşısında cavab verməli olacaqlar***

**Heydər ƏLİYEV**
**Ümummilli lider**

***20 Yanvarda sovet rejiminin hərbi, siyasi və mənavi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirdi. Azərbaycanda haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş Vətən övladları Qanlı Yanvarda xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

1990-cı il yanvarın 12-də şayiə yayılmışdı ki, şəhərdə qarışıqlıq olacaq. İnsanlar mitinqlərdən çıxıb Bakını tərk etməyən ermənilərin mənzillərinə basqın edəcəklər.

Bu Bakıya qoşun yeritmək üçün bir bəhanə idi. Kreml dayaqları laxlamış imperiyanı xilas etmək. öz haqlarını tələb edən xalqlara ciddi "dərs vermək" məqsədilə Azərbaycana divan tutmağı qərara almışdı.

Azərbaycanın başı üstündə dəhşətli bir kabus dolaşırdı. Artıq xəbərlər gəlirdi ki, Bakının ətrafına, xüsusən, şimal qapısına - Biləcəri yaxınlığına güclü hərbi texnika toplaşıb. Ancaq küçələrə axışan insanlar Xalq Cəbhəsinin liderlərinə inanırdılar. Onların sözü ilə oturub-dururdular. Bu ilk növbədə respublikanın mövcud rəhbərliyinə inamsızlıqdan doğurdu. Hər yerdə danışırdılar ki, Leytenant Şmidt zavodu avtomat istehsal edir. Nemət söz verib ki, avtomatlar bütün postlara paylanacaq. Amma heç düşünən yox idi ki, avtomatla zirehli hərb maşınlarına atəş açmaq kəsək atmaq kimi bir işdir. Yadımdadır, yanvarın 19-da metronun "Gənclik" stansiyası ətrafında bu sözü deyəndə dəstə arasında xüsusi adamlar kütləni bizim üstümüzə yönəltdilər ki, bunları içimizə təxribat salmağa göndəriblər. Bir təsadüfdən sağ qaldıq. Amma bir neçə saat sonra həmin mitinqçilər dərk etdilər ki, təxribatçılar elə onlara rəhbərlik edən həmin adamlar imiş. Orada olan dostumun oğlu Elmidar bir neçə gün sonra mənə danışdı ki, tanklar üstümüzə gələndən bir az qabaq həmin adamlar yoxa çıxdılar.

Bakıya yeridilən 11 minlik ordu adi əsgərlər deyildilər. Xüsusi təlim görmüş, ehtiyatdan yığılmış xüsusi təyinatlılar idilər. Çoxunun saçları boynuna qədər tökülürdü. Hücumdan qabaq isə onlara spirtli içkilər və xüsusi dərmanlar verilmişdi ki, insani hisslərdən məhrum olsunlar, qəddarlıq və zalımlıqdan zövq alsınlar. Və həmin dəstələrdə olan xüsusi seçilmiş ermənilər bu işləri həvəslə yerinə yetirdilər.

Bəs, niyə qoşun Bakıya yanvarın 13-14-15-də deyil, 19-dan 20-nə keçən gecə yeridildi? Çünki xüsusi xidmət orqanları Bakıya qoşun yeridilməsinə qədər şəhərdə çoxsaylı təxribatlar, qətl, qarət törədilməsini planlaşdırmışdılar ki, beynəlxalq aləmdə öz qanlı əməllərinə haqq qazandırsınlar. Həmin günlərdə təxribatçı planların tərkib hissəsi olaraq şəhərin küçələrində barrikadalar quruldu, Bakının zavodlarında silah istehsalı haqqında şayiələr yayıldı, Müdafiə Şurasının yaradılması elan olundu.

Ayın 19-na kimi bütün bu məsələlər Kremlin göstərişi ilə reallaşdı. Və həmin gün televiziya mühasirəyə alındı, Mərkəzi Komitənin, rabitə müəssisələrinin, mərkəzi bankın, hətta hərbi hissələrin ələ keçirilməsi haqqında ara-sıra çağırışlar səslənməyə başladı.

Demək olar ki. Kreml bütün təxribatçı planlarını reallaşdırmışdı. İndi ordunun hərəkətə keçməsi qalırdı. Bəs; fövqəladə vəziyyət niyə qırğından sonra elan olundu?

Bunun bir cavabı var: M.Qorbaçov və onun ətrafındakı SSRİ-nin digər ermənipərəst rəhbərləri istəyirdilər ki, Bakıda daha çox qan tökülsün.

SSRİ rəhbərləri, şəxsən qaniçən M.Qorbaçov istəyinə nail oldu. Amma Azərbaycan xalqının coşan ruhunu boğa bilmədi. Bu qan xalqımızı yumruq kimi birləşdirdi, azadlıq arzularım alovlandırdı. Bu da imperiyanın laxlayan özülünə güclü zərbə oldu.

O gecə müsibətin həddi-hüdudu olmadı. Gecə qaranlığı qırmızı don geyindi, hər yerdə ölüm fəryadı ucaldı. İnsaf, mürvət yoxa çəkildi. Sovet ordusu görünməmiş vəhşiliklər törətdi.

O səhər gözünü qanla açdı. Hər yan qan idi. İnsanların gözünə də qan çökmüşdü. Qərənfillərin də bəxtinə düşmədi o gecə. Sevgililərə aparılardı həmişə. İndi qan tökülmüş yerlərə düzüldü, şəhid qəbirlərini bəzədi, onlara yas tutdu, ağladı qərənfillər.

20 Yanvar tariximizin ağrılı səhifəsidir. Həm də, ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi Azərbaycanın öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu təsdiqləyən qeyri-adi vətənpərvərlik, igidlik nümunəsidir. Və bu da faktıdır ki, bu yara qaysaq bağlamır. Doğrudur, bu qəhrəmanlığa çox böyük abidə ucaldılıb. Bu abidə yenə böyük öndərimizin dediyi kimi Azərbaycanın istiqlaliyyəti, müstəqilliyidir. Ancaq nə qədər ki, 20 Yanvar faciəsi hüquqi qiymətini almayıb, nə qədər ki, torpaqlarımızın 20 faizi işğal altındadır, nə şəhidlərimizin narahat ruhları, nə də xalqımız rahatlıq tapmayacaq. Tariximizin bu qanlı dönəmi dəfələrlə araşdırılıb, ancaq yenə də sirli məqamlar çoxdur. İndi Sovet imperiyası yoxdur. Ancaq qatillər, bu qətliama göstəriş verənlər və qırğının miqyasının böyük olmasına səbəb olanlar var. Onlar el, millət qınağına gəlsələr də, qanunla cəzalarını almayıblar.

O gecə paytaxtın küçələri qan içində idi. O gecə nalələr ərşə dirənmişdi. Və bu müsibətin içində insanlar qan-yaş tökə-tökə göz-gözə gəlirdilər. Hamı bir-birinin gözündə nəsə bir ümid, çıxış yolu axtarırdı. Ancaq tapa bilmirdilər. Kimsə qabağa çıxmırdı, kimsə xalqa təskinedici bir söz demirdi. Kimsə bu müsibətin həm də xalqın qəhrəmanlığı olduğunu dilinə gətirmirdi. Tökülən qanların milli yaddaşımızı oyatdığını boyan etmirdi. Əbdürrəhman Vəzirov daha yox idi, namərdcəsinə qaçıb aradan çıxmışdı.

Respublikanın digər rəhbərlərini isə bir məsələ düşündürürdü: Mixail Qorbaçov indi kimi seçəcək, kim respublikanın rəhbəri olacaq?

Bu zaman ümummilli liderimiz Heydər Əliyevin Moskvada xüsusi nəzarət altında yaşadığı hamıya məlumdur. O da məlumdur ki, heç kimdən, heç kəsdən adi bir təskinedici söz belə eşitməyən xalq Heydər Əliyevə güvənirdi. Və belə ağır, hüznlü günlərdə Heydər Əliyev bütün təzyiq və təhlükələrə baxmayaraq, özünün və ailə üzvlərinin həyatını real təhlükə qarşısında qoyaraq, yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəldi. Həmin gün nümayəndəliyə toplaşmış Moskvada yaşayan azərbaycanlılar sonralar danışırdılar ki, Heydər Əliyevin gəlişi möcüzə idi. Elə bil Allah "Heydər Əliyev" harayımızı eşidib, onu qeybdən bura gətirdi. Əllər ona uzanırdı, gözlər ondan ümid gözləyirdi. Yeri gəlmişkən, bu zaman M.Qorbaçoyun qarşısında oturan üç nəfər azərbaycanlı ondan vəzifə gözləyirdi. Sonralar məlum olacaq ki, M.Qorbaçov A.Mutəllibovu seçib və bu üç nəfərdən heç biri Bakıda törədilən dəhşətli qırığından bir kəlmədə olsun danışmayıblar.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanın Moskvadakı nümayəndəliyindəki çıxışına dünya diqqət kəsildi. Beynəlxalq aləm imperiyanın Bakıda törətdiyi qırğınların dəhşətini bütünlüklə dərk etdi. Böyük öndərin bu çıxışı, xalqına müraciəti elə həmin gün "Azadlıq" radiosu ilə dünyaya yayıldı. Heydər Əliyev həmin çıxışında dedi: "Əziz həmvətənlərim! Buraya əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində. böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı daimi nümayəndəsindən xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm.

Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkədə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm..."

Əslində burada hər şey deyilmişdi. İmperiya rəhbərlərinin iç üzü göstərilirdi, onlar ittiham edilirdi. Hüquqa, demokratiyaya, humanizmə zidd olan hər nə varsa imperiya rəhbərlərinin ünvanına deyilirdi. Bu, çox böyük iradə, cəsarət, vətənpərvərlik tələb edirdi. Ancaq Heydər Əliyev çox-çox böyük işlərə qadir idi. Neyləyəsən ki, o vaxt özünün də dediyi kimi bundan başqa imkanı yox idi. İmperiyanın dövlət təhlükəsizlik xidmətinin ciddi nəzarətində yaşayırdı. Əvvəl dediyimiz kimi hələ imkan tapıb nümayəndəliyə gəlişi də möcüzə idi. Azərbaycanda isə rəhbərlər susurdular. Hadisələri seyr edirdilər. Çoxu da məsuliyyətdən yaxa qurtarmaq üçün deyirdi ki, səhv, düz fövqəladə vəziyyət elan edilibsə, gərək əməl ediləydi. Fövqəladə vəziyyət isə qırğın başa çatandan sonra - səhər saat 5.30-da elan edildi.

Maraqlıdır, bəs, fövqəladə vəziyyətin elan olunacağını əvvəlcədən kim bilirdi? - Əlbəttə, respublika rəhbərləri. Bir də mitinqlərə liderlik edənlər. Onlar da elə qaçıb dağılmışdılar ki, biri də tapılmırdı. Və bu günahsız qanların içində, hərb maşınlarının tırtılları altında əzilən Azərbaycan övladlarının cəsədləri üstündə bəziləri hə min liderlər üçün göz yaşı da tökürdülər. Guya İsanı, Etibarı, Neməti, Rəhimi, daha nə bilim kimləri imperiyanın cəlladları harasa yox ediblər. Ancaq az sonra məlum oldu ki, İsa Qəmbər qırğının ən şiddətli saatlarında Yusif Səmədoğlunun evində oturub, pürrəngi çay içirmiş. Küçələrə tökdükləri insanların nalələrini, güllə səslərini də buradan dinləyirmiş.

"Bakıya qoşun yeridiləcəyindən xəbərimiz yox idi və biz buna inanmırdıq", - deyənlərin yalanları tez üzə çıxdı. Qırğından bir gün sonra Etibar Məmmədov Moskvaya qaçmışdı. Maraqlıdır, paytaxtda hər şey Moskvanın ciddi nəzarətində olduğu halda o necə qaçmışdı, kim qaçırmışdı və nə üçün məhz Moskvaya qaçmışdı?... Nemət Pənahlı da qaçmışdı, ancaq Moskvaya yox, İranı, Türkiyəni gəzib qayıtdı. Nə isə, yanvarın 21-də E. Məmmədov Moskvada bəyan etdi ki, "biş camaatı qəsdən küçələrdən yığmadıq. Dedik ki, milli ruh sınmasın". Ancaq məsələ ondadır ki, həmin gecə insanları aldadıb küçələrə səsləyən bu adamlardan biri imperiya tanklarının tırtılları altında qalsaydı, xalqın milli ruhu daha coşqun olardı. Həm də onlar bu xalqın .tarixində qəhrəman kimi yaşayardılar. Bu günki miskin günlərə də düşməzdilər. Faciənin baş verdiyi ərəfədə Kremlin yüksək səlahiyyət sahiblərindən bir qrupu Bakıya gəlmişdi. Yanvarın 16-da Primakov da Bakıya gəlmişdi. Və ona aydın olmuşdu ki, respublika rəhbərləri iflic vəziyyətindədir. İdarəetmə qabiliyyətini itiriblər. Küçələrə axışan insanları isə Etibarlar, İsalar, Nemətlər idarə edirdilər. E.Məmmədov, R.Qazıyev, İ.Qəmbər yanvarın 19-da gecə Bakıya qoşun yeridiləcəyi haqqında məlumatlı idilər. Ancaq onlar, E. Məmmədovun etiraf etdiyi kimi, camaatı qəsdən küçələrdən yığışdırtmadılar. Nəticədə, qırğının əhatə dairəsi çox böyük oldu.

Biz içimizdə düşmən axtarmaqdan çox-çox uzağıq. Ancaq niyə ümummilli liderimiz Heydər Əliyev Azərbaycanda yenidən hakimiyyətə qayıdana qədər heç kim özündə siyasi iradə tapıb, bu faciəyə siyasi qiymət verməyə cəhd göstərmədi. Axı, 1991-ci ildən müstəqilliyini elan etmiş Azərbaycanın rəhbərlərinin əl-qolunu kim tutmuşdu? Mütəllibov etmədi. Bəs, AXC-Müsavat rəhbərləri niyə susdular? Əgər təqsirkar deyildilərsə, nə isə bir iş etməliydilər, axı...

Bəli, Sovet imperiyasının xalqımızın başına gətirdiyi bu böyük müsibətə yalnız Heydər Əliyev Azərbaycanda yenidən hakimiyyətə qayıdandan sonra siyasi qiymət verildi.

M.Qorbaçov Bakıya qoşun yeritmək, qırğın törətmək üçün bəhanə axtarırdı və onu tapacaqdı. Çünki əlində kifayət qədər təxribat maşınları vardı. Məsələ bundadır ki, ağıllı, təcrübəli, xalqına bağlı rəhbərimiz olsaydı bu qırğından qaça bilərdik və ən azı onun əhatə dairəsi bu qədər geniş olmazdı. İçimizdəki xainləri vaxtında cilovlaya bilsəydik, onlar Qorbaçova və ermənilərə yardım edib, Bakıda bu müsibəti törədə bilməzdilər.

Bu bizim tariximizdir. Qanlı və qəhrəmanlıqla dolu tariximiz. Bu tarixi həmişə xatırlayacağıq. Həm də içimizdən gələn bir qürurla. Çünki həmin gecə tökülən qanlar hər birimizin içində bir azadlıq çırağını yandırdı. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi 20 Yanvar şəhidlərinin qanı hədər getmədi, onlara ən böyük abidə bu günkü müstəqil Azərbaycandır.

**Vahid İmanov**

**"Xalq qəzeti".** - 2007. – 20 yanvar. - N 12. - S. 1.

## Əyilməzlik və məğrurluq simvolu

### 20 YANVAR AZƏRBAYCAN XALQININ İRADƏSİNİN NÜMAYİŞİNƏ ÇEVRİLDİ

***Təxminən iki yüz il davam edən imperiya zülmündən cana doymuş Azərbaycan xalqının 17 il öncə ayağa qalxaraq azad yaşamaq haqqının olduğunu bəyan etməsi sözsüz ki, milli oyanışın təntənə-si oldu. Torpaqlarımızın toxunulmazlığı uğrunda başlanmış mübarizə sonda vüsətli xalq hərəkatına çevrildi. Onilliklər boyu gücünü yığan xalqın hayqıran səsi imperiyanı lərzəyə saldı və onu sarsıtdı. Mərkəzin və onların yerdəki əlaltılarının cidd-cəhdləri ilə faciələr törədilsə də, xalqın dəmir iradəsini qıra bilmədilər. Özünün həqiqi, real məziyyətlərinə görə digərlərindən üstünlüyünü anlayan Azərbaycan xalqı sovet imperiyasının "geridə qalmış xalq" sindromunu qırdı və birləşərək azadlıq əzmini nümayiş etdirdi. Tarix bizi yenidən ağır sınaqlara çəkdi. Sovet imperiyası ilk qisasını Azərbaycandan aldı. Qanlı 20 Yanvar faciəsini törətdi.***

Həmin gün Azərbaycanın o vaxtkı satqın rəhbərliyinin istəyi və SSRİ rəhbərliyinin əmri ilə ölkəmizdə kommunist rejimini saxlamaq məqsədilə Bakıya 35 minlik ordu yeridildi. SSRİ Müdafiə Nazirliyi və DTK-nın hazırlayıb həyata keçirdiyi "Udar" adlı əməliyyatda əsas rolu xüsusi təyinatlı "ALFA" və SSRİ DTK-nın "A" təxribat qrupları oynayırdı. Sovet qoşunlarının təcavüzü nəticəsində Bakıda 134 mülki vətəndaş öldürülmüş, 600-dən çox adam yaralanmışdı. Öldürülənlər arasında beş millətin nümayəndələri, 20-dən çox qadın, uşaq var. Lakin Qara Yanvarın indiyədək özündə saxladığı sirlər də çoxdur. 100 cildlik istintaq materialının 69 cildi Bakıdan Moskvaya, keçmiş SSRİ Prokurorluğuna aparılıb və bir daha geri qaytarılmayıb. Azərbaycan xalqının məruz qaldığı bu təcavüz indiyədək bəşəriyyət əleyhinə cinayət kimi beynəlxalq müstəvidə layiq olduğu təsnifatı almayıb. Bu hadisələrə emosiya, kədər, yaxud mübarizlik salnaməsi kimi pafoslu münasibətlə bərabər, bir qədər də soyuqqanlı olub, o hadisələrin gerçək mahiyyətini dünya birliyinin, çeşidli beynəlxalq təşkilatların önünə qoymaq barədə düşünməli, 20 Yanvara beynəlxalq-hüquqi qiymətin verilməsinə çalışmalıyıq.

1988-ci ildən başlayaraq Bakı şəhərində və respublikamızın rayonlarında ictimai-siyasi vəziyyət kəskinləşməyə başladı. Bunun əsas səbəbi Azərbaycanın əzəli torpaqları olan Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan Respublikasının tərkibindən çıxarılıb Ermənistana birləşdirilməsi barədə Dağlıq Qarabağda və Ermənistanda erməni millətçilərinin fəaliyyətinin gücləndirilməsi idi. Müttəfiq respublikanın suverenliyinin təminatçısı olan keçmiş SSRİ-nin ali dövlət hakimiyyəti orqanları Azərbaycan xalqının suveren hüquqlarını qorumaq sahəsində Konstitusiya öhdəliklərini yerinə yetirməkdə qətiyyət, əzmkarlıq göstərmədi. Dağlıq Qarabağda separatçıları vaxtında yerlərində oturtmadı və Ermənistanın əsassız ərazi iddialarını rədd etmədi. Bütün bunlar SSRİ-nin rəhbər orqanlarına və respublikanın suverenliyinin, ərazi bütövlüyünün müdafiəsi ilə bağlı problemləri həll etməyə acizlik göstərən o vaxtkı Azərbaycan rəhbərlərində Azərbaycan xalqının etimadını sarsıtmışdı. Ermənistanın ərazi iddiaları və Dağlıq Qarabağda separatçılıq hərəkəti 1988-ci ildə respublikanın ərazi bütövlüyünün müdafiəsi uğrunda kütləvi xalq hərəkatının yaranmasına gətirib çıxardı. Respublikamızda milli mənlik şüurunun daha da güclənməsi və demokratik proseslərin inkişafı "Azərbaycan SSRİ-nin suverenliyi haqqında" Konstitusiya qanununun qəbul edilməsi ilə nəticələndi.

Lakin ermənipərəst Arkadi Volskinin başçılıq etdiyi Xüsusi İdarə Komitəsinin Azərbaycanın əleyhinə məqsədyönlü fəaliyyəti, respublikada baş verən hadisələrin mərkəzi kütləvi informasiya vasitələrində təhrif edilməsi, Ermənistandan və Dağlıq Qarabağdan zorakılıqla qovulan çoxlu sayda azərbaycanlı qaçqın və. məcburi köçkünün Bakı şəhərində cəmləşməsi şəraiti mürəkkəbləşdirdi. Azərbaycanın siyasi rəhbərliyinin tam çaşqınlığı, xalqla əlaqəsinin itməsi, müstəqilliyinin olmaması onun iflasını və hakimiyyətsizliyini labüd etmişdi. Qeyd etmək lazımdır ki, o vaxt şəhərdə SSRİ DİN daxili qoşunlarının iri kontingenti var idi və bu kontingentdən qəsdən istifadə edilmədi. Yanvarın 16-da Bakı şəhərinin girəcəyində və Bakı qarnizonu hissələrinin ətrafında vətəndaşlar minik və yük maşınlarını yan-yana qoyaraq piketlər təşkil etdilər. Piketlər Bakıya gələn imperiya qoşunlarının qarşısını kəsmək və Bakı qarnizonu hissələrinin öz yerlərindən çıxmasına

yol vermək məqsədilə Milli Müdafiə Şurasının göstərişi ilə təşkil edilmişdi. Yanvarın 18-də Bakı və Azərbaycanın 11 başqa rayonunda keçirilən izdihamlı mitinqlərdə ümumi tətilin başlandığı elan olundu. Tələb edilirdi ki, Ermənistanın ərazi iddialarına son qoyulsun. Bakı ətrafında cəmləşən qoşunlar çəkilib aparılsın və Dağlıq Qarabağın Ermənistanla sərhədyanı rayonlarına göndərilsin. 1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti Rəyasət Heyətinin Mixail Qorbaçov tərəfindən imzalanmış fərmanına əsasən "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verildi. Fərman SSRİ Konstitusiyasının və həm də Azərbaycan Konstitusiyasını və eləcə də beynəlxalq hüquq normalarını pozmuş, fövqəladə vəziyyətin hüquqi rejimini tənzimləyən qanunvericilik aktının olmadığı bir şəraitdə qəbul edilmişdi. Fövqəladə vəziyyət elan edilməsi və bununla əlaqədar olaraq bu vəziyyətə riayət edilmədiyi halda, hərbi qüvvə işlədiləcəyi barədə əhalinin vaxtında xəbərdar edilməsinin böyük əhəmiyyəti vardır. Belə olsaydı əhali dağılıb evlərinə gedərdi, tələfat isə az olardı. Vətəndaşlıq hüquqları və siyasi hüquqlar haqqında 1966-cı il tarixli beynəlxalq paktın 4-cü maddəsinin 1-ci bəndində deyilir ki, fövqəladə vəziyyət tətbiq ediləcəyini rəsmən elan etmək lazımdır. Halbuki Bakıda fövqəladə vəziyyət tətbiq edildiyini əhali ilk dəfə ancaq yanvarın 20-də səhər saat 5.30-da şəhərin komendantı Dubinyakın radio ilə çıxışından və vertolyotların səpdiyi vərəqələrdən öyrənmişdi. O vaxt şəhər artıq qoşun tərəfindən tutulmuş və qırğınlar baş vermişdi. Lakin fərmana uyğun olaraq fövqəladə vəziyyət rejimi demək olar dərhal, 1990-cı il yanvarın 20-də saat 00.00-da tətbiq edilmişdi.

Həmin dövrdə xalqı məlumatlandırmaq üçün bütün vasitələr məhv edildi. Teleradio partladıldı. Teleradionun keşiyində Bakı Ümumqoşun Komandirləri məktəbinin kursantları dayanırdı. Yanvarın 19-da, saat 19.00-da yarımhərbi, yarımidman forması geymiş dörd nəfər silahlı adam teleradio mərkəzinə gəlib, mühafizə dəstəsi isə dərhal onların sərəncamını yerinə yetirmişdir. Gələnlər mühafizəçilərdən enerji blokunun yerini öyrənib öz mühafizələri altında alaraq enerji blokunu saat 19.15-də partlatmışdılar. Ekspertlərin verdiyi rəyə görə, teleradio mərkəzinin enerji blokunu Sovet Ordusunun və SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin xüsusi qrupu partlatmışdı. İnsanlıq simalarını itirmiş imperiya qoşunları şəhərə daxil olarkən öz istiqlalı uğrunda sinələrini sipər etmiş qəhrəman oğul və qızlarımızı məhv etmək üçün tanklardan, zirehli transportyorlardan, piyadaların döyüş maşınlarından istifadə edirdilər. Zirehli tankların üstündə nömrələri yox idi. "Qırmızı Bayraq" ordenli Xəzər Hərbi Donanmasının gəmilərindən desant çıxarılmışdı. Qoşunların şəhərə yeridilməsi əməliyyatı yanvarın 19-da təqribən saat 21-22 arasında Türkan və Qala qəsəbələri arasında qoşun hissələrinin yerləşdiyi rayondan başladı. Qoşunların hərəkəti istiqamətində təsadüfən yoldan keçən adamlar və avtomobil nəqliyyatı vasitələri güllələbaran edildi. Fərman qüvvəyə minənədək hərbi qulluqçular artıq doqquz vətəndaşı öldürmüşdülər. Qoşunun şəhərə kütləvi surətdə yeridilməsi müxtəlif isti-qamətlərdə başlamışdı. Bakıya qoşun yeridilərkən hərbi qulluqçular tərəfindən və eləcə də erməni millətindən olan hərbi qulluqçular daha böyük qəddarlıqlar etmişdilər.

Qoşunlar gözqamaşdırıcı qaz tətbiq edərkən, eyni zamanda adamları avtomat silahlardan güclü atəşə tuturdular. Hərbi tanklar piketləri yarıb keçirdilər. Hərbçilər tərəfindən yaralıların öldürül-məsi, təsadüfən yoldan keçənlərin, yaşayış evlərinin, mağazaların, tibb müəssisələrinin atəşə tutulması dəhşət doğururdu. Təcili yardım maşınları yaralılara yaxın buraxılmır və atəşə tutulurdu. Bir çox vətəndaş öz evinin qarşısında, mənzilində, avtobusda güllələnib qətlə yetirilirdi. Vətəndaşlar, o cümlədən xidmətdə olan polis işçiləri sorğu-sualsız tutulurdular. Hərbi hakimiyyət orqanları yanvarın 20-də saat 22.00-dan etibarən qadağan saatı qoyulduğunu yanvarın 20-də saat 7-də elan etdi. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan edildikdən sonra, yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində daha 21 adam öldürülmüşdü. Daha on yeddi vətəndaş avtomaşın-ların atəşə tutulması nəticəsində maşınların içərisində öldürülmüşdü. Yeddi vətəndaş isə öz evində avtomatdan atılan atəşlə qətlə yetirilmişdi. Müayinə edilmiş 94 meyitin 82-də silah zədələri müəyyən edilmişdir. Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və respublikanın rayonlarında 190 adam öldürülmüş və 600-a qədəri yaralanmışdır. Azərbaycan xalqının igid oğul və qızları doğma Azərbaycanın azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda öz canlarından keçərək zirvəyə yüksəldilər. Onlar sovet imperiyasının dayaqlarını sarsıtdılar. Azğınlaşmış imperiya artıq başa düşdü ki, Azərbaycan xalqı artıq onların

başa düşdüyü, beləcə qələmə verdikləri "geridə qalan xalq" deyil. Öz haqqını istəyən, imperiya boyunduruğunu ləğv edən xalqdır.

Sovet imperiyası bu ölməzlik zirvəsinə yüksələn Azərbaycanın qəhrəman oğul və qızlarının qarşısında lərzəyə düşdü. Bu çətin, ağır məqamlarda xalqımız özünün qəhrəman oğul və qızlarının simasında tarixin qəhrəmanlıq salnaməsinə öz igidliyini qızıl hərflərlə həkk etdi. Onların əziz xatirəsi xalqımızın qan yaddaşında əbədi yaşayacaq. Xalqımızın belə bir çətin məqamda yumruq kimi birləşərək sovet imperiyasına qarşı ölüm-dirim mübarizəsinə qalxması bu xalqın milli həmrəylik simvolu idi. Bəli, o vaxt hamı rus ordusunun faciə törədəcəyini yaxşı bilirdi, amma Vətənin azadlığı yolunda güllə qarşısına çıxmağı özünə şərəf bilən insanlar da vardı. Bu insanlar sonradan xalqa və daha sonra Azərbaycana çevrildi. Bu şəhidlik Vətənin azadlığı və müstəqilliyini qorumaq borcundan keçib. Biz Azərbaycanın torpaqları yolunda ölmüşüksə, deməli, bu torpaqları Vətən etmişik! Allah bütün şəhidlərimizə rəhmət, ruhlarını şad etməklə, Azərbaycanın azadlığı yolunda kütləvi şəhidliyə hazır olmaqda xalqımıza dayaq dursun! Vətən şəhidlərini heç vaxt unutmayacaq! 20 Yanvar Azərbaycan xalqının hüzn və şərəf günüdür. Xalqı-mız bu faciədə həyatdan getmiş övladlarına matəm saxlamaqla bərabər, onların şəhidlik zirvəsinə baxaraq başını dik tutmalıdır.

20 Yanvar faciəsi Azərbaycan xalqını qorxutmaq, onun milli oyanışını, torpaq uğrunda mübarizliyini məhv edib sındırmaq məqsədi daşıyan mənfur planın tərkib hissəsi idi. 1990-cı ilin 20 yanvarından ötən illəri bir qayda olaraq yalnız kədər, hüzn, matəm kimi qeyd etmişik, şəhidlərimizin ruhunu ağı və sızıntı ilə anmışıq. Ümumxalq hüzn günü - bu əhval təbiidir. Amma bir şeyi unutmamalıyıq ki, 20 Yanvar Azərbaycan xalqının tarixində, sadəcə, ağı və acı ilə xatırlanacaq gün deyil. 20 Yanvar həm də xalqımızın şan və şərəf günüdür. Unutmamalıyıq ki, həmin gün küçələri boyamış al şəhid qanları bir anlamda milli məfkurəmizin oyanan günəşinin qırmızı şəfəqini simvolizə edirdi. Xalqımız həmin gün üstünə şığıyan dəhşətli kabusa, sovet hərbiyyəsinin qorxunc qaragüruhuna qarşı sinəsini verməyi və deməli, özünün mənliyini və mətinliyini nümayiş etdirməyi bacardı. Məhz həmin hadisələr bilavasitə nümayiş etdirdi ki, Azərbaycan xalqı özgürlük mübarizəsinə qalxmaq, pozulmuş hüquqlarının, suverenliyinin bərpa olunması uğrunda savaşmaq əzminə sahibdir. 1990-cı ilin 20 yanvarı Azərbaycanın istiqlaliyyət yolunun ilk şəhidlik zirvəsi idi. Ötən illər ərzində Qanlı Yanvarın tarixi, mənəvi, siyasi və s. aspektləri analiz edilib, hadisəyə Azərbaycan dövləti tərəfindən hüquqi qiymət verilib. Lakin təəssüf edilməlidir ki, biz indiyədək bu tarixi dünyaya yetərincə tanıda bilməmişik. Dünya hələ də 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycanda, onun paytaxtı Bakıda nələrin baş verdiyindən xeyli dərəcədə səthi informasiyaya malikdir. Lakin o da etiraf edilməlidir ki, bu qanlı faciəni bütün dünyaya tanıtmaq üçün ulu öndərimiz Heydər Əliyev gecəli-gündüzlü çalışıb. Bu gün ulu öndərin ruhu Vətənimizin azadlığı uğrunda şəhid olmuş oğul və qızlarımızın ruhuna qovuşub. Ruhunuz şad olsun!

**Faiq Məmmədov**

**"İki sahil".** - 2007. – 20 yanvar. - N 10. - S. 5.

## 20 Yanvar – bir xalqın faciəsi

***1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə imperiya cəlladları Azərbaycanda geniş vüsət almış milli-azadlıq hərəkatını boğmaq üçün qətliam aktı həyata keçirdi. Törədilən qırğınlar nəticəsində 130-dan çox insan qətlə yetirildi, 600-dən çox insan isə yaralanaraq şikəst oldu. Moskvanın "Udar" əməliyyatı adı altında keçirdiyi qırğınlarda SSRİ DTK-sının "Alfa" qrupu xüsusi rol oynamışdır.***

Sonradan aparılan istintaq araşdırmaları nəticəsində bəlli olmuşdur ki, "Alfa" qrupunun həyata keçirdiyi qırğınlar zamanı ən müasir silahlardan, o cümlədən, tarazlığını dəyişən güllələrdən də istifadə olunmuşdur. Törədilən faciə ilə bağlı yüz cilddən ibarət iş toplanmışdır ki, sonradan həmin işin 60 cildi Moskvaya aparılmışdı. Bu günə qədər faciəni törədən cəlladların adları bəlli olsa da, onların məsuliyyətə cəlb edilərək, layiq olduğu cəzanı almaları reallaşmır. Bu da, təbii ki, Azərbaycan xalqı arasında ciddi narazılıqlarla qarşılanır. Yeni Azərbaycan Partiyasının Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət Həsənova da bizimlə söhbətində cinayəti törədənlərin cəzalandırılmamasından təəssüfləndiyini söylədi. Onu da qeyd etdi ki, YAP Nəsimi rayon təşkilatında 20 Yanvar qurbanlarının ailələri ilə keçirilən görüşlərdə şəhid ailələrinə hələ də Ayaz Mütəllibovun, Əbdürrəhman Vəzirovun məsuliyyətə cəlb olunmamasından narazı qaldıqlarını bildirdilər.

***Millət vəkili Məlahət Həsənova:***

- Hesab edirəm ki, 20 Yanvar hadisəsi xalqımızın qəhrəmanlıq salnaməsidir. Çünki qəhrəmanlıq ekstremal vəziyyətdə şücaətin göstərilməsilə özünü göstərir. Əgər 20 Yanvar şəhidlərinin həyat tarixçəsinə diqqətlə nəzər yetirsək, onların bir-birindən qeyrətli, əzmkar, qəhrəman şəxslər olduqlarını görmək olar. Bu mənada, 20 Yanvar şəhidləri milli-azadlıq uğrunda xalqımızın apardığı mübarizədə ilk şəhidlər olmaqla, ilk qəhrəmanlardır. Xalqımız 20 Yanvar hadisələri ərəfsi və ondan sonra yumruq kimi birləşərək, imperiyaya qarşı ciddi müqavimət göstərdi. Bu müqavimət o zaman dünya birliyi tərəfindən yüksək qiymətləndirilir və dəyərləndirilirdi. Ona görə də, beynəlxalq ictimaiyyət xalqımıza “Dünyanın xalqı” adını vermişdi. Təbii ki, Moskva qətiyyət və mübarizlik nümayiş etdirən xalqımızı cəzalandırmaq üçün zor vasitəsindən istifadə etməli idi. Ancaq düşünürəm ki, xalqımızın önündə gedən şəxslər uzaqgörənlik nümayiş etdirə bilsəydilər, zora əl atan imperiyanın hərb maşınının qarşısını ala bilərdilər. Yəni "Qara yanvar" hadisəsi baş verməyə bilərdi. O halda ki, milli-azadlıq hərəkatının önündə gedən şəxslər, o cümlədən, ziyalılar ümummilli liderimiz Heydər Əliyevə müraciət edib, Onu Bakıya çağırsaydılar. Qətiyyətlə deyə bilərəm ki, ziyalıların ümummilli liderimiz Heydər Əliyevə müraciət edib, Onu Bakıya çağırmamaları onların ən böyük səhvi idi. Ziyalılar səhvlərini yalnız 1993-cü ildə ölkəmiz parçalanma problemi ilə üzləşdiyi zaman düzəltdilər. Ziyalılar ölkəni parçalanmadan xilas etmək üçün ümummilli liderimiz Heydər Əliyevə müraciət etdi. 20 Yanvar faciəsi niyə baş verdi? Ona görə baş verdi ki, o vaxt hakimiyyətdə olan A.Mütəllibov Azərbaycan xalqına qənim kəsilmişdi. A.Mütəllibov hakimiyyəti mənfur Mixail Qorbaçovun ermənipərəst siyasətini dəstəkləyirdi. Ona görə də, A.Mütəllibov M.Qorbaçovla eyni mövqedən çıxış edərək, xalqımızın milli-azadlıq hərəkatını boğmağa cəhd göstərdi. Ancaq zaman göstərdi ki, onların qəddarlıqla həyata keçirdikləri qətliam xalqımızın mübarizə əzmini qıra bilmədi. Azərbaycan xalqı öz müstəqillik arzusunu dönməz mübarizliyi ilə reallaşdırdı.

***Müsavat başqanının Divan üzvü Vurğun Əyyubov:***

20 Yanvar hadisəsi Azərbaycanın müstəqillik tarixinin mühüm mərhələsi olub. Bu tarixi hadisədən, nə imtina, nə də həqiqəti gizlətmək mümkün deyil. Reallıq odur ki, Moskva Azərbaycanda geniş vüsət alan milli-azadlıq hərəkatını boğmaq üçün 20 Yanvar faciəsini törətdi. Ancaq xalqın mübarizə əzmini qırmaq mümkün olmadı. Milli-azadlıq hərəkatı daha da genişlənərək, qalibiyyətlə başa çatdı. Düşünürəm ki, 20 Yanvar hadisəsi faciədən çox qəhrəmanlıq salnaməsidir. Düzdür, bəzi ekspertlər, qəzet yazarları 20 Yanvar hadisəsini faciə kimi

qiymətləndirməyə çalışırlar. Torpaqlarının müdafiəsi üçün yüz minlərlə insan ölür, yaralanır və şikəst olur. Ekspertlərin və jurnalistlərin məntiqi ilə razılaşsaq, deməli, şəhid olan yüz minlər də faciə ilə üzləşiblər. Əslində isə, onlar qəhrəmanlıq göstərərək, öz torpaqlarını, vətənlərini qoruyublar. Eyni zamanda, onu qeyd etmək istərdim ki, 20 Yanvar hadisəsində şəhid olanlar bir ailənin şəhidləri deyillər, o şəhidlər həm də Azərbaycan xalqının şəhidləridir. Onlar Azərbaycanın bölgələri ilə yanaşı, xarici ölkələrdə də yad edilirlər. 17 ildir ki, hər il on minlərlə insan 20 Yanvar şəhidlərini yad edirlər, onların ruhuna dualar oxuyub, Allahdan rəhmət diləyirlər. Yəni 20 Yanvar hadisəsi bir ailənin kədərindən bütöv bir xalqın dərdinə, kədərinə çevrilib, qəhrəmanlıq simvolu yaradıb.

***Yeni Azərbaycan Partiyasının Nəsimi rayon təşkilatının Şura üzvü Babək Adıgözəlov:***

- 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Moskvanın Bakı şəhərində törətdiyi vəhşiliyin, qəddarlığın canlı şahidi olmuşam. O zaman müstəqillik uğrunda mübarizəyə qalxan xalqımız düşünürdü ki, SSRİ ordusu Azərbaycan xalqına güllə atmaz. Ancaq imperiya cəllad, yırtıcı bir xislətə malik olduğunu və xalqımızın düşündüklərinin səhv olduğunu 20 Yanvar faciəsini törətməklə nümayiş etdirdi. Təpədən-dırnağa qədər müasir silahlarla silahlanmış Moskvanın sərxoş əsgərləri insanları gülləbaran etdi, qırğınlar törətdi, Bakı şəhərini xarabazarlığa çevirdi. Düşünürəm ki, qırğınların törədilməsində imperiya cəlladları ilə yanaşı, Ayaz Mütəllibov hakimiyyəti də xüsusi rol oynayıb. O zaman xalqın önündə getdiklərini nümayiş etdirən cəbhəçilər də 20 Yanvar faciəsinin baş verməsində məsuliyyət daşıyıblar. Amma təəssüflər olsun ki, 20 Yanvar faciəsinin 17-ci il-dönümü ərəfəsində də məsuliyyət daşıyan şəxslər layiq olduqları cəzanı almayıblar. Hesab edirəm ki, məhkəmə cəzasından qaçaraq gizlənən 20 Yanvar faciəsinin günahkarları tarixin ədalət məhkəməsindən qurtula bilməyəcəklər.

**İ. ƏLİYEV**

**"Səs".** - 2007. – 20 yanvar. - N 9. - S. 15.

## Bu qan yerdə qalan deyil

### 20 Yanvar faciəsi Azərbaycan xalqının yenilməzlik simvoludur

***Bu gün XX yüzilliyin son dövründə yaşadığımız an ağır faciələrdən biri olan 20 Yanvar faciəsindən 17 il ötür. Qeyd olunan zaman kəsiyində tarixin hər dönəmində 20 Yanvar faciəsi böyük kədər hissilə yaşanmış, yaşından, vəzifəsindən asılı olmayaraq, hər kəs şəhidlik zirvəsinə yüksəlmiş oğulların qarşısında mənən borclu olduqlarını sübut etmişlər. 20 Yanvar faciəsi yaddaşımızın silinməz hissəsidir. Hadisənin törənmə günündən neçə onilliklər ötsə belə, qəlbimizin ən dərin hissəsində qaysaqlanmış bu yaranın ağrısı bizi çox incidəcək, şəhidlərimizin ruhunun yaşanması üçün bacardığımız qədər böyük işlər görəcəyik.***

Azərbaycan dövlətinin müstəqilliyi yolunda atılan addım 20 Yanvar faciəsilə nəticələndi. 1988-ci ildən başlanan ictimai-siyasi proseslər burulğanlı bir şəkildə bütövlükdə Azərbaycanı bürümüşdü. Böyük mübarizə ruhu ilə ayağa qalxmış xalqın iradəsini qırmaq, onu getdiyi yoldan döndərmək müşkül bir işə çevrilmişdir. Bu yol çox böyük qurbanlar tələb etmiş olsaydı belə, vətənpərvər övladlar sovet imperiyasının zəncirlənmiş buxovlarından xilas olmağa, bu rejimin ideologiyasından kənarlaşaraq, müstəqilliyə qovuşmağa can atardılar. Sözsüz ki, ölkə daxilində yaşanan ab-hava sakitcə ötüşə bilməzdi. 70 illik dövr ərzində təməlini möhkəmlətmiş sovet rejimindən kənarlaşmaq bir o qədər də asan görünmürdü. Azərbaycan xalqının qəhrəmanlıqla zəngin olan tarixi mərd övladlar nəsli yetişdirmişdir ki, hə-min insanlar da dövlət, ərazi bütövlüyü uğrunda canların qurban verməyi belə əsirgəməmişlər.

17 illik bir zaman məsafəsində baş verən bu proseslər kifayət qədər işıqlandırılmış, Azərbaycanın yaradıcı simalarının əsərlərində 20 Yanvar faciəsinin əks olunmasına xüsusi yer verilmişdir. Sözsüz ki, hadisə ilə bağlı zaman-zaman əsərlər yaradılacaq və tarixi hadisələr bundan sonra da üzə çıxarılacaqdır. Bu günə qədər yaranmış əsərlərdə 20 Yanvar faciəsi müxtəlif məqamlardan işıqlandırılmış, geniş kütləyə təqdim olunmuş-dur. Azərbaycan mədəniyyət və incəsənəti tarixində fəaliyyət göstərən, o illərin şahidi olmuş ziyalılardan bir neçəsilə görüşüb, fikirlərini oxuculara təqdim etməyi özümüzə borc bilirik.

***Azərbaycan Yazıçılar İttifaqının birinci katibi, Bakı musiqi Akademiyasının professoru Ramiz Zöhrabov:***

- 20 Yanvar faciəsi müstəqilliyimizə gələn yoldur. Azərbaycan xalqının müstəqillik tarixinin başlanğıcı hesab olunan bu yol bizim qan yaddaşımıza həkk olunmuşdur. Təbii ki, 20 Yanvar faciəsinə gedən yol xalqın tələbi ilə baş vermişdir. Tarixi faciədə xalqın çox itkiləri oldu. 1990-cı ilə qədər artıq bu yolun mərd-mübariz oğulları yetişmişdir. 1988-ci ildən başlanan hərəkat, 1990-cı il 20 Yanvar faciəsilə nəticələndi. Xalqın tarixində baş verən hadisə bütün ziyalılar kimi sənət aləmində çalışan şəxsləri də çox təsirləndirib, duyğulandırdı. Hər bir sənət adamı öz peşəsinə uyğun olaraq 20 Yanvar faciəsini yaradıcılığında əks etdirib, müxtəlif formada hadisəni yazılı salnamələrə köçürdülər. Qeyd edim ki, bu proses bu gün də davam edir və illər ötdükcə belə vətənpərvər şəxslər 20 Yanvar faciəsinin tarixi həqiqətlərini yaradıcılıq nümunələrində əks etdirəcəklər.

1990-cı il 20 Yanvar faciəsi baş verdikdən dərhal sonra respublikanın xalq artisti, bəstəkar Azər Rzayev "Bakı - 90" simfoniyasını yazdı. Qeyd edim ki, bu əsərə qədər Azər Rzayev simfoniya janrında musiqi bəstələməmişdir. 60 yaşlı bəstəkar həmin əsəri ağlaya-ağlaya notlara köçürmüşdür. Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli **nü**mayəndələri olan Cövdət Hacıyev "Şəhidlər", Oqtay Kazımi "Şəhidlər" simfoniyalarını, Ramiz Mustafayev "Bu qan yerdə qalan deyil" simfoniyasını, Sevda İbrahimova vokal-bariton üçün "Vətən şəhidləri", Arif Mirzəyev orqan üçün "Yanvar mərsiyələri", Sərdar Fərəcov "Matəm harayı" adlı musiqi əsərlərini yaratmışlar. Musiqinin bu və digər janrında müxtəlif formada əsərlər yaradan bəstəkarlar mahnı janrında da 20 Yanvar faciəsini yaşadan musiqi nömrələrini nota köçürdülər. Emin Sabitoğlu "Şəhidlər", Vasif Adıgözəlov "Bir şərqi de", Cavanşir Quliyev "Şəhidlər andı", Hacıxanım Məmmədov "Əlimdə sazım ağlar",

Faiq Sücəddinov "Şəhidlər Xiyabanında" və s. əsərlər bəstəkarların qəlbində yaşanan hissləri əks etdirən nümunələrdir.

Fikirlərini, hadisələrə olan münasibətlərini əks etdirən bəstəkarlar akademik janrda yaratdıqları musiqi nömrələrilə şəhid olmuş insanların faciəsini ifadə etmişlər. Mobil Babayevin "Ağlama, torpağım, ağlama" kantatasında 20 Yanvar faciəsinin yaratdığı ağrı-acı musiqi notları vasitəsilə dinləyiciyə çox kəskin bir şəkildə təsir göstərir. İstər iri monumental əsərlərdə, istərsə də kiçikhəcmli əsərlərdə 20 Yanvar faciəsi musiqinin dili ilə yaşamış, bu ağır faciə builki nəslin nümayəndələri olan gənclərə, yeniyetmələrə öz təsirini göstərir.

Hadisədən 17 il ötməsinə baxmayaraq, bu gün də 20 Yanvar faciəsilə əlaqədar şəhidlərə həsr olunmuş musiqi nömrələri yaradılır. İstərdim ki, bu günə qədər yaranmış musiqi nömrələri təkcə 20 Yanvar faciəsi günündə deyil, məqam yetişdikcə mütəmadi olaraq efirlərdə, konsert salonlarında səsləndirilsin. Gənclərimiz hər zaman 20 Yanvar faciəsinin törətdiyi ağrı-acını hiss edib, hadisələrə layiqli bir şəkildə münasibət bəsləyə bilsinlər.

Qeyd etdiyimiz kimi, yaşlı və orta nəslin nümayəndələri olan bəstəkarlar bu tarixi günlə əlaqədar əsərlər yazmışlar. Etiraf edək ki, müasir dövrümüzdə gənc bəstəkarlar da faciəyə etiraz, münasibət bildirən musiqi əsərləri yazmaqdadırlar. 20 Yanvar faciəsilə bağlı yaradılan musiqi nömrələri Türkiyədə, İranda, Kiprdə və digər ölkələrdə səsləndirilmiş, geniş dinləyici auditoriyasına təqdim olunmuşdur. Arzu edirdim ki, bu musiqilər Avropa ölkələrində səsləndirilsin və Azərbaycan həqiqətləri musiqinin dili ilə dinindən, irqindən asılı olmayaraq xalqlara çatdırılsın.

***Azərbaycan Yazıçılar Birliyinin katibi, xalq şairi Fikrət Qoca:***

- Azərbaycan yazıçı və şairlərinin əsərlərində 20 Yanvar faciəsi öz bədii əksini layiqli bir şəkildə tapmışdır. Mən yaradıcı şəxs kimi 20 Yanvar faciəsinə həsr olunmuş 3 povest - "Ölüm ayrılıq deyil", "Hələlik, qiyamətəcən", "Fərizə və İlham" adlı əsərləri yaratmışam. Bu əsərlərlə yanaşı "Şəhidlər Xiyabanı" poemasının və müxtəlif şeirlərin müəllifiyəm. Hər bir yazıçı ümid edirəm ki, mənim qədər yaradıcılığında 20 Yanvar faciəsinə yer ayırmış və həmin tarixi hadisəni müxtəlif şəkildə nəzmə və nəsirə köçürmüşdür.

20 Yanvar faciəsi Azərbaycan xalqının böyük bir dərdidir. Bu hadisə ilə bağlı nə qədər əsərlər yaradılsa da belə, yeni yaranan sənət nümunələrinə ehtiyac duyulur. 20 Yanvar faciəsi Azərbaycanın gücünü, xalqının iradəsini əks etdirir. Eyni zamanda, bu hadisə bizi faciədən çıxarıb. Biz 20 Yanvar faciəsindən üzü ağ, alnıaçıq çıxdıq. Bu yolda şəhid olanların 40-ı çıxana qədər hər kəs yerində şam kimi yanırdı. Təbii ki, hadisə ilə bağlı çox da kədərli notlar üzərində danışa bilmərik. Çünki həmin gün imperiya dağıldı. Həqiqətən də, fəxarət, qürur hissi yaşanacaq hadisədir. Biz 1300 il əvvəl olmuş hadisənin sanki həmin gün təkrarını yaşadıq.

20 Yanvar faciəsi İmam Hüseyn qiyamətinin təkrarıdır. Bu qiyamətdə heç olmasa qılıncdan istifadə olundu. 20 Yanvar faciəsində isə xalqımızın övladları əliyalın oğulları tank qarşısına çıxıb, özlərini onlara qarşı irəliləyən tankların altına atırdılar. Bu hadisə böyük bir imperiyanı yıxdı. Azərbaycanı böyük bir dövlət etdi. Bütün dünyada Azərbaycan tanındı. Qeyd etdiyim kimi, bundan sonra da 20 Yanvar faciəsini əks etdirən əsərlər yaranacaq.

***Beynəlxalq festivallar laureata 10 kitab müəllifi, şair, yazıçı, publisist Məhərrəm Hüseynli:***

- 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə xalqımızın başına gətirilən faciəni şəxsən özüm yaşamışam. O zaman insanların kütləvi şəkildə tankların qarşısına çıxdığının şahidinə çevrilmişəm. Həmin gecə 18-ə qədər yaralanmış insanları Respublika Xəstəxanasına yaralı bir şəkildə çatdırmış, hətta o ərəfədə özüm də zədə almışam. 1990-cı ildən mən Dünya Azərbaycanlıları Həmrəylik Cəmiyyətinin və Gənclər üzrə Rusiya şöbəsinin vitse-prezidenti kimi fəaliyyət göstərirəm. Həmin illərdə Rusiyaya getdiyim zaman Azərbaycanın başına gətirilən oyunları obyektiv olaraq xalqa çatdırmağa çalışırdım. 1990-cı il hadisələrindən həm yerli rus xalqına, həm də orada yaşayan soydaşlarımıza söhbət açır, geniş məlumatlar verirdim. Azərbaycana qarşı

törədilən bu cinayət işinə görə, xalqımız Sovet İttifaqının sabiq Prezidenti Qorbaçovun tribunaya verilməsini tələb edirdi. Azərbaycan diasporunun tanınmış simaları ilə birlikdə qeyd olunan səpgidə təbliğat işini aparırdıq. Xalqa qarşı yönəldilmiş əks fikirlərə aydınlıq gətirir, faktlar əsasında mövcud prosesləri işıqlandırırdıq. Rafiq Səməndərin "Qanlı yanvar" kitabını qəzet və fotoşəkilləri Rusiyada yaşayan insanlara çatdırır, dəyərli məlumatlarla onlarda fikir formalaşdırırdıq. Çox maraqlıdır ki, Rusiyadakı yerli mətbuat hadisələrdən tam şəkildə xəbərdar olmayana qədər proseslərlə bağlı məlumatları qəzetlərdə dərc etdirmək istəmirdilər. Yuxarıda qeyd olunan sənədlərlə tanışlıq, artıq rus mətbuatında Azərbaycan həqiqətlərilə bağlı böyük bir canlanma yaratdı. Tümen, Krasnoyarsk, Vladivostok, Sverdlovsk, Ukrayna və digər yerlərdə bu səpgidə təbliğat işlərinin görülməsində mühüm işlər görmüşdük.

Mən bir incəsənət işçisi kimi səfərim zamanı orada yaşayan insanlara bacardığım qədər müxtəlif formalarda ictimai-siyasi prosesləri şərh etməyi özümə mənəvi borc bilirdim. Bu gün Azərbaycan Respublikasında matəm günüdür. Ölkə Prezidenti İlham Əliyev şəhid ailələrinə böyük qayğı göstərir, onların ruhunun yaşaması istiqamətində böyük addımlar atılır. 20 Yanvar faciəsindən zərər çəkənlərə dövlət səviyyəsində diqqət ayrılır.

20 Yanvar faciəsilə əlaqədar mədəniyyət və incəsənət sahəsində böyük əsərlər yaradılmışdır. Təbii ki, bütün bunları biz qənaətbəxş edə bilmərik. Bundan sonra da kifayət qədər əsərlər yaradılmalı, vətən, xalq yolunda şəhid olmuş vətən övladlarının keçdiyi yol yeni nəsillərə çatdırılmalıdır. Ölkədə gedən iqtisadi-siyasi mədəni dəyərlərimizin yüksəldiyi bir dövrdə yaşadığımız tarixi dövrləri də unutmamalıyıq. Biz mədəniyyət işçiləri şəhid ailələrinə, bu hadisədən zərər çəkənlərə qayğı ilə yanaşmalı, onların həyat tərzini yeni nəslə layiqli bir şəkildə təbliğ etməliyik.

**Nəzakət ƏLƏDDİNQIZI**

**“Səs”.** - 2007. – 20 yanvar. - N 9. - S. 12.

## İstiqlalının qəhrəmanlıq salnaməsi

### 20 yanvar ərəfəsi mövcud ictimai - siyasi vəziyyətin müqayisəli təhlili

1989-cu ilin sentyabrından 1990-cı ilin 20 yanvarına qədər olan dövrü şərti olaraq Azərbaycanda «iki hakimiyyətlik» dövrü kimi də xarakterizə etmək olar. Bu dövrdə kommunist partiyası hakimiyyətdə olsa da gücü yox idi. Xalq Cəbhəsinin isə gücü olsa da hakimiyyəti yox idi.

Maraqlıdır ki, bəzi müqayisələr aparılsa Azərbaycanda XX əsrin 80-ci illərin axırı - 90-cı illərin əvvəllərində baş vermiş hadisələrlə Polşada baş vermiş hadisələr arasında çoxlu oxşar cəhətlərə rast gəlmək olar.

Polşada da Azərbaycanda olduğu kimi 1989-cu ilin avqustunda kütləvi hərəkatların nəticəsində hökumət müxalifətlə dialoqa başlamağa və 21 maddədən ibarət saziş imzalamağa məcbur olmuşdur. Bu, «Həmrəylik» təşkilatının rəhbərliyi ilə genişlənən xalq hərəkatının ilk böyük qələbəsi idi. Lakin Polşa iqtidarı hiylə işlədərək az sayda müxalifət nümayəndələrinin parlamentdə təmsil olunmasını təşkil etmək və sonradan siyasi və iqtisadi böhranın bütün günahını müxalifətin üstünə yıxmağa cəhd göstərməkdə davam etmişdi. Müxalifətin güclü müqaviməti ilə onların hiyləsi baş tutmadı və nəticədə «Dəyirmi masa» yaradıldı. «Dəyirmi masa» da katolik təşkilatı KPN-dən başqa bütün müxalif təşkilatlar təmsil olunmuşdur. İqtidar-müxalifət danışıqları nəticəsində razılıq əldə olundu ki, 4 sentyabr 1989-cu ildə ikipalatalı parlament seçkiləri keçirilsin. Aşağı palata olan Seymə qeyri-demokratik, yuxarı palata olan Senata demokratik seçkilər keçirilsin barədə qərar qəbul olunmuşdu. Aşağı palatada yerlərin 65 %-i Polşa Birləşmiş Fəhlə Partiyası (Kommunist Partiyası) və onu dəstəkləyən partiyalara ayrıldıqdan sonra 35 % yerə və Senata demokratik seçkilər keçirilməsinə iqtidar mane olmadı. Nəticədə Seymdə yerlərin 35 %-nə və Senatda 100 yerdən 99-na müxalifət nümayəndələri seçildi.

Konstitusiyaya dəyişiklik etmək üçün Seymin dörddə üç hissəsinin səsi tələb olunurdu. İqtidar yönümlü Kəndli və Ziyalılar partiyalarının müxalifət tərəfə keçməsi ilə vəziyyət müxalifətin xeyrinə dəyişdi. Bundan sonra kommunistlər hökumət təşkil edə bilmədilər. (Azərbaycanda buna oxşar vəziyyət 1999-cu ildə YAP-dan olan deputatların AMİP və ADP-yə keçməsi ilə başlamışdı. Lakin Polşadan fərqli olaraq Azərbaycan prezidentli Respublika olduğundan və parlamentin səlahiyyətləri çox az olduğundan və müxalifətə qarşı yeridilən siyasət bu proses inkişaf edə bilmədi)

İqtidar-müxalifət dialoqunda razılıq əldə olundu ki, Seymdə müxalifətin nümayəndəsi Tadeuş Mazovetski baş nazir və 99 % müxalifətdən təşkil olunmuş Senatda Yaruzelskinin prezident seçilsin. Bu prosesdən sonra müxalifətin təzyiqi ilə Yaruzelski istefa vermişdi. 20 dekabr 1989-cu ildə keçirilmiş demokratik seçkilərdə müxalifətin nümayəndəsi Lex Valensa prezident seçilmişdi. ( Bakıda 20 yanvar faciəsi törədilməsəydi Azərbaycanda da Polşada olduğu kimi seçkilərdə müxalifətin qələbə çalacağına heç bir şübhə yox idi )

Respublika rəhbərliyinin acizliyi, Ermənistanda və Dağlıq Qarabağda azərbaycanlılara qarşı azğınlığın və cinayətlərin artması nəticəsində ölkədə böhran gündən-günə kəskinləşməyə başlamışdı ki, bunun da nəticəsində 1989-cu ilin noyabr ayından mitinqlər yenidən geniş vüsət almışdı. Mitinqlərdə irəli sürülən tələblərdən biri Ermənistandan öz yaşayış yerini məcburi tərk etmiş 165 min azərbaycanlını Qarabağda yerləşdirməkdən ibarət idi. Lakin SSRİ Ali Sovetinin «DQMV-də vəziyyəti normal hala salmaq tədbirləri haqqında» qərarı (28 noyabr 1989) bunun qarşısını almışdı. AXC-nin seçkilərdə qələbəsinin labüdlüyü və Azərbaycanın SSRİ-nin tərkibindən çıxmaq qorxusu imperiyapərəst qüvvələri qanlı cinayətə təhrik edirdi. Onlar dağılmaqda olan imperiyanın ömrünü uzatmaq və başqa regionlarda yenicə vüsət alan milli hərəkatları dəhşətə gətirmək məqsədilə Azərbaycanın paytaxtında 20 yanvar faciəsini törətməyi planlaşdırdılar. Faciə ərəfəsi Respublikamızda yayılan şayiələr və «Azərinformun» erməni terrorçularının qanlı cinayətləri haqqında yaydığı xəbərlər xalqın ehtiraslarını coşdurur, onun problemlərinin həllində passiv mövqe tutan rəhbərliyə qarşı müxtəlif təzyiq formalarından istifadə etməyə təhrik edirdi.

20 yanvar faciəsinə qədər Respublikanın bir sıra bölgələrində qarşıdurma qeyri adi hadisələrlə və faciələrlə nəticələnmişdi. 1989-cu il dekabrın 28-dən 29-a keçən gecə Respublikanın müxtəlif yerlərindən gətirilmiş yüzlərlə silahlı milisin Cəlilabadda əhalinin etiraz mitinqini zorakılıqla dağıtmaq cəhdi faciə ilə nəticələnmişdi. Ölən və yaralananlar olmuşdu. Bun-dan hiddətlənən rayon əhalisi inzibati binaları dağıtmaq, milis maşınlarını yandırmaqla zorakılığa cavab vermişdilər.

30 dekabr 1989-cu il tarixdə «Azadlıq» meydanında keçirilən mitinqdə hadisələrə münasibət aşağıdakı kimi bildirmişdi: «Cəlilabadda nümunə kimi fövqəladə vəziyyət elan etmək istəyirlər ki, sonradan digər yerlərdə də bunu tətbiq etsinlər... İndiki dövrdə onların qorxduğu bir məsələ var ki, o da seçki məsələsidir. Seçki məsələsindən Moskva da narahatdır, Bakı da. Vəzirov hətta təklif edib ki, 15 -20 deputat yeri verək, bizdən əl çəkin. 360 yerə AXC-dən 360 namizəd veriləcək. Onlar uduzacaqlarını görürlər.» Mitinqdə Vəzirovun istefasına da münasibət bildirilmişdir: «Vəzirov gedəcək, yerinə V. Hüseynov, A. Mütəllibov, H.Həsənov gələcək. Onlar özləri gəlməyəcək, Moskvadan təyin olunacaqlar. Hakimiyyətin xalqa verilməsinin bir yolu var. Ali Qanunverici Orqan xalqa verilməlidir. Onda onun işinə heç kim qarışa bilməz. Ali Sovet xalqın əlinə keçsə, Konstitusiyadan 6-cı maddə çıxardılar... SSRİ-nin rəhbərliyinin qorxduğu bir şey varsa o da Azərbaycanın SSRİ-dən ayrılmasıdır. Bunun iki yolu var. Ya Ali Qanunvericilik Orqanın qərarı ilə, ya da üsyan yolu ilə... Bizim indiki yolumuz odur ki, iki-üç il dözmüşük, iki-üç ay da dözək.»

Mitinq 2 yanvar 1990-cı ildə keçiriləcək sessiyada aşağıdakı tələblərin qəbul olunmasını məqsədəuyğun hesab etmişdi: «Ermənistanla bütün əlaqələrin kəsilsin, Dağlıq Qarabağın erməni əhalisi Azərbaycanın qanunlarına tabe olmadığına görə vətəndaşlıqdan məhrum edilib, Respublikadan çıxarılsın... Bizim məqsədimiz şəhərdə əmin-amanlığın qorunması, əhalinin bir-biri ilə toqquşmasına yol verməməkdir»

Bakıda gərginliyi artırmaq məqsədilə düşmən qüvvələr əvvəl Xanlar və Qubadlıya hərbi vertolyotların hücumunu təşkil etmiş, lakin bu təxribat istənilən nəticəni vermədikdə, Bakıda yanvarın 13-də erməni talanları təşkil etmişlər. Bu təxribat vaxtı Bakıda imperiyanın 12 minlik ordusu olsa da həmin qüvvələrə 20 yanvara kimi heç nəyə qarışmamaq əmri verilmişdir. Bu milli qırğını təşkil etməkdə sovet rəhbərliyinin məqsədi Milli Azadlıq Hərəkatını gözdən salmaq, onun haqqında dünya ictimaiyyətində mənfi rəy yaratmaqla qan içində boğmaq və bununla da müstəqilliyə can atan bütün xalqlara dərs vermək idi. Bu təxribatların qarşısını almaq məqsədilə AXC fəaliyyətini daha da genişləndirmiş və yanvarın 16-da təxribatların qarşısı qismən alınmışdır. AXC fəallarınınköməkliyi ilə yüzlərlə ermənin həyatı xilas edilmiş, onları «Sülh» kinoteatrına və Bakının «Dəniz limanına » toplayaraq gəmilərlə sağ-salamat yola salmışlar.

SSRİ Ali Soveti Rəyasət hey-ətinin 15 yanvar 1990-cı ildə «Dağlıq Qarabağda» və bəzi di-gər rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında» fərman qəbul etməsi Respublikada vəziyyəti daha da gərginləşdirmişdi. Həmin fərmanın Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinə Gəncədə və Bakıda komendant saatı tətbiq edilməsini tövsiyə edən 7-ci bəndi əhalinin xüsusilə kəskin etirazına səbəb olmuşdu. Çünki Ermənistanda yaşayan azərbaycanlılara qarşı qətllər və qarətlər törətməklə onları öz dədə-baba torpaqlarından zorla qovan, Dağlıq Qarabağ və onun ətraf rayonlarında yaşayan azərbaycanlılara qarşı eyni azğınlıqları törədən Ermənistana deyil, Azərbaycana qarşı bu cür fərmanın tətbiq edilməsi sovet rəhbərliyinin ermənipərəst mövqe tutmasından xəbər verirdi.

AXC İH 17 yanvar 1990-cı il tarixdə bu qərarı Azərbaycan xalqının milli ləyaqətini təhqir edən bir sənəd kimi qiymətləndirərək, yanvarın 20-də Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyasının çağrılmasını və bu fərmanın «Azərbaycan SSR-nin suverenliyi haqqında» (23 sentyabr 1989) Konstitusiya qanununa zidd bir qərar kimi fəaliyyətinin dayandırılması haqqında qərarın qəbul edilməsini tələb etmişdi.

SSRİ Ali Sovet Rəyasət Hey-ətinin məlum fərmanı mətbuatda dərc olunan kimi əhali bu haqsızlığa etiraz olaraq Bakı şəhərinin bütün istiqamətlərindəki giriş yollarında və şəhərdə olan hərbi hissələrin qarşısında piketlər keçirməyə və barrikadalar qurmağa başlamışdı.

Yanvarın 16-da Xalq Hərəkatı rəhbərləri ilə görüşdə Y.Primakov və A.Girenko, yanvarın 19-da mitinqçilər qarşısında Y. Primakov, Sov.İKP.MK-nın məsul işçisi V.Mixaylov, Ə.Daşdəmirov və

M.Məmmədov isə televiziya ilə çıxışlarında bildirmişdilər ki, Bakıda fövqəladə vəziyyət elan olunmayacaq və şəhərə qoşun yeridilməyəcək.

Yanvarın 17-də ümumi tətil elan edilərək Azərbaycan KP MK-nın qarşısında Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyasının çağırılmasını, respublika rəhbərliyinin istefasını, Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulmasını, Bakı ətrafında toplanmış sovet qoşunlarının Dağlıq Qara-bağa, daim erməni yaraqlılarının hücumlarına məruz qalan sərhəd rayonlara göndərilməsini tələb edən fasiləsiz mitinq başlanmışdı.

Yanvarın 19-da AXC İH üzvünün televiziya ilə Bakıda fövqəladə vəziyyət elan olunmayacağı və şəhərə qoşun yeridilməyəcəyi barədə SSRİ rəhbərliyinin fikirlərini xalqa çatdırmaq, piket və mitinqlərdən əhalinin dağılmasını təmin etmək üçün xalqa müraciəti nəzərdə tutulmuşdu. Lakin bu müraciətinə az qalmış, yəni saat 19-27 dəqiqədə Azərbaycan Dövlət Televiziyasının enerji bloku DTK əməkdaşları tərəfindən partladılmış və xalqa bu məlumatın çatdırılmasına imkan verilməmişdi. Fikrimizcə bu faktın özü, yəni televiziya ilə xalqa müraciətinə imkan verilməməsi faciənin sovet rəhbərliyi tərəfindən qabaqcadan planlaşdırıldığını əyani şəkildə sübut edir. Fikirmizcə Televiziyasının enerji blokunun DTK əməkdaşları tərə-findən partladılması faciə ərəfəsi hadisələrin kulminasiya nöqtəsi idi.

**Faciə ərəfəsi Naxçıvanda vəziyyət**

11 yanvar 1990-cı il tarixdə səhər saat 10 - 00 - da İliç rayonun ( İndiki Şərur) mərkəzi meydanında keçirilmiş mitinqdə AXC üzvləri rayon XDS İcraiyyə Komitəsinin binası üstündən Azərbaycan SSR bayrağını çıxarılıb, onun yerinə müstəqil Azərbaycan Respublikasının üç rəngli bayrağını asdılar.

1990-cı il yanvarın 12-də gündüz İliç rayonunun mərkəzində izdihamlı mitinq keçirildi. Sədərəyin, o cümlədən Şərur rayonun digər ərazilərinin erməni təhlükəsi qarşısında qalması və hökumətin buna laqeydlik göstərməsi mitinqdə geniş müzakirə olundu. Mitinqdə səslənən çıxışlarda rayon partiya komitəsinin birinci katibin istefası tələb olundu. Çıxış edənlər bildirirdilər ki, 1989-cu il dekabr ayının 31 -də səhər saat 11-00 radələrində sərhəd dirəklərinin sökülməsi zamanı AXC üzvlərinin üzərinə sərhədçilərin it buraxmasına birinci katib göstəriş vermişdir.

Mitinqçilər yanvarın 13 - ü saat 15-00-a qədər birinci katibin istefa verməsini və mərkəzi Tbilisidə yerləşən Zaqafqaziya Hərbi Dairəsinin rəhbərliyinin mitinqçilər qarşısında üzr istəməsini tələb edirdilər. Bundan başqa onlar ermənilərin təxribatlarının qarşısını almaq üçün Mehri istiqamətində yürüş təşkil olunmasını da irəli sürürdülər. Tələblərə əməl olunmayacağı təqdirdə mitinqçilər Rayon Partiya Komitəsinin binasına od vuracaqlarını bildirirdilər.

Mitinqin gedişində bir neçə yüksək rütbəli hərbçi gələrək mitinqçilərdən rəsmi üzr istədi.

Mitinq başa çatan kimi, təxminən saat 17-00-da İliç rayon partiya komitəsinin növbədənkənar plenumu öz işinə başladı.

Plenumun keçirildiyi zalın bir tərəfində gündüz mitinqi təşkil edən şəxslər, digər tərəfində isə idarə və müəssisə rəhbərləri əyləşmişdilər.

Plenum gərgin müzakirələrlə gecədən xeyli keçənə qədər çəkdi və istefa tələbini qəbul etmədi. Lakin səhərə qədər mitinqçilərlə rayon rəhbərliyi müzakirələri davam etdirdi. Nəhayət Mehriyə yürüş tələbi qarşılıqlı razılaşma ilə geri götürüldü.

Səhəri gün, yanvarın 13-də, saat 14.00-da Sədərək kənd 1 saylı orta məktəbində geniş yığıncaq keçirildi. Gərgin keçən yığıncaq 7 saata qədər davam etdi. İclasda son dövrlər baş vermiş hadisələr ətraflı təhlil edildi. İclas iştirakçılarının irəli sürdüyü təkliflər toplanaraq 27 nəfərin imzası ilə Muxtar Respublikanın bütün rəhbər orqanlarına teleqramlar göndərildi. Beş maddədən ibarət olan müraciətin sonunda qeyd edilmişdi ki, biz Sədərək və Kərki kəndinin azğın erməni basqınının təhlükəsi altında olduğunu və həmin kənd sakinlərinin tam gərgin vəziyyətdə yaşadığını Sizin nəzərinizə çatdırırıq. Bildiririk ki, 2 gün ərzində təcili tədbirlər görülməzsə, Sədərək

və Kərki kəndləri əhalisinin təhlükəsizliyi təmin edilməzsə baş verə biləcək bütün faciəli halların məsuliyyəti sizin üzərinizə düşəcək.

15 yanvardan 16-na keçən gecə Kərki kəndindən hava telfonu ilə bildirmişlər ki, təxminən 2-3 min nəfər silahlı erməni kəndi mühasirəyə almışdır.

18 yanvar 1990-cı il tarixdə saat 15-dən 24.00 qədər sərhəddə yerləşən Sədərək karantin postunda və 1 saylı şərab zavodunda qanlı döyüşlər olmuşdu. Həmin döyüşlərdə Sədərəyin qəhrəman müdafiəçiləri düşmənə layiqli cavab vermişlər. Ermənistan tərəfdən gəlmiş sovet hərbiçiləri bildirmişlər ki, həmin döyüşlərdə 32 erməni qulduru öldürüldüyünə görə ermənilər həmin gün matəm elan etmişlər.

Yanvarın 19-da ermənilər sovet qoşunlarının köməyi ilə Sədərəyi ağır top atəşinə tutdular. Həmin gün bir neçə nəfər şəhid olmuş, 300-dən artıq ev dağılmışdı. Bundan az sonra Yerevandan Naxçıvana Kuznetsov familyalı general 150-200 nəfərlik hərbi dəstə və texnika ilə Sədərəyin Qaraburundakı «Koroğlu» bulağının ərazisində qurulmuş barrikadaya qədər gəlmiş, lakin Sədərəklilər yolu bağladıqları üçün onlar irəliləyə bilməmişlər. Danışıqlar zamanı general onların məqsədinin Qıvraq hərbi hissəsində əsgərlərə axşam yeməyi verərək Mehriyə getmək olduğunu bildirsə də bunun alan olduğu üzə çıxdı. Məlum oldu ki, sovet qoşunlarının əsil məqsədi Naxçıvan MSSR ərazisinə girərək Qorbaçovun fərmana əsasən burada fövqəladə vəziyyət elan etməkdir. Naxçıvan əhalisinin sayıqlığı nəticəsində sovet qoşunlarının bu niyyəti baş tutmadı.

Naxçıvan MSSR-in Ermənistanla sərhəd olan ərazilərində, eləcə də Sədərəkdə döyüşlər getdikcə daha geniş miqyas alırdı. Dövlət səviyyəsində müharibənin qarşısı alınmır, əhali taleyin hökmünə buraxılmışdı. Bununla əlaqədar olaraq Naxçıvan MSSR Ali Soveti 19 yanvar 1990-cı il tarixdə fövqəladə sessiya çağırıb Muxtar Respublikada yaranmış ictimai - siyasi vəziyyət haqqında məsələ müzakirə edərək, tarixi qərar qəbul etdi. Qərarda deyilir:

- SSRİ əsas qanunun 81-ci maddəsinə əsasən Azərbaycan SSR, o cümlədən onun tərkib hissəsi olan Naxçıvan MSSR-in suverenliyi və ərazi bütövlüyü müdafiə edilmədiyindən;

- Azərbaycan SSR və Naxçıvan MSSR ali qanunverici orqanlarının ittifaq orqanlarına dəfələrlə etdikləri müraciətləri nəticəsiz qaldığından;

- Ermənistan SSR tərəfindən edilən təcavüz nəticəsində Muxtar Respublikanın ərazi bütövlüyü və vətəndaşların həyatı təhlükə qarşısında qaldığından;

- Türkiyə Cümhuriyyəti, Azərbaycan SSR, Gürcüstan SSR, Ermənistan SSR arasında RSFSR-in iştirakı ilə bağlanmış Qars müqaviləsinin şərtləri kobud sürətdə pozulduğundan, Naxçıvan MSSR-in Ali Sovetinin fövqəladə sessiyası qərara alır:

***1. Naxçıvan MSSR SSRİ-nin tərkibindən çıxaraq özünü müstəqil respublika elan edir.***

***2. Qars müqaviləsinin şərtlərinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının ərazi bütövlüyünü qorumaq və kütləvi insan qırğınlarının qarşısını almaq məqsədilə Türkiyə Respublikasına müraciət edilsin.***

***3. Yaranmış vəziyyətlə əlaqədar olaraq Birləşmiş Millətlər Təşkilatına, İran İslam Respublikasına və dünyanın bütün dövlətlərinə kömək məqsədilə müraciət olunsun.***

***4. Naxçıvan Muxtar Respublikası ərazisində olan sovet qoşun hissələri respublikadan çıxarılsın.***

***5. SSRİ AIi Sovetindən tələb edilsin ki, Naxçıvan MR-na edilən təcavüzə son qoyulsun.***

***6. Qərar Azərbaycan SSR-ə və SSRİ dövlətlərinin nəzərinə çatdırılsın.***

Naxçıvan MSSR Ali Sovetinin sədri Səkinə Əliyeva katib Həsən Xəlilov Sessiyanın səhəri günü, 20 yanvar 1990-cı ildə bütün dünya xalqlarına müraciət qəbul edildi.

Naxçıvan MSSR Ali Sovetinin qərarından sonra general Kuznetsova bildirildi ki, əgər hərbiçilər bizim ərazimizə daxil olsa bu, təcavüz kimi qiymətləndiriləcək. General A. Cəlilovun kabinetindən Moskva ilə danışaraq vəziyyət haqqında məlumat verdi. Bundan sonra sovet hərbiçiləri Yerevana qayıtmağa məcbur oldular.

Lakin sonradan Naxçıvan MR Ali Məclisinin Naxçıvanın SSRİ-nin tərkibindən çıxması haqqında qərarını Azərbaycan SSR Ali Soveti ləğv etdi.

Sədərəkdə baş verən hadisələrin səhərisi gün Bakıda törədilmiş 20 yanvar faciəsi haqqında xəbər sədərəklilərə gəlib çatdı. Sonradan məlum oldu ki, yanvarın 19-da Sədərəyə olan güclü hücum ilə 20 yanvar Bakı qırğını eyni mərkəzdən planlaşdırılmışdır. Sədərəkdə tutulmuş erməni əsiri bildirmişdi ki, onlara elan edilmiş plana əsasən yanvarın 18-də Sədərək, 19 və 20-də isə Şərur və Naxçıvan işğal olunmalı imiş.

20 yanvar 1990-cı il tarixdə Ermənistan ərazisindən iki yüksək rütbəli rus zabiti Sədərəyə gələrək hər iki tərəfdən atəşin dayandırılması ilə bağlı Sədərəklilərlə danışığa başladı. Danışıqların nəticəsində atəşin dayandırılması ilə bağlı ümumi razılıq əldə olundu.

**Bakıda baş vermiş faciə**

Yanvarın 19-dan 20-nə keçən gecə qaniçən ordu xəbərdarlıq etmədən qəflətən bir neçə istiqamətdən Bakıya girərək əliyalın, ürəkləri azadlıq hissi və vətən sevgisi ilə döyünən əhaliyə qarşı ağlasığmaz vəhşilik edərək görünməmiş ağır cinayət törətdi. O gecə Azərbaycan xalqı qurban verə-verə milli azadlığın şəhidlik sınağından mərdliklə çıxaraq, təkrar olunan tarixi faciənin əsil səbəblərini şüurlu sürətdə dərk edərək, Azərbaycanın dövlət müstəqilliyinə doğru inamlı addım ataraq dərddən güclü olduğunu bir daha sübut etmişdi.

20 yanvar faciəsindən bir neçə gün sonra Bakı - Sumqayıt yolunun Ceyranbatan qəsəbəsinə yaxın hissəsində azğınlaşmış ordu daha bir cinayət etdi. Hərbi texnika bilərəkdən yolun kənarında dayanmış avtomobili əzərək Sumqayıtda yerləşən elmi - tədqiqat institutuna işə tələsən dörd azərbaycanlı professorunu qətlə yetirdi.

Deputat istintaq komissiyasının məlumatına görə yanvar faciəsində 131 nəfər şəhid olmuş, 700 nəfər yaralanmışdır. Hətta fövqəladə vəziyyət elan edilməyən Neftçala və Lənkərana qoşun yeridilərək vəhşiliklər edilmiş, nəticədə Neftçalada 2 nəfər, Lənkəranda 6 nəfər şəhid olmuşdur. Qanlı cinayətlə yanaşı imperiya ordusu minədək vətəndaşı həbs edərək, SSRİ-nin müxtəlif bölgələrinə göndərmişdi.

Əhaliyə qarşı etdikləri ağır cinayətləri ört-basdır etmək üçün qaniçən ordu rəhbərliyi bir sıra tədbirlər həyata keçirmişdi. İtkin düşənlər haqqında müxtəlif şayiələrin yayılması əhalini bərk narahat edirdi.

«Sabit Orucov» gəmisi «sos» siqnalı ilə bütün dünyaya faciə barədə məlumat verdikdən sonra şəhərə dənizdən hücumun qarşısını almaq üçün qəhrəman Azərbaycan dənizçiləri həyatları ilə risk edərək bütün gəmiləri Bakı buxtasına yığmışdılar. Yanvarın 21-də saat 20.30 dəqiqədə iki hərbi gəminin, iki katerin müşayiəti ilə naməlum yük aparılması haqqında məlumat alan dənizçilər silahlı quldurlarla əliyalın qeyri-bərabər mübarizəyə girişmişlər. Düşmən atəşi nəticəsində «Neftqaz-18», «Neftqaz-64», «Aktau», «Şirvan-2» , «Çelekin-1», «Atlet-21» , «Vadaley-4» gəmiləri ciddi surətdə zədələnmişdir. Yaralı gəmilər Azərbaycan xalqının düşmənlərə nifrətinin, silahsız mübarizənin nümunəsi idi. 20 yanvardan sonra başlanmış kütləvi repressiyalara qəhrəman dənizçilər də məruz qalmışlar.

AXC rəhbərliyinin bir hissəsi 20 yanvar qırğınına kimi SSRİ-nin tərkibində Azərbaycanın real suverenliyinə nail olmasını mümkün hesab edirdisə, bu hadisədən sonra onlar bu mövqedən imtina etdilər. AXC Ali Məclisinin 1990-cı il yanvarın 24-25-də Ağstafa rayonunda keçirilmiş iclasında, AXC-nin SSRİ-dən kənarda Azərbaycanın tam dövlət müstəqilliyi uğrunda mübarizə apardığı bəyan olunmuşdu.

Qanlı yanvar faciəsinə etiraz əlaməti olaraq Naxçıvan MSSR Ali Soveti SSRİ-nin və müvafiq surətdə Azərbaycan SSR-in tərkibindən çıxmaq haqqında qərar qəbul etmişdi. (Yanvarın 27-də Azərbaycan SSR Ali Soveti bu qərarı ləğv etmişdi) Yanvarın 22-də Azərbaycan SSR Ali Soveti Bakıda fövqəladə vəziyyətin tətbiqini qeyri-qanuni hesab edərək, onu ləğv etməyinə baxmayaraq Azərbaycan KP MK bürosu fövqəladə vəziyyəti zəruri saymışdı. Bununla da faciələrin əsl baisi olduğunu bir daha nümayiş etdirmişdi.

20 yanvardan bir neçə gün sonra SSRİ rəhbərliyinin bir-birindən fərqli, ziddiyyətli bəyanatlar verdiyi bir vaxtda əməliyyata bilavasitə rəhbərlik etmiş SSRİ müdafiə naziri D.Yazov «İzvestiya» qəzeti vasitəsilə bildirmişdi ki, «qoşun şəhərə AXC-nin mövcud strukturunu məhv etmək üçün daxil olmuşdu».

Azərbaycan Respublikası Milli Məclisi 20 yanvar hadisəsinə siyasi qiymət versə də bu faciənin qaranlıq, açılmamış səhifələri hələ çoxdur. Fikrimizcə bu qaranlıq səhifələrin üzərinə işıq salmağın vaxtı çoxdan çatmışdır.

**Məhərrəm Zülfüqarlı**
Tarix elmləri namizədi

**“Ədalət”.** - 2006. – 20 yanvar. - N 10. - S. 6.

## 20 Yanvar faciəsi insanlığa qarşı cinayətdir

***Vətən şəhidlərini heç vaxt unutmayacaq***

***İnsan insan olub öz
hünərilə,
Millət millət olur
xeyir-şərilə.
torpağın bağrına
cəsədlərilə,
Azadlıq toxumu əkdi
şəhidlər!***
**Bəxtivar Vahabzadə**

20 Yanvar Azərbaycan xalqının hüzn və şərəf günüdür. Xalqımız bu faciədə həyatdan getmiş övladlarına matəm saxlamaqla bərabər, eyni zamanda onların şəhidlik zirvəsinə baxaraq başını dik tutmalıdır. Çünki Vətən və torpaq şəhidləri ilə ucalır. Bu gün Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi ki-mi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrindən on altı il keçir. Keçmiş sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi vəhşi terror aktı insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi bəşər tarixində qara səhifə olaraq qalacaq. Milli azadlığı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi.

Sovet Ordusunun böyük kontingentinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edil-di. Kommunist diktaturası Çexoslovakiyaya, Macarıstana, Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni hətta o zamankı Sovet İttifaqının müttəfiq respublikalarından biri olan Azərbaycanda da təkrarlamaqdan çəkinmədi. Həmin vaxt Azərbaycan qonşu Ermənistanın da təcavüzünə məruz qalmışdı. Belə bir şəraitdə sovet rəhbərliyi nəinki münaqişənin qarşısını almaq üçün qəti tədbirlər görməmiş, əksinə, Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni əsgər və zabitləri, sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantlar da daxil edilmişdi.

Bəzi məlumata görə, Bakıya yeridilmiş qoşun kontingentinin sayı 60 min nəfərə çatırdı. "Şit" təşkilatı müstəqil hərbi ekspertlərinin hesabatında belə deyilir. Kontingentə "döyüş tapşırığını" yerinə yetirmək üçün möhkəm psixoloji hazırlıq keçmişdilər. Onlara deyirdilər ki, sizi Bakıya rusları müdafiə etmək üçün gətiriblər, yerli əhali onları vəhşicəsinə məhv edir. Onları inandırmışdılar ki, ekstremistlər Salyan kazarmalarının (Bakıda əsas hərbi qarnizonun yerləşdiyi ərazi) ətrafındakı evlərin damlarında snayperlər yerləşdiriblər, təkcə bu ərazidə 110 atəş nöqtəsi var, binalar, mənzillər Xalq Cəbhəsinin yaraqlıları ilə doludur, onlar sizi güclü avtomat-pulemyot atəşinə tutacaqlar".

Mixail Qorbaçov başda ol-maqla sovet imperiyasının rəhbərliyi Bakıda "rus və erməni kartından" məharətlə istifadə etdi. Guya Bakıya qoşun onları, hərbi qulluqçuların ailələrini qorumaq, "millətçi ekstremistlər" tərəfindən "hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün" yeridilmişdi. Əslində isə bu açıq riyakarlıq, ağ yalan idi. Çünki sovet rəhbərliyinin "dəlilləri" hətta həqiqətə yaxın olsaydı belə, Bakıya təpədən-dırnağadək silahlandırılmış qoşun göndərməyə ehtiyac yox idi. Ona görə ki, hə-min vaxt burada daxili qoşunların 11,5 min əsgəri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri var idi. 4-cü ordunun komandanlığı da Bakıda yerləşirdi.

Bütün bunlara baxmayaraq, 1990-cı il yanvarın 19-da Mixail Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə

vəziyyətin elan edilməsi haqqında fərman imzaladı. Lakin SSRİ DTK-sının "Alfa" qrupu yanvarın 19-da saat 19.27-də Azərbaycan televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və əhaliyə divan tutmağa başladı. SSRİ Müdafiə Nazirliyi, DİN və DTK-nın hazırlayıb həyata keçirdiyi "Udar" adlı əməliyyatda əsas rolu xüsusi təyinatlı "ALFA" və SSRİ DTK-nın "A" təxribat qrupları oynayırdı. Qorbaçovun fərmanı qüvvəyə minənədək - yanvarın 20-də saat 00-dək artıq 9 nəfər öldürülmüşdü. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100 nəfərə çatmışdı. Halbuki Qorbaçovun Azərbaycana ezam etdiyi yüksək vəzifəli emissarlar həyasızcasına bəyan edirdilər ki, Bakıda fövqəladə vəziyyət elan olunmayacaq. Əli yüzlərlə insanın qanına batmış, sonralar Nobel sülh mükafatı (?!) almış Mixail Qorbaçov başda olmaqla sovet imperiyası rəhbərliyinin rəzil siması bu idi...

Tanklar, zirehli transportyorlar Bakı küçələrində qarşılarına çıxan hər şeyi əzir, hərbçilər hər yanı amansız atəşə tuturdular. İnsanlar nəinki küçələrdə, hətta avtobusda gedərkən, öz mənzillərində oturduqları yerdə güllələrə tuş gəlirdilər. Yaralıları aparmağa gələn "təcili yardım" maşınlarını və tibb işçilərini də atəşə tuturdular. Bir neçə gün ərzində 137 nəfər öldürüldü, 700-dək yaralandı, 800-dən çox adam qanunsuz həbs edildi. Öldürülənlər arasında beş millətin nümayəndələri, 20-dən çox qadın, uşaq var idi. "Qara Yanvar"ın indiyədək özündə saxladığı sirlər çoxdur. 100 cildlik istintaq materialının 69 cildi Bakıdan Moskvaya, keçmiş SSRİ Prokurorluğuna aparılıb və bir daha geri qaytarılmayıb. Azərbaycan xalqının məruz qaldığı bu təcavüz indiyədək bəşəriyyət əleyhinə cinayət kimi beynəlxalq müstəvidə layiq olduğu təsnifatı almayıb. Bu hadisələrə emosiya, kədər, yaxud mübarizlik salnaməsi kimi pafoslu münasibətlə bərabər, bir qədər də soyuqqanlı olub, o hadisələrin gerçək mahiyyətini dünya birliyinin, çeşidli beynəlxalq təşkilatların önünə qoymaq barədə düşünməli, 20 Yanvara beynəlxalq-hüquqi qiymətin verilməsinə çalış-malıyıq.

**"Şit" təşkilatı ekspertlərinin hesabatından:**

- adamları xüsusi qəddarlıqla və yaxın məsafədən güllələmişlər. Məsələn, Y.Meyeroviçə 21, D.Xanməmmədova 10-dan çox, R.Rüstəmova 23 güllə vurulmuşdu;
- xəstəxanalar, "təcili yardım" maşınları atəşə tutulmuş, həkimlər öldürülmüşdü;
- adamlar süngü-bıçaqla qətlə yetirilirdilər. Onların arasında hər iki gözü tutulmuş B.Yefimtsev də var;
- "Kalaşnikov" avtomatının ağırlıq mərkəzi dəyişən 5,45 çaplı güllələrindən istifadə edilmişdi.

Həlak olanlar arasında yetkinlik yaşına çatmayanlar, qadınlar, qocalar, şikəstlər də var idi. Qorbaçovun və ətrafındakıların "millətçi ekstremistlər" adlandırdıqları bunlar idimi?

Yanvarın 20-də artıq bütün dünya Bakıda törədilmiş dəhşətli qırğından xəbər tutdu. Amma sovet imperiyasının ideoloji ruporu olan "Pravda" qəzeti 22 yanvar tarixli nömrəsində yazırdı: "Fövqəladə vəziyyət elan edilməsi üçün görülmüş tədbirlər nəticəsində guya qadınlar və uşaqların tələf olması barədə bəyanatlar aşkar fitnəkar xarakter daşıyır. Bir daha təkrar etmək lazımdır ki, bu, qərəzli yalandır! Ondan məqsəd əhalini sovet ordusuna və hüquq-mühafizə orqanlarına qarşı qaldırmaqdır..."

Azərbaycanın o vaxtkı rəhbərləri tamamilə əks mövqe tutmuşdular və hələ də gözləri Moskvada idi...

20 Yanvar və Azərbaycan tarixində ondan əvvəlki faciəli hadisələr XX əsr boyu xalqımıza qarşı yeridilən düşünülmüş siyasətin növbəti təzahürü idi. Azərbaycan xalqına qarşı soyqırım, sovet hakimiyyəti illərində Azərbaycan ərazilərinin tədricən ilhaq olunması, nəticədə ölkənin ərazisinin 125 min kvadratkilometrdən 87 min kvadratkilometrədək azalması, sovet rəhbərliyinin havadarlığı ilə başlayan Dağlıq Qarabağ hadisələri, azərbaycanlıların Ermənistan ərazisindəki əzəli torpaqlarından qovulması bu siyasətin mərhələləridir.

1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar...

Bakının ən yüksək nöqtələrindən birində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş bir yer var. Bu, 20 Yanvar qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər Xiyabanıdır. Hər il yanvarın 20-də minlərlə insan buranı ziyarət edir, Vətənin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş Azərbaycan oğul və qızlarının əziz xatirəsini ehtiramla yad edir. Nəsillər dəyişəcək, lakin Və-tən oğullarının xatirəsi ürəklərdə əbədi yaşayacaq.

**İSLAM**

**"Xalq cəbhəsi".** - 2006. – 20-23 yanvar. - N 10. - S. 6.

**Bəşəri cinayət**

## 20 YANVAR QƏTLİAMI QORBAÇOV-ERMƏNİ GÜRUHUNUN ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN QURULMASI PROSESİNƏ RƏHBƏRLİK ETMƏSİNƏ MANE OLMAQ MƏQSƏDİLƏ TÖRƏDİLMİŞDİ

***Ötən əsrin sonuncu dekadasında Azərbaycan xalqına qarşı sovet imperiyasının törətdiyi bəşəri cinayətlər, təbii ki, əsrlər ötsə də, heç bir azərbaycanlının qan yaddaşından silinməyəcək. Bir sıra tarixçilər 20 yanvar qətliamını Kremlin, şəxsən Mixail Qorbacovun imperiyanı saxlamaq naminə çabalarından biri hesab etsə də, bu fikirlə birmənalı olaraq razılaşmaq mümkün deyil. Ən azı ona görə ki, Bakıda 16 il öncə törədilən və kütləvi insan qırğını ilə sonuclanan həmin dəhşətli hadisələr imperiyanın çöküşünü daha da sürətləndirdi. Bu hadisələr mərkəzdənqaçma prosesinə daha da təkan verdi. Bu qətliam, sadəcə olaraq, Qorbuçov-erməni siyasi əməkdaşlığının tarixi fürsətdən istifadə edərək, Azərbaycan xalqından qisasın alınması idi.***

### MƏKRLİ PLAN

Hadisənin başvermə səbəbləri və onun nəticələri artıq hər kəsə məlumdur. Bu baxımdan, həmin mövzuya tamamilə başqa kontekstdən yanaşacağıq. Tarixi araşdırmalar sübut edir ki, Bakıya sovet qoşunlarının soxulması Qorbaçov və onun komandası tərəfindən ötən əsrin 80-ci illərin sonlarında Azərbaycanda geniş vüsət alan ümummilli hərəkata görkəmli tarixi şəxsiyyət Heydər Əliyevin rəhbərlik etməsinin qarşısını almağa xidmət edirdi. Çünki həqiqətən, həmin dövrdə sovet imperiyasına qarşı mücadilə məqsədilə meydan və xiyabanlara axışan milyonlarla insan bu hərəkatın önündə Heydər Əliyevi görmək istədiyini gizlətmirdi. Hər bir azərbaycanlı haqlı olaraq başa düşürdü ki, Heydər Əliyevin milli dövlətçiliyin qurulması prosesinə rəhbərlik etməsi Azərbaycanı gələcək bəlalardan sığortalayan əsas faktora çevriləcək. Bu baxımdan, Pribaltika respublikalarında olduğu kimi, Azərbaycanın da müstəqillik qazanması prosesində radikal və dağıdıcı elementləri arxa plana keçirmək mümkün idi.

Təbii ki, imperiyanın süqutu labüd tarixi proses olduğundan M.Qorbaçov və onun komandası çalışırdı ki, müstəqil dövlətçiliyə can atan xalqlara qarşı mümkün qədər çox problemlər yaradılsın. Bu həm də, sonradan dirçəldilməsi nəzərdə tutulan rus imperiyasının əlinə həmin xalqlara qarşı təsir rıçaqlarının verilməsi baxımından çox lazım idi. Bu baxımdan, Azərbaycanda Dağlıq Qarabağ, Gürcüstanda Abxaziya və Osetiya, Moldovada "Dnestryanı respublika" sindromlarının təşkili heç də təsadüfi sayıla bilməz. Fəqət, Kremlin cızdığı ssenari tez bir zamanda əks-effekt verməyə başladı. Azərbaycanda imperiyaya qarşı ümummilli mübarizənin vüsət almasına gətirib çıxaran əsas faktor olaraq Dağlıq Qarabağ münaqişəsinin başlanması oluğu bu baxımdan təsadüfi sayıla bilməz. Həmçinin, nəzərə almaq lazımdır ki, M.Qorbaçov öz planlarını həyata keçirmək üçün bütün maneələri aradan qaldırmağa çalışırdı. Qeyd olunan aspektdən 1987-ci ildə M.Qorbaçov qaragüruhunun təkidi ilə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin istefaya göndərilməsi bu baxımdan diqqəti xüsusi ilə cəlb edir.

Sözsüz ki, bu reallığı təsdiqləmək üçün saysız-hesabsız arqumentlər irəli sürmək olar. Lakin Heydər Əliyev və M.Qorbaçovun bununla ilgili mövqeləri həmin tarixi proseslərin mahiyyətini açmaq üçün çox gözəl fürsətdir. Bu baxımdan, tanınmış kinorejissor Vaqif Mustafayevin çəkdiyi "Bir həsədin tarixi" filmindəki Dağlıq Qarabağ münaqişəsi və 20 Yanvar hadisələri ilə bağlı fraqmentin mətninin oxucuların mühakiməsinə verilməsi daha yaxşı olardı:

**Heydər Əliyev:** *"Mən əmin oldum ki, Mixail Qorbaçov məsələyə düzgün yanaşmır. Onunla söhbətlərimin birində bildirdim ki, "siz slavyan mənşəli olmayan ləyaqətli insanlara qarşı dözümsüzsünüz". O, az qala mənim slavyan olmadığımı unutmuşdu. Mənimlə söhbətlərində elə ifadələr işlədirdi ki, bunlar məni*

*düşündürür və ciddi narahat edirdi. İkincisi də Mixail Qorbaçov ermənilərlə çox sıx əlaqədə idi. Ermənilərin Qarabağa iddiaları həmişə olub. Mən SSRİ rəhbərliyində, Kremldə işlədiyim vaxtlarda bu siyasəti həyata keçirə bilmirdilər. Mənə məlum idi ki, Qarabağ barədə məsələlər cəmiyyətə açıqlanmamışdan əvvəl bu proses gedirdi".*

**Mixail Qorbaçov:** *"Bu proses artıq gedirdi, Qazaxıstandakı proseslər Qarabağdan da əvvəl başlamışdı. Bu hadisə 1986-cı ildə baş verdi".*

**Heydər Əliyev:** *"Mən bütün vəzifələrdən uzaqlaşdırılandan haradasa 25 gün sonra Qarabağ problemi ortaya çıxdı. Azərbaycan KP MK-nin və SSRİ rəhbərliyinin Dağlıq Qarabağ münaqişəsinin həlli prosesindəki yarıtmaz siyasətinə qarşı Azərbaycanda mitinqlər başladı. Bu mitinqlər inkişaf edərək böyük bir mütəşəkkil qüvvəyə çevrildi. Bu isə Azərbaycanda siyasi sabitliyin pozulmasına gətirib çıxartdı".*

**Mixail Qorbaçov:** *"Bəli, çox pis vəziyyət yaranmışdı. Mən heç vaxt bunun günahını yaxına buraxmıram. Yox!"*

**Heydər Əliyev:** *"Əgər o. bu hadisələrin, münaqişənin baş verməsini istəməsəydi, onların qarşısını almaq üçün bütün imkanlarından istifadə edərdi. Ancaq o bu proseslərin qarşısını almadı, əksinə, istəyirdi ki, bu münaqişə inkişaf etsin, vəziyyət daha da mürəkkəbləşsin. O. özünün başladığı yolla getdi, bu yol isə Azərbaycana qoşun yeridilməsinə, Azərbaycan xalqının qanının tökülməsinə gətirib çıxartdı".*

### QORBAÇOV-ERMƏNİ BİRLİYİ HEYDƏR ƏLİYEVƏ QARŞI

Bu fikirlərə rəğmən, bir daha aydın olur ki həqiqətən də, Heydər Əliyevin  SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən uzaqlaşdırılması Azərbaycan xalqına qarşı M.Qorbaçovun planlaşdırdığı qanlı cinayətlərə hazırlığın tərkib hissələrindən biri olmuşdur. Lakin Heydər Əliyev şəxsi həyatının real təhlükə qarşısında qalmasına və terror təhlükəsi ilə üzləşməsinə baxmayaraq, sonadək mübarizə apardı. 20 Yanvar qətliamının M.Qorbaçovıı" bəşəriyyətə qarşı törətdiyi qanlı cinayət olduğunu deməkdən çəkinmədi. Bunu yenə də hamin filmdə əksini tapan maraqlı kadrlar təsdiqləyə bilər.

**Heydər ƏlİYev:** *"Yanvarın iyirmisi axşam mənə məlum oldu ki, Bakıya qoşun yeridiblər. İyirmisi axşam Mixail Qorbaçov televiziya ilə çıxış etdi. Mən onu dinləyirdim Ayın iyirmi biri, hadisədən bir gün sonra mən evə gəldim. Ailə üzvlərimlə görüşdüm. Mənə məlum oldu ki, Moskvada yaşayan azərbaycanlılar matəmlə əlaqədar olaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinin qarşısına yığışıblar. Təbii ki, kənara çəkilib dura bilməzdim. Bu, mənim xalqım, dövlətimdir. Mən ora getmək qərarına gəldim".*

**Mixail Qorbaçov:** *" Bu hadisələr baş verəndə biz Bakı ilə mütəmadi əlaqə saxlayırdıq. Respublika rəhbərliyi məlumat verirdi ki, hər şey nəzarət altındadır. Ancaq belə deyildi, nəsə fövqəladə tədbirlər görmək lazım idi. Mən buna görə, Yevgeni Primakovu və Andreyevi Bakıya göndərdim. Onlar getdilər. Həmin vaxt biz Ali Sovetin iclasını çağırdıq. Bu zaman Primakov Bakıdan zəng vuraraq təcili olaraq məni telefona çağırtdırdı. Təbii ki, mən bilirdim onu hara və nə məqsədlə göndərmişəm. O, mənə məlumat verərək dedi ki, "yoldaş Mixail Sergeyeviç, təcili tədbirlər görülməlidir". Mən də həmin an dərhal daxili işlər naziri Bakatini yanıma çağırdım. Belə vəziyyətlərdə, sözsüz ki, mən güc strukturlarının rəhbərləri ilə görüşüb onların rəyi ilə maraqlanmalı idim. Mən Bakatinə göstəriş verdim ki, təcili tədbirlər görülməlidir. O isə mənə bildirdi ki, sözlə iş görmək düzgün deyil, bu, heç bir fayda verməyəcək. Gərək prezidentin fərmanı olsun. Biz də fərman verdik. Bütün işlər rəsmi səviyyədə aparılırdı, hər şey qayda-qanun əsasında oldu. Biz Bakatinlə başqa cür danışmışdıq, lakin faciə baş verdi".*

Təbii ki, bu fikirlər birmənalı olaraq, M.Qorbaçovun Azərbaycan xalqına qarşı cinayət törətdiyini, lakin Heydər Əliyevin buna qarşı sonadək mübarizə aparması faktını ortaya qoyur. 20 Yanvar faciəsindən dərhal sonra Qorbaçov-erməni siyasi işbirliyinin Heydər Əliyev və onun ailə üzvlərinə qarşı total mübarizəyə start vermələri faktı da bunu bir daha təsdiqləyir. Hətta sovet imperiyası Heydər Əliyevin həbsini belə planlaşdırır və

M.Qorbaçov öz rəqibinin fiziki məhvinə belə razılıq vermişdi. Bunu həmin dövrdə Daxili işlər Nazirliyinin istintaq idarəsinin rəisi vəzifəsində çalışan Əzim Piriyevin etirafları da təsdiqləyə bilər: "Heydər Əliyevə qarşı qərəzli materialların toplanılması üçün Mixail Qorbaçov Azərbaycana 1500 nəfərlik operativ-istintaq qrupu göndərmişdi. Aslaxanov və Barannikin rəhbərlik etdiyi briqadada şantaj, təzyiq və s. bu kimi üsullarla Heydər Əliyevin dövründa işləmiş vəzifəli şəxslərdən ona qarşı izahatlar alırdılar. Şüvəlanda yerləşən istintaq təcridxanası SSRİ Daxili işlər Nazirliyinin göstərişi ilə bizim sərəncamımızdan alınıb həmin briqadanın ixtiyarına verilmişdi. Orada Şkolnıy Vladimir Aleksandroviçin rəhbərlik etdiyi kəşfiyyat-istintaq qrupu fəaliyyət göstərirdi. İstintaq qrupu müxtəlif vəzifəli şəxsləri və dustaqları dindirməklə Heydər Əliyev və onun ətrafındakı insanlara qarşı qərəzli izahatlar alırdılar".

Bəli, bütün bunlar real faktlardır. 20 Yanvar hadisəsindən dərhal sonra Heydər Əliyevin ailə üzvlərinin, konkret olaraq İlham Əliyevin də təzyiqlərlə üzləşməsi faktı da bunu bir daha təsdiqləyə bilər. O da məlumdur ki, Heydər Əliyevin 1990-cı ilin yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində Mixail Qorbaçovun Azərbaycan xalqına qarşı törətdiyi qanlı cinayəti lənətləməsindən dərhal sonra İlham Əliyevə uzun illər təhsil aldığı Moskva Beynəlxalq Münasibətlər İnstitutunda pedaqoji fəaliyyətlə məşğul olmağa qadağa qoydular. Bunu isə şəxsən M.Qorbaçovun göstərişi ilə etmişdilər. Qeyd olunan faktı ilham Əliyev də öz xatirələrində etiraf edib: **"Mənim atam Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyi qarşısında keçirilən mitinqdə çıxış edərək, Qorbaçovun qanlı siyasətini pislədi. Bundan sonra isə bizim ailəmizə, şəxsən mənə qarşı təzyiqlər artdı. Onda mənə dedilər ki, sən artıq müəllim vəzifəsində işləyə bilməzsən. Siyasi institut olduğundan sən orada gələcək siyasətçilərə dərs deyə bilməzsən. Bu, məni təəssüfləndirdi. Səbəbini öyrənməyə çalışdım. Mənə cavab verdilər ki, çünki sən Heydər Əliyevin oğlusan. Mən başa düşürdüm ki, o zaman mövcud olan sistem və həmin dövlətə rəhbərlik edən şəxslər özlərini pis vəziyyətə qoyacaqlar. Kiməsə qarşı pis rəftar etmək, mübarizə aparmaq olar. Ancaq siyasi mübarizə ailə üzvlərinə qarşı yönələndə, bu, həmin şəxslərin yüksək mənəviyyatlı adamlar olmadıqlarından xəbər verir".**

## 20 YANVARA APARAN YOLLAR

Təbii ki, qanlı faciə birdən-birə baş vermədi. Buna zəmin yaradan hadisələr oldu. Belə ki, ermənipərəst Arkadi Volskinin başçılıq etdiyi Xüsusi İdarə Komitəsinin Azərbaycanın əleyhinə məqsədyönlü fəaliyyəti, respublikada baş verən hadisələrin mərkəzi kütləvi informasiya vasitələrində təhrif edilməsi, Ermənistandan və Dağlıq Qarabağdan zorakılıqla qovulan çoxlu sayda azərbaycanlı qaçqın və məcburi köçkünün Bakı şəhərində cəmləşməsi şəraiti mürəkkəbləşdirdi. Azərbaycanın siyasi rəhbərliyinin tam çaşqınlığı, xalqla əlaqəsinin itməsi, müstəqilliyinin olmaması onun iflasını və hakimiyyətsizliyini labüd etmişdi. Qeyd etmək lazımdır ki, o vaxt şəhərdə SSRİ DİN daxili qoşunlarının iri kontingenti var idi və bu kontingentdən qəsdən istifadə edilmədi. Yanvarın 16-da Bakı şəhərinin girəcəyində və Bakı qarnizonu hissələrinin ətrafında vətəndaşlar minik və yük maşınlarını yan-yana qoyaraq, piketlər təşkil etdilər. Piketlər Bakıya gələn imperiya qoşunlarının qarşısını kəsmək və Bakı qarnizonu hissələrinin öz yerlərindən çıxmasına yol verməmək məqsədilə Milli Müdafiə Şurasının göstərişi ilə təşkil edilmişdi. Yanvarın 18-də Bakı və Azərbaycanın 11 başqa rayonunda keçirilən izdihamlı mitinqlərdə ümumi tətilin başlandığı elan olundu. Tələb edilirdi ki, Ermənistanın ərazi iddialarına son qoyulsun. Bakı ətrafında cəmləşən qoşunlar çəkilib aparıl-sın və Dağlıq Qarabağın Ermənistanla sərhədyanı rayonlarına göndərilsin. 1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti Rəyasət Heyətində Mixail Qorbaçov tərəfindən "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verildi. Fərman SSRİ Konstitusiyasının və həm də Azərbaycan Konstitusiyasına və eləcə də beynəlxalq hüquq normalarını pozmuş, fövqəladə vəziyyətin hüquqi rejimini tənzimləyən qanunvericilik aktının olmadığı bir şəraitdə qəbul edilmişdi.

Fövqəladə vəziyyət elan edilməsi və bununla əlaqədar olaraq bu vəziyyətə riayət edilmədiyi halda, hərbi qüvvə işlədiləcəyi barədə əhalinin vaxtında xəbərdar edilməsinin böyük əhəmiyyəti vardır. Belə olsaydı, əhali dağılıb evlərinə gedərdi, tələfat isə az olardı. Vətəndaşlıq hüquqları və siyasi hüquqlar haqqında 1966-cı il

tarixli beynəlxalq paktın 4-cü maddəsinin 1-ci bəndində deyilir ki, fövqəladə vəziyyət tətbiq ediləcəyini rəsmən elan etmək lazımdır. Halbuki Bakıda fövqəladə vəziyyət tətbiq edildiyini əhali ilk dəfə ancaq yanvarın 20-də səhər saat 5.30-da şəhərin komendantı Dubinyakın radio ilə çıxışından və vertolyotların səpdiyi vərəqələrdən öyrənmişdi. O vaxt şəhər artıq qoşun tərəfindən tutulmuş və qırğınlar baş vermişdi. Lakin fərmana uyğun olaraq fövqəladə vəziyyət rejimi, demək olar, dərhal, 1990-cı il yanvarın 20-də saat 00.00-da tətbiq ediimişdi. Həmin dövr-də xalqı məlumatlandırmaq üçün bütün vasitələr məhv edildi. Teleradio partladıldı. Teleradionun keşiyində Bakı Ümumqoşun Komandirləri məktəbinin kursantları dayanırdı. Yanvarın 19-da, saat 19.00-da yarımhərbi, yarımidman forması geymiş dörd nəfər silahlı adam teleradio mərkəzinə gəlib, mühafizə dəstəsi isə dərhal onların sərəncamını yerinə yetirmişdir. Gələnlər mühafizəçilərdən enerji blokunun yerini öyrənib öz mühafizələri altında alaraq enerji blokunu saat

19.15-də partlatmışdılar. Ekspertlərin verdiyi rəyə görə, teleradio mərkəzinin enerji blokunu Sovet Ordusunun və SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin xüsusi qrupu partlatmışdı. insanlıq simalarını itirmiş imperiya qoşunları şəhərə daxil olarkən, öz istiqlalı uğrunda sinələrini sipər etmiş qəhrəman oğul və qızlarımızı məhv etmək üçün tanklardan, zirehli transportyorlardan, piyadaların döyüş maşınlarından istifadə edirdilər. Zirehli tankların üstündə nömrələri yox idi. "Qırmızı Bayraq" ordenli Xəzər Hərbi Donanmasının gəmilərindən desant çıxarılmışdı. Qoşunların şəhərə yeridilməsi əməliyyatı yanvarın 19-da təqribən saat 21 və 22 arasında Türkan və Qala qəsəbələri arasında qoşun hissələrinin yerləşdiyi rayondan başladı. Qoşunların hərəkəti istiqamətində təsadüfən yoldan keçən adamlar və avtomobil nəqliyyatı vasitələri güllələbaran edildi. Fərman qüvvəyə minənədək hərbi qulluqçular artıq doqquz vətəndaşı öldürmüşdülər. Qoşunun şəhərə kütləvi surətdə yeridilməsi müxtəlif isti-qamətlərdə başlamışdı. Bakıya qoşun yeridilər-kən hərbi qulluqçular tərəfindən və eləcə də erməni millətindən olan hərbi qulluqçular daha böyük qəddarlıqlar etmişdilər.

Qoşunlar gözqamaşdırıcı qaz tətbiq edərkən, eyni zamanda, adamları avtomat silahlardan güclü atəşə tuturdular. Hərbi tanklar piketləri yarıb keçirdilər. Hərbçilər tərəfindən yaralıların öldürülməsi, təsadüfən yoldan keçənlərin, yaşayış evlərinin, mağazaların, tibb müəssisələrinin atəşə tutulması dəhşət doğururdu. Təcili yardım maşınları yaralılara yaxın buraxılmır və atəşə tutulurdu. Bir çox vətəndaş öz evinin qarşısında, mənzilində, avtobusda güllələnib qətlə yetirilirdilər. Vətəndaşlar, o cümlədən, xidmətdə olan polis işçiləri sorğu-sualsız tutulurdular. Hərbi hakimiyyət orqanları yanvarın 20-də saat 22.00-dan etibarən qadağan saatı qoyulduğunu yanvarın 20-də saat 7-də elan etdi. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan edildikdən sonra, yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində daha 21 adam öldürülmüşdü. Daha on yeddi vətəndaş avtomaşınların atəşə tutulması nəticəsində maşınların içərisində öldürülmüşdü. Yeddi vətəndaş isə öz evində avtomatdan atılan atəşlə qətlə yetirilmişdi. Müayinə edilmiş 94 meyitin 82-də silah zədələri müəyyən edilmişdir. Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və respublikanın rayonlarında 190 adam öldürülmüş və 400-ə qədəri yaralanmışdır. Azərbaycan xalqının igid oğlan və qızları doğma Azərbaycanın azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda öz canlarından keçərək zirvəyə yüksəldilər. Onlar sovet imperiyasının dayaqlarını sarsıtdılar. Azğınlaşmış imperiya artıq başa düşdü ki, Azərbaycan xalqı artıq onların başa düşdüyü, beləcə qələmə verdikləri "geridə qalan xalq" deyil. Öz haqqını istəyən imperiya boyunduruğunu ləğv edən xalqdır.

Sovet imperiyası bu ölməzlik zirvəsinə yüksələn Azərbaycanın qəhrəman oğul və qızlarının qarşısında lərzəyə düşdü. Bu çətin. ağır məqamlarda xalqımız özünün qəhrəman oğul və qızlarının simasında tarixin qəhrəmanlıq salnaməsinə öz igidliyini qızıl hərflərlə həkk etdi. On ların əziz xatirəsi xalqımızın qan yaddaşında əbədi yaşayacaq. Xalqımızın belə bir çətin məqamda yumruq kimi birləşərək sovet imperiyasına qarşı ölüm-dirim mübarizəsinə qalxması hu xalqın milli həmrəylik simvolu idi. Bəli. o vaxt hamı rus ordusunun faciə törədəcəyinə yaxşı bilirdi, amma Vətənin azadlığı yolunda güllə qarşı sına çıxmağı özünə şərəf bilən insanlar da vardı. Bu insanlar sonradan xalqa və daha Azərbaycana çevrildi. Bu şəhidlik Vətənin azadlığı və müstəqilliyini qorumaq borcundan keçib. Biz Azərbaycanın torpaqları yolunda ölmüşüksə deməli, bu torpaqları Vətən etmişik! Allah bütün şəhidlərimizə rəhmət, ruhlarını şad etməklə. Azərbaycanın azadlığı yolunda kütləvi şəhidliyə hazır olmaqda xalqımıza dayaq dursun! Vətən şəhidlərini heç vaxt unutmayacaq! 20 Yanvar Azərbaycan xalqının

hüzn və şərəf günüdür Xalqımız bu faciədə həyatdan getmiş övladlarına matəm saxlamaqla bərabər. onların şəhidlik zirvəsinə baxaraq başını dik tutmalıdır.

1990-cı ilin 20 Yanvarı Azərbaycanın istiqlaliyyət yolunun ilk şəhidlik zirvəsi idi. Ötən illər ərzində "Qanlı Yanvar"ın tarixi, mənəvi, siyasi və s. aspektləri analiz edilib, hadisəyə Azərbaycan dövləti tərəfindən hüquqi qiymət verilib. Lakin təəssüf edilməlidir ki. biz indiyədək bu tarixi dünyaya yetərincə tanıda bilməmişik. Dünya hələ də 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycanda, onun paytaxtı Bakıda nələrin baş verdiyindən xeyli dərəcədə səthi informasiyaya malikdir. Lakin o da etiraf edilməlidir ki. bu qanlı faciəni bütün dünyaya tanıtmaq ucun ulu öndərimiz Heydər Əliyev gecəli-gündüzlü çalışıb. Bu gün ulu öndərin ruhu Vətənimizin azadlığı uğrunda şəhid olmuş oğul və qızlarımızın ruhuna qovuşub. Ruhunuz şad olsun!

**Azər Mənsimli**

**“Səs”.** - 2006. – 20 yanvar. - N 10. - S. 8-9.

# Qanlı Yanvar

*1990-cı ilin 20 yanvarından 16 il keçir. Dağılmaqda olan imperiyanı qoruyub saxlamaq üçün Azərbaycan xalqını heç kimin ağlına gəlməyən üsulla cəzalandıran sovet rəhbərliyi heç nə qazana bilmədi. Əksinə, millətin ərazi bütövlüyü uğrunda mübarizə aparması onun əzmkarlığını bir daha təsdiq etdi.*

Mərkəz tərəfindən xalq hərəkatına dini məzmun vermək, onun meylini Türkiyədən, demokratik qərbdən ayırıb İrana, islam fundamentalizminə bağlamaq cəhdləri də olmuşdu.

Təcrübəsiz və hakimiyyətə can atan siyasi liderləri "radikallar"a və "liberallar"a bölüb xalq hərəkatını daxildən parçalamaq, seçkiləri fövqəladə vəziyyət, komendant saatı şəraitində keçirməklə yenə "kommunistlərin" qalib gəlməsinə nail olmaq üçün məkrli siyasət aparılırdı.

Xalqı radikallaşdırmaq, bəzi güzəştlərlə onu zorakı hərəkətlərə şirniklədirmək əsas vasitə idi. Ə.Vəzirov AXC rəhbərləri ilə görüşündə açıq demişdi: "Gücünüzü göstərin, sizinlə hesablaşaq!" AXC İdarə Heyətində hakimiyyət uğrunda mübarizə aparan radikallar bu tələyə düşdülər. 1989-cu il oktyabrın 28-29-da keçirilmiş AXC Məclisinin birinci sessiyasında cəbhə daxilində "radikallar" və "liberallar" arasında ixtilaf bütün barışmazlığı ilə üzə çıxdı. "Radikallar" AXC İdarə Heyətinin "liberal" üzvlərini təslimçilikdə, xalqa xəyanətdə, qətiyyətsizlikdə təqsirləndirirdilər. Onlar AXC-nin yeni rəhbər orqanlarını seçəcək fövqəladə konfransın keçirilməsini tələb edirdilər. Xalq cəbhəsinin bütövlüyünü qoruyub saxlamaq üçün "liberallar" müəyyən güzəştlərə getməyə məcbur oldular. 1989-cu il dekabrın 9-da AXC müşavirəsində İdarə Heyəti buraxıldı. Onun səlahiyyətlərini yerinə yetirən, əslində "radikallar"dan ibarət Müvəqqəti Təşkilat Qrupu seçilməsi "radikallar"ı daha da fəallaşdırdı. Onlar narazılığı gündən-günə güclənən xalq kütləsini öz arxasınca apardı. Bir çox bölgələrdə ikihakimiyyətlilik - kommunistlərin və cəbhəçilərin hakimiyyəti yaranmışdı. AXC təşkilatlarında dövlət funksiyalarını yerinə yetirən strukturlar meydana gəlmişdi.

Cəlilabadda 1989-cu il dekabrın 8-dən fasiləsiz mitinqlər, tətillər başlandı. İnzibati orqan işçiləri xalqın tərəfinə keçdi. Xalqın tələbi ilə raykomun 57 gün əvvəl təyin olunmuş birinci katibi istefa verdi. Yeni katib paytaxtdan göndərildi. Rayonda hakimiyyətə gəlmək istəyənlər yenidən adamları qızışdırdılar. Vəziyyəti nizama salmaq üçün dekabrın 27-də rayona gətirilən milis dəstələri kütləvi həbslər həyata keçirtdi. Qəzəblənmiş əhali hücum edib raykomun, rayon daxili işlər şöbəsinin binalarını dağıtdı, rəhbər işçiləri döyüb qovdu. Toqquşmalarda 150-dən çox adam yaralandı. Dekabrın 29-da burada "Xalq hökuməti" adlandırılan hökumət fəaliyyətə başladı. Müvəqqəti Təşkilat Komitəsi və Milli Müdafiə Şurası yaradıldı.

Azərbaycan vətəndaşları Cənubi Azərbaycanda, İran İslam Respublikasında yaşayan qan qardaşları, qohumları ilə mədəni və iqtisadi əlaqələri, gediş-gəlişi bərpa etmək tələbi ilə dəfələrlə rəhbər orqanlara müraciət etmişdilər.

Naxçıvan MSSR kimi aztorpaqlı respublikada 17 min $km^2$ münbit torpaq sahəsi sərhədlə tikanlı məftillər arasında qalmışdı. Bu zonadakı qədim qəbiristanlığa və ziyarətgaha getmək mümkün deyildi. Lakin vəziyyəti düzgün qiymətləndirməyən rəhbər dairələr tədbir görməyə tələsmirdi. "Sərhəd hərəkatı" isə genişlənirdi.

1989-cu ilin dekabrında Naxçıvanda sərhəd boyu 9 minə qədər adam toplaşmış, çadırlar qurulmuş, tonqallar qalanmışdı. Xalq cəbhəsi dekabrın 23-də sərhəd dəstəsinin komandirinə ultimatum göndərib dekabrın 31-dək sərhəddən adamların müəyyən qaydalarla keçməsinə, qohum-qardaşları ilə əlaqə saxlamasına imkan yaratmasını tələb etdi. Lakin razılıq əldə olunmadı.

İmperiyanın rəhbərliyi haqq-ədalətin bərqərar edilməsi uğrunda səsini qaldıran xalqa divan tutmağa hazırlaşırdı. Sərhədlərin pozulması bəhanəsi də onun planlaşdırdığı qanlı qırğına bəraət ola bilərdi. Buna görə də sərhədçilərə müqavimət göstərməmək əmri verilmişdi.

Dekabrın 31-də saat 12-də Araz çayı boyu 137 km. Sovet-İran sərhədində həyəcanlar başlandı. Sərhəd qurğuları dağıdıldı. Hər iki tərəfdən sahildə toplanmış adamlar Arazı keçib görüşdülər. 1990-cı il yanvarın 7-də

isə SSRİ-Türkiyə sərhədində həyəcanlar baş verdi. Yanvarın 18-də Biləsuvar və Cəlilabad rayonlarında sərhəd qurğuları dağıdıldı.

1990-cı il yanvarın 11-də AXC Lənkəran şöbəsinin qərarı ilə gecə raykom, rayon daxili işlər şöbəsi, rabitə qovşağı, mətbəə və digər dövlət müəssisələri mühasirəyə alındı, partiya komitəsinin, hökumət orqanlarının fəaliyyəti dayandırıldı. Müvəqqəti Müdafiə Komitəsi təsis olundu.

Bütün bunlar hakimiyyət böhranının, Moskva canişininin respublikadakı hadisələrə nəzarəti tam itirməsinin təzahürü idi. Bununla barışa bilməyən mərkəz 1990-cı il yanvarın əvvəllərində Azərbaycanda müxtəlif qoşun hissələri, cəza dəstələri yerləşdirdi. SSRİ müdafiə naziri D.Yazov gizlicə Gəncəyə gəlmiş, vəziyyətlə tanış olmuş və respublika rəhbərliyinin də təklifləri nəzərə alınmaqla "Tayfun" adlı qanlı əməliyyat planı hazırlamışdı.

Erməni millətçilərinin təhrikçilik hərəkətləri, Azərbaycanın sərhəd kəndlərinə, DQMV-də azərbaycanlılar yaşayan kəndlərə silahlı basqınlar getdikcə artırdı.

Hadisələrin inkişafına müxtəlif vasitələrlə şərait yaradan Moskva öz istəyinə nail olmuşdu. Siyasiləşmiş insanların çoxu AXC-nin 1990-cı il yanvarın 6-7-də keçirilmiş konfransında yeni seçilmiş İdarə Heyətində üstünlük təşkil edən "liberallar"ın deyil, "radikallar"ın ardınca gedirdi. Yanvarın 12-də "radikallar" Milli Müdafiə Şurası (MMŞ) təşkil etdilər. Məqsəd mövcud özünümüdafiə dəstələrini birləşdirmək, yeni hərbi dəstələr yaratmaq və erməni hərbi birləşmələrinin hücumlarının qarşısını almaq idi. Respublikanın rəhbərliyi də gəncləri MMŞ-nin köməyi ilə milis dəstələrinə cəlb edərək silahlandırıb cəbhəyə göndərməyə, müəssisələrdə fəhlə drujinaları təşkil etməyə çağırırdı.

AXC-ni dağıtmaq, "demokratik hərəkatı" boğmaq üçün müvafiq vaxt yetişmişdi. Təhrikçilər fəallaşırdılar. Yanvarın 13-də Bakıda bir erməninin iki azərbaycanlını öldürməsinə cavab olaraq 56 erməni öldürüldü, 112 nəfər isə xəsarət aldı. Talançı dəstələrin azğın əməllərinə yerli hüquq-mühafizə orqanları və o zaman Bakıda olan SSRİ Daxili İşlər Nazirliyinin 12 minlik silahlı qüvvəsi mane olmurdular, onlar milli münaqişəyə qarışmamaq barədə əmr almışdılar.

Əhalinin köməyi ilə ermənilərin çoxu evlərdə, məscidlərdə, hərbi hissələrdə sığınacaq tapdı. Talanların qarşısı MMŞ özünümüdafiə dəstələrinin gücü ilə yanvarın 15-də, demək olar ki, alınmışdı. MMŞ dəstələri ş-hərə nəzarət edirdilər.

**1990-cı il yanvarın 13-18-də Azərbaycan KP MK-nın büro iclaslarında respublikadakı vəziyyət müzakirə edilmiş, çıxış edənlər - Ə.Vəzirov, A.Mütəllibov, V.Polyaniçko, E.Qafarova, M.Məmmədov, V.Hüseynov və başqaları, habelə Bakıda olan Y. Primakov və yüksək rütbəli Moskva hərbçiləri güc tətbiq olunmasının vacibliyini bildirmişdilər.** Etiraz edən və ya başqa təklif verən olmamışdı.

1990-cı il yanvarın 15-də Ə.Vəzirov Moskvaya göndərdiyi teleqramda tələb edir: "Antisovet, antipartiya şüarları ilə mitinq edən ekstremistlərin liderləri dərhal məsuliyyətə cəlb edilməlidirlər. Bunun üçün hüquqi əsaslar vardır". Ertəsi gün Ə.Vəzirov Moskvaya teleqram vurub bildirir ki, müxalifətin əlində çoxlu silahın olması Azərbaycanda sosialist quruluşunun məhvinə gətirib çıxaracaq və buna görə də dərhal güc tətbiq olunmalıdır.

Xalqa, demokratik qüvvələrə tutulacaq divana hüquqi don geyindirmək üçün fövqəladə vəziyyətin elan olunması vacib idi. Ə.Vəzirov yanvarın 14-də AKP MK bürosunda müzakirə etdikdən sonra çağırdığı Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti iclasında "Azərbaycan SSR-in DQMV-də vəziyyətin normallaşdırılması sahəsində təxirəsalınmaz vəzifələr haqqında" qərar qəbul edilməsinə nail oldu. Qərarda DQMV, zəruri olarsa, ona bitişik rayonlarda və sərhəd boyunca fövqəladə vəziyyət elan olunması və mərkəzdən lazımi köməklik göstərilməsi üçün SSRİ Ali Soveti Rəyasət Heyətinə müraciət olunması nəzərdə tutulurdu. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti yanvarın 15-də "DQMV və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında" fərman verdi. Azərbaycan SSR Ali Sovetinə təklif edildi ki, Bakı və Gəncə şəhərlərində, eləcə də başqa yaşayış məntəqələrində qadağan saatları tətbiq edilməsi də daxil olmaqla, hər cür lazımi tədbirləri görsün. Respublika hökuməti iflic vəziyyətində idi. Respublika Dövlət Təhlükəsizlik Komitəsinin sədri Moskvaya göndərdiyi şifrəli teleqramlarda bildirdi ki, respublika xaos vəziyyətindədir, qiyam

ərəfəsindədir, qətiyyətli tədbirlər görülməsə, Azərbaycan əldən gedə bilər. İmperiya buradakı hakimiyyət böhranından, bəzi ölkələrdə olduğu kimi, Bakıda da sovet hakimiyyətinin devriləcəyindən, beləliklə, Azərbaycanı itirəcəyindən qorxub Bakı ətrafına əlavə qoşun hissələri, ağır texnika gətirməyə başladı. MMŞ-nin təşəbbüsü ilə şəhərin girəcəklərində və Bakı qarnizonu hissələrinin ətrafında əhali yük, minik maşınlarını, avtobus və trolleybusları yan-yana düzüb barrikadalar qurdu, piketlər təşkil etdi. Yollarda 26 maneə yaradıldı. Şəhərdəki qoşun hissələrinin, o cümlədən Salyan kazarmasının yolları kəsildi.

Bakının hərbi komendantlığı, heç bir ehtiyac olmadığı halda, xalqa tutulacaq divana cavab olaraq adam-ların rusdilli əhaliyə, ilk növbədə, hərbçi ailələrinə zərər yetirəcəyindən ehtiyatlanıb onları respublikadan çıxarmağa başladı.

Rəsmi Moskvanın Bakıya göndərdiyi emissarları - SSRİ Ali Soveti İttifaq Sovetinin sədri Y.Primakov və Sov.İKP MK katibi A.Girenkonun AXC-nin "liberal" və "radikal" qanadları nümayəndələri ilə ayrı-ayrılıqda görüşmələri müsbət nəticə vermədi.

Yanvarın 17-dən AKP MK binası qarşısında izdihamlı mitinq başlandı, ümumi tətil elan olundu. Tələb edildi ki, Moskva Ermənistanın Azərbaycana ərazi iddialarına qəti olaraq son qoysun, imperiyanın paytaxta və Bakının ətrafına yığdığı qoşunlar Dağlıq Qarabağa və daim erməni basqınlarına məruz qalan sərhəd bölgələrinə göndərilsin.

Mitinqçilər xalqa xəyanətdə təqsirkar bildikləri respublika partiya, sovet və hökumət başçıları üçün simvolik dar ağacları düzəltmişdilər. Onlar AKP MK birinci katibi vəzifə-sinə öz namizədlərini irəli sürürdülər. Xalqın Moskvanın təyin etdiyi cani-şini istefaya göndərmək, yerinə öz nümayəndəsini gətirmək tələbi qəti rədd edildi. A.Girenko açıqca bildirdi ki, respublika rəhbərliyini Sov. İKP MK dəyişə bilər, kütlənin bu işə rəvac verməsi yolverilməzdir.

Mərkəz Naxçıvanda da xalqa divan tutmaq məqsədilə fövqəladə vəziyyət elan edilməsi üçün təzyiqlər göstərirdi. Yanvarın 18-də Şərur rayonu Kərki kəndinin işğalı vəziyyəti daha da gərginləşdirdi. Xalqın tələbi ilə yanvarın 19-da Naxçıvan MSSR Ali Soveti muxtar respublikanın SSRİ tərkibindən çıxması haqqında qərar qəbul etdi. Məqsəd Azərbaycanda baş verən hadisələrə, Sovet Ordusunun qanlı əməllərinə dünya ictimaiyyətinin diqqətini cəlb etmək idi və bu, müəyyən rol oynaya bildi.

**1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti yanvarın 20-də saat 00-dan "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verdi. Xalqa divan tutmaq, qırğın törətmək üçün qoşunlardan istifadə ediləcəyi, aman verilməyəcəyi, ən başlıcası isə fövqəladə vəziyyətin elan olunacağı vaxt gizli saxlanıldı. Fövqəladə vəziyyət və komendant saatı vaxtının elan edilməsi qanlı planları poza bilərdi.** Buna görə də AXC İdarə Heyəti komendant saatı tətbiq olunduğu təqdirdə orduya müqavimət göstərmədən piketləri götürmək haqqında qərar qəbul etmişdi. Lakin "radikallar" adamlara "silah, kömək gələcək" - deyə yalan vədlər verir, axıradək barrikadaları tərk etməməyə çağırırdılar.

Piketçilər imperiyanın və respublikanın səlahiyyətli nümayəndələrinin ordunun şəhərə girməyəcəyi haqqın-da dəfələrlə təkrar etdikləri vədlərə inanmışdılar.

Xalqa məlumat verilməsin deyə yanvarın 19-da saat 19.27-də Azərbaycan Televiziyasının enerji bloku partladılmışdı.

Fövqəladə vəziyyətin yanvarın 20-də saat 00-dan başlanmasına göstəriş verildiyinə baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat 21-dən ilk başlayaraq Türkan-Qala tərəfdən paytaxta yeridildi. "Bakı əməliyyatı"na SSRİ müdafiə naziri D.Yazov şəxsən rəhbərlik edirdi. Bakı qarnizonu qoşunları, gətirilən hərbi hissələr, hərbi gəmilərdən desant, xüsusi cəza dəstələri hücuma keçdi. Ağır hərbi texnika çox asanlıqla barrikadaları dağıtdı. Əsgərlər gözyaşardıcı qazdan istifadə edir, əliyalın adamlara avtomat silahlardan atəş açırdılar. Qaçıb sığınacaqlarda gizlənənlər tanklar üzərindəki projektorların köməyi ilə axtarılıb tapılır, gülləbaran edilirdilər. Hərbçilər təsadüfən yola çıxanları, yaşayış evlərini, təcili yardım maşınlarını, şəhər nəqliyyatını atəşə tutur, yaralıları öldürür, meyitləri yandırır, təhqir edir, adamları tankların tırtılları altına salıb əzabla öldürür, eybəcər hala salırdılar. Şəhərin küçələri öldürülmüş, yaralanmış adamların, qocaların, qadınların,

uşaqların qanına qərq olmuşdu. Əsgərlər tibb müəssisələrini mühasirəyə alaraq yaralı mülki şəxslərin buraya gətirilməsinə, habelə tibbi heyətin yaralılara köməyə getməsinə mane olurdular.

Rəsmi məlumatlara görə, Bakıya və başqa yaşayış məntəqələrinə sovet ordusunun təcavüzkarcasına daxil olması vaxtı 131 nəfər, o cümlədən 117 azərbaycanlı, 6 rus, 3 yəhudi, 3 tatar öldürülmüş, 744 nəfər yaralanmış, 400 nəfər həbs edilmiş, 4 nəfər itkin düşmüşdür. Evlərə, ictimai və şəxsi nəqliyyat vasitələrinə, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi.

Sovet imperiyası Bakı şəhərinə dəhşət və vahimə doğuracaq bir təcavüz tətbiq etdi. Müxtəlif qoşun növlərindən, tarixdə ilk dəfə cinayət-kar aləmdən təşkil olunmuş ordu-dan, çoxsaylı qruplardan istifadə olundu. Xalq milli təşkilatından məhrum edildi. Lakin imperiyanın açıq və gizli tədbirləri ona qələbə qazandıra bilmədi. Fövqəladə vəziyyət haqqında fərman artıq iş-işdən keçəndən sonra, yanvarın 20-də saat 7.00-da elan olunmuşdu.

Azərbaycan xalqı fövqəladə vəziyyət şəraitində partizan müharibəsi aparmaq kimi avantürist çağırışları rədd etdi, qarşıya mövcud reallıqlar daxilində həlli mümkün məsələlər qoymağa, mübarizəni dinc siyasi vasitələrlə davam etdirməyə başladı. Azərbaycanın yüksək vəzifə sahibləri xalqa kömək etmək, ona arxa durmaq əvəzinə, kürsülərini qorumaq naminə qaçıb gizləndilər. Azərbaycan ziyalılarının bir qrupu yan-varın 20-də Elmlər Akademiyasında etiraz mitinqi keçirdi. Ziyalıların səsini boğmaq, onları qorxutmaq üçün Sumqayıta mitinqə gedən üç görkəmli alim, professor yolda tankın altına salınıb məhv edildi.

Gərginliyi bir qədər azaltmaq üçün hərbi hökumət həmin gün radio ilə Azərbaycan SSR Ali Soveti sədrinin Bakıda fövqəladə vəziyyət elan olunmasına və şəhərə qoşun yeridilməsinə qarşı etiraz bəyanatının yayılmasına icazə verdi.

Xalq deputatları şair Bəxtiyar Vahabzadə, yazıçılar Anar və Elçin Ali Sovet sədrindən fövqəladə sessiya çağırılmasını, hadisəyə qiymət verilməsini tələb etdilər. B.Vahabzadə radio ilə xalq deputatlarına müraciət et-di. Yanvarın 21-də deputatların üçdə birinin təşəbbüsü ilə Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyası keçirildi. Moskvanın hakimiyyət uğrunda didişən kommunist rəhbərlərdən kimi birinci katib təyin edəcəyini gözləyən yüksək vəzifə sahibləri bu sessiyanın işində, demək olar ki, iştirak etmədilər, hətta onu "qeyri-qanuni yığıncaq" adlandırdılar.

Sessiya baş vermiş faciəyə siyasi qiymət verməyə çalışdı. Onu törədən ölkə və respublika rəhbərlərinə qəti etiraz bildirildi. Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında fərmanın fəaliyyətini dayandırmaq, ordu hissələrini şəhərdən çıxarmaq barədə qərarlar qəbul olundu. Lakin Moskva bu qərarlara əhəmiyyət vermədi.

Başsız qalmış xalq vahimə içində idi. Yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək burada təşkil olunmuş, 6 minədək adamın iştirak etdiyi izdihamlı yığıncaqda çıxış etdi, bu ağır günlərdə yaralı, heç yerdən kömək almayan doğma xalqı ilə birgə olduğunu bildirdi. O, çıxış və müsahibələrində 20 Yanvar faciəsinə siyasi qiymət verdi, əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd, Mərkəzin və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi. Heydər Əliyev çıxışında qeyd etdi ki, Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün zəmin yaranmazdı. Respublika rəhbərliyini ciddi tənqid edən Heydər Əliyev onların yarıtmaz fəaliyyətini ifşa etdi və göstərdi ki, Vəzirov "bu yüksək vəzifədə olduğu müddətdə... Azərbaycanda vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə, səhv addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurum yaratmışdır". Heydər Əliyev qorxmadan imperiya rəhbərlərini" qatillər" adlandırırdı.

Heydər Əliyevin Moskvadakı tarixi çıxışının mətni, bütün maneələrə baxmayaraq, respublikada və dünyada geniş yayıldı. Heydər Əliyev Azərbaycan xalqına verdiyi başsağlığında onu bu ağır gündə "ağıllı, kamallı olmağa, həmrəyliyə və birliyə" çağırdı. Təklənən, heç nəyə əli çatmayan xalqın qəlbində ümid çırağı yandı. Xalq Heydər Əliyev kimi bacarıqlı, nüfuzlu bir şəxsiyyətin onunla olduğunu, onu cəsarətlə müdafiə etdiyini gördü, ürəkləndi.

Bakıda fövqəladə vəziyyət olmasına baxmayaraq, Azərbaycan xalqı yanvarın 22-də şəhidləri ilə vidalaşdı. Paytaxt matəm libası geyinmişdi. Respublikada üç gün matəm elan olunmuşdu. Azadlıq meydanında izdihamlı matəm mitinqi keçirildi. Mitinqdə və dəfn mərasimində bir milyona qədər insan iştirak edirdi. Bu, azadlıq, haqq, ədalət, demokratiya yolunda müqəddəs şəhidlərə ehtiramın, habelə Moskvanın qanlı əməllərinə qarşı etirazın ifadəsi idi. Küçələrdə, AKP MK binası divarlarında "Qorbaçov cəlladdır"!, "Rədd olsun Sov. İKP!", "İşğalçılar, rədd olub gedin"! və s. şüarlar yazılmışdı. Kommunist Partiyasının biletlərindən tonqallar qalanmışdı.

Şəhidlər şəhərin ən uca yerində, Dağüstü parkda dəfn edildi.

Xalqa qarşı Sovet Ordusunun qanlı cinayətləri isə bitmək bilmirdi. Sovet Ordusunun tam döyüş hazırlıqlı qoşun hissələrinin Ermənistandan Naxçıvana yeridilməsinə cəhd göstərildi, lakin xalq bunun qarşısını aldı. Siyasi çevriliş edilmiş bölgələrdə ordunun köməyi ilə kommunistlərin hakimiyyəti bərpa olundu. Ordu hissələri Lənkərana yeridildi.

İmperiya rəhbərləri, onların yerli əlaltılan istədiklərinə nail oldular. Bakıda fövqəladə vəziyyət, komendant saatı tətbiq edildi. Bir sıra fəal cəbhəçilər həbs olundu, ölkədən qaçdı, qeyri-leqal fəaliyyətə keçdilər. AXC-nin hakimiyyətə gəlmək cəhdi baş tutmadı.

İmperiyanın şovinist rəhbərliyi qanlı əməlləri ilə Azərbaycan xalqının iradəsini qıra bilmədi, əksinə, özünün dayağı olan Kommunist Partiyasını, sovet hakimiyyətini xalqın gözündən daha da saldı, bəzilərində "yenidənqurma"ya olan ümidi puç etdi, təsdiq etdi ki, imperiya üçün respublikanın suverenliyi, xalqların ləyaqəti heç nədir.

**1990-cı ilin Qanlı Yanvarı Azərbaycan xalqı üçün təkcə böyük faciə deyildir, ləyaqətini qorumaq üçün mübarizə aparmağa, bu yolda qurban verməyə hazır olan xalqın tarixində şərəfli bir səhifədir.**

Əgər Azərbaycan xalqının qabaqcıl qüvvələri Qanlı Yanvara qədər respublikanın suverenliyini SSRİ daxilində mövcud siyasi və iqtisadi münasibətlərin təkmilləşdirilməsi kimi qeyri-real imkanlarda axtarırdılarsa, **Qanlı Yanvar sübut etdi ki, suverenliyin yeganə yolu imperiyanın dağılmasında, müstəqilliyin bərqərar olmasındadır.**

## Qaynaqlar

1. Xəlilli X. Azərbaycan xalqını dünyaya yenidən millət kimi təqdim edən 20 Yanvar. Bakı, 2003.
2. Tahirzadə Ə. Meydan 4 il 4 ay. I hissə. Bakı, 1997.
3. Sultanov O. 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə. Bakı, 1995.
4. Yenə orada.
5. Balayev A., Mirzə R. 20 Yanvar hadisələri, sənədlər, mövqelər, şərhlər (1990-2000). Bakı, 2000.
6. "Kommunist" qəzeti, №14, 1990.
7. Əbdülsəlimzadə Q. On illik yolun ilk 42 günü. "Azərbaycan" qəzeti, 7 yanvar 2000-ci il.
8. Azərbaycan tarixi. 7 cilddə, VII c, Bakı, 2003.

**Əhmədağa HƏMZƏYEV,**
*BDU-nun dosenti,*

**Samir İSMAYILOV,**
*BDU-nun aspirantı*

**"Dirçəliş-XXI əsr".**- 2005-2006.- № 94-95.- S. 52-59

## Xalqımız öz qəhrəman övladlarının fədakarlığını yüksək qiymətləndirir

*Qanlı Yanvar hadisələri ermənilərin azərbaycanlılara qarşı soyqırım siyasətinin davamı idi*

1990-cı ilin 20 Yanvar hadisələri müasir tariximizin ən faciəli, eyni zamanda xalqımızın qəhrəmanlıq əz-mini bütün dünyaya nümayiş etdirən səhifəsidir. Artıq on beş ildir ki, Azərbaycan xalqı bu faciənin ağrısı ilə yaşayır. Həmin gün sovet ordusu hissələri heç bir xəbərdarlıq etmədən dinc əhaliyə divan tutmuş, bununla da Ermənistanın respublikamıza qarşı ərazi iddialarını dəstəklədiyini açıq-aşkar büruzə vermişdi. Bakıya yeridilən qoşun hissələrində çoxlu sayda muzdlu ermənin iştirakı da bunu təsdiqləyir.

Bu qanlı faciəyə hüquqi-siyasi qiymət yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra, məhz onun təşəbbüsü və bilavasitə iştirakı ilə verilib. Cinayəti törədənlərin adları ictimaiyyətə açıqlanıb. Yüzlərlə günahsız insanın yaralanması və qətlə yetirilməsi ilə müşahidə olunan bu qanlı terror aktı bütün dünyada qətiyyətlə pislənib.

20 Yanvar gününün Azərbaycanın tarixində ölkəmizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə qəhrəmanlıq rəmzi kimi böyük əhəmiyyətini nəzərə alaraq dövlətimizin başçısı İlham Əliyev "20 Yanvar faciəsinin on beşinci ildönümünün keçirilməsi haqqında" sərəncam imzalayıb. Prezident bu qanlı terror aktına bir daha siyasi-hüquqi qiymət verərək Azərbaycanın bütün ərazisində 20 Yan-var faciəsinin on beşinci ildönümünə həsr olunmuş tədbirlərin keçirilməsi barədə qərar verib.

Bu qanlı faciənin arxasında ermənipərəst Qorbaçovun və onun ətrafında cəmləşən daşnakların durduğu indi hamıya bəllidir. Ermənilərin təbiətini, xarakterini və kimliyini yaxşı dərk etmək üçün, zənnimcə, tarixə nəzər salmaq kifayətdir.

Eramızdan əvvəl IV əsrdə Balkanların Frakiya bölgəsində məskunlaşmış və oradan sıxışdırılaraq müxtəlif ölkələrə səpələnmiş ermənilər daha çox Qafqaza, Kiçik Asiya və Yaxın Şərqə üz tutmuşdular. Çünki bu geocoğrafi bölgələr çox zəngin təbii sərvətlərə, mülayim iqlimə, bərəkətli torpağa, cəlbedici relyefə malikdirlər. Həm də bu xalqlar, xüsusən də türklər daha çox qonaqpərvərdirlər.

Ermənilər isə türklərin bu məziyyətindən çox məharətlə yararlanıblar. Bu vəziyyətdən sui-istifadə edən ermənilər nəinki türklər arasında yaşamağa uyğunlaşır, hətta daha da möhkəmlənirdilər. Xristianlığı qəbul edən ermənilər Sasani hökmdarlarını və s. həm dini və həm də ərazi cəhətdən öz təsiri altına ala bildilər, Alban xaçlarını, əlifbasını, Qanzasar və başqa mənbələri, qədim Alban əcdadımıza mənsub olanları mənimsədilər. Bu yolla guya ermənilərin bu yerlərin daimi sakinləri olduqlarını əsaslandırmağa çalışırdılar. Məşhur ABŞ tarixçisi Tadeuş Svyatoxovskinin bildirdiyi kimi, ermənilər bu yerlərin heç vaxt daimi sakinləri olmayıb, yalnız sonradan gəlmədilər.

Türk ərazisinə sonradan axışıb gəlmiş və həmin yerlərə uyğunlaşmağa başlayan ermənilər özlərinin dövlətini yaratmağa nail olmaq istəyirdilər. Bu məqsədlə 1861-ci ildə Zeytunda, sonra isə daha bir sıra yerlərdə türklərə qarşı üsyanlar törətdilər, lakin Osmanlı dövləti tərəfindən bu üsyanlar yatırıldı. Onda ermənilər 1887-ci ildə Hncaq və 1890-cı ildə isə Daşnaksutyun partiyalarını təsis etdilər. Həmin partiyaların proqramlarında türklərə qarşı terrorçuluq, qisasçılıq əsas yer tuturdu. Bu məqsədlə silahlanmaya mühüm yer verilirdi. Təsadüfi deyil ki, daşnaklar 1904-1906-cı illərdə Azərbaycanda soyqırımı təşkil etdilər, günahsız insanları qırdılar.

Erməni daşnakları öz çirkin məqsədlərinə nəyin bahasına olursa-olsun çatmaq üçün Rusiyaya üz tutdular və I Dünya müharibəsində Türkiyəyə qarşı Rusiya tərəfində döyüşdülər, müasir silahlarla təmin olundular. Ermənilər vaxtı ilə onlara sığınacaq və çörək verən türklərə qarşı çox amansız idilər, onları əsir götürmürdülər, zülmlə öldürürdülər.

1918-1920-ci illər də Azərbaycan xalqı üçün çox ağır və gərgin dövr olmuşdu. Ölkədə, habelə dünyada yaranmış mürəkkəb vəziyyətdən istifadə edən ermənilər öz proqramını, ilk öncə Azərbaycanı işğal etmək niyyətini həyata keçirmək üçün münasib şəraitin yarandığını nəzərə alaraq fəaliyyətə başladılar.

Rusiya tərəfində türklərə qarşı vuruşan ermənilər I Dünya müharibəsi başa çatdıqdan sonra əsasən Azərbaycanda yerləşmişdilər. Onlardan 6 mini Şaumyanın qvardiyasında təmsil olunmuşdu. Bundan başqa,

daha 10 minə yaxın erməni də S.Şaumyanın ətrafına toplaşmışdı. Beləliklə, Şaumyan, Hamazasp, Andranik, Lalayan, Mikoyan, Korqanov və başqa erməni daşnakların pulemyotlarla və başqa odlu silahlarla təpədən dırnağadək silahlanmış quldur dəstələri respublikamızın Qarabağ, Naxçıvan, Şamaxı, Gəncə, Quba, Bakı, Göyçay və başqa bölgələrində azərbaycanlılara qarşı amansız vəhşilik soyqırımları törətdilər. Əliyalın, silahsız dinc əhali məhv edildi. 1918-1920-ci illər soyqırımları nəticəsində 37 mindən çox soydaşımız qətlə yetirildi. Təkcə 1918-ci ilin 30-31 martında Bakıda 17 mindən çox azərbaycanlı məhv edildi. Əgər general Nuru paşa haraya çatmasa idi, qırğınlar daha faciəli şəkil ala bilərdi. Türk diviziyaları və azərbaycanlılardan ibarət olan Qafqaz İslam Ordusu Göyçaydan Bakıyadək böyük döyüş yolu keçmişdir. Həmin döyüşlərdə qardaş türklər 1100 nəfərədək itki vermişdi, onlar Şəhidlər Xiyabanında dəfn olunmuşlar, onlara möhtəşəm abidə ucaldılmışdır. Məhz türklərin köməyilə Bakı azad olundu və Azərbaycan Xalq Cümhuriyyəti Bakıya köçdü.

Qeyd edək ki, Azərbaycanda müstəqil Demokratik Xalq Cümhuriyyətinin yaranmasını Sovet Rusiyası qəbul etmək istəmirdi. Təsadüfi deyil ki, ADR-İ dünyanın 20-yə qədər dövləti tanıdığı halda, Bakı 1920-ci ilin 28 aprelində XI Qızıl Ordu tərəfindən işğal edildi. Eyni zamanda Azərbaycanın qərb bölgəsində qondarma Ermənistan dövləti yaradıldı.

Soydaşlarımız 1937-ci il Stalin repressiyası dövrü də həm Ermənistanda məhv edildilər, həm də Azərbaycanda ağalıq edən Markaryanlar, Qriqoryanlar və başqa ermənilər tərəfindən təqib olunurdular.

Mikoyanın təşəbbüsü ilə Ermənistanda qalmış 150 mindən artıq sonuncu soydaşlarımızın da öz Ana yurdlarından Azərbaycanın Mil düzünə deportasiya olunmalarına nail olunmuşdur. Həmin soydaşlarımız ən isti, ilan mələşən çöllərə uyğunlaşa bilmədiklərindən əksəri xəstəliklərdən həlak oldular.

1985-ci ildə İttifaq rəhbərliyinə ermənipərəst M.S.Qorbaçovun gəlməsi erməni daşnakları üçün öz çirkin məqsədlərinə çatmaq istiqamətində yeni mərhələnin başlanğıcını qoydu. Qorbaçov, ilk növbədə, Siyasi Büronun tərkibində olan müsəlman liderlərini - SSRİ Nazirlər Soveti sədrinin I müavini, Azərbaycanın lideri Heydər Əliyevi, D.Ə.Kunayevi, Ş.R.Rəşidovu rəhbərlikdən uzaqlaşdırdı.

Qeyd edək ki, Qorbaçovun fəaliyyəti Moskva rəhbərliyində Mikoyan və digər erməni liderlərinin təşəbbüsü ilə dərin kök salmış erməni lobbisi tərəfindən tənzim olunurdu. Qorbaçovu bütün görüşlərində və səfərlərində əsasən erməni daşnakları müşayiət edirdilər. 1987-ci ildə Heydər Əliyev ittifaq rəhbərliyindən uzaqlaşdırılandan sonra ermənilərin Azərbaycana qarşı təxribatı, ələlxüsus torpaq iddiası yenidən ortaya atıldı. Dağlıq Qarabağ Muxtar Vilayətinin Ali Soveti Ermənistan SSR ilə birləşmək haqqında "qərar" çıxardı. Bundan daha da şirnikən ermənilər Azərbaycanın tarixi ərazisi olan Topxana meşəsini qıraraq orada azot və kimya zavodu tikməyə başladılar. Erməni daşnakları ilə rus şovinistlərinin bu həyasızlığı Azərbaycan xalqının hiddətinə səbəb oldu, 20 Yanvar faciəsinin baş verməsinə yol açdı.

Ermənilər öz məqsədləri naminə Sumqayıtda və başqa yerlərdə münaqişələr törətdilər. Dünyaya car çəkdilər ki, bu "yazıq", "məsum" xalq türklər tərəfindən incidilirlər, dünyanı guya azərbaycanlıların "vəhşiliyinə" inandırmaq üçün dəridən-qabıqdan çıxırdılar.

Manqurt Ə.Vəzirov isə bizi muştuluqlayırdı ki, ermənilər qayıdırlar, onu əvəz edən A.Mütəllibov isə Bakıda iğtişaşı söndürmək üçün Moskvadan daxili ordu hissəsi göndərilməsini xahiş edirdi, ölkədə hərc-mərclik, rəhbərlikdə boşluq və Moskvaya mütilik hökm sürürdü. Xalq cəbhəsində də səviyyəsiz, təcrübəsiz şəxslər təmsil olunmuşdu.

Azərbaycanın belə bir mürəkkəb, təklənmiş olduğu bir məqamda ermənipərəst və şovinist Qorbaçov 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Primakov, Yazov, Bakatin, Kirenko və başqa ali mənsəbli rəhbərlərin fəal iştirakı ilə əksəri baş kəsən, qan içən ermənilərdən ibarət ordu hissəsini dinc Bakı əhalisinə divan tutmağa yönəltdi.

Bu qanlı faciədən xəbər tutan xalqımızın mərd, böyük oğlu Heydər Əliyev bütün çətinliklərə və ona qarşı yönəldilmiş təqiblərə baxmayaraq, yanvarın 21-də Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək, ilk öncə, Azərbaycan xalqına başsağlığı vermiş və vəhşicəsinə törədilmiş faciəni pisləmiş, bütün dünyaya çatdırmış, ittifaq rəhbərliyinin bu siyasətini ifşa etmişdir. Cənab Heydər Əliyev demişdi: "XX əsr

tarixində totalitarizmin törətdiyi ən qanlı terror aktlarının biri olan 20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı işlədilmiş cinayət əslində bəşəriyyətə, humanizmə, insanlara qarşı həyata keçirilmiş dəhşətli bir əməldir..."

20 Yanvar şəhidləri Dağüstü parkda - Şəhidlər Xiyabanında dəfn olunmuşlar. Şəhidlər Xiyabanı artıq müqəddəs ziyarətgaha çevrilmişdir. Bu müqəddəs yeri mötəbər xarici qonaqlar da ziyarət edir. Artıq 15 ildir ki, 20 Yanvar ölkəmizdə qeyd olunur. Şəhidlərə ehsan verilir, dualar oxunur, onların ailələrinə, şikəst və əlillərə maddi yardım göstərilir.

**Hacı Hacıyev,**
**tarix elmləri doktoru, professor**

**"Respublika".** - 2005. – 23 yanvar. - N 16. - S. 5.

## Bu qisas qiyamətə qalmaz!

### 20 YANVAR - AZƏRBAYCAN XALQININ ÖZÜNÜTƏSDİQ SİMVOLU

15 il öncə - 1990-cı il yanvarın 20-də təxminən iki yüz il davam edən imperiya zülmündən cana doymuş Azərbaycan xalqı ayağa qalxaraq, azad yaşamaq haqqının olduğunu bəyan etdi. Həmin gün xalqımızın özünüdərk prosesinin zirvəsi, milli oyanışın təntənəsi oldu. Torpaqlarımızın toxunulmazlığı uğrunda başlanmış mübarizə sonda vüsətli xalq hərəkatına çevrildi. Onilliklər boyu gücünü yığan xalqın hayqıran səsi imperiyanı lərzəyə saldı və onu sarsıtdı. Mərkəzin və onların yerdəki əlaltılarının cidd-cəhdləri ilə faciələr törədilsə də, xalqın dəmir iradəsini qıra bilmədilər. Özünün həqiqi, real məziyyətlərinə görə digərlərindən üstünlüyünü anlayan Azərbaycan xalqı sovet imperiyasının "geridə qalmış xalq" sindromunu qırdı və birləşərək, azadlıq əzmini nümayiş etdirdi. Tarix bizi yenidən ağır sınaqlara çəkdi. Sovet imperiyası ilk qisasını Azərbaycandan aldı. Qanlı 20 Yanvar faciəsini törətdi...

Həmin gün Azərbaycanın o vaxtkı satqın rəhbərliyinin istəyi və SSRİ rəhbərliyinin əmri ilə ölkəmizdə kommunist rejimini saxlamaq məqsədilə Bakıya 35 minlik ordu yeridildi. SSRİ Müdafiə Nazirliyi və DTK-nın hazırlayıb həyata keçirdiyi "Udar" adlı əməliyyatda əsas rolu xüsusi təyinatlı "ALFA" və SSRİ DTK-nın "A" təxribat qrupları oynayırdı. Sovet qoşunlarının təcavüzü nəticəsində Bakıda 134 mülki vətəndaşı öldürülmüş, 600-dən çox adam yaralanmışdı. Öldürülənlər arasında beş millətin nümayəndələri, 20-dən çox qadın, uşaq vardı. Lakin "Qara Yanvar"ın indiyədək özündə saxladığı sirlər də çoxdur. 100 cildlik istintaq materialının 69 cildi Bakıdan Moskvaya, keçmiş SSRİ Prokurorluğuna aparılıb və bir daha geri qaytarılmayıb. Azərbaycan xalqının məruz qaldığı bu təcavüz indiyədək bəşəriyyət əleyhinə cinayət kimi beynəlxalq müstəvidə layiq olduğu təsnifatı almayıb. Bu hadisələrə emosiya, kədər, yaxud mübarizlik salnaməsi kimi pafoslu münasibətlə bərabər, bir qədər də soyuqqanlı olub, o hadisələrin gerçək mahiyyətini dünya birliyinin, çeşidli beynəlxalq təşkilatların önünə qoymaq barədə düşünməli, 20 Yanvara beynəlxalq-hüquqi qiymətin verilməsinə çalışmalıyıq.

1988-ci ildən başlayaraq Bakı şəhərində və respublikamızın rayonlarında ictimai-siyasi vəziyyət kəskinləşməyə başladı. Bunun əsas səbəbi Azərbaycanın əzəli torpaqları olan Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan Respublikasının tərkibindən çıxarılıb Ermənistana birləşdirilməsi barədə Dağlıq Qarabağda və Ermənistanda erməni millətçilərinin fəaliyyətinin gücləndirilməsi idi. Müttəfiq respublikanın suverenliyinin təminatçısı olan keçmiş SSRİ-nin ali dövlət hakimiyyəti orqanları Azərbaycan xalqının suveren hüquqlarını qorumaq sahəsində Konstitusiya öhdəliklərini yerinə yetirməkdə qətiyyət, əzmkarlıq göstərmədi. Dağlıq Qarabağda separatçıları vaxtında yerlərində oturtmadı və Ermənistanın əsassız ərazi iddialarını rədd etmədi. Bütün bunlar SSRİ-nin rəhbər orqanlarına və respublikanın suverenliyinin, ərazi bütövlüyünün müdafiəsi ilə bağlı problemləri həll etməyə acizlik göstərən o vaxtkı Azərbaycan rəhbərlərində Azərbaycan xalqının etimadını sarsıtmışdı. Ermənistanın ərazi iddiaları və Dağlıq Qarabağda separatçılıq hərəkəti 1988-ci ildə respublikanın ərazi bütövlüyünün müdafiəsi uğrunda kütləvi xalq hərəkatının yaranmasına gətirib çıxardı. Respublikamızda milli mənlik şüurunun daha da güclənməsi və demokratik proseslərin inkişafı "Azərbaycan SSRİ-nin suverenliyi haqqında" Konstitusiya qanununun qəbul edilməsi ilə nəticələndi.

Lakin ermənipərəst Arkadi Volskinin başçılıq etdiyi Xüsusi idarə Komitəsinin Azərbaycanın əleyhinə məqsədyönlü fəaliyyəti, respublikada baş verən hadisələrin mərkəzi kütləvi informasiya vasitələrində təhrif edilməsi, Ermənistandan və Dağlıq Qarabağdan zorakılıqla qovulan çoxlu sayda azərbaycanlı qaçqın və məcburi köçkünün Bakı şəhərində cəmləşməsi şəraiti mürəkkəbləşdirdi. Azərbaycanın siyasi rəhbərliyinin tam çaşqınlığı, xalqla əlaqəsinin itməsi, müstəqilliyinin olmaması, onun iflasını və hakimiyyətsizliyini labüd etmişdi. Qeyd etmək lazımdır ki, o vaxt şəhərdə SSRİ DİN daxili qoşunlarının iri kontingenti var idi və bu kontingentdən qəsdən istifadə edilmədi. Yanvarın 16-da Bakı şəhərinin girəcəyində və Bakı qarnizonu hissələrinin ətrafında vətəndaşlar minik və yük maşınlarını yan-yana qoyaraq, piketlər təşkil etdilər. Piketlər Bakıya gələn imperiya qoşunlarının qarşısını kəsmək və Bakı qarnizonu hissələrinin öz yerlərindən çıxmasına

yol vermək məqsədilə Milli Müdafiə Şurasının göstərişi ilə təşkil edilmiş-di. Yanvarın 18-də Bakı və Azərbaycanın 11 başqa rayonunda keçirilən izdihamlı mitinqlərdə ümumi tətilin başlandığı elan olundu. Tələb edilirdi ki, Ermənistanın ərazi iddialarına son qoyulsun. Bakı ətrafında cəmləşən qoşunlar çəkilib aparılsın və Dağlıq Qarabağın Ermənistanla sərhədyanı rayonlarına göndərilsin. 1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti Rəyasət Heyətinin Mixail Qorbaçov tərəfindən imzalanmış fərmanına əsasən, "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verildi. Fərman SSRİ Konstitusiyasının və həm də Azərbaycan Konstitusiyasına və eləcə də beynəlxalq hüquq normalarını pozmuş, fövqəladə vəziyyətin hüquqi rejimini tənzimləyən qanunvericilik aktının olmadığı bir şəraitdə qəbul edilmişdi. Fövqəladə vəziyyət elan edilməsi və bununla əlaqədar olaraq bu vəziyyətə riayət edilmədiyi halda, hərbi qüvvə işlədiləcəyi barədə əhalinin vaxtında xəbərdar edilməsinin böyük əhəmiyyəti vardır. Belə olsaydı, əhali dağılıb evlərinə gedərdi, tələfat isə az olardı. Vətəndaşlıq hüquqları və siyasi hüquqlar haqqında 1966-cı il tarixli beynəlxalq paktın 4-cü maddəsinin 1-ci bəndində deyilir ki, fövqəladə vəziyyət tətbiq ediləcəyini rəsmən elan etmək lazımdır. Halbuki Bakıda fövqəladə vəziyyət tətbiq edildiyini əhali ilk dəfə ancaq yanvarın 20-də səhər saat 5.30-da şəhərin komendantı Dubinyakın radio ilə çıxışından və vertolyotların səpdiyi vərəqələrdən öyrənmişdi. O vaxt şəhər artıq qoşun tərəfindən tutulmuş və qırğınlar baş vermişdi. Lakin fərmana uyğun olaraq fövqəladə vəziyyət rejimi demək olar dərhal, 1990-cı il yanvarın 20-də saat 00.00-da tətbiq edilmişdi.

Həmin dövrdə xalqı məlumatlandırmaq üçün bütün vasitələr məhv edildi. Teleradio partladıldı. Teleradionun keşiyində Bakı Ümumqoşun Komandirləri məktəbinin kursantları dayanırdı. Yanvarın 19-da, saat 19.00-da yarımhərbi, yarımidman forması geymiş dörd nəfər silahlı adam teleradio mərkəzinə gəlib, mühafizə dəstəsi isə dərhal onların sərəncamını yerinə yetirmişdir. Gələnlər mühafizəçilərdən enerji blokunun yerini öyrənib, onu öz mühafizələri altında alaraq, enerji blokunu saat 19.15-də partlatmışdılar. Ekspertlərin verdiyi rəyə görə, teleradio mərkəzinin enerji blokunu Sovet Ordusunun və SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin xüsusi qrupu partlatmışdı. insanlıq simalarını itirmiş imperiya qoşunları şəhərə daxil olarkən, öz istiqlalı uğrunda sinələrini sipər etmiş qəhrəman oğul və qızlarımızı məhv etmək üçün tanklardan, zirehli transportyorlardan, piyadaların, döyüş maşınlarından istifadə edirdilər. Zirehli tankların üstündə nömrələri yox idi. "Qırmızı Bayraq" ordenli Xəzər Hərbi Donanmasının gəmilərindən desant çıxarılmışdı. Qoşunların şəhərə yeridilməsi əməliyyatı yanvarın 19-da təqribən saat 21 və 22 arasında Türkan və Qala qəsəbələri arasında qoşun hissələrinin yerləşdiyi rayondan başladı. Qoşunların hərəkəti istiqamətində təsadüfən yoldan keçən adamlar və avtomobil nəqliyyatı vasitələri güllələbaran edildi. Fərman qüvvəyə minənədək hərbi qulluqçular artıq doqquz vətəndaşı öldürmüşdülər. Qoşunun şəhərə kütləvi surətdə yeridilməsi müxtəlif istiqamətlərdən başlamışdı. Bakıya qoşun yeridilərkən hərbi qulluqçular tərəfindən və eləcə də erməni millətindən olan hərbi qulluqçular daha böyük qəddarlıqlar etmişdilər.

Qoşunlar gözqamaşdırıcı qaz tətbiq edərkən, eyni zamanda, adamları avtomat silahlardan güclü atəşə tuturdular. Hərbi tanklar piketləri yarıb keçirdilər. Hərbçilər tərəfindən yaralıların öldürülməsi, təsadüfən yoldan keçənlərin, yaşayış evlərinin, mağazaların, tibb müəssisələrinin atəşə tutulması dəhşət doğururdu. Təcili yardım maşınları yaralılara yaxın buraxılmır və atəşə tutulurdu. Bir çox vətəndaş öz evinin qarşısında, mənzilində, avtobusda güllələnib qətlə yetirilirdi. Vətəndaşlar, o cümlədən, xidmətdə olan polis işçiləri sorğu-sualsız tutulurdular. Hərbi hakimiyyət orqanları yanvarın 20-də saat 22.00-dan etibarən qadağan saatı qoyulduğunu yanvarın 20-də saat 7-də elan etdi. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan edildikdən sonra, yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində daha 21 adam öldürülmüşdü. Daha on yeddi vətəndaş avtomaşınların atəşə tutulması nəticəsində maşınların içərisində öldürülmüşdü. Yeddi vətəndaş isə öz evində avtomatdan atılan atəşlə qətlə yetirilmişdi. Müayinə edilmiş 94 meyitin 82-də silah zədələri müəyyən edilmişdir. Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və respublikanın rayonlarında 190 adam öldürülmüş və 400-ə qədəri yaralanmışdır. Azərbaycan xalqının igid oğlan və qızları doğma Azərbaycanın azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda öz canlarından keçərək, zirvəyə yüksəldilər. Onlar sovet imperiyasının dayaqlarını sarsıtdılar. Azğınlaşmış imperiya artıq başa düşdü ki, Azərbaycan xalqı artıq onların başa düşdüyü. beləcə qələmə verdikləri "geridə qalan xalq" deyil. Öz haqqını istəyən, imperiya boyunduruğunu ləğv edən xalqdır.

Sovet imperiyası bu ölməzlik zirvəsinə yüksələn Azərbaycanın qəhrəman oğul və qızlarının qarşısında lərzəyə düşdü. Bu çətin, ağır məqamlarda xalqımız özünün qəhrəman oğul və qızlarının simasında tarixin qəhrəmanlıq salnaməsinə öz igidliyini qızıl hərflərlə həkk etdi. Onların əziz xatirəsi xalqımızın qan yaddaşında əbədi yaşayacaq. Xalqımızın belə bir çətin məqamda yumruq kimi birləşərək, sovet imperiyasına qarşı ölüm-dirim mübarizəsinə qalxması bu xalqın milli həmrəylik simvolu idi. Bəli, o vaxt hamı rus ordusunun faciə törədəcəyini yaxşı bilirdi, amma Vətənin azadlığı yolunda güllə qarşısına çıxmağı özünə şərəf bilən insanlar da vardı. Bu insanlar sonradan xalqa və daha sonra Azərbaycana çevrildi. Bu şəhidlik Vətənin azadlığı və müstəqilliyini qorumaq borcundan keçib. Biz Azərbaycanın torpaqları yolunda ölmüşüksə, deməli, bu torpaqları Vətən etmişik! Allah bütün şəhidlərimizə rəhmət, ruhlarını şad etməklə, Azərbaycanın azadlığı yolunda kütləvi şəhidliyə hazır olmaqda xalqımıza dayaq dursun! Vətən şəhidlərini heç vaxt unutmayacaq! 20 Yanvar Azərbaycan xalqının hüzn və şərəf günüdür. Xalqımız bu faciədə həyatdan getmiş övladlarına matəm saxlamaqla bərabər, onların şəhidlik zirvəsinə baxaraq, başını dik tutmalıdır.

20 Yanvar faciəsi Azərbaycan xalqını qorxutmaq, onun milli oyanışını, torpaq uğrunda mübarizliyini məhv edib sındırmaq məqsədi daşıyan mənfur planın tərkib hissəsi idi. 1990-cı ilin 20 Yanvarından ötən illəri, bir qayda olaraq, yalnız kədər, hüzn, matəm kimi qeyd etmişik, şəhidlərimizin ruhunu ağı və sızıntı ilə anmışıq. Ümumxalq hüzn günü - bu əhval təbiidir. Amma bir şeyi unutmamalıyıq ki, 20 Yanvar Azərbaycan xalqının tarixində, sadəcə, ağrı və acı ilə xatırlanacaq gün deyil. 20 Yanvar həm də xalqımızın şan və şərəf günüdür. Unutmamalıyıq ki, həmin gün küçələri boyamış al şəhid qanları bir anlamda milli məfkurəmizin oyanan günəşinin qırmızı şəfəqini simvolizə edirdi. Xalqımız həmin gün üstünə şığıyan dəhşətli kabusa, sovet hərbiyyəsinin qorxunc qaragürahuna qarşı sinəsini verməyi və deməli, özünün mənliyini və mətinliyini nümayiş etdirməyi bacardı. Məhz həmin hadisələr, bilavasitə, nümayiş etdirdi ki, Azərbaycan xalqı özgürlük mübarizəsinə qalxmaq, pozulmuş hüquqlarının, suverenliyinin bərpa olunması uğrunda savaşmaq əzminə sahibdir. 1990-cı ilin 20 Yanvarı Azərbaycanın istiqlaliyyət yolunun ilk şəhidlik zirvəsi idi. Ötən illər ərzində "Qanlı Yanvar"ın tarixi, mənəvi, siyasi və s. aspektləri analiz edilib, hadisəyə Azərbaycan dövləti tərəfindən hüquqi qiymət verilib. Lakin təəssüf, edilməlidir ki, biz indiyədək bu tarixi dünyaya yetərincə tanıda bilməmişik. Dünya hələ də 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycanda, onun paytaxtı Bakıda nələrin baş verdiyindən xeyli dərəcədə səthi informasiyaya malikdir. Lakin o da etiraf edilməlidir ki, bu qanlı faciəni bütün dünyaya tanıtmaq üçün ulu öndərimiz Heydər Əliyev gecəli-gündüzlü çalışıb. Bu gün ulu öndərin ruhu Vətənimizin azadlığı uğrunda şəhid olmuş oğul və qızlarımızın ruhuna qovuşub. Ruhunuz şad olsun!

Ulu öndər! Şəhid qardaş və bacılar! Sizin Azərbaycanın suverenliyi, müstəqilliyi, azadlığı, firavan gələcəyi uğrunda mübarizəniz hədər getməyib. Hər birimiz Sizin məzarınızı ziyarət edəndə, içərimizdə xəfif titrəyiş hiss edirik. Oradan qayıdanda isə, bu titrəyiş qürur hissi ilə əvəz olunur Başqa cür ola da bilməz!!!

**Z.Tağıyev**

**“Səs”.** - 2005. – 20 yanvar. - N 13. - S. 2.

## Azərbaycan xalqı xəyanətkarları və təcavüzkarları ittiham edir

*Azərbaycan xalqı 20 yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi.*

***Heydər ƏLİYEV***
***Ümummilli lider***

**Tarix boyu Azərbaycan xalqı çox sınaqlar qarşında qalıb. Yadellilərin basqınlarına məruz qalıb, ikiyə bölünüb, var-dövləti talanıb, yurd yerləri viranə qalıb, ərazisinin bir hissəsi işğal olunub, günahsız vətəndaşları öldürülüb, əsir götürülüb, məhrumiyyətlərə düçar olub. Bütün əzablara və təhdidlərə, işğallara və təcavüzlərə baxmayaraq xalqımız əyilməyib, qürurunu itirməyib və varlığını, yenilməzliyini sübut edə bilib.**

Xalqımız ötən əsrin sonlarında daha ağır sınaqlarla baş-başa qaldı. Bir tərəfdən əsrlər boyu qonşu ermənilərin torpaqlarımıza təcavüzü, digər tərəfdən isə rus imperiyasının 1990-cı ilin 20 yanvarında respublikamızın baş şəhərinə silahlı basqını, onlarla günahsız insanın vəhşicəsinə qətli, şikəst olması, ölkəyə vurulan böyük maddi ziyan. Bu hadisə siyasi əqidəsindən və mənsubiyyətindən asılı olmayaraq, böyükdən-kiçiyə bütün azərbaycanlıların yaddaşında ağrılı bir iz saldı. Elə bir azərbaycanlı tapılmaz ki, bu dəhşətli təcavüzü, soyqırımı nifrət hissi ilə xatırlamasın. Çünki bununla rus imperiyası elə bil xalqımızın mənliyinə, varlığına təcavüz etdi, heysiyyətimizi qırmağa çalışdı.

Amma bu tarixi olduğu kimi gələcək nəsillərə ötürmək, olmuş hadisələri bütün gerçəkliyi ilə onlara çatdırmaq hər birimizin ümdə vəzifəsidir. Çünki bu təcavüz barədə təkrar-təkrar, mütəmadi olaraq mətbuatda yazılar dərc olunmalı, bu mövzuda filmlər çəkilməli, əsərlər yazılmalı, bu faciə xalqımızın qan yaddaşının bir hissəsinə çevrilməlidir. Məhz buna görə də hüquq-mühafizə orqanı işçisi kimi mən 20 Yanvar hadisələri ilə bağlı olan cinayət işi üzrə arayışa istinadən ictimaiyyətə bir sıra açıqlamalar vermək istəyirəm.

**1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət barədə SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı elan olunmadan Sovet qoşun hissələri Bakıya daxil olmuş, dinc əhaliyə atəş açmış, ağır tanklarla avtomaşınların üzərindən keçmişdi. Nəticədə 131 mülki şəxs vəhşicə-sinə öldürülmüş, 744 nəfər vətəndaş müxtəlif dərəcəli xəsarət almış, 841 nəfər qanunsuz həbs olunmuş, yüzlərlə binaya ziyan dəymişdir. Dövlət, ictimai və şəxsi əmlaka həmin dövrün qiymətləri ilə 5.637.286 rubl miqdarında maddi ziyan vurulmuşdu.**

SSRİ Baş Prokurorluğunun ədliyyə polkovniki V.K.Medvedyevin rəhbərliyi ilə təşkil etdiyi istintaq qrupu cinayət hadisələrinin araşdırılmasını çox səthi aparmış, istintaq hərbçilərin hərəkətlərində cinayət tərkibi olmaması nəticəsinə gəlmişdi. 20 iyul 1990-cı il tarixdə cinayət işinin xitam olunması barədə qərar qəbul olunmuş, cinayət işi Moskvaya aparılmışdı. Təəssüf ki, həmin vaxt Azərbaycan Respublikası Prokurorluğu törədilmiş cinayət hadisələri ilə bağlı heç bir cinayət işi başlamamışdı.

20 fevral 1991-ci il tarixdə Azərbaycan Respublikasının Baş Prokuroru mərhum İ.İ.Qayıbov SSRİ Baş Prokurorluğuna məktub yazaraq cinayət işinin xitam edilməsi ilə bağlı V.K.Medvedyevin qərarının ləğv edilməsinə dair vəsatət qaldırsa da, məktuba cavab verilməmişdi. Yalnız 14 fevral 1992-ci il tarixdə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanmışdı. Amma dəfələrlə Rusiya Federasiyasının Baş Prokurorluğuna məktub yazılaraq ilkin istintaq materiallarının göndərilməsi sorğu edilsə də, sənədlər Azərbaycana qaytarılmamışdı.

Aparılmış istintaqla müəyyən edilmişdir ki, bu faciəni törətməklə keçmiş SSRİ-nin rəhbəri M.Qorbaçov İttifaq Konstimsiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozmaqla, Bakı şəhərində fövqəladə vəziyyətin elan olunması haqda 19 yanvar 1990-cı ildə imzaladığı fərmanına əsasən,

şəhər əhalisinə heç bir məlumat verilmədən, qoşun hissələri Bakı şəhərinə yeridilmiş, dinc əhaliyə qarşı misli görünməmiş qırğın törədilmişdir. Günahsız insanlar qətlə yetirilmiş, müxtəlif növ bədən xəsarətləri almış, əlil olmuş, dövlətə və vətəndaşlara külli miqdarda maddi ziyan dəymişdir.

**İstintaqın gedişində 20 Yanvar faciəsinə səbəb olmuş həmin dövrün şəraiti də araşdırılmışdır. Azərbaycana həmin vaxt rəhbərlik etmiş Ə.Vəzirov, A.MütəlIibov, V.Hüseynov, İ.İsmayılov və başqaları vətəndaşların hüquq və azadlıqlarını qorumalı olduqları halda, mərkəzi hakimiyyət orqanlarına sözsüz tabe olmaqla vəzifələrini qoruyub saxlamaq mövqeyi tutaraq xalqla hakimiyyət arasında uçurum yaratmışlar. Nəticədə, ölkədə kəskin hakimiyyət böhranı yaranmışdır.**

**Vəziyyətin gərginləşməsinin səbəblərindən biri də AXC liderlərinin qanunsuz hərəkətləri olmuşdur. AXC liderləri yanvar faciəsi ərəfəsində Respublika Ali Soveti, AKP MK-nın binaları qarşısında, meydanlarda keçirilən mitinqlərdə xalqı vətəndaş itaətsizliyinə çağırmış, dövlət orqanlarının ünvanlarına hədə-qorxu gələrək vətəndaşları bir sıra məsuliyyətsiz, onların həyatı və səhhəti üçün təhlükə yaradan hərəkətlərə sövq etmiş, camaatı təşkil etdikləri piketlərdə və barrikadalarda iştirak etmək üçün küçələrə çağırmışlar.**

**Respublikanın o vaxtkı rəhbərləri Ə.Vəzirov, A.Mütəllibov, V.Hüseynov, V.Polyaniçko faciədən dərhal sonra Moskvaya göndərdikləri şifrəteleqramlarda Bakıya əlavə daxili qoşun və ordu qüvvələrinin gətirilməsini tələb etmiş, Bakı şəhərində hərbi hissələrin yerləşdirilməsi və təminatı ilə əlaqədar müxtəlif hazırlıq işləri aparılmışdır. Əldə edilmiş məlumata görə, yanvarın 19-dək respublikanın ayrı-ayrı rayonlarında və Bakı şəhərinin ətrafında 66,5 min nəfər hərbi qulluqçu yerləşdirilmişdi. Bundan başqa, həmin hərbi hissələrə rəhbərlik etmək üçün Moskvadan 300 nəfərdən artıq yüksək rütbəli general və zabit gəlmişdir.** Digər bir fakt barədə. 19 yanvar 1990-cı il tarixdə M.Qorbaçov dörd gün əvvəl imzaladığı fərmanına zidd olaraq "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" antikonstitusion fərman vermişdir. İstintaq zamanı müəyyən edilmişdir ki, həmin fərmanlara hüquqi baza yaratmaq məqsədilə saxtakarlığa yol verilmişdir.

Həmçinin müəyyən olunmuşdur ki, "Mülki və siyasi hüquqlar haqqında" 1966-cı il Beynəlxalq Aktın birinci bəndinə əsasən, fərman imzalandığı andan fövqəladə vəziyyətin tətbiqi və müddətləri barədə Bakı şəhərinin əhalisi rəsmi xəbərdarlıq edilməli ikən, buna qəsdən əməl olunmamışdır. Kütləvi insan qırğını törədildikdən sonra, yəni 20 yanvar 1990-cı il səhər saat 5.00-da radio vasitəsilə şəhər komendantı rəsmi məlumat vermişdir. Halbuki 20 yanvar saat 00-dan başlanmış hərbi əməliyyatda çoxlu tankdan, müxtəlif təyinatlı zirehli döyüş maşınlarından istifadə edilmiş, Xəzər hərbi donanmasına məxsus gəmilərdən şəhərə desant çıxarılmışdır. Azərbaycan xalqına qarşı törədilmiş bu təcavüz mərhələ-mərhələ həyata keçirilmiş, şəhərdə qarətlərlə nəticələnən təxribatlar aparılmışdır.

**Xalqın tələbi və bir qrup deputatın təşəbbüsü ilə 1990-cı il yanvarın 22-də çağırılan Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyasında respublikanın əksər siyasi rəhbərləri iştirak etməmişdir. Yaradılmış Milli Şura da hadisələrə siyasi qiymət vermək əvəzinə deputat istintaq komissiyasının rəyini qənaətbəxş hesab etməklə kifayətlənmişdir. Bundan əlavə, müxalifətdə olarkən 20 Yanvar faciəsinə siyasi qiymət verilməsini dəfələrlə tələb edən AXC liderləri (Azərbaycan Respublikasının prezidenti Ə.Elçibəy, Ali Sovetin sədri İ.Qəmbər) hakimiyyətdə olduqları bir ildən çox müddətdə faciəyə siyasi və hüquqi qiymət verməmişlər.**

**Bu dəhşətli hadisədən son dərəcə sarsılmış və qəzəblənmiş Azərbaycan xalqının intizarı düz 4 il çəkmişdir. Xalqın təkidi və xahişi ilə hakimiyyətə yenidən qayıdan xalqımızın qeyrətli oğlu, dünya şöhrətli siyasi xadim Heydər Əliyev hər bir azərbaycanlının yaddaşında daim qəzəblə xatırlanacaq bu hadisəyə ədalətli və düzgün siyasi-hüquqi qiymət vermişdir. Heydər Əliyevin 5 yanvar 1994-cü il tarixli fərmanında ilk dəfə rəsmi olaraq 20 Yanvar qırğınının Azərbaycan xalqının azadlıq və istiqlaliyyət uğrunda mübarizəsinə divan tutmaq üçün törədildiyi və bu hadisələrə hələ də tam və düzgün qiymət verilmədiyi elan edildi. Eyni zamanda ümummilli liderin tövsiyəsi ilə Milli Məclisin iclaslarında 20 Yanvar faciəsi yenidən və hərtərəfli araşdırılmaqla müzakirə olundu.**

Ümummilli liderimiz Heydər Əliyevin "20 Yanvar faciəsinin 10-cu ildönümü haqqında" imzaladığı fərmanda hadisə bu cür qiymətləndirilirdi: **"XX əsr tarixində totalitarizmin törətdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı törədilmiş cinayət əslində bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli bir əməldir!.. Bizim xalqımız o günü heç vaxt unutmayacaqdır. Çünki o, ayrı-ayrı insanlara edilən qəsd, təcavüz deyildi, bu bütün Azərbaycan xalqına, Azərbaycan millətinə, Azərbaycan ölkəsinə edilən təcavüz idi. Bu təcavüz nəticəsində həlak olanlar xalq qəhrəmanlarıdır, onlar millətimizin qəhrəmanlarıdır... 1990-cı ilin yanvarı Azərbaycan xalqının tarixinin ən faciəli, qara səhifəsi, həm də qəhrəmanlıq, rəşadət səhifəsidir... Biz o günlərdən nə qədər çox uzaqlaşsaq, həmin günlərin Azərbaycan xalqının tarixində necə mühüm yer tutduğunu bir o qədər dərk edəcəyik və bəlkə də, gələcək nəsillər buna daha düzgün qiymət verəcəklər".**

15 il öncə Azərbaycan xalqını bu cür analoqu olmayan faciəyə düçar etmiş cinayətkarlar bu gün cəzasız qalsalar da, xalqımız sınmadı, əyilmədi, tutduğu düzgün və məqsədyönlü yoldan çəkinmədi.

Bu isə o deməkdir ki, zəngin və şərəfli tarixi keçmişə malik Azərbaycan xalqının iradəsi, müstəqillik əzmi, mübarizliyi, qətiyyəti möhkəmdir, onu heç bir tankla, silahla məhv etmək olmaz. Xalqımız bir daha sübut etdi ki, o mustəqilliyini müdafiə etməyə, qorumağa və yaşatmağa qadirdir. Bununla yanaşı, xalqımız 20 Yanvar şəhidlərini heç zaman unutmur və onların xatirəsini həmişə əziz tutur. Çünki Vətən uğrunda canlarından keçənlər hər cür hörmətə və ehtirama layiqdirlər.

Biz hüquq-mühafizə orqanlarının işçiləri hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu yolunda üzərimizə düşən vəzifələri şərəflə yerinə yetirir, şəhidlərimizin ruhları qarşısında hörmət və ehtiramımızı bildiririk. Çünki ümummilli liderimiz Heydər Əliyev ölkəmizin istiqlaliyyətini. müstəqilliyini şəhidlərimizin xatirəsinə ən böyük abidə adlandırmışdı. Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun, onun tutduğu düzgün yolun ləyaqətli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqımızın müstəqillik yolunda hüquqları tapdanmış, rus imperiyasının qaniçən cəlladlarının qəzəbinə tuş gəlmiş 20 Yanvar şəhidlərinin xatirəsini həmişə uca tutur və minnətdarlıqla xatırlayır. Dövlət başçımızın 20 Yanvar faciəsinin dövlət səviyyəsində qeyd edilməsi ilə bağlı imzaladığı fərmanda deyilir: "20 Yanvarda sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirdi. Azərbaycanda haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş Vətən övladları Qanlı Yanvarda xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar".

**Ehtiram Baxşəliyev,**
Azərbaycan Respublikası Prokurorluğu Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinin xüsusilə mühüm işlər müstəntiqi, ədliyyə müşaviri

**“Xalq qəzeti”.** - 2005. – 20 yanvar. - N 15. - S. 6.

## Əbədi məşəl

***20 Yanvarda Azərbaycan xalqı özünün qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdı***

20 Yanvarın Azərbaycan tarixində özünəməxsus yeri var. On beş ildir ki, bütün xalq bu faciənin ağrısı ilə yaşayır, öz qəhrəman övladlarının xatirəsini ehtiramla yad edir. Aradan 5479 gün keçsə də, 20 Yanvar yarası sağalmaq bilmir.

Həmin günün daha bir özünəməxsusluğu onun nikbin faciə olmasıdır. 1990-cı il yanvarın 20-də Azərbaycan xalqı görünməmiş vəhşiliklə üzləşsə də, yüzlərlə fədakar övladını itirsə də, sarsılmadı və istiqlal uğrunda mübarizəsini zəfərlə başa vurdu. "20 Yanvar faciəsinin 15-ci ildönümünün keçirilməsi haqqında" Azərbaycan Prezidenti ilham Əliyevin sərəncamında bu faciəyə belə qiymət verilir: "20 Yanvarda Sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı bu tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirdi. Azərbaycanda haqqın-ədalətin müdafiəsi yolunda canlarından keçmiş Vətən övladları Qanlı Yanvarda xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar".

20 Yanvar Azərbaycanın azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda mübarizədə qəhrəmanlıq rəmzinə çevrilib və bu mənada, əsrə bərabər gün hesab edilir. Şəhidlər Xiyabanında alovlanan əbədi məşəl azadlıq yollarını işıqlandırır.

20 Yanvar həm də özünün ibrətamiz məqamlarına və tarixi dərslərinə görə müstəsna əhəmiyyətə malikdir. Tariximizin həmin mürəkkəb və ziddiyyətli dövrü bizi daim ayıq-sayıq olmağa, baş verənlərdən düzgün nəticə çıxarmağa səsləyir. Bu, təkcə tarixi yaşatmaq baxımından deyil, yaddaşların daim oyaq saxlanması və gələcəyimiz üçün də vacib və gərəklidir.

* * *

Hər şey Qorbaçovun "perestroykasından" başladı. O, xalqlara aşkarlıq və demokratiya vəd edirdi. İlk baxışda elə təsəvvür yaranırdı ki, totalitarizmdən azad və demokratik bir cəmiyyətə doğru gedirik. Bunun əvəzində qeyri-normal situasiya və zorakılıqla qarşılaşdıq.

1987-ci ilin ortalarından başla-yaraq Dağlıq Qarabağ Muxtar Vilayətindən həyəcanlı xəbərlər gəlirdi. Vilayətin azərbaycanlı sakinləri respublikanın rəhbər təşkilatlarına, qəzet redaksiyalarına müraciət və məktublarında həyəcan təbili çalırdılar: ermənilər mitinq keçirir, Azərbaycan bayraqlarını qoparıb atır, bizi sıxışdırırlar. Tədbir görülməsə, axırı pis qurtaracaq. Bu, separatizmin birinci və nisbətən zəif dalğası idi.

Günlərin bir günü xəbər yayıldı ki, Ermənistan Ali Soveti Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında qərar çıxarıb. Beləliklə, keçmiş SSRİ və respublika rəhbərliyinin gözləmə mövqeyi hadisələrin kəskinləş-məsi və dramatik xarakter alması ilə nəticələndi, separatçıların əl-qol açmasına şərait yaratdı.

1990-cı ilin əvvəllərində "Naçalo" qəzetinin müxbirinə verdiyi müsahibəsində Heydər Əliyev bu barədə ürəkağrısı ilə danışır, hiddətini gizlədə bilmirdi. Həmin müsahibədən kiçik bir parçanı nəzərinizə çatdırırıq: "Bir dəfə MK plenumunda Azərbaycan KP MK-nın o vaxtkı birinci katibi, məndən sonra işləyən Bağırovla görüşdüm. Ondan soruşdum: - Siz buna necə yol vermisiniz? Bağırov dedi ki, onlar mərkəzə məlumat veriblər. Lakin mərkəz heç bir reaksiya verməyib".

O vaxt Ermənistandan 2-3 gün ərzində bütün azərbaycanlıları çıxardılar. Zorakı köçürmə qətl və qarətlərlə müşayiət olundu. Sonra Sumqayıt hadisəsi baş verdi. Azərbaycanlılar DQMV-dən də çıxarıldı.

Mərkəz hadisələrə reaksiya vermir, respublika rəhbərliyinin isə məsələyə birbaşa müdaxilə etməyə iradəsi və qətiyyəti çatmırdı.

Çarəsiz qalan, əli hər yerdən üzülən xalq ayağa qalxdı və Bakıda aramsız mitinqlər başladı. Xalqın qəzəbini soyutmağa çalışan Kreml Azərbaycanda rəhbərlik dəyişikliyi həyata keçirdi. Əbdürrəhman Vəzirov Moskvadan Bakıya gətirildi və Azərbaycan KP MK-nın birinci katibi təyin olundu. Bağırovun Vəzirovla əvəz edilməsi heç nəyi dəyişmədi. Əksinə, yeni birinci katib mürəkkəb vəziyyətlərdən baş çıxara bilmir, olduqca zəif

görünürdü. Xalq ruhundan, milli təəssübkeşlik hissindən büsbütün məhrum olan iradəsiz Vəzirov çox qısa müddətdə hörmətdən düşdü.

Dağlıq Qarabağ probleminin yuxarıdan həllinə bəslənilən son ümid də puça çıxdı. Xatırlayın, Ermənistandan azərbaycanlıların zorakılıqla qovulduğu, torpaqlarımızın göz görəsi əldən getdiyi, xalqın qəzəbdən özünə yer tapa bilmədiyi bir vaxtda bizim birinci katib camaata gözaydınlığı verirdi ki, Bakıdan köçüb gedən ermənilər geri qayıdır. Üstəlik, belə bir rəy yaradılırdı ki, bu hadisələrdə Əliyev günahkardır. Çünki vaxtilə Qarabağa pis baxıb. Görürsünüzmü, separatçıların qarşısını almaq əvəzinə onlara necə bəraət qazandırılırdı?

1999-cu ilin payızında ermənilərin Şuşa yaxınlığındakı Topxana meşəsini dağıtdıqları və oradakı nadir floranı məhv etdikləri barədə xəbər yayıldı. Bu, xalqın səbir kasasını daşdıran sonuncu damlaya çevrildi. Noyabrın ortalarında Bakının mərkəzi meydanında ilk mitinqlər başlandı. Çox keçmədən Azərbaycanı mitinqlər dalğası bürüdü. Həmin günlər Azərbaycan təlatümlü dənizi xatırladır, hadisələr idarəolunmaz xarakter alırdı.

* * *

Dağlıq Qarabağ probleminə münasibətdə mərkəzin loyallığı, qərarların qəbul edilməsində ləngimələr, bir çox hallarda atılan anlaşılmaz addımlar ilk baxışda bir-birini əvəzləyən səhvlər silsiləsi təsiri bağışlayırdı. Lakin sonradan aydın oldu ki, keçmiş SSRİ rəhbərliyi hansısa düşünülmüş planı həyata keçirir, qərarlar məhz buna görə ləngidilir, yaxud məsələlər əsasən ermənilərin xeyrinə həll olunurdu.

Yuxarıda qeyd etdiyimiz kimi, hadisələr 1987-ci ildə başlasa da, SSRİ Ali Soveti Rəyasət Heyətində bu məsələ ilə bağlı ilk müzakirələr 1988-ci ilin iyulunda keçirildi. Bunun ardınca, 1989-cu il mayın 16-da SSRİ Nazirlər Soveti vilayət iqtisadiyyatının idarə olunmasının Azərbaycandan alınıb mərkəzə verilməsi haqqında daha bir anlaşılmaz qərar çıxardı. Respublika rəhbərliyi isə öz etirazını bildirmək əvəzinə, sanki heç nə olmayıbmış kimi xalqı sakitləşdirməyə çalışırdı. Daha sonra SSRİ Dövlət Plan Komitəsi DQMV-nin sosial-iqtisadi kompleksinin planlaşdırılmasını özbaşına olaraq üzərinə götürdü. Bizə yalnız sonradan məlum olacaqdı ki, bütün bunlar Dağlıq Qarabağın Azərbaycandan mərhələ-mərhələ qoparılmasının tərkib hissələri imiş.

Yaxud götürək xüsusi idarəetmə komitəsini. Ermənilər Kremlin əli ilə muxtar vilayəti Azərbaycanın tabeliyindən büsbütün çıxarırdılar. Bəs bunun müqabilində respublika rəhbərliyi nə edirdi? Bəlkə də xatırlayırsınız, Vəzirovun göstərişi ilə geniş təbliğat kampaniyası başlanmışdı. Rəhbərlik xalqı inandırmağa çalışdı ki, Dağlıq Qarabağda xüsusi idarəetmə üsulunun tətbiqi guya bizim qələbəmizdir. Bu variantı kim düşünüb tapmışdı, onun müəllifi kim idi? Yalnız məsələ qəlizləşdikdən, xüsusi idarəetmə komitəsinin Azərbaycan əleyhinə işlədiyi aydınlaşdıqdan sonra MK-da hamı daş atıb başını tuturdu ki, həmin komitə yaradılarkən onların heç birinin rəyi soruşulmayıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 20 noyabr tarixli sessiyasında çıxış edən Heydər Əliyev məsələyə aydınlıq gətirərək demişdi: "Gəlin həqiqəti danışaq, bunu (Volskinin rəhbərliyi ilə xüsusi idarəetmə komitəsinin yaranmasını - *E.Q.*) bir Qorbaçov ortaya atmayıb ki? Bu, uzun müzakirələrdən sonra yaranıbdır. Məsələn, Moskvada bir-iki adam mənim fikrimi soruşdu, qəti etiraz etdim. Ancaq Azərbaycanın rəhbərləri bu idarənin yaranmasını vəziyyətdən çıxış yolu bildilər, bunu, çıxış edən deputatların da dediyi kimi, çox təmtəraqla qəbul etdilər, bunu çox böyük nailiyyət kimi qələmə verdilər. Anlamadılar, yaxud da anlayaraq qəsdən buna getdilər ki, Qarabağ əldən getsin...

Xüsusi idarəetmə komitəsinin fəaliyyəti dövründə baş verən prosesləri bir daha xatırlayaq. Azərbaycanlılar sıxışdırılaraq bütün idarəetmə strukturlarından çıxarıldı. Vilayət silahla dolduruldu. Daşkəsək "müharibəsi" avtomat və pulemyotlarla əvəz olundu. Qarabağ böhranının yeni, daha güclü mərhələsi başlandı. Vilayət, demək olar, əldən getdi.

Həmin dövrdə SSRİ və respublika rəhbərliyi tərəfindən Dağlıq Qarabağ məsələsinə dair qəbul olunmuş qərar və fərmanların mətninə nəzər salarkən açıq-aşkar görünür ki, onların heç birində Azərbaycanın xeyrinə bircə maddə də yoxdur. Ən yaxşı halda təqsir hər iki tərəfin üzərinə qoyulur, bədnam bərabərləşdirmə mövqeyi

nümayiş etdirilirdi. Bir tərəfdən, Azərbaycan xalqını sakitləşdirməyə və arxayın salmağa yönəldilmiş addımlar atılır, digər tərəfdən, respublikamızın suverenliyinə, ərazi bütövlüyünə ciddi surətdə xələl gətirən qərarlar qəbul olunurdu.

Ermənilər Dağlıq Qarabağı ələ keçirmək planlarını ona görə belə asanlıqla, açıq-açığına reallaşdıra bilirdilər ki, Azərbaycana Vəzirov kimi kosmopolit, iradəsiz bir adam rəhbərlik edirdi. Ola bilsin ki, onun ölkə rəhbərliyinə gətirilməsini də Qorbaçova erməni dostları məsləhət görmüşdülər. Bu gün tam qətiyyətlə demək olar ki, əgər o vaxt hakimiyyətdə Heydər Əliyev kimi güclü şəxsiyyət olsaydı, hadisələrin qarşısı vaxtında alınar, nisbətən itkisiz ötüşə bilərdik. Odur ki, separatçılıq planının həyata keçirilməsinə mane ola biləcək yeganə azərbaycanlı - Heydər Əliyev mərkəzi hakimiyyətdən uzaqlaşdırılmışdı. O, Moskvada təcrid olunmuş vəziyyətdə yaşayırdı və hadisələrin gedişinə təsir etmək imkanına malik deyildi. Göründüyü kimi, ermənilər Mərkəzi ələ alaraq bu tarixi fürsətdən yetərincə yararlana bildilər.

Azərbaycanda isə etiraz dalğası şahə qalxmış, ölkəni tətillər bürümüşdü, hakimiyyət böhranı getdikcə dərinləşirdi. Adətən belə məqamlarda situasiyadan yararlanmağa çalışan adamlar peyda olur. Bu dəfə də AXC "fəalları" deyilən xüsusi qruplar fürsətdən istifadə edib yerlərdə hakimiyyəti ələ keçirirdilər. Azərbaycan, sözün həqiqi mənasında, barıt çəlləyini xatırladırdı.

Kreml və ermənilər, bu mənada da, istədiklərinə nail ola bilmişdilər. Sonradan məlum olacaqdı ki, həmin AXC "fəalları" arasında Moskvaya işləyən adamlar varmış. Yoxsa, mərkəzdən gələn Primakov kimi yüksək rütbəli çinovnik onları nahaqdan axtarmırdı ki?

Hakimiyyət strukturlarının zəbt edilməsi, bunun ardınca düşünülmüş şəkildə təşkil olunmuş erməni talanları... Azərbaycana dərs vermək, xalq hərəkatını yatırmaq üçün bundan yaxşı fürsət ələ düşməzdi.

* * *

1990-cı il yanvarın əvvəllərində aramsız davam edən mitinqlərin mərkəzi Azadlıq meydanından MK binasının qarşısına keçdi. Mitinqdə bir ağızdan Vəzirovun hakimiyyətdən getməsini tələb edirdilər. Aramsız səslənən "İstefa" nidaları binanı lərzəyə gətirirdi. izdihamın içərisində simvolik dar ağacları görünməyə başlamışdı. Pəncərələrin önündə silahlı əsgərlər gözə dəyirdi. İzdihama ara-sıra boş avtobuslar yan alaraq, könüllüləri barrikadalara aparırdı.

Yanvarda baş verənlərin xronologiyasını xatırlayaq. Xalq Cəbhəsi tərəfindən paytaxtın giriş yollarında və əsas magistrallarında ilk piketlər yanvarın 3-4-də təşkil olunmağa başlamışdı. Piketçilərin sayı getdikcə artır, yük maşınlarından və avtobuslardan barrikadalar düzəldilirdi. Yanvarın 13-də heç kəsin gözləmədiyi halda şəhərdə erməni talanları başladı. Bu, ümumiyyətlə, Azərbaycan xalqının təbiətinə yabançı hal idi. Üstəlik, ordu hissələri, daxili qoşunların əsgərləri ilə dolu şəhərdə belə hadisələr necə baş verə bilərdi? Həmin məqam istintaq tərəfindən axıradək aydınlaşdırılmasa da, talanların müəyyən xüsusi xidmət orqanları tərəfindən təşkil edildiyi şübhə doğurmur. Şahidlərin dediyinə görə, qətl və talanlar bir sıra hallarda əsgərlərin və milis nəfərlərinin gözü qabağında törədilirdi. Onlar isə baş verənləri seyr etməklə kifayətlənirdilər.

Yanvarın ilk günlərində Naxçıvanda camaat sərhəd məftillərini sökməyə başlamışdı. Heydər Əliyev 1990-cı ilin sentyabrında Moskva qəzetlərindən birinə verdiyi müsahibədə buna münasibət bildirərək deyirdi: "Mən sərhəddə yaşamışam, oraya yaxşı bələdəm, ona görə ki, əvvəllər dövlət təhlükəsizliyi orqanlarında işləmişəm. Mənim ağlıma da gəlməzdi ki, sərhədyanı kəndlərin əhalisi sərhəd çəpərlərinə qəsd edə bilərlər. Birdən görün nələr baş verir. Bu ona qarşı etiraz idi ki, onların səsini heç kəs eşitmək istəmir. Mərkəzi mətbuatdan məlumdur ki, sərhədyanı kəndlərin sakinləri, onlar hələ son addım atmazdan əvvəl, sərhədi pozmazdan iki ay qabaq hakimiyyət qarşısında öz tələblərini qoymuşdular".

Qayıdaq Bakıya. Ayın 19-da mitinqlər istisna olmaqla, paytaxtda həyat, demək olar, dayanmışdı. Həmin gün qəzetlər çıxmamışdı. Nəqliyyat, zavod və fabriklər işləmirdi. Bir neçə çörək dükanı istisna olmaqla, mağazaların hamısı bağlı idi.

Axşamüstü televizorların ekranı qəflətən söndü. Sonradan məlum oldu ki, telestansiyanın enerji bloku televiziya rəhbərlərinin iştirakı və respublika DTK-sının köməyi ilə Moskvadan göndərilmiş hərbçilər tərəfindən partladılıb.

Beləliklə, Azərbaycan qəzetsiz, televiziyasız və radiosuz qalaraq tam informasiya blokadasına düşdü. Bu, ona görə edilmişdi ki, xalq nələr baş verdiyindən xəbər tuta bilməsin və onun harayı heç yerə çatmasın.

Bununla belə, həm respublika rəhbərliyi, həm də Xalq Cəbhəsi liderləri yanvarın 20-nə keçən gecə Bakıya ordu yeridiləcəyindən xəbərdar idilər. İsa Qəmbərov, Etibar Məmmədov, Nemət Pənahov həmin günlər MK binasına tez-tez girib çıxır, Sov.İKP MK-nın, Sovet ordusunun və SSRİ DİN-in Bakıda olan yüksək vəzifəli nümayəndələri ilə görüşürdülər. Sonradan isə həm onlar, həm də Azərbaycanın rəhbərliyində olanlar and-aman edəcəkdilər ki, ordunun nəzərdə tutulan əməliyyatından xəbərsiz idilər.

Həmin vaxt gözlənilən qırğının qarşısını almaq üçün heç də bütün imkanlar tükənməmişdi. Vəzirovun könüllü istefası gərginliyi qismən aradan götürər, adamlar barrikadaları tərk edib dağılışardılar. Yaxud rəhbərlikdəki sözükeçən adamlar Xalq Cəbhəsinin liderləri ilə dil tapıb piketləri götürə bilərdilər. Lakin bunların heç biri baş vermədi. Hərçənd həmin gecə barrikadaların həndəvərində görünməyən yalançı qəhrəmanlar sonralar cidd-cəhdlə sübut etməyə çalışacaqdılar ki, camaat guya onların sözünü eşitmədi.

İnsafən, .Xalq Cəbhəsində təmsil olunan ziyalılar təhlükəni duyaraq barrikadaları dolaşır, cavanları dilə tuturdular. Onların arasında rəhmətlik Yusif Səmədoğlu da vardı. Az qala yalvarırdı: "Dağılın, sizi güllələyəcəklər. Xahiş edirəm, dağılışın, çıxın gedin evinizə".

Adamlar isə belələrini yox, barrikadanı tərk etməməyə, ordunun qabağını kəsməyə çağıranları eşidirdi.

Heydər Əliyev hələ 1990-cı il yanvarın 21-də bu faciə ilə əlaqədar Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirilmiş yığıncaqda çıxış edərkən deyirdi: "Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur. Təəssüf ki, Azərbaycan rəhbərliyi, həmçinin ölkənin siyasi rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir... Camaatı sakitləşdirmək üçün də imkanlar tükənməmişdi. İki-üç ay əvvəl Azərbaycan partiya rəhbərliyinin möhkəmləndirilməsi məsələsi həll edilsə idi, vəziyyət gərginləşməz, ordu yeridilməsinə zərurət yaranmazdı. Bütün vəziyyətlərdə hesab edirəm ki, məsələni siyasi cəhətdən tənzimləmək, xalqla mükaliməyə girmək üçün əlverişli imkanlar olmuşdur. Lakin onlardan səmərəli istifadə olunmamışdır".

Beləliklə, yanvarın 20-də saat 00.00-da orduya Bakı üzərinə hücum əmri verildi. Zirehli texnika ilə silahlanmış qoşun hissələri bir neçə istiqamətdə şəhərə soxuldular...

* * *

Nəhəng tanklar, zirehli döyüş maşınları qabaqlarına çıxan hər şeyi və hər kəsi - avtobusları, minik avtomobillərini, canlı insanları ayaqlayıb keçirdilər. Gözünü qan örtmüş əsgərlər əliyalın camaatı, yaşayış evlərini avtomat atəşinə tutur, yol kənarlarındakı, həyətlərdəki hər qaraltıya güllə atırdı. Heç kəsə - uşaqlara, qadın və qocalara belə aman verilmirdi. Bakı küçələri beş-on dəqiqənin içində al qana boyandı. Həmin gecə və bütövlükdə Yanvar hadisələri zamanı 140-a yaxın dinc adam öldürüldü, təxminən 700 nə-fər yaralandı.

Faciənin yuxarıdakı statistikası hərbi-mənəvi cinayətin miqyasını və mahiyyətini heç də tam əks etdirmir. Həmin gün bütöv bir xalqa qarşı təcavüz olunmuş, onun köksünə süngü sancılmışdı.

Heydər Əliyev 1994-cü ildə yanvar şəhidlərinin ailə üzvləri və hadisələr zamanı əlil olanların bir qrupu ilə görüşündə baş verənlərin mahiyyətini izah edərək deyib: "...Bu faciə ondan qabaqkı dövrdə Azərbaycan xalqının başına gəlmiş bəlalar və hadisələrlə sıx bağlıdır. Ondan öncə, bir neçə il əvvəl təcavüzkar qüvvələr tərəfindən Azərbaycan Respublikasını, Azərbaycanı parçalamaq, dağıtmaq, Azərbaycan torpaqlarını zəbt etmək planlaşdırılır və həyata keçirilirdi. Bunların hamısını tamamilə həyata keçirmək üçün Azərbaycan xalqının iradəsini qırmaq, xalqımızı əzmək lazım idi. 20 Yanvar faciəsi də məhz bununla əlaqədar olaraq törədilmişdir".

Deməli, dinc əhaliyə divan tutulması qabaqcadan düşünülmüş, planlaşdırılmışdı. Lakin kimi bilərəkdən, kimi də naşılıqdan qırğına rəvac verir, günahsız insanları ölümə sürükləyirdi. Bir-birindən qanlı səhnələr,

görünməmiş vəhşiliyin tükürpərdən nişanələri... Onları təsvir etməyə qələmin gücü çatmaz. Həmin gecənin dəhşətlərini əks etdirən foto-şəkillərə baxın: onlar acı xatirələrinizi canlandıracaq, yenidən 15 il əvvələ qaytaracaq. Elə sözsüz və fotoşəkilsiz də olub-keçənləri bircə-bircə xatırlayırıq - qulağımızdakı güllə və fəryad səsləri, göz bəbəklərimizdəki şəhid simalarının və cənazələrinin əksi ilə...

* * *

Yanvar faciəsinin ibrət götürüləsi, dönə-dönə saf-çürük ediləsi məqamları da yetərincədir. Həmin imtahan-sınaq günlərində kim özünü necə aparırdı? 20 Yanvar xalqımızın, Azərbaycanın sonrakı taleyində nə kimi rol oynadı?

Xalq bu ağır imtahandan ləyaqətlə çıxdı, sarsılmadı, imperiyaya boyun əymədi. imperiya və onun Bakıdakı əlaltısı Vəzirov, həmçinin o vaxt vəzifə kürsüsündə oturanların bir çoxu öz hesablamalarında yanıldılar. Bakı fövqəladə vəziyyətin sərt qanunlarını cəsarətlə tapdayıb keçdi. Faciənin səhəri günü silahlı və dəyənəkli əsgərlərin sıx sıralarını yarıb yenidən meydanlara toplaşan izdiham qorxub çəkinmədən, başları üzərindən atılan güllələrə məhəl qoymadan bu qanlı əməllərə qarşı etiraz səsini ucaltdı. MK binasının mərmər üzlük çəkilmiş divarlarına imperiya cəlladlarını, onların Azərbaycandakı havadarlarını lənətləyən, xalqı torpaq və azadlıq uğrunda yeni mübarizələrə səsləyən şüarlar yazıldı. Şəhidlərin dəfn olunduğu gün nəhəng insan seli Azadlıq meydanından Dağüstü parkadək bütün ərazini tutmuşdu. Xalq öz şəhidlərini təmkinlə, böyük ehtiramla dəfn etdi. Cənazələr bu uzun, yoxuşa dirənən yolu çiyinlərdə getdi.

20 Yanvar tariximizin qanlı olduğu qədər də, şanlı günü idi, əsrə bərabər bir gün idi.

Vəziyyəti belə görən Vəzirov elə həmin gün hərbi təyyarə ilə Moskvaya qaçdı...

Xalq Cəbhəsinin adları sizə tanış olan liderləri həmin qanlı gecədə olduğu kimi, sonrakı günlər də gözə görünmədilər. Bir müddət orada-burada gizləndilər.

Həmin vaxt respublika rəhbərliyində yüksək vəzifə tutan, hadisələrin aparıcı fiqurlarından biri olan Ayaz Mütəllibov şəhid qanları üzərindən adlayaraq respublika KP MK-nın birinci katibi kreslosunda oturdu. Hətta şəhidlərin dəfninə də gəlməyən bu adam riyakarcasına vədlər verərək xalqı sakitləşdirməyə çalışır, karyerasını necə möhkəmləndirmək haqqında düşünürdü. Mütəllibov 1990-cı il yanvarın 27-də respublika televiziyası ilə çıxışında deyirdi: Mərkəzi Komitənin plenumu komissiya yaradıb. Komissiya Bakıda baş verən faciəli hadisələrin səbəblərini təhlil edəcək. Bunun əsasında həmin hadisələrə siyasi qiymət veriləcək və müvafiq tədbirlər görüləcəkdir.

Yanvar hadisələrinin araşdırılacağı, ona siyasi qiymət veriləcəyi və müvafiq tədbirlər görüləcəyi barədə vəd faciədən cəmi bir həftə sonra səslənmişdi. Ayaz Mütəllibov isə 1992-ci ilin martınadək hakimiyyətdə oldu. Lakin bu iki ildən çox müddətdə nə Mərkəzi Komitənin, nə də Ali Sovetin komissiyalarından səs çıxmadı. Əksinə, bir sıra məxfi materiallar Bakıdan aparıldı, yaxud məhv edildi. Mütəllibov vəzifədə olduğu dövrdə xalqın rəyini bircə dəfə də eşitmədi. Onun hakimiyyəti illərində torpaqlarımızın müdafiəsi üçün heç bir iş görülmədi və daha geniş ərazilərin işğalı üçün zəmin yarandı.

Sonra hakimiyyətə AXC qüvvələri gəldi. Daha bir il ötüb keçdi və 20 Yanvar hadisələri yenə araşdırılmamış qaldı. Çünki həqiqətin üzə çıxarılması Mütəllibov rejiminə sərf etmədiyi kimi, onların da xeyrinə deyildi.

20 Yanvar faciəsi həqiqi hüquqi-siyasi, mənəvi qiymətini yalnız Heydər Əliyev hakimiyyətə gəldikdən sonra aldı. O, Moskvadan Naxçıvana gəlib Muxtar Respublika Ali Məclisinin işinə qatıldığı ilk günlərdən yanvarın 20-də törədilən qanlı qırğına siyasi qiymət verilməsinin zəruriliyini irəli sürdü və öz mövqeyini bildirdi: "Bu, xalqın əleyhinə olan əməliyyatdır, demokratiyanın əleyhinə olan əməliyyatdır, hüquq normalarının əleyhinə olan əməliyyatdır, mürtəce bir əməliyyatdır. Mən bu fikirdəyəm və buna belə də qiymət lazımdır" (sitat Naxçıvan Ali Məclisinin 1990-cı il 20 noyabr tarixli sessiyasının stenoqramından götürülüb). Heydər Əliyevin təklifi ilə Ali Məclis 1990-cı il noyabrın 21-də müvafiq qərar çıxardı və Azərbaycan SSR Ali Sovetindən tələb olundu ki, "ən qısa müddətdə həmin məsələni parlamentin müzakirəsinə çıxarsın".

Heydər Əliyev 1991-ci ilin yanvarında Azərbaycan Ali Sovetinin sessiyasında da öz etiraz səsini qaldırdı. Həmin ilin iyununda 20 Yanvar hadisələrinə etiraz əlaməti olaraq Moskvada Kommunist Partiyasından çıxmaq haqqında bəyanat verdi. Bəyanatda göstərilirdi ki, belə bir addım atmasının səbəbi Kommunist Partiyasının rəhbərliyi tərəfindən Azərbaycan xalqının başına gətirilmiş bəla və Qarabağ məsələsi ilə xalqına olan təcavüzdür. Həmçinin 20 Yanvar faciəsi, Azərbaycan xalqına qarşı hərbi təcavüz və həmin təcavüzün üstünün açılmamasıdır.

Nəhayət, Heydər Əliyev Azərbaycanın prezidenti seçildikdən dərhal sonra onun təşəbbüsü ilə bu məsələ Milli Məclisin müzakirəsinə çıxarıldı. 20 Yanvar hadisələrinə yalnız 4 ildən sonra, 1994-cü ilin yanvarında hüquqi-siyasi, mənəvi qiymət verildi.

20 Yanvar faciəsindən 15 il ötsə də, heç nə unudulmur, heç nə yaddan çıxmır. Tarixin səhifələrindən də heç nəyi silib atmaq mümkün deyil. Kimin nə dərəcədə vətənpərvər olduğuna, Vətənini və xalqını necə sevdiyinə hə-yat və ulu tarix özü qiymət verir.

**E.QƏDİRLİ**

**“Respublika”.** - 2005. – 20 yanvar. - N 15. - S. 3.

## Xalqın qəhrəmanlıq günü

*Şəhidlər və şahidlər*

**1990-cı ilin qışında, Şərqin astanasında qədim Odlar Yurdunda vəhşi bir qəddarlıqla törədilmiş Qanlı 20 Yanvar faciəsindən , həm də milli oyanış və özünüdərketmə xarakterli nikbin faciədən 15 il, yaxud 5,479 gün keçir...**

Azərbaycan xalqının uzun müddət apardığı aşkar-gizli milli azadlıq mübarizəsi tarixi yolunun yeni bir oyanış mərhələsi kimi səciyyələnən 20 Yanvar hadisəsi və onun Şəhidləri, son 15 ildə müstəqil dövlətçilik salnaməmizin şərəfli səhifəsinə, ləyaqət-qeyrət rəmzinə, müqəddəs and yerinə və ziyarətgaha çevrilmişdir.

"Həyat üçün doğulmuşuq, Vətən üçün ölməliyik!" ucalığına yetişmək, bu Torpağa övladlıq borcunu qaytarmaq mümkün deyildir.

Həqiqətən, bu dəhşətli çətin gündə bütövlükdə millətimiz və hər birimiz üçün əsl imtahan oldu. Çoxmillətli və müxtəlif dilli, lakin "Vahid məfkurəli, kommunist ideologiyalı" nəhəng bir "Şər imperiyasının" çökdüyü vaxtda, millətimiz tarixi zərurət kimi qarşıya çıxan taleyüklü suallara cavab verməli idi: Biz kimik, nə istəyirik, hansı inkişaf yolunu seçib irəliləməliyik?

Qanlı Yanvar hadisələri zorakılıq və amansızlıq üzərində qurulmuş ədalətsiz və riyakar sistemin, insanların xofu və silah gücünə əsarətdə saxlamağa çalışan çürük imperiya ağalığının iflasının habelə labüd süqutunun ilahi xəbərdarlığı idi.

O günlərdə İngiltərədə nəşr olunan "Qardian" qəzeti 22 yanvar 90-cı il sayında, Azərbaycanda və Bakıda baş verən hadisələrə şərh verərək yazmışdır ki, bu islam dünyasına qarşı növbəti terrordur. Bu Hərbi əməliyyatı əsassız, qorxu və səksəkənin nəticəsi kimi izah etmək olar. Ordunun şəhərə hücumu zamanı günahsız adamların, (cavanların, qadınların, uşaqların) vəhşicəsinə güllələnməsi, tankların özlərini onların altına atan gəncləri basıb keçməsi, tonqallar ətrafında qızınan azərbaycanlıların üzərinə hücuma keçərək, cəsədlərinin tanınmaz hala salınması bütün dünya ictimaiyyəti tərəfindən pislənməlidir".

"Nyu-York-Tayms" qəzeti 18 fevral 90-cı il tarixli sayında yazmışdır: "Bakının işğalından sonra xalqını sevən hər bir azərbaycanlıda Moskvaya və Qorbaçova nifrət hissi oyanmışdır... Vaxtilə üzüyola bir müstəmləkə olan Azərbaycan, indi öz suveren, demokratik hüquqlarını tələb edir. Bakıda adi satıcıdan tutmuş, hakimiyyət nümunələrinə qədər demək olar hamı buna inanır ki, Moskva Azərbaycanın suveren hüquqlarını tələb etməsinin qarşısını almaq üçün Bakıya qoşun göndərdi. ABŞ-ın "Baltimor San" qəzeti 23 yanvar 1990-cı il tarixi sayında, Kremlin "millətçi üsyanı" yatırmaq adı altında bəhanəsinin əsassız olduğunu göstərərək yazmışdır: "Bu qərar, Konstitusiyanın kobud surətdə pozmaq, eyni zamanda suveren respublikanın hüquqlarını tapdalamaqdır".

Eyni zamanda xarici mətbuat sovet rəhbərlərinin guya "Azərbaycanda İslam Respublikasını yaratmaq qərara almışdır", bəhanəsini tənqid edərək soruşurdu: "Sovet rəhbəri bunu deyərkən görəsən, əlində tutarlı əsası vardımı?". İslam amili ilə bağlı "Nyu-York Tayms" qəzeti müxbirinin sualına Şəhidlərin dəfnini təşkil etmiş və xalq tərəfindən yaradılmış ictimai komissiyanın cavabında deyilmişdir: "Şəhidlər Xiyabanı"nda azərbaycanlılarla yanaşı ruslar, yəhudilər, tatarlar, ləzgilər də dəfn edilmişlər... Bizi "İslam fundamentalizmində" günahlandırırlar... Biz fundamentalist olsaydıq, yəhudiləri və rusları burada dəfn edərdikmi?".

Bakıda litvalı jurnalistin hərbçilər tərəfindən qətlə yetirilməsi, Salyan kazarmasındakı qanlı toqquşma, Bakı limanındakı qarşıdurma, xarici tələbələrin həlak olması, şəhərin müxtəlif hissələrindən tapılmış insan cəsədləri izləri şəhidlərin dəfnində törədilmiş ciddi maneələr Sumqayıt yolunda ali və elmi işçilərin hərbçilərin qurbanı olması, kütləvi həbslər, təqiblər işğalçı ordunun əsgər və zabitlərinin özbaşınalığı, həlak olanlar, yaralananlar, həbs edilənlər haqqında məlumatların gizlədilməsi, yaxud saxtalaşdırılması faktları xarici ölkələrin kütləvi informasiya nümayəndələrində təəccüb, qəzəb doğuraraq, Qorbaçov başda olmaqla sovet demokratiyasının habelə "yenidənqurmasının" əsl mahiyyətini ifşa etmişdir.

İstər o vaxtkı imperiya nökərləri, istərsə sonrakı dövrün müəyyən dairələri, istərsə də daha sonrakı qısqanc nadanlar, XX əsrin 70-80-cı illərində Azərbaycanda dalğavari surətdə, müxtəlif formalarda meydana çıxan milli azadlıq hərəkatı meyllərini, onun sosial bazasını, fəal iştirakçılarını, tanınmış liderlərini, 20 Yanvar hadisələrinin doğuran səbəbləri, onun ideoloji köklərinin son nəticələrini gözdən salmağa cəhdlər edirdilər. Onların fikrincə, guya özümüzü bir qədər "təmkinli və ağıllı" aparsaydıq, heç Qara yanvar baş verməzdi. Digərləri isə iddia edirlər ki, Azərbaycanda Milli Azadlıq Hərəkatı olmasaydı belə sovet ittifaqı dağıldıqdan sonra o müstəqillik əldə edə biləcəkdir. Bu səriştəsiz elmi-nəzəri baxışlar və Milli Azadlıq Hərəkatı tarixinə ögey münasibətdən başqa bir şey deyildir. Bu tamamilə qəbuledilməzdir.

Artıq tarixə çevrilmiş həmin proseslərə qərəzsiz mövqedən yanaşsaq, ardıcıllıq, müqayisəlik, məntiqli mühakimə prinsipləri müstəvisində düşünsək, şübhəsiz nə qədər ağır və kədərli səslənsə də 20 Yanvar faciəsinin labüdlüyü nəticəsinə, bu acı həqiqətin zəruriliyi qənaətinə gəlirik. O, dövrdə Alma-ata, Tbilisi, Vilnüs, Moskva, Orta Asiya, Krım, Qafqazda cərəyan edən mürəkkəb ictimai-siyasi hadisələr silsiləsini ayrı-ayrı müttəfiq respublikaların ittifaqdan ayrılmaq səylərini, nəzərə alsaq Bakı qırğınının xüsusi hazırlandığı aydın olar.

Azərbaycan Xalq Cəbhəsi və onun liderlərinin başçılığı ilə milyonlarla çıxış etdiyi möhtəşəm mitinqlər, kütləvi nümayişlər imperiya siyasətinə qarşı kəskin şüarlar Dağlıq Qarabağ münaqişəsində Moskvanın açıq himayədarlıq meyllərinə güclü etiraz dalğası imperiya rəhbərlərində ciddi təşviş yaranmışdı.

Bakı və Azərbaycan öz geosiyasi mövqeyi, hərbi strateji əhəmiyyəti, zəngin sərvətləri, dini mənəvi dəyərləri, baxımından düşünülüb tapılmış imperiyanın ən yüksək dairələrindən razılaşdırılmış narahat "əsəb nöqtəsi" kimi seçilmişdir ki, cinayətkar qüvvələrin "şər çanağı", məntiqi olaraq bizim başımızda sındırılmalı idi.

Lakin bu həm də xalqın özündəki, onun şərəf və ləyaqətinin ucalığı, gələcək mübarizə zəruriliyinin daha da möhkəmlənməsi milli-istiqlal uğrunda son qələbəyə qədər "olum ya ölüm" sınaqlarına hazır olmaq ideyasının formalaşması mənasında - nikbin bir faciə olub. Azərbaycanda imperiya ağalığına azadlıq hərəkatının yeni mərhələsinə güclü təkan verdi.

Azərbaycanda Milli Azadlıq Hərəkatının müxtəlif mərhələlərinin konkret pillələri kimi Mərkəzin birtərəfli ayrı seçkiliyi ilə fərqlənən ictimai-siyasi xəttinin səmərəsiz nəticələrinin tənqidi elmi - nəzəri cəhətlərinin vətənpərvər qüvvələrin gizli ölkələrinin formalaşmasının, xarici dairələrin havadarlığı ilə Dağlıq Qarabağ separatçılarının qanuna ziddi ideyalarına qarşı genişlənən kütləvi etiraz mitinqlərini azərbaycanlı ailələrin Ermənistan ərazisindən zorakılıqla qovulub çıxarılması prosesinin doğurduğu haqlı etiraz nümayişləri , ölkə sərhədlərinin pozulması faktlarının qarşısının alınmasını əhali arasında yaratdığı qəzəb dalğasını, Qarabağı qorumaq üçün yerli könüllü özünümüdafiə dəstələrinin təşkili, tarixi 17 noyabr meydan hadisələrini, Bakı şəhərində fövqəladə hadisələrin elan olunmasının yaratdığı əks-sədanı qanlı yanvar hadisələri ərəfəsində Bakıda qəsdən düşünülmüş qərəzli, milli qarşıdurma fitnəkarlığını, nəhayət 20 Yanvar faciəsinin və onun Şəhidlərinin ümumxalq dəfn mərasimini xatırlamaq zəruridir.

Qeyd etməyi lazım bilirəm ki, 20 Yanvar şəhidlərinin dəfninin təşkil etmiş İctimai Komissiyanın rolu bəzən qabardılır, bəzi hallarda isə bir növ unudulur, yaxud kimlərinsə fəaliyyəti önə çəkilir, başqalarının səyləri kölgədə qalır. Bu cür kənarlaşmalara yol verməmək, müxtəlif iradları cavablandırmaq üçün bildirməliyəm ki, bu çətin günlərdə yerli rəsmi dairələrin Mərkəzdən aldıqları göstərişə əsasən, hərbçilərin Bakıda törətdikləri qanlı qırğının izlərini itirmək məqsədilə 20 Yanvar şəhidlərinin mütəşəkkil surətdə, bir yerdə torpağa tapşırılmasına imkan verilməməli idi.

Mərkəzin bu tapşırığını yerinə yetirmək üçün hərbi komendantlıq və yerli hakimiyyət qurumları fövqəladə vəziyyət elan edilməsini əsas gətirərək, insanlara hədə-qorxu gəlir, zorakılıq edir, həbslər keçirir, Dağüstü parkın "qəbiristanlığa çevrilməsinə" yol verilməyəcəyini bildirir, ictimaiyyət arasında aşkar xof əhval-ruhiyyəsi, çaşqınlıq, psixoloji düşkünlük mühiti yaratmağa çalışırdılar.

Belə bir anda, ictimai Dəfn Komissiyasının işini də bir qrup tanınmış adamların "müəyyən səbəblər" üzündən iştirak etməkdən imtinaları, şübhəsiz vəziyyəti xeyli mürəkkəbləşdirdi. Təcili məsləhətləşmələr və təkliflərdən sonra ilk varianta 7 nəfər, lakin işin həcmi habelə əhatəliyi ilə bağlı 11 nəfərdən ibarət tərkib

müəyyənləşdirilib, xalqa elan olundu. Dəfn Komissiyasına - din xadimi və fəhlə, jurnalist və mühəndis, inşaatçı və elmi işçi, müəllim və alim kimi müxtəlif ictimai təbəqələrə mənsub ayrı-ayrı peşə-sənəd sahibləri daxil idi.

Bütün məsuliyyəti ilə bildirirəm ki, 20 Yanvar faciəsindən sonra belə bir müstəqil qurumun yaradılması konkret şəraitin məntiqi nəticəsi kimi tarixi zərurətdir orada kimlərinsə xalqın nəzarəti altında fəaliyyəti isə təsadüfü xarakter daşımışdır. Hərçənd ki, hər təsadüfdə zərurətin müəyyən izləri özünü təzahür etdirir.

Şəhidlərin dəfnini təşkil etmiş İctimai Komissiya, xalq tərəfindən onun üzərinə qoyulmuş məsuliyyətli vəzifəni, 100 minlərlə insanın fədakar köməyinə arxalanaraq, aşkarlıq şəraitində məsləhətləşmələr yolu ilə, tövsiyələri diqqətlə dinləməklə, tənqidi iradları qəbul etməklə qazandığı el inamı sayəsində çevik bir ardıcıllıqla həyata keçirməyə nail olmuşdur. "Şəhidlər Xiyabanı"nda yaradılmış qayda-qanun, səliqə-sahman, öz göz yaşlarını qəlbinə axıdan xalqda mübarizə, ləyaqət vüqarı doğurduğu kimi, yeni təxribatlar törətməklə bu möhtəşəm ziyarət axınını pozmağa çalışan hərbçilərdə müəyyən yerli dairələrdə anlaşılmaz təəccüb və çaşqın bir heyrət doğurmuşdur.

Tanrı Dərgahında müqəddəs sayılan Şəhidlərin əməlləri unudulmaz, adları tarixdən silinməz, ruhları ölməzdir.

Allah Şəhidlərə rəhmət eləsin. Amin!

**Hacı Qüdrət Əbdülsəlimzadə**
İqtisad elmləri doktoru, professor

**“Ədalət”.** - 2005. – 20 yanvar. - N 13. - S. 3.

## Qəhrəmanlıq salnaməsinin parlaq səhifəsi

***Belə səhifələri heç nə silə bilməz***

**Qəhrəmanlıq və faciə... İlk baxışda bu iki məfhum bir araya sığmayan kimi görünür. Qəhrəmanlığın faciə ilə bağlılığı barədə dərindən düşündükdə isə ilkin təsəvvürlərin yanlışlığı məlum olur. Çünki bəzi hadisələr nə qədər faciəvidirlərsə, bir o qədər də şanlı qəhrəmanlıq salnaməsidirlər; bunlarda nə qədər qəhrəmanlıq varsa, bir o qədər də çox faciə görünür. Yəqin bu da bir taledir ki, Azərbaycan tarixindəki bir çox hadisələr məhz qəhrəmanlıq və faciələrin sintezi şəklində baş verib. 1990-cı ilin qanlı 20 Yanvar hadisələri kimi.**

### 20 YANVARA DOĞRU

Əslində 20 Yanvar olayları birdən-birə baş verməmişdi. Bu, uzun, eyni zamanda, ağır bir yolun son dəhşəti, XX əsrdə Azərbaycan xalqının başına olmazın müsibətlər gətirmiş Rusiya və SSRİ-nin - fərqli simalı, lakin eyni mahiyyətli iki imperiyanın yüzilliyin əvvəllərindən bəri yürütdüyü siyasətin məntiqi nəticəsi idi.

20 Yanvara 1905-07, 1918-20, 1948-53, bir sözlə, bütün əsr boyunca törədilən cinayətlər zəncirinin sonuncu həlqəsi də demək olardı. Bu sonuncu həlqəsi gerçəkləşdirmək üçün bəhanəni isə Dağlıq Qarabağda başlayan separatizm dalğası yaratmışdı. Bu barədə faktlar daha yaxşı danışır.

20 fevral 1988-ci il. Dağlıq Qarabağ Muxtar Vilayətinin Vilayət Sovetinin növbədənkənar sessiyasında "DQMV-nin Azərbaycan SSR tərkibindən çıxarılıb Ermənistan SSR tərkibinə verilməsi haqqında" qərar qəbul edilir və SSRİ Ali Sovetindən bu məsələyə baxmaq xahiş olunur.

22 fevral 1988-ci il. Erməni millətçiləri Əsgəranda toqquşma törədirlər. Nəticədə Qarabağda ilk qan tökülür - Əli və Bəxtiyar adlı gənclər qətlə yetirilir, bir neçə nəfər isə yaralanır. Bundan sonra qanlı hadisələrin sayı ildırım sürəti ilə artır. Fevralın 25-də Əsgəranda daha 2 azərbaycanlı qətlə yetirilir. Fevralın 27-28-də isə Sumqayıt təxribatı nəticəsində 32 nəfər həlak olur.

Bütün bunlara etiraz əlaməti olaraq mayın 16-18-də Bakıda izdihamlı mitinqlər başlayır. Lakin bu mitinqlər separatçıları dayandırmır. SSRİ rəhbərliyi tərəfindən dəstəklənən ermənilər daha da azğınlaşırlar. İyunun 15-də Ermənistan SSR Ali Soveti ermənilərin idarə etdiyi DQMV Xalq Deputatları Sovetinin xahişi ilə əlaqədar "Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR tərkibinə keçməsi haqqında" qərar qəbul edir.

İki gün sonra - iyunun 17-də isə Azərbaycan SSR Ali Soveti buna etiraz əlaməti olaraq "Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR tərkibinə verilməsinin qəbuledilməzliyi haqqında" qərar qəbul edir. Sentyabrın 18-dən isə ermənilər silah gücünə azərbaycanlıları Xankəndidən (o vaxtkı Stepanakert) çıxarmağa başlayırlar.

Ümumilikdə Dağlıq Qarabağ hadisələri başlanandan 20 Yanvarın astanasınadək, yəni 1989-cu ilin sonuna qədər ermənilər 216 azərbaycanlını qətlə yetirir: o cümlədən 57 qadın, 23 müxtəlif yaşlı uşağı. Bütün bunlara SSRİ rəhbərliyinin göz yumması ermənilərin daha azğın qərarlar qəbul etməsinə yol açır.

1990-cı ilin yanvarın 9-da Ermənistan SSR Ali Sovetinin sessiyasında "1990-cı il üçün DQMV-nin sosial-iqtisadi inkişaf planının 1990-cı il üçün Ermənistan SSR-in iqtisadi və sosial inkişafına dair dövlət planına daxil edilməsi haqqında" qərar qəbul edilir. Azərbaycan rəhbərliyi bu dəfə də yalnız cavab qərarı qəbul etməklə işini bitmiş hesab edir. Lakin bir qədər sərt şəkildə. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin yanvarın 10-da keçirilən iclasında Ermənistan SSR Ali Soveti sessiyasının 9 yanvar 1990-cı il tarixli qərarı "fitnəkar hərəkət", "yenidənqurma əleyhinə siyasi təxribat, suveren Azərbaycan Sovet Sosialist Respublikasının daxili işlərinə aşkar müdaxilə" kimi qiymətləndirilir, SSRİ Ali Sovetinin Ermənistan SSR Ali Sovetinin Konstitusiyaya zidd qərarlarına siyasi və hüquqi qiymət verməməsi yolverilməz hesab edilir.

Elə həmin gün SSRİ Ali Soveti Rəyasət Heyəti Ermənistan SSR Ali Sovetinin Dağlıq Qarabağa dair 1989-cu il dekabrın 1-də və 1990-cı il yanvarın 9-da qəbul etdiyi qərarların SSRİ Konstitusiyasına müvafiq olmaması barədə onsuz da kağız üzərində qalacaq qərar qəbul edir.

Təbii ki, bütün bu proseslər xalqın tarıma çəkilmiş əsəblərinə təsir etməyə bilməzdi. Ermənistan 200 min azərbaycanlını öz dədə-baba torpaqlarından zorla deportasiya etdiyi halda Azərbaycanda onlara "gözün üstə qaşın var" deyilməməsi xalqın səbr kasasını daşdırmış, gərginliyi son həddə çatdırmışdı. Xalqın səbrinin tükənməsi isə özünü çox tezliklə büruzə verdi. 1990-cı ilin 13-15 yanvar tarixlərində qəzəblənmiş kütlə Bakıda erməni talanları törətdi. Hadisələr zamanı 56 nəfər öldürüldü, 112 nəfərə isə bədən xəsarəti yetirildi. Bununla da ermənilərin Bakıdan köçürülməsi prosesi başlandı. 200 min soydaşımızın Ermənistandan köçürülməsini sükutla seyr edən SSRİ rəhbərliyi bu fakta olduqca özünəməxsus və amansız reaksiya verdi. 15 yanvar 1990-cı ildə SSRİ Ali Sovetinin Rəyasət Heyəti "Dağlıq Qarabağ Muxtar Vilayətində və bəzi digər rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında" fərman verdi. Fərmana əsasən, 1990-cı il yanvarın 15-də yerli vaxtla saat 23-dən "Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində, Azərbaycan SSR-in ona bitişik rayonlarında, habelə Azərbaycan SSR ərazisində SSRİ dövlət sərhədi boyunca sərhəd zonasında" fövqəladə vəziyyət elan olunurdu. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinə təklif edilirdi ki, əhalinin, müəssisələrin, idarə və təşkilatların təhlükəsizliyini təmin etmək üçün Bakı, Gəncə şəhərlərində və digər yaşayış məntəqələrində qadağan saatının tətbiqi də daxil olmaqla, lazım olan hər cür tədbirləri görsün.

## QANLI SƏHİFƏ

Yanvarın 19-da SSRİ rəhbəri Mixail Qorbaçov yanvarın 20-dən Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi barədə SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanını imzaladı. Fərman yalnız yanvarın 20-də səhər saat 6-7 radələrində radio ilə elan olundu. Bu vaxt isə artıq Bakı qana boyanmış, şəhərdə görünməmiş vəhşiliklər törədilmişdi. Yanvarın 19-dan 20-ə keçən gecə bir neçə istiqamətdən şəhərə daxil olan sovet qoşunları silahsız əhalini sözün əsl mənasında tar-mar etmiş, sovet cəza maşını özünün bütün amansızlığını işə salmışdı.

Təbii ki, faciənin miqyası çox böyük idi. Bunu təsəvvür etmək üçün sadəcə, Milli Məclisin "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" 29 mart 1994-cü il tarixli qərarına nəzər salmaq kifayətdir. Qərarda bildirilirdi ki, 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinə və Azərbaycanın bir neçə rayonuna keçmiş Sovet İttifaqının qoşun hissələri fövqəladə vəziyyət elan edilmədən yeridilib, dinc əhaliyə divan tutulub, yüzlərlə insan qətlə yetirilib, yaralanıb, itkin düşüb: "Sovet ordusunun, xüsusi təyinatlı dəstələrin və daxili qoşunların iri kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklərlə müşayiət edilmişdir. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışlar. Fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürülmüşdür. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda - yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdir.

Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və respublika rayonlarında 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdur. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv olmuşdur. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milis nəfərləri olmuşdur".

## 20 YANVAR FACİƏSİNİN SƏBƏBLƏRİ

Artıq yuxanda da qeyd olunduğu kimi, yanvar hadisələri birdən-birə baş verməmişdi. Prezidentin İcra Aparatının rəhbəri, fəlsəfə elmləri doktora Ramiz Mehdiyevin "Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri"

kitabında 20 Yanvar hadisələrinə səbəb olan 3 amil göstərilir. "Tarixi-məntiqi baxımdan bu amillər mərkəzin inadkar azərbaycanlıları görk üçün cəzalandırmaq istədiyini söyləməkdən daha əsaslıdır" deyən müəllif birinci amil kimi dini amili fərqləndirir: "...Azərbaycanlıların dini mənsubiyyəti Moskvanın Azərbaycanda xalq hərəkatına münasibətinin xarakterini müəyyənləşdirmiş və bu hərəkatın görünməmiş qəddarlıqla yatırılmasını şərtləndirmişdi".

İkinci amil kimi Qafqaz amili göstərilir: "Bu, Moskvanın Azərbaycana ədalətsiz, mənfi münasibətinin formalaşmasında daha mühüm olub, Rusiyanın regionda tarixi mənafeləri ilə bağlıdır".

Üçüncü amil isə milli amildir: "Faciəni şərtləndirən üçüncü amilin mahiyyəti sovet dövləti rəhbərlərinin siyasətində və təfəkkür tərzində türklərə nifrətdən ibarətdir. Bunun dərin tarixi kökləri var və o, ən əvvəl iki imperiyanın - Osmanlı və Rusiya imperiyalarının çoxəsrlik qarşıdurması ilə bağlıdır. Elə sovet rejimi də azərbaycanlılarla türklərin etnik yaxınlığından həmişə ehtiyat etmişdir".

20 Yanvarda Azərbaycan məhz bu çoxəsrlik nifrətin qurbanına çevrilmişdi: "Beləliklə, bolşevik Rusiyasının və SSRİ rəhbərliyinin Azərbaycana qarşı ədalətsiz, qərəzli münasibətinin tarixi və sosial-siyasi kökləri, dərin səbəbləri ondan ibarətdir ki, Moskvanın imperiya siyasətini şərtləndirən üç amilin hamısı - müsəlman, Qafqaz və türk amilləri bu respublikada birləşmişdi".

**ETİRAZ**

Əlbəttə ki, faciənin digər aspektləri də vardı. Elə bütün bu aspektlər də birləşmiş və nəticədə Azərbaycan öz tarixindəki ən böyük faciələrdən birini yaşamışdı. Nə qədər qəribə olsa da, bu faciəyə görə SSRİ rəhbərliyi-nə ən böyük etirazı respublikaya başçılıq edənlər yox, o vaxt Moskvada olan, bu dövr üçün artıq sovet siyasi elitasından kənarlaşdırılmış Heydər Əliyev etmişdi. 20 Yanvar faciəsi ilə əlaqədar Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində yanvarın 21-də keçirilmiş yığıncaqda Heydər Əliyev SSRİ rəhbərliyinə açıq və kəskin etiraz etmişdi: "Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində, böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı daimi nümayəndəsindən xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm. Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkə-mizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm".

Heydər Əliyev öz çıxışında ölkədə baş verənlərin lakonik, lakin dərin təhlilini vermiş, Azərbaycan rəhbərliyinin vəziyyəti sabitləşdirmək üçün heç nə etmədiyini vurğulamışdı. O bildirmişdi ki, Azərbaycana qoşun yeritməyə zərurət yox idi: "Əgər belə zərurət var idisə, orada yerləşən hərbi hissələrdən də istifadə etmək olardı. Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə bərk ayaqda Azərbaycanı qoyub qaçmış Vəzirov öz xalqı qarşısında məsuliyyət daşımalıdır. Ölkənin ali siyasi rəhbərliyinə yanlış məlumat verənlər də məsuliyyət daşımalıdırlar. Zənnimcə, ölkənin ali siyasi rəhbərliyinə vəziyyət barədə vaxtında kifayət qədər düzgün, dəqiq, obyektiv informasiyalar çatdırılmamışdır. Rəhbərlik çaşqınlığa salındığından belə qərar qəbul etmişdir. Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır".

**15-Cİ İLDÖNÜMÜ**

Hər il olduğu kimi, bu il də 20 Yanvar faciəsinin ildönümü ilə bağlı tədbirlər keçirilir. Belə ki, yanvarın 3-də ölkə prezidenti İlham Əliyev "20 Yanvar faciəsinin on beşinci ildönümünün keçirilməsi haqqında" sərəncam imzalayıb. Sərəncamda faciənin tarixi ilə bağlı bəzi məqamlara toxunulur və 20 Yanvar hadisələrinin səbəblərinin araşdırılmadığı xatırladılır: "Sovet hakimiyyətinin süqutundan və Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsindən sonra bir müddət başları hakimiyyət uğrunda mübarizəyə qarışmış Azərbaycan rəhbərləri xalqımıza qarşı törədilmiş bu ağır cinayətin səbəblərinin araşdırılması, ona siyasi-hüquqi

qiymət verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində məqsədyönlü iş aparmadılar. Onlar bu məsələdə heç maraqlı da deyildilər, çünki həmin cinayətin törədilməsinin məsuliyyəti bu və ya digər dərəcədə onların da üzərinə düşürdü. Yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinin mahiyyəti məhz onun təşəbbüsü və bilavasitə iştirakı ilə açıqlandı, onlara siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı".

Qeyd edək ki, prezidentin sərəncamında da 20 Yanvara faciə və qəhrəmanlıq prizmasından yanaşılır: "20 Yanvarda sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirdi. Azərbaycanda haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş Vətən övladları Qanlı Yanvarda xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar". Belə səhifələri isə heç nə silə bilməz. Hətta tarixin özü də...

**Araz AĞAYEV**

**“Kaspi”.** - 2005. – 20-24 yanvar. - N 13. - S. 1-2.

## 20 Yanvar – tarixin qanlı faciəsi

### *Lənətlənmiş təcavüzkarlar*

**1990 il yanvarın 19-dan 20-nə keçən gecə sovet imperiyasının Azərbaycan xalqına qarşı etdiyi təcavüzün ilk qiymətini hadisədən dərhal sonra ulu öndərimiz Heydər Əliyev verdi. İmperiyanın yeritdiyi milli siyasətə, xüsusən doğma Azərbaycana zorla qəbul etdirilmiş Dağlıq Qarabağ probleminə qarşı etiraz səsini ucaltdığına görə bütün vəzifələrdən kənarlaşdırılan, üstəlik fiziki təqiblərə məruz qalan ümummilli liderimiz həyatı üçün gözlənilən təhlükəni nəzərə almayaraq yanvarın 21-də, o sarsıntılı günlərdə Moskvadakı Azərbaycan nümayəndəliyinə gəldi, xalqının ağrılarına şərik çıxdığını bildirdi. Heydər Əliyev respublikada lazımi qədər ordu, hava və dəniz donanması, daxili işlər nazirliyinə tabe olan hərbi qüvvələr olduğu halda, Bakıya əlavə qoşun birləşmələri yeridilməsini bütöv bir xalqa qarşı qəsdən törədilən soyqırımı kimi qiymətləndirdi, bu cür qərar qəbul edən məsul insanların hərəkətlərini siyasi səhv adlandırdı. Onun fikrincə, ən böyük səhv isə bu yüksək vəzifəyə yaraşma-yan qeyri-ciddi insan olan Ə.Vəzirovun Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə seçilməsi idi. Çünki SSRİ nə qədər totalitar respublika olsa belə, respublika rəhbərliyinin razılığı olmadan Bakıya qoşun yeritməzdi, bu, xalqın tarixinə qanla yazılan faciəli akt kimi düşməzdi.**

Yanvar hadisələrinədək Alma-Atada, Tbilisidə, Vilnüsdə imperiyanın həyata keçirdiyi cəza əməliyyatları Bakı faciəsi qədər genişmiqyaslı və qəddarcasına törədilmiş qırğın deyildi. Cəllad Qorbaçov törətdiyi cinayətə görə gürcü və Litva xalqlarından üzr istədiyi halda, Azərbaycan xalqından üzr istəməyi belə lazım bilməmişdi.

SSRİ Prokurorluğu tərəfindən 1990-cı il yanvarın 28-də Bakı hadisələrini araşdıran istintaq qrupunun yaradılması təsadüfi deyildi. Öz xalqına qarşı tarixində. görünməmiş terrora yol verən sovet dövləti Azərbaycanın paytaxtında sivil dünyanın gözü qarşısında törətdiyi, bəşəriyyətə, insanlığa, humanizmə zidd hadisənin mahiyyətinin guya açılmasında, guya cinayətkarların araşdırılıb cəzalandırılmasında "maraqlı" idi. SSRİ-nin müxtəlif regionlarından həmin qrupa istintaqçılar dəvət edildi, o cümlədən Gəncə Qarnizonu Hərbi Prokurorluğunun müstəntiqi kimi mən də 20 Yanvar hadisələrini araşdıracaq istintaq qrupunun üzvü təyin olundum. Qrupun fəaliyyəti sovet ordusu hissələrinin Bakıda törətdiyi cinayətlərə birmənalı bəraət qazandırmaq istiqamətində idi və bu, şübhəsiz, SSRİ-nin siyasi rəhbərliyinin göstərişi idi. Məlumdur ki, artıq respublikanın rəhbərliyi dəyişmişdi, Azərbaycan xal-qının faciəsi fonunda hakimiyyətə yiyələnmiş yeni iqtidar görüntü yaratmaq naminə ölkəyə gəlmiş yüzlərlə müstəntiqə konkret cinayət işi üzrə obyektiv hüquqi araşdırmalar aparılması, düzgün qərar qəbul edilməsi üçün heç olmasa öz tövsiyələrini verə bilərdi. Amma bu olmadı. Ona görə də istintaq qrupu hərbçilərin şəhərə daxil olmasını, bu zaman silah işlətməsini qeyri-ciddi olaraq belə əsaslandırırdı ki, guya Bakıda qiyam qaldırılıb, guya qiyamı yatırtmaq üçün paytaxta daxil olan qoşunlara silahlı müqavimət göstərilib, guya hərbçilər məcburiyyət qarşısında qalaraq atəş açıblar. İstintaq qrupu hadisələr zamanı xəsarət alan hərbçilərdən ifadə yolu ilə sübutlar toplamaq istəyirdilər ki, guya "ekstremist azərbaycanlılar" onlara silahlı müqavimət göstəriblər. Güc strukturlarının o vaxt qüvvədə olan əsasnamələrinə görə onların bütün hərəkətləri qanunla müəyyənləşmişdi və bu qanundan kənara çıxmaq tribunalla nəticələnirdi. Bakıda isə Qorbaçovun göstərişi, güc nazirləri Yazovun, Bakatinin, Kryuçkovun bilavasitə başçılığı ilə hərbi cinayət baş vermişdi - qadınlar, uşaqlar, qocalar həlak olmuşdu və onların heç birini "silahlı müqavimət göstərən ekstremist azərbaycanlı" siyahısına salmaq mümkün deyildi. Məhz bu səbəbdən cinayət işini yekunlaşdırmaq, hərbçilərin mülki əhaliyə qarşı silah işlətməsini əsaslandırmaq, hadisəyə siyasi rəng vermək cəhdi baş tutmadı. Fevralın ortalarında işi bölmələrdə, ayrı-ayrı hadisələrə qiymət verməklə davam etdirdilər. -

"Xəzər" kinoteatrının qarşısındakı və Sumqayıt yolundakı hadisələr icraatımda olarkən çoxlu şahid dindirmələrinə və texniki ekspertizanın rəylərinə əsasən müəyyənləşdirdim ki, hər iki cinayətdə bilavasitə hərbçilər günahkardırlar. Tank Azərbaycanın görkəmli alimlərini aparan maşının üstündən qəsdən keçmişdi,

dörd nəfərin qətlə yetirildiyi bu hadisəyə hansısa bəraət donu geyindirmək mümkün deyildi. Çünki müvafiq qanun-vericiliyin hərbi maşın karvanının necə getməsi, məsafənin nə qədər saxlanılması və s. barədə müddəaları açıq-aşkar pozulmuşdu. "Xəzər" kinoteatrının qarşısında taksi maşının gülləbaran edilməsini, nəticədə bir sərnişinin həlak olmasını isə guya maşının texniki nasazlığına görə güclü səs verməsini silah işlədilməsi ehtimalına qarşı edilən adekvat addım kimi qiymətləndirirdilər. Ümumiyyətlə, Yanvar hadisələrində hərbçilər tərəfindən özlərinin tabe olduğu nizamnamə qanunvericiliyi ciddi şəkildə pozulmuşdu. Təəssüf ki, araşdırmaların xalqın pozulmuş hüquqlarının bərpası istiqamətində getməsinə dəstək vermək əvəzinə, Azərbaycanın siyasi rəhbərliyinin istintaqın obyektiv getməsindən narazı qaldığını öz üzərimdə hiss etdim. Azərbaycan tərəfindən istintaq komissiyasının rəhbərinə istintaq işinin nəticələrini təqdim edərək bildirdim ki, hərbçilərin cinayətkar olduğu sübut edilib. Bir gün sonra məni təcili Nasosnu hərbi aerodromundan Tbilisiyə yola saldılar. Zaqafqaziya Hərbi Dairəsinin prokurorluğunda icraatımda olan işləri tələb etdilər, Xankəndi istintaq qrupunun tərkibinə salaraq Bakıdan uzaqlaşdırdılar. Sonralar öyrəndim ki, azərbaycanlı müstəntiqlər bəraətedici əsaslarla mənim apardığım həmin cinayət işlərinə xitam veriblər.

1992-ci il fevralın 14-də artıq müstəqil dövlətin qurumu kimi respublika Prokurorluğu tərəfindən bu cinayət işinin istintaqı aparılarkən mən də hərbi cinayətlər üzrə mütəxəssis kimi həmin qrupun tərkibinə daxil edildim. SSRİ-nin dağılması ilə əlaqədar bir sıra mühüm sənədlərin Moskvaya aparılaraq məhv edilməsi, imperiyada rəhbər vəzifələr tutan şəxslərin dindirilməsinin mümkün olmaması və s. çətinliklər istintaqın obyektiv, hərtərəfli aparılmasına mənfi təsir göstərirdi. 20 Yanvar hadisələrində siyasi amillər həddindən çox olduğundan hüquqi qiymət verilməsi çox çətin idi. Ona görə istintaq qrupu belə qənaətə gəldi ki, 20 Yanvar faciəsini siyasi amillərlə bağlamadan baş vermiş hadisə hərbi cinayət kimi xarakterizə edilsin. Hərbi cinayətin baş verməsinə şərait yaradan, rəvac verən siyasi rəhbərlər o zaman qeyri-ixtiyari cinayət məsuliyyətinə cəlb olunmalı idilər. 1993-cü ilin əvvəllərində biz operativ hərbi-taktiki ekspertiza təyin etdik. SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri M.Qorbaçovun səhv siyasi qərar qəbul etməsi bir yana, bəs hərbçilər, onlar Bakıya daxil olarkən mövcud qaydalara əməl ediblərmi? Hər bir əsgərin, zabitin, rota komandirinin...şəhər, səhra, dağ mühitində hərəkətləri, hətta bu hərəkətlərin yerli əhaliyə izahının forması keçmiş imperiyanın qoşun birləşmələrinin hərbi nizamnamələrində açıq-aydın, dəqiq reqlamentləşdirilmişdi. SSRİ Ali Soveti tərəfindən qanun şəklində təsdiq olunan bu normativ-hüquqi aktlara əgər Bakı hadisələrində bir əsgər riayət etməyibsə, ümumiyyətlə, qoşunların şəhərə daxil olması kütləvi qırğınlara səbəb olubsa, demək, hərbçilərin cinayətkarlığı danılmazdır. Əgər sovet əsgərləri qanuni hərəkət etmişdisə, onda məktəbli qız niyə həlak olmalı idi, öz mənzilinin eyvanına çıxan, pəncərədən baxan yaşlı qadın nə üçün güllə yarasından xəsarət alaraq ölməli idi? Həmin vaxt Bakıya qoşun yeridilməsi kimi qanunsuz göstəriş qanunların kobudcasına pozulması ilə icra edilmişdi. Adi yol-hərəkət qaydaları pozulmuşdu. Əhali şəhərə gücləndirilmiş hərbi texnika və heyət daxil olması barədə xəbərdar olunmamışdı. Sübut olundu ki, hərbçilərin heç biri güllə xəsarətləri almamış, onlara qarşı şəhərdə silahlı müqavimət göstərilməmişdi. 20 Yanvar faciəsinin kütləviliyini təmin edən, ağrılarını daha da artıran hərbçilərin tabe olmalı olduqları qanunları nümayişkaranə pozmaları idi. Əgər hərbçilər, qanunsuz göstərişi qanun çərçivəsində icra etsəydilər, bu qədər çox şəhid verilməz-di, yaralananlar, itkin düşənlər bu qədər çox olmazdı, şəhər dağıntılara məruz qalmaz, xalqın sinəsinə bu qədər dərin dağ çəkilməzdi. Əlbəttə, onların hərəkətlərinə nəzarət etməli olan yerli hakimiyyət orqanlarının məsuliyyətsizliyi də hiddət doğurur. Onların sovet qoşunlarını dəvət etmələri bəs deyilmiş, bu dəvət reallaşandan sonra hərbçilərin yerli qurumlarla əməkdaşlığı qanlı cinayətin geniş miqyasda baş verməsinə səbəb olmazdı. Respublikanın rəhbərləri, o cümlədən Ə.Vəzirov, A.Mütəllibov, Azərbaycan KP MK-nın üzvləri, Nazirlər Sovetinin vəzifəli şəxsləri Bakı şəhərinə qoşun yeridilməsinə qarşı etirazlarını bildirməmiş, sovet hərbi kontingentinin müxtəlif öyrədilmiş vəhşi hissələri şəhərə daxil olduqdan sonra da kütləvi qırğının qarşısını almaq üçün heç bir tədbir görməmişdilər. O vaxtkı respublika prokuroru İ.İsmayılov xalq deputatı kimi Azərbaycan Ali Sovetinin 22 yanvar 1990-cı il tarixli fövqəladə sessiyasında iştirak etsə də, sovet qoşunlarının hərəkətlərinə prinsipial münasibət bildirməmişdi. Həmin gün prokurorluqda keçirilən iclasda isə İ.İsmayılovla yanaşı, onun müavinləri M.Babayev və M.Cəfərquliyev, eləcə də kollegiya üzvləri Bakıya qoşun yeridən İttifaq hökumətinin qərarını müdafiə edərək

kütləvi qırğını pisləyən prokurorluq əməkdaşlarına qarşı qərəzli mövqe tutmuşdular. Baş prokuror Bakıda qırğın törədilməsinə razılıq verən Azərbaycanın siyasi rəhbərliyini ittiham etmək əvəzinə istintaqın sovet qoşunlarına bəraətedici əsaslarla başa çatmasına çalışmışdı. Azərbaycana rəhbərlik edənlərin heç biri - nə dövlət orqanlarının başçıları, nə də güc strukturlarının səlahiyyətli nümayəndələri həmin gecə iş yerində deyildi, hamısı qaçıb evində, bağında gizlənmiş, yanvarın 19-da bütün günü DTK sədri V.Hüseynovun yanında olan, gecə Bakı şəhərində yerləşən 4-cü ordunun qərargahından Moskvaya qaçan Ə.Vəzirovun hərəkətlərindən nümunə götürmüşdü. Heç kim ekstremal şəraitdə vəzifə borcunu yerinə yetirmək barədə düşünməmişdi. Nəticədə sovet qoşunları Bakıda özlərini tam sərbəst hiss etmiş, onların hərəkətlərini məhdudlaşdıran yerli məsul şəxs və göstəriş olmadığından daha azğın hərəkətlər etməkdən çəkinməmişdilər.

İmperiyanın xalqımıza qarşı törətdiyi və analoqu ol-mayan terror aktı kimi dəyərləndirilən 20 Yanvar hadisələri zamanı Azərbaycanın siyasi və hərbi rəhbərliyində təmsil olunan şəxslərin səhlənkar hərəkətlərinə acımamaq olmur. Əgər o dövrdə ölkəyə rəhbərlik edənlər Azərbaycan xalqının iradəsini ifadə etsəydilər, vətəndaşlarımızın azadlıq və suverenlik uğrunda mübarizəsinə səs verərək imperiyanın yeritdiyi siyasətə etirazlarını bildirsəydilər, belə faciə baş verməzdi. 20 Yanvar hadisələri zamanı Azərbaycana rəhbərlik edənlərin hərəkətlərini soyqırımına bərabər cinayət kimi də qiymətləndirmək olar. Nə MDB miqyasında, nə də dünya tarixində öz xalqına qarşı bu cür xəyanət edənlərə rast gəlinməyib. Cinayət qanunvericiliyində bu cür halların məsuliyyətə cəlb edilməsi üçün nəzərdə tutulan cəzalar belə, öz xalqına qarşı törədilən xəyanətə bərabər deyil. Odur ki, Ə.Vəzirovun, A.Mütəllibovun, V.Hüseynovun cinayət məsuliyyətinə cəlb edilmələri barədə qərarlar təskinedici olsa da, demək istəyirik ki, belələrinin məsuliyyəti daimi olacaq. 20 Yanvar faciəsində bilavasitə əli olanlar, yaxud vəzifəsini unudub gözləmə mövqeyi tutanlar, adi vətəndaşlıq borcunu unudanlar xalqın mühakiməsindən qaça bilməyəcək.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevədək bir-birini tez-tez əvəz edən hakimiyyətlərin heç biri faciəyə siyasi-hüquqi qiymət verilməsində maraqlı olmayıb. AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə də 20 Yanvar faciəsinə münasibət dəyişməyib. 1993-cü il yanvarın 13-də şəhid ailələrinin nümayəndələri ilə keçirilən görüşdə hadisələrə siyasi-hüquqi qiymət verilməsi tələbi bir neçə dəfə irəli sürülsə də, Əbülfəz Əliyev bu barədə bir kəlmə də danışmayıb. 1990-cı il yanvarın 22-də respublika Ali Sovetinin fövqəladə sessiyasında yaradılan deputat-istintaq komissiyası da iki il işlədikdən sonra az qala faciənin törədilməsində iştirak edənlərə haqq qazandıran qərar qəbul edib.

Yalnız görkəmli dövlət xadimi Heydər Əliyev ilk dəfə olaraq faciəni soyqırım, təcavüz adlandıraraq cinayətkarların cəzalandırılmasını tələb etdi, müstəqil hüquqi, dünyəvi, demokratik dövlət quraraq torpaqlarımızın bütövlüyü və azadlıq uğrunda şəhid olanların xatirəsini uca tutdu. Ulu öndər Heydər Əliyev deyirdi: **"1990-cı il yanvar ayının 20-də Azərbaycan xalqına qarşı edilən hərbi təcavüz kimi qəddarlıq 70 illik tarixdə heç vaxt heç bir ölkəyə, heç bir respublikaya qarşı edilməmişdir. Bu, bir tərəfdən, bizim xalqımıza qarşı ədalətsizliyi bir daha nümayiş etdirdi, ikinci tərəfdən də təəssüflər olsun ki, o illər Azərbaycanı idarə edən şəxslərin millətini, Azərbaycan xalqının milli mənafelərini qoruya bilməməsinin nəticəsi oldu. Elə onlar da bu təcavüzün iştirakçıları oldular və bunun iştirakçısı kimi də bütün xalq tərəfindən lənətləndilər və cəzalandırıldılar".** Bəli, Azərbaycan xalqının böyüklüyü onda oldu ki, o dəhşətli qırğından sarsılmadı, müstəqillik uğrunda mübarizəsini daha inamla, daha qətiyyətlə aparmağa başladı. Azərbaycan xalqının böyüklüyü onda oldu ki, imperiya tarixində ilk dəfə olaraq böyük bir dövlətin başçılarını "faşist" adlandırdı, şəkillərini yandırdı, ittiham etdi, faciəni törədənlərin adlarını dünya miqyasında açıqlamaqdan çəkinmədi. Nə Pribaltika respublikalarında, nə də imperiyanın cəza əməliyyatları həyata keçirdiyi digər müttəfiq respublikalarda etiraz dalğası bu qədər kütləvi, açıq-aşkar xarakter almadı. Azərbaycan xalqı faciədə birbaşa, yaxud dolayısı yolla iştirak edənlərin hamısından, - istər sovet dövlətinin rəhbərliyində, istərsə də Azərbaycanın hakimiyyət orqanlarında təmsil olunmasından asılı olmayaraq, - birdəfəlik üz döndərdi, onları lənətiənmiş hesab etdi...

**İlqar Qılıcov,**
**Milli Məclisin deputatı**

**“Azərbaycan”.** - 2005. – 20 yanvar. - N 15. - S. 3.

## Azərbaycan xalqı verdiyi qurbanları heç zaman unutmur, onların xatirəsini daim əziz tutur

**Xalqımızın qan yaddaşına əbədi həkk olunmuş Qanlı Yanvar faciəsindən 15 il ötür. 20 Yanvar faciəsi onun şahidi olduğu nəslin hər bir nümayəndəsinin doğum və ölüm anı kimi yaddaşlarda əbədi qalacaq. Çünki imperiya buxovundan azad olmağa can atan bir məmləkətin paytaxtının yuxusunun ərşə çəkildiyi o soyuq, şaxtalı qış gecəsi neçə-neçə soydaşımız qanına qəltan edildi. O müdhiş gecə hər biri-miz qəfil namərd gülləsinə tuş gələ bilərdik. Biz, sağ qalanlar isə sanki yenidən doğulduq. Doğulduq ki, xalqımızın haqlı mübarizəsini başa çatdıraq, onu uzun illər arzusunda olduğu azadlıq, müstəqillik arzusuna qovuşduraq. Bu müdhiş faciə bizim ömürlüyümüzün qanla yazılmış səhifəsi olduğu kimi, həm də xalqımızın qəhrəmanlıq salnaməsinin yadda qalan əbədi anıdır. Həmin gün xalqımızın inam və iradəsini qırmaq məqsədilə çürük sovet rejiminin Azərbaycan paytaxtında həyata keçirdiyi qətliam nəticəsində bəşər tarixində insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri baş verdi. Müsahibimiz Yeni Azərbaycan Partiyasının icra katibi Əli Əhmədovdur.**

**— Əli müəllim, xalqımızın qan yaddaşına çevrilmiş 20 Yanvar hadisəsinin baş verməsinin əsas səbəbləri nədə idi? Sizcə, bu faciədən qaçmaq mümkün idimi?**

— 20 Yanvar Azərbaycanın müasir tarixində ən qanlı olaylardan biridir. Özünün azadlığı, müstəqilliyi, demokratik ab-havaya uyğunlaşması uğrunda mübarizə aparan Azərbaycan xalqına qarşı o zamankı sovet imperiyasının rəhbərliyi tərəfindən misli görünməmiş qəddarlıq edildi, heç bir günahı olmayan çoxlu sayda Bakı sakini qətlə yetirildi. Hesab edirəm ki, belə bir qanlı olayın baş verməsinin əsas günahkarı o vaxtkı sovet rəhbərliyi idi. Ona görə ki, Bakı şəhərinə qoşunların yeridilməsi haqqında əmr məhz sovet rəhbərliyi tərəfindən verilmişdi. Nəinki əmr verilmişdi, eyni zamanda - indi artıq bu təsdiqlənmiş faktdır Bakı əhalisinə divan tutmaq haqqında da konkret olaraq sovet rəhbərliyi tərəfindən göstərişlər verilmişdi. Bakıda 20 Yanvar faciəsinin bu cür ağır fəsadlar törətməsi, çoxlu sayda insanın qətlə yetirilməsi, yüzlərlə insanın ağır bədən xəsarəti alması məhz belə bir tapşırıqla əlaqədar idi. Bəşəriyyət tarixində belə hallara çox az rast gəlmək olar ki, bir ölkənin rəhbərliyi öz vətəndaşlarına bu cür qəddar şəkildə divan tutması haqqında göstəriş vermiş olsun. Bu da keçmiş Sovetlər İttifaqı rəhbərliyinin ölkəni nə dərəcədə anormal bir üsulla idarə etməsi haqqında təsəvvürlər yaradır.

Əlbəttə, hadisələrin qarşısının alınmasının mümkünlüyü barədə suala cavab verərkən biz bir neçə məqamı nəzərə almalıyıq. Hər şeydən əvvəl, keçmiş SSRİ rəhbərliyi tərəfindən Azərbaycan xalqını və xüsusilə Bakı əhalisini cəzalandırmaq haqqında qərar qəbul edilmişdi. Yəqin ki, hansı formada olursa-olsun, bu qərar icra ediləcəkdi. Onun icrası nəticəsində də qan tökülməsi labüd idi. Bu, məsələnin bir cəhətidir. Məsələnin digər cəhəti ondan ibarətdir ki, əgər belə bir qərar qəbul edilmişdisə, həmin qərarın icrası nəticəsində tökülən qanların qarşısını müəyyən qədər almaq və yaxud bu qətİlərin, fəsadların sayını azaltmaq mümkün ola bilərdi. Ona görə də mən düşünürəm ki, o zaman Azərbaycan rəhbərliyində insanların təhlükəsizliyini düşünən, xalqın mənafeyini uca tutan şəxslər olsaydı, yəqin ki, faciənin bu qədər ağır nəticələrə gətirib çıxarmağın qarşısını almaq mümkün olardı. Biz 20 Yanvar hadisələri haqqında danışarkən mütləq bunun ayrı-ayrı tərəflərini və ayrı-ayrı iştirakçılarını nəzərə almalıyıq. O zaman 20 Yanvar hadisəsi bir yandan SSRİ rəhbərliyinin Azərbaycan xalqmı cəzalandırmaq istəyi və bu istəyin nəticəsində atdığı addımlar idisə, digər tərəfdən Azərbaycanda nəyin bahasına olursa-olsun hakimiyyətə gəlmək istəyənlərlə hakimiyyəti nəyin bahasına olursa-olsun əlində saxlamaq istəyən tərəflər arasında da rəqabət, amansız mübarizə gedirdi. Bu mübarizə də 20 Yanvar faciəsinin bu şəkildə Azərbaycanın müasir tarixinə düşməsinə gətirib çıxardı. Beləliklə, 20 Yanvar faciəsinin qarşısının SSRİ rəhbərliyi tərəfindən alınmasını gözləmək mümkün deyildi. Bu, hansı formadasa həyata keçiriləcəkdi. Ancaq

faciənin belə bir qanlı olay kimi Azərbaycanın müasir tarixinə düşməsinin səbəbini, əlbəttə ki, almaq olardı. Bundan ötrü gərək idi ki, o zaman Azərbaycanda nəyin bahasına olursa-olsun hakimiyyətə gəlmək istəyənlərlə nəyin bahasına olursa-olsun hakimiyyəti əlində saxlamağa çalışanlar arasında olan savaş bu həddə gəlib çatmayaydı. Onlar bu addımı atmaqdan çəkinməli idilər.

**— Bəs, keçmiş sovet rəhbərliyinin xalqımıza qarşı belə bir cinayəti törətməkdə məqsədi nə idi və rəhbərlik qırğının belə bir miqyas alacağım gözləyirdimi?**

— Burada biz, əlbəttə, tarixi reallıqları, tarixi prosesləri mütləq təhlil etməliyik. O zaman Sovet İttifaqı böyük bir imperiya kimi özünün son günlərini yaşamaqda idi. Sovet rəhbərliyinin, Mixail Qorbaçovun yeritdiyi uğursuz siyasət ölkəni uçuruma aparırdı və bu proses gündən-günə sürətlənirdi. Sovet rəhbərliyi ölkənin parçalanma həddinə gəlib çatdığını elə bir zamanda duydu ki, artıq bu prosesin qarşısını almaq qeyri-mümkün idi. Ona görə də o zamankı SSRİ rəhbərliyi başda Qorbaçov olmaqla artıq geriyə dönməsi mümkün olmayan prosesi əngəlləməkdən ötrü ağır faciələrə gətirib çıxaracaq addımlar atdılar. Hesab edirəm ki, Bakıda törədilən qanlı olayın başlıca səbəbi artıq uçulub dağılmaq həddinə gəlib çatmış sovet imperiyasını qoruyub saxlamaqdan ötrü atılan ən eybəcər addımlardan biri idi. Təbiidir ki, əgər bu. addımı atan insanların azacıq məntiqi və dərrakəsi olsaydı, bunun heç bir müsbət nəticə verməyəcəyini görə bilərdilər. Ancaq təəssüflər olsun ki, o zaman böyük bir imperiyanın parçalanmasına gətirib çıxaran ağılsız siyasət yürüdən Qorbaçovun artıq imperiyanın dağılmasının reallığa çevrildiyi bir dövrdə bu prosesin qarşısını almaqdan ötrü belə addımlar atmağın heç bir əhəmiyyət verməyəcəyini dərk etmək imkanı, məntiqi təfəkkürü yox idi. Ona görə də imperiyanın parçalanmasının qarşısını almaqdan ötrü, bu prosesdə sanki səbəb-kar olaraq duyduğu subyektləri, xalqları cəzalandırmaq məqsədi ilə buna bənzər bir neçə qanlı faciələr törədildi. Onların da, təəssüflər olsun ki, ən dəhşətlisi, ən eybəcəri Bakı şəhərinin, Azərbaycan xalqının payına düşmüş oldu. Mən bunu yalnız həmin amillə əlaqələndirirəm. Bundan başqa, hansısa digər obyektiv qiymət vermək mümkün deyil. O ki qaldı Bakı şəhərinin belə bir obyekt kimi seçilməsinə, təbii ki, bu da onunla bəhanə şəklində əlaqələndirilə bilərdi ki, o zaman Azərbaycanda ermənilərin torpaqlarımıza əsassız iddiaları ilə bağlı olaraq həm SSRİ rəhbərliyinə etirazları, həm də bütövlükdə haqsızlıqlarla əlaqədar xalq hərəkatı şəklində reaksiyalar ortaya qoyulmuşdu. Bu, sadəcə olaraq bir bəhanə idi ki, sovet rəhbərliyi tərəfindən əldə əsas tutularaq Bakı şəhərinə qoşun yeridilməsi və Azərbaycan xalqının cəzalandırılması haqqında çox ədalətsiz bir qərar qəbul olunsun. Azərbaycan xalqı nə vaxtsa tərkibinə daxil olduğu hökumətin rəhbərliyi tərəfindən ona qarşı törədilmiş bu cinayəti heç zaman unutmayacaqdır. Bu, Azərbaycan xalqının özünün azadlığa qovuşması istiqamətində verdiyi qurbanlardan biridir. Əlbəttə, mən onu demək istəməzdim ki, bu, azadlıq hərəkatının bir nəticəsi idi. Əslində bunu belə düşünmək, bəlkə də düzgün olmazdı. Amma hər halda mən qəti əminliklə bildirmək istəyirəm ki, 20 Yanvar faciəsinin qurbanları, günahsız insanların qətlə yetirilməsi əslində mahiyyət etibarı ilə Azərbaycan xalqının azadlığa qovuşması ilə əlaqədar olaraq verilən qurbanlar kimi qiymətləndirilməlidir.

**— Uzun müddət bu faciə əsl siyasi və hüquqi qiymətini almadı. Yalnız ümummilli liderimiz Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra faciəyə düzgün qiymət vermək mümkün oldu. Ölkənin aparıcı siyasi qüvvəsinin rəhbərlərindən biri kimi bu barədə sizin fikrinizi bilmək maraqlı olardı...**

— Əlbəttə, baş verən faciənin həm səbəbləri, həm mahiyyəti, həm də bu məsələdə günahkar olan insanlar gələcək nəsillərə tarixi faktın gerçəkliyinin çatdırılması baxımından araşdırılmalı, buna düzgün qiymət verilməlidir. Bu qiymət əsasında da Azərbaycan xalqının yaddaşında 20 Yanvar faciəsi dərindən həkk olunmalıdır. Mən məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, 20 Yanvar hadisəsinin mahiyyəti ilə əlaqədar verilən həqiqi qiymət ilk dəfə Heydər Əliyev tərəfindən verilən qiymətdir. Hadisə baş ver-dikdən bir gün sonra Heydər Əliyev Azərbaycanın Moskva şəhərindəki daimi nümayəndəliyində mətbuat konfransı keçirərək 20 Yanvar hadisəsini sovet rəhbərliyi, konkret olaraq Qorbaçov tərəfindən Azərbaycan xalqına qarşı yönəlmiş ən böyük cinayət kimi qiymətləndirmişdi. Eyni zamanda tələb etmişdi ki, tərəqqipərvər bəşəriyyət Azərbaycan

xalqına qarşı edilmiş bu cinayəti törədən insanların cəzalandırılması istiqamətində müəyyən addımlar atsın. Bu, 20 Yanvar hadisəsinə verilən ilk və ən düzgün qiymət idi.

Təəssüflər olsun ki, Azərbaycanda o zaman rəhbərlikdə olan tərəf də, hakimiyyətə gəlmək üçün onunla mübarizə aparan tərəf də bu hadisənin həqiqi mahiyyətini araşdırıb üzə çıxarmaq istəyində olmadılar. Düzdür, bununla əlaqədar müxtəlif komissiyalar yaradıldı, ayrı-ayrı qruplar formalaşdırıldı, araşdırmalar aparıldı, ancaq hadisənin həqiqi mahiyyətini ortaya qoyan heç bir qərar qəbul edilmədi. Eyni zamanda, hadisənin törədilməsində günahkar olan və bununla bağlı məsuliyyət daşıyan insanlar da üzə çıxanlmadı. Bu vəzifənin də öhdəsindən yenə də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev gəldi. Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra 1994-cü ildə Milli Məclisin xüsusi iclaslarında aparılan müzakirələr nəticəsində 20 Yanvar hadisəsinin həqiqi mahiyyəti bir daha dəyərləndirildi, bir daha bu hadisəyə siyasi qiymət verildi. Hadisənin törədilməsində səbəbkar olan həm o zamankı SSRİ rəhbərliyində təmsil olunan insanların adları konkret olaraq sadalandı, həm də Azərbaycanda 20 Yanvar hadisəsinin məhz bu şəkildə, ağır faciə formasında baş tutmasında günahkar olan şəxslərin adları açıqlandı, onlara qarşı konkret ittihamlar səsləndirildi. Milli Məclis həm siyasi məsuliyyət, həm də bilavasitə cinayət məsuliyyəti baxımından müvafiq qərar qəbul etdi.

Mən belə hesab edirəm ki, 20 Yanvar hadisəsi yalnız və yalnız Heydər Əliyevin siyasi iradəsi sayəsində özünün həqiqi siyasi qiymətini aldı. Bu qiymət də ondan ibarətdir ki, 20 Yanvar hadisəsi, qeyd etdiyim kimi, SSRİ rəhbərliyi tərəfindən Azərbaycan xalqına qarşı edilmiş ağır cinayətdir. Bu cinayətin məsuliyyətini birbaşa sovet rəhbərliyi, xüsusən də Sovet İttifaqı Kommunist Partiyasının baş katibi Mixail Qorbaçov daşıyır. Azərbaycanın özündə isə həmin faciənin baş verməsində günahkar olanlar respublikanın o zamankı rəhbərliyində təmsil olunan insanlar, nəyin bahasına olursa-olsun hakimiyyətə gəlmək istəyən Xalq Cəbhəsi təmsilçiləri və onun radikal qanadını təşkil edən şəxslər idi. Bütün bunların hamısı Milli Məclisin qəbul etdiyi müvafiq qərarda özünün tam əksini tapmışdır. Belə hesab edirəm ki, bu, 20 Yanvar hadisəsinə verilmiş ən düzgün, obyektiv siyasi və hüquqi qiymətdir.

**— Əli müəllim, sirr deyil ki, xalqımızın başına gətirilən müsibətlərə dünya dövlətləri və beynəlxalq təşkilatlar etinasız münasibət göstərirlər. Sizcə, 20 Yanvar faciəsinə beynəlxalq səviyyədə qiymət verilməsi üçün daha hansı işlər görülməlidir?**

— 20 Yanvar hadisəsi baş verən zaman Azərbaycan xalqını, məncə, mütəəssir edən, bu faciəni daha ağrılı edən məqamlardan biri də ondan ibarət oldu ki, bəşəriyyət bu qətliama etinasız yanaşdı. Biz bundan əvvəl və sonra Tbilisi və Vilnüsdə baş verən və bununla müqayisə edilə bilməyən hadisələrə beynəlxalq ictimaiyyətin nə qədər həssas yanaşdığının şahidiyik. Bütün bunların fonunda 20 Yanvar, Xocalı və digər faciələrimizə beynəlxalq ictimaiyyətin etinasız münasibəti, təbii ki, Azərbaycan xalqının qəlbini incidib. Biz o zamandan dünyada çox ədalətsiz, ikili standartların mövcudluğunun şahidi olduq. 20 Yanvar faciəsinə beynəlxalq ictimaiyyət özünün layiqli münasibətini bildirməyib. Bu faciə zamanı həlak olan insanların xatirəsinin hansısa formadasa yada salınması istiqamətində beynəlxalq təşkilatlar və beynəlxalq ictimaiyyət tərəfindən hər hansı bir addım atılmayıb, xalqımız bunun şahidi olmayıb. Bu günə qədər faciə günahkarlarının hansısa bir formada məsuliyyətə cəlb edilməsi ilə əlaqədar beynəlxalq təşkilatlar və yaxud müvafiq qurumlar tərəfindən hər hansı bir addımın atılmaması və ya tədbirin görülməsinə dair fakt söyləməkdə çətinlik çəkirəm. Bütün bunlar onu göstərir ki, dünyada bir haqsızlıq var. Dünya o zaman yaxşı idarə olunur ki, haqsızlığa qarşı öz etirazını bildirir. Azərbaycan xalqına qarşı dəfələrlə göstərilən haqsızlıqlara qarşı dünya öz etirazmı indiyədək, təəssüflər olsun ki, bildirməyib.

Nəinki 20 Yanvara, elə Dağlıq Qarabağa edilən təcavüzə də dünya uzun müddət biganəlik nümayiş etdirdi. Yalnız ulu öndərimiz Heydər Əliyevin, hazırda isə İlham Əliyevin böyük diplomatik səyləri nəticəsində Dağlıq Qarabağ münaqişəsinin acı nəticələri dünya ictimaiyyətinin və beynəlxalq qurumların müzakirə obyektinə çevrildi. Mən belə hesab edirəm ki, bu müzakirələr üçün, münaqişənin acı nəticələrinin dünya ictimaiyyətinin diqqət mərkəzinə. çevrilməsindən ötrü Azərbaycan iqtidarının bu qədər səylər göstərməsinə,

bəlkə də ehtiyac olmamalı idi. Dünya özü bu məsələyə operativ şəkildə reaksiya verməli idi, təcavüzün qarşısının alınması üçün tədbirlər görməli idi.

Azərbaycana Ermənistan tərəfindən dəfələrlə edilən təcavüzlərin, terror aktlarının, Xocalı faciəsinin nəticələrinin və günahkarlarının ortaya çıxarılıb buna siyasi və hüquqi qiymət verilməsi üçün beynəlxalq qurumlar tərəfindən müvafiq tədbirlər görülməli idi. Təəssüflər olsun ki, bütün bunların heç biri edilmədi. Beynəlxalq ictimaiyyətin diqqətinin bu məsələlərə cəlb olunması üçün Azərbaycan hökumətinin, Heydər Əliyevin, hazırda isə İlham Əliyevin titanik səylər göstərmələri tələb olundu. Bunun özü də, mən belə hesab edirəm ki, indi bizim üçün təskinlik və məmnunluq yaradan faktlar olsa da uzun müddət dünya xalqımızın faciələrinə biganə yanaşıb, buna vaxtında münasibət bildirməyib. Zənnimcə, bu amilin özü dünyada ikili standartların mövcudluğunu təsdiq edən ən bariz faktlardan biridir.

20 Yanvar faciəsi baş verərkən dünya ictimaiyyətinin buna biganə münasibətinin digər bir tərəfini Azərbaycanın o zamankı hakimiyyətinin məsələnin beynəlxalq miqyasa çıxarmaqda maraqlı olmadığında axtarmaq lazımdır. Təəssüflər olsun ki, o vaxt nə faciənin baş verməsində bu və ya digər dərəcədə günahı olan Azərbaycan iqtidarı, nə də müxalifət onun nəticələrinin beynəlxalq aləmə çıxarılması, dünya ictimaiyyətinin müzakirə predmetinə çevrilməsi, günahkarların tənbeh edilərək pislənilməsi üçün hər hansı bir ciddi, təsirli tədbirlər görmədilər.

Qarşımızda duran məsələlərdən biri ondan ibarət olmalıdır ki, Azərbaycan tarixində faciəli anlar kimi özünə yer tapmış bütün bu hallar beynəlxalq qurumların diqqətinə çatdırılsın. Dünya bu hadisələrin üstündən sükutla keçməsin. Bu məsələdə bədnam qonşumuzun, görünür, inadkarcasına apardığı təbliğat işindən də, bəlkə də, ibrət dərsi götürməliyik. Olmayan bir məsələni şişirdib plan-tar miqyaslı problemə çevirən qonşularımızdan ibrət götürüb başımıza gətirilən faciələri dünya ictimaiyyətinin diqqətinə çatdırmaq üçün təbliğat işlərini gücləndirməliyik. Ona nail olunmalıdır ki, bu cür haqsızlıqlar nəinki Azərbaycanda, hətta dünyanın heç yerində bir daha baş verməsin.

**— 20 Yanvar hadisəsindən 15 il ötsə də, onun gətirdiyi dəhşətlər və faciəli nəticələri unudulmur. Dövlət səviyyəsində hər il faciənin ildönümünün qeyd olunması üçün zəruri tədbirlər görülür...**

— Bu faciə çox ağır bir dərddir. Azərbaycan xalqı 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə, ümumiyyətlə, ayın üçüncü dekadasında çox ağır, faciəli anlar yaşadı. Təbiidir ki, bu hadisə artıq xalqımızın qan yaddaşına çevrilibdir. Azərbaycanın gələcək nəsilləri bu müdhiş faciəni heç zaman unutmayacaq. 20 Yanvar hadisəsi Azərbaycanın bütövlükdə dövlətçilik tarixinin çox vacib səhifələrdən birini təşkil edir. Bu müdhiş faciənin qurbanları Azərbaycanın müstəqilliyi, dövlətçiliyinin bərpa edilməsi yolun-da canlarım fəda etmiş, qurban vermiş insanlar kimi həmişə xatırlanacaqdır. Eyni zamanda, xalqımız bu faciəni yaddaşlarda saxla; maq üçün müvafiq tədbirlər görür. Ötən 15 il ərzində hər dəfə bu hadisə xatırlanıb, yada salınıbdır. Dövlət tərəfindən müdhiş faciənin unudulmaması məqsədilə bu hadisə fonunda Azərbaycanın böyüməkdə olan nəslinin vətənpərvərlik ruhunda tərbiyə edilməsi üçün lazımi işlər görülür. Mən deyərdim ki, 20 Yanvar hadisəsinin məhz bu konteksdə qeyd edilməsi, onun unudulmaması üçün hər il xatırlanması da Heydər Əliyev tərəfindən əsası qoyulmuş bir ənənədir.

İndi biz o müdhiş hadisənin 15-ci ildönümünü qeyd edirik. Ötən dövrdə Azərbaycanda yeni bir nəsil formalaşıb ki, həmin nəslin bu faciənin həqiqi mahiyyətini dərk etməsi üçün çox işlər görməliyik. Çalışmalıyıq ki, bu hadisənin həqiqi mahiyyəti, faciənin miqyası bütün gələcək nəsillər tərəfindən həmişə anılsın, yadda qalsın, tariximizin qara səhifəsi kimi heç zaman unudulmasın.

O qanlı faciənin 15-ci ildönümünü qeyd etdiyimiz bir vaxtda mən deməzdim ki, vurulan yaralar sağalıbdır. Əlbəttə, bu yaraların sağalması üçün on illiklər, yüz illiklər kifayət etməz. Xalqa vurulan yaralar heç zaman unudulmur, onun yaddaşına əbədi hopur, qan yaddaşına, tarixinin ayrılmaz hissəsinə çevrilir. Ancaq təəssüflər olsun ki, tarixin qara, qanla yazılmış səhifəsi olur. 20 Yanvar hadisəsi də Azərbaycan tarixinin qanlı, faciəli səhifələrindən biridir. Biz bu cür qanlı hadisələri unutmamalıyıq. Bu, bizim ümummilli, vətənpərvərlik

ruhumuzun formalaşdırılması üçün, tərbiyə edilməsi üçün gərəkli bir amildir. Bu, bizim böyüməkdə olan nəslimizin vətənpərvərlik ruhunda tərbiyə edilməsi üçün çox gərəkli bir andır.

Eyni zamanda, bizə vurulan yaralar təkcə 20 Yanvar faciəsi ilə tamamlanmır. 20 Yanvar faciəsi həm də erməni separatçılarının Azərbaycana qarşı yeritdikləri ərazi iddiaları ilə birbaşa əlaqədardır. Bu iddialar nəticəsində də Azərbaycana vurulan yaralar hələ sağalmayıb. Bir yandan Ermənistanla Azərbaycan arasında gedən Dağlıq Qarabağ münaqişəsi nəticəsində çoxlu sayda insanlarımız tələf olubdur, yaralanıb şikəst olubdur. İkinci bir tərəfdən Azərbaycanın torpaqları hələ də işğaldan azad edilməyibdir, 1 milyondan artıq soydaşımız öz ölkəsində qaçqın və məcburi köçkünə çevrilərək ağır məhrumiyyətlər içərisində yaşamaq məcburiyyəti qarşısında qalıbdır. Bütün bunların hamısı qısa bir vaxt ərzində - XX əsrin sonlarında Azərbaycana, onun xalqına qarşı törədilmiş cinayətlərdir. Bu cinayətlər bir-biri ili sıx bağlıdır. 20 Yanvar hadisəsi ilə Azərbaycana qarşı torpaq iddiaları və bu iddialar əsasında müharibənin ortaya çıxması, Xocalı soyqırımının törədilməsi, Qarakənd səmasında vertolyotu vurulması, həyata keçirilmiş çoxlu sayda terror aktı nəticəsində insanlarımızın qətlə yetirilməsi bir-biri ilə sıx tellərlə bağlı və Azərbaycan xalqına qarşı çevrilmiş cinayət hərəkətləridir ki, bunların hamısı birlikdə müasir Azərbaycan tarixinin qanlı səhifələrini təşkil edir.

Azərbaycan bu qədər zərbələrə, yaralara tuş gəlsə də ölkəmiz, xalqımız bütün ağır sınaqlardan çıxa bilibdir. Ölkəmiz dövlət müstəqilliyini əldə edib, dövlətçilik ənənələri formalaşıbdır. Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər ərzində həyata keçirilmiş siyasət nəticəsində ölkəmizin dövlət müstəqilliyi təmin olunub-dur, möhkəm əsaslar üzərində bərqərar olubdur. Ölkəmizin iqtisadiyyatı dirçəlib və yüksəliş yoluna çıxıbdır. İnsanlarımızın rifahı, güzəranı yaxşılaşıbdır. Azərbaycanın beynəlxalq aləmdə mövqeyi möhkəmlənibdir. Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətin ümummilli liderimizin layiqli davamçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmiz daha böyük nailiyyətlər qazanır. İqtisadiyyatımız daha da sürətlə inkişaf edir, ölkəmizin beynəlxalq aləmdə nüfuzu artır. Təbiidir ki, hələlik həll edilməmiş problemimiz olan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində də ciddi, vacib addımlar atılır və ümid edirik ki, bütün bunlar münaqişənin Azərbaycanın pozulmuş hüquqlarının bərpa edilməsi ilə nəticələnməsinə təkan verəcəkdir.

Bunları sadalamaqla onu demək istəyirəm ki, Azərbaycana vurulan çoxlu yaralar, o cümlədən 20 Yanvar faciəsi xalqımızın iradəsini, mənliyini sındıra bilmədi. Azərbaycan xalqının yaşamaq hüququnu onun əlindən ala bilmədi. Bu yara, bu zərbə nə qədər ağır olsa da, Azərbaycan xalqının qəddi əyilmədi, əksinə xalqımız başını daha qürurla tutaraq verdiyi qurbanların nəticəsində öz müstəqilliyini əldə edib onu qorudu, möhkəmləndirdi. Bu gün də müstəqil Azərbaycan qürurla irəliləyir, inkişaf edir, yüksəlir. Təbiidir ki, bu yüksəliş yolu ilə irəliləyən Azərbaycan xalqı verdiyi qurbanları heç zaman unutmur, onların xatirəsini daim əziz tutur və həmişə də buna əməl edəcəkdir.

**Müsahibəni apardı:**
**Mirbağır YAQUBZADƏ**

**“Xalq qəzeti”.** - 2005. – 20 yanvar. - N 15. - S. 3.

# 20 Yanvara gedən yol

*İmran Cəfərzadə: "Bu faciə Mixail Qorbaçovun məlum yenidənqurmasının dalğaları üzərində qatı millətçi ermənilərin Azərbaycana qarşı qərəzli ərazi iddiaları zəminində başlandı"*

Totalitar rejim öz haqqı və azadlığı uğrunda mübarizəyə qalxan Azərbaycan xalqının inam və iradəsini qırmaq məqsədilə 1990-cı il yanvarın 20-də tarixdə misli görünməmiş cinayət törətdi. Sovet ordusunun Azərbaycana təcavüzü yüzlərlə günahsız insanın ölümünə, yaralanmasına, eyni zamanda çoxlu sayda soydaşımızın itkin düşməsinə səbəb oldu.

O müdhiş gecədən bizi 15 il ayırır. Lakin o qanlı faciədən bu qədər müddət ötsə də, sanki həmin hadisələr dünən olub. 20 Yanvar faciəsində törənmiş fəlakətləri bircə an da olsun unutmaq mümkün deyil. Həmin gecə bütün ağrı-acısıyla əbədi olaraq qəlbimizə köçdü, yaddaşımıza həkk oldu.

Professor İmran Cəfərzadə ilə söhbətimiz də qanlı 20 Yanvar faciəsi barədədir.

**— İmran müəllim, söhbətimizə 20 Yanvar faciəsinə gedən yoldan başlayaq.**

— Müstəqilliyimiz yolunda qatı millətçi ermənilərin və məkrli sovet imperiyasının təşkil etdikləri hərbi-siyasi fitvaların ən təhlükəlisi 1990-cı il yanvar ayının 20-də həyata keçirildi. Yanvar faciəsinə gedən yol məkrli, ziddiyyətli, mürəkkəb və təhlükəli olmuş, erməni lobbisinin fitvaları və imperiyanın dəstəyi ilə planlaşdırıldı. Qanlı 20 Yanvar faciəsinə gedən yol məhəlli düşüncəli Mixail Qorbaçovun məlum yenidənqurma, aşkarlıq və demokratikləşmə konsepsiyasının dalğaları üzərində qatı millətçi ermənilərin Azərbaycana qarşı qərəzli ərazi iddiaları, imperiyanın geostrateji siyasəti və səriştəsiz respublika rəhbərliyinin səbatsızlığı zəminində başlandı.

Mixail Qorbaçovun dəstəyi ilə 1987-ci ildən başlayaraq Ermənistanda Dağlıq Qarabağın bu respublika ilə birləşdirilməsi meyli gücləndi və ümumerməni ideologiyasına çevrildi.

Daşnakların fitvasına və xristian həmrəyliyinə söykənən ermənipərəst mərkəzin məkrli siyasəti nəticəsində faciəli 20 Yanvara gedən yol qanlı-qadalı olmuş, Azərbaycan xalqının tarixinə, ərazi birliyinə qarşı, görkəmli adamların məhvinə yönəlmiş, bu zaman çərçivəsində torpaqlarımız parçalanmış, onların bir hissəsi ermənilərə hədiyyə edilmiş, 2 milyona qədər soydaşımız Zəngəzurdan, Göyçə mahalından, bütün Qərbi Azərbaycandan, Naxçıvandan, Qarabağdan didərgin düşmüş, başqa ölkələrə səpələnmək məcburiyyətində qalmışdır.

1960-cı illərdən başlayan gizli erməni separatizmi Mixail Qorbaçovun "yenidənqurma" siyasi kursundan bəhrələnib tədricən leqallaşdı və Ermənistanın dövlət siyasəti səviyyəsinə qaldırıldı. XX əsrin əvvəlində hazırlanmış ssenarilər, bədii və tarixi əsərlər, xəritələr Yerevanda, Moskvada işıq üzü gördü, "Daşnaksütyun" partiyası fəallaşdı, Silva Kapitukyanın, Sero Xanzadyanın, Zori Balayanın timsalında yeni təxribatçı, millətçi ideoloqlar qrupu üzə çıxdı, mətbuatda, televiziyada əfsanəvi "erməni imperiyası" ilə bağlı böyük dövlətçilik ideologiyası və erməni "soyqırımı" haqqında geniş miqyasda ideoloji təbliğat başlandı.

1987-ci ilin ortalarında Yerevanda başlayan separatizm dalğaları Dağlıq Qarabağa yayıldı, 1988-ci ilin əvvəlindən bölgədə Azərbaycan bayraqları yığışdırıldı, müəssisələrin adını göstərən lövhələr erməniləşdirildi, azərbaycanlılar tutduqları vəzifələrdən uzaqlaşdırıldı, antiazərbaycan mitinqləri, yığıncaqlar keçirildi. Vilayətin Azərbaycanın tərkibindən çıxarılması çağırışları kütləviləşdi.

Araşdırmalar zamanı məlum olmuşdur ki, 20 Yanvar faciəsinə son hazırlıq 1988-ci ildə SSRİ-nin o vaxtkı rəhbəri Mixail Qorbaçovun ölkənin müdafiə naziri Dimitri Yazova verdiyi göstərişindən sonra başlanmışdır. M.Qorbaçov 1988-ci ilin mart ayının 19-da Təhlükəsizlik Şurasının iclasında regionlarda və respublikalarda rusların şərəf və ləyaqətinin qorunması üçün "Narodnaya volya" təşkilatının hərbi hissələrdə özəklərinin yaradılması haqqında marşal Dimitri Yazova göstəriş verdi. SSRİ müdafiə naziri Qorbaçovun tapşırığına əsasən, 1988-ci il iyul ayının 24-də hərbi hissələrdə qeyd edilən təşkilatın özəklərinin yaradılması

haqqında əmr hazırladı. Avqustun 13-də Təhlükəsizlik Şurasının iclasında bu məsələyə yenidən baxıldı və müvafiq qərar qəbul edildi.

**— Sözünüzdən belə məlum olur ki, o zaman Azərbaycanda hadisələr nəzarətdən çıxmışdı. Buna görə də 20 Yanvara gedən yol açıq idi.**

— Bəli, o zaman qanunlar işləmirdi, ikihakimiyyətlilik hökm sürürdü, xırda silahlı dəstələr özbaşınalıq edirdi, idarə və müəssisələrin fəaliyyəti dayandırılmışdı, insanlar meydanlara toplaşıb etiraz mitinqləri keçirirdilər.

1990-cı ilin yanvar ayının 12-də saat 16:10 radələrində Bakı Ümumqoşun Məktəbinin zabitləri adından polkovnik D.Savelyev və siyasi şöbənin rəisi, polkovnik O.Rusakovun Moskvaya Təhlükəsizlik Şurasına, M.Qorbaçovun və D.Yazovun adına göndərdiyi teleqramda deyilirdi: **"Bakıda vəziyyət Xalq Cəbhəsi tərəfindən idarə edilir. Yığılmış problemləri həll etmək üçün bütün siyasi imkanlar istifadə edilib. Biz hesab edirik ki, Bakıda ikinci Rumıniyaya yol vermək olmaz".**

Armavir şəhərində Livandan gəlmiş ermənilərdən təşkil edilmiş "İza-Din-el-Kassan" terrorçu qrup və xristian qadın liderlərdən olan Yusefmotarrekin başçılıq etdiyi 41 nəfərlik heyət sovet hərbi geyimində hazırlıq keçirdi. Dəstə SSRİ Müdafiə Nazirliyinin sənədlərində "Voyennaya deleqasiya" kodu ilə qeydə alınmışdı.

1990-cı il yanvar ayının 14-də Armavir şəhərində yerləşən 0/16 saylı hərbi hissədən polkovnik Arkadi Fedoseyevin Şimali Qafqaz hərbi dairəsinə göndərdiyi məktubunda deyilirdi ki, "Hərbi nümayəndələr əmrə hazırdır. Bu ərəfədə Taqanroqda, Donetskdə, Krasnodarda, Moskva ətrafında yerləşən hərbi hissələr Azərbaycan istiqamətində yola düşməyə hazırlaşırlar". Azərbaycana gəlmək üçün hazırlaşan hərbçilər arasında Ermənistanda, ***Xalq Cəbhəsinin hakimiyyətə can atan xadimlərinin təşkilati strukturunu dağıtmaqdan ibarət olsun".***

— Əvvəllər erməni mafioz qüvvələri mərkəzin xüsusi xidmət orqanlarının əməkdaşları ilə birlikdə Azərbaycana qarşı təxribatlar hazırlasalar da, Heydər Əliyevin varlığı, şəxsi nüfuzu və cəsarəti erməni millətçilərini və onları dəstəkləyənləri Azərbaycana qarşı rəsmi ərazi iddiaları irəli sürməkdən, hərbi separatizm aksiyalarına başlamaqdan çəkindirdi.

— Heydər Əliyev Moskvada ən yüksək partiya və dövlət vəzifələrindən istefa verdikdən sonra qonşu dövlətlərin, o cümlədən də Azərbaycanın torpaqları hesabına "Böyük Ermənistan" dövlətinin yaradılması ideyasının leqallaşması və reallaşması üçün erməni ideoloqları və onların mafioz qüvvələrinə əlverişli şərait yarandı, imperiyanın maddi, siyasi və hərbi dəstəyi gücləndi.

Heydər Əliyev istefaya getməsi haqqında bəyanat verdikdən bir gün sonra Ermənistanda ümumxalq şənlikləri keçirildi. Azərbaycana qarşı ərazi iddialarının elan edilməsi, Yerevanda, Xankəndində kütləvi mitinqlərin başlanması üçün əvvəldən hazırlanan tədbirlər bir daha dəqiqləşdirildi. O vaxt Z.Balayan deyirdi ki, Heydər Əliyev getdi, bəs indi nəyi gözləyirsiniz?

**— 20 Yanvar Sumqayıt sindromunun yeni mərhələsi də adlandırmaq olar**.

— Mərkəzin dəstəyinə bel bağlayan, respublikanın başsız başçılarının cəsarətsizliyini görən ermənilərin mafioz qüvvələri həyata keçirdikləri separatizm aksiyaları ilə kifayətlənməyib ittifaqın xüsusi xidmət orqanlarıyla birlikdə hazırladıqları məxfi plan əsasında 1988-ci il fevral ayının sonunda Sumqayıtda daşnak terrorçularının və separatçılarının iştirakı ilə faciəli sindromu həyata keçirdilər, dərhal sovet məkanında, eləcə də xarici ölkələrdə Azərbaycan xalqının qəddarlığı haqqında kampaniyaya başladılar.

1988-ci il fevralın 28-də Sumqayıtda ermənilər tərəfindən təşkil edilmiş qapalı faciə nəticə etibarilə erməni soyqırımı və ekstremist qüvvələrin hərəkətləri kimi qiymətləndirilirdi. Əslində Sumqayıt sindromu erməni separatçılarının əli ilə törədilmiş, erməni silahlı təcavüzünün ideoloji bəhanəsi kimi düşünülmüşdü. Sindromu hazırlayanlar məkrli məqsədlə qarşıdurma başa çatdıqdan sonra şəhərə qoşun yeridib dinc əhalini əzdi, yaraladı, həbs edildi. Cinayətkar ermənilər isə məsuliyyətə cəlb edilmədi.

**— 20 yanvardan əvvəl, yəni yanvarın 13-də Bakıda həyata keçirilən məkrli "erməni qırğınları"nı bu faciəyə istiqamətlənən ən təhlükəli siyasi aksiya hesab edirlər.**

— Bu hadisə də erməni mafiyasının və mərkəzin xüsusi xidmət orqanlarının hazırladıqları fitnəkar planların tərkib hissəsi idi. Bu dəfə də yaranmış vəziyyətdən həmişə olduğu kimi, fitnəkarcasına istifadə edən ermənilər bir neçə soydaşlarını qətlə yetirib, onların cəsədlərini dəmiryol vağzalının perronuna, Bakıda təhsil alan xarici tələbələrin yataqxanalarının girəcəyinə, şəhərdə yerləşən xarici nümayəndəliklərin önünə düzdülər, azərbaycanlılar haqqında düşmən obrazı yaratmağa çalışdılar.

Erməni ideoloqları mərkəzin məmurları ilə birlikdə həyata keçirdikləri "sindroma" milli və siyasi xarakter verərək Azərbaycanda sovet hakimiyyətinin təhlükə qarşısında olması haqqında Moskvaya operativ şifrəli məlumat göndərir, hərbi kömək tələb edirlər.

Mərkəz ermənilərin xəyanətkar məlumatlarını alan kimi yanvarın 15-də Sov.İKP MK Siyasi Bürosunun qərarı ilə Azərbaycanın bir sıra bölgələrində hərbi vəziyyət elan etdi. O vaxt Azərbaycanda 110 minlik hərbi hissənin yerləşdirilməsinə baxmayaraq, yeni qərara əsasən, respublikaya əlavə 60 min əsgər və zabit göndərildi. Erməni mafiyasının fitvası ilə Azərbaycana qarşı kin-küdurətini, düşmənçilik hisslərini gizlədə bilməyən mərkəz 4 gün ərzində, 1990-cı ilin yanvar ayının 15-dən 19-na kimi 170 minlik ordu ilə respublika əhalisinə divan tutdu.

**— 20 Yanvar faciəsi ərəfəsində ermənilərin mərkəzlə birlikdə əvvəldən hazırladıqları planın ən təhlükəli hissəsi dövlət televiziyasının enerji blokunun partladılması idi.**

— Hələ enerji blokunun partladılmasına dörd gün qalmış yanvarın 15-dən sovet generalı Ovçinnikov 200 nəfərlik silahlı zabit və əsgərin müşayiəti ilə dövlət televiziyasının, radiosunun, rabitəsinin və bütün mətbuat orqanlarının fəaliyyətini nəzarətə götürmüşdü.

Birmənalı şəkildə məlumdur ki, SSRİ DTK-nın sədr müavini general Bobkovun başçılığı ilə Azərbaycan DTK-nın sədri V.Hüseynovun, habelə komitənin bir qrup əməkdaşının hazırladıqları plan əsasında dövlət televiziyasının enerji blokunu Azərbaycan DTK-nın məsul əməkdaşı Starçenkovun fəal iştirakı ilə mərkəzin xüsusi xidmət orqanlarının "Alfa" qrupunun terrorçuları partlatmışlar. Azərbaycan televiziyasının enerji blokunu partladan cinayətkarların əməli, ünvanı dəqiqləşdirilsə də, partlayışın əsl səbəbləri bu günə qədər respublika ictimaiyyətinin siyasi maraqlarının mərkəzindən kənarlaşmayıb. Dövlət televiziyasının enerji blokunun partladılması haqqında aparılan mülahizələrin ikisi daha inandırıcıdır.

**Birincisi.** televiziya blokunun partladılması, bunun nəticəsində bütün verilişlərin dayandırılması mərkəzin ordu hissələrinin Bakıya hərbi müdaxiləsinin məxfi saxlanılması, respublikanın müxtəlif bölgələrinə, Bakı televiziyasının yayım dairəsində yerləşən qonşu dövlətlərə faciə haqqında məlumatın yayılmasının qarşısının alınması məqsədi güdürdü.

**İkincisi.** yanvarın 19-da axşam saat 20:00-da cəbhəçilərin liderlərindən bir qrupunun dövlət televiziyası ilə nəzərdə tutulan siyasi xarakterli çıxışlarına yol verməmək qərarı idi.

20 Yanvar faciəsini törədənlər imperiyanın hərbi müdaxiləsinə yanvarın 19-da axşam saat 19:26-da televiziyanın enerji blokunun partladılması ilə başladılar. Bu, faciədən əvvəl həyəcan siqnalı idi. Çox təəssüf ki, maraqlı qruplar bu siqnalın təhlükəli mahiyyətini açıqlamadılar, əksinə, gizlətməyə çalışdılar, həyəcandan emosiyaya qapılan əsəbi kütlə yaxınlaşan faciənin acı nəticələrini görə bilmədi və böyük itki verdi.

**— Azərbaycanda fövqəladə vəziyyətin elan edilməsində və Bakı şəhərinə böyük həcmdə ordu yeridilməsində M.Qorbaçovun məqsədi nə idi?**

— Qorbaçovun bir neçə məqsədi vardı. Birincisi, ölkənin bütün bölgələrindən səfərbər edilmiş böyük ordunu Bakıya göndərməklə mərkəz özünün gücünü göstərmək, sarsılmaqda olan imperiyanı süquta yetirməyə çalışan mərkəzdənqaçan qüvvələrə dərs vermək, Baltikyanı respublikalarda, Gürcüstan və Azərbaycanda artıq formalaşan demokratik qüvvələri əzmək qətiyyətini sübut etmək. İkincisi, birləşmiş rus-erməni hərbi hissələrinin genişmiqyaslı işğalına məruz qalmış Azərbaycana hərbi təcavüz etməklə mərkəz erməni mafiyası qarşısında götürdüyü öhdəliyə sədaqətini bir daha təsdiq etdi, erməni separatçılarının məkrli planlarının reallaşdırılmasında onlara yardımçı olacağını sübut etdi. Üçüncüsü, M.Qorbaçov özünün qanunsuz, ədalətsiz, ermənipərəst siyasəti ilə Azərbaycanda yaratdığı ümumxalq etirazlarının nəticələrini bəhanə edərək Bakıya hərbi təcavüzə rəvac verdi, xalqın başını qatmaq, əl-qolunu bağlamaq, onun ölkənin ərazi birliyini müdafiə

etmək əzmini qırmaq və beləliklə, erməni separatçılarına Dağlıq Qarabağı və Naxçıvanı zəbt etmək üçün imkan yaratmaq idi.

**— 20 Yanvar faciəsində qətlə yetirilənlərin sayı ilə bağlı nə deyərdiniz?**

— Bəzi mətbu orqanlarda faciə zamanı ölənlərin sayının 132 nəfər olduğu göstərilir. Lakin bu, belə deyil. Qeyri-dövlət və ictimai təşkilatların araşdırmaları nəticəsində məlum olmuşdur ki, 20 Yanvar faciəsi günlərində sellofana bükülüb dənizə atılanların, Piriküşkül qəsəbəsində gizli dəfn edilənlərin və itkin düşənlərin sayı iki mindən çoxdur. Bizə belə gəlir ki, 20 Yanvar faciəsi zamanı şəhid olanların sayı dəqiqləşdirilməlidir.

**— Hətta o zaman şəhidlərin dəfn olunması da düyünə düşmüşdü...**

— Bildiyiniz kimi, 1918-ci ildə azərbaycanlılara qarşı soyqırım zamanı qətlə yetirilən soydaşlarımızın bir qismi Dağüstü parkda dəfn olunmuşdu. Bu, xalqımızın tarixinə qanla yazılmış bir səhifə idi. İmperiya xalqın yaddaşının təzələnməsindən ehtiyat edir və 20 Yanvar faciəsi zamanı şəhid olanların yenidən şəhərin mərkəzində dəfn edilməsindən qorxurdu. Ona görə də bu faciə zamanı qətlə yetirilənlərin çoxu doğulduqları rayon və kəndlərdə dəfn edildilər. İmperiyanın maneələrinə baxmayaraq, cəsarətli insanlar şəhid olan soydaşlarımızın bir qrupunun Dağüstü parkda - Şəhidlər xiyabanında dəfn edilməsi qərarına gəldilər.

Acınacaqlı haldır ki, şəhidlərin dəfnində o zamankı dövlət məmurlarından heç kəs iştirak etmədi və şəhidlərin dəfn olunması üçün yer seçilməsilə məşğul olmadı. Yalnız mərhum Vəli Məmmədovun dəstəyi ilə dəfn üçün yer ayrıldı. Bu cəsarətli məsuliyyəti boynuna götürdüyünə görə Vəli müəllim həmişə hörmətlə yad ediləcəkdir.

**— 20 Yanvar faciəsi sarsılmış, laxlamış, lakin zor gücünə dayanan qırmızı imperiyanın süqutdan əvvəl törətdiyi son cinayəti, kəsilməkdə olan son nəfəsi idi. Təəssüflər olsun ki, bu bəşəri faciəyə uzun müddət siyasi qiymət verilmədi.**

— Xalqımızın bu ağır günündə xalqla birlikdə olan, həmişə xalqına, Vətəninə sədaqətlə xidmət edən Heydər Əliyev oğlu İlham Əliyevlə birlikdə faciənin ertəsi günü respublikamızın Moskvadakı daimi nümayəndəliyinə gələrək mərkəzin təzyiq və təqiblərinə baxmayaraq, sovet rəhbərliyini, onun vəhşi ordusunu ittiham etdi, faciəyə prinsipial qiymət verib xalqımıza mənəvi, siyasi dayaq durdu və onu yeni qüvvə ilə mübarizəyə çağırdı.

Heydər Əliyevin imperiyanın ünvanına söylədiyi sərt və cəsarətli ittihamları telekanallar və radio şirkətləri dünya ictimaiyyətinə çatdırdı, Azərbaycan xalqının haqq səsini dünya dövlətlərinə yetirdi.

20 Yanvar faciəsinə ilk obyektiv, prinsipial və cəsarətli qiyməti Heydər Əliyev verdi. Heydər Əliyev bu faciəni bütöv xalqa qarşı terror, təcavüz aksiyası kimi qiymətləndirdi, imperiyanın şovinist siyasətini dövləti cinayət adlandırdı, ittifaq rəhbərliyini bütün dünya qarşısında ittiham etdi, beynəlxalq ictimaiyyəti bu hərbi təcavüzü pisləməyə çağırdı.

**— Bir neçə kəlmə də 20 Yanvar faciəsinin ibrət dərsləri barədə**.

— 20 Yanvar faciəsi xalqımız, tariximiz üçün ibrətdir, dərsdir, ayıq-sayıqlıq nümunəsidir. Bu xarakterli hadisələrin təkrarlanmaması üçün biz baş verənlərdən ibrət dərsi götürməli, ondan nəticə çıxarmalı, dostlarımızı və düşmənlərimizi tanımalı, ayıq-sayıq olmalı, sabahı görməli, milli həmrəyliyimizi möhkəmləndirməli, hadisələri diqqətlə izləməli, onlara ciddi nəzarət etməliyik. Bunun üçün olub-keçənləri heç vaxt unutmamalı, onları daim xatırlamalı, yaddaşımızda yaşatmalıyıq...

**Müsahibəni apardı:**
**Faiq XASAYOĞLU**

**“Azad Azərbaycan”.** - 2005. – 19 yanvar. - N 10. - S. 5.

## Qanlı Yanvar faciəsinin görünən və görünməyən tərəfləri

*SSRİ rəhbərliyi Dağlıq Qarabağı Azərbaycandan qoparmaq üçün yeritdiyi məqsədyönlü siyasətə qarşı çıxmağa cəsarət edən Azərbaycan xalqına açıq-aşkar divan tutmaq yolunu seçdi. Sovet Ordusunun böyük kontingentinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların 1990-cı il yanvarın 20-də fövqəladə vəziyyət elan olunmadan Bakını işğal etməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklərlə müşayiət edildi. Yüzlərlə insan amansızcasına qətlə yetirildi və yaralandı. XX əsr tarixində totalitarizmin həyata keçirdiyi ən qanlı terror akt-larından biri olan 20 Yanvar faciəsi Azərbaycan xalqına qarşı, ümumiyyətlə humanizmə və insanlığa qarşı yönəldilmiş dəhşətli cinayət idi.*

*Heydər ƏLİYEV*

Baş vermiş hadisələrə qayıdıb yenidən baxanda, o Qanlı 20 Yanvar günlərini - həmin müdhiş gecəni xatırlayanda ürək ağrısı ilə hiss etdim ki, millətimiz necə də köməksiz və kimsəsizmiş. Köməyə yetən, bir yardım edən, hər hansı çıxış yolunu göstərən yox idi. Bütöv bir millət əliyalın, ayaqyalın, başıaçıq vəziyyətdə düşmən əlində əsir-yesir olmuşdu, erməni-rus qoşun birləşmələri qarşısında aciz qalmışdı. Aman Allah! Müdafiəsiz və əliyalın insanları da tapdalayıb keçmək olarmış! Gülləbaran, özü də necə?! Adam bu vurhavurda öz gücsüzlüyünü dərk edəndə, özünün gərəksiz bir əşya kimi alçaldılıb lazımsız bir varlığa çevrildiyini anlayır, ürək sinədə tab gətirmir, partla-maq həddinə çatır. Bu qanlı gecə-dən sonra Bakıda adamların ruhu yaralandı, ölənlərin, müxtəlif əsəb və ürək xəstəliklərinə düçar olanların sayı əvvəlki illərlə müqayisədə qat-qat artdı.

Qanlı Yanvar hadisələrinin siyasi mahiyyəti nədən ibarətdir? Tez-tez deyirlər: bu hadisələrə siyasi qiymət verilməlidir. Amma necə? Bu elə bir mürəkkəb hadisədir ki, "onun həqiqi mahiyyətini nə təşkil edirdi" sualı indinin özündə də çox-ları üçün qaranlıq qalır. Daha aydın desək, bu hadisələrin görünən və görünməyən, mübhəm və gizli gedən siyasi prosesləri mövcud idi ki, onları indinin özündə də öyrənib ortaya qoymaq, ondan müəyyən nəticələr çıxarmaq və bu nəticələri gələcək nəsillər üçün yaddaş qoymaq vacibdir.

Hadisənin bizə məlum olan, görünən tərəfləri sırasına aşağıdakı-ları aid etmək olar: **Sovet Ordusu Bakıya ona görə hücum edirdi ki, guya burada a) rejim təhlükə altında idi; b) erməni-rus əhalisini xilas etmək zərurəti yaranmışdı; c) "islam təməlçiliyi"nin və türk millətçiliyinin qarşısı alınmalı idi; ç) Azərbaycan xalqı öz milli istiqlaliyyəti uğrunda imperiyaya və onun nökərlərinə qarşı mübarizəyə qalxmışdı; d) Azərbaycanın bir sıra görkəmli siyasi xadimləri hələ o vaxtlar bu aksiyanı işğal faktı kimi pisləmişdi.**

Bütün bunlar hamıya məlum olan və informasiya vasitələrilə gündəlik təbliğ edilən faktlar idi. Biz də Qanlı Yanvar hadisələrinə siyasi qiymət verərkən ən əvvəl məhz bu sadaladığımız amilləri ortaya qoyuruq. Lakin bütün bunlar əslində baş vermiş və gələcəkdə baş verəcək hadisələrin ancaq zahiri tərəfləri idi. Həqiqətdə isə Sovet Ordusunun Bakıya yeridilməsinin kökləri daha dərində olan başqa səbəblərlə əlaqədardır. Bu, bizi qanımıza qəltan etməyi qarşısına bir məqsəd qoyduğu kimi, rusları da istilaçı xalq kimi dünya ictimaiyyətinə təqdim və bədnam etmək üçün oynanılmış bir şou idi. Başqa sözlə, xalqımızın ruslara olan son inamının qırılması bir hədəf və məqsəd kimi seçilmişdi. Proses isə M.S.Qorbaçovla ermənilərin çox məharətlə qurduqları ssenari əsasında həyata keçirilir və qisasçılıq xarakteri daşıyırdı. Bir qədər ətraflı: iki dünya sisteminin dinc yanaşı yaşamasından usanmış Sovet İttifaqının o vaxtkı rəhbərləri aydın görürdülər ki, rejim dağılır, iflasa uğrayır və böhran içərisindədir, "ulduz müharibələri"ndə və yeni texnologiyanın tətbiqi sahəsində açıq-aşkar qarşı tərəfə uduzan imperiyanı saxlamaq və idarə etmək mümkünsüz idi. Reyqan elan etmişdi ki, sosializmi tarixin zibilliyinə atacaq və bu istiqamətdə də iş aparırdı. Sistemi xilas etmək qeyri-mümkün idi. Bəs necə etmək olardı ki, çürümüş "zülm imperiyası"nı və eləcə də sosializm sistemini birdəfəlik məhv olmaqdan xilas edəsən? Çıxış yolu qarşı tərəfin təkliflərini qəbul etməkdə, onlara güzəştə getməkdə və necə deyərlər, bir növ təslim olmaqda və dünya sosializminin məğlubiyyətini etiraf etməkdə idi. Başqa yol görünmürdü. Bunun ilk rüşeymləri Sovet İttifaqında hələ N.S.Xruşşovun hakimiyyəti illərində ilğım kimi görünməkdəydi. Lakin o zaman rejim nisbətən möhkəm olduğundan N.S.Xruşşovun islahatları onun özünün aradan götürül-məsi ilə

nəticələndi. İndi isə məqam yetişmişdi, yəni həm aşağılar-da, həm də yuxarılarda inqilabi şərait üçün müqəddəm şərtlər və söykənəcək var idi. Qalırdı onu həyata keçirmək. Bu tarixi missiyanı M.S.Qorbaçov və onun yeni komandası öz üzərinə götürdü.

Hürr (azad) dünyanın siyasətçilərinə və alimlərinə görə dünya sosializmi bəşəriyyətin magistral xəttindən kənarda yaranmışdı və bic doğulan uşağı xatırladırdı. Dünyanın üçdə birində hakimiyyəti ələ keçirmiş kommunistlər həmin ölkələri inzibati amirlik qaydalarına əsaslanaraq idarə edirdilər. Bu isə dünyanın digər əksər ölkələrindəki demokratik rejimlərin idarəetmə prinsiplərinə uyğun gəlmirdi. Bu səbəblər kommunist rejiminin aradan qaldırılması zərurətini yaratdı. Bu zərurəti dünya sosializm sistemi ölkələrində də dərk edirdilər. Ona görə də onlar xilas yolunu Qərblə ittifaqda görürdülər və R.Reyqanla M.Qorbaçov şəxsən görüşüb gizli şifahi saziş bağladılar. Bu sazişin əsas qayəsi ondan ibarət idi ki, SSRİ öz sistemindən və hakim dövlətçilik iddialarından əl çəkərsə, Qərb ona hərtərəfli köməklik göstərməyə hazır olacaq və rusların milli dövləti olan Rusiya bütöv vəziyyətdə saxlanılacaq. Doğrudur, Z.Bjezinski özünün "Böyük şahmat taxtası..." əsərində Rusiyanın gələcəkdə üç yerə - Avropa Rusiyasına, Sibir Respublikasına və Uzaq Şərq Respublikasına bölünəcəyi proqnozunu vermiş, birincinin NATO-ya daxil olacağını, digərlərinin üzərində də Qərbin nəzarətinin həyata keçiriləcəyini göstərmişdir. S.Hantinqton da rusların gələcəkdə özlərini Qərb adamı kimi deyil, rusiyalı (yəni Avrasiyalı - **Ə.T.)** kimi aparacaqları təqdirdə onlarla Qərb arasında problemlərin olacağını göstərmişdir. Belə ki, Qərb dünyası Rusiyanın timsalında özünə düşmən deyil, dost bir ölkənin, hətta müttəfiq bir ölkənin olmasını arzu edir. Bundan başqa, hazırkı şəraitdə Qərb üçün Rusiyanın dağıdılması heç də sərfəli deyil. **Əvvəla** ona görə ki, Rusiyanın dağılması qonşu ölkələrdə böyük siyasi proseslərin başlamasına və saysız-hesabsız insan kütlələrinin miqrasiyasına səbəb olar ki, bu da hürr dünyanın ölkələri üçün yeni-yeni problemlər yarada bilərdi. **İkincisi,** dünyanın ən böyük nüvə rayonu hansısa məsuliyyətsiz bir qrupun əlinə keçə bilər və onlar nəinki Rusiyanın, eləcə də bütün dünyanın taleyilə istədikləri kimi oynaya bilərlər. Bütün bunlarla hesablaşmalı olan Qərb Rusiyanı inandırdı ki, onu bütöv saxlayacaq, əvəzində rusların timsalında artıq düşmən obrazını axtarmayacaq, onu başqa yerlərdə, məsələn, elə islam xalqlarında axtarıb tapacaq. Burada istər-istəməz yenə də Samuel Hantinqtonun "Sivilizasiyaların toqquşması" ("The clash of civilizations") əsərində irəli sürdüyü "West is aqainst Rest!" (yəni "Qərb hamıya qarşı!") şüarı yada düşür.

Bu hadisələrdən sonra dünya miqyasında baş verən siyasi hadisələr - İslam dünyasındakı olaylar, terrorizmlə və narkomaniya ilə mübarizə bayrağı altında Qərbin İslam dünyasına qarşı "səlib müharibəsinə" başlaması, uydurma erməni soyqırımının dünyanın aparıcı xristian dövlətləri tərəfindən dəstəklənməsi və ümumən ermənilərə güclü maliyyə vəsaitinin ayrılması, onların silahlandırılıb azərbaycanlıların üstünə salınması, Kipr, Bosniya, Çeçenistan, Əfqanıstan və İraq hadisələri, "İslam təməlçiliyi" haqqında heç bir real əsası olmayan uydurmalar, İslam xalqlarının sayının artması, onların hərbi-siyasi, iqtisadi-mənəvi qüdrətinin güclənməsinin qısqanclıqla qarşılanması və s. kimi faktlar düşmənin başqa yerdə deyil, məhz İslam xalqlarının timsalında axtarılmasını real bir həqiqətə çevirdi. Bu hadisələrin beşiyi başında Qarabağ probleminin həlli ətrafın-a gedən mübahisələr dayanırdı. Əslində isə bu hadisələr elə Qara-ağ böhranının yaradılmasının məntiqi davamından ibarət oldu və bütün dünyanın aparıcı ölkələri özlərinin maraq və mənafeləri səviyyələrində ondan faydalanmağa çalışdılar və faydalandılar da. Belə ki, Qarabağ hadisələrindən istifadə edən Qərb ölkələri və Rusiya onlara lazım olanları əldə etdilər. İndi Dağlıq Qarabağ bölgəsinin Azərbaycandan ayrılması və müstəqil yaşaması ermənilərə və eləcə də onların havadarlarına daha xeyirlidir, nəinki Ermənistana ilhaq edilməsi. Çünki bu, elə bir amildir ki, Azərbaycanı həmişə əldə saxlamaq rolunu oynaya bilər, yəni problem istənilən vaxt fəallaşdırıla bilər. Bu, güclü bir yumruq və detonator kimi bizi daim itaətdə saxlaya bilər. Dağlıq Qarabağın müstəqil bir dövlətə çevrilməsi lap burnumuzun ucunda yeni bir erməni dövlətinin yaradılması ilə nəticələnə bilər ki, buna da yol vermək olmaz. Rusiyanın Qərblə yaxınlaşması İslam dünyasını Qərbin qarşısında müdafiəsiz qoyurdu və bu da Qərb üçün çox əlverişli idi. Ona görə də **Qərb cidd-cəhdlə** Rusiyanın başçılığı ilə qurulmuş SSRİ-də və dünya sosializm sistemində elə **rusların öz əllərilə də əvvəlcə yenidənqurma, sonra isə elliklə demokratikləşmə və nəhayət, qloballaşma hərəkatına rəvac verdi.** Qərbin bu tədbirləri dünyanın böyük bir hissəsində milli münaqişə ocaqlarının yaranmasına, sovet rejiminin inzibati-amirlik, totalitar

mahiyyətinin ifşasına, onun antidemokratik mahiyyətinin açılıb dünya ictimaiyyətinə göstərilməsinə, rus böyük dövlətçilik şovinizminə və kommunist partiyasının hegemonluğuna nifrət oyadılmasına əsaslanırdı. Bu ssenariyə əsasən SSRİ-nin bir sıra ərazilərində "qaynar nöqtələr" yaradıldı, onlarca millət və xalq bir-birilə "üz-üzə gəldi". Bakıda, Tbilisidə, Yerevanda, Vilnüsdə, Alma-Atada, Özbəkistanda məlum hadisələr baş verdi, süni surətdə rus şovinizminə qarşı qiyamlar, Kommunist Partiyasına qarşı çıxışlar təşkil olundu, partiya üzvləri öz partiya mənsubiyyətlərindən və partiya biletlərindən imtina etməyə başladılar. Hər yerdə, həmişə hazır olan müxalifət fəallaşdırıldı, onlar olmadığı yerlərdə isə süni olaraq yaradıldılar və hər yerdə iqtidarla ölüm-dirim müharibəsinə girdilər. Bu qarışıqlıq üçün əvvəlcədən hazır olan ermənilər öz milli ideyalarını - "Böyük Ermənistan" yaratmaq planlarını reallaşdırmaq işinə əl atdılar. Onlar Qarabağ amilindən bir detonator kimi istifadə etdilər. Belə ki, SSRİ-nin dağıdılması bir reallığa çevrildi. Ermənilər ardıcıl hücumlarla Qərbin, eləcə də Rusiyanın xeyir-duası ilə Qarabağı tutdular, ona xristian-islam sivilizasiyasının qarşıdurması rəngini verdilər. Bu yolda ermənilər M.S.Qorbaçovdan, M.S.Qorbaçov da öz növbəsində onlardan istifadə etdi. M.S.Qorbaçov öz planlarını həyata keçirmək üçün həm Qarabağ böhranından, həm də Bakı hadisələrindən yararlanmağa nail oldu. Bakıda xalq qırıldı, şəhər dağıdıldı, insanlar əvvəlcədən planlaşdırıldığı kimi, rus müstəmləkəçiliyinə və partiya hökmranlığına qarşı qalxdılar, Ə.Vəzirov Moskvaya qaçdı, hakimiyyətsizlikdən istifadə edən ermənilər Qarabağa yiyələndilər. M.S.Qorbaçov isə Avropa xalqlarının bir qismini rus əsgərlərinin çəkmələri altında əzilməkdən xilas etdi, Almaniyanı birləşdirdi (hərçənd ki, Almaniya da ona borclu qalmadı və "Qorbaçov Fonduna" öz töhfəsini verdi), Şərqi Avropa ölkələrində demokratik rejimlər quruldu, onlar "NATO" və "Avropa Şurası" təşkilatlarında özlərinə isti yer elədilər. Biz tez-tez M.S.Qorbaçovu söyür, onu "cani", "cinayətkar", "satqın" və s. adlandırır, Qanlı Yanvarı onun vicdanına yazırıq. Halbuki, Avropanın bir sıra xalqları öz qəlblərində ona möhtəşəm bir heykəl ucaltmış, onu qəhrəman elan etmişlər. M.S.Qorbaçovun əməllərindəki bu mənfi və müsbətlər hələ gələcəkdə də böyük mübahisələrə səbəb olacaq və insanları düşündürəcəkdir. Qanlı Yanvar və eləcə də Qarabağ olayları isə onun qlobal siyasi avantürasında çox mühüm bir həlqəni təşkil edir. Bu siyasi avantüranın məqsədi Qarabağda azərbaycanlıları qula, erməniləri isə hakimə çevirmək idi.

M.S.Qorbaçovun bu işdə iştirakının dərəcəsi aydındır. **Zaman M.S.Qorbaçovu daim lənətləyəcək və damğalayacaq.** O, **daim Azərbaycan xalqının qəzəbinin, iniltilərinin, söyüş və qarğışlarının ünvanı olacaqdır.**

Baş vermiş faciənin bu kimi xarici amillərilə yanaşı, özümüzlə bağlı olan daxili amilləri də var. Hər şeydən əvvəl, baş vermiş hadisənin milli hərəkatımızla nə dərəcədə bağlı olması məsələsinin hələ də dərindən öyrənilməməsi bu hadisələrə siyasi qiymət verilməsini çətinləşdirir. Çünki ziyalılar arasında belə bir fikir səslənir ki, o zaman, yəni 20 Yanvarda meydana ayrı-ayrı qruplar halında girdik, amma oradan birləşmiş halda çıxdıq. Məsələn, X.D.Xəlilliyə görə "1988-ci ildən başlayan milli azadlıq hərəkatı gedişində Azərbaycan xalqı sosial orqanizm kimi yeni strukturda qurulur, formalaşırdı. Bizcə bu formalaşma 20 Yanvarda başa çatdı. Azərbaycan xalqının azadlıq ruhunu yaşadan hissəsi vahid orqanizmə çevrilərək özünü millət kimi təsdiq etdi". İkinci bir tərəfdən, milli azadlıq hərəkatının əsas hərəkətverici qüvvəsi, sosial bazası tələbə və gənclər idilər. "İnqilabın hərəkətverici qüvvələri onun xarici səbəblərin-dən, xarici təsirin gələcək məqsədlərindən xəbərsiz idilər".

Bu hadisələrə düzgün siyasi qiymət verilməsinin bir çətinliyi də ondadır ki, orada iştirak edən destruktiv siyasi ünsürlərin bir çoxunun mövqeyi bəzi məqamlarda hələ də möhkəmdir. Bu fakt adamların düzgün mülahizə yürütməsinə, həqiqəti deməsinə, mövcud xofu üstələ-məsinə mane olur. Qədim Romada Qay Yuli Sezar öldürüləndən sonra da demokratiyanın təntənə çalmadığını görən Siseron yazmışdı: **"Tiran öldüsə də, tiranlıq hələ yaşayır".** On beş il bundan əvvəl mövcud olan həmən oxlokratiyanın xofu insanları hələ tam tərk etməmişdir. Onlar yenə də nədənsə ehtiyatlanır, həqiqəti danışa bilmirlər. Bunlara o günlərdə mövcud olmuş tiranlıq qorxusu imkan vermir. "Qaragüruh" da adlandıra biləcəyimiz, böyük şahmat taxtasının bu kiçik fiqurları həqiqətən də o dövrün oxlokratiyasını təşkil edirdi.

Əgər o vaxt mövcud olan siyasi qüvvələr, xalq içərisində müəyyən nüfuza malik olan ayrı-ayrı adamlar müəyyən büdrəmələrə yol verməsəydilər, hadisələri düzgün dərk etmiş olsaydılar, yaxud düzgün proqnozlaşdıra

bilsəydilər, itkilərin və qırğınların qarşısına bir sədd çəkmiş, yaxud onları minimuma endirmiş olardılar. Amma onlar bunu ya edə bilmədilər, yaxud heç etmək belə istəmədilər. Şübhə yoxdur ki, on beş ildən sonra "uzaqdan döyüş adama da-ha asan görünür", yəni kimlərisə ittiham etmək elə də çətinlik yaratmır, amma burada söhbət baş vermiş hadisələrdən düzgün nəticə çıxarmağa nail olmaqdan gedir. **Bir də belə hadisələrin təkrarlanmaması üçün biz o günləri daim təhlil etməli, o hadisələrin iştirakçılarını isə, necə deyərlər, "zərrəbinlə yoxlayıb" kimin kim olduğunu aşkara çıxarmalıyıq.** Bunu edə bilməsək, Qanlı Yanvar faciəsinin başvermə səbəbləri heç vaxt düz-gün açıqlanmayacaq.

**Ədəbiyyat**

1. Heydər Əliyevin 20 Yanvar faciəsi ilə əlaqədar Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyində bəyanatı. "Dirçəliş-XXI əsr" jurnalı, № 1 (23), 2000.

2. 20 Yanvar faciəsinin on ikinci ildönümünün keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. "Dirçəliş-XXI əsr" jurnalı, № 47, 2002.

3. Məmmədzadə R. Şəmbə gecəsi. Bakı, 1990.

4. Kəngərli Q. Qara yanvar şəhidləri (məlumat kitabı). Bakı, 1992.

5. Mehdiyev R. Azərbaycanlılara qarşı soyqırımın gerçəklikləri (Azərbaycan, rus və ingilis dillərində). Bakı, 2000.

6. Tariximizin faciəli səhifələri: soyqırımı. Azərbaycan Respublikası Milli Məclisinin nəşri. Bakı, 2000.

7. Tağıyev Ə. Ruslar və türklər. Bakı, 2000.

8. S.Khantinqton. The clash of civilizations. Chikaqo, 1993.

9.Бжезинский З. Великая шахматная доска. Господство Америки и его геостратегические императивы. М., 1998.

10. Tağıyev Ə. Milli ideya və milli ideologiya: problemlər və onların şərhi. Bakı, 2001.

11. Vəfa Z. Erməni daşnaklarının törətdiyi faciələr. "Dirçəliş-XXI əsr" jurnalı, № 53, 2002.

12. Xəlilli X. Azərbaycan xalqını dünyaya yenidən millət kimi təqdim edən 20 Yanvar. Bakı, 2003.

**Əlikram Tağıyev,**
*fəlsəfə elmləri doktoru, professor*

**"Dirçəliş-XXI əsr".-** 2004-2005.- № 82-83.- S. 115-121

## 20 Yanvar faciəsi bəşəriyyətə qarşı yönəldilmiş cinayətdir

*Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi. 1990-cı ilin Qanlı Yanvarında Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalmış Vətən övladları özlərinin fədakarlığı, şəhidliyi ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar. Bu gün də Azərbaycan xalqı canlarından keçməyə hazır olan övladları ilə fəxr edir.*

*Heydər ƏLİYEV*

Azərbaycan Prezidenti İlham Əliyevin 20 Yanvar faciəsinin on dördüncü ildönümünün keçirilməsi haqqında 9 yanvar 2004-cü il tarixli sərəncamında deyildiyi kimi "Həmin gün respublikada haqq-ədalətin bərqərar edilməsi tələbləri ilə çıxış edən Azərbaycan xalqının inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq məqsədilə totalitar sovet rejiminin həyata keçirdiyi terror aktı nəticəsində bəşər tarixində insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri baş verdi". Həqiqətən bu, təkcə Azərbaycan xalqına deyil, bəşəriyyətə qarşı yönəlmiş bir aksiya idi.

Ümumiyyətlə, XX əsrin 80-90-cı illərini Azərbaycan xalqının tarixində daha geniş elmi tədqiqatlar, araşdırmalar tələb edən bir dövr kimi göstərmək olar. Zəngin və keşməkeşli tarixə malik Azərbaycan xalqı qeyd edilən dövrdə də çoxsaylı qəhrəmanlıq səhifələrini yazmış, zamanın sərt sınaqlarına öz məğrurluğu və mübarizəsi ilə sinə gərmişdir. Təkcə XX əsrdə deyil, bütün yüzilliklərdə qonşu dövlətlərin, eləcə də bir çox dünya ölkələrinin bu strateji məkanda kəsişən və toqquşan maraqları, bu maraqları həyata keçirmək cəhdləri xalqımızın tarixində qanlı mübarizələr yaratmış, dərin izlər buraxmışdır. Lakin 70 il "Sovet İttifaqı" deyilən bir nəhəng qurumun tərkibində olan xalqı-mız həmişə müstəqil dövlət qurmaq, dünya xalqları arasında layiqli yerini tutmaq uğrunda siyasi mübarizəsini davam etdirmişdir. Tarixə nəzər salsaq bu ənənənin xalqımızın qanından, canından gəldiyi daha aydın görünər. Azərbaycan xalqı amansız məşəqqətlərə, məhrumiyyətlərə məruz qalsa da, hər zaman öz azadlığını, müstəqilliyini uca tutmuş, yüzlərlə, minlərlə Vətən övladı bu şərəfli işi həyat amalına çevirərək, şəhidlik zirvəsinə ucalmış, bununla bəşəriyyətin azadlıq mücadiləsi tarixinə haqq-ədalət salnaməsi yazmışlar .

Azərbaycan xalqı bəzən dövrün ictimai-siyasi prosesləri, bəzən isə daxili çəkişmələrin, ara müharibələrinin, müxtəlif daxili qüvvələrin şəxsi maraqlarının nəticəsində öz müstəqilliyini itirmişdir. Bu amil həmişə öz-özlüyündə hər bir xalqa ağır başa gəlmiş, faciələrin əsasında durmuşdur. Hər iki amil isə eyni dövrdə baş verdikdə müsibətlərə gətirib çıxarır. Mahiyyət isə budur ki, bir tərəfdən xarici təhlükə ölkəni sarsıtmağa, o biri tərəfdən isə daxildə müxtəlif maraqlı qüvvələr buna şərait yaratmağa çalışır, həmin şəraitdən şəxsi məqsədlər üçün istifadə edir.

80-ci illərin sonuna doğru SSRİ-də baş vermiş proseslər təkcə bu illər meydana gəlmiş milli-siyasi problemlərin nəticəsi olmayıb, uzun tarixi siyasətin sistemli şəkildə həyata keçirilən davamı idi ki, artıq bu nəhəng qurumun dağılması aybaay sürətlənirdi. Növbəti şəraitdən isə istifadə edərək Azərbaycanın ərazi bütövlüyünə, müstəqilliyinə və ən əsası isə süni Dağlıq Qarabağ problemini gələcək münaqişə ocağına çevirmək üçün sovetlər ittifaqı və tarixən böyük dövlətlərin əlaltısı olan Ermənistan xüsusi addımlar atmağa başladılar. **Qısa müddət ərzində azərbaycanlıların indiki Ermənistan ərazisindən - öz ata-baba yurdlarından deportasiya olunması, Dağlıq Qarabağ kimi tarixi torpağımızın növbəti dəfə saxta qanun və qərarlarla ermənilərə verilməsi cəhdləri yüzlərlə günahsız soydaşımızın qətli ilə nəticələnmişdir.** Hələ 1987-ci ildə ortaya atılan qondarma Dağlıq Qarabağ problemi respublikamızın ərazi bütövlüyünə qarşı, vətəndaşların konstitusiya hüquqlarının pozulmasına yönəlmiş cəhd kimi xalqımız tərəfindən pislənmişdir. Lakin formal da olsa bir yandan sərhədlərimizin toxunulmazlığı müxtəlif səviyyələrdə rəsmən təsdiq olunur, digər tərəfdən isə Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılması haqqında qərarlar qəbul edilirdi. 1988-ci ilin mart ayında SSRİ KP MK və Nazirlər Sovetinin çıxardığı qərar-da muxtar vilayətə müstəsna hüquqlar verilmiş, bir

çox məsələlərin həlli isə birbaşa İttifaqın nazirlik və qurumlarına həvalə edilmişdir. Azərbaycan SSR Ali Soveti isə özünün 17 iyun 1988-ci il tarixli qərarı ilə mərkəzin həmin qərarına, təəssüf ki, müsbət münasibət bildirmişdir. Az sonra 1989-cu il yanvarın 12-də SSRİ Ali Sovetinin "Dağlıq Qarabağda xüsusi idarəetmə forması"nın yaradılması haqqında qərarı və A.Volskinin başçılığı ilə Xüsusi İdarəetmə Komitəsinin fəaliyyəti faktiki olaraq Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibindən çıxarılması demək idi. Bundan istifadə edən Ermənistan SSR Ali Soveti 1989-cu il dekabrın 1-də "Dağlıq Qarabağın Ermənistana birləşməsi haqqında" qərar qəbul etdi. Bir neçə il ərzində baş vermiş siyasi proseslər və qəbul olunmuş qərarlar Azərbaycan xalqına qarşı qərəzli münasibəti açıq-aşkar göstərmiş, Ermənistan ərazisindən kütləvi etnik təmizləmədə, yüzlərlə-minlərlə günahsız qocalarımız, qadınlarımız, uşaqlarımız qətlə yetirilərək, bu siyasətin qurbanı olmuşlar. Rəsmi Moskva isə faciəyə sükutla yanaşmışdır. Bütün prosesləri Azərbaycan xalqı Sovet İttifaqı KP-nin xalqımızın mənafeyinə zidd siyasəti kimi qəbul etmiş və bütün əhalinin qəzəbi-nə səbəb olmuşdur. Dağlıq Qarabağ məsələsində o vaxtkı Azərbaycan rəhbərliyinin mərkəzlə sövdələşməsi isə ölkəmizin hər yerində kəskin etirazlarla qarşılanmışdır.

20 Yanvar hadisələrinə bir neçə gün qalmış mətbuatda yalnız Qanlı Yanvar hadisəsi törədiləndən sonra [e]lan olunmuş fərman, hələ yanvarın 15-də SSRİ Ali Soveti Rəyasət Heyətinin "Dağlıq Qarabağ Muxtar Vilayətində və bəzi digər rayonlarda fövqəladə vəziyyətin elan olunması haqqında" verdiyi fərman ilə tarixi torpaqlarımızın mənsubiyyətini sual altında qoyurdu. Bununla da bir yandan mərkəzin Azərbaycana qarşı qərəzli siyasəti, bir yandan isə respublikamıza rəhbərlik etmiş şəxslərin böyük bir xalqın tarixi taleyinə laqeyd münasibəti günü-gündən ziddiyyətləri dərinləşdirmişdir. Azərbaycan rəhbərliyi siyasi proseslərin gedişinin qarşısını almaq yolunda acizlik və qətiyyətsizlik göstərmiş, nəticədə isə öz xalqına qarşı xəyanətkarlıq planları aşkarlanmışdır. Əslində isə uzun müddət meydan hərəkatı adı altında tanınmış müxtəlif təbəqələrin birliyi bütün bu proseslərin qarşısının alınması zərurətindən yaranmışdır. Azərbaycan xalqı öz taleyini məhz özü həll etmək, azadlığını, müstəqilliyini və ərazi bütövlüyünü əldə etmək və qoruyub saxlamaq naminə bir araya gəlmiş, bu məsuliyyəti milyonlarla insanlar dərk edərək meydana toplaşmışdır. Doğrudur, meydan hərəkatı Azərbaycan tarixində istər tədqiqatçılar, istərsə də siyasətçilər tərəfindən ziddiyyətli şəkildə izah olunur və məsələyə müxtəlif cür yanaşmalar mövcuddur. Bu da həqiqətdir ki, bütün xalq yekdil olaraq öz azadlığını və ərazi bütövlüyünün sahibi olmaq uğrunda bir araya gəlmiş, lakin kortəbii şəkildə. Azadlığın və müstəqilliyin vacibliyini söyləmiş, lakin onun hansı formada əldə edilməsini, xalq hərəkatının strategiyasını və gələcəyini müəyyən edə bilməmişlər. Beləliklə də, **Azərbaycan xalqının azadlıq uğrunda apardığı mübarizə bu xalqa divan tutmaq yolunu seçən sovet rəhbərlərinin və onların Azərbaycandakı əlaltılarının ədalətsizliyi ucbatından 1990-cı ilin 20 yanvarında misli görünməmiş vəhşiliklərlə müşayiət edildi**. Meydan hərəkatına rəhbərlik edən bir qrup adamın siyasi savadsızlığı az müddətdə onların fəaliyyətində özünü büruzə verdi. Vətənpərvər xalq isə imperiyanın müasir silah və texnikası ilə silahlanmış hərbi birləşmələrinin qarşısına əliyalın çıxmışdır. Bax, bu, əsl qəhrəmanlıq, millətsevərlik idi. Lakin belə bir düşmən ordunun qarşısında bu şəkildə dayanmaq xalqımıza böyük itkilər bahasına başa gəldi. Hakimiyyət orqanları xalqa xəyanət edərək onların taleyinə biganə yanaşdı. Xalq hərəkatına rəhbərliyi ələ keçirmiş qüvvələr isə öz maraqlarını üstün tutdular. Lakin Azərbaycan xalqı öz suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçməyə hazır olduğunu bir daha göstərdi. Mənbələrdən məlum olur ki, Bakı şəhərinə yanvarın 19-dan 20-nə keçən gecə qoşun yeridiləcəyi və qırğın olacağı, hətta xalq hərəkatına rəhbərlik edənlərə məlum idi və Polyaniçko həmin vaxt AXC nümayəndələrinə bu haqda məlumat vermişdi. Lakin həmin insanlar xalqı bu qırğınlardan qorumaq üçün heç bir səy göstərməmişdilər.

Siyasi cəhətdən yetkin olmayan bu şəxslər belə bir şəraitdə insanları rus tanklarının qarşısına çıxmağa çağırdılar. Bu çağırış əslində səbr kasası dolmuş, müstəqilliyə can atan qəhrəman bir xalqı bilərəkdən, kortəbii şəkildə qırğına vermək idi. Əlbəttə, rus ordusunun məqsədi məhz xalqımıza divan tutmaq idi. Lakin hər halda bu qədər qırğının qarşısını almaq olardı. Beləliklə də, **20 Yanvar tariximizə həm qəhrəmanlıq rəmzi, həm də faciə kimi daxil olmuşdur. Lakin bu tarixi hadisə xalqımızı azadlıq mücadiləsi yolundan döndərmədi,**

**əksinə, milli ideyaların formalaşmasında mühüm rol oynadı, müstəqil dövlət qurmaq kimi böyük idealı reallaşdırmağa daha güclü təkan verdi.**

**Qanlı Yanvar günlərində Azərbaycanda 132 nəfər qətlə yetirilmiş, 612 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuş, onlardan 112 nəfəri SSRİ-nin müxtəlif şəhərləri-nə aparılaraq həbsxanalarda saxlanılmışdır.** Qırğına birbaşa SSRİ müdafiə naziri D.Yazov, daxili işlər naziri V.Bokatin, DTK sədrinin müavini F.Babkov rəhbərlik etmişlər.

**Bütün bu proseslərə məhz Azərbaycan xalqının müdrik oğlu, siyasi xadim Heydər Əliyev dərhal münasibət bildirmiş, hələ Moskvada ikən yanvarın 21-də Azərbaycanın Daimi Nümayəndəliyinə gələrək xalqımıza qarşı törədilmiş qanlı cinayəti kəskin pisləmişdir.** Həmin vaxt ittifaq rəhbərlərinin kəskin təzyiq və təsirlərinə məruz qalacağını bilsə də, özünəməxsus qətiyyət və cəsarətlə demişdir: **"Mən belə hesab edirəm ki, 19-20 yanvarda baş vermiş bu faciə həm Sovet İttifaqının siyasi rəhbərliyinin, şəxsən M.Qorbaçovun böyük günahının nəticəsidir, onun diktatorluq meyllərindən əmələ gəlmiş bir haldır və eyni zamanda Azərbaycan rəhbərlərinin xalqa xəyanətinin və cinayətinin nəticəsidir."**

O zaman üçün xüsusi əhəmiyyətli, həm də böyük cəsarət tələb edən bu tarixi bəyanat bir daha Azərbaycan xalqının haqq səsinin dünyaya bəyan edilməsində çox ciddi addım idi. Lakin həmin dövrdə respublika rəhbərliyi belə bir faciənin mahiyyətini hər vasitə ilə ört-basdır etməyə cəhd göstərmişdir. Hətta xalqın tələbi və bir qrup deputatın təşəbbüsü ilə Azərbaycan SSR Ali Sovetinin 1990-cı il yanvarın 22-də faciə ilə əlaqədar çağırılmış sessiyasına respublikanın əksər siyasi rəhbərlərinin gəlməməsi, ən əsası isə şəhidlərin dəfn mərasimində iştirak etməmələri onların törədilmiş cinayətdə bilavasitə iştirakından xəbər verirdi. Daha sonra bu hadisəyə siyasi qiymət verilməsində də hakimiyyətdə olarkən Xalq Cəbhəsi öz imkanlarından istifadə etməmişdir. Hətta Dövlət İstintaq Komissiyasına xalq tərəfindən verilmiş dəlil və sübutlar qəsdən Azərbaycandan çıxarılıb aparılmışdır. Arxiv sənədlərinin bir qismi isə məhv edilmişdir. Əslində isə bu cinayətin üstü açılmamış qalmışdır. Yalnız 20 Yanvar hadisələrinin lazımınca qiymətləndirilməsi üçün dövlət başçısı cənab Heydər Əliyevin 5 yanvar 1994-cü ildə verdiyi fərmanla ciddi addımlar atılmış, Milli Məclisdə bu hadisələrə tam siyasi, hüquqi qiymət verilməsi tövsiyə olunmuşdur. Milli Məclis bu məsələyə xüsusi sessiya həsr edərək, yanvar hadisələrinin əsl səbəblərini açıqlamış, günahkarları aşkar etmiş, yekunda isə 29 mart 1994-cü il tarixli qərarda hadisəyə tam şəkildə siyasi-hüquqi qiymət verilmişdir. Həmin qərarda 20 Yanvar faciəsinin Azərbaycan xalqına qarşı törədilmiş cinayət olduğu və bütün bəşəriyyətə, humanizmə və insanlığa qarşı dəhşətli bir əməl olduğu konkret faktlarla göstərilmişdir. **Azərbaycan xalqı təcavüzə məruz qalsa da, tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta bu yolda şəhid olmaq əzmini bütün dünyaya nümayiş etdirdi.** Möhtərəm Prezidentimiz Heydər Əliyevin verdiyi fərmandan sonra Milli Məclisin çıxardığı qərar əsasında 20 Yanvar faciəsinin səbəblərinin araşdırılması üçün ziyalılarımız elmi-tədqiqat işləri aparmış, ölkəmizin şəhər və rayonlarında kütləvi tədbirlər keçirilmişdir. Hadisələrin elmi baxımdan işıqlandırılması istiqamətində konfranslar keçirilmiş, nəşrlər hazırlanmış, bütövlükdə isə öz mahiyyəti və təfsilatı ilə dövlət səviyyəsində gələcək nəsillərə çatdırılması yolunda ciddi addımlar atılmışdır. Beynəlxalq ictimaiyyətdə layiqli rəy formalaşdırılmışdır. Buna görə də 20 Yanvar faciəsinin ildönümü bütün tədqiqatçıların qarşısında mühüm vəzifələr qoyur, gələcəkdə Azərbaycan tarixinin qanla yazılmış səhifəsini daha dərindən öyrənmək, obyektiv həqiqətləri üzə çıxardaraq, fundamental əsərlər yazmaq hər birimizin vətəndaşlıq borcumuzdur. Azərbaycanda törədilmiş faciədən 14 il keçməsinə baxmayaraq 20 Yanvar qırğınının baisləri hələ də layiqli cəzalarını almayıblar. Xalqımızın igid övladlarının qanını axıdanlar məhkum olunmalıdırlar. Ədalət naminə, Vətəni-mizin möhkəm taleyi naminə.

**Ədəbiyyat**

1. Heydər Əliyevin Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyində Azərbaycan xalqına 20 Yanvar faciəsi ilə əlaqədar başsağlığı və müraciəti. "Dirçəliş-XXI əsr" jurnalı, № 47, 2002.

2. 20 Yanvar faciəsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. "Azərbaycan" qəzeti, 17 dekabr 1999.

3. 20 Yanvar faciəsinin 10-cu ildönümü haqqında rəsmi sənədlər. "Hüquqi dövlət və qanun" jurnalı, №11-12, 1999.

4. Vətən yolunda, azadlıq və istiqlal uğrunda şəhid olanların xatirəsi əbədidir. 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş ümumrespublika mərasimində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi. "Azərbaycan" qəzeti, 20 yanvar 2000.

5. 20 Yanvar faciəsinin on ikinci ildönümünün keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sərəncamı. "Azərbaycan" qəzeti, 6 yanvar 2002.

6. Tariximizin faciəli səhifələri: Soyqırımı. Azərbaycan Respublikası Milli Məclisinin nəşri. Bakı, 2000.

7. Mehdiyev R. Azərbaycanlılara qarşı soyqırımı gerçəklikləri (Azərbaycan, rus və ingilis dillərində). Bakı, 2000.

8. Kəngərli Q. Qara Yanvar şəhidləri (məlumat kitabı). "Gənclik" nəşriyyatı, Bakı, 1992.

9. Cəfər N. İstiqlal ulduzları. (Azərbaycanın milli qəhrəmanları) "Azərnəşr", Bakı, 1995.

10. Vəliyev İ. Qara gündəlik: 1990-cı il 20 Yanvar hadisələri. Bakı, 1997.

11. Əhmədli Ş., Sarvanlı Q. Bakı metropoliteninin qəhrəmanları. Bakı, 1997.

12. Черный январь. Баку-1990. Документы и материалы. «Азернешр», Баку,1990.

13. 20 Yanvar faciəsinin on dördüncü ildönümü haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı. "Azərbaycan" qəzeti, 10 yanvar 2004.

**Füzuli İsmayılov**

**"Dirçəliş-XXI əsr".-** 2004.- № 71.- S. 33-38

## Faciələrimiz rəhbərsizlikdən törəndi

**Ey Vətən oğlu, Vətən övladı**
**Sil gözün yaşını**
**Qan haçan yerdə qalıb?**
**Təzələ öz yaddaşını.**

**QABİL**

Hegelin belə bir fikri var: "Xalqlar və dövlətlər tarixdən heç vaxt və heç nəyi öyrənməyiblər". Bu sözlər bizim xalqımıza da aiddir. Son üç minillik tarixində xalqımızın başına 20 Yanvar və Xocalı faciələrinə oxşar bəlalar çox gəlib. Lakin tarixən sadə qəlbli və nikbin xalqımız öz yaxın və uzaq keçmişini unuda-unuda yaşadığından yaddaşında ibrət dərsi götürməyə elə bir hadisə qalmayıb.

20 Yanvar 1990-cı il və 26 fevral 1992-ci il tarixli faciələri Azərbaycan xalqına qarşı növbəti soyqırımları idi. Azərbaycan prezidenti Heydər Əliyev Yanvar hadisələri haqqında demişdir: "Yanvar hadisələrinin ildönümünü qeyd edərkən biz bir tərəfdən sovet tanklarının qarşısına əliyalın çıxan adamlarımızın qəhrəmanlığını təbliğ etməli və hadisələrin ibrət dərsini unutmamalıyıq, eyni zamanda həmin gün Vətənimizin azadlığı uğrunda canlarından keçənlərin xatirəsini yad etməliyik".

**1990-cı il 20 Yanvardan, 1992-ci il 26 fevraldan keçən müddətdə bu ümummilli faciələrə siyasi qiymət verilməsi ümumi fikir birliyinin yaranması istiqamətində xeyli irəliləyiş olub. Əvvəllər məhdud şəxsi və partiya mənafeyindən bu məsələlərə yanaşanlar bu gün tədricən öz mövqeyini dəyişib ümumxalq mövqeyi baxımından onlara qiymət verirlər. Lakin bu hadisələrin başvermə səbəbləri, əsas günahkarları və ibrət dərsləri ilə bağlı mətbuatda dərc olunan məqalələrdən hiss olunur ki. Bir çox ciddi fikir ayrılıqları hələ də qalmaqdadır. Və biz başımıza gələn faciələrdən bu gün də nəticə çıxarmamışıq.**

**Ona görə də hər iki faciənin başvermə səbəbləri, əsas günahkarları və ibrət dərsləri ilə bağlı öz fikirlərimi oxucularla bölüşmək qənaətinə gəldim.**

**Əvvəlcə 1990-cı il 20 Yanvar faciəsini təhlil edək.**

### I. 20 Yanvar faciəsinin səbəbləri:

Yanvar faciəsinin başvermə səbəbləri haqqında iki müxtəlif fikir var:

1) 20 Yanvar qırğını - sovet imperiyasını qoruyub saxlamaq və Azərbaycan xalqının milli-azadlıq hərəkatını boğmaq üçün törədilmişdi;

2) 20 Yanvar qırğını sovet dövlətini dağıtmaq üçün ortaya atılmış Dağlıq Qarabağ problemini ermənilərin xeyrinə həll etmək məqsədilə Azərbaycan xalqının gözünü qorxutmaq, onun milli-azadlıq hərəkatını boğmaq üçün törədilmişdi.

Səbəb kimi bunlardan hər ikisi eyni dərəcədə inandırıcı olsa da, ikinci fikir daha real və elmidir. Əgər M.S.Qorbaçov və onun əlaltıları 20 Yanvar qırğınını imperiyanı qoruyub saxlamaq üçün törətsəydi, gərək onda erməniləri, Baltikyanı ölkələri bizdən tez qıraydı. Çünki onlarda milli-azadlıq hərəkatı daha erkən başlamışdı. Zaman və hadisələrin sonrakı gedişi şəksiz sübut edir ki, M.S.Qorbaçov məhz SSRİ-ni dağıtmaq üçün 1986-cı ilin dekabrında Alma-Ata hadisələrini, 1989-cu ilin aprelində Tbilisi hadisəsini, 1990-cı il yanvarın 20-də Bakı hadisəsini, 1991-ci ilin yayında isə Vilnüs hadisəsini törətdi. Özü də bu hadisələr planlı şəkildə, məxfi qrafik üzrə törədildi. Birinci fikri söyləyənlər, yəni "20 Yanvar qırğını imperiyanı qoruyub saxlamaq üçün törədilmişdi" şəklində mühakimə yürüdənlər əslində özləri də bilmədən, yaxud da bilərəkdən M.S.Qorbaçova və bu ağır cinayətin digər iştirakçılarına mənəvi haqq qazandırmış olurlar. Əlbəttə, dövlətin ağıllı başçısı onu qorumalıdır, dağıtmalı deyil ki?!

Əsl həqiqət isə ondan ibarətdir ki, M.S.Qorbaçovun SSRİ-ni dağıtmaq üçün rəvac verdiyi Qarabağ problemi tədricən genişlənib erməni-Azərbaycan müharibəsinə çevrildi. Azərbaycanın o vaxtkı rəhbərliyinin maymaq, milli mənafedən uzaq antixalq siyasəti ermənipərəst Qorbaçov rejiminin Dağlıq Qarabağı Ermənistana vermək istiqamətində atdığı addımlara daha da şərait yaradırdı. Lakin həmvətənlərimizin didərgin salınmasından, torpaqlarımızın işğal olunmasından duyuq düşən Azərbaycan xalqı öz azadlığı, ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizəyə qalxdı. Getdikcə xalq hərəkatı yüksəlir, onun mütəşəkkilliyi artır, deməli, yuxarı Qarabağla bağlı gizli planların həyata keçirilməsi çətinləşirdi. Ermənistanda yaşayan 200.000 azəri zorla ata-baba torpaqlarından qovulduğundan Azərbaycanda yaşayan ermənilər üçün də müvafiq təhlükə artırdı. SSRİ-ni dağıtmaq vəzifəsini qarşısına qoyan M.S.Qorbaçova da elə bu lazım idi. Beləliklə, Bakıda və digər şəhərlərdə, eləcə də Dağlıq Qarabağda yaşayan ermənilərin həyatı üçün guya təhlükə yarandığını, islam fundamentalizminin gücləndiyini və s. bəhanə edərək M.S.Qorbaçov və onun komandası 1990-cı il Yanvar hadisələrini törətdi.

M.S.Qorbaçovun özü 1995-ci ildə Moskvada nəşr olunan "Jizn i reformı" adlı kitabında yazır: "90-cı illər erməni-azərbaycanlı münasibətlərinin yenidən kəskinləşməsi ilə əlamətdar oldu ki, bu da Bakıda erməni qırğınına, ermənilərin şəhərdən "çıxıb getməsinə" gətirib çıxardı. Bu faciə və tarixdən aldığım dərs budur: "Ekstremal şəraitlərdə hakimiyyət güc tətbiq etmədən keçinə bilməz". Onun bu sözləri 20 Yanvar faciəsinin törədilməsinin əsl mahiyyətini pərdələmək məqsədi güdür. Real tarixi həqiqət isə ondan ibarətdir ki, 1985-ci ilin aprelində hakimiyyət başına gələn və "yenidənqurma" konsepsiyası ilə guya SSRİ-də islahatlar aparmaq istədiyini bildirən M.S.Qorbaçovun əsl niyyəti bu dövləti dağıtmaq, xalqlar arasına nifaq salmaq, onları bir-birilə vuruşdurmaq idi.

İndi bir daha aydın oldu ki, M.S.Qorbaçov və onun komandası SSRİ-ni dağıtmaq, Azərbaycan xalqının isə milli-azadlıq hərəkatını boğmaq, onun gözünü qorxutmaq və Qarabağ problemini Ermənistanın xeyrinə həll etmək məqsədilə 20 Yanvar faciəsini törətmişdir. Faciəni törədən ən başlıca səbəb bu idi. Aydındır ki, bu qlobal və beynəlxalq mahiyyətli hadisənin törədilməsinin digər səbəbləri də ola bilər. Lakin onlar ikinci dərəcəli səbəblər, yaxud da bu əsas səbəbdən törənən nəticələrdir.

20 Yanvar faciəsinin başvermə səbəblərindən danışarkən belə bir vacib sualı da aydınlaşdırmaq lazım gəlir: bu faciə obyektiv zərurətindənmi törənmişdi? Yaxud da həmin günlər kütləvi qırğınlardan qaçmaq və ya yan sovuş-maq mümkün idimi? Bu sualın cavabını verərkən ziyalılar, tədqiqatçılar və ya siyasətçilər yenə də əsasən 2 qrupa bölünürlər:

Birinci qrupun nümayəndələri 20 Yanvar faciəsini M.S.Qorbaçovun SSRİ-ni qoruyub saxlamaq məqsədilə törətdiyini iddia edərək belə bir fikir də irəli sürürlər ki, bu hadisədən qaçmaq mümkün deyildi. Faciə planlaşdırılmış bir hadisə idi. AMİP lideri, millət vəkili Etibar Məmmədov deyir: "Moskva bu cəza aksiyasını həyata keçirməliydi. Bunu əsaslandırmaq üçün Azərbaycan-da hakimiyyətdə olan, xalqımızın taleyi üçün məsuliyyət daşıyan adamlardan da istifadə olunmuşdu. Onların əli ilə Moskvaya teleqramlar hazırlanmışdı ki, Azərbaycanda kütləvi qırğınlar gedir, rus əhalisi kütləvi şəkildə çıxarılır və s. Bunun da qarşısını almaq, qayda-qanun yaratmaq üçün Bakıya ordu hissələri yeridilmişdi. Bunu əsas kimi götürüb ordunu Bakıya yeritmişdilər. Bu da xalqın gözünü qorxutmaq, onu cəzalandırmaq üçün hazırlanmış plan idi. Bu fikrin tərəfdarları 20 Yanvar faciəsini qanunauyğun bir proses kimi təqdim edirlər. Və bildirirlər ki, hər bir azadlıq qan tələb edir, ona görə də bu labüd bir proses idi. Digər tərəfdən də, onlar söyləyirlər ki, sovet imperiyası da digər bütün imperiyalar kimi dağılarkən mütləq ucqarlarda qan-qırğın törətməli idi. Xalq Cəbhəsinə və digər müxalifətçi partiyalara mənsub olan siyasətçilər deyirlər ki, bu, sovet imperiyasının təbiətindən doğan bir obyektiv hal idi. Maraqlıdır ki, onların bu ideyası "Respublika" qəzetində Musa Axundov və Qəşəm Əliyev tərəfindən daha da əsaslandırılır:

"... 70 ildir yol gəlirdik "20 Yanvara", 70 ilin bəhrəsiydi "Qara Yanvar", "20 Yanvar". 1920-ci ilin 28 aprelindən üzü bəri hər an gözlənilirdi bu qırğın. Odur ki, bu soyqırım mütləq olmalıydı. Fərqi yoxdur, beş gün tez, beş gün gec...". Güman ki, İsa Qəmbər, Əbülfəz Elçibəy, Mais Səfərli və müxalifət düşərgəsinin digər nümayəndələri də bu fikirdədirlər. Aydındır ki, kağızı, qəzeti və ya jurnalı doldurmaq üçün yazılmış və ya deyilmiş bu fikirlərin real həqiqətlə heç bir əlaqəsi yoxdur. Əgər biz bir anlığa 20 Yanvar faciəsinin Moskva

tərəfindən planlaşdırılmış bir hadisə, quruluşun təbiətindən doğan hal olduğunu qəbul etsək, onda, deməli hadisələrin baş verməsində yerli rəhbərlərin və digər qüvvələrin günahlarını yüngülləşdirmiş və ya tamam yumuş oluruq. Əlbəttə, bu, tarixi saxtalaşdırmaq olardı. Bizə kimisə yalandan günahlandırmaq və ya kimisə sudan quru çıxarmaq yox, hadisəni törədən obyektiv səbəbləri və onun günahkarlarını aydınlaşdırmaq lazımdır.

İkinci qrupun nümayəndələri isə 20 Yanvar faciəsinin obyektiv, quruluşun təbiətindən gələn hal yox, tamamilə subyektiv amilin, yəni ayrı-ayrı vəzifəli şəxslərin Azərbaycan xalqına qarşı xəyanətinin nəticəsi hesab edirlər. Xalq şairi Bəxtiyar Vahabzadə, milli siyasət məsələləri üzrə dövlət müşaviri Hidayət Orucov, Qafqaz Müsəlmanları idarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə, ASDP-nin həmsədri Zərdüş Əlizadə və başqaları belə hesab edirlər ki, bu qırğın zəruri deyildi, ondan qaçmaq, onun qarşısını almaq mümkün idi. Bəxtiyar Vahabzadə (onun Yanvar qırğınına siyasi qiymət verməyə daha çox mənəvi haqqı çatır) bu barədə belə deyir: "Mən o barədə bir kitab da yazmışam: "Şənbə gecəsinə gedən yol. Əslinə baxsaq, mən siyasətçi deyiləm. Amma belə şeyi zəruri hesab etmirəm. Düzdür, Xalq Cəbhəsi fəaliyyətdə idi, Milli Azadlıq Hərəkatı var idi, milli azadlıq duyğuları yetişmiş, cavanlarımız milli şüura çatmışdılar. Amma bütün bunlar "Şənbə" gecəsini zəruri hesab etməyə əsas vermirdi". Dövlət müşaviri Hidayət Orucov öz müsahibəsində bildirir ki, faciənin qarşısını almaq mümkün idi. O halda ki, xalqın başında ağıllı, tədbirli, uzaqgörən, ən başlıcası isə millətinə sədaqətlə xidmət edən rəhbər olsaydı. Millətə sədaqətlə xidmət edən rəhbərin o vaxt kim ola biləcəyini şeyx həzrətləri öz müsahibəsində bir qədər də açıqlayır: "Necə bilirsiniz, faciənin qarşısını almaq mümkün idimi", - sualına Allahşükür Paşazadə cənabları belə cavab verir: "Bəli, onun qarşısını ala bilərdik. Əgər Vəzirovun istefasına nail olunsaydı. Çünki Vəzirov Moskvanın Azərbaycanda quyruğu idi. Mən elə bilirəm ki, həmin vaxt Azərbaycanda hakimiyyət dağılsa idi... Bizim ən böyük səhvimiz vaxtında Heydər Əliyevi hakimiyyətə gətirməməyimiz oldu. Əgər Heydər Əliyev onda gəlsəydi, bəlkə də o faciə baş verməzdi, Dağlıq Qarabağ məsələsi də bu vəziyyətə gəlib çıxmazdı". Göründüyü kimi, 20 Yanvar faciəsi sadəcə olaraq rəhbərsizlikdən və hakimiyyətsizlikdən törəyib.

## II. 20 YANVAR FACİƏSİNİN ƏSAS GÜNAHKARLARI

Azərbaycan xalqına qarşı açıq təcavüz kimi qiymətləndirilən bu hadisədə 131 nəfər adam (122 kişi, 5 qadın, 4 uşaq) həlak olmuş, 700 nəfər (o cümlədən 25 qadın, 20 uşaq) yaralanmış, 12 nəfər isə itkin düşmüşdür. Həlak olanların milli mənsubiyyətinə görə 117 nə-fəri azəri, 3-ü yəhudi, 3-ü tatar, 6-sı rus idi. Sosial mənsubiyyətinə görə 4-ü polis işçisi, 1-i həkim, 12-si tələbə, 1-i aspirant, 3-ü elmlər doktoru idi.

20 Yanvar faciəsinin dəhşətləri təkcə ölən və yaralananların sayı ilə deyil, həm də Bakıya yeridilmiş ordu hissələrinin xüsusi amansızlığı ilə, onların insanlara qarşı törətdikləri vəhşiliklərlə (ölən və yaralananların əksəriyyəti arxadan vurulmuşdu) səciyyələnir. Bütün bu hərəkətlər şəksiz şəkildə 20 Yanvarın xüsusi niyyətlərlə, süni formada, özü də məqsədli şəkildə törədilməsindən xəbər verir. O şəxslər ki, 20 Yanvarın obyektiv səbəblərdən və ya quruluşun təbiətindən doğan bir hal olduğunu iddia edirlər, deməli, onlar beynəlxalq erməni lobbisinin Azərbaycan xalqına qarşı tarixi sovet quruluşundan çox-çox uzaqlara gedən məkrli planlarından, kin və küdurətinin dərəcəsindən xəbərsizdirlər.

Ermənilər bu dəfə öz planlarını M.S.Qorbaçovun əli ilə törətdilər. 20 Yanvar mərkəzi və yerli dövlət hakimiyyəti orqanlarında oturmuş, ermənipərəst qatil, cəllad və qaniçən rəhbərlərin antidövlət və antixalq siyasətini və bir də hakimiyyətə can atan yeni siyasi qüvvələrin, o cümlədən Xalq Cəbhəsinə məxsus olan və DTK xətti ilə xalq hərəkatına yeridilmiş liderlərin günahı ucbatın-dan baş verdi.

Faciədən keçən dövrdə bu günahkar tərəflərdən hər biri özünün günahsız olmaları haqqında nə qədər cəhdlər, təşəbbüslər etsələr də, tarix bu hadisəyə öz siyasi qiymətini vermişdir. Bununla belə, bu gün də faciənin əsas günahkarları və onların günahlarının nə dərəcədə çox və ya az olması məsələsində yersiz mübahisələr getməkdədir. Bəziləri Yanvar faciəsinin sovet quruluşunun təbiətindən doğduğu və ya sovet rəhbərləri tərəfindən planlaşdırıldığını və bu səbəbdən də ondan qaçmağın qeyri-mümkünlüyünü iddia etməklə, bu və ya başqa formada o vaxtkı yerli rəhbər-lərin və ya Xalq Cəbhəsinin liderlərinin günahlarını yumaq və ya

yüngülləşdirmək istəyirlər. ASDP-nin sədri Zərdüşt Əlizadə"... Əlbəttə, həmin günlər kütləvi qırğınlardan qaçmaq olardı", - deyərək hadisənin baş verməsində 98 faiz M.S.Qorbaçovu, 2 faiz isə bilavasitə bu cinayətin törənməsi üçün qərar verən AXCP liderlərini günahkar hesab edir. Necə deyərlər, Ayaz Mütəllibovu, Ə.Vəzirovu və başqa yerli rəhbərləri isə "sudan quru" çıxarır.

**Hadisələrin qaynar mərkəzində olsa da keçmiş ədliyyə naziri Əlisahib Orucov deyir: "Əgər Moskva Azərbaycan Ali Sovetinin Rəyasət Heyətindən (onlar on bir nəfər idi) razılıq almasa idi, heç vaxt belə bir fərman verə bilməzdi. Qoşunun yeridilməsinin təşkilatçısı və təşəbbüsçüsü bizim rəhbərlik olmuşdur. Yoxsa, rusun nəyinə lazım idi ki, gəlib burada qan töksün". Bu sözlər 1988-ci ildən bu günə qədər baş verən proseslərin mahiyyətini Orucov cənablarının bu gün də başa düşmədiyini göstərir. O həm də unudur ki, 1986-cı ildə Alma-Ataya, 1989-cu ilin aprelində Gürcüstana, 1990-cı ilin yanvarında isə Bakıya qoşun yeridib dinc əhalini qıran zaman M.S.Qorbaçov ölkənin ali siyasi rəhbərliyi olan Sov.İKP MK-nın Siyasi Bürosu ilə məsləhətləşməmişdi və ölkənin ali rəhbərliyinin belə bir qərarı yox idi.**

Kommunist Partiyasına mənsub olan bir çox digər nümayəndələr isə bu faciənin baş verməsində AXC-nin günahını daha çox şişirdərək deyirdilər: "Həmin vaxt AXC dövlət çevrilişi törətmək istəyirdi", "Qoşunlar bir gün də gec gəlsəydi, daha böyük faciə törənəcək, daha çox adam öləcəkdi". 1990-cı ilin yanvarın 25-də keçirilən Azərbaycan KP MK-nın növbədənkənar plenumunda Azərbaycan DTK-nın o vaxtkı sədri V.Hüseynov çıxış edərək bildirdi ki, 20 Yanvarda Bakıya qoşun yeridilməsinin hüquqi əsası var idi və guya qeyri-millətlərə qarşı zorakılıq halları olmuşdu, AXC hakimiyyətə gəlmək istəyirdi və s. Elə oradaca xalqın qeyrətli oğlanlarından biri olan BDU-nun dosenti, MK üzvlüyünə namizəd Çingiz Həsənov Vaqif Hüseynova verdiyi sualda bildirib ki, sizin mövqeyinizlə M.S.Qorbaçovun mövqeyi eynidir, indi mənə deyin: M.S.Qorbaçov sizin verdiyiniz məlumat əsasında çıxış edib, yoxsa siz onun çıxışına əsaslanırsınız? Ramiz Əhmədov, Qeysər Xəlilov və başqaları da ordunun Bakıya yeridilməsinə və qırğın törədilməsinə mənəvi haqq qazandırırlar. AXC-ni isə günahlandırırlar. Aydındır ki, bu fikirlər ümummilli mənafedən deyil, şəxsi hakimiyyət və ya qrup mənafeyindən deyilmiş sözlərdir və heç vaxt real həqiqətləri əks etdirə bilməz.

**1. 20 Yanvar faciəsinin ən böyük və birinci dərəcəli günahkarı M.S.Qorbaçov başda olmaqla o vaxtkı sovet rəhbərliyidir. "Yenidənqurma" adı və ya guya islahatlar aparmaq bəhanəsi ilə həyata keçirilən tədbirlər əslində SSRİ-ni dağıt-maq məqsədi güdürdü. Bu süni hərəkətlər nəinki Azərbaycana və digər sovet respublikalarına, eləcə də bütün bəşəriyyətə misli görünməmiş fəlakətlər gətirdi. 20 Yanvar faciəsi M.S.Qorbaçovun insanlığa, bəşəriyyətə qarşı törətdiyi yüzlərlə cinayətdən biri və bəlkə də ən dəhşətlisi idi. Ümumiyyətlə, 1985-ci ildən sonra keçmiş SSRİ ərazisində baş verən bütün faciə və hadisələrin ssenari müəllifi Sov.İKP MK-nın baş katibi Qorbaçov və onun erməni lobbisi tərəfindən ələ alınmış komandası idi.**

1990-cı il yanvarın 19-da M.S.Qorbaçov "Yanvarın 20-dən Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında" SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarını imzalamışdı. Fərman yalnız yanvarın 20-də səhər saat 6-7 radələrində, yəni televiziyanın enerji bloku partladıldıqdan və qırğın törədildikdən sonra radio ilə elan edilmişdi. Artıq o vaxt demək olar ki, əməliyyat başa çatmaqda idi. Əməliyyat başlamazda və fövqəladə vəziyyət elan olunmasından xeyli qabaq isə Bakı şəhərinə qrafik üzrə 1990-cı il yanvarın 11-də 2.557 nəfər,

**12-də 1.061 nəfər,**
**13-də 710 nəfər,**
**14-də 1.415 nəfər,**
**16-da 1.600 nəfər,**
**17-də 225 nəfər,**
**18-də 190 nəfər,**
**19-da 60 nəfər əlavə əsgər, milis və kursant gətirilib.**

Ümumiyyətlə, qırğın vaxtı 66,5 min nəfərlik qoşundan istifadə edilib ki, onun da 44,9 mini ordunu, 20,6 mini daxili qoşunların, 1.000 nəfəri isə kursant hissələri olub.

Hadisə ərəfəsində, yəni 1990-cı il yanvarın 10-dan etibarən Azərbaycanda yaşayan yüksək vəzifəli rus vətəndaşlarının ailə və uşaqları aeroportdan Rusiyanın müxtəlif şəhərlərinə yola salınırmış. Bütün bunlar 20 Yanvarın M.S.Qorbaçov tərəfindən planlı şəkildə və xüsusi məqsədlərlə hazırlandığını və həyata keçirildiyini sübut edir. M.S.Qorbaçovun bu əmrinin həyata keçirilməsində bütün sovet rəhbərliyi, Sov.İKP MK Siyasi Bürosu və Nazirlər Kabinetinin üzvləri, eləcə də müdafiə naziri D.Yazov, onun müavini V.Barannikov, SSRİ daxili işlər naziri V.Bakatin, onun müavini A.Demodov, Sov.İKP MK katibi A.GİrenKo, Sov.İKP MK millətlərarası münasibətlər şöbəsinin müdir müavini V.Mixaylov, SSRİ müdafiə nazirinin birinci müavini, ordu generalı V.Varennikov, SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin birinci müavini F.Bobkov, kontr-admiral E.Sidorov və başqaları iştirak etmişlər. Onlar SSRİ-nin o vaxtkı qüvvədə olan Konstitusiyasının 119-cu maddəsinin 14-cü bəndini və Azərbaycan SSR Konstitusiyasını kobudcasına pozmuşlar. M.S.Qorbaçov Bakıda fövqəladə vəziyyət elan edərkən və qoşun yeridərkən Sov.İKP MK Siyasi Bürosunun razılığını almamışdı. Bu şəxslərin hamısı təkcə Azərbaycan xalqına qarşı deyil, eləcə də insanlığa qarşı cinayət törətdikləri üçün adları tarixin yaddaşına XX əsrin qaniçənləri kimi qara hərflərlə həkk olunmalıdır.

**2. 20 Yanvar faciəsinin II qrup günahkarları Ə.Vəzirov və A.Mütəllibov başda olmaqla Azərbaycanın o vaxtkı yerli rəhbərləri idi.**

Əgər biz 20 Yanvar faciəsinin M.S.Qorbaçov tərəfindən SSRİ-ni dağıtmaq və Azərbaycan xalqının gözünü qorxut-maqla Dağlıq Qarabağ problemini ermənilərin xeyrinə həll etmək məqsədilə törədildiyini deyiriksə, onda həmin vaxt Azərbaycanın yerli rəhbərləri olan Ə.R.Vəzirovun və A.N.Mütəllibovun elə-belə, təsadüf nəticəsində və ya öz şəxsi qabiliyyətləri ilə həmin kürsülərə sahib olduqlarını düşünmək sadəlövhlük olardı. Ə.R.Vəzirov M.S.Qorbaçov tərəfindən o vəzifəyə Ermənistandan qovulan azərilərin Dağlıq Qarabağa yerləşdirilməsinə mane olmaq, Azərbaycandan isə ermənilərin çıxarılmasına imkan verməmək və ümumiyyətlə, Azərbaycan xalqının başının altına yastıq qoymamaq, onu arxayınlaşdırmaq məqsədilə qoyulmuşdu. Ə.R.Vəzirov xalq tərəfindən "bambılı" ləqəbi qazansa da, "hamam tikmək", "qoz əkmək", "ölkəni kompüterləşdirmək" kimi sərsəm, yersiz ifadələr işlətməklə öz tarixi missiyasını "məharətlə" başa çatdırdı. 20 Yanvar 1990-cı il ərəfəsində artıq Ə.Vəzirov öz rolunu oynayıb bitirməkdə idi və həmin vaxt A.Mütəllibov fiquru yavaş-yavaş yeni "lider" obrazında xalqın şüuruna yeridilirdi. Məlumdur ki, Dağlıq Qarabağ problemi SSRİ Ali Sovetində müzakirə edildiyi zaman, Ermənistan tərəfindən 1-ci şəxs, yəni Ermənistan KP MK-nın I katibi çıxış etdiyi halda, Azərbaycan tərəfindən isə 2-ci şəxs, yəni Nazirlər Sovetinin sədri Ayaz Mütəllibov çıxış edirdi. Onun yarıçılpaq həqiqətləri rus dilində rəvan nitqlə söyləməsinə televiziyaya tamaşa edən xalqımız sadəlövhlüklə bu sözlərin səmimiyyətinə inanır, bu fiqurun gələcəyinə böyük ümidlə baxırdı. Həmin vaxt Ə.Vəzirov isə Azərbaycan nümayəndə heyətinin tərkibində əlini sifətinə qoyub qoyun kimi gözlərini döyürdü.

İndi anlayırıq ki, bütün bunların hamısı əvvəlcədən planlaşdırılmış bir ssenari imiş və Azərbaycanın o vaxtkı rəhbərləri ancaq və ancaq ermənilərin planlarını həyata keçirmək və torpaqlarımızın işğalına şərait yaratmaq, xalqın səfərbər olmasına, ayılmasına, milli-azadlıq hərəkatına mane olmaq üçün həmin kreslolara oturdulmuşlar. Nəisə, keçək əsas mətləbə. Nə idi onların günahı və səhvləri?

1990-cı il yanvarın 15-də Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti "Azərbaycan SSR-in DQMV-də vəziyyətin normallaşdırılması sahəsində təxirəsalınmaz vəzifələr haqqında" qərar qəbul etmişdi. Qərarda nəzərdə tutulur ki, DQMV-yə bitişik rayonlarda və SSRİ-nin dövlət sərhədi boyunca fövqəladə vəziyyət tətbiq olunsun və həmin məsələ ilə əlaqədar SSRİ Ali Sovetinin Rəyasət Heyətinə müraciət edilsin. 1990-cı il yanvarın 15-də SSRİ Ali Sovetinin Rəyasət Heyəti DQMV-də və bəzi rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında qərar qəbul etmiş, həmin qərara əsasən 1990-cı il yanvarın 15-də yerli vaxtla saat 23.00-dan "DQMV ərazisində, Azərbaycan SSR-in ona bitişik rayonlarında, Ermənistan SSR-in Gorus rayonunda, habelə Azərbaycan SSR ərazisində SSRİ dövlət sərhədi boyunca sərhəd zonasında" fövqəladə vəziyyət elan edilmiş və Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinə təklif olunmuşdu ki, əhalinin, müəssisələrin, idarə və təşkilatların təhlükəsizliyini təmin etmək üçün Bakı, Gəncə şəhərlərində və digər yaşayış məntəqələrində

qadağan saatının tətbiqi də daxil olmaqla lazım olan hər cür tədbirlər görsün. Sadəcə olaraq eyni vaxtda qəbul edilən və sözbəsöz oxşayan, üst-üstə düşən, heç bir ziddiyyət təşkil etməyən bu iki qərar o zaman Azərbaycan rəhbərliyinin Moskva ilə və Moskva rəhbərliyinin isə Azərbaycan rəhbərliyi ilə "əlbir" olduğunu sübut edir.

Günah dərəcələrinə görə Azərbaycanın o vaxtkı rəhbərlərini sıra ilə düzsək, ilk növbədə Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirov və Azərbaycan SSR Nazirlər Sovetinin o vaxtkı sədri A.Mütəllibov, habelə Azərbaycan Ali Sovetinin sədri E.Qafarova, Azərbaycan DTK-nın sədri V.Hüseynov, Bakı şəhər Partiya Komitəsinin birinci katibi M.Məmmədov, Azərbaycan KP MK-nın bəziləri istisna olmaqla əksər büro üzvləri və ya üzvlüyə namizədlər, Nazirlər Soveti sədrinin müavinləri, hüquq-mühafizə orqanlarının rəhbərləri və b. bu ümumxalq faciəsində hərəsi öz xüsusi "töhfə"sini verməklə günahkar idilər.

Məsələn, E.Qafarova Moskvaya teleqram vuraraq qoşun tələb etmişdi. Doğrudur, AKP MK-dan, Ali Sovetin Rəyasət Heyətindən ittifaq orqanlarına göndərilmiş teleqramları, habelə digər sənədləri əldə etmək mümkün olmamışdır. Yalnız Respublika Nazirlər Sovetinin qeydiyyat jurnalında sabiq sədr A.Mütəllibovun belə teleqramı qeyd olunub.

Hegelin belə bir fikri var: "Xalqlar və dövlətlər tarixdən heç vaxt və heç nəyi öyrənməyiblər". Bu sözlər bizim xalqımıza da aiddir. Son üç minillik tarixində xalqımızın başına 20 Yanvar və Xocalı faciələrinə oxşar bəlalar çox gəlib. Lakin tarixən sadə qəlbli və nikbin xalqımız öz yaxın və uzaq keçmişini unuda-unuda yaşadığından yaddaşında ibrət dərsi götürməyə elə bir hadisə qalmayıb.

V.Hüseynov Moskvaya eyni məzmunlu teleqram vurmaqdan əlavə 10 yanvar 1990-cı ildə Azərbaycan teleradio mərkəzinin enerji blokunun partladılmasında və Bakıda bəzi milli zəmində kütləvi iğtişaşların təşkil edilməsində şəxsən iştirak etmişdir.

V.Hüseynov, Ə.Daşdəmirov, M.Məmmədov, R.Əhmədov və başqaları əvvəlcə əhalini fövqəladə vəziyyət tətbiq edilməyəcəyi haqda yalançı vədlər verməklə aldatmışlarsa, qırğından sonra isə qoşunun yeridilməsinə və soyqırımına ideoloji bəraət qazandırmışlar. Bu isə xalqa açıqdan-açığa xəyanət idi. Bu xəyanətkarların günahları ikiqat və ya üçqat idi.

**Birincisi,** onlar M.S.Qorbaçovun SSRİ-ni dağıtmaq və Azərbaycanı parçalamaq planlarından xəbərdar olduqları halda, SSRİ-nin dünyanın gözü qarşısında dağılmağa doğru getdiyini görə-görə öz çürük hakimiyyətlərini qoruyub saxlamaq naminə Moskvanın göstərişlərinə kor-koranə şəkildə tabe olur, beləliklə də, erməni planlarının həyata keçməsinə şərait yaradırdılar. Ermənilərin özləri etiraf etmişdilər ki, əgər Azərbaycanın o vaxtkı rəhbərliyi Ermənistandan qovulan azəriləri Dağlıq Qarabağa yerləşdirməyə başlasaydılar, ermənilər bu prosesi dayandırmağa məcbur olacaqdılar. Bax, burada Ə.Vəzirovun, A.Mütəllibovun və E.Qafarovanın Azərbaycan xalqına qarşı tarixi xəyanəti bir daha aşkar olur.

**İkincisi,** Azərbaycanın o vaxtkı yerli rəhbərləri xalqın qanına nə qədər susamışdılarsa, 20 Yanvar faciəsindən sonra da ancaq öz hakimiyyətləri haqda fikirləşirdilər.

Onların heç biri istefa vermədilər, plenum çağırıb yeni I katib seçdilər, fövqəladə vəziyyəti uzatdılar, sovet qoşunlarının Bakıya yeridilməsinə, xalqı qırmasına bəraət qazandırdılar. Beləliklə, Azərbaycanın Ə.Vəzirov və A.Mütəllibov başda olmaqla o vaxtkı rəhbərliyi antixalq mövqeyi tutdu və Azərbaycan xalqına qarşı qırğınlar törədilməsinə, torpaqlarımızın işğal olunmasına, respublikanın mənəvi-psixoloji cəhətdən böyük sarsıntılara məruz qalmasına şərait yaratdılar. Onlar Yanvar və Xocalı faciələrinin həm iştirakçısı, həm də vasitəçisi olmuş və bu qırğınlara bilavasitə şərait yaratmışdılar. Ona görə də 20 Yanvar faciəsinin 2-ci əsas günahkarı respublikanın o vaxtkı rəhbərliyi hesab olunur.

**Üçüncü,** 20 Yanvar faciəsinin 3-cü qrup günahkarları Ə.Elçibəy başda olmaqla Azərbaycan Xalq Cəbhəsinin bir çox liderləri idi.

O zaman meydanlara toplaşan, milli azadlıq hərəkatına başlamış olan, milli müstəqillik istəyən xalqa rəhbərlik etmək, erməni-Azərbaycan müharibəsində milləti səfərbər etmək üçün bir siyasi təşkilatın yaradılması zəruri idi. Kommunist Partiyasının artıq siyasi səhnədən getdiyini, yeni bir təşkilatın isə yaranmasına ehtiyac olduğunu hiss edən xalq təbii ki, Xalq Cəbhəsinə maraq göstərir, onun liderlərinə rəğbətlə yanaşır və böyük ümidlər bəsləyirdi. Lakin SSRİ-ni dağıtmaq məqsədini güdən və bunun üçün də min cür fitnə-fəsadlar törədən,

eləcə də Qarabağ "kartını" yenidən işə salan M.S.Qorbaçovun rəhbərlik etdiyi, istiqamətləndirdiyi SSRİ DTK-sı da öz işini görmüş, yuxarıdan xalqın başı üzərində bir çox öz əlaltılarını "lider" simasında xalq hərəkatına yeritmişdi. Xalq hərəkatı ilə Xalq Cəbhəsi arasında dərin ziddiyyət və uçurum var idi. Ona görə də hələ 1988-ci ildən xalq hərəkatı qarşıdurmalar, liderlərin bir-biri ilə yersiz mübahisələri, bir-birini günahlandırmaq və ya böhtan atmaq şəraitində inkişaf edirdi. Cəbhə liderləri özləri-özlərini açıqca hansısa kəşfiyyatın əlaltısı olmaqda günahlandırırdı. Xalq isə eşitdiklərinə sadəcə inanmaq istəmirdi. Bu məsələnin bir tərəfi. Məsələnin digər əsas cəhəti də orasında idi ki, hadisələrin ilk anından xalqın istəyi ilə cəbhə liderlərinin istəyi arasında ziddiyyət yaranırdı. Məsələn, xalq öz hərəkatına özünün içərisindən çıxmış Bəxtiyar Vahabzadə, Anar, Murtuz Ələsgərov, İmam Daşdəmirov, Ziya Bünyadov, Fəraməz Maqsudov, İsmayıl Şıxlı və b. kimi hörmətli el ağsaqqallarının rəhbərlik etməsini istəyirdisə, cəbhə liderləri onları **"kommunist rejiminin yetişdirdiyi ziyalı"** damğası ilə ləkələyib təhqir edir, zorla meydanlardan uzaqlaşdırırdı. Onlar əsl vətənpərvər ziyalıları özləri hərəkatdan kənarlaşdırır, daha sonra isə "ziyalılar passivlik edir" - deyə, şikayətlənirdilər. Bir faktı xüsusilə qeyd etmək istəyirəm ki, Xalq Cəbhəsi ilə xalq hərəkatı arasında anlaşılmazlığın ən əsas səbəblərindən biri də Heydər Əliyev şəxsiyyətinə münasibət idi. Meydanlara toplaşan, nə edəcəyini, hara gedəcəyini, erməni işğalından necə xilas olacağını bilməyən xalqın yeganə ümidi və pənahı hələ 1988-ci ildən Heydər Əliyev idi. **Xalq nəzərini Moskvada yaşayan Heydər Əliyevə dikir, bu ağır məqamda ondan məsləhətlər almaq istəyirdi. Xalq Cəbhəsinin liderləri isə ayrı-ayrı mitinqlərdə o, "KQB generalı olub", "Kommunist Partiyasına xidmət edib" - kimi cəfəng ifadələrlə xalqın inamına, iradəsinə qarşı çıxırdılar. Xalqda sovet sisteminin müsbət və mütərəqqi olan bir çox cəhətlərinə daxili rəğbət var idi. Xalq Cəbhəsi liderləri isə ağına-bozuna baxmadan yaxın keçmişimizi lənətləyir, damğalayırdılar. Beləliklə, Xalq Cəbhəsi yarandığı gündən xalq hərəkatı ilə, əsl vətənpərvər ziyalılarla "Xalq Cəbhəsi" liderləri arasında bir neçə prinsipial məsələdə dərin uçurum yaranmışdır və bunlara görə xalq bu qurumu heç vaxt qəbul edə bilməzdi.** Xalq Cəbhəsi hakimiyyətə gəlmək üçün antikonstitusion üsul və vasitələrə əl atırdı. Əgər meydanlara toplaşan xalq yerindən-yurdundan didərgin olanların öz doğma torpaqlarına qaytarılmasını, torpaqlarımızın müdafiə olunmasını tələb edirdisə, "cəbhə liderləri" isə "daxildə düşmən ovuna" çıxırdılar. Onların məqsədi əvvəlcə hakimiyyətə gəlmək, sonra isə torpaqlarımızı qorumaq idi. Ola bilsin ki, bir çoxu digər məqsədlər üçün hakimiyyətə can atırmış. 1989-cu ildən və 1990-cı ilin yanvarı ərəfəsində Xalq Cəbhəsi liderləri respublika rəhbərliyi arasında hakimiyyət uğrunda mübarizə kəskinləşdiyi vaxt ermənilər Qarabağda öz işlərini görməkdə idilər. 1990-cı ilin yanvar hadisələri zamanı Azərbaycan xalqını qırmaq, onun gözünü qorxutmaq məqsədi güdən M.S.Qorbaçov .bax, bu daxili hakimiyyət mübarizəsi faktorundan istifadə edərək Azərbaycana qoşun yeritdi. Bu, cəbhəçilərin böyük taktiki səhvi idi. Adını "Xalq Cəbhəsi" qoymuş bir qurum milli mənafelər naminə xalq hərəkatını birləşdirməyə nail ola bilmədi və ümumxalq təşkilatına çevrilə bilmədi, çünki onların məqsədləri çox dayaz və məhdud idi. Bu gün bəziləri 20 Yanvar faciəsinin baş verməsində ona görə də Xalq Cəbhəsinin liderlərini günahlandırır ki, onlar guya xalqı əliyalın tankların qabağına çıxarıblar. Xeyr, bu Xalq Cəbhəsinin günahı deyildi. Əgər onlar xalqı səfərbər ediblərsə, bu özlüyündə müsbət hal idi. Lakin Xalq Cəbhəsinin günahı onda idi ki, hadisələrin mahiyyətini dərk etmirdilər, ətraflarında gedən prosesləri bir çoxu anlamırdı və xalqı səhv yola istiqamətləndirirdilər. Onlar bir tərəfdən deyirdilər ki, SSRİ imperiyadır, digər tərəfdən də xalqa toxtatlıq verirdilər ki, qorxmayın, atəş açılmayacaq, qırğın olmayacaq. indi artıq qırğın baş verəndən sonra isə gah deyirdilər ki, biz gözləməzdik sovet əsgərləri xalqa atəş açar, gah da deyirdilər ki, bu xalq hərəkatı idi, xalq hərəkatı qırğınsız ola bilməz. Bu doğrudur ki, xalq hərəkatı qırğınsız, qansız ötüşmür. Amma o fikir də doğrudur ki, həqiqi xalq hərəkatında, müharibədə təkcə əsgərlər ölmür, komandirlər də həlak olur. Bəs, bizim hərəkatda? Şeyx Həzrətləri Allahşükür Paşazadə dəfn təşkil edən zaman Xalq Cəbhəsi liderlərindən heç biri onun ətrafında yox imiş. Təkcə İsa Qəmbər dəfndə iştirak etmək istəyib, onu da xalq dəfnə buraxmayıb. Xalq Cəbhəsi liderlərinin növbəti günahı xalqı matəm vəziyyətində qoyub qaçıb gizlənmələri oldu.

**1990-cı il yanvarın 13-də Xalq Cəbhəsi Əbülfəz Elçibəy, Etibar Məmmədov, Rəhim Qazıyev, Nemət Pənahov və Xaliq Hacıyevdən ibarət Milli Müdafiə Şurası yaratmışdı. Lakin onun nə işlə məşğul olduğu heç kəsə bəlli olmadı. Onlar əhalidən pul yığırmışlar ki, guya silah alacaqlar və yaxud**

**M.S.Qorbaçovu qətlə yetirəcəklər və s. Amma nə qədər silah aldıqları, ölən adamların müqabilində neçə sovet əsgəri öldürdükləri bəlli olmadı. Bəzən də liderlərin dilindən 20 Yanvar ərəfəsində ziddiyyətli fikirlər eşidilirmiş. Onlar deyirmişlər: "Pul gətirin, çoxlu silah alacağıq, DTK bizə silah verəcək?!". Hansı DTK, sovet DTK-simi, yaxud Vaqif Hüseynovun rəhbərlik etdiyi Azərbaycan DTK-sı? Əhalinin güllələbaran ediləcəyi haqda Xalq Cəbhəsinin iki-üç üzvünü Azərbaycan KP MK-da II katib işləyən V.Polyaniçkonun xəbərdar etməsi və bu faciədə Xalq Cəbhəsinin radikal qanadının günahkar olması barədə bir neçə dəfə fikir söylənmişdir. 1990-cı il yanvarın 22-də keçirilən sessiyada YAP sədrinin müavini, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Rəfael Allahverdiyev Ə.Vəzirovun əlinin Azərbaycan xalqının qanına batdığını deyəndə və cəzalandırılmasını tələb edəndə İsa Qəmbər çıxış edib onu ittiham etmişdi ki, siz vəzifədən çıxmış adamlarsınız və keçmiş rəhbərlikdən intiqam almaq istəyirsiniz. Bu hansı məntiqə sığır? Əgər onlar həqiqətən Ə.Vəzirova qarşı mübarizə aparırdılarsa, onda gərək R.Allahverdiyevi müdafiə edəydilər və bu məsələdə onunla birləşəydilər.**

Nəhayət, siyasi təşkilat ki-mi yaranan və qarşısına siyasi məqsədlər qoyan AXC-nin vahid konsepsiyası, planı, strategiya və taktikası yox idi. Xalq Cəbhəsi liderləri sözdə Əbülfəz Elçi bəyin liderliyinin qəbul etsələr də, əslində onların hərəsi özləri üçün bir lider idi və heç biri o birisinin ərizəsini oxumurdu. Xalq hərəkatının fəal iştirakçılarından Yusif Səmədoğlunun dediyi bu sözlər həqiqətdir: "1990-cı il yanvarın 19-u gecəsi Xalq Cəbhəsinin idarə heyətinin iclası keçirildi. Orada biz müzakirə edirdik ki, camaatı mitinqlərdən, şəhərin küçə və meydanlarından dağıdaq, ya dağıtmayaq. Hələ iclasdan əvvəl mən bir neçə yerdə, o zamankı Mərkəzi Komitə (hazırkı Prezident Aparatı) binasının qabağında, Tbilisi prospektində çıxış edib adamlara deyəndə ki, dağılın evlərinizə, onlar mənə dedilər: Bizə Nemət Pənahov və o biriləri tapşırıblar ki, heç yerə tərpənməyin"... Göründüyü kimi, siyasi mübarizə aparan bir təşkilatın vahid proqramı, fikir birliyi yox idi. Vahid mərkəzdən idarə olunmurdu və vahid məqsədlərə də xidmət etmirdi. Lakin bu sözlər, yəni 20 Yanvarda AXC-ni günahlandırmaq üçün gətirilən bu arqumentlər, əlbəttə, bütün AXC üzvlərinə və ya sıravi üzvlərə şamil deyil. Yazov - Sovet Ordusu AXC-ni məhv etmək üçün Bakıya yeridilib - desə də, onun cəza mexanizmi ancaq hərəkatda heç bir məqsəd güdməyən sıravi cəbhəçilərə tətbiq olundu. AXC liderlik uğrunda mübarizəyə qarışdığı vaxt sadə cəbhəçilər Vətən torpaqlarmı qoruyurdular. Ona görə də biz bu sözləri yazmaqla Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparmış sıravi cəbhəçilərin fəaliyyətinə kölgə salmaq fikrindən uzağıq. Söhbət ancaq DTK xətti ilə hərəkata yeridilmiş və ələ alınmış Xalq Cəbhəsi liderlərinin günahından gedir. Onların rəyi, fikri və iradəsi ilə sadə cəbhəçilərin fikri və məqsədi həmişə fərqli olub. Heydər Əliyevə qarşı 1987-ci ildən sonra Moskvada kampaniyaya başlanılarkən və Azərbaycanın o vaxtkı rəhbərləri olan Ə.Vəzirov, A.Mütəllibov və V.Hüseynov bu məsələdə M.S.Qorbaçovla "həmrəy" olarkən çox maraqlı məsələdir ki, Ə.Elçibəy başda olmaqla AXC liderlərinin də fikirləri onlarla üst-üstə düşürdü. Lakin sıravi cəbhəçilər Heydər Əliyevə dərin məhəbbət bəsləyən xalqla həmişə bir olmuş, onun yenidən hakimiyyətə qayıtmasında fəal rol oynamışlar. Onlar Azərbaycanın mili-azadlıq hərəkatının lideri, milli müstəqilliyinin bayraqdarı simasında həmişə Heydər Əliyevi görmüş və onu özlərinə şəriksiz lider hesab etmişlər. 1990-cı ilin iyununda Heydər Əliyev Vətənə dönən andan, hələ ondan da xeyli əvvəl, yəni milli müstəqillik hərəkatının başlandığı andan milli vətənpərvərlərin, həqiqi ziyalıların, geniş xalq kütlələrinin əvəzolunmaz lideri idi. Dəxli yox idi, o hakimiyyətə qayıtdı və ya qayıtmadı. Çünki xalq, seçmə ziyalılar Heydər Əliyev Moskvada olmuşsa Moskvaya, Naxçıvanda olmuşsa Naxçıvana, Bakıda olmuşsa da Bakıya onun yanına məsləhətə gəlirdi. Təkcə Ə.Vəzirov, A.Mütəllibov, V.Hüseynov və onların komandasından, bir də bəzi cəbhə liderlərindən başqa, bütün Azərbaycan xalqı ən çətin anlarında xilaskar simasında yeganə Heydər Əliyev cənablarını görmüşdür. Göründüyü kimi, bəzi cəbhə liderləri də mələk donuna bürünərək öz fəaliyyətləri ilə məlum ssenarilərin həyata keçirilməsində M.S.Qorbaçova və erməni diasporuna yardımçı olmuşlar".

## III. 20 YANVARA HÜQUQİ-SİYASİ QİYMƏTİN VERİLMƏSİ

20 Yanvar faciəsinin başvermə səbəbləri və əsas günahkarlarının müəyyən edilməsi, eləcə də bu hadisədən ibrət dərsləri çıxarılması olduqca vacib əhəmiyyət daşıyır. Baş verdiyi gündən bugünədək 20 Yanvara siyasi qiymət verilməsi məsələsində Azərbaycanda iki əsas meyl olmuşdur. O şəxslər və ya qruplar ki, 20 Yanvar faciəsində günah-kar tərəflərdir və ya onların tərəfdar-larıdır, onlar bu hadisəyə ya vaxtında qiymət verməmişlər, yaxud da yanlış siyasi qiymət vermişlər. Ayaz Mütəllibovun və Xalq Cəbhəsinin hakimiyyəti dövründə bu hadisə həmişə sükutla qarşılanıb. Hələ 1990-cı il yanvarın 22-də Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar fövqəladə sessiyası çağırılaraq orada 20 Yanvara siyasi qiymət verilməsi ortaya atılanda hadisələrdə şəxsi iştirakı və günahı olan Ayaz Mütəllibov və onun komandası bu işi pozmaq üçün dəridən-qabıqdan çıxmışlar. Ali Sovetin o vaxtkı sədri Elmira Qafarova özü sessiya çağırmalı olduğu halda, əksinə, hər vasitə ilə "sessiyanın gündəliyi bir ay öncədən elan olunmalıdır", "kvorum yoxdur" və s. deyərək onu pozmaq istəmişdi. Azərbaycan DTK-sının sabiq sədri Vaqif Hüseynov sessiya keçirilməsi vaxtı ayrıca otaqda əyləşib, onun normal şəraitdə keçirilməsinə mane olur, tez-tez MK katiblərini yanına çağırıb onlara Ayaz Mütəllibovdan və Polyaniçkodan aldığı tapşırıqları verirmiş.

Lakin bütün bunlara baxmayaraq, 1990-cı il yanvarın 22-də xalq şairi Bəxtiyar Vahadzadənin şəxsi təşəbbüsü və radioda çıxışı ilə fövqəladə sessiya çağırıldı. İsmayıl Şıxlı, Anar, Elçin, Rafael Allahverdiyev, Almaz Hacıyeva, Zeynəb Xanlarova, Qədir İsmayılzadə, Aslan Nəsibov, Çingiz Həsənov və başqaları deputatların Ali Sovetə toplaşmasını təmin etdilər. Bir tərəfdə sessiyanın işini pozmağa çalışan, 20 Yanvar faciəsini ört-basdır etməklə cinayətkarları təmizə çıxarmaq istəyən satqın partnomenklatura deputatları, digər tərəfdə isə vətənini sevən, bu faciəni dünyaya bəyan etmək istəyən, Azərbaycanın müstəqilliyini, sovet qoşunlarının respublikadan çıxarılmasını tələb edən vətənpərvər deputatlar dayanmışdı. ikincilər sessiyada üstünlük qazandılar və həmin sessiyada "Bakıda fövqəladə vəziyyətin elan edilməsi ilə əlaqədar Mixail Qorbaçovun imzaladığı fərmanın icrasının dayandırılması haqqında", "Yanvarın 19-da başlanan hadisələrin gedişində hərbi hissələrin qanunazidd hərəkətləri haqqında", "Qoşunların şəhərdən çıxarılması haqqında", "Bakıya qoşun yeridilməsi ilə əlaqədar faciənin törədilməsi şəraitini və səbəblərini təhqiq etmək üçün deputat-istintaq komissiyasının yaradılması haqqında" qərarlar qəbul edildi. Orada həmçinin "Dünya xalqlarına və parlamentlərinə" müraciət də qəbul olundu. Ağır şəraitdə keçən bu sessiya məhdud xarakter daşısa da, 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verildi. Fövqəladə sessiyanın qərarına əsasən SSRİ Ali Sovetinin üzvü, kimyaçı alim Midhət Abbasovun sədr və BDU-nun hüquq fakültəsinin dekan müavini və Azərbaycan Xalq Cəbhəsi Ali Məclisinin sədri Tamerlan Qarayevin müavin olduğu, tərkibinə 21 rəsmi şəxsin, o cümlədən 3 nəfər Xalq Cəbhəsi nümayəndəsinin daxil olduğu komissiya yaradıldı. Komissiyanın işində riyaziyyatçı Əfruz Məşi qızı Eyvazova, DİN müstəntiqləri Zəlimxan Kərim oğlu Hüseynov və Taqiət Əli oğlu Zeynalov, hüquqşünas Aydın Alim oğlu Rəsulov, kimyaçı Səftər Məmməd oğlu Nəhmətov kimi 5 nəfər də könüllü yaxından kömək edirdi. Komissiya 1991-ci ilin yanvar ayının 20-dək, yəni bir il müddətində bu hadisəni araşdırıb ilkin hesabat təqdim etməli idi. Lakin həmin vaxta hesabat başa çatdırılmadı. Onlar süründürməçilik edərək faciənin törədilməsinin əsl günahkarlarını ört-basdır etmək yolunu tutdular. Yalnız 2 ildən sonra 1992-ci il yanvarın 19-da Milli Məclisin iclasına səthi məlumat çıxardılar. Milli Məclis isə kimlərisə faciənin günahkarı kimi ittiham etmək əvəzinə, komissiya üzvlərinə heç bir iş görməyə-görməyə təşəkkür elan etdi. Heydər Əliyev bu məsələdən bəhs edərkən 19 yanvar 1992-ci ildə Xalq Cəbhəsi dövründə 20 Yanvar faciəsi haqqında qəbul olunmuş qərarı Azərbaycan xalqına qarşı 20 Yanvar faciəsi qədər böyük bir xəyanət adlandırmışdı.

Yanvar faciəsinin 3-cü ildönümü də sükutla qarşılanıb, Azərbaycan rəhbərliyinin məsuliyyətinin üstündən keçilib. Beləliklə, vaxtında hüquqi-siyasi qiymət verilmədiyindən və cinayətkarlar aşkar olunub cəzalandırılmadığına görə həmin proseslərin davamı kimi Xocalı soyqırımı baş verdi.

20 Yanvara hüquqi-siyasi qiymət verməyə Azərbaycan KP MK-nın aparatının ilk partiya təşkilatı tərəfindən də təşəbbüs göstərilmişdi. KP MK-nın aparatının sıravi işçiləri Çingiz Həsənov, Aslan Nəsibov və Novruz Ramazanoy faciə gününün səhərisi MK aparatına (indiki Prezident Aparatı) gəlmiş, bütün işçilərin evlərinə zəng vuraraq aparata çağırmış, ilk partiya təşkilatının yığıncağını keçirmiş, orada Ə.Vəzirovun Sov.İKP sıralarından azad edilməsi və cinayət məsuliyyətinə cəlb olunması məsələsini qoymuş və 20 Yanvara siyasi

qiymət verilməsini tələb etmişlər. Lakin sıravi işçilər tərəfindən qaldırılmış bu təşəbbüs yuxarı pillə işçilər tərəfindən soyuqqanlıqla ört-basdır edilmişdi.

Faciəyə hüquqi-siyasi qiymət verilməsi təşəbbüsü 1990-cı il yanvar ayının 24-25-də keçirilən Azərbaycan KP MK-nın plenumunda da qaldırılmışdır. İsmayıl Şıxlı, Mirzə İbrahimov, Aqşin Əlizadə, Ağalar Abbasov, İmran Mehdiyev, D.Aslanov, T.Rzayeva və b. 20 Yanvara partiya qiyməti və siyasi qiymət verilməsini təkidlə tələb etsələr də, A.Mütəllibov, V.Polyaniçko və V.Hüseynov buna imkan vermədilər. Onlar hüquqi-siyasi qiymət verilməsi məsələsinə ötəri toxunub təşkilati məsələni ortaya ataraq 82 səslə Ayaz Mütəllibovu M.S.Qorbaçovun tövsiyəsi ilə Azərbaycan KP MK-nın birinci katibi seçdilər. Beləcə, Ayaz Mütəllibov Azərbaycan xalqının düşməni, cəllad M.S.Qorbaçovun tövsiyəsi ilə respublikanın yeni rəhbəri təyin edildi. Lakin plenumda demokratik əhval-ruhiyyəli kommunistlərin təkidi ilə komissiya yaradıldı. Bunlardan birinə Əfrand Daşdəmirov sədrlik edirdi (üzvləri R.Əhmədov, N.Axundov, N.Babayev (Xəzri), İ.Qolovina, A.Nəsibov, T.Rzayeva, İ.İsmayılov, Z.Hüseynzadə) və onun vəzifəsi 20 Yanvar faciəsinin səbəblərini təhqiq etmək idi.

1991-ci ilin martın 31-də keçirilən Azərbaycan KP MK-nın plenumunda faciəni araşdıran komissiyanın hesabatı dinlənildi. Ə.Daşdəmirov özünün quraşdırdığı suallar əsasında belə bir nəticə çıxardı ki, fövqəladə tədbirlər tələb edilir. Ayaz Mütəllibovun və M.S.Qorbaçovun rəyi ilə üst-üstə düşən bu çıxışa görə, guya o vaxt xalq və millət parçalanmışdı, millətin daxilində toqquşma var idi və ona görə də fövqəladə vəziyyət labüd idi. Ə.Daşdəmirovun bu məlumatı haqqı tapdalanan xalqa mənəvi böhtan idi. Nahaq yerə qırılan da, günahkar olan da Azərbaycan, özü də öz "ideoloqlarımız"ın əli ilə.

1990-cı ilin yanvarın 24-də keçirilən Azərbaycan KP MK-nın plenumunda yaradılan ikinci komissiyaya isə R.Axundov rəhbərlik edirdi və onun əsas vəzifəsi Ə.R.Vəzirovun Azərbaycan KP MK-nın birinci katibi işlədiyi müddətdəki fəaliyyətini yoxlamaq idi. Bu komissiyanın Ə.Vəzirovun fəaliyyəti haqqında hazırladığı məlumata Azərbaycan KP MK-nın 2 iyun 1990-cı il tarixli növbəti plenumunda baxıldı və 20 Yanvar faciəsinin əsas günahkarlarından biri olan Ə.R.Vəzirova çox səthi cəza-uçot vərəqəsinə yazılmaqla ciddi?! töhmət verildi və o, Azərbaycan KP MK-nın üzvlüyündən azad edildi.

**Ayaz Mütəllibov Vəzirovun nəinki cinayətkar olduğunu sübut etdirmədi, hətta onu partiyada saxlamağı məsləhət bildi. Bu da təbii idi. Cinayətkar cinayətkarı ələ verməz.**

**Beləliklə, Azərbaycan KP MK-nın yanvar, mart və iyun plenumlarında Yanvar faciəsinə hüquqi-siyasi qiymət verilmədi və bunların nəticəsi olaraq növbəti faciələr baş verdi.**

Hüquqi-siyasi qiymətin veril-məməsinin nəticəsidir ki, 20 Yanvar faciəsinin günahkarları içərisində öz rolu və xidmətləri olan Ramiz Əhmədov kimiləri bu gün də tez-tez Rusiyaya gedir, əvvəlki partiya silahdaşları ilə görüşüb xalqımıza qarşı yeni planlar hazırlayır. O vaxt "qonşular bir az da gec gəlsəydi, daha böyük fəlakətlər olacaqdı, bir nəfər kommunist də partiya biletini saxlamayacaqdı" kimi sözləri deyən Ramiz Əhmədov görəsən, hansı mənəvi haqla bu gün də öz siyasi fəaliyyətini davam etdirir.

Vaxtında hüquqi-siyasi qiymət verilməməsinin nəticəsidir ki, faciələrimizin bir çox günahkarları bu gün də müxtəlif dövlət vəzifələrində oturub eyni qeyrət və "məharətlə" xalqımızın qanını sorur, iqtisadi islahatların, müstəqil dövlət quruculuğumuzun gedişinə mane olurlar. Onlar tədricən müəyyənləşdirilib kənarlaşdırılmalı, milli ruhlu vətənpərvər, vətənimizin faciələrinə dözməyərək öz səslərini vaxtında çıxarmış, torpaqlarımızın müdafiəsində həqiqətən vuruşmuş, dövlətçiliyimizə sədaqətli kadrlarla əvəz olunmalıdır. Belələri isə cəmiyyət içərisində də, sağlam siyasi partiyaların cərgəsində də elm xadimləri və digər ziyalılar arasında da çoxdur.

20 Yanvar faciəsini araşdırmağı öz qarşısına qoymuş bir çox digər komissiyalar da yaranmışdır. Onlarrdan Helsinki müşahidə qrupu, SSRİ Ali Sovetinin üçüncü sessiyasının qərarına əsasən yaradılmış hərbi prokuror Katusevin rəhbərliyi və Bakı qarnizonunun prokuror müavini V.Medvedevin iştirakı ilə SSRİ Hərbi Prokurorluğunun komissiyası, V.Q.Titovun başçılıq etdiyi Dövlət Təhlükəsizlik Komitəsinin istintaq qrupu da 20 Yanvara hüquqi siyasi qiymət verə bilməmiş, cinayətkarları məsuliyyətə cəlb etməmişdi. Yalnız hərbiçi ailələrini müdafiə məqsədi ilə yaradılan "Şit" adlı istintaq qrupu 1990-cı ilin yanvarından Bakıda fövqəladə vəziyyətin elan olunması və hərbi qoşun yeridilməsi üçün əsas olmadığı qənaətinə gəlmiş və sabiq SSRİ

müdafiə naziri D.Yazova qarşı ittiham irəli sürmüşdü. Bu qrup onu Beynəlxalq Hərbi Tribunalın nizam naməsinin 6-cı maddəsini pozmaqda, həmçinin Azərbaycan SSR Cinayət Məcəlləsinin şəxsiyyətə qarşı cinayətlərə aid maddələrinə düşən hərbi cinayət işlətməkdə günahlandırılmışdı. Aydındır ki, təkcə Yazov özbaşına Bakıya qoşun yeridə bilməzdi. Ümumiyyətlə, bu beş araşdırma komissiyasının heç biri 20 Yanvar faciəsinə əsl qiymət verə bilməmiş, onun günahkarlarını tam açıqlamamışdır.

20 Yanvar faciəsinin, eləcə də digər faciələrimizin başvermə səbəblərini, onun əsas günahkarlarını tam dolğunluğu ilə açan, müqəssirləri bütün dünyada ifşa edən, qatil kimi tanıtdıran, eyni zamanda bu ümum-xalq faciəsinə hüquqi-siyasi qiymət verilməsinin təşkilatçısı və rəhbəri Azərbaycan prezidenti cənab Heydər Əliyev olmuşdur.

Heydər Əliyev hələ 1990-cı il yanvarın 21-də, yəni faciənin sabahsı günü Moskva ətrafındakı bağlardan birində müalicədə ola-ola, xəstə vəziyyətdə oğlu ilham Əliyev və qızı Sevil Əliyeva, eləcə də kürəkəni Mahmud Məmmədquliyev və nəvələri ilə birlikdə Moskvadakı Azərbaycan SSR-in daimi nümayəndəliyinə gəlib, Azərbaycan xalqına başsağlığı verdi və mətbuat konfransı keçirdi. Sonra da Arxangelsk televiziyasına müsahibə verdi. Heydər Əliyev daimi nümayəndəlikdə mətbuat konfransındakı çıxışında bu faciənin Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələrlə birbaşa əlaqədar olduğunu, üstündən iki il keçməsinə baxmayaraq, bu sahədə ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlərin görülmədiyini qeyd edərək, məhz bunların nəticəsində çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilənin baş verdiyini bildirdi. Bütün bunlar üçün isə ilk növbədə Azərbaycan KP MK-nın sabiq birinci katibi Vəzirovun günahkar olduğunu elan etdi.

Heydər Əliyev 20 Yanvar faciəsinin baş verməsinin əsas günahkar-ları haqqında deyirdi: "Bunlar üçün ilk növbədə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin artıq sabiq birinci katibi Vəzirov müqəssirdir. Bu yüksək vəzifədə olduğu müddətdə o, Azərbaycandakı vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə, özünün səhv addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurum yaratmışdır. Xalq isə hiddətlənmişdir. Elə buna görə də Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında aylarla davam edən mitinqlərdə dəfələrlə Azərbaycanın partiya rəhbərliyinin istefası tələbi irəli sürülmüşdür. Söhbət əslində Vəzirovun istefasından gedirdi. Bəs məsələ indiyə-kimi niyə həll olunmamışdır? Yalnız dünən Bakı şəhərinə ordu yeridildikdən, qırğın və dağıntılar baş verdikdən sonra Vəzirov Azərbaycandan, əslində qaçmışdır. Bu, böyük səhvdir. Ən böyük səhv, sözsüz ki, qeyri-ciddi, bu yüksək vəzifəyə əsla yaramayan adamın bir vaxt Azərbaycan KP MK-ya birinci katib təyin edilməsi idi.

Göründüyü kimi, Heydər Əliyev sərt ittihamla həm ölkənin ali siyasi partiya rəhbərliyini, yəni M.S.Qorbaçovu, həm də Azərbaycan rəhbəri Ə.R.Vəzirovu bu qırğında ilk növbədə günahkar sayırdı.

Daha sonra Heydər Əliyev 1990-cı ilin iyulunda Naxçıvana qayıtdıqdan və 1991-ci il sentyabr ayının 9-da Naxçıvan MR Ali Məclisinin sədri seçildikdən sonra 20 Yanvara daha əhatəli, hüquqi-siyasi qiymət verilməsi üçün şərait yarandı. Həmin il noyabr ayının 21-də Heydər Əliyevin əli ilə yazdığı və Naxçıvan MR Ali Məclisi tərəfindən qəbul olunmuş müvafiq qərarda 20 Yanvarın Milli Matəm günü kimi qeyd olunması qərara alınmışdı. Faciənin əsas günahkarları adbaad sadalanmış və onların birbaşa məsuliyyət daşıdıqları göstərilmişdir. Həmin sənəddə o vaxt hakimiyyətdə olan həm mərkəzi dövlət rəhbərləri - SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri M.S.Qorbaçovun, Sov.İKP MK-nın katibi Girenkonun, SSRİ müdafiə naziri Yazovun, SSRİ daxili işlər naziri Bakatinin, Sov.İKP MK-nın məsul işçisi Mixaylovun, həm də respublikada hakimiyyətdə olan Azərbaycan KP MK-nın birinci katibi Vəzirovun, Azərbaycan KP MK-nın büro üzvləri Polyaniçkonun, Müslüm Məmmədovun, Vaqif Hüseynovun, Nazirlər Sovetinin sədri A.Mütəllibovun adlarının çəkilməsi, xalqa qarşı həyata keçirilən bu siyasi və hərbi qəsd üçün cavabdeh olduqlarını və birbaşa məsuliyyət daşıdıqlarını heç nədən çəkinmədən qeyd olunması Heydər Əliyev cənablarının nə qədər cəsarətli və qorxmaz, Vətənini və xalqını sevən, bu yolda ən ağır mübarizədən belə ehtiyat etmədiyini bir daha sübut edir.

***

Axı o, böyük ordusu və texnikası olan M.S.Qorbaçovun qarşısında heç bir ordusu və silahlı qüvvəsi olmayan Naxçıvan kimi vilayətin rəhbəri idi və belə qərar yazmaq həqiqətən cəsarət tələb edirdi. Həmin sənədin qərar hissəsində deyilirdi:

1. 1990-cı ilin yanvar ayında Bakı şəhərində törədilmiş qanlı hadisələr Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirilsin.

2. Dinc əhaliyə, silahsız kütlələrə, heç bir müqavimət göstərməyən günahsız adamlara qarşı müasir silahla, hərbi texnika ilə zorakılıq edil-məsi, qocaların, qadınların, uşaqların qətlə yetirilməsi Azərbaycan xalqına qarşı açıq təcavüz kimi ittiham edilsin.

3. Bir ilə yaxın vaxt keçməsinə baxmayaraq, Bakı faciəsinə Azərbaycan SSR-in ali hakimiyyət orqanları tərəfindən siyasi qiymət verilməmişdir. Bununla əlaqədar yaradılmış deputat komissiyasının işinin qeyri-müəyyən səbəblərdən başa çatdırılmamasına, qanlı hadisələrin günah-karlarının aşkara çıxarılıb qanuni məsuliyyətə verilməməsinə qəti etiraz olunsun.

Azərbaycan SSR Ali Sovetindən tələb edilsin ki, ən qısa müddətə həmin məsələ parlamentin müzakirəsinə çıxarılsın.

4. Bu qərar qəbul edilən andan 20 Yanvar günü hər il Naxçıvan Muxtar Respublikasında Milli Matəm günü kimi qeyd olunsun.

5. Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin ki, 20 Yanvar günü hər il Azərbaycan SSR-də Milli Matəm günü kimi qeyd edilsin.

Bu gün dövlət hakimiyyətində yüksək vəzifələr tutan, lakin 1990-93-cü illərdə deputat-istintaq komissiyasının üzvü olmuş, səsini çıxarmaqdan belə qorxan yüksək vəzifə sahiblərinə Heydər Əliyevin bu cəsarətli qərarı bir nümunədir.

1990-cı il 20 Yanvar faciəsinin ümumrespublika miqyasında hərtərəfli şəkildə qiymətləndirilməsi isə ancaq cənab Heydər Əliyev 1993-cü ilin iyununda yenidən hakimiyyətə qayıtdıqdan sonra mümkün oldu. 1994-cü il yanvarın 5-də Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin verdiyi sərəncamda bu faciənin respublika miqyasında geniş araşdırılıb hüquqi-siyasi qiymət verilməsi tövsiyə olunurdu. 1994-cü il yanvarın 12-də Heydər Əliyevin sədrliyilə 20 Yanvar faciəsinin 4-cü ildönümü ilə bağlı tədbirlərin hazırlanması və keçirilməsi üzrə dövlət komissiyasının geniş iclası oldu. Hə min iclasda Heydər Əliyev bildirdi ki, 4 il keçəndən sonra da biz bu bəlanın başvermə səbəblərini və günahkarlarını indiyənə qədər dəqiq araşdıra bilməmişik.

Dövlət komissiyasının ciddi fəaliyyəti nəticəsində 1994-cü il mart ayının 29-da Azərbaycan Respublikası Milli Məclisi "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul etdi.

Qərarda 20 Yanvar faciəsi qabaqcadan şüurlu surətdə planlaşdırılmış və vəhşicəsinə həyata keçirilmiş cinayət aktı kimi qiymətləndirilir. Orada qeyd olunur ki, qoşunların Bakıya yeridilməsi kommunist rejimini saxlamaq, milli-azadlıq hərəkatını boğmaq məqsədinə xidmət etmişdir. Əsas məqsəd Azərbaycanda xalq hərəkatına zərbə vurmaq, mövcud olan rejimin dağılmasına yol verməmək və istiqlaliyyət uğrunda mübarizə aparan qüvvələri məhv etmək olmuşdur.

Qərarda bu faciənin əsas günahkarları sırasında M.S.Qorbaçov SSRİ müdafiə naziri Dmitri Yazov, daxili işlər naziri Vadim Bakatin və başqaları qeyd olunur.

Azərbaycan rəhbərlərindən Azərbaycan KP MK-nın birinci katibi Əbdürrəhman Vəzirov, Azərbaycan KP MK-nın ikinci katibi Viktor Polyaniçko, Azərbaycan SSR Nazirlər Sovetinin sədri Ayaz Mütəllibov, Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinin sədri Vaqif Hüseynov, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Elmira Qafarova, Azərbaycan KP Bakı Şəhər Komitəsinin birinci katibi Müslüm Məmmədov, MK katibi Əfrand Daşdəmirov, Ali Sovetin 1990-cı il 22 yanvar fövqəladə sessiyasında yaradılmış deputat-istintaq komissiyasının sədri Midhət Abbasov və başqaları günahlandırılır.

Qərarda həmçinin 1990-cı il 20 Yanvar hadisələrindən ötən 4 il ərzində respublika hüquq mühafizə orqanlarının keçmiş rəhbərlərinin bu cinayət istintaqı ilə bağlı fəaliyyəti yarıtmaz hesab edilmiş, cinayətkar

şəxslərin müqəssirlik dərəcəsinin müəyyənləşdirilməsində hüquq-mühafizə orqanlarının fəaliyyəti qeyri qənaətbəxş qiymətləndirilmişdir.

Beləliklə, yalnız və yalnız H.Əliyev cənablarının yenidən hakimiyyətə qayıtması ilə faciələrimizin səbəblərini araşdırmaq, onlara hüquqi-siyasi qiymət vermək, günahkarları cəzalandırmaq, bu əsasda isə bütövlükdə bu hadisələrdən ibrət dərsi götürmək üçün şərait yaranmışdır.

## IV. YANVAR FACİƏSİNİN ƏSAS İBRƏT DƏRSLƏRİ

Hər hansı bir tarixi hadisə ibrət dərsi götürülmədik-də yaddaşlardan tez silinir. 1990-cı il Yanvar faciəsinin Azərbaycan tarixi üçün çox böyük ibrət dərsləri var. Yanvar faciəsinin ən əsas ibrət dərsi Azərbaycanın dövlət müstəqilliyinin zərurət olmasını xalqa anlatması oldu. Hər hansı xalq öz müstəqilliyini qoruya bilməsə, könüllü və ya zorla başqa imperiyaların, dövlətlərin tərkibinə qatılsa, "böyük qardaş" deyə, kiminsə qoltuğuna sığınsa, onu hər an Yanvar faciələrinə oxşar faciələr gözləyəcək. Belə olan halda hər hansı millətin müqəddəratı özü tərəfindən deyil, daxil olduğu dövlətin rəhbərliyinin iradəsindən, yəni tam subyektiv amillərdən, hisslər və emosiyalardan asılı qalır. Məsələn, SSRİ dövründə Heydər Əliyevin yeritdiyi siyasət nəticəsində Sov.İKP MK-nın baş katibi L.İ.Brejnev və Y.V.Andropov Azərbaycana çox müsbət münasibət bəsləyirdilər və Azərbaycan onların dövründə həqiqətən xeyli inkişaf etdi.

Amma sonralar M.S.Qorbaçov hakimiyyətə gələndən sonra isə Azərbaycana qarşı, eləcə də onun lideri olan Heydər Əliyevə qarşı təxribatlar törədildi. Heydər Əliyev heç bir əsas qoyulmadan istefaya çıxmağa məcbur edildi, 200 mindən çox azəri öz dədə-baba torpaqlarından qovuldu, Dağlıq Qarabağda ermənilər yenidən baş qaldırdılar və 20 Yanvar faciəsi törədildi. Bütün bunlar onu sübut edir ki, hər hansı bir millət öz müqəddəratını özü müəyyən etməli, öz dövlətini, öz ordusunu, öz iqtisadiyyatını yaratmalı, müstəqil daxili və xarici siyasət yeritməlidir. Əgər ermənilər baş qaldırdığı zaman Azərbaycanın öz milli ordusu olsaydı, öz sərhədlərini özü qorusaydı, torpaqlarımız bu qədər asanlıqla işğal edilməzdi, xalqımız bu qədər təhqir olunmazdı. Ona görə də Azərbaycanın müstəqilliyi mütləq və zərurətdir. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev bütün çıxışlarında bu məsələyə xüsusi toxunur və bəyan edirdi ki, Azərbaycanın dövlət müstəqilliyi sarsılmazdır, əbədidir və heç bir vaxt heç bir kənar qüvvə bu müstəqilliyimizi dağıda bilməz. Bu sözlər. bu gün qarşısına müxtəlif siyasi məqsədlər qoymuş partiyalara, xüsusilə kommunist və dini təmayüllü partiyalara ciddi bir xəbərdarlıqdır. O partiya ki Azərbaycanın dövlət müstəqilliyini qəbul etmir və hər hansı şəkildə onu hansısa gələcək imperiyanın tərkibində təsəvvür edir, bu tipli partiyalara bizim müstəqillik və demokratik inkişaf yolunu tutmuş gənc respublikamızda yer ola bilməz. Həmçinin o partiyalar ki bu gün də ancaq xarici dövlətlərin çaldığı hava ilə oynayır, xaricə kor-koranə aludəçilik edir, xaricdən dəstək alır, maliyyələşir və s. onlar da vaxtında aşkar edilib ifşa olunmalıdır.

Azərbaycanın müstəqil olması onun hansısa regional və ya beynəlxalq birliklərdə, inteqrasiya proseslərində iştirak etməsini istisna etmir. Məlumdur ki, Azərbaycan Müstəqil Dövlətlər Birliyinin, İslam Təşkilatının, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvüdür. Lakin bu təşkilatların üzvü olması Azərbaycanın hər hansı şəkildə suveren hüquqlarını məhdudlaşdıra bilməz. Hər hansı yeni birlik forması ancaq və ancaq dövlətlərin bərabərhüquqlu olması və suverenliyinin qorunması şərti ilə mümkün ola bilər. Beləliklə, biz 20 Yanvar faciəsi tipli gələcək faciələrdən qaçmaq üçün mütləq öz müstəqilliyimizi əsrbəəsr, nəsilbənəsil qorumalı və bu yolda mübarizə aparmalıyıq.

20 Yanvar faciəsinin 2-ci ibrət dərsi hakimiyyətsizliyin verə biləcəyi nəticələri xalqa anlatması oldu. 20 Yanvar, eləcə də hər hansı digər faciələrimiz hakimiyyətsizlikdən törəyib.

Xalqa, dövlətə və millətə ancaq milli dəyərlərdən qaynaqlanan, xalqın içərisindən çıxmış, demokratik yolla seçilmiş şəxslər rəhbərlik etməlidir. Əgər millətə və ya xalqa öz xalqını sevən, vətənpərvər adamlar rəhbərlik edərsə, onda o xalq və ya mil-lət hətta müstəqil olmadıqda belə öz milli mənafelərini təmin edə bilər. Erməni tarixi belə misallarla zəngindir. Fars, Bizans, türk, rus imperiyaların dan ermənilər ancaq milli mənafe baxımından istifadə etmişlər. Bizim Azərbaycan Respublikasında isə ancaq 1970-1980-ci illərdə Heydər Əliyev

Azərbaycana rəhbərlik etdiyi dövrdə respublika SSRİ tərkibində tam müstəqil olmadığı halda belə çox böyük sıçrayışla irəliləmiş, Sovet İttifaqının böyük potensialından lazımınca bəhrələnmişdir.

Əlbəttə, həmin vətənpərvər adamlar müstəqillik şəraitində dövlətə rəhbərlik edərsə, onda inqilabi sıçrayışlar baş verər, böyük xarüqələr yaranar. Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi son 3 ildə təkcə Azərbaycan nefti ilə bağlı görülmüş işləri, bağlanmış müqavilələri qeyd etmək kifayətdir. Bu müqavilələrin həyata keçməsi ilə respublikamızın siması cəmi 10 il müddətində inanılması mümkün olmayan dərəcədə dəyişəcək o, dünyanın zəngin ölkələrindən birinə çevriləcək, əhalimizin, xalqımızın rifah halı, potensialı tam yüksələcəkdir. Xüsusilə keçid dövrlərində, dövlət öz müstəqilliyini yenicə qazandığı dövrdə xalqa onun əksəriyyətinin inandığı, sevdiyi və arxasınca getdiyi adamlar rəhbərlik etməlidir. Yalnız belə şəxslər ölkəni fırtınalar və qasırğalardan çıxarıb müstəqillik yolu ilə inamla apara bilər, ölkədə vətəndaş həmrəyliyi, siyasi sabitlik və əmin-amanlıq bərqərar olar. Hamının və ya əksəriyyətin qəbul etmədiyi şəxs hakimiyyətə gəldikdə isə ölkədə özbaşınalıq, anarxiya, hərc-mərclik baş qaldırar ki, bunun da nəticəsində məlum faciələr törənər. 1988-ci ildən sonra respublikamızda baş verən hadisələr şəksiz şəkildə sübut etdi ki, zorla, qeyri-qanuni yollarla, millətin, xalqın qanı hesabına hakimiyyətə gəlmək olar, lakin onu əldə saxlamaq olmaz. Ə.Vəzirov, M.S.Qorbaçov tərəfindən xalqın başı üstündən hakimiyyətə gətirilmişdi. Ona görə də 1990-cı ildə öz xalqını qırıb Moskvaya qaçdı. Ayaz Mütəllibov 20 Yanvarda şəhidlərin cəsədləri üstündən cinayətkar kimi hakimiyyətə gəldi və 1992-ci ilin martından da gəldiyi qayda ilə qaçıb Moskvada gizləndi. 1992-ci ilin mayında AXC qeyri-demokratik yolla, alternativsiz, xalqın əksəriyyətinin Heydər Əliyevi istədiyi, tələb etdiyi bir şəraitdə, siyasi fəallıq edərək hakimiyyəti zəbt etmişdi. Xalqın Heydər Əliyevi hakimiyyətə gətirmək haqqında qanuni tələblərini qulaqardına vurmaqla hakimiyyətə gələn Xalq Cəbhəsinin hakimiyyətinin ömrü cəmi bir il də çəkmədi. 1993-cü il ilin iyun Gəncə qiyamı nəticəsində Cəbhə hakimiyyətinə son qoyuldu. 1993-cü ildə ölkədə vətəndaş müharibəsi başlandı, siyasi sabitlik pozuldu və dövlətin bütövlükdə və tamamilə dağılması təhlükəsi yarandı. Belə bir vaxtda Azərbaycan xalqının iradəsi və tələbi ilə onun vətənini sevən oğlanlarının təşəbbüsü və fəaliyyəti ilə Heydər Əliyev cənabları yenidən hakimiyyətə dəvət olundu. 1993-cü ilin oktyabr ayında o, alternativ qaydada, demokratik yolla Azərbaycan Respublikasının prezidenti seçildi. Heydər Əliyevin prezidentlik dövründən keçən 9 il şəksiz sübut edir ki, bu dəfə rəhbəri xalq özü seçib və seçməkdə səhv etməyib. Digər tərəfdən isə son üç ilin təcrübəsi göstərdi ki, xalq özü seçdiyi rəhbərə inanır və ən ağır şəraitdə belə öz rəhbərini qorumağa, mühafizə etməyə qadirdir. 1994-cü ilin oktyabrında Surət Hüseynov dövlət çevrilişi cəhdi etmək istədikdə, Heydər Əliyevin gecə yarısı çağırışı ilə 100 mindən çox əhali maşınsız, miniksiz Prezident Aparatının qarşısına toplaşdı. Əgər 1993-cü ilin iyununda başlanan Gəncə qiyamı, xalq AXC-Müsavat iqtidarını müdafiə etmədiyi-nə görə, qiyamçıların Bakıya qədər gəlməsi və AXC iqtidarının məhvi ilə nəticələndisə, 1994-cü ildə eyni məqsəd daşıyan S.Hüseynovun növbəti cəhdi xalq iradəsinə və yardımına arxalanan Heydər Əliyev tərəfindən layiqincə dəf edildi.

Əgər 1990-1993-cü illərdə "təyin olunmuş" rəhbərlər xalqın başına 20 Yanvar, Xocalı, Şuşa, Laçın kimi neçə-neçə faciələrin açılmasına şərait yaratdılarsa, bu əməllərin iştirakçısı oldularsa və onların bəd əməlləri nəticəsində torpaqlarımızın 20 faizi işğal edildisə, bir milyon qaçqın yarandısa və neçə-neçə əlavə faciələr törəndisə, Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlməsi ilə xalqımızı gözləyən növbəti fəlakətlərə son qoyuldu, siyasi sabitlik yarandı, torpaqlarımızın işğalı dayandırıldı və iqtisadi dağıntı prosesləri səngidi. Məgər bunlar tarixdə şəxsiyyətin böyük roluna ən bariz misallar deyilmi? Məgər bunlar hakimiyyətsizliklə hakimiyyətin mövcudluğunun, rəhbərsizliklə rəhbər mövcudluğunun, həqiqi liderlə "mifik lider" obrazının fərqini anlamaq üçün kifayət etmirmi?! Beləliklə, 20 Yanvar faciəsindən, eləcə də digər faciələrimizdən çıxan ən başlıca növbəti ibrət dərsi odur ki, xalqa onun öz içərisindən çıxmış və həmin dövlətə, onun müstəqilliyinə, çiçəklənməsinə, inkişaf etməsinə xidmət etmək istəyən şəxsiyyətlər rəhbərlik etməlidir, hansısa xarici dövlətlərin əlaltıları və ya fırıldaqçı maliyyə qruplarının, mafioz dairələrin başçıları yox. Əgər 1988-ci ildən Ə.Vəzirov dövründə Heydər Əliyev respublikamıza rəhbərliyə qaytarılsaydı, nə 1990-cı il Yanvar qırğını, nə Xocalı faciəsi, nə Şuşa, nə Laçın, ümumiyyətlə, heç bir faciələrimiz olmayacaq, torpaqlarımız işğal edilməyəcək və Dağlıq Qarabağ problemi də baş qaldıra bilməyəcəkdi. Hətta cəsarətlə deyə bilərəm ki, heç Ermənistandan

200 mindən çox soydaşımız da öz dədə-baba torpaqlarını tərk etməyəcəkdi. Necə ki, Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması ilə Gürcüstandan Azərbaycana artıq başlamış olan axının qarşısı alındı, o adamları əlləri işə yatdı. Bu sadə həqiqətləri təkrarən yazmaqla məqsədim xalqın əksəriyyətinin bildiyi məlum hadisələri xatırlatmaq deyil, əksinə, bu gün də içərimizdə olan nankorları artıq baş vermiş olan bütün bu proseslərdən ibrət dərsi götürməyə çağırmaq, nadanları Heydər Əliyev şəxsiyyətinə, onun quruculuq əməllərinə qara yaxanları ayıltmaqdır. Onlar dərk etməlidirlər ki, faciələrimiz hakimiyyətsizlikdən, özbaşınalıqdan törəyib.

**Bu sadə həqiqətləri bir daha sadalamaqla bu gün də hakimiyyətə qeyri-qanuni yol və vasitələrlə can atan siyasi partiyalara onu xatırlatmaq istəyirəm ki, "Qarabağ problemi" olan, ərazisinin 20 faizinin işğal olunduğu, bir milyon isə qaçqının yaşadığı bir ölkədə Heydər Əliyev kimi ümummilli bir liderin ətrafında qeyd-şərtsiz və təmənnasız şəkildə birləşmək lazımdır. Hər hansı siyasi partiya liderinin və ya siyasi partiyanın Heydər Əliyev şəxsiyyətinə kölgə salmaq niyyəti varsa, onun Azərbaycanın gələcək siyasi mənzərəsindən izi-tozu qalmayacaq. Bu, Azərbaycan xalqının iradəsi, istəyi və arzusudur. Türkiyədə mövcud siyasi partiyalar, Konstitusiya və bir də Mustafa Kamal Atatürkün ideyaları əsasında fəaliyyət göstərdiyi kimi, Azərbaycanın siyasi partiyaları da dövlətimizin mövcud Konstitusiyası və Heydər Əliyev ideyaları əsasında fəaliyyət göstərməli, demokratik, hüquqi Azərbaycan dövlətini qurub inkişaf etdirməlidir. Başqa yol ola bilməz!**

20 Yanvar faciəsinin növbəti ibrət dərsi həmrəyliyin, vətəndaş birliyinin hər cür hakimiyyətdən, o cümlədən siyasi hakimiyyətdən yüksəkdə olduğunu aşkar etməsidir. Ümummilli mənafe olan yerdə şəxsi hakimiyyət mübarizəsinə qoşulmaq millətə, xalqa ən böyük xəyanətdir. Əgər Ə.Vəzirov, A.Mütəllibov və Xalq Cəbhəsi vaxtında ümummilli mənafeləri əsas götürüb xalqın iradəsi əleyhinə getməsəydi və Heydər Əliyev cənabları ilə əməkdaşlıq yolu tutsaydılar, onda milli birlik də vaxtında yaranar, erməni işğalının qarşısı da yerindəcə alınardı. Bu gün müxalifət liderləri ümummilli birlikdən, vətəndaş həmrəyliyindən çox dəm vururlar. Lakin özləri real hakimiyyətdə olduqları vaxt vətəndaş həmrəyliyi istiqamətində hansı real addımları atdıqlarından nədənsə söhbət açmırlar. Bizə milli birlik, vətəndaş həmrəyliyi lazımdır. Bizə yalnız Heydər Əliyevin liderliyini qəbul edən və xalqın mənafeyini güdən, mütərəqqi qüvvələrin, dövlətçiliyə sədaqətlə xidmət edən, mövcud Konstitusiyaya, qanunlara tabe olan siyasi partiyaların sağlam birliyi lazımdır, siyasi sabitlik naminə qeyri-sağlam qüvvələrin müvəqqəti "sazişi" yox. Belə "birlik" Azərbaycan xalqına, dövlətinə ancaq və ancaq gələcəkdə yeni faciələr gətirə bilər. Xalqımıza, dövlətimizə belə bir birlik lazım deyil.

20 Yanvar faciəsi sağlam vətəndaş həmrəyliyi və milli birlik ideyasının millət, xalq və dövlət üçün nə dərəcədə əhəmiyyətli olduğunu bir daha xalqımıza anlatdı.

Milli birlik, vətəndaş həmrəyliyi axtararkən xalqın sağlam hissəsinin və çoxluğun birliyinə arxalanmaq lazımdır. Sağlam vətənpərvər, demokratlar bu gün xalq arasında hər bir siyasi partiyanın tərkibində vardır. Biz bu gün kommunist partiyası liderlərini 20 Yanvar faciəsində günahlandırarkən o faktı da unutmamalıyıq ki, faciə baş verdiyi günün sabahısı əksər sıravi kommunistlər öz partiya biletlərini atmış və ya yandırmışlar. Azərbaycan Kommunist Partiyasının mərkəzi aparatında və eləcə də digər dövlət, hüquq-mühafizə orqanlarında əsasən aşağı rütbələrdə işləyən vəzifəli şəxslər arasında 20 Yanvar hadisələri zamanı ordunun törətdiyi cinayətləri pisləyən adamlar az olmamışdır.

Eləcə də torpaqlarımızın müdafiəsi zamanı təmənnasız Vətənimizi qoruyan, bu yolda canlarını belə əsirgəməyən oğullarımız çox olmuşdur. Onlar bu gün də Heydər Əliyev siyasətini bəyənir və milli dövlət quruculuğu prosesində namusla, fədakarlıqla çalışırlar. Biz ancaq bu cür adamların sağlam birliyinə, həmrəyliyinə əsaslanmalıyıq. Siyasi partiyalara və ictimai-siyasi təşkilatlara və cəmiyyətlərə gəldikdə isə bu gün həmin sferada gedən proseslər siyasi sabitliyi təmin edəcək, milli həmrəyliyin tədricən də olsa, yaranmasına doğru inkişaf edir. 4 aprel 1997-ci il tarixdə Heydər Əliyevin daxili və xarici siyasətini dəstəkləyən YAP başda olmaqla 11 partiyanın niyyət protokolu imzalaması bunu sübut edir.

**Digər qütbdə, yəni müxalifət düşərgəsində isə 1992-1993-cü illər hakimiyyət uğrunda mübarizənin getdiyi dövrlərdə parçalanmaqda olan partiyalar bu gün guya birləşməkdədirlər. Məlumdur ki, onları parçalayan səbəblər bu gün də qüvvədə qaldığından bu birləşmə də mümkün deyil.**

**Lider, hakimiyyəti bir ələ cəmləşdirə biləcək vahid başçı müxalifət düşərgəsində olmadığından, onların gələcəkdə hansısa vəzifəyə gəlmək naminə məcburən, könülsüz birləşməyə qoşulmaqları ilə həqiqi birlik və həmrəylik əldə oluna bilməz. Belə birlik və həmrəylik yeni-yeni surətlər, rəhim qazıyevlər və əlikramlar törədəcək. Xalqı isə bir dəfə aldatmaq olar.**

**Qafar Əliyev**
**"Azad Azərbaycan".** - 2004. – 20,23,25 yanvar. - N 10, 11, 12. - S. 3.

## 20 Yanvar faciəsinin ibrət dərsləri

Ermənilərin fitvası və imperiyanın hərbi müdaxiləsi nəticəsində baş verən 20 Yanvar faciəsi, onun dəhşətli nəticələri xalqımızın qan yaddaşında və tarixində ən kədərli hadisə kimi yaşayacaq, həmişə bizim üçün ibrət dərsi olacaqdır. Yanvar faciəsi bizdən ən gərgin vəziyyətlərdə sayıq, soyuqqanlı olmaq, hadisələri ayıq başla, iti ağıl və dərin təfəkkür süzgəcin-dən keçirmək, ziddiyyətli proseslər sistemində ən səmərəli variant seçmək, yaxınlaşan təhlükəni ən az sarsıntılarla dəf etmək bacarığı tələb edir. Bu ən əvvəl o deməkdir ki, xalq lider seçiminə ümummilli mənafelər baxımından yanaşmalı, yalnız professional, zəngin dövlətçilik təcrübəsi-nə malik, tanınmış, nüfuzlu, milli qeyrətli şəxsiyyətə üstünlük verməlidirlər. Çünki xalqın taleyüklü problemləri dövlət səviyyəsində həll edilir, dövlət başçısının iradəsi ilə nizamlanır. Ölkə onun nüfuzu və adı ilə tanınır.

Biz 1989-1992-ci illərdə meydan qəhrəmanlarının populist şüarlarına inanıb səhvə yol verdik, taleyimizi bu naşı, təsadüfi adamlara etibar etdik, təhlükəli hadisələrlə üzləşdik, çox şey itirdik.

Yıxıldıq, durduq, sonra anladıq ki, Azərbaycanın dövlət başçısı yalnız təcrübəli dövlət adamı, qeyrətli millət oğlu Heydər Əliyev olmalıdır. Heydər Əliyevi yaxşı tanıyan xalq son ümidini ona bağladı, xətadan, bəladan xilas oldu, özünə gəldi, tərəqqi yoluna çıxdı.

Azərbaycanın dövlət müstəqilliyini qorumaq, onu daha da möhkəmləndirmək, ölkədə hüquqi, demokratik, dünyəvi dövlət qurmaq üçün azadlığımız yolunda məruz qaldığımız 20 Yanvar faciəsinin bütün müəmmalı çalarlarını, o cümlədən bu mərhələyə uzanan uzun yolun qərəzli, düyünlü məqamlarını, onların qanlı nəticələrini dəqiq, obyektiv araşdırmaq və onlardan düzgün ibrət dərsi götürmək tarixi zərurətdir.

Bu zərurət onunla bağlıdır ki, çoxlarından fərqli olaraq Azərbaycanın müstəqil milli dövlətçilik tarixi heç də hamar yolla getməmiş, ziddiyyətlərlə, faciələrlə müşayiət edilmişdir. Azərbaycan xalqı təbii və qanuni müstəqillik hüququnu qazanmaq üçün uzun-uzadı mübarizə yolu keçmiş, bu yolda çoxsaylı ağrı-acılarla üzləşmiş, əzablara, faciələrə, məruz qalmış, əzəli torpaqlarının böyük hissəsini itirmişdir.

Son illərin təcrübəsi göstərir ki, imperiya iddialı dövlətlərin strateji maraqları mərkəzində yerləşən Azərbaycanın müstəqilliyinin qorunması onun əldə edilmə-sindən qat-qat çətindir. Müstəqil Azərbaycan dövlətçiliyini yaradan və onun qorunması keşiyində dayanan, dəfələrlə hazırlanan dövlət çevrilişlərinin qarşısını xalqın dəstəyi ilə alan Prezident Heydər Əliyev bu barədə bəyanat vermiş və milləti ayıq-sayıq olmağa çağırmışdır. Heydər Əliyev demişdir: "Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq onu əldə etməkdən qat-qat çətindir".

Müstəqilliyimiz yolunda üzləşdiyimiz çətinlikləri, təhlükəli məqamları ən az sarsıntılarla aradan qaldırmaq üçün məruz qaldığımız 20 Yanvar faciəsinin bütün görünən və görünməyən məqamlarını olduğu kimi araşdırmalı, bilməli, tarixi yaddaşımıza həkk etməli və xatırlamalıyıq.

20 Yanvar faciəsinin qanlı təcrübəsi göstərir ki, ölkəmizə qarşı yönələn təhlükələrin qarşısını almaq üçün vətənimizi, vətəndaşlarımızı müdafiə edə bilən möhkəm milli dövlət sistemi, onun mobil güc strukturları yaradılmalı, ən yeni hərbi texnika ilə təchiz edilmiş müasir ordusu olmalıdır. Şükürlər olsun ki, təcrübəli dövlət başçımız Heydər Əliyevin dəmir iradəsi ilə kimlərinsə fərdi və qrup mənafelərinə xidmət edən hərbi dəstələr buraxıldı, vahid mərkəzdən idarə edilən və istənilən təcavüzkara tutarlı dərs verə bilən müasir milli ordumuz yarandı. Bu belə də olmalıdır. Çünki hər bir dövlət özünü müdafiə etməyi bacarmalıdır. Lakin bu tarixi zərurət o zaman reallaşır ki, dövlətin başında Heydər Əliyev kimi ağıllı, səriştəli, uzaq-görən başçı dayanır.

Dağlıq Qarabağ hadisələri Ermənistanın Azərbaycana qarşı təcavüzü, Sovetlər İttifaqının qatı millətçi ermənilərə güclü hərbi yardımı, Sumqayıt sindromu, 20 Yanvar faciəsi, torpaqlarımızın bir hissəsinin işğalı göstərdi ki, xalqın möhkəm milli birliyi, xalqla dövlət başçısının həmrəyliyi vətənimizin təhlükəsizliyi üçün mühüm faktordur.

Yaxın keçmişdə cərəyan edən hadisələrin professional təhlili göstərir ki, ölkəyə yetərincə güclü, nüfuzlu şəxsiyyət Heydər Əliyev başçılıq etsəydi xalqın birliyini təmin etmək, kiçik sarsıntılarla, az itkilərlə üzləşdiyimiz təhlükələri, təzyiqləri, fitnəkarlıqları sovuşdurmaq, dəf etmək olardı. Bunun üçün xalqla dövlət

arasında mövqe birliyi, vətəndaş həmrəyliyi yaratmaq, bütün əhalini ümummilli ideya ətrafında birləşdirmək lazım idi.

Xalqımızın milli həmrəyliyinin təmin edilməsi Prezident Heydər Əliyevin dövlətçilik fəaliyyətinin ən uğurlu nəticələrindən biridir. Bu birlik vətənimizin tərəqqisinin və təhlükəsizliyinin təmin edilməsi naminə həmişə qorunmalı və möhkəmləndirilməlidir. 20 Yanvar faciəsindən çıxardığımız ibrət dərslərindən biri budur.

Keçmişimizin təcrübəsi göstərir ki, bizi qədim tariximizdən soyudan və uzaqlaşdıran iki təhlükəli amil xalqımızın qarşısında həmişə keçilməz çətinliklər yaratmışdır. Biz təbiətən humanistlik, xeyirxahlıq, dostluq, mehribanlıq notları üzərində kökləndiyimiz üçün qonşunu qohumdan yaxın bilmişik, dostu qardaşdan əziz saymışıq. Biz fəxr etmişik ki, Bakı dünyanın beynəlmiləl şəhəridir, beynəlmiləlçilik bizim təbiətimizdə, canımızdadır. Buna görə də azərbaycanlıların taleyini həll edən səlahiyyətli dövlət vəzifələrini ruslar, ermənilər tutanda etiraz səsimizi qaldırmamışıq.

Ermənilər qonşu ölkələrdən Azərbaycana köçürüləndə yerlərdə tək-tək etirazlar olsa da, bu proses dayandırılmadı, əksinə, təbiətcə ən zəngin yerlər onlara verildi, təbiətən separatçı olan daşnaklar Qarabağın dağlıq hissəsindən Gəncəbasara, Şəki-Zaqatala bölgəsinə, oradan Şamaxıya və Bakıya üz tutanda biz əzəli düşmənlərimizin yolunu kəsmədik. XX əsrin əvvəllərində ərazi iddiaları ilə Azərbaycan torpaqlarında qırğınlar törədən erməni terrorçularına bir neçə dəfə sərt cavab versək də, onların burnunu birdəfəlik əzmədik, nəfəslərini kəsmədik.

Sovetlər yarananda humanistlik göstərib İrəvan şəhərini, Zəngəzuru, Göyçə mahalını və bütün Qərbi Azərbaycan torpağını ermənilərə peşkəş etdik.

Nəhayət, səksəninci illərdə Qazax rayonunun Kəmərli kəndinin 2500 hektar əkinə yararlı torpağını, Didvan dəryaçasının ətraf ərazisini ermənilərə bağışladıq.

Fərdi qrup maraqları, hakimiyyət hərisliyi bir yana qoyulsaydı, özümüzü yığışdırıb birləşsəydik erməni separatçılarının Dağlıq Qarabağda başladıqları qiyamı bir gün ərzində yuvasından çıxmamış boğa bilərdik. Amma biz əvvəldən hazırlanmış və təhlükəli məqsədlər güdən siyasi qiyamı bir qrup ekstremistin qanunsuz hərəkəti kimi qiymətləndirib SSRİ Konstitusiyasının 81-ci maddəsinə bel bağladıq, mərkəzin tədbir görəcəyini gözlədik. Humanistliyimizin, tarixi yaddaşsızlığımızın acı nəticələri xalqımıza, vətənimizə baha başa gəldi və sonrakı gərgin reallıqla nəticələndi.

Ramiz Mehdiyev haqlı olaraq qeyd edir ki, məruz qaldığımız faciələri araşdırarkən dəfələrlə üzləşdiyimiz təhlükəli hadisələrə gətirib çıxaran səhvlərin təkrarlanmasına yol verməmək üçün olanlardan, keçənlərdən ibrət dərsi götürməli və onu nəzərə almalıyıq. Bu tövsiyə o deməkdir ki, vətənimizin, müstəqilliyimizin təhlükəsizliyini təmin etmək üçün ümumi vəziyyətin, konkret siyasi məqamın tələblərini nəzərə almaq şərti ilə düşünülmüş, balanslı qərar qəbul etmək, hadisələri məhvərindən çıxmamış ram etmək vacib şərtlərdən biridir.

1990-cı il yanvar ayının 21-də Moskvada Azərbaycanın daimi nümayəndəliyində Heydər Əliyevin etiraz dolu çıxışı Rusiyada sensasiya yaratdı, bir sıra xarici mətbuat orqanlarında çap edildi, dünya ictimaiyyətinə çatdırıldı.

Bu istiqamətdə daha bir vacib məqamı xatırlamaq yerinə düşər. 1990-cı il fevral ayının 14-də SSRİ Ali Sovetinin sessiyası açılarkən deputat Vəli Məmmədov tribunaya yaxınlaşıb sözünü demək istəyəndə ona imkan verilmədi və öz yerinə qayıtması amiranə təklif edildi. Hamıya söz verildiyi halda azərbaycanlı deputata təkliflərini bildirməyə imkan verilməməsindən, onunla kobud rəftar edilməsindən qəzəblənən deputat Tofiq İsmayılov heç kəsdən icazə istəmədən cəsarətlə tribunaya yaxınlaşıb 20 Yanvar faciəsində həlak olmuş şəhidlərin ruhunun bir dəqiqəlik sükutla yad edilməsini təklif etdikdə deputatlar bir nəfər kimi ayağa durdular, insani borclarını yerinə yetirdilər. Deputatlar oturduqdan sonra bir-biri ilə emosional dialoqa başladılar və zahirən təəccüblərini bildirdilər. Əslində Tofiq İsmayılovun təklifi Heydər Əliyevin çıxışından sonra ikinci irimiqyaslı addım idi. Qalan bəyanatlar, məqalələr və məktublar Azərbaycan dilində və yerli xarakterli olduğu üçün Biləcəridən o yana çıxmırdı.

Digər bir səbəb 20 Yanvar faciəsi nəticəsində hakimiyyətə gələnlərin və ya onları əvəz edən cəbhə-müsavat blokunun xəyanəti ilə əlaqədardır. Hər iki qrup 20 Yanvar faciəsində günahkardır. Qansız-qadasız müstəqillik qazanan Orta Asiya respublikalarının müxalifətlə iş təcrübəsi göstərir ki, rəhbər güclü, nüfuzlu, təcrübəli olduqda ictimai-siyasi təşkilatların fəaliyyətini qanun, demokratik prinsiplər çərçivəsində tənzimləmək mümkündür.

Azərbaycanda başçı zəif, təcrübəsiz, xaraktercə yüngül olduğu üçün müxalifət Qarabağ cəbhəsində uğursuzluqdan istifadə edərək dövlətin səlahiyyətlərini tədricən üzərinə götürür, tapşırıqlar verir, kadr siyasətinə, müdafiə məsələlərinə girişir, hakimiyyətə gəlmək üçün təhlükəli addımlar atır, ermənipərəst mərkəzi qıcıqlandırır, onu Azərbaycanın əleyhinə tədbirlər görməyə vadar edirdi. 20 Yanvar faciəsində əli olan qrupun hakimiyyətə gəlməsi bağışlanmaz səhv idi. O vaxt yenicə formalaşmağa başlayan xarici diplomatik korpusumuz, hələ təşkilatlanmayan diasporumuz və lobbimiz Azərbaycanın haqq səsini dünya dövlətlər birliyinə çatdırmaq, ictimaiyyətə təsir göstərmək gücündə deyildi.

Yalnız Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra, onun nüfuzu və dəmir məntiqi sayəsində dünya dövlətlər birliyi, bu ölkələrin ictimaiyyəti və müxtəlif zümrələri, BMT, Avropa Şurası və digər beynəlxalq təşkilatlar, diplomatlar, iş adamları, jurnalistlər Azərbaycanın real vəziyyəti haqqında ətraflı məlumat aldılar, öz mövqelərinə, siyasi baxışlarına obyektiv düzəlişlər verdilər. Həmin vacib iş bu gün də professionallıqla obyektiv inandırıcı dəlillərə söykənən məlumatlar əsasında ardıcıl, məqsədyönlü davam etdirilir. Ən vacibi odur ki, Azərbaycanda həyata keçirilən demokratik proseslər fəal təbliğ olunur, Azərbaycan barədə dünya dövlətlər birliyində obyektiv ictimai rəy formalaşdırılması təmin edilir. Fəal diplomatik iş, kütləvi təbliğat, işgüzar görüşlər vasitəsilə Azərbaycanın real vəziyyəti dünya dövlətlər birliyinə çatdırılır, ermənilərin işğalçılıq siyasəti ifşa edilir.

20 Yanvar faciəsinin ibrət dərslərindən biri də düşmənlərimizin quraşdırdıqları fitnə-fəsadları, təxribatları, şayiələri qabaqcadan duymaq, hiss etmək və onların qarşısını almaqdan ibarətdir. Çünki onlar nəzarətdən çıxdıqda, qarşısı alınmadıqda təhlükəli nəticələr verir. Maymaq rəhbərlərin səbatsızlığı nəticəsində, mərkəzin və Ermənistanın xüsusi xidmət orqanlarının fitvası ilə Bakıda xidmət edən rus zabitlərinin ailələri ölkədən köçürüldü, xəstəxanalar boşaldıldı, ruslar arasında vahimə yaradıldı, süni rus qaçqınları problemi uyduruldu, Rusiyada antiazərbaycan rəyi formalaşdırıldı.

Müxtəlif bəhanələr zəminində xalqı gündəlik məlumatlardan məhrum etmək məqsədilə hərbçilər faciədən bir neçə saat əvvəl dövlət televiziyasının enerji blokunu partlatdılar.

M.Qorbaçovun fərmanı elan edilmədən mərkəzin yüz minlik xüsusi hərbi hissələri gecə yarısı qəflətən Bakıya daxil oldular, keçdikləri küçələri darmadağın etdilər, qarşılarına çıxan insanları qətlə yetirdilər. Erməni mafiyasının təkidi ilə mərkəz dünya təcrübəsində qəbul edilmiş xəbərdarlıq, profilaktika prinsipinə əməl etmədən qəfil hücum praktikasına üstünlük verdi.

Erməni mafiyasının tapşırığını yerinə yetirən mərkəz azərbaycanlılara divan tutmaq məqsədilə Azərbaycana göndərdiyi ordu hissələrinin tərkibinə Stavropoldan, Rostovdan, Krasnodardan səfərbər edilmiş erməni zabit və əsgərlərinin, Azərbaycanda yerləşən sovet qoşun bölmələrində xidmət edən, hərbi məktəblərdə təhsil alan erməni kursantlarının cəlb edilməsi xüsusi planlardan xəbər verirdi.

20 Yanvar günü Ermənistan silahlı qüvvələri Azərbaycanın əzəli torpaqlarının bir hissəsini işğal edərək digər yaşayış məntəqələrinə hücuma hazırlaşırdı. Azərbaycana qarşı düşmən mövqeyində dayanan qəsbkar, terrorçu, separatçı erməni daşnaklarını Bakıya göndərmək azərbaycanlıları böyük vəhşiliklə məhv etmək məqsədi güdürdü.

Qəsdən yaradılmış belə gərgin şəraitdə əhali güllələbaran edildi, zirehli tanklar birbaşa insanların üzərinə yeridi, xüsusi əmr almış seçmə hərbi hissələr beynəlxalq hüquq normalarına məhəl qoymadan qadınları, uşaqları, qocaları, yaralılara yardım edən həkimləri atəşə tutdular, qətlə yetirdilər. Hərbçilər bu qanlı cinayətin izini itirmək, yaralı şəhidlərin sağ qalmasına yol verməmək üçün onları tankların altına salıb əzdilər, cəsədləri yığıb gizlətdilər. Ermənistan, məkrli mərkəz yanvar ayının 20-də gecə nəzərdə tutduqları qanlı cinayəti həyata

keçirdikdən sonra səhəri gün Bakıda fövqəladə vəziyyət tətbiq edilməsi haqqında M.Qorbaçovun fərmanı elan edildi, seçmə ordu hissələri şəhərdən çıxarıldı və yeni nizami hərbçilər qrupu onları əvəz etdi.

İkinci fitnəkarlıq şəhər əhalisinin guya orduya müqavimət göstərməsini sübut etməkdən ibarət idi. Bu məkrli və əsası olmayan fitvanı isbata yetirmək üçün hərbçilər və xüsusi xidmət orqanları süni bəhanələrlə yenidən silaha əl atdılar, həlak olanları, yaralananları, itkin düşənləri axtaranları güllələdilər.

20 Yanvar faciəsi haqqında çox yazılsa da, çox deyilsə də bu amansız cinayətin bütün aspektləri, tarixi-siyasi kökləri, səbəbləri, nəticələri hələ də bütünlüklə açıqlanmamış, onun təhrikçilərinin hamısının ünvanları və məsuliyyət dərəcələri müəyyən edilməmiş, vəhşi qırğın barədə tarixi həqiqət dünya ictimaiyyətinə olduğu kimi çatdırılmamışdır.

O da nəzərə alınmalıdır ki, 20 Yanvar qırğını haqqında düşmənlərimizin əli ilə dünya xalqlarına yalnız həqiqətdən uzaq, məkrli məlumat çatdırılmış, faciənin səbəbləri, nəticələri təhrif edilmişdir. Azərbaycan xalqına qarşı törədilən bu ağır cinayətin bütün tamlığı ilə obyektiv açıqlanması, ondan ibrət dərsi götürülməsi, xalqımızın dostlarının və düşmənlərinin tanınması, gözlənilən təhlükələrin vaxtında duyulması, onların az itkilərlə dəf edilməsi naminə tədqiqatların, araşdırmaların, ümumiləşdirilmələrin davam etdirilməsinə ehtiyac qalmaqdadır.

20 Yanvar faciəsi haqqında hələ aşkarlanmamış məqamlar çoxdur. Məlumdur ki, mərkəzin dəstəyinə arxalanan erməni millətçiləri 1990-cı ilin yanvar faciəsindən sonra Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağın bütün ərazisini işğal etmiş, bölgəni faktiki olaraq Azərbaycanın tərkibindən ayırıb Ermənistanın tabeliyinə keçirmişlər. Vahid ölkənin konstitusiyasına və qanunvericilik təcrübəsinə əsasən erməni daşnaklarının cinayət hərəkətlərini dövlət çevrilişi, silahlı separatizm və işğal kimi qiymətləndirmək vaxtı çatmışdır.

Azərbaycanın ümummilli təhlükəsizlik strategiyasının uğurla reallaşması bütün olub keçənlərin, başımıza gələn faciələrin soyuq başla, obyektiv araşdırılmasını, onlardan səriştəli nəticə çıxarılmasını və ibrət dərsi götürülməsini tələb edir. Əgər həmişə ayıq-sayıq olsaq, hadisələrə vaxtında düzgün qiymət versək, adekvat, düşünülmüş, qəti addımlar atsaq bütün gözlənilən xətalardan özümüzü qoruya bilərik.

**İmran Cəfərzadə**
**"Respublika".** - 2004. – 20 yanvar. - N 15. - S. 10.

## 20 Yanvar xalqımızın azadlıq ruhunu coşdurdu

**20 Yanvar faciəsinə tam siyasi-hüquqi qiymət gec verildi. Yalnız böyük siyasi xadim Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıdandan sonra bu mümkün oldu. 1994-cü il yanvarın 5-də ümummilli liderimiz Heydər Əliyevin imzaladığı fərman həm 20 Yanvar faciəsinin 4-cü ildönümü ilə əlaqədar tədbirlərin hazırlanması və keçirilməsi, həm də yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilməsi barədə idi. Yalnız bundan sonra bu istiqamətdə əməli işlər görülməyə başlandı.**

***Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünya-ya nümayiş etdirdi.***

***Heydər ƏLİYEV***

Bəs, nə üçün bu qədər gec? Axı, faciənin sonrakı ili biz müstəqillik qazandıq. Daha SSRİ yox idi. Onda niyə bu haqda düşünən olmadı? Axı, söhbət bir-iki nəfərin, bir qrupun başına gələn faciədən, müsibətdən getmirdi. 20 yanvarda Azərbaycan xalqına təcavüz edilmişdi. - Respublikanın o vaxtkı rəhbərlərinin bu mənəvi yoxsulluğunun səbəblərini axtaranda ümummilli liderimiz Heydər Əliyevin 1994-cü il yanvarın 19-da 1990-cı ilin faciəli yanvar hadisələri zamanı şəhid olanların ailə üzvləri və həmin günlərdə yaralanıb əlil olanların bir qrupu ilə görüşündə çıxışından bir məqam yadıma düşür. Həmin görüşdə ümum-milli liderimiz dedi: **"O günlər mən böyük kədər içində yaşamışam. Bakıda baş verən hadisələri imkanım daxilində izləyirdim və sonra bir daha hiddətləndim ki, şəhidlərin dəfn mərasimində Azərbaycanın o vaxtkı rəhbərlərinin heç biri iştirak etməmişdi. Şəhidləri Şeyxülislam Allahşükür Paşazadə, bizim ziyalılar Şəhidlər Xiyabanında dəfn etdilər. Bunu yadınıza salın. Əgər Azərbaycanın rəhbərləri o faciəli dövrdə öz xalqının şəhidlərinin dəfnində iştirak etməmişdilərsə, bunun özü sübut etdi ki, onlar özləri həmin faciənin günahkarlarıdır və o gündən etibarən faciənin üstünü ört-basdır etməyə çalışmışlar".** Bu dəmir məntiq o vaxtadək etiraf olunmayan həqiqətləri təsdiqləyir.

Ancaq məsələnin digər tərəfi də var. Azərbaycanın o vaxtkı rəhbərləri Ə. Vəzirov, A. Mütəllibov idi. Onların mövqeyi hamımıza məlumdur. Bəs, ondan sonra Milli Şuranın (o vaxt Milli Məclis belə adlanırdı) o vaxtkı üzvləri niyə bu faciənin düzgün araşdırıb, ona siyasi-hüquqi qiymət vermirdilər. Axı, onların yarısı müxalifət nümayəndələri idilər. Belə olan halda, bu "millət fədailəri", bu "azadlıq aşiqləri" niyə susurdular? Buna bayaq qeyd etdiyimiz dəmir məntiqlə yanaşsaq, belə çıxır ki, onlar da günahkarlar sırasındadırlar. Yoxsa, niyə susurdular ki?..

... Gəlin bir az əvvələ - faciə baş verdiyi ərəfəyə qayıdaq: 1990-cı ilin ilk günündən Azərbaycanda hakimiyyət idarəolunmaz vəziyyətə gəlib çıxmışdı. Hökumət iflic vəziyyətdə idi. Hakimiyyətdaxili ziddiyyətlər də gündən-günə şiddətlənirdi. Hamı görürdü ki, hadisələrin gedişi mütləq hakimiyyət dəyişiklikliyi ilə nəticələnəcək. Ancaq heç kəs fikirləşmirdi ki, bu milləti necə xilas etsin. Əksinə, səlahiyyət sahibləri Moskvadan güc istəyirdilər. İstəyirdilər ki, haqqını tələb edən dinc əhalinin üstünə qoşun yeritsinlər. Məsələn, **Azərbaycan SSR Nazirlər Sovetinin sədri Ayaz Mütəllibov bu dəhşətli faciədən 9 gün qabaq - 1990-cı il yanvarın 11-də SSRİ Nazirlər Sovetinin sədri N. İ. Rıjkova belə bir teleqram göndərib: "İctimai asayişin mühafizəsini gücləndirmək və baş verə biləcək millətlərarası konfliktin qarşısını almaq məqsədilə Azərbaycan SSR-ə SSRİ Daxili İşlər Nazirliyinin 7 min nəfərlik daxili qoşun kontingentini göndərməyinizi xahiş edirəm".** Bu teleqrama şərh verməkdən uzağıq. Çünki hər şey aydındır. Hərbi qüvvənin bu qədər çox istənilməsi isə Bakıda vəziyyətin son dərəcə ağır olmasını göstərmək üçün idi. Ancaq **A. Mütəllibovdan bir neçə gün əvvəl Viktor Polyaniçkonun SSRİ daxili işlər naziri Bakatinə göndərdiyi teleqramda bu məqsəd üçün 1500-2000 əsgər göndərilməsi xahiş olunurdu.** Elə bu rəqəmlərin müqayisəsi o vaxtkı respublika rəhbərlərinin öz xalqına necə ögey münasibətdə olduqlarını sübut edir.

Yanvarın 19-dan 20-nə keçən gecə Bakıda qanlı qırğın törədildi. SSRİ-nin "vəhşi" - seçmə qoşunları müasir hərbi texnika ilə təchiz olunmuşdu. Onlara qadağan olunmuş güllələr verilmişdi. Əliyalın insanların üstünə müasir hərbi maşınlar yeriyirdi...

Faciədən sonra bir qrup ziyalımız, Azərbaycan SSR Ali Sovetinin deputatları fövqəladə sessiyaya toplaşdılar. SSRİ Ali Sovetinə, müttəfiq respublikaların Ali sovetlərinə, bütün ölkələrin parlamentlərinə, Birləşmiş Millətlər Təşkilatına müraciət qəbul etdilər. Şeyxülislam Hacı Allahşükür Paşazadə M. Qorbaçova müraciət etdi, onu "cəllad" adlandırdı. Bu tədbirlərin heç birində ölkənin o vaxtkı rəhbərləri iştirak etmədilər. Ona görə ki, bu qanda günahkar idilər, ona görə ki, hər biri ayrı-ayrılıqda Moskvadan - Qorbaçovdan vəzifə gözləyirdilər.

Bunlar hələ harasıdır. Onlar cidd-cəhdlə çalışırdılar ki, şəhidlər Bakıda - Dağüstü parkda dəfn olunmasın. Hər biri öz doğulduğu kənddə dəfn edilsin. Çünki, onların bir yerdə dəfn olunması SSRİ rəhbərlərinin qaniçən, cəllad sifətlərini açırdı. Bu şəhidlərin arasında məktəbli də, qoca da, ziyalı da vardı. Bu isə onu sübut edir ki, SSRİ rəhbərlərinin bu iğtişaşlara, mitinqçilərin tələblərinə "geyindirdikləri don" öz biçimində deyil.

Xalqımız iradəlidir. Tələbində haqlıydı. Odur ki, müqəddəs şəhidlərimizi paytaxtımızın ən uca yerində dəfn etməyə nail oldu. Ancaq respublika rəhbərlərindən yenə heç biri bu mərasimdə iştirak etmədi. **Əksinə, şəhidlərimizin dəfn günü Ayaz Mütəllibov başda olmaqla 4 nəfər Moskvaya uçdu, Qorbaçovdan vəzifə almaq üçün. Qorbaçov isə A. Mütəllibovu seçdi, onlara yeni tapşırıqlar verdi. Sonralar bu adamlardan dördü də etiraf etdi ki, Qorbaçovla görüşdə Bakıda törədilən bu dəhşətli qırğından bir kəlmə də söhbət getməyib. Gedə də bilməzdi. Çünki şəhidlərin dəfn mərasimindən iki gün sonra - yanvarın 24-də Mərkəzi Komi-tənin plenumu Ayaz Mütəllibovu birinci katib "seçdi".**

Həmin plenumda digər mənəviyyatsızlıqlar da edildi. Plenum analoqu olmayan bu faciəyə, bu terror aktına siyasi qiymət verməkdən imtina etdi. Ancaq 20 Yanvar hadisələrini araşdırmaq üçün iki komissiya yaratdı. **Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti fevralın 11-də 20 Yanvar faciəsini araşdıran istintaq komissiyasının faciə-dən 21 gün sonra bəyanatını dinləyib, belə bir qərar qəbul etdi ki, Azərbaycan SSR prokuroru İlyas İsmayılov 1990-cı il yanvarın 19-20-do Bakı şəhərində adamların həlak olunmasında müqəssir olan şəxslər barəsində cinayət işi qaldırılması və istintaqın gedişi barədə məlumat versin. Təəssüflər ki, bu qərar icra olunmadı. Əksinə, törədilmiş vəhşilikləri sübut edən əşyayi-dəlillər Moskvaya aparıldı...** Bu minvalla 20 Yanvar faciəsi ört-basdır edilirdi.

Maraqlıdır ki, AXC-Müsavat cütlüyünün hakimiyyətində də bu məsələ cidd-cəhdlə ört-basdır edilirdi. Bu məsələ başqaları tərəfindən qabardılanda dərhal qarşısı alınırdı. Çünki həqiqət ortaya çıxanda cinayətkarlar sırasında özləri də da-yanmalı olacaqdılar.

Faciədən dərhal sonra ümummilli liderimiz Heydər Əliyevin SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin ciddi nəzarətində olmasına baxmayaraq Moskvadakı nümayəndəliyimizə gəlməsi, bəyanatla çıxış etməsi Kremlin özünü şoka salmışdı. Ancaq Azərbaycan rəhbərliyi bundan da bir nəticə çıxarmadı. Əksinə, Heydər Əliyevə qarşı əks-kampaniyalar başlandı. Nəhayət, **1990-cı il noyabrın 21-də Heydər Əliyevin qətiyyəti ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar hadisələrinə siyasi qiymət verməklə, tarixi qərar qəbul etdi. Azərbaycan SSR Ali Sovetinin qarşısında vəsatət qaldırdı ki, hər il yanvarın 20-si Milli Matəm günü kimi qeyd olunsun, faciə ilə bağlı istintaq başa çatdırılsın, günahkarlar aşkar edilsin və cəzalandırılsın. Bundan əlavə Heydər Əliyev 1991-ci il martın 7-də və avqustun 29-da respublika Ali Sovetinin sessiyalarındakı çıxışlarında, 1991-ci il iyulun 19-da SSRİ Nazirlər Kabinetinə göndərdiyi məktubunda dönə-dönə bu məsələni qaldırır, dəyişməz mövqeyini bildirir, xalqın haqqını tələb edirdi.**

... Nəhayət, xalqın təkidi ilə Heydər Əliyev yenidən Azərbaycanda hakimiyyətə qayıtdı. Və bununla 20 Yanvar faciəsinin də üstündən pərdə götürüldü. Əsl günahkarlar hamıya məlum oldu. 1994-cü il yanvarın 12-də 20 Yanvar faciəsinin 4-cü ildönümü ilə bağlı tədbirlərin hazırlanması və keçirilməsi üzrə Dövlət Komissiyasının iclasında Heydər Əliyev bir məsələyə də aydınlıq gətirdi. Məlum oldu ki, Azərbaycan rəhbərliyi 20 Yanvar faciəsinin üstünü ört-basdır etmək üçün daha hansı vasitələrdən istifadə edib: "... **Mən o vaxt Ali Sovetin**

**sessiyasında çıxış edəndə də demişəm və bu gün də deyirəm: əgər bu qoşunları Azərbaycan rəhbərlərinin razılığı olmadan Sovet İttifaqının rəhbərləri yeritmişdilərsə, Azərbaycan rəhbərləri onları dərhal çıxara bilərdilər. İki il ondan sonra, 1992-ci ilin 19 yanvarında qərar qəbul olundu ki, qoşunların buradan çıxması üçün lazımi tədbirlər görülsün. Onda artıq Sovet İttifaqı dağılmışdı. Bundan sonra hansı qanunlar çıxarılacaqdı ki?**

**Bakı şəhəri, Azərbaycanın bir neçə rayonu iki il fövqəladə vəziyyət şəraitində yaşadı. Təkcə 20 Yanvar faciəsinə görəmi? Yox, o vaxt bu məsələnin üstünü örtüb basdırmaq, xalqı əzmək üçün Azərbaycanın paytaxtında iki il fövqəladə vəziyyət şəraiti saxlanıldı. Buna heç bir əsas yox idi. Fövqəladə vəziyyət də həmin bu 19 yanvar qərarı ilə götürüldü."**

Ümummilli liderimiz 1990-cı il yanvarın 20-də, 21-də və 22-də ziyalılarımızın göstərdikləri fəaliyyəti yüksək qiymətləndirdi, ancaq sonra nə üçün susduqlarının səbəbini də açıqladı. Bildirdi ki, onların bəziləri deputat, bəziləri başqa vəzifə sahibləridir ki, vəzifədən çıxarılmaqlarından qorxurdular. Bəs, başqa ziyalılar, alimlər, yazıçılar?.. Onlar Heydər Əliyevin dəmir məntiqi ilə üz-üzə qaldılar: **"Vəzifəli adamı vəzifədən çıxarırlar, artistin artistliyini, şairin şairliyini ki, əlindən almırlar. Yaxud da ki, alimi alimlikdən məhrum etməyəcəklər ki! Qoy alsınlar, qoy məhrum etsinlər. Nə olar? Xalqımız, nəhayət, həqiqəti bilməlidir, xalqın milli mənliyi, milli iftixarı özünü göstərməlidir!"** Bəli, odur ki, dönə-dönə deyirik: **Vətənə, xalqa yaxşı oğul olmağı Heydər Əliyevdən öyrənməliyik. O, xalqı üçün hər şeydən keçməyi bacaran şəxsiyyət idi.**

**... O Qanlı Yanvar gecəsindən 14 il keçir. Əlləri xalqımızın qanına batmış Qorbaçov, Yazov, Bakatin, Vəzirov, Mütəllibov, Hüseynov... və bir də günahsız insanları bu fəlakətə sürükləyən avantürist İ. Qəmbər, E. Məmmədov, N. Pənahlı, P. Hüseynov kimilərin əli ilə tariximizə yazılan bu qanlı səhifəni bir də vərəqləyir, onları lənətləyirik.**

**20 Yanvar xalqımızın həm də iftixar günüdür. O gecə xalqımız bütün dünyaya öz yenilməzliyini, qəhrəmanlığını, mətinliyini, ölməzliyini sübut etdi. Sübut etdi ki, müqəddəs amal uğrunda şəhid olmağı bacarır. Belə xalq isə yaşamağa qadir olan xalqdır. Odur ki, 20 Yanvarı qürur günümüz kimi qəbul etməyə haqqımız var.**

**Vahid İMANOV**

**"Xalq qəzeti".** - 2004. – 20 yanvar. - N 15. - S. 7.

## 20 Yanvara gedən yol

**Deyirlər, zaman bütün yaraları sağaldır, bütün dərdləri unutdurur. Fəqət Azərbaycana vurulan elə yaralar var ki, onlardan hələ də qan damır. Belə yaralardan biri də 20 Yanvar faciəsidir. Heydər Əliyev hələ 1992-ci ildə bu barədə danışarkən 20 Yanvar hadisələrini Azərbaycanın 1920-ci ildən sonrakı tarixində ən faciəli hadisə kimi qiymətləndirmişdi. Ötən illər ərzində həmin qanlı hadisələrin səbəbləri dönə-dönə araşdırılıb, baiskarlar yetərincə lənətlənib. 1994-cü ilin əvvəllərində Azərbaycan Prezidenti Heydər Əliyevin təklifi ilə bir daha bu məsələni müzakirəyə çıxaran Milli Məclis həmin faciəli hadisələrə yalnız dörd ildən sonra hüquqi-siyasi qiymət verib.**

**Tarixi isə dönə-dönə vərəqləmək lazım gəlir. Bu, faciələrin təkrar olunmaması üçün lazımdır. Bir də ona görə lazımdır ki, tarixdən ibrət götürək, onun dərslərindən nəticə çıxaraq və xalqın əsl dostları ilə yalançı dostlarını bir-birindən ayırd edə bilək. Böyük kədər doğuran belə hadisələr əvəzolunmaz itkilərlə nəticələnsə də, xalqı müdrikləşdirir və ayıldır, sayıqlığı artırır. Biz 20 Yanvara birdən-birə gəlib çıxmamışdıq. Bu hadisələrin, faciələrin dərin kökləri vardı, xalqı fəlakətə sürükləyənlər və bundan şəxsi mənafeləri üçün istifadə edənlər vardı. Baş verənləri sonradan, soyuq başla təhlil edəndə görürsən ki, hadisələr bir-biri ilə zəncir kimi bağlıdır.**

### Demokratiya əvəzinə separatçılıq

Hər şey Qorbaçovun yenidənqurmasından başladı. O, xalqlara aşkarlıq və demokratiya vəd edirdi. İlk baxışda elə təsəvvür yaranırdı ki, totalitarizmdən azad və demokratik bir cəmiyyətə doğru gedirik. Bunun əvəzində qeyri-normal situasiya və zorakılıqla qarşılaşdıq, necə deyərlər, "yenidənqurma" çanağı bizim başımızda çatladı.

1987-ci ilin ortalarından başlayaraq Dağlıq Qarabağ Muxtar Vilayətindən həyəcanlı, inanılmaz xəbərlər gəlirdi. Vilayətin azərbaycanlı sakinləri respublikanın rəhbər təşkilatlarına, o cümlədən bu sətirlərin müəllifinin işlədiyi "Kommunist" qəzeti redaksiyasına aramsız müraciətlərində, məktublarında həyəcan təbili çalır, yatanları oyatmağa çalışırdılar: ermənilər mitinq keçirir, Azərbaycan bayraqlarını qoparıb atır, bizi sıxışdırırlar. Tədbir görülməsə, bunun axırı pis qurtaracaq.

Bu, separatizmin birinci və nisbətən zəif dalğası idi. Redaksiyaya gələn xəbərdarlıq məktublarının üstünə isə belə bir dərkənar qoyulurdu: "Arxivə!". Bu haqda danışmaq və yazmaq olmazdı. Əvəzində yuxarı-dan Azərbaycan və erməni xalqlarının "sarsılmaz dostluğunu" tərənnüm etmək barədə tapşırıqlar verilirdi. Yara isə getdikcə dərinə işləyir, irinləyirdi. Günlərin bir günü xəbər yayıldı ki, Ermənistan Ali Soveti Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında qərar çıxarıb. Beləliklə, respublika rəhbərliyinin gözləmə mövqeyi tutması hadisələrin kəskinləşməsi və dramatik xarakter alması ilə nəticələndi. separatçıların əl-qol açmasına ideal şərait yarandı.

1990-cı ilin əvvəllərində "Naçalo" qəzetinin müxbirinə verdiyi müsahibəsində Heydər Əliyev bu barədə ürəkağrısı ilə danışır, hiddətini gizlədə bilmirdi. Həmin müsahibədən kiçik bir parçanı nəzərinizə çatdırırıq: "Bir dəfə MK plenumunda Azərbaycan KP MK-nın o vaxtkı birinci katibi, məndən sonra işləyən Bağırovla görüşdüm. Ondan soruşdum: - Siz buna necə yol vermisiniz? Bağırov dedi ki, onlar mərkəzə məlumat veriblər. Lakin mərkəz heç bir reaksiya verməyib.

O vaxt Ermənistandan 2-3 gün ərzində bütün azərbaycanlıları çıxardılar, özü də bu zaman adamlara qarşı güc işlədildi, ölüm, əlillik halları da müşahidə olundu, onlar öz doğma ocaqlarından məhrum edildilər. Sonra Sumqayıt hadisəsi baş verdi. Azərbaycanlılar DQMV-dən çıxarıldılar. Elə o vaxt qəti tədbirlər görmək lazım idi. Bəs, nə baş verdi? Sov.İKP MK-nın bir katibi Yerevana, o biri isə Sumqayıta getdi. İki-üç gün orada olandan sonra geri qayıtdılar. Guya ki, bununla hər şey sakitləşdi..."

Əlbəttə, o vaxt xalqlar dostluğundan danışmaq əvəzinə qəti və təsirli tədbirlər görmək lazım idi. Mərkəz reaksiya vermir, respublika rəhbərliyinin isə məsələyə birbaşa müdaxilə etməyə iradə və qətiyyəti çatmırdı. Hər

şey mərkəzin ümidinə buraxılmışdı, Bakı Kremldən göstəriş gözləyir, hadisələr isə erməni separatçılarının xeyrinə inkişaf edirdi.

Kreml çıxış yolunu respublika rəhbərliyini dəyişməkdə gördü. Sov.İKP MK katibi Liqaçov Əbdürrəhman Vəzirovu gecə Bakıya gətirdi və səhəri gün o, Azərbaycan KP MK-nın birinci katibi seçildi. Təbii ki, Bağırovun Vəzirovla əvəz edilməsi heç nəyi dəyişmədi. Əksinə, yeni birinci katib mürəkkəb vəziyyətlərdən baş çıxara bilmir, olduqca zəif görünürdü. Onun bu vəzifəyə təyin olunması hadisələr prosesində buraxılan ən böyük səhvlərdən biri idi. Xalq ruhundan, milli təəssübkeşlik hissindən büsbütün məhrum olan iradəsiz Vəzirov çox qısa müddətdə hörmətdən düşdü. Hətta hərəkətləri və danışığı adamlarda acı gülüş, ikrah hissi doğururdu. Beləsindən torpaqların müdafiəsini təmin edə biləcək təsirli tədbirlər gözləmək əbəs idi.

1989-cu ilin payızında ermənilərin Şuşa yaxınlığındakı Topxana abidəsini dağıtdıqları və oradakı nadir floranı məhv etdikləri barədə xəbər yayıldı. O vaxt respublika mətbuatında dərc olunmuş "Topxananın harayı" sərlövhəli yazı xalqın səbir kasasını daşdıran sonuncu damlaya çevrildi. Noyabrın ortalarında Bakının mərkəzi meydanında ilk mitinqlər başlandı. Çox keçmədən Azərbaycanı mitinqlər dalğası bürüdü. Həmin günlər Azərbaycan təlatümlü dənizi xatırladır, hadisələr idarəolunmaz xarakter alırdı.

Hadisələrin ilkin dövrünün təhlilindən çıxan əsas nəticə bundan ibarətdir ki, əgər ölkə və respublika rəhbərliyi məsələnin həlli istiqamətində vaxtında zəruri tədbirlər görsəydi, vəziyyət bu həddə gəlib çıxmazdı. Başlıcası isə 1990-cı ilin yanvarında Azərbaycana hərbi müdaxilə üçün zəmin yaratmazdı.

**Dağlıq Qarabağın ələ keçirilməsi planı necə reallaşdırılırdı?**

Dağlıq Qarabağ probleminə münasibətdə mərkəzin loyallığı, qərarların qəbul edilməsində ləngimələr, bir çox hallarda atılan anlaşılmaz addımlar ilk baxışda bir-birini əvəzləyən səhvlər silsiləsi təsiri bağışlayır. 20 yanvar hadisələrinə gətirib çıxaran səbəbləri araşdırarkən həmin məqam diqqəti xüsusilə cəlb edir. Kremlin tutduğu mövqe, çıxardığı yanlış qərarlar doğrudanmı kiminsə səhvinin nəticəsidir? Yox, Qorbaçov başda olmaqla keçmiş SSRİ rəhbərliyi hansısa düşünülmüş planı həyata keçirir, qərarlar məhz buna görə ləngidilir, yaxud məsələlər əsasən ermənilərin xeyrinə həll olunurdu.

Təkzibedilməz fakt və arqumentlərdən belə bir qənaət hasil olur ki, ermənilər mərkəzi hakimiyyətin razılığını almadan belə addım atmağa cəsarət etməzdilər. Ermənistan ərazi iddialarını açıq-açığına reallaşdırır, vilayətin azərbaycanlı əhalisi zorakılıqla öz torpağından qovulur və yuxarılar buna göz yumurdular.

Artıq qeyd etdiyimiz kimi, hadisələr 1987-ci ildə başlasa da, SSRİ Ali Soveti Rəyasət Heyətində bu məsələ ilə bağlı ilk müzakirələr 1988-ci ilin iyulunda keçirilir. Bundan bir qədər əvvəl isə qərar qəbul edərək Dağlıq Qarabağda işləri yoluna qoymağı Ermənistanın və Azərbaycanın rəhbərlərinə tapşırırlar. Təəccüblü orasıdır ki, Azərbaycana rəhbərlik edənlər bununla dinməzcə razılaşır və həmin qərara qol çəkirlər. Dağlıq Qarabağın əldən getməsinə yol da elə həmin zaman açıldı.

Bunun ardınca, 1989-cu il mayın 16-da SSRİ Nazirlər Soveti vilayət iqtisadiyyatının idarə olunmasının Azərbaycandan alınıb mərkəzə verilməsi haqqında daha bir anlaşılmaz qərar çıxarır. Respublika rəhbərliyi isə öz etirazını bildirmək əvəzinə, sanki heç nə olmayıbmış kimi xalqı sakitləşdirməyə çalışır. Daha sonra SSRİ Dövlət Plan Komitəsi DQMV-nin sosial-iqtisadi kompleksinin planlaşdırılmasını özbaşına olaraq üzərinə götürür. Bizə yalnız sonradan məlum olacaqdı ki, bütün bunlar Dağlıq Qarabağın Azərbaycandan mərhələ-mərhələ qoparılmasının tərkib hissələri imiş.

Yaxud götürək xüsusi idarəetmə komitəsini. Ermənilər Kremlin əli ilə muxtar vilayəti Azərbaycanın tabeliyindən büsbütün çıxarırlar. Bəs, bunun müqabilində respublika rəhbərliyi nə edir? Bəlkə də xatırlayırsınız, Vəzirovun göstərişi ilə geniş təbliğat kampaniyası başlayır. Rəhbərlik xalqı inandırmağa çalışır ki, Dağlıq Qarabağda xüsusi idarəetmə formasının tətbiqi guya bizim qələbəmizdir. Bu variantı kim düşünüb tapmışdı, onun müəllifi kim idi? Yalnız məsələlər bir qədər də qəlizləşdikdən, xüsusi idarəetmə komitəsinin Azərbaycan əleyhinə işlədiyi aydınlaşdıqdan sonra MK-da hamı daş atıb başını tuturdu ki, həmin komitə yaradılarkən onların heç birinin rəyi soruşulmayıb.

Bunun heç də belə olmadığını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 20 noyabr tarixli sessiyasında deputat Heydər Əliyevin çıxışından aydın görmək olar:" ... Gəlin həqiqəti danışaq, bunu *(Volskinin rəhbərliyi ilə xüsusi idarəetmə komitəsinin yaranmasını -red.)* bir Qarbaçov ortaya atmayıb ki? Bu, uzun müzakirələrdən sonra yaranıbdır. Məsələn, Moskvada bir-iki adam mənim buna fikrimi soruşdu, mən qəti etiraz etdim. Ancaq Azərbaycanın rəhbərləri bu idarənin yaranmasını vəziyyətdən çıxış yolu kimi bildilər, bunu, çıxış edən deputatların da dediyi kimi, çox təmtəraqla qəbul etdilər, bunu çox böyük nailiyyət kimi qələmə verdilər. Anlamadılar, yaxud da anlayaraq qəsdən buna getdilər ki, Qarabağ əldən getsın...

Xüsusi idarəetmə komitəsinin fəaliyyəti dövründə baş verən prosesləri bir daha xatırlayaq. Azərbaycanlılar sıxışdırılaraq bütün idarəetmə strukturlarından çıxarıldı. Vilayət silahla dolduruldu. Daş-kəsək "müharibəsi" avtomat və pulemyotlarla əvəz olundu. Qarabağ böhranının yeni, daha güclü mərhələsi başlandı. Vilayət, demək olar, əldən getdi.

20 yanvar hadisələrinədək SSRİ və respublika rəhbərliyi tərəfindən Dağlıq Qarabağ məsələsinə dair qəbul olunmuş qərar və fərmanların mətninə nəzər salarkən görürsən ki, onların heç birində Azərbaycanın xeyrinə bircə maddə də yoxdur. Ən yaxşı halda təqsir hər iki tərəfin üzərinə qoyulur, bədnam bərabərləşdirmə tətbiq olunurdu. Bir tərəfdən Azərbaycan xalqını sakitləşdirməyə və arxayın salmağa yönəldilmiş addımlar atılır, digər tərəfdən respublikamızın suverenliyinə, ərazi bütövlüyünə ciddi surətdə xələl gətirən addımlar atılırdı. Bütün bunlar əslində erməni separatizminin SSRİ rəhbərliyi tərəfindən ən yüksək səviyyədə müdafiə olunması demək idi. Ermənilər Dağlıq Qarabağı ələ keçirmək planlarını ona görə belə asanlıqla reallaşdıra bilirdilər ki, Azərbaycana Vəzirov kimi aciz, iradəsiz bir adam rəhbərlik edirdi. Ola bilsin ki, onun ölkə rəhbərliyinə gətirilməsini də Qorbaçova erməni dostları məsləhət görmüşdülər. Bu gün tam qətiyyətlə demək olar ki, əgər o vaxt hakimiyyətdə Heydər Əliyev kimi güclü şəxsiyyət olsaydı, hadisələrin qarşısı vaxtında alınar, nisbətən itkisiz ötüşə bilərdik.

1989-cu ilin sonlarından başlayaraq xalqın öz rəhbərlərinə etimadı büsbütün itmiş, etiraz dalğası şahə qalxmışdı. Aramsız mitinqlərdə milyon ağızdan eyni vaxtda qopan "istefa" kəlməsi şəhəri lərzəyə gətirirdi. Ölkəni tətillər bürümüşdü, hakimiyyət əslində iflic vəziyyətində idi. Adətən belə xaos məqamında situasiyadan yararlanmağa çalışan adamlar peyda olur. Bu dəfə də AXC "fəalları" deyilən xüsusi qruplar fürsətdən istifadə edib yerlərdə hakimiyyəti ələ keçirirdilər. Azərbaycan sözün həqiqi mənasında barıt çəlləyini xatırladırdı.

Kreml və ermənilər, deyəsən, istədiklərinə nail ola bilmişdilər. Sonradan məlum olacaqdı ki, həmin AXC "fəalları" arasında Moskvaya işləyən adamlar varmış. Yoxsa, mərkəzdən gələn Primakov kimi yüksək rütbəli çinovnik onları nahaqdan axtarmırdı ki?

### Yolun əks istiqamətində hərəkət

Bir qədər də Bakının mərkəzi meydanındakı mitinqlər haqqında danışaq. ilk vaxtlar camaatın qarşısında ziyalılar, tanınmış adamlar, məsələn, Bəxtiyar Vahabzadə, mərhum Xəlil Rza, Ziya Bünyadov və başqaları çıxış edirdilər. Sonra tribunada yeni, çoxlarına tanış ol-mayan simalar görünməyə başladı: İsa Qəmbərov, Etibar Məmmədov, Pənah Hüseynov, Rəhim Qazıyev... Xüsusi öyrədilmiş dəstə ön cərgələrdə yer tutur, tribunaya çıxan ziyalıları mitinqlərin daimi aparıcısı fəhlə Nemət Pənahovun işarəsi ilə fitə basır, çıxışlarını yarımçıq kəsirdilər. Sonralar Azərbaycan Xalq Cəbhə sində birləşən bu sayaq adamlar kütlədə radikal ovqat aşılamağa, izdihamı öz iradələrinə tabe etdirməyə can atırdılar. Və deyəsən, vaxt ötdükcə istədiklərinə nail olurdular.

İzdihama "azadlıq aşiqi", Zori Balayanın "Ocaq" kitabına yazılmış cavabın müəllifi və digər adlarla təqdim edilən bu adamlar kim idi? Onların milyonlara söz deməyə, yol göstərməyə mənəvi haqqı çatırdımı? Hələlik bu haqda heç kəs düşünmürdü. Xalqın bütün düşüncəsinə əldən çıxmaqda olan torpaqlar, azadlıq duyğusu hakim kəsildiyindən heç kəs onların nə məqsəd güddüyünün fərqində deyildi. Kütlənin ovqatını duyan, nəbzini tutan natiqlər isə onların ürəklərindən keçənləri ifadə etməklə mitinq qəhrəmanlarına çevrilirdilər.

Halbuki bu ritorik çıxışlar, xalqın qəlbinə yol tapmaq cəhdləri gələcəyə hesablanmışdı. Orada isə hakimiyyət olimpi, vəzifə kresloları bərq vururdu. Sonralar 1992-ci ilin mayında Mütəllibov rejimini devirib

hakimiyyətə yiyələnəcək Azərbaycan Xalq Cəbhəsi - liderləri bizə mitinqlərdən tanış olan "cəbhə" - 1988-1989-cu illərin həmin həyəcanlı günlərində doğulurdu. Yenə çox sonra aşkarlanacaqdı ki, onların bəzisi DTK-ya, bəzisi Vəzirova və Mütəllibova işləyirmiş. Aydın olacaqdı ki, 1990-cı il yanvarın əvvəllərində Bakıya gələn Primakov isa Qəmbərovu niyə axtarırmış.

Ümumiyyətlə, AXC-nin xalq hərəkatında yeri və rolu vaxtilə çox şişirdilmişdi. Heydər Əliyev "Ostankino" dövlətlərarası televiziya şirkətinə müsahibəsində bu məqama toxunarkən deyirdi: "Xalq Cəbhəsinin sosial bazası heç vaxt geniş olmamışdır. Milli azadlıq uğrunda, Azərbaycanın milli istiqlaliyyəti uğrunda mübarizə aparan xalq hərəkatı kimi AXC 1988-ci ildə meydana gəlmişdir. Bu müddət ərzində o, əlbəttə, qüvvə toplamış və həmin illərdə, kommunist hakimiyyəti illərində Xalq Cəbhəsi kommunist rejiminə qarşı xüsusilə fəal çıxış edirdi və əlbəttə, respublika rəhbərliyinin Qarabağ problemini həll etməyə qadir olmaması ilə əlaqədar rəhbərliyə qarşı xüsusilə fəal çıxış edirdi. Əslinə qalsa, Xalq Cəbhəsinin özü ən əvvəl Qarabağ problemi ilə və orada başlanmış hərbi əməliyyatlarla əlaqədar yaranmışdı".

Doğrudur, həmin vaxtlar cəmiyyətdə AXC-yə rəğbət vardı. Amma buna səbəb heç də təşkilatın rəhbərlərinin fərdi nüfuzu deyildi. Sadəcə olaraq, o vaxtlar rejimdən, respublika rəhbərliyindən ümumi narazılıq adamları Xalq Cəbhəsinə tərəf çəkirdi. Məhz bu səbəbdən AXC-nin ətrafına çoxlu qüvvə toplaşmışdı və onlar xalq tərəfindən müdafiə olunurdular.

1989-cu ilin sonlarına yaxın Azərbaycanda sözün həm müstəqim, həm də məcazi mənasında yolun əks-istiqamətində hərəkət başlamışdı. Bir də görürdün ki, mərkəzi prospektdə avtomaşınlar hərəkətin əks-istiqamətində şütüyürlər. Bu, anarxiya və hakimiyyətsizliyin gözlə görünən əlaməti idi. Pərdə arxasında isə gizli oyunlar gedirdi. Xalq Cəbhəsinin adamları ayrı-ayrı yerlərdə hakimiyyət orqanlarının binalarını zəbt edir, necə deyərlər, Moskvanın əlinə "kozır" verirdilər. Məsələn, Xanlarda raykomun binasını zəbt edərək birinci katib başda olmaqla işçiləri düz 10 gün içəri buraxmamışdılar.

Yaxud Lənkəran hadisələrini xatırlayaq. 1990-cı il yanvarın 10-da burada yerli partiya və hakimiyyət orqanlarının binaları AXC fəalları tərəfindən zəbt olunmuşdu. Yaradılmış müvəqqəti müdafiə komitəsi "rayonda idarəetməni və məsuliyyəti" öz üzərinə götürdüyünü elan etmişdi. Bakıda, Gəncədə, bir sıra başqa yerlərdə də buna bənzər hadisələr baş verirdi.

Bu cür düşünülməmiş, yaxud şüurlu şəkildə törədilən hərəkətlər 20 Yanvar hadisələrinə yol açırdı. Halbuki daha ağıllı tərpənmək, nahaq itkilərin qarşısını almaq olardı. Xatirinizdədirsə, 20 Yanvar hadisələrindən əvvəl də 1988-ci ildə başlanmış milli azadlıq hərəkatının yatırılmasına bir neçə dəfə cəhdlər edilmişdi. İlk mitinqlər dağıdılarkən bir qrup adam, onların arasında mərhum Xəlil Rza da vardı, zindanlara atılmış, Bakıda fövqəladə vəziyyət tətbiq edilmişdi. O vaxt xalqın soyuq-qanlı və mütəşəkkil davranması sayəsində itkisiz ötüşmək mümkün olmuşdu.

Lakin bu dəfə hadisələr tamam başqa istiqamətdə cərəyan edirdi. Bir qrup təhrikçi peyda olmuşdu. Onlar mitinqçiləri şəhərin girəcəklərində barrikadalar qurmağa, ordunu Bakıya buraxmamağa çağırırdılar. Vəziyyət, demək olar ki, nəzarətdən çıxmış, idarəolunmaz hala gəlmişdi. Hakimiyyət orqanlarına məhəl qoymayan kütlə yenə az-çox Xalq Cəbhəsi liderlərini eşidirdi. 1989-cu ilin axırlarında və 1990-cı ilin ilk günlərində hakimiyyət de-fakto AXC-nin əlində idi.

Əlbəttə, bütün bunlar silahsız camaatın üzərinə ordu yeritməyə haqq verməsə də, xalq hərəkatını qan gölündə boğmağa hazırlaşan imperiyaya bəhanə verirdi. Təhlükənin yaxınlaşmaqda olduğunu xalqa başa salmaq istəyənlərin çıxışlarını yarımçıq kəsir, yaxud onları mikrofona yaxın buraxmırdılar.

Hadisələrin bu məcrada inkişafı göstərirdi ki, Azərbaycan artıq faciənin bir addımlığındadır.

### Faciənin bir addımlığında

1990-cı il yanvarın əvvəllərində mitinqlərin mərkəzi Azadlıq meydanından MK binasının qarşısına keçdi. Mitinq iştirakçıları bir ağızdan Vəzirovun hakimiyyətdən getməsini tələb edirdilər. Aramsız səslənən "İstefa" nidaları binanı lərzəyə gətirir. İzdihamın içərisində simvolik dar ağacları görünürdü.

Bu, Bakı mitinqlərinin kulminasiya nöqtəsi idi və hadisələr artıq öz apogeyinə çatmışdı. Yanvarda baş verənlərin xronologiyasını göz önündə canlandırmağa çalışaq. Xalq cəbhəsi tərəfindən paytaxtın giriş yollarında və əsas magistrallarında ilk piketlər ayın 3-4-də təşkil olunmağa başlamışdı. Piketçilərin sayı getdikcə artır, yük maşınlarından və avtobuslardan barrikadalar düzəldilirdi. Yanvarın 13-də heç kəsin gözləmədiyi halda erməni talanları başladı. Bu, ümumiyyətlə, Azərbaycan xalqının təbiətinə yabançı hal idi. Talanlar hansı qüvvələr tərəfindən təşkil edilmişdi, azğınlıq edən dəstələrin başında kimlər dayanırdı? Ordu hissələri, daxili qoşunların əsgərləri ilə dolu olan şəhərdə belə hadisələr necə baş verə bilərdi? Həmin məqam istintaq tərəfindən axıradək aydınlaşdırılmasa da, talanların müəyyən xüsusi xidmət orqanları tərəfindən təşkil edildiyi şübhə doğurmur.

Yanvarın 14-də Azərbaycan KP MK-nın binası önündə mitinqlər başladı. Təxminən yüz minədək adamın iştirak etdiyi mitinqlərin gedişində binanı ələ keçirməyə bir neçə dəfə cəhd göstərildi. Adamlar şüşələri döyəcləyir, Vəzirovun dərhal istefa verməsini tələb edirdilər.

Ayın 19-da mitinqlər istisna olmaqla, paytaxtda həyat, demək olar, dayanmışdı. Həmin gün qəzetlər çıxmamışdı. Nəqliyyat işləmirdi. Bir neçə çörək dükanı istisna olmaqla, mağazaların qapısından qıfıl asılmışdı.

Hava qaralana yaxın televizorların ekranı qəflətən söndü. Məlum oldu ki, televiziyanın enerji bloku partladılıb. Beləliklə, Azərbaycan qəzetsiz, televiziyasız, radiosuz qaldı və tam informasiya blokadasına düşdü. Bu, ona görə edilmişdi ki, xalq nələr baş verdiyindən xəbər tuta bilməsin və onun harayı heç yerə çatmasın.

Bununla belə, həm respublika rəhbərliyi, həm də Xalq Cəbhəsi liderləri yanvarın 20-nə keçən gecə Bakıya ordu yeridiləcəyindən xəbərdar idilər. İsa Qəmbərov, Etibar Məmmədov, Nemət Pənahov həmin günlər MK binasına tez-tez girib çıxır, Sov.İKP MK-nın, Sovet ordusunun və SSRİ DİN-in Bakıda olan yüksək vəzifəli nümayəndələri ilə görüşürdülər. Sonradan isə həm onlar, həm də Azərbaycanın rəhbərliyində olanlar and-aman edəcəkdilər ki, ordunun nəzərdə tutulan əməliyyatından xəbərləri yox idi.

Həmin vaxt gözlənilən qırğının qarşısını almaq üçün heç də bütün imkanlar tükənməmişdi. Vəzirovun istefası gərginliyi qismən aradan götürər, adamlar barrikadaları tərk edib dağılışardılar. Yaxud rəhbərlikdəki sözükeçən adamlar Xalq Cəbhəsinin liderləri ilə dil tapıb piketləri götürə bilərdilər. Lakin bunların heç biri baş vermədi.

Əksinə, axşamçağı boş küçələrlə üzərində səsgücləndirici quraşdırılmış avtobuslar şütüyür, içəridəki AXC fəalları yol ötənləri piketlərə səsləyirdilər. Saat 21-22 radələrində onlar binaların həyətinə də gəlib çıxmışdılar. Meqafonu ağızlarına dayayaraq deyirdilər: "Əgər bu həyətdə kişi varsa, qabağa çıxıb bizimlə getsin. Arvadların arxasında gizləməyin!" Adamları ölümə doğru bax beləcə qovurdular.

İnsafən, Xalq Cəbhəsində təmsil olunan ziyalılar təhlükəni duyaraq barrikadaları dolaşır, cavanları dilə tuturdular. Onların arasında rəhmətlik Yusif Səmədoğlu da vardı. Az qala yalvarırdı: "Dağılın, sizi güllələyəcəklər. Xahiş edirəm, dağılışın, çıxın gedin evinizə".

Adamlar isə belələrini yox, barrikadanı tərk etməməyə, ordunun qabağını kəsməyə çağıranları eşidirdi.

Hələlik isə Bakı qarşıda onu nə gözlədiyindən xəbərsiz idi. Qəlbinə imperiyaya nifrət duyğuları hakim kəsilmiş adamlar inanmırdılar ki, ordu görünməmiş cinayətə əl ata bilər, əliyalın camaata atəş açar.

Yanvarın 20-nə keçən gecə saat 00.00-da orduya hücum əmri veril-di. Zirehli texnika ilə silahlanmış qoşun hissələri bir neçə istiqamətdə Bakıya soxuldular...

**Azərbaycan tarixinin qanla yazılmış səhifəsi**

Nəhəng tanklar, zirehli döyüş maşınları qabaqlarına çıxan hər şeyi - avtobusları, minik avtomobillərini, canlı insanları əzib keçirdilər. Gözünü qan örtmüş əsgərlər əliyalın camaatı, yaşayış evlərini avtomat atəşinə tutur, yol kənarlarındakı, həyətlərdəki hər qaraltıya güllə atırdılar. Heç kəsə - uşaqlara, qadın və qocalara belə aman verilmirdi. Hətta yaralıları süngüdən keçirir, tankların tırtılları altında əzir, təcili yardım maşınlarına atəş açırdılar. Bakı küçələri beş-on dəqiqənin içində al qana boyandı. Həmin gecə və bütövlükdə Yanvar hadisələri zamanı 140-a yaxın dinc adam öldürüldü, təxminən 700 nəfər yaralandı...

Faciənin statistikası olduqca kədərlidir. Bununla belə, yuxarıdakı rəqəmlər hərbi-mənəvi cinayətin miqyasını və mahiyyətini heç də tam əks etdirmir.

Həmin gün bütöv bir xalqa qarşı təcavüz olunub, onun köksünə süngü sancılıb. Azərbaycan xalqına qarşı bu qanlı təcavüzü imperiyanın və respublikanın rəhbərləri birlikdə törədiblər. Bəlkə də ən böyük cinayətkar onlar - əlini öz xalqının qanına boyayanlardır.

Azərbaycan Prezidenti Heydər Əliyev 1994-cü il yanvarın 19-da yanvar şəhidlərinin ailə üzvləri və hadisələr zamanı əlil olanların bir qrupu ilə görüşündə baş verənlərin mahiyyətini belə izah edib: "...Bu faciə ondan qabaqkı dövrdə Azərbaycan xalqının başına gəlmiş bəlalar və hadisələrlə sıx bağlıdır. Ondan öncə, bir neçə il əvvəl təcavüzkar qüvvələr tərəfindən Azərbaycan Respublikasını, Azərbaycanı parçalamaq, dağıtmaq, Azərbaycan torpaqlarını zəbt etmək planlaşdırılır və həyata keçirilirdi. Bunların hamısını tamamilə həyata keçirmək üçün Azərbaycan xalqının iradəsini qırmaq, xalqımızı əzmək lazım idi. 20 Yanvar faciəsi də məhz bununla əlaqədar olaraq törədilmişdir".

Deməli, bütün bunlar qabaqcadan düşünülmüş, planlaşdırılmışdı. Lakin kimi bilərəkdən, kimi də naşılıqdan qırğına rəvac verir, günahsız insanları ölümə sürükləyirdi. Bir-birindən qanlı səhnələr, görünməmiş vəhşiliyin tükürpədən nişanələri... Onları təsvir etməyə qələmin gücü çatmır. Həmin gecənin dəhşətlərini əks etdirən fotoşəkillərə baxın: onlar acı xatirələrinizi canlandıracaq, sizi yenidən 14 il əvvələ qaytaracaq.

20 Yanvara gedən yolumuz haralardan, nələrdən keçib? Bunu da artıq bilirik. Bir neçə günün bəyi-gəlini olmuş İlham və Fərizə üçün, körpə sinəsini güllə parçalamış Larisa üçün - bütün şəhidlərimiz, itkilərimiz üçün heyfsilənirik. Onlara 14 il yas tutsaq da, adlarını əbədiləşdirsək də, rahatlıq tapmırıq. Şəhid ruhları da narahatdır. Həyatımız o vaxt yerbəyer ola bilər ki, torpaqlarımız düşmən tapdağından qurtulsun, Qarabağda "Cəngi" çalınsın... Bu da olacaq!

Yanvar faciəsinin ibrət götürüləsi, dönə-dönə saf-çürük ediləsi məqamları da yetərincədir. Həmin imtahan-sınaq günlərində kim özünü necə aparırdı? 20 Yanvar Azərbaycanın sonrakı taleyində nə kimi rol oynadı?

Xalq bu çətin imtahandan ləyaqətlə çıxdı, sarsılmadı, imperiyaya boyun əymədi. Bakı fövqəladə vəziyyətin sərt qanunlarını cəsarətlə tapdayıb keçdi. Elə faciənin səhəri gün silahlı və dəyənəkli əsgərlərin sıx sıralarını yarıb yenidən meydanlara toplaşan izdiham qorxub çəkinmədən, başları üzərindən atılan güllələrə məhəl qoymadan bu qanlı əməllərə qarşı etiraz səsini ucaltdı. MK binasının mərmər üzlük çəkilmiş divarlarına imperiya cəlladlarını, onların Azərbaycandakı havadarlarını lənətləyən, xalqı torpaq və azadlıq uğrunda yeni mübarizəyə səsləyən şüarlar yazıldı. Şəhidlərin dəfn olunduğu gün nəhəng insan seli Azadlıq meydanından Dağüstü parkadək bütün ərazini tutmuşdu. Xalq öz şəhidlərini təmkinlə, böyük ehtiramla dəfn etdi.

Bu, tariximizin qanlı olduğu qədər də, şanlı günləri idi.

Vəziyyəti belə görən Vəzirov elə həmin gün hərbi təyyarə ilə Moskvaya qaçdı. Xalqın qəzəbindən, ədalət divanından canını bu yolla qurtardı.

Xalq Cəbhəsinin adları sizə tanış olan faciə üçün bilavasitə məsuliyyət daşıyan liderləri həmin qanlı gecədə olduğu kimi, sonrakı günlər də gözə görünmədilər. Bir neçəsi həbs edildi, qalanları aradan çıxıb bir müddət orada-burada gizləndilər.

Həmin illərdə respublika rəhbərliyində yüksək vəzifə tutan, hadisələrin aparıcı fiqurlarından biri olan (bu, sonrakı illərdə təkzibolunmaz faktlarla təsdiqlənəcəkdir) Ayaz Mütəllibov şəhid qanları üzərindən adlayaraq respublika KP MK-nın birinci katibi kreslosunda oturdu. Heç şəhidlərin dəfninə də gəlməyən bu adam riyakarcasına vədlər verərək xalqı sakitləşdirməyə çalışır, karyerasını necə möhkəmləndirmək haqqında düşünürdü.

Ayaz Mütəllibov 1992-ci ilin mayınadək hakimiyyətdə oldu. Lakin bu iki ildən çox müddətdə nə Mərkəzi Komitənin, nə də Ali Sovetin komissiyalarından səs çıxmadı. Əksinə, bir sıra məxfi materiallar Bakıdan aparıldı, yaxud məhv edildi. Mütəllibovun hakimiyyəti illərində torpaqlarımızın müdafiəsi UçUn heç bir iş görülmədi və daha geniş ərazilərin işğalı üçün zəmin yarandı.

Sonra hakimiyyətə AXC qüvvələri gəldi. Daha bir il keçdi və 20 Yanvar hadisələri yenə araşdırılmadı.

20 Yanvar faciəsi həqiqi hüquqi-siyasi, mənəvi qiymətini yalnız Heydər Əliyev hakimiyyətə gəldikdən sonra aldı. Bununla bağlı tarixi xronika özü hər şeyi deyir. Qanlı hadisənin baş verdiyi günün səhəri - yanvarın 21-də Heydər Əliyev həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlir və öz çıxışında törədilən qırğına görə ölkənin ali siyasi rəhbərliyini, respublikanın yüksək vəzifəli şəxslərini ittiham edir. Moskvadan Naxçıvana gəlib muxtar respublika Ali Məclisinin işinə qatıldığı ilk günlərdən yanvarın 20-də törədilən qanlı qırğına siyasi qiymət verilməsinin zəruriliyini irəli sürür və öz mövqeyini bildirir: "Bu, xalqın əleyhinə olan əməliyyatdır, demokratiyanın əleyhinə olan əməliyyatdır, hüquq normalarının əleyhinə olan əməliyyatdır, mürtəce bir əməliyyatdır". Heydər Əliyevin təklifi ilə Ali Məclis 1990-cı il noyabrın 21-də müvafiq qərar çıxarır və Azərbaycan SSR Ali Sovetindən tələb olunur ki, "ən qısa müddətdə həmin məsələni parlamentin müzakirəsinə çıxarsın". Qərarda həmçinin göstərilir ki, 20 Yanvar günü hər il Naxçıvan Muxtar Respublikasında Milli Matəm günü kimi qeyd olunsun.

Heydər Əliyev 1991-ci ilin yanvarında Azərbaycan Ali Sovetinin sessiyasında da öz etiraz səsini qaldırdı. Daha sonra həmin ilin iyununda isə 20 Yanvar hadisələrinə etiraz əlaməti olaraq Moskvada Kommunist Partiyasından çıxdığı haqqında bəyanat verdi. Bəyanatda göstərilir-di ki, belə bir addım atmasının səbəbi Kommunist Partiyasının rəhbərliyi tərəfindən Azərbaycan xalqının başına gətirilmiş bəla və Qarabağ məsələsi ilə xalqına olan təcavüzdür.

Nəhayət, Heydər Əliyev Azərbaycanın Prezidenti seçildikdən sonra onun təşəbbüsü ilə bu məsələ Milli Məclisin müzakirəsinə çıxarıldı. 20 Yanvar hadisələrinə yalnız 4 ildən sonra, 1994-cü ilin yanvarında hüquqi-siyasi qiymət verildi...

**E.QƏDİRLİ**

**“Respublika”.** - 2004. – 20 yanvar. - N 15. - S. 9.

# Azərbaycanda bundan sonra qırğın törətmək və ondan sui-istifadə etmək cəhdləri baş tutmayacaqdır

***Milli Məclisin deputatı İlqar QILICOV:***

**Bakıya qoşun yeridilməsi kimi qanunsuz göstəriş qanunların vəhşicəsinə pozulması ilə yerinə yetirilmişdir, nəticədə 20 Yanvar Azərbaycan xalqının tarixinə matəm günü, Şəhidlər xiyabanının salındığı gün kimi düşmüşdür.**

**- İlqar müəllim, bilirik ki, 20 Yanvar hadisələri ilə bağlı yaradılan istintaq qrupunun üzvü kimi sovet qoşunlarının Bakıda törətdiyi faciənin cinayət adlandırılmasının iştirakçısı olmusunuz. Bu barədə bir qədər müfəssəl məlumat verməyiniz oxucularımız üçün maraqlı olardı.**

- Azərbaycanın müstəqilliyi və torpaqlarının bütövlüyü uğrunda mübarizəyə qalxan, bu yolda canlarını fəda edən vətən oğullarının ruhu hələ o zaman bizi onların haqq işini müdafiə etməyə, ölkəmizi yeni fəlakətlərdən xilas etməyə çağırırdı. 1990-cı ilin fevral ayında Gəncə Hərbi Prokurorluğunun müstəntiqi vəzifəsində işləyərkən SSRİ Prokurorluğunun Azərbaycan xalqının təzyiqi ilə yaratdığı və 20 Yanvar hadisələrinin səbəblərini araşdıracaq istintaq qrupunun üzvü təyin olunmuşdum. Bir neçə ay həmin qrupun üzvü kimi şahid dindirmələri apardım, çünki bəzi cinayət işləri mənim icraatımda idi.

1992-ci ildə artıq müstəqil dövlətin prokurorluğu tərəfindən bu cinayət işinin istintaqı aparıldı və yenə də istintaq qrupunun üzvü təyin olunduğum üçün 1990-cı ilin yanvarında baş verən hadisələrlə yaxından tanış oldum. Bilirsiniz, hər bir hərbi hissənin bütün hərəkətləri mütləq qanunla tənzimlənir, döyüş qaydaları ilə müəyyənləşir. Qoşunlar şəhərə hansı şəkildə girməli, özlərini necə idarə etməli, insanlarla necə münasibətdə olmalıdır - bunların hamısı hərbi hissələrin tabe olduğu döyüş qaydalarında təsbit olunmuşdur. İstintaq qrupunun üzvü kimi yanvar hadisələrini araşdırarkən məlum oldu ki, həmin vaxt Bakıya qoşun yeridilməsi kimi qanunsuz göstəriş qanunların kobudcasına pozulması ilə icra edilmişdir. Bu da 20 Yanvar faciəsinin miqyasını, ağrılarını daha da artırmışdır. Əgər hərbçilər qanunsuz göstərişi qanun çərçivəsində icra etsəydilər, bu qədər çox şəhid verməzdik, yaralananlarımız, itkin düşənlərimiz çox olmazdı, şəhər dağıntılara məruz qalmazdı.

Lakin faciəyə siyasi qiymət veril-məsində maraqlı olmayan hakimiyyət nümayəndələri istintaq qrupunun 20 Yanvar hadisələri ilə bağlı rəyini qiymətləndirmədilər, faciənin törədilməsində əli olan cinayətkarların cəzalandırılmasını təmin etmədilər. Yalnız 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra Heydər Əliyev faciəyə tam siyasi-hüquqi qiymət verilməsinə nail oldu.

**- Azərbaycan xalqına qarşı edilmiş cinayət əməlinə Heydər Əliyev faciə baş verən günün ertəsi münasibət bildirmişdi, bütün dünyaya bəyan etmişdi ki, təcavüzü edən Sovet İttifaqının və Azərbaycanın rəhbərliyi olubdur. Az sonra 21 noyabr 1990-cı ildə məhz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi yanvar faciəsinə ilk siyasi qiymət verdi. Heydər Əliyev xalq deputatı kimi respublika Ali Sovetinin sessiyalarında çıxış edərkən Azərbaycan dövlətinin o vaxtkı rəhbərlərindən faciəyə siyasi qiymət verilməsini tələb etdi. Sizcə, nə üçün ümummilli liderimiz faciəyə ilk növbədə siyasi qiymət verilməsinə çalışırdı?**

- Ümumiyyətlə, Azərbaycan tarixinin bütün mərhələlərini obyektiv işıqlandırmaq, hadisələri olduğu kimi qiymətləndirmək Heydər Əliyevin əsas siyasəti idi. Siz bunun dəfələrlə şahidi olmusunuz. 20 Yanvar faciəsi isə Azərbaycan xalqına qarşı sovet dövlətinin törətdiyi və analoqu olmayan terror aktı kimi dəyərləndirildiyindən Heydər Əliyev uzun illər sədaqətlə xidmət etdiyi rejimin doğma vətəninə qarşı etdiyi cinayəti bağışlaya bilmirdi. **Heydər Əliyev 1991-ci ilin iyununda Moskvada Kommunist Partiyasından çıxmağının səbəblərini göstərirdi: "Birinci səbəb Kommunist Partiyasının rəhbərliyi tərəfindən Azərbaycan xalqının başına gətirilmiş bəla və Qarabağ məsələsi ilə Azərbaycan xalqına olan təcavüzdür.**

**İkinci səbəb 20 Yanvar faciəsi, Azərbaycan xalqına qarşı təcavüz və həmin təcavüzün üstünün açılmamasıdır".**

Nəzərə alsaq ki, 1990-cı ildən keçən dörd il müddətində hakimiyyətdə təmsil olunan müxtəlif qüvvələr 20 Yanvar hadisələrinə siyasi qiymət verilməsində maraqlı olmamışlar, onda Heydər Əliyevin 1994-cü il yanvarın 5-də imzaladığı "20 Yanvar faciəsinin dördüncü ildönümünün keçirilməsi haqqında" fərmanının xüsusi əhəmiyyət daşıdığını görərik. Sənəddə yazılırdı ki, indiyədək 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilmədiyindən Milli Məclis bu məqsədlə xüsusi sessiyanın keçirilməsi məsələsini həll etməlidir.

Parlamentdə 20 Yanvar hadisələri müzakirə edilərkən bir neçə ciddi siyasi məqam ortaya çıxdı. Məsələn, aydın oldu ki, 1990-cı il yanvarın 15-də Ə.Vəzirovun təşəbbüsü ilə respublika Ali Soveti Rəyasət Heyətinin iclası çağırılıb. Yetərsay olmasa da, həmin iclasda Dağlıq Qarabağ Muxtar Vilayətində, zəruri hallarda isə ona bitişik rayonlarda və sərhəd boyu fövqəladə vəziyyət elan edilməsi haqqında qərar qəbul edilib, ittifaq orqanlarından qərarın icrasında respublikaya kömək göstərilməsi xahiş olunub. İttifaq Ali Soveti Rəyasət Heyətinin həmin gün müvafiq fərman verdiyi hamının yadındadır. Mərkəzin yerli çağırışa belə operativ cavab ver-məsi təsadüfi deyildi. 20 Yanvar hadisələrinə hazırlıq gedirdi. Həmin fər-man Qorbaçovun yanvarın 19-da imzaladığı və yalnız qırğından sonra elan olunan şərəfsiz fərmanı ilə Bakı şəhərinə də şamil edildi.

Prezident Heydər Əliyev dövlət komissiyasının iclaslarında daha çox Azərbaycan rəhbərlərinin öz xalqına qarşı etdiyi xəyanətdən hiddətləndiyini büruzə verirdi. Deyirdi ki, SSRİ nə qədər totalitar ölkə olsa da, Azərbaycanın dövlət başçılarının razılığı olmadan respublikaya qoşun yeridə bilməzdi. 1956-cı il Macarıstan və 1968-ci il Çexoslovakiya hadisələri zamanı sovet qoşunları bu ölkələrin rəhbərlərinin razılığı ilə oraya yeridilmişdi. 1990-cı ilin yanvarında Moskvaya az qala hər gün iğtişaşlar, qanuni hakimiyyətin devrilməsi cəhdləri və s. barədə açıq, gizli məlumatlar göndərilirdi. Həm hakimiyyətdə olanlar, həm də insanları meydanlarda barrikadalar qurmağa səsləyənlər elə bil xalqın azadlıq əzmini, torpaqları uğrunda mübarizədə qətiyyətini sındırmaq istəyirdilər. Ona görə də yanvarın 22-də qırmızı qərənfillər qoynunda uyuyan şəhid övladlarını son mənzilə böyük əzəmət və mütəşəkkilliklə yola salan xalqın yanında nə hakimiyyət, nə də müxalifət təmsilçiləri var idi.

Özlərini milli qüvvələr adlandıran-ların hakimiyyəti dövründə də 20 Yanvar faciəsinə münasibət dəyişmədi. 1993-cü il yanvarın 13-də şəhid ailələrinin nümayəndələri ilə keçirilən görüşdə hadisələrə siyasi-hüquqi qiymət verilməsi tələbi bir neçə dəfə irəli sürüldü, prezident Əbülfəz Əliyev isə bir dəfə də olsun bu barədə danışmadı.

1990-cı il yanvarın 22-də Azərbaycan Respublikası Ali Sovetinin fövqəladə sessiyasında deputat-istintaq komissiyası yaradılmışdı, həmin komissiyanın tərkibinə müxalifət nümayəndələri də salınmışdı. Amma bu komissiya hadisələrə siyasi qiymət vermək iqtidarına malik olmadı, iki il işlədikdən sonra respublika Ali Sovetinin Milli Şurası (Milli Məclis) 1992-ci il 19 yanvar tarixli bədnam qərar qəbul etdi.

**Heydər Əliyev bu qərarın qəbul edilməsini Azərbaycan xalqına 20 Yanvar faciəsi kimi böyük bir xəyanət hesab edirdi: "Faciədən sonra Azərbaycanda rəhbərlər dəyişdilər, bu cinayətdə iştirak edən adamlar kənarlaşdılar. Azərbaycan rəhbərliyinə yeni adamlar gəldi. Həmin adamların əksəriyyəti vaxtilə 20 Yanvar faciəsi baş verən dövrdə hakimiyyətdə olanları ittiham edənlər, günahlandırılanlar idi. Bəs görəsən, nə üçün onlar bu məsələyə yenidən baxmadılar, bu məsələni yenidən qaldırmadılar, bu hadisəyə lazımi qiymət vermək istəmədilər? Ona görə ki, həmin bu qərarı qəbul etmiş Milli Şuranın 50 faizi müxalifətdə olan adamlar idi. Bəlkə belə bir qərarın qəbul edilməsi onların özləri üçün də faydalı idi".** İki ildən sonra Milli Şuranın ortaya bir şey çıxarmaması, camaatı boş sözlərlə aldatması, Milli Şuranın qərarında komissiyanın işinin qənaətbəxş hesab edilməsi həqiqətən xəyanətə bərabər idi. Bir az sonra Ayaz Mütəllibov istefaya göndəriləcəkdi, bir az sonra meydan hərəkatının fəalları hakimiyyəti zorla qəsb edəcəkdilər. Odur ki, 1992-ci ilin əvvəlində nə üçün belə bir sənədin qəbul edildiyi aydın idi. Hər halda həmin qərara onların xalqa qarşı daim çirkin niyyətdə olduqlarının bariz nümunəsi kimi qiymət verilir.

**- 1994-cü ildə Milli Məclisin iclaslarında Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev də iştirak edir və deputat-istintaq komissiyası sədrinin, üzvlərinin çıxışlarında xalqın faciəsinə biganəlikdən qəzəblənirdi. 1988-1993-cü illərdə xalqın milli hissləri boğulduğuna, tapdalandığına görə torpaqlarımız addım-addım ermənilər tərəfindən işğal olundu. Heydər Əliyev məhz xalqın mənafeyi naminə fəaliyyət göstərdiyinə, xalqa, vətənə xəyanət edənlərlə barışmazlığına görə tariximizdə parlaq səhifə açdı.**

- Elədir, məhz Heydər Əliyevin yeritdiyi siyasət nəticəsində 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi qiymət verildi. 1994-cü İl martın 29-da Milli Məclis Bakıda törədilmiş faciəli hadisələr haqqında qərar qəbul etdi. Burada Bakı şəhərinə sovet qoşunlarının yeridilməsi xalqımıza qarşı hərbi təcavüz və cinayət kimi qiymətləndirilir, cinayətdə əli olanların adları göstərilirdi. Qərarda həmçinin indiyə qədər qəbul edilmiş sənədlərin cinayəti ört-basdır etmək məqsədi güddüyü vurğulanır, Azərbaycanın azadlığı uğrunda şəhid olanların xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda xatirə kompleksi yaradılması nəzərdə tutulurdu.

Həmin abidənin açılışı 1998-ci ildə prezident seçkisindən bir gün əvvəl, oktyabrın 10-da oldu. Şəhidlər xiyabanında ucaldılan "Əbədi məşəl" abidəsinin müəllifi Heydər Əliyev azadlıq və suverenlik uğrunda həlak olan oğul və qızlarımızın əziz xatirəsinin əbədiləşdirilməsindən razılığını ifadə etdi, "borcumuzu yerinə yetirmişik" dedi, şəhidlərin qəhrəmanlıq ənənələrinin, amallarının yaşayacağına təminat verdi, xalqa qarşı cinayət edənlərin hökmən cəzalandırılacağını bildirdi. Heydər Əliyev vətəndaş, dövlət xadimi olaraq həm də 20 Yanvar faciəsinə münasibətə görə Azərbaycanın keçmişi, bugünü və gələcəyi arasında vəhdət yaratdı.

Gün gələcək, Azərbaycanın suverenliyi, ərazi bütövlüyü bərpa olunacaq, bu yolda şəhid olanların arzuları yerinə yetiriləcək. 1988-ci ildən başlayaraq Azərbaycan xalqının tarixin-də müxtəlif soyqırım, genosid aktları törədənlər isə mütləq cəzalarını alacaqlar.

**V.İSMAYILOVA**

**"Azərbaycan".** - 2004. – 20 yanvar. - N 15. - S. 6.

## Azərbaycanı sovet imperiyasından ayıran gecə

### Faciəyə lap az qalmış

***Bakının küçələrində sözün həqiqi mənasında qələbəlik vardı. Qışın sazağından üşüyən yoxdu, elə bil adamlar sozalmış günəş işığından deyil, üzlərdəki mehribançılıqdan, təbəssümdən, əsl birlik sevincindən qızınırdılar. Və mənə elə gəlirdi ki, adamlar azadlıq naminə birliyin, həmrəyliyin təntənəsini, onun fövqəladə gücünü, qüdrətini səksən səkkizin 18 günlük mitinqindən sonra doxsanda - yanvarın 19-da hiss etdilər.***

Axşama yaxın Azərbaycan KP MK-nın (indiki Prezident Aparatının) binası qarşısında fasiləsiz davam edən mitinqə daha çox adam toplaşmışdı. Və tribunadan tez-tez sovet ordusunun şəhərə yeridiləcəyi barədə qeyri-müəyyən xəbərlər eşidilirdi. Əslində şəhərin müdafiəsi məhz buradan idarə olunurdu. Ə.Vəzirovun qaçması barədə də həmin axşam məlumat verildi.

Şəhərin giriş və çıxış yollarında qurulmuş barrikadalar, əlavə yük maşınları, digər maşın və mexanizmlər hesabına gücləndirilir, bir çox yerlərdə, xüsusilə keçmiş sovet ordusunun hərbi hissələri ətrafındakı dinc piketlərə əlavə adamlar yığılırdı. Yeri gəlmişkən, ədalət naminə deməliyik ki, qarşısında piketlər qurulmuş hərbi hissələrin əsgər və zabitləri arasında piketçilərlə həmrəy olanlar da çox idi. Və onlardan bəziləri həmin gecəki qırğın vaxtı "gəlmə" hərbçilərə qarşı üsyan etmiş, dinc adamları xilas etməyə çalışmışdılar.

### 19-dan 20-nə keçən gecə

Təxminən saat 24 radələrində əsa-sən şəhərin piketlər və barrikadalar qurulmuş yerlərində işıqlar qəfildən söndürüldü. Hər yan zülmət qaranlığa büründü. Tonqalların ətrafında toplaşanlar bunun pis əlamət olduğunu və artıq ordunun şəhərə soxulacağını sövq-təbii duydular. Bir neçə dəqiqə keçmiş Salyan kazarmasından atılan topun səsi hamını möhkəmcə silkələdi və "yuxudan" ayıltdı. Şəhəri mühasirəyə almış "gəlmələr və hərbi hissələrdə saxlanılan "yerli'lər tankların, BMP və BTR-lərin köməyi ilə dinc və silahsız adamların üzərinə yeridilər. Qısa vaxtda simvolik məna daşıyan barrikadalar dağıdıldı, ən yaxşı halda daş-kəsəklə silahlanmış barrikadaçılar tankların tırtılları altına düşdülər. Gözə dəyən hər kəs öldürüldü, yaxud yaralandı. Salyan kazarması ətrafında, Qızıl Ordu (indiki 20 yanvar) meydanında, keçmiş Çapayev küçəsində, "Gənclik" mehmanxanası ətrafında, Hava limanı yolunda və şəhərin digər yerlərində adamları xüsusi amansızlıqla qırmışdılar. Xüsusi geyimli hərbi dəstələr heç kəsə - nə qadına, nə qocaya, nə də uşağa aman vermir, qarşısında nəyin və kimin durmasından asılı olmayaraq məhv edir, əzir, dağıdıb keçirdi. Yaşayış evləri, tibb müəssisələri fasiləsiz atəşə tutulurdu. Təcili tibbi yardım maşınları, yaxınlıqdan keçən və yol kənarında dayanan avtomobillər tankların altına salınıb əzilir, yaralılar yerindəcə güllələnir, yardım göstərən tibb işçiləri belə öldürülürdü.

**19-dan 20-nə açılan səhər** qanla açıldı. Bu açılış Bakı şəhər komendantı təyin edilmiş Dubinyakın cəzalandırılmış şəhər əhalisinə müraciət ilə müşayiət olunurdu. Azadlıq qurbanlarının qanına bələnmiş şəhər də matəm havası hamının belini bükmüşdü. Və dünənki qələbəlik əhvalından əsər-əlamət qalmamışdı. Adamlar - onlarca AXC fəalı, adi hərəkat iştirakçısı, lideri, o cümlədən Etibar Məmmədov, Məhəmməd Hatəmi, mərhum şairimiz Xəlil Rza və başqaları tutulub Lefortovo zindanına salındılar. Elə Bakının özündə və SSRİ-nin digər şəhərlərində zindana salınanlar isə lap çox idi. Xalq həmin gecənin səhəri ilk dəfə olaraq sıralarına öz övladlarını göndərdiyi sovet ordusunun, imperiya rəhbərlərinin əsl simasını tanıdı. Tanıdı və birdəfəlik nifrət etdi. Tonqallara atılan, cırılıb tullanılan, ən yaxşı halda təhvil verilən Kommunist Partiyasının üzvlük biletləri buna əyani sübut idi.

Faciəni təhqiq edən bir sıra rəsmi və qeyri-rəsmi komissiyalar yaradıldı. Bakıda törədilmiş cinayətlə bağlı təhqiqat xarakterli bəyanatı fevralın 14-də SSRİ Ali Sovetinin sessiyasında mərhum Tofiq İsmayılov oxudu. Bəyanatdan məlum olur ki, həmin gecə 168 nəfər öldürülmüş, 175 nəfər yaralanmış, 400-dən artıq adamın taleyi isə məlum deyil (ilkin məlumatlara görə).

Həmin adamların çoxunun taleyi bu gün də məlum deyil. Ölüm bir çoxlarını mənzilində, həyətində, avtobusda, iş yerində yaxalamışdı. Ölənlər arasında qocalar, qadınlar, uşaqlar vardı. Bəyanatda törədilən cinayətə müdafiə naziri Yazovun və daxili işlər naziri Bakatinin rəhbərlik etdiyi açıq deyilir və bir sıra tələblər qoyulurdu. Əlbəttə, o qədər də kəskin qoyulmayan tələblər elə kağız üzərindəcə qaldı. Çünki cinayət imperiyanın birinci şəxsinin - Qorbaçovun göstərişi ilə törədilmişdi və onu cəzalandırmaq isə imkan xaricində idi.

Qeyd etmək lazımdır ki, mərhum Heydər Əliyev də 1990-cı il yanvarın 21-də bütün təqiblərə və təzyiqlərə baxmayaraq, respublikanın Moskvadakı daimi nümayəndəliyində keçirilən mitinqə gəlmiş və oradakı çıxışın-da törədilən cinayətə layiqli siyasi qiymət vermişdi. Azərbaycan SSR Ali Sovetinin növbədənkənar sessiyası da yanvarın 21-də Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında SSRİ Ali Soveti Rəyasət Heyəti fərmanının icrasının dayandırılması və qoşunların şəhərdən dərhal çıxarılması barədə qərar qəbul etmişdi. Rusiyanın "Şit" təşkilatının müstəqil hərbi ekspertləri iyulun 12-dən 22-dək yanvar hadisələrini təhqiq etmiş və belə nəticəyə gəlmişdilər ki, Bakıda hərbi cinayət törədilmişdir. Onlar cinayətə rəhbərlik etmiş müdafiə naziri D.T.Yazova və başqa şəxslərə qarşı cinayət işi qaldırılmasını tələb edirdilər. Hərbi ekspertlər yəqin etmişdilər ki, yanvarın 13-ü ilə 15-i arası Bakıda ermənilərə qarşı talanlar baş verəndə SSRİ DİN daxili qoşunları şəhərdə olsa da, heç bir tədbir görməmişlər. Yanvarın 18-i və 19-da isə artıq şəhərdə heç bir talançılıq faktı yox idi. Teleradio mərkəzinin enerji blokunu isə yanvarın 19-da sovet ordusunun və ya SSRİ DTK-sının xüsusi qrupu partlatmışdı. Fövqəladə vəziyyət tətbiq edilməsi haqqında əhali vaxtında xəbərdar edilməmiş, bu səbəbdən də dinc əhali qırğına düçar olmuşdur.

***P.S.***

**...14 il ərzində 20 Yanvar faciəsi haqqında kifayət qədər deyilib də, yazılıb da. Və biz də deyilənlərə yeni bir şey əlavə etmək iddiasında deyilik. Çünki nə qədər yazsaq da, nə qədər danışsaq da 20 Yanvar faciəsi elə 20 Yanvar faciəsidir. Nə artır, nə azalır. 15 il, 20 il, 50 il, 100 il bundan sonra da Azərbaycan tarixinin qanlı səhifəsi kimi qəzet, kitab səhifələrində, kinolentlərdə və bir də nəsildən-nəsilə ötürülən gen yaddaşımızda qalacaq. Ancaq hər bir azərbaycanlı vətəndaş bu gün də, sabah da 1990-cı ilin 20 Yanvarında nələri itirib, nələri qazandığımızı bilməli, həmin günlərin əhəmiyyətini anlamalı və öz övladlarına öyrətməlidir. Öyrətməlidir ki, 20 Yanvar faciəsi sovet imperiyasının sonuncu rəhbəri Qorbaçovun göstərişi, Yazov və Bakatinin icraçılığı, Vəzirovun və V.Hüseynovun dəstəyi ilə əsasən Bakıda törədilib. Həmin faciədə yüzlərlə mərd, qəhrəman oğul və qızlarımızı itirmişik. Bugünkü Şəhidlər Xiyabanı itirdiklərimizə ucaltdığımız ən böyük. ən möhtəşəm abidədir.**

**20 Yanvar bizi qırmızı sovet imperiyasından ayıran faciədir. 20 Yanvar müstəqillik və azadlıq yolunda mübarizə aparan xalq hərəkatının mütəşəkkil mərhələsinin başlanğıcıdır. O həm də xalq hərəkatı tarixində ilk ciddi sınaq olmuşdur. Sonralar torpaqlarımızın bütövlüyü uğrunda ermənilərə qarşı döyüşlərdə qəhrəmanlıq göstərən oğul və qızlarımız düşmən qarşısında əyilməzliyi, mərdliyi məhz 20 Yanvar şəhidlərindən öyrəniblər. On-ların müqəddəs yolunun davamçıları olublar. Ermənistanla müharibədə müvəqqəti məğlubiyyət də bizi ona görə ruhdan salmır ki, 20 Yanvardan dərs almış sən, mən, o - biz varıqsa, tariximizin qızıl hərflərlə yazılacaq qələbə səhifəsi hələ irəlidədir.**

**Söhbət Səfərli**

**“Ədalət”.** - 2004. – 20 yanvar. - N 11. - S. 4.

## 20 Yanvar faciəsindən 14 il keçir

*Müstəqillik yolunda qanlı faciə*

**"Xalqımız o günü heç vaxt unutmayacaqdır. Çünki o, ayrı-ayrı insanlara edilən qəsd, təcavüz deyildi, bu bütün Azərbaycan xalqına, Azərbaycan millətinə, Azərbaycan ölkəsinə edilən hərbi təcavüz idi. Bu təcavüz nəticəsində hə-lak olanlar xalq qəhrəmanlarıdır, onlar millətimizin qəhrəmanlarıdır".**

**Heydər Əliyev.**

14 il əvvəl, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet ittifaqı rəhbərliyinin və onun Azərbaycandakı nökərlərinin əli ilə xalqımıza qarşı qanlı qırğın törədilmişdir. Qanlı Yanvar faciəsinin dəhşətlərini görən hər bir insan onu heç zaman unuda bilməz. Çünki bu hadisələr ağlasığmaz bir qəddarlıqla icra edilən terror aktı idi. Adi bir vətəndaşa deyil, böyük bir millətə qarşı edilən cinayət idi. Yüz minlərlə 20 Yanvar görüb məmləkətimiz. Lakin heç biri tariximizin xatirə yaddaşında qalmayıb. 1990-cı ilin 20 Yanvar gecəsi heç bir gecəyə bənzəmirdi. 0 gecə canlı insan bədənləri vəhşi imperiya tanklarının polad tırtılları ilə doğrandı. Paytaxtımızın küçələri insan qanına bələndi. Həmin gecə sovet ordusunun xüsusi təyinatlı dəstələrinin və daxili qoşunların iri kontingentinin Bakını zəbt etməsi qəddarlıq və misli görünməmiş vəhşiliklərlə müşayiət edildi. 0 gecə illər boyu hakimiyyəti altında olduğumuz SSRİ dövləti, sovet hakimiyyəti və Azərbaycan Kommunist Partiyası tərəfindən Azərbaycan xalqına qarşı kütləvi təcavüz edildi. Həmin gecə 131 nəfər günahsız adam vəhşicəsinə güllələndi, tankların və zirehli ölümsaçan maşınların tırtılları altında yerə pərçim oldu, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu, itkin düşdü. Şəhərdəki tikililərə, küçə və meydanlara külli miqdarda zərər dəydi. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğınlar nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdir.

20 Yanvar faciəsinin səhəri Bakı küçələrində qan rəngli SSRİ bayrağının tikə-tikə doğranıb yandırılma mərasimi başlandı. Minlərlə azərbaycanlı Sov.İKP sıralarından çıxdığını bəyan etdi.

Onu da qeyd etmək yerinə düşər ki, güclü erməni mafiyasının köməyi ilə hakimiyyət kürsüsünə qalxan və onların çirkin ideyalarının həyata keçməsi naminə əlindən gələni əsirgəməyəcəyinə söz verən qatil ermənipərəst Mixail Qorbaçov hələ 20 Yanvardan bir neçə gün öncə Bakıda fövqəladə vəziyyət tətbiq olunması barədə fərman versə də, həmin fərman yalnız yanvarın 20-də, yəni televiziyanın enerji bloku partladıldıqdan və yanvarın 19-dan 20-nə keçən gecə Qanlı Yanvar faciəsi törədildikdən sonra radio ilə elan edildi. Onu da xatırlatmağı lazım bilirik ki, hələ 20 Yanvar qırğınlarından 10 gün əvvəl Azərbaycanda yüksək vəzifə sahibləri olan rusların öz ailələri ilə birlikdə Rusiyanın müxtəlif guşələrinə daşınma əməliyyatları gedirdi. Məhz M.Qorbaçovun əmri ilə paytaxtımıza təpədən dırnağadək silahlanmış 66 min 500 nəfərlik ordu yeridilmişdi. 20 Yanvar qırğınını törədənlər bu qanlı aksiyanın beynəlxalq ictimaiyyətdən gizlədilməsi, hadisələrin başqa cürə, təhrif olunmuş formada təqdim olunması üçün lazımi tədbirlər görmüşdülər. Belə bir vaxtda xalqın sədaqətli və cəsarətli oğlu Heydər Əliyevin qəzəb və etiraz dolu səsi radio dalğaları vasitəsi ilə bütün dünyaya yayıldı. 20 Yanvar faciəsi baş verən zaman xalqımızın böyük oğlu Heydər Əliyev Moskvada repressiya edilmiş vəziyyətdə yaşayırdı. Xalqın başına gətirilən müsibət və fəlakətdən xəbər tutan Heydər Əliyev cənabları özünü gözləyən bütün təhlükələri unutdu. Yanvarın 21-də Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək xalqımıza başsağlığı göndərdi, mitinqdə çıxış edərək Bakıda soyqırımı törədənləri lənətlədi. Sonra mətbuat konfransı keçirərək, baş verənlərə öz münasibətini açıq şəkildə və cəsarətlə bildirdi. Onun bu addımı əli Azərbaycan xalqının qanına bulaşmış M.Qorbaçovun törətdiyi 20 Yanvar qırğınına ilk siyasi və hüquqi qiymət idi. Onun kədər, inam və qətiyyət dolu səsi radio dalğaları vasitəsi ilə Azərbaycanda da eşidildi, xalq bir qədər toxtayıb təsəlli tapdı. Gördü ki, millətin cəsarətlə müdafiə edəni, arxasında duranı var. Lakin Heydər Əliyev bunlarla kifayətlənmədi. O, Azərbaycan Ali Sovetinin 1991-ci il sessiyasında da öz etiraz səsini ucaltdı. Azərbaycan xalqına qarşı bu təcavüzün bir tərəfdən M.Qorbaçov başda olmaqla SSRİ-nin, Sovet ittifaqı Kommunist

Partiyasının rəhbərləri, digər tərəfdən və ən çox Azərbaycan Kommunist Partiyasının rəhbərliyi tərəfindən törədildiyini bəyan edərək onları günahlandırırdı.

Xalqın mənafeyini hər şeydən uca tutan ümummilli liderimiz Heydər Əliyev 1993-cü il iyunun 15-də ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra 20 Yanvar faciəsinə tam siyasi-hüquqi qiymət verilməsinə nail oldu. Bununla əlaqədar 5 yanvar 1994-cü ildə xüsusi fərman imzaladı. Fərmanda yanvar hadisələrinə qiymət verilməsindən ötrü Milli Məclisin ayrıca sessiyasının keçirilməsi tövsiyə olundu. 12 yanvar 1994-cü ildə milli liderimiz Heydər Əliyevin sədrliyi ilə 20 Yanvar faciəsinin dördüncü ildönümü münasibətilə yaradılan dövlət komissiyasının iclası keçirildi və iclasda çıxış edən Heydər Əliyev cənabları ötən dörd ildə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməməsini, o zamankı Milli Şura tərəfindən qəbul edilmiş 19 yanvar 1992-ci il tarixli qərarın səthi, başdansovdu hazırlandığını ciddi tənqid etdi. Bundan sonra, Milli Məclisin iclasında 20 Yanvar faciəsi ilə bağlı məsələ dərindən və ətraflı araşdırıldı. 29 mart 1994-cü ildə "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəvi hadisələr haqqında" adlı xüsusi qərar qəbul edildi. Beləliklə, ümummilli liderimiz Heydər Əliyevin təkidi və rəhbərliyi sayəsində xalqımıza qarşı törədilən bu qanlı və qəddar aksiyaya ədalətli siyasi-hüquqi qiymət verildi.

20 Yanvar faciəsinin 10-cu ildönümünə həsr olunmuş ümumrespublika mərasimində əbədi liderimiz Heydər Əliyev cənablarının dediyi kimi, müstəqilliyimiz yolunda faciəli mərhələ olan 20 Yanvar günü və onun qur-banları heç bir zaman unudulmayacaq, xalqın tarixində və yaddaşında əbədi yaşayacaqdır. Millət, vətən uğrunda şəhidlik yolunu seçən qəhrəman övladlarımızın bu müqəddəs amallar uğrunda həlak olanların ömrü vətənin və xalqın ömrü qədər olacaqdır.

Müqəddəs Qurani-Kərimdə deyildiyi kimi "Şəhidlər ölmür, onlar daim diridirlər". Şəhidlərin yolu geriyə yox, yalnız irəliyə, ucalıqlara, əbədiyyətədir!

**RƏFİQƏ KAMALQIZI**

**“Səs”.** - 2004. – 20 yanvar. - N 15. - S. 7.

## Qanlı Yanvar, 1990

**Qan yaddaşımız**

**Azərbaycan Dövlət Televiziyası 1990-cı ilin Qanlı Yanvar hadisələrinə həsr olunmuş verilişlər hazırlamışdır. Yanvarın 18-də efirə getmiş "Qanlı Yanvar, 1990" verilişinin mətnini oxuculara təqdim edirik.**

**APARICI*:*** 13-15 yanvar 1990-cı il... Bakıda kütləvi talanlar baş verdi, qətllər, qarətlər törədildi. Şəhərdə başıpozuqluq, hərc-mərclik hökm sürürdü. Bütün bunlar sonrakı günlərdə - yanvarın 18-19-da səngidi, tamamilə dayandı. Bu vəhşilik, zorakılıq, ölüm, qarət həmin vaxt Bakı şəhərində yerləşən SSRİ Daxili İşlər Nazirliyinin qoşunlarının, Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinin və Daxili İşlər Nazirliyinin gözü qarşısında baş verirdi. Bütün bunlar məkrli bir oyundan xəbər verirdi. Hakimiyyət strukturları, güc nazirlikləri bu talanı, dağıntını, xaosu yalnız seyr etməklə kifayətlənirdi. Moskvaya göndərilən axın-axın məlumatlarda Bakıda vəziyyətin idarəolunmaz xarakter aldığı göstərilir, kömək istəyirdilər. Əslində, bunun bir məqsədi vardı: Bakıya qoşun gətirmək, azadlıq hərəkatını boğmaq...

Xalqının qanına susayan manqurtlar yanvarın ilk günlərin-də imperiya ordusunu Bakıya gətirməyə nail oldular. Yanvarın 13-15-də baş verən talanlardan sonra yaranmış müvəqqəti sakitlik güclü bir fırtınanı yaxınlaşdırırdı. Amansız bir cinayət törətmək, xalqın haqq səsini boğmaq, ona divan tutmaq üçün informasiya blokadasının yaradılması da unudulmamışdı. Azərbaycan Teleradio Verilişləri Şirkəti hərbçilər tərəfindən mühasirəyə alınmışdı. Moskva senzurası xalqa ancaq özünə sərf edən məlumatları çatdırırdı. Bir sözlə, artıq respublikanın daxilində belə, informasiya qıtlığı yaranmışdı. Rayonlarda yaşayanlar Bakıda nə baş verməsindən xəbərsiz idilər.

**Təhminə ASLANOVA** (tələbə): 1990-cı il yanvar ayının 20-də sovet rejimi respublikamızda haqq-ədalətin bərpa edilməsi uğrunda səsini ucaldan Azərbaycan xalqının milli mənliyini alçaltmaq, iradəsini qırmaq məqsədi ilə dəhşətli qırğın aktı həyata keçirdi. Dinc əhaliyə qarşı misli görünməmiş cinayət törədildi. Bu cinayəti həyata keçirməzdən bir neçə gün əvvəl Dövlət Təhlükəsizlik Komitəsinin "təxribat maşını" işə salındı. Xəstəxanalar boşaldıldı. Eyni zamanda, Bakıda xidmət edən rus hərbçilərin ailələri ölkədən çıxarıldı. Milliyyətcə rus olan əhalinin nümayəndələri respublikanı tərk etməyə başladılar. Süni surətdə rus qaçqınları yaradıldı. Yanvarın 19-dan 20-nə keçən gecə Qorbaçovun bilavasitə göstərişi, güc nazirləri Yazov, Bakatin, Kryuçkovun başçılığı ilə müxtəlif ordu hissələrinin böyük kontingenti Azərbaycana yeridildi. Bəli, biz o vaxt uşaq olsaq da, bütün bunları böyüklərdən, sonralar müəllimlərimizdən eşitmişik.

Kommunist diktaturası Çexoslovakiyaya, Macarıstana, Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni Azərbaycana da tətbiq etdi. Lakin bu təcavüz əvvəlkilərdən onunla fərqlənirdi ki, Azərbaycana göndərilən ordu hissələrinin tərkibinə Stavropolda, Krasnodarda, Rostovda səfərbərliyə alınan erməni əsgər və zabitləri, sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantlar da daxil edilmişdi. Çarizmin Cənubi Qafqazda "parçala və hökmranlıq et!" siyasətinin ən qəddar və çirkin variantı Azərbaycanda tətbiq olundu. Belə ki, azərbaycanlıları həm imperiyanın qızışdırdığı, silahlandırdığı, müdafiə etdiyi erməni quldurları, həm də "panislamizmə, pantürkizmə qarşı mübarizə" pərdəsi altında müstəmləkəçilərin özləri qırmağa başladılar.

O zaman Azərbaycanda hakimiyyətə Mərkəzi Komitənin birinci katibi Əbdürrəhman Vəzirov başçılıq edirdi. Ayaz Mütəllibov isə Nazirlər Sovetinin sədri idi. Əbdürrəhman Vəzirov məsuliyyətdən heç vaxt yaxa qurtara bilməz. Ümumiyyətlə, o vaxt da Azərbaycan onu qəbul etmirdi. O, xalqdan çox uzaq adam idi. Vəzirovu tanıyanlar yalnız onun qohumları, yaxınları idi. Onlar Vəzirovun hakimiyyətdə olmasına gəlir mənbəyi kimi baxırdılar.

Vəzirovun başlıca günahı, Qarabağ münaqişəsinin kəskinləşməsinə təkanverici olması idi. O, Ermənistandan deportasiya olunmuş qaçqınların Dağlıq Qarabağda yerləşməsinə yol vermədi. Vəzirov və

tərəfdarları bunu onunla əsaslandırdılar ki, belə olarsa, guya ermənilərin hüquqları pozular. Azərbaycanlıların hüquqlarının pozulması isə onları maraqlandırmırdı. Moskvanın Azərbaycanda milli birliyin olmaması istəyi artıq yaranmışdı. Tarixdən də bizə bəllidir ki, bu birlik çox mühüm amildir. Axı, xalqların birliyi düşmən qarşısında ən güclü sipərdir. Respublikamızda milli parçalanmanın əsas səbəbkarlarından biri Vəzirov oldu.

**Firuz HAŞIMOV** (tarixçi-jurnalist): Çox qəribə haldır ki, sonradan hakimiyyətə gələn, iqtidarda olan satqın, qondarma bəylər bu hadisələr zamanı "statistika aparmaqla" məşğul oldular. Onlar çox gözəl bilirdilər ki, qırğın olacaqdır. Yanvarın 13-də meydanda mitinq zamanı Müdafiə Şurası elan olunarkən mən dedim ki, hərbi savadı olmayan bu adamlar respublikamızı nədən müdafiə edəcəklər? O vaxt şəhərdə on min nəfərlikdən çox qoşun cəmləşmişdi. Onlar şəhəri kimdən, nə ilə və necə müdafiə edəcəklər? Hansı strateji ağılla, hansı silahlı qüvvələrlə və dahiyanəliklə bunu edəcəkdilər? Axı, həmin o günlərdə istər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi binasının qarşısında, istərsə də mitinqlərdə Nemət Pənahlı bütün camaatı çağırırdı ki, Azərbaycanı qorumaq istəyənlər leytenant Şmidt zavoduna gəlsinlər. Bilmirəm, keçən il, yoxsa inişil Milli Məclisdə Etibar Məmmədov dedi ki, camaatı küçələrə mən çıxarmışam. Mən məəttəl qaldım. Həmin an Milli Məclisdə istintaq komissiyası təşkil olunmalı idi. Onlarla adam həlak olmuş, 700-dən çoxu yaralanmışdı. Necə yəni mən çıxarmışam? Elədirsə, bəs sənin niyə burnun qanamadı? Bu hərəkatda çoxları ləkələndi, bu həngamədən "qazanan" Etibar kimiləri oldu. İndi onların, maşallah, cangüdənləri, imarətləri, cəh-cəlalları, "mersedes"ləri var. Belələrini Azərbaycanın taleyi o vaxt da maraqlandırmırdı, indi do maraqlandırmır.

Onların istər o vaxt, istərsə də indi davası vəzifəyə gəlmək məqsədi daşıyır. Düşmənlərimiz də bundan çox məharətlə istifadə edirlər.

**Nemət PƏNAHLI*:*** 1989-cu il noyabrın 25-də Xalq Cəbhəsi idarə heyətinin xəyanətini xalqımıza açıqladım. Onların Vəzirovla apardıqları separatçı danışıqları, Dövlət Təhlükəsizliyi Komitəsinin casusçuluq şəbəkəsini təmsil etdiklərini faktlarla açıqladım. Xalq onları meydandan qovdu. Yadımdadır, İsa Qəmbər dəfələrlə cəhd etdi ki, Xalq Cəbhəsi idarə heyətinin qərarını oxuyaq. Xalq buna da əhəmiyyət vermədi, dediyim kimi, onları meydandan qovdu.

O vaxt Xalq Cəbhəsi liberal və radikal qanadlara bölünmüşdü. Radikal qanad deyəndə məni, Etibar Məmmədovu, Rəhim Qazıyevi nəzərdə tuturdular. Əbülfəz Elçibəyin isə guya daha çox neytral mövqedə, bəzən də bizimlə bir yerdə olduğunu söyləyirdilər. Əbülfəz Elçibəy və başqaları Leyla Yunusovanın, Zərdüşt Əlizadənin Dövlət Təhlükəsizliyi Komitəsinin agentləri olduğunu bilirdi. O, üzdə göstərirdi ki, bizimlədir, amma onlarla bir yerdə olanda isə başqa cür danışırdı. Dediyim adamlar nəinki Dövlət Təhlükəsizliyi Komitəsinə, hətta ermənilərə də məlumat verirdilər. Telefon danışığı zamanı müəyyən edilmişdi ki, Leyla Yunusova Qriqoryantsla danışır. Bizim qapalı iclas keçirməyimizi beş dəqiqədən sonra Dövlət Təhlükəsizliyi Komitəsində də bilirdilər, ermənilər də, bütün dünya da bunu bilirdi. Biz bunları əvvəlcədən tanıyırdıq. Leyla Yunusovanın ermənilərə məlumat verməsini lentə yazmışdılar. Sonra mən Xalq Cəbhəsinin idarə heyətində bu məsələni qaldırdım. Dedim ki, o, ermənilərin xeyrinə işləyir. Leyla Yunusova əvvəlcə bunu boynuna almadı. Fakt ortalığa çıxdıqdan sonra bizə dedi ki, nə olar, Qriqoryants da demokratdır, biz də demokratıq. Xalq Cəbhəsinin idarə heyətində bu söhbəti bilməyən olmadı. Dəhşətli haldır ki, təcavüzkar Ermənistanla müharibə aparan Azərbaycanda onu Müdafiə Nazirliyinin informasiya şöbəsinin rəhbəri təyin etdilər. Sonradan Əlikram Hümbətovun kimliyi açıldı. Əbülfəz Elçibəylə mənim davam məhz buradan başlandı. Xalq Cəbhəsi yaradılanda biz Zərdüşt Əlizadənin, Leyla Yunusovanın kim olduğunu bilirdik. Əbülfəz Elçibəydən soruşdum ki, sən bilirsənmi bunlar DTK-nın agentləridir? Sən bilirsənmi Xalq Cəbhəsini Dövlət Təhlükəsizliyi Komitəsi yaradır? Dedi ki, bilirəm. Dedim, bəs sənin məqsədin nədir? Dedi ki, biz taktiki addım atırıq, DTK-nı aldadırıq. Xalq Cəbhəsi təsdiq ediləndən sonra bu, müvəqqəti idarə heyəti olacaqdır. Sonra bu casusları özümüzdən uzaqlaşdıracağıq. Son nəticədə Əbülfəz Elçibəy dedi ki, bunu açıqlamaq olmaz. Biz bunu bildirsək, Xalq Cəbhəsi parçalanacaq, xalq ruhdan düşəcəkdir.

Mən bütün məsuliyyəti öz üzərimə götürdüm. Noyabrın 25-də bu məsələni açıqladım. Ondan sonra xalq həmin adamları meydandan qovdu. Əbülfəz Elçibəy onları yenidən gətirdi, Elmira Qafarova, Ziya Bünyadov, Nəcəf Nəcəfov, Etibar Məmmədov televiziyada çıxış etdilər, razılığa gəldilər. Mən Xalq Cəbhəsindən çıxdım.

Onlar həmin dövrə qədər məni nüfuzdan salmaq üçün müxtəlif formada təbliğat aparmışdılar. Sərhəd hərəkatı ilə bağlı təşəbbüsü mən ələ alanda Xalq Cəbhəsi iflic vəziyyətinə düşmüşdü. Biz Xalq Cəbhəsinin həmin agenturasını uzaqlaşdırdıq.

Əbülfəz Elçibəylə mənim çox kəskin söhbətim olmuşdu. Nəhayət, onlar mənimlə razılaşdılar. Müdafiə Şurası təşkil etmək məcburiyyəti yaranmışdı. Şuranın yaradıldığı dövrdə bizə təzyiqlər olurdu. Xalq Cəbhəsinin sıravi üzvləri bizdən xahiş edirdilər ki, Əbülfəz Elçibəylə, Etibar Məmmədovla bir yerdə olaq. Onlar İsa Qəmbəri, Zərdüşt Əlizadəni istəmirdilər. Hamı onlara nifrət edirdi. Belə bir vəziyyətdə biz Müdafiə Şurası yaratdıq. Faciə onda idi ki, 1988-ci ildə bizim təşkilatımız, qəzetimiz yox idi. Dövlət mexanizmi bizim əleyhimizə təbliğat aparsa da, heç nəyə nail ola bilmirdi. O vaxt kommunist rəhbərliyi xalq arasında nüfuzunu itirmişdi. Ona görə də Xalq Cəbhəsi adı altında bu qurumu yaratdılar. Əlikram Hümbətovun DTK-nın agenti olduğu danılmaz faktdır. O cümlədən də Leyla Yunusovanın, Zərdüşt Əlizadənin kim olduğu hamıya bəllidir.

1988-ci ildə xalq bizim əleyhimizə aparılan təbliğata uymurdu. Mənim barəmdə istintaq materialında Tofiq Qasımov yazırdı ki, "mən partkomun göstərişi ilə meydanda fəaliyyət göstərmişəm". Tamerlan Qarayev 1988-ci ildə Bakı Dövlət Universitetində fakültə partkomu idi. O, xalqın içərisinə çıxa bilməzdi. İki il ərzində öz casuslarını milli hərəkatın liderləri durumuna gətirib çıxartdılar. Tamerlan Qarayev 1990-cı ildən Xalq Cəbhəsi Məclisinin sədri oldu. 20 Yanvar cinayətini Tamerlan Qarayevlə Xalq Cəbhəsinin xəyanətkar qanadı ört-basdır etdi. 20 Yanvardan sonra bu faciə ilə bağlı nə Moskva, nə də yerli rəhbərlik ittiham edilmədi. Bu ittihamı yalnız milli hərəkatdakı qüvvələr irəli sürdülər. Bizi Moskva da, DTK da, yerli rəhbərlik də ittiham edirdi. Eyni zamanda, Xalq Cəbhəsinin liberal qanadı da ittiham edirdi. Axı, heç kəs anlamadı ki, biz əgər azadlıq mübarizəsi aparırıqsa, milli azadlıq hərəkatının lideri doğrudan da Əbülfəz Elçibəy, İsa Qəmbər idisə, bəs necə oldu ki, 20 Yanvarda xalqı qan içində boğdular, sonra bizim ən adi liderlərimizi həbs etdilər. Amma Əbülfəz Əliyevin adı dəyişərək Elçibəy oldu? Əbülfəz Elçibəyin dünya səviyyəsində reklam olunması təşkil edildi? İsa Qəmbərə "gözün üstə qaşın var" deyən olmadı? Sovet İttifaqının mətbuat orqanlarının səhifələrinə baxın, görün, orada Əbülfəz Əliyevin, İsa Qəmbərin əleyhinə bir cümlə yazı varmı?

Sonradan demokratik blok yaradıldı. Bunların hamısı qabaqcadan razılaşdırılmışdı və xəyanət idi.

**APARICI*:*** 19 yanvar 1990-cı il... Teleradio Şirkəti Bakı Ali Ümumqoşun Məktəbinin komandirləri 160 kursantı tərəfindən mühasirə olunmuşdu. Yanvarın 19-da saat 19-da teleşirkətə yarı hərbi, yarı idman forması geymiş 4 nəfər silahlı gəlir. Mühafizəçilər onların tapşırıqlarını sözsüz yerinə yetirirlər. Gələnlər növbə rəisləri İ.Hüseynov və növbətçi elektrik V.Romanovdan ehtiyat dizel-generatorun olub-olmadığını, habelə teleşirkətin enerji təchizatının sıradan çıxarılmasının mümkünlüyünü öyrənirlər.

19.25-də enerji bloku partladılır. Partlayış və yanğın haqqında Bakı Baş Milis İdarəsinə saat 19.30 dəqiqədə məlumat daxil olur. Hadisə yerinə gələn milis işçilərini mühafizəçilər içəri buraxmırlar. Ertəsi gün hadisə yerində olan Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin operativ istintaq qrupunun rəis müavini Mansurov heç bir nəticəyə gələ bilmir. Ekspertlər isə aşağıdakı nəticəyə gəlmişlər: "Enerji bloku Sovet Ordusu və SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin xüsusi təyinatlı dəstəsi tərəfindən partladılmışdır".

**Etibar MƏMMƏDOV** (AMİP sədri, Milli Məclisin deputatı): Televiziyada verilişlərin dayanması haqqında mənə məlumat verdilər. Elşad Quliyevlə əlaqə saxlayanda məlum oldu ki, televiziya verilişləri dayandırılıb, işçilərdə buraxılıbdır. Ondan soruşanda ki, bunun səbəbi nədir, dedi ki, Xalq Cəbhəsinin nümayəndələri gəlib tələb ediblər ki, televiziya verilişləri dayandırılsın və o da bu səbəbə görə işçiləri buraxıbdır. Mən bildirdim ki, elə göstəriş ola bilməz, verilişlər bərpa olunmalıdır və axşam saat 8-də də mən özüm gəlib çıxış etmək fikrindəyəm. Dedim ki, verilişləri bərpa etsinlər. Ondan sonra Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə getməli oldum. Orada, demək olar ki, heç kəs yox idi. içəridə yalnız əsgərlər və matroslar vardı. Onlar tam silahlanmış vəziyyətdə idilər. Kabinetlərin hamısında da bir nəfər əsgər oturmuşdu. Polyaniçko ilə görüşə bildim. Mərkəzi Komitədə ondan başqa, demək olar ki, heç kəs yox idi. Polyaniçko ilə çox qısa və gərgin söhbətim oldu. Mən bu barədə çox danışmışam. O, mənə bildirdi ki, artıq hər şey həll olunubdur. Sizin iki saat vaxtınız qalıb. Ondan dəfələrlə soruşdum ki, bu iki saat nə deməkdir, iki saatdan sonra nə olacaq?

**JURNALİST***:* Onda saat neçə idi?

**Etibar MƏMMƏDOV***:* Mən onunla təxminən saat 6-dan sonra görüşmüşəm. O mənim sualıma cavab vermədi. Eyni zamanda o dedi ki, siz silahlı çevriliş hazırlayırsınız, xalq silahlanıb, Mərkəzi Komitənin binasına hücum hazırlanıb. Hücum olsa, atəş açılacaq, nə olacaq. Ona bildirdim ki, heç bir hücum yoxdur, ancaq xalqın etirazı var. Xalq, ilk növbədə, Bakıya qoşun yeridilməsinə etiraz edir. Ən başlıcası isə, Vəzirovun istefasını tələb edir. O vaxt əsas tələblərdən biri Vəzirovun istefası tələbi idi. Dedim ki, Vəzirovun istefa verdiyi elan olunarsa, bəlkə də, xalq sakitləşər, digər məsələləri həll etmək olar. O isə mənə bildirdi ki, Vəzirov yoxdur, ancaq onun da məsələsi artıq həll olunubdur. Dedim ki, əgər həll olunubdursa, bunu xalqa elan etmək lazımdır.

**JURNALİST***:* Siz ikilikdə söhbət edirdiniz?

**Etibar MƏMMƏDOV***:* Hə, ikimiz idik. Dedi ki, bunun üçün plenum çağırılmalıdır, qərar verilməlidir, plenum çağıra bilmədik. Nə isə, bu cür bəhanələr gətirdi. Ondan sonra mənə dediyi həmin o iki saat məsələsi ətrafında çox mübahisə oldu. Yəni bu iki saat nə deməkdir, iki saatdan sonra siz nə etmək fikrindəsiniz? O, konkret cavab vermədi. Oradan çıxanda mən Daşdəmirovu gördüm, onun yanında tanımadığım başqa bir adam vardı. Daşdəmirov da bildirdi ki, vəziyyət belədir. Dedim, əgər Vəzirov yoxdursa, ərizə yazaraq qaçıbsa, tez bunu elan etmək lazımdır. Bunun üçün əgər plenum çağırılmalıdırsa, bizim köməyimiz lazımdırsa, gedək, lazım olan adamları evlərindən gətirək. O mənə dedi ki, burada heç kim yoxdur. Dedim ki, plenum keçirə bilmirsinizsə, Mərkəzi Komitə bürosunun üzvlərini yığıb qərar qəbul edin.

Mən ona dedim ki, indi xalqın taleyi sizdən, verəcəyiniz qərar-dan asılıdır. Daşdəmirov mənə dedi ki, biz heç bir qərar verə bilmərik, çünki heç bir rəsmi səlahiyyətimiz yoxdur. Mərkəzi Komitədə bildirdilər ki, plenum çağırmaq və büro üzvlərini yığmaq mümkün deyildir. Həmin vaxt, təxminən saat 19.30 olardı, indiki kimi yadımdadır, biz qəbul otağında söhbət edərkən, siyasi icmalçı Həmid Əliyev televiziyada çıxış edirdi. Birdən ekranda partlayışı xatırladan işartı göründü. Aşağı düşəndə mənə bildirdilər ki, televiziya studiyasında enerji bloku partladılıbdır. Mən Mərkəzi Komitənin qarşısında çıxış etdim, Polyaniçkonun dediklərini, o cümlədən bizə iki saat vaxt verdiyini camaata çatdırdım. Sonra biz bu məsələni dəqiqləşdirdik. Məlum oldu ki, doğrudan da, televiziya studiyasında enerji bloku partladılıbdır. Bununla da xalqa hər hansı müraciətin qarşısı alınıbdır.

**JURNALİST***:* Bilirsinizmi, mən bunu sizdən nə üçün belə ətraflı soruşdum? Çünki Mərkəzi Komitənin keçmiş katibi Telman Orucov deyir ki, Etibar Məmmədov saat 4.00-dan bilirdi ki, hücum olacaq. Bunu Polyaniçkodan öyrənmişdi. Mən Mərkəzi Komitənin büro üzvü idim, lakin bunu bilmirdim. Yəni Etibar Məmmədovun xalqı xəbərdar etməyə imkanı var idi.

**Etibar MƏMMƏDOV***:* Telman Orucov, Mərkəzi Komitənin digər üzvləri riyakarlıq edərək bu gün nə isə deyə bilərlər ki, Etibar Məmmədovun və yaxud başqasının nədənsə xəbəri vardı, lakin xəbər verməyibdir. Ancaq onlar bilməmiş deyildilər ki, həmin hadisələrdən bir neçə gün əvvəl Bakıya nə qədər qoşun yeridilmişdi. Çünki onlar bilirdilər ki, bunun üçün nə qədər vəsait, ərzaq ayrılıbdır. Onlar bilməmiş deyildilər ki, bizim milis şöbələri tərksilah olunublar, hadisədən bir gün əvvəl bütün xəstəxanalar boşaldılıb, xəstələrin hamısı öz evlərinə köçürülübdür ki, orada boş yerlər qalsın. Onlar büro üzvü kimi bilməmiş deyildilər ki, bütün rayon partiya komitələrinə göstəriş verilibdir ki, hər kəs hazır olsun, çağırılan kimi gəlsin. Onlar bütün rayon partiya komitələrinin komendaturalar üçün ayrılmasından xəbərdar idilər. Bilirdilər ki, hansı komendaturaya kimlər gələcəkdir. Onların hamısı bu dediklərimi bilirdilər. Hadisələrdən vaxt ötdükcə, onlar özlərinə bəraət qazandırmaq üçün digərlərini, xüsusən də xalq hərəkatında iştirak edənləri ittiham etməyə çalışırlar. Onlar çalışırlar ki, məsuliyyətdən özlərini kənarlaşdırsınlar. Təəssüflə qeyd etmək istəyirəm ki, o zamankı rəhbərliyə daxil olan insanlardan, o vaxtkı Kommunist Partiyası Mərkəzi Komitəsi bürosunun üzvlərindən heç olmasa kimsə, rəsmi olaraq etiraz etsəydi, bu, xalqa çox böyük təskinlik verərdi. Xalqın mənəvi cəhətdən ağır sıxıntıya məruz qalmasının ən böyük səbəbi bu idi ki, respublikamıza rəhbərlik edən şəxslərdən biri də səsini qaldırmadı, etiraz etmədi və xalq özünün rəhbərsiz olduğunu gördü. Bu, genişmiqyaslı faciəli hadisələrdən sonra xalqa ən ağır zərbə idi.

**JURNALİST***:* Bəllidir ki, bu faciənin yaranmasında Polyaniçkonun "çox böyük tarixi rolunun" olması faktdır. Əfqanıstanda xüsusilə bu sahədə peşəkarlıq göstərən Polyaniçkonun sonrakı hikkəsi Azərbaycan xalqının başına bu müsibəti gətirməkdən ibarət oldu. Yəni, xalqımızın başına gətirilən müsibətlərdə Polyaniçkonun doğrudan da "tarixi xidmətləri" olubdur. Amma mətbuatdan da, özünüzün müsahibələrinizdən də məlum olur ki, Polyaniçko ilə aranızda çox yaxşı münasibətlər olubdur. Bu dostluğun tarixi haradan başlayır?

**Etibar MƏMMƏDOV***:* Birincisi, kim bu münasibətlərə dostluq adı verirsə, mən onlara cavab verə bilərəm ki, Polyaniçko düşməndir, bunu hamı bilir. O, vəzifəsini yerinə yetiribdir. Polyaniçko xalqımıza qarşı düşmən ola bilər. O, öz xalqına, dövlətinə xidmət etmək üçün həmin vəzifəni yerinə yetirməli idi. Ona görə də heç kəs Polyaniçkoya dost kimi baxa bilməz.

Polyaniçko kimilərdən Azərbaycan xalqının taleyi asılı olduğuna görə, biz onunla danışmaq məcburiyyətində idik. Bu danışıqların nəticəsində də hansısa qərara gəlməli idik. Əgər kimsə bizim kimlərləsə xüsusi münasibətlərimiz olduğunu deyirsə, bu, sadəcə, qeyri-məntiqi fikirdir və gülüş doğurur. Kiminsə konkret olaraq mənə qarşı bir ittihamı varsa, istənilən vaxt ona cavab verməyə hazıram. Amma Polyaniçko kimi adamları mən ittiham edə bilmərəm ki, nə üçün onlar xalqımıza qarşı bu cinayətləri törədiblər. Çünki bu, onun vəzifəsidir. O, öz dövlətinə xidmət edirdi və bizim xalqa qarşı bu işləri həyata keçirmişdir. Biz xalqı qorumalı olan adamları ittiham etməliyik. Onların vəzifə borcu idi ki, xalqı, onun hüquqlarını qorusun, təhlükəsizliyini təmin etsinlər. Biz bu adamlardan cavab tələb etməliyik. İmperiyanın nümayəndələrinin mövqeyi aydındır. Girenkonun, Mixaylonun, Yazovun vəzifəsi imperiyaya xidmət etmək olub. Onların günahlarını sübut etməyə ehtiyac yoxdur. Əsas məsələ xalqı qorumağa borclu olan vəzifəli şəxslərin günahını müəyyən etməkdir ki, gələcəkdə xalqı qorumağa borclu olan şəxslər öz vəzifələrindən imtina etdikdə, onu yerinə yetirmədikdə məsuliyyətdən qaça bilməsinlər. Beləbəri əgər dünən məsuliyyətdən qaçıblarsa, deməli bu gün də, sabah da qaçacaqlar. Bunlar isə faciəli hadisələrlə başa çatacaqdır.

**Telman ORUCOV***:* Yanvarın 19-da axşam saat 8.00 radələrində mən kabinetimdə idim. Həmin gün Vəzirov işdə olmamışdı. O, mənə haradansa birbaşa telefonla zəng vurdu. Dedi ki, gələcəkdə Bakıya qoşun yeridilməsi məsələsi olarsa, siz buna necə baxarsınız?

**JURNALİST***:* Təqribən saat neçə idi?

***Telman ORUCOV:*** Axşam saat 8.00 idi. Mən qəti surətdə ona bildirdim ki, bu, hökmən qan tökülməsinə səbəb olar. Çünki o vaxt, Bakı fırtınalı dənizə bənzəyirdi. Bu fırtınanın qarşısında hər hansı "yelkən" dözə bilməzdi. Ona görə də belə vaxtda qoşun yeritmək Bakını mütləq qana qərq etmək idi. Mən ona dedim ki, qan tökülməsinə görə cavab vermək də lazım olacaqdır. Buna qətiyyən yol vermək olmaz. Mən onu daha da inandırmaq üçün dedim ki, bu, əgər Moskvanın təşəbbüsüdürsə, siz Qorbaçovla əlaqə saxlayıb, onu inandırmalısınız ki, belə səhv addım atmasın. Bunu gecikdirmək olmaz. Axırda o mənə dedi ki, mən sənin mövqeyini başa düşdüm. Bu, mənə aydındır. Söhbətimiz bununla da qurtardı.

Sonra biz gecə saat on ikiyə işləmiş işdən çıxıb gedəndə o vaxtkı partiya komissiyasının sədri Rauf Axundov həyət tərəfdən qarşımıza çıxdı. Bizim küçəyə çıxmaq imkanımız yox idi. Mərkəzi Komitənin qarşısında mitinqçilər dayanmışdılar. O, bizə həyəcanla bildirdi ki, Bakıya qoşun yeridilir. Bu, bizim üçün gözlənilməz xəbər idi. Çünki Vəzirovla söhbətdə o, Bakıya gələcəkdə qoşun yeridilməsi barədə mənim rəyimi soruşurdu. 2-3 saatdan sonra Bakıya qoşun yeridilməsi söhbəti olmamışdı. Biz Rauf Axundovun dediyi sözlərə əvvəlcə inanmadıq. Lakin o, bizi inandırdı ki, həqiqətən belədir, bu barədə onun məlumatı var. O vaxt geri qayıtmaq istədik. Kimsə məsləhət gördü ki, Nazirlər Sovetinin sədri Mütəllibovun kabinetində işıq yanır, yaxşısı budur, oraya gedək və oradan əlaqə saxlayaq. Açığını deyim, yaxşı oldu ki, biz oraya getdik. Çünki biz heç kəslə əlaqə yarada bilməzdik. Çünki Moskvadan gələnlərlə birbaşa əlaqə saxlamaq mümkün idi. Biz Mütəllibovun kabinetinə getdik, əvvəlcə Cənub qoşunlarının komandanı, ordu generalı Popovla danışdıq. Onun idarəsi Bakıda yerləşirdi və o, Mərkəzi Komitə bürosunun üzvü idi. Həmin an o, yaxasını dərhal kənara çəkdi. Nəhayət, keçmiş SSRİ müdafiə naziri Yazovla telefonla danışdıq. O, qəti surətdə bildirdi ki, ordunun Bakıya yeridilməsi haqqında qərarı Mərkəzi Komitənin Siyasi Bürosu verir, bu, mənim işim deyil, siyasi məsələdir.

Mən əsgər kimi ancaq əmri yerinə yetirirəm. Çox söhbətdən sonra heç nə alınmadı. Biz evə getdik, sonra qanlı faciə baş verdi.

Adamlar qırıldı, azərbaycanlıların, Bakı sakinlərinin, günahsız insanların qanı axıdıldı. Yəqin ki bu ləkə uzun müddət heç kəsin üzərindən silinməyəcəkdir. Çünki o dövrdə siyasətlə az-çox məşğul olan adamların barrikadanın hansı tərəfində dayanmasından asılı olmayaraq, hamısının günahı var. Dediyim kimi, bu faciə Azərbaycan xalqının tarixində olan nadir faciələrdən biridir. Ona görə mən özümün də, digər adamların da heç birinin günahını azaltmaq istəmirəm. Günah var, amma bir məsələ də var ki, günah vicdana aid olan məsələdir, Allah qarşısındakı cavabdehlikdir, məsuliyyətdir. Amma təqsir hüququn obyektidir. Bilavasitə təqsirkar olan adamlar gərək tökülən qana görə cavab versinlər.

**JURNALİST***:* Sizcə, o adamlar kimlərdir?

**Telman ORUCOV***:* Mən güman edirəm ki, ordunun Bakıya yeridilməsinə qərar verən və o qərara razılıq verən adamlardır.

**JURNALİST***:* Ordunu yeridən, qərar verən məlumdur. Respublikamızda buna razılıq verənlər kimlərdir?

**Telman ORUCOV***:* Yəqin ki, respublikanın birinci rəhbərləri razılıq verməsələr, SSRİ nə qədər totalitar dövlət olsa da, heç kəs bilmədən qoşunu buraya yeritmək mümkün deyildi.

**JURNALİST***:* Telman müəllim, siz rəhbərləri deyirsiniz. Təkcə Vəzirovu nəzərdə tutursunuz, yoxsa Mütəllibovu da. Çünki bunların biri hökumətin rəhbəri idi, digəri isə partiyanın.

**Telman ORUCOV***:* Mən ayırmaq istəmirəm. Yenə də deyirəm ki, respublikanın birinci şəxslərinin, o cümlədən Moskvanın Azərbaycandakı nümayəndəsinin bu məsələlərdən, şübhəsiz ki, xəbəri var idi. Saat 8.00-da olan zəng onu göstərir ki, artıq bunlara çox şey məlum idi. Çox təəssüf ki, mərhum Polyaniçko saat 4.00-da Xalq Cəbhəsindəki bəzi adamları çağırıb bu məsələni əgər demişdisə, Mərkəzi Komitənin büro üzvlərinə, şəxsən mənə heç nə deyilməmişdi. Ona görə də mən tam məsuliyyətlə və səmimiyyətlə demək istəyirəm ki, o qan qarşısında yalan danışmaq, həmin qana bais olmaq deməkdir.

**JURNALİST***:* Telman müəllim, mən sizin səmimiyyətinizə inanmaq istəyirəm. Ancaq ad çəkmədiyinizə görə inanmıram. Siz birinci şəxslər deyirsiniz, özünüz neçənci şəxs olmusunuz?

**Telman ORUCOV***:* Mən onda Mərkəzi Komitənin kollektiv rəhbərliyinin üzvü olmuşam. Mərkəzi Komitə bürosunun üzvü, beş katibdən biri olmuşam. Ona görə də əgər mən birinci katib vəzifəsini daşısaydım, yəqin ki, o təqsirkarların arasında mən də olmalıydım. Yenə də deyirəm, yəqin ki, birinci şəxslərə, - istər Vəzirov olsun, Mütəllibov olsun, ya mərhum Elmira Qafarova olsun - və bir də Moskvanın nümayəndəsi Polyaniçkoya yəqin məlumat verilmişdi ki, ordu Bakıya girəcəkdir. Amma Mərkəzi Komitənin bürosuna, yenə deyirəm, deyilməmişdi. Əgər büroda bu məsələ qoyulsaydı, hər halda Mərkəzi Komitənin bürosu özünün məhvinə səbəb olan belə addımı atmazdı. Yenə deyirəm, çünki o vaxt belə məsələyə razılıq vermək, öz ölümünə hökm vermək, özünün qətli barədə hökmə qol çəkmək demək idi.

**JURNALİST***:* Əvvəllər - 1988-1989-cu illərdə Bakıda keçirilən mitinqlərdə heç bir qan qaraldıcı hadisə baş verməsin deyə, asayişin keşiyində dayanmaq üçün rayonların birinci katibləri, milis rəisləri, rəhbər vəzifəli adamları səhərə qədər mitinqlərdə olurdular. Çox yaxşı xatirimdədir, Vəli Məmmədov 26 Bakı komissarı rayonunun partiya komitəsinin birinci katibi idi. Mən onu həmişə mitinq iştirakçıları arasında görürdüm.

Mitinqdə xoşagəlməz hadisələr baş verməməkdən ötrü o, iştirakçılar arasında olurdu. Bununla da hadisələrin qarşısı müəyyən qədər alınırdı. Hamı səfərbər olunurdu, hiss edilirdi ki, burada respublika rəhbərliyinin nəzarəti var. Amma 20 Yanvar hadisəsi baş verən gecə siz hamınız evinizə getmişdiniz. Belə olan halda rəhbərliyin nümayəndələrindən heç kəs zərər çəkmir, camaat küçələrdə qalır və qırılanlar olur. Yəni rəhbər işçilərdən bir nəfər də olsun əhalinin toplaşdığı, barrikadalar qurulduğu yerlərdə olmamışdır. Bu təhlükəni görə-görə nə üçün rəhbər işçilərin heç biri yerlərdə olmamışdır?

**Telman ORUCOV***:* Mən sizinlə razıyam. Həmin təhlükənin hiss olunduğu bir vaxtda rəhbər işçilər camaat arasında olmamışlar. Amma o dövr elə çətin, mürəkkəb, anlaşılmaz bir dövr idi ki, orada kiminsə özünü

daha fəal aparmaq istəyi, onun üçün fitnəkarlıq kimi qiymətləndirilə bilərdi. Açıq demək lazımdır ki, o vaxt Mərkəzi Komitənin nüfuzu xeyli aşağı idi və xalqa təsir etmək məsələsində elə imkanlara malik deyildi.

**APARICI*:*** Yanvarın 19-u axşam saat 19.25 dəqiqədə televiziya ekranlarına qaranlıq çökdü. Televiziya verilişlərinin dayanması bütün respublikaya çaxnaşma saldı. Bu, dəhşətli cinayətin həyata keçirilməsi üçün ilk addım oldu. Şəhərin əsas giriş yollarında yerləşdirilmiş cinayətkar ordu və zirehli texnikanın hücum planı artıq yerinə yetirilməyə başlandı. Lakin xalq ordunun ona atəş açacağına heç vaxt inanmırdı.

Qoşun şəhərə yeridilir. Yanvarın 19-dan 20-nə keçən gecə, əvvəlki günlərdə şəhərdə yerləşdirilən qüvvələrdən əlavə, Bakıya qoşun yeridilməsi saat 00.00 radələrində başlandı. Tank, ZTR, PDM kimi ağır hərbi texnika, desant qüvvələri şəhəri tapdaq altına aldı. Qoşun bütün istiqamətlərdə avtomat, pulemyot və tanklardan aramsız atəş açırdı. Bu vəhşilik çoxlu insan qırğını ilə nəticələndi.

Yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycanın tarixinə Bakının faciəsi kimi yazıldı. Küçələr, meydanlar, binalar ölüm saçan güllələrin işığına büründü. Zirehli texnikanın və pulemyotların qan qoxuyan nəfəsi heç kəsə rəhm etmədi. Amalı, istəyi uğrunda ölümə atılan vətən oğulları azğınlaşmış ordunun qarşısından qaçmadılar. Sinələrini sipər etdilər. Qocanı, qadını, uşağı qanına qəltan edən amansız düşmənin törətdiyi qırğınlar azadlıq eşqi ilə meydana atılan oğulların iradəsini qıra bilmədi.

20 yanvar, saat 5.30 dəqiqə, fövqəladə vəziyyət... Bakıda fövqəladə vəziyyətin elan olunmasından əhali ilk dəfə şəhər komendantlığının məlumatından xəbər tutdu. Bu o vaxt idi ki, artıq şəhərdə qan tökülmüş, hərbi hissələr Bakını ələ keçirmişdi. Səhər saat 5.30 dəqiqədə şəhər komendantının radio ilə səslənən müraciətində və vertolyotlardan atılan vərəqələrdə fövqəladə vəziyyətin elan olunduğu bildirilirdi. Lakin 20 Yanvar faciəsi artıq baş vermişdi.

**JURNALİST*:*** Faciənin səhəri günü respublikamızın, mən deyərdim ki, xalqın həyatı ilə yaşayan bir çox ziyalıları, deputatları fövqəladə sessiya keçirmək istədilər. Yanvarın 22-də belə bir sessiya keçirildi. O sessiyada rəhbər işçilər cidd-cəhdlə çalışırdılar ki, sessiya baş tutmasın. Əslində siz - respublikanın rəhbərləri bunda maraqlı olmalıydınız ki, baş verən hadisə aydınlaşdırılsın, müzakirə olunsun, qiymətləndirilsin. Siz sözünüzü deyəsiniz, xalqa müraciət olunsun. Əksinə, buna mane olmağa çalışdınız və o cümlədən siz, dəfələrlə müraciət olunmasına baxmayaraq, o sessiyaya gəlmədiniz.

**Telman ORUCOV*:*** Çox yaxşı ki, siz bu məsələyə toxundunuz və bəzi məsələləri açıq bildirirsiniz. Heç nə gizlin qalmamalıdır. Bu gün kimsə nəyisə gizlətməyə çalışırsa, sabah və ya başqa bir gün açılacaqdır. Hər şeyi səmimiyyətlə, olduğu kimi demək lazımdır. O vaxt biz sessiyanın keçirilməsinə mane olmaq imkanına malik deyildik. Çünki rayonlarla telefon rabitəsi demək olar ki, yox idi. Kiməsə zəng vurmaq mümkün deyildi, yarı anarxiya vəziyyəti yaranmışdı. O vaxt Mərkəzi Komitənin kiməsə təsir etmək, kiminsə qarşısını kəsmək barədə addımı onu gülünc vəziyyətdə qoya bilərdi. O ki qaldı sessiyada iştirak etmək məsələsinə, mən razıyam. Ancaq həmin gün Nazirlər Soveti sədrinin kabinetində Moskvanın nümayəndələri Mərkəzi Komitə bürosunun üzvləri ilə birlikdə müşavirə keçirdilər.

Belə qərara gəlindi, büronun belə rəyi oldu ki, Mərkəzi Komitənin bürosundan bir nəfər nümayəndə orada iştirak etsin. Çünki Moskvanın nümayəndələri müxtəlif məsələlər irəli sürürdülər. Ona görə onlar qəti göstəriş verdilər ki, büro üzvləri sessiyaya getməsinlər, bir nəfər nümayəndə sessiyada iştirak etsin. Həsənov sessiyaya getdi. O vaxt partiya intizamı əvvəlki kimi qalırdı. Heç kəs onu poza bilmirdi. Vəzirovdan, Mütəllibovdan və qeyrisindən asılı olmayaraq, Moskvanın nümayəndələri bu fikri büroya təlqin etdilər və büro həmin fikirdə oldu. Mərkəzi Komitə bürosunun üzvlərindən mərhum Elmira Qafarova Ali Sovetin sədri kimi sessiyada iştirak etməli idi və Mərkəzi Komitə bürosunun nümayəndəsi kimi Həsənov iştirak etməli idi. Büronun bütün üzvləri deputat olduqları halda, onların hamısına sessiyada iştirak etmək qadağan olunmuşdu.

**JURNALİST*:*** Mən həmin büronun stenoqramını oxumuşam. Bunu bilirdim, sizin öz dilinizdən eşitmək istəyirdim. Telman müəllim, siz bu xalqın oğlusunuz, xalqın çörəyi ilə, himayəsi ilə o mərtəbəyə çatmışdınız. O qırğından sonra Moskvanın dediyi ilə oturub-durmağa nə ad vermək olar? Qırğın təzəcə baş vermişdi. Biz şəhidləri dəfn etməmiş Moskva sizi yenidən yığır, büro üzvlərinin başına ağıl qoyur ki, elə hərəkət etməyin, belə edin.

**Telman ORUCOV***:* Bilirsinizmi, Moskvadan gələnlər də, əslində, bu məsələdə öz günahlarını qətiyyən etiraf etmirdilər. Onlar deyirdilər ki, burada başqasının barmağı var, bu, onların işi deyildir. Yazov dedi ki, mən əsgərəm, əmri yerinə yetirirəm. Bakıda mənim nə işim var?

**JURNALİST***:* Onda kimin işidir?

**Telman ORUCOV***:* Aydın məsələdir ki, ölkənin rəhbərinin işidir. O vaxt ölkədə bircə rəhbər var idi. O da Qorbaçov idi.

**JURNALİST***:* Yaxşı, bunlar da Qorbaçovun adamları idi. Siz onların dedikləri ilə necə durub-otura bilərdiniz? Yenə də deyirəm, mən həmin materialları oxumuşam. Adama təsir edən budur ki, elə bil dünyanın düz vaxtında Moskvanın emissarları gəlirlər bizim büroda ağayana iştirak edirlər, yol göstərir, məsləhət verirlər. Bir də deyirəm, şəhidlər dəfn olunmayıb, amma onlar isə özlərini büroda həmin amiranəliklə aparırlar. Bir nəfər də olsun onların gözünün içinə demir ki, siz təcavüzkarsınız, Bakını işğal etmisiniz, dinc əhalini qırmısınız, bu millətin qanına susamısınız. Bu sözləri bir nəfər də olsun demir.

**Telman ORUCOV***:* Mən sizinlə razıyam. Amma...

**JURNALİST***:* İnanın, bu fikri deməklə mən qəhrəman olmaq, tamaşaçıların qarşısında özümü reklam etmək niyyətində deyiləm. Sadəcə olaraq, mən inana bilmirəm ki, sizin heç biriniz bunu etməmisiniz.

**Telman ORUCOV***:* Bir vətəndaş, bir jurnalist və ziyalı kimi də sizin belə sual verməyə ixtiyarınız var. Bu suallar yəqin ki, xalqımızın müəyyən hissəsini maraqlandırır. Yəqin ki, o vaxt partiya orqanlarında işləyən adamların hamısı çox gözəl bilir ki, onların başları üstündə partiya intizamı deyilən bir Domokl qılıncı asılmışdı. Bu intizamdan azacıq kənara çıxan adamların hamısını həmin qılıncın onun boynunu kəsməsi gözləyirdi. Ona görə də Moskvanın indicə sizin emissar adlandırdığınız nümayəndələrinin - o vaxt biz onları rəhbərlər adlandırırdıq - sözləri çox vaxt heç müzakirə olunmurdu. Birbaşa ancaq icra edilirdi, həyata keçirilirdi.

**JURNALİST***:* Siz heç şəhidlərin dəfninə də gəlmədiniz. Həmin gün iki milyonluq şəhər ayağa qalxaraq şəhidləri dəfn etdi. Amma siz gəlmədiniz.

**Telman ORUCOV***:* Dediyim kimi, dəfndə biz iştirak etmədik. Ona görə ki, o vaxt biz o məsələlərlə məşğul idik. Sonra da bəzi yoldaşlar Moskvaya uçdular, ona görə də dəfndə iştirak etmədik. Çünki o vaxt hadisələr elə cərəyan edirdi ki, yəqin çoxları həmin mərasimdə iştirak etməyə özündə cəsarət tapmırdı.

**JURNALİST***:* O cümlədən siz.

**Telman ORUCOV***:* Yəqin ki, söhbət belə gedir.

**JURNALİST***:* Siz Moskvaya getmək mövzusuna toxundunuz. Sözün düzü, mən istəmirdim bu məsələyə toxunum. Bir halda ki, siz o sözü işlətdiniz, yəni şəhidlərin qanı hələ qurumamış Mərkəzi Komitə birinci katib olmaq iddiasındakı ayrı-ayrı adamların dava-dalaş meydanına çevrilmişdi. O cümlədən, birinci katib olmaq üçün sizin də namizədliyiniz vardı.

**Telman ORUCOV***:* Bilirsiniz, o vəzifəyə can atanlarla həmin vəzifəyə təklif olunanların arasında müəyyən hədd qoymaq daha düzgün olardı. Büroda dörd nəfərin namizədliyi verilmişdi. Polyaniçko büroya sədrlik edirdi. O, məlumat verdi ki, bütün partiya fəalları ilə sorğu apardıqdan, onların rəyini, fikrini öyrəndikdən sonra Mərkəzi Komitənin birinci katibi vəzifəsinə dörd nəfərin namizədliyi irəli sürülə bilər. Bunlar Mütəllibov, Həsənov, Orucov və Hüseynovdur. Mən o dəqiqə çıxış etdim, dedim ki, adım siyahıdan çıxarılsın. Çünki mən belə bir şəraitdə bu vəzifəyə seçilməyi qətiyyən istəmirəm. Sonra Hüseynov da öz namizədliyini geri götürdü. İki nəfər - Mütəllibov və Həsənov səsə qoyuldu. Amma Polyaniçko plenumda da elan etdi ki, dörd nəfərin namizədliyi verilmişdi. iki nəfər namizədliyini geri götürdü.

**JURNALİST***:* İki nəfərin namizədliyi səsə qoyulanda siz Mütəllibovun birinci katib olmasına cidd-cəhdlə kömək etmək istəmisiniz. Yəqin ki, siz bizim verilişlərə çox diqqətlə baxmısınız. Yadımdadır, keçən ilki verilişlərdə o vaxt kənd rayonlarında rayon partiya komitələrinin birinci katibləri plenuma gələr-gəlməz, siz onların hamısını Mütəllibova səs verməyə təhrik etmisiniz. Bu barədə yəqin ki, siz özünüz də televiziya verilişlərindən eşitmisiniz.

**Telman ORUCOV***:* Mən sizə yox, bu barədə danışanların ünvanına demək istəyirəm ki, bu, tam iftiradır. Əgər bir raykom katibi ilə mənim belə söhbətim olubsa, bu məsələni özü deyə bilər. Onu da deyim ki,

plenum gecə saat 12-də başladı. O vaxt ki-misə qəbul etmək, kiminləsə söhbət etmək imkanı, şəraiti də yox idi. Əgər var idisə, bu işlərə başçılıq edən Mərkəzi Komitənin ikinci katibi idi. Çünki o, təşkilati məsələlərə bilavasitə başçılıq edən adam idi.

**Emin ƏLİYEV** (magistr): 20 Yanvar hadisəsini tarixi aspektdən araşdırsaq, daha yaxşı olardı. Çünki 20 Yanvar faciəsində erməni amili xüsusi rol oynamışdır. Bundan sonra isə Azərbaycan rəhbərliyinin bu qırğındakı günahından danışmaq yerinə düşərdi. 130-a qədər cənazə eyni vaxtda qaldırıldı, lakin Azərbaycanın rəhbərlərindən heç biri həmin dəfn mərasimində iştirak etmədi. Tarixin gedişində bizə aydın oldu ki, həmin insanlar - Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov, Vaqif Hüseynov Moskvaya qaçdılar. Onlar Moskvada öz mənfur niyyətlərini həyata keçirmək istədilər. 20 Yanvar, əslində, Azərbaycan xalqına qarşı törədilmiş soyqırımlardan biri idi. Həqiqətən də Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov Azərbaycan xalqının birbaşa iştirakı ilə yaradılacaq və keçiriləcək məhkəmələrdə cavab verməlidirlər.

**Nəbi XƏZRİ** (xalq şairi): Mənə elə gəlir ki, hər şeyin bir zirvəsi olur - ədalətin də, məhəbbətin də, sədaqətin də, eyni zamanda cinayətin də, fitnəkarlığın da, satqınlığın da. Adətən zirvələr ondan uzaqlaşdıqca daha aydın görünür. Ona görə indi biz bu hadisəyə çox böyük diqqətlə baxır və olub-keçənləri daha dəqiq, aydın görürük. Bu, xalqın milli yaddaşını özünə qaytarmaq, inamını daha da möhkəmləndirmək üçün çox vacibdir.

O vaxt mən xəstə yatırdım. Yanvarın 24-də plenumda iştirak etdim. Orada tribunaya qalxıb tələb etdim ki, Yazov buraya gəlsin. Yazov Nasos qəsəbəsində hərbi aerodromda oturmuşdu. Bütün hadisələrə oradan rəhbərlik edirdi. Qırğınlar hələ davam edirdi. Respublikanın rayonlarına qədər gedib çatmışdı. Biz tələb edirdik ki, o, plenuma gəlsin, cavabdeh olsun. "İzvestiya" qəzetində onun müsahibəsi dərc edilmişdi. Deyirdi: "Biz Bakıya girdik ki, xalq hərəkatını dağıdaq". Mən dedim, bir yerdə ki "xalq" sözü var, xalq var, onu dağıtmaq olmaz. Xalqı qırmaq, məhv etmək olmaz. özü də Azərbaycan xalqı kimi böyük mədəniyyətə malik, əsrlər boyu dünyaya böyük korifeylər vermiş bir xalqı heç cür qırmaq, məhv etmək olmaz. "Amerikanın səsi" radiosu ilə bizim əlaqələrimiz vardı, onlara bəyanatlar çatdırırdıq, onlarla teleks əlaqəmiz vardı. "Azadlıq" radiosuna məlumatlar verirdik. Bu verilişlərin yaxşı cəhəti ondadır ki, kimin kim olduğunu aydınlaşdırır. Hər şey öz yerini tutur.

**APARICI*:*** Bəli, Moskva və onun yerlərdəki əlaltıları o gecə Azərbaycan xalqına qarşı qanlı cinayət törətdi. Gecəni yuxusuz qalan Bakı səhər bu dəhşətli cinayətin qanlı izlərinin şahidi oldu: əzilmiş maşınlar, güllələnmiş binalar, qətlə yetirilmiş insanlar. Üzdəniraq "şanlı" sovet ordusunun Bakıya zəfər yürüşünün sonu bu idi. Sovet imperiyasının qanlı siması bu idi. Amma bütün bunlar xalqımızın azadlıq əzmini daha da artırdı. Azərbaycan bir gecənin içində əsrə bərabər yol keçdi. Bu, azadlıq, istiqlal yolunun başlanğıcı idi. Törədilən qətllər də, qırğınlar da xalqı bu yoldan artıq döndərə bilməzdi və bilmədi də.

**Xəbər verdiyimiz kimi, Azərbaycan Dövlət Televiziyası 1990-cı ilin faciəli yanvar hadisələrinə həsr olunmuş "Qanlı Yanvar, 1990" adlı verilişlər hazırlamışdır. Yanvarın 19-da efirə getmiş ikinci verilişin mətnini oxuculara təqdim edirik.**

**APARICI*:*** Yeni ilə, 1990-cı ilin yanvarına Azərbaycan çox ağır və mürəkkəb siyasi şəraitdə qədəm qoydu. 1988-ci ildən başlanan xalq hərəkatı səngimək bilmirdi. Əksinə, Dağlıq Qarabağda erməni separatçılarının gündən-günə artan həyasızlığı qarşısında o vaxtkı Azərbaycan rəhbərlərinin acizliyi, öz xalqının mənafeyinə zidd mövqeyi və rəsmi Moskvanın sözdə bir, əməldə isə tamam baş-qa yol tutması Bakıda başlayan mitinq dalğasını daha da gücləndirirdi.

Yanvarın 9-da Ermənistan Ali Sovetinin Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişaf planını öz illik planına daxil etməsi qonşu respublikanın Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə açıq-aydın müdaxiləsi idi. Ermənistanın bu həyasız hərəkətinə mərkəzin heç bir hüquqi, siyasi qiymət vermədiyini və Vəzirov, Mütəllibov hakimiyyətinin xəyanətkarcasına ağzına su alıb susmasını görən Azərbaycan xalqı öz haqqını tələb etmək üçün küçələrə, meydanlara axışırdı. Kreml Azərbaycanda gündən-günə genişlənən xalq

hərəkatını boğmaq üçün yeni-yeni məkrli planlar hazırlayırdı. Moskvanın emissarı olan Primakov isə Bakıya tankların girməyəcəyini bildirirdi.

Bakıda isə demək olar ki, iki-hakimiyyətlilik hökm sürürdü. İqtidar və Xalq Cəbhəsinin başçıları arasında kürsü davası gedirdi. Bu da mərkəzin öz təxribatçı planlarını reallaşdırmaq üçün münbit şərait yaradırdı. Beləliklə, yanvarın ilk günlərində imperiya qüvvələri pozuculuq fəaliyyəti üçün xüsusi idarələrin əməkdaşlarını Bakıya yerləşdirməyə başladı. Hər şey yaxınlaşan təhlükədən xəbər verirdi. Xalq, sadə adamlar bilməsə də, respublikanın və Xalq Cəbhəsinin başabəla başçıları Bakının üzərində gündən-günə sıxlaşan qara buludların gec-tez qan-qada ilə, fəlakətlə nəticələnəcəyini yaxşı bilirdilər. Fəqət, tezliklə Bakı küçələrində törədiləcək amansız qırğının qarşısını almaq onların heç birinə sərf etmirdi. Çünki hakimiyyətə susamış bu qüvvələrin gözündə xalq yalnız vəzifə kreslosuna yiyələnmək üçün bir vasitə idi.

Yanvarın 13-də imperiyapərəst qüvvələrin planına uyğun olaraq, Vəzirovun və Xalq Cəbhəsinin razılığı ilə Milli Müdafiə Şurası yaradıldı. Elə həmin gün də Moskvadan təlimatlandırılan xüsusi idarələrin əməkdaşları Bakıda erməni qırğınları təşkil etdilər. Bununla da, düşmən xalq hərəkatını məhv etmək üçün əsas əldə etdi. Həmin vaxt Bakıda olan SSRİ daxili qoşun hissələri bu təxribatların qarşısını almadı, seyrçi mövqe tutdu. Elə bu faktın özü törədilmiş təxribatlar planının mərkəzdə hazırlandığını sübut edirdi.

**Firuz HAŞIMOV** (tarixçi-jurnalist): Ayın 13-də meydanda baş verən mitinqdə Milli Müdafiə Şurasının yaradılması elan olunanda mən bu adamların siyahısına baxdım. Onların yefreytor qədər də hərbi savadı və səviyyəsi yoxdur. Bu adamlar kimi və nəyi müdafiə edəcəkdilər? Hansı qüvvələr ilə? Bəlkə, Azərbaycanın neçə dənə korpusu var idi? Bəlkə, bütün camaat təpədən-dırnağadək silahlanmışdı? Şəhərdə istənilən qədər qoşun var idi. Sonradan da, ayın 13-dək Bakı qarnizonundan savayı da qoşun gətirib tökmüşdülər. Bu qədər silahlı qüvvənin Bakıda olması fakt idi və bunu Xalq Cəbhəsinin liderləri də, iqtidar da bilirdi. Şəhərdə bu qədər qoşun, texnika ola-ola hansı milli müdafiədən söhbət gedə bilərdi? Bu, gözə kül üfürmək və baş verəcək bütün faciələrə görə cavab verməmək, özünü sığortalamaq idi. Bu idi məsələ. Faciə baş verəndə məlum oldu ki, doğrudan da, hər iki qüvvə eyni ssenari ilə hərəkət edirdi. Buyurun, həmin faciə gecəsi Azərbaycan Xalq Cəbhəsinin qərargahında saat neçəyədək kimlərin olması məlum idi. O adamlardan ancaq Sabit Bağırov Sabunçu dairəsində piketi dağıtmağa nail olmuşdu. Onların sonradan deməsi ki, şəhərdə xaos idi və onlar camaatı dağıda bilmirdilər, bu, ağ yalandır. Şəhərdə xaos yox idi.

Camaat üçün, güllə gözləməyən, sovet ordusundan atəş gözləməyən camaat üçün xaos idi. İşi bilməyən adamlar üçün xaos idi. Dəhşətli qırğından sarsılmış xalq üçün xaos idi. Amma bunlar üçün xaos yox idi. Çünki hadisələr onsuz da saat mexanizmi kimi idarə olunurdu. Onların hamısı qaçıb gizləndilər. Onlar indi hansı mənəvi haqla xalq hərəkatından danışırlar?

**APARICI*:*** 1990-cı il yanvarın 15-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Vəzirovun təşəbbüsü ilə respublika Ali Soveti Rəyasət Heyətinin iclası keçirildi. İclasda Dağlıq Qarabağda və ona bitişik sərhəd rayonlarında fövqəladə vəziyyət tətbiq olunması haqqında qərar qəbul edildi. Vəzirovun istəyi ilə həyata keçirilən və xalqın iradəsinə zidd olan bu siyasi avantüralar Azərbaycanda nifrətlə qarşılandı. Xalq mərkəzi və yerli hakimiyyətin bu düşmən siyasəti ilə barışa bilmirdi.

**Namiq MƏMMƏDOV** (BDU-nun magistri): 1990-cı il yanvarın 14-də Mərkəzi Komitənin iclasında Vəzirov çıxış edərək, Dağlıq Qarabağda və ona bitişik ərazilərdə hərbi vəziyyətin elan olunması haqqında məsələni müzakirə etdi. Yanvarın 15-də isə o, heç bir səlahiyyəti olmadığı halda, - bu səlahiyyət, yəni fövqəladə vəziyyətin elan olunması birbaşa Ali Sovetə məxsus idi, - Dağlıq Qarabağda və ona bitişik ərazilərdə fövqəladə vəziyyətin elan olunması haqqında heç bir hüquqi əsası olmayan qərar çıxardı. Həmin dövrdə Elmira Qafarova Moskvada idi, lakin Vəzirov buna məhəl qoymayaraq, belə bir qərar çıxardı.

Yanvarın 19-da isə SSRİ Ali Sovetinin Rəyasət Heyəti Bakı şəhərində fövqəladə vəziyyətin elan olunması haqqında qərar çıxardı. Qeyd etmək lazımdır ki, bunun mərkəzlə əlaqəli olmasını hələ yanvarın 3-dən 6-dək Barannikovun, Babkovun və digərlərinin vəziyyəti öyrənmək üçün Azərbaycana səfər etməsi də göstərirdi. Məxfi olaraq Bakıya gəlmiş Yazov da Gəncədə onlarla görüşmüş, Azərbaycan rəhbərliyi ilə

müzakirələr aparmış və "Qasırga" əməliyyatı hazırlanmışdı. Bunun nəticəsi olaraq 20 Yanvar faciəsi törədilmişdir.

**APARICI:** Yanvarın 19-da Vəzirov 4-cü ordunun qərargahına gəlir və qırğının vaxtını Moskva ilə razılaşdırır. Həmin gün saat 19.25-də Dövlət Təhlükəsizliyi Komitəsinin qurduğu təxribat əsasında "Alfa" qrupunun əməkdaşları televiziyanın enerji blokunu partlatdılar. Bununla da sanki Azərbaycanın bütün dünya ilə əlaqəsi kəsildi. Əslində, bu, Qanlı Yanvar gecəsinin başlanğıcı idi. Xalq Cəbhəsinin üzdəniraq radikal qanadı isə yenə də küçələrə çıxmış adamları aldadır, "sizə silah gətiriləcək, möhkəm dayanın" deyirdilər. Onların bu yalançı vədləri xalqı qırğına verməkdən başqa məqsəd güdmürdü. Polyaniçko ilə tez-tez görüşən və hakimiyyətin bütün planlarından xəbərdar olan bu adamlar küçələrə, meydanlara toplanmış yüzlərlə qeyrətli həmvətənimizi yaxınlaşan fəla-kətdən xəbərdar edə bilərdilər. Lakin onlar bunu etmədilər.

**İbrahim HÜSEYNOV** (televiziyanın enerji blokunun növbə rəisi): Yeddiyə 8-10 dəqiqə qalmış telefonla danışırdım, "Retro" verilişində hansı filmin olacağını soruşdular. Gördüm əsgərlərin biri o yana, biri bu yana qaçdı. Əllərində də qısa avtomatlar var idi. Sonra mən oturan sexə də girdilər. Başlarında dəmir papaqlar, əyinlərində qəribə formalar var idi. Desant paltarı geymişdilər, onun altında isə idman paltarı görünürdü. Birində avtomat, o birinin əlində isə iki çanta var idi. Bir-birindən aralanmırdılar. Onlardan biri gərginliyin haradan gəldiyini soruşdu. Hər şey ilə maraqlanırdılar. Biri dedi ki, səni sizin komendant çağırır. Mən dedim ki, komendantı tanımıram, çünki axırıncı gələn əsgərlər bizim sexə tərəf gəlməmişdilər. Başqa əsgərlər gəlmişdilər, biz də onlara yaxınlaşdıq. Dedilər ki, biz onlarla getməliyik. Soruşdum ki, mənimlə Romanovu hara aparırlar? Dedilər ki, qorxmayın, sizə heç nə olmayacaq. Bizi artistlərin məşq otağına apardılar. Orada da əsgərlər var idi. Birdən möhkəm titrəyiş, partlayış oldu. Mən Viktora dedim ki, bloku partlatdılar.

**APARICI:** Xalqın haqq səsini boğmaq üçün 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə xəbərdarlıq edilmədən Bakıya sovet qoşun hissələri yeridildi. Qorbaçovun fərmanı ilə guya əhalinin təhlükəsizliyini qorumaq, kütləvi iğtişaşların qarşısını almaq üçün Bakıda fövqəladə vəziyyət elan edilmişdi. Lakin xalqın bundan xəbəri yox idi və bu xəyanətkar qərar haqqında ancaq respublika rəhbərliyində məlumat var idi. Yanvarın 20-də səhər, Bakının küçələrində yüzlərlə günahsız insanın qanı axıdılandan və qətlə yetiriləndən sonra Bakının komendantı general-leytenant Dubinyak fövqəladə vəziyyətin tətbiq olunduğunu elan etdi. Vəzirov-Mütəllibov hakimiyyətinin 15 yanvar tarixli fərmanı Bakıda törədilmiş qanlı yanvar üçün əsas oldu.

**Məhəmməd MƏCİDOV** (BDU-nun tələbəsi): Əhali də bilmirdi, gözləmirdi ki, xilaskar ordu gəlib camaatın özünü qətlə yetirsin. Bir məsələni də xüsusi qeyd etmək istəyirəm ki, həmin dövrdə nəinki Bakıda, Lənkəran və Neftçala rayonlarında da komendant saatı tətbiq olunmamışdı. Amma həm Neftçalaya, həm də Lənkərana qoşun yeridildi, nəticədə 8 nəfər qətlə yetirildi, 4 nəfər ağır yaralandı, 2 nəfər həbs olundu və sonra qətlə yetirildi. Vəzirovun və Mütəllibovun bilavasitə satqınlığı nəticəsində Moskva özünün planlaşdırdığı oyunları həyata keçirə bildi.

**Emil ƏLİYEV** (BDU-nun magistri): 20 Yanvar hadisəsində erməni amili də xüsusi rol oynamışdır. Belə ki, yanvarın 20-də baş verən qırğınlarda tarixdə ermənilərin törətdikləri cinayətlərin izi görünürdü. Yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının tərkibində olan ermənilərin evlərə girib qətllər törətdikləri haqqında faktlar vardır. 1915-ci ildə Osmanlı imperiyasında, 1918-ci ildə Şimali və Cənubi Azərbaycanda törədilmiş cinayətlərdə, soyqırımlarda eyni metodlardan istifadə olunmuşdur.

Ümumiyyətlə, 20 Yanvar faciəsinin hansı tarixi və siyasi şəraitdə baş verdiyi haqqında danışmaq istərdim. İlk öncə bir faktı qeyd etmək istəyirəm ki, XIX əsrin sonlarında yaradılmış Daşnaksütyun partiyasının XX əsrin 70-80-ci illərindən başlayaraq, birbaşa DTK ilə sıx əlaqələri vardı.

Azərbaycan rəhbərliyinin bu qırğındakı günahından danışmaq yerinə düşərdi. Biz o zaman uşaq olsaq da, böyüklərin söhbətlərini eşidirdik. 130-dək cənazə eyni zamanda qaldırıldı, lakin Azərbaycanın rəhbərlərindən bir nəfər də olsun dəfn mərasimində iştirak etmədi. Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov, Vaqif Hüseynov Moskvaya qaçdılar və oradan öz mənfur niyyətlərini həyata keçirmək istədilər. 20 Yanvar, əslində, Azərbaycan xalqına qarşı törədilmiş soyqırımlarından biri idi. O insanlar Azərbaycan xalqının birbaşa iştirakı ilə keçiriləcək məhkəmələrdə cavab verməli və təbii ki, öz layiqli cəzalarını çəkməlidirlər.

**APARICI:** Bəli, 20 Yanvarda Azərbaycanın azadlıq arzusu gülləyə tutuldu, tanklar altında əzildi, lakin istiqlaliyyətin şirinliyini dadmış xalqı öz yolundan döndərmək mümkün olmadı. Bakı küçələrində axıdılan qanlar da respublika rəhbərliyi üçün ibrət dərsi olmadı. 1989-cu ilin aprelində Tbilisidə baş vermiş qanlı hadisələrdən sonra Gürcüstanın bütün dövlət rəhbərləri istefa verdiyi halda, Azərbaycanın yüksək vəzifə sahibləri başqa yol tutdular. Vəzirov qaçdı, Mütəllibov isə birinci katib vəzifəsini tutmaq üçün təcili Moskvaya yola düşdü. Azərbaycanın başına gətirilən bu qanlı faciə Ayaz Mütəllibov üçün tarixi bir fürsət idi. Mütəllibov xalqının qan ağladığı bir vaxtda hakimiyyətə yiyələnməkdən utanıb-çəkinmədi. Yanvarın 20-də 132 şəhidi, 700-dən çox yaralısı olan Bakının viran qalmış, talanmış evləri, küçələri, meydanları qan içində boğulduğu bir anda Mütəllibov, Həsənov, Polyaniçko və Müslüm Məmmədov cani Qorbaçovun hüzuruna yollanıb ondan itkin düşən, rəzil Əbdürrəhman Vəzirovun vəzifə kreslosunu dilədilər.

Bu isə heç bir insanlığa, əxlaqa, mənəviyyata sığmayan bir xəyanət idi. Xalq qan içində, bunlar isə hakimiyyət davası edirdilər.

Bu ağır günlərdə informasiya blokadasına alınan Azərbaycanın səsini heç kim eşitmirdi. Belə kədərli və faciəli bir vaxtda öz xalqının səsinə səs verən yenə də Azərbaycanın etibarlı övladı, sınanmış oğlu, şəriksiz milli lideri Heydər Əliyev oldu. Bütün təzyiqlərə baxmayaraq, öz həyatını təhlükədə qoyaraq Moskvadakı Azərbaycan nümayəndəliyinə gələn Heydər Əliyev mətbuat konfransı keçirdi, Bakıda törədilmiş qanlı faciə haqqında dünya ictimaiyyətinə məlumat verdi, imperiyanın düşmənçilik siyasətinin iç üzünü açıb göstərdi və öz xalqının ağır günündə onunla oldu. Onun öz torpağına, öz xalqına oğul məhəbbəti bu ağır, tarixi sınaq günlərində bir daha təsdiq olundu.

**Məmməd ƏLİZADƏ** (Demokratik Azərbaycan Dünyası Partiyasının sədri): O dövrdə dünyanın, ümumiyyətlə, bu günümüz üçün və dünənimiz üçün də böyük şəxsiyyət olan, özünün keçdiyi ömür yolunda bütövlüyünü təsdiq edən Heydər Əliyevin Moskvada Azərbaycan nümayəndəliyinə gəlib 20 Yanvara siyasi qiymət verməsi, xalqın ümid çırağını yandırmağa başladı. Qaynaqlarımıza diqqət yetirəndə görürük ki, müqəddəslik və qibləgahlıq eyni mənanı verir. Kim Vətəni üçün, milləti üçün, torpağı üçün zirvəyə can atırsa, o, müqəddəslik kimi qəbul olunur. Bu gün 50 milyon dünya azərbaycanlılarının müqəddəs saydığı böyük bir abidəmiz var. Bu abidənin bir üzü faciədir, o biri üzü isə qəhrəmanlıq dastanıdır.

**Cümşüd HƏSƏNOV** (polis polkovnik-leytenantı): Mən o zaman Moskvada xidmət edirdim. Xidmət etdiyim şöbə mühafizə şöbəsi adlanırdı. Biz diplomatların və yüksək vəzifəli şəxslərin mühafizəsini təşkil edirdik. O zaman yanvar hadisələri ilə əlaqədar millətimizin imperiya caynağından qurtulması prosesi Moskvada yaşayan azərbaycanlılar tərəfindən də həyəcanla izlənilirdi. Bir neçə dəfə bizim Moskvadakı daimi nümayəndəliyimizin qarşısında yığışıb bu barədə məsləhətləşib, imkan daxilində millətimizə kömək göstərmək istəyirdik. Bu zaman mənim çox mühüm görüşüm oldu. işlədiyim idarədə mənə səfirliklər şöbəsi həvalə edilmişdi. Möhtərəm Heydər Əliyev o vaxt Aleksey Tolstoy küçəsində yaşayırdı. Həmin küçədə mənim xidmət göstərdiyim bir necə obyekt yerləşirdi. Heydər Əliyevin yaşadığı ev Yəmən səfirliyi ilə üzbəüz idi. Yanvar hadisələri ilə əlaqədar bizə edilən təzyiqləri və Heydər Əliyevə qarşı gedən təbliğatları mətbuat vasitəsilə izləyirdik. O dövrdə eşitdik ki, Heydər Əliyev xəstələnib və bu, bizi çox kədərləndirdi. Özümüzü ruhlandırmağa yer tapa bilmirdik. Yanvarın 21-də obyektləri yoxladığım zaman Heydər Əliyev yaşadığı binanın qarşısında dayanmışdı və maşın onu gözləyirdi. Bizə işdə xəbərdarlıq etmişdilər ki, Heydər Əliyevə yaxınlaşmayaq. Mən soruşanda ki, bu nə deməkdir, rəisim Stepan Korneyeviç Bondarçuk dedi ki, indi o vaxtlar deyil, necə deyilibsə, elə də et. Bu vəziyyət mənim Heydər Əliyevə yaxınlaşmağıma imkan vermirdi, lakin vətənpərvərlik hisslərim üstün gəldi və mən ona yaxınlaşaraq salamlaşdım. O mənimlə görüşdü və biz yanvar hadisələri haqqında fikir mübadiləsi apardıq. Heydər Əliyev mənə dedi ki, öz fikrini bildirmək üçün daimi nümayəndəliyə getməyə hazırlaşır. O, sözün əsl mənasında həyəcanlı olub böyük kədərlə yanvar hadisələri haqqında danışdı. Onun haqqında mətbuatda gedən söz-söhbətlərin təsirindən heç bir əsər-əlamət yox idi. Niyə? Ona görə ki, möhtərəm prezidentimiz dünya diplomatiyasının böyük diplomatıdır. Böyük diplomatın həyəcanlı olmasını görmək mənim üçün çox çətin məsələdir. Mən onu əsl millət atası kimi gördüm. Biz söhbət etdikdən sonra Heydər Əliyev qara "Çayka"da Stanislavski küçəsinə, millətimizə başsağlığı verməyə yollandı.

Dərhal sonra Stepan Bondarçuk məni otağına çağırıb, bu gündən sonra Heydər Əliyevə yaxınlaşmağı qadağan etdiyini bildirdi.

**APARICI***:* Qanlı 20 Yanvardan bəri ötən günləri xatırlayanda içimizdə bir təəssüf hissi də baş qaldırır. Dörd il 20 Yanvar hadisələri hüquqi və siyasi qiymət almadı. Nə 20 Yanvar şəhidlərinin qanı üstündə hakimiyyətə gələn Ayaz Mütəllibov, nə AXC-Müsavat iqtidarı bu müdhiş hadisəyə doğru-düzgün qiymət vermədi. Xalqımızın bu tarixi faciəsinin ciddi araşdırılması və siyasi qiymət verilməsi tələbi ilə cəsarətlə çıxış edib öz sözünü deyən yenə də Heydər Əliyev oldu. 1991-ci il avqustun 29-da Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında Heydər Əliyevin yalnız özünəməxsus qətiyyəti ilə bu məsələni gündəmə gətirməsi və Mütəllibov-Vəzirov hakimiyyətini ifşa etməsi onun daim öz xalqının taleyi ilə birgə yaşadığını bir daha sübut edir. Mütəllibova yarınmaq üçün salondakıların bir çoxunun yaltaq **və** müdhiş davranışı o vaxtkı iqtidardakıların Qanlı Yanvar hadisələrində hansı bir mövqe tutduğunu çox aydın göstərirdi.

**Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 29 avqust tarixli sessiyasında xalq deputatı Heydər Əliyevin çıxışından**

...Ayaz Mütəllibov dedi ki, fövqəladə vəziyyət nəyə lazımdır, götürülməlidir. Çox yaxşı. Ancaq bunu bir il yarım Bakıda saxlayan kimdir? Kimin qərarı ilə Azərbaycan Respublikası Ali Sovetinin 1990-cı il yanvar ayının 22-də qəbul olunmuş qərarı icra edilməyib? Aydınlaşdırmaq lazımdır ki, bu il yarımda fövqəladə vəziyyəti Bakıda saxlamaq üçün respublika nə qədər vəsait xərcləyib və respublikaya nə qədər zərər vurulub.

İkinci. Azərbaycan Respublikasının rəhbərliyinin dövlət çevrilişi haqqındakı mövqeyi barədə cürbəcür söhbətlər gedir. Xarici və İttifaq informasiya orqanları bu barədə xəbərlər yayıblar. Bu məsələ aydınlaşdırılmalıdır. Kim xaricdə nə deyib, o bizim üçün məlum deyil. Ancaq məlumdur ki, avqust ayının 21-də Azərbaycan televiziyası ilə Ayaz Mütəllibovun xalqa müraciəti oxunubdur. Müraciət həm Azərbaycan dilində, həm də rus dilində oxunub. Müraciətdə fövqəladə vəziyyət komitəsinin fəaliyyəti bəyənilib və fövqəladə vəziyyət üzrə dövlət komitəsinin fəaliyyəti ilə Azərbaycan Respublikasının bir neçə məsələsinin həll olunmasına ümid bəslənilib. O cümlədən Dağlıq Qarabağ məsələsinin və silahlanmış erməni bandit qruplarının tərksilah olunması məsələsinin həll olunması fövqəladə vəziyyət üzrə komitənin fəaliyyəti ilə bağlanıbdır.

Bunu aydın demək lazımdır. Ola bilər belə səhvlər buraxılıb. Ancaq xalq həqiqəti bilməlidir.

Xalqda birlik yaratmaq üçün Azərbaycan Kommunist Partiyası dərhal hakimiyyətdən getməlidir. Bu, Sovet İttifaqı Kommunist Partiyasının tərkib hissəsidir. Sovet ittifaqı Kommunist Partiyası dağılmışdır. Azərbaycan Kommunist Partiyasını hələ də saxlamaq və onun buraxılması məsələsini qurultayda həll etmək bu məsələni uzadıb Kommunist Partiyasını yenə də hakimiyyətdə saxlamaq, onun imkanlarından istifadə etmək meylini göstərir. Bununla qəti razılaşmaq olmaz. Azərbaycan Kommunist Partiyasının bütün strukturları ləğv olunmalı, əmlakı milliləşdirilməlidir. Azərbaycan Kommunist Partiyasının, onun mətbu orqanlarının işi dayandırılmalı, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin hərbi xunta ilə əməkdaşlıq edib-etməməsi aydınlaşdırılmalıdır. Bunun üçün parlament komissiya yaratmalıdır. Məlumdur ki, 3 gün, fövqəladə vəziyyət üzrə komitənin hökm sürdüyü dövrdə, Azərbaycan Kommunist Partiyasının mətbu orqanları Azərbaycan və rus dillərində bu komitənin sənədlərini dərc ediblər. Azərbaycan televiziyası bu komitənin bütün sənədlərini Azərbaycan dilinə tərcümə edib xalqa çatdırıbdır. Bunların özü əməkdaşlığı tam aydın göstərir.

Kommunist Partiyası mövqeyindən fəaliyyət göstərən vəzifəli şəxslər öz vəzifələrindən imtina etməlidirlər.

20 Yanvar faciəsindən il yarımdan çox vaxt keçir. Bu gün bu salonda cürbəcür söhbətlər gedir. Bir qrup deputat bir fikirdədir, məndən qabaq çıxış edən deputat Rəhimov başqa fikirdədir. Mən Ali Sovetin sədri Elmira Qafarovaya, Azərbaycan prezidenti Ayaz Mütəllibova sual verirəm: nə üçün indiyə qədər bu hadisəyə siyasi qiymət verilməyib? Tamerlan Qarayevin verdiyi izahatla mən razılaşa bilmərəm. Çünki bu məsələnin həm siyasi, həm də hüquqi tərəfi var. Bu hadisəyə siyasi qiyməti dərhal vermək olardı. O ki qaldı hüquqi cəhəti - ayrı-ayrı adamların məsuliyyətə cəlb olunması, onu şübhəsiz ki, istintaq qrupu ilə aydınlaşdırmaq lazımdır. Buna siyasi qiymət vermək lazımdır.

**Elmira QAFAROVA** (Ali Sovetin sədri): Verilibdir.

**Heydər ƏLİYEV*:*** Verilməyib!

**Elmira QAFAROVA*:*** Verilib. Sessiyada, ayın 22-də.

**Heydər ƏLİYEV*:*** Bəs verilibsə, kim bu hərbi təcavüzün günahkarıdır? Bu gün deyilir ki, Yazov, Kryuçkov, Bakatin. Bəli, belədir. Ancaq biz bura Qorbaçovu, Girenkonu, Primakovu da əlavə etməliyik. Sonra?.. Bəs, Azərbaycan rəhbərliyindən kimlər günahkardırlar? Bəli, bu şəxslər də məlumdur. Vəzirov, Qafarova, Mütəllibov və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin başqa büro üzvləri. Əgər başqa adamlar da günahkardırlarsa, aydınlaşdırmaq lazımdır. Bunlar aydınlaşdırılana qədər əgər başqa qüvvələr də - demokratik qüvvələr, Xalq Cəbhəsi günahkardırlarsa, onlara da siyasi qiymət vermək lazımdır. Bunları aydınlaşdırmayana qədər Azərbaycanda siyasi sabitliyi əldə etmək olmaz. Əgər buna siyasi qiymət verilibsə, nə üçün Qorbaçov 9 respublikanın rəhbərləri ilə görüşündə 3 nazirin təyin olunması üçün razılıq alarkən, Ayaz Mütəllibov Bakatinin Dövlət Təhlükəsizliyi Komitəsinə sədr təyin olunmasına etiraz etməmişdir? Əgər edibsə, qoy desin. O öz çıxışında demədi. Nə üçün 20 Yanvar faciəsinin əsas günahkarlarından biri olan Vəzirov Azərbaycan Respublikasından xalq deputatlarının qurultayını hazırlayan komissiyaya seçilibdir? Onu kim təqdim edibdir? Əgər bunu Azərbaycan Respublikasının rəhbərləri ediblərsə, onlar Azərbaycan xalqının qarşısında günah ediblər. Mən bunu tam açıqlığı ilə demək istəyirəm. Mən də çıxış edən deputatların fikri ilə razıyam ki, bütün bu məsələləri aydınlaşdırmadan Azərbaycanda prezident seçkiləri keçirmək olmaz. Azərbaycan Respublikası Ali Sovetinin deputatları tam əksəriyyəti kommunist olduqlarına görə, kommunist partiyasının rəhbər orqanlarında fəaliyyət göstərən bütün adamlar parlamentə deputat seçildiklərinə görə və Azərbaycan Kommunist Partiyası çox şeylərdə günahkar olduğuna görə, mən hesab edirəm ki, Azərbaycan Respublikasının parlamenti buraxılmalıdır və yenidən seçkilər aparılmalıdır. Mən belə kəskin çıxış edərkən heç də şübhə etmirəm ki, mənim çıxışımdan sonra xüsusi hazırlanmış adamlar çıxıb mənim əleyhimə sözlər deyəcəklər. Mən bu sözlərə öyrənmişəm. Ona görə heç də narahat deyiləm. Belə xüsusi hazırlanmış çıxışlar mənim iradəmi sarsıda bilməz. Mən öz vicdanım qarşısında tamamilə cavabdeh olaraq bu gün bu çıxışı edirəm.

**APARICI*:*** O gecə bütün xalq kimi, Bakı metrosu da, necə deyərlər, səhəri diri gözlə açdı. Küçələrdə, meydanlarda güllə yağışından qurtulan qocalar, qadınlar, uşaqlar metro stansiyalarına üz tuturdular. O gecə sanki qatarlar da bu faciəni, bu amansız qırğını, xalqın bu kədərli gününü duyur və ona şərik çıxırdı. Stansiyadan stansiyaya tələsən qatarlar heç vaxt adamlar üçün bəlkə də bu qədər doğma, bu qədər əziz olmamışdı. Qatarlar yanvarın 19-dan 20-nə keçən gecəni səksəkə içində beləcə başa vurdu. Tarixə çevrilən o gecə indi də xatırlananda yaddaşlar sızıldayır, köhnə yaraların közü qopur.

**Tağı ƏHMƏDOV** (Bakı Metropoliteni İdarəsinin rəisi): Biz xəbər tutduq ki, metronun "Məşədi Əzizbəyov" stansiyası tərəfdə atışma davam edir. Əlbəttə, yenə də belə fikirləşdik ki, yəqin boş patronlardır, əsgərlər bunu camaatı qorxutmaq üçün elə-belə atırlar. Sonra Biləcəri tərəfdən və Salyan kazarmasından xəbərlər gəlirdi ki, ölənlər var, hətta heç kəsə aman vermirlər, qabaqlarına keçəni tankların altına salır, yaxud güllələyirlər. Ona görə də tədbir görmək lazım idi. Tədbir isə metronu səhərə kimi işlətmək idi.

Mən sizi əmin edirəm ki, əgər metro həmin gün səhərə qədər işləməsəydi, ölənlərin, yaralananların sayı ən azı 2-3 dəfə arta bilərdi. Çünki şahidlər deyirlər ki, onların hamısı şəhər adamları idi, metronu tanıyırdılar, metronun keçidlərinə girib özlərinə sığınacaq tapırdılar. Həmin vaxt əsəb sarsıntısı keçirən maşinistlər var idi, çox həyəcanlı idilər. Ona görə də məcbur idik ki, növbədən çıxmış maşinistləri yenidən işə çağıraq, əlavə maşinist dəstəsi gəlsin. Maşinist dəstəsi bir-birini əvəz etmək üçün lazım idi. Heç kəsi güdaza verməmək üçün ancaq stansiyaların ətrafında yaşayan maşinistlərin evlərinə zəng vurulurdu. O cümlədən də metronun "Neftçilər" stansiyasının yanında metropolitenin özünün yaşayış binası var, maşinistlərin əksəriyyəti oradan çağırılırdı.

Biləsiniz ki, metropolitendə iki minə yaxın adam ancaq gecə növbəsində çalışır. Yəni istər hərəkət xidmətində, istər yol xidmətində, istərsə də tunel qurğuları xidmətində, ümumiyyətlə, gecə növbəsində bütün xidmətlərdə iki minə yaxın adam işləyir. Onların hamısı həmin gün birbaşa ancaq yaralıları daşımağa cəlb olundu. Metronun "20 Yanvar" stansiyasının ən böyük xeyri onda idi ki, biz yaralıların əksəriyyətini Respublika

xəstəxanasına tərəf çıxan keçid vasitəsilə, ağacların arası ilə xəstəxanaya çatdıra bilirdik. Digər stansiyaların ətrafında yaralananlar da birbaşa metro ilə Respublika xəstəxanasına çatdırılırdı.

Beləliklə, tam və qəti demək olar ki, bu, azadlığa gedən yol idi. Çox təəssüflər olsun ki, o vaxt respublikaya rəhbərlik edən adamların Qanlı Yanvar hadisələrinə siyasi qiymət verməyə cəsarətləri çatmadı. Hətta 1990-cı ildə Ayaz Mütəllibov şəhidlərin qanı üstündən keçib prezident oldu. Ondan sonra hakimiyyətə Xalq Cəbhəsi gəldi. Onların heç biri bu qanlı faciəyə siyasi qiymət vermədi. Yalnız hörmətli prezidentimiz Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra 1994-cü ildə 20 Yanvar qırğınına siyasi qiymət verdi.

**APARICI*:*** O gecə Bakıda ən qanlı hadisələr "20 Yanvar" meydanında baş verirdi. Təkcə bu meydanda şəhid olanların sayı 40-dan çox idi. Təsadüfdənmi, bəlkə də tarixin, zamanın özü həmişə həqiqətə güvəndiyindən 20 Yanvar qətlamınadək məhz "11-ci qızıl ordu" adlandırılan bu meydanda qırmızı ordunun xələflərinin həqiqi qəddar və qaniçən siması o gecə bütün çılpaqlığı ilə üzə çıxdı. O gündən sonra bu meydan da, bu meydanın altındakı metro stansiyası da burada şəhid olanların xatirəsinə "20 Yanvar" adlandırıldı.

O gecə qaniçən imperiya əsgərləri heç kimə - qocaya, qadına, uşağa belə rəhm etmirdilər. Qarşılarına çıxan hər kəsə düşmən kimi. yanaşırdılar. Yaralıları daşıyan təcili tibbi yardım maşınlarına, avtobuslara, avtomobillərə atəş açıb, hətta müharibədə faşistlərin yol vermədikləri vəhşiliklərə əl atırdılar. İnsan qanına susamış bu qatillər nəinki yaralıların harayına tələsən təcili tibbi yardım maşınlarına, hətta ağaclara da, binalara da atəş açırdılar. Gecənin qaranlığına bürünmüş bu cəlladlar törətdikləri qanlı cinayətləri ört-basdır etmək üçün gözlərinə görünən hər şeyi məhv etmək istəyirdilər.

O Qanlı Yanvar gününün şəhidləri sırasında Elçin Baxşəliyev, Mahir Mustafayev, Məmməd Məmmədov və Rüstəm Əliyevin də adları vardır. Onların hamısı Bakı Şəhər Nəqliyyat Departamentinin avtobus sürücüləri idi. indi departamentin həyətində abidəyə dönən bu oğulların arasında bir şəhid də var - məktəbli Larisa Məmmədova. Larisa da o gecə 39 nömrəli marşrut avtobusunda sürücü işləyən atası ilə evə qayıdarkən cəllad imperiya əsgərləri tərəfindən güllələndi. Ona görə də departamentin kollektivi məktəbli Larisanı şəhid sürücülərdən ayırmayıb, onlar hamısı bir sırada heykəlləşiblər. Kollektiv şəhid dostlarının xatirəsini əziz tutur, onları daim yad edirlər. Yaz-qış, yay-payız - bütün fəsillərdə bu abidənin qarşısında tər qərənfillər düzülür.

**Şahvələd ƏLİYEV** (şəhid Rüstəm Əliyevin atası): Yanvarın 19-dan 20-nə keçən gecə Rüstəm işdə idi. O, 122 nömrəli marşrutda işləyirdi. Evə nahara gəlmişdi. Bizi tələsdirirdi ki, tez olun, mən tələsirəm. Nahar edib evdən çıxanda, mən onu saxladım və dedim ki, bəlkə getməyə-sən. O, cibindən yol vərəqəsini çıxarıb göstərdi ki, ata, işdəyəm, müdiriyyət tərəfindən də tapşırıq var ki, hansı vəziyyət olursa olsun, camaatı marşrutsuz qoymaq olmaz. Bu sözləri deyib getdi.

Həmin gecə gözlədik, o, gəlmədi. Səhər saat 6 idi, evə zəng etdilər. Mən telefonun dəstəyini götürdüm, tanımadığım Yaşar adlı bir şəxs dedi ki, oğlunuz yaralanıb, təcili yardım xəstəxanasındadır. Biz ora getdik. Uzun axtarışdan sonra Rüstəmi tapdıq. Onun başının üstündə ağ xalatlı qadın dayanmışdı. O soruşdu ki, siz kimsiniz? Dedim ki, atasıyam. Qadın cibindən bir güllə çıxarıb göstərdi və dedi ki, oğlunuz 80 faiz qan itirib, vəziyyəti ağırdır. Həmin gün bütün yaralılara qan verirdilər. Rüstəmə də qan verdilər, o, özünə gələndən sonra gözünü açdı, hamımızı tanıdı. Mən evə gəldim, onun yanında anası və qardaşı qaldılar.

Yanvarın 21-də səhər tezdən gedib gördüm ki, Rüstəm gözünü açıb anası ilə söhbət edir. Dedim, oğul, indi necəsən? Dedi ki, ata, bağışla, sözünə baxmayıb getdim. Dedim ki, eybi yox, hər şey yaxşıdır, Allaha şükür, indi danışırsan. O, söhbət etdi ki, iki dəfə yaralı apardım. Arxa divarı beton plitə olan avtobus dayanacağında çoxlu adamlar var idi, onlar gülləbarandan qorxub divara sığınmışdılar. Mən üçüncü dəfə onları oradan çıxaran zaman məni də vurdular. Lakin mən maşını işə saldım, qanım axa-axa yaralıları "Naxçıvan" mehmanxanasının yanına kimi gətirdim. Şahidlərin dediyinə görə, Rüstəm təxminən bir kilometr gələndən sonra huşunu itirmişdi. Ondan sonra avtobusda olan uşaqlar onu xəstəxanaya aparıblar.

**Vaqif MUSTAFAYEV** (şəhid Mahir Mustafayevin atası): Mən oğlumla avtobusda işləyirdim. Yanvarın 19-da gecə Bakı şəhərində hamını köməyə çağırırdılar. O vaxt mən və oğlum metronun "Nərimanov" stansiyasının yanına getdik. Orada dedilər ki, kim sürücüdürsə, yük maşınları ilə yaralı daşımağa yardım etsin.

Oğlum da yük maşınlarının birinə sürücü kimi əyləşib, yanındakı yoldaşı Əlibala ilə yaralı daşımağa getdi. Onlar birinci dəfə 7 nəfər yaralını xəstəxanaya çatdırıblar. Bunu xəstəxananın həkimi və yaralılar özləri bildiriblər. İkinci dəfə isə 11 nəfər yaralı gətiriblər. Üçüncü dəfə gedəndə Əlibala ailəli olduğuna görə onu gətirib evə düşürüb,

Ramazan Kərimovu özü ilə götürüb. Onların üçü də bir məktəbdə oxuyublar. Hərbi hospitalın yaxınlığındakı körpünün yanında desantçılara rast gəliblər. Stavropoldan gələn desantçılar onları güllələbaran ediblər. Mahiri sükan arxasında ürəyindən vurmuşdular. Ramazanı isə qıçından yaralamışdılar. Ramazan cəmi bir həftə yaşadı. Bütün bunları o danışırdı. Mahir isə cərrahiyyə stolunun üstündə şəhid oldu.

**Fərhad MƏMMƏDOV** (idarə rəisi): 1990-cı il yanvarın 20-si Azərbaycan xalqının yadından heç vaxt çıxmayacaqdır. Çünki başda Qorbaçov, Primakov, Yazov, Bakatin olmaqla, rus imperiyasının Azərbaycandakı əlaltıları Vəzirov, Mütəllibov və hazırda müxalifət adı altında gizlənən bəzi ünsürlər Azərbaycanın inkişafına əyri gözlə baxırlar. Onların birgə səyi Azərbaycan xalqına böyük bir yara vurdu.

Bəlkə də planlaşdırılmış şəkil-də müxtəlif yerlərdə barrikadalar qurmaq, insanları ora növbətçiliyə cəlb etməklə, tonqallar qalayıb gecə səhərə qədər camaatı orada saxlamaqla və müxtəlif bəhanə ilə - silah gələcək, nə bilim, bizə qoşun kömək edəcək - yalançı vədlərlə camaatı qırğına verdilər. Ümumiyyətlə, bu hadisələrdə rus imperiyasının nə qədər günahı varsa, Vəzirovun, Mütəllibovun və müxalifət pərdəsi altında gizlənmiş ünsürlərin də bir o qədər günahı vardır.

**APARICI*:*** Düz beş gün, beş gecə susdura bilmədilər gəmilərin səsini. Yox, bu, səs deyildi. Bu, haray, fəryad idi. Bu, xalqımızın haqsızlığa, zorakılığa, qırmızı imperiyanın qanlı cinayətinə qarşı yeri, göyü lərzəyə salan etirazı, nifrəti idi. Bu səs məğrurluğumuzun, ürəyimizdəki azadlıq eşqinin sönmək bilməyən alovu idi.

**Ağakisi MÜTƏLLİMOV** (gəmi kapitanı): 20 Yanvar hadisəsi zamanı mən dənizdə idim. Fəhlələri aparmışdım dəyişməyə buruqda. Qayıdanbaş saat birdə Çilov adasının yanından keçərkən hansısa gəmi, deyəsən, "Şirvan" gəmisi idi, dedi ki, rus ordusu Bakıya girib, camaatı qırır. Sonra nə qədər zəng elədik öyrənək ki, hansı gəmidi bu? Demədilər. Səhərə yaxın limana yan aldıq, orada fəhlələri boşaltmaq lazım idi. Bizə əmr verdilər ki, fəhlələr, 70 nəfər adam idi, şəhərə iki-iki, üç-üç çıxsınlar. Dəstə ilə çıxsalar, tutacaqlar. Adamları məlumatlandırıb yola saldıq, məsləhət elədik ki, gəmiləri dəniz vağzalının qabağına yığaq. Bunun üçün liman nəzarətçisindən yer almaq lazım idi. Sonra mən yer almaq üçün zəng etdim. Dedim ki, mənə yer verin, axşam fəhlələri Neft daşlarına aparacağam. Yer verdilər. "Xəzərdənizneftdonanma" İdarəsinin 100-ə qədər gəmisi limana yığışdı.

Məqsədimiz hərbi donanmanın qarşısını kəsmək, oradan gəmiləri buraxmamaq idi. Deyirdilər ki, onlar meyitləri hərbi gəmilərdə dənizə aparıb, oraya atacaqlar. Buna görə biz hərbi dəniz donanmasının qabağını kəsdik. Sonra "Sabit Orucov" gəmisi bizim qərargahımız oldu. Burada iclas keçirdik, hərbi donanmanın komandanlığı ilə görüşmək üçün 7 nəfər ağsaqqal kapitan seçdik. Yanvarın 21-də hərbi kater tələb etdik, başqa cür icazə vermirdilər. Kater gəlib bizi götürdü, 7 nəfər hərbi dəniz donanmasının qərargahına getdik. Orada 100-200 metr aralı sağda və solda hərbi gəmilər dayanmışdı. Rus əsgərləri əllərindəki avtomatı dirəmişdilər bizə. Biz bunu görəndə özümüzü itirdik. Yanımda dayanmış kapitan Müzəffər Əliyev dedi ki, onlardan biri güllə atsa, məhv olub gedəcəyik. Çıxıb getdik tərsanəyə. Gördük ki, kontr-admirallar, admirallar, hərbçilər bizi maşınlarda gözləyirlər. Biz də iş geyimində idik. Bizi maşınlara mindirib qərargaha apardılar. Qərargahda gördük ki, Sidorov da buradadır. O, SSRİ müdafiə nazirinin hərbi dəniz qüvvələri üzrə birinci müavini idi. Biz onlara öz tələbnaməmizi təqdim etdik. Orada deyilirdi ki, ordunu respublikadan çıxarsınlar, sonra hərbi gəmilərin dənizə çıxmasına imkan yaradarıq. Onlar tələbnaməni oxuduqdan sonra dedilər ki, bu tələb deyil, ultimatumdur. Hərbi nazirliyə ultimatum verirsiniz? Biz tələblərimizi dedikdən sonra bizi geri gətirdilər. Geri qayıdanda biz piyada gəlməli olduq. Bizi tamam başqa yolla gətirirdilər. Gəlib gördük ki, burada 500-600 nəfər uşaq, böyük, qoca var, hamısı rus millətindən idi. Kontr-admiral dedi ki, görürsüz bu camaatı? Dedik ki, görürük. Bəs, bunları niyə yığmısınız buraya? Dedilər ki, siz onları qırırsınız. Ona görə də qaçıb gəliblər ki, biz onları müdafiə edək. Cavab verdik ki, biz heç kimi qırmırıq, siz qırırsınız.

Ayın 23-də bizim qərargahın qərarı ilə Ali Sovetə getməli olduq. Orada Yazovla, Primakovla görüşmək lazım idi. Yenə həmin tərkibdə Ali Sovetə getdik. Elmira Qafarova, Tofiq İsmayılov, Arif Məlikov, şeyxülislam Allahşükür Paşazadə burada idilər. Hökumət adamlarından təkcə Elmira Qafarova idi. Orada öz tələblərimizi dedik. Bizə dedilər ki, siz ki, belə tələblər irəli sürürsünüz, görərsiniz sabah nə olacaq! Bunu bizə donanmanın komandanı dedi. Biz oradan çıxandan sonra məlum oldu ki, onlar dənizdə də hərbi vəziyyət elan etmişlər. Beləliklə, respublikanı biz idarə edirdik. Respublika iflic vəziyyətində idi. 70 nəfər işçimizi tutdular. Bir çoxunu incitdilər.

**APARICI*:*** Düz beş gün idi ki, bu gəmilərin harayı ilə sökülürdü dan yeri. Üfüqlər bu səsin yanğısı ilə qızarırdı hər axşam çağı və bu səs imperiyanın qana susamış muzdlu qatillərinin canına vəlvələ salırdı, onları lərzəyə gətirirdi. Bu səs onları öldürürdü. Ona görə də şəhərdə törətdikləri qanlı cinayətləri ört-basdır etmək və xalqımızın azadlıq ruhunu qırdıqlarına əmin olmaq üçün nəyin bahasına olursa-olsun gəmilərin ittiham kimi səslənən bu harayını susdurmaq, batırmaq istəyirdilər. Lakin ürəkləri sahildə, şəhərdə qalan dənizçilərimizin iradəsini qırmaq asan deyildi. Çünki düşmənə nifrət, azadlıq eşqi hər cür hədə-qorxudan, qeyri-bərabər döyüşdən və ölüm qorxusundan yüksəkdə dururdu.

**Natiq HÜMBƏTOV** (kapitan köməkçisi): 20 Yanvar hadisəsi baş verəndə biz Polşada ezamiyyətdə idik. Biz hadisələri oradan daim izləyirdik. Xəbərimiz var idi ki, Azərbaycanda belə proseslər baş verir. Nə isə gözlənilir. Biz evlə əlaqə saxlayırdıq. Yanvarın 19-dan 20-ə keçən gecə saat 2-də xəbər tutduq ki, imperiya qoşunları Bakıya yeridilib və günahsız insanların qanı tökülüb. Biz gəmi heyətini ayağa qaldırdıq. Matəm əlaməti olaraq gəmidəki SSRİ bayrağını endirdik. Polşada zavodun işçiləri, gəmini təmir edənlər işə gələrkən bundan xəbərsiz idilər. Televizorda "Xəzərdənizneftdonanması"nın gəmilərini göstərirdilər. Güllələbarana tutulmuş "Vodoley-4" gəmisinin adını çəkdilər. Biz üç gün matəm saxladıq, qara bayraq qaldırdıq. Dövlət bayrağını endirdiyimizə görə bizə xeyli təzyiq göstərdilər. Sadə adamlar bizimlə həmrəy olduqlarını bildirdilər. Biz onlara öz minnətdarlığımızı bildiririk. Onlar üç gün bizimlə oldular.

**APARICI*:*** Bəli, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıya yeridilmiş sovet qoşun hissələri dinc əhalini güllələbaran etdi. Günahsız adamların qanı axıdıldı, yüzdən çox Bakı sakini qətlə yetirildi. Lakin sovet imperiyasının cəllad rəhbərləri Azərbaycan xalqının azadlıq, müstəqillik arzularını silah, qan gücünə boğa bilmədilər. Ürəyi azadlıq eşqi ilə yanan adamlar güllə, top və tankların qabağından geri çəkilmədilər. Qanlı Yanvar tariximizə azadlıq mübarizəmizin parlaq bir səhifəsi kimi yazıldı.

**Nəzakət ƏFŞANİ** (yazıçı-jurnalist): Biz başımızın üstündən atılan güllələrə də inanmadıq. Onları boş güllələr hesab etdik. İnanmadıq ki, sovet ordusu bizə güllə atar, bizi qanımıza qəltan edər. Xalq öz mübarizə səsini ucaltmaqla imperiyaya qul olan rəhbərlərə və imperiyanın özünə bir daha sübut etdi ki, onun səsini boğmaq mümkün deyil. Xalq bir olanda onun səsini susdurmaq mümkün deyil. Xalq azad olmaq istəyirdi və xalq öz azadlığına çatmaq üçün qurbanlar da verirdi. O qurbanlar 20 Yanvar faciəsindən sonra da xalqı qorxutmadı. İndi bizim müqəddəs and yerimiz var - Şəhidlər xiyabanı.

**APARICI*:*** Şəhidlər xiyabanı. İndi bu müqəddəs yer hamımızın kədərlə, lakin böyük fəxrlə üz tutduğu bir ünvandır. Bura bizim and yerimizdir. Xalqımızın azadlıq mübarizəsinin ən şərəfli səhifəsi qərar tutub burada. Burada zaman-zaman bizə başucalığı gətirən bir tarix yaşayır. Elə bir tarix ki, abidəyə çevrilib, əbədiləşib, həmişə gözümüzün qabağındadır. Doğma Bakımızın ən uca yerində uyuyur bizim şəhidlərimiz. Arzuları da, amalları da ucalıq olub onların.

Dünyada insan üçün azadlıqdan uca, azadlıqdan əziz heç nə yoxdur. Məhz onlar bu yolda şəhid olmuşlar. O ucalığı qorumaq isə bizim ən müqəddəs borcumuzdur. Bu gün müstəqil Azərbaycan dövlətinin dünyada möhkəmlənməsi də o qaranlıq gecədən aydın səhərlərə doğru irəliləyən Azərbaycanın şəhidlərinin ruhuna ehtiramıdır.

**"Azərbaycan".** - 2003. – 22, 23 yanvar. - N 16, 17. - S. 4-5.

## 20 Yanvar faciəsinin günahkarları: "BÖHRAN QRUPU"

***DTK agentlərinin iştirakı ilə törədilən cinayət tarixin qara səhifəsidir***

*20 Yanvar faciəsi Azərbaycan xalqına qarşı ötən əsrin sonunda törədilən misli görünməyən sui-qəsd hadisəsi oldu. Bu hadisə ilə bağlı müxtəlif pafoslu fikirlər söylənilib günahkarların cəzalandırılacağı bəyan edilsə də xalqın qanına əli bulananların layiqli cavablarını almaları zamanın öhdəsinə buraxılıb. Günahkarlar çox rahat şəkildə həm ölkə daxilində, həm də respublikanın hüdudlarından kənarda yaşayırlar. Xaricdə qoltuq altına sığınanlar bir yana, ancaq çörəyini yediyi xalqın başına faciə gətirərək kreslosunda rahat-rahat oturmağın necə mümkün olduğunu ağla sığışdırmaq çox çətindir. Bu araşdırma yazımızda 20 Yanvar faciəsinin törədilməsində əli olan bır qrupdan söhbət gedəcək. Araşdırmamızla ən yaxın tariximizdə rol oynayan «xəyanət simaları»nı açacayıq. Beləliklə, söhbət qanlı Yanvarın baiskarları olmuş bir qrupdan - 1989-cu ilin oktyabrın 7-də Dövlət Təhlükəsizlik Komitəsi tərəfindən yaradılan «Böhran Qrupu»ndan, həmin qrupun üzvlərindən və bu məqamın indiyə qədər açılmamasının səbəblərindən gedəcək. Qeyd edək ki, «Böhran Qrupu» DTK sədri Vaqif Hüseynovun əmri ilə yaradılıb və bura 12 "KQB" zabiti cəlb olunub. Qrupun yaradılmasına dair sənədi istintaq orqanları MTN-dən bir çekistin köməkliyi sayəsində tapıblar. Sənədi tam olaraq ixtiyarınıza təqdim edirik:*

"Dağlıq Qarabağ Muxtar Vilayətindəki hadisələrlə əlaqədar respublikada siyasi vəziyyətin böhranlı inkişafının lokallaşdırılmasına yönəldilmiş çekist tədbirlərinin həyata keçirilməsi üzrə ştatdankənar əməliyyat qrupunun yaradılması haqqında.

DQMV-dəki hadisələrlə əlaqədar regionda gərginliyi artırmağa və siyasi sabitliyi pozmağa çalışan rəqibin və antisosialist ünsürlərin düşmənçilik hərəkətlərinin aşkara çıxarılması, qarşısının alınması və neytrallaşdırılması üzrə məqsədyönlü agentura-əməliyyat işini təşkil etmək, əməliyyat materiallarının səviyyəli təhlili, instansiyalar və SSRİ DTK-sı üçün qabaqlayıcı materialları hazırlamaq məqsədilə

**Əmr edirəm:**

DQMV-dəki hadisələrlə əlaqədar respublikada siyasi vəziyyətin böhranlı inkişafını lokallaşdırmağa yönəldilmiş çekist tədbirlərinin həyata keçirilməsi üzrə, Azərbaycan ŞSR DTK-nın 2,3,4,5 və 6-cı şöbələrinin, İAŞ-in və DTK müfəttişliyinin əməkdaşlarından ibarət müvəqqəti olaraq 1.01.91-ci ilə qədər olan müddət üçün ştatdankənar əməliyyat qrupu təşkil edilsin.

**Qrup aşağıdakı heyətdə təsdiq edilsin:**

*Qrupun rəhbəri - podpolkovnik Vladimir Mirzəyev, 5-ci şöbənin rəisi.*

***Rəhbərin müavinləri:***

*- mayor O.Q.Əliyev, 5-ci şöbənin 3-cü bölməsinin rəisi;*
*- podpolkovnik S.M.Əliyev, 5-ci şöbənin 5-ci bölməsinin rəisi;*

***Əməliyyat işçiləri:***

*- baş leytenant F.N.Ağayev, 2-ci şöbənin 2-ci bölməsinin əməliyyat müvəkkili;*
*- kapitan M.M.Əliyev, 5-ci şöbənin 5-ci bölməsinin əməliyyat müvəkkili;*
*- mayor Ş.Q.Əliyev, 3-cü şöbənin 1-ci bölməsinin baş əməliyyat müvəkkili;*
*- baş leytenant T.O.Ağayev, 5-ci şöbənin 7-ci bölməsinin əməliyyat müvəkkili;*
*- kapitan S.Ş.Qasımov, 6-cı şöbənin 2-ci bölməsinin rəis müavini;*
*- mayor N.P.Davıdov, İAŞ-in baş müvəkkili;*
*- mayor V.M.Qasımzadə, müfəttişliyin baş müvəkkili.*

**3**. *Qrupun tərkibinə daxil edilmiş 2,3,4 və 6-cı şöbələrinin, İAŞ-in, müfəttişliyin zabitləri müvafiq struktur bölmələri rəislərinin tabeliyindən çıxarılmaqla, tutduqları ştat vəzifələri üzrə vəzifələrini icra etməkdən azad olunsun. Göstərilmiş zabitlər qrup rəhbərlərinə tabe etdirilsin.*

**4.** *Qrup heyətində dəyişikliklər Azərbaycan SSR DTK-nın əmrləri əsasında həyata keçirilsin.*

***5.** Qrupun rəhbəri kadr şöbəsi ilə birgə qrupun şəxsi heyətinin vəzifə borclarını bir həftə müddətində müəyyən edərək, təsdiq olunmağa təqdim etsin.*

***6.** Qrupun şəxsi heyəti, göstərilmiş şöbələrin, İAŞ-in və 7-ci şöbənin, DQMV üzrə şöbənin və Naxçıvan MSSR DTK-nın rəisləri mövcud əmrlə tanış edilsin.*

**Komitə sədri polkovnik V.Hüseynov**

Məhz "rəqibin və antisosialist ünsürlərin düşmənçilik hərəkətlərinin aşkara çıxarılması, qarşısının alınması və neytrallaşdırılması üzrə məqsədyönlü agentura əməliyyat işini təşkil etmək" idi ki, 20 Yanvar faciəsi baş verdi.

Bu sənəd Respublika Prokurorluğunun istintaq orqanlarına 1999-cu ilin sonlarında bəlli olub. Milli Təhlükəsizlik Nazirliyində çalışan çekist sənədi istintaqçılara verib. Qeyd edək ki, istintaq materiallarına yaxından tanış olan baş prokurorun sabiq birinci müavini, hazırda isə Konstitusiya Məhkəməsinin hakimi vəzifəsində çalışan hüquqşünas-istintaqçı İsa Nəcəfov "Naşirin ölümü" kitabında bu məsələyə geniş yer verərək bir sıra zəruri məlumatlar verir. İ.Nəcəfovun bildirdiyinə görə, DTK-nın "Böhran Qrupu"nun agentləri və inanılmış adamları şayiə yayan və araqarışdıranları Xalq Cəbhəsi üzvləri arasında da yerləşdirə bilmişdi. "Əksər hallarda cinayətkar keçmişi olan bu tör-töküntü demokratik hərəkatı daxildən sarsıdıb pozur, radikal meylləri həvəsləndirir, isteriyanı qızışdırırdı - bütün bunlar son nəticədə 13-14 yanvar 1990-cı il talanlarını doğurdu və qoşunların Bakıya yeridilməsi üçün zəmin yaratmış oldu." İ.Nəcəfov bildirir ki, «biz agentura işlərini araşdırmağa başlayanda təəccüb hissiylə gördük ki, indiki millət vəkillərindən, ziyalı zümrəsinin görkəmli nümayəndələrindən, habelə müxalifət liderlərindən bəziləri bu və ya digər dövrdə orqanlarla fəal əməkdaşlıq etmişlər. Fəqət onların adlarını açıqlamağı özümə sığışdırmıram, mənə belə gəlir ki, buna nə mənəvi, nə də hüquqi haqqım var, ən azı ona görə ki, bu adamların hamısı sağdı və çoxu siyasi, yaxud ictimai fəaliyyətlə məşğuldur. Necə deyərlər, onların hakimi öz vicdanları olsun...»

Faciəyə dair öz şərhində Prezidentin icra Aparatının rəhbəri Ramiz Mehdiyev də "Böhran qrupu" barədə qısa olaraq məlumat verərək həmin qrupun yaradılmasına fərman verənlərlə yanaşı üzvlərinə qarşı da ittiham irəli sürür, ancaq qrupun kimlərdən ibarət olduğunu göstərmir. Qeyd edim ki, dövlət rəsmisi bir neçə il xalqdan gizlədilən istintaq materiallarına əsaslanaraq 2000-ci ilin 29 fevral - 1 mart tarixli "Azərbaycan" qəzetində respublikanın çox ağır günlərində rəhbərlərin tam acizlik göstərərək və itaətkar oyuncaqlar kimi SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin və Baş Kəşfiyyat İdarəsinin hazırladıqları ssenarilərə müvafiq surətdə hərəkət etdiklərini bildirir. Dövlət rəsmisi şahid ifadələrinə əsaslanaraq bu orqanların fəaliyyətinin fitnəkarlıq və təxribatlar (yanvarın 13-15-də Bakıda talanların təşkil edilməsi, partiya komitələrinin tutulması, dövlət sərhədlərində mühəndis qurğularının dağıdılması, müəssisə və təşkilatların dövlət orqanlarının tabeliyindən çıxarılması və s.) törətməklə respublikada vəziyyətin maksimum mürəkkəbləşməyə yönəldiyini vurğulayır. Onun fikrincə, bütün bunlar Azərbaycanda sabitliyi pozmaq və "konstitusion qayda yaratma" məqsədi ilə edilirdi. Qrupun fəaliyyətinə gəlincə, R.Mehdiyev bildirir ki, "Böhran Qrupu"nun vəzifələri sırasına rəsmən düşmənin qərəzli hərəkətlərinin aşkara çıxarılması, qarşısının alınması və zərərsizləşdirilməsi..., instansiyalara və SSRİ DTK-ya qabaqlayıcı məlumatlar hazırlanması sahəsində məqsədyönlü işin təşkili daxil idi. Təhlükəsizlik orqanlarında adətən kod kimi istifadə olunan bu formulun basmaləqib xarakter daşıdığını görməmək olmaz. "Böhran Qrupu"na dair istintaq materialları göstərir ki, əslində qrupun fəaliyyət dairəsi xeyli geniş idi və əmrlə müəyyənləşdirilmiş çərçivədən çox-çox kənara çıxırdı. Fitnə-fəsadlar, partlayışlar, mənzillərin yandırılması, qətl məqsədli sui-qəsdlər - bunlar həmin qrupun məşğul olduğu əməllərin heç də tam siyahısı deyildir». R.Mehdiyev istintaqın aşkara çıxardığı faktların təhlili ilə belə qənaətə gəlir ki, Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirov Moskvanın bütün göstərişlərini sözsüz yerinə yetirərək, öz xalqına qarşı ağır cinayətlərin bilavasitə təşkilatçısı və iştirakçısı olmuşdur. Prezidentin İcra Aparatının rəhbəri Azərbaycan KP MK-nın ikinci katibi V.Polyaniçko, hökumətin sədri A.Mütəllibov və DTK-nın sədri V.Hüseynovu bu cinayətin birbaşa iştirakçısı olduqlarını deyir.

Baş prokurorun birinci müavini işləmiş İ.Nəcəfov bildirir ki, bir neçə il əvvəl "Azərnəşr"in direktoru Əjdər Xanbabayevin öldürülməsi, tanınmış biznesmen Mahmud Məmmədovun həyatına sui-qəsd, habelə akademik Telman Qurbanovun öldürülməsi üzrə işləri araşdırarkən bunların 1990-cı illərdə törədilmiş və törədilməsinə cəhd edilmiş digər terror aktları ilə üzvi surətdə bağlı olduğu üzə çıxarılıb. İstintaqa bir sıra məlumatların verilməməsinə görə İ.Nəcəfov ölkə Prezidenti Heydər Əliyevə müraciət etməli olub. Prezidentə bildirilib ki, bütün törədilən hadisələrin arxasında V.Hüseynov başda olmaqla DTK rəhbərliyinin bakılılarla naxçıvanlılar arasında ədavət toxumu səpmək və münaqişə yaratmaq məqsədilə işləyib hazırladığı planın tərkib hissələridir. Bu informasiyadan sonra Prezident istintaq briqadasının işinə hər cür kömək etmək, sənədləri aşkara çıxarmaqda yardım göstərmək haqqında milli təhlükəsizlik nazirinə göstəriş verdi. İsa Nəcəfovun xatirələrindən: "1990-cı ilin yanvarında Xırdalan körpüsünün yanında bir rus zabiti az qala məni öldürmüşdü. Mən onun avtomatı qarşısında silahsız və köməksiz idim, o isə açıq-aşkar məni ələ salıb təhqir edirdi. Mən istəmirəm ki, xalqım belə bir təhqiri bir daha yaşasın. Buna görə işi axıra çatdırmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm, inciyən qoy incisin. Mən tam əmin idim ki, DTK agentlərinin törətdikləri terror aktlarını araşdırmaqla, xüsusi xidmət orqanlarının Yanvar faciəsində bilavasitə iştiraklarına dair sübutları əldə edə biləcəyik və öz zənnimdə yanılmamışdım".

**Şahin Nuriyev**

**"İki sahil".** - 2003. – 19 yanvar. - N 15. - S. 4.

## 20 YANVAR: Tariximizin qanla yazılan şərəf səhifəsi

***HEYDƏR ƏLİYEV: "MƏNİ SİYASİ HƏYATA QAYITMAĞA MƏCBUR EDƏN 1990-CI İLDƏKİ YANVAR HADİSƏLƏRİ OLDU"***

***20 Yanvar faciəsindən 13 il keçir. Azərbaycan xalqının yaddaşına əbədi olaraq hopmuş 20 yanvar faciəsi miqyası və həyata keçirilmə forması baxımından əsl azərbaycanlı genosidi, antibəşəri cinayət əməli, faşizmə xas vəhşilik idi. Bu faciəni yaşayan azərbaycanlıların yeganə "günahı" onların azadlıq istəməsi idi. SSRİ-nin mövcudluğunu qoruyub saxlamağa çalışan imperiyaçı qüvvələr isə Azərbaycan xalqının azadlıq istəklərini sarsıtmaq, iradəsini qırmaq üçün belə vəhşiliyə əl atdılar. Məsələni daha dərindən araşdıranda 20 yanvar faciəsinin kökündə həm də o dayanırdı ki, Azərbaycan bir türk cümhuriyyətidir. Bizi türk olduğumuza görə qətliama məruz qoydular.***

**20 Yanvar qırğını gerçək bir terror və soyqırımı idi**

20 yanvar faciəsi erməni daşnakları tərəfindən əhatə olunmuş Qorbaçov klanının Alma-Ata və Fərqanə faciələri, Axıska türklərinin deportasiyası adlı antitürk ssenarisi zəncirində növbəti həlqə demək idi. Bu gün bütün dünyanın terrorizmlə mübarizə apardığı bir vaxtda bunu xüsusi vurğulamalıyıq ki, 20 Yanvar XX əsr tarixindəki ən müdhiş və ən irimiqyaslı terror aktıdır. Bolşevik-daşnak cütlüyünün 1918-ci ildə Bakıda, Şamaxıda, Zəngəzurda, Naxçıvanda, Qubada və daha neçə-neçə şəhər və kəndimizdə törətdiyi azərbaycanlı genosidi 1990-cı ildə də təkrarlandı. Hər iki halda məsələ Azərbaycanın müstəqil dövlət olması ideyasının aktuallaşması və bu ideyanın həyata keçirilmə ərəfəsində olması amili ilə sıx bağlı idi.

Moskva Azərbaycanın dövlət müstəqilliyi ideyası ilə heç cürə barışmaq, bu ideyanı hətta müzakirə belə etmək istəmirdi. 20 Yanvar hadisələri Azərbaycanın qorxudulması və susdurulması üçün düşünülmüşdü. Bundan heç bir nəticə alınmadı. 20 Yanvar hadisələri azərbaycanlıların əzmini və azadlıq istəyini qıra və öldürə bilmədi. Heç bilməzdi də. Çünki təsir həmişə əks təsirə bərabər olur. 20 Yanvar faciəsi biz azərbaycanlıları bir yerə cəmlədi, bizi toparladı. 50 milyonluq böyük bir xalq olduğumuz ilk dəfə məhz həmin faciədən sonra anladıq. 20 Yanvar faciəsi Azərbaycanın dünyadakı tərəfdarlarının sayını artırdı, bizə rəğbəti olanların sıraları genişləndi. Həmin günlərdə bəşəriyyətin vicdanlı hissəsi Azərbaycanın tərəfində idi. Dünyanın müxtəlif ölkələrinə səpələnmiş azərbaycanlıların və türk kökənli milyonlarla insanların təşəbbüsü ilə keçirilən etiraz və həmrəylik aksiyaları az əhəmiyyətli deyildi.

Üstündən 13 il keçəndən sonra "20 Yanvar faciəsinin günahı kimdədir" sualını vermək bəlkə də artıq məsələdir. Həm də ona görə ki, günahkarlar çoxdan, elə faciənin baş verdiyi gündən bəllidir. Bu - erməni daşnakları tərəfindən əhatələnmiş cinayətkar Qorbaçovun cinayətkar ətrafı və Azərbaycanın hakimiyyətdən ötrü hər şeyə getməyə hazır olan o vaxtkı rəhbərliyidir. Kremlin əlində oyuncaq olan Vəzirov, nəyin bahasına olursa-olsun hakimiyyətə gəlmək istəyən Mütəllibov, başı kürsü davasına qarışmış o vaxtkı səriştəsiz meydan qəhrəmanlarının bəziləridir. Onların hər biri bu məsələdə müəyyən dozada mənəvi, siyasi və hüquqi məsuliyyət daşıyır.

**20 Yanvara verilən ilk real qiymət**

20 Yanvar faciəsinin hüquqi və siyasi cəhətdən qiymətləndirilməsinə gəlincə isə, burada da qaranlıq məqam yoxdur. Təkcə bir müəmmadan başqa. Həmin müəmma da ondan ibarətdir ki, günahkarlar bəlli ola-ola Azərbaycanın Heydər Əliyevə qədərki rəhbərlərindən heç kim 20 Yanvar faciəsinə əsl qiymət verməyə nə səy göstərib, nə də onların buna cəsarəti çatıb. Heydər Əliyev 20 Yanvar faciəsinə münasibətini elə həmin an - yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlib Qərb jurnalistlərinin də qatıldığı etiraz aksiyasında Qorbaçov klanını ifşa edən bəyanat verməklə bildirmişdi. Heydər Əliyevin Qorbaçovu birbaşa cinayətkar və 20 Yanvar faciəsinin sifarişçisi və icraçısı adlandırması, "20 Yanvar qırğınını törədənlərin hamısı cəzalandırılmalıdır" tələbini irəli sürməsi həmin hadisələrə dərhal düzgün siyasi və hüquqi qiymət verilməsi

demək idi. Heydər Əliyev özünün 21 yanvar tarixli bəyanatında Bakı qırğınını insanlığa zidd olan vəhşilik kimi səciyyələndirmiş, onun bir terror əməli olduğunu vurğulamışdı. Kommunist Partiyasından məhz 20 Yanvar faciəsinə etiraz əlaməti olaraq çıxan Heydər Əliyev 1990-cı ilin iyulunda birdəfəlik Azərbaycana qayıtdı. 1990-cı il, noyabrın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi məhz Heydər Əliyevin təklifi ilə "1990-cı ilin yanvarında Bakıda baş vermiş hadisələrə siyasi qiymət verilməsi haqqında" qərar qəbul etdi.

**20 Yanvarı doğuran pərdəarxası səbəblər**

Qorbaçov və onun ətrafı Heydər Əliyev fenomenindən qorxurdu. Qorbaçov bilirdi ki, H.Əliyev öz millətinə bağlıdır və o, hara gedirsə-getsin, nə işlə məşğul olursa-olsun, azərbaycançı kimi qalacaq. Kremldə də anlayırdılar ki, bir türk oğlunun sovet Siyasi Bürosunda olması və burada böyük nüfuz qazanması Moskvanın siyasətinə uyğun gəlmir. Ermənipərəst Qorbaçov məhz buna görə Azərbaycana qarşı düşmənçilik edirdi. Qorbaçov bütövlükdə millətimizə düşmən idi. H.Əliyev də məhz ona görə təqib olunurdu ki, o, azərbaycanlı idi. H.Əliyev həmin dövrü belə xatırlayır: "80-ci illərin ortalarında biz ayrı-seçkiliyə məruz qalırdıq. Mən həm Azərbaycanı, həm də Orta və Mərkəzi Asiyanın bəzi digər respublikalarını nəzərdə tuturam. İndi məhz bunu xatırlatmağa lüzum yar ki, o illərdə xalqların, o cümlədən Özbəkistan və Azərbaycan xalqlarının milli azadlığı və dövlət müstəqilliyi üçün şərait yetişməyə başlayan vaxtlarda son dərəcə çox əngəllər törədilirdi. 1988-ci ildə Ermənistan tərəfindən Azərbaycana qarşı təcavüzün başlanması da nəinki Ermənistandakı ayrı-ayrı millətçilərin və özgə ərazisini ələ keçirməyə can atan şəxslərin əməlləri idi, həm də böyük bir siyasətin - artıq baş vermiş müsbət proseslərə maneçilik törətməyə yönəldilmiş siyasətin bir hissəsi idi".

Qorbaçovun klanının məhz türk respublikalarına qarşı repressiv tədbirlərə əl atmasının səbəbi SSRİ-dəki türklərin siyasi faktora çevrilməsi idi. Alma-Ata qırğınının da, 1990-cı il, 20 Yanvar Bakı qətliamının da, Qarabağ məsələsinin ortaya atılmasının da, nəhayət, H.Əliyevə və onun ailəsinə qarşı təqiblərin başlanmasının da köklərini burada axtarmaq lazımdır.

**Qanlı şənbə milli azadlığın nəticəsi və səbəbi kimi**

Azərbaycan xalqı 1988-ci ildə ermənilərin Qarabağa olan iddiasına etiraz əlaməti olaraq ayağa qalxmışdı. Amma məşhur meydan hərəkatı milli azadlıq ideyasının gündəmə gəlməsi ilə nəticələndi. Doğrudur, o zaman SSRİ-də açıq siyasi fəaliyyət mümkün görünmürdü. Amma 1988-ci ildən sonrakı hadisələr və 1990-cı il, yanvarın 20-də sovet qoşunlarının Bakıda qırğın törətməsi vəziyyəti dəyişdirdi. Və azərbaycanlıların açıq siyasi çıxışları gücləndi.

20 Yanvar faciəsi bütün azərbaycanlıları sarsıtmışdı. Qorbaçov klanı bununla Azərbaycanın iradəsini sarsıtmaq istəyirdi. H.Əliyevin məğrur ölkəsinə və azadlıqsevər xalqına divan tutmaq arzusu kimi iblisanə bir istəklə yanan Qorbaçov bu yolda heç nədən çəkinmirdi. Heç kim təsəvvür edə bilmirdi ki, Qorbaçov belə bir cinayətə qol qoyacaq.

Artıq müstəqil Azərbaycana rəhbərlik edən H.Əliyev 1993-cü ildə Rusiyanın "Sobesednik" dərgisinə müsahibəsində bu barədə deyirdi: "1990-cı il, yanvarın 19-da Qorbaçov mənə gözlənilmədən zəng vurdu. 3 il idi ki, onunla görüşmək istəyirdim, amma məni eşitməmişdi. Xahişlərim şəxsi məsələlərlə yox, Qarabağla bağlı idi. Qarabağ məni narahat edirdi. Qorbaçov mənə deyirdi ki, Bakıda vəziyyət pisdir, Azərbaycana nəsə bir əlac tapmaq lazımdır. Sonra söhbət kəskin şəkil aldı və biz yenə acılı-ağrılı fikirlərlə ayrıldıq. Təsəvvür edə bilmirdim ki, o, Bakıya qoşun yeritmək barədə qərar qəbul edəndən sonra mənə zəng vurub".

20 Yanvar faciəsi Azərbaycanda yeni bir dövr, Azərbaycanın çağdaş dövr tarixində yeni bir mərhələnin başlanğıcı demək oldu. Fövqəladə vəziyyətə baxmayaraq, bütün Bakı həmin faciə günlərində izdihamlı bir şəhər idi. 2 milyon azərbaycanlı öz şəhidlərini dəfn edirdi. Bakının küçələri, divarlar, şəxsi avtomobillər "Qorbaçov cəlladdır", "Rədd olsun Sov.İKP!", "Qorbaçova ölüm!", "İşğalçılar, rədd olub gedin" və s. bu kimi şüarlarla dolu idi. Bakının küçələrində partiya biletlərindən tonqallar çatılırdı. Lakin bu partbiletlərin sahibləri arasında ölkə rəhbərlərinə daxil olan şəxslərin adları yox idi. Yalnız H.Əliyev 20 Yanvar hadisələrindən sonra böyük nümunə

göstərdi: "...1969-cu ildən başlayaraq 1987-ci ildə istefaya getdiyim zamanadək Kommunist Partiyasında ən böyük dissidentlərdən biri mən olmuşam. Heç də təsadüfi deyil ki, Kommunist Partiyasına o qədər xidmət edən bir adam, yəni mən 1990-cı ilin yanvar hadisələrindən sonra Kommunist Partiyasını tərk etmişəm. Azərbaycanda bunu etməyə adi adamların cəsarəti çatmadı. Amma mən böyük çətinliklər içərisində və böyük təhlükə altında Kommunist Partiyasını tərk etdim. Mən adi qaydada tərk etmədim. Mən ittiham verdim, bildirdim ki, nəyə görə Kommunist Partiyasını tərk edirəm".

H.Əliyevin 20 Yanvar faciəsinə etirazı sovet rəhbərliyi üçün, şəxsən Qorbaçov üçün öldürücü bir zərbə idi. Ən azı ona görə ki, H.Əliyev adi adam deyildi. Həmin müdhiş 20 Yanvar faciəsi günlərində vəhşiləşmiş Qorbaçov klanı istənilən cinayətə əl atmağa hazır idi. H.Əliyevin həyatı hər an təhlükədə idi. Ona qarşı hər dəqiqə terror aktı törədə, sui-qəsd edə bilərdilər.

**Heydər Əliyevin 21 yanvar bəyanatı SSRİ-ni lərzəyə salmışdı**

Yanvarın 21-də, saat 12-də Azərbaycanın Moskvadakı nümayəndəliyinə gedən H.Əliyev həmin gün orada minlərlə insanın önündə idi. Bu böyük azərbaycanlını həmin ağır anlarda bir şey düşündürürdü: canından artıq sevdiyi xalqının içində olmaq, vahimə içində olan, sarsılan millətinə dayaq durmaq, xalqını ürəkləndirmək və Qorbaçovun cinayətkar əməllərini ifşa edərək Azərbaycanın faciəsini bütün dünyaya çatdırmaq. H.Əliyev oğlu İlham və kürəkəni Mahmudla nümayəndəliyin qarşısında maşından düşəndə oradakı azərbaycanlılar bir daha anlamışdı ki, bu xalq, bu millət, bu ölkə başsız deyil. Həmin günlərdə xalqın H.Əliyevə olan ehtiyacını başqa heç kim ödəyə bilməzdi. Xalq məhz onu - öz xilaskarını, öz liderini görmək, onunla bir olmaq istəyirdi. H.Əliyev həmin gün nəhəng bir missiyanı yerinə yetirdi. O, xalqın cəsarətini, ümidlərini özünə qaytardı. O, xalqının haqq səsini ucaltdı.

H.Əliyev yanvarın 21-də Qorbaçov klanının cinayətkar əməllərini ifşa edəndə, Bakı qırğınını insanlığa, bəşəri dəyərlərə, demokratiya və humanizm prinsiplərinə zidd olan cinayətkarlıq və vəhşilik adlandıranda bütün dünyanın gözü bu böyük azərbaycanlıda idi. 0, adi adam deyildi. Bu səbəbdən də Moskvadakı Qərb jurnalistləri H.Əliyevin hər sözünə ikiqat artıq maraqla yanaşır, onun bəyanat və fikirlərini bütün dünyaya yayırdı. Bütün dünya Azərbaycan həqiqətlərini H.Əliyevin dilindən eşidirdi. O, həmin ağır günlərdə Azərbaycanı həm də informasiya blokadasından çıxarırdı. H.Əliyevin yanvarın 21-də "20 Yanvar qırğınını törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır" deyə bəyan etməsi SSRİ-dəki siyasi vəziyyəti dəyişdirən nəhəng bir hadisə idi. Belə ki, Qorbaçov klanı ilk dəfə belə yüksək səviyyədə ittiham və ifşa olunur, Azərbaycandakı proseslər dünyanın diqqət mərkəzinə gətirilirdi.

**Azərbaycan tarixinin dönüş anı**

H.Əliyevin 1990-cı il, yanvarın 21-də Moskvada verdiyi bəyanat Azərbaycanın istər o dövrünü, istərsə də indiki ictimai-siyasi vəziyyəti kontekstindən müstəsna əhəmiyyətə malik addım idi. Azərbaycanlılar o vaxt təkcə ürəklənməmiş, həm də öz gələcək yolunu müəyyənləşdirmişdilər. Bu yol müstəqil Azərbaycana doğru gedən yol idi. Həmin 21 yanvar bəyanatı Azərbaycanda yeni bir mərhələni başladı. Bu gün belə fikir var ki, Azərbaycanın öz siyasi elitası məhz 21 yanvar bəyanatının səsləndiyi gündən etibarən formalaşmağa başlayıb. 20 Yanvar faciəsindən sonra SSRİ ilə bağlı hər şey artıq tam aydın idi. Azərbaycanlılar öz mənəvi-siyasi ideallarını artıq tam və qəti şəkildə müəyyən etmiş, öz yollarını seçmişdi.

H.Əliyev müstəqil Azərbaycana 1993-cü ildən rəhbərlik etməyə başlasa da ölkənin 1993-cü ilə qədərki ictimai-siyasi həyatı onsuz təsəvvür edilmirdi. H.Əliyev Yeni Azərbaycan Partiyasının I qurultayındakı (20-21 dekabr, 1999) çıxışında deyirdi: "Moskvada yüksək vəzifələrdən kənarlaşdırılandan, istefaya gedəndən sonra ətrafında cərəyan edən ədalətsizliyi və mənə qarşı təzyiqləri, təqibləri görərkən yenidən siyasətə qayıtmaq fikrində olmadım... Məni siyasi həyata qayıtmağa məcbur edən 1990-cı ildəki yanvar hadisələri oldu".

**Ülvi Qəşəmoğlu**

**"İki sahil".** - 2003. – 19 yanvar. - N 15. - S. 3.

# Əsrin faciəsi və onun dərsləri

***Şəhidlərimizin xatirəsinə ən böyük abidə Azərbaycanın istiqlaliyyətidir, müstəqil Azərbaycandır. Şəhid olan övladlarımız rahat yatsınlar, çünki onların istəkləri, arzuları yerinə yetirilibdir — Azərbaycan öz dövlət müstəqilliyini əldə edibdir.***

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

***XX əsr artıq arxada qalıb. Xoş günlərimiz, xoşbəxt günlərimiz də olub, dərd də çəkmişik, faciələr də yaşamışıq. Amma ağsaqqallarımız demiş, dözümlü millətik. Dərdimizi unutmağa, sevincimizi yaşatmağa çalışmışıq. Xeyirlə sər qardaşdır demişik. Düşmənimizə də dost deməyə alışmışıq. Babalarımız, atalarımız kimi. Keçmiş ola...***

XX əsr bizə çox şey öyrətdi. Gec olsa da, dostu düşməndən seçməyi, düşmənlə düşmənçilik etməyi, sona kimi getməyi öyrəndik. Öyrəndik ki, XX əsr ancaq 15 respublikanın "qardaşlığı" əsri olmayıb. Bu əsrdə həm də düşmənçilik olub, qanlar tökülüb. Zaman-zaman baş qaldıran, sonra qınına girən, hətta qınında belə öz məkrli planlarını həyata keçirən, əsrin sonunda sovetin silahı, ordusu ilə üstümüzə gələn ermənilər nə qədər faciələrə məruz qoyub bizi. 20 Yanvar xalqımızın ən böyük faciələrindən biridir. Bu nahaq qandır. Yerdə qalmamalıdır. Azərbaycan Prezidenti Heydər Əliyev yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciətində bu haqda deyir: **"XX əsr tarixində totalitarizmin törətdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı işlədilmiş cinayət əslində bəşəriyyətə, humanizmə, insanlara qarşı həyata keçirilmiş dəhşətli bir əməldir. Həmin cinayəti törədənlər indiyədək öz cəzalarını almamışlar. Xalqımız əmindir ki, müqəssirlər tarix, bəşəriyyət, eləcə də Azərbaycan xalqı qarşısında cavab verməli olacaqlar".** Göründüyü kimi, Prezidentimiz 20 Yanvar faciəsini Azərbaycan xalqına qarşı törədilmiş cinayət hesab edir. Ancaq bütün cinayətlər kimi, 20 Yanvar cinayətinin də motivləri, sifarişçiləri və icraçıları var. Bunlar hansılardır?

Məlum olduğu kimi, 20 Yanvar cinayəti sovet imperiyasının laxladığı dövrə təsadüf edirdi. Ölkə daxilində və beynəlxalq aləmdə nüfuzunu itirmiş Qorbaçov artıq dövlətə nəzarəti də itirirdi. Bütün ittifaqı bürümüş xalq hərəkatı mərkəzi hakimiyyət üçün təhlükəyə çevrilirdi. DTK-nın keçmiş şefi Kryuçkov "Məhbəs xatirələri"ndə bu dövrü belə xarakterizə edirdi: "Qorbaçovdan soruşdum vəziyyət necədir, cavab verdi ki, hələlik dözürük. Nə qədər davam gətirəcəyik, bilmirəm". Beləliklə, nəhəng bir imperiya çökürdü. Və onun nə vaxt çökəcəyini heç kim, hətta Qorbaçov da bilmirdi. Onun dağıntıları altında qalmaq təhlükəsi də vardı. İmperiya son anda özünü xilas etməyə cəhd edib "çırpına" bilərdi. Bu təhlükə vardı, həm də real idi. 1989-cu ildə Tbilisi hadisələri baş vermişdi. Qan tökülmüşdü...

Azərbaycanda da vəziyyət bütün ittifaqda olduğu kimi idi. Azərbaycan sanki Sovetlər İttifaqının kiçik maketi idi. Ancaq burada xalq hərəkatı mərkəzdənqaçmaya yox, mərkəzəqaçmaya (respublika səviyyəsində) xidmət edirdi. Respublika rəhbərliyi də öz hakimiyyətini saxlamağa cəhd edirdi. Nəyin bahasına olursa-olsun, fərqi yox idi. Çünki elə hakimiyyətin daxilində hakimiyyət uğrunda mübarizə gedirdi. Respublika Nazirlər Sovetinin sədri Ayaz Mütəllibov və MK-nın katibi Həsən Həsənov bu mübarizədən faydalanmaq üçün ən kiçik fürsəti belə əldən vermirdilər. İlk dövrlərdə xalq hərəkatının önündə gedən AXC də hakimiyyət uğrunda mübarizəyə girişmişdi. Cəbhə liderləri içərisində də Həsən Həsənovun, Ayaz Mütəllibovun namizədliyini açıq dəstəkləyənlər vardı. İsa Qəmbərov və Etibar Məmmədov isə daha radikal mübarizə yolu tutmuşdular. Azərbaycanın bir sıra rayonlarında (Lənkəran, Cəlilabad və s.) lokal çevriliş cəhdləri olmuşdu. Bakıda isə artıq (DTK-nın sifarişi ilə) erməni mənzillərinin boşaldılmasına başlanmışdı. Sonda zorakılıqla nəticələnən bu

prosesə də AXC fəalları rəhbərlik edirdilər. Bir sözlə, respublikada hakimiyyət boşluğu vardı. Vəzifəli və imkanlı şəxslər bu boşluğu məhz özləri doldurmaq istəyirdilər. Nəyin bahasına olursa-olsun. Qorbaçovun rəhbərlik etdiyi mərkəzi hakimiyyət də bu boşluğu doldurmaqda maraqlı idi. Ancaq... öz əlaltıları hesabına.

Həmin ərəfədə hakimiyyət boşluğunu doldurmaq istəyən və respublika rəhbərliyində təmsil olunan adamlar Qorbaçova, mərkəzi orqanlara teleqramlar göndərirdilər. Azərbaycanda sovet sosialist dövlətçiliyini qorumaq və əmin-amanlıq yaratmaq üçün hərbi qüvvələrə, hərbi müdaxiləyə ehtiyac olduğunu elan edirdilər. Hazırda acı xatirələri qalmış bu adamların — sapı özümüzdən olan baltaların adları da məlumdur: Ə. Vəzirov, A. Mütəllibov, V. Polyaniçko, V. Hüseynov...

**Faktlara müraciət edək:**

***"4 avqust 1989-cu il. Sov. İKP MK-ya. Bakı şəhərində və respublikada son dərəcə gərgin vəziyyət yaranmışdır. Millətlərarası zəmində cinayətlər törədilir. Vəziyyətə nəzarət olunur, lakin mövcud qeyri-sabitlik gözlənilməz nəticələrə gətirib çıxara bilər. Odur ki, xüsusilə mühüm obyektlərin mühafizəsi üçün Sovet Ordusu bölmələrinin ayrılması haqda göstəriş verməyinizi xahiş edirəm.***

**Əbdürrəhman Vəzirov".**

***"21 avqust 1989-cu il. SSRİ daxili işlər naziri V. Bakatinə. Son günlərdə respublikada, xüsusilə Bakıda vəziyyət gərginləşmişdir. İctimai asayişi və təhlükəsizliyi təmin etmək məqsədi ilə daxili qoşunların 1500-2000 əsgərini Bakı şəhərinə göndərməyinizi xahiş edirəm.***

**Viktor Polyaniçko".**

***"11 yanvar 1990-cı il. SSRİ Nazirlər Sovetinin sədri N. İ. Rıjkova. İctimai asayişin mühafizəsini gücləndirmək və baş verə biləcək millətlərarası konfliktin qarşısını almaq məqsədi ilə Azərbaycan SSR-ə SSRİ Daxili İşlər Nazirliyinin 7 min nəfərlik daxili qoşun kontingentini göndərməyinizi xahiş edirəm.***

**Azərbaycan SSR**
**Nazirlər Sovetinin sədri**
**Ayaz Mütəllibov".**

**Hadisələrin qısa xronologiyasına diqqət yetirək:**

**1990-cı ilin ilk günləri.** Moskvanın yüksək rütbəli emissarları — Primakov, Yazov, Girenko, Bakatin artıq Bakıda idilər və məhz onların himayəsi altında sapı özümüzdən olan baltalar faciəyə aparan təxribatları törədirdilər.

**13 yanvar 1990-cı il.** DTK-nın xüsusi təxribat planına əsasən Azadlıq meydanında mitinq zamanı Bakıda bir erməninin iki azərbaycanlını baltaladığı barədə məlumat verilir. Bununla da Bakıda vəziyyət daha da gərginləşir.

**14 yanvar 1990-cı il.** SSRİ Ali Soveti Rəyasət Heyətinin "Dağlıq Qarabağ Muxtar Vilayətində və bəzi digər rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında" fərmanı ilə azərbaycanlıları Dağlıq Qarabağda gedən proseslərdən tamamilə uzaqlaşdırdılar.

**19 yanvar 1990-cı il.** Axşam saat 19.30-da Azərbaycan Dövlət Televiziyasının enerji bloku xüsusi xidmət orqanları tərəfindən partladıldı. Bu partlayışın təşkilatçıları SSRİ DTK-nın "Alfa" qrupu və o dövrdə Azərbaycan DTK-nın sədri olan V. Hüseynov idi. Bu partlayışdan sonra bütün Azərbaycan hər cür informasiyadan məhrum olundu.

**19 yanvar 1990-cı il.** Fövqəladə vəziyyətin elan edilməsinə 7 saat qalmış 11 minlik ordu Bakıya yeridildi. İnsan haqlarına dair bütün beynəlxalq sənədlər, o cümlədən İnsan Hüquqları haqqında Ümumi Bəyannamə, Vətəndaş və Siyasi hüquqlar haqqında Beynəlxalq Pakt, Uşaq hüquqlarına dair Konvensiya, IV Haaqa Konvensiyası, Əhalinin Müdafiəsi Haqqında Cenevrə Konvensiyası, Qadın və Uşaqların Fövqəladə Şəraitdə Müdafiəsi Haqqında Bəyannamə və ən əsası - Azərbaycan Respublikasının Konstitusiyası kobudcasına pozuldu.

**20 yanvar 1990-cı il.** Bakı döyüş meydanını xatırladırdı. Yüzlərlə azərbaycanlının qanına boyanmış küçələr al qərənfillərlə bəzədilmişdi, evlərdən, eyvanlardan qara matəm bayraqları asılmışdı. Həmin dəhşətli gecənin səhərisi, məhz yanvarın 20-də elan olundu ki, Bakıda fövqəladə vəziyyət tətbiq edilib.

Bu faciə, bu cinayət qabaqcadan düşünülüb hazırlanmış bir təcavüzkarlıq aktı idi və Azərbaycan xalqının səsini boğmaq, SSRİ-nin digər xalqlarına dərs vermək məqsədi güdürdü.

**21 yanvar 1990-cı il.** Yalnız öz şəxsi təhlükəsizliyini düşünən Ə. Vəzirovun gizli şəkildə hərbi təyyarə ilə Moskvaya qaçdığı məlum oldu.

Azərbaycan KP MK-nın birinci katibi seçildiyi gündən xalqa xəyanət yolu tutan Ə. Vəzirov yanvarın 19-da öz iş yerində olmaq əvəzinə DTK-nın binasında, V. Hüseynovun yanında olmuşdur. Sonra isə o, gizli surətdə Cənub İstiqamətli Qoşunların Baş Qərargahına getmiş və burada birlikdə hərbi əməliyyatlara rəhbərlik edən D. Yazovun, V. Bakatinin yanında olmuşdur.

**23 yanvar 1990-cı il.** Ayaz Mütəllibov, Həsən Həsənov; Viktor Polyaniçko, Müslüm Məmmədov Moskvada Mixail Qorbaçovdan vəzifə istəyirdilər.

Əslində A. Mütəllibov həmişə xalqdan uzaq olmuş, özü üçün yaşamış, öz karyerasında xalqdan, xalqın problemlərindən pilləkən kimi istifadə etmiş bir adam idi. 80-ci illərin axırlarında azərbaycanlıların Ermənistan-dan, öz dədə-baba torpaqlarından qovulmasını biganəliklə seyr etdiyi kimi, Dağlıq Qarabağın da erməniləşdirilməsini eyni biganəliklə seyr edirdi. Millətin faciəsi isə onun üçün irəli getmək və moskvalı ağalarına xidmət etmək üçün daha bir fürsət idi.

**Görək şahidlər nə deyir: Mənsur ƏLİSOY (tarix elmləri namizədi):** "1990-cı il yanvarın 16-da Primakov Bakıya gəlmişdi. O, N. Pənahovu, Ə. Elçibəyi, E. Məmmədovu, R. Qazıyevi, İ. Qəmbərovu dəfələrlə Mərkəzi Komitəyə dəvət edərək onlara bildirdi ki, Bakı şəhərində böyük qırğın gözlənilir. Siz xalqı bu fəlakətdən uzaqlaşdırın. Onlar isə "yox" dedilər. Dedilər ki, qan tökülməsə azadlıq ola bilməz. Deməli, onların şəxsi mənafeləri və mafiyaya xidmətləri naminə 1990-cı il 20 Yanvarda Azərbaycanda böyük bir qırğın törədildi, 132 insan şəhid oldu, hələ neçə yüz adam yaralandı. On ildən artıqdır ki, biz bu yaraların ağrısını çəkirik. Biz siyasətin qurbanı olduq. Əgər Vətən, xalq, istiqlaliyyət üçün mübarizəyə qalxdıqsa, onlar hakimiyyət uğrunda mübarizəyə qoşulduqları üçün Qarabağ torpaqlarını itirdik."

**Firuz HAŞIMOV (tarixçi-jurnalist):** "1990-cı il yanvarın 19-da Yusif Səmədoğlunun evində oturub çay içən İ. Qəmbərov — onun saat neçədə Y. Səmədoğlunun evinə getdiyini mən dəqiq bilirəm — indi özü haqqında o qədər rəvayətlər uydurmağa başlayıb ki, məəttəl qalırsan. A kişi, sən harada idin, nə vaxt Mərkəzi Komitənin qabağına gəlmişdin? AXC qurultayında sən özün dedin ki, küçələrdə güllə atırdılar, bizim sürücü küçəyə çıxmaqdan imtina etdi. Sən əgər doğrudan da belə döşünə döyən oğul idinsə, Yusif Səmədoğlunun evindən çıxıb Mərkəzi Komitənin binasının qarşısına gedəydin. Həmin evlə Mərkəzi Komitə arasında məsafə heç 300 metr deyildi. İgidliyini orada göstərəydin, deyərdin ki, camaat, ya dağılın, ya da bir iş görün. Sən orda yox idin.

E. Məmmədovu da həmin hadisələr zamanı mən görməmişəm. Allah köməyi olsun, onun yaşayışı inqilabdan əvvəl milyonçu Murtuz Muxtarovun yaşayışından qat-qat yaxşıdır. Mən hələ o birilərini demirəm."

Bəli, sapı özümüzdən olan baltaların — Ə. Vəzirovun, A. Mütəllibovun müraciətini, AXC fəallarının yaratdığı zorakılığı əsas tutan, daha doğrusu, əldə bəhanə edən imperiya rəhbərləri Bakıya qoşun yeritdi, nahaq qan tökdü. Azərbaycan xalqının milli azadlıq mübarizəsini boğmaq üçün, digər xalqlara ibrət dərsi vermək üçün. Yanvarın 19-dan 20-nə keçən gecə Sovet ordusunun silahsız adamlara əl qaldırmayacağına əmin olan yüzlərlə adam şəhid oldu, şikəst oldu, itkin düşdü. "Doğma" ordunun xalqın övladlarını güllələbaran edəcəyini əvvəlcədən bilən AXC fəalları isə camaatı küçələrdən yığışdırmağa cəhd etmədilər. Bu faktı AXC fəalı **E. Məmmədov yanvarın 21-də Moskvada, Azərbaycan nümayəndəliyində çıxış edərkən təsdiq etdi, hətta əlavə etdi ki, "biz camaatı qəsdən küçələrdən yığışdırmadıq. Dedik ki, milli ruh sınmasın".**

Xalqımızın böyük oğlu Heydər Əliyev 20 Yanvar faciəsindən dərhal sonra, imperiya qılıncının hələ kəsdiyi bir vaxtda, yanvarın 21-də Moskvadakı Azərbaycan nümayəndəliyinə gəldi və öz etiraz səsini qaldırdı. "Azadlıq" radiosu bu səsi bütün dünyaya yaydı, dünya millətin faciəsindən xəbərdar oldu. **"Əziz**

**həmvətənlərim! Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində, böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı daimi nümayəndəsindən xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm.**

**Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkədə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm..."**

Millətin böyük oğlu hələ o zaman hadisənin səbəblərini də, günahkarlarını da göstərdi. Vaxt məhdudluğuna baxmayaraq, hadisəyə siyasi qiymət də verdi. Kimdir günahkarlar — bu gün aydındır. Biz də bu adları çəkdik. Və həmin bu adları çəkilənlər üç il 20 Yanvar hadisəsinə siyasi qiymət verməkdən qaçdılar. Əllərində imkan ola-ola. Hətta mane oldular. Hadisəyə siyasi qiymət birinci dəfə Naxçıvanda, Heydər Əliyevin rəhbərlik etdiyi Ali Məclisdə verildi. 1991-ci ildə. Ancaq 3 ildən sonra, Heydər Əliyev Bakıya, siyasi hakimiyyətə qayıtdıqdan sonra Milli Məclisdə məsələ geniş müzakirə edildi və parlament səviyyəsində hadisəyə siyasi qiymət verildi. Əsrin ən böyük faciəsi kimi. Günahkarların adları da çəkildi. Əsrin ən böyük cinayətkarları kimi...

20 Yanvar faciə olduğu qədər də qəhrəmanlıq salnaməsidir. XX əsrin qəhrəmanlıq salnaməsi. Azadlıq uğrunda mübarizəyə qalxan və tankların üstünə əliyalın gedən bir xalqın salnaməsi. Azərbaycan Prezidenti Heydər Əliyev yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciətində bu salnaməyə böyük qiymət verir: **"Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələri-nə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi. 1990-cı ilin qanlı yanvarında Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalmış Vətən övladları özlərinin fədakarlığı, şəhidliyi ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar. Bu gün də Azərbaycan xalqı onun milli mənliyini qorumaq üçün öz canlarından keçməyə hazır olan övladları ilə fəxr edir".**

XX əsr uzaqlaşır. Tariximizin neçə-neçə faciəli səhifəsi bu əsrin payına düşür. 1918-ci ilin martı, 1990-cı ilin yanvarı, 1992-ci ilin fevralı Qan yaddaşımıza mart qırğını, Qara Yanvar, Xocalı faciəsi kimi yazılmışdır. Bu günlər yaddan çıxmamalıdır. XX əsrin faciələri kimi yaddaşımıza yazılmalıdır. Ən azı...

Hər ildönümündə bu faciələrə qayıtmağımızın əsas səbəbi də budur: ibrət dərsi almaq, düşməni də, dostu da tanımaq, gələcək nəsillərə tanıtmaq. XX əsrin bizə öyrətdiyi kimi...

**Qalib ARİF**

**“Xalq qəzeti”.** - 2003. - 19 yanvar. - №15. - S.2.

## Xalq həqiqi rəhbəri ilə qüdrətlidir

### Başsız qalanda isə fəlakətə düşür

**"Ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədi ilə həyata keçirilmiş 20 Yanvar faciəsi totalitar kommunist rejiminin Azərbaycan xalqına qarşı hərbi təcavüzü və cinayəti idi."**

**Heydər ƏLİYEV**

**Haqsızlıq, ədalətsizlik və zorakılıq pis əməldir. Yaşından və mövqeyindən asılı olmayaraq heç kəs onunla barışmaq istəmir. Etiraz etməyə, müqavimət göstərməyə, ən nəhayət, dəf etməyə çalışır, Gücü çatmayan-da, arxasız, köməksiz qalanda isə özünü kimsəsiz və təhqir olunmuş sayır, küskünləşir.**

**Əlbəttə, hər hansı bir fərdə qarşı haqsızlıq və ya zorakılıq törədilməsi nadir hadisə sayılmır. Bütöv xalqa qarşı ədalətsiz addımlar atılması, hüquqlarının tapdalanması isə görünməmiş və heç cür qəbul edilməyən hərəkətdir. Təəssüf ki, xalqımızın başına belə bir ədalətsizlik və qanlı zorakılıq əməli gətirildi.**

### Azərbaycan kimin qəzəbinə gəlmişdi?!

Nə idi 20 Yanvar qırğınının səbəbi? Əliyalın xalq niyə qırmızı imperiyanın qəzəbinə tuş gələrək quduzlaşmış əsgərlərin hədəfinə çevrilmişdi? Bu kin və nifrət nədən doğmuşdu?

Azərbaycan xalqı daim müstəqil olmaq, azad yaşamaq istəmişdi. Və zaman-zaman, imkan yarananda arzusunu gerçəkləşdirməyə çalışmışdır. Lakin əlverişli geostrateji mövqeyi və zəngin təbii sərvətləri ilə yağlı tikəni xatırladan Azərbaycanı imperiyasevər qüvvələr caynaqlarından buraxmaq istəmirdilər. Bu niyyətlərini isə zorakılıq aksiyaları, qanlı divanlarla gerçəkləşdirməyə çalışırdılar. XX əsrin əvvəllərində ölkəmizin azadlığa çıxmaq imkanı yaranmışdı. Hətta Azərbaycan dövlət müstəqilliyi elan edərək demokratik cəmiyyət qurdu və 23 ay yaşadı. Sonra XI Ordunun simasında şimaldan gələn qırmızı taun Azər-baycan Demokratik Cümhuriyyətinin ömrünə son qoydu. Üstəlik, Azərbaycanda kütləvi qətl və qırğınlar başlandı. "İnqilab" və "bolşevizm" adı altında maskalanan erməni daşnakları sovet Rusiyasının əli və silahı ilə Bakıda, habelə Şamaxı, Quba, Xaçmaz və digər yerlərdə dinc əhaliyə vəhşicəsinə divan tutdular, günahsız əhalini qırdılar.

Beləliklə, dövlət müstəqilliyini itirən xalqımız azadlıq və suverenlik arzusunu uzun müddət qəlbinin dərinliyində gizlətməli oldu.

XX əsrin sonlarında qırmızı imperiya laxlamağa və artıq köhnəlmiş divarları uçmağa başladı. Yetmiş il "qardaş xalqların sarsılmaz ittifaqı"nda yaşayan müttəfiq respublikalar "böyük qardaş"dan qopub ayrılmağa başladılar. Yenidən müstəqil dövlətini qurmaq imkanı yarandığını görən Azərbaycan xalqı da ayağa qalxdı. Lakin düşmənlərimiz və bədxahlarımız müstəqillik niyyətimizin qarşısına sipər çəkmək üçün irəlicədən qəddar və məkrli planlar hazırlamışdılar. 1918-1920-ci illərdə olduğu kimi, eyni ssenari və qüvvələr tərəfindən ölkəmizə və xalqımıza qarşı qəsdlərə başlandı. Əbədi düşmənlərimiz sayılan ermənilər tərəfindən ələ alınmış cəllad Qorbaçov və Moskvadakı digər imperiyasevər qüvvələr nəyin bahasına olursa-olsun Azərbaycanın müstəqilliyə çıxmasına yol vermək istəmirdilər. Odur ki, buxov rolu oynayan "Qarabağ problemi" hazırlanaraq meydana atıldı. Mahiyyətində Ermənistanın Azərbaycana qarşı ərazi iddiası duran bu məkrli plan reallıqda ölkəmizin əsarət boyunduruğunda saxlanılmasına xidmət edirdi. Əli Azərbaycan xalqının qanına batmış cəllad Qorbaçov bu planın baş icraçılarından idi.

Moskvanın razılığı ilə Xankəndidə mitinq meydanına toplaşan ermənilər əvvəlcə DQMV-nin sosial-iqtisadi vəziyyətindən narazılıq etməyə və tədricən əsl məqsədlərini açaraq "miatsum" bağırmağa başladılar. Yenidənqurma adı altında bunu pərdələyənlər əslində öz mənfur niyyətlərini yerinə yetirməyə çalışırdılar. Özü də utanıb çəkinmədən, qorxub hürkmədən. Çünki arxayın idilər. Bilirdilər ki, mərkəzdə oturanlar onları müdafiə

edəcək, çaldıqları havaya oynayacaqdılar. Hadisələr də həmin yöndə inkişaf edirdi. 1988-ci ilin martında Sov.İKP MK və SSRİ Nazirlər Soveti DQMV-nin sosial-iqtisadi inkişafının sürətləndirilməsi haqqında xüsusi bir qərar qəbul edərək əslində Dağlıq Qarabağın Azərbaycanın tabeliyindən çıxarılmasının təməlini qoydu. Qondarma səbəblərlə qəbul edilmiş bu qərarla Dağlıq Qarabağa müstəsna hüquqlar verildi, külli miqdarda vəsait ayrıldı, vilayətin bir çox məsələlərinin həlli birbaşa ittifaq nazirlik və qurumlara həvalə edildi. Azərbaycan SSR Ali Sovetinin 17 iyun 1988-ci il tarixli qərarında isə qeyd olunurdu ki, mərkəzin həmin qərarı ilə həyata keçirilən tədbirlər "Muxtar vilayətin məhsuldar qüvvələrinin inkişafının sürətləndirilməsi, onun istər erməni və azərbaycanlı əhalinin, istərsə də başqa millətlərin iqtisadi və mənəvi tələbatının ödənilməsi üçün əlverişli şərait yaradır."

DQMV-ni Azərbaycanın tabeliyindən çıxarmaq yolunda mərkəzin atdığı növbəti addım SSRİ Ali Soveti Rəyasət Heyətinin muxtar vilayətdə xüsusi idarəetmə forması yaratmaq haqqında 1989-cu il yanvarın 12-də verdiyi fərman oldu. Dağlıq Qarabağın idarə olunması mərkəzin nümayəndəsi A.Volskinin başçılığı ilə yaradılmış Xüsusi İdarəetmə Komitəsinə həvalə edildi. Bu, faktiki olaraq Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibindən çıxarılması demək idi.

SSRİ rəhbərliyi qəbul etdiyi rəsmi sənədlərində belə bir təsəvvür yaratmağa çalışırdı ki, o, regionda yaranmış vəziyyəti normallaşdırmaq üçün atdığı addımlarda həm Azərbaycana, həm də Ermənistana münasibətdə paritetlik mövqeyindən çıxış edir. Halbuki mərkəzin Azərbaycana, azərbaycanlılara qarşı qərəzli münasibəti açıq-aşkar göz qabağında idi. Azərbaycanlılar hələ 1988-ci ildən əvvəl də SSRİ-nin mərkəzi kütləvi informasiya vasitələrində və Ermənistanın müxtəlif mətbu orqanlarında məqsədyönlü şəkildə həyata keçirilən ideoloji təcavüzə məruz qalırdılar. "Mənfi azərbaycanlı obrazı" yaratmaq həmin kampaniyanın əsas məqsədi idi. Bu, 1988-ci ildə Ermənistan SSR-də, eləcə də Dağlıq Qarabağ Muxtar Vilayətində başlanmış kütləvi etnik təmizləmə əməliyyatının hazırlıq mərhələsi hesab edilə bilər. Ermənistanda yaşayan azərbaycanlıların misli görünməmiş qəddarlıqla ata-baba yurdlarını tərk etməyə məcbur edilmələri zamanı neçə-neçə soydaşımız, o cümlədən qocalar, qadınlar və uşaqlar qətlə yetirildi. SSRİ-nin rəsmi dövlət qurumları, hüquq-mühafizə orqanları və kütləvi informasiya vasitələri Dağlıq Qarabağ probleminə olduqca böyük diqqət yetirdiyi halda, Azərbaycan xalqının böyük faciəsi tam sükutla müşayiət olundu. Azərbaycan rəhbərliyinin bu məsələdə tutduğu laqeyd mövqe isə öz xalqına qarşı əsl cinayət idi. Ermənistan SSR Ali Soveti Azərbaycan rəhbərliyinin bu mövqeyindən "cəsarətlənərək" 1989-cu il dekabrın 1-də Dağlıq Qarabağın Ermənistan SSR ilə birləşməsi haqqında qərar qəbul etdi. 20 Yanvar hadisələrinə bir neçə gün qalmış, yəni 1990-cı il yanvarın 15-də SSRİ Ali Soveti Rəyasət Heyətinin "Dağlıq Qarabağ Muxtar Vilayətində və bəzi digər rayonlarda fövqəladə vəziyyətin elan olunması haqqında" fərmanı ilə əslində azərbaycanlıların Dağlıq Qarabağdakı ev-eşiklərinə qayıtmaq ümidlərinə də son qoyuldu. Fərmanın başlığından göründüyü kimi, muxtar vilayətin və "bəzi digər rayonların" kimə mənsub olması məsələsi də artıq sual altına qoyulurdu.

Bütün bunlar ermənilərlə əlbir olan keçmiş SSRİ rəhbərlərinin ədalətsiz və məkrli, uzaq məqsəd güdən əməlləri idi. Sadə xalq bu riyakarlığı və tərəfkeşliyi dərk edərək hadisələrin təhlükəli istiqamətdə cərəyanından narahatlıq keçirir, kütləvi aksiyalarla öz etirazını bildirirdi. Dövlətin və xalqın taleyi üçün məsuliyyət daşıyan, mərkəzin gördüyü işlərin nə ilə nəticələnəcəyini irəlicədən bilməli olan respublika rəhbərləri isə öz kürsülərini qorumaq hayındaydılar.

### Vəzifəni xalqın mənafeyindən yüksək tutanlar

Yalın əllə tankın üstünə gedən, ölümün gözünə dik baxan Azərbaycan xalqı öz qorxmazlığı və azadlıq təşnəsi ilə sübut etdi ki, o, həqiqətən azad olmağa, müstəqil yaşamağa layiqdir. Həmin dövrdə və faciədən sonra xalqa rəhbərlik edənlər, habelə "Azadlıq" meydanındakı mitinqlərdə adamları imperiya əsgərləri ilə vuruşa təhrik edən "meydan qəhrəmanları" isə bu xalqa layiq olmadıqlarını, əslində vəzifə uğrunda mübarizə apardıqlarını büruzə verdilər. "Yenidənqurma" adlı oyunun başlanğıcında Əbdürrəhman Vəzirov kimi xalqına və soykökünə yad ünsürün Azərbaycana başçı göndərilməsi Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi

planının tərkib hissəsi idi. (İrəlicədən deyək ki, Ə.Vəzirov bu "etimadı" doğrultdu, özü də artıqlaması ilə). Dünyada və SSRİ-də gedən proseslərdən baş çıxarmayan, millətinə və xalqına can yandırmayan, dərin ağlı və düşüncəsi olmayan Əbdürrəhman Vəzirov əslində xalqın faciə və fəlakətinin sürətlənib dərinləşməsinə təkan vermiş oldu. O, özünün bütün fəaliyyəti ilə respublikanı təslimçilik mövqeyinə yuvarladı. Əsrlər boyu Ermənistandakı ata-baba torpaqlarında yaşayan 200 minədək soydaşımız zorakılıqla, təhqir və ölüm hədəsi ilə doğma ev-eşiklərindən qovulanda Ə.Vəzirov erməni dostlarının Bakıya qayıtması münasibətilə xalqa gözaydınlığı verirdi, ermənilər silahlanaraq Dağlıq Qarabağdakı Azərbaycan kəndlərinə hücum edib boşaltdıranda, xalqlar dostluğu və proletar beynəlmiləlçiliyi prinsiplərindən danışırdı. Ağıllı və dünyagörmüş adamlar Ermənistandan qovulan soydaşlarımızın Dağlıq Qarabağda yerləşdirilməsinin vacibliyini söyləyəndə eşitmədi. Mərkəzin çaldığı havaya oynayaraq milləti zəlil günə qoydu. Qul psixologiyası, kölə mütiliyi ilə sonadək xalqın əleyhinə fəaliyyət göstərdi. Sovet silahlı qüvvələrinin cəza dəstələrinin Bakıya girməsinə gizli şəkildə razılıq verdikdən sonra xəyanətkarlıq əməllərini sona qədər davam etdirdi. Ən ağır gündə - yanvarın 19-da öz iş yerində olmaq əvəzinə, DTK-nın binasına gedərək xəyanət yoldaşı Vaqif Hüseynovla birlikdə oldu. Sonra isə xəlvəti surətdə SSRİ Müdafiə Nazirliyinin Bakıda yerləşən hərbi qərargahına gedərək yanvarın 20-nə keçən gecə Dmitri Yazov və Vadim Bakatinlə birlikdə hərbi əməliyyatlara rəhbərlik etdi. Xalqı qırğına verdikdən sonra - 1990-cı il yanvarın 21-də şəxsi təhlükəsizliyini təmin etmək üçün hərbi təyyarə ilə xəlvəti surətdə Moskvaya qaçdı.

**Fəlakət və faciədən bəhrələnənlər**

20 Yanvar sınaq günü, qəhrəmanlıq və inam günü idi. Əksəriyyəti erməni millətindən olan sovet ordusunun cəza dəstələrinin xüsusi hissələri fövqəladə vəziyyət elan edilmədən Bakıya yeridildi. Əliyalın insanlarla zirehli texnika, azadlıq təşnəsi ilə qisasçılıq istəyi qarşı-qarşıya dayanmışdı. Müstəqillik eşqində olanlar arzularının müqəddəsliyinə və reallığına inanırdılar. Odur ki, nə tankların zəhmli gurultusundan, nə də onlara tuşlanan silahların soyuq lüləsindən qorxurdular. Əfsus ki, onların bir çoxuna müstəqilliyimizi görmək qismət olmadı. Faciəli günlərdə 131 nəfər öldürüldü, 744 nəfər yaralandı. Quduzlaşmış hərbçilər tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edildi. Qabaqcadan planlaşdırılmış bu qanlı aksiya zamanı qadınlar, uşaqlar, qocalar, həmçinin təcili tibbi yardım işçiləri və milis nəfərləri öldürüldü.

20 Yanvardan sonrakı günlərdə də Bakıda qırğın davam etdirildi. Ağır zirehli texnika paytaxtın küçələrində cövlan edir, qarşısına çıxan minik avtomobillərini əzərək üstündən keçib gedir, gözlərini qan örtmüş silahlı əsgərlər dükan-bazara gedən, küçəyə çıxan insanlara güllə atır, qətlə yetirirdi. Təxribat planına uyğun olaraq irəlicədən televiziyanın enerji bloku partladıldığından radio və televiziya verilişlərinin translyasiyası dayandırılmışdı. Qəzetlər də çıxmırdı. Mərkəzi mətbuat və Rusiyanın televiziya kanalları isə hadisəni təhrif edən yalan məlumatlar yaymaqda idi. Görünməmiş zorakılıqla üzləşən, qanı küçələrə axıdılan insanlar kor quyunun dibinə salınmış kimi, informasiyasız və köməksiz qalmışdı. Adamı ən çox yandıran arxasızlığı yox, bəlkə də haqqa nahaq deyərək adını "ekstremist" qoyub şərlənmələri idi. Yalnız "Azadlıq" radiosunun dalğalarında Elmira Əmrahqızının titrək və həyəcanlı, bəzən isə qəhərli səsi eşidilirdi: "Mən jurnalistəm... Bakını qan çanağına döndəriblər..." Hamı məlul, ümidsiz, köməksiz vəziyyətdə idi...

Sanki qəflətən aydın səmada göy guruldadı. Dünyanın bütün informasiya kanalları SSRİ rəhbərliyindən uzaqlaşdırılaraq ömrünün çox ağır və təhlükəli günlərini yaşayan xalqın böyük oğlu Heydər Əliyevin bəyanatını yaymağa başladı. *Həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələn Heydər Əliyev ifşaedici və cəsarətli bir bəyanat verdi:*

*"Əziz həmvətənlərim!*

*Buraya ən əvvəl ona görə gəlmişəm ki. Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı daimi nümayəndəsindən*

*xahiş edirəm ki. mənim sözlərimi. kədərimi. başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm.*

*Azərbaycanda baş vermiş hadisələrə gəlincə. mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm. Azərbaycanda yaranmış mürəkkəb vəziyyətin bir sıra səbəbləri vardır. Vaxtımızın məhdudluğundan bu məsələlərin üzərində ətraflı dayanmaq istəmirəm...*

*Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya-siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı.*

*Bunlar üçün ilk növbədə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin artıq sabiq birinci katibi Vəzirov müqəssirdir. Bu yüksək vəzifədə olduğu müddətdə o. Azərbaycandakı vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə. özünün səhv addımları, yaramaz iş üslubu. yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurum yaratmışdır. Xalq isə hiddətlənmişdir. Elə buna görə də Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında aylarla davam edən mitinqlərdə dəfələrlə Azərbaycanın partiya rəhbərliyinin istefası tələbi irəli sürülmüşdür. Söhbət əslində Vəzirovun istefasından gedirdi. Bəs bu məsələ indiyə kimi niyə həll olunmamışdır? Yalnız dünən Bakı şəhərinə ordu yeridildikdən. qırğın və dağıntılar baş verdikdən sonra Vəzirov Azərbaycandan əslində qaçmışdır. Bu, böyük səhvdir. Ən böyük səhv isə, sözsüz ki, qeyri-ciddi, bu yüksək vəzifəyə əsla yaramayan adamın bir vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə birinci katib təyin edilməsi idi. Ancaq iş təkcə bununla bitmir.*

*İndi yanvarın 19-dan 20-nə keçən gecə baş vermiş və bu gün də davam edən faciənin üstündə dayanmaq istəyirəm. Hesab edirəm ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq. siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur. Təəssüf ki, Azərbaycan rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir...*

*Nəhayət, 19-dan 20-nə keçən gecə sovet ordusunun. SSRİ Daxili İşlər Nazirliyinin böyük kontingenti Bakı şəhərinə yeridilmişdir. Nəticəsi isə göz qabağındadır. Bunun törətdiyi faciələr hamımıza məlumdur.*

*Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə bərk ayaqda Azərbaycanı qoyub qaçmış Vəzirov öz xalqı qarşısında məsuliyyət daşımalıdır. Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır."*

Sanki yanar ürəklərə su çiləndi. Xalq kimsəsizlik xofundan qurtardı, mərd və qorxmaz müdafiəçisinin, haqqını müdafiə edərək sözünü deyəninin olduğunu gördü. Özü həyatının ən təhlükəli və ağır dövrlərindən birini yaşamasına baxmayaraq, bu böyük insan xalqına arxa durmağı, ona yönələn ədalətsizliyə qarşı qətiyyətlə çıxmağı bacardı.

Xalqın belə faciəli günlərində isə Azərbaycanda hakimiyyət davası davam edirdi. Xalqın qanı və göz yaşları üzərindən adlayaraq keçən A.Mütəllibov respublikaya başçılıq etməyə başladı. Şəhidlərin dəfnində belə iştirak etməyən respublika başçısı bu cür vəhşiliyin və qəddarlığın araşdırılması, baş verən hadisələrin təhlil edilərək cinayətkarların cəzalandırılması barədə düşünmək belə istəmirdi. Fikri-zikri çoxdan bəri həsrətində olduğu vəzifədə yerini möhkəmləndirmək, Moskva ilə münasibətlərini mehribanlaşdırmaq idi. Dağlıq Qarabağda baş verən hadisələr də qulağına girmirdi. Elə bil bu xalqın ona heç bir aidiyyəti yox idi. Sona qədər də mərkəzin anti-Azərbaycan tapşırıqlarını can-başla yerinə yetirdi. Ən nəhayət, xalqın qəzəbindən qorxaraq sələfi Vəzirov kimi Moskvaya qaçdı. Amma gec-tez əməllərinə görə, xalq qarşısındakı cinayətinə görə cavab verəcəkdir!

İlk dəfə meydan qəhrəmanlarının da iç üzü 20 Yanvar hadisələri zamanı açıldı. Ölkənin baş meydanındakı tribunadan SSRİ rəhbərliyini hədələyən, xalqı istehkamlar qurmağa, silahlı əsgərlərə və zirehli texnikaya müqavimət göstərməyə çağıran "liderlər" həlledici məqamda gizləndilər. Əslində onlar dinc əhalinin güllələbaran ediləcəyini gözəl bilirdilər. Amma bu vasitə ilə Vəzirovu sıradan çıxararaq hakimiyyətə gəlmək istəyirdilər. Bəli, məhz vəzifə xatirinə azadlıq uğrunda mübarizəyə qalxmış insanları qəsdən qırğına, ölümün

pəncəsinə göndərdilər. Pənah Hüseynov və "böyük bəy" Elmlər Akademiyasının zirzəmisində, İsa Qəmbərov kiminsə evində daldalandı, Nemət Pənahlı respublikadan qaçdı. Etibar Məmmədov gözdən itdi. Xalqı qana susamış, əlisilahlı imperiya qoşunu üzərinə göndərən "meydan qəhrəmanları"nın birinin də burnu qanamadı. Və azadlıq uğrunda şəhid gedənlər nə qədər yüksəklərə qalxdılarsa, onlar da bir o qədər alçalıb xalqın nəzərindən düşdülər. 20 Yanvar hadisələrinə münasibətdə - həm Azərbaycanın müstəqilliyi uğrunda canlarından belə keçməyə hazır olanların aldadılmasında və ölümə təhrik edilməsində, həm də baş vermiş faciənin qiymətləndirilməsində eyni mövqe tutsalar da, vəzifə kürsüsü naminə vuruşda sonradan düşmənə çevrildilər. Xalq hərəkatının dalğaları qoynunda hakimiyyətə gələn AXC - Müsavat cütlüyü Ayaz Mütəllibovu rəhbərlikdən uzaqlaşdırdıqdan sonra özü də iqtidarda uzun müddət duruş gətirə bilmədi. Amma hakimiyyətdə olduqları müddətdə 20 Yanvar hadisələrinin obyektiv qiymətləndirilməsinə təşəbbüs belə göstərmədilər. Yalnız möhtərəm prezidentimiz cənab Heydər Əliyev fəlakət baş verən andan hadisəyə öz kəskin və prinsipial münasibətini bildirdi, sona qədər də mövqeyindən geri çəkilmədi.

## Xalqın ağır günlərində daim onunla olan böyük rəhbər

*Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyev 16 dekabr 1999-cu ildə 20 Yanvar faciəsinin 10-cu ildönümü haqqında xüsusi sərəncam imzaladı. Sərəncamda on il əvvəl törədilən faciəyə ədalətli və obyektiv qiymət verilməklə yanaşı. cinayətin açılmamasından, bütün günahkarların cəzalandırılmamasından narahatlıq hissi də ifadə olunurdu.*

Törədilmiş cinayət və onun nəticələri göz qabağında olduğu halda, respublika rəhbərliyi baş vermiş faciənin mahiyyətini hər vasitə ilə ört-basdır etməyə cəhd göstərmişdir. Xalqın tələbi və bir qrup deputatın təşəbbüsü ilə Azərbaycan SSR Ali Sovetinin 1990-cı il yanvarın 22-də Yanvar faciəsi ilə bağlı çağırılmış sessiyasına respublikanın əksər siyasi və dövlət rəhbərlərinin gəlməməsi isə onların xalqın taleyinə biganə qaldıqlarını, törədilmiş cinayətdə bu və ya digər dərəcədə iştirak etdiklərini bir daha təsdiq etmişdir. Respublika rəhbərliyi hətta şəhidlərin dəfn mərasiminə gəlməyi belə lazım bilməmişdir.

20 Yanvar hadisələrinə siyasi qiymət verilməsi tələbi ilə dəfələrlə çıxış edən Azərbaycan Xalq Cəbhəsi də hakimiyyətdə olduğu dövrdə faciəyə siyasi qiymət vermək üçün öz imkanlarından istifadə etməmişdir. Beləliklə, hadisələrdən uzun müddət keçsə də, keçmiş SSRİ-nin və Azərbaycanın rəhbərliyi tərəfindən xalqa qarşı törədilmiş ağır cinayət açılmamış qalmışdı.

Hələ Azərbaycanda sovet hakimiyyəti mövcud olduğu dövrdə 20 Yanvar faciəsi ilə bağlı olan və geniş xalq kütlələri tərəfindən yığılıb Dövlət İstintaq Komissiyasına təhvil verilmiş konkret dəlil və sübutlar qəsdən Azərbaycandan çıxarılıb aparılmışdı. O dövrdə Azərbaycanın prokurorluq və hüquq-mühafizə orqanları müvafiq istintaq tədbirləri həyata keçirməmiş, hətta əksinə, 20 Yanvar faciəsi ilə bağlı bir sıra məxfi sənədlər, o cümlədən mühüm arxiv sənədləri bütövlükdə və ya qismən məhv edilmişdi.

Bu fərmana qədər də zati-aliləri Heydər Əliyev ardıcıl və müntəzəm surətdə hadisələrə obyektiv qiymət verilməsinə çalışmış, bir sıra sənədlərin qəbul edilməsinə nail olmuşdur. Onlardan bir qismindən müəyyən parçaları diqqətə çəkirik.

**Naxçıvan MR Ali Məclisinin 21 noyabr 1990-cı il tarixli qərarından:**

"Yanvar faciələrinin səbəbkarlarının - istər İttifaq, istərsə də respublika rəhbər partiya, sovet, hüquq-mühafizə orqanı işçilərinin, hərbçilərin bu günədək aşkar edilib qanunla məsuliyyətə cəlb olunmaması xalqda dərin hiddət və etiraz doğurmuşdur.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bütün bunları işğalçı siyasət və dəqiq düşünülmüş hərbi təcavüz kimi qiymətləndirərək insan hüquqları bəyan-naməsinin kobud şəkildə pozulması kimi nəzərdə tutaraq qərara alır:

1. 1990-cı ilin yanvar ayında Bakı şəhərində törədilmiş qanlı hadisələr Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirilsin.

2. Dinc əhaliyə, silahsız kütləyə, heç bir müqavimət göstərməyən günahsız adamlara qarşı müasir silahla, hərbi texnika ilə zorakılıq edilməsi, qocaların, qadınların, uşaqların qətlə yetirilməsi Azərbaycan xalqına qarşı açıq təcavüz kimi ittiham edilsin.

3. Bir ilə yaxın vaxt keçməsinə baxmayaraq, Bakı faciələrinə Azərbaycan SSR ali hakimiyyət orqanları tərəfindən siyasi qiymət verilməməsi, bununla əlaqədar yaradılmış Xüsusi Deputat Komissiyasının işinin qeyri-müəyyən səbəblərdən başa çatdırılmaması, qanlı hadisələrin günahkarlarının aşkara çıxarılıb qanuni məsuliyyətə verilməməsinə qəti etiraz olunsun.

Azərbaycan SSR Ali Sovetindən tələb edilsin ki, ən qısa müddətdə həmin məsələni parlamentin müzakirəsinə çıxarsın.

4. Bu qərar qəbul edilən an-dan 20 Yanvar günü hər il Naxçıvan Muxtar Respublikasında Milli matəm günü kimi qeyd edilsin.

5. Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin ki, 20 Yanvar günü hər il Azərbaycan SSR-də Milli matəm günü kimi qeyd edilsin".

*Cənab Heydər Əliyev bu mübarizəsini ona qarşı az qala düşmən mövqedə duran Ali Sovetdə də davam etdirirdi.*

*O ağır günlərdə 20 Yanvar faciəsi ətrafında hökm sürən xəyanət sükutunu mütəmadi olaraq yaran məhz Heydər Əliyevin haqq səsi və dəyişməz mövqeyi oldu. Heydər Əliyevin Azərbaycan SSR Ali Sovetinin 7 mart 1991-ci il tarixli sessiyasındakı çıxışından:* "1990-cı il yanvarın 20-də İttifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edilmişdir. Heç bir əsas olmadan, xəbər vermədən, dövlət qanunlarını kobudcasına pozaraq Bakı şəhərinə müasir silahlı sovet ordusunun qoşun hissələri yeridilmiş, onlar vəhşilik, qəddarlıq etmiş, nəticədə nahaq qan tökülmüş, yüzlərlə adam həlak olmuş, xəsarət almış, itkin düşmüşdür.

Təəssüf ki, bu təcavüz indiyə qədər davam edir. Bir ildən artıqdır ki, Azərbaycanın paytaxtı fövqəladə vəziyyət şəraitində yaşayır. Bizim sessiyamız da bu şəraitdə keçirilir. Bir ildən artıqdır ki, Azərbaycan xalqı şəhidlərə matəm saxlayır. Respublikanın şəhərlərində, qəsəbələrində, kəndlərində şəhidlərin xatirəsinə abidələr ucaldılır. Fəqət, qatillər indiyə qədər aşkar olunmayıb. Buna heç vəchlə bəraət qazandırmaq olmaz. Bu məsələ müzakirə olunmalıdır. 20 Yanvar faciəsinə Ali Sovetin sessiyası siyasi qiymət verməlidir, onun günahkarlarını müəyyən etməlidir."

**Heydər Əliyevin 1991-ci il iyunun 19-da SSRİ Nazirlər Kabinetinə göndərdiyi məktubundan:**

"Yanvar hadisələrində yüzlərlə adam öldürüldü və şikəst edildi.

Artıq il yarım keçib. Nəinki bu dəhşətli cinayətlərin hamıya çoxdan məlum olan günahkarları üzə çıxarılmayıb, əksinə, bunları ört-basdır etmək üçün əllərindən gələni edirlər. Ümid edirlər ki, zaman keçdikcə bu faciə unudulacaq. Ancaq tarix dəfələrlə sübut etmişdir ki, doğma xalqa qarşı yönəldilmiş qanlı cinayətləri on illər keçsə də, unutmaq və bağışlamaq mümkün deyil."

**Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin 29 avqust 1991-ci il tarixli sessiyasında çıxışından:**

"20 Yanvar faciəsi dövründən il yarımdan çox vaxt keçir. Bu gün burada da, bu salonda cürbəcür söhbətlər gedir. Bir qrup bir fikirdədir, məndən qabaq çıxış edən Rəhimov başqa fikirdədir. Mən sual verirəm, Ali Sovetin sədri Elmira Qafarovaya, Azərbaycan prezidenti Ayaz Mütəllibova: nə üçün indiyə qədər bu məsələyə siyasi qiymət verilməyib? Bu məsələnin həm siyasi tərəfi var, həm hüquqi tərəfi var. Bu məsələyə dərhal siyasi qiymət vermək olardı. O ki qaldı hüquqi cəhəti, ayrı-ayrı adamların məsuliyyətə cəlb olunması, onu şübhəsiz ki, istintaq yolu ilə aydınlaşdırmaq lazımdır. Buna siyasi qiymət verilmədiyinə görə başqa tədbirlər həyata keçirmək mümkün olmur."

Bütün bunlar öz əli ilə tikib qurduğu Bakıda yaşamasına imkan verilməyən, amma daim xalqı ilə birlikdə olan, ən çətin və ağır günlərdə ona arxa sayılan möhtərəm Heydər Əliyevin mövqeyi idi. Doğrudur, müxtəlif siyasi platformadan çıxış edən ayrı-ayrı siyasi qüvvələr 20 Yanvar faciəsinə münasibətdə həmfikir təsiri bağışlayırdılar. Hətta onlar SSRİ dağıldıqdan sonra cürətə gələrək bütün günahları Moskvanın üzərinə atmağa cəhdlər də göstərmişdilər. Bütövlükdə isə 1994-cü ildə cənab Heydər Əliyevin təşəbbüsü ilə görülən

işlərə qədər nə respublikanın kommunist rəhbərliyi, nə də dəfələrlə kommunistlərdən 20 Yanvara siyasi qiymət verilməsini tələb edən AXC öz iqtidarı dövründə faciəyə siyasi qiymət verilməsindən ötrü imkanlardan istifadə etməyib.

*Xalqın arzu və tələbi ilə ölkə rəhbərliyinə qayıdan zati-aliləri Heydər Əliyev dövrün mürəkkəbliyinə və görüləsi işlərin çoxluğuna baxmayaraq. tariximizin şanlı və qanlı səhifəsi sayılan 20 Yanvar faciəsinin başvermə səbəblərini və günahkarlarının araşdırılması ilə də məşğul oldu. Beləliklə, 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verildi. Zati-aliləri Heydər Əliyev bununla əlaqədar olaraq 1994-cü il yanvarın 5-də xüsusi fərman imzaladı. Həmin fərmanda Yanvar hadisələrinə qiymət verilməsindən ötrü Milli Məclisin ayrıca sessiyasının keçirilməsi tövsiyə olunmuşdu. 1994-cü il yanvarın 2-də möhtərəm prezidentimiz Heydər Əliyevin sədrliyi ilə 20 Yanvar faciəsinin dördüncü ildönümü münasibətilə yaradılan dövlət komissiyasının iclası keçirildi. İclasda çıxış edən cənab Heydər Əliyev ötən dörd ildə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməməsini, o zamankı Milli Şura tərəfindən qəbul edilmiş 19 yanvar 1992-ci il tarixli qərarın səthi, başdansovdu hazırlandığını ciddi tənqid etdi. Bundan sonra Milli Məclisin iclaslarında 20 Yanvar faciəsi ilə bağlı məsələ dərindən və ətraflı araşdırıldı. 1994-cü il martın 29-da "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" adlı xüsusi qərar qəbul edildi. Beləliklə. zati-aliləri Heydər Əliyevin təkidi və rəhbərliyi sayəsində xalqımıza qarşı törədilən bu qanlı və qəddar aksiyaya siyasi-hüquqi qiymət verildi.*

Təəssüf ki, indiyədək həmin cinayəti törədənlər layiq olduqları cəzanı almamışlar. Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyevin 20 Yanvar faciəsinin 10-cu ildönümü haqqında imzaladığı fərmanda deyilir: *"XX əsr tarixində totalitarizmin törətdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı işlədilmiş cinayət əslində bəşəriyyətə. humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli bir əməldir. Həmin cinayəti törədənlər indiyədək öz cəzalarını almamışlar. Xalqımız əmindir ki, müqəssirlər tarix, bəşəriyyət, eləcə də Azərbaycan xalqı qarşısında cavab verməli olacaqlar."*

20 Yanvar hadisələrində müəyyən qurbanlar verilsə də, həmin faciəli günlər inam və sınaq günü kimi də yadda qaldı. Qəhrəman xalq həmin gün özünün azad və müstəqil yaşamağa layiq olduğunu bir daha sübut etdi. Faciə baş verən zaman kimin kim olduğu da müəyyənləşdi, özü təqib və təhlükələrlə dolu şəraitdə yaşamasına baxmayaraq, zati-aliləri Heydər Əliyev əli xalqın qanına batmışları ifşa etməklə xalqını hamıdan çox sevdiyini və daim onunla birlikdə olduğunu nümayiş etdirdi. Dar gündə milləti güllə qabağına göndərərək özləri qaçıb gizlənən İsa Qəmbərov, Etibar Məmmədov, Pənah Hüseynov, Nemət Pənahlı və digər "siyasətçilər" də iç üzlərini göstərdilər.

*Bu gün 20 Yanvar qurbanlarının uyuduğu Şəhidlər xiyabanı hamının sevdiyi, hörmət və ehtiramla yad etdiyi verdir. Bu müqəddəs ziyarətgaha gedərkən şəhidlərimizi hörmətlə anır, ərazi bütövlüyümüzün bərpa ediləcəyinə. qurbanlar vermiş Azərbaycanımızın xoşbəxt günlərə çıxacağına qəlbən inanırıq!*

**Bəxtiyar Sadıqov**

**“Azərbaycan”.** - 2003. - 19 yanvar. - №15. - S.2-3.

## 20 Yanvar faciəsi ilə bağlı Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutunun məlumatı

*Yanvar 1990-cı il Azərbaycan xalqının yaddaşına milli azadlıq, müstəqillik uğrunda mübarizə günü kimi həkk olunmuşdur. SSRİ imperiyası həmin gün azadlığı və müstəqilliyi uğrunda mübarizəyə qalxmış Azərbaycan xalqının iradəsini, azadlıq istəyini qan içində boğmaq istədi. Dinc əhaliyə qarşı müxtəlif silahlar tətbiq edilərək divan tutuldu, yüzlərlə, minlərlə vətənpərvər, xalqın azadlığını canından çox istəyən vətən övladı həyatdan məhrum olundu və şikəst edildi. İmperiyanın öz azadlığı, dirçəlişi uğrunda mübarizəyə qalxan xalqa qarşı hərəkətləri dinc əhalinin əmlakının məhvi, qanunsuz həbslər, söz və mətbuat, sərbəst hərəkət azadlığının pozulması ilə müşayiət olundu. Həmin hərəkətlər beynəlxalq hüququn jus cogens prinsiplərinə - ayrı-ayrı dövlətlərin deyil, bütün beynəlxalq birliyin mənafeyinə xidmət edən, yerinə yetirilməsi bütün dövlətlər üçün məcburi (imperativ) sayılan beynəlxalq hüquq normalarına zidd olmaqla onları kobud surətdə pozurdu. Beləliklə:*

1. Dinc əhaliyə qarşı müxtəlif növlü hərbi texnikadan istifadə etməklə SSRİ dövləti BMT Nizamnaməsində (1-ci, 55 və 56-cı maddələr) ümumi formada təsbit olunmuş, 1948-ci il İnsan Hüquqlarının Ümumi Bəyannaməsində dəqiqləşdirilmiş əsas insan hüquq və azadlıqlarına hörmət, dövlətin həmin hüquqları təmin etməsi prinsiplərini, beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipini kobud şəkildə pozmuş oldu.

2. İmperiya 20 Yanvar hadisələri zamanı jus cogens prinsiplərinin tələblərini pozaraq iştirakçısı olduğu 1966-cı il tarixli Mülki və Siyasi Hüquqların Beynəlxalq Paktına əsasən üzərinə götürdüyü öhdəlikləri kobud surətdə pozdu. Paktın 6-cı maddəsində təsbit olunmuş «Yaşamaq hüququ hər bir insanın ayrılmaz hüququdur» öhdəliyinə məhəl qoymayan imperiya silahlı qüvvələri onlarca dinc insanı (uşağı, qadını, qocanı) heç bir səbəb olmadan həyatdan məhrum etdi.

3. Paktın 7-ci maddəsində ifadəsini tapmış "Heç kəs işgəncələrə, qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan davranışa və ya cəzaya məruz qalmamalıdır" müddəası insan ləyaqətinin kütləvi şəkildə alçaldılmasının, insanların işgəncələrə məruz qalmasının, yüzlərlə insanın uzun müddət öz doğmalarından xəbər tutmamasının qarşısını ala bilmədi.

4. Azərbaycan xalqına qarşı törədilmiş cinayət əməllərinin insanların qanunsuz həbsi ilə müşayiət olunması Paktın 9-cu maddəsində ifadəsini tapmış hər bir insanın azadlıq və şəxsi toxunulmazlıq hüququnun kobud surətdə pozulmasını təsdiq edirdi.

5. Azadlıqdan qanunsuz məhrum edilmiş şəxslərin uzun müddət harada olmasının gizli saxlanılması, onlarla qeyri-qanuni rəftar Paktın 10-cu maddəsində ifadəsini tapmış azadlıqdan məhrum edilmiş bütün şəxslərin humanist davranışa, insan şəxsiyyətinin ləyaqətinə hörmət edilməsi hüququna malik olması barədə müddəaya zidd idi.

6. Uzun müddət əhalinin ölkə daxilində sərbəst hərəkətinin məhdudlaşdırılması Paktın 12-ci maddəsinin tələbləri ilə bir araya sığmırdı. İmperiya Azərbaycanda törətdiyi hadisələrə fövqəladə vəziyyətlə bağlı don geydirməyə çalışsa da, fövqəladə vəziyyətin özünün elan edilməsi barədə tələbləri pozmuş, Paktın 4-cü maddəsinə əsasən, hətta fövqəladə vəziyyətdə belə geri çəkilməyə yol verməyən yaşamaq, işgəncəyə məruz qalmamaq və s. hüquqlara riayət olunmamışdı.

7. 20 Yanvar hadisələri, həmçinin digər beynəlxalq sənədlərin, o cümlədən 1989-cu il Uşaq Hüquqları Konvensiyasının, 1984-cü ildə qəbul edilmiş İşgəncələr və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan davranış və cəza əleyhinə Konvensiyanın müddəalarının kobud surətdə pozulmasına dəlalət edirdi.

*Azərbaycan xalqına qarşı törədilmiş cinayət onun əzmini, azadlıq və müstəqillik arzusunu qıra bilmədi. Xalq qanı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə nail oldu və bu nailiyyəti heç vaxt əlindən verməyəcəkdir.*

**"Dirçəliş-XXI əsr".-** 2002.- № 47.- S. 61-62

## Həm faciə, həm də qəhrəmanlıq salnaməsi

**Hər bir xalqın tarixində həm faciəli məqamlar, həm də qəhrəmanlıq səhifələri olur. Çox nadir hallarda bu iki məqam üst-üstə düşür. Azərbaycan xalqı 1990-cı ilin Qanlı Yanvarını həm faciə, həm də qəhrəmanlıq səhifəsi kimi yaşadı. O müdhiş gecə Azərbaycan xalqı sınağa çəkildi. Həm xalqın öz içində yetişdirdiyi qəhrəmanlar üzə çıxdı, həm də ona başçılıq edənlərin kimliyi bəlli oldu.**

**Bəs 20 Yanvar qırğınlarının baş verməsinin qarşısını almaq olardımı? Sovet imperiyasının onun itaətindən çıxan Azərbaycan xalqını cəzalandırmaq niyyətindən daşındırmaq mümkün idimi? Bizə elə gəlir ki, yox.**

1988-ci ildə Dağlıq Qarabağda erməni separatizminə rəvac verilməsi, Moskvanın erməniləri cəzalandırmaq əvəzinə, Azərbaycana təyin etdiyi Ə. Vəzirov kimi manqurtların əli ilə xalqın əl-qolunu bağlaması millətin səbr kasasını daşırmışdı. Azərbaycan xalqına qarşı patoloji nifrətini gizlətməyən M. Qorbaçov Dağlıq Qarabağın Ermənistana verilməsi vədinə əməl edə bilməməsinin günahını "dikbaş" Azərbaycan xalqında görürdü. 1989-cu ilin sonlarında bəzi rayonlarda Xalq Cəbhəsinin hakimiyyəti zorakılıqla ələ keçirməsi, İran sərhədindəki tikanlı məftillərin sökülüb atılması, Xalq Hərəkatının radikal qanadının Milli Müdafiə Şurası adı altında Bakıya nəzarəti öz əlinə alması, 1990-cı il yanvarın 13-15-də DTK-nın Sumqayıt ssenarisi əsasında "erməni talanları" törətməsi Moskvanın əlinə Azərbaycan xalqını cəzalandırmaq üçün bəhanələr verirdi. Hakimiyyətini saxlamağın mümkün olmadığını dərk edən Ə. Vəzirov da, hakimiyyəti ələ keçirmək istəyən Xalq Cəbhəsi də, bu iki qüvvənin bir-birini məhv etməsini gözləyib, məşhur təmsildə olduğu kimi, hakimiyyəti ortadan götürməyə can atan A. Mütəllibov, V. Hüseynov kimiləri də öz xalqa zidd əməlləri ilə faciəni yaxınlaşdırırdılar. 1989-cu ilin yayından etibarən Moskvanın Bakıya əlavə qoşun hissələri göndərməsi üçün Ə. Vəzirovun, A. Mütəllibovun, V. Polyaniçkonun, Barannikovun (daxili işlər naziri) imzası ilə SSRİ hökumətinin rəhbərlərinə şifrəli telefonoqramlar göndərilmişdi. İstintaq müəyyən etmişdir ki, 1990-cı il yanvarın ortalarında SSRİ müdafiə, daxili işlər nazirliklərinin, habelə başqa xüsusi təyinatlı hərbi birləşmələrin 66 min nəfərdən çox əsgər və zabiti Bakı şəhərinə gətirilərək, Qala və Nasoslu aerodromlarında, Respublika stadionunda, Salyan kazarmasında yerləşdirilmişdi.

Azərbaycanın cəzalandırılmasına hüquqi don geydirmək lazım gəlirdi. Bu zaman M. Qorbaçovun dadına Dağlıq Qarabağ problemi gəlmişdi. O, yanvarın 15-də "DQMV-də və bəzi rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında" fərman vermiş, Bakı, Gəncə və digər şəhərlərdə qadağan saatı tətbiq edilməsi üçün təklif verməyi Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinə həvalə etmişdi. M. Qorbaçovun Bakıya qoşun yeritməsinə hüquqi əsas vermək üçün Ə. Vəzirov Ali Sovet Rəyasət Heyətinin 11 üzvündən 4 nəfərini yığıb, Rəyasət Heyəti adından Moskvaya xəbər göndərmişdi ki, təxirəsalınmaz tədbirlər həyata keçirsin. Həmin saxta qərara istinad edən M. Qorbaçov yanvarın 19-da "Bakıda fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman imzalamışdı. Lakin həmin vaxtadək Moskvanın Bakıya göndərdiyi emissarları — SSRİ Ali Soveti İttifaqlar Sovetinin sədri Y. Primakov, Sov.İKP MK katibi A. Girenko və şöbə müdiri G. Mixaylov dəfələrlə bəyan etmişdilər ki, Bakıya qoşun yeridilməyəcək. Həmin ifadələri Azərbaycanın məsul şəxsləri də təkrar edirdilər. Lakin onlar xalqı aldadırdılar. Respublikaya gətirilmiş hərbi qüvvələrin, əməliyyatlara rəhbərlik etmək üçün Bakıya gələn 300-dən artıq yüksək rütbəli zabit və generalların ərzaq təminatı, onların yedizdirilib, içizdirilməsi, avto-nəqliyyatla, yanacaqla təmin edilməsi respublika büdcəsindən ödənilirdi.

Yanvarın 19-da SSRİ DTK-nın "Alfa" qrupu və respublika DTK-sının rəhbərliyi tərəfindən təşkil edilən əməliyyat nəticəsində respublika televiziyasının enerji bloku partladıldı ki, Bakıda fövqəladə vəziyyət elan edilməsi və qoşunun şəhərə girməsi barədə əhaliyə rəsmi məlumat çatdırılmasın. Halbuki, həmin vaxt 26 yerdə piketlər, barrikadalar qurulmuş, şəhərdəki 60 qoşun hissəsindən 34-nün, o cümlədən Salyan kazarmasının giriş-çıxış yolu kəsilmişdi. Xalq Cəbhəsinin bəzi liderləri əhaliyə dağılmağı, bəziləri isə müqavimət göstərməyi məsləhət görürdü. Lakin fövqəladə vəziyyətin yanvarın 20-də saat 00-da tətbiq edilməsi qərarlaşdırılsa da, qoşun hissələri yanvarın 19-da saat 21-dən etibarən Türkan — Qala tərəfdən atəş aça-aça şəhərə yeridilmişdi.

Fövqəladə vəziyyət tətbiq edilməsi barədə xəbər komendant Dubinyak tərəfindən səhər saat 7-də elan edilənədək hərbçilər 100 nəfərə yaxın Azərbaycan vətəndaşını qətlə yetirmişdilər. Qanlı Yanvar günlərində Azərbaycanda 132 nəfər qətlə yetirilmiş, 612 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuş, onlardan 112 nəfəri SSRİ-nin müxtəlif şəhərlərinə aparılaraq həbsxanalarda saxlanılmışdı. Qanlı Yanvar qırğınlarına rəhbərliyi birbaşa SSRİ müdafiə naziri D. Yazov, daxili işlər naziri V. Bokatin, DTK sədrinin müavini F. Babkov həyata keçirmişdilər.

20 Yanvar qırğını sonralar Nobel sülh mükafatına layiq görülən M. Qorbaçovun Azərbaycan xalqına qarşı tətbiq etdiyi cəza tədbiri idi. Bakıya yeridilən qoşun kontingenti qapalı düşərgələrdə saxlanılır, onlarla əhali ilə ünsiyyətdə olmağa imkan verilmirdi ki, xalqın əliyalın olmasından xəbərdar olsunlar. Bakıya yeridilən əsgər və zabitlərə demişdilər ki, islam fundamentalistləri, pantürkistlər Azərbaycanda sovet hakimiyyətini ələ keçiriblər, ona görə də onları məhv etmək lazımdır. Məhz azərbaycanlılara qarşı nifrət hissi ilə köklənən, spirtli içkilər vasitəsilə qızışdırılaraq, şəhərə hücum edən əsgər və zabitlər qadına, qocaya, körpəyə, hətta təcili yardım maşınlarında gedən sürücü və həkimlərə fərq qoymadan atəş açmış, onları vəhşicəsinə qətlə yetirmişdilər. Tanklar, BTR-lər qarışqa əzirlərmiş kimi, içi insanlarla dolu minik maşınlarını əzib keçirdilər. Xəstəxanaların işıqlarını kəsmişdilər ki, yaralılara yardım etmək mümkün olmasın...

Bütün bunlar nəinki Azərbaycan xalqının gözünü qorxutdu, əksinə onun sovet imperiyasına qarşı nifrətini birə min artırdı. Xalq avtomat süngülərinin, tank lülələrinin ona tuşlanmasından qorxmayıb, öz şəhidlərini küçə və meydanlardan topladı. Topun-tüfəngin hər küçədə, hər tində qoyulmasına, fövqəladə vəziyyət rejiminə baxmayaraq yanvarın 22-də xalq öz şəhidlərini "Azadlıq" meydanından son mənzilə — Şəhidlər Xiyabanına yola saldı. Dünyanın heç bir ölkəsində şəhidlərimizin dəfn mərasimindəki kimi izdihama təsadüf edilməyib. Azərbaycan xalqı 40 gün matəm saxladı. Xalq aclığa dözdü, lakin etiraz əlaməti olaraq 40 gün işə çıxmadı.

Lakin təəssüf ki, həmin dövrdə — istər 20 Yanvar faciəsindən əvvəl, istərsə də ondan sonrakı dövrdə ona rəhbərlik edənlər bu xalqa layiq olmadılar. Özünü dəli yerinə qoyan Ə. Vəzirov heç nəyi xatırlamadığını söyləyərək, manqurtlaşdığını rəsmən etiraf etdi. Bir neçə vətənpərvər ziyalının tələbi ilə keçirilən Azərbaycan SSR Ali Sovetinin sessiyası yanvarın 22-də qərara aldı ki, əgər qoşunlar ölkəmizi təcili tərk etməsə, Azərbaycan SSRİ-nin tərkibindən çıxacaq. Şəhidlərin dəfnində iştirak etməyən Azərbaycan rəhbərləri Moskvaya gedib, əli xalqımızın qanına bulaşan M. Qorbaçovdan vəzifə alıb qayıtdılar. Xalq Cəbhəsinin liderləri 40 gün it-bat oldular. Kimisi xaricə qaçdı, kimisi ölkə daxilində gizləndi, kimisi də bəyan etdi ki, Xalq Cəbhəsindən uzaqlaşıb, yeni partiya yaradıb. Çox qəribədir ki, o vaxt xalqı faciə ilə üzləşdirib aradan çıxanlar və ya xalqın faciəsi üzərindən vəzifə kürsüsünə atlananlar indi də siyasət meydanındadırlar. Kimisi Bakıda, kimisi də Moskvada. Ə. Vəzirov, A. Mütəllibov, V. Hüseynov barəsində cinayət işi açılsa da, onlar layiqli cəzalarını almayıblar. Məhz 20 Yanvar faciəsi A. Mütəllibovun şəxsində faciələrin üstündən adlayıb hakimiyyətə gəlmək kimi pis bir ənənənin əsasını qoydu. 20 Yanvar qırğınlarından sonra o zamankı respublika prokuroru

İ. İsmayılov dərhal cinayət işi açmamış, təxirəsalınmaz mümkün istintaq hərəkətləri aparılmasını təmin etməmişdi. Həmin qanlı qırğınlarla əlaqədar cinayət işi təxminən iki il sonra — 1992-ci il fevralın 14-də başlamışdır. O dövrdə yaradılan deputat-istintaq komissiyası da mövcud hakimiyyətə yarınmış, faciəyə hüquqi-siyasi qiymət verilməsini təmin etməmişdi.

20 Yanvar faciəsinə ilk siyasi qiymət 1990-cı il yanvarın 21-də Moskvada — imperiya məkanında Heydər Əliyev tərəfindən verilmişdir. M. Qorbaçov hakimiyyəti tərəfindən, sanki, ev dustağı edilən Heydər Əliyev həyatını təhlükə qarşısında qoyaraq, həmin gün ölkəmizin Moskvadakı Daimi Nümayəndəliyinə gəlmiş, xalqımıza qarşı edilən təcavüzü pisləmiş, bunun məsuliyyətini o dövrkü SSRİ və Azərbaycan rəhbərlərinin daşıdığını bildirmiş və qoşunların dərhal Bakıdan çıxarılmasını tələb etmişdi. Lakin nə A. Mütəllibov iqtidarı dönəmində, nə də ondan sonrakı AXC-Müsavat iqtidarı dönəmində 20 Yanvar faciəsinə ona görə hüquqi-siyasi qiymət verilə bilməzdi ki, bunlar bilavasitə faciənin baş tutmasına şərait yaratmışdılar. Yalnız Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra bu məsələ gündəliyə gəldi. Onun təşəbbüsü ilə Milli Məclis 29 mart 1994-cü ildə

"1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul etmiş, bütöv xalqa qarşı törədilən cinayətə hüquqi-siyasi qiymət verilmişdir.

Zaman keçdikcə bir sıra həqiqətlər meydana çıxır, 20 Yanvar faciəsinin qaranlıq məqamları aydınlaşır. Bir sıra sənədlərin, o cümlədən keçmiş SSRİ-nin yüksək instansiyalarında, xüsusən də Rusiya Federasiyası Prokurorluğunda saxlanılan 68 cildlik cinayət işinin materiallarının əldə edilməsi 20 Yanvar faciəsinin miqyasını və baiskarlarını tam dəqiqliklə üzə çıxara bilər.

20 Yanvar faciəsi eyni zamanda həm ümumxalq faciəsi, həm də milli azadlıq hərəkatının zirvəsi kimi Azərbaycan tarixinə yazılıb. Prezident Heydər Əliyevin söylədiyi kimi, bu təcavüz xalqımızı mənəvi cəhətdən çox sarsıtsa da, itkilərə məruz qoysa da, onun mənliyini tapdalaya bilmədi, qürurunu sındıra bilmədi, qəhrəmanlıq salnaməsinə yeni bir səhifə kimi yazıldı.

Tariximizin bu səhifəsi imperiya güllələrinin səsindən açılsa da, şəhidlərimizin qanı ilə yazıldı. Həm də əbədi olaraq.

**Nazim Mustafa**

**“Xalq qəzeti”.** - 2002. - 20 yanvar. - №16. - S.1-2.

# 20 Yanvar faciəsindən 12 il keçdi

**"Azərbaycan xalqı 1990-cı ilin 20 yanvarında hərbi, siyasi. mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, vətənin azadlıq və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək. hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi. 1990-cı ilin 20 yanvarında Azərbaycanın azadlıq və müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalmış vətən övladları özlərinin fədakarlığı. şəhidliyi ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifələr yazdılar. Bu gün xalqımız öz milli mənliyini qorumaq üçün canlarından keçməyə hazır olan övladları ilə fəxr edir".**

***Heydər ƏLİYEV***

Vətən yolunda şəhidlik əsl vətəndaşlığın ən ali zirvəsidir: bütün zirvələrdən yüksəkdə duran ilahi bir zirvə, həm də o adi gözlə yox, yalnız mənəvi gözlə görünə biləcək bir zirvədir. Çünki o, qeyrət və kişilik, şərəf və ləyaqət zirvəsidir. O zirvəni fəth etmək Allaha qovuşmaqdır. 1990-cı ilin 20 yanvar gecəsi məhz belə bir zirvəni fəth etdi bu gün. Dağüstü parkdakı Şəhidlər xiyabanında əbədiyyət yuxusuna getmiş, ruhları isə səmanın yeddinci qatına pərvazlanmış qeyrətli qan qardaşlarımız.

Bu gün müqəddəslərimizi ziyarət etmək üçün uzun yollar qət edib Kərbəlaya, Məkkəyə, Mədinəyə, Xorasana getməyə heç bir hacət yoxdur. Çünki o müqəddəs torpaqlarda uyuyanlar yalnız din yolunda həlak olublar. Din vətən deyil, azadlıq deyil, müstəqillik deyil. Mənim üçün dünyanın ən ali övliyaları burada, mənim müqəddəs paytaxtımda, Şəhidlər xiyabanında, gözlərimin içində, ürəyimin başında, damarlarımın içində uyuyur. Çünki onlar Vətənin 70 illik imperiya əsarətindən xilası, xalqın uzun illər boyu qollarında gəzdirdiyi əsarət zəncirlərini parçalayıb, öz azadlıq və müstəqilliyinə qovuşması, millətin öz "mən"ini dünya qarşısında nümayiş etdirməsi naminə şəhid olublar.

Azərbaycan deyilən bu ulu məmləkət uzun əsrlər boyu ağır müsibətlər girdabında çırpınsa da heç vaxt öz şərəf və ləyaqətini itirməyib, öz mənəvi ucalığından məhrum olmayıb, özünü tarix qarşısında əsl mərdanə oğullar məmləkəti kimi tanıdıb. Bu, həmin Azərbaycandır ki, onun kişi qeyrətli qadın hökmdarı Tomris məmləkətimizi qan dəryasında boğmağa çalışan İran şahı Kirin başını öz polad qılıncı ilə bədənindən ayırıb qan dolu tuluğa salıb, "sağlığında qandan doymadın, indi doyunca iç" - deyib. Bu, həmin Azərbaycandır ki, onun şir biləkli mərdanə oğulları hələ eramızdan 54 il əvvəl yurdumuza basqın etmiş Roma sərkərdəsi Pompeyin Avropa və Asiyanın az qala yarısını işğala məruz qoymuş məğlubedilməz ordularının qarşısını öz polad sinələri ilə çəpərləyib. Bu, həmin Azərbaycandır ki, hələ VII əsrdə onun qüdrətli sərkərdəsi Cavanşir bizi öz müti köləsinə döndərmək istəyən işğalçı ərəb ordularını Ağvandan Dəclə və Fərat çaylarının sahillərinədək qovub, onları öz yuvalarında son nəfərinədək qılıncdan keçirib. Bu, həmin Azərbaycandır ki, hələ IX əsrdə xalqımızın mərdanə oğlu Babək Xurrəmi onun azadlıq və istiqlaliyyəti naminə yadelli ərəb qəsbkarlarına qarşı 22 il ölüm-dirim savaşında olub. 22 il ərzində müqəddəs torpaqlarımızın 22 qarışının belə düşmən təpikləri altında tapdalanmasına yol verməyib. Bu, həmin Azərbaycandır ki, onun Dağlıq Qarabağında məmləkətimizi öz əsarət toruna salıb bütövlükdə İrana pərçimləmək istəyən Ağaməhəmməd Şah Qacarın, İçərişəhərimizin qala divarları önündə günahsız millətimizi qan dəryasında boğmağa çalışan vəhşi çar generalı Sisiyanovun başı bədənindən ayrılıb. Sözüm ondadır ki, Azərbaycan xalqının iradəsini sarsıtmaq, onun qeyrət və şərəfini tapdalamaq imkan xaricindədir. Biz ən dar məqamda belə ölümün gözünə dik baxan millətik. Ən ağır dözümsüzlük şəraitində belə polad dözüm nümayiş etdirən xalqıq.

Yüz minlərlə 20 Yanvar görüb məmləkətimiz. Lakin heç biri tariximizin xatirə yaddaşında qalmayıb. 1990-cı ilin 20 Yanvar gecəsi isə... Yox... O gecəni unutmaq imkan xaricindədir. O gecə vəhşi imperiya tanklarının polad tırtılları ilə doğranırdı canlı insan bədənləri. Qıpqırmızı qan selləri axırdı paytaxtımızın küçələrindən. Güllələrdən deşik-deşik olurdu günahsız binalarımızın beton sinələri. İnsan cəsədləri sərgisinə dönürdü yollar, küçələr, dalanlar. Rus avtomatlarının lülələrindən günah yağmuru yağırdı millətimizin günahsızlığına. 1828-ci ildə rus və İran baltaları ilə iki yerə şaqqalanıb sinəsindən Araz boyda nəhəng bir şırım açılmış, İrəvanı, Zəngəzuru, Göyçəsi, habelə digər ərazilərindən qoparılmış - torpaqları hesabına, gələcəkdə bizə

gözdağı olacaq "Ermənistan" adlı qondarma bir respublika yaradılmış, Borçalısı zorla əlindən alınıb Gürcüstana calaq edilmiş, 1937-ci ildə yüzlərlə müdrik övladları qarlı Sibir tayqalarına, buz qatları altına göndərilmiş, 1941-1945-ci illərdəki ikinci Cahan hərbində 600 min mərdanə övladını itirmiş, on minlərlə övladı öz qədim ata-baba torpaqlarından didərgin salınıb Uzaq Qazaxıstan və Orta Asiya səhralarına sürgün edilmiş günahsız xalqımızın uzun illər boyu qollarında gəzdirdiyi əsarət zəncirlərini parçalayıb qaranlıqdan aydınlığa çıxmaq, öz azadlıq və müstəqilliyinə qovuşmaq arzusuna atılırdı bu güllələr. Bu, millətimizə qarşı yönəlmiş ən dəhşətli bir soyqırımı idi. 1988-1990-cı illərdə Azadlıq meydanında birləşən yumruqlarımızı kökündən baltalamaq, içimizdə qanlı imperiyaya qarşı püskürən nifrət və qəzəb atəşini söndürmək, oyanmış cəsarətimizi yatırtmaq, hayqıran qeyrətimizi susdurub bizi yenidən öz keçmiş köləliyimizə qaytarmaq arzusunun təzahürü idi bu soyqırımı.

Güclü erməni mafiyasının köməyi ilə hakimiyyət kürsüsünə qalxan və onların çirkin ideyalarının həyata keçməsi naminə əlindən gələni əsirgəməyəcəyinə söz verən qatı ermənipərəst Mixail Qorbaçov hələ 20 Yanvardan bir neçə gün öncə Bakıda fövqəladə vəziyyət tətbiq olunması barədə fərman versə də, həmin fərman yalnız yanvarın 20-də, yəni televiziyanın enerji bloku partladıldıqdan və yanvarın 19-dan 20-nə keçən gecə Qanlı Yanvar faciəsi törədildikdən sonra radio ilə elan edilmişdi. Onu da xatırlatmağı lazım bilirik ki, hələ 20 Yanvar qırğınlarından 10 gün əvvəl Azərbaycanda yüksək vəzifə kürsülərinin sahibi olan rusların öz ailələri ilə birlikdə Rusiyanın müxtəlif guşələrinə daşınma əməliyyatı gedirdi və söz yox ki, Azərbaycan rəhbərliyi tezliklə paytaxtımızda dəhşətli hadisələr baş verəcəyindən xəbərdar idi. Məhz M.Qorbaçovun əmri ilə paytaxtımıza təpədən-dırnağa silahlandırılmış 66 min 500 nəfərlik ordu yeridilmişdi. Onların arasında vaxtilə ölkədə saysız-hesabsız cinayətlərin və qırğınların banisi kimi tanınmış. əksəriyyəti türk qanına yerikləyən ermənilərdən ibarət "Alfa" qrupu da var idi. Televiziyanın enerji blokunun partladılmasına gəldikdə isə həmin plan günahsız xalqımızın dincliyi və əmin-amanlığı keşiyində durmağa mənən borclu olan Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədri, Moskvanın müti köləsi, namussuzluq və bişərəflik mücahidi, bu günədək də Moskvanın qucağında özünə sığınacaq tapmış Vaqif Hüseynovun kabinetində, SSRİ Baş Kəşfiyyat idarəsi rəhbərlərinin və SSRİ Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini Babkovun iştirakı ilə hazırlanmışdı. Televiziyanın və mətbuatın xalq tribunasına çevrilməsi təhlükəsindən qorxanların əsas məqsədi enerji blokunu partlatmaq, habelə gündəlik mətbu orqanların nəşrinə embarqo qoymaq, dəmiryolunda və təyyarə meydanında hərəkəti dayandırmaqla dünya ölkələri ilə Azərbaycan arasındakı əlaqələr zəncirini qırmaq, əhalini öz içinə qapanıb qalmaq məcburiyyətində qoymaq, yurddaşlarımızı Dağlıq Qarabağda, eləcə də Ermənistanla sərhəd rayonlarda baş verən hadisələr barədə obyektiv informasiyalardan məhrum etmək, öz azadlıq və müstəqilliyi naminə mübarizəyə qalxmış xalqın efirdən və mətbuatdan bütün ölkə boyu ucalacaq haqq səsini öz içində dəfn etmək idi.

Yeri gəlmişkən qeyd edək ki, 70 illik imperiya əsarətindən sıyrılıb öz azadlıq və müstəqilliyinə qovuşmaq naminə ayağa qalxmış xalqın qarşısında aciz qalmış o vaxtkı respublika hökuməti paytaxtda baş verən hadisələrə nəzarət edə bilmədiyindən, həm Moskva, həm də respublika daxilindəki qaragüruhçu qüvvələr və yerli erməni şovinistləri öz çirkin niyyətlərini həyata keçirmək üçün bütün cinayətkar üsullardan bacarıqla istifadə edirdilər. Vəziyyət hədsiz dərəcədə çətin idi. AXC sıralarına soxulmuş çirkin mənəviyyatlı qüvvələr hakimiyyət kürsüsünü ələ keçirmək naminə silahlı dövlət çevrilişinə hazırlaşırdılar. Çevriliş yanvarın 20-nə təyin olunmuşdu. Erməni millətçilərinin isə yeganə məqsədi hələ 1947-ci ildə yaratdıqları "ümumerməni fondu"na 1990-cı ilədək heç bir maddi və mənəvi kömək göstərməyən bakılı ermənilərdən qisas almaq və günahı azərbaycanlıların boynuna atmaqla, vəziyyəti daha da gərginləşdirmək idi. Artıq yanvarın 10-dan etibarən onlar paytaxtımızdakı erməni evlərində qarət və talanlara başlamışdılar. Bir tərəfdən də AXC-nin təhriki ilə ayağa qalxmış xalq ermənilərin son nəfərədək Bakıdan çıxmasını tələb edirdi. Bu özbaşınalıqdan istifadə edən ermənilər daha çirkin bir cinayətə əl atıb öz həm millətlərindən olan onlarca günahsız qocanı, xəstə və əlili qətlə yetirib, onların cəsədlərini gecə ilə dəmiryolu vağzalının perronlarına, Bakıda təhsil alan xarici ölkə tələbələrinin yaşadıqları yataqxanaların ətrafına tullamaqla, şəhərimizə gələn, habelə paytaxtımızda yaşayan digər ölkə vətəndaşlarının nəzərində xalqımızın vəhşi obrazını yaratmağa nail oldular. O vaxt Bakının guya idarəolunmaz bir vəziyyətə gətirilməsi, ayrı-ayrı xalqların nümayəndələrinə qarşı cinayətkar aksiyaların

həyata keçirilməsi barədə Moskvaya saysız-hesabsız teleqramlar göndərilirdi. Bu işdə Vəzirov və Mütəllibov mafiyasının nümayəndələri, habelə Polyaniçko dərnəyinin və "gənc tarixçilər klubu"nun üzvləri daha böyük fəallıq göstərirdilər. Məhz bu cür cinayətkar aksiyalar rus imperiyasının öz xüsusi təyinatlı qoşun dəstələrini yanvar ayının 16-dan sonra Bakıya yeridib hazır vəziyyətə gətirməsi üçün bir siqnal oldu. Moskva erməni talanları vaxtı da şəhərə qoşun yeridib, paytaxtımızda baş verən cinayətlərin qarşısını ala bilərdi. Ancaq gözləmə mövqeyində dayandı. Çünki onun yeganə məqsədi AXC-nin yanvarın 20-nə təyin olunmuş dövlət çevrilişinin qarşısına sədd çəkmək, özlərinin dirijor çubuğu ilə durub-oturan qondarma hakimiyyəti qoruyub saxlamaq və müstəqillik arzusu ilə ayağa qalxmış xalqın haqq səsini boğmaq idi. 20 Yanvar qırğınlarından iki gün əvvəl pasportlarındakı "milliyyəti" sözünün qarşısında "azərbaycanlı" yazılsa da, mənəviyyatlarında əsl azərbaycançılıqdan zərrə qədər əsər-əlamət olmayan, damarlarından qan yerinə çirkab axan, öz hakimiyyət kürsülərini qorumaq naminə Azərbaycanı bütün əhalisi və sərvətləri ilə birlikdə Moskvaya qurban verməyə hazır olan, günahsız millətimizin ağır faciələr bataqlığına yuvarlanacağını bilsələr belə, onları gözlənilən fəlakətdən vaxtında xəbərdar etməyən başsız "başçıları"mızın biganəliyi və Bakıda qan töküləcəyini bilə-bilə xüsusi maşınlarda bütün şəhər boyu dolaşıb ruporlarla əliyalın xalqı meydanlara toplaşmağa səsləyən AXC ünvanlı milli qaragüruhçu dəstələrin hakimiyyət ehtirasının doğurduğu özbaşınalıq yanvarın 19-dan 20-nə keçən gecə ağıllarını itirənəcən içirilib, bədənlərinə narkotik maddələr yeridilmiş vəhşi imperiya əsgərlərinin günahsız əhalini güllələbaran etmələri ilə nəticələndi. 170 nəfərdən çox dinc sakinin həlakı, 700 nəfərin ağır yaralanması və yüzlərlə insanın itkin düşməsi ilə sona yetdi həmin güllələbaran. Ancaq o qatillər sürüsü anlamadılar ki, onlar 170 nəfər azərbaycanlını qətlə yetirməklə Rusiya kimi nəhəng bir ölkəyə qarşı içimizdəki böyük inamı öldürdülər.

20 Yanvar gününün səhəri Bakı küçələrində qan rəngli SSRİ bayraqlarının tikə-tikə doğranıb yandırılma mərasimi başlandı. Minlərlə azərbaycanlı Sov.İKP sıralarından çıxdığını bəyan etdi. Uzun illər boyu ürəyimizin başında gəzdirdiyimiz partiya biletlərindən nəhəng tonqallar qalandı. Biz o tonqallarda vaxtilə "Yer kürəsində sülhün və əminamanlığın polad dayağı" adlandırdığımız Moskvaya olan böyük inamı yandırıb külə döndərdik. SSRİ adlı bir varlığı içimizdən çıxarıb gedər-gəlməzə tullamaqla ömrümüzü çirkabdan təmizlədik. Bizi "ikinci növ xalq" adlandıranlar qarşısında öz məğrurluq və əyilməzliyimizi sübuta yetirdik. O vaxt artıq SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən uzaqlaşdırılmış xalqımızın mərdanə oğlu Heydər Əliyev 20 Yanvar qırğınlarının səhərisi günü əsəbləri tarıma çəkilmiş vəziyyətdə Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək sovet imperiyasının bu ağlasığmaz vəhşiliyinə, Qorbaçov hakimiyyətinin bu cinayətkar aksiyasına nifrət və qəzəbini uzun onilliklər boyu ürəyinin başında gəzdirdiyi partiya biletini tullamaqla bildirdi və onun bu vəhşi imperiyaya qarşı nifrət və qəzəb harayına bütün xalq, bütün ölkə qoşuldu.

20 Yanvar faciələrinin səhərisi günü paytaxtımızın özü boyda nəhəng bir yas evinə çevrildiyi, insanların fəryadı dəli bir zəlzələyə dönüb yeri-göyü lərzəyə gətirdiyi bir vaxtda Ayaz Mütəllibovun, Viktor Polyaniçkonun və Müslüm Məmmədovun başsız qalmış hakimiyyət kürsüsünü ələ keçirmək üçün müti qullar kimi Kremldə, cəllad Qorbaçovun hüzurunda səcdəyə dayanmaları mənəviyyatsızlığın, simasızlığın, vətənə və xalqa xəyanətin ən bariz nümunəsi idi. O vaxt yuxarı kürsülərdə əyləşənlərimizin 20 Yanvar faciələrinə tam və dolğun qiymət verməmələri, bu dəhşətli soyqırımına qarşı dünya boyu öz kəskin etiraz səslərini qaldırmamaları bu gün də qəlbimizi göynətməkdə, əsəblərimizi yerindən oynatmaqdadır. Yanvarın 21-də öz işinə başlayan Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyasında həmin cinayətkar aksiyaya birtərəfli qiymət verilsə də, Azərbaycan KP MK-nın yanvarın 22-də, yəni Qanlı Yanvar hadisəsindən cəmi 48 saat sonra xalqımızın başına gətirilmiş o ağlasığmaz müsibətlərə göz yumulması, canlarını vətən yolunda qurban vermiş igidlərimizin müqəddəs xatirələrinin bir dəqiqəlik sükutla belə yad edilməməsi damarlarından hələ də imperiya qanı axan, öz vəzifə kürsülərini xalqın taleyindən, millətin şərəf və ləyaqətindən üstün tutanların şərəfsizliyinin əyani sübutu idi.

Vəhşi imperiyanın Azərbaycanda törətdiyi faciələr bununla tükəndimi? Əsla! Çox keçmədi ki, əksəriyyəti ermənilərdən ibarət 366-cı polkun Xocalıda törətdiyi faciələr Yer kürəsini lərzəyə gətirdi. Bu, planetimizin tarixində bəlkə də ən böyük, ən dəhşətli soyqırımlardan biri idi. O vaxtkı başsız başçılarımızın bütövlükdə xalqımızın düçar olduğu Qara Yanvar faciəsinə uzun müddət tam və dolğun qiymət verməmələrinin

nəticəsidir ki, sonralar məmləkətimizin faciələr dastanına Şuşa, Laçın, Qubadlı, Kəlbəcər, Zəngilan, Ağdam, Cəbrayıl, Füzuli və Dağlıq Qarabağın düşmən işğalına məruz qalması kimi qanlı səhifələr də əlavə olundu. Və biz türk qanına yerikləyən vəhşi rus imperiyası ilə qeyri-bərabər döyüşdə 20 min nəfərdən artıq mərdanə övladımızı itirdik, ərazilərimizin 20 faizindən məhrum olduq, bir milyondan artıq yurddaşımız öz doğma yurd-yuvalarından didərgin düşdü və artıq 12 ildir ki, onlar doğma yurd həsrəti ilə qovrulmaqdadırlar. Əgər o vaxt ali vəzifə kürsülərində əyləşənlərimiz öz yerlərini möhkəmləndirmək naminə müti qullar kimi Moskvanın əmr və göstərişlərini danışıqsız yerinə yetirmək əvəzinə iqtidarlı-müxalifətli vahid bir cəbhədə birləşib Kremlin cinayətkar hərəkətlərinə qarşı bütün dünya boyu öz etiraz səslərini ucaltsaydılar, yaxud xalqımız 1987-ci ildə heç bir günahı olmadan SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən uzaqlaşdırılmış, planetimizin ən böyük ağıl korifeylərindən biri olan Heydər Əliyevi vaxtında Bakıya dəvət edib ölkənin ali vəzifə kürsüsündə əyləşdirsəydilər, nə 20 Yanvar qırğınları baş verər, nə də bu qədər torpaqlarımız düşmən tapdağına məruz qalardı. Çəkdiyimiz ağlasığmaz müsibətlərin bir günahkarı rus imperiyasıdırsa, digər günahkarı tarix boyu damarlarında heç bir məlhəmlə sağala bilməyəcək gecikmə adlı ağır bir xəstəlik gəzdirən və bu xəstəlikdən hələ də qurtula bilməyən öz yurddaşlarımızdır.

Onu da xatırlatmağı lazım bilirik ki, 1988-1990-cı illərdə ağır deportasiyalara məruz qalıb öz qədim ata-baba torpaqları Ermənistandan didərgin salınmış azərbaycanlılar yalnız bir arzu ilə qovrulurdular: Birbaş Dağlıq Qarabağa yürüş etmək, erməniləri son nəfərinədək oradan qovub çıxarmaq və həmin ərazilərdə məskunlaşmaq arzusu ilə. Lakin təəssüflər olsun ki, rus və erməni rəhbərliyi ilə gizli danışıqlara girən xain təbiətli Ə.Vəzirov buna imkan vermədi. Bu, onun vətənə və xalqa ən böyük xəyanətlərindən biri idi. Əgər qaçqın və köçkünlərimiz polad dözüm nümayiş etdirib öz məqsəd və əqidələrindən dönməsəydilər, vətənsiz ermənilər 170 il bundan əvvəl mənfur rus imperiyasının köməyi ilə işğala məruz qoyduqları o qədim dağlar diyarından əbədi olaraq didərgin salınar və bugünkü Qarabağ problemi də düyünə düşməzdi. Məhz bir vəzifə kürsüsü naminə vətəni belə hərraca qoymağa hazır olan Ə.Vəzirov kimi bişərəflərin günahı üzündəndir ki, biz onları öz Dağlıq Qarabağımızdan qovub çıxarmaq əvəzinə onlar bizi son nəfərimizədək oradan - öz doğma torpağımızdan didərgin saldılar.

Məlum olduğu kimi, Azərbaycan müxalifəti, daha dəqiq desək, bütün müxalifət partiyalarının cilovunu öz əlində cəmləşdirib, onları öz müti köləsinə döndərmək istəyən Müsavat Partiyası hazırda Moskvada 20 Yanvar qırğınlarının törədiciləri olan cinayətkar ünsürlərin sığalı altında yaşayan Ayaz Mütəllibovla Azərbaycan dövlətinə və dövlətçiliyinə qarşı vahid iş birliyi yapmaq arzusu ilə qovrulur. O Ayaz Mütəllibovla ki, 20 Yanvar faciələrinin baş sponsorlarından biri idi. O Ayaz Mütəllibovla ki, respublikamızın baş kürsüsünü ələ keçirmək naminə Kreml rəhbərlərinin qarşısında dizin-dizin sürünüb, onların bütün əmrlərini danışıqsız yerinə yetirməyə hazır olduğunu bildirirdi. O Ayaz Mütəllibovla ki, 1990-1991-ci illərdə müqəddəs torpaqlarımızı işğala məruz qoyan, yüz minlərlə azərbaycanlını öz qədim ata-baba torpaqları Ermənistandan didərgin salıb, cəlayi-vətən edən, günahsız balalarımızı dəmir turbalara doldurub, hər iki tərəfdən lehimləməklə od vurub yandıran, namus mücəssiməsi olan qızlarımızı lüt soyundurub toplarının lülələrindən asan murdar bir millətin rəhbərinin təpəsinə yumruq endirmək əvəzinə "qardaş" deyə onu bağrına basıb, onunla dodaq-dodağa öpüşürdü. O Ayaz Mütəllibovla ki, 1992-ci ildə mövcud müxalifətin özü hakimiyyət kürsüsünü ələ keçirmək naminə onu xalqın gözləri qarşısında vətənə xəyanətdə ittiham edib, zorla istefaya göndərmişdi. Xəyanətkarla dost olanın özü xəyanətkardır. Satqına yalnız satqın qardaş deyə bilər. Bu, özünü "ali partiya" adlandıran "Müsavat"ın nə qədər çirkin mənəviyyata malik olduğuna əyani sübutdur. Müsavat Partiyasının başqanı İsa Qəmbər Ayaz Mütəllibovla gizli telefon danışıqları aparsa da, Mütəllibovun Moskvadan qiyabi sədrlik etdiyi "Vətəndaş Birliyi" Partiyasının baş katibi S.Hacıyevlə görüşsə də, Ayaz Mütəllibov özü müxalifətin keçirdiyi son mitinqə Moskvadan telefonla qoşulsa da, bu əməkdaşlığın reallaşacağı sual altındadır. Çünki eks-prezident hələlik istixarə etməklə məşğuldur. O, yaxşı bilir ki, vaxtilə onu hakimiyyət kürsüsündən didərgin salıb bu günədək qürbətdə vətən həsrətilə yaşamağa məcbur edən məhz bugünkü müsavatçılar olub. Ümumiyyətlə, müxalifət partiyalarının nə vaxtsa vahid bir cəbhədə birləşə biləcəklərinə heç kəs zəmanət verə bilməz. Hakimiyyət ehtirası və birincilik arzusu olan yerdə birlik boş bir xülyadır. 20 Yanvar şəhidlərinə gəldikdə isə

onların intiqamının nə vaxtsa alınacağı, düşmən tapdağı altında əzab çəkən günahsız torpaqlarımızın geri qaytarılacağı və başımıza gətirilən bu ağır müsibətlərin törədiciləri olan qatillər sürüsünün müttəhimlər kürsüsündə oturacaqları gün uzaqda deyil.

Möhtərəm prezidentimiz H.Əliyevin 1999-cu ilin 16 dekabrında 20 Yanvar faciəsinin 10-cu ildönümü ilə əlaqədar imzaladığı fərmanda deyildiyi kimi: "Azərbaycan xalqı 1990-cı ilin 20 yanvarında hərbi-siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, vətənin azadlıq və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi. 1990-cı ilin 20 yanvarında Azərbaycanın azadlıq və müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalmış vətən övladları özlərinin fədakarlığı, şəhidliyi ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifələr yazdılar. Bu gün də xalqımız onun milli mənliyini qorumaq üçün öz canlarından keçməyə hazır olan övladları ilə fəxr edir". 20 Yanvar şəhidlərinin müqəddəs məzarları önündə səcdəyə durmaq hər bir Azərbaycan övladının mənəvi borcudur. Çünki onlar vətənin və xalqın 70 illik imperiya köləliyindən xilası naminə, bugünkü azadlığımız və müstəqilliyimiz naminə həlak olublar. Bu müqəddəs amallar uğrunda həlak olanların isə ömrü vətənin və xalqın ömrü qədərdir.

**Zeynal Vəfa**

**“Azərbaycan”.** - 2002. - 20 yanvar. - №16. - S. 3.

## Milli faciənin ibrət dərsləri

*Xalqımız ötən XX əsrdə çox fəlakətlərlə üzləşib. Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ucbatından soydaşlarımız dəfələrlə öz dədə-baba yurdundan didərgin salınıb. Bu azmış kimi, keçən əsrin axırlarında daha bir faciənin qurbanı olduq. 1990-cı il 20 Yanvar hadisəsi Azərbaycan xalqı və millətinin qan yaddaşından heç zaman silinməyəcək.*

*O illər respublikada gedən azadlıq hərəkatı dağılmaqda olan sovet imperiyasını bərk təşvişə salmışdı. İmperiya buxovlarını qırmağa çalışan, müstəqilliyə can atan Azərbaycan xalqının bu istəyinin qarşısını almaq üçün keçmiş SSRİ rəhbərləri hər cinayətə hazır idilər. Həmin o müdhiş gecə sovet ordusunun hərbi hissələri Bakıda dəhşətli qırğın törətdi. Tankların və zirehli maşınların qabağına çıxan yüzlərlə günahsız insan qanına qəltan edildi.*

*20 Yanvar qətliamından 12 il keçir. Buna baxmayaraq, cinayətin əsas səbəbkarları hələ də məsuliyyətə cəlb olunmayıb. Ümumiyyətlə, faciənin qarşısını almaq mümkün idimi? Müxbirlərimiz bu sualla o dövrdə xalq hərəkatının fəal iştirakçıları olmuş şəxslərə müraciət ediblər.*

***Mübariz Qurbanlı, YAP İcra katibinin müavini, millət vəkili:***

- 20 Yanvar faciəsindən ötən on iki il ərzində bu dəhşətli hadisə ilə bağlı bir çox fikirlər səslənib və faciənin hüquqi-siyasi qiyməti verilib. Lakin bu faciəni törədənləri hələ də məsuliyyətə cəlb etmək mümkün olmayıb. 20 Yanvar faciəsinin başvermə səbəbləri və günahkarları haqqında 1994-cü ildə MM-də Heydər Əliyevin təşəbbüsü ilə geniş müzakirələr keçirilibdir. Müzakirələrin nəticəsi olaraq Milli Məclis bununla bağlı qərar qəbul edib. Həmin qərarda 20 Yanvar faciəsinə gətirib çıxaran proseslər və bu qətliamda hüquqi, mənəvi, siyasi məsuliyyəti olan şəxslər konkret şəkildə ictimaiyyətə çatdırılıb.

20 Yanvar faciəsi və onun başvermə səbəbləri haqqında bir daha fikir söyləmək lazım gəlirsə, yenidən həmin hadisələrə qayıtmalı olacağıq. 1988-ci ildən başlayaraq Ermənistanın Azərbaycana qarşı olan ərazi iddiaları zorakı müstəviyə keçdi və Sovet imperiyası bu bədnam niyyəti açıq şəkildə müdafiə etməyə başladı. Ermənistanın qəsbkarlıq niyyətləri M.Qorbaçov başda olmaqla ən yuxarı dairələrdə himayə edilirdi. Ərazilərimizə uzanan düşmən əllərə biganəlik nümayiş etdirən o vaxtkı respublika rəhbərliyinin əksinə olaraq, xalq yekdil formada ölkənin ərazi bütövlüyünü qorumaq uğrunda mübarizəyə qalxdı. Təsadüfi deyil ki, xalq o dövrün partiya rəhbərlərinə manqurt deyərək lənətləyirdilər.

Ölkə rəhbərlərinin mövqeyinin milli mənafedən uzaq olması xalqın milli liderə olan ehtiyacını kəskin şəkildə üzə çıxarırdı. Həmin dövrdə Moskvada yaşayan Heydər Əliyev Azərbaycanda baş verən hadisələrə biganə qalmasa da, bu proseslərə birbaşa müdaxilə edə bilmirdi.

Hələ 20 Yanvar faciəsinə qədər Sumqayıtda baş verən qanlı hadisələri və yanvar ayının 13-14-də Bakıda təşkil olunan talanların sifarişçilərinin kimlər olduğu hamıya aydındır. Bütün bunlardan əsas məqsəd, Azərbaycan haqqında dünyada mənfi imic yaratmaq və başlanmış azadlıq hərəkatını qan dəryasında boğmaq idi. Bununla belə imperiyapərəst respublika rəhbərləri milli mənafeyi qrup maraqlarından üstün tuta bilsəydilər mərkəzin məkrli planının qarşısını almaq mümkün olardı. Eyni zamanda xalq hərəkatı liderliyinə gəlib çıxmış bir sıra şəxslər təcrübəsiz və naşı olduqlarından, məsuliyyəti dərk etmədiklərindən Azərbaycan üçün qurulmuş toru görə bilmədilər.

Əlbəttə, 20 Yanvar faciəsində itirdiklərimizlə yanaşı, bu faciə xalqımızın tarixinə həm də qəhrəmanlıq səhifəsi kimi yazılmışdır. Silahlı ordu qarşısında əliyalın dayanan insanlar respublikamızın ərazi bütövlüyünün, suverenliyinin müdafiəçiləri kimi meydanlara çıxmışdılar Həmin müdhiş gecə tökülən şəhid qanları azadlıq hərəkatına təkan verdi və müstəqillik uğrunda milli azadlıq hərəkatının yeni vüsət alması ilə nəticələndi.

Həmin dövrdə xalqın milli liderə kəskin ehtiyacı vardı. Yaranmış vəziyyətdən ancaq düşünülmüş və manevrli siyasətlə çıxmaq olardı. Belə bir siyasətçi və lider Heydər Əliyev isə o zaman Moskvada təcrid olunmuş vəziyyətdə yaşayırdı. Sovet rejimi tərəfindən faktiki təqiblərə məruz qalmasına baxmayaraq Heydər

Əliyev 20 Yanvar faciəsindən dərhal sonra Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək, törədilmiş qanlı qırğına qarşı öz etiraz səsini ucaldaraq faciənin mahiyyətini dünyaya çatdırdı.

20 Yanvar xalqımızın faciəvi qəhrəmanlıq tarixidir və biz tarixin bu dərsindən nəticə çıxarmalıyıq. Milli faciənin ibrət dərsləri bundan ibarətdir ki, biz xəyanətkarları və siyasi cəhətdən naşıları dövlət sükanına, siyasət meydanına buraxmamalıyıq.

20 Yanvar şəhidlərinin istək və arzularının bir qismi həyata keçsə də, hələlik, təəssüf ki, ərazi bütövlüyümüzü bərpa edə bilməmişik. Hesab edirəm ki, qüdrətli, bütöv Azərbaycan dövlətinin tam formalaşdırılmasına nail olduqdan sonra bütün şəhidlərimizin, o cümlədən 20 Yanvar şəhidlərinin ruhu qarşısında başımızı dik tuta biləcəyik.

***Abutalıb Səmədov, Millət vəkili, ANAP-ın sədri:***

- Ötən əsrin 80-ci illərinin sonlarından etibarən başlayan mürəkkəb ictimai-siyasi proseslər göstərirdi ki, artıq imperiya dağılmaq ərəfəsindədir. İttifaq rəhbərliyində olanların bəziləri milli respublikalarda SSRİ-yə qarşı nifrət yaratmaq məqsədilə belə qırğınların törədilməsində maraqlı idilər. Buna görə də bir çox yerlərdə ordu ilə xalq üz-üzə qoyulmuşdu. Sadəcə olaraq həmin dövrdə Azərbaycanda xalq hərəkatına rəhbərlik edənlər qızışmış emosiyaları düzgün istiqamətləndirməli, qırğına başlamağa səbəb axtaran quduz orduya bəhanə verməməliydilər. Bunun üçün isə hərəkat rəhbərlərinin təmkinli olmaları və baş verənləri düzgün qiymətləndirmələri vacib idi. Əfsuslar olsun ki, onlar bunu nəinki bacarmadılar, əksinə, öz çıxışlarıyla qarşıdurmanı daha da gücləndirdilər.

Eyni zamanda, xalq hərəkatının önündə olan qüvvələr artıq siyasiləşmiş və müəyyən qruplara bölünmüşdülər. Ona görə də baş verənlərin məsuliyyətini heç bir qrupun hiss etmədiyi özünü göstərirdi. Xalqın inanıb qabağa çıxardığı insanları yalnız hakimiyyəti ələ keçirmək və kimin hansı vəzifəni tutacağı maraqlandırırdı. O dövrdə xalqın etimad göstərdiyi şəxslərin belə şərəfsiz oyunlara girişərək öz maraqlarını təmin etmək üçün bir-biri ilə mübarizəyə başlaması son nəticədə 20 Yanvar faciəsilə sonuclandı.

Baş verən qanlı hadisələrdən sonra xalq hərəkatına rəhbərlik edənlərin çoxu qaçıb gizləndi və insanlarda ümidsizlik hissi yarandı. Belə bir vaxtda müdrik siyasətçi Heydər Əliyevin 1990-cı il yanvarın 21-də Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək imperiya ordusunun vəhşiliyini pisləyən, ittifaq rəhbərliyini Azərbaycan xalqına qarşı cinayət törətməkdə ittiham edən nitq söyləməsi informasiya blokadasına alınmış Azərbaycan üçün böyük mənəvi dayaq oldu. Xalq hiss etdi ki, dağılmaqda olan imperiyadan, onun yerli çinovniklərindən, qaniçən ordusundan qorxmaq lazım deyil. Xalq imperiyanın paytaxtı Moskvada Heydər Əliyevin belə bir cəsarət nümayiş etdirməsindən nümunə götürərək mübarizəni davam etdirməyə başladı.

20 Yanvar faciəsindən sonra hakimiyyətə, gələn A. Mütəllibov və AXC iqtidarı dövründə, təbii olaraq, həmin hadisələr araşdırılmadı və öz siyasi qiymətini almadı. Çünki hər iki hakimiyyətdə təmsil olunanların bu faciədə müəyyən günahları vardı. Təsadüfi deyil ki, Heydər Əliyev hələ Naxçıvan Ali Məclisinin sədri olarkən 20 Yanvar faciəsi orada araşdırılmış və müvafiq qərar qəbul edilmişdi. Bunun davamı olaraq 1994-cü ildə MM-də 20 Yanvar hadisələri ilə bağlı müzakirələrin aparılması, günahkarların üzə çıxarılması yönündə atılan addımlar möhtərəm Heydər Əliyevin tarix qarşısında göstərdiyi müstəsna xidmətidir. Bütün bunların sayəsində xalqımız və dünya ictimaiyyəti əsl həqiqətdən xəbərdar oldu və bu faciəyə hüquqi-siyasi baxımdan qiymət verildi.

***Araz Əlizadə, ASDP-nin həmsədri:***

- Bəli, 20 Yanvar faciəsinin qarşısını almaq olardı! Əgər AXC-nin o zamankı rəhbərliyi hadisələri düzgün analiz etsəydi və siyasi cəhətdən kor olmasaydılar. Yadınıza salmaq istəyirəm ki, yanvarın 6-da Xalq Cəbhəsinin konfransı keçirildi. Orada AXC idarə heyətinin üzvü Zərdüşt Əlizadə çıxış edərək dedi ki, siz xalqı qırğına aparırsınız. Nə qədər gec deyil, dayanmaq lazımdır. Amma ona qulaq asmadılar. Zənnimcə, AXC rəhbərliyini ordu ilə qarşıdurmaya Dövlət Təhlükəsizlik Komitəsi təhrik etdi.

Biz (Zərdüşt və Araz Əlizadə qardaşları -red.) onlara xəbərdarlıq edirdik ki, paytaxta ordu yeridiləcək, qan töküləcək. Əksəriyyət isə tamamilə başqa mövqedə idi. Onların zənnincə Tbilisi hadisələrindən sonra bu

ordu xalqa silah qaldıra bilməz. Yəni AXC-nin başında dayanan şəxslər mövcud vəziyyəti dərk etmək qabiliyyətinə malik deyildilər. Bəziləri isə bilərəkdən belə bir təxribata gedirdilər. Həmçinin qeyd edim ki, əsas məqsəd Azərbaycanda hakimiyyəti dəyişmək idi. Amma onsuz da, Əbdürrəhman Vəzirovun məsələsi həll olunmuşdu. Buna görə xalqı qırğına vermək lazım deyildi.

Onu da deyim ki, Moskvadan gələn rəsmilər Rəhim Qazıyev, Etibar Məmmədov, Əbülfəz Əliyev, Nemət Pənahovla görüşərkən Bakıya ordu yeridiləcəyini bildirmişdilər. Xəbərdarlıq edərək demişdilər ki, camaatı küçələrdən yığışdırın. Lakin AXC bunu etmədi.

O vaxt İsa Qəmbərova dedik ki, gəlin gedib camaatı barrikadalardan çıxaraq. Onun isə cavabı bu oldu ki, qarşıda 25-30 illik siyasi həyatım var. Mən öz karyeramı riskə qoya bilmərəm. Yəni AXC idarə heyətinin üzvləri şan-şöhrət və karyera naminə xalqı güdaza verməyə hazır idilər. Onlar faktiki olaraq keşiş Qapon rolunu oynadılar.

Fikrimcə, Azərbaycan xalqının tarixində qanlı səhifəyə çevrilmiş bu dəhşətli faciə hələ də tam qiymətini almayıb. Hadisələrin günahkarları axıradək aşkar olunmayıb.

Yeri gəlmişkən, sonradan Azərbaycanda hakimiyyətə gələn AXC rəhbərləri bir illik fəaliyyəti dövründə ölkədə xaos və anarxiya yaratmışdılar. Özləri-özlərini ifşa edərək nadanlıqlarını boyunlarına alacaqdılar? Xatirinizdədirsə, həmin illər AXC liderlərinin əleyhinə söz deyənlərə DTK agenti damğası vururdular. Onlar hakimiyyətdə olarkən dedi ki, gəlin DTK arxivlərini açaq və xalq kimin-kim olduğunu bilsin. Lakin bildiyiniz kimi, AXC hakimiyyəti bundan boyun qaçırdı...

***Söhbəti yazdı:***
***Ramiz QULİYEV, Başarət MƏMMƏDLİ***

**"Respublika".**- 2002. - 19 yanvar.- №15. - S.3.

## Partlayış

*Azərbaycan Televiziyasının 1990-cı il 20 Yanvar hadisələrinə həsr etdiyi növbəti verilişin mətnini oxuculara təqdim edirik*

**APARICI:** Yanvarın 19-da Vəzirov 4-cü ordunun qərargahına gəlir və qırğının vaxtını Moskva ilə razılaşdırır. Həmin gün saat 19.26 dəqiqədə, Dövlət Təhlükəsizliyi Komitəsinin qurduğu təxribat əsasında "Alfa" qrupunun əməkdaşları televiziyanın enerji blokunu partlatdılar. Sanki Azərbaycanın bütün dünya ilə əlaqəsi kəsildi. Bu, həm də Qanlı Yanvar gecəsinin başlanğıcı idi. Xalq Cəbhəsinin üzdəniraq radikal qanadı isə yenə də küçələrdəki adamları aldadır, "sizə silah gətiriləcək, möhkəm dayanın" deyirdilər. Rəhim Qazıyevin, Nemət Pənahovun, Etibar Məmmədovun, İsa Qəmbərovun bu yalançı vədləri xalqı qırğına verməkdən başqa bir məqsəd güdmürdü.

Viktor Polyaniçko ilə tez-tez görüşən və hakimiyyətin bütün planlarından xəbərdar olan bu adamlar küçələrə, meydanlara toplaşmış yüzlərlə vətənpərvər soydaşımızı yaxınlaşan faciədən xəbərdar edə bilərdilər. Lakin bunu etmədilər.

**Aydın RƏSULOV** (Əzizbəyov rayon prokurorunun köməkçisi): Mən televiziyanın enerji blokunun partladılması barədə qısa məlumat verirəm, sonra istintaqı aparan yoldaşlar bunu geniş izah edərlər.

Biz deputat istintaq komissiyasında öz təşəbbüsümüzlə fikirləşdik ki, hadisəni bilavasitə görən və şahidi olan adamlardan - Hüseynov və Romanovdan ətraflı izahat alaq. Mən və polis müstəntiqi Zəlimxan Hüseynov idik. Onlardan ayrıca bir otaqda izahat alanda, məlum oldu ki, enerji blokunun partladılmasında televiziya komitəsinin rəhbərinin əli olubdur. Ola bilməzdi ki, bu hadisədən rəhbərliyin xəbəri olmasın. Onlar əvvəlcədən işçiləri oradan çıxarıblar. Hətta rəhbərlikdən kimsə Hüseynov və Romanov olan otağa da girib çıxmışdı. Çox güman, yoxlayırmış ki, onlar yerindədir, yoxsa yox. Biz onları ətraflı dindirdik. İzahatları lazı-mi qaydada saxlamışıq ki, vaxt gələndə istifadə olunsun.

Səhərisi gün naməlum bir adam bizim komissiyaya zəng etdi və bizi Dövlət Təhlükəsizliyi Komitəsinə dəvət etdi. Sözün doğrusu, mən başa düşdüm ki, nəsə toxunulmaz faktları açmışıq və çox güman ki, orada başımıza bir iş gətirə bilərlər, öldürərlər, təsir göstərə bilərlər. Ona görə də mən komissiyanın rəhbəri ilə məsləhətləşdim və uşaqlarımla gedib bir həftə Xızı rayonunda, dayımın evində qaldım.

**Rüstəm USUBOV** (hərbi prokurorluğun əməkdaşı): Televiziyanın enerji blokunun partladılması bu işin başlanğıcı idi. Bu iş necə planlaşdırılmışdı? Deməli, SSRİ Baş Kəşfiyyat İdarəsi ilə Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komi-təsinin sədri Vaqif Hüseynov planlar qurmuşdular: necə etsinlər ki, əhali hərbçilərin Bakıya girməsini bilməsin. Belə qərara gəlmişlər ki, televiziyanın enerji bloku parladılsın, verilişlər dayandırılsın və camaata xəbər çatdırılmasın. Bu plan bilavasitə Vaqif Hüseynovun kabinetində hazırlanıbdır. Onu Vaqif Hüseynov SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin sədr müavini Babkov ilə birlikdə hazırlayıbdır. Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsində çalışan əməkdaşları çağırıb tapşırıq veriblər ki, işi icra etsinlər. Lakin orada da vicdanlı, vətənpərvər oğullar bu işə razılıq verməyiblər.

Bir fakt da yadımdadır ki, o vaxt Dövlət Təhlükəsizliyi Komitəsində 4-cü şöbənin rəisi işləyən təcrübəli polkovnik Vladimir Mirzəyevə təklif etmişdi ki, sən bu işi şöbən vasitəsilə həyata keçirə bilərsənmi? Mirzəyev razılığını vermədiyinə görə, Vaqif Hüseynov ona demişdi ki, sən kişi deyilsən, kabinetimdən çıx. Belə şeylərə də əl atırdılar.

Bundan sonra qərara almışdılar ki, bu hadisəni Moskvadan gəlmiş "Alfa" qrupu törətsin. Onlara da Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinin əməkdaşı Starçenkov kömək edibdir. O, Moskvaya bağlı bir şəxs idi. Vaqif Hüseynovun ən yaxın adamı idi.

Onu da deyim ki, enerji blokunun partladılması asan məsələ deyildi. Çünki onun partladılması üçün gərək bu boyda televiziyada adam olmayaydı ki, bunları, təxribatçıları görməyəydilər. Televiziya komitəsinin o vaxtkı sədri Elşad Quliyev düzgün mövqe tutmamışdı. Hesab edirəm ki, onun bu işdə böyük məsuliyyəti var. O, yanvarın 19-da təxminən saat 3 radələrində - mən onun ifadəsinə əsaslanaraq deyirəm - Mərkəzi Komitədə

komitənin işinə nəzarət edən Rafiq Zeynalova müraciət edir və Bakıda vəziyyətin gərgin olduğunu bilə-bilə ondan xahiş edir ki, ağrıyıram, icazə ver, gedim, evimdə dincəlim. Elşad Quliyev ifadəsində göstərir ki, guya Rafiq Zeynalov ona icazə veribdir. Halbuki istintaq tərəfindən dəfələrlə dindirilən Rafiq Zeynalov deyir ki, mən ona icazə verməmişəm. Elşad Quliyev öz işçilərinə - müavinlərinə, şöbə rəislərinə bilavasitə göstəriş verir ki, hamınız komitəni tərk edin, heç kim işdə qalmasın və s. Sonra da təxribatçılar bundan istifadə edərək, komitədə heç kəs olmayan vaxt enerji blokunu partladırlar. Bunu necə başa düşmək olar? Elşad Quliyev belə fikrə necə gəlir? Özü burada işləyə-işləyə, buranın çörəyini yeyə-yeyə, imkan yaradır ki, enerji bloku partladılsın.

Bildiyimə görə, hətta sonralar o, müxtəlif yerlərdə izahat verib ki, guya həmin gün, yəni yanvarın 19-da yaxın qohumları rəhmətə gedib və o, hüzr yerində iştirak etmişdir. Lakin istintaqda təsdiq olunur ki, o, burada da yalan danışırmış. Doğrudan da hüzr yeri olub, lakin o, orada qətiyyən iştirak etməyibdir.

Bakı əhalisindən məlumatın gizlədilməsi niyyəti enerji blokunun partladılması ilə nəticələnmişdir. Əgər millətimiz, şəhər əhalisi bilsəydi ki, hərbçilər irəli gələcək, əhaliyə atəş açacaqlar, belə məlumat alsaydılar, bəlkə də onlar küçəyə çıxmazdılar. Ancaq enerji blokunun partladıldığına və məlumatın əhaliyə çatdırılmadığına görə bu cür faciə baş verdi.

**Prokurorluq işçisi:** Əlavə olaraq bir faktı yada salmaq istəyirəm. Həmin hadisənin bilavasitə şahidi Romanov və Hüseynov olmuşlar. Deyəsən, indi onların biri rəhmətə gedibdir. Mən elə eşitmişəm. Həmin vaxt onları Ali Sovetin binasına gətiriblər ki, oradan harayasa aparsınlar. Orada bir milis işçisinin mərdliyi sayəsində onları gizlədiblər. Demək istəyirəm ki, dəhşətli partlayışdan sonra hətta o iki şahidi öldürmək istəyiblər. Həmin milis işçisi, - o adamın adı bəllidir, - iki nəfər şahidi aradan çıxarmışdır.

**Rüstəm Usubov:** Elşad Quliyevin üzərində böyük məsuliyyət vardır. Bugünkü gündə onun fəaliyyəti ilə əlaqədar istintaq hələ davam edir. Ona görə o, elə başa düşməsin ki, məsuliyyətdən yaxa qurtaracaqdır. İstintaq davam edir və onun hərəkətlərinə hüquqi qiymət veriləcəkdir.

**APARICI:** Yanvarın 19-dan 20-nə keçən gecə Bakı od içində yanırdı. Yanvarın 20-də şəhər 130-dan çox şəhidi, 700-dən çox yaralısı, viran qalmış, talanmış evləri, küçələri ilə inildəyib qan içində boğulduğu bir vaxtda Ayaz Mütəllibov, Viktor Polyaniçko və Müslüm Məmmədov cani Qorbaçovun hüzuruna yollanıb ondan itkin düşmüş rəzil Vəzirovun kreslosunu istəyirlər. Bu isə heç bir insanlığa, əxlaqa, mənəviyyata sığmayan bir xəyanət idi. Xalq qan içində, onlar isə hakimiyyət davasında idilər.

Ağrı-acısını hələ çox yaşayacağımız müdhiş 20 Yanvar faciəsini törədənlər öz mənfur planlarının həyata keçirilməsinə Azərbaycan Televiziyasından başlamışdılar. Çünki milli azadlıq hərəkatına qalxmış xalq bu televiziyadan çox şey umur, ilk növbədə öz tələblərinin səslənməsini istəyir və Dağlıq Qarabağda, eləcə də Ermənistanla sərhədlərdə baş verən gərgin hadisələr barədə obyektiv informasiya verilməsini tələb edirdi.

Bu məqsədlə Teleradio Verilişləri Komitəsi qarşısında keçirilən piketlərin artması respublikanın o vaxtkı bacarıqsız, xain və imperiyapərəst rəhbərliyini təşvişə saldığından, televiziyaya daxili qoşunların əlavə qüvvəsi göndərildi. Yanvarın 17-dən isə onların yerini xüsusi təyinatlı qoşunlar tutdu. Bunlar az imiş kimi, televiziyanın ərazisinə zirehli texnika - tanklar və döyüş maşınları yeridildi. Nəhayət, televiziyanın xalq tribunasına çevrilməsi təhlükəsindən qorxanlar onu sıradan çıxardılar. Bu, sözlə ifadəsi çətin olan bir vəhşilik əməli idi.

**İbrahim Hüseynov** (enerji blokunun növbə rəisi): Saat 7-yə səkkiz-on dəqiqə qalmış telefonla danışırdım, kimsə "Retro"nu soruşurdu - hansı film olacaq? Gördüm ki, əsgər formasında biri o yana, biri bu yana qaçdı, əllərində də qısa avtomatlar var idi. Formaları da qəribə idi - həm desantçı paltarı geyinmişdilər, həm də idman köynəkləri görünürdü.

**Jurnalist:** Əllərində nə var idi?

**İbrahim Hüseynov:** Biri əlində avtomat tutmuşdu. O birinin əlində iki çanta vardı, özü də ondan uzağa getmirdi. İki iri çanta idi, biri turistlər gəzdirən çantaya oxşayırdı, yaşıl rəngdə, onların geyimi rəngində idi. Biri məni yanına çağırıb, gərginlik xəttinin haradan gəlib haradan çıxdığını soruşdu. Dedim ki, yüksək gərginlik xətti oradan gəlib buraya daxil olur. Dedi ki, haraya - göstər. Hər şeylə maraqlanırdılar. Biri mənə dedi ki, komendantınız sizi çağırır. Mən bizim komendantı tanımırdım, çünki əsgərlər bizim sexə tərəf gəlmirdilər, elə

orada qalırdılar. Dedi ki, bizimlə gedək. Yanında da avtomatlı iki əsgər var idi. Soruşdum ki, bizi hara aparırsınız? Dedi ki, uşaqlar, qorxmayın, sizə heç nə olmayacaq. Dedim ki, axı, avtomatlı əsgərlərdir, özünüz də deyirsiniz ki, bizimlə gedək. Romanovu və məni haraya aparırsınız? Cavab verdi ki, qorxmayın. Əsgərlərə də dedi ki, siz kənara çəkilin. Bizi artistlərin məşq otağına apardılar. Orada da əsgərlər var idi. Birdən möhkəm titrəyiş oldu, partlayış eşidildi. Mən dedim ki, Viktor, oranı partlatdılar.

**APARICI:** Bəs televiziyanın enerji blokunu konkret olaraq kim partlatmışdı? Bu partlayışın həyata keçirilməsi və xalqın məlumatsız qalması üçün kim şərait yaratmışdı? Niyə görə yanvarın 19-da artıq günortadan sonra əməkdaşlar evə yola salınmış, axşam televiziyanın işləməyəcəyi barədə söz buraxılmışdı? Bu işlərin təşkilatçısı kimlər idi?

**Vasif Babayev** (rejissor): Şöbələr bağlı idi. rəhbərlik - nə sədr, nə də sədr müavinləri, nə baş redaktorlar var idi. Efirə çıxmaqla məşğul olan buraxılış şöbəsi də bağlı idi. Ən maraqlısı isə o idi ki, Teleradio Komitəsinin rəhbərliyi müəyyən şöbələrə, o cümlədən "Günün ekranı" informasiya proqramının baş redaktoru Ənvər Qafarlıya göstəriş vermişdi, o da öz işçilərinə tapşırmışdı ki, bütün şöbələri bağlayıb evə gedin, bu gün informasiya proqramı olmayacaqdır.

**Sərhəd Qasimov** (Teleradio Verilişləri Komitəsi Həmkarlar İttifaqı Komitəsinin sədri); Günün ikinci yarısında, təqribən saat 14-14.30 radələrində mən həyətdə gəzərkən komitə əməkdaşlarının qrup halında işdən getmələrinin şahidi oldum. Bunun qarşısını almaq məqsədilə mən bir neçə əməkdaşdan soruşdum ki, hara gedirsiniz, nə üçün gedirsiniz? Cavabları belə oldu ki, bizə göstəriş veriblər, iş yerimizi tərk edirik. Mən bununla əlaqədar, o vaxt həyətdə gəzişən, sədrimizin müavini mərhum İldırım Kəngərlinski ilə görüşdüm və əməkdaşların işdən getmələrinin səbəbi barədə məlumat almaq istədim. O, çox məyus halda dedi: mən bu suala cavab verə bilmərəm. Sizə məsləhət görərdim ki, komitənin rəhbərliyinə müraciət edəsiniz.

Mən komitə sədrinin kabinetinə yollandım. Amma çox təəssüf ki, içəri girə bilmədim, çünki həddən artıq adam, özü də müxtəlif adamlar vardı. Mən geriyə, öz iş otağıma qayıtdım. telefonla komitənin o vaxtkı sədri Elşad Quliyevlə əlaqə saxladım. Ona məlumat verdim ki, komitənin əməkdaşları iş yerlərini tərk edirlər. Mən onlardan nə üçün getdiklərini soruşanda, deyirlər ki, komitənin rəhbərliyi icazə veribdir. Bunun doğru olub-olmadığını öyrənmək üçün sizə müraciət edirəm. Elşad Quliyev mənə dedi: belə məsləhətdir.

Açığını deyim ki, tərəddüd içində qaldım və təkrar soruşdum ki, bunun səbəbini bilmək olarmı? Dedi ki, mən sizə də məsləhət görərdim ki, evə gedəsiniz.

**Nazim Abbas** (rejissor): Dəhlizdən keçəndə, bilmədim kim idi, yadımda deyil, bir nəfər mənə yaxınlaşdı ki, çıxın aradan, burada heç kəs olmasın.

**Araz Əliyev** (jurnalist): Biz onun sözünə baxmadıq, çıxdıq mənim otağıma. Verilişimizi planlaşdırırdıq ki, əsas montajımız sabahadır, nəyi artıraq, nəyi əskildək. Ümumiyyətlə, belə bir plan ətrafında fikir mübadiləsi edirdik. Birdən telefon zəng çaldı. Dəstəyi götürdüm, Elşad Quliyev idi, mənə dedi ki, orada neynirsən, kim var yanında? Dedim ki, Nazim Abbasovdur, işləyirik, verilişi planlaşdırırıq. Dedi ki, oturmayın orada, durun çıxın gedin, tez gedin oradan. Soruşdum ki, axı nə olub? Dedi ki, durun gedin.

**Sərhəd Qasimov:** Həmin axşam saat 19.26-da enerji blokunun partladılmasından sonra məqsəd mənə aydın oldu. Çox təəssüf ki, o vaxt biz belə bir acınacaqlı günü öz gözümüzlə gördük, onun şahidi olduq.

**Zohrab Zeynalov** (radionun proqram direktoru): İş otağımda idim. Saat 19.26-da enerji bloku güclü uğultu ilə dağıldı. O vaxt radio işləyirdi. Biz orada olan əməkdaşlarla aşağı binaya gəldik ki, görək bu nə hadisədir. Bir neçə dəqiqədən sonra yanğınsöndürənlər, təcili yardım maşınları gəldi.

Bilirsiniz ki, o vaxt orada 200-dən çox sovet əsgəri var idi. Komitənin sədri Elşad Quliyevi də evindən telefonla çağırmışdılar. Adını xatırlaya bilmirəm, Dövlət Təhlükəsizliyi Komitəsinin bir nümayəndəsi komitə sədri Vaqif Hüseynova hökumət telefonu ilə zəng etdi ki, televiziyada enerji bloku partladılıb, biz burada məşğul oluruq, hər şey qaydasındadır.

**Vasif Babayev:** Bütün rəhbərlik yox idi. Elşad Quliyev yox idi, Fuad Tarıverdiyev, Televiziya Mərkəzinin direktoru Alik Quliyev, proqram direktoru Zülfüqarov, baş redaktorlar yox idi, ümumiyyətlə, şöbələr bağlı idi. Texniki sahədə növbə rəisləri də yox idi - demişdilər ki, gedin, iş olmayacaqdır.

**Etibar Məmmədov** (AMİP-in sədri); Televiziyada verilişlərin dayanması haqqında mənə məlumat verdilər. Elşad Quliyevlə əlaqə saxlayanda məlum oldu ki, verilişlər dayandırılıb, işçilər də buraxılıbdır. Ondan soruşdum ki, bunun səbəbi nədir? Dedi ki, xalq cəbhəsinin nümayəndələri gəlib tələb ediblər ki, televiziyanın verilişləri dayandırılsın, ona görə də işçiləri evlərinə buraxıbdır. Bildirdim ki, belə göstəriş ola bilməz, verilişlər bərpa olunmalıdır və axşam saat 8-də mənim özümün gəlib çıxış eləmək fikrim var, verilişləri bərpa eləsinlər.

**Azər Zamanlı** (rejissor): 1990-cı il yanvar ayının 19-da mən də televiziya əməkdaşlarının bir çoxu kimi, öz verilişimin üzərində işləyirdim. Birdən içəri daxil oldular və bizə dedilər ki, studiyanı boşaltmaq lazımdır. Bu söz mənə çox qəribə gəldi: biz studiyanı nə üçün boşaltmalıydıq? Çünki televiziya həmişə, mütəmadi olaraq işləyir, yəni televiziyada iş gecə də dayanmır, səhər də dayanmır. Televiziya belə bir idarədir. Mən də proqramı təhvil verməliyəm və belə şey ola bilməz ki, televiziyadan kimlərsə çıxsın. Bu, fövqəladə vəziyyətdə ola bilər. Ona görə də düşündüm ki, bu nə məsələdir? Gördüm ki, televiziya binasının dəhlizi ilə əməkdaşlar axışıb, çıxıb gedirlər. Ondan-bundan soruşdum ki, nə məsələdir? Dedilər, rəhbərlikdən tapşırıblar ki, televiziyanın əməkdaşları komitəni tərk etsinlər. Yenə də mənə qaranlıq gəlirdi və beynimdə bir sual gəzirdi ki, bu nə məsələdir - axı biz niyə buranı tərk etməliyik?

Mən də əməkdaşlarımla birlikdə həyətə düşdüm və Teleradio Komitəsi binasının qarşısına toplaşmış adamları gördük. Onlar keçmiş Mərkəzi Komitə binasının qarşısından gəlmiş adamlar idilər. Biz qapıdan çıxandan sonra bunu bildik. Hamı sorğu-sual edirdi ki, bu nə məsələdir? Həmin sorğu-sualdan mənə də aydın oldu ki, onlar televiziya rəhbərliyinin işdən azad edilməsini tələb edirlər. Onlar tələb edirdilər ki, rəhbərlik çıxsın. Lakin rəhbərlik televiziyada yox idi. Belə çıxır ki, rəhbərlik tapşırıb ki, camaatı buradan çıxarın, özləri də gediblər və televiziya tamamilə başsız idi.

**Rafiq Savalan** (jurnalist): Buraya toplaşanlar əvvəlcə tələb elədilər ki, biz rəhbərliklə görüşməliyik. Dəqiq yadımda deyil, onlardan üç, ya dörd nəfər nümayəndə bizimlə bir yerdə komitənin binasına daxil oldu. Binada isə, necə deyərlər, lələ köçmüşdü, yurdu boş. Rəhbərlikdən heç kim yox idi. Kimdən soruşurduq, dedilər ki, bəs Elşad Quliyev deyib ki, evinizə gedin, hamı da dağılıb gedib.

Gələn nümayəndələr öz tələblərini yazıb qoydular ki, biz Elşad Quliyevin və rəhbərliyin digər üzvlərinin istefasını tələb edirik. İşdə bir neçə operator var idi.

**Seyidağa Mövsümov** (hərbi kinooperator): Elə bil hamımız bilirdik ki, burada nəsə olacaq. Çəkilişdən sonra biz komitəyə gəldik. Saat 3 radələrində, təxminən 4-ə işləmiş televiziyanın rəhbərliyi hamıya dedi ki, evə gedə bilərsiniz. Məni də işdən buraxdılar. Saat 4-ə işləmiş Teleradio Komitəsində rəhbərlikdən demək olar ki, heç kəs yox idi. Televiziyanın və radionun redaktorları, jurnalistləri, işçiləri Ali Sovetin binasının yanında, Teleradio Komitəsinin önündə dayanmışdılar və mitinq keçirirdilər. Deyirdilər ki, biz yerimizdə olmalıyıq, vəziyyət barədə xalqa məlumat verməliyik.

**Azər Zamanlı:** Televiziyanı belə vəziyyətdə görəndə, sözün açığı, bizi vahimə basdı. Belə ola bilməzdi. Çünki televiziya həmişə qaynayan bir yer olub. Burada heç vaxt bir an belə sakitlik olmayıbdır. Teleradio Komitəsində bütün otaqlar boş idi və demək olar ki, nə texniki, nə rəhbər işçilər, bütün əməkdaşlar yox idi. Yəni 2500 adamdan heç kəs yox idi. Bu, həqiqətən fövqəladə bir vəziyyət idi və rəhbərin əmri, tapşırığı olmasa, heç kim iş yerini boş qoya bilməzdi.

**Rafiq Savalan:** Yadımda deyil, təxminən saat 8-ə iyirmi-iyirmi beş dəqiqə işləyirdi. Partlayış baş verdi, işıqlar söndü. Biz hamımız aşağı düşdük. Enerji blokunun yanındakı zirzəmidən tüstü çıxırdı.

**Azər Zamanlı:** Partlayış baş verəndə artıq mənə məlum oldu ki, Azərbaycan Televiziyasının 2500 əməkdaşını nə üçün işdən buraxıblar. Deməli, blokun partladılacağı kiməsə məlum idi. Bundan məntiqi nəticə çıxır ki, deməli, televiziyanın rəhbərliyi partlayış olacağından xəbərdar idi.

**Aparıcı:** Bəli, yanvarın 19-da işçilərin televiziyanı tərk etmələri barədə tapşırığı komitənin o vaxtkı rəhbəri Elşad Quliyev vermişdi. Əlbəttə, özünə yaxın adamlar vasitəsilə. istər-istəməz qarşıya sual çıxır: nəyə görə sədr Elşad Quliyev təkidlə adamları işdən çıxıb getməyə, necə deyərlər, meydanı boş qoymağa çağırırmış? Necə ola bilər ki, xalqın ayağa qalxaraq küçə və meydanlara toplaşdığı, hətta şaxtalı-sazaqlı gecələrdə belə

rəmzi barrikadalardan çəkilmədiyi bir vaxtda, televiziyaya rəhbərlik edən şəxs vəzifəsinin çox böyük məsuliyyətini unudur və meydandan qaçaraq, başqalarını da buna sövq edir?

Əlbəttə, heç kim Elşad Quliyevin silahlı əsgərlərlə üz-üzə durmasında təkid etmirdi və onun buna heç cəsarəti, qabiliyyəti, təpəri də yox idi. Amma adi vətəndaş mövqeyi və milli təəssübkeşlikdən uzaqlığı, ən başlıcası isə, məsləkinin, məzhəbinin olmaması Elşad Quliyevi xainlərin qucağına itələmişdi. O, yuxarıdan verilən bütün tapşırıqları kölə kimi yerinə yetirir və xalq kütlələrinin daha da radikallaşmasında öz iyrənc rolunu oynayırdı. Elə bu səbəbdən də televiziyanın enerji blokunun partladılacağını Elşad Quliyevin əvvəlcədən bilməməsini düşünmək sadəlövhlük olardı. Bunu Ali Sovetin istintaq komissiyasının ayrı-ayrı epizodları da sübut edir.

**Vasif BABAYEV:** Foyedə əliavtomatlı 50-dək adam toplaşmışdı. Guya harayasa getməyə hazırlaşırdılar. Soruşduq ki, axı partlayış olub, siz bilirsiniz. Dedilər ki, bunun bizə dəxli yoxdur. Mən dedim ki, yoldaş əsgərlər, bu necə ola bilər, axı sizin müəyyən vəzifəniz var, televiziyanı qorumalısınız. Bu, adi obyekt deyildir. Bildirdilər ki, biz komanda verilməsini közləyirik, indi gedirik. Biri mənə yaxınlaşıb dedi ki, bura bax, sizin burada nə işiniz var? Məni kənara çəkdi, dedi ki, sizin rəhbərliyin işidir. Soruşdum ki, hansı rəhbərliyin? Cavab verdi ki, sizin idarənin. Mən dedim ki, ola bilməz, kimin? Qayıtdı ki, uzatmayaq, uşaqları da götürüb gedin ki, burada bir cəncəl olmasın. Dedim ki, rəhbərliyin familiyalarını deyin, görək kimdir. Dedi ki, familiyaları yadımda deyil, ancaq iki-üç familiya çəkdi. Yenə dedi ki, sizin təşkilatın rəhbərləridir, sənin nəyinə lazımdır, yadımda deyil. Sonra da əlavə etdi ki, təxminən ikisinin familiyası eynidir. Dedim ki, Quliyevlər? Cavab verdi ki, bəli. Səsimi çıxarmadım ki, uşaqlar eşitməsinlər.

**Azər Zamanlı** : Televiziyanın rəhbəri, rəhbərliyi partlayış olacağından xəbərdar idi. Bunu bütün sonrakı faktlar da göstərirdi. Azərbaycan xalqı öz gücünü-qüdrətini nümayiş etdirdi, göstərdi ki, onun mərd oğulları-qızları var. Həmçinin televiziyada yaşından asılı olmayaraq, çox vətənpərvər oğullar-qızlar var. Əgər televiziyanın rəhbərliyi burada olsaydı, bəlkə də belə olmazdı. Biz özbaşına heç bir iş görə bilməzdik. Biz sadəcə, televiziyanın əməkdaşlarıyıq, partlayışın da olub-olmayacağından xəbərimiz yox idi. Ümumiyyətlə, necə ola bilər ki, nə partlayışdan qabaq, nə partlayış zamanı, nə partlayışdan sonra, nə də şəhidlərin dəfninə qədər biz Azərbaycan televiziyasında rəhbər işçi görmədik? Yəni televiziya tam başlı-başına qalmışdı, rəhbərlikdən bir adam yox idi. Çəkilişləri biz özümüz təşkil edirdik. Vaxtın azlığına görə mən hamısının adını çəkmək istəmirəm, faktın özünü deyirəm. Burada general Ovçinnikov öz cəlladları ilə dayanıb hər şeyi izləyirdi, tanklar da dayanmışdı. Lakin biz kameraları da götürə, kasetləri də apara bildik, müxtəlif qruplar yaratdıq və onlar çəkirdilər. Gecə vaxtı da çəkirdik. Ayın 19-da da, 20-də də çəkdik. Bunu biz özümüz eləmişik, bu, televiziyanın vətənpərvər, xalqını sevən oğullarının, qızlarının - jurnalistlərin, reportyorların, rejissorların işi idi, necə deyərlər, onların borcu idi və bunu da edirdilər.

Bizə rəhbərlik edən, əmr, tapşırıq verən olmamışdı. Lakin rəhbər olsaydı, heç şübhə etmirəm ki, qurbanlar hesabına da olsa, Azərbaycan televiziyasının əməkdaşları qoymazdılar partlayış baş versin.

**Nazim Abbas:** Başqa cür ola da bilməzdi, 2500-ə qədər adam işləyən idarə idi. Nə itirəcəkdin - səni güllələmir, öldürmürdülər, uzaqbaşı vəzifə itirəcəkdin. Heç olmasa, gəlib hay salaydın, camaatı yığaydın ki, belə bir iş görmək istəyirlər.

**Rafiq Savalan:** Əgər işçilər, kollektiv yerində olsaydı, 2500 adamın çalışdığı bu boyda idarədə o cür həyasızcasına partlayış, təxribat törətmək heç vaxt mümkün olmazdı. Özü də bizim idarədə gecə də yüzlərlə adam çalışır. Deməli, hərbçilərin o cür hərəkət etməyə heç bir imkanı olmazdı. bunlara şəraiti yaradan rəhbərlik, ilk növbədə də o vaxtkı komitə sədri Elşad Quliyev olmuşdur. Əgər camaat işdən getməsəydi, burada qalsaydıq, necə deyərlər, hər halda dalağımız sancacaqdı ki, nə isə bir hadisə ola bilər və bəlkə biz evimizə də getməyəcəydik.

Televiziyanın sıradan çıxarılması, camaatla əlaqənin kəsilməsi onlara meydan verdi və istədiklərini elədilər. O vaxt komitənin bütün rəhbərləri - istər sədri, istərsə də onun müavinləri və başqa məsul işçilər əvvəldən bunu bilirmişlər və buranı tərk etmişdilər. Bu gün bunları araşdıranda görürsən ki, gərək vicdanını, ləyaqətini o qədər itirmiş olasan ki, vəzifəyə görə doğma xalqın televiziyasına xəyanət edəsən. Bizim televiziya

elə bil ideoloji gəmidir, onun kapitanı hamıdan sonra getməlidir. Nəinki hamıdan sonra, birincilər sırasında getdilər və hətta yanvarın 20-21-də televiziyanın rəhbərliyi idarədə olmadı.

**Seyidağa Mövsümov:** Mən hesab edirəm ki, o vaxt komitənin sədri Elşad Quliyev öz vəzifəsinə məsuliyyətlə yanaşsa, əməkdaşları bir yerə yığıb komitənin iş reyimi-nə riayət etsəydi, enerji blokunun partladılmasının qarşısını almaq olardı. Çox təəssüf, o, nəinki bunu etmədi, komitəni Allah ümidinə qoyub üç gün işə gəlmədi. Azərbaycan televiziyası, radiosu özbaşına qaldı.

**Azər Zamanlı:** O vaxt radiomuz və televiziyamız işləsəydi, diktorlarımız, jurnalistlərimiz xəbərləri bəyan etsəydilər, bəlkə qanlı faciə də baş verməzdi. O zaman birinci növbədə bizi informasiyadan məhrum etmək istəyirdilər. Azərbaycanın o vaxtkı rəhbərliyinin, DTK-nın sədri Vaqif Hüseynovun da bu işdə əli vardı. Çünki ola bilməzdi ki, ayın 15-dən "Alfa" qrupu televiziyada yerləşsin və bundan da heç kəsin xəbəri olmasın.

Bundan əlavə, yanvarın 20-dən 21-nə keçən gecə Ali Sovetin məşhur fövqəladə sessiyası oldu. Oraya getmək üçün də bizə videokamera vermirdilər. Təsəvvür edin, bizdə peşəkarlar üçün videokamera var idi, onu gizlincə aparmışdıq.

Televiziya dövlət təşkilatıdır, dövlət strukturunda vacib rol oynayır. Hamıya məlum idi ki, televiziya saatla, dəqiqə ilə, ciddi bir reyimdə işləyən yerdir, orada çox qiymətli ləvazimat var. Təsəvvür edin, komitənin sədri Elşad Quliyev yox-dur, otaqlar bağlıdır. Televiziya rəhbərinin əmri olmasa, heç bir iş görmək olmaz. O zaman rəhbər Elşad Quliyev idi. Çəkilişlər aparmaq üçün də televiziyanın rəhbəri, o vaxtkı sədr Elşad Quliyev göstəriş verməliydi.

Bu, çox maraqlı bir faktdır ki, Elşad Quliyev partlayışdan qabaq televiziyanı nə üçün tərk etmişdi? Bu, sual doğurur, yəni şübhələr doğurur. Əgər o, yox idisə, hansısa bir iş üçün getmişdisə, onu özü deyə bilər. Lakin bizdə olan məlumata görə, o vaxt mən xalq hərəkatında fəal adam olduğumdan bilirəm ki, o evdəydi. Bunu sonra özü də demişdi - o, evdə oturmuşdu, hansısa telefon zəngini gözləyirdi.

Partlayış oldu. Burada insanlar tələf ola bilərdilər. O isə bizim başçı-mız, sədrimiz idi. O, gəlib maraqlanmalıydı ki, burada nə partlayışı olub, necə olub, kim həlak olub. Bəlkə həlak olan var, kömək etmək lazımdır. Ümumiyyətlə, Elşad Quliyev bizim işimizi tənzimləyib nizamlamalıydı. Bu, onun bilavasitə işi idi. Biz özbaşına iş görə bilməzdik. Onun əmri olmadan birdən-birə o qədər qiymətli olan kameranı, kaseti televiziyadan necə çıxara bilərdik? Otaqlar, qapılar bağlı və televiziyanın bütün əməkdaşları komitəni tərk ediblər. Bu-rada xalqın 10-15 nümayəndəsindən və bir neçə nəfər televiziya əməkdaşından başqa heç kim yox idi. Biz də xalq hərəkatında iştirak etdiyimizə görə burada idik ki, bu xalqın dərdinə qalaq, əlac edək. Partlayışdan sonra da biz heç bir rəhbəri, Teleradio Komitəsinin rəhbəri Elşad Quliyevi bura-da görmədik.

**Araz Əliyev** (jurnalist): Mən onda üç əsas fakta görə bu qərara gəldim. Partlayış olubdur, lap qəzadır. Rəhbərlik hamı tökülüb gəlməli idi, düzdür? Gələn olmadı. İkincisi, Siyavuş da yüz faiz bilirdi. Çünki Siyavuş bizə dedi ki, çıxın gedin buradan, hamı gedibdir. Üçüncüsü, Elşad müəllim mənə zəng edib "durun, oradan gedin" dedi. Belə çıxır ki, o bilirdi.

**Aparıcı:** Əlbəttə, televiziyanın enerji blokunun partladılması ilə bağlı Elşad Quliyevin adı təsadüfi çəkilmir. Çünki o, yanvarın 19-da işin qızğın vaxtında əməkdaşların məharətlə şirkətdən uzaqlaşdırılmasını təmin etmiş, bununla da enerji blokunun partladılmasına şərait yaratmışdır.

Təkcə bu faktın özü belə bir nəticəyə gəlməyə əsas verir ki, teleşirkətin o vaxtkı rəhbərliyi mənfur partlayış aktını törədənlərlə əlbir olubdur. Halbuki əgər işçilər öz yerlərində qalsaydılar, onda enerji blokunu partlatmaq qeyri-mümkün olardı. Digər tərəfdən isə, radioda imkan ola-ola, teleradionun rəhbərliyi həmin məsuliyyətli anlarda əhaliyə heç bir informasiya vermək təşəbbüsü göstərməmişdir. Bu isə bütöv bir xalqa xəyanət idi və təəssüf ki, Elşad Quliyevin televiziyaya rəhbərliyi dövründə yeganə xəyanəti deyildi.

Adını peşəkar qoymuş bu yalanlar ustasının Azərbaycan xalqının mənəviyyatına vurduğu ziyanlar haqqında vaxtilə efirə getmiş "Xəyanət" verilişində də danışılmış, onun bəd əməlləri göstərilmiş və "Elşad Quliyev kimdir" sualına belə cavab verilmişdir: bu, həmin Elşad Quliyev idi ki, 1990-cı il yanvarın 19-da yaxın dostu, Mərkəzi Komitə katibi, Moskvanın Azərbaycandakı rezidenti Viktor Polyaniçkonun göstərişi ilə günortadan sonra komitənin əməkdaşlarına binanı tərk etməyi əmr etmiş və enerji blokunun təcavüzkar sovet

ordusu tərəfindən partladılması üçün əlverişli şərait yaratmış, xalqı informasiya almaq imkanından məhrum etmişdir.

Bu hadisədən bir qədər əvvəl isə, soykökünə dönük çıxmış Əbdürrəhman Vəzirovun, Ayaz Mütəllibovun göstərişi ilə o, 1970-80-ci illərdə Azərbaycanda aparılan nəhəng tikinti-quruculuq işlərini, elmimizin, mədəniyyətimizin, incəsənətimizin sürətli inkişaf dövrünü əks etdirən nadir video və audio-lentlərini məhv etdirmişdir.

Onun fəaliyyəti dövründə komitədə Bədəlov, Xaratyan, İşxanov və digər ermənilər at oynadır, azərbaycanlıların başına min cür oyun açırdılar. Qanlı Yanvar faciəsindən sonra xidməti vəzifəsini tərk etməyə məcbur olmuş Elşad Quliyev 1993-cü il martın 8-də respublika prezidentinin səlahiyyətlərini icra edən Yaqub Məmmədov tərəfindən guya peşəkar kimi, yenidən komitəyə sədr təyin edilmişdir. Əvvəllər komitədə işlədiyi dövrdə həddən ziyadə bəd əməlləri ilə şöhrət qazanmış Elşad Quliyev əslində ixtisasca rus dili müəllimi idi. Onun yenidən sədr vəzifəsinə təyin edilməsi müsibət yönümdə heç bir dəyişikliyə səbəb ola bilmədi. Əksinə, köhnə bəd əməllər yenidən canlandı, komitə əsl intriqa yuvasına döndü. Televiziya natəmiz, cinayətkar ünsürlərin ruporuna çevrildi. Respublikanın dərdləri, problemləri qaldı bir yanda, ayrı-ayrı adamların, mafioz qrupların iddiaları, mənafeyi on plana çəkildi.

Başabəla "peşəkar"ın bədnam dəst-xətti Laçının işğalı dövründə də özünü qabarıq büruzə verdi. Laçında döyüşlər getdiyi bir vaxtda "Laçının təslim olması" xəbəri yayıldı. Bu, ordunun döyüş ruhuna ağır zərbə vurdu. Şuşa və Laçın əhalisi Elşad Quliyev televiziyasının zərərli fəaliyyətini bu gün də ikrah hissi ilə xatırlayır. Şuşa və Laçın üzərində dolaşan nigaran şəhid ruhları isə haqqın öz ali mərtəbəsinə yüksələcəyi, yalan informasiya müəlliflərinin ədalət divanına çəkiləcəyi günün intizarındadır. Cəmi ikicə aydan sonra - mayın 16-da bədnam "peşəkar" tutduğu vəzifədən azad edildi. Bu, onun müəmmalarla dolu fəaliyyətinin məntiqi sonluğu idi.

Son vaxtlar baş verən təbəddülatlar göstərir ki, çoxları olub-keçənləri unutdurmağa, bəzi məqamlara, o cümlədən "Dalğa", "AktuaL ekran" kimi böhtan, iftira xarakterli verilişlərə göz yumdurmağa çalışırlar. Köhnə "peşəkar" da bu vəziyyətdən bəhrələnməyə, vaxtilə şübhəli əlaqələrə malik olduğu və bu gün də yüksək vəzifələrdə çalışan bəzi himayədarlarının köməyi ilə dövlətçiliyimizə, yaranmış ictimai-siyasi sabitliyə arxadan zərbə vurmaq imkanı əldə etməyə çalışır".

Respublikada çoxlarının yaxşı bildiyi bu məsələlərdə təəccüb doğuran bir də odur ki, Elşad Quliyev törətdiyi əməllər üçün millət qarşısında xəcalət çəkmək əvəzinə cəfəngiyatlar uydurur. Xüsusən o, 20 yanvar ərəfəsində televiziyada partlayış ilə bağlı bəd əməllərini sanki unudaraq Azərbaycan xalqının Vəzirov, Mütəllibov, Polyaniçko, Vaqif Hüseynov kimi düşmənləri ilə o vaxtkı məhrəm münasibətlərini ört-basdır etməyə çalışır.

Cidanı çuvalda gizlətmək olmaz. Məsələn, televiziyada partlayış baş verdiyi anlarda Mərkəzi Komitədə oturduğu ehtimal edilən Elşad Quliyev, guya yaxın adamının hüzr məclisində olduğunu deyir. Amma həmin məclisin sahibi və orada iştirak edənlər yanvarın 19-da Elşad Quliyevin bu məclisə, ümumiyyətlə, ayağı dəymədiyini bildirirlər.

**Araz Əliyev:** Rəhmətə gedən qadın Elşad müəllimin bacısı idi, oraya da gəlmədi.

**Jurnalist:** Dəqiq bilirsiniz ki, o, orada olmayıb?

**Araz Əliyev:** Mən orada olmuşam. Yasa da gəlmədi.

**Jurnalist:** 19 yanvar axşamı Elşad Quliyev sizə hüzrə gəlmişdi, yoxsa yox?

**Əhməd Aşurbəyov** (baş redaktor): 1990-cı il yanvarın 19-da Elşad Quliyev bizə gəlməyibdir. Bunu qətiyyətlə deyə bilərəm - o, bizdə olmayıbdır.

**Aparıcı:** Bəs əgər belədirsə, onda Elşad Quliyevin yalanları kimə gərəkdir? Nəyə görə onun özü və himayədarları həqiqətin üzə çıxmasından belə ehtiyatlanırlar? Bəlkə ümumxalq qəzəbindən, bəlkə cəzadan qorxurlar?

Digər tərəfdən, "peşəkaram" deyə vaxtilə sinə-sinə deyən, amma televiziyada mənəviyyatsızlıq mühiti yaradan, ikinci dəfə şirkətə iki aylığa sədr təyin olunarkən əvvəllər törətdiyi əməllərin izini itirmək üçün az qala

bütün arxivləri məhv edən, indi isə yuxarı vəzifələrdəki bəzi himayədarlarına güvənib müxtəlif xəyallara düşən bir adamın, görəsən, bu gün xalqın üzünə baxmağa mənəvi haqqı varmı?

Belə suallar çoxdur və Azərbaycan televiziyası bu suallara kifayət qədər tutarlı dəlillərlə cavab verən xüsusi veriliş hazırlayıbdır. Lakin hüquq mühafizə orqanları 1990-cı ilin yanvarında televiziyadakı partlayışla bağlı geniş istintaq apardıqları üçün bu gün biz istintaq sirlərinə aid olan bir çox mətləbləri açıqlamır və hələlik bu süjetlə kifayətlənirik.

**Nazim Abbas:** Rəhbərlik, sözsüz ki, bunu bilirdi. Buna heç bir şəkk-şübhə ola bilməz. Yəni o adam ki, dedi, çıxın gedin, ona yaxın adamlardan idi. Kim idi, indi yadıma düşmür. Yəni bu adam bilirdi, bəzi adamlara demişdi. Sözsüz ki, bilir di, bəlkə də elə özünün icazəsi ilə etmişdilər

**Azər Zamanlı:** Bu qədər vaxt keçəndən sonra və hörmətli prezidenti mizin verdiyi qərarlardan sonra Qanlı Yanvarla, şəhidlərimizlə bağlı gedən iş axır ki, gəlib haqqa çıxıb. Yəni haqq üzə çıxır.

**"Azərbaycan".** - 2001. – 24 yanvar. - N 18. - S. 3-4.

# 20 YANVAR HADİSƏLƏRİNƏ XARİCDƏN BAXIŞ

**1990-cı ilin Qanlı Yanvarından on bir il keçir. Azərbaycandan kənarda Qanlı Yanvar hadisələrinə münasibət neçə oldu? AzərTAC-ın ABŞ-dakı xüsusi müxbirinin o dövrün mətbuatı və qısa müsahibələr əsasında hazırladığı material bu barədədir.**

**"Nyu-York tayms"** qəzeti (1990-cı il 20 yanvar): "Cənub respublikasından həyəcanlı xəbərlərin gəlməsinə baxmayaraq, Moskvada təşviş hiss olunmur.

Texas ştatını təmsil edən demokrat senator Lloyd Bensten bildirmişdir ki, sovet diplomatı ilə ticarət müzakirələri apararkən, o, üsyançı bölgəni nəzarət altına alacaqlarını və qayda-qanunu bərpa edəcəklərini qətiyyətlə söyləmişdir.

Mixail Qorbaçov televiziya ilə müraciətində Bakıda cinayətkar ekstremistlərin baş qaldırdığını demişdir. Onun sözlərinə görə, hökumət məcburiyyət qarşısında güc tətbiq edir, dövlətin aqibəti və vətəndaşları naminə bütün vasitələrə əl atılacaq: "Bəziləri elə hesab edir ki, məsələlər Kaşpirovskinin seanslarındakı kimi həll olunur, amma cəmiyyət belə asanlıqla müalicə edilmir. Millətlərarası münasibətlərdə gərginliyi aradan qaldırmaq üçün bütün vasitələrə əl atılacaq".

**Svante Kornell** (Uppsala Universitetinin tədqiqatçısı, İsveçrə, 2000-ci il, yanvar); "O dövrdə Azərbaycan haqqında, demək olar ki məlumat yox idi. Onu bilirdik ki, SSSR-nin bir hissəsidir. 90-cı ilin qara Yanvarında baş verənləri sovet totalitar rejiminin xalqı azadlıq uğrunda mübarizədən çəkindirmək məqsədi ilə həyata keçirdiyi daha bir təzyiq kimi qiymətləndirdik. Hadisələrin bu cür inkişafına təəccüblənmirdik, çünki 87-ci və 89-cu illərdə Alma-Ata və Tbilisidə baş verən zorakılıqların siyahısına Bakı da əlavə olundu. Təəssüf ki, məlumat qıtlığı üzündən məsələnin mahiyyətinə çox az adam vardı. İndi tarixi faktlara nəzər yetirəndə bir nəticəyə gəlirəm: ən əhəmiyyətli respublikalardan biri olan Azərbaycanda milli hərəkatın baş qaldırması, Moskvanı SSRİ imperiyasının ömrünün bitməsi həqiqəti ilə üz-üzə qoydu. Qəddar üslublara əl atsalar da, tarixin çərxi-fələyini döndərə bilmədilər".

Amerika qəzetləri yazırdı ki, sovet ictimaiyyətinə həqiqət olduğu kimi çatdırılmır. Xarici müxbirlərin hadisələrin cərəyanından kənarda saxlanılması təhlükəsizlik məqsədləri ilə izah olunurdusa, qaynar nöqtələrə gedən yerli müxbirlər döyülür, təzyiq və təhqirlərə məruz qalırdılar.

**Nyu-York tayms** (1990-cı il, 21 yanvar) "Vremya" proqramının xəbərlər redaktoru iş prosesinin maneələrlə dolu olduğunu bildirir: "Həqiqətləri öyrənməkdə çətinlik çəkirik. Elə bil ki, Azərbaycan yox, Livan və Əfqanıstan haqqında xəbər yayırıq. Televiziya müxbiri çəkdiyi videomaterialları Stepanakertdən Moskvaya ötürə bilmir. Efirə onun səsi və CWS Nyus-dan aldığımız videomateriallarla çıxırıq". CWS-nin Moskva müxbiri məlumatın haradan gəldiyini açıqlamır. Tək onu qeyd edir ki, videomateriallar müxtəlif yollarla - hərdən Londondan, Amerikadan çatır".

Amerika mətbuatı SİTA-nın xəbərlərinə əsaslanaraq materiallar çap edirdi. Lakin Bakıya açılan telefonlar rəsmi xəbərlərin tam əksini təsdiqləyirdi.

Xalq hərəkatı liderlərindən Yusif Səmədoğlu bildirir ki, "Bakıda günahsız insanlara atəş açırlar, qadınları, uşaqları öldürürlər. İmperiya soyqırım siyasətini həyata keçirir..." hadisələri uzaqgörənliklə şərh edən Amerika jurnalisti, CNN kanalının icmalçısı Robert Novak yazırdı: "Ordunu üsyançıların üstünə göndərən Qorbaçov tökülən qan haqqında heç narahat olmur. Məsləhətçisi DTK-nın başçısı Vladimir Kryuçkovdur. ABŞ hökumətinin nümayəndəsi deyir ki, Kryuçkov üsyançıları sakitləşdirməkdə əsl mütəxəssisdir. Belə nəticəyə gəlmək olar ki, azərbaycanlıların qırğına məruz qalması, Baltik respublikalarına xəbərdarlıqdır: baxın, yoxsa sizi də həmin aqibət gözləyir. Zənnimcə, əksinə, Qafqaz böhranının qarşısını Qorbaçovun vaxtında ala bilməməsi, Baltik liderlərinin müstəqillik qazanmaq istiqamətində daha sürətlə addımlayacaqlarına əsas verir".

**Stasis Sakalauskas** (Litvanın ABŞ-dakı səfiri):

"Vilnüsdə baş verənlər dəhşətli hadisələr idi. Bakı qırğınından sonra özümüzə, belə demək olarsa, dərs götürmüşdük. Bakı hadisələri haqqında həqiqətlərin dünyaya çatdırılmasında əsas fərq ondan ibarət idi ki,

Vilnüsdə baş verənləri dünya gördü, eşitdi. Çəkilən videomateriallar hər yerdə nümayiş etdirildi. Bakının Qara Yanvar hadisələri zamanı isə, sovet totalitar rejimi, təəssüf ki, haqq-ədalətin boğulmasına nail oldu".

**Pol Qobl** ("Azadlıq" radiosu informasiya şöbəsinin müdiri):

"Azərbaycan haqqında məlumat qıtlığı üzündən ABŞ məsələyə münasibət bildirməkdə çətinlik çəkirdi. Baş verənlərə qərəzli Rusiya xəbərləri vasitəsilə nəzər salırdıq. Sovet hökuməti zorakılığın ekstremist qüvvələrin sakitləşdirilməsi üçün tətbiq olunduğunu deyirdi. Hər dövlətin bu addımı atmağa hüququ çatdığından, Qərbdə bu fərziyyə qəbul olundu. Çox az adam həqiqəti anladı ki, Mixail Qorbaçov ittifaqı saxlamaq məqsədi ilə hətta zorakılığa da əl atar. O zaman mən Dövlət Departamentində SSRİ-nin qeyri-Rusiya hissəsi üzrə yeganə mütəxəssisi idim. İnanılmaz olsa da, doğrudur".

**"Vaşinqton post"** (1990-cı il 20 Yanvar): Hökumətin yüksək səviyyəli şəxslərindən biri baş verənlərə belə münasibət bildirmişdir: "Qorbaçovun güc tətbiq etməsi nəticə vermədi. O, zorakılığın daha yüksək mərhələsinə əl atdı, lakin bunun da səmərəli olmayacağını düşünürük. Sovet liderinin qayda-qanunu bərpa etmək istəyini anlayırıq, amma oralarda əslində nələrin baş verdiyindən xəbərsizik".

**"Nyu-York tayms"** (1990-cı il, 26 yanvar): "Bu həftə siyasi meydanda yenidən ön plana çıxan Heydər Əliyev Moskvada baş verənlərlə bağlı mülahizələri ilə bölüşərək, Qorbaçovun güc tətbiq etmək qərarını pisləmişdir. Cənab Əliyev bildirmişdir ki, Bakıya silahlı qüvvələrin yeridilməsindən əvvəl yaranan vəziyyət nə yenidənqurmaya, nə də Qorbaçova təhlükə yaradırdı. Bu, son illər inkişaf etmiş xalq hərəkatı idi. Heydər Əliyevin tənqidlə çıxış etməsi istefaya getmiş liderlərin, adətən, susmağa üstünlük verməsi fonunda qeyri-adi görünürdü. Sabiq rəhbər qeyd etmişdir ki, Qorbaçov və onun Kremldəki silahdaşları Xalq Cəbhəsi ilə danışıqlara başlamışdır. "Onlar müzakirəyə lazımi qədər vaxt ayıraraq, vəziyyətin bu dərəcəyə çatdırılmasına yol verməməli idilər. Etnik siyasətdə ciddi səhvlərə yol verilib. Qarətlərdən danışırsınızsa, bu, iki il əvvəl erməni ekstremistləri tərəfindən Dağlıq Qarabağda azərbaycanlıların öldürülməsi və onların yurd-yuvalarından didərgin salınması ilə başlayıb". Qeyd etmək lazımdır ki, Heydər Əliyev Siyasi Büroda olduğu müddətdə heç də Qorbaçovu dəstəkləyənlər sırasına daxil deyildi. Sabiq Siyasi Büro üzvünü nəzərləri ilə yola salan bir cavan oğlan müxbirin sualına belə cavab verir: "Əliyev? Sizə deyim ki, mən Ermənistanda yaşayanda onun haqqında tənqidlə yazırdılar, demək o, düzgün addımlar atırdı". Korrupsiyaya qarşı apardığı mübarizə ilə tanınan cənab Əliyev iki ildir siyasi aləmdən təcrid olunduğunu bildirir. O deyir ki, bu müddət ərzində nə Moskvadan, nə də Azərbaycandan heç kim Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ondan heç bir məsləhət almayıbdır. Sovet lideri deyir ki, o, Azərbaycandakı vəziyyəti hamıdan yaxşı bilib və bilir".

**Şəfəq AKİFQIZI,**
AzərTAç-ın xüsusi müxbiri Vaşinqton

**"Azərbaycan".** - 2001. – 23 yanvar. - N 17. - S. 4.

## Qanlı Yanvar - 1990

**Qanlı Yanvar hadisələrinin 11-ci ildönümü ilə əlaqədar respublika televiziyasının hazırladığı və yanvarın 19-da efirə keçmiş növbəti verilişin mətnini oxuculara təqdim edirik.**

**APARICI:** 20 Yanvar faciəsinin baş verdiyi vaxtdan bizi zaman fasiləsi nə qədər uzaqlaşdırırsa, hadisələrin inkişafı, səbəbləri və günahkarları barədə daha obyektiv, daha əhatəli və olduğu kimi fikir söyləməyə şərait yaranır. 11 illik zaman fasiləsi bu gün imkan verir ki, tariximizin ön faciəli və eyni zamanda ən şərəfli səhifələrindən biri olan 20 Yanvar barədə obyektiv fikir söyləyəsən.

20 Yanvar hadisələrinin baş vermə səbəbləri xalqımızın azadlıq, istiqlaliyyət arzusunun doğulduğu və imperiyaya qarşı nifrətin yarandığı gündən başlayır. Zaman-zaman azadlıq arzusunu reallaşdıra bilməyən xalqımız nəhayət, 1980-ci illərin axırında son və qəti mübarizəyə başladı. Ortaya atılan Qarabağ kartı fikirləri bir qədər haçadandırsa da, 1990-cı ilin ilk günlərindən xalqımız qəti şəkildə açıq siyasi mübarizəyə qalxdı.

**Nadir ƏSƏDOV** (Səttərxan adına zavodun işçisi): 20 Yanvar hadisələri həqiqətən də xalqımızın tarixinə qanlı bir səhifə kimi daxil olmuşdur. Mən o illəri çox gözəl xatırlayıram. Torpaqlarımızı ələ keçirmək istəyən erməni millətçiləri fürsətdən istifadə edib yenidən baş qaldırmışdılar. Buna etiraz əlaməti olaraq, xalqımız ayağa qalxmışdı və Səttərxan adına zavodun işçiləri də, həmişə olduğu kimi, öndə gedirdilər. Xalqımız əl-ələ verərək küçələrə çıxmışdı ki, sovet ordusu Bakıya gəlməsin, hər şey qansız-qadasız olsun. Lakin buna baxmayaraq, Qorbaçovun qərarı ilə sovet ordusu Bakıya yeridildi. O vaxt respublikada hakimiyyətdə olan Ayaz Mütəllibov və onun ətrafındakılar mərkəzin siyasətinə rəvac verdilər və birlikdə bu qanlı faciəni törətdilər.

Birinci günahkar Sovet İttifaqı Kommunist Partiyası və onun lideri Mixail Qorbaçovdur. Mən Ayaz Mütəllibovu, Vaqif Hüseynovu və başqalarını da əsas günahkarlardan hesab edirəm. Gərək onlar, Gürcüstanda olduğu kimi, həmin dəqiqə istefa verəydilər ki, xalqla birlikdədirlər. Onlar da bu addımı ata, mərkəzin niyyətini xalqa vaxtında çatdıra bilərdilər. Bununla da belə qırğın olmaya bilərdi.

**Naqif HƏMZƏYEV** (BDU-nun tələbəsi): 1988-89-cu illərdə Azərbaycan xalqının azadlıq uğrunda apardığı mübarizə sovet imperiyasının başçılarını çox narahat edirdi. Məhz həmin illərdə Yaponiyada aparılmış sorğu nəticəsində Azərbaycan xalqı ən qəhrəman, vətənpərvər xalq hesab olunmuşdu. Bu da imperiya xadimlərini çox narahat edirdi. Onlar nə yolla olursa-olsun, Azərbaycan xalqının azadlıq mübarizəsinin qarşısını almaq istəyirdilər. Bu məqsədlə də 1990-cı il 20 Yanvar faciəsini törətdilər.

Sovet rəhbərliyi öz niyyətini ört-basdır etmək istəyirdi və 1990-cı ilin yanvarın 19-da SSRİ Ali Sovetinin Rəyasət Heyəti tərəfindən Azərbaycanda fövqəladə vəziyyət elan olunması barədə qərar verdi. Lakin bunun tətbiq vaxtı elan edilmədi. Əgər bu vaxt elan edilsəydi, bu çirkin plan pozulmuş olardı. Xalqa məlumat verilməsin deyə, yanvarın 19-da saat 19.30 radələrində Azərbaycan televiziyasının enerji bloku partladıldı və bundan saat yarım sonra çirkin plan həyata keçirildi. Lakin onlar bunu həyata keçirsələr də, öz istəklərinə nail ola bilmədilər. Azərbaycan xalqı imperiyanın iç üzünü bir daha gördü.

**Fərman HƏTƏMOV** (BDU-nun tələbəsi): Sapı özümüzdən olan baltalar həmişə özümüzə dəyibdir. O dövrdə, imperiya dövründə respublikamızda hakimiyyəti, dövləti idarə edənlər mərkəzin çaldığı havaya oynayırdılar.

Ağacı içindən qurd yeyər. Xalqın, ölkənin taleyinə laqeyd yanaşan Əbdürrəhman Vəzirovun, Ayaz Mütəllibovun səriştəsiz hakimiyyəti dövründə xalqımızın başına faciə gəldi. Xalqımızın milli müstəqillik uğrunda mübarizəyə qalxdığı vaxtda onlar xalqı dəstəkləmək əvəzinə, camaatı susdurmağa çalışırdılar və buna nail olmaq üçün imperiya qoşunlarından istifadə etdilər. Amma xalqı yenə də susdura bilmədilər. Şəhid olanlar müstəqilliyimiz, azadlığımız uğrunda ilk addımları atdılar. Biz bu gün məhz onların sayəsində azad, müstəqil yaşayır, rahat nəfəs ala bilirik.

**APARICI:** Qəlblərdə şölələnən azadlıq arzusu adamları küçələrə tökmüşdü. Şimaldan əsən soyuq küləklər gecə yarısı adamları nə üşüdürdü, nə də qorxudurdu. İnsanlardakı bu mübariz əhval-ruhiyyəni görən imperiya başçıları və onların Bakıdakı əlaltıları xalqa qarşı iyrənc bir vasitəyə əl atdılar. Yanvar ayının

əvvəllərindən başlayaraq, Bakıya müxtəlif növ hərbi birləşmələr gətirildi. Baxmayaraq ki, həmin vaxt Bakıdakı sabitliyi qorumaq iqtidarında olan yerli qüvvələr var idi. Lakin Bakıda qırğın törətməklə Moskva təkcə Azərbaycanı yox, SSRİ məkanında yaşayan və azadlıq uğrunda mübarizəyə başlamış bütün millətlərə sanki dərs vermək fikrində idi və bu çirkin işdə milli təəssübkeşlikdən, milli maraqlardan çox-çox uzaq adamlar da buyruq quluna çevrilmişdilər.

**Ramil RÜSTƏMOV** (Azərbaycan Texniki Universitetinin magistri): 20 Yanvar Azərbaycan xalqının böyük faciəsidir. Azərbaycanda hakimiyyət uğrunda mübarizə aparan Ayaz Mütəllibov və digər vəzifə hərisləri xal-qımızın haqqın, ədalətin bərpa olunması, azad, müstəqil yaşaması uğrunda qaldırdığı səsi boğmaqda imperiYanın əlaltılarına çevrildilər. SSRİ-nin rəhbərliyinin bundan istifadə edərək, onlar sovet qoşunlarının xüsusi dəstələrini fövqəladə vəziyyət elan etmədən Azərbaycana yeritməsi qanlı qırğınla nəticələndi.

Mən bunu sovet totalitar rejiminin Azərbaycana qarşı törətdiyi cinayət kimi qiymətləndirirəm. Lakin Azərbaycanın o vaxtkı rəhbərləri bu faciəyə siyasi-hüquqi qiymət vermədilər. Yəni istər Ayaz Mütəllibovun vaxtında, istərsə də AXC hakimiyyəti zamanı bu təcavüz aktı öz qiymətini almamışdır. Mütəllibov hətta şəhidlərimizin dəfn mərasiminə də getməmişdir. Bu da onun xalqın taleyinə biganə olduğunu bir daha göstərir.

Bir gənc kimi mən bu faciənin baş vermə səbəbləri ilə maraqlanıram. O vaxtkı hərəkatın liderlərini qeyd etmək olmaz. Onlar öz hakimiyyət ambisiyaları üçün xalqdan istifadə edirdilər.

İndi də Müsavat Partiyası Mütəllibovla barışıq elan edir və Rasim Musabəyov barışıq məsələsini öz üzərinə götürür - Rasim Musabəyovun müsavatçı olduğu hamıya məlumdur.

**Rafiq SƏFƏROV** (Azərbaycan Texniki Universiteti Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri): Xalqımız 20 Yanvar faciəsinin 11-ci ildönümünü böyük kədər hissi ilə qeyd edir. 80-ci illərin sonu - 90-cı illərin əvvəlində sovet imperiyası son günlərini yaşayırdı. Milli respublikalarda azadlıq hərəkatı başlanmışdı. Bunlardan ən önəmlisi Azərbaycandakı xalq hərəkatı idi. Sovet rəhbərliyi bu hərəkatı yatırtmaq üçün planlar işləyib hazırlayırdı. Bakı şəhərində süni surətdə münaqişələr törədilir və Moskvaya müraciətlər olunurdu ki, buraya qoşun yeridilsin.

Bilirsiniz ki, ölkənin hər bir vətəndaşının taleyi üçün onun rəhbəri məsuliyyət daşıyır. Lakin, əfsuslar olsun ki, Azərbaycanda böyük bir faciənin gözlənildiyini bilən o vaxtkı respublika rəhbərliyi, başda Vəzirov olmaqla, heç bir tədbir görmədi. Faciəyə bir neçə gün qalmış Vəzirov Moskvaya qaçdı. Bu, məsələnin birinci tərəfi.

İkincisi, bu faciənin törədilməsində maraqlı olan tərəflər var idi. Bakıda böyük qanlar törədilmişdi, sovet tankları şəhərimizin küçələri ilə irəliləyirdi, Azərbaycanın yuxarı dairələrində isə hakimiyyət bölüşdürülürdü.

Həm Ayaz Mütəllibovun hakimiyyəti dövründə, həm AXC-Müsavat hakimiyyəti dövründə bu faciəyə biganə münasibət bəsləniildi, heç bir münasibət bildirilmədi. Ona görə də onlar bu gün heç bir üzlə xalqın arasına çıxa bilməzlər. Necə ola bilər ki, bu faciənin törədilməsindən sonra prezident olmuş və Azərbaycana rəhbərlik etməyə başlamış bir şəxs və sonradan onu hakimiyyətdən salanlar indi barışıq elan edirlər? Bütün bu proseslər xalqın gözü qarşısında gedir. Ona görə də hesab edirəm ki, artıq bugünkü gənclik əz tarixini kifayət qədər bilir. Onların hamısı Azərbaycanın keçmişində qalmış insanlardılar.

**Yaqub MAHMUDOV** (BDU-nun professoru, Milli Məclisin deputatı): 20 Yanvar faciəsi kimi hadisələr dünya xalqlarının tarixində çox nadir olubdur. Onlardan biri də bizim xalqımızın tarixinə, bizim taleyimizə düşübdür. Biz bu günlə qürur hissi keçirməliyik ki, Azərbaycan xalqı əsrlər boyu yaşatdığı mübarizə ruhunu 20 Yanvarda bir daha nümayiş etdirdi.

20 Yanvarda çatışmayan nə idi? Rəhbərin qeyrəti, qətiyyəti. Azərbaycana o zaman rəhbərlik edən Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov meydandakı yüz minlərlə azərbaycanlı övladları, vətən oğulları ilə birləşsəydilər, bu müsibət olmazdı. Bu baxımdan gələcəkdə Azərbaycanı idarə edənlər 20 Yanvardan dərs almalıdırlar. 20 Yanvar Azərbaycan xalqının başına gəlməyə bilərdi. Necə oldu ki, Litvada az qırğın oldu? Necə oldu, Orta Asiyada bu cür qırğınlar baş vermədi? Ona görə ki, onların rəhbərlərinin hamısı xalqla birləşməyi bacardılar, xalqlarını müdafiə etdilər, müstəqillik bəyannaməsini vaxtında verdilər və xalqla bir yerdə

olduqlarını nümayiş etdirdilər. Bizimkilər isə... SSRİ dağılıb qurtarmışdı, amma burada SSRİ-ni saxlamaq üçün planlar cızılırdı, imperiyanı dirçəltməkdən ötrü işlər görülürdü. Yəni o zaman bizim başımıza gələn fəlakətin kökləri Azərbaycan rəhbərliyinin yerində olmaması idi.

Yanvarın 13-də radio dalğaları ilə məlumat gəldi ki Stavropolda, Krasnodarda, yəni Şimali Qafqazda ermənilər ha rada məskən salıblarsa, orada ehtiyatda olan əsgərləri, zabitləri Bakıya gətirmək üçün toplayırlar. Bu, köhnə üsullar idi. XIX əsrin əvvəllərindən başlayaraq azərbaycanlıları qırmaq istəyəndə həmişə ermənilərin zabitlərini, generallarını və s. səfərbərliyə alıblar. Aydındır ki, buraya gələn başkəsənlərin xeylisi ermənilər idi. Belə bir vəziyyətdə xalqı tankların qabağına vermək düz idimi? Düz deyildi! Xalqa yalandan rəhbərlik edən, özünü populist xalqçı, xalq rəhbəri kimi göstərən cəbhə xadimlərinin hamısı, bilə-bilə ki, camaata divan tutulacaq, xalqı irəli verib, özləri qaçıb gizləndilər. Birinin də burnu qanamadı. Məqsəd hakimiyyət davası idi.

Xalq Qarabağ üçün, dövlət müstəqilliyi, azadlıq üçün ayağa qalxmışdı. Ermənilər bizim torpaqlarımızı ələ keçirməkdən ötrü bütün dəqiqliyi ilə, taktiki gedişlərlə, addım-addım planlarını həyata keçirirdilər. Bizimkilər isə, torpağı qorumaq əvəzinə, hakimiyyət üstündə çəkişirdilər - bir tərəfdə Mərkəzi Komitə, digər tərəfdə də Xalq Cəbhəsinin başçıları. Yəni hakimiyyət davası gedirdi, torpaq unudulmuşdu. Bunu etiraf etmək lazımdır. Biz bu gün bunu etiraf etməsək də, tarix etiraf edəcəkdir.

**APARICI:** 1990-cı il yanvarın 19-da sovet ordusunun və erməni silahlı dəstələrinin birləşmiş qüvvələri Naxçıvana hücum etdilər. Bakı bundan xəbərsiz idi. Sovet ordusu ilk qanı Naxçıvanda tökdü. Azadlıq uğrunda ilk şəhidlər Naxçıvanda oldu. Sovet imperiyası boz üzünü göstərdi. Azadlıq istəyən xalqın gözünə mil çəkmək istədi. Lakin Naxçıvanda xalqın əzmini, iradəsini qıra bilmədilər. Necə ki, Bakıda azadlıq alovunu söndürə bilmədilər.

**Vəli QULİYEV** (BDU-nun əməkdaşı): Yanvarın 19-da təxminən saat 1-2 radələri idi. Hamımız rayon mərkəzində idik. Xəbər gəldi ki, ermənilər Sədərəyə hücum ediblər. Hamı kimi, biz də silaha sarılıb Sədərəyə getdik. Axşam bildik ki, Naxçıvana heç bir yerdən telefon, maşın əlaqəsi yoxdur. Ermənilərə qarşı vuruşduq. Bizimlə birlikdə vuruşanlar arasında sonralar Azərbaycanın birinci Milli Qəhrəmanı adı verilmiş Seyidov da var idi. Allah rəhmət eləsin, o, gözümüzün önündə şəhid oldu.

O vaxt Ermənistandan bizim rayona qaçqınlar gəlmişdi, bir-iki aydan sonra Bakıya getməli oldular. Mərkəzi Komitənin birinci katibi Vəzirov onları Bakıya qoymurdu. Əgər Vəzirov onları o vaxt Qarabağda yerləşdirsəydi, bu hadisələr başımıza gəlməzdi, Qarabağ əlimizdən getməzdi. Vəzirov, Mütəllibov kimiləri bizi bu günə saldılar. Torpaqlarımızın 20 faizi erməni qəsbkarlarının əlindədir. Bir milyon insan çətin vəziyyətdə, çoxu çadırlarda yaşayır.

**Ədib KAZIMOV** (BDU-nun əməkdaşı): Müharibə başlanmazdan əvvəl bütün silahlar yığıldı. Hətta məktəblərdə öyrətmək üçün verilmiş silahları, ov tüfənglərini də yığdılar. Az müddət keçəndən sonra ermənilər Naxçıvana hücum etdilər. Sovet əsgərlərindən, zabitlərindən əldə etdiyimiz bir neçə silahla ermənilərin qarşısına çıxdıq. Biz öz pulumuzla patron alıb vuruşurduq və ermənilərin qarşısını aldıq.

Ermənistan tərəfdən gələn zabitlərin dediyinə görə, yanvarın 19-da 96 erməni məhv edilmişdi. Gecə saat bir radələrində rus ordusu Ermənistan tərəfdən araya girdi.

Sonra eşitdik ki, Bakıya sovet ordusu girib və Azərbaycanın döyünən ürəyini işğal edib, xalqın qanını töküblər, mənfur rəhbərlərin iyrənc siyasəti, vəzifə kürsüsü uğrunda mübarizə nəticəsində oğullarımız şəhid oldular. Vəzirov, Mütəllibov kimilərinə azərbaycanlı demək olmaz. Onlar milləti bu günə qoydular, qanını axıtdılar.

**APARICI:** Yanvar ayının əvvəllərindən başlayaraq, Azərbaycandan, xüsusilə Bakıdan Vəzirovun, Mütəllibovun göstərişi ilə Moskvaya bir-birinin ardınca teleqramlar göndərilirdi. Guya Bakı idarə olunmaz vəziyyətə gətirilib, ayrı-ayrı xalqların nümayəndələri incidilir, təhqir olunur. Bu niyyətin reallaşmasında Polyaniçko dərnəyinin və "Gənc tarixçilər klubunun" üzvləri də çox fəal idilər. Məhz bu adamların bilavasitə təhriki ilə yanvarın 13-dən erməni talanları başlandı.

Yanvarın 15-də Dağlıq Qarabağda və ətraf rayonlarda tətbiq edilmiş fövqəladə vəziyyətin Bakıya gətirilməsi üçün şərait yaradılırdı. Çox təəssüf ki, indi özlərini ana müxalifət adlandıran bir çox adamlar Səttərxan adına zavodda oturub göstərişlər verirdilər.

**Valeh MUXTAROV** (Səttərxan adına zavodun işçisi): Bizim zavodun əməkçiləri respublikada gedən ictimai-siyasi hadisələrin həmişə önündə olmuşlar.

1990-cı il yanvarın ortalarından tutmuş 20-nə qədər respublikada vəziyyət gərgin idi. Xalq Cəbhəsinin o vaxtkı rəhbərliyi bizim zavodda fəaliyyət göstərirdi. Onlar xalqı bu hadisələrə hazırlamaq, küçələrə çıxmağa sövq etmək, əliyalın camaatı sovet ordusuna qarşı küçələrə tökmək fikrində idilər. O vaxt bütün zavodların işçilərini də bu işə cəlb etmək istəyirdilər. Xalq Cəbhəsinin başçıları gəlib deyirdilər ki, bütün zavodlar mübarizəyə başlayıblar, amma siz gecikirsiniz.

Zavodumuzun mədəniyyət sarayında Milli Müdafiə Şurası yaradılmışdı. Onlara yuxarı orqanlardan dəstək verənlər var idi. O vaxt xalq hərəkətə gəlmişdi, coşurdu və Xalq Cəbhəsinin rəhbərləri bundan istifadə etdilər. Zavodumuzun əməkdaşları bu mübarizədə çox fəal olduqlarına görə Milli Müdafiə Şurasını bizim mədəniyyət sarayında yaratmışdılar. Çox adamlar gəlib gedirdi. Hamıda maraq var idi ki, bunun axırı necə olacaqdır.

Bilirsiniz, respublikanın o vaxtkı rəhbərliyinin zəifliyi, xalqa biganə qalması, bu işlərə rəhbərlik etməməsi belə imkan yaratdı. Xalq gözləyirdi ki, onu hansı yola çıxaracaqlar. Sözsüz ki, o vaxt hakimiyyətdə olan şəxslər fəallıq göstərsəydilər, 20 Yanvar hadisəsi baş verməzdi.

Məsələn, o vaxt çağırışlar edirdilər ki, Səttərxan adına zavodda silah-sursat istehsal olunur. Bunlar hamısı yalan idi. Sadəcə, xalqı aldatmaq, qızışdırmaq məqsədi daşıyırdı. Mən uzun illərdir zavodda işləyirəm, burada heç bir silah istehsalı olmayıbdır. Camaatı öz tərəflərinə çəkmək üçün bunu edirdilər. Əliyalın camaatın başqa imkanı yox idi. Ümidsizliyə qapılmış xalq ölkə rəhbərliyindən həlledici addımlar gözləyirdi. Bunlar olmadığına görə, xalq çarəsiz qaldı.

Bu gün hamımızın nifrəti o vaxt xalqı küçələrə çıxmağa sövq edən Xalq Cəbhəsinin rəhbərlərinədir. 20 Yanvar hadisəsində qadın, qoca, uşaq, vətən eşqi ilə yaşayan cavanlarımız məhv oldu. Onlar hesab etmirdilər ki, sovet hərb maşını bunları əzib keçə bilər. Eyni zamanda mənim nifrətim Vəzirov kimi şəxslərə və o vaxt onun ətrafına yığışmış şəxslərədir.

**Murad SADIXLI** (Azərbaycan Texniki Universitetinin tələbəsi): Xalqımızın müstəqillik uğrunda mübarizəsindən qorxuya düşən imperiya qüvvələri güc tətbiq etməklə adamların iradəsini qırmaq istədilər. Lakin onlar nəzərə almadılar ki, zor, güc tətbiq etməklə Azərbaycan xalqının iradəsini sarsıtmaq, yolundan döndərmək mümkün deyildir. Həmin vaxt Azərbaycanın iqtidarı xalqın yox, imperiyanın tərəfində durdu. Onlar bilirdilər ki, faciə baş verəcəkdir. Ona görə də günahsız uşaqların, anaların, cavanların ölümünün qarşısını ala bilərdilər. Lakin bunu etmədilər, imperiyanın tərəfində durdular, şəhidlərin dəfn mərasiminə də gəlmədilər. Ancaq keçmiş SSRİ rəhbərliyi və onların respublikamızdakı nökərləri əliyalın xalqımızı qanına qəltan etsələr də, çirkin niyyətlərinə nail ola bilmədilər.

**Azadə Taleh ABBASQIZI** (həkim-jurnalist): Mən Birləşmiş şəhər xəstəxanasında işdən çıxıb evə getməli idim. Baş həkimin xahişi və təkidi ilə növbədə qalmalı oldum. O vaxt oğlum da yanımda idi. Növbədə qaldığım üç günü acı kədərlə xatırlayıram. Çünki yanvarın 19-dan 20-nə keçən gecəki atışma səsləri hələ də qulağımdan getmir. Yaralıları bizim xəstəxanaya gətirirdilər. Belə dəhşətli faciəni heç vaxt görməmişəm. Günahsız insanlar tələf olurdular.

Bu gün bəzi adamlar utanmadan özlərini günahsız sayırlar. Belə adamlara nifrət edirəm. Çünki onların günahı ucbatından bu məzarlar yaranıbdır.

**Vəkil HACILI** (ziyalı): Xalq azad, müstəqil, sərbəst yaşamaq istəyirdi. İmperiyanın dağılmağını görən bütün xalqlar mübarizəyə qalxdılar.

O vaxt çətin dövr idi. Azadlıq mübarizəmizi Qarabağ məsələsi mürəkkəbləşdirirdi. Bunu da ortaya atan məlum düşmənlərimiz idi. Xalq hərəkatında milli birlik, rəhbərliyin xalqla birliyi olmadı. Bu, olmadı və məlum faciə baş verdi. Halbuki, bunun qarşısını almaq mümkün idi.

**APARICI:** Müdafiə Komitəsi deyilən qurum o vaxt Moskvanın bilavasitə göstərişi ilə hökumət telefonu, maşınla və digər zəruri avadanlıqla təmin edilmişdi. Məhz bu adamların şəxsi maraqları hesabına Moskvanın ssenarisinin reallaşması üçün olduqca münbit şərait yaradıldı. Çünki Müdafiə Komitəsinin üzvləri çox yaxşı bilirdilər ki, Bakıda baş verən hər hansı bir qanlı olaydan sonra paytaxtdakı vəzifə kürsüləri bölüşdürüləcəkdi. Bu pay bölgüsündə təbii ki, Müdafiə Komitəsinin pərəstiş etdiyi adamlar da iştirak edirdi. O vaxt özlərini hərəkatın lideri adlandıran adamlar baş verən hadisələrin sonluğunu çox aydın hiss edirdilər.

Moskvadan gəlmiş Girenko, Primakov və başqaları ilə mütəmadi görüşlər keçirən Etibar Məmmədov, Rəhim Qazıyev, İsa Qəmbərov, Nemət Pənahov və digərləri bilirdilər ki, Bakıda qan töküləcəkdir. Lakin bununla belə, onlar yanvarın 17-18-də xalqı küçələrə çağırır, heç bir təxribatın olmayacağını söyləyirdilər. Həmin vaxt Vəzirov, Mütəllibov, Hüseynov və Daşdəmirovun mövqeyindən çıxış edən bu adamlar təbii ki, xalqa yaxşı heç nə vəd edə bilməzdilər. Bu gün bütün hay-küylərə baxmayaraq, 20 Yanvar faciəsində onların adı tarixin yaddaşına Qorbaçovla, Mütəllibovla, Vəzirovla birgə yazılıbdır. Bu ləkə, bu yazı isə təbii ki, onların ömürlərindən uzun olan və gələcək nəsillərə çatacaq ən ağrılı və dəhşətli bir mühakimədir.

**Soltan SOLTANOV** (Səttarxan adına zavodun Veteranlar Şurasının sədri): Yanvar hadisəsi xalqımız üçün çox dəhşətli bir hadisədir. Mən onu törədənləri lənətləyirəm. Günahkarlar keçmiş Sov.İKP Mərkəzi Komitəsinin baş katibi Qorbaçov, müdafiə naziri Yazov və Mərkəzi Komitənin katibi Primakovdur. Respublikamızda isə əsas günahkarlar Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov və başqalarıdır. Onlar belə bir dəhşətli hadisə törətmişlər. Onsuz da hərə öz payını alacaqdır.

Yanvar hadisələrindən 11 il keçir. Bu faciə çox ailələrə müsibət gətirmişdir, şəhidlər vermişik. Bunu törə-dənləri bir daha lənətləyirəm. Allah onların cəzasını versin.

**Mustafa HƏSƏNOV** (Səttarxan adına zavodun işçisi): Həmin dövrdə hakimiyyətdə olan adamlar nüfuzlarını tamamilə itirmişdilər. İkinci qüvvə - bu məqamdan istifadə edib hakimiyyətə gəlmək istəyən adamlar var idi. Əgər yadınızdadırsa, 20 Yanvar hadisəsi baş verəndən sonra "Kommunist" qəzetinin bir səhifəsində şəhidlərin dəfn mərasimi barədə yazı, o biri səhifəsində Ayaz Mütəllibovun Mərkəzi Komitənin birinci katib seçilməsi ilə əlaqədar böyük şəkli verilmişdi. Bilirsiniz, bu işləri elə tələsik etmişdilər, sanki faciə olmamışdı.

Yadınızdadırsa, o dövrdə televiziyanın enerji bloku partladılmazdan bir az əvvəl qoşunların Bakıya girməyəcəyi haqqında məlumat verilmişdi. Bütün günahlar həmin dövrdə hakimiyyətdə olan rəhbərin üzərinə düşür. Yanvar faciəsi xalqı qorxutmaq üçün törədildi və nəticədə oğul və qızlarımız şəhid oldular. Lakin onlar öz şəhidlikləri ilə xal-qın qəhrəmanlıq salnaməsinə adlarını qızıl hərflərlə yazdılar.

**Ceyhun PAŞAYEV** (BDU-nun tələbəsi): Xalqımızın qəhrəman övladları şəhidlikləri ilə göstərdilər ki, biz əsarət altında yaşamaq istəmirik. Onlar azadlıq uğrunda qur-ban getdilər. Şəxsən Ayaz Mütəllibova və xalqı meydanlara çıxarıb özləri isə qaçıb gizlənən adamlara nifrət edirəm.

**Vilayət QULİYEV** (Kooperasiya İnstitutunun professoru): Azərbaycan xalqı sovet totalitar rejimindən boğaza yığılmışdı. Eyni zamanda respublikaya rəhbərlik edənlər Moskvanın hər bir cinayətkar göstərişinə gözüyumulu əməl edən şəxslər idi. Mərkəz artıq hiss edirdi ki, Azərbaycanda azadlıq mübarizəsi güclənir. Buna görə də Azərbaycan xalqını dizi üstə çökdürmək istəyirdi. Hələ yanvarın 20-nə respublikada bir sıra təxribatlar törədildi. Bütün bunları əsas götürərək, imperiya Azərbaycana ermənilərin də səfərbərliyə alındığı qoşun yeritdi. Bu qoşunun gəlməsinə də Əbdürrəhman Vəzirov kimi bambılı bir şəxs razılıq verdi.

Bir tərəfdən imperiya öz çirkin niyyətini həyata keçirirdi. Digər tərəfdən isə, o vaxt Müdafiə Komitəsi yaradılmışdı, onun beş üzvü var idi. İndi onların hamısı müxalifətdədir. Guya xalqın mənafeyini müdafiə edirlər. Elə onların özləri o vaxt xalqı küçələrə çıxardılar, bu bəlaya düçar etdilər. Hətta maşınla gəzib hamıya xəbərdarlıq edirdilər ki, dağılmayın, sizə silah-sursat gələcəkdir. Onlar siyasi cəhətdən cılız şüarlarla xalqı qırğına verdilər. İsa Qəmbəri Primakov müdafiə edirdi. Özü də xüsusilə müdafiə edirdi və deyirdi ki, Azərbaycanın hamısı həbsə düşsə də, İsa Qəmbər həbsə düşməməlidir.

**“Azərbaycan”.** - 2001. – 23, 24 yanvar. - N 17, 18. - S. 4, 3.

## Qanlı Yanvar - 1990

**Keçmiş sovet imperiyası rəhbərliyinin 1990-cı il yanvarın 20-də Azərbaycanda törətdiyi qanlı faciədən on bir il keçir. Bununla əlaqədar respublika Dövlət Televiziyası xüsusi verilişlər hazırlamışdır. İctimaiyyətin marağını nəzərə alaraq, yanvarın 18-də efirə getmiş birinci verilişin mətnini oxuculara təqdim edirik.**

**Aparıcı:** 1988-ci ilin əvvəllərində Dağlıq Qarabağda erməni separatçılarının baş qaldırması və vilayətin azərbaycanlı əhalisinə qarşı başlanan təzyiq və təhdidlər respublikamızda ictimai-siyasi vəziyyəti gərginləşdirdi.

1987-ci ildə akademik Aqanbeqyan Parisdə "Humanite" qəzetinə müsahibəsində demişdi ki, Qorbaçov Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsinə razılıq vermişdir.

1988-ci ilin fevralından Stepanakertdə Yerevandan gəlmiş daşnak emissarların təhriki ilə separatçı çıxışlar başlandı. Erməni millətçiləri hadisələri gərginləşdirmək və öz məkrli planlarını həyata keçirmək üçün 1988-ci ilin fevralında Sumqayıt hadisələrini törətdilər. Ermənilərin respublikamıza və millətimizə qarşı şər, böhtan dolu təbliğat maşını bütün gücü ilə işə düşdü. Mərkəzi mətbuat da bu şər kampaniyasına, erməni daşnaklarına dəstək verirdi. Rəsmi Moskva Stepanakertdə baş verən qanuna-zidd çıxışlara göz yumurdu. Çünki Qorbaçovu əhatə edən və bu separatizmə rəvac verənlər elə Moskvada oturmuşdular. Şahnazarov, Sitaryan, Aqanbeqyan kimi millətçilik azarına tutulmuş daşnaklar Qarabağ problemini daha da qızışdırmağa çalışırdılar.

1988-ci il iyunun 18-də Ermənistan Ali Soveti Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi barədə qərar qəbul etdi. Əslində, Moskvaya arxalanan erməni daşnaklarının Azərbaycana qarşı meydan oxuması, hadisələrin qızışdırılmasına yönəldilən bu qərar Azərbaycanda böyük qəzəb və nifrət dalğası yaratdı.

**Məmməd Əlizadə** (Demokratik Azərbaycan Dünyası Partiyasının sədri): 1920-ci ildə Qızıl Ordunun işğalı nəticəsində Xalq Cümhuriyyətinin süqut etməsi, sonrakı dövrdə zaman-zaman Azərbaycanın başına gətirilən bəlalar insanlarda bolşevik-kommunist rejiminə qarşı nifrət yaratmış, onlar müstəqillik, azadlıq eşqini daim qəlblərində yaşatmışdılar. Topxanada bir neçə ağacın qırılması ilə insanların meydanlara çıxması imperiyaya nifrətin, onun ermənipərəst mövqeyinə etirazın ifadəsi idi.

1988-ci ilin noyabr-dekabr hadisələri hamı kimi, təbii ki, ziyalıları da meydana aparıb çıxarmışdı. Biz bu hərəkata şüurlu surətdə qoşulmuşduq. Dərk edirdik ki, başlanmış yenidənqurma prosesi bütün ölkə üzrə getdiyindən, Azərbaycan da bu fürsətdən istifadə edib öz müstəqilliyinə nail olmalıdır.

Belə bir fikir var ki, Azərbaycan ümumən, ölkənin dağılması nəticəsində müstəqillik əldə etmişdir. Bu, həqiqətdir, faktdır.

Bəli, SSRİ dağılmaq üzrə idi. Sovet imperiyasının dağılmasında maraqlı olan fövqəldövlətlər var idi. Bu dağılma prosesində Azərbaycan çox fəal rol oynadı. Təəssüflər olsun ki, o dövrdə Vəzirovun rəhbərlik etdiyi Mərkəzi Komitə əks-təbliğat aparırdı ki, bu, bir qrup insanın iddiasıdır, bütöv Azərbaycanın istəyi deyildir. Xüsusən bildirirdilər ki, bu, naxçıvanlıların etiraz aksiyalarıdır. Həmin dövrdə mətbuat aclıq elan edənlər barədə çox yazırdı. Aclıq elan edənlərin biri Lənkərandan, digəri Kəlbəcərdən, o biri Füzulidən, bir başqası Naxçıvandan, Bakıdan idi və beləliklə, aclıq aksiyası keçirənlər bütün Azərbaycanı təmsil edirdilər.

1988-ci il noyabrın 17-də başlayan mitinq ayın 25-də özünün kulminasiya nöqtəsinə, xalq hərəkatı səviyyəsinə çatmışdı. Artıq imperiya qorxu içərisində idi. Rusdilli əhaliyə, Ermənistandan didərgin salınmış insanlara qarşı cürbəcür təxribatların törədilməsi, rayonlu-bakılı məsələsinin ortaya atılması düşünülmüş ssenaridən xəbər verirdi.

**Mənsur Əlisoy** (tarix elmləri namizədi): 1987-ci il-də aqanbeqyanların Parisə səfəri və vətənimizin torpaqları haqqında iddiaları, Şərqin, müsəlman aləminin Kremldə sonuncu nümayəndəsi olan Heydər Əliyevin oradan uzaqlaşdırılması bütün qapıları ermənilərin üzünə açdı. Sovet İttifaqı Kommunist Partiyasına və sovet dövlətinə açıq xəyanət siyasətinin əsası qoyuldu. Deməli, Sov.İKP MK Siyasi Bürosunun üzvünü vəzifədən azad etdikdən sonra qorbaçovlar üçün geniş imkanlar, onların ətrafına toplaşan ermənilərə meydan açıldı. Başladılar.

Ermənistanda yaşayan 300 minə qədər azərbaycanlını bir nəfər kimi zorla köçürdülər - doğma, tarixi torpaqlarından köçürdülər. Sovet dövləti, kosmosu fəth edən bir dövlət erməni millətçilərinə deyə bilmirdi ki, siz cinayət işlədirsiniz və cinayətkar da cəzasına çatmalıdır. Qorbaçovun arvadı Raisa da ermənilərdən rüşvət ala-ala onları dəstəklədi. Ermənistandan qovulmuş soydaşlarımız çadırlarda, küçələrdə, yataqxanalarda yaşayırdılar. 1988-ci il fevralın 19-da Azərbaycanın ali məktəblərində oxuyan gənclər meydana üz tutdular. Fevralın 19-da meydanda ilk dəfə mitinq keçirdik. Mitinqi dəstəkləməyənlər - Moskvanın Azərbaycandakı nökərləri, hakimiyyət orqanları bu hadisəyə etinasızlıq göstərdilər. Biz meydandan Mərkəzi Komitənin qarşısına gəldik. Burada da böyük bir mitinq keçirdik. Artıq xalq Moskvanın yerli hakimiyyət orqanlarındakı nökərlərinin xəyanətini başa düşdü.

Onlar milləti müdafiəsiz qoymuşdular. Baş verən xalq hərəkatından qorxu keçirən bu insanlar onu dövlət təhlükəsizliyi orqanlarına tabe etmək üçün Azərbaycanda polyaniçkoların vasitəsilə "gənc alimlər" klubları yaratdılar. Bu klubların nümayəndələrini Xalq Cəbhəsinə yönəltdilər. Azərbaycan Xalq Cəbhəsinin nizamnaməsini Polyaniçko hazırlamışdı. Tofiq Qasımovla Zərdüşt Əlizadəni o vaxt Polyaniçkonun yanına dəvət etmişdilər. Onların hər ikisi qəzetlərdə etiraf ediblər ki, "Biz Polyaniçkonun kabinetində Qurani-Kərimi gördük. Polyaniçko bizə dedi ki, nə üçün siz Xalq Cəbhəsinin nizamnaməsinə islam fundamentalizmini salmamısınız, bu da faydalı olardı. Biz onda başa düşdük ki, o, xalq hərəkatının istiqamətini dəyişmək istəyir. Sonra hərəkat genişləndikcə, - mən noyabr hadisələrini nəzərdə tuturam, xırda məsələləri demirəm, - noyabrın 17-dən 22-dək dövlət meydanı idarə etməyə qadir oldu. Yəni təşkil etdiyi məxfi komitə, Müdafiə Şurası və Elmlər Akademiyasının o şuraya daxil olan ayrı-ayrı nümayəndələri əz xidmətlərini göstərə bildilər.

Lakin Azərbaycan xalqının kütləvi etirazı nəticəsində baş verən hərəkatı onlar idarə edə bilmədilər. Hakimiyyətdə olanlar xalqı eşitmədilər, yeni-yeni hiylələrə əl atdılar. Xalq Cəbhəsini öz təsiri altına salan Dövlət Təhlükəsizliyi Komitəsi 1989-cu il dekabrın 29-da Cəlilabadda çevriliş etdi. Bu, bilavasitə SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin sifarişi ilə edilmişdi. Orada hər şey Xalq Cəbhəsinin əlinə keçdi. Bu, yuxarının göstərişi idi. Azərbaycana külli miqdarda DTK agenti göndərmişdilər. Azərbaycan xalqını qanına qəltan etmək üçün təxribat işləri aparılırdı. Dekabrın 31-də Nemət Pənahovun və Xalq Cəbhəsinin digər nümayəndələrinin əli ilə sərhədi açdılar.

**Fəzail Ağamalı** (Ana Vətən Partiyasının sədri, Milli Məclisin deputatı): Dağlıq Qarabağla bağlı hadisələrin, problemlərin başlanmasının əsas səbəbi bu ərazini Ermənistana birləşdirmək, "böyük Ermənistan" dövləti yaratmaq xülyası idi. Bunun üçün uzun illər boyu psixoloji və ideoloji zəmin hazırlanırdı. Hətta ayrı-ayrı dərsliklərdə, Moskvada nəşr edilən xəritələrdə tarixən Azərbaycana məxsus olan Dağlıq Qarabağ, Şuşa şəhəri Ermənistan ərazisi, şəhəri kimi verilirdi. Qorbaçov hakimiyyətə gəldikdən sonra ermənilər artıq konkret olaraq düşündüklərini həyata keçirmək yolunu tutdular. Təbiidir ki, Ermənistanın bu məkrli niyyətini həyata keçirmək üçün onlar əlverişli məqam gözləyirdilər.

1987-ci ildə Heydər Əliyev Siyasi Bürodan uzaqlaşdırıldıqdan sonra ermənilər üçün belə bir fürsət yarandı. Xatırlayırsınızsa, Aqanbeqyanın Fransada dərc olunmuş müsahibəsində bildirilirdi ki, Qorbaçovla razılaşdırılıb, Dağlıq Qarabağ artıq Ermənistanındır. Guya bu torpaqlar tarixən Ermənistanın olub və "tarixi ədaləti" bərpa etmək üçün Dağlıq Qarabağ Ermənistanın ərazisi kimi tanınmalıdır.

Bu, erməniləri hərəkətə gətirmək üçün sanki bir işarə idi.

**Aparıcı:** Yerevan tərəfindən silahlandırılan Dağlıq Qarabağda azərbaycanlılar sıxışdırılmağa başlandı. Silahlı ermənilər gecələr Azərbaycan kəndlərinə basqın edir, evləri yandırır, fürsət düşdükcə azərbaycanlıları qətlə yetirirdilər.

Eyni vaxtda Ermənistandan - Qərbi Azərbaycandan soydaşlarımız öz dədə-baba torpaqlarından didərgin salınırdı. Daşnak vəhşiliyinə və ara verməyən qətllərə tab gətirə bilməyən 200 mindən çox azərbaycanlı Göyçəni, Quqarkı, Gümrünü tərk etmək məcburiyyətində qaldılar. Təəssüf doğuran odur ki, köçkün soydaşlarımız Dağlıq Qarabağda məskunlaşmaq istəsələr də, Vəzirov və onun ətrafındakılar buna heç vəchlə razılıq vermədilər. Əksinə, Qarabağda yurd-yuva salanları da zorla Bakıya köçürdülər.

**Elbəyi Haqverdiyev** (Ermənistanın Ararat rayonunun Arazdəyən kəndinin sakini): Sumqayıt hadisələrindən sonra bizə orada böyük təzyiqlər göstərilirdi. Hamımızı işdən çıxardılar. Mağazalara getmək də qeyri-mümkün idi. Əlimiz heç yana çatmırdı. 1988-ci il may ayının 16-sı idi. İş yerinə gəldim, mənə dedilər ki, " siz işdən azad olunursunuz. Soruşdum ki, nə üçün, niyə? Dedilər ki, Sumqayıtda bizim erməniləri qırıblar, siz də çıxıb getməlisiniz. Bundan sonra işə gəlməyin. O vaxtdan da bizi işə qoymadılar. Mağazalarda bizə ərzaq vermirdilər, təhqir edirdilər. Bu təhqirlərə biz nə qədər dözə bilərdik? Qonşu Sədərək kəndinə gedərək oradan Bakıya, Mərkəzi Komitəyə neçə dəfə teleqram vurduq. Amma heç bir cavab almadıq. Qayıdıb evimizdə otururduq. Gözləyirdik, ermənilər nə vaxt gələcəklər ki, evlərimizi onlarla dəyişək. Rayonun idarələrindən işlə bağlı heç bir sənəd ala bilmirdik. Avtobuslarda getmək qeyri-mümkün idi. Erməni millətindən olan münasib adamlarla rayon mərkəzinə gedib lazımi sənədləri almağa çalışırdıq. Bax, belə bir ağır vəziyyətdə idik.

Azərbaycanın o vaxtkı rəhbərliyi prinsipiallıq göstərsəydi, biz bu günə qalmazdıq. Bizə kömək etsəydilər, oradakı hadisələri yatırtmaq olardı.

On iki ildir ki, köçüb gəlmişəm, Bakıdayam. Hələ indiyədək yuxumda Bakını bir dəfə də görməmişəm. Yatanda həmişə o dağları, Vedini yuxumda görürəm. Heç cür uyğunlaşa bilmirəm. 5-6 il bundan əvvələ qədər mən təsəvvür edə bilmirdim ki, Bakıda axıra qədər yaşaya bilərəm. Suyun üzərindəki taxtanı ləpə o tərəf-bu tərəfə atdığı kimi, mən də elə bir vəziyyətdə idim. Anam rəhmətə getdi. Burada dəfn etdik. Məcburuq bundan belə vətəndə yaşayaq.

**Məmməd Əlizadə:** O dövrün ən böyük səhvlərindən biri Ermənistanda öz yurd-yuvasından qovulmuş soydaşlarımızın Dağlıq Qarabağda yerləşdirilməməsi oldu. Bunun başında duranlar isə, təbiidir ki, Əbdürrəhman Vəzirov və onun məsləhətçiləri idilər.

Mən şərəfsiz bir qrup insanın "Qarabağ qarabağlılarındır, Bakı bakılılarındır" fikirlərini qəbul edə bilmirəm. Həmin dövrdə Şuşaya yerləşdirilmiş soydaşlarımız ikinci dəfə vətənsizləşdilər. İkinci dəfə doğma torpaqlarından çıxarıldılar. Əgər o zaman onların Dağlıq Qarabağda yerləşdirilməsinə nail ola bilsəydik, torpaqlarımızı heç cür itirməyəcəkdik. Bu hadisələri Moskva da görürdü, Azərbaycanda torpaqların verilməsində marağı olanlar da görürdü və qəsdən, bilərəkdən bu məsələləri ortaya atırdılar.

**Fəzail Ağamalı:** Soydaşlarımızın qarşılanmasında mən iştirak etmişəm. Onların bir hissəsi Bakıya gəldi, digər hissəsi isə Azərbaycanın başqa yerlərinə səpələndi. Xatırlayıram ki, çox böyük bir dəstə Dağlıq Qarabağda, onun azərbaycanlılar yaşayan ərazilərində, xüsusilə Şuşada məskunlaşdı. Azərbaycan xalqı ilə, onun milli maraqları ilə heç cür bağlılığı olmayan, Moskvanın, Kremlin göstərişi ilə oturub-duran, nəfəs alan, onun məqsədlərini həyata keçirən, həmin dövrdə Ermənistan KP MK-nın birinci katibinə qardaş deyən, onunla qucaqlaşan Ayaz Mütəllibovun fərsizliyi və milli xəyanəti nəticəsində həmin insanlar sonradan çox böyük əziyyətlə, əlavə itkilər verməklə respublikamızın digər yerlərinə köçürüldülər. Onların arxasınca maşınlar göndərilmişdi. Onlar Dağlıq Qarabağdan zorakılıqla uzaqlaşdırıldılar.

**Aparıcı:** 1989-cu ilin yanvarında Dağlıq Qarabağ Muxtar Vilayətində ermənipərəst Arkadi Volskinin başçılığı ilə xüsusi idarəetmə komitəsi yaradıldı. O vaxtkı respublika rəhbərliyinin belə bir komitənin yaradılmasına razılıq verməsi, əslində, muxtar vilayətin Azərbaycanın tabeliyindən çıxarılmasına yol açdı. Az keçməmiş, yəni 1989-cu ilin mayında Dağlıq Qarabağın bütün idarə, təşkilat və müəssisələri Ermənistana və digər respublikalara tabe etdirildi. Əlbəttə, bütün bunlar yenə də Əbdürrəhman Vəzirovun razılığı ilə həyata keçirilirdi. Ona görə də komitənin on aylıq fəaliyyətinin nəticəsi Dağlıq Qarabağdakı Azərbaycan kəndlərinin əksəriyyətinin boşaldılması ilə başa çatdı.

**Mənsur Əlisoy:** Volskinin rəhbərlik etdiyi komitəni yaradan Vəzirov Moskvanın burada bilavasitə emissarı idi. Onda heç milli qan da yox idi. Vəzirov göstəriş əsasında hərəkət edirdi. Dağlıq Qarabağı qurban verməkdən ötrü o, Volskini Moskvanın emissarı kimi Qarabağda oturtdu. Orada Azərbaycanın dövlət bayrağını endirdilər, respublikamızın büdcəsinin hesabına Dağlıq Qarabağın millətçi ermənilərini yaşatdılar. Dağlıq Qarabağda mövcud olan bütün sənaye obyektlərini Yerevanın tabeliyinə verdilər.

1989-cu ildə həmin komitə yarananda Bakıda hələ fövqəladə vəziyyət tətbiq olunurdu. Mayın 28-də Mansur Əliyev və başqaları on min nəfəri Bakı şəhərinin küçələrinə çıxardılar, şəhərdə etiraz mitinqi keçirdik.

O vaxt Azərbaycan Kommunist Partiyası MK-nın katibi Telman Orucova 10 maddədən ibarət tələblərimizi göndərdik. O vaxt SSRİ Ali Sovetinin sessiyası keçirilirdi. Orada Volski bildirdi ki, "Tovarişşi, Baku qorit". Başa düşürsünüzmü?

Mərkəzi Komitə, DTK Volskini Dağlıq Qarabağda bir ildən artıq oturtdu, Azərbaycanın torpağını ölkəmizdən ayırdı. Həmin bölgəmizin idarə edilməsi səlahiyyətini ermənilərə verdilər. Ondan sonra Polyaniçko gəlib Volskini əvəz etdi. Polyaniçko Moskvanın Əfqanıstandakı "prezidenti" hesab olunurdu. Biz ondan nə gözləyə bilərdik? Biz xəyanət nəticəsində, - bu, SSRİ-nin və Azərbaycanın hakim dairələrinin və Xalq Cəbhəsinin xəyanəti idi, - Dağlıq Qarabağı itirdik.

**İlham İbadov** (jurnalist): Vəzirovun Azərbaycanı idarə edə bilməməsi, siyasətçiyə layiq olmayan, adi etika normalarına sığmayan hərəkətləri tam qənaət yaratdı ki, artıq bu xalqa Moskvadan Vəzirovlarla rəhbərlik etmək mümkün olmayacaqdır. Xalq ona görə də özünün müstəqilliyinə, suverenliyinə doğru addımlarını getdikcə artırmağa başladı.

**Firuz Haşımov** (jurnalist): Həmin dövrdəki iqtidar Moskvanın nökəri idi. O vaxtkı Kommunist Partiyasında olan belə nökərlər üçün Azərbaycan anlayışı yox idi. Düzdür, mən indi xalqın adından danışanlara, ucuz şüarlarla onun başı altına yastıq qoyanlara düşmənəm. Amma, doğrudan da xalq bir nəfər kimi ayağa qalxmışdı. Xalq qondarma liderlərə də inanırdı. Əgər hakimiyyətdə olan satqınlar, Moskvanın nökərləri sinələrini kişi kimi qabağa versəydilər, indi respublikamız bu bəlaya düçar olmazdı. Məni dəhşətə gətirən odur ki, bu qədər şahid sağ ola-ola, bu qədər sübutlar, dəlillər ola-ola hakimiyyətə can atan "pambıq bəyləri"nin əksəriyyəti əgər həyasızcasına camaata bu qədər yalan sırıyırlarsa, görün, bizim kimi şahidlər öləndən sonra nə deyəcəklər. Məni qorxudan, dəhşətə gətirən budur.

1990-cı ilin yanvarında Yusif Səmədoğlunun evində oturub çay içən İsa Qəmbər, - onun saat neçədə Y.Səmədoğlunun evinə getdiyini mən dəqiq bilirəm, - keçən il "Şans" qəzetində özü haqqında o qədər rəvayətlər uydurmağa başladı ki, məəttəl qaldım. A kişi, sən harada idin? Nə vaxt Mərkəzi Komitənin qabağına gəlmişdin? AXC-nin qurultayında sən özün dedin ki, küçələrdə güllə atırdılar, bizim sürücü küçəyə çıxmaqdan imtina etdi. Mərkəzi Komitənin qabağında guya fitnəkarlar yığışmışdı. Sən əgər doğrudan da belə döşünə döyən oğul idinsə, Yusif Səmədoğlunun evindən çıxıb Mərkəzi Komitənin yerləşdiyi binanın qarşısına gedəydin. Həmin evlə Mərkəzi Komitə arasında məsafə heç 300 metr də deyil. İgidliyini orada göstərəydin, deyəydin ki, camaat, ya dağılın, ya da bir iş görün. Sən orada yox idin.

Etibar Məmmədovu da həmin hadisələr zamanı mən görməmişəm. Allah köməyi olsun, onun yaşayışı inqilabdan əvvəl Murtuza Muxtarovun yaşayışından min qat yaxşıdır. O birilərini hələ demirəm.

Mən Əbülfəz Elçibəy haqqında heç nə deməyəm, haqq dünyasındadır, Allah ona rəhmət etsin. Bu barədə danışmaq günahdır. Mən başqaları haqqında deyirəm. Sizin hansı mənəvi haqqınız var ki, xalqın adından danışırsınız? Əlaltılarınız vasitəsilə özünüz haqqında olmayanları yazırsınız, yayırsınız. O dövrün hadisələrini gözləri ilə görənlər, yəni şahidlər olmasaydı, siz özünüzü qəhrəman kimi qələmə verə bilərsiniz.

**Mənsur Əlisoy:** Yanvarın 8-də Xalq Cəbhəsi parçalandı. Radikallarla liberallar arasında hakimiyyət uğrunda mübarizə gedirdi. Bunlar Azərbaycanda hakimiyyətə gəlmək üçün Qarabağ dərdini xalqa unutduran, yüz minlərlə qaçqını və köçkünü olan bir xalqa xəyanəti dəstəkləyə-dəstəkləyə DTK-ya xidmət göstərirdilər. Azərbaycan Kommunist Partiyasında isə həsənovçular dəstəsi vəzirovçulara qarşı mübarizə aparırdı və onlar bəyan edirdilər ki, Vəzirov istefa verib hakimiyyətdən getsin.

Vəzirov yanvarın 13-də leytenant Şmidt adına zavodda fəhlələr qarşısında çıxış etdi. Bildirdi ki, Azərbaycan Kommunist Partiyası bu gündən Xalq Cəbhəsi ilə birləşir. Həsənov Vəzirova qarşı çıxış etdi, Vəzirov ona qarşı çıxış etdi. Vəzirov diplomatik gediş edərək, Xalq Cəbhəsini tam iflasa uğratmaq üçün elə həmin gün meydanda dedi ki, biz Milli Müdafiə Şurası yaradırıq, Azərbaycanı xilas edəcəyik, bunun üçün xalqı silahlandırmaq lazımdır.

Yanvarın 13-15-də Bakıda erməni talanları təşkil etdilər ki, bu da Qorbaçovun Bakıda qırğın törətməsinə bəhanə oldu.

Yanvarın 16-da Primakov Bakıya gəlmişdi. O, Nemət Pənahovu, Əbülfəz Elçibəyi, Etibar Məmmədovu, Rəhim Qazıyevi, İsa Qəmbəri də dəfələrlə Mərkəzi Komitəyə dəvət edərək onlara bildirdi ki, Bakı şəhərində böyük qırğın gözlənilir. Siz xalqı bu fəlakətdən uzaqlaşdırın. Onlar isə "yox" dedilər. Dedilər ki, qan tökülməsə azadlıq ola bilməz. Deməli, onların şəxsi mənafeləri və mafiyaya xidmətləri naminə 1990-cı ildə Azərbaycanda böyük bir qırğın törədildi, yüzlərlə insan şəhid oldu, neçə yüz adam yaralandı. On bir ildir ki, biz yaralılar bu ağrını çəkirik. Biz siyasətin qurbanı olduq. Əgər vətən, xalq, istiqlaliyyət üçün mübarizəyə qalxdısa, onlar hakimiyyət uğrunda mübarizəyə qoşulduqları üçün Qarabağ torpaqlarını itirdik.

**Fəzail Ağamalı:** Azərbaycanda hakimiyyət uğrunda çox kəskin mübarizə gedirdi. Ayaz Mütəllibov çalışırdı ki, Vəzirov hakimiyyətdən getsin, özü Mərkəzi Komitənin katibi olsun. Eyni zamanda, Mərkəzi Komitənin dikər üzvləri və katibləri vardı. Həsən Həsənov çalışırdı ki, Mərkəzi Komitənin katibi olsun. Digər tərəfdən, Dövlət Təhlükəsizliyi Komitəsinin sədri Vaqif Hüseynov birinci katib olmağa çalışırdı. Hakimiyyət uğrunda mübarizə Dağlıq Qarabağ problemini sanki unutdurmuşdu. Onlar hakimiyyətə gəlmək üçün Moskvaya daha çox sədaqətli olduqlarını nümayiş etdirirdilər. Bu sədaqətin də arxasında təbiidir ki, Dağlıq Qarabağ haqqında Moskvanın - Kremlin, başqa sözlə desək, Qorbaçovun düşündüklərini reallaşdırmağa daha çox vədlər verilirdi. Sanki yarışırdılar: kim daha çox vəd verə bilər və Moskvaya, Kremlə daha böyük sədaqət nümayiş etdirə bilər. Azərbaycan xalqının içərisindən çıxan Azərbaycan Xalq Cəbhəsində də qeydiyyatdan keçdikdən sonra, artıq 1989-cu ilin sonlarından başlayaraq, onların da hakimiyyət ehtirasları özünü büruzə verirdi.

Həmin dövrdə Azərbaycan Xalq Cəbhəsi ona göstərilən etimadı, çox təəssüf ki, doğrultmadı. Lənkəranda, Cəlilabadda, Neftçalada, başqa yerlərdə hakimiyyət faktiki olaraq rəsmi strukturların əlindən çıxdı. Bütün bunların hamısı Qanlı Yanvar faciəsinə gətirib çıxardı. Həmin hadisələrin şahidi kimi, sizə deyə bilərəm ki, əslində baş vermiş hadisələrdə bütün siyasi qüvvələr və o vaxt hakimiyyətdə olmuş bütün şəxslər eyni dərəcədə məsuliyyət daşıyırlar. Vəziyyətdən, hadisələrdən düzgün nəticə çıxarıb, Yanvar faciəsinin qarşısını almaq olardı. Təcavüzə məruz qalmış torpaqlarımızın müdafiəsi də mümkün idi.

Bir faktı demək istəyirəm. Səhv etmirəmsə, 1988-ci ilin axırları idi. Respublikamızın ən müxtəlif yerlərindən böyük bir insan seli Dağlıq Qarabağa doğru yürüşə istiqamət almışdı. Həmin dövrdə Xuraman Abbasova yaylığını başından açaraq, insanların ayaqları altına atdı. Bu, həmin dövr idi ki, Dağlıq Qarabağ hələ silahlanmamışdı, bu həmin dövr idi ki, xalq kütlələrinin, camaatın dinc yürüşündən istifadə edərək problemi həll etmək mümkün idi.

Lakin çox təəssüf ki, aşağıdan tutmuş yuxarıya qədər bütün strukturlar milli mənafe zəminində dayanmadılar. Bizim məğlubiyyətimizin ən böyük səbəbi həmin dövrdə Heydər Əliyevin respublikaya dəvət olunmaması idi. Əgər 1988-ci ildə hadisələrin baş verdiyi andan Heydər Əliyev Bakıya gəlməsinə və ölkəyə rəhbərlik etməsinə imkan yaradılsaydı, mən tam məsuliyyətlə deyirəm, nə ərazilərimiz işğal olunardı, nə də ölkəmiz bugünkü vəziyyətə düşərdi. Respublikamızın ərazi bütövlüyü təmin olunardı. Biz Topxana harayı əvəzinə, Heydər Əliyev harayı çəkməli idik. Çünki Topxananın, bütövlükdə Azərbaycanın taleyi Heydər Əliyevlə birbaşa bağlı idi. Səhvimiz bunda oldu.

**Aparıcı:** 1990-cı ili Bakı həyəcan və gərginlik içində, böyük qaçqın ordusu ilə qarşılayırdı. Azərbaycanın başının üstünü qara buludlar bürümüşdü. Respublikamız siyasi böhran içərisində idi. İqtidarın qətiyyətsizliyi, səriştəsizliyi xalqın səbr kasasını doldurmuşdu. Mitinqlər ara vermirdi. Xalq hərəkatının gündən-günə alovlanması, təbii ki, rəsmi Moskvanı xoflandırırdı. Ona görə də imperiya qüvvələri Bakıda pozuculuq işlərinə əl atdılar. Onlar qaçqınlarla yerli əhali arasında toqquşmalar yaratmaq, rusdilli əhaliyə qarşı təxribatlar törətmək yolu ilə xalq hərəkatına zərbə vurmaq istəyirdilər. Elə bu məqsədlə də 1990-cı ilin yanvar ayının 13-14-də Bakıda talanlar və qətllər təşkil edildi. Yanvarın 15-də isə SSRİ Ali Sovetinin qərarı ilə Dağlıq Qarabağ Muxtar Vilayətində və digər rayonlarda fövqəladə vəziyyət, Bakıda və Gəncədə isə qadağan saatı tətbiq olundu. Eyni vaxtda Əbdürəhman Vəzirov və Ayaz Mütəllibov Bakıya sovet qoşun hissələrinin gətirilməsi üçün Moskvaya müraciət etdilər. Yanvarın əvvəllərində Bakıya qoşun hissələri gətirildi. Əz xalqına qarşı xəyanətkar mövqe tutan o vaxtkı respublika rəhbərliyi qoşun hissələrinin gətirilməsini guya Bakıda kriminogen vəziyyətin yaranması ilə əsaslandırırdı. Məhz onların bu xəyanətkarlığı 20 Yanvar faciəsini labüdləşdirdi.

**Məmməd Əlizadə:** Vəzirov və Mərkəzi Komitə dəfələrlə Müdafiə Şurası yaradılması ideyasını irəli sürmüşdülər. Mən bu şuranın yaranmasının əleyhinə idim.

1990-cı il yanvar ayının 13-də Müdafiə Şurası yara-nanda mən öz fikrimi bildirdim. Dedim ki, təəssüflər olsun ki, meydanda Müdafiə Şurası yaradıldı. Bundan sonra Dövlət Təhlükəsizliyi Komitəsinin təxribatçı qrupları Bakı şəhərində talanlar və dağıntılar törədilməsinin təməlini qoydular. Bu təhlükəni qabaqcadan görürdük. Həmin dövrdə rusdilli əhaliyə qarşı təxribatların qarşısını almaq üçün iş aparılırdı. Hələ 1990-cı il yanvar ayının 13-də SSRİ Dövlət Təhlükəsizliyi Komitəsi Etibar Məmmədov, Məmməd Əlizadə, Xəlil Rza və digərləri haqqında cinayət işi qaldırmışdı. 20 Yanvar hadisəsi qabaqcadan hazırlanmışdı. O vaxt Naxçıvan mehmanxanasında, digər yerlərdə qoşun yerləşdirilirdi. Yəni 20 Yanvardan əvvəl qoşun artıq Bakının içərisində idi. Əlavə qoşuna nə ehtiyac vardı? Deməli, onların məqsədləri ondan ibarət idi ki, qırğın törətməyə bəhanə üçün müəyyən barrikadalar yaransın. Mən həmin hadisələr barədə ikinci kitabımı yekunlaşdırıram. Amma indiyədək onu müəyyən edə bilməmişəm ki, yolların bağlanmasında, barrikadalar yaranmasında operativlik kimin işi idi. Gəldiyim qənaət odur ki, gözə görünməyən müəyyən qüvvələr vardı, kimlərsə maraqlı idilər ki, şəhərdə müəyyən yollar bağlansın.

**Aparıcı:** Dağlıq Qarabağda daşnak vəhşiliyinin qarşısını almaq əvəzinə, Qorbaçovun Bakıda qadağan saatı tətbiq etməsi respublikamızda gərginliyi bir az da artırdı. Yanvarın 17-də Bakıda keçirilən mitinqdə qadağan saatı ilə bağlı fərmanın ləğvi və Əbdürrəhman Vəzirovun istefası tələb olunurdu. Şəhər dəniz kimi çalxalanırdı. Bütün Bakı ayaq üstə idi. Qanlı 20 Yanvar faciəsinə iki gün qalırdı.

**“Azərbaycan”.** - 2001. – 20 yanvar. - N 16. - S. 5.

# "Moskva mənə də qarmaq atdı"

*Müsahibimiz Qafqaz Müsəlmanları İdarəsinin sədri, 20 Yanvar faciəsinin 10-cu ildönümünün keçirilməsi üzrə Dövlət Komissiyasının üzvü Şeyxülislam hacı Allahşükür Paşazadədir*

20 yanvar 1990-cı il. Başıbəlalı millətimin daha bir faciəsi. Qanlı şənbə keçəsinin dəhşəti və miqyası o qədər böyükdür ki, gəzlə gördüyünə də inanmaq istəmirsən. hər şey yuxu kimi gəlir. Güllləbaran edilmiş şəhərin naləsi ərşə dirənsə də, kimsəyə çatmır. Qan içində çırpınan Azərbaycan xarici aləmdən tamam təcrid olunmuşdur. Enerji bloku partladılmış televiziya susur, radioda isə yalnız matəm musiqisi və arabir hərbi komendantın məlumatı verilir.

Nə vaxtdan işlətmədiyim "VEF"-i qarşıma qoyub, bir-bir kanalları gəzirəm ki, görüm Bakı faciəsi barədə məlumat varmı. Bütün xarici kanallar ya susur, ya da SSRİ informasiya agentliklərinin məlumatlarına əsasən, "Azərbaycanda islam təməlçilərinin vəhşiliyindən, yazıq ermənilərin başına gətirdikləri müsibətlərdən" bəhs edən xəbərləri yayırlar.

Adamın ürəyi az qalır partlasın. Xalqımın, millətimin köməksizliyi və yiyəsizliyi elə bil indi mənə çatır. Belə də haqsızlıq olar? Hanı bu millətin başında dayananlar, ağsaqqallar, niyə susurlar, bundan da betərinimi gözləyirlər?

21 yanvar. Yenədə radioqəbuledicinin yanında əyləşib kanalları arayıram. Bu vaxt Münhendən yayımlanan "Azadlıq" radiosu ilə Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam hacı Allahşükür Paşazadənin SSRİ Ali Sovetinin sədri M. Qorbaçova göndərdiyi açıq məktub oxunur: "Bir dövlət başçısı kimi sizin imzanızla törədilən bu qanlı qırğına, bu dəhşətli cinayətə heç bir bəraət ola bilməz... Millətlərarası münaqişələri qızışdıran, ordunu öz vətəndaşlarının qatilinə çevirən, insanlara layiqli həyat əvəzinə, ölüm hüququ bağışlayan bir dövlət rüsvayçılığa məhkumdur..."

Başqalarını bilmirəm, bu məktubu dinləyəndən sonra, şəxsən mənim sevincdən közlərim yaşardı. Allaha şükür elədim ki, əvvəla, faciənin mahiyyətindən dünya xəbər tutdu, bundan əlavə, millətimin ağsaqqallarından biri imperiya başçısının üzünə "sən cəlladsan" deməyə özündə cəsarət tapdı. O vaxt, gözlərini qan tutmuş nəhəng imperiyanı və onun rəhbərini bütün dünyada rüsvay etmək adamdan hünər istəyirdi.

İndi, həmin hadisələrdən on il sonra Şeyxül-islam Hacı Allahşükür Paşazadə ilə söhbətə belə bir sualla başladım:

**- Qorbaçova, sözün əsl mənasında, ittihamnamə olan məktubu yazarkən neçə risk elədiyinizi düşündünüzmü ?**

- Xalqımın faciəsini görəndən sonra mən öz təhlükəsizliyim barədə heç düşünmürdüm də. Ordu şəhərə girib qırğına başlayanda, gecə yarısı mən ailə üzvlərimlə, halallaşıb, vəsiyyətimi etdim və birbaşa idarəyə, "Təzəpir" məscidinə gəldim. Buradan öz köməkçilərimlə, dindaşlarımla birgə xalqıma kömək etdim, məsləhətlər və tövsiyələrlə onları bir sıra faciələrdən uzaqlaşdırdım...

Qorbaçova məktubu yazanda mən Bakıda, xalqımın, dost-tanışın arasında idim. Amma Moskvada ev dustağı kimi, xüsusi kəşfiyyat orqanlarının ciddi nəzarəti altında yaşayan möhtərəm Heydər Əliyev isə özünün və ailəsinin taleyini təhlükə qarşısında qoyaraq, dərhal Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəlib orada ictimaiyyət qarşısında çıxış etdi. Sovet rəhbərliyinin cinayətkar hərəkətini kəskin şəkildə ittiham etdi.

**- Yanvar faciəsi birdən-birə baş vermədi. Moskva buna bir zəmin hazırlamaq üçün xeyli götür-qoy etmiş, tədbirlər tökmüşdü. Faciənin baş verəcəyini siz qabaqcadan duymuşdunuzmu? Bir dini rəhbər kimi, onun qarşısını almaq üçün hansı işləri gördünüz?**

- Yanvar faciəsi ərəfəsində Bakıda vəziyyət, necə deyərlər, idarə olunmurdu. Azadlıq meydanında, Mərkəzi Komitənin binasının qarşısında insan dənizi kükrəyirdi. Ehtiraslar getdikcə qızışırdı.

Dikər tərəfdən də, imperiya ordusu yavaş-yavaş Bakıya cəmləşirdi. Xəstəxanalar boşaldılır, Azərbaycandakı rus zabitlərinin ailələrinin təhlükəsizliyi üçün tədbirlər görülür, bir çoxu Bakıdan köçürülür, bir sözlə, faciəyə hazırlıq gedirdi.

Belə bir vaxtda mən Vəzirovla görüşüb söhbət etmək istədim. Səhv etmirəmsə, yanvarın 17-si idi. Vəzirov kabinetdə idi, var-kəl edirdi. Arabir pəncərəni açıb "istefa!" tələbi ilə kükrəyən insan selinə, meydana gətirilmiş rəmzi dar ağaclarına, əllərdəki kəndirlərə baxıb, rusca nəsə dodaqaltı deyinirdi. Mən ona məsləhət təriqilə dedim ki, bəlkə istefa verəsən. Kabinetdə o başa-bu başa gedəndən sonra yenə pəncərəyə yaxınlaşıb izdihama baxdı və qəti şəkildə dedi: Mən istefa verməyəcəm!

Şəhərdə vəziyyət getdikcə pisləşirdi. Bir gün sonra Bəxtiyar Vahabzadə və rəhmətlik İsmayıl Şıxlı ilə razılaşdıq ki, yenə Mərkəzi Komitəyə gedək. Əvvəlcə Həsən Həsənovun yanında olduq. O dedi ki, mənlik deyil, məsələni ancaq yuxarı həll edir. Onu da götürdük, gəldik Mərkəzi Komitəyə. Vəzirov öz kabinetində yox idi. Orada Primakovla Girenkonu gördük. Onlarla söhbəti mən aparırdım, məsələni də bir qədər sərt şəkildə qoyurdum.

Primakovu mən çoxdan tanıyırdım. O, hələ SİTA-nın müxbiri işləyərkən Misirdə tanış olmuşduq. Sonra Moskvada Şərqşünaslıq İnstitutuna rəhbərlik edəndə də onunla əlaqələrimiz oldu. İnstitutun zəngin kitabxanası vardı. Qədim əlyazmalarla tanış olmaq üçün arabir ora gedirdim. Daha sonra SSRİ Ali Sovetinin deputatı kimi onunla, akademik Velixovla görüşür əlaqə saxlayırdıq. Girenko da məni yaxşı tanıyırdı. Mən onları başa salmağa çalışdım ki, ordu şəhərə girməməlidir. Nəticəsi çox ağır ola bilər. Söhbətdən belə çıxdı ki, onlar bu məsələyə birmənalı cavab vermirlər. Bunu hiss edib bir qədər kəskin danışdım. Primakov gileyləndi ki, bizim aramızda daim səmimi münasibət olub, sən mənimlə heç vaxt bu tonda danışmazdın. Mən ona cavab verdim ki, biz indiyədək həmişə dost kimi görüşmüşük, şərqşünas alim, həmkar kimi xoş münasibətimiz olub. İndi isə sən qoşunla, silahla mənim üstümə, mənim xalqımın, dövlətimin üstünə gəlirsən. Bəs mən səninlə neçə danışmalıyam?..

Sonra Primakov belə təklif verdi: Madam ki, sən təkid edirsən, onda hakimiyyəti al əlinə, dövlətə rəhbərliyi götür boynuna, biz də sənə kömək edək, respublikada vəziyyəti sabitləşdir.

Biz buradakı vəziyyət barədə hər yarım saatdan bir Qorbaçova məlumat veririk. Onun da razılığı var. O zaman söz verirəm ki, şəhərə qoşun girməyəcək.

Ona dedim: Axı sən, bilirsən ki, məndən dövlət rəhbəri çıxmaz. Mən din xadimiyəm, ömrümün axırına kimi də, inşallah, din xadimi olaraq qalacağam. Mənim Allah rizası üçün qıldığım iki rükət namaz, sənin mənə verdiyin vəzifədən və bütün dövlətdən üstündür...

Cavabım onlar üçün gözlənilməz və bir qədər də sərt oldu. Amma o vaxt hiss elədik ki, şəhərə qoşun girəcək.

**— Sizcə, onlar bu təklifi nəyə görə etmişdilər?**

- Onların heç ağlına da gəlməzdi ki, mən belə bir yağlı təklifdən boyun qaçıram. Əslində isə, "dostlarım" bununla mənə və xalqıma qarmaq atmaq, tələ qurmaq istəyirdilər. Yadınızdadırsa, həmin hadisələr ərəfəsində rəsmi Moskva, mərkəzin kütləvi-informasiya vasitələri bir-birinin ardınca bəyanatlar verib beynəlxalq ictimai fikri azdırmaq istəyirdilər ki, Azərbaycanda baş verənlər milli azadlıq hərəkatı deyil, islam fundamentalizmi hərəkatıdır. Əgər mən razılıq verib hakimiyyəti götürsəydim, onların sözlərini təsdiqləmiş olardım. Odur ki, rədd cavabı verdim. Onu da deyim ki, həmin təklif xoş niyyətlə olsaydı belə, yenə rədd edərdim. Mənim həyat yolum hələ dünyaya göz açmamışdan müəyyənləşib, anam məni Allah yolunda, din yolunda nəzir deyib. Ömrümün sonunadək, inşallah, bu yolun yolçusu olacağam.

**— Şəhidlərin dəfni zamanı nə kimi çətinliklərlə üzləşdiniz?**

- Ən çətin məsələ şəhidlərin harada dəfn edilməsi idi. Kəfən ağı, tabut üçün taxta, material çatışmırdı. Bunların xeyli hissəsi ayrı-ayrı evlərdən toplandı.

**— Azərbaycandakı başqa dini icmaların nümayəndələri hadisələrə neçə reaksiya verdilər?**

- Rus pravoslav kilsəsinin nümayəndələri və yəhudilər mənimlə bərabər bu prosesdə iştirak edirdilər. O zaman din xadimləri öz mənəviyyatlarını yüksək tutdular...

**— Bəlkə də bu, o zaman yerli əhalidə ruslara qarşı qızışmaqda olan ehtirasların köpünü xeyli aldı...**

- Şübhəsiz, rus ordusunun törətdiyi vəhşiliyi görən insanlarda imperiya əsgərlərinə, elə burada yaşayan rusların özünə qarşı nifrət güclənmişdi. Buna kərə də belə meylin qarşısını almaq üçün öz çıxışlarımda xalqı səbirli, dözümlü olmağa çağırdım. O vaxt Qafqaz Müsəlmanları İdarəsi xeyli çətinliklərlə rastlaşdı. Bizim idarə xeyriyyə təşkilatı deyil, dini təbliğat mərkəzidir. Faciə ilə bağlı idarəyə gələnlərin çoxu bizdən maddi köməklik istədilər. Bu da nədən yarandı? 20 Yanvar faciəsindən sonra dövlət həlak olanların ailələrinə kömək etmək istəmirdi. Xarici ölkələrdə müalicəyə getmək istəyənlərə köməklik edilmədi. Bu işləri bizim idarə öz üzərinə götürdü. İdarəyə yeni bina tikmək üçün yığılmış bütün vəsait faciə zamanı yaralananların müalicəsinə sərf olundu. "20 Yanvar Cəmiyyəti»ni mən yaratmışdım. Bu işdə məqsədim ondan ibarət idi ki, yaradılan fondun hesabına evlər tikilsin və əlillər üçün iş yerləri açılsın. Sonra fondun fəaliyyətini siyasətə yönəltdiklərindən oradan uzaqlaşdım.

**- Faciənin 10-cu ildönümünün keçirilməsi üzrə Dövlət Komissiyasının üzvü kimi, sizin üzərinizə hansı vəzifələr düşür?**

- Mənəvi tərəfdən bütün vəzifələr bizim üzərimizə düşür. "Təzəpir" məscidində, respublikanın digər məscidlərində 20 Yanvar şəhidlərinə və Vətənin müdafiəsi zamanı bütün həlak olanlara Quran tapşırma mərasimləri keçiriləcəkdir. Şəhidlər yad ediləcək, onların ruhuna ehsanlar veriləcək, yasin oxunacaq. Bu günlər şəhid ailələri ilə görüşlər də keçiriləcəkdir.

**Qüdrət Piriyev**

**“Xalq qəzeti”.-** 2000. – 19 yanvar. - N 13. - S. 2.

## 20 Yanvar Azərbaycan xalqına qarşı törədilən ən ağır cinayətlərdən biridir

*Müsahibimiz Azərbaycan Respublikası Prezidenti İcra Aparatının ictimai-siyasi şöbəsinin müdiri Əli Həsənovdur*

**- Əli müəllim, 20 Yanvar Azərbaycan xalqının bu əsrdə düçar edildiyi ən ağır faciələrdən biridir. Ancaq buna baxmayaraq, uzun müddət siyasi qiymətini almadı...**

- 20 Yanvar Azərbaycan xalqına qarşı törədilən ən ağır cinayətlərdən biridir. Təəssüflər olsun ki, bu cinayətə normal hüquqi-siyasi qiymətin verilməsi 94-cü ilə qədər yubadıldı. Əvvəla, 20 Yanvar faciəsini törədənlər məsələyə qiymət verilməsinin qarşısını cidd-cəhdlə almaqla Azərbaycan xalqına qarşı törədilmiş bu ağır cinayətdə özlərinin əli olduğunu sübuta yetirdilər. İkincisi, 20 Yanvardan dərhal sonra hakimiyyətə gəlmiş, xalqın faciəsindən tramplin kimi istifadə etmiş adamların özləri də bu cinayətə qiymət verməyə cəhd göstərmədilər. Çünki onlar cinayətin törədilməsində bu və ya başqa şəkildə iştirak etmişdilər.

Nəhayət, Azərbaycanın taleyüklü məsələlərinin, qlobal problemlərinin həllində daim əzmkarlıq və prinsipiallıq nümayiş etdirən cənab Prezident Heydər Əliyevin dövründə bu məsələ də öz həllini tapdı və 20 Yanvar faciəsi törədildikdən 4 il sonra əz hüquqi-siyasi qiymətini aldı. Möhtərəm Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gələn kimi bu məsələni qaldırdı, Milli Məclisdə məsələ ilə bağlı xüsusi komissiya yaradıldı, 1994-cü ilin mart ayında MM-in xüsusi sessiyasında 20 Yanvar faciəsinə siyasi qiymət verildi. Qeyd edildi ki, bu hadisə birmənalı olaraq, Azərbaycan xalqına qarşı törədilmiş ağır cinayət, Azərbaycan xalqının müstəqillik əzmini, iradəsini qırmaq, Azərbaycanın müstəqilliyə gedən yolunu kəsmək məqsədi ilə həyata keçirilmiş bir aksiya, insanlığa qarşı çevrilmiş bir aksiya idi. Bu aksiyanın günahkarlarının əməllərinə hüquqi-siyasi qiymət verilsə də, özləri indi qaçıb Moskvada, bu hadisəni bilavasitə törədənlərin yanında gizləniblər və məqam axtarırlar ki, Azərbaycanın bugünkü müstəqilliyinə, bugünkü inkişafına mane olsunlar, ya da onun mexanizmini əz əllərinə keçirsinlər. Lakin Azərbaycan xalqı müdrik xalqdır - öz xilaskarlarını da, cinayətkarlarını da yaxşı tanıyır.

**- 20 Yanvar faciəsi də bütün hadisələr kimi ancaq nəticədir. Təbii ki, onun səbəbləri, dərsləri də var...**

- 20 Yanvara gətirən hadisələr bunlardır: ermənilər tərəfindən süni olaraq yaradılan Dağlıq Qarabağ problemi, Azərbaycanın mənafeyinin Moskvada qulaqardına vurulması, Azərbaycana qarşı birtərəfli siyasətin yeridilməsi, respublikanın o vaxtkı rəhbərliyinin DQ problemi ilə əlaqədar əməli bir iş görməməsi, xalqın haqlı tələblərini həyata keçirə bilməməsi və yaxud keçirmək istəməməsi. Bu səbəblərdən də xalq mübarizəyə qalxdı, meydanlara axışdı. Yeni meydana çıxmış Meydan "qəhrəmanları" da xalqı düzgün istiqamətə yönəldə bilmədilər. Əlbəttə, 20 Yanvar olmaya da bilərdi, əgər xalqın kükrəyən qəzəbini, etirazını düzgün istiqamətə yönəltmək olsaydı. Təəssüf ki, o zaman vəziyyəti kəskinləşdirməyə çalışan Moskvanın təhlükəsizlik qüvvələri Meydan hadisələrinə rəhbərlik edənlərin sırasına əz adamlarını salmaqla bir çox təxribatlar törətdilər və 20 Yanvara gətirib çıxardılar. 20 Yanvarın əsas günahkarlarının adları MM-in məlum sessiyasında açıqlandı və hüquqi-siyasi qiymətini aldı.

20 Yanvarın dərslərinə gəldikdə isə, Azərbaycan xalqının gələcək taleyində bu dərslərin nəzərə alınması, yaddaşlarda qalması mühüm əhəmiyyət kəsb edir. Çünki tarix bu cür dərslərdən ibrət götürməyən millətləri ikinci dəfə cəzalandırır.

Ona görə də, 1993-cü ildən etibarən hər il bu məsələyə qayıdırıq, insanların yaddaşını təzələyirik. Azərbaycan xalqına qarşı törədilmiş bu ağır cinayətin bütün nüanslarını açırıq, nəinki respublika ictimaiyyətinə, beynəlxalq aləmə də çatdırırıq. Bəyan edirik ki, o zaman Moskvada və Azərbaycanda rəhbərlik edənlər insanlara yad olan, bəşəriyyətə yad olan ağır bir cinayət törətmişlər. Bu cinayət o vaxt cəzasız qalsa da, gələcəkdə belə cinayətlərin qarşısını almaq üçün beynəlxalq aləm əz səsini qaldırmalıdır. Azərbaycan xalqı bu hadisədə əzilsə də, övladları təcavüzə məruz qalsa da sınmadı. Biz bununla bütün dünyaya göstərmək istəyirik

ki, Azərbaycan xalqının müstəqillik əzmi, iradəsi, qətiyyəti möhkəmdir, dönməzdir, əbədidir. Bunu heç bir tankla, silahla məhv etmək olmaz. Azərbaycan xalqı yalın əllə tankların qarşısına çıxa bilən bir xalqdır. Bu xalq öz müstəqilliyini qorumağa, müdafiə etməyə, yaşatmağa qadir xalqdır, deməli, yaşamağa layiq xalqdır.

Eyni zamanda 20 Yanvardan keçən 10 ildə cəmiyyətimizdə inkişaf gedir, gənc nəsil yetişir. Bu nəsil də bilməlidir ki, onların ata-babalarının müstəqillik əzmini, ruhunu tank gücünə, silah gücünə sındıra bilməyiblər. Bu həm də bizim üçün qəhrəmanlıq salnaməsidir. Biz bu cür qəhrəmanlıq nümunələrindən istifadə edərək gənc nəsli tərbiyə etməliyik.

**- Bütün bunları həyata keçirmək üçün də cənab Prezidentin fərmanı ilə xüsusi Dövlət Komissiyası yaradılıb. Siz də bu komissiyanın üzvüsünüz...**

- Biz 20 Yanvar faciəsi ilə bağlı hər il ölkədə mühüm dövlət tədbirləri, ictimai tədbirlər həyata keçiririk. Əvvəllər də bu cür komissiyalar mövcud olub. Bu cür komissiyaların yaradılması 20 Yanvarın səbəblərini, dərslərini unutmağa qoymamaq, bunları yaddaşlarda saxlayıb tarixdən ibrət dərsi götürmək məqsədi daşıyırdı.

Bu il Qara Yanvarın 10 illiyi tamam olur. Ölkə başçısı, cənab Prezident Heydər Əliyev bu məsələ ilə əlaqədar xüsusi fərman imzalayıb, 20 Yanvar faciəsinin 10-cu ildönümünün keçirilməsi üzrə Dövlət Komissiyası yaradıb. Azərbaycan Prezidenti İcra Aparatının rəhbəri hörmətli Ramiz Mehdiyev də bu komissiyanın sədri təyin olunub. Prezident fərmanında bu 10 ildə keçdiyimiz yola, 20 Yanvarla əlaqədar görülən tədbirlərə bir növ yekun vurulur, qarşıda duran vəzifələr göstərilir. Gələcəkdə bu hadisənin dövlət həyatında qeyd olunması, beynəlxalq aləmdə bununla əlaqədar aparılan işlərin strateji xətti müəyyənləşdirilir. Yaradılan xüsusi komissiyanın tərkibinə bütün müvafiq idarələrin və müəssisələrin, eyni zamanda ictimai qurumların rəhbərləri daxil olubdur. Bu günlərdə komissiyanın iclası keçirildi. Orada komissiyanın görəcəyi işlər planı təsdiq olundu, bu planın bütün əhatəsi müzakirə olundu. Qarşıda bizi başqa mühüm tədbirlər də gözləyir. Bunların içərisində yanvarın 19-da keçiriləcək ümumrespublika tədbiri də var. Bundan başqa rayonlarda, idarə və müəssisələrdə, nazirliklərdə, komitələrdə bu məsələ ilə əlaqədar tədbirlər keçiriləcək, hadisənin qaranlıq tərəfləri açıqla-naçaq. Hüquq mühafizə orqanları da hadisənin bir daha qiymətləndirilməsi, cinayətkarların dəqiqləşdirilməsi, onlarla əlaqədar tədbirlərin görülməsi, görülən tədbirlərin bəyan olunması ilə bağlı tədbirlər keçirməlidirlər. Eyni zamanda mətbuat, elektron informasiya vasitələri Azərbaycan xalqına qarşı törədilən bu ağır cinayətin beynəlxalq aləmə çatdırılmasında mühüm işlər görəcəklər. Bütün bu işlər, biz hesab edirik ki, Azərbaycan dövləti yaşadıqca davam etməlidir.

**Qalib ARİF**

**“Xalq qəzeti”.** - 2000. – 7 yanvar. - N 4. - S. 1-2.

## “Bakıya qoşunların yeridilməsinə mən əmr vermişəm”

1990-cı ilin yanvarında Sovet İmperiyası "Qardaşlıq İttifaqı" pərdəsi altından öz quduz simasını göstərdi. Azərbaycana qoşun yeridənlər bu xalqa olan nifrətlərini açıq büruzə verdilər. 131 nəfərin qəddarcasına qətlə yetirilməsi, 744 nəfərin yaralanması, minlərlə günahsız şəxsin həbsi ilə nəticələnən 20 Yanvar qırğınlarından sonra Azərbaycan SSR Ali Sovetinin deputat-istintaq komissiyası yaradıldı. İqtidar və müxalifət nümayəndələrindən ibarət bu komissiya keçmiş Sovet İttifaqı rəhbərlərinin hakimiyyətdən getməsindən, yəni 1991-ci il "QKÇP"-sindən sonra güc nazirlərini sorğu-suala tutdu. Qorbaçovdan başqa, bu qanlı cinayətin icra olunmasında təqsirkar olduğu güman edilən o dövrün vəzifəli şəxsləri dindirildi.

Sonrakı dövrlərdə iki dəfə Milli Məclis bu məsələnin müzakirəsinə qayıtdı. Hər iki müzakirələr zamanı 20 Yanvar qırğınlarının törədilməsində keçmiş SSRİ rəhbərlərindən Qorbaçovun, Jazovun, Kryuçkovun, Bakatinin, Primakovun, Girenkonun, Mixaylovun adları çəkilsə də N.Rıjkovun adı bircə dəfə də olsun hallanmadı.

Lakin bu ilin aprel ayının 6-da Rıjkovun İrəvanda keçirdiyi mətbuat konfransında söylədiyi **"1990-cı ilin yanvarında Bakıya qoşunlar yeridilməsi haqda əmri mən vermişəm. Həmin vaxt Qorbaçov gizlənmişdi"** ifadəsi o zamankı, deputat-istintaq komissiyasının həmin istintaqı səriştəli və vicdanla aparmasına bir daha şübhə oyadır.

Rıjkovun İrəvanda verdiyi bəyanat nədənsə Azərbaycanda sükutla qarşılandı. Müvafiq orqanlar görünür, 20 Yanvar faciəsinin artıq tarixin yaddaşına həkk olunduğunu zənn etdiklərindən, Rıjkovun öz dilindən dediyi sözlərdən yapışıb bu qanlı olayın bir daha çözələnməsinə cəhd göstərmədilər. Ona görə də başda Qorbaçov və Rıjkov olmaqla əli Azərbaycan xalqının qanına bulanmış bir çox keçmiş İttifaq rəhbərlərinin əməllərinə hələ də lazımi qiymət verilməyib.

## Rıjkov erməni lobbisi rolunda

Mixail Qorbaçovun hələ Stavropolda işləyərkən ermənilərin təsiri altına düşdüyü, xüsusən tamahkar Raisa Maksimovnanın erməni sexovşikləri" ilə açıq-aşkar əlaqələri Qorbaçovların Moskvaya köçməsindən əvvəl də çoxlarına bəlli idi. Mixail Qorbaçov anti Azərbaycan mövqeyini baş katib seçilməsindən dərhal sonra büruzə verdi. Qorbaçov "perestroykasından" sonra nazirlər sovetinin sədri olan Nikolay Rıjkovun məhz nə zamandan və nəyə görə anti Azərbaycan mövqe tutması bəlli deyil.

Lakin o bəllidir ki, 1988-ci il, dekabrın 6-7-də M.Qorbaçov Nyu-Yorkda olarkən erməni lobbisi ona bir qədim əlyazma, Ayvazovskini rəsm əsərini və vaxtilə ingilis krallarına məxsus zərgərlik əşyaları, Raisa Maksimovnaya isə qiymətli qolbağı hədiyyə etmişdilər. Cəmisi üç ay SSRİ Nazirlər Sovetinin sədri vəzifəsində işləyən Nikolay Rıjkov da yaddan çıxmamışdı, ona "Şəbəkə" üslubunda hazırlanmış qiymətli məcməi və 6 stəkanaltı hədiyyə göndərmişdilər.

1989-cu ilin yanvarında DQMV-də Xüsusi İdarə formasının tətbiq edilməsində və həmin idarəyə Rıjkovun yaxın dostu Arkadi Volskinin rəhbər təyin edilməsində ABŞ-dan göndərilən erməni hədiyyələrinin yəqin ki, xüsusi rolu olmuşdur. DQMV-nin istehsal müəssisələrinin əvvəlcə Azərbaycanın tabeçiliyindən çıxarılıb İttifaq müəssisələrinə tabe etdirilməsində və bir qədər sonra həmin müəssisələrin Ermənistanın sahə nazirlərinə tabe etdirilməsindən Rıjkov vəzifəsində də sui istifadə edərək əhəmiyyətli rol oynamışdı.

Ermənistandakı zəlzələdən sonra Moskvadakı iş yerini buraxıb təxminən bir ay İrəvanda oturan N.Rıjkov dekabrın 14-də Eçmiədzində bu gün ermənilərin ali patriarx-katolikosu 1-ci Vazgenlə görüşmüş, Dağlıq Qarabağ münaqişəsinin ermənilərin xeyrinə həll olunması üçün əlindən gələni edəcəyini vəd vermişdi.

N.Rıjkovun Azərbaycana qarşı rəğbətinin olmaması hələ 1988-ci ildə, Spitak zəlzələsinin nəticələrinin aradan qaldırılması məqsədilə Bakıdan uçan İL-76 təyyarəsinin Gümrü ətrafında qəzaya uğradılmasından sonra dekabrın 12-də jurnalistlərə verdiyi müsahibəsindən aydın hiss edilirdi: "Bu yaxınlarda qəzaya uğramış İL-76 təyyarəsi iki vahid texnika və 70 nəfərlik heyət gətirirdi. Söhbət mülki müdafiənin yola hazırladığı polklardan

gedir. Onlar məhz adamları xilas etməyə göndərilir". Rıjkov təyyarənin haradan gəlməsindən, sərnişinlərin azərbaycanlılardan ibarət olmasından, təyyarənin nə səbəbdən qəzaya uğramasından söhbət açmır. Göründüyü kimi o, iki vahid texnikanı da 70 nəfər azərbaycanlıdan üstün tutur.

SSRİ-nin süqutundan sonra bir müddət işsiz qalan Rıjkov Rusiya Dövlət Dumasına deputat seçildikdən sonra yenidən erməni lobbisi kimi fəaliyyət göstərməyə başlayıb. Hazırda o, Dumada deputat fraksiyasının başçısı olmaqla yanaşı, Ermənistan parlamenti ilə əlaqə qrupunun rəhbəridir. Bu qrupa anti Azərbaycan mövqeləri ilə tanınan Nina Danilova, Jevgeni Borsakov, Juri Nesterov və Telman Qdlyan daxildir

1997-ci ilin aprelində İrəvanda olarkən N.Rıjkov bildirmişdi ki, 1988-ci il Sumqayıt hadisələrinə siyasi qiymət verilməməsi o zamankı SSRİ rəhbərlərinin səhvi idi. Onun fikrincə, Sumqayıt hadisələrinə siyasi qiymət verilsəydi bu gün həmin sənəd Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılması üçün ermənilərin əlində başlıca vasitə ola bilərdi.

N.Rıjkovun son yarım ildəki fəaliyyəti Ermənistanın Rusiya-Belorus ittifaqına qoşulmasına nail olmaqdan ibarətdir. O, bu məqsədlə aprel və avqust aylarında Ermənistana səfər edib. Rusiya-Belorus ittifaqına daxil olmaq üçün imza toplamaq məqsədilə T.Qdlyanın başçılığı ilə Rusiya-Belorus-Ermənistan Erməni Xalq Təşəbbüsü təşkilatı yaradılıb. Bu təşkilatın başlıca məqsədi əvvəlcə Ermənistanı, sonra isə qondarma "Dağlıq Qarabağ Respublikası"nı bu ittifaqa qoşmaqdan ibarətdir. N.Rıjkovun vasitəçiliyi ilə "DQR" Milli Şurasının deputatları bu məqsədlə Rusiya Dövlət Dumasında danışıqlar aparıblar.

Çox qəribə olsa da, indiyədək qeyri-hökumət təşkilatları da N.Rıjkovun anti Azərbaycan fəaliyyətinə münasibət bildirməyiblər. Onun verdiyi bəyanatlar sükutla qarşılanıb.

**P.S.**

*Nikolay İvanoviç Rıjkov*. 1929-çu ildə Donetsk vilayətinin Dımevka kəndində anadan olub. 1959-cu ildə Ural politexnik institutunu bitirib. "Uralmaş" zavodunda direktor işləyib. 1975-çi ildə ağır və nəqliyyat maşınqayırma nazirinin 1-ci müavini, 1979-cu ildən SSRİ Plan Komitəsi sədrinin 1-ci müavini olmuşdur. 1982-ci ilin noyabrından Sov. İKP MK katibi və iqtisadiyyat şöbəsinin müdiri işləmişdir. 1985-ci ilin sentyabrından SSRİ Nazirlər Sovetinin sədri olmuşdur. 1990-cı ildə xəstəliyi ilə əlaqədar həmin vəzifədən istefa vermişdir. Hazırda RF Dövlət Dumasının deputatıdır. Yeganə qızı hüquqşünasdır.

**Nazim Mustafa**

**“Dövran”.** - 1997. – 9-11 sentyabr. - N 16. - S. 7.

## Zaman - ədalətli hakim

***Sovet qoşunlarının qanunsuz yeridilməsi nəticəsində Bakıda və respublikanın rayonlarında 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdu. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, külli miqdarda dövlət və şəxsi əmlak məhv edilmişdi. Bu quru statistikanın arxasında bütöv Azərbaycanın yaşadığı dəhşətli faciə durduğu kimi, Azərbaycan xalqının "Müstəqillik!" - deyə hayqırdığı milli azadlıq hərəkatının parlaq bir səhifəsi də yazılmışdır. İndi həmin Qanlı Yanvardan 7 il keçsə də bu gün də Azərbaycan xalqını belə bir sual düşündürür: bu faciədən qaçmaq olardımı və qanlı qırğını törədənlərin siyahısına daha kimlərin adları düşə bilər?***

### Azərbaycan xalqına qarşı təcavüz əvvəlcədən planlaşdırılmışdı

Təbii ki, 20 yanvar faciəsinin törədilməsi Dağlıq Qarabağ münaqişəsi ilə birbaşa bağlıdır. Mərkəzin xeyir-duası ilə ermənilər tərəfindən ərazi qoparmaq məqsədilə başlanan qondarma Dağlıq Qarabağ problemi ölkədə çox böyük gərginlik yaratmışdı. Artıq ermənilər «Türksüz Ermənistan» ideyasını həyata keçirmiş, 250 mindən çox azərbaycanlı qırılıb-çatılaraq dədə-baba torpaqlarından qovulmuşdu. Ən dəhşətlisi isə bu idi ki, Dağlıq Qarabağ ərazisində də ermənilərin vəhşilikləri baş alıb gedir, yerli əhaliyə qarşı terror aktları getdikcə geniş vüsət alırdı. Azərbaycan sərhədlərinə də tarixi düşmənlərimiz tərəfindən silahlı basqınların ardı-arası kəsilmirdi. Belə bir vəziyyətdə başda Əbdürrəhman Vəzirov olmaqla respublikanın qul psixologiyalı keçmiş rəhbərliyi heç bir qəti tədbir görmürdü. Bütün bunların «ilhamçısı və təşkilatçısı» isə, təbii ki, Qorbacov başda olmaqla mərkəzi rəhbərlik idi. Bu rəhbərliyin prinsipsiz, xəyanətkar mövqeyi nəticəsində Azərbaycan günbəgün faciə girdabına yaxınlaşdırılırdı. Əhalinin səbr kasası daşır, xalqın iradəsinə zidd hakimiyyətə qarşı üsyan psixologiyası formalaşır və bu fonda o dövrdə məhz Azərbaycan Xalq Cəbhəsi onun iradəsini əks etdirirdi. Kütləvi etiraz mitinqləri genişləndikcə xalqla hakimiyyət arasında körpülər sürətlə alışıb yanır, vəzifə kürsüsündə oturanlar isə mərkəzin ətəyindən daha möhkəm yapışaraq öz xalqına divan tutulmasına belə razılıq verirdilər.

İstintaqla təsdiq edilmişdir ki, Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirov, Nazirlər Sovetinin sədri Ayaz Mütəllibov və başqaları Moskvaya şifroqramlar göndərərək Bakıya qoşun göndərilməsini tələb etmiş, 1990-cı il yanvar ayının əvvəllərindən etibarən isə SSRİ Müdafiə Nazirliyinin, Daxili qoşunların və DTK-nın böyük hərbi kontingentinin respublikaya gətirilməsinə, onların Qala və Nasosnu aerodromlarında, respublika stadionunda, habelə Salyan kazarmasında yerləşdirilməsinə şərait yaratmışlar. Bu, təsdiq olunmuş elə bir faktdır ki, həm cavab, həm də cinayətə görə cəza tələb edir. Bu gün özgə torpaqlarında sığınacaq tapanlar gec-tez xalqın məhkəməsi önündə dayanacaqlar.

Bütün təhlillər bir nəticəyə aparıb çıxarır: sovet imperiyası Azərbaycanda qırğın törətməliymiş, özü də Azərbaycanın keçmiş rəhbərlərinin əli və razılığı ilə. Əks-halda 1990-cı il yanvarın ilk ongünlüyündə Bakıda daxili qoşunların 12.000 əsgəri olduğu halda ayın 13-14-də talanların qarşısı niyə alınmadı? Bəs o vaxt Azərbaycan SSR-in DİN qüvvələri niyə seyrçi mövqe tutdular, yaxud onların silahları hansı məqsədlə yığılmışdı?

Beləliklə, mövqesizlik və hakimiyyətsizlik vakuumunda AXC təbii olaraq xalq arasında artan nüfuzundan istifadə edərək, real vəziyyəti və onun gələcək nəticələrini lazımınca qiymətləndirmədən yanvarın 13-də hərbi Müdafiə Şurasının yaradılmasını elan etdi. Həmin şuraya Əbülfəz Əliyev, Etibar Məmmədov, Rəhim Qazıyev, Nemət Pənahov və Xaliq Hacıyev daxil olmuşdular. İstintaq müəyyən etmişdir ki, Milli Müdafiə Şurasının üzvləri şəhərə qoşun yeridiləcəyini bilsələr də emosiyaya qapılaraq əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə faydalı bir təklif həyata keçirməmişlər. Həmin şuranın üzvləri, həqiqətən də, keçmiş SSRİ-nin və yerli hakimiyyət rəhbərlərinin Azərbaycan xalqına qarşı yeritdiyi cinayətkar siyasətin əleyhinə çıxış etsələr də, dikər tərəfdən dinc əhalinin həyatının təhlükə qarşısında olmasına real qiymət verə bilməmişlər.

Yanvarın 17-də Respublika Elmlər Akademiyasının əsas binasının girəcəyində belə bir elan vurulubmuş: «hərbi iş sahəsində səriştəsi və nəzəri hazırlığı olanlar yazılı surətdə EA-nın partiya komitəsinə müraciət etsinlər». Hərbi cərrahlar isə könüllü olaraq səfərbərliyə çağırılırdılar. Bütün bunlar ehtiyatsızlıq olmaqdan başqa dünyada ən böyük hərb maşını olan bir ölkənin içində əliyalın xalqı «hərbi səfərbərliyə» çağıran faciəli sadəlövhlük idi. Bu, həm də xalqın özünümüdafiədən başqa çıxış yolu olmaması ilə də bağlı idi.

**Qırmızı Ordunun şəhərə girəcəyi bilinirmiş**

Yanvarın 18-19-da AXC nümayəndəsi ilə Sov.İKP MK katibi Girenko, Bakı qarnizonunun rəisi general Sokolov, Azərbaycan KP MK-nın ikinci katibi Polyanicko, həmçinin Moskvadan gəlmiş digər rəhbərlərlə görüş olmuşdu. «Azadlıq» radiosu saat 11-ə işləmiş - faciənin başlanmasından təxminən iki saat əvvəl AXC ilə hərbçilərin danışıqlarının baş tutmamasını və ordunun gecə şəhərə girəcəyini bildirmişdi. Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri Şeyxülislam hacı Allahşükür Paşazadə də qəzetimizə verdiyi müsahibəsində təsdiq etmişdi ki, Bəxtiyar Vahabzadə ilə birlikdə AXC-yə gedərək ordunun şəhərə girəcəyini məlumat vermişlər. Başqa faktlar da var. Lakin sirr deyil ki, faciənin yaxınlaşdığı dəqiqələrdə də MK-nın yanındakı mitinqə avtobuslar gəlir, yollardakı piketləri möhkəmlətmək üçün adamlar səfərbər edilirdi.

Yanvarın 19-da axşam saat 8-də AXC nümayəndəsinin televiziya ilə çıxışı nəzərdə tutulmuşdu. Bu məlumat AXC nümayəndəsinin həmin gün Polyanicko ilə görüşü ərəfəsində yayılmışdı. Sonradan bəlli oldu ki, televiziya ilə AXC tərəfdən tətilin dayandırılaraq yolların açılması, mərkəzin isə Vəzirovun istefasını qəbul etməsi elan ediləcəkdi. Lakin danışıqlarda razılıq əldə etmək mümkün olmamışdı.

Bakıda fövqəladə vəziyyətin tətbiq edilməsi Moskvanın «Zaman» proqramı ilə elan edilməli idi. Lakin saat 19-30 radələrində televiziyanın enerji bloku partladıldı. Rəsmi hakimiyyət isə radio ilə bir daha saxta məlumat verərək xalqı aldatdı. Bu sətirlərin müəllifi şahiddir ki, radionun «Günün səsi» (saat 21-də efirə çıxırdı) proqramında belə bir məlumat oxundu: Texniki nasazlıq üzündən televiziya verilişləri qısa müddətə kəsilib, təmir işləri aparılır və TV-nin işi tezliklə bərpa olunacaq. Bu, Azərbaycanın keçmiş rəhbərlərinin xalqa qarşı daha bir xəyanətkarlığı idi.

**Xalq 20 yanvar faciəsinə siyasi-hüquqi qiymət verilməsini tələb edirdi**

Faciədən dərhal sonra ona ilk siyasi və hüquqi qiymət verən o vaxt Moskvada təqib olunan Heydər Əliyev olmuşdu. O, həyatını təhlükə altında qoyaraq nümayəndəliyə gəlmiş və Azərbaycan xalqına qarşı təcavüz olunduğunu bütün dünyaya bəyan etmiş, müqəssirləri göstərmiş, ən çətin anda belə öz vətəndaşlıq borcunu yerinə yetirmiş, xalqla birlikdə olduğunu bir daha sübut etmişdi. Bu bəyanat Azərbaycan xalqının haqq səsi, harayı idi.

Faciədən iki gün sonra 1990-cı il yanvarın 22-də çağırılan Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyasında respublikanın əksər siyasi və dövlət rəhbərləri iştirak etmişdilər. Sessiyaya respublika rəhbərlərinin gəlməmələri onların xalqın taleyinə biganə qaldıqlarını, törədilmiş cinayətdə bu və ya dikər formada iştirak etdiklərini təsdiq etmişdi. Buna baxmayaraq sessiya yanvar hadisələrinə qiymət verməyə cəhd göstərmişdi. Lakin sonradan Ayaz Mütəllibov başda olmaqla Azərbaycanın siyasi rəhbərliyi sessiyanın qərarlarına zidd hərəkət etmiş və bu faciəyə siyasi-hüquqi qiymət verilməmişdi. AKP MK da o vaxt siyasi-hüquqi qiymət verməkdən boyun qaçırmışdı.

**Siyasi-hüquqi qiymət verildi**

Bütün təqiblərə məruz qalmasına baxmayaraq, Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1990-cı il noyabrın 21-də 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət vermişdi. Sessiyanın qəbul etdiyi sənəddə qeyd olunmuşdur ki, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri

Qorbacov, Sov.İKP MK katibi Girenko, SSRİ Müdafiə naziri Yazov, SSRİ Daxili İşlər naziri Bakatin. Sov. İKP MK-nın məsul işçisi Mixaylov, Azərbaycan KP MK-nın birinci katibi Vəzirov, Nazirlər Sovetinin sədri Mütəllibov, Azərbaycan KP MK-iın büro üzvləri - Polyanicko, Müslüm Məmmədov, Vaqif Hüseynov xalqa qarşı həyata keçirilən bu siyasi və hərbi qəsd üçün cavabdehdirlər və birbaşa məsuliyyət daşıyırlar.

Həmin tarixi sənədin qərar hissəsi belədir:

1. 1990-cı ilin yanvar ayında Bakı şəhərində törədilmiş qanlı hadisələr Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirilsin.

2. Dinc əhaliyə, silahsız kütlələrə, heç bir müqavimət göstərməyən günahsız adamlara qarşı müasir silahla, hərbi texnika ilə zorakılıq edilməsi, qoca-ların, qadınların, uşaqların qətlə yetirilməsi Azərbaycan xalqına qarşı acıq təcavüz kimi ittiham edilsin.

3. Bir ilə yaxın vaxt keçməsinə baxmayaraq, Bakı faciəsinə Azərbaycan SSR-in ali hakimiyyət orqanları tərəfindən siyasi qiymət verilməmişdir. Bununla əlaqədar yaradılmış deputat komissiyasının işinin qeyri-müəyyən səbəblərdən başa çatdırılmamasına, qanlı hadisələrin günahkarlarının aşkara çıxarılıb qanuni məsuliyyətə verilməməsinə qəti etiraz olunsun.

Azərbaycan SSR Ali Sovetindən tələb edilsin ki, ən qısa müddətə həmin məsələ parlamentin müzakirəsinə çıxarılsın.

4. Bu qərar qəbul edilən andan 20 yanvar günü hər il Naxçıvan Muxtar Respublikasında milli matəm günü kimi qeyd edilsin.

5. Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin ki, 20 yanvar günü hər il Azərbaycan SSR-də milli matəm günü kimi qeyd edilsin.

Qeyd etmək lazımdır ki, respublikada kommunist reyimi mövcud olduğu zaman 20 yanvar faciəsinə siyasi qiymət verilməsini dəfələrlə tələb edən AXC hakimiyyətdə olduğu bir il ərzində (Azərbaycan Respublikasının sabiq prezidenti Əbülfəz Elçibəy, Azərbaycan Respublikası Ali Sovetinin sədri İsa Qəmbərov) faciəyə siyasi qiymət vermək üçün öz imkanlarından istifadə etməmişlər. Fakt odur ki, Milli şura 20 yanvar hadisələrinə qiymət vermək əvəzinə 1992-ci il yanvarın 19-da qəbul etdiyi qərarı ilə deputat istintaq komissiyasının rəyini qənaətbəxş hesab edib, onu təsdiq etməklə kifayətlənmişdir. Beləliklə, 20 yanvar faciəsi Azərbaycan Respublikasının ali qanunvericilik orqanının qərarında öz siyasi-hüquqi qiymətini tapmamışdır.

Yalnız Heydər Əliyev hakimiyyətə yenidən xalqın tələbi ilə qayıtdıqdan, faciədən dörd il sonra 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi. Azərbaycan Respublikasının Milli Məclisi 1994-cü il 29 mart tarixli qərarı ilə «1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında» qərar qəbul etdi. Prezident Heydər Əliyev öz üzərinə düşən daha bir tarixi vəzifəni yerinə yetirdi. Dövlət başçımızın 1994-cü il yanvar ayının 12-də 20 Yanvar faciəsinin dördüncü ildönümünün keçirilməsi ilə əlaqədar yaradılmış dövlət komissiyasının iclasında söylədiyi bu fikirlər deyilənləri təsdiq edir: «Faciənin törədilməsindən dörd il keçməsinə baxmayaraq hələ indiyədək bu hadisələrin səbəbləri qəsdən gizlədilmiş, cinayətkarların aşkar edilməsi və faciəyə siyasi-hüquqi qiymət verilməsi bilərəkdən unudulmuşdur. Belə hesab edirəm ki, bu məsələlərin açıqlanmaması, müəyyən qrupların cinayəti kimi ört-basdır edilməsi Azərbaycan xalqına, ölkəmizə qarşı törədilmiş xəyanətdir. Bu cinayət açılmalıdır və bunu gələcək nəsillər yox, biz acmalıyıq. Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ də müəyyənləşdirilməmişdir».

Bəli, 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verildi, faciəni törədənlər, Azərbaycan xalqına təcavüz edənlər göstərildi. Lakin tam əminik ki, «Çalxalandıqca, silkələndikcə zaman nehrə kimi» hələ çox sirlərin üstü açılacaq. Çünki tarix ən ədalətli məhkəmə, ən ali hökmdardır.

**Səyyad AĞBABALI**

**“Respublika”.** - 1997. – 18 yanvar. - N 5. - S. 3.

## Xalq şairi Bəxtiyar Vahabzadə: "Sessiya çağırmaq şəxsi təşəbbüsüm idi"

**"Respublika" qəzetinin əməkdaşı Alxan Bayramoğlu "Şənbə keçəsinə gedən yol" kitabının müəllifi, xalq şairi Bəxtiyar Vahabzadə ilə görüşüb ondan 1990-cı ilin sarsıntılı yanvar günlərində Bakıda olan ictimai-siyasi durum barədə öz fikrini söyləməyi xahiş etmişdir. Həmin söhbəti oxuculara təqdim edirik.**

— Bəxtiyar müəllim, neçə bilirsiniz, 1990-cı ilin "şənbə keçəsi" zəruri idimi?

— Mən o barədə bir kitab da yazmışam. - "Şənbə keçəsinə gedən yol". Əslinə baxsan, mən siyasətçi deyiləm. Amma belə şeyi zəruri hesab eləmirəm. Düzdür, Xalq Cəbhəsi fəaliyyətdə idi, milli azadlıq hərəkatı var idi, milli azadlıq duyğuları yetişmiş, cavanlarımız milli şüura çatmışdılar, amma bütün bunlar "Şənbə gecəsi"ni zəruri hesab etməyə əsas vermirdi.

— Bəs hadisələrin içində olan adam kimi, şənbə gecəsinin törənməsinin obyektiv və subyektiv səbəbləri barədə nə deyə bilərsiniz?

- Hə, amma mən hiss eləyirdim ki, cavanların hərəkətləri - yolları avtobus, trolleybus, hətta "Moskviç" maşınları ilə kəsərək "barrikadalar" qurmağa çalışmaları yaxşı nəticə verməyəcək. Onlar bu əməlləri ilə rus qoşununun və ya tankların qabağını kəsmək əvəzinə imperiyanın əlilə üstümüzə qoşun yeritmək üçün dəstəvuz verirdi. Bu barədə həmin günlərdə Aeroport yolunun bəri başında, dördyolun yaxınlığında yola "Moskviç", avtobus qoyan cavanlara da dedim. Cavab verdilər ki, müəllim, bunlar senlik deyil, öz yolunla get... Odur ki, qoşunun yeridilə biləcəyini hiss eləyirdik. O günlərdə ermənilər silahlandırılırdı. Amma bizdəki ov tüfəngləri də yığışdırılırdı. Mən hələ o vaxt, - 90-cı il yanvarın 10-15-i arası gördüklərimin təsiri altında yazdığım şerin bir yerində deyirdim:

Mərkəz dəyişdirir gündə rəngini
Mərkəz məni görür, heç onu görmür.
Bizdən yığışdırıb quş tüfəngini
Amma erməninin tolunu görmür.

Bütün bunlar bizə əsas verirdi ki, imperiyanın Azərbaycana qarşı məkrli bir plan hazırlaması qənaətinə gələk. Amma yuxarıda dediyim hərəkətlərlə imperiyanın əlinə biz də bəhanə verdik ki, Bakıya qoşun yeritsin. Etirazımızı başqa şəkildə də edə bilərdik, amma belə oldu...

Təhlükə hiss elədiyimizə görə bir qrup ziyalı - rəhmətlik İsmayıl Şıxlı, mən, Nurəddin Rzayev, Şeyx Allahşükür Paşazadə və Həsən Həsənov yanvarın 17-də Ə.Vəzirovun yanına getdik. Kabinetə girəndə Primakovla Girenkonu da orada gördük. Mən dərhal Primakovun üstünə hücum çəkdim ki, bizdən nə istəyirsiz, niyə əl çəkmirsiz? Sizə nə pisliyimiz keçib?

Bunu görən Vəzirov qalxıb məni quçaqlayıb sakitləşdirməyə çalışdı. Bu zaman Şeyx məndən də kəskin şəkildə Primakova hücum çəkdi. Onda Primakov qayıtdı ki, axı biz dost idik. İki ay bundan əvvəl evində məni qonaq etmişdin. İndi sənindəmi üzün döndü? Şeyx cavabında dedi, onda qonaq kimi gəlmişdin, əzizim idin, amma indi hiss edirəm ki, xoş niyyətlə gəlməmisən. Xalqıma qarşı təhlükə olan yerdə mən heç kəsi tanımıram. Düzünü de görüm, qırğın olacaq, ya yox? Onlar bizi sakitləşdirməyə çalışdılar ki, qırğın olmayacaq. Ancaq o Vəzirov ki, deyir, mənim xəbərim yoxdur, yalan deyir. Primakovgil bir həftə əvvəl Bakıya gəlmişdilər. Vəzirov da bilirdi ki, şəhərə hücum olacaq. Bunu biz də hiss etdiyimiz üçün kabinetdən çıxanda H.Həsənov dedi ki, qırğın olacaq. Şeyx də o fikirdə olduğunu bildirdi.

Odur ki, oradan, Həsəndən başqa, biz dörd nəfər Xalq Cəbhəsinin qərargahına getdik. Orada Nəcəf Nəcəfovu tapıb gəlişimizin səbəbini, qırğın təhlükəsindən qorxduğumuzu söylədik. Nəcəf bizi arxayın etdi ki, qırğın olmayacaq. Çölə çıxanda mənim qoluma girib dedi, Bəxtiyar müəllim, 9 aprel Tiflis qırğınından sonra

rusların başı daşa bərk dəyib. Onlar bu hadisənin qorxusundan Bakıya qoşun yeridə bilməzlər. Düzü, Nəcəfin bu məntiqi mənim də beynimə batdı.

- Bəxtiyar müəllim, o zaman qırğın törədilib-törədilməyəcəyi barədə camaat da təşviş və narahatlıq keçirir, hökumətə bu sualla çoxsaylı müraciətlər olurdu. Onda Azərbaycan KP MK-nın ideoloji işlər üzrə katibi Əfrand Daşdəmirov radio və televiziya ilə xalqa bildirdi ki, heç bir qırğın olmayacaq. Belə çıxır ki, o zamankı yerli hakimlər imperiya qüvvələri ilə əlbir olub camaatın başının altına yastıq qoyub, onlar uçun qırğın hazırlayırmışlar.

- Bu işlər hakimiyyətdə olanların əli ilə olub. Hər birinin nə qədər günahı varsa, onu bir Allah bilir.

- Yanvarın 13-də Xalq Cəbhəsi tərəfindən Milli Müdafiə Komitəsi yaradılmasını nə dərəcədə məqsədəuyğun hesab edirsiniz? Orada Nemət Pənahov çıxışında bildirdi ki, lazım gəlsə, döyüşmək uçun silahımızda var. O, silah götürəcəkləri mənbələri də sadaladı. Mənə məlumdur ki, bu çıxışdan sonra polis orqanlarında, həbsxanalarda, hərbi hissələrdə, hərbi komissarlıqlarda çalışan azərbaycanlıların hamısını tərksilah edib bütün işlərdən kənarlaşdırmışdılar. Bu işlərin səbəbini onlar "şənbə keçəsi"ndən sonra bildilər. Onuda deyim ki, MMK-si yaradılması xəbərindən və N.Pənahovun çıxışından sonra sanki meydandakı camaatın üstünə su ələndi. Hamı sükuta daldı və pıçıltı ilə bir-birlərinə dedilər ki, qırğın olacaq. Neçə bilirsiniz, N.Pənahovun o çıxışı düşünülmüş çıxış idi, yoxsa emosiyadan irəli gəlirdi?

- Məncə, bu, arının yuvasına çöp uzatmaq idi. Lazım deyildi. O meydanda olan çıxışların bir qismi artıq idi. Mən emosiyalı çıxışları nəzərdə tuturam. Mənim özüm də emosional adamam. Ancaq siyasət emosiyanı sevmir. Siyasətdə ağıl gərəkdi. Bilirsən, düşmən çox hiyləgərdir. Ona görə siyasətdə eyforiya olmaz...

Şənbə keçəsinin səhərisi indiki Prezident Aparatı binasının qabağındakı mitinqdə çıxış edib partbiletimə tüpürərək atdım. Həmin anlarda içimdə sanki soyuq külək əsirdi...

Ordan telestudiyaya gəldim. İstədim deputatları yığıb sessiya çağıram. Pilləkənləri çıxanda dedilər ki, televiziyanın enerji blokunu partladıblar. Gedib oranı görəndə "şənbə keçəsi"ndəki qırğının şahidi olarkən keçə evdə ağladığım kimi hönkürdüm... Çölə çıxanda həyətdə bir neçə adamın əhatəsində bir rus generalı gördüm.

- General Dubinyakımı?

- Kim idisə, bilmədim. Şığıyıb onun üzünə tüpürdüm ki, bu xalqdan nə istəyirsiz? Niyə başımıza bu çur müsibətlər açırsız? O, əvvəl duruxdu, sonra əlini tapançasına aparıb məni vurmaq istədi. Rejissor Nazim Abbasov onun əlini tutub mənim kimliyimi ona söylədi...

Məni maşına oturdub radioya gətirdilər. Oradan deputatlara müraciət edib sessiya çağırdım.

- Sessiya çağırmaq şəxsi təşəbbüsünüz idi, yoxsa bu haqda kimlərləsə məsləhətləşmişdiniz?

- Heç kəslə məsləhətləşməmişdim. Sessiya çağırmaq şəxsi təşəbbüsüm idi. Oradan evə gəlib "Azadlıq" radiostansiyasına - mirzə Xəzərə zəng edib əhvalatı danışıb, bu hadisəni dünyaya yaymasını xahiş etdim. Sağ olsun, o vaxt Mirzə Xəzər səsimizin dünyaya çatmasında bizə çox kömək etdi.

- Mirzə Xəzər tək sizin yox, ona zəng vurub qırğınla bağlı müəyyən məlumat verən çox adamın səsini dünyaya yayırdı.

- Bəli. Səhəri gün bütün deputatlar gəldilər. Saat 10-da sessiya başlandı. Elmira Qafarova dedi ki, mən sessiyanı apara bilmərəm. Onun imzası ilə o zaman dəhşətli bir etiraz notası yaymışdıq.

Bu etiraz tez-tez radioda da səslənirdi. O, çox qorxurdu. Dedim, onda çəkil kənara. Sessiyanı özüm açdım. Sonra gördüm bu işdə təcrübəm yoxdu, rəhmətlik İsmayıl Şıxlını köməyə çağırdım. O, sessiyanı axıradək idarə etdi. Yaxşı da qərarlar qəbul etdik...

Həmin keçə saat 2-də E.Qafarovanın kabinetindən zəng edib Çingiz Aytmatov və Oljas Süleymenovla danışıb əhvalatı bildirdim və onları Bakıya çağırdım. Çingiz gəlmədi. Amma Oljas dedi ki, xəstə olsam da gələcəyəm. Doğrudan da, o gəldi. Xəstə idi. İki gün Bakıda yatandan sonra qırğın yerlərinə və Şəhidlər Xiyabanına baş çəkdi... O zaman Oljasın bizə çox köməyi dəydi.

- Bəxtiyar müəllim, sizcə, o zaman Azərbaycana qüvvətli bir adam rəhbərlik etsə idi, bu qırğın törəyərdimi?

- Məncə, yox. Bilirsən, ay oğul, milli qanı olan adam, qüvvətli şəxsiyyət olan, vəzifə stolundan qorxmayan adam belə bir işə qətiyyən qol qoymazdı.

Ermənilər bu işə çoxdan hazırlaşmışdılar. Onlar Qorbaçovun əli ilə Heydər Əliyevin hakimiyyətdən uzaqlaşdırılmasına nail olan kimi daha da fəallaşdılar. Əgər o zaman Heydər Əliyev Azərbaycanda rəhbər olsaydı, bu qırğın olmazdı. Heç kəs belə bir işə cəsarət etməzdi. Yeri gəlmişkən, mən Türkiyədə müalicə olunarkən ölkə prezidenti Süleyman Dəmirəl cənabları tərəfindən qəbul edildim. Onda Lissabonda olan hadisələrin çoxundan xəbərim yox idi. Bu barədə Süleyman Dəmirəldən soruşdum. O, Heydər Əliyevin Lissabonda gördüyü işlərdən, neçə bir çeviklik və cəsarətlə diplomatik gedişlər edərək 52 dövlətin dəstəyini almağa nail olmasından danışıb dedi ki, Heydər Əliyevin qədrini bilin.

- Xalq hərəkatının ilk dövründə meydanda İsmayıl Şıxlı, Siz, Anar, Yusif Səmədoğlu və başqaları kimi sözükeçən, xalq tərəfindən qəbul edilən ictimai xadimlər çıxış edirdilər. Onda tribunaya yaxınlaşıb sez demək çoxlarının ürəyindən keçsə də, hamı sərhəd gözləyirdi. Ancaq 1989-cu ilin noyabrında olan mitinqlərin birində N. Pənahov bəyan etdi ki, heç kəs tribunaya çıxmasın. Hamı aşağıda dayansın. Oradan camaat kimi məsləhət görsə, ona da söz veriləcək. Ondan sonra ziyalılar müşahidəçi mövqeyinə keçdi. Xalq Cəbhəsinin üzvləridə sonralar ziyalıları qınayırdılar ki, onlar xalqın taleyinə biganədirlər... Bu, əlbəttə, belə deyildi. Birdə ki, məncə, Siz ağsaqqallar o zaman özümüzünkülərin əli ilə hərəkatdan uzaqlaşdırılmasaydınız, yəqin ki, hadisələr bu yöndə inkişaf etməzdi. Çünki, ziyalılar çəkiləndən sonra hadisələr bir növ "piyadaların əli ilə" idarə edilə bilməyib, öz axarını dəyişdi.

- Bilirsən, ay oğul, o zaman bizi incitdilər. Pisikdirəndən sonra da qınadılar ki, kənarda durursunuz. O zaman mənim 63 yaşım vardı. Mən gedib kimisə itələyəsi deyildim ki, mənə söz ver.

Əslində N. Pənahov mənə və mənim yaradıcılığımdakı milli təəssübkeşliyə həmişə hörmət eləyib. İndi də hörmət eləyir. Bununla bərabər o zaman biz ziyalılar onu da hiss edirdik ki, bizim meydanda tez-tez görünməyimiz çoxlarını narahat edirdi.

O zaman İ. Şıxlı da, mən də Xalq Cəbhəsinin Ağsaqqallar Şurasının üzvü idik. Cəbhənin tədbirlərində fəal iştirak edirdik. Ancaq hiss edirdik ki, üzümüzə açıq deməsələr də, bizim oraya gəlməyimizi çoxları istəmir. Bir dəfə iclasda bir neçəsi nalayiq söyüşlərlə dalaşdı. Biz hər ikimiz müəllimik, belə şeyləri götürə bilməzdik. İsmayıl da ağır adamıdı. Dedi, Bəxtiyar, bura bizim yerimiz deyil. Dur gedək. Biz çıxanda dalımızca dedilər , hara gedirsiniz? Sonra da rişxənd etdilər ki, hə, gedin, kedin. İsmayıl qayıtdı ki, a bala, bir utanın, ağsaqqal var, qarasaqqal var, ayıbdı axı. Bu nə hərəkətdir. Biz belə yerdə otura bilmərik.

Ancaq yenə də deyirəm, ziyalılar heç vaxt xalq hərəkatından kənarda qalmayıb.

**"Respublika".** - 1997. – 18 yanvar. - N 5. - S. 2.

## Şeyxülislam Hacı Allahşükür Paşazadə: "Mənə hakimiyyəti götürmək təklif olunurdu"

*"Faciənin törədilməsindən 4 il keçməsinə baxmayaraq, hələ indiyədək bu hadisələrin səbəbləri qəsdən gizlədilmiş, cinayətkarların aşkar edilməsi və faciəyə siyasi-hüquqi qiymət verilməsi bilərəkdən unudulmuşdur. Belə hesab edirəm ki, bu məsələlərin açıqlanmaması, müəyyən qrupların cinayəti kimi ört-basdır edilməsi Azərbaycan xalqına, ölkəmizə qarşı törədilən xəyanətdir. Bu xəyanətin üstü açılmalıdır və bunu gələcək nəsillər yox, biz açmalıyıq."*

*(Azərbaycan Prezidenti Heydər Əliyevin 1994-cü il yanvar ayının 12-də 20 Yanvar faciəsinin 4-cü ildönümü münasibətilə yaradılmış dövlət komissiyasının iclasındakı çıxışından).*

20 Yanvar faciəsindən Azərbaycan xalqını 7 illik zaman kəsiyi ayırır. Bu faciə siyasi-hüquqi qiymətini yalnız 1994-cü ildə Prezident Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə aldı. Bununla belə hələ açılmamış çox sirlər var. Əməkdaşımız Səyyad Ağbabalının Qafqaz Xalqları Ali Dini Şurasının sədri Şeyxülislam Haçı Allahşükür Paşazadə ilə müsahibəsi də deyilənləri təsdiq edir.

**SUAL**: Şeyx həzrətləri, 20 Yanvar faciəsinin 7-ci ildönümü ərəfəsində həmin günləri hafizənizdə neçə canlandırırsınız?

**CAVAB**: -Bismillahir-Rəhmanir-Rəhim! 1990-cı ilin 20 Yanvarına xəyalən də olsa qayıtmaq çox ağrılıdır, acıdır. Peyğəmbər Əleyhissəlam buyurmuşdur: "Əkər siz bir nəfəri öldürürsünüzsə, demək olar ki, bütün adamları öldürürsünüz". 20 Yanvarda nə qədər adamı torpağa tapşırmışıq?! Nə qədər adam yaralanıb, ömürlük əlil olub, itkin düşüb?! Bu o deməkdir ki, bütöv bir nəsli dəfn etmişik.

Yanvarın 17-də MK-nın birinci katibi Ə. Vəzirovla görüşüb ona təklif etdim ki, istefa versin. Dedim ki, çıx televiziya vasitəsilə xalqdan üzr istə. De ki, gəlmişdim kömək etməyə, amma edə bilmədim və gedirəm. Ancaq Vəzirov bu təklifi qəbul etmədi. .

Yanvarın 18-i idi. Qoşunlar hələ Bakıya daxil olmamışdı. Mən, Bəxtiyar Vahabzadə və Həsən Həsənov MK-ya getdik. Vəzirovla görüşmək istədik. Amma bu baş tutmadı. Sonra Həmin günlər Bakıda olan Sov. İKP MK-nın katibi Girenko və Moskvadan gəlmiş dikər yüksək vəzifəli rəhbərlərlə görüşə bildik. Xahiş etdik ki, Bakıya qoşun yeridilməsin. Onlar dedilər ki, bu xalq qeyri millətlərin, rusdilli əhalinin nümayəndələrini qırmaq istəyir. Dar ağacları hazırlayıblar. Əkər sən respublikaya rəhbərliyi öz üzərinə götürsən, baş verə biləcək hadisələrin qarşısını alacağına söz versək, biz Qorbaçovla danışarıq və Bakıya qoşun yeridilməz. Mən onlara bildirdim ki, sizin bu fikirləriniz ruhani idarəsinin başçısına qarşı təxribatdır. Mən 2 rükət namaz qılmağı sizin bütün dövlət vəzifələrindən üstün tuturam.

Onlarla əsəbi danışdım. Biz bir-birimizi tanıyırdıq. Mən SSRİ Ali Sovetinin deputatı idim. Heç vaxt belə sərt münasibətlərimiz olmamışdı. Onlar bu münasibətdən təəccübləndiklərini bildirdilər. Mənsə dedim ki, siz mənim xalqıma divan tutmaq istəyirsiniz. Ona görə də mən də sizə qarşı duracağam, nəyin bahasına olur-olsun.

MK-dan ümidsiz çıxıb Bəxtiyar Vahabzadə və onun bir qohumu ilə birlikdə Xalq Cəbhəsinə gəldik. Orada Yusif Səmədoğlunu, İsa Qənbərovu və başqalarını gördük. Hamısını xatırlamıram. Əbülfəz Əliyevlə görüşmək istədik. Dedilər harasa gedib. Onlara bildirdik ki, qoşunların Bakıya girməsi labüddür. Yalvardıq ki, heç olmasa, əlsiz-ayaqsızlara, ümumiyyətlə əhaliyə desinlər ki, qoşunlara qarşı çıxmasınlar. Təklif etdik ki, birlikdə camaatın qarşısına çıxıb vəziyyəti izah edək, adamları evlərinə qaytaraq. Bizə Cavab verdilər ki, artıq onların özlərinin də bu prosesin gedişinə təsir etmək imkanları yoxdur. Hətta belə söhbət də oldu ki, inqilab qan istəyir. Bu qan tökülməlidir.

**SUAL**: - Siz Bakıya qoşun yeridiləcəyini hardan bilirdiniz və Sizə respublikaya rəhbərlik nəyə görə təklif olunurdu?

**CAVAB**:— Şəhərdəki vəziyyət, dolayısı ilə bizə çatan məlumatlar , xəstəxanaların, hətta hərbi hospitalların boşaldılması qoşunların şəhərə girəcəyindən xəbər verirdi. Moskvadan gələn yüksək vəzifəli şəxslər çıxış edərək qoşunların Bakıya yeridilməyəcəyini vəd etsələr də əməlləri məkrli idi. Heçə də ki oldu. O ki qaldı mənə hakimiyyətin təklif olunması məsələsinə, burada Qorbaçov və onun əlaltıları incə bir oyun oynayırdılar. Mən çox yaxşı bilirdim ki, mərkəzdə yaranmış vəziyyətdən istifadə edib təqsiri İslamın boynuna yıxmaq istəyirlər. Əhaliyə divan tutandan sonra islam fundamentalizmini ortaya çəkəcək idilər. Mənim bütün qarşıdurmama baxmayaraq, sonda yenə də islam fundamentalizmi kimi uydurma ideya ortaya atıldı. Qorbaçovun yanvarın 20-dəki çıxışı da dediklərimi təsdiq edir.

Yanvarın 19-da sovet qoşunları Bakını işğal etdilər. Görünməmiş faciə baş verdi. həqiqət odur ki, ordu 14 yaşlı uşağı, qocaları, qadınları, təcili yardım maşınını gülləbaran etmişdi, Həqiqət odur ki, dünyada sülhün carçısı kimi tanınmağa çalışan Qorbaçov öz xalqına silah çevirmişdi. Özü də amansızcasına. Həmin keçə biz məscidə gələ bilmədik. Sübh tezdən xalq buraya axışmağa başladı. MK-da, Nazirlər Sovetində nələr baş verdiyindən xəbərimiz yox idi. Şəhidlər məscidə gətirilirdi. Çox gərgin və faciəsi heç bir ölçüyə sığmayan gün idi. Qəddarlığın həddi-hüdudu olmamışdı. Bədən orqanlarının biri və ya bir neçəsi olmayan meyitlər gətirilirdi. Bu dəhşətə dözməyin özü çox dəhşətli idi.

İzdiham məscidə və onun ətrafına toplaşırdı. Xalq məndən məsləhət alırdı. O vaxt bütün əlaqələr kəsilmişdi. Mənim yalnız 39-21 nömrəli telefonum işləyirdi. MK-nın ikinci katibi V. Polyaniçko hərdən zəng edib vəziyyəti soruşurdu. Mən onun haradan zəng etdiyini bilmirdim və telefon nömrəsini də demirdi.

Bura SSRİ Daxili İşlər naziri V. Bakatin də tez-tez gəlirdi. O, törədilmiş faciə ilə əlaqədar məndən üzr istədi. Lakin bu kimə lazım idi. Mən ona dedim ki, siz bizim dərdimizə şərik olsanız, bizimlə bölüşsəniz bu mənim xalqım üçün təhqir olar. Mən Bakatinin vasitəsilə hərbçilərin Bakıdan çıxarılması tələbini qoymuşdum.

Məscidə ayrı-ayrı adamlar gəlirdilər. Mən onları tanımırdım. Onlar mənə məlumat verirdilər ki, hərbçilər filan yeri dağıtmaq istəyir və ya filan yerdə toplaşıblar. Mən Bakatinə bu məlumatları deyəndə, xüsusi ilə də "Oruçov" gəmisini batırmaq istədiklərini bildirəndə təəccübünü gizlətmədi və bu xəbərləri haradan aldığımla maraqlandı. Dedim ki, camaatdan eşidirəm. Həmin günlər ayrı-ayrı adamlar məndən xeyir-dua istəyirdilər ki, qisaslarını alsınlar. Mən onlara yalvarırdım ki, qətiyyən belə hərəkətə yol verməsinlər. Çünki bir neçə əsgərin öldürülməsi faciənin təkrar olunması ilə nəticələnə bilərdi.

Yanvarın 20-də mən, Ziya Bunyadov, Arif Məlikov getdik "stavkaya". Yazov, Bakatin, Bakının komendantı Dubinyak və başqaları orada idilər. Biz içəri daxil olanda Yazov qışqırırdı, deyəsən, "Oruçov" gəmisinin kapitanının üstünə, yaxud gəmiçilik məsələlərinə rəhbərlik edənin üstünə. Tələb edirdi ki, kəmi fit verməyi kəssin. Gəmini batıracağı ilə hədələyir, adamlara divan tutduracağını söyləyirdi. Mən ona dedim ki, siz belə bağırmaqla məni qorxutmaq istəyirsiniz? Mən sizdən qorxmuram. Elə bilirəm ki, Rusiya patriarxı Alekseyin yanında belə qışqırmazdınız. Yazovun əvəzinə Bakatin üzr istədi. Mən dəfn mərasimindən əvvəl əsgərlərin şəhərdən çıxarılmasını tələb etdim. Eyni zamanda, radio ilə çıxış etmək istəyimizi bildirdik. Onlar bunun yalnız senzura ilə mümkünlüyünü söyləyəndə razılaşmadıq.

Hamı yaxşı bilir ki, həmin günlər şəhərdə həyat sanki donmuşdu. Əhali çörək çatışmazlığından şikayətlənirdi. Mən xalq qarşısında çıxış edib həyati əhəmiyyətli obyektlərin işləməsinin vacibliyini bildirdim. Onlar bununla razılaşdılar.

Dəfn mərasimini keçirməyin özüdə problemə çevrilmişdi. Belə bir təklif var idi ki, şəhidlər "26-lar" bağında dəfn edilsinlər. Amma bu qəbul edilmədi. Bu təklif ona görə idi ki, əhali televiziya və Ali Sovetin binasının yanına toplaşmasın. Onlar xalqın qəzəbindən qorxurdular. Lakin qərara alındı ki, dəfn mərasimi "Dağüstü park"da keçirilsin. Ancaq bu dəfə də problem yarandı. Camaatın arasında elə fikir yayırdılar ki, ümumiyyətlə şəhidləri dəfn etmək lazım deyil. Onları saxlamaq lazımdır, qoy dünya ictimaiyyəti görsün ki, Azərbaycan xalqının başına nə faciə gətirilib. Belə olan halda mən öz adamlarımdan bir neçəsini qaldırmağa işarə verdim və özüm də qabağa düşdüm. Beləliklə, şəhidlərin dəfn mərasimi başlandı. Əkər fikir vermisinizsə qəbirlər iki tərəfdən qazıldığından orta boş qalıb. İndi ora kül əkilir. Lap kənarda isə naməlum bir qəbir var. Bu

qəbirdə ayrı-ayrı adamların əzalarını dəfn etmişik: orda qol da var, qıç da var, köz də var, bir sözlə, dəhşətdir. Bu qəbrin taleyi belədir.

Dəfn mərasimi ilə əlaqədar qeyd edim ki, ilkin vaxtlar bütün xərcləri ruhani idarəsi öz üzərinə götürmüşdü. Bir də xalq özü köməklik göstərirdi. Yeri gəlmişkən qeyd edim ki, uç gündən sonra ilk köməklik Dərbənddən edildi.

**SUAL**: - Axı o vaxt külli miqdarda pul toplandı. Bəs o pulların taleyi neçə oldu?

**CAVAB**: - Bizim məscidə çəmi 30-40 min rubl toplanmışdı. O vaxt "Moskva" mehmanxanasında bir qərargah yaradılmışdı. 20 Yanvar şəhidlərinə yardım üçün pul ianəsi məhz ora yığılırdı. Onlar hətta gedirdilər yardım gətirənlərin qarşısını yolda kəsib pulları alırdılar. Ərzaq yardımı isə məscidə yığılır, buradan paylanırdı. Gürcüstandan, Dağıstandan, respublikamızın rayonlarından yardımlar edilirdi. O vaxt bu məsələ ilə əlaqədar komissiya yaradılmışdı. Onlardan soruşmaq lazımdır.

**SUAL**: - Yeri gəlmişkən 20 Yanvar faciəsi ilə bağlı Sizin olduqca kəskin bir bəyanatınız olub.

**CAVAB**: - Mən o vaxt Moskvada təqib olunan Heydər Əliyevin nümayəndəliyimizə gələrək dünya ictimaiyyətinə müraciətindən xəbərsiz idim. Bizim isə bütün yollarımız bağlanmışdı. Çıxış yolu tapdıq. Neçə olmuşdusa "Vətən Cəmiyyəti"nin teleksi açıq qalmışdı. Mən onların vasitəsilə bəyanatı Pakistana, Küveytə, Türkiyəyə göndərə bildim.

Həmin bəyanatın mətni belədir:

SSRİ ALİ SOVETİNİN SƏDRİ MİXAİL QORBAÇOVA
SURƏTLƏRİ: BMT-nin BAŞ KATİBİ PERES DE KUELYARA,
BÜTÜN DÖVLƏTLƏRİN VƏ DİNLƏRİN BAŞÇILARINA

Nə qədər olsa da mənim sözlərim Azərbaycan xalqının sonsuz kədərini, milyonlarla insanın ürəyinə hakim kəsilmiş müsibəti heç cür çatdırmaq iqtidarında deyil.

Mən bunları ona görə demirəm ki, Siz bizim dərdimizə şərik olasınız, bizimlə bölüşəsiniz. Bu mənim xalqım üçün təhqir olardı. Bu mənim şəhid olmuş həmvətənlərimin ruhunu təhqir etmiş olardı. Yanvarın 19-dan 20-nə keçən keçə və sonrakı günlər Bakıda törədilən vəhşiliklər heç bir ölçüyə sığmır. Şəhərin küçələri yüzlərlə günahsız qurbanların qanına boyanmışdır. Bunların arasında uşaqlar, qadınlar və qocalar vardır. Onların tankların tırtılları altında qalmış, pulemyot və avtomatlarla tikə-parça edilmiş cəsədləri insanı dəhşətə gətirir.

Bir dövlət başçısı kimi sizin imzanızla törənən bu qanlı qırğına, bu dəhşətli cinayətə heç bir bəraət ola bilməz.

Qoşunların yeridilməsi üçün uydurulmuş bütün səbəbləri Azərbaycan xalqı nifrət və qətiyyətlə rədd edir. həmin səbəblərdən biri - guya Sovet dövləti üçün təhlükə sayılan qondarma «İslam faktoru» ortaya atılmışdır.

Bununla əlaqədar mən aşağıdakıları bildirirəm. İman əhli olmaq, o cümlədən islama mənsubiyyət əslində günah hesab edilən şovinizmdən, milli lovğalıqdan uzaq olmaq deməkdir. Çox yaxşı bilirsiniz və bunu mənim Sizə vaxtilə dediklərim də sübut edir. Zaqafqaziyanın müsəlman ruhaniləri siyasi və millətlərarası münaqişələrində dindən silah kimi istifadə etmək niyyətində olmamışlar. Çox yaxşı bilirsiniz ki, diyarımızda baş verən hadisələrin ən ağır anlarında islam ağılla və bütün məsələlərin dinc yolla həllinə çağırmışdır.

Belə olduğu halda uydurma «islam faktorunu» hərc-mərclik törədən bir səbəb kimi ortaya atmaq qəzəb doğurmaya bilməz.

Tamamilə aydındır ki, bununla müəyyən məqsəd güdülmüşdür. Demək müsəlmanları xristianlara qarşı qoymaqla millətlərarası toqquşmaları daha kəskinləşdirmək niyyəti güdülmüşdür.

Siz bilin ki, bu faciə ilə bağlı əsl həqiqəti dünya ictimaiyyətinə çatdırmaq üçün əlimizdən gələni edəcəyik. Çünki, o dövlət ki. imperiya hökmranlığı niyyəti ilə millətlərarası çaxnaşmanı aradan qaldırmaq əvəzinə onu daha da qızışdırır, o dövlət ki, öz ordusunu öz vətəndaşlarının qatilinə çevirir, o dövlət ki, öz adamlarına layiqli güzərandan daha çox ölmək hüququ verir, belə dövlət ancaq nifrətə layiqdir.

Bakıda canlı insan ürəklərinə tuşlanmış qüllələr milyonlarla insanın yenidənqurmaya olan son ümidlərini məhv edən bir atəş idi.

Özlərini əsl işğalçı kimi aparan cəza qoşunlarını Bakıya yeritməklə Siz sovet hökumətini rüsvay etdiniz və bununla təsdiq etdiniz ki, müstəqillik və xalqların ləyaqəti kimi anlayışlar bu hökumətə tamamilə yaddır. Siz bununla özünüzü bir siyasi xadim və bacarıqsız bir dövlət başçısı kimi ifşa etdiniz. Sizin haqqınızda yaranmış bir əfsanə də puç oldu, çünki bir əli ilə xarici məmləkətlərə sülh sazişi, o biri əli ilə öz vətəndaşlarına qarşı cəza tədbirləri imzalayan adamı «sülh uğrunda mübariz» adlandırmaq ən azı ləyaqətsizlikdir.

Ən qanlı müharibələrdə həkimlərə, tibb yardımı göstərənlərə atəş açılmamışdı. Sizin əmrinizlə Bakıya hücum edən qoşunlar isə yaralananlara kömək göstərən iki həkimi də güllələmişlər.

Bütün Azərbaycan xalqının iradəsini ifada edərək mən Bakıdan qoşun hissələrinin dərhal çıxarılmasını qətiyyətlə tələb edirəm. Heç bir xalqla, həmçinin azərbaycanlılarla silah gücüylə danışmaq olmaz.

Bu, 10 gün, yaxud Əfqanıstandakı kimi 10 il davam edə bilər. Amma gec-tez ədalət və haqq işi qələbə çalmalıdır.

Allah-taalanın izni ilə, bu haqq işi Azərbaycanda da qalib gələcəkdir. Məhz buna görə mənim xalqımın ən yaxşı oğul və qızları özlərini sovet qoşunlarının qüllələrinə sipər etdilər. Dərin inamla və iman hissilə üzümüzü Allah-taalaya tutur və onun ulu dərgahından bu gün şəhid olan balalarımız üçün rəhmət diləyirik. Qoy Allah-taala bu fəlakəti mənim xalqımın başına gətirənləri, bu işə rəvac verənləri zəlil eləsin.

Ya Rəbb, Vətənimin, elimin bu ağır günündə bizlərə özün kömək elə, AMİN!

Yeri gəlmişkən qeyd edim ki, o vaxt Qorbaçova yaxın olan bir nəfər mənə bildirdi ki, Qorbaçov bu bəyanatı özü oxuyub və ona çox pis təsir edib. Siz qorxmursunuz?

Bu bəyanatın mətnini Almaniyaya da göndərə bildik. Karlar cəmiyyətinin rəhbəri ora uçurdu. Mətni kasetə yazdırıb "Azadlıq" radiostansiyasına çatdırdıq. Yanvarın 24-də İtaliyanın "Respublika" qəzetinin müxbiri Etsio Mauronun mənimlə telefon əlaqəsi yaradıb müsahibə aldı. Mən real vəziyyəti 40 dəqiqə ərzində ona şərh etdim.

**SUAL**: - Deyilənə görə Qorbaçov Sizinlə görüşmək istəyib?

**CAVAB:** - Bəli, o öz adamları vasitəsilə görüş barədə mənə xəbər göndərmişdi. Lakin həmin günlər mən getmədim. SSRİ Xalq Deputatlarının qurultayında isə belə bir imkan yarandı. Qorbaçov Azərbaycandan olan deputatlarla görüşdü. Ayaz Mütəllibov isə məni həmin görüşə aparmadı.

Qurultayda çıxış etmək üçün mən üç dəfə müraciət etdim. Hətta yerimdən də durdum. Lakin çıxışımın məğzini bildiklərindən mənə söz vermədilər. (Çıxışın mətni katibliyə verilmişdi). Amma fasilə zamanı ayaqüstü bir görüşümüz oldu. O dedi ki, cənab Şeyx, indi nə etmək olar? Mən dedim ki, sizə nə lazım idisə onu etdiniz. İndi vəziyyəti düzəltmək lazımdır.

**SUAL**: - Necə bilirsiniz, faciənin qarşısını almaq mümkün idimi?

**CAVAB**: - Bəli, onun qarşısını ala bilərdik. Əkər Vəzirovun istefasına nail olunsaydı. Çünki Vəzirov Moskvanın Azərbaycanda quyruğu idi. Mən elə bilirəm ki, həmin vaxt Azərbaycanda hakimiyyət davası idi. Hakimiyyətə gəlmək istəyən isə AXC idi. Xalqlıq heç nə yox idi. Əgər elə olmasaydı onlar da xalqın ağır günündə bizimlə olardılar. Həmin günlər hara qaçdılar? Dəfn mərasimində yalnız İsa Qənbərov iştirak etdi. Onu da xalq buraxmaq istəmirdi.

Bizim ən böyük səhvimiz vaxtında Heydər Əliyevi hakimiyyətə dəvət etməməyimiz oldu. Əgər Heydər Əliyev onda gəlsəydi, bəlkə o faciə də baş verməzdi, Dağlıq Qarabağ məsələsi də bu vəziyyətə gəlib çıxmazdı. Bütün bu faciələrin törədilmə məqsədi Heydər Əliyevi Azərbaycan xalqından ayırmaq idi.

O ki, qaldı 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verilmək məsələsinə, deyim ki, 1992-ci ildə qəbul edilən qərar xalqın gözünə kül üfürməkdən başqa bir şey deyildi. Prezidentimizin təşəbbüsü və rəhbərliyi ilə 1994-cü ildə Milli Məclisin qəbul etdiyi qərarı da tam hesab etmirəm. Mən hesab edirəm ki, Yanvar faciəsinin açıqlamalarını Heydər Əliyevin Moskvada təqib olunmasından, Qorbaçovun hakimiyyətə gəlməsindən, ermənilərin Qarabağ torpaqlarını birləşdirmək cəhdlərindən başlamaq lazımdır. Yalnız bu halda onun əsl qiymətini vermiş olarıq.

Son olaraq onu deyim ki, məni bir fakt daha çox yandırır. O vaxt biz şəhidlərin şəkillərini çəkdirir, paltarlarını toplayırdıq. Güllələrdən deşik-deşik olmuş sənədləri yığırdıq. Lakin onların hamısı komissiya tərəfindən toplandı.

**SUAL**: - Hansı komissiya?

**CAVAB**: - O vaxt belə bir komissiya yaradılmışdı. Onlar bütün maddi sübutları götürdülər. İndi həmin şəkillərdən, paltarlardan, avtomat güllələrindən deşik-deşik olmuş sənədlərdən, maşınlardan əbədi yaddaş ola biləcək muzey düzəldə bilərdik. Heyf ki, onları məhv etdilər, özü də məqsədli, izi itirmək üçün.

Bir daha 20 Yanvar faciəsinə bənzər faciələrə yol verməmək, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün Prezidentə kömək etməli, ona arxa olmalıyıq. Bu, yeganə çıxış yoludur. Bütün bunları əsas götürüb inamla deyə bilərəm ki, Azərbaycan xalqı heç vaxt heç kəsə təslim olmayacaqdır, inşallah!

**“Respublika”.** - 1997. – 11 yanvar. - N 3. - S. 3.

## 20 YANVARIN ƏKS-SƏDASI

### 21 YANVAR

**"Azadlıq" radiostansiyası:**

Qızıl Ordunun Bakıda törətdiyi cinayətlər Türkiyədə sərt reaksiyaya səbəb olmuş, ölkənin hər yerində mitinq və nümayişlər keçirilmişdir və keçirilir. Məscidlərdə moizələr oxunur, dualar edilir.

Ankara, İstanbul, Qars, Aralıq, Qəhrəman Marat və başqa şəhərlərdə keçirilən mitinq və nümayişlər də Sovet İttifaqının bu məqsədini müdafiə edən Birləşmiş Ştatlar pislənmişdir.

Kayseri şəhərində keçirilən mitinqdə 40 min adam iştirak etmişdir. Bu mitinqdə Türkiyə və Azərbaycan bayraqları qoşa dalğalanmışdır.

***

Azərbaycandakı vəziyyətlə əlaqədar İranın Milli Təhlükəsizlik Şurası Tehranda yığıncaq keçirmişdir. İran İslam Respublikasının çap etdiyi bəyanatda Azərbaycandakı problemləri dinc vasitələrlə həll etməyə və xalqa qarşı zorakılığı dayandırmağa çağırmışdır. İran parlamentinin 160-dan çox üzvü Qorbacovun silahlı təcavüzünü pisləmişdir.

İranın dini lideri Ayətulla Əli Xomeyni demişdir ki, baş verən hadisələrin əsas səbəbi heç də milli zamində 70 ildən bəri Şimali Azərbaycanda yaşayan müsəlman qardaşlarımızın dini əllərindən alınıb. İndi isə xalq özünə qayıdır. Bu da sözsüz ki, ruslara xoş gəlməz.

### 22 YANVAR

Günahsız qurbanların dəfni... Bir milyondan çox adam Dağüstü parka, şəhidlərlə son görüşə gəlib. Həmin gün şəhərin heç bir yerində piket keçirilmir. Dəfn mərasimlərində "Qorbacovun əlləri qanlıdır", "Cəlladlara ar olsun", "Qorbacov cəlladdır" sözləri yazılmış şüarlar aparılır. "Azadlıq" meydanında şəhidlərlə vida mərasimi keçirilir. Matəm mitinqi olur. Şəhər başdan-ayağa qara geyib. Uşaqlı-böyüklü hamı ağlayır. Gəmilərin aramsız fiti matəm mərasiminə xüsusi hüznlük gətirir. Matəm marşı "Azadlıq" meydanından Dağüstü parka qədər uzanır. Həmin gün 48 şəhid dəfn edilir.

### AZƏRİNFORM

Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinin və Vilayət İcraiyyə Komitəsinin binaları üzərində yenidən Azərbaycan SSR-in Dövlət bayrağı qaldırılmışdır.

"Sovetakan Qarabax" qəzeti Azərbaycan KP Vilayət Komitəsinin və Vilayət İcraiyyə Komitəsinin orqanı kimi çıxmışdır.

Yanvarın 22-də Azərbaycan xalqının dostu qazax şairi Oljas Süleymenov dərdimizə şərik çıxmaq üçün Bakıya gəlib. O. Süleymenov müxbirlərə bildirib ki, Bakıda baş verən hadisələrdən yanvarın 21-də xəbər tütdüm. Yanvarın 22-dən Bakıdayam. Sanki qəm və ümidsizlik dənizinə qərq olmuşam. Bəli, bu qəmli, faciəli günlərdə Bakının küçələrində çox nahaq qan axıdılıb. Axı müharibə alovlarına bürünür Əfqanıstan, Livan, Efiopiya, Anqola, Mozambik kimi ölkələrdə çox olmuşam. Lakin heç vaxt ağlıma gəlməzdi ki, bizim ölkəmizdə də belə ola bilər. Fikirləşməzdim ki, Bakıda mehmanxana nömrəsində yatdığım vaxt küllə səsləri eşidəcəyəm, şəhərin küçələri ilə gedəndə keşikçi əsgərlər məni saxlayıb müharibə dövrünün qayda-qanunları ilə yoxlayacaqlar. Bəli, qoşun şəhərdədir. İlk dəfə görürəm ki, ordu sovet şəhərində silah işlədilir. Əlbəttə, bu hadisələr diqqətlə araşdırılacaq, günahkarlar öz cəzalarını alacaqlar.

***

Britaniyanın "Qardian" qəzeti yanvarın 22-də Azərbaycanda baş verən hadisələrlə bağlı şərhində yazır:

- Kremlin göstərişi ilə yanvarın 19-da Qızıl Ordunun Bakıya girməsi böhranlı vəziyyəti sakitləşdirmək əvəzinə onu daha da gərginləşdirmişdir. Moskva silahlı qüvvələrinin istifadə etdirilməsi səbəblərini göstərərkən birinci olaraq Azərbaycan-erməni münaqişəsinin adını çəkmişdir. Belə isə, 2 ildir Dağlıq Qarabağ və onun mərkəzi Stepanakert "yanır". Qızıl Ordu öz gücünü orada niyə göstərmək istəmir? Sovet rəhbəri öz çıxışında göstərir ki, guya Azərbaycanda islam respublikası yaratmaq qərara alınmışdır. Guya çevriliş hazırlanırmış. Sovet rəhbəri bunu deyərkən görən əlində tutarlı əsası vardırmı? Bu, islam dünyasına növbəti terrordur. Sovet partiya və dövlət başçısı Qorbacovun göstərişi ilə həyata keçirilən bu hərbi əməliyyatı əsassız bir qorxu və səksəkənin nəticəsi kimi yozmaq olar.

**23 YANVAR**

Müxtəlif həbslər başlanır. Evlərdən hər gecə sorğusuz-sualsız adamlar aparılır. Həbs olunanların taleyi həftələrlə, hətta aylarla doğma və əzizlərinə naməlum qalır. Ölənlərin və itkin düşənlərin arasında intihara rast gəlinir. Müəssisələrin 80-90 faizi tətil edir. Bakı ölü şəhərə çevrilib.

Bu gündən Ali Sovetin deputat istintaq komissiyası işə başlayıb.

***

**"Baltimor-san" qəzeti, 20 yanvar:**

- Azərbaycan SSR Ali Soveti yanvarın 21-də qərar vermişdir ki, Bakıya soxulan sovet qoşunları təcili şəhərdən çıxarılmazsa, respublikanın Sovet İttifaqından ayrılması məsələsi qoyulacaq.

Ali Sovet gecə boyunca davam edən sessiyasında Moskvanın Bakıda fövqəladə vəziyyət tətbiq etmək qərarının birtərəfli olmasını qeyd etmişdir. Kremlin guya "millətin üsyanı" yatırtmaq məqsədilə verdiyi qərar Konstitusiyanın kobud surətdə pozmaq, eyni zamanda suveren respublikanın hüquqlarını tapdalamaqdır. Sovet rəhbəri, görünür, dilemma ilə üzləşmişdir.

**“Xalq Qəzeti”.** - 1996. – 20 yanvar. - N 14. - S. 2.

## Tarixin qan yaddaşı

**«HƏR BİR ŞƏHİD BİZDƏN ÖTRÜ BÖYÜK İTKİDİR. ONLARIN XATİRƏSİ BİZİM ÜÇÜN ƏZİZDİR, QƏLBİMİZDƏ DAİM YAŞAYACAQDIR».**

**Heydər ƏLİYEV.**

Zamanın ağır sınaq günündə, tayı-bərabəri olmayan bir xəyanətlə, görünməmiş vəhşiliklə üz-üzə dayandığımız o müdhiş Yanvar faciəsindən altı il keçir. Günahsız qana bələnmiş, taleyi zülm və zülmkarlar əlində oyuncağa çevrilmiş bu xalqın günahı nə idi? Nə istəyirdi bu millət? Niyə köksünə güllələr sıxıldı bu yazıq insanların? Kim idi onlar? «Azadlıq!», «Azadlıq!» — deyə hayqıran və köləlik buxovlarını qırmağa can atan xalq!

Tariximizə qanla yazılmış 1990-cı ilin 20 Yanvar günü əbədiyyətə qovuşanların unudulmaz xatirə günüdür. Azadlıq eşqi ilə alışıb-yanan oğullarımız sinələrini vəhşi imperiya tanklarının, avtomatlarının soyuq lülələrinə dirədilər o gecə. Mərdanə xalqımız öz minillik qəhrəmanlıq tarixinin təkrar edirdi o gün. Xalq qurban verə-verə oyanır, müstəqillik oduna qalanırdı.

Artıq sovet imperiyasının dayaqları laxlayırdı. 1989-cu il aprelin 9-da Tbilisidə əli qana bulaşmış imperiya cəlladları öz qeyri-insani vəhşiliklərini 1990-cı il yanvarın 20-də Bakıda, 1991-ci il Yanvarın 13-də isə Vilnüsdə davam etdirdilər. Lakin miqyasına görə Bakıda törədilən cinaYət daha dəhşətli oldu. Yüzlərlə soydaşımızın həyatına ölüm fərmanı verildi.

... 1988-ci ildəki təlatüm gələcəkdə daha böyük fırtınanın başlanğıcından xəbər verirdi. Müqəddəs Azərbaycanımızın ayrılmaz bir parçası olan Dağlıq Qarabağı Ermənistana birləşdirmək xülyasına düşən Qarabağ ermənilərinin mitinqləri, Topxana meşəsinin qırılması, Ermənistandan azərbaycanlıların qovulması hadisələrinin gedişini daha da sürətləndirdi. O vaxt Moskva Bakıdakı hadisələri «ram etmək» və erməni millətindən olan əhalinin təhlükəsizliyini müdafiə üçün, vaxtı ilə cinayət törətmiş, səriştəsiz kadr kimi özünü ifşa edib Azərbaycandan qaçmış ermənipərəst Əbdürrəhman Vəzirovu Azərbaycan KP MK-ya birinci katib təyin etdi. Lakin hadisələr artıq öz məcrasından çıxmışdı. Azərbaycanı bürümüş etiraz mitinqləri günbəgün güclənir, xalq hərəkatı ümummilli azadlıq mübarizəsinə çevrilirdi. Həmin dövrdə Ə. Vəzirov siyasi cəhətdən səbatsız və bacarıqsız rəhbər kimi özünü bir daha ifşa etdi. O, yaxınlaşan fəlakətin qarşısını almaq əvəzinə, ilk fəaliyyətinə qisasçılıqdan başladı. Q vaxt Moskvada olan və erməni lobbisi ilə şovinist birləşmənin güclü təzyiqinə məruz qalaraq SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən xaric edilərək ev dustağına çevrilmiş Heydər Əliyevə və onun yaxınlarına qarşı mübarizəyə keçdi. Ə. Vəzirov və onu dəstəkləyən qara qüvvələr Bakıda Heydər Əliyevin əleyhinə böyük təbliğat kampaniyasına başladılar. Əslində isə hələ respublikanın o faciəli günlərində xalqın qəlbində milləti bu tufandan çıxara biləcək yeganə qüvvə olan H. Əliyevə gizli bir duyğu — inam hissi baş qaldırmaqda idi...

Lakin Moskvada və Bakıda qurulan cinayətkar planlar, neçə deyərlər, öz bəhrəsini verdi. Yanvarın 19-dan 20-nə keçən keçə Bakıda dinc əhaliyə vəhşicəsinə divan tutuldu. Can verməkdə olan sovet imperiyası dəhşətli bir terror aktı həyata keçirdi. Əliyalın əhaliyə qarşı tanklardan, piyadaların döyüş maşınlarından istifadə edildi. Xəzər Hərbi Donanması gəmilərindən sahilə desant çıxarıldı. O keçə həmin səhnəni öz gözləri ilə görən canlı şahidlər vəhşiləşmiş əsgərlərin murdar sifətlərini yəqin ki, indi də xatırlayırlar. Moskvadan gəlmiş yüksək dövlət məmurları - Primakov, Girenko, Yazov, Bakatin və sapı özümüzdən olan baltalar əməliyyata rəhbərlik edir, baş verənləri laqeydliklə müşahidə edirdilər. Beləcə axıdıldı xalqın qanı.

Cinayət aktının baş verdiyi günün səhəri dünyanın bir çox dövlətləri görünməmiş bu vəhşilikdən xəbər tutdular. Bakı matəm libasına bürünmüşdü. Xalqın qəzəbi aşıb-daşırdı. Şəhərin küçələrində tankların və zirehli maşınların altında qalıb əzilmiş, sinəsi güllələrdən deşik-deşik olmuş insan cəsədləri ürəkləri göynədir, tükürpərdici nalələrin sədası ərşə qalxırdı. Həmin günlərdə Bakıdakı qırğından xəbər tutan Heydər Əliyev hər dəqiqə onu aradan götürməyə fürsət axtaran qüvvələrin təhlükəsindən qorxmayaraq, Moskvadakı Azərbaycan

nümayəndəliyinə gəldi. Baş vermiş faciə ilə əlaqədar xalqımıza başsağlığı verdi və mətbuat konfransı keçirib, başda Qorbaçov olmaqla Bakıdakı terror aktına rəvac verən dövlət nümayəndələrini və hərbçiləri cinayətkar, onların dinc əhaliyə tutduqları divanı bütöv bir xalqa qarşı edilən tarixi cinayət adlandırdı və bu vəhşiliyə etiraz əlaməti olaraq Sov.İKP sıralarından çıxdığını bəyan etdi. O dövrdə H. Əliyevin atdığı bu addım onun üçün hədsiz dərəcədə təhlükəli idi. Buna baxmayaraq, o, bu addımı atdı və xalqın yolunda bütün əzablara dözməyə hazır olduğunu sübut etdi.

Bütöv bir millətin başına gətirilən bu müsibətin ağrı-acısı hələ uzun illər qəlbləri göynədəcək, hər ildönümündə yaraların qaysağını qoparacaq, xatirələrdən silinməyən izləri təzələyəcəkdir. Yüzlərlə şəhid qurban verən Azərbaycan bu gün öz müstəqilliyini qorumaq üçün yenə də gözəgörünməz düşmənlə mübarizədədir. Ə. Vəzirovdan sonra onun dublyoru kimi A. Mütəllibovu hakimiyyətə gətirən Kreml yenidən nəyəsə ümid bağlayırdı. Lakin xalq hərəkatının qarşısında davam gətirə bilməyən bu dönük də xalqına düşmən kəsilərək Moskvaya — qarşısında quyruq buladığı ağalarının yanına qaçdı. Azərbaycanı qanlar içində boğan hər iki vətən xaini hələlik öz cəzalarına çatmayıblar. Mütəllibov da hakimiyyətdə olarkən Vəzirov kimi H. Əliyevə qarşı son dərəcə qisasçılıq mövqeyində dayandı, hər cür çirkin yollara əl atdı. Hətta onun quldur dəstəsi Moskvadan H. Əliyevi gətirən təyyarənin Bakıya enməsinə imkan vermədi. Ancaq haqq öz tarixi yerini tutur. Bu gün qaçıb gizlənən cinayətkarları mühakimə etməyi bizdən şəhidlərin — körpə İlqarların, Larisaların, dünyadan cavan gedən İlhamların, Fərizələrin və onlarca başqalarının müqəddəs ruhları tələb edir.

Təəssüflər olsun ki. 20 Yanvar faciəsinin digər baiskarları da bu gün Bakıda rahatca gəzib-dolaşmaqdadırlar. hazırda özünü demokratiyanın və ədalətin carçısı hesab edən müxalifətçilər AXC hakimiyyətdə olduğu bir il ərzində belə nədənsə Yanvar faciəsini açıqlayıb ona siyasi qiymət vermədilər. Daha doğrusu, vermək istəmədilər. Çünki həmin nahaq qanlarda cəbhəçilərin də az günahı olmamışdı. Görünür, elə bu səbəbdən də 20 Yanvar faciəsinin təşkilatçılarının və baş rolların ifaçılarının ifşasını məqsədəuyğun hesab etmədilər. Bu məsələ yalnız Heydər Əliyev Azərbaycan Respublikasının Ali Sovetinə sədr seçildikdən sonra ilk sessiyalarda müzakirə edildi, ona siyasi qiymət verildi və beləliklə də xalq bəzi üstüörtülü məqamlardan xəbərdar oldu.

...Taleyin gərdişindəndimi, yoxsa bizim unutqanlığımızdandımı, başımıza tarix boyu aram-aram belə faciələr gəlir, yüzlərlə, minlərlə günahsız qurbanlar veririk. Və illər ötdükcə nədənsə buzlaşırıq, laqeydlik yükü çiynimizi əyir, unutqanlıq xəstəliyinə düçar oluruq. Şəhid məzarları önündə «oğul» — deyə fəryad qoparıb, ağı deyən beli bükük anaları, cavan ikən dul qalmış gəlinləri, körpəsinin məzarına baş qoyub onun iyini torpaqdan alan ürəyi dağlı insanları görəndə qeyrət yaddaşımızı silkələyib oyatmalı, nifrət və qəzəbimizi düşmənə qarşı səfərbərliyə almalıyıq. Qoy Bakımız qərənfillərin matəm dənizinə yox, toy-bayram dənizinə çevrilsin. Müqəddəs məmləkətimizə və azadlığımıza atılan güllələrin qəzəbini ürəklərində soyutmuş məzarlarda uyuyan şəhidlərə Allah rəhmət eləsin!

**Firudin İSAOĞLU**

**“Azərbaycan”.** - 1996. – 19 yanvar. - N 13. - S. 1, 3.

## Bayraqlar sırasında bayrağımız dalğalanırsa

**«... O gecə, «qərənfil yağışı yağan gecə» - Qanlı Yanvar gecəsi Yada düşdü nənəmin söylədiyi «sehrsiz» Məlikməmməd nağıllı. Məlikməmməd qeyrətli oğullar minillik «alma ağacını» divlərdən (şimal ayılarından) qorumaq üçün gözlərindən yuxularını qovub barmaqlarını yarıb arasına duz basmışdılar. Bədheybət «divlərin» ağızlarından çıxan alov isə sinələrimizi, kürəklərimizi qarsırdı. Qanımıza yerikləyən «divlər» «samastroyka» evlərin əyri-üyrü, dar küçələrində bizi addımbaaddım güdəndə, yarıb arasına duz basdığımız barmağımızın ağrısı bir yana, «almalar»ı bada verməyimiz içimizi göynədirdi. On beş nəfər sığınmışdıq «samastroyka» evin darısqal həyatinə. Ev yiyəsinin gətirdiyi bir stəkan çayın istisinə qazına-qızına divlərin öz yuvalarına dönmələrini gözləyirdik...».**

### 20 YANVAR «QIZIL» ORDUNUN XİLASKARLIQ MİFİNİ DAĞITDI

Diqqət edilsə, 20 Yanvar keçəsini nağılların həyatla üst-üstə düşdüyü bir məqam adlandırmaq olar. Doğrudan da 88-ci ilin 18 günlük mitinqlərindən sonra ilk dəfə idi ki, adamlar birləşə bilmişdilər. Təbii ki, onları doğma Bakını rus ordusundan qorumaq hissi, şəhərin yenidən işğal edilmək təhlükəsi birləşdirmişdi. Prezident Aparatının qarşısındakı meydan dolub-boşalır, şəhərin giriş və çıxış qapıları, ümumiyyətlə, rus qoşunlarının keçə biləcəyi əksər yollar maşın və texnikalarla, iri beton və metal hissələrlə tutulur, bir sıra yerlərdə barrikadalar qurulurdu. Lakin həqiqət naminə demək lazımdır ki. şəhərin müdafiəsinə toplaşanların doxsan faizinin əlində daşdan-dəmirdən başqa heç nə yox idi. Əslində heç kəs qarşıdan gələn faciənin baş verəcəyinə inanmırdı. Çünki hələlik o vaxt «qızıl» ordunun xilaskarlıq mifi dağılmamışdı, ürəklərdən inam qırılmamışdı.

Təxminən keçə saat on iki radələrində «qızıl» ordunun «qızıl» güllələri şəhərin küçələrində silahsız adamların başları üzərindən vıyıldamağa başladı. Tanklar, BMP və BTR-lər, onların ardınca isə amansız «pexota» hücuma keçdi. Salyan kazarmasının ətrafında, metronun indiki «20 Yanvar» stansiyasının yanında, avtovağzal tərəfdə, metronun «Gənçlik» stansiyası yaxınlığında, keçmiş Çapayev küçəsində... qadına, qocaya, uşağa rəhm edilmədi. Yüzlərlə adam qətlə yetirildi, hətta təcili tibb yardımı maşınları yaralılara yardım göstərməyə cəhd edən həkim və şəfqət bacıları atəşə tutuldular, Elə həmin keçə yüzlərlə adam SSRİ-nin müxtəlif zindanlarına salındı.

### ADAMLARI KÜÇƏLƏRƏ AZADLIQ TƏŞNƏSİ ÇIXARMIŞDI

Bu faciə düz altı il öncə baş verdi. Və uzun müddət belə anlaşıldı ki, Moskva imperiyanı qoruyub saxlamaq məqsədi ilə Bakıya qoşun yeridib. Lakin həmin faciədən sonrakı və bu gün cərəyan edən hadisələri diqqətlə izləsək görərik ki, 20 Yanvar faciəsi - rus qoşunlarının Bakıya yeridilməsi imperiyanı qoruyub saxlamağa deyil, onu dağıtmağa xidmət edirmiş. Təsadüfi deyil ki, faciədən il yarım sonra Moskvada çevriliş baş verdi və imperiya hakimiyyəti süquta uğradı.

Təəssüf ki, 20 Yanvar ərəfəsində xalqın nümayiş etdirdiyi birlik də tez dağıldı. Faciədən çəmi 40 gün sonra uşaqdan böyüyə hamı günahkar axtarmağa başladı. Kimlərisə camaatı küçəyə çıxarmaqda, o dövrkü hakimiyyəti isə rus qoşunlarını Bakıya çağırmaqda günahlandırdılar. Əlbəttə, o dövrkü iqtidarın hadisələrin müəyyən təhlükəli istiqamətə yönəlməsində fəaliyyətlərini inkar etmək mümkün deyil. Və elə həmin hakimiyyətdəkilər tərəfindən elə vəziyyət yaradılmışdı ki, mərdlər namərdlərin, qoçaqlar qorxaqların pəncəsində əzilirdi, faciəni törədənlər göz qabağında ola-ola görməzliyə vurulurdu, hətta şəhidlər quldur, terrorçu adlandırılırdı. Əlimiz siyasət pərdəsi arxasında iş görənlərə yetməyəndə özümüz özümüzü qınamağa, söyməyə başladıq. Unutduq ki, adamları evlərindən küçələrə içlərində boğub saxlaya bilmədikləri azadlıq təşnəsi çıxarıb. Və bu gün müqəddəs Şəhidlər xiyabanında uyuyan oğullar Vətəni, torpağı qorumaq üçün dəmin gecə öz sinələrini düşmən güllələrinə mərdliklə hədəf ediblər. Ülvi Bünyadzadə kimi hələ həyatın istisində-soyuğunda

bərkiməmiş oğullarımız şəhidliyi üstün tutdular. Buna inanmaq üçün Ülvinin şəhidliyə qovuşmamışdan bir az əvvəl öz vicdanı qarşısında içdiyi andını xatırlamaq kifayətdir:

**AND**

«Mən Bünyadzadə Ülvi Yusif oğlu həyatımda ilk və son dəfə öz vicdanım qarşısında and içirəm: Bir elin, bir millətin adını təmsil etdiyimi heç zaman unutmayacağam. Azərbaycan torpağımın qürurdan, qeyrətdən yoğurulmuş adını müqəddəs tutacaq, bu ada ləkə vurmaq istəyən bütün ünsürlərə qarşı duracağam. Öz azərbaycanlı varlığıma, vicdanıma, məsləkimə, əsil-nəcabətimə, damarlarımda axan azərbaycanlı qanıma layiq oğul olacaq, qorxaqlığı, alçaqlığı, yaltaqlığı özümə yaxın buraxmayacaq, nəyin bahasına olursa-olsun öz azərbaycanlı mənliyimi təsdiq edəcəyəm. Əkər vədimə xilaf çıxsam qoy anamın südü, elimin çörəyi mənə haram olsun. Vətən üzü görməyim».

İmza:
**Bünyadzadə ÜLVİ.**
**10.09.89-cu il.**

**BAYRAQLAR SIRASINDA BAYRAĞIMIZ DALĞALANIRSA...**

20 Yanvar faciəsi Azərbaycan xalqının azadlıq mübarizəsində yeni bir mərhələnin başlanğıcı oldu. Qətllər, saysız tutqular davam etsə də xalqın azadlıq mübarizəsi səngimədi. Xəlil Rza Ulutürkün azadlıq təşnəsini Lefortovo zindanında da boğa bilmədilər.

Qarabağ uğrunda döyüşlər başladı. Bu dəfə rus ordusu erməni qiyafəsində meydana çıxdı. Üzdə özünü sülhpərvər vasitəçi kimi göstərir, guya milli münaqişəni yatırmağa çalışır, əslində isə ermənilərin adı altında torpaqlarımızı işğal edirlər. Lakin bütün məğlubiyyətlərə baxmayaraq qeyri-bərabər döyüşlərdə qəhrəmanlıq göstərən oğullarımız yüzlərlədir. Azərbaycanın Milli Qəhrəmanları Əlyar Əliyev, Allahverdi Bağırov, Ramiz Qəmbərov, Vəzir Oruçov və onlarla başqaları məhz 20 Yanvar şəhidlərinin yolunu davam etdirdilər. Xalq faciələr yaşaya-yaşaya öz müstəqil dövlətini qura bildi. Bu gün dünya dövlətləri sırasında Azərbaycanın adı çəkilirsə, bayraqlar sırasında bayrağımız dalğalanırsa, imzalar arasında imzamız görünürsə», buna görə 20 Yanvar, Qarabağ uğrunda döyüşlərdə Şəhidlik qazanmış oğullarımıza borcluyuq.

**BİR CÜT QƏRƏNFİL**

6 il. bundan əvvəl torpağa tapşırdığımız şəhidləri divlərlə vuruşmaq üçün Məlikməmməd kimi quyuya sallamışıq. Onlar Ağ qoçun belində, Simurq quşunun qanadlarında qayıdacaqlar və min il bundan sonra da yaşayacaqlar.

Göydən əlimizə bir cüt qərənfil düşdü, göz yaşına bükülü. Biri...

**Söhbət SƏFƏRLİ,**

**"Azərbaycan".** - 1996. – 18 yanvar. - N 12. - S. 1-2.

## MÜDAXİLƏ

**1990-cı il yanvarın 19 - dan 20 - nə keçən gecə Bakıda axı nə olmuşdur?**

Azərbaycan Respublikasının Ali Sovetindən bildirdilər ki, 1990-cı il yanvarın 20-də Bakıda faciəli hadisələrin səbəblərinin və təfsilatını təhqiq edən parlament komissiyası işini başa çatdırmışdır. Komissiyanın sədri M. Abasov dedi: «Bu faciənin necə və niyə baş verdiyi, ordunun kimlərin siyasi iradəsini yerinə yetirdiyi barədə faktları, sənədləri, şifahi və yazılı sübutları «İzvestiya»ya təqdim etməyə hazırıq».

Bunları dərc etməyi qərara alarkən biz başa düşürdük ki, əsaslandığımız materiallar nə dərəcədə inandırıcı olsa da, təkcə bir tərəfin — zərər çəkmiş tərəfin mövqeyini əks etdirir. Beləliklə, onların obyektivliyinə kimsə hökmən şübhə ilə yanaşacaqdır. Ən əvvəl o kəslər ki, Bakı əməliyyatını hazırlamışdılar, qoşunların yeridilməsi haqqında əmr vermişdi və bilavasitə icra etmişdilər.

Doğrudur, onlardan bir çoxuna faciəli Bakı hadisələrində iştirak etməsi (və ya iştirak etməməsi) barədə şəxsən danışmağa, bu hadisələri öz bildikləri kimi qiymətləndirməyə imkan verilmişdir. Lakın Azərbaycan parlamentinin komissiyası tərəfindən keçmiş SSRİ-nin dövlət, təsərrüfat və hüquq mühafizə orqanlarına, habelə ictimai və hərbi idarələrinə göndərilmiş 2.517 sorğunun yalnız üçdə birinə cavab alınmışdır (çox vaxt da formal surətdə). SSRİ Ali Sovetinin Rəyasət Heyətinə və Sov.İKP MK-ya göndərilmiş sorğulara, ümumiyyətlə, heç bir cavab verilməmişdir. Rəsmi təhqiqat axıra çatdırılmamışdır. İttifaq parlamenti siyasi qiymət verməkdən çəkinmiş və xüsusi bir qərarla SSRİ Prokurorluğuna, SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinə, SSRİ Daxili İşlər Nazirliyinə «1990-cı ilin yanvarında baş vermiş bütün cinayət faktlarının və hüquqa zidd hərəkətlərin qısa müddətdə təhqiqini təmin etməyi», SSRİ baş prokuroruna və SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinə isə «müvafiq məlumatı SSRİ Ali Sovetinə iki ay müddətində təqdim etməyi» tapşırmışdır. Bu qərara açıq-aşkar məhəl qoyulmamış, onun heç bir bəndi yerinə yetirilməmişdir. Bununla yanaşı, biz Azərbaycan tərəfinin rəyini dərc edərək, hər hansı təkzib, bu və ya digər faktlar barəsində digər fikirlər üçün də imkan saxlayırıq.

Bakı əməliyyatının ilhamçıları və təşkilatçıları, Tbilisidən sonra, aradan bir il ötmüş Vilnüsdən sonra olduğu kimi, yenə də özlərinin radiasiyatək yayılan təbliğatını dərhal var gücü ilə işə salmışlar. Bakıda fövqəladə vəziyyətin səbəbləri barəsində və tankların orada nə etdiyi barədə indiyədək hətta liberal və savadlı Moskva jurnalistləri arasında ya anlaşılmaz, ya da tamamilə təhrif edilmiş təsəvvür var. «Pravda», SİTA, «Krasnaya zvezda», «Zaman» proqramı (heyf ki, o vaxtkı «İzvestiya» da təmkinlə olsa belə, hər halda rəsmi yozuma uymuşdu) beyinlərə belə bir fikir yeritmişdir ki, ordu erməniləri, rus-dilli əhalini və hərbçilərin ailələrini Azərbaycan ekstremistlərinin törətdikləri amansız qırğından xilas edirdi.

Yox. Ordu Bakıda totalitar rejimi, Sov. İKP-nın hakimiyyətini və sovet imperiyasını xilas edirdi. Oxucuya bunun üçün sübut-dəlillər təqdim olunaraq.

Biz o qara yanvar hadisələri barəsində söhbətə başlayaraq razılığa gəldik ki, belə bir prinsipi gözləyək: minimum publisistika, maksimum faktlar, sənədlər, sübutlar.

**«HƏYAT»DAN: «İzvestiya»nın dünənki nömrədən dərc etməyə başladığı «Müdaxilə» adlı siyasi xronikanın qoşunların Bakıya yeridilməsinə təbliğat hazırlığı haqqında birinci fəslini 2-ci səhifədə oxuya bilərsiniz.**

## MÜDAXİLƏ

**1990-cı il yanvarın 19 - dan 20 - nə keçən gecə**
**Bakıda axı nə olmuşdur?**

### 1. NECƏ ALDADIR VƏ FİTVA VERİRDİLƏR

**«Xəbər verildiyi kimi, Azərbaycan SSR-in konstitusiyalı orqanlarını hakimiyyətdən zorakılıq yolu ipə uzaqlaşdırmağa can atan xalq cəbhəsinin ekstremist qüvvələrinin, antisovet qruplaşmaların hüquqa zidd, cinayətkar əməlləri nəticəsində Bakıda vəziyyət kəskin şəkildə gərginləşmişdir...»**

**SİTA, 20 yanvar 1990-cı il.**

**«Azərbaycanda milli azadlıq proseslərinin və demokratik dəyişikliklərin obyektiv və dönməz xarakterini respublika rəhbərliyinin başa düşmək iqtidarında olmaması, habelə kütləvi xalq hərəkatından kənarda qalması Bakıda 1990-cı il yanvar faciəsinin daxili səbəbləridir».**

**Azərbaycan Respublikası**
**Ali Soveti komissiyasının rəyindən.**

RƏSMİ məlumat kimi SİTA-nın yaydığı xəbərə görə, qoşunlar Bakıya iki nəcib məqsədlə yeridilmişdir. Birincisi: erməniləri, rus-dilli əhalini və hərbi qulluqçuların ailələrini talanlardan qorumaq məqsədilə. İkincisi: millətçi ekstremistlər tərəfindən hakimiyyətin zorakılıqla qəsb edilməsinin qarşısını almaq məqsədilə.

Həmin məqsədlərin həqiqiliyi faktlarla və yanvarın ortalarına yaxın Bakıda yaranmış siyasi vəziyyətin təhlili ilə təkzib edilir.

1990-cı ilin başlanğıcına yaxın Azərbaycan paytaxtında şəraitin kəskinləşməsinin başlıca səbəbi Dağlıq Qarabağda qarşıdurmanın güclənməsi olmuşdur.

**SƏNƏD. Azərbaycan prezidenti Ayaz Mütəllibovun məlumatından:** «Bakıda yanvar ayı hakimiyyət böhranı ilə əlamətdar olmuşdur. Azərbaycan KP MK Dağlıq Qarabağda separatçılara müqavimət göstərmək iqtidarında deyildi. Digər tərəfdən, Mərkəz qətiyyətsizlik göstərirdi. SSRİ-nin ali hakimiyyət orqanları müttəfiq respublikanın suverenliyinin təminatçısı kimi çıxış etmir, Azərbaycan xalqının suveren hüquqlarının təmin olunması sahəsində öz konstitusiya öhdəliklərini yerinə yetirməkdə dəyanət, qətiyyət və ardıcıllıq nümayiş etdirmirdi. Buna görə də daha nə İttifaq rəhbərliyinə, nə də respublika rəhbərliyinə heç bir etimad yox idi. Üstəlik, Ermənistanın ərazi iddiaları və Dağlıq Qarabağ separatçılıq hərəkatı Azərbaycan Xalq Cəbhəsinin mövqelərini xeyli möhkəmləndirmişdi. AXC bu məsələdə rəsmi hakimiyyət orqanlarına nisbətən daha prinsipial mövqe tutmuşdu. Ermənistandan və DQMV-dən qovulmuş qaçqın .azərbaycanlıların Bakıya cəmləşməsi vəziyyəti ciddi şəkildə kəskinləşdirirdi. Bu qaçqınlar güclü sosial detonator kimi idilər».

Yanvarın birinci yarısında icazəsiz mitinqlər, nümayişlər, mülki itaətsizlik hərəkətləri dalğası Azərbaycanı bürümüşdü. Bu dalğa İranla sərhəddə texniki qurğuları sındırıb dağıtmış, Cəlilabad və Lənkəran rayonlarında partiya və sovet rəhbərlərini hakimiyyətdən salmışdı. Hadisələr üzərində nəzarətin tamamilə itirilməsi, respublika siyasi rəhbərliyinin lap çaşıb qalması, əlbəttə, tankların şəhərə girməsi üçün darvazaları açmışdı, lakin Bakıya silahlı müdaxiləyə böyük faciə ilə haqq qazandırmaq və onun son dərəcə labüd olduğu barədə təsəvvür yaratmaq üçün xalqı əməlli-başlı qorxudub vahiməyə salmaq, hər bir adamı dəhşətə gətirmək lazım idi... Daxili qoşun bölmələrinin və təcili olaraq «xilas etməyə» çağırılmış ehtiyatçıların şəhərə gətirilməsi vahimə və inamsızlıq yaratmışdır. «Xilas etməyə». Kimi? Məsələn, rusları. SİTA-nın yaydığı xəbərlərə görə, onları tikə-tikə doğrayır, döyüb əzişdirir və respublikadan qovub didərgin salırlar.

**ŞƏXSİ ŞAHİDLİK:**
**Lüdmila Muravtseva, həkim:**

«Burada ciddi-cəhdlə şayiələr yayılır ki, ruslar top-tüfəng atırlar, respublikanın hüdudlarından kənarda isə aləmə car çəkirlər ki, azərbaycanlılar ruslara qənim kəsiliblər, onlara qara-qorxu gəlirlər, ruslar da buradan köçüb getməyə məcburdurlar. Belə bir xəbəri xəcalətlə, hiddətlə və nifrətlə qəbul edirəm ki, «Gəncədə vəziyyət gərgin olaraq qalır, rus-dilli əhalini hədələyirlər, onların əsas hissəsi yaşayış yerlərini tərk etməyə məcburdur». yalandır! Bəli, bəziləri çıxıb gedirlər, amma ona görə yox ki, kimsə hədə-qorxu gəlmişdir, yox, səbəblər

müxtəlifdir: bəziləri məktəbli uşaqları təhsili davam etdirmək üçün aparmışlar (axı bizdə məktəblərdə dərslər hələ başlamayıb), digərlərini hərbi orqanların özləri qızışdırmışlar, bir başqaları isə arasında yaşadıqları xalqın xasiyyətinə sadəcə olaraq hələ bələd deyildirlər».

Bakıda «rus kartı», bax, beləcə ortaya atılmışdır, Pribaltikada və Moldaviyada da — rusları Mərkəzin imperiya siyasətinin girovlarına çevirməyə, onlardan respublikaların real suverenliyə və dövlət müstəqilliyinə doğru yolunun üstündən canlı sədd çəkməyə cəhd göstərdikləri hər yerdə «rus kartı»nı, bax, beləcə ortaya atmışlar. O vaxtlar Sov.İKP MK-nın ideologiya. şöbəsində keçirilən müşavirələrdə beyinlərə yeridirdilər ki: «Rusları təhqir edir, gözüm-çıxdıya salır, təqiblərə məruz qoyurlar». Kütləvi informasiya vasitələrinin rəhbərlərini həmin şöbəyə çağırıb onlara təlimat verirdilər. Bundan sonra efiri və qəzet səhifələrini yalanlar-uydurmalar başına götürürdü. Bu cür təbliğat kampaniyasının nəticəsidir ki, minlərlə rus qaçqın xalqları salışdırıb-dalaşdırmağın qurbanına çevrilmişdir, minlərlə ailə özünə ev-eşik, daimi qazanc və can rahatlığı tapmaq niyyətilə Rusiyada sərgərdan təki dolaşır.

**B**AKIYA nə qədər çox ordu birləşmələri gətirilirdisə, hərbçilərə, onların arvad-uşaqlarına qəsdlər barəsində şayiələr də bir o qədər ciddi-cəhdlə yayılırdı. Belə isə nə üçün Daxili İşlər Nazirliyinin məlumatlarında bir dənə də olsun bu cür hadisə qeydə alınmamışdır? Nə üçün bir dənə də olsun cinayət işi qaldırılmamışdır? Zabit ailələrini kimlər və niyə köçürürdülər?

**SƏNƏD.** «Biz, 03511 nömrəli hərbi hissənin və 68999 nömrəli hərbi hissənin (Azərbaycan SSR-in M-sallı rayonundakı Qızılağac qəsəbəsi) qəti şəkil-də bildiririk: respublikanın bəzi rayonlarında fövqəladə vəziyyət elan olunması ilə əlaqədar bizim ailələrimizə, arvad və uşaqlarımıza yüksək komandanlıq tərəfindən təklif edilmişdir ki, Azərbaycan SSR-dən konüllü qaydada köçüb getsinlər. Bizim ailələrin qaçqın olduqları barədə radio ilə və mətbuatda verilən bəyanatlar cəfəngiyatdır və onların heç bir əsası yoxdur. Bu vaxtadək yerli sakinlər tərəfindən bizim ünvanımıza hədə-qorxu və şifahi təhqirlər olmayıb».

**ŞƏXSİ ŞAHİDLİK:**

«Biz, Sovet küçəsindəki 57/24 nömrəli evin sakinləri qonşumuz — hərbi qulluqçu Mixaylovun ailəsinin «köçürülməsi»nin şahidi olmuşuq. Yanvarın 20-də Mixaylov zirehli transportyorda silahlı əsgərlərin müşayiəti ilə öz ailəsinin dalınca gəldi. Mixaylovlar qonşulara bir söz demədən açarı onlara verib «köçdülər». Elə həmin gün, aradan bir az keçmiş dörd cavan gəldi və silah axtardıqlarını bəhanə edərək Mixaylovların qapısını sındırdılar, heyrətdən çaşıb qalmış qonşuları şahid kimi çağırdılar (yəni, baxın, biz oğru-zad deyilik, ha). Onlar evdə bir az qurdalanıb qapını bağladılar, bir daha nümayiş etdirdilər ki, heç nə götürməmişlər. Bundan sonra çıxıb getdilər. Ertəsi gün mənzilin sahibi Mixaylov yenə silahlı əsgərin müşayiəti ilə gəldi. Elə həmin qonşular bayıra çıxdılar. Soruşdular: «Haradasınız, ailəniz haradadır?». Mixaylov cavab verdi ki, onların hamısı Salyan kazarmalarındadır. Qonşular təəccüblə xəbər aldılar: «Məgər bir kimsə sizi hədələyirdi? Məgər sizin xətrinizə dəyən olmuşdu?». Mixaylov pərt halda cavab verib dedi ki, belə şeylər olmayıb. O, qonşulara səmimi münasibət üçün təşəkkür etdi və xəcalətli halda çəkinə-çəkinə... «talanlar»ı bəhanə gətirdi. Doğrudur, utandığından bunu talan adlandırmadı, dedi: «Axı nə edim, yanıma adamlar gəlirdilər!». Bizə hər şey aydın oldu. Bəs sizə necə?

Sovet küçəsindəki 57/24 nömrəli evin sakinləri: Mirzəyevlər, Jerdevlər, Əsgərovlar, Behbudovlar, Məmmədovlar, Rzayeva».

Bu şahid sözlərini dərc edərkən başa düşürük ki, bunun əksinə deyənlər də tapılacaqdır, o barədə ki. gözü qızmış kütlə arasında hərbçilərə divan tutulmasına dair çağırışlar da eşidilirdi, kimsə tələb edirdi: «Azərbaycan azərbaycanlılar üçündür!» və i.a.

Nə edəsən, keçmiş SSR İttifaqının hüdudlarında nəinki küçə carçıları meydan sulayırlar, bəzən dövlət xadimlərinin də nitqləri eşidilir—təkcə Azərbaycanda yox, hər yerdə. Bununla belə, saysız-hesabsız faktlar, şahid materialları, sənədlər sübut edir: Bakıda ruslar əleyhinə və ordu əleyhinə kütləvi surətdə təşkil olunmuş çıxışlar müşahidə edilməmişdir.

ERMƏNİ talanları bax, bu, həqiqətən olmuşdur və bu barədə hiddətlənmədən nə danışmaq, nə də yazmaq mümkündür. Belə hallar üçün nadir bir hadisə baş vermişdir — öldürülənlərin sayı yaralananların sayından çox olmuşdur, deməli, ölənəcən döyürlərmiş. Eybəcər hala salınmış, çox vaxt da yandırılıb külə döndərilmiş meyitlər... 56 adam öldürülmüş, 112 nəfər ağır yaralanmışdır. **(!?—«HƏYAT»)**.

Bakıda erməni talanlarının tarixi gizli mexanizminin sirri axıradək heç cür açılmamış siyasi ixtilafı indiyədək özündə saxlayır. Bəzi faktların tutuşdurulması və təhlili belə bir fikir doğurur ki, talançılar xüsusi tapşırıq üzrə hərəkət etmişlər. Kimin tapşırığı ilə? Biz artıq burada fərziyyələr və ehtimallar sahəsinə qədəm qoyuruq. Məsələn, belə güman etməyə əsas var ki, təkcə rus «kartı» deyil, erməni «kartı» da oynanılmışdır. Qarabağ münaqişəsi süni şəkildə şişirdilirdi ki, bir vasitəçi və ya barışdırıcı hakim kimi Mərkəzə tələbat azalmasın. Beləliklə, ola bilsin, azərbaycanlılarda İttifaqdan çıxmaq üçün baş qaldırmış həvəs öldürülürdü.

Əgər güman etsək ki. Qarabağ ocağında alovun sönməməsi Mərkəzə həqiqətən sərfəli idi, onda Staraya ploşadın (Sov.İKP MK-nın binası orada yerləşirdi, həmin MK nəzərdə tutulur — **HƏYAT»)** Azərbaycandakı iki yüksək vəzifəli nümayəndəsi arasında rolların bölüşdürülməsi də olduqca məntiqi görünür. Azərbaycan KP MK-nın ikinci katibi Viktor Polyaniçko öz müşahidələrindən məhdud partiya dairəsində danışarkən demişdir: «Bizə aydın olmağa başladı ki, Volski (o vaxtlar DQMV Xüsusi İdarə Komitəsinin sədri idi. — **Müəlliflər).** yalnız erməni tərəfin üçün işləyir». Bəs onun özü hansı tərəf üçün işləyirdi? Bunu onun, məsələn, bu sözlərindən başa düşmək çətin deyildir: «Biz ideoloji və siyasi cəhətdən təmin edilmiş düşmənlə qarşılaşmışıq. Onu hələ öyrənməmişik, görməmişik və təhlil etməmişik». Söhbət «Krunk» adlı Qarabağ hərəkatının liderlərindən gedir. Bu sözlər kütlə qarşısında söylənmişdi. Deyən də gününü çayxanalarda keçirən veylin birisi yox, MK-nın ikinci katibi — çoxdankı partiya ənənəsinə uyğun olaraq Mərkəzin respublikadakı canişinidir.

Azərbaycan Xalq Cəbhəsi idarə heyətinin üzvü Etibar Məmmədov əmindir ki, talanların ssenarisi qabaqcadan yazılmışdır. O demişdir: «yanvarın 6-da cinayətkarlar dünyası nümayəndələrinin .köməyi ilə AXC liderləri cismən aradan götürülməli idi. Bu iş üçün kimə və nə qədər vəd edildiyi bizə məlumdur. Biz təhlükəni sovuşdurduqdan sonra konfransımızı pozmağa, AXC-ni bir neçə qruplaşmaya parçalamağa cəhd göstərilmişdir. Lakin bu da baş tutmadıqda hakimiyyət orqanları fövqəladə vəziyyət elan etmək üçün hazırlaşmağa başladılar. Bakıda erməni talanlarına da fövqəladə vəziyyətə haqq qazandırmaq üçün başlanmışdır».

Etibar Məmmədov qətllər olacağı barədə öz həmfamilini —Azərbaycanın daxili işlər nazirini xəbərdar etmişdi. SSRİ daxili işlər nazirinin müavini Lisauskası da xəbərdar etmişdi. Sonrakı hadisələrin göstərdiyi kimi, onların heç biri fitnəkarlığın qarşısını almaq üçün heç bir tədbir görməmişdir. Bəlkə onlar da bu fitnəkarlığın iştirakçıları idilər? Bu sualı elə respublika KP MK-nın "keçmiş birinci katibi Vəzirova da vermək olar. «Azərbaycan» jurnalının baş redaktoru Yusif Səmədoğlu deyir: «Mən talanlardan xəbər tutan kimi Yazıçılar İttifaqına getdim və hökumət telefonu ilə daxili işlər nazirinə və DTK-nın sədrinə zəng vurmağa başladım. Telefonlar cavab vermirdi, Nəhayət, Vəzirovun qəbul otağına zəng vurdum. Köməkçini aldadıb dedim ki, Parisə gedirəm və mən «onun özü» ilə məsləhətləşməliyəm. Məni Vəzirovla calaşdırdılar. Ona dedim ki, şəhərdə aləm bir-birinə qarışıb, erməniləri soyub-talayır və öldürürlər. Cavab verib dedi: «Heç nə olmaz, tələsməyin...».

Bəs daxili qoşunlar talanların qarşısını ala və onları dayandıra bilərdilərmi? Almağa borclu idilər. Lakin Bakının komendantı general-leytenant V. Dubinyak sonradan inandırmağa çalışırdı ki, yox, ala bilməzdilər, çünki onlara əmr verilməmişdi. Daxili qoşunların komandanı general-polkovnik J.Şatalinin özü isə bildirmişdir: «Bizdən heç kəs kömək istəmədi».

Kim istəməli idi? Niyə də istəməli idilər? Daxili qoşunlar heç bir xahiş minnət və ya müraciət olmadan öz təyinatına müvafiq hərəkət etməyə borclu idi. Talançıları sakitləşdirmək üçün çox yox, bircə batalyon bəs edərdi. O vaxt isə Bakıda daxili qoşunların 11,5 min əsgəri var idi! Amma ermənilərə bu dəhşətli müsibətdən can qurtarmağa yalnız Krasnovodska gedən bərə, yalnız Moskvaya uçan təyyarələr, sərnişin və nəqliyyat təyyarələri kömək etdi.

Ölüləri torpağa basdırdılar, sağ qalanlar gedib Rusiyada gizləndilər. Ordu şəhərə girdikdə isə burada daha müdafiəyə ehtiyacı olanlar yox idi.

Deməli. qoşunlar başqa məqsədlə gəlmişdilər? Məhz hansı məqsədlə?

**2. XALQI. «MÜDAFİƏ ETMƏYƏ» NECƏ HAZIRLAŞIRDILAR**
**«Bakıda «fövqəladə vəziyyət elan edilməyəcək».**
**Y. Primakovun Azərbaycan sakinləri qarşısında çıxışından.**

**«Hadisələrin sonrakı gedişi göstərdi ki, Bakıda fövqəladə vəziyyətin elan olunması və qadağan saatının qoyulması vaxtı xalqdan gizlədilir və bu tədbirin bakılıları qəflətən yaxalaması üçün hər şey edilirdi».**

**Azərbaycan Respublikası Ali Soveti**
**komissiyasının rəyindən**

Silahlı işğaldan əvvəl siyasi «artilleriya hazırlığı» görülmüşdür. Onu Bakıya gəlmiş SSRİ Ali Soveti İttifaq Sovetinin sədri Y. Primakov, Sov.İKP MK katibi A. Kirenko və Sov.İKP MK-nın millətlərarası münasibətlər şöbəsi müdirinin müavini R. Mixaylov həyata keçirmişdilər. Mərkəzin nümayəndələri hər yerdə kimlərlə görüşürdülərsə. and-aman edirdilər ki, Bakıda fövqəladə vəziyyət elan olunmayacaqdır. Buna inanan Xalq Cəbhəsinin liderləri televiziya ilə çıxış edib xalqı sakitləşdirməyi, əhalini Bakı qarnizonu hissələrinin ətrafında piketləri dayandırmağa, şəhərin girəcəklərində qoyulmuş yük maşınlarını götürməyə çağırmağı qərara aldılar. Lakin efirə çıxmaq üçün nəzərdə tutulmuş vaxta qırx dəqiqə qalmış teleradio mərkəzində (TRM) partlayış baş verdi.

EKSPERTİZA. «Yanvarın 19-da saat 19-da TRM-ə yarıhərbi-yarıidman paltarı geymiş dörd silahlı adam gəldi. Qarovulçular onların göstərişlərini danışıqsız yerinə yetirdilər. Bu adamlar - enerji blokunun növbə rəisi İ. Hüseynovdan və növbətçi elektrik V. Romanovdan soruşub öyrəndilər ki, TRM-nin enerji təchizatı sistemini necə tamamilə sıradan çıxarmaq olar, burada ehtiyat dizel-elektrik generatorları varmı (belə generatorlar yox idi)... Sorğu-sualdan sonra İ. Hüseynovu və V. Romanovu dustaq elədilər. Saat 19.25 dəqiqədə enerji bloku partladıldı. TRM-nin qarovulçuları bu partlayışa heç bir reaksiya vermədilər. SSRİ Ali Soveti Millətlər Sovetinin milli siyasət və millətlərarası münasibətlər komissiyasında hazırlanmış məlumatda iddia edilir ki, TRM Xalq Cəbhəsi tərəfindən sıradan çıxarılmışdır... Bu xəbəri mərkəzi mətbuat və televiziya dönə-dönə təkrar etmişdir. Biz, müstəqil hərbi ekspertlər belə bir qənaətə gəlmişik ki, TRM-nin enerji bloku sovet ordusunun və ya SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin xüsusi qrupu tərəfindən partladılmışdır.

**A. YEVSTİQNEYEV,**
ehtiyatda olan I dərəcəli kapitan,
texnika. elmləri namizədi;
**Q. MELKOV,**
ehtiyatda olan II dərəcəli kapitan,
hüquq elmləri doktoru;
**B. MURACOV,**
ehtiyatda olan podpolkovnik. »

**EHTİMAL.** “Baş hərbi prokuror ədliyyə general-leytenantı A. F. Katusevə. Enerji sexinin partladılması Xalq Cəbhəsi adından materialların efirə icazəsiz translyasiyasına yol verilməməsi üçün xüsusi tədbir kimi təşkil edilə və həyata keçirilə bilərdi. Buna SSRİ DTK-nın 1990-cı - il 17 yanvar tarixli 127,5 nömrəli məktubu ilə tanışlığa dair protokol sübutdur. Məktubda deyilir ki. DTK orqanları Xalq Cəbhəsinin nümayəndələri tərəfindən radio və televiziya mərkəzinin ələ keçirilməsinin və ondan istifadə edilməsinin qarşısını almaq üçün «xüsusi tədbirlər hazırlayırlar». Bununla əlaqədar olaraq DTK əməkdaşlarının partlayışın təşkilində iştirakı barədə ehtimal hərbi prokurorluq tərəfindən yoxlanmalıdır.

Azərbaycan SSR prokurorunun birinci müavini,
3-cü dərəcəli dövlət ədliyyə müşaviri

**M. BABAYEV».**

**B**AKININ hərbi işğalı qanuni hakimiyyətin devrilməsi, onu ekstremistlərin ələ keçirməsi təhlükəsi ilə ruhlandırılır və doğruya çıxarılırdı. O vaxtlar Qorbaçov da bu barədə danışaraq. xalqı və çox güman, özünü də «cinayətkar ekstremist qüvvələr» tərəfindən təhlükə ilə qorxudurdu, guya onlar «kütləvi iğtişaşlar təşkil edərək, qanuni fəaliyyət göstərən dövlət orqanlarını hakimiyyətdən zorakılıq yolu ilə götürməyə» hazırlaşırlar.

Bəs Bakıda kimin hakimiyyətini zorla ələ keçirmək niyyətində idilər? Sovet hakimiyyətini? Lakin nə Azərbaycan Ali Soveti. nə də onun Rəyasət Heyəti aşkar olaraq bu cür hədə-qorxu görmür və Mərkəzdən də yardım istəmirdilər. Əksinə, respublika Ali Sovetinin yanvarın 21-dən 22 -nə keçən keçə keçirilmiş fövqəladə sessiyası göstərmişdir ki, hakimiyyət xalqın, xalq da hakimiyyətin tərəfindədir. Azərbaycanda devrilmək təhlükəsi olan vardırsa. bu. ali partiya rəhbərləri idi. Lakin Staraya ploşaddan olan adamlar heç qoyardılarmı ki. MK-nın birinci katibini xalqın hiddət-qəzəb tufanı kabinetindən götürüb bayıra atsın?! Mitinqin iştirakçılarının tələblərindən xəbər tutan A. Girenko Xalq Cəbhəsinin liderləri ilə görüşdə demişdi. «Biz rəhbərliyin dəyişdirilməsi məsələsini müzakirə edirik, lakin bunu heç vaxt təzyiq qarşısında etməyəcəyik. Yolverilməz haldır ki respublika rəhbərliyini Sov.İKP MK deyil, güruh dəyişdirsin».

Marşal D. Yazov İzvestiya» qəzetinə verdiyi müsahibəsində (1990-cı il. №30) işğalın həqiqi məqsədini aşkar açıqlığı ilə belə izah etmişdir: «Əmin etmək istəyirəm ki. ordunun hərəkətləri ...Xalq Cəbhəsinin hakimiyyətə can atan xadimlərinin təşkilat strukturunu dağıtmaqa yönəldilmişdir».

Müşahidəçilərin fikrincə. bu gün də böyük nüfuza malik olan Azərbaycan Xalq Cəbhəsi o vaxtlar respublika parlamentinə seçkilərdə səslərin çoxunu toplaya bilərdi. Onun hakimiyyəti zorla ələ keçirməsi üçün ciddi səbəblər yox idi — Xalq Cəbhəsi hakimiyyətə deputat mandatı ilə və ya nüfuzdan düşmüş siyasətçilər meydanı tərk etdikdən sonra gələ bilərdi. Lakin hətta o qədər də ağla batmayan bir variantı — guya hökumətin zorla devrilməsinin hər halda istisna edilməməsi variantını da güman etsək. onda qoşunlara göstərilmiş faktik müqavimətin üsulları və miqyası güc işlədilməsinə haqq qazandırmır. «Helsinki Votç/Memorial» qrupu beynəlxalq ekspertlərinin rəyinə görə, güc nahaq yerə, necə gəldi və qəddarlıqla işlədilmişdi.

**O**RDUNU kim çağırmışdı? Bu sualın cavabını kütlələrin qəzəbinin — istəyir lap nəcib məqsəd üçün olan qəzəbinin coşmasında axtarmaq azdır, ona daha əsaslı cavab verilməlidir.

Yaxşı, ordunu hər halda kim çağırmışdı? Respublika KP MK? Ali Sovet? hökumət?

**SƏNƏD. Azərbaycan Nazirlər Sovetinin işlər müdiri M. Nəzərovun məktubundan:** «Respublika hökuməti sovet ordusu hərbi hissələrinin və SSRİ Daxili İşlər Nazirliyi daxili qoşunlarının Bakı şəhərinə gətirilməsi məsələsini müzakirə etməmişdir, bu barədə xahişlə İttifaq orqanlarına müraciət olunmamışdır. Azərbaycan SSR Nazirlər Sovetinin rəhbərliyinə qoşunların yeridilməsi onlar artıq yeridildikdən sonra məlum olmuşdur».

Bəlkə. prokurorluq çağırmışdı? Prokurorluğun Bakıda vəziyyət haqqında məlumatının fotosurətlərini istədik. Ola bilsin ki, bu məlumat, o vaxtlar lazım olduğu pimi. İttifaqın partiya, sovet və hüquq mühafizə orqanlarına göndərilmişdir. Prokurorluqdan cavab gəldi: «Azərbaycan SSR Prokurorluğu Bakı şəhərində vəziyyət haqqında və ya fövqəladə vəziyyətin labüdlüyü barəsində mərkəzi partiya, sovet və hüquq mühafizə orqanlarına, o cümlədən SSRİ Prokurorluğuna heç bir məlumat göndərməmişdir».

Ordunu Azərbaycan Ali Soveti çağırmışdı? Axı respublikada fövqəladə vəziyyət elan etmək. yaxud bu barədə İttifaq parlamentinin qərarını təsdiq (rədd) etmək onun, yalnız onun konstitusiya hüququdur.

**SƏNƏD. Azərbaycan Ali Soveti Rəyasət Heyətinin sədri Elmira Qafarovanın bəyanatından:** «Bütün məsuliyyəti ilə bildirirəm ki, Bakıda fövqəladə vəziyyətin tətbiq edilməsi barədə Azərbaycan SSR-in ali hakimiyyət və idarəetmə orqanları tərəfindən qərar qəbul edilməmiş və SSRİ Ali Soveti Rəyasət Heyətinin bu cür qərar qəbul etməsi üçün razılıq verilməmişdir».

Belədirmi? Azərbaycan Ali Soveti Rəyasət Heyətinin 1990-cı il 15 yanvar tarixli qərarı budur, qarşımızdadır. Burada apaydın yazılmışdır: «SSRİ-nin Müdafiə Nazirliyindən, hüquq mühafizə və digər icra

orqanlarından xahiş edilsin ki, SSRİ Konstitusiyasının 81-ci maddəsinə müvafiq surətdə Azərbaycan SSR-ə bütün lazımi köməyi göstərsinlər».

Parlament komissiyası bu qərarı saxtalaşdırılmış qərar hesab etmişdir, çünki iclas iştirakçılarının özlərinin etiraf etdikləri kimi, onlar məhz nəyə səs verdiklərini düz-əməlli başa düşməmişlər — MK-nın birinci katibi Vəzirova etibar etmişlər: o, bizi «inandırdı».

Yaxşı, hərbi müdaxiləni rəsmən kim xahiş etmişdir?

Azərbaycan Ali Soveti sədrinin müavini Tamerlan Qarayev bizə dedi:

— Komissiya bu suala bir-mənalı cavab tapmadı. Lakin respublikanın dövlət orqanları özlərinin bütün hərəkətləri ilə hərbi işğal üçün bir növ hüquqi imkan yaratmışlar.

Bəli, məhz «bir növ».

**BƏ**S fövqəladə vəziyyət elan edildiyi Bakı əhalisinə vaxtında xəbər verilmişdimi?

**SƏNƏD**. «Dövlət Televiziya və Radio Verilişləri Komitəsi 1990-cı il Yanvarın 19-da Bakı şəhərində fövqəladə vəziyyət elan edilməsi haqqında məlumat almamışdır. Yalnız yanvarın 20-də səhər hərbi komendantlığın nümayəndəsinin özü Bakıda fövqəladə vəziyyət və qadağan saatı elan edildiyini və general-leytenant Dubinyakın şəhər komendantı təyin olunduğunu bildirmişdir.

Azərbaycan SSR Dövlət
Televiziya və Radio Verilişləri
Komitəsi sədrinin müavini
**Z. ZEYNALOV**».

Bəs Bakıda fövqəladə vəziyyət elan edilməsini və buraya qoşun yeridilməsinin planlaşdırılması barədə Azərbaycanla qonşu dövlətlərin—İran və Türkiyənin hökumətlərinə, beynəlxalq hüquq normalarına uyğun olaraq, xəbər verilmişdimi? Dəfələrlə təkrar edilmiş bu suala Xarici İşlər. Nazirliyindən heç bir cavab alınmamışdır.

Qoşunların yeridilməsi əməliyyatı yanvarın 19-da saat təqribən 21—22 arasında başlanmışdır. Onların hərəkəti istiqamətində təsadüfən yoldan keçən

Adamlar və avtomaşınlar atəşə tutulurdu. Yanvarın 20-də saat 00-dək, yəni Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı qüvvəyə minənədək 9 adam öldürülmüşdür.

Yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə bildirilmişdir ki. fövqəladə vəziyyət elan olunmuş və qadağan saatı qoyulmuşdur Həmin vaxtadək artıq 82 adam öldürülmüş və 20 nəfər ölümcül yaralanmışdır, (onların hamısı həmin gün və sonrakı gün xəstəxanalarda keçinmişdir).

Əsgərlərə «döyüş tapşırığını» yerinə yetirməyə möhkəm psixoloji hazırlıq kömək etmişdir Psixoloji hazırlığı ştatlı siyasi işçilər daxili qoşunlarda, desant hissələrində, Salyan kazarmalarında. Xəzər Hərbi Donanmasının gəmilərində aparmışdılar. Ehtiyatdan çağırılanlar arasında işi isə səfərbərliyə alınmış onlarca partiya və komsomol funksioneri aparmışdır.

**EKSPERTİZA. «Şit» təşkilatı müstəqil hərbi ekspertlərinin hesabatından:** «Şəxsi heyətə aşağıdakı informasiya təlqin edilmişdi:

— Sizi Bakıya rusları müdafiə etmək üçün çağırmışlar, onları yerli əhali vəhşicəsinə məhv edir;

— Salyan kazarmalarının ətrafında evlərin damlarına snayperlər qoyulmuşdur:

— Yaxınlıqdakı evlər, damlar, mənzillər Azərbaycan Xalq Cəbhəsinin avtomatlıları ilə doludur, onlar sizi güclü avtomat-pulemyot atəşi ilə qarşılayacaqlar;

— yaraqlılar milisin, daxili qoşunların və sovet ordusunun formasını geyinmiş ola bilərlər».

Əsgərləri vahiməyə salmışdılar, onlar öz həyatı üçün qorxurdular, silahlı müqavimət olacağını gözləyirdilər və beləliklə də, qəddarlığa psixoloji cəhətdən hazırlanmışdılar.

Müstəqil hərbi ekspertlərin məlumatına görə, ehtiyatdan çağırılanlar arasında ermənilər də var idi. Bəs əsgər yığılmasını kim belə yezit kimi «etinasızlıqla» həyata keçirmişdir? Parlament komissiyasının bu sualına Krasnodar diyar hərbi komissarı general-mayor V. Vinoqradov cavab verməmiş və bildirmişdir ki, Şimali Qafqaz Hərbi Dairəsi qərargahının təşkilat-səfərbərlik idarəsinin rəisinə müraciət edin. Stavropol diyar hərbi

komissarı general-mayor B. Levitski də eynilə bu cür hərəkət etmişdir: «Bildirirəm ki, sizin sorğunuz Şimali Qafqaz Hərbi Dairəsinin qərargahına göndərilmişdir». Elə onda, yanvarın 20-də baş vermiş hadisə sonralar hərbi hadisələrə dair rəsmi məlumatda əksini tapmamışdır. Sverdlovsk qarnizonunun hissələrindən birində batalyon komandirinin müavini mayor Viktor Trofimov cəza əməliyyatında iştirak etməkdən boyun qaçırmışdır. Kadrlar şöbəsinin rəisi ona zəng vurub demişdir: «Bakıya göndərmək üçün xüsusi bölmə yaradılır. Sizə təklif edilir ki, tabeliyinizdəkilər olmadan təcili oraya gedəsiniz». Xidmət öz yerində, lakin mayor «təklif edilir» ilə «əmr olunmuşdur» arasındakı fərqi başa düşürdü. O demişdir: «Yox, könüllülər sırasına yazılmıram, xalqla müharibə etmək ordunun işi deyildir». Yarım saatdan sonra qulaqburması vermək üçün çağırıldığı siyasi şöbədə yenə də təkrar edərək demişdir ki orduya, polislərə. cəza dəstələrinə aid funksiyalar verilməsinin qəti əleyhinədir. Daha iki gündən sonra o, Privoljsk-Ural Hərbi Dairəsinin komandanı ilə söhbət etməyə göndərilmiş, lakin söhbət əvəzinə attestasiya komissiyasına yönəldilmişdir. «Sovet zabitinin yüksək adını nüfuzdan saldığına görə» mayor Trofimovu rekord müddətdə — üççə həftəyə ordudan buraxıb. pensiyadək qalan çəmi iki ilini də xidmət etməyə qoymalar.

Yox qan tökülməsinin qarşısını ala bilməsə də, qırğında heç olmasa iştirak etməməyə öz qüvvələri daxilində çalışmış adamlar hərbçilər arasında var idi. Bəli, var idi. Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin zabitləri teleqramla Qorbaçova və Yazova müraciət etmişdilər. Zabit yığıncağı şurasının sədri polkovnik Savelyevin və siyasi şöbənin rəisi polkovnik Rusakovun imzaladıqları bu teleqramda deyilirdi: «Azərbaycan Xalq Cəbhəsi Bakıda vəziyyətə nəzarət edir. Yığılıb qalmış problemlərin həlli üçün siyasi metodlardan hələ tamamilə istifadə olunmamışdır. Biz əminik ki, Rumıniya hadisələrinin Bakıda da təkrar edilməsinə yol verməmək mümkündür».

Bu teleqramın ünvan sahiblərinə çatdırılıb-çatdırılmaması məsələsinin çətin ki, ciddi əhəmiyyəti olsun. Amma başqa bir məsələ daha vacibdir: həmin faciəli gecənin hadisələri üçün yüksək dövlət xadimlərindən kimlər və nə dərəcədə məsuldur?

**P**ARLAMENT komissiyasının çıxardığı nəticələrə görə, «sovet qoşunlarının Azərbaycandakı cinayətkar əməlləri üçün M. Qorbaçov. Y. Primakov, A. Kirenko, D. Yazov, V. Kryuçkov, V. Bakatin. V. Varennikov və keçmiş İttifaqın siyasi və hərbi orqanlarının digər yüksək vəzifəli şəxsləri məsuliyyət daşıyırlar». Lakin komissiya qətiyyətlə cəhd göstərsə də. əməliyyatın bütün bilavasitə təşkilatçılarını və iştirakçılarını mütləq dəqiqliklə müəyyənləşdirməyə müvəffəq olmamışdır. Sov.İKP MK-nın, SSRİ Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin nə Dövlət Təhlükəsizliyi Komitəsinin yüksək vəzifəli şəxsləri əlçatmaz olmuşlar. İttifaq Prokurorluğu işin aparılmasını baş hərbi prokurorluğa tapşıraraq, heç olmasa, az-çox obyektiv təhqiqat aparılmasına imkan verməmişdir. 1990-cı il dekabrın 20-də «hərbi qulluqçuların hərəkətlərində cinayət tərkibi olmadığına görə» cinayət işinə xitam verilmişdir.

Beləliklə, indiyədək heç kəs Bakı faciəsində Mərkəzin rolu barəsində rəsmi məlumata (onları isə yalnız məhkəmə verə bilər) malik deyildir. İttifaqın ali rəhbərliyinin Bakı hadisələrində iştirakını müəyyən dərəcədə üzə çıxara bilən bəzi materiallar hər halda vardır.

**ŞƏXSİ ŞAHİDLİK. Xalq Cəbhəsi idarə heyətimin üzvü Etibar Məmmədov:**

«Yanvarın 18-də Primakov və Girenko Azərbaycan KP MK-da respublika rəhbərliyi ilə görüşdülər. Oraya məni də dəvət etmişdilər. Primakov dedi: «Qoşunlar Azərbaycanın Sovet İttifaqından ayrılmasının qarşısını almaq üçün lazımdır. Biz bu ayrılmaya nəyin bahasına olursa-olsun yol verməyəcəyik». O sonra isə dedi ki, müdafiə naziri Yazovun belə bir əmri var — əgər qoşunları şəhərə daxil olmağa qoymasalar, onda müqavimət göstərənlərə şiddətli atəş açılacaqdır. Elə həmin gün məni Bakı qarnizonunun komandanı general Sokolov yanına çağırtdırdı və xəbərdarlıq etdi ki, əgər onlar əmr alsalar, nə uşaqlara, nə də qadınlara rəhm edəcəklər. Elə həmin gecə qoşunların şəhərə daxil olmaq üçün göstərdiyi ilk cəhd baş tutmadı. Ayın 19-da axşam isə MK-nın binasında artıq heç kəs qalmamışdı. Respublikanın bütün rəhbərliyi, habelə Primakov və Girenko ordu qərargahına getmişdilər, Yazov və Bakatin — onlar da Bakıya gəlmişdilər — əməliyyata oradan rəhbərlik edirdilər».

Bir müddət sonra parlament komissiyasının sədri Abasov Yazova rəsmən müraciət etdi: «Hansı sənədə (əmrə, təlimata, əsasnaməyə və s.) əsasən sovet ordusunun hissələri silah işlətmişlər və onlar hansı silah növlərindən istifadə etmişlər?». Müdafiə nazirinin göndərdiyi cavabda deyilirdi: «Xahiş edirəm sizi maraqlandıran məsələlər barəsində SSRİ Ali Sovetinin Rəyasət heyətinə müraciət edəsiniz».

Komissiyanı əlbəttə, SSRİ DTK-nın rolu da maraqlandırırdı. Azərbaycanın milli təhlükəsizlik naziri yalnız ötən ilin dekabrında bildirmişdir: «1990-cı ilin Yanvar hadisələri dövründə keçmiş DTK xətti ilə tədbirlərə keçmiş SSRİ DTK sədrinin müavinləri F. Bobkov, V. Pirojkov, Q. Akeyev rəhbərlik edirdilər. Həmin tədbirlərdə SSRİ DTK-nın respublika komitəsinə ezam edilmiş əməkdaşlarının böyük bir qrupundan istifadə olunmuşdur» Bu komitənin sabiq başçısı V.Hüseynov belə demişdir: «Qoşunlar Bakıya vəhşicəsinə yeridildikdən sonra dərhal Kryuçkov mənə zəng vurub dedi ki, Bakıda hadisələrlə əlaqədar Siyasi Büronun iclası olmuşdur. İclasda Qorbaçov demişdir: «Daxili İşlər Nazirliyi bütün məsələləri həll edir, Müdafiə Nazirliyi də qarşıya qoyulmuş vəzifələri həll edir, DTK işi tamam bada vermişdir». Mən bu deyilənləri sözbəsöz çatdırıram».

Yəqin ki, hətta Qorbaçovun özü də Bakıda baş vermiş hadisələr üçün özünün məsuliyyətini danan deyildir. Deyək ki, Vilnüs və Tbilisi üçün məsuliyyət kimi, bu məsuliyyətin də miqyası hələlik yalnız güman və fərziyyələrin, bəzən də son dərəcə ifrat və təhlükəli güman və fərziyyələrin obyektidir. Burada keçmiş SSRİ prezidentinin nə kimi rol oynadığını aydınlaşdırmaq üçün ictimaiyyətin göstərdiyi səylər onun istefasından sonra getdikcə güclənir.

Azərbaycan prezidenti Mütəllibov bizimlə söhbətdə Bakı faciəsində keçmiş SSRİ prezidentinin rolunu belə qiymətləndirdi:

— Qarabağ münaqişəsində Qorbaçovun ikili mövqe tutması qoşunların müdaxiləsində heç də az rol oynamamışdır. Burada Qorbaçovu ona görə qınamışlar ki, Azərbaycanın suverenliyini müdafiə etməmişdir, ermənilər isə, öz növbəsində, onu Qarabağı onlara vermədiyinə görə təqsirləndirmişlər. Bir dəfə mən ona dedim: «Qulaq asın, axı belə olmaz. Sizi heç olmasa tərəflərdən biri qəbul etməlidir. Yoxsa ki, sizi o tərəf də, bu tərəf də söyüb biabır edir. Biz sizi heç də azərbaycanlı etmək fikrində deyilik. Amma konstitusiyada nəzərdə tutulmuş qayda-qanun var, bir prezident kimi siz onu təmin etməyə borclusunuz». Yox, o. yenə də ağıl-kamala çağırtmağı üstün tutdu, öz səlahiyyətindən istifadə etməkdənsə, diplomatiyaya əl atdı.

Mütəllibov axırda dedi: Bax, beləcə iş qəlib Yanvar hadisələrinə çatdı... Qoşunların Bakıya yeridilməsinə Qorbaçov icazə vermişdir.

## 3. NECƏ «MÜDAFİƏ ETDİLƏR»

**«Xalq Cəbhəsi liderlərinin belə bəyanatları aşkar fitnəkar xarakter daşıyır ki, fövqəladə vəziyyət elan edilməsi üçün görülmüş tədbirlər nəticəsində guya qadınlar və uşaqlar tələf olmuşlar. Bir daha təkrar etmək lazımdır ki, bu, qərəzli yalandır! Ondan məqsəd əhalini sovet ordusuna hüquq mühafizə orqanlarına qarşı qaldırmaqdır».**

**«PRAVDA», 22 yanvar 1990-cı il.**

**«Toplanmış materiallara görə, Bakıya qoşunlar yeridilərkən hərbi qulluqçular tərəfindən zorakılıq əməlləri törədilmişdir. Hərbçilər tərəfindən yaralıların öldürülməsi, təsadüfən yoldan keçənlərin, yaşayış evlərinin, mağazaların, tibb müəssisələrinin və başqa müəssisələrinin atəşə tutulduğu hallar qeydə alınmışdır. Həlak olanlar arasında 7 qadın var. Həlak olanların 7 nəfəri yetkinlik yaşına çatmamışdır».**

**Azərbaycan Respublikası Ali Soveti**
**komissiyasının rəyindən.**

**O**N üç yaşlı Larisa Məmmədova atəş səsləri eşidib eyvana, çıxmış və yerindəcə öldürülmüşdür.

Bu qızcığaz ekstremistdir?

Məktəbli Kərim Kərimov deyir: «Yanvarın iyirmisində saat dörd radələrində dostumla parkda gəzişirdik. Bu zaman əsgərlər gördük, onlar bir söz deməyib güllə atmağa başladılar. Məni vurdular, yıxıldım, daha heç nə yadımda deyil». O, xəstəxanaya gətirilmiş və belə diaqnoz qoyulmuşdur: güllə sidik kisəsini yarıb keçərək qarın boşluğunu dağıtmış, köks qəfəsini deşib keçmişdir.

Bu oğlan uşağı silahlı millətçidir?

On yaşlı Samirə Bağırova (köks qəfəsindən güllə yarası almışdır). on iki yaşlı Gültəkin Paşayeva (boyun nahiyəsi odlu silahla yaralanmışdır) pozucu qüvvələrdir?

Təsadüfən gedib-gələnləri, avtomobilləri, evlərin pəncərələrini gülləyə tuturdular. Adamlar hətta evdən çıxmadan, mətbəxdə oturub çay içdikləri yerdə tələf olurdular.

## ŞƏXSİ ŞAHİDLİK.

**Emilya Ağayeva (Ələkbərov küçəsi, 97):** «Yanvarın 20-də səhər məhəlləmizə hərbi maşın gəldi və səsucaldanla bizdən xahiş etməyə başladılar ki, evdən çıxmayaq. Saat 17-də mən pəncərədən küçəyə baxdım və gördüm ki, iki tərəfdən iki zirehli maşın gəldi, pulemyotun lülələrini qaldırıb, düz pəncərələrə sarı güllə yağdırmağa başladılar. Biz tez dəhlizə atılıb, döşəməyə uzandıq... Qonşumuz komendantlığa zəng vurdu, bir azdan atəş dayandırıldı. Yanvarın 21-də və 22-də gülləboran yenidən təkrar edildi».

Hərbi prokuror iddia edirdi ki, «Azərbaycan ekstremistləri yaxşı silahlanmışdılar», tək elə Salyan kazarmaları (Bakıda əsas hərbi qarnizon) ətrafında 110 atəş nöqtəsi vardı, çox yerdə də snayperlər qoyulmuşdu. İddia edirdilər ki, orduya qarşı avtomatlardan, avtomat tüfənglərdən və tapançalardan istifadə olunmuşdur. Qoşunlara gecəyarısı hücuma keçmək əmr edilmişdi, ekstremistlər isə kazarmalara saat 23.30 dəqiqədə atəş açdılar. Guya ki, üç əsgər kazarmanı hələ tərk etməzdən qabaq öldürülmüşdü.

«Helsinki Votç/Memorial» qrupunun beynəlxalq ekspertləri Baş Hərbi Prokurorluqdan həmin ehtimalın təsdiqi üçün dəlil-sübutlar almağa çalışmışlar. Onlara bildirmişlər: «Olmaz. bütün arxivlər məxfidir». Bununla belə, prokuror silah ələ keçirilməsinə dair bir dənə də fakt gətirməmişdir. Bu məsələ barəsində |məlumat olduqca anlaşılmaz və ziddiyyətlidir. Məsələn, hərbi komendantın müavini iddia etmişdir ki, ekstremistlər 81 vahid silah, əsasən əldəqayırma silah ələ keçirmişlər. Digər məlumata görə, silah gəzdirmək üstündə heç kəs tutulmamışdır. Baş hərbi Prokurorluğun məlumatına görə, əsgərlərə atəş açmaq üstündə təkcə bir adam həbsə alınmışdır, lakin ona qarşı cinayət ittihamı irəli sürülməmişdir (yəqin ki, nə bir kimsəni öldürmüş, nə də yaralamışdır).

**EKSPERTİZA. «Helsinki Votç/Memorial» qrupu müstəqil beynəlxalq ekspertlərinin hesabatından:** «Hərbi prokuror bizə dedi ki, Azərbaycana silah İranla sərhəddən qaçaqmalçılıq yolu ilə gətirilmişdir və ekstremistlər ordu və milisin silah anbarlarına basqınlar edirdilər. Bu basqınlar barəsində xəbərlər fövqəladə vəziyyət elan olunmazdan əvvəlki aylarda mərkəzi hökumət mətbuatında tez-tez verilirdi. Amma bu xəbərlərdən heç birində deyilmirdi ki, Bakıya silah daşınır və Ermənistan ilə Azərbaycan arasında münaqişənin ən çox kəskin olduğu sərhədboyu ellərdən başqa, daha haradasa ucdantutma hamıya silah paylanır. Xalq Cəbhəsinin fəallarından biri demişdir ki, guya sovet qoşunlarının ələ keçirdikləri silahın əksər hissəsinin Bakıda yanvar hadisələrinə heç bir dəxli yoxdur. Bu silahlar əhalinin əlindən başqa vaxtda və respublikanın başqa rayonlarında alınmışdır. Digər mənbəyə görə, ələ keçirilmiş silahın ordu sərgisində hərbi bələdçi etiraf etmişdir ki, bu silah əsasən ermənilərlə sərhədboyu zonadan gətirilmişdir».

Cürət edib deyə bilmərik ki, o günlərdə Bakının bir nəfərtək bütün sakinləri küçələrə silahsız çıxırdılar. Lakin beynəlxalq ekspertlər yaxşı təşkil edilmiş silahlı müdaxilə barəsində rəsmi məlumatın təsdiqi üçün bir dənə də olsun ciddi dəlil-sübut tapmamışlar. Əvəzində vətəndaş itaətsizliyinin üsulları və miqyası ilə uyğun gəlməyən hərbi tədbirlər barəsində sənədlər, heyhat, çox-çoxdur.

## ŞƏXSİ ŞƏHADƏTLƏR.

**Əli Quliyev:** «Yanvarın 24-də saat 18-də əsgərlər Xalq Cəbhəsi Nəsimi rayon qərargahının binasına soxuldular və axtarışa başladılar. Lakin əlləri ətəklərindən uzun qaldı, bir şey tapmadılar. Biz 19 nəfər idik,

Hamımızın əllərini qandallayıb, xəbərdar etdilər ki, öz dilinizdə cınqırınızı belə çıxarsanız, elə o dəqiqə güllələyəcəyik... Çömbələmə oturtdular, qollarımızı boynumuzun ardında tutdurdular, gözlərimizi yumdurdular. və altı saat bu vəziyyətdə saxladılar. Azacıq tərpənəni dəyənəklə və avtomatla döyürdülər. Aramızda ikinci qrup əlil vardı, gözləri xəstə idi. Xahiş edib yalvarırdı: «Başıma vurmayın, ayrı yerlərimə vurun». Onlar isə qəsdən onun elə hey başına vururdular...». **Saleh Məmmədov:** «Onlar bizi «qaralar», «düşmənlər» adlandırırdı. Məni zirzəmiyə aparıb soruşdular: «Nə qədər rus öldürmüsən? Bir rusun başına nə qədər pul verirlər?». Tələb edirdilər, boynuma alım ki, ekstremistəm. Mən imtina etdim, onda məni lüm-lüt soyundurub qapının ağzında dayandırdılar. Dedilər: «İndi səni güllələyəcəyik». Çaxmağı eləcə çəkdilər, amma güllələmədilər. Sonra bizi rayon daxili işlər şöbəsinə apardılar. Artıq gecədən keçmiş, qadağan saatı başlanmışdı. Biri dillənib dedi: «Ey, türk, bura gəl!». yanına getdim. «Qaç! Mən isə atəş açacağam. Vursam, deməli, sərrast atıcıyam. Güllə boşa çıxsa, hesab el ki, səninki gətirdi».

**EKSPERTİZA. «Şit» təşkilatı müstəqil ekspertlərinin hesabatından:**

«Bakıda aşağıdakılar olmuşdur:

1. Adamları xüsusi qəddarlıqla silahı dirəməklə və yaxın məsafədən güllələmişlər. Məsələn, Y. Mejepoviçin bədənini 21 güllə dəlmə-deşik etmişdir. D. Xanməmmədova 10-dan çox R. Rüstəmova 23 güllə vurulmuşdur. Sərnişin dolu avtobus gülləyə basılmışdır. Avtobusda uşaqlar da var idi.

2. Tankları və zirehli transportyorları qəsdən minik maşınlarının üstündən sürürdülər ki, onların içərisindəki adamları öldürsünlər.

3. Xəstəxanalar, təcili yardım» maşınları atəşə tutulmuş və həkimlər öldürülmüş, xəstələrə yardım göstərən tibb-sanitariya işçilərinə maneçilik törətmişlər. Məsələn, tanklar 67-50 AQP (həkim A. Marxyovka öldürülmüşdür), 67-51 AQP (həkim Q. Məmmədov öldürülmüşdür) nömrəli «təcili yardım» maşınlarına atəş açmışlar.

4. Yaralıların başının üstünü alıb öldürmüşlər,

5. Süngü-bıçaqlarla adamlar qətlə yetirilmişlər. Ölənlər arasında həp iki gözü tutulmuş B. Yefimıçev də var.

6. Kalaşnikov avtomatının ağırlıq mərkəzi dəyişən 5,45 çaplı güllələrindən istifadə edilmişdir.

7. Xəbərdarlıq edilmədən adamlara atəş açılmışdır.

8. Çapovulçuluq, mənzillərin yarılması və vətəndaşların soyulub talan edilməsi, təhqirlər, insan ləyaqətinin alçaldılması halları olmuşdur...».

**ŞƏXSİ ŞAHİDLİK. Kinorejissor Stanislav Qovoruxin (Bakıda hadisələrdən xəbər tutan kimi, operatorla birlikdə dərhal oraya yola düşmüşdür):** «Milis şöbələrindən birinin baş verən hadisələr qeydə alınan jurnalı qarşımdadır. Onu vərəqləyirəm: əsgərlər yoldan keçəni saxlamış, üst-başını yoxlamış. pulunu əlindən almışlar; əsgərlər tankı mağazanın qapısının üstünə sürmüş, qapını sındırmış, oğurluq etmişlər; əsgərlər küçədən keçən bir nəfərin başından papağını qapmışlar; əsgərlər bir mənzilə soxulmuş, qiymətli əşyalar axtarmış, heç nə tapmayıb, ordan qadının barmağından nişan üzüyünü dartıb çıxarmışlar...».

Nə isə, SSRİ daxili işlər naziri V, Bakatin o günlərdə Bakının rayon daxili işlər şöbələrinin rəisləri ilə görüşdə öz tabeliyindəkilərdən hərbçilərin törətdikləri azğınlıqlar barəsində eşitdikdə demişdi: «Təfsilat və konkret hallardan danışmaq lazım deyil. Mən bunlardan çox-çox danışa bilərəm». Amma parlament təhqiqatının iştirakçıları ona rəsmi sorğu ilə müraciət etdikdə danışmadı.

Azərbaycan Ali Soveti komissiyasının məlumatına görə, «Bakı şəhərinə qoşunların qanunsuz yeridilməsi nəticəsində» 131. nəfər öldürülmüş və 700-dən çox adam yaralanmışdır. (Şəhərdə fövqəladə vəziyyət 1991-ci ilin avqustunadək saxlanmışdır. Qeydə alınmış qurbanların axırıncısı qadın olmuşdur: 1990-cı ilin dekabrında qadağan saatını pozmuş və bir əsgər onu . arxadan güllələmişdir).

Bu adamların hamısının yalnız hərbçilər tərəfindən öldürüldüyünü dəqiqliyi ilə təsdiq etmək olmaz. Bəzən yeganə şahid güllənin açdığı deşiklər olmuş, lakin kimin və haradan güllə atdığı sübut edilməmişdir.

Bakıda deyirlər ki, öldürülənlərin sayı barəsində rəsmi məlumatdakı rəqəmlər qat-qat azaldılmışdır. Belə ki, çoxları itkin düşmüşdür, şayiələr gəzir ki, 300 və hətta bundan çox adam öldürülmüş, guya onların

meyitlərini əsgərlər sürüyüb dənizə atmışlar Müstəqil ekspertlər bu deyilənləri nə təsdiq nə də təkzib edə bilmişlər.

Ordunun tələfatı haqqında. «Voenno-istoriçeski jurnal» (№7, 1990-cı il) «Bakıda ekstremistlərin əli ilə» 29 nəfərin, Baş Hərbi Prokurorluq isə 25 əsgərin öldürüldüyünü qeyd edir.

Güman ki, tələfat siyahılarına rəsmi dəqiqləşdirmələri Azərbaycan Prokurorluğu edəcəkdir — respublika Ali Soveti ona cinayət təhqiqatına başlamağı tapşırmışdır.

**Bakıya qoşun yeridilməsindən əvvəl olmuş hadisələrin məntiqi, ondan sonra baş vermiş hadisələrin məntiqi işğalın başlıca məqsədi barəsində yanılmağa qoymur. Suverenlik tələb edən xalqı cəzalandırmalı. Milli istiqlal uğrunda çarpışan bütün hərəkatlara sərt ibrət dərsi verməli. Həm də fürsətdən istifadə edərək kommunist sistemin və totalitar sovet imperiyasının yaxınlaşmaqda olan iflasını zor gücünə sovuşdurmaq metodlarını sınaqdan çıxarmalı.**

**Sonrakı yanvarda, Bakı hadisələrindən düz bir il sonra dünya Vilnüsdən alınmış xəbərlərdən sarsıldı...**

**Valeri VIJUTOVİÇ, Vasif SƏMƏDOV, “İzvestiya” nın müxbirləri**
**(«İzvestiya», 13, 14 və 15 fevral 1992-ci il).**

**“Həyat”.** - 1992. – 14,15,18 fevral. - N 32,33,34. - S. 1-4.

## Qırx günün düşüncələri

**20 YANVARDA GÜNAHSIZ İNSAN QANI AXANDAN SONRA BU SUAL FİKRİMİZDƏN ÇIXMIR. NƏ ÜÇÜN QAN AXDI! BAŞQA CÜR OLA BİLMƏZDİMİ! BU SUALA CAVAB VERMƏK ÜÇÜN HADİSƏLƏRDƏ İŞTİRAK EDƏN ÜÇ TƏRƏFİN MÖVQEYİNƏ NƏZƏR SALMAQ LAZIMDIR. MƏRKƏZ, RESPUBLİKA RƏHBƏRLİYİ VƏ AZƏRBAYCAN XALQ CƏBHƏSİ.**

Moskvanın rolundan danışanda mətbuat mərkəzi hakimiyyət orqanlarının sistematik olaraq gecikdiyini, hadisələrin arxasınca süründüyünü qeyd edir. Yanvarın 13-14-də Bakıda on iki minə qədər daxili qoşunların əsgərləri vardı, amma bu qoşunlar talana qarşı heç nə edə bilmədi. Bəziləri Moskvanın gözləmə mövqeyini şüurlu sayırlar, lakin bu güman bizə sadəlövh görünür. Ləngliyin əsl səbəbi ifrat mərkəziyyətdədir: Moskva bir təhlükəyə reaksiya verincə bəd xəbər pillə-pillə hakimiyyət piramidasının başına qalxmalı, sonra isə oradan yenidən pillə-pillə aşağı düşməli və real tədbirlərə çevrilməlidir. Bu tədbirlər ancaq yanvarın 18-19-da gerçəkləşə bildi, düz bir həftə gecikdi. Belə halı ölkədəki qlobal hakimiyyət böhranının real təzahürü saymaq lazımdır.

Moskvanın təhlükəsizlik reaksiyaları ləng olmaqdan başqa tələsik və birtərəfli idi. Həm da bu reaksiyalar hərfən təhlükəsizlik tədbirinə çevrilir, bu tədbirlərin respublikada verəcəyi əks-sədanı və onların əlavə, dolayı nəticələrini kifayət qədər nəzərə almadan verilirdi. Məsələn, talanlar ərəfəsində Azərbaycan SSR DİN əməkdaşlarının şəxsi silahlarının da alınması belə tədbir idi. Bu tədbir respublika DİN aparatını başdan-ayağa iflic edib sıradan çıxardı: əməliyyatın psixoloji tərəfi nəzərdən qaçırılmışdı. Bakıdakı on iki minlik daxili qoşunların erməni talanlarına mane olmaması isə onlardan istifadə etməyin real komanda və idarə mexanizminin yoxluğu idi. Respublika DİN-in buna səlahiyyəti yox idi, Moskva da heç kəsə qoşunları idarə eləmək mandatı verməmişdi. Respublikanın qanuni hakimiyyət aparatının müşahidəçi kimi durub gözləməsi səbəbsiz deyildi. Hamı Moskvadan qəti göstəriş gözləyirdi.

Hətta Primakov və Girenkonun Bakıdakı fəaliyyəti da əlaqəçi səfirlik xarakteri daşıyırdı. Onların müstəqil qərarlar qəbul etmək səlahiyyəti yox idi. Yanvar böhranının köklü səbəbini isə yenə mərkəzin keçən ilin sonlarından başlayaraq Ermənistanla Azərbaycan sərhədindəki silahlı toqquşmalara münasibətdə qəti qanuni mövqe tutmaması idi. Mövqesizlik vakuumunda hərbi Müdafiə Şurası yarandı. Yanvarın 17-də akademiyanın əsas binasının girəcəyində belə bir elan vardı: hərbi iş sahəsində səriştəsi və nəzəri hazırlığı olanlar yazılı surətdə EA partiya komitəsinə müraciət etsinlər. «Azadlıq» qəzetinin son nömrəsində hərbi cərrahları könüllü olaraq səfərbərliyə çağırırdılar. Adamlar dəhşətli fəlakətin yaxınlaşdığını xəbər verən bu çağırışların yanından sakitcə keçirdilər, qanuni hakimiyyət vakuumu hamını keyləşdirmişdi. 13 yanvar mitinqində edilən səfərbərlik ehtiyatsızlıq olmaqdan başqa, dünyada ən böyük hərbi maşını olan bir ölkənin içində əliyalın xalqı «hərbi» səfərbərliyə çağıran faciəli sadəlövhlük idi. Lakin işin bu tərəfini heç kəs fikirləşmirdi, çünki Mərkəz Ermənistanla sərhədlə sabitlik yaratmaq üçün tədbir görmürdü, xalqın özünümüdafiədən başqa yolu qalmırdı.

Mərkəz hakimiyyət vakuumuna qanlı şənbə gecəsində son qoydu. Bu gecikmiş, qanunsuz, konfliktin ancaq bir tərəfinə qarşı yönəlmiş qeyri-peşəkar «saldafon» tədbiri əks nəticələr verdi: düzdür, qanuni orqanların və təsisatların toxunulmazlığı təmin olundu. Amma ictimai-siyasi böhran qat-qat dərinləşdi. SSRİ Ali Soveti Rəyasət Heyətinin fövqəladə vəziyyət barədə fərmanından sonra, yəni yanvarın 16-dan inqilabi situasiya respublikanın bütün ərazisində aşağıdan inqilabi prosesə çevrildi. Şənbə faciəsindən sonra AKP aparatı xalqdan təcrid olundu; respublikanın «üzüyola» Ali Sovetinin nəzarətdən çıxıb mərkəzə etirazı isə tarixi mənası olan hadisə idi.

Böhran 19-na nisbətən qat-qat dərinləşdi. Eyni zamanda kütləni qanla qorxutmaq niyyəti də baş tutdu.

**2.**

Hadisələrdə respublika rəhbərliyinin mövqeyi əslində mövqesizlikdən ibarət idi. Respublikanın suverenliyini təmin edə bilmədiyinə görə xalqın rəhbərliyə etimadsızlığı şəraitində bu mövqesizlik siyasi və

ideoloji vakuum yaradır, bu vakuum da AXC-nin sürətli inkişafını şərtləndirdi. Respublika partiya rəhbərliyinin Dağlıq Qarabağ böhranından çıxmaq konsepsiyası yox idi: Moskva qarşısında icraçılıq mövqeyi tutulmuşdu. Sabitlik dövründə yarıyan bu mövqe siyasi böhran şəraitində «istefa» şüarı ilə nəticələndi. Partiya rəhbərliyinin böhranlı vəziyyəti bütün respublika dövlət aparatını keyləşdirib gözləmə mövqeyinə gətirmişdi: yuxarı və orta dairələrdə hamı böhranın dərinləşməyini müşahidəçi kimi izləyir və hakimiyyətin yenidən bölüşdürülməsi şəraitində hansı payı qazanacağı barədə düşünürdü.

Respublikanın partiya və dövlət aparatında, təsərrüfat rəhbərləri arasında siyasi nadanlıq adlandırıla bilən bir rəy yaranmışdı: AXC-nin tezliklə hakimiyyəti ələ alacağına inananların və buna görə ikili mövqe tutanların sayı da çox idi. Avropalıların nəhəng hərbi maşın saydığı, ikinci dünya müharibəsindən bəri hökumətlər yıxıb yenilərini yaratmaqla məşğul olan sovet siyasi sisteminin bir respublikasında qanuni orqanları içəridən asanlıqla kənar etmək, asanlıqla hakimiyyətə gəlmək ümidləri günahsız qanların axıdılmasına doğru aparan sadəlövh xülyalar idi. Amma respublikada siyasi böhranın dərinləşməsində bu xülyalar az rol oynamadı. Bu, mifoloji siyasi təfəkkürlə siyasətə girməyin faciəsi idi.

Respublikada partiya rəhbərliyinin mövqesizliyi nəhəng təbliğat və informasiya aparatına da sirayət edirdi. İdeologiya çinovnikləri qəzet redaktorlarının «başüstələrini» «mətbuatı nəzarətdə saxlamaq» kimi başa düşür, özünü və xalqı aldadırdı. Rəsmi mətbuat və televiziya ictimai rəyi idarə eləmək üçün heç nə edə bilmirdi, çünki bununçün rəsmi «platforma» yox idi, təbliğat maşınının siyasət aparmaq səriştəsi isə sıfıra yaxın idi. Nəhəng təbliğat maşını respublikanın siyasi prosesində zorpərəst qüvvələrin fəallaşmasına, qanunsuzluq təzahürlərinin kütləvi xarakter almasına heç bir qiymət verə bilmirdi. Nəticədə xalq hərəkatının kortəbii idarəolunmaz populist xarakteri dərinləşirdi. Bunun da günahı birinci respublika rəhbərliyində və onun öz ətrafına topladığı mətbuatı idarə edən "bürokratiyada idi. Bu gün Azərbaycan mətbuatının ən müqəddəs vəzifəsi ümumxalq suverenlik hərəkatını bütün baxımlardan təhlil etmək, onu dinc parlament demokratiyası yoluna istiqamətləndirmək və respublikanın intellekt potensialının bütün gücü ilə proqnozlaşdırmaqdır. Bizim mətbuat çinovnikləri mətbuatı bu istiqamətə yönəltmək əvəzinə onu siyasətdən uzaqlaşdırır və mövcud vəziyyəti təhlil etməyi qadağan edir. Xalqın siyasi inkişaf yolunu təhlil etməyən, işıqlandırmayan və istiqamətləndirməyən mətbuat mənasızdır.

Kortəbii hərəkat yeni qanlara və yeni diktaturalara aparır. Mətbuatın bütün tarixi məsuliyyəti də bu təhlükədən doğur. «Başüstə» mətbuatı xalq hərəkatına qarşı xəyanətkar mövqedədir.

Respublika rəhbərliyinin mühüm səhvlərindən biri 1988-ci ilin noyabr-dekabr dinc xalq inqilabından heç bir nəticə çıxarmamasıdır. Hələ o zaman xalq hərəkatında kəndli stixiyasının aparıcı rolu aydın idi. Kənddə narazılığın kökü məlumdur: kolxoz və sovxoz dolandırmır, kəndlinin öz torpağı isə həddən artıq azdır. Respublikada siyasi sabitliyin açarı elə bu bahar kənddə torpaq paylamaqdır. Respublika torpaq fondunun üç-yeddi faizi qədər nisbətən iri həcmdə torpaq sahələri ayırmaqla kolxoz və sovxozları tələsik ləğv etmək planlarını saxlayıb onların taleyini kənddə iqtisadi proseslərin nəticəsi kimi həll olunmasına istiqamətləndirmək olar. Nisbətən iri torpaq sahəsi alanların hamısı ərzaq istehsalçısı olarsa, bunun şəhərdə ərzaq vəziyyətini yaxşılaşdırmaqla sabitliyə kömək edəcəyinə şübhə yoxdur.

Bir də bütün respublikada və xüsusilə kənddə ən eybəcər şəkildə davam edən avtoritar idarə üsulunu xalq daha qəbul etmir. Bunu görmək və yubanmadan real demokratik reformalar aparmaq lazımdır. Respublikanın qanuni ali hakimiyyət orqanı olan Ali Soveti ikinci və ya üçüncü planda saxlamaq siyasəti də uzaqgörən deyildi, siyasi mübarizənin qanuni formalarına rəvac vermək qorxusundan irəli gəlirdi.

**3.**

Respublikada iqtisadi, sosial və siyasi ziddiyyətlərin dərinliyi və kəskinliyi AXC-nin surətlə böyüyüb tarixi bir qüvvəyə çevrilməsinə səbəb olmuşdur. Suverenlik haqda Konstitusiya qanunu bu hərəkatın böyük tarixi bəhrəsidir.

Keçən ilin oktyabr ayının beşində AXC rəsmi surətdə qeyd olunmaqla öz inkişafında yeni bir pilləyə qalxdı. Lakin tezliklə XC-nin inkişafında ziddiyyətlər özünü göstərməyə başladı. Bəzi rayon cəbhələri hərəkatın Məramnamə və Nizamnaməsinə məhəl qoymadan yerlərdə hakimiyyət uğrunda mafiyaların təmənnalı mübarizəsinə qoşuldu.

Bütün bunlar dekabrın əvvəllərindən xalq hərəkatında kortəbiiliyin daha da qüvvətlənməsinə, zorpərəst qüvvələrin fəallaşmasına səbəb olurdu. Nəticədə xalq hərəkatının dinc xarakteri pozulmağa başladı: bunun təzahürü özünü Naxçıvan sərhədindəki hadisələrdə, Cəlilabadda, Lənkəranda göstərdi. Radikalların və zorpərəstlərin günahı üzündən xalq hərəkatının dinc xarakterinin pozulması qan axmasına gətirib çıxarmalı idi və çıxardı. Bəziləri qan axmasını xalq hərəkatının yeni mərhələyə qalxması kimi qiymətləndirdi. Azərbaycanda aşağıdan xalq hərəkatının, yuxarıdan yenidənqurma ilə toqquşması və qan axmasına müsbət qiymət vermək — vətəndaş müharibəsi yolunu alqışlamaq deməkdir.

Yanvarın əvvəllərində yaranan vəziyyətə AXC rəhbərliyi sərt qiymət verə bilmədi: nəticədə hərbi Müdafiə Şurası yarandı və 16-da onun tərkibinə daxil olanlar AXC-nin bütün qalan seçkili orqanlarının fəaliyyətini dayandırmaq təşəbbüsü etdilər.

Yanvar ayının 15-dəki fərmandan sonra yenə prosesin dinc xarakterini pozan və şəhərə qoşun yeridilməsi üçün yeni bəhanələr verən qərarlar çıxdı. Şəhərdə sabitlik yaratmaq əvəzinə dörd səhv meyl qəbul edildi: 1. Ümumi tətillər. 2. Şəhəri qorumaq məqsədilə yollarda kütləvi piketlər təşkil etmək. 3. Mitinqlərin MK qarşısına köçürülməsi. 4. İstefa şüarı. Bunların hamısı böhranı dərinləşdirdi.

Hərəkatın dinc xarakterini qoruyacaq yeganə doğru şüar respublika Ali Sovetini çağırıb Ermənistanla sərhəddəki toqquşmalara rəsmi siyasi qiymət verməyi tələb etmək idi. Bu halda şəhərdə qan tökülməyə bilərdi.

Yanvarın 18-də və 19-da AXC nümayəndəsi ilə Primakov və Girenko, Bakı qarnizonunun rəisi general Sokolov, həmçinin Polyaniçko arasında danışıqlar olmuşdur.

«Azadlıq» radiosu saat on birə işləmiş — faciənin başlanmasından iki saat qabaq AXC ilə hərbiçilərin danışığının baş tutmadığını və ordunun gecə şəhərə girəcəyini bildirdiyini dedi. Bu zaman MK yanındakı mitinqə avtobuslar gəlir və mikrofonla yollardakı piketləri möhkəmlətmək üçün adamlar səfərbər edilir və «hərbçilərin çox güman ki, şəhərə girəcəyi» deyilirdi.

Bakıda fövqəladə vəziyyət barədə fərman «Zaman» proqramında elan olunmalı idi. Amma televiziyanın enerji blokunun vaxtından əvvəl partladılması bütün insanlıq qanunlarını pozan bir hala səbəb oldu: Bakı əhalisi şəhərdə fövqəladə vəziyyət elan olunduğunu ancaq səhər saat altıya qədər yüzlərlə adamın qanı axandan sonra bildi.

Yanvarın 19-da axşam saat 8-də AXC nümayəndələrinin televiziyada mühüm bir məlumatla çıxış edəcəyi barədə mərkəzi mətbuatda eyhamlar getmişdir. Əslində isə bu şayiə Etibar Məmmədovun yanvarın 19-da saat altıya qalmış V. Polyaniçko ilə son görüşü ərəfəsində yayılmışdır: saat səkkizə qalmış AXC liderinin danışıqlar barədə televiziya ilə məlumatının vaxtı kimi təklif olunmuşdur. AXC tərəfdən tətili dayandırıb yolları açmaq, mərkəzin isə istefa tələbini qəbul edib qoşunları şəhərə yeritməmək barədə AXC nümayəndəsinin təklifi rədd edilmişdi. Beləcə adi şeylərdən müəmmalı miflər yaranır.

Qanlı yanvar şənbəsi xalq hərəkatının dinc xarakterinin pozulmasının bizi nəyə doğru apardığını əyani şəkildə göstərdi. Bəs indi hadisələrin perspektivləri neçədir?

Ən dəhşətlisi odur ki, qanlı hadisələrdən sonra xalq hərəkatının və onun əhval-ruhiyyəsinin xarakteri göstərir: siyasi prosesin qeyri-dinc xarakteri artır, siyasi, iqtisadi və sosial xaosa doğru hərəkət daha da sürətlənir.

Unutmaq lazım deyil ki, iqtisadi xaos şəraitində nəinki suverenlik uğrunda mübarizə ola bilməz, heç indiki suverenliyi də saxlamaq real deyil. İqtisadi xaosun, yəni tətillərin tərs üzü fövqəladə vəziyyət və komendant saatıdır, hərbi rejimdir.

Xalq hərəkatını dinc, demokratik mübarizə yoluna döndərmək — indi xalqın vahid milli qurtuluş platformasıdır.

Emosional etirazlar, gücpərəst lovğalıq yolu milli suverenliyi daha çox itirmək yoludur.

**Rahim ƏLİYEV.**

**"Azərbaycan".** - 1990. – 2 mart. - N 4. - S. 1, 4.

# İNSANLIQ HARAYI

## SSRİ Ali Sovetinin üzvü Oljas SULEYMENOV «Raboçaya tribuna»nın suallarına cavab verir

**Onunla xəstəxanada görüşdük, möhkəmcə qrup olduğuna görə yatağa düşmüşdü. Amma xəstəxana palatasında da Oljas Süleymenovun telefonu aramsız zəng çalırdı, balaca masanın üstündə teleqramlar gözə dəyirdi. Birində bu sözləri oxudum: «Xalqımız üçün faciəli günlərdə bəzimlə bır yerdə olduğunuza görə səmimi minnətdarlığımı və dərin təşəkkürümü bildirirəm. Sız bizi başa düşmüş, ümumi dərdimizə şərik çıxmış, diqqət və qayğınızla hamımıza mənəvi dayaq olmusunuz. Xalqlarımızın barışmasına kömək edə bilən sanballı, səmimi sözlərinizə görə təşəkkür edirəm.**

**Zakir Abbasov, Azərbaycan SSR, Qaradağlı kəndi».**

**— Oljas Öməroviç, hər halda, necə oldu ki, Bakıya gedib çıxdınız?**

— Mən Moskvada idim. Ali Sovetin qanunvericilik, qanunçuluq və hüquq qaydası məsələləri üzrə komitəsinin iclası keçirilməli idi. Biz sessiyada qəbul edilməli olan vacib qanunların layihələrini müzakirə etməyi nəzərdə tuturduq, o cümlədən həm də fövqəladə vəziyyət haqqında qanunun layihəsini.

Yanvarın 20-də səhər qəzetlərdə oxudum ki, Bakıda fövqəladə vəziyyət tətbiq edilmişdir. Fikirləşdim ki, bütün məsələləri şəxsən aydınlaşdırmaq üçün hadisə yerinə getmək lazımdır. Hələlik qanuniləşdirilməmiş fövqəladə vəziyyətin necə tətbiq olunduğuna baxmaq lazımdır.

İlin istənilən vaxtı Bakı işıqlı, günəşli şəhər təsiri bağışlayır. Bu dəfə isə o, başqa görkəmdə idi. Aeroportun uçuş meydanında avtomatçılar dayanmışdılar! Səslərini içlərinə çəkmiş sərnişinlər təyyarələrdən yüklərini özləri boşaldır, sonra da bir-birinin ardınca zəncir kimi düzülüb, bütün meydan boyunca piyada gedirdilər. Aeroportun binasında adam əlindən iynə atsaydın yerə düşməzdi, amma həmişəki cürbəcür səslər, yüzlərlə adamın danışığından əmələ gələn uğultu yox idi. Şəhəri tərk edənlər qaşqabaqlı idilər, iztirab çəkdikləri üzlərindən oxunurdu. Bütün giriş və çıxış yollarında əsgərlər dayanmışdılar. Vağzalın qabağındakı meydança bomboş idi. Nə taksi vardı, nə avtobus. yolların kəsişdiyi yerlərdə zirehli transportyorlar durmuşdu.

Şəhərə ordu girmişdir — deyəndə hər şey aydınlaşır. Ordunu pisləmək olarmı? O, əmri yerinə yetirirdi. Amma aydın görünür ki, «Bakı əməliyyatını» hazırlayarkən düşmən ilə opponent arasında böyük fərq olduğunu icraçılara izah etməyənləri pisləmək lazımdır.

**— Sız «əməliyyat» sözünü işlətdiniz. Vəziyyət elə xarablaşmışdı ki, görünür, cərrah müdaxiləsinə ehtiyac vardı.**

— Amma cərrahiyyə iki cür olur: lazer skalpeli ilə cərrahiyyə, bir də balta ilə cərrahiyyə... Mən əminəm ki, istər bir, istərsə də digər tərəfdən qurbanlar olmadan keçinmək üçün ordumuz peşəkarlıq baxımından kifayət qədər hazırlıqlıdır. Söhbət insan həyatından gedir... Axı nə üçün milli zəmində yaranan münaqişələri qurbansız aradan qaldırmaq mümkün olmasın? İnsanların qurban verilməsinə əsaslanan siyasətin ətaləti hələ güclüdür və o özünü bu hadisədə də göstərmişdir. Tbilisi hadisəsindən sonrakı tənqid orduya təsir etmişdi. Ordu daxili münaqişələrdə iştirak etməməyə çalışırdı. Onu bir növ «oyundan çıxarmışdılar». Nə gizlədək, məhz bu kənar müşahidəçi mövqeyi cəmiyyətin heç də ən sağlam qüvvələr olmayan qüvvələrini hərəkətə gəlməyə şirnikləndirirdi. Fərqanədə hər tərəfdən əhatə olunan əsgərlər üzlərinə tüpürülməsinə və təhqirlərə səbrlə dözmüş, amma heç havaya da atəş açmamışdılar. Kişinyovda qadınlar parada gedən tankların yolunun üstünə uzanmışdılar, tanklar geriyə çəkilmişdi. Naxçıvanda camaat sərhəd çəpərlərini uçurmuşdu, amma bir dənə də atəş səsi eşidilməmişdi. Ona görə də adamlar inanmışdılar ki, ordu silahsız camaatın üstünə yeriməz. Bakının giriş yollarını bağlayan, dinc sakinləri döyüş texnikasının şəhərə gəldiyi Tbilisi prospektinə çıxaran Azərbaycan Xalq Cəbhəsi rəhbərlərinin məntiqi belə idi. Amma bu dəfə tanklar dayanmadılar... «Tbilisi sindromu» beləcə, ağrılı rəf edildi. Dövlət bununla bildirdi ki, öz strukturlarını hər vasitə ilə qoruyacaqdır. İndi mən deyə bilmirəm ki, bu hərəkət ölkədə hamılıqla hiddət doğurmuşdur. Ehtimal ki, əksəriyyət qəti tədbirlərin tərəfdarıdır.

Bakıdakı fövqəladə hadisə də, onu açıb-ağartmamaq, yarıkönüllü bəyənmək meyli də qorxulu əlamətdir. Əgər cəmiyyət, Ali Sovet, partiya orqanları və ordu baş vermiş hadisəni müvafiq aşkarlıqla təhlil etməsələr, biz doğrudan da deyə bilərik ki, tezliklə ölkəni qoluzorluluq həddinə çatdıracağıq. Sərt qaydalar həddinə. yaxud da tam hərc-mərcliyə ki, bu da çoxlu qan tökülməsi deməkdir.

**— Bakıda fövqəladə vəziyyəti nə üçün yanvarın 13-də, ermənilərin qırğını başlananda tətbiq etməmişlər?**

— Hələlik bunun cavabı yoxdur. Eyni ilə bu da aydın deyil ki, Bakıda respublika Daxili İşlər Nazirliyinin sərəncamında olmuş daxili qoşunlar nəyə görə qırğınlara maneçilik törətməmiş, ermənilərin mənzillərini qorumamışlar. Bu, ümumiyyətlə faciəli şəkildə dolaşdırılmış bir məsələdir.

SSRİ Ali Soveti qaçqınlar haqqında qanunu yəqin ki, hələ 1988-ci ildə qəbul etməli idi. Elə bir qanun ki, hər bir respublika qaçqınların itirdikləri mənzilin və əmlakın heç olmazsa əvəzini qarşılıqlı razılaşma əsasında ödəsin. Hələ onu demirik ki, millətlərarası ədavətin hər bir təhrikçisi ictimai statusundan asılı olmayaraq qanun qarşısında cavab verməlidir. Dövlət bu prosesin lap əvvəlində qətiyyət göstərsəydi, bu gün ifrat tədbirlərə əl atmaq zərurətindən xilas olardı.

Biz iki il tamaşa etmişik ki, gəmimiz neçə yırğalanır, bəzi sərnişinlər əlinə avar əvəzinə ling almışdır və gəminin dibində yeni-yeni dəliklər açır. Özü də yeni dəliyin harada — gəminin arxa tərəfində, yaxud burnunda olmasının əhəmiyyəti yoxdur, axı gəmi hamınındır. Man tarixlə məşğulam və belə bir qanunauyğunluq sezmişəm. Bizim dövlətimizdə (keçmiş Rusiya imperiyasında) millətlərarası toqquşmalar hər inqilabda, yəni metropoliyada hakimiyyət zəifləyəndə olub. Məsələn, Bakıda erməni - azərbaycanlı qırğınları 1905-ci və 1918-ci illərdə olmuşdur. Bir də indi, inqilabi yenidənqurma adlandırılan yenidənqurma dövründə. Odur ki, öz-özünə belə alternativlər qarşıya çıxır — ya güclü mərkəzi hakimiyyət olmalıdır (bunu biz tam mənada öz üzərimizdə hiss etmişik), ya da ümumi əsarət zəiflədikdən sonra bir yerdə dinc yaşaya bilməyən xalqlar aralanıb milli ərazilərinə çəkilməli və müstəqil dövlətlər çərçivəsində qarşılıqlı münasibətlərə yeni səhifədən başlamalıdırlar.

İndiki vəziyyət təhlilçini ikinci nəticəyə gətirib çıxarır. Zənnimcə, erməni - azərbaycanlı münaqişəsinin bugünkü təşkilatçıları həmin tezisi rəhbər tutmuşlar. Heç bir günahı olmayan yüz minlərlə adamın taleyi barəsində təkəbbürlə sərəncam verənlər öz siyasətlərinin sonrakı nəticələrini indidən görürlərmi? Yeri gəlmişkən**,** aqibətini söyləmək asan olan nəticələrin.

Xalqa yol göstərmək üçün şairlər azadlıq məşəlini çox yandırmışlar. Amma bunu barıt anbarında etməmişlər axı! Məsələn, pribaltikalılar elektrik lampasından istifadə edirlər. Bu, «sərin» demokratiya bəlkə o qədər də cazibədar deyil, amma onun təcrübəsi bütün ölkə üçün, şəksiz ki, daha qiymətlidir.

Bizim mürəkkəb ölkəmizdə demokratikləşdirmənin sürət və ahəngi mədəni ənənələrin və bir çox başqa yerli amillərin xarakterinə uyğun surətdə müxtəlif olmalıdır. Qafqazda xalqların yanaşı yaşamasının çoxəsrlik təcrübəsi sübut edir ki, uçurumları bol olan bu diyarda kütləni arxasınca aparan tək-tək adamların səbirsizliyi sadəcə olaraq qorxuludur. Dağlar sürətli qaçış yeri deyil. İctimai ukladların coşqun sürətlə yenidən qurulmasını ancaq uçqunla müqayisə etmək olar. Bu isə, hayana çəksən, eniş deməkdir. Bu, düzənlikdə yerləşən Orta Asiyada, Qazaxıstanda və başqa regionlarda da dəyişikliklər tarixində qabarıq görünən qanunauyğunluqdur. Təkbaşına yol axtaranda da, hamı ilə birlikdə yol azanda da gərək müvazinətini saxlayasan.

**— İndi, xalqlar ittifaqının ən ədalətli formulunu hamılıqla axtardığımız bir vaxtda respublikalar arasında belə münaqişələr bu axtarışları ləngidə bilər...**

— 85-ci ilin aprelinə qədərki illər ərzində biz çox sadə bir inteqrasiyanın qaydalarını möhkəmcə mənimsəmişdik — toplama və vurma əməliyyatları sanki eyni bir nəticəni verirdi. Məhz buna görə də hakimiyyət orqanları özlərini çətinə salmadan sadə üsullarla işi yola verə bilirdilər. Bu gün isə biz anlamağa başlayırıq ki, federasiya sadəcə xalqların məcmusu deyildir, həm də vurma hasilidir. Qarşılıqlı münasibətlərin səviyyəsi yüksəlir, biz bir-birimizi kəşf etməyə başlayırıq. Son illərdə sovet xalqları özlərini də, başqalarını da əvvəlki yetmiş il ərzində olduğundan ölçüyəgəlməz dərəcədə çox tanımışlar.

Ona görə də çar imperiyasının, sonra da irsən Stalin imperiyasının hüdudlarında təşəkkül tapmış təbii federasiya şəraitində xalqların qarşılıqlı asılılığı bir orqanizmdəki müxtəlif orqanların çox zərif qarşılıqlı

asılılığına bənzəyir. Bu orqanizmdəki qara ciyər, ağ ciyər, ürək istər funksiyasına, istər xarici görünüşünə, istərsə də ölçüsünə görə biri-birindən fərqlənir. Amma birinin xəstəliyi hamısına təsir edir. Mən federasiyamızın gələcəyini indi hələlik bu üzvi bağlılıq şəklində görürəm.

**— Qarşıdurma qorxulu həddə çatmışdır, adamlar «qana çağırış» deyilən bir qüvvənin təsiri altına düşmüşlər... Amma bütün bunları irəlicədən görmək olmazdımı?**

— Belə bir şəraitdə sağlam düşüncəli hər hansı bir siyasətçi uzaqgörən ola bilərdi. Amma hamı fikirləşməlidir: bu fövqəladə şəraitdə nə etmək olardı? «Fövqəladə» sözü heç vaxt xoşa gəlməmişdir Bu söz məni qıcıqlandırır. Düz yetmiş ildir ki, bizdə hər şey «fövqəladədir», adamlar isə adi həyat sürmək istəyirlər. Biz gah xarici, gah da daxili düşmənə qarşı mübarizə aparmaqdan yorulmuşuq.

**— Xalqlar arasında çoxəsrlik düşmənçiliyin tarixinə həsr etdiyiniz «Gil kitab» əsərində (onun janrını da təyin etmək çətindir; bilmirsən ki, ibrətamiz hekayətdir. yoxsa yarıfantastika) adı məlum olmayan şairə müraciətlə yazılmış belə misralar vardır: «Qan içməkdən şair sərməst olubdur! Döyüş qurtarıbdır, şeir alınmır, misraların səfi lap pozulubdur...».**

**Demək istəyirəm ki, bəzi şairlərin, yaxud, tutalım, jurnalistlərin «nizamsız» sözləri indi də az bəla gətirmir. Bəzən onların sözləri hətta beynəlxalq münaqişələr toxumu səpir. Sizcə, öz sülhpərvərlik niyyətinizi neçə yerinə yetirmisiniz?**

— Adını çəkdiyiniz həmin kitabda belə misralar da var: «Hökmdarlar şəhərləri yandırırdılar, bilmirdilər , salnaməçi görür bunları...». Sülhpərvər rolunu yerinə yetirmək iddiasına düşməyə mənim, çətin ki, haqqım olsun. Mən sülhpərvərdən daha çox salnaməçiyəm.

Amma başımıza gələn faciə həm siyasətçilərə tənədir, həm də yazıçılara. Biz yəqin edirik ki, içərisini nifrət yanğınının alovu bürüyənlər bədbəxtdirlər. Yanlış fikirlərimiz bizə həddən artıq baha başa gəlir. Məsələn, mühəndis təhrif olunmuş layihənin üzərində yenidən işləyib onu düzəldə bilər. Yazıçının və ya tarixçinin səhvi isə bəzən xalq faciələrinin mənbəyinə çevrilir. Beş yüz min qaçqın vardır, minlərlə adam öldürülmüşdür, çoxlu adam şikəst edilmişdir. Kütləvi infarktlar, ruhi xəstəliklər qeydə alınır. Bütün bunların gələcək nəsillərə neçə təsir göstərəcəyini mən bilmirəm. Tarixi «kəşflər» üçün bu, həddindən çox deyimi?!

**— Bütün bu hadisələrdən sonra Ermənistan və Azərbaycan ümumi evimizdə mehriban qonşu olaraq qala bilərlərmi?**

— Region xalqlarının alnına yazılıb ki, dünya durduqca yanaşı yaşasınlar. Heç kəs onları planetin müxtəlif yerlərinə çəkib aparmayacaq. Bizi heç kəs bir-birimizdən xilas etməyəcək. Bax. bunu da əsas tutmaq lazımdır. Məncə, Qafqazda ümumi ev ideyası ciddi dialoq üçün möhkəm təməldir. Qətiyyətli siyasətin təntənəsi dövründə «qarşılıqlı güzəşt» sözü nüfuzdan salınmışdır. Biz yəqin etmişik ki, «ya bu, ya o» fəlsəfəsini rəhbər tutmaqla dünyada salamat yaşamaq olmaz. Yeni təfəkkür qarşılıqlı sürətdə hesablaşmağa əsaslanan «həm bu, həm o» siyasəti üçün imkanlar açır. Bu siyasət hər yerdə — təbiətlə münasibətlərdə də, iqtisadiyyatda da, millətlərarası zəmində də tətbiq edilə bilər. Qarşılıqlı məzəmmətlər irəli sürmək yox, kök salmış bir sıra problemlərin həllini məqsədyönlü şəkildə axtarmaq lazımdır. Bu yol artıq müəyyənləşməkdədir. Mən bilirəm ki, belə bir işdə iştirak etməyə gürcülər də razıdırlar, osetinlər də, abxazlar da. Adamlar çəkişməkdən yorulmuşlar.

**— Bakıda görüşləriniz, yəqin ki. çox olmuşdur. Ən yadda qalanı hansıdır?**

— Bütün həftəni ardı-arası kəsilmədən adamlarla görüşmüşəm. Sarsılmış, lakin dərdə mətanətlə, ləyaqətlə sinə gərən adamlarla. Çox şeyi başa düşmək və adamlara çox şeyi başa salmaq lazım idi. Doğrudan da. xalq şairi Bəxtiyar Vahabzadə, türkoloq Aydın, doktor Nurəddin. tarixçi Süleyman, yazıçı Anar, partiya işçisi Evelina, pianoçu Fərhad mənim dostlarımdır. Mən onları iş başında gördüm. SSRİ xalq deputatları Tofiq İsmayılov. Vali Məmmədov. Arif Məlikov da sözün əsl mənasında cəbhədə idilər. Partiya MK-nın binası. demək olar, boş idi: bütün işçilər küçələrə respublikanın rayonlarına çıxmışdılar. SSRİ Ali Soveti İttifaq Sovetinin sədri Primakov, Sov İKP MK katibi A. Girenko gündə hərəyə üç saat yatırdılar.

Stolların üstündə küçədən yığılmış qalaq-qalaq partiya bileti dururdu — on dörd min bilet. Yeni birinci katib A. Mütəllibova ağır miras qalmışdır. Şayiələr baş alıb gedirdi. Bəziləri doğru çıxırdı, amma əfsanələr, uydurmalar da az deyildi.

Bir dəfə mətbəə fəhlələrinin yanına getdik. Komendant saatı ərəfəsində sexlərin birinə toplaşmışdılar. Mən dedim: «yoldaşlar, etirazınızı başa düşürəm. Amma sizin işləməməyiniz xalqı ümidsizlik girdabına yuvarlayır. Biz əsl həqiqətdən bixəbərik, mənim kimi siz də ancaq şayiələr eşidirsiniz. Halbuki həmin şayiələri hər gün ifşa etmək, adamlara həqiqəti çatdırmaq lazımdır. Siz Moskva jurnalistlərindən gileylənirsiniz? Axı, onlar da adamdırlar, səhv edə bilərlər. Cavablarını isə vermək lazımdır! Susmaq, özünü görməzliyə və eşitməzliyə vurmaq müqavimətin ən passiv formasıdır. Gəlin ədalət uğrunda söz ilə mübarizə aparaq. Əgər sabah çörək zavodu işini dayandırsa nə olar? Axı qəzet də çörək kimi lazımlıdır».

Fəhlələrdən biri dedi: «yaxşı, biz qəzetləri çap edəcəyik. Bircə «Kommunist» qəzetindən başqa. Biz hamımız bu adı daşıyan partiyadan çıxmışıq». Bax, həmin məqam söhbətimizin bəlkə də ən çətin məqamı idi. İnanın ki, bu sözlər boş-boşuna deyilmirdi. Mənim üçün ən açıq və vacib görüşlərdən. biri idi. «Görürsünüzmü, bu adam mənim dostum Aydın Məmmədovdur. Mən onu çoxdan tanıyıram, əqidəsinə bələdəm. O, kommunistdir, amma partiya üzvü deyildir. Kommunistlərin sayı həmişə partiya biletlərinin sayından xeyli az olub. Siz qəzeti kommunistlər üçün buraxın. Qardaşlarınıza və övladlarınıza onlar atəş açmayıb».

Mən o söhbətin məğzini danışıram. Əslində isə daha çox danışmışdım. Biz mübahisə də edirdik... Bilmirəm, onları tam inandıra bişdim, yoxsa yox. Amma onlar mənim sözlərimə inandılar. Mən bir daha bütün varlığımla yəqin etdim ki, səmimiyyət xalq üçün nə deməkdir. Bunu anlamağım onların hər birinin müqəddəratı üçün boynuma həmişəlik məsuliyyət qoyur. Sexdə söhbət etdiyim fəhlələr özgələrinin mənzillərini talan etməmişdilər, adam öldürməmişdilər, xeyr. Onlar ləyaqətlə yaşamaq, və işlərini arxayın görmək istəyirdilər. Elə oradaca bu işə görməyə başladılar. Səhər bütün mərkəzi qəzetlər və respublika qəzetləri, o çimlədən «Kommunist» qəzeti də çıxmışdı.

**— Oljas Öməroviç, Bakıda 1990-cı ilin yanvarı Alma-Atada 1986-cı ilin dekabrına bənzəyirmi?**

— 1986-cı ilin Alma-Ata hadisələri, yəqin ki, «sistemin» demokratiya zəminində ilk sınağı idi. «Sistem» də ətalətin gücü ilə münasibətini eyni cür, məsələn, 30 il əvvəl olduğu kimi göstərdi: «Cəzalandırın ki, bir də belə etməsinlər». Məncə, əhvalat 1988-ci ildə baş versəydi, hər şey qurbansız keçərdi. Axı, sonralar biz Semipalatinsk yaxınlığında nüvə sınaqlarına etirazımızı bildirmək üçün on min nəfərlik mitinqlər də, əlli min nəfərlik mitinqlər də keçirmişik. Heç nə də baş verməmişdir, bu izdihamı normal «idarə etmişik».

Amma Bakıda şərait hər halda başqa idi. Bayaq dediyim kimi, hakimiyyətə etimad böhranı yaranmışdı: həm yerli hakimiyyətə, həm da mərkəzi hakimiyyətə. Xalq cəbhəsində iki qüvvə təşəkkül tapmışdı: birisi əsasən ziyalıların nümayəndələrindən ibarət olan liberal cinah, digəri isə radikal cinah idi. Əvvəlcə bu hərəkat çox yekdil, demokratik hərəkat idi. Amma liberalların hərəkətləri, bəzilərinə göründüyü kimi, hökumətin qətiyyətsiz hərəkətlərinə oxşamağa başlayanda «radikalların» emosiyaları üstün gəldi.

**— Sız Bakıdan gedəndə hansı hissi keçirirdiniz?**

— Ziddiyyətli bir hiss. Demək olar ki, hüzndən, qeyzdən irəli gələn göz yaşları ilə qayıtmışam. Bir də ümidlə. Azərbaycan və erməni xalqları çox mürəkkəb bir yol ayrıcında dayanıblar. Nə etməli, bundan sonra neçə yaşamalı? Mən belə hesab edirəm ki, jurnalistlər, alimlər və yazıçılar öz əsas sözlərini hələ deməmişlər. Bu söz isə, inanmaq istərdim ki, tank diviziyalarından daha böyük qüvvəyə malikdir. Qoy, «qana çağırış» deyil, biliyə çağırış, insanlıq harayı səslənsin. İndiyədək olduğu kimi, iki monoloq deyil, canlı insan dialoqu səslənsin.

Bakıda olduqdan, oradakı fəlakəti ürəkdən duyduqdan, nə qədər çoxəsrlik əlaqənin qırıldığını, nə qədər arzunun puça çıxdığını başa düşdükdən sonra mən bunu da yəqin etdim ki, ötən iki il ərzində xalqın təbii xeyirxahlığı, dostluğa dostluqla cavab vermək istəyi məhv olmamışdır. Bu, xalqın, yəqin ki, ən kövrək, lakin həm də ən əbədi qabiliyyətidir və onun hər hansı faciəni unutmasına imkan verən də budur. Mən ümid edir və inanıram ki, narahat zəmanəmizdə azərbaycanlılar da, ermənilər də, elə hamımız da bir-birimizin məhz bu başlıca qabiliyyətini görəcək, hiss edəcək və qiymətləndirəcəyik.

**Söhbəti yazdı:**
**Y. KİRİNİTSİYANOV, (xüsusi müxbirimiz).**
ALMA-ATA.
**(«Raboçaya tribuna» qəzeti, 25 fevral).**

**“Kommunist”.** - 1990. – 27 fevral. - № 42 - S. 1-2.

## And yerimiz

Hamımızı sarsıdan, bir aydan artıq gözümüzün yaşını qurumağa qoymayan 20 yanvar fəlakətindən sonra ilk müraciətim də, verə biləcəyim ilk təsəlli və təskinlik də, içmək istədiyim ilk and da müqəddəs və böyük xalqın adınadır!

Zamanın ağır sınaq günündə, tayı-bərabəri olmayan bir xəyanətlə üz-üzə dayandığımız bir vaxtda hər şey və hamı yaddan çıxıb: ortada aldadılan, şəhid gedən, gözünün yaşından və nifrətindən başqa silahı olmayan, əli bağlı, lakin faciələrin içində də gözəllik və mərdliyini itirməyən, qocaman, əzabkeş, kövrək, dözümlü və məğrur xalq qalıb! Başı olan, başçısı olmayan, sərvəti olan, sahibi olmayan, haqqı olan, müdafiəçisi olmayan, bir yarası sağalmamış yeni yaralar alan xalq!

Bir söz deyə biliriksə ona çatır. Ayrı gümanımız yoxdur! Ayrı ünvan axtarmıram!..

Sanki müharibədən çıxmış Bakının hələ şəhidlərin qanı qurumamış küçə və meydanlarında dəli kimi dolaşdığım o faciəli sübh çağı dilimdə donub qalan bu söz idi: Xalqımın qanı tökülmüşdü... Göz yaşı yağışı altında, gül-çiçək ümmanından ömrün son sahilinə üzən tabutların taleyə, dərdə, düşmən niyyətinə xətt çəkən al-qırmızı bəzəyini, uşaqdan-böyüyə iki milyon adamın üzündəki ifadəni görəndə bir daha inandım: uduzduğumuzu uduzmuşuq, bundan belə bizi əymək olmaz. Sabahın yolları bu xalqın yollarıdır!..

Bu milləti millət eləyən, minillərin fəlakətlərindən keçirib qoruyan böyük, ilahi gücün alovu yenidən üzümə vurdu. Ölümsüzlüyümüzün səbəbini, sirrini, sehrini təzədən gördüm!

Gördüm ki, cavan ömrünü xalqına, yurdunun azadlığına bağışlayanlar bir ata-ananın övladları deyil: Onları millətin taleyi doğub!

Azərbaycanın bu başından o başına hüznlü-hüznlü asılan qara bayraqları, məhəllə-məhəllə qurulan çadırları, verilən ehsanları, gecikmiş qəzetlərdə hələ faciənin yüzdə birini göstərə bilməyən şəkillərə baxan kimi ürəyi gedən gül üzlü analarımızı-bacılarımızı görəndə başa düşdüm: şəhid ölümü son deyil, başlanğıcdır!

Elə bil torpağımız qısırlaşmışdı: Bakıda, Gəncədə, Naxçıvanda, Lənkəranda, Gədəbəydə tökülən qanlarımız onun bərəkətini qaytardı!

Şəhid dahilərimizdən biri — Şeyx Məhəmməd Xiyabaninin sözləri yadıma düşdü: Qurbanlar milləti təmizləyir! Bilirsiniz nə qədər ehtiyacımız var bu təmizliyə!

Güney Azərbaycanı milli azadlıq hərəkatının başqa bir qəhrəmanının sözü də təsəlliyə döndü: Azadlıq ağacı cavanların qanı ilə suvarılmadıqca bar verməz!..

Azadlıq ağacımız quruyurdu yavaş-yavaş... Yanvar ayında qanlı çiçəklər açdı!..

Biz ömrümüzü xalqımızın ürəyinin, ruhunun, dünyasının axtarışına vermişik. 1990-cı ilin əvvəlində ən böyük xəzinəmizi, ən tükənməz sərvətimizi kəşf etdik.

Varlığında dünyanın ən böyük təzadlarını yaşadan xalqım! Dahilərlə yanaşı alçaqlara da süd vermisən. Milyonlarla övladının qanı və canı bahasına qazandıqlarını asanlıqla hərraca qoyanların da var.

Qurbanların sümükləri üstündə tikilən azadlıq binasını sonra öz övladlarının əli ilə dağıtdırıblar.

Satqın bir rəhbər, başsız bir başçı, ipi özgələrinin əlində olan bir «lider» sənin illər uzunu qurduğun bir körpünü asanlıqla göyə sovurub. Qalmısan yenə əli qoynunda: o tayına, azadlığına, ümidlərinə uzaqdan, həsrətlə baxa-baxa!

Lakin alçaqların xalqa nə dəxli! Xalq şəhid olan, qurban gedən və dərd çəkəndir!

Boş əllə hərbi texnikanın yolunu kəsən, ürəyinə, gözünə, açıq alnına sıxılan güllələrdən çəkinməyən oğul və qızlardı — xalq!

Bakının o ağır, qanlı günlərini görəndən sonra özümü sanki yenidən dərk etdim.

Xətailərin, Nəsimilərin, Sabirlərin, Mirzə Cəlillərin, Məmməd Əmin Rəsulzadələrin, Şeyx Məhəmməd Xiyabanilərin, Üzeyir bəylərin, Cavidlərin hansı mənəvi gücdən yarandığı indi mənə aydın oldu.

Bugünkü «zəifliyini» özünə sığışdırmayan və əlacsızlığını dünyadan gizlətmək üçün tökülən qızıl qanlarını qızıl qərənfillərlə örtərək, şəhid övladlarının ayağı dəyən yerləri güllə bələyən bir xalqın ruhundakı nəciblik, ucalıq adamı sarsıdır.

Bakı kəndlərindən mərkəzə gələn yollar, Azadlıq meydanı, Dağüstü parkın bütün səki və xiyabanları yanvarın 22-də gül-çiçək xalısı ilə örtülmüşdü, qışın çılpaq ağacları qərənfil «açmışdı». Sanki Azərbaycan torpağının özü köksündən yaralanmışdı və fışqıran qanı qərənfil yağışı kimi iki milyonluq şəhərin başına yağırdı...

Bir aydan çoxdur beləcə davam edir. Ən böyük dərdin içində də gözəllik duyğusunu unutmayan, Şahidlər xiyabanına güldən hasar çəkən, şəhərə sığmayan insan axınını gül cığırları ilə nizamlayan xalqımın ürəyindəki gözəllik duyğusuna heyranam. Öz halal zəhmətinin məhsulu ilə gecə-gündüz şəhidlərin yarasına çiçək məlhəmi qoymağa çalışan Bakı kəndlərinin əli qabarlı, namuslu övladlarının fədakarlığı qarşısında baş əyirəm.

Faciəmiz böyükdür. Ancaq bu boyda itkilərin arxasında qara geyimli anaların məğrurluğunu, göz yaşlarından göyərən intiqam hissini görəndə təsəlli tapırıq. Xırdalanlı bir ana deyirdi: Mənim bir oğlum var, təsadüfən sağ qalıb. Sevinmirəm! Oğul böyüdürük torpaq üçün! Övladı yurdun şəhidləri arasında yatan ana xoşbəxtdir.

Anaları bu cür düşünən millət də xoşbəxtdir!

...Dəfn günü Şəhidlər xiyabanında özünə yer tapa bilənlərin çoxu qadınlar idi. Hörmətlə irəli buraxılmışdılar. Ana və bacılarımızın mələk üzləri qara örtüyə bürünmüşdü. Birdən operator kameranı onlara doğru çevirdi. Qadınlardan biri əlini qaldırdı, gül dəstəsini çətir kimi başına tutdu. Bir an sonra xiyabandakıların qara geyimi görünməz oldu. Sanki bir dirijor çubuğunun işarəsiylə üstlərinə qırmızı gül «örpəyi» çəkmişdilər! Bu boyda kütləni vahid bir orqanizmə çevirən böyük duyğudu — xalq dediyimiz!...

Qurban gedənlərimizin bir hissəsi Bakının ən uca nöqtəsində torpağa tapşırıldı. 1918-ci ilin mart şəhidlərilə 1990-cı ilin yanvar şəhidlərinin cismi və ruhu bir-birinə qarışdı. Çoxumuz unutmuşduq indi əyləncə yerinə döndərilmiş bu parkın 1918-ci il şəhidlər qəbiristanı olduğunu. Tale yeni bir «qulaqburması» verdi ki, indiki qurbanlarımızın hesabına bütün şəhidlərimizin xatirəsi əbədiləşdirilsin. Xalqın and yeri, ziyarət yeri olsun!..

* * *

Qanımız tökülmədən, qurban vermədən ötüşmək olmazdımı?

İndi bu sual milyonlarla adamı düşündürür.

Sumqayıt hadisələrinin kimlərin ssenarisi üzrə qurulduğunu, Bakının iki ildən bəri sakitliyinin təəccüb doğurduğunu, ona qarşı ciddi iğtişaş hazırlandığını, Mərkəzin demokratiya oyununu kiminsə başında çatlayacağını, rəhbərlərimizin qətiyyətsizliyinin fəlakətə apardığını bilə-bilə necə oldu ki, belə bir tələyə düşdük, düşməni sevindirdik?..

Bu sualların hamısının cavabı veriləcək.

Gələcək üçün yeni «ağ ləkələr» qoyub getməyə haqqımız yoxdur. Mərkəzi mətbuat həqiqəti nə qədər ciddi ört-basdır etməyə çalışsa da, respublika mətbuatı nə qədər sussa da tarix sözünü deyəcək...

Mən konstitusiyanın kobudcasına pozulduğunu, fövqəladə vəziyyətin qeyri-qanuni elan edildiyini bir kənara qoyub (bu hamıya məlumdur), daha çox özümüzə aid məsələlərə toxunmaq istəyirəm.

Əvvəlcədən onu deyim ki, bəzi çıxışlardakı «bu işdə hamımız günahkarıq, vaxtında birləşə bilməmişik, kütlənin qabağına düşməmişik, silahsız cavanlarımızı ordunun qabağından çıxara bilməmişik» fikri ilə mən də razıyam. Yəni, Azərbaycan xalq hərəkatı, əslində xalqın bütün intellekt, güc, zəka, siyasi mübarizə potensialını tam dolğunluğu ilə əks etdirə bilmir. Bir çox real qüvvələr xalq hərəkatından kənarda qalıb. Bunun bir səbəbi xalq hərəkatını idarə edənlər arasında uzun müddət mövcud olan qısqanclıq, «mənəmlik» duyğusudursa («ziyalılar satqındır», «məndən düz adam yoxdur» və s.), digər səbəbi hamin iddiaçı tərəflərin, real qüvvələrin, ziyalıların, mütəxəssislərin tərəddüdü, ətaləti, cəsarətsizliyidir... Üçüncü bir səbəb də var: bu da müxtəlif rəsmi idarələrin «saman altından su yeritməsi», xalq hərəkatında pozuculuq işi aparması, onun sıralarına «öz adamları»nı doldurub təfriqəçilik etməsidir. Təəssüf ki, bu kənar qüvvələr xalq hərəkatının bəzi liderlərinə də təsir göstərə bilib və müəyyən parçalanmalara nail olub.

Xalq hərəkatında resept vermək, hamını öz iradənə tabe etmək olmaz. Demokratikləşmənin gözəlliyi rəngarəngliyindədir. Lakin Azərbaycan xalqının tarixi durumu bütün şəxsi iddiaları inkar edən, vahid bir

platformada birləşmək tələb edir. Təəssüf ki, hətta ümumxalq taleyi də bəzi adamların vəzifə ehtirasına, tayfa davasına, qazanmaq və ya siyasi liderlik azarına üstün gələ bilmir. Buna görə də əsl can yanğısı ilə yaradılan demokratik əsaslı təşkilatlarla «kooperativ cəbhələr», yüyəni özgələrinin əlində olan təşkilatlar bir-birinə qarışır. Hamı da xalqın adından danışır. Pərakəndəlik camaatı çaşdırır. Qarşılıqlı münaqişələrdə ümumi dərd unudulur, ən yaxşı adamlarımıza belə ləkə yaxmaqdan çəkinməyən, yalan və böhtan dolu yazılar bir-birini əvəz edir.

Ağır yas günlərimizdə ümumi işimizə mane olan belə dərdlərin təfərrüatına varmaq istəmirəm. Lakin hərəkat, nəhayət, faciəli yanvar günləri saf-çürük edilib qiymətləndirilməsə, kimin kimliyi bilinməsə sabah yenə kim daha bərk söyərsə, daha sürətlə uçuruma apararsa milli qəhrəmana dönəcək, real vəziyyəti görənlərə «qorxaq» və ya «xain» damğası vurulacaq, bu qədər qurbanlardan sonra hər şeyi yenə də sıfırdan başlamalı olaçağıq...

Yanvar faciələrinin günahını Azərbaycan Xalq Cəbhəsinin boynuna yıxmaq istəyənlər də çoxdur. Ölkə rəhbərinin çıxışlarında, mərkəzi mətbuat səhifələrində, hər yerdə AXC müxtəlif, bir-birinə zidd mövqelərdən atəşə tutulur. Həbs olunmuş bəzi səbatsız cəbhə üzvləri təzyiq altında televiziya kamerası qarşısında oturdulur və məlum ssenari üzrə müsahibə verirlər. Azərbaycanda Demokratik hərəkatın başında dayanan Xalq Cəbhəsi ətrafında məharətlə tor hörülür. Hətta Mərkəzdən gələnlərin çıxışlarında açıq-aşkar bildirilir ki, AXC hakimiyyəti ələ almaq istəyirdi və o dağıdılmalıdır.

Biz məsuliyyəti boynumuzdan atmırıq. Ola bilsin ki, bu fəlakətin qarşısını almaq üçün və ya itkini azaltmaq üçün daha nə isə də etmək olardı. Ancaq kimin ağlına gələrdi ki, fövqəladə vəziyyət elan edilmədən ordu şəhərə girəcək, dinc, silahsız əhalinin üstünə qoşun yeridiləcək. Ölkənin bütün ordu növləri iki milyonluq şəhərə basqın edəcək. Kimin ağlına gələrdi ki, siyasi mübarizə aparan xalq – dövlət çevrilişinə hazırlaşan silahlı banda kimi qələmə veriləcək, sırf simvolik xarakter daşıyan piket və «barrikadalar» — silahlanmış düşmən cəbhəsi kimi «qəhrəmanlıqla» ləğv ediləcək, uşağa-böyüyə, qadına-kişiyə aman verilməyəcək. Kimin ağlına gələrdi ki, Sov.İKP MK-nın və Ali hakimiyyət orqanının rəhbərliyi səviyyəsində oyun gedə bilər; ziyalılarla, qadınlarla görüşlərində dönə-dönə «arxayın olun, ordu Bakıya girməyəcək!»— deyən Mərkəz nümayəndələri bir gün sonra «öz vəzifələrini yerinə yetirib», yəni, respublikanın rəhbərliyini kənar edib, əmri yerinə yetirib, Bakını ağlar qoyacaqlar. Kimin ağlına gələrdi ki, səni xarici düşmənlərdən qorumalı olan öz ordun özünə qarşı bu qədər amansız ola bilər?

Kimin ağlına gələrdi? Lakin Xalq Cəbhəsinin idarə heyətində və isə bir fəlakətin yaxınlaşdığını başa düşürdük və buna öz münasibətimizi bildirmişdik. Xalq Cəbhəsi bütün milli və ictimai münaqişələrin siyasi danışıqlar yolu ilə, demokratik əsaslar üzərində həllinə çalışıb. Azərbaycan SSR Ali Sovetinin son sessiyaları buna misaldır. Lakin bu yolda məğlubiyyətdən yaxa qurtara bilməyəcəklərini bilən bəzi rəhbərlər AXC-yə quyu qazmağa başladılar. «Başqasına quyu qazan...». Buna görə də, cəbhənin bəzi radikal ovqatlı nümayəndələri ilə «danışıqlar» başlandı. Müdafiə Şurası və onun rayon şöbələri yaradıldı. Müdafiə Şurası fövqəladə vəziyyətdə özünü müstəqil elan etdi və əslində, AXC-nin iradəsinə, idarə heyətinin narazılığına etinasızlıq göstərdi. Həmin anlarda, təəssüf ki, biz də qətiyyətsizlik göstərmişik. Yarım milyonluq bir mitinqdə milli səfərbərlik elan edildi, silah söhbəti ortaya atıldı... Hamısı da rəhbərliyin razılığı ilə. Bu nə oyun idi, kimin planı üzrə hazırlanmışdı və nə məqsəd güdürdü?!

Respublika rəhbəri nə ağılla zavoddakı görüşündə müdafiə dəstələrinin yaradılmasından söhbət açırdı və bu söhbət televiziya ilə bütün xalqa çatdırılırdı? Nəyə görə inandırılırdı ki, fövqəladə vəziyyətdə Müdafiə Şurası əsas mərkəzə çevriləcək?

Bir-birini tora salmaq üçün iki tərəfli oyun gedirdi. Ancaq sən saydığını say, gör Mərkəz nə sayır! Sanki dünyadan xəbərsizdilər. Bütün bu havayı söz-söhbətin, əslində, ordu üçün Bakıya çağırış olduğunu unutmuşdular...

Bununla doğrudanmı respublikanı müdafiə etmək istəyirdilər, yoxsa məqsəd Xalq Cəbhəsini və xalqı ləkələməkdi, ölkədəki demokratik qüvvələrə dərs verməkdi?

20 yanvar faciəsini bir həftə ondan əvvəl baş vermiş hadisələrlə, Bakıdakı erməni evlərinə hücumlarla əlaqələndirməyə çalışırlar. Biz xalqımızın humanist, nəcib sifətini qorumaq üçün hər cür vəhşiliyi, zorakılığı rədd edir və lənətləyirik. Onu da bilirik ki, Sumqayıt kimi Bakıda da bu hadisə çoxdan planlaşdırılırdı.

Yanvarın 13-14-də Bakıda ölkənin müxtəlif guşələrindən gəlmiş yüzlərlə cinayətkar olub...

Xalq böyük bir xəyanətlə üz-üzədir. Və bu xəyanət addım-addım həyata keçirilir.... Yoxsa, kim bilmir ki, 200 min adam Ermənistandan vəhşicəsinə qovulandan sonra, bütün bakılılar sinəsini sipər etsə də, rəsmi qaçqın statusu almamış bu qədər işsiz, evsiz, ac-yalavac, qəzəbli qonağı olan şəhərdə ermənilərin arxayın yaşaması fantastikadır və ya xalqın əsəbiylə oynamaqdır...

Ölkədə bizi təkləmək, vəhşi, qaniçən kimi qələmə vermək üçün yüz cür tələ qurulur.

Bizi qarşıda çox uzun bir mübarizə yolu gözləyir. Bu yol hələ ki, iqtisadi müstəqillikdən, federasiyadan qoparan imkanlardan keçsə da, sonu məlumdur, sonu bizim arzularımızdır. Lakin arzulara yetmək üçün hələ çox durulmalı, ümumi mədəni səviyyəmizin, siyasi mübarizə səviyyəmizin artması haqqında hələ çox düşünməliyik.

* * *

Mən daha çox işin bizə görünən tərəfindən, öz səhvlərimizdən danışdım.

Lakin ən ciddi sual cavabsız qalıb: görəsən bütün bu səhvlər olmasaydı, ordunun Bakıya girməməsinə təminat olacaqdımı?

Ordu Bakıya niyə gəlib? Cavabdeh adamların fikirləri bir-birinə düz gəlmir. Söhbət sərhəddən gedirsə, sərhədlərin götürülməsi ölkənin müxtəlif regionlarında bizdən əvvəl başlanıb. Köhnə rəhbərliyə etimadsızlıq, «istefa» tələbi narahatlıq doğururdusa—bu tələbi Moskvadan başlamış, ölkənin hər yerində eşidirik. Ermənistanla münasibətlərin kəskinləşməsi bəhanə olubsa, onda gərək fövqəladə vəziyyət on illər boyu xəlvət silahlanan tərəfdə, hücum edən tərəfdə elan ediləydi, boş əllə müdafiə edilən tərəfdə yox. Kiminsə ağzından «islam respublikası» sözünün çıxması bəhanə olubsa, onda gərək «xristian monarxizmi» tərəfdarlarının yaşadığı Rusiya şəhərləri çoxdan orduyla doldurulaydı.

Bu bəhanələrin heç biri 19—20 yanvar hadisələrinə haqq qazandırmır. Bir həqiqət ortaya çıxır ki, bizim rəftarımızdan asılı olmadan ordu şəhərə girməliymiş. «Azərbaycanlılara dərs vermək» planının kökləri çox dərindədir və sərhəd məsələsi, ermənilərin Bakıdan qovulma söhbəti, daxili qoşun hissələrinin müşahidəçi mövqe tutması... hamısı bir zəncirin halqaları kimi bir-birinə bağlıdır. Azərbaycan xalqının ətrafında bu tor çoxdan və məharətlə hörülür.

Fransız mətbuatında M.S.Qorbaçovun Azərbaycan hadisələrinə münasibəti iki sözlə belə ifadə olunub: «tatarlar qəzəblənir». Bizə elə gəlirdi ki, bu tatar sözü keçən əsrdə qalıb, çarizm yıxılanda bu sözlə də vidalaşmışıq...

Köhnə söz yaşayırsa, bəlkə köhnə münasibət də yaşayır?

Təkcə bu bir kəlmə indiki demokratiyanın üzünü və astarını aydın göstərir. «Birinə qazan, başqasına çay qaşığı...».

Azərbaycan müstəqil respublikadırsa, niyə onun fikrinə məhəl qoyan olmayıb? Nəyə görə Azərbaycan parlamentinin qanuni qərarı SSRİ Ali Soveti tərəfindən qulaqardına verilir? Bu saymazlığın arxasında hansı acı həqiqət dayanır? Bəlkə ordunun Bakıya gəlişinin səbəbini elə həmin o acı həqiqətdə axtarmaq lazımdı?

Nəhayət, bir-iki kəlmə da milli heysiyyət, özünə və öz xalqına hörmət haqqında. Son vaxtlarda rəsmi görüşlərdə, televiziya çıxışlarında tez-tez belə bir fikir təkrarlanır: fövqəladə vəziyyət götürüləndən sonra şəhərin sakitliyinə təminat vermək olarmı? Bu məsuliyyəti kim boynuna çəkəcək? Bunu rəhbərlik də deyir, ziyalılar da. Bunun qədər riyakar bir böhtan təsəvvür eləmək mümkün deyil! Öz xalqına inanmayan, onunla dil tapa bilməyən adamlar bu xalqı necə idarə edə bilər? Məgər fövqəladə vəziyyətin ləğvindən qorxuya düşən ziyalılar bilmirlərmi ki, Bakıda heç bir iğtişaşı xalq salmayıb. Sakitlik istəyiriksə fövqəladə vəziyyətlə yanaşı, Bakıda iğtişaş ocaqlarını da ləğv etmək lazımdır. Həmin ocaqlarsa möhtəşəm binalardadır və dünyanın müxtəlif yerlərindən, Mərkəzdən üfürülüb közərdilir.

* * *

Şəhidlər xiyabanında bir həqiqəti də gördüm.
Qurban gedənlərin çoxu zəhmətkeş, əli qabarlı, sadə adamlardır.

And yerimiz—onlardır.
And yerimiz—xalqdır!

**Sabir Rüstəmxanlı**

**"Azərbaycan".-** 1990.- 24 fevral.- S.1.

## İtkin düşmüşlər?...

*Yanvar hadisələrini təhqiq edən müstəqil deputat komissiyasının üzvü, SSRİ xalq deputatı Adilə NAMAZOVA ilə müsahibə*

**Bakı faciəsinin — yanvarın 19-dan 20-nə keçən o məşum gecənin üstündən düz iki həftə adlayıb. Saatları, günləri ölüm və qəm yüklü iki həftə... Xalq özünün günahsız oğul-qızlarını qara torpağa tapşırdı. Güllə yarası almış neçə-neçə insan günü bu gün də həyatla ölüm arasında çarpışır.**

**İtkin düşmüşlər... Qanlı yanvardan miras qalan daha bir müdhiş kəlmə. Ana, bacı dilindən qopan fəryadlar tük ürpədir: «Bala, hardasan?! Qardaş, hardasan?!».**

**Öz itiklərini nə ölənlər, nə də yaralılar arasında tapan ata-anaların, qohum-əqrəbanın keçirdiyi həyəcanları, əzabları təsəvvür etmək çətin deyil. SSRİ xalq deputatlarının bir qrupundan təşkil olunmuş müstəqil deputat komissiyasının əsas məqsədlərindən biri də yanvar hadisələri zamanı itkin düşmüş adamların taleyini müəyyənləşdirməkdir.**

**Həmsöhbətimiz müstəqil deputat komissiyasının üzvü, SSRİ xalq deputatı Adilə NAMAZOVADIR.**

— Xalqımız öz tarixinin çox çətin günlərini yaşayır, itkimiz böyükdür, - deyə A. Namazova söhbətə başlayır. — Bu, təkcə ayrı-ayrı adamların yox, millətin kədəridir, əbədi kədərdir. Baş vermiş hadisələrin araşdırılması, günahsız qanların baislərinin üzə çıxarılması ilə nüfuzlu komissiyalar məşğuldur. Lakin diriləri də unutmaq olmaz. Odur ki, biz ilk növbədə öldüsü, qaldısı bəlli olmayan adamların başına nə iş gəldiyini aşkara çıxarmaq istəyirik. Müstəqil deputat komissiyasına məndən savayı bir neçə SSRİ xalq deputatı - Kosmik Tədqiqatlar Elm-İstehsal Birliyinin baş direktoru Tofiq İsmayılov, bəstəkar Arif Məlikov, Serebrovski adına Neft və Qazçıxarma İdarəsinin operatoru Sara Vəzirova, Bakı radio zavodunun mühəndisi Oqtay Əhmədov, S. M. Kirov adına maşınqayırma zavodunun sazlayıcısı Məzahir Hacıyev daxildirlər.

**— Axtarışlar neçə gedir? Onun konkret nəticələrindən danışmaq olarmı?**

— Həbs olunanların bir qisminin şəhərdəki istintaq izolyatorlarında saxlandığı barədə məlumat almışdıq. SSRİ Daxili İşlər Nazirliyinin idarə rəisi V. Maksimovun və Azərbaycan SSR daxili işlər nazirinin birinci müavini V. Barannikovun müşayiəti ilə Şüvəlana yollandıq. Orada isə SSRİ Daxili İşlər Nazirliyinİn həmin məsələlərə rəhbərlik edən şöbə müdiri V. Vikulovla görüşüb söhbət etdik. Kameraları bir-bir gəzdik. Burada hadisələr zamanı tutulmuş 100-ə yaxın adamın saxlanıldığı aşkar oldu. Sən demə, bu haqda onların valideynlərinə və ya qohumlarına heç bir məlumat verilməyibmiş. Hamısının ünvanını, telefon nömrələrini yazıb götürmüşük. Evlərinə teleqram vurur, zəng edirik...

**— Təsəvvür edirik, bu xəbərlər neçə qarşılanır.**

— Naxçıvanlı bir ana ilə telefon söhbətini unuda bilmirəm, Oğlunun sağ-salamat olduğunu biləndə dili tutuldu. Handan-hana özünə gəlib: yasını saxlayırdıq, — dedi. Bu səhər isə Neftçaladan Rəfail İmanovun anası Böyükxanım zəng vurmuşdu. Zavallı qadın heç cür inana bilmirdi ki, oğlu salamatdır.

Onların övladlar nə dərəcədə müqəssir olduqlarını indidən söyləmək mümkün deyil. Bu, istintaq, yaxud məhkəmə zamanı aydınlaşacaq. Bizi düşündürən insan taleyinə hədsiz biganəlikdir. Heç olmasa qohumlarına məlumat veriləydi.

Fövqəladə vəziyyət zamanı tutulanlar qatı cinayətkarlarla bir yerdə saxlanılırdı. Bədənlərində onlara qarşı zorakılıq edildiyini göstərən qançırlar vardı. Aşkara çıxan qanunsuzluq və özbaşınalıqlarla əlaqədar SSRİ baş prokurorunun müavini İ. Abramova və SSRİ daxili işlər naziri V. Bakatinə qəti etirazımızı bildirdik. İndi bu məsələlər nəzarətə götürülmüş, tutulanların hüquqlarının pozulmayacağına söz, verilmişdir.

Əldə edilmiş bir məlumatdan aydın olmuşdur ki, tutulanlardan 77 nəfəri respublikanın hüdudlarından kənara göndərilib. Deputat sorğusu ilə SSRİ daxili işlər naziri V. Bakatinə müraciət etmişik. O, hamin

əməliyyatı dayandıracağına boyun olub. Saxlanılmaq üçün başqa yerlərə aparılanların tezliklə respublikaya qaytarılması haqqında da məsələ qaldırmışıq.

**— Komissiyaya yanvar hadisələri ilə əlaqədar daha nələr məlumdur? Məsələn, Salyan kazarması tərəfdə bir neçə gün dalbadal eşidilən atəş səsləri hələ də qulaqlardan çəkilməyib. Rəsmi mənbələr müxtəlif millətlərdən olan əsgərlər arasında silahlı toqquşma olmadığını bildirsələr də, söz-söhbətlər hələ kəsilməyib.**

— Təbii ki, bu atəş səslərinə biz də biganə qala bilməzdik. yanvarın 21-də axşamüstü ora yollandıq.

Sonrakı günlərdə də — dalbadal dörd gün kazarmalara baş çəkdik. Orada həqiqi hərbi xidmətdə olan azərbaycanlı uşaqlarla görüşdük. Təxminən 600 nəfərdirlər. Heç birinə xətər toxunmamışdı. Lakin təsəvvür edirdik ki, onların anaları bu anlarda nələr çəkir. Axı kazarmanın xarici aləmlə əlaqəsi tamam kəsilmişdi. İşin çoxluğuna, mürəkkəbliyinə baxmayaraq bu əlaqəni bərpa etməyi öz üzərimizə götürdük. Demək olar, hamısının valideynlərinə, qohumlarına xəbər çatdırıldı. Qarmaqarışıqlıq zamanı kazarmalardan 49 nəfər əsgər qaçmışdır. Müdafiə Nazirliyinin rəhbərləri ilə əldə olunmuş razılaşmaya əsasən, yaranmış vəziyyət nəzərə alınaraq, geri qayıdanlara müəyyən güzəştlər ediləcəkdir.

**— Bəs atəş səsləri?**

— Şəxsən şahidik, yaxınlıqdakı bir neçə binadan hərdənbir, atırdılar, Ardınca atəş açılan istiqaməti gülləyə tuturdular. Hərbçilər binalarda snayperlər, yaraqlılar olduğunu iddia edirdilər. Doğrudanmı belə idi? Təəssüf ki, suala cavab verə bilməyəcəyik. Əlimizdə həmin iddianın nə dərəcədə doğru olub-olmadığını .təsdiq edən heç bir dəlil yoxdur.

Şübhəsiz, vaxt gələcək, Bakı faciəsinin hələlik qaranlıq qalan bütün təfərrüatı üzə çıxacaq. Bizim müstəqil deputat ,komissiyasının işi də buna xidmət edir. Basqına məruz qalmış yerləri gəzir, şahidlərin ifadələrini toplayırıq. Məsələn, uşaq nevroloji xəstəxanasının divar və dəhlizlərində yüzlərlə güllə yeri saymışıq. Yalnız xoş təsadüf nəticəsində heç kəsə xətər toxunmayıb. Lakin başqa cür də ola bilərdi. Harada görünüb ki, xəstəxanaya (özü də uşaq xəstəxanasına!) güllə atılsın? Çalışmalıyıq ki, nahaq tökülən bir damla qan da yerdə qalmasın, həlak olan, yaralanan və ya itkin düşənlərin hamısı üzə çıxarılsın. Sınanmış həqiqətdir ki, tarixin məhkəməsindən, insanlıq məhkəməsindən heç kəs qaçıb qurtara bilmir.

Buna vaxtımız çatacaq. İndi isə gərək yaraların mümkün qədər tez sağaldılması, insan əzablarının yüngülləşdirilməsi, itkin düşənlərin axtarılıb tapılması üçün hərə bacardığını əsirgəməsin. Əzizlərini, yaxınlarını itirənlərdən komissiyamıza xəbər çatdırmalarını xahiş edirik. Telefonlarımız belədir: 62-97-27, 62-93-88.

Daha bir məlumat. Hadisələr zamanı zərər çəkənlərin sağlamlığının bərpası üçün deputat komissiyasının təşəbbüsü ilə, respublika həmkarlar ittifaqı şurasının vəsaiti hesabına müvəqqəti sanatoriya-profilaktoriyə təşkil edilmişdir. Ehtiyacı olanlar AHİŞ-ə, 92-45-53 və 92-55-36 nömrəli telefonlarla müraciət edə bilərlər.

Baş verən faciə adamları sözün həqiqi mənasında sarsıtmışdır. Lakin əl-qolumuzu yanımıza salmağa da haqqımız yoxdur. Biz şəhidlərin ruhunu əsl həqiqəti üzə çıxarmaqla, respublikamızın həqiqi suverenliyi və müstəqilliyi uğrunda mübarizəni gücləndirməklə şad edə bilərik. Mən xalqıma inanıram. İnanıram ki, bunun üçün özündə qüvvə tapacaq, yaşayacaq, yaradacaq.

**Müsahibəni yazdılar:**
**E. QƏDİROV, R. RƏFİZADƏ**

**“Kommunist”.** - 1990. – 3 fevral. - № 22 - S. 1.

## Şeyxülislam: "Allahın mərhəmətinə bel bağlayıram"

Azərbaycan İnformasiya Agentliyinin müxbiri Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadəyə aşağıdakı sualla müraciət etmişdir:

**— Məlumdur ki, Siz Sov.İKP MK-nın Baş katibi, SSRİ Ali Sovetinin sədri M. S. Qorbaçova müraciət məktubu yazmış, onun sürətini BMT-nin baş katibi Peres de Kuelyara, dünya hökumətlərinin və dinlərinin başçılarına göndərmisiniz. Bu məktubda Siz deyəsən, xalqın böyük kədərini, ağır dərdini, müsibətini ifada etmisiniz, eləmi?**

— Bəli, mən hansı sözləri işlədirəmsə işlədim, Azərbaycan xalqının bütün kədərini, milyonlarla ürəkdə həmişəlik iz qoymuş intəhasız dərdi ifadə edə bilməyəcəyəm. Yanvarın 19-dan 20-nə keçən gecə Bakıda törədilmiş vəhşiliklər ağlasığmazdır. Şəhərin küçələri yüzlərlə günahsız adamın, o cümlədən uşaqların, qadınların, qocaların al qanına boyanmışdır. Bu qanlı qırğına. bu dəhşətli cinayətə haqq qazandırmaq heç cür mümkün deyil.

Azərbaycan xalqına qarşı irəli sürülən, qoşunların yeridilməsi üçün guya səbəb olan fitnəkar ittihamları bu xalq hiddət və nifrətlə rədd edir. Həmin ittihamlardan biri Sovet dövlətinin varlığı üçün təhlükə kimi qələmə verilən üzdən-iraq «islam amili»dir.

Bununla əlaqədar olaraq mən aşağıdakıları demək istəyirəm. Dinə, o cümlədən islam dininə mənsub olmaq günah sayılan şovinizmə və milli müstəsnalığa qarşı çıxmaq deməkdir. Zaqafqaziya müsəlman ruhaniləri siyasi mübarizədə və millətlərarası münaqişələrdə dini ideyalardan istifadə olunmasını yolverilməz hesab etmişlər və hesab edirlər. Regionda vəziyyətin hətta ən gərgin anlarında biz zəkaya, dincliyə, mehriban qonşuluğa çağırmışıq. Məhz buna görə də sabitliyi guya «islam amilinin» pozduğunu iddia etmək xüsusilə hiddət doğurur. Açıq-aşkar görünür ki, bunu iddia edənlər tamamilə məlum bir niyyət - müsəlmanları xristianlara qarşı qoymaq niyyəti güdürlər və belə bir vəziyyət millətlərarası münaqişəni daha da şiddətləndirərdi

Bakıda atəşlər canlı adamların ürəklərinə açılmışdır.

Bütün Azərbaycan xalqının iradəsini ifadə edərək mən qoşunların Bakıdan təxirə salınmadan çıxarılmasını tələb edirəm. Heç bir xalq ilə, o cümlədən Azərbaycan xalqı ilə silahla danışmaq olmaz.

Qadir Allaha dua edirəm ki, günahsız qurbanların cənnətməkan ruhunu həmişə şad eləsin, qatillərin, onların təşkilatçılarının və ilhamçılarının ən ağır cəzasını versin.

Qoy Allah-təala mərhəmətini bizlərdən əsirgəməsin! Amin!

**"Azərbaycan gəncləri".** - 1990. – 30 yanvar. - № 9 - S. 3.

**Bakı şəhidlərlə vidalaşır**

İkinci cahan savaşında küçəsində, meydanında bircə güllə atılmayan Bakının divarları güllələrdən deşik-deşik olmuşdur,

O gecə, yanvarın 19-dan 20-nə keçən gecə saat 24 - 01 radələrində laydivar, şəkil oğlanlarımızın Vətən eşqi ilə alışıb yanan sinələri tankların, avtomatların soyuq lülələrinə dirəndi. O gecə - yurdumuzun yenilməz başına özü boyda qara yaylıq bağlayan gecə idi. Anaları, ataları, qardaşları, bacıları ağladan gecəydi o gecə!

O gecə bütün Azərbaycan xalqı minillik qəhrəmanlıq, yenilməzlik tarixini təkrar edirdi. Qanlı tarix təkrar olunurdu. Xalq qurban verə-verə oyanırdı, ayağa qalxırdı.

Nənələrimiz müqəddəs yaylıqlarının ucuyla göz yaşlarını qurudub günahsız qana bais olanlara qarğış yağdırırdılar. Göy üzündən Allah baxmırdımı?

Say-seçmə, boylu-buxunlu, təpərli, qeyrətli oğlanlar... Kim nə deyir desin, ölüm azadlıq eşqindən çox-çox aşağıdır. Ölüm heç nədir. Çünki ölmədən dirilmək, ölmədən yaşamaq mümkün deyil. Çünki haqq işi üçün tökülən qan yerdə qalmır.

Onlar az yaşadılar. Az ömürlərində şəhid bədənləri ilə ötüb gələn nəsillər üçün elə rahat, elə hamar yol saldılar ki, xalq bir gecənin içində minillik yol qət etdi. İndi dünyaya meydan oxuyan ən qüdrətli məmləkətlərdən də irəliyik. Çünki Vətən uğrunda canından keçməyi bacaran oğullarımız var.

* * *

Bazar ertəsi. Yanvarın 22-si. Bakı yas içindədir. Bu gün iki milyonluq bir şəhərdə bir gülümsər üz görmək mümkün deyil. Azadlıq və həqiqət meydanı qəm, dərd əlindən çat verir. Yüz illər boyu qızların, oğlanların qəmsiz-qüssəsiz qalxdığı Qız qalasının — ismət, namus qalasının köksünə qara bayraq sancılıb. Qız qalası özü boyda daş olub ədalətsizliyin, namərdliyin təpəsinə düşmək istəyir. Qız qalası üz cırır, yaxa yırtır. Neçə-neçə şəhid cənazəsi onun müqəddəs göz yaşlarına bürünür. Bu göz yaşları şəhid yaralarına məlhəm ola bilmir

* * *

...Cənazələrin arxasınca gedən qız-gəlinin, ana-bacıların başları üstündəki al-qırmızı örtüklü xonçalar da izdiham dənizinə qarışıb. Nə dəhşətli səhnə, nə müdhiş faciə...

Toy örtüklü cənazələrin arxasınca şəhidlərin ata-anaları, qohum-əqrəbaları, qonşuları axışırlar. İzdiham dənizi içində cənazəli insan seli. Hər cənazənin içində çinar boylu şəhid, fidan boylu körpə...

Azərneft meydanından qalxan və metro stansiyası tərəfdən gələn yollarda hüznlü insan dənizi təlatümdədir. Yol kənarındakı binaların eyvanlarından, elektrik dirəklərindən, ağaclardan qara bayraqlar asılıb. Küçələrə çıxmağa imkanı olmayan qocalar və xəstələr eyvanlarda inildəyir, göz yaşları axıdırlar. Filarmoniya ilə üzbəüz ağ mərmər binanın qarşısındakı tribuna və pillələrdə, hasarların üstündə, yaxınlıqdakı alçaq binaların damlarında yaxasına qara lent bağlamış, əllərində gül dəstəsi və qara bayraqlar tutmuş yüz minlərlə adam dayanıb. Binaların, qırmızı mərmərli tribunanın divarlarında, əllərdəki transparant və plakatlarda dəhşətli insan qırğınını, insan qəssablığını lənətləyən, xalqımızın başına gətirilmiş misilsiz dəhşətin ssenariçilərini ifşa edən sözlər yazılmış, şəkillər çəkilmişdir.

İnsan dənizi, sonsuz kədər, hədsiz nifrət içərisində matəm dəstəsinin gəlib keçməsimi gözləyir. Saat 13.35-də Azərneft meydanı tərəfdə qara haşiyəli qırmızı örpəklə örtülmüş ilk cənazə görünür. Ürək dağlayan nidalar, anaların, bacıların fəryadı göyə yüksəlir. Sonra ikinci, üçüncü, dördüncü... Matəm izdihamı ağır-ağır yuxarı qalxır. Yol boyu düzülmüş gözüyaşlı analar, bacılar, papaqlarını çıxarıb başını şax tutmuş atalar, oğullar əllərindəki gül dəstələrini xalqımızın iki ildən bəri davam edən haqq işi —Azərbaycanın suverenliyi və torpaqlarının bütövlüyü uğrunda mübarizədə qurban getmiş, şəhidlərin cənazələri üstünə, irəliləyən izdihamın ayaqları altına atırlar.

Əllərdə şəhidlərin şəkilləri tutulub. Gülümsər çöhrəli gənc, saçları gözünün üstünə tökülmüş yeniyetmə, təmkinli ağsaqqal, milis nəfəri... Nisbətən kiçik bir cənazə yaxınlaşır. Rəngli fotoda 7-8 yaşlarında məsum bir

uşaq hələ də gülür. Günahsız uşağın qətlə yetirilməsi... Bu kiçik tabutu görən anaların, bacıların bir çoxu tab gətirməyib özündən gedir. Yolların kənarından gül yağışı davam edir. Hər yerdə izdiham ehtiramla matəm dəstəsinə yol açır. Filarmoniyanın tinində meydana toplaşmış yüz minlərlə adam cənazələri köz yaşları içərisində qarşılayır. Matəm dəstəsi meydandan sola burulub binaların arası ilə Dağüstü parka tərəf qalxır. Uzanıb gedən nəhəng insan dənizinin içərisində hər 10-15 metrdən bir çiyinlər üstündə gətirilən şəhidlərin al görkəmli cənazələri ana yurdun bağrında açılmış qanlı yaralar kimi közərir. Cənazələrin bu yerdən ötüb keçməsi xeyli çəkir. Parka tərəf qalxan yurddaşlarımızın ləngərli, hüznlü axını bitib-tükənmir.

Bakı göz yaşları tökür. «Haqq mənəm» — dediyinə görə dabanından soyulan Nəsiminin qədəmində milyon-milyon qərənfillər qızarır.

Xəzər sahilində qərar tutmuş Nizami cəngavəri Bəhram-Gur həmişəkindən daha qəzəb və nifrətlə boğazından yapışdığı əjdahanı son qətlə yetirmək istəyir. Bəlkə bu şəhidlərin könül dağlayan cənazələri də, bu milyon-milyon insan axını da əjdaha ilə üzbəüz olan Bəhram-Gura kömək üçün tələsir. Yoxsa əziz, doğma adamları dəfn etməyə belə tələsməzlər. hamı birləşməyə axır, birləşməyə, birləşməyə. And içib birləşməyə.

Dinclik, əmin-amanlıq sevən, qonşunun toyuğuna belə kiş deməyən xalqı bu gün qan yaddaşı birləşdirir. Xəstəxanalarda oğullarımız, qocalar, qadınlar həkimlərə yalvarır: «Həkim, qurban olum, yaralıya mənim qanımı vurun». Azadlıq eşqi qandan-qana keçir. Bütün Azərbaycan bu gün qan qardaşıdır.

* * *

Bakının Dağüstü parkı da heç vaxt belə insan axını görməyib. Onun nəinki giriş və çıxış yolları, saysız-hesabsız pilləkənləri və ətrafındakı binaların damları, hətta ağaclarının budaqları da adamla doludur. Bu istirahət guşəsi faşist gülləsindən qətlə yetirilən qəhrəman eloğlumuz Həzi Aslanovun dəfnindən bəri ilk dəfədir ki, ağuşuna gələnlərin üzlərində təbəssüm əvəzinə kədər, baxışlarında sevinc yerinə acı göz yaşları, əllərində al-qırmızı transparantlar əvəzinə qara bayraqlar görür, dillərindən şən nəğmələr deyil, tük-ürpədən ağı eşidir, Əvvəlcədən qərara alındığı kimi, xalqımızın öz suveren hüquqları uğrunda şəhid olmuş oğul və qızları burada torpağa tapşırılacaqlar.

Saat ikiyə on beş dəqiqə qalmış çiyinlərində cənazələr gətirən izdiham parka yaxınlaşır. Adamlar əllərindəki tər gülləri cənazələrin üzərinə qoyurlar. Ana və bacıların daha da gurlaşan fəryadı təzədən gəmilərin fit səsinə qarışır.

Ana Vətənə, İnsanlığa, Azadlığa atılan güllələrin qəzəbini ürəklərində soyudan şəhidləri torpağa tapşırırıq, Ağı deyən anaların, qız-gəlinin göz yaşları sinələri yandırır. Altı ay, çəmi altıca ay bundan qabaq toyları olan iki gəncin — İlhamın və Fəridənin tabutu torpağa gömüləndə fəryad səsləri göylərə bülənd olur. Namərd qülləsinə tuş olan sevgilisinin dərdinə dözə bilməyən Fəridə özünə qəsd edib. Qeyrət və namus qoşa dəfn olunur.

* * *

Bakı bir qanlı bayraq kimi öz şəhid oğullarını başı üzərinə qaldırdı. İndi bizim bir ağızdan and içməyə müqəddəs türbəmiz var. İndi bizim and içməyə müqəddəs bayrağımız var. .

Ağlamayın, qardaşlar, bacılar, analar, atalar. Belə oğulları olan xalq ağlamaz. Əlinizdəki milyon-milyon qərənfili şəhid qəbirlərinin üstünə səpin. Qoy dünya görsün ki, bizim əlimizdəki güllə deyil, güldür.

**“Azərbaycan gəncləri”.** - 1990. – 30 yanvar. - № 9 - S. 2, 4.

## Qanlı 20 Yanvar şahidlərin gözü ilə

**Məmmədov Xudaverdi Hüseyn oğlu: -** Həmin gecə Azərbaycan Xalq Cəbhəsi üzvləri şəhərin asayişini qoruyurdular, onlar bilirdilər ki, şəhərə hərbi hissələr gətiriləcək, ancaq Bakı şəhərində hərbi qüvvəyə heç bir ehtiyac lazım deyildi. Rostovdan, Stavro- poldan muzdla tutulmuş, ehtiyatda olan hərbçilər xalqı xəbərdar etmədən odlu silahdan vəhşicəsinə atəş açıb insanları qırdılar. Mən 20 yanvar 1990-cı il tarixdə qonşum Gülxar Rüstəmova ilə səhər saat 11.20-də şəhərə gəldik. Bakı Soveti stansiyasından çıxıb mitinq olan tərəfə getdik. Ölənlərin xatirəsinə başsağlığı verildiyi bir vaxtda həmin küçəyə 6-7 tank daxil oldu. Camaat təşvişə düşdü, qorxub bir-birinə dəyib qışqırırdılar. Tanklardan arası kəsilmədən camaatın üstünə atəş açdılar. Axşamkı hadisədən qorxmuş camaat fəryad edirdi. Sonra məlum oldu ki, patronlar boş imiş, havaya atırmışlar.

Bu hadisənin, bu vəhşi, həyəcanlı güllləbəranın, tankların vahiməsi çoxdan müharibəni unutmuş adamları qəzəbləndirirdi. Mən və mənim ki- milər bu hadisəni lənətləyir, bunu təşkil edənlərə ağır cəza verilməsini tələb edirik.

**Nəsirov Mirzə Həbib oğlu: -** Evimizlə Salyanski kazarmanın arası təxminən 200 metrdir. 19 yanvar, axşam 24-də avtomat və pulemyotlardan atəş açıldı. Çoxlu yaralanan oldu, 8 nəfər gözümün qarşısında öldü. Qonşum ayağından yaralandığı üçün hal-hazırda xəstəxanada yatır.

Təcili yardım yaxınlaşıb yaralıları götürmək istədikdə, silahlı əsgərlər amansızlıqla atəş açdılar. Həyətimizə səpələnən avtomat gilizlərini uşaqlarım və özüm əvvəl yığdıq, sonra isə tulladıq. Üç gündür ki, atışma gedir. Evdə uşaqlarım və ailəm, qonşularım vahimədən bir-birinə qarışmış, gecəni yata bilmirlər.

**Nuriyev İmran Həmzə oğlu:** - İş yerim Biləcəri qəsəbəsindədir. 18 yanvar 1990-cı il tarixdə saat təxminən 4 (16) radələrində Bakı-Rostov yolu ilə Bakı şəhərinə daxil olan BTR və tankların qabağını xalq kütlələrinin kəsdiyinin şahidi oldum və onlarda heç bir silah deyilən şey yox idi. Axşamdan xeyli keçmiş, yəni gecə saat 1-ə işləmiş İnqilab, 17 Naqornu küçələrindən tank səsi gəlirdi. Göylərdə qırmızı mərmilər süzürdü. Həyat yoldaşımın ürəyi getdi, körpə uşaqlarımı sakitləşdirə bilmirdim. Çalışırdım onları sakit edim ki, bunlar salyutdur, qorxmayın. Telefon olmadığından və küçəyə çıxmaq qorxulu olduğundan, təcili yardım da çağıra bilmədim. Bu cür vəziyyət 20-dən 21-nə keçən gecə də təkrar oldu. Ayın 20-si günü isə çölə çıxa bilmədik.

**Əmiryusibov İmdad Mansır oğlu:**

- Yanvarın 19-dan 20-nə keçən gecə Salyanski kazarmanın yanında işğalçı, qanlı “Sovet” ordusu tərəfindən sağ ayağımın 8 yerindən güllə yarası almışam. Həmin gecə saat 3-də məni təcili yardım xəstəxanasına aparıblar. Orada həkimlər tərəfindən müalicə olundum. Hal-hazırda həmin yaradan ayağımda şikəstlik qalmışdır

**Əhmədova Qəmər Məmmədəli qızı:**

- Yanvar ayının 19-da axşam saat 20- də televizor verilişlərinin kəsilməsi ilə əlaqədar çölə çıxmış və Sovet ordusunun şəhərə daxil olması üçün etiraz əlaməti olaraq, yoldaşım da Salyan kazarmasında olmuşdur. Sovet ordusu əsgərləri yüzlərlə adamı güllləbəran edəndə yoldaşım da qarın boşluğundan yaralanmış və az vaxtda şəhid olmuşdur. Sonra Şəhidlər Xiya- barupda dəfn olunmuşdur.

**Vedibasar. -** 2023. - 5-31 yanvar. - № 1/2. - S. 7.

# 20 Yanvarın qəhrəman həkimi

**M.Y.Əliyev,**
Azərbaycan Tibb Universitetinin dosenti

**Xalqımızın igid ərlərinin 1990-cı il qanlı 20 Yanvar hadisəsində göstərdikləri qəhrəmanlıqlar və istiqlal uğrunda verdikləri qurbanlar çoxlarına məlumdur. Məktəblərdə, ali təhsil müəssisələrində və digər tədris sahələrində bu qəhrəmanların cahanşümul fədakarlıqlarından danışılır, mətbuatda onlar haqqında geniş məqalələr çap olunur, konsert salonlarında, radio və televizorlarda bu qəhrəmanların şərəfinə təriflər səsləndirilir. Bütün bunlar xalqımızın gənc nümayəndələrinin vətənpərvərlik tərbiyəsində əhəmiyyətli rol oynayır.**

Azərbaycan öz qəhrəmanlarını unutmur və onların xatirəsini həmişə hörmətlə yad edir. Lakin 20 Yanvar hadisələrində kameraların və fotoaparatların obyektivlərindən kənarda qalan jurnalistlərin və yazıçıların qələmlərinin mürəkkəbindən ayrı düşən və kütləvi informasiya vasitələri tərəfindən laqeyd münasibətə məruz qalan fədakarlarımız da mövcuddur. Onlar həmin faciə dolu ağır günlərdə Bakı şəhərinin mərkəzi xəstəxanalarında gecəni-gündüzə qataraq qəhrəmanlıqlar göstərən fədakar cərrahlarımızdır. Onlar insan mətanətini və dözümlülüyünü tarıma çəkərək maksimum fədakarlıq və peşəkarlıq nümayiş etdirən insanlardır. O günlərin şahidi kimi mən 20 Yanvar faciəsində "əsas səhnənin" arxasında qəhrəmanlıq göstərən təvazökar insan haqqında söz açmaq istəyirəm. Bu böyük bir bəy nəslinin, vətənpərvər nəslin nümayəndəsi Azər Bilas oğlu Şadlinskidir.

20 Yanvar günlərində düşmənin odsaçan güllə yağışından yayına bilərək Bakı şəhərinin Təcili Tibbi Yardım Xəstəxanasına (indiki Kliniki Tibbi Mərkəz) gələn, yaralı insanlara professional səviyyədə yardım göstərən dosent A.B.Şadlinski elə ilk zamandan başlayaraq xəstəxanada cərrahi yardımın təşkilini tamamilə və qeyd-şərtsiz öz rəhbərliyi altına aldı və 20 Yanvar hadisələrinin sonunadək bu vəzifənin öhdəsindən uğurla gələ bildi.

O dövrdə nəinki xəstəxananın rəhbərliyi, hətta Səhiyyə Nazirliyinin işçiləri, Azərbaycan Tibb İnstitutunun professor-müəllim heyəti xəstəxanaya nəzarət etmirdilər. Xəstəxana öz avtoma- tizmi hesabına işləyirdi, yeganə koordinasiyaedici şəxs isə dosent A.B.Şadlinski idi. Xəstəxanada dərman və qan ehtiyatı məhdud idi, təchizat sıfır səviyyəsində idi, istilik sistemləri işləmirdi, cərrahi əməliyyat və hətta sarğı otaqlarında sutkada 24 saat operasiya gedirdi. Yaralı insanların xəstəxanaya axını həndəsi silsilə ilə artırdı, get-gedə nəinki palatalar və koridorlar, hətta pilləkənlərin üstü də ağır xəstələrlə dolmağa başladı. Bu anlarda insan təsəvvürünə gəlməyən fəlakətli bir cəhənnəm vəziyyəti yaranmışdı. Sadəcə sonuncuda olan alov və irini burada sazaq və qan əvəz edirdi. İnsanlar qan azlığından və soyuqdan çox əziyyət çəkirdilər. Belə bir fəlakətli anlarda onları ancaq bir mənbə qızdıra bilirdi - bu da A.B.Şadlinskinin faktiki olaraq rəhbərlik etdiyi fədakar cərrahlar briqadasının əməyi idi. Sanki Allah özünün seçilmiş bəndələrini imtahana çəkirdi.

Ömürləri boyu kommunizmideyaları ilə az qala eyforiya vəziyyətində saxlanılan, yalançı hakimiyyətin xam xəyalları ilə qidalanan, aldadılan sadəlövh insanları güllə yarasından daha çox qəlb yarası incidirdi. Eyforiyadan depressiyaya düşən, ağır stress keçirən, fiziki və mənəvi cəhətdən yaralanmış insanlara ekstremal vəziyyətdə yardım göstərən insanlara xalqın fədakar nümayəndələri yeməklə, yataq dəstləri ilə, dərmanla və öz qanları ilə yardım göstərirdilər. Bu yardımlara Azərbaycanın digər bölgələrində yaşayan insanlar da qoşulmağa başlayırdı.

O vaxtların ağır günlərində Moskvada yaşayan Ulu Öndər Heydər Əliyevin müraciətindən ruhlanan xalqımızın 20 Yanvar qurbanlarına yardımı daha da artaraq kütləvi hal aldı. Həmin günlərin şahidi kimi tam məsuliyyətlə bildirirəm ki, Bakı şəhərinin Təcili Tibbi Yardım Xəstəxanasında baş verən xaosu nizamlayan, onu yüksək səviyyədə təşkil edən və yüzlərlə insanlara şəfa verərək həyata qaytaran cərrahlar briqadasının başında dosent A.B.Şadlinski dururdu. Həmin hadisənin şahidləri hələ də o günləri yada salarkən A.B.Şadlinskinin xidmətini böyük hörmət və məhəbbət hissi ilə xatırlayırlar.

Mən, Azərbaycan Tibb Universitetinin ümumi cərrahlıq kafedrasının dosenti A.B.Şadlinskinin böyük həyat yolunun bir anı haqqında epizodik məlumat verdim. Lakin insan həyatı ancaq bir epizoddan ibarət deyildir. Bunun kimi çoxsaylı epizodlar bir insanın mürəkkəb həyatının ayrı-ayrı məqamlarını ifadə edir və onların vəhdəti ömür adlanır. A.B.Şadlinskinin həyatında sizə təqdim etdiyim məqamlar çoxdur və onların hər birini Azər bəyin ömrünün qəhrəmanlıq səhifələri adlandırsaq, yanılmarıq.

20 Yanvar hadisələrindən sonra I və II Qarabağ müharibəsini, Xocalı hadisələrini yaşayan cərrah həkimlərin içərisində də A.B.Şadlinskinin yeri var və onun fədakarlığı həmişə hamıya örnək olmuşdur. Azər bəy Şadlinskilər ruhunu xalqımızın qəhrəmanlıq salnaməsində yaşadan qəhrəman ziyalılarımızdan- dır. Bizim vəzifəmiz isə humanizm xatirinə bu kişiliyi, bu qəhrəmanlığı, bu fədakarlığı yada salmaq, qiymətləndirmək və aləmə əyan etməkdir.

Mən Azər bəyin ömür salnaməsinin bir epizodundan danışdım, indi söz digər həmkarları- mındır. Qoy onlar da xalqımızın böyük oğlunun həyatının qalan səhifələrini də tərənnüm etsinlər. Bu, gələcək nəsil üçün ör- nək dərsi olardı.

**Vedibasar. -** 2023. - 5-31 yanvar. - № 1/2. - S. 7.

## 20 Yanvar tariximizin qanla yazılan səhifəsidir

### O ağır gündə...

**Sərtib İslamoğlu**

**Düz otuz il əvvəl xalqımız yeni bir faciəni də yaşadı. Ürəyi Vətənə məhəbbət hissi ilə çırpınan yüzlərlə əliyalın, günahsız soydaşımız özünü dost kimi qələmə verən, əslində isə son iki yüz ildə başımıza neçə-neçə müsibətlər gətirmiş rus imperiyasının ordusu tərəfindən vəhşicəsinə öldürüldülər. Onların son iki əsr ərzində məmləkətimizin müqəddəs torpaqlarını tapdalayan, murdarlayan nallı çəkmələri suçsuz ataların, anaların, balaların qanını təhqir etdi. Qurban gedənlərin, yalın əllə tankların qarşısına çıxanların yeganə günahı azadlıq mücahidləri olmaları, azad, müstəqil yaşamaq istəyində bulunmaqları idi. Bəs evinin içində ürəyinə düşmən gülləsi pərçim olan nənənin, kor kişinin, körpə Larisanın, İlqarın qəbahəti nə idi? Yox, min dəfə yox! Sualın yalnız bir cavabı var:**

-Əsarət həlqəsinə düşdüyü andan azadlığı haqqında düşünən və bu yolda mübarizə aparan xalqımızın mübariz ruhunu sındırmaq, məhv etmək üçün istismarçı dövlətin, yeni adla (SSRİ-S.İ.)təqribən 70 il hökmranlıq edən rus imperiyasının növbəti cinayəti idi.

Otuz il bundan öncə həmin qanlı şənbə günü ölümlərilə şəhidlik rütbəsinə yüksələn mücahidlər yüzlərin, minlərin, milyonların qanına təpər gətirdi, ürəklərdəki azadlıq nurunu daha da artırdı, Vətən torpağı üçün canından-qanından keçməyə hazır olan şəhidlər, qazilər yetişdirdi.

***

O qanlı hadisələrin canlı şahidi kimi neçə illər ürəyimdə saxladığım bəzi məqamları oxuculara çatdırmaq istəyirəm.

1990-cı ilin yanvarı bütövlükdə Azərbaycana, əsas da Bakıya çox boz gəlmişdi. Hadisələrin gedişatı heç də yaxşı nəticələrdən xəbər vermirdi. Moskvanın buyruq qulu olan Ə.Vəzirovun xəyanəti ilə barışmayan azadlıq fədailəri artıq neçə ay idi ki, dinc yolla mübarizələrini davam etdirir, onun istefasını tələb edirdilər. Ağalarının göstərişinə əsasən istefa verməyən Ə.Vəzirova kömək etmək üçün Moskva Primakov-Girenko-Mixaylov üçlüyünü Bakıya göndərmişdi. Tələblərində israrlı olan mitinqçilərin də bir qədər yorulduqları, əsəblərinin tarıma çəkildiyi açıq-aydın görünürdü.

Guya əmin-amanlığı təmin etmək, əslində isə təxribatlar törətmək üçün Bakıya göndərdilən SSRİ DİN-nin qoşun hissələri paytaxtın küçələrini tutmuşdular. Günahsız adamların təhqir olunması, onların həbsi adi hal almışdı. Bir sözlə, Bakını qarşıda böyük bir müsibətin gözlədiyini görmək çətin deyildi.

Yanvarın 19-u idi. Gündüz saat 3-də Azərnəşrin binasında yerləşən iş yerimdən çıxıb Mərkəzi Komitənin binasının qarşısında mitinq edənlərin yanına getdim. Soyuqladığımdan daxili hərarətim var idi. Buna baxmayaraq, hadisələrdən kənarda qala bilməzdim.

Mitinqi idarə edən saqqallı birisi sözü fəallardan birinə verdi. O, çıxışının sonunda dedi:

-XI Qızıl Ordu meydanına və aeroportun girişinə üç avtobus adam aparmaq lazımdır. Oralarda adam azalıb.

Meydana toplaşanlardan könüllülər avtobuslara mindilər. Mitinq iştirakçıları "istefa, istefa" deyərək tələblərində israr edirdilər. Birdən dördüncü mərtəbənin pəncərəsində bir qadın göründü və qışqıra-qışqıra dedi:

-Vəzirov gəlir, Vəzirov gəlir!

Mitinq iştirakçıları, ümumiyyətlə, hamı elə bildi ki, Ə.Vəzirov gəlir istefa verdiyini elan etsin. Hamıdan sevinc, alqış səsləri eşidildi. Çox təəssüflər olsun ki, heç də belə olmadı. MK-nın binasından Moskvanın emissarı Primakov çıxıb əlində meqafon tutan saqqallıya yaxınlaşdı. O, hədəli çıxışında hamının dağılıb getməsini, əks təqdirdə müvafiq tədbirlər görüləcəyini dedi. Mitinqçilər onu fitə, qışqırığa basdılar.O isə:

-Onda özünüz bilin, - deyib, MK-nın binasına tərəf döndü.

Hadisələrin sonrakı inkişafı göstərdi ki, bir neçə ildən sonra Rusiyanın əks-kəşfiyyat idarəsinin rəhbəri təyin olunan Primakovun Azərbaycanımıza, onun vətəndaşlarına qarşı Kremlin meşin qapıları arxa; sında qurulan cinayətkar plandan xəbəri varmış və bu planın icrasına rəhbərlik etmək üçün Bakıya göndərilibmiş.

Bu məqamda bir məsələyə öz subyektiv münasibətimi bildirməliyəm. Belə tapıram ki, həmin anda Vəzirov istefa versə idi, mitinq iştirakçıları elə o dəqiqə mitinqi dayandırıb dağılaşacaq idilər. Amma Və-

zirovun istefa verməməsi onun özündən çox Moskva üçün lazım idi. Moskva yaxşı bilirdi ki, Vəzirov istefa verməyənədək mücahidlər mübarizəni davam etdirərək silahsız, əliyalın camaatı bənd-bərədən, mərkəzi yolların girişindən çıxarmayacaqlar. Bu insanların hamısı rus avtomat silahının hədəfində olan ilk qurbanlar idilər.

İstilik məni əldən salırdı. Evə gəldim. Həyat yoldaşım, körpə oğlum və qızım sual dolu baxışlarla mənə baxdılar.

Mən isə - hər şey yaxşı olacaq, - dedim. Əslində isə...

Həmin gecə AZ.TV-nin enerji bloku da ruslar tərəfindən partladıldı. Əhalini əsas informasiya mənbəyindən məhrum etdilər.

Daxili hansı bir hiss isə yaxınlaşan müsibətdən mənə xəbər verirdi.

* * *

Gecəyarısı Bakının dörd giriş yolundan şəhərə daxil olan tankların, digər ağır döyüş maşınlarının səsi, dayaq nöqtəsi itirilmiş odsaçan avtomat silahların şaqqıltısı dəhşətli vahimə yaratdı. Evimiz Moskva (indiki Heydər Əliyev) prospektindən cəmisi 100-150 metr aralı yerləşdiyindən, asbest şiferlə örtülmüş damların üstünə çınqıl kimi tökülən avtomat güllələrinin çıqqıltısı aydın eşidilirdi. Körpələr səsdən oyanıb qorxmasınlar deyə, qulaqlarına pambıq tıxadıq.

Yanvarın 19-dan 20-ə keçən gecəni biz də hamı kimi diri gözlü açdıq. Həmin gecə yüzlərlə adam yaralandı, öldürüldü. Bakıda yüzlərlə adamın qanı axıdıldı. Bakı rus qoşunları tərəfindən işğal olundu.

Yanvarın 22-də yaxın dostum zəng edib dedi ki, Salyan- ski kazarmanın ətrafında törədilən cinayətin nəticələrini görmək istəyirsənsə, gedək baxaq. Vədələşib görüşdük. Ələsgər Ələkbərov küçəsilə Qossnabın binası tərəfdən asta addımlarla faciə yerinə tərəf getdik. Heç müharibə illərindən bəhs edən filmlərin çəkilişi zamanı da belə səhnələri yaratmırlar. Ağır döyüş maşınlarının tırtılları altında əzilib yerə yapışan irili- xırdalı maşınları, uçulub dağılmış evləri, hasarları, kiçik qan gölməçələrini, cırılmış, didik-didik olmuş paltar tikələrini təsvir eləmək, onların haqqında yazmaq çox çətindir.

Dostumda fotoaparat vardı. O, bir neçə şəkil çəkmişdi ki, başımızın üstündən güllələr atıldı. Tez özümüzü yolun sağ tərəfindəki özülü qazılmış, tikinti materialları yığılmış ya- rımtikilinin içinə atdıq.

Üst-üstə yığılmış iri panellərin arasına sığınıb gizləndik. Kinolardakı kimi, ruslar bizi aramsız güllə yağışına tutmuşdular. Bu azmış kimi, bir ağır döyüş maşınının da bizim gizləndiyimiz yerə tərəf yaxınlaşdığını səsindən yəqin etdik. Hər ikimiz panellərin arasına daha çox sığındıq. Maşın bizim tuşumuzda dayandı. Adını bilmədiyim silahdan bizim istiqamətə bir neçə daraq boşaldandan sonra aralanıb getdi.

Gülləbaran cəmisi bir neçə dəqiqə dayandı. Yerimizdən tərpənə bilmirdik. Bir qədər gözləməyi qərarlaşdıq. Elə bu an avtomatlar yenidən səs-sə- sə verdi. Bu dəfə onların hədəfi Qossnabın 14 mərtəbəli binasının sonuncu mərtəbəsi oldu. Çox çəkmədi ki, 14-cü mərtəbə odsaçan güllələrdən alovlandı...

Bir qədər sonra ara sakitləşdi. Səs gəlmirdi. Təqribən bir saata yaxın yerimizdən tərpənmədik. Sonra sürünə- sürünə yaxınlıqdakı doqquzmərtəbəli binanın küncünə yaxınlaşdıq. Bir göz qırpımında binanın qarşısına keçdik. Birinci mərtəbədəki qapılardan biri açıldı. Əlində su ilə dolu qab olan yaşlı qadın bizə yaxınlaşdı. Onun gözləri yaşla dolmuş, çənəsi astadan titrəyirdi. Suyu bizə uzadıb:

- Bir saatdır ki, pəncərədən sizə baxırdım. Əllərim göydə, Allaha yalvarırdım ki, sizə bir şey olmasın. Alın için, - dedi.

**Vedibasar. -** 2023. - 5-31 yanvar. - № 1/2. - S. 6.

## 20 Yanvar faciəsinə ilk siyasi-hüquqi qiyməti ümummilli lider Heydər Əliyev verib

**Sevinc Azadi**

Qan yaddaşımıza əbədi həkk olunmuş 1990-cı ilin qanlı 20 Yanvar hadisələri tariximizin özündə faciə və qəhrəmanlığı ehtiva edən unikal səhifəsi, Azərbaycanın sonrakı taleyinə əhəmiyyətli təsiri olan dönüş anıdır, desək yanılmarıq. Yetmiş il dünyanı lərzəyə salan bir imperiyanın tərkibindən çıxaraq öz müstəqilliyinə nail olmaq isə elə də asan başa gəlmədi. Ölkəmizi müstəqilliyə aparan yol 20 Yanvar faciəsindən keçdi. SSRİ rəhbərliyi xalqın azadlıq arzusunu boğmaq üçün, hətta ordunun gücündən istifadə edərək qan tökməkdən belə çəkinməsə də öz istəyinə çata bilmədi.

Azərbaycanın dövlət müstəqilliyinə nail olması ilə yanaşı, azadlıq uğrunda mübarizənin əhəmiyyəti bir də o oldu ki, xalqımız həm də özünün Liderini yenidən qazandı. O lideri ki, hələ SSRİ kimi nəhəng bir imperiyanın sərt qanunlarının hökm sürdüyü bir vaxtda üçrəngli bayrağımızı Naxçıvanda rəsmi şəkildə yüksəltmişdi. Xalqın təkidli tələbi ilə 1993-cü ildə ikinci dəfə respublikamıza rəhbərliyə qayıtdıqdan sonra isə dövlət müstəqilliyimizin qorunub saxlanılması, dövlət atributlarımızın qürur mənbəyimizə çevrilməsi üçün böyük işlər gördü.

Həmin vaxt Moskvada yaşayan ulu öndər Heydər Əliyev qanlı qırğının ertəsi günü Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək dünyada analoqu olmayan bu faciə ilə bağlı bəyanat verdi. İmperiyanın paytaxtında - bu faciənin törədilməsinin planı cızılmış bir şəhərdə dünyanın onlarla aparıcı KİV nümayəndələrinin qarşısında verilən bu bəyanat beynəlxalq aləmdə böyük əks-səda doğurdu. Dahi şəxsiyyət Heydər Əliyev xalqın səsinə səs verməklə sübut etdi ki, bu ağır günlərdə Azərbaycanda - öz xalqı ilə birlikdə olmasa da, bu ağrını xalqla birgə yaşayır. Moskvada xüsusi nəzarət altında olduğunu, özünün və ailə üzvlərinin həyatını təhlükə qarşısında qoyduğunu Ümummilli Liderimiz Azərbaycan xalqına qarşı Sovet ordusunun təcavüzünü pislədi, faciəni törədənləri, ayrıca da M.Qorbaçovu kəskin ittiham etdi, qoşunların dərhal Bakıdan çıxarılması tələbini irəli sürdü. Bu gün bəlkə də kimlərəsə bütün bunlar asan görünə bilər. Amma SSRİ-nin sərt qanunlarının hökm sürdüyü o dövrdə dünyanın ən böyük dövlətlərindən birinin rəhbərini elə onun öz vətənində belə kəskin tənqid etmək, doğrudan da böyük cəsarət tələb edirdi. Ulu Öndər Heydər Əliyevin bu addımları Vətən və xalq qarşısında bir vətəndaşlıq məsuliyyətinin nümayişi, Vətənə məhəbbət və sədaqətin nümunəsi idi. Bu bəyanat, eyni zamanda, artıq Azərbaycan tarixində yeni siyasi dövrün başlanmasının anonsu idi. Onun bu istiqamətdə atdığı digər sərt addım 1990-cı il iyulun 19-da SSRİ Nazirlər Sovetinin partiya təşkilatına ünvanladığı ərizədir. Ulu öndər Kommunist Partiyasının sıralarından çıxmasına dair yazdığı bu ərizədə kommunist rejiminin ölkəni uçuruma apardığını, SSRİ-nin dağılmasının labüdlüyünü açıq şəkildə bəyan edirdi, 20 Yanvar faciəsi ilə bağlı isə bunları bildirirdi: “Bu antihumanist, konstitusiyaya zidd hərəkəti ittiham edərkən Sov.İKP və Azərbaycan KP MK-nın bu cinayətin üstünü açacağına və günahkarları üzə çıxaracağına ümid edirdim. Artıq yarım il keçib. Nəinki bu dəhşətli cinayətlərin hamıya çoxdan məlum olan günahkarları üzə çıxarılmayıb, əksinə bunları ört-basdır etmək üçün əllərindən gələni edirlər. Ümid edirlər ki, bu faciə unudulacaq. Ancaq tarix dəfələrlə sübut etmişdir ki, doğma xalqa qarşı yönəldilmiş qanlı cinayətləri on illər keçsə də, unutmaq və bağışlamaq mümkün deyil”.

20 Yanvar faciəsinə hüquqi-siyasi qiymətin verilməməsi daim Heydər Əliyevi düşündürürdü. 1994-cü il yanvarın 12-də keçirdiyi müşavirədə Prezident Heydər Əliyev bu barədə belə deyirdi: “...Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişdir. Görünür ki, ötən yaxın illərdəki Sovetlər Birliyi, respublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsl mahiyyətini xalqa bəyan etməmişlər”.

1994-cü il martın 29-da “1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında” qəbul edilən qərarda 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. 20 Yanvar hadisələri zamanı həlak olanların xatirəsinin əbədiləşdirilməsi istiqamətində də Ümummilli Liderimiz mühüm tədbirlər həyata keçirdi. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra ilk olaraq Şəhidlər xiyabanını ziyarət etdi və tapşırıq verdi ki, qısa müddətdə bütün şəhid məzarlarının üstü götürülsün və burada memorial kompleks ucaldılsın. Məhz Onun Sərəncamı ilə 20 Yanvar Ümumxalq hüzn günü elan olundu. Şəhidlər xiyabanı xalqımızın müqəddəs and yerinə, ziyarətgahına çevrildi. Şəhid ailələri dövlət qayğısı ilə əhatə olundu. 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsini və müavinət təminatını da daim diqqət mərkəzində saxladı. Azərbaycan Prezidentinin 17 yanvar 2000-ci il tarixli Fərmanı ilə 20 Yanvar təcavüzü zamanı həlak olmuş Azərbaycan Respublikası vətəndaşlarına “20 Yanvar

şəhidi" fəxri adı verildi, "1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə dövlət qayğısının artırılması haqqında" 2003-cü il 15 yanvar tarixli Sərəncama əsasən əlil olmuş şəxslərə verilən aylıq müavinət artırıldı və bu iş davamlı olaraq həyata keçirilir.

Müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinin dövlət səviyyəsində həlli istiqamətində bünövrəsini Ümummilli Liderin qoyduğu işlər bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, bu yöndə böyük tədbirlər həyata keçirilir. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir. Ölkənin iqtisadi durumunun daha da yüksəlməsi özünü bu qəbildən olan insanların həyat və məişətində daha qabarıq göstərir. Prezident İlham Əliyevin Sərəncamına əsasən, Şəhidlər xiyabanı vahid kompleks kimi yüksək səviyyədə yenidən qurularaq abadlaşdırılıb. 2006-cı il yanvarın 19-da dövlət başçısının "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Fərmanı ilə 20 Yanvar şəhidlərinin ailələri üçün Azərbaycan Respublikası Prezidentinin xüsusi təqaüdü təsis edilib.

**İki sahil.-**2023.-11 yanvar.-№4.-S.10.

**20 Yanvar 1990-cı il: bir qərinənin o başı və bu başı**

**Mətanət Məmmədova**

33 il... 20 Yanvar faciəsindən ötən bir qərinəlik dövrün hər ilində bu fikirlər xatırlanır: nə faciələr yaşayıb bu xalq. Daha doğrusu, nə faciələr yaşadılıb bu xalqa. Birinin bitdiyi, yaralarımızın qaysaq bağladığı anda yenisi hazırlanıb, yaşadılıb. Səbəb? Səbəb bir neçədir. Birincisi, xalqın qüruru, mübarizliyi, əyilməzliyi. Tarixin bütün dönəmlərində haqqını, hüququnu bilən xalqlar daim incidilib. İkincisi, yaranışdan tale payımız olan, qismətimizə düşən gözəl, bərəkətli torpaqlara sahib olmağımız. Buna çoxları göz dikib, tamah salıb. Üçüncüsü isə taleyimizin nisgilli tərəfi – erməni adlı bədxah, azğın, tamahkar qonşumuzun olması. Buna, əslində, qonşu da demək olmaz. Çünki biz binə olanda bu adda qonşumuz olmayıb. Sonradan torpaqlarımızın bir küncünə qısılıb "qonşu" olublar bizə.

**Qərinənin o başı…**

Tarixin bütün dönəmlərində bu üç amildən doğan və zaman-zaman bir-birini əvəzləyən faciələrin növbətisi 1990-cı ilin 20 yanvarında Bakıda törədildi. Çox yazılıb bu barədə. Faciənin yaratdığı əsərlər qan çanağına dönüb, poeziya nümunələrindən qan süzüb, məqalələrdə, oçerklərdə, reportajlarda gənc ömürlər erkən çiçək açıb, vaxtsız solub, ataların beli bükülüb, analar ağlar qalıb. Televiziya ekranlarında, qəzet səhifələrində qərənfillər dil açıb bu faciənin dəhşətindən danışıb. Əllərin solmamış xınası, boş qalan məktəb partaları, qana boyanan tələbə biletləri, ali təhsili başa vurmaq haqqında diplomla ölüm arasındakı qısa zaman fasiləsi, bir də ki həmin gün doğulan atasız uşaqlar ürəklərə sevgili, ər, övlad dağı çəkib, silinməz nisgil həkk edib.

20 yanvar 1990-cı il. Müstəqil tariximizin şanlı səhifəsinə çevrilən həmin tarix əsrlərin zülmətinə bir nur saçır. Bu nurun ziyasında Azərbaycan xalqının illərlə zülmlərlə, məşəqqətlərlə üz-üzə dayanan, azadlıq, müstəqillik yolunda mübarizələrlə dolu çoxəsrlik tarixi vərəqlənir. Vərəqləndikcə də başına gətirilən müsibətlər, mübariz bir xalqın müstəqil olmaq arzusunun reallaşa bilməməsi səbəbləri açıqlanır, gözlər önündə canlanır.

1990-cı ilin azadlıq mübarizəsi bir ilin, iki ilin mübarizəsi deyildi. Əsrlərin qan yaddaşına hopmuş hisslərin yenidən coşması idi. Bir sözlə, müstəqillik arzusunun reallşması üçün növbəti bir mübarizə idi. Xalq öz soy-kökündən qaynaqlanan hissləri ilə yenidən azadlığa can ataraq müstəqil yaşamaq istəyirdi. Elə bu arzu ilə də minlərlə soydaşımız 33 il əvvəl Azadlıq meydanına axışırdı. Günlərlə bu meydanda azadlıq istəklərini səsləndirir, bu istəklərin ozamankı hakimiyyətə çatdırılmasını, bu istəklərin həyata keçirilməsini tələb edirdi. Və qarşıda bu meydandakı minlərlə insanı nələrin gözləyəcəyini də təxmin edirdi. Çünki tariximizdən bizə azadlıq mücadiləsində başımıza gətirilən müsibətlər gün kimi aydın idi. Lakin Azərbaycan xalqı azad yaşamağı o qədər ürəkdən arzulayırdı ki, qarşıda onu nələrin gözlədiyini çox yaxşı bilə-bilə yenə də bu yoldan dönmürdü.

70 il sovet imperiyasının əsarəti altında yaşayan Azərbaycandan təbii ki, bu imperiya əl götürmək fikrində deyildi. Çünki bu xalqın milli sərvətlərinə çox yaxşı bələd idi və onun əlindən çıxması ilə əsla razılaşmaq fikrində də deyildi. Ona görə də bu mübarizəni yerindəcə boğmaq onların qarşılarına qoyduğu yeganə məqsəd idi.

Bəli, bir tərəfdən imperiya ünsürləri, digər tərəfdən isə hələ iki il öncə ermənilərin xalqımıza qarşı başladıqları müharibə və onun hər gün neçə-neçə övladımızın həlak olması ilə davamı, ölkədəki ictimai-siyasi vəziyyət, dövlətimizin başında səriştəsiz rəhbərliyin olması Azərbaycanı olmazın çətinlikləri ilə üz-üzə qoymuşdu.

Yanvarın 19-da gecə saatlarında Azadlıq meydanına toplaşan insanların ölüm hökmünü verən, bunun üçün Azərbaycana ordu göndərən rus imperiyası nümayəndələri üçün buradakı insanların taleyi yox, onların ailələrindəki insanların nələr çəkəcəyi yox, 70 il sərvətini mənimsədikləri xalqın tarixinə özləri ilə bağlı qara sətirləri həkk edəcəkləri yox, nəyin bahasına olursa olsun, Azərbaycan adlı sərvətin əldən verilməməsi maraqlı idi. Elə bunun üçün də xalqımızı mübarizə yolundan döndərmək üçün nə bacarırdılarsa, onu da etdilər.

Lakin sinəsini güllə yağışı qarşısına sipər etməyi əvvəlcədən düşünən və buna hazır olan xalqın mübariz, coşğun hisli mərd oğul və qızları bu yoldan bircə addım belə geri çəkilmək fikrində deyildilər. Güllələr onlara tərəf tuşlandıqca, qarşıya doğru irəliləyirdilər. Bu, azadlıq uğrunda mübarizənin xalqımızın qəhrəmanlıq tarixində yeni mərhələsi idi. İllər öncə əldə olunmuş və əldən verilmiş azadlıq üçün mübarizənin son həddi idi. O günlər ya xalq bütövlükdə məhv olmalı, ya da əsrlərin arzularını gerçəkləşdirməli idi. Fikir qəti, iradə qəti, lakin xalq əliyalın idi. Həm də arxasında dayanan hakim qüvvə yox idi. Dövləti idarə edənlər düşmənə satılaraq millətin taleyini əsla düşünmək belə istəmirdilər. Buna görə də xalq meydanda tək qalmışdı, ona heç bir dəstək,

kömək yox idi. Tək güc qarşıya qoyulan məqsəd idi. Bu güc və iradə ilə hər kəs şəhid olmağa razı idi, nəinki mübarizə meydanından geri çəkilməyə.

Beləliklə, 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə Bakıda qanli qətllər törədilsə də, azadlığa gedən yolun təməli qoyuldu. Xalq öz mübarizliyi ilə düşmənə sübut etdi ki, o, var-qüvvəsi ilə azadlığa can atır və bu yolda canından keçməyə hazırdır.

**Tək Bakıdamı yaşandı faciə?**

Xeyr, 1990-cı ilin yanvarı Naxçıvan Muxtar Respublikasının alınmaz qalası Sədərəyin Kərki faciəsini də tarixə yazdı, Sədərək uğrunda onlarla igidin faciəli ölümünün başlanğıc nöqtəsi oldu, neçə-neçə ömürləri yarımçıq qoydu. Kərkinin tarixi, burada törədilən hadisələrlə bağlı ümummilli liderimiz Heydər Əliyev sonralar kərkililərlə görüşü zamanı bir neçə cümlə ilə tarixi bir açıqlama vermişdir: "Kərki kəndi Azərbaycanın ən gözəl guşələrindən biridir. Amma təəssüflər olsun ki, o vaxt bu xəritəni cızanda Azərbaycana düşmən olan insanlar elə etmişlər ki, Azərbaycanın Kərki kəndi Ermənistanın içində qalmışdı. Buna baxmayaraq, Kərki həmişə yaşayırdı. Ancaq 1990-cı ildə ermənilər hücum etdilər. Yaxşı yadımdadır, onda mən hələ bura gəlməmişdim. Sonra gəldim, mənə dedilər ki, kərkililər orada möhkəm müqavimət göstərdilər. Ancaq təəssüflər olsun ki, onda ermənilərlə birlikdə sovet ordusunun hissələri sizi öz kəndinizdən çıxardılar".

Tarixə mərhum şair-publisist Vaqif Məmmədovun "Sədərəkdə yazılan gündəlik" kitabında yer alan faktlarla nəzər salaq: 13 yanvar 1990-cı il

Dünənki plenumun gedişindən, yersiz münasibətlərdən, siyasi hadisələrin getdikcə gərginləşməsindən hiss olunur ki, Sədərək ağır təhlükə qarşısındadır…Düşmən yaxın vaxtlarda Sədərək üzərinə hücum edə bilər. Buna görə də bir gün də vaxt itirmədən öz səsimizi ucaltmalı, təcili tədbirlər görməliyik... Bu məqsədlə bu gün saat 14-də direktor işlədiyim Sədərək kənd 1 saylı orta məktəbdə kənd ağsaqqallarının, ziyalıların və digər nümayəndələrin ümumi yığıncağını keçirdik. 7 saata yaxın davam edən yığıncaqda son vaxtlar baş verən hadisələr ətraflı təhlil edildi, Sədərəyə Ermənistan tərəfdən böyük təhlükə gözlənildiyi etiraf olundu. Və 40-a yaxın təklif müzakirə olunandan sonra 270 nəfərin imzası ilə müraciət qəbul olundu. Gecə saat 10-da Şərurun mərkəzi poçtundan 5 ünvana (Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinə, Naxçıvan MSSR Ali Sovetinə, Nazirlər Sovetinə, Dövlət Təhlükəsizliyi Komitəsinə və Daxili İşlər Nazirliyinə) yola saldığımız müraciətdə aşağıdakı tələblər qoyulmuşdu:

1.Sədərək əhalisinin tam təhlükəsizliyi təmin edilsin.

2. Mövcud vəziyyət nəzərə alınmaqla Sədərək kəndində İliç rayon Daxili İşlər Şöbəsinin xüsusi bölməsi yaradılsın.

3. Sədərək ərazisində yerləşib inzibati cəhətdən Ermənistan SSR-in Artaşat rayonuna tabe olan sərhəd zastavası Naxçıvan MSSR-in sərhəd qoşunlarının ixtiyarına verilsin.

4. Kərkinin blokada vəziyyəti nəzərə alınmaqla Sədərəkdən Kərkiyə Cəhənnəmdərə istiqamətindən qısa vaxtda yol çəkilməsi üçün tədbirlər görülsün.

15 yanvar 1990-cı il …Müraciətdən 2 gün sonra yanvarın 15-də ermənilər Kərkiyə hücum etdilər… Səhər məktəbdə birinci dərs başlanana qədər Kərkiyə ermənilərin hücum etməsi xəbəri bütün kəndə yayılmışdı. Kərkidən sonra Sədərəyə də ermənilər tərəfdən hücum oluna biləcəyi gözlənildiyindən hamı narahatdır. …Kərkidə axşama qədər atışma getsə də, saysız daşnak xəyanətkarı qarşısında 20-25 nəfərin dözməsi mümkün olmadı. Müdafiəçilər çox inad etsələr də, rus hərbçiləri: "Daha sizin təhlükəsizliyinizi qorumağa bizim gücümüz çatmır, təcili kəndi tərk etməlisiniz, hamınızı girov götürəcəklər", – deyəndən sonra kəndin son müdafiəçiləri axşamüstü bütün cığırları qarla örtülmüş Cəhənnəmdərə-Qaraağac yolu ilə çox çətin vəziyyətdə özlərini Sədərəyə çatdıra bildilər. Qədim Oğuz yurdu olan Kərki rus hərbçilərinin əli ilə ermənilərə beləcə ərməğan edildi.

19 yanvar 1990-cı il. Səhər saat 11 radələrində məktəbdə gözlənilməz, o vaxta kimi bizə tanış olmayan bir səs eşitdik. Az sonra həmin səs təkrar olunanda hamı məktəbin həyətində idi. Arazdəyən tərəfdən ermənilər Sədərəyi aramsız top atəşinə tutmuşdular. Kinolarda gördüyümüz müharibə qoxusunu və qorxusunu hiss etdik… Bizi – məktəb kollektivini ən çox narahat edən odur ki, məktəbdə 1000 nəfərdən artıq uşaq var, kəndə də aramsız top mərmiləri yağır.

…Çox möhkəm qar yağmasına, bərk şaxta olmasına baxmayaraq, Naxçıvanın bütün rayon və kəndlərindən – Şərurdan, Ordubaddan, Culfadan, Nehrəmdən, Şahbuzdan, bütün bölgələrdən bu xəbəri eşidənlər Sədərəyin köməyinə gəlirdilər. Vəziyyət çox gərgin olduğu üçün qadınlar, qocalar, uşaqlar kənddən çıxarılır, əsasən, Şərura, bəziləri isə muxtar respublikanın digər kəndlərinə daşınırlar. Sədərəkdə kişilərin

əksəriyyəti səngərlərdə, döyüşdə olduğundan çıxarılmalı əhali, əsasən, rayon rəhbərliyi tərəfindən ayrılmış avtobuslarla, bir də Sədərəyin köməyinə şəxsi maşınları ilə gələnlərin vasitəsilə həyata keçirilir.

Bu gün (yanvarın 19-da) axşam qaranlıq düşənə qədər sərhəddə döyüşlər getdi. Ermənistan tərəfdən kəndə mərmilər yağdırıldı. Xeyli insan yaralandı, 8 nəfər şəhid oldu. Onlar arasında balaca Malik və Elvin qardaşları da var.

20 yanvar 1990-cı il. Kənddə hamı təşviş içindədir. Dünənki faciə və yuxusuz gözlərin baxışları dəhşətlidir. Dünən kəndə qarşı törədilən erməni vəhşiliyi nəticəsində bizimkilərdən 8 nəfər həlak olub. Səhər saat 11 radələrində bir qara xəbər də aldıq. Guya fövqəladə vəziyyət yaratmaq adı ilə gecə Bakıya hərbi qüvvələr girib, həmin qüvvələrin qarşısına çıxan dinc əhali atəşə tutulub, yüzlərlə adam faciəli surətdə həlak olub. Azərbaycan faciəli, qara günlərini yaşayır".

Sədərəkdə yazılan gündəlik beləcə bir neçə il davam edir. Bu faktları sadalamaqda məqsədim var. Tarixçi-alimlər haqlı olaraq qeyd edirlər ki, heç şübhəsiz, 1990-cı il yanvarın 20-də Bakıda baş verən hadisələri muxtar respublikanın ermənilərlə həmsərhəd olan rayonlarında, xüsusilə də Sədərəkdə və Dağlıq Qarabağdakı erməni təcavüzündən ayrıca təhlil etmək düzgün olmazdı. Çünki Azərbaycan həmin dövrdə qonşu Ermənistanın təcavüzünə də məruz qalmışdı. Belə bir şəraitdə sovet rəhbərliyi nəinki münaqişənin qarşısını almaq üçün qəti tədbirlər görməmiş, əksinə, Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantları da daxil edilmişdi.

**Nə üçün həm Bakı, həm də Naxçıvan?**

20 Yanvar... Nə üçün həm Bakı, həm də Naxçıvan? Bir ayın iki böyük təcavüzkar hadisəsinə tarixçi-alim, dosent Elçin Zamanov belə açıqlama gətirir: – Hadisələri geosiyasi kontekstdə incələyərkən Bakıya qoşunun məhz yanvarın 19-20-də yeridilməsi ilə Naxçıvana eyni vaxtda Ermənistanın işğalçı qüvvələrinin hücumunun üst-üstə düşməsi Moskvada əvvəlcədən hazırlanmış bir planın həyata keçirilməsini gün kimi açığa çıxarır. Bir anlıq tarixə nəzər salsaq, bolşevik Rusiyasının Bakını işğal etmək üçün erməni amilindən yararlanması faktının şahidi olarıq.

1920-ci il martın əvvəllərində işğalçı XI Qızıl ordunun Bakıya maneəsiz soxulması üçün Moskva Qarabağda erməni üsyanı təşkil etdi ki, Azərbaycan hökuməti Milli Ordunun əsas heyətini oraya dislokasiya etməyə məcbur olsun. Ermənilərlə birgə hazırlanan bu təhlükəli əməliyyat planı Azərbaycanın işğalı ilə nəticələndi.

Elçin Zamanovun sözlərinə görə, Moskvanın 20 Yanvar əməliyyatı da təkrar olunan mənfur tarixin yenidən reallaşması idi. Moskva Azərbaycanda yeni bir milli dövlətin qurulmasından çox qorxurdu, çünki bu, nəticədə, bütünlüklə Cənubi Qafqazın itirilməsi və Türküstana yolun Rusiyanın üzünə bağlanması demək idi. Milliyyətçiliyin və milli şüurun qüvvətlənməsi müstəvisində Azərbaycanda milli müqavimət hərəkatının müdafiə gücünü qıra bilməyəcəyindən qorxan Moskva həmin dövrdə ermənilərin bütün qüvvələrinin ən geostrateji bölgə olan Naxçıvana yönləndirilməsini təşkil etdi. Həm də mərkəzdə düşünürdülər ki, Azərbaycanda suveren milli dövlət quruculuğu ideyası ətrafında yaranan milli birliyə dəstək ruhu Türk qapısı olan Naxçıvandan gəlir və buna görə də Azərbaycanın mübariz qüvvələrinin əsas diqqətini Bakıdan yayındırmaq üçün Naxçıvana çox qüvvətli erməni hücumu təşkil edilmişdi.

**Mühüm faktor: Ümummilli Lider Heydər Əliyevin Naxçıvana qayıda bilməsi məsələsi**

Tarixçi-alim onu da qeyd edir ki, Moskvanı narahat edən ən mühüm faktor ulu öndər Heydər Əliyevin Naxçıvana qayıda biləcəyi və özünün mühüm tarixi liderlik missiyasını yerinə yetirəcəyi məsələsi idi. Buna görə də Naxçıvanın işğalı planlaşdırılırdı. Bu işğal Azərbaycan milli şüuruna 20 Yanvar faciəsindən də dəhşətli bir zərbə olacaqdı. Eyni zamanda həm də Türkiyə ilə Azərbaycanın, həmçinin böyük Türk dünyasının ən mühüm geostrateji əlaqə qovşağına çox ciddi bir tarixi zərbə endirəcəkdi. Ümummilli liderimizin həmin taleyüklü zamanda Naxçıvana dönüşü həm Moskvanın, həm də ermənilərin böyük planlarını pozmuş oldu.

Bəli, o zaman yalnız ümummilli liderimiz Heydər Əliyev bütün çətinliklərə baxmayaraq, siyasi iradə nümayiş etdirərək Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəlib, SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə ittiham edərək bəyanatla çıxış etdi. Bundan sonra böyük şəxsiyyətin Naxçıvana gəlişi isə mərkəzin Bakı planını da, Naxçıvan planını da alt-üst etdi. Azərbaycan rəhbərliyinə qayıdışdan sonra ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ilin yanvar ayında Milli Məclisdə Azərbaycan xalqına qarşı təcavüzkar 20 Yanvar hadisələrinə siyasi qiymət verildi.

Bu tarixi-siyasi faktlara nəzər saldıqca bir daha özlüyündə düşünürsən ki, 20 Yanvar faciəsindən müstəqilliyimizə bir yol uzandı. Bu yol Naxçıvandan başlandı. Ulu öndərin tövsiyələrini dinləyən xalq müstəqilliyini qazandı. 1918-ci ildəki müstəqillikdən fərqli olaraq 1991-ci ildə bərpa olunan müstəqilliyimizə ümummilli liderimizin sayəsində daimilik qarantı verildi. Bu müstəqilliklə Azərbaycan tamahında olanların bütün arzuları puç oldu, bütün planları pozuldu… Müstəqilliyimizdən isə qələbəyə bir yol uzandı.

**Qərinənin bu başı…**

Bəli, qərinənin bu başında artıq o başdakı Azərbaycandan əsər-əlamət yoxdur. Çünki xalq çox böyük çətinliklərdən keçə-keçə yaxşı günlərin sahibinə çevrilib. Xalqın ulu öndərin ətrafında birləşməsi uğrunda canından keçməyə hazır olduğu müstəqilliyinə daimilik bəxş etdi. Ötən 33 ilin tarixi vərəqlədikcə bu səhifələrdə yeni bir Azərbaycanla, onun qurulması-yaradlması, inkişafı ilə bağlı hadisələr sıralanır. Bu səhifələrdə o zaman işğal olunmuş torpaqlarımzın bir gün geri alınması ilə bağlı ulu öndərin tövsiyələri, vəsiyyəti xüsusi yer alır.

Zaman bu missiyanı ulu öndərin özünün yerinə yetirməsinə imkan verməsə də, böyük şəxsiyyətin mənəvi və siyasi varisi Azərbaycana ötən 20 illik rəhbərliyi dövründə tarixə yaxşı atanın yaxşı oğlu imzasını ata bildi.

Hakimiyyətə gəldiyi ilk illərdən Qarabağın azad olunması siyasi liderimizin fəaliyyətinin əsasını təşkil etdi. Heydər Əliyev ideyaları istiqamətində atılan addımlar, ölkənin sosial-iqtisadi vəziyyətinin dirçəldilməsi, Milli Ordumuzun gücləndirilməsi Qarabağın geri alınması üçün əlverişli şərait yaratdı. Və biz 2020-ci ilin 27 sentyabrında başlanan və 44 gün davam edən İkinci Qarabağ Müharibəsində böyük Zəfər qazandıq. Qarabağı dogma anası Azərbaycana qaytara bildik.

Bu Zəfər qərinənin o başında-Birinci Qarabağ Müharibəsində niyə uduzduq, niyə o qədər şəhid verdik suallarına cavab oldu. İkinci Qarabağ Müharibəsində qələbəmizin səbəbini izah etdi. Nəticə etibarilə Zəfərimizin əldə olunmasında Vətən sevgisi amilinin dayandığını göstərdi. Bu Zəfərlə o illərdə ölkəmizin rəhbərlərinin sevgisizlikləri fonunda böyük Vətən sevgisini ölkəmizin rəhbərində gördük. Həm də onun sonsuz olduğunu gördük. Bu sevgi bölünüb torpaqlarımıza paylananda isə onların hər birinin azad olunması, anası Azərbaycana qaytarılması, ölkəmizin ərazi bütövlüyünün bərpasının böyük arzu olduğunu gördük. Gördük ki, ölkəmizin rəhbəri bütün gücü ordu quruculuğuna, dünyanın fikrini Qarabağa yönəltdi. Qarabağın geri alınması üçün illərlə iş apardı. Dünyaya üz tutdu, torpaqlarımızın dinc yolla, qan tökülmədən alınmasına çalışdı. Lakin buna nail olmayanda müharibə yolu ilə düşməni yerində oturtmasını, diz çökdürməsini də gördük.

Əgər Birinci Qarabağ Müharibəsində 15 mindən çox şəhidimiz olmuşdursa, İkinci Qarabağ Müharibəsində 3 minədək şəhidimiz oldu. O qədər şəhidlə əldən gedən torpaqlar geri alındı. Bu, müharibənin planlı şəkildə aparılmasının, güclü ordunun, orduya bacarıqla, səriştə ilə rəhbərliyin göstəricisi, yazılan şanlı tarixdir. O tarix ki, vərəqləndikcə hünərdən, qeyrətdən, namusdan, ləyaqətdən, vətənpərvərlikdən, həmrəylikdən söhbət açacaq.

Minlərlə şəhidi olan Birinci Qarabağ Müharibəsi isə bu tarixin səhifələrinə əliyalın insanların hünəri ilə yanaşı, həm də xalqına xəyanət edən rəhbərlərin adı, pis əməlləri ilə yazılıb. Bax, Zəfər bunları ortaya qoydu.

Bir qərinənin o başı ilə bu başındakı fərq indi göz qabağındadır. 20 Yanvar hadisəsinin baş verdiyi dövrdə həm də torpaqları işğal olunan Azərbaycan indi qalib bir ölkədir. Xalqımız bu qalib ölkənin başını dik tutan, alnıaçıq, qürurlu insanlarıdır. Bu qüruru bizə bəxş edən ölkəmizin rəhbəri, Ali Baş Komandan cənab İlham Əliyevə və Milli Ordumuzun qəhrəman oğullarına daim minnətdarıq. Çünki Qarabağ tariximizin qara ləkəsi idi. Onlar bu qara ləkəni təmizlədilər, 20 Yanvardan bu ötən bir qərinənin müəyyən zamanlarında şəhid olan övladlarımızın qisasını aldılar. Azərbaycanın adını yenidən qeyrət və qüdrətləri ilə bütün dünyaya yaydılar. Biz onlarla qürur duyuruq.

**Səs.**-2023.- 18 yanvar.- № 9.- S. 8-9.

## 20 yanvar 1990-ci ildə Heydər Əliyev xalqımızı birliyə səslədi

**Məzahir Əfəndiyev,**
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

**Bu gün dünyamızda baş verən qlobal siyasi-iqtisadi hadisələr fonunda ölkəmizin yeni dövrdə də dayanıqlı və davamlı inkişafını təmin etmək məqsədilə 1990-cı illərdə öz siyasi müstəqilliyini əldə etmiş müasir demokratik Azərbaycan Respublikasının tarixinə hər zaman nəzər yetirməli və bu günkü Azərbaycanın vətəndaşı olaraq müstəqil Azərbaycan tarixinin yazılmasında iştirakı olmuş görkəmli, siyasi şəxsiyyətlərin əvəzsiz rolunu heç vaxt unutmamalıyıq.**

Azərbaycan xalqı böyük fəxarət hissi və sevinclə Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli Sərəncamına əsasən 2023-cü ili - «Heydər Əliyev İli» elan etdi.

1988-1990-cı illərdə SSRİ-nin tarixi zərurətdən süquta uğradığı bir zamanda Azərbaycan xalqının müqəddəratı sual altında idi və yalnız təcrübəli, ağıllı, cəsarətli, dövlətinə və millətinə bağlı, eyni zamanda gələcəyə böyük ümid bəsləyən şəxsiyyətlərin məsələlərə vaxtında müdaxiləsindən asılı idi.

Tarixin səhifələrinə nəzər yetirərkən o dövrdə məhz 1990-cı ilin yanvar ayının Azərbaycan xalqının müqəddəratı üçün əhəmiyyətli ay olduğunu bu gün əminliklə deyə bilərik. Totalitar rejimin, mürəkkəb dövrün astanasında Azərbaycan xalqının vəhdətini və birliyini təmin edən, heç nədən qorxmayaraq özünün Azərbaycana bağlılığını bir daha nümayiş etdirən, o zaman Sovet İttifaqı Kommunist Partiyasının üzvü olan Ulu Öndər Heydər Əliyev 1990-cı il yanvarın 21-də Sovet rejiminin qadağalarına rəğmən Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəldi və qanlı faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında ittiham edərək Azərbaycan xalqını birliyə səslədi. O, oyanmış və öz taleyinə sahib çıxmaqda qərarlı olan xalqımıza rəhbərliyi könüllü olaraq öz üzərinə götürdü.

Ulu Öndər Sovetlər Birliyinin süquta uğradığını, Kommunist Partiyasının üzərinə götürdüyü öhdəlikləri artıq yerinə yetirə bilmədiyini, nüfuzdan, gözdən düşərək artıq insanlar tərəfindən qəbul olunmadığını cəsarətlə bildirərək Azərbaycan xalqının birliyinin təmin olunması və onun gələcək taleyi ilə bağlı vacib məsələləri bir müdrik lider olaraq öz üzərinə götürdüyünü məsuliyyətlə bəyan etdi.

O zamanlar bu proseslərə qiymət vermək, münasibət bildirmək həddindən artıq qorxulu məsələ idi. Bu cür cəsarətli, məsuliyyətli addımı atan lider öz əməli ilə xalqı naminə canından belə keçməyə hazır olduğunu nümayiş etdirdi.

20 Yanvar - Azərbaycan xalqının qan yaddaşı, eyni zamanda milli oyanış tarixidir. Dəfələrlə müxtəlif mənbələrdə qeyd olunan və geniş araşdırılan bu tarix illər keçsə də Azərbaycan xalqının dostu və düşmənini tanıması üçün istinad edə biləcəyi bir tarix olaraq qalacaq.

Ölkəmizin ictimai-siyasi həyatına 20 Yanvar faciəsi kimi daxil olmuş bu günün xalqımızın milli yaddaş fəlsəfəsi, milli özünüdərk prosesində özünəməxsus yeri vardır. Tariximizdə bir sıra hadisələr vardır ki, bunlar xalqımızın milli mənlik şüurunda, həmçinin azərbaycançılıq ideologiyası təfəkküründə dərin və əbədi iz qoymuşdur.

Azərbaycan xalqı 1990-ci ilin yanvar ayında televiziya ekranlarında öz həmvətənlilərinin nə cür qəddarlığa məruz qalmasına dəhşətli şəkildə şahidlik etdi. Ümumilikdə Respublikada 147 nəfərin öldürülməsi, 744 nəfərin yaralanması, 841 nəfərin qanunsuz həbs olunması, 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, dövlət və şəxsi əmlakların məhv edilməsi ilə nəticələnən Qanlı Yanvar hadisəsi Azərbaycan xalqına qarşı törədilmiş ən ağır hərbi cinayətlərdən birinə çevrildi.

Faciədən sonra Azərbaycanda milli azadlıq hərəkatı dönməz xarakter aldı və xalq öz gələcəyini yalnız müstəqil Azərbaycanın yaranmasında gördü. Baş vermiş hadisələrdən sonra dünya azərbaycanlıları ilk dəfə olaraq milli faciəmizin tanıdılması naminə yaşadıqları müxtəlif ölkələrdə təşkilatlanmağa başladılar.

Hesab edirəm ki, 20 Yanvar Azərbaycan xalqının 1991-ci ildə rəsmi olaraq müstəqilliyi əldə etməsi üçün qanla yazılmış bir tarixdir.

«Heydər Əliyev İli»nin elan olunduğu 2023-cü ildə tarixə nəzər yetirərkən Ulu Öndərin müasir Azərbaycanın inkişafı naminə əzmkar fəaliyyətini, heç nədən qorxmayaraq vaxtında şəraitə uyğun ağıllı qərarlar qəbul etdiyini, habelə həmin ağır günlərdə Moskvada cəsarətli çıxışı ilə xalqın birliyinə nail olmasını, beləliklə 20 Yanvar gününün Azərbaycan xalqının milli oyanışı üçün nə qədər təsirli olduğunu xüsusi qeyd etməmək mümkün deyildir.

Baş verən hadisələrdən artıq 33 il keçmiş və bu gün fəxarətlə deyə bilərik ki, Azərbaycan xalqı müstəqilliyimiz və ərazi bütövlüyümüz uğrunda canından keçən bütün qəhrəman övladlarının qanını yerdə qoymadı. 2020-ci ildə Ümummilli Lider Heydər Əliyevin layiqli və uğurlu davamçısı olan Ali Baş Komandan, Böyük Sərkərdə ilham Əliyevin dəmir yumruq kimi formalaşdırdığı Azərbaycan xalqı İkinci Qarabağ-Vətən Müharibəsində möhtəşəm Zəfərimizi təmin edərək müstəqilliyimizin əbədi olduğunu bütün dünyaya bir daha bəyan etdi və bu gün də, «Heydər Əliyev İli»ndə biz çoxəsrlik Azərbaycan tarixinin şanlı səhifələrini qürurla yaşamaqdayıq.

**Вышка.** - 2023.- 13 yanvar. - № 2. - S. 7.

# 20 Yanvar faciəsinə gedən yol

**Rəşad Cəfərli**

Azərbaycanın istiqlaliyyət yolunun ilk şəhidlik zirvəsi sayılan 20 Yanvar faciəsi yeni tariximizə həm də bir qürur günü kimi yazıldı. Bu hadisə günahsız insanların amansız bir formada qətlə yetirilməsi ilə nəticələnsə də, öz azadlığına, müstəqilliyinə can atan Azərbaycan xalqının mübarizliyini, məğrurluğunu bir daha bütün dünyaya, o cümlədən ovaxtkı imperiya rəhbərliyinə aydın şəkildə nümayiş etdirdi. Tarixə qanla yazılan 20 Yanvar faciəsi Vətəni, azadlığı uğrunda ölümün gözünə dik baxan Azərbaycan övladlarının sarsılmazlığını bir daha dünyaya tanıtmaqla yanaşı, SSRİ adlanan nəhəng imperiyanın çöküşündə əsas amillərdən biri oldu.

## Heydər Əliyev ermənilərin və Qorbaçovun qarşısını almışdı

Faciəyə gedən yolun başlanğıcı onun törədilməsindən xeyli əvvəl, SSRİ rəhbərliyinə M.Qorbaçovun gəlişi ilə yaranmışdı. Qorbaçovun simasında daim Azərbaycana qarşı məkrli, xəyanətkar mövqe tutmuş ermənilər özlərinə yaxın himayədar tapmışdılar. Əlbəttə, nə qədər ki Heydər Əliyev SSRİ rəhbərliyində təmsil olunurdu, ermənilər Azərbaycanla bağlı bədnam niyyətlərini həyata keçirə bilmirdilər. Çünki Heydər Əliyevin Siyasi Büroda olması ermənilərə və Qorbaçova Azərbaycanla bağlı planlarının reallaşmasına, o cümlədən Qarabağ münaqişəsinin törədilməsinə imkan vermirdi. Elə buna görə Qarabağ məsələsinin Heydər Əliyev Siyasi Bürodan istefa verdikdən cəmi 15 gün sonra ortaya çıxması təsadüfi sayılmamalıdır. O vaxt M.Qorbaçovun ən yaxın adamı, iqtisadi məsələlər üzrə müşaviri, milliyyətcə erməni olan Aqanbekyan Parisdə keçirdiyi mətbuat konfransında Dağlıq Qarabağın Ermənistana verilməsi iddiasını irəli sürmüş, "Humanite" qəzetindəki bəyanatında Moskvanın buna razılığının olduğunu bildirmişdi.

SSRİ rəhbərliyinin Dağlıq Qarabağın Ermənistana verilməsinə dair razılığının olduğu 1988-ci ilin əvvəllərində M.Qorbaçovun Silva Kaputikyan başda olmaqla, bir qrup şovinist erməni ilə görüşü zamanı da üzə çıxdı. Bunun ardınca Xankəndidə, Yerevanda anti-Azərbaycan və antitürk ruhlu mitinqlər genişləndi.

Məhz bundan sonra erməni "Qarabağ Komitəsi", onun Dağlıq Qarabağ Muxtar Vilayətindəki separatçı-terrorçu təşkilatı olan "Krunk" gizli fəaliyyətlərinə son qoyaraq açıq şəkildə niyyətlərini bəyan etməyə, Azərbaycana qarşı ərazi iddiaları səsləndirməyə başladı. Bunun nəticəsi olaraq ermənilər tərəfindən "Miatsum" adlanan hərəkat formalaşdırıldı.

Bütün bunlar 1988-ci ilin fevralından etibarən hadisələrin daha gərgin və aqressiv məcrada inkişafı ilə nəticələndi. Məhz həmin dövrdə həm Dağlıq Qarabağda, həm də Yerevanda Azərbaycan torpaqlarının Ermənistana birləşdirilməsi tələbi ilə silsilə mitinqlər başladı. SSRİ rəhbərliyi tərəfindən heç bir ciddi müqavimət görməyən və bundan daha da ruhlanan ermənilər Dağlıq Qarabağ Muxtar Vilayəti Sovetinin vilayətin statusuna baxılması haqqında Azərbaycan SSR Ali Sovetinə müraciət qəbul etməsinə nail oldular.

## Ermənistanda və Qarabağda etnik təmizləmə siyasəti həyata keçirilirdi

Azərbaycanın ovaxtkı rəhbərliyi hadisələrə fəal müdaxilə etmək əvəzinə, Kremldən gələn əmrlər əsasında hərəkət edir və bununla xalqın taleyinə biganə yanaşırdı. Kreml isə həm Azərbaycana göndərdyi emissarlar, həm də ölkənin qətiyyətsiz rəhbərliyi vasitəsilə daha məkrli ssenarilər hazırlamaqda idi. Erməni təxribatçılarının da yaxından iştirak etdiyi bu ssenarilərin əsas hədəflərindən biri Azərbaycanda ermənilərə qarşı dözümsüz münasibətin formalaşmasına dair görüntülər yaratmaq idi. Elə bu məqsədlə də 1988-ci ilin fevralında məlum Sumqayıt hadisələri törədildi.

Müxtəlif millətlərin nümayəndələrinin yaşadığı sənaye şəhəri Sumqayıtda iğtişaşlar yaratmaqla siyasi dünyanın yeni səviyyədə gündəminə gətirilmiş "böyük Ermənistan" xülyasının gerçəkləşdirilməsi üçün ermənilərə çox lazım idi. Lakin bu məsələdə sovet DTK-nın da özünəməxsus rolu oldu. Beləliklə, əvvəlcədən planlaşdırılmış Sumqayıt olayları törədildi və o dövrdə Azərbaycanda hakimiyyətdə olanlar SSRİ rəhbərliyinin, ermənilərin niyyətlərini, qlobal hadisələrin mahiyyətini axıra kimi dərk etmək iqtidarında olmadıqlarından qanlı hadisələrin yaşanmasının qarşısını almaq üçün müvafiq addımlar atılmasında acizlik nümayiş etdirdilər. Sumqayıt hadisələrinin əvvəlcədən hazırlandığını o da sübuta yetirir ki, olaylar baş verən yerlərdə öncədən çoxlu teleoperatorlar, jurnalistlər yerləşdirilmişdi. Bununla da düşünülmüş, ssenarisi əvvəlcədən cızılmış

Sumqayıt hadisələri saxtakarlıqlarla, uydurmalarla dünyaya yayıldı. Bundan sonra ermənilər Ermənistanda və Dağlıq Qarabağda belə bir əhval yaratdılar ki, artıq azərbaycanlılarla ermənilər bir yerdə yaşaya bilməzlər. Bunun nəticəsi olaraq indiki Ermənistanın yarandığı əzəli Azərbaycan torpaqlarında yaşayan yüz minlərlə soydaşımız 1988-ci ilin sonuna kimi qətlə yetirilməklə, əmlakları talan olunmaqla ən qəddar formada deportasiya olundular.

Dağlıq Qarabağda da vəziyyət getdikcə gərginləşirdi və bu işdə yenə əsas rol oynayan tərəf Azərbaycan rəhbərliyinin acizliyindən istifadə edərək hadisələri istədiyi kimi istiqamətləndirən Kreml təmsilçiləri idi. Bütün bunlara qarşı Azərbaycan rəhbərliyi tərəfindən heç bir qətiyyətli addım atılmadı. M.Qorbaçov isə tədbir görmək əvəzinə, DQMV-nin sosial-iqtisadi inkişafının geridə qalması barədə ermənilərin uydurduqları yalanı müdafiə edərək ittifaq büdcəsindən vilayətə 400 min rubl vəsait ayrılmasına göstəriş verdi. 1988-ci il iyunun 15-də Ermənistan SSR Ali Soveti DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qərar qəbul etdi. İyul ayında SSRİ Ali Sovetinin Rəyasət Heyətinin sessiyasında Dağlıq Qarabağ məsələsi müzakirə edilən zaman Azərbaycandan olan deputatlarla yanaşı, qanunazidd olaraq Ermənistandan olan deputatlar da eyni hüquqda orada iştirak etdilər. Bu isə Qorbaçov və onun ətrafının Ermənistan üçün yaratdığı yeni imkan demək idi.

İttifaq rəhbərliyinin Azərbaycan xalqına qarşı ən böyük xəyanəti özünü növbəti dəfə 1989-cu ilin yanvarında göstərdi. Belə ki, həmin il yanvarın 12-də "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarəçilik formasının tətbiqi haqqında" SSRİ Ali Soveti qərar qəbul etdi və bu, ermənilərin istəyinə tam uyğun idi. Çünki DQMV-də xüsusi idarəçilik forması tətbiq edildiyi ilk gündən birbaşa Moskvaya tabe olan ermənipərəst A.Volski burada yaşayan bütün azərbaycanlı soydaşlarımızın çıxarılmasına nail oldu. Qısa müddətdə 50 min nəfər azərbaycanlı DQMV-dən qovuldu. Halbuki Azərbaycanın siyasi rəhbərliyi sözügedən idarənin yaranmasını böyük uğur kimi qiymətləndirir və bu idarəyə çox böyük ümidlər bəsləyirdi. Yalnız xalq hərəkatının təsiri altında 1989-cu il noyabrın 28-də vilayətin idarəsi mərkəzin nəzarəti altında olan Azərbaycan SSR Təşkilat Komitəsinə tapşırıldı. Təşkilat Komitəsinin sədri təyin edilən V.Polyaniçko əslində öz sələfinin siyasətini davam etdirdi və azərbaycanlılar daha da sıxışdırılırdı.

Ümumiyyətlə, 20 Yanvar faciəsinə qədər SSRİ və respublika rəhbərliyinin çıxardığı qərar və fərmanların heç birində Azərbaycanın xeyrinə bircə maddə belə olmadı. Bir tərəfdən, Azərbaycan xalqını sakitləşdirməyə yönələn addımlar atılır, digər tərəfdən isə, respublikanın suverenliyinə, ərazi bütövlüyünə xələl gətirən qərarlar qəbul olunurdu. Bu, Ermənistanın SSRİ rəhbərliyi tərəfindən ən yüksək səviyyədə müdafiə olunduğunu göstərirdi.

1989-cu ilin noyabrından səbr kasası dolmuş xalq Bakının mərkəzi meydanında mitinqlərə başladı. Yanvarın 18-də Bakıda və Azərbaycanın 11 rayonunda keçirilən izdihamlı mitinqlərdə ümumi tətilin başlandığı elan edildi. Lakin genişlənməkdə olan xalq hərəkatına ilk dövrlərdə səriştəsiz rəhbərlik, xəyanətkarlıq ölkəni daha ağır vəziyyətə salırdı. Dağlıq Qarabağın Azərbaycandan qoparılaraq Ermənistana verilməsinə şərait yaradan Qorbaçov isə respublikada genişlənən milli-azadlıq hərəkatının boğulması üçün müxtəlif vasitələr üzərində baş sındırırdı.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Vəzirov Moskvanın marionetkası olaraq həm Dağlıq Qarabağın ermənilərin əlinə keçməsinin qarşısını almaq, həm də ölkədəki vəziyyəti sabitləşdirmək üçün heç nə edə bilmirdi. Əksinə, özünün səhv addımları, yarıtmaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurumu daha da dərinləşdirirdi. Elə buna görə də Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında aylarla davam edən mitinqlərdə dəfələrlə Azərbaycanın partiya rəhbərlərinin istefası tələbi irəli sürülürdü. Bu dövrdə xalq hərəkatına rəhbərlik edənlər də böyük səriştəsizlik göstərir, çox vaxt DTK-nın istədiyi ssenarilərə uyğun hərəkət edirdilər.

1989-cu ilin sonu, 1990-cı ilin yanvarında Azərbaycanda ictimai-siyasi vəziyyət xeyli kəskinləşdi, qarşıdurma dərinləşdi, mövcud iqtidarın hadisələrə nəzarəti son dərəcə zəiflədi. SSRİ rəhbərliyi isə Azərbaycanı növbəti dəfə cəzalandırmaq üçün Sumqayıt ssenarisinə uyğun təxribatlara start verdi. Milli-azadlıq hərəkatının mərkəzi olan Bakıda ilk olaraq yerli milis tərk-silah edildi, əvəzində daxili qoşun hissələri şəhərə gətirildi. Yanvarın 13-də Bakıda bir erməninin iki azərbaycanlını öldürməsi fitnəkarlıqlar üçün əsas oldu və iki gün ərzində Bakıda süni şəkildə erməni talanı təşkil edildi. Mərkəz tərəfindən düşünülmüş və taktiki baxımdan hərtərəfli hazırlanmış bu məkrli plan hazır ssenari üzrə aparıldı. Elə bu səbəbdən də ayrı-ayrı dəstələrin əməllərinin qarşısını almaq üçün ali hakimiyyət və hüquq-mühafizə orqanları tərəfindən heç bir tədbir görülmədi. Halbuki Bakıda SSRİ Daxili İşlər Nazirliyinin 12 min nəfərlik silahlı qüvvəsi var idi. Bu dövrdə ölkəyə rəhbərlik edən Vəzirov isə yaranan vəziyyətdən istifadə edərək sovet qoşunlarının müdaxiləsinə şərait yaratmağa, bununla həm də xalq hərəkatını boğmağa çalışırdı.

Yanvarın 14-də Azərbaycan KP MK-nın bürosunda vəziyyət müzakirə olundu və Vəzirovun təkidi ilə çağırılan Azərbaycan SSR Ali Sovetinin sessiyasında DQMV-də və zəruri olarsa, ona bitişik rayonlarda, eləcə də sərhəd boyunca fövqəladə vəziyyət elan edilməsi, lazım gələrsə, mərkəzdən kömək göstərilməsi haqqında qərar qəbul olundu. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin müraciəti ilə SSRİ Ali Sovetinin Rəyasət Heyəti yanvarın 15-də "Dağlıq Qarabağ və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında" fərman verdi. Həmçinin SSRİ Ali Soveti Bakı, Gəncə şəhərlərində, eləcə də başqa yaşayış məntəqələrində qadağan saatlarının tətbiq edilməsini və digər zəruri tədbirlər görülməsini Azərbaycan SSR Ali Sovetinə təklif etdi.

**Müdhiş gecə...**

Bu dövrdə mərkəzdən Azərbaycana, xüsusən də Bakı ətrafına əlavə qoşun hissələri və hərbi texnika gətirilməsi prosesi davam edirdi. Əslində bu, Bakıya qoşun yeridilməsi üçün ilkin hazırlıqdan başqa bir şey deyildi. Xalq hərəkatına rəhbərlik edənlər, o cümlədən Xalq Cəbhəsinin təmsilçiləri vəziyyəti düzgün qiymətləndirmək əvəzinə, şəhərin ətrafında, o cümlədən Bakı qarnizonu ətrafında sədlər, barrikadalar yaratmağa başladılar. Yük və minik maşınlarından, avtobus və trolleybuslardan, eləcə də başqa vasitələrdən istifadə etməklə barrikadalar quruldu, piketlər düzəldildi. Lakin 20 Yanvarda bu düzgün olmayan taktikadan bəhrələnən sovet ordusu çoxlu sayda dinc əhalinin qırılmasına, yaralanmasına rəvac verdi.

20 Yanvar hadisələri ərəfəsində Moskva SSRİ Ali Soveti İttifaq Sovetinin sədri Y.Primakovu və Sov.İKP MK katibi Girenkonu Bakıya göndərdi. Lakin onların AXC-nin radikal və liberal qanadları ilə görüşüb apardığı danışıqlar heç bir nəticə vermədi. Yanvarın 17-də Azərbaycan KP MK binası qarşısında böyük mitinq başlandı və üç gün davam etdi. Mitinqlərdə Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulması, Bakı ətrafına yığılmış qoşunların Dağlıq Qarabağa göndərilməsi, respublika rəhbərliyinin istefası və digər tələblər irəli sürüldü.

Sovet rəhbərliyi isə Azərbaycan xalqının müstəqillik uğrunda apardığı mübarizənin qarşısını almaq, milli-azadlıq hərəkatına zərbə vurmaq, habelə digər müttəfiq respublikalara dərs vermək üçün 1990-cı il yanvarın 19-da "Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında" fərman imzaladı. Halbuki bununla Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozurdu.

Digər tərəfdən, bu fərmanın tətbiqi barədə əhaliyə məlumat verilməmişdi. Xalqdan fərqli olaraq respublika rəhbərliyi yanvarın 20-nə keçən gecə Bakıya ordu yeridiləcəyindən xəbərdar idi. Həmin günlər güman edilirdi ki, ölkə rəhbərliyinin istefa verməsi gərginliyi nisbətən azaldar, adamlar barrikadaları tərk edərək dağılardılar. Lakin bunun əksinə olaraq, axşamçağı boş küçələrdə üstünə səsgücləndirici quraşdırılmış maşınlardakı insanlar xalqı piketlərə səsləyirdilər.

Yanvarın 19-dan 20-nə keçən gecə SSRİ rəhbəri M.Qorbaçovun göstərişi və Azərbaycanın ozamankı səriştəsiz rəhbərlərinin razılığı ilə Bakıya qoşun yeridildi. Azərbaycanı informasiya blokadasına almaq və xalqın haqq səsini boğmaq üçün SSRİ DTK-nın "Alfa" qrupu respublika televiziyasının enerji blokunu yanvarın 19-da partlatdı. Televiziya susduruldu, kütləvi informasiya vasitələri üzərinə, qəzet və jurnalların nəşrinə qadağalar qoyuldu. Beləliklə, Azərbaycan tam şəkildə blokadaya düşdü, əhali hər hansı bir məlumat almaq mənbəyindən məhrum oldu.

Bakıya qoşun yeridiləndə isə tanklardan, zirehli transportyorlardan, piyadaların döyüş maşınlarından istifadə edildi. Zirehli texnikanın üstündə nömrələr yox idi. Qırmızı Bayraq Ordenli Xəzər Hərbi Donanmasının gəmilərindən desant çıxarılmışdı. Tanklar və ZTR-lər Bakı küçələrində hər şeyi əzir, hərbçilər qarşılarına çıxanları amansız atəşə tuturdular. İnsanlar nəinki küçələrdə, hətta avtobusda gedərkən, öz mənzillərində oturduqları yerdə güllələrə tuş gəlirdilər. Gözlərini qan tutmuş hərbçilər yaralıları aparmağa gələn təcili yardım maşınlarını və tibb işçilərini də atəşə tuturdular.

***(ardı var)***

**Azərbaycan. -** 2023.- 18 yanvar. - № 11. - S. 1,6.

## Heydər Əliyevin 1990-cı il 20 Yanvar faciəsi ilə əlaqədar Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirilmiş yığıncaqda çıxışı

- Əziz həmvətənlərim, xanımlar və cənablar!

Bildiyiniz kimi, uzun illər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində işləmiş, Sov. İKP MK Siyasi Bürosunun üzvü olmuşam. Geniş infarkt keçirmişəm. Xəstəliyimlə əlaqədar iki ildən artıqdır ki, pensiyadayam. Azərbaycanı tərk etdiyim 1982-ci ilin dekabrından keçən müddətdə bu gün ilk dəfədir ki, Azərbaycan SSR-in Moskvadakı daimi nümayəndəliyinin astanasına qədəm qoyuram. Mən baş vermiş hadisələr haqqında dünən xəbər tutmuşam və təbiidir ki, bu hadisəyə laqeyd qala bilməzdim. Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində, böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı daimi nümayəndəsi Söhrab İbrahimovdan xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm.

Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm. Azərbaycanda yaranmış mürəkkəb vəziyyətin bir sıra səbəbləri vardır. Vaxtımızın məhdudluğundan bu məsələlərin üzərində ətraflı dayanmaq istəmirəm.

Artıq iki ildir ki, Azərbaycan və Ermənistan arasında millətlərarası münaqişə gedir. Həmin münaqişəni Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr törətmişdir. Azərbaycan və Ermənistan, eləcə də, ölkənin ali siyasi partiya rəhbərlərinə bu məsələni tənzimləmək, daxili müharibəyə, millətlərarası münaqişəyə son qoymaq və milli mənsubiyyətindən asılı olmayaraq hər bir adamın ümumi federativ ittifaq olan SSRİ-də azad yaşamasına şərait yaratmaq üçün iki illik müddət kifayət idi.

Hesab edirəm ki, ötən iki ildə bu istiqamətdə lazımi səviyyədə iş aparılmamışdır. Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı.

Bunlar üçün ilk növbədə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin artıq sabiq birinci katibi Vəzirov müqəssirdir. Bu yüksək vəzifədə olduğu müddətdə o, Azərbaycandakı vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə, özünün səhv addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurum yaratmışdır. Xalq isə hiddətlənmişdir. Elə buna görə də Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında aylarla davam edən mitinqlərdə dəfələrlə Azərbaycanın partiya rəhbərlərinin istefası tələbi irəli sürülmüşdür. Söhbət əslində Vəzirovun istefasından gedirdi. Bəs bu məsələ indiyə kimi niyə həll olunmamışdır? Yalnız dünən Bakı şəhərinə ordu yeridildikdən, qırğın və dağıntılar baş verdikdən sonra Vəzirov Azərbaycandan əslində qaçmışdır. Bu, böyük səhvdir. Ən böyük səhv isə sözsüz ki, qeyri-ciddi, bu yüksək vəzifəyə əsla yaramayan adamın bir vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə birinci katib təyin edilməsi idi. Ancaq, iş təkcə bununla bitmir.

İndi yanvarın 19-dan 20-nə keçən gecə baş vermiş və bu gün də davam edən faciənin üstündə dayanmaq istəyirəm. Hesab edirəm ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur. Təəssüf ki, Azərbaycan rəhbərliyi, həmçinin ölkənin ali siyasi rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir. Sərhədlərə edilən təcavüzü vaxtında aradan qaldırmaq mümkün idi. Axı üç ay əvvəl sərhəd zolağı ilə bağlı camaat öz tələblərini irəli sürmüşdü. Fəqət heç kəs onlarla görüşmək, izahat işi aparmaq və lazımi ölçü götürmək istəməmişdir.

Təkrar edirəm: camaatı sakitləşdirmək üçün də imkanlar tükənməmişdi. İki-üç ay əvvəl Azərbaycan partiya rəhbərliyinin möhkəmləndirilməsi məsələsi həll edilsə idi, vəziyyət gərginləşməz, ordu yeridilməsinə zərurət yaranmazdı. Bütün vəziyyətlərdə hesab edirəm ki, məsələni siyasi cəhətdən tənzimləmək, xalqla mükaliməyə girmək üçün əlverişli imkanlar olmuşdur. Lakin onlardan səmərəli istifadə edilməmişdir. Nəhayət, 19-dan 20-nə keçən gecə sovet ordusunun, SSRİ DİN-in böyük kontingenti Bakı şəhərinə yeridilmişdir. Nəticəsi isə göz qabağındadır. Bunun törətdiyi faciələr hamımıza məlumdur.

Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Bəli, kobud siyasi səhv buraxılmışdır. Onlar, sadəcə olaraq, respublikadakı əsl vəziyyəti qiymətləndirə bilməmiş, Azərbaycan xalqının psixologiyasını anlamamış, əhalinin müxtəlif təbəqələri ilə əlaqələri zəiflətmişlər. Onlar, görünür, bu işlərin belə ağır faciəyə çevriləcəyini əvvəlcədən düşünməmişlər.

Bütün bunlar qabaqcadan nəzərə alınmalı və vaxtında vacib, zəruri tədbirlər qəbul edilməli idi. Ordu yeridilmiş, günahsız adamlar həlak olmuşlar. Yeri gəlmişkən, deyim ki, ölənlər arasında hərbi qulluqçuların olması haqqında da məlumatlar daxil olur. Sual olunur: ölkənin ali dövlət, partiya rəhbərliyinin səhv qərarı ucundan, olmayan qiyamı yatırtmaq adı ilə Azərbaycana göndərilmiş rus gənclərinin günahı nədir?

Azərbaycana kənardan böyük ordu kontingenti yeridilmişdir. Respublikada neçə ordu birləşməsinin olduğu mənə yaxşı bəllidir. Azərbaycanda kifayət qədər - 4-cü ordu, Xəzər Hərbi Dəniz Donanması, desant qoşunlarının diviziyası, Hava Hücumundan Müdafiə Qoşunları, DİN-in daxili qoşun birləşmələri vardır. Oraya əlavə qoşun yeritmək nəyə lazım idi? Əgər belə zərurət var idisə, orada yerləşən hərbi hissələrdən də istifadə etmək olardı. Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə bərk ayaqda Azərbaycanı qoyub qaçmış Vəzirov, öz xalqı qarşısında məsuliyyət daşımalıdır. Ölkənin ali siyasi rəhbərliyinə yanlış məlumat verənlər də məsuliyyət daşımalıdır.

Zənnimcə, ölkənin ali siyasi rəhbərliyinə vəziyyət barədə vaxtında kifayət qədər düzgün, dəqiq, obyektiv informasiyalar çatdırılmamışdır. Rəhbərlik çaşqınlığa salındığından belə qərar qəbul etmişdir. Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır.

***21 yanvar 1990-cı il, Moskva***

**Azərbaycan.** - 2023.- 18 yanvar. - № 11. - S. 5.

## Xalq deputatı Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 20 noyabr 1990-cı il tarixli sessiyasında çıxışı

Mən istəyirəm ki, bu məsələ (1990-cı il 19-20 Yanvar Bakı hadisələri) barəsində öz fikrimi deyim. Bu məsələnin meydana gəlməsi tarixi böyükdür. Aydındır ki, 1988-ci ildən Bakıda milli hərəkat başlayıb. Və bu milli hərəkatın boğulmasına bir neçə dəfə - həm Azərbaycan KP rəhbərliyi, həm də ümumittifaq rəhbərliyi cəhd edibdir. Bir qrup adam həbs olunub, cəzalar çəkib, məhrumiyyətə uğrayıblar və burada qarşılıqlı mübarizə gedib. Ancaq bunlara baxmayaraq, ümumxalq hərəkatı inkişaf edib, o, daha da güclənib və Azərbaycanda bu xalq hərəkatının inkişaf edib güclənməsinin ən böyük təkanvericisi də Dağlıq Qarabağ Muxtar Vilayətində yaranmış vəziyyət, onun ətrafında olan məsələlər və ümumiyyətlə, bu məsələnin yaranması ilə əlaqədar bizim respublikaya mərkəz tərəfindən göstərilən ədalətsiz münasibətdir.

Bunlar xalq hərəkatına təkan verib və onu inkişaf etdiribdir. Təəssüf ki, mən belə fikirdəyəm, birinci növbədə respublikanın rəhbərliyi, Azərbaycan KP-nin rəhbərliyi bu məsələni düzgün araşdıra bilməyib, bunlara düzgün qiymət verməyib, öz şəxsi mövqelərini müdafiə etmək üçün cürbəcür qeyri-qanuni, qeyri-hüquqi üsullara əl atıb və beləliklə, xalq hərəkatına zərbə vurmağa çalışıbdır.

Bu xalq hərəkatı ilə əgər əvvəldən dil tapılsaydı, söhbət aparılsaydı, rəhbərlik xalqla dialoqa girə bilsəydi, şübhəsiz ki, çox məsələlərin qarşısı alınardı və 1989-cu ilin dekabrında və 1990-cı ilin yanvarında Bakıda və ümumiyyətlə, Azərbaycanda olan faciəvi hallar baş verməzdi. Bunlar olmayıb. Və burada da Azərbaycan KP rəhbərləri ümumittifaq siyasi rəhbərləri ilə bir olublar, onlarla birgə hərəkət ediblər, onlarla birlikdə xalq hərəkatını boğmaq, Azərbaycanda diktatura üsuli-idarəsini möhkəmləndirmək niyyətində olublar.

İkinci tərəfdən, mən hesab edirəm ki, bir tərəfdən demokratiyanın inkişafı barədə car çəkən ümumittifaq siyasi rəhbərlərinin və onlarla birlikdə Azərbaycan Kommunist Partiyasının rəhbərlərinin ikiüzlülük edərək, xalqa xəyanət edərək, xalq hərəkatını boğmaqla, tutduqları vəzifədə qalmaları cinayətdir. Bundan danışmaq lazımdır. Bunun tarixini təhlil etməyə tarixçilərimiz də, böyük adamlarımız da var. Şübhəsiz ki, Azərbaycan xalqı öz tarixini çox dərindən təhlil etməlidir. Bütün keçən dövrlərə baxıb hamısına düzgün qiymət verməlidir.

Ancaq indi söhbət ondan gedir ki, münasibət nədir? Münasibət də ondan ibarətdir ki, 19-20 Yanvar 1990-cı il hadisələri, Bakıda baş vermiş hadisələr faciəvi hadisədir və mən belə hesab edirəm ki, Azərbaycanın 1920-ci ildən sonrakı tarixində belə faciəvi hadisə olmamışdır. Bu, xalqın böyük hiddətini doğurmuşdur. Xalq matəm vəziyyətinə gəlib çıxmışdır. İndi on bir aydır ki, xalq matəm içindədir. Bunu açıq-aydın demək lazımdır.

Nə üçün bu məsələ meydana gəlib - mən bunu dedim. Bunun qarşısı alına bilərdimi? Şübhəsiz ki, alına bilərdi. Əgər respublikanın siyasi rəhbərləri xalqla əlaqəyə girsəydilər, xalqla bir olsaydılar, xalqla dil tapsaydılar və xalqın dediyi sözləri eşitsəydilər və onlarla hesablaşsaydılar. Ancaq bunlar olmayıb. Respublikanın rəhbərləri Moskvanın, Qorbaçovun müdafiəsinə arxayın olaraq xalqı boğmağa, əzməyə çalışıblar. Və buna da nail olublar.

Mən hesab edirəm ki, bunların qarşısı alına bilərdi. Bu faciə baş verməyə bilərdi. Xalqımız bu günə düşməyə bilərdi.

Mən belə hesab edirəm ki, 19-20 Yanvarda baş vermiş bu faciə həm Sovet İttifaqının siyasi rəhbərliyinin, şəxsən Qorbaçovun böyük günahının nəticəsidir, onun diktatorluq meyillərindən əmələ gəlmiş bir haldır və eyni zamanda Azərbaycan rəhbərlərinin xalqa xəyanəti və cinayətinin nəticəsidir.

Mən belə fikirdəyəm ki, Böyük Vətən müharibəsi qurtarandan sonra Sovetlər İttifaqında, ölkənin daxilində - heç bir yerdə, heç bir regionda bu qədər, bu miqyasda qanlı qırğın olmamışdır. Bunu da edib sovet ordusu. Və bunun nə qədər böyük miqyasda olmağını onunla da ölçmək olar ki, bu hərbi aksiyanın həyata keçirilməsi üçün SSRİ müdafiə naziri Yazov, SSRİ daxili işlər naziri Bakatin vaxtından qabaq gəlib Bakıda oturub, bu əməliyyatlara rəhbərlik ediblər. Müharibə vaxtı hərbi nazir az-az cəbhəyə gedirdi, ancaq görün bu hərbi əməliyyata bunlar nə qədər böyük fikir veriblər, bunun miqyası nə qədər böyük olubdur ki, marşal Yazov gəlib Bakıda oturub və bu əməliyyata rəhbərlik edibdir.

Demək, bu, Azərbaycan xalqına qarşı göstərilən hərbi təcavüzdür, təhqirdir, Azərbaycan xalqının qarşısında cinayətdir. Və mən şəxsən bu hadisələri eşidərkən, yanvarın 21-də Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gedib öz fikrimi söyləmişəm, bütün bu aksiyanı, bu əməliyyatı pisləmişəm. O vaxt demişəm, indi də təkrar edirəm: bu, xalqın əleyhinə olan əməliyyatdır, demokratiyanın əleyhinə olan əməliyyatdır, hüquq normalarının əleyhinə olan əməliyyatdır, mürtəce bir əməliyyatdır. Mən bu fikirdəyəm və buna belə də qiymət vermək lazımdır.

Azərbaycan xalqı üçgünlük matəm elan etmişdi. Şəhidlər Azərbaycan paytaxtının görkəmli yerində dəfn olunmuşlar. Bəs qatillər kimdir? Nə üçün indiyə qədər bu qatillər meydana çıxmayıbdır? Onların heç biri həbs olunmayıb, heç biri xalqa göstərilməyib. Bu necə olur? Əgər biz şəhidləri görürüksə, onların qəbirlərinin üstünə gündə minlərlə adam gedirsə, bəs bunların qatilləri kimlərdir? Bunlar nə üçün indiyə qədər kənarda qalıblar? Bu, çox təəccüblü məsələdir. Bu, xalqı incidir, narahat edir, hər bir adamda bu sualı vermək hüququ yaradır. Mən şəxsən bu sualı verirəm, ancaq cavab ala bilmirəm.

Bir sözlə, bu hadisə olub. Azərbaycan xalqının başına bu bəla gəlib. Faciə baş verib. Bu, məsələnin bir tərəfidir. İkinci tərəfi, bəs bu məsələlərə nə üçün indiyədək siyasi qiymət verilməyib? Bu məsələ gündəliyə salınarkən mən belə başa düşdüm ki, deputatlar buna siyasi qiymət verəcəklər.

Məlumdur ki, yanvarın 22-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyası olmuşdur. O sessiyada çox ciddi söhbətlər getmiş və bu hərbi əməliyyat, bu təcavüz pislənmişdir. Ancaq o sessiyanın işi kəsilmiş, indiyə qədər bərpa olmamışdır. Ondan sonra Ali Sovetin bir neçə dəfə sessiyaları keçib, ancaq bu məsələ tamamilə kənarda qalıb. Elə bil ki, Azərbaycan xalqının başına heç belə bəla gəlməyib. Sonra komissiya yaranıb. Mən mətbuatda oxumuşdum ki, yanvar hadisələrinin başvermə səbəblərini və günahkarlarını təyin etmək üçün böyük bir deputat komissiyası yaranıb və onun da başında SSRİ xalq deputatı, akademik Abbasov durur. Ancaq indiyə qədər bu komissiya öz fikrini bildirməyib, bu komissiyanın işi müzakirə olunmayıb, xalq bu barədə bir şey bilmir. Eyni zamanda Azərbaycan KP MK da, mən mətbuatdan bildim ki, bu barədə komissiya yaradıbdır. Eşitdiyimə görə, MK katibi Daşdəmirov o komissiyanın sədridir. Ancaq bu komissiyanın işindən də xəbər yoxdur. Bax, iş burasındadır, yoldaşlar. Olan olub, başımıza gələn bəla gəlib, millət əzilib, millətə qarşı təcavüz olub, ancaq indiyə qədər Azərbaycan xalqının həyatında baş vermiş bu böyük faciəvi hadisəyə siyasi qiymət verilməyib və bunun günahkarları meydana çıxarılmayıbdır. Doğrudan da, faciəvidir.

Dünən buraya bir qrup artist gəlmişdi. Afaq Bəşirqızı orada çıxış edirdi. Bizim gənc aktrisalardandır. O özü deyirdi ki, bu hadisənin şahidi olubdur. O, Tbilisi prospektində yaşayır. Deyir, mən gecə saat 12-dən sonra çıxdım balkona, gördüm tanklar adamları necə əzir. Güllələri atırdılar evlərə. Bizim qonşunun balkonuna neçə güllə dəyib. Dinc şəraitdə yaşayan azərbaycanlılara nə üçün belə xəyanət olub? Bunların hamısının indi üstü örtülüb-basdırılıb. Heç kəs bu haqda danışmaq istəmir, mən demək istəyirəm ki, rəsmi dairələrdən. Elə bil ki, Azərbaycan xalqının başına belə bir iş gəlməyibdir.

Ona görə mən belə fikirdəyəm ki, indi oxunan bəyanatın üzərində ciddi surətdə işləmək lazımdır. Onu genişləndirmək lazımdır. Çıxışlarla əlaqədar əlavələr etmək lazımdır. Burada əsas tələb ondan ibarətdir ki, biz özümüz bu hadisələrə qiymət verməli, Azərbaycan xalqına qarşı olan bu təcavüz əməliyyatını pisləməliyik. Və eyni zamanda, Azərbaycan Respublikasının ali hakimiyyət orqanından tələb etməliyik ki, qısa müddətdə, yaxud heç olmasa növbəti sessiyada bu məsələ müzakirə olunsun. Yanvar hadisələrinə siyasi qiymət verilsin və bu hadisənin günahkarları - kim olursa-olsun, Qorbaçovdan tutmuş aşağı, respublika rəhbərlərinə kimi, keçmiş, ya indiki - fərqi yoxdur, bu xalqdır, xalqa qarşı cinayətdir, - cəzalandırılsın. Bir nəfəri öldürənə qanunlara görə ən yüksək cəza verirlər. Ancaq burada gör nə qədər adam həlak olubdur - bir nəfər günahkar meydana çıxmayıbdır. Bu qədər qanunsuzluğa, demokratiyanın bu qədər pozulmasına dözmək olmaz. Ona görə bu məsələyə biz özümüz siyasi qiymət verməliyik, respublikanın ali hakimiyyət orqanından tələb etməliyik ki, buna baxsın və günahkarlar cəzalandırılsın.

***20 noyabr 1990-cı il***

**Azərbaycan.** - 2023.- 18 yanvar. - № 11. - S. 5.

## Bir qərinəlik acımız

*20 Yanvar faciəsindən 33 il keçir*

**Elçin Abbasov**

20 Yanvar faciəsindən bir qərinə ötür. Amma bu məşum tarixin acı yaşantıları hələ də unudulmur. Ümumiyyətlə, elə yaralar var ki, heç zaman qaysaq bağlamır, sağalmır.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə xalqımızın həyatında bəlkə də ən uzun gecədir. Gecəyə işıq salan qəhrəman oğul və qızlarımızın dillərdə dastana çevrilmiş hünəridir. Bəli, Azərbaycan xalqını azadlığa aparan yolun ilk cığırlarını məhz 20 Yanvar şəhidləri açıblar. Buna görə onların ruhları qarşısında minnətdarıq.

Şəhidlər xiyabanında ümummilli matəm gününə ciddi hazırlıq görülür. İşlər sabahadək yekunlaşdırılacaq.

Qeyd edək ki, ərazidə Bakı Şəhər İcra Hakimiyyətinin nəzarəti ilə müvafiq qurumlar tərəfindən qərənfillərdən xüsusi kompozisiyalar hazırlanır. Bu işə təcrübəli mütəxəssislər, landşaft dizaynerləri cəlb olunub.

Bakı Şəhər İcra Hakimiyyətinin qurumları tərəfindən Şəhidlər xiyabanında geniş təmizlik və abadlıq işləri görülüb, ağacların budaqları, bəzi kollar budanıb, qazon örtüyü yenilənib, yeni güllər və kollar əkilib, işıq dirəkləri rənglənib, səkilər və bütün ərazi yuyulub, xiyabandakı hər iki məşəldə profilaktika aparılıb. İşlər bu gün də davam etdirilir.

Xiyabanı ziyarət edənlər arasında Ağdam 35 saylı tam orta məktəbinin müəllim və şagird heyəti də var idi. Məktəbin psixoloqu Esmira Muxtarova 20 Yanvar faciəsinin xalqımızın başına gətirilən ən ağır faciələrdən olduğunu bildirdi. Məktəbin müəllimi Aynurə Behbudova isə 20 Yanvar faciəsinin canlı şahidi olduğunu söylədi. Bildirdi ki, o, həmin gecəni yaxşı xatırlayır:

–Hadisə baş verən vaxt mən Mirqasımov adına Respublika Klinik Xəstəxanasında müalicə alırdım. Həmin gecə baş verənlər dəhşət idi. Xəstəxanaya gətirilən yaralılar çox ağır halda idilər. Birinin qolu, birinin ayağı yox idi. Əliyalın insanların üzərinə ağır hərbi texnika yeridilmişdi. Sovet əsgərləri xəstəxananı belə atəşə tutmaqdan çəkinməmişdilər. Əgər həmin axşam ehtiyatla aşağı əyilməsəydim, bəlkə mən özüm də indi burada yatırdım. Çünki ertəsi günü özümüzə gələndə xəstəxananın qapı-pəncərələrinin gülləbarandan dəlik-deşik olduğunu gördük.

35 saylı məktəbin şagirdi Yusif Qasımzadə də 20 Yanvar faciəsinin Azərbaycan xalqına qarşı xüsusi amansızlıqla həyata keçirilmiş qətliam olduğunu, sovet ordusunun sivil insanlara qarşı gözünü qırpmadan atəş açdığını bildirdi.

Sabunçu rayonu 67 nömrəli tam orta məktəbin sinif müəllimi Sevinc Ağalarova dedi ki, Şəhidlər xiyabanına gəlməyi özünə mənəvi borc bilir. O, hər il şagirləri ilə buranı ziyarət edir. Şəhidlərimizin ruhuna fatihə verməklə sanki özündə bir dinclik tapır. Onların xatirəsi hər birimiz üçün müqəddəsdir.

Cəbrayıl rayonu Dirili Qurbani adına Soltanlı kənd tam orta məktəbinin ibtidai sinif müəllimi Səbinə Həşimova bu faciənin xalqımızın həyatına ümummilli hüzn günü kimi düşdüyünü dedi. Lakin bu haqda həm övladlarına, həm də şagirdlərinə qürurla söz açdığını söylədi. Çünki həmin gün xalqımız öz müstəqilliyi uğrunda meydanlara, küçələrə çıxıb. “Mən tez-tez bu haqda söz düşəndə şagirdlərimə bildirirəm ki, Azərbaycan uzun illər sovet imperiyasının tərkibində olub. Lakin indi biz azad, suveren və müstəqil dövlətdə yaşayırıq. Buna görə də 20 Yanvar şəhidlərinin qarşısında özümüzü borclu saymalıyıq”.

Xiyabanda Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Rəhimoğlu ilə görüşdük. 20 Yanvar faciəsinin ağrı-acısı ilə bağlı keçirdiyi üzüntü onun çöhrəsinə də yansımışdı. Ona yaxınlaşıb fikirlərini almaq istədikdə nə qədər kövrəlmiş olsa da, özünü toparlayıb dedi:

– 20 Yanvar ümumxalq hüzn günüdür. Xalqımızın tərcümeyi-halında çox böyük bir faciəli tarixdir. 90-cı illərdə sovetlər dağılan dönəmdə çox böyük acılar yaşadıq. Bu məkanın tərcümeyi-halı belədir ki, bura 100 il öncə də Çəmbərəkənd qəbiristanlığı olub. Bura Bakı Türk Şəhidliyi kimi də anılıb. O vaxt Azərbaycanın çox böyük ziyalıları burada dəfn olunublar. Əbdürrəhimbəy Haqverdiyev, Cəlil Məmmədquluzadə, komandanlar, cümhuriyyət qurucuları zamanında burada dəfn edilmişdilər. 1939-cu ildə buranı parka çevirdilər və xalqın yaddaşını silməyə çalışdılar.

1990-cı il yanvarın 19-dan-20-nə keçən gecə hadisələr gözlərim önündə baş verib. Hadisələrin canlı şahidi olmuşam. Bu məzarların qazılmasının şahidiyəm. Şəhidlərimizin dəfninin iştirakçısı idim. Böyük hüzn

yaşadıq. Həmin vaxtlar azərbaycanlıların Ermənistandan çox böyük deportasiyası da olmuşdu. 1980-ci illərin sonunda Ermənistan ərazisində azərbaycanlı qalmamışdı. Azərbaycanlıları didərgin saldıqdan sonra Qarabağa keçdilər. Topxana hadisələri başlamışdı. Burada isə köməksiz, səsi heç yana çatmayan əliyalın xalqımızın meydanlara çıxmaqdan başqa yolu yox idi. Həmin vaxt xalqımızın üz tutduğu məkan Azadlıq meydanı idi. Erməni lobbisi tərəfindən həmin vaxt sovet rəhbərliyinə azərbaycanlıların cəzalandırılması tapşırığı verilmişdi. SSRİ rəhbəri olmuş Mixail Qorbaçov sovetlər ərazisində bütün münaqişələrin əsasını qoymuşdu. Həmin konfliktlərin ən dəhşətlisi, ən ağırı 20 Yanvar faciəsidir. Bilirsiniz ki, Gürcüstanda aprel hadisələri olmuşdur. Pribaltika ölkələrinə sovetlər birliyinin basqısı olmuşdur, Orta Asiyada digər hadisələr baş vermişdi.

Ancaq heç biri 20 Yanvar faciəsi ilə müqayisə edilə bilməz.

Allah şəhidlərimizə rəhmət eləsin!

**Xalq qəzeti.** - 2023.- 18 yanvar. - № 11. - S. 8.

## 20 Yanvar həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında Ümummilli liderin rolu

**Sayalı Sadıqova,**
Filologiya elmləri doktoru, professor

20 Yanvar faciəsi Azərbaycanın müstəqilliyə aparan yolunda yeni mərhələnin başlanğıc nöqtəsi oldu. 20 Yanvar Azərbaycan tarixində təkcə faciə deyil, Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Bu tarix həm də kimin kim olduğunu sübut edən növbəti imtahan idi. 1990-cı ildən başlanan ağır, çətin, ancaq şərəfli yol 2020-ci il sentyabr ayında Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun 44 günlük Zəfər salnaməsi ilə ən mühüm zirvəsinə çatdı.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda sovet ordusu tərəfindən dinc əhaliyə qarşı kütləvi qırğın hadisəsi törədildi. Həmin gecə birbaşa Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridildi. Bu, Azərbaycan xalqını qorxutmaq, onun milli oyanışını, ərazi bütövlüyü, suverenlik uğrunda mübarizliyini məhv edib sındırmaq məqsədi daşıyan mənfur planın tərkib hissəsi idi. Mixail Qorbaçov başda olmaqla sovet imperiyasının rəhbərliyi Bakıda "erməni kartından" məharətlə istifadə etdilər. Bu qanlı hadisənin törədilməsində əsas məqsədlərdən biri öz haqlı tələblərini irəli sürən, bu tələblərə demokratik yollarla nail olmaq istəyən, azadlıq, suverenlik istəyində olan Azərbaycan xalqının iradəsini qırmaq, insanların müstəqillik arzularını tankların tırtılları altında əzmək idi. Sovet imperiyası günahsız insanların qanını axıtsa da, xalqımıza qarşı misli görünməmiş qəddarlıq etsə də, istəyinə nail ola bilmədi. Xalqın başına gətirilən bu cinayət sovet imperiyasının iç üzünü bariz bir şəkildə ortaya çıxartdı.

Sovet qoşunlarının təcavüzü nəticəsində Bakıda və ətraf rayonlarında 147 nəfər öldürüldü, 744 nəfər yaralandı. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milis nəfərləri də var idi.

Xalq o günlərdə böyük bir həqiqəti - meydanda həqiqi liderin olmamasını da bütün mahiyyəti ilə dərk etdi. O müdhiş günlərdə Heydər Əliyevin - qüdrətli liderin respublikada yoxluğu günün ən böyük həqiqəti kimi dərk olundu. Amma Bakıda olmamasına baxmayaraq, xalqının səsinə hər kəsdən əvvəl səs verən də elə Heydər Əliyev oldu. Ümummilli liderimiz Moskvada xüsusi nəzarət altında ola-ola, özünün və ailə üzvlərinin həyatını açıq təhlükə qarşısında qoyaraq, hadisələrdən dərhal sonra - 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək təcavüzə kəskin etirazını bildirdi, faciəni törədənləri, şəxsən M.Qorbaçovu kəskin ittiham etdi, qoşunların Bakıdan çıxarılmasını tələb etdi. Ulu öndər Heydər Əliyevin 1990-cı il 21 yanvar tarixli bəyanatı həm də faciəyə verilən ilk siyasi qiymət idi - özü də imperiyanın mərkəzi Moskvada.

20 Yanvar hadisələrinə siyasi qiymət verilməsi tələbi ilə dəfələrlə çıxış edən Azərbaycan Xalq Cəbhəsi hakimiyyətə gəldikdən sonra bu mövzunu unutdu. Onlar hakimiyyətdə olduğu dövrdə faciəyə siyasi qiymət vermək üçün öz imkanlarından istifadə etmədi. 1993-cü ilə qədər Azərbaycana rəhbərlik edən şəxslərin heç biri bu faciə ilə bağlı əsl həqiqəti aşkar etməyə özündə cəsarət tapmadı. Lakin Ulu öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra bu məsələ yenidən gündəmə gəldi, 20 Yanvar hadisələrini lazımınca qiymətləndirmək yolunda ciddi addımlar atıldı.

Ulu öndər şəhidlərin ailələrini dövlət qayğısı ilə əhatə etdi. 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı hər zaman dövlət başçısının diqqətində olub. 1993-cü ildən üzü bəri 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər görülüb və bu gün də görülməkdədir. Azərbaycan Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə 20 Yanvar təcavüzü zamanı yüksək vətəndaşlıq nümunəsi göstərərək həlak olmuş Azərbaycan Respublikası vətəndaşlarına "20 Yanvar şəhidi" fəxri adı verilib, "1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə dövlət qayğısının artırılması haqqında" 2003-cü il 15 yanvar tarixli sərəncama əsasən, əlil olmuş şəxslərə verilən aylıq müavinət artırılıb və bu iş indi də davamlı olaraq həyata keçirilir.

Prezident cənab İlham Əliyev 20 Yanvar faciəsində qətlə yetirilənlərin, müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinin dövlət səviyyəsində həllini mühüm vəzifələrdən biri kimi qarşıya qoyub. Ölkəmizdə bu istiqamətdə böyük tədbirlər həyata keçirilir. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir. Ölkənin iqtisadi durumunun yüksəlməsi özünü bu qəbildən olan insanların həyat və

məişətində daha qabarıq göstərir. 2006-cı il yanvarın 19-da ölkə başçısının fərmanı ilə 20 Yanvar şəhidlərinin ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilib.

Bu il xalqımız 20 Yanvar hadisələrinin 33-cü ildönümünü qeyd edir, igid övladlarının fədakarlığını məhəbbətlə xatırlayır, onların əziz xatirəsini böyük ehtiramla yad edir. Bakının ən möhtəşəm məkanında Vətən uğrunda canlarını qurban vermiş mərd, igid oğul və qızlarımızın uyuduğu Şəhidlər xiyabanı xalqımız üçün müqəddəs bir and yerinə, milli iradəmizin şanlı-şərəfli bir salnaməsinə çevrilib. Şəhidlərimiz və Şəhidlər xiyabanı azadlığımızın, müstəqilliyimizin, milli iradəmizin simvolu kimi bundan sonrakı nəsillərə də bir qürur mənbəyi olacaq.

**525-ci qəzet**. - 2023. - 18 yanvar. - № 9. - S. 6.

## Bir qərinə əvvəlki tarix- 20 Yanvarın açılmayan sirri qaldımı?

**Seyidağa Etibar**

“Baş vermiş qanlı hadisələr, kütləvi qətliam və bunları doğuran səbəblər bəllidir, üzərində qaranlıq pərdə qalmayıb”

İki gün sonra Azərbaycan xalqı 20 Yanvar faciəsinin 33-cü ildönümünü qeyd edəcək. 1990-cı il yanvarın 20-də ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçələrinə və meydanlarına çıxaraq buna öz qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misli görünməmiş faciəyə gətirib çıxardı.

Böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi Mixail Qorbaçov başda olmaqla, SSRİ-nin cinayətkar rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, öz azadlığına, müstəqilliyinə can atan xalqımızın mübarizliyini, əyilməzliyini, məğrurluğunu bir daha nümayiş etdirdi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə, əvvəlcədən fövqəladə vəziyyət elan edilmədən sovet ordusu Azərbaycana qarşı hərbi əməliyyatlara başladı. Faciə zamanı 147 insan öldürüldü, 744-ü ağır xəsarət aldı, 841 nəfər isə qanunsuz olaraq həbs edildi.

Bu illər ərzində 20 Yanvar tarixi ağrı ilə xatırlansa da, beyinlərdə daim cavabsız suallar qalıb: “Kimdir günahkar?”

Həmin vaxt xalqın önündə gedən xalq hərəkatının aprıcı qüvvəsi-təşkilatı sayılan Azərbaycan Xalq Cəbhəsi (AXC) daxilində böhran yaranmışdı. Radikallar və liberallar adlanan iki cəbhə formalaşmışdı və bu bölünmə xalqın ümumi mübarizəsində öz mənfi təsirlərini göstərirdi. AXC “Milli azadlıq hərəkatı qansız ötüşmür” məntiqini təbliğ edirdi. İndiyədək deyilənləri və yazılanları ümumiləşdirsək, 20 Yanvar faciəsinin əsas səbəbkarları AXC rəhbərliyinin hadisələrin hara apardığını proqnozlaşdıra bilməməsi, Azərbaycan Kommunist Partiyasının bacarıqsızlığı, Qorbaçov başda olmaqla Sov.İKP MK Bürosunun cinayətkarlığı idi.

Artıq o qanlı hadisələrin - 20 Yanvar faciəsinin 33-cü ildönümü tamam olur. Yanvar cinayətinə görə məsuliyyət daşıyanlarla bağlı məsələ dəfələrlə müzakirə olunub. 1990-cı illərin sonlarında seçilmiş parlamentdə deputat-istintaq komissiyası yaradıldı. Bu komissiyasının araşdırmaları olduqca əsaslı idi. Lakin komissiyanın bir çox materiallarını Moskvaya apardılar. Bir sıra adamların, eləcə də əsas günahkarlardan sayılan Yevgeni Primakovun adını bu işdən çıxartdılar.

Bəs bu 33 ildə 20 Yanvarla bağlı açılmayan sirr qaldımı?

Azərbaycan xalq hərəkatının öncüllərindən biri olan Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı “Yeni Müsavat”a bildirdi ki, 20 Yanvar hadisələrinin mahiyyəti, səbəbləri kifayət qədər aydınlaşıb, qaranlıq, açılmayan məqamlar demək olar qalmayıb: “Öncə qeyd edim ki, Ulu öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra onun təşəbbüsü ilə Azərbaycan Milli Məclisi 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verib. Baş vermiş qanlı hadisələr, kütləvi qətliam və bunları doğuran səbəblər demək olar ki, bütün mənalarda artıq bəllidir, üzərində qaranlıq pərdə qalmayıb. Azərbaycan həmin dövrdə Sovet İttifaqının çökməsində öndə gedirdi. Azərbaycan xalqının başladığı mübarizə SSRİ-nin dayaqlarını sarsıdırdı. Azərbaycan ərazisində başladılan erməni separatizminə qarşı müqavimət Azərbaycanda geniş milli hərəkata çevrilmişdi. Ölkə başdan-başa erməni separatizminə, Kremlin ədalətsiz mövqeyinə, dünya erməniliyinin Azərbaycan əleyhinə fəaliyyətinə qarşı qətiyyətli iradəsini ortaya qoyurdu. Separatizmə qarşı dinc müqavimət nəticə vermirdi və hadisələrin gedişi milli azadlıq mübarizəsinə çevrilirdi. Bunun ayrı-ayrı elementləri özünü mitinqlərdə, şüarlarda, çıxışlarda, tətillərdə qoyulan tələblərdə göstərirdi. Belə bir vəziyyətdə SSRİ rəhbərliyi Azərbaycan xalqını cəzalandırmaq, gözünü qorxutmaqla imperiyanın çökməsinə mane olmaq, Azərbaycanda başlanan milli azadlıq hərəkatının bütün SSRİ-yə yayılmasına imkan verməmək üçün 20 Yanvar faciəsini törətdi. Bu qanlı qətliam SSRİ rəhbərliyinin əmri, SSRİ müdafiə nazirinin planı əsasında həyata keçirildi. Cinayətkarlar onlar idi. Eyni zamanda daxildə də Moskvadan daha çox asılı olan, yerli hakimiyyətin başında dayanan Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov kimi antimilli qüvvələr xalqın yanında olmaq əvəzinə Moskvanın tələblərini, addımlarını müdafiə edirdilər. Həmçinin Azərbaycanda hakimiyyət uğrunda mübarizə gedirdi. Belə bir vəziyyətdə 20 Yanvar hadisələri baş verdi. Odur ki, şübhəsiz yerli rəhbərliyin də mənəvi, siyasi məsuliyyəti bu faciədə kifayət qədərdir. Həmin hadisələr zamanı Xalq Cəbhəsinin də mövqeyi, davranışı cəmiyyət tərəfindən birmənalı qəbul edilməmişdi. Hətta mənim özüm də bununla bağlı 1990-cı ilin mart ayında Ağdaş rayonunda AXC-nin Ali Məclisinin yığıncağında Xalq Cəbhəsinin İdarə Heyətini qınadım, ittiham etdim.

Xalqın qabağına çıxmaq əvəzinə onları ayrı-ayrı yerlərdə prosesi kənardan izləməkdə günahlandırdım. Xalqı ekstaza gətirərək ordunun qabağına çıxardaraq sonradan xalqla bərabər olmamalarını onların ən böyük səhvi, günahı, bəlkə də xəyanəti kimi dəyərləndirdim və sonra Xalq Cəbhəsinin Ali Məclisinin üzvlüyündən istefa verdim".

F. Ağamalı vurğuladı ki, əlbəttə azadlıq heç bir xalqa qızıl nimçədə təqdim olunmur. Azadlıq uğrunda mübarizə şübhəsiz ki, ağır döyüşlərdən, qurbanlardan, məhrumiyyətlərdən keçir: "Təəssüflər olsun ki, biz də o qurbanları verdik. Məhz 20 Yanvardan sonra Azərbaycanda hərəkat birmənalı olaraq milli azadlıq mübarizəsinə çevrildi. Xalqın bu mübarizəsi qarşısıalınmaz oldu. SSRİ-nin çöküşü qaçılmaza çevrildi. Ulu öndər Heydər Əliyevin Moskvada Azərbaycan nümayəndəliyinin binasına gedərək 20 Yanvar faciəsinə siyasi qiymət verməsi, SSRİ rəhbərliyini, Mixail Qorbaçovu ittiham etməsi, ordunun dinc insanların üzərinə yeridilməsini Azərbaycan xalqına təcavüz və ağır cinayət adlandırması da Azərbaycanda milli azadlıq hərəkatının gedişinə, böyüməsinə ciddi təsirini göstərdi, müstəsna rol oynadı. Beləliklə, bir tərəfdən 20 Yanvar bizim üçün qanlı faciədir, bir tərəfdən bizim şərəf və qürur mənbəyimizdir. Çünki o hadisələrdə şəhid olan vətəndaşlarımızın qanları, canları bahasına xalqımızın apardığı azadlıq mübarizəsi nəticə etibarilə milli istiqlalımıza gətirib çıxardı. Bu gün Azərbaycan müstəqil dövlət olaraq dünya miqyasında söz sahibi olan dövlətlərdən birinə çevrilib. Şəhidlərimizin ruhu rahatdır. Çünki həm müstəqil dövlətik və inkişaf etmişik, həm də torpaqlarımızın böyük hissəsini erməni işğalından azad etmişik. Qalan cüzi hissəsinin azad olunması üçün də mübarizə gedir. Əminəm ki, 2023-cü ildə biz bu məsələyə nöqtə qoyacağıq".

**Yeni Müsavat** – 2023. – 18 yanvar. - № 9. – S. 4.

# Heydər Əliyev qətiyyətinin təntənəsi

**Sadiq Qurbanov**,
Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri

Ulu Öndər Heydər Əliyev vaxtilə 20 Yanvar hadisələrini belə səciyyələndirirdi: "Biz o günlərdən nə qədər çox uzaqlaşsaq, həmin günlərin Azərbaycan xalqının tarixində necə mühüm yer tutduğunu bir o qədər dərindən dərk edəcəyik. Ancaq bir şey həqiqətdir ki, 1990-cı ilin 20 Yanvarı Azərbaycan xalqının həyatında dönüş mərhələsi, dönüş nöqtəsi olub".

Zaman keçdikcə, nəsillər dəyişdikcə xalqımız, xüsusən də gənclərimiz tarixi həqiqətləri öyrənməli və gercəkləri bilməlidirlər. Yaxın tariximizin öyrənilməsi və araşdırılması vacib vəzifə kimi hər bir ziyalının fəaliyyətinin mühüm bir hissəsi olmalıdır. Bu baxımdan 1990-cı ilin 20 Yanvar faciəsi də öyrənilməli və gələcək nəsillərə olduğu kimi çatdırılmalıdır.

## Heydər ƏLİYEV: "Bir halda ki, mübarizə lazımdır, deməli, mübarizə aparmalıyam!"

Heydər Əliyev fenomenini araşdırdıqca onun böyüklüyünün bir daha heyranı olursan. Uzun illər respublikaya rəhbərlik etmiş və ittifaq səviyyəsində mühüm post tutmuş bir şəxsin həyat və fəaliyyəti ciddi maraq doğurmaya bilməz. Təsadüfi deyil ki, bu dövrü haqlı olaraq Heydər Əliyev epoxası adlandırırlar.

Heydər Əliyevin böyüklüyünü dərk etməyən və vaxtilə onu cəmiyyətdən təcrid etməyə çalışan və bununla da onun unudulacağını düşünən nankor adamların fəaliyyətinə də təəssüflənməyə bilmirsən. Bu dardüşüncəli adamların Heydər Əliyevi təcrid etməklə, əleyhinə qarayaxma kampaniyası aparmaqla onun siyasət meydanından uzaqlaşdırmaq fikirlərinin məntiqsiz və absurd olduğu sonrakı hadisələr zamanı bir daha təsdiq olundu.

26 iyul 1990-cı ildə Naxçıvanın "Şərq qapısı" qəzetində "Daha susa bilməzdim" adlı müsahibəsində dahi şəxsiyyət bu hadisələri belə xarakterizə edir: "Təxminən üç il əvvəl mən Siyasi Büronu tərk etmişəm. Əsas səbəb xəstəliyim olub. İnfarkt keçirdim. Həkimlər fəal həyat tərzindən əl çəkməyi məsləhət gördülər. Artıq üç ildir ki, siyasi həyatdan kənardayam. Lakin 1989-cu ilin aprelinədək Sov.İKP Mərkəzi Komitəsinin üzvü, həmçinin SSRİ-nin və bu ilin ortalarınadək RSFSR Ali sovetlərinin deputatı olmuşam. Amma fəaliyyət göstərməmişəm. Bununla bərabər mən bir sıra qüvvələrin, xüsusilə bəzi kütləvi informasiya vasitələrinin ədalətsizliyini özümə qarşı qərəzkarlığını üzərimdə hiss etmişəm. Mənə elə gəlir ki, bu işdə müəyyən dərəcədə partiya orqanlarının müvafiq dairələrinin əli vardır. Azərbaycanda bu, şübhəsiz belə idi. Lakin Moskvada da bu cür "hücumlar" təşkil olunurdu. Cəmi il yarım Azərbaycan KP MK-nin birinci katibi işləyən və fəaliyyəti biabırçı uğursuzluqla başa çatan Ə.Vəzirov bu işin şübhəsiz ki, təşkilatçısı idi. O, mənim haqqımda istər respublika, istərsə də Moskva mətbuatında böhtanlı məqalələr çap olunmasını təşkil edirdi. Mən dözməyə çalışırdım. Əlbəttə, bir insan kimi inciyirdim, axı özümə qarşı belə münasibətlər haqsız idi. Buna görə də 1989-cu ilin aprelində təəccüblü bir hadisə - Mərkəzi Komitənin 110 üzvünün və üzvlüyə namizədin öz arzusu ilə Mərkəzi Komitədən çıxdığı bir zamanda, axırıncı imkan olduğunu nəzərə alıb MK-nin plenumunda çıxış etdim və dedim ki, mənə qarşı böhtançılıq kampaniyası təşkil edilibdir. Bu, başdan-ayağa haqsızlıqdır. Mən belə hesab edirəm ki, ləyaqətlə işləmişəm. Əlbəttə səhv və nöqsanım da olub. Bunsuz mümkün deyil. Lakin mənim ünvanıma deyilən böhtanlar heç biri həqiqətə uyuşmur. Bu dediklərim uzun müddət üzv olduğum Siyasi Büronun üzvlərinə və çiyin-çiyinə işlədiyim yoldaşlara təsir etmədi. Onlar dediklərimə əhəmiyyət vermədilər.

Sonra mənə bir sıra müxbirlər müraciət etdilər. Mən xeyli müddət müsahibə vermədim. Keçən ilin noyabr ayında "Teatralnaya jizn" jurnalının müxbiri Andrey Karaulov mənə müraciət etdi. Mən ona müsahibə verdim. Daha sonra Azərbaycanda bu ilin yanvarın 19-20-nə keçən gecə törədilən cinayət, buraya böyük miqdarda hərbi qüvvə yeridilməsi və bunun da öz növbəsində xeyli insan tələfatına səbəb olması mənə çox pis təsir etdi. Mən daha susa bilməzdim. Buna görə də mən Azərbaycan Respublikasının Moskvadakı Daimi Nümayəndəliyinə gəldim. Burada mətbuat konfransında müxbirlərin suallarına cavab verərək bu hərəkətin antihumanist, antidemokratik, Konstitusiyaya zidd hərəkət olduğunu bildirdim. Mən ölkənin siyasi rəhbərliyini şəxsən Qorbaçovun hərəkətlərini pislədim. Bildirdim ki, Azərbaycanda yaranmış ağır vəziyyəti belə bir tədbirə əl atmadan da nizama salmaq olardı. Lakin mərkəz qanundankənar yolla getdi. Həmin gündən sonra mənə qarşı hücumlar daha da gücləndi. Düz on gün sonra "Pravda" qəzetində mənə qarşı vicdan və insan ləyaqətindən

uzaq, cəfəngiyat və hər cür uydurmalarla dolu məqalə çap olundu. Bu vaxtı mən başa düşdüm ki, bir halda ki, mübarizə lazımdır, deməli, mübarizə aparmalıyam!"

Tarixi müsahibədə deyildiyi kimi, artıq hadisələr Heydər Əliyevi mübarizəyə səsləyirdi. Şübhəsiz ki, bu məsələlərdə iki uğursuz siyasətçinin adını çəkməmək mümkün deyil. Bir tərəfdən SSRİ-nin rəhbəri M.Qorbaçovun, digər tərəfdən isə Azərbaycan SSR-nin rəhbəri Ə.Vəzirov kimilərinin böyük şəxsiyyət Heydər Əliyevə qarşı qarayaxma kampaniyası artıq dözülməz həddə çatmışdı.

Yeri gəlmişkən, tarixi ədalət naminə bu uğursuz siyasi tandem haqqında bir neçə söz deməyi özümə borc bilirəm. Mənəviyyat və siyasi əxlaq baxımından harmoniya təşkil edən bu şəxsləri hansı "keyfiyyət" birləşdirirdi? Heydər Əliyev Azərbaycan SSR Kommunist Partiyasının I katibi seçildikdən sonra Ulu Öndər 40 yaşlı gənc komsomolçu Əbdürrəhman Vəzirovu Azərbaycanın ikinci şəhəri olan Gəncə şəhər partiya komitəsinin birinci katibi kimi mühüm vəzifəyə seçilməsini təmin etdi. Sonra o, 1974-1976-cı ilə qədər Azərbaycan KP MK sənaye şöbəsinin rəhbəri kimi çalışıb.

1988-ci ildə M.Qorbaçovun təklifi ilə Azərbaycan KP MK-nin birinci katibi vəzifəsinə təyin edilən Ə.Vəzirovla M.Qorbaçovu Qarabağ münaqişəsinə, 20 Yanvar hadisələrinə və ermənilərə münasibətdə sona qədər eyni mövqe nümayiş etdirdilər.

Ermənilərin çox olduğu Stavropol kimi bir bölgədə I katib işləyən M.Qorbaçovun müsəlman-türk xalqlarına olan anormal münasibəti özünü çox gözlətmədi. SSRİ KP MK-nin birinci katibi seçilən M.Qorbaçov uzun illər Qazaxıstana uğurla rəhbərlik etmiş Sov. İKP. MK Siyasi Bürosunun üzvü Dinməhəmməd Kunayevi heç bir lüzum olmadan vəzifədən çıxararaq yerinə Moskvadan göndərilən Kolbini qoymuşdu. Qazaxların buna kütləvi etirazını M.Qorbaçov ilk dəfə ordunun qüvvəsindən istifadə edərək qırğınlar törətməklə, qanunsuz həbslər həyata keçirməklə yatırtmışdı.

Qazağıstan, Almatı hadisələri Siyasi Büro üzvləri arasında kəskin fikir ayrılığına səbəb olmuşdu. Buna etiraz bildirən Siyasi Büro üzvü Heydər Əliyev və Siyasi Büro üzvlüyünə namizəd Şərəf Rəşidov arzuedilməz şəxslərə çevrilmişdilər.

Yuxarıda qeyd edilənlərdən M.Qorbaçovun Heydər Əliyevə münasibətinin anatomiyasını anlamaq çətin deyil. Amma Heydər Əliyevin etimad göstərdiyi və vəzifə pillələrində irəli çəkdiyi Ə.Vəzirov və A.Mütəllibovun riyakar münasibəti anlaşılan deyil. Heydər Əliyevin özünün bu məsələlərə münasibəti maraq doğurur.

Heydər Əliyevin Naxçıvana gəlişindən sonra 26 iyul 1990-cı ildə "Şərq qapısı" qəzetinə ilk müsahibəsində jurnalist M.Möhsün ona belə bir sual ünvanlayır:

- Yoldaş Əliyev, Siz bir anlığa mənim yerimdə olsaydınız Heydər Əliyevə ən başlıca sualınız nə olardı?
- (Xeyli gülür) Hansı sualı verərdim? Çox sual verərdim (yenə gülür).
- Başlıca sual?
- Başlıca sual? Soruşardım ki, ay Əliyev, bəzi adamları niyə yaxşı tanımamısan?

Dahi siyasətçinin özünə verdiyi bu ritorik sualın arxasında böyük həqiqətlər dayanırdı. Birmənalı şəkildə demək olar ki, Heydər Əliyevin gənc kadr kimi böyük etimad göstərərək vaxtılə vəzifə tramplinlərində sürətlə irəli çəkdiyi, sonradan Azərbaycana rəhbərlik etmiş Əbdürrəhman Vəzirov və Ayaz Mütəllibov birinci sıralarda gedir. Azərbaycan tarixinə qara ləkə kimi düşmüş 20 Yanvar və Xocalı faciələri bu iki şəxsin adını tarixə təqsirkar kimi yazıb.

20 Yanvar hadisələrinin xronologiyasını vərəqlədikcə, Heydər Əliyevlə bağlı maraqlı bir hadisə diqqətimi cəlb etdi. Odur ki, məqalənin bu hissəsinə gizlədilmiş teleqram yarımbaşlığını seçdim.

**Gizlədilmiş teleqram**

Sov. İKP-nin Siyasi Bürosundan istefa vermiş təqaüdçü kimi Moskvda yaşayan Heydər Əliyevi siyasi hadisələrdən kənarlaşdırmaq, onun əleyhinə qarayaxma kampaniyası apararaq ləkələmək, dövlət xadimi kimi sıradan çıxararaq siyasət meydanından tamamilə uzaqlaşdırmaq prosesi geniş vüsət almışdı. Azərbaycanda başlanan Milli Azadlıq Hərəkatının genişlənməsinin qarşısını almaq və Azərbaycan xalqının iradəsini qırmaq məqsədilə sovet rəhbərliyi yerli nökərlərin əli ilə sovet ordu hissələrinin qanunsuz olaraq Azərbaycana yeridilməsini planlaşdırırdı. Bu cür mürəkkəb və gərgin siyasi şəraitdə hadisələrə təsir edə biləcək ən böyük siyasətçi məhz Heydər Əliyev idi. Odur ki, bütün bədxahları onu siyasi baxımdan təcrid etmək yolunu tuturdular. Ürəyi Azərbaycan eşqi ilə döyünən Heydər Əliyevin özünün də qeyd etdiyi kimi, o, artıq susa bilməzdi. Lakin süni maneələr qaçılmaz idi. 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə SSRİ hərbi-siyasi

rəhbərliyi Azərbaycan xalqının azadlıq istəyini qırmaq, milli hərəkatı boğmaq məqsədilə Azərbaycana qanunsuz olaraq qoşun yeridərək kütləvi qırğın törətdi.

Hadisə nəticəsində Bakıda gecəyarı fövqəladə vəziyyət tətbiq edilmiş, əhali xəbərdar olunmamışdır. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışdılar. Fövqəladə vəziyyət elan edildikdən sonra, yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürülmüşdü. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda yanvarın 25-də Neftçala, yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdir. Ümumilikdə 147 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuş, 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində çoxlu dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdi.

Sovet rəhbərliyi SSRİ-nin Konstitusiyasını, həmçinin beynəlxalq humanitar hüququn bütün müdəallarını ayaq altına ataraq mülki əhaliyə, öz vəzifə borcunu yerinə yetirən həkimlərə qarşı qətllər həyata keçirmişdir. Sözsüz ki, həmin dövrdə bütün dünya azərbaycanlılarının diqqəti Bakıda baş vermiş qanlı faciəyə yönəlmişdi. Bu məqamda Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin ilk işi bütün təzyiqlərə və həyati təhlükələrə baxmayaraq, ona qarşı yönəldilmiş blokadanı yararaq bu ağır gündə Azərbaycan xalqının yanında olmasını ifadə edən teleqram vuraraq hadisəyə ilkin olaraq həm siyasi-hüquqi qiymət vermiş, həm də öz səsini ucaltmışdı. Teleqramda deyilirdi:

"Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə, Ali Sovetə, Nazirlər Sovetinə, Azərbaycan xalqına

Bakı şəhərinə sovet ordusu hissələrinin yeridilməsi ilə əlaqədar xalqımızın başına gətirilən faciədən - dinc əhalinin qırılmasından böyük ürək ağrısı ilə xəbər tutdum. Bu matəm günündə həlak olanların ailələrinə və yaxınlarına, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm.

Mən bu düşünülmüş aksiyanı pisləyir, onu antihumanist, antidemokratik, qanunazidd hesab edirəm. Bu ağır gündə sizə ağıllı, kamallı olmağa, həmrəyliyə və birliyə çağırıram.

Mənim teleqramımın respublika mətbuatında dərc olunmasını, radio və televiziya ilə verilməsini, matəm mitinqində oxunmasını xahiş edirəm.

Heydər Əliyev, 21 yanvar 1990-cı il, Moskva".

Bu gizlədilmiş teleqramın mətnində hadisələrə dərhal və çevik reaksiya verən dahi siyasətçi aşağıdakı çağırışları edirdi:

1) Hadisələrə siyasi-hüquqi qiymət verilməsi.
2) Əhalini təmkinli olmağa çağırış.
3) Həmrəyliyə çağırış.

Teleqramın mətnində bir məsələ də xüsusi diqqəti cəlb edir. Heydər Əliyev bu teleqramın mətninin yayılmasını xahiş edərək qeyd edir: "Mənim teleqramımın respublika mətbuatında dərc olunmasını, radio və televiziya ilə verilməsini, matəm mitinqində oxunmasını xahiş edirəm".

Lakin biz həmin dövrün dövrü mətbuatında, televiziya və radio verilişlərində Heydər Əliyevin bu teleqramının mətninə rast gəlmədik. Nədən? Həmin dövrdə Azərbaycana rəhbərlik etmiş Ə.Vəzirov Qorbaçovun göstərişi ilə Heydər Əliyevə qarşı kampaniya aparmaqla, eyni zamanda onu siyasi həyatdan təcridetmə siyasəti yürüdürdü.

**Moskvada verilən siyasi qiymət**

Heydər Əliyev bununla kifayətlənməyib həyatını təhlükəyə ataraq 21 yanvar 1990-cı ildə Moskvada Azərbaycan nümayəndəliyinə gələrək bəyanat yaydı. Bəyanatda deyilir:

- Əziz həmvətənlərim, xanımlar və cənablar! Bildiyiniz kimi, uzun illər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində işləmiş, Sov. İKP MK Siyasi Bürosunun üzvü olmuşam. Geniş infarkt keçirmişəm. Xəstəliyimlə əlaqədar iki ildən artıqdır ki, pensiyadayam. Azərbaycanı tərk etdiyim 1982-ci ilin dekabrından keçən müddətdə bu gün ilk dəfədir ki, Azərbaycan SSR-in Moskvadakı Daimi Nümayəndəliyinin astanasına qədəm qoyuram. Mən baş vermiş hadisələr haqqında dünən xəbər tutmuşam və təbiidir ki, bu hadisəyə laqeyd qala bilməzdim. Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində, böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı Daimi Nümayəndəsi Söhrab İbrahimovdan xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm. Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa,

demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm. Azərbaycanda yaranmış mürəkkəb vəziyyətin bir sıra səbəbləri vardır. Vaxtımızın məhdudluğundan bu məsələlərin üzərində ətraflı dayanmaq istəmirəm. Artıq iki ildir ki, Azərbaycan və Ermənistan arasında millətlərarası münaqişə gedir. Həmin münaqişəni Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr törətmişdir. Azərbaycan və Ermənistan, eləcə də, ölkənin ali siyasi partiya rəhbərlərinə bu məsələni tənzimləmək, daxili müharibəyə, millətlərarası münaqişəyə son qoymaq və milli mənsubiyyətindən asılı olmayaraq hər bir adamın ümumi federativ ittifaq olan SSRİ-də azad yaşamasına şərait yaratmaq üçün ikiillik müddət kifayət idi. Hesab edirəm ki, ötən iki ildə bu istiqamətdə lazımi səviyyədə iş aparılmamışdır. Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı. Bunlar üçün ilk növbədə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin artıq sabiq birinci katibi Vəzirov müqəssirdir. Bu yüksək vəzifədə olduğu müddətdə o, Azərbaycandakı vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə, özünün səhv addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurum yaratmışdır. Xalq isə hiddətlənmişdir. Elə buna görə də Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında aylarla davam edən mitinqlərdə dəfələrlə Azərbaycanın partiya rəhbərlərinin istefası tələbi irəli sürülmüşdür. Söhbət əslində Vəzirovun istefasından gedirdi. Bəs bu məsələ indiyə kimi niyə həll olunmamışdır? Yalnız dünən Bakı şəhərinə ordu yeridildikdən, qırğın və dağıntılar baş verdikdən sonra Vəzirov Azərbaycandan əslində qaçmışdır. Bu, böyük səhvdir. Ən böyük səhv isə sözsüz ki, qeyri-ciddi, bu yüksək vəzifəyə əsla yaramayan adamın bir vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə birinci katib təyin edilməsi idi. Ancaq iş təkcə bununla bitmir. İndi yanvarın 19-dan 20-nə keçən gecə baş vermiş və bu gün də davam edən faciənin üstündə dayanmaq istəyirəm. Hesab edirəm ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur. Təəssüf ki, Azərbaycan rəhbərliyi, həmçinin ölkənin ali siyasi rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir. Sərhədlərə edilən təcavüzü vaxtında aradan qaldırmaq mümkün idi. Axı üç ay əvvəl sərhəd zolağı ilə bağlı camaat öz tələblərini irəli sürmüşdü. Fəqət heç kəs onlarla görüşmək, izahat işi aparmaq və lazımi ölçü götürmək istəməmişdir. Təkrar edirəm: camaatı sakitləşdirmək üçün də imkanlar tükənməmişdi. İki-üç ay əvvəl Azərbaycan partiya rəhbərliyinin möhkəmləndirilməsi məsələsi həll edilsə idi, vəziyyət gərginləşməz, ordu yeridilməsinə zərurət yaranmazdı. Bütün vəziyyətlərdə hesab edirəm ki, məsələni siyasi cəhətdən tənzimləmək, xalqla mükaliməyə girmək üçün əlverişli imkanlar olmuşdur. Lakin onlardan səmərəli istifadə edilməmişdir. Nəhayət, 19-dan 20-nə keçən gecə sovet ordusunun, SSRİ DİN-in böyük kontingenti Bakı şəhərinə yeridilmişdir. Nəticəsi isə göz qabağındadır. Bunun törətdiyi faciələr hamımıza məlumdur. Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Bəli, kobud siyasi səhv buraxılmışdır. Onlar, sadəcə olaraq, respublikadakı əsl vəziyyəti qiymətləndirə bilməmiş, Azərbaycan xalqının psixologiyasını anlamamış, əhalinin müxtəlif təbəqələri ilə əlaqələri zəiflətmişlər. Onlar, görünür, bu işlərin belə ağır faciəyə çevriləcəyini əvvəlcədən düşünməmişlər. Bütün bunlar qabaqcadan nəzərə alınmalı və vaxtında vacib, zəruri tədbirlər qəbul edilməli idi. Ordu yeridilmiş, günahsız adamlar həlak olmuşlar. Yeri gəlmişkən deyim ki, ölənlər arasında hərbi qulluqçuların olması haqqında da məlumatlar daxil olur. Sual olunur: ölkənin ali dövlət, partiya rəhbərliyinin səhv qərarı ucundan, olmayan qiyamı yatırtmaq adı ilə Azərbaycana göndərilmiş rus gənclərinin günahı nədir? Azərbaycana kənardan böyük ordu kontingenti yeridilmişdir. Respublikada neçə ordu birləşməsinin olduğu mənə yaxşı bəllidir. Azərbaycanda kifayət qədər - 4-cü ordu, Xəzər Hərbi Dəniz Donanması, desant qoşunlarının diviziyası, Hava Hücumundan Müdafiə Qoşunları, DİN-in daxili qoşun birləşmələri vardır. Oraya əlavə qoşun yeritmək nəyə lazım idi? Əgər belə zərurət var idisə, orada yerləşən hərbi hissələrdən də istifadə etmək olardı. Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə bərk ayaqda Azərbaycanı qoyub qaçmış Vəzirov öz xalqı qarşısında məsuliyyət daşımalıdır. Ölkənin ali siyasi rəhbərliyinə yanlış məlumat verənlər də məsuliyyət daşımalıdır. Zənnimcə, ölkənin ali siyasi rəhbərliyinə vəziyyət barədə vaxtında kifayət qədər düzgün, dəqiq, obyektiv informasiyalar çatdırılmamışdır. Rəhbərlik çaşqınlığa salındığından belə qərar qəbul etmişdir. Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır".

**(Ardı var)**

**Azərbaycan.** - 2023.- 19 yanvar. - № 12. - S. 5.

# 20 Yanvar faciəsinə gedən yol

**Rəşad Cəfərli**

**Azərbaycanın istiqlaliyyət yolunun ilk şəhidlik zirvəsi sayılan 20 Yanvar faciəsi yeni tariximizə həm də bir qürur günü kimi yazıldı. Bu hadisə günahsız insanların amansız bir formada qətlə yetirilməsi ilə nəticələnsə də, öz azadlığına, müstəqilliyinə can atan Azərbaycan xalqının mübarizliyini, məğrurluğunu bir daha bütün dünyaya, o cümlədən ovaxtkı imperiya rəhbərliyinə aydın şəkildə nümayiş etdirdi. Tarixə qanla yazılan 20 Yanvar faciəsi Vətəni, azadlığı uğrunda ölümün gözünə dik baxan Azərbaycan övladlarının sarsılmazlığını bir daha dünyaya tanıtmaqla yanaşı, SSRİ adlanan nəhəng imperiyanın çöküşündə əsas amillərdən biri oldu.**

## Faciəyə etiraz səsini birinci ucaldan Ümummilli Lider Heydər Əliyev oldu

Ən acınacaqlı hal isə o idi ki, respublika rəhbərliyi əvvəlcədən xalqa xəyanət yolu tutaraq bu qəsdin qarşısını almaq üçün heç bir tədbir görmədi, cinayətin iştirakçısı ola-ola zahirən hadisələrdən kənarda qalmağa çalışdı. Moskvanın qabağında həmişə mütilik göstərən, faciə törənən gecə isə qorxusundan tələm-tələsik respublikadan qaçan Ə.Vəzirov, həmin günlərdə əli xalqın qanına boyansa da, Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi seçilən A.Mütəllibov bu dəhşətli faciənin izlərini nəyin bahasına olursa-olsun ört-basdır etməyə, xalqın haqq səsini fövqəladə rejim tətbiq etməklə boğmağa çalışırdı.

O ağır günlərdə 20 Yanvar faciəsi ətrafında xəyanət sükutunu ilk və mütəmadi olaraq yaran Heydər Əliyevin haqq səsi və dəyişməz mövqeyi oldu. Faciənin ertəsi günü ilk dəfə olaraq Heydər Əliyevin Azərbaycan xalqına qarşı törədilən cinayətə, qanlı təcavüzə qarşı etiraz səsi ucaldı. Təbii ki, milli-azadlıq istəyi ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə həyata keçirilən bu müdhiş faciə qəlbi Vətən eşqi ilə döyünən xalqın mərd və mübariz oğlunu narahat etməyə bilməzdi. Çünki dahi insan, uzaqgörən şəxsiyyət yaxşı bilirdi ki, bu faciə totalitar kommunist rejiminin Azərbaycan xalqına qarşı hərbi təcavüzü və cinayətidir. Heydər Əliyev hadisənin ertəsi günü Moskvada Azərbaycanın Daimi Nümayəndəliyinə gələrək keçirdiyi mətbuat konfransında bu vəhşiliyi qətiyyətlə pisləməklə yanaşı, onun törəmə səbəblərini də açıqladı, təşkilatçılarının, günahkarlarının adını bütün dünyaya bəyan etdi.

Azərbaycanda baş vermiş hadisələrin hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd olduğunu bildirən Ulu Öndər bəyan etdi ki, ilk növbədə, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin sabiq birinci katibi Vəzirov müqəssirdir. "Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə bərk ayaqda Azərbaycanı qoyub qaçmış Vəzirov xalqı qarşısında məsuliyyət daşımalıdır. Ölkənin ali siyasi rəhbərliyinə yanlış məlumat verənlər də məsuliyyət daşımalıdır. Zənnimcə, ölkənin ali siyasi rəhbərliyinə vəziyyət barədə vaxtında kifayət qədər düzgün, dəqiq, obyektiv informasiyalar çatdırılmamışdır. Rəhbərlik çaşqınlığa salındığından belə qərar qəbul etmişdir. Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır", - deyə Heydər Əliyev bəyan etdi.

Heydər Əliyev bu bəyanatı verməklə ittifaq rəhbərlərinin kəskin təzyiq və təsirlərinə məruz qalacağını gözləri önünə gətirsə də, özünəməxsus qətiyyət və cəsarət nümayiş etdirdi. Həyatının hər an təhlükədə olmasına baxmayaraq, qətiyyətlə dünyaya faciənin hüquqi-demokratik prinsiplərə zidd olduğunu, Azərbaycan xalqına qarşı hərbi təcavüzün SSRİ və Azərbaycan SSR rəhbərliyi tərəfindən həyata keçirildiyini bəyan etdi.

Elə həmin gün Heydər Əliyev Azərbaycan xalqına başsağlığı teleqramı göndərdi. Teleqramda deyilirdi: "Bakı şəhərinə sovet ordusu hissələrinin yeridilməsi ilə əlaqədar xalqımızın başına gəlmiş faciədən - dinc əhalinin qırılmasından böyük ürək ağrısı ilə xəbər tutdum. Bu matəm günündə həlak olanların ailələrinə və yaxınlarına, Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm. Mən düşünülmüş aksiyanı pisləyir, onu antihumanist, antidemokratik, qanunazidd hesab edirəm. Bu ağır gündə sizi ağıllı-kamallı olmağa, həmrəyliyə və birliyə çağırıram".

## İlk hüquqi-siyasi qiymət

Heydər Əliyev 1990-cı ildə Naxçıvana gəldi və həmin ilin payızında keçirilən seçkilərdə Naxçıvan və Azərbaycan parlamentinə deputat seçildi. 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymətin verilməməsi onu ciddi

narahat edirdi. 1990-cı ilin noyabr ayında Ulu Öndərin böyük siyasi nüfuzu sayəsində 20 Yanvar faciəsinə prinsipial qiymət verilməsi məsələsi yenidən gündəliyə gəldi. Bu mənada, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasının noyabrın 21-də keçirilən iclası yadda qaldı. Heydər Əliyev xalq deputatı kimi "1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar layihəsini işləyib Ali Məclisin müzakirəsinə təqdim etdi.

Elə həmin sessiyadakı çıxışında xalqımızın hərbi, siyasi, mənəvi təcavüzə məruz qalmasından narahatlıqla danışan Ulu Öndər Heydər Əliyev ürək yanğısı və qətiyyətlə deyirdi: "Başımıza böyük bəla gəlib, millət əzilib, millətə qarşı təcavüz olub, ancaq indiyə qədər Azərbaycan xalqının həyatında baş vermiş bu faciəli hadisəyə qiymət verilməyib... Bu qədər qanunsuzluğa, demokratiyanın pozulmasına dözmək olmaz. Bu məsələyə biz özümüz siyasi qiymət verməliyik, respublikanın ali hakimiyyət orqanından tələb etməliyik ki, bu məsələyə baxsın və günahkarlar cəzalandırılsın".

Heydər Əliyevin xalqın milli faciəsi ilə bağlı qaldırdığı taleyüklü məsələ xalq deputatları tərəfindən qətiyyətlə müdafiə olunurdu. Ali Məclisin birinci sessiyasında "1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar qəbul edildi.

Qərarda 20 Yanvar hadisələri Azərbaycanın suveren hüquqlarına, dinc əhaliyə, heç bir müqavimət göstərməyən günahsız adamlara, Azərbaycan xalqına qarşı açıq təcavüz kimi qiymətləndirildi. Həmçinin Azərbaycanın ovaxtkı rəhbərliyinin cinayətkar fəaliyyəti bir daha qeyd olunaraq bildirildi ki, Qanlı Yanvar hadisələrinin günahkarlarını üzə çıxarmaq, onu təhlil etmək və siyasi qiymət vermək üçün respublika əhalisinin təkidli tələbinə baxmayaraq, faktiki olaraq faciədən ötən müddət ərzində heç bir tədbir görülməmişdir. Qəribə o idi ki, respublika Ali Sovetinin yanvar hadisələrini təhqiq etməli olan komissiyası da öz işi ilə məşğul olmamışdı. Respublika rəhbərliyinin bu etinasızlığı haqlı olaraq xalqda hiddət və etiraz doğururdu.

Ulu Öndər Heydər Əliyev isə Azərbaycan xalqına qarşı soyqırımı siyasətini həyata keçirməyə rəvac verənlərlə mübarizəsini ona qarşı az qala düşmən mövqedə duran Ali Sovetdə və digər istiqamətlərdə də davam etdirir, böyükdən kiçiyə qədər hər kəsə məlum olan qatillərin hüquqi müstəvidə aşkar olunmasını, faciəyə siyasi qiymətin verilməsini tələb edirdi. Heydər Əliyev Azərbaycan SSR Ali Sovetinin 7 mart 1991-ci il tarixli sessiyasındakı çıxışında deyirdi: "1990-cı il yanvarın 20-də ittifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edilmişdir. Heç bir əsas olmadan, xəbər vermədən, dövlət qanunlarını kobudcasına pozaraq Bakı şəhərinə müasir silahlı sovet ordusunun qoşun hissələri yeridilmiş, onlar vəhşilik, qəddarlıq etmiş, nəticədə nahaq qan tökülmüş, yüzlərlə adam həlak olmuş, xəsarət almış, itkin düşmüşdür. Təəssüf ki, bu təcavüz indiyə qədər davam edir. Bir ildən artıqdır ki, Azərbaycanın paytaxtı fövqəladə vəziyyət şəraitində yaşayır. Bizim sessiyamız da bu şəraitdə keçirilir. Bir ildən artıqdır ki, Azərbaycan xalqı şəhidlərə matəm saxlayır. Respublikanın şəhərlərində, qəsəbələrində, kəndlərində şəhidlərin xatirəsinə abidələr ucaldılır. Fəqət, qatillər indiyə qədər aşkar olunmayıb. Buna heç vəchlə bəraət qazandırmaq olmaz. Bu məsələ müzakirə olunmalıdır. 20 Yanvar faciəsinə Ali Sovetin sessiyası siyasi qiymət verməlidir, onun günahkarlarını müəyyən etməlidir".

Ulu Öndər Heydər Əliyev 1991-ci il iyunun 19-da SSRİ Nazirlər Kabinetinə göndərdiyi məktubunda yazırdı: "Yanvar hadisələrində yüzlərlə adam öldürüldü və şikəst edildi... Artıq il yarım keçib. Nəinki bu dəhşətli cinayətlərin hamıya çoxdan məlum olan günahkarları üzə çıxarılmayıb, əksinə, bunları ört-basdır etmək üçün əllərindən gələni edirlər. Ümid edirlər ki, zaman keçdikcə bu faciə unudulacaq. Ancaq tarix dəfələrlə sübut etmişdir ki, doğma xalqa qarşı yönəldilmiş qanlı cinayətləri on illər keçsə də, unutmaq və bağışlamaq mümkün deyil".

Azərbaycan Respublikası Ali Sovetinin 29 avqust 1991-ci il tarixli sessiyasında çıxışında isə Heydər Əliyev deyirdi: "20 Yanvar faciəsi dövründən il yarımdan çox vaxt keçir. Bu gün burada da, bu salonda cürbəcür söhbətlər gedir. Bir qrup bir fikirdədir, məndən qabaq çıxış edən Rəhimov başqa fikirdədir. Mən sual verirəm, Ali Sovetin sədri Elmira Qafarovaya, Azərbaycan prezidenti Ayaz Mütəllibova: nə üçün indiyə qədər bu məsələyə siyasi qiymət verilməyib? Bu məsələnin həm siyasi tərəfi var, həm hüquqi tərəfi var. Bu məsələyə dərhal siyasi qiymət vermək olardı. O ki qaldı hüquqi cəhəti, ayrı-ayrı adamların məsuliyyətə cəlb olunması, onu şübhəsiz ki, istintaq yolu ilə aydınlaşdırmaq lazımdır. Buna siyasi qiymət verilmədiyinə görə başqa tədbirlər həyata keçirmək mümkün olmur".

Sovet hakimiyyətinin süqutundan, Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsindən sonra da başları hakimiyyət uğrunda mübarizəyə qarışmış siyasətbazlar xalqımıza qarşı törədilmiş bu ağır cinayətin səbəblərinin araşdırılması, ona siyasi-hüquqi qiymət verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində məqsədyönlü iş aparmadılar. Onlar bu məsələdə heç maraqlı da deyildilər, çünki həmin cinayətin törədilməsinin məsuliyyəti bu və ya digər dərəcədə onların da üzərinə düşürdü. Düzdür, həmin dövrdə müxtəlif siyasi platformalardan çıxış edən ayrı-ayrı siyasi partiyalar 20 Yanvar faciəsi ilə bağlı bütün günahları

Moskvanın üzərinə atmağa cəhd göstərmişdi. Amma Ulu Öndər Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıdışına qədər nə A.Mütəllibov, nə də AXC-Müsavat iqtidarı tərəfindən faciəyə siyasi qiymət verilməsi üçün heç bir iş görülmədi.

**(Ardı var)**

**Azərbaycan.** - 2023.- 19 yanvar. - № 12. - S. 7.

# Bakı qırğını – beynəlxalq cinayət

**Elçin Abbasov**

**20 Yanvar faciəsinin 33-cü ildönümü münasibətilə Şəhidlər xiyabanına ümumxalq ziyarəti davam edir. Dünən gün ərzində göyün üzü–buludlarla dolmuşdu. Elə bil, göylər də şəhidlərə yas tuturdu. Şəhidlərin xatirəsini yad etmək üçün xiyabana gələnlərin ardı-arası kəsilmirdi.**

Əvvəlcə ərazidə təmizlik işlərinin necə aparılması ilə tanış olduq. Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) müvafiq qurumlarının əməkdaşları əraziyə döşənmiş səki daşlarını yüksəktəzyiqli su nasosları vasitəsilə təmizləyirdilər. Şəhidlərin məzarlarına qərənfillər düzülürdü. Paytaxtın bütün rayonlarının Mənzil–Kommunal Təsərrüfat Birliyi (MKTB) idarələrinin, Bakı Yaşıllaşdırma Təsərrüfat Birliyinin (YTB) əməkdaşları tərəfindən ümumxalq hüzn gününə hazırlıq işləri xüsusi səliqə və səhmanla aparılırdı.

Xiyabana gələnlər arasında əcnəbi vətəndaşlar da var idi. Şəhidlər xiyabanını ziyarət edən Nigeriya vətəndaşı John Ayomide Arogun 33 il əvvəl xalqımızın başına gətirilən faciə ilə bağlı bildirdi:

–20 Yanvar faciəsi Azərbaycan xalqının həm ümumxalq hüzn günüdür, həm də qəhrəmanlıq salnaməsidir. Mən Bakıda Xəzər Universitetində təhsil almışam. Səkkiz ildir ki, burada yaşayıram. Hər il bu vaxt xiyabana gəlirəm. Şəhidlərin məzarını ziyarət edir, onların ruhuna fatihə oxuyuram. Bilirsiniz, bu, həm çox ağrılı, həm də olduqca acı bir faciədir. Bu, insanlığa qarşı törədilmiş qətliamdır. Mən ilk dəfə 20 Yanvar hadisələri barədə universitetdə təhsil aldığım dövrdə məlumat almışam. Bu, sovet ordusunun Azərbaycan xalqına qarşı törətdiyi amansız qırğındır. Bu cinayəti törədənlər əbədi lənət qazanıb. Sovet imperiyası isə tarixin zibilliyinə atılıb.

Ancaq mən, eyni zamanda, bir şeyə çox sevinirəm ki, Azərbaycan xalqının azadlığını boğmaq mümkün olmayıb. Azadlığa gedən yol bu qanlı-qadalı 20 Yanvar faciəsindən keçsə də, xalq əyilməyib, müstəqilliyini qazanıb.

İndoneziya vətəndaşı Slamet Funata isə 20 Yanvar faciəsi ilə bağlı dedi: –20 Yanvar faciəsi bütün dünyada əks-səda doğurmuşdur. Xarici ölkələrdə sovet ordusunun törətdiyi vəhşiliklər qınanmış, imperiya qüvvələrinin mənfur əməlləri pislənmişdir. Mən özüm xalqların tarixi ilə maraqlanmağı çox sevirəm. Çünki hər bir xalqın tarixində nəsə qiymətli bir örnək tapırsan. Sizin xalqın tarixi isə qəhrəmanlıq salnaməsi ilə zəngindir. Azərbaycan Şərqdə ilk demokratik republika quran dövlətdir. Ötən əsrin əvvəllərində Azərbaycan sovet dövlətinin tərkibinə qatılsa da, əsrin sonunda mübariz xalq ayağa qalxaraq yenidən öz azadlığına qovuşdu. Təəssüf ki, bu azadlıq və istiqlaliyyət Azərbaycan xalqına insanlıq əleyhinə törədilmiş belə bir faciə hesabına başa gəldi.

“Əbədi məşəl” abidə kompleksinin yaxınlığında Pakistan vətəndaşı Mohammed Yassenlə görüşdük. O, 20 Yanvar faciəsinin Azərbaycan xalqına qarşı həyata keçirilmiş soyqırımı aktı olduğunu söylədi. M.Yassen öz fikirlərini belə əsaslandırdı ki, həmin gecə əliyalın dinc Bakı sakinlərini sovet ordusunun güllәbaran etməsi beynəlxalq cinayətdir. O, gecə Sovet əsgərləri qoca-cavan, uşaq-böyük demədən qarşılarına çıxan hər kəsi güllələyiblər: “Mənim bildiyimə görə, onlar hətta xəstəxanalara, təcili yardım maşınlarına belə atəş açmaqdan çəkinməyiblər. Bütün bunlara heç bir don geyindirmək, heç bir halda haqq qazandırmaq mümkün deyil”.

Türkiyədən Bakıya qonaq gələn Atilla Malik isə qəzetimizə bildirdi: “İlk dəfədir Bakıda oluram. O dövrki Sovet rəhbərliyi tərəfindən azəri qardaşlarımızın başına gətirilmiş oyunlardan xəbərdar idim. Bu gün xiyabana gəlib, burada uyuyan şəhidlərin məzarlarını ziyarət etməyi özümə mənəvi borc bilirəm. Bu hadisə baş verərkən mənim 3 yaşım olub. Ancaq valideyinlərim hələ illər öncə mənə bu barədə danışıblar. Bu faciənin ağırlığını bütün Türkiyə də yaşayıb və Azərbaycan xalqının dərdinə şərik çıxıb.

Rafiq Nəsrəddinov adına 39 saylı tam orta məktəbin məllimi Zülfiyə Həsənova dedi ki, Bakı qırğını hər birimizdə çox acı təəssürat doğurur. Bu faciənin üstündən illər keçməsinə baxmayaraq, xalqımız 33 il əvvəlin müsibətini heç vaxt unutmur və unutmayacaq. Mən hər il öz şagirdlərimlə buranı ziyarət edirəm. İstəyirəm ki, yeni nəsil də xalqımızın başına gətirilmiş müsibət barədə ətraflı məlumata malik olsunlar.

Ağdam rayonu 36 saylı tam orta məktəbin müəllimi Nuridə Balakişiyeva dedi: “1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet ordusunun hərbi hissələri Bakı şəhərində öz azadlığını əldə etmək üçün meydanlara çıxan dinc əhaliyə qarşı misli görünməmiş qətliam törədib. 20 Yanvar şəhidləri isə müstəqilliyimizin, ərazi bütövlüyümüzün təmin olunması yolunda canlarından keçiblər. Bizim hər birimizin borcu hər il nəinki faciə baş verən günü, il boyu buranı ziyarət etməkdir”.

Bakı şəhəri Nəsimi rayonu Yusif Mirzəyev adına 44 nömrəli tam orta məktəbin sinif müəllimi Raminə Həsənova özü şəhid ailəsi olduğunu və illər ötsə də, o qanlı gecəni unuda bilmədiyini söylədi: "Bakı soyqırımı baş verən gecə mən uşaq olsam da, baş verənləri yaxşı xatırlayıram. O gecə hər kəs təşviş içində idi. Gecə saatlarında bizə xəbər gəldi ki, əmim oğlu Şərafəddin əsgərlərin açdığı atəş nəticəsində güllə yarası alıb, vəziyyəti ağırdır. Hadisə inşaatçılar metrostansiyasının yaxınlığında baş vermişdi. Gecə ilə valideynlərimizin o çətin şəraitdə hadisə yerinə getməsi bizim üçün çox pis psixoloji travma olmuşdur. Biz o vaxt çox pis psixoloji zərbə aldıq. Mən hər dəfə bura gələndə o hissləri yenidən yaşayıram.

Mənim üçün çox çətindir. Ancaq buna baxmayaraq, hər il yenə də mən şagirdlərimi buraya gətirərək onlara baş vermiş hadisənin xalqımıza qarşı cinayət olduğunu danışıram. Ümumiyyətlə, indi xaiyabanı al rəngə boyayan qərənfillər bir vaxt Azərbaycan xalqının toy mərasimlərinin bəzəyi idi. Ancaq o hadisədən sonra, sanki, qərənfil matəm gülünə çevrildi".

İlyas Əfəndiyev adına Elitar Gimnaziyanın ibtidai sinif şagirdləri də 20 Yanvar şəhidlərini ananlar içərisində idilər. Gimnaziyanın müəllimi Xeyransa Məmmədzadə belə ziyarətlərin məktəblilərdə vəytənpərvərlik hissinin qüvvətlənməsində böyük rol oynadığını diqqətə çatdırdı. Gimnaziyanın ibtidai sinif şagirdi Fateh Rəcəbəlizadə şəhidlərə aid şeir söylədi. Balaca fidan "Biz qəhrəmanlığı onlardan öyrənməliyik" dedi.

Biz xiyabandan ayrılanda izdiham getdikcə sıxlaşır, xiyabana gələnlərin sayı daha da artırdı... Xalq azadlıq məşəli yandırmış şəhidlərinə beləcə sonsuz ehtiramını dərin hüzn və qürur hissləri ilə ifadə edirdi.

**Xalq qəzeti.** - 2023.- 19 noyabr. - № 12. - S. 7.

# Şanlı və şərəfli tarix

**Bəybala Bəybalayev**

**20 Yanvar gününü xatırlayarkən hər birimiz eyni zamanda böyük iftixar hissi keçiririk. Çünki xalqımız həmin təcavüz qarşısında özünün əyilməzliyini, sarsılmazlığını bütün dünyaya sübut etdi.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider.**

1990-cı il Yanvar faciəsinə aparan yol azərbaycanlıların Ermənistandakı tarixi torpaqlarından növbəti kütləvi deportasiyasının, Qarabağın Ermənistana birləşdirilməsi cəhdlərinin geniş vüsət aldığı 1987-ci ildən başlayıb. Artan xətt üzrə davam edən gərginliyin qarşısını almaq əvəzinə, Sovet rəhbərliyi Azərbaycan xalqına qarşı dəhşətli cinayət törədib.

1985-ci ildə SSRİ rəhbərliyinə gəlmiş M.Qorbaçovun Qarabağı müxtəlif vasitələrlə Azərbaycan SSR-in nəzarətindən çıxarmaq və Ermənistan SSR tərkibinə qatmaq, Heydər Əliyevə qarşı böhtan kampaniyasına başlamaqla onu xalqın gözündən salmaq siyasəti və bu siyasəti Azərbaycan Kommunist Partiyasının birinci katibi Ə.Vəzirovun xüsusi canfəşanlıqla həyata keçirməsi Azərbaycan SSR-də 1988-ci ildə milli azadlıq hərəkatının başlanmasına güclü təkan verdi. Bu siyasət, eyni zamanda 1990-cı il 20 Yanvar faciəsinə gətirib çıxartdı.

1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti yanvarın 20-də saat 00-dan etibarən "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verdi. Xalqı qəfildən yaxalamaq, ona divan tutmaq, qırğın törətmək üçün qoşunlardan istifadə ediləcəyi, aman verilməyəcəyi, habelə ən başlıcası fövqəladə vəziyyətin elan olunacağı vaxt gizli saxlanıldı. Xalqa məlumat verilməsin deyə yanvarın 19-da saat 19.27-də Azərbaycan Televiziyasının enerji bloku partladılaraq sıradan çıxarıldı. Fövqəladə vəziyyətin yanvarın 20-də saat 00-dan başlanmasına göstəriş verildiyinə baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat 21:00-da Türkan-Qala tərəfdən şəhərə yeridildi. "Bakı əməliyyatı"na SSRİ müdafiə naziri, marşal D.Yazov şəxsən rəhbərlik edirdi. Bakı qarnizonu qoşunları, gətirilən hərbi hissələr, hərbi gəmilərdən desant, xüsusi cəza dəstələri hücuma keçdi. Ağır hərbi texnika çox asanlıqla barrikadaları dağıtdı. Əsgərlər gözyaşardıcı qazdan istifadə edir, əliyalın adamlara avtomat silahlardan atəş açırdılar. Qaçıb sığınacaqlarda gizlənənlər tanklar üzərindəki projektorların köməyi ilə axtarılıb tapılır, güllələbaran edilirdilər. Hərbçilər təsadüfən yola çıxanları, yaşayış evlərini, təcili yardım maşınlarını, şəhər nəqliyyatını atəşə tutur, yaralıları öldürür, meyitləri yandırır, təhqir edir, adamları tankların tırtılları altına salıb əzabla öldürür, eybəcər hala salırdılar. Şəhərin küçələri öldürülmüş, yaralanmış adamların, qocaların, qadınların, uşaqların qanına qərq olmuşdu. Əsgərlər tibb müəssisələrini mühasirəyə alaraq yaralı mülki şəxslərin buraya gətirilməsinə, habelə tibbi heyətin yaralılara köməyə getməsinə mane olurdular. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə birbaşa Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilib, dinc əhali ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutularaq kütləvi qətlə yetirilib. Sovet ordusunun xüsusi təyinatlı dəstələrinin və daxili qoşunların iri kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklə müşayiət edilib. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirib, 20 nəfəri ölümcül yaralayıb. Fövqəladə vəziyyət elan edildikdən sonra isə bir neçə gün ərzində Bakı şəhərində 21 nəfər öldürülüb. Fövqəladə vəziyyətin elan olunmadığı rayon və şəhərlərdə - yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilib.

Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və ətraf rayonlarda 131 nəfər öldürülüb, 744 nəfər yaralanıb. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milis nəfərləri olub.

Qoşunların qanunsuz yeridilməsi həm də dinc əhali arasında kütləvi həbslərlə müşayiət olunub. Əməliyyatların gedişi boyunca paytaxt Bakı və respublikanın digər şəhər və rayonlarından 841 nəfər qanunsuz həbs edilib, onlardan 112-si SSRİ-nin müxtəlif şəhərlərindəki həbsxanalara göndərilib. Hərbi qulluqçular tərəfindən 200 evə, 80 avtomobilə, o cümlədən təcili yardım maşınlarına atəş açılıb, yandırıcı güllələrin törətdiyi yanğınlar nəticəsində külli miqdarda dövlət və şəxsi əmlak məhv edilib. Azərbaycanlılara qarşı törədilmiş bu cinayət əslində bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş, insan hüquqlarına dair

bir çox beynəlxalq sənədlərin, o cümlədən Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin tələbləri kobudcasına pozulmuş dəhşətli terror aktıdır.

1990-cı il Yanvar qurbanları "20 Yanvar şəhidi" adlanır. Ümumilikdə, Azərbaycanın 150 nəfər "20 Yanvar şəhidi" vardır.

Faciədən dərhal sonra - 1990-cı il yanvarın 21-də ümummilli lider Heydər Əliyev ailə üzvləri ilə birlikdə Azərbaycan SSR-in Moskvadakı Daimi Nümayəndəliyinə gələrək burada təşkil olunmuş, 6 minədək adamın iştirak etdiyi izdihamlı yığıncaqda çıxış etdi, bu ağır günlərdə yaralı, heç yerdən kömək almayan doğma xalqı ilə birgə olduğunu bildirdi. O, çıxışında və verdiyi müsahibələrdə 20 Yanvar faciəsinə siyasi qiymət verdi, əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd, mərkəzin və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi: "...Azərbaycanda baş vermiş hadisələri mən hüquqa, demokratiyaya zidd, humanizmə və ... hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm... Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün zəmin də yaranmazdı. ...Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır!".

Yanvar faciəsi Ümumxalq Hüzn Günü olmaqla yanaşı, həm də Azərbaycan xalqının iradəsinin sarsılmazlığını, mətinliyini göstərdi. Sovet ordusunun amansızlığına və qəddarlığına, Bakıda fövqəladə vəziyyət tətbiq edilməsinə baxmayaraq, Azərbaycan xalqı yanvarın 22-də paytaxtın "Azadlıq" meydanında 20 Yanvar şəhidlərinin dəfni ilə əlaqədar matəm yürüşü keçirib şəhidlər ilə vidalaşdı. Şəhidlər şəhərin ən uca yerində - Dağüstü parkda dəfn edildi. Dəfn mərasimində 2 milyona yaxın insan iştirak etmişdir. Xalqın tələbi ilə Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyası çağırıldı və Bakı şəhərində fövqəladə vəziyyətin ləğv edilməsi haqqında qərar qəbul edildi. Lakin xalqın qəzəbindən qorxuya düşən respublikanın əksər rəhbər vəzifəli şəxsləri həmin sessiyada iştirak etmədi.

1994-cü il martın 29-da ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 20 Yanvar faciəsinə ali qanunvericilik orqanı - Milli Məclis səviyyəsində ilk dəfə hüquqi-siyasi qiymət verilib. Milli Məclisin həmin qərarında deyilir: "Azərbaycanda vüsət tapmış milli azadlıq hərəkatını boğmaq, demokratik və suveren bir dövlət yaratmaq amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və belə bir yola qədəm qoyan hər hansı xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə 1990-cı il yanvarın 20-də Sovet Silahlı Qüvvələrinin Bakı şəhərinə və respublikanın bir neçə rayonuna yeridilməsi, nəticədə haqq və ədalətin müdafiəsi naminə küçələrə çıxmış silahsız adamların qəddarcasına qətlə yetirilməsi Azərbaycan xalqına qarşı totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirilsin".

Ulu öndər Heydər Əliyevin fərmanı ilə yanvar ayının 20-si isə Azərbaycanda Ümumxalq Hüzn Günü elan edilib.

2006-cı il yanvarın 19-da ölkə başçısının fərmanı ilə 20 Yanvar şəhidlərinin ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilib. Dövlət başçısının Şəhidlər Xiyabanı kompleksinin yenidən qurulması ilə bağlı sərəncamı Vətən şəhidlərinin xatirəsinə ehtiramın daha bir nümunəsinə çevrildi. 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində daha bir addım metronun "20 Yanvar" stansiyasının üzərindəki dairədə xatirə kompleksinin yaradılması oldu. 2010-cu il yanvarın 20-də Bakıda "20 Yanvar" dairəsində memorial abidə-kompleksinin açılışı şəhidlərimizə verilən dəyərin bariz nümunəsidir. Milli birlik və vətənpərvərliyin simvoluna çevrilmiş 20 Yanvar faciəsi xalqımızın suverenliyi uğrunda apardığı mübarizənin şərəfli tarixidir. Azərbaycan xalqı 20 Yanvar şəhidlərinin xatirəsini əziz tutaraq hər il faciənin ildönümü izdihamlı ziyarətlərlə müşayiət edir, xalq istiqlal fədailərinin məzarlarına faciənin simvoluna çevrilmiş al qərənfillər düzür, onları qürurla anır, qatillərini lənətləyir, bu faciəni törədənlərə dərin nifrətini bildirir.

Hər il yanvarın 20-də Bakı vaxtı ilə saat 12:00-da Azərbaycanın bütün ərazisində 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunur, gəmilərdən, avtomobillərdən və qatarlardan səs siqnalları verilir, hüzn əlaməti olaraq dövlət bayraqları endirilir.

1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Əksinə, xalq daha da mətinləşdi və düşmənin gözünə dik baxdı. Həmin müdhiş gecədə həlak olan Vətənin oğul və qızları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar. Məhz buna görə də, 20 Yanvar faciəsi xalqımızın azadlıq mübarizəsinin rəmzidir.

Bəli, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin məqsədyönlü siyasəti və qətiyyəti, xalqımızın vəhdəti və Silahlı Qüvvələrimizin rəşadəti nəticəsində 30 ilə yaxın əsirlikdə olan doğma torpaqlarımız azad olundu. 44 günlük Vətən müharibəsi dövründə cəbhənin bütün istiqamətlərində düşməni darmadağın edən qəhrəman əsgər və zabitlərimizin qanı bahasına ölkəmizin ərazi bütövlüyü bərpa olundu. Xalqımız qəhrəmanlıq

ənənələrinə sadiqliyini nümayiş etdirməklə yanaşı, Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından belə keçməyə hazır olduğunu bir daha sübut etdi.

Müstəqilliyimiz və torpaqlarımızın bütövlüyü uğrunda mübarizədə qurban getmiş şəhidlər heç vaxt yaddan çıxmayacaq, unudulmayacaq. Onlar xalqın azadlığı yolunda canlarından keçməklə əbədiyyətə, xalqımızı isə azadlığa qovuşdurdu. Bu, bir tarixdir. Qanlı, amma şanlı və şərəfli bir tarix.

**Respublika**. - 2023.- 19 yanvar. - № 12. - S. 8.

# Milli iradəmizin zəfəri

**Mustafa Kamal**

**20 yanvar 1990-cı il həm ümumxalq faciəsi, həm də müstəqillik, istiqbal uğrunda xalqımızın apardığı milli azadlıq hərəkatının mühüm hadisəsi kimi Azərbaycan tarixinin şanlı səhifəsinə çevrildi. Azərbaycan xalqının milli yaddaşına "Qara Yanvar", "Qanlı Yanvar" və ya sadəcə "20 Yanvar" faciəsi kimi həkk olunan o müdhiş yanvar gecəsindən bizi tam 33 il ayırır. Həmin gün Bakı şəhəri və digər rayonlarımıza ordu yeridilməsi və dinc əhalinin amansızlıqla qətlə yetirilməsi bəşəriyyətə qarşı yönəlmiş bir cinayət idi.**

Ötən bu müddət ərzində ölkəmiz müstəqillik qazanmış, xalqımız özünün müstəqil dövlətini qurmuş və böyük inkişaf yolu keçərək dünya ölkələri sırasında özünəməxsus şərəfli yer tutmuşdur. Bu müddətdə amansız qətliam nəticəsində dünyasını dəyişən oğul və qızlarımızın xatirəsi daim xalqımız və dövlətimiz tərəfindən əziz tutulmuş, hər il insanlar kütləvi şəkildə Şəhidlər Xiyabanına axın edərək azadlıq və müstəqillik yolunda canını fəda etmiş qəhrəman şəhidlərimizi ehtiramla yad etmişdir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin məqsədyönlü siyasəti və qətiyyəti, xalqımızın vəhdəti, Silahlı Qüvvələrimizin rəşadəti nəticəsində 30 ilə yaxın əsirlikdə qalan doğma torpaqlarımız işğaldan azad olundu. 44 günlük Vətən müharibəsi dövründə cəbhənin bütün istiqamətlərində düşməni darmadağın edən qəhrəman əsgər və zabitlərimizin qanı bahasına ölkəmizin ərazi bütövlüyü bərpa olundu. Sadalananlar xalqımızın qəhrəmanlıq ənənələrinə sadiqliyini nümayiş etdirməklə yanaşı, Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından belə keçməyə hazır olduğunu bir daha sübut etdi. Azərbaycan dövləti 1993-cü ildən başlayaraq 20 Yanvar hadisəsinə, onun tarixi və ictimai-siyasi mahiyyətinə daim xüsusi önəm vermiş, Yanvar şəhidlərinin xatirəsini uca tutmaqla onların xüsusi statusunu diqqətdə saxlamış, şəhidlərin ailələrinə və yaxınlarına həmişə qayğı göstərmişdir.

Sovet qoşunlarının ölkəmizin ərazisinə qanunsuz yeridilməsi nəticəsində Bakıda və rayonlarda 146 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdur. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomobil, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdir. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milis əməkdaşları olmuşdur. Qara Yanvar faciəsi nəticəsində SSRİ Konstitusiyası və Azərbaycan SSR Konstitusiyası kobudcasına pozulmuş, Azərbaycan Respublikasının suveren hüquqları tapdalanmışdır. Qabaqcadan hazırlanan bu təcavüzkarlıq aktı Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq, xalqı təhqir edərək ona mənəvi zərbə vurmaq məqsədi daşımışdır. Qanlı Yanvar hadisələri azərbaycanlıların milli kimliyinin yaranmasına böyük təsir göstərdi, xalq müstəqil dövlət qurulması tələbi ilə ayağa qalxdı. 20 Yanvar hadisələrinin Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə həm rəmzi mənası, həm də fenomenal rolu oldu. Bu faciənin yaratdığı ictimai-siyasi reallıq süqutu yaxınlaşan SSRİ-də və soyuq müharibənin bitməsi ərəfəsində beynəlxalq arenada formalaşan geosiyasi situasiya fonunda əvvəlcə Azərbaycan SSR-də, sonra müstəqil Azərbaycanda zəncirvari tarixi proseslərə təkan verdi. Məhz buna görə də 20 Yanvar faciəsi xalqımızın azadlıq mübarizəsinin rəmzi hesab edilir.

Azərbaycan xalqının başına gətirilən bu qanlı faciəyə ilk siyasi-hüquqi qiymət verən şəxs ulu öndər Heydər Əliyev oldu. Ulu öndər Heydər Əliyev Bakıya qoşun yeridən SSRİ rəhbərliyinin qərarını kəskin tənqid etdi və bunu təcavüz adlandırdı. Faciədən dərhal sonra - 1990-cı il yanvarın 21-də ümummilli lider Heydər Əliyev ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək doğma xalqı ilə həmrəy olduğunu, SSRİ rəhbərliyinin törətdiyi bu qanlı əməliyyata kəskin etirazını bildirib və həmin əməliyyata rəhbərlik edənləri ifşa edib: "...Azərbaycanda baş vermiş hadisələri mən hüquqa, demokratiyaya zidd, humanizmə və ... hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm... Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün zəmin də yaranmazdı ...Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır!".

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsinə ilk siyasi qiymət verən 21 noyabr 1990-cı il tarixli qərar qəbul etdi. 7 mart 1991-ci il tarixdə Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında çıxış edən xalq deputatı Heydər Əliyev 20 Yanvar hadisəsini növbəti dəfə çox sərt şəkildə şərh edib: "...1990-cı il yanvarın 20-də İttifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edilmişdir. Heç bir əsas olmadan, xəbər vermədən, dövlət qanunlarını

kobudcasına pozaraq Bakı şəhərinə müasir silahlı sovet ordusunun qoşun hissələri yeridilmiş, onlar vəhşilik, qəddarlıq etmiş, nəticədə nahaq qan tökülmüş, yüzlərlə adam həlak olmuş, xəsarət almış, itkin düşmüşdür". Heydər Əliyev qatillərin aşkarlanması məsələsini yenidən qaldırıb, 20 Yanvar faciəsinə Ali Sovetin sessiyasının qiymət verməli olduğunu vurğulayıb.

Qanlı Yanvar faciəsi ilə bağlı Heydər Əliyev tərəfindən verilən kəskin bəyanat artıq Azərbaycan tarixində yeni siyasi dövrün başlanmasını bildirirdi. Heydər Əliyevin növbəti sərt addımı isə SSRİ Nazirlər Sovetinin partiya təşkilatına ünvanladığı 19 iyul 1991-ci il tarixli ərizəsidir. O, kommunist partiyası sıralarından çıxmasına dair bu ərizəsində kommunist rejiminin ölkəni uçuruma apardığını, SSRİ-nin dağılmasının labüdlüyünü açıq bəyan etmişdi. Heydər Əliyev bu müraciətdə 20 Yanvar hadisəsi ilə bağlı qeydlərində bildirirdi: "Bu antihumanist, konstitusiyaya və hüquqazidd hərəkəti ittiham edərkən Sov. İKP və Azərbaycan KP MK-nın bu cinayətin üstünü açacağına və günahkarları üzə çıxaracağına ümid edirdim. Artıq yarım il keçib. Nəinki bu dəhşətli cinayətlərin hamıya çoxdan məlum olan günahkarları üzə çıxarılmayıb, əksinə, bunları ört-basdır etmək üçün əllərindən gələni edirlər. Ümid edirlər ki, bu faciə unudulacaq. Ancaq tarix dəfələrlə sübut etmişdir ki, doğma xalqa qarşı yönəldilmiş qanlı cinayətləri on illər keçsə də, unutmaq və bağışlamaq mümkün deyil". Beləliklə, 1991-ci ilin iyulunda Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk edib. Məhz ulu öndərin təşəbbüsü ilə 1994-cü il mart ayının 29-da Milli Məclisdə "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciələr haqqında" qərar qəbul edildi. Heydər Əliyevin fərmanı ilə 1998-ci ildə "20 Yanvar Şəhidi" fəxri adı təsis edildi.

"Şəhidlər ölmür, onlar bizim qəlbimizdə əbədi yaşayırlar", - deyən Azərbaycan Prezidenti İlham Əliyev də 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsini, adlarının uca tutulmasını, o cümlədən onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsini daim diqqət mərkəzində saxlayır, ölkəmizdə bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir. 2006-cı il yanvarın 19-da ölkə başçısının Fərmanı ilə 20 Yanvar şəhidlərinin ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilib. Dövlət başçısının Şəhidlər Xiyabanı kompleksinin yenidən qurulması ilə bağlı Sərəncamı Vətən şəhidlərinin xatirəsinə ehtiramın daha bir nümunəsidir. 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində daha bir addım metronun "20 Yanvar" stansiyasının üzərindəki dairədə xatirə kompleksinin yaradılması oldu. 2010-cu il yanvarın 20-də Bakının Yasamal rayonundakı "20 Yanvar" dairəsində memorial abidə kompleksinin açılışı şəhidlərimizə verilən dəyərin bariz nümunəsidir.

Milli birlik və vətənpərvərliyin simvoluna çevrilmiş 20 Yanvar faciəsi xalqımızın öz suverenliyi uğrunda apardığı mübarizəsinin şərəfli tarixidir. Hər il faciənin ildönümündə milyonlarla insan Şəhidlər Xiyabanını ziyarət edir, qəhrəmanlarının xatirəsini anır.

**Respublika.** - 2023.- 19 yanvar. - № 12. - S. 8.

**"20 Yanvar müstəqilliyə gedən yolun başlanğıcıdır"**

**Musa Qasımlı**: "Heç bir güc milli iradədən üstün deyil

**Əli Zülfüqaroğlu**

***Qanlı 20 Yanvar hadisəsindən 23 il ötür. Bəşəriyyətə qarşı cinayət olan 20 Yanvar hadisəsi xalqımızın qan yaddaşında əhədi qalacaq.***

Millət vəkili, tarixçi alim Musa Qasımlı "Xalq Cəbhəsi"nə müsahibəsində 20 Yanvara aparan yolla bağlı tarixi faktlara toxundu. Onun sözlərinə görə, tarixi mənbələr sübut edir ki, Qarabağ bölgəsinin heç bir zaman Ermənistan tərkibində və erməni kütləsinin təsiri altında olmamasına baxmayaraq, Ermənistan SSR onu ələ keçirmək üçün müxtəlif zamanlarda əsassız iddialar irəli sürüb və boşa çıxıb. Lakin 1985-ci ilin martında Mixail Qorbaçov SSRİ rəhbəri seçildikdən sonra bu iddialar daha da artdı. M.Qasımlı əlavə etdi ki, Ermənistan rəhbərliyi və erməni ictimai xadimləri 1923-cü ildə süni şəkildə yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətini ələ keçirmək məqsədlərinə çatmaq üçün ilk növbədə Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin üzərinə total böhtan dolu hücuma keçdilər. Onların istəkləri həyata keçirildi. Heydər Əliyev 1987-ci il oktyabrın 21-də keçirilən Sov.İKP MK plenumunda vəzifəsindən azad edildi. Bundan bir neçə gün sonra Mixail Qor- baçovun iqtisadiyyat məsələləri üzrə müşaviri Abel Aqanbekyanın Parisdə "İnterkon- tinental" oteldə yerli erməni nümayəndələri qarşısında etdiyi çıxışında Azərbaycanın Dağlıq Qarabağ regionunun əlaqəsini nəzərə alaraq Ermənistana birləşdirilməsi barədə sovet rəhbərinin razılığını aldığını bildirdi: "Noyabrın 18-də "Humanite" qəzetində və tezliklə digər xarici ölkələrdəki ennəni mətbuatı və radiostansiyalarının başlıca mövzusuna çevrilən bu bəyanatın ardınca Ermənistanın əsassız ərazi iddialan artdı''.

***Mərkəzi hakimiyyət orqanları qarşısında əsassız tələblər***

Millət vəkili diqqətə çatdırdı ki, ennanilərin nümayəndələri 1987-ci ilin noyabrında Moskvaya gedərək mərkəzi hakimiyyət orqanları qarşısında əsassız tələblərini irəli sürdülər: "Elə həmin ayda Ermənistanın Qafan və Meğri rayonlarında azərbaycanlılara edilən hücumlar nəticəsində yüzlərlə azərbaycanlı qaçqına çevrilərək Azərbaycana gəldi.

Ermənistandan nümayəndələr 1988-ci ilin fevral ayında da Moskvaya səfər edərək sovet orqanları qarşısında tələblərini irəli sürdülər. Bundan az sonra həmin ilin fevralın 11-də Stepanakertdə mitinqlər və mövcud konstitusiya quruluşu əleyhinə fəaliyyətlər başladı. Bu fəaliyyətlər Ermənistanda və muxtar vilayətdə azərbaycanlılara qarşı zorakılıq, hücumlar, bir müddət sonra isə azərbaycanlı qaçqın və məcburi köçkünlərin axını ilə müşayiət olundu. Ermənistandan gəlib Azərbaycanın Dağlıq Qarabağ regionunda təbliğat aparanQarabağ" və "Krunk" təşkilatlarının fəalları iki xalq arasında düşmənçilik toxumlan səpir, separatçılığı qızışdırırdılar.

Azərbaycan cəmiyyətinin doğurmadığı Dağlıq Qarabağ münaqişəsi Ermənistan SSR- in digər bir müttəfiq sovet respublikası olan Azərbaycanın daxili işlərinə bilavasitə kobud müdaxiləsinin nəticəsi idi. Belə ki, 80-ci illərin ortalarından etibarən Ermənistanda bir çox müəssisə və kooperativlər yanmleqal şəraitdə odlu silah, partlayıcı maddələr istehsal edərək Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə göndərir, sovet Ermənistanı rəhbərlərinin himayəsi altında qanunsuz silahlı birləşmələri silah və sursatla, rabitə vasitələri, o cümlədən, nəqliyyatla təmin edirdilər".

***"Münaqişənin başlanmasına SSRİ-də gedən bir sıra daxili amillər təsir etdi"***

M.Qasımlı diqqətə Çatdirdi ki, münaqişənin başlanmasına SSRİ-də gedən bir sıra daxili amillər təsir etdi: "Ətrafındakı erməni xadimlərinin təsiri altında olan Qorbaçov yenidənqurma, aşkarlıq və demokratikləşdirmə siyasətini həyata keçirə bilmədiyi üçün yerlərdə günahkarlar axtarmağa və onları cəzalandırmağa cəhdlər edirdi.

SSRİ-nin dağılmasında maraqlı olan bəzi Qərb dövlətləri də milli münasibətləri qızışdırırdılar. Onlar belə hesab edirdilər ki, Qorbaçovu islahatları aparmağa təhrik etməlidirlər, lakin elə olmalıdır ki, bu islahatlar uğursuz olsun, insanlar bunun günahını ideoloji baxımdan ölkəni ayaqda saxlayan Kommunist Partiyasında

görsünlər, iqtisadi cəhətdən vahid təsərrüfat zəncirində birləşən ölkədə təsərrüfat dağılsın, rəhbərlik dinc əhaliyə qarşı zor tətbiq etsin. Bu baxımdan ABŞ Prezidenti Riçard Niksonun xatirələri diqqəti cəlb edir. O yazırdı ki, Fransa Prezidenti Fransua Mitteranm fikrincə, Qərb Qorbaçovun hakimiyyətdə qalmasında maraqlı idi. İslahatları yalnız uğurlu olacağı təqdirdə Qorbaçov hakimiyyətdə qala bilərdi. Niksonun fikrincə, buradan belə bir nəticə çıxırdı ki, Qərb ölkələri Qorbaçova yardım etməli ıdı. Lakın Nikson Mitteranm bu mövqeyi ilə razılaşmırdı. O, Qərbin Qorbaçov qarşısında altı şərt irəli sürməsini uyğun görürdü: SSRİ-də azad bazar iqtisadiyyatının tətbiq edilməsi; Şərqi Avropa ölkələrinin tam müstəqilliyə nail olması; NATO ilə Varşava Müqaviləsi Təşkilatı ölkələri arasında adi silahlara dair tarazlığın yaradılması; SSRİ və ABŞ arasında strateji hücum silahlarına dair real sazişin bağlanması; Qorbaçovun üçüncü dünya ölkələrinə qarşı təcavüzkarlıqdan imtina etməsi; Sovet İttifaqında insan hüquqlarına hörmət edilən, xalqın azad seçkilərdə iradəsini ifadə edə bilən siyasi qaydanın yaradılması. Niksonun fikrincə, əgər Qorbaçovun islahatları uğurlu olardısa, aşkarlıq SSRİ-də siyasi plüralizmə gətirərdisə, onda amerikalılar güman ki, XXI əsrdə Berinq boğazının o biri sahilində ABŞ-dan fərqlənməyən bir fövqəldövlət görərdilər. Əgər bu islahatlar kommunist rejiminin iki ayaq üstə durmasına kömək edərdisə, onda növbəti yüzillikdə ABŞ daha güclü, özünə inamlı və təhlükəli bir rəqiblə üz-üzə qala bilərdi. Sovet İttifaqını demokratik və güclü bir dövlət kimi görməkdə maraqlı olmayan bu ölkələr Sovet İttifaqını daha tez dağıtmağın yolunundən zəif həlqə olan milli münasibətlərin kəskinləşdirilməsindən keçdiyini gözəl bilirdilər".

### *Qorbaçovun ermənilәri ruhlandıran çıxışı*

Millət vəkili vurğuladı ki, 1988-ci il fevralın 18-də etdiyi çıxışında Qorbaçov SSRİ-də milli münasibətlər məsələsinə baxılmasının vacibliyini söylədi: "Bu çıxış erməniləri daha da ruhlandırdı. Onlar fevralın 20-də DQMV Xalq Deputatları Sovetinin iclasını keçirdilər. Sovetin. tərkibindəki 140 deputatdan 110-u erməni, qalanları isə azərbaycanlılar idi. Azərbaycanlı deputatlar yığıncağa buraxılmadılar. Vilayətin ennəni icmasının nümayəndələri DQMV-nin Azərbaycan SSR-dən Ermənistan SSR-ə verilməsi haqqmda Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetlərinə müraciət etmək haqqında qərar qəbul etdilər. Bu, Azərbaycan ilə Ermənistan arasında münasibətləri daha da gərginləşdirdi.

Ermənistandan azərbaycanlıların vəhşicəsinə qovulmasına başlandı. Azərbaycana ilk qaçqınlar gəlməyə başladı. Qafandan qovulan 70 nəfər fevralın 21-də Azərbaycan KP MK-nm qəbul otağına gələrək Ermənistanda yaşamağın mümkün olmadığını söylədilər. Onları qəbul edən məsul işçilər bu barədə Ermənistan rəhbərliyinə müraciət etməyi məsləhət bildilər. Ermənistanda isə azərbaycanlıları dinləmək istəmir, tarixi torpaqlanndan zorla çıxarırdılar.

Sov.İKP MK fevralın 21-də "Dağlıq Qarabağda hadisələr haqqında" qərar qəbul etdi. Vilayətdə yaranmış vəziyyətin siyasi cəhətdən ciddi qiymətləndirildiyi qərarda qeyd edilirdi ki, bu regionda milli-ərazi quruluşunun dəyişdirilməsi hərəkətləri və tələbləri Azərbaycan və Ermənistan zəhmətkeşlərinin maraqlarına ziddir, millətlərarası münasibətlərə ziyan vurur, məsuliyyətli qərarlar qəbul edilməsə, çətin düzələn nəticələrə gətirə bilər. Qərarda bütün bunların hamısının ekstremist əhval-ruhiyyəli şəxslərin məsuliyyətsiz çağırışlarına yerli partiya və sovet orqanlarının gözləmə mövqeyinin nəticəsi olduğu göstərilirdi. Sov.İKP MK vəziyyəti normallaşdırmaq üçün bütün məsuliyyəti Azərbaycan və Ermənistan KP MK-nm və şəxsən MK-nm birinci katiblərinin üzərinə qoyur, vilayətin sosial-iqtisadi inkişafına dair tədbirləri işləyib hazırlamaq tapşırdı...".

### *Tökülən ilk qan*

M.Qasımlı söylədi k, Azərbaycan KP M K Bürosu fevralın 22-də bu qərarı müzakirə edərək bəyəndi və vəziyyəti normallaşdırmaq işini Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinə tapşırdı: "Vilayətin sosial-iqtisadi inkişafı üçün tədbirləri hazırlayıb Azərbaycan KP MK-ya təqdim etmək göstərişi verildi: "Əhali arasında təbliğat işləri aparmaq tövsiyə edildi. Mətbuat, radio və televiziyanın imkanlarından istifadə edərək erməni və Azərbaycan xalqı arasında dostluğun təbliği vacib sayıldı.

Lakin bu qərarlar yerinə yetirilməmiş ilk qan töküldü. Xankəndi-Ağdam avtomobil yolunun üstündə yerləşən Əsgəran qəsəbəsi yaxınlığında erməni silahlılar DQMV Xalq Deputatları Sovetinin ayrılma barədə qərarına qarşı etiraz edən dinc azərbaycanlılara fevralın 22-də atəş açdılar. İki azərbaycanlı gənc həlak oldu. Onlar münaqişənin ilk qur-banlan idi. Beləliklə, Ermənistanın Azərbaycanın daxili işlərinə müdaxiləsinin ilk konkret nəticəsi Əsgəranda iki azərbaycanlının öldürülməsi oldu...".

*Ermənistandan azərbaycanlıların kütləvi qovulması*

Millət vəkili dedi ki, Ermənistandan azərbaycanlıların qovulması artıq kütləvi hal almışdı: "Qaçqınlar Azərbaycanın müxtəlif rayonlarına, xüsusən Bakı və Sumqayıt şəhərlərinə üz tuturdular. Ermənistandan qovularaq evsiz-eşiksiz qalan və yaşamaq üçün imkanları olmayan insanlar dövlət orqanlarından hüquqlarının qorunmasını tələb edirdilər. Əsgəranda iki nəfər azərbaycanlının öldürülməsi əhalini daha da hiddətləndirmişdi. Onlardan fərqli olaraq ermənilər Azərbaycanda yaşayır və işləyirdilər.

Yaranmış gərgin vəziyyətdə 1988-ci il fevralın 26-28-də Sumqayıtda sovet rəhbərliyinin və Ermənistan xüsusi xidmət orqanlarının, terror-siyasi təşkilatlarının təşkil etdiyi qanlı iğtişaş baş verdi. Bununla sovet rəhbərliyi Azərbaycana təzyiq etmək, Ermənistan rəhbərliyi isə azərbaycanlıların və ermənilərin bir yerdə yaşamasınm mümkün olmadığını göstərmək istəyirdi.

Azərbaycan hakimiyyətinin vəziyyəti sabitləşdirmək səylərinə baxmayaraq, Ermənistanın kobud müdaxilələrini dayandırmaq mümkün olmurdu. Millətçi əhval-ruhiyyəli şəxslərin Ermənistandan DQMV-nin bir sıra rayonlarına gələrək regionun Azərbaycan SSR-in tərkibindən çıxarılması üçün yüksək dairələrə müraciət etmək və Ermənistan SSR və DQMV-dən Moskvaya nümayəndə göndərmək məqsədilə kütləvi imza toplamaq kimi qızışdırıcılıq fəaliyyəti ilə məşğul olurdular...

*Dağlıq Qarabağ regionunda fövqəladə vəziyyət*

Azərbaycan tərəfinin vəziyyəti normallaşdırmaq cəhdlərinə baxmayaraq, Ermənistan kobud müdaxilələrini davam etdirirdi.

İrəvanda çap edilən məqalələrin bəzilərində müəlliflər bu və ya başqa şəkildə Azərbaycan SSR-in bəzi rayonlarının guya Ermənistana məxsus əzəli torpaqlar olduğunu əsaslandırmağa cəhd edir, erməni əhalisinin müəyyən hissəsində "tarixi ədalətin bərpası" zəruriliyi fikrini formalaşdırırdılar.

İyul ayının əvvəllərindən etibarən İrəvanda və Ermənistanın digər şəhərlərində kütləvi mitinqlər keçirildi. Bu mitinqlərlə təxminən eyni vaxtda, 1988-ci il iyulun 12-də DQMV Xalq Deputatları Soveti bölgənin Azərbaycan SSR- dən birtərəfli qaydada ayrılmasına dair qərar qəbul etdi. Buna cavab olaraq iyulun 13-də Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti SSRİ və Azərbaycan SSR konstitusiyalarına, eləcə də Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayəti haqqmda qanununa əsaslanaraq DQMV Xalq Deputatları Sovetinin vilayətin Azərbaycan SSR-dən birtərəfli qaydada ayrılmasına dair DQMV Xalq Deputatları Sovetinin 12 iyul tarixli qərarının qanunsuz olduğuna və heç bir hüquqi qüvvəsi olmadığına dair qətar qəbul etdi.

SSRİ Ali Sovetinin Rəyasət Heyəti 1988-ci il iyulun 18-də Ermənistan SSR və Azərbaycan SSR Ali Sovetlərinin Dağlıq Qarabağ haqqmda məsələ üzrə qərarları barədə qərar qəbul etdi. Qərarda Ermənistan ilə Azərbaycan arasmda konstitusiya əsasında müəyyənləşdirilmiş milli-ərazi bölgüsünün dəyişdirilməsinin yolverilməzliyi bildirilərək göstərilirdi ki, SSRİ konstitusiyasının 78-ci maddəsinə əsasən müttəfiq respublikanın ərazisi onun razılığı olmadan dəyişdirilə bilməz. Müttəfiq respublikalar arasmda sərhədlər müvafiq respublikaların qarşılıqlı razılığı və SSRİ-niıı ali orqanlarının təsdiqi nəticəsində mümkün ola bilərdi. Bu müddəa Ermənistan SSR və Azərbaycan SSR konstitusiyalarında da əksini tapmışdı.

Beləliklə, Ermənistan SSR-in Dağlıq Qarabağ bölgəsini Azərbaycan SSR-dən qopararaq tərkibinə qatmaq məqsədilə başladığı açıq müdaxilə SSRİ konstitusiyasının kobud şəkildə pozulması ilə müşayiət olunduğundan hüquqi nəticə doğurmadı. SSRİ Ali Sovetinin Rəyasət Heyəti həmin iddialan rədd etdi.

Buna baxmayaraq, DQMV-də müəssisələr işləmirdi. Az sonra vilayətdə milli zəmində toqquşmalar baş verdi. Qanlı toqquşmalaıın qarşısını almaq üçün 1988-ci il iyulun 28-də Azərbaycanuı Dağlıq Qarabağ regionunda fövqəladə vəziyyət elan edildi...".

*Kütləvi qovulma*

Millət vəkili dedi ki, Ermənistandan azərbaycanlılar' vəhşicəsinə qovulması davam edirdi: "Kütləvi qovulma ölüm və zorakılıq hallan ilə müşayiət olunurdu. Azərbaycan SSR prokurorluğunun məlumatına görə, 1988-1989-cu illərdə münaqişə zəminində 216 nəfər azərbaycanlı öldürülmüşdü. Onlann əksəriyyəti uşaqlar, qadınlar və yaşlı adamlar idi. Kütləvi zorakılıq və talanlar dövründə erməni hərbiləşdirilmişqruplaşmaları xüsusi qəddarlığı ilə seçilirdilər. Münaqişənin gedişində azərbaycanlılar yaşadıqları 172 kənddən qovuldular. Bütövlükdə münaqişənin gedişində Ermənistan ərazisindən 185 min 519 nəfər və ya 40897 azərbaycanlı ailə qovuldu. Onlann hamısı əmlaksız və evsiz-eşiksiz qaldılar. Ermənistanda azərbaycanlılara məxsus bütün tarixi

yer adları dəyişdirilərək erməniləşdirildi. Sonralar, 1991-ci il aprelin 9-da Ermənistan Respublikası Ali Soveti Rəyasət Heyətinin qəbul etdiyi qərar ilə azərbaycanlılara məxsus 94 kəndin də adı dəyişdirildi. Ermənistanda azərbaycanlılara məxsus tarix və mədəniyyət abidələri, məzarlar və məscidlər tamamilə dağıdıldı, yerlə yeksan edildi. Beləliklə, Ermənistan zorakılıqla azərbaycansızlaşdııldı, türksüzləşdirildi və başdan-başa erməniləşdirildi.

Vilayətdə də azərbaycanlılara qarşı zorakılıq dayanmırdı. Ermənistan SSR Ali Soveti Azərbaycanın daxili işlərinə müdaxiləni davam etdirərək yanvarın 9-da Dağlıq Qarabağı 1990-cı il iqtisadi planına daxil etdi. Bu isə Azərbaycan ilə Ermənistan arasında münasibətləri daha da pisləşdirdi.

Azərbaycanda ictimai-siyasi vəziyyət kəskinləşdi. 1990-cı il yanvarın 10-da SSRİ Ali Sovetinin Rəyasət Heyəti "Dağlıq Qarabağ barəsində Ermənistan SSR Ali Sovetinin 1989- cu il dekabrın 1-də və 1990-cı il yanvarın 9-da qəbul etdiyi qərarların SSRİ konstitusiyasına uyğun olmaması haqqında" qərar qəbul etdi. Qərarda Azərbaycan SSR-in razılığı olmadan Ermənistan SSR ilə Dağlıq Qarabağın yenidən birləşdirilməsinin qanunsuz olduğu bildirilirdi. Buna cavab olaraq Ermənistan SSR Ali Soveti respublikasında yalnız Ermənistan qanunlarının qüvvədə olduğunu bildirdi.

Mərkəzi hökumətin azərbaycanlıların etirazlarına məhəl qoymaması və hüquqlarını qora- maması nəticəsində Azərbaycanda vəziyyətdaha da pisləşdi. Uğursuzluqlar daxili siyasi sa- bitsizliyə və böhrana gətirib çıxardı. Bakıda mitinqlər ara vermirdi. Əhali Ermənistanın müdaxiləsini dayandırmağı, Dağlıq Qarabağ regionunda vəziyyəti normallaşdırmağı, Ermənistandan qovulan adamların problemlərinin həllini tələb edirdi. Xalqdan ayrı düşmüş Azərbaycan hakimiyyəti isə bunları yerinə yetirməyə qadir deyildi. Hakimiyyət orqanları iflic hala düşmüşdü. Respublikanın paytaxtında vəziyyət nəzarətdən çıxırdı. Azərbaycanın bölgələrində də vəziyyət gərginləşmişdi. Bir neçə rayonda Azərbaycan Xalq Cəbhəsinin fəalları hakimiyyət orqanlarını ələ keçirdilər. Yanvarın 11-12-də Lənkəranda mitinqçilər Azərbaycan KP şəhər partiya komitəsinin və yerli radiostansiyanın binalarını tutdular.. Qoşun hissələrinin şəhərə girməsinə haqq qazandırmaq üçün sovet xüsusi xidmət orqanları təxribat törədərək yanvarın 13-də Bakıda yaşayan bəzi ermənilərə qarşı zorakılıq hərəkətlərini təşkil etdilər. Yanvann 17-dən etibarən Azərbaycana əlavə sovet hərbi hissələri gətirilməyə başlandı. Azərbaycana yeridilən sovet əsgərlərinin sayı artıq yanvanıı 19-da 24 min nəfərə çatmışdı. Azərbaycan xalqı sovet qoşun hissələrinin qarşısında küçələrdə əliyalın qalmışdı".

Bəşəriyyətə və insanlığa qarşı ağır cinayətMillət vəkili əlavə edib ki, 1990-cı il yanvanıı19-dan 20-nə keçən gecə Azərbaycan televiziyasının enerji bloku partladıldı: "Bu addımı atmaqla Mərkəzi hakimiyyət əsasən iki məqsəd güdürdü: Birincisi, Bakıda və respublikanın digər rayonlarında sovet ordusunun törətdiyi vəhşiliklərdən əhali xəbər tuta bilməsin. İkincisi, televiziya işləyəcəyi təqdirdə bütün əhaliyə nüradət ola bilər, xalq Mərkəzi hakimiyyətə qarşı üsyana qalxa bilərdi.

Qorbaçov yavnanı 19-da Bakıda fövqəladə vəziyyət elan edilməsi barədə dekret imzaladı və yanvann 20-nə keçən gecə əsasən Rostov, Krasnodar və Stavropoldan gətirilmiş ehtiyat əsgər və zabitlərdən komplektləşdirilmiş ordu hissələrinə Bakıda dinc əhaliyə qarşı silah işlətmək əmrini verdi. Əsgər və zabitlər arasında ermənilər də var idi.

Ölkəni xarici hərbi müdaxilədən qorumalı olan ordu Bakıda və Azərbaycanın digər ərazilərində dinc əhaliyə qarşı görünməmiş vəhşiliklər törətdi. Kütləvi qırğın nəticəsində 131 nəfər dinc vətəndaş öldürüldü, 744 nəfər yaralandı, 12 nəfər itkin düşdü. Həlak olanların arasında uaşqlar, qadınlar, qocalar, həmçinin txili yardım işçiləri var idi. Dinc əhali arasmda kütləvi həbslər aparıldı. Bakı və respublikanın digər şəhər və rayonlarından 841 nəfər qanunsuz həbs edilib. Onlann bir qismi SSRİ-nin müxtəlif şəhərlərindəki həbsxanalara göndərildi. Bundan əlavə, vətəndaşların mülkiyyətinə ziyan dəydi, evləri, maşınlan güllələbaran edildi. Dövlət əmlakına da ziyan dəydi.

20 Yanvar hadisəsi Azərbaycanda hakimiyyət dəyişikliyinə gətirdi. Əbdürrəhman Vəzirov respublikadan qaçdı. Azərbaycan Xalq Cəbhəsinin liderləri də qaçıb gizləndilər. Xalq başsız qalmışdı. Bir neçə gün sonra Mərkəzi

Komitənin plenumunda Ayaz Mütəllibov Azərbaycan KP MK-nın birinci katibi seçildi.

Bu zaman sərt nəzarət altaıda olan böyük dövlət və siyasi xadim Heydər Əliyev, oğlu İlham Əliyev və digər ailə üzvləri Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək bəyanat verdi, respublika və sovet rəhbərliyinin qanlı hərəkətlərini ittiham etdi, baş verən hadisəni hüquqa zidd, demokratiyaya yad, humanizm prinsiplərinin əleyhinə olan kimi qiymətləndirdi.

20 Yanvar hadisəsi sovet hakimiyyətinin vətəndaşlarına qarşı törətdiyi ağır cinayət idi. Ordu ölkə daxilində mülki vətəndaşlara qarşı silah işlətmişdi.

Şəhidlər 1918-ci il 31 mart soyqırımı qurbanların dəfn edildiyi Çəmbərəkənd qəbiristanlığında toıpağa tapşırıldı. Dəfn mərasimində təxminən 2 milyon nəfər iştirak etdi".

***SSRİ-nin əsaslarının sarsılması və Azərbaycan xalqının hıəyatuıda dönüş anı***

M.Qasımlı dedi ki, 20 Yanvar hadisəsi SSRİ-nin mövcudluğuna son qoyan amillərdən biii oldu: "Bu, sovet siyasi sisteminin böhranını, Qorbaçovun yenidənqurma, aşkarlıq və demokratikləşdirmə siyasətinin iflasını göstərdi. Azərbaycan xalqı və hakimiyyət arasında uçurum daha da dərinləşdi. Həlak olanların xatirəsinə ehtiram olaraq Azərbaycanda fabrik və zavodlar 40 gün işləmədi. Bu isə vahid bir zəncir kimi bir-birinə bağlanmış sovet iqtisadiyyatının dağılmasına ciddi təsir etdi. Ölkənin iqtisadi əsaslan sarsıldı.

Xalqın orduya, xüsusi xidmət orqanlarına, bütövlükdə Mərkəzi hakimiyyətə olan inamıtamamilə sarsıldı.

Kommunistlər partiya biletlərindən imtina etməklə SSRİ-nin ideoloji əsasını sarsıtdılar. Moskvadan başlayaraq ən ucqar dağ kəndlərindəki partiya təşkilatlanna qədər sıx bağlı olan bu təşkilatın sonu yaxınlaşdı.

20 yanvar hadisəsi Azərbaycan xalqının hə-

yatında bir dönüş mərhələsi oldu. Xalq bun-dan sonra Mərkəz ilə yolunun bir olmaya- cağını, keçmişə qayıdışın mümkünsüzlüyünü dərk etdi və yerli hakimiyyətə də etimad bəsləmədi. Azərbaycan xalqı nicat yolunu yalnız dövlət müstəqilliyində gördü".

***Dünya azərbaycanlılarının həmrəylik ideyası***

Millət vəkili bildirdi ki, belə bir şəraitdə Moskvada yaşamaq mümkün olmadığından Bakıya, oradan da doğulduğu Naxçıvana gedən Heydər Əliyev 1990-cı ilin sentyabrında keçirilən seçkilərdə həm Naxçıvan MSSR Ali Sovetinin, həm də Azərbaycan SSR Ali Sovetinin deputatı seçildi: "Ağsaqqal deputat olaraq Heydər Əliyevin sədrliyi ilə Naxçıvan MSSR Ali Sovetinin 1990-cı il noyabrın 17-də keçirilən birinci sessiyasının qərarı ilə Naxçıvan MSSR adından "Sovet Sosialist" ifadələri çıxarılaraq Naxçıvan Muxtar Respublikası adlandınldı. Azərbaycan Cümhuriyyətinin üçrəngli bayrağı rəsmi olaraq qəbul edildi. Sessiya Azərbaycan SSR Ali Sovetinə müraciət edərək sovet sosialist ifadələrindən imtina etməyi, üçrəngli bayrağı dövlət bayrağı olaraq qəbul etməyi təklif etdi. Naxçıvanda sovet sistemindən imtina olunması geniş əks-səda doğurdu. Naxçıvan müstəqil Azərbaycan dövlətçiliyinin onurğa sütunu oldu.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 21 noyabr tarixli sessiya iclasında "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar qəbul edildi. Sənəddə törədilən qanlı hadisələr ittiham edilirdi. Bu qərarla 20 Yanvar Naxçıvan Muxtar Respublikasında Milli Matəm Günü kimi qeyd olunmağa başladı.

1991-ci il fevralın 5-də Azərbaycan SSRAli Sovetinin qərarı ilə Azərbaycan Respublikası adı rəsmi olaraq qəbul edildi. Martın 17-də ölkədə SSRİ-nin saxlanılıb-sax- lanılmaması barədə referendum keçirildi. SSRİ-nin saxlanılması tərəfdarları üstünlük qazandılar. Azərbaycanda isə Naxçıvan Muxtar Respublikasında referendum boykot edildi.

Dünyada və ölkədə baş verən obyektiv proseslərin təsiri altında SSRİ-nin dağılması sürətləndi. 1991-ci il avqustun 19-da Qorbaçovun devrilməsi məqsədi ilə edilən çevriliş cəhdi iflasa uğradıqdan sonra ölkənin dağılması sürətləndi. Azərbaycan 1991-ci il avqustun 30-da dövlət müstəqilliyinin bərpası haqqında bəyannamə qəbul etdi. Bir müddət sonra hələ SSRİ mövcud olduğu bir şəraitdə -oktyabrın 18-də isə Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya aktı qəbul olundu.

Heydər Əliyevin sədrliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi 1991-ci il dekabrın 16-da 31 dekabr tarixinin dünya Azərbaycanlılarının Həmrəyliyi günü kimi qəbul edilməsi haqqında qərar qəbul edildi. Beləliklə, Heydər Əliyev imperiyanın Azərbaycan xalqı üzərinə atmaq istədiyi ləkəni silərək ilk dəfə olaraq cəmiyyətə və dünya azərbaycanlılarına həmrəylik ideyasını gətirdi. Həmin ilin dekabrın 25-də Bakıda ölkə parlamentində31 dekabr gününü Dünya Azərbaycanlılarının həmrəyliyi günü kimi qəbul edən müvafiq qanun qəbul olundu".

***Hüquqi-siyasi qiymət***

Millət vəkili onu da bildirdi ki, Heydər Əliyev ölkə rəhbəri seçildikdən sonra 20 Yanvar hadisəsinə hüquqi-siyasi qiymət verilməsindən ötrü zəruri addımlar atdı: "1994-cü il martın 29-da onun təşəbbüsü ilə bu hadisəyə hüquqi-siyasi qiymət verildi, totalitar kommunist rejimi tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz və cinayət kimi qiymətləndirildi.

Azərbaycan Respublikasının Prezidentinin 1998-ci il 31 mart tarixli fərmanı ilə də "20 Yanvar Şəhidi" fəxri adı təsis edildi. Bu gün ölkədə təxminən 150 məfər 20 Yanvar Şəhidi vardır. Şəhid ailələri dövlətin qayğısı

və himayəsi altındadır. Təkcə bir faktı demək kifayətdir ki, Prezident İlham Əliyevin 2023-cü il 11 yanvar tarixli fərmanı ilə 20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylığ məbləği bu ilin əvvəlindən etibarən 600 manat müəyyən edilib.

20 Yanvar və bütün şəhidlərin ruhu ehtiramla yad edilir. Şəhidlər Xiyabanını ziyarət etmək dövlət protokoluna daxil edilib. Hər il yanvarın 20-də Prezident İlham Əliyev Şəhidlər Xiyabanını ziyarət edərək xatirələrinə ehtiramını bildirir. Xarici qonaqlar da Şəhidlər Xiyabanini ziyarət edərək əklil qoyurlar.

20 Yanvar şəhidlərinin ruhu bu gün şaddır. Arzuladıqlan həyata keçirilib. Torpaqlar işğaldan azad edilib. Güclü Azərbaycan dövləti vardır. Xankəndi, Xocalı, Xocavənd, Əsgəran və digər yerlərdə də bayrağımızın ucaldılacağı gün uzaqda deyildir".

***İbrət alınacaq dərslər***

Onun fikimcə, 20 Yanvar hadisəsi bir sıra ibrət dərsləri almağa imkan verir: "Millət öz ideal- L lari və qarşıya qoyduğu məqsədlər naminə əzmkar olmalı, kimsədən yardım ummamamlı, • yalnız özünə güvənməlidir. Heç bir güc milli iradədən üstün deyil. Azərbaycan xalqının inkişafının və qarşıya qoyduğu məqsədlərə çat- I masının təməlində güclü dövlət və qüdrətli dövlət rəhbəri amilləri dayanır. Xaos, anarxiya və zəif hakimiyyət millətin yolunda başlıca əngəldir. Azərbaycan xalqı daim yenilənməli, inkişaf etməli, dövləti güclü olmalı və vətənpərvərlik hissləri güclü olmalıdır".

**Xalq Cəbhəsi**. - 2023. - 19 yanvar. - № 2. - S. 6-7.

# 20 Yanvar, 20 yanı var

*Xalqın dirənişi həm də Azərbaycanın müstəqilliyə aparan yolunda yeni mərhələnin başlanğıc nöqtəsi oldu*

**İsmayıl Qocayev**

**Bir gün sonra Azərbaycan xalqı 20 Yanvar faciəsinin 33-cü ildönümünü qeyd edəcək. Şəhidlər Xiyabanında 20 Yanvar faciəsinin otuz üçüncü ildönümü ilə bağlı hazırlıq işlərinə başlanılıb. Ənənəvi olaraq xiyaban ərazisində müxtəlif rəngli qərənfillərdən xüsusi kompozisiyalar hazırlanır. Bu işlərə təcrübəli mütəxəssislər, landşaft-dizaynerləri cəlb olunub.**

BŞİH-nin qurumları tərəfindən Şəhidlər xiyabanında geniş təmizlik və abadlıq işləri görülür. Ağacların budaqları, bəzi kollar budanıb, qazon örtüyü yenilənib, yeni güllər və kollar əkilib, işıq dirəkləri rənglənir, səkilər və bütün ərazi yuyulur, xiyabandakı hər iki məşəldə profilaktika aparılır. Hazırlıq işlərinin yanvarın 19-dək başa çatdırılması planlaşdırılır.

Qeyd etmək lazımdır ki, 33 il öncə müstəqii dövlətçilik tariximizin həm acılı, həm də şərəfli günləri yaşanıb. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə baş verənlər tək faciə yox, həm də xalqımızın tarixinin şərəfli səhifələrindən biri, ictimai-siyasi təfəkkürümüzdə yaranmış təbəddülatlar günü, milli azadlıq hərəkatımızın yüksəliş zirvəsi idi. Həmin gün Bakı qırmızı rəngə boyandı, açılan 20 yanvar səhəri şəhid oğul və qızlarımızın qanından rəng aldı, xalqımızın azadlıq harayı sovet tanklarının tırtılları altında boğuldu. Keçmiş SSRİ rəhbərliyinin Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq məqsədi daşıyan bu cinayətkar hərəkəti nəticəsində 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda görünməmiş vəhşiliklərə yol verildi. Günahsız insanlar, o cümlədən uşaqlar, qocalar, qadınlar qətlə yetirildi, yüzlərlə adam müxtəlif dərəcəli bədən xəsarəti aldı. Öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu göstərdi. Haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş vətən övladları o qanlı gündə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar. Tariximizə həm də milli qürur günü kimi düşən 1990-cı ilin 20 Yanvarında Azərbaycan xalqı azad, suveren və müstəqil yaşamağa layiq olduğunu bütün dünyaya çatdırdı.

**Millət vəkili Cavid Osmanov ”Şərq”ə açıqlamasında deyib ki, 1990-cı ilin Qanlı Yanvar hadisəsi Azərbaycan xalqı üçün təkcə böyük faciə deyil, eyni zamanda ləyaqətini qorumaq üçün hər cür qurban verməyə hazır olan xalqın tarixində şərəfli bir səhifədir.** Deputat vurğulayıb ki, 20 Yanvar faciəsi həm ümumxalq faciəsi, həm də müstəqillik, istiqlal və hürriyyət uğrunda xalqımızın apardığı milli azadlıq hərəkatının zirvəsi kimi Azərbaycan tarixinə həkk olunub. Bir sözlə, 20 Yanvar faciəsi Azərbaycanın müstəqilliyə aparan yolunda yeni mərhələnin başlanğıc nöqtəsi oldu: ’’Milli maraqlara zidd addımlar atan Azərbaycanın ozaman- kı rəhbərlərinin istefası tələbinin irəli sürülməsinə və o zaman "Dağlıq Qarabağ” adlanan ərazinin Ermənistana birləşdirilməsinə xalqın qətiyyətlə qarşı çıxmasına görə Azərbaycanı cəzalandırmaq üçün Kreml Qanlı Yanvar qırğınını törətdi. 1990- cı il yanvarın 19-dan 20-nə keçən gecə birbaşa Sovet ittifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qor- baçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilib. Dinc əhali ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutularaq kütləvi qətlə yetirilib. Sovet ordusunun xüsusi təyinatlı dəstələrinin və daxili qoşunların böyük bir kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıqla müşayiət edilib. Tətbiq edilmiş fövqəladə vəziyyət haqqında əhali xəbərdar edilməyib. 20 Yanvar faciəsinin törədilmə səbəblərindən bəlli olur ki, bu, siyasi maraqlar naminə Azərbaycan xalqına qarşı törədilmiş cinayətdir. 1990-cı il yanvarın ortalarında SSRİ müdafiə və daxili işlər nazirliklərinin, habelə başqa xüsusi təyinatlı hərbi birləşmələrin 66 min nəfərdən çox əsgər və zabiti Bakı şəhərinə gətirilərək, Qala və "Nasoslu” aerodromlarında, ’’Respublika” stadionunda, Salyan kazarmasında yerləşdirilmişdi. Azərbaycana göndərilən ordu hissələrinin tərkibinə Stavropoldan, Rostovdan, Krasnodardan səfərbər edilmiş erməni zabit və əsgərləri, hərbi məktəblərdə təhsil alan erməni kursantları da cəlb edilmişdi. Yanvarın 19-dan 20-nə keçən gecə hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfə-ri ölümcül yaralamışdılar. Kütləvi insan qırğını törədilərkən tanklardan və müxtəliftəyinatlı zirehli döyüş maşınlarından istifadə edilib, Xəzər Hərbi Do-

nanmasına məxsus gəmilərdən şəhərə desant çıxarılmışdı. Fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürülmüşdü".

Parlament üzvü bildirib ki, Qanlı Yanvar hadisələrinin coğrafiyası təkcə Bakı şəhəri ilə məhdudlaşmadı. Ölkənin digər rayonlarında yanvarın 25-də Neftçala, yanvarın 26-da isə Lənkəranda 8 nəfər qətlə yetirilmişdi. Ümumilikdə respublikada 147 nəfər öldürülüb, 744 nəfər yaralanıb, 841 nəfər qanunsuz həbs olunmuşdu: "200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdi. 1990-cı il yanvarın 20-də Azərbaycan paytaxtına və respublikanın bir sıra rayonlarına sovet ordusu hissələrinin qanunsuz yeridilməsi, dinc əhalinin qırılması totalitar rejimin törətdiyi ən qanlı aktlardan biri, bütün bəşəriyyətə qarşı yönəldilmiş cinayət oldu. Şəhərin küçələri güllələnmiş və yaralanmış günahsız adamların - qocaların, qadınların, uşaqların qanına qərq olmuşdu. Hərbçilər təsadüfən küçəyə çıxanları, yaşayış evlərini, təcili yardım maşınlarını belə atəşə tuturdular. Belə birvəziyyətdə Azərbaycanın ovaxtkı siyasi rəhbərliyi nəinki istefaya getməmiş, hətta belə bir məqamda susmağı daha üstün tutmuşdu. Qanlı Yanvar hadisələri Azərbay-. can milli kimliyinin formalaşmasına həlledici təsir göstərib, dövlət müstəqilliyinin bərpa edilməsində dönüş nöqtəsi olub. Faciədən sonra milli azadlıq hərəkatı tam siyasi reallığa çevrilib. Dönməz xarakter alıb, xalq öz gələcəyini yalnız müstəqil Azərbaycanda görüb. 20 Yanvar hadisələri nəticəsində Azərbaycanda Sovet imperiyası özünün bütün mənəvi və sosial dayaqlarını itirdi. Baş vermiş hadisələr dünya azərbaycanlılarının təşkilatlanmasına səbəb oldu. Dünya azərbaycanlıları ilk dəfə olaraq milli faciəmizin tanıdılması naminə yaşadıqları müxtəlif ölkələrdə təşkilatlanmağa başladılar. 20 Yanvar faciəsinin yaratdığı ictimai-siyasi reallıq süqutu yaxınlaşan SSRİ-də və soyuq müharibənin bitməsi ərəfəsində beynəlxalq arenada formalaşan geosiyasi situasiya fonunda əvvəlcə Azərbaycan SSR-də, sonra müstəqil Azərbaycanda zəncirvarı tarixi proseslərə təkan verdi".

**C.Osmanov qeyd edib ki, Azərbaycan xalqının böyük oğlu, dahi şəxsiyyət Heydər Əliyev Bakıda törədilmiş qanlı faciənin səhəri, yanvarın 21-də Sovet rejiminin qadağalarına rəğmən, həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəldi. Qanlı faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında ittiham etdi:** "Cəsarətli bəyanat verərək əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd, Moskvanın və Respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi. Təhlükə-

lərdən çəkinməyərək Sovet hakimiyyətinin bu əməlinə etiraz edən Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının başına gətirilən qanlı faciənin ilk siyasi qiymətini verdi. Qanlı Yanvar hadisələrinə ilk hüquqi qiymət də məhz Ümummilli

Lider Heydər Əliyevin təşəbbüsü ilə verildi. Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 20 Yanvar faciəsinə ilk siyasi qiymət verən 21 noyabr 1990-cı il tarixli Qərar qəbul edilmişdi. Ölkə Prezidenti seçildikdən sonra Ulu Öndərin təşəbbüs və göstərişləri ilə 1994-cü ilin mart ayının 29-da Milli Məclis "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" Qərar qəbul etdi. Ümummilli Lider Heydər Əliyev dövrün mürəkkəbliyinə rəğmən, 20 Yanvar faciəsinin başver- mə səbəbləri və günahkarların araşdırılması ilə də məşğul oldu və bunun nəticəsində həqiqətlər üzə çıxdı. "20 Yanvar Şəhidi" fəxri adı da məhz 1998-ci ildə Ulu Öndər Heydər Əliyevin Fərmanı ilə təsis edilib. Ulu Öndər Heydər Əliyevin yolunu uğurla davam etdirən Prezident cənab İlham Əliyev də şəhidlərin xatirəsinin uca tutulmasına, şəhid ailələrinin sosial məsələlərinin həll olunmasına xüsusi diqqət ayırır. Ölkə başçısının təşəbbüsləri sayəsində 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslər və şəhid ailələri üçün effektiv sosial müdafiə sistemi formalaşıb. 1990- cı ilin yanvarında şəhid olmuş oğul və qızlarımızın xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi üçün Prezident cənab İlham Əliyev tərəfindən mühüm addımlar atılıb. Dövlət Başçısının 19 yanvar 2006-cı il tarixli "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Fərmanına əsasən, şəhid ailələrinə dövlət qayğısını artırmaq məqsədilə təqaüd verilir. Bütün bunlarla yanaşı, Şəhidlər Xiyabanında təmir və yenidənqurma işləri ilə yanaşı, Bakının Yasamal rayonundakı "20 Yanvar" dairəsində, Həsən bəy Zərdabi və Müzəffər Həsənov küçələrinin kəsişməsində Qanlı Yanvar şəhidlərinin xatirəsinə memorial abidə kompleksi ucaldılıb. Azərbaycan xalqı 1990-cı ilin yanvarında Azərbaycanın azadlığı uğrunda zirehli texnikanın qarşısına əliyalın çıxmış, Azərbaycanın müstəqilliyi uğrunda canlarından keçmiş oğul və qızlarını unutmur. Hər il yanvarın 20 saat 12:00-da Azərbaycanın bütün ərazisində 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunur. Gəmilərdən, avtomobillərdən və qatarlardan SOS siqnalları verilir, hüzn əlaməti olaraq dövlət bayraqları endirilir. Ölkəmizin müstəqilliyi və azadlığı uğrunda canından keçmiş şəhidlərimizin müqəddəs xatirələri xalqımızın qəlbində əbədi yaşayacaq".

**Şərq. -** 2023. - 19 yanvar. - № 10. - S. 3.

## 20 yanvar Azərbaycan xalqının mətinliyinin sübutudur

***Bu tarix gənclərə ümumxalq iradəsinin və mübarizliyinin təntənəsi kimi aşılanmalıdır***

**Məlahət Rzayeva**

**20 Yanvar - xalqımızın şərəf tarixinin otuz üçüncü ildönümünə hazırlıq işlərinə start verilib. Təbii ki, hazırlıq işləri bu günlərdə xalqımızın axın edəcəyi Şəhidlər xiyabanında daha intensiv şəkildə aparılır. Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətindən verilən məlumatda qeyd olunur ki, Şəhidlər xiyabanı ərazisində ənənəvi qaydada müxtəlif rəngli qərənfillərdən xüsusi kompozisiyalar hazırlanır. Bu işlərə təcrübəli mütəxəssislər, landşaft-dizaynerlər cəlb olunub.**

Bakı Şəhər İcra Hakimiyyətinin qurumları Şəhidlər xiyabanında geniş təmizlik və abadlıq işləri görür, ağacların budaqlarını, bəzi kolları budayıb, qazon örtüyünü yeniləyib, yeni güllər və kollar əkib, işıq dirəkləri rənglənir, səkilər və bütün ərazi yuyulur, xiyabandakı hər iki məşəldə profilaktika aparır. Hazırlıq işlərinin yanvarın 19-dək başa çatdırılması planlaşdırılır. Bunlar ənənəvi işlərdir. Lakin 20 Yanvar faciəsinin daşıdığı mahiyyətin gənc nəslə dolğun çatdırılması, heç şübhəsiz, bütün zamanlar üçün aktual olaraq qalacaq. Bu vəzifə isə evdə valideynlərin, təlim-təhsil müəssisələrində isə müəllimlərin, tərbiyəçilərin üzərinə düşür. 20 Yanvar - qan yaddaşımızla bağlı təqdirəlayiq hal həmin gün ərəfəsində xalqın Şəhidlər xiyabanına kütləvi ziyarəti və bu ziyarətçilər arasında uşaqdan tutmuş, məktəbliyə, tələbə-gənclərə qədər bütün sosial təbəqələrin nümayəndələrinin olmasıdır. Müsbət haldır ki, 20 Yanvar faciəsinin ildönümü yaxınlaşdıqca məktəblilər, tələbələr Şəhidlər xiyabanına aparılır, şəhid məzarları ziyarət edilir. Belə ziyarətlər sözsüz ki, yeniyetmə və gənclərin qan yaddaşının möhkəmlənməsinə, onlarda vətənpərvərlik hisslərinin gücləndirilməsinə xidmət edir. Son illərdə təhsil müəssisələrində 20 Yanvar tarixi ilə bağlı xüsusi dərslərin keçirilməsi də ənənəvi hal alıb. Ötən illərdə olduğu kimi bu il də Elm və Təhsil Nazirliyi tərəfindən xüsusi əmr imzalanıb. Elm və təhsil naziri Emin Əmrullaye- vin ”20 Yanvar faciəsinin otuz üçüncü ildönümü ilə bağlı Elm və Təhsil Nazirliyinin Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında imzaladığı əmrə əsasən, yanvarın 19-da ali, orta ixtisas, peşə və ümumi təhsil müəssisələrində 20 Yanvarfaciəsinin 33-cırildönümünə həsr olunan xüsusi dərslər keçiriləcək. Eyni zamanda məktəblərdə faciəyə həsr olunan kitab, foto və rəsm sərgilərinin, ədəbi-bədii kompozisiyaların təşkil edilməsi də planlaşdırılıb. Həmçinin ”20 Yanvar faciəsinin otuz üçüncü ildönümü ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsi barədə Bakı Şəhəri üzrə Təhsil İdarəsi də əmr imzalayıb. Bu barədə BŞTİ-nin məlumatında bildirilib. Əmrə əsasən, təhsil müəssisələrində 20 Yanvar faciəsinin otuz üçüncü ildönümünə həsr olunan xüsusi dərslərlə yanaşı təhsil müəssisələrində 20 Yanvar faciəsinin otuz üçüncü ildönümü ilə bağlı konfransların, seminarların, mühazirələrin və dəyirmi masaların təşkili nəzərdə tutulur. BBTİ təhsil müəssisələrində 20 Yanvar faciəsinin otuz üçüncü ildönümünə həsr olunmuş kitab, foto və rəsm sərgiləri, ədəbi-bədii kompozisiyaların nümayişini vacib sayır. Dərslərdə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək. Dərsləri tədris edən müəllimlər 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda törədilmiş vəhşiliklərdən, insanlığa qarşı yönəlmiş hadisələrin acı nəticələrindən söhbət açacaqlar. Eləcə də 20 Yanvar hadisələrinin tarixindən, Vətənimizin əbədiyyətə qovuşmuş şəhid övladlarının şücaətindən bəhs edəcəklər. Qeyd olunur ki, bu cür tədbirlərin keçirilməsi şagirdlərdə Vətənə məhəbbət hissinin daha da möhkəmləndirilməsi, onların Vətənə layiqli övlad kimi yetişdirilməsi və əsl vətəndaş mövqeyinin məktəblilərə aşılanması məqsədlərinə xidmət edir.

**20 Yanvar tarixinin xalqımızın azadlıq, müstəqillik uğrunda qəhrəmanlıq salnaməsi olduğunu deyən Ağ Partiya sədrinin birinci müavini Əhəd Məmmədli ”Şərq”ə açıqlamasında qeyd etdi ki, şərəfli tarixin məhz bu formada gənclərin yaddaşında möhkəmlənməsi istiqamətində iş aparılmalıdır:**

- Bəli, cəmiyyət buna şahiddir ki, 20 Yanvar hadisələrinin ildönümü ərəfəsində məktəblərin pedaqoji kollektivləri və şagirdlər Şəhidlər xiyabanını daha intensiv ziyarət edirlər. Bu artıq ənənəvi hal alıb. Bizim mövqeyimiz budur ki, 20 Yanvar tarixi yeniyetmə və gənclərə matəm, hüzn kimi günü kimi deyil, xalqımızın mübarizlik, qəhrəmanlıq günü kimi qeyd edilməlidir. Çünki məhz 1990-cı ilin 20 yanvar günü Azərbaycan millətlər

həbsxanası adlandırılan SSRİ adlı məkandan de-fakto ayrıldı və onun qaniçən kommunist rejimindən xilasının başlanğıcı oldu. Məhz yanvarın 20-dən sonra Kommunist Partiyası üzvlüyünü kütləvi tərketmələr başladı, partiya biletləri yandırıldı. Bolşeviklərin işğalına son qoyulmağa başlandı. Azərbaycan dövlət müstəqilliyini rəsmi olaraq 1991-ci il oktyabrın 18-də bərpa etsə də, müstəqillik faktiki olaraq 1990-cı ilin 20

yanvarından başlanmışdı. Hesab edirəm ki, biz məhz bu şərəfli tarixi gənclərimizə anlatmalı, 20 yanvar tarixinin xalqımızın taleyində, dövlətçilik tariximizdə necə önəmli yer tutduğunu bildirməliyik. Təhsil müəssisələrində keçiləcək dərslər də bu istiqamətdə olmalıdır. Məlum məsələdir ki, 1990-cı ilin 20 yanvarına gətirib çıxaran səbəblər var. Və bunun da əsası 1987-ci ildən qoyqlmağa başladı. Azərbaycanlıların Ermənistandakı tarixi torpaqlarından növbəti kütləvi deportasiyası, erməni separatçılarının Qarabağda növbəti dəfə baş qaldırması, Qarabağın Ermənistana birləşdirilməsinə cəhdlər, xalqımızın etirazları, nümayişlər... Artan xətt üzrə davam edən gərginliyin qarşısını almaq əvəzinə, Sovet rəhbərliyi Azərbaycan xalqına qarşı dəhşətli cinayət işlətdi, zirehli texnikanı xalqın üzərinə yeritdi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə birbaşa Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilib, dinc əhali ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutularaq kütləvi qətlə yetirilib. Xalqın etirazlarının qarşısını almağa çalışan sovet rəhbərliyi xüsusi təyinatlı dəstələri və daxili qoşunların iri kontingentini hərəkətə gətirərək Bakını zəbt edib, xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklər törətdilər. Ümumilikdə Bakıda və ətraf rayonlarında 131 nəfər öldürülüb, 744 nəfər yaralanıb. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milis nəfərləri olub. Qoşunların qanunsuz yeridilməsi həm də dinc əhali arasında kütləvi həbslərlə müşayiət olunub, yandırıcı güllələrin törətdiyi yanğınlar nəticəsində külli miqdarda dövlət və şəxsi əmlak məhv edilib. Bunlar tarixi faktlardır, hər bir Azərbaycan gənci bunları bilməli və əsla unutmamalıdır. 1990- cı İlin 20 Yanvarı gənclərə ümumxalq hüzn günü kimi deyil, ümumxalq iradəsinin, mübarizliyinin təntənəsi kimi aşılanmalıdır. Qeyd edilməlidir ki, 20 yanvar tarixi Azərbaycan xalqının iradəsinin sarsılmazlığını, mətinliyinin sübutudur. Sovet ordusunun amansızlığına və qəddarlığına, Bakıda fövqəladə vəziyyət tətbiq edilməsinə baxmayaraq, Azərbaycan xalqı yanvarın 22-də paytaxtın ’’Azadlıq" meydanında 20 Yanvar şəhidlərinin dəfni ilə əlaqədar matəm yürüşü keçirib. Şəhidlər xiyabanındakı dəfn mərasimində 2 milyona yaxın insan iştirak edib. Xalqın tələbi ilə Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyası çağırılıb və Bakı şəhərində fövqəladə vəziyyətin ləğv edilməsi haqqında qərar qəbul edilib. Bu tarixi hadisə Azərbaycan milli kimliyinin formalaşmasına həlledici təsir göstərib, dövlət müstəqilliyinin bərpa edilməsində dönüş nöqtəsi olub. Nəticə etibarilə Azərbaycan müstəqil, suveren dövlət olaraq dünyanın siyasi xəritəsində layiqli yerini alıb. 20 Yanvar istiqlaliyyətə aparan yolumuzun başlanğıcıdır və Şəhidlər Xiyabanını ziyarət edən hər kəs bu hisslərə hakim olaraq addımlamalı, şəhidlərimizin xatirəsini ehtiramla yad etməlidir. Yeniyetmə və gənclərimizin vətənpərvər ruhda yetişməsi üçün dövlətçilik tariximizdə özünə şərəfli yer tutan 20 Yanvar ən bariz nümunədir.

**Şərq. -** 2023. - 17 yanvar. - № 8. - S. 6.

**Ümumxalq Hüznümüzün 33-cü ili…**

**İmperiya güllələrinin səsi ilə başlayan gün azadlıq məfkurəmizi oyatdı**

**Yaqut Ağaşahqızı**

1990-cı ilin yanvarında dinc əhaliyə qarşı sovet imperiyasının qoşun birləşmələrinin törətdiyi qanlı cinayətlərdən danışarkən, əvvəlcə bir məqama diqqət yetirmək lazımdır. Belə ki, 1918-20-ci illərdə olduğu kimi, 1980-ci illərin sonlarında da eyni ssenari üzrə anti-Azərbaycan fəaliyyəti yenidən şiddətlənmiş, xalqımıza qarşı məkrli planlar və qəsdlər hazırlanmışdı. Mənfur erməni millətçiləri Moskvadakı imperiyapərəst və digər qüvvələrlə birləşərək Azərbaycanı parçalamaq, nəyin bahasına olursa-olsun, xalqımızın müstəqillik arzularını beşiyindəcə boğmaq niyyətində idilər.

Ona görə də Ermənistanda və Azərbaycanın Dağlıq Qarabağ bölgəsində azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirilməyə başlandı, 1988-1989-cu illərdə yüz minlərlə həmvətənimiz doğma torpaqlarından qovuldu, işgəncələrə məruz qaldı və vəhşicəsinə qətlə yetirildi. Ermənilərlə əlbir olan keçmiş SSRİ rəhbərliyinin ədalətsiz, qərəzli mövqeyindən, məkrli əməllərindən, hadisələrin təhlükəli istiqamətdə inkişafından narahatlıq keçirən Azərbaycan xalqı ayağa qalxdı. Amansızlıqla həyata keçirilən qanlı cinayətin əsas məqsədi də Azərbaycan xalqının inam və iradəsini qırmaq, ərazi bütövlüyünü sarsıtmaq və sovet hərbi rejiminin gücünü təsdiq etmək idi. 1990-cı il 20 Yanvar gecəsi faciə törədən imperiya əsgərləri sırasında erməni əsgərlərinin olması və xüsusi fəallığı onların maraqlarına hesablanmışdı.

Sovet qoşunlarının qanunsuz yeridilməsi nəticəsində Bakıda və respublikanın rayonlarında 147 nəfər qətlə yetirildi, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu, onlardan 112 nəfəri SSRİ-nin müxtəlif şəhərlərinə aparılaraq həbsxanalarda saxlanıldı. Həlak olanlar arasında müxtəlif millətlərin nümayəndələri, uşaqlar, qadınlar, qocalar da var idi. Hərbçilər təsadüfən küçəyə çıxanları, yaşayış evlərini, təcili yardım maşınlarını, avtobusları atəşə tutur, yaralıları öldürür, meyitləri təhqir edirdilər. Hərbi təcavüz nəticəsində yüzlərlə ev, onlarla təcili yardım maşınları dağıdılmış, külli miqdarda dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdi.

Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə tarixdə misli görünməmiş qətliam idi. Keçmiş SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını cinayətkarcasına pozmuşdu. 20 Yanvar cinayəti bəşəriyyət və insanlıq əleyhinə törədilmiş dəhşətli əməl idi. Dinc əhaliyə qarşı həyata keçirilən cəza tədbirləri zamanı 1949-cu ilin Cenevrə Konvensiyasının, Beynəlxalq Hərbi Tribunalın Əsasnaməsinin, Beynəlxalq İnsan Haqları Bəyannaməsinin, insan haqlarına dair digər beynəlxalq aktların çoxsaylı müddəaları pozulmuşdu. Bu məqamlar 20 Yanvar hadisələri ilə bağlı aparılmış ən səthi təhqiqatlarda da təsdiqlənir.

Xalq avtomat süngülərinin, tank lülələrinin ona tuşlanmasından qorxmayıb öz şəhidlərini küçə və meydanlardan topladı. Topun-tüfəngin hər küçədə, hər tində qoyulmasına, komendant saatı və fövqəladə vəziyyət rejiminin tətbiq edilməsinə baxmayaraq, yanvarın 22-də xalq öz şəhidlərini Azadlıq meydanından son mənzilə – Şəhidlər xiyabanına yola saldı. Şəhidlər xiyabanındakı dəfn mərasimində 2 milyona yaxın insan iştirak etdi. Dünyanın heç bir ölkəsində şəhidlərimizin dəfn mərasimindəki kimi izdihama təsadüf edilməyib. Azərbaycan xalqı 40 gün matəm saxladı. Xalq aclığa dözdü, lakin etiraz əlaməti olaraq 40 gün tətil etdi.

Tarixin ağır sınaqlarından mərdliklə çıxan, həmişə mübarizliyi ilə seçilən Azərbaycan xalqı ağır itkilər versə də, öz qürurunu, Vətənə bağlılığını bu dəfə də sübut etdi. Yaşanan müsibətin əsl səbəbkarı olan Mixail Qorbaçov səlahiyyət imkanlarından yararlanaraq xalqımıza 20 Yanvar faciəsini tez bir zamanda unutdurmağa cəhd göstərsə də, buna nail ola bilmədi.

Azərbaycanın o vaxtkı rəhbərliyi bu qanlı cinayəti ört-basdır etməyə çalışdığı, günahı öz xalqında axtardığı bir vaxtda – 20 Yanvar hadisələrinə ilk olaraq etirazını bildirən və bu qırğını dünya ictimaiyyətinə çatdıran xalqımızın böyük oğlu Heydər Əliyev oldu. Ulu Öndər həyatını riskə qoyaraq ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gedərək Bakıda kütləvi qırğın törətmiş SSRİ hakimiyyətini və Azərbaycanın yarıtmaz rəhbərliyini kəskin ittiham edən bəyanat verdi. Bu, eyni zamanda, təkcə Azərbaycan

xalqına deyil, SSRİ məkanında azadlıq eşqi ilə yaşayan bütün insanlara bir dəstək idi. Ümummilli Liderin həmin bəyanatı, həmçinin bir daha sübut etdi ki, siyasətdə böyük addımları ancaq dahilər ata bilirlər.

1990-cı ildən sonra ölkədə tez-tez baş verən hakimiyyət dəyişikliyi 20 Yanvar faciəsinə siyasi qiymət verilməsinə, günahkarların müəyyənləşdirilməsinə heç bir təsir göstərmədi. Yalnız 1993-cü ildə ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinin baş verməsinin səbəblərinin araşdırılması və onu törədənlərin məsuliyyətə cəlb olunması məsələsi istiqamətində mühüm addımlar atıldı. 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verilməsi məsələsi ümummilli lider Heydər Əliyevin sayəsində həllini tapdı. 1994-cü il martın 29-da Milli Məclis 1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında qərar qəbul etdi. 20 Yanvar – Ümumxalq Hüzn Günü elan edildi. Bununla da ulu öndər Heydər Əliyevin təşəbbüsü və təkidi nəticəsində 20 Yanvar faciəsinə dövlət səviyyəsində hüquqi-siyasi qiymət verildi, faciənin günahkarlarının adları açıq şəkildə bəyan edildi.

Ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə yenidən qayıdışından sonra şəhidlərin adlarının əbədiləşdirilməsi, onların ailə üzvlərinin sosial müdafiəsinin möhkəmləndirilməsi istiqamətində mühüm işlər görüldü. Şəhidlər xiyabanında “Əbədi məşəl” abidə kompleksi məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə şəhidlərin xatirəsinə ehtiram əlaməti olaraq ucaldıldı. “20 Yanvar şəhidi” fəxri adının təsis edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti 31 mart 1998-ci il tarixdə Fərman imzaladı. 29 dekabr 1998-ci ildə “20 Yanvar şəhidi” fəxri adı haqqında Əsasnamə təsdiq edildi. 1990-cı il yanvarın 20-də keçmiş SSRİ silahlı qüvvələrinin Bakıya və respublikanın bir neçə rayonuna hərbi təcavüzü zamanı həlak olmuş 150 nəfərə indiyədək “20 Yanvar şəhidi” fəxri adı verilmişdir.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev şəhidlərin adının uca tutulmasına, onların ailələrinin sosial məsələlərinin yoluna qoyulmasına xüsusi diqqət göstərir, hər il yanvarın 20-də Şəhidlər xiyabanını ziyarət edərək "Əbədi məşəl" abidə kompleksinin önünə əklil qoyur, həmçinin 1990-cı ilin yanvarında şəhid olmuş oğul və qızlarımızın xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi üçün mühüm qərarlar verir.

Azərbaycan xalqı ölkəmizin ərazi bütövlüyü, dövlət müstəqilliyi uğrunda apardığı qalibiyyətli mübarizənin ən seçilən səhifələrindən biri olan 20 Yanvar faciəsinin 33-cü ildönümünü, ötən dövrdəki hədsiz-hesabsız itkilərə və bitib-tükənməyən ağrı-acılara son qoymuş Vətən müharibəsinin qələbə hissi, bu yolda canlarını fəda etmiş şəhidlərimizin intiqamının alınmasından doğan təsəlli duyğuları ilə qarşılayır. 1990-cı ildən başlanan ağır, çətin, ancaq şərəfli yol 2020-ci il sentyabr ayında Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və rəşadətli ordumuzun 44 günlük Zəfər salnaməsi ilə ən mühüm zirvəsinə çatdı. Vaxtilə Şəhidlər xiyabanına gəlib, şəhidləri ziyarət edən gənclər özləri qəhrəmanlıq dastanı yazdılar. Azərbaycanın ərazi bütövlüyünü bərpa etdilər. Bu gün biz ötən dövrlərə baxıb qürur hissi ilə 20 Yanvar şəhidlərini yad edirik. Artıq bütün şəhidlərimizin ruhu şaddır. Vətən müharibəsindəki tarixi Qələbəmiz göstərdi ki, ölkəmizin azadlığı, suverenliyi uğrunda şəhid olan hər bir soydaşımızın qanı yerdə qalmadı .

**İki sahil.-**2023.-18 yanvar.-№9.-S.5.

## 20 yanvar 1990-cı il: bir qərinənin o başı və bu başı

**Mətanət Məmmədova**

33 il... 20 Yanvar faciəsindən ötən bir qərinəlik dövrün hər ilində bu fikirlər xatırlanır: nə faciələr yaşayıb bu xalq. Daha doğrusu, nə faciələr yaşadılıb bu xalqa. Birinin bitdiyi, yaralarımızın qaysaq bağladığı anda yenisi hazırlanıb, yaşadılıb. Səbəb? Səbəb bir neçədir. Birincisi, xalqın qüruru, mübarizliyi, əyilməzliyi. Tarixin bütün dönəmlərində haqqını, hüququnu bilən xalqlar daim incidilib. İkincisi, yaranışdan tale payımız olan, qismətimizə düşən gözəl, bərəkətli torpaqlara sahib olmağımız. Buna çoxları göz dikib, tamah salıb. Üçüncüsü isə taleyimizin nisgilli tərəfi – erməni adlı bədxah, azğın, tamahkar qonşumuzun olması. Buna, əslində, qonşu da demək olmaz. Çünki biz binə olanda bu adda qonşumuz olmayıb. Sonradan torpaqlarımızın bir küncünə qısılıb "qonşu" olublar bizə.

### Qərinənin o başı…

Tarixin bütün dönəmlərində bu üç amildən doğan və zaman-zaman bir-birini əvəzləyən faciələrin növbətisi 1990-cı ilin 20 yanvarında Bakıda törədildi. Çox yazılıb bu barədə. Faciənin yaratdığı əsərlər qan çanağına dönüb, poeziya nümunələrindən qan süzüb, məqalələrdə, oçerklərdə, reportajlarda gənc ömürlər erkən çiçək açıb, vaxtsız solub, ataların beli bükülüb, analar ağlar qalıb. Televiziya ekranlarında, qəzet səhifələrində qərənfillər dil açıb bu faciənin dəhşətindən danışıb. Əllərin solmamış xınası, boş qalan məktəb partaları, qana boyanan tələbə biletləri, ali təhsili başa vurmaq haqqında diplomla ölüm arasındakı qısa zaman fasiləsi, bir də ki həmin gün doğulan atasız uşaqlar ürəklərə sevgili, ər, övlad dağı çəkib, silinməz nisgil həkk edib.

20 yanvar 1990-cı il. Müstəqil tariximizin şanlı səhifəsinə çevrilən həmin tarix əsrlərin zülmətinə bir nur saçır. Bu nurun ziyasında Azərbaycan xalqının illərlə zülmlərlə, məşəqqətlərlə üz-üzə dayanan, azadlıq, müstəqillik yolunda mübarizələrlə dolu çoxəsrlik tarixi vərəqlənir. Vərəqləndikcə də başına gətirilən müsibətlər, mübariz bir xalqın müstəqil olmaq arzusunun reallaşa bilməməsi səbəbləri açıqlanır, gözlər önündə canlanır.

1990-cı ilin azadlıq mübarizəsi bir ilin, iki ilin mübarizəsi deyildi. Əsrlərin qan yaddaşına hopmuş hisslərin yenidən coşması idi. Bir sözlə, müstəqillik arzusunun reallşması üçün növbəti bir mübarizə idi. Xalq öz soy-kökündən qaynaqlanan hissləri ilə yenidən azadlığa can ataraq müstəqil yaşamaq istəyirdi. Elə bu arzu ilə də minlərlə soydaşımız 33 il əvvəl Azadlıq meydanına axışırdı. Günlərlə bu meydanda azadlıq istəklərini səsləndirir, bu istəklərin ozamankı hakimiyyətə çatdırılmasını, bu istəklərin həyata keçirilməsini tələb edirdi. Və qarşıda bu meydandakı minlərlə insanı nələrin gözləyəcəyini də təxmin edirdi. Çünki tariximizdən bizə azadlıq mücadiləsində başımıza gətirilən müsibətlər gün kimi aydın idi. Lakin Azərbaycan xalqı azad yaşamağı o qədər ürəkdən arzulayırdı ki, qarşıda onu nələrin gözlədiyini çox yaxşı bilə-bilə yenə də bu yoldan dönmürdü.

70 il sovet imperiyasının əsarəti altında yaşayan Azərbaycandan təbii ki, bu imperiya əl götürmək fikrində deyildi. Çünki bu xalqın milli sərvətlərinə çox yaxşı bələd idi və onun əlindən çıxması ilə əsla razılaşmaq fikrində də deyildi. Ona görə də bu mübarizəni yerindəcə boğmaq onların qarşılarına qoyduğu yeganə məqsəd idi.

Bəli, bir tərəfdən imperiya ünsürləri, digər tərəfdən isə hələ iki il öncə ermənilərin xalqımıza qarşı başladıqları müharibə və onun hər gün neçə-neçə övladımızın həlak olması ilə davamı, ölkədəki ictimai-siyasi vəziyyət, dövlətimizin başında səriştəsiz rəhbərliyin olması Azərbaycanı olmazın çətinlikləri ilə üz-üzə qoymuşdu.

Yanvarın 19-da gecə saatlarında Azadlıq meydanına toplaşan insanların ölüm hökmünü verən, bunun üçün Azərbaycana ordu göndərən rus imperiyası nümayəndələri üçün buradakı insanların taleyi yox, onların ailələrindəki insanların nələr çəkəcəyi yox, 70 il sərvətini mənimsədikləri xalqın tarixinə özləri ilə bağlı qara sətirləri həkk edəcəkləri yox, nəyin bahasına olursa olsun, Azərbaycan adlı sərvətin əldən verilməməsi maraqlı idi. Elə bunun üçün də xalqımızı mübarizə yolundan döndərmək üçün nə bacarırdılarsa, onu da etdilər.

Lakin sinəsini güllə yağışı qarşısına sipər etməyi əvvəlcədən düşünən və buna hazır olan xalqın mübariz, coşğun hisli mərd oğul və qızları bu yoldan bircə addım belə geri çəkilmək fikrində deyildilər. Güllələr onlara tərəf tuşlandıqca, qarşıya doğru irəliləyirdilər. Bu, azadlıq uğrunda mübarizənin xalqımızın qəhrəmanlıq tarixində yeni mərhələsi idi. İllər öncə əldə olunmuş və əldən verilmiş azadlıq üçün mübarizənin son həddi idi. O günlər ya xalq bütövlükdə məhv olmalı, ya da əsrlərin arzularını gerçəkləşdirməli idi. Fikir qəti, iradə qəti, lakin xalq əliyalın idi. Həm də arxasında dayanan hakim qüvvə yox idi. Dövləti idarə edənlər düşmənə satılaraq

millətin taleyini əsla düşünmək belə istəmirdilər. Buna görə də xalq meydanda tək qalmışdı, ona heç bir dəstək, kömək yox idi. Tək güc qarşıya qoyulan məqsəd idi. Bu güc və iradə ilə hər kəs şəhid olmağa razı idi, nəinki mübarizə meydanından geri çəkilməyə.

Beləliklə, 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə Bakıda qanli qətllər törədilsə də, azadlığa gedən yolun təməli qoyuldu. Xalq öz mübarizliyi ilə düşmənə sübut etdi ki, o, var-qüvvəsi ilə azadlığa can atır və bu yolda canından keçməyə hazırdır.

**Tək Bakıdamı yaşandı faciə?**

Xeyr, 1990-cı ilin yanvarı Naxçıvan Muxtar Respublikasının alınmaz qalası Sədərəyin Kərki faciəsini də tarixə yazdı, Sədərək uğrunda onlarla igidin faciəli ölümünün başlanğıc nöqtəsi oldu, neçə-neçə ömürləri yarımçıq qoydu. Kərkinin tarixi, burada törədilən hadisələrlə bağlı ümummilli liderimiz Heydər Əliyev sonralar kərkililərlə görüşü zamanı bir neçə cümlə ilə tarixi bir açıqlama vermişdir: “Kərki kəndi Azərbaycanın ən gözəl guşələrindən biridir. Amma təəssüflər olsun ki, o vaxt bu xəritəni cızanda Azərbaycana düşmən olan insanlar elə etmişlər ki, Azərbaycanın Kərki kəndi Ermənistanın içində qalmışdı. Buna baxmayaraq, Kərki həmişə yaşayırdı. Ancaq 1990-cı ildə ermənilər hücum etdilər. Yaxşı yadımdadır, onda mən hələ bura gəlməmişdim. Sonra gəldim, mənə dedilər ki, kərkililər orada möhkəm müqavimət göstərdilər. Ancaq təəssüflər olsun ki, onda ermənilərlə birlikdə sovet ordusunun hissələri sizi öz kəndinizdən çıxardılar”.

Tarixə mərhum şair-publisist Vaqif Məmmədovun “Sədərəkdə yazılan gündəlik” kitabında yer alan faktlarla nəzər salaq:

13 yanvar 1990-cı il.

Dünənki plenumun gedişindən, yersiz münasibətlərdən, siyasi hadisələrin getdikcə gərginləşməsindən hiss olunur ki, Sədərək ağır təhlükə qarşısındadır…Düşmən yaxın vaxtlarda Sədərək üzərinə hücum edə bilər. Buna görə də bir gün də vaxt itirmədən öz səsimizi ucaltmalı, təcili tədbirlər görməliyik... Bu məqsədlə bu gün saat 14-də direktor işlədiyim Sədərək kənd 1 saylı orta məktəbdə kənd ağsaqqallarının, ziyalıların və digər nümayəndələrin ümumi yığıncağını keçirdik. 7 saata yaxın davam edən yığıncaqda son vaxtlar baş verən hadisələr ətraflı təhlil edildi, Sədərəyə Ermənistan tərəfdən böyük təhlükə gözlənildiyi etiraf olundu. Və 40-a yaxın təklif müzakirə olunandan sonra 270 nəfərin imzası ilə müraciət qəbul olundu. Gecə saat 10-da Şərurun mərkəzi poçtundan 5 ünvana (Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinə, Naxçıvan MSSR Ali Sovetinə, Nazirlər Sovetinə, Dövlət Təhlükəsizliyi Komitəsinə və Daxili İşlər Nazirliyinə) yola saldığımız müraciətdə aşağıdakı tələblər qoyulmuşdu:

1.Sədərək əhalisinin tam təhlükəsizliyi təmin edilsin.

2. Mövcud vəziyyət nəzərə alınmaqla Sədərək kəndində İliç rayon Daxili İşlər Şöbəsinin xüsusi bölməsi yaradılsın.

3. Sədərək ərazisində yerləşib inzibati cəhətdən Ermənistan SSR-in Artaşat rayonuna tabe olan sərhəd zastavası Naxçıvan MSSR-in sərhəd qoşunlarının ixtiyarına verilsin.

4. Kərkinin blokada vəziyyəti nəzərə alınmaqla Sədərəkdən Kərkiyə Cəhənnəmdərə istiqamətindən qısa vaxtda yol çəkilməsi üçün tədbirlər görülsün.

15 yanvar 1990-cı il …Müraciətdən 2 gün sonra yanvarın 15-də ermənilər Kərkiyə hücum etdilər… Səhər məktəbdə birinci dərs başlanana qədər Kərkiyə ermənilərin hücum etməsi xəbəri bütün kəndə yayılmışdı. Kərkidən sonra Sədərəyə də ermənilər tərəfdən hücum oluna biləcəyi gözlənildiyindən hamı narahatdır.

Kərkidə axşama qədər atışma getsə də, saysız daşnak xəyanətkarı qarşısında 20-25 nəfərin dözməsi mümkün olmadı. Müdafiəçilər çox inad etsələr də, rus hərbçiləri: “Daha sizin təhlükəsizliyinizi qorumağa bizim gücümüz çatmır, təcili kəndi tərk etməlisiniz, hamınızı girov götürəcəklər”, – deyəndən sonra kəndin son müdafiəçiləri axşamüstü bütün cığırları qarla örtülmüş Cəhənnəmdərə-Qaraağac yolu ilə çox çətin vəziyyətdə özlərini Sədərəyə çatdıra bildilər. Qədim Oğuz yurdu olan Kərki rus hərbçilərinin əli ilə ermənilərə beləcə ərməğan edildi.

19 yanvar 1990-cı il. Səhər saat 11 radələrində məktəbdə gözlənilməz, o vaxta kimi bizə tanış olmayan bir səs eşitdik. Az sonra həmin səs təkrar olunanda hamı məktəbin həyatində idi. Arazdəyən tərəfdən ermənilər Sədərəyi aramsız top atəşinə tutmuşdular. Kinolarda gördüyümüz müharibə qoxusunu və qorxusunu hiss etdik. Bizi – məktəb kollektivini ən çox narahat edən odur ki, məktəbdə 1000 nəfərdən artıq uşaq var, kəndə də aramsız top mərmiləri yağır.

Çox möhkəm qar yağmasına, bərk şaxta olmasına baxmayaraq, Naxçıvanın bütün rayon və kəndlərindən – Şərurdan, Ordubaddan, Culfadan, Nehrəmdən, Şahbuzdan, bütün bölgələrdən bu xəbəri eşidənlər Sədərəyin

köməyinə gəlirdilər. Vəziyyət çox gərgin olduğu üçün qadınlar, qocalar, uşaqlar kənddən çıxarılır, əsasən, Şərura, bəziləri isə muxtar respublikanın digər kəndlərinə daşınırlar. Sədərəkdə kişilərin əksəriyyəti səngərlərdə, döyüşdə olduğundan çıxarılmalı əhali, əsasən, rayon rəhbərliyi tərəfindən ayrılmış avtobuslarla, bir də Sədərəyin köməyinə şəxsi maşınları ilə gələnlərin vasitəsilə həyata keçirilir.

Bu gün (yanvarın 19-da) axşam qaranlıq düşənə qədər sərhəddə döyüşlər getdi. Ermənistan tərəfdən kəndə mərmilər yağdırıldı. Xeyli insan yaralandı, 8 nəfər şəhid oldu. Onlar arasında balaca Malik və Elvin qardaşları da var.

20 yanvar 1990-cı il. Kənddə hamı təşviş içindədir. Dünənki faciə və yuxusuz gözlərin baxışları dəhşətlidir. Dünən kəndə qarşı törədilən erməni vəhşiliyi nəticəsində bizimkilərdən 8 nəfər həlak olub. Səhər saat 11 radələrində bir qara xəbər də aldıq. Guya fövqəladə vəziyyət yaratmaq adı ilə gecə Bakıya hərbi qüvvələr girib, həmin qüvvələrin qarşısına çıxan dinc əhali atəşə tutulub, yüzlərlə adam faciəli surətdə həlak olub. Azərbaycan faciəli, qara günlərini yaşayır".

Sədərəkdə yazılan gündəlik beləcə bir neçə il davam edir. Bu faktları sadalamaqda məqsədim var. Tarixçi-alimlər haqlı olaraq qeyd edirlər ki, heç şübhəsiz, 1990-cı il yanvarın 20-də Bakıda baş verən hadisələri muxtar respublikanın ermənilərlə həmsərhəd olan rayonlarında, xüsusilə də Sədərəkdə və Dağlıq Qarabağdakı erməni təcavüzündən ayrıca təhlil etmək düzgün olmazdı. Çünki Azərbaycan həmin dövrdə qonşu Ermənistanın təcavüzünə də məruz qalmışdı. Belə bir şəraitdə sovet rəhbərliyi nəinki münaqişənin qarşısını almaq üçün qəti tədbirlər görməmiş, əksinə, Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantları da daxil edilmişdi.

**Nə üçün həm Bakı, həm də Naxçıvan?**

20 Yanvar... Nə üçün həm Bakı, həm də Naxçıvan? Bir ayın iki böyük təcavüzkar hadisəsinə tarixçi-alim, dosent Elçin Zamanov belə açıqlama gətirir: – Hadisələri geosiyasi kontekstdə incələyərkən Bakıya qoşunun məhz yanvarın 19-20-də yeridilməsi ilə Naxçıvana eyni vaxtda Ermənistanın işğalçı qüvvələrinin hücumunun üst-üstə düşməsi Moskvada əvvəlcədən hazırlanmış bir planın həyata keçirilməsini gün kimi açığa çıxarır. Bir anlıq tarixə nəzər salsaq, bolşevik Rusiyasının Bakını işğal etmək üçün erməni amilindən yararlanması faktının şahidi olarıq.

1920-ci il martın əvvəllərində işğalçı XI Qızıl ordunun Bakıya maneəsiz soxulması üçün Moskva Qarabağda erməni üsyanı təşkil etdi ki, Azərbaycan hökuməti Milli Ordunun əsas heyətini oraya dislokasiya etməyə məcbur olsun. Ermənilərlə birgə hazırlanan bu təhlükəli əməliyyat planı Azərbaycanın işğalı ilə nəticələndi.

Elçin Zamanovun sözlərinə görə, Moskvanın 20 Yanvar əməliyyatı da təkrar olunan mənfur tarixin yenidən reallaşması idi. Moskva Azərbaycanda yeni bir milli dövlətin qurulmasından çox qorxurdu, çünki bu, nəticədə, bütünlüklə Cənubi Qafqazın itirilməsi və Türküstana yolun Rusiyanın üzünə bağlanması demək idi. Milliyyətçiliyin və milli şüurun qüvvətlənməsi müstəvisində Azərbaycanda milli müqavimət hərəkatının müdafiə gücünü qıra bilməyəcəyindən qorxan Moskva həmin dövrdə ermənilərin bütün qüvvələrinin ən geostrateji bölgə olan Naxçıvana yönləndirilməsini təşkil etdi. Həm də mərkəzdə düşünürdülər ki, Azərbaycanda suveren milli dövlət quruculuğu ideyası ətrafında yaranan milli birliyə dəstək ruhu Türk qapısı olan Naxçıvandan gəlir və buna görə də Azərbaycanın mübariz qüvvələrinin əsas diqqətini Bakıdan yayındırmaq üçün Naxçıvana çox qüvvətli erməni hücumu təşkil edilmişdi.

**Mühüm faktor: Ümummilli Lider Heydər Əliyevin Naxçıvana qayıda bilməsi məsələsi**

Tarixçi-alim onu da qeyd edir ki, Moskvanı narahat edən ən mühüm faktor ulu öndər Heydər Əliyevin Naxçıvana qayıda biləcəyi və özünün mühüm tarixi liderlik missiyasını yerinə yetirəcəyi məsələsi idi. Buna görə də Naxçıvanın işğalı planlaşdırılırdı. Bu işğal Azərbaycan milli şüuruna 20 Yanvar faciəsindən də dəhşətli bir zərbə olacaqdı. Eyni zamanda həm də Türkiyə ilə Azərbaycanın, həmçinin böyük Türk dünyasının ən mühüm geostrateji əlaqə qovşağına çox ciddi bir tarixi zərbə endirəcəkdi. Ümummilli liderimizin həmin taleyüklü zamanda Naxçıvana dönüşü həm Moskvanın, həm də ermənilərin böyük planlarını pozmuş oldu.

Bəli, o zaman yalnız ümummilli liderimiz Heydər Əliyev bütün çətinliklərə baxmayaraq, siyasi iradə nümayiş etdirərək Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəlib, SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə ittiham edərək bəyanatla çıxış etdi. Bundan sonra böyük şəxsiyyətin Naxçıvana gəlişi isə mərkəzin Bakı planını da, Naxçıvan planını da alt-üst etdi. Azərbaycan rəhbərliyinə qayıdışdan sonra ulu öndər

Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ilin yanvar ayında Milli Məclisdə Azərbaycan xalqına qarşı təcavüzkar 20 Yanvar hadisələrinə siyasi qiymət verildi.

Bu tarixi-siyasi faktlara nəzər saldıqca bir daha özlüyündə düşünürsən ki, 20 Yanvar faciəsindən müstəqilliyimizə bir yol uzandı. Bu yol Naxçıvandan başlandı. Ulu öndərin tövsiyələrini dinləyən xalq müstəqilliyini qazandı. 1918-ci ildəki müstəqillikdən fərqli olaraq 1991-ci ildə bərpa olunan müstəqilliyimizə ümummilli liderimizin sayəsində daimilik qarantı verildi. Bu müstəqilliklə Azərbaycan tamahında olanların bütün arzuları puç oldu, bütün planları pozuldu… Müstəqilliyimizdən isə qələbəyə bir yol uzandı.

**Qərinənin bu başı…**

Bəli, qərinənin bu başında artıq o başdakı Azərbaycandan əsər-əlamət yoxdur. Çünki xalq çox böyük çətinliklərdən keçə-keçə yaxşı günlərin sahibinə çevrilib. Xalqın ulu öndərin ətrafında birləşməsi uğrunda canından keçməyə hazır olduğu müstəqilliyinə daimilik bəxş etdi. Ötən 33 ilin tarixi vərəqlədikcə bu səhifələrdə yeni bir Azərbaycanla, onun qurulması-yaradlması, inkişafı ilə bağlı hadisələr sıralanır. Bu səhifələrdə o zaman işğal olunmuş torpaqlarımzın bir gün geri alınması ilə bağlı ulu öndərin tövsiyələri, vəsiyyəti xüsusi yer alır.

Zaman bu missiyanı ulu öndərin özünün yerinə yetirməsinə imkan verməsə də, böyük şəxsiyyətin mənəvi və siyasi varisi Azərbaycana ötən 20 illik rəhbərliyi dövründə tarixə yaxşı atanın yaxşı oğlu imzasını ata bildi.

Hakimiyyətə gəldiyi ilk illərdən Qarabağın azad olunması siyasi liderimizin fəaliyyətinin əsasını təşkil etdi. Heydər Əliyev ideyaları istiqamətində atılan addımlar, ölkənin sosial-iqtisadi vəziyyətinin dirçəldilməsi, Milli Ordumuzun gücləndirilməsi Qarabağın geri alınması üçün əlverişli şərait yaratdı. Və biz 2020-ci ilin 27 sentyabrında başlanan və 44 gün davam edən İkinci Qarabağ Müharibəsində böyük Zəfər qazandıq. Qarabağı dogma anası Azərbaycana qaytara bildik.

Bu Zəfər qərinənin o başında-Birinci Qarabağ Müharibəsində niyə uduzduq, niyə o qədər şəhid verdik suallarına cavab oldu. İkinci Qarabağ Müharibəsində qələbəmizin səbəbini izah etdi. Nəticə etibarilə Zəfərimizin əldə olunmasında Vətən sevgisi amilinin dayandığını göstərdi. Bu Zəfərlə o illərdə ölkəmizin rəhbərlərinin sevgisizlikləri fonunda böyük Vətən sevgisini ölkəmizin rəhbərində gördük. Həm də onun sonsuz olduğunu gördük. Bu sevgi bölünüb torpaqlarımıza paylananda isə onların hər birinin azad olunması, anası Azərbaycana qaytarılması, ölkəmizin ərazi bütövlüyünün bərpasının böyük arzu olduğunu gördük. Gördük ki, ölkəmizin rəhbəri bütün gücü ordu quruculuğuna, dünyanın fikrini Qarabağa yönəltdi. Qarabağın geri alınması üçün illərlə iş apardı. Dünyaya üz tutdu, torpaqlarımızın dinc yolla, qan tökülmədən alınmasına çalışdı. Lakin buna nail olmayanda müharibə yolu ilə düşməni yerində oturtmasını, diz çökdürməsini də gördük.

Əgər Birinci Qarabağ Müharibəsində 15 mindən çox şəhidimiz olmuşdursa, İkinci Qarabağ Müharibəsində 3 minədək şəhidimiz oldu. O qədər şəhidlə əldən gedən torpaqlar geri alındı. Bu, müharibənin planlı şəkildə aparılmasının, güclü ordunun, orduya bacarıqla, səriştə ilə rəhbərliyin göstəricisi, yazılan şanlı tarixdir. O tarix ki, vərəqləndikcə hünərdən, qeyrətdən, namusdan, ləyaqətdən, vətənpərvərlikdən, həmrəylikdən söhbət açacaq.

Minlərlə şəhidi olan Birinci Qarabağ Müharibəsi isə bu tarixin səhifələrinə əliyalın insanların hünəri ilə yanaşı, həm də xalqına xəyanət edən rəhbərlərin adı, pis əməlləri ilə yazılıb. Bax, Zəfər bunları ortaya qoydu.

Bir qərinənin o başı ilə bu başındakı fərq indi göz qabağındadır. 20 Yanvar hadisəsinin baş verdiyi dövrdə həm də torpaqları işğal olunan Azərbaycan indi qalib bir ölkədir. Xalqımız bu qalib ölkənin başını dik tutan, alnıaçıq, qürurlu insanlarıdır. Bu qüruru bizə bəxş edən ölkəmizin rəhbəri, Ali Baş Komandan cənab İlham Əliyevə və Milli Ordumuzun qəhrəman oğullarına daim minnətdarıq. Çünki Qarabağ tariximizin qara ləkəsi idi. Onlar bu qara ləkəni təmizlədilər, 20 Yanvardan bu ötən bir qərinənin müəyyən zamanlarında şəhid olan övladlarımızın qisasını aldılar. Azərbaycanın adını yenidən qeyrət və qüdrətləri ilə bütün dünyaya yaydılar. Biz onlarla qürur duyuruq.

**Səs.-**2023.-18 yanvar.-№9.-S.8-9.

**20 Yanvar - milli iradəmizin zəfər çaldığı gün**

**Fuad Heydər,**
Siyasi şərhçi

2021-ci il yanvarın 19-da Prezident İlham Əliyev rəsmi "Facebook" səhifəsində 20 Yanvar faciəsinin 31-cü ildönümü ilə bağlı paylaşım edib. Paylaşımda "20 Yanvar milli iradəmizin zəfər çaldığı gün" sözləri qeyd edilib. Bəli, bu gün tariximizə faciəli gün kimi daxil olsa da, 20 Yanvar milli iradəmizin zəfər çaldığı gündür. Çünki bu faciədə canını fəda edən şəhidlərimizi artıq 3-cü ildir ki, tam fərqli şəkildə anırıq. 30 il qəm-qüssə, kədərlə, ürəkağrısı ilə andığımız bu gün bu dəfə hər birimizdə fərqli bir hisslər oyatdı. Xalqımız vətənpərvər övladlarının xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına başıuca, üzüağ gedir. 20 Yanvar şəhidlərimizi bu dəfə kədər, qəm qüssə ilə yox, fəxarətlə, qürurla yad etdik. Biz sübut etdik ki, şəhidlərimizin qanı bahasına başa gələn azadlığımız, istiqlaliyyətimiz əmin əllərdədir. Çünki biz xoşbəxt və qəhrəman xalqıq ki, şəhidlərimizin qisasını ala bildik. Vaxtilə 20 Yanvar faciəsinin katalizatoru olan Dağlıq Qarabağ münaqişəsinə artıq son qoyulub. Müstəqil Azərbaycan dövləti bu gün tarixində ən güclü dövrünü yaşayır.

Bu il Şəhidlər xiyabanına ziyarət edənlər arasında gənclərimiz daha çoxdur və həmin gənclərin çoxu ömründə heç Qarabağ torpağını görməyib. O gənclər ki, vüqarımız olan Şuşanı dişləri, dırnaqları ilə vuruşa-vuruşa düşməndən geri aldılar. Bütün nəsillərin böyük qələbəmizdə zəhməti, payı olsa da, sözsüz ki, düşmənə döyüş meydanında ən böyük zərbəni Azərbaycan gəncləri vurdu. Heydər Əliyev məktəbinin, İlham Əliyev idarəçiliyinin yetirmələri olan gənclərimiz çox vətənpərvərdirlər. Azərbaycan gəncləri Vətən torpaqlarını azad etmək üçün fədakarlıq, qəhrəmanlıq nümunələrinə çevrildilər. Həmin gənclərin 20 Yanvar şəhidlərini ziyarəti fərqli bir atmosfer, təntənə, vəhdət yaratdı.

Məhz buna görə də Qalib Prezidentimiz İlham Əliyev cənablarının dediyi kimi: «20 Yanvar milli iradəmizin zəfər çaldığı gün»dür.

Bəli, 20 Yanvar milli qürurumuzun şərəf salnaməsidir. Çünki bir qərinəyə yaxın vaxt ötür həmin tarixdən. 33 ildir xalqın yaddaşına əbədi həkk olunan bu tarix Azərbaycanı müstəqilliyə aparan yolda yeni mərhələnin başlanğıcı sayılır. 20 Yanvar faciəsi Azərbaycan xalqı üçün təkcə böyük faciə deyildir. O, milli ləyaqətini qorumaq üçün hər cür qurban verməyə hazır olan xalqın tarixində şərəfli səhifədir. O gün tariximizə həm ümumxalq faciəsi, həm də müstəqillik, istiqlal və hürriyyət uğrunda xalqımızın apardığı milli-azadlıq hərəkatının zirvəsi kimi qiymətləndirilir.

20 Yanvar faciəsi ilk növbədə siyasi maraqlar naminə Azərbaycan xalqına qarşı törədilmiş cinayətdir. Milli maraqlara zidd addımlar atan Azərbaycanın o zamankı rəhbərlərinin istefası tələbinin irəli sürülməsinə və xalqın qətiyyətlə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə qarşı çıxmasına görə Azərbaycanı cəzalandırmaq üçün Kreml qanlı Yanvar qırğınını törətdi. Və çoxu ermənilərdən olan rus qoşun hissələri yanvarın 19-da saat 21:00-dan etibarən Türkan-Qala tərəfdən şəhərə yeridildi. "Bakı əməliyyatı"na rəhbərliyi birbaşa SSRİ müdafiə naziri Dmitri Yazov, SSRİ daxili işlər naziri Vadim Bakatin, SSRİ DTK sədrinin müavini Filip Babkov həyata keçirirdilər. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular artıq 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışdılar. Kütləvi insan qırğını törədildikdən sonra - yəni 20 yanvar 1990-cı il səhər saat 05:30-da radio vasitəsilə Bakı şəhər komendantı V.Dubinyak fövqəladə vəziyyət tətbiq edildiyi barədə rəsmi məlumatı efirə vermişdir. Halbuki yanvarın 20-də saat 00-00-dan başlanmış hərbi əməliyyatlarda tanklardan və müxtəlif təyinatlı zirehli döyüş maşınlarından istifadə edilmiş, Xəzər Hərbi Donanmasına məxsus gəmilərdən şəhərə desant çıxarılmışdı. Fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürülmüşdür.

Qanlı Yanvar hadisələrinin coğrafiyası təkcə Bakı şəhəri ilə məhdudlaşmadı. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda yanvarın 25-də Neftçala, yanvarın 26-da Lənkəranda 8 nəfər qətlə yetirilmişdi. Ümumilikdə respublikada 147 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuş, 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdir.

Faciə ilə əlaqədar ilk rəsmi etiraz ulu öndər Heydər Əliyev tərəfindən oldu. Heç bir təhlükədən çəkinməyərək sovet hakimiyyətinin bu əməlinə etiraz edən Ümummilli Lider Azərbaycan xalqının başına gətirilən qanlı faciəyə ilk siyasi-hüquqi qiymətini verdi. Ulu öndərin təşəbbüsü və göstərişləri ilə 1994-cü ilin mart ayının 29-da Milli Məclis "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" Qərar qəbul etdi. Ümummilli lider Heydər Əliyev dövrün mürəkkəbliyinə rəğmən, 20 Yanvar faciəsinin başvermə səbəblərinin və günahkarların araşdırılması ilə də məşğul oldu və bunun nəticəsində həqiqətlər üzə çıxdı.

Beləliklə, 20 Yanvar faciəsi məhz Ulu Öndər Heydər Əliyevin prinsipial və ardıcıl mübarizəsindən sonra öz hüquqi-siyasi qiymətini aldı.

Bu gün isə, ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin uca tutulmasına, şəhid ailələrinin sosial məsələlərinin yoluna qoyulmasına xüsusi diqqət göstərir və bu gün də humanist siyasətini davam etdirir.

Bir sözlə, 33 ildir ki, Bakının ən yüksək yerində hər bir azərbaycanlı, eyni zamanda biz gənclər üçün müqəddəs and yerinə çevrilmiş bir ünvan var. Bu, 20 Yanvar faciəsi qurbanlarının və Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər xiyabanıdır. Artıq 3 ildir Şəhidlər xiyabanında uyuyan qəhrəmanlarımızın ruhları da şaddır. Çünki qanları yerdə qalmayıb. İndi həmin müqəddəs məkana üz tutan hər bir azərbaycanlı, hər bir gənc məzarlar önündə mətin dayanaraq ona müstəqillik qazandıran ölməz qəhrəmanların ruhlarına dualar oxuyur. Hər kəs qürurludur, şəhidlərin isə ruhları şaddır. Çünki azadlığı, müstəqilliyi uğrunda canını fəda etdiyi ölkə bu gün tarixinin ən qüdrətli dövrünü yaşayır.

**Səs.-**2023.-19 yanvar.-№10.-S.12.

## Qanlı yanvarın qanlı meydanı...

**Əliqismət BƏDƏLOV**

**Hər il olduğu kimi, bu dəfə də yanvarın 20-də metronun "20 Yanvar" stansiyasının üzərindəki meydan insan selinə qərq olmuşdu. Otuz üç il əvvəl baş vermiş Qanlı Yanvar hadisələrinin ən qaynar nöqtəsi məhz 20 Yanvar metrosunun ətrafı olmuşdu. Burada inşa edilmiş Memorial kompleks həmin qətliamda şəhid olanların ailə üzvlərinin və sağlamlıqlarını itirənlərin təsəllisinə çevrilib. Xatirə kompleksinin üzərində ümummilli lider Heydər Əliyevin Qanlı Yanvar hadisələri ilə bağlı dediyi "1990-cı il yanvarın 20-si Azərbaycanın tarixinə ən faciəli günlərdən biri, eyni zamanda xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olmuşdur" – sözləri qızılı hərflərlə həkk olunmuşdur.**

İlk illərlə müqayisədə mərasimə gələnlər daha ağlamırdılar. Uşaqdan-böyüyə hər kəs memorial kompleksə qürurla, fəxrlə baxırdı. Buranı qalib xalqın qürurlu vətəndaşları kimi ziyarət edirdilər. Azadlıq mücadiləsi ilə başlanan yolumuz iki il əvvəl Vətən savaşında zəfərlə başa çatdı. Müharibədən sonra Prezident, Ali Baş Komandan İlham Əliyevin Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarı ilə bərabər, Şəhidlər xiyabanını da ziyarət etməsi təsadüfi deyildi. Məhz istiqlaliyyətə gedən yolun başlanğıcını şəhidlər qoyublar və onların davamçıları torpaqlarımızı düşməndən azad ediblər.

Mərasim Dövlət himninin səsləndirilməsi ilə başlandı. Cərgə ilə düzülmüş, əllərində qərənfil tutmuş 3-5 yaşlı uşaqların Dövlət himnini eşidən kimi əllərini ürəklərinin üstünə qoyması hər birimizi qürurlandırdı. İştirakçılar arasında diqqətimizi cəlb edənlərdən biri də əlindəki əsaya söykənə-söykənə çətinliklə yeriyən, bir qolunu itirmiş, sinəsini orden və medallar bəzəyən gənc idi. Onunla həmsöhbət oldum. **Öyrəndim ki, İkinci Qarabağ müharibəsində Füzulidən Şuşaya qədər döyüş yolu keçmiş Ruslan Rzayevdir. Dedi ki, Vətən müharibəsinə könüllü olaraq Sumqayıtdan gedib:**

– Biz qəhrəmanlığı, vətənpərvərliyi bunlardan öyrəndik, – deyə kompleksin üzərinə yazılmış şəhidlərin adlarını göstərir. – Onlar başdan-ayağa qədər silahlanmış imperiya ordusunun qarşısına əliyalın çıxmışdılar. Keçmiş SSRİ rəhbərliyinin torpaqlarımızı hissə-hissə Ermənistana verməsinə dözə bilmədilər, etirazlarını dinc aksiya ilə bildirdilər. Ancaq sovet ordusu onları odlu silahla susdurmaq istədi. Qəlbi azadlıq, istiqlaliyyət eşqi ilə döyünənlərsə qorxub çəkinmədilər. Şəhidlik zirvəsinə ucalana qədər müqavimət göstərdilər və istəklərinə nail oldular. Vətən müharibəsində də belə oldu. Biz hər gün irəli gedirdik. Düşməni diz çökdürənə qədər getdik və buna nail olduq. Allah şəhidlərimizə rəhmət eləsin! Şəxsən mən özümü onların davamçısı hesab edirəm.

**20 Yanvar faciəsinin canlı şahidlərindən biri də Vaqif Namazovdur. O, həmin hadisələrdən danışarkən göz yaşlarını saxlaya bilmədi:**

– Gənc yaşlarımdan əlil olmağımdan təəssüflənmirəm. Biz istəyimizə nail olduq. Bugünkü müstəqilliyimizin, istiqlaliyyətimizin əsasını 33 il əvvəl qoyduq. Heç vaxt gözlərim önündən getməz. Dinc əhaliyə amansızcasına divan tutan, insanları vəhşicəsinə qətlə yetirən, şəhəri güllə yağışına qərq edənlər uzun-saçlı əsgərlər idi. Sonradan öyrəndik ki, onlar Rostov, Stavropol və Krasnodardan gətirilmiş ehtiyatda olan ermənilər imiş. Vəhşilər narkotik, spirtli içki verib azğınlaşdırmışdılar və xalqın üstünə salmışdılar. Onlar xalqa qarşı qadağan olunmuş odlu silahlardan, zəhərli güllələrdən istifadə edirdilər. Buna baxmayaraq, biz sınmadıq, əyilmədik və əsl azərbaycanlı kimi müqavimət göstərdik.

V.Namazov yanında dayanmış 20 Yanvar əlili Abdulla Ağazadəni təqdim edərək dedi ki, o da Neftçala rayonunda yaralanıb. Başqa əlil Nazim Ələkbərovun həmin hadisələrdən təsadüf nəticəsində sağ çıxdığını bildirdi. Əlləri günahsız insanların qanına batmış əsgərlər onun "Zaporojets" markalı maşınının üstündən tankla keçmişdilər. Digər əlillər İbadulla Həsənov, Tofiq Yusifov da onlarla bir sırada idi. Qazilərin hər biri dövlət başçımızın və Birinci vitse-prezidentin göstərdiyi diqqət və qayğıdan razılıqlarını bildirdilər.

Sonra mərasim iştirakçıları, onların sırasında olan üç- beş yaşlı uşaqlar da əllərindəki qərənfilləri kompleksin önünə qoydular. Hamının ürəyindən bir hiss keçirdi: "Vətən sizi heç vaxt unutmaz. Çünki siz adınızı əbədi olaraq tarixə həkk etmisiniz".

**Xalq qəzeti**.- 2023.- 22 yanvar.- № 14.- S. 10

## Əbədi yaşayanlar

**Elşən QƏNİYEV**

Əllərində qərənfillər tutmuş insanlar səhərin alaqaranlığından Şəhidlər xiyabanına doğru axışırdılar. Üstündən 33 il keçməsinə baxmayaraq, üzlərdə kədər, gözlərdə yaş, baxışlarda qəzəb vardı. Sanki o qanlı hadisə 33 il əvvəl yox, dünən baş vermişdi. Üstündən illər keçdikcə tariximizin qanlı-şanlı səhifəsi olan 20 Yanvarın tariximizdə tutduğu yeri daha aydın dərk edirik.

İllərdir ermənilər qədim torpaqlarımızı ələ keçirmək üçün fürsət gözləyirdilər. Mixail Qorbaçovun keçmiş SSRİ rəhbərliyinə gətirilməsi ilə ermənilərin əlinə fürsət düşmüş oldu. Əvvəlcə 200 min nəfərdən çox soydaşımız öz qədim torpaqlarından məcburi qaydada köçürüldü. Cəzasız qalan ermənilər daha da fəallaşaraq Qarabağda separatçı hərəkata start verdilər. Torpaqlarımızda baş verən olaylar, rəsmi Moskvanın separatizmə dəstək verməsi, respublika rəhbərliyinin səriştəsizliyi, mütiliyi və milli mənafeyə zidd mövqeyi xalqımızın qəzəbinə səbəb oldu. Mixail Qorbaçovun qatı ermənipərəst mövqeyi, respublika rəhbərliyinin səriştəsizliyi ucbatından xalq məsələnin həllinin meydanlarda çözüləcəyini düşünüb kütləvi etirazlara başladı. Beləliklə, 1989-cu il noyabrın 17-dən Bakının baş meydanında fasiləsiz mitinqlər keçirmək qərarına gəlindi. İmperiya rəhbərliyi Azərbaycanda başlanan xalq hərəkatını yatırmaq, millətə gözdağı vermək üçün hərəkətə keçdi. Bakı küçələrində tanklar, əlisilahlı əsgərlər görünməyə başladı. Lakin zamanın təkərini geri döndərmək mümkün deyildi. Xalq mübarizədə qətiyyətli idi. Meydandan çəkilmək niyyəti yox idi. Vəziyyəti belə görən mərkəzi hakimiyyət 1989-cu il dekabrın 4-dən 5-nə keçən gecə mitinqləri zor gücünə dağıtmaq əmri verdi. Bakının mərkəzi meydanına hərbi qüvvələr yeridildi, günahsız insanlar həbs edilərək zindanlara atıldı.

Respublikada yaranmış hakimiyyətsizlik sindromu, Ermənistanda bir nəfər də olsun azərbaycanlının olmadığı halda ermənilərin hələ də Bakıda yaşayıb heç nədən çəkinmədən sərbəst fəaliyyət göstərmələri SSRİ Dövlət Təhlükəsizlik Komitəsinə məxsus agentura şəbəkəsinə təxribat törətmək, milli zəmində toqquşma yaratmaq üçün kifayət qədər münbit şərait yaratmışdı. Bakıda fövqəladə vəziyyət elan etmək üçün Mixail Qorbaçovun əlinə fürsət düşmüş oldu.

1990-cı ilin 19 yanvarı, gecə saat 24:00. Sovet ordusunun təpədən-dırnağadək silahlanmış hərbi birləşmələri beş istiqamətdən paytaxtımıza daxil oldular. Küçələrdə şütüyən tanklar və zirehli maşınlar "barrikadaları" dağıdıb keçir, əsgərlər amansızcasına dinc əhalini göz görə-görə qətlə yetirirdilər. İşıqsaçan güllələr adamların köksünə sancılıb sönürdü. Hara gəldi atılan güllələr özləri ilə birlikdə insanların həyatını söndürürdü…

Yanvarın 20-də səhər hava işıqlaşar-işıqlaşmaz küçələrə axışan Bakı sakinləri "20 Yanvar" dairəsində və ona yaxın yerlərdə dəhşətli mənzərələrlə qarşılaşdılar. Tankların əzib keçdiyi avtobuslar, yük və minik avtomobilləri, qar üzərindəki qan izləri ağır faciədən xəbər verirdi. Şəhərin mərkəzi küçə və meydanları tanklarla, avtomatlı hərbçilərlə mühasirəyə alınmışdı.

O gecə sovet ordusunun Bakıda törətdiyi qanlı qırğın xalqımızın qəzəbinə səbəb oldu. İçindəki qorxunu öldürən xalq əlisilahlı qatillərin gözlərinin içindən keçərək yenə baş meydana axışdı. Dənizin sahilində insan axını yarandı. Şəhidlərin qanı ilə suvarılmış Bakı küçələri qərənfillərə qərq oldu. Qatillər həmin gecə Bakıda 147 soydaşımızı amansızlıqla qətlə yetirmişdilər.

O gecə SSRİ-nin Azərbaycanda öldüyü gün oldu. Bir milyondan çox insanın iştirakı ilə Azərbaycan azadlığı uğrunda canını fəda etmiş şəhidlərini Bakının ən hündür meydanında - Dağüstü parkda torpağa tapşırdı.

O gün şəhidlər dəfn edilən zaman Bakı buxtasının gəmiləri ardı-arası kəsilmədən "SOS" siqnalları verirdilər. 20 Yanvar hadisələri xalq hərəkatının milli mücadiləyə, istiqlal mübarizəsinə keçid aldığı gün oldu. Düz 33 ildir ki, xalqımız öz şəhidlərini hər il hörmətlə, ehtiramla yad edir. Hər il şəhidlərin ildönümünə bir neçə gün qalmış onların məzarları qərənfillərə qərq olur. Respublikanın müxtəlif yerlərindən insanlar ziyarət üçün Bakıya axışır, Şəhidlər xiyabanına unudulmazlarımıza ehtiramlarını bildirmək üçün tələsirlər.

Bu il də Şəhidlər xiyabanı qərənfilə bələnmişdi. Dövlət xadimləri, ziyalılar, deputatlar, sənət adamları, sadə vətəndaşlar və Qarabağı düşmən işğalından azad etmiş qazilər, müharibə iştirakçıları azadlığımız, müstəqilliyimiz uğrunda ilk şəhid olanlarımızı ehtiramla yad etdilər. Ziyarətçilərdən Əməkdar incəsənət xadimi İftixar Piriyevlə söhbətləşirik. İftixar Piriyev deyir ki, hər il 20 Yanvar günü İrəvan Dövlət Azərbaycan Dram Teatrının kollektivi ilə şəhidlərimizin ziyarətinə gəlirik. Şanlı tariximizin qanlı səhifəsi hesab etdiyimiz 20 Yanvar faciəsi bizim milli birlik, bütövlük, mübarizlik, qəhrəmanlıq, zəfər donu geyinməyə yüksəldən qürur dolu qızıl səhifəmizdir. Biz bu tarixi hadisəni Azərbaycanın siyasi həyatında yeni mübarizə əzminin başlanğıc

nöqtəsi hesab edirik. Həmin nöqtədən ilk addımı isə Heydər-Xalq, Xalq-Heydər birliyinin qədəmləri başlatdı, İlham-Xalq, Xalq-İlham bütövlüyü isə bu yolu nurlu gələcəyə aparır!

Filologiya elmləri doktoru Sevinc Əliyeva da söhbətimizə qoşulur:

- 1990-cı ildən 20 Yanvar günü bu müqəddəs məkana gəlməyi özümə borc bilirəm. Burada uyuyan o müqəddəs insanlar öz qanları ilə müstəqilliyimizə, xoşbəxt gələcəyimizə yol açanlardırlar. Onlar bizə, gəncliyə vətən sevgisinin, müstəqillik uğrunda mübarizədə canından belə keçməyin nümunəsini göstərdilər. Ölümləri ilə əbədiyaşarılq qazandılar. Min illər keçəcək, şəhidlərimizin məzarı yenə belə ziyarətgah olacaq. Şəhidlikləri ilə ömürlərini vətənin ömrünə calayıb ölməzlik qazandı bu müqəddəs məkanda uyuyanlar.

İndi bu müqəddəs ziyarətgah bir də ona görə bizim üçün dəyərlidir ki, düşmən üzərində qələbənin müjdəsini bizə bu müqəddəs məkandan verdi Müzəffər Ali Baş Komandan İlham Əliyev.

Hər bura gələndə şəhidlərimizə deyirəm ki, tökülən qanınız, verdiyiniz can əbəs olmadı. Arzularınız gerçəkləşdi. İndi Azərbaycan bayrağı yurdumuzun hər yerində dalğalanır.

Birinci Qarabağ müharibəsi veteranı Məhəmmədəli Əliyev deyir ki, mən şəhidlərimizin Anım gününü keçirmək üçün bu müqəddəs ziyarətgaha Ucardan gəlmişəm. Nə qədər canım var, nə qədər ayağım yer tutur, hər il gələcəm. İki övladım var. Əvvəllər hər il övladlarımla gələrdim. Oğlum Kərim Əliyev 44 günlük müharibədə şəhidlərimizin başladıqları mübarizə yolunda canını vətənə bağışladı. Oğullarımız vətəni yaşatmaq üçün bu torpağa can verdilər. Bizim də borcumuzdur ki, onların ruhlarını yaşadaq, vətəni sevək, qoruyaq.

Ziyarətçilərdən Rafiq Həşimov Şəki şəhərindən gəldiyini dedi:

- 33 ildir 20 Yanvar səhərini Bakıda, Şəhidlər xiyabanında qarşılayıram. Nə qədər ömrüm var, yenə gələcəyəm. Şəhidlərimizi ziyarət etdikdən sonra Fəxri xiyabana gedib Ulu Öndərimizin məzarını ziyarət edirəm. Şəhidlərimizə, onların mübarizəsinə ilk doğru qiymət verən də, həyatını təhlükəyə ataraq Mixail Qorbaçova ilk etiraz edən də, müasir Azərbaycan dövlətini qurub, müstəqilliyimizi möhkəmləndirən də Heydər Əliyev oldu. Bütün ömrümüz boyu ona olan minnətdarlıq hissini unutmamalıyıq.

Ziyarətçilər arasında tarix elmləri doktoru, professor Musa Qasımlı da var idi. O, bizimlə söhbətində dedi:

- SSRİ yarandığı gündən 20 yanvar 1990-cı ilə kimi heç bir yerdə belə qəddarlıqla, bu böyüklükdə qanlı faciə törətməmişdi. Mixail Qorbaçovun bu qanlı qırğına müəlliflik etməkdə bir neçə məqsədi var idi: Azərbaycanda başlanan xalq hərəkatını boğmaq, bundan istifadə edib Qarabağda ermənilərin başladıqları separatçı hərəkatın tələblərini reallaşdırmaq, eyni zamanda SSRİ-nin müxtəlif yerlərində başlanan etiraz hərəkatlarına gözdağı vermək. Amma tamam əksi oldu. Bakıda başlanan kütləvi etiraz hərəkatı istiqlal uğrunda mübarizəyə çevrildi. Azərbaycanda istiqlal savaşının alovu bütün SSRİ-ni başına götürdü. Qorbaçovun bu səhv hərəkətinin nəticəsi olaraq SSRİ süqut etdi. Bu gün müstəqilliyimizə görə canını vermiş şəhidlərimizə borcluyuq.

Gündüz saat 12-də Bakı buxtasının gəmiləri, Bakı küçələrində hərəkət edən avtomobillərin siqnal səsləri eşidildi. Yollarda olan insanlar hərəkəti dayandıraraq birdəqiqəlik sayğı duruşu aldılar. Xiyabana insan axını isə gecə saatlarına qədər davam etdi...

**Azərbaycan**.- 2023.- 22 yanvar.- № 14.- S. 1,4.

# Ağla qərənfil, ağla

**Sevinc Səbzəliyeva,**
Naxçıvan Xatirə muzeyinin baş elmi işçisi

Bəxtinə bir xalqın yaralarına bəzək olmaq üçün yaranmaq düşən gülüm, ağla. Aylar, illər, əsrlər keçəcək elə keçdiyi kimi, qasnaq qoyan yaralar qopacaq elə vaxt-bevaxt qopduğu kimi, üz tutacayıq sənə illərdir tutduğumuz kimi, bəzəyəcəyik sağalmaz yaramızın müqəddəs ünvanını, otuz üç ildir bəzədiyimiz kimi. Səni xəlq edən, xalqımın tökülən qanı ilə eyni rəngdə olmağını istəmiş. Ki, hər sənə baxdığımızda tariximizin qanlı səhifələri yaddaşımızda son nəfəsimizə qədər tüğyan etsin. Tüğyan etsin ki, bir müddət sonra doqquz ay, doqquz gün, doqquz saatdan sonra anaların öz ölümünü gözə alaraq dünyaya gətirdikləri oğul və qızları dostunu unutmadığı kimi, düşmənini də unutmasın. Unutamasın ki, namərd gülləsinə tuş olmasın.

1990-cı ilin Yanvar faciəsinə aparan yol azərbaycanlıların Ermənistandakı tarixi torpaqlarından növbəti kütləvi deportasiyasının, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi cəhdlərinin geniş vüsət aldığı 1987-ci ildən başladı. Gərginliyin qarşısını almaq əvəzinə, Sovet rəhbərliyi Azərbaycan xalqına qarşı dəhşətli cinayət işlədi.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə birbaşa Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyinin, Dövlət Təhlükəsizlik Komitəsinin və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilib, dinc əhali ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutularaq kütləvi qətlə yetirildi. Sovet ordusunun xüsusi təyinatlı dəstələrinin və daxili qoşunların iri kontingenti Bakını zəbt edərək dinc əhaliyə qarşı qırğın törətdi. Fövqəladə vəziyyət elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışdır. Fövqəladə vəziyyət elan edildikdən sonra isə bir neçə gün ərzində Bakı şəhərində daha 21 günahsız insan öldürüldü. Fövqəladə vəziyyətin elan olunmadığı rayon və şəhərlərdə yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdir.

Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və ətraf rayonlarında 147 nəfər öldürülmüş, 744 nəfər yaralanmışdır. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milis nəfərləri var idi.

Qoşunların qanunsuz yeridilməsi həm də dinc əhali arasında kütləvi həbslərlə müşayiət olundu. Əməliyyatların gedişi boyunca paytaxt Bakı və respublikanın digər şəhər və rayonlarından 841 nəfər qanunsuz həbs edilib, onlardan 112-si SSRİ-nin müxtəlif şəhərlərindəki həbsxanalara göndərildi. 200 evə, 80 avtomobilə, o cümlədən təcili yardım maşınlarına atəş açılıb, yandırıcı güllələrin törətdiyi yanğınlar nəticəsində külli miqdarda dövlət və şəxsi əmlak məhv edilib.

Azərbaycan xalqının 147 “20 Yanvar şəhidi” əbədi tarix yazdı, öz əzmləri ilə.

Faciədən dərhal sonra – 1990-cı il yanvarın 21-də ümummilli lider Heydər Əliyev Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gedərək doğma xalqı ilə həmrəy olduğunu nümayiş etdirdi, SSRİ rəhbərliyinin törətdiyi bu qanlı əməliyyata kəskin etirazını bildirdi və həmin əməliyyata rəhbərlik edənləri ifşa etdi.

1994-cü il martın 29-da ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 20 Yanvar faciəsinə ali qanunvericilik orqanı – Milli Məclis səviyyəsində ilk dəfə hüquqi-siyasi qiymət verildi.

Milli Məclisin həmin qərarında deyilir: “Azərbaycanda vüsət tapmış milli azadlıq hərəkatını boğmaq, demokratik və suveren bir dövlət yaratmaq amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və belə bir yola qədəm qoyan hər hansı xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə 1990-cı il yanvarın 20-də Sovet Silahlı Qüvvələrinin Bakı şəhərinə və respublikanın bir neçə rayonuna yeridilməsi, nəticədə haqq və ədalətin müdafiəsi naminə küçələrə çıxmış silahsız adamların qəddarcasına qətlə yetirilməsi Azərbaycan xalqına qarşı totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirilsin”. Ümummilli lider Heydər Əliyev “20 Yanvar şəhidi” fəxri adının təsis edilməsi haqqında 31 mart 1998-ci ildə fərman imzalamışdır.

Yanvar faciəsi Ümumxalq Hüzn Günü olmaqla yanaşı, həm də Azərbaycan xalqının iradəsinin sarsılmazlığını, mətinliyini, dirəncini göstərdi. Sovet ordusunun amansızlığına və qəddarlığına, Bakıda fövqəladə vəziyyət tətbiq edilməsinə baxmayaraq, Azərbaycan xalqı yanvarın 22-də paytaxtın Azadlıq meydanında 20 Yanvar şəhidlərinin dəfni ilə əlaqədar matəm yürüşü keçirdi. Şəhidlər xiyabanındakı dəfn mərasimində 2 milyona yaxın insan iştirak edərək öz şəhidlərini layiqli şəkildə yola saldı. Qanları ilə

Azərbaycan tarixində yeni bir səhifəni qızıl hərflərlə yazaraq, gələcək nəsillərə müstəqil Azərbaycanın ilk günlərini ərmağan etdi. 70 il rus əsarətidən qurtuluşun ilk günü dünya tarixinin ən dəhşətli faciələrindən biri oldu. Lakin xalqın əzmi heç bir vəclə sarsılmadı. Tam əksinə azdalıq mübarizəsi bütün ölkəni bürüdü. Azadlıq uğrunda çırpınıb, istiqlaliyyət uğrunda duran ürəklər xalqı, milləti üçün əbədi bir hüriyyət qazandırıb, əbədiyyətə yüksəldi.

Bu gün Bakıdakı Şəhidlər xiyabanında uyuyan 20 Yanvar şəhidləri illərdir ki, eyni yanqı, xəfifləməyən acı ilə yad edilir. Azadlığımızın carçıları haqında yazlan kitablar, məqalələr, tarixi materiallar onların şücaətinin gələcək nəsillərə çatmasına xidmət edir. Naxçıvan Xatirə Muzeyi də öz növbəsində üzərinə düşən vəzifələri yerinə yetirir. Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi arasında qarşılıqlı razılaşmaya əsasən Muxtar Respublikanın ali və orta ixtisas məktəblərinin tələbə və şagirdlərinə açıq və distant dərslər keçirilir, tarixi faktlar lazımi səviyyədə təbliğ olunur. Muzeyin ekspozisiyasında 20 Yanvar faciəsində həlak olmuş Şahbuz rayon Keçili kənd sakini, 1972-cil il təvəllüdlü Alməmmədov Teymur Yəhya oğlunun və Ordubad şəhər sakini, 1970-ci il təvəllüdlü Babayev Rahim Vaqif oğlunun fotoları, şəxsi əşyaları və onlar haqqında məlumatlar, eləcə də Muxtar Respublikanın müxtəlif yerlərindən olan şəhidlər haqqında məlumatlar, onların fotoları və şəxsi əşyaları nümayiş olunur. Muzeyə gələn yerli və xarici qonaqlara Azərbaycan dövlətinin müstəqilliyi uğrunda şəhadətə yüksəlmiş 20 Yanvar, Birinci Qarabağ, İkinci Qarabağ eləcə də İkinci Dünya müharibəsində həlak olmuş qəhrəman oğul və qızlarımız haqqında ətraflı məlumat verilir.

Yüzlərlə oğullarını torpaq uğrunda mübarizəyə göndərən, qəhrəman oğulların yurdu olan Naxçıvan karvan-karvan şəhidini uyudur indi qoynunda. Nur içində yatsın inşallah can Azərbaycana fəda olan cənnət qoxulu şəhidlərimiz.

**İki sahil.-**2023.-19 yanvar.-№10.-S.8.

## Qisas qiyamətə qalmadı

**Yasəmən Musayeva**

**Azərbaycan xalqı olaraq, düz bir qərinə əvvəl, haqsızlığa dirənc göstərərək Vətən uğrunda şəhadət şərbəti içənlərin haqqın dərgahına uğurlandığı Şəhidlər xiyabanında müqəddəs bir and içmişdik. 1990-cı ilin 20 yanvarında xalqımızın azadlığı, onun gələcəyi naminə qorxmadan haqq səsini ucaldan oğullarımıza, qızlarımıza söz vermişdik ki, uğrunda can qoyduqları Azərbaycanın müstəqilliyini təmin edəcək, torpaqlarımıza göz dikən düşmənə layiqli cavab verərək ərazi bütövlüyümüzü əbədiyyətədək qoruyacağıq və şəhidlərimizin qisasını alacağıq.**

### Şəhidlər xiyabanından müjdələnən Şuşa zəfəri

"Əziz bacılar və qardaşlar, bu gün bu müjdəni mən burada - Şəhidlər xiyabanında doğma xalqıma verirəm. Bu, təsadüfi deyil. Bu, təbiidir. Bu gün şəhidlərimizin ruhu qarşısında bir daha baş əyirəm. Bu gün bəyan edirəm ki, şəhidlərimizin qanı yerdə qalmır. Erməni vəhşiliyinin qurbanlarının, Xocalı qurbanlarının qanı yerdə qalmır. İntiqamımızı döyüş meydanında aldıq".

2020-ci il noyabrın 8-də Müzəffər Ali Baş Komandan İlham Əliyev Qarabağın mirvarisi Şuşanın azadlığını Şəhidlər xiyabanından xalqımıza müjdələyən zaman qürurla bəyan etmişdi bu fikirləri.

Müzəffər sərkərdənin Vətən qibləmizin azadlığının şad xəbərini məhz Şəhidlər xiyabanından çatdırmasının, tarixi Zəfərimizi bu müqəddəs məkandan dünyaya çatdırmasının öz rəmzi mənası var idi. Qalib Komandan İlham Əliyev şəhidlərimizin uyuduğu, xalqımızın əbədi məşəlinin alovlandığı bu məkandan qürurla o ismarışı da vermişdi ki, 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür!

Və torpaqlarımızın azadlığı, xalqımızın milli mənafeləri uğrunda haqq mübarizəsinə atılaraq canını qurban verən qəhrəman şəhidlərimizin də qisası alınıb, qanları yerdə qalmayıb.

### Qan yaddaşımız

Müxtəlif zamanlarda olduğu kimi, 1987-ci ilin sonlarında da yenidən ortaya atılmış qondarma "Dağlıq Qarabağ" problemi Azərbaycanın ərazi bütövlüyünün pozulmasına, torpaqlarımızın işğalına, Ermənistanda və Qarabağın dağlıq hissəsində yaşayan yüz minlərlə azərbaycanlının öz doğma yurdlarından qovulmasına yönəlmişdi. Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin ermənilərə havadarlığından hiddətlənən xalqımız azadlıq hərəkatına başlayaraq, Bakının küçələrinə və meydanlarına çıxıb etirazını bildirir, gecə-gündüz milli mübarizəsini sürdürürdü.

Amma 1990-cı il yanvarın 20-nə keçən gecə sovet ordusu millətimizin azadlıq eşqini, haqq səsini boğmaq üçün geniş xalq kütlələrinə qarşı hərbi əməliyyatlara başladı.

Sovet ordusunun böyük hərbi heyətinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi.

Azərbaycana göndərilən ordu hissələrinin tərkibinə Stavropoldan, Rostovdan, Krasnodardan səfərbər edilmiş erməni zabit və əsgərləri, hərbi məktəblərdə təhsil alan erməni kursantları da cəlb edilmişdi.

Dinc əhalimizə qarşı xüsusi qəddarlıqla həyata keçirilən "Bakı əməliyyatı" zamanı hətta fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışdılar. Kütləvi insan qırğını törədildikdən sonra - yəni 1990-cı il yanvarın 20-də səhər saat 5.30-da radio vasitəsilə Bakı şəhər komendantı V.Dubinyak fövqəladə vəziyyət tətbiq edildiyi barədə rəsmi məlumatı efirə vermişdi. Halbuki yanvarın 20-də gecədən başlanmış hərbi əməliyyatlarda tanklardan və müxtəlif təyinatlı zirehli döyüş maşınlarından istifadə edilmiş, Xəzər Hərbi Donanmasına məxsus gəmilərdən şəhərə desant çıxarılmışdı. Fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürülmüşdü.

Ümumilikdə 1990-cı ilin yanvarında Bakı və respublikanın digər yaşayış məntəqələrində sovet ordusunun təcavüzü nəticəsində 147 nəfər insan amansızcasına öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdu.

## Nicat yalnız müstəqillikdə idi

1990-cı il yanvarın 20-də gecə baş verən sovet zülmünə qarşı "Bu qan yerdə qalmaz" deyə ayağa qalxan qəzəbli insan izdihamı "Azadlıq" meydanına axışdı. Onlar müstəqillik uğrunda şəhid olan vətən övladlarının cənazələrinin Bakının ən hündür nöqtəsində torpağa tapşırılmasını istəyirdilər.

Sovet ordusunun amansızlığına və qəddarlığına, Bakıda fövqəladə vəziyyət tətbiq edilməsinə baxmayaraq, Azərbaycan xalqı yanvarın 22-də paytaxtın "Azadlıq" meydanında 20 Yanvar şəhidlərinin dəfni ilə əlaqədar matəm yürüşü keçirdi. Həmin vaxt Şəhidlər xiyabanındakı dəfn mərasimində 2 milyona yaxın insan iştirak edirdi.

Qanlı rejimə nifrət hissi aşıb-daşan xalqımız qətiyyətlə müstəqillik tələb edir, Sov.İKP üzvləri kütləvi şəkildə partiya biletlərini yandıraraq onun sıralarını tərk edirdilər.

20 Yanvar faciəsi xalqımızın zülmə, istibdada qarşı açıq dirəniş göstərməsinə, qəddar rejimə qarşı mübarizəyə qalxmasına təkan verdi. Bu faciədən sonra milli azadlıq hərəkatı tam siyasi reallığa çevrildi, xalq öz gələcəyini yalnız müstəqil Azərbaycanda gördü.

## Ulu Öndər qanlı faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında ittiham etdi

1990-cı il yanvarın 20-də Azərbaycan xalqının başına gətirilən qanlı faciəyə ilk siyasi-hüquqi qiyməti Ümummilli Lider Heydər Əliyev verdi.

Ulu Öndər təhlükələrdən çəkinməyərək hadisənin ertəsi günü Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək qanlı faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında ittiham etdi.

Heydər Əliyev SSRİ rəhbərliyinin qərarını kəskin tənqid edərək, rəsmi açıqlama tələb etdi: "Azərbaycana kənardan böyük ordu kontingenti yeridilmişdir. Respublikada neçə ordu birləşməsinin olduğu mənə yaxşı bəllidir. Azərbaycanda kifayət qədər - 4-cü ordu, Xəzər Hərbi Dəniz Donanması, desant qoşunlarının diviziyası, Hava Hücumundan Müdafiə Qoşunları, DİN-in daxili qoşun birləşmələri vardır. Oraya əlavə qoşun yeritmək nəyə lazım idi? Əgər belə zərurət var idisə, orada yerləşən hərbi hissələrdən də istifadə etmək olardı. Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə Azərbaycanı qoyub qaçmış Vəzirov öz xalqı qarşısında məsuliyyət daşımalıdır".

Cəsarətli bəyanat verərək əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd, Moskvanın və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa edən Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsinə ilk siyasi qiymət verən 21 noyabr 1990-cı il tarixli qərar qəbul etdi.

Ulu Öndərin təşəbbüsü və göstərişləri ilə 1994-cü il mart ayının 29-da Milli Məclis "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul etdi.

## Azadlıq eşqi

1990-cı ilin qanlı 20 Yanvarından 33 il, düz bir qərinə zaman keçib. Amma xalqımızın ürəyində ağrı-acısı da, yaşatdığı qürur hissi də elə ilk gündəki kimi təzədir.

Tariximizə həm faciə, həm də qəhrəmanlıq salnaməsi kimi həkk olunan 20 Yanvar faciəsi sübut etdi ki, Azərbaycanın müstəqilliyi, demokratik dövlət qurmaq amalı ilə ayağa qalxan mərd xalqımızın inam və iradəsini qırmaq, milli azadlıq eşqini boğmaq mümkün deyil.

Buna həm də 44 günlük Vətən müharibəsində dünya şahidlik etdi, gördü ki, Azərbaycan xalqı torpağını, azadlığını, müstəqilliyini canından artıq sevir və onun hər bir üzvü üçün öncə vətəndir.

Bəli, elə bu yüksək milli amallara sahib olmağımız bizi Vətən savaşında qalib etdi.

Düz 33 il əvvəl Şəhidlər xiyabanında xalqımız üzərinə götürdüyü mənəvi öhdəliyi, müqəddəs vətən borcunu cəmi 44 gün ərzində parlaq zəfər qazanaraq layiqincə ödədi. Bu şanlı qələbə sayəsində həm torpaqlarımızın 30 illik işğalına son qoyaraq ərazi bütövlüyümüzü təmin etdik, həm də milli maraqlarımız uğrunda özlərini fəda edən şəhidlərimizin qisasını alaraq onların ruhunu şad etdik.

**Azərbaycan.** - 2023.- 20 yanvar. - № 13. - S. 1,7.

## Qırmızı ordunun törətdiyi Qara Yanvar

**Elşən Qəniyev**

**Üstündən 33 il keçsə də, o gecənin dəhşətini, vəhşətini heç kim unuda bilmir. Həmin gecə, 1920-ci ildə olduğu kimi, azadlığımıza silah tuşlanmışdı. Ruhumuzu öldürmək istəyirdilər. Məqsəd gözümüzü qorxutmaq idi. Gecənin sakitliyini havada uçuşan güllə səsləri, bir də qanına boyanaraq torpağın üstə uzanmış insanların ərşə qalxan ah-nalə səsləri pozurdu.**

Bakı küçələrində günahsız övladlarımızı qətlə yetirən təkcə sovet əsgərinin gülləsi deyildi. Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun məkri, qəzəbi, illərdir torpaqlarımızı əllərinə keçirmək istəyən ermənilərin hiyləsi, kələyi, pis niyyəti idi.

20 Yanvara gedən yol Mixail Qorbaçovun SSRİ rəhbərliyinə gəlməsi ilə başlamışdı. Qorbaçovu hakimiyyətə erməni mafiyası gətirmişdi. Ona görə də onları başına yığmışdı, onların dedikləri ilə oturub-dururdu. Niyyətini həyata keçirmək üçün qarşısındakı maneə xalqımızın böyük oğlu Heydər Əliyev idi. O da SSRİ rəhbərliyində tutduğu yüksək vəzifədən uzaqlaşandan sonra əl-qolu açılmışdı. Qarabağı ermənilərə vermək üçün əlinə fürsət düşdüyünü zənn edirdi.

Amma xalq küçələrə çıxdı. Ortaya iradə qoyuldu. "Ölərik, torpağımızı düşmənə verməri̇k" dedi. Xalqın iradəsi, birliyi "sovet rəhbəri"ni, ermənilərin dostunu qəzəbləndirdi. Ona etiraz edən xalqa gözdağı vermək, qorxutmaq niyyətinə düşdü. Xalqımızın ipə-sapa yatımlı, sözəbaxan olmaması Qorbaçovu qəzəbləndirdi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələrini Bakıya və Azərbaycanın bir neçə rayonuna yeritdi. Azərbaycana göndərilən ordu hissələrinin tərkibinə Stavropoldan, Rostovdan, Krasnodardan səfərbər edilmiş erməni zabit və əsgərləri, hərbi məktəblərdə təhsil alan erməni kursantları da cəlb edilmişdi. 1990-cı il yanvarın ortalarında SSRİ Müdafiə və Daxili İşlər nazirliklərinin, habelə başqa xüsusi təyinatlı hərbi birləşmələrin 66 min nəfərdən çox əsgər və zabiti Bakı şəhərinə gətirilərək Qala və Nasosnı aerodromlarında, respublika stadionunda, Salyan kazarmasında yerləşdirilmişdi.

Fövqəladə vəziyyətin yanvarın 20-də saat 00-da tətbiq edilməsinə baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat 21-dən əhaliyə heç bir xəbərdarlıq edilmədən Türkan-Qala tərəfdən şəhərə yeridildi. İş o yerə gəlib çatmışdı ki, "Bakı əməliyyatı"na rəhbərliyi birbaşa SSRİ müdafiə naziri Dmitri Yazov, SSRİ daxili işlər naziri Vadim Bakatin, SSRİ DTK sədrinin müavini Filip Babkov həyata keçirirdilər.

Onlar Bakıya "sakitlik" yaratmağa, "asayişi bərpa" etməyə gəlmədiklərini, qərəzlə, fitnə ilə, sifarişlə gəldiklərini elə ilk anda göstərdilər. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək qatillər Bakıda 82 nəfəri amansızcasına qətlə yetirib, 20 nəfəri ölümcül yaraladılar. Yalnız kütləvi insan qırğını törədildikdən sonra - yəni 20 Yanvar 1990-cı il səhər saat 5.30-da radio vasitəsilə Bakı şəhər komendantı V.Dubinyak fövqəladə vəziyyətin tətbiq edildiyi barədə rəsmi məlumatı efirə verdi.

Dinc əhalini ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutaraq kütləvi qırğınlar törətdilər. İnsanlar evlərində, eyvanlarında, həyətlərində, küçə qapılarının ağzında amansızlıqla qətlə yetirildilər. Yaralıları daşımağa gələn təcili yardım maşınları atəşə tutuldu. O gecə xəstəxanaların da işığı söndürüldü. Bakı küçələri qan gölünə döndü.

Qanlı Yanvar günündən sonra da fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda yanvarın 25-də Neftçalada, yanvarın 26-da Lənkəranda 8 nəfər qətlə yetirildi. Ümumilikdə respublikada 147 nəfər öldürüldü, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu. 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, dövlət əmlakı və şəxsi əmlak məhv edildi. Dövlət, ictimai və şəxsi əmlaka həmin dövrün qiymətləri ilə 5 milyon 637 min rubl dəyərində maddi ziyan vuruldu.

O gecə Qorbaçov azadlıq eşqimizi öldürmək istəyirdi. Ona görə də əmrində olanlara azərbaycanlılarla daha amansız davranmağı əmr etmişdi. Görünür, sovet rəhbəri bizi yaxşı tanımırmış, bizimlə zorun dili ilə danışmağın mümkün olmadığını anlamırmış. Gecəni güllə səsindən, tank gurultusundan yatmayan Bakı səhərə küçələrə azadlıq uğrunda, müstəqillik uğrunda mübarizə şuarları ilə çıxdı. Xalqımızın başına gətirilən bu faciəyə etiraz olaraq Kommunist Partiyasının üzvləri kütləvi surətdə partiya sıralarını tərk etdilər, biletlərini yandırdılar.

Beləcə, Mixail Qorbaçovun SSRİ-ni möhkəmlətmək cəhdi iflasa uğradı. 20 Yanvar gecəsi SSRİ deyilən o quduz imperiyanın təməli sarsıldı. İmperiya çat verdi. O məşum gecə öz prinsiplərinə sadiq, milli ləyaqətini

qorumaq üçün hər cür qurban verməyə hazır olan mübariz bir xalqın tarixində şərəfli bir səhərin başlanğıcı oldu. İnsanlar SSRİ rəhbərliyinin apardığı siyasətə, Bakıda tökülən qanlı hadisəyə etiraz olaraq kütləvi itaətsizliyə başladılar. O gecə Azərbaycanda yenidən azadlıq mübarizəsi doğuldu. Evlərdən, eyvanlardan 70 il sandıqlarda saxlanılan üçrəngli müqəddəs bayrağımız asıldı. Azərbaycanda mübarizənin yeni, milli istiqlal dövrü başlandı.

O ağır günlərdə xalqımız Ulu Öndər Heydər Əliyevin prinsipiallığına, təəssübkeşliyinə, Azərbaycanın haqlı mövqeyini, öz prinsiplərini həyatından üstün tutmasına da şahidlik etdi. 1990-cı il yanvarın 21-də sovet rejiminin qadağalarına əhəmiyyət verməyərək, həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələn Ulu Öndər qanlı faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında ittiham etdi. Cəsarətli, əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu bəyan etdi. Ulu Öndərin verdiyi bu bəyanatdan sonra xalq mübarizə meydanında tək olmadığını, arxasında haqq səsini dünyaya yaya bilən bir qətiyyətli liderin olduğunu gördü.

Azərbaycan xalqı 20 Yanvar şəhidlərinin - müstəqilliyimiz uğrunda mübarizənin simvollarının əziz xatirəsini daim əziz tutur, onların ruhuna ehtiram göstərir. Bu gün 20 Yanvar hadisəsinin qurbanlarının uyuduğu Şəhidlər xiyabanı xalqımızın müqəddəs ziyarətgahına çevrilib. Təsadüfi deyil ki, Qarabağın xilaskarı, Müzəffər Ali Baş Komandan

İlham Əliyev Şuşanın, Qarabağın düşməndən azad olması, zəfərimizin müjdəsini də bu müqəddəs məkandan xalqa çatdırdı. Dövlət başçısı Azərbaycanın müstəqilliyi uğrunda canını qurban vermiş fədakar övladlarına hesabat verdi və bununla şəhidlərə, onların apardığı mübarizəyə hörmət və ehtiramını nümayiş etdirdi. Nümayiş etdirdi ki, "Şəhidlər ölməz, Vətən bölünməz".

**Azərbaycan.** - 2023.- 20 yanvar. - № 13. - S. 10.

## Müdhiş gecənin ağxalatlı fədakarları

**Nəzrin Qardaşxanova**

1990-cı il yanvarın 20-si xalqımızın milli müstəqillik və azadlıq uğrunda mübarizəsinin rəmzinə çevrilib. Həmin gün Azərbaycan xalqı müasir tarixinin ən faciəli günlərindən birini yaşasa da, azadlıq əzmini itirmədən mübarizəsinə davam etmiş və haqlı tələblərini dilə gətirməkdən çəkinməmişdi.

### Sovet ordusu hətta təcili tibbi yardım maşınlarına atəş açırdı

Həmin günün əsas iştirakçıları həm də həkimlər və təcili tibbi yardım stansiyalarının işçiləri idi. Yanvarın 19-da vəzifə başında olan bütün tibb işçiləri Bakı Şəhər Təcili Tibbi Yardım Stansiyasının baş həkimi Sabir Adnayevin ardı-arası kəsilməyən zənglərini, həyəcanlı səsini xatırlayırlar. Onun briqadalara çağırış barədə məlumat verməsi, harada neçə yaralının olduğuna dair xəbərdarlıq etməsi yaddaşlardan silinmir. O gecə Bakıda həkim briqadalarında sanki hərbi qayda-qanun hökm sürürdü. Təcili tibbi yardım maşınları ilə yardıma tələsən həkimlər güllə yağışı altında xidmət göstərirdilər. Amma sovet ordusunun əsgərləri təcili tibbi yardım maşınlarının keçidinə belə imkan vermir, atəş açırdılar. Həkimlərimiz isə əllərindən gələni edir, mümkün olduğu qədər çox yaralını təcili yardım maşınları ilə aidiyyəti xəstəxanaya daşıyırdılar. Xəstəxanaların elektrik enerjisi də kəsilmişdi. Şahidlərin sözlərinə görə, həmin gecə həkimlər kağız parçalarını yandırır və onun işığında əməliyyat həyata keçirirdilər.

"Havada sayrışan güllələr gözümüzü açmağa imkan vermirdi. Dəhşətli idi, sovet əsgərləri təcili tibbi yardım maşınlarının qarşısını kəsir, yaralılara kömək etməyimizə mane olurdular. Keçmiş Musa Nağıyev adına Təcili Tibbi Yardım Xəstəxanasının həyətində insan əlindən yer yox idi", - deyə Qanlı Yanvar gecəsinin şahidi həmin günü xatırlayır.

Bakının 3 saylı təcili tibbi yardım stansiyasının həkimi Laçın Əliyeva 33 il keçməsinə baxmayaraq, xatirələri eyni ağrı və acı ilə yada salır. O zaman 28 yaşı olan həkim 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə vəzifə başında olub. Danışır ki, hələ ilk çağırış gəlməmişdən əvvəl şəhərdə tək-tük güllə səsləri eşidilirdi: "Yanvarın 19-u gecəyə az qalırdı. Tibbi məntəqəyə indiki Prezident Administrasiyasının qarşısında bir yaralının olduğuna dair çağırış gəldi. Dərhal təcili yardım maşını ilə hadisə yerinə yola düşdük. Lakin əsgərlər bizim ünvana yaxınlaşmağımıza imkan vermir, yolumuzu kəsirdilər. Bakının küçələrində o qədər insan var idi ki... Onlar bizə kömək etdilər, əsgərlərin canlı səddini yarıb təcili yardım maşınının keçidinə şərait yaratdılar. Həmin gün bütün yaralılar Nağıyev adına Təcili Tibbi Yardım Xəstəxanasına gətirilirdi. Ona görə də xəstəxananın həyətində izdiham var idi, hər kəs öz doğmasını axtarırdı. Çətinliklə olsa da, hadisə yerlərindən gətirdiyimiz yaralıları bir-bir xəstəxanaya yerləşdirirdik".

L.Əliyeva deyir ki, insanlar küçədə qan içində can verir, kömək umurdular. "Dəhşətli anlar idi... Gurultu səsləri, insan fəryadları, havada uçuşan güllələr, soyuqqanlı əsgərlər... Həmin anları, şəhidlərin simasındakı sonuncu donuq baxışları indi də olduğu kimi xatırlayıram. Çox ağır gecə idi, həmkarlarımızın ölüm xəbərini alırdıq. İki gün xəstəxanada gecələdik, yaralılara əlimizdən gələn qədər kömək edir, onları həyata qaytarmağa çalışırdıq", - deyə həkim həmin gecəni təsvir edir.

Müsahibimiz bir hadisəni də nəql etdi. Danışdı ki, təcili tibbi yardım maşınında yalnız iki ağır yaralını yerləşdirmək mümkün olsa da, onlar yollarda qalan digər yaralıları da maşınla xəstəxanaya çatdırırmışlar. Onu üzən məqam isə maşında yer olmadığına görə bəzi yaralılara vaxtında kömək edə bilməmələri olub.

### Necə qaniçənlərlə üz-üzə qaldığımızı başa düşürdük

1990-cı ildə Bakı şəhəri 3 saylı təcili tibbi yardım stansiyasında səyyar həkim vəzifəsində çalışan Yusif Musayev də 20 Yanvar faciəsinin şahidlərindəndir. O, danışır ki, yanvarın 19-da Mərkəzi Komitənin binasının qarşısında mitinq keçirilirdi və iştirakçıların sayı getdikcə artırdı. Şəhərdə müəyyən qədər gərginlik hiss edilirdi. Lakin dramatik gecə yaşayacaqları onların ağlının ucundan belə keçmirdi.

Yusif Musayev deyir ki, həmin gün bir neçə həmkarı ilə birgə mitinq yerinə növbətçilik üçün göndərilmişdi. Gecə saat 12-yə 10 dəqiqə qalmış Mərkəzi Komitənin binasının üzərində güllələr görünməyə başlandı.

"Elə həmin vaxt zəng gəldi, Adnayev bizi Bakıxanov ərazisində yerləşən 103 xidmətinə yönləndirdi. Ünvana getmək üçün Neftçilər prospektindən keçməli idik. Sahil bağı ilə Üzeyir Hacıbəyov küçəsinin kəsişməsinə çatdıqda qarşılaşdığımızdan dəhşətə gəldik, "Jiquli" markalı avtomobilin əzildiyini və içərisində 5 cəsədin olduğunu gördük. Avtomobil bizdən təxminən 10 metr aralıda idi. Yan tərəfdə isə dəbilqəli əsgərlər uzanmış, avtomatlarını bizim dayandığımız əraziyə - Rəşid Behbudov küçəsinə tuşlamışdılar. Biz irəliyə gedib gülləbaran edilmiş avtomobilə yaxınlaşmaq istəyəndə qonşuluqda yaşayan bir xanım qarşımızı kəsərək dedi ki, əgər ora yaxınlaşarıqsa, əsgərlər bizi də güllələyəcəklər. Ona görə də məcbur olub geri qayıtdıq, çünki bizim köməyimizə ehtiyacı olan hələ çox adam var idi".

Yusif Musayev və komandası xidməti ünvana çatdıqda gözlərinə inanmayıblar. Xəstəxananın həyətinə yağış kimi yağan güllələr onları çox təəccübləndirib. Hətta düşünüblər ki, yəqin əsgərlər əhalini qorxutmaq üçün silah əvəzinə fişənglərdən istifadə edirlər. Sonradan isə məlum olub ki, sovet ordusu Bakı küçələrində dünyada qadağan edilmiş silahlardan atəş açırmış.

Qanlı gecənin şahidi Y.Musayev onu da deyir ki, Mərdəkandakı təcili yardım stansiyasının həkimi Aleksandr Marxevkanın çağırışa gedən zaman yolda güllələnməsi tibb işçilərini çox təsirləndirmişdi: "Necə qaniçənlərlə üz-üzə qaldığımızı başa düşürdük. Qadınlar, əliyalın insanlar güllələnirdi. Hərbçilər təcili yardım maşınlarının qarşısını kəsir, güllələyir, heç kimə aman vermirdilər".

Elə həmkarı Aleksandr Marxevka da Türkan-Mərdəkan yolunun kəsişməsində güllə yarası almış bir nəfərə yardım etməyə gedən vaxt qətlə yetirilmişdi. Şahidlər deyirlər ki, onun yaralı üçün hazırladığı "sistem şüşəsi" eləcə əlində qalmışdı…

## "Sovet İttifaqının öldüyü yer və gün"

1990-cı il yanvarın 20-də sovet əsgərlərinin əliyalın, günahsız insanlara tuşladıqları silahlar, açdıqları güllələr elə onların özlərini də hədəf almışdı. Təsadüfi deyil ki, "Qara Yanvar", "Qanlı Şənbə" kimi yaddaşlara yazılan həmin gündə baş verən hadisələr xarici politoloqlar tərəfindən bir cümlə ilə belə təsvir edilmişdi: "Sovet İttifaqının öldüyü yer və gün". Onların təbirincə desək, sovet ordusu həmin ilin məhz 20 yanvar tarixində Bakı küçələrində "can verirdi".

20 Yanvar hadisələrindən 33 il keçməsinə baxmayaraq, xalqımız həmin günü yenə eyni ağrı-acı ilə yad edir, şəhidlərin xatirəsini uca tutur. Şəhidlərin ruhu isə rahatdır. Çünki yolunda şəhid olduqları Azərbaycan müstəqil dövlət kimi yüksəlir, inkişaf edir, tarixinin ən qüdrətli dövrünü yaşayır.

**Azərbaycan.** - 2023.- 20 yanvar. - № 13. - S. 12.

## Xalqımızın qəhrəmanlıq tarixi

**Rəhman Salmanlı**

**Azərbaycan xalqının milli müstəqillik və azadlıq uğrunda mübarizə salnaməsində tarixiləşən günlərindən biri də 1990-cı ilin 20 Yanvarıdır.**

Ölkəmizin ərazi bütövlüyünün pozulmasına qarşı etiraz edənləri, azadlıq, müstəqillik və suverenlik ideyalarını dəstəkləyən xalqı cəzalandırmaq məqsədilə həmin gün imperiya qüvvələri Bakı şəhərinə əksəriyyəti ermənilərdən ibarət qoşun yeritmişlər. Təcavüz nəticəsində 147 nəfər mülki şəxs qətlə yetirilmiş, 700-dən çox insan yaralanmış, 321 nəfər itkin düşmüş, yüzlərlə insan həbs edilmiş, ya da ömürlük şikəst olmuşdur.

1980-ci illərin sonlarında Azərbaycanda ictimai-siyasi durumun kəskinləşməsi, Kreml rəhbərliyinin uğursuz "yenidənqurma" siyasəti, iqtisadi islahatların düzgün aparılmaması, milli siyasət sahəsində buraxılan kobud səhvlər Azərbaycanda milli-azadlıq hərəkatının yaranmasına zəmin yaratmışdı. Bunun əsas səbəblərindən biri də Ermənistanın Azərbaycana qarşı əlavə ərazi-torpaq iddiaları ilə çıxış etməsi, uydurma "Qarabağ problemi"nin ortaya atılması idi. SSRİ rəhbərliyindəki havadarlarına arxalanan ermənilərin əsassız iddiaları və dinc əhaliyə qarşı törətdikləri cinayətlər xalqımızın hiddətinə səbəb olmuşdu. 1988-ci ildə Qarabağ münaqişəsi ilə əlaqədar başlayan milli-azadlıq hərəkatı prinsipiallığı ilə SSRİ rəhbərliyində ciddi narahatlıq yaratmışdı. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ bölgəsində baş qaldıran erməni separatizmi qədim türk torpaqları sayılan Qərbi Azərbaycandan 300 mindən çox soydaşımızın zorla öz ata-baba yurdlarından qovulması ilə nəticələnmişdi. Bu haqsızlığa və cinayətə görə nümayiş və mitinqlərə çıxan əhali keçmiş sovet rəhbərliyindən və onun respublikamızdakı təmsilçilərindən ermənilərin qanunsuz hərəkətlərinə son qoyulmasını, münaqişənin ideoloqlarının və icraçılarının cəzalandırılmasını tələb edirdi. Ancaq ittifaq rəhbərliyi ermənipərəst mövqedə dayanaraq, müxtəlif vasitələrlə onların müdafiəsinə qalxırdı. Azərbaycanlılar zorla öz doğma yurdlarından qovulur, onların ev-eşikləri vəhşicəsinə dağıdılır və ya zorla əllərindən alınır, özləri isə ən ağır təhqirlərə, işgəncə və qətllərə məruz qalırdılar. Həmin dövrdə respublikamızda ictimai-siyasi vəziyyəti ağırlaşdıran amillərdən biri də ölkə rəhbərliyində təmsil olunan şəxslərin səriştəsizliyi idi.

Respublikada yaranmış özbaşınalıq və hərc-mərclikdən məharətlə istifadə edən SSRİ-nin xüsusi xidmət orqanlarının əməkdaşları 1990-cı il yanvarın əvvəllərində yerlərdəki emissarlarının yaxından köməyi ilə Bakıda müxtəlif iğtişaşlar törətmişdilər. Azərbaycan informasiya blokadasına alınmışdı. Dəhşətli faciədən bir az öncə Azərbaycan Televiziyasının enerji bloku partladılmışdı. Radio işləmirdi, qəzetlər nəşr edilmirdi. Dünya ictimaiyyəti Azərbaycanda baş vermiş bu qanlı hadisədən xəbərsiz idi. Belə ağır və müsibətli bir vaxtda xalqımızın vətənpərvər oğlu, Ulu Öndər Heydər Əliyev Moskvada xüsusi nəzarət altında saxlanılmasına, təzyiq və təqiblərə baxmayaraq, yanvarın 21-də oğlu İlham Əliyevlə birgə Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək sovet ordusunun Bakıda törətdiyi bu qanlı cinayəti kəskin pisləyən bəyanat verdi. Ulu Öndər bununla da Azərbaycan xalqına qarşı törədilmiş haqsızlığı dünya səviyyəsində rəsmiləşdirdi, faciənin bütün günahkarlarının cəzalandırılmasını tələb etdi. Həmin gün Ümummilli Lider Azərbaycan KP MK-ya, respublikanın Ali Soveti və Nazirlər Sovetinə teleqram göndərdi. Bununla bütün dünya qarşısında 1990-cı il 20 Yanvar faciəsinə verilən ilk siyasi qiymətin bünövrəsini qoydu. Dövlət xadimi, dünyaşöhrətli siyasətçi Heydər Əliyev və oğlu İlham Əliyev Vətən, xalq qarşısında vətəndaşlıq və milli mövqe nümayiş etdirdilər...

Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra 20 Yanvar hadisələrinə siyasi və hüquqi qiymət verilməsi üçün ciddi addımlar atıldı. 1990-cı il noyabrın 21-də böyük siyasi xadim Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsi ilə bağlı tarixi qərar qəbul etdi. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyə gəlişindən sonra bu faciəyə siyasi, hüquqi qiymət verildi.

Ulu Öndər 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışının ilk günlərində Şəhidlər xiyabanını ziyarət etdi. Elə yerindəcə tapşırıq verdi ki, qısa müddətdə bütün şəhid məzarlarının üstü layiqincə götürülsün və burada memorial kompleks ucaldılsın. Bunun üçün dövlət səviyyəsində lazımi vəsait ayrıldı və bu iş qısa zamanda başa çatdırıldı. Məhz Ulu Öndərin sərəncamı ilə 20 Yanvar Ümumxalq Hüzn Günü elan olundu.

O vaxtdan şəhidlərimizin xatirəsinin böyük ehtiramla yad edilməsi dövlətimizin diqqət mərkəzində olan məsələdir. Ulu Öndərin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva 20 Yanvar faciəsində, eləcə də Vətən müharibəsində ölkəmizin azadlığı, ərazi

bütövlüyü uğrunda şəhid və qazi olanların, onların ailə üzvlərinin problemlərinin dövlət səviyyəsində həllini əsas vəzifələrdən biri kimi qarşıya qoyub. Ölkəmizdə bu istiqamətdə böyük tədbirlər həyata keçirilir. Şəhid ailələrinin, müharibə veteranlarının, əlillərin sosial təminatı ildən-ilə gücləndirilir. Ölkədə əlil və şəhid ailələrinin mənzil təminatını yaxşılaşdırmaq üçün dövlət hesabına tikilən fərdi və yaşayış evlərinin sayı ildən-ilə artır.

Xeyirxahlıq missiyası ilə dünyanın diqqət mərkəzində olan Heydər Əliyev Fondu 20 Yanvar şəhidlərinin ailələrinə və əlillərin problemlərinin həllinə daim böyük qayğı ilə yanaşır. Fondun dəstəyi ilə 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, faciə qurbanlarının ailələrinin problemlərinin həlli, sağlamlığının bərpası istiqamətində mühüm işlər görülür. Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının sədri Leyla xanım Əliyevanın da bu istiqamətdə həyata keçirdiyi tədbirlər yüksək dəyərlərə malikdir. Məhz onun təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən xalqımızın qanlı 20 Yanvarı, habelə Vətən müharibəsi ilə bağlı kitablar, bukletlər, albomlar nəşr olunmuş, filmlər çəkilmişdir. Bu qədirbilənlik missiyası erməni işğalından azad edilmiş qədim Azərbaycan torpaqlarında, xüsusən də Qarabağ bölgəsində böyük quruculuq və bərpa işləri ilə davam etdirilir.

Xalqımız 20 Yanvar faciəsinin 33-cü ildönümünü qeyd edir, canlarını Vətənimizin azadlığı, müstəqilliyi yolunda qurban verən mərd oğul və qızlarımızın fədakarlığı, onların əziz xatirələri ehtiramla yad olunur.

Prezidentin fərman və sərəncamlarının tələbləri çərçivəsində 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərin, eləcə də "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün aylıq məbləği cari ildən artırılmışdır. Bu kimi artımın davamı növbəti ildə də ehtimal olunur.

Bir neçə gündür ki, respublikanın şəhər və rayonlarında, o cümlədən idarə və təşkilatlarda 20 Yanvar hadisələri ilə bağlı görüşlər, konfrans və toplantılar keçirilir, mühazirələr aparılır, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşalar göstərilir, bədii və sənədli filmlər nümayiş etdirilir, bu tədbirlər kütləvi informasiya vasitələrində geniş işıqlandırılır. Respublikanın bütün tədris müəssisələrində faciəyə həsr edilmiş xüsusi dərs keçirilir, xalqımızın qəhrəmanlıq tarixinə çevrilmiş 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardımlar verilir, Azərbaycandakı əsas dini konfessiya və qurumlar tərəfindən faciə qurbanlarının xatirəsinə dini mərasimlər təşkil edilir.

Bundan əlavə, dünya ictimaiyyətinin diqqətini faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri, diaspor qurumları və icmaları vasitəsilə müvafiq tədbirlər keçirilir, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar faciəsi barədə materiallar genişliyi ilə gündəmə gətirilir.

Azadlıq, istiqlaliyyət, müstəqillik uğrunda mübarizəyə qalxan dinc əhaliyə tutulan amansız divan sanki dünən baş vermişdi. Xalq o günü heç vaxt unutmur. Hər il dinindən və irqindən asılı olmayaraq on minlərlə Azərbaycan vətəndaşı, ölkəmizdə səfərdə olan xarici ölkə başçıları, turistlər və qonaqlar Bakının ən uca yerində hamımız üçün müqəddəs sayılan, xalqımızın qəhrəmanlıq tarixini özündə yaşadan Şəhidlər xiyabanına gedir, müstəqillik uğrunda sinələrini sipər etmiş xalqımızın mərd oğul və qızlarını böyük ehtiramla yad edir, məzarları önünə tər gül-çiçək dəstələri düzürlər.

**Azərbaycan.** - 2023.- 20 yanvar. - № 13. - S. 9.

## Ölümə meydan oxuyan qəhrəman

**Ülkər Xaspoladova**

**1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqına qarşı amansız cinayət törədildi. Torpağımızı, Vətənimizi qorumaq istəyi ilə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə qarşı çıxdığımız üçün sovet rəhbərliyi tərəfindən bu qanlı əmələ əl atıldı.**

O məşum gecə 147 nəfər öldürüldü, 744 nəfər yaralandı, 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, dövlət və şəxsi əmlaklar məhv edildi. Bu faciədən sonra milli azadlıq hərəkatımız tam siyasi reallığa çevrilərək dönməz xarakter aldı. Xalq öz gələcəyini yalnız müstəqil Azərbaycanda gördü.

20 Yanvar faciəsi xalqımızın müstəqillik, istiqlal və hürriyyət uğrunda apardığı mübarizəsinin rəmzi kimi tariximizə yazıldı.

Həmin gecə Mixail Qorbaçovun əmri ilə sovet ordusu Bakıya yeridildi. Əliyalın insanlar onları Bakıya buraxmamaq üçün küçələrə axışdılar. Azğınlaşmış ordu qoca-uşaq bilmədən insanlara atəş açdı, tankları dinc əhalinin üzərinə yeridi.

### Neçə-neçə insanın həyatını xilas etdi

O gecə xain plan quranlar bir şeyi nəzərdən qaçırmışdılar: Vətən uğrunda canından belə keçməyə hazır olanları... Unutmuşdular ki, bu xalq canından keçər, amma Vətənindən əsla keçməz. 20 Yanvar gecəsi qətl edilən 147 nəfərdən biri də Səxavət Məmmədov idi. Deyirlər, adlar da geyim kimidir, bəziləri insana tam uyğun gəlir, bəziləri böyük və ya kiçik olur. O, adı kimi səxavətli, mərhəmətli, həyatının başlıca məqsədi ehtiyacı olanlara əlindən gələn köməyi göstərmək idi. Vətənin də ağır günündə canıyla, qanıyla köməyə gəldi və öz ölümü ilə neçə-neçə insanın həyatını xilas etdi.

Uşaqlığı çətinliklərlə keçən, erkən yaşda atasını itirən Səxavət bəlkə də elə buna görə idi ki, işdən yorğun gəlməsinə baxmayaraq, bütün asudə vaxtını 3 və 5 yaşlarında olan övladlarına həsr edirdi. Təəssüf ki, tale elə gətirdi elə övladlarına da atasızlıq qismət oldu. Nə Səxavət onlardan doydu, nə də onlar atalarından.

Səxavət Məmmədovun həyat yoldaşı Şəhla Məmmədova deyir ki, həmin günlər ölkədə vəziyyətin gərginləşdiyini bilirdilər. Amma belə namərd zərbə heç birinin ağlına gəlməzdi: "İnsanlar azadlıq istəyirdilər. Neçə gün idi ki, Hökumət evinin qarşısında mitinqlər başlamışdı. Səxavət də mitinqlərdə iştirak edirdi. Hətta mənə deyirdi ki, sən də bu ölkənin vətəndaşısan, orda olmalısan. Qadın, kişi fərq etməz, hamımız birlikdə olmalıyıq. Mən də elə sabahısı gün uşaqları qonşunun yanında qoyub həyat yoldaşımla birlikdə mitinqə getdim".

### Fişəng bildikləri sayrışan işıqlar güllələr imiş

Yük maşını sürücüsü olan Səxavət sanki ürəyinə damıbmış kimi, 19 yanvar günü işdə gecə növbəsinə yazılaraq, ailəsini evdə tək qalmasın deyə qayınatasıgilə gətirib. Şəhla xanım o məşum günü gözyaşları ilə xatırlayaraq deyir: "Evdən çıxanda anam qarşısını kəsdi ki, bəlkə bu gün işə getməyəsən, vəziyyət qorxuludur. Səxavət gedəndən təxminən 10-15 dəqiqə keçmiş möhkəm səslər eşitdik. Tez balkona qaçdıq. Nə baş verdiyini anlamırdıq. Vəziyyətin belə olacağı yatsaq, yuxumuza da girməzdi. Göy üzündə sayrışan işıqların fişənglər olduğunu düşünürdük. Sən demə, bunlar işıqsaçan güllələr imiş".

Şəhla xanım deyir ki, ailəsi sarıdan ürəyi rahat olandan sonra Səxavət sürdüyü yük maşını ilə Kaspar xəstəxanasına (indiki Mərkəzi Dənizçilər Xəstəxanası) tərəf gedib: "Orada olanlar sonradan mənə dedilər ki, o, bir neçə dəfə yaralıları yük maşınıyla xəstəxanaya aparıb, sonra geri qayıdıb. Bir də geri qayıdanda görüb ki, sovet ordusunun azğınlaşmış hərbçiləri tankları əliyalın insanların üzərinə sürürlər. Tez yük maşını ilə tankın önünü kəsərək insanları xilas edib. Elə o vaxt da Kaspar xəstəxanası ilə üzbəüz olan binanın üstündən snayperlə vurulub".

### Anasının istəyi ilə Digahda dəfn olunub

"Səhər atam, qardaşım onu axtarmağa getdilər. Səxavəti küçəbəküçə axtaran qardaşıma deyiblər ki, burada böyük bir maşın dayanıb, bəlkə onundur. Qardaşım maşına yaxınlaşanda gördüklərindən heyrətə gəlib. Maşın başdan-ayağa deşik-deşik imiş. Sonra məlumat veriblər ki, bu maşının sürücüsü xəstəxanaya aparılıb. Səxavəti, demək olar ki, bütün xəstəxanalarda axtarıblar, amma sən demə, elə evimizin yaxınlığındakı Kaspar xəstəxanasında imiş. Həmin vaxt mən evdə uşaqlarla idim. Qapı birdən açılanda elə bildim ki, Səxavət gəlib. Atam idi... Səndələyə-səndələyə içəri girdi, dedi ki, Səxavət rəhmətə gedib. Dəhşətli anlar idi, elə bildim, yer ayağımın altından qaçdı", - deyə həyat yoldaşı köks ötürür.

20 Yanvar günü küçələrdə yerimək mümkün deyildi. Şəhərdə müdhiş bir çaxnaşma var idi. Azərbaycan Televiziyasının enerji blokunu partlatdıqları üçün xəbərləri ancaq radio ilə alırdıq. Evin üstündən hərbi təyyarələr uçurdu. Özü də elə alçaqdan uçurdular ki, səsdən ev titrəyirdi. Küçələrdə, xəstəxanalarda, morqlarda hamı yaxınını axtarır, yaralıları xəstəxanaya aparmağa çalışır, cənazələri dəfn etməyə aparırdılar. Küçələrdə qan su yerinə axırdı.

Şəhla xanım deyir ki, cənazəni böyük əziyyətlə məzarlığa gətirə biliblər: "Hər yerdə tanklar var idi. Hərbçilər getməyimizə imkan vermirdilər. Səxavətin nəşini anasının istəyi ilə Digah qəsəbəsində atasının yanında dəfn elədik. Amma rəmzi şəkli Şəhidlər xiyabanındadır".

Prezidentin 31 mart 1998-ci il fərmanı ilə ölümündən sonra "20 Yanvar Şəhidi" fəxri adı verilən Səxavət Məmmədovun şəxsi əşyaları Tarix muzeyində saxlanılır. Qəhrəman şəhidimizin adı Digah qəsəbəsində orta məktəbə verilib.

**Azərbaycan.** - 2023.- 20 yanvar. - № 13. - S. 12.

## Qəhrəmanlıq salnaməmiz

### Prezident İlham Əliyevin "Əziz Şuşa, sən azadsan!" müjdəsini Şəhidlər xiyabanından verməsi 20 Yanvar şəhidlərinə olan ehtiramın ifadəsidir

**Adil Əliyev**,
Milli Məclis Sədrinin müavini

Hər yeni ildə Prezident İlham Əliyev tərəfindən əhalinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı tədbirlər paketinin qəbul edilməsi artıq bir ənənə halı almışdır. Bu il də yeni sosial paket elan olundu.

2023-cü ildə elan edilən sosial tədbirlər sırasında 20 Yanvar şəhidlərinin ailələrinin sosial təminatına yönəlmiş Prezident fərmanı diqqətəlayiqdir. Fərmanda 20 Yanvar şəhidlərinin ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 1 yanvar 2023-cü il tarixdən etibarən 500 manatdan 600 manata qaldırılmışdır. 20 Yanvar hadisələrinin 33-cü ildönümü ərəfəsində belə bir addımın atılması bu faciə qurbanlarının ailələrinin sosial təminatının yaxşılaşdırılmasına xidmət etməklə bərabər, həm də onların əziz xatirəsinin daim Azərbaycan Prezidenti və dövlətimiz tərəfindən uca tutulduğunu göstərir. Bu, tamamilə təbiidir. Çünki 20 Yanvar şəhidləri bizim üçün azadlıq və demokratiya şəhidləridir, kollektiv yaddaşımızda xüsusi yer tutan tarixi bir qəhrəmanlıq səhifəsidir və Qarabağın Ermənistana birləşdirilməsinə qarşı Azərbaycan xalqının sərgilədiyi barışmazlığın simvoludur.

20 Yanvar faciəsini 1918-ci ilin mart qırğınlarından sonra Azərbaycan xalqına qarşı məqsədli şəkildə törədilmiş, onu susmağa və qorxutmağa yönəlmiş ən böyük və qəddar qəsd hesab etmək olar. Amma xalqımızın mübarizliyi tamamilə əks effekt verdi. 20 Yanvar Azərbaycan xalqının kollektiv və tarixi yaddaşını oyadan, yeniləyən və formalaşdıran ən mühüm milli kodlardan birinə çevrildi. Bu hadisə Azərbaycan xalqının yaddaşında elə bir iz buraxdı ki, bu gün də bir çox hadisə və proseslərə məhz 20 Yanvar prizmasından baxırıq.

20 Yanvar bizim tarixi yaddaşımızı oyatdı. Şəhidləri dəfn etmək üçün qazılan məzar yerlərində Azərbaycan Xalq Cümhuriyyəti dönəmindəki şəhidlərimizin qalıqlarının aşkarlanması tariximizin qəhrəmanlıq və faciə dolu iki böyük səhifəsini bir-birinə bağladı. Hər iki hadisələrdə erməni faktoru ciddi rol oynayıb, torpaqlarımızı qəsb etmək, müstəqillik ideallarımızı boğmaq niyyəti güdülüb. Öz vətəndaşlarına qarşı 20 Yanvar qırğınını törətməklə keçmiş SSRİ-nin hərbi-siyasi rəhbərliyi ən böyük zərbəni - mənəvi zərbəni özünə vurdu. Bu hadisə təkcə Azərbaycanda deyil, digər sovet respublikalarında da SSRİ-yə olan münasibətləri kökündən sarsıtdı.

O dövrdə respublikaya rəhbərlik edənlər bu fundamental və tarixi əhəmiyyətli hadisəyə siyasi qiymət vermədilər. 20 Yanvar faciəsinə siyasi qiymət yalnız Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və səyləri ilə 1994-cü ildə verildi. Beləliklə, 29 mart 1994-cü ildə Azərbaycan Respublikasının Milli Məclisi "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul etdi, hadisəyə siyasi qiymət verildi. 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi də Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin 1998-ci ildə verdiyi fərmanla "20 Yanvar şəhidi" fəxri adı təsis olundu.

Ulu Öndərin 20 Yanvar faciəsinə və şəhidlərinə göstərdiyi bu həssas münasibət Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi dövründə də layiqli surətdə davam etdirilir. 20 Yanvar şəhidlərinin və onların əbədi uyuduğu Şəhidlər xiyabanının xalqımız və dövlət başçımız üçün nə qədər önəm və mənəvi dəyər daşıdığını Prezident İlham Əliyevin Şuşanın azad edilməsi müjdəsini 8 noyabr 2020-ci ildə xalqımıza məhz Şəhidlər xiyabanından verməsi və "Əziz Şuşa, sən azadsan!" fikrini orada səsləndirməsi bir daha nümayiş etdirdi. Azadlıq müjdəsinin və zəfər xəbərinin buradan elan edilməsi 20 Yanvar şəhidlərimizə və onların timsalında bütün şəhidlərimizə göstərilən ehtiramın ifadəsi idi.

20 Yanvar şəhidlərimizin ruhu şad olsun! Allah bütün şəhidlərimizə rəhmət etsin!

**Azərbaycan.** - 2023.- 20 yanvar. - № 13. - S. 7.

## Əbədi yaşayanlar

**Elşən Qəniyev**

Əllərində qərənfillər tutmuş insanlar səhərin alaqaranlığından Şəhidlər xiyabanına doğru axışırdılar. Üstündən 33 il keçməsinə baxmayaraq, üzlərdə kədər, gözlərdə yaş, baxışlarda qəzəb vardı. Sanki o qanlı hadisə 33 il əvvəl yox, dünən baş vermişdi. Üstündən illər keçdikcə tariximizin qanlı-şanlı səhifəsi olan 20 Yanvarın tariximizdə tutduğu yeri daha aydın dərk edirik.

İllərdir ermənilər qədim torpaqlarımızı ələ keçirmək üçün fürsət gözləyirdilər. Mixail Qorbaçovun keçmiş SSRİ rəhbərliyinə gətirilməsi ilə ermənilərin əlinə fürsət düşmüş oldu. Əvvəlcə 200 min nəfərdən çox soydaşımız öz qədim torpaqlarından məcburi qaydada köçürüldü. Cəzasız qalan ermənilər daha da fəallaşaraq Qarabağda separatçı hərəkata start verdilər. Torpaqlarımızda baş verən olaylar, rəsmi Moskvanın separatizmə dəstək verməsi, respublika rəhbərliyinin səriştəsizliyi, mütiliyi və milli mənafeyə zidd mövqeyi xalqımızın qəzəbinə səbəb oldu. Mixail Qorbaçovun qatı ermənipərəst mövqeyi, respublika rəhbərliyinin səriştəsizliyi ucbatından xalq məsələnin həllinin meydanlarda çözüləcəyini düşünüb kütləvi etirazlara başladı. Beləliklə, 1989-cu il noyabrın 17-dən Bakının baş meydanında fasiləsiz mitinqlər keçirmək qərarına gəlindi.

İmperiya rəhbərliyi Azərbaycanda başlanan xalq hərəkatını yatırmaq, millətə gözdağı vermək üçün hərəkətə keçdi. Bakı küçələrində tanklar, əlisilahlı əsgərlər görünməyə başladı. Lakin zamanın təkərini geri döndərmək mümkün deyildi. Xalq mübarizədə qətiyyətli idi. Meydandan çəkilmək niyyəti yox idi. Vəziyyəti belə görən mərkəzi hakimiyyət 1989-cu il dekabrın 4-dən 5-nə keçən gecə mitinqləri zor gücünə dağıtmaq əmri verdi. Bakının mərkəzi meydanına hərbi qüvvələr yeridildi, günahsız insanlar həbs edilərək zindanlara atıldı.

Respublikada yaranmış hakimiyyətsizlik sindromu, Ermənistanda bir nəfər də olsun azərbaycanlının olmadığı halda ermənilərin hələ də Bakıda yaşayıb heç nədən çəkinmədən sərbəst fəaliyyət göstərmələri SSRİ Dövlət Təhlükəsizlik Komitəsinə məxsus agentura şəbəkəsinə təxribat törətmək, milli zəmində toqquşma yaratmaq üçün kifayət qədər münbit şərait yaratmışdı. Bakıda fövqəladə vəziyyət elan etmək üçün Mixail Qorbaçovun əlinə fürsət düşmüş oldu.

1990-cı ilin 19 yanvarı, gecə saat 24:00. Sovet ordusunun təpədən-dırnağadək silahlanmış hərbi birləşmələri beş istiqamətdən paytaxtımıza daxil oldular. Küçələrdə şütüyən tanklar və zirehli maşınlar "barrikadaları" dağıdıb keçir, əsgərlər amansızcasına dinc əhalini göz görə-görə qətlə yetirirdilər. İşıqsaçan güllələr adamların köksünə sancılıb sönürdü. Hara gəldi atılan güllələr özləri ilə birlikdə insanların həyatını söndürürdü…

Yanvarın 20-də səhər hava işıqlaşar-işıqlaşmaz küçələrə axışan Bakı sakinləri "20 Yanvar" dairəsində və ona yaxın yerlərdə dəhşətli mənzərələrlə qarşılaşdılar. Tankların əzib keçdiyi avtobuslar, yük və minik avtomobilləri, qar üzərindəki qan izləri ağır faciədən xəbər verirdi. Şəhərin mərkəzi küçə və meydanları tanklarla, avtomatlı hərbçilərlə mühasirəyə alınmışdı.

O gecə sovet ordusunun Bakıda törətdiyi qanlı qırğın xalqımızın qəzəbinə səbəb oldu. İçindəki qorxunu öldürən xalq əlisilahlı qatillərin gözlərinin içindən keçərək yenə baş meydana axışdı. Dənizin sahilində insan axını yarandı. Şəhidlərin qanı ilə suvarılmış Bakı küçələri qərənfillərə qərq oldu. Qatillər həmin gecə Bakıda 147 soydaşımızı amansızlıqla qətlə yetirmişdilər.

O gecə SSRİ-nin Azərbaycanda öldüyü gün oldu. Bir milyondan çox insanın iştirakı ilə Azərbaycan azadlığı uğrunda canını fəda etmiş şəhidlərini Bakının ən hündür meydanında - Dağüstü parkda torpağa tapşırdı.

O gün şəhidlər dəfn edilən zaman Bakı buxtasının gəmiləri ardı-arası kəsilmədən "SOS" siqnalları verirdilər. 20 Yanvar hadisələri xalq hərəkatının milli mücadiləyə, istiqlal mübarizəsinə keçid aldığı gün oldu. Düz 33 ildir ki, xalqımız öz şəhidlərini hər il hörmətlə, ehtiramla yad edir. Hər il şəhidlərin ildönümünə bir neçə gün qalmış onların məzarları qərənfillərə qərq olur. Respublikanın müxtəlif yerlərindən insanlar ziyarət üçün Bakıya axışır, Şəhidlər xiyabanına unudulmazlarımıza ehtiramlarını bildirmək üçün tələsirlər.

Bu il də Şəhidlər xiyabanı qərənfilə bələnmişdi. Dövlət xadimləri, ziyalılar, deputatlar, sənət adamları, sadə vətəndaşlar və Qarabağı düşmən işğalından azad etmiş qazilər, müharibə iştirakçıları azadlığımız, müstəqilliyimiz uğrunda ilk şəhid olanlarımızı ehtiramla yad etdilər. Ziyarətçilərdən Əməkdar incəsənət xadimi İftixar Piriyevlə söhbətləşirik. İftixar Piriyev deyir ki, hər il 20 Yanvar günü İrəvan Dövlət Azərbaycan Dram Teatrının kollektivi ilə şəhidlərimizin ziyarətinə gəlirik. Şanlı tariximizin qanlı səhifəsi hesab etdiyimiz 20 Yanvar faciəsi bizim milli birlik, bütövlük, mübarizlik, qəhrəmanlıq, zəfər donu geyinməyə yüksəldən qürur dolu qızıl səhifəmizdir. Biz bu tarixi hadisəni Azərbaycanın siyasi həyatında yeni mübarizə əzminin başlanğıc

nöqtəsi hesab edirik. Həmin nöqtədən ilk addımı isə Heydər-Xalq, Xalq-Heydər birliyinin qədəmləri başlatdı, İlham-Xalq, Xalq-İlham bütövlüyü isə bu yolu nurlu gələcəyə aparır!

Filologiya elmləri doktoru Sevinc Əliyeva da söhbətimizə qoşulur:

- 1990-cı ildən 20 Yanvar günü bu müqəddəs məkana gəlməyi özümə borc bilirəm. Burada uyuyan o müqəddəs insanlar öz qanları ilə müstəqilliyimizə, xoşbəxt gələcəyimizə yol açanlardırlar. Onlar bizə, gəncliyə vətən sevgisinin, müstəqillik uğrunda mübarizədə canından belə keçməyin nümunəsini göstərdilər. Ölümləri ilə əbədiyaşarılq qazandılar. Min illər keçəcək, şəhidlərimizin məzarı yenə belə ziyarətgah olacaq. Şəhidlikləri ilə ömürlərini vətənin ömrünə calayıb ölməzlik qazandı bu müqəddəs məkanda uyuyanlar.

İndi bu müqəddəs ziyarətgah bir də ona görə bizim üçün dəyərlidir ki, düşmən üzərində qələbənin müjdəsini bizə bu müqəddəs məkandan verdi Müzəffər Ali Baş Komandan İlham Əliyev.

Hər bura gələndə şəhidlərimizə deyirəm ki, tökülən qanınız, verdiyiniz can əbəs olmadı. Arzularınız gerçəkləşdi. İndi Azərbaycan bayrağı yurdumuzun hər yerində dalğalanır.

Birinci Qarabağ müharibəsi veteranı Məhəmmədəli Əliyev deyir ki, mən şəhidlərimizin Anım gününü keçirmək üçün bu müqəddəs ziyarətgaha Ucardan gəlmişəm. Nə qədər canım var, nə qədər ayağım yer tutur, hər il gələcəm. İki övladım var. Əvvəllər hər il övladlarımla gələrdim. Oğlum Kərim Əliyev 44 günlük müharibədə şəhidlərimizin başladıqları mübarizə yolunda canını vətənə bağışladı. Oğullarımız vətəni yaşatmaq üçün bu torpağa can verdilər. Bizim də borcumuzdur ki, onların ruhlarını yaşadaq, vətəni sevək, qoruyaq.

Ziyarətçilərdən Rafiq Həşimov Şəki şəhərindən gəldiyini dedi:

- 33 ildir 20 Yanvar səhərini Bakıda, Şəhidlər xiyabanında qarşılayıram. Nə qədər ömrüm var, yenə gələcəyəm. Şəhidlərimizi ziyarət etdikdən sonra Fəxri xiyabana gedib Ulu Öndərimizin məzarını ziyarət edirəm. Şəhidlərimizə, onların mübarizəsinə ilk doğru qiymət verən də, həyatını təhlükəyə ataraq Mixail Qorbaçova ilk etiraz edən də, müasir Azərbaycan dövlətini qurub, müstəqilliyimizi möhkəmləndirən də Heydər Əliyev oldu. Bütün ömrümüz boyu ona olan minnətdarlıq hissini unutmamalıyıq.

Ziyarətçilər arasında tarix elmləri doktoru, professor Musa Qasımlı da var idi. O, bizimlə söhbətində dedi:

- SSRİ yarandığı gündən 20 yanvar 1990-cı ilə kimi heç bir yerdə belə qəddarlıqla, bu böyüklükdə qanlı faciə törətməmişdi. Mixail Qorbaçovun bu qanlı qırğına müəlliflik etməkdə bir neçə məqsədi var idi: Azərbaycanda başlanan xalq hərəkatını boğmaq, bundan istifadə edib Qarabağda ermənilərin başladıqları separatçı hərəkatın tələblərini reallaşdırmaq, eyni zamanda SSRİ-nin müxtəlif yerlərində başlanan etiraz hərəkatlarına gözdağı vermək. Amma tamam əksi oldu. Bakıda başlanan kütləvi etiraz hərəkatı istiqlal uğrunda mübarizəyə çevrildi. Azərbaycanda istiqlal savaşının alovu bütün SSRİ-ni başına götürdü. Qorbaçovun bu səhv hərəkətinin nəticəsi olaraq SSRİ süqut etdi. Bu gün müstəqilliyimizə görə canını vermiş şəhidlərimizə borcluyuq.

Gündüz saat 12-də Bakı buxtasının gəmiləri, Bakı küçələrində hərəkət edən avtomobillərin siqnal səsləri eşidildi. Yollarda olan insanlar hərəkəti dayandıraraq birdəqiqəlik sayğı duruşu aldılar. Xiyabana insan axını isə gecə saatlarına qədər davam etdi...

**Azərbaycan.** - 2023.- 22 yanvar. - № 14. - S. 1,4.

## 20 Yanvar faciəsində senzor kölgəsi

**Vahid Məhərrəmov**

**Dünyanın haqsızlıq və ədalətsizlik girdabında mürgülədiyi vaxtlarında baş verən dəhşətli 20 Yanvar faciəsinin sarsıntıları, ağrı-acıları əlimizi işdən soyutmuşdu. Sanki qanlı şənbə gecəsində təkcə bu günümüz deyil, sabaha olan ümidlərimiz də sovet əsgərləri tərəfindən güllələnmişdi. Fikirlərimiz, düşüncələrimiz də qana boyanmışdı.**

20 Yanvar faciəsindən beş-on gün sonra ürəyimdə qəm yükü, yanağımda gözyaşları əməkdaşı olduğum "Qaradağ" çoxtirajlı qəzetinin redaksiyasına gəldim. Respublikada çıxan başqa mətbu orqanları kimi, bu qəzet də baş vermiş qanlı hadisəyə görə müvəqqəti olaraq fəaliyyətini dayandırmışdı. Nəşriyyatlar işləmirdi, qapılar bağlanmışdı, hər yeri süstlük, durğunluq bürümüşdü. Sanki qanlı faciə bütün müəssisə və təşkilatların qapısına açarsız qıfıllar vurmuşdu. Redaksiyaya ayaq qoyan kimi hiss etdim ki, iş yerimiz əvvəlki istiliyini itirib, hər tərəf buz kimi soyuyub. Ha fikirlərimizə zor etsək də, əlimiz qələmə, dilimiz sözə yatmırdı. Elə bil həmin qanlı-qadalı günlərdə ağrı-acılardan kövrəlmiş sözün də gözlərini qəm buludu tutmuşdu. Hiss olunurdu ki, əvvəlki ovqatla yazıb-yaratmaq üçün müəyyən zamanın keçməsinə ehtiyac var.

Bu dəhşətli faciədən sonra çap olunan ilk mətbu orqan "Kommunist" qəzetinin əlavəsi "Səhər" oldu. 20 Yanvar faciəsinin dəhşət və ağrılarını xalqımıza çatdırmağın ağırlığı, çətinliyi bu mətbu orqanda çalışan əməkdaşların çiyinlərinə düşmüşdü. Faciəmiz əks olunan şəkillərə həyəcansız və gözyaşları axıtmadan baxmaq mümkün deyildi.

Günlər, həftələr ötüb-keçdikcə başqa mətbu orqanlar da yavaş-yavaş fəaliyyətlərini bərpa etməyə çalışırdı. Vaxt ötdükcə durğunluğun, sükunətin cansıxıcı və soyuq buzu misqal-misqal əriyirdi. Ölkənin paytaxtında hökm sürən komendant saatı həyatı iflic etmişdi. Baş verən dəhşətli faciədən sonra ölkədə fövqəladə vəziyyət elan olunduğuna görə mətbuat üzərində hərbi senzura tətbiq edilmişdi, dərc olunan materiallara çox ciddi nəzarət var idi. Ona görə də həmin günlərdə qəzet çıxarmaq əvvəlki vaxtlara nisbətən xeyli çətinləşmişdi. Yazılmamış qayda-qanunlar çox sərtləşmişdi. Hərbi senzorun imzası və möhürü olmayanda nəşriyyat qəzetlərin çapından imtina edirdi. Ən pisi də o idi ki, hərbi senzor 20 Yanvar faciəsi barədə yazı dərc etməyə icazə vermirdi. Həmin günlərdə isə başımıza gətirilən bu faciə barədə yazmamaq vicdan məsələsiydi. Çətin və dözülməz olsa da, o günlərin ağrı-acılarla dolu, qəm, kədər yüklənmiş mənzərəsini olduğu kimi yazmalıydıq. Gördüklərimizi rəssam kimi çəkməliydik. Ona görə çəkməliydik ki, gələcək nəsillər bir vaxtlar bu ərəfədə çap olunan qəzetləri oxuyanda 20 Yanvar faciəsi barədə təəssüratları bütöv olsun.

Bəzən hərbi senzor oturan otağın qarşısında uzun növbə yaranardı. Redaksiyaların əməkdaşları senzorun yanına qəzetin çapa getməsi üçün səhifələrə möhür vurdurub, imza atdırmağa gəlirdilər. Fövqəladə vəziyyətin hökm sürdüyü o günlərdə hərbi senzorun da elə mətbuat üzərində fövqəladə səlahiyyətləri var idi. Senzor səhifələrində 20 Yanvar faciəsi ilə bağlı məqalələrin çox olduğunu bəhanə gətirib qəzetin çapına icazə vermirdi. Bəzi mətbuat orqanlarının rəhbərliyi çıxarılmış məqalələrin yerlərində əmələ gəlmiş boşluqları doldurmaq üçün ora rəmzi olaraq qayçı şəkilləri qoyurdular. Yəni ki, materiallar qayçılanıb. Ertəsi gün hərbi senzor qəzetlərin səhifələrində qayçı şəkillərini görəndə əsəbiləşib özündən çıxırdı. Növbəti nömrədə bunun da qarşısını almağa çalışırdı. Səhifədə 20 Yanvar rəqəmini görən kimi üstünü hirslə qaralayırdı. Biz də çıxış yolu kimi, faciə barədə yazını senzorun gözündən yayındırmaq üçün 20 Yanvarı rəqəmlə deyil, sözlə yazırdıq. Başı çox qarışıq olduğundan ilk addımda elədiyimiz bu "yenilik" onun gözündən qaçırdı. Amma ertəsi gün hərbi senzor bu cəhdin də qarşısına keçilməz sədd çəkirdi.

Həmin gərgin günlərdə qəzetləri alanlar isə onun səhifələrinə göz gəzdirib ilk olaraq 20 Yanvar faciəsi ilə bağlı faktlarla zəngin olan materiallar oxumaq istəyirdi. Xatırlayıram, bu qanlı və dəhşətli hadisələrdən yazmağa icazə verilmədiyi günlərdə çıxış yolu kimi mərkəzi mətbuatda - keçmiş ittifaqın aparıcı qəzetlərində hərdənbir dərc olunan bəzi obyektiv materialları tərcümə edib səhifələrdə yerləşdirirdik. Təəssüflər olsun ki, həmin günlərdə mərkəzin heç də bütün qəzetləri faciə barədə obyektiv mövqe nümayiş etdirmirdi.

Uzun illərdən bəri sadə adamların, hətta oxumağı bacarmayan zəhmətkeşlərin məcburən abunə olunduğu "Pravda" qəzeti də faciə ilə bağlı həqiqətdən çox uzaq olan uydurma materiallar dərc edirdi. Adı "Pravda" (həqiqət) olsa da, özü həqiqəti əks etdirmirdi. Heç olmasa adına layiq olan bir işi də görmürdü. "Krasnaya Zvezda" və "İzvestiya" qəzetləri də eyni hava üstündə köklənib ona züy tuturdu. Həqiqətin, ədalətin üstünü uydurma və inanılası mümkün olmayan yalanlarla basdırmağa səy göstərirdilər. Bu qəzetlər hadisələrin ilk

günündən günahsız, silahsız dinc adamları amansızcasına qətlə yetirən orduya haqq qazandırırdı. Haqlını haqsız, haqsızı haqlı çıxarırdılar. Həmin gərgin günlərdə yalnız az-çox "Komsomolskaya pravda" qəzetinin səhifələrində obyektiv materiallara rast gəlmək olurdu.

Hansısa bir materialın qəzetin səhifəsindən çıxarılmasına görə tez-tez hərbi senzorla mübahisə edirdik. O da heç bir əsası olmayan faktlara söykənərək bizi inandırmağa çalışırdı ki, əgər sovet qoşunları şəhərə bir neçə gün gec girsəymiş, güya respublikamızda vətəndaş müharibəsi başlayacaqmış. Əlbəttə ki, onun söylədikləri çox məntiqsiz və həqiqətə uyğun gəlməyən fikirlər idi. Biz isə öz növbəmizdə onun dediklərinə qəti surətdə etiraz edirdik.

Çiyinlərində podpolkovnik rütbəsi gəzdirən hərbi senzor milliyyətcə rus idi. Hiss olunurdu ki, Azərbaycan dilini çox gözəl bilir. Əgər bilməsəydi, təbiidir ki, bu vacib işi ona həvalə etməzdilər. Senzor qəzetlərin səhifələrində çapa gedən materialları diqqətlə oxuyur və yeri gəldikcə bəzi düzəlişlər edir, incəliklərə qədər gedib çıxır, cümlələri dəyişib istədiyi formaya salır, hətta bəzən şəkilçilərə də əl gəzdirirdi. Azərbaycanca yetərincə bilsə də, həmişə bizə rus dilində müraciət edir, verdiyimiz sualları da öz dilində cavablandırırdı.

O ağır, keşməkeşli günlərdə mətbuat üzərində ikiqat senzura tətbiq olunsa da, müxtəlif çıxış yolları tapıb fəaliyyətimizi davam etdirirdik. Hər addımda üstümüzə hərbi senzorun qanlı kölgəsi düşsə də, başımıza gətirilən dəhşətli və qanlı hadisədən ürək ağrısı ilə, qəlb göynərtisi ilə yazırdıq. Yaza-yaza yanırdıq, yana-yana yazırdıq. Xalqımızın başına gətirilən ağrı-acılı səhifələrindən qan sızan belə tarixi hadisələrdən yazanda başqa cür olmaq mümkün deyildi.

Uzun fasilədən sonra işə düşən radio aparıcıları yanıqlı səslə danışır, televiziya kanalımız qəmdən, kədərdən yoğrulmuş verilişlər göstərirdi. Həmişə həzin musiqisinə, dəyərli və maraq doğuran proqramlarına alışdığımız radiodan, verilişlərinə tamaşa etdiyimiz televiziyadan hərbi komendant general Dubinyakın, eləcə də başqa yad generalların, zabitlərin yad səslərini eşitməkdən, onların cansıxıcı, yalanla dolu olan bezdirici məlumatlarını dinləməkdən təngə gəlmişdik.

Beləcə, 1990-cı ilin qış günlərində ölkədə fövqəladə vəziyyət, Bakı şəhərində isə komendant saatı hökm sürürdü. Bax, belə gərgin bir vəziyyətdə qəzetlər fəaliyyətini davam etdirir, çətin də olsa, ağrılarını yaşadığımız faciəmizdən materiallar dərc edir, günümüzün qanlı və canlı hadisələrini yazıb tarixləşdirməyə çalışırdılar.

Üstündən illər keçəndən sonra o gərgin günlərdə işıq üzü görmüş qəzetlərin səhifələrinə baxdıqca, acılarını yaşadığımız dəhşətli 20 Yanvar faciəsi, qanlı-qadalı o gərgin anlar gözlərimiz önündə canlanır. Getsin o günlər, bir daha gəlməsin! Qəzetlərimizin səhifələrində qan qoxulu materiallar dərc olunmasın.

**Azərbaycan.** - 2023.- 20 yanvar. - № 13. - S. 10.

## 20 Yanvar – Vətəni dövlət edən qəhrəmanlıq örnəyi

**Əflatun Amaşov**

**"Mənə qəhrəman göstərin, sizə faciə yazım"– deyirdi dünya ədəbiyyatında itirilmiş nəslin nəhəng nümayəndəsi kimi tanınmış ABŞ yazıçısı Frensis Skott Fitscerald. Görünür, yazıçının qəribə təsir bağışlayan məntiqi qəhrəmanlıq üçün faciə ssenarisini mütləqləşdirmək üzərində qurulmuşdu. Fəqət, bu baxış, heç də faciəni adi məişət müstəvisində görmürdü. Çünki ortada əsl qəhrəmanlıq nümunəsi olmalıydı. O qəhrəmanlıq ki, hadisə və proseslərdəki dinamizmi vurğulamalı, faciəni Karl Polani soyuq düşüncəsinin substantivlik məcrasından qurtarmalı, belə demək mümkünsə, şüurlaşdıraraq ilahiləşdirməliydi. İlahiləşdirməliydi ki, dahi Fitscerald ona bəşəri mövzu kimi yanaşa bilsin. Düşünürük ki, yazıçı Azərbaycanın ötən əsrin 80-ci illərinin sonuna doğru apardığı milli azadlıq mübarizəsi dönəmində yaşasaydı, baş vermiş proseslərə nəzərən yeni qəhrəman obrazlarını mütləq tapardı. Ancaq bəlkə, bu tapıntı 1990-ci ilin 20 Yanvar faciəsi olmadan onun yaradıcılıq ruhundakı kuliminasiya anına yetişə bilməzdi. Axı, faciənin doğurduğu ən böyük reallıq olan ölüm ölümsüzləşməlidir ki, bədii təxəyyül özünün təntənəsinə yetişsin.**

Bəli, ötən əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəli Azərbaycan xalqının tarixində olduqca həssas, taleyüklü mərhələni təşkil etmişdir. İmperiya əsarətinə qarşı mübarizə ruhuna köklənmiş xalq etirazları Bakıya totalitarizmə qarşı mübarizənin simvolu statusu qazandırmışdı. Təsadüfi deyil ki, 1989-cu ildə nüfuzlu "-Newsweek" jurnalı özünün manşetinə paytaxtımızdakı insan izdihamının fotoşəklini çıxarmışdı. Bu foto, bütövlükdə keçmiş SSRİ-nin müxtəlif yerlərində rejimə qarşı xalq azadlıq mübarizələrinin rəmzinə çevrilmişdi. Jurnal həmin Bakı görüntülü manşetinə "İlin xalqı" yazısını da əlavə etmişdi. Əlbəttə, nəşrdə Azərbaycandakı proseslərdən söz açılmamış, hadisələr, bütövlükdə, Sovetlər Birliyi kontekstində izah olunmuşdu. Hər bir halda, dünya Azərbaycan xalqının mübarizə əzmindən xəbərdar idi. Proseslər isə xalqın "İlin xalqı" adını, sözün əsl mənasında, doğrultmasına doğru gedirdi. Yəni, 20 Yanvara, Fitsceraldın qəhrəmanlığındakı faciə məntiqinin labüdlük qanunauyğunluğuna.

1990-cı ilin 20 Yanvar faciəsi barədə indiyədək çox yazılıb, çox sözlər söylənilib. Şübhəsiz, bundan sonra da həmin hadisə ilə bağlı çox faktlar üzə çıxarılaraq, şanlı tariximizdə özünə vətəndaşlıq hüququ qazanacaqdır. Ona görə də bu yazıda illərdir təkrarlanan fikirləri yenidən gündəmə gətirmək niyyətindən uzağıq. Həm də ona görə ki, düşüncələrimiz ehtiramımızın ifadə vasitəsidir. Ancaq təkcə ehtiramımızın yox.

"Təkrar biliyin anasıdır" məntiqinə söykənsək, reallıqların dönə-dönə vurğulanmasını xalqın, xüsusən, gənc nəslin onlar barədə biliklərinin dərinləşməsi, həmin bilgilərin qəlibləşərək milli yaddaş genofondumuzda əksini tapması baxımından müstəsna əhəmiyyət daşıdığını da vurğulamalıyıq. Elə məhz, bu baxımdan, üzərində dayanılmalı bir sıra məqamlar var ki, həmin məqamlardan söz açmaq xalqımızın 20 Yanvar şücaətinə dəyər anlamında müstəsna önəm kəsb etməklə yanaşı, həm də qədirbilənlik nümunəsidir. İlk növbədə, onun qədrini bilməli, son 60 ildəki tariximizə möhürünü vurmuş ulu öndər Heydər Əliyevin əvəzedilməz rolunu daim qiymətləndirməliyik.

"Mən bu faciəyə həmişə ürəkdən yanaraq, həm də, vətəndaşlıq borcumu yerinə yetirməyə çalışmışam və bu gün də həmin mövqedəyəm, sabah da həmin mövqedə olacağam. Birinci növbədə, ədalət naminə, eyni zamanda, Azərbaycan xalqının namusunu, şərəfini, milli mənliyini qorumaq naminə". Bu fikirlərin müəllifi ulu öndər Heydər Əliyevdir. Bəli, Heydər Əliyev tariximizdə 20 Yanvar faciəsinə ilk gerçək siyasi qiyməti vermiş şəxsiyyət kimi əbədi ümman sahibidir. Bu yerdə Azərbaycan Prezidenti cənab İlham Əliyevin fikirlərini xatırlamağa da ehtiyac var: "Hamımız yaxşı xatırlayırıq ki, pensiyada olan Heydər Əliyev faciə baş verəndən dərhal sonra Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəlmişdi, öz etiraz səsini ucaltmışdı. O vaxt Sovet İttifaqının çökməsinə hələ iki il vaxt qalırdı. Biz o vaxt Sovet İttifaqının rəhbərliyinə qarşı açıq ittihamları, demək olar ki, çox nadir hallarda görürdük. Bu, böyük cəsarət tələb edirdi. Heydər Əliyev, həmişə olduğu kimi, o ağır günlərdə də xalqla bərabər, birlikdə idi".

Əslində, nəinki 20 Yanvara doğru aparan yola, eyni zamanda, ötən əsrin 90-cı illərində yaşadığımız faciələrə Heydər Əliyevin 1987-ci ildə SSRİ rəhbərliyindən uzaqlaşdırılması ilə start verilmişdi. Ümummilli lider istər respublikamıza rəhbərlik etdiyi 1969–1982-ci illərdə, istərsə də SSRİ-nin ali rəhbərliyində təmsil olunduğu dövrdə, Azərbaycan xalqına qarşı hər cür qəsbkarlıq niyyətlərinin önünü kəsmiş, çoxsaylı haqsızlıqların qarşısında sipər olmuşdu. Hər zaman millətinin mənafeyini üstün tutmuş, onun haqqının

mənimsənilməsinə yol verməmişdi. Bu baxımdan, qətiyyətlə deyə bilərik ki, əgər Heydər Əliyev hakimiyyətdə qalsaydı, nə xalqımızın qəhrəmanlıq mübarizəsi 20 Yanvar kimi faciəvi sonluqla yekunlaşacaqdı, nə də torpaqlarımızın Ermənistan tərəfindən işğalının doğurduğu daha böyük faciələr yaşanacaqdı.

Görünür, Azərbaycana qarşı "böyük oyun ssenarisini" yazanlar məkrli və çirkin niyyətlərini Heydər Əliyev rəhbərlikdə qala-qala reallaşdırmağın qeyri-mümkünlüyünü öncədən düşünmüşdülər. Ulu öndər elə məhz buna görə 1987-ci ildə aktiv siyasət meydanından uzaqlaşdırılmışdı. Bəli, böyük oyunu quranlar, həm də 1989-cu ilin dünya üzrə "İlin xalqı" kimi müəyyənləşdirilmiş Azərbaycan xalqını 1990-cı ildə qırğına vermək yolunu tutdular. Əlbəttə, onlar heç də Fitsceraldın məntiqinə söykənmirdilər, xalqımıza faciə yaşadaraq onu qəhrəman obrazında təqdim etmək niyyətində deyildilər. Məqsədləri Azərbaycan insanının dirəniş əzmini qırmaq, illərlə planlaşdırdıqları, ancaq gerçəkləşdirməyə Heydər Əliyevin sayəsində fürsət tapmadıqları, fəlakətləri yaşatmaq, zaman-zaman bacarmadıqlarının onlara verdiyi hiddət və qəzəb hissindən qaynaqlanmış intiqamlarını gerçəkləşdirmək idi.

Nəzərə alaq ki, 20 Yanvar faciəsi keçmiş SSRİ rəhbərliyində təmsil olunan ermənipərəstlərin və ermənilərin Bakıda soyqırımı gerçəkləşdirmək niyyətinin əməli ifadəsi idi. Bu cinayətkarlar mənfur sələflərinin 1918-ci ilin martında xalqımızın başına gətirdikləri faciəni təkrarlamaq xislətinə köklənmişdilər. Ancaq tarixin təkrarlanan üzü də var. Necə ki, -1918-ci ilin mart soyqırımından sonra dövlət müstəqilliyimizə qovuşduq, 1990-cı ilin 20 Yanvar faciəsi də istiqlalımız uğrundakı mübarizənin mühüm atributuna -çevrildi.

Xalqımız 20 Yanvar sabahını böyük izdihamla açdı. Həmin gün dahi şairimiz Bəxtiyar Vahabzadənin bənzərsiz təbinin, obrazlı desək, ağlatdığı qərənfil, eyni zamanda, uca millətimizin mübarizə əzminin kövrək, ancaq kövrək olduğu qədər də möhkəm və sarsılmaz birlik, bütövlük rəmzinə çevrildi. Faciənin doğurduğu qəhrəmanlığı təsvir etməkdə nəinki Fitsceraldın, digər dahilərin də qələmi acizdir.

Bəli, 20 Yanvar faciəsi xalqımızı təsviri mümkünsüz olan qəhrəmana çevirmiş, qəhrəmanlığı xalq üçün libas etmiş, ona əbədilik qazandırmış, əbədiyyata istiqlal möhürünü vurmuş tarixdir. Bu mənada, onun digər faciələrimizdən müstəsna fərqi var. Fərq tarixi qəhrəmanlıq ruhumuzun dirilişindəydi. 20 Yanvar ruhumuzu diriltməklə, imperiya boyunduruğuna qarşı cəbhə açmış insan izdihamının kütlə, qövm olmadığını sübuta yetirdi, bizi Vətənləşdirdi. Bu yerdə görkəmli türk şairi Midhat Camal Kuntayın məşhur şeirindəki "Bayrakları bayrak yapan üstündəki kandır, Topraq, əgər uğrunda ölən varsa Vatandır!" misraları necə də yerinə düşür.

Onu da vurğulayaq ki, bədii təxəyyüllərdəki qəhrəmanlar üçün faciə, müəyyən mənada, hər şeyin sonudursa, 20 Yanvar faciəsi insan həyatlarının sonunun gətirdiyi ibrətamiz, nəsillərə miras mahiyyəti daşıyan misilsiz örnək nümunəsi, yeni başlanğıc idi. Bizi dövlət millətinə çevirən, müstəqilliyimizə aparan yoldakı son dərəcə böyük başlanğıc. Buna görə də 20 Yanvar nəinki qəhrəmanlıq salnaməmizin, habelə, dövlətçilik tariximizin qanla yazılmış şanlı səhifəsidir. Bu səhifənin yazılmasında qanını mürəkkəbə çevirən Vətən övladlarının müqəddəs ruhları qarşısında baş əyir, onların şücaətindən, mərdliyindən qürur duyur, fəxarət hissi keçiririk!

Allah şəhidlərimizə rəhmət eləsin!

Uca Tanrı müstəqil dövlətçiliyimizi, Azərbaycanımızı qorusun! Amin!

**Xalq qəzeti.** - 2023.- 20 yanvar. - № 13. - S. 1,5.

## Azadlıq yolunu açan şəhidlər

**Elçin Abbasov,**
**Anar Turan**

**Dünən səhər biz Şəhidlər xiyabanına çatanda hava bir qədər rütubətli idi. Narın yağış yağırdı. Sanki məzarların üzərinə göylərdən nur ələnirdi. Xalqımızın dilində belə bir deyim var: yağış nurdur, rəhmətdir. Göydən enən nur damlaları da eləcə.**

Havanın çiskinli olmasına baxmayaraq, xiyabanda izdiham yaşanırdı. İnsanlar axın-axın buraya gələrək, şəhidlərimizin ruhlarına ehtiramlarını ifadə edir, onların qarşısında mənəvi borclarını yerinə yetirirdilər.

Xiyabana gələnlər arasında uşaqlar, böyüklər, yaşlı insanlar, əcnəbi vətəndaşlar da vardı.

"20 Yanvar cəmiyyəti"nin sədri Sultan Əzimzadə bizə bildirdi ki, bu faciə xalqımızın tarixinə qanla yazılıb. Həm çox üzücü bir hadisədir, həm də xalqımızın qürurla söz açacağı bir tarixdir. Üzücüdür ki, o məşum gecədə günahsız insanlarımız qətl edilib. Qürurvericidir ki, Azərbaycan xalqının azadlığına gedən yol məhz 20 Yanvardan keçib. Dövlətimiz hər zaman öz şəhidinə, qazisinə sahib çıxıb. O cümlədən də 20 Yanvar əlilləri hər zaman diqqət və qayğı ilə əhatə olunublar. İndiyədək Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 135 nəfər 20 Yanvar şəhidinin ailəsi və 20 Yanvar əlili mənzillə, 100-dək 20 Yanvar əlili minik avtomobili ilə təmin edilib.

20 Yanvar faciəsi Azərbaycan xalqına qarşı xüsusi amansızlıqla törədilmiş bəşəri cinayətdir.

Sovet rəhbərliyi tərəfindən gecəyarı Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilmiş, lakin əhali bu barədə xəbərdar edilməmişdir. Bu barədə məlumat veriləndə isə artıq çox gec idi. Belə ki, sovet əsgərləri 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışdılar. Fövqəladə vəziyyət elan olunduqdan sonra isə yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürülmüşdür. Fövqəladə vəziyyətin elan olunmadığı bölgələrdə yanvarın 25-də Neftçalada, yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdir. Ümumilikdə 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuş, 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili tibbi yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdir.

Ziyarətə gələnlər arasında ahıl yaşda olan nurani cütlük də vardı. Həmid Cəbrayılov və xanımı Minarə Cəbrayılova. Onlar o vəhşət dolu gecədən ürəkağrısı ilə söz açdılar. Hadisə şahidləri bildirdilər ki, sovet ordusu həmin gecə Bakı sakinlərinə divan tutdu. Bəlkə də, tarix boyu heç bir ölkədə dinc sakinlərə bu cür vəhşilik törədilməyib. Baş verənlərə görə, o dövrkü sovet rəhbərliyi məsuliyyət daşıyırdı. Elə o faciədən sonra Azərbaycanda sovet imperiyası özünün bütün mənəvi və sosial dayaqlarını itirdi. Müstəqillik ideyası meydanlara çıxan xalqın amalına çevrildi.

Həmid Cəbrayılov daha sonra dedi: "Bu faciənin təfərrüatlarını hər bir azərbaycanlı bilməli, onu gələcək nəsillərə çatdırmalıdır. Yadımdadır ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilmişdi. Dinc əhali ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutularaq kütləvi qətlə yetirilimiş, bu, misli görünməmiş vəhşiliklə müşayiət olunmuşdur".

Qaradağ rayonu Cəmil Niftəliyev adına 233 saylı tam orta məktəbin müəllimi Günel Ağayeva bildirdi ki, qanlı yanvar faciəsi Azərbaycan xalqının milli məfkurəsinin inkişafına təkan vermişdir. Bu hadisəni milli məfkurəmizin oyanış günü kimi də dəyərləndirmək olar. Bu, uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir. Buraya gəlib şəhidlərimizin xatirəsini yad etmək hər birimizin mənəvi borcudur.

Şri Lanka vətəndaşı, iş adamı Silver Tuşman 20 Yanvar faciəsi ilə bağlı bunları söylədi: "Mənim üçün Bakı çox dəyərli və doğma şəhərdir. Vətənim uzaqda olsa da, darıxsam da Bakı öz mehribanlığı və gözəlliyi ilə məni sakitləşdirir. Bu gün də düşündük ki, xalqımız üçün dərin məna kəsb edən bu məkana gələk. Bu bir ehtiramdır. Sizin xalqın qəhrəman oğul və qızları müstəqillik uğrunda canlarını veriblər. Onların qarşısında ehtiram göstərmək üçün haralı olmağın önəmi yoxdur".

Elə bu vaxt bir qrup pakistanlı gənc şəhidlər abidəsinə yaxınlaşdı. Öyrəndik ki, Bakıda oxuyan tələbələrdir. Onların təəssüratlarını təqdim edirik:

Mohammad Xan: "Bu il qardaşımla birgə Bakıya gəlmişəm. Ali təhsil ocağında oxuyuram. Azərbaycan bizə əziz olduğu qədər onun həqiqətləri də dəyərlidir. Sabah 20 Yanvar qətliamının 33-cü ildönümüdür. Buna

görə tələbə yoldaşlarımızla düşündük ki, gəlib müsəlman qardaşlarımızın azadlıq şəhidlərini ziyarət edək. Şəhidlər xiyabanında fərqli hisslər keçirdik. Bura müqəddəs məkandır. -Allah -bütün azərbaycanlı şəhidlərə rəhmət eləsin".

Talha Mücahid: "Mən də Bakıda təhsil alıram. Bakı bizim üçün çox doğma bir şəhərdir. Bakıda oxuyuruqsa, illərimizi bu şəhərdə keçiririksə, gərək onun keçmişinə də hörmətlə yanaşaq. Şəhidlər sovet imperiyasına qarşı savaşmış qəhrəmanlardır, xatirələri əzizdir. Pakistanda da şəhidlər çox uca tutulur. İslam dinində şəhidlərə xüsusi rəğbət bəslənilir. Biz müsəlmanıqsa, belə də olmalıdır. Şəhidlər bizim üçün uca məqamda qərarlaşmış şəxsiy-yətlərdir. Məkanları cənnətdir".

Şəhrizad Xurram: "Yoldaşlarla sözləşdik ki, gəlib xiyabanı ziyarət edək. Həm şəhidlərin ruhuna dualar oxuyaq, həm də bu müqəddəs məkanı ziyarət edək. Bu insanlar Azərbaycanın müstəqilliyi uğrunda həlak olublar. Onlar həmin gecə evlərində də otura, gizlənə bilərdilər, lakin küçələrə axışaraq, əliyalın şəkildə tankların qarşısına çıxıb öz etirazlarını bildiriblər. Sovet imperiyası isə dinc insanları güllələbaran etməklə bəşəri cinayət törədib. Bir xalqın azadlıq hisslərini bu şəkildə boğan cinayət cəzasız qalmamalıdır. Allah ruhlarını şad etsin".

Ayaz Ali: "Qəhrəmanlar heç zaman unudulmur. Bu mənzərə onun sübutudur. Bayaqdan buradayıq. İnsanlar axın-axın gəlir. İllər keçsə də, xalqınız öz qəhrəmanlarını unutmur, onları ziyarət edir. Bu şəhidlik mənzərəsi müqəddəs bir mübarizənin şərəfli nəticəsidir. Allah şəhidlərinizə rəhmət etsin. Pakistan və Azərbaycan mehribanlığını və qardaşlığını isə daimi etsin".

Sabunçu rayonu 307 saylı tam orta məktəbin direktor müavini Könül Həsənova dedi ki, 20 Yanvar faciəsi nə qədər qəddarlıqla, nə qədər vəhşiliklə, nə qədər amansızlıqla törədilsə də, Azərbaycan xalqının iradəsini və bütövlüyünü qıra bilmədi. Xalqımız o gecədən gözünü qırpmadan ölümün üstünə yeridi. Əslində, bu sovet rəhbərliyinə bir cavab idi ki, siz tanklarla, toplarla, silahlı əsgərlərlə cəsur Azərbaycan xalqının gözünü qıra bilməzsiniz. Bəli, belə də oldu. Azərbaycan xalqı öz azadlığına və istiqlaliyyətinə qovuşdu.

Məktəbin ingilis dili müəllimi Sevinc Həsənova sovet qoşunlarının Bakıya yeridilməsi ilə bağlı o zamankı sovet rəhbərliyinin üzərinə düşən məsuliyyətin öhdəsindən gələ bilmədiklərini vurğuladı. O, Bakıda törədilən qırğını xəyanət adlandırdı. Dedi ki, Sovet hökuməti Azərbaycan xalqının iradəsini qıra bilmədi. Əksinə, xalqın içində özünə qarşı nifrət oyatdı.

P.S. Biz şəhidlər xiyabanını tərk edəndə axşamtərəfi olsa da, yenə böyük izdiham yaşanırdı. Bu mənzərə ölkəmizdə yaşayan digər əcnəbilərin şəhidlərimizə bəslədiyi dərin ehtiramı göstərirdi.

**Xalq qəzeti.** - 2023.- 20 yanvar. - № 13. - S. 9.

## Mən niyə şahid oldum?

### Bakı, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecənin əks-sədası

**Qulu Kəngərli,**
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

**Görəsən tarixin hansı gününə düşür bu ağrı? O hansı gündür ki, illər sonra da bizimlə birgə duracaq, qaldıqca qalacaq... Təqvimin ən ağır vərəqinə yazılacaq 19-dan 20-nə keçən gecə... Tarixin hansı anıdır axı bu?.. Həyatda elə anlar olur ki, insanın dünənini, bu gününü, sabahını müəyyən edir. Bəlkə, həmin anı yaşayan xalqımızın yeni tarixi oradan başlayır. Hər halda o, adi vaxtölçənlə hesablanmır. Günlərin və ayların vəhdətidir o an... Və Şəhidlər xiyabanına gedən yol da o andan başlanır. Parlamentimizin qənşərindən keçir bu yol... Keçib də Təbrizə gedir...**

33 il əvvəl "Qara Yanvar şəhidləri" kitabını ərsəyə gətirdiyim günlərdə keçdiyim yollar, üz tutduğum ünvanlar dünən olmuş kimi yenidən gözlərim önündə canlanır... İsti-isti qələmə aldığım ağrılı epizodlar bir daha yada düşür... Eşitdiyim ağı və iniltilər təzədən qulaqlarımda əks-səda verir...

Nəğmə dərslərində Larisanın rəfiqələri (şəhid Larisa Məmmədova nəzərdə tutulur) "şən, bəxtəvər uşaqlarıq azad sovet ölkəsində" mahnısını çətin ki, bir də oxuyalar.

İnanmıram ki, İlqarın (şəhid İlqar İbrahimov) məktəbli dostları rəsm dərsində lüləsinə göyərçin qonmuş tank şəkli çəksinlər.

İynənin ulduzu boyda işığa həsrət qalan Yefimoviçin (şəhid Boris Yefimoviç) "Rebyata, ya slepoy, menya ne troqayte" səsi tarixin işıqlı səhifələrində qaldıqca qalacaq.

Göz yaşı qurumuş qız şəklindən də əzəmət yağan İlhamın (şəhid İlham Allahverdiyev) baş daşını qucaqlayıb pıçıldayır: "Bacın qurban, eləcə yuxuma gəlirsən, evimizə gəlmirsən". İlhamla Fərizənin yaratdığı qeyrət və namus abidəsi dünya durduqca duracaq.

Ülvinin (şəhid Ülvi Bünyadzadə) anası ağı deyir... Səsi batıb, məzarı qucaqlayıb balasına yalvarır: "Dur, dur gedək, ay ömrüm-günüm, havam, suyum, dağım-daşım... durun, durun gedək, ay insafsızlar, ay ağrınızı alım"...

Bir nəslin son yarpağı Salehin məzarından pıçıltı gəlir elə bil: "Ağrımızı torpaq aldı, anam, elə aldı, elə aldı ki, yüpyüngül olduq".

Doğulduğu ayın şərəfinə körpələrinə Yanvar adı verən Nəsirovlar ailəsi bu ayın qanlı şənbəsini necə biləydilər axı.

Yanvarın 19-da anadan olan Habilin ad gününü dostları yox, güllələr qarşıladı.

* * *

1989-cu ilin sonlarından xalqla hökumət arasında uçurum əmələ gəlmişdi və bu uçurum getdikcə dərinləşirdi. Partiyanın dediyini xalq, xalqın dediyini partiya eşitmirdi.

Bakıda və Azərbaycanın demək olar ki, bütün rayonlarında hakimiyyətsizlik hökm sürürdü. Həmin günlərdə bir-birinin ardınca Cəlilabad, Lənkəran və Naxçıvan hadisələri baş verdi. Bu, ümumən xalq hərəkatı idi, sovet rejiminə etiraz idi. Xalq etiraz səsini ucaltdıqca sovet rejimi küncə qısılırdı. Nə idi xalqın tələbi, xalq hakimiyyətdən nə istəyirdi?

– Mərkəz Azərbaycan və Ermənistana münasibətdə ögey-doğmalığa son qoysun;
– Oğlanlarımız başqa regionlarda yox, Azərbaycanda, sərhəd rayonlarında xidmət etsin;
– Bakıya yeridilən hərbi qüvvə çıxarılsın;
– Mərkəz suveren respublikanın işlərinə qarışmasın;
– Başda Azərbaycan KP MK-nın birinci katibi Əbdürrəhman Vəzirov olmaqla MK bürosu istefa versin və s. və i.a.

Bu idi xalqın tələbi, Moskvanın cavabı isə 150-yə yaxın şəhid oldu.

* * *

Yanvarın 19-u Azərbaycan radiosunda işdə idim. Saat 17-də iş yoldaşlarımla Mərkəzi Komitənin qarşısında gedən çoxminli mitinqə qoşulmaq üçün o zaman "Bakı soveti" (hazırda İçərişəhər") metrostansiyası tərəfə piyada düşdük. Səsyazan aparatı da götürmüşdüm, sabahısı günü material hazırlamağa gedəcəkdim. İlahi, nə qədər adam vardı burada, adam əlindən Mərkəzi Komitənin qarşısına tərəf getmək mümkün deyildi. Həmin

gün çox soyuq idi, sinoptiklərin dediyinə görə Bakıda 18-20 dərəcə şaxta vardı. Mərkəzi Komitənin qarşısında gedən mitinqdə çıxış edənlərin səsini sərbəst eşidirdik. Təxminən iki saat burada qaldıq.

Məlum olduğu kimi, həmin gün şəhərin hər yerində barrikadalar qurulmuşdu, mitinqlər keçirilirdi. -MK-nın qarşısında və metro ətrafında adamlar həddindən artıq çox idi, odur ki, mitinqdə elan edirdilər: Qurd qapısı tərəfdə, Salyan kazarması, Əzizbəyov metrosu və digər yerlərdə keçirilən mitinqlərdə adam azdır, bu istiqamətlərə avtobuslar gedir, orada da mitinqçilərin sayını çoxaltmaq lazımdır.

Əynim qalın deyildi deyə üşüyürdüm, düşündüm ki, Salyan kazarmasının qarşısına gedim, ev oraya yaxındır, əynimə isti paltar geyinim, səsyazan aparatı da evə qoyub yenidən qayıdım. Evdə paltonun altından isti paltar geyindim. Düşündüm ki, səsyazan aparat lazım ola bilər, onu da götürüb Salyan kazarmasının qarşısına qayıtdım.

Gecə saat 12-də Sumqayıt tərəfdən güllə səsləri eşidilməyə başlanıldı, işıqsaçan güllələr havada oynayırdı. Təxminən yarım saatdan sonra tanklar, BMP-lər bizə də çatdı. Heç kim inanmırdı ki, sovet ordusu öz əhalisinə bu dərəcədə divan tutar. Güllələr qarşımda, sağımda, solumda duranları yıxırdı, mənsə yıxılmırdım, güllələr mənə dəymirdi, qaçırdı məndən. Mən də güllə dəyən adamlar kimi qışqırmaq istəyirdim, məndən səs çıxmırdı. Düşündüm ki, bəlkə mənə də dəyib güllə, isti olduğundan ağrı hiss etmirəm. Sonra da düşündüm ki, yaralılara kömək edəcək qədər gücüm varsa, deməli hələ mən şəhid deyiləm.

123 nömrəli avtobusla Semaşko xəstəxanasına (indi Nağıyev adına xəstəxana) üç dəfə yaralı apardıq. Birinci dəfə beş yaralı idi, üçü zarıyırdı, birinin vəziyyəti çox ağır idi. Onun səsi haç vaxt yadımdan çıxmayacaq: – Anama deyərsən ki, filan qızı istəyirəm, dedi və başı düşdü. Xəstəxanada bildik ki...

Mən 20 Yanvar şəhidləri barədə kitabı hazırlayanda onun anasını gördüm, söhbət elədik, mən şəhidin anasına heç nə deyə bilmədim və heç vaxt da deyə bilməyəcəyəm. Haqq dünyasında o Anadan üzr istəyəcəyim gün isə qarşıdadır.

Dördüncü dəfə Göyərçin kafesi deyilən ərazidən orta yaşlı, saçlı-saqqallı "əsgərlər" ancaq avtobusu Salyan kazarması tərəfə buraxdılar. Sürücü Rüstəm Əliyev şəhid olmağa getdi. Mən bunu "Qara Yanvar şəhidləri" kitabını yazanda biləcəm.

* * *

Yanvarın 22-si, şəhidlərin dəfn günü şahidliyimə utandım və düşündüm ki, şəhid olmadımsa ömrüm şəhidlər üçün ərimələdir...Əriyir də...

Şəhidlər haqqında məlumatları toplayanda gördüm ki, bu elə şəhidliyə bərabər imiş. Elə şəhid qapısı olub ki, iki dəfə, elə qapı olub üç dəfə getmişəm və ürək eləyib qapını döyə bilməmişəm. Eşidəcəyim sözlərdən çəkinmişəm: – Biz nə -hayda, sən nə hayda...

Mən onları da başa düşürdüm, öz günümə də acıyırdım. Üç dəfə getdiyim qapını nəhayət ki, güc toplayıb dördüncü dəfə döyürdüm.

Di gəl de görüm, niyə gəlmisən. Hünərin varsa, şəhidin anasına, atasına, qardaşına, bacısına de ki, mən onlar haqqında kitab yazıram. Hər an gözləyirdim ki, şəhidin doğma və əzizləri məni qapıdan qovub deyəcək: – Bizim günümüzə bax, sənin gününə bax...

Şəhidlərin qırxına üç gün qalmış dostum, mərhum Məmməd Nazimoğlu ilə birgə hazırladığım "Şəhidlər" bukletinin birinci hissəsi əl-əl gəzəndə rahat nəfəs aldıq ki, o sözü bizə deyən olmadı.

O günlərdə Məmməd mənə dedi ki, bu, çox çətin işdir, dözə bilmirəm, mən tək işləməli oldum. Sonra ikinci buklet çap olundu, "Qara Yanvar şəhidləri" kitabım Azərbaycan və rus dillərində işıq üzü gördü, sonra isə "Qanlı şənbəyə gedən yol" kitabı dərc edildi.

Belə, nə deyim, nə danışım, dostum Məmməd Nazimoğlu bir dəfə demişdi ki, Şəhidlər xiyabanında gecə olmur, azğın qaranlıq qanadlarını buraya gərə bilmir. Gecələr bura hələ ki, torpağa kök atan azadlıq toxumlarının işartısına bələnir...

Bəmbəyaz olur Şəhidlər -xiyabanı...

**Xalq qəzeti.** - 2023.- 20 yanvar. - № 13. - S. 10.

# Taleyimizin Qanlı Yanvarı

**Qabil Hüseynli**,
fəlsəfə elmləri doktoru, professor

**Azərbaycan xalqının tarixində ən kədərli və eyni zamanda şanlı səhifə olan 20 Yanvar qırğınının 33-cü ili tamam olur. Azərbaycanın dövlətçilik tarixində 20 Yanvar xalqımızın milli azadlıq, milli müstəqillik uğrunda apardığı çoxillik mübarizəsinin heç zaman unudulmayacaq tarixi səhifələrindəndir. Sovet cəza dəstələrinin qanlı cinayətinə baxmayaraq, bu müstəqillik hərəkatı xalqın yetkin siyasi şüuru və azadlığa olan möhkəm inamı sayəsində özünün şərəfli adını dünya azadlıq mübarizəsinin tarixinə yazdı. Bu qanlı hadisə azərbaycanlılara qarşı törədilmiş son 100 ilin ən ağır beynəlxalq cinayətlərindən biridir.**

20 Yanvar hadisələrinə, ilk növbədə Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar niyyətlərinə təkan verən keçmiş SSRİ rəhbərliyinin havadarlığı və bilavasitə təşəbbüsü ilə Bakıya sovet ordusu hərbi hissələrinin yeridilməsi ilə nəticələnən silahlı təcavüz aktı kimi yanaşmaq lazımdır. Buna qədər isə 1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR ilə "birləşdirilməsi" haqqında antikonstitusion akt qəbul etdikdə Moskva buna göz yumdu. Qorbaçovun köməkçisi Aqanbekyanın, "Daşnaksütyun" partiyası ideoloqlarının təhriki ilə ictimai şüura açıq-aşkar ideoloji uydurmalar yeridilir, ermənilərin separatçılığını sovet hakimiyyəti illərində guya Azərbaycan hökuməti tərəfindən törədilən "sıxışdırmalara", "təhqirlərə" və "ayrı-seçkiliyə" qarşı məcburi etiraz hərəkəti kimi qələmə verilirdi. XX əsrin axırlarında sovet rəhbərliyi bir tərəfdən ermənilərin ərazi iddialarının təmin olunması, digər tərəfdən azərbaycanlıları daha da sıxışdırmaq məqsədilə onların yaşadıqları ərazilərin kiçildilməsi siyasətinin davam etdirilməsi üçün cinayətkar məqsədli ardıcıl addımlar atdılar. Bu hadisələr azərbaycanlılara qarşı iki əsr ərzində davam edən soyqırımı, deportasiya, Azərbaycan ərazisinin zorla qoparılıb Ermənistana verilməsi siyasətinin məntiqi davamı idi. Həmin illər xalqımız ayaqda idi. Həm Qarabağda erməni separatizminin meydan sulamasının qarşısının alınmasını, həm də azərbaycanlıların qədim Oğuz yurdu İrəvandan kütləvi surətdə divan tutularaq zorakılıqla qovulmasını dayandırmağı Moskvadan tələb edirdi. Bu, Azərbaycan xalqının haqlı konstitusion tələbi idi və sovet rəhbərləri 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə bu haqlı tələbə misli görünməmiş qəddarlıq və cinayətkarlıqla cavab verdi.

Baş verənlər 20 Yanvar ərəfəsində Azərbaycanda ciddi hakimiyyət böhranı yaranması ilə birgə müşayiət olunurdu. Azərbaycan Kommunist Partiyasının birinci katibi Əbdürrəhman Vəzirovun səriştəsiz idarəçilik siyasəti respublikada siyasi vəziyyəti dalana dirəmişdi. Bakıda siyasi gərginlik getdikcə pik nöqtəyə çatırdı. Yanvarın 10-dan sonra SSRİ rəhbərliyinin nümayəndələri və güc qurumlarının nazir müavinləri Bakıya gəlməyə başladılar. SSRİ Ali Soveti İttifaq sovetinin sədri Y.Primakov və Sov.İKP MK katibi A.Girenko, müdafiə naziri, marşal Yazov Mixail Qorbaçov tərəfindən Bakıya ezam edilmişdilər. Xalq şairi Bəxtiyar Vahabzadə 1997-ci ildə "Respublika" qəzetinə verdiyi müsahibədə o zamankı vəziyyəti belə təsvir edirdi: "Bir qrup ziyalı - rəhmətlik İsmayıl Şıxlı, mən, Nurəddin Rzayev, Şeyxülislam Allahşükür Paşazadə və Həsən Həsənov yanvarın 17-də Əbdürrəhman Vəzirovun yanına getdik. Kabinetə girəndə Primakovla Girenkonu da orada gördük. Mən dərhal Primakovun üstünə hücum çəkdim ki, bizdən nə istəyirsiz, niyə əl çəkmirsiz? Sizə nə pisliyimiz keçib?

Bunu görən Vəzirov qalxıb məni qucaqlayıb sakitləşdirməyə çalışdı. Bu zaman Allahşükür Paşazadə məndən də kəskin şəkildə Primakova hücum çəkdi və sərt şəklidə "xalqıma qarşı təhlükə olan yerdə mən heç kəsi tanımıram. Düzünü de görüm, ordu şəhərə girəcək? Qırğın olacaq, ya yox?", - dedi. Onlar bizi sakitləşdirməyə çalışdılar ki, qırğın olmayacaq. Amma Vəzirov bilirdi ki, şəhərə hücum olacaq. Bunu biz də hiss etdiyimiz üçün kabinetdən çıxanda Həsən Həsənov dedi ki, qırğın olacaq. Şeyx də o fikirdə olduğunu bildirdi".

Tanınmış jurnalist Nadejda İsmayılova həmin günlərdə siyasi rəhbərliyin çarəsizliyini öz yazılarında qeyd edib. N.İsmayılova yazır ki, 14 yanvarda Ə.Vəzirov Mərkəzi Komitənin iclasını çağırdı. Axşama yaxın ikinci iclas Moskvadan gəlmiş Primakovun iştirakı ilə keçirildi. Primakov kəskin suallardan qaçaraq çıxış edənlərin sözünü kobud formada kəsirdi. Ali Sovetin sədri Elmira Qafarova bildirirdi ki, vəziyyət çox kritikdir. Spiker deyirdi ki, Xalq Dağlıq Qarabağ probleminin həllini tələb edir. Bu problem həll edilsə, qarşılıqlı anlaşma əldə olunacaq. Primakov isə cavabında "Dağlıq Qarabağdan danışmayın! Deyin görək Bakıdakı ekstremistlərlə nə edək?", - soruşurdu. İclasda büro üzvləri Primakova deyiblər ki, meydana çıxan xalqın yalnız bir tələbi var:

Qarabağda vəziyyəti normallaşdırmaq. Primakov isə qəzəbli halda etiraz edib: "Onlar hakimiyyəti deviriblər. Nə üçün buna göz yumursunuz?".

Buradan aydın görünür ki, Moskvadan göndərilənlər yerli hakimiyyətlə situasiyanı müzakirə etməyə, çıxış yolu tapmağa yox, öz qanlı niyyətlərini həyata keçirmək üçün gəlmişdilər. 17 yanvar 1990-cı ildə SSRİ Ali Soveti İttifaq sovetinin sədri Y.Primakov və Sov.İKP MK katibi A.Girenko partiya rəhbərləri, AXC nümayəndələri və ziyalılarla görüşürlər. Onlar görüşdə qoşunların şəhərə girməyəcəyi barədə vədlər verirdilər. Mərkəz paralel şəkildə başqa vasitələrə də al atırdı. Sovet rəhbərliyi dünya birliyini çaşdırmaq üçün Azərbaycanda islamçı fundamentalistlərin hakimiyyəti ələ keçirməsi haqda məlumat yayırdı.

Yanvarın 18-də Moskvadan gələn nümayəndələr başda olmaqla rəhbərlik Mərkəzi Komitənin qarşısında keçirilən mitinqə gəlib və Primakov mitinqçilər qarşısında çıxış edərək deyib ki, Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməyəcək və şəhər ətrafında toplanmış ordu Bakıya yeridilməyəcək. Eyni sözü həmin gün Sov.İKP MK milli münasibətlər şöbəsi müdirinin müavini V.Mixaylov respublika televiziyası ilə çıxışında da təkrar edib. Bu zaman artıq Zaqafqaziya, Moskva, Leninqrad və digər hərbi dairələrdən gətirilmiş 50 minlik ordu hissələri şəhəri işğal etmək üçün hərbi hazırlıq işlərini başa çatdırmışdı. Bütün qoşun növlərindən ibarət olan hərbi hissələr, DTK-nın 7-ci idarəsinin "Alfa" qrupu müxtəlif istiqamətlərdən Bakıya doğru hərəkət üçün start vəziyyətdə idi.

Yanvar ayından etibarən mərkəzi sovet mətbuatında azərbaycanlıların islam fundamentalizminə yuvarlandıqları barədə materiallar dərc olunmağa başladı. Bu məsələdə "Pravda" və "İzvestiya" qəzetləri daha fəal və qərəzli idilər. Onlar həyasızcasına iddia edirdilər ki, islam fundamentalistləri əksər binaların üstündə snayper və pulemyotlar yerləşdiriblər. Moskva başqa variantlara da əl atırdı.

Bu baxımdan, Primakovun Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadəyə respublikada hakimiyyəti ələ alması təklifi də bu təxribatların tərkib hissəsi idi: "Şeyx həzrətləri, təklif edirəm ki, siz hakimiyyəti əlinizə alıb ölkəyə rəhbərlik edəsiniz!". Bu açıq-aşkar Azərbaycandakı hadisələrə dini görkəm vermək istəyən Moskvanın fitnəsi idi.

Moskvadakı KİV-lər isə durmadan təkrarlayırdılar: "Sovet ordusu Bakıya Azərbaycanda islam fundamentalizminin qarşısını almaq üçün daxil olub". Moskva bu ittihamla ərazi bütövlüyünün pozulmasına qarşı mübarizəyə qalxmış Azərbaycan xalqını geopolitik oyunun qurbanına çevirmək məqsədi güdürdü. Cəmi 123 mollası olan 7 milyonluq ölkənin islam təməlçiliyi ilə ittiham etmək gözü dönmüş Moskvanın reallıq hissini bütünlüklə itirməsi demək idi. 1985-ci ildə Azərbaycanda qeydiyyatdan keçmiş cəmi 18 məscid və 53 dini icma fəaliyyət göstərirdi. 1982-ci ildə aparılmış rəsmi qeydiyyata əsasən, ölkədə cəmi 123 molla vardı. Onlardan yalnız 16 nəfərinin dini təhsili var idi. Buxaradakı "Mir Ərəb" mədrəsəsinin və Daşkənd İslam Universitetinin məzunları olan bu ruhanilərin hamısı Qafqaz Müsəlmanları İdarəsində və Bakı şəhərinin məscidlərində işləyirdilər. Bu səbəbdən, Moskvanın islam amilindən istifadəyə cəhdi fitnə-fəsaddan başqa bir şey deyildi.

Onu da vurğulamaq yerinə düşərdi ki, Azərbaycanda "islam təhlükəsi" barədə iddialar elə xalq hərəkatının başlandığı vaxtdan etibarən səsləndirilirdi. Bu tipli ittihamlar hətta Sov. İKP-də Mərkəzi Komitənin dəhlizlərində müzakirə olunurdu. Məsələn, Mixail Qorbaçovun köməkçisi olmuş Çernyayev özünün memuarlarında yazırdı ki, "Bakıda küçələrə yaşıl bayraqlarla və Xomeyninin portretləri ilə çıxırlar". Moskva beləcə ağ yalanla Azərbaycandakı etirazlara dini rəng verməklə Qarabağ ermənilərinin "əlinə oynayır", eyni zamanda respublikamızı SSRİ-də başlanmış demokratik hərəkatdan təcrid etməyə çalışırdı.

Tanınmış siyasi araşdırmaçı Tomas de Vaal özünün "Qarabağ" kitabında qeyd edir ki, Azərbaycan Kommunist Partiyasının ikinci katibi, Əfqanıstandan Bakıya bu posta gətirilən Viktor Polyaniçko siyasi manipulyasiyaya meyilli idi və islam faktorundan istifadədən çəkinmirdi. Bir dəfə Polyaniçko AXC fəallarından ikisini öz yanına görüşə dəvət edərək, qəribə təkliflə onları təəccübləndirmişdi. Polyaniçko israr edirdi ki, AXC-nin proqramına radikal islam təməlçiliyinin prinsipləri də salınsın. "Nyu York Tayms" qəzetinin müxbiri Bill Keller bir mənbəyə isnad edərək yazmışdır: "Polyaniçkonun kabinetində Quran var idi. O kitabı vərəqlədi və dedi: "Quran yaxşı kitabdır". Daha sonra bildirdi: "Bakı üçün avropasayağı hərəkətlər yaxşıdır. Amma kəndlərdə müsəlman inancı çox güclüdür. Siz gərək islam faktorunu nəzərə alasınız". Kommunist məmurundan belə təklif şübhəli idi.

Məsələdən hali olanlar yaxşı bilirlər ki, dini amildən öz təxribatçı məqsədləri üçün istifadə etmək həmişə sovet sisteminin ideoloji təxribat vasitələrindən olub və bu gün də bir sıra ölkələrin praktikasında qalmaqdadır. Ciddi sovet ideoloji tezisləri ilə böyümüş Azərbaycan vətəndaşları üçün din daha çox nənə-babalarının bağlı olduğu bir məsələ idi. Bəs sovet rəhbərliyi qondarma "islam təhlükəsi" yarlığından nə üçün istifadə etməyə can atırdı? Zaqafqaziya Müsəlmanları İdarəsinin yaydığı bəyanatda deyilir: "Zaqafqaziya müsəlman ruhaniləri siyasi mübarizədə və millətlərarası münaqişələrdə dini ideyalardan istifadə olunmasını yolverilməz hesab

edirlər. Regionda vəziyyətin hətta ən gərgin anlarında biz zəkaya, dincliyə, mehriban qonşuluğa çağırmışıq. Məhz buna görə də sabitliyi guya "islam amilinin" pozduğunu iddia etmək xüsusilə hiddət doğurur. Açıq-aşkar görünür ki, bunu iddia edənlər tamamilə məlum bir niyyət güdürlər - müsəlmanları xristianlara qarşı qoymaq, millətlərarası münaqişəni daha da şiddətləndirmək və milli-dini zəmində kəskin münaqişələr yaratmaq".

Əslində isə bu bölgədə hadisələrin gərginləşməsi ermənilərin məkrli niyyətlərindən qaynaqlanırdı. 1988-ci ildə erməni separatçılarının "Miatsum" adı altında başladığı Qarabağ hərəkatı Azərbaycanda çox böyük etiraz doğurdu. Xalq xain qonşuların tarixi torpaqlarımıza həyasız iddialarına hiddətlə etirazını bildirdi. Lenin meydanından vüsət almış milyonların iştirak etdiyi etiraz mitinqləri bir ildən sonra Azərbaycanın müstəqillik uğrunda mübarizəsinin əsas bazasına çevrilməkdə idi.

Ölkəmizdə milli ideologiyanın sürətlə özünə dayaq tapdığını müşahidə edən Qorbaçov və SSRİ rəhbərliyi bu hərəkatın genişlənərək bütün ittifaq dövlətinin qəbirqazıyanına çevriləcəyindən qorxmağa başladılar. Dindarından tutmuş sekulyarına qədər vahid milli ideya ətrafında birləşmiş xalq öz mütəşəkkil birliyini ortaya qoymaqla Azərbaycanı digər ittifaq respublikaları üçün də azadlıq mayakına çevirirdi.

Moskvanın Qarabağ probleminin həllində tutduğu birtəfəli və ədalətsiz mövqe xalqın səbrini tükəndirmişdi. Belə vəziyyət isə getdikcə ciddi böhranın əsasını qoymağa başladı. Bakıda DTK tərəfindən təşkil olunmuş erməni talanları, SSRİ-İran sərhədinin sökülməsi, Naxçıvan və Qarabağda erməni silahlılarının dinc azərbaycanlılara hücumları, 220 mindən çox soydaşımızın ata-baba torpaqları olan İrəvandan barbarcasına qovulması və bu zaman 150-dən çox insanın həlak olması siyasi böhranı kəskinləşdirən detenator rolunu oynayırdı.

SSRİ rəhbərliyinin bütün cəhdlərinə baxmayaraq 1990-cı ilin yanvarında Bakıda baş vermiş amansız qətliamı dünyadan gizlətmək mümkün olmadı, bu hərbi təcavüzü ört-basdır etmək üçün SSRİ rəhbərliyinin bəyan etdiyi qəribə ittihamlar sabun köpüyü kimi dağıldı. Sovet qoşunlarının qanunsuz yeridilməsi nəticəsində Bakıda və Azərbaycan rayonlarında 146 nəfər öldürülüb, 744 nəfər yaralanıb, 841 nəfər qanunsuz həbs olunub. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilib. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milislər olub. Qara Yanvar faciəsi nəticəsində SSRİ Konstitusiyası və Azərbaycan SSR Konstitusiyası kobudcasına pozulub, Azərbaycan Respublikasının suveren hüquqları tapdalanıb. Qabaqcadan hazırlanan bu təcavüzkarlıq aksiyası Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq, xalqı təhqir edərək ona mənəvi zərbə vurmaq məqsədi daşıyıb. Azərbaycan xalqı bu faciəni heç zaman unutmayacaq".

Təəssüf ki, həmin dövrdə bu acınacaqlı faktlara dünya ictimaiyyətinin də mövqeyi birmənalı olmamışdır. Bəzi qərb ölkələri bu cinayətkar hərəkətləri SSRİ-nin daxili işi hesab edərək baş vermiş insan hüquq pozuntularına öz siyasi maraq və mənafeləri prizmasından yanaşmaqla laqeyd və seyrçi mövqedə dayanmışlar. Məsələn, Böyük Britaniya və İtaliyanın XİN-i bəyanat verərək Azərbaycanda yaranmış vəziyyəti "SSRİ-nin daxili işi" kimi qiymətləndirirdi. ABŞ isə Dövlət Departamentinin nümayəndəsi Marqaret Tatuaylerin şəxsində bəyanat vermişdi ki, ABŞ Azərbaycanı dəstəkləmir və Bakıdakı yanvar hadisələrini şərh etməyi lazım bilmir. Dövlət Departamenti M.Qorbaçovu açıqca dəstəkləyərək hesab edirdi ki, onun səyləri azərbaycanlılarla ermənilər arasında silahlı toqquşmanın dayandırılmasına yönəldilmişdir.

Həmin dövrün geosiyasi mənzərəsi fonunda bu sualın cavabı maraqlıdır: 1989-cu ildə ABŞ Panamaya müdaxilə etdi. Ardınca SSRİ tərkibində olan Şərqi Avropa ölkələrində Moskvaya qarşı etirazlar başladı. Vaşinqtondan SSRİ xarici işlər naziri Eduard Şevardnadzeyə müraciət daxil oldu ki, Moskva baş verən etirazlara müdaxilə edərsə, ABŞ bu məsələdə neytral qalacaq. Kreml Vaşinqtonun bu müraciətini özünün Panama müdaxiləsinə haqq qazandırmaq üçün etdiyini anlayırdı. Ona görə də, etirazlara qarşı silah işlədilmədi. Lakin bu, Kremlin Bakı müdaxiləsinə zəmin yaratdı. 1989-cu ildən cəmi bir il sonra Bakıda Qanlı Yanvar hadisələri törədildi və Vaşinqton susdu. Bu fakt 20 Yanvar faciəsinə görə ABŞ-ın da məsuliyyət daşıdığı fikrinə haqq qazandırır. 1990-cı il, 20 Yanvar qırğınından bir gün öncə. Yanvarın 19-da Moskvada ABŞ Senatının xarici məsələlər üzrə alt komissiyasının sədri Kleyborn Pell ilə SSRİ xarici işlər naziri Şevardnadze arasında görüş keçirilir. Pell bildirir ki, Sovet rəhbərliyi "Azərbaycana Qarabağ üzərində" nəzarəti həyata keçirməkdə davam etməyə icazə verməməlidir.

Lakin hər şey bundan ibarət deyilmiş və ortaya çıxan bir sıra sənədlər azərbaycanlıların vəhşicəsinə qətlə yetirilməsində, buna paralel olaraq Qarabağ münaqişəsi və ermənilərin Azərbaycana qarşı təcavüzkar siyasətində Ağ Evin indi demokratiya adı altında hər kəsin gözünə soxduğu barmağının olduğunu göstərir…

Senatın Qorbaçova ünvanladığı məktubda deyilir: "Sizdən xahiş edirik ki, erməni azlığının qətlə yetirilməsinin, eləcə də regionda digər zorakılıqların qarşısını almaq üçün tədbir görəsiniz. Ümid edirik ki, sovet

rəhbərliyi vətəndaş sülhü ilə yanaşı, vətənlərinə dönmək istəyən ermənilərin təhlükəsizliyini təmin edəcək. Ona da ümid edirik ki, Qarabağın və Ermənistanın iqtisadi mühasirəsini yaracaqsınız. Orada zəlzələ zonasında çoxlu sayda amerikalı və digər xaricilər işləyir. Azərbaycanda dəhşətli zorakılığın baş verməsi Dağlıq Qarabağın 160 minlik erməni əhalisinin Ermənistanla birləşməsinin vacibliyini bir daha təsdiq edir. Azərbaycan hakimiyyəti 70 il ərzində Dağlıq Qarabağ əhalisinin 60 faizini təşkil edən ermənilərin iqtisadi və mədəni hüquqlarını pozub. Sizdən təkidlə xahiş edirik ki, Qarabağ xalqına özünün gələcək siyasi və mədəni mənsubiyyətini müəyyən etmək hüququnu vermək yolu ilə Sovet dövləti çərçivəsində baş verən faciənin qarşısını alasınız".

Bu müraciət ABŞ-ın 20 Yanvar faciəsi və Azərbaycan torpaqlarının ermənilər tərəfindən işğal edilməsində hansı dərəcədə rol oynadığını göstərir. Əlbəttə, belə mövqelər həmin dövrün geosiyasi şərait və amilləri ilə sıx bağlı idi. Çünki, qərb dövlətləri anlayırdılar ki, bu cür millətlərarası münaqişələr SSRİ-ni daxildən zəiflədərək parçaladığı üçün 20 Yanvar hadisələri kimi analoji faktlar onların "soyuq müharibə" planlarına və strateji məqsədlərinə tamamilə uyğun idi.

1990-cı il yanvarın 19-20-də Bakı şəhərində baş vermiş hadisələrin ilkin təhqiqi haqqında Azərbaycan SSR Ali Soveti İstintaq Komissiyasının 11 fevral 1990-cı il tarixli Bəyanatında isə qeyd olunurdu ki, İttifaq hakimiyyət orqanları ölkənin qanunlarını və beynəlxalq hüquq normalarını saya salmadan, Azərbaycan SSR-in suveren hüquqlarına məhəl qoymadan, SSRİ-nin yaradılması haqqında müqavilənin şərtlərini, SSRİ Konstitusiyasını və Azərbaycan SSR Konstitusiyasını kobudcasına pozaraq respublikanın ali dövlət hakimiyyəti orqanlarının razılığı və fövqəladə vəziyyəti tənzimləyən qanunvericilik aktı olmadan Azərbaycan Sovet Sosialist Respublikasına qeyri-qanuni surətdə qoşunlar yeritmiş və onun paytaxtı Bakı şəhərində fövqəladə vəziyyət elan etmişlər.

Elə bu səbəbdən də, Bakı şəhərində fövqəladə vəziyyətin ləğv edilməsi haqqında Azərbaycan SSR Ali Sovetinin 22 yanvar 1990-cı il tarixli qərarının 1-ci maddəsində qeyd olunur: "Bakıda fövqəladə vəziyyət haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin 19 yanvar 1990-cı il tarixli fərmanı Azərbaycan SSR-in suverenliyinə qarşı təcavüz, bu fərmanın Bakı və onun ətrafında kütləvi qırğına səbəb olmuş icrasına sərəncam vermiş SSRİ ali hakimiyyət orqanlarının və ali vəzifəli şəxslərin hərəkətləri isə Azərbaycan xalqına qarşı cinayət kimi qiymətləndirilsin".

Bakı qırğını Mixail Qorbaçovun siyasi bioqrafiyasına qara hərflərlə yazıldı. Uzun illər bu barədə verilən suallardan qaçan sabiq prezident yalnız SSRİ-nin süqutundan sonra Bakıya ordu yeridilməsinin səhv olduğunu etiraf etməyə özündə cəsarət tapa bilmişdi. O, yazdığı "Həyat və islahatlar" kitabındakı memuarlarında sovet ordusunun 20 Yanvarda Bakıya qanlı müdaxiləsi barədə mövqeyini qeyd edərkən yazır: "Bu faciəli hadisədən dərs götürdüm. Hakimiyyət ekstremal situasiyada güc tətbiqindən imtina edə bilməz. Ancaq bu aksiya mütləq olaraq əsaslandırılmalı və çox sərt tədbirlərlə bağlı addım məhdudlaşdırılmalıdır. Problemin həlli yalnız siyasi yolla tapılmalıdır".

Onun ruhi sarsıntısını isə arvadı Raisa Qorbaçova yazdığı "Mən ümid edirəm ki..." kitabında göstərib: "Mən gecə zənglərinin birini xatırlayıram: 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə evə gələn zəngi... Bakıda hadisələrin baş verdiyi o gecəni... Yadımdadır, 20 Yanvar günü səhər tezdən mən Mixail Qorbaçovu tanımadım: Ağappaq ağarmış, boz sifət, ruhi sarsıntı və ürək böhranı...".

SSRİ rəhbəri Mixail Qorbaçovun Qərbdə populyar olması onun bu qanlı əməlinin dünya liderləri tərəfindən pislənməsinin qarşısını ala bildi. Böyük Britaniya XİN-i bəyanat verərək Azərbaycanda yaranmış vəziyyəti "SSRİ-nin daxili işi" kimi qiymətləndirirdi. İtaliyanın xarici işlər naziri D.Mikels də bəyan etmişdi ki, Bakıda baş vermiş hadisələr SSRİ-nin daxili işidir. Onun dediyinə görə, SSRİ hökuməti öz milli mənafelərini qorumalı və Azərbaycan Xalq Cəbhəsinin radikal əhvali-ruhiyyəli millətçilərinin qarşısını almalı idi.

Həmin günlər "Amerikanın səsi" radiosu məlumat yaymışdı ki, Bakıya qoşun yeridilməsi üçün Azərbaycanda islam fundamentalizminin baş qaldırması ilə qorxudulan ABŞ prezidenti Corc Buş iki gün ardıcıl olaraq Qorbaçovu müdafiə edib. Amma sonradan onlar da səhv etdiklərinin fərqinə vardılar.

Həmin ağır günlərdə baş verənlərə öz qəti etirazını bildirən, Azərbaycanın Moskvadakı nümayəndəliyində hadisə ilə bağlı mətbuat konfransı keçirən görkəmli dövlət xadimi Heydər Əliyev oldu.

Siyasi hakimiyyətin bütün manеələrinə baxmayaraq paytaxt Moskvada mətbuat konfransı keçirən Sovet İttifaqı Kommunist Partiyasının Siyasi Bürosunun sabiq üzvü, SSRİ Nazirlər Soveti sədrinin sabiq birinci müavini Heydər Əliyev bu qanlı qırğına görə Mixail Qorbaçovu ittiham etdi.

Sovet rəhbərliyinin islam təhlükəsi barədə şişirdilmiş yalanı yerimədi. Bütün dünya az sonra Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsinin yeni səhifəsinin şahidi oldu. "Qanlı Yanvar" hadisəsindən iki ay sonra Azərbaycanın SSRİ-dən ayrılması, dövlət müstəqilliyi uğrunda mübarizəsi başlandı. Bir il sonra - 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycan Respublikasının Dövlət

Müstəqilliyi haqqında" Konstitusiya Aktı yekdilliklə qəbul edildi. Bu, həm də SSRİ-nin dağılması, "Müstəqilliklər paradının" başlanğıcı oldu.

**Respublika.** - 2023.- 20 yanvar. - № 13. - S. 6.

## Qanla yazılmış şərəfli tarix

**İbrahim Quliyev**,
hüquq elmləri doktoru, professor, Əməkdar müəllim

**Xalqımızın qan yaddaşına "20 Yanvar", "Qanlı Yanvar", "Qara Yanvar" kimi həkk olunmuş o dəhşətli faciədən 33 il keçir. 1989-cu ilin payızından başlayaraq ölkəmizdə geniş vüsət almış milli azadlıq hərəkatını beşiyindəcə boğmaq, müstəqil, demokratik dövlət qurmaq arzusu ilə yaşayan xalqın inamını və iradəsini qırmaq üçün Moskvanın imperiya rəhbərləri tərəfindən 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıya qoşun yeridildi.**

**Fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun təpədən-dırnağadək silahlanmış böyük bir kontingenti paytaxtın küçə və meydanlarında toplaşan dinc əhaliyə amansızcasına divan tutmağa başladı. Ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni zabitləri, hətta kursantlar da daxil edilmişdi. Amansızlıq, misli görünməmiş vəhşiliklərlə müşayiət olunan faciə zamanı insanlar xüsusi qəddarlıqla qətlə yetirilirdi.**

Qanlı şənbə gecəsi şəhərin küçələri dinc, əliyalın insanların qanına boyanmışdı. Şəhidlərdən birinə 21, digərinə 10-dan çox, başqa birisinə 23 güllə dəymiş, yolda avtomobillər, təcili yardım maşınları atəşə tutulmuş, həkimlər vəzifə borcunu yerinə yetirərkən gülləyə tuş gəlmişdilər. Azğınlaşmış ordu qocaya, qadına, uşağa məhəl qoymayıb köməksiz insanları qanına qəltan etmişdir. Qanlı Yanvar gecəsində 132 nəfər şəhid, 744 nəfər əlil olmuş, 841 nəfər isə qanunsuz həbs edilmişdir.

Bakıda fövqəladə vəziyyət barədə məlumat isə faciə baş verəndən sonra - yanvarın 20-də səhər saat 05:30-da respublika radiosu ilə xalqa çatdırılmışdır. Fövqəladə vəziyyət tətbiq olunmayan rayonlarda da yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda əliyalın, günahsız insanlar, azadlıq mücahidləri qətlə yetirilmişdir.

O ağır günlərdə xalqımızın böyük oğlu, ümummilli lider Heydər Əliyev Azərbaycanın haqq səsini dünyaya çatdırdı. Sovet imperiyasının xüsusi xidmət orqanları tərəfindən təqib edilən, həyatı hər an təhlükə qarşısında olan ulu öndər ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək bəyanatla çıxış etdi.

O vaxt mən Azərbaycan KP MK bürosunun və SSRİ Daxili İşlər Nazirliyinin kollegiya qərarları ilə SSRİ DİN-in İdarəetmə Akademiyasının müttəfiq respublikalar üçün rəhbər kadrlar hazırlayan fakültəsində təhsil alırdım. Qarabağda baş verən hadisələri diqqətlə izləyir, Azərbaycan KP MK katibi Həsən Həsənovun MK-da keçirilən yığıncaqda obyektiv, kəskin çıxışını ziyalılar arasında yayır, ölkəmizin haqq səsini paytaxtda müxtəlif millətlərin nümayəndələrinə də çatdırırdım.

Ümummilli lider Heydər Əliyevin Azərbaycanın Daimi Nümayəndəliyinə gəlişinin şahidi və orada baş verən hadisələrin iştirakçısıyam. Ulu öndər nümayəndəliyə yığışan həmyerlilərimizə və Azərbaycan xalqına başsağlığı verdi. Sonra ölkə və xarici jurnalistlərin toplaşdığı zala daxil oldu. Ümummilli lider çıxışa başlayandan bir neçə dəqiqə sonra Moskvanın xüsusi xidmət orqanları tərəfindən hazırlanmış azərbaycanlı tələbə qız zala daxil oldu və yersiz suallarla ulu öndərə müraciət etməyə və mətbuat konfransını pozmağa çalışdı. Mən milis formasında olduğum üçün zala buraxılmışdım. Dərhal bir neçə ziyalı ilə tələbə qıza bildirdik ki, bura yersiz sualların, söhbətin yeri deyil və zalı tərk etsin. O, mənim asayişi qoruduğumu zənn edərək zaldan çıxdı. Ümummilli lider çıxışını davam etməyə başladı. Bu zaman ikinci tələbə qız zala daxil olaraq mənasız suallar verməyə başladı. Eyni qaydada onun da zaldan çıxmasını təmin etdik.

Xalqımızın yeganə ümidi və pənahı olan Heydər Əliyev törədilmiş ağır cinayətdə sovet ittifaqının və Azərbaycanın rəhbərlərinin bilavasitə günahkar olduğunu cəsarətlə, qətiyyətlə bildirdi: "Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan Daimi Nümayəndəliyində, böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı nümayəndəsindən xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm. Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabancı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm".

Sovet rəhbərliyinin Bakı şəhərində törətdiyi qanlı hadisələri pisləyən ulu öndər bunu xalqımıza qarşı zorakılıq, qəddarlıq, misli görünməmiş cinayət adlandırdı. Müdrik rəhbərin qətiyyətli çıxışı Azərbaycanın

informasiya blokadasına alındığı gərgin dövrdə totalitar rejimə, onun rəhbərlərinə sarsıdıcı zərbə oldu. Qorbaçovun və digər rəhbərlərin ünvanına söylədiyi ittihamlar təkcə Bakıda deyil, təcavüzə məruz qalmış Almatı, Tbilisi, Vilnüs və digər şəhərlərdə, xarici dövlətlərdə çox böyük rəğbətlə qarşılandı.

O vaxt həmin çıxış Azərbaycan ziyalılarını da hərəkətə gətirdi və müstəqillik çağırışları daha geniş kütlə arasında səslənməyə başladı. Beləliklə, 20 Yanvardan sonra xalq hərəkatı milli azadlıq, istiqlal hərəkatına çevrildi.

1990-cı ilin ağır dönəmində ümummilli lider Vətəndə, xalqının yanında olmağı məqsədəuyğun bildi. 1990-cı il iyulun 20-də Moskvadan Bakıya gəldi. İki gün sonra o vaxtkı hakimiyyətin təhdidləri və təzyiqləri nəticəsində paytaxtı tərk edərək Naxçıvana getməyə məcbur oldu.

20 Yanvar hadisələrinə vaxtında düzgün və obyektiv hüquqi-siyasi qiymət verilməsi ulu öndərin tarixi xidmətidir. 1990-cı ilin avqust ayında Heydər Əliyev Naxçıvandan Azərbaycan SSR Ali Sovetinə, həm də Naxçıvan Muxtar Respublikasının Ali Sovetinə deputat seçildi.

Ulu öndərin təşəbbüsü ilə Muxtar Respublikanın Ali Məclisi 21 noyabr 1990-cı il tarixli qərarı qəbul edərək 20 Yanvar faciəsinə ilk dəfə siyasi-hüquqi qiyməti verdi. Bu tarixi sənəddə 20 Yanvar gününün hər il Naxçıvan Respublikasında Milli Matəm Günü kimi qeyd olunması öz əksini tapdı.

Heydər Əliyev Azərbaycan SSR Ali Sovetinin 7 mart 1991-ci il tarixli sessiyasında ittifaq dövləti tərəfindən 1990-cı il yanvarın 20-də Azərbaycan xalqının hərbi təcavüzə məruz qaldığını, SSRİ və Azərbaycan rəhbərlərinin bu ağır cinayətə görə məsuliyyət daşıdıqlarını bildirdi.

Xüsusi amansızlıqla törədilmiş bu bəşəri cinayətə don geyindirməyə çalışan sovet rəhbərləri hadisələrin guya "SSRİ Konstitusiyasının müddəalarına uyğunluğu", "insanların hüquq və azadlıqlarının müdafiəsi məqsədi daşıdığını" iddia edirdilər. Keçmiş SSRİ Baş Prokurorluğu tərəfindən 20 Yanvar faciəsi səthi araşdırılaraq guya "cinayət tərkibi olmadığı" üçün 1990-cı il dekabrın 22-də cinayət işinin icraatına xitam verildi.

1992-ci il fevralın 14-də Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən cinayət işi başlansa da müqəssirlərin ekstradisiyası ilə bağlı çoxsaylı müraciətlər cavabsız qaldı, cinayətkarlar layiqli cəzalarını almadılar. Lakin həyata keçirilmiş qanlı terrorun qeyri-qanuni, ağır cinayət olduğu bütün dünyaya məlum idi. İmperiya cəlladlarının törətdiyi qətliam insan hüquqlarına dair beynəlxalq sənədlərin, ilk növbədə, "İnsan hüquqlarının ümumi Bəyannaməsi"nin, "Vətəndaş və siyasi hüquqlar haqqında" və "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" beynəlxalq paktların, keçmiş SSRİ və Azərbaycan SSR Konstitusiyasının tələblərinin kobudcasına pozulmasına dəlalət edirdi.

Təəssüf ki, Azərbaycanın nə o vaxtkı rəhbərləri, nə də sonralar iqtidara gələn AXC-Müsavat hakimiyyəti 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət vermədi. Cəbhə hakimiyyəti yalnız deputat-istintaq komissiyasının rəyini qənaətbəxş hesab etməklə kifayətləndi.

Yalnız xalqımızın müdrik rəhbəri, dünyaşöhrətli siyasi və dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra 1994-cü il mart ayının 29-da Milli Məclis geniş müzakirələrdən sonra "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul etdi. Xalqımıza təcavüz edənlərin, bu dəhşətli faciəni törədənlərin adları açıqlandı. Hadisələrə obyektiv hüquqi, siyasi qiymət verildi.

Qanlı Yanvar milli azadlıq hərəkatını boğmaq məqsədi daşısa da xalqımızın müstəqillik əzmini qıra bilmədi. Yanvar hadisələri müstəqilliyə gedən yolda xalqımızın yenilməz iradəsinin rəmzinə çevrildi.

Bizi o hadisələrdən 30 illik zaman ayırır. Bu dövrdə Azərbaycan dövlət müstəqilliyini qazandı, xalqımız azad, suveren, hüquqi, demokratik dövlət qurdu.

Müstəqil Azərbaycan sürətli inkişaf yolu keçərək dünya ölkələri sırasında nüfuzlu, şərəfli yer tutmuşdur. Amansız qətliam nəticəsində şəhidlik zirvəsinə yüksəlmiş oğul və qızlarımızın xatirəsi xalqımız və dövlətimiz tərəfindən daim əziz tutulur. Ümummilli liderin dediyi kimi, "Bu təcavüz nəticəsində həlak olanlar xalq qəhrəmanlarıdırlar, onlar millətimizin qəhrəmanlarıdırlar". Bakıda Şəhidlər xiyabanında onların adlarının əbədiləşdirilməsi üçün möhtəşəm abidə-kompleksi ucaldılıb. Hər il 20 Yanvar Günü insanlar kütləvi şəkildə Şəhidlər xiyabanına gedərək azadlıq mücahidlərinin əziz xatirəsini böyük ehtiramla yad edirlər.

Azərbaycan Prezidenti İlham Əliyev 20 Yanvar qətliamının xalqımızın azadlıq uğrunda mübarizə əzminin möhkəmlənməsinə güclü təkan verdiyini önə çəkərək demişdir: "20 Yanvar Günü bizim böyük faciəmizdir, ancaq eyni zamanda, Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsidir. Azərbaycan xalqı öz iradəsini göstərdi. O gündən keçən müddət ərzində Azərbaycan, demək olar ki, yeni mərhələyə qədəm qoydu... Bu gün ölkəmiz dünyada ən sürətlə inkişaf edən ölkədir. Azərbaycan sübut etdi ki, xalqının iradəsinə əsaslanaraq müstəqil, azad ölkə kimi inkişaf edir. 20 Yanvar faciəsi Azərbaycan xalqının yaddaşından heç vaxt silinməyəcəkdir".

Möhtərəm Prezidentimizin təşəbbüsü və rəhbərliyi ilə ölkəmizin azadlığı, suverenliyi yolunda həlak olanların ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi, onlara dövlət qayğısının artırılması məqsədilə mühüm qərarlar qəbul edilib.

Bəli, Qanlı Yanvar ölkəmizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü yoluna gur, parlaq işıq saçdı. Artıq üçüncü ildir ki, qürurlu, qalib, müzəffər xalq kimi 20 Yanvar şəhidlərinin ruhunu ehtiramla yad edirik.

44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi ilə əldə olunmuş şanlı qələbə, böyük zəfər ümummilli liderin siyasi kursunun möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin parlaq təzahürüdür. Bu gün ulu öndərimizin də, 20 Yanvar və ölkəmizin azadlığı, suverenliyi, torpaqlarımızın işğaldan azad edilməsi yolunda canlarını qurban vermiş bütün şəhidlərimizin ruhları şaddır.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şəhidlər xiyabanında xalqa müraciətində dediyi kimi: "Ulu öndər Heydər Əliyevin məzarını ziyarət edərkən ürəyimdə dedim: "Mən xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, ulu öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!".

Bütün dünyaya sübut etdik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstərdik.

Bu gün məzarları önündə baş əydiyimiz, ruhlarına səcdə etdiyimiz şəhidlərin qarşısında borcumuz hələ çoxdur. Müstəqilliyimizin, dövlətçiliyimizin daha da möhkəmləndirilməsi, azad Vətənimizin çiçəklənməsi, xalqımızın firavan və xoşbəxt gələcəyi uğrunda hər birimiz vicdanla, yüksək məsuliyyətlə çalışmalı, vətəndaşlıq borcumuzu şərəflə yerinə yetirməliyik.

**Respublika.** - 2023.- 20 yanvar. - № 13. - S. 7.

## İngilis dilinin tədrisində "20 Yanvar" mövzusu

**Tamara Əliyeva,**
Akademik Zərifə Əliyeva adına liseyin ingilis dili müəllimi, "Ən yaxşı müəllim" müsabiqəsinin 2014-2015-ci tədris ili üzrə qalibi

Müasir dövrün əsas tələblərindən biri də xarici dilləri, xüsusən də beynəlxalq statuslu ingilis dilini bilməkdir. Onu da etiraf edək ki, dil öyrənməyin özəyində insanın istəyi durur. Yəni hazırda yetişməkdə olan gənc nəsil ingilis dilini mükəmməl bilmək, danışmaq istəyirsə, ilk növbədə özünün öyrənməyə marağı olmalıdır. Biz ingilis dili müəllimlərindən də şagirdlərimizə bu dili necə mənimsətməyimizdən, öyrətməyimizdən çox şey asılıdır. Onu da xüsusi vurğulamaq istərdim ki, bugünün şagirdinin təhsilə olan münasibəti də sözün yaxşı mənasında daha fərqli və müasir dövrün çağırışlarına uyğundur. Elə biz müəllimlərin də istər bilik və bacarıqları, istərsə də tədris etdiyi fənnə yanaşma metodları da daha yaradıcı və praktikdir. Müəllim yalnız nəzəri baxımdan məlumatlı olmamalı, eyni zamanda praktik bacarığı ilə yeni təlim texnologiyalarından səmərəli istifadə və öz dərsində onları uğurla tətbiq etməyi bacarmalıdır.

Müasir dərs müəllimdən fəal təlim mühiti yaratmağı, şagirdlərə bilikləri müstəqil şəkildə əldə etməyi, ünsiyyət qurmaq, əməkdaşlıq etmək, problemli situasiyalarda çıxıs yolu tapmaq kimi bacarıqlar formalaşdırmağı tələb edir. Onu da yaxşı bilirik ki, ənənəvi dərsdən fərqli olaraq müasir dərsin tələbləri şagirdlərin idrak fəaliyyətinin formalaşmasına yönəlib. Mən də dərs dediyim siniflərdə fəal təlim üsullarından istifadə edirəm. Sinifdə istifadə etdiyim elektron dərs vəsaitləri, müxtəlif resurslar əsl təlim mühiti yaradır. Şagirdlər eşitməklə bərabər dərsi əyani şəkildə görür və bunun nəticəsində mövzunu daha yaxşı mənimsəyirlər. Eləcə də dərs zamanı suallar elə qoyulmalıdır ki, şagirdləri düşünməyə, araşdırmağa sövq etsin. Araşdırmaq, tədqiqat aparmaq, müzakirə edib öyrəndiklərini tətbiq etmək vacibdir. Yalnız belə olan halda şagird öyrəndiklərini unutmur, yaddaşına həkk edir.

Uzunillik müəllimlik fəaliyyətimə dayanaraq deyə bilərəm ki, şagirdlərimizin ingilis dilində sərbəst danışıq ünsiyyəti qurmaları üçün ilk növbədə bu dilin tədrisi ilə məşğul olan pedaqoqlarımızın dərs prosesində məhz həmin dildə danışması, şagirdlərlə qurduqları dialoqların daha səlis, daha lakonik olması mütləqdir.

Onu da qeyd edim ki, müasir dövrün təhsil yanaşmalarında ingilis dili ilə bağlı sadəcə qrammatik və leksik biliklərə malik olmaqla kifayətlənilmir. Xarici dildə sərbəst və əminliklə ünsiyyət yaratmağı, situasiyalardan çıxmağı bacarmaq lazımdır. Bunun üçün isə dil vərdişlərinin inkişafına xidmət edən müasir tələblərə cavab verən kommunikativ metoddan istifadəyə xüsusi diqqət verilir.

Mən də dərslərimdə şifahi nitqin inkişafına yönələn kommunikativ metoddan istifadə etməklə şagirdlərim ilə ingilis dilində ünsiyyət qururam ki, bu da onların sərbəst şəkildə danışmalarında, fikirlərini izah etmələrində mühüm rol oynayır.

Xüsusilə, xalqımızın həyatında mühüm yer tutan əlamətdar hadisələrə, müxtəlif bayramlara, eləcə də ağrılı, kədərli günlərə həsr olunan dərslərimizdə müasir təlim metodlarından istifadə etməklə şagirdlərin fəal iştirakına nail oluram.

Bu sahədə topladığım təcrübəni qan yaddaşımıza əbədi həkk olunmuş 20 Yanvar - Ümumxalq Hüzn Gününə həsr etdiyim bir dərs nümunəsində paylaşmaq istəyirəm.

IX sinifdə keçdiyim dərsin mövzusu "20 Yanvar- Ümumxalq Hüzn Günü" adlanırdı.

(Danışıq.2.1 standartı əsasında şifahi nitqin inkişafı)

***Təlimin məqsədi:***

- \- bilikləri təkmilləşdirmək və bacarıqları, şifahi nitqi inkişaf etdirmək;
- \- monoloq nitq bacarıqlarını inkişaf etdirmək;
- \- şagirdlərin yaradıcılıq qabiliyyətlərini stimullaşdırmaq;
- \- qrupda işləmək və seçmək bacarığını formalaşdırmaq;
- \- zəruri material;
- \- yeni lüğətin qavranılması əsasında nitqi inkişaf etdirmək;
- \- tarixi hadisələrin yadda saxlanılması və məlumatların ingilis dilində səlis şəkildə çatdırılması;
- \- 20 Yanvar və gələcək üçün məsuliyyət;

- \- şagirdlərdə vətənpərvərlik ruhunun inkişaf etdirilməsi, Vətənə, torpağa, xalqına sevgi hisslərinin aşılanması

***Motivasiya:***

Bildiyimiz kimi, motivasiya fəal təlimdə dərsin mühüm mərhələsidir. Xüsusilə, bu gün dilin tədrisində mühüm rol oynayan amillərdən biri motivasiyadır ki, bu da şagirdlərin müstəqilliyini artırmaqla yanaşı, onlarda həmin fənnə maraq oyadır, dil bacarıqlarını inkişaf etdirir. Belə ki, şagirdlərin ingilis dilinə olan marağının, özünə inamının daha da artması, biliklərin genişlənməsi üçün daim yeni şeylər öyrənməyə can atması, kollektiv qarşısında çıxış etmək, fikir yürütmək, müzakirələrdə iştirak etmək, rəqabət hissini duymaq, qabiliyyət və bacarıqlarından istifadə edərək bildiklərini daha rahatlıqla və səlis şəkildə fikirlərini ifadə etmək kimi hissləri aşılamaq üçün motivasiyanın əhəmiyyəti çox böyükdür. Ona görə də motivasiyanın təqdim etdiyi imkanlardan xəbərdar olmaq və onları dil tədrisində tətbiq etmək vacibdir. Və şagirddə keçilən mövzuya maraq oyatmaq üçün motivasiya hər dəfə maraqlı, hərtərəfli qurulmalıdır. Belə ki, müxtəlif şəkillərlə motivasiynın qoyulması sinifdə canlanma yaratmaqla, şagirdləri fəallaşdırmaqla yanaşı, öyrəniləcək mövzuya qarşı marağı daha da artıraraq fikirləri bu istiqamətə yönəldir.

Əvvəlcə mən şagirdlərimə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecədə xalqımızın yaşadığı o dəhşətli faciədən danışdım. Bu zaman tədris etdiyim fənnimi tarix, coğrafiya fənlərinə inteqrasiya edərək əldə etdiyim tarixi faktları, statistik rəqəmləri və coğrafi məlumatları şagirdlərin diqqətinə çatdırdım. Qeyd etdim ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə birbaşa Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilib, dinc əhali ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutularaq kütləvi qətlə yetirilib. Sovet ordusunun xüsusi təyinatlı dəstələrinin və daxili qoşunların iri kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklə müşayiət edilib. Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və ətraf rayonlarında 131 nəfər öldürülüb, 744 nəfər yaralanıb. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milis nəfərləri olub. 1990-cı il yanvar qurbanları simvolik olaraq "20 Yanvar şəhidi" adlanır. Ümumilikdə, Azərbaycanın 150 nəfər "20 Yanvar şəhidi" vardır.

Daha sonra Azərbaycan xalqının başına gətirilən qanlı faciəyə ilk siyasi-hüquqi qiyməti verən, təhlükələrdən çəkinməyərək Sovet hakimiyyətinin bu cinayətinə etiraz edən Ümummilli Lider Heydər Əliyevin hadisəylə bağlı gördüyü işləri diqqətə çatdırdım. Bildirdim ki, 1990-cı il yanvarın 21-də Sovet rejiminin qadağalarına rəğmən, həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələn Ulu Öndər Heydər Əliyev qanlı faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında ittiham etdi, ifşaedici və cəsarətli bir bəyanat verdi.

20 Yanvar hadisələrinə ilk hüquqi qiymətin verilməsi də məhz Ümummilli Lider Heydər Əliyevin siyasi iradəsinin nəticəsidir. Azərbaycan xalqı 20 Yanvar şəhidlərinin xatirəsini əziz tutur. Hər il faciənin ildönümü izdihamlı ziyarətlərlə müşayiət edilir, xalq istiqlal fədailərinin məzarlarına faciənin simvoluna çevrilmiş al qərənfillər düzür, onları qürurla anır, qatillərini lənətləyir, bu faciəni törədənlərə dərin nifrətini bildirir.

Təbii ki, bütün bu məlumatları mən şagirdlərə ingilis dilində çatdırdım. Dərsdə həm qruplarla, həm də fərdi iş aparıldı. Dərs zamanı videoslaydlar , o dövrün hadisələrindən bəhs edən fotoları nümayiş etdirdim. Şagirdlərə göstərdiyim həmin şəkillərə baxıb öz fikirlərini bildirmələri təklif olundu. Bu üsulla onlar 20 Yanvarla bağlı bəzi sualları cavablandırdılar. Şagirdlərin mövzuyla bağlı ingilis dilində hazırladıqları təqdimatlar, videoçarxlar yüksək səviyyədə idi.

Sonra dərsin mövzusu və tapşırıqlar açıqlandı. İki qrupa bölünən şagirdlərə 20 Yanvarla bağlı müsahibə hazırlamaq və ya dialoq qurmaq kimi tapşırıqlar verildi. Daha sonra I qrup 20 Yanvar hadisələrindən bəhs edən məqalələri müzakirə etdi. II qrup isə o dövrün şahidlərinin müsahibələrinin təhlilini apardı. Qruplarda şagirdlər mövzu ilə bağlı fikirlərini bildirir, yeni lüğət və ifadələrdən istifadə edərək bir-birlərinə suallar verirdilər. Şagirdlər qrup işinin aparılması təcrübələrini, Qanlı Yanvar hadisələri ilə bağlı hisslərini bölüşdülər, münasibətlərini bildirdilər.

Qrup halında tapşırığın yerinə yetirilməsi şagirdlərin bir-biri ilə əməkdaşlıq etmələrinə və bir-birləri qarşısında öz məsuliyyətlərini dərk etmələrinə imkan yaradır. Şagirdlərin birgə fəaliyyəti onlara problemləri bir yerdə həll etməyi öyrədir. Qrupda iş birliyi məlumat və informasiyaların sərbəst əldə etmək bacarıqlarının inkişaf etməsi üçün şərait yaradır. Şagirdlərin özlərinə inamın artmasını, özlərinin

müstəqil şəxsiyyət kimi dərkini, inkişafını təmin edir. Bu zaman zəif oxuyan şagirdlər belə fəallaşır, öz fikirlərini söyləyərək tədqiqatda iştirak etməyə çalışırlar.

***Əldə olunan məlumatların müzakirəsi və mübadiləsi:***

Qrupların işləri təqdim olundu. Və sinifdə şagirdlərin tədqiqatın gedişində əldə etdikləri yeni informasiyaların, məlumatların mübadiləsi aparıldı. Bu da onların bir-birinin təqdimatlarını, söylədikləri fikirlərini diqqətlə dinləməyə sövq edir.

Tədqiqatın aparılması zamanı əqli hücum üsuluna üstünlük verirəm. Əqli hücum tamamilə şagirdlərin fikir sərbəstliyini təmin edir. Bu zaman bütün qrup hər hansı problemin həllinə cəlb edilir, fikir və təkliflər qeyd olunur. Bu fikirlər isə nə tənqid olunur, nə də qiymətləndirilir. Yerinə yetirilən işin sonunda bütün deyilən fikir və mülahizələr təhlil edilərək düzəlişlər olunur.

***Yaradıcı tətbiqetmə:***

Tədris prosesi boyu mən yaradıcı tətbiqetmə mərhələsinə xüsusi önəm verirəm. Məhz bu mərhələdə şagirdlərin mövzunu necə mənimsədikləri aydın olur. Qrammatik qaydaların əks olunduğu tapşırıqları şagirdlərə təqdim edirəm. Nitqin inkişafı üçün şagirdlərə leksik materialdan düzgün istifadə etməyə kömək edən tapşırıqla yeni lüğət və ifadələr təqdim edirəm.

***Biliklərin ümumiləşdirilməsi, qrupların özünüqiymətləndirməsi və nəticə:***

Şagirdlər əldə etdikləri bilikləri ümumiləşdirdilər və və son olaraq tədqiqat sualına yenidən qayıtmaqla nəticələrin təhlilini apardılar. Keçdiyim dərsdə qiymət qruplara verildi. Hər bir qrup digərini dinlədikdən sonra öz qiymətini verdi və qiymətləndirmə obyektiv şəkildə səsvermə yolu ilə həyata keçirildi.

Təlim prosesinin refleksiyası (nəticə) biliklərin mənimsənilməsinin bütün mərhələlərini təhlil etməyə və dərindən başa düşməyə imkan verən başlıca mexanizmlərdən biridir. Və mənim keçdiyim dərsdə şagirdlər mövzunu dərindən mənimsəməklə yanaşı, bilik və bacarıqlarını yaradıcı şəkildə nümayiş etdirməyə nail oldular.

Bu dərs ingilis dilində yeni sözlərin, ifadələrin lüğətə yazılmasına, öyrənilməsinə, şagirdlərin onlardan düzgün istifadə etməyə kömək etməklə yanaşı, eyni zamanda sərbəst şəkildə dialoq qurmaq bacarıqlarını təkmilləşdirdi. Dərs həm də uşaqların 20 Yanvar hadisələrini bir daha təhlil etmək, tariximizin ağrılı səhifəsini vərəqləməklə qan yaddaşımızı təzələməyə imkan verdi.

**Azərbaycan müəllimi. -** 2023. - 20 yanvar. - № 3. - S. 10.

**İmperiya mərkəzində hazırlanan müdhiş ssenari**

**Qanla yazılan müstəqillik tariximiz**

**Mübariz Abdullayev**

Azərbaycan xalqı tarix boyunca zaman-zaman çox haqsızlıqlara, yadellilərin hücumlarına, imperialist güc mərkəzlərinin məkrli niyyətlərinə və planlarına tuş gəlib. Onlardan biri ilə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə üzləşdik. Həmin gecə minlərlə dinc insan azadlıq, müstəqillik, respublikanın ərazi bütövlüyünün qorunması istəyi ilə Bakının küçə və meydanlarına çıxmışdı. Haqq səslərini ucaldan insanlar mərkəzi hakimiyyətin-keçmiş ittifaq rəhbərliyinin onlara qarşı silahdan istifadə edəcəyini, orduya "Vur" əmri verəcəyini heç ağıllarına da gətirmirdilər. Ancaq bu, baş verdi. Həmin gecə Bakıda dəhşət yaşandı, küçələr, meydanlar qan gölünə çevrildi. İmperiya qüvvələrinin törətdikləri qanlı hadisələrin üstündən illər ötdükdən sonra baş verənlərlə bağlı daha dəqiq və obyektiv baxış bucağı formalaşıb. Aparılan istintaq tədbirlərindən, həmçinin şahid ifadələrindən o nəticə hasil olur ki, şaxtalı qış gecəsində insanların ən adi humanizm normaları belə gözlənilmədən ağır texnikadan atəşə tutulması, heç kəsə aman verilməməsi imperiya mərkəzində əvvəlcədən hazırlanan ssenarinin tərkib hissəsi olub. Bəhs olunan qanlı hadisələr zamanı Bakıda və respublikanın rayonlarında, ümumilikdə, 147 nəfər qətlə yetirilib, 744 nəfər yaralanıb, 841 nəfər isə həbs olunub. Ölənlər və yaralananlar arasında uşaqlar, qadınlar və qocalar da var idi.

**Generalların keçirdiyi qanlı "Bakı əməliyyatı"**

İmperiya qüvvələrinin Bakıda törətdikləri qırğınları, sadəcə, bir gecənin faciəsi kimi dəyərləndirmək doğru olmazdı. 1990-cı il yanvarın ortalarında SSRİ müdafiə və daxili işlər nazirliklərinin, habelə başqa xüsusi təyinatlı hərbi birləşmələrin 66 min nəfərdən çox əsgər və zabiti Bakı şəhərinə gətirilərək Qala və "Nasoslu" aerodromlarında, Respublika stadionunda, Salyan qışlasında (kazarmasında) yerləşdirilmişdi. O da təkzibolunmaz faktdır ki, Azərbaycana göndərilən ordu hissələrinin tərkibinə Stavropoldan, Rostovdan, Krasnodardan səfərbər edilmiş erməni əsilli zabit və əsgərlər, həmçinin hərbi məktəblərdə təhsil alan erməni kursantları da cəlb edilmişdi.

Bütün bunlar məkrli mətləblərdən xəbər verirdi. "Mülki və siyasi hüquqlar haqqında" 1966-cı il Beynəlxalq Aktın birinci bəndinə əsasən, fövqəladə vəziyyətin tətbiqi və müddətləri barədə müvafiq fərman imzalandığı andan bu barədə əhaliyə rəsmi xəbərdarlıq edilməlidir. Lakin Bakıda fövqəladə vəziyyətin yanvarın 20-də saat 00-da tətbiq edilməsinə baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat 21-dən etibarən ilk olaraq Türkan-Qala tərəfdən şəhərə yeridildi. "Bakı əməliyyatı"na rəhbərliyi birbaşa SSRİ müdafiə naziri Dmitri Yazov, SSRİ daxili işlər naziri Vadim Bakatin, SSRİ DTK sədrinin müavini Filip Babkov həyata keçirirdilər. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışdılar. Kütləvi insan qırğını törədildikdən sonra - yəni 20 yanvar 1990-cı il səhər saat 5.30-da radio vasitəsilə Bakı şəhər komendantı V.Dubinyak fövqəladə vəziyyət tətbiq edildiyi barədə rəsmi məlumatı efirə verdi. Halbuki, yanvarın 20-də saat 00-dan başlanmış hərbi əməliyyatlarda tanklardan və müxtəlif təyinatlı zirehli döyüş maşınlarından istifadə edilmiş, Xəzər Hərbi Donanmasına məxsus gəmilərdən şəhərə desant çıxarılmışdı. Fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində daha 21 nəfər öldürülmüşdür.

1990-cı ilin yanvarında Bakıya on minlərlə əsgər və zabitin yerləşdirilməsində məqsəd nə idi? Bakıya göndərilən qüvvələrin sıralarında çoxlu sayda erməni əsilli hərbiçilərin yerləşdirilməsinə xüsusi önəm verilməsi təsadüfi sayıla bilərdimi? Ən nəhayət, nə üçün fövqəladə vəziyyətin elan olunması barədə məlumat Bakıda məlum qırğınlar törədildikdən bir neçə saat sonra verildi? 20 Yanvar faciəsinin əsl mahiyyəti bu kimi sualların cavabında gizlənir.

**Dinc insanlara qarşı hərbi cinayət**

Hadisələri dəyərləndirən ekspertlər də qan yaddaşımıza çevrilən 20 Yanvar faciəsinin imperiya mərkəzində məqsədyönlü şəkildə konturları əvvəlcədən cızılmış hərbi cinayət olduğu ilə bağlı birmənalı fikirlər səsləndirirlər. Bu barədə "Yeni Azərbaycan"a danışan ehtiyatda olan polkovnik Şair Ramaldanov 20 Yanvar

faciəsinin keçmiş ittifaq rəhbərliyi və ermənilərin birgə planları ilə həyata keçirildiyini bildirdi: "Aparılan istintaq da göstərdi ki, 20 Yanvar faciəsi əvvəlcədən hazırlanmış hərbi cinayət idi. Hadisənin baş vermə vaxtı kimi 1990-cı il 20 yanvar tarixi göstərilir. Ancaq ətraflı təhlillər apardıqda belə nəticə hasil olur ki, maraqlı qüvvələr Azərbaycanda irimiqyaslı, çoxlu sayda itkilərlə müşayiət olunan bu hadisənin törədilməsinə bəlkə də illər boyu əvvəldən hazırlaşıblar. Burada erməni izi də yox deyil. Xatırladaq ki, ermənilər 1990-cı ilədək olan dövrdə özlərinin gizli fondlarına vəsait toplayırdılar. Bu vəsaitlər də emənilərin məkrli planlarının reallaşdırılmasına, eləcə də keçmiş ittifaq rəhbərliyinin ələ alınmasına və digər belə məqsədlərə yönəldilirdi. Mən əminliyimi ifadə etmək istəyirəm ki, məhz erməni millətçilərinin canfəşanlığı ilə 20 Yanvar hadisələrinə hazırlıq işləri həyata keçirilib və məlum faciə baş verib. Ermənilər Bakıda, Sumqayıtda və Azərbaycanın digər yaşayış məntəqələrində erməni əsilli insanların təqib olunduqları və öldürüldükləri barədə iddialar səsləndirir və təbliğat aparırdılar. Bütün bunlar isə Bakıya qoşun yeridilməsinə hansısa "hüquqi əsaslar" yaradılmasına hesablanan addımlar idi".

Şair Ramaldanov qeyd edib ki, ötən dövrdə çoxsaylı faktlar və materiallar, aparılan istintaqın nəticələri onu göstərdi ki, 20 Yanvar hadisələri əvvəlcədən hazırlanmış hərbi cinayət idi: "Bu ssenarinin həyata keçirilməsində ermənilər xüsusi rol alıblar. Artıq sübut olunmuş faktdır ki, o dövrdə Bakıda və Sumqayıtda erməni əsilli vətəndaşların qətlə yetirilmələri də ermənilərin özləri tərəfindən planlaşdırılaraq reallaşdırılıb. Məqsəd, Bakıya qoşun yeridilməsinə və burada kütləvi qırğınların törədilməsinə zəmin hazırlamaq idi. 20 Yanvar faciəsinin hazırlanmasında və reallaşdırılmasında keçmiş ittifaqın hərbi-siyasi rəhbərliyi məsuliyyət daşıyır. Azadlıq və ərazi bütövlüyünün qorunmasını istəyən Azərbaycan xalqı niyə bu şəkildə cəzalandırılmalı idi? 20 Yanvar faciəsi ilə sonralar üzləşdiyimiz faciələr, torpaqlarımızın itirilməsi arasında bir bağlılıq var idi. Belə görünür ki, bütün baş verənlər eyni mərkəzdən diktə olunaraq həyata keçirilib. Ancaq haqq-ədalət mövqeyində dayanan Azərbaycan xalqı bütün çətinliklərdən başıuca çıxaraq müstəqil dövlət qurdu və torpaqlarını işğaldan azad etməyə nail oldu".

**Yeni Azərbaycan.-**2023.-20 yanvar.-№11.-S.3.

## 20 Yanvar qırğınının lənətlənmiş müəllifi

**Vəli İlyasov**

**SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü Heydər Əliyev Moskvada tutduğu vəzifələrdən təzyiqlə uzaqlaşdırılandan sonra ermənilər fəallaşdılar. Bu hadisədən bir ay keçməmiş SSRİ rəhbəri Mixail Qorbaçovun müşaviri, akademik Abel Aqanbekyan Fransada "Humanite" qəzetinə müsahibəsində o zamankı Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılıb Ermənistana birləşdirilməsinin "məqsədəuyğunluğunu" bəyan etdi.**

Bununla da o, dünya ermənilərinə ayağa qalxmaq, Azərbaycana qarşı hücuma keçmək mesajını verdi. O zaman Qorbaçovun əzizlədiyi ermənilər o qədər həyasızlaşmışdılar ki, Ermənistan SSR Elmlər Akademiyasının prezidenti, akademik Viktor Hambarsumyan hətta SSRİ Ali Sovetinin iclasında çıxış edərək bu yolda lazım gəlsə qan tökəcəklərini açıqca bildirdi. Ancaq bu, deputatlar və hökumət üzvləri arasında ciddi reaksiya doğurmadı. Çünki onlar bilirdilər ki, etirazın heç bir mənası olmayacaq, Mixail Qorbaçov və ermənilərdən bahalı daş-qaşlar almış arvadı Raisa Qorbaçova bu çirkin məsələdə onlara öz "xeyir-dualarını" əvvəlcədən veriblər. Azərbaycandan olan deputatların isə ciddi narazılığı heç effekt verməd.

1988-ci ildən etibarən erməni millətçiliyinin aşkar və aqressiv fazaya keçməsi ilə azərbaycanlıların Ermənistandan öz dədə-baba torpaqlarından növbəti deportasiyası başladı. SSRİ-nin bu etnik təmizləmə siyasətini ört-basdır etməyə gücü çatmadı. Çünki yüzillər boyu təkrarlanan prosesin yönləndiricisi elə imperiyanın özü idi. 1988-ci ildə Ermənistana səfər edən Sov. İKP Mərkəzi Komitəsinin katibi, ölkənin baş ideoloqu Aleksandr Yakovlev ermənilərə qətiyyətli hərəkət etməyi, Qarabağı nə yolla olursa-olsun işğal etməyi tapşırdı. Sonrakı aylarda və illərdə Sovet hökuməti ekstremist ermənilər üçün Azərbaycan əleyhinə cinayətkar planlar işləyib hazırladı və bunların güc yolu ilə reallaşdırılması üçün onları silahlandırdı. Sumqayıt şəhərində törədilən qanlı qırğın həmin planların tərkib hissələrindən biri idi. Bütün bunlardan məqsəd dünyada azərbaycanlıların vəhşi obrazını yaratmaq, onları günahkar kimi təqdim etmək, separatçı və terrorçu ermənilərə Qarabağı işğal etməkdə haqq qazandırmaq idi.

Ölkəni milli münaqişə alovları bürüdü və SSRİ-nin idarəetmə orqanları bir-bir sıradan çıxaraq funksiyalardan məhrum oldu. Ermənistanın Qarabağı Azərbaycandan qoparmaq üçün dişini qıcayaraq, bütün etik-mənəvi və siyasi dəyərlərə tüpürərək hücuma keçməsi gələcək qanlı hadisələrin açarı oldu. Proseslər bir-biri ilə zəncirvari şəkildə əlaqəli idi. Ermənilərin içlərində gizlətdikləri türk nifrəti şahə qalxmışdı və hadisələrin hüquqi tənzimlənməsi məhvərindən çıxmışdı.

Belə bir məqamda SSRİ-nin yenidənqurma strateqləri nəhəng gücün çöküşünün qaçılmaz olduğunu anlayaraq Rusiyanın imperiya ənənələrini dirçəltməyə cəhd edirdilər. Moskva konfliktlərin artmasından vəcdə gələrək xaosun idarə edilməsi üçün müxtəlif qanlı oyunlar qururdu. Avantürist Qorbaçov SSRİ-nin dağılması üçün əllərindən gələni əsirgəmir, bu işdə ermənilərin köməyinə arxalanırdı.

SSRİ ərazisinin kəşfiyyat poliqonuna çevrilməsi imperiyanın labüd çöküşünü sürətləndirirdi. SSRİ-nin dağılması ilə ondan qopacaq sərvətlərin kimin caynağına keçəcəyi uğrunda strateji məqsədlərin arxasında görünməyən rəqabət hökm sürməkdə idi.

SSRİ isə tarixin səhnəsini tərk etmək təhlükəsini sovuşdura bilmirdi, ona görə də son nəfəsində belə, toqquşmaları körükləməklə siyasi səhnədən elə-belə, sakitcə getmək istəmirdi. Bu xəbis niyyətlə SSRİ rəhbərləri əllərini axıdacaqları qana batırmadan dəfn olunmaq niyyətində deyildilər və bu istəklərini Azərbaycanda reallaşdırdılar.

SSRİ-ni 20 Yanvar qırğını törətməyə hansı səbəblər vadar etdi? Burada Azərbaycanın daxili-siyasi mühitindəki çəkişmələrin rolu var idimi? Təcrübə göstərir ki, Sovet rəhbərliyi onsuz da başqa bəhanələr tapıb Bakıya qoşun yeridəcəkdi. Bu qırğının əsas məqsədi azərbaycanlıları qorxudub yerində oturtmaq idi. Sonra isə Qorbaçovun planında nəzərdə tutulduğu kimi, Azərbaycan imperiyadan ikiəlli yapışmalı olacaq, ermənilər isə Qarabağı Ermənistana birləşdirəcəkdilər. Faciəvi günlər ərəfəsində başda SSRİ Ali Sovetinin sədri Anatoli Lukyanov, SSRİ müdafiə naziri, marşal Dmitri Yazov, SSRİ daxili işlər naziri Vadim Bakatin, SSRİ DTK-sının sədri Vladimir Kryuçkov olmaqla Moskvada tərtib olunan qırğın planını həyata keçirmək məqsədi ilə SSRİ-nin bütün güc strukturlarının rəhbərləri də Bakıya gəldilər və qanlı əməliyyatlara şəxsən başçılıq etdilər.

SSRİ qoşunları 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə Bakıya daxil olaraq mülki insanları qətlə yetirdi. Sonradan məlum oldu ki, üzləri qapalı olan saqqallı ermənilər bu qırğınlarda xüssi qəddarlıqları ilə fərqləniblər. Onlar Stavropoldan və Krasnodardan orduya çağırılmış zabitlər olublar.

Beləliklə, ağılsız və sərsəm Qorbaçov və cəllad komandası SSRİ-ni ermənilərin qara niyyətlərinə qurban verdilər. 20 Yanvar faciəsi isə Azərbaycan xalqının azadlığı üçün atılan ilk böyük addım, onun əzminin və yenilməzliyinin göstəricisi kimi tarixə döndü.

20 Yanvar faciəsinin lənətlənmiş müəllifi Mixail Qorbaçov 1995-ci aprelin 27-də İstanbulda Qara Yanvarla bağlı bunu demişdir: "Bakıda fövqəladə vəziyyət elan etmək və oraya qoşun göndərmək mənim siyasi həyatımın ən böyük səhvi idi."

Bəli, çox böyük səhv idi və Azərbaycan xalqı bu səhvi bağışlamır və unutmur... Əsrlər boyu unutmayacaq da!

**İki sahil.-**2023.-20 yanvar.-№11.-S.7.

## O gecə doğulanların dünən gecə 33 yaşı oldu

**Züleyxa Nadir**

**Düz 33 il əvvəl Azərbaycan tarixinin ən faciəli səhifələrindən olan, eyni zamanda, xalqımızın azadlıq və müstəqillik mübarizəsinin qəhrəmanlıq nümunəsi olan qanlı 20 Yanvar hadisəsi baş verdi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan öz tarixində ən yadda qalan gününü yaşadı və tarix səlnaməsinə qəhrəmanlıq dastanını yazdı.**

33 ildi həmin yazı hər bir azərbaycanlının qan yaddaşındadır, hər gün oxunur, hər gün yada salınır. Və o yazı hələ neçə yüz illər oxunacaq, yaddaşlara hopacaq. Çünki həmin gün Azərbaycan oğullarının azadlıq və müstəqillik yolunda, şəhidlik adlı məqama ucaldığı tarix oldu. Onların yenilməz iradəsi, əyilməz cəsarəti bütün dünyaya yayıldı. Şəhidlərin timsalında tarixə yeni qəhrəmanlıq, rəşadət və şücaət səhifələri yazıldı. Həmin gecə şəhidlik məqamına ucalanlar, ölməzlik qazananlar Azərbaycan xalqını qorxutmaq, onun milli oyanışını, azadlığı uğrunda mübarizliyini sarsıtmaq istəyən sovet imperiyasının canına vicvicə saldı. O gün elə bir təməl qoyuldu ki, iki il əvvəl Vətən Müharibəsində qazanılan zəfərdə qanı torpağa qarışan oğulların şəhidliyi dastana döndü.

Şəhidlik elə bir zirvədir ki, o yüksəkliyə ucalanlar oradan heç vaxt enmirlər. Şəhidlik elə bir yoldur ki, uğrunda canını verdiyi vətənin yaraları sağalmayınca şəhidin də ruhu sakit olmur. Şəhidlik elə bir məktəbdir ki, bu məktəbin öyrənciləri öyrəndiklərini gələcək nəsilə torpağın üstünə axıdılan qanları ilə ötürürlər. O müdhiş gecə güllə analardan, bacılardan yan keçsə də, dolu kimi yağan qəlpələr onların mənəviyyatını parçaladı. Ana fəryadı, bacı harayı uzun illər qulaqlardan çəkilmədi, bu gün də əks-səda verir. İllərdi imperiya tanklarının qabağında əliyalın dayanan oğulların qanını içən erməni-rus cinayətkarlarına olan nifrət azalmır ki, azalmır.

Bu gün Bakının ən uca nöqtəsində - qeyrət və ucalıq zirvəsində bərqərar olan, istiqlal savaşında tarixə dönən şəhidlərimizin əbədi uyuduğu bir məkan var: Şəhidlər Xiyabanı. O gecə Azərbaycan xalqının azadlıq mücadiləsinə qarşı cinayətkar təcavüzə "yox" deyən oğulların uyuduğu Şəhidlər Xiyabanı 33 ildi müqəddəs bir məkandı, səcdəgahdı, qibləgahdı. 1990-cı ilin yanvarında Dağüstü parkı "fəth edərək", millətin qəhrəmanlıq ziyarətgahı "vəsiqəsini" alıb müqəddəsləşən bu məkan müstəqilliyimizin rəmzi, azadlığımızın simvoludu. Bu statusu bizə Vətənin daşı, havası, suyu, əxlaqı və qeyrəti, eləcə də xalqın qan yaddaşı olan 20 Yanvar şəhidləri verdi. Bu məkanda əbədiyyət yuxusuna gedən igidlər xalqın ən dəyərli övladlarıdı. O gecədən sonrakı günlərin İlham və Fərizə sevgisi şəhidlik məqamının ən uca nöqtəsidi. Ürəyi vətən sevgisi ilə döyünən gənclərin ilahi eşqi elə bir ucalıqda bərqərar olub ki, top-tüfəng də onları ayıra bilmədi. Əbədiyyətə qovuşan sevgililər dağüstü parkın ən hündür nöqtəsində elə "məkan tutdular" ki, hələ yüz illər, min illər sonra da İlham - Fərizə eşqi dillərdə dastana dönəcək, əfsanəyə çevriləcək.

1968-ci ildə sovet qoşunları Çexoslovakiyaya girərək orada milli - azadlıq hərəkatını amansızlıqla boğmuşdular. Bu zaman Yan Polex adlı bir tələbə hərbi təcavüzə etiraz əlaməti olaraq Praqanın Vaslav meydanında özünü yandırmışdı. Yan Polex bu gün çex xalqı üçün qəhrəmanlıq nümunəsidir. Fəxri Xiyabanda uyuyan 146 yanvar şəhidinin hər biri bizim üçün bir Yan Polexdi. Gözünü qırpmadan üstünə yeriyən tankın qabağında dayanan, heç bir yerə qaçmayan, güllədən qorxmayan şəhidlərın Haqq Dünyasında məkanı, sözsüz ki, cənnətdi. Amma onlar bu dünyadakı əzizlərinin, doğmalarının, xalqının, millətinin də cənnət kimi bir məkanda yaşaması, məmləkətinin cənnət diyara çevrilməsi üçün imperiyaya üsyan etdilər. Haqq üsyanı şəhidliyin başlanğıcıdı. Ədalət uğrunda döyüşün ağrısını unutduran nəsnə torpağa axan şəhid qanıdı. O da ki, ola bu qan vətən torpağına qarışa, bax o zaman, şəhidlik ən ali məqama yüksəlir. Şəhid olmaq, şəhidlik məktəbindən keçmək vətən sevgisinə köklənmiş hissin közərən ocağı, alovlanan məşəlidir. Bu məşəl 33 ildir ki, Azərbaycanın başı üzərində alovlanır, Bakının ən uca nöqtəsindən işıq saçaraq sönmür. Bu közərən ocağın "istisi" həm də 33 ildir şəhid analarını yandırır, şəhid övladlarını qarsıdır.

Dünyanın bütün xalqlarında şəhidlik müqəddəslik mərtəbəsindədir. Bütün xalqlarda şəhidlər ən ali pillədə bərqərar olurlar. Çünki ŞƏHİD canını havasını udub, suyunu içdiyi VƏTƏNdən, qanını üstündə yeridiyi TORPAQdan üstün saymır. Şəhidin bir amalı olur: uğrunda döyüşdüyü torpağın, canını fəda edəcəyi vətənin azadlığına qovuşan ruhları səmada rahat dolaşa bilsin.

Bu gün Azərbaycan səmasında ağ göyərçinlər sayağı minlərlə şəhid ruhu "qanaq çalır". Qədim tariximizin qüruru, bu günümüzün hünəridi Şəhidlər Xiyabanı. 1988-ci ildən başlayan və 1990-ci ilin yanvarında kulminasiya nöqtəsinə çatan azadlıq mübarizəsi təkcə Bakıda deyil, Azərbaycanın bütün regionlarında Şəhidlər Xiyabanının salınması ilə nəticələndi. Həmin şəhid xiyabanları o regionun yeniyetmələri

və gəncləri üçün torpaq sevgisinin, vətən məhəbbətinin göstəricisi olaraq, onlarda vətənpərvərlik və qəhrəmanlıq duyğularını tərbiyə edib. Həmin tərbiyənin nəticəsidir ki, 44 günlük Vətən Müharibəsində qazanılan Zəfərin səbəbkarları olan yeni şəhid xiyabanları milli birliyin, vətənə bağlılığın və qəhrəmanlığın vəfa simvoluna çevrilib.

Bu gün XX əsrin tarixinə insanlığa, bəşəriyyətə qarşı ən amansız və dəhşətli cinayətlərdən biri kimi düşmüş 1990-cı ilin 20 Yanvar hadisəsindən bir qərinə keçib. Xalqımızı qəlbən sarsıtmış bu faciənin baş vermə səbəbləri ilə bağlı zaman-zaman müxtəlif yazılar yazılıb, şərhlər verilib, araşdırmalar aparılıb, hətta ortaya əks fikirlər də qoyulub. Amma bütün bu məsələlərdə üst-üstə düşən bir məqam var: yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqı əsrlər boyu qəlbində yaşatdığı milli-azadlıq və istiqlal savaşından geri çəkilməyəcəyini, bu müqəddəs amal uğrunda hətta canından belə keçməyə hazır olduğunu bütün dünyaya nümayiş etdirdi. O gecə doğulan oğullar 29 il sonra Azərbaycan tarixinə Zəfər yazdılar.

O gecə doğulanları dünən gecə 33 yaşı oldu...

**Olaylar.-**2023.-20-26 yanvar.-№3.-S.19.

**İlham və Fərizə: bir sevgi hekayəsi**

**Mətanət Məmmədova**

**Həyat sevgilərlə, bu sevgilərdən yaranan sevinc və kədərlərlə doludur. Sevgi-bu müqəddəs hiss kimini xoşbəxt, kimini bədbəxt edir, kimi onu bir ömür doyunca yaşayır, kimi isə sevgi adlı yolçuluqda nakam bir yolçuya çevrilir. Bu yolda görünən yalnız xatirələr və xəyallar olur.**

1990-cı ilin 20 Yanvar faciəsi də minlərlə vətəndaşımızı nakam bir yolun yolçusuna çevirdi. O insanları ki, onlar ən ülvi sevgilərdən olan azadlığa qovuşmaq üçün neçə günlər idi ki, bir yola çıxmışdılar. Bu yolda onları nələrin gözləməsindən isə xəbərsiz idilər. Heç ağıllarına da gəlmirdi əslində qarşıda onları gözləyənlər.

***

1990-cı ildə 70 il idi ki, əldə etdiyimiz müstəqilliyimizi zorla əlimizdən alıb bizi əsarət zəncirlərinə bənd etmişdilər. 70 il idi ki, sovet imperiyasının qurub-yaratdığı "böyük vətənin" bir parçasına çevrilmişdik. Bu 70 ildə nə planlar hazırlanmışdı. Hazırca da saxlanırdı ki, 15 müttəfiqdən biri başını qaldıran kimi bu planlar işə düşsün. Çünki imperiyanı qorumaq üçün yalnız güclərdən istifadə olunmalı idi. Qırğınlar törədilməli, ölkələrə hərbi texnikalar göndərilməli, nəyin bahasına olursa-olsun, onların başlarının qalxmasına imkan verilməməli idi.

Azərbaycan isə tarixin müxtəlif dönəmlərində azad yaşamaq üçün mübarizəyə qalxmış, azad olmaq istəmiş, bunu çətinliklə əldə etsə də, əlindən alınmış, azadlığı qan rənginə boyanmışdı. Elə həmin rəng də nə vaxtsa xalqın bu hislərinin yenidən alovlanmasına səbəb olacaqdı...

***

Yanvarın 19-dan 20-nə keçən gecə artıq aylar idi ki, azərbaycanlılar azadlıq hislərinin yenə də illər öncəki kimi alovlanması səbəbi ilə meydanlara çıxır, azadlıq mücadiləsinə qoşulurdular. Həmin gün isə bu mübarizənin qarşısını almaq üçün çoxdan bəri hazırlanan plan həyata keçirilməli idi. İmperiyanın qaniçən ordusu Bakıya girməli və azadlıq sözünü dilinə gətirən insanları susdurub getməli idi.

Planlaşdırılan kimi də oldu. Azadlıq meydanında minlərlə insanın üstünə tanklar, texnikalar yürüdüldü. Yaşlı, uşaq, gənc, qoca, qadın, kişi deyilmədi, bütün meydan, ətraf güllə yağışına tutuldu. Həmin gecə nə həyatlar susdu, nə arzular yarımçıq qaldı. Azadlıq meydanının azadlıq fədailəri bir gecənin qurbanına çevrildilər...

***

Onlar arasında faciədən 33 il keçməsinə baxmayaraq sinəmizi hələ də göynədən, ailələrinin təməli cəmi altı ay öncə qoyulmuş İlham və Fərizə adlı gənclərimiz də vardı. Xeyr, Fərizə o meydanda deyildi. O meydandakı İlhamın, bəli, 6 ay öncə ailə qurduğu İlhamın qəlbində idi.

İlham o gecə Azadlıq meydanına dostları ilə getmişdi. Lakin qəlbində Fərizəni də aparmışdı. Seçib sevdiyi, ailə həyatı qurduğu, bir ömür bir yerdə yaşlanmağa söz verdiyi Fərizəni. Fərizə ona "getmə" demişdi. Lakin azadlıq eşqi də Fərizəyə olan sevgisi qədər ülvi olan İlham bu yoldan qala bilməmişdi. "Gedirəm, amma tez gələcəyəm, narahat olmayın",- deyərək, arxasınca narahatlıqla baxan ana-bacısına, sevgilisinə söz vermişdi.

Lakin söz verməklə deyil. O dəhşətli gecədən kim sağ-salamat çıxacağına söz verə bilərdi ki... Bu söz sadəcə bir təsəlli idi. Arxada narahat keçirənlərə verilən bir ümid və təsəlli.

O gecə evlərdən bayıra çıxardıqlarını ölümə aparırdı. Bu ölüm yolçuluğunda yalnız təsadüf nəticəsində sağ qalmaq mümkün olardı. Bu mümkünlər isə mümkünsüzlərin içərisində idi. Onları qurtaran yalnız bir alın yazısı, tale payı ola bilərdi...

***

Fərizənin həmin gecə gözlərinə yuxu gedə bilərdimi? Əsla. Sanki ürəyinə dammışdı İlhamın geri qayıtmayacağı. Deyirlər axı, candan sevəndə olacaqlar sənə agah olur. Fərizə də İlham evdən çıxarkən ona agah

olan bir hisslə anasına "qoyma, ana, İlhamı getməyə qoyma",- demişdi. Lakin İlhamı saxlamaq olardımı? Biz axı İlham kimi minlərlə oğullarımızı görmüşük. Vətən sevdalı, torpaq məhəbbətli oğullarımızı. Onları nədən, haradan saxlasan da, Vətən, torpaq adı olan yerdən əsla saxlamaq mümkün deyil.

Azadlıq meydanına toplaşanlar da Vətənimiz üçün, onun azadlığı, müstəqilliyi, asılılıqdan qurtuluş yolu, azad yaşaması üçün toplaşmışdılar. İlhamı Vətənin azadlığına gedən bu yoldan kim saxlaya bilərdi. Buna kimin gücü çatardı...

İlham addımlayırdı... Qəlbində sevgilərlə addımlayırdı. Vətən üçün ölümə doğru addımladığını bilməsə də, irəliyə doğru dostları, tanıdıqları ilə birgə addımlayırdı. Onların hər birinin də qəlbində Vətəndən savayı sevgilər vardı: yar sevgisi, ata sevgisi, ana sevgisi, övlad sevgisi... Və yaşamaq sevgisi...

Lakin o gecə qətlə yetirilən yüzlərlə insanın ürəyində minlərlə belə sevgilər nöqtələndi. Tək Vətən sevgisindən başqa. Çünki həmin an Vətən sevgisi bütün sevgiləri üstələmişdi. Ölümün bir addımlığında belə heç kim, heç bir qüvvə onu nöqtələyə bilməzdi. Elə buna görə də Vətən oğulları canlarından keçdilər, lakin Vətən üçün iradələrindən gönmədilər. Şəhid oldular, yaralandılar, qazi oldular, "Vətən sağ olsun",- dedilər, bir addım da geri çəkilmədilər...

***

O gecə İlhamın da həyatına son nöqtəni qoydu. Lakin hələ evdəkilər bundan xəbərsiz idi. Fərizə çox narahatlıq keçirirdi. Səhərədək evdə o yana-bu yana var-gəl etmişdi. Saatlar ötür, lakin İlham qayıtmırdı. Ağlına, ürəyinə gələn başına gəlmişdi. Dünyalar qədər sevdiyi həyat yoldaşı şəhid olmuşdu. Xəbərsizdi. Xəbərsizdi ki, gecə İlham nə qədər qan itirib, şam işığında əməliyyata alınıb, həkimlər nə qədər cəhd göstərsələr də onu xilas edə bilməyiblər. Xəbərsizdi, hamı kimi, İlhamın ata-anası, bacıları, qardaşı kimi o da xəbərsizdi o qanlı gecənin sevdiyi insana nələr etdiyindən.

Səhər açılacaqmı? Fərizə tək bunu düşünürdü. Bu qara gecəni hansısa bir gün işığı aydınladacaqmı? "İlahi, açılsın səhər, bəlkə İlhamdan bir xəbər gətirər yeni səhər",- deyirdi, vurnuxurdu. Lakin saatlar bir-birini əvəz edir, saatın əqrəbləri öz dəyişməz ahəngi ilə eyni işi görməsi ilə artıq Fərizənin səbrini tükəndirirdi. O, İlhama nə isə olduğunu artıq gün kimi aydın görürdü. Lakin bu fikirləri dərhal özündən kənarlaşdırır, onların ürəyinə, ağlına yaxınlaşmasına imkan vermirdi.

O qara xəbər isə qapının ağzındaca dayanmışdı. An axtarırdı ki, içəriyə girib Fərizənin dünyasını qana boyasın, alt-üst etsin bu evdə. Cəmi 2-3 gün əvvəl İlhamla köçdükləri bu yeni evdə. Min bir xəyal qurduqları, bütün otaqları artıq xəyallarındakı istəklərlə doldurduqları, pərdələrini asdıqları, çilçıraqlarını yandırdıqları bu evə an qərib idi ki, bu acı xəbər girsin. Fərizənin həyatını darmadağın etsin...

***

Al qan içində olan İlhamı xəstəxanadan birbaşa evə gətirə bilmirlər. Çünki bunu görənlərin ürəyi elə o andaca partlaya bilərdi. Qardaşı onu məscidə aparıb yudurdur, sonra gətirir evlərinə.

Axşamdan bəri sükuta dalan Fərizə 20 Yanvar "hədiyyəsini" alır o səhər. O hədiyyə Fərizənin gəncliyini alır, ona vaxtsız bir qocalıq bəxş edir. Xəyallarını, arzularını, istəklərini alır, yerinə bütün sualları, istəkləri sükutla qarşılamaq kimi bir durğunluq verir. Bir andaca dünyası başına yıxılan Fərizə artıq heç nə düşünmür. Sadəcə İlhamın yanında olmaqdan başqa heç nə...

Fərizəni aldığı qərardan heç kim döndərə bilmir. Evdə onun qərarını hərəkətlərindən hiss edirlər, ona fikrindən vaz keçmək üçün yalvarırlar. Lakin Fərizə sanki kar olmuşdu. İlhamı bir daha görə bilməyəcək gözləri kor olmuşdu. Onu içindən gələn bir səs-2 aylıq körpəsinin səsi də yolundan qaytara bilməyəcəkdi.

Fərizə öz ailəsini İlhamın yanına daşıyırdı. Bətnindəki körpəsi ilə İlhama doğru yolçuluğa çıxırdı. O, yalnız sevdiyinin yanında xoşbəxt ola bilərdi. Bətnindəki körpə yalnız İlhamın yanında doğula, dünyaya gələ bilərdi. İlhamsız Fərizə də, körpəsi də tənha, yetim idi. Bu səbəbdən İlhamın yanında olmaqdan başqa çarə görə bilmədi Fərizə. Özünə də, körpəsinə də qıydı. Düşmənin qıydığı İlhama çatmaq, onun yanında olmaq üçün...

***

Elə həmin günlər İlham və Fərizə adlı bir dastan yarandı. Bir sevgi hekayəsi dastana çevrildi. Bu dastan indiyədək oxuduğumuz, tanış olduğumuz dastanlardan çox fərqli bir dastandır. Çünki burada Vətən sevgisi bütün sevgilərdən yüksəkdə dayanır. İlhamın Vətənin azadlığı, müstəqilliyi uğrunda mübarizəyə qatılması, bu

yolda mücadilə edərək şəhid olması və sevgilisi-həyat yoldaşı Fərizənin İlhamın yoxluğunda özünün var olmasını heç cür görə bilməməsi bu dastanı bütün dastanlardan fərqli edir. İndiyədək oxuduğumuz bütün dastanlardan...

30 iyun 1989-cu ildə qurulan bir azərbaycanlı ailəsi 6 ay sonra belə bir sonluqla nöqtələnir. İlham Vətən uğrunda, Fərizə İlham uğrunda, bətnindəki körpə isə həyatın amansızlığı uğrunda şəhid olurlar. İndi Şəhidlər xiyabanında 2 qəbirdə 3 can uyuyur: bir ailənin 3 üzvü. İlham, Fərizə, bir də Vətən. Bəli, Vətən qoyuram onların övladlarının adını. Çünki Vətən uğrunda mübarizənin övladıdır o. Çünki Vətən yolunda ölümün gözünün içinə dik baxan, gəncliyindən, həyatından keçən atanın övladıdır. Vətənin Vətən adlı övladıdır.

Fərizə isə Azərbaycan qadının ümumiləşmiş obrazıdır. Şəhid anası, şəhid yoldaşı obrazıdır. Oğlu şəhid olmuş qarayaylıq, saçları ağappaq olan analarımızın, əri şəhid olmuş, saçının bir tərəfini ağ, bir tərəfini qara hörüb övlad böyüdən qadınlarımızın obrazıdır. Nişanlısı, sevgilisi Qarabağ müharibələrində, ölkəmizin ərazi bütövlüyü uğrunda gedən savaşlarda şəhid olan, qəlblərinə ömürlük bir düyün vurulan qızlarımızın obrazıdır. Bütün oxuduğumuz dastanlardakı qadın obrazlarından fərqli bir obrazdır. Elə bunun üçün də 30 iyun Azərbaycanda Sevgililər günüdür. Qoy bütün ailələrimiz beləcə, Vətən sevgisi ilə qurulsun. Biz var olduqca Vətənimizi şəhidlərimiz, qazilərimiz kimi qoruyaq. Onların hər biri gənc nəsillərə nümunədir. Gənclərimizin onlardan əxz etməli çox məqamlar var.

**Səs.**-2023.-20 yanvar.-№11.-S.13.

## Şanlı tarixin 33-cü ili

### 20 Yanvara aparan yol azərbaycanlıların Ermənistandan deportasiyasından başlayıb

**Seyidağa Etibar**

**1990-cı il 20 Yanvar faciəsindən 33 il keçir. Keçmiş SSRİ-nin süqutu ərəfəsində xalqımıza qarşı törədilmiş bu faciəsi Azərbaycanın azadlıq mübarizəsinin ən qanlı səhifələrindən birini təşkil edir. Bu faciənin kökü ermənilərin Azərbaycana qarşı torpaq iddialarına gedib çıxır.**

1988-ci ildən başlayaraq Dağlıq Qarabağın Ermənistana birləşdirilməsini tələb edən erməni şovinistlərinə qarşı heç bir tədbir görməyən keçmiş SSRİ hakimiyyəti əslində ermənilərin cinayətlərinə göz yumurdu. Belə bir şəraitdə Azərbaycan xalqı öz haqlı etiraz səsini ucaltmağa başladı. 20 Yanvar həm faciə, həm də qəhrəmanlıq nümunəsidir. Bu qanlı faciə insanlığa qarşı törədilən bir cinayət olmaqla yanaşı, Azərbaycan xalqı üçün müstəqillik uğrunda mübarizənin rəmzidir. 20 Yanvar faciəsi xalqımızın milli şüuruna kədərli, eyni zamanda XX əsr Azərbaycan tarixinin dönüş əhəmiyyətli hadisəsi kimi daxil oldu. 20 Yanvar faciəsi Azərbaycanın milli kimliyinin formalaşmasına həlledici təsir göstərib, dövlət müstəqilliyinin bərpasında mühüm dönüş nöqtəsi olub. Məhz bu faciədən sonra milli azadlıq hərəkatı daha da güclənərək dönməz xarakter alıb, xalq öz gələcəyini yalnız Azərbaycanın müstəqilliyə qovuşmasında görüb. 20 Yanvar faciəsi siyasi maraqlar naminə Azərbaycan xalqına qarşı törədilmiş cinayətdir.

Milli azadlığı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə divan tutulması, kütləvi qırğın nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə birbaşa Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi, Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilib. Qanlı yanvar hadisələrinin coğrafiyası təkcə Bakı şəhəri ilə məhdudlaşmadı. Ölkənin digər rayonlarında, o cümlədən yanvarın 25-də Neftçala, yanvarın 26-da isə Lənkəranda 8 nəfər qətlə yetirilmişdi. Ümumilikdə Respublikada 147 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuş, 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdi.

Faciədən dərhal sonra-1990-cı il yanvarın 21-də ümummilli lider Heydər Əliyev ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək doğma xalqı ilə həmrəy olduğunu nümayiş etdirib. Ulu öndər SSRİ rəhbərliyinin törətdiyi bu qanlı əməliyyata kəskin etirazını bildirib və həmin əməliyyata rəhbərlik edənləri ifşa edib. 1990-cı il yanvarın 21-də sovet rejiminin qadağalarına rəğmən, həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələn ulu öndər Heydər Əliyev qanlı faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında ittiham etdi. Cəsarətli bəyanat verərək əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd, Moskvanın və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi. Heydər Əliyev Azərbaycan xalqına qarşı bu vəhşiliyi qətiyyətlə pisləməklə yanaşı, onun törədilməsi səbəblərini də açıqladı, təşkilatçıların, günahkarların adını bütün dünyaya bəyan etdi.

Beləliklə, SSRİ səviyyəsində məhz Heydər Əliyev ilk dəfə olaraq 20 Yanvar faciəsinə siyasi qiymət verdi, faciədə əli olanların, əsas günahkarların adını çəkdi, Azərbaycana qarşı aparılan xəyanətkar siyasətin mahiyyətini açıqladı və təqsirkarların Azərbaycan xalqı qarşısında məsuliyyət daşıyacağını bəyan etdi. Heydər Əliyevin bu bəyanatı faktiki olaraq o vaxta qədər Azərbaycanda SSRİ rəhbərliyinin Dağlıq Qarabağ məsələsində nümayiş etdirdiyi siyasətə etiraz edən və mərkəzdən “ədalətli qərar” tələb edən kortəbii xalq hərəkatının mütəşəkkilləşərək müstəqillik uğrunda milli azadlıq hərəkatına keçidi üçün əsas oldu və respublikada ciddi ümummilli mübarizə ovqatı yaratdı.

Heydər Əliyev çıxışlarında bildirirdi ki, 20 Yanvar hadisələrinə aparan yol Ermənistandan azərbaycanlıların öz tarixi torpaqlarından zorla köçürülməsi hadisələrindən və Qarabağın Azərbaycandan qoparılması cəhdlərindən başlamışdı.

Bu barədə **Milli Məclisin deputatı, tarixçi alim Musa Qasımlı** “Yeni Müsavat”a bildirdi ki, 1990-cı il yanvar faciəsinə aparan yol azərbaycanlıların Ermənistandakı tarixi torpaqlarından növbəti kütləvi deportasiyasından başlayıb. 1988-ci ildə Ermənistanda azərbaycanlıların yaşadıqları ərazi respublika ərazisinin

(29.8 min kv.km.) 25 faizini, təqribən 7.5 min kv. km-ni təşkil edirdi. 1988-1989-cu illərdə azərbaycanlıların tarixi-etnik torpaqlarından-Ermənistandan növbəti deportasiyası baş verdi, nəticədə 250 min azərbaycanlı tarixi ata-baba yurdlarından zorla köçürüldü, qaçqın düşdü.

Deportasiya sərt formada aparılırdı-azərbaycanlılar ev-eşiklərindən zorla çıxarılır, döyülür, təhqir edilirdilər. Bu deportasiya prosesi zamanı azərbaycanlılar ermənilər tərəfindən qətlə yetirilmişdi. SSRİ rəhbərliyi isə bu hadisələrə görə Ermənistanı cəzalandırmaq əvəzinə azərbaycanlılara qarşı hücumlara həvəsləndirirdi: "Bu hadisəyə, o cümlədən Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi cəhdlərinə qarşı Azərbaycan xalqının etirazları başladı. Etiraz dalğası get-gedə böyüdü. Xalqın etirazlarının genişləndiyini görən SSRİ rəhbərliyi 1990-cı ilin yanvarında sovet qoşunlarının Azərbaycana yeridilməsi və güc yolu ilə xalq etirazlarının qarşısının alınması əmrini verdi. 20 Yanvarla sovet rəhbərliyi Azərbaycan xalqının iradəsini qırmaq, ona əzəli torpaqları olan Qərbi Azərbaycandan zorakılıqla qovulmasını və Dağlıq Qarabağın Ermənistana birləşdirilməsini qəbul etdirməyi qarşısına məqsəd qoymuşdu.

Lakin SSRİ rəhbərliyinin Azərbaycanda həyata keçirdiyi qanlı cinayət Azərbaycan xalqının gözünü qorxutmadı və əks-effekt verdi. Şəhidlər xiyabanındakı dəfn mərasimində 2 milyona yaxın insan iştirak etdi. Bu epoxal hadisə dövlət müstəqilliyinin bərpa edilməsində dönüş nöqtəsi oldu. Məhz bu faciədən sonra milli azadlıq hərəkatı tam siyasi reallığa çevrildi, dönməz xarakter aldı, xalq öz gələcəyini yalnız Azərbaycanın müstəqilliyinə nail olunmasında gördü. 20 Yanvar hadisələri SSRİ adlı imperiyanın dayaqlarını sarsıtdı, ona qarşı xalqda birmənalı qəzəb yaratdı.

20 Yanvardan sonra da Azərbaycan xalqına qarşı kütləvi qırğınlar dayanmadı, 1990-cı il martın 24-də Azərbaycanın Ermənistanla həmsərhəd Qazax rayonunun Bağanis Ayrım kəndində dinc əhali ermənilər tərəfindən kütləvi qırğına məruz qaldı.

Dağlıq Qarabağda azərbaycanlılar yaşayan İmarət Qərvənd, Tuğ, Səlakətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin işğalı zamanı həmin yaşayış məntəqələrinin dinc əhalisinin bir hissəsi qabaqcadan hazırlanmış plan əsasında xüsusi amansızlıqla qətlə yetirildi. Xocalı soyqırımından bir neçə gün əvvəl - 1992-ci il fevralın 17-də Xocavəndin Qaradağlı kəndində 80 nəfərdən çox azərbaycanlı kütləvi qırğına məruz qaldı. Sonra isə Xocalı soyqırımı həyata keçirildi. 613 nəfər öldürüldü, minlərlə dinc sakin yaralandı, girov götürüldü, işgəncələrə məruz qoyuldu. Azərbaycan xalqına qarşı kütləvi qırğınlar 1992-ci ilin aprelində Kəlbəcərin Ağdaban, avqustunda Goranboyun Ballıqaya, 1993-cü ilin aprelində Kəlbəcərin Başlıbel kəndlərində də davam etdi. Bu gün də həmin hadisələrin qanlı izləri azad edilmiş ərazilərdə kütləvi məzarlıqlar şəklində üzə çıxır.

Lakin bütün qırğınlara, işgəncələrə baxmayaraq Azərbaycan xalqı öz torpaqlarının işğalı ilə barışmadı, müstəqilliyinə nail oldu, müstəqil dövlətini gücləndirdi. Prezident İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ilin Vətən müharibəsində əldə edilmiş Tarixi Zəfərlə həm də 20 Yanvar şəhidlərinin narahat ruhları dinclik tapdı. Bu gün Azərbaycan xalqının milli ideyası tarixi torpaqlarına qayıdışı nəzərdə tutur. Qarabağ və Şərqi Zəngəzurda böyük quruculuq işləri gedir, artıq Zəngilanın Ağalı kəndi ilə Böyük Qayıdış başlayıb, bu il qayıdış prosesi daha da sürətlənəcək. 20 Yanvar hadisələrindəki milli müqavimət nümunələri, 30 illik dövr ərzində işğalla barışmazlıq və 2020-ci ilin Vətən müharibəsində əldə edilmiş Tarixi Zəfər, Ermənistanın diz çökdürülməsi Qərbi Azərbaycana qayıdışımızın da mütləq reallaşcağına inam yaradır. Qərbi Azərbaycandan azərbaycanlıların deportasiyası ilə başlanan proseslərin Qərbi Azərbaycana qayıdışla yekunlaşacağı gün uzaqda deyil.

**Yeni Müsavat.** - 2023.- 20 yanvar. - № 11. - S. 7.

## Ulu Öndərin əvəzsiz xidməti

### 1994-cü il martın 29-da Milli Məclis tərəfindən 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verildi

**Nəzrin Eldarqızı**

***20 Yanvar faciəsi xalqımızın tarixinə qanlı hərflərlə yazıldı. Faciə həmin dövrdə ölkədə hakimiyyətdə olan və milli maraqlara zidd addımlar atan iqtidarın istefası tələbini irəli sürdüyünə və qətiyyətlə Qarabağın Ermənistana birləşdirilməsinə qarşı çıxdığına görə xalqımızı cəzalandırmaq üçün SSRİ rəhbərliyi tərəfindən törədilmişdi. Hadisə baş verən gecə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna göndərilmiş, dinc əhali müxtəliftipli silahlardan atəşə tutularaq kütləvi şəkildə qətlə yetirilmişdir. Buradakı vandalizm aktında ən diqqətçəkən məqamlardan biri isə tətbiq olunan fövqəladə vəziyyət haqqında əhaliyə heç bir xəbərdarlığın edilməməsi idi.***

SSRİ müdafiə və daxili işlər nazirliklərinin, habelə başqa xüsusi təyinatlı hərbi birləşmələrin 66 min nəfərdən çox əsgər və zabiti əvvəlcədən Bakı şəhərinə gətirilmiş, həmin qüvvələr Qala və "Nasosnı" aerodromlarında, Respublika stadionunda, Salyan kazarmasında gizlin şəkildə yerləşdirilmişdi. Ölkəmizə göndərilən ordu hissələrinə isə Stavropol, Rostov, Krasnodardan səfərbər edilmiş erməni əsgərləri, hərbi məktəblərdə təhsil alan erməni kursantları cəlb edilmişdir. Yanvar ayının 20-dən fövqəladə vəziyyətin tətbiq edilməsinə baxmayaraq, qoşun hissələri yanvarın 19-da Türkan-Qala istiqaməti tərəfdən şəhərə daxil olmuşdular. Mənfur planın ən vacib hissəsi "Bakı əməliyyatı" idi. Bu əməliyyata birbaşa SSRİ müdafiə naziri Dmitri Yazov, SSRİ daxili işlər naziri Vadim Bakatin, SSRİ DTK sədrinin müavini Filip Babkov rəhbərlik edirdilər. Hadisə nəticəsində çoxlu sayda insan həyatını itirsə də, xalqımızın mübarizliyi, vətənə bağlılığı məhz vətəndaşlarımızın göstərdiyi şücaət ilə bir daha özünü təsdiqlədi. 1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə paytaxt Bakıya və ölkənin bir sıra rayonlarına sovet ordusu hissələrinin qanunsuz yeridilməsi, dinc əhalinin atəşə tutulması əlləri qanlı rejimin törətdiyi ən ağır cinayətlərdən idi. İstər dövlətimiz, istərsə də soydaşlarımız bu vəhşilikləri unutmur, özünün igid oğul və qızlarının fədakarlığını sonsuz məhəbbətlə xatırlayır, onların əziz xatirəsini hər il böyük ehtiramla yad edir.

20 Yanvar faciəsi çoxsaylı can alsa da, SSRİ-nin süqutuna təsir edən mühüm amillərdən biri olmuşdur. Ümummilli lider Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilməsini qarşısına prioritet məsələ kimi qoymuşdu. O dövrdə mövcud olan siyasi çəkişmələrə baxmayaraq, ulu öndər bu istiqamətdə mühüm işlər görməyə, faciənin daha dərindən araşdırılmasına müvəffəq oldu. Bunun nəticəsidir ki, ümummilli liderin 1994-cü il 5 yanvar tarixində 20 Yanvar faciəsinin dördüncü ildönümünün qeyd olunması ilə bağlı verdiyi fərmanda hadisəyə tam siyasi-hüquqi qiymət verilməsi fikri təklif olundu. Lakin o dövrdə aktiv fəaliyyətdə olan müxalif qüvvələr hakimiyyəti ələ keçirmək uğrunda yaranmış vəziyyətdən yararlanmağa çalışırdılar. Heydər Əliyev 1994-cü il yanvarın 12-də dövlət komissiyasının geniş iclasındakı çıxışı zamanı 20 Yanvar faciəsinin mahiyyətinin düzgün əks etdirilmədiyini bir daha vurğulamış, Azərbaycan Respublikasının Ali Soveti Milli Şurasının 1992-ci il 19 yanvar tarixli qərarına irad tutmuşdur. Ulu öndərimiz həmin qərarı xalqa xəyanət hesab etmişdir: "Bu qərarı oxuyanda doğrusu çox həyəcanlandım. Düşündüm ki, Milli Şura nə üçün öz millətinin, öz xalqının aqibətinə, taleyinə bu qədər biganə qalıb? Qərarı oxuyandan sonra bir daha qəti fikrə gəldim ki, bu hadisəyə, bu faciəyə niyə indiyə qədər siyasi qiymət verilməyib. Mənim fikrim belədir ki, bu qərarın qəbul edilməsi Azərbaycan xalqına bəlkə də 20 Yanvar 1990-cı ildə olan faciə kimi böyük xəyanətdir. İki il keçəndən sonra deputat-istintaq komissiyasının ortaya bir şey çıxarmaması, boş-boş sözlərlə camaatı aldatması, qərarda bu komissiyanın işinin qənaətbəxş hesab edilməsi, yenə də deyirəm, xəyanətdir".

Şübhəsiz, Heydər Əliyevin o nitqi hakim dairələri xeyli silkələdi. Nəticədə 1994-cü il martın 29-da Milli Məclis tərəfindən "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" adlı xüsusi qərar qəbul edildi. Qərarda 20 Yanvar faciəsi Azərbaycanda vüsət almış milli-azadlıq hərəkatını boğmaq, demokratik və suveren bir dövlət amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və belə bir yola qədəm qoyan xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. Bundan başqa, Sovet İttifaqı Kommunist Partiyasının, sovet dövləti və hökumətinin, şəxsən Mixail Qorbaçovun Azərbaycana qarşı ağır cinayət törətməsi faktı, Əbdürrəhman Vəzirovun, Ayaz Mütəllibovun, Viktor Polyaniçkonun, Vaqif Hüseynovun xalqımıza

xəyanət etdikləri siyasi-hüquqi arenada bir daha sübuta yetirildi. Sənəddə, həmçinin Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Elmira Qafarovanın, Azərbaycan Kommunist Partiyası Bakı Şəhər Komitəsinin birinci katibi Müslüm Məmmədovun bu qanlı faciənin törədilməsində məsuliyyət daşıdıqları və digər məsələlər də öz əksini tapmışdır. Heydər Əliyevin uzaqgörənliyi və güclü siyasəti sayəsində xalqımıza qarşı törədilən hadisəyə siyasi-hüquqi qiymət verilməsinə nail olundu.

**Respublika.** - 2023.- 29 mart. - № 63. - S. 4.

**20 Yanvar - Azadlığa gedən yolda dönüş nöqtəsi**

**Sevinc Azadi**

**Hər bir xalqın milli birliyinin, siyasi özünüdərkinin səviyyəsi məhz onun ən çətin anlarda, tarixi sınaq günlərində baş verən hadisələrə və çağırışlara ümumxalq reaksiyasında özünü göstərir. 34 il əvvəl Azərbaycanın üzləşdiyi belə bir seçim məqamında xalqımızın mübarizlik əzminin kükrəyişi, əsarətə boyun əyməyən iradəsi tariximizə şanlı bir səhifə kimi yazıldı – milli azadlıq və torpaqlarımızın bütövlüyü uğrunda ümumxalq hərəkatının 20 Yanvar səhifəsi.**

Faciədən 34 il ötməsinə baxmayaraq xalqımız o qanlı gecəni heç vaxt unutmur, unutmayacaq. Əvvəlcədən düşünülmüş, məqsədyönlü şəkildə hazırlanan bu təcavüzkarlıq siyasətinin əsas məqsədi xalqımızın demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq, ona mənəvi və fiziki zərbə vurmaq idi. Həmçinin Sovet rəhbərliyinin birbaşa dəstəyi və himayədarlığı ilə başlayan Dağlıq Qarabağ hadisələri, xalqımıza qarşı törədilən soyqırımlar, onların öz tarixi, əzəli doğma yurd-yuvalarından qovulması bu siyasətin tərkib hissələri idi. Faciəyə gedən yolun başlanğıcı onun törədilməsindən xeyli əvvəl, SSRİ rəhbərliyinə M.Qorbaçovun gəlişi ilə yaranmışdı. Qorbaçovun simasında daim Azərbaycana qarşı məkrli, xəyanətkar mövqe tutmuş ermənilər özlərinə yaxın himayədar tapmışdılar. Əlbəttə, nə qədər ki Heydər Əliyev SSRİ rəhbərliyində təmsil olunurdu, ermənilər Azərbaycanla bağlı bədnam niyyətlərini həyata keçirə bilmirdilər. Çünki Heydər Əliyevin Sov.İKP MK Siyasi Bürosunda olması ermənilərə və Qorbaçova Azərbaycanla bağlı planlarının reallaşmasına, o cümlədən Qarabağ münaqişəsinin törədilməsinə imkan vermirdi. Elə buna görə Qarabağ məsələsinin Heydər Əliyev Siyasi Bürodan istefa verdikdən cəmi 15 gün sonra ortaya çıxması təsadüfi sayılmamalıdır. O vaxt M.Qorbaçovun ən yaxın adamı, iqtisadi məsələlər üzrə müşaviri, milliyyətcə erməni olan Aqanbekyan Parisdə keçirdiyi mətbuat konfransında Dağlıq Qarabağın Ermənistana verilməsi iddiasını irəli sürmüş, "Humanite" qəzetindəki bəyanatında Moskvanın buna razılığının olduğunu bildirmişdi. SSRİ rəhbərliyinin Dağlıq Qarabağın Ermənistana verilməsinə dair razılığının olduğu 1988-ci ilin əvvəllərində M.Qorbaçovun Silva Kaputikyan başda olmaqla, bir qrup şovinist erməni ilə görüşü zamanı da üzə çıxdı. Bunun ardınca Xankəndidə, Yerevanda anti-Azərbaycan və antitürk ruhlu mitinqlər genişləndi. Məhz bundan sonra erməni "Qarabağ Komitəsi", onun Dağlıq Qarabağ Muxtar Vilayətindəki separatçı-terrorçu təşkilatı olan "Krunk" gizli fəaliyyətlərinə son qoyaraq açıq şəkildə niyyətlərini bəyan etməyə, Azərbaycana qarşı ərazi iddiaları səsləndirməyə başladı. Bunun nəticəsi olaraq ermənilər tərəfindən "Miatsum" adlanan hərəkat formalaşdırıldı. Bütün bunlar 1988-ci ilin fevralından etibarən hadisələrin daha gərgin və aqressiv məcrada inkişafı ilə nəticələndi. Məhz həmin dövrdə həm Dağlıq Qarabağda, həm də Yerevanda Azərbaycan torpaqlarının Ermənistana birləşdirilməsi tələbi ilə silsilə mitinqlər başladı. Azərbaycanın ovaxtkı rəhbərliyi hadisələrə fəal müdaxilə etmək əvəzinə Kremldən gələn əmrlər əsasında hərəkət edir və bununla xalqın taleyinə biganə yanaşırdı. Kreml isə həm Azərbaycana göndərdyi emissarlar, həm də ölkənin qətiyyətsiz rəhbərliyi vasitəsilə daha məkrli ssenarilər hazırlamaqda idi. Erməni təxribatçılarının da yaxından iştirak etdiyi bu ssenarilərin əsas hədəflərindən biri Azərbaycanda ermənilərə qarşı dözümsüz münasibətin formalaşmasına dair görüntülər yaratmaq idi. Elə bu məqsədlə də 1988-ci ilin fevralında məlum Sumqayıt hadisələri törədildi. O dövrdə Azərbaycanda hakimiyyətdə olanlar SSRİ rəhbərliyinin, ermənilərin niyyətlərini, qlobal hadisələrin mahiyyətini axıra kimi dərk etmək iqtidarında olmadıqlarından qanlı hadisələrin yaşanmasının qarşısını almaq üçün müvafiq addımlar atılmasında acizlik nümayiş etdirdilər. Sumqayıt hadisələrinin əvvəlcədən hazırlandığını o da sübuta yetirir ki, olaylar baş verən yerlərdə öncədən çoxlu teleoperatorlar, jurnalistlər yerləşdirilmişdi. Bununla da düşünülmüş, ssenarisi əvvəlcədən cızılmış Sumqayıt hadisələri saxtakarlıqlarla, uydurmalarla dünyaya yayıldı. Bundan sonra ermənilər Ermənistanda və Dağlıq Qarabağda belə bir əhval yaratdılar ki, artıq azərbaycanlılarla ermənilər bir yerdə yaşaya bilməzlər. Bunun nəticəsi olaraq indiki Ermənistanın yarandığı əzəli Azərbaycan torpaqlarında yaşayan yüz minlərlə soydaşımız 1988-ci ilin sonuna kimi qətlə yetirilməklə, əmlakları talan olunmaqla ən qəddar formada deportasiya olundular.

İttifaq rəhbərliyinin Azərbaycan xalqına qarşı ən böyük xəyanəti özünü növbəti dəfə 1989-cu ilin yanvarında göstərdi. Belə ki, həmin il yanvarın 12-də "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarəçilik formasının tətbiqi haqqında" SSRİ Ali Soveti qərar qəbul etdi və bu, ermənilərin istəyinə tam uyğun idi. Çünki DQMV-də xüsusi idarəçilik forması tətbiq edildiyi ilk gündən birbaşa Moskvaya tabe olan ermənipərəst A.Volski burada yaşayan bütün azərbaycanlı soydaşlarımızın çıxarılmasına nail oldu. Qısa müddətdə 50 min nəfər azərbaycanlı DQMV-dən qovuldu. Ümumiyyətlə, 20 Yanvar faciəsinə qədər SSRİ və respublika rəhbərliyinin çıxardığı qərar və fərmanların heç birində Azərbaycanın xeyrinə bircə maddə belə

olmadı. Bir tərəfdən, Azərbaycan xalqını sakitləşdirməyə yönələn addımlar atılır, digər tərəfdən isə, respublikanın suverenliyinə, ərazi bütövlüyünə xələl gətirən qərarlar qəbul olunurdu. Bu, Ermənistanın SSRİ rəhbərliyi tərəfindən ən yüksək səviyyədə müdafiə olunduğunu göstərirdi. 1989-cu ilin sonu, 1990-cı ilin yanvarında Azərbaycanda ictimai-siyasi vəziyyət xeyli kəskinləşdi, qarşıdurma dərinləşdi, mövcud iqtidarın hadisələrə nəzarəti son dərəcə zəiflədi. SSRİ rəhbərliyi isə Azərbaycanı növbəti dəfə cəzalandırmaq üçün Sumqayıt ssenarisinə uyğun təxribatlara start verdi.

Yanvarın 17-də Azərbaycan KP MK binası qarşısında böyük mitinq başlandı və üç gün davam etdi. Mitinqlərdə Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulması, Bakı ətrafına yığılmış qoşunların Dağlıq Qarabağa göndərilməsi, respublika rəhbərliyinin istefası və digər tələblər irəli sürüldü. Sovet rəhbərliyi isə Azərbaycan xalqının müstəqillik uğrunda apardığı mübarizənin qarşısını almaq, milli-azadlıq hərəkatına zərbə vurmaq, habelə digər müttəfiq respublikalara dərs vermək üçün 1990-cı il yanvarın 19-da "Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında" fərman imzaladı. Halbuki bununla Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozurdu. Yanvarın 19-dan 20-nə keçən gecə SSRİ rəhbəri M.Qorbaçovun göstərişi və Azərbaycanın ozamankı səriştəsiz rəhbərlərinin razılığı ilə Bakıya qoşun yeridildi. Azərbaycanı informasiya blokadasına almaq və xalqın haqq səsini boğmaq üçün SSRİ DTK-nın "Alfa" qrupu respublika televiziyasının enerji blokunu yanvarın 19-da partlatdı. Televiziya susduruldu, kütləvi informasiya vasitələri üzərinə, qəzet və jurnalların nəşrinə qadağalar qoyuldu. Beləliklə, Azərbaycan tam şəkildə blokadaya düşdü, əhali hər hansı bir məlumat almaq mənbəyindən məhrum oldu.

Sovet ordusu hissələrinin, xüsusi təyinatlı dəstələrin, daxili qoşunların iri kontingentinin və hətta SSRİ-nin ermənilərin sıx yaşadığı digər regionlarından olan ehtiyatdakı hərbçilərin iştirakı ilə həyata keçirilmiş hərbi təcavüz nəticəsində paytaxtda dinc əhaliyə divan tutuldu, yüzlərlə insan qətlə yetirildi, yaralandı və itkin düşdü. Həlak olanlar arasında yetkinlik yaşına çatmayanlar, qadınlar, qocalar, əlillər də var idi. Bakıda və Azərbaycanın digər bölgələrində 147 nəfər qəddarcasına öldürüldü, 744 nəfər yaralandı, 800-dən çox insan həbs olundu. Qabaqcadan düşünülüb hazırlanmış bu təcavüzkarlıq aksiyası Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq, xalqı təhqir edərək ona mənəvi zərbə vurmaq məqsədi daşımışdı. Lakin bütün bunlar Azərbaycan xalqının gözünü qorxutmadı, əksinə, onun sovet imperiyasına qarşı nifrətini qat-qat artırdı. Bakıda fövqəladə vəziyyət tətbiq edilməsinə baxmayaraq, yanvarın 22-də Azərbaycan xalqı şəhidləri ilə vidalaşdı. Paytaxt matəm libası geyindi. Respublikada 3 gün matəm elan olundu. Azərbaycanın bütün rayonlarında və Bakıda izdihamlı matəm mitinqləri keçirildi. Matəm mərasimində bir milyondan çox insan iştirak edirdi. Bu, Azərbaycan xalqının azadlıq səsi, haqq, ədalət, demokratiya və müstəqillik uğrunda mübarizə əzmi idi. Şəhidlər müstəqillik uğrunda mübarizə qəhrəmanları kimi milyonlarla insanın çiynində Şəhidlər xiyabanında son mənzilə yola salındı. Dəfn mərasimində yaşanan izdiham Azərbaycan xalqının mərdliyini, bir amal uğrunda necə sıx birləşdiyini bütün dünyaya nümayiş etdirdi. O ağır günlərdə Ümummilli Lider Heydər Əliyev bütün çətinliklərə baxmayaraq, 1990-cı il yanvarın 21-də siyasi iradə nümayiş etdirərək Moskvadakı Azərbaycan nümayəndəliyinə gəldi və SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə ittiham edərək bəyanatla çıxış etdi...

1993-cü ilin iyununda Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Bundan sonra 1990-cı ilin Qanlı Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. Ulu Öndər sonradan o günləri xatırlayarkən deyirdi: "Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi".

Artıq Şəhidlər xiyabanı Azərbaycan xalqının illər əvvəl məruz qaldığı böyük faciə ilə yanaşı, yenilməz iradəsinin rəmzi, mübarizlik məktəbi, müqəddəs ziyarətgahıdır. Ötən 34 il ərzində Azərbaycanın siması çox dəyişib. İndi ölkəmiz iqtisadi gücü, güclü ordusu, beynəlxalq səviyyədə qazanılan uğurları ilə dünyanın diqqət mərkəzindədir. Ötüb keçən illərin axarında dəyişməz qalan xalqın Ümummilli Lideri Heydər Əliyevə və onun layiqli davamçısı Prezident İlham Əliyevə olan sonsuz sevgisi, həmçinin xalqımızın sarsılmaz həmrəyliyi, birliyidir. Bu həmrəyliyi xalqımız Vətən müharibəsi zamanı bir daha nümayiş etdirdi. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və Azərbaycan Ordusunun rəşadəti sayəsində Vətən müharibəsi şanlı Qələbə ilə sona çatdı. 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində işğalçı Ermənistanın illər ərzində qurduğu silahlı qüvvələr darmadağın edildi, dövlətimiz böyük zəfərə imza atdı. Qəhrəman əsgərlərimizin şücaəti, fədakarlığı nəticəsində əzəli torpaqlarımız düşməndən azad olundu. Birliyimiz sübut etdi ki, Azərbaycan xalqı güclüdür, həmrəydir, istənilən çətinliyin öhdəsindən gəlməyə qadirdir. Əldə etdiyimiz bu tarixi zəfər, torpaqlarımızın azad edilməsi

həm də Azərbaycan xalqının özünə inamını qaytardı, xalqın öz liderinə, ordusuna, onun gücünə etibarını daha da möhkəmləndirdi. Torpaqlarımızın azadlığı uğrunda ölümə gedənlər ölməzliyə – əbədiyyətə, xalqımız isə azadlığa qovuşdu.

**İki sahil.-**2024.- 13 yanvar.- № 6.- S. 6.

**20 Yanvar şahidi Reza Deqati: "... xatırladığım yalnız qırmızı və qara idi"**

**20 Yanvar faciəsinin baş verdiyi o qanlı, müdhiş gündən bizi 34 illik bir zaman ayırır. Bir neçə gündən sonra xalqımız bu faciənin qurbanlarını ehtiramla anmaq üçün Şəhidlər xiyabanına üz tutacaq və bu faciəni törədənlərə öz nifrətini bildirəcək. Ötən müddət ərzində bu faciənin dünyada tanıdılması üçün bir çox işlər görülüb - sərgilər açılıb, tədbirlər keçirilib, sənədli filmlər nümayiş olunub.**

**Qanlı Yanvarda baş verənləri fotolentin yaddaşına köçürərək dünyaya tanıdanlardan biri də tanınmış fotojurnalist Reza Deqati olub. 1990-cı il yanvarın 20-də keçmiş sovet hökuməti tərəfindən planlı şəkildə Bakıda mülki əhaliyə qarşı törədilən qətliamdan dünyada məşhur fotojurnalist Reza Deqati və komandasının çəkdiyi fotolar və videolar sayəsində xəbərdar oldu.**

AZƏRTAC-a həmin hadisələrin baş verdiyi günlərdə məşhur fotojurnalist Reza Deqatinin Bakıya gəlişindən və Azərbaycan xalqının başına gətirilən bu faciənin dünyaya yayılması naminə gördüyü işlərdən bəzi məqamlara nəzər salır.

Azərbaycanda əhalinin silahsızlaşdırıldığı, insanların əsas xəbər mənbəyi olan televiziya yayımının dayandırıldığı, Bakıya xarici jurnalistlərin girişinin qadağan olunduğu bir vaxtda, 1990-cı il yanvarın 20-də Reza Deqati bu qətliamdan xəbər tutan kimi Parisdən çətin yollarla Bakıya üz tutur. Parisdən birbaşa Bakıya səyahət mümkünsüz olduğu üçün o, Moskva kinostudiyalarını ziyarət etmək adı altında həmkarları ilə birlikdə sovet vizası alaraq Moskvaya gəlir.

Jurnalistlərin girişi qadağan olunduğu üçün o, azərbaycanlı dostlarının köməyi ilə Bakıya yola düşən qatarda gizlənir, təhlükəni nəzərə alaraq insanlarla lazımsız ünsiyyətdən qaçaraq 48 saatlıq yol gəlir. Qatarda ilk işi isə "Ya pa rusky ni znaya" (mən rusca danışmıram) və "Ya Azerbaijani" (mən azərbaycanlıyam) kimi dolaşıq rusca cümlələr öyrənmək idi. Çünki rus dilini bilməyən azərbaycanlıları çox sorğu-suala tutmurdular. Ancaq kimsə onun sənədlərini yoxlasaydı, bu, artıq son demək idi.

Bu uzun səyahətdən sonra Bakıya çatdığı zaman Reza Deqati burada gördüyü mənzərəni İkinci Dünya müharibəsi filmindən bir səhnəyə bənzədirdi: "48 saatlıq səyahətdən sonra qatar Bakı stansiyasına daxil olduğu zaman - axşam vaxtları komendant saatından yarım saat əvvəl biz platforma üzərində düzülmüş silahlı sovet əsgərlərini gördük. Soyuq idi, özümü 2-ci Dünya müharibəsi haqqında çəkilmiş filmdəki biri kimi hiss etdim. Sanki heç nə dəyişməyib".




Yanvarın 24-də dostları Reza Deqatini Bakıda qarşılayır və sovet əsgərlərinin dinc əhalini güllələbaran etməsi, tankların mülki vətəndaşların üstündən keçməsi, uşaq, qadın, yaşlı demədən silahsız insanları qətlə yetirməsi barədə ona məlumat verirlər.

Küçədə gəzməyin belə təhlükəli olduğu bir vaxtda, sovet tank və əsgər patrulları ilə əhatələnmiş Bakı şəhərində Reza öz həyatını düşünmədən fotoaparatı ilə gizli şəkildə xəstəxanalara, morqlara gedərək fərqli aspektlərdən gördüyü mənzərələri fotolentin yaddaşına köçürüb.

"Bakı tanklar və əsgər patrulları ilə mühasirəyə alınmışdı. Açıq şəkildə gördüklərimizin şəkillərini çəkmək çox riskli idi. Ehtiyatlı davranmalı, maşınların və binaların pəncərələrindən fotolar çəkəndə kameranı gizlətməyin yollarını tapmalı idik", - deyə Reza bəy bildirir.

Qara Yanvar şəhidlərinin basdırıldığı, məzarlığa çevrilmiş, qəbirlərin üzəri qırmızı qərənfillər və qara paltarlarla örtülmüş Şəhidlər xiyabanına gələn Reza şübhələri üzərinə çəkməmək üçün hər kəs kimi geyinmiş və insanların da köməyi ilə çəkiliş avadanlıqlarını gizlətmişdi.

O acı günlər Rezanın yaddaşında belə qalıb: "Hər şeydən əvvəl, xatırladığım yalnız qırmızı və qara idi".

Orduya məxsus helikopter izdihamı dağıtmaq üçün qəbiristanlığın üzərində uçuşlar həyata keçirdiyi zaman isə artıq Reza bu "qırmızı və qara"dan ibarət kadrları çəkib bitirmişdi. Təhlükəsizlik tədbirləri səbəbilə fotoaparat və avadanlıqlar olmadan Moskvaya qayıdan Reza sonradan dostlarının köməyi ilə onları əldə edir və oradan da Parisə gedir.

Parisə çatdığı günün axşamı 18-dən çox televiziya kanalı Rezanın çəkdiyi fotoşəkilləri göstərərək Bakıdakı hadisələr barədə danışdı, onlarla radiostansiya, 2000-dən çox jurnal və qəzet 20 Yanvar faciəsi barədə məlumat yaydı. Fotojurnalist Reza Deqati və komandasının çəkdiyi fotoşəkillər və videolar sayəsində qan yaddaşımız Qara Yanvar nəinki unudulmur, dünya əhalisi mülki vətəndaşlara qarşı olan bu vəhşilikdən xəbər tutur.

**AZƏRTAC**
**2024, 12 yanvar**

**Əbədi yaşam haqqı qazananlar**

**Xuraman İsmayılqızı**

***20 Yanvar şəhidlərinin mübarizlik ənənəsini davam etdirən Vətən müharibəsinin qəhrəmanları adlarını Azərbaycanın qəhrəmanlıq tarixinə qanları ilə yazdılar***

Azərbaycanın müstəqilliyini istəməyənlərin əvvəlcədən hazırladıqları planlara uyğun təşkil edilən 20 Yanvar faciəsi ermənilərdən istifadə edərək mənfur niyyətlərini həyata keçirmək üçün yaranan fürsətlərdən istifadə edən imperiyanın xalqımıza qarşı iki əsrdən bəri davam edən «Parçala, hökm sür» siyasətinin növbəti qanlı təzahürü idi. Azadlıq hərəkatının ilk qığılcımları olan və Naxçıvandan başlayan «Sərhəd hərəkatı» iştirakçılarının şimallı cənublu qardaşları ayıran, uçan quşun belə qonmağına icazə verilməyən, Araz çayı boyunca çəkilən həsrət çəpərinin, tikanlı məftillərin sökülməsini «səbrlə izləyən», hətta mane olmayan «yaşıl paraqlı» sovet hərbçilərinin susqunluğunun, Sumqayıt hadisələrinin səbəbləri sonradan bəlli oldu. Guya «başıpozuq, ekstremist, narkoman gənclərə» qarşı cəza tədbiri kimi törədilən 20 Yanvar hadisələri əslində Azərbaycan xalqının əsrlərdən bəri davam edən imperiya əsarətindən qurtulmaq uğrunda mübarizəsi idi. Soyub, taladıqları Azərbaycanın təbii sərvətlərindən məhrum olacaqlarından qorxan, SSRİ-nin ilk və sonuncu prezidenti ermənipərəst Mixail Qorbaçovun, hayların çoxluq təşkil etdikləri Dövlət Təhlükəsizliyi Komitəsinin (DTK) birgə hazırladıqları 20 Yanvar faciəsinin ertəsi günü Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək baş vermiş hadisələri hüquqa, demokratiyaya, humanizmə, dövlət quruculuğu prinsiplərinə zidd adlandıran fərdi pensiyaçı Heydər Əliyev «Artıq iki ildir ki, Azərbaycan və Ermənistan arasında millətlərarası münaqişə gedir. Həmin münaqişəni Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr törətmişdir» sözləri ilə Azərbaycanın ali dövlət, partiya rəhbərliyinin səhvləri üzündən baş verənləri siyasi cinayət adlandırmışdır.

Azərbaycanı canından artıq sevən müdrik siyasətçi Heydər Əliyev faciə ilə bağlı Azərbaycan xalqına başsağlığı teleqramı göndərərək həmvətənlərini belə ağır məqamlarda birliyə , həmrəyliyə çağırdı: « Azərbaycan KP MK-ya, Ali Sovetə, Nazirlər Sovetinə. Azərbaycan xalqına.

Bakı şəhərinə sovet ordusu hissələrinin yeridilməsi ilə əlaqədar xalqımızın başına gətirilən faciədən- dinc əhalinin qırılmasından böyük ürək ağrısı ilə xəbər tutdum. Bu matəm günündə həlak olanların ailələrinə və yaxınlarına, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm. Mən düşünülmüş aksiyanı pisləyir, onu antihumanist, antidemokratik, qanuna zidd hesab edirəm. Bu ağır gündə sizi ağıllı, kamallı olmağa , həmrəyliyə və birliyə çağırıram.

Mənim teleqramımın respublika mətbuatında dərc olunmasını, radio və televiziya ilə verilməsini, matəm mitinqində oxunmasını xahiş edirəm.

Heydər Əliyev

Moskva, 21 yanvar 1990-cı il.»

Plana uyğun olaraq 19 yanvar 1990-cı ildə Azərbaycan Televiziyasının enerji blokunu dağıtmaqla əsl həqiqətləri xalqdan, dünya ictimaiyyətindən gizlədən SSRİ DTK-sı, ALFA qrupu müstəqillik uğrunda mübarizəyə qalxan vətənpərvərlərə ekstremist adı verməkdən belə utanmadılar. Azadlıq haqqını tələb edən insanlara qarşı silahlı təzyiq göstərən «qırmızı ulduzlu» hərbçilər «beynəlxalq ailənin» üzvü olduqlarını da unutdular. Müharibə qanunlarını belə pozaraq günahsız yerə öldürdükləri, yaraladıqları insanları daşıyan «təcili yardım» maşınlarına da atəş açdılar. O dövrdə «Qorbaçov yenidənqurma»sının «silahlı yenilik təcrübəsi» insanların nahaqdan tökülən qanları ilə yazıldı. Qaniçənlər unutdular ki, milli azadlıq savaşına qalxan xalqı top-tüfənglə əqidəsindən, torpaq uğrunda şəhid olmaq müqəddəsliyindən çəkindirmək olmaz. Bakıya qoşun yeridilməsinə bilavasitə imkan yaradan, Kremlin əmrlərini yerinə yetirən respublikanın o dövrdəki rəhbəri Əbdürrəhman Vəzirov kimi digər rəhbər kürsülərdə əyləşənlər üçün müqəddəs amal isə kreslo idi.

O vaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi bəhanəsi ilə daşnakların Azərbaycan ərazilərinə əsassız iddialarını dəstəkləyən Kremlin ermənipərəst mənsubları soydaşlarımızın Qərbi Azərbaycandan və Qarabağdan çıxarılmasının törədə biləcəyi təhlükələri başa düşmək düşüncəsindən belə məhrum idilər. Ermənistanın ərazi iddiası ilə bağlı tələblərini yerinə yetirən SSRİ rəhbərliyi xalqların milli oyanış istəyini susdurmaq üçün Alma-Atada, Vilnüsdə, Tbilisidə sınaqdan keçirdikləri « təcrübəni» Bakıda da təkrarladı. Qaniçən ermənilərdən, peşəkar döyüşçülərdən təşkil olunmuş « xilaskar qızıl ordu»nun zirehli hərbi maşınları, tankları sovetlərin buxovundan, əsarətindən qurtarmaq üçün haqq səsini ucaldan dinc əhalinin üstünə yeridildi. Heç bir xəbərdarlıq edilmədən «paqonlular» Bakıda qanlı qırğınlar törətdilər. İnsanların azadlıq, istiqlaliyyət, müstəqillik səslərini güllələrin dili ilə susdurmağa çalışdılar. Azərbaycanda kifayət qədər ordu birləşmələrinin olmasına baxmayaraq ( 4-cü ordu, Xəzər Hərbi Dəniz Donanması, desant qoşunlarının

diviziyası, Hava Hücumundan Müdafiə Qoşunları, DİN-in daxili qoşun birləşmələri) SSRİ Müdafiə Nazirliyinin, Daxili Qoşunların və DTK-nın 66 mindən artıq hərbi kontingenti Bakıya gətirilərək Qala, Nasosnu aerodromlarında, Salyan kazarmasında yerləşdirildi.

Əlavə hərbi hissələrin Azərbaycanda yerləşdirilməsinin siyasi təcavüz olduğunu «Belə qərar qəbul etmiş adamların hərəkətlərini siyasi qəbahət sayıram. Bəli, kobud siyasi səhv buraxılmışdır. Onlar sadəcə olaraq respublikadakı əsl vəziyyəti qiymətləndirə bilməmiş, Azərbaycan xalqının psixologiyasını anlamamış, əhalinin müxtəlif təbəqələri ilə əlaqələri zəiflətmişlər» sözləri ilə bildirən Ulu Öndər Heydər Əliyev Qorbaçov başda olmaqla o dövrdə güc strukturlarına başçılıq edənlərin, Kremlin məsul şəxslərinin- SSRİ müdafiə naziri D.Yazovun, daxili işlər naziri B.Bakatinin, Sov.İKP MK katibi Girenkonun cəzalandırılmasını tələb etdi.

İnsanlar qətlə yetirildikdən sonra Qorbaçovun fərmanı ilə Bakıda, Gəncədə, Naxçıvanda fövqəladə vəziyyət elan olundu. Sovet ordusu qoşunlarının hərbi əməliyyatları nəticəsində Bakıda və rayonlarda 132 nəfər qətlə yetiridi, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs edildi. Qırmızı ulduzlu hərbi qulluqçular tərəfindən 200 ev yandırıldı, xeyli dövlət əmlakı məhv edildi. Azərbaycan KP MK-nın rəhbərləri isə hələ də susurdular.

20 Yanvar faciəsindən əvvəl Sov. İKP. MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinininin birinci müavini Heydər Əliyevin Kremldən uzuaqlaşdırılması da Azərbaycana qarşı mənfur niyyətin tərkib hissəsi idi. Prezident İlham Əliyevin «1987-ci ildə Heydər Əliyev vəzifədən gedəndən sonra iki həftə keçməmiş erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana vermək haqqında beynəlxalq mətbuatda və sovet mətbuatında məsələ qaldırmışlar. Artıq Dağlıq Qarabağda separatçı meyillərə elə bil ki, yaşıl işıq yandırıldı. Heydər Əliyev vəzifədən gedəndən üç ay sonra Sumqayıt hadisələri baş vermişdir. Sumqayıt hadisələri də məkrli planın tərkib hissəsi idi. Plan ondan ibarət idi ki, Ulu Öndər Heydər Əliyev hakimiyyətdən getsin. Çünki onun Siyasi Büronun üzvü kimi fəaliyyəti erməni millətçilərə imkan vermirdi ki, məsələ qaldırsınlar» sözləri o dövrdə baş verənlərlə bağlı dəqiq açıqlama idi.

Naxçıvan MR Ali Məclisinin deputatı Heydər Əliyevin təşəbbüsü ilə hazırlanan «1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında» qərar layihəsi müzakirəyə çıxarıldı. Heydər Əliyevin nüfuzu sayəsində 21 noyabr 1992-ci il tarixdə qəbul olunmuş qərar 20 Yanvar hadisələrinə verilən ilk siyasi, hüquqi qiymət oldu. Beş bənddən ibarət həmin tarixi əhəmiyyətli sənəddə qeyd olunurdu ki, 1990-cı il yanvar ayında Bakıda törədilən qanlı hadisələr Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirilsin. Dinc əhalinin qətlə yetirilməsi, göstərilən zorakılıq Azərbaycan xalqına açıq təcavüz kimi ittiham edilsin. Respublikanın ali hakimiyyət orqanları tərəfindən Bakı faciələrinə siyasi qiymət verilməməsi, bununla əlaqədar yaradılmış xüsusi deputat komissiyasının işinin qeyri-müəyyən səbəblərdən başa çatdırılmaması, günahkarların aşkara çıxarılıb məsuliyyətə cəlb olunmaması etirazla qarşılansın.

3 yanvar 1992- ci ildə Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevin iştirakı ilə keçirilən Rəyasət Heyətinin iclasında qəbul olunan Bəyanatda qeyd edildiyi kimi, hakim mövqeyini saxlamaq üçün xalqına qarşı çoxminli qoşun kontingentinin təcavüzünü təşkil edən respublika rəhbərliyinin qanlı 20 Yanvar faciəsinə siyasi qiymət verməməsi, heç bir əsası olmadan fövqəladə vəziyyət elan olunması da Kremlin çirkin planlarının tərkib hissəsi idi.

Ümummilli Lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra 1994-cü ilin 20 Yanvar hadisələrinin hüquqi müstəvidə əsl mahiyyəti açıqlandı. «Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişdir. Görünür ki, ötən yaxın illərdəki Sovetlər Birliyi, respublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsl mahiyyətini xalqa bəyan etməmişlər"» söyləyən Ulu Öndər Milli Məclisə Yanvar hadisələri ilə bağlı xüsusi sessiyanın keçirilməsi məsələsinə təkrar baxmağı tövsiyə etdi.

20 Yanvar faciəsi xalqımıza torpaq, Vətən uğrunda şəhid olmaq ləyaqətini qazandırdı. 1990-cı ilin 20 Yanvarında müstəqilliyi uğrunda mübarizəyə qalxan xalqımız 2020-ci ilin 44 günlük Vətən müharibəsində təcavüzkar Ermənistana, erməni faşizmini dəstəkləyənlərə layiq olduqları dərsi verdi. Xalqımız bir oldu, dünyaya həmərylik nümunəsi, torpaq uğrunda ölməyin müqəddəsliyini göstərdi. Şəhidlərimiz düşmənə qalib gəlməyin şərəf, ləyaqət olduğunu dövlətçilik tariximizə qanları ilə yazdılar.

Topxana meşəsində ermənilər tərəfindən törədilən vandalizm aktına etirazla başlanan Vətənə bağlılıq, yurda sahiblik duyğuları yuzlərlə gənci erməni təcavüzkarlarına qarşı mübarizədə eyni məqsəd naminə birləşdirdi. Bu birlik Şuşada, Xankəndidə sarsılmaz gücə çevrildi. Azadlıq sözünü, torpağa əvəzsiz sevgisini qanları ilə yazmış 20 Yanvar şəhidlərinin arzusunda olduqları istiqlaliyyət, torpaqlarımızın bütövlüyü uğrunda mübarizəsini davam etdirən Silahlı Qüvvələrimizin hərbçiləri dünyada qüdrətli dövlət kimi tanınan müstəqil, suveren Azərbaycanın vətəndaşları olduqlarını «dəmir yumruq» ətrafında birləşməklə təsdiqlədilər. Günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar qırğınının, Xocalı soyqırımının, artıq tarixin zibilxanasına atılmış

«Dağlıq Qarabağ münaqişəsi»ni başlayanların və erməni quldurlarına dəstək verən Fransa kimi digər dövlətlərin maraqlarının qurbanı olan bütün şəhidlərimiz Azərbaycan adlı məmləkətin əbədi varlığını dövlətçilik tariximizə qanları ilə yazdılar. Şəhidlərimizin qanları bahasına suverenliyini təmin edən qüdrətli Azərbaycan bu gün daha möhtəşəm nailiyyətlərə imza atır. 20 Yanvar faciəsində, Birinci və İkinci Qarabağ müharibələrində canlarından keçmiş, Zəfərimizin siyasi rəmzi olan şəhidlərimiz üçrəngli bayrağımıza bürünməklə el hörməti qazandılar. Vətənin bölünməzliyini qanları ilə yazdılar. Xalqımızın təfəkkürünə əbədi mübarizlik ruhu bəxş edərək gənclərimizə xoşbəxt gələcək naminə qətiyyətli olmağı öyrətdilər. Azərbaycanın qazandığı bütün uğurlarda əbədi yaşam haqqı qazandılar. Respublikamızın müxtəlif bölgələrində salınan Şəhidlər xiyabanları bu gün hər bir azərbaycanlı üçün müqəddəs and yeridir.

**İki sahil.-**2024.- 16 yanvar.- № 7.- S. 5.

**20 Yanvar: Azadlıq mübarizəsinin zirvəsi**

**Şəmsiyyə Əliqızı**

***Qanlı Yanvar hadisələri milli kimliyimizin formalaşmasına təsir göstərib. Faciədən sonra milli azadlıq hərəkatı tam siyasi reallığa çevrilib, xalq öz gələcəyini yalnız müstəqil Azərbaycanda görüb***

1990-cı il yanvarın 20-də Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini verdi. Sovet dövründə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə qarşı çıxmasına görə Azərbaycanı cəzalandırmaq üçün Kreml Qanlı Yanvar qırğınını törətdi. Bu, öncədən planlaşdırılmış hərbi cinayət idi. Azərbaycana göndərilən ordu hissələrinin tərkibinə Stavropoldan, Rostovdan, Krasnodardan səfərbər edilmiş erməni zabit və əsgərləri, hərbi məktəblərdə təhsil alan erməni kursantları da cəlb edilmişdi. 1990-cı il yanvarın ortalarında SSRİ Müdafiə və Daxili İşlər nazirliklərinin, habelə başqa xüsusi təyinatlı hərbi birləşmələrin 66 min nəfərdən çox əsgər və zabiti Bakı şəhərinə gətirilərək, Qala və "Nasoslu" aerodromlarında, Respublika stadionunda, Salyan qışlasında (kazarmasında) yerləşdirilmişdi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə birbaşa Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridildi, dinc əhali ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutularaq kütləvi qətlə yetirildi. Fövqəladə vəziyyətin yanvarın 20-də saat 00-da tətbiq edilməsinə baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat 21-dən etibarən birinci olaraq Türkan-Qala tərəfdən şəhərə yeridildi. "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın birinci bəndinə əsasən, fərman imzalandığı andan fövqəladə vəziyyətin tətbiqi və müddətləri barədə əhaliyə rəsmi xəbərdarlıq edilməlidir. Lakin tətbiq edilmiş fövqəladə vəziyyət haqqında əhali xəbərdar edilməmişdi. Sovet ordusunun xüsusi təyinatlı dəstələrinin və daxili qoşunların iri kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıqla həyata keçirilmişdi. Bu əməliyyata rəhbərliyi birbaşa SSRİ müdafiə naziri Dmitri Yazov, SSRİ daxili işlər naziri Vadim Bakatin, SSRİ DTK sədrinin müavini Filip Babkov həyata keçirirdilər. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışdılar. Kütləvi insan qırğını törədildikdən sonra, yəni 20 yanvar 1990-cı il səhər saat 5.30-da radio vasitəsilə Bakı şəhər komendantı V.Dubinyak fövqəladə vəziyyət tətbiq edildiyi barədə rəsmi məlumatı efirə vermişdir. Halbuki, yanvarın 20-də saat 00-dan başlanmış hərbi əməliyyatlarda tanklardan və müxtəlif təyinatlı zirehli döyüş maşınlarından istifadə edilmiş, Xəzər Hərbi Donanmasına məxsus gəmilərdən şəhərə desant çıxarılmışdı. Fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürülmüşdü. Qanlı Yanvar günündən sonra fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda yanvarın 25-də Neftçala, yanvarın 26-da Lənkəranda 8 nəfər qətlə yetirilmişdi. Ümumilikdə respublikada 147 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuş, 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdi. Dövlət, ictimai və şəxsi əmlaka həmin dövrün qiymətləri ilə 5.637.286 rubl miqdarında maddi ziyan vurulmuşdu. Xalqın Sov.İKP-yə və mövcud rejimə qarşı nifrəti son həddə çatmışdı. Onlar kütləvi şəkildə partiya biletlərini ataraq onun sıralarını tərk etdilər. Bu qanlı faciədən sonra xalq daha bir gerçəkliyin şahidi oldu. Xalqın mübarizəsini, tökülən qanı siyasi niyyətləri üçün alətə çevirən Azərbacjan Xalq Cəbhəsinin başında duranların iç üzü açılmağa başladı. Belə ki, 20 Yanvar hadisələrinə siyasi qiymət verilməsi tələbi ilə dəfələrlə çıxış edən Azərbaycan Xalq Cəbhəsi hakimiyyətə gəldikdən sonra bu mövzunu unutdu. Onlar hakimiyyətdə olduqları dövrdə faciəyə siyasi qiymət vermək üçün öz imkanlarından istifadə etmədilər.

1990-cı il yanvarın 21-də Sovet rejiminin qadağalarına rəğmən, həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələn Ulu Öndər Heydər Əliyev qanlı faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında ittiham etdi. Cəsarətli bəyanat verərək əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd, Moskvanın və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi. Azərbaycan xalqının başına gətirilən qanlı faciənin ilk siyasi-hüquqi qiymətini də Ümummilli Lider Heydər Əliyev verdi. Ulu Öndər Heydər Əliyev Bakıya rus ordusunun yeridilməsi ilə bağlı SSRİ rəhbərliyinin qərarını kəskin tənqid edərək, rəsmi açıqlamanı tələb etdi: "Azərbaycana kənardan böyük ordu kontingenti yeridilmişdir. Respublikada neçə ordu birləşməsinin olduğu mənə yaxşı bəllidir. Azərbaycanda kifayət qədər 4-cü ordu, Xəzər Hərbi Dəniz Donanması, desant qoşunlarının diviziyası, Hava Hücumundan Müdafiə Qoşunları, DİN-in daxili qoşun birləşmələri vardır. Oraya əlavə qoşun yeritmək nəyə lazım idi? Əgər belə zərurət var idisə, orada yerləşən hərbi hissələrdən də istifadə etmək olardı. Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə Azərbaycanı qoyub qaçmış Vəzirov, öz xalqı qarşısında məsuliyyət daşımalıdır". Yanvar faciəsinin tədqiqi ilə bağlı aparılan bütün işlər daim Ulu Öndər Heydər Əliyevin

diqqətində olub. Ulu Öndərin təşəbbüsü və göstərişləri ilə 1994-cü ilin mart ayının 29-da Milli Məclis "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" Qərar qəbul etdi.

Ümummilli Lider dövrün mürəkkəbliyinə rəğmən, 20 Yanvar faciəsinin başvermə səbəbləri və günahkarların araşdırılması ilə də məşğul oldu və bunun nəticəsində həqiqətlər üzə çıxdı. 1994-cü il yanvarın 12-də keçirdiyi müşavirədə Ulu Öndər Heydər Əliyev bu barədə belə deyirdi: "...Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişdir. Görünür ki, ötən yaxın illərdəki Sovetlər Birliyi, respublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsl mahiyyətini xalqa bəyan etməmişlər». Ulu Öndər Heydər Əliyevin Fərmanı ilə 1998-ci ildə "20 Yanvar Şəhidi" fəxri adı təsis edilib.

Ümummilli Liderin yolunu uğurla davam etdirən Prezident İlham Əliyev də şəhidlərin xatirəsinin uca tutulmasına, şəhid ailələrinin sosial məsələlərinin həll olunmasına xüsusi diqqət ayırır. Prezident İlham Əliyevin təşəbbüsləri sayəsində 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslər və şəhid ailələri üçün effektiv sosial müdafiə sistemi formalaşıb. Dövlət başçısının "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 2006-cı il 19 yanvar tarixli Fərmanına əsasən, şəhid ailələrinə dövlət qayğısını artırmaq məqsədilə təqaüd verilir. Onların uyuduğu Şəhidlər xiyabanında təmir və yenidənqurma işləri ilə yanaşı, Bakının Yasamal rayonundakı "20 Yanvar" dairəsində, Həsən bəy Zərdabi və Müzəffər Həsənov küçələrinin kəsişməsində Qanlı Yanvar şəhidlərinin xatirəsinə memorial abidə kompleksi ucaldılmışdır. Hər il yanvarın 20-də saat 12:00-da Azərbaycanın bütün ərazisində 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunur, gəmilərdən, avtomobillərdən və qatarlardan səs siqnalları verilir, hüzn əlaməti olaraq dövlət bayraqları endirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycanın bu mübariz oğul və qızlarının şücaətini daim yüksək qiymətləndirir, onların ruhuna ehtiram göstərir, xatirəsini hər zaman uca tutur.

Bu gün Yanvar faciəsi təkcə hüzn günü kimi anılmır. 20 Yanvar hadisələri Azərbaycan xalqının azadlıq mübarizəsinin ən önəmli səhifələrindən biridir. Artıq 34 ildir ki, həmin qanlı gecədə həlak olan azərbaycanlıların uyuduğu xiyaban vətəndaşlar üçün ən müqəddəs məkana çevrilib. Prezident İlham Əliyev Azərbaycan xalqına Şuşa müjdəsini də məhz Şəhidlər xiyabanından verdi. Sanki bununla xiyabanda uyuyan həm 20 Yanvar, həm də Birinci Qarabağ müharibəsi şəhidlərinin narahat ruhu dinclik tapmış oldu. 20 Yanvar faciəsi Azərbaycan xalqına böyük bir zərbə olsa da, onu sındırmadı. Düşmən öz vəhşiliyi ilə qarşısına qoyduğu heç bir məqsədə çata bilmədi. 30 il Azərbaycan torpaqlarını əsarətdə saxlayan Ermənistanın və onun havadarlarının da niyyəti baş tutmadı.

Bu gün müqəddəs Şəhidlər xiyabanında olduğu kimi, Qarabağda da Azərbaycanın şanlı üçrəngli bayrağı dalğalanır. Azərbaycanın döyüş meydanında qazandığı Qələbə siyasi arenada da uğurla davam etdirilir. Son hadisələr bizə daha nikbin olmağa və gələcəyə ümidlə baxmağa əsas verir. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan parlaq Zəfərlə Azərbaycan tarixində yeni mərhələ başladı. Bu mərhələ artıq azad olunmuş ərazilərimizdə genişmiqyaslı bərpa-quruculuq işləri ilə davam edir. İşğaldan azad olunmuş torpaqlarımıza yeni həyat qayıdır. Bu gün azadlığına qovuşmuş torpaqlarımızda şəhər və kəndlərimiz yenidən qurulur, yeni yollar çəkilir, Böyük Qayıdış mərhələli şəkildə həyata keçirilir. Xankəndidə Zəfər Günü münasibətilə hərbi paradın keçirilməsi hər bir azərbaycanlıda sözlə ifadə olunmayacaq qədər böyük qürur hissi yaşatdı. İnanırıq ki, bu Qayıdış təkcə işğaldan azad edilən ərazilərlə yekunlaşmayacaq. 1980-ci illərin sonunda Qərbi Azərbaycandan deportasiya edilən soydaşlarımızın da öz dədə-baba yurdlarına qayıdacağı gün uzaqda deyil.

**İki sahil.-**2024.- 17 yanvar.- № 8.- S. 5.

## Tariximizin qanlı və şanlı səhifəsi

***20 Yanvar həqiqətlərinin dünyaya çatdırılmasında Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətləri olub***

**Nigar Orucova**

20 Yanvar faciəsi xalqımızın yaddaşında hüzn və kədər, qürur və qəhrəmanlıq səhifəsi kimi qalıb. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə şəhidlərin qanı ilə Azərbaycanın yeni tarixi yazılıb. Dövlət müstəqilliyimizin bərpası, azadlığımız üçün ilk növbədə 20 Yanvar şəhidlərinə borcluyuq.

Qanlı yanvar hadisələri öncədən planlaşdırılmış hərbi cinayət idi. Hələ 1990-cı il yanvarın 19-da sovet rejimi Bakıda fövqəladə vəziyyət elan etdi. Bu barədə əmrin gecə yarısı həyata keçirilməsi gözlənilərkən saat 20:00-da Azərbaycan Televiziyası SSRİ xüsusi təyinatlıları tərəfindən partladıldı. Məqsəd xalqa xəbər vermədən onlara silahlı hücum etmək, küçədəki insanları qətlə yetirmək idi. Sovet qoşunlarının qanunsuz yeridilməsi nəticəsində Bakıda və respublikanın rayonlarında 147 nəfər qətlə yetirilib, 744 nəfər yaralanıb, 841 nəfər qanunsuz həbs olunub, onlardan 112 nəfəri SSRİ-nin müxtəlif şəhərlərinə aparılaraq həbsxanalarda saxlanılıb.

Tibbi ekspertiza nümayəndələri cəsədlərə baxış keçirərkən əsgərlərin dinc əhaliyə qarşı xüsusi təyinatlı güllələrdən istifadə etdiyini müəyyənləşdirmişdir. Müvafiq dairələrdə aparılan araşdırmalara görə, əsgərlərin istifadə etdiyi MJV-13 tipli mərmilərin ağırlıq mərkəzi dəyişdirilmişdir. Bu isə güllənin maneəyə rast gəldiyi zaman gediş istiqamətini dəyişməsinə səbəb olur. Bu tip güllələrin insan bədəni ilə təması əsnasında mərmi üzərindəki qabığın parçalanması və nüvədən ayrılması nəticəsində zərər gücü xeyli artırdı.

Bu qətliamın məqsədinin başlıca olaraq Azərbaycan milli azadlıq hərəkatına zərbə vurmaq olduğu aşkar görünür. Qarabağ müharibəsi ilə birlikdə yurdlarından köçürülən azərbaycanlıların sovet hakimiyyətinə qarşı narazılığı gündən-günə artmışdı. Eyni zamanda, təbii sərvətlər baxımından zəngin olan Azərbaycanın müstəqillik qazanması sovet hökuməti üçün son dərəcə arzuolunmaz bir hadisə idi. Bu səbəbdən sovet rejimi Azərbaycanda yüksələn müstəqillik hərəkatını nə yolla olursa-olsun yatırmaq, sovetlərə bağlı digər respublikaların heç vaxt müstəqillik hərəkatına can atmamaları üçün onlara da bir ibrət dərsi vermək qərarına gəlmişdi. Nəticədə Qanlı Yanvar qırğını baş verdi. Bundan sonrakı prosesdə digər respublikalar da hərəkətə keçdi. 1991-ci ildə onların hamısı müstəqilliklərini elan etdilər.

Azərbaycan xalqının Ümummilli Lideri səviyyəsinə yüksəlmiş dahi şəxsiyyət Heydər Əliyevin bütün maneələri aşaraq faciənin ertəsi günü Moskvada mətbuat konfransı keçirməsi, sovet rejimini ifşa etməsi və həqiqəti dünya ictimaiyyətinə çatdırması da bu yolda böyük bir cəsarət nümunəsi olmuşdur.

Bu qanlı hadisələrdən yaxasını kənara çəkməyə can atan M.Qorbaçov riyakarcasına sovet qoşunlarının Bakıya hərbi müdaxiləsinə onu fövqəladə şəraitin məcbur etdiyini bildirmişdi. Guya bu addım daha çox qan axıdılmasının qarşısını almaq üçün atılmışdı.

Moskvada Azərbaycan Nümayəndəliyində keçirdiyi mətbuat konfransında isə Ümummilli Lider vəziyyəti vaxtında nizama salmağın mümkünlüyünü aydın göstərmişdi: “Artıq iki ildir ki, Azərbaycan və Ermənistan arasında millətlərarası münaqişə gedir. Həmin münaqişəni Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr törətmişdir. Azərbaycan və Ermənistan, eləcə də, ölkənin ali siyasi partiya rəhbərlərinə bu məsələni tənzimləmək, daxili müharibəyə, millətlərarası münaqişəyə son qoymaq və milli mənsubiyyətindən asılı olmayaraq hər bir adamın ümumi federativ ittifaq olan SSRİ-də azad yaşamasına şərait yaratmaq üçün iki illik müddət kifayət idi. Hesab edirəm ki, ötən iki ildə bu istiqamətdə lazımi səviyyədə iş aparılmamışdır.

Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı”.

Böyük siyasət və dövlət xadimi Heydər Əliyev az sonra Vətənə dönəndə Mixail Qorbaçovun 20 Yanvarla bağlı cinayətinə belə qiymət vermişdi: “Azərbaycan Respublikasının ali hakimiyyət orqanından tələb etməliyik ki, qısa müddətdə, yaxud heç olmasa növbəti sessiyada bu məsələ müzakirə olunsun. Yanvar hadisələrinə siyasi qiymət verilsin və bu hadisənin günahkarları - kim olursa-olsun, Qorbaçovdan tutmuş aşağı respublika rəhbərlərinə kimi, keçmiş, ya indiki - fərqi yoxdur, bu, xalqa qarşı cinayətdir, - cəzalandırılsın. Bir nəfəri öldürənə qanunlara görə ən yüksək cəza verirlər. Ancaq burada gör nə qədər adam həlak olubdur - bir nəfər günahkar meydana çıxmayıbdır. Bu qədər qanunsuzluğa, demokratiyanın bu qədər pozulmasına dözmək olmaz.

Ona görə bu məsələyə biz özümüz siyasi qiymət verməliyik, respublikanın Ali hakimiyyət orqanından tələb etməliyik ki, buna baxsın və günahkarlar cəzalandırılsın".

1990-cı ilin iyulunda Moskvadan Vətənə qayıdan Ulu Öndərin təşəbbüsü ilə həmin il noyabr ayının 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə 20 Yanvar faciəsinə ilk dəfə siyasi-hüquqi qiymət verildi. Azərbaycan xalqının ümumi rəyini özündə təcəssüm etdirən bu qərar Heydər Əliyev qətiyyətinin təzahürü kimi tarixə düşdü. Ümummilli Lider hələ sovet imperiyasının mövcud olduğu bir dövrdə heç nədən çəkinmədən öz millətinin hüquqlarının müdafiəsinə qalxdığını sübut etdi. Sənəddə respublika səviyyəsində 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verilməsi Azərbaycan rəhbərliyindən tələb edilirdi.

Ölkəmiz müstəqillik qazandıqdan sonra da 1993-cü ilə qədər iqtidarda olanların heç biri təəssüflər olsun ki, faciə ilə bağlı əsl həqiqəti aşkar etməyə özündə cəsarət tapmadı. Yalnız Ümummilli Lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra 1994-cü ilin 20 Yanvar hadisələrinin hüquqi müstəvidə əsl mahiyyəti açıqlandı. Ulu Öndərin 20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi ilə bağlı 1994-cü il yanvarın 5-də imzaladığı Fərmanda həm də Milli Məclisə hadisəyə tam siyasi-hüquqi qiymət verməsi tövsiyə olunurdu. Bu qiymət xalqımızın müstəqillik yolunda çarpışmasının dolğun mənzərəsini əks etdirməli idi. 1994-cü il mart ayının 29-da ölkə parlamenti "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul etdi. Beləliklə də 20 Yanvar faciəsi məhz Heydər Əliyevin prinsipial və ardıcıl mübarizəsindən sonra öz hüquqi-siyasi qiymətini aldı.

Ümummilli Lider 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsinə, onların ailələrinə dövlət qayğısının gücləndirilməsinə hər zaman böyük diqqətlə yanaşırdı. Ulu Öndər hər il yanvarın 20-də Şəhidlər xiyabanına gələrək ziyarət edir, şəhid ailələri ilə görüşür, onların qayğıları ilə maraqlanırdı. Bu gün Şəhidlər xiyabınında ucalan "Əbədi məşəl" abidə kompleksi də məhz Heydər Əliyevin təşəbbüsü ilə şəhidlərin xatirəsinə ehtiram əlaməti olaraq inşa olunub. Ulu Öndərin 2000-ci il yanvarın 17-də imzaladığı Fərmanla isə 1990-cı ilin faciəli yanvar günlərində şəhid olmuş oğul və qızlarımıza "20 Yanvar şəhidi" fəxri adı verilib. Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev şəhidlərin adının uca tutulmasına, onların ailələrinin sosial məsələlərinin yoluna qoyulmasına xüsusi diqqət göstərir, hər il yanvarın 20-də Şəhidlər xiyabanını ziyarət edərək "Əbədi məşəl" abidə kompleksinin önünə əkili qoyur.

Prezident İlham Əliyev 1990-cı ilin yanvarında şəhid olmuş oğul və qızlarımızın xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi üçün mühüm qərarlar vermişdir. Dövlət başçısının 19 yanvar 2006-cı il tarixli "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Fərmanı ilə şəhid ailələrinə təqaüd verilir. Prezident İlham Əliyevin təşəbbüsü ilə Şəhidlər xiyabanında əsaslı təmir və yenidənqurma işləri aparılıb. Hər il dövlət səviyyəsində geniş tədbirlər planı hazırlanaraq həyata keçirilir, qanlı qırğının ildönümü respublikanın bütün şəhər və rayonlarında Ümumxalq Hüzn Günü kimi qeyd olunur.

Bəli, ötən illər ərzində xalqımızın mübarizə əzmi əyilmədi, əksinə bu istiqamətdə gücümüzü artırdıq, iradəmizi möhkəmləndirdik. 2020-ci ildə Vətən müharibəsində qazandığımız Böyük Qələbə bunu bir daha sübut etdi. Məhz Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə haqq savaşımız torpaqlarımızın işğaldan azad olunması ilə nəticələndi. Bu Zəfərlə həm 20 Yanvar, həm də Qarabağ müharibəsi şəhidlərinin qisası alındı.

**İki sahil.**-2024.- 18 yanvar.- № 9.- S. 4.

## Böyük Zəfərlə 20 Yanvar şəhidlərinin də qisası alındı

**Rəşad CƏFƏRLİ**

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunları tərəfindən xalqımıza qarşı törədilən qətliam göstərir ki, istiqlaliyyət yolumuz nə qədər ağrılı-acılı, faciələrlə dolu olub. Bu hadisə günahsız insanların amansız bir formada qətlə yetirilməsi ilə nəticələnsə də, öz azadlığına, müstəqilliyinə can atan xalqımızın mübarizliyini, məğrurluğunu bütün dünyaya nümayiş etdirdi. Tarixə qanla yazılan 20 Yanvar faciəsi Vətəni, azadlığı uğrunda ölümün gözünə dik baxan Azərbaycan övladlarının sarsılmazlığını dünyaya tanıtmaqla yanaşı, SSRİ adlanan nəhəng imperiyanın çöküşündə də əsas amillərdən biri oldu.

### Heydər Əliyev ermənilərin və Qorbaçovun məkrli əməllərinin qarşısını almışdı

Faciəyə gedən yol onun törədilməsindən xeyli əvvəl, SSRİ rəhbərliyinə M.Qorbaçovun gəlişi ilə başlamışdı. Qorbaçovun simasında daim Azərbaycana qarşı məkrli, xəyanətkar mövqe tutmuş ermənilər özlərinə yaxın himayədar tapmışdılar. Nə qədər ki Heydər Əliyev SSRİ rəhbərliyində təmsil olunurdu, ermənilər Azərbaycanla bağlı bədnam niyyətlərini həyata keçirə bilmirdilər. Elə buna görə Qarabağ məsələsinin Heydər Əliyev Sov.İKP MK-nın Siyasi Bürosundan istefa verdikdən cəmi 15 gün sonra ortaya çıxması təsadüfi sayılmamalıdır. O vaxt M.Qorbaçovun ən yaxın adamı, iqtisadi məsələlər üzrə müşaviri, milliyyətcə erməni olan Aqanbekyan Parisdə keçirdiyi mətbuat konfransında Dağlıq Qarabağın Ermənistana verilməsi iddiasını irəli sürmüş, "Humanite" qəzetindəki bəyanatında Moskvanın buna razılığının olduğunu bildirmişdi.

SSRİ rəhbərliyinin Dağlıq Qarabağın Ermənistana verilməsinə dair razılığının olduğu 1988-ci ilin əvvəllərində M.Qorbaçovun Silva Kaputikyan başda olmaqla, bir qrup şovinist erməni ilə görüşü zamanı da üzə çıxdı. Bunun ardınca Xankəndidə, Yerevanda anti-Azərbaycan və antitürk ruhlu mitinqlər genişləndi.

Məhz bundan sonra erməni "Qarabağ Komitəsi" və onun Dağlıq Qarabağ Muxtar Vilayətindəki separatçı-terrorçu təşkilatı olan "Krunk" gizli fəaliyyətlərinə son qoyaraq açıq şəkildə niyyətlərini bəyan etməyə, Azərbaycana qarşı ərazi iddiaları səsləndirməyə başladı. Bunun nəticəsi olaraq ermənilər tərəfindən "Miatsum" adlanan hərəkat formalaşdırıldı.

Bütün bunlar 1988-ci ilin fevralından etibarən hadisələrin daha gərgin və aqressiv məcrada inkişafı ilə nəticələndi. Məhz həmin dövrdə həm Dağlıq Qarabağda, həm də Yerevanda Azərbaycan torpaqlarının Ermənistana birləşdirilməsi tələbi ilə silsilə mitinqlər keçirildi. SSRİ rəhbərliyi tərəfindən heç bir ciddi müqavimət görməyən və bundan daha da ruhlanan ermənilər DQMV Sovetinin vilayətin statusuna baxılması haqqında Azərbaycan SSR Ali Sovetinə müraciət qəbul etməsinə nail oldular.

### Ermənistanda və Qarabağda etnik təmizləmə siyasəti həyata keçirildi

Azərbaycanın ovaxtkı rəhbərliyi hadisələrə fəal müdaxilə etmək əvəzinə Kremldən gələn əmrlər əsasında hərəkət edir və bununla xalqın taleyinə biganə yanaşırdı. Kreml isə həm Azərbaycana göndərdyi emissarlar, həm də ölkənin qətiyyətsiz rəhbərliyi vasitəsilə daha məkrli ssenarilər hazırlamaqda idi. Erməni təxribatçılarının da yaxından iştirak etdiyi bu ssenarilərin əsas hədəflərindən biri Azərbaycanda ermənilərə qarşı dözümsüz münasibətin formalaşmasına dair görüntülər yaratmaq idi. Elə bu məqsədlə 1988-ci ilin fevralında məlum Sumqayıt hadisələri törədildi.

Müxtəlif millətlərin nümayəndələrinin yaşadığı sənaye şəhəri Sumqayıtda iğtişaşlar yaratmaq siyasi dünyanın yeni səviyyədə gündəminə gətirilmiş "böyük Ermənistan" xülyasının gerçəkləşdirilməsi üçün ermənilərə çox lazım idi. Bu məsələdə sovet DTK-sının da özünəməxsus rolu oldu. Beləliklə, əvvəlcədən planlaşdırılmış Sumqayıt olayları törədildi və o dövrdə Azərbaycanda hakimiyyətdə yer tutanlar SSRİ rəhbərliyinin, ermənilərin niyyətlərini, qlobal hadisələrin mahiyyətini axıra kimi dərk etmək iqtidarında olmadıqlarından qanlı hadisələrin yaşanmasının qarşısını almaq üçün müvafiq addımlar atılmasında acizlik nümayiş etdirdilər. Sumqayıt hadisələrinin əvvəlcədən hazırlandığını o da sübuta yetirir ki, olaylar baş verən yerlərdə öncədən çoxlu teleoperatorlar, jurnalistlər yerləşdirilmişdi. Bunun nəticəsində düşünülmüş, ssenarisi əvvəlcədən cızılmış Sumqayıt hadisələri saxtakarlıqlarla, uydurmalarla dünyaya yayıldı. Bundan sonra ermənilər Ermənistanda və Dağlıq Qarabağda elə bir mühit yaratdılar ki, artıq azərbaycanlılarla ermənilər bir yerdə yaşaya bilməzdilər. Bunun nəticəsi olaraq indiki Ermənistanın yarandığı əzəli Azərbaycan torpaqlarında

yaşayan yüz minlərlə soydaşımız 1988-ci ilin sonuna kimi qətlə yetirilməklə, əmlakları talan olunmaqla ən qəddar formada deportasiya olundular.

Dağlıq Qarabağda da vəziyyət getdikcə gərginləşirdi və bu işdə yenə əsas rol oynayan tərəf Azərbaycan rəhbərliyinin acizliyindən istifadə edərək hadisələri istədiyi kimi istiqamətləndirən Kreml təmsilçiləri idi. Bütün bunlara qarşı Azərbaycan rəhbərliyi tərəfindən heç bir qətiyyətli addım atılmadı. 1988-ci il iyunun 15-də Ermənistan SSR Ali Soveti DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qərar qəbul etdi. İyul ayında SSRİ Ali Sovetinin Rəyasət Heyətinin sessiyasında Dağlıq Qarabağ məsələsi müzakirə edilən zaman Azərbaycandan olan deputatlarla yanaşı, qanunazidd olaraq Ermənistandan olan deputatlar da eyni hüquqda orada iştirak etdilər. Bu isə Qorbaçov və onun ətrafının Ermənistan üçün yaratdığı yeni imkan demək idi.

İttifaq rəhbərliyinin Azərbaycan xalqına qarşı ən böyük xəyanəti özünü növbəti dəfə 1989-cu ilin yanvarında göstərdi. Belə ki, həmin il yanvarın 12-də "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarəçilik formasının tətbiqi haqqında" SSRİ Ali Soveti qərar qəbul etdi və bu, ermənilərin istəyinə tam uyğun idi. Çünki DQMV-də xüsusi idarəçilik forması tətbiq edildiyi ilk gündən birbaşa Moskvaya tabe olan ermənipərəst A.Volski burada yaşayan bütün azərbaycanlı soydaşlarımızın çıxarılmasına nail oldu. Azərbaycanın siyasi rəhbərliyi isə sözügedən qurumun yaranmasını böyük uğur kimi qiymətləndirir və ona çox böyük ümidlər bəsləyirdi. Yalnız xalq hərəkatının təsiri altında 1989-cu il noyabrın 28-də vilayətin idarə olunması mərkəzin nəzarəti altında olan Azərbaycan SSR Təşkilat Komitəsinə tapşırıldı. Təşkilat Komitəsinin sədri təyin edilən V.Polyaniçko, əslində, öz sələfinin siyasətini davam etdirdi və azərbaycanlılar daha da sıxışdırıldı.

Ümumiyyətlə, 20 Yanvar faciəsinə qədər SSRİ və respublika rəhbərliyinin çıxardığı qərar və fərmanların heç birində Azərbaycanın xeyrinə bircə maddə belə olmadı. Bir tərəfdən Azərbaycan xalqını sakitləşdirməyə yönələn addımlar atılır, digər tərəfdən isə respublikanın suverenliyinə, ərazi bütövlüyünə xələl gətirən qərarlar qəbul olunurdu. Bu, Ermənistanın SSRİ rəhbərliyi tərəfindən ən yüksək səviyyədə müdafiə olunduğunu göstərirdi.

Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirov Moskvanın marionetkası olaraq həm Dağlıq Qarabağın ermənilərin əlinə keçməsinin qarşısını almaq, həm də ölkədəki vəziyyəti sabitləşdirmək üçün heç nə etmirdi. Əksinə, özünün səhv addımları, yarıtmaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurumu daha da dərinləşdirirdi. Elə buna görə də Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında aylarla davam edən mitinqlərdə dəfələrlə Azərbaycanın partiya rəhbərlərinin istefası tələbi irəli sürülürdü.

1989-cu ilin sonu, 1990-cı ilin yanvarında Azərbaycanda ictimai-siyasi vəziyyət xeyli kəskinləşdi, qarşıdurma dərinləşdi, mövcud iqtidarın hadisələrə nəzarəti son dərəcə zəiflədi. SSRİ rəhbərliyi isə Azərbaycanı növbəti dəfə cəzalandırmaq üçün Sumqayıt ssenarisinə uyğun təxribatlara start verdi. Milli-azadlıq hərəkatının mərkəzi olan Bakıda ilk olaraq yerli milis tərk-silah edildi, əvəzində daxili qoşun hissələri şəhərə gətirildi. 1990-cı il yanvarın 13-də Bakıda bir erməninin iki azərbaycanlını öldürməsi fitnəkarlıqlar üçün əsas oldu və iki gün ərzində Bakıda süni şəkildə erməni talanı təşkil edildi. Mərkəz tərəfindən düşünülmüş və taktiki baxımdan hərtərəfli hazırlanmış bu məkrli plan hazır ssenari üzrə aparılırdı. Elə bu səbəbdən də ayrı-ayrı dəstələrin əməllərinin qarşısını almaq üçün ali hakimiyyət və hüquq-mühafizə orqanları tərəfindən heç bir tədbir görülmədi. Halbuki Bakıda SSRİ Daxili İşlər Nazirliyinin 12 min nəfərlik silahlı qüvvəsi var idi. Vəzirov isə yaranan vəziyyətdən istifadə edərək sovet qoşunlarının müdaxiləsinə şərait yaratmağa, bununla həm də xalq hərəkatını boğmağa çalışırdı.

Yanvarın 14-də Azərbaycan KP MK-nın Bürosunda vəziyyət müzakirə olundu və Vəzirovun təkidi ilə çağırılan Azərbaycan SSR Ali Sovetinin sessiyasında DQMV-də və zəruri olarsa, ona bitişik rayonlarda, eləcə də sərhəd boyunca fövqəladə vəziyyət elan edilməsi, lazım gələrsə, mərkəzdən kömək göstərilməsi haqqında qərar qəbul olundu. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin müraciəti ilə SSRİ Ali Sovetinin Rəyasət Heyəti yanvarın 15-də "Dağlıq Qarabağ və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında" fərman verdi. Həmçinin SSRİ Ali Soveti Bakı, Gəncə şəhərlərində, eləcə də başqa yaşayış məntəqələrində qadağa saatlarının tətbiq edilməsini və digər zəruri tədbirlər görülməsini Azərbaycan SSR Ali Sovetinə təklif etdi.

**Müdhiş gecə...**

Bu dövrdə mərkəzdən Azərbaycana, xüsusən də Bakı ətrafına əlavə qoşun hissələri və hərbi texnika gətirilməsi prosesi davam edirdi. Əslində bu, Bakıya qoşun yeridilməsi üçün ilkin hazırlıqdan başqa bir şey deyildi. Xalq hərəkatına rəhbərlik edənlər, o cümlədən Xalq Cəbhəsinin təmsilçiləri isə vəziyyəti düzgün

qiymətləndirmək əvəzinə şəhərin ətrafında, o cümlədən Bakı qarnizonu ətrafında sədlər, barrikadalar yaratmağa başladı. Yük və minik maşınlarından, avtobus və trolleybuslardan, eləcə də başqa vasitələrdən istifadə etməklə barrikadalar quruldu, piketlər düzəldildi. Lakin yanvarın 20-də bu düzgün olmayan taktikadan bəhrələnən sovet ordusu çoxlu sayda dinc əhalinin qırılmasına, yaralanmasına rəvac verdi.

20 Yanvar hadisələri ərəfəsində Moskva SSRİ Ali Soveti İttifaq Sovetinin sədri Y.Primakovu və Sov.İKP MK katibi Girenkonu Bakıya göndərdi. Lakin onların AXC-nin radikal və liberal qanadları ilə görüşüb apardığı danışıqlar heç bir nəticə vermədi. Yanvarın 17-də Azərbaycan KP MK binası qarşısında böyük mitinq başlandı və üç gün davam etdi. Mitinqlərdə Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulması, Bakı ətrafına yığılmış qoşunların Dağlıq Qarabağa göndərilməsi, respublika rəhbərliyinin istefası və digər tələblər irəli sürüldü.

Sovet rəhbərliyi Azərbaycan xalqının müstəqillik uğrunda apardığı mübarizənin qarşısını almaq, milli-azadlıq hərəkatına zərbə vurmaq, habelə digər müttəfiq respublikalara dərs vermək üçün 1990-cı il yanvarın 19-da "Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında" fərman imzaladı. Halbuki bununla Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozurdu.

Yanvarın 19-dan 20-nə keçən gecə SSRİ-nin rəhbəri M.Qorbaçovun göstərişi və Azərbaycanın ozamankı səriştəsiz rəhbərlərinin razılığı ilə Bakıya qoşun yeridildi. Tanklar və ZTR-lər Bakı küçələrində hər şeyi əzir, hərbçilər qarşılarına çıxanları amansız atəşə tuturdular. İnsanlar nəinki küçələrdə, hətta avtobusda gedərkən, öz mənzillərində oturduqları yerdə güllələrə tuş gəlirdilər. Gözlərini qan tutmuş hərbçilər hətta yaralıları aparmağa gələn təcili yardım maşınlarını və tibb işçilərini də atəşə tuturdular. Həmin gecə Bakıda və respublikamızın regionlarında həyata keçirilmiş hərbi təcavüz nəticəsində dinc əhaliyə divan tutuldu, xalqımıza qarşı qətliam həyata keçirildi.

**20 Yanvar hadisələri dövlət səviyyəsində siyasi-hüquqi qiymətini aldı**

Qanlı Yanvar hadisələri Azərbaycanda milli kimliyin formalaşmasına həlledici təsir göstərdi, dövlət müstəqilliyinin bərpa edilməsində dönüş nöqtəsi oldu. 1990-cı ilin yanvarından sonra milli azadlıq hərəkatı tam siyasi reallığa çevrildi, dönməz xarakter aldı, xalqımız öz gələcəyini yalnız Azərbaycanın müstəqilliyini bərpa etməsində gördü. Bu hadisədən sonra Azərbaycanda sovet imperiyası özünün bütün mənəvi və sosial dayaqlarını itirdi və tezliklə xalqımız dövlət müstəqilliyini bərpa etdi.

Sovet hakimiyyəti dövründə məlum səbəblərdən 20 Yanvar faciəsinə əsl qiyməti vermək mümkün deyildi. Lakin Ulu Öndər Heydər Əliyev hələ sovet hakimiyyəti dövründə böyük cəsarətlə Naxçıvan Ali Məclisində 20 Yanvar faciəsinə siyasi qiymətin verilməsinə nail oldu. Lakin Ulu Öndərin hələ totalitar rejimin dövründə başlatdığı bu işi müstəqilliyimizin ilk illərində hakimiyyətdə olanlar dövlət səviyyəsində davam etdirmədilər. Belə ki, hələ sovet dövründə 20 Yanvar hadisələrinə siyasi qiymət verilməsi tələbi ilə dəfələrlə çıxış edən AXC hakimiyyətə gəldikdən sonra bu mövzunu unutdu, iqtidarda olduğu dövrdə faciəyə siyasi qiymət vermək üçün cəhd belə göstərmədi. 1993-cü ilin yayına qədər Azərbaycana rəhbərlik edən şəxslərin heç biri bu faciə ilə bağlı əsl həqiqəti aşkar etməyə özündə cəsarət tapmadı.

1993-cü ildə xalqın istəyi ilə hakimiyyət sükanının arxasına keçən Ulu Öndərin sayəsində 20 Yanvar faciəsi dərindən araşdırıldı. Heydər Əliyevin "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" fərmanında Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verməsi tövsiyə olundu. Milli Məclisin 1994-cü il martın

29-da qəbul etdiyi qərarda 20 Yanvar faciəsinin günahkarları konkret qeyd olundu və bu qanlı aksiya Azərbaycanda milli azadlıq hərəkatını boğmaq, xalqın inamını, iradəsini qırmaq üçün totalitar kommunist rejimi tərəfindən törədilmiş hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. Bununla da 20 Yanvar hadisələri dövlət səviyyəsində siyasi-hüquqi qiymətini aldı, bu cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı.

20 yanvar faciəsindən 34 il ötür. Bu illər ərzində çox dəyişikliklər baş verib. Hələ 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpası ilə 20 Yanvar şəhidlərinin uğrunda canlarından keçdikləri milli ideya reallığa çevrilib. 44 gün müharibədə qazandığımız Zəfər, ərazi bütövlüyümüzün bərpa edilməsi və torpaqlarımızda erməni separatizminə son qoyulması nəticəsində isə həm də 20 Yanvar şəhidlərinin qisası alındı.

**Azərbaycan.-**2024.- 19 yanvar.- № 11.- S. 13.

**Milli qürur və qəhrəmanlıq tariximiz**

***20 Yanvar faciəsi Ümummilli Lider Heydər Əliyevin sayəsində əsl siyasi-hüquqi qiymətini aldı***

**Rəşad CƏFƏRLİ**

34 il əvvəl - 1990-cı il yanvarın - 19-dan 20-ə keçən gecə Bakıda və respublikamızın müxtəlif bölgələrində baş verən hadisələr həm də öz azadlığı uğrunda mübarizə aparan xalqımızın milli mücadilə tarixinin mühüm səhifələrindən biridi. Başqa cür desək, 20 Yanvar faciəsi milli azadlıq hərəkatımızın yüksəliş zirvəsi idi. Həmin gün Bakı qırmızı rəngə boyanmışdı, şəhid oğul və qızlarımızın qanından rəng almışdı. Azadlıq harayımızı boğmaq istəyən sovet rəhbərliyi həmin gün xalqımıza qarşı qətliam həyata keçirmişdi.

**Faciəyə etiraz səsini ilk ucaldan Heydər Əliyev oldu**

Ən acınacaqlı hal isə o idi ki, respublika rəhbərliyi əvvəlcədən xalqa xəyanət yolu tutaraq bu qəsdin qarşısını almaq üçün heç bir tədbir görməmiş, cinayətin iştirakçısı ola-ola zahirən hadisələrdən kənarda qalmağa çalışmışdı.

O ağır günlərdə 20 Yanvar faciəsi ətrafında xəyanət sükutunu ilk və mütəmadi olaraq yaran Heydər Əliyevin haqq səsi və dəyişməz mövqeyi oldu. Faciənin ertəsi günü ilk dəfə olaraq Heydər Əliyevin Azərbaycan xalqına qarşı törədilən cinayətə, qanlı təcavüzə qarşı etiraz səsi ucaldı. Təbii ki, milli-azadlıq istəyi ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə həyata keçirilən bu müdhiş faciə qəlbi Vətən eşqi ilə döyünən xalqın mərd və mübariz oğlunu narahat etməyə bilməzdi. Çünki dahi insan, uzaqgörən şəxsiyyət yaxşı bilirdi ki, bu faciə totalitar kommunist rejiminin Azərbaycan xalqına qarşı hərbi təcavüzü və cinayətidir. Heydər Əliyev hadisənin ertəsi günü Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək keçirdiyi mətbuat konfransında bu vəhşiliyi qətiyyətlə pisləməklə yanaşı, onun törəmə səbəblərini də açıqladı, təşkilatçılarının, günahkarlarının adını bütün dünyaya bəyan etdi.

Azərbaycanda baş vermiş hadisələrin hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd olduğunu bildirən Ulu Öndər bəyan etdi ki, ilk növbədə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin sabiq birinci katibi Vəzirov müqəssirdir. "Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə bərk ayaqda Azərbaycanı qoyub qaçmış Vəzirov, xalqı qarşısında məsuliyyət daşımalıdır. Ölkənin ali siyasi rəhbərliyinə yanlış məlumat verənlər də məsuliyyət daşımalıdır. Zənnimcə, ölkənin ali siyasi rəhbərliyinə vəziyyət barədə vaxtında kifayət qədər düzgün, dəqiq, obyektiv informasiyalar çatdırılmamışdır. Rəhbərlik çaşqınlığa salındığından belə qərar qəbul etmişdir. Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır", - deyə Heydər Əliyev bəyan etdi.

Heydər Əliyev bu bəyanatı verməklə ittifaq rəhbərlərinin kəskin təzyiq və təsirlərinə məruz qalacağını gözləri önünə gətirsə də, özünəməxsus qətiyyət və cəsarət nümayiş etdirdi. Həyatının hər an təhlükədə olmasına baxmayaraq, qətiyyətlə dünyaya faciənin hüquqi-demokratik prinsiplərə zidd olduğunu, Azərbaycan xalqına qarşı hərbi təcavüzün SSRİ və Azərbaycan SSR rəhbərliyi tərəfindən həyata keçirildiyini bəyan etdi.

Elə həmin gün Heydər Əliyev Azərbaycan xalqına başsağlığı teleqramı göndərdi. Teleqramda deyilirdi: "Bakı şəhərinə sovet ordusu hissələrinin yeridilməsi ilə əlaqədar xalqımızın başına gəlmiş faciədən - dinc əhalinin qırılmasından böyük ürək ağrısı ilə xəbər tutdum. Bu matəm günündə həlak olanların ailələrinə və yaxınlarına, Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm. Mən düşünülmüş aksiyanı pisləyir, onu antihumanist, antidemokratik, qanunazidd hesab edirəm. Bu ağır gündə sizi ağıllı-kamallı olmağa, həmrəyliyə və birliyə çağırıram".

**İlk siyasi-hüquqi qiymət**

Heydər Əliyev 1990-cı ildə Naxçıvana gəldi və həmin ilin payızında keçirilən seçkilərdə Naxçıvan və Azərbaycan parlamentinə deputat seçildi. 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymətin verilməməsi Ulu Öndəri ciddi narahat edirdi. Təsadüfi deyil ki, ilk dəfə 1990-cı ilin noyabrında Ulu Öndərin böyük siyasi nüfuzu sayəsində 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verilməsi məsələsi gündəliyə çıxarıldı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasının həmin il noyabrın 21-də keçirilən iclasında Heydər Əliyev "1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar layihəsini Ali Məclisin müzakirəsinə təqdim etdi.

Elə həmin sessiyadakı çıxışında xalqımızın hərbi, siyasi, mənəvi təcavüzə məruz qalmasından narahatlıqla danışan Ulu Öndər Heydər Əliyev ürək yanğısı və qətiyyətlə deyirdi: "Başımıza böyük bəla gəlib, millət əzilib, millətə qarşı təcavüz olub, ancaq indiyə qədər Azərbaycan xalqının həyatında baş vermiş bu faciəli hadisəyə qiymət verilməyib... Bu qədər qanunsuzluğa, demokratiyanın pozulmasına dözmək olmaz. Bu məsələyə biz özümüz siyasi qiymət verməliyik, respublikanın ali hakimiyyət orqanından tələb etməliyik ki, bu məsələyə baxsın və günahkarlar cəzalandırılsın".

Heydər Əliyevin xalqın milli faciəsi ilə bağlı qaldırdığı taleyüklü məsələ xalq deputatları tərəfindən qətiyyətlə müdafiə olunurdu. Ali Məclisin birinci sessiyasında "1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar qəbul edildi. Qərarda 20 Yanvar hadisələri Azərbaycanın suveren hüquqlarına, dinc əhaliyə, heç bir müqavimət göstərməyən günahsız adamlara, Azərbaycan xalqına qarşı açıq təcavüz kimi qiymətləndirildi. Həmçinin Azərbaycanın ovaxtkı rəhbərliyinin cinayətkar fəaliyyəti bir daha qeyd olunaraq bildirildi ki, qanlı Yanvar hadisələrinin günahkarlarını üzə çıxarmaq, onu təhlil etmək və siyasi qiymət vermək üçün respublika əhalisinin təkidli tələbinə baxmayaraq, faktiki olaraq faciədən ötən müddət ərzində heç bir tədbir görülməmişdir. Qəribə idi ki, respublika Ali Sovetinin Yanvar hadisələrini təhqiq etməli olan komissiyası da öz işi ilə məşğul olmamışdı. Respublika rəhbərliyinin bu etinasızlığı haqlı olaraq xalqda hiddət və etiraz doğururdu.

Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına qarşı soyqırımı siyasətini həyata keçirməyə rəvac verənlərlə mübarizəsini ona qarşı az qala düşmən mövqedə duran Ali Sovetdə və digər istiqamətlərdə də davam etdirir, böyükdən-kiçiyə qədər hər kəsə məlum olan qatillərin hüquqi müstəvidə aşkar olunmasını, faciəyə siyasi qiymətin verilməsini tələb edirdi. Heydər Əliyev Azərbaycan SSR Ali Sovetinin 7 mart 1991-ci il tarixli sessiyasındakı çıxışında deyirdi: "1990-cı il yanvarın 20-də ittifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edilmişdir. Heç bir əsas olmadan, xəbər vermədən, dövlət qanunlarını kobudcasına pozaraq Bakı şəhərinə müasir silahlı sovet ordusunun qoşun hissələri yeridilmiş, onlar vəhşilik, qəddarlıq etmiş, nəticədə nahaq qan tökülmüş, yüzlərlə adam həlak olmuş, xəsarət almış, itkin düşmüşdür. Təəssüf ki, bu təcavüz indiyə qədər davam edir. Bir ildən artıqdır ki, Azərbaycanın paytaxtı fövqəladə vəziyyət şəraitində yaşayır. Bizim sessiyamız da bu şəraitdə keçirilir. Bir ildən artıqdır ki, Azərbaycan xalqı şəhidlərə matəm saxlayır. Respublikanın şəhərlərində, qəsəbələrində, kəndlərində şəhidlərin xatirəsinə abidələr ucaldılır. Fəqət, qatillər indiyə qədər aşkar olunmayıb. Buna heç vəchlə bəraət qazandırmaq olmaz. Bu məsələ müzakirə olunmalıdır. 20 Yanvar faciəsinə Ali Sovetin sessiyası siyasi qiymət verməlidir, onun günahkarlarını müəyyən etməlidir".

Ulu Öndər 1991-ci il iyunun 19-da SSRİ Nazirlər Kabinetinə göndərdiyi məktubunda yazırdı: "Yanvar hadisələrində yüzlərlə adam öldürüldü və şikəst edildi... Artıq il yarım keçib. Nəinki bu dəhşətli cinayətlərin hamıya çoxdan məlum olan günahkarları üzə çıxarılmayıb, əksinə, bunları ört-basdır etmək üçün əllərindən gələni edirlər. Ümid edirlər ki, zaman keçdikcə bu faciə unudulacaq. Ancaq tarix dəfələrlə sübut etmişdir ki, doğma xalqa qarşı yönəldilmiş qanlı cinayətləri on illər keçsə də, unutmaq və bağışlamaq mümkün deyil".

Azərbaycan Respublikası Ali Sovetinin 29 avqust 1991-ci il tarixli sessiyasında çıxışında isə Heydər Əliyev deyirdi: "20 Yanvar faciəsi dövründən il yarımdan çox vaxt keçir. Bu gün burada da, bu salonda cürbəcür söhbətlər gedir. Bir qrup bir fikirdədir, məndən qabaq çıxış edən Rəhimov başqa fikirdədir. Mən sual verirəm, Ali Sovetin sədri Elmira Qafarovaya, Azərbaycan prezidenti Ayaz Mütəllibova: nə üçün indiyə qədər bu məsələyə siyasi qiymət verilməyib? Bu məsələnin həm siyasi tərəfi var, həm hüquqi tərəfi var. Bu məsələyə dərhal siyasi qiymət vermək olardı. O ki qaldı hüquqi cəhəti, ayrı-ayrı adamların məsuliyyətə cəlb olunması, onu şübhəsiz ki, istintaq yolu ilə aydınlaşdırmaq lazımdır. Buna siyasi qiymət verilmədiyinə görə başqa tədbirlər həyata keçirmək mümkün olmur".

**Milli Şura tərəfindən qəbul edilmiş qərar xalqa xəyanət idi**

Sovet hakimiyyətinin süqutundan, Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsindən də sonra başları hakimiyyət uğrunda mübarizəyə qarışmış siyasətbazlar xalqımıza qarşı törədilmiş bu ağır cinayətin səbəblərinin araşdırılması, ona siyasi-hüquqi qiymətin verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində məqsədyönlü iş aparmadılar. Onlar bu məsələdə heç maraqlı da deyildilər, çünki həmin cinayətin törədilməsinin məsuliyyəti bu və ya digər dərəcədə onların da üzərinə düşürdü. Düzdür, həmin dövrdə müxtəlif siyasi platformalardan çıxış edən ayrı-ayrı siyasi partiyalar 20 Yanvar faciəsi ilə bağlı bütün günahları Moskvanın üzərinə atmağa cəhd göstərmişdilər. Amma Ulu Öndər Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıdışına qədər nə A.Mütəllibov, nə də AXC-Müsavat iqtidarı tərəfindən faciəyə siyasi qiymət verilməsi üçün heç bir iş görülmədi.

Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinə tam siyasi-hüquqi qiymətin verilməsi qarşıya qoyulmuş günün tələbi idi. Ulu Öndər dövrün mürəkkəbliyinə və görülməsi işlərin çoxluğuna baxmayaraq, tariximizin şanlı və qanlı səhifəsi sayılan 20 Yanvar faciəsinin başvermə səbəblərini və günahkarlarının araşdırılması ilə də məşğul oldu. Heydər Əliyevin 1994-cü il yanvarın 5-də 20 Yanvar faciəsinin dördüncü ildönümünün keçirilməsi ilə bağlı verdiyi fərmanda Milli Məclisə faciəyə tam siyasi-hüquqi qiymət verməsi tövsiyə olundu. Yalnız bundan sonra aparılan araşdırmalar nəticəsində məlum oldu ki, 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməməsində maraqlı olan qüvvələr var imiş. 1991-1993-cü illərdə hakimiyyətdə qalmaq istəyən iqtidar, hakimiyyətə gəlmək istəyən müxalifət nümayəndələri bu dəhşətli faciədən yararlanmağa çalışırmışlar. Ulu Öndər Heydər Əliyev 1994-cü il yanvarın 12-də dövlət komissiyasının geniş iclasında Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının 1992-ci il 19 yanvar tarixli qərarını xatırladaraq bu sənəddə 20 Yanvar hadisələrinin əsl səbəblərinin açıqlanmadığını, həqiqi günahkarların aşkar edilmədiyini, iki il ərzində həmin qərarın özünün yerinə yetirilmədiyini nəzərə çatdırdı. Respublika səviyyəsində 20 Yanvar faciəsinə tam siyasi-hüquqi qiymətin verilməməsini ciddi tənqid edən Heydər Əliyev 1992-ci ildə Milli Şura tərəfindən qəbul edilmiş səthi və başdansovdu qərarın xalqa xəyanət olduğunu bəyan etdi: "Bu qərarı oxuyanda, doğrusu, çox həyəcanlandım. Düşündüm ki, Milli Şura nə üçün öz millətinin, öz xalqının aqibətinə, taleyinə bu qədər biganə qalıb? Qərarı oxuyandan sonra bir daha qəti fikrə gəldim ki, bu faciəyə, bu hadisəyə niyə indiyə qədər siyasi qiymət verilməyib... Mənim fikrim belədir ki, bu qərarın qəbul edilməsi Azərbaycan xalqına bəlkə də 20 Yanvar 1990-cı ildə olan faciə kimi böyük xəyanətdir. İki il keçəndən sonra deputat-istintaq komissiyasının ortaya bir şey çıxarmaması, boş-boş sözlərlə camaatı aldatması, qərarda bu komissiyanın işinin qənaətbəxş hesab edilməsi yenə də deyirəm, xəyanətdir".

1994-cü il martın 29-da Milli Məclis tərəfindən "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" adlı xüsusi qərar qəbul edildi. Qərarda 1990-cı ilin 20 Yanvar hadisələri Azərbaycanda vüsət almış milli-azadlıq hərəkatını boğmaq, demokratik və suveren bir dövlət amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və belə bir yola qədəm qoyan xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. Sənəddə Sovet İttifaqı Kommunist Partiyasının, sovet dövləti və hökumətinin, şəxsən Mixail Qorbaçovun Azərbaycana qarşı ağır cinayət törətdikləri, Əbdürrəhman Vəzirovun, Ayaz Mütəllibovun, Viktor Polyaniçkonun, Vaqif Hüseynovun xalqımıza xəyanət etdikləri siyasi-hüquqi müstəvidə öz əksini tapdı. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Elmira Qafarovanın, Azərbaycan Kommunist Partiyası Bakı Şəhər Komitəsinin birinci katibi Müslüm Məmmədovun bu qanlı faciənin törədilməsində məsuliyyət daşıdıqları və digər məsələlər sənəddə qeyd olundu. Beləliklə, Heydər Əliyevin təkidi və təşəbbüsü sayəsində xalqımıza qarşı törədilən bu qanlı və qəddar aksiyaya siyasi-hüquqi qiymət verildi.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirdi. 20 Yanvar hadisələri Azərbaycanın müstəqillik mübarizəsi tarixinə faciə və xalqımızın qəhrəmanlıq salnaməsi kimi yazıldı. Azərbaycan xalqı həmin gün azad yaşamağa layiq olduğunu bütün dünyaya sübut etdi.

**Azərbaycan.-**2024.- 20 yanvar.- № 12.- S. 1,7.

**Xalqımızın şərəf salnaməsi**

**Elçin ƏHMƏDOV,**
siyasi elmlər doktoru, professor

Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı ilin 20 Yanvar hadisələrindən artıq 34 il keçir. Keçmiş sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi qalacaqdır. Milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə silahlı təcavüz nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi.

1990-cı il yanvarın 20-də Bakıda baş verən hadisələri Qarabağdakı erməni təcavüzündən ayrıca təhlil etmək düzgün olmazdı. Hər dəfə Qarabağa dair ərazi iddiaları kənardan, məhz Ermənistanın təbliği, təhriki və təzyiqi ilə ortaya atılmışdı. Ermənilərin ərazi iddiaları birdən-birə deyil, xaricdə olan himayədarları tərəfindən hərtərəfli plan əsasında hazırlanmışdı.

1990-cı ilin yanvarında M.Qorbaçov başda olmaqla sovet imperiyasının rəhbərliyi Bakıda vəziyyətin öz məcrasından çıxdığını bəhanə edərək şəhərə qoşun yeridilməsi üçün müxtəlif dezinformasiyalar yayırdı. Guya Bakıya qoşun hərbi qulluqçuların ailələrini qorumaq, hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə bu, tamamilə saxta və məqsədyönlü şəkildə ortaya atılmış bir tezis idi.

1990-cı il yanvarın 19-da M.Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. Lakin əhalinin bundan məlumatsız qalması üçün SSRİ DTK-nın "Alfa" qrupu tərəfindən yanvarın 19-da saat 19:27-də Azərbaycan Televiziyasının enerji bloku partladıldı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və dinc əhaliyə amansız divan tutuldu.

1990-cı il yanvarın 20-də artıq bütün dünya Bakıda törədilmiş dəhşətli qırğından xəbər tutdu. Sovet qoşunlarının Bakıya hərbi müdaxiləsi dünyanın bir sıra ölkələrində etirazla qarşılandı. Bakıda törədilən cinayətlər qonşu və qardaş Türkiyədə sərt reaksiyalara səbəb oldu, ölkənin hər yerində mitinq və nümayişlər keçirildi. Ankara, İstanbul, Qars, İzmir, Kayseri və başqa şəhərlərdə keçirilən mitinq və nümayişlərdə sovet rəhbərliyinin törətdiyi bu cinayəti müdafiə edən Amerika Birləşmiş Ştatları da pislənildi. Türkiyə və İranın kütləvi informasiya vasitələri sovet qoşunlarının Bakıda törətdiyi qanlı hadisəni kəskin tənqid etdi və bunu qırğın adlandırdılar.

Sovet qoşunlarının 1990-cı il yanvarın 20-də Bakıya hərbi müdaxiləsi zamanı yalnız Ümummilli Lider Heydər Əliyev bütün çətinliklərə baxmayaraq, yanvarın 21-də siyasi iradə nümayiş etdirərək Moskvadakı Azərbaycan nümayəndəliyinə gəlmiş və SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti kəskin ittiham edərək bəyanatla çıxış etmiş, onun Azərbaycan xalqına qarşı həyata keçirdiyi kütləvi qırğın əməliyyatını qətiyyətlə pisləmişdi.

1993-cü ildə Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Bundan sonra, 1990-cı ilin Qanlı Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 1994-cü il tarixli fərmanında deyilirdi: "Xalqımızın tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı ilin yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermişdir. Tarixin yaddaşına qanla yazılmış həmin gündən bizi 4 illik zaman məsafəsi ayırır. Təəssüf ki, 4 il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilməmişdir". Fərmanda Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymətin verilməsi, bu məqsədlə parlamentin xüsusi sessiyasının keçirilməsi məsələsinə baxılması tövsiyə edilirdi. Milli Məclisdə müzakirələrin yekunu olaraq 1994-cü il martın 29-da qəbul edilən qərarda, nəhayət ki, 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi.

1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar. Müstəqil Azərbaycan dövlətinin tarixinə qanlı 20 Yanvar faciəsi xalqımızın şərəf və qəhrəmanlıq səhifəsi kimi yazılmışdır.

Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanının rəhbərliyi ilə Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq 30 ilə yaxın müddətdə işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirdi. Bununla da, "Qarabağ

Azərbaycandır və nida işarəsi" şüarı bir il sonra, 44 gün ərzində reallığa çevrildi, xalqımıza böyük sevinc yaşatdı və mühüm hərbi qələbə qazanıldı.

2023-cü il sentyabrın 19-20-də Azərbaycan apardığı lokal antiterror tədbirləri nəticəsində həm ərazi bütövlüyünü, həm də suverenliyini tam bərpa edərək Cənubi Qafqaz regionunda sülhün bərqərar olması üçün əsaslı zəmin yaratdı. 2023-cü il oktyabrın 15-i daha bir şərəfli gün kimi tarixə düşdü. Ağdərədə, Xocalıda, Əsgəranda, Xocavənddə və Xankəndidə Azərbaycan Respublikasının Dövlət Bayrağı ucaldıldı.

İkinci Qarabağ müharibəsi son yüz ildə zəfər və qəhrəmanlıq salnaməsi kimi Azərbaycan tarixinə yazıldı. Bu gün üçrəngli müqəddəs bayrağımız Azərbaycanın işğaldan azad edilmiş bütün ərazilərində qururla dalğalanır. Azərbaycan dövləti İkinci Qarabağ müharibəsindən sonra əzəli torpaqlarını işğaldan azad etməklə yanaşı, 100 il əvvəl - 1923-cü ildə Qarabağda məqsədli şəkildə pozulmuş inzibati-ərazi bölgüsünü də yenidən təmin etdi. Azərbaycan Prezidentinin 2021-ci il iyulun 7-də imzaladığı fərman əsasən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması ilə tarixi ədalət bərpa edildi.

Ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpası ilə həm müasir tariximizdə şərəfli bir dövr başlandı, həm də Azərbaycanın azadlığı, müstəqilliyi, eləcə də ərazi bütövlüyü uğrunda 34 il əvvəl - 1990-cı ilin qanlı 20 Yanvar hadisələri zamanı şəhid olmuş Vətən övladlarımızın ruhu şad oldu.

**Azərbaycan.-**2024.- 20 yanvar.- № 12.- S. 9.